# AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI

REDAKSİYA HEYƏTİNİN SƏDRİ

***İLHAM HEYDƏR oğlu ƏLİYEV***

"AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI"
ELMİ MƏRKƏZİ

BAKI–2011

# AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI

## 3

## BABİLİSTAN – BƏZİRXANA

- 17954 -

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

"AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI"
ELMİ MƏRKƏZİ

BAKI–2011

REDAKSİYA HEYƏTİ SƏDRİNİN BİRİNCİ MÜAVİNİ

*R.Ə. MEHDİYEV*

REDAKSİYA HEYƏTİ SƏDRİNİN MÜAVİNLƏRİ

*A.A. ƏLİZADƏ, B.Ə. NƏBİYEV, A.R. RZAYEV*

BAŞ REDAKTOR

*M.K. KƏRİMOV*

MƏSUL KATİB

*T.M. NAĞIYEV*

REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ

F.H. ABDULLAZADƏ, A.Q. ABİYEV, A.A. AXUNDOV, İ.A. BABAYEV, B.Ə. BUDAQOV, T.Ə. BÜNYADOV, Ö.H. ELDAROV, O.Ə. ƏFƏNDİYEV, R.M. ƏLİQULİYEV, C.Ə. ƏLİYEV, T.A. ƏLİYEV, F.Ə. ƏLİZADƏ, V.M. FƏRZƏLİYEV, A.C. HACIYEV, İ.M. HACIYEV, İ.Ə. HƏBİBBƏYLİ, A.M. HƏŞİMOV, F.Q. XƏLİLOV, M.İ. İBRAHİMBƏYOV, A.C. İSMAYILZADƏ, K.M. KƏRİMOV, A.Ə. QƏRİBOV, Ə.S. QULİYEV, N.A. QULİYEV, Y.M. MAHMUDOV, A.Ş. MEHDİYEV, A.M. MƏHƏRRƏMOV, A.C. MƏLİKOV, V.M. MƏMMƏDƏLİYEV, Q.Ş. MƏMMƏDOV, F.C. MƏMMƏDOVA, Ş.M. MURADOV, A.A. NADİROV, A.Ə. PAŞAYEV, A.M. PAŞAYEV, M.N. RƏHİMOVA, M.İ. RÜSTƏMOV, T.T. SALAHOV, Z.Ə. SƏMƏDZADƏ, N.M. VƏLİXANLI, A.M. VƏLİYEV, X.B. YUSİFZADƏ.

**ISBN 978-9952-441-07-9 (3-cü cild)**
**ISBN 978-9952-441-00-0**

© "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, 2011

# B

**BABİLİSTAN** – Dəclə və Fərat çayları vadisində, Cənubi Mesopotamiyada (indiki İraq ərazisi) tarixi vil. və dövlət (e.ə. 2-ci minilliyin əvvəli – e.ə. 539). Adını mühüm siyasi, mədəni və iqtisadi mərkəzi olan *Babil* ş.-ndən götürmüşdür. B. ərazisi Babilin çiçəklənmə dövründək (bəzən ənənəyə görə, hətta sonrakı dövrlərdə də) "Şumer və Akkad" adlanırdı. B.-ın tarixi dörd dövrə bölünür.

Q ə d i m   B a b i l   d ö v r ü (e.ə. 2017–1595). Mesopotamiya e.ə. 2-ci minilliyin başlanğıcında *amorilərin* nəzarəti altına keçmişdi. Amorilərin tayfa başçılarından biri Babil ş.-ni işğal edərək I Babil sülaləsinin əsasını qoymuşdu; sülalənin ən görkəmli nümayəndəsi olan *Hammurapi* Mesopotamiyanı birləşdirmiş və mərkəzləşdirilmiş güclü dövlət yaratmışdı. Bu dövrdə iqtisadi inkişaf yüksək səviyyəyə çatmışdı. Suvarma sistemi genişləndirilir, tunc alətlərdən daha çox istifadə olunurdu. Mübadilədə və əməyə görə haqq verilməsində gümüş ilə ödəmə getdikcə məhsul ilə ödəməni sıxışdırırdı. Hammurapinin qanunlar məcəlləsindən məlum olur ki, sifarişlə işləyən muzdurlar və sənətkarlar da var idi. Torpaq alınıb-satıla bilir, tamkarlar (ticarət və sələm əməliyyatları ilə məşğul olan ticarət agentləri) fəaliyyət göstərirdi. Kənd icması dağılmaqda idi.

Hammurapinin varisləri dövründə bəzi şəhər hakimləri arasında separatizm meyilləri güclənmişdi. Mərkəzi hakimiyyət tədricən zəifləməyə başlamışdı. Təqr. e.ə. 1595 ildə hett çarı I Mursili Babili işğal etmişdi. Təqr. e.ə. 1518 ildə hettlərin müttəfiqləri olan *kaşşular* şəhəri ələ keçirmiş və yeni hakim sülalənin (kaşşular sülaləsi) əsasını qoymuşlar.

O r t a   B a b i l   d ö v r ü (e.ə. 1595–1000) şərti olaraq kaşşu sülaləsinin [1150 ilədək] və II İsin sülaləsinin [1150–1027] hakimiyyət illərindən ibarətdir. Kaşşuların hakimiyyəti B.-ın tarixində ayrı-ayrı bölgələr arasında iqtisadiyyatın tənzimlənməsi nəticəsində ən uzunmüddətli nisbi sabitlik dövrü olmuşdur. Köhnə əkin sahələrinin şoranlaşması ilə əlaqədar hökumət suvarma və meliorasiya sistemində əsaslı yenidənqurma tədbirləri həyata keçirmişdi; yeni geniş ərazilər mənimsənilmiş, vergilərin və mükəlləfiyyətlərin ağırlığı, əsasən, buradakı əhalinin üzərinə düşmüşdü. Özünüidarəetmə hüququ olan iri şəhərlərin əhalisi, həmçinin çarın qohumları və hakim dairələrin nümayəndələri mükəlləfiyyətlərdən azad idi.

B.-ın 14 əsrdə siyasi əlaqələrinin xeyli genişlənməsini *Amarna arxivində* aşkar olunan kaşşu çarlarının Misir fironlarına məktubları təsdiq edir; mixi yazılı məktublar o dövr üçün Yaxın Şərqin ünsiyyət vasitəsi olan Babil (Akkad) dilində yazılmışdı. E.ə. 14 əsrin sonu – 13 əsrdə B.-ın şm. qonşusu *Aşşurun* güclənməsi nəticəsində iki dövlət arasında rəqabət gücləndi. E.ə. 1157 ildə ş.-dən *Elam* B.-a sarsıdıcı zərbə endirdi.

B.-da bir müddət hökm sürən qeyri-sabitlik və hərc-mərclik dövründən sonra II İsin sülaləsinin (III Babil sülaləsi) hakimiyyəti zamanı dövlətçilik yenidən bərpa olundu. Bu sülalənin çarları B.-ı İsin ş.-nin ətrafında birləşdirməyə başladılar, sonralar mərkəzi Babilə köçürdülər. Sülalənin ən görkəmli nümayəndəsi olan I Navuxodonosor [e.ə. 1126–05] xələflərinin yaddaşında istedadlı döyüşçü, ədəbiyyat və incəsənət hamisi kimi qalmışdır.

B . - ı n   t ə n ə z z ü l ü   v ə   A ş ş u r u n   m ü v ə q q ə t i   h a k i m i y y ə t i




BABİLİSTAN HAMMURAPİ [e.ə.1792–1750] DÖVRÜNDƏ

YENİ BABİL ÇARLIĞI e.ə. 6 ƏSRİN 1-ci YARISINDA




**Qeyd:** *xəritədə Yeni Babil çarlığının sərhədləri təqribi göstərilmişdir.*

d ö v r ü (e.ə. 1000–627). 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəlində qərbi sami maldar tayfaları olan *aramilərin* B. və Aşşur ərazisinə hücumu onların tənəzzülünə səbəb olmuşdu. Q.-dən və şm.-q.-dən hərəkət edən aramilərlə yanaşı, mənşəcə onlara yaxın olan *kəldanilərin* c.-dan həmlələri B.-da vəziyyəti daha da ağırlaşdırmışdı. Yalnız e.ə. 9 əsrdə B. və Aşşur öz dövlətçiliklərini tədricən bərpa etməyə başlamışdılar.

E.ə. 729 ildə B.-da hakimiyyətin kəldani başçılarının əlinə keçəcəyindən ehtiyat edən Aşşur çarı *III Tiqlatpalasar* buraya qoşun yeritdi və Pulu adı ilə taxta çıxaraq B. çarı oldu. Onun hakimiyyəti altında vahid Aşşur və B. dövləti yarandı. Bu dövlət e.ə. 627 iləək mövcud olmuşdur. İşğalçı Aşşur çarlarının B.-da hakimiyyətinin, demək olar ki, daimi münaqişə və qeyri-stabilliklə müşayiət olunması həmin mərhələdə Aşşurun rəqibi, babillilərin isə müttəfiqi olan *Elamın* B.-ın işlərinə qarışması ilə bağlı idi.

Bu dövrdə B.-da ən fəal və nüfuzlu başçı olan kəldani Marduk-apla-iddinə (Bibliyada Merodax Valadan) qarşı iki Aşşur çarı – *II Sarqon*, sonra isə onun oğlu *Sinaxxerib* mübarizə aparmışlar. Sinaxxerib kəldaniləri B.-dan qovmağa müvəffəq olsa da, elamlılar onun oğlunu əsir götürərək edam etmişdilər. Oğlunun ölümünü babillilərin xəyanətinin nəticəsi hesab edən çar onları amansızcasına cəzalandırdı. E.ə. 689 ildə Babil şəhəri aşşurlular tərəfindən zəbt və qarət olundu, sonra isə tamamilə dağıdıldı. Sinaxxeribdən sonra hakimiyyətə gələn *Asarxaddon* B.-la barışığı ən mühüm məsələlərdən biri hesab etmiş və Aşşurun müharibələr zamanı ələ keçirdiyi nəhəng maddi vəsaitlərin xeyli hissəsini Babilin bərpasına ayırmışdı. Onun ölümündən sonra ölkə iki oğlu arasında bölündü: *Aşşurbanipal* Aşşurun, *Şamaşşumukin* isə B.-ın hökmdarı oldu. Bu, az sonra qardaşlar arasında müharibənin başlamasına gətirib çıxardı. E.ə. 648 ildə uzunmüddətli mühasirədən sonra Aşşurbanipalın ordusu Babili tutdu. Şamaşşumukin yandırılan sarayının qalıqları altında həlak oldu.

Semiramidanın asma bağları. E.ə. 7–6 əsrlər. Rekonstruksiya.



Y e n i  B a b i l  d ö v r ü (e.ə. 626–539). Aşşurbanipalın ölümündən sonra Aşşurda baş verən hərc-mərclikdən istifadə edən babillilər aşşurluları öz ölkələrindən qovmağa cəhd göstərdilər. Üsyana kəldani *Nabopalasar* rəhbərlik edirdi. Həlledici döyüş Babilin yaxınlığında baş verdi və Aşşur ordusu darmadağın olundu. Babillilər Nabopalasarı çar elan etdilər və o, yeni sülalənin banisi oldu. O, Aşşur ilə mübarizədə midiyalılara kömək göstərdi və *Kiaksarla* birlikdə Aşşur dövlətinin ərazisini bölüşdürdü. II Nabuşadnessarın (Bibliyada *II Navuxodonosor*) hakimiyyəti illəri B.-ın çiçəklənmə dövrü olmuşdur. O, e.ə. 587–586 illərdə B.-dan ayrılmağa çalışan *Yəhudi çarlığını* ləğv etmişdir. Yerusəlimin (Qüds) minlərlə sakini əsir götürülərək, B.-ın müxtəlif şəhərlərində, o cümlədən Babildə məskunlaşdırılmışdı (bax *Babil əsarəti*). Yeni Babil tarixində ən müəmmalı şəxsiyyət B.-ın sonuncu hökmdarı *Nabonid* olmuşdur. Farsların B. sərhədlərində öz hərbi qüvvələrini artırdıqları zaman o, dini islahatlar həyata keçirmiş (kahinlərin kəskin narazılığına səbəb olan Aya sitayişi qəbul etdirmişdi), diqqətini tikinti işlərinə yönəltmiş, oğlu Valtasarı ölkəyə canişin təyin edərək on il Ərəbistanın müxtəlif vil.-lərinin işğalına sərf etmişdir. E.ə. 539 ildə II Kirin ordusunun Babili tutması B.-ın müstəqil dövlət kimi mövcudluğuna son qoymuşdur.

**İncəsənət.** B. incəsənəti Şumer-Akkad ənənələri əsasında inkişaf edirdi. Rəsmi kanonik sənət nümunələri ilə təmsil olunan qədim Babil dövrü abidələrində son Şumer ənənələri gözlənilsə də, bədii keyfiyyət zəifdir: Suzdan tapılmış "Hammurapi stelası" (diorit, e.ə. 18 əsr)







Babil. Divar ornamentləri. E.ə. 7–6 əsrlər.

və Larsadan tapılmış adorant (e.ə. 18 əsr, hər ikisi Luvr, Paris); allahların kobud şəkildə yonulmuş heykəlcikləri; terrakota relyefləri (arfaçalanın təsviri, Şərq in-tu, Çikaqo); bədii metal (İsxalidən tapılmış tunc məmulat) və qliptika (dini mərasimləri və investitura səhnələrini əks etdirən silindrik möhürlər) nümunələri və s. İsxalidəki məbəd kompleksi, özünün mürəkkəb tağşəkilli konstruksiyası ilə fərqlənən Təll ər-Rimax məbədi, Maridəki Zimri-Lim, Eşnunnadakı İlşuiliya və II İbikadadın sarayları, həmçinin qismən dövrümüzədək gəlib çatmış Urdakı (şəhərin c.-ş.-ndə) və Babildəki şəhər tikililəri, sarayları bu dövrün memarlıq abidələridir. Orta Babil dövrü bədii sənəti qədim Babil dövrü incəsənətinin davamı kimi inkişaf edirdi. Bu dövrün tikililəri arasında Urukdakı çar Karaindaş məbədi, yeni paytaxt olan Dur-Kuriqalzudakı (indiki Akarkuf) məbədlər, saraylar, zikkurat və yaşayış məhəllələri xüsusi yer tuturdu. Təsviri sənət nümunələrindən Aşşur saraylarının divar rəsmləri və rəngli şüşədən düzəldilmiş mozaika, gildən hazırlanmış rəngli heyvan fiqurları (bəbir, şir), həmçinin zərgərlik məmulatları, çar Karaindaş məbədinin relyefli dekorasiyası (hamısı Bağdadın İraq muzeyində saxlanılırdı; 2003 ildə ABŞ və müttəfiqlərinin hərbi əməliyyatları nəticəsində muzeyin kolleksiyası məhv edilmişdir); dini mərasim səhnələrini, allahların zoomorf simvolları əks olunan kudurrular (mərz daşları) məlumdur. E.ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəllərinə aid abidələr aramsız hərbi münaqişələr nəticəsində az saxlanılmışdır. B. incəsənətinin yenidən çiçəklənməsi yeni Babil dövrünə təsadüf edir: Babilin, zikkuratların (Babil, *Borsippa*) inşası. Monumental tikililər ölçülərinin mütənasibliyi ilə seçilirdi; Şumer ənənələrinə görə divar səthlərində çıxıntı və pilyastrlar bir-birini əvəzləyirdi (Borsipradakı Ezida ansamblının aşağı məbədi). Təsviri sənətdə Aşşur incəsənəti ənənələri davam etdirilirdi, lakin dini mövzuya üstünlük verilirdi (şirli kərpicdən relyefli heyvan təsvirləri, möhürlər).



Babilistan. Mixi yazılı gil lövhələr. E.ə. 1900–1700 illər.

**Musiqi**. Qədim Babil dövründən himnlərin kataloqu, simli alətlərin köklənməsinə dair təlimatlar mühafizə edilmişdir. Musiqi nəzəriyyəsi Şumer və Akkad terminologiyasından faydalanmışdır; yeddi 7-pilləli səsdüzümü və onlara müvafiq alətləri köklənmə üsulları, *oktava* haqqında anlayış var idi. Qədim Babil dövründə musiqini yazıya almağa başlamışdılar, ehtimal ki, tabulaturalar mövcud olmuşdur. Bu dövrdə region üçün yeni olan alətin – qayığabənzər böyük gövdəli, bucaqvarı arfanın yaranması haqqında məlumat qeydə alınmışdır. Gildən düzəldilmiş orijinal şaxşaxlar (o cümlədən zoomorf) mühafizə olunmuşdur. Yeni Babil dövrünə aid abidələr azdır.

B. ədəbiyyatı haqqında bax *Şumer-Akkad ədəbiyyatı* məqaləsinə.

*Əd.:* А ф а н а с ь е в а  В.К., Л у к о н и н  В.Г., П о м е р а н ц е в а Н.А. Искусство Древнего Востока. М., 1976; История Древнего Востока: зарождение древнейших классовых обществ и первые очаги рабовладельческой цивилизации. Ч. 1: Месопотамия. М., 1983; Л л о й д  С. Археология Месопотамии. М., 1984; R a s h i d  S.A. Mesopotamien (Musikgeschichte in Bildern. Bd. 2. Lfg. 2). Lpz., 1984; Ш л ю м б е р ж е  Д. Эллинизированный Восток. М., 1985; История Древнего мира. Кн. 1: Ранняя древность. М., 1989; О п п е н х е й м  А.Л. Древняя Месопотамия: Портрет погибшей цивилизации. 2-е изд. М., 1990.

**BABİLİSTAN DİNİ VƏ MİFOLOGİYASI** – bax *Şumer-Akkad dini və mifologiyası*.

**BABİLİSTAN ƏDƏBİYYATI** – bax *Şumer-Akkad ədəbiyyatı*.

**BABİNGER** Frans (1891–1967) – alman türkoloqu və şərqşünası. Hindşünaşlıq və sami filologiyası üzrə doktor (1914), Berlin Un-tinin Şərq dilləri üzrə prof.-u (1921), 1933 ildə Rumıniyaya mühacirət etdikdən sonra isə Buxarest Un-tinin fəxri prof.-u (1935), Yassıda Türkologiya in-tunun direktoru (1937–43) olmuşdur. Almaniyaya qayıtdıqdan sonra 1948 ildən Yaxın Şərq mədəniyyəti tarixi və türkologiya in-tunun direktoru işləmiş, eyni zamanda Münxen Un-tinin prof.-u olmuşdur. B. Türkiyənin orta əsrlər tarixi, arxeoqrafiyası və biobiblioqrafiyasına dair tədqiqatların, o cümlə-



dən "Osmanlı tarixçiləri və onların əsərləri" kitabının müəllifidir.

Əsərləri: Die Geschichtsschreiber der Osmanen und ihre Werke. Leipzig, 1927; Das Archiv des Bosniaken Osman Pascha. Br., 1931; Mehmed der Eroberer und seine Zeit. München, 1953; Sultanische Urkunden zur Geschichte der osmanischen Wirtschaft und Staatsverwaltung am Ausgang der Herrschaft Mehmeds II. des Eroberers. Teil I: Das Qānūn-Nāme-i Sultānī ber Mūdscheb-i Örf-i Osmānī. München, 1956.

**BABİNSKİ** Jozef Fransua (2.11.1857, Paris – 29.10.1932, Paris) – fransız nevropatoloqu. Paris EA-nın üzvü (1914 ildən). Polyak mühaciri ailəsində doğulmuşdur. Tibb təhsilini Sorbonnada almış (1879), J.M. *Şarkonun* yanında assistent işləmişdir. Parisin Salpetriyer hospitalında nevroloji klinikanın direktoru olmuşdur (1886 ildən); J.M. Şarkonun ölümündən sonra 1893 ildən Parisdə "De la Pitye" ("De la Pitie") nevroloji klinikasına rəhbərlik etmişdir.

B.-nin əsas əsərləri mərkəzi sinir sisteminin fiziologiyasına və patologiyasına, əsəb xəstəliklərinin klinikasına; piramida yolunun və beyinciyin dağılması və zədələnməsi zamanı (eksperimentdə) funksiyaların itirilməsinə həsr edilmişdir. "Patoloji refleks" anlayışını elmə daxil etmişdir. 1896 ildə piramida yolunun üzvi zədələnməsi zamanı pəncə patoloji refleksini (B. refleksi) təsvir etmişdir; beyinciyin aparıcı yollarının zədələnməsinin simptomkompleksini ayırd etmişdir. Hemiplegiyanın diaqnostikasını işləyib hazırlamışdır; *isteriyanın* inkişafında təlqinin və özünütəlqinin mühüm rolunu sübut etmişdir. Onurğa beyninin şişləri zamanı Fransada ilk cərrahi əməliyyat aparanlardan (1911) biridir.

Paris nevropatoloq və psixiatrlar cəmiyyətinin banilərindəndir (1899).

**BABİR** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Poldəşt bölgəsinin Sarı Subasar kəndistanında, Poldəşt qəs.-ndən 29,5 *km* q.-dədir.

**BABİRÚSSA** (Babyrousa babyrussa) – donuzlar fəsiləsindən gövşəməyən cütdırnaqlı məməli heyvan. Cinsin yeganə növü. Bədəninin uz. 90–100 *sm*, cidov hünd. 65–80 *sm*, kütləsi 90–100 *kq*-a qədərdir. Başı kiçik, qulaqları qısadır. Beli çox qabarıq, ayaqları nisbətən uzun və nazikdir. Seyrək və qısa tüklərlə örtülmüş qəhvəyivarı və ya qara-boz rəngli dərisi, demək olar ki, çılpaqdır. Erkəklərdə uzun (30 *sm*-ədək) üst köpək dişləri üst dodağı deşərək yuxarıya tərəf böyüyüb qövs şəklində geriyə elə əyilir ki, yaşlı heyvanlarda onların ucu bəzən üstçənə sümüyünə keçir. B. Sulavesi a.-nda və ona yaxın bəzi adalarda məskunlaşmışdır. Bataqlıq meşələrdə və sahilyanı cəngəlliklərdə tək-tək və ya kiçik qruplarla yaşayır; adalar arasındakı kiçik boğazları üzüb keçə bilir. Gecələr fəaldır. Əsasən, bitki ilə qidalanır. Boğazlıq dövrü 5 aya yaxındır; 1–2 bala doğur. Yerli əhali B.-nı çox vaxt ev heyvanı kimi saxlayır. B. heyvanxanalarda çoxalır; 10 il və daha çox yaşayır. Təbiətdə sayı azalmaqdadır. BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

Babirussa (Babyrousa babyrussa).



**BÁBOÇKİN** Boris Andreyeviç (18.1.1904, Saratov – 17.7.1975, Moskva) – rus aktyoru və rejissoru. SSRİ xalq artisti (1963), prof. (1966), Sosialist Əməyi Qəhrəmanı (1974),  SSRİ Dövlət mükafatı laureatı (1941, 1951; 1977, ölümündən sonra). Səhnə fəaliyyətinə 1921 ildən başlamışdır. 1952–53 illərdə A.S. Puşkin ad. Moskva Dram Teatrının baş rej.-u, 1949–51, 1955–68 illərdə və 1970 ildən Moskva Malı Teatrının aktyoru və rej.-u olmuşdur. Əsas rolları: Çatski ("Ağıldan bəla", A.S. Qriboyedov), Yalançı Dmitri ("Boris Qodunov", A.S. Puşkin), Klaverov ("Kölgələr", M.Y. Saltıkov-Şedrin), Oqnev ("Cəb-hə", A.Y. Korneyçuk) və s. E. Rannetin "Brakonyerlər" pyesində B.-in oynadığı Aadamın rolu rus teatrı tarixində mərhələ olmuşdur. "Yaylaq qonşuları" (1939, 1964, M. Qorki), "Pul" (1956, A.V. Sofronov), "İvanov" (1960, A.P. Çexov), "Həqiqət yaxşıdır, xoşbəxtlik daha yaxşıdır", "Tufan" (1965, 1974, A.N. Ostrovski) və s. pyesləri tamaşaya qoymuşdur. B. 1927 ildən kinoya ("Rəfiqələr", "Aktrisa", "Mister Mak-Kinlinin qaçması" və s.) çəkilmişdir. "Çapayev" (1934) filmində yaratdığı Çapayev obrazı ona dünya şöhrəti qazandırmışdır. "Doğma çöllər" (1945), "Coşqun adam haqqında povest" (1947) filmlərinin rej.-u olmuşdur.



**BABÖF** (Babeuf) Qrakx (əsl adı Fransua Noel) (23.11.1760, Sen-Kanten – 27.5.1797, Vandom) – 18 əsr Fransa inqilabı xadimi, *Direktoriya* dövründə "bərabərlik naminə" hərəkatın rəhbəri. 1780 ildən arxivçi-fevdist (hüquqşünas) işləmişdir. J.J. *Russo* və Q.B. *Mablinin*, sonra isə *Morellinin* ideyaları ilə tanışlıqdan sonra xüsusi mülkiyyətin mövcud olmadığı "mükəmməl bərabərlik" cəmiyyəti idealının qatı tərəfdarına çevrilmişdir. Pikardiyada inqilabın fəal iştirakçısı idi. Dolayı vergilər ödənilməsi əleyhinə hərəkatın təşkilinə görə 1790 ildə Paris həbsxanasına salınmış, İ.P. *Maratın* köməyi sayəsində azad edilmişdir. 1791 ildə, kralın taxt-tacı qoyub qaçması ilə əlaqədar, ölkədə respublika qurulması uğrunda çıxış etmiş, bütün feodal hüquqlarının ödənişsiz ləğvini, iri torpaq sahibliyinin məhvini, müsadirə olunmuş kilsə əmlakının uzunmüddətli icarəyə verilməsini və icma torpaqlarının bölüşdürülməsini nəzərdə tutan aqrar proqram irəli sürmüşdür (B. "aqrar qanun"un əsas ideyalarını hələ 1789 ildə "Daimi kadastr" kitabında formalaşdırmışdı). 1793 ildə Paris kommunası ərzaq administrasiyasının katibi olmuşdur. Yoxsul siniflərin mənafeyini ardıcıl müdafiə etmişdir. Yalan ittihamla saxtakarlıqda təqsirləndirilən B. 1793 ilin sonu – 1794 ildə həbsdə saxlanmışdır. Azadlığa buraxıldıqdan sonra tezliklə *Konventin* əleyhinə çıxış edən B. onun fəaliyyətini sonralar "Tribun du pöpl" ("Le Tribun du peuple") adlandırılan öz qəzeti "Jurnal de la liberte de la prese"də ("Journal de la liberté de la presse") tənqid etmişdir. 1795 ilin fevral–oktyabrında yenidən həbsə məruz qalan B. amnistiyaya düşüb həbsxanadan çıxaraq Direktoriya əleyhinə çıxış etmiş və F. Buonarroti, O.A. Darte və b. ilə birlikdə "bərabərlik naminə" kommunist sui-qəsdinin təşkilatçılarından və rəhbərlərindən biri olmuşdur. 1796 ilin yazında "Gizli üsyan direktoriyası"na başçılıq etmiş və xalq çıxışını hazırlamışdır. Sui-qəsdçilərdən birinin xəyanəti nəticəsində həbs olunmuş və məhkəmənin hökmü ilə edam edilmişdir. B. inqilab təcrübəsi əsasında bu nəticəyə gəlmişdi ki, köhnə cəmiyyətdən yenisinə keçid dövründə müvəqqəti inqilabi diktaturanın qurulması zəruridir. B.-ün ideyaları 1830–40-cı illərin kommunist hərəkatında "neobaböfizm" nümayəndələrinin (T. Dezami, J. Piyo) baxışlarına təsir göstərmişdir. Marksistlər B.-ün baxışlarını "qaba bərabərləşdirməyə" görə tənqid etsələr də, sonradan onun fəaliyyətini yüksək qiymətləndirmişlər.

Əsəri: Соч. М., 1975–1982. Т.1–4.

*Əd.:* Далин В.М. Г. Бабеф накануне и во время Великой французской революции (1785–1794). М., 1963; Черткова Г.С. Г. Бабеф во время термидорианской реакции. М., 1980.

**BABUİN** (Papio cynocephalus) – *əntərkimilər* fəsiləsinin pavianlar cinsinə aid məməli heyvan. Bədəninin uz. 60–70 *sm*, quyruğunun uz. 50 *sm*-ədək olur. Başı it başına oxşayır; burun dəlikləri üzünün qurtaracağında yerləşir, köpək dişləri güclü inkişaf etmişdir. Tükü açıq-sarı rəngdədir (sarı pavian adı da buradandır). Mərkəzi və Şərqi Afrikada yayılmışdır; bozqır və dağlıq yerlərdə məskunlaşır. Gündüzlər fəaldır, əsasən, yerüstü həyat keçirir. Bitki (meyvələr, soğanaqlar və s.) və heyvani (həşəratlar, xırda onurğalılar) yemlərlə qidalanır; bəzən k.t. bitkilərinə çox zərər vurur. B. qrup halında yaşayır; sürüyə yaşlı erkəklər başçılıq edir.



Babuin (Papio cynocephalus).

**BABUQÁN-YAYLA** – Ukraynada, Krım d-rının Baş tirəsində ən yüksək platovarı dağ massivi. Hünd. 1545 *m*-ədək (Roman Koş d.). Yamacları meşəlikdir. Ətəklərində Qurzuf və Aluşta sahil kurortları var. B.-Y.-nın bir hissəsi Krım qoruq-ovçuluq təsərrüfatına daxildir.

**BABUL** (far. بابل), Babol – İranın şm.-ında, Mazandaran ostanında şəhər. Babul şəhristanının mərkəzi. Əh. 160 min (1999). Babul çayı sahilindədir. Avtomobil yolları qovşağı. K.t. (çəltik, pambıq, kənaf və s.) r-nu mərkəzidir. Çəltik və pambıqtəmizləmə z-dları var. Xəzər dənizinin c. sahilindəki Babulsər portundan k.t. məhsulları ixrac olunur. B.-da Mazandaran Un-tinin filialı fəaliyyət göstərir.

**BABUNƏ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qarağac bölgəsinin Çaharoymaq kəndistanında, Qarağac qəs.-ndən 21 *km* c.-ş.-də, Marağa–Miyanə avtomobil yolunun 44 *km*-liyindədir.

**BABUR** Zəhirəddin Məhəmməd (14.2.1483, Fərqanə – 26.12.1530, Aqra) – Orta Asiya və Hindistan hökmdarı, sərkərdə; *Böyük Moğollar* sülaləsinin banisi. *Teymurilər* nəslindəndir. 12 yaşında Fərqanədə taxta çıxmışdır. Özbək xanı Şeybani ilə müharibədən sonra (1504) Orta Asiyadan qovulmuşdur. Həmin il Əfqanıstana yürüş edərək Kabili tutmuş və dövlət yaratmışdır. Sonralar bütün Orta Asiyanı birləşdirmək uğrunda digər xanlarla uzun illər mübarizə aparmışdır. 1511 ildə Şah I İsmayılın köməyi ilə Səmərqənd və Buxaranı almış, lakin Səfəvi ordusu gedəndən sonra 1514 ildə özbəklər onu yenə məğlub etmişlər. 1519 ildən Hindistana hərbi səfərlər etmiş, iki həlledici döyüşdən (1526 ildə Panipat yaxınlığında *Dehli sultanlığının* sonuncu hakimi İbrahim Lodi ilə və 1527 ildə Sikri yaxınlığında Racput hakimi Sanqram Sinqh ilə) sonra Şimali Hindistanı tutmuşdur. B. şair və yazıçı kimi də tanınmışdır. Cağatay dilində yazdığı "Baburnamə" adlı avtobioqrafik əsərində onun səfərləri, Orta Asiya, Əfqanıstan və Hindistanın təbiət mənzərələri, kənd həyatı, əyanların məişəti, dövrün adət və ənənələri təsvir edilir. Dünya ədəbiyyatının qiymətli nümunələrindən olan "Baburnamə", həmçinin rübai, tuyuq və qəzəllərdən ibarət "Divan"ı, "Əruz risaləsi", "Mübəyyən" və s. əsərləri ingilis, fransız, alman, rus və fars dillərinə tərcümə olunmuşdur. Musiqiyə və hərb sənətinə dair iki əsərinin də olduğu ehtimal edilir.

Əsərləri: Humâyun-nâme (tərtibatçı Gülbeden Begim). Ankara, 1944; Лирика. М., 1957; Бабур-наме. Записки Бабура / Пер. М. Салье. Ташкент, 1958; Бабур-наме // *Бабур* З.М. [Избранное]. Ташкент, 1982, кн. 2.

*Əd.:* Smith V. A. Akbar the Great Mogul. Oxf., 1917; Антонова К. А. Очерки общественных отношений и политического строя Могольской Индии времен Акбара. М., 1952; H. Hasanov. Zahiriddin Bobır: Sayeh ve Olim. Taşkent, 1960; Кор-Оглы Х. Г. Узбекская литература. М., 1968; Азимджанова С. А. Государство Бабура в Кабуле и в Индии. М., 1977; Zeyn Han Tabagat-ı Baburi (tərc. S. Hasan Askari). Dehli, 1982.



Babur. Miniatür. Britaniya muzeyi.

**BABÜLMƏNDƏB BOĞAZI,** Babülməndəb (ər. باب المندب – kədər, göz yaşı darvazası) – Ərəbistan y-a-nın c.-q. qurtaracağı ilə Afrika arasında boğaz. Qırmızı dənizi Ərəbistan dənizinin Ədən körfəzi ilə birləşdirir. Uz. 109 *km*, ən ensiz yeri 26 *km*, farvaterdə ən dayaz yeri 31 *m*-dir. Perim a. boğazı 2 keçidə (Böyük və Kiçik) bölür. Boğazın böyük strateji və iqtisadi əhəmiyyəti var. Avropadan Şərqi və Cənubi Asiyaya və Avstraliyaya ən qısa su yolu Süveyş kanalı və B.b.-ndan keçir.

**BÁBYA**, Babya-Qura (Babia Góra) – Polşa və Slovakiya sərhədində dağ. Qərbi Beskid d-rının (Karpat d-rı) ən yüksək zirvəsidir (1725 *m*). Kristallik süxurlardan və şistlərdən təşkil olunmuşdur. Buzlaq relyef formaları mövcuddur. Fıstıq və iynəyarpaqlı meşələr, Alp çəmənlikləri var. 1934 ildə dağın Polşa ərazisindəki yamacında Babyeqorski Milli Parkı (sah. 1,7 min *ha*) yaradılmışdır. Əsasən, meşə faunası – boz ayı, vaşaq, canavar, tülkü, dələ, maral, qaban və endemik bitkilər qorunur. Biosfer qoruğudur. Turizm inkişaf etmişdir.

**BAC** (far. باج – vergi, xərac, rüsum, təzminat) – 1) orta əsrlərdə bəzi Yaxın Şərq ölkələrində, həmçinin Azərb.-da vergi, rüsum (yol haqqı). Bir yerdən başqa yerə aparılan mal və s.-yə görə alınırdı. Həcmi qeyri-müəyyən idi. "B." termininə bir sıra orta əsr mənbələrində (o cümlədən Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərində) təsadüf edilir; 2) məğlub ölkənin qalib ölkəyə verdiyi təzminat (bax *Kontribusiya*). "Bac-xərac" kimi də işlədilmişdir.

**BAC** (Budge) Ernest Alfred Uollis (27.7. 1857, B.Britaniya, Kornuoll – 23.11. 1934, London) – ingilis arxeoloqu və dilçisi. Kembric Un-tinin Krayst-kollecini bitirmişdir. Britaniya muzeyinin Qədim Misir və Aşşur şöbəsinin 1885 ildən mühafizi, 1894–1924 illərdə isə baş mühafizi vəzifələrində çalışmışdır. Qədim Misir mətnlərinin transkripsiyası metodikasını təkmilləşdirmişdir. Qədim abidələrin axtarışı ilə əlaqədar dəfələrlə Mesopotamiya, Misir və Sudana getmiş, səyahətləri nəticəsində Britaniya muzeyinin papiruslar, əlyazmalar və gil lövhəciklər kolleksiyasını zənginləşdirmişdir. "Ölülər kitabı"nı (1889, ikinci nəşr 1909) və "Qibti qomiliyaları"nı (1910) ingilis dilinə tərcümə etmişdir. Yaxın Şərq və Şimali Afrikanın qədim tarixi və arxeologiyasına dair bir çox əsərin müəllifidir. B.-ın qədim misirlilərin mənəvi həyatına həsr olunan tədqiqatları xüsusi əhəmiyyət kəsb edir. 1920 ildə cəngavər rütbəsinə layiq görülmüşdür.

Ə s ə r l ə r i: By Nile and Tigris: In 2 vol. [L.], 1920; Egyptian ideas of the afterlife. N.Y.; L., 1995.

**BACA,** t ü s t ü (q a z) k a n a l ı (b o r u s u) – 1) binalarda soba, suqızdırıcı qazanlar və s.-nin qızdırılması üçün qaz halında olan yanma məhsullarını istiqamətləndirmək və ya tüstü qazlarını atm.-ə yönəltmək üçün quruluş. B. xarici və daxili olur. X a r i c i B. divarın xarici səthi boyu şaquli quraşdırılır. D a x i l i B. da öz növbəsində iki cür olur: şaquli (binanın mərtəbəarası örtüləri və dam örtüyündən keçən) və üfüqi (qazları binanın xarici divarından kənar edən). Üfüqi daxili B. buxar qazları məcburi şəkildə kənarlaşdırılan qazan qurğularında tətbiq edilir. B. ucunda *deflektor* yerləşdirilmiş tüstü borusu ilə tamamlanır. Deflektor borudan tüstünün sorulmasını gücləndirir və B.-nı atm. yağıntılarından qoruyur. Dam örtüyü yanan materiallardan hazırlanan binalarda boruda qığılcımtutanlar quraşdırılır. Tüstü və qazların sorulması çətin olduqda B. sormanı gücləndirən ventilyatorla (tüstüçəkənlə) təchiz edilir. Odun sobalarının və buxarıların B.-sı, ənənəvi olaraq, kərpicdən, isitmə qazanlarının B.-sı polad, keramik və ya polimer bloklardan qurulur. Kərpic B.-nın rekonstruksiyası zamanı büzməli poladdan düzəldilən əyilgən taxma borular xüsusilə effektivdir; 2) bax *Dam pəncərəsi*.

**BACABAC** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Müvazəxan kəndistanında. Vərzəqan qəs.-ndən 17,5 *km* c.-dadır.

**BACAQLI** – 18 əsrin sonu–19 əsrin əvvəllərində Azərb.-da işlədilən Niderland qızıl dukatlarının Azərb. dilində adı. Avstriya qızıl sikkələri, həmçinin Fətəli şahın kəsdirdiyi bəzi qızıl sikkələr də B. adlanırdı. B.-dan bəzən qadın sinə bəzəyi kimi istifadə olunmuşdur.

**BACÁL SİLSİLƏSİ** – RF-nin Xabarovsk diyarında dağ silsiləsi. Bureya silsiləsindən ş.-də, Amur və Amqun çayları arasındadır. Uz. 220 *km,* hünd. 2157 *m*-ədəkdir. Şistlərdən, qumdaşılardan və vulkan süxurlarından təşkil olunmuşdur. Relyefi, əsasən, orta dağlıqdır. Ətəkləri qaraşam meşələri, yamacları ağ şam tayqası və kolluqlu-şibyəli tundradır.

**BACAN** – Azərb. Resp. Gədəbəy r-nu ərazisində çay. Zəyəmin sol qolu. Uz. 25 *km*. hövzəsinin sah. 236 *km*²-dir. Şahdağ silsiləsindən başlanır.

**BACAULAR,** b a c a o l a r – bax *Oranqlautlar*.

**BACDAR** (far. باجدار) – orta əsrlərdə bəzi Yaxın Şərq ölkələrində, həmçinin Azərb.-da gömrük rüsumu toplayan məmur. B. xüsusi silahlı dəstələrlə şəhər darvazalarının önündə, yolayrıcılarındakı məntəqələrdə dururdu. Əsasən, başqa ölkələrdən gəlmiş tacirlərdən alınan rüsuma "torpaqbasdı" deyilirdi. Xanlıqlar dövründə (18 əsr) B. *rahdar* adlanırdı.

**BACOĞLU** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Düzkənd, 7.12.1945 ildən Axuryan r-nu), Arpaçay sahilində azərb.-ların yaşadığı kənd. 1918–20 illərdə erməni daşnakları tərəfindən dəfələrlə dağıdıcı hücumlara məruz qalmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar Türkiyəyə, Ağbaba mahalının kəndlərinə sığınmışlar. Kənd Türkiyədən, İrandan gəlmə ermənilər tərəfindən zəbt edilmişdir. 1922 ildə kəndin azərb. əhalisinin bir hissəsi geri qayıtsa da, 1929–30 illərdə onlar da qonşu azərb. kəndlərinə köçürülmüşdür. 7.12.1945 ildə kəndin adı dəyişdirilərək Haykavan qoyulmuşdur.

**BACRƏVAN,** B a q r ə v a n , B a ğ r ə v a n – Azərb.-da tarixi şəhər; coğrafi mövqeyi dəqiq məlum deyildir. Ərəb coğrafiyaşünası Yaqut Həməvi (təqr. 1179–1229) B.-ın Şirvan yaxınlığında *Bab əl-Əbvab* vil.-ndə, İran tarixçisi Həmdullah Qəzvini (1281–1350) isə Muğanda olduğunu qeyd etmişlər. B. mühüm ticarət mərkəzi olmuşdur. 7 əsrdə B.-ın əhalisi Xilafət qoşunlarına şiddətli müqavimət göstərmişdir. B. 7 əsrin 2-ci yarısından Xilafətin hakimiyyəti altında idi. Ehtimal ki, monqol hücumları nəticəsində (13 əsr) tənəzzülə uğramışdır. Azərb.-ın Bərdə, İmişli və Cəlilabad r-nlarında Bacirəvan k.-ləri var.

**BAÇÇARELLİ** (Bacciarelli) Marçello (16.2.1731, Roma – 5.1.1818, Varşava) – polyak boyakarı. Mənşəcə italyandır. Romada M. Benefyaldan dərs almışdır. Drezdendə (1750 ildən, 1763–66), Vyanada (1764–65) və Varşavada (1756–63 və 1766 ildən) kral saraylarında işləmişdir; Stanislav Avqust Ponyatovskinin saray rəssamı (1766 ildən) olmuşdur. Polşa krallarının və zadəganlarının nəfis koloritli, təmtəraqlı portretlərinin (200-dən çox), tarixi kompozisiyaların (Polşa tarixindən silsilə rəsmlər, 1782–86), barokko *akademizmi* üslubunda plafonların və dekorativ pannoların (Varşavadakı Lazenki sarayı üçün "Solomonun tarixi", 1788–93; saxlanılmamışdır) müəllifidir. Yaradıcılığının son dövrlərində *klassisizmə* meyil etmişdir. Vyana, Berlin, Roma və Venesiya rəssamlıq akademiyalarının üzvü olmuşdur. Varşavada Kral qəsrinin boyakarlıq emalatxanasının rəhbəri (1770-ci illərin sonundan), kral tikinti işlərinin baş direktoru (1786 ildən), Varşava Un-ti nəzdində zərif sənətlər şöbəsinin prof.-u (1817 ildən) olmuşdur.

**BAÇ-KİŞKUN** (Bacs-Kiskun) – Macarıstanın c.-unda medye. Dunay və Tisa çayları arasındadır. Sah. 8,4 min *km*². Əh. 538,3 min (2006). İnz. m. Keçkemet ş.-dir. Mühüm bağçılıq və üzümçülük r-nudur. Dənli və texniki bitkilər, tərəvəz əkilir. Donuzçuluq və quşçuluq inkişaf etmişdir. Yeyinti (meyvə və tərəvəz konservləşdirməsi, araqçəkmə, unüyütmə və s. müəssisələri), k.t. maşınqayırması, toxuculuq sənayesi var. Əsas sənaye mərkəzləri: Keçkemet və Baya (Dunay çayı sahilində mühüm portdur).

**BAD** – Azərb. Resp. Quba r-nunun Rustov ə.d.-ndə kənd. R-n mərkəzindən 32 *km* c.-ş.-də, Cağacuq çayı sahilindədir. Əh. 520 (2008); maldarlıq və meyvəçiliklə məşğuldur. Kitabxana var.

**BADABAR** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qafan r-nu) azərb.-ların yaşadığı kənd. 1917–18 illərdə erməni daşnaklarının hücumları nəticəsində kənd xarabalığa çevrilmişdir.

**BADAXÓS** (Badajoz) – İspaniyanın c.-q.-ində, Estremadura muxtar vil.-ndə şəhər. Badaxos əyalətinin inz. m. Əh. 133 min (2005). Qvadiana çayının sahilində-







Badaxos şəhərindən görünüş.

dir. Portuqaliya ilə sərhəddə tranzit məntəqəsi. Aeroport.

Qədim Roma dövründə B.-un yerində şəhər məskənləri mövcud olmuşdur. 875 ildə ərəb sərkərdəsi İbn Mərvan burada B. ş.-ni salmışdır. 1027 ildən Əftasilər əmirliyinin mərkəzi idi. 1227 ildə *Rekonkista* zamanı IX Alfonso şəhəri tutmuşdur. *Badaxos sülh müqaviləsi (1801)* burada bağlanmışdır. B.-da katolik yepiskopunun iqamətgahı, qotik üslubda böyük kilsə (13 əsr), tağvarı körpü (16 əsr) var. Dəri, toxuculuq, saxsı sənayesi; şərabçılıq inkişaf etmişdir.

**BADAXÓS SÜLH MÜQAVİLƏSİ (1801)** – Portuqaliyanın Fransa və İspaniyaya qarşı müharibədə məğlub olması nəticəsində dekabrın 6-da İspaniyanın Badaxos ş.-ndə bağlanmışdır. Müharibəyə səbəb *I Napoleon* Bonapartın B. Britaniya ilə münasibətləri kəsmək tələbinin Portuqaliya tərəfindən rədd edilməsi idi. B.s.m. İspaniya-Portuqaliya (11 maddə) və Fransa-Portuqaliya (6 maddə) sülh və dostluq müqavilələrindən ibarət idi. Portuqaliya öz portlarını Britaniya donanması üçün bağlamağı, müttəfiqlərin donanmaları üçün açmağı, Fransaya Qviananın bir hissəsini verməyi, Fransa ilə onun üçün əlverişli olan ticarət müqaviləsini bağlamağı və ona 20 mln. frank məbləğində təzminat ödəməyi, İspaniya ilə müdafiə ittifaqını bərpa etməyi və Badaxos ş.-nə iddialardan əl çəkməyi öhdəsinə götürürdü. İspaniya işğal etdiyi Alenteju və Alqarvi əyalətlərini (ətrafı ilə birlikdə Olivensa qalası və Qvadiana çayının sağsahil torpaqları istisna olmaqla) Portuqaliyaya qaytarırdı. *Trafalqar vuruşmasında (1805)* Fransa-İspaniya donanması ingilislər tərəfindən darmadağın edildikdən sonra Portuqaliya B.s.m.-nin şərtlərini pozdu və öz portlarını Britaniya gəmiləri üçün açdı.

**BADAQALAR** (tamil dilində vuddaka – "şimali") – Cənubi Hindistanda (Tamilnad ştatı), Mavi dağların vadisində (Nilgiri) yaşayan xalq. Sayları təqr. 170 mindir (2005). Avstraliya böyük irqinin vedda irqinə mənsubdurlar. Dravid ailəsinə daxil olan badaqa dilində danışırlar. Dindarları hinduistdir, ənənəvi inanclar da saxlanılır. Hazırda yaşadıqları ərazilərə 16–18 əsrlərdə şm.-dan köçmüşlər (adları da buradandır). Əsas məşğuliyyətləri terraslı toxa əkinçiliyi və bostançılıqdır. B. istifadə etdikləri torpağa görə yerli maldar tayfası *todalara* məhsulun 1/6-ni ödəyirlər. Sənətkarlıq məmulatını ənənəvi olaraq *kotalardan* alırlar. B.-ın əksəriyyəti plantasiyalarda, yol tikintisində, ağac tədarükü işlərində çalışırlar.

**BADALÓNA** – İspaniyanın şm.-ş.-ində, Kataloniya muxtar vil.-ndə şəhər. Əh. 216 min (2007). Aralıq dənizi sahilindədir. Kimya (gübrə, mineral yağlar və s.), toxuculuq, trikotaj, dəri, maşınqayırma, yeyinti sənayesi müəssisələri var. Ətriyyat, şüşə, optika məmulatı istehsal edilir, mantar emal olunur. Ətrafında üzümlüklər var. Dəniz kurortudur.

**BADAM** (Amygdalus) – *gülçiçəklilər fəsiləsindən* alçaqboylu ağac və ya kol cinsi. Qozmeyvəli bitkidir. Hünd. 8 *m*-ədək olur. Təqr. 40 növü var. Asiyada, Şimali və Mərkəzi Amerikada, eləcə də Cənubi Avropada və s. müxtəlif növləri (Azərb.-da 3 növü) bitir. Ən əhəmiyyətlisi adi B.-dır (A. communis). Kökləri dərinə işləyir. Lansetşəkilli yarpaqları növbə ilə düzülmüş, çiçəkləri ağ, yaxud çəhrayı, beşləçəklidir. Meyvəsi tüklü-oduncaqlı çəyirdəkdir; iyun–avqust aylarında yetişir. Meyvəsinin ləpəsində amiqdalin qlükozidi (acı badamda 4%-ə qədər), 6%-ədək su, 21% azotlu və 13% azotsuz maddə, 54% yağ (şirin B.-dan badam yağı, acı B.-dan acı efir yağı alınır), 4% sellüloz, 2% kül var. Əsasən, göz calağı vurmaqla çoxaldılır. Calaqaltı kimi şaftalı, gavalı və alçadan istifadə edilir; 4-cü ilində məhsul verməyə başlayır, 7–8-ci ilində isə tam bara düşür (hər *ha*-dan 400 *kq*-dan çox). Meyvəsi yeyilir, qənnadı sənayesində, tibdə, qabığı isə şərab və konyak istehsalında istifadə olunur; B. kəpəyi kosmetikada işlədilir. Abşeronda quraqlığadavamlı məhsuldar sortları alınmışdır.



**Badam** (Amygdalus). Çiçəkli və meyvəli budaqları; qərzəkli meyvəsi, çəyirdəyi və ləpəsi.

**BADAM QIZILBÖCƏYİ** (Capnodis henningi) – sərtqanadlılar dəstəsinin qızılböcəklər (Buprestidae) fəsiləsindən həşərat. Üstü tutqun qara, uz. 23–30 *mm*.

Badam qızılböcəyi (Capnodis henningi).



qanadüstlükləri qalın və nöqtəlidir. Azərb.-da, İranda və Türkiyədə yayılmışdır. Əsasən, badama, şaftalıya, əriyə zərər verir. Sürfələri ağacların kök boğazının oduncaq hissəsində yaşayır və onu zədələyir. Böcəklər may–iyun aylarında əmələ gəlir. B.q. ilə aqrotexniki, mexaniki və kimyəvi (0,2–0,3 %-li sevin məhlulu) üsullarla mübarizə aparılır.

**BADAMAĞAC** – Azərb. Resp. Cəlilabad r-nunun Ləkin ə.d.-ndə kənd. R-n mərkəzindən 17,5 *km* c.-q.-də, Burovar silsiləsinin ətəyindədir. Əh. 300 (2008); əkinçilik və maldarlıqla məşğuldur. İbtidai məktəb, kitabxana var.

**BADAMAĞAC** – Azərb. Resp. Cəlilabad r-nunun Ağdaş ə.d.-ndə kənd. R-n mərkəzindən 13 *km* c.-q.-də, Burovar silsiləsinin ətəyindədir. Əh. 427 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, kitabxana var.

**BADAMBURA** – Şərqdə, o cümlədən Azərb.-da geniş yayılmış şirniyyat növü. B. bişirmək üçün buğda unu, xama, yumurta, çay sodası, maya, yaxud xəmir qabartması, badam, şəkər tozu, hil və kərə yağından istifadə olunur. Yoğrulmuş xəmir kündələnir, yayılır, qat-qat yağlanır və kiçik dairələrə bölünür; hər dairənin arasına hil qatılmış iç (xırdalanmış badam və şəkər tozundan ibarət) qoyulur və kənarları bükülür. Fırında bişdikdən sonra üstünə şəkər tozu səpilir.



Badambura.

**BADAMCIQLAR** – insanda və quruda yaşayan heyvanlarda limfa sistemi orqanları; ağız boşluğunun selikli qişasında və udlaqda yerləşir. Dil (dilin kökünə yaxın arxa səthində), burun-udlaq (udlağın tağında), boru (eşitmə borusu dəliyində) və damaq (damaq qövsləri arasında) B.-ı ayırd edilir. B.-da limfositlərin əmələ gəlməsi və oradan qismən limfa cərəyanına daxil olması baş verir. B. orqanizmin xəstəliktörədən mikroorqanizmlərdən qorunmasında və immunitet yaradılmasında mühüm rol oynayır. B.-ın iltihabı haqqında bax *Angina* və *Tonzillit*.

**BADAMÇI** Hacı Məmmədəli, Heydərzadə (?–?) – İran inqilabının (1905–11) və Cənubi Azərb.-da milli azadlıq hərəkatının (1917–20) fəal iştirakçısı. Azərb. Demokrat Partiyası MK-nın üzvü olmuşdur. 1920 ildə Təbrizdə milli demokratik hökumətin yaradılmasında fəal rol oynamışdır. B. 1924 ildə Berlində "İranşəhr" nəşriyyatında *Xiyabaninin* tərcümeyi-halını çap etdirmişdir.

**BADAMDAĞ** – Azərb. Resp. Daşkəsən r-nu ərazisində dağ. Hünd. 1311 *m*. R-n mərkəzindən şm.-ş.-də, Qoşqarçayın sağ sahilindədir.

**BADAMDAR,** Patamdar – Bakı ş.-nin Qaradağ r-nu ərazisində, Bakı platosunda zirvə. Hünd. 236 *m*. Badamdar qəs.-nin yaxınlığındadır.

**BADAMDAR** – Bakı ş.-nin Səbail r-nunda qəsəbə. Badamdar ə.d.-nin mərkəzi. R-n mərkəzindən 7,2 *km* c.-q.-də, "Bakı mərtəbəsi" d.-nda, dəniz səviyyəsindən 170 *m* hünd.-dədir. Əh. 22,5 min (2008). B.-da r-n icra hakimiyyətinin Badamdar qəs. üzrə nümayəndəliyi və B. bələdiyyəsi yerləşir. 2 tam orta məktəb, 2 uşaq bağçası, kitabxana, mədəniyyət evi, poliklinika, "Nur" klinikası, "Naftalan" sağlamlıq mərkəzi var.

**BADAMISTAN** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Sirdan bölgəsinin Yuxarı Tarım kəndistanında, Sirdan qəs.-ndən 53 *km* q.-dədir.

**BADAMLI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qarağac bölgəsinin Quruçay kəndistanında, Qarağac qəs.-ndən 51 *km* c.-q.-dədir.

**BADAMLI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Acırlı kəndistanında, Marağa ş.-ndən 77 *km* c.-ş.-dədir.

**BADAMLI** – Azərb. Resp. Şahbuz r-nunda (Nax. MR) kənd. Eyniadlı kənd ə.d.-nin mərkəzi. R-n mərkəzindən 14 *km* şm.-q.-dədir. Əh. 1253 (2011); əkinçilik, bitkiçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana, ambulatoriya, baytarlıq məntəqəsi, poçt, ATS var. Ərazisindəki qəbiristanlıqda orta əsrlərə aid qəbirüstü qoç daş heykəllər olmuşdur.

**BADAMLI** – Azərb. Resp. Şahbuz r-nunda (Nax. MR) qəsəbə. Eyniadlı qəs. ə.d.-nin mərkəzi. R-n mərkəzindən 12 *km* şm.-q.-də, Şahbuz–Badamlı avtomobil yolunun kənarındadır. Əh. 676 (2011); heyvandarlıq, əkinçilik, bitkiçilik və əsasən, Badamlı mineral su istehsalı ilə məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana, feldşer-mama məntəqəsi, poçt, Badamlı mineral sudoldurma z-du var.

**BADAMLI MİNERAL SU YATAĞI** – Azərb. Resp. Şahbuz r-nu ərazisində (Nax. MR), Badamlı k.-ndən 3 *km* c.-q.-də, dəniz səviyyəsindən 1274 *m* hünd.-dədir. Bir neçə bulaqdan ibarət qrup təşkil edir.

5 №-li bulağın balneoloji tərkibi:

$$CO_2 0,4\,M0,9-1,2\frac{HCO_3 65\,SO_4 21Cl13}{(Na+K)41Ca35\,Mg24}$$

pH6,4 D650 *m³/gün* T 17°C

4 (1) №-li bulağın balneoloji tərkibi:

$$CO_2 1,2\,M4,7\frac{HCO_{37}71Cl24\,SO_4 5}{(Na+K)54\,Ca\,34\,Mg12}$$

pH6,5 D172 *m³/gün* T 22°C

Suyunun minerallaşma dərəcəsi 0,9–6,1 *q/l*, temp-ru 17–22°C, kimyəvi tərkibi karbon qazlı, hidrokarbonatlı-xlorlu-natriumlu-kalsiumludur. Yatağın istismar ehtiyatı 1070 *m³/gün* hesablanmışdır (1972). Yatağın 5 №-li quyusunun suyu RF-nin "Arşan" bulağının suyuna yaxındır, "Narzan" (Kislovodsk) tiplidir. 4 №-li quyusunun suyu isə RF-nin "Lastoçkin" bulağının suyuna yaxındır, "Saqveri" (Gürc.) tiplidir. "Badamlı" suyunu mədə-bağırsaq, sidik yolları və qara ciyərin bəzi xəstəlikləri zamanı içmək faydalıdır. Qazıma quyularının bəzilərində suyun minerallaşma dərəcəsi nisbətən az olduğundan süfrə suyu sayılır.

**BADAMLI NEKROPOLU** – Azərb. Resp. Şahbuz r-nunun (Nax. MR) Badamlı k.-ndə orta əsrlərə aid arxeoloji abidə. Sahəsi 0,25 *ha*; müsəlman qəbiristanlığından ibarətdir. Başdaşı və sinədaşıların əksəriyyəti dağıdılmışdır. Başdaşıların üzərində ərəb əlifbası ilə yazılmış kitabələr, qırmızımtıl tuf daşından hazırlanmış qoç fiquru vardır. Qəbiristanlığın mərkəzi hissəsində dairəvi formalı türbənin bünövrəsinə aid qalıqlar saxlanmışdır. Başdaşıların birinin üzərində mərhumun ölüm tarixi yazılmışdır. B.n. 15–19 əsrlərə aid edilir.

**BADAMYAR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Dəhxarqan bölgəsinin Qavqan kəndistanında, Dəhxarqan qəs.-ndən 12 *km* c.-ş.-dədir.

**BADAN** (Bergenia) – daşdələnkimilər fəsiləsindən həmişəyaşıl çoxillik bitki cinsi. Hünd. 50 *sm*-ədək, kökümsovu sürünən, çox vaxt yerüstü olur. Kökyanı rozetdəki yarpaqları dəyirmi, dəriyəoxşar və iridir (diametri 40 *sm*-ədək). Qalxanvari-süpürgəvari dikduran qoltuq çiçək qrupunda toplanmış zəngvarı çiçəkləri açıq çəhrayı-bənövşəyi və ya ağdır. Meyvəsi çoxlu xırda toxumlardan ibarət qutucuqdur. Əsasən, Asiyanın mülayim qurşağındakı dağ meşələrində və daşlı yamaclarında 10-dan çox növü yayılmışdır. Altay, Sayan və Baykal gölü r-nundakı ağ şam-küknar dağ tayqasında bitən qalınyarpaq B. (B. crassifolia) daha çox məlumdur. Qədimdən dekorativ, dərman (büzücü təsirli), aşı, boyaq, qida (tərkibində çoxlu tannin maddəsi olan yarpaqları çay əvəzedicisidir və monqol çayı adlanır) bitkisi kimi becərilir.







Badan (Bergenia).



Baday-Tuqay qoruğu. Buxara maralları.

**BADARA,** Bədərə – Azərb. Resp. ərazisində, Xankəndi ş.-nin şm.-q.-ində dağ. Hünd. 1563 *m*. Badara çayının sol sahilindədir.

**BADARA,** Bədərə – Azərb. Resp. Xocalı r-nu ərazisində çay. Qarqar çayının sol qolu. Qarabağ silsiləsindən başlanır. Uz. 32 *km*, hövzəsinin sah. 263 *km²*.

**BADARA** – Azərb. Resp. Xocalı r-nunun Daşbulaq ə.d.-ndə kənd. R-n mərkəzindən 15 *km* q.-də, Badara çayının sol sahilində, dağlıq ərazidədir. Əh. 650 (2008); işğaldan (1992, fevral) əvvəl maldarlıq və taxılçılıqla məşğul olmuşdur. Orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi var idi.

**BADARİ MƏDƏNİYYƏTİ** – Yuxarı Misirdə Neolit dövrünə (e.ə. 4400–4000) aid arxeoloji mədəniyyət. Asyut və Hiyerakonpol arasındakı ərazidə yayılmışdır. Adını yaxınlığında yerləşən əl-Badari k.-ndən almışdır. İngilis arxeoloqları Q. Branton və G. Keyton-Tompson tərəfindən Qədim Misirin sülaləyəqədərki dövrünün başlanğıc mərhələsi kimi müəyyənləşdirilmişdir. *Amra mədəniyyətindən* (I Naqada) əvvəlki dövrdə mövcud olmuşdur. Yaşayış yerləri səhranın kənarında yerləşirdi. Ocaqları olan tikililər dairəvi planlıdır (diametri 1–2,3 *m*). Dəfn yerləri həsirlə döşənmiş ovalşəkilli çalalardan ibarət idi. Ölülər bükülü vəziyyətdə, sol böyrü üstündə, başı cənuba tərəf dəfn olunurdu. B. m. üçün yuxarı hissəsi qara olan şüyrələnmiş qəhvəyi və qırmızı qablar səciyyəvidir. Daş ox ucluqları, oraq dişləri, tək-tək mis muncuq dənələri, sancaqlar və s. aşkar olunmuşdur. Fil sümüyündən hazırlanmış qaşıqlar və digər məmulatlar, şifer paletkalar, gildən qadın fiqurları da tapılmışdır. Sosial təbəqələşmənin əlamətləri müşahidə olunur. B.m.-nin təsərrüfat sahələrini ovçuluq, balıqçılıq, primitiv əkinçilik və, ehtimal ki, maldarlıq təşkil edirdi.

Badari mədəniyyətinə aid saxsı qablar. Luvr muzeyi.



**BADAŞQAN** (2003 ilədək Bədəşxan) – Azərb. Resp. Babək r-nunun (Nax. MR) Yarımca ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* şm.-da, Naxçıvançayın sol sahilində, Naxçıvan düzündədir. Əh. 397 (2011); taxılçılıq, heyvandarlıq və tərəvəzçiliklə məşğuldur. Kitabxana, feldşer-mama məntəqəsi var.

**BADAY-TUQAY QORUĞU** – Özbəkistan ərazisində, Amudərya çayının subasarında, Sultanuizdağ silsiləsinin ətəklərindədir. Sah. təqr. 6 min *ha*. 1971 ildə Amudərya çayının subasarındakı ovalıq ada və yarımadaların təbii komplekslərini, tuqay meşələrini (qoruq ərazisinin təqr. 3/4-ü) və onlara bitişik səhraları öyrənmək və mühafizə etmək məqsədilə yaradılmışdır. Keçilməz tuqay meşələri qovaq, söyüd, iydə, yulğun və s. növlərindən ibarətdir. Tipik faunası: yastıdişli siçovul, qaban, dovşan, çaqqal, qamışlıq pişiyi, tülkü; ondatra və Buxara maralı yenidən iqlimə uyğunlaşdırılmışdır.

**BADDELEİT** [ilk dəfə mineralın nümunələrini Seylondan gətirmiş C. Bedli (J. Baddeley) soyadının transliterasiyası] – oksidlər sinfindən mineral, $ZrO_2$.

Baddeleit.



Qatışıqları Hf, TR, Th və s. Monoklin sinqoniyada kristallaşır. Qısa, yaxud uzun prizmatik, lövhəvarı kristallar əmələ gətirir. Bəzən zirkon və b. minerallarla birlikdə radial lifli aqreqatlarına rast gəlinir. Rəngi sarı, yaşıl, qonur, dəmiri-qaradır. Yağlı, şüşə və almaz parıltılıdır. Sərtliyi 6,5, sıxlığı 5400–6020 $kq/m^3$-dir. Kövrəkdir. Bir çox maqmatik süxurlarda (karbonatitlərdə, siyenitlərdə, kimberlitlərdə, qabbroidlərdə və s.), həmçinin Ay süxurları və meteoritlərdə rast gəlinir. B.-dən abraziv və odadavamlı materiallar istehsalında istifadə olunur.

**BADELƏR**, b e d e l ə r – Nigeriyada (Borno və Bauçi ştatları) xalq. Qonqola çayının orta axarında, Nafada ş.-nin ətrafında və Nquru ş.-ndən c.-ş.-də yaşayırlar. Sayları 651 mindir (1995). Bolevalar, karekarelər, tanqalelər, ngizimlər B.-ə qohum xalqlardır. Böyük zənci irqinə daxil olan zənci irqindəndirlər. Dilləri *Afrasiya dilləri* ailəsinin Çad qrupuna aiddir; hausa dili geniş yayılmışdır. Əksəriyyəti müsəlmandır; ənənəvi dini etiqadlarını (təbiət qüvvələrinə və əcdadların ruhuna inanc) saxlayanlar da var.

Əsas məşğuliyyətləri əkinçilik (kalış, darı, qarğıdalı, maniok, yams, batat, pambıq, yerfındığı), maldarlıq (qaramal), dəmirçilik, toxuculuq, gön-dəri sənətkarlığı və balıqçılıqdır. Kompakt kəndlərdə yaşayırlar; gildən tikilən evləri yastı damlı olur. Yeməklər, əsasən, bitkilərdən və süddən hazırlanır. B. müstəmləkəyəqədərki dövrdə erkən siyasi qurumlarını – Bedde əmirliyini yaratmışlar. Sosial təşkilolunmanın əsasını iri ailələr və qohumluq əlaqələri ata xətti ilə olan tayfalar təşkil edir. Hazırda B. intensiv surətdə hausalarla qaynayıb-qarışırlar.

**BADEN** – Almaniyanın c.-q.-ində tarixi vil. Qədim zamanlarda B. ərazisində keltlər məskunlaşmışdı. Eramızın 85 ilində Romanın Desyatin tarlaları adlanan sərhədyanı dairəsinə daxil edilmişdi. 260 ildən sonra *alemanların* əlinə keçmişdir. 496 ildən *Frank dövlətinin*, 843 ildən *Şərqi Frank krallığının*, 917 ildən isə *Şvabiya* hersoqluğunun tərkibində olmuşdur. 1112 ildə Baden-Baden burqu Şvabiyanın Tserinq zadəgan nəslindən olan hersoq II Germanın mülkiyyətinə keçmişdir; və bundan sonra II German özünü "Baden markqrafı" adlandırmışdır. 13 əsrdə Pfortshaym, Durlax və Ettlingen şəhərləri B.-in tərkibinə qatılmışdır. 1535 ildə vil.-in ərazisində Baden-Baden (1571 ildən katolik; mərkəzi Baden-Baden, 1705 ildən isə Raştatt olmuşdur) və Baden-Durlax (1566 ildən protestant; mərkəzi Durlax, 1715 ildən isə Karlsrue olmuşdur) markqraflıqları yaranmışdır. 1771 ildə Baden-Durlax markqrafı Karl Fridrix (1738–1811) B.-i birləşdirmişdir. 1796 ildən Fransanın müttəfiqi olan B. 1806–13 illərdə *Reyn ittifaqına* daxil idi. I Napoleon Bonapartın himayədarlığı sayəsində 1803–10 illərdə vilayətin ərazisi xeyli genişlənmişdi. B. 1803 ildən kurfürstlük, 1806 ildən isə böyük hersoqluq (paytaxtı Karlsrue) olmuşdur. 1810 ildə B.-də *Napoleon kodeksinə* əsaslanan mülki kodeks, 1818 ildə isə konstitusiya qəbul olunmuş, iki- palatalı parlament yaradılmışdı; onun aşağı palatası Almaniyanın liberal və milli qüvvələrinin tribunasına çevrilmişdi. B. 1815 ildə Alman İttifaqına, 1836 ildə Alman Gömrük İttifaqına daxil ol- muşdur. *Almaniyada 1848–49 illər inqilabı* dövründə B.-də 3 silahlı üsyan baş vermişdir. *Avstriya-Prussiya müharibəsində (1866)* Avstriya tərəfində iştirak etmişdir. 1870–71 illərdə B.-in böyük hersoqu I Fridrix Almaniya imperiyasının yaradılmasında mühüm rol oynamışdır. 1871 ildə B. imperiyanın tərkibinə daxil olmuşdur. *"Kulturkampf"* B.-də katolik dairələrinin qələbəsi və *Mərkəz partiyasının* aparıcı siyasi qüvvəyə çevrilməsi ilə nəticələndi. *Noyabr inqilabı (1918)* zamanı B.-ın böyük hersoqu II Fridrix hakimiyyətdən imtina etdi, B. respublika və azad dövlət elan olundu. 1919 ildən B. Almaniya imperiyasının tərkibinə daxil idi. 1945 ildə ABŞ-ın Almaniyadakı işğal zonasına qatılan Şimali B. Şimali *Vürtemberqlə* (Vürtemberq-Baden ərazisi; mərkəzi Ştutqart) birləşdirildi. Cənubi B. Fransanın işğal zonasına (Baden ərazisi, mərkəzi Frayburq) qatıldı. 1949 ildə hər iki ərazi Almaniya Federativ Respublikasının tərkibinə daxil oldu. 1951–52 illərdə referendum nəticəsində Baden, Vürtemberq-Baden və Vürtemberq-Hohentsollern birləşdirildi və mərkəzi Ştutqart olan Baden-Vürtemberq ərazisi yaradıldı.

**BÁDEN**, B a d e n - b a y - V i n (Baden bei Wien) – Avstriyada, Aşağı Avstriya federal ərazisində şəhər. Əh. 24,9 min (2005). Balneoloji kurort və turizm mərkəzidir. B. mineral suları hələ burada Akve kurortunun əsasını qoyan romalılara məlum idi. Əsas təbii müalicə amili sulfidli termal (36°C-yədək) sulardır. Ürək-damar, periferik əsəb sistemi və oynaq xəstəlikləri müalicə olunur. "Roma termləri" ("Römerthermen", 1999) kurort kompleksinə idman hovuzu, həmçinin dərman bitkiləri və mineral su ilə müalicə hovuzları daxildir. Revmatologiya və balneologiya ETİ; cıdır meydanı var. Şəhər teatrı (Avstriyanın aparıcı operetta teatrlarından biri) 1906 ildən operetta festivalı ("Zommerarena" yay teatrının binasında) keçirir.

**BÁDEN** – İsveçrədə şəhər, balneoloji kurort. Əh 16,7 min (2005). Limmat çayı (Reyn hövzəsi) dərəsində təqr. 400 *m* yüksəklikdə, Sürix ş.-indən şm.-q.-dədir. Əsas təbii müalicə amili radonlu-sulfidli, xloridli-natriumlu termal (48°C-yədək) mineral sulardır; oynaq, ürək-damar, periferik əsəb sistemi, ginekoloji xəstəliklər müalicə olunur. Revmatoloji klinika, vanna binaları, mineral su hovuzları, içməli su qalereyası var. B. mineral bulaqlarından hələ qədim romalılar istifadə etmişlər (Akve-Helvetise məskəninin qalıqları indiyədək qalmışdır). Kurort kimi 13 əsrin ortalarından inkişaf edir.

**BÁDEN MƏDƏNİYYƏTİ** – Mərkəzi Avropada Erkən Tunc, yaxud Eneolit dövrünə (e.ə. 3300–2750) aid arxeoloji mədəniyyət. Cənubi Avstriya və Sloveniyadan Cənubi Polşa, Qərbi Karpat və Bolqarıstanadək ərazidə yayılmışdır. 20 əsrin ortalarından (abidələr 19 əsrin sonlarından məlumdur) tədqiq olunmuşdur. Macarıstanda Peçel mədəniyyəti, Çexiya və Slovakiyada kannelür keramikası mədəniyyəti, Polşada radial keramika mədəniyyəti adlanmışdır. B.m. Boleraz, Baden, Kostolats mərhələlərinə bölünür. Möhkəmləndirilmiş məskənlər və kəndlər düzbucaqlı sütunlu (şalbanbaşı apsidalar səciyyəvidir) tikililərdən ibarətdir. Meyitlər torpaq qəbirlərdə bükülü vəziyyətdə, yaxud yandırılaraq urnalarda (o cümlədən antropomorf) dəfn edilirdi. Çox vaxt kannelür, nöqtəvi basma, "balıq skeleti", üçbucaq, çəpəki tor və s. şəklində cızılmış naxışlarla bəzədilmiş hündür qulplu parçlar, kasalar (o cümlədən daxili arakəsmələrlə), fincanlar, dolçalar və digər əşyalar tapılmışdır. Daşdan düzəldilmiş döyüş baltaları, toxalar, üçbucaqlı ox ucluqları, nadir hallarda mis məmulatlar; başı gövdəsinə ştiftlə bərkidilmiş keramik yastı qadın heykəlcikləri, kiçik zoomorf fiqurlar, Avropanın ən qədim təkərli araba modelləri aşkar olunmuşdur. Təsərrüfat sahələri maldarlıq, əkinçilik, ovçuluq olmuşdur.



Baden mədəniyyətinə aid günəş motivli saxsı qablar. Təkərli araba modeli.

**BÁDEN MƏKTƏBİ** – bax *Yenikantçılıq*.

**BÁDEN-BÁDEN** – AFR-də, Baden-Vürtemberq federal ərazisində şəhər. Əh. təqr. 50 min (2005). Şvarsvald d-rının ətəklərində, 700 *m* hünd.-də balneoloji və iqlim kurortudur. Əsas təbii müalicə amili natrium xloridli, radonlu termal (68°C-yədək) bulaqlardır; oynaq, həzm sistemi orqanları, ürək-damar, periferik əsəb sistemi xəstəlikləri müalicə olunur. İqlimi yumşaq (ortaillik temp-r 9,7°C), mülayim rütubətlidir (ortaillik nisbi rütubət 79%). Sanatoriyalar, müalicə otelləri, mineral su hovuzları, içməli su qalereyaları var. Üzüm müalicəsi (avqust oktyabr) tətbiq edilir. Hələ 3 əsrdə burada Sivitas-Aureliya-Akvenzis kurortunun əsasını qoymuş romalılar B.-B.-in bulaqlarından müalicə məqsədləri ilə istifadə etmişlər. B.-B.-də beynəlxalq şahmat turnirləri (1870, 1925, 1981) keçirilir.

**BÁDENVAYLER** (Badenweiler) – AFR-də balneoloji iqlim kurortu. Şvarsvald d.-rında, 460 *m* hünd.-də, Frayburq ş.-ndən c.-q.-dədir. Qışı mülayim (orta temp-r 2°C-yədək), yayı istidir (orta temp-r 18°C). İllik yağıntı 900 *mm*-dir. İqlimlə yanaşı natrium-xloridli mineral sular da müalicə əhəmiyyətlidir. Əsasən, tənəffüs yolları, oynaq və damar xəstəlikləri müalicə olunur. B. mineral bulaqlarından hələ qədim romalılar istifadə etmişlər (termlərin qalıqları saxlanılmışdır).

**BÁDEN-VÜRTEMBERQ** (Baden-Württemberg) – AFR-in c.-q.-ində federal ərazi. Sah. 35,8 min $km^2$. Əh. 10,7 mln. (2006). İnz. m. – Ştutqart ş. Yuxarı Reyn ovalığının sağ sahilini, Şvarsvald d-rını, Odenvald d-rının bir hissəsini, Şvabiya Alb silsiləsini əhatə edir. Əsas çayları Reyn və Nekkar, əsas gölü Bodendir. Dağlıq hissəsində fıstıq və şam meşələri var.

B.-V. mühüm sənaye r-nudur. Ərazisində daşduz, kalium duzu, dəmir filizi, uran filizi, polimetal filizlər, neft, qaz çıxarılır. Metal emalı, avtomobilqayırma, elektronika, dəzgahqayırma, vaqonqayırma, aviaraket, kimya, ağac emalı, həmçinin toxuculuq, alüminium, poliqrafiya sənayesi müəssisələri, AES var. Mühüm sənaye mərkəzləri – Ştutqart, Manheym və s. K.t. çoxsahəlidir: buğda, çovdar, arpa, kartof, şəkər çuğunduru, mayaotu, tütün, yem otları və s. əkilir. Südlük heyvandarlıq inkişaf etmişdir. B.-V. transavropa nəql. yolları və boru kəmərlərinin mühüm qovşaqlarından biridir. Reyn, Nekkar çayları və Boden gölündə gəmilər işləyir. Məşhur balneoloji kurortları var (Baden-Baden, Badenvayler və s.).

**BÁDER** Otto Nikolayeviç (29.6.1903, Poltava qub.-nın Aleksandrovskoye k.– 2.4.1979, Moskva) – Rusiya arxeoloqu. Antropologiya İn-tutu və Muzeyində (1926–42), Arxeologiya İn-tunda (1933–41, 1955–79) işləmişdir. Moskva Volqa kanalı, Azov-Qara dəniz, Kama, Votkinsk, Aşağı Kama arxeoloji ekspedisiyalarının rəhbəri, 1947 ildən Ural arxeoloji müşavirələrinin təşkilatçısı olmuşdur. B.-in əsərləri Şərqi Avropada Daş və Tunc dövrlərinin tədqiqinin əsasını qoymuşdur. Dünya əhəmiyyətli Paleolit dövrü abidələrini (*Kap mağarası, Sungir*) aşkar etmiş. Neolit və Erkən Metal dövrlərinə aid bir sıra mədəniyyətləri (*Balaxna mədəniyyəti, Volosovo mədəniyyəti, Seyma-Turbino mədəniyəti, Balanovo nekropolu*) və onların əsas xarakteristikalarını müəyyənləşdirmişdir.

**BADƏKİ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Qaraziyəddin bölgəsinin Çaypara kəndistanında, Qaraziyəddin qəs.-ndən 2,5 *km* q.-dədir.

**BADGİS** – Əfqanıstanın şm.-q.-ində əyalət. Sah. 20,6 min $km^2$, Əh. 792,1 min (2005). İnz. m. Kəlayi-Nou ş.-dir.

**BADXIZ** – Türkmənistanın c.-ş.-ində yüksəklik. Paropamiz d-rının ətəklərində, Təcən və Mürğab çayları arasındadır. Hünd. 682 *m*-ədək (Karabet d.). Lösvarı qumdaşılardan ibarətdir. Seyrək səhra və yarımsəhra bitkiləri, püstə kolluqları üstünlük təşkil edir. Aşağı hissəsində takır və şoranlıqlar var. Yamaclarında *Badxız qoruğu* yerləşir.

**BADXIZ QORUĞU** – Türkmənistanda, Təcən və Mürğab çayları arasında qoruq. Qoruq ərazisinin çox hissəsi Badxız yüksəkliyinin yamacındakı təpəli platoda yerləşir. C.-dan Eroylanduz çökəkliyi (uz. təqr. 20 *km*) ilə sərhədlənir. Çökəkliyin relyefində qalıq təpələr, şoranlıqlar, şor göllər və s. var. Sah. 88 min *ha*. 1941 ildə Qaraqum səhrasının təbii komplekslərini qorumaq və öyrənmək, eləcə də qulanların sayını bərpa etmək məqsədilə yaradılmışdır. Püstə ağacları ilə birlikdə

Baden-Baden kurort şəhərindən görünüş.





Badxız qoruğu.

özünəməxsus landşaft yaradan subtropik yarımsavannalar səciyyəvidir. Efemerlər və efemeroidlər yayılmışdır. Faunasında qulan, ceyran, tülkü, çöl pişiyi, zolaqlı kaftar, ağbaş kərkəs, ilanyeyən, gürzə, kobra, kərtənkələ və s. var. Qoruqda indiyədək elmə məlum olmayan gekkon növünə rast gəlinir.

**BADI**, b a l l ı b a d ı – Azərb. şirniyyatı növü. Yağ, yumurta sarısı və zəfəranla mayalı xəmir yoğrulur. Xəmir gəldikdən sonra kündələnib yayılır, paxlava şəklində doğranır və üzərinə naxış vurulur. Tavada, dağ yağda qızardılır. Qızardılmış B. aşsüzənə yığılır, yağı süzüldükdən sonra balın, yaxud qəndabın içərisinə salınır. Balın artığını süzmək üçün yenidən aşsüzənə yığılır. Hazır B.-nın üzərinə qənd kirşanı və darçın səpilir.

**BADIMCAN** (Solanum melongena) – badımcançiçəklilər fəsiləsindən çoxillik ot bitkisi. Tərəvəz bitkisidir. Vətəni Şərqi Hindistandır. Yarpaqları iri, bənövşəyi çiçəkləri bir-birindən ayrı və ya salxım şəklində toplanmış olur. Kök sistemi, əsasən, torpağın üst qatında (30–40 *sm*) yerləşir. Meyvələri dəyirmi, armudvari və ya silindrik; rəngi qəhvəyi zolaqlı sarı, ağ, yaşıl və ya bənövşəyidir; çəkisi 0,4–1 *kq* olur. Tərkibindəki mineral duzlara görə qiymətlidir. İsti və rütubət sevən bitkidir. Tropik və subtropik qurşaqlarda geniş, mülayim iqlimli ölkələrdə az yayılmışdır. Vegetasiya dövrü 100–140 gün və daha artıqdır. Məhsuldarlığı (30 *t/ha* və daha çox) becərildiyi zonadan asılıdır. Konserv sənayesi (B. kürüsü və s.) üçün qiymətli tərəvəz xammalıdır. B.-dan müxtəlif Azərb. yeməkləri, turşular hazırlanır. Z ə r ə r v e r i c i l ə r i danadişilər, gənələr, sovkalar, Kolorado böcəyi və s. X ə s t ə l i k l ə r i: vilt, quru çürümə və s.

**BADKUBİ** Əli Molla Mustafa oğlu (?, Bakı – ?) – Azərb. filoloqu. 19 əsrin 1-ci yarısında İrana köçmüş, Qəzvində yaşamışdır. B. Azərb. filologiyasında ilk dəfə azərbaycanca-farsca və rusca-farsca "Təcrid ül-lüğat" ("Sözlərin ayrılması") adlı mənzum lüğət yazmışdır (1848). Lüğət B.-nin Azərb. dilinin qrammatika qaydalarına aid əsəri və topladığı atalar sözləri ilə birlikdə Tehranda çap edilmişdir (1896).

**BADQASTÁYN** (Badgastein) – Avstriyada balneoloji və dağ-iqlim kurortu. Şərqi Alp d-rında, təqr. 1000 *m* hünd.-də, Qastayner-Axe çayı dərəsində, Zalsburq ş.-ndən c.-dadır. Mülayim qışı və sərin yayı (iyulun orta temp-ru təqr. 14°C) ilə dağ iqlimi hakimdir. Əsas təbii müalicə amili dayaq-hərəkət orqanları, ürək-damar sistemi və böyrək xəstəliklərinin müalicəsində istifadə olunan 20-yədək mineral bulağın radonlu-azotlu termal (50°C-yədək) sularıdır. B. kurort kimi 14 əsrdən inkişaf edir. Turizm və qış idmanı mərkəzidir.

**BADLI** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Kağızkonan bölgəsinin eyniadlı kəndistanında, Ağkənd qəs.-ndən 18 *km* şm.-q.-dədir.

**BADMAHMUD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Təkab bölgəsinin Ətraf kəndistanında, Təkab qəs.-ndən 2,5 *km* şm.-q.-dədir.

Badqastayn şəhərindən görünüş.



Badımcan (Solanum melongena).







**BADMİNTON** (İngiltərənin Badminton ş.-nin adından), v o l a n (fr. volant – uçan) – idman oyunu; lələkli top (volan) və raketka ilə oynanılır. B. oyunu tor ilə (torun hünd. 1,5 *m*) iki hissəyə bölünmüş düzbucaqlı meydançada (qoşa oynayanlar üçün 13,4 × 6,1 *m*; tək-tək oynayanlar üçün 13,4 × 5,2 *m*) keçirilir; üzərinə dəri və ya onun əvəzləyicisi çəkilmiş, tacşəkilli lələkləri olan probka top (kütləsi 4,5–7,0 *q*) və tennis tipli raketka (kütləsi 135–190 *q*) ilə oynanılır. B. Qədim Malayyada yaranmış, sonralar Asiyanın bir çox ölkəsinə yayılmışdır. 1873 ildə Hindistandan qayıtmış hersoq Bofort özünün Badminton malikanəsində volan oyunu yarışları keçirmişdir. 1887 ildə B. həvəskarları klubu açılmış, 1893 ildə dünyada ilk B. təşkilatı – Ümumingiltərə Badminton Assosiasiyası yaradılmışdır. 1934 ildə Beynəlxalq Badminton Federasiyası (İBF) təsis edilmişdir; 147 ölkəni birləşdirir (2004). Ən böyük beynəlxalq yarışlar: kişilər arasında – İBF-nin ilk prezidenti, dəfələrlə B.Britaniyanın B. üzrə çempionu və şahmat üzrə beynəlxalq usta (1950) C. Tomasın (1881–1972) şərəfinə yığma komandaların Tomas kuboku uğrunda dünya çempionatı (1947 ildən); qadınlar arasında – qadın komandalarının Uber kuboku uğrunda dünya birinciliyi (1955 ildən). Şəxsi birincilik yarışları: kişilər və qadınlar arasında Avropa (1968 ildən) və dünya (1977 ildən) birinciliyi; Qran-pri Dünya seriyası (1983 ildən), mikst (qarışıq qoşa oyunlar) üzrə dünya çempionatı (1989 ildən) keçirilir. 1992 ildən Olimpiya Oyunlarının (Barselona) proqramına daxil edilmişdir. İlk Olimpiya turnirində ən yaxşı nəticəni İndoneziya idmançıları əldə etmişlər (2 qızıl, 2 gümüş, 1 bürünc medal). Sonrakı Olimpiya Oyunlarında Çin və Koreya idmançıları üstünlük qazanmışlar.

Azərb.-da B. 20 əsrin 60-cı illərindən inkişaf edir. 1962 ildə ilk Bakı çempionatı keçirilmiş, *Azərbaycan Badminton Federasiyası* yaradılmışdır. S. Əliyeva, Y. Əliyeva, R. Musayeva, Ş. Orucov, Q. Hadıyev, M. Orucov, A. Vəliyev, E. Şərafəddinova və b. SSRİ çempionatının qalibi və mükafatçıları olmuşlar. İslam Ölkələri Qadınlarının İdman Oyunlarında N. Mehdiyeva həm tək, həm də qoşa yarışlarda (S. Axundova ilə birlikdə) bürünc mükafata layiq görülmüşdür (1997).

**BADÓLYO** (Badoglio) Pyetro (28.9.1871, Qratsano-Monferrato, indiki Qratsano-Badolyo – 1.11.1956, orada) – İtaliya dövlət və hərbi xadimi, marşal (1926). İtaliya-Efiopiya (1895–96) və İtaliya-Türkiyə (1911–12) müharibələrinin iştirakçısı olmuşdur. Birinci dünya müharibəsi (1914–18) illərində baş qərargah zabiti, 1919–21 və 1925–40 illərdə İtaliya ordusunun baş qərargah rəisi, 1924 ildə Braziliyada səfir, 1928–33 illərdə Liviyanın gen.-qubernatoru, 1935–36 illərdə İtaliya-Efiopiya müharibəsi zamanı İtaliya ordusunun ali baş komandanı, 1936–37 illərdə Efiopiyanın vitse-kralı, 1937 ildən Milli Tədqiqatlar Şurasının prezidenti olmuşdur. İtaliya-Almaniya hərbi əməkdaşlığına tənqidi yanaşan B. bunun İtaliyanı fəlakətə aparacağını hesab edirdi. 1940 ilin dekabrında İtaliyanın yunan cəbhəsində ilk məğlubiyyətlərindən sonra istefaya çıxmışdır. 1942 ildən müxalif dairələrlə sıx əlaqə saxlamışdır. 1943 il iyulun 25-də B. *Mussolini* hökumətinin süqutu ilə nəticələnən dövlət çevrilişindən sonra B. kralın fərmanı ilə baş nazir təyin olunmuşdur. 1943 il sentyabrın 3-də B. hökuməti antihitler koalisiyası ölkələri ilə barışıq sazişi bağlayaraq oktyabrın 13-də Almaniyaya müharibə elan etmişdir. Faşistlərlə əlbir olmaqda ittiham edilən B. 1944 il iyunun 9-da istefaya çıxmış və bundan sonra siyasi fəaliyyətdən uzaqlaşmışdır. 1947 ildə B.-ya bəraət verilmişdir.

**BADÚRA-SKÓDA**, Badura-Şkoda Paul (d. 6.10.1927, Vyana) – Avstriya pianoçusu. Vyana konservatoriyasının fp. və dirijorluq siniflərini bitirmişdir (1948). B. Bartok ad. (Budapeşt, 1948, 2-ci mükafat) və M. Lonq – J. Tibo ad. (Paris, 1949) beynəlxalq müsabiqələr laureatıdır. Dünyanın bir çox ölkəsində qastrol səfərlərində olmuşdur. Geniş repertuarı, əsasən, Vyana klassiklərinin və F. Şubertin musiqisindən ibarətdir (ifaçılıq tarixinin bilicisi olan B.-S. bu musiqini autentik alətlərdə ilk ifa edənlərdəndir). V.A. Motsartın, L. van Bethovenin və F. Şubertin bütün sonataları onun ifasında audioyazıya alınmışdır. Motsartın konsertlərinə kadensiyaların, not redaksiyalarının, çoxsaylı məqalələrin müəllifidir.

**BADUYEV** Səid Süleymanoviç (1904, Qroznı – 20.12.1943) – çeçen yazıçısı. 1927 ildən çap olunmağa başlamışdır. Çeçen ədəbiyyatının banisi, ilk çeçen hekayələrinin, povestlərinin və romanının yaradıcısıdır. "Adətlər" (1930) hekayələr toplusunda, "Aclıq", "Odlu dağ", "Beşto" (hamısı 1930) povestlərində, "Mollaya həmişə bayram olmur" (1930) pyesində [illegible] dünyagörüşündəki dönüş təcəssüm etdirilmişdir. "Petimat" (1930) romanında inquş xalqının taleyi təsvir olunur. B. mühüm sosial-psixoloji münaqişələri kiçik bir epizodda ustalıqla təsvir etməyi bacarmışdır. 1938 ildə repressiyaya məruz qalmış, ölümündən sonra bəraət almışdır.

Ə s ə r i: Огненная гора: Поэзия, проза, драматургия. Грозный, 1984.

**BADUYLAR** (özlərini u r a n q b a d u y adlandırırlar) – *sundların* etnik qrupu. Sayları 7,2 min nəfərdir (2004). Yava a.-nın c.-q.-indəki dağlarda, Çiucunq çayının yuxarı axarlarında (Banten əyaləti) yaşayırlar. Baduy dilində (yaxud *sund dilinin* dialektində) danışırlar. Ənənəvi inanclarını qoruyub saxlamışlar. Dini qaydalar (pikukux) çərçivəsində qapalı həyat tərzi keçirir, bir çox dini qadağalara (məs., suvarma çəltikçiliyə qoyulan yasağa) əməl edirlər. Qırılıb yandırılmış ərazilərdə əkinçiliklə (quru dərələrdə çəltikçilik) məşğul olurlar. Daxili B.-a (tanqtu B.) və xarici B.-a (panampan B.) bölünürlər. Tanqtu B. məskunlaşdıqları ənənəvi ərazilərini heç vaxt tərk etmirlər. Kəndləri dini və dünyəvi başçı (puun) idarə edir. Ənənəvi animizm inancları (sundivivitan) hinduizm və buddizmin təsirinə məruz qalmışdır. Baş allah – Batara Tunqqaldır. Əsas məbədləri Arça (Sasaka) Domasdır (hərfi mənada Səkkiz yüz heykəl): üstündə təqr. 300 mengir olan təbii və süni terraslı dağ.

**BADYA** – içinə süd sağmaq, yaxud maye tökmək üçün misdən, saxsıdan və s.-dən düzəldilən altı gen böyük qab.

**BADYA**, q a z ı m a d a – şaquli mədən quyularının qazılmasında süxurların qaldırılması, materialların, avadanlıqların endirilib-qaldırılması, həmçinin şaxta lülələrində qəza zamanı istifadə edilən çəllək; tutumu təqr. 0,5 $m^3$-dən 2 $m^3$-ə qədər, bəzi hallarda isə 5–6 $m^3$ və daha çox olur. Silindr formalı gövdədən (8–12 *mm* qalınlıqlı polad vərəq) və 50–60 *mm* diametrli qövsşəkilli dəstəkdən ibarətdir. B.-nın özüçevrilən (özüaşan) və çevrilməyən (aşırılmayan) növləri var. B. aşarkən (çevrilərkən) tökülən süxurlar novça vasitəsilə maşının kuzasına (banına) axır. Belə B.-nın tətbiqi qaldırma vaxtını azaltmağa və aşırma zamanı əl əməyindən istifadə etməməyə imkan verir. Çevrilməyən B.-nın aşırılması trosdan asılmış qarmaqlarla yerinə yetirilir. B.-nın şaxta lüləsində yellənməməsi üçün o, istiqamətlənmiş kanatlarla hərəkət etdirilən xüsusi çərçivədə yerləşdirilir.

**BADYA QALDIRICISI**, m ə d ə n i ş l ə r i n d ə – şaquli quyuların qazılması və

14854

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

dərinləşdirilməsi zamanı süxurların qaldırılması, insanların, materialların və alətlərin endirilib-qaldırılması üçün tətbiq edilən müvəqqəti qaldırıcı qurğu. 20 əsrin 60-cı illərindən B.q. üfüqi və maili qazımalarda da yükqaldırıcı kimi işlənir. B.q. qaldırıcı avadanlıq və mədən texnikası qurğusundan ibarətdir. Qaldırıcı avadanlığa qaldırıcı maşınlar, *badyalar*, yükləyici və boşaldıcı qurğular, istiqamətləndirici çərçivələr, qaldırıcı və istiqamətləndirici kanatlar; mədən texnikası qurğusuna qaldırıcı maşın binası, kopyor (istiqamətləndirici qasnaqları saxlayan qurğu), yükləyici və qəbuledici bunkerlər və s. daxildir. B.q. maşınları qeyri-taraz (müvazinətsiz) sistemlərə aiddir. B.q. şaxtanın istismarı üçün istifadə olunan daimi qaldırıcı maşınlarla (silindrik barabanlı, çoxkanatlı) və ya yalnız lülənin tikintisi zamanı müvəqqəti qurulan maşınlarla təchiz edilir. B.q.-nın məhsuldarlığı qaldırma sxemi, badyanın tutumu, lülənin dərinliyi və qaldırıcı qabların hərəkət sürətindən asılıdır. F.i.ə.-nın azlığı və kiçik sürətlərdə hərəkətin idarə olunmasının mürəkkəbliyi B.q.-nın mənfi, asinxron intiqal sisteminin sadəliyi və avadanlığın ilkin sərfiyyatının azlığı isə müsbət cəhətidir.

**BADYANKİMİLƏR**, illisikimilər (*İlliciaceae*) – ikiləpəli bitki fəsiləsi. Həmişəyaşıl kol, yaxud kiçik ağaclardır. Yarpaqları növbəli, sadə, uzunsov-oval, dərivarı, ətirlidir. Çiçəkləri, adətən, qoltuqda, tək-tək, yaxud hərəsində 2–3 ədəd olmaqla qruplarda yerləşir, ikiqat çiçəkyanlıqlıqır. Meyvələri dərivarı, yaxud oduncaqlaşmış (ağaclaşmış) və hərəsində bir toxum olan çoxyarpaqlıdır. B. maqnoliyakimilər fəsiləsinə yaxındır və bəzən onlarla birləşir. Fəsilənin yeganə cinsi badyan, yaxud illisiumdur (İllicium). Cənub-Şərqi Asiyanın tropik və subtropik ərazilərində, ABŞ-ın c.-ş.-ində, Şərqi Meksikada və Vest-Hinddə 40-dan artıq növü yayılmışdır. Azərb.-da 1 növü – ləkəli badyan var. Ən geniş yayılanı Cənubi Çinin dağ meşələrində bitən əsl badyan, yaxud ulduzvarı (Çin) ciradir (İ. verum); açıq-sarı, yaxud yaşılımtıl çiçəkli alçaqboylu ağacdır. Tərkibində anetol (iyinə görə cirə yağına oxşayan) olan efiryağlı ətirli meyvələrinə görə tropik ölkələrdə geniş becərilir; meyvələrindən ədviyyat kimi, yağından və anetoldan likör-araq sənayesində və kosmetika istehsalında ətirləyici maddə kimi istifadə edilir. Yaponiyada və Cənubi Koreyada bitən cirə, yaxud müqəddəs badyanın (İ. anisatum) meyvələri zəhərlidir, qabığının və toxumunun tüstüsü ətirli olduğuna görə Budda məbədlərində yandırılır. B.-ın bir çox növü xalq təbabətində dərman bitkisi kimi işlədilir.

Badyan (İllicium).



**BADYARİXA** – RF-də, Saxa (Yakutiya) Resp. ərazisində çay. İndigirka çayının sağ qolu. Uz. 545 *km*, hövzəsinin sah. 12,2 min *km*$^2$. Moma silsiləsinin şm.-ş. yamaclarından başlanır, Abıy ovalığı ilə axır; q.-dən Alazeya yaylasını haşiyələyir. Əsas qolları: Oqoroxa (Qoroxa), Orto-Tirextyax, Antı. Əsasən, yağış və qar suları ilə qidalanır. Aşağı axınında ortaillik su sərfi təqr. 60 *m*$^3$/*san*. Oktyabrdan mayın axırınadək donmuş olur. Hövzəsində ümumi sah. 461 *km*$^2$ olan təqr. 2200 kiçik göl var.

**BÁES** (Baez) Buenaventura (1810–84) – Dominikan Resp.-nın siyasi və hərbi xadimi, gen. Varlı və nüfuzlu mulat ailəsində anadan olmuş, təhsilini Avropada almışdır. 1843 ildə Haiti ağalığına qarşı azadlıq hərəkatına qoşulmaqla siyasi fəaliyyətə başlamışdır. 1849–53, 1856–58, 1865–66 (dövlətin şm. hissəsində), 1868–73, 1876–78 illərdə Dominikan Resp.-nın prezidenti, əslində "kaudilyo" – diktator səlahiyyətli hakim olmuşdur. Ölkənin xroniki ağır maliyyə-iqtisadi vəziyyətindən çıxış yolunu İspaniya hakimiyyətini yenidən qəbul etməkdə görən siyasi rəqibi gen. P. Santanadan fərqli olaraq, B. əksinə, ABŞ-la birləşmək planları qururdu.

**BÁFFİN** Uilyam (1584 – 23.1.1622, indiki İranın Hürmüz ş.) – ingilis qütb tədqiqatçısı. 1612–16 illərdə *Şimal-Qərb keçidinin* axtarışında Hall və R. Baylotun gəmisində şturman kimi iştirak etmişdir. 1615–16 illərdə Hudzon körfəzini və Qrenlandiyadan q.-dəki dənizi (onun şərəfinə adlandırılmış) tədqiq etmiş və keçidin yalnız Devis boğazından mümkünlüyü nəticəsinə gəlmişdir. Heys y-a-nı (Qrenlandiya), Kanada Arktika arxipelaqında Devon a.-nın və Elsmir a.-nın böyük hissələrini kəşf etmişdir. Şimal-Qərb keçidinin sonrakı axtarışı təqr. 200 ildən sonra yerinə yetirilmişdir. Kanada Arktika arxipelaqında ən böyük ada B.-in şərəfinə adlandırılmışdır.

**BÁFFİN DƏNİZİ** (Baffin Bay) – Şimal Buzlu okeanının yarımqapalı dənizi. Qrenlandiya ilə Kanada Arktika arxipelaqının ş. sahilləri arasındadır. Deyvis boğazı onu Atlantika okeanı ilə, Kanada Arktika arxipelaqı a-rı arasındakı boğazlar isə Şimal Buzlu okeanı ilə birləşdirir. Sah. 530 min *km*$^2$, həcmi 426 min *km*$^3$, maks. dərinliyi 2414 *m*-dir. Relyefi üçün boğazlar yaradan mürəkkəb qrabenlər sistemi səciyyəvidir. Terrigen dib çöküntüləri geniş yayılmışdır, mərkəzi hissəsində 1000 *m*-dən yuxarı dərinliklərdə alevrit-pelit lilləridir. B.d. üzərində havanın temp-ru ən soyuq fevral ayında 16°C-dən (c.-ş.-də) – 36°C-yədək (şm.-da və q.-də), ən isti iyul ayında 4–6°C olur. İl ərzində 200–300 *mm* yağıntı düşür. Səth suyunun temp-ru yayda 5°C-dən (c.-ş.-də) 0°C-yədək (şm.-q.-də), qışda – 1°C-dən aşağıdır. B. d. ilin çox hissəsi üzən buzlarla örtülü olur; aysberqlər çoxdur.

Duzluluq 30–34‰-dir. Qabarmalar 4 *m*-ədək olur, əsasən, yarımgünlükdür. Balıq (treska, siyənək və s.) ovlanır. U. *Baffinin* şərəfinə adlandırılmışdır.

**BÁFFİN TORPAĞI** (Baffin Island) – Kanada Arktika arxipelaqında ən böyük ada; Kanadaya məxsusdur. Sah. 476 min *km*$^2$. Qrenlandiya a.-nın q. sahilinə paralel uzanır və ondan Baffin dənizi və Deyvis boğazı vasitəsilə ayrılır. Ş. hissəsi dağlıqdır (hünd. 2134 *m*-ədək); sahilləri fyord tiplidir; yastı zirvəli dağ massivləri (Barns, Penni və s. günbəzlər) buzlaqlarla (sah. 83 min *km*$^2$) örtülmüşdür. Q. hissəsi bataqlıq və böyük göllərin (Nettillinq, Amacuak) üstünlük təşkil etdiyi təpəli düzənlikdir; sahilləri alçaq və az parçalanmışdır. Rütubətli Arktika iqlimi hakimdir. Bitki örtüyü tundra tiplidir. Heyvanları: lemminq, qütb dovşanı, tundra tülküsü. Auyuittuk Milli Parkı var. Əsas yaşayış məntəqəsi Frobişer-Bey ş.-dir. Əh.-nin əsas məşğuliyyəti ovçuluq və balıqçılıqdır. U. *Baffinin* şərəfinə adlandırılmışdır.







Baffin torpağı. Fyord. Şimali Panqnınturq.

**BAFTA** – güləbətin və ipək saplardan toxunmuş qaytan. Ağ, çəhrayı, qırmızı, gümüşü, qızılı və s. rənglərdə olur. Geyim çiyinlikləri (poqon) hazırlamaq, geyimlərə (xüsusən, hərbi geyimlərə) fərqləndirici əlamət vermək və bəzək vurmaq üçün istifadə edilir. B. ilə işlənmiş geyimlər Azərb.-da qədimdən geniş yayılmışdı; bəzi qadın geyimlərinə (arxalıqlara və s.) B. ilə bəzək vurulurdu.

**BAFTAÇILIQ** – sənət sahəsi; *bafta* toxumaq. B. dünyanın bir çox ölkəsində, o cümlədən Azərb.-da çox geniş yayılmışdır.

**BAFTAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Mərkəzi bölgəsinin Əbərqan kəndistanında, Sərab ş.-ndən 16 *km* q.-də, Sərab–Təbriz avtomobil yolunun üstündədir.

**BÁFTİNQ** (ing. buffeting; buffet – zərbə) – uçuş aparatının və ya onun hər hansı bir hissəsinin qeyri-stasionar aerodinamik qüvvələrin təsiri altında vibrasiyası; UA-nın qanadına, quyruq çıxıntılarına (söykənəcəklərinə) və az axarlı digər hissələrinə hava axınının təsirindən yaranır. Qanaddan qopan hava axınının quyruq söykənəcəyinin üzərinə düşərək əmələ gətirdiyi kəskin, qeyri-stabil rəqslər nəticəsində meydana çıxır. B. dinamik aeroelastiklik hallarından biridir. "B." anlayışı 1930-cu illərin əvvəllərində "Yunkers" firmasının sərnişin təyyarəsinin qəzası səbəblərini araşdırarkən meydana çıxmışdır. B. aviasiya və raket texnikasının ciddi problemlərindən biridir. İntensivliyinə görə yüngül, orta və ağır B. növlərinə ayrılır. Yüngül B. zamanı ekipaj kabinəsində və sərnişin salonundakı cüzi vibrasiyalar təyyarənin normal istismarına mane olmur. Orta B.-dəki hiss olunan vibrasiyalar təyyarənin idarə olunmasını çətinləşdirir, sərnişinlərin rahatlığını pozur, konstruksiya resursunu xeyli azaldır. Ağır B.-də təyyarənin konstruksiyasının və idarəetmə orqanlarının güclü vibrasiyası nəticəsində onu idarə etmək mümkün olmur və bu növ B. təyyarənin dağılmasına səbəb ola bilir. B.-in qarşısını almaq və ya intensivliyini zəiflətmək üçün UA-nın konstruksiyası gücləndirilir, yaxud dempferləmə xassəsi yüksəldilir, təyyarə elementlərinin axarlılığını dəyişdirməklə axının qopma sahəsi məhdudlaşdırılır, turbulizator tipli qurğular (konstruksiyanın məxsusi rəqs diapazonunda təzyiq döyünmələrini azaldan) tətbiq edilir və s.

Bafusam şəhərinin panoramı.



**BAFÚSAM** (Bafoussam) – Kamerunun q.-ində şəhər. Qərb əyalətinin inz. m. Əh. 290,8 min (2005). Adamava d-rının ətəklərində yerləşir. Avtomobil yolları qovşağı. Qəhvə emalı mərkəzi. Yeyinti sənayesi, o cümlədən pivə istehsalı müəssisələri var.

**BÁGER NASOSU** (holl. bagger – palçıq, lil) – kül, posa, qum, filiz və s. qarışığı olan suyu (pulpanı) bir yerdən başqa yerə vurmaq üçün birpilləli *mərkəzdənqaçma nasosu*. Pulpa yüksək abrazivlik xassəsinə malik bərk hissəciklərdən ibarət olduğu üçün nasosun gövdəsinin daxili səthi yeyilməyədavamlı materialla örtülür (zireh qatı çəkilir), işlək kürəklər isə bərk ərintilərdən hazırlanır. B.n.-nun yaratdığı təzyiq 0,4 *MPa*-dək olur, pulpa 800–1000 *m* məsafəyə ötürülür; fərqləndirici xüsusiyyəti işlək çarxın 3 kürəkdən ibarət olması və pərlərarası kanalın genişliyidir. B.n.-ndan İES-lərin kömür qazanxanalarında istifadə edilir.

**BAGGİ** – bax *İdman avtomobili*.

**BÁGİO** (Baguio) – Filippində şəhər. Əh. 273 min (2005). Luson a.-nda, Mərkəzi Kordilyer d-rında, 1450–1600 *m* hünd.-dədir. Filippin hökumətinin yay iqamətgahıdır. ABŞ-ın hakimiyyət orqanları (1898–1934 illərdə Filippin ABŞ-ın müstəmləkəsi olmuşdur) tərəfindən 1905 ildə Amerika vətəndaşlarının istirahət yeri kimi salınmışdır; amerikan arxitektoru D.H. Börnhemin layihəsi əsasında tikilmişdir. 1954 ildə B.-da SEATO-nun ya-



Bagio kurort şəhərindən görünüş.

ranması haqqında müqavilə imzalanmışdır. Turizm mərkəzi (ildə təqr. 1 mln. nəfər), dağ-iqlim kurortudur. Sahilyanı subekvatorial iqlimdən fərqli olaraq B.-nun iqlimi sərindir (iyunun orta temp-u təqr. 19°C). Şəhəri əhatə edən şam meşələri iqlim müalicəsi üçün əlverişlidir. Müq. Luis un-ti (1911 ildən), Bagio un-ti (1948 ildən), Filippin un-tinin filialı, Filippin Hərbi Akademiyası, botanika bağı var. B. qızıl sənayesi r-nunun mərkəzidir. Sənətkarlıq inkişaf etmişdir. 1978 ildə B.-da dünya şahmat birinciliyi uğrunda A.Y. *Karpovla* B.L. *Korçnoy* arasında görüş keçirilmişdir.

**BAGİRMİ** (Baguirmi) – 16 əsrdə indiki Çad ərazisində meydana gəlmiş erkən dövləti qurum. Tarixi ənənəyə görə, banisi ali hakim (mbanqa) Birni-Besse [1513–28] olmuşdur. B.-nin etnik özəyini *bagirmilər* təşkil edirdi. Bagirmilər paytaxtları Masenyadan c.-da və ş.-də məskunlaşan qonşu xalqları tabe etmişlər. B. əhalisinin əksəriyyəti artıq 16 əsrin sonunda islamı qəbul etmişdi. Dövləti, mbanqadan başqa, onun anası (magira), tayfa əyanları şurası, həmçinin azad olmayanlardan "xidmətçi insanlar"ın imtiyazlı təbəqəsi, o cümlədən ikinci hakim (patia) və saray xəzinədarı idarə edirdi. B.-nin ərazi-qonşuluq icmalarında birləşmiş əsas əhalisi toxa əkinçiliyi və maldarlıqla məşğul olur, həmçinin əyanların xeyrinə natural mükəlləfiyyətlər yerinə yetirirdilər. B. 17–19 əsrlərdə qonşu dövlətlərlə daim müharibələr aparmışdır. 1897 ildə B. Fransanın protektoratını qəbul etmiş, 1914 ildə Fransanın Çad müstəmləkəsinin (1960 ildən müstəqil Çad Resp.) tərkibinə qatılmışdır.

**BAGİRMİLƏR**, b a r m a g e l ə r, b a q r i m m a – Çadda (Ncamena ş.-ndən c.-ş.-də Şari, Ergiq və Lairi çayarasında) yaşayan xalq. Sayları 70 min nəfərdən çoxdur (2005). *Saralarla* qohumdurlar. Çadın, MAR-ın və Sudanın qohum xalqları ilə (kukalar, kenqalar, lakalar, bakalar və s.) birləşirlər. Ümumi sayları təqr. 1 mln. nəfərdir. Bagirmi dili (dialektləri: qol, kibar, banqri, dam və s.) *Mərkəzi Sudan dillərinin* bonqo-bagirmi qolunun bagirmi qrupuna aiddir. Ərəb dili də yayılmışdır. Dindarların əksəriyyəti müsəlmandır; ənənəvi etiqadlarını saxlayanlar (katolik və protestantlar) da var.

16 əsrdə B. *Bagirmi* erkən dövləti qurumunu yaratmışlar. *Kanurilərin* onlara güclü təsiri olmuşdur. Ənənəvi mədəniyyətləri Qərbi Afrikanın Sudan yarımvilayəti üçün səciyyəvidir. Toxa əkinçiliyi, heyvandarlıqla (qaramal və davar) məşğul olurlar, balıqçılıq və ovçuluq öz əhəmiyyətini saxlayır. Sənətkarlıq sahələri: toxuma, toxuculuq, xalçaçılıq, gön-dəri, ağac və metal emalı, dulusçuluq. Dəmirçilər, dabbaqlar və s. kastalar seçilir. Dairəvi planlı evlər daxildən həndəsi ornamentlərlə bəzədilmişdir. Gildən düzəldilmiş butulkavarı taxıl anbarı səciyyəvidir. Ənənəvi etiqadları: əcdadlara və təbiət qüvvələrinə sitayiş, magiya. Kahinləri var (torpağın və suyun "sahibləri").

**BAĞ**, b a ğ a t – meyvə, bəzək bitkiləri əkilmiş yerlər. Bəzən dağlıq ərazilərdəki yaşayış məntəqələrindən kənarda (çay dərələri və sututarlarda) salınmış meyvə ağacları və bostan, tərəvəz bitkiləri becərilən yerlər də B. adlanır.

**BAĞ**, a n a t o m i y a d a – skelet sümüklərini və onların hissələrini, yaxud ayrı-ayrı orqanları bir-biri ilə birləşdirən, quruluşca lifli və ya sıx birləşdirici toxumadan ibarət qaytanabənzər və ya lövhəyəbənzər törəmə. Ucları sümüyə və ya sümüküstlüyünə möhkəm bitişir. B. sümüklərin oynaq səthini müəyyən vəziyyətdə saxlayır, oynağın amplitudunu məhdudlaşdırır və ya hərəkətini istiqamətləndirir. Qarın boşluğunda peritondan əmələ gələn və orqanları bir-birinə bağlayan büküşlərə də B. deyilir.

**BAĞ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Qarapəşlu kəndistanında, Zəncan ş.-ndən 24 *km* şm.-q.-dədir.

**BAĞ KOTANI** – bağlarda meyvə ağacları arasındakı torpağı şumlamaq üçün k.t. aləti. Bax *Kotan*.

**BAĞ MƏLHƏMİ** – meyvə ağaclarında calaq yerlərinə, eləcə də budama, donvurma və s. nəticəsində əmələ gələn zədələnmiş yerlərə sürtmək üçün xüsusi tərkib. B. m. bir neçə üsulla hazırlanır: 3 hissə qaynadılmış günəbaxan yağına bir hissə oxra tozu qarışdırmaqla; 2 *kq* mis kuporosunu 24 *l* suda həll edərək, üzərinə 4 *kq* sönmüş əhəng əlavə etməklə; bir hissə günəbaxan yağına iki hissə kanifol və iki hissə təbii mum qarışdırıb zəif odda qaynayanadək bişirməklə. Məlhəm qatılaşdıqdan sonra oddan götürülür və soyuduqdan sonra işlədilir. Bitkilərin zədələnmiş hissələrini qurumaqdan, rütubətdən, zərərli mikroorqanizmlərdən və zərərvericilərdən qoruyur.

*Əd.:* Ə f ə n d i y e v M., Ə l i y e v M., A s l a n o v S. Meyvəçilik. B., 1964.

**BAĞACIQLAR** – yarımsərtqanadlılar (Hemiptera) dəstəsindən taxtabiti cinsi. Tısbağaya oxşadığına görə belə adlanır. Uz. 9–12 *mm*-dir. Dənli bitkilərə, xüsusilə yazlıq və payızlıq buğdaya böyük ziyan vurur. Arktika və Antarktidadan başqa hər yerdə yayılmışdır. Azərb.-da 4 növünə təsadüf edilir. Bunlardan z i y a n k a r B. (Eurygaster integriceps) daha çox zərərlidir. Ziyankar B.-ın rəngi bozumtuldan tünd-qəhvəyiyə qədər dəyişir; yetkin mərhələdə, əsasən, meşə və bağlarda tökülmüş yarpaqların altında qışlayır, yazda (apreldə) əkin sahələrinə daraşır. Dişi bağacıq 50–400 yumurta qoyur. İldə bir nəsil verir. Sürfə və yetkin mərhələlərində dənli bitkilərin yarpağını, gövdəsini və dənlərini zədələyir. Zədələnmiş dən







Bağambürc (Viscum).

cücərmə qabiliyyətini itirir. B.-la aqrotexniki, mexaniki, kimyəvi (metafos, xlorofos və ya metation preparatı) və bioloji üsullarla mübarizə aparılır.

*Əd.:* M ə m m ə d o v a S., X ə l i l o v a B. Kənd təsərrüfatı entomologiyası. B., 1964; H i d a y ə t o v C.A. Azərbaycanda kənd təsərrüfatı bitkilərinə zərərverici yarımsərtqanadlılar. B., 1964.

**BAĞAMBÜRC** (Viscum), h ə m i ş ə y a ş ı l – *bağambürckimilər* fəsiləsindən yarımparazit kol bitkisi cinsi. Ağacların budaqlarında bitir. Yarpaqları qarşı-qarşıya duran, yaxud topa, saplaqsız (oturaq), bütöv, dərivarıdır. Çiçəkləri bircinsiyyətli (bitkiləri birevli, yaxud ikievlidir), xırda, yaşılımtıl, sarı, yaxud ağımtıl, gövdə haçasında çox vaxt üç-üç, bəzən tək-tək olur; meyvəsi ağ, sarı, narıncı, yaxud qırmızı, çox vaxt birtoxumlu giləmeyvədir; toxumları qabıqsız, yapışqanlı-selikli lətlə örtülüdür. Təqr. 70 növü məlumdur. Əsasən, Afrikanın tropik və subtropik qurşaqlarında, bir neçə növü tropik Asiyada, Şimali Avstraliyada, Avrasiyada yayılmışdır. Azərb.-da bitən ağ B. (V.album) növünün 3 yarımnövü var: 1 yarımnövü armud, alma, qovaq, ağcaqayın və s. yarpaqlı ağaclarda, digər 2 yarımnövü isə şamağacı və ağ şamağacı kimi iynəyarpaqlı ağaclarda parazitlik edir. B.-ün meyvələri quşlar tərəfindən yayılır. Cavan yarpaqlarından alınan ekstrakt erkən mərhələdə hipertoniya xəstəliyinin müalicəsində istifadə olunur.

**BAĞAMBÜRCKİMİLƏR** (Loranthaceae) – ikiləpəli bitki fəsiləsi; ağacların və ya kolların budaqları, yaxud gövdələri, bəzən kökləri üzərində yaşayan yarımparazit kollar, yaxud kolcuqlar. Bəzən pulcuqlara qədər reduksiyaya uğramış yarpaqları, əsasən, həmişəyaşıl və dərivarıdır. Çiçəklərinin çoxu müntəzəm, adətən xırda, ikicinsiyyətli, yaxud bircinsiyyətlidir, çiçək qrupunda toplanmışdır. Dişicik 3–4 meyvəyarpağından ibarətdir; yumurtalıq altdadır; meyvəsi giləmeyvə, bəzən çəyirdəkşəkillidir. Giləmeyvəsinin tərkibində quşlar tərəfindən daşınan meyvələrinin toxumlarının ağacların qabığına yapışmasına səbəb olan vistsin yapışqan maddəsi var. Əsasən, tropiklərdə 1400 növü birləşdirən təqr. 40 cinsi məlumdur. Azərb.-da yalnız iynəyarpaqlı bitkilərin paraziti olan 1 növü – ardıc arseutobiomu rast gəlir.

**BAĞANIS** – Tiflis qub.-nda Borçalı qəzasının Lori nahiyəsində (31.12.1937 ildən Noyemberyan r-nu) azərb.-ların yaşadığı kənd. Sovet dövründə kənd ləğv edilərək Ləmbəli k.-nin tərkibinə qatılmışdır.

**BAĞANIS AYRIM** – Azərb. Resp. Qazax r-nunun Aşağı Əskipara ə.d.-ndə kənd. R-n mərkəzindən 25 *km* q.-də, Bağanıs çayının sahilində, Kəkil d.-nın ətəyindədir. Əh. 607 (2008); işğaldan (1990, mart) əvvəl əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. İbtidai məktəb, uşaq bağçası, feldşer-mama məntəqəsi var idi. 1988 ildə Erm.-ın Azərb.-a təcavüzü başladıqdan sonra soyqırımına məruz qalmış ilk kənd. 1990 ilin mart və avqust aylarında burada onlarla dinc insan erməni daşnakları tərəfindən qətlə yetirilmişdir.

**BAĞARA** – keçmişdə dayaz quyulardan dol ilə su, neft çəkmək üçün istifadə edilən qurğu; bunun üçün qoşqu heyvanlarından istifadə olunurdu. Azərb.-da, əsasən, Abşeronda işlədilirdi.

**BAĞAVAN**, B a q a r a n, A t ş i - B a q u a n – erkən orta əsrlərdə Azərb.-da (Araz çayı sahilində) tarixi vil. və şəhər. *Atropatenanın* tərkibinə daxil idi. B. haqqında orta əsr mənbələrində məlumat verilir. B.-ın adı iki sözdən (bağa+van) ibarətdir; mənası bir sıra hind-Avropa dillərində "allahın məkanı" deməkdir. Bu, ehtimal ki, B.-da mövcud olmuş atəşgah ilə əlaqədardır.

**BAĞAVƏR**, s ü s ə n b ə r (Alisma) – süsənbərçiçəklilər fəsiləsindən çoxillik ot cinsi. Hünd. 10–15 (bəzən 70) *sm*-ədək olur. Yarpaqları bütöv, uzunsaplaqlı, kökyanı rozetdə birləşmişdir. Ağ, çəhrayı, qırmızımtıl çiçəkləri ikicinsiyyətli, ikiqat çiçəkyanlıqlı, üç ləçəklidir; süpürgəvarı çiçək qrupunda toplanmışdır. Yanlardan çox basıq olan meyvəsi çoxfındıqlı, birtoxumludur. Dünyada 13 (100-dən



Bağavər (Alisma lanceolatum).

çox növ), o cümlədən Qafqazda və Azərb.-da 3 cinsə mənsub 6 növü məlumdur. 3 növü – yol B.-i (A. plantago-aquatica), lansetvarı B. (A. lanceolatum), əyilmiş B. (A. arcuatum) geniş yayılmışdır. Ot basmış bataqlıqlarda və rütubətli yerlərdə bitir. Kökümsovu nişasta ilə zəngindir. Yeməyə yararlıdır; B.-in tərkibində dərini qıcıqlandıran maddə vardır; təzə halda mal-qara üçün təhlükəlidir. Bəzən dekorativ bitki kimi becərilir.

**BAĞAYARPAĞI** (Plantago) – bağayarpağıkimilər fəsiləsindən birillik və ya çoxillik ot, bəzən də yarımkol cinsi. Çiçəkləri xırda, görkəmsiz və ikicinsiyyətlidir. Meyvəsi qutucuqdur. Yer kürəsinin hər yerində (tropik qurşaqlardan başqa) təqr. 250 növü, o cümlədən Azərb.-da 13 növü məlumdur. B. yarpaqlarının dəmləməsindən tibdə bəlğəmgətirici, şirəsindən isə qastritin və enteritin müalicəsində həzmi yaxşılaşdıran vasitə kimi istifadə olunur. Xalq təbabətində irinli yaraları,

Lansetşəkilli bağayarpağı (plantago lanceolata).



çibanları sağaltmaq məqsədilə işlədilir.

**BAĞBAN** – Azərb. Resp. Kürdəmir r-nunun Böyük Kəngərli ə.d.-ndə kənd. R-n mərkəzindən 38 *km* şm.-ş.-dədir. Əh. 554 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana var.

**BAĞBAN** – Azərb. Resp. Ucar r-nunun Boyat ə.d.-ndə kənd. R-n mərkəzindən 27 *km* c.-ş.-də, Göyçay çayının sahilindədir. Əh. 1885 (2008); pambıqçılıq, taxılçılıq, baramaçılıq və maldarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, klub, kitabxana, feldşer-mama məntəqəsi var.

**BAĞBANAN** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Kağızkonan bölgəsinin eyniadlı kəndistanında, Ağkənd qəs.-ndən 22 *km* şm.-dadır.

**BAĞBANLAR** – Azərb. Resp.-nın Ağdam r-nunda kənd. Bağbanlar ə.d.-nin (Bağbanlar, İsmayılbəyli, Muğanlı, Pirzadlı, Saybalı k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 9 *km* c.-ş.-də, Qarqar çayının sahilində, Qarabağ düzündədir. Əh. 763 (2008); əkinçilik, maldarlıq və üzümçülüklə məşğuldur. Tam orta məktəb, kitabxana, tibb məntəqəsi, şərab z-du var.

**BAĞBANLAR** – Azərb. Resp.-nın Biləsuvar r-nunda kənd. Bağbanlar ə.d.-nin mərkəzi. R-n mərkəzindən 7 *km* şm.-da, Salyan–Biləsuvar avtomobil yolundan 3 *km* aralı, Muğan düzündədir. Əh. 4035 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, xəstəxana, 2 kitabxana, mədəniyyət evi, poçt şöbəsi, ATS var.

**BAĞBANLAR** – Azərb. Resp. Samux r-nunun İnstitut ə.d.-ndə kənd. R-n mərkəzindən 8 *km* c.-ş.-də, Gəncə çayı sahilində, düzənlikdədir. Əh. 779 (2010); əkinçilik və maldarlıqla məşğuldur. Kitabxana, tibb məntəqəsi var.

**BAĞBANLI** – Azərb. Resp. Quba r-nunun Zərdabi ə.d.-ndə qəsəbə. R-n mərkəzindən 13 *km* şm.-ş-də, Quba–Xaçmaz avtomobil yolunun kənarındadır. Əh. 1646 (2008); bağçılıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, mədəniyyət evi, feldşer-mama məntəqəsi var.

**BAĞBANLI** İsgəndər Lətif oğlu (19.10.1894, Şəki – 28.2.1974, Bakı) – Azərb. kimyaçısı, kimya e.d. (1960), prof. (1961). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1929). Azərb. EA Qeyri-Üzvi və Fiziki Kimya İn-tunda analitik kimya laboratoriyasının müdiri vəzifəsində çalışmışdır (1946–74). Tədqiqatları resp.-nın mineral xammalının kimyəvi emalı və mürəkkəb tərkibli nümunələrdə (minerallar, sular, süxurlar, ərintilər və s.) nadir və əlvan metalların təyin üsullarının işlənib hazırlanması sahəsindədir. 170-dən çox elmi əsərin, o cümlədən 1 monoqrafiyanın müəllifidir. Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r i: Применение тетрароданодиамминхромиата аммония в аналитической химии редких и цветных металлов. Б., 1961.

**BAĞBAŞI** – 1) Azərb.-da orta əsrlərdə (1820-ci illərə qədər) bağı olanlardan alınan natural vergi. B. bütün məhsulun (meyvənin) təqr. 1/10-dən ibarət idi. Bəzən bağın sahəsinə və ağacların sayına görə də müəyyən edilirdi. Xanlıqlar dövründə b a ğ p u l u adlanırdı. 2) Yayın əvvəllərində nişanlı qızlar üçün göndərilən sovqat.

**BAĞCIĞAZ** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Kağızkonan bölgəsinin eyniadlı kəndistanında, Ağkənd qəs.-ndən 16 *km* şm.-q.-dədir.

**BAĞÇA** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mahnişan bölgəsinin Uryad kəndistanında, Mahnişan qəs.-ndən 22 *km* şm.-dadır.

**BAĞÇABAN** (təxəllüsü; əsl adı və soyadı Mirzə Cabbar Ə s g ə r z a d ə; 1885, Urmiya ş. – 1969, Tehran) – Azərb. şairi, publisist, pedaqoq, alim. Ziyalı ailəsində doğulmuşdur. *"Molla Nəsrəddin"* jurnalında "Məhəllə pişiyi", "Leylək" təxəllüsləri ilə dərc etdirdiyi satirik şeirlərində ("Balaca felyeton", "Molla əmi", "Məhərrəm gəldi", "Kişmiş və molla", "Başı batmış kişi", "İrəvan dövlətliləri deyir" və s.) dövrünün ictimai qüsurlarını, sosial ədalətsizlik, mövhumat və cəhaləti tənqid etmişdir. 1912 ildən İrəvanda "Ley- lək" satirik jurnalını buraxmışdır. 1920 ildə yenidən Cənubi Azərb.-ın Mərənd ş.-nə köçmüş, orada "Əhmədi", sonralar isə Təbrizin "Daneş" məktəblərində müəllimlik etmişdir. 1923 ildə ilk dəfə Təbrizdə (daha sonra Şirazda) onun təşəbbüsü ilə "uşaqlar bağçası" açılmış, bundan sonra "Bağçaban" ləqəbi ilə tanınmışdır. B. 1925 ildə Təbrizdə "Müəllimlər ittifaqı" təsis etmiş, teatr yaratmışdır. 1933 ildə Tehranda kar və lallar üçün məktəb açmış, hətta 1935 ildə onların eşitməsindən ötrü xüsusi cihaz düzəltmişdi. 1943 ildə Tehranda müəllimlər üçün aylıq "Zəban" ("Dil") məcmuəsini dərc etdirmişdir.

Ə s ə r l ə r i: Şeirlər// Cənubi Azərbaycan ədəbiyyatı antologiyası. C. 2, B., 1983; "Mollanəsrəddinçi şairlər" kitabında (tərtib edəni A. Zamanov. K. Əliyev). B., 1986.

**BAĞÇACIQ** – İrəvan xanlığının Talın mahalında (9.9.1930 ildən Talin r-nu), Alagöz d.-nın c.-q. ətəyində azərb.-ların yaşadığı kənd. 1918 ildə erməni daşnakları tərəfindən dağıdılmış, əhalisinin bir hissəsi qətlə yetirilmiş, sağ qalanlar ətraf bölgələrə sığınmış, kənd isə xarabalığa çevrilmişdir.

**BAĞÇACIQ** – İrəvan qub.-nın Şərur-Dərələyəz qəzasında (15.10.1931 ildən Keşişkənd, 3.1.1935 ildən – Mikoyan, 6.12.1957 ildən – Yeğeqnadzor r-nu), Arpa çayının sahilində azərb.-ların yaşadığı kənd. Hazırda k.-də yaşayış yoxdur.

**BAĞÇACIQ** – İrəvan xanlığında Vedibasar mahalının (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r-nu) Cığındərə bölgəsində, Vedi çayının sol sahilində azərb.-ların yaşadığı kənd. 1826–28 illər Rusiya-İran müharibəsi və 1918–1920 illər erməni-daşnak hücumları nəticəsində kənd dağıdılmış, sovet dövründə yenidən məskunlaşmışdır. 1950 ildə kəndin əhalisi Azərbaycana (Salyan r-nunun Arbatan kəndinə) deportasiya olunmuş, kənd isə 1959 ildə ləğv edilmişdir. Kənd qəbiristanlığında qədim baş daşları, at və qoç fiqurları 1988 ilə qədər qalırdı.

**BAĞÇACIQ** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Səncəbid bölgəsinin Gəncgah kəndistanında, Givi qəs.-ndən 15 *km* q.-dədir.

**BAĞÇACIQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Atəşbəy kəndistanında, Səriskənd qəs.-ndən 27 *km* q.-də, Təbriz-Miyanə avtomobil yolunun 23 *km*-liyindədir.

**BAĞÇACİK** – İranın Qərbi Azərbaycan ostanında kənd. Şapur bölgəsinin Ətraf kəndistanında, Şapur qəs.-ndən 6 *km* c.-ş.-dədir.

**BAĞÇAÇUQ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Ətraf bölgəsinin Qaladərəsi kəndistanında, Maku ş.-ndən 7 *km* q.-dədir.

**BAĞÇAKÜRD** – Azərb. Resp.-nın Goranboy r-nunda kənd. Bağçakürd ə.d.-nin mərkəzi. R-n mərkəzindən 35 *km*, Dəliməmmədli d.y. st.-ndan 6 *km* şm.-q.-də, Gəncə-Qazax düzənliyindədir. Əh. 1663 (2008); pambıqçılıq, taxılçılıq, maldarlıq və üzümçülüklə məşğuldur. Tam orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi, ATS; iki dəfə Sosialist Əməyi Qəhrəmanı Bəsti Bağırovanın ev muzeyi var.

**BAĞÇALI** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (9.9.1930 ildən Amasiya r-nu) azərb.-ların yaşadığı kənd. 1918–20 illərdə kənd erməni təcavüzünə məruz qalaraq dağıdılmış, əhalisi isə qovulub kənddən çıxarılmışdır. 1920-ci illərdə kənd ləğv edilmişdir.

**BAĞÇALI** – Azərb. Resp. Quba r-nunun Rustov ə.d.-ndə kənd. R-n mərkəzindən 32 *km* c.-ş.-dədir. Əh. 716 (2008); maldarlıq və meyvəçiliklə məşğuldur. İbtidai məktəb, kitabxana var.

**BAĞÇASARAY** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Astara bölgəsinin Mərkəzi kəndistanında, Astara ş.-ndən 3 *km* q.-dədir.

**BAĞÇILIQ** – çoxillik meyvə, giləmeyvə (bax *Meyvəçilik*) və *dekorativ bitkilərin* (dekorativ B.) becərilməsi ilə məşğul olan bitkiçilik sahəsi. "B." termini *otaq bitkilərinin* (otaq B.-ı) becərilməsinə də aid edilir.

**BAĞÇILIQ VƏ SUBTROPİK BİTKİLƏR İNSTİTUTU**, Ə. R ə c ə b l i a d. A z ə r b. E l m i T ə d q i q a t B a ğ ç ı l ı q v ə S u b t r o p i k B i t k i l ə r İ n - t u – bağçılığın, subtropik bitkiçiliyin və çayçılığın inkişaf etdirilməsi istiqamətində tədqiqat aparan elmi müəssisə. 1944 ildə Bakıda təşkil edilmişdir. 1963 ildə Quba r-nuna köçürülmüşdür. 1999 ildən Azərb. Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzinin tabeliyindədir. İn-tda 200-dən çox yeni meyvə bitkisi və çay sortu yaradılmışdır; Seleksiya nailiyyətlərinin sınağı və mühafizəsi üzrə dövlət komissiyasına 130-adək sort təqdim olunmuşdur, 40-adək sort r-nlaşdırılmışdır. Quba-Xaçmaz bölgəsində 1000 *ha*-dan artıq sahədə davamlı meyvə bağı salınmışdır. Pomoloji kolleksiya bağlarında meyvə bitkilərinin 1000-dən çox sort nümunəsi, 7000-dən artıq hibrid formaları toplanmışdır.

İn-tun aspirantura şöbəsi (1946 ildən), kitabxanası, kompyuter mərkəzi, 3 şöbəsi, 4 laboratoriyası, müxtəlif iqlim və torpaq qurşağındakı təcrübə st.-ları, dayaq məntəqələri və s. var. Elmi əsərləri (15 cild) çap olunmuşdur.

**BAĞDAD** – İraqın paytaxtı, Bağdad mühafazasının inz. m. Mesopotamiya ovalığında, Dəclə çayının hər iki sahilində, Diyala çayının ona töküldüyü yerin yaxınlığındadır. Əh. 5,7 mln. (şəhərətrafı ilə 7,4 mln., 2005). Ölkənin əsas nəql. qovşağı. Çay portu. Beynəlxalq aeroport. İqlimi Aralıq dənizi tiplidir. Orta temp-r yanvarda təqr. 10ºC, iyulda 34ºC-dir. İllik yağıntı 163 *mm*-dir.

Arxeoloji məlumatlara əsasən B.-ın yerində artıq e.ə. 19–18 əsrlərdə yaşayış məskənləri mövcud olmuşdur. İndiki B.-ın yaxınlığında Şumer-Akkad (bax *Şumer*), *Babilistan*, *Parfiya* mədəniyyətlərinə aid abidələr aşkar edilmişdir. "B." adının qədim fars. "baqa" – allah və "dad" – verilmiş sözlərindən yaranması fərziyyəsi daha geniş yayılmışdır. Hələ *ərəb işğalları* dövründə B.-ın yeri yarmarka ticarəti mərkəzi kimi məlum idi. İndiki B.-ın əsasını Xilafətin paytaxtı kimi 762 ildə *Abbasilər* sülaləsinin ikinci xəlifəsi əl-Mənsur qoymuşdur. Şəhər "Mədinət əs-Səlam" (Sülh şəhəri) da adlanmışdır. Dəclə çayının q. sahilində yerləşən və üç dairəvi qala divarı ilə əhatə olunan xəlifənin iqamətgahı (Dairəvi şəhər) B.-ın özəyini təşkil etmişdir. Xilafətin ayrı-ayrı əyalətlərinə gedən 4 əsas küçə-yol B.-da kəsişirdi. Abbasilər paytaxtının çiçəklənməsi ən çox 8 əsrin sonu – 9 əsrin ortalarında baş vermişdir: *Harun ər-Rəşidin* [786–809] və *Məmunun* [813–833] dövründə qədim yunan mətnləri ərəb dilinə tərcümə edilir, paytaxtda müalicəxanalar və rəsədxana açılır, şair və sənətkarlar şəhərə cəlb olunurdular. B.-ın Aralıq dənizi, Mərkəzi və Cənubi Asiya, Şərqi Afrikanı birləşdirən ənənəvi ticarət yollarının kəsişməsində yerləşməsi də şəhərin çiçəklənməsinə şərait yaradırdı. Ərəb tarixçiləri Əhməd ibn Əbu Tahir Tayfur (893 ildə ölmüşdür) və əl-Xətib əl-Bağdadinin (1071 ildə ölmüşdür) məlumatlarına görə, B.-a Hindlistan, Çin, Ərəbistan, Avropa və Şərqi Afrikadan mal və ərzaq gətirilirdi. 9 əsrdə B. orta əsrlər ərəb-müsəlman mədəniyyətinin və elminin ən iri mərkəzinə çevrilmiş, onun əzəməti və təmtəraqı *"Min bir gecə"* nağıllarında əks olunmuşdur. Abbasi hakimiyyətinin zəifləməsi və Xilafətin parçalanması (9–10 əsrlər) nəticəsində B. tədricən siyasi əhəmiyyətini itirdi. 836–889 illərdə B.-ın idarəçiliyini *qulamlar* qvardiyasına tapşıran xəlifələr iqamətgahlarını Samirəyə köçürmüşdülər. 945 ildən şəhər *Büveyhilərin* faktiki hakimiyyəti altında olmuş, 1055 ildə isə *Səlcuqlar* tərəfindən tutulmuşdur. B.-ın qeyri-sabit inkişafına baxmayaraq, şəhər 9–13 əsrlərdə elmi və mədəni mərkəz rolunu qoruyub saxlamışdı (13 əsrin əvvəllərində şəhərdə 30-dan çox kitabxana fəaliyyət göstərirdi). Abbasilər xilafətinə son (1258) qoyan *Hülaku xanın* qoşunları tərəfindən şəhərin qarəti nəticəsində B.-ın uzunmüddətli tənəzzülü başlanmışdı. *Elxanilər* [1258–1335], sonradan isə *Cəlairilər* [1335–1410] dövründə B. əyalətin baş şəhəri rolunu oynayırdı. B. 14 əsrin sonu – 15 əsrin əvvəllərində Teymur tərəfindən iki dəfə (1392–93 və 1401–05) tutulmuş və yenidən dağıdılmışdır. 1508 ildə şəhər *Səfəvilər dövlətinin* tərkibinə qatılmışdır. 16 əsr – 17 əsrin əvvəllərində Osmanlı dövləti və Səfəvilər B. uğrunda mübarizə aparmışlar; 1534 ildə şəhər Osmanlı qoşunları tərəfindən tutulmuş, 1623 ildə isə Səfəvilərin nəzarətinə keçmişdir. 1638 ildə birdəfəlik Osmanlı imperiyasının tərkibinə qatılmış və 19 əsrin ortalarınadək Bağdad paşalığının (sonralar Bağdad vilayəti) mərkəzi olmuşdur. İşğalların gedişində şəhərin bir çox rayonları dağıdılmış və B. hər birində məscidlər, mədrəsələr, bazarlar, ha-

Bağdad şəhərindən görünüş.





Bağdad. Ramazan məscidi. 14 əsr.

mamlar və hanaklar (karvansaralar) olan ayrı-ayrı şəhərciklərdən ibarət idi. Birinci dünya müharibəsi zamanı B. ingilis qoşunları tərəfindən tutulmuşdu. 1920–21 illərdə Britaniyanın mandatı altında olan ərazinin mərkəzi, 1921 ildən İraq krallığının paytaxtı olmuşdur. İraq inqilabının qələbəsi günü (1958, 14 iyul) B.-da İraq Resp. elan olunmuşdur. *Küveyt böhranı (1990–91)* zamanı antiiraq koalisiyasının B.-ı bombardman etməsi nəticəsində şəhər böyük dağıntılara məruz qalmışdır.

ABŞ və onun müttəfiqlərinin qoşunlarının 2003 ildə İraqa qarşı təşkil etdiyi hərbi əməliyyatlaradək B. ölkənin iri iqtisadi, ticarət və maliyyə mərkəzi idi. Əməliyyatlar nəticəsində şəhər böyük dağıntılara məruz qalmışdır. B.-da neftayırma (Əd-Daurda iri z-d), neft-kimya, elektrotexnika, kimya, tamlı məhsullar, toxuculuq, gön-dəri, mebel sənayesi müəssisələri; sement və kərpic z-dları; iri kustar sahələri; İraq Mərkəzi bankı fəaliyyət göstərirdi.

12–13 əsrlərə aid naxışlı hörgü ilə tikilmiş, oyma terrakota və stalaktitlərlə bəzədilmiş islam memarlığı üçün xarakterik olan ərəb kərpic memarlığı abidələri: Abbasilər sarayı (12 əsrin sonu – 13 əsrin əvvəli; 1935 ildən muzeydir, 20 əsrdə bərpa edilmişdir), konusvarı oyuq-oyuq günbəzi olan Zübeydə məqbərəsi (13 əsrin əvvəli), şeyx Maaruf əl-Karhi məscidi (1215, yenidən tikilmişdir), əl-Müstənsiriyyə mədrəsəsi (1227–33, 1823 ildə yenidən tikilmişdir), Suk əl-Qəzəl minarəsi (1279), əl-Mərcaniyyə mədrəsəsi (1356; 1786 ildə bərpa edilmişdir; mədrəsənin bəzək işlərində azərb. nəqqaş və xəttat Əhmədşah Təbrizi iştirak etmişdir) və Mərcan xan karvansarası (1358–59; 1937 ildən ərəb asari-ətiqələri muzeyidir). Osmanlı imperiyası dövrünə aid bir çox abidələr əsaslı dəyişikliklərə uğrayaraq dövrümüzədək gəlib çıxmışdır: "Qızıl məscid" (1367 ildə bərpa edilmiş; 1519 ildə, 19 əsrin ortalarında və 20 əsrdə yenidən tikilmişdir); şeyx Əbd-əl-Qadir-əl-Qaylani məscidi (11–12 əsrlər, günbəzi 1636), Əbu Hənifə məscidi və s. Dağıdılmış şəhər divarlarından ancaq "Bab-əl-Vəstani" (1221; indiki Silah muzeyi) darvazası qalmışdır. 19 əsrə aid yaşayış binaları şəhərin mərkəzində cəmlənmişdir.



Bağdad şəhərindən görünüş.

Müasir şəhərin (1960-cı illərin sonlarından "Minoprio", "Spensli" firmaları və memar F.U. Makfarlanın planına əsasən yenidən qurulmuşdur) planlaşdırılmasında çay sahili boyunca uzanan baş magistralların, geniş meydanların, o cümlədən mərkəzi ət-Təhrir meydanının, Dəclə üzərindən salınmış körpülərin, Parlamentin, nazirliklərin, bankların, hotellərin, kinoteatrların yerləşdiyi yaşıllaşdırılmış küçələrin düzbucaq formalı şəbəkəsi əsas yer tutur. 1970-ci illərdə ət-Təhrir meydanının altından yeraltı estakada çəkilmiş, yeni aeroport, çox sayda məscidlər, çoxmərtəbəli yaşayış və ictimai binalar tikilmişdir. 1950–80-ci illərdə də şəhər intensiv olaraq əcnəbi memarlardan F. Herst (ər-Rafiden mərkəzi bankı; 1958), V. Qropius (Müstənsiriyyədə un-t kompleksi; 1961 ildə tikintisinə başlanılmışdır), R. Bofill və b.-nın layihələri əsasında tikilmişdir. Şəhidlərə (1980–83, heykəltəraş İ. Fəttah), Naməlum əsgərə (1962, memar R. əl-Çadərçi) abidələr qoyulmuş, iki Zəfər tağı (1989, H. əl-Rahal və M. Qəni) tikilmişdir. B.-da 2003 ilin hərbi əməliyyatlarınadək İraq akademiyası (1947 ildən), İraq Tibb Cəmiyyəti (1920 ildən), Elmi araşdırmalar təşkilatı (1963 ildən), k.t. və su ehtiyatlarının tədqiqatı mərkəzi (1980 ildən), ərəb ədəbiyyatı və böyüklərin təhsili təşkilatı (1966 ildən), Fransa mədəniyyəti mərkəzi (1950 ildən) və s. mövcud olmuşdur. Universitetlər: Bağdad (1957 ildən), əl-Müstənsiriyyə (1963 ildən), texnoloji (1975 ildən); kitabxanalar: İraq muzeyinin (1934 ildən), Milli (1961 ildən), Bağdad un-ti nəzdində mərkəzi (1960 ildən); muzeylər: İraq (1960 ildə əsası qoyulmuş, 1966 ildə açılmışdır; Şumer-Akkad, Babil-Aşşur və ərəb incəsənəti; kolleksiya 2003 ildə məhv edilmişdir), təbiət tarixi (1946 ildən), müasir incəsənət (1962 ildən), etnoqrafiya (1941 ildən; Şəkil qalereyası ilə), Mədain (islamaqədərki mədəniyyət); Milli teatr fəaliyyət göstərmişdir.

**BAĞDAD DƏMİR YOLU** – Bosforu Fars körfəzi ilə birləşdirən d.y. xətti. B.d.y.-nun tikintisinə və istismarına dair Almaniyanın iddiaları 19 əsrin sonu – 20 əsrin əvvəllərində böyük dövlətlər arasında ziddiyyətlərin kəskinləşməsinə gətirib





çıxardı. Almaniya B.d.y.-nu Osmanlı imperiyasını öz təsiri altına almaq, həmçinin uzunmüddətli geosiyasi məqsədlərə (B.Britaniyanın Yaxın və Orta Şərqdə və Hindistandakı, Rusiyanın Qafqazda, İranda və Orta Asiyadakı mövqelərini zərbə altında saxlamaq) nail olmaq üçün vasitə hesab edirdi. Berlindən Bağdada gedən bütün d.y. şəbəkəsinə Almaniyanın nəzarətinin bərqərar olması, onun həm də Qara dənizdəki boğazlar zonasında təsirini möhkəmləndirmək üçün şərait yaradırdı.

1888 ildə Almaniyanın "Doyçe bank"ı Türkiyədən aldığı İstanbul–İzmit d.y. xəttinin (1871 ildə çəkilmişdir) Ankaraya qədər uzadılması üçün konsessiya əldə etdi. 1893 ildə həmin bank bu xəttin uzadılması (Əskişəhər-Konya hissəsi) üçün yeni konsessiya aldı. Almaniya imperatoru II *Vilhelmin* Osmanlı imperiyasına səfərindən sonra Türkiyə hökuməti 1899 ildə B.d.y.-nun əsas magistralının (Konya–Bağdad–Bəsrə) tikintisi və istismarı konsessiyanı Almaniyaya verməyə razılaşdı. 1903 ildə Türkiyə hökuməti, Almaniyanın İstanbuldakı səfiri və "Doyçe bank"ın başçılığı ilə alman bankları qrupu tərəfindən yaradılmış (1899) Anadolu d.y.-ları Osmanlı cəmiyyəti arasında B.d.y.-nun tikintisinə dair konvensiyanın yekun mətni imzalandı. Konsessiya magistral xətdən və çoxsaylı qollardan, o cümlədən Hələbə, Xanəginə və İran körfəzinə doğru gedən qollardan ibarət 2400 *km* uz.-ndakı d.y. şəbəkəsinə şamil olunurdu.

B.d.y.-nun tikintisi və istismarı konsessiyasının Almaniyaya verilməsinə cavab olaraq Britaniya hökuməti Almaniyanın İran körfəzi hövzəsinə çıxışının qarşısını almaq məqsədilə buradakı fəaliyyətini genişləndirmək üçün tədbirlər gördü. 1900 ildə B.Britaniya, Rusiya və Fransa hökumətləri Türkiyənin gömrük rüsumlarını artırmasına mane olmaqla B.d.y. səhmdarlarına yüksək dividendlər verilməsini çətinləşdirdilər.

B.Britaniya, Rusiya və Fransanın müqavimətinin qarşısını almağa çalışan Almaniya onlarla kompromis sazişlər bağlamağa məcbur oldu. 1899 ilin mayında bağlanan Fransa-Almaniya sazişinə görə B.d.y.-nun tikintisinə fransız kapitalı da cəlb olunurdu. 1914 ilin iyununda bağlanan İngiltərə-Almaniya müqaviləsinə görə Bağdaddan Bəsrəyə qədər magistralın c. hissəsinin tikintisinə rəhbərlik B.Britaniyaya həvalə edilirdi.

Birinci dünya müharibəsi ərəfəsində B.d.y.-nun 600 *km*-i istismara verildi: şm.-da Konya–Ras-əl-Ayn (Ras-əl-Ayn–Nusaybin qolu isə 1919 ildə çəkilmişdir) qolunun, c.-da Bağdad–Samirə qolunun tikintisi başa çatdırıldı. B.d.y.-nu tamamlayan Nusaybin–Samirə qolunun tikintisini 1934–41 illərdə Britaniya və Fransanın özəl şirkətləri aparmışlar.

Birinci dünya müharibəsindən sonra B.d.y. siyasi-strateji əhəmiyyətini xeyli dərəcədə itirdi. Üç hissəyə bölünmüş magistral artıq vahid müəssisə deyildi. Konya–Bozantı qolu Türkiyəyə keçdi, Bozantı–Nusaybin qolu fransız şirkətinə konsessiyaya verildi (sonralar bu qol Suriyanın nəzarətinə keçdi), Bağdad–Samirə qolu isə İraq d.y. xəttinin tərkibinə daxil edildi.

**BAĞDAD XATUN** (? – 1335) – Əmir Çobanın gözəlliyi ilə məşhur olan qızı, Elxani hökmdarı Əbu Səid Bahadır xanın arvadı. Bağdad hakimi Şeyx Həsən Cəlairinin arvadı olan B.x. Əbu Səid Bahadır xanın təzyiqləri ilə ərindən boşanıb hökmdara ərə getməyə məcbur olmuşdu. Elxani sarayının baş xanımı mərtəbəsinə yüksələn, dövlət işlərinə də təsir göstərən B.x. "Xudavəndigar" ləqəbini almışdı. Ərini zəhərləməkdə günahlandırılan B.x. Əbu Səid Bahadır xanın xələfi Arpa xanın əmri ilə öldürülmüşdür.

**BAĞDAD PAKTI (1955)** – İraq ilə Türkiyə arasında fevralın 24-də Bağdadda bağlanmış müqavilə. Sonradan B.p.-na B.Britaniya (4 aprel), Pakistan (23 sentyabr) və İran (3 oktyabr) da qoşulmuşdu. Paktın məqsədi B.Britaniyanın simasında Qərb ölkələrinin Aralıq dənizi sahilyanı ərazilərinə və Yaxın Şərqə hərbi-siyasi təsirinin gücləndirilməsi, həmçinin SSRİ-nin bu regiona mümkün olan müdaxiləsinin qarşısının alınması olmuşdur. Lakin bloklara qoşulmamaq siyasəti yürüdən Misirin B.p.-nda iştirak etməməsi nəticəsində bu strategiya reallaşmadı. İraq müqavilədən çıxdıqdan (24.3.1959) sonra SENTO adlandırılan blokun mərkəzi Ankaraya köçürüldü. Bax *Mərkəzi Müqavilə Təşkilatı*.

**BAĞDADİ** (ər. بغدادى), Əbu Mənsur əbd əl-Qadir ibn Tahir əl-Bağdadi (? – 1037) – ərəb alimi, ilahiyyatçı. İslam dininin müxtəlif təriqət və məzhəblərindən bəhs edən "Təriqətlər arasında fərq" əsərinin müəllifidir. Əsərdə məzdəkilər, xürrəmilər, məzyədilər, batinilər, qərmətilər, onların Xilafətə qarşı mübarizəsi haqqında məlumat var. Xürrəmilər və məzyədilərin bir sıra təkliflərini (əmlak, qadın və s. haqqında) islam dini mövqeyindən qiymətləndirmişdir; xürrəmilər hərəkatına dini rəng vermişdir. Babək, onun qardaşı Abdulla, həmçinin *Afşinin* tutulması və edam edilməsi haqqında məlumat verir. Riyaziyyata aid əsəri də var.

**BAĞDADİ** Müvəffəqəddin Əbdüllətif ibn Yusif (1162–1231) – *peripatetik məktəbin* nümayəndəsi. B. fəlsəfəni İbn Sinanın "Nicat", "Şəfa" və Bəhmənyarın "Təhsil" kitablarından öyrənmiş, Aristotelin irsi ilə tanış olmuşdur. B. "Məntiqin doqquz hissəsinə dair" ("Fi əcza əl-məntiq ət-tisə"), "Silloqizmə dair" (Fi-l-qiyas"), "Məntiqə giriş" ("əl-Mədxəl"), "Kateqoriyalar" ("əl-Məqulat"), "Təbir" ("əl-İbarə"), "Sübut" ("əl-Bürhan") və s. risalələrin müəllifidir.

*Əd.*: Zakir Məmmədov. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. B., 1986; yenə onun. Azərbaycan fəlsəfəsi tarixi. B., 2006.

**BAĞDƏRƏ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Ətraf bölgəsinin Ovoğlu kəndistanında, Xoy ş.-ndən 11 *km* şm.-ş.-dədir.

**BAĞDƏRƏ** – İranın Zəncan ostanında kənd. Əbhər şəhristanının Əbhərrud bölgəsində, Əbhər qəs.-ndən 18 *km* şm.-q.-dədir.

**BAĞDƏRƏSİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Tərik bölgəsinin Gərm kəndistanında, Tərik qəs.-ndən 21 *km* c.-ş.-indədir.

**BAĞƏLİ** – Azərb. Resp. İsmayıllı r-nunun Lahıc ə.d.-ndə kənd. R-n mərkəzindən 30 *km* şm.-ş.-də, Nialdağ silsiləsində, Girdiman çayının sahilindədir. Əh. 45 (2008); maldarlıq, bağçılıq və bostançılıqla məşğuldur.

**BAĞIR** – bax *Qara ciyər*.

**BAĞIRABAD** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Hir kəndistanında, Ərdəbil ş.-ndən 26 *km* c.-ş.-dədir.

**BAĞIRBƏYLİ** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Gorus r-nu) azərb.-ların yaşadığı kənd. 1918 ildə erməni daşnaklarının hücumları nəticəsində kənd dağıdılmış, əhalisi qovulub çıxarılmış, kənd isə xaraba qalmışdır.

**BAĞIRBƏYLİ** – Azərb. Resp. Ucar r-nunun Quləbənd ə.d.-ndə kənd. R-n mərkəzindən 15 *km* ş.-də, Göyçay çayının sahilindədir. Əh. 236 (2008); əkinçilik, pambıqçılıq, taxılçılıq, baramaçılıq və maldarlıqla məşğuldur. İbtidai məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**BAĞIRDƏLƏN** (Tragus) – taxıllar fəsiləsindən bitki cinsi. Hünd. 10–30 *sm*-dir.



Bağırdələn (Tragus racemosus).

Dibdən dəstələrlə bitən gövdəsi yerə sərilir. Yarpaqları qısa, cod və xətvarı-neştərvarıdır. Süpürgəvarı çiçək qrupunda toplanmış çiçəkləri sünbülşəkillidir. Meyvəsi uzunsov dəncikdir. Subtropik və tropik ölkələrdə 10 növü, o cümlədən Azərb.-da 1 növü – salxımvarı B. (*T. racemosus*) bitir. Abşeronda, Lənkəranda yol kənarında, alaq basmış yerlərdə, daşlı yamaclarda, qış otlaqlarında yayılmışdır.

**BAĞIRXAN** (1861, Təbriz – 1917) – *Təbriz üsyanının (1908–09)* rəhbərlərindən biri. *Səttarxanın* silahdaşı. Bənna ailəsində doğulmuşdur. Mollaxanada təhsil almış, sonralar bənnalıq etmişdir. 1905 ildə İranda, o cümlədən Cənubi Azərb.-da genişlənən inqilabi hərəkata qoşulmuş və tezliklə bu hərəkatın başçılarından olmuşdur. Onun başçılıq etdiyi fədai dəstələri Səttərxanın rəhbərliyi altında qızğın küçə vuruşmalarından sonra şah qoşunlarını və əksinqilabi qüvvələri Təbrizdən qovmuşdu. Azərb. Əyalət Əncüməni döyüşdə fərqlənənləri təltif etmək üçün 1906 ildə B. adına medal təsis etmişdi; 1908 ildə isə Təbriz üsyanında göstərdiyi şücaətə görə xalq tərəfindən B.-a verilən "Salari milli" (xalq sərkərdəsi) fəxri adını rəsmiləşdirmişdi. B. Təbriz üsyanı dövründə yaranmış "Hərbi şura"nın beş üzvündən biri idi. Üsyan yatırıldıqdan sonra B. Səttərxanla Təbrizdə qalmışdı. Onların Təbrizdə qalmasından narahat olan ingilis müstəmləkəçiləri və daxili irticaçı qüvvələr Səttərxanı və B.-ı Tehrana getməyə məcbur etmişdilər. Tehran əhalisi onları böyük təntənə ilə qarşıladı. 1910 il avqustun 7-də şah qoşunları və Tehran polisi qəfil hücumla Səttərxan və B.-ın fədailərini tərksilah etdi. Birinci dünya müharibəsi başlandıqdan sonra B. Qum ş.-ndə yaradılmış "Milli Müdafiə Komitəsi" (1915), Kirmanşahda və Qəsri Şirində təşkil edilmiş "Milli Müvəqqəti hökumət"in (1916) tərəfdarlarına qoşulmuşdu. B. Qəsri Şirin ilə Kirmanşah arasında kürd irticaçıları tərəfindən öldürülmüşdür.

Bağırxan və Səttərxan.



**BAĞIRXAN**, B a ğ ı r q a n – Azərb. Resp. Xocalı və Xocavənd r-nları sərhədində, Qarabağ silsiləsinin şm.-ş. yamacında dağ. Qarqar çayının sağ sahilindədir. Hünd. 1583 *m*. Yamacları meşələrlə örtülüdür.

**BAĞIRLI** – Azərb. Resp. Kəlbəcər r-nu ərazisində, Murovdağ silsiləsinin c. yamacında dağ. Tərtər çayının sol sahilindədir. Hünd. 2298 *m*. Yamacları meşələrlə örtülüdür.

**BAĞIRLI** – Azərb. Resp. Kəlbəcər r-nunun Ağdaban ə.d.-ndə kənd. R-n mərkəzindən 25 *km* şm.-ş.-də, Bulanlıqsu çayının sahilində, Murovdağ silsiləsinin c. ətəyindədir. Əh. 510 (2008); işğaldan (1993, aprel) əvvəl tütünçülük və maldarlıqla məşğul olmuşdur. Orta məktəb, kitabxana var idi.

**BAĞIRLI** – Azərb. Resp. Şamaxı r-nunda kənd. Bağırlı ə.d.-nin mərkəzi. R-n mərkəzindən 30 *km* c.-da, Ləngəbiz silsiləsinin c. ətəyindədir. Əh. 2253 (2008); taxılçılıq və maldarlıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, tibb məntəqəsi; antik dövrə aid küp qəbirləri nekropolu var.

**BAĞIROBA** – Azərb. Resp. Masallı r-nunun Böyük Kolatan ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* c.-da, düzənlikdədir. Əh. 1077 (2008); əkinçilik və maldarlıqla məşğuldur.

**BAĞIROV** Adil Kamil oğlu (d.13.5. 1937, Bakı) – Azərb. musiqiçisi, tarzən, Azərb. Resp. xalq artisti (2006). Bakı Musiqi Texnikumunda (1960, M.M. *Mansurovun* sinfi) və Azərb. Dövlət Konservatoriyasında (1962–64) təhsil almışdır. Azərb. İncəsənət İn-tunu (1970) bitirmiş, həmin in-tun musiqi kafedrasında müəllim (1965–75) işləmişdir. Azərb. Dövlət Filarmoniyasının (1962–64) və Ə. *Dadaşovun* rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblının (1964–76) solisti olmuşdur. 1964 ildən S. Rüstəmov ad. xalq çalğı alətləri orkestrinin solisti, 1976 ildən Ə. Dadaşov ad. "Xatirə" xalq çalğı alətləri ansamblının bədii rəhbəridir. Repertuarında Çahargah, Bayatı-Şiraz, Mirzəhüseyn segahı və s. muğamlar əsas yer tutur. Bir sıra müğənniləri tarda müşayiət etmişdir. Xarici ölkələrdə qastrolda olmuşdur.



**BAĞIROV** Adil Nəsib oğlu (d.24.5. 1947, Şahbuz r-nunun Nursu k.) – Azərb. dilçisi, filologiya e. d. (2005). Azərb. Dövlət Un-tini bitirmişdir (1971). Nax. Müəllimləri Təkmilləşdirmə İn-tunda Azərb. dili və ədəbiyyatı kabinetinin müdiri (1973–1990), Nax. MR Xalq Təhsili Nazirliyində aparıcı mütəxəssis (1990–1997), Nax. özəl untində baş müəllim (1994–2003) və kafedra müdiri (2003–2007) işləmişdir. 2007 ildən AMEA Nax. Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İn-tunda şöbə müdiridir.

Tədqiqatları oğuz qrupu türk dillərinə və Nax. MR ərazisindəki onomastik vahidlərə həsr olunmuşdur.

Ə s ə r l ə r i: Naxçıvan toponimlərinin linqvistik xüsusiyyətləri. B., 2002; Naxçıvan oykonimləri. B., 2008.

**BAĞIROV** Akif Məmməd oğlu (d.27.10. 1959, Şahbuz r-nunun Nursu k.) – Azərb. uroloqu, tibb e.d. (2001). Azərb. Dövlət Tibb İn-tunu (indiki Azərb. Tibb Un-ti, ATU) bitirmişdir (1982). 1983 ildən ATU-nun urologiya kafedrasında (2002 ildən dosent) işləyir. Tədqiqatları böyrək və prostat vəzi xəstəliklərinin cərrahi müalicəsi məsələlərinə həsr edilmişdir. 85 elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir.

Ə s ə r i: Böyrək köçürülməsi. B., 1998.

**BAĞIROV** Aqşin Böyük oğlu (d.6.6. 1953, Bakı) – Azərb. travmatoloqu, tibb e.d. (1993). 1976 ildə Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir. 1980–98 illərdə Azərb. Travmatologiya və Ortopediya İn-tunda işləmişdir. 1998 ildən Rusiya Prezidenti İşlər İdarəsinin Tibb Mərkəzinin 1 №-li klinik xəstəxanasında travmatologiya və ortopediya şöbəsinin müdiri, eyni zamanda Mərkəzi Travmatologiya və Ortopediya İn-tunda klinik bazanın rəhbəri və Moskva Aviasiya İn-tunda materialların texnologiyası kafedrasının prof.-u vəzifələrində çalışır. Tədqiqatları aşağı ətraflarda oynaqətrafı, oynaqdaxili sınıqlar zamanı əmələ gələn deformasiyaedici artrozun profilaktikasına aiddir.

**BAĞIROV** Allahverdi Sadıq oğlu (1898, indiki Daşkəsən r-nunun Şahvələdli k. – 1983, Gəncə) – Sosialist Əməyi Qəhrəmanı (1948). İndiki Göygöl (keçmiş Xanlar) r-nunun "Gəncə" sovxozunda briqadir işləmişdir. Azərb. SSR Ali Sovetinin (3–4-cü çağırış) deputatı olmuşdur. 2 dəfə Lenin ordeni ilə təltif edilmişdir.



**BAĞIROV** Allahverdi Teymur oğlu (22.4.1946, Ağdam – 12.6.1992) – Azərb.-ın Milli Qəhrəmanı (ölümündən sonra, 24.4.1993). Ağdamda könüllülərdən ibarət batalyon yaratmış, *Xocalı soyqırımı* zamanı onlarla insanı ölümdən xilas etmişdi. 1992 ilin iyun ayında Naxçıvanik, Aranzəmin, Dəhraz, Təkir və s. k.-lərin erməni işğalçılarından azad olunmasında fəal rol oynamışdır. Ağdamda, Şəhidlər xiyabanında dəfn olunmuşdur.



**BAĞIROV** Arif Yusif oğlu (1.10. 1930, Lənkəran – 11.10. 1999, Lənkəran) – çay texnologiyası sahəsində Azərb. alimi, texnika e.d. (1967). Gürc. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1954). 1964–89 illərdə "Azərçay" trestinin, Baş Çayçılıq və Subtropik Bitkilər İdarəsinin, 1989 ildən Azərb. Bağçılıq və Subtropik Bitkilər Elmi İstehsalat Birliyi Lənkəran çay filialının direktoru işləmişdir. 1995 ildən Lənkəran Dövlət Un-tinin prof.-u olmuşdur. Tədqiqatları Azərb.-da çayçılığın inkişafına, çayın emal texnologiyasına həsr edilmişdir. 100-dən çox elmi əsərin, o cümlədən 8 kitabın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**BAĞIROV** Bağır Əli oğlu (d.12.8.1936, Masallı r-nunun Ərkivan k.) – Azərb. neftçi geoloqu, geologiya-mineralogiya e.d. (1984), prof. (1990), AMEA-nın m. üzvü (2001), Azərb. Resp.-nın əməkdar elm xadimi (2000). 1958 ildə Azərb. Sənaye İn-tunu (indiki ADNA) bitirmişdir. "Leninneft" (indiki "Balaxanıneft") NQÇİ-də operator, geoloq, böyük geoloq (1958–69), Azərb. EA Dərin Neft və Qaz Yataqları Problemləri İn-tunda (DNQYPİ) kiçik elmi işçi, böyük elmi işçi, laboratoriya müdiri, elmi işlər üzrə direktor müavini (1969–89) vəzifələrində işləmişdir. 1989 ildən ADNA-da kafedra, eyni zamanda DNQYPİ-də şöbə müdiridir. Tədqiqatları, əsasən neft-qaz yataqlarının səmərəli işlənilməsinə həsr olunmuşdur. 200-dən çox elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir.



Ə s ə r l ə r i: Геологические основы доразработки месторождений нефти и газа. Б., 1986; Теория и практика геолого-геофизических исследований и разработки морских месторождений нефти и газа. Б., 1992.

**BAĞIROV** Bağır İbrahimxəlil oğlu (1.8.1929, Yerevan – 14.1.2010, Gəncə) – Azərb. ədəbiyyatşünası, filologiya e.d. (1976), prof. (1978). Azərb. Resp. əməkdar elm xadimi (2009) və əməkdar müəllimi (2007). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1950). Gəncə Dövlət Un-tində Azərb. dili və ədəbiyyatı fakültəsinin dekanı (1974–77; 1982–87) və kafedra müdiri (2003–10) işləmişdir. Tədqiqatları R. *Rzanın* poeziyasına, orta məktəblərdə S. *Vurğunun* yaradıcılığının tədrisinə, teatr tarixi problemlərinə həsr olunmuşdur. 60-a yaxın elmi əsərin, o cümlədən dərslik və metodik vəsaitlərin müəllifidir. Bədii və publisistik əsərləri var.

Ə s ə r l ə r i: Rəsul Rza poeziyasında beynəlxalq mövzu. B., 1972; Cəfər Cabbarlı ad. Gəncə Dövlət Dram Teatrının yaradıcılıq yolu. B. 1981.

**BAĞIROV** Bayram Məhəmməd oğlu (d.1.2.1942, Zəngilan r-nunun Keşikçi k.) – kənd təsərrüfatının mexanikləşdirilməsi sahəsində Azərb. alimi, texnika e.d. (1990), prof. (1998). Azərb. Resp. əməkdar mühəndisi (1982). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1964). 2006 ildən Azərb. Texnologiya Un-tinin prorektorudur. Tədqiqatları Yer maqnetizmindən, Günəş enerjisindən k.t.-nda istifadə edilməsi, traktor və k.t. maşınlarının aktiv işçi orqanlarının hidrosistemlərinin funksional-texnoloji əsaslandırılması sahəsindədir. 1 monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r i: Основа гидрофикации рабочих органов с/х машин. Б., 1986.

**BAĞIROV** Bəşir Rzaqulu oğlu (1898, Tovuz r-nunun Düz Qırıqlı k.– 1983, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1949). 1948 ildə atçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.



**BAĞIROV** Damət Abbas oğlu (d.5.5. 1961. Zərdab r-nunun Xanməmmədli k.) – Azərb. iqtisadçısı, iqtisad e.d. (2000), prof. (2005). Azərb. Xalq Təsərrüfatı İn-tunu bitirmişdir (1985). Azərb. Dövlət İqtisad İn-tunda laboratoriya müdiri (1989–94), Dövlət Vergi Müfəttişliyində baş vergi müfəttişi, şöbə rəisi, rəis müavini (1995–99), Azərb. Resp. İqtisadi İnkişaf Nazirliyində baş mütəxəssis, şöbə rəisi, baş məsləhətçi, Azərb. Dövlət İqtisad Un-tində prof., dekan (2000–2005) işləmişdir; hazırda un-tin tədris işləri üzrə prorektorudur. Tədqiqatları maliyyə və vergi auditi məsələlərinə həsr olunmuşdur, 60-dan çox elmi əsərin, o cümlədən 6 monoqrafiyanın müəllifidir.

Ə s ə r l ə r i: Финансовый рынок Азербайджана и аудит его небанковских институтов. СПб., 1997.

**BAĞIROV** Elsevər Cəlal oğlu (d.3.9. 1976, Laçın r-nunun Dəyhan k.) – Azərb. idmançısı. Azərb. Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını (2004) bitirmişdir. Kunq-fu üzrə dünya çempionudur (2008, İtaliya).



**BAĞIROV** Fikrət Bağır oğlu (10.12. 1935, Bakı – 21.1.1996, Bakı) – Azərb. kino rəssamı, Azərb. Resp. əməkdar rəssamı (1982). SSRİ Dövlət mükafatı laureatı



(1980). Azərb. Rəssamlıq Məktəbini (1958) və Moskvadakı Ümumittifaq Dövlət Kinematoqrafiya İn-tunu (1964) bitirmişdir. 1964 ildən "Azərbaycanfilm" kinostudiyasında quruluşçu rəssam işləmişdir. "Yaşamaq gözəldir, qardaşım" (1966; N. Zeynalovla birgə) filmi kinoda ilk işidir. "Bu, həqiqətin səsidir. Bəstəkar Qara Qarayev" (1967), "Şərikli çörək" (1969), "Həyat bizi sınayır" (1971; M. Ağabəyovla birgə), "İstintaq" (1979), "Bağlı qapı arxasında" (1981), "Park" (1983), "Aşkarsızlıq şəraitində" (1986), "Həmyerli" (1989; qısametrajlı) və s. filmlərin quruluşçu rəssamı olmuşdur. B. mənzərə, natürmort və portret janrlarında da rəsmlər çəkmişdir. Əsərləri bir sıra sərgilərdə nümayiş etdirilmişdir.

**BAĞIROV** Hacıbaba Ağarza oğlu (12.4.1932, Bakı – 4.10.2006, Bakı) – Azərb. aktyoru, Azərb. Resp. xalq artisti (1982). Azərb. Dram Teatrı nəzdindəki studiyanı bitirmiş, Lənkəran (1949–52) və Gəncə (1960–62) teatrlarında işləmişdir. 1962–89 illərdə Azərb. Dövlət Musiqili Komediya Teatrının aktyoru olmuşdur. Rolları: İbiş, Dayandur, Sevindik, Cəbi Cümzadə, Novruzəli ("Özümüz bilərik", "Olmadı elə, oldu belə", "Sevindik qız axtarır", "Həmişəxanım", "Hardasan, ay subaylıq", S. Ələsgərov), İlqar ("Qayınana", Z. Bağırov), Əsgər Nəcəfoviç ("Ləpələr", A. Məlikov), Məşədi İbad, Soltan bəy ("O olmasın, bu olsun", "Arşın mal alan", Ü. Hacıbəyli), Mitoş, Atakişi ("Hicran", "Bankir adaxlı", E. Sabitoğlu), Cəsarət ("Nənəmin şahlıq quşu", A. Məşədibəyov) və s. B.-un ifası üçün plastiklik, qrotesk, incə yumor səciyyəvidir. *"Azərbaycanfilm"*in istehsal etdiyi bir sıra filmlərdə ("Ulduz", 1964, rej. A. Quliyev; "Qanun naminə", 1969, rej. M. Dadaşov; "Alma almaya bənzər", 1975, rej. T. Tağızadə; "Onun bəlalı sevgisi", 1980, rej. Z. Abbasov), eləcə də "Mozalan" satirik kinojurnalında çəkilmişdir. 1989–96 illərdə özünün təşkil etdiyi Bakı Tənqid-Təbliğ Teatrının bədii rəhbəri olmuşdur. 1996–2006 illərdə Azərb. Dövlət Musiqili Komediya Teatrının bədii rəhbəri və direktoru vəzifəsində çalışmışdır. Azərb. Resp.-nın "Şöhrət" ordeni ilə təltif edilmişdir.



H. Bağırov İlqar rolunda ("Qayınana", Z. Bağırov).



**BAĞIROV** Xanhüseyn İslamoviç (d.24.8.1956, Bakı) – Azərb. idmançısı. Stend atıcılığı üzrə beynəlxalq dərəcəli idman ustası (1980). Dəfələrlə Azərb. (1976–77, 1984, 1987) və ikiqat SSRİ (1983, 1985) çempionu olmuşdur.

**BAĞIROV** Kamran Məmməd oğlu (24.1.1933, Bakı – 25.10.2000, Bakı) – Azərb. siyasi və dövlət xadimi. Azərb. Politexnik İn-tunu (1957), Sov. İKP MK yanında qiyabi Ali Partiya Məktəbini (1976) bitirmişdir. Azərb. Politexnik İn-tunda müəllim, dekan müavini (1957–63) işləmiş, 1963 ildən Tikintidə Yeni Texnologiyanın Tətbiqi Tres-tində baş layihə mühəndisi, Sənaye Müəssisələri Tikintisini Mexanikləşdirmə Tresti müdirinin müavini, 1968–71 illərdə Azərb. SSR Nazirlər Sovetində tikinti və kommunal təsərrüfatı şöbəsi müdirinin müavini olmuşdur. B. Azərb. KP MK-nın tikinti və şəhər təsərrüfatı şöbəsinin müdiri (1971–74), Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi (1974–78), Azərb. KP MK-nın katibi (1978–82) və KP MK-nın 1-ci katibi (1982–88) olmuşdur. SSRİ Ali Sovetinin (9-cu və 11-ci çağırış) və Azərb. SSR Ali Sovetinin (8–11-ci çağırış) deputatı olmuşdur. Lenin ordeni, Oktyabr İnqilabı ordeni və 2 dəfə Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.



**BAĞIROV** Qulam Kərim oğlu (1904, Cənubi Azərb., Mərənd şəhristanının Dizə k. – 15.4.1985, Bakı) – Azərb. dilçisi, filologiya e.d. (1966). Azərb. Ali Pedaqoji İn-tunu (1927) və Azərb. Dövlət Un-tini (1929) bitirmişdir. Ali Partiya məktəbində, Azərb. Müəllimləri Təkmilləşdirmə İn-tunda (1931–36) və Azərb. Xarici Dillər İn-tunda (1956–67) kafedra müdiri işləmişdir. Tədqiqatları Azərb. dilində ismin hallarının sintaktik rolu, fellərin leksik-semantik inkişafı məsələlərinə həsr olunmuşdur.

Ə s ə r i: Azərbaycan dilində fellərin leksik-semantik inkişafı. B., 1996.

**BAĞIROV** Məhərrəm Namaz oğlu (10.9.1927, Gürc.-ın Marneuli r-nunun Ağaməmmədli k. – 23.9. 2003, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1950). 1949 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.



**BAĞIROV** Məmmədtağı Abbas oğlu (5.8.1890, Bakı – 16.4.1961, Bakı) – Azərb. müğənnisi (bariton). Azərb. SSR xalq artisti (1939). 1909 ildən Bakıdakı opera truppalarında xorda oxumuş, 1914 ildən solist kimi çıxış etmişdir. 1920–59 illərdə Azərb. Opera və Balet Teatrının solisti olmuşdur. B. gücü, gözəl, axıcı səsə, aktyorluq istedadına malik idi. Əsas partiyaları: Həsən xan, keşiş ("Koroğlu", "Əsli və Kərəm", Ü. Hacıbəyli), Aslan şah, Ağalar bəy ("Şah İsmayıl", "Nərgiz", M. Maqomayev), Şahvələd ("Aşıq Qərib", Z. Hacıbəyov), Əbdüləli bəy ("Sevil", F.Əmirov), Bartolo ("Sevilya bərbəri", C. Rossini) və s. B. həmçinin "Arşın mal alan" (Ü. Hacıbəyli) operettasında Soltan bəy və Süleyman obrazlarını böyük ustalıqla yaratmışdır.



**BAĞIROV** Mikayıl Kazım oğlu (d.1.11.1934, Nax. MR, Şərur r-nunun Daşarx k.) – neft-qaz yataqlarının işlənilməsi sahəsində Azərb. alimi, texnika e.d. (1997), prof. (2008). Azərb. Sənaye İn-tunu (indiki ADNA) bitirmişdir (1956). Ə. Əmirov ad. Neft və Qazçıxarma İdarəsində (1956 ildən), Azərb. Neft Sənayesi Elmi Tədqiqat və Layihə İn-tunda (AzNSETLİ; 1960 ildən) müxtəlif vəzifələrdə çalışmışdır. 1971–75 və 1982–86 illərdə Əlcəzair Resp.-nın Neft-Kimya İn-tunda müəllim işləmiş, 1992–2002 illərdə AzNSETLİ-nin direktoru olmuşdur. 2002 ildən Geofizika İn-tunda baş elmi işçidir. Tədqiqatları neft-qaz yataqlarının işlənilməsi və istismarı sahəsindədir. 120 elmi əsərin, o cümlədən 4 monoqrafiyanın, 35 patent və ixtiranın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r l ə r i: Регулирование притока нефти к скважине. Б., 1997; Добыча нефти скважинными штанговыми насосами. Б., 2001; Повышение нефтеотдачи пласта с применением микропенных систем. Б., 2001; Термоинтенсификация добычи нефти. Б., 2003.

**BAĞIROV** Mir Cəfər Mir Abbas oğlu (17.9.1896, Quba – 26.5.1956, Bakı) – Azərb. siyasi və dövlət xadimi. 11-ci Qırmızı ordunun hərbi-inqilabi şurasının sərəncamında olan B. 2-ci briqadanın komandiri, 1-ci atıcı diviziyanın hərbi tribunalının, 11-ci Qırmızı ordu hərbi tribunalının səyyar sessiyasının sədri, Azərb. diviziyasının hərbi komissarı, Azərb. Fövqəladə Komissiyasının sədri vəzifələrində (1920–21) çalışmışdır. Tiflisdə Zaqafqaziya Su Təsərrüfatı İdarəsinin (1927–28) və Zaqafqaziya Kənd Təsərrüfatı İdarəsinin sədri (1928–29) olmuşdur. 1929–30 illərdə Azərb. Dövlət Siyasi İdarəsinin sədri, 1930–33 illərdə Azərb. Xalq Komissarları Sovetinin sədri, 1933–53 illərdə Azərb. KP MK-nın birinci katibi işləmişdir. 1953 ildə bu vəzifədən azad olunaraq Azərb. SSR Nazirlər Sovetinin sədri təyin edilmişdir. 1953–55 illərdə Kuybışev ş.-ndə neft idarəsi rəisinin müavini işləmişdir. 1955 ildə həbs edilmiş, 1956 ildə məhkəmənin qərarı ilə haqqında ölüm hökmü çıxarılmışdır. 5 dəfə Lenin ordeni, 2 dəfə Qırmızı Bayraq, 1-ci dərəcəli Vətən müharibəsi, Qırmızı Əmək Bayrağı, Azərb.-ın Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif olunmuşdur.



**BAĞIROV** Mirzəağa Əyyub oğlu (d.16.6.1927, Lənkəran) – energetika sahəsində Azərb. alimi, texnika e.d. (1966). Azərb. Resp. əməkdar elm xadimi (1981). M. Əzizbəyov ad. Azərb. Sənaye İn-tunu (indiki ADNA) bitirmişdir (1949). 1950–66 illərdə Moskvada Energetika İn-tunda və İ. Qubkin adına Neft İn-tunda, 1966–76 illərdə Azərb. Elmi Tədqiqat Energetika İn-tunda çalışmış, 1976–89 illərdə Azərb. Politexnik İn-tunun rektoru, 1989–97 illərdə AMEA-nın Radiasiya Problemləri İn-tunda laboratoriya müdiri, 1997–2004 illərdə Lənkəran Dövlət Un-tinin rektoru, 2004–08 illərdə Radiasiya Problemləri İn-tunda laboratoriya müdiri işləmişdir. 2008 ildən həmin in-tda baş elmi işçidir. Tədqiqatları elektrik boşalmasının və ionlaşdırıcı şüalanmanın təsiri altında polimer və polimer-kompozit materialların köhnəlməsi sahəsindədir. 300-dən artıq elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. Bir sıra xarici ölkələrdə (ABŞ, Almaniya və s.) keçirilən elmi konfranslarda iştirak etmişdir. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r l ə r i: Воздействие электрических разрядов на полимерные диэлектрики (Abbasov S.A. və Malin V.P. ilə birlikdə). Б., 1975; Электрическое старение полимерных диэлектриков. Б., 1987.

**BAĞIROV** Mübariz Məmmədhüseyn oğlu (d. 11.8.1961, Nax. MR-in Şahbuz r-nu) – Azərb. iqtisadçısı, iqtisad e.d. (1997). Azərb. Xalq Təsərrüfatı İn-tunu və Moskva Dövlət Un-tini bitirmişdir. Bakı Baş Tikinti İdarəsində müxtəlif vəzifələrdə, o cümlədən 1989–93 illərdə direktor müavini, 1998–2000 illərdə Azərb. İqtisadçılar İttifaqında şöbə müdiri işləmiş, 2000 ildən "Odlar Yurdu" Un-tində kafedra müdiridir. Tədqiqatları maliyyə və bank sistemi sahəsinə həsr olunmuşdur. 70-dən çox elmi əsərin, o cümlədən 4 monoqrafiyanın müəllifidir.

Ə s ə r i: Создание национальной банковской системы Азербайджана. СПб., 1997.

**BAĞIROV** Müseyib Bağır oğlu (9.5.1915, Yelizavetpol, indiki Gəncə – 17.5.1981, Bakı) – Sovet İttifaqı Qəhrəmanı (22.2.1944). 1938 ildən Sovet ordusunda xidmət etmişdir. Böyük Vətən müharibəsində rota komandiri olan kapitan B. Ukrayna uğrunda vuruşmalarda igidlik göstərmişdir. B. Stalinqraddan Vyanayadək döyüş yolu keçmişdir. 1945 ildə ordudan buraxılmışdır. Qırmızı Bayraq, 2-ci dərəcəli Vətən müharibəsi, Qırmızı Ulduz ordenləri ilə təltif olunmuşdur. "Volqadan Dunayadək" (1974) xatirələr kitabının müəllifidir.



**BAĞIROV** Natiq Nadir oğlu (d.7.9.1964, Bakı) – Belarus idmançısı, məşqçi. SSRİ idman ustası (1981), beynəlxalq dərəcəli idman ustası (1986), Belarus əməkdar idman ustası (1995). Azərb. Dövlət Neft və Kimya İn-tunu (1986) və Minsk Beynəlxalq Humanitar-İqtisad İn-tunu (2001) bitirmişdir. 2002 ildən cüdo üzrə Belarus yığma komandasının baş məşqçisidir. Sambo üzrə dördqat dünya (1991, Fransa; 1992, Minsk; 1997, Tbilisi; 1998, Rusiya) və beşqat Avropa (1989, B.Britaniya; 1992, Kiyev; 1994, Litva; 1995, Minsk; 1998, Litva) çempionu, cüdo üzrə dünya (1995, Yaponiya; 1999, B.Britaniya) və Avropa (1995, Birmingem; 1999, Bratislava) çempionatlarının bürünc, Avropa Kuboku yarışlarının (1994, Niderland) komanda hesabında gümüş mükafatçısı olmuşdur. Tələbələri arasında dünya, Avropa çempionları və mükafatçıları var.



**BAĞIROV** Nüsrət Zülfüqar oğlu (d.1.7.1920, Şuşa) – Azərb. əməkdar bədən tərbiyəsi və idman xadimi (1970). Azərb. Dövlət Un-tini bitirmişdir (1947). Resp. "Dinamo" idman cəmiyyətinin sədri vəzifəsində çalışmışdır (1968–88).

**BAĞIROV** Rauf Mömin oğlu (d.6.12.1938, Bakı) – Azərb. hidrobioloqu, biologiya e.d. (1990). Azərb. Dövlət Un-tini bitirmişdir (1961). AMEA-nın Zoologiya İn-tunda kiçik elmi işçi (1966–67), baş elmi işçi (1968–73), laboratoriya müdiri (1974–99), ARDNŞ-nin Kompleks Geoloji Kəşfiyyat və Topoqrafiya İdarəsinin ekoloji tədqiqatlar ekspedisiyasında (1999–2005), "Azərekologiyaservis" İdarəsində (2005–2006) hidrobioloq işləmiş, 2006 ildən ARDNŞ-nin Ekologiya İdarəsində həmin vəzifədə çalışır. Tədqiqatları Xəzər dənizinin biologiyasına, perifitonun, bentosun və planktonun ekologiyasına, onurğasız heyvanlar üzərində ekotoksikoloji biotestlərə həsr olunmuşdur. 60-dan artıq elmi əsərin və bir monoqrafiyanın müəllifidir.

Ə s ə r i: Биология современного Каспия (Ə.H. Qasımovla birlikdə). Б., 1983.

**BAĞIROV** Rüstəm Əbülfəz oğlu (31.12.1935, Cəlilabad – 23.6.2009, Bakı)– Azərb. kimyaçısı, texnika e.d. (1989), prof. (1990). Azərb. Sənaye İn-tunu bitirmişdir



BAĞIROV

(1959). Neft-Kimya Prosesləri İn-tunda, Elmi Tədqiqat və Layihə Qaz İn-tunda şöbə müdiri (1965–73), laboratoriya müdiri (1973–2009), həmçinin elmi işlər üzrə direktor müavini (1983–88) işləmişdir. Tədqiqatları yanacağın və qazların kimyəvi texnologiyası sahəsindədir. 220-dən çox elmi əsərin, o cümlədən iki monoqrafiya və bir neçə kitabın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r l ə r i: Адсорбционно-хроматографические методы очистки и разделения углеводородов (A.M. Quliyevlə birlikdə ). Б., 1977; Осушка, очистка и разделение газов (A.S. Məlikovla birlikdə ). Б., 2001.

**BAĞIROV** Səttar Nəsir oğlu (10.6.1906, İrəvan – 14.10.1978, Bakı) – Azərb. farmakoloqu, tibb e.d. (1963), prof. (1966). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1936). Həmin in-tun farmakologiya kafedrasının dosenti (1950–66), prof.-u (1966–70) və müdiri (1970–78) işləmişdir. Tədqiqatları Naftalan neftinin, mineral suların və hormonal preparatların orqanizmə təsirinin öyrənilməsinə həsr edilmişdir. 60-dan artıq elmi əsərin müəllifidir.

Ə s ə r i: Минеральный источник Туршсу и его лечебное значение. Б., 1962.

**BAĞIROV** Siyavuş Musa oğlu (d.17.2. 1936, Naxçıvan) – texniki sistemlərdə idarəetmə sahəsində Azərb. alim, texnika e.d. (1991), prof. (1994). Azərb. Sənaye İn-tunu (indiki ADNA) bitirmişdir (1959). Energetika ETİ-də baş elmi işçi (1966–78), Azərb. EA Elmi Mərkəzində şöbə müdiri (1978–81), ADNA-da dosent və prof. (1981–96), Azərb. Texniki Un-tində (ATU) dekan (1997–2001) işləmişdir. 2001 ildən ATU-da kafedra müdiri vəzifəsində çalışır. Tədqiqatları elektroenergetika, o cümlədən elektrik mühərriklərinin idarə olunması, optimal idarəetmə sahəsindədir. 200-dən artıq elmi əsərin müəllifidir. Bir sıra beynəlxalq konqreslərdə məruzələr etmişdir. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r i: Quyudibi elektrik qazıyıcısının tezliklə avtomatik idarəetmə sistemi. B.,1999.

**BAĞIROV** Şəmsəddin Mirzəli oğlu (d.25.5.1929, Bakı) – neft mexanikası sahəsində Azərb. alimi, texnika e.d. (1970), prof. (1982). Moskva Avtomobil Yolu İn-tunu bitirmişdir (1950). Azərb. Sənaye İn-tunda (indiki ADNA) assistent, dosent, dekan (1954–82), Azərb. Politexnik İn-tunda (indiki AzTU) kafedra müdiri (1982–94) işləmiş, 1994 ildən prof. vəzifəsində çalışır. Tədqiqatları maşın və mexanizmlərin mexanika və nəzəriyyəsinə dair məsələlərin həlli sahəsindədir. 100-ədək elmi əsərin, o cümlədən 1 monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r i: Mexaniki sürət variatorları. B., 1962.

**BAĞIROV** Tahir Əminağa oğlu (14.7. 1957, indiki Türkmənbaşı –11.10.1992, Laçın) – Azərb.-ın Milli Qəhrəmanı (5.2. 1993, ölümündən sonra). 1992 ilin yanvarında könüllü cəbhəyə getmiş, helikopterin bort atıcısı olmuşdur. *Xocalı soyqırımı* zamanı dinc əhalinin və yaralıların daşınmasında böyük səy göstərmişdir. Laçın r-nunun Səfiyan k. uğrunda gedən döyüşdə həlak olmuşdur. Bakıda, Şəhidlər Xiyabanında dəfn olunmuşdur. Adına küçə və məktəb var, büstü qoyulmuşdur.



**BAĞIROV** Toğrul Adil oğlu (d.6.5.1954, Bakı) – siyasi e. d. (2000), prof. (2001), Rusiya Təbiət Elmləri Akademiyasının m. üzvü (1997). Moskva Dövlət Beynəlxalq Münasibətlər İn-tunu bitirmiş (1976), SSRİ-nin XİN strukturunda müxtəlif vəzifələrdə çalışmışdır. 2000 ildən Rusiya-Amerika İşgüzar Əməkdaşlıq Şurası Himayədarlar Birliyinin sədr müavini, Beynəlxalq Moskva Neft Klubunun prezidentidir. Qlobal energetika problemləri üzrə BMT ekspertidir.

**BAĞIROV** Yalçın İsa oğlu (d.26. 5.1983, Gəncə) – Azərb. idmançısı. Azərb. Kənd Təsərrüfatı Akademiyasını (2004) bitirmişdir. Powerliftinq üzrə ikiqat Azərb. (2006, 2008), Avropa (2008) çempionu, dünya çempionatının (2008) gümüş mükafatçısıdır.



**BAĞIROV** Zakir Cavad oğlu (16.3. 1916, Şuşa – 8.1.1996, Bakı) – Azərb. bəstəkarı. Azərb. SSR əməkdar incəsənət xadimi (1961). 1949 ildə Moskva Dövlət Konservatoriyasını bitirmiş, həmin ildən Azərb. Dövlət Konservatoriyasında müəllim işləmişdir (1978 ildən prof; 1957–82 illərdə musiqi nəzəriyyəsi kafedrasının müdiri). B. "Aygün" (1972), "Xottabıç" (1979) operalarının, "Kəndimizin mahnısı" (1958) və "Qayınana" (1964) operettalarının, birpərdəli "Milçək-vizilçək" (1982) baletinin, xalq çalğı alətləri ork. üçün süitaların (1956, 1969), fp. ilə ork. (1970), tar ilə ork. (1983) üçün konsertlərin, orqan üçün improvizasiya və fuqanın (1973), kamera-instrumental əsərlərin, mahnı və romansların müəllifidir. Rast, Dügah, Zabul-segah muğamlarını (T. Quliyevlə birlikdə) nota salmışdır. B. bir çox dram tamaşasına və kinofilmə musiqi yazmışdır.



**BAĞIROVA** Bəsti Əlisafa qızı (11.2. 1953, Hacıqabul – 2.10.2004, Bakı) – Azərb. tibb alimi, tibb e.d. (2004). Azərb. Dövlət Tibb İn-tunu (indiki ATU) bitirmişdir (1979). 1998–2004 illərdə ATU-da kafedra müdiri işləmişdir. Tədqiqatları qidalanmanın gigiyena məsələlərinə həsr edilmişdir. 67 elmi əsərin müəllifidir. Ümumdünya Səhiyyə Təşkilatının Azərb. üzrə koordinatoru (2002–04) olmuşdur.

**BAĞIROVA** Bəsti Məsim qızı (10.4. 1906, indiki Goranboy r-nunun Bağçakürd k. – 27.2.1962, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1947, 1950). 1947–50 illərdə pambıqçılıq sahəsində yüksək nailiyyətlər əldə etmişdir. İndiki Goranboy r-nundakı "Bağçakürd" kolxozunun sədri (1953–62) işləmişdir. SSRİ Ali Sovetinin (1–3-cü çağırış), Azərb. SSR Ali Sovetinin (4–5-ci çağırış) deputatı seçilmişdir. 3 dəfə Lenin ordeni, Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur. Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir.



**BAĞIROVA** Gülzar Çoban qızı (14.7. 1918, Tovuz r-nunun Əsrik Cırdaxan k. – 7.8.1999, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1949). 1948 ildə üzümçülük sahəsində yüksək nailiyyətlər əldə etmişdir.



**BAĞIROVA** Hicran Firidun qızı (d.15. 10.1951, Tovuz r-nunun Düzqırıq k.) – Azərb. tibb alimi, mama-ginekoloq, tibb e.d. (2003), prof. (2008), Azərb. Resp. əməkdar həkimi (2008). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1973). 1975–93 illərdə SSRİ Tibb EA Ümumittifaq Onkoloji Elmi Mərkəzinin ginekologiya şöbəsində işləmiş, 1993 ildən ATU-nun II mamalıq-ginekologiya kafedrasında (2003 ildən kafedra müdiri) çalışır. Tədqiqatları uşaqlıq boynunun və uşaqlıq cisminin şiş xəstəliklərinin öyrənilməsinə həsr edilmişdir. 70-dən artıq elmi əsərin müəllifidir.

**BAĞIROVA** İradə Səid qızı (d.12.2. 1956, Bakı) – Azərb. tarixçisi, tarix e.d. (2000). Moskva Dövlət Un-tini bitirmişdir (1979). Həmin ildən Azərb. EA Tarix İn-tunda fəaliyyətə başlamış, 2002-ci ildən şöbə müdiri vəzifəsində çalışır. Tədqiqatları Azərb.-ın 19–20 əsrin əvvəllərindəki siyasi tarixinə və Qafqaz xalqlarının tarixinə həsr olunmuşdur. 50-dək elmi əsərin, o cümlədən bir monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r i: Б а г и р о в а И.С. Политические партии и организации Азербайджана в начале 20 века. Б., 1997.

**BAĞIROVA** Rəfiqə Məzahir qızı (d.14. 8.1955, Bakı) – Azərb. fizioloqu, biologiya e.d. (2007). Azərb. Dövlət Un-tini bitirmişdir (1980). AMEA-nın Fiziologiya İn-tunda kiçik elmi işçi, böyük elmi işçi, baş elmi işçi (1985–94) işləmiş, 1997 ildən Azərb. Dövlət Bədən Tərbiyəsi Akademiyasında dosent vəzifəsində çalışır. Tədqiqatları hippokampal tetaritmin genezinə və funksional əhəmiyyətinə həsr olunmuşdur. 100-dən çox elmi əsərin, o cümlədən 1 monoqrafiyanın müəllifidir.

Ə s ə r i: Закономерности регуляции гиппокампальной активности. Б., 2008.

**BAĞIROVA** Şövkət Əsəd qızı (1909, Tovuz r-nunun Qovlar qəs. – 1989, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1948). 1947 ildə pambıqçılıq sahəsində yüksək nailiyyətlər əldə etmişdir. Azərb. SSR Ali Sovetinin (4–5-ci çağırış) deputatı olmuşdur.



**BAĞIROVA** Tamilla Əli qızı (d.7.3. 1954, Bakı) – Azərb. pedaqoqu, pedaqoji e.d. (2009), prof. (2010). Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1978). ADPU-da müəllim, konsertmeyster, baş müəllim, dosent (1984–2010) işləmişdir. 2010 ildən prof. vəzifəsində çalışır. Tədqiqatları ümumi pedaqogika, pedaqogika tarixi və nəzəriyyəsi məsələlərinə həsr olunmuşdur. Bir çox dərslik və dərs vəsaitinin müəllifidir. Pedaqoji kadrların hazırlanmasında xidməti var.

Ə s ə r l ə r i: Становление и развитие детских музыкальных школ в Азербайджане (1920–1961 гг.). Б., 1994; Синкретизм искусств в формировании индивида и социума. Б., 2005; Aşıq sənətinin yaranma tarixi və inkişafı (F. Hidayətova ilə birlikdə). B., 2009.

**BAĞIRSAQ** – Azərb. Resp. Kəlbəcər r-nunun Qamışlı ə.d.-ndə kənd. R-n mərkəzindən 16 *km* şm.-ş.-dədir. Əh. 400 (2008); işğaldan (1993, aprel) əvvəl tütünçülük və maldarlıqla məşğul olmuşdur. Orta məktəb var idi.

**BAĞIRSAQ** – heyvanların çoxunda ağız dəliyindən başlayan və anusla qurtaran həzm borusu; şöbələrə ayrılmış həzm yolu olan heyvanlarda və insanda B. həzm borusunun mədədən sonra gələn fraqmentidir; burada qida maddələri həzm olunur və sorulur, həzm olunmayan qida qalıqları isə xaric edilir. Embrional inkişafın gedişində i l k B. ikiqat rüşeymdə (qastrulada) daxili (entoderma) və orta (mezoderma) rüşeym qatlarının əmələ gətirdiyi boşluq şəklində formalaşır. Həmin boşluq xarici mühitlə, yeganə dəlik olan ilkin ağız (blastopor) vasitəsilə əlaqələnir. İnkişafın sonrakı mərhələlərində mezoderma ayrılır və o r t a B. kimi formalaşır. İlkağızlı heyvanlarda (müxtəlif qurdlar, buğumayaqlılar, molyusklar və s.) blastoporun yerində xarici rüşeym qatının (ektodermanın) içəriyə gərilməsi nəticəsində ağız dəliyi və ö n B. əmələ gəlir. Bədənin əks qütbündə ektodermal a r x a B. və anus dəliyi də belə inkişaf edir (kor bağırsağı olan bağırsaqboşluqlulardan və yastı qurdlardan başqa). Sonağızlı heyvanlarda (məs., dərisitikanlılar, xordalılar) blastoporun yerində anus dəliyi və arxa B. əmələ gəlir, ağız və ön B. isə bədənin əks qurtaracağında (qütbündə) yenidən formalaşır.

Hidroidlərin yetkin formalarında B. torbaşəkilli boşluqdur, ilkin embrional B.-a oxşayır; qədəhvarı meduzalarda, mərcan poliplərində və daraqlılarda bu, ektodermal udlaq ilə tamamlanır. Kor B.-ı olan heyvanlarda ağız dəliyi həm də qida qalıqlarını çıxarmaq üçün istifadə edilir. Ali onurğasızlarda və onurğalılarda B. şöbələrə ayrılır və mürəkkəb quruluşlu olur. B.-ın əsas şöbələrinin ayrılmasının və inkişaf dərəcəsinin xarakteri qidalanmanın spesifikası ilə müəyyənləşir və müxtəlif qrup heyvanlarda xeyli fərqlənir. Məs., həşəratlarda ön və arxa B. güclü inkişaf etmiş, orta B. nisbətən kiçikdir, onurğalılarda isə B.-ın böyük hissəsini orta B. təşkil edir. Onurğalıların əksəriyyətində həzm borusu ağız boşluğuna, udlağa, ön B.-a (*qida borusu* və *mədə*), orta, yaxud nazik B.-a və arxa, yaxud yoğun B.-a ayrılır; sonuncunun daha nazikdivarlı olan qısa arxa şöbəsi kloaka, ya da anus dəliyi ilə açılan düz B.-la qurtarır. İbtidai heyvan qruplarında şöbələr arasındakı sərhədlər aydın deyildir. Məməlilərdə B. daha mürəkkəb diferensiasiyaya malikdir: nazik B. xeyli uzanaraq çoxlu ilgəkşəkilli əyriliklər əmələ gətirir; burada onikibarmaq B., acı B. və qalça B. yerləşir. Yoğun B. qalça B.-dan dairəvi büküşlə ayrılır; çənbər B.-dan (bura qalxan çənbər B., köndələn çənbər B. və enən çənbər B. daxildir), S-əbənzər B.-dan və düz B.-dan ibarətdir. Bəzi gəmiricilərdə, dovşankimilərdə, yırtıcılarda və primatlarda kor B. ucunda uzunsov və soxulcanabənzər nazik çıxıntı (appendiks) əmələ gətirir. B. bədənin qarın boşluğunda yerləşir və bu boşluğu örtən müsariqənin büküşündən asılmış halda olur. B.-ın divarı boylama və dairəvi saya əzələ qatlarından əmələ gəlmişdir; xaricdən seroz qişa (periton), daxildən isə B. şirəsi ifraz edən xırda həzm vəzilərinin yerləşdiyi və limfa toxumalarının toplandığı selikli qişa ilə örtülmüşdür. B.-ın uzunluğu, əsasən, qidanın xarakterindən asılıdır; bitkiyeyən heyvanların B.-ı, yırtıcılara nisbətən uzun olur. B. simpatik sinir sistemi və həssas onurğa beyni sinirləri ilə innervasiya edilir. Nazik B.-ın başlanğıc şöbəsinə (quruda yaşayan onurğalılarda bu, *onikibarmaq bağırsaq* adlanır) həzm sisteminin ən böyük vəziləri olan qara ciyər və mədəaltı vəzinin axacaqları açılır. Təkamül gedişində B.-ın daxili (sorucu) səthi büküşlər sisteminin əmələ gəlməsi hesabına böyüyür. Balıqlarda yoğun B.-ın daxili sorucu səthi selikli qişada boylama büküşlərin olması hesabına böyüyür (bunların səthində həzmin aralıq və son mərhələləri və həzm məhsullarının sorulmasının başlanğıc mərhələləri yerinə yetirilir). Qığırdaqlılarda və ibtidai sümüklü balıqlarda B. boyunca spiral klapan adlanan bir iri büküş uzanır. Sümüklü balıqlarda bu, reduksiyaya uğrayır, lakin B.-ın özü, xüsusilə onun az və ya çox dərəcədə inkişaf etmiş əyriliklər əmələ gətirən nazik hissəsi uzanır; bundan başqa, həmin balıqlarda

mədəyə yaxın B.-dan onun sorucu səthini böyüdən boş kor çıxıntılar – pilorik artımlar ayrılır. Quru onurğalılarında büküşlər sistemi mürəkkəbləşir, B.-ın daxili səthi alveollu quruluş alır. Quşların və məməlilərin nazik B.-ında onun selikli qişasının səthinə məxmərvarı səciyyə verən və sorucu səthini xeyli böyüdən çoxlu sayda B. xovları var. Nazik və yoğun B.-ın sərhədində, kor B. adlanan çıxıntı əmələ gəlir; bitkiyeyən heyvanlarda daha çox inkişaf etmişdir.

**İnsan B.-ına** məməlilər üçün səciyyəvi olan bütün əsas şöbələr daxildir. B.-ın divarı 4 qişadan (selikli, selikaltı, əzələ və seroz) ibarətdir. Selikli qişanı əmələ gətirən epiteli hüceyrələri arasında selik (onun əsas komponenti mukopolisaxaridlərdir) ifraz edən qədəhvarı hüceyrələr vardır. Selikli qişanın təqr. 20%-ni mədə-bağırsaq yoluna daxil olan antigenlərə (bakteriyalara, viruslara və qida allergenlərinə) cavab olaraq anticismlərin əmələ gəldiyi immunokompetent limfa toxuması təşkil edir (bax *İmmunitet, İmmun sistemi*). Bundan əlavə, B.-da həzm yolunun müxtəlif şöbələrinin fəaliyyətinin tənzimlənməsində iştirak edən bir sıra hormonların sekresiyası yerinə yetirilir (bax *Qastrointestinal hormonlar*). Selikaltı qişa qan damarları və sinirlərlə zəngin olan birləşdirici toxumadan əmələ gəlmişdir. Əzələ qişası saya əzələlərin iki – dairəvi və boylama qatlarından, seroz qişa isə xaricdən yastı epiteli ilə örtülmüş möhkəm birləşdirici toxumadan ibarətdir. Qida komponentlərinin parçalanmasında və parçalanma məhsullarının qana sorulmasında əsas işi n a z i k B., yaxud B.-ı n n a z i k ş ö b ə s i görür. Onun uz. insan bədəninin uz.-undan 4–5 dəfə (bəzən çox) artıqdır; diametri 5 *sm*-dən (yuxarıda) 3 *sm*-ədək (son hissədə) olur. Nazik B.-ın 20–30 *sm*-i onikibarmaq B.-ın, 2/5-si acı B.-ın və 3/5-ü qalça B.-ın payına düşür. Onikibarmaq B. mədəaltı vəzini nal şəklində əhatə edir və iki digərinə nisbətən azhərəkətlidir. Nazik (xüsusilə onikibarmaq) B. tərkibində həzm prosesini təmin edən müxtəlif fermentlərdən ibarət çoxlu miqdarda sekret ifraz etməsi ilə səciyyələnir. Selikli qişada çoxlu büküşlər var (bunların hesabına B.-ın daxili səthi 2 dəfədən çox böyüyür) və ümumi sorucu səthi daha 5 dəfə böyüdən barmaqşəkilli çıxıntılar – xovlarla örtülmüşdür. Öz növbəsində, B.-ın mənfəzinə açılan üzəri xovlarla örtülü epiteli hüceyrələrinin səthindəki çoxlu miqdarda mikroxovlar hüceyrələrlə birlikdə şotkalı haşiyə əmələ gətirir. Mikroxovların tərkibində miozin saplarından ibarət torla birləşmiş aktin mikrofilamentləri dəstələri var. Bu saplar sistemi mikroxovların dalğavarı hərəkəti (titrəyişi) nəticəsində qida maddələrinin yerli qarışdırılmasını və yaxşı sorulmasını təmin edir. Mikro-




**İnsan bağırsaqları.**
N a z i k b a ğ ı r s a q: *1* – onikibarmaq bağırsaq; *2* – acı bağırsaq və qalça bağırsaq. Y o ğ u n b a ğ ı r s a q: *3* – kor bağırsaq; *4* – apendiks (soxulcanabənzər çıxıntı); *5* – çənbər bağırsaq; 6 – S-əbənzər bağırsaq; *7* – düz bağırsaq.

xovlar B.-ın möhtəviyyatı ilə onun kontakt sahəsini daha 20 dəfə artırır; beləliklə büküşlərin, xovların və mikroxovların əmələ gəlməsi hesabına nazik B.-ın sahəsi 100 dəfə artır.

Y o ğ u n B.-ı n, yaxud B.-ın yoğun şöbəsinin uz. 1,5–2,0 *m*, başlanğıc hissədə diametri 7–14 *sm* və kaudal (aşağı) hissədə 4–6 *sm*-dir. Burada kor B., çənbər B. (onun qalxan, köndələn və enən hissələri), S-əbənzər B. və düz B. ayırd edilir. Nazik B.-la müqayisədə yoğun B. üçün xovların olmaması, qədəhvarı hüceyrələrin çoxlu sayda olması, B. fermentlərinin azlığı səciyyəvidir; bunda şotkalı haşiyə az görünür, xeyli limfoid toxuma yığını vardır. Yoğun B.-da (xüsusilə onun aşağı hissəsində) patogen mikroorqanizmlərdən müdafiəni təmin edən, aminturşuların (o cümlədən insan üçün əvəzedilməz olan), bir sıra vitaminlərin (məs., B qrupu vitaminləri) və s. bioloji aktiv maddələrin sintezində iştirak edən çoxlu miqdarda simbioz bakteriyalar (mikroflora) yaşayır. Burada suyun (95%-ədək), duzların, bəzi üzvi birləşmələrin intensiv sorulması, nəcis kütləsinin formalaşması və onun orqanizmdən evakuasiyası baş verir. B.-da qida kütləsinin dəyişilməsi və hərəkəti (B.-ın motorikası) müxtəlif əzələlərin yığılması, o cümlədən ritmik seqmentasiya (B.-ın yaxın nahiyələrində dairəvi əzələlərin növbə ilə eyni zamanda yığılması və açılması) nəticəsində onun divarlarının konfiqurasiyasının dəyişilməsi, rəqqasvarı hərəkətlər, peristaltika yığılmaları ilə təmin olunur. İlk ikisi B.-ın müəyyən hissəsində möhtəviyyatın həzm şirələri ilə qarışdırılmasına yönəlmişdir. Peristaltika yığılmaları bütün B. boyu dalğavarı şəkildə yayılır: B.-ın bir hissəsində əmələ gələn tarımlıq onun digər hissəsində zəifləmə ilə müşayiət olunur, daha sonra bu hissə yığılır, sonrakı hissə isə zəifləyir və s. Bu zaman yığılmaların tezliyi B.-ın yuxarı şöbələrindən aşağıya doğru istiqamətdə azaldığı üçün, onun möhtəviyyatı yavaş-yavaş anal dəliyə tərəf irəliləyir. B.-ın fəaliyyəti, başlıca olaraq, əzələ qişasının iki qatı arasında yerləşən Auerbax kələfinin və selikaltı (Meyssner) kələfin nəzarəti altında olur. Auerbax kələfinin efferent lifləri saya əzələ hüceyrələrində qurtarır və onların tonusunu, yığılma ritmlərini tənzimləyir; selikaltı kələf, əsasən, epiteli hüceyrələrinin sekretor aktivliyinə nəzarət edir. B. hormonların (o cümlədən qastrin, sekretin və xolesistokinin) təsirinə daha çox həssasdır. B.-da, təsiri əvvəllər ancaq baş beyinlə əlaqələndirilən neyropeptid reseptorları – endorfin, enkefalin tapılmışdır. Bundan əlavə, B. yerli mexaniki və kimyəvi qıcıqlara qarşı cavab verə bilir. Məs., B.-da əmələ gələn serotonin hərəki fəallığı stimullaşdırır; onun gərilməsi (qida kütləsi və s. ilə) peristaltika refleksi törədir. B. xəstəlikləri və onların müayinə üsulları haqqında bax *Qastroenterologiya* məqaləsinə.

**BAĞIRSAQ ÇEVRİLMƏSİ** – bax *Bağırsaq keçməzliyi*.

**BAĞIRSAQ ÇÖPÜ** (Escherichia coli, Bact. coli, Bact. coli commune) – insan və heyvan bağırsağında yaşayan bakteriya. B.ç. ilk dəfə Avstriya həkimi T. Eşerix (1885) tərəfindən tapılmışdır. Hərəkətlidir, spor əmələ gətirmir. Qeyri-patogen növləri bir çox mikrobların antaqonistidir. Patogen növləri bağırsaq xəstəliyi olan kolibakteriozların törədicisidir. B.ç. normal bağırsaq florasında (insanda) əsas komponentlərdən sayılır. Çirklənmiş torpaqda, suda və bitkilərdə yayılmışdır. Mikrobioloji və molekul-yar-genetik tədqiqatlar üçün klassik obyektdir.

**BAĞIRSAQ DAĞI** – Azərb. Resp. Sədərək r-nu (Nax. MR) ərazisində dağ. Sədərək k.-ndən 12 *km* şm.-ş.-dədir. Hünd. 1992 *m*. Konusvarı formalı və sıldırım yamaclıdır.

**BAĞIRSAQ KEÇMƏZLİYİ** – bağırsaqdakı möhtəviyyatın normal hərəkətinin pozulması. Gedişinə görə kəskin (ileus) və xroniki, formasına görə mexaniki və dinamik olur; bununla yanaşı onlardan hər biri tam, yaxud natamam ola bilər.

M e x a n i k i B.k.-nə bağırsaq mənfəzini daraldan bağırsaqdaxili və ya bağırsaqdankənar müxtəlif maneələr (şiş, askaridoz və s. nəticəsində obturasion B.k.), yaxud bağırsağın çevrilməsi, invaginasiyası, düyünlənməsi (boğulmuş B.k.) ilə nəticələnən innervasiya pozuntuları səbəb olur. Bağırsaq mənfəzinin natamam obturasiyası zamanı keçilməzlik simptomları gah yaranır, gah itir, sonda peristaltikanın güclənməsi bağırsaq divarının maneədən yuxarı hissəsinin hipertrofiyası ilə nəticələnir. Tam obturasiya zamanı qaz maneədən yuxarı bağırsaq ilgəklərini şişirdir, aşağı ilgəklər isə yığılmış halda qalır. Bağırsaqların dolması antiperistaltikaya, bu da möhtəviyyatın mədə vasitəsilə boşalmasına (qusma) səbəb olur. Bağırsaq divarındakı dəyişikliklər zamanı infeksiyalı maye qarın boşluğuna sızır və *peritonit* inkişaf edir. Mexaniki B.k.-nin əlamətləri: qarında sancılı ağrılar, bağırsaqların köpməsi, nəcis və qazın keçməməsi (defekasiya tutmanın əvvəlində ola bilər), qusma, qarın divarının gərginləşməsi və (peritonit zamanı) peritonun qıcıqlanması. Natamam B.k. zamanı göstərilən əlamətlər imalədən (təmizləyici, hipertonik, sifonlu) sonra kəsilir, lakin bir müddətdən sonra yenidən başlayır. Simptomların, intoksikasiyanın getdikcə artması səciyyəvidir; mübadilə proseslərinin kəskin pozulmasından və ya peritonitdən ölüm baş verə bilər. Mexaniki B.k.-nin müalicəsi cərrahi üsullardır.

D i n a m i k B.k.-nin əsasını damarsinir pozulmaları (spazma, cərrahi əməliyyat nəticəsi və s.) təşkil edir. Spazmatik B.k. funksional pozulmalar, bəzən zəhərləyici təsirlər nəticəsində baş verir və bağırsaqların ümumi spazması ilə səciyyələnir; adətən, müvəqqəti olur; lakin bir sıra halda uzun sürdükdə bağırsaq divarı qidalanmasının pozulmasına, onun ölgünləşməsinə və ağır ümumi pozulmalara gətirib çıxarır. İflic B.k. həmişə ikincili olur və çox vaxt peritonitin inkişaf etməsi ilə ağırlaşır. Əlamətləri: spazmatik B.k. zamanı kəskin ağrı, ağrının tədricən şiddətlənməsi, peristaltikanın olmaması, sonradan şırıltı küyü. Bundan sonra zəhərlənmə əlamətləri artır. Diaqnostikada B.k.-nin formasının müəyyən edilməsi həlledici əhəmiyyətə malikdir, çünki müalicənin taktikası bundan asılıdır. Dinamik B.k.-nin müalicəsi çox halda konservativ üsullədır: spazmatik formada dəri altına atropin vurulur, böyrəkətrafı (paranefral) novokain blokadası edilir; iflic B.k. zamanı mədənin boşaldılma intubasiyası (arası kəsilmədən xüsusi boru vasitəilə sorulma) aparılır, qanqlioblokatorlar yeridilir. Bəzi hallarda cərrahi əməliyyat tətbiq etməklə bağırsaqların bu və ya digər boşaldılma üsullarından (qastrostomiya, ileostomiya, sekostomiya və s.) istifadə olunur.

**BAĞIRSAQ MİNERAL SUYU** – Azərb. Resp. Kəlbəcər r-nunda, Bağırsaq çayının (Tərtərin qolu) dərəsində, 2400 *m* hünd.-də, İstisu kurortunun yaxınlığındadır. Üst Yuranın vulkanogen və əhəngdaşı süxurlarından çıxır. Gündəlik debiti 25 min *l*-dir. Kimyəvi tərkibinə görə İstisu mineral suyuna yaxındır. Radonlu, karbon qazlıdır. Kimyəvi tərkibi:

$$CO_2 0,6–1,3\ M\ 4,6–5,3 \cdot \frac{HCO_3\ 69-73 \cdot Cl\ 22-29 \cdot SO_4\ 14-18}{Na\ 92-88 \cdot Ca\ 8}$$

pH6,4–6,8 D 25000 *l/gün* T 11–28°C

Suyunun minerallaşma dərəcəsi 4,6–5,3 *q/l*, temp-ru 11–28°C, radioaktivliyi 276,6 *nkuri/l*-dir (760 maxe vahidi). B.m.s. vannası oynaq xəstəlikləri, periferik sinir sistemi, I və II dərəcəli endarteriit və s. xəstəliklərin müalicəsinə müsbət təsir göstərir.

**BAĞIRSAQ ŞİRƏSİ** – bağırsaq vəzilərinin hasil etdiyi həzm şirəsi; qələvi reaksiyalıdır. Rəngsiz, yaxud sarımtıl mayedir; tərkibində selik yumruları və yapraxımış epiteli hüceyrələri var. B.ş.-ndə olan fermentlər qida karbohidratlarının, yağların və zülalların parçalanmasını tamamlayır. İnsan sutka ərzində 1–3 *l* B.ş. ifraz edir. B.ş. sekresiyası sinir və humoral yolla tənzimlənir.

**BAĞIRSAQBOŞLUQLULAR** (Coelenterata) – *knidarilərin* və *daraqlıların* daxil olduğu onurğasız heyvan tipi. Digər sistemə görə yaxın qohumluq əlaqəsi olmayan iki ayrı-ayrı tipi (knidariləri və daraqlıları) birləşdirən qədim karvan yollarından biri də B.-dən keçirdi və qədim Kərki şəhəri bu karvan yolu üzərindəki əsas məntəqələrdən idi. *Bağırsaqdərə* çayının adı buradandır.

**BAĞIRSAQDƏRƏ** – İrəvan xanlığının Vedibasar mahalında (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən Ararat r.-nu) dərə. Qədimdə Atropatenanı Albaniya ilə birləşdirən qədim karvan yollarından biri də B.-dən keçirdi və qədim Kərki şəhəri bu karvan yolu üzərindəki əsas məntəqələrdən idi. *Bağırsaqdərə* çayının adı buradandır.

**BAĞIRSAQDƏRƏ** – Azərb. Resp. Şərur r-nu (Nax. MR) ərazisində çay. Arazın sol qolu. Uz. 33 *km*, hövzəsinin sah. 117 $km^2$. 1860 *m* hünd.-dən başlanır. Əsasən, yağış suları ilə qidalanır. İlin çox vaxtı quruyur. Dolanbac olduğu üçün B. adlanır.

**BAĞIRSAQTƏNƏFFÜSLÜLƏR** (Enteropneusta) – yarımxordalılar tipindən dəniz heyvanları sinfi. Təqr. 100 növü var. Uz. bir neçə *sm*-dən 1 *m*-ə qədərdir; qurd şəklindədir. 3 hissədən ibarətdir: xortum, boyunluq və bədən. Qida borusunun yan divarlarında 2 çərgə qəlsəmə yarıqları yerləşir (adı da buradandır). Ayrıcinsiyyətlidir. İsti dənizlərdə yaşayır. Tipik nümayəndəsi balanoqlossdur.

**BAĞIRZADƏ** Faiq Məmməd oğlu (20.3.1926, Bakı – 30.3.1988, Bakı) – Azərb. neftçi geoloqu, Azərb. EA akad. (1983; m. üzv 1976). Azərb. SSR əməkdar elm xadimi (1980). 1949 ildə Azərb. Sənaye İn-tunu (indiki ADNA) bitirmişdir. "Azərneft" Birliyinin "Neft Daşları" idarəsində mühəndis-geoloq (1951–53), ADNA-da assistent (1952–54), baş müəllim və dosent (1954–62), geoloji-kəşfiyyat fakültəsinin dekanı (1962–65), xarici vətəndaşların təhsili üzrə fakültənin dekanı (1965–70), 1970 ildən Azərb. Dövlət Un-tinin (indiki BDU) rektoru vəzifələrində çalışmışdır. Elmi fəaliyyəti neft və qaz yataqlarının geoloji və geokimyəvi tədqiqi ilə bağlıdır. "Azərbaycan Respublikasının geokimyəvi anomaliyaları" xəritəsinin müəllifidir. 100-dən çox elmi əsərin, o cümlədən 3



monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var. Azərb. SSR Ali Sovetinin (8–9-cu çağırış) deputatı olmuşdur. Oktyabr İnqilabı və Qırmızı Əmək Bayrağı ordenləri ilə təltif edilmişdir.

Ə s ə r l ə r i: Формирование среднеплиоценовых залежей нефти и газа в акваториальной части Южно-Каспийской впадины. Б., 1969; Azərbaycanın neftli-qazlı vilayətlərinin geologiyası (H.Ə. Əhmədov və S.H. Salayevlə birlikdə). B., 1973; Геохимия нефтей и газов Апшеронско-Прибалханского порога (L.A. Buryakovski və F.R. Babayevlə birlikdə). M., 1974.

**BAĞIRZADƏ** Məmmədbağır Məmmədəli oğlu (21.7.1950, Bakının Nardaran k. – 30.10.2005, Bakı) – Azərb. müğənnisi. Azərb. Resp. xalq artisti (2002). Bakı Musiqi Texnikumunu (1979, Ə. *Məmmədovun* sinfi) və Azərb. İncəsənət İn-tunu (1987) bitirmişdir. 1981–85 illərdə "Azərkonsert"in, 1985 ildən Azərb. Dövlət Teleradio Verilişləri Komitəsində solist, 1981 ildən özünün təşkil etdiyi "Dilkəş" ansamblının rəhbəri olmuşdur. Repertuarına Azərb. muğam (Zabul-segah, Rast və s.) və təsnifləri, xalq mahnıları, həmçinin bəstəkar mahnıları daxil idi. Bir sıra mahnıların ("Darıxıram", "Göyçək qızım", "Ana dünyası", "Axşamlar", "Bir gün səni görməyəndə", "O günlər" və s.) müəllifidir. Bir çox xarici ölkədə çıxış etmişdir.



**BAĞIŞLAMA** – bir tərəfin digər tərəfin mülkiyyətinə əmlakın, hansısa bir əşyanın əvəzsiz verilməsi. B., həm müqavilə ilə, həm də müqaviləsiz həyata keçirilə bilər. B. müqaviləsi həmçinin hədiyyə alanın hədiyyə verən və ya üçüncü şəxs qarşısında əmlak vəzifəsindən azad edilməsi ola bilər. B. müqaviləsi hədiyyə alanın hədiyyəni qəbul etməsi ilə bağlanmış sayılır. Mənəvi və ya əxlaqi borcun icrası B. sayılmır. Fəaliyyət qabiliyyəti olmayan şəxsin əmlakından B. yalnız qanuni nümayəndələrin məsuliyyətinin saxlanması şərtilə, habelə qəyyumluq və himayəçilik hüququnun göstərişlərinə uyğun olaraq həyata keçirilə bilər. Qanunla müəyyən olunmuş hallarda hədiyyə verən bağışlamaqdan imtina edə bilər (hədiyyə alan hədiyyə verənin və ya onun yaxın qohumunun barəsində ağır cinayət törətdikdə və s.).



**BAĞIYEV** Bağı Fəyzi oğlu (19.11.1924, Ağsu r-nunun Qəşəd k. – 30.4. 2002, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1948). 1947 ildə taxılçılıq sahəsində yüksək nailiyyətlər əldə etmişdir.

**BAĞIYEV** Vaqif Laçın oğlu (d.12.11. 1951, İsmayıllı r-nunun Qubaxəlilli k.) – Azərb. kimyaçısı, kimya e.d. (2003), prof. (2010). Azərb. Neft və Kimya İn-tunu (indiki ADNA) bitirmişdir (1973). ADNA-nın fiziki və analitik kimya kafedrasında assistent, baş müəllim, dosent işləmiş, 2009 ildən prof. vəzifəsində çalışır. Tədqiqatları kiçikmolekullu olefinlərin və spirtlərin katalitik oksidləşməsi sahəsindədir. 80-dən çox elmi əsərin müəllifidir.

**BAĞLAMA** – aşıq şeiri növü. Məzmunca tapmaca və qıfılbəndə yaxındır, əsasən, qoşma formasında (3–5 bənd) yaradılır. *Deyişmə* zamanı dünya, insan taleyi, xeyir-şər, tarixi hadisələr, şəxsiyyətlər, dini-fəlsəfi anlayışlar və digər məsələlərə dair suallar verilir. Şeirin mənasını aça bilməyən aşıq bağlanmış – məğlub sayılır (adı da bununla əlaqədardır); bəzən o, hətta sazını da qalib aşığa verir. Qurbani, Abbas Tufarqanlı, Aşıq Ələsgər və b.-nın B.-ları məşhurdur.

**BAĞLAMA,** d i l ç i l i k d ə – tərkibi xəbərin qrammatik əlamət (predikatlıq) bildirən və mübtəda ilə uzlaşan hissəsindən ibarət köməkçi fel. Üç növü var: ə ş y a v i B.-lar tərkibi xəbərdə B. funksiyası daşıyan tammənalı fellərdir; belə fellər ayrılıqda müstəqil söz hesab olunur (məs., bağlamaq, bilmək); m ü c ə r r ə d B.-lar mücərrəd fellə ifadə olunan B.-lardır (məs., "idi", "imiş"); p r e d i k a t i v B.-lar sabit formalı B. funksiyası daşıyan əvəzliklərdir (məs., bu mənim kağızlarım. Bu da mən. Budur məsələ).

*Əd.:* H ü s e y n z a d ə M. Müasir Azərbaycan dili. H. 3, B., 1983; A d i l o v M.İ., V e r d i y e v a Z.N., A ğ a y e v a F.M. İzahlı dilçilik terminləri. B., 1989.

**BAĞLAR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin eyniadlı kəndistanında, Kəlibər qəs.-ndən 5 *km* c.-dadır.

**BAĞLAYICI,** q r a m m a t i k a d a – sadə cümlənin söz və söz birləşmələri, mürəkkəb cümlənin isə tərkib hissələri arasında qrammatik əlaqə yaradan köməkçi nitq hissəsi. Quruluşca sadə, düzəltmə və mürəkkəb olur. İki əsas qrupa bölünür: tabesizlik, tabelilik. Azərb. dilində tabesizlik B.-larının 6 [birləşdirmə-bitişdirmə (və, ilə), qarşılaşdırma (amma, ancaq, lakin, fəqət, halbuki), bölüşdürmə (ya, gah, istər), iştirak (hətta, həm, həm də, habelə), inkarlıq (nə, nə də), aydınlaşdırma (yəni, yəni ki, məsələn) bildirənlər], tabelilik B.-larının isə 5 növü [aydınlaşdırma (ki, belə ki), səbəb (çünki, ona görə ki), müqayisə və bənzətmə (sanki, guya, elə bil), şərt (əgər, hərgah), güzəşt (hərçənd, madam ki) bildirənlər] var. Müasir Azərb. ədəbi dilində baş və budaq cümlələri bağlamaq üçün "ki" tabelilik B.-sı daha çox işlənir.

*Əd.:* H ü s e y n z a d ə M. Müasir Azərbaycan dili. H. 3, B., 1973.

**BAĞLICA** – Azərb. Resp. Gədəbəy r-nunda çay. Bacan çayının sol qolu. Uz. 14 *km*.

**BAĞLICA** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qarağac bölgəsinin Çaharoymaq kəndistanında, Qarağac qəs.-ndən 30 *km* c.-ş.-də, Marağa–Miyanə avtomobil yolundan 49 *km* c.-dadır.

**BAĞLICA** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Ətraf bölgəsinin Zəncanrud kəndistanında, Zəncan ş.-ndən 26 *km* şm.-q.-dədir.

**BAĞLICA** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Ətraf kəndistanında, Zəncan ş.-ndən 18 *km* q.-dədir.

**BAĞLICA** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Qışlaqəfşar kəndistanında, Qiydar qəs.-ndən 48 *km* q.-dədir.

**BAĞLICASƏRDAR** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Zəncanrud kəndistanında, Zəncan ş.-ndən 45 *km* şm.-q.-dədir.

**BAĞLIPƏYƏ** – Azərb. Resp. Kəlbəcər r-nunda kənd. Bağlıpəyə ə.d.-nin (Bağlıpəyə, Vəng k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 24 *km* şm.-ş.-dədir. Əh. 448 (2008); işğaldan (1993, aprel) əvvəl tütünçülük və maldarlıqla məşğul olmuşdur. Orta məktəb, kitabxana, tibb məntəqəsi var idi.

**BAĞMANOV** Məcid Alı oğlu (d.30.4. 1930, Ağstafa r-nunun Yenigün k.) – Azərb. paleontoloqu, geologiya-mineralogiya e.d. (1984). 1953 ildə Azərb. Sənaye İn-tunu bitirmişdir. 1954 ildən Azərb. EA Geologiya İn-tunda çalışır. Tədqiqatları Kiçik Qafqazın mərkəzi hissəsinin, Talışın və Nax. MR-in Paleogen mollyusklarının öyrənilməsinə, Azərb.-ın Paleogen çöküntülərinin yeni mərtəbə bölgüsünə həsr olunmuşdur; Fanerozoy çöküntülərini əhatə edən 30 paleocoğrafi xəritə tərtib etmişdir. 100-ədək elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir.

Ə s ə r l ə r i: Палеогеновые отложения Горного Талыша. Б., 1963; Крупные фораминиферы и моллюски эоцена Малого Кавказа. Б., 1996.

**BAĞMƏRUF** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Üsku bölgəsinin Sərdrud kəndistanında, Üsku qəs.-ndən 13 *km* şm.-da, Təbriz-Marağa avtomobil yolunun üstündədir.

**BAĞ-PARKSALMA SƏNƏTİ** – bağların, parkların və başqa yaşıllıq sahələrini yaratmaq sənəti. Yaşıllaşdırma işi təcrübəsinə bağların və parkların yaradılması, müxtəlif iqlim və torpaq şəraitinə görə bitkilərin seçilməsi, memarlıq qurğularına, su hovuzlarına, yollara, meydançalara, heykəllərə uyğun bitkilərin yerləşdirilməsi və qruplaşdırılması, bitkilərin əkilməsi, onlara qulluq edilməsi və s. daxildir. B.-p.s. müxtəlif kompozisiya üsulları yaratmışdır. Onlar şərti olaraq iki başlıca prinsipə əsaslanır: müntəzəm və peyzaj. Birincisi üçün həndəsi kompozisiyalar, ikincisi üçün isə təbii landşaftı imitasiya edən kompozisiya elementlərinin uyarlı yerləşdirilməsi səciyyəvidir.

B.-p.s. quldarlıq quruluşu dövründə meydana gəlmişdir. Həmin dövrdə dini tikililərin, sarayların, malikanələrin və s. yanında parklara xüsusi əhəmiyyət verilirdi. Qədim Misirdə bağların planlaşdırılması dəqiq ardıcıllığı ilə fərqlənirdi: kompozisiyanın mərkəzini əsas tikili, onu sahənin girişi ilə birləşdirən düz xiyaban isə kompozisiya oxunu təşkil edirdi və bağın ərazisini hər birində düzbucaqlı hovuzlar olmaqla iki bərabər hissəyə bölürdü. Qədim Mesopotamiya dövlətlərində ov etmək üçün böyük qoruq yerləri, həmçinin terraslarda salınmış və pilləkənlərlə bir-birinə birləşdirilmiş bağlar (Babilistanda e.ə. 7 əsrə aid *Semiramidanın asma bağları*) mövcud olmuşdur. Qədim Yunanıstanda məbədləri ( məs., Afinada Hefesteyon, e.ə. 5 əsrin 2-ci yarısı) çox vaxt simmetrik əkilmiş ağaclar əhatə edirdi. Qədim Romada müntəzəm ictimai parklar bir çox şəhərsalma strukturunda mühüm element idi.

Orta əsrlərdə ərəb ölkələri, İran və Orta Asiyada salınmış və adətən, hər tərəfdən hündür divarlarla əhatə olunmuş bağlar müstəsna gözəllikləri ilə seçilirdi. Onların həndəsi quruluşunu ərazini hissələrə ayıran ensiz kanallar şəbəkəsi aydın əks etdirirdi. Ərəblərin işğal etdiyi İberiya y-a-nda 8–12 əsrlərdə kiçik həyətdə yerləşən ispan–Mavritaniya bağ tipi yaranmışdı; burada aparıcı dekorativ motiv rəngli kaşılar ilə bəzədilmiş kiçik hovuzlar və kanallar, həmçinin budanmış həmişəyaşıl kollardan ibarət təbii çəpərlər olmuşdur. Müsəlman ölkələrinin B.-p.s. orta əsrlərdə Hindistanda bağların planlaşdırılmasına və tərtibatına mühüm təsir göstərmişdir. Uzaq Şərq ölkələrində orta əsrlərdə bağ və parklarda sərbəst (yaxud peyzaj) kompozisiya prinsipləri üstünlük təşkil edirdi; təbiətin daim təzələnməsi ideyası yapon bağlarında yalnız hovuzların və yolların qəribə konturlarında deyil, həmçinin zahiri görünüşü təbii mühitlə vəhdət təəssüratı yaradan kiçik memarlıq formalarında əksini tapırdı.

Orta əsrlər Avropa bağları, əsasən, utilitar xarakter daşıyırdı: orada tərəvəz, müalicəvi bitkilər, meyvə ağacları və giləmeyvə kolları becərilirdi; qazon şəklində gül cərgələri olan ayrı-ayrı dekorativ sahələr də mövcud idi. Avropa ölkələrində B.-p.s.-nin yeni yüksəlişi İntibah dövrünə təsadüf edir. 16 əsr İtaliya memarları (Vinyola, P. Liqorio və b.) müntəzəm bağsalma üsulları işləyib hazırlamışdılar. Bir-birini əvəzləyən effektli görüntülər (perspektivlər) sistemi yaradan bu bağlar dayaq divarları, monumental pilləkənləri, çoxlu heykəltəraşlıq bəzəkləri və şəlalələri olan terraslarda yerləşirdi. B.-p.s.-ndə İntibah dövrü üsullarının sonrakı inkişafı *barokko* üslubundakı italyan villalarının bağ memarlığı ilə bağlıdır. 17 əsr mütləqiyyət Fransası incəsənətində hökm sürən rasionalist prinsiplər A. Lenotrun yaratdığı (Versal parkı və s.) müntəzəm "fransız" parklarının dəqiq həndəsi planında təcəssüm olunmuşdur. Belə bağ və parklar, adətən, düz yerlərdə və ya maili yamaclarda salınırdı. Ansamblda əsas yeri saray tuturdu; onun qarşısında *parterlər*, hərəkətsiz su səthi (su aynası) olan hovuzlar və kanallar yerləşirdi.

18 əsrin ortalarında Avropada sərbəst planlaşdırılmış peyzaj parkları meydana gəldi. Onların inkişafında *Maarifçilik* dövrünün fəlsəfi ideyaları, həmçinin Çin incəsənətinin öyrənilməsi mühüm rol oynadı. Belə bağlar əvvəlcə B.Britaniyada (memarlar Ç. Bricmen, U. Kent, L.Braun, U. Çeymbers), sonralar Fransada (memar R.L. Jirarden) və Avropanın digər ölkələrində yaranmağa başladı. Peyzaj, yaxud "ingilis" park kompozisiyalarının əsasını təbiət motivlərinin yaradıcı işlənilməsi təşkil edirdi; burada parterlər çəmənliklərlə, həndəsi formalı hovuz və kanallar göl və çaylarla, düz xiyabanlar və yollar qıvrılan cığırlarla əvəz olunurdu. Bağ memarlığının xarakteri də dəyişirdi: peyzaj parklarında çoxlu "romantik" xarabalıqlar, həmçinin kənd evlərinə oxşayan tikililər yerləşdirilirdi.

19 əsrin ortalarından Avropa ölkələrində və ABŞ-da çoxlu sayda ictimai (əsasən, şəhərətrafında) parklar salınırdı. Əvvəlcə onlarda sərbəst "ingilis" planlaşdırılması hökm sürürdü, lakin 19 əsrin sonlarında B.-p.s. ustaları (məs., ABŞ-da F.L. Olmsted və İ. İensen) müntəzəm və landşaft quruluşu elementlərini birləşdirməyə çalışırdılar. Bununla belə, 19 əsrin sonu – 20 əsrin əvvəllərində B.-p.s. tənəzzül edirdi.

20 əsrdə B.-p.s.-nin yeni çoxsaylı obyektləri (idman və əyləncə parkları, luna-parklar, park-sərgilər, avtomobil yollarının kənarında salınan "xətti" parklar, milli təbiət və tarixi parklar, damların üstündə bağlar, süni mikroiqlimli böyük örtülü bağlar və s.) meydana gəldi. Kütləvi istirahət üçün böyük şəhər parklarının salınması (Nyu-Yorkda mərkəzi park, Niderlandda Amsterdam meşəsi adlanan park və s.), təbii landşaftların saxlanılması və yaradılması, işlənmiş ərazilərin bərpası, təbii peyzaj mühitinin plastik imkanlarının səsqoruyucu qurğular və s. hesabına zənginləşdirilməsi problemləri xüsusilə aktuallıq kəsb edir.

Yaxın Şərqin dərin köklərə malik B.-p.s. müxtəlif dövrlərdə Əşrəfdə, Təbrizdə, İsfahanda, Tehranda, Şamaxıda, Şirazda və s. şəhərlərdə geniş inkişaf etmişdi. Fətəli şah Qacarın Tehran yaxınlığında şəhərkənarı sarayı nəzdindəki Nigaristan parkı Əşrəfin unudulmuş parklarını xatırladırdı; 19 əsrin sonu – 20 əsrin əvvəllərində Abşeron, o cümlədən Mərdəkan bağlarında da həmin planlaşdırmadan istifadə olunurdu. Bakının ən məşhur bağlarından biri olan Qubernator bağı (indiki Filarmoniya bağı) 1830-cu illərin əvvəllərində, iki qala divarları arasında yerləşən şəxsi yaşıllıqlar əsasında yaranmışdır. 20 əsrin əvvəllərində bağın ərazisi xeyli genişləndirildi; onun landşaft memarlığına fəvvarələr, köşklər və s. tikililər daxil idi. Bakının yaşıllaşdırılmasında sahilyanı bulvar da müstəsna yer tuturdu. Mariya bağı (indiki Xaqani bağı) 1871 ildə şəhərin mərkəzində salınmışdı. Abşeron y-a-nın şm. sahilləri təbii iqlim xüsusiyyətləri ilə seçilirdi. Magistral yol boyunca yerləşən Mərdəkan villalarının əksəriyyəti dənizə səmtlənmişdi. Onların arasında M. Muxtarovun villası



Yapon bağı (Vaşinqton).



Filarmoniya bağı (Bakı).



Heydər Əliyev adına sarayın qarşısındakı parkın gecə görünüşü (Bakı).



Villandri qəsrinin bağları (Fransa).



San-susi sarayı (Potsdam, AFR) fonunda üzüm terrasları.



Mənzərə parkı (Stourhed, B.Britaniya).

*Bağ-parksalma sənəti məqaləsinə.*





(hazırda AMEA-nın dendrarisi) daha məşhurdur: 1890-cı illərin əvvəllərində inşa olunmuş villa Yaxın Şərq B.-p.s.-nin ən yaxşı ənənələrinin təcəssümü olmuş və Abşerondakı digər villaların planlaşdırılmasında özünəməxsus etalon rolunu oynamışdır.

20 əsrin sonu – 21 əsrin əvvəllərində Bakıda, eləcə də Azərb.-ın digər şəhər və rayon mərkəzlərində bağ-parksalma işləri əsaslı şəkildə genişləndi. Heydər Əliyev ad. Respublika Sarayının qarşısında salınmış meydan-bağ kompleksi (memarlar: F. Rüstəmbəyova, A. Rüstəmzadə, G. Mehdiyeva, 1973), Azərb. Resp. Nazirlər Kabineti binası qarşısında şəlalə, kaskad və fəvvarə ilə tamamlanan bağ (memarlar: F. Rüstəmbəyova, K. Qasımov, G. Mehdiyeva, 1975) şəhərin landşaftını zənginləşdirmişdir. Milli park statusunu almış dənizkənarı bulvar, Filarmoniya bağı, Fəvvarələr meydanı və digər bağ və parklar yenidən qurulmuşdur.

**BAĞRIQARALAR** (Pterocletes) – göyərçinkimilər dəstəsinin yarımdəstəsinə aid quşlar. Qanadları uzun və sivridir, sürətlə uçmağa uyğunlaşmışdır. Pəncə lüləsi lələklənmişdir, arxa barmağı çox kiçikdir və ya yoxdur. Lələkləri sıx, dərisi qalındır. Monoqamdır. Qum rəngli və ya kürəndir. Uz. 35–45 *sm*, kütləsi 200–600 *q*-dır. Yuvasını yerdə qazır, koloniyalarla yuvalayır. Yuvaya 3 yumurta qoyur. 3 cinsi birləşdirən 1 fəsiləsi (Pteroclidae) var. Cənub-Qərbi Avropa, Asiya və Afrikanın quru çöl və səhralarında yayılmışdır. Azərb.-da 2 növünə təsadüf edilir: ağqarın B. (Pterocles alchata) və qaraqarın B. (Pterocles orientalis). Qaraqarın B. Azərb.-ın "Qırmızı kitab"ına daxil edilmişdir. Ov quşlarıdır.

**BAĞŞÜMAR** (باغ شمار) – orta əsrlərdə bir sıra Yaxın Şərq ölkəsində, həmçinin Azərb.-da bağı olanlardan alınan vergi. B.-ın miqdarı məlum deyil; ehtimal ki, bağların böyüklüyündən (ağacların sayından) və məhsulun həcmindən asılı idi. "B." istilahının 14 əsr mənbələrində (ilk dəfə Məhəmməd Naxçıvanidə) işlədilməsi, mülk torpaqlarının artması və bunlardan vergi alınması ilə əlaqədar idi.

Qaraqarın bağrıqara (Pterocles orientalis).



**BAĞTALA** – Azərb. Resp. Qax r-nunun Qax İngiloy ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* c.-q.-dədir. Əh. 9 (2008); maldarlıqla məşğuldur.

**BAĞVƏZİR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Şəbüstər bölgəsinin Sufiyan kəndistanında, Şəbüstər qəs.-dən q.-dədir.

**BAĞYAQUB** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Mehranrud kəndistanında, Təbriz ş.-ndən 14 *km* c.-ş.-dədir.

**BAĞYERİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qarağac bölgəsinin Quruçay kəndistanında, Qarağac qəs.-ndən 37 *km* şm.-q.-də, Marağa–Miyanə avtomobil yolundan 7 *km* c.-dadır.

**BAHADIR** (türkcə igid, cəsur, pəhləvan, qədim türk dilində – cəsur döyüşçü) – türk xalqlarında və monqollarda xidmətlərinə və igidliklərinə görə ayrı-ayrı şəxslərə verilən ad. Zadəgan silki B.-lardan formalaşırdı. Təqr. 6 əsrdən istifadə olunan B. termini türk xalqlarının folklorunda geniş yayılmışdır. Çingiz xanın dövlət xadimləri arasında B. adını daşıyan şəxslərin olduğu məlumdur. B. ünvanını ilk dəfə rəsmi şəkildə istifadə edən Elxani hökmdarı Əbu Səid Bahadır xan olmuşdur. Cəlairilər, Teymurilər, Qaraqoyunlular, Ağqoyunlular və Səfəvilərdə, Böyük Moğollarda və Hindistanda hakim olan digər türk sülalələrində, həmçinin məmlüklərdə "B." ünvan və şəxsi ad kimi işlədilmişdir. B. qazax, özbək, başqırd və qırğız dillərində b a t ı r kimi tələffüz olunur.

**BAHADIR ŞAH** Q u c a r a t i (? – 1537) – Qucarat hakimi [1526–37], II *Müzəffər şahın* oğlu. Atasının ölümündən sonra taxta çıxan qardaşı İsgəndər çevriliş nəticəsində qətlə yetirildi. Vəzir İmad ülmülkün dəstəyi ilə B.ş.-ın kiçik qardaşı Mahmud hakimiyyətə gəldi. Bundan narazı qalan əmirlər B.ş.-ı Qucarata dəvət etdilər. B.ş. vəzirin qoşununu məğlubiyyətə uğradaraq Qiyasəddin adı ilə hökmdar oldu. O, paytaxt Əhmədabadda daxili vəziyyəti tənzimlədi, Osmanlı dövləti vasitəsilə Portuqaliya, Böyük Moğollar, Benqaliya və s. dövlətlərlə diplomatik əlaqələr yaratdı; Nizamşahilərin paytaxtı Əhmədnaharı (1530), Malvanı (1531), Çitoru (1533–34) və Hindistandakı bəzi bölgələri ərazisinə qatdı. Bu fəthlər nəticəsində Qucarat dövləti xeyli genişləndi və B.ş. Hindistanın ən nüfuzlu hökmdarlarından birinə çevrildi. Lakin 1534 ildə B.ş. ilə Böyük Moğol hökmdarı Hümayun arasında baş verən döyüş, digər tərəfdən Qucarat limanlarının portuqallar tərəfindən blokadası, tacirlərin gəmilərinin batırılması ölkəyə böyük iqtisadi ziyan vururdu. Nəticədə B.ş. portuqallarla sərfəli olmayan müqavilə bağlamaq məcburiyyətində qaldı. Hümayunun Çampanir, Mandasor və s. yerləri ələ keçirməsi, paytaxt Əhmədabadı mühasirəyə alması B.ş.-ı Diuya çəkilərək portuqallarla yeni müqavilə bağlamağa (1535) vadar etdi. Müqaviləyə əsasən, hərbi dəstək müqabilində B.ş. portuqallara Diuda qala tikməyə icazə verirdi. Lakin B.ş. yeni müttəfiqlərindən faydalı dəstək ala bilmədi. Qardaşını Qucaratın canişini elan edən Hümayunun buradan ayrılmasından istifadə edən B.ş. 1536 ildə ölkəyə nəzarətini bərpa etdi. B.ş. portuqallar tərəfindən sui-qəsd nəticəsində öldürüldü. B.ş. haqqında Hüsam xan "Tarixi-Bahadurhi" əsərini yazmışdır.

**BAHADIR ŞAH I** M ü ə z z ə m (14.10.1643, Burhanpur – 28.2.1712, Lahor) – *Böyük Moğollar* sülaləsindən hökmdar [1707–1712], *Aləmgir* Övrəngzibin oğlu. B.ş.-ın dövründə Böyük Moğollar dövlətinin ərazisi Kabildən Dekan yaylasınadək uzanırdı. Siqhlərlə uzunmüddətli mübarizə aparmış, yürüşlərin birində ölmüşdür.

**BAHADIR ŞAH II** (23.10.1775 – 6.11.1862, Ranqun) – *Böyük Moğollar* sülaləsindən sonuncu hökmdar [1837–58]. Hakimiyyəti dövründə əslində Hindistanda İngiltərənin Ost-Hind şirkəti ağalıq edirdi. 1857 ildə İngiltərə əleyhinə baş verən üsyan zamanı xalq B.ş.-ı özünün rəhbəri və Hindistanın ali hakimi elan etdi. B.ş. milli hökumət yaratdı, müsəlmanları və hinduistləri düşmənə qarşı birləşməyə çağırdı. Lakin üsyan uğur qazana bilmədi.

II Bahadır şah [1837–58].



İngilislər Dehlini alıb, B.ş.-ın ailəsini qətlə yetirdilər, özünü isə ömürlük həbs cəzası ilə Bir manın Ranqun ş.-nə sürgün etdilər (1858).

**BAHADUR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Səhəndabad kəndistanında, Bostanabad qəs.-ndən 20 *km* c.-dadır.

**BAHADURLU** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Nəmin bölgəsində, Ərdəbil ş.-ndən 20 *km* şm.-ş.-dədir.

**BAHADURSU MİNERAL SU BULAQLARI** – Azərb. Resp. Sədərək r-nu (Nax. MR) ərazisində, Sədərək k.-ndən 1,5 *km* c.-da, dəniz səviyyəsindən 1050 *m* hünd.-dədir. Bir neçə bulaqdan ibarət qrup təşkil edir. Balneoloji tərkibi:

$$CO_2 1,2M3,9\frac{HCO_3 56Cl30}{Mg45(Na+K)38}$$

pH 6,5 D150 $m^3$/*gün* T18°C

Suyu karbon qazlı, az minerallaşmış, hidrokarbonatlı-xlorlu, maqneziumlu-natriumludur. Kəşfiyyat işləri aparılmamışdır.

**"BAHALI" PULLAR SİYASƏTİ** – ölkədə pul kütləsinin ixtisarı, yaxud məhdudlaşdırılması; əsas məqsədi inflyasiyanın qarşısının alınmasıdır. Pul təklifinin azalması faiz dərəcəsinin artması ilə nəticələnir. Bu isə, öz növbəsində, investisiyaların həcminin və məcmu xərclərin azalmasına və tələb inflyasiyasının məhdudlaşdırılmasına səbəb olur.

"B."p.s. pul-kredit siyasətində aşağıdakı mexanizmlərin tətbiqini nəzərdə tutur: 1) mərkəzi bank tərəfindən açıq bazarda dövlət qiymətli kağızlarının kommersiya banklarına və əhaliyə satılması; 2) ehtiyat normasının artırılması; 3) uçot faiz dərəcəsinin artırılması. Bu mexanizmlərin tətbiqi nəticəsində pul təklifi, investisiyalar və inflyasiyanın səviyyəsi azalır, faiz dərəcəsinin səviyyəsi isə artır.

**BAHAMA ADALARI** (Bahama Islands) – Vest-Hinddə, Atlantika okeanında arxipelaq. Şm.-q.-dən (Florida y-a-ndan) c.-ş.-ədək (Kuba və Haiti adalarınadək) 1500 *km* məsafədə uzanır. Təqr. 700 adadan və 2300-dən çox mərcan rifi və qayalardan ibarətdir. Sah. 14,3 min $km^2$. Ən iri adaları: Andros (4,1 min $km^2$), Böyük Abako (2 min $km^2$), Böyük İnaqua (1,4 min $km^2$), Böyük Bahama (1,1 min $km^2$). Bütün adalardan yalnız 20-si məskunlaşmışdır. Arxipelaqda Bahama Adaları dövləti və B.Britaniyanın mülkiyyəti Terks və Kaykos yerləşir. Adalardan biri X. Kolumbun Yeni Dünyada kəşf etdiyi (12.10.1492) ilk torpaq – San-Salvadordur.

Adalar, əsasən, mərcan əhəngdaşılarından ibarətdir. Səthi düzənlikdir (hünd. 63 *m*-ədək). Karst relyef formaları geniş yayılmışdır. İqlimi tropik passatdır. Qışı quru, günəşli günlərin sayı çoxdur (il ərzində 320 gün), yayı isti və yağışlıdır. Yanvarın orta temp-ru 20–22°C, iyulun orta temp-ru 28–32°C-dir. İllik yağıntı 750–1700 *mm*. İyul–oktyabr aylarında tez-tez qasırğalar olur. Çayları, demək olar ki, yoxdur. Çoxlu duzlu göllər var. Savannalar, həmişəyaşıl tikanlı kolluqlar, hindqozu, xeyli sahədə şam meşəlikləri var. Aqava, ananas, portağal, banan, şəkər çuğunduru becərilir. Heyvanları: ağac kərtənkələsi, yenot, yarasa, tutuquşu, kolibri, su quşları. Sahilyanı sularda xeyli balıq, molyusk, dəniz skatı, yengəc, dəniz tısbağası, delfin vardır.

Bahama arxipelaqında ümumi sah. 144,9 min *ha* olan 11 təbiət qoruğu (o cümlədən, İnaqua və Eksuma milli parkları) var. Qış kurortudur; turizm inkişaf etmişdir.

**BAHAMA ADALARI** (Bahama Islands, Bahamas), B a h a m a  A d a l a r ı  B i r l i y i (Commonwealth of the Bahamas).

**Ümumi məlumat.** Vest-Hinddə adalardan ibarət dövlət. Florida y-a-ndan c.-ş.-də və Kuba a.-ndan şm.-ş.-dədir. Bahama adaları arxipelaqının çox hissəsini








əhatə edir. Sah. 13,87 min $km^2$. Əh. 321 min (2005). Paytaxtı Nassau ş.-dir (Nyu-Providens a.-nda yerləşir). Rəsmi dil ingilis dili, pul vahidi Bahama dollarıdır.

B.A. BMT-nin (1973), ADT-nin (1982), BVF-nin (1973) üzvüdür.

T ə b i ə t i haqqında bax *Bahama adaları* (arxipelaq) məqaləsinə.

**Dövlət quruluşu.** B.A. *Birliyə* daxildir. Konstitusiyası 10.7.1973 ildən fəaliyyətdədir. İdarə forması konstitusiyalı monarxiyadır.

Dövlət başçısı B.Britaniya monarxıdır; onu gen.-qubernator təmsil edir. Ali qanunverici orqanı Senat və Məclis palatasından ibarət ikipalatalı parlamentdir. Senatın 16 üzvünü gen.-qubernator təyin edir (9-unu baş nazirin, 4-ünü müxalifət liderinin təqdimatı ilə, 3-ünü iqtidar və müxalifət partiyaları liderlərinin razılığı əsasında). Senat qanunların qəbulunu təxirə sala bilər (maliyyə sahəsinə aid qanunlar istisna olmaqla). Məclis palatası ümumi səsvermə yolu ilə seçilən 40 üzvdən ibarətdir. Hər iki palatanın səlahiyyət müddəti 5 ildir, lakin parlamentin vaxtından əvvəl buraxılması da mümkündür.

İcraedici hakimiyyət hökumətə məxsusdur; hökumətə parlamentdə çoxluğu qazanmış partiya lideri – baş nazir rəhbərlik edir. Hökumət Məclis palatası qarşısında cavabdehdir. Dairələri qubernatorlar idarə edirlər. Əsas siyasi partiyalar Mütərəqqi Liberal Pariya və Azad Milli-Demokratik Hərəkatdır.

**Əhali.** Əhalinin təqr. 85%-ini dilləri ingilis dilinin əsasında formalaşmış Bahama kreolları (zəncilər və mulatlar) təşkil edir (2000). Burada həmçinin Haitidən olan zəncilər, ABŞ amerikalıları, anql-kanadalılar, italyanlar, yunanlar, yəhudilər və b. yaşayırlar. 1000 nəfərə görə doğum səviyyəsi 19,4, ölüm səviyyəsi isə 8,2 olmuşdur. Orta hesabla bir qadına 2,3 uşaq düşür. 2000–05 illərdə gözlənilən orta ömür müddəti 67,1 il (kişilər 63,9 il, qadınlar 70,3 il). Dindarların





95%-i xristiandır, o cümlədən 19%-i katolik, 76%-i protestantdır.

**Tarixi oçerk.** X. *Kolumbun* 1492 ildə B.a.-na ilk səyahəti zamanı adaları kəşfindən əvvəl burada mədəniyyətcə tainolara yaxın olan *aravaklar* məskunlaşmışdılar. İspanlar qısa müddətdə yerli hindilərin əksəriyyətini qırdılar, bir qismini isə mədənlərdə və plantasiyalarda işlətmək üçün Amerikadakı digər müstəmləkələrə apardılar. Sakinsiz qalan adalar ingilislərin diqqətini cəlb etdi və onlar 1629 ildə B.a.-nda ilk məskənlərini saldılar. 17 əsrdə dini-siyasi təqiblərə görə İngiltərəni tərk edən ingilislərin hesabına B.a.-nın ingilis kolonizasiyası genişlənirdi. Lakin həm İngiltərə, həm də onunla Atlantikada rəqabət aparan İspaniya üçün uzun müddət B.a.-nı dayaq bazasına çevirən piratlar narahatlıq mənbəyi idi. Vaxtilə dəniz quldurluğu ilə məşğul olan kapitan V. Rocers 1718 ildə kral tərəfindən adaların qubernatoru təyin olundu. 1720 ildə ispan donanmasının növbəti hücumunun qarşısını almağa piratlar cəlb edən Rocers daha sonra onların özlərinə zərbə endirdi. 1782 ildə ispanlar arxipelaqı ələ keçirsələr də, *Versal sülh müqaviləsinə (1783)* görə onu B.Britaniyaya güzəştə getdilər. *Şimali Amerikada istiqlaliyyət müharibəsi (1775–83)* başa çatdıqdan sonra ingilislərin tərəfində döyüşənlərdən təqr. 3 min nəfəri B.a.-na köçdü. Onlar adalarda pambıq plantasiyaları saldılar. İngiltərə hökuməti tərəfindən qul ticarətinə qadağa qoyulmasından (1807) və quldarlığın ləğvindən (1838) sonra plantasiyalar boşaldı, onların sahibləri isə adaları tərk etməyə başladılar. 19 əsrin sonlarınadək B.a.-nın iqtisadiyyatı tənəzzül dövrünü yaşadı, sonradan kurort-turist biznesinin inkişafı onun tərəqqisinə şərait yaratdı. ABŞ-da "quru qanun"un qüvvədə olduğu dövrdə spirt z-dlarının sahiblərinə böyük gəlir gətirən rom sənaye istehsalı iqtisadiyyatın inkişafına əlavə təkan verdi. 10.7.1973 ildən B.A. Birlik çərçivəsində müstəqil dövlətdir. Ölkədə gen.-qubernator vəzifəsi saxlanmaqla müasir partiya-siyasi sistemi yaranmışdır. 1973–92 illərdə Mütərəqqi Liberal Partiya (MLP), 1992–2002 illərdə Azad Milli-Demokratik Hərəkat (AMDH) partiyası hakimiyyətdə olmuşdur. 2002 ildə hakimiyyətə yenidən MLP gəlmişdir.

**Təsərrüfat.** ÜDM 5,3 mlrd. ABŞ dolları təşkil edir (adambaşına 17,7 min dollar; 2004). ÜDM-in 90%-i xidmət sferasında, 7%-i sənayedə, 3%-i k.t.-nda yaranır. İqtisadiyyatda 156 min nəfər çalışır (1999), onlardan təqr. 50%-i turizmdə, 40%-dən çoxu xidmət sferasının digər sektorlarında, 5,4%-i sənayedə, 3,8%-i k.t.-nda. İşsizliyin səviyyəsi 10,2%-dir (2004).




İqtisadiyyatın əsasını xarici turizm (ÜDM-in 60–70%-i), ofşor maliyyə xidmətləri və "ucuz bayraqlar" altında üzən dəniz gəmilərinin qeydiyyatı təşkil edir; elektron ticarəti fəal inkişaf etdirilir. Turizmin sürətli inkişafı 1960-cı illərdə, ABŞ-dan turist axınının istiqamətini dəyişərək Kuba a.-ndan arxipelaq adalarına yönəltməklə yarandı. Nassaudakı amerikan hərbi aerodromunun yerində beynəlxalq mülki aeroport qurulmuş, dəniz portu yenidənqurmadan sonra iri kruiz gəmilərini qəbul etməyə başlamışdır; Nyu-Providens və Böyük Bahama adalarında iri müasir hotellər tikilmiş, yeni kurort rayonları (o cümlədən damba vasitəsilə Nassau ilə birləşdirilmiş Paradayz a.-nda, Friport yaxınlığında Lukaya) yaradılmışdır. 2002 ildə B.a.-na 4,4 mln. xarici turist gəlmişdir (85% ABŞ-dan, 7% Avropadan, 5% Kanadadan); turizmdən əldə olunan xalis gəlir 1,5 mlrd. dollar təşkil etmişdir. Turizmin əsas növləri: sağlamlaşdırıcı dəniz, kruiz, su idmanı (dayvinq, yaxtinq, sörfinq və vindsörfinq). Kütləvi turizm Böyük Bahama və Nyu-Providens adaları üçün səciyyəvidir (iri hotellər, yaxt-klublar, qolf üçün meydançalar, kazinolar).



Friport şəhərindən görünüş.



Nyu-Providens adasının sahilləri.

Vergi güzəştlərinin tətbiqi B.a.-nı ofşor biznesinin dünya mərkəzinə çevirmişdir (ölkənin paytaxtı Nassau maliyyə və sığorta biznesinin qabaqcıl dünya mərkəzlərinə daxildir). B.a.-nda 36 ölkədən, əsasən, iri bankların törəmə şöbələri olan 430 ofşor bankı (onlardan 200-ünün Nassauda və Friportda nümayəndəlikləri vardır), həmçinin elektron poçtu domenlərinin təklifi üzrə ofşor maliyyə, holdinq, sığorta, investisiya, gəmi şirkətləri və firmaları qeydiyyata alınmışdır. Vergilərin (mənfəət, əlavə dəyər, miras, dividendlər üzrə və gəlir vergiləri) olmaması və daşınmaz əmlak vergisinin aşağı olması bu biznes növlərinin inkişafına imkan yaradır. Əksəriyyəti Norveçdən, Yunanıstandan, ABŞ-dan, B.Britaniyadan olan gəmi sahibkarlarına məxsus 1100-dən artıq dəniz gəmisi (quru mal daşıyan və su basımı 1000 *reg.br.-t*-dan artıq olan tankerlər) qeydiyyata alınmışdır; Kolumbiyadan ABŞ-a qanunsuz narkotik (kokain) trafiki B.a.-ndan keçir.

Əsas sənaye r-nu Böyük Bahama a.-nda Friport yaxınlığındadır. Burada 1955 ildə özəl azad ticarət zonası yaradılmışdır (hazırda gəmilərin, konteynerlərin təmirində, pivə, kağız, boyaq maddələri və s. istehsalında ixtisaslaşır). 1980-ci illərin ortalarından ağır sənaye tədricən məhdudlaşdırılır (neft emalı, sement z-dları, kimya müəssisələri bağlanmışdır). Nyu-Providens a.-nda qida (o cümlədən “Bakardi” romu istehsalı), tikiş və toxuculuq sənayesi müəssisələri fəaliyyət göstərir. Duz (dəniz suyundan buxarlandırma üsulu ilə; Böyük İnaqua və Lonq-Aylend adalarında) və araqonit (ildə 1 mln *t*-dan artıq; Sendi-Ki a. yaxınlığında) çıxarılır. Elektrik enerjisi istehsalı 1,66 mlrd. *kVt saat*-dır (2002; İES-lərdə). K.t. az inkişaf etmişdir, ərzağın xeyli hissəsi idxal olunur. Ərazinin təqr. 1%-i becərilir, 84%-ini isə meşələr tutur. Əsasən, ABŞ-a ixrac etmək üçün sitrus (2002 ildə yığım 30 min *t*, o cümlədən Böyük Abako, Böyük Bahama adalarında limon, qreypfrut), tropik meyvələr (28 min *t*-dan artıq, o cümlədən papayya, banan, ananas və s., Elyutera, Böyük Abako adalarında), faraş tərəvəz (xiyar, bibər, tomat, əsasən, Böyük Abako a.-nda), gül və dekorativ ağaclar becərilir. 20 əsrin axırlarında şəkər qamışı əkinləri xeyli azalmışdır (2003 ildə 56 min *t*). Heyvandarlıq zəif inkişaf etmişdir, əsas sahə quşçuluqdur (2002 ildə sahilyanı sularda 3,5 mln. baş ev quşu; əsasən, Böyük Abako və Elyutera adalarında). Sahilyanı sularda tunes, omar və tısbağa ovlanır; 1990-cı illərdən ixrac üçün süni krevet yetişdirilir. Meşə təsərrüfatı mövcuddur (əsasən, Andros və Böyük Abako adalarında Karib şamı; Böyük Abako a.-nda – ağac kütləsi istehsal edən z-d). İdxal dəyəri ixrac dəyərindən 3 dəfə yüksəkdir, defisit, əsasən, turizmdən əldə olunan gəlirlər hesabına ödənilir. Əsas ixracat malları: Friportun azad zonasından sənaye məhsullarının təkrar ixracı (əsasən, təmir edilmiş gəmilərin geri ixracı), omar, kimyəvi preparatlar, araqonit, rom. Əsas ixracat ölkələri: ABŞ, Almaniya, İspaniya, Fransa. Maşın və avadanlıqlar, kimyəvi preparatlar, istehlak malları, ərzaq idxal olunur. Avtomobil yollarının uz. təqr. 2,5 min *km* (o cümlədən təqr. 1,4 *km*-i bərk örtüklü); 66 mindən artıq minik və 16 mindən artıq yük avtomobili var (21 əsrin əvvəli). Ən iri dəniz portları: Nassau, Friport, Matyu-Taundur (Böyük İnaqua a.-nda). Sualtı qanadlı gəmilərlə Friport–Palm-Biç (ABŞ) və katamaranlarla Nassau–Mayami (ABŞ) xətləri işləyir. Bütün məskunlaşmış adaların bir-birilə dəniz əlaqəsi mövcuddur. Nassau və Friportda beynəlxalq aeroportlar var; yerli aviaxətlər Nassaunu arxipelaqın əksər adaları ilə birləşdirir.

Mavi Laqun adası.



**Səhiyyə.** Əhalinin hər 100 min nəfərinə 163 həkim, 230 orta tibb işçisi, 25 stomatoloq düşür (2001). Səhiyyəyə qoyulan xərc ÜDM-in 5,14%-ini təşkil etmişdir (2002; büdcədən maliyyələşmə – 64,5%, özəl sektor – 35,5%). Səhiyyə mərkəzləşdirilməmişdir: dövlət sektoru xəstəxana və ilk tibbi yardımı, məqsədli proqramları tənzimləyir; özəl sektor fərdi praktika ilə məhdudlanır. Əhalinin işləyən hissəsi milli tibbi sığorta sistemi ilə əhatə olunmuşdur. Yaşlı əhali arasında ölümün əsas səbəbləri ürək-damar xəstəlikləri, infeksiyalar (o cümlədən QİÇS), xərçəng, travmalardır. Vərəmlə xəstələnmə halları 82, QİÇS infeksiyası ilə xəstələnmə halları 320 olmuşdur (2002).







Bahar palçıq vulkanı. Fəaliyyətdə olan salz və qrifonların şimal qrupu.

**İdman.** B.A. Olimpiya Assosiasiyası BOK tərəfindən 1952 ildə tanınmışdır. Həmin ildən idmançılar Olimpiya Oyunlarında iştirak edirlər. Ən populyar idman növləri boks, güləş, yüngül atletika, yelkən idmanı və vindsörfinqdir. Ölkənin ilk Olimpiya mükafatını yaxtsmenlər qazanmışlar (3-cü yer, “Ulduz” sinfi, 1956). “Ulduz” sinfindən yaxtanın ekipajı (D. Nouls və S. Kuk) 18-ci Olimpiya Oyunlarının (1964, Tokio) ilk qızıl medalını qazanmışlar. 27-ci Olimpiya Oyunlarında (2000, Sidney) B.A.-nın idmançıları 1 qızıl (4x100 *m*, yüngül atletika estafeti, kişilər), 1 gümüş və 1 bürünc, 28-ci Olimpiya Oyunlarında (2004, Afina) isə 1 qızıl (400 *m*-ə qaçış, T. Uilyams-Darlinq) və 1 bürünc medal əldə etmişlər.

**Mədəniyyət və təhsil.** B.A.-nda ingilis müstəmləkəçiliyinin başlanması ilə yaşayış məskənləri (şəhərlər) yaranmağa başladı. Onlar müntəzəm plan əsasında tikilirdi (1666 ildə əsası qoyulan Nassau və s.). Montegü (1741, mühəndis P.Q. Brüs) və Şarlotta (1780-ci illər) istehkamlarının müdafiə tikililəri saxlanmışdır. *Müstəmləkə dövrü üslubunda* memarlıq nümunələri, əsasən, Nassaudadır: Eyvanlı ev (təqr. 1790; indiki Xalq məişəti muzeyi), Hökumət evi (1803–06), Müq. Matfey anqlikan kilsəsi (1800–04, memar C. İv), Müq. Andrey presviterian kilsəsi (1810) və s. Turizm sənayesinin güclü inkişafına baxmayaraq, B.A.-nın şəhərləri müasir beynəlmiləl üslublu binalara uyğunlaşmaqla öz ənənəvi zahiri görünüşünü saxlamışdır: Nassaudakı Milli sığorta şirkəti (1986), Paradayz a.-ndakı “Paradayz-Qrand-hotel (1982, hər ikisi – memarlar qrupu) və s. 18 əsrin sonu – 19 əsrin əvvəllərində B.A.-nda ingilis mənzərə rəssamları – D. İrvinq, T. Lani, amerikalılar A. Byerstadt və U. Homer çalışmışlar. Yerli rəssamların yaradıcılığı yalnız 20 əsrin 2-ci yarısına aid edilir (boyakar D. Rassel, akvarelçi Q. Rayt); əsrin sonlarına doğru afrokarib xalqlarının incəsənət ənənələri ilə *ekspressionizm* (M. Teylor), *sürrealizm* (S. Börnsayd) və naturalistcəsinə şərh olunan *impressionizmin* təsirini ehtiva edən yeni təmayüllər meydana gəlmişdir. Portretçi B. Maloun, A.Roberts, C. Bidl, A. Fergüson bu dövr rəssamlarıdır. 20 əsr heykəltəraşlarından kanadalı R.U. Conston, eləcə də D. Hayt, S. Barrous və b. öz yaradıcılıqları ilə seçilirlər. Ağac üzərində oyma inkişaf etmişdir.

Afrika musiqisi və rəqslərinin adaların ağdərili əhalisinin ənənəvi mədəniyyətləri ilə qarışması prosesi 20 əsrin sonunadək baş vermişdir. Müntəzəm olaraq “Cankanu” milli festivalı keçirilir. Afrika mənşəli musiqi obi ayinlərində saxlanılmışdır. Zənci-baptistlər ibadət vaxtı təbillərlə ənənəvi rəqslərdən (dairəvi, “od rəqsi”, “hoppanma rəqsi”) istifadə edirlər. Nassauda Vest-Hind un-tinin filialı (1965 ildən), kollec (1974), Kütləvi kitabxana (1837 ildən; bina 1798–99) var. B.A.-nda ilk muzey 1847 ildə yaradılmışdır (kolleksiyası sonradan Milli arxivə verilmişdir). Muzeylər: Cambi-Villicdə (1975 ildə özəl “Bahamiya” muzeyi əsasında yaradılmışdır; 19 əsr məişət əşyaları kolleksiyası, ənənəvi sənətkarlıq nümunələri, milli geyimlər və s.); Bahama tarix cəmiyyətinin muzeyi (1959 ildən; ölkənin hərbi-dəniz tarixinə dair kolleksiya), Pompey muzeyi (1992 ildən; xalq incəsənəti); Lukayada hindi tarixi muzeyi; Houp-Taunda (Abako a.) U. Maloun tarix muzeyi.

**BAHAMALILAR**, Bahama kreolları – *Bahama Adalarının* əsas əhalisi, xalq. Ümumi sayları təqr. 272 min nəfərdir (2005). İngilis dilinin kreollaşmış variantında danışırlar. Dindarların əksəriyyəti xristiandır (95%). B.-ın özəyini 18 əsrin sonlarında ingilislər tərəfindən gətirilmiş qulların – zənci və mulatların nəsilləri təşkil edir. İqtisadiyyatı xidmət sferasına əsaslanır. Neftayırma, duz çıxarılması və emalı, balıq ovu, dəniz məhsulları hasilatı ilə də məşğul olurlar. Meyvə-tərəvəz becərilir. B.-ın mədəniyyətində Amerika (ABŞ) ənənələrinin təsiri güclüdür.

**BAHAR** Məhəmmədtağı (10.12.1886, Məşhəd – 21.4.1951, Tehran) – İran şairi, filoloq və ictimai xadim, məlik üş-şüəra. Tehran Un-tinin prof. (1935 ildən). İran inqilabının (1905–11) fəal iştirakçısı olmuşdur. “Ser Eduard Qreyə məktub” (1907), “İranın işi Allaha qalıb” (1909) şeirləri ilə tanınmışdır. 1910–14 illərdə “Novbahar”, “Tazə bahar” qəzetlərini nəşr etdirmişdir. “Cəhənnəm”, “Dad əyanlar əlindən” və s. şeirləri, “Müsəlman qadını”, “Təcəddüd”, “İnqilab” məqalələrində irtica və dini fanatizmi kəskin satira atəşinə tutmuşdur. “Hərb bayquşu” poeması sülh uğrunda mübarizəyə həsr olunmuşdur. Siyasi baxışlarına görə dəfələrlə sürgün olunmuşdur. İran Sülh Tərəfdarları Cəmiyyətinə başçılıq etmişdir (1950). “Bakıda bahar” şeiri Azərb.-a həsr olunmuşdur.



*Əd.:* Hüseynov B. XX əsr fars şeirində ənənə və novatorluq. B., 1975.

**BAHAR** Azərb. Resp.-nın Beyləqan r-nunda qəsəbə. Bahar ə.d.-nin mərkəzi. R-n mərkəzindən 16 *km* c.-ş.-də, Mil düzündədir. Əh. 1215 (2008); pambıqçılıqla məşğuldur. Tam orta məktəb, kitabxana, klub, tibb məntəqəsi, rabitə qovşağı var.

**BAHAR**, Ələt burnu – Azərb. Resp.-nda palçıq vulkanı. Qaradağ r-nu ərazisində, Ələt burnundadır. İki sopka

qrupundan ibarətdir. Bəzi sopkaların nisbi hünd. 8–10 *m*-ə çatır. Vulkanların salz və qrifonlarından qaz, palçıq və neftli su çıxır. Son dəfə 1967 il martın 20-də püskürmüşdür. Bu zaman alov sütunu vulkandan 150 *m* hünd.-yə qalxmış, sopka brekçiyası böyük əraziyə yayılmışdı.

**“BAHAR” QAZ-KONDENSAT YATAĞI** – Bakıdan 40 *km* c.-ş.-də, Qum a.-ndan 20 *km* c.-da, açıq dənizdədir. Yataq tektonik cəhətdən meridian istiqamətində uzanan braxiantiklinal qırışıqdan ibarətdir; uz. 10 *km*, eni 4,5 *km*, hünd. 450 *m*-dir. Qırışıq tektonik qırılmalarla eninə və uzununa istiqamətdə parçalanmışdır. Strukturun üzərində dənizin dərinliyi 4–8 *m*-dən 15–20 *m*-ədək dəyişir. Sahənin geoloji öyrənilməsinə 1908 ildən başlanılmışdır. Yatağın geoloji quruluşunda Məhsuldar qat, Akçaqıl, Abşeron, Dördüncü dövr çöküntüləri iştirak edir. Akçaqıl və Abşeron mərtəbələri, əsasən, gil litofasiyasından ibarətdir. Sənaye əhəmiyyətli qaz-kondensat axını ilk dəfə 1968 ildə Məhsuldar qatın VIII horizontundan alınmışdır. Aparılmış geoloji kəşfiyyat işləri nəticəsində Balaxanı, Fasilə, Qırmakiüstü Qumlu və Qırmakialtı lay dəstələrinin sənaye əhəmiyyətli neftli-qazlı olması aşkar edilmişdir. Məhsuldar qatın üst şöbəsi 3180 *m* qalınlığa malikdir və kəsilişində Suraxanı, Sabunçu, Balaxanı və Fasilə lay dəstələri iştirak edir. Alt şöbənin qalınlığı 620 *m*-dir; Qırmakiüstü Gilli, Qırmakiüstü Qumlu, Qırmakialtı və Qala lay dəstələrini əhatə edir. Məhsuldar qatın neftli-qazlı kollektorları qum, qumdaşı və alevritlərdən təşkil olunmuşdur. Kollektorların məsaməliyi orta hesabla 13–18%, keçiriciliyi 26–93 *m* D-dir. Başlanğıc lay təzyiqi 37,7–51,3 *MPa* hüdudlarında olmuşdur. Balaxanı lay dəstəsinin aşağı hissəsinə (X horizonta) və Fasilə lay dəstəsinə aid neftlər (xüs.ç. 0,851–0,886) yüksək parafinli (12% və daha çox) və az kükürdlüdür (0,16%), neftin tərkibində qatran (5–6%) və asfaltenlər (2–3%) iştirak edir. Yataq 1969 ildən istismar olunur. 1.1.2010 il tarixinədək yataqdan 6,2 mln. *t* neft, 10,6 mln. *t* kondensat, 7,2 mlrd. $m^3$ səmt qazı, 121,5 mlrd. $m^3$ sərbəst qaz hasil edilmişdir.

**BAHAR ŞİRVANİ** (Mirzə Nəsrullah Hacı Əbülqasım oğlunun təxəllüsü; 1834, Şamaxı – 1883, Təbriz) – Azərb. şairi. Tacir ailəsində doğulmuşdur. Azərb., fars və ərəb dillərində mükəmməl təhsil almışdır. Şərq ölkələrinə səyahət etmiş, Hindistanda yaşadığı dövrdə urdu dilini, Tehranda (1858) fransız dilini və təbabət elmini öyrənmişdir. Lirik şeirləri ilə şöhrət qazanan B.Ş., Nəsrəddin şahın sarayına dəvət olunaraq, məlik üş-şüəra adını almışdır. 1878 ildə Təbrizə köçmüşdür. Ədəbi irsindən Azərb. dilində “Qəzəliyyat”, avtobioqrafik mahiyyət daşıyan “Nərgiz və gül” məsnəvisi, fars dilində “Divani-qəsaid və qəzəliyyat”, “Töhfətül-İraqeyn” (*Xaqaniyə* nəzirədir) əsərləri qalmışdır. B.Ş.-nin ölümündən sonra Təbrizdəki ingilis konsulu onun şeirlərinin bir qismini çap etdirmək vədi ilə Londona aparmışdır, lakin həmin əsərlərin aqibəti indiyədək məlum deyildir. Şeirlərində humanizm, azadlıq ideyalarını tərənnüm etmiş, insanları maarif və mədəniyyətə səsləmişdir. 1968 ildə şairin Şirvanda ikən öz xətti ilə yazdığı farsca şeirlərindən və “Töhfətül-İraqeyn” məsnəvisindən ibarət məcmuəsi tapılmışdır. Yaradıcılığı Azərb. və fars poeziyasının inkişafına təsir göstərmişdir. S.Ə. *Şirvani*, F. *Köçərli* və b. B.Ş.-nin yaradıcılığını yüksək qiymətləndirmişlər.

Əsərləri: Şeirlər// Seyid Əzim Şirvani. Əsərləri. 3 clddə. 3-cü c. Təzkirə. B., 1974., s. 110–114, s. 310–328; Qəzəllər // Poetik məclislər /toplayanı və tərtib edəni N. Qarayev. B., 1987.

*Əd.:* Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. B., 1974; Köçərli F. Azərbaycan ədəbiyyatı. C. 2. B., 1981; Tərbiyət M. Danişməndani-Azərbaycan. B., 1987.

**BAHARABAD** – Azərb. Resp. Beyləqan r-nunun Örənqala ə.d.-ndə qəsəbə. R-n mərkəzindən 15 *km* şm.-q.-də, Qarabağ düzündədir. Əh. 844 (2008); pambıqçılıqla məşğuldur. Tam orta məktəb, kitabxana, klub, tibb məntəqəsi var.

**BAHARDƏN MAĞARASI** – Türkmənistanda, Bahardən ş.t.q.-ndən 19 *km* c.-ş.-də, Kopetdağın şm. ətəklərində əhəngdaşı mağarası. Uz. 250 *m*. İki kahadan ibarətdir. Aşağı kahanı balneoloji əhəmiyyətə malik hidrogen sulfidli termal suyu olan Kou-Ata axarlı gölü tutur. Yarasalar, gəmiricilər, quşlar, həmçinin təqr. 50 növ onurğasız heyvan məskunlaşmışdır. Turizm inkişaf etmişdir.

**BAHARİYYƏ** – klassik Şərq, o cümlədən Azərb. poeziyasında baharı təsvir və tərənnüm edən lirik şeir, yaxud böyük bir poemanın baharı əks etdirən giriş hissəsi. Qəzəl, qəsidə, məsnəvi və s. formalarda yazılırdı. Şah İsmayıl Xətainin “Dəhnamə” poemasının əvvəlindəki 62 beytdən ibarət B. məşhurdur. M. Füzulinin “Söhbət ül-əsmar” (“Meyvələrin söhbəti”) əsəri də baharın təsviri ilə başlanır.

**BAHARİYYƏ** – Misirdə, Liviya səhrasında vahələr qrupu. Təpələrlə əhatə olunmuş və bol içməli suyu olan çökəklikdədir (uz. 95 *km*, eni 40 *km*). Sah. təqr. 6 min $km^2$, əh. təqr. 7 min (2003). Avtomobil və karvan yolları onu Qahirə ş. ilə birləşdirir. Xurma, zeytun ağacları və taxıl becərilir. Təyyarə meydanı var.

**BAHARLI** Məhəmmədhəsən – bax *Vəliyev* Məhəmmədhəsən.

**BAHARLI** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qafan r-nu), Gığı çayının sol sahilində azərb.-ların yaşadığı kənd. 1918–20 illərdə erməni təcavüzünə məruz qalan əhalisi iki dəfə qaçqın düşmüş, Ordubad və Zəngilanın kəndlərinə sığınmışdır. Kənd ermənilər tərəfindən dağıdılmış, əhalisinin bir hissəsi isə qətlə yetirilmişdir. 1983–85 illərdə kəndin yerində su anbarı tikmək bəhanəsi ilə kəndin bir hissəsi r-nun Zeyvə kəndinə köçürülmüş, digər hissəsi isə Azərbaycanın Abşeron r-nu ərazisində məskunlaşmışdır.

**BAHARLI**, Birinci Baharlı, Bəhrili – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qarakilsə, 2.3.1940 ildən Sisyan r-nu) azərb.-ların yaşadığı kənd. 1917–18 illərdə erməni daşnaklarının Qarakilsə ərazisində dağıtdıqları 15 azərb. kəndindən biri də B. olmuşdur. 1922 ildə geri qayıdan kənd sakinləri qonşu Vağudi kəndində məskunlaşmışlar.

**BAHARLI** – Azərb. Resp. Zəngilan r-nunun Çöpədərə ə.d.-ndə kənd. R-n mərkəzindən 15 *km* şm.-q.-də, Oxçuçayın sahilində, dağətəyi ərazidədir. Əh. 227 (2008); işğaldan (1993, oktyabr) əvvəl üzümçülük, heyvandarlıq, əkinçilik və baramaçılıqla məşğul olmuşdur. Orta məktəb, klub, kitabxana, uşaq bağçası, feldşer-mama məntəqəsi, məscid var idi.

**BAHARLI** – Azərb. Resp. Ağdam r-nunun Xındırıstan ə.d.-ndə kənd. R-n mərkəzindən 23 *km* şm.-ş.-də, Qarabağ düzündədir. Əh. 335 (2008); maldarlıq, taxılçılıq və pambıqçılıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, feldşer-mama məntəqəsi var.

**BAHARLI** – Azərb. Resp. Ağdam r-nunun Üçoğlan ə.d.-ndə kənd. R-n mərkəzindən 20 *km* şm.-ş.-də, Qarabağ düzündədir. Əh. 306 (2008); maldarlıq və taxılçılıqla məşğuldur.





**BAHARLILAR** – orta əsrlərdə *oğuzların* tərkibində Orta Asiyadan Yaxın Şərqə və Azərb.-a gəlmiş türk tayfası. “Baharlı” etnik termininə ilk dəfə 15 əsrə aid mənbələrdə təsadüf edilir. B. qaraqoyunlu tayfa ittifaqında və Qaraqoyunlu dövlətində hakim mövqe tutmuşlar. Qaraqoyunluların süqutundan sonra Ağqoyunlulara tabe olmaq istəməyən B. Xorasana getmiş, Teymurilərə sığınmışlar. Uzun Həsənin ölümündən (1478) sonra onların Qaraqoyunlu dövlətini bərpa etmək təşəbbüsü nəticə verməmişdir. B.-ın bir hissəsi Babura qoşularaq Hindistana getmiş, orada Qütbşahilər dövlətini (bax *Qolkonda*) yaratmışdır; Xorasanda qalan digər B. Səfəvilər dövründə İran və Azərb.-ın siyasi həyatında iştirak etmişlər. 16 əsrin sonlarında B. *şahsevənlərə* qoşulmuşlar. Cənubi Azərb.-da yaşayan şahsevən tayfalarından biri də B.-dır. Azərb. Resp.-nın Ağdam, Zəngilan r-nlarındakı Baharlı kənd adları, ehtimal ki, B.-la əlaqədardır.

**BAHAROV** Tofiq Yusif oğlu (d.22.3. 1935, Bakı) – Azərb. neftçi geoloqu, geologiya-mineralogiya e.d. (1989). 1957 ildə Azərb. Sənaye İn-tunu bitirmişdir. “Bibiheybətneft” NQÇİ-də operator, neftçıxarma ustası, mühəndis və böyük geoloq (1957–67), AMEA-nın Dərin Neft və Qaz Yataqları Problemləri İn-tunda böyük elmi işçi, laboratoriya rəhbəri, şöbə müdiri, aparıcı elmi işçi (1967–2005), 2005 ildən ARDNŞ “Neftqazlayihə” İn-tunda laboratoriya rəhbəri vəzifələrində işləmişdir; 2010 ildən həmin laboratoriyanın aparıcı elmi işçisidir. Tədqiqatları neft və qaz ehtiyatlarının hesablanması və işlənilməsinə həsr olunmuşdur. 150-dən çox elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir.

Əsərləri: Геолого-статистический анализ результатов переоценки нефтяных залежей Апшеронского полуострова (E.B. Vəliyeva ilə birlikdə). Б., 1991; Статистические методы оценки запасов нефти. Б., 1978.

**BAHAVALPUR** – Pakistanın ş.-ində, Pəncab əyalətində şəhər. Əh. 552,6 min (2005). Sətləc çayı dərəsindədir. Avtomobil yolları qovşağı. D.y.st. 1748 ildə salınmışdır. 1955 ilə qədər eyniadlı racalığın paytaxtı olmuşdur. Müsəlman dini mərkəzidir. Müq. Dominik kilsəsi, məscid; İslam Un-ti (1975), kolleclər, o cümlədən ilahiyyat kollecləri; Pakistanda ən yaxşı kitabxanalardan biri (1948 ildən); muzey (1971 ildən; sikkələr, medallar, ağac və daş relyeflər) var. K.t. r-nunun (taxıl, pambıq, düyü) ticarət mərkəzidir. Yüngül, yeyinti (şəkər, un, yağ istehsalı) sənayesi müəssisələri var. Xalçaçılıq, dulusçuluq inkişaf etmişdir.



Bahavalpur nəvabblarının keçmiş sarayı.

**BAHİYA** – Braziliyanın ş.-ində ştat. Sah. 564,7 min $km^2$. Əh. 14,0 mln. (2007). İnz. m. və mühüm portu Salvador ş.-dir. Braziliya yaylasının ş.-ini və Atlantika okeanı boyunca uzanan düzənliyin bir hissəsini tutur. Ölkədə çıxarılan və emal edilən neftin 90%-i, almaz hasilatının təqr. 25%-i, istehsal olunan kakaonun təqr. 95%-i B.-nın payına düşür. Yeyinti, toxuculuq, dəri-ayaqqabı, kimya sənayesi müəssisələri, iri SES (Paulu-Afonsu) və s. var. Kakao, tütün, şəkər qamışı, çəltik, qarğıdalı becərilir. Daxili r-nlarda ətlik heyvandarlıq inkişaf etmişdir.

**BAHİYA-BLANKA** (Bahia Blanka) – Argentinanın c.-ş.-ində şəhər. Əh. 276,5 min (2005). Atlantika okeanının Bahiya-Blanka körfəzində iri dəniz portu (yun, ət və ət məhsulları, taxıl ixracı). D.y. qovşağı.

Ş. 1828 ildə salınmışdır. 19 əsrin sonu – 20 əsrin 1-ci rübündə şəhərin tarixi hissəsində *bozar* və neoklassisizm üslubunda Bələdiyyə binası, Məryəm ana kilsəsi,

Bahiya-Blanka şəhərindən görünüş.



nəşriyyat evi və s. tikilmişdir. Şəhərin 100 illiyi münasibətilə ar deko üslubunda Rivadavia xatirə meydanı salınmışdır. Bələdiyyə teatrı, muzeylər (təbiət elmləri, şəhərin tarixi və s.), milli un-t (1956), kitabxana var. B.-B. iri neft emalı və neftkimya sənayesi, həmçinin plastik kütlə istehsalı mərkəzidir. Unüyütmə, ətdondurma, gön-dəri, eləcə də metallurgiya sənayesi inkişaf etmişdir.

**BAHİYA-BLÁNKA** – Argentinanın ş. sahillərində Atlantika okeanının körfəzi. Eni girişdə 33 *km*. Dərinliyi 20 *m*-ədək. Sahilləri dayazlıqdır, dünlər var. Körfəzin girişində Trinidad a. yerləşir. Portları: Bahiya-Blanka və Puerto-Belqrano.

**BAX** (Bach) – 16–19 əsrlərdə, əsasən, Türingiyada fəaliyyət göstərmiş alman musiqiçiləri sülaləsi. İlk tanınmış nümayəndəsi həvəskar musiqiçi, Qota yaxınlığındakı Vexmarda yaşamış Fayt Bax (1619 ildə vəfat etmişdir) olmuşdur. Sülaləyə 50-yə yaxın musiqiçi – bəstəkarlar, saray kapelmeysterləri, kantorlar, kilsə orqançalanları, şəhər musiqiçiləri daxildir. Ən görkəmli nümayən- dələri İ.S. *Bax*, onun yaxın qohumu İohann Kristof *Bax*, oğlanları V.F. *Bax*, K.F.E. *Bax* və İohann Kristian *Bax* sülalənin Arnştadt qoluna mənsubdurlar.

**BAX** Aleksey Nikolayeviç (17.3.1857, Poltava qub.-nın Zolotonoşa ş. – 13.5. 1946, Moskva) – rus biokimyaçısı və bitki fizioloqu, Rusiya biokimyaçılar məktəbinin banisi, SSRİ EA akad. (1929), Sosialist Əməyi Qəhrəmanı (1945), Lenin ad. mükafatın (1926) və SSRİ Dövlət mükafatı (1941) laureatı.



1875 il-də Kiyev Un-tinə daxil olmuş, inqilabi hərakatda iştirakına görə oradan xaric edilmişdir. 1885–1917 illərdə mühacirətdə (Fransa, ABŞ, İsveçrə) yaşamış, elmi fəaliyyətlə məşğul olmuşdur. RSFSR Xalq Təsərrüfatının Ali Şurası nəzdində Mərkəzi kimya laboratoriyasını təşkil etmiş, onun əsasında yaradılmış L.Y. Karpov ad. Fiziki Kimya İn-tunun ömrünün sonunadək direktoru olmuşdur. B. 1920 ildə Səhiyyə Komissarlığının Biokimya İn-tunu yaratmışdır. A.İ. *Oparinlə* birgə SSRİ EA Biokimya İn-tunu təşkil etmiş (1935) və onun direktoru olmuşdur (1944 ildən in-t B.-ın adını daşıyır).

Yaşıl bitkilərdə karbon qazının assimilyasiyasının əsasını təşkil edən kimyəvi proseslərin izahını vermişdir. Müəyyən etmişdir ki, hüceyrə tənəffüsü ardıcıl gedən fermentativ oksidləşmə-reduksiya reaksiyalar əsasında baş verir. Bioloji oksidləşmənin peroksid nəzəriyyəsini yaratmışdır (1897). Onun təklif etdiyi fermentlərin tədqiqi metodları yeni istiqamətin – texniki biokimyanın əsasını təşkil etmişdir. "Biokimya" jurnalının əsasını qoymuşdur (1936).

*Əd.*: Бах Л.А., Опарин А.И. А.Н. Бах. Биографический очерк. К 100-летию со дня рождения. 1857–1957. М., 1957.

**BAX** (Bach) İohann Kristian (5.9.1735, Leypsiq – 1.1.1782, London) – alman bəstəkarı və klavesinçalanı. İ.S. *Baxın* kiçik oğlu, Bax nəslinin, əsasən, Almaniyanın hüdudlarından kənarda işləmiş yeganə nümayəndəsi ("milanlı", yaxud "londonlu" Bax kimi tanınmışdır).



Hələ sağlığında opera bəstəkarı kimi şöhrət qazanmışdır. İlk musiqi dərslərini valideynlərindən almışdır (yaradıcılığının erkən nümunələri "Anna Maqdalena Baxın not dəftəri"ndə verilmişdir). Atasının ölümündən sonra Berlində ögey qardaşı K.F.E. *Baxın* himayəsində tərbiyə almış, burada *zərif üslubda* klavir konsertləri, sonatalar və b. əsərlər yaratmışdır. 1756 ildən təhsilini Bolonyada C.B. *Martininin* yanında davam etdirmişdir. Onun təsiri ilə katolik dinini qəbul etmiş, Milan kafedral kilsəsində orqançalan olmuşdur. Milanda dini (Maqnifikat C-dur, Te Deum D-dur, Dies irae c-moll) və kamera əsərləri yazmış, ilk operalarını ("Artakserks", tamaşası 1760, Turin; "Katon Utikada", 1761, Neapol; "İsgəndər Hindistanda", 1762, Neapol; hamısı P. *Metastazionun* librettosu üzrə) yaratmışdır. 1762 ildə Londona köçmüş, kraliça Şarlottanın himayəsi altında olmuşdur (kraliçaya klavesin və simli alətlər üçün 6 konsert həsr etmişdir). Əsasən opera janrında G.F. *Hendelin* ardıcılı kimi çıxış etmişdir. "Orion", "Zanaida" (hər ikisi 1763), "Ssipionun mərhəməti" (1778) operaları Londonda Kral Opera Teatrının səhnəsində, həmçinin İtaliyada tamaşaya qoyulmuşdur. 1764–81 illərdə K.F. Abellə birgə (bəstəkar, İ.S. Baxın tələbəsi) Londonun musiqi həyatında əhəmiyyətli hadisə olan və böyük müvəffəqiyyət qazanan illik silsilə konsertlər təşkil etmişdir. Gənc V.A. *Motsarta* böyük təsir göstərmiş, 1764–65 illərdə Londonda ona dostcasına himayədarlıq etmişdir. 1770-ci illərdə öz operalarını Manheymdə ("Femistokl", 1772; "Lusi Sulla", 1774) və Parisdə ("Qalleli Amadis", F. Kinonun librettosu üzrə, 1779) tamaşaya qoymuşdur.

Onun yaradıcılıq üslubu, əsasən, italyan (xüsusilə Milan) və fransız məktəblərinin, həmçinin atasının və *Berlin məktəbi* musiqilərinin təsiri altında formalaşmışdır. B. səhnə əsərlərinin çoxunda italyan opera-seria ənənələrinə riayət etmişdir. O, 30-dan artıq opera və (müştərək) *pastiççonun*; "Yəhudi çarı İoas" italyan oratoriyasının (1770), xor, yaxud vokal ansambllar üçün dini əsərlərin, 10-a yaxın kantatanın, kamera-vokal əsərlərin, 60-dan çox simfoniya və uvertüranın, 50-yə yaxın konsert simfoniyası və müxtəlif alətlər üçün konsertlərin, nəfəs alətləri üçün marşların, kamera-instrumental əsərlərin və s. müəllifidir.

**BAX** (Bach) İohann Kristof (8.12.1642, Arnştadt – 31.3.1703, Eyzenax) – alman bəstəkarı və orqançalanı. İ.S. *Baxın* yaxın qohumudur; orqan bilicisi və bəstəkar kimi ona böyük təsiri olmuşdur. 1663 ildən Arnştadda saray orqançalanı, 1665 ildən Eyzenaxda Müq. Georgi kilsəsində şəhər orqançalanı, sonra Saksen-Eyzenax hersoqu II İohann Georqun kapellasında saray orqançalanı və klavesinçi olmuşdur. B.-ın əsərlərinin kiçik bir hissəsi qorunub saxlanmışdır (5 və 8 səsli a kapella üçün 8 motet, instrumental müşayiət ilə 5 və 10 səs üçün 2 konsert; orqan üçün 44 prelüd və xoral, Es-dur prelüd və fuqası; klavir üçün 3 variasiyalar silsiləsi). K.F.E. *Bax* onun kontrapunkt məharətini və virtuoz ifasını belə qeyd etmişdir: "orqan və klavirdə o, ən azı beş sərbəst səslə çalmışdır."

**BAX** (Bach) İohann Sebastyan (21.3. 1685, Eyzenax – 28.7.1750, Leypsiq) – alman bəstəkarı, orqançalan və klavesinçi. *Bax* musiqiçilər sulaləsinin ən görkəmli nümayəndəsidir. Skripka və altda çalmağı şəhər, sonra saray musiqiçisi olmuş atası İohann Ambrozius Baxdan (1645–95) öyrənmişdir. İlk (ümumi və musiqi) təhsilini Eyzenaxda Müq. Georgi kilsəsi nəzdindəki Latın məktəbində almışdır. Erkən yetim qalmış, 1695 ildə Ordrufa, Müq. Mixail kilsəsində orqançalan və məktəbdə müəllim işləyən böyük qardaşı İohann Kristofun (1671–1721) yanına







gəlmiş (ondan klavir və orqanda çalmağı öyrənmişdir), orda kilsə nəzdindəki liseydə təhsilini müvəffəqiyyətlə davam etdirmiş, xorda oxumuşdur. Lakin gözlənilmədən təqaüdünün kəsilməsi onu təhsilini yarımçıq qoymağa məcbur etmişdir. 1700 ildə Müq. Mixail monastırı nəzdindəki Lüneburq xor məktəbində təhsilini davam etdirmişdir. Lüneburq və Hamburqda ilk dəfə şm. alman orqan məktəbi ilə tanış olmuşdur. 1703 ilin avqust ayından Arnştadtdakı Yeni kilsədə orqançalan işləmişdir, burada onun bizə gəlib çatan orqan və klavir əsərlərinin ilk nümunələri (prelüdlər, fuqalar, sonatalar, 2 kapriççio, xoral prelüdləri, tokkatalar, həmçinin orqan Tokkatası və d-moll BWV 565 fuqası) yazılmışdır.

1707 ilin yayından Mülhauzendə kilsə orqançalanı olan B., burada özünün ilk kantatalarını yaratmışdır. 1708 ildən Veymar hersoqunun sarayında orqançalan və kamer-musiqiçi, 1714 ildən konsertmeyster olmuşdur. Orqan əsərlərinin (o cümlədən c-moll Passakaliyası və Orqan kitabçası) çoxunu, dini (o cümlədən, 12-ci və 21-ci) və dünyəvi (208-ci "Ovçu") kantatalarının, klavir əsərlərinin (o cümlədən İngilis süitaları) xeyli hissəsini Veymarda yazmışdır. 1717 ilin dekabrında Kötenə köçmüş, burada 6 il saray kapelmeysteri vəzifəsində işləmişdir. 1720 ildə arvadı Mariya Barbara (oğlanları V.F. *Bax* və K.F.E. *Bax* bu nikahdandır) vəfat etmiş, 1721 ildə ikinci dəfə Anna Maqdalena ilə evlənmişdir. Kötəndə (Xromatik fantaziya və fuqa daxil olmaqla) *klavir, orqan, skripka, violonçel, fleyta, lyutna*, həmçinin müxtəlif instrumental heyətlər üçün ("Brandenburq" konsertləri, skripka ilə ork. üçün konsertlər və 2 skripka ilə ork. üçün konsertlər, orkestr süitaları) əsərlər yazmışdır. İnvensiyalar, "Simfoniyalar", "Yaxşı temperasiyalı klavir"in 1-ci cildi, Vilhelm Frideman və Anna Maqdalena Baxın Klavir kitabçaları da Kötəndə yazılmışdır (1-ci kitabça Leypsiqdə tamamlanmışdır). B. 1723 ildən Leypsiqdəki Müq. Foma kilsəsi nəzdindəki məktəbdə kantor (musiqi və latın dili müəllimi) vəzifəsində çalışmış və eyni zamanda şəhərin musiqi direktoru olmuşdur. "Əzablar", kantatalar, messalar və oratoriyaların böyük hissəsi Leypsiqdə yaranmışdır. 1740-cı illərin sonunda B. görmə qabiliyyətini itirməyə başlamışdır. 1749 ilin yazında səhhəti qəflətən pisləşmiş, 1750 ildə aparılan iki uğursuz əməliyyatdan sonra vəfat etmişdir. B. barokko dövrünün sonuncu ən böyük bəstəkarıdır. O, 18 əsrin 1-ci yarısı alman musiqisinin bütün janrlarında (operadan başqa) əsər yaratmışdır. Yaradıcılığında sayca kilsə (dini) musiqisi janrları (750-dən çox vokal-instrumental kantatalar, oratoriyalar, passionlar, messalar, Maqnifikat, motetlər, dini mahnılar) və orqan əsərləri üstünlük təşkil edirdi. Kantatalarda dünyəvi (o cümlədən opera) və dini musiqi ənənələrinin təsiri birləşirdi; onların çoxu, bir qayda olaraq, xoral melodiyası üzərində qurularaq, polifonik işlənmiş giriş xoru ilə açılır və həmin xoralın sadə 4 səsli ifası ilə başa çatır. Orta və əlaqələndirici hissələr orkestrin və ya solo alətlərin müşayiəti ilə italyan üslubunda da kapo solo ariyalar (həmçinin vokal ansambllar), reçitativlər, ariozolar, həmçinin xoral əsasdan asılı olmayan xorlardan ibarətdir. Həmin kompozisiya prinsipləri "İohann əzabları" (1724), "Matfey əzabları" (1727) və "Milad oratoriya"sının (1734, 6 kantatadan ibarət sil-silə) əsasını təşkil edir. Onların çoxplanlı dramaturgiyasına monumental xorlar, xorallar, sərbəst şeirlərə yazılmış ariyalar və İncil mətnlərinə qısa xor replikaları, həmçinin yevangelist-hekayəçinin reçitativləri daxildir. H-moll messası (1749) "katolik" mətnli möhtəşəm əsərdir, lakin mənəvi əhəmiyyətinə görə həm də başəridir. Orqan prelüdləri və fuqalar, tokkata və fuqalar, c-moll Passakaliyası, "Klavir çalışmaları" ("Clavierübung", Bd 3, 1739; ənənəvi adı "Orqan messası") məcmuəsinin 3-cü cildi, Fantaziya və g-moll BWV 542 fuqası (təqr. 1712), trio-sonatalar orqançalanların əvvəlki kimi konsert repertuarının əsasını təşkil edir. B. həmçinin son dərəcə virtuoz klavir ifaçısı olmuşdur. O, klavir konserti janrını (solo klavir üçün İtalyan konserti, orkestrlə 1–4 klavir üçün konsertlər) yaradan bəstəkarlardan biridir. Klavir üçün 300-ə qədər əsər yazmışdır. Skripka, violonçel, fleyta, lyutna üçün əsərləri (50-dən yuxarı) ilə bu alətlərdə ifa üsullarını təkmilləşdirmişdir.

Sonrakı nəsil bəstəkarları, böyük ustadın oğlanları da daxil olmaqla, yeni yollar axtarıb tapırdılar və B.-ın yaradıcılığı yarım əsrdən çox köhnəlmiş hesab olunurdu. 1829 ildə Berlində "Matfey əzabları"nın (F. Mendelsonun rəhbərliyi ilə) ifa olunması onun musiqisinə marağı artırdı. B-ın 19–20 əsrlər musiqisinə təsiri çox böyük olmuşdur. Lakin kontrapunkt texnikası və fuqa sənəti heç vaxt onun yaradıcılığında olduğu kimi yüksələ bilməmişdi. Leypsiqdə (1908 ildən; 1999 ildən hər il) İ.S. Bax ad. Beynəlxalq musiqi festivalı keçirilir. Azərb.-da B-ın əsərləri musiqi məktəblərində geniş tədris olunur.

Əsərləri: Werke /Hrsg. vonder Bach-Gesellschaft zu Leipzig. Lahrgänge und Supplement. Lpr., 1851–1899; Neue Ausgabe sämtlicher Werke/Hrsg.vom J.-S.-Bach - Institut Göttingen und Bach - Archiv Leipzig. Kassel u.a., 1954-.

*Əd.*: Милка А., Шабалина Т. Занимательная бахиана. 2-е изд. СПб., 2001. Вып. 1–2; Сапонов М. Шедевры Баха по-русски. Страсти, оратории, мессы, кантаты, музыкальные драмы. М., 2005.

**BAX** (Bach) Karl Filipp Emanuel (8.3. 1714, Veymar – 14.12.1788, Hamburq) – alman bəstəkarı, klavesinçi, musiqi nəzəriyyəçisi, İ.S. *Baxın* oğlu və şagirdi. "Berlinli" və ya "hamburqlu" Bax kimi tanınmışdır. Klassikayaqədərki "həssas", yaxud *zərif üslubun* görkəmli nümayəndələrindən biridir. 1723–31 illərdə Leypsiqdə, atasının işlədiyi Müq. Foma kilsəsi nəzdindəki məktəbdə oxumuşdur. Leypsiq (1731–33) və Frankfurt-Oder (1734–38) un-tlərində hüququ öyrənmişdir. 1740 ildən Berlində (Potsdam) II Fridrixin kapellasında (bax *Berlin məktəbi*) klavesinçi işləmişdir. Sonralar ictimai konsertlər təşkil etmiş, həmin konsertlərdə G.F. Hedelin, Y. Haydnın, G.F. *Telemanın* və öz əsərlərini ifa etmişdir. Hamburqda kilsə janrlarında 100-ə yaxın əsər yazmışdır (1749 ildə Maqnifikat yaranmışdır): "Ehtiraslar" (20-yə qədər), kantatalar, oratoriyalar (o cümlədən "İsraillilər səhrada", 1775; "İsanın dirilməsi və meracı", 1778), motetlər, psalmlar, xorallar, litaniyalar və s. Lakin B. yaradıcılığında klavir, kamera-instrumental (klavirin iştirakı ilə) və kamera-vokal

(K. Şturmın mətnlərinə "Dini nəğmələr") musiqi başlıca yer tuturdu. *Vyana klassik məktəbi* bəstəkarlarına B. musiqisinin təsiri olmuşdur. Əsərləri arasında ork.-la 1 və ya 2 klavir üçün 40-dan artıq konsert, instrumental ansambl ilə klavir üçün 30-dan artıq sonatina, nəfəs və simli alətlər üçün 20-yə yaxın sonata, 20-dən çox klavir duetləri, rondo, fantaziyalar, fuqalar, variasiyalar, "simfoniyalar", "solfecio", menuetlər, polonezlər, marşlar var. "Klavirdə düzgün ifaçılıq təcrübəsi" ("Versuch über die wahre Art das Klavier zu spielen", 1753–62) adlı traktatında özünü klavir sənətinin görkəmli nəzəriyyəçisi kimi göstərmişdir. B.-ın oğlu – Kiçik İohann Sebastyan Bax (1748–78) qrafika rəssamı olmuşdur.

**BAX** (Bach) Vilhelm Frideman (22.11.1710, Veymar – 1.7.1784, Berlin) – alman bəstəkarı və orqançalanı. İ.S. *Baxın* böyük və ən istedadlı oğlu, Bax sülaləsinin sonuncu böyük orqan ifaçısı. "Drezdenli", həmçinin "halleli" Bax kimi də məşhurdur. Onun musiqisində (bəzən bir əsər çərçivəsində) atasından mənimsənilmiş yüksək *barokko* və klassikayaqədərki "həssas üslub" (bax *Zərif üslub*) birləşmişdir. 1723 ildən Leypsiqdə (Tomasşule) Müq. Foma kilsəsi nəzdindəki məktəbdə oxumuşdur. Musiqi dərslərini atasından almış, onun köməkçisi olmuşdur. 1726–27 illərdə Merserburqda İ.Q. *Qraunun* yanında skripkada ifasını təkmilləşdirmişdir. 1729–33 illərdə Leypsiq Un-tində hüquq, fəlsəfə və riyaziyyatı öyrənmiş, 1733 ildə müsabiqədə qalib gələrək, Drezdendəki Müq. Sofiya kilsəsində orqan ifaçısı vəzifəsini tutmuşdur. 1746 ildə imtahansız Halledə Müq. Məryəm kilsəsinin orqançısı və faktiki olaraq musiqi rəhbəri təyin edilmişdir. Drezdendə, əsasən, klavir üçün əsərlər (3 konsert, 2 klavir üçün konsert, sonatalar, fantaziyalar, fuqalar), bir sıra orqan, kamera əsərləri (fleyta üçün 6 duet, simli orkestr üçün C-dur, F-dur, G-dur, A-dur, B-dur simfoniyaları, trio-sonatalar); Halledə 30-a yaxın dini və 2 dünyəvi kantata, Alman messası və b. vokal-xor əsərləri, 2 klavir konserti (Es-dur, e-moll), fleyta üçün 3 sonata, 2 fleyta üçün 4 trio-sonata və basso kontinuo, klavir üçün polonezlər, 3 orqan fuqası yazmışdır. "Harmonik üçhəmsədə haqqında traktat" ("Abhandlunq vom harmonischer Dreiklang", təqr. 1755, əlyazması itmişdir) kimi bu əsərlərin də bir hissəsi pedaqoji mahiyyət daşıyır. Halledəki həyat şəraitindən (oradakı *pietizm* ideologiyası musiqi yaradıcılığını məhdudlaşdırırdı) narazı olan B. başqa iş yeri axtarmağa cəhd göstərsə də, buna nail olmamışdır. Yeddillik müharibə (1756–63) və onun nəticələri, 1764 ildə Halledəki iş yerindən imtina, ömrünün axırınadək işsiz qalması onu yoxsulluğa gətirib çıxarmışdı. Arvadının varidatını xərclədikdən sonra, B. ailəsi ilə Braunşveyqə (1770–74), daha sonra Berlinə köçmüşdür. Bu illər ərzində 2 klavir üçün F-dur konserti, klavir üçün 2 sonata, 2 klavir üçün D-dur sonatası, 10 fantaziya, klavir, yaxud orqan üçün 8 fuqa, alt üçün 3 duet yazmışdır. Uzaq qohumu İohann Kristian Bax (1743–1814), S. Levi, İ.S. Petri, F.V. Rust B.-ın şagirdləri olmuşlar.





Baxçasaray şəhərindən görünüş.

**BAXÇASARÁY** – Ukraynada şəhər. Krımda, Çürüksu çayı dərəsindədir. D.y.st. Əh. 26,4 min (2006). "Stroyindustriya" kombinatı, efir yağları, konserv, şirə cövhəri z-dları, yunəyirmə f-ki var.

1503 ildə xan I Mengli Gəray B.-ın yerində öz iqamətgahını – Xan sarayını inşa edərək şəhərin əsasını qoymuşdur. Saray bağların içində yerləşdiyindən şəhər B. adlanmışdır. 16 əsrin sonlarında B. çiçəklənmə dövrünü yaşamışdır. *Krım xanlığının* paytaxtı olmuşdur. B.-da xan zərbxanası yerləşirdi. *Baxçasaray sülh müqaviləsi (1681)* burada imzalanmışdır. 17–18 əsrlərdə B. Krımın c.-q. bölgəsinin ticarət-sənətkarlıq mərkəzi idi. Rusiya-Türkiyə müharibəsi (1735–39) gedişində ruslar şəhəri tutduğu zaman Xan sarayını və 2000-dən çox evi viran qoymuş, Səlim Gərayın yaratdığı zəngin kitabxananı yandırmışlar. 1740 ildə xarabalıqların bir qismi, eləcə də kitabxana II Salamat Gəray tərəfindən bərpa edilmişdir. 1783 ildə Rusiyaya birləşdirilərək Novorossiya qub.-nın, 1802 ildən Tavrida qub.-nın tərkibində olmuşdur. Görkəmli ictimai-siyasi xadim İsmayıl bəy *Qasprali* uzun müddət Rusiya müsəlmanları üçün mühüm təhsil və tədris mərkəzi olan B.-da yaşamışdır. Çarlığın ləğvindən sonra yaradılan Krım Tatar Resp.-nın idarəçilik mərkəzi B.-da yerləşirdi. Krım tatarlarının Qurultayı Xan sarayında keçirilmişdir.

B. özünəməxsus Krım ənənələri və yerli relyefə uyğun asimmetrik saray-bağ kimi tikilmişdir (16 əsr; 18–19 əsrlərdə yenidən tikilmişdir; 1917 ildən tarix-arxeologiya muzeyidir). Yaşıllıqlar içərisində olduğu üçün ona B. adı verilmişdir. Mengli Gəraydan sonra gələn Krım xanları sarayı yeni tikililərlə zənginləşdirmişlər. Saray düzbucaqlı həyətin ətrafındakı bir sıra tikililərdən ibarətdir [Krım Gərayın xanımı Dilarə Bikeç üçün inşa etdirdiyi "Gözyaşı fəvvarəsi" (1764) olan kiçik həyət; Meyvəli, yaxud Qızıl kabinetli pavilyon (hər ikisi iranlı usta Ömərin işidir), çoxsaylı zallar (ən qədimi iki cərgə pəncərəsi olan divanxana zalı, 16 əsr) və köşklər]. Sarayın interyerində şərqli ustalar tərəfindən hazırlanmış ağac və vitrajlardan istifadə edilmişdir. Sarayın inşasında italiyalı memar Aleviz Fryazin Novı da iştirak etdiyi üçün onda Renessans memarlığının əlamətləri hiss olunur. Böyük həyətin yanında məscid (1740) və mərmər məqbərələrdən ibarət Xan qəbiristanlığı var. B. yaxınlığında orta əsrlər Salancıq qəsəbəsinin (Hacı Gərayın məqbərəsi və Zəncirli mədrəsə), mağara şəhərlərin, o cümlədən qala divarları, məscid və Canikə xanımın məqbərəsinin (1437; indi arxeoloji qoruqdur) qalıqları olan Çufut Qala şəhərinin xarabalıqları var.







Baxçasaray. Xan sarayı.

1736 ildə B. rus ordusu tərəfindən zəbt edilərkən Xan Sarayı dağıdılmışdı. 1783 ildə çar Rusiyası Krımı ilhaq edərkən B.-da 31 came, 2 kilsə, 2 sinaqoq, 2 hamam, 1561 ev vardı; 1854 ildə isə 9 came, 28 məscid mövcud idi. Krımdakı türk-islam dəyərlərinin bir çoxu çar və Sovet dövründə məhv edilmişdir. A.S. *Puşkin* və A. *Mitskeviçin* şeirlərində, B.V. *Asafyevin* "Baxçasary fontanı" baletində vəsf edilmiş "Gözyaşı fəvvarəsi" dövrümüzədək qalmışdır.

**BAXÇASARAY SÜLH MÜQAVİLƏSİ** (1681) – Osmanlı imperiyası ilə Rusiya arasında yanvarın 3 (13)-də *Baxçasaray* ş.-ndə bağlanmışdır. Rusiya-Türkiyə müharibəsinə (1676–81) son qoymuşdur. Baxçasaraydakı danışıqlar 1679 ilin sonunda başlandı. Türkiyəni Krım xanı Murad Gəray, Rusiyanı isə V.M. Tyapkin, N.M. Zotov, Solsahil Ukraynasının getmanı İ.S. Samoyloviçin nümayəndəsi S. Rakoviç (əsirlikdə olan boyar V.B. Şeremetev də onlara qoşulmuşdu) təmsil edirdilər. 20 il müddətinə bağlanan müqaviləyə əsasən Osmanlı imperiyası ilə Rusiya arasındakı sərhəd Dnepr çayından keçirdi, Kiyev şəhəri və ətrafındakı yerlər Rusiyanın tərkibində qalırdı; hər iki tərəfə Dneprdən Zaporojyeyə qədər olan 10 verstlik zolaqda qala tikmək qadağan edillirdi; tatarlar Dnepr çayının və onun qollarının sahilboyu çöllərində köç və ov etmək hüququnu aldılar, kazaklara və digər rus əhalisinə isə Dnepr və onun qollarında balıq ovlamaq, duz çıxarmaq, ov etmək və Qara dənizədək sərbəst üzmək hüququ verildi; əsirlər dəyişdirilirdi; Krım xanı rus torpaqlarına hücum etməmək haqqında öhdəlik götürsə də, B.s.m.-nin ratifikasiyası zamanı o, birtərəfli qaydada müqavilənin iki maddəsini (tatarların azad köçü və rus əhalisinin hüquqları haqqında; "çarın düşmənlərinə" yardım göstərilməsinin qadağan olunması haqqında) ləğv etdi. B.s.m. sultan tərəfindən təsdiqlənmək üçün 1681 ildə İstanbula göndərildi. Sultanın təsdiqlədiyi yekun sənədində (1682) zaporojyelilərin rus təbəəliyinə keçməsi haqqındakı bənd öz əksini tapmamışdı; ruslar Dneprin sağ sahilinə yalnız rüsum ödəməklə keçə bilərdilər, zəvvarların Yerusəlimə getməsinə icazə verilirdi. B.s.m. nəticəsində Osmanlı imperiyası Solsahil Ukraynasının və Kiyevin ətrafı ilə birlikdə Rusiyaya qatılmasını qəbul etdi. Müqavilə 1684 ildə Krım xanı I Səlim Gəray, 1685 ildə isə Osmanlı sultanı IV Mehmed tərəfindən birdəfəlik təsdiqləndi.

**BÁXER** (Bacher) Vilhelm (12.1.1850, Macarıstan, Lipto-Sent-Mikloş – 25.1.1913, Budapeşt) – macar şərqşünası. Milliyyətcə yəhudidir. "Nizaminin həyatı və əsərləri" (Leypsiq, 1871) adlı dissertasiyası Avropada Nizaminin həyat və yaradıcılığına həsr olunmuş ilk sanballı elmi araşdırmadır. Nizaminin öz əsərləri əsasında ilk dəfə onun geniş tərcümeyi-halını yazmışdır. Fars ədəbiyyatına, yəhudi filologiyasına və ilahiyyata dair əsərləri var.

Əsəri: Nizamis Leben und Werke und der zweite Teil des Nizamischen Alexanderbuches. Leipzig, 1871.

*Əd.*: Крымский А. Низами и его изучение. В сб.: Низами Гянджеви. Б., 1947; Бертельс Е.Э. Избранные груды. Низами и Физули. М., 1962.

**BAXƏRZİ** (الباخرزى) Əbu-l Həsən Əli ibn əl-Həsən əl-Baxərzi (?–1074) – ərəb şairi. Baxərz ş.-ndə doğulmuşdur. Xilafətin müxtəlif yerlərində yaşayan şairlər haqqında məlumat və əsərlərindən nümunələr verən "Qısa təsvir və əsrin seçilmiş adamları" adlı şeir məcmuəsinin müəllifidir. Məcmuədə Azərb. şairlərindən Mənsur Təbrizi və Xətib Təbrizinin də şeirlərindən nümunələr verilmişdir. X. Təbrizinin Nizamülmülkə həsr etdiyi qəsidə B.-nin sayəsində dövrümüzədək gəlib çatmışdır. X. Təbrizinin həmin əsərini B. yüksək qiymətləndirmişdir. Məcmuə 1930 ildə Hələb ş.-ndə ərəb dilində nəşr edilmişdir.

**BAXIŞ BORUSU** – uzaqda yerləşən əşyaları vizual müşahidə etmək üçün böyüdücü cihaz; obyektiv, okulyar və çevirici sistemdən ibarətdir. B.b.-ın ən geniş yayılmış optik sistemlərdən (teleskop, binokl,




durbin və s.) biridir. B.b.-nun böyüdücülük qabiliyyəti obyektivin fokus məsafəsinin okulyarın fokus məsafəsinə nisbətinə bərabərdir.

**BAXIŞKƏND** – İranın Şərqi Azərbaycan ostanında kənd. Mərənd şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Mərənd ş.-ndən 3 *km* q.-dədir.

**BAXIŞLI** – Azərb. Resp.-nın Xızı r-nunda kənd. Baxışlı ə.d.-nin (Baxışlı, Bəyəhmədyurd, Güneyqışlaq, Vərdah k.-ları daxildir) mərkəzi. R-n mərkəzindən 13

*km* q.-də, Ataçayın sahilindədir. Əh. 335 (2008); maldarlıq, əkinçilik və arıçılıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**BAXIŞOV** Arif Əyyub oğlu (22.6.1932, Şuşa – 4.10.1994, Bakı) – Azərb. fiziki, fizika-riyaziyyat e.d. (1985), prof. (1986). Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1955). Gəncə Dövlət Pedaqoji İn-tunda (1955–57), Azərb. SSR EA-nın Fizika İn-tunda (1957–65), BDU-nun yarımkeçiricilər fizikası kafedrasında (1965 ildən) çalışmışdır. Tədqiqatları Mendeleyev cədvəlinin I, III və VI qrupuna daxil olan elementlər əsasında mürəkkəb yarımkeçiricilərin optik xassələrinin öyrənilməsinə aiddir. 100-dən çox elmi əsərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**BAXIŞOV** Əlimərdan Aşur oğlu (d.9.4.1958, Masallı r-nunun Türklə k.) – Azərb. uroloqu, tibb e.d. (2009). Azərb. Dövlət Tibb İn-tunu (indiki ATU) bitirmişdir (1986). Həmin ildən ATU-nun urologiya kafedrasında (1997 ildən dos.) işləyir. Tədqiqatları operativ urologiya və uroginekologiya problemlərinə həsr olunmuşdur. 55-dən artıq elmi əsərin müəllifidir.

**BAXIŞOV** Şövkət Məmmədşah oğlu (d.20.5.1938, Quba r-nunun Amsar k.) – Azərb. riyaziyyatçısı, fizika-riyaziyyat e.d. (1996), prof. (2007). Azərb. Dövlət Un-tini bitirmişdir (1963). Azərb. EA-nın Riyaziyyat və Mexanika İn-tunda (1963–68), Gəncə Dövlət Pedaqoji Un-tində (1968–2005) işləmiş, 2005 ildən Lənkəran Dövlət Un-tinin prorektoru vəzifəsində çalışır. Tədqiqatları termoelastikliyin tərs məsələləri, analitik həndəsə və diferensial funksiya sahəsindədir. 50 elmi əsərin, o cümlədən 1 monoqrafiyanın müəllifidir.

Əsəri: Бахышев Ш. М. Обратные задачи термоупругости. М., 2002.

**BAXİO** (El Bajio) – Meksikada, Meksika yaylasının c.-unda, Rio-Turbo hövzəsində dağarası çökəklik. 1000–2000 *m* hündürlüklər üstünlük təşkil edir. Mülayim dağlıq tropik iqlimə malikdir. Orta temp-r dekabrda təqr. 12°C, mayda təqr. 18°C. İllik yağıntı 550 *mm* (oktyabr–may ayları quraq keçir). Torpağı münbitdir. Ölkənin mühüm k.t. (buğda, qarğıdalı, tərəvəzçilik) r-nlarından biridir. Əsas şəhəri Leondur.

**BAXMÁRO** – Gürc.-ın Çoxatauri r-nunda dağ-iqlim və meşə kurortu. Kiçik Qafqazda Mesxeti silsiləsinin yamaclarında, 2000 *m* hünd.-dədir. Çoxatauri qəs.-ndən 40 *km* c.-dadır. Yanvarda orta temp-r – 6°C, iyulda 13°C-dir; illik yağıntı 1400 *mm*-ə qədərdir. Ətrafındakı dağ yamaclarında iynəyarpaqlı meşələr və Alp çəmənləri var. Ağ ciyər vərəminin qapalı formaları müalicə olunur. Sanatoriyalar, istirahət evləri, pansionat, poliklinika var. Mövsümü may ayından sentyabradəkdir.

**BAXMÚTİNO MƏDƏNİYYƏTİ** – Başqırdıstanda *Xalqların böyük köçü* (5–7/8 əsrlər) dövrünə aid arxeoloji mədəniyyət. Başq.-ın (RF) Baxmutino k.-nin adı ilə adlandırılmışdır. Ufa çayının aşağı axınından Belaya çayının Kamaya töküldüyü rayonadək yayılmışdır. İlk dəfə 1911 ildə burada dəfn yeri aşkarlanmışdır. 1928 ildə A.V. Şmidt tərəfindən Baxmutino qəbiristanlığında, Çandar və digər yaşayış yerlərində aşkar olunmuş materiallar əsasında müəyyənləşdirilmişdir. *Mazunin mədəniyyətinin* (onu bəzən B.m.-nin erkən mərhələsi hesab edirlər, 3–4 əsrlər) başqırd variantının və gəlmə əhalinin ənənələri əsasında təşəkkül tapan B.m.-nə sonradan *Turbaslin mədəniyyəti, Kuşnarenko mədəniyyəti* və Şimali Qafqazla əlaqələr də təsir göstərmişdir. Yarımqazmaları, çoxsaylı təsərrüfat quyuları, o cümlədən taxıl anbarları olan şəhər və kənd yerləri aşkar edilmişdir. Hər nekporolda meyitlərin eyni səmtdə dəfn olunduğu torpaq qəbirlər üstünlük təşkil edir. Dəfn mərasimlərində istifadə edilən müxtəlif heyvan fiqurları, dairəvi oturacaqlı və nöqtəvi basmalı keramika, qaşovlar və s. tapılmışdır. B.m. Perm *fin-uqorlarının* çöl mədəniyyəti, həmçinin ehtimal ki, Uralaşırı mədəniyyətlərlə əlaqələrini əks etdirir. 8 əsrdə B.m.-nin daşıyıcıları türk başqırd tayfaları tərəfindən sıxışdırılmış, yaxud assimilyasiyaya uğradılmışlar.

**BAXŞƏLİ KƏNDİ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin Muğan kəndistanında, Biləsuvar qəs.-ndən 30 *km* şm.-q.-dədir.

**BAXŞƏLİYEV** Adil Baxşəli oğlu (d.8.8.1952, Bərdə) – Azərb. kardioloqu, terapevt, tibb e.d. (1990), prof. (2004). Azərb. Dövlət Tibb İn-tunu (indiki ATU) bitirmişdir (1975). Azərb. Həkimləri Təkmilləşdirmə İn-tunda, Elmi Tədqiqat Kardiologiya İn-tunda şöbə müdiri, ATU-da kafedra müdiri (1976–98) işləmiş, 1998 ildən Kardiologiya ETİ-nin direktorudur. Tədqiqatları, əsasən, ürək-damar sistemi xəstəliklərinin öyrənilməsi sahəsindədir. 210-dan artıq elmi əsərin, o cümlədən 10 dərslik və dərs vəsaitinin müəllifidir.

**BAXŞƏLİYEV** Adil Baxşəli oğlu (d. 21.9.1959, Ağdam ş.) – Azərb. tarixçisi, tarix e.d. (2005), prof. (2010). Sumqayıt Dövlət Un-tində şöbə müdiri (2000 ildən), Azərb. tarixinin mənbəşünaslığı və tarixin tədrisi metodikası kafedrasının müdiri (2007–10) işləmişdir. Hazırda Sumqayıt Dövlət Un-tinin Tarix fakültəsinin dekanı (2001 ildən), həmçinin Azərb. tarixi və tarixin tədrisi metodikası kafedrasının müdiridir (2010 ildən). 60-dan çox elmi əsərin, o cümlədən 1 monoqrafiyanın müəllifidir.

**BAXŞƏLİYEV** Baxşəli Həsən oğlu (20.8.1920, Bərdə ş. – 12.11.1987, Bakı) – Azərb. Resp. əməkdar iqtisadçısı. Qori ş.-ndəki Maliyyə İn-tunu bitirmişdir. Azərb. SSR Maliyyə Nazirliyinin Bərdə, Yevlax r-nları üzrə baş nəzarətçi-müfəttişi (1944–54), Maliyyə Nazirliyində baş nəzarətçi-müfəttiş, şöbə müdiri (1954–61), Baş Dövlət Sığorta İdarəsinin rəisi (1961–68) işləmiş, 1968 ildə maliyyə nazirinin birinci müavini, 1970–87 illərdə maliyyə naziri olmuşdur. "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdir.

**BAXŞƏLİYEV** Baxşəli Rəsul oğlu (d.21.9.1932, Erm.-ın Qafan r-nunun Keypəşin k.) – Azərb. cərrahı, tibb e. d. (1988), prof. (1990). Azərb. Dövlət Tibb İn-tunu (indiki ATU) bitirmişdir (1955). ATU-da 3-cü cərrahlıq kafedrasının prof.-u (1990 ildən) vəzifəsində çalışır. Tədqiqatları qarın boşluğu orqanları xəstəliklərinin cərrahi müalicə üsullarının öyrənilməsinə həsr edilmişdir. 120-dən artıq elmi əsərin müəllifidir.

**BAXŞƏLİYEV** Ərəstun Təriş oğlu (d.17.3.1940, Cəlilabad r-nunun Bəsrəvan k.) – Azərb. psixoloqu, psixologiya e.d. (1995), prof. (1996). 1964 ildə Azərb. Dövlət Pedaqoji İn-tutu (indiki ADPU) bitirmişdir. 1967 ildən ADPU-da müəllim, baş müəllim, dosent vəzifələrində çalışmış, 1992 ildən kafedra müdiridir. Tədqiqatları Azərb.-da psixoloji fikrin inkişafı tarixinə həsr olunmuşdur.

Əsəri: Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. B., 2008.

**BAXŞƏLİYEV** Hafiz Baxşəli oğlu (d.1.4. 1980, Naxçıvan) – Azərb. idmançısı. Kikboksinq üzrə Avropa çempionatının gümüş (2006), dünya çempionatının bürünc (2007) mükafatçısı, üçqat dünya çempionu-dur (2004, 2006, 2008).







**BAXŞƏLİYEV** Rza İbrahim oğlu (22.3.1899, Bakı – 30.1.1992, Bakı) – Azərb. idmançısı. Yunan–Roma güləşi üzrə SSRİ əməkdar idman ustası (1943), Azərb. SSR əməkdar məşqçisi (1962), ümumittifaq dərəcəli hakim (1961), əməkdar bədən tərbiyəsi və idman xadimi (1969). Azərb. Bədən Tərbiyəsi İn-tunu (1933) və Azərb. Dövlət Un-tinin bitirmişdir (1948); un-tin bədən tərbiyəsi kafedrasının müdiri (1937–65) vəzifəsində işləmişdir. 20 qat resp. çempionu olmuşdur (1925–45).



**BAXŞƏLİYEV** Valeh İsmixan oğlu (d.4.2.1959, Xankəndi ş.) – mexanika sahəsində Azərb. alimi, texnika e.d. (2007), prof. (2011). 1980 ildə Azərb. Politexnik İn-tunu (indiki AzTU) bitirmişdir. 1980–83 illərdə "Nord" Elmi-Tədqiqat İn-tunda mühəndis-mexanik, 1983–2011 illərdə AzTU-da nəzəri mexanika kafedrasında işləmişdir. Elmi tədqiqatları maşın və mexanizmlərin dinamikası, onların uzunömürlülük və möhkəmlik məsələləri və tribologiya sahəsindədir. 100-dən çox elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. 2011 ildən Avropa Komissiyası 7-ci Çərçivə Proqramında Beynəlxalq elmi konsorsiumun (Almaniya, Türkiyə, Gürc., Azərb.) elmi rəhbəridir.

Əsərləri: Динамический анализ поршневых машин. Б., 2001; Механика поршневых машин. Берлин, 2011.

**BAXŞƏLİYEV** Vəli Baxşəli oğlu (d.5.6.1955, Azərb. Resp. Kəngərli r-nunun Böyükdüz k.) – Azərb. arxeoloqu, tarix e.d. (2005), AMEA-nın m. üzvü (2007). Nax. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1977). Nax. MR Dövlət Tarix Muzeyində ekspozisiya mü-diri (1983–86), AMEA Regional Elmi Mərkəzində Arxeologiya bölməsinin mü-diri (1990–92), elmi katib (1993–2002), AMEA Nax. Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İn-tunun el- mi katibi (2002–2004) olmuşdur. Naxçıvan ərazisində yerləşən arxeoloji abidələrin toplu halında hazırlanıb çap olunmasına rəhbərlik etmişdir (1990–95). Tədqiqatları Nax.-ın arxeoloji abidələrinin, həmçinin bu ərazidə yaşayan qədim tayfaların etnik mənsubiyyətinin öyrənilməsinə həsr olunmuşdur. Bir çox elmi əsərin, o cümlədən 14 kitabın müəllifidir.



**BAXŞƏLİYEV** Yasəf Rəsul oğlu (5.2.1940, Erm.-ın Qafan r-nunun Keypəşin k. – 18.4.2012, Bakı) – Azərb. pedaqoqu, pedaqoji e.d. (2010), əməkdar müəllim (2012). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1962). 1969 ildən həmin in-tda müəllim, baş müəllim, dosent vəzifələrində işləmiş, 1999–2012 illərdə cəbr və həndəsə kafedrasının müdiri olmuşdur. 60-dan çox elmi əsərin, o cümlədən dərslik və dərs vəsaitlərinin müəllifidir.

**BAXŞƏLİYEVA** Gövhər Baxşəli qızı (d.26.11.1954, Bərdə ş.) – Azərb. şərqşünası, filologiya e.d. (1996), prof. (2000). 1977 ildə Azərb. Dövlət Un-tini bitirmişdir. Həmin ildən AMEA-nın Şərqşünaslıq İn-tunda (1997 ildən direktor) çalışır. "Azərbaycan şərqşünaslığı" jurnalının baş redaktorudur (2009 ildən). Tədqiqatları klassik və müasir ərəb ədəbiyyatına, ərəbdilli Azərb. ədəbiyyatına və s. həsr edilmişdir. Ərəb ədəbiyyatından tərcümələri var. Elmi kadrların hazırlanmasında xidməti var. Azərb. Resp. Milli Məclisinin (2–4-cü çağırış) deputatıdır.

Əsərləri: Əbdüssəlam əl-Üceyli. Həyat və yaradıcılığı. B., 1989; Əbülfərəc əl-İstahaninin "Nəğmələr kitabı" və klassik Azərbaycan ədəbiyyatı. B., 1998; Müasir Suriya hekayəsi. B., 2007.

**BAXŞI** (türkməncə: baqşı; qazaxca: baksı; sanskritcə: bhikşu – müəllim sözündən) – Orta Asiya xalqlarında el xanəndəsi, aşıq, şair, çalğıçı və dastançı. Xalq nəğmə və dastanlarını dütarın müşayiəti ilə ifa edir, dastanların təhkiyə hissəsini isə söyləyir. Ədəbi irsin mühafizə edilib yayılmasında B.-ların mühüm xidməti olmuşdur. Şifahi xalq ədəbiyyatının bir çox nümunəsi B.-ların dilindən yazıya alınmışdır.

**BAXŞIYEV** Həsən Hüseynəli oğlu (d.23.10.1925, Nax. MR, Ordubad r-nunun Gənzə k.) – Azərb. dilçisi, filologiya e.d. (2005), prof. (2007). Azərb. Pedaqoji Rus Dili və Ədəbiyyatı İn-tunu bitirmişdir (1954). 1963–86 illərdə Azərb. Sənaye İn-tunun rus dili, 1986 ildən ADU-nun rus dili kafedralarında, 2001 ildən Azərb. dilçiliyi kafedrasında dosent vəzifəsində çalışmışdır. Tədqiqatları rus dilinin milli məktəblərdə tədrisi metodikasına, Azərb. atalar sözləri və zərbi-məsəllərin rus dilində qarşılığı mövzusuna həsr olunmuşdur.

Əsəri: Bəzi işlək Azərb. sözləri və məsəllərinin rus dilində qarşılığı . B., 2005.

**BAXŞIZADƏ** Əmir Əliməmməd oğlu (2.2.1915, Bakı – 15.12.1995, Bakı) – Azərb. kimyaçısı, kimya e.d. (1968), prof.(1971). Azərb. Dövlət Un-tini bitirmişdir (1939). Ümumittifaq Elmi Tədqiqat Olefinlər İn-tunda direktor (1952–63), direktor müavini (1963–76), sektor müdiri (1976–86), laboratoriya müdiri (1986–95) vəzifələrində çalışmışdır. Tədqiqatları aromatik karbohidrogenlərin alkilləşmə proseslərinin tədqiqi və katalizatorların sınaqdan keçirilməsi sahəsindədir. 140 elmi əsərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**BAXŞİYEV** Bahadur Ələkbər oğlu (d.26.12.1932, Ordubad) – Azərb. rentgenoloqu, tibb e.d. (1969), prof. (1970). Azərb. Resp. əməkdar həkimi (1981) və əməkdar müəllimi (2010). Azərb. Dövlət Tibb İn-tunu (indiki ATU) bitirmişdir (1955). Ordubad şəhər xəstəxanasında rentgenoloq və poliklinika müdiri (1955–58) işləmiş, 1959 ildən ATU-nun şüa diaqnostikası və terapiyası kafedrasında çalışmış, 1969 ildən kafedra müdiri, 1983–89 illərdə dekan olmuş, 1992 ildən Azərb. Resp. Səhiyyə Nazirliyinin baş rentgenoloqu və radioloqudur. Tədqiqatları ağ ciyər, qalxanabənzər vəzi, qırtlaq, qara ciyər xəstəliklərinin erkən diaqnostikası məsələlərinə həsr edilmişdir. 300-ə qədər elmi əsərin, o cümlədən bir neçə dərsliyin müəllifidir.

**BAXŞİYEV** Muradəli Məmməd oğlu (d.21.4.1953, Bakı) – Azərb. kardioloqu, tibb e.d. (2004), prof. (2007). Azərb. Dövlət Tibb İn-tunu (indiki ATU) bitirmişdir (1976). 1987 ildən ATU-nun daxili xəstəliklər və reanimatologiya kafedrasında işləyir. Tədqiqatları kardiologiyanın arterial hipertenziya, funksional diaqnostika, aritmiya və ürək çatışmazlığı məsələlərinə həsr edilmişdir. 80-dən artıq elmi əsərin müəllifidir.

Əsəri: Klinik elektrokardiostimulyasiya. B., 2006.

**BAXTÁ** – RF-də, Krasnoyarsk diyarı ərazisində çay. Yeniseyin sağ qolu. Uz. 498 *km*, hövzəsinin sah. 35,5 min $km^2$-dir. Orta Sibir yaylasından axır. Oktyabrın ortalarından mayın ortalarınadək donur. Aşağı axınında gəmiçiliyə yararlıdır.

**BAXTÁDZE** Kseniya Jermolayevna (5.2.1899, Tiflis – 28.11.1978) – gürcü seleksiyaçısı. Ümumittifaq Kənd Təsərrüfatı EA-nın akad. (1956) və Gürc. SSR EA-nın (1955) akad. SSRİ Dövlət mükafatı laureatı (1949), Sosialist



Əməyi Qəhrəmanı (1966). Tədqiqatları çayın seleksiyası və toxumçuluğuna həsr edilmişdir; yüksəkməhsuldar və yüksəkkeyfiyyətli çay sortlarının (gürcü №1 və №2, qışadavamlı № 3–12), "Kolxida" sortklonunun və s. müəllifidir.

**BAXTEMİR** – Volqa çayı deltasının ən q. qolu. Həştərxan ş.-ndən 18 *km* aşağıdan başlanır və sonra Köhnə Volqa qolunu sola ayırır. Uz. 125 *km*. Gəmiçiliyə yararlıdır.

**BAXTƏRƏN** – İranda şəhər. Bax *Kirmanşah.*

**BAXTİN** Mixail Mixayloviç (16.11.1895, Oryol – 7.3.1975, Moskva) – rus filosofu, filoloq. Bank işçisi ailəsində doğulmuşdur. Novorossiya Un-tində (Odessa), sonra Petroqrad Un-tində (1913–18) oxumuşdur. 1918–24 illərdə Nevel və Vitebskdə, 1924 ildən Leninqradda yaşamışdır. 1928 ildə "Dirilmə" dini-fəlsəfi dərnəyində fəaliyyətinə görə 5 il müddətinə xüsusi təyinatlı Soloves düşərgəsində həbsə məhkum olunmuşdur; səhhətinə görə (xroniki osteomielit) düşərgə Kustanaya sürgünlə əvəz edilmişdir. 1941–45 illərdə Moskva ətrafındakı orta məktəblərdə müəllim, 1945–69 illərdə Saranskdakı Mordva Dövlət Pedaqoji İn-tunda (1957 ildən un-t) ədəbiyyat kafedrasının müdiri işləmişdir. 1969 ilin oktyabr ayından Moskvada və Moskva ətrafında yaşamışdır. "İncəsənət və məsuliyyət" (1919) məqaləsi ilk çap olunmuş əsəridir. 1920-ci illərin 2-ci yarısında B. dostlarının adı ilə kitablar (Voloşinov V.N. "Freydizm", 1927; Medvedev P.N. "Ədəbiyyatşünaslıqda formal metod", 1928; Voloşinov V.N. "Marksizm və dil fəlsəfəsi", 1929), humanitar biliyin aktual problemlərinə dair bir sıra məqalələr yazmış və dərc etdirmişdir. "Dostoyevski yaradıcılığının problemləri" (1929; 2-ci, yenidən işlənmiş və əlavələr edilmiş nəşri: "Dostoyevski poetikasının problemləri", 1963) öz adı ilə çap olunmuş ilk kitabıdır. 30-cu illərin ortalarından roman nəzəriyyəsinə dair əsərlər ("Romanda söz", 1934–35, 1975 ildə çap olunmuşdur; "Tərbiyəvi roman və onun realizm tarixində əhəmiyyəti", 1936–38, əlyazması itmişdir, fraqmentlər 1979 ildə çap olunmuşdur; "Fransua Rablenin yaradıcılığı və orta əsrlər, Renessans dövrü xalq mədəniyyəti", 1940; 1965 ildə çap olunmuşdur və s.) yazmışdır. 1950–60-cı illərdə yazdığı "Nitq janrları problemi" (1952–53, 1979 ildə çap olunmuşdur) və "Mətn problemi" (1959–60, 1976 ildə çap olunmuşdur) əsərləri (hər iki əsər tamamlanmamışdır) ilə 1920-ci illərin nəzəri-metodoloji problematikasına qayıtmağa təşəbbüs göstərmişdir.

B. 1910–20-ci illərdə fəlsəfədə və digər humanitar elmlərdə daha intensiv ifadə olunmuş "elm aləmindən həyat aləminə" (H.G. *Qadamer*) dönüşün fəal iştirakçısı idi. 1920-ci illərin əvvəllərinə aid əlyazmalarında B. *yeni kantçılıqdan* çıxış edərək 19–20 əsrlərin fəlsəfə mədəniyyəti "qnoseologizmindən" "əməl fəlsəfəsinə" – "fikirdəki gerçəkliyin yaşanan gerçəkliyin arxitektonikası" kontekstində müəllifliyin tarixən motivləşdirilmiş formaları kimi mədəni yaradıcılığın müxtəlif sahələrinin fenomenoloji təsvirinə keçidi müəyyənləşdirmişdir. "Dil, linqvistika və stilistika fəlsəfəsi"nin yenidən səmtləşdirilməsi planında hələ Aristotel dövründən bərqərar olmuş predmetli-məntiqi "hökmdən" (B.-ə görə monologizm) dialoji baxımdan real məkan və zamanda ("varlıq-vaqiə", "xronotop") digər mülahizələrlə, "səslərlə", özgə nitqi ilə əlaqələndirilmiş sözün sosial və vaqiəvi ölçüsünə keçmək üçün B. filoloq kimi özünün başlanğıc fəlsəfi niyyətini inkişaf etdirmişdir. B.-in "əməl" və "vaqiə" fəlsəfəsindən hələ 1920-ci illərdə postulat kimi qəbul etdiyi "metalinqvistikaya" – mühakimə-sözün tarixi həyatı haqqında yeni elmə məcburi dönüşü Qərb fəlsəfəsindəki (hermenevtika, *analitik fəlsəfə, strukturalizm*) və filologiyadakı müvafiq təmayülləri qabaqlamışdır. B.-in "bədii nəsrin" xüsusi tipi kimi roman nəzəriyyəsi onun (1930-cu illərdə) fəlsəfi və filoloji maraqlarının sintezi olmuşdur: klassik eposdan (həmçinin faciədən) fərqli olaraq romanda insan və dünyanın obrazı başa çatmamış müasirliklə "çox sərbəst əlaqə zonasında" qurulur; əlahiddə lirik sözdən fərqli olaraq romanda söz tarixi təşəkkülün sosial diferensasiyanı və "ixtilafını" əks etdirir. B. romanın mənşəyini antik dövrün "romanlaşdırılmış janrları ("Sokrat dialoqu", "menippeya") və orta əsrlərin, Renessans dövrünün "qeyri-rəsmi" ("karnaval") mədəniyyəti ilə əlaqələndirmişdir. B.-in əsərləri dünyanın bir çox dilinə tərcümə olunmuşdur.

Ə s ə r l ə r i: Вопросы литературы и эстетики. М., 1975; Эстетика словесного творчества. М., 1979.

**BÁXUS** (lat. Bacchus), V a k x (yun. Βάκχος) – antik mifologiyada *Dionisin* adlarından biri.

**BAXVÁLOV** Nikolay Sergeyeviç (29.5.1934, Moskva – 29.8.2005, Moskva) – rus riyaziyyatçısı, REA-nın akad. (1991), prof. (1965). SSRİ Dövlət mükafatı laureatı (1985). Moskva Dövlət Un-tini bitirmişdir (1955). Əsas tədqiqatları hesablama riyaziyyatı sahəsindədir. Hesablama alqoritmlərinin optimallaşdırılması üzrə tədqiqatlara ilk başlayanlardan biri olmuş, onlar üçün xətanın kiçik qiymətlərinin alınması üsullarını işləyib hazırlamışdır. Diferensial tənliklər nəzəriyyəsində ortalama üsullarını inkişaf etdirmişdir.

**BAİRİKİ** – Kiribati dövlətinin paytaxtı. Əh. 44,4 min (2005). Bairiki a.-nda (*Gilbert adalarına* daxildir) yerləşir.

Əsası 1895 ildə B.Britaniyanın Gilbert və Ellis a.-ları protektoratının (1916 ildən müstəmləkəsinin) inzibati mərkəzi kimi qoyulmuşdur. 1979 ildən müstəqil dövlətin paytaxtıdır. Cənubi Sakit okean un-tinin filialı (1973 ildən), Milli kitabxana (1979) var. Kokos, balıq ticarəti mərkəzidir.

B.-dən 8 *km* şm.-q.-də ölkənin əsas dəniz portu və gəmi təmiri emalatxanaları (Betio a.-nda) yerləşir. Yaponiya hərbi bazasının qalıqları (hərbi texnikanın qalıqları, yapon xatirə bağı, sintoist məbədi və qəbiristanlıq) saxlanmışdır. Kiribati mədəniyyət mərkəzi (o cümlədən kokosdan düzəldilmiş kustar məmulat, köpəkbalığı dişləri ilə bəzədilmiş qılınclar və s. ticarəti) B.-dən 16 *km* ş.-dədir. Beynəlxalq aeroport B.-dən 20 *km* ş.-dədir.

**BAİRLƏR** (türkcə bayir – təpə) – bərkimiş qum təpələri, yaxud tirələri. Hünd. 5–25 *m*. Relyefdə qapalı çökmələrlə növbələşir. Orta və Mərkəzi Asiyanın, həmçinin Ərəbistan y-a-nın səhra və yarımsəhraları üçün səciyyəvidir.

**BAİTOV MƏDƏNİYYƏTİ** – Uralaşırının meşə-çöl və cənubi tayqa rayonlarında Erkən Dəmir dövrünün əvvəllərinə (e.ə. 8/7–5/4 əsrlər) aid arxeoloji mədəniyyət. 1960-cı illərdə V.Y. Stoyanov tərəfindən üç abidə qrupu: Nosilov, Lixaçov, Borkov birləşdirilərək Tobol çayı sahilindəki Baitov (Çudaki) məskəninin əsasında müəyyənləşdirilmişdir. Şəhər və kənd yeri, mövsümi düşərgələr, məzarlıqlar, ocaqları olan bir, yaxud iki kameralı yarımqazmalar aşkar olunmuşdur. Qabların əksəriyyəti dəyirmi oturacaqlıdır, yuxarı hissəsi xırda oyuqlar, qabarıq "mirvarilər", cızma xətlər, döymələr və daraqvarı möhür basmaları ilə naxışlanmışdır. Daş qaşov, ox ucluqları, keramik iy, mis balta-kelt, tökmə qəliblər, dəmir bıçaqlar tapılmışdır. Ölülər xəndəklə əhatə olunmuş kurqanların altındakı çalalarda dəfn edilirdi. Təsərrüfatın əsası maldarlıq idi. B.m.-ni mənşəcə Tunc dövrünün sonlarına aid olan yerli Barxatov mədəniyyəti və Son Suzqun mədəniyyəti ilə bağlayırlar. B.m. Tobol-İşimin cənubi tayqa rayonunda təşəkkül tapmış kaşi mədəniyyətinin komponentlərindən biri olmuşdur.



Bairiki şəhərindən görünüş.

**BAJÁN** Mikola (Nikolay Platonoviç) (9.10.1904, Kamenets-Podolski ş. – 23.11.1983, Kiyev) – Ukrayna şairi, dövlət xadimi, Ukr. SSR EA-nın akad. (1951). Lenin mükafatı (1982) və SSRİ Dövlət mükafatı (1946, 1949) laureatı. "17-ci patrul" adlı ilk şeir kitabı 1926 ildə çap olunmuşdur. 20-ci illər yaradıcılığında *futurizm* və *ekspressionizmin* təsiri duyulur ("Hofman gecəsi", "Uman gettosu" poemaları; hər ikisi 1929). "Cahillər", "Debora" poemalarının (1933; 1968), "Tıçinanın klarneti" şeirinin (1970), "Daniil Qalitski" (1942) tarixi və insanın mənəvi aləmini əks etdirən "Qoca ustanın gecə düşüncələri" (1976) poemalarının müəllifidir. "Gürcüstan şeirləri", "Özbəkistan şeirləri" (1939–40), "İngiltərə təəssüratı" (1949), "Mitskeviç Odessada" (1957) və s. şeir silsilələri var. Ə. Nəvainin "Fərhad və Şirin", Ş. Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" poemalarını Ukrayna dilinə tərcümə etmişdir. "Bayraq və günəş", "Sülhün silahı", "Çapar", "Səyyar centlmen" və s. şeirləri, "Döyüşdən əvvəlki gecə" poemasından parçalar Azərb. dilinə tərcümə edilmişdir.

**BAJENOV** Vasili İvanoviç (12.3.1738, Moskva – 13.8.1799, S.-Peterburq) – rus memarı, boyakar və qrafik. 15 yaşından rəssamlıq sənətini müstəqil öyrənməyə başlamış, Moskvadakı Qolovin sarayının yanğından sonrakı bərpasında (1753–54) 2-ci dərəcəli rəssam işləmişdir. Moskva Un-ti nəzdindəki raznoçin gimnaziyasında (1755), EA-da, S.-Peterburqda akademik gimnaziyada (1756–57) oxumuşdur. Rəssamlıq Akademiyasında (1758–60) təhsil almışdır. 1760–65 illərdə Rəssamlıq Akademiyasının təqaüdçüsü kimi Fransa və İtaliyada görkəmli sənətkarların yaradıcılığı ilə tanış olmuş, əsərlərini nümayiş etdirmişdir. Florensiya və Bolonya rəssamlıq akademiyalarına üzv seçilmişdir. Yekaterinqof saray ansamblı layihəsinə görə 1765 ildə S.-Peterburq Rəssamlıq Akademiyasının akademiki, 1799 ildə isə vitse-prezidenti olmuşdur. *Klassisizmin* ciddiliyi ilə memarlıq formalarının sərbəst məkan uyarlığını özündə birləşdirən B. üslubu həm müəllimlərinin, həm də Qədim Roma və İtaliya abidələrinin təsiri altında formalaşmışdır. 1765 ildə S.-Peterburqa qayıtdıqdan sonra bir sıra layihələr üzərində işləmişdir (Kamennı ostrov sarayı, xüsusi sifarişlər). 1767 ildə imperatriçə II Yekaterinanın tapşırığı ilə "Kremlin yenidən qurulması" layihəsini işləyib-hazırlamışdır. 12.6.1773 ildə təməlqoyma mərasimi olmuş, lakin 1775 ildə imperatriçə Kremlin qədim kilsələrinə ziyan dəyəcəyindən (torpaq işləri aparılarkən onlar çökmüşdü) ehtiyat edərək bu niyyətindən imtina etmişdir. *Paşkovun evi* (1784–86), S.-Peterburqdakı Mixail qəsri (1792–96) və s. layihələrində 18 əsr rus klassisizminin təşəkkül və inkişaf dövrü memarlığının

V.İ. Bajenov. Yarğan üzərində böyük körpü (1778–84). Saritsino (*solda*); Mixail qəsri (1797–1801). Sankt-Peterburq (*sağda*).



ənənələrindən istifadə edən B.-un yaradıcılığı rus memarlığının inkişafına böyük təsir göstərmişdir. Memarlığa dair nəzəri əsərləri vardır.

**BAJENOV XRİZOTİL-ASBEST YATAĞI** – RF-də, Yekaterinburq ş.-ndən 60 *km* şm.-ş.-də, Ural d-rının ş. yamacındadır. Dünyada ən böyük xrizotil-asbest yatağıdır. 1885 ildə kəşf olunub, 1889 ildən dövri surətdə, 1965 ildən isə daimi, açıq üsulla işlənilir. Xrizotil-asbestin kəşf olunmuş ehtiyatı təqr. 68 mln *t*., asbestin filizdə miqdarı 2,47%-dir. Yataq hidrotermal tiplidir. Qırılmalarla bir sıra bloklara bölünmüş və ultraəsasi süxurlardan ibarət iri massivdə yerləşir. Sənaye əhəmiyyətli xrizotil-asbest minerallaşması damar və damarcıqlar şəbəkələri şəklində peridotit bloklarının kənarında yerləşir. Filiz zonasının uz. təqr. 10 *km*-dir; 1 *km* dərinliyədək izlənilir. 34 filizli sahə aşkar edilmiş, 24-ü (uz. 200 *m*-dən 4,5 *km*-ədək, qalınlığı 20 *m*-dən 300 *m*-ədək) öyrənilmişdir. Xrizotil-asbest lifinin uzunluğuna görə filiz 7 növə ayrılır.

**BAJÓV** Pavel Petroviç (27.1.1879, Perm qub.-nın Yekaterinburq qəzası – 3.12. 1950, Moskva; Yekaterinburqda dəfn olunmuşdur) – rus yazıçısı, publisist, diyarşünas, etnoqraf. SSRİ Dövlət mükafatı laureatı (1943). Perm ruhani gimnaziyasını bitirmişdir (1899). "Ural əhvalatları" (1924) oçerklər kitabının və "İtirilmiş zolaq" (1928) povestinin müəllifidir. 1936 ildən fəhlə folkloru ruhunda maraqlı rəvayətlər yazmışdır. Bu rəvayətlərdə insan şəklinə salınmış və ilahiləşdirilmiş təbiət (Mis dağının sahibəsi, Böyük Bağailanı və b.) istedadlı fəhlələrə kömək edir ("Malaxit mücrü", 1939). Rəvayətlərin motivləri əsasında "Daş çiçək" bədii filmi çəkilmiş (1946), K.V. Molçanov və S. Prokofyev eyniadlı opera (1950) və balet yazmışlar (1954). B.-un yaradıcılığında sosial, məişət və əsatiri görüşlər xoşbəxtlik, incəsənət, yaradıcı insan haqda fəlsəfi düşüncələrlə birləşir. "Yaşıl cırcırama" (1939), "Uzaq-yaxın" (1949) avtobioqrafik povestləri uşaqlar üçün yazılmışdır.

Ə s ə r l ə r i: Seçilmiş əsərləri//Dünya uşaq ədəbiyyatı kitabxanası.47-ci cild (2-ci kitab). B., 1989; Соч.: В 3 т. М., 1986; Малахитовая шкатулка. М., 2002.

**BAK** (Buck) Linda (d. 29.1. 1947, Sietl) – amerikan molekulyar bioloqu. Nobel mükafatı laureatı (2004, R. Akselə birlikdə). Vaşinqton Un-tini bitirmişdir (1975). Bostondakı Harvard Tibb Məktəbinin prof.-udur (2001). Tədqiqatları məməlilərin iybilmə sisteminin iş prinsiplərinin öyrənilməsinə həsr edilmişdir. Şirin qidanın hiss edilməsinə cavabdeh olan reseptor zülalını kodlaşdıran geni identifikasiya etmişdir.



**BAK** (Buck) Perl (26.6.1892, Qərbi Virginiya ştatı, Hilsboro – 6.3.1973, Vermont ştatı, Denbi) – Amerika qadın yazıçısı. Nobel mükafatı laureatı (1938). Missioner ailəsində anadan olmuş, uşaqlığı Çində keçmişdir. ABŞ-da kollec bitirdikdən sonra Nankin un-tində dərs demişdir. Amerika mətbuatında 1923 ildən çıxış etməyə başlamışdır. Çin haqqında yazdığı "Şərq küləyi, Qərb küləyi" ("East wind, west wind", 1929) romanı, həmçinin sonradan varlı mülkədara çevrilən Çin kəndlisinin taleyindən bəhs edən "Torpağın evi" trilogiyası ["Torpaq" ("The good earth", 1931), "Oğullar" ("Sons", 1932), "Dağılmış ev" ("A house divided", 1935) romanları] ona böyük şöhrət gətirmişdir. 2-ci dünya müharibəsi illərində publisist kimi çıxış etmişdir. Antifaşist oçerklər və kitabçalar yazmışdır. 1940–50-ci illərdə Çin xalqının azadlıq mübarizəsindən, Amerika ailəsinin sosial-psixoloji problemlərindən, nüvə münaqişəsi təhlükəsindən bəhs edən, 19 əsr ingilis realizmi üslubunda epik tərzdə yazılmış bir sıra romanlar [İ. Sec (I. Sedge) təxəllüsü ilə] nəşr etdirmişdir. Uşaqlar üçün kitabların, pyeslərin, memuarların, hekayə topluların müəllifidir.



**BAK** (Bacq) Zenon Marsel (31.12.1903, La-Luvyer – 12.7.1983, Lyej) – Belçika fizioloqu, farmakoloq və radiobioloq. Belçika Kral EA üzvü. SSRİ EA-nın əcnəbi üzvü (1958), Lyej Un-tinin prof.-u (1934). Brüssel Un-tini bitirmişdir (1927). Əsas işləri sinir impulslarının kimyəvi ötürülməsinin tədqiqinə həsr edilmişdir. Döyüş zəhərləyici maddələrinin heyvan orqanizminə təsirini öyrənmişdir. Şüa xəstəliyinin profilaktikası üçün kimyəvi vasitələrin işlənib hazırlanması ilə məşğul olmuş, sistamin və onun törəmələrinin radiomüdafiə təsirini müəyyənləşdirmişdir. Radiasiyanın kiçik dozalarının orqanizmə təsirini qiymətləndirmək üçün bioloji testlər təklif etmişdir. Radiobioloq-patoloqlar məktəbi yaratmışdır. Müqayisəli farmakologiyanın banisidir.



Ə s ə r l ə r i: L'acetylcholine et l'adrenaline. 2 ed. P., 1947; Fundamentals of radiobiology. L., 1955 (with P. Alexander); Химическая защита от ионизирующей радиации. М., 1968.

**BAK** (holl. bak – təknə, tabaq), g ə m i - d ə – gəminin yuxarı göyərtəsinin burun hissəsində tikili. Yelkənli gəmilərdə B. yuxarı göyərtənin forştevenindən (burun hissəsinin konturu boyunca tirşəkilli detal) ön doragacına qədər olan sahə, müasir gəmilərdə isə yuxarı göyərtənin burun hissəsində üst tikilidir. B. yuxarı göyərtəni qarşı dalğadan qoruyur, gəminin üzməqabiliyyətini, ləpəyə davamlılığını və batmazlıq qabiliyyətini artırır, gəmiçilik keyfiyyətlərini yaxşılaşdırır. B.-ın göyərtəsində lövbər və yanalma qurğusu (braşpil, bucurqad və s.), göyərtənin altında isə zəncir qutusu, şkiper avadanlığı və s. yerləşdirilir. Gəmi anbarının (trümün) üstündə yerləşən və ya gəminin ortasındakı üst tikili ilə birləşdirilən B. uzadılmış adlandırılır. Burada yük yerləri (yük gəmilərində) və ya kayutlar (sərnişin gəmilərində) yerləşdirilir.

**BAKAL DƏMİR FİLİZİ YATAQLARI** – RF-nin Çelyabinsk vil.-ndə, Ay və Yuryuzan çaylarının arasındadır. 18 əsrin ortalarından istismar olunur. 20-dən çox yataqdan ibarətdir. Hesablanmış filiz ehtiyatı təqr. 620 mln. *t*-dur. Filizdə Fe-un miqdarı 29–46%-dir (1991). Hasilat mərkəzi Bakal ş.-dir.

**BAKAL MƏDƏNİYYƏTİ** – Ural və İşim çayları arasındakı meşə-çöl zonasında 9–14/15 əsrlərə aid arxeoloji mədəniyyət. 1956 ildə K.V. Salnikov tərəfindən müəyyənləşdirilmişdir. İset çayı sahilində çıxıntılı tirlərlə üzlənmiş gil sədləri olan Bakal şəhər yerlərinin adı ilə adlandırılmışdır. Yerüstü evlərin buxarı-çuvalı olmuşdur. Tayqa ənənəsi dəyirmi gövdəsinin yuxarı hissəsində cızma və basma naxışları olan qablarda, həmçinin oxlarda sümük ucluqların üstünlük təşkil etməsində əksini tapmışdır. Torpaq qəbirlərdə ölülər başı c.-q. və q. istiqamətində dəfn olunmuşdur. Ayrı-ayrı çalalarda qarnı üstə uzanmış, ayaqları qatlanmış, pillə üstünə qaldırılmış başları q.-ə doğru istiqamətləndirilmiş yəhərli-yüyənli atlar basdırılmışdır. Silah və yəhər-yüyən tipləri, həmçinin atların dəfni adəti Qazaxıstan ərazisində yaşayan *qıpçaqların* təsirini əks etdirir. Uralyanı və İrtışyanı mədəniyyətlər ilə əlaqələr də izlənilir.

**BAKALÁVR** (son lat. baccalarius, ilkin mənası – yarımasılı; baccalaria – malikanə sözündən) – bir çox ölkənin çoxpilləli ali təhsil sistemində ilk elmi dərəcə; 4-illik baza təhsilini başa vurduqdan, imtahanları verdikdən və, bir qayda olaraq, buraxılış işini müdafiə etdikdən sonra verilir. Azərb.-da 1993 ildən tətbiq olunur. Bakalavriatın proqramları genişprofilli, ümumelmi və ümumpeşə səciyyəlidir. B. dar ixtisaslaşma olmadan əsaslı hazırlıq keçir. Azərb. Resp.-nın "Təhsil haqqında qanun"una (2009) əsasən B. ali peşə təhsilini zəruri edən ixtisaslaşma tələblərinə uyğun vəzifə tutmaq hüququna malikdir.

Fransada B. dərəcəsini orta məktəb məzunları alır; bu, onlara ali məktəblərə daxil olmaq hüququnu verir.

**BAKANAS** – Qazax. Resp.-nın Şərqi Qazaxıstan vil. ərazisində çay. Uz. 240 *km*, hövzəsinin sah. 25,1 min *km²*. Çingiztau silsiləsindən başlanır. Balxaş-Alakol çuxurunda qumluqlarda itir. Əsasən, yağış suları ilə qidalanır. Bəzi illərdə quruyur. Sulu dövrlərdə suvarmada istifadə olunur.

**BAKBÓ** (Tonkin körfəzi) – Çin və Vyetnam sahillərində Cənubi Çin dənizinin körfəzi. Açıq dənizdən Leyçjou y-a və Haynan a. ilə ayrılır. Uz. 330 *km*, eni 241 *km*, dərinliyi 40–82 *m*. B.-ya Honqha, Ma, Ka və s. çaylar tökülür. Şm.-da materiklə Haynan a. arasındakı Haynan boğazı vasitəsilə dənizlə birləşir. Sutkalıq qabarmalar (5,9 *m*-ədək) olur. Hayfon portu (Vyetnam) var.

**BÁKEN** (holl. baken – siqnal, işarə) – naviqasiya təhlükələrini və ya *farvaterləri* (gəmi yolunu) bildirmək üçün lövbərə bağlanmış üzən nişan. Konusvarı, silindrik, yaxud kürə formasında olur. Yerləşdirilmə sistemindən asılı olaraq müxtəlif rəngli B.-lər var. B. işıqlandırma qurğuları, işıq əksediciləri və ya səs siqnalı qurğuları ilə təchiz edilir. Fənəri avtomatik yanıb-sönən B.-lərdə gecələr qırmızı (sağ sahil) və ya ağ (sol sahil) siqnal işığı yanır. Yaşayış məntəqələri yaxınlığında ağ işıq yaşıl işıqla əvəz edilir.



Bakeu. Müqəddəs Nikolay kilsəsi.

**BÁKETİNQ** (ing. bucketing) – brokerlərin qeyri-qanuni fəaliyyəti; müştərilərin əmrlərinin qəsdən yerinə yetirilməməsi və fyuçers sövdələrini həyata keçirərkən, onların zəmanət əmanətlərindən özbaşına istifadə etməsi.

**BAKÉU** (Bacău) – Rumıniyanın ş.-ində şəhər. Bakeu judetinin inz. m. Siret çayının Bistritsa çayına töküldüyü yerin yaxınlığındadır. Əh. 171,4 min (2005). D.y. qovşağı. İlk dəfə adı 1408 ildə çəkilir. 15–17 əsrlərdə Moldova knyazlığının mühüm ticarət-yarmarka və gömrük mərkəzi olmuşdur. Knyaz sarayı ansamblı (15 əsr), Müq. Məryəm (1491), Müq. Nikolay (1840), Konstantin və Yelena (1845), Müq. Üçüqnum (1876) kilsələri və s. qorunub saxlanmışdır. Pedaqoji in-t, tarix və təbiətşünaslıq muzeyləri, dram (1852 ildən) və kukla teatrları fəaliyyət göstərir. Kimyəvi gübrələr kombinatı, maşınqayırma, elektronika (Koreyanın "Daewoo" televizorlarının yığımı), ağac emalı, sellüloz-kağız, toxuculuq (kətan parçalar), yeyinti sənayesi və tikinti materialları istehsalı müəssisələri; İES, 2 SES var.

**BAKI,** B ö y ü k B a k ı – Azərb. Resp.-nın paytaxtı (1918 ildən). Abşeron y-anda, Xəzərin q. sahilində port. D.y. və avtomobil yolları qovşağı. Beynəlxalq və resp. əhəmiyyətli iki aeroportu var. Xəzərin ş. sahilindəki Türkmənbaşı, Bektaş, Aktau portları ilə bərə daşımaları həyata keçirilir. İri sənaye, elm və mədəniyyət mərkəzidir. 1967 ildən metropoliten fəaliyyət göstərir. Şəhərin mərkəzi hissəsi ətrafındakı qəs.-lər, f-klər, z-dlar, mədənlər, k.t. sahələri, kurort yerləri ilə birlikdə Böyük B. şəhər aqlomerasiyasını yaratmışdır. B. ş.-ndə 11 r-n, 61 qəs. var. Sah. 2130 *km²*. Əh. 2,0 mln. (2006).

Bakının ərazisi Abşeron y-a-nın əsas hissəsini, Abşeron və Bakı arxepelaqlarının və Qobustanın bir hissəsini tutur; c.-q. hissəsi Xəzər sahili boyunca Cənub-Şərqi Şirvan düzünədək uzanır. Relyefi q. hissədə tirə və təpələrdən, bunların arasındakı çökəkliklərdən, sahil zonasında isə xüsusilə Abşeron y-a-nın ş. hissəsində düzənliklərdən ibarətdir. Şəhərin mərkəzi hissəsi B. buxtasına pilləli enən amfiteatrda yerləşir. Böyük B.-nın dənizsahili hissəsi okean səviyyəsindən təqr. 28 *m* aşağıdır. B.-nın Dənizkənarı Milli Parkı dünyada məşhurdur. B. rnunda faydalı qazıntılardan neft, qaz, tikinti materialları (tikinti daşı, sement və əhəng xammalı, qum, gil) hasil edilir; müalicə əhəmiyyətli mineral sular çıxır (Şıx, Suraxanı). Çoxlu palçıq vulkanı (Keyrəki, Boğ-boğa, Lökbatan və s.) var. İqlimi quru subtropikdir. Orta aylıq temp-r yanvarda 3–4°C, iyulda isə 25–26°C-dir. İllik yağıntı 300 *mm*-ə'qədərdir. Böyük B.-nın c.-q. hissəsi resp.-nın ən az yağıntılı yeridir. Bu hissədə illik yağıntı 150 *mm* və daha azdır (Putada 110 *mm*). B. üçün güclü şimal küləyi – *xəzri* və cənub küləyi – *gilavar* səciyyəvidir. Ərazisində şor göllər (Böyükşor, Xocasən və s.) var. Boz-qonur, şoran və şorakətvarı torpaqlar, sahil boyunda dənizkənarı qumlar və qum təpələri yayılmışdır. Efemerlər, şoran otları, yovşan və s. bitir.

Landşaftı quru çöl və yarımsəhradır.

**Tarix.** Abşeron y-a-nda tapılmış arxeoloji materiallar buranın qədim yaşayış məskəni olduğunu sübut edir. Pirallahı, Zığ gölü ətrafı, Şüvəlan, Mərdəkan, Binəqədi, Əmircan və s. yerlərdə tapılmış materiallar e.ə. 3–1-ci minilliklərə aiddir. B.-nın salındığı tarix dəqiq məlum deyildir. Bəzi tədqiqatçılar B.-nı Qaytara (Qanqara), Albana, Baruka və s. ilə eyniləşdirirlər. B.-da tapılmış 5–7 əsrlərə aid Sasani dəfinəsi o dövrdə buranın yaşayış məntəqəsi olduğunu göstərir. 5–6 əsr mənbələrində şəhər Bağavan və Ataşi-Baquan adlandırılır. Ərəb mənbələrində (10 əsr) "Bakuyə", "Bakuh", "Baku", rus məxəzlərində (15 əsr) "Baka", Səfəvilər dövründə fars dilində yazılmış qaynaqlarda isə "Badkubə" kimi qeyd edilir.

B. hələ orta əsrlərdən Yaxın və Orta Şərqin iri şəhərlərindən idi. İqtisadiyyatında neft və duz əsas yer tuturdu. Ərəb səyyahı Əbu Düləfin (10 əsr) məlumatına görə, B.-dakı iki neft mənbəyindən ildə təqr. 720 min dirhəm gəlir götürülürdü. Feodal münasibətlərinin, həmçinin ticarət və sənətkarlığın inkişafı şəhərin tərəqqisinə imkan yaradırdı. Beynəlxalq ticarət yolları ayrıcında olan B. Şərq və Qərb ölkələri arasındakı ticarətdə mühüm əhəmiyyətə malik idi. B.-ya xəzər, slavyan, Bizans, Çin, İraq, Suriya, Genuya, Venesiya, İran, Hindistan tacirləri gəlirdi. B.-dan İran, İraq və s. ölkələrə neft ixrac olunurdu.

9 əsrin 2-ci yarısında Abbasilər xilafətinin zəifləməsi, mərkəzi hakimiyyətdən uzaqlaşmaq meyillərinin qüvvətlənməsi Xilafətə tabe ölkələrdə bir sıra müstəqil dövlətlərin yaranmasına səbəb oldu. Bunlardan biri də Şirvanşahlar dövləti idi. B. 10 əsrin sonlarında Şirvanın əsas şəhərlərindən birinə çevrildi. Əhali sənətkarlıq, ticarət, bağçılıq, bostançılıq, üzümçülük, baramaçılıq, əkinçilik, neftçıxarma, balıqçılıq və s. ilə məşğul olurdu. Zəfəran da əkilirdi.

B. 10 əsrdən liman şəhəri kimi məşhur idi. 11 əsrin sonu – 13 əsrin əvvəllərində B. sürətlə inkişaf edirdi. 1191 ildə Qızıl Arslan Şamaxını tutduqda şirvanşah *I Axsitan* müvəqqəti olaraq paytaxtı B.-ya köçürmüşdü. Şirvanşahlar şəhərin möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdilər. 12 əsrdə B. ikicərgəli qala divarı və xəndəklə əhatə olundu. *Qız qalası* da şəhərin müdafiə sisteminə daxil idi. 1232–35 illərdə B.-nı dəniz tərəfdən qorumaq məqsədi ilə buxta daxilində möhkəmləndirilmiş qala tikildi. Şirvanşahlar Xəzər dənizində güclü donanma yaratdılar. 1330-cu illərdə monqollar B.-ya hücum edib, uzunmüddətli mühasirədən sonra şəhəri aldılar. B.-da neft çıxarılması və ticarət tənəzzülə uğradı. Sultan Məhəmməd Olcaytunun [1304–16] Cümə məscidinin divarındakı kitabədə yazılmış fərmanı da bunu göstərir. Fərman rəiyyətdən alınan bir sıra vergini ləğv edirdi. Bu tədbir B.-nın iqtisadi və ticarət mövqeyini bərpa etmək məqsədi güdürdü. 14 əsrin ortalarına doğru B.-da ticarət (xüsusilə dəniz ticarəti) yenidən canlandı. Xəzərdə Genuya və Venesiya tacirlərinə məxsus gəmilər, limanlarda isə ticarət faktoriyaları var idi. Gilan və Şamaxı ipəyinin beynəlxalq ticarətdə əhəmiyyətinin artması ilə əlaqədar B.-nın iqtisadiyyatı yüksəldi. 14 əsrdən B.-dan Qızıl Orda, Moskva knyazlığı, Avropa ölkələri və s. yerlərə müxtəlif mallar, xüsusən ipək, xalça və s. ixrac edilirdi. B.-dan Orta Asiyaya və Xəzərin c. sahillərinə də mal daşınırdı. 14 əsrin 2-ci yarısında B.-nın iqtisadi və siyasi rolunun artması ilə əlaqədar olaraq Xəzər dənizi bəzən *Bakı dənizi* də adlanırdı (bu, 1375 ildə katalan dilində hazırlanmış atlasda göstərilir). B.-da indiyədək qalan tarixi-memarlıq abidələri – Buxara karvansarası (14 əsr), Qız qalası yaxınlığında Multani (Hind) karvansarası (15–16 əsrlər) və s. Şərq ölkələri ilə geniş ticarət əlaqələrinin mövcudluğunu sübut edir. B.-da hind tacirləri yaşayırdı.

Şirvanşah I *Xəlilüllahın* [1417–62] dövründə B.-da mühüm tikinti işləri aparıldı. Şirvanşahlar sarayı kompleksi də bu dövrdə tikilmişdir. B.-da ticarət, sənətkarlıq inkişaf edir, iqtisadi və mədəni həyat yüksəlirdi. 15 əsrin 2-ci yarısında Moskva knyazlığı ilə ticarət daha da genişləndi və diplomatik əlaqələr yaradıldı.



Bakı qalası (14 əsr). Rəssam Y.M. Şablukinin rekonstruksiyası.

1501 ildə Şah İsmayıl Şirvana hücum edərək B.-nı aldı. Səfəvi hökmdarı I Təhmasib 1538 ildə B.-nın da daxil olduğu Şirvanı Səfəvilər dövlətinə birləşdirdi. Səfəvi–Osmanlı müharibələri zamanı 1578 ildə Osmanlı ordusu B.-nı tutdu. 1607 ildə şəhər yenidən Səfəvilərin hakimiyyətinə keçdi. B.-nın zəngin təbii sərvətləri, habelə mühüm hərbi-strateji əhəmiyyəti 18 əsrin əvvəllərindən etibarən Rusiyanın diqqətini cəlb edirdi. Xəzərin c.-q. sahillərinə yiyələnməyə çalışan I Pyotr xüsusi hərbi dəniz ekspedisiyası yaratdı. 1723 il iyunun 26-da I Pyotrun qoşunu B.-nı tutdu. Lakin Rusiya ilə Səfəvilər arasında bağlanan *Gəncə müqaviləsinə (1735)* görə B. yenidən Səfəvilər dövlətinin hakimiyyətinə keçdi. Məhsuldar qüvvələrin inkişafını ləngidən feodal çəkişmələri və dağıdıcı müharibələrə son qoyulması 1740-cı illərdə şəhərin yüksəlişinə təkan verdi. Səfəvilər dövründə B.-da mis pullar zərb olunurdu. B. və Abşeron əhalisinin xeyli hissəsi xalçaçılıqla məşğul olurdu. 16–18 əsrlərdə sənətkarlıq, xüsusilə də xalçaçılıq daha da inkişaf etdi. B.-da toxuculuq da mühüm yer tuturdu. 17–18 əsrlərə aid tarixi abidələr bu dövrdə B.-da memarlıq, həkkaklıq və s.-nin inkişaf etdiyini göstərir.

18 əsrin ortalarında Azərb.-da bir sıra xanlıqlar, o cümlədən *Bakı xanlığı* yarandı. Ara müharibələri bütün Azərb.-da olduğu kimi, B.-da da iqtisadiyyat və mədəniyyətin inkişafına mane olurdu. 18 əsrin 2-ci yarısında B.-da şəhər həyatı və ticarət nisbətən canlandı. Lakin Ağa Məhəmməd Şah Qacarın Azərb.-a hücumları iqtisadiyyatın və ticarət əlaqələrinin yenidən tənəzzülə uğramasına səbəb oldu. 1796 ilin yazında II Yekaterinanın əmri ilə gen. V.A.Zubovun komandanlıq etdiyi rus qoşunları Azərb.-a soxuldu. İyunun 13-də B. alındı. 1797 ilin əvvəlində gen. P.D.Sisianov B.-nın komendantı təyin olundu. II Yekaterinanın ölümündən sonra oğlu I Pavel V.A.Zubovu geri çağırdı. Çar qoşunları 1797 ilin martında B.-nı tərk etdi. 19 əsrin əvvəllərində I Aleksandr Xəzərsahili vil.-ləri, ilk növbədə B.-nı tutmaq planı ilə xüsusi maraqlanırdı. Rusiya-İran müharibəsi (1804–13) bu planın həyata keçirilməsini sürətləndirdi. 1805 il avqustun 12-də çar qoşunu B.-nı mühasirəyə aldı, lakin müvəffəqiyyət qazanmayaraq geri çəkildi. 1806 ilin əvvəlində gen. P.D.Sisianovun qoşunları yenidən B.-ya yaxınlaşdı. Şəhəri təslim etmək haqqında B. xanı Hüseynqulu xanla danışıqlar zamanı gen. P.D.Sisianov öldürüldü. 1806 il oktyabrın 6-da B. Rusiya imperiyasına birləşdirildi. Həmin dövrdə B. İçərişəhərdən və qala divarlarından kənarda tikilmiş bir neçə binadan ibarət idi. 1807 ildə B.-da 500 ev, 3000 əhali vardı, lakin əhali artdıqca şəhər qala divarlarından kənara genişlənirdi.

*Gülüstan sülhünə (1813)* görə, Şimali Azərb., o cümlədən B.-nın Rusiya imperiyasına birləşdirilməsi təsdiq edildi. 1849 ildə şəhərdəki evlərin sayı 1600-ə, əhalinin sayı isə 8120 nəfərə çatırdı. B. quberniya mərkəzi olduqdan (1859) sonra daha sürətlə böyüməyə başladı. Şəhərin iqtisadiyyatı da sürətlə inkişaf edirdi. Abşeronda illik neft istehsalı 200–300 min puda çatırdı. 1847 ildə B.-nın Bibiheybət sahəsində mexaniki üsulla ilk neft quyusu qazılmasına təşəbbüs göstərildi. 1864 ilə qədər neft istehsalında icbari əməkdən istifadə olunurdu. 1871 ildə Balaxanıda ilk buruq işə düşdü. Neft istehsalında iltizam sisteminin ləğvi (1872) sənayenin bu mühüm sahəsinin inkişafına təkan verdi; B.-da neft sənayesinə xarici kapitalın axını başlandı. 1879 ildə B.-da 9 qazıma buruğu var idi, 1900 ildə onların sayı artıq 1710-a çatdı. Neft istehsalı 1873 ildəki 3,9 mln. puddan 1895 ildə 348 mln. puda çatdı. B. nefti Amerika neftini Rusiya bazarlarından tamamilə sıxışdırdı və dünya miqyasına çıxdı. 1859 ildə Suraxanıda ilk neft emalı z-du işə salındı. 1873 ildən başlayaraq B. ətrafında neft emalı r-nu (Qaraşəhər) yarandı. Bir qədər sonra Keşlə və Ağşəhərdə neft emalı z-dları tikildi. Neft sənayesi ilə yanaşı,



Bakı 1861 ildə (Akad. Dornun atlasına görə).

B.-da başqa sənaye sahələri də inkişafa başladı; mexaniki z-dlar, emalatxanalar, tütün f-kləri, buxar mühərrikləri ilə işləyən dəyirmanlar və s. yarandı. Lakin çar hökuməti və neft sənayeçiləri şəhərin abadlığına fikir vermirdilər. Yeni tikililər, əsasən, varlıların evləri, banklar, ticarət və sənaye firmalarının binalarından ibarət idi. 1849 ildə tikilən sutəmizləmə st. gündə cəmi 30 min vedrə su verirdi. Yalnız 1899 ildə ikinci belə st. işə salındı. Şəhərdə kanalizasiya yox idi.

B. və onun ətraf r-nlarının sürətli inkişafı dəmir və su yolları nəql. yaratmağı tələb edirdi. 1880 il yanvarın 20-də B.-nı Balaxanı, Sabunçu və Suraxanı mədən r-nları ilə birləşdirən dar d.y. istifadəyə verildi. 1883 il mayın 8-də Bakı–Tiflis d.y. işə salındı. 1899 ildə B.-da ilk konka işləməyə başladı. 1900 ildə Petrovsk–Dərbənd–Biləcəri d.y. xəttinin çəkilişi başa çatdırıldı. Bu xətt sonra Qroznı–Beslan d.y. ilə birləşdirildi. B.-nın Ümumrusiya d.y. şəbəkəsinə qoşulması neft ixracını xeyli artırdı.

Hələ 1840-cı illərdə Xəzərdə buxar gəmiləri işləyirdi. 1859 ildə B. portunun tikintisinə başlandı. 1860-cı illərdə Xəzərdə gəmiçiliklə məşğul olan "Qafqaz və Merkuri" cəmiyyətinin 15 buxar gəmisi var idi. Sonralar bu cəmiyyət böyük şirkətə çevrildi. 1898 ildə Rusiya dəniz donanmasının daşıdığı yükün 40%-dən çoxu Xəzər donanmasının payına düşürdü.

Nəql. vasitələri ilə yanaşı, B.-da rabitə sahələri də yarandı. 1868 ildə Bakı–Tiflis, 1879 ildə Bakı–Krasnovodsk teleqraf xətləri (dənizin dibi ilə), 1886 ildə isə şəhərdə ilk telefon xətti çəkildi. Həmin il yanvarın 1-də B. dairə məhkəməsi təsis olundu. Vergilərin qoyulması və toplanması, qub.-da mədaxil və məxaricin hesabını aparmaq üçün 1872 ilin avqustunda Xəzinə palatası yaradıldı. 1873 ilin yanvarında yerli dövlət nəzarəti orqanı – B. nəzarət palatası yaradıldı. B. və Yelizavetpol (Gəncə) qub.-ları, Dağıstan vil. və Zaqatala dairəsinə nəzarət bu palataya tapşırıldı. B.-nın sürətlə inkişaf edərək Rusiyanın iri sənaye-ticarət mərkəzinə çevrilməsinə baxmayaraq, 1878 ilədək şəhərin özünüidarə orqanı yox idi.

19 əsrin sonu – 20 əsrin əvvəlində B.-

Köhnə Bakının dənizdən görünüşü. 1872. V.V. Vereşşagin. Azərb. Milli İncəsənət Muzeyi. Bakı.





Hacı Bani hamamının günbəzləri. 15 əsr. İçərişəhər.

da neft istehsalı daha da artdı. 1901 ildə B. dünyada istehsal olunan neftin yarıdan çoxunu (667,1 mln. pud) verirdi. B.-da onlarca neft emalı z-du var idi. Başqa sənaye sahələri, ticarət də inkişaf edirdi. B. sənayesi, xüsusilə neft sənayesi inhisarların əlinə keçdi. Fəhlələrin iri müəssisələrdə təmərküzləşməsi geniş vüsət aldı. B.-da 100–500 və daha çox fəhləsi olan maşınqayırma, metaləritmə, gəmi təmiri z-dları, buxar qazanı və. s. istehsal edən z-dlar, gəmi tərsanələri, 2 minə qədər fəhləsi olan toxuculuq f-ki, 2 tütün f-ki, sement, pivə və spirt z-dları, elektrik st.-ları, buxar dəyirmanları işləyirdi. Maşın və avadanlıq təmiri, tikinti materialları, məişət malları istehsal edən emalatxanalar var idi. B.-da poliqrafiya işi də inkişaf edirdi. Litoqrafiya, bir neçə mətbəə işləyirdi. Dəniz və d.y.-larının ticarət dövriyyəsi xeyli artmışdı. 1900–03 illərdə Rusiya sənayesini bürüyən böhran B.-nın neft sənayesinə də təsir etdi. Firmaların bir çoxu neft istehsalını dayandırdı. Neft ixracı xeyli azaldı. Buna baxmayaraq B. Rusiya imperiyasının əsas neft sənayesi mərkəzi olaraq qaldı. 1909 ildə B.-da 222 694 nəfər əhali yaşayırdı.

20 əsrin əvvəlində B. əsas iqtisadi mərkəz olmaqla bərabər, siyasi və mədəni mərkəz kimi də Rusiya imperiyasının həyatında mühüm rol oynayırdı. 19 əsrin ortalarından başlayaraq B.-da sosial-siyasi hərəkat genişlənmişdi. Burada Ümumrusiya partiyalarının yerli təşkilatları və milli partiyalar fəaliyyətə başlamışdı. Çarizmin ağır müstəmləkə rejiminə qarşı milli azadlıq hərəkatı genişlənməkdə idi. 1905–07 illər Rusiya inqilabı şəhərin siyasi həyatında mühüm rol oynadı. 1905 ilin avqust–sentyabr aylarında çar hökumətinin yaxından iştirakı ilə şəhərdə ermənilərin azərb.-lara qarşı soyqırımı törədildi. Lakin bu, Azərb. xalqının milli azadlıq mübarizəsinin qarşısını ala bilmədi. Çar II Nikolayın [1894–1917] 1906 il 28 oktyabr tarixli fərmanına əsasən, B. qradonaçalnikliyi (Bakı şəhər rəisliyi) yaradıldı. "Qafqaz təqvimi"nin (1917) məlumatına görə, B. qradonaçalnikliyində 405829 nəfər əhali yaşayırdı. Onlardan 173489 nəfəri yerli sakinlər, 232340 nəfəri müvəqqəti yaşayanlar idi.

Fevral inqilabından (1917) sonra B.-da ikihakimiyyətlilik yarandı. Müvəqqəti hökumətin yerli orqanı İctimai Təşkilatların İcraiyyə Komitələri (İTİK) və onların seçdiyi komissarlar oldu. Martın 7-də B. fəhlə deputatları soveti seçildi. Martın 29-da Bakı Müsəlman Şurası (M.Ə.*Rəsulzadə*, M.*Hacınski*, Ə.*Topçubaşov*, F.*Xoyski*, M.*Əsədullayev* və b.) təşkil edildi. Oktyabrın sonunda *Bakı şəhər dumasına* seçkilər keçirildi.

Petroqradda bolşeviklərin hakimiyyəti ələ keçirməsindən (1917, oktyabr) sonra oktyabrın 31-də (noyabrın 13-də) Bakı Sovetinin geniş iclasında hakimiyyətin ona keçməsi haqqında qətnamə qəbul olundu. Noyabrın 2(15)-də Bakı Sovetinin İcraiyyə Komitəsi ali hakimiyyət orqanı elan edildi. Bununla İTİK-in ləğv edilməsinə başlandı. Noyabrın 29-da B.-da Müəssislər məclisinə seçkilər keçirildi. Seçkidə "Müsavat" partiyası böyük uğur qazandı. Dekabrın 12–16-da isə Bakı Sovetinə yeni seçkilər oldu. 190 deputatdan 51-i bolşevik, 38-i sol eser, 41-i daşnak, 28-i sağ eser, 21-i "müsavat"çı, 11-i menşevik idi. 1918 il yanvarın 1-də P.A.Çaparidze Bakı Soveti İcraiyyə Komitəsinin sədri seçildi. V.İ.Lenin başda olmaqla Sovet Rusiyası Bakı Soveti vasitəsilə bütün Azərb.-da hakimiyyəti ələ keçirmək siyasəti yeridirdi. Bu məqsədlə Rusiya Xalq Komissarları Soveti (XKS) Bakı Sovetinə 500 min rubl pul ayırmaq haqqında qərar qəbul etmiş, S.Şaumyan Qafqaz işləri üzrə fövqəladə komissar təyin olunmuşdu. S.Şaumyanın başçılığı ilə Bakı Soveti bir sıra sosialist tədbirləri həyata keçirmiş, erməni-daşnak birləşmələrindən ibarət sovet hərbi qüvvələrini yaratmışdı. *Mart soyqırımının* (1918) təşkilatçısı Bakı Soveti idi. O, hakimiyyətini möhkəmləndirməyə nail olduqdan sonra, aprelin 25-də *Bakı Xalq Komissarları Sovetini* (BXKS) təşkil etdi. BXKS 1918 il mayın 28-də yaradılmış *Azərbaycan Xalq Cümhuriyyətinə (AXC)* qarşı mübarizə aparırdı. AXC hökuməti isə B.-nın azad edilməsinə və paytaxtın buraya köçürülməsinə böyük əhəmiyyət verirdi. İyulun 31-də BXKS-nin süqutundan sonra şəhərdə hakimiyyət erməni daşnaklarından və eser-menşeviklərdən ibarət olan Sentrokaspi diktaturasına keçdi, ingilislər B.-ya dəvət olundu. Şiddətli müqavimətə baxmayaraq, Bakı AXC hərbi hissələri və ona qardaşlıq yardımı göstərən osmanlı-türk qoşunları tərəfindən sentyabrın 15-də azad edildi. Paytaxt Gəncədən B.-ya köçürüldü. Bundan sonra B.-nın sosial-siyasi, iqtisadi və mədəni həyatında böyük hadisələr baş verdi. Sentyabrın 18-də B. şəhəri ictimai özünüidarəsinin bərpası haqqında qərar verildi. Birinci dünya müharibəsində (1914–18) Osmanlı dövlətinin məğlubiyyəti nəticəsində türk hərbi qüvvələri Azərb.-nı tərk etdi. İngilis qoşunları B.-ya daxil oldu və *Bakı ingilis general-qubernatorluğu* yaradıldı. Dekabrın 7-də B.-da AXC parlamenti işə başladı. Parlament 1919 il sentyabrın 1-də B.ş.-ndə universitet açmaq haqqında qanun qəbul etdi (bax *Bakı Dövlət Universiteti*), noyabrın 15-də un-tdə dərslər başlandı. 1920 ilin yanvarında AXC-nin dünya birliyi tərəfindən tanınması B.-da


























**Köhnə Bakı:** *1* – Bakı iskələsi (yanalma körpüsü) və gömrükxana. 19 əsrin sonu; *2* – kerosin daşıyan arabalar. 19 əsrin sonu; *3* – Bakı konkası. 1900 il; *4* – Qubernator bağı (indiki Filarmoniya bağı). 20 əsrin əvvəlləri; *5* – Dənizkənarı bulvar. 20 əsrin əvvəlləri; *6* – Nobel zavodlarının yağ çənləri. 1914 il; *7* – Kommunist küçəsi (indiki İstiqlaliyyət küçəsi). 1933 il.

təntənə ilə qeyd olundu. Lakin Sovet Rusiyası B.-nı tutmaq planından əl çəkməmişdi. V.İ.Lenin 1920 il martın 17-də Qafqaz cəbhəsi hərbi-inqilabi şurasına teleqramında yazırdı: "Bakını almaq bizə olduqca zəruridir. Bütün səyinizi buna verin, həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli Sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır...". Buna uyğun olaraq, *Bakı əməliyyatı (1920)* hazırlandı və aprelin 25-dən 26-na keçən gecə Sovet Rusiyasının 11-ci Qırmızı ordusu AXC-nin sərhədini keçərək B.-ya doğru irəlilədi. Aprelin 27-də AK(b)P-nin MK-sı, RK(b)P Qafqaz Diyar Komitəsinin B. bürosu və fəhlə konfransı adından hakimiyyətin bolşeviklərə verilməsi haqqında AXC parlamentinə ultimatum verildi. Parlament, hərbi müdaxilə şəraitində, axşam saat 11-də hakimiyyətin bolşeviklərə verilməsi haqqında qərar çıxarmağa məcbur oldu. Az sonra 11-ci Qırmızı ordu hissələri B.-ya soxuldu. AXC süqut etdi. Hakimiyyət *Azərbaycan Hərbi-İnqilab Komitəsinin* əlinə keçdi. B. 1920 ilin aprelində Azərbaycan Sovet Sosialist Respublikasının (Azərb. SSR-in) paytaxtı oldu.

Şərq xalqlarının 1-ci qurultayı (1920, sentyabr) B.-da çağırılmışdı. 1921 il mayın 6-da B.-da çağırılmış Azərb. SSR-in 1-ci qurultayı Azərb. SSR-in 1-ci Konstitusiyasını təsdiq etmişdi (19 may). 1922 il dekabrın 10-da çağırılmış Zaqafqaziyanın 1-ci sovetlər qurultayı Zaqafqaziya Sovet Federativ Sosialist Respublikası (ZSFSR) yaradılması haqqında qərar qəbul etmişdi.

1921–25 illərdə B.-da neft çıxarılması təqr. iki dəfə artmışdı. 1926–27 illərdə B.-da çoxlu z-d, f-k və s. yeni sənaye müəssisələri işə salınmışdı. 1926 ilin iyulunda B.-nı Balaxanı, Sabunçu və Suraxanı mədən r-nları ilə birləşdirən d.y. elektrikləşdirilmişdi. B.-da 10 yeni neft emalı z-du tikilmişdi. Neft mədənləri yeni texnika ilə təchiz edilmişdi. B. sənayesinin ümumi məhsulu 2,2 dəfə, neft hasilatı 3 dəfə artmışdı. Texnikanın qabaqcıl nailiyyətləri sənayeyə tətbiq olunurdu.

Böyük Vətən müharibəsi dövründə B. əhalisi Vətənin müdafiəsinə qalxdı. Müharibənin əvvəllərində B.-nın müxtəlif sənaye müəssisələrindən minlərlə işçi könüllü surətdə cəbhəyə getdi; bakılılar ölkənin müdafiə fonduna təqr. 2,5 mln. manat pul, xeyli miqdarda qızıl, gümüş və s. verdi. B. sovet ordusunun əsas cəbbəxanalarından birinə çevrildi. B. ordunu döyüş sursatı və hərbi ləvazimat, xalq təsərrüfatını mln. tonlarla neft məhsulları ilə təmin edirdi. Müharibə illərində sovet neftinin təqr. 3/4 hissəsini B. verirdi. Burada neft-kimya məhsullarının 100 yeni növünün istehsalı mənimsənilmişdi. Həmin dövrdə təkcə Azərb. d.y.-larının Bakı şöbəsindən cəbhənin və ölkə sənayesinin ehtiyacları üçün müxtəlif yüklərlə 1 mln.-dan artıq vaqon yola salınmışdı.

Müharibədən sonrakı dövrdə bakılılar x.t.-nın inkişafı sahəsində xeyli iş gördülər. B. fəhlələrinin gərgin əməyi sayəsində neft və s. sənaye sahələri sürətlə inkişaf etməyə başladı. B. neftçiləri dünyada ilk dəfə olaraq açıq dənizdən neft çıxardılar. Neft Daşları, Çilov a., Qum a. və s. kimi zəngin neft yataqlarının istismarı genişləndi. B. neft-kimya, maşınqayırma, metal emalı, yüngül, yeyinti və s. sənaye sahələrinin iri mərkəzlərindən birinə çevrildi. B.-da iri evtikmə kombinatı, şin z-du, metropoliten tikilmiş, B.-dan Tbilisi və Yerevana qaz kəməri, Kürdən B.-ya su kəməri çəkilmiş, bir sıra sənaye müəssisələrində istehsalatın kompleks mexanikləşdirilməsinə və avtomatlaşdırılmasına başlanmışdır. 1967 ildə Bakı metrosu istismara verilmişdir. Azərb. KP MK-nın 1969 il avqust plenumu qərarları B.-da iqtisadiyyata rəhbərliyin, kadrların seçilməsi və tərbiyə edilməsi işinin yaxşılaşdırılmasında, kütlələrin siyasi və əmək fəallığının yüksəldilməsində mühüm rol oynadı.

İçərişəhər. Qala divarlarının (12 əsr) gecə görünüşü.



1970–80-ci illərdə B.-nın iqtisadiyyat və mədəniyyəti daha da inkişaf etdi. B.-da müasir texnologiyalara əsaslanan neft emalı üzrə yeni qurğular (YBNZ, ELOU-AVT) yaradılmış, burada həm Azərb.-da hasil olunan, həm də digər müttəfiq resp.-lardan gətirilən xam neftin də emalı həyata keçirilirdi. Radiotexnika və s. yeni sənaye sahələri yarandı. B.-da məişət kondisionerləri z-du, bir neçə müasir tikiş və ayaqqabı f-kləri, şampan z-du tikilib istifadəyə verilmiş, neftayırma müəssisələrində bir sıra qurğular avtomatlaşdırılmış, metronun yeni xətti çəkilmiş və s. işlər görülmüşdür. Dəniz nəqliyyatı da inkişaf edirdi. B. dəniz gəmiçiliyi neftdaşıyan, quru mal daşıyan, sərnişin daşıyan böyük donanmaya malik idi. 1970-ci illərin 1-ci yarısında B. aeroportu yenidən quruldu. B.-da Əhmədli, Günəşli, Yeni Serebrovski (indiki Qaraçuxur), Badamdar yaşayış massivləri salındı.

1970-ci illərdə B. Dəniz vağzalı, V.İ.Lenin ad. Respublika sarayı (indiki Heydər Əliyev sarayı), "Moskva", "İnturist", "Abşeron" mehmanxanaları, Respublika velotreki tikildi, V.İ.Lenin meydanının (indiki Azadlıq meydanı) memarlıq ansamblı yaradıldı. 1980-ci illərdə "Gülüstan" sarayı, yeni zoopark, örtülü idman kompleksləri tikildi. B.-da yaşıllıqların sahəsi 10 min *ha*-ya çatdırıldı. B.-da yeni tibb texnikası ilə təchiz edilmiş diaqnostika mərkəzi, kardioloji mərkəz, uşaq sağlamlıq kompleksi, bir çox xəstəxana, poliklinika və ambulatoriya tikildi.

1971 ildə H.Əliyevin təşəbbüsü ilə C.Naxçıvanski ad. respublika orta ixtisaslaşdırılmış internat məktəbi (1991–97 illərdə B. ibtidai hərbi məktəbi adlanırdı) təşkil olundu. 1970–80-ci illərdə yeni ali təhsil ocaqları fəaliyyətə başladı. 1971 ildə Azərb. Pedaqoji Rus Dili və Ədəbiyyatı İn-tu (indiki Bakı Slavyan Un-ti), Azərb. Pedaqoji Xarici Dillər İn-tu (indiki Azərb. Dillər Un-ti) təşkil olundu. Azərb. Dövlət Un-tində (indiki Bakı Dövlət Un-ti) 13 min tələbə təhsil alırdı. 1980 ilin ortalarında stereofilmlər kinozalı ("Araz" kinoteatrı) fəaliyyətə başladı. 1972 ildə Azərbaycan xalçası və xalq-tətbiqi sənəti dövlət muzeyi, 1975 ildə Ü.Hacıbəylinin və S.Vurğunun, 1982 ildə isə C.Cabbarlının və Bülbülün ev muzeyləri təşkil olundu. B.-da 1970 ildən "Sovet türkologiyası", 1975 ildən "Azərbaycan təbiəti" jurnalları çap olunmağa başladı. 1976–88 illərdə B.-da 10 cildlik ilk universal Azərbaycan Sovet Ensiklopediyası (ASE) çapdan çıxdı. İçərişəhərdə ASE-nin yeni binası istifadəyə verildi.

1988 ilin sonlarında Ermənistandan kütləvi şəkildə zorla qovulan azərb.-lar B.-ya gəldilər. Həmin vaxtlar B.-da xalq azadlıq hərəkatı başladı. Noyabrın 17-dən dekabrın 5-dək Azadlıq Meydanında fasiləsiz mitinq keçirildi. Dekabrın 5-də B.-ya hərbi qüvvə yeridildi və mitinq dağıdıldı. B.-da komendant saatı elan olundu. Hazırda 17 noyabr "Milli Dirçəliş günü" kimi qeyd olunur. 1990 il yanvarın 20-də sovet hökuməti B.-ya qoşun yeridərək dinc əhalini qətlə yetirdi [bax *Bakı əməliyyatı, 1990)*].

B.-da 1994 il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalandı. 2006 ildə Bakı-Tbilisi-Ceyhan ixrac boru neft kəməri istismara verildi.

**Təhsil**

13–15 əsrlərdə B.-da Şirvanşahlar sarayının Şah məscidi nəzdindəki mədrəsə ilə yanaşı Seyid Yəhya mədrəsəsi də fəaliyyət göstərirdi. Azərb. filosofu *Seyid Yəhya Cəlaləddin Bakuvinin* (təqr.1410–62) B.-da təşkil etdiyi ali ilahiyyat-fəlsəfə məktəbinin Bərdə, Təbriz və s. şəhərlərdə şöbələri var idi. 18 əsrin 40-cı illərində (*Bakı xanlığı* yarandıqdan sonra) ibtidai təhsil məktəblərinin, həmçinin daha geniş təhsil verən məktəb və mədrəsələrin sayı artdı. 19 əsrin 1-ci yarısında B.-da mədrəsələrlə yanaşı ibtidai rus məktəbləri də fəaliyyət göstərirdi. 1832 ildə B.-da ilk qəza məktəbi açıldı. Məktəbdə təlim rus dilində idi, Azərb. dili isə fənn kimi tədris olunurdu. 1849 ildə B.-da klassik dini mədrəsələrdən fərqlənən yeni tipli təhsil müəssisəsi – müsəlman məktəbi təsis edildi.

1848 ildə Şamaxıda açılmış qədim məktəbi 1860 ildə (bəzi mənbələrə görə 1859; 1861) B.-ya köçürüldü. 1865 ildə təsis edilmiş və orta təhsil verən ilk məktəb – progimnaziya 1867 ildə realni gimnaziyaya, 1874 ildə isə 6 illik realni məktəbə çevrildi. 19 əsrin 80-ci illərində B.-da azərb. uşaqlar üçün rus dilində məktəblər açıldı. 1874 ildə B.-da ilk qadın gimnaziyası – "Mariya qız gimnaziyası" təsis edildi. A.N. Pobedonostsevin 6 sinifli xüsusi progimnaziyası (1891), Bakı klassik kişi gimnaziyası (1896), İ.A.Lavrovun 4 sinifli xüsusi progimnaziyası (1897), 1-ci (1889), 2-ci (1898) şəhər məktəbləri 19 əsrin sonunda B.-da xalq maarifinin inkişafında mühüm rol oynadı. Həmin illərdə Suraxanı (1880), Sabunçu (1883) və Balaxanı (1896) kəndlərində də ibtidai

Bakı 1915 ildə. Aeroçəkiliş.





Bakı şəhərinin gecə panoramı.

məktəblər açıldı. Bu məktəblərdə təlim rus dilində idi və mütərəqqi fikirli ziyalılar təlimin ana dilində aparılmasına çalışırdılar. Əsası 1887 ildə qoyulan rus-tatar (rus–Azərb.) məktəbi bu sahədə irəliyə doğru addım oldu. Bu məktəbdə dərslər ana dilində aparılsa da, tədrisdə rus dilindən də istifadə edilirdi. 1887 ildən 1901 ilədək 10 məktəb açıldı. 19 əsrin sonunda B.-da sənət məktəbləri yaranmağa başladı. Bakı dənizçilik sinfi (1881; 1905 ildən Bakı dənizçilik məktəbi), Bakı sənət məktəbi (1888; 1897 ildən Bakı aşağı texniki məktəbi, 1905 ildən Bakı orta texniki məktəbi), Mərdəkanda bağbanlar hazırlayan birinci xüsusi məktəb (1896; milyonçu H.Z. Tağıyevin maliyyə vəsaiti hesabına açılmışdı), işləyən kişi və qadınların təhsil alması üçün “bazargünü məktəbi” (1896) açıldı. 19 əsrin sonunda B.-nın fəhlə rayonlarındakı 8 ibtidai məktəbdə 450 şagird oxuyurdu. 1901 ildə B.-da kommersiya və ilk dəmiryolu məktəbləri, milli təhsil tarixinə “H.Z.Tağıyevin qız məktəbi” kimi daxil olan müsəlman qadın məktəbi açıldı. Təhsil müddəti müxtəlif vaxtlarda 4, 5 və 6 illik olan məktəb 1916 ildə ali ibtidai məktəbə, sonra isə seminariyaya çevrildi, 1918 ildə fəaliyyəti dayandırıldı. 20 əsrin əvvəlində B.-da ənənəvi dini ibtidai məktəblər, dövlətin açdığı bir neçə ibtidai, orta ümumtəhsil və texniki məktəb, özəl ümumtəhsil və musiqi məktəbləri, həmçinin “Nəşri-maarif” (1906), “Nicat” (1906), “Səadət” (1907), “Səfa” (1910) və digər xeyriyyə cəmiyyətlərinin açdırdığı müxtəlif ümumtəhsil və sənət məktəbləri, savad kursları, uşaq evləri və s. fəaliyyət göstərirdi. 1913 ildə B.-dakı məktəblərdə 25 min ( 92 ibtidai məktəbdə 15,5 min, 12 yeddiillik məktəbdə 3,6 min, 11 tam orta məktəbdə 5,9 min) şagird oxuyur, 890 müəllim işləyirdi. 1915 ildə Azərb.-da fəaliyyət göstərən 25 ibtidai məktəbdən 12-si, 21 ali ibtidai məktəbdən 9-u (700 şagird) B.-da idi. 1913/14 dərs ilində B.-da fəaliyyət göstərən 3 orta ixtisas məktəbində 500 nəfər oxuyurdu. 1914 ildə Sabunçuda Balaxanı realni məktəbi açıldı. 1919 ildə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə B.-da müasir tipli məktəbəqədər tərbiyə müəssisəsi yaradıldı. B.-dakı 1-ci qız gimnaziyası nəzdində dövlət təminatında olan Avropa modelli uşaq bağçası, yunker, unter-zabit hazırlayan 3 hərbi məktəb; Bakı Dövlət Un-ti açıldı (1919).

20 əsrin 20-ci illərində özəl məktəblər ləğv edildi, 8–12 yaşlı uşaqlar üçün 1-ci dərəcəli 5 illik, 13–17 yaşlı uşaqlar üçün 2-ci dərəcəli 4 illik məktəblər yaradıldı. 1921/22 dərs ilində B. məktəblərində 29755 şagird təhsil alırdı, 1940/41 dərs ilində isə onların sayı 133,4 min idi. Mühüm nailiyyətlərdən biri də azərb. qızların kütləvi surətdə məktəbə cəlb olunması idi. 1923/24 dərs ilində B.-nın ümumtəhsil məktəblərində şagirdlərin 1,9 mini, 1938/39 dərs ilində isə 20 mini qızlar idi. 1922/23 dərs ilində B.-nın xalq maarifi sistemində 1336 müəllim, 1940/41 dərs ilində isə 4768 müəllim işləyirdi.

1929–30 illərdə savadsızlığın ləğvi sahəsində mühüm işlər görülürdü. B.-da təqr. 26 min nəfər savadsızlığı ləğvetmə kurslarına cəlb olunmuşdu. B.-da yaşlılar üçün təşkil edilmiş 92 məktəbdə 1940/41 dərs ilində 15,5 min nəfər təhsil alırdı.

B.-da ümumtəhsil məktəblərinin sayı artırılır, ibtidai və natamam orta məktəblərin sayı isə azaldılırdı. 1960/61 dərs ilində 226 məktəbdən 123-ü, 1980/81 dərs ilində isə 291 məktəbdən 219-u tam orta məktəb idi. 50-ci illərdən etibarən günü uzadılmış qruplar və internat məktəblər açılmağa başladı. 1975 ildə B.-da 493 uşaq bağçası və körpələr evi (57416 uşaq) vardı. 1975/76 dərs ilində şəhərdə 284 ümumtəhsil məktəbi (235934 şagird), 115 axşam (növbəli) və yaşlılar üçün məktəb (55319 şagird), 48 ilk peşə-ixtisas təhsili müəssisəsi (27723 şagird) vardı. 27 orta ixtisas təhsili məktəbində 39759 şagird, 13 ali məktəbdə 82530 tələbə təhsil alırdı. 1975 ildə 33 uşaq idman məktəbi, 2 gənc təbiətçilər, 2 gənc texniklər st., turist-ekskursiya st., uşaq d.y. və s. məktəbdənkənar müəssisələr fəaliyyət göstərirdi. 1988/89 dərs ilində B.-da fəaliyyət göstərən 329 ümumtəhsil məktəbində 272,5 min, 1993/94 dərs ilində isə 290-a yaxın ümumtəhsil məktəbində 280 minə yaxın şagird təhsil alırdı.

Dövlət müstəqilliyinin bərpası təhsil sisteminin milli ənənələr, ümumbəşəri dəyərlər üzərində yenidən qurulmasını zərurətə çevirdi; “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı” təsdiq olundu (1999). B.-da 367 məktəbəqədər təhsil müəssisəsi (34701 uşaq), 369 əyani ümumtəhsil müəssisəsi (325995 şagird), 11 xüsusi (dövlət) məktəb (5792 şagird), 48 məktəbdənkənar təhsil müəssisəsi (42968 şagird), 36 ilk peşə-ixtisas təhsili müəssisəsi (10404 şagird), 25 orta ixtisas təhsili müəssisəsi [24822 şagird; onlardan 22 dövlət (23245 şagird), 3 qeyri-dövlət (1577 şagird)], 43 ali məktəb [110131 tələbə; onlardın 29 dövlət (92336 tələbə), 14 qeyri-dövlət (17795 tələbə)], sağlamlıq imkanları məhdud olan uşaqlar üçün 14 təhsil müəssisəsi (5302 şagird), yetim və valideyn himayəsindən məhrum uşaqlar üçün 2 internat məktəbi (409 şagird) fəaliyyət göstərir (2009/10).

**İdman**

Orta əsrlərdə Azərb.- da, o cümlədən B.-da zorxanalar geniş yayılmışdı. Zorxanalarda pəhləvanlar xüsusi hazırlıq keçir, tez-tez məşhur güləşçilərin yarışları təşkil olunurdu. Maştağalı Hüseynqulu, onun yetirməsi Məşədi Əbdüləli, zabratlı Mirzə Həşimoğlu, saraylı Atababa və b. güclü pəhləvanlar idilər. 1912 ildə Bakı gimnaziyasının müəllimi L. Romançenko Xəzər dənizində üzərək 45 *km* məsafəni 24 saat 10 dəqiqəyə qət etməklə La-Manşı üzüb keçmiş ingilis Burgisin rekordunu təzələdi. 1924 ildə R. *Yusifov* Bakı sirkinə dəvət olundu. Onun qeyri-adi gücü hətta məşhur rus pəhləvanı İvan Poddubnını da heyrətləndirmişdi. 1923 ildə B.-da ilk idman qəzeti «Qırmızı idmançı» çapdan çıxmağa başladı; həmin ildə B.-da bədən tərbiyəsi müəllimləri hazırlayan məktəb açıldı. 1924 ildə R. Baxşəliyev «Kustrud» güləş klubunu yaratdı. 1930 ildə B.-da Cənubi Qafqaz üçün bədən tərbiyəsi müəllimləri hazırlayan Zaqafqaziya Bədən Tərbiyəsi İn-tu (1936 ildən Azərb. Dövlət Bədən Tərbiyəsi İn-tu), 1933 ildə in-tun nəzdində Bədən Tərbiyəsi Texnikumu açıldı.

20 əsrin əvvəllərində Bakıda futbol daha geniş yayılmışdı. Qısa müddətdə şəhərdə çoxlu komanda yaradıldı: «Balaxanı futbolçular dərnəyi», «Stella», «İdmanın dostları», «İdmançı», «Konqres», «Unitis», «Belaya», «Senturion», «Tərəqqi» və s. «Dinamo» (1926), «Neftçi», «Spartak», «Burevestnik», «Lokomotiv» (1936), «Məhsul» (1951), Mərkəzi Ordu İdman Klubu (1962), «Alpinizm» (1987), «Xəzər» (1988), «Pəhləvan» (1992), «Gənclik» (1992), «Təhsil» (1997), «Atilla» (1997) idman cəmiyyətləri açıldı. T.Bəhramov ad. Respublika Stadionu, Bakı İdman Sarayı, Respublika Velotreki, Yaxt Klub, Taekvondo İdman Mərkəzi, Stend Atıcılığı üzrə İdman Kompleksi, H.Əliyev adına İdman-Konsert Kompleksi, Otüstü Xokkey Kompleksi, Bakı Olimpiya İdman Kompleksi, Maştağa Olimpiya İdman Kompleksi və b. Bakı şəhərində yerləşir. B.-da bir neçə mötəbər yarış, o cümlədən bodibildinq üzrə Avropa çempionatı (2001), voleybol üzrə Avropa Top Komandaları Kuboku (2002), sərbəst güləş üzrə Avropa çempionatı (2002), şahmat üzrə Avropa çempionatı (2002), cüdo



Bakı şəhər İcra Hakimiyyətinin binası.

üzrə hərbçilərin dünya çempionatı (2004), taekvondo üzrə gənclər arasında Avropa çempionatı (2005), bədii gimnastika üzrə Dünya Kubokunun mərhələ yarışı və 27-ci dünya çempionatı (2005), boks üzrə Dünya Kuboku yarışları (2006), gimnastika üzrə Avropa çempionatı (2007), yunan-Roma və sərbəst güləş üzrə dünya (2007) və Avropa (2010) çempionatları keçirilmişdir.

**Kütləvi informasiya vasitələri**

Resp. dövri mətbuatının (400-dən çox qəzet və 70-dən artıq jurnal) əsas hissəsi (90%-dən artıq) Bakıda Azərb., rus və ing. dillərində nəşr olunur (2010). Bunlardan "Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Bakinski raboçi" rəsmi dövlət qəzetləri, "Azərbaycan müəllimi", "Azərbaycan ordusu", "İqtisadiyyat", "Ayna", "Zerkalo", "Yeni Azərbaycan", "Exo", "525-ci qəzet", "Şərq", "Kaspi" populyar qəzetlərdir. "Azərbaycan", "Azərbaycan qadını", "Ulduz", "Qobustan", "Elm və həyat", "Region plus", "Olimpiya", "Xəzər" və b. jurnallar nəşr olunur. Elektron KİV-in sayı 50-yə yaxın, informasiya agentliklərinin ("AzərTAc", "Turan", "Trend", "Olaylar" və b.) sayı isə 40-a yaxındır.

Bakıda 11 radiostansiya, 9 yerli (Az.TV QSC, İctimai Televiziya, "ANS", "Azad Azərbaycan", "Lider", "Space", "Xəzər", "İdman", "Mədəniyyət") və 1 xarici (TRT-1) televiziya, həmçinin 13 kabel televiziyası fəaliyyət göstərir. (2011).

**Turizm**

B. resp.-nın əsas turizm mərkəzidir (ətraflı məlumat üçün bax *"Azərbaycan"* xüsusi cildinin Turizm bölməsinə). Balneoloji iqlimə malik Bakı-Abşeron turizm bölgəsinə daxildir. B.-dan qərb, şimal-qərb, şimal və cənub marşrutları üzrə turist səyahətləri təşkil edilir. Dəniz sahillərində yerləşən şəhərətrafı qəs.-lərdə sanatoriya-kurort mərkəzləri, həmçinin beynəlxalq turizm mərkəzi, turist bazası, Olimpiya idman kompleksləri fəaliyyət göstərir. Əsas turist obyektləri: YUNESKO-nun Umumdünya irsi siyahısına Şirvanşahlar sarayı və Qız qalası ilə birlikdə salınmış İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğunun ərazisindəki 10 dünya və 27 ölkə əhəmiyyətli abidə, həmçinin şəhər ətrafında yerləşən tarixi memarlıq abidələrindən Bibi-Heybət məscidi, "Atəşgah" məbədi, Xəzəryanı müdafiə qurğuları, karvansaralar və ovdanlar kompleksi (Mərdəkan qalası və qüllələri, Nardaran və Ramana qalaları). Ən böyük mehmanxanaları: "Hyyat Regensy", "Grand Hotel Europa", "Radisson SAS Rlaza Hotel", "Park Hyyat Hotel", "Excelsior Hotel Baku", "Buta palace", "Hilton" və s. (2011). B.-da 120 mehmanxana və digər mehmanxana tipli müəssisə (birdəfəlik tutumu 10300, lüks nömrələrin sayı 1381) fəaliyyət göstərir. Turizm sahəsində çalışan işçilərin ümumi sayı 4572, turizm fəaliyyətilə məşğul olan müəssisələrin sayı 136-dır (2009).

**Səhiyyə**

20 əsrin əvvəllərinədək B.-da əhaliyə tibbi xidmət çox aşağı səviyyədə idi. İlk xəstəxana (25 çarpayılıq Mixail xəstəxanası – indiki M.M. Hacıqasımov ad. 1 saylı doğum evi) 1875 ildə açılmışdır. 1913 ildə B.-da 15 ambulatoriya və 975 çarpayılıq bir neçə xəstəxana olmuşdur; burada 241 həkim (6,2% azərb.) çalışmışdı. 1919 ildə Bakı Un-tində tibb fakültəsinin açılması B.-da səhiyyənin inkişafına təkan verdi. 1930 ildə Azərb. Dövlət Un-tinin tibb fakültəsi əsasında Azərb. Dövlət Tibb İn-tu, 1935 ildə Azərb. Dövlət Həkimləri Təkmilləşdirmə İn-tu və orta tibb məktəbləri açıldı. Sonrakı illərdə Urologiya Klinik Xəstəxanası, Neyrocərrahiyyə Mərkəzi, Toksikologiya Mərkəzi, Yanıq Mərkəzi, Əlillərin Reabilitasiya Mərkəzi və digər müasir tipli müəssisələr açılmışdır.

B.-da yüksəkixtisaslı tibbi yardım göstərən geniş dövlət və özəl səhiyyə müəssisələri sistemi yaradılmışdır: 19199 çarpayılıq 79 xəstəxana, 11 gündüz stasionarı, 82 ambulatoriya-poliklinika müəssisəsi (o cümlədən 5 qadın məsləhətxanası, 22 uşaq poliklinikası), 11 həkimsəhiyyə və 38 feldşer-səhiyyə məntəqəsi, 17 sanitar–epidemioloji müəssisə (o cümlədən 14 gigiyena və epidemiologiya mərkəzi, 2 dezinfeksiya stansiyası, 1 taun əleyhinə stansiya) və s. vardır (2008). Bu tibb ocaqlarında 15714 həkim (o cümlədən 1038 stomatoloq və diş həkimi) və 19727 orta tibb işçisi (o cümlədən 3302 feldşer-mama və mama) çalışır. B.-da və şəhər ətrafında 1415 çarpayılıq 14 sanatoriya fəaliyyət göstərir. Şəhərdə Azərb. Tibb Un-ti, Ə.Əliyev ad. Həkimləri Təkmilləşdirmə İn-tu, 9 elmi tədqiqat in-tu (Mamalıq və Ginekologiya ETİ, B.Eyvazov ad. Hematologiya və Transfuziologiya ETİ, C.Abdullayev ad. Kardiologiya ETİ, akad. Z.Ə.Əliyeva ad. Göz Xəstəlikləri ETİ, K.Y.Fərəcova ad. Pediatriya ETİ, Travmatologiya və Ortopediya ETİ, Ağ ETİ, akad. V.Y. Axundov ad. Milli Tibbi Profilaktika ETİ, Tibbi Bərpa ETİ), 3 elmi mərkəz (akad. M.A. Topçubaşov ad. Elmi Cərrahiyyə Mərkəzi, Onkoloji Elmi Mərkəz, Elmi Angioloji və Mikrocərrahlıq Mərkəzi), 2 tibb məktəbi, habelə Resp. Klinik Xəstəxanası, Narkoloji Mərkəz və s. var.

**Memarlıq**

B. Azərb.-ın qədim şəhərlərindəndir. Abşeronda aparılan arxeoloji qazıntılar nəticəsində Mərdəkan, Şüvəlan, Türkan, Bilgəh, Nardaran, Şağan, Binəqədi və s. yerlərdə e. ə. 3–1-ci minilliklərə aid maddi mədəniyyət qalıqları aşkar edilmişdir. B.-da, İçərişəhərdə mədəni təbəqənin qalınlığı 5–6 *m*-ə çatır. Burada xeyli istehsalat ocaqları, anbar, ictimai-dini və yaşayış tikililəri qalıqları, şəhəri su ilə təchiz edən mürəkkəb mühəndis qurğusu (12–16 əsrlər), şaxəli kanalizasiya, su kəməri, ovdan və s. tapılmışdır. Aşkara çıxarılmış tikililər içərisində 9 əsrə aid türbə də var. Arxeoloji materiallar şəhərin xüsusi planla inşa edildiyini göstərir. B.-nın iqtisadi həyatında sənətkarlıq (dulusçuluq, metalişləmə, zərgərlik və s.) mühüm rol oynamışdır. Qazıntılar zamanı əldə edilən üzəri həndəsi, heyvani və nəbati rəsmlərlə bəzədilmiş müxtəlif formalı və çeşidli saxsı qablar yüksək sənətkarlıq nümunələridir. Yaşayış binalarının qalıqları, təndir, ocaq, quyu və s. obyektlər şəhər əhalisinin məişətini öyrənməyə imkan verir.

Arxeoloji qazıntılar zamanı tapılan çini qablar (12–15 əsrlər), B.-dakı tarixi-memarlıq abidələrindən Qız qalası yaxınlığındakı Buxara (14 əsr) və Multani (15–16 əsrlər) karvansaraları və s. vaxtilə Şərq ölkələri ilə ticarət əlaqələrinin saxlandığını sübut edir. 16–17 əsrlərdə B.-da mis pul kəsilirdi, xalçaçılıq və toxuculuq inkişaf etmişdi. 17–18 əsrlərə aid tarixi abidələr memarlıq, həkkaklıq və s.-nin də inkişaf etdiyini göstərir.

B.-da ilk memarlıq abidələri məbədlər və atəşgədələr olmuşdur. 6 əsrdə B.-da Qız qalası inşa edilmiş (üzərində "Məsud Davud oğlunun qalası" yazılmış kitabə indiki yerinə bərpa zamanı qoyulmuşdur), şəhər qala divarları ilə əhatə olunmuşdu. Ərəb istilası zamanı atəşgədələr dağıdılmışdır. B. "İçərişəhər" adlanan sahədə inkişaf etməyə başlamış, dəniz sahilində, təxminən indiki Qız qalasının yaxınlığında ilk binalar tikilmişdir. 10–11 əsrlərdən tikinti işləri dənizyanı sahədə aparılırdı. Bu dövrün məlum memarlıq nümunəsi Sınıqqala minarəsidir (1078, memar Məhəmməd Əbubəkr oğlu). Beləliklə, Qız qalası və onun ətrafındakı sahə içqala kimi formalaşdı. 13 əsrdə B. limanında Şirvanşahların "Bayıl qəsri" iqamətgahının tikilməsi şəhərin inkişafında ən əhəmiyyətli hadisə oldu. Bürclü divarlarla əhatə olunmuş binalar kompleksi (1235, ustad Zeynəddin Əburəşid oğlu Şirvani və ehtimal ki, memar Əbdülməcid Məsud oğlu) daş üzərindəki oyma yazı və təsvirlər qurşağı ilə birlikdə nadir memarlıq ansamblıdır. 14 əsrdə B.-da bir sıra yeni tikililər inşa edildi. Bunların ən əhəmiyyətlisi yalnız minarəsi qalmış Cümə məscidi və indiki Milli Elmlər Akademiyası Rəyasət Heyəti binasının qala divarları ilə birləşdiyi yerdə dördbucaqlı bürcdür. 15 əsrdə İçərişəhərdə Azərb. memarlığının ən gözəl abidələrindən olan Şirvanşahlar sarayı kompleksi yaradıldı. Şəhərin sahəsi genişləndirildi, karvansara, məscid, yeni qala divarları tikildi və İçərişəhər indiki sərhədləri daxilində formalaşdı. 16 əsrdə Şirvanşahlar sarayının Şərq darvazasının baştağı (1584, memar Əmirşah Vəlyənkuhi) və B. hakimlərinin İçərişəhərdən kənarda divarla əhatə olunmuş iqamətgahı (indiki akad. Ə.Əlizadə küçəsi ilə "Araz" kinoteatrı arasında) tikildi. 17 əsrdə indiki A.Zeynallı küçəsi ərazisinin ticarət mərkəzinə çevrilməsi ilə əlaqədar burada bir sıra bina – 5 karvansaradan ibarət ticarət kompleksi, bazar meydanının tağlı eyvanı, məscid, zorxana və s. inşa edildi. Şəhərin ətrafına ikinci qala divarları çəkildi. Şamaxı darvazası, qala divarlarından xaricdə isə "Xəlfədam" adlı yaşayış məntəqəsi salındı. 18 əsrdə Bakının xanlıq mərkəzinə çevrilməsi ilə əlaqədar Şamaxı darvazasından İçərişəhərə daxil olan yerdə Xan sarayı tikildi.



Bakının yeni tikililəri.



"Park-Bulvar" ticarət-əyləncə mərkəzi.



0528



Yeni tikililər – "Alov qüllələri".

1810 ildən etibarən İçərişəhərdən xaricdə tikinti işləri aparıldı, indiki İ. Səfərli küçəsi, hazırkı Azərbaycan prospekti, 1860 ildən sonra isə indiki İstiqlaliyyət küçəsi salındı. Kapitalizmin inkişafı ilə əlaqədar 19 əsrin axırlarında B.-nın mərkəzi r-nlarında əsaslı binalar tikildi. Ş.-in ərazisi B. buxtası boyunca, dəniz ətrafındakı dağlıq sahəyədək amfiteatr şəklində genişləndi. 19 əsrin sonu – 20 əsrin əvvəllərində indiki Azərb. Milli İncəsənət Muzeyinin (1888–90, memar N.A. fon der Nonne), AMEA Əlyazmalar İn-tunun (1898–1900), Bakı Sovetinin (1900–04; hər ikisinin memarı İ.V.Qoslavskidir) binaları, Təzəpir məscidi (1905–14, memar Z.Əhmədbəyov), "İsmailliyyə" binası (indiki AMEA Rəsayət Heyətinin binası; 1908–13, memar İ.K.Ploşko), Opera və Balet Teatrı (1911, memar N.Babayev), M.Muxtarovun evi (1911–12, memar İ.K.Ploşko), göz xəstəxanası (1911–12, memar Z.Əhmədbəyov), Filarmoniya (1911–12) və s. binalar tikildi. Məşhur Bakı milyonçuları və mesenatlarından H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov, Ş.Əsədullayev və b.-nın vəsaiti ilə tikilən bu və digər binalar memarlıq həllinə görə həmin dövr Avropa memarlığının üslub xüsusiyyətlərini əks etdirirdi. B.-da 18 əsr – 20 əsrin əvvəllərinə aid 1500-dən artıq yaşayış evi və inzibatı bina mühafizə olunmuşdur.

1924–27 illərdə tərtib edilmiş baş plan (qrup rəhbəri A.P.İvanitski) əsasında tikinti işləri genişləndi. Çoxlu boş sahə B. ərazisinə daxil edildi. İndiki İstiqlaliyyət küçəsi, Azərbaycan və Neftçilər prospektləri yenidən quruldu. Dağlıq hissənin (H. Cavid prospekti) başdan-başa tikilməsi, 8-ci Kilometr, Əhmədli, Şimal-Qərb və s. yaşayış r-nlarının salınması, şəhər parklarının abadlaşdırılması (Dənizkənarı bulvar, 1969 və s.) B.-nın şəhərsalma prinsiplərini kökündən dəyişdirdi: Azərb. Resp. Nazirlər Kabinetinin binası və Nizami ad. Azərb. Ədəbiyyatı Muzeyi (1938, 1940, memarlar S.Dadaşov və M.Hüseynov), Hökumət evi (1952, memarlar L.V.Rudnev, V.O.Munts, K. Tkaçenko). Resp. stadionu (1952, memarlar L.İ.Qonsiorovski, Q.A.Sergeyev, O.M.İsayev), M.F.Axundzadə ad. Resp. kitabxanası (1960, memar M.Hüseynov), Bakı təyyarə vağzalı (1964, memar H.Məcidov), Azərb. EA şəhərciyi kompleksi (1951–66, memar M.Hüseynov), Dövlət sirki (1967, memarlar Ə.İsmayılov, F.R.Leontyeva), Dəniz vağzalı (1970, memar D.Axundov və b.), Resp. Statistika İdarəsinin binası (1971, memar T.Xanlarov və b.), S.Dadaşov, M.Hüseynov və b.-nın layihələri ilə tikilmiş çoxlu yaşayış evi və s. Bakı metropoliteninin (1967 ildə istifadəyə verilmişdir) memarlıq cəhətdən müxtəlif quruluşlu "Bakı Soveti" (indiki "İçərişəhər", memarlar T.Xanlarov, Ş.Zeynalova, Y.Qədimov, Y.N. Kozlov; 2009 ildə yenidən qurulmuşdur), "Nərimanov" (memar M.Hüseynov), "Ulduz" (memarlar Ə.Qasımzadə, E.İ. Kanukov), "Neftçilər" (memarlar Ə.İsmayılov, F.R.Leontyeva), "20 yanvar", "Xətai", "Gənclik" (memar K.İ.Sençixin), "Nizami", "Elmlər Akademiyası" (memar M.Hüseynov), "Qara Qarayev" (memarlar H.Ələsgərov, Ə.Hüseynov), "Sahil" (memar A.Surkin və b.), "Məşədi Əzizbəyov" (indiki "Koroğlu", memar H.Məcidov), "İnşaatçılar" (memarlar Z.Quliyeva, H. Əmirxanov, L.Səfiyeva), "Memar Əcəmi" (memar T.Xanlarov), "28 may" (memarlar Ş.Quliyev, Y.Xaçiyev), "Xalqlar dostluğu" (memarlar R.Əliyev, A.Axundov), "Əhmədli" (memarlar L.İ.Avramenko, L.S.Koçubey), "Cəfər Cabbarlı" (memar S.Qədimova), "Həzi Aslanov" (memarlar R.Əliyev, A.Abdullayev, N.Vəliyev, K.Sençixin), "Nəsimi" (memarlar S.Salamzadə, Ş. Əfəndiyev), "Azadlıq prospekti" (memarlar E.Qasımzadə, M.Məmmədov, Z.Qurbanəliyev), "Dərnəgül" (memarlar C. Sadıqov, K. Sultanov, Z. Qurbanəliyev) st.-ları fəaliyyət göstərir. Heydər Əliyev sarayının qarşısındakı park kompleksi yenidən qurulmuş, burada H.Əliyevin abidəsi ucaldılmışdır (heykəltəraş M. A. Nogin, memarlar İ.N.Voskresen-







"Hilton" oteli.

ski və S.A. Şerbakovdur). Azərb. Resp. Milli Məclisinin binası (1973, memarlar T.Abdullayev, X.Rəhmanova, Y.Qədimov), "Gülüstan" şadlıq sarayı kompleksi (1980, memarlar H.Əmirxanov, N.Hacıbəyov, F.Rüstəmbəyov, mühəndislər T.Y.Şarinski, N.İsmayılov, K.Kərimov, Azərb. Dövlət mükafatı, 1982), "Şərq bazarı" ticarət kompleksi (1983, memarlar U.B.Revazov, P.İ.Yarinski), Prezident sarayı (1987, memarlar T.Abdullayev, X.Rəhmanova, F.Orucov) və bir sıra çoxmərtəbəli bina gözəl memarlıq nümunələridir. B.-da müxtəlif illərdə M.F. Axundzadə (1930, tunc, qranit; heykəltəraş P.V.Sabsay), Nizami Gəncəvi (1949, tunc, qranit; heykəltəraş F. Əbdürrəhmanov), M.Ə.Sabir (1958, tunc, qranit; heykəltəraş C.Qaryağdı), "Azad qadın" (1960, tunc, qranit; heykəltəraş F.Əbdürrəhmanov), Ü. Hacıbəyli (1960, tunc, qranit; heykəltəraş T.Məmmədov), X.Natəvan (1960, tunc, qranit; heykəltəraş Ö.Eldarov), S.Vurğun (1961, tunc, qranit; heykəltəraş F.Əbdürrəhmanov), Füzuli (1962, tunc, qranit; heykəltəraşlar T.Məmmədov, Ö.Eldarov), N.Nərimanov (1972, tunc, qranit; heykəltəraş C.Qaryağdı), Nəsimi (1979, tunc, qranit; heykəltəraşlar T.Məmmədov, İ.Zeynalov), R.Zorge (1981, tunc, qranit; heykəltəraş V.Y.Sical), C.Cabbarlı (1982, qranit; heykəltəraş M.Mirqasımov), H.Zərdabi (1983, tunc; heykəltəraş E.Hüseynova), H.Cavid (1993, tunc, qranit, mərmər; heykəltəraş Ö.Eldarov), Şah İsmayıl Xətai (1993, tunc; heykəltəraşlar İ.Zeynalov, Z.Mehdiyev), "Xocalı" soyqırımı abidəsi (2008, tunc, qranit; heykəltəraşlar Aslan, Teymur, Mahmud Rüstəmovlar) və s. ucaldılmışdır. B.-nın yaşıllaşdırılması sahəsində böyük işlər görülür. Lermontov küç.-ndəki (Azərb. Resp. Nazirlər Kabineti binası qarşısında) kaskadlı şəlalə və landşaft bağı (1975, memarlar F.Rüstəmbəyova, G.Qasımov, G.Mehdiyeva) Bakının yaşıl görkəmini zənginləşdirmişdir. 60-cı illərdə Dənizkənarı bulvar yenidən qurulmuş və burada yeni terraslar salınmışdır. Hökumət evi qarşısında maraqlı memarlıq quruluşu olan fəvvarə yaradılmışdır. B.-da çoxlu kitabxana (Azərb. Resp. Milli Kitabxanası, M.Ə.Sabir ad. kitabxana, Azərb. Resp. Prezidenti İşlər İdarəsinin Kitabxanası və s.), muzey (Azərb. Milli İncəsənət Muzeyi, Milli Azərb. Tarixi Muzeyi, Nizami ad. Milli Azərb. Ədəbiyyatı Muzeyi, L. Kərimov ad. Azərb. Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi və s.), Müasir İncəsənət Muzeyi, teatr (Azərb. Dövlət Akademik Milli Dram Teatrı, Azərb. Opera və Balet Teatrı, S.Vurğun ad. Rus Dram Teatrı, Ş.Qurbanov ad. Azərb. Musiqili Komediya Teatrı, Gənc Tamaşaçılar Teatrı, A.Şaiq ad. Kukla Teatrı), filarmoniya, sirk və s. var. 1970–90-cı illərdə B.-da çox sayda mehmanxanalar, ictimai binalar inşa edilmişdir.

B.-da xarici səfirliklərin, beynəlxalq təşkilatların nümayəndəliklərinin və onların əməkdaşlarının yerləşdirilməsi üçün tikilən ilk obyektlər "BP-Statoil" şirkətinin ofisi (İçərişəhər, memar N.Vəliyev), RF-nin və Qazax. Resp. səfirliklərinin binaları, "Bayholdinq" firmasının yaşayış evləri (memar F. Akmeyev) və s. olmuşdur. Həmin illərdə Azərb. Resp. Beynəlxalq Bankının (memarlar T. Seyidov, L. Trudel), Azərb. Resp. Milli Bankının (memar Yavuz Kosal), "Arkobank"ın (memar M. Şuqayev) binaları tikilmişdir. 1990 ilin sonunda Bakı aeroportunun yeni binası istismara verildi (memarlar R. Əliyev, N. Vəliyev).

1997 ildə B.-da ikiminarəli Cümə məscidi (memar T. Xanlarov), "Şəhidlər xiyabanı" ərazisində ikiminarəli məscid tikildi, bir çoxu bərpa olundu. 1930-cu illərdə dağıdılmış "Bibiheybət" dini kompleksi yenidən bərpa edildi (memar S. Orucov, F. Miralayev). 1998 ildə "Şəhidlər xiyabanı"nda "Əbədi məşəl" türbəsi (memarlar E. Qasımzadə, A. Abdullayev, N. Vəliyev) ucaldıldı.

2000-ci illərdə şəhərdə bir sıra yeni ictimai və yaşayış binaları inşa edildi: Oftalmologiya Mərkəzi, Heydər Əliyev Fondu (memar C. Qədirov), Beynəlxalq Muğam Mərkəzi (dənizkənarı bulvar, memarlar Haldun Uyak, Vahit Kasımoğlu), Biznes Mərkəzi (memar S. Salamzadə), Avtomobil vağzalı (memarlar K.A. Musaxanov, C.R. Axundov), müasir ofis binaları, yaşayış binaları kompleksləri və s. Bakının şəhərdaxili yollar sisteminə geniş əraziləri əhatə edən nəqliyyat körpüləri və müasir yeraltı keçidlər əlavə olundu.

"Bakı şəhərində tarix-memarlıq abidələrinin bərpası və qorunması haqqında" sərəncama (2006) əsasən yeni tikintilərlə yanaşı B.-da geniş yenidənqurma, abadlaşdırma, tarixi-memarlıq abidələrinin təmiri, bərpası işləri aparılmışdır: Təzəpir və Əjdərbəy məscidləri, Heydər Əliyev Sarayı və onun qarşısın-

dakı park. B.-nın simasının yeniləşdirilməsində memarlardan T. Xanlarov, S. Salamzadə, F. Yüzbaşov, N. Vəliyev, A. Abdullayev, R. Seyfullayev, X. Əmirxanov, F. Akmeyev, N. İmaməliyev, İ. Əliyev, S. Sultanov, İ. Bəylərov, N. Namazov, İ. İsbatov və b.-nın mühüm xidməti olmuşdur.

*Əd.:* Дадашов С., Усейнов М. Архитектурные памятники Баку. М., 1955; yenə onların, Bakının memarlıq abidələri. B., 1955; Ашурбейли С.Б. Очерк истории средневекового Баку (VII - начало XIX вв.). Б., 1964; Саламзаде А.В. Архитектура Азербайджана XVI–XIX вв. Б., 1964; Бретаницкий Л. Баку. Архитектурно-художественные памятники. 2 изд., Л.-М., 1970; Фатуллаев Ш.С. Градостроительство Баку XIX начала XX вв. Л., 1978; yenə onun, Градостроительство и архитектура Азербайджана XIX – начало XX вв., Л., 1986; Ахундов Д.А. Архитектура древнего и раннесредневекового Азербайджана. Б., 1986; Ашурбейли С.Б. История города Баку. Период средневековья. Б., 1992; Ашурбейли С.Б. Bakı şəhərinin tarixi (orta əsrlər dövrü). B., 1998.

**"BAKI"** – gündəlik axşam qəzeti. "Bakı"nın ilk nömrəsi 1958 il yanvarın 10-da Azərb. dilində, "Baku"nun ilk nömrəsi isə 1963 il iyunun 1-də rus dilində çıxmışdır. Hər iki nəşr AKP Bakı Komitəsi və Bakı Şəhər Zəhmətkeş Deputatları Sovetinin orqanı kimi təsis olunmuşdu. İlk baş redaktoru N. *İmanquliyev* idi. Hazırda Bakı Şəhər İcra Hakimiyyətinin orqanı kimi nəşrini davam etdirir.

**BAKI ALİ PEDAQOJİ QIZLAR SEMİNARİYASI** – bax *Bakı Qızlar Universiteti*.

**BAKI ARXİPELAQI** – Xəzər dənizində, *Bakı buxtasından* c.-da adalar qrupu. Azərb. Resp. ərazisinə daxildir. B.a.-na Böyük Zirə, Qum, Daş Zirə, Zənbil, Xərə Zirə (arxipelaqda ən böyük - sah. 3,5 $km^2$), Gil, Qarasu, Qutan, Səngi Muğan, Çigil, Kür daşı və s. adalar və çoxlu saylar daxildir. Adaların əksəriyyəti palçıq vulkanı mənşəlidir. B.a.-nda zəngin neft və qaz yataqları var.

**BAKI ARXİPELAQI NEFTLİ-QAZLI RAYONU** – Xəzərin Azərb. sektorunda, Bakı arxipelaqında Səngəçal burnundan Qızılağac körfəzində Kür daşı a.-nadək şelf sahəsini əhatə edir. Tektonik cəhətdən Ceyrankeçməz və Aşağı Kür çökəklikləri strukturlarının dənizdə davamını təşkil edir. Bakı arxipelaqının sistemli öyrənilməsinə 20 əsrin 50-ci illərindən başlanmışdır. Aparılmış axtarış-kəşfiyyat və geofiziki işlər nəticəsində Pliosen çöküntüləri üzrə, əsasən, ümumi Qafqaz istiqamətində uzanan 30-a qədər antiklinal qırışıq aşkar edilmişdir. Rayon neotektonik hərəkətlərin və palçıq vulkanizminin aktivliyi ilə səciyyələnir. Axtarış-kəşfiyyat qazıması nəticəsində rayonun şm. hissəsində "Səngəçal-dəniz-Duvannı-dəniz-Xərə Zirə adası" (neft-qaz-kondensat, 1963), "Qarasu" (neft, 1974), "Bulla-dəniz" (qaz-kondensat, 1979), "8 Mart" (qaz-kondensat, 1982) və "Ələtdəniz" (neft, 1983) yataqları aşkar edilmişdir. "Qarasu" yatağından başqa bütün yataqlar istismardadır. Axtarış qazıması həmçinin B.a.n.-q.r. ərazisində Ümid, Səngi Muğan, Aran-dəniz, Daşlı, Səbail, Naxçıvan, Yanan Tava, Atəşgah, İnam, Kür daşı, Araz-dəniz və Talış-dəniz strukturlarında da aparılmışdır. Bakı arxipelaqının neftli-qazlılığının perspektivliyi Məhsuldar qatın V, VII, VIII qumlu horizontları və Qırmakialtı lay dəstəsi ilə əlaqədardır. Xəzər dənizində ən dərin quyular (6746 *m*-ədək) Bakı arxipelaqı sahəsində qazılmışdır. Kəsilişdə Məhsuldar qatın qalınlığı 4500 *m*-ə çatır.



Bakı Avrasiya Universiteti.

**BAKI ASİYA UNİVERSİTETİ** – özəl ali təhsil müəssisəsi. 1993 ildə təsis edilmişdir. 2 fakültəsi (filologiya, tarix və ictimai elmlər), 4 kafedrası, kitabxanası, kompyuter mərkəzi var. 6 ixtisas üzrə mütəxəssis hazırlanır. Un-tdə 500-ə yaxın tələbə təhsil alır, 60 nəfərlik prof.-müəllim heyəti, o cümlədən 6 e. d., prof., 30 e. namizədi, dosent çalışır (2010/11). Dünyanın 70-dən çox un-tini birləşdirən EURAS təşkilatının üzvüdür.

**BAKI AŞAĞI TEXNİKİ MƏKTƏBİ** – 1897 il (bəzi mənbələrə görə 1896) sentyabrın 1-də fəaliyyətə başlamışdı. Bakı sənət məktəbinin (1888) əsasında yaradılmışdı. H.Z. Tağıyevin maliyyə dəstəyi ilə məktəb üçün Avropa memarlığı üslubunda möhtəşəm tədris binası (hazırda ADNA-nın yerləşdiyi bina) tikilmişdi. Mexanika və inşaat (bəzi mənbələrə görə mexanika və kimya) şöbələri var idi. Məktəbin nəzdində 4 sinifli ibtidai sənət məktəbi, yaşlılar üçün kurslar, 5 emalatxana fəaliyyət göstərirdi; ümumtəhsil və texniki fənlər (hesab və rus dili, rəsmxət və texnologiya) tədris olunurdu. Məşğələlərin üçdə iki hissəsi təcrübə dərslərindən ibarət idi. 1905 ildən *Bakı orta texniki məktəbi* adı ilə fəaliyyətini davam etdirmişdi.

*Əd.:* Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. B., 1999.

**BAKI AVRASİYA UNİVERSİTETİ** – özəl ali təhsil müəssisəsi. 1992 ildə Ali Diplomatiya Kolleci kimi təsis edilmiş, 2006 ildən indiki adı ilə fəaliyyət göstərir. 1 fakültəsi (filologiya və jurnalistika), 4 kafedrası, magistraturası, fənn laboratoriyaları, 3 elmi mərkəzi, kitabxanası, "Diplomat" nəşriyyatı var. Un-tdə 626 tələbə təhsil alır, 22 nəfərlik prof.-müəllim heyəti, o cümlədən 3 e.d., 19 e.namizədi, dosent çalışır (2010/11). "Sivilizasiya" elmi jurnalı (2011 ildən) nəşr edilir.

**BAKI AZAD TƏNQİD-TƏBLİĞ TEATRI** – Azərb. miniatür teatrı. D. Bünyadzadənin təşəbbüsü və N. Nərimanovun yaxından köməyi və iştirakı ilə açılmışdı (1921). S.S. Axundovun "Çərxifələk" və A. Şaiqin "Yazıya pozu yoxdur" əsərinin tamaşası ilə fəaliyyətə başlamışdı. Teatrın ilk direktoru H. Abbasov, baş rəssamı Ə. Əzimzadə olmuşdur. Ə. Süheyli, S. Ruhulla və b. rej.-lar burada işləmişlər. Teatrın səhnəsində Azərb. dramaturqlarının dövrlə səsləşən kiçikhəcmli əsərləri ("Kamança", C. Məmmədquluzadə; "Səadət əməkdədir", "İki yol", "Xanpəri və Gülpəri", S.S. Axundov; "Şərq" və "Sabotajçılar", M.S. Ordubadi; "Məşədi evlənir", M.A. Əliyev; "Evlənmə" və "Usta Qəmbər", Ə. Qəmərlinski) tamaşaya qoyulmuşdur. Tamaşalar Z. Hacıbəyov, A. Zeynallı və b.-nın musiqisi ilə müşayiət olunurdu. M.A. Əliyev, Ə. Qəmərlinski, M. Kazımovski, Ə. Anatollu, Ə. Məmmədova, S. Hacıyeva və b. aktyorlar bu teatrda çalışmışlar. 1925–27 illərdə Türk İşçi-Kəndli Teatrı, 1927–32 illərdə *Bakı Türk İşçi Teatrı* adlanmışdır.

*Əd.:* Kərimov İ. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. B., 2002.

**BAKI BAĞÇILIQ MƏKTƏBİ**, Mərdəkan bağçılıq və bostançılıq məktəbi – 1896 il (bəzi mənbələrə görə 1895) oktyabrın 27-də H.Z. Tağıyevin maliyyə vəsaiti hesabına Bakının Mərdəkan kəndində açılmışdı. Birinci il məktəbə 40 azərb. şagird qəbul olunmuşdu. Təhsil müddəti 5 il idi; tədris planına Azərb. və rus dilləri, hesab və hüsnxət fənləri də daxil edilmişdi. Məktəbin nəzdində internat var idi. Kənd icması tərəfindən ayrılmış 10 *ha*-dan artıq tədris-təcrübə sahəsində yerli şəraitə uyğun gül-çiçək, dərman bitkiləri və texniki bitkilər becərilirdi; şitillik yaradılmışdı.

*Əd.:* Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. B., 1999.

**BAKI BEYNƏLXALQ AEROPORTU** – bax *Heydər Əliyev Beynəlxalq aeroportu*.

**BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT PORTU** – Xəzər dənizinin q.-ində, Abşeron y-a-nın c.-unda ən böyük port. Xəzər dəniz gəmiçiliyinin əsas bazası. Mühüm tranzit yolları (d.y. və su yolu) qovşağındadır. Hələ 19 əsrin 50–60-cı illərində Rusiya Bakı portu vasitəsilə Şərq ölkələri ilə qızğın ticarət edirdi. Azərb. neft sənayesinin inkişafı, Bakını Tiflis, Batumi və Rusiyanın ümumi d.y. şəbəkəsi ilə birləşdirən d.y.-nun çəkilişi portun yük dövriyyəsinin sürətli inkişafına səbəb olmuşdu. 20 əsrin əvvəllərində Azərb. neft məhsullarının təqr. 80%-i dəniz yolu ilə daşınırdı. 30-cu illərdə portda mexanikləşdirilmiş körpülər tikildi, Böyük Vətən müharibəsindən sonra yenidənqurma işləri görüldü. 1962 ildən Bakı və Krasnovodsk (indiki Türkmənbaşı), 1970-ci illərdən Bakı və Şevçenko (indiki Aktau) portları arasında böyük gəmi-bərələr işləyir. Tarixi İpək Yolunun bərpası olan TRASEKA (TRACECA) layihəsində Bakı portu körpü rolunu oynayır. Tərkibində istismar, maliyyə, kommersiya, port nəzarəti xidmətləri və s. fəaliyyət göstərir. Struktur bölmələri: əsas (quru) yük terminalı – qalaq-səpkili, dənə-ədəd və qablaşdırılmış yüklərin aşırılması və saxlancı üçündür; yükaşırma qabiliyyəti ildə 2 mln. *t*-dur; neft terminalı – neft və neft məhsullarının aşırılmasını həyata keçirir; Dübəndidə yerləşir, yükaşırma qabiliyyəti ildə 15 mln. *t*-dur; bərə terminalı – Bakı-Türkmənbaşı-Bakı və Bakı-Aktau-Bakı xətlərində hərəkət edən gəmi-bərələrin qəbulu, vaqonların və avtomaşınların yüklənib boşaldılması, eyni zamanda, hər iki istiqamətdə hərəkət edən sərnişinlərin minib düşməsi üçün şərait yaradır; yükaşırma qabiliyyəti ildə təqr. 8 mln. *t*-dur; konteyner terminalı əsas yük terminalının bazasında yaradılmışdır; ildə orta hesabla 15 min TEU (şərti vahid) konteyner qəbul edir və yola salır; sərnişin terminalı dəniz nəql. ilə hərəkət edən sərnişinləri qəbul edir və yola salır; donanmaya Xidmət Kompleksi nəql. donanmasına müxtəlif xidmətlər göstərmək üçün üzən vasitələrlə (yedəkçi, bələdçi, ekipajı daşıyan, neft tullantılarını yığan) təchiz olunmuşdur; port nəzarəti müfəttişliyi – portun akvatoriyasında gəmilərin təhlükəsiz üzməsinə nəzarət edir, sərəncamındakı gəmilərin hərəkətinin idarəedilməsi sistemi ilə üzən vasitələrin radiolokasiya ötürülməsini təmin edir, gəmilərin port daxili olmasını və çıxmasını sənədləşdirir. Bakı portunun ümumi yükaşırma potensialı ildə 25 mln. *t*-dur.

**BAKI BƏLƏDİYYƏ TEATRI** – 1992 ildə A. *Pənahovanın* (teatrın direktoru və bədii rəhbəri) təşəbbüsü ilə yaradılmışdır. Teatrın ilk tamaşası "Medeya" (J. Anuy) olmuşdur (1992); repertuarında "Köhnə Bakı" (Ü. Hacıbəylinin komediyaları əsasında), "Tomris" (O. Altunbay), "Nadir şah" (N. Nərimanov), "Ölülər" (C. Məmmədquluzadə), "Dönüş" (C. Cabbarlı), "Elektra" (Sofokl), "Dəli Domrul" (A. Məmmədov), "Damokl qılıncı" (N. Hikmət) və s. tamaşalar əsas yer tutur. Teatrda S. *Bəsirzadə*, M. *Sadıqova*, M. *Avşarov* kimi sənətkarlar çalışmış, A. Pənahova, V. *Əliyev*, N. *Quliyev* və b. fəaliyyət göstərirlər.

Teatr Türkiyə, İran, Rusiya, Almaniya, Yunanıstan, Fransa, Gürcüstan və digər ölkələrdə qastrol səfərlərində olmuşdur.

**BAKI BİRİNCİ KİŞİ GİMNAZİYASI** – Azərb.-da klassik gimnaziya tipində fəaliyyət göstərən ilk təhsil müəssisəsi; 1896 ildə açılmışdı. Gimnaziyanın açılmasında H. *Zərdabinin* böyük əməyi olmuşdur. Gimnaziyada dərslər Azərb. dilində aparılır, rus dilinin tədrisinə də böyük diqqət yetirilirdi. İlk tədris ilində gimnaziyaya daxil olmaq üçün 600-dən çox ərizə verilmişdi. Şagirdlərinin sayına və təlim-tərbiyə işinin keyfiyyətinə görə bütün Qafqazda tanınırdı. 19 əsrin sonunda burada 997 şagird təhsil alırdı.

*Əd.:* Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. B., 2000.

**BAKI BİZNES UNİVERSİTETİ** – özəl ali təhsil müəssisəsi. 1993 ildə təsis edilmişdir. 2 fakültəsi (biznes və menecment, iqtisadiyyat və hüquq), 9 kafedrası, magistraturası, 3 elmi tədqiqat mərkəzi, kitabxanası (38.000 nüsxə kitab), linqafon kabinetləri var. Un-tdə 1280 tələbə təhsil alır, 114 müəllim, o cümlədən 25 e.d., prof., 64 e. namizədi, dosent çalışır (2009/10). "Audit" jurnalı (1999 ildən) nəşr olunur.

**BAKI BUXTASI**, Bakı körfəzi – Xəzər dənizinin q. sahilində, Abşeron y-a-nın c.-undadır. Ş.-də Sultan burnu, c.-q.-də Şıx burnu, c.-ş. və c.-da Qum, Daş Zirə, Böyük Zirə adaları ilə əhatə olunmuşdur. Sah. 50 $km^2$, sahil xəttinin uz. 20 *km*. Q.-də nisbətən dərin, c.-ş.-də dayaz və daşlıdır. Şm. və şm.-q. küləklərindən qorunduğuna görə gəmilərin daldalanması üçün əlverişlidir. Şiddətli küləklər zamanı burada dalğanın hünd. 1,5 *m*-ə çatır. B.b.-nda axınlar zəifdir. Bakı portu buxtanın şm. sahilindədir.

**BAKI DƏNİZİ** – orta əsrlərdə Xəzər dənizinin adlarından biri. Avropa səyyahları (Rui Qonsales de Klavixo, İosafat

Bakı Bələdiyyə Teatrı. A. Pənahova Medeya və T. Hüseynov Kreon rolunda (J. Anuy, "Medeya").



Barbaro, Ambrocco Kontarini, Ciovan Maria Anciolello və b.) adlandırmışlar. Bu, Volqa-Xəzər vasitəsilə aparılan tranzit ticarətdə Bakı ş.-nin rolunun artması ilə əlaqədar idi.

**BAKI DÖVLƏT CIDIR MEYDANI** – 1923 ildə yaradılmışdır. İlk yarışlar 1939 ildə təşkil edilmişdir. Azərb.-da ilk atçılıq festivalı burada keçirilmişdir (2010).

**BAKI DÖVLƏT RABİTƏ və NƏQLİYYAT KOLLECİ** – orta ixtisas təhsili müəssisəsi. 1931 ildə Bakı Elektrik Rabitə Texnikumu yaradılmış, 1991 ildən Bakı Rabitə Kolleci adı ilə fəaliyyət göstərmişdir. Sonuncu Bakı Dəmir Yol Nəqliyyatı Texnikumu (Bakı Yollar Texnikumu, 1934; Bakı Dəmir Yol Nəqliyyatı Texnikumu, 1946) ilə birləşdirilərək 2002 ildən Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci adlandırılmışdır. 12 ixtisas (çoxkanallı telekommunikasiya, rabitə sistemlərinin idarə olunmasının informasiya-hesablama vasitələri, poçt rabitəsi, radio və televiziya yayımı, nəql.-da daşımalar, yol hərəkətinin təşkili, lokomotiv vaqon təsərrüfatı və s.) üzrə mütəxəssis hazırlayır. Əyani və qiyabi şöbələrində 1645 tələbə təhsil alır; 200 müəllim, o cümlədən 6 e. namizədi çalışır (2010).

**BAKI DÖVLƏT UNİVERSİTETİ** (BDU), Bakı Universiteti, Bakı Darülfünunu – müsəlman Şərqində ilk Avropa tipli ali məktəb və elmi tədqiqat müəssisəsi. Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən təsis olunmuşdur (1919). 1922–94 illərdə Azərb. Dövlət Universiteti adı ilə fəaliyyət göstərmiş, 1994 ildə ilkin adı qaytarılmışdır. Un-tin yaradılmasında onun ilk təşəbbüsçüsü *F.Xoyskinin*, həmçinin N.*Yusifbəylinin*, R.*Qaplanovun*, H.*Şahtaxtinskinin*, M.Ə. *Rəsulzadənin* böyük xidmətləri olmuşdur. Un-tin ilk rektoru V.İ. *Razumovski* idi.

Un-t 1919 il noyabrın 15-də 2 fakültə (tibb və tarix-filologiya), 44 nəfərdən ibarət professor-müəllim heyəti, o cümlədən 12 prof., 877 tələbə və 217 azad dinləyici ilə dərslərə başladı. 1922 ildə un-tin ilk buraxılışı oldu.

*Aprel işğalından (1920)* sonra BDU yeni tarixi şəraitdə fəaliyyət göstərdi. Azərb. Müvəqqəti İnqilab Komitəsinin 1920 il 10 və 22 may tarixli dekretləri ilə un-tdə yenidənqurma işləri aparıldı. 1920 ildə fizika-riyaziyyat, həmin ilin dekabrında isə fəhlə fakültəsi, 1922 ildə şərqşünaslıq fakültəsi təşkil edildi. 1923 ildə tarix-filologiya fakültəsi ictimai elmlər fakültəsinə çevrildi, 1924 ildə ictimai elmlər və fizika-riyaziyyat fakültələri əsasında pedaqoji fakültə yaradıldı. 1927 ildə hüquq şöbəsi açıldı və bir ildən sonra müstəqil fakültəyə çevrildi. 20-ci illərin sonunda iqtisadiyyat fakültəsi yaradıldı. Onillik fəaliyyəti dövründə un-tin kafedra, laboratoriya və klinikalarında diqqətəlayiq elmi tədqiqat işləri aparıldı.

İlk Azərb. un-tində elmi dərəcələrin və elmi adların verilməsinə başlandı. Doktorluq elmi dərəcəsini almaq üçün un-tdə ilk dissertasiya 1921 il iyunun 15-də tarix-filologiya fakültəsinin elmi şurasında müdafiə olundu. 10 il ərzində un-tdə 1500-dən artıq mütəxəssis hazırlanmışdı. Təkcə tibb sahəsində 27 nəfər tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdü. 1926–29 illərdə un-tə ilk azərb. rektor – görkəmli dövlət xadimi, yazıçı və alim Tağı Şahbazi (Simurğ) rəhbərlik edirdi. 1930 ildə un-t bir neçə müstəqil inta ayrıldı, 1934 ildə isə 4 fakültə (fizika-riyaziyyat, kimya, biologiya və tarix) əsasında yenidən bərpa edildi. 1938 ildə filologiya, 1940 ildə isə hüquq fakültələri bərpa olundu. Böyük Vətən müharibəsinin əvvəlində resp.-nın bir neçə ali məktəbi un-t ilə birləşdirildi. 1943 ildə geologiya-coğrafiya fakültəsi, filologiya fakültəsi yanında Şərq şöbəsi təşkil edildi. Həmin dövrdə un-tdə müharibənin tələblərinə müvafiq olaraq elmi tədqiqat işləri genişləndi. Bu məqsədlə bir sıra yeni kafedra və laboratoriyalar yaradıldı. Motor yanacaqları sahəsində xüsusilə mühüm nəticələr əldə edilirdi. Müharibədən sonrakı dövrdə un-t daha sürətlə inkişaf etdi, tədris və elmi tədqiqat bazası təkmilləşdi və möhkəmləndi, yeni fakültə, şöbə, kafedra və laboratoriyalar təşkil olundu. 1945–46 tədris ilində tarix fakültəsi nəzdində fəlsəfə şöbəsi açıldı, sonrakı ildə isə filologiya fakültəsinin şərqşünaslıq şöbəsi müstəqil fakültəyə çevrildi. 1958 ildə müstəqil fizika fakültəsi açıldı.

BDU-nun 17 fakültəsi (mexanika-riyaziyyat, tətbiqi riyaziyyat və kibernetika, fizika, kimya, biologiya, coğrafiya, geologiya, filologiya, tarix, beynəlxalq münasibətlər və beynəlxalq hüquq, hüquq, jurnalistika, kitabxanaşünaslıq-informasiya, şərqşünaslıq, ilahiyyat, sosial elmlər və psixologiya, ekologiya), 123 kafedrası, 80 elmi tədqiqat və tədris laboratoriyası, 2 in-tu (Tətbiqi Riyaziyyat Elmi Tədqiqat İn-tu və Fizika Problemləri Elmi Tədqiqat İn-tu), elmi kitabxanası (2,5 mln.-dan çox çap vahidi), 6 muzeyi, 4 elmi tədqiqat mərkəzi, nəşriyyatı və mətbəəsi var. Burada informasiya və tərcümə mərkəzi, idman-sağlamlıq kompleksi, poliklinika fəaliyyət göstərir (2010/11). "Bakı Universitetinin Xəbərləri" (1921 ildən) nəşr olunur.

Un-tin əyani və qiyabi şöbələrində bakalavr pilləsində 55 ixtisas, magistr pilləsində 153 ixtisas üzrə 18000-ə yaxın tələbə (o cümlədən 12 ölkədən 1000-ədək xarici tələbə, magistrant, aspirant, doktorant və s.) təhsil alır (2010/11). Un-tdə 1300-dən artıq prof.-müəllim, o cümlədən AMEA-nın 7 akad.-i, 15 m. üzvü, 250-yədək e.d., prof., 900-ədək e. namizədi, dosent fəaliyyət göstərir. Un-tin xarici elmi əlaqələri daim genişlənir; dünyanın qabaqcıl un-tləri ilə beynəlxalq proqramlar üzrə müştərək elmi axtarışlar aparılır, tələbə-müəllim mübadiləsi həyata keçirilir.

Un-tdə Ə. Haqverdiyev, A.O. Mişe, F. Köprülüzadə, V.V. Bartold, N.Y. Marr, İ.İ. Meşşaninov, A.A. Qrossheym, A.N. Samoyloviç, S.F. Oldenburq, A.Y. Krımski, V.A. Qordlevski, Q.S. Qubaydullin, M. Qubaydullina, B. Çobanzadə, İ.M. Cəfərzadə, Y.A. Ratqauzer, İ.P. Tokin, M. Nağıyev, M. Mirqasımov, Y. Məmmədəliyev (1954–58 illərdə rektor), Ş. Mehdiyev (1958–65 illərdə rektor), Ə. Hüseynov, M. Rəsulov, M. Qaşqay, A.O. Makovelski, P.K. Juze, V. Xuluflu, M.K. Ələkbərli (1934–35 illərdə rektor), S. Hüseynov, H. Hüseynov, A.İ.Qarayev (1944–50 illərdə rektor), V.P. Qəhrəmanov, Ə.Ə. Əlizadə, Ə.S. Sumbatzadə, H. Araslı, A. Zamanov, Z.M. Bünyadov, M. Arif, Z. Xəlilov, İ. Hüseynov, Q. Gül, F. Məlikov, F. Qasımzadə, M. Rəfili, Ə. Sultanlı, C. Xəndan (1950–54 illərdə rektor), H. Dadaşov, C. Cəfərov, Z. İbrahimov, M. Erivanski, Ə. Şahmalıyev, Ə. Quliyev və b. görkəmli alimlər çalışmış, mühazirələr oxumuş, dərs demişlər.

Heydər Əliyev BDU-da təhsil almışdır. A. Mirzəcanzadə, B. Vahabzadə, F. Köçərli, H. Əliyev, M.C. Paşayev, Z. Bünyadov, A. İmanquliyeva, X. Məmmədov, H. Hüseynov, M. Nağıyev, H. Araslı, İ. Əliyev, M. Qaşqay və b. alim, yazıçı, şair, mədəniyyət və dövlət xadimlərinin böyük bir dəstəsi BDU-nun məzunlarıdır. Nobel mükafatı laureatı bakılı L. Landau 1922–24 illərdə BDU-da təhsil almışdır.

Un-tin müvafiq fakültələri əsasında Azərb. Dövlət Pedaqoji Un-ti, Azərb. Tibb Un-ti, Azərb. İqtisad Un-ti kimi ali təhsil müəssisələri yaradılmışdır.

BDU dünyanın 100-dən artıq un-tini birləşdirən Qara dəniz Hövzəsi Universi-







Bakı Dövlət Universiteti.

tetlər Assosiasiyasının, həmçinin Avrasiya, Xəzəryanı və Avropa Universitetlər Assosiasiyalarının üzvüdür. Un-t bir çox konvensiyalara, o cümlədən Bolonya prosesinə qoşulmuş, dünyanın bir çox nüfuzlu ali məktəbləri ilə ikitərəfli tələbə və müəllim mübadiləsini tənzimləyən müqavilələr imzalamışdır. Un-t Qırmızı Əmək Bayrağı ordeni ilə təltif edilmişdir (1969).

*Əd.*: Bakı Darülfünununun təsisi (sənədlər toplusu). B., 1989; Azərbaycan tarixi. 7 cilddə, c. 5, B., 2001; A t a k i ş i y e v A.M. Bakı Dövlət Universitetinin tarixi. B., 1991; M ə h ə r r ə m o v A.M. Bakı Dövlət Universiteti (Bakı Dövlət Universitetinin 80 illiyinə həsr edilmiş məlumat kitabı). B., 2000.

**BAKI DÖVLƏT UNİVERSİTETİNİN ELMİ KİTABXANASI** – Azərb. Resp.-nın ən böyük kitabxanalarından biri. 1919 ildə yaradılmışdır. Un-tin kitabxanasını yaratmaq üçün xüsusi komissiya təşkil edilmişdi. Komissiyanın 1919 ilin iyununda Bakı şəhər bələdiyyə idarəsinə müraciətinə əsasən indiki Musa Nağıyev ad. xəstəxananın nəzdindəki, daha sonra Sabunçu xəstəxanası nəzdindəki kitabxana un-tə verilmişdi. Bundan əlavə, həmin dövrdə satışdan 120 min manatlıq kitab da alınmışdı. Un-t kitabxanasını genişləndirmək üçün komissiya tərəfindən eyni zamanda əhaliyə və ilk növbədə maarifpərvər ziyalılara da müraciət olunmuşdu. Kitabxanada xüsusi türk şöbəsi yaradılmış, onu komplektləşdirmək üçün İstanbuldan 212 adda kitab gətirilmişdi. Artıq 1920 ilin əvvəllərində kitabxananın fondunda 6 mindən çox kitab, 130 adda qəzet və jurnal var idi. Kitabxana fondlarının zənginləşdirilməsi sonrakı illərdə də davam etdirildi. Kitabxananın Şərq şöbəsinin təşkili üçün Azərb. SSR Xalq Komissarları Soveti 1922 ildə 7 min manat qızıl pul ayırmışdı. Bu vəsait hesabına 1924 ildə İstanbuldan 2000-dən artıq kitab alınmışdı. 1922 ildə BDU-nun Petroqrada ezam olunmuş prof.-ları buradan pulsuz olaraq 200 puddan artıq qiymətli elmi ədəbiyyat, o cümlədən Rusiya EA-nın bütün nəşrlərini alıb gətirmişdilər. Hazırda burada 2,5 mln.-dan artıq çap vahidi vardır (2009). Kitabxananın 14 şöbəsi, 5 abonement, 14 oxu zalı (985 yerlik) və 42 kafedra kitabxanası fəaliyyət göstərir. Elmi kitabxananın mükəmməl kataloq-kartoteka sistemi, kataloqların elektron variantı yaradılmışdır; internet saytı var. 1971 ildən resp.-nın ali və orta ixtisas məktəbləri kitabxanalarının işini yaxşılaşdıran və tənzimləyən elmi-metodiki mərkəzdir. Kitabxana "Universitet alimlərinin əsərləri", "Universitetin görkəmli alimləri" seriyasından və s. mövzularda elmi-biblioqrafik göstəricilər hazırlayıb nəşr etmişdir.

**BAKI ELEKTRİK RABİTƏ TEXNİKUMU** – bax *Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci.*

**BAKI ƏMƏLİYYATI (1920)** – Sovet Rusiyasının Bakını ələ keçirmək və *Azərbaycan Xalq Cümhuriyyətini* devirib, bütün Şimali Azərb.-ı işğal etmək məqsədilə həyata keçirdiyi təcavüzkar hərbi əməliyyat. Əməliyyata əsas hazırlıq tədbirlərinə 1920 ilin əvvəllərindən başlanmışdı. B.ə.-nın planını Hərbi-İnqilab Şurasının üzvü Q.K. Orconikidzenin fəal iştirakı ilə cəbhə komandanı M.N. Tuxaçevski və qərargah rəisi S.A. Puqaçovun rəhbərliyi altında Qafqaz cəbhəsi qərargahı hazırlamışdı. Plana görə, 11-ci Qırmızı ordunun Volqa-Xəzər Hərbi Donanması ilə Bakı üzərinə birgə hücum əməliyyatı yüksək sürətlə həyata keçirilməli idi.

1920 il martın 23-də Rusiya Sovet Federativ Sosialist Respublikası (RSFSR) silahlı qüvvələrinin Baş komandanlığı Qırmızı ordunun Bakı istiqamətində əməliyyatlarının genişlənməsi barədə hökumət direktivinin həyata keçirilməsinə başlandığını bildirirdi. Qafqaz cəbhəsi komandanlığının 1920 il 21 aprel tarixli 490 saylı direktivinə əsasən 11-ci ordunun komandanı M.K. Levandovski aprelin 27-də Azərb. sərhədini keçməli, qısa bir müddətdə Bakı qub.-nın ərazisini tutmalı idi. Yalama-Bakı əməliyyatını beş gün ərzində başa çatdırmaq nəzərdə tutulurdu. Kürdəmir bölgəsində Cənubi Qafqaz d.y. xətlərini tutmaq üçün oraya süvari cinah dəstələri göndərmək əmri verilmişdi. Volqa-Xəzər Hərbi Donanmasının komandanı F.F. Raskolnikova 11-ci ordunun hissələri Abşeron y-a-na yaxınlaşarkən Bakı neftdaşıma donanmasını ələ keçirmək və neft mədənlərinin dağıdılmasına imkan verməmək üçün Ələt st. rayonuna desant dəstəsi çıxarmaq əmr olunmuşdu.

Aprelin 23-də 490 saylı direktivə əlavə olaraq verilən yeni əmrə görə 11-ci ordu Bakı qub.-nın işğalı ilə kifayətlənməməli, Azərb.-ın bütün ərazisini ələ keçirməli idi. Aprelin ortalarında 11-ci ordu birləşmələri Azərb. sərhədində cəmləşməyə başladı. Levandovskinin 25 aprel tarixli 52 saylı əmrində 11-ci ordunun nəinki Bakıya hücum günü göstərilir, hətta ölkənin hər bir yaşayış məntəqəsinin işğal olunması saatı da dəqiq qeyd edilirdi. Bakı əməliyyatında 11-ci ordunun tərkibinə daxil olan zirehli qatarlar qrupuna xüsusi əhəmiyyət verilirdi. Aprelin 27-də gecə saat 1-ə 5 dəqiqə işləmiş "III Beynəlmiləl" zirehli qatarı heç bir xəbərdarlıq etmədən Samur körpüsündən keçdi. Azərb. ordusunun əsas qüvvələri bu zaman hökumətə qarşı qiyam qaldırmış və Erm. Resp. tərəfindən dəstəklənən erməni-daşnak quldur dəstələrinə qarşı hərbi əməliyyatlar apardığı üçün ölkənin şm. sərhədi müdafiəsiz qalmışdı. İki saatlıq döyüşdən sonra zirehli qatar Yalama st.-nı ələ keçirdi. Xudat st. yaxınlığında da sovet zirehli qatarını dayandırmaq cəhdi baş tutmadı. Rus işğalçılarının "III Beynəlmiləl" zirehli qatarı aprelin 27-də ax-

şam saat 9-da Biləcəri st.-nı, aprelin 28-də səhər saat 4-də isə Bakı st.-nı ələ keçirdi. Aprelin 30-da 11-ci ordunun əsas hissələri Bakıya daxil oldu. Mayın 1-də Gəncə st. alındı və Volqa-Xəzər Hərbi Donanmasının gəmiləri Bakı limanına girdi. Mayın 3-də və 4-də Lənkərana və Astaraya hərbi-dəniz desantı çıxarıldı. Mayın ortalarında 11-ci ordu, demək olar ki, AXC-nin bütün ərazisini zəbt etdi. Beynəlxalq hüquq normalarını kobudcasına pozaraq ölkəyə soxulmuş işğalçı 11-ci ordunun müdaxiləsi nəticəsində AXC devrildi.

**BAKI ƏMƏLİYYATI (1990)** – Azərb.-da baş verən milli azadlıq hərəkatını boğmaq məqsədilə SSRİ hökuməti tərəfindən həyata keçirilmişdir. 1990 il yanvarın 19-da SSRİ Ali Sovetinin Rəyasət Heyəti yanvarın 20-də saat 00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Azərb. xalqına qarşı qırğın törətmək üçün qoşunlardan istifadə ediləcəyi və fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı, çünki bu qırğın planını poza bilərdi. Gizli planlardan xalqın xəbərdar olmaması üçün yanvarın 19-da saat 19.27-də Azərb. televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı.

Bakıda minlərlə adam sovet ordusunu şəhərə buraxmamaq məqsədilə küçələrə çıxmışdı. Qoşun hissələri yanvarın 19-da saat 21-də əvvəlcə Türkan–Qala istiqamətindən şəhərə yeridildi. B.ə.-na SSRİ müdafiə naziri D. Yazov şəxsən rəhbərlik edirdi. Bakıdakı sovet qarnizonunun qoşunları, gətirilən hərbi hissələr, hərbi gəmilərdəki desant və xüsusi cəza dəstələri dinc əhaliyə qarşı hücuma keçdi. Ağır hərbi texnika çox asanlıqla barrikadaları dağıtdı, xüsusi qəddarlıqla misli görünməmiş vəhşiliklər törətdi. Əsgərlər gözyaşardıcı qazdan istifadə edir, əliyalın adamlara avtomatlardan atəş açırdılar. Qaçıb sığınacaqlarda gizlənənlər tankların üstündəki projektorlar vasitəsilə axtarılıb tapılır, güllələbaran edilirdilər. Hərbçilər təsadüfən yola çıxanları (o cümlədən yaşlıları, qadınları, uşaqları), yaşayış evlərini, təcili yardım maşınlarını, şəhərdəki nəql. vasitələrini atəşə tutur, yaralıları öldürür, meyitləri yandırır, adamları tankların tırtılları altına salıb vəhşicəsinə əzirdilər. Əsgərlər tibb müəssisələrini mühasirəyə alaraq yaralıların buraya gətirilməsinə və tibbi heyətin yaralılara köməyə getməsinə mane olurdular.

Rəsmi məlumata görə, sovet ordusunun Bakıya və başqa məntəqələrə hücumu vaxtı 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 400 nəfər həbs edilmiş, 4 nəfər itkin düşmüşdür. Evlərə və şəxsi nəql. vasitələrinə, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdir. Fövqəladə vəziyyət haqqında verilmiş fərman yalnız yanvarın 20-də saat 7-də elan olunmuşdu.

**BAKI FƏHLƏ KONFRANSI (BFK)** – *Azərbaycan Xalq Cümhuriyyəti (1918–20)* dövründə hakimiyyəti qeyri-qanuni yolla ələ keçirmək məqsədilə yaradılmış bolşevik təşkilatı. 1918 il dekabrın 15-də fəaliyyətə başlamışdı. BFK-da fəhlə təşkilatları 251 nümayəndə ilə təmsil olunmuşdu. Səsvermə hüququna yalnız Bakı ş.-nin fəhlə və qulluqçuları malik idilər. Mərkəzi BFK-dan əlavə, Bakı r-n fəhlə konfransları da yaradılmışdı. BFK-nın "Bakı Fəhlə Konfransının Əxbarı" adlı qəzeti nəşr olunmuşdur. BFK öz fəaliyyətinə iqtisadi tələblərlə başlamışdı. Bolşeviklərin təsiri ilə siyasi mübarizə yoluna keçən BFK-da liderlik uğrunda bolşeviklərlə eser-menşeviklər arasında gərgin mübarizə gedirdi. BFK 1918 il dekabrın 18-də keçirilən iclasında siyasi tələblərlə (həbs edilənlərin azadlığa buraxılması, həmkarlar ittifaqları, mətbuat, yığıncaq azadlıqları və s. ilə bağlı) tətil keçirmək barədə qərar qəbul etdi. Tətil 1918 il dekabrın 24-də başlandı. 3 günlük dekabr aksiyası tətilçilərin üstünlüyü ilə nəticələndi. İngilis komandanlığı həbs edilənlərin buraxılmasına razılıq verdi. Dekabr tətilindən sonra müntəzəm keçirilən BFK iclasları, əsasən, siyasi məzmun daşımışdır. 1919 ilin martında bolşeviklər eser-menşevikləri BFK-dan sıxışdıraraq öz nümayəndələrini rəyasət heyətinə daxil etdirdilər. 1919 ilin mayında BFK-nın bolşevik liderləri ümumi iqtisadi tətil keçirilməsinə cəhd etdilər. AXC hökuməti BFK-nın elan etdiyi bu tətili siyasi tətil kimi qiymətləndirdi. Hökumətin qadağalarına baxmayaraq, 1919 il mayın 6-da tətil başlandı və mayın 13-də tam iflasla sona çatdı. Bununla belə, məğlubiyyətləri ilə heç cür barışmaq istəməyən bolşeviklər BFK-nı "Fəhlə parlamenti", "Deputatlar soveti" adlandırdılar. AK(b)P MK, RK(b)P Qafqaz Diyar Komitəsinin Bakı bürosu ilə birlikdə BFK da AXC parlamentinə hakimiyyəti təslim etmək barəsində ultimatum göndərmişdi.

**BAKI FƏHLƏ VƏ ƏSGƏR DEPUTATLARI SOVETİ (BFƏDS)** – Bakıda hakimiyyət orqanı. 1917 il martın 7-də Bakı Fəhlə Deputatları Soveti təşkil olundu. Heyəti (52 deputat), əsasən, ermənilərdən və ruslardan ibarət idi. Azərb. xalqının milli mənafeyinə zidd olan eser-menşevik-daşnak blokunun rəhbərlik etdiyi Sovet "vahid və bölünməz Rusiya" ideyasını təbliğ edirdi. Bolşeviklər Sovetdə rəhbərliyi ələ keçirmək üçün mübarizə aparırdılar. Martın 7-də həmçinin əsgər və zabit deputatları Sovetləri yaradıldı. Hər iki Sovet martın axırlarında vahid hərbi deputatları Soveti halında birləşdi. Bakı Sovetinə seçkilər zamanı (1917, 4–5 mart) bolşeviklərin çoxu sürgündə və həbsdə olduğundan eser və menşeviklər üstünlük qazanmışdılar. Buna baxmayaraq, bolşeviklərin təkidi ilə Sovet yarandığı ilk günlərdə bir sıra tədbirlər (polis və jandarm idarələri ləğv edildi, fəhlə milisi yaradıldı, bir sıra çar məmuru həbsə alındı və s.) həyata keçirdi. 1917 ilin aprelində yeni seçkilər nəticəsində Bakı Sovetinin bolşevik fraksiyası üzvlərinin sayı xeyli artdı. Heyətinə İ.İ. Anaşkin, M.V. Basin, B. Bünyadov, M.M. Varnaçov, S.M. Əfəndiyev, İ.T. Fioletov, P.A. Caparidze, S.G. Şaumyan və b. daxil oldular. Lakin Sovetlərdə yenə də menşeviklər, eserlər və daşnaklar əksəriyyət təşkil edirdi. Mayın 10-da fəhlə deputatları Soveti ilə hərbi deputatları Sovetinin birgə iclasında həmin Sovetlər birləşdi və Bakı fəhlə və hərbi deputatları Soveti yaradıldı. Bakı bolşevikləri Sovetdə rəhbərliyi ələ almaq üçün mübarizə aparırdılar. Eser və menşeviklərlə "müsavatçılar" arasında narazılığı görən bolşeviklər Sovetdə əsas vəzifələrə sahib oldular. Bakının digər hakimiyyət strukturları Sovetin təkhakimiyyətliliyinə mane olduğundan o, 1917 il oktyabrın 13-də İctimai Təhlükəsizlik Komitəsinin, noyabrın 17-də *Bakı İctimai Təşkilatlar Şurasının* və onun müvəqqəti icraiyyə komitəsinin, noyabrın 21/22-də isə *İctimai Təşkilatların İcraiyyə Komitəsinin* ləğvinə nail oldu. BFƏDS bütün dövlət idarələrinə öz komissarlarını göndərdi, neft mədənləri, z-d, bank, poçt, teleqraf, liman, nəql. və d.y st.-larının öz qüvvələri tərəfindən qorunmasını təşkil etdi. 1917 il oktyabrın 31-də (noyabrın 13-də) Bakı Sovetinin geniş iclası Bakı r-nunda bütün hakimiyyətin Bakı Sovetinə keçməsi haqqında qətnamə qəbul etdi. Noyabrın 2(15)-dəki iclasda isə Bakı Sovetinin İcraiyyə komitəsi Bakıda ali hakimiyyət orqanı elan edildi. Bakı Sovetinin həmin iclasında Bakı fəhlə və hərbi deputatları Sovetinin adının dəyişdirilərək BFƏDS adlandırılması qərara alındı. S.G. Şaumyan BFƏDS İcraiyyə komitəsinin sədri seçildi. Lakin F. *Xoyskinin* rəhbərlik etdiyi *Bakı şəhər duması* Sovetin yeganə mümkün rəqibi olaraq qalırdı. 1917 il dekabrın 12–13-də dəyişdirilmiş seçki qaydası əsasında Sovetə keçirilən seçkilərdə bolşeviklər səs çoxluğu qazandılar. "Müsavat" partiyası Sovetin demokratik seçilmədiyini israr etsə də, sonradan hakimiyyəti Sovetə verərək icraiyyə komitəsinə daxil oldu. 1917 il dekabrın 18-də S. Şaumyan V.İ. Lenin tərəfindən Qafqaz işləri üzrə xüsusi komissar təyin edildiyi üçün sədr vəzifəsini P.A. Caparidze tutdu. BFƏDS Azərb. milli qüv- vələrinə qarşı mübarizə xətti yeridirdi. Bu, 1918 ilin yazında müsəlman əhalisinin kütləvi qırğınları ilə nəticələndi (bax *Mart soyqırımı*). BFƏDS-in "Daşnaksutyun" və Erməni Milli Şurası ilə əlbir fəaliyyəti Azərb. milli hərəkatına qarşı yönəlmişdi. Azərb.-ın muxtariyyət əldə etməsi ideyasının qəti əleyhinə olan bolşeviklər, "Daşnaksutyun" və Erməni Milli Şurası daşnak hərbi qüvvələrini dinc türk-müsəlman əhalisi üzərinə qaldıraraq, kütləvi soyqırımı törətməklə Azərb.-da milli ideyanı və onun daşıyıcılarını məhv etmək yolunu tutdular. Mart soyqırımından sonra BFƏDS-in hakimiyyəti gücləndi. O, öz tərkibində sol eserlərə və "beynəlmiləlçi" daşnaklara üstünlük verirdi. BFƏDS Azərb.-ın şərq qəzalarında – aprelin 14-də Lənkəranda, aprelin 21-də Salyanda, aprelin 23-də Qubada və s. hakimiyyəti ələ keçirdi. 1918 il aprelin 25-də Bakı fəhlə, əsgər və matros deputatları sovetinin iclasında *Bakı Xalq Komissarları Soveti* təşkil olundu. Şaumyanın başçılığı ilə daşnak-bolşevik rejimi "sovet hakimiyyəti" adı altında "qanuni status" aldı.

*Əd.:* Azərbaycan tarixi (yeddi cilddə). C. 5. B., 2001.

**BAKI HƏMKARLAR İTTİFAQLARI ŞURASI (BHİŞ)** – könüllü ictimai təşkilat. 1917 il martın 24-də Bakı ş. həmkarlar ittifaqları nümayəndələri öz yığıncaqlarını təsis yığıncağı elan etmiş və Azərb.-da ilk ittifaqlararası təşkilat olan Həmkarlar İttifaqlarının Mərkəzi Bürosunu seçmişdi. 3-cü Ümumrusiya konfransının qərarına əsasən, mərkəzi büro 1917 il iyulun 6-da keçirilən iclasında BHİŞ-ə çevrildi. 1918 il mayın 23-də BHİŞ-in yeni rəyasət heyəti seçildi. Onun ilk tədbirlərindən biri sənayenin milliləşdirilməsində həmkarlar ittifaqlarının iştirakı məsələsinin həlli və bütün həmkarlar ittifaqları nümayəndələrinin Ümumbakı konfransını çağırmaq olmuşdur. 1919 ilin sentyabr ayında bolşeviklər BHİŞ üzərində nəzarəti ələ keçirdilər. Bolşeviklərin bu quruma rəhbərliyi həmkarlar ittifaqlarını Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyətinə qarşı mübarizədə mürtəce alətə çevirdi. 1919 il noyabrın 1-nə olan məlumata görə, BHİŞ-ə 16 həmkarlar ittifaqı daxil idi.

BHİŞ Bakı fəhlələrinin kollektiv müqavilənin bağlanması uğrunda mübarizəsində, mədən-zavod komissiyalarının təşkilində mühüm rol oynayırdı. O, sahibkarların qanunsuz hərəkətlərinə qarşı həmkarlar ittifaqlarının mübarizəsində fəal təşkilatçılıq işi görür, əməkhaqqının artırılması, əməkçilərin müxtəlif kateqoriyaları üçün sabit əməkhaqqı dərəcələrinin işlənib hazırlanmasında, həbs olunmuş BHİŞ üzvlərinin azad edilməsində, həmkarlar ittifaqlarının fəaliyyətinin leqallaşdırılmasında fəhlələrin tələblərini dəstəkləyirdi.

1920 ilin iyununda vahid respublika orqanının – Azərbaycan Həmkarlar İttifaqları Şurasının yaradılmasından sonra BHİŞ ləğv edilmişdir.

**BAKI HƏRBİ QARNİZONU** – Bakı ş.-ndə və onun ətrafında yerləşdirilmiş bütün hərbi hissələri, təşkilatları, hərbi təhsil müəssisələrini özündə birləşdirən hərbi qurum. B.h.q. 1918 il sentyabrın 15-də Azərb. hərbi qüvvələri və *Qafqaz İslam Ordusu* şəhəri azad etdikdən sonra formalaşdırılmağa başlandı. Həm Azərb., həm də türk hərbi hissələrindən təşkil olunan Qafqaz İslam Ordusunun qərargah rəisi Nazim bəy Bakının ilk hərbi komendantı təyin edilmişdi. 1918 il noyabrın 17-də Antanta adından Bakıya daxil olan ingilis hərbi qüvvələri buradakı türk qoşun hissələri ilə birlikdə Azərb. milli ordusunun bütün hərbi hissələrinin də şəhərdən çıxarılmasını tələb etdilər.

1919 il aprelin 5-də B.h.q. yenidən formalaşdırılmağa başladı. İngilis qüvvələri komandanlığının razılığına əsasən həmin gün Azərbaycan Xalq Cümhuriyyəti (AXC) ordusunun Birinci tatar süvari alayı, bir piyada taboru və bir topçu batareyası Bakıya daxil oldu. Bu qüvvələrə Birinci tatar süvari alayının komandiri polkovnik F. *Ağalarov* rəhbərlik edirdi. O, həm də Bakı qarnizonunun rəisi olmuşdur. Bakı ş.-nin komendantı isə podpolkovnik Azad Vəzirov təyin edilmişdi (1919 il iyulun 9-da ona polkovnik rütbəsi verilmişdi).

B.h.q.-nun rəisi 1919 il avqustun 16-dan İkinci piyada diviziyasının komandiri gen.-m. İ. *Usubov*, sentyabrın 9-dan gen.-m. M.G. *Tlexas*, dekabrın 10-dan gen.-m. H. *Səlimov*, 1920 ilin fevralından isə yenidən gen.-m. İ. Usubov olmuşlar.

**BAKI HUMANİTAR KOLLECİ** – Bakı Kitabxanaçılıq Məktəbi (1938–40), Bakı Siyasi Maarif Məktəbi (1940–48), Bakı Kitabxanaçılıq Texnikumu (1948–80), Bakı Mədəni-Maarif Texnikumu (1980–91), Ə. Cavad ad. Bakı Mədəni-Maarif Texnikumu (1991–2000) və Bakı Mədəni-Maarif Texnikumu (2000–10) adları ilə fəaliyyət göstərmişdir. 2010 ildən indiki adını daşıyır. Kitabxana-informasiya təminatı, muzey işi və abidələrin mühafizəsi, musiqi nəzəriyyəsi, məktəbəqədər təlim və tərbiyə, ibtidai təhsil, bədii yaradıcılıq işi və s. ixtisaslar üzrə mütəxəssis hazırlayır. Əyani və qiyabi şöbələrində 1200 tələbə təhsil alır, 217 müəllim çalışır (2010).

**BAKI XALQ KOMİSSARLARI SOVETİ (BXKS)** – Azərb.-da sovet hakimiyyətinin ilk səlahiyyətli hökumət orqanı; Bakı ş., həmçinin Şamaxı, Quba, Lənkəran, Cavad və s. qəzalar hakimiyyəti altında idi. 1918 il aprelin 25-də yaradılmışdı. BXKS-nin heyəti S.G. Şaumyan, P.A. Caparidze, M.Ə. Əzizbəyov, Q.N. Korqanov, İ.V. Malıgin, Q.K. Petrov, Y.D. Zevin, V.F. Poluxin, S.Q. Osepyan, A.M. Amiryan, B.A. Avakyan, M.V. Basin və b.-ndan ibarət idi. S. Şaumyanın başçılığı ilə erməni-daşnak quldur dəstələrinin türk-müsəlman əhaliyə qarşı törətdiyi *Mart soyqırımından (1918)* sonra Bakıda siyasi vəziyyət bolşeviklərin xeyrinə dəyişmişdi. Yeni yaradılan əmək komissarlığı, ərzaq direktoriyası, bütün nəql. bolşeviklərin sərəncamına keçmişdi. Bütün milli şuraların fəaliyyəti qadağan edilsə də, Erməni Milli Şurası fəaliyyətini davam etdirirdi.

BXKS-nin sədri vəzifəsinə S. Şaumyan "seçilmişdi". O, eyni zamanda, xarici işlər komissarı idi. Xalq daxili işlər komissarı P.A. Caparidze, ədliyyə komissarı A.B. Karinyan, nəql. komissarı Markaryan, fövqəladə komissiyanın sədri Ter-Qabrielyan, dövlət nəzarəti komissarı S.A. Boqdanov, əmək komissarı Y.D. Zevin olmuşdu. BXKS qatı millətçi ermənilərdən və onlarla sıx əməkdaşlıq edən rus bolşeviklərindən ibarət idi. Azərbaycanlı komissarlara, əsasən, təsərrüfatla bağlı sahələr "həvalə" olunmuşdu: N. *Nərimanov* şəhər təsərrüfatı, M. Vəzirov torpaq işləri üzrə xalq komissarı idi.

BXKS neft sənayesinin, bankların və Xəzər ticarət donanmasının "milliləşdiril-

məsi", mülkədar torpaqlarının müsadirə edilməsi və s. haqqında dekretlər verdi, neft və digər sərvətlərin əvəzsiz olaraq Azərb.-dan Sovet Rusiyasına daşınmasını həyata keçirdi. 1918 il aprelin 10-da BXKS F. *Xoyskinin* başçılıq etdiyi Bakı şəhər dumasını buraxaraq, Zaqafqaziya seymini əksinqilabi qurum elan etdi. Moskva bütün vasitələrlə BXKS-ni hərbi-siyasi cəhətdən qüvvətləndirməyə çalışırdı. Lenin hərbi komissarlığa və inqilabi mübarizə şurasına Bakıdakı sovet qoşunlarını təcili surətdə bütün zəruri hərbi sursatla təmin etmək göstərişi vermişdi. Bakıda isə BXKS ordusunun erməniləşdirilməsi prosesi başa çatdırılmışdı. BXKS-nin istər milli tərkibi, istər yerli azərb.-lara qarşı yeritdiyi milli düşmənçilik siyasəti Moskvanı tam qane edirdi. BXKS-nin qarşısına qoyduğu ən böyük vəzifələrdən biri də Gəncəyə hücum edib *Azərbaycan Xalq Cümhuriyyətini* (AXC) devirmək idi. 1918 ilin iyununda AXC Bakını azad etmək uğrunda mübarizəyə başladı. Cəbhənin taleyini *Göyçay döyüşü (1918)* həll etdi. Bu döyüşdə xalq könüllüləri, Azərb. və türk hərbi hissələrindən ibarət Qafqaz İslam Ordusu BXKS qoşunlarını darmadağın edərək, Bakı istiqamətində hərəkətə başladı. İyulun 25-də *Bakı Soveti* ingilislərin Bakıya çağırılması haqqında qərar qəbul etdi. İyulun 31-də Bakıda hakimiyyət "Sentrokaspi diktaturası"na keçdi. Zorakı yolla hakimiyyəti ələ keçirmiş BXKS üzvləri "dövlət əmlakını mənimsədiyi üçün" Sentrokaspi hökuməti tərəfindən həbs edildi. Avqustun 4-də ingilis qoşunları Bakıya daxil oldu. Qafqaz İslam Ordusu sentyabrın 15-də Bakını azad edən zaman həbsdə olan BXKS rəhbərliyi Bakını tərk etməyə cəhd göstərdi. Eserlər tərəfindən həbs edilən BXKS rəhbərliyi (Bakı komissarları) sentyabrın 20-də Türkmənistanda güllələndi. BXKS sovet tarixşünaslığında Bakı kommunası da adlandırılırdı.

**BAKI XALQ MAARİFİ İNSTİTUTU** – 1922 ildə yaradılmışdı. Məktəbəqədər, məktəb və məktəbdənkənar şöbələri var idi. İn-t 1924 ildə BDU-nun pedaqoji fakültəsi ilə birləşdirilmişdi.

**BAKI XANLIĞI** – 1740-cı illərdə Abşeron y-a-nda yaranmış dövlət. 1747 ildə Nadir şah Əfşarın ölümündən sonra yerli feodallardan Mirzə Məhəmməd ağa, şahın Bakıdakı əlaltısı Səlimi qovmuş və özünü müstəqil xan elan etmişdi [1747–68]. B.x. Şərq feodal dövlətlərinin xüsusiyyətlərini özündə cəmləşdirən dövlət qurumu idi. B.x-na 39 kənd daxil idi. Təsərrüfatında neft, duz və zəfəran istehsalı, bağçılıq, balıqçılıq, maldarlıq və s. əsas yer tuturdu; toxuculuq, zərgərlik, boyaqçılıq, dulusçuluq, dəmirçilik və s. sənət sahələri inkişaf etmişdi. Xanlıqda olan neft quyularının sayı 18 əsrin ortalarında 50-dən çox idi. 19 əsrin əvvəlində onların sayı 100-ə çatmışdı; ildə 240 min puddan çox neft çıxarılırdı. Xanlıqda neft quyuları, bazarlar, dükanlar və s. iltizama verilirdi. Xanlığın mərkəzi olan Bakı ş. Avropa ölkələri, Rusiya, İran, Hindistan və s. ilə tranzit ticarətdə mühüm rol oynayırdı. Neft, duz və zəfəran ticarətdə əsas yer tuturdu. B.x.-nda Rusiya, Hindistan və s. ölkələrdən gəlmiş tacirlərə də rast gəlmək olurdu. Bakıda pul kəsilirdi. B.x-nda bütün hakimiyyət, torpaq, yeraltı və yerüstü sərvətlər xana və onun ailə üzvlərinə məxsus idi. Xanlıqda malcəhət, töycü, daruğalıq, vəzirlik və s. kimi onlarca vergi mövcud idi.

B.x.-nda I Mirzə Məhəmmədin dövründə iqtisadiyyat və ticarət inkişaf etmişdi. I Mirzə Məhəmməd Xəzər dənizində gəmiçiliyin inkişafına xüsusi diqqət yetirirdi. Onun oğlu Məlik Məhəmməd xanın [1768–84] hakimiyyəti dövründə B.x. müstəqilliyini itirdi. Şimal-Şərqi Azərb. torpaqlarını Quba xanlığı ətrafında birləşdirmək uğrunda mübarizə aparan Fətəli xan B.x.-nı özündən asılı vəziyyətə salmaq məqsədilə bacısı Xədicə Bikəni Bakı xanı Məlik Məhəmməd xana ərə verdi. Məlik Məhəmməd xanın vəfatından sonra oğlu II Mirzə Məhəmməd [1784–91] Bakı xanı oldu.

Fətəli xanın ölümündən sonra (1789) Quba xanlığı ətrafında birləşdirilmiş xanlıqlar, o cümlədən B.x. özlərini müstəqil elan etdilər. Xanlıqda hakimiyyət uğrunda II Mirzə Məhəmməd xanla əmisi Məhəmmədqulu xan arasında mübarizə başlandı. Quba xanlığından kömək alan Məhəmmədqulu xan qalib gəldi və özünü xan elan etdi. Onun ölümündən sonra (1792) B.x.-nda hakimiyyət uğrunda yenidən mübarizə başlandı. Bu mübarizədə qalib gələn Məhəmmədqulu xanın qardaşı oğlu Hüseynqulu xan hakimiyyəti ələ aldı.

Hüseynqulu xanın [1792–1806] dövründə Azərb.-ın beynəlxalq vəziyyəti çox mürəkkəb idi. *Ağa Məhəmməd şah Qacar* Azərb.-a hücuma hazırlaşırdı. Çar Rusiyası da Xəzərsahili vil.-ləri, o cümlədən B.x.-nı tutmağa çalışırdı. Belə bir şəraitdə hakimiyyətini saxlamağa çalışan Hüseynqulu xan Rusiyanın himayəsini qəbul etdi və II Yekaterina 1793 il aprelin 19-da bu barədə fərman verdi. Lakin Ağa Məhəmməd şah Qacarın Azərb.-a yürüşü zamanı (1795) bu əlaqələr kəsildi. Bir qədər sonra Azərb.-ın bəzi xanları kimi Bakı xanı da öz elçisini Rusiyaya yolladı. Xanların xahişini nəzərə alan II Yekaterina 1796 ildə Rusiya qoşunlarını Azərb.-a göndərdi. Hüseynqulu xan yenidən Rusiyanın himayəsini qəbul etdi. Xəzərdəki Rusiya donanması Bakı limanına daxil oldu. II Yekaterinanın ölümündən (1796) sonra Rusiya qoşunları Azərb.-dan geri çağırıldı. Hakimiyyətini saxlamağa çalışan Hüseynqulu xan 1797 ildə Şuşanı zəbt etmiş Ağa Məhəmməd şah Qacarın yanına gedərək ona tabe olduğunu bildirdi. Ağa Məhəmməd şah Qacarın ölümündən sonra hakimiyyəti ələ alan Fətəli şah və Rusiya çarı I Aleksandr Azərb.-ı, o cümlədən B.x.-nı tutmağa can atırdılar. Rusiyanın daha güclü olduğunu nəzərə alan Hüseynqulu xan 1803 ildə Rusiyanın himayəsini qəbul etdi. Lakin çox keçmədən Bakı və Şamaxı əyanlarının təzyiqi ilə Rusiyanın himayəsindən boyun qaçırmağa (1804) məcbur oldu. Bir sıra Azərb. xanlığını Rusiyaya birləşdirmiş gen. P.D. Sisianovun qoşunu B.x.-na hücum etdi. O, Bakını təslim etmək haqqında Hüseynqulu xanla danışıqlar apardığı zaman öldürüldü (1806, fevral); rus qoşunları geri çəkildi. 1806 il oktyabrın 3-də Rusiya qoşunu Bakını zəbt etdi. B.x. ləğv olundu; onun ərazisi Rusiyaya birləşdirildi.

**BAKI XOREOQRAFİYA MƏKTƏBİ** – 1923 ildə Azərb. opera teatrı nəzdində təşkil edilmiş balet studiyası əsasında yaradılmışdır. 1933 ildə studiya balet məktəbinə çevrilmiş, 1935 ildən xoreoqrafiya texnikumu, 1937 ildən Bakı Xoreoqrafiya Məktəbi adlandırılmışdır. İlk illərdə məktəbdə N. Saparova, A. və V. Urusova bacıları, T. Amiraqo və b. dərs demişlər. Azərb. balet artistlərinin hazırlanmasında pedaqoqlardan Q. Almaszadə, L. Vəkilova, İ. Kaqarlitskaya, K. Bataşov, A. Tairova, E. Almazova, G. Hacıyeva və b.-nın xidmətləri var. Balet artisti (təhsil müddəti 8 il) və xalq rəqs ansamblının artisti (təhsil müddəti 5 il) ixtisasları üzrə 400-dən çox şagird və tələbə təhsil alır (2010/11). İxtisas fənləri ilə yanaşı, ümumtəhsil fənləri də tədris olunur. 2010 ilədək məktəb 1331 kadr hazırlamışdır. SSRİ xalq artistləri Q. *Almaszadə*, L. *Vəkilova*, Azərb. xalq artistləri K. *Bataşov*, R. *Axundova*, X. *Zülfüqarova*, T. *Şirəliyeva*, A. *Məlikova*, M. *Məmmədov*, O. və R. Arifulinlər, Gürc.-nın xalq artisti V. Siqnadze, Ukr.-nın xalq artisti İ. Mixayliçenko və b. bu məktəbin yetirmələridir.

**BAKI İCTİMAİ TƏŞKİLATLAR ŞURASI** (BİTŞ) – 1917 il martın 5-də Bakıda yaradılmış yerli hakimiyyət orqanı; *Müvəqqəti hökumətə* etimad göstərmişdi. Tərkibinə fəhlə deputatları sovetlərinin, şəhər dumasının və müxtəlif ictimai təşkilatların nümayəndələri daxil idilər. BİTŞ-in martın 17-də seçilən İcraiyyə komitəsinin sədri L.L. Biç, üzvlərinin əksəriyyəti qeyri-müsəlman millətlərin nümayəndələri idilər. İcraiyyə komitəsində azərb. əhalini M.Ə. *Rəsulzadə*, M. *Hacınski*, İ. *Heydərov* və b. təmsil edirdilər. Milli neft sənayeçiləri BİTŞ-ə maddi yardım göstərirdilər. Rusiyada Oktyabr çevrilişindən sonra *Bakı Fəhlə və Əsgər Deputatları Sovetində* əsas vəzifələrə yiyələnən bolşeviklər Sovetin təkhakimiyyətliliyinə nail olmaq üçün digər siyasi hakimiyyət strukturlarının, o cümlədən *İctimai Təşkilatların İcraiyyə Komitəsinin (İTİK)* ləğvini tələb etdilər. Bakı Sovetinin İcraiyyə Komitəsi 1917 il noyabrın 13- də iclas keçirərək, İTİK-in ləğvi haqqında elan vermək barədə qərar qəbul etdi. Qərara görə İTİK-in sədri vəzifəsinə S.G. Şaumyan seçilməli və o, BİTŞ-i ləğv etməli idi. BİTŞ 1917 il noyabrın 17-də özünü ləğv barədə qərar çıxardı. Bununla Azərb. xalqına qarşı soyqırımı həyata keçirən S.G. Şaumyanın Bakıda hakimiyyəti ələ keçirməsinə şərait yarandı.

**BAKI İDMAN SARAYI** – dənizkənarı bulvarda (indiki Milli park) 1965–87 illərdə əvvəlki əl oyunları stadionunun (1957) yerində tikilmişdir (memar F. Yüzbaşov). Üçmərtəbəli binanın inşasında milli memarlıq elementlərindən istifadə olunmuşdur. Sarayın tribunalarında 2 minədək tamaşaçı yerləşir; tribunaların altında iki məşq salonu və yardımçı otaqlar vardır. Sarayda voleybol, mini-futbol, boks, güləş, cüdo, karate və s. idman növləri üzrə resp., eləcə də Avropa və dünya miqyaslı yarışlar, müxtəlif mədəni-kütləvi tədbirlər keçirilir.

**BAKI İNGİLİS GENERAL-QUBERNATORLUĞU** – 1918 il noyabrın 17-dən 1919 ilin avqustunadək Azərb.-da mövcud olmuş hərbi-inzibati hakimiyyət orqanı. Bakını zəbt etmiş ingilis qoşunları komandanlığı tərəfindən yaradılmışdı. Birinci dünya müharibəsində (1914–18) məğlub tərəf kimi Türkiyə öz qoşunlarını Cənubi Qafqazdan, o cümlədən Azərb.-dan çıxarmış və bölgə B.Britaniyanın təsir dairəsinə düşmüşdü. Kifayət qədər güclü ordusu olmadığından *Azərbaycan Xalq Cümhuriyyəti* (AXC) hökuməti Bakıya gələcək ingilis gen.-ı *U.Tomsonla* Ənzəlidə danışıqlara başlamaq məcburiyyətində qalmışdı. Danışıqların sonunda ingilis gen.-ı noyabrın 17-dən Bakıda hərbi vəziyyət elan olunacağını bəyan etmişdi. Hərbi vəziyyət müddətində U. Tomson Bakı ş.-nin hərbi qubernatoru elan edilirdi. İngilis hərbi komandanlığı Bakıda yerləşdiyi vaxtdan yalnız hərbi hakimiyyəti təmsil etməmiş, ölkənin ictimai-siyasi və iqtisadi həyatının bütün sahələrinə müdaxilə etməyə başlamışdı. Xəzər donanmasının bütün ticarət gəmiləri ingilis komandanlığının sərəncamına keçmişdi. Mülki idarəçilik sahələrinə də müdaxilə edən ingilislər pul əsginazlarının buraxılmasını öz nəzarətinə götürmüş, əhalinin ərzaqla təminatı sistemini yenidən qurmuş, neft hasilatı və d.y. sahələrində mövcud əmək münaqişələrini özləri həll etmək üçün Əmək idarəsi yaratmışdılar. İngilis komandanlığının əmri ilə Azərb.-ın Hərbi Nazirliyi silahlı qüvvələri ilə birlikdə Bakıdan çıxarılaraq, Gəncəyə köçürülmüşdü. Lakin Azərb.-dakı ictimai-siyasi reallıqla yaxından tanış olduqdan sonra gen.-qubernator U. Tomson 1918 il dekabrın 28-də Müttəfiqlərin komandanlığının AXC hökumətini qanuni hakimiyyət kimi tanıdığını bəyan etdi. 1918 ilin dekabrında ingilis gen.-qubernatorunun əmri ilə Qarabağ və Zəngəzur AXC hökumətinin idarəsinə verildi.

1919 ilin əvvəllərindən başlayaraq, AXC hökuməti ingilis gen.-qubernatorluğunun ləğvi uğrunda mübarizə aparırdı. AXC-nin *Paris sülh konfransındakı (1919–20)* nümayəndə heyətinin başçısı Ə. *Topçubaşova* mümkün olan bütün vasitələrlə qubernatorluğun ləğvinə nail olması tapşırılmışdı.

1919 il aprelin əvvəllərində ingilis əsgərləri sıralarında intizamsızlığın artması səbəbindən Müttəfiqlərin komandanlığı Azərb. ordusunun azsaylı kontingentinin Bakıda yerləşdirilməsinə razılıq vermişdi. İngilislər Bakını tərk edərkən şəhər portunun idarəçiliyini, hərbi hissələrin radiostansiyalarını, ordunun hərbi sursatını və hərbi gəmilərinin bir hissəsini AXC hökumətinə qaytarmışdılar. B.i.g.-q.-nun mövcudluğu Rusiyanın imperiyapərəst qüvvələrinin AXC ərazisinə soxulmasının qarşısını alaraq Azərb.-da demokratik proseslərin inkişafında, dövlət hakimiyyəti təsisatlarının möhkəmləndirilməsində, müvəqqəti də olsa, mühüm rol oynamışdır.

**BAKI İSLAM UNİVERSİTETİ** – Bakı İslam Mədrəsəsinin (1989, Qafqaz Müsəlmanları İdarəsinin tərkibində) bazasında Bakı İslam İn-tu (1991) yaradılmış, sonradan Qafqaz İslam Un-tinə (1994–97) çevrilmişdir. 1997 ildən Bakı İslam Un-ti adı ilə fəaliyyət göstərir. 3 fakültəsi (islamşünaslıq, şəriət və islam tarixi, mədəniyyət) və 3 kafedrası var. Dini və dünyəvi fənlər (Qurani-Kərimin qiraəti, fiqh, hədis, təfsir, islam əxlaqı, sərf, nəhv, islam tarixi, islam mədəniyyəti, Azərb. tarixi, Azərb dili, ərəb dili, ing. dili, fars dili, məntiq, fəlsəfə və s.) tədris olunur. Un-tin əyani və qiyabi şöbələrində 1650 tələbə təhsil alır (2010/11). Misir, Malayziya, Liviya, Suriya və Türkiyədə fəaliyyət göstərən islam un-tləri və dini tədris mərkəzləri ilə əməkdaşlıq edir.

Bakı İdman Sarayı.



**BAKI İSTEHKAMÇILAR HİSSƏSİ** – *Azərbaycan Xalq Cümhuriyyəti (1918–20)* dövründə Denikin qoşunlarının təcavüzü təhlükəsinə qarşı *Dövlət Müdafiə Komitəsinin* 1919 il 13 sentyabr tarixli qərarı ilə yaradılmış hərbi-müdafiə strukturu. Qızılburundan Ələtə qədər uzanan B.i.h. strateji əhəmiyyətinə görə birinci dərəcəli qalaya bərabər idi. Tərkibində Topçu idarəsi, İstehkam idarəsi, Ləvazimat idarəsi, Hərbi-tibb idarəsi, rabitə qrupu və katerlər qrupu var idi. Gen.-m. M.G. *Tlexas,* gen.-m. H. *Səlimov* və gen.-m. İ. *Usubov* B.i.h.-nin rəisi olmuşlar.

**BAKI KAMERA TEATRI** – 1991 ildə yaradılmışdır. Teatrın bədii rəhbəri və rej. C. *Səlimovadır.* Teatr Azərb. və rus truppalarından ibarət olmuşdur; rus bölməsi 1997 ilə qədər fəaliyyət göstərmişdir. C. Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povesti əsasında hazırlanmış "Məkkəyə yol" teatrın ilk tamaşasıdır. Repertuarında Azərb. və dünya klassiklərinin əsərləri əsas yer tutmuşdur ("Şeyx Sənan", H. Cavid; "Aydın", C. Cabbarlı; "Hekayəti Xırs quldurbasan", M.F. Axundzadə; "Otello", U. Şekspir; "Albalı bağı", A.P. Çexov; "Kabuslar", H. İbsen; "Skapenin kələkləri", J.B. Molyer; "Sən məni atmazsan ki?", C. Steynbek; "Qodo həsrətində", S. Bekket). Teatr Türkiyə (2007, 2008), Rusiya (1999, 2006, 2007), Ukrayna (1993, 2007), Moldova (2002) və Gürcüstanda (2006) keçirilən beynəlxalq teatr festivallarında iştirak etmiş, bir sıra ölkədə qastrol səfərlərində olmuşdur. Teatr 2009 ildə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı ilə birləşmişdir.

**BAKI KOMİSSARLARI** – bax *Bakı Xalq Komissarları Soveti.*

**BAKI KOMMERSİYA MƏKTƏBİ** – 1900 ildə, ehtimal ki, N.Z. *Tağıyevin* maliyyə vəsaiti hesabına açılmışdı. Təhsil müddətit 8 il idi. Məktəbin tədris planına ilahiyyat, rus dili və qrammatikası, xarici dil, tarix, coğrafiya, riyaziyyat, mühasibatlıq, siyasi iqtisad, kimya və b. fənlər daxil edilmişdi. Kitabxanası, fizika kabineti, laboratoriyası, muzeyi var idi. Məktəbə uşaqlar 10–12 (hazırlıq siniflərinə 8–11) yaşından qəbul olunurdu.

**BAKI KOMMUNASI** – bax *Bakı Xalq Komissarları Soveti.*

**BAKI QAZIMA ÜSULU** – neft quyularının mexaniklləşdirilmiş ştanqla vurma üsulu ilə qazılması. 1884 ildə Bakıda neft sahibkarı və ixtiraçı B.K.Lents tərəfindən təklif edilmişdi. Bu üsul 1893 ildən Qroznıda və sonralar bir çox ölkədə B.q.ü. adı ilə yayılmışdı. 1896 ildə M. *Muxtarov* bilavasitə qazıma, ştanqların endirilib-qaldırılması kimi əsas və köməkçi işləri icra edən dəzgah yaratmaqla B.q.ü.-nu təkmilləşdirdi; dəzgahın ixtirası üçün ona patent verildi.

**BAKI QƏZA İNQİLAB KOMİTƏSİ (BQİK)** – Bakı qəzasında sovet hakimiyyəti orqanı. 1920 il mayın 3-də yaradılmışdı. Heyətinə A.B. Yusifzadə (sədr), M.B. Qasımov, M.Q. Pleşakov, Z. Dadaşov daxil idi. Komitənin hərbi, milis, torpaq, ərzaq, maarif, ictimai təminat və s. şöbələri var idi. Komitə *Azərbaycan Müvəqqəti İnqilab Komitəsinin,* Azərb. SSR XKS-nin dekret, qərar və göstərişlərini həyata keçirirdi. 1920 ilin mayında BQİK Bakı şəhər inqilab komitəsi ilə, dekabrında isə Bakı qəzasında olan kənd inqilab komitələri yerli sovetlər ilə əvəz edildi.

**BAKI QƏZA MƏKTƏBİ** – 1832 il yanvarın 17-də açılmışdı. Öz nizamnaməsi olan bu tədris ocağının nəzdində ilk savad kursları da fəaliyyət göstərirdi. Məktəbdə Azərb. və rus dilləri, coğrafiya və şəriət dərsləri keçilirdi. Məktəbin təsisolunma ideyasını layihə halında ilk dəfə A. *Bakıxanov* irəli sürmüşdü.

**BAKI QƏZASI** – Rusiya çar hökumətinin Qafqazda keçirdiyi inzibati islahatına əsasən 1840 il aprelin 10-da Xəzər vil.-nin tərkibində yaradılmışdı. Rusiya imperiyası Bakı xanlığını işğal etdikdən (1806) sonra xanlıq üsuli-idarəsini ləğv edib, onu əyalətə çevirmişdi. Çar I Nikolayın 1846 il 14 dekabr tarixli fərmanı ilə Şamaxı qub. yaradıldıqda B.q. həmin qub.-nın tərkibinə verildi. Şamaxı zəlzələsindən (1859) sonra qub. mərkəzinin Bakıya köçürülməsi ilə eyniadlı qub.-nın qəzası oldu. Bakı qub. tərkibində olan B.q.-nın ərazisi qub. ərazisinin 10%-indən bir qədər çoxunu təşkil edirdi. Əhalisi 177 606 nəfər idi (1897). Qəza idarəsinə qəza rəisi, onun müavini, xəzinədar, məntəqə iclasçıları və şəhər polisi daxil idi. Hakimiyyət qəza rəisinin əlində idi. Qəzada məhkəmə yaradılmışdı. 1888 il 10 may tarixli qərara əsasən B.q. Balaxanı-Sabunçu, Maştağa və Saray məntəqələrinə bölündü. 1906 il 28 oktyabr tarixli fərmana görə Bakı və onun ətrafındakı fabrik-mədən r-nları əsasında Bakı qradonaçalnikliyi (*Bakı şəhər rəisliyi*) təşkil edildikdən sonra B.q.-nın ərazisi xeyli kiçildi, qəzanın tərkibində ancaq kənd icmaları qaldı. 1918 il sentyabrın 15-də Bakı ş. azad edildikdən sonra B.q.-nda da Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti quruldu. "Qafqaz təqviminin" (1917) məlumatına görə, B.q.-nın sahəsi 2610,22 *kv. verst* (2,77 min *kv. km*), əhalisi 15746 nəfər (o cümlədən 533 nəfəri müvəqqəti yaşayanlar) idi. Qəzanın bütün əhalisi azərb.-lardan ibarət idi. B.q.-nın təsərrüfatında əkinçilik, bağçılıq və üzümçülük əsas yer tuturdu. 1920 il aprelin 28-də Bakı Sovet Rusiyası tərəfindən zəbt olundu. 1929 ildə B.q. ləğv edildi.

**BAKI QIRĞINI** – bax *Mart soyqırımı.*

**BAKI QIZ MƏKTƏBİ,** Hacı Zeynalabdin Tağıyevin qız məktəbi – Azərb.-da ilk müsəlman qadın məktəbi. 1901 ildə H.Z. *Tağıyevin* vəsaiti hesabına açılmışdı.Təhsil müddəti müxtəlif vaxtlarda 4, 5 və 6 illik olan məktəb 1916 ildə ali ibtidai məktəbə, sonra isə seminariyaya çevrilmişdi. *Mart soyqırımı (1918)* ilə bağlı fəaliyyəti dayandırılmışdı. Məktəbin ilk müdiri H. *Zərdabinin* arvadı Hənifə xanım *Məlikova* olmuşdur. Qapalı pansion tipli məktəbə yalnız azərb. qızlar qəbul edilirdi. 1902 ildə məktəbdə oxuyan 71 şagirdin 35-i pulsuz təhsil alırdı.

*Əd.:* Əhmədov H. XIX əsr Azərbaycan məktəbi. B., 1985; Süleymanov M. Hacı Zeynalabdin Tağıyev. B., 1996.

**BAKI QIZLAR UNİVERSİTETİ** – özəl ali təhsil müəssisəsi. 1992 ildə Bakı ali pedaqoji qızlar seminariyası kimi təsis edilmiş, 2005 ildən indiki adı ilə fəaliyyət göstərir. 2 fakültəsi (filologiya-tarix və sosial-iqtisadi), 6 kafedrası, magistraturası, 2 laboratoriyası, elmi-pedaqoji kitabxanası (3438 nüsxə kitab), bədii yaradıcılıq studiyası, "Səadət" qızlar klubu, kompyuter sinfi, linqafon otağı, nəşriyyat şöbəsi var. Bakalavr pilləsində 10 ixtisas üzrə kadr hazırlanır. 987 tələbə təhsil alır (2009/2010). 120 nəfərdən ibarət prof.-müəllim heyəti, o cümlədən 11 e. d., prof., 53 e. namizədi, dosent çalışır. "Elmi xəbərlər" (2004) və "Elmi əsərlər" (2008) jurnalları nəşr olunur.

**BAKI QRADONAÇALNİKLİYİ** – bax *Bakı şəhər rəisliyi.*

√**BAKI QUBERNİYASI** – Rusiya çar hökumətinin inzibati islahatına əsasən Cənubi Qafqaz 1846 il 14 dekabr tarixli fərmanla 4 qub.-ya (Tiflis, Kutais, Şamaxı, Dərbənd) bölündü. Azərb. ərazisi, əsasən, Şamaxı qub.-na daxil edildi. Şamaxı zəlzələ nəticəsində dağılandan (1859) sonra qub.-nın mərkəzi Bakıya köçürüldü, qub. isə B.q. adlandırıldı. B.q.-nın tərkibinə Şamaxı, Şuşa, Nuxa (Şəki), Bakı və Lənkəran qəzaları, Xəzər dənizindəki Böyük Zirə, Daş Zirə, Pirallahı, Çilov və s. adalar daxil idi. Dərbənd qub.-nın ləğvindən (1860, may) sonra Quba qəzası da B.q.-nın tərkibinə qatıldı. 1867 ilin dekabrında Yelizavetpol qub. təşkil edildi. Şuşa və Nuxa qəzaları B.q.-ndan ayrılıb Yelizavetpol qub.-na verildi. B.q.-nda Cavad və Göyçay kimi yeni qəzalar yaradıldı. B.q. şm.-da Dağıstan vil., q.-də Nuxa və Şuşa qəzaları, c.-da Astara və Araz çayları, ş.-də isə Xəzər dənizi ilə həmsərhəd idi. Qub.-nın ərazisi 39075,15 *kv.km,* əhalisi 789 659 nəfər idi (1897). B.q.-nın təsərrüfatında əsas yeri neft sənayesi tuturdu. Qub.-da 1200-dən artıq f-k və z-d var idi. Qub.-nın əhalisi (Bakı ş. istisna edilməklə) taxılçılıq, tütünçülük, bağçılıq, bostançılıq, pambıqçılıq, heyvandarlıq, balıqçılıq və s. ilə məşğul olurdu. B.q.-nın ixracatında neft, duz, ipək, zəfəran mühüm yer tuturdu. B.q.-nı Bakı hərbi qubernatoru (1872 ilin mayından Bakı qubernatoru) idarə edirdi. Hərbi və mülki hakimiyyət onun əlində idi. Qub. inzibati-polis aparatı və bü- tün hökumət idarələri qubernatorun nəzarətində idi. 1905 ildə B.q.-nda müvəqqəti gen.-qubernator vəzifəsi yaradıldı. 1906 il sentyabrın 28-də Bakı və onun fabrik-mədən r-nları B.q.-ndan ayrıldı. Ayrıca inzibati vahid olan *Bakı şəhər rəisliyi* (Bakı qradonaçalnikliyi) təşkil edildi. Bununla əlaqədar 1906 ilin dekabrında Bakı gen.-qubernatoru vəzifəsi ləğv edildi. Birinci dünya müharibəsi ərəfəsində B.q. sosial-iqtisadi səviyyəsinə görə Rusiyanın inkişaf etmiş quberniyaları ilə yanaşı dururdu. Bakının Sovet Rusiyası tərəfindən işğalından (1920) sonra B.q. ləvğ olundu.

**BAKI QUBERNİYASININ MÜSƏLMAN ƏHALİSİNİ SAVADLANDIRMA CƏMİYYƏTİ** – 1906 ildə yaradılmış maarifçi xeyriyyə cəmiyyəti. Bax *"Nəşri-maarif".*

**BAKI QULAQLARI,** Kərkəs – Azərb. Resp. Qaradağ r-nu ərazisində dağ. Korgöz qəs.-ndən 1,5 *km* c.-dadır. Hünd. 383 *m.*

**BAKI METROPOLİTENİ** – Bakıda yeraltı elektrik dəmir yolu. Şəhər əh.-nin ən çox istifadə etdiyi nəql. növüdür. 1967 il noyabrın 6-da ümumi uz. 9,92 *km* olan ilk 6 st. – "Bakı soveti" (2008 ildə yenidən qurularaq "İçərişəhər" adlandırıldı), "Sahil", "28 may", "Gənclik", "N. Nərimanov", "Bakmil" st.-ları istifadəyə verilmişdir. Sonrakı illərdə ümumi uz. 21,1 *km* olan 14 st. – "Ulduz" (1970), "Əzizbəyov" (1972; 2011 ildən "Koroğlu"), "Q. Qarayev", "Neftçilər" (1972), "Nizami", "Memar Əcəmi" (1976), "Xalqlar dostluğu", "Əhmədli" (1989) və s., son illərdə "Nəsimi" (2008), "Azadlıq prospekti" (2009), "Dərnəgül" (2011) st.-ları istismara verilmişdir. Hazırda B.m.-ndə ümumi uz. 34,8 *km* olan 23 st. fəaliyyət göstərir (2011). B.m. şəhərin mərkəzini nisbətən uzaq yaşayış əraziləri və qəsəbələrlə (məs., Əhmədli, Bakıxanov qəs. və s.), eləcə də sənaye müəssisələri ilə birləşdirir. Bəzi st.-lar yenidən qurulur, bir neçə st.-da isə yeni yeraltı keçidlər tikilir. Maks. sürəti 90 *km/saat* olan qatarlar orta hesabla saatda 38–43 *km* sürətlə hərəkət edir. İllik sərnişindaşıma 175 mln. nəfərə çatmışdır (2010). Fəaliyyətdə olan st.-ların platforması 5 vaqonluqdur; yeni tikilən st.-lar 7 vaqonlu qatarlar üçün nəzərdə tutulmuşdur. B.m.-nin elektrik təchizatı, ventilyasiya və s. texniki qurğuları avtomatlaşdırılmış, onun obyektlərində təhlükəsizlik və videomüşahidə şəbəkəsi yaradılmışdır. Metropolitenin bütün vestibül və st.-ları milli memarlıq ornamentləri və naxışlarından istifadə edilərək müasir üslubda bəzədilmişdir. Üzlük material kimi cilalanmış qranit və mərmər



Bakı metropoliteni. "Nəsimi" stansiyası.

Bakı metropoliteni. "Nizami" stansiyası.






Bakı metropoliteni xətlərinin konseptual inkişaf sxemi.

lövhələrdən (tavalardan), metaldan istifadə edilmişdir. "Nizami" st.-nın vestibülü Nizami Gəncəvinin əsərlərinin süjeti əsasında mozaika ilə işlənmişdir. "Azadlıq prospekti" ilk sütunsuz st.-dir. "Bakı metropoliteninin 20 illik inkişafının Dövlət Proqramı"na (2010) görə B.m. 2 mövcud və 3 əlavə xətlə birlikdə 5 xətdən, 76 st.-dan (ümumi uz. 119 *km*) ibarət olacaqdır.

**BAKI MƏDƏNİ-MAARİF TEXNİKUMU** – bax *Bakı Humanitar Kolleci.*

**BAKI MƏKTƏBƏQƏDƏR PEDAQOJİ TEXNİKUMU** – bax *Bakı Sosial-Pedaqoji Kolleci.*

**BAKI MƏRTƏBƏSİ** – Xəzər dənizi hövzəsində Antropogen sisteminin alt mərtəbəsi. B.m. çöküntülərini ilk dəfə 1891 ildə İsveç geoloqu H. Şöqren ayırmış, stratiqrafik yaşını isə N.İ. *Andrusov*, D.V. *Qolubyatnikov* və D.V. *Nalivkin* dəqiqləşdirmişlər. B.m. az duzlu su hövzəsi şəraitində əmələ gələn, qalınlığı 40–50 *m*-dən 300–350 *m*-ə qədər olan gil, qumlu gil, qumdaşı, qabıqlı əhəngdaşı və konqlomerat laylarından ibarətdir. Xarakterik faunası molyusklardan Didacna parvula Nal., D. catillus Eichw., Monodacna caspia Eichw. və s.-dir. Mərtəbənin tipik çöküntüləri Bakı ş. ətrafında yayıldığından ona B.m. adı verilmişdir. B.m.-nin çöküntüləri RF-də (Dağıstan, Volqaboyu, Ural-Emba r-nu, Taman y-a, Kuma-Manıç çökəkliyi), Qazax.-da (Buzaçı və Manqışlaq yarımadaları), Qərbi Tür.-da, Azərb.-da (Abşeron y-a, Xəzəryanı zona, Qobustan, Kür düzənliyi) var.

**BAKI MULDASI** – Bakı ş. və Bakı buxtasını əhatə edir. Diametri 18 *km*-ə yaxındır. Mərkəzi hissəsi qədim Xəzər çöküntüləri ilə örtülmüşdür. B.m.-nın ən yüksək nöqtələri Zığ yüksəkliyi (158 *m*) və Yasamalüstüdür ("Qurd qapısı", 180 *m*-ə qədər). Eni 2–3 *km*, hünd. 236 *m*-ə qədər olan Badamdar platosu (Bibiheybət və Yasamal dərələri arasındadır) B.m.-nın mühüm oroqrafik elementlərindəndir. Geoloji quruluşunda Üst Abşeron çöküntüləri iştirak edir.

**BAKI MUSİQİ AKADEMİYASI (BMA),** Ü. H a c ı b ə y l i a d. – 1921 ildən *Azərbaycan Dövlət Konservatoriyası* kimi, 1994 ildən indiki adı ilə fəaliyyət göstərir.

3 fakültəsi (fortepiano, ifaçılıq, musiqi tarixi və nəzəriyyəsi), 18 kafedrası, ixtisasartırma şöbəsi var. Magistartura və doktorantura fəaliyyət göstərir. Piano, orqan, klavesin, caz sənəti, skripka, solo oxuma, xor və orkestr dirijorluğu, bəstəkarlıq və s. ixtisaslar üzrə musiqiçi kadrlar hazırlanır. BMA-nın nəzdində opera studiyası (1961 ildən; Ş. Məmmədova ad.), 11 illik orta ixtisas məktəbi (1938 ildən; 1961 ildən Bülbül ad.), kitabxana (243512 nüsxə çap vahidi), səsyazma kabineti (52 disk) fəaliyyət göstərir. BMA-da 568 tələbə təhsil alır, 300-ə yaxın müəllim, o cümlədən 52 prof., 5 sənətşünaslıq doktoru, 50 sənətşünaslıq namizədi, 19 xalq artisti, 11 əməkdar incəsənət xadimi, 21 əməkdar artist, 5 əməkdar müəllim çalışır (2009/10). Tələbə elmi cəmiyyəti (1948 ildən) var. "Azərbaycan milli musiqisinin tədqiqi problemləri" (toplu, 1992 ildən) "Musiqi dünyası" (1999 ildən) elmi jurnalı nəşr olunur.

**BAKI MUSİQİ KOLLECİ,** A z ə r b. M i l l i K o n s e r v a t o r i y a s ı n ə z d i n d ə – orta ixtisas təhsili müəssisəsi. Əsası 1895 ildə qoyulmuşdur. 1916 ildə orta ixtisas musiqi məktəbinə çevrilmiş, 1920 ildə dövlət statusu almışdır. Şərq Konservatoriyası (1922–24), Azərb. Dövlət Türk Musiqi Texnikumu (1924–26) adlanmışdır; 1922–26 illərdə ona Ü. *Hacıbəyli* rəhbərlik etmişdir. 1926 ildə texnikum Azərb. Dövlət Konservatoriyasına birləşdirilmiş, 1932 ildən Azərb. Dövlət Musiqi Texnikumu adı ilə müstəqil fəaliyyət göstərmişdir. 1953 ildə məktəbə A. Zeynallının adı verilmişdir. Müxtəlif illərdə Bakı Orta İxtisas Musiqi Məktəbi (1953–91), Azərb. Dövlət Musiqi Texnikumu (1991–2000) adlanmışdır. 2000 ildən Azərb. Milli Konservatoriyası nəzdindədir. Kollecdə 1340 tələbə təhsil alır, 400-dən artıq müəllim çalışır. Tələbə elmi cəmiyyəti fəaliyyət göstərir (2003 ildən). Bəstəkarlardan A. *Zeynallı*, S. *Rüstəmov*, Q. *Qarayev*, F. *Əmirov*, S. *Hacıbəyov*, A. *Məlikov*, T. *Quliyev*, müğənnilərdən L. *İmanov*, F. *Əhmədova*, Z. *Xanlarova*, M. *Maqomayev*, İ. *Rzayev* burada təhsil almış, S. *Şuşinski*, X. *Şuşinski*, H. *Rzayeva*, Ş. *Ələkbərova*, R. *Muradova*, H. *Hüseynov*, Q. *Primov*, Ə. *Dadaşov*, Ə. *Bakıxanov*, B. *Salahov* dərs demişlər.







Bakı Musiqi Akademiyası.

**BAKI MÜRSƏL PAŞA** (1881, Ərzurum – 1945, İstanbul; məzarı 1988 ilin noyabrında Ankaradakı dövlət qəbiristanlığına köçürülmüşdür) – türk hərbi xadimi. Hərbi məktəbi (1901) və Hərbi Akademiyanı (1904) bitirmişdir. Biliklərini artırmaq məqsədilə Almaniyaya ezam olunmuşdur (1910). 1913–17 illərdə alay, süvari briqadası (tuqayı), süvari diviziyası və piyada diviziyalarının komandiri olmuşdur. 1918 il martın 28-də Beşinci Qafqaz Firqəsinin komandiri təyin edilmiş və həmin firqə ilə Azərb.-a gəlmişdir. Həmin ilin iyulunda B.M.P.-ya gen. (paşa) rütbəsi verilmiş və *Qafqaz İslam Ordusu* tərəfindən bolşevik-daşnaklardan azad edilmiş Bakıya qalib kimi daxil olmuşdur. *Mudros barışığının (1918)* şərtlərinə görə, türk hərbi qüvvələri ilə birlikdə Azərb.-ı tərk etmişdir. B.M.P. Batumda ingilislər tərəfindən həbs olunmuş (1919), lakin tezliklə azadlığa buraxılaraq Türkiyəyə qayıtmış, burada Atatürkün rəhbərlik etdiyi İstiqlal savaşına qoşulmuşdur. 1922 ildə B.M.P.-ya diviziya gen.-ı (tümgeneral) rütbəsi verilmişdir. 1938 ildə istefaya çıxmışdır. Türkiyədə soyadı qanunu qəbul olunduqdan sonra o, özünə "Bakı" soyadını seçmişdir.

**BAKI MÜSƏLMAN XEYRİYYƏ CƏMİYYƏTİ (BMXC)** – mədəni-maarif və sosial yardım sahələrində fəaliyyət göstərən qeyri-hökumət təşkilatı. 1905 il oktyabrın 10-da yaradılmışdı. Cəmiyyətin idarə heyəti 11 nəfərdən ibarət idi: H.Z. Tağıyev (sədr), İ. Hacıyev (müavin), Ə. Ağayev (katib), H. Zərdabi, Ə. Topçubaşov və b. İdarə heyəti "İsmailiyyə"də (indiki AMEA Rəyasət Heyətinin İstiqlaliyyət küçəsindəki binası) yerləşirdi. Cəmiyyəti, əsasən, H.Z. Tağıyev və digər Bakı milyonçuları maliyyələşdirirdi; əvvəllər, başlıca olaraq, Bakıda və onun ətrafında fəaliyyət göstərmiş, Birinci dünya müharibəsi (1914–18) illərində Qafqaz cəbhəsindən qaçqın düşənlərə, yetim uşaqlara, əsir düşmüş türk əsgərlərinə yardım etmişdir. Müharibə dövründə cəmiyyətin onlarla şəhərdə məntəqələri fəaliyyət göstərmiş, Qars, Ərzurum və Tiflisdə xüsusi şöbələri açılmışdı. Cəmiyyətin nəzdində "Fəlakət və hərbzədələrə yardım şöbəsi" yaradılmışdı.

Cəmiyyət Azərbaycan Xalq Cümhuriyyəti dövründə də fəaliyyətini davam etdirmiş, qaçqınlara, yaralı türk əsgərlərinə yardım göstərmişdir.

**BAKI MÜSƏLMAN QADIN XEYRİYYƏ CƏMİYYƏTİ** (BMQXC) – valideynlərini itirmiş uşaqlara, yoxsul ailələrə və qaçqınlara yardım göstərən qeyri-hökumət təşkilatı. 1914 il noyabrın 21-də yaradılmışdı. Təsisçisi R. Hacıbababəyova, idarə heyətinin sədri M.S. Tağıyeva idi. Cəmiyyət Birinci dünya müharibəsi (1914–18) illərində Rusiyaya əsir düşmüş yaralı türk əsgərlərinə də yardım göstərmişdir. BMQXC 1917 ilin oktyabrında yoxsul qızlar üçün 4 ümumtəhsil sinfi və 6 peşə bölməsi olan məktəb açmışdı. Məktəbdə türk dili, hesab, əl işi, biçmə və tikiş üzrə dərslər keçilirdi. *Mart soyqırımı (1918)* zamanı öz işini dayandırmış məktəb, 1919 ilin əvvəllərində fəaliyyətini bərpa etmişdi. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti məktəbin səmərəli işləməsi üçün cəmiyyətə 30 min manat vəsait ayırmışdı. Məktəb azərb. qızların savadlanmasında böyük rol oynamışdır. *Aprel işğalından (1920)* sonra cəmiyyət fəaliyyətini dayandırmışdır.

**BAKI MÜSƏLMAN MAARİF CƏMİYYƏTİ** – 1906 ildə fəaliyyətə başlamış mədəni-maarif cəmiyyəti. Bax "*Nicat*".

**BAKI OLİMPİYA İDMAN KOMPLEKSİ** – 2000 ilin oktyabrında istifadəyə verilmişdir. Kompleksin 2 idman zalı (42x20 *m*; 36x20 *m*), trenajor zalı, 4 soyunub-geyinmə otaqları vardır.

**BAKI ORTA TEXNİKİ MƏKTƏBİ** – 1905 ilin yanvarında *Bakı Aşağı Texniki Məktəbinin* bazasında yaradılmışdır. 1917 (bəzi mənbələrə görə 1918) ildə 3 şöbədən (neft sənayesi, elektromexanika, memarlıq-inşaat) ibarət *Bakı Politexnik Məktəbinə* çevrilmişdi.

**BAKI PEDAQOJİ KADRLARIN İXTİSASARTIRMA VƏ YENİDƏNHAZIRLANMA İNSTİTUTU** – 1939 ildə Bakı şəhər Müəllimləri Təkmilləşdirmə İn-tu kimi yaradılmış, 1997 ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma İn-tu, 1999 ildən indiki adı ilə fəaliyyət göstərir. İn-tun 2 fakültəsi (ixtisasartırma və yenidənhazırlanma), 11 kafedrası, 8 şöbəsi var. Təlim əyani və distant formada aparılır. İn-tda 59 nəfərlik prof.-müəllim heyəti, o cümlədən 1 e.d., prof., 19 e. namizədi çalışır (2009/10). İn-tda "Tarix, insan və cəmiyyət" (2005 ildən), "Gənc istedad" (2008 ildən) jurnalları, "Elmi əsərlər" (2010 ildən) və "Psixoloq" (2008 ildən) qəzeti nəşr olunur.

**BAKI PEDAQOJİ MƏKTƏBİ** – bax *Azərbaycan Dövlət Pedaqoji Kolleci.*

**BAKI PLATOSU** – Abşeron y-a-nın c.-unda sinklinal plato. *Bakı muldasını* əhatə edir. C.-ş.-dən Bakı buxtası, q.-dən Yasamal dərəsi – Xocasən gölü, şm.-dan Böyükşor gölü, ş.-dən Bülbülə və Zığ gölləri ilə sərhədlənir. Sah. təqr. 180 *km*², hünd. 236 *m*-ədəkdir (Badamdar d.). Tektonik cəhətdən Qərbi Abşeron sinklinal zonasının törəmə Bakı muldasına uyğundur; əsasən, Abşeron yaşlı gilli əhəngdaşılardan təşkil olunmuşdur. Plato Bakı buxtasına tərəf yönəlmiş amfiteatr formasındadır. Kənar yamacları sıldırım və

qismən terraslı, daxili yamacları isə maili və daha yaxşı terraslaşmışdır. Bibiheybət, Bayıl, Badamdar, Yasamal, Alatava, 1-9-cu mikrorayonlar, 8-ci kilometr, Əhmədli, Günəşli, Zığ yaşayış massivləri B.p. üzərində salınmışdır.

**BAKI POLİTEXNİK MƏKTƏBİ** – 1888 ilin iyulundan şəhər sənət məktəbi kimi fəaliyyətə başlamış, 1896 il sentyabrın 1-dən Bakı ibtidai mexanika-kimya-texnika məktəbinə çevrilmişdir. 1897 il oktyabrın 18-dən məktəbin nəzdində yaşlılar üçün pulsuz kurslar açılmışdır. Kurslara yardım məqsədilə məktəbdə xeyriyyə konsertləri təşkil olunur, həvəskar aktyorlar tamaşalar göstərirdilər. 1901 ilin iyulundan məktəbdə kimya bölməsi əvəzinə tikinti bölməsi, 1909 ilin yanvarında heykəltəraşlıq-daşyonma şöbəsi, 1911 ildən sürücülər kursu açılmışdır. Sonradan üç şöbədən (neft sənayesi, elektromexanika və memarlıq-inşaat) ibarət politexnikuma çevrilmiş və Bakı politexnik məktəbi adlanmışdır.

**BAKI REALNİ MƏKTƏBİ** – 1874 ildə Bakı realni gimnaziyasının (1867) əsasında yaradılmışdır. Məktəbdə 1876 ildə 431 (44 azərb.), 1899 ildə 658 (67 azərb.) şagird təhsil alırdı, hazırlıq sinifləri də açılmışdı. 1890 ilin məlumatına görə, B.r.m.-ndə oxuyanların 4,6%-i kəndli uşaqları idi, şagirdlərin müəyyən qismi dövlət hesabına təhsil alırdı. Bakı milyonçusu M. *Nağıyev* məktəbə maliyyə yardımı edirdi. N. *Nərimanov*, H. *Zərdabi* Bakı realni məktəbində dərs demişlər.

Əd.: Ə h m ə d o v H. XIX əsr Azərbaycan məktəbi. B., 1985.

**BAKI SAĞLAMLIQ ZONASI**, Ş.M. Həsənov ad. Sağlamlaşdırma və reabilitasiya zonası – təbiətin şəfaverici amillərindən istifadə edilən müalicə sağlamlıq müəssisəsi. Dünyada ilk dəfə Bakıda Ş.M. *Həsənovun* təşəbbüsü ilə yaradılmışdır (1961). Sağlamlıq zonası nəzdində xroniki xəstəlikləri təbii üsullarla müalicə edən poliklinika var. Burada *fitoterapiya*, muzoterapiya, homeopatiya, psixoterapiya, *aerozolterapiya*, *iqlim müalicəsi*, *müalicəvi bədən tərbiyəsi* kabinetləri də fəaliyyət göstərir. Xroniki ürək-damar, burun-boğaz-qulaq, tənəffüs, həzm, sinir və endokrin sistemi xəstəlikləri, ginekoloji, stomatoloji xəstəliklər və s. müalicə olunur. Xəstəliyin xarakteri, orqanizmin funksional vəziyyəti, xəstənin yaşı, cinsi, gümrahlığı və s. nəzərə alınmaqla xəstələrə terrenkur (piyada) gəzinti, nozoloji qruplar üzrə müalicəvi bədən tərbiyəsi, müalicəvi ritmika, mexaniki aparatlarla müalicə təyin edilir. Sağlamlıq zonasında müalicəyə əks göstərişlər bütün xəstəliklə-rin kəskin forması, o cümlədən kəskin infeksion xəstəliklər, qan xəstəlikləri, bədxassəli şişlər, psixi pozuntular və s.-dir. Müalicə olunanların 65–70%-ini herontoloji yaş qrupu təşkil edir; poliklinika herontoloji mərkəz kimi də (1984 ildən) fəaliyyət göstərir. B.s.z.-nın təcrübəsindən başqa şəhərlərdə də istifadə olunur.

Əd.: Об опыте работы "Зоны здоровья" в г. Баку Азербайджанской ССР. М., 1964; Г а с а н о в Ш. Зона здоровья. Б., 1985.


Bakı Slavyan Universiteti.

**BAKI SLAVYAN UNİVERSİTETİ (BSU)** – slavyanşünaslıq, regionşünaslıq, beynəlxalq münasibətlər, filologiya və digər ixtisaslar üzrə kadr hazırlayan ali təhsil müəssisəsi. 1946 ildə ikiillik rus dili in-tu yaradılmış, 1952 ildən Pedaqoji Rus Dili və Ədəbiyyatı İn-tu kimi fəaliyyət göstərmişdir. 1959 ildə Azərb. Pedaqoji Xarici Dillər İn-tu ilə birləşdirilmiş, 1972 ildə M.F. Axundov ad. Azərb. Pedaqoji Rus Dili və Ədəbiyyatı İn-tu yaradılmışdır. 2000 ildən BSU kimi fəaliyyət göstərir. Un-tin 6 fakültəsi, 34 kafedrası, magistraturası, 6 elmi tədqiqat laboratoriyası, tədris-mədəniyyət mərkəzləri, kitabxanası (500 min nüsxə çap vahidi), linqafon və kompyuter kabinetləri var. Un-tdə 417 nəfərlik prof.-müəllim heyəti, o cümlədən 58 e.d., prof., 195 e. namizədi, dosent çalışır, 3665 tələbə təhsil alır (2010/11). Un-tdə doktorluq və namizədlik dissertasiyaları müdafiə edilir. Əcnəbi tələbələrlə iş üzrə dekanlıq var. Dünyanın bir çox ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir, beynəlxalq elmi konfranslar keçirir. Tələbə elmi cəmiyyəti fəaliyyət göstərir. "BSU-nun elmi əsərləri" (2004 ildən), "Mütərcim" (1996 ildən) və "Russkiy yazık i literatura v Azerbaydjane" (1947 ildən) jurnalları, "Tələbə dünyası" (2001 ildən) qəzeti çıxır.

**BAKI SOSİAL-PEDAQOJİ KOLLECİ** – 1936 ildə Məktəbəqədər Tərbiyə Pedaqoji Məktəbi kimi yaradılmış, Bakı Məktəbəqədər Pedaqoji Məktəbi (1936–91), Bakı Məktəbəqədər Pedaqoji Texnikumu (1991–2010) adlanmış, 2010 ildən indiki adı ilə fəaliyyət göstərir. Məktəbəqədər təhsilin pedaqogika və metodikası, loqopediya, məktəbəqədər təlim və tərbiyə, musiqi müəllimi, məktəbəqədər təhsildə korreksiyaedici təlim, fiziki tərbiyə müəllimi və s. ixtisaslar üzrə mütəxəssis hazırlayır. Əyani və qiyabi şöbələrində 1280 tələbə təhsil alır, 184 müəllim çalışır (2010).

**BAKI SOVETİ** – bax *Bakı Fəhlə və Əsgər Deputatları Soveti*.

**BAKI ŞƏHƏR DUMASI** – Bakı şəhər bələdiyyə idarəsinin sərəncamverici orqanı. Rusiya senatının qərarına əsasən 1878 ildə yaradılmışdı. Əvvəllər 72, sonralar isə 75 üzvü olmuşdur; üzvlər xüsusi seçki iclaslarında 4 il müddətinə seçilirdilər. Üzvlüyə ancaq daşınmaz əmlaka, yaxud qiyməti 1500 manatdan az olmayan ticarət və ya sənaye müəssisələrinə malik, 25 yaşından yuxarı şəxslər seçilə bilərdilər. Qadınlar seçki hüququndan məhrum idilər. Seçki hüququnun məhdud olması səbəbi ilə duma seçkilərində əhalinin ancaq 2–3%-i iştirak edə bilirdi. B.ş.d.-nda azərb.-ların sayı üzvlərin ümumi sayının yarısından çox olmamalı idi. 1892 ildə qəbul olunmuş "Şəhər əsasnaməsinə" görə duma üzvlərinin 1/3-i, 1900 il fərmanına görə isə 1/2-i xristianlardan seçilməli idi. Bununla belə müsəlman deputatların sayı nəzərdə tutulan rəqəmdən də az olmuşdur. Yalnız 1905–07 illərin inqilabi hadisələrindən sonra Qafqaz canişini güzəştə getməli oldu və 1907–11 illərdə keçirilən seçkilər nəticəsində B.ş.d.-nın 57,7%-ini azərb.-lar təşkil etdi. Bunların 33%-i alimlər, mühəndislər, həkimlər, hüquqşünaslar, jurnalistlər və müəllimlərdən, 67%-i isə iri neft sənayeçiləri, tacirlər, fabrik və gəmi sahiblərindən ibarət idi. H. *Zərdabi* (Məlikov), Ə. *Topçubaşov*, N. *Vəzirov*, H.Z. *Tağıyev*, M. *Əsədullayev*, İ. *Aşurbəyov*, A. Aşurov, M. Vəkilov, M. *Hacınski* və b.-ları dumanın üzvləri seçilmişlər. Dumaya şəhər bələdiyyə idarəsinin rəisi sədrlik edirdi.

B.ş.d. abadlaşdırma, ticarət, şəhər vergilərinin təyin edilməsi, yığılması, xərclənməsi, yanğına qarşı ehtiyat tədbirlərinin görülməsi və s. məsələlərlə məşğul olurdu. Şəhər bələdiyyə orqanları qubernator və daxili işlər nazirinin nəzarəti altında fəaliyyət göstərirdi. Rusiyada Fevral inqilabından (1917) sonra yerli idarələrin fəaliyyəti dayandırıldı, B.ş.d.-nın statusunda dəyişikliklər edildi. Duma seçkilərində iştirak etmək üçün 12 müxtəlif partiya və qrup qeydiyyata alındı. 1917 ilin oktyabrında hakimiyyət uğrunda qızğın mübarizə getdiyi bir vaxtda dumaya seçkilər yalnız şəhərin özündəki seçicilərin iştirakı ilə keçirildi. Seçkilərdə heç bir partiya həlledici üstünlük qazana bilmədi. 1918 il aprelin 10-da Bakı və onun rayonlarının İnqilabi Müdafiə Komitəsinin dekreti ilə B.ş.d. ləğv olundu və funksiyaları xüsusi şəhər təsərrüfatı şöbəsinə verildi. 1918 il iyulun 30-da bu orqan Azərbaycan Xalq Cümhuriyyəti hökuməti tərəfindən *Bakı Şəhər İctimai Özünüidarəsi* adı ilə bərpa olunmuşdu.

**BAKI ŞƏHƏR İCTİMAİ ÖZÜNÜİDARƏSİ (BŞİÖ)** – Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə Bakı ş.-nin özünüidarə orqanı. 1918 il sentyabrın 18-də yaradılmışdı. Şəhər başçısının rəhbərlik etdiyi idarə 7 şöbədən (təsərrüfat, tikinti, maliyyə, torpaq, məktəb, tibb-sanitariya, su kəməri) ibarət idi.

BŞİÖ-nin bir çox strukturunun və qanunla təsbit edilmiş hüquqlarının olmasına, AXC hökumətinin ona xeyli maddi yardım göstərməsinə, həmçinin xəzinədən bir sıra kreditlər verilməsinə baxmayaraq, hərc-mərclik dövründə dağılan şəhər təsərrüfatını bərpa edə bilməmişdi. AXC-nin süqutundan sonra ləğv edilmişdir.

**BAKI ŞƏHƏR RƏİSLİYİ** – Bakı ş.-ndə və onun ətrafındakı mədən və fabrik-zavod r-nlarında qayda-qanunu və təhlükəsizliyi qoruyan hakimiyyət orqanı. 1906 il oktyabrın 28-də Rusiya senatının qərarı ilə yaradılmışdı. B.ş.r. yanında inzibati və neft işləri idarələri fəaliyyət göstərirdi. 1918 ilin mayında *Bakı Xalq Komissarları Sovetinin* dekreti ilə ləvğ olunmuşdur.

**BAKI ŞƏHƏR VƏ XALQ MƏKTƏBLƏRİNİN ŞAGİRDLƏRİNƏ YARDIM CƏMİYYƏTİ** – qeyri-hökumət xeyriyyə təşkilatı. 1907 ilin aprel ayında yaradılmışdı. İdarə heyətinin üzvləri İ. Qasımov, H. Terequlov, İ. Aşurbəyov, Ə. Aslanov, İ. Axundov, B. Aşurbəyov, M. Əsədullayev, A. Babayev, A. Vəlibəyov, D. Vəzirov, M. Hacıbababəyova, R. Hacıbababəyova, M. Hacıbəyova, B. Qayıbov, K. Kazımov, M. Mahmudbəyov, A. Mehdiyev və b. idilər. Cəmiyyətin məqsədi Bakı şəhər və xalq məktəblərinin ehtiyacı olan şagirdlərini geyim, yemək və mənzillə təmin etmək, onlara tibbi yardım göstərmək, valideynləri işdə olan şagirdləri gündüzlər himayə etmək olmuşdur. 1919 ilin yanında cəmiyyət 8 Azərb. və 5 rus məktəbi nəzdində böyük həyətləri, geniş mətbəxləri olan uşaq evləri təşkil etmişdi. Cəmiyyət məktəblərdə isti səhər yeməklərinin təşkili, həmçinin imkansız şagirdlərə dövlət hesabına dəftərxana ləvazimatının verilməsi, xalq məktəblərində xeyriyyəçilik tədbirlərinin keçirilməsi, dərman alınması ilə məşğul olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti hökuməti cəmiyyətin səmərəli fəaliyyəti üçün ona yaxından kömək göstərmişdir. *Aprel işğalından (1920)* sonra cəmiyyət öz fəaliyyətini dayandırmışdır.

**BAKI TATAR İŞÇİ TEATRI** – 1935–36 illərdə fəaliyyət göstərmişdir. Repertuarında "Onlar üç nəfər idilər" və "İlk çiçəklər" (K. Tinçurin), "Gənc qəlblər" (F. Burnaş), "Dumanlar arxasında" (Ş. Kamal) kimi tamaşalar əsas yer tutmuşdur. Teatrda aktyorlardan X. Əhmədov, C. Bikvayev, Y. və F. Qaliullinlər, B. Qaliullina, Y. Maqdiyev, Z. Rizvanova, S. Sustayeva, B. və Y. Xasyanovalar, R. Çukanova, X. Şəbiyeva, Q. Qafarov, Q. Kamalov, R. Xujamverdıyev, R. Şahbazov, İ. Özbəyov, Z. Seyitova, D. Rəhimova və b. işləmişlər. Teatrın baş rej. və bədii rəhbəri Ş. Şamilski, direktoru M. Rizvanov idi.

**BAKI TEATR TEXNİKUMU**, M.F. Axundov ad. Bakı Dövlət Teatr Texnikumu – resp.-da teatr kadrları hazırlayan ilk təhsil ocağı. 1923 ildə Ş. Məmmədovanın (ilk direktoru) təşəbbüsü ilə, Azərb. XKS-nin qərarına əsasən yaradılmışdı. Ə. Bayramov ad. klubda (indiki Səadət sarayı) yerləşirdi. Müxtəlif illərdə Azərb. Dövlət Teatr Məktəbi, Azərb. Dövlət Teatr Texnikumu və s. adlarla fəaliyyət göstərmişdir. 1928 ildə texnikuma M.F. Axundovun adı verilmişdi. Təhsil müddəti 4 il idi. 1926 ildə birinci buraxılışı olmuşdur. İlk illərdə dram və opera, sonralar aktyorluq, rej.-luq və kino sənəti (1935 ildən) şöbələri fəaliyyət göstərmişdir. Ə. Haqverdiyev, H. Cavid, prof.-lardan A.M. Mudrov, V.V. Sladkopevtsev, sənətşünaslıq doktoru P.P. Fridolin, Azərb. SSR xalq artistləri A.A. Tuqanov, H. Abbasov, A.M. Şərifzadə, Kazım Ziya, M. Haşımov, R.Təhmasib, A. Gəraybəyli, rej.-lardan N.N. Boqolyubov, Y.A. Qrossman, həmçinin A.K. Şərifov, R. Darablı, M. Bəbirli və b. B.t.t.-nda dərs demişlər. 1932 ildə B.t.t.-nda beynəlmiləl şöbə açılmış, azərb.-larla yanaşı ləzgi, türkmən, qazax, özbək, tacik, yəhudi, rus və b. da burada təhsil almışlar. Texnikum Bakıdakı və Azərb.-ın r-nlarındakı teatrlar, klublar üçün aktyor, rej. kadrları və mədəni-maarif işçiləri hazırlamışdır. C. Cabbarlı, SSRİ xalq artistləri A. İsgəndərov, İ. Osmanlı, İ. Dağıstanlı, Ə. Ələkbərov, Azərb. SSR xalq artistləri Ə. Bədəlbəyli, F. Qədri, Ə. Sultanov, R. Əfqanlı, N. Zeynalova, Ə. Zeynalov, S. Bəsirzadə, H. Salayev, R. Veysəlova və b. B.t.t.-nda oxumuşlar. SSRİ xalq artistləri H. Nəsirova (Özbəkistan), A. Karlıyev (Türkmənistan), Özb. SSR xalq artisti N. Əliyeva və b. B.t.t.-nu bitirmişlər. Texnikumu bitirən azərb. kadrlar Daşkənd, Aşqabad, Düşənbə, Tbilisi, Dərbənd, Mahaçqala və b. ş.-lərdə də işləmişlər. Texnikumun əsasında Azərb. İncəsənət İn-tu (indiki *Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*) yaradıldığından B.t.t. 1948 ildə bağlanmışdır.

**BAKI TİBB MƏKTƏBİ**, Azərb. Resp. Səhiyyə Nazirliyinin 1№-li Bakı baza tibb məktəbi – 1902 ildə yaradılmışdır. Müalicə işi, tibb bacısı, əczaçılıq, mamalıq ixtisasları üzrə mütəxəssis hazırlayır. B.t.m.-ndə 876 tələbə təhsil alır; 330 müəllim, o cümlədən 1 e.d., prof., 7 e. namizədi, 4 metodist-müəllim çalışır (2009/2010).

**BAKI TİBB MƏKTƏBİ**, Azərb. Resp. Səhiyyə Nazirliyinin 2№-li Bakı baza tibb məktəbi – 1975 ildə yaradılmışdır. Müalicə işi, tibbi profilaktika, ortopedik stomatologiya, mamalıq, əczaçılıq, tibb bacısı, la-

boratoriya diaqnostikası ixtisasları üzrə mütəxəssis hazırlayır, orta tibb işçilərinin ixtisasartırma və təkmilləşdirilməsini həyata keçirir. B.t.m.-ndə 1200 tələbə təhsil alır; 460 müəllim, o cümlədən 10 e. namizədi, 5 səhiyyə əlaçısı çalışır (2009/2010).

**BAKI TRANSQRESSİYASI** – Xəzər dənizinin Erkən Dördüncü dövr transqressiyası. Həmin dövrdə Xəzərin sahəsi indikindən bir qədər böyük, suyunun duzluluq dərəcəsi isə nisbətən az olmuşdur. B.t. iki fazaya bölünür: alt (səciyyəvi faunası – Didacna catillus E i c h w) və üst (səciyyəvi faunası – Didacna rudis N a l). 1891 ildə H. Şöqren tərəfindən öyrənilmişdir.

**BAKI TÜRK İŞÇİ TEATRI** – Azərb. dram teatrı. 1927 ildə Bakı Türk İşçi-Kəndli Teatrının əsasında yaradılmışdır. Repertuarına "Ölülər", "Anamın kitabı" (C. Məmmədquluzadə), "Sevil" (C. Cabbarlı) və s. milli pyeslərlə yanaşı, "Üsyan" (B. Lavrenyov), "Paris Notr-Dam kilsəsi" (V. Hüqonun eyniadlı romanı üzrə), "Küləklər şəhəri" (V.M. Kirşon), "Hind qızı" (Ə. Hamid) və b. tərcümə əsərləri də daxil idi. Teatr fəhlə r-nlarında, fabrik, mədən və zavodlarda tamaşalar göstərirdi. Gənc dramaturqların ("Yanğın", S. Rüstəm, H. Nəzərli; "Yollar", H. Nəzərli; "Kölgə", S. Hüseyn; "Gizli əl", Ə. Fövzi, H. İsmayılov) əsərləri teatr kollektivinin müvəffəqiyyətli tamaşalarından idi. Teatr istedadlı aktyor və rej. kadrları yetişdirmişdir. Aktyorlardan *Ə. Ələkbərov*, *Ə. Sultanov*, A. *Cavadov*, F. *Qədri*, *Ə. Məmmədova*, Məxfurə xanım, *İ. Talıblı*, *Ə. Seyfi*, *Kazım Ziya*, A. *Gəraybəyli* və b. bu teatrda fəaliyyət göstərmişlər. Rej.-lardan R. Darablı, D. Qutman, V. İvanov, A. Ridal, rəssamlardan *Ə. Əzimzadə*, R. *Mustafayev*, bəstəkar A. *Zeynallı* və b. burada işləmişlər. Teatr dəfələrlə Qafqazın bir sıra şəhərlərində qastrol tamaşaları vermişdir. 1932 ildə teatr Gəncə şəhərinə köçürülmüş, burada professional teatr sənətinin yaranması və inkişafında mühüm rol oynamışdır (bax *Gəncə Dövlət Dram Teatrı*).

*Əd.:* K ə r i m o v İ. Kirovabad Dövlət Dram Teatrı. B., 1974.

**BAKI YƏHUDİ TEATRI** – 1934–39 illərdə fəaliyyət göstərmişdir. Repertuarında "Yəhudi xoşbəxtliyi", "İki yüz min", "Südçü Tevye", "Azmış ulduzlar", "Qoldqrebor" (Şolom -Aleyxem), "Ovadislər ailəsi" (P. Markiş), "Sulamif" (A. Qoldfaden), "Xəsis cəngavər" (A. Puşkin), "Tufan", "Cehizsiz qız" (A. Ostrovski), "Albalı bağı" (A. Çexov), "Qaçış" (M. Bulqakov), "Nikbin faciə" (Vs. Vişnevski), "Mehmanxana sahibəsi" (K. Qoldoni), "Od gəlini", "Sevil" (C. Cabbarlı), "Həyat" (M. İbrahimov) və s. tamaşalar başlıca yer tutmuşdur. Teatrın truppasında aktyorlardan S. İoffe, M. Katerbarski, A. Kramer, Y. Berqolski, M. Spivakovski, İ. Kremer, Y. Jabotinski, B. Katsenelenbogen, L. Qoldber, A. Koriş, M. Kravets, L. Kin, İ. Estrin, M. Davidzon, A. Qrossman, İ. Marqolis, M. Doyno, bəstəkar M. Kriştul və b. fəaliyyət göstərmişlər. Teatrın baş rej. M. Mindlin, direktoru Y. Fridman olmuşlar.

**BAKI–AKTAU BƏRƏ YOLU** – Xəzər dənizinin Bakı və Aktau portları arasında dəniz yolu. 1970-ci illərdə neft daşımaları ilə fəaliyyətə başlamışdır. Bu yol ilə ildə 6–6,5 mln. *t* neft Qazaxıstandan Bakıya daşınırdı. Uz. 470 *km*-dir. 2001 ilin sentyabrında yenidən bərpa olunmuş d.y. variantı B.–A.b.y. ilə neftlə yanaşı d.y. vaqonları, avtomobil, taxıl və s. yüklər, həmçinin sərnişin daşımaları yerinə yetirilir. Aktau portundan Qazaxıstanın şm.-ını birləşdirən 400 *km*-lik dəmir yolu k.t. məhsulları və s.-nin daşınmasını xeyli səmərəli edir. Yük-sərnişin bərələrinə 28 d.y. vaqonu və ya sisterni, uz. 20 *m*-ədək olan avtoqatarlar və s. yükləmək mümkündür. Sərnişinlər üçün həm kayutlar, həm də oturacaqlar vardır. Gəmibərələr portlar arasındakı məsafəni 24 saata qət edir.

**BAKI–BATUMİ NEFT KƏMƏRİ** – Bakı neftini dünya bazarına çıxarmaq üçün çəkilmiş ilk magistral neft kəməri. 1897 ildə inşasına başlanmış, 1907 il martın 26-da istismara verilmişdir. Boru kəmərinin inşasına və istismarına Cənubi Qafqaz d.y. idarəsi rəhbərlik edirdi. Uz. 867 *km*, diam. 200 *mm*, divarının qalınlığı 4 *mm* olan bu kəmər 14 neftvurma st.-na və ildə 60 mln. pud (1 mln. *t*-a qədər) kerosin (ağ neft) nəql etmək qabiliyyətinə malik idi. Boru kəmərinin istismarı ağ neftin daşınma xərclərini 4 dəfəyə qədər azaltdı. Birinci dünya müharibəsi ərəfəsində B.–B.n.k. ilə ildə 22 mln. pud kerosin ixrac edilmişdi. 1917 ildə Qafqazın daxili ehtiyaclarını ödəmək üçün boru kəməri ilə kerosin əvəzinə xam neft nəql edilməsinə başlanmışdı. 1919 ildə Batumi portu vasitəsilə xarici bazara neft ixrac etmək imkanı əldə edən Azərb. Xalq Cümhuriyyəti B.–B.n.k. ilə yenidən kerosin nəql etmək haqqında qərar vermiş və boru kəməri təmizlənib kerosin daşınması üçün yararlı hala salınmışdı. *Aprel işğalından (1920)* sonra kəmərin işi dayandırılmış və 1923 ildə yenidən istismara buraxılmışdır. 1930 ildə diametri 254 *mm*, uz. 822 *km* olan ikinci neft kəməri çəkilib istifadəyə verilmiş, lakin müharibə illərində (1941–45) SSRİ-nin c.-undakı neftayırma z-dlarının məhsullarını Həştərxandan Saratova vurmaq məqsədilə çəkilən kəməri boru ilə təmin etmək çətinliyi yarandığından B.–B.n.k.-nin ikinci xətti sökülərək (1942) oraya daşınmışdır. B.–B.n.k. uzun illər Cənubi Qafqaz Magistral Neft Kəmərləri İdarəsinin nəzdində olmuş, 1986 ildə istismardan çıxarılmışdır.

**BAKIDA XARİCİ DİPLOMATİK NÜMAYƏNDƏLİKLƏR** – *Azərbaycan Xalq Cümhuriyyəti (1918–20)* dövründə xarici dövlətlərin Bakıdakı diplomatik heyətləri. AXC-nin xarici dövlətlərdə diplomatik nümayəndəliklərinin açılması ilə yanaşı, Bakıda da xarici dövlətlərin – B. Britaniya, Belçika, Yunanıstan, Gürcüstan, Ermənistan, Danimarka, İtaliya, Litva, İran, Polşa, Amerika Birləşmiş Ştatları, Ukrayna, Finlandiya, Fransa, İsveçrə Respublikası və İsveçin diplomatik nümayəndəlikləri fəaliyyət göstərirdi.

**BAKIXANOV** Abbasqulu ağa [ədəbi təxəllüsü Q ü d s i; 3.7.1794, Bakı yaxınlığındakı Xilə (indiki Əmircan) k.–1847, Məkkə yaxınlığında] – Azərb. alimi, şair və maarifpərvər. Bakı xanı II Mirzə Məhəmmədin [1784–91] oğludur. Gəncliyində mükəmməl təhsil almış, fars və ərəb dillərini, klassik Şərq ədəbiyyatı və fəlsəfəsini, ilahiyyatı dərindən öyrənmişdir. 1820 ildə B. Əlahiddə Qafqaz Korpusunda hərbi qulluğa girmiş, rus dilinə yaxşı yiyələndikdən sonra baş komandanın dəftərxanasına Şərq dilləri üzrə mütərcim təyin olunmuş (1822), rus ordusunda polkovnik (1842; bəzi mənbələrə görə gen.-m.) olmuşdur. 1826–29 illərdə Rusiyanın İran və Türkiyə ilə müharibələrində, Türkmənçayda Rusiya–İran sülh danışıqlarında iştirak etmişdir. M.Ş. Vazeh, İ. Qutqaşınlı, M.F. Axundzadə, rus yazıçılarından A.S. Qriboyedov, A.A. Bestujev (Marlinski), V.K. Küxelbeker, gürcü yazıçılarından A. Çavçavadze, Q. Orbeliani, N. Barataşvili, polyak şairi T.L. Zablotski və b. ilə yaxın tanış və dost olmuşdur. Varşavada və Peterburqda olarkən A.S. Puşkinin ailə üzvləri (bacısı, anası) və şairin özü ilə görüşdüyü ehtimal olunur.

B.-un "Gülüstani-İrəm" əsəri (1841, fars dilində) Azərb. tarixşünaslığının inkişafında çox böyük rol oynamışdır. Azərb. və Dağıstan tarixinin qədim zamanlardan 1813 ilə qədərki dövrünü əhatə edən bu əsərdə antik dövr, rus, erməni, gürcü və Şərq mənbələri əsasında Albaniya (Qafqaz), ərəb istilaları, Babək hərəkatı, Şirvanşahlar dövləti, monqol hücumları, Qaraqoyunlu və Ağqoyunlu dövlətləri, Səfəvilər dövləti, Azərb. xanlıqları, onların Rusiyaya birləşdirilməsi və s. haqqında məlumat verilir. B.-un "Gülüstani-İrəm" əsərini Mirzə Kazım bəy, görkəmli şərqşünaslardan M.İ. Brosse, B.A. Dorn və b. yüksək qiymətləndirmişlər. 1843–44 illərdə B. özü əsəri rus dilinə tərcümə etmişdir. "Gülüstani-İrəm" ilk dəfə 1926 ildə rusca, 1951 ildə isə Azərb. dilində çap olunmuşdur. 1970 ildə əsərin elmi-tənqidi mətni nəşr edilmişdir. B. arxeologiya, numizmatika, etnoqrafiya, toponimika məsələləri ilə də maraqlanmışdır.



B.-un dini, fəlsəfi və əxlaqi baxışları "Riyaz ül-qüds", "Təhzib ül-əxlaq", "Nəsayeh" ("Kitabi-nəsihət", "Nəsihətnamə"), "Eyn ül-mizan" əsərlərində, həmçinin "Mişkat ül-ənvar" poemasında əks olunmuşdur. Şərq ilahiyyatçılarına əsaslanan B. islam dininin əsas ehkamlarını müdafiə etmişdir. 17 əsrin metafizikləri kimi, B. da fəlsəfənin predmetini elmin predmetindən tamamilə fərqləndirərək, onu varlığın fövqəlhissi prinsipləri haqqında elm hesab etmişdir. B.-a görə Allah əvvəlcə üç əbədi başlanğıc – ağıl, qələm və nur yaratmışdır ki, bunların birincisi genişlik və əhatəliliyin, ikincisi nizam və ahəngin, üçüncüsü "yaranma və qayıtmanın" rəmzidir.

B. *vəhdəti-vücud* təliminə tərəfdar çıxaraq, belə bir mülahizə yürüdürdü ki, varlığı "mümkün" olan gerçək dünya, varlığı "zəruri" olan Allahdır; "mümkün varlıq" "zəruri varlıqdan", yəni çoxluq təkdən yaranmışdır, yaranma və məhvolma ancaq gerçək dünyaya aiddir, çünki hərəkət "mümkün varlığın" ayrılmaz əlamətidir. Bununla yanaşı, B. dünyanı naturalist mövqedən izah edərək göstərmişdir ki, bütün cisimlər və şeylər dörd ünsürün – hava, od, torpaq və suyun qatışığından ibarətdir. Burada təbii "nizam", "müvazinət" və "səbəbiyyət" var. B. etikanı "mənəviyyat fəlsəfəsi" hesab etmiş, əsas diqqəti müsbət əxlaqi keyfiyyətlərin şərhinə yönəltmişdir. B.-a görə, gözəl əxlaq işdə və hərəkətdə orta həddi gözləməkdir. B. əməksevərlik, doğruçuluq, vicdan, namus, ədalət, təvazökarlıq, dostluq, qənaətcillik və alicənablığı gözəl əxlaqi sifətlər hesab edir, təlim-tərbiyə işində təcrübə, bilik və əməyin roluna yüksək qiymət verirdi. Davranış, danışıq və ünsiyyət qaydaları haqqında B.-un nəsihətləri rasionalist xarakter daşıyır; onun etikasına qədim yunan və islam əxlaq nəzəriyyəçilərinin təsiri olmuşdur. B. məntiqə əqlin meyarı kimi baxmış, onun idrakda roluna böyük əhəmiyyət vermiş, anlayış, mühakimə və əqli nəticənin müxtəlif növlərini müfəssəl təhlil etmişdir. B. bütün məntiqi iki hissəyə (təsəvvürə və təsdiqə) ayırmış, əqli nəticələrin zənginliyini sillogizmin müxtəlif növləri ilə məhdudlaşdırmış, induksiyanı hökmlərin doğruluğunu əsaslandıran metod hesab etmişdir. Şərq məntiqçilərindən fərqli olaraq, B. idrak formalarının məzmunca da həqiqətə uyğun olması tələbini irəli sürmüşdür. B.-un məntiqinə Aristotelin təsiri olmuşdur.

B. astronomiya ilə də məşğul olmuş, N. Kopernik, İ. Nyuton, Q. Qaliley, İ. Kepler və b. alimlərin baxışları ilə tanış olaraq, *heliosentrik sistem* nəzəriyyəsini müdafiə edən "Əsrar ül-mələkut" (1839) əsərini yazmışdır.

İlk Azərb. maarifçilərindən olan B. Avropa mədəniyyəti ilə tanışlıqdan sonra bir daha yəqin etmişdir ki, "mal və dövlət hər halda puç olacaq, ixtiyar və iqtidar əldən gedəcəkdir... Şəxsi ləyaqət olmadan nəsəb və sülalə şərafəti qürbətdə naməlum, vətəndə isə məzəmmətə məruzdur. Bunlara təkyə etmək mənasızdır. Etibar ediləcək və arxalanacaq bir dövlət varsa, o da hər bir halda elm və ədabdan ibarətdir" ("Gülüstani-İrəm", B., 1951, səh. 222).

B.-un coğrafiya sahəsində də xidmətləri var. O, vəzifəsi ilə əlaqədar çoxlu səyahət etmişdir. Səyahətləri zamanı Azərb., Gürcüstan, Dağıstan və s. yerlər haqqında məlumat toplamışdır. B. 1833 ildə Rusiya, Ukrayna, Polşa, Baltikyanı resp.-ların ərazisini, ömrünün son illərində isə Misir, Ərəbistan və s. yerləri gəzmişdir. Amerikanın kəşfinə və coğrafi təsvirinə həsr olunmuş "Kəşfül-qəraib" ("Qəribə kəşflər", 1830), "Ümumi coğrafiya" əsərləri var. "Gülüstani-İrəm"in müqəddiməsində Azərb. və Dağıstanın qısa coğrafi təsviri verilmişdir.

B. 19 əsr Azərb. ədəbiyyatının görkəmli nümayəndələrindəndir. Ədəbi irsi Azərb. və fars dillərində yazdığı lirik və epik əsərlərdən ibarətdir. Bədii yaradıcılığının ilk nümunələri "Riyaz ül-qüds" (1820) əsərində əksini tapmışdır. Azərb. dilində yazılmış dini məzmunlu bu əsərə B. yeri gəldikdə ilk qələm təcrübələri olan dünyəvi ruhlu lirik şeirlərini də daxil etmişdir. Lirikasında (qəzəl, qəsidə, müxəmməs, müstəzad, mürəbbe və s.) dünyəvi məhəbbətin tərənnümü əsas yer tutur. "Tiflis" müxəmməsi və "Gürcülər arasında" mənzum məktubunda Tiflisin, gürcü qızlarının gözəlliyi vəsf olunur. Orijinalı tapılmamış "Fatma tar çalır" şeirinin alman dilinə, "Tatar nəğməsi"nin isə rus dilinə tərcüməsi qalmışdır. B.-un maraqlı satirik şeirləri də var. "Təbriz əhlinə xitab" şeiri 19 əsr Azərb. poeziyasında ilk ictimai satiralardandır. Ana dilində yazdığı "Göstərir", "Arasında", "Gəlmədi", "Olur" qəzəllərində, "Dönübdür", "Bismillah", "Özgələrə" rədifli müxəmməslərində insanın mənəvi dünyası təsvir olunur. B. farsca yazılmış "Mişkat ül-ənvar" ("Nurlar mənbəyi", 1844), "Mirat ül-cəmal" ("Surətin aynası") poemalarının müəllifidir. Bədii təhkiyəsi ilə Nizaminin "Sirlər xəzinəsi", Sədinin "Gülüstan"ı ilə səsləşən "Mişkat ül-ənvar" mənzum nağıl, əxlaqi-didaktik hekayət və təmsillərdən ibarətdir. Buradakı "Tülkü və qurd" təmsilində hiyləgərlik, "Çinar və kudu tağı"nda lovğalıq, böyüyə hörmətsizlik tənqid edilir. "Kəndlinin şaha şikayəti", "Kəndlinin şaha töhfəsi", "Hind əfsanəsi" əsərlərində zülm və zorakılıq pislənilir. "Mirat ül-cəmal" əsərindəki "Ərzi-əhval", "Xəyalın uçuşu", "Firəng məclisi" şeirləri avtobioqrafik xarakter daşıyır. Bu şeirlərdə qürbətdə yaşayan şairin keçirdiyi hiss-həyəcan, vətən həsrəti, doğma yurda məhəbbət duyğuları, mənəvi iztirabları, gələcək haqqında düşüncələri əksini tapmışdır.

B.-un "Kitabi-Əsgəriyyə" hekayəsi Azərb. nəsrinin ilk nümunələrindəndir. Əsərdə iki gəncin məhəbbətindən bəhs olunur, onların səadətinə mane olan feo-

dal qayda-qanunları tənqid edilir. Hekayədəki şeir parçaları qəhrəmanların xarakterini və mənəvi aləmini açmağa kömək edir. İ.A. Krılovun "Eşşək və bülbül" təmsilini Azərb. dilinə çevirmiş, "Yersiz iftixar", "Qurd və ilbiz", "Tülkü və qoyun" adlı alleqorik əsərlər yazmışdır. 1974 ildə Təbriz Milli Kitabxanasında B.-un Azərb., fars və ərəb dillərində yazdığı əsərlərindən ibarət divanı, habelə bir neçə şeiri tapılmışdır.

B. jurnalistika sahəsində də fəaliyyət göstərmiş, "Tiflisskiye vedomosti" (1828–32) qəzetinin əməkdaşı, onun fars dilində buraxılan variantının redaktoru, habelə Qafqaz xalqlarının tarix və mədəniyyət məsələlərinə dair məsləhətçisi olmuşdur. Ensiklopedik biliyə malik B. filologiya, tarix, fəlsəfə ilə yanaşı, astronomiya və coğrafiyaya dair əsərlər də yazmışdır. Fars dilinin qanun və qaydaların- dan bəhs edən "Qanuni-Qüdsi" (1828) əsəri Cənubi Qafqazda və Rusiyada fars dilinin ilk qrammatika kitabıdır.

B.-un adı Azərb.-da qəsəbə (o cümlədən Bakıda), küçə, məktəb və s.-yə verilmiş, heykəli və büstü qoyulmuşdur.

Əsərləri: Gülüstani-İrəm. B., 1951; Bədii əsərləri. B., 1973; Seçilmiş əsərləri. B., 1984.

*Əd.:* Qasımzadə F. Abbasqulu ağa Bakıxanov Qüdsi. B., 1956; Azərbaycan ədəbiyyatı tarixi, c.2. B., 1960; Göyüşov Z.B. Azərbaycan maarifçilərinin etik görüşləri. B., 1960; Qasımzadə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. B., 1974; Бакиханова Г. Этюды о Гудси: А. Бакиханов и его связи с передовыми представителями России первой половины XIX века. Б., 1984; Vəli Həbiboğlu. Abbasqulu ağa Bakıxanov. B., 1992.

**BAKIXANOV** Abdulla ağa (1824, Bakı – 20.7.1878, Tiflis) – Azərb. hərbi xadimi, gen.-mayor; *Bakıxanovlar* nəslinin sonuncu gen.-ı. A. *Bakıxanovun* qardaşıdır. B.-un hərbi fəaliyyəti haqqında məlumat azdır. Onun gen. rütbəsi aldığını təsdiq edən sənədlər Milli Azərb. Tarixi muzeyində və AMEA-nın M.Füzuli ad. Əlyazmalar İn-tunda (H. Zərdabiyə yazdığı məktublar) saxlanılır.



*Əd.:* Nəzirli Ş. Azərbaycan generalları. B., 1991; yenə onun. Güllələnmiş Azərbaycan generalları. B., 2006.

**BAKIXANOV** Balaxan Məlik bəy oğlu (1880, Bakı yaxınlığındakı Mərdəkan k. – 1942, Arxangelsk) – Azərb.-ın ilk kimyaçı-texnoloqu. *Bakıxanovlar* nəslindəndir. H.Z. *Tağıyevin* təkidi ilə Almaniyada Hamburq Texnoloji İn-tunda təhsil almışdır (1900–06). H.Z. Tağıyevin Əhmədlidəki toxuculuq fabrikində baş texnoloq işləmişdir (1906 ildən). Azərb.-da sovet hakimiyyəti qurulduqdan sonra burjua ünsürü kimi işdən qovulmuşdur. 1937 ildə həbs olunmuşdur; 62 yaşında həbs düşərgəsində vəfat etmişdir.



**BAKIXANOV** Cəfərqulu ağa [1799, Bakının Xilə k. (indiki Əmircan) – dekabr, 1867, Quba] – Azərb. hərbi xadimi, gen.-leytenant. A. *Bakıxanovun* qardaşıdır. B. hərbi təhsilini əvvəl Dərbənddə, sonra isə Peterburqda almışdır. Hərbi məktəbi bitirdikdən sonra Müşkür mahalının naibi təyin olunmuşdur. 1824 ildə Qafqaz canişini A.P. Yermolov dövlətin ixtiyarına keçmiş irsi torpaqlarını xidmətlərinə görə B.-a qaytar- mış, Hacı ərəb k.-ni ona bağışlamışdır. B. Rusiya–İran müharibəsində (1826–28) iştirak etmişdir. Döyüşlərdə göstərdiyi igidliyə görə Müq. Anna (3-cü dərəcəli) və Müq. Georgi (4-cü dərəcəli) ordenləri ilə təltif olunmuşdur.

*Əd.:* Nəzirli Ş. Azərbaycan generalları. B., 1991; yenə onun. Güllələnmiş Azərbaycan generalları. B., 2006.

**BAKIXANOV** Əhməd xan Məmmədrza oğlu (5.9.1892, Bakı – 26.3.1973, Bakı) – Azərb. musiqi xadimi, tarzən, pedaqoq. Azərb. SSR xalq artisti (1973). Azərb. SSR əməkdar müəllimi (1943). Azərb.SSR əməkdar incəsənət xadimi (1964). *Bakıxanovlar* nəslindəndir. İlk təhsilini İranda almış, burada tarda çalmağı öyrənmişdir. B. 1929 ildən Azərb. Dövlət Konservatoriyasında, Bakı Musiqi Texnikumunda (1938 ildən xalq çalğı alətləri şöbəsinin müdiri), habelə Bakının bir sıra musiqi məktəbində pedaqoji fəaliyyət göstərmişdir. 1927 ildən M. *Maqomayevin* dəvəti ilə Azərb. Dövlət Radio Komitəsi nəzdində yaradılmış xalq çalğı alətləri ansamblının solisti olmuşdur. 1941 ildə Ü. *Hacıbəylinin* təşəbbüsü ilə ansambl yenidən təşkil etmiş və ömrünün sonunadək onun rəhbəri olmuşdur (1973 ildən həmin ansambl B.-un adını daşıyır). C. *Qaryağdı oğlu*, S. *Şuşinski*, H. *Sarabski*, Z. *Adıgözəlov* və digər görkəmli xanəndələr bu ansamblın müşayiəti ilə çıxış etmişlər. Azərb. xalq musiqisinin, xüsusilə muğamların təbliğində B.-un xidməti böyükdür. O. resp. uşaq və orta ixtisas musiqi məktəbləri üçün muğamat proqramı tərtib etmiş, dərs vəsaiti kimi öz ifasında vallar buraxdırmışdır. "Azərbaycan xalq rəngləri" (1964), "Azərbaycan ritmik muğamları" (1968), "Muğam, mahnı, rəng" (1970) əsərlərinin müəllifidir. Ömrünün son illərində *Nəva, Hümayun, Dəşti, Bayatı-qacar, Segah, Şur, Xaric segah* muğamları B.-un ifasında "Melodiya" firması tərəfindən vala köçürülmüş, həmçinin bəstəkarlar tərəfindən (S. *Ələsgərov*, T. *Bakıxanov*, N. *Məmmədov* və b.) nota salınmışdır. Bakıdakı 6 saylı musiqi məktəbinə, Sumqayıtdakı 1 saylı uşaq incəsənət məktəbinə, H.Z. Tağıyev qəs.-ndəki musiqi məktəbinə B.-un adı verilmiş, yaşadığı ev muzeyə çevrilmişdir. Ə. Bakıxanova məxsus musiqi alətləri kolleksiyasının əsasında *Azərb. Musiqi Mədəniyyəti Dövlət Muzeyində* Azərb. xalq çalğı alətləri şöbəsi yaradılmışdır.



*Əd.:* Məmmədbəyov D. Muğam ustası Əhməd Bakıxanov. B., 1966; yenə onun, Ахмед Бакиханов и его роль в развитии музыкальной культуры Азербайджана. Б., 1977; Rəhmətov Ə. Əhməd Bakıxanov. B., 1977; Народный артист Азербайджанской ССР Ахмед Бакиханов. Б., 1988.

**BAKIXANOV** Həsən ağa (1833, Quba – 28.11.1898, Quba) – Azərb. hərbi xadimi, gen.-mayor. C. *Bakıxanovun* oğludur. Tiflis kadet korpusunu və Peterburqda paj korpusunu bitirmişdir. Əlahiddə Qafqaz Ordusunda xidmət etmiş, hərbi yürüşlərdə dəfələrlə fərqləndiyi üçün orden və medallarla təltif olunmuşdur. İrandakı Rusiya səfirliyində xidmət etmiş, həmin ölkənin "Şire-Xorşid" ordeninə layiq görülmüşdür. Müq. Vladimir (3-cü dərəcəli), Müq. Anna (4-cü dərəcəli), Müq. Stanislav (3-cü dərəcəli), Hərbi fəqrlənmə (2-ci dərəcəli) ordenləri, həmçinin medallarla təltif olunmuşdur.



*Əd.:* Nəzirli Ş. Azərbaycan generalları. B., 1991; yenə onun. Güllələnmiş Azərbaycan generalları. B., 2006.





**BAKIXANOV** Məmməd xan Məmmədrza oğlu (1890, Bakı – 20.2.1957, Bakı) – Azərb. tarzəni, Azərb. SSR əməkdar artisti (1943). *Bakıxanovlar* nəslindəndir. İlk təhsilini İranda almış, 1916 ildən musiqi məclislərində çıxış etməyə başlamışdır. 1920 ildən Bakıda fəaliyyət göstərmiş, eyni zamanda Şərq konservatoriyasında təhsil almışdır (Ş. Axundov və Məşədi Həsənin sinfində). 1923–36 illərdə Əməkçi türk qadınlarının mərkəzi mədəniyyət sarayında tar müəllimi olmuş, burada ilk dəfə qızlardan ibarət Şərq orkestri yaratmışdır. B. 1941 ildən Azərb. Dövlət Filarmoniyasının solisti olmuşdur. Klassik muğam ifaçılığı texnikasına dərindən bələd olan B. həm solo ifaçı, həm də müşayiətçi kimi tanınmışdı. C. *Qaryağdı oğlu*, S. *Şuşinski*, Z. *Adıgözəlov* kimi ustad xanəndələri müşayiət etmişdir.



**BAKIXANOV** Tofiq Əhməd xan oğlu (d.8.12.1930, Bakı) – Azərb. bəstəkarı, skripkaçı. Azərb. Resp. xalq artisti (1990), prof.(1983). Ə. *Bakıxanovun* oğludur. Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (prof. A.N. Amitonun skripka sinfini, 1953; Q. Qarayevin bəstəkarlıq sinfini, 1957). Yaradıcılığı musiqinin müxtəlif janrlarını əhatə edir. Onun "Xəzər balladası" birpərdəli baleti (1968) keçmiş SSRİ-nin və Fransanın bir çox şəhərində tamaşaya qoyulmuşdur. "Altı qızın biri pəri" (1964), "Məmmədəli kurorta gedir" (1969), "Qız görüşə tələsir" (1978) musiqili komediyaları (hər üçü N. Məmmədova ilə birgə), birpərdəli "Şərq poeması" (1976, tamaşası 1989; S. Yeseninin əsərlərinin motivləri üzrə) və "Xeyir və Şər" (1990, tamaşası 2010; N. Gəncəvi "Xəmsə"sinin motivləri üzrə) baletləri var. B. 8 simfoniyanın, 5 simfonik poemanın, böyük simfonik ork. üçün uvertüranın, müxtəlif alətlər üçün konsertlərin, 26 sonatanın, simfonik süitaların və s. müəllifidir. Tar ilə simfonik orkestr üçün yazılmış "Azərbaycan simfoniyası" (2002) dahi bəstəkar Ü. Hacıbəyliyə həsr olunmuşdur. "Nəva", "Hümayun", "Rahab", "Şahnaz", "Dügah" simfonik muğamlarının, kamera instrumental və vokal əsərlərin, bir sıra romans və mahnıların müəllifidir. B. 1953 ildən Bakı Musiqi Texnikumunun simli alətlər şöbəsinin müdiri və müəllimi olmuş, 1964 ildən Azərb. Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) dərs deyir. Azərb. Resp.-nın "Şöhrət" ordeni ilə təltif edilmişdir.



*Əd.:* Qafarova Z. Tofiq Bakıxanov. B., 1993.

**BAKIXANOV** – Azərb. Resp., Bakı ş.-nin Sabunçu r-nunda qəsəbə. Bakıxanov qəs. ə.d.-nin və Sabunçu r-nunun mərkəzi. Əh. 69,3 min (2008). Abşeron y-a-ndadır. Bakıxanov trikotaj ASC, tibb texnikası təmiri z-du, "SUN TEA" ATSC və s. müəssisələr, 12 tam orta məktəb, 4 məktəbdənkənar müəssisə, 14 məktəbəqədər uşaq müəssisəsi, 2 kollec, 2 peşə liseyi, idman liseyi, texniki məktəb, musiqi məktəbi, doğum evi, infeksion uşaq xəstəxanası və poliklinika şöbəsi, şəhər poliklinikası, vərəm əleyhinə dispanser, telefon qovşağı, 4 rabitə şöbəsi, mədəniyyət sarayı, Heydər Əliyev ad. park, 2 kitabxana var.

**BAKIXANOVLAR** – Azərb.-da (Bakıda) xan nəsli. Görkəmli nümayəndələri Abbasqulu ağa *Bakıxanov*, Abdulla ağa *Bakıxanov*, Həsən ağa *Bakıxanov*, Əhməd *Bakıxanov* və b. olmuşlar.

**BAKI–NOVOROSSİYSK NEFT KƏMƏRİ**, Şimal ixrac neft kəməri – Azərb. neftinin Rusiya Federasiyasına nəqlini təmin edir. Azərb. neftinin RF ərazisindən keçməklə Qara dənizin Novorossiysk portuna nəql olunması haqqında müqavilə 1996 il fevralın 18-də Moskvada imzalanmışdır. Mövcud kəmərdə yenidənqurma işləri aparıldıqdan sonra B.–N.n.k. vasitəsilə Azərb. nefti dünya bazarına çıxarıldı. Səngəçal terminalından başlayan neft kəməri Azərb.-dan keçərək RF-nin nəql. sisteminə qoşulur. Kəmərin uz. 1347 *km* (Azərb. ərazisində 231 *km*), diam. 720 *mm*, layihə gücü 6,1 mln. *t*-dur; 12 nasos st. vasitəsilə kəmərlə gündə təxminən 6–7 min *t* neft nəql olunur. B. N.n.k. ilə 31,5 mln. *t* Azərb. nefti nəql edilmişdir (01.05.2010).

**BAKI–SABUNÇU ELEKTRİK DƏMİR YOLU** – Azərb. d.y.-nun elektrikləşdirilmiş sahəsinin 1967 ilədək adı. 1926 ildə tikilib istifadəyə verilmişdir. Uz. təqr. 150 *km* olmuşdur.

**BAKI–SUPSA NEFT KƏMƏRİ**, Qərb ixrac neft kəməri – "Azəri–Çıraq–Günəşli" yatağından hasil edilən xam neftin nəqlini təmin edir. Kəmərin çəkilməsi haqqında müqavilə 1996 ildə Azərb. Resp. ilə Gürc. arasında bağlanmışdır. 1999 ildən istismar olunan kəmər Səngəçal terminalından Gürc.-ın Qara dənizdəki Supsa terminalınadək uzanır. Kəmərin diam. 530 *mm*, uz. 836 *km* (Azərb. hissəsi 456,9 *km*), illik neftötürmə qabiliyyəti 5,75 mln. *t*-dur. Neftin nəqli 6 nasos st. və 2 təzyiqazaldıcı st. ilə təmin edilir. Bu marşrutun *Bakı–Novorossiysk neft kəmərindən* üstünlüyü Azərb. neftinin təmiz halda (başqa neftlərə qarışdırılmadan) "Azeri light" markası ilə dünya bazarına çıxarılmasına imkan yaratmasıdır. B.–S.n.k. ilə 52 mln. *t* Azərb. nefti nəql edilmişdir (01.05.2010).

**BAKI–TBİLİSİ–CEYHAN NEFT KƏMƏRİ**, Əsas ixrac neft kəməri – "Azəri–Çıraq–Günəşli" neft yatağının tammiqyaslı işlənilmə layihəsi üzrə hasil olunan neftin Türkiyənin Ceyhan terminalından dünya bazarına ixracını təmin edir. B.–T.–C.n.k.-nin çəkilişi haqqında dövlətlərarası saziş 1999 ildə Türkiyənin İstanbul ş.-ndə ABŞ, Türkiyə, Azərb., Gürc., Qazax. və Tür. prezidentləri imzalamışlar; inşasına 2002 ilin sentyabr ayında Bakıda, Səngəçal terminalında başlanılmışdır. 2006 ilin mayında istifadəyə verilən kəmərin ümumi uz. 1768 *km* (Azərb.-da 443 *km*, Gürc.-da 250 *km*, Türkiyədə 1075 *km*), diam. 914–1066 *mm*, neftvurma nasos st.-larının sayı 8-dir. İllik neftötürmə qabiliyyəti 50 mln. *t*-dur (maks. 60 mln. *t*). Kəmərin çəkilməsinə təxminən 5 mlrd. dollar vəsait xərclənmişdir. Saziş üzrə səhmdarlar BP (B.Britaniya; 30,1%), ARDNŞ (25%), Şevron (Yunokal, ABŞ; 8,9%), Statoyl (Norveç; 8,71%), TRAO (Türkiyə; 6,53%), ENİ (İtaliya; 5%), TotalFinaElf (Fransa; 5%), İtoçi (Yaponiya; 3,4%), İNPEKC (Yaponiya; 2,5%), KonokoFilips (ABŞ; 2,5%) və Amerada Hess (ABŞ; 2,36%) şirkətləridir. Layihənin operatoru BP şirkətidir. Kəmərlə gündə 900 min *barreldən* (120 min *t*) çox neft nəql olunur (2010). B.–T.–C.n.k. istismara verilən gündən Ceyhan portundan 118,4 mln. *t* Azərb. nefti dünya bazarına yola salınmışdır (2010).

**BAKI–TBİLİSİ–ƏRZURUM QAZ KƏMƏRİ**, Cənub ixrac kəməri – "Şahdəniz" yatağından hasil edilən qazın dünya bazarına ixrac edilməsini təmin edir. 1999 ildə nəhəng "Şahdəniz" qaz-kondensat yatağının aşkar edilməsi Azərb.-da qaz sənayesini inkişaf etdirdi. 2001 ilin martında Azərb. Resp. ilə Türkiyə Resp. arasında bağlanmış sazişə görə hasil olunan qaz Türkiyəyə, sonradan isə Yunanıstan, Fransa, İtaliya və s. Avropa ölkələrinə nəql olunur. "Şahdəniz" yatağının və B.–T.–Ə.q.k.-nin səhmdarları ARDNŞ (10%), Statoyl (Norveç; 25,5%), BP (B.Britaniya; 25,5%), TotalFinaElf (Fransa; 10%), LukAcip (Rusiya–İtaliya; 10%), LİKO (İran; 10%), TPAO (Türkiyə; 9%) şirkətləridir. 2001 ilin sentyabr ayında Azərb. Resp. ilə Gürc. arasında təbii qazın Türkiyə Resp.-na tədarük edilməsinə dair saziş imzalanmışdır. Kəmərin açılışı 25 mart 2007 ildə olmuşdur. Kəmər Azərb.-ın Səngəçal terminalındakı qazı nəqlə hazırlayan qurğulardan başlayır və Azərb., Gürc., Türkiyə ərazilərindən keçərək Ərzurumda BOTAŞ şirkətinin boru kəmərləri sisteminə qoşulur; uz. 971 *km* (Azərb.-da 443 *km*, Gürc.-da 248 *km*, Türkiyədə 280 *km*), diam. 1070 *mm*, maks. illik qazötürmə qabiliyyəti 20 mlrd. $m^3$-dir. Kəmərlə gündə təxminən 14–15 mln. $m^3$ qaz nəql olunur. B.–T.–Ə.q.k. ilə Gürc.-a 1,13 mlrd. $m^3$, Türkiyəyə 12 mlrd. $m^3$ qaz verilmişdir (01.05.2010).

**"BAKI–TƏBRİZ"** – 2005 ilin oktyabrından Bakıda nəşr olunan ictimai-siyasi və elmi jurnal. Azərb. dilində (ing. və fars dillərində xülasələrlə) ildə 4 dəfə çıxır. "B.–T."-də Azərb.-ın tarixinə, ədəbiyyatına və mədəniyyətinə dair məqalələr dərc edilir.

**BAKI–TÜRKMƏNBAŞI BƏRƏ YOLU** – Xəzər dənizində Bakı və Türkmənbaşı portları arasında dəniz yolu. 1962 ildə Bakı-Krasnovodsk bərə yolu kimi açılmış və 1991 ilədək bu ad altında fəaliyyət göstərmişdir. Uz. 306 *km*-dir. B.–T.b.y. ilə sərnişin, d.y. vaqonları, avtomobil və s. daşınmaları yerinə yetirilir. Hazırda bu yol ilə Azərb. bayrağı altında 8 gəmi-bərə ("Azərbaycan", "Dağıstan", "Akad. H. Əliyev", "Akad. M. Topçubaşov", "Merkuri" və s.) işləyir. Hər bir gəmi-bərə 28 d.y. vaqonu və 200 sərnişin götürmək imkanına malikdir. Vaqonları gəmidən portun d.y.-na keçirmək üçün Bakı və Türkmənbaşı portları lazımi avadanlıqla təchiz olunmuşdur. Gəmi-bərələr portlar arasındakı məsafəni 12 saata qət edir. Azərb. və Tür. hökumətləri B.–T.b.y.-nun fəaliyyətini TRASECA (TRACECA) proqramı çərçivəsində genişləndirməyə çalışır.

**BAKİ** Mahmud Əbdülbaqi (1526, İstanbul – 1600, İstanbul) – türk şairi, orta əsrlər türk divan ədəbiyyatının görkəmli nümayəndələrindən biri. Sultan Süleyman Qanuniyə təqdim etdiyi (1554) bir qəsidə ilə onun diqqətini cəlb etmişdir. Hökmdarın himayəsində yaşamış, onu mədh etmişdir. Keçirdiyi dəbdəbəli həyat tərzinə uyğun qəzəllər yazmışdır. "Məlik üş-şüəra" adını almış, Ədirnə (1576), Məkkə (1579), Mədinə (1580) və İstanbul qazısı (1584, 1585), Anadolu və Rumeli qazəsgəri (1591, 1595, 1597) olmuşdur. Sultan Süleymanın ölümünə mərsiyə həsr etmişdir. Sultan öldükdən sonra çətinliklərlə qarşılaşmış, arzusunda olduğu Şeyxülislam mənsəbinə çata bilməmişdir. Məşhur "Bahariyyə" qəsidəsində təbiət gözəllikləri yüksək sənətkarlıqla təsvir olunmuşdur. Orta əsr Şərq müəlliflərinin bəzi əsərlərini türkcəyə tərcümə etmişdir ("Fəzaili-Məkkə" və s.). B. türk poeziyasını formaca təkmilləşdirmiş, şeir dilini yeniləşdirmiş və zənginləşdirmişdir. Azərb. poeziyasından bəhrələnən B., Füzulinin bir neçə qəzəlini ("Məni candan usandırdı, cəfadan yar usanmazmı?" və s.) təxmis etmişdir. Azərb. şair və alimlərindən Əhdi Bağdadinin və B. ilə şəxsən görüşmüş Sadıq bəy Əfşarın (Sadiqi) təzkirələrində ondan bəhs olunur.

*Əd.:* Q u l u z a d ə M. Füzulinin lirikası. B., 1965; C ə f ə r o v N. Türk xalqları ədəbiyyatı. 2-ci cild. Orta dövr. B., 2006.

**BAKİ** Məşədi Əyyub Hacı Sadıq oğlu (1863, Şuşa – 1909, Şuşa) – Azərb. şairi. *"Məclisi-fəramuşan"ın* fəal iştirakçılarından olmuşdur. Klassik və xalq poeziyası üslubunda lirik şeirlər (qəzəl, rübai, müxəmməs, müstəzad, mürəbbe və s.) yazmış, bayatı janrının kamil nümunələrini yaratmışdır. Şeirlərində zəmanədən şikayət, ədalətsizliyə, zülm və haqsızlığa etiraz motivləri əks olunmuşdur. Azərb. və fars dillərində şeirlərindən ibarət 200 səhifəlik "Riyazül-məhəbbət" ("Məhəbbət bağçası") adlı divanı (avtoqraf nüsxəsi şəxsi kitabxanadadır), cüng və bayazlara daxil edilmiş müxtəlif şeirləri AMEA-nın M. Füzuli ad. Əlyazmalar İn-tunda saxlanılır.

Ə s ə r i: Şeirlər//Poetik məclislər (tərtib edəni N. Qarayev). B., 1987.

**BAKİLVƏR** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Sirdan bölgəsinin Yuxarı Tarım kəndistanında. Sirdan qəs.-ndən 70 *km* şm.-q.-dədir.

**"BAKİNETS"** – Bakıda rus dilində nəşr edilmiş həftəlik ictimai-siyasi və ədəbi qəzet. İlk nömrəsi 1907 il sentyabrın 3-də, sonuncu nömrəsi 1920 il aprelin 26-da çıxmışdır.

**"BAKİNSKİ RABOÇİ"** – Bakıda rus dilində nəşr edilən qəzet. 1906 ilin mayında gizli çıxmış ilk nömrədən sonra nəşri dayandırılmışdır. 1908 ilin sentyabrından neft sənayesi fəhlələrinin leqal həftəlik qəzeti kimi nəşr edilən "B.r." RSDFP-nin Bakı Komitəsinin orqanı idi. Həmin ilin oktyabrında "B.r." bağlanmış, 1917 ilin aprelində qəzetin nəşri bərpa edilmişdir. 1917–18 illərdə "B.r."-nin 267 nömrəsi çıxmışdır. 1918 ilin avqustunda "B.r."-nin nəşri dayandırılmışdır. *Aprel işğalından (1920)* sonra, iyulun 15-dən qəzet "Azerbaydjanskaya bednota" adı ilə çıxmış, noyabrın 7-dən isə əvvəlki adını bərpa etmişdir. Sovet hakimiyyəti illərində "B.r." AKP MK, Azərb. SSR Ali Sovetinin və Nazirlər Sovetinin orqanı olmuşdur. Azərb.-ın dövlət müstəqilliyi bərpa olunduqdan (1991) sonra qəzet fəaliyyətini yeni dövrün tələblərinə uyğun quraraq davam etdirir. Qəzetin təsisçisi Azərb. Resp. Prezidenti Administrasiyasının İşlər İdarəsidir.

**BAKKARÁ** (fr. baccarat) – *büllur* fransız məmulatı. İlk dəfə 1816 ildə Bakkara ş.-nin (Fransa) Sent-Ann şüşə manufakturasında (əsası təqr. 1766 ildə qoyulmuşdur) istehsal edilmişdir. Materialın optik xüsusiyyətlərini effektli şəkildə göstərən və texniki mükəmməlliyi ilə seçilən çoxsaylı təraşlı xətlərlə bəzədilmiş qab dəstləri və vazlar geniş şöhrət tapmışdır. B. geniş mənada hər hansı yüksəkkeyfiyyətli büllur məmulatı, eləcə də taraşlama tipini bildirir.

Bakkara vazası. 1890–1900.
Viktoriya və Albert muzeyi. London.



**BAKLÁQA** (tatar dilində b a k l a k) – qısa dar boğazı və qayış keçirmək üçün gövdəsində qulpcuqları olan ağac, saxsı, yaxud metaldan düzəldilmiş kiçik su qabı; adətən, yola götürülürdü. Rahat daşınması üçün yastı silindrik və ya dairəvi formada olurdu. Keramikadan düzəldilmiş B.-nın bəzən qısa konusvarı ayaqları olur, səthi rəngli mina, yaxud qabarıq dairələrlə bəzədilirdi; metaldan düzəldilmiş B.-nın üzərinə oyma və ya zərbi naxışlar vurulurdu.

**BAKLÁNOV** Qriqori Yakovleviç (11.9.1923, Voronej – 23.12.2009, Moskva) – rus yazıçısı. SSRİ Dövlət mükafatı (1982) və RF Dövlət mükafatı (1996) laureatı. M. Qorki ad. Ədəbiyyat İn-tunu bitirmişdir (1951). 1986–93 illərdə "Znamya" jurnalının baş redaktoru işləmişdir. 1950 ildən çap olunmağa başlamışdır. Böyük Vətən müharibəsinin iştirakçısı olmuş, müharibə mövzusunda yazdığı və əsgər həyatının "səngər həqiqətlərini" olduğu kimi göstərən əsərləri B.-a böyük şöhrət qazandırmışdır. "Əsas zərbədən cənubda" (əvvəlki adı "Doqquz gün", 1958), "Bir qarış torpaq" (1959) povestləri kəskin diskussiyaya səbəb olmuş, yarımrəsmi tənqid yazıçını "qara yaxmaqda" günahlandırmışdır. "Ölünün dalınca danışmazlar" (1961), "Əbədi ondoqquz yaşlılar" (1979) povestləri müharibədə həlak olmuş nəslə rekviyemdir. "41-ci ilin iyulu" (1965) romanında müharibənin əvvəlində SSRİ-ni ağır məğlubiyyətə gətirib çıxaran Stalin repressiyası cəmiyyətin mənəvi-əxlaqi deformasiyasının başlıca səbəblərindən biri kimi dərk olunur. "Karpuxin" (1965), "Dostlar" (1975), "Qardaşların ən kiçiyi" (1981), "Öz adamımızdır" (1990), "Və onda qarətçilər gəlir" (1995) povestlərində B. cəbhədə vuruşmuş insanların müharibədənsonrakı mənəvi və məişət problemlərini təsvir etmişdir. B.-un ssenariləri əsasında 10 kinofilm çəkilmişdir. "Kəmərləri bağlayın" (1975) pyesinin, "İki dəfə bəxş olunmuş həyat" (1999) xatirələr kitabının müəllifidir.

Ə s ə r l ə r i: Собр. соч.: в 5 т. Спб., 2003.

**BÁKLUND** Oskar Andreyeviç (28.4.1846, İsveç, Karlstad yaxınlığında – 29.8.1916, Pulkovo) – rus astronomu, Peterburq EA-nın akad. (1883). Upsala Un-tini bitirmişdir (1872). 1876 ildə Rusiyaya köçmüşdür. 1895 ildən Pulkovo rəsədxanasının direktoru olmuşdur. Göy mexanikasına dair işlərin müəllifidir; onlardan ən məşhuru Enke (Enke Baklund) kometinin hərəkətinin tədqiqinə aiddir. Merkurinin kütləsini təyin etmişdir. B.-un geodeziya sahəsində də işləri vardır.

**BAKÓLOD** – Filippində şəhər. Qərbi Neqros əyalətinin inz. m. Neqros a.-nın şm.-q.-ində, Gimaras boğazının sahilində təpəli ərazidədir. Əh. 454,1 min (2005; ətrafı ilə 837,1 min). B. aqlomerasiyasına Viktoryas, Silay, Talisay və s. şəhərlər daxildir. Dəniz portu (şəkər ixrac olunur); İloilo ş. (Panay a.) ilə bərə əlaqəsi var. Aeroport. B. (təpəli ərazi deməkdir) İspaniya müstəmləkəçiliyinə qədər Maqsunqay çayının mənsəbində mövcud olmuş yaşayış məskəninin yerində salınmışdır. 1846 ildən ispan katolik missiyası, 1849 ildən Neqros, 1856 ildən Qərbi Neqros əyalətinin inz. m.-dir. 1938 ildə "1-ci dərəcəli" şəhər (siti) statusunu almışdır. Şəhərin mərkəzindəki San-Sebastyan kafedral kilsəsi (1876) yerli mərcan əhəngdaşından tikilmişdir. 95 min emal olunmuş dəniz balıqqulağından düzəldilmiş "Bakirə Məryəm" nadir mozaikası Santa-Klara kilsəsindədir. Qərbi Neqros əyalətində "Rekoletos" un-ti fəaliyyət göstərir. Hər il oktyabr ayında "Gülümsər maskalar" karnavalı keçirilir. Şəkər istehsalının və ixracının əsas mərkəzidir (Filippinin "şəkər paytaxtı"). Balıq və yeyinti sənayesi; içki müəssisələri (coca-cola, pivə) istehsalı var. Balıq ovlanır. Şəhər ətrafında dəniz çimərlikləri, Kanlaon Milli Parkı (Kanlaon sönmüş vulkanı, göllər, isti bulaqlar, şəlalələr, kanyonlar) var.

**BÁKON** (Bakony) – Macarıstanda dağ massivi. Balaton gölündən şm.-da, Orta Macarıstan dağları sistemindədir. Uz. 80 *km*. Hünd. 709 *m* (Köröşhed d.). Mezozoyun əhəngdaşı və dolomitlərindən, bazalt günbəzlərindən təşkil olunmuşdur. Palıd-fıstıq meşələri otlaqlarla və karst relyef sahələri ilə növbələnir. C. yamaclarında üzüm yetişdirilir. Qonur kömür, boksit, manqan yataqları var.

**BAKONCOLAR** – bax *Konzolar*.

**BAKONQOLAR** – bax *Konqolar*.

**BAKÖR** (*baddelit* və *korund* mineralının qısaldılmış adı) – tərkibində 33–45% sirkonium-oksid ($ZrO_2$) və 50% alüminium-oksid ($Al_2O_3$) olan odadavamlı material. Sıxlığı 3600–3800 *kq/m*³-dir; 1700°C-yə qədər temp-ra davamlıdır. B.-dan şüşəhazırlayan sobaların düzəldilməsində istifadə edilir.

**BAKSÁN** (Azau) – RF-də, Kabarda-Balkar Resp.-nda çay. Malka çayının (Terek çayının hövzəsi) sağ qolu. Uz. 173 *km*, hövzəsinin sah. 6800 $km^2$. Elbrus d.-nın (Böyük Qafqazda Yan silsilə) buzlaqlarından başlanır. Yuxarı axınında – dağ çayı, aşağılarda düzənliklə axır. Buzlaq, qar və yeraltı sularla qidalanır. Zayukovo k. yaxınlığında ortaillik su sərfi 33,6 $m^3$/*san*. Tırnıauz, Baksan ş.-ləri B.-ın sahilindədir. SES var. Yuxarı axınında dağ yamacları alpinizm və dağ xizək idmanı r-nudur.

**BAKSÁN** – RF-də, Kabarda-Balkar Resp.-nın c.-q.-ində şəhər. Baksan r-nunun inz. m. Əh. 56,8 min (2005). Baksan çayı sahilində, Nalçik d.y. st.-ndan 24 *km* aralıdır. Avtomobil yolları qovşağı. 1748 ildən məlumdur. 1822 ildə indiki B.-ın yerində Qafqaz hərbi xəttinin tərkibinə daxil olan istehkam (xarabalığı qalmışdır) salınmışdı. 1960 ildən kənd, 1967 ildən şəhər olmuşdur. Avtomobil ehtiyat hissələri, radioelektron sənayesi məmu-

Bakolod şəhərinin hökumət binası.



latları, konserv z-du, xəz f-ki, toxuculuq-trikotaj birliyi var. K.t. r-nunun (iri qarğıdalı təsərrüfatları) mərkəzidir. Yaxınlığında Baksan SES-i var.

**BÁKSTON** (Buxton) – B. Britaniyada balneoloji kurort. Pennin d-rında, 300–600 *m* yüksəklikdə, Mançester ş.-ndən c.-ş.-dədir. Əsas təbii müalicə amili radonlu termal (28°C-yədək) mineral sulardır. Əsasən, dayaq və hərəkət orqanları, periferik əsəb sistemi xəstəlikləri müalicə olunur. B. mineral bulaqları hələ qədim romalılara məlum idi. Kurort kimi 16 əsrdən inkişaf edir. Memarlıq abidələri (18 əsr) var.

**BAKŞÉYEV** Vasili Nikolayeviç (24.12. 1862, Moskva – 28.9.1958, Moskva) – rus rəssamı. SSRİ xalq rəssamı (1956), Peterburq Rəssamlıq Akademiyasının akad. (1913), SSRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü (1947), SSRİ Dövlət mükafatı laureatı (1943). A.K. *Savrasov*, V.D. *Polenov* və b.-ndan dərs almışdır (1877–88). Realist rəssamlar Birliyinin (1927–31) təşkilatçılarından olmuşdur. Erkən yaradıcılığı son *peredvijnikçilik* ənənələri ilə bağlı idi ("Gündəlik həyat", 1892–93; "Evə qayıtma", 1898; hər ikisi Tretyakov qalereyasındadır). B.-in əsərlərinə əzəli lirik əhvali-ruhiyyə xasdır ("Göyərçinlərə dən verən qız", 1887, yenə orada). Onlardakı bədiilik bir çox halda Polenovdan mənimsənilmiş *plener* vərdişləri ilə şərtləndirilir. Bu, bütün həyatı boyu onun yaradıcılığının əsas janrı olmuş peyzajda özünü daha qabarıq büruzə verir ("Payız şəfəqləri", 1916, Dövlət Rus muzeyi; "Mavi bahar", 1930; "Tutqun səhər", 1945; hər ikisi Tretyakov qalereyasındadır). B.-in "Moskva ətrafında" (1933) və "Yay günü" (1948) tabloları Azərb. Milli İncəsənət Muzeyində saxlanılır.

**BAKŞÓN MƏDƏNİYYƏTİ** – Vyetnamda Neolit dövrünə (e.ə. 10–6-cı minilliklər) aid arxeoloji mədəniyyət. Abidələri Bakşon d-rında aşkar olunduğu üçün belə adlandırılmışdır. B.m. üçün kobud daş çapacaqlar, qaşovlar, tiyəsi qismən cilalanmış baltalar, kərkilər, mikrolitlər (o cümlədən ağac tutacaqların içinə yerləşdirilmiş), üzərində novçaları olan və Bakşon nişanları adlandırılan uzunsov çınqıllar səciyyəvidir. B.m.-nin erkən mərhələsində (e.ə. 10–8-ci minilliklər) yalnız mağara düşərgələri məlumdur. B.m.-nin son mərhələsində (e.ə. 7–6-cı minilliklər) düzənliklərdə salınmış açıq yaşayış məskənləri; ştamplama və cızma naxışlı keramika: düz boğazı olan bardaqlar, altlıqlı piyalələr, qulplu qədəhlər və s. meydana gəlir. B.m.-nin Vyetnam ərazisində əkinçiliyin yaranması ilə bağlı olduğu ehtimal edilir.

**BAKŞTÁQ,** g ə m i ç i l i k d ə – 1) *yelkənli gəmilərin* hərəkət istiqaməti; gəminin uzununa oxu küləyin (külək gəminin arxa tərəfindən və yandan olduqda) istiqaməti ilə 90°-dən (8 rumb) artıq və 180°-dən (16 rumb) az bucaq əmələ gətirir. 2) gəmi dorunu, tüstü borusunu və s. bərkitmək üçün istifadə olunan gəmi ipləri.

**BAKT** (ər. البقط) – 7–13 əsrlərdə Şimal-Şərqi Afrikada vergi növü. Xəlifə Ömərin qoşunları Nubiyanı fəth etdikdən sonra B. müsəlman olmayan əhalidən alınırdı. 1276 ildə məmlük sultanı *I Baybars* Nubiyanı ələ keçirdikdən sonra əhali islamı qəbul etdi və B. ləğv olundu.

**BAKTERİAL FOTOSİNTEZ** – bax *Fotosintez.*

**BAKTERİAL PALEONTOLOGİYA** – 1 *mk*-dan azca kiçikdən 200 *mk*-adək ölçülü qazıntı mikroorqanizmləri (o cümlədən arxeylər, bakteriyalar, təkhüceyrəli eukariotlar, mikroskopik göbələklər) öyrənən paleontoloji tədqiqatlar istiqaməti. Mikroorqanizmlərin hər cür mühitdə, xüsusilə su hövzələrində, yüksəksürətli fossilləşmə (daşlaşmaların əmələ gəlməsi) şəraitində mövcud olması arxeydən başlayaraq çökmə süxurların bütün tiplərində onların yaxşı saxlanmasını şərtləndirmişdir. Mikroorqanizmlərin tədqiqi (adətən, elektron mikroskopun köməyi ilə) çökmə süxurların əmələgəlmə proseslərinin (sedimentogenezin) öyrənilməsində, mühitin müxtəlif parametrlərinin (hövzənin dərinliyinin, reduksiyaedicilərin və ya oksidləşdiricilərin olmasının, temp-r və duz rejimlərinin və s.) qiymətləndirilməsində, çöküntü faydalı qazıntı yataqlarının yaranmasında, biomineralləşmə problemlərinin, biosferin, xüsusilə də onun təşəkkül tapdığı erkən mərhələlərdə təkamülünün öyrənilməsində və s. böyük əhəmiyyət kəsb edir. B.p. 20 əsrin 90-cı illərinin əvvəllərində formalaşmışdır.

**BAKTERİAL STANDART** – mayedəki bakteriyaların miqdarını müəyyən etmək üçün içərisində asılı halda narın şüşə və ya barium-sulfat hissəcikləri olan su ilə doldurulmuş sınaq şüşələri dəsti. Bunların hər birinin bulanıqlıq dərəcəsi mayenin 1 *ml*-ində olan bakteriyaların miqdarına müvafiqdir. Mayedəki bakteriyaların miqdarı *nefelometriya, fotometriya* fiziki üsulları ilə daha dəqiq müəyyən edilir.

**BAKTERİAL SÜZGƏCLƏR** – mayeləri süzməklə onları bakteriyalardan və s. mikroorqanizmlərdən təmizləyən müxtəlif quruluşlu aparatlar. Şüşə, keramika və membranlı B. s.-dən istifadə edilir. B. s. qızdırılması mümkün olmayan mayeləri (bəzi dərman məhlullarını, mikroorqanizmlər üçün qida mühitini, zərdabları və s.) sterilləşdirmək məqsədilə işlədilir.

**BAKTERİOFAQLAR,** f a q l a r (*bakteriya* + yun. φάγος – yeyən) – bakteriya virusları. İngilis virusoloqu F. Tuort (1915) və Kanada bakterioloqu F.D'Errel (1917) tərəfindən bir-birindən asılı olmadan kəşf edilmişdir. Obliqat parazitlər olan B. yalnız canlı, aktiv metabolizə edən bakteriyalarda inkişaf edir. B.-ın vegetativ faq adlanan aktiv forması hüceyrə daxilində, onun replikasiya və ekspressiya edən genetik materialıdır. B. bu məqsədlə tədqiq olunan bir çox bakteriya növlərində aşkar edilmişdir. Bir qayda olaraq, hər bir bakteriofaq ancaq bir növə aid bakteriyalarda inkişaf edir, lakin müxtəlif bakteriya növlərində parazitlik edən polivalent B.-a da rast gəlinir.

Faq hissəciyi, genomu hüceyrədən kənarda saxlayan zülal örtüyün – kapsidin içərisində olan nuklein turşu molekulundan (bakteriofaq genomu) ibarətdir. B. formasına görə müxtəlifdir. Onlardan bəziləri kapsidinin diametri 20–30 *nm* (φX174, F2, R17, MS2) olan çoxüzlü formasında, yaxud uzunluğu 800 *nm*-ədək (fd, M13) olan sap şəkillidir. Daha mürəkkəb quruluşlu B. (T-faqlar, lyambda faqı və s.) ikosaedrik başcığa (diametri təqr. 100 *nm*) və hüceyrə ilə əlaqə yaradan çıxıntıya ("quyruq") malikdir.

B. hissəciklərinin morfoloji xüsusiyyətlərinə (başcığın forması, quyruğun olması, onun ölçüsü və yığılma qabiliyyəti), genomların oxşarlığına və onların nəzarət etdiyi zülal məhsullarına görə təsnifləşdirilir. Müxtəlif B.-ın genomlarının tərkibinə bir neçə gendən (xırda B.-da) bir neçə yüzə qədər gen (nəhəng virulent B.-da) daxildir. Əksər B.-ın genomları ikizəncirli DNT-dən təşkil olunmuşdur. Birzəncirli DNT (M13, S13, φX174), yaxud RNT (MS2, Qβ) molekulu olan B. da təsvir edilmişdir. Nuklein turşularının müxtəlif ölçülü molekulları xətti, fraqmentləşmiş, yaxud həlqəvi formada olur. Bəzi bakteriofaq genomları (məs., lyambda faqı) xətti formaya malikdir, lakin hüceyrəyə düşdükdən sonra həlqəvi şəkil alır.

B. bakteriya hüceyrəsinin səthindəki xüsusi reseptorlara birləşir. Faq genomunun hüceyrəyə daxil olması nuklein turşusunun hüceyrədən kənarda qalan kapsid zülallarının böyük bir hissəsindən ayrılması ilə müşayiət olunur. Bu andan etibarən ilk yetkin faq hissəciyi meydana gələnə qədər B.-ın müxtəlif genlərinin (ilkin və sonrakı) zamana görə ciddi nizamlanmış ekspressiyası baş verir. İlk ekspressiya edən genlər qrupu RNT-polimeraza fermenti ilə transkripsiya olunur: ya bakterial, ya da faqla kodlaşan (sonuncu halda onun molekulları genomla birlikdə daxil olur): onlar genomun replikasiyasına və bakterial membranın modifikasiyasına nəzarət edir. Sonra ekspressiya edən genlər, bir qayda olaraq, yeni yaranan genomlardan transkripsiya olunur. Onların iştirakı zamanı virionun yığılmasında, genetik materialın qablaşdırılmasında iştirak edən və müəyyən vaxtda bakteriyanın dağılmasını təmin edən kapsid zülalları meydana çıxır. Bakteriofaq hissəciklərinin ayrı-ayrı struktur elementlərinin yaranması konveyer yığılmasını xatırladır. Son mərhələdə genomun kapsidə qablaşdırılması baş verir.

Hüceyrə ilə qarşılıqlı təsirin xarakterindən asılı olaraq B. üç qrupa bölünür. Hüceyrənin v i r u l e n t B. ilə yoluxması (məs., bağırsaq çöplərinin T-cüt faqları) bakteriyanın dağılmasına (lizisinə) və faq nəslinin azad olmasına gətirib çıxarır. Mötədil B. (o cümlədən lyambda faqı, Mu 1, P1 və P2 enterobakteriyaları) üçün iki inkişaf yolu – litik (virulent faqların inkişafına oxşar) və hüceyrədə profaqın – virusun gizli qeyri-yoluxucu formasının qərarlaşması ilə başa çatan lizogen (bax *Lizogeniya*) yollar mümkündür. Bu zaman bakteriofaq genomu bakteriya xromosomuna qoşulur, ya da plazmid kimi sərbəst halda olur. Profaq daşıyan bakteriya lizogen adlanır; o, bu bakteriofaqla təkrar yoluxmaya davamlıdır. Müəyyən şəraitdə (şüalanma, kimyəvi reaktivlərin təsiri) profaqın aktivləşməsi baş verərsə, B.-ın inkişafı litik yolla davam edər. Üçüncü qrup B. (o cümlədən fd və M13) f a s i l ə s i z i n k i ş a f t s i k l i n ə malikdir. Onlar daim hüceyrədə çoxalır, həyat qabiliyyətli faq nəsli isə hüceyrə qilafının xüsusi məsamələrindən kənar olunur. Lakin təbii B.-ı bu və ya digər qrupa birmənalı aid etmək həmişə mümkün olmur: mötədil faqlar virulent mutantlar yarada bilər, həqiqi virulent olan faqların genomları (yaxud onların fraqmentləri) isə bakteriyaların xromosomuna qoşula bilər.

B.-ın genetik aparatında eyni bakteriyanı müxtəlif faqlar birgə yoluxduran zaman genomun ayrı-ayrı sahələrinin mübadiləsi nəticəsində, ya da mobil genetik elementlərin iştirakı ilə dəyişikliklər baş verə bilər. Virulent B.-ın genomlarında ən müxtəlif orqanizmlərin (o cümlədən patogen bakteriyaların, eukariotların), həmçinin heyvanların müxtəlif viruslarının zülallarına oxşar zülalların sintezinə nəzarət edən çoxsaylı genlər aşkar olunmuşdur; bu, biosferdə genlərin miqrasiyasında B.-ın iştirakını göstərir. B. çox vaxt dəyişilmiş antigen xassələrinə malik faqadavamlı bakteriya variantlarının seçimi ilə nəticələnən mühüm təkamül faktorudur. Mötədil B.-ın genomunun qeyri-düzgün kəsilməsi və (və ya) mobil genetik elementlərin iştirakı ilə B.-ın genomunun bir hissəsinin xromosoma qoşulması nəticəsində hüceyrələrdə çox vaxt defektli B. aşkar olunur. Bakterial DNT fraqmentinin (bakteriofaq genomu əvəzinə və yaxud genom ilə birlikdə) faq hissəciyinə səhv qablaşması nəticəsində transduksiyaya – bakteriya genlərini köçürməyə qabil B. xüsusilə əhəmiyyətlidir. Beləliklə, B. bakteriyaların müxtəlif ştamları (bəzən növləri) arasında genlərin sürətli mübadiləsini təmin edir.

20 əsrin 40-cı illərində genetik tədqiqatlara başlanması və bununla da klassik genetikanın əsas müddəalarının B.-a tətbiqini göstərə bilmiş M. *Delbryuk*, A.D. *Herşi* və b.-nın sayəsində B.-dan model genetik obyektlər kimi geniş istifadə olunur. B.-ın köməyi ilə genetik materialın

**Bakteriofaqların hissəciklərinin əsas morfoloji tipləri:** *a* – DNT tərkibli faqlar; *b* – RNT tərkibli faqlar.




zülal deyil, DNT olduğu tam sübut edilmiş, genlərin incə strukturunun analiz sistemi yaradılmış və mutagenezin molekulyar mexanizmlərinin modeli işlənib hazırlanmışdır. B. hesabına DNT replikasiyası xarakterinin yarımkonservativ olduğu tam təsdiqlənmiş, virus genomunun sahib-hüceyrə xromosomuna inteqrasiya mexanizmi ilk dəfə təsvir edilmişdir. B.-da restriksiya və modifikasiya mexanizminin aydınlaşdırılması gen mühəndisliyinin əsasını təşkil edən re-

**Bakteriofaq T4:** *a* – virus hissəciyinin quruluş sxemi; *b* – sahib-hüceyrədə (bağırsaq çöpü) çoxalma.



striktaza fermentlərinin kəşfinə səbəb oldu. B.-dan bakteriyaların genetik tədqiqində, vektorlar kimi genlərin klonlaşdırılmasında istifadə olunur. B. tibdə yanıqdan sonra, yaxud yara infeksiyalarının *faqoterapiyasında*, həmçinin patogen bakteriyaların identifikasiyası üçün tətbiq olunur.

*Əd.:* Адамс М. Бактериофаги. М., 1961; Жимулев И.Ф. Общая и молекулярная генетика. 2-е изд. Новосибирск. 2003; Bacteriophages: biology and applications. Ed. E. Kutter, A. Sulakvelidse Boca Raton, 2004.

**BAKTERİOXLOROFİLLƏR** – purpur (al-qırmızı) və yaşıl bakteriyaların, həmçinin sianobakteriyaların fotosintetik piqmentləri; kimyəvi quruluşuna görə Mg tərkibli porfirinlərdir.




Bakterioxlorofil *a* (başqa bakterioxlorofillərdə digər əvəzedicilərlə təmsil oluna bilən qruplar qırmızı rənglə göstərilmişdir, R-fitol qalığıdır).

Xromatoforların və tilakoidlərin membranlarında lokalizə olunmuşdur. Purpur bakteriyalarda *a*, yaxud *b* B.-i, yaşıl bakteriyalarda *a* B.-i *c*, *d* və ya *e* B.-i ilə birlikdə, sianobakteriyalarda isə *a* B.-i iştirak edir. Tərkibində *g* B.-i olan fototrof bakteriyalar da aşkar edilmişdir. Müxtəlif növ B. bir-birindən, əsasən, 3 və 4 vəziyyətlərində karbon atomları ilə porfirin skeletinin əvəzediciləri arasında ikiqat rabitənin olub-olmaması ilə seçilir. B. yaxın infraqırmızı sahədə (790–1040 *nm*) udma maksimumlarına görə fərqlənir.

**BAKTERİÓLİZ** (*bakteriya + ... liz*) – bakteriya qişalarının dağılması və onların sitoplazmasının ətraf mühitə çıxması. B. fiziki və kimyəvi agentlərin, *bakteriofaqların*, *bakteriolizinlərin*, bəzi fermentlərin, məs., lizosimin təsiri ilə baş verə bilər.

**BAKTERİOLİZİNLƏR** (*bakteriyalar + ... liz*) – qan zülalı kompleksinin – komplementin iştirakı ilə bakteriyaları dağıtmaq (həll etmək) qabiliyyətinə malik bakterial antigenlərə qarşı anticismlər. B. istər sınaq şüşəsində, istərsə də orqanizmdə canlı bakteriyaların səthi antigenləri ilə spesifik əlaqəyə girir, daha sonra komplementi aktivləşdirir; onun müəyyən komponentlərinin təsiri altında bakteriya hüceyrələrinin divarında mikrodəliklər əmələ gəlir. Bakteriyanın sonrakı dağılması osmotik baş verir. B. vəba, qarın yatalağı, paratif və bəzi başqa xəstəliklər zamanı immunitet yaradan amillərdən biridir.

**BAKTERİOLÓGİYA** (*bakteriyalar + ...logiya*) – *mikrobiologiyanın* bakteriyaları öyrənən bölməsi. "B." termini ən çox tibdə istifadə olunur.

**BAKTERİOLOJİ SİLAHLAR**, bioloji silah – *kütləvi qırğın silahı* növü; bakteriaların fəaliyyəti əsasında insan, heyvan və bitkilərdə kütləvi şəkildə xəstəlik törədir və ya onları məhv edir. Daha təhlükəli bakterial vasitələr (BV) vəba, taun, qarayara, qarın yatalağı və s. yoluxucu xəstəliklər epidemiyası yaradır. Biologiyanın və s. elmlərin inkişafı müharibələrdə istifadə ediləcək yeni BV-in işlənib hazırlanmasına səbəb ola bilər. BV maye, yaxud quru halda tətbiq edilir. B.s. raketlərin döyüş hissəsi, kaset, içərisində infeksion xəstəliyi yoluxduran həşərat doldurulmuş konteynerlər, çiləyici cihazlar, aviasiya bombaları, artilleriya mərmiləri və s.-dən, eləcə də onları daşıyan vasitələrdən (raket, təyyarə, aerostat, sualtı və suüstü gəmilər, artilleriya silahları və s.) ibarətdir. İnsanların BV ilə ehtimali kütləvi məhv edilməsinin müxtəlif üsulları öyrənilmişdir: infeksiyanın havanın yerətrafı təbəqəsinə aerozollarla yayılması; xəstəlik yoluxdurulmuş həşəratların əraziyə səpilməsi; BV-lə su, hava və ərzağın qapalı yerlərdə zəhərlənməsi və s. İlk dəfə 1763 ildə İngiltərə qoşunları çiçək xəstəliyinə yoluxdurulmuş infeksiya törədicilərindən istifadə edərək Amerikadakı hindi tayfaları arasında çiçək xəstəliyini yaymışdı. İkinci dünya müharibəsi ərəfəsində Almaniya və Yaponiya B.s.-ı tətbiq etməyə hazırlaşırdılar. Müharibə zamanı Yaponiya Çin qoşunlarına və dinc əhaliyə qarşı B.s.-dan istifadə etmişdi. ABŞ-da B.s. yaratmaq sahəsində işlərə 1941 ildə başlanılmışdı. Baxmayaraq ki, bir çox ölkələr B.s. yaratmaq imkanına malikdir, indiyədək bu silahın kütləvi şəkildə tətbiqi müşahidə olunmamışdır. B.s.-dan istifadə bəşəriyyətə qarşı ən ağır cinayət hesab edilir. Müharibələrdə boğucu, zəhərləyici və digər buna oxşar qazların, BV-in tətbiqini qadağan etmək haqqında Cenevrə protokolunu (1925) 100-dən artıq dövlət ratifikasiya etmiş və ya ona qoşulmuşdur. 1972 ildə BMT-nin Baş Assambleyasının 26-cı sessiyasında "Bakterioloji (bioloji) və toksinli silahların yaradılmasının, istehsalının və ehtiyat üçün toplanmasının qadağan edilməsi və onların məhv olunması" haqqında konvensiya qəbul edilmişdir (1975 ildən qüvvəyə minmişdir). Konvensiyanın işini nəzərdən keçirmək üçün müntəzəm olaraq beynəlxalq konfranslar keçirilir (1980, 1986, 1987, 1991, 1996, 2002).

*Əd.:* Бактериологическое оружие и защита от него. 2-е изд. М.,1971; Защита от оружия массового поражения. 2-е изд. М., 1989.

**BAKTERİOLOJİ SİLAHLARDAN MÜHAFİZƏ** – bax *Kütləvi qırğın silahlarından mühafizə.*

**BAKTERİORODOPSIN** – Halobakterium cinsinə aid halofil arxeylərin membran zülalı. Məməlilərdə gözün tor qişasının işığahəssas piqmentinə analoji olaraq *rodopsin* adlandırılmışdır. Rodopsin kimi B.-in də tərkibində xromofor qrupu qismində retinal (başqa bir konfiqurasiyada) var. İşığın təsirindən B. molekulunda hüceyrə membranının hər iki tərəfində $H^+$ protonlarının miqdarının dəyişməsi ilə müşayiət olunan konformasiya dəyişiklikləri baş verir; membranın xarici və daxili tərəfləri arasında ($H^+$ miqdarı hüceyrənin daxilinə nisbətən xaricində yuxarıdır) elektrokimyəvi potensialın baş verməsinə və ATF molekullarında ehtiyat enerjinin ayrılmasına səbəb olan proton qradiyenti yaranır. Beləliklə, B. günəş işığı enerjisini halobakteriyaların həyat fəaliyyəti üçün zəruri olan enerjiyə çevirən proton nasosu rolunu oynayır.

**BAKTERİOSİNLƏR** – bəzi bakteriyaların hasil etdiyi və həmin növün, yaxud ona qohum olan növün başqa ştammlarının bakteriyalarının həyat fəaliyyətini dayandıran zülallar. B.-ə ad, onları sintez edən bakteriyaların növ və cinslərinin adına görə verilir. Məs., kolisinlər bağırsaq çöpünün (*Esherichia coli*), stafilosinlər stafilokokkların adından əmələ gəlmişdir və s. B. təsir mexanizminə görə fərqlənir; onlar sitoplazmatik membranı zədələyə, DNT, RNT və zülalların sintezini poza bilər. B.-in sintezi (bakteriosinogeniya) bakteriyaların növdaxili və növarası rəqabətinin mexanizmlərindən biridir.

**BAKTERİOSTÁZ** (*bakteriyalar* + yun. ... stasis – yerində dayanma) – əlverişsiz fiziki və ya kimyəvi amillər, yaxud lazımi şəraitin (rütubət, temp-r, mühitin pH-ı və s.) olmaması nəticəsində bakteriyaların böyümə və çoxalmasının tam dayanması. Bu zaman mikrob hüceyrələrində maddələr mübadiləsi prosesləri pozulur. Bakteriostatik amillərin təsiri kəsildikdə bakteriyalar yenidən böyüməyə və çoxalmağa başlayır, uzun müddət təsir etdikdə isə onlar məhv olur. B. zamanı bakteriya kulturaları, adətən, həyat fəaliyyətini itirir və zəhərli maddələri ifraz etməyi dayandırır. Tibdə və baytarlıqda tətbiq olunan kimyəvi müalicə vasitələrinin təsiri B.-a əsaslanır. Ən müxtəlif bakteriostatik maddələr B.-a səbəb olur. B.-ı yaradan fiziki amillərə şüalanma, alçaq temp-r, yüksək osmotik təzyiq və s. aiddir.

**BAKTERİOZLAR** – *bakteriyaların* bitkilərdə törətdiyi xəstəliklər. Hər yerdə yayılmışdır, k.t. bitkiləri məhsulunun keyfiyyətinin və kəmiyyətinin xeyli aşağı düşməsinə səbəb olur. Kartof, kələm, xiyar və s. B.-ı xüsusilə zərərlidir. Bütün bitkinin, yaxud onun ayrı-ayrı hissələrinin (kələmin damar bakteriozu, kartofun halqavarı çürüməsi və s.) məhvinə səbəb olan diffuz, yaxud sistemli B. və bitkinin ayrı-ayrı hissələrinin, yaxud orqanlarının (xiyar və yemiş B.-ı, tərəvəzlərin nəm bakterial çürüməsi və s.) xəstəlikləri ilə məhdudlaşan yerli, yaxud lokal B. olur. B. bitkilərin parenxim (əsas) toxumalarında (ləkəlilik, çürümələr, yanıqlar), borulu sistemlərində təzahür (saralıb-solma) edə, yaxud qarışıq xarakter daşıya bilər. Çox vaxt bakteriyalar zədələnmiş orqanlarda şişlərin və ya fırların (çuğundur xərçəngi və vərəmi, meyvə bitkilərinin kök xərçəngi və s.) əmələ gəlməsinə səbəb olur. Bitkilərdə 100-ədək bakteriya növü parazitlik edə bilər. Bunlar, başlıca olaraq, Bacillus, Clavibacter, Erwinia, Pectobacterium, Pseudomonas, Xanthomonas, Ralstonia, Agrobacterium cinslərinə aid sporsuz çöpvarı, Streptomyces cinsinə aid bəzi telvarı bakteriyalardır. B.-ın əmələ gəlməsi və inkişafının səbəbi bitkinin xəstəliyə meyilliliyi, xarici mühit amilləridir; amilləri tənzimləməklə yoluxma prosesinə təsir etmək olar. Fitopatogen bakteriyaların əksəriyyəti aerobdur, onlar yalnız havanın rütubətliliyi yüksək olduqda inkişaf edə, neytral və ya zəif qələvi mühit şəraitində 25–30° C temp-rda sürətlə çoxala bilər. Bakteriyalar bitkilərə təbii dəliklərdən (ağızcıqdan, mərciməklərdən və s.), yaxud örtük toxumalarının zədələnmiş yerlərindən keçə bilər. Kiçik ölçülü olduqlarından bakteriyalar borulu sistemlə hərəkət edə bilir, bu da onların bitkidə tez yayılmasını və toxumlara keçməsini təmin edir. Bakterioz törədiciləri bitkidən bitkiyə hava axını, su (başlıca olaraq yağış vaxtı), cücü, nematodlar, molyusklar, quşlar vasitəsilə, yoluxmuş inventar və calaq materialından istifadə zamanı keçir.

Mübarizə tədbirləri davamlı sortların becərilməsi, növbəli əkinə riayət, sağlam toxum materialından istifadə edilməsi, toxumların dərmanlanması, onların isti hava ilə isidilməsi, istixanalarda və parniklərdə torpaqların zərərsizləşdirilməsi, qələmlərin (çiliklərin), tinglərin və inventarın dezinfeksiyası, xəstə zoğların kəsilməsi və məhv edilməsi, bitkilərin optimal qidalanması və su ilə təchiz olunması, bakterioz əlamətləri olan bitkilərin məhv edilməsi və dərin dondurma şumu aparılmasından ibarətdir.

**BAKTERİSİD LAMPA** – qazboşalma işıq mənbəyi; iş prinsipi civə boşalmasından yaranan UB şüalardan (dalğa uz. λ=254 *nm*) istifadəyə əsaslanır. B.l.-nın şüşə boru şəklində olan kolbasına təzyiq altında (200–300 *Pa*) tərkibində az miqdarda civə olan təsirsiz qaz (məs., ksenon) doldurulur. Borunun uclarına volframdan düzəldilmiş spiral elektrodlar lehimlənir. Elektrodlara gərginlik verildikdə onların arasındakı civə buxarında baş verən elektrik boşalması zamanı lampada UB şüalanma yaranır. B.l.-nın gücü 90 *Vt*-adəkdır; suyun, qida məhsullarının sterilizə edilməsi, əməliyyat otaqlarının mikroblardan təmizlənməsi və s. üçün tətbiq edilir.

**BAKTERİSİD MADDƏLƏR**, bakterisidlər (*bakteriyalar* + lat. caedo – öldürmək) – bakteriyaları və başqa mikroorqanizmləri məhv edən maddələr. Göbələklərə təsir edən B. m. *antimikotiklər*, amyöbləri öldürənlər – amyöbosidlər və s. adlanır. B. m.-ə kimyəvi təbiətinə görə müxtəlif birləşmələr aiddir: fenol, süleymani [civə (II) – xlorid], spirt, formalin, hidrogen-peroksid, antibiotiklər, kükürd(IV)oksid, etilenoksid, metilbromid və s.; heyvan və insan qanındakı immun anticismlər də bakterisid xüsusiyyətlərə malikdir. B.m.-in təsir mexanizmi olduqca müxtəlifdir. Onlar hüceyrənin zülallarını denaturasiya, onun genetik aparatına təsir edə, fermentlərin işini poza bilər və s. B.m. kiçik dozalarda bakteriostatik maddə kimi təsir edərək mikroorqanizmlərin inkişafını dayandırır. Populyasiyanın ayrı-ayrı mikroorqanizmlərinin eyni bir maddəyə görə fərqli həssaslığı çox vaxt ona qarşı davamlı cinslərin əmələ gəlməsinə səbəb olur. Bakteriyaların vegetativ hüceyrələri sporlara nisbətən B. m.-in təsirinə daha çox meyillidir. Zülallar (irin, zərdab, süd və s.) B. m.-in fəallığını azaldır. B.m. dezinfeksiyaedici və ya antiseptik vasitə kimi və kimyəvi terapiyada istifadə edilir.

**BAKTERİSİDLƏR** – bax *Bakterisid maddələr.*

**BAKTERİYAGƏZDİRMƏ** – bax *İnfeksiyagəzdirmə.*

**BAKTERİYALAR** (yun. βακτηριον – çöp) (eubakteriyalar, əsl, yaxud həqiqi bakteriyalar) – prokariot tipli hüceyrə quruluşu olan mikroorqanizmlər: onların genetik aparatı hüceyrə nüvəsi membranı ilə sitoplazmadan ayrılmamışdır.

**Hüceyrələrin ölçü və formaları.** B.-ın əksəriyyəti 0,2–10,0 *mkm* ölçüdə birhüceyrəli orqanizmlərdir. B. arasında həm nanobakteriyalar adlanan "cırtdanlara" (0,05 *mkm*-ə yaxın), həm də "nəhənglərə", məs., Achromatium və Macromonas cinsindən olan B.-a (uz. 100 *mkm*-ədək), balıq-cərrahın bağırsağında yaşayan Epulopiscium fishelsoni (uz. 600 *mkm*-ədək), Namibiya və Çilinin sahilyanı dəniz sularında müəyyənləşdirilmiş Thiomarqarita namibiensisə (800 *mkm*-ədək) təsadüf edilir. Bakteriya hüceyrəsi çox vaxt çöp, kürə (kokklar), yaxud burulmuş (vibrionlar, spirillər və spiroxetlər) şəkildə olur. Üçbucaq, kvadrat, ulduz və lövhə (boşqab) formalı hüceyrələr də aşkar edilmişdir. Bəzi B.-ın sitoplazmatik çıxıntıları var. B. tək-tək, cüt, qısa və uzun zəncirlər, salxımlar, 4, 8 və daha çox hüceyrədən ibarət paketlər (sarsinlər), rozetlər, tor və miselilər (aktinomisetlər) şəklində ola bilər. Düz və şaxələnən trixomalar (mikrokoloniyalar) əmələ gətirən çoxhüceyrəli formaları da məlumdur. Hərəki və hərəkətsiz B.-a da rast gəlinir. Birincilər əksər hallarda qamçıların köməyi ilə, bəzən isə hüceyrə sürüşməsi ilə (miksobakteriyalar, sianobakteriyalar, spiroxetlər və s.) yerlərini dəyişə bilir. Təbiəti aydın olmayan "sıçrayışlı" hərəkətə malik B. da məlumdur. Hərəki formalar üçün fiziki, yaxud kimyəvi amillərin təsirinə cavab olan fəal hərəkət hadisələri təsvir edilmişdir.

**Hüceyrələrin kimyəvi tərkibi və quruluşu.** Bakteriya hüceyrəsi, adətən 70–80% sudan ibarətdir. Quru kütlənin 50%-ini zülal, 10–20%-ini hüceyrə divarının komponentləri, 10–20%-ini RNT, 3–4%-ini DNT və 10%-ini lipidlər təşkil edir. Bu-

nunla bərabər orta hesabla karbon 50%, oksigen 20%, azot 14%, hidrogen 8%, fosfor 3%, kükürd və kaliumun hər biri 1%, kalsium və maqneziumun hər biri 0,5% və dəmir 0,2% olur.

Bəzi istisnalarla (mikoplazmalar) bakteriya hüceyrələri hüceyrə formasını müəyyən edən, mexaniki və mühüm fizioloji funksiyaları yerinə yetirən hüceyrə divarı ilə əhatə olunmuşdur. Onun əsas komponenti murein (peptidoqlikan) adlanan mürəkkəb biopolimerdir. Hüceyrə divarının tərkib və quruluş xüsusiyyətlərindən asılı olaraq B.-ın H.K. Qram (rəngləmə üsulunu təklif edən Danimarka alimi) üsulu ilə rənglənməsi zamanı özlərini müxtəlif cür aparması, onları qrammüsbət, qrammənfi və hüceyrə divarı olmayanlara (məs., mikoplazmalar) bölməyə əsas verir. Qrammüsbətlər tərkibində daha çox (40 dəfəyə qədər) mureinin və qalın hüceyrə divarının olması ilə fərqlənir; qrammənfilərdə hüceyrə divarı xeyli nazikdir və zülallardan, fosfolipidlərdən, lipopolisaxaridlərdən ibarət olan və, ehtimal ki, maddələrin nəqlində iştirak edən xarici membranla örtülmüşdür. Bir çox B.-ın səthində tükcüklər (fimbriyalar, pillər) və onların hərəkətini təmin edən qamçılar vardır. Əksər hallarda bakteriya hüceyrələrinin divarı, əsasən, polisaxaridlərdən (bəzi hallarda isə qlikoproteinlərdən, yaxud polipeptidlərdən) əmələ gəlmiş müxtəlif qalınlıqlı selikli kapsullar ilə əhatə olunmuşdur. Bir sıra B.-da hüceyrə qilafının xarici səthini bərabər ölçüdə yığılmış, düzgün formalı zülal strukturları ilə örtən S-qatı (ing. surface – səth) da aşkar edilmişdir.

Sitolazmanı hüceyrə divarından ayıran sitoplazmatik membran hüceyrənin osmotik baryeridir və maddələrin nəqlini tənzimləyir; burada tənəffüs, azotfiksasiya, xemosintez və s. proseslər baş verir. Membran çox vaxt gərilmə şəklində mezosomlar əmələ gətirir. Sitoplazmatik membran və onun törəmələri ilə, həmçinin hüceyrə divarının sintezi, sporəmələgətirmə və s. ilə əlaqədardır. Ona qamçılar, genom DNT-si birləşmişdir.

Bakteriya hüceyrəsi kifayət qədər sadə quruluşa malikdir. Bir çox B.-ın sitoplazmasında sitoplazmatik membranın gərilməsi nəticəsində yaranmış müxtəlifnövlü qabarcıqlar (vezikulalar) ilə təmsil olunan törəmələr vardır. Fototrof, nitrifikasiyalaşdırıcı və metanoksidləşdirici B. üçün eukariotlardakı xloroplastların qranlarını xatırladan, bir-birinə birləşmiş qabarcıqlar şəklində olan inkişaf etmiş




**Bakterirya hüceyrəsinin quruluş sxemi:**
*1* – pillər; *2* – selikli kapsula; *3* – sitoplazmatik membran; *4* – genom DNT-si (nukleoid); *5* – plazmidlər; *6* – karboksisomlar; *7* – qamçılar; *8* – sitoplazma; *9* – ehtiyat maddələrin möhtəviyyatı; *10* – hüceyrə divarı; *11* – ribosomlar.

sitoplazmatik membran şəbəkəsi xarakterikdir. Suda yaşayan bəzi B.-ın hüceyrələrində sıxlığı tənzimləyən qovuqcuqşəkilli vakuollar (aerosomlar) olur; bir çox B.-da ehtiyat maddələri – polisaxaridlər, poli-β-hidroksibutirat, polifosfatlar, kükürd və s. toplayan törəmələr aşkar edilmişdir. Sitoplazmada ribosomlar (5-dən 50 minə qədər) da vardır. Bəzi B.-da (məs., sianobakteriyaların çoxunda) $CO_2$-nin fiksasiyasında iştirak edən fermentin olduğu karboksisom cisimcikləri vardır. Bəzi sporəmələgətirən B.-ın parasporal cisimciklərində cücü sürfələrini məhv edən toksin olur.

B.-ın genomu (nukleoid) çox vaxt bakteriya xromosomu adlandırılan halqaşəkilli DNT molekulundan ibarətdir. Bakteriya genomu üçün funksional əlaqədə olan genlərin operonlarda birləşməsi xarakterikdir. Bundan başqa, hüceyrədə xromosomdankənar genetik elementlər – *plazmidlərin* DNT-si iştirak edə bilər. Plazmidlər B. üçün faydalı olan bir neçə gen (o cümlədən antibiotiklərə davamlı genlər) daşıyır. DNT müstəqil ola və ya müvəqqəti xromosoma qoşula bilər. Lakin bəzi hallarda, mutasiya nəticəsində, bu DNT xromosomdan ayrılmaq qabiliyyətini itirir və genomun daimi komponentinə çevrilir. Yeni genlərin yaranması, həmçinin donor-hüceyrədən resipiyent-hüceyrəyə DNT-nin biristiqamətli genetik ötürülməsi (cins prosesin analoqu) nəticəsində mümkündür. Belə ötürülmə iki hüceyrənin birbaşa təması (*konyuqasiya*) zamanı, bakteriofaqların iştirakı (*transduksiya*) ilə, yaxud hüceyrəarası təmas olmadan genlərin xarici mühitdən hüceyrəyə düşməsi ilə həyata keçə bilər. Bütün bunlar B.-ın mikrotəkamülü və onların yeni xassələr kəsb etməsi üçün böyük əhəmiyyətə malikdir.

**B.-ın çoxalması.** B.-ın əksəriyyəti ikiyə bölünmə yolu ilə, az hallarda tumurcuqlanma, bəziləri (məs., aktinomisetlər) isə ekzosporların, yaxud miseli qırıqlarının vasitəsilə çoxalır. Çoxsaylı bölünmə (bir sıra sianobakteriyalarda xırda reproduktiv hüceyrə-baeositlərin əmələ gəlməsi) üsulu da məlumdur. Çoxhüceyrəli prokariotlar bir, yaxud bir neçə hüceyrənin trixomlardan ayrılması ilə arta bilər. Bir sıra B. mürəkkəb inkişaf tsikli ilə xarakterizə olunur; bu zaman hüceyrələrin morfologiyası dəyişilə və sistalar, endosporlar, akinetlər kimi sükunətli formalar yarana bilər. Miksobakteriyalar, çox vaxt qəribə konfiqurasiyalara və rənglərə malik meyvə cisimləri əmələ gətirmək qabiliyyətinə malikdir.

B.-ın fərqləndirici xüsusiyyəti, onların sürətlə çoxalma qabiliyyətidir. Məs., bağırsaq çöpü hüceyrəsinin (Escherichia coli) ikiqat artma müddəti 20 dəq.-dir. Hesablanmışdır ki, bir bakteriya hüceyrəsinin nəsli qeyri-məhdud artarsa, artıq 48 saatdan sonra onun kütləsi Yerin kütləsindən 150 dəfə çox ola bilər.

**Yaşama şəraiti.** B. müxtəlif həyat şəraitinə uyğunlaşmışlar. Onlar –5°C-dən (və daha aşağı) 113°C-yədək temp-r diapazonunda inkişaf edirlər. Onların içərisindən 20°C-dən aşağı temp-rda inkişaf edən psixrofillər (məs., Bacillus psichrophilusun inkişafı üçün temp-r həddi –10°C-dir), mezofillər (optimal inkişaf 20–40°C temp-rda olur), termofillər (50–60°C), ekstremal termofillər (70°C) və hipertermofillər (80°C və daha yuxarı temp-rda) ayrılır. Ayrı-ayrı bakteriya növlərinin sporları 160–180°C-yədək qısamüddətli qızdırılmaya və –196°C və daha aşağı temp-radək uzunmüddətli soyudulmaya davamlıdır. Bəzi B. ionlaşdırıcı şüalara qarşı olduqca davamlı olur və hətta atom reaktorlarının konturlarını soyudan suda yaşayır (Deinococcus radiodurans). Bir sıra B. (barofillər, yaxud pyezofillər) 101 min *kPa*-la qədər hidrostatik təzyiqə yaxşı davamlıdır, ayrı-ayrı növlər isə 50 min *kPa*-dan aşağı təzyiqdə inkişaf etmir. Eyni zamanda, atmosfer təzyiqinin hətta cüzi yüksəlməsinə davamsız olan B. da vardır. Su mühitində duzların (NaCl) qatılığı 0,5 *mol/l*-dən çox olduqda B.-ın əksər növləri inkişaf etmir. Mötədil və ekstremal halofillərin inkişafı üçün optimal şərait, mühitdə NaCl-un qatılığı müvafiq olaraq 10 və 30% olduqda müşahidə edilir; onlar, hətta duzların doymuş məhlulunda belə arta bilir.





Bir qayda olaraq, B. neytral mühit şəraitinə (pH-ı təqr. 7,0) üstünlük verir, lakin pH-ı 0,1–0,5 olan mühitdə inkişaf edən ekstremal asidifillər, həmçinin pH-ı 13,0-adək olan mühitdə inkişaf edən alkalifillər də rast gəlir.

Öyrənilmiş B.-ın böyük əksəriyyəti aeroblardır. Onların bəziləri (mikroaerofillər) $O_2$-nin cüzi qatılığında (1,0–5,0%-ədək) inkişaf edə bilir. Fakultativ anaeroblar həm oksigenli, həm də oksigensiz mühitdə çoxalır; onlar metabolizmi aerob tənəffüsdən qıcqırmaya, yaxud anaerob tənəffüsə (enterobakteriyalar) dəyişmək qabiliyyətinə malikdir. Aerotolerant anaerobların inkişafına $O_2$-nin cüzi miqdarda olması təsir göstərmir, çünki onlar (məs., süd turşusu B.-ı) həyati fəaliyyət prosesində oksigendən istifadə etmir. Yaşadığı mühitdə $O_2$-in hətta cüzi miqdarı kəskin anaeroblar üçün məhvedicidir.

Bir çox B. sükunətli formalar əmələ gətirməklə əlverişsiz mühit şəraitinə uyğunlaşır.

**Qidalanma tipləri**. B. üçün hüceyrə ilə xarici mühit arasında maddələr mübadiləsinin intensivliyi, həmçinin metabolizmin plastikliyi xarakterikdir. Onlar yüksək dərəcədə adaptasiya olunmaq qabiliyyətinə malikdir, asanlıqla müxtəlif mühit şəraitinə (o cümlədən ekstremal şəraitə) uyğunlaşır, bir qidalanma tipindən digərinə keçə bilir. Başqa orqanizmlər kimi, B. başlıca olaraq fotosintez, tənəffüs və müxtəlif tip qıcqırma prosesində yaranan ATF formasında enerji ehtiyatı toplayır. İstifadə edilən karbonun mənbəyindən asılı olaraq B. a v t o t r o f l a r a (öz tələbatlarını $CO_2$-nin hesabına tamamilə təmin edir) və h e t e r o t r o f l a r a (tələbatları hazır üzvi birləşmələrlə təmin olunur) bölünür. Lakin bu terminlər B.-ın qidalanma tiplərinin müxtəlifliyini əks etdirmir. Buna görə də onları xarakterizə edən zaman enerji mənbəyinə, hidrogen donoruna (elektronlara) və biosintez prosesində istifadə olunan maddələrə istinad edilir. Əksər B. üçün enerji mənbəyi kimyəvi maddələrin oksidləşməsidir (x e m o t r o f l a r). Bir sıra B. (o cümlədən al-qırmızı və yaşıl B., sianobakteriyalar) fotosintez zamanı işıq enerjisini üzvi maddələrin kimyəvi rabitə enerjisinə çevirir (f o t o t r o f l a r). Oksidləşməyə qeyri-üzvi maddələr məruz qaldıqda (yəni onlar hidrogen donoru kimi istifadə olunduqda) B.-ı l i t o t r o f l a r (xemosintetiklər), üzvi maddələr məruz qaldıqda – o r q a n o t r o f l a r adlandırırlar. Bu baxımdan 8 qidalanma tipi

**Bakteriyaların əsas formaları**




və onlara uyğun B. qrupları ayırd edilir: fotolitoavtotroflar (sianobakteriyalar, al-qırmızı anaerob B.), fotolitoheterotroflar (bəzi anaerob B.), fotoorqanoheterotroflar (kükürdsüz al-qırmızı B.), fotoorqanoavtotroflar (bəzi al-qırmızı B.-a xas olan nadir qidalanma tipi), xemolitoavtotroflar (məs., nitrifikatorlar, tion B.-ı), xemolitoheterotroflar (bir çox sulfatreduksiyaedici B.), xemoorqanoavtotroflar (bir çox hidrogen B.-ı) və xemoorqanoheterotroflar (orqanotrof B.-ın əsas massivi). Yalnız sahib-orqanizmin əmələ gətirdiyi mürəkkəb üzvi maddələrdən istifadə edən obliqat parazitlər (paratroflar) də məlumdur.

Azot birləşmələrini utilizasiya edən əksər B., bir qayda olaraq, onun reduksiya olunmuş formalarından (çox vaxt ammonium duzlarından), bəziləri hazır aminturşulardan istifadə edir, digərləri isə onun oksidləşmiş formalarını (əsasən, nitratları) da mənimsəyir. Sərbəst yaşayan və simbioz həyat tərzi keçirən B.-ın xeyli hissəsi molekulyar azotu fiksasiya etmək (bax *Azotfiksasiya*) qabiliyyətinə malikdir. Nuklein turşularının və hüceyrənin digər birləşmələrinin tərkibinə daxil olan fosforu B., əsasən, fosfatlardan alır. Aminturşuların və bir sıra fermentlərin kofaktorlarının biosintezi üçün zəruri olan kükürd mənbəyini çox vaxt sulfatlar təşkil edir; B.-ın bəzi növləri kükürdün reduksiya olunmuş birləşmələrindən istifadə edir.

**Sistematika.** B.-ın rəsmi qəbul edilmiş təsnifatı yoxdur. Ilk dəfə bu məqsəd üçün morfoloji və fizioloji əlamətlərin oxşarlığına əsaslanan süni təsnifatdan istifadə edilmişdir. Daha təkmil filogenetik (təbii) təsnifat, onların mənşəyinin ümumi olmasından çıxış edərək qohum formaları birləşdirir. Belə yanaşma, rRNT-nin 16S geninin universal marker kimi seçilməsindən, nukleotid ardıcıllığını müəyyənləşdirən və müqayisə edən üsulların yaranmasından sonra mümkün olmuşdur. 16S rRNT-nin geni (prokariot ribosomlarının kiçik subhissəciyinin tərkibinə daxildir) bütün prokariotlarda mövcuddur, nukleotid ardıcıllığının yüksək dərəcəli konservativliyi və funksional sabitliyi ilə xarakterizə olunur. Ən çox istifadə edilən təsnifat Berci təyinedicisi dövri nəşrində çap olunur. Mövcud orqanizm sistemlərindən birinə görə, B. arxeylər ilə birlikdə prokariot aləmini təşkil edir; bir çox tədqiqatçı onları domen (və ya üstaləm) hesab edir, arxey və eukariot domenləri (və ya üstaləmləri) ilə yanaşı. Domen hüdudlarında B.-ın ən böyük taksonu filumlardır: 5 sinif və 28 sıranı birləşdirən Proteobacteria; Actinobacteria (5 sinif və 14 sıra) və Firmicutes (3 sinif və 9 sıra). Bundan başqa, fəsilələr, cinslər, növlər və yarımnövlər kimi daha aşağı dərəcəli taksonomik kateqoriyalar da mövcuddur.

Müasir təsəvvürlərə görə, 16S rRNT-ni kodlaşdıran genlərdə nukleotidlərin ardıcıllığı 97%-dən çox uyğun gələn, genomda nukleotidlərin ardıcıllığının ho-

mologiya səviyyəsi isə 70%-dən artıq olan B.-ın ştamları bir növə aid edilir. 5000-ə qədər bakteriya növü təsvir edilmişdir; bu, planetimizdə mövcud B.-ın cüzi hissəsini təşkil edir.

**Bakteriyaların əhəmiyyəti.** Ən qədim orqanizmlər olan B. təqr. 3,5 mlrd. il əvvəl *Arxeydə* meydana gəlmişdir. Təqr. 2,5 mlrd. il B. biosferi əmələ gətirməklə Yerdə dominant mövqe tutmuş, oksigenli atmosferin yaranmasında iştirak etmişdir. Çoxhüceyrəli orqanizmlər yarandıqdan sonra onlar ilə B. arasında çoxsaylı əlaqə, o cümlədən orqanotroflar vasitəsilə üzvi maddələrin çevrilməsi və müxtəlif tipli simbiotik əlaqələr, parazitizm, bəzən hüceyrədaxili (rikketsiyalar), və patogenez əmələ gəlmişdir. Təbii yaşama yerlərində B.-ın və digər mikroorqanizmlərin olması ekoloji sistemlərin bütövlüyünü müəyyən edən çox mühüm amildir. Başqa orqanizmlərin yaşaması üçün yararlı olmayan ekstremal şəraitdə B. həyatın yeganə forması ola bilər.

B. planetimizdə *biogeokimyəvi tsikllərdə* (o cümlədən əksər kimyəvi elementlərin dövranında) fəal iştirak edir. B.-ın müasir geokimyəvi fəaliyyəti həmçinin qlobal xarakter daşıyır. Məs., Dünya okeanında fotosintez prosesində fiksasiya olunmuş $4,3\cdot10^{10}$ *t* (qiqaton) üzvi karbonun təqr. $4,0\cdot10^{10}$ *t*-u dərin su qatlarında minerallaşır, onun 70–75%-ini B. və digər mikroorqanizmlər minerallaşdırır, okean çöküntülərində reduksiya olunmuş kükürdün ümumi miqdarı isə ildə $4,92\cdot10^{8}$ *t*-a çatır ki, bu da bəşəriyyət tərəfindən istifadə olunan kükürdlü xammalın bütün növlərinin illik hasilatından 3 dəfə çoxdur. Atmosferə daxil olan parnik qazı metanın əsas hissəsini B. (metanogenlər) əmələ gətirir. B. torpaqəmələgəlmə prosesində, sulfid və kükürd yataqlarının oksidləşmə zonalarının, dəmir və manqanlı çökmə süxurların yaranmasında və s. əsas amildir.

Bəzi B. insan, heyvan və bitkilərdə ağır xəstəliklər törədir. Onlar çox vaxt k. t. məhsullarının xarab olmasına, binaların yeraltı hissələrinin, boru kəmərlərinin, şaxtaların metal konstruksiyalarının, sualtı qurğuların və s.-nin dağılmasına səbəb olur. B.-ın həyat fəaliyyəti xüsusiyyətlərinin öyrənilməsi, onların törətdiyi zərərdən müdafiə olunmaq üçün effektiv üsulların işlənib hazırlanmasına imkan verir. Eyni zamanda, insan üçün B.-ın müsbət rolunu qiymətləndirməmək olmaz. B. vasitəsilə şərab, süd məhsulları, maya və s. məhsullar, aseton və butanol, sirkə və limon turşusu, bəzi vitaminlər, bir sıra fermentlər, antibiotiklər və karotinoidlər alınır; B. steroid hormonlarının və b. birləşmələrin transformasiyasında iştirak edir. Onlardan zülal (o cümlədən fermentlər) və bir sıra aminturşular almaq üçün istifadə olunur. K.t. tullantılarından bioloji qaz, yaxud etanolun alınması üçün B.-ın tətbiqi prinsip etibarilə yeni təkrar enerji ehtiyatlarının yaradılmasına imkan verir. B.-dan metalların (o cümlədən qızılın) çıxarılmasında, layların neftverməsinin artırılmasında (bax *Bakteriyalarla ayırma, Biogeotexnologiya*) istifadə edilir. B.-ın və plazmidlərin sayəsində gen mühəndisliyinin inkişafı mümkün olmuşdur. B.-ın öyrənilməsi biologiyanın bir çox istiqamətinin yaranmasında, tibdə, aqronomiyada böyük rol oynamışdır. Genetikanın inkişaf etməsində də B.-ın əhəmiyyəti böyükdür, belə ki, genlərin təbiətinin və onların fəaliyyət mexanizminin öyrənilməsində B. klassik obyekt olmuşdur. Müxtəlif birləşmələrin metabolizm yollarının müəyyən edilməsi və s. B.-la əlaqədardır.

Praktiki cəhətdən B.-ın potensialı tükənməzdir. Onların həyat fəaliyyəti haqqında biliklərin dərinləşməsi biotexnologiyada və sənayenin başqa sahələrində B.-ın səmərəli istifadəsi üçün yeni istiqamətlər açır.

**BAKTERİYALARLA AYIRMA** – bakteriya və ya onların metabolitləri vasitəsilə filiz, konsentrat, tullantı və süxurlardan lazımi kimyəvi elementlərin çıxarılması. B.a. prosesi bakteriyaların bilavasitə sulfid minerallarını, dəmir və kükürdü oksidləşdirmək xassəsinə əsaslanır; bu zaman kimyəvi oksidləşdirici ($Fe^{3+}$) və həlledici (sulfat turşusu) əmələ gəlir. Bu üsul emal olunan xammaldan qiymətli komponentləri (qızıl, uran, mis, sink və s.) ayırmağa, zərərli qarışıqları (məs., arsen, kükürd) isə kənar etməyə imkan verir. B.a., adətən, yüksək təzyiq və temp-rla bağlı olmayan müxtəlif ayırma üsulları ilə birləşdirilir.

**BAKTERİYALI GÜBRƏLƏR** – torpaq bakteriyaları əsasında hazırlanan biopreparatlar; k.t. bitkilərinin mineral qidalanmasının effektivliyini yüksəldir, onların böyümə və inkişafına təkan verir, təbii və texnogen streslərə davamlılığını artırır. B.g. ətraf mühiti çirkləndirmir və ekoloji təmiz k.t. məhsulları almağa imkan verir. B.g. mineral və üzvi gübrələri əvəz etmir; tərkibində hazır qida maddələri olmadığından bitkilərin məhsuldarlığını artıran əlavə vasitə kimi tətbiq edilir. B.g.-dən nitragin, azotobakterin və fosfobakterin daha geniş tətbiq olunur.

N i t r a g i n kökyumrusu bakteriyalarından ibarət preparatdır; paxlalı bitkilərin məhsuldarlığını artırmaq üçün nitraginin köməyi ilə mikroorqanizmlər havanın molekulyar azotunu mənimsəyib onu minerallaşdıraraq bitkini azotla qidalandırır. Paxlalı bitkilərin hər növü üçün kökyumrusu bakteriyalarının öz qrupu olduğundan, nitragin müəyyən bitkilər üçün hazırlanır. Səpindən qabaq paxlalı bitkilərin 1,0 *ha*-sı üçün götürülmüş toxumlar 500 *q* nitragin məhlulunda isladılır. Xüsusi laboratoriyalarda 0,5 *l*-lik butulkalarda kökyumrusu bakteriyalarını çoxaltmaqla hazırlanır: 1 *q*-ında 700–800 mln. bakteriya olur və 1,0 *ha*-ya kifayət edir.

A z o t o b a k t e r i n torpaqda sərbəst yaşayan, havadakı molekulyar azotu mənimsəyən mikroorqanizmlər qrupudur. Aerob və anaerob ola bilər; torpaqda pH 5,5–7,8 olduqda, yaxşı inkişaf edir; köklərə yaxın torpaqda sərbəst yaşayır, köklərə daxil olmur və kökyumrusu əmələ gətirmir. Azotobakterin kökyumrusu bakteriyalarından fərqlənir; hər *ha*-dan 30–40 *kq*-adək azot toplaya bilir və eyni zamanda torpaqda üzvi maddələri minerallaşdıran mikroorqanizmlərin həyat fəaliyyətinə də müsbət təsir göstərir. Xüsusi laboratoriyada toxumlar, kökyumruları (kartof və s.) və şitillər bu preparatlarla isladılır. Taxıl, texniki və tərəvəz bitkilərinin toxumları üçün hər *ha*-ya 100 *q*, kartof yumruları və tərəvəz şitilləri üçün 1500–2000 *q* tətbiq edilir. Hazırlandıqdan sonra 3 ay müddətində istifadə olunmalıdır. Kompost da əlavə edilə bilər.

F o s f o b a k t e r i n tərkibində üzvi fosfatları minerallaşdıran bakteriyalar olan preparatdır. Üzvi maddələrlə zəngin torpaqlarda daha effektivdir. Toxumla qarışdırılıb torpağa verildikdə kök sistemi inkişaf edərək fosforun üzvi birləşmələrini bitkinin mənimsəyə biləcəyi formaya çevirir. 2,5–3 *l* isti suya 5–25 *q* preparat (1 *ha* üçün) əlavə edib, səpinqabağı isladılmaqla toxumları əkinə hazırlayırlar. B.g.-in alınma texnologiyası bakteriya biokütləsinin yetişdirilməsi və onun əsasında müxtəlif preparatların hazırlanmasından ibarətdir. Preparatlar maye, gel, bərk (torf və digər substratlar əsasında), həmçinin quru (tozşəkilli, dənəvər) halda olur. Braziliya, ABŞ, Avstraliya və Kanada B.g.-in əsas istehsalçısı və ixrac edənidir. B.g.-in əsas tətbiq üsulları: toxumların əkindən əvvəl işlənməsi, şitil əkildikdə kök altına verilməsi, vegetasiya dövrü bitkilərə çilənməsi. B.g.-i uzun müddət saxlamaq olmaz; onlar bir mövsüm ərzində istifadə edilməlidir.

Azərb.-da B.g. tətbiq olunmur.

*Əd.:* Д о р о с и н с к и й Л.М. Клубеньковые бактерии и нитрагин. Л., 1970; Технология производства и эффективность применения бактериальных удобрений. М., 1982.

**BAKTERİYEMİYA** (*bakteriyalar* + yun. αἷμα – qan) – dövr edən qanda canlı bakteriyaların olması; geniş mənada – hər hansı mikrobun (ibtidailərin, rikketsiyaların və s.) qanda mövcudluğu (mikrobemiya); sepsisin mümkün təzahürlərindən biri. Bir çox infeksion xəstəliklər zamanı törədicinin orqanizmin təbii baryerlərindən qana keçməsi nəticəsində baş verə bilər. B.-nın təzahür dərəcəsi (qanın həcm vahidində mikroorqanizmlərin miqdarı) törədicinin xassələrindən və xəstənin orqanizminin müqavimətindən asılıdır; ahıl yaş, müşayiətedici ağır xəstəliklər, çoxsaylı infeksiya ocaqlarının olması, immuniteti zəiflədən uzunmüddətli dərman (qlükokortikoidlər, sitostatiklər) müalicəsi B.-ya meyil yaradır. B. üçün mənbə olan infeksiya ocağı aşkar edildikdə B. ikincili, infeksiya ocağı olmadıqda isə B. birincili adlanır. Müvəqqəti cüzi B. (məs., cərrahi müdaxilədən sonra) simptomsuz keçə bilər. Əhəmiyyətli dərəcəli B. titrətmə-üşütmə ilə keçən kəskin temp-r yüksəlməsinə səbəb olur; ağır hallarda septik şok görüntüsü inkişaf edir. M ü a l i c ə s i: infeksiya ocağının ləğv edilməsi (ağız boşluğunun sanasiyası, absesə drenaj qoyulması və s.), antibiotiklərin tətbiqi.

**BAKTEROİDLƏR** (*bakteriyalar* + yun. εἶδος – növ) – 1) bitki mənşəli membranlarla əhatələnmiş Rhizobium cinsindən olan kökyumrusu bakteriyalarının spesifik formaları; paxlalı bitkilərin kök hüceyrələrinə nüfuz etməklə əmələ gəlir. Sahib-bitkinin kök tükcüklərinə yapışaraq onları deformasiya edir və eyni zamanda bitki hüceyrəsinin sitoplazmasına keçmək üçün infeksiyalı tellər əmələ gətirir və məhz orada pərdə peribakteroid membran ilə əhatə olunur. B.-in sonrakı böyüməsi və diferensiasiyası simbiosom membranı ilə əhatələnmiş qeyri-düzgün formalı iri hüceyrələrin – s i m b i o s o m l a r ı n inkişafına səbəb olur. B. bitkidən kənarda inkişaf edən adi kökyumrulu bakteriyalarından nisbətən böyük ölçülərinə, qlikogen və lipidlərin yüksək miqdarına, volyutin dənəciklərinin (fosfatın hüceyrədaxili ehtiyatı) çox sayda olmasına və molekulyar azotu aktiv fiksə etməsinə görə fərqlənir. B. və simbiosomlar sərbəst hərəkət edən hüceyrə formasında yaşamaq qabiliyyətini itirir. 2) Bacteroides – qrammənfi bakteriyalar cinsi. 30-dan çox növü var. Müxtəlifölçülü hüceyrələri çubuqvarıdır; bir çoxu qabarmış halda olub, tellər əmələ gətirir. Adətən hərəkətsizdir. Anaerob olsalar da, bəziləri tənəffüs prosesində molekulyar oksigendən istifadə edə bilir. Üzvi birləşmələrin mənimsənilməsi hesabına yaşayır (xemoorqanotroflar). İnsan və heyvanın ağız boşluğunda, yuxarı tənəffüs yollarında, cinsiyyət orqanlarında və bağırsağında, həmçinin lil, çirkab sular və s. mühitdə yaşayır. B.-in qana düşməsi sepsisə, daxili orqanlara və toxumalara düşməsi isə absesə səbəb olur. Ən səciyyəvi nümayəndəsi B. fragilis – insan bağırsağından ayrılmış hərəkətsiz, düz və ya azacıq əyilmiş 0,5x1,0 *mkm* ölçülü basildir.

**BAKTRA** – bax *Bəlx*.

**BAKTRİAN**, i k i h ü r g ü c l ü  d ə v ə (Camelus bactrianus) – dəvəkimilər fəsiləsindən məməli heyvan. Bədəninin uz. 250–300 *sm*, cidov hünd. 180–210 *sm*, kütləsi 690 *kq*-adək olur. Boynu uzun, belində 2 piy hürgücü var; qırmızımtıl-qəhvəyi-qum rənglidir. B. təqr. 5 min il bundan əvvəl əhliləşdirilmişdir; adını *Baktriyadan* almışdır. B.-ın bir neçə cinsi Mərkəzi və Orta Asiyada, Qazaxıstanda yetişdirilir (bax *Dəvəçilik*). Vəhşi B.-ı (xabtaqan, yaxud xavtaqay) N.M. Prjevalski (1877) kəşf etmişdir; hazırda yalnız Altayarxası Qobidə (Monqolustan) rast gəlir. Kolluq və çınqıllıq yerlərə üstünlük verir. Bədən quruluşunun daha yüngül, ətraflarının uzun və rənginin dəyişkən, həmçinin hürgüclərinin daha kiçik olması ilə əhli B.-dan fərqlənir. İstiyə və soyuğa dözümlüdür, lakin suvatların az olmasından əziyyət çəkir (B.-ın arealı və sayı məhz buna görə azalmışdır). Bir dəfəyə 50 *l*-dən artıq su, o cümlədən şor su da içə bilər. Bütün səhra bitkiləri ilə qidalana bilir, xüsusilə halofitlərə ehtiyacı var. Adətən, 4–6 fərddən ibarət qruplar, bəzən sürülərlə (15 başadək) gəzir. Vəhşi B. üçün uzaq məsafələrə köç etmək xarakterikdir. Səhər və axşam fəal olur. Hövrəyəgəlmə qışda baş verir, erkəklər arasında çox vaxt şiddətli döyüş gedir. Martda bir bala doğur. Əvvəllər vəhşi B. yerli əhalinin ov obyekti idi. 600 başdan az B. qalmışdır; BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

Baktrian.



**BAKTRİTOİDEYALAR** (Bactritoidea) – nəsli kəsilmiş başıayaqlı molyusklar dəstəüstü. Düz, yaxud zəif əyilmiş xarici çanağa (ola bilsin, bəzi formalarda bu çanaq qismən daxili idi) və yanlarda yerləşən ensiz (dar) sifona malik olmuşdur. Ordovikdə meydana gəlmiş, Devonda (baktritlər) və Erkən Permdə (parabaktritlər) inkişaf etmişdir. Perm–Triasın sonunda nəsli kəsilmişdir. Ehtimal ki, digər başıayaqlı molyuskların – koleoideyaların və belemnitlərin sələfləri olmuşdur. 20-yədək cinsi məlumdur.

**BAKTRİYA** – bax *Bəlx padşahlığı*.

**"BAKU"** – 2007 ilin dekabrından Moskvada rus dilində nəşr edilən jurnal. Təsisçisi Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyidir. "B."-da Azərb.-ın tarixini, mədəniyyətini, incəsənətini, həmçinin müasir dövrdəki inkişafını əks etdirən məqalələr dərc edilir.

**BAKUBALAR** – bax *Kubalar*.

**BAKUFU** – 12 əsrin sonlarından 1867 ilə kimi Yaponiyada üç syoqun sülaləsinin hakimiyyəti. İlk əvvəl 1192 ildə syoqunluq rejiminin əsasını qoymuş və qərargahını dövlətin inzibati mərkəzinə çevirmiş syoqun Minamoto Yoritomonun Kamakuradakı (Tokio yaxınlığında) qərargahını bildirirdi. B. əyalət hərbi qubernatoru (syuqo) və torpaq inzibatçısı (dzito) vəzifələrinə syoqunun vassallarını təyin edirdi; sonuncular tezliklə dövlət məmurlarını sıxışdırdılar. İqtisadiyyatın inkişafı, həmçinin Qərb dövlətlərinin getdikcə artan gücünə müqavimət göstərə bilən ordunun təşkili üçün zəruri dəyişikliklərə böyük maneələr yaradan B. 19 əsrdə Yaponiya cəmiyyətində geniş tənqid olunmağa başlandı. 1867–68 illərdə imperator hakimiyyətinin (*Meydzi isin*) bərpası B. rejiminə son qoydu. Ədəbiyyatda çox vaxt "syoqunluq" məfhumunun sinonimi kimi istifadə olunur.

**BAKULEV** Aleksandr Nikolayeviç (7.12. 1890, Vyatka qub.-nın Nevenikovskaya k. – 31.3.1967, Moskva) – rus cərrahı, SSRİ-də döş cərrahlığının banilərindən biri. SSRİ EA akad. (1958), SSRİ Tibb EA akad. (1948) və prezidenti (1953–60), Sosialist Əməyi Qəhrəmanı (1960). SSRİ Dövlət mükafatı (1949) və Lenin mükafatı (1957) laureatı. S.İ. *Spasokukotskinin* tələbəsi olmuşdur. Saratov Un-tinin tibb fakültəsini bitirmişdir (1918). 1943 ildən ömrünün sonunadək 2-ci Moskva Tibb İn-tunun fakültə cərrahlığı kafedrasının müdiri olmuşdur. 1956 ildən özünün yaratdığı Döş Cərrahlığı İn-tuna (indiki Rusiya Tibb EA A.N. Bakulev ad. Ürək-Damar Cərrahlığı Elmi Mərkəzi) başçılıq etmişdir.



Əsas işləri mədə-bağırsaq yolu cərrahlığı, neyrocərrahlıq, urologiya, ağ ciyər və ürək-damar cərrahlığı məsələlərinə həsr edilmişdir. Qida borusunun plastikası üsulunu (B. üsulu), baş beynin ödemi zamanı araxnoidal boşluğa piltə qoyulması üsulunu (1935) təklif etmişdir; beyin abseslərinin müalicə üsulunu, mədə kənar edildikdən sonra qida borusu və nazik bağırsağın birləşdirilməsi qaydasını (Gertsen – B. qaydası), nazik bağırsaqla onikibarmaq bağırsağın ilgəkşəkilli anastomozunun yaradılması qaydasını (B. – Delbe qaydası) işləyib hazırlamışdır (1940). SSRİ-də ilk dəfə olaraq botal axacağın bağlanması əməliyyatını yerinə yetirmiş (1948), ürək qüsuru – mitral dəliyin stenozu zamanı mitral komissurotomiyanı uğurla həyata keçirmişdir (1952); kəskin miokard infarktı olan xəstələrin əməliyyatını təklif etmişdir. Perikard boşluğuna dərman yeritmək üçün inyeksiya iynəsi (B. iynəsi) ixtira etmişdir.

Əsərləri: Пневмонэктомия и лобэктомия. М., 1949 (A.V. Gerasimova ilə birlikdə); Хирургическое лечение болезней сердца и магистральных сосудов. М., 1952; Врождённые пороки сердца. М., 1955 (Y.N. Meşalkin ilə birlikdə); Хирургическое лечение опухолей и кист средостения. М., 1967 (R.S. Kolesnikova ilə birlikdə).

**BAKÚLOV** İqor Alekseyeviç (d.13.8. 1925, Sverdlovsk ş., indiki Yekaterinburq) – rus baytar-mikrobioloqu və epizootoloqu. SSRİ Dövlət mükafatı laureatı (1980). Sosialist Əməyi Qəhrəmanı (1985). Rusiya Kənd Təsərrüfatı EA-nın akad. (1988). Moskva Baytarlıq Akademiyasını bitirmişdir (1951). Tədqiqatları k.t. heyvanlarında listeriozun, ümumi və coğrafi epizootologiyanın, infeksion xəstəliklərin təsnifatının öyrənilməsinə, unifikasiyalaşdırılmış epizootoloji terminologiyanın tətbiqinə həsr edilmişdir. Qarayaraya qarşı vaksinin yaradılmasında, heyvanların aerozolla immunlaşdırılması metodunun işlənib hazırlanmasında və çirkab suların zərərsizləşdirilməsi sistemlərinin təkmilləşdirilməsində iştirak etmişdir.



**BAKULOVİRUSLAR** (Baculoviridae) – onurğasız heyvanları, başlıca olaraq buğumayaqlıları zədələyən viruslar fəsiləsi. 2 cinsi, təqr. 100-ədək növü var. Çubuqşəkilli virus hissəcikləri (virionlar) təqr. 10 müxtəlif zülalın daxil olduğu lipoprotein qilafından və özək, yaxud nukleokapsiddən (uz. 200–450 *nm*, diametri 30–100 *nm*) ibarətdir. Sonuncu həlqəvi ikisaplı DNT molekulu (virusun genomu) və bir zülal növü ilə təmsil olunmuşdur. Genom, əksəriyyəti virionların tərkibinə daxil olmayan, lakin virusların çoxalması üçün zəruri sayılan 100–200-ədək zülalı kodlaşdırır. Virus DNT-sinin sintezi və nukleokapsidlərin əmələ gəlməsi yoluxmuş hüceyrənin nüvəsində baş verir. Bu zaman nukleokapsidlərin çoxu 15-dən artıq zülalın iştirakı ilə formalaşan spesifik törəmələr – okklyuzilər şəklində nüvədə qalır. Qalan hissədən hüceyrədən xaricə çıxan virus hissəcikləri əmələ gəlir. Virus hissəcikləri plazmatik membranların fraqmentlərini tutaraq onları öz qilaflarına birləşdirir. B.-dan gen terapiyasında genetik informasiya daşıyıcıları kimi istifadə olunur.

**BAKUN**, Bakun-Təpə, Təli-Bakun – İranın c.-unda (Fars əyaləti, Şiraz vadisi) qədim əkinçi məskənləri – *təllər* (e.ə. 5-ci minilliyin sonu – 4-cü minillik). 1923 ildə E. *Hersfeld* tərəfindən aşkar olunmuşdur. B.-da Hersfeld və A. Lanqsdorfun Amerika ekspedisiyası 1928, 1930, 1932 illərdə, Tokio un-tinin ekspediyası isə 1956 ildə qazıntılar aparmışdır. B təpəsində (Erkən Eneolit, e.ə. 5-ci minilliyin sonu – 4-cü minilliyin əvvəlləri) kobud keramikanı (B I təbəqəsi) həndəsi naxışlarla bəzədilmiş qablar (B II təbəqəsi) əvəz edir. A təpəsi Orta Eneolitin (e.ə. 4-cü minilliyin 1-ci yarısı – ortaları) çoxotaqlı evlərinin, həmçinin ikiyaruslu dulusçuluq sobalarının qalıqları ilə təmsil olunur. A təpəsinin I–IV təbəqələrində həndəsi və zoomorf (heyvanlar, balıqlar, quşlar) naxışları olan açıq rəngli anqoblu keramika, üzərinə boya ilə svastika çəkilmiş terrakota, qadın heykəlcikləri, heyvan fiqurları, lazurit muncuq dənəsi, möhür-düymələr və şəkilləri ilə birlikdə gil bullalar tapılmışdır. A təpəsinin sonuncu təbəqəsi olan A V (e.ə. 4-cü minilliyin axırları) naxışsız, qırmızı anqoblu qablarla səciyyələnir.

**BAKÚNİN** Mixail Aleksandroviç (30.5. 1814, Tver qub.-nın Novotorjok qəzası – 1.7.1876, İsveçrə, Bern) – rus filosofu, publisist, inqilabi hərəkat xadimi, anarxizmin və xalqçılığın banilərindən və ideoloqlarından biri. Sankt-Peterburq Mixail artilleriya məktəbində təhsil almışdır (1828–34). 1840 ildə Almaniyaya getmiş, Berlin Un-tində F.Şellinqin mühazirələrini dinləmişdir. 1842 ildə solçu hegelçilər dərnəyinə daxil olmuşdur. Drezdenə köçdükdən sonra burada dərc etdirdiyi məqaləsində o, ilk dəfə olaraq "mövcud siyasi və sosial quruluşun tamamilə məhv olunması"nın zərurəliyini bəyan etmişdir. Praqa (1848) və Drezden (1849) üsyanlarında iştirakına görə ölüm cəzasına məhkum olunmuşdur. Hökm dəyişdirilərək ömürlük həbs cəzası ilə əvəz edildikdən sonra B. əvvəlcə Avstriya hökumətinə, 1851 ildə isə Rusiyaya təhvil verilmişdir. 1851–56 illərdə Petropavlovsk və Şlisselburq qalalarında saxlanmış, 1857 ildə Sibirə sürgün edilmişdir. 1861 ildə Londona qaçmışdır. 1864 ildə I İnternasionala daxil olmuş, 1872 ildə pozuculuq fəaliyyətinə görə oradan çıxarılmışdır. B. istənilən dövlət hakimiyyəti formalarını inkar edirdi. B.-ə görə, cəmiyyət "aşağıdan yuxarı" təşkil olunmalıdır; tərəqqinin məqsədi və mənası şəxsiyyətin azadlığının daimi artmasıdır, ona görə azadlığa aparan yolu təmizləyən hər bir hərəkat mütərəqqidir. Cəmiyyəti dünyanın yüksək inkişaf pilləsi hesab edən B. varlı azlığın çoxluq üzərində hökmranlığı məqsədilə yaradılmış dövləti ona qarşı qoyurdu. İstənilən dövlət bu çoxluğu yoxsulluğa və zülmə məhkum edir, başqa xalqları əsarətə alır. Ona görə də inqilabi mübarizə praktikasının başlıca nəzəri problemi şəxsiyyətin azadlığını boğan qüvvə olan dövlətin məhv edilməsidir. B.-in ideyaları 19 əsrin sonlarında bir sıra xalqçılıq dərnəklərinin, 1900–20-ci və 1980–90-cı illərdə Rusiya anarxist təşkilatlarının proqram və fəaliyyətində, həmçinin Avropa radikallarının 1968 il çıxışlarında və müasir antiqlobalçıların hərəkatında da öz əksini tapmışdır.



*Əd.*: Стеклов Ю.М. М.А. Бакунин. Его жизнь и деятельность. М.; Л., 1926–27, т. 1–4; Пирумова Н.М. Бакунин. М., 1970; yenə onun. Социальная доктрина М.А. Бакунина. М., 1990.

**BAKURİÁNİ** – Gürc.-ın Borjomi r-nunda şəhər tipli qəsəbə. Trialeti silsiləsində, 1700 *m* yüksəklikdə, iynəyarpaqlı meşələr zonasındadır. Borjomidən çəkilmiş d.y.-nun son məntəqəsi. Əh. 2,4 min (2005). Dağ-meşə iqlim kurortudur. Yayı mülayim isti, qışı yumşaqdır. Orta temp-r iyulda 14°C, yanvarda –5°C-dir. İllik yağıntı 800 *mm*. İlin 1975 saatı günəşli olur. Qış idmanı növləri (dağ xizəyi) mərkəzi. Əsasən, uşaqlarda limfa düyünlərinin xəstəlikləri, bronxial astma, habelə tənəffüs orqanlarının vərəm mənşəli olmayan xəstəlikləri müalicə edilir. Yaxınlığında andezit çıxarılır.

**BAKUVİ**, Əbdürrəşid ibn Salih ibn Nuri əl-Bakuvi (14 əsrin 2-ci yarısı – 15 əsrin 1-ci yarısı) – Azərb. coğrafiyaşünası, tarixçi. Qahirədə öldüyü ehtimal olunur. "Təlxis əl-asar və əcaib əl-malik əl-qəhhar" ("Abidələrin xülasəsi və qüdrətli hökmdarın möcüzələri"; 1403–04, ərəb dilində) adlı coğrafi əsərin müəllifidir. B. bu əsəri yazarkən Zəkəriyyə Qəzvininin "Ölkələrdəki abidələr və Allah bəndələri haqqında xəbərlər" (1275) adlı coğrafi əsərini əsas götürmüş, ixtisar, əlavə və düzəlişlər etmişdir. Qəzvininin əsərinə nisbətən burada 164 coğrafi ad azdır. Lakin B.-nin Bakı və buradakı neft quyuları haqqında verdiyi məlumat Qəzvininin məlumatından xeyli zəngindir; Təbriz, Mərənd, Naxçıvan, Şabran və s. barədə məlumat isə əlavədir. B. Yer kürəsini 7 iqlimə bölmüş, hər iqlimdə yerləşən ölkə, şəhər, dəniz, ada və s. haqqında əlifba sırası ilə geniş məlumat vermişdir. Əsərdə bir sıra Şərq və Qərb ölkəsinin, həmçinin Cənubi Qafqazın təbiəti, tarixi abidələri, iqtisadiyyatı, etnoqrafiyası, ticarəti, faydalı qazıntıları və s.-dən bəhs edilmişdir. B. Azərb.-ı 4-cü və 5-ci "iqlimə" daxil etmiş, Dərbənd, Bərdə, Bəzz, Beyləqan, Şirvan, Muğan, Ərdəbil, Urmiya və s. haqqında ətraflı məlumat vermişdir. B.-nin Bakuya adlandırdığı Bakı, onun iqlimi, burada əsən şiddətli küləklər, gündə 200 dəvə yükündən çox neft çıxarılması, neftin bir hissəsinin Xəzər dənizi ilə ixrac edilməsi haqqında məlumatı maraqlıdır. B. monqolların Bakıya hücumu haqqında da məlumat vermişdir. 1789 ildə fransız şərqşünası J. de Gin əsəri müxtəsər şəkildə fransız dilinə çevirmiş və Parisdə çap etdirmişdir. Müəllifin əlyazmasından köçürülmüş yeganə tam nüsxə Paris Milli kitabxanasında saxlanılır.



Bakuvi Əbdürrəşid. Rəssam E. Şaxtaxtinskaya.

Əsəri: "Китаб талхис ал-асар ва аджа'иб ал-малик ал-каххар ("Сокращение [книги о] "памятниках" и чудеса царя могучего"). Изд. текста, пер., пред., примеч. и приложения З.М. Буниятова. М., 1971.

*Əd.*: Ашурбейли С. Очерк истории средневекового Баку. Б., 1964.

**BAKUVİ** Seyid Yəhya Cəlaləddin (təqr. 1410, Şamaxı – təqr. 1462, Bakı) – Azərb. mütəfəkkiri, ilahiyyatçı filosof. Bir müddət Şamaxıda, sonra Bakıda, Şirvanşah I Xəlilullahın sarayında yaşamışdır. Yaxın və Orta Şərqdə filosof və alim kimi tanınmışdır. B.-nin Bakıda təşkil etdiyi ali ilahiyyat-fəlsəfə məktəbinin Bərdə, Təbriz və s. şəhərlərdə şöbələri var idi. Onun başçılıq etdiyi təriqət, şiəliyin Səfəvilər tərəfindən dövlət dini kimi qəbul edilməsinə qarşı mübarizə aparırdı. Azərb., fars və ərəb dillərində yazan B.-nin, əsasən, ontologiya, etika məsələlərinə, *batinilik* təliminə həsr edilmiş 18 əsəri qalmışdır. Əsərlərinin çoxu, o cümlədən "Şərhi "Gülşəni-raz" ("Sirlər gülşəni"nin şərhi"), "Əsrar ət-talibin" ("Həqiqət axtaranların sirri") və s. 19 əsrdə Türkiyədə nəşr edilmişdir. B. Şirvanşahlar sarayının (Bakı) həyətində dəfn olunmuşdur.

*Əd.*: Сеид-заде А.А. Из истории развития общественно-политической и философской мысли в Азербайджане в эпоху феодализма (XIII–XVII вв.). В сб.: Объединенная научная сессия по вопросам истории философской и общественно-политической мысли народов Закавказья. Тбилиси, 1957.

**BAKVÁNQA** (Bakwanga), Mbuji-Mayi – Konqo Demokratik Resp.-nda almazlı rayon. *Anqola-Konqo almazlı əyalətinə* daxildir. Kasai əyalətində, Buşimaye çayının aşağı axınında və Lubilaş çayı dərəsindədir. Almazın yekun hasilatına görə dünyada ən iri yataqdır. 2004 ilədək 980 mln. *kar*-dan çox almaz hasil olunmuşdur; qalıq ehtiyat 500 mln. *kar*-dan çoxdur. Köklü (15 kimberlit borusu) və səpinti yataqlardan ibarətdir. Səpinti yataqlar 1916 ildə kəşf olunmuş, 1917 ildən işlənir; köklü yataqlar 1946 ildə kəşf olunmuş və həmin ildən də açıq üsulla istismar olunur. Qıfabənzər partlayış boruları (sah. 0,06–0,32 $km^2$) müxtəlif tərkibli brekçiyalardan və 30–50 *m* dərinliyədək kimyəvi aşınmaya məruz qalmış Son Tabaşir yaşlı bazalt kimberlitlərindən təşkil olunmuşdur. Əsasən, üç tip səpinti yatağı var: qədim (Üçüncü dövr yaşlı) karst (çalaların dərinliyi 10 *m*-ədək, uz. bir neçə yüz *m*-ədək, almazlılıq 1000 *kar/t*-adək), müasir allüvial (almazlı çaqıldaşıların uz. 2 *km*-ədək, orta qalınlığı 0,75 *m*, almazlılıq 4–8 $kar/m^3$) və karst-delüvial (uz. bir neçə yüz *m*, qalınlığı 5–7 *m*, almazlılıq 10–15 $kar/m^3$). Almazlar əsasən keyfiyyətlidir (zərgərlik növləri 3–4%-ədək, yarımzərgərlik – 20%, qalanı texniki almazdır); çox hissəsinin rəngi tutqundur; kubşəkilli və qabıqlı kristallar üstünlük təşkil edir. Hasil olunan almazın orta çəkisi 0,02–0,03 *kar*, ən irisi təqr. 44 *kar*-dır.

**BAKVÉLƏR** – Kot-d'İvuarın c.-q.-ində və Liberiyanın c.-ş.-ində *kru* qrupuna aid xalqlar. Sayları Kot-d'İvuarda (onlara yaxın olan vanelər, payyalar, abrinyalar, plavilər, balar və telilərlə birlikdə) 400 min nəfər, Liberiyada (krular, qrebolar, padebolar, kranlar, klepolar, delər və b. xalqlarla birlikdə) 500 min nəfərdir (1998). Bir sıra r-nlarda (Sess və Kavalli çayları hövzəsində) krular və qrebolar liberiyalılarla qarışıq etnik qruplar təşkil edirlər. Zənci irqinə aiddirlər. Bakve, yaxud bakue, bakvo dilində danışırlar. Əsas dialektləri: bakve, abri, qvane-bo-

do, obva, omelokve, pia. Əksəriyyəti ənənəvi etiqadlarını saxlayır, bir qismi xristiandır. Əsas məşğuliyyətləri tropik toxa əkinçiliyidir (ərzaq bitkiləri – darı, maniok, kalış, yams, kokos palmaları, çəltik və s.). Liberiyada kauçuklu bitki plantasiyalarında, Kot-d'İvuarda isə yağ palması, şəkər qamışı, çəltik və hevea plantasiyalarında işləyirlər. Sahilyanı ərazilərdə B.-in əksəriyyəti balıqçılıqla məşğul olur, dənizçi və yükdaşıyan işləyirlər. Ağac üzərində oyma (heykəllər, maskalar), dulusçuluq, hörmə inkişaf etmişdir. Başçılar tərəfindən idarə olunan iri ailə kənd icmaları mövcuddur. Qohumluq ata xətti ilədir, nikahlar patrilokaldır, poliginiya yayılmışdır.
B.-də, kranlarda və qrebolarda Sudan tipli silindrik evlər üstünlük təşkil edir. Geyimləri və yeməkləri kruların digər xalqları üçün səciyyəvidir. Musiqi folkloru, incəsənət saxlanılır.

**BAQAJ** – sərnişinə məxsus olan və daşınmaq üçün onun tərəfindən nəql. təşkilatına verilən əşyalar. Yüklərin, sərnişinlərin, B.-ın və poçtun daşınması və nəql.-ekspedisiya xidmətlərinin həyata keçirilməsi qanunvericiliyə uyğun olaraq bağlanmış müvafiq müqavilələr əsasında aparılır.

Daşıyıcı yükü, sərnişini və B.-ı ayrı-ayrı nəqliyyat növləri üzrə məcəllələr, nizamnamələr, daşıma qaydalarına dair normativ-hüquqi aktlar və müqavilələr ilə müəyyən edilmiş müddətdə təyinat məntəqəsinə çatdırmalıdır. Daşıyıcı, müştəridən B.-ı daşımaya qəbul etdiyi andan onu sərnişinə təhvil verənə qədər həmin B.-ın qorunmasını təmin etməlidir.

**BÁQALAR** – Qvineyanın Konakri ş.-ndən şm.-dakı sahilyanı ərazilərdə və qonşu adalarda məskunlaşan xalq. Ən böyük qrupları: koba-B., fore-B. və sitemu-B. Sayları (təqr. 100 min nəfər) *susular* tərəfindən assimilyasiya nəticəsində sürətlə azalır. Dil və mədəniyyət cəhətdən kisilər, nalular, landumalar, mmanilər, temnelər, limbalar və bullomlara yaxındırlar. B.-ın dilləri Konqo-Kordofan dil ailəsinə aiddir. Ənənəvi etiqadlarını saxlayırlar. Əsasən, düzbucaqlı evlərin damı samanla örtülür, verandası dirəklər üzərində olur. Əsas məşğuliyyətləri çəltikçilikdir. Kişilər həmçinin maniok, batat, kalış, qadınlar isə qarğıdalı, yerfındığı və s. becərirlər. Ənənəvi yeməkləri palma yağı, qurudulmuş soğan, qaxac edilmiş və hisə verilmiş balıqdır.

**BAQANDALAR** – bax *Qandalar*.

**BAQARAN** – bax *Bağavan*.

**BAQAÚDLAR** (lat. Bagaudae; ehtimal ki, kelt dilində baga – mübarizə sözündəndir) – 3–5 əsrlərdə Qalliya və Şimali İspaniyada romalılara qarşı hərəkatın iştirakçıları. B.-ın əksəriyyətini yoxsullaşmış kəndlilər, xırda sənətkarlar, təhkimləşdirilən *kolonlar* və qaçmış qullar təşkil edirdi. B.-ın çıxışları 283–285 (yaxud 269–270) illərdə başlanmışdı. Üsyanın əsas rayonu Sena və Luara çayları arasında yerləşən ərazilər idi; buradakı geniş meşələr etibarlı sığınacaq kimi istifadə olunurdu. B.-ın dəstələri iri torpaq sahibkarlarının malikanələrinə və müdafiəsi zəif olan şəhərlərə hücum edirdilər. B.-ın imperator elan olunan başçıları Amand və Elianın ordusunda piyada döyüşçülər əkinçilərdən, süvarilər isə çobanlardan ibarət idi. Roma qoşunlarına məğlub olduqdan sonra 408 ildə hərəkat yenidən başlandı (B. Alp d.-rı ətəklərindəki Roma legionlarına hücum etdilər). 435–447 illərdə Şimal-Qərbi Qalliyanı bürümüş üsyan Roma sərkərdələri *Aetsi* və Litori tərəfindən iki dəfə yatırıldı. 5 əsrin ortalarında Şimali İspaniyada baş verən B.-ın üsyanı Roma və vestqot sərkərdələri tərəfindən yatırıldı.

**BAQÁYEV** Sergey Nikolayeviç (d.9.9.1941, Novosibirsk) – rus fiziki, REA-nın akad. (1994), RF Dövlət mükafatı laureatı (1998). Novosibirsk Un-tini (1963) bitirmiş, SSRİ EA Sibir şöbəsinin Radiofizika və Elektronika İn-tunda və həmin şöbənin Yarımkeçiricilər İn-tunda işləmişdir (1964–1992). 1992 ildən REA Sibir şöbəsinin onun iştirakı ilə yaradılmış Lazer Fizikası İn-tunun direktorudur. Elmi əsərləri ifrat yüksək ayırdetmənin qeyri-xətti lazer spektroskopiyasına, kvant standartlı tezliklərə, çox dəqiq ölçmələrə, yeni lazer sistemlərinin yaradılmasına və onların tibdə, biologiyada, metrologiyada və s. tətbiqinə həsr olunmuşdur. Tezliyinə görə (təqr. 50 *Hs*) ensiz dəstələr almış və onların köməyi ilə müxtəlif optik effektləri tədqiq etmişdir. B.-in rəhbərliyi ilə mütləq sıfra yaxın temp-rda qazda ifrat yüksək ayırdetməyə aid spektral tədqiqatlar aparılmış, optik saatlar yaradılmış, çoxlu sayda atomların, ionların və molekulların kvant keçidlərinin tezlikləri böyük dəqiqliklə ölçülmüş, yeni tip optik bistabillik kəşf edilmiş, fundamental fiziki sabitlərin dəqiqləşdirilməsi üzrə proqramlar həyata keçirilmişdir.

**BAQAZ** (? – ?) – Parfiya hökmdarı I Mitridatın təqr. e.ə. 155 ildə Midiyaya təyin etdiyi hakim.

**BAQQAL** (ər. بقال – göyərti, tərəvəz satan) – ərzaq malları satan. B. sözü ərəblərdən farslara və türklərə, türklərdən isə Avropa xalqlarına (əsasən, Balkan ölkələri vasitəsilə) keçmişdir. Ərzaq malları mağazalarına verilən "baqqaliyyə", "bakaleya" adı B. sözündəndir. Yaxın Şərq ölkələrində B.-lar şəhər ticarətində mühüm rol oynayırlar.

**BAQQAL** – Azərb. Resp. Şəki r-nunun Biləcik ə.d.-ndə kənd. R-n mərkəzindən 24 *km* şm.-q.-dədir. Əh. 511 (2009); bitkiçilik və maldarlıqla məşğuldur. Ümumi orta məktəb, tibb məntəqəsi, kitabxana var.

**BAQQALLI** – Azərb. Resp. Tovuz r-nunun Kirən ə.d.-ndə kənd. R-n mərkəzindən 46 *km* c.-da, dağlıq ərazidədir. Əh. 461 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**BAQLAN** – Əfqanıstanın şm.-ş.-ində əyalət. Sah. 21,1 min $km^2$, əh. 872,2 min (2005). İnz. m. Puli-Humri ş.-dir.

**BAQLAN** – Əfqanıstanın şm.-ında, Baqlan əyalətində şəhər. Kabil–Xanabad avtomobil yolu üstündə, Kunduz çayından 5 km ş.-də yerləşir. Əh. 120 min (2006). Şəkər çuğunduru r-nunun ticarət mərkəzidir. Şəkər z-du var.

**BAQLAY** Marat Viktoroviç (d. 13.3.1931, Bakı) – Rusiya hüquqşünası, REA-nın müxbir üzvü (1997). Rostov Dövlət Un-tini bitirmişdir (1954). SSRİ EA-nın Dövlət və Hüquq İns-tunun elmi işçisi (1957–62), MDBMİ-nin dos. (1962–67), SSRİ EA-nın Beynəlxalq Fəhlə Hərəkatı İn-tunda şöbə müdiri (1967–77), Əmək və Sosial Münasibətlər Akademiyasının prorektoru (1977–1995) vəzifələrində işləmişdir. 1997–2003 illərdə RF Konstitusiya Məhkəməsinə sədrlik etmişdir. Konstitusiya və əmək hüququ problemləri üzrə tədqiqatların müəllifidir.

**BAQÓBOLAR** – Filippində dağlı xalqlardan biri. Mindanao a.-nın mərkəzi və c.-q. hissəsində məskunlaşmışlar. Obo və eto qruplarına ayrılırlar. Özlərini "meşə sakinləri" adlandıran qohum gianqalarla birlikdə ümumi sayları 50 min nəfərdir (1998). Cənubi Asiya irqinə aiddirlər. Baqobo dilində danışırlar. Dialektləri: baqobo, gianqa, obo. Bilaan, taqal dilləri də yayılmışdır. Ənənəvi etiqadlarını saxlayırlar, bir hissəsi xristiandır. *Moroların* təsirinə məruz qalmışlar. B. Apo d.-nın ətəklərinin özlərinin ilk vətənləri hesab edirlər. Əsas məşğuliyyətləri suvarma toxa əkinçiliyi (çəltik, şirin kartof – kamotes), heyvandarlıq (at, camış – karabao), ovçuluq, yığıcılıq, sahilyanı ərazilərdə balıqçılıqdır. Dulusçuluq, toxuculuq, hörmə, metal emalı, parçaların boyanması da inkişaf etmişdir. Kənd təsərrüfatı məhsulları və sənətkarlıq məmulatı ilə ticarət aparırlar. Evləri birkameralı, ağac, bambuk, yaxud rotanqadan platforma üstündə, damı biryamaclıdır. Ənənəvi silahları oxatan borucuq, ox və kaman, aypara şəklində bıçaqlar, zəngin bəzədilmiş ağac qalxanlardır. Gəlin üçün simvolik başlıq pulu, əkinçi kultları və s. qalmaqdadır. B.-ın zəngin mifologiyası, rəvayətləri və Tuva-anq eposu var.

**BAQRÁT III** (təqr. 963–1014) – *Baqrationlar* sülaləsindən gürcü çarı [975–1014]. Abxaz-kartvel çarı da adlandırılırdı. Gürcüstan çarı II Qurgenin və Abxaziya çarı II Georginin qızı Quranduxtun oğlu; Tao-Klarceti çarı III Davidin (Böyük) oğulluğu. 975–1008 illərdə II Qurgenlə Kartlinin şərikli hakimi olmuşdur. Qərbi Gürc.-dakı və Şərqi Gürc.-ın böyük hissəsindəki feodal knyazlıqlarını birləşdirmişdi. Ölkəni birləşdirmək siyasətinin əleyhinə çıxan feodal aristokratiyası ilə ardıcıl mübarizə aparmışdır. Ərəblərə qarşı qətiyyətlə vuruşmuşdur. Onun hakimiyyəti dövründə Bediada və Kutaisidə memarlıq inciləri olan məbədlər tikilmişdir.

**BAQRATİÓN** Pyotr İvanoviç (1769, Qızlar ş. – 24.9.1812, Vladimir qub.-nın Yuryev-Polski qəzasının Sima k.) – Rusiya hərbi xadimi, knyaz, infanteriya gen. (1809). *Baqrationlar* nəslindəndir. Qafqazda dağlılarla toqquşmalarda iştirak etmişdir (1783–87, 1789). *Polşa üsyanının (1794)* yatırılmasında fərqlənmiş, 1799 il İtaliya yürüşündə müttəfiq ordu avanqardının komandanı olmuşdur. İsveçrə səfərində (1799) Sen-Qotard aşırımına hücum zamanı, Qlarus yaxınlığındakı döyüşdə şücaət göstərmişdir. Fransa ilə müharibə zamanı (1805–07) fərqlənmiş, Rusiya-İsveç müharibəsində (1808–09) Aland ekspedisiyasına, Rusiya-Türkiyə müharibəsində (1806–12) Moldaviya ordusuna (1809–10), 1812 ildə 2-ci Qərb ordusuna komandanlıq etmişdir. Rusiyada Vətən müharibəsi (1812) zamanı iyulun 22-ndə (3 avqust) 1-ci Qərb ordusu ilə birləşərək Napoleonun rus ordularını bir-bir məğlub etmək planını pozmuşdur. B. Smolenskin təslim edilməsini səhv addım hesab edərək M.B. *Barklay de Tollinin* strategiyasını tənqid etmiş, M.İ. *Kutuzovun* rus ordusuna baş komandan təyin edilməsinə mənfi yanaşmışdır. *Borodino vuruşmasında (1812)* rus ordusunun sol cinahına komandanlıq etmiş, döyüşdə ağır yaralanmış və ölmüşdür.



**BAQRATİÓNİ** İohann (16.5.1768 – 15.2.1830) – gürcü yazıçı və maarifçisi, sonuncu gürcü çarı XII Georginin oğlu. "Kalmasoba" ("Səyahət") əsərində geniş tarixi-fəlsəfi materialdan istifadə edərək elmin müxtəlif sahələri haqqında məlumat vermişdir. B.-nin ictimai-fəlsəfi görüşləri nəşr olunmamış "Dövlət hakimiyyətinin idarə edilməsi" (1799), "Ruh qüvvələri" (1824) əsərlərində də əksini tapmışdır. B., əsasən, Petrisinin *neoplatonizminə* qoşulsa da, *empirizmə* meyil etmiş, məntiqin ayrı-ayrı məsələlərini aydınlaşdırmışdır. Əsərlərində vətənin iztirablarına səbəb olan hakim dairələrin nadanlığını və despotizmini tənqid etmişdir.

**BAQRATİÓNLAR**, Baqrationilər, Baqratilər – 9–19 əsrlərdə Gürc.-da çar sülaləsi. Mənşəcə Speri əyalətindən (indiki İspir, Türkiyə ərazisində) idi. 6–8 əsrlərdə Qafqaza köçən B. Kartlidə hakim mövqe tutmuşlar. 9 əsrin 1-ci yarısında Aşot Baqration Cənubi Gürc.-da güclü Tao-Klarceti dövlətini yaratdı. B. gürcü torpaqlarını birləşdirmək uğrunda mübarizə aparmışlar. B.-ın görkəmli nümayəndələri Qurucu *David*, III Georgi [1156–84], *Tamara* olmuşlar. Gürc. dövlətinin parçalanmasından sonra 15 əsrin sonlarında B. Kartli, Kaxeti və İmereti çarlıqlarında hökmranlıq etmişlər. 1801 ildə Gürc.-ın Rusiyaya birləşdirilməsi ilə B.-ın hakimiyyətinə son qoyulmuşdur. B.-ın bir qolu Rusiyanın knyaz nəsilləri sırasına daxil edilmişdi. Tarixçilər Vaxuşti, Teymuraz, David, rus sərkərdəsi P.İ. *Baqration* B. nəslindən idilər.

**BAQRİ** Aleksandr Vasilyeviç (23.4.1891, Xmelnitski vil.-nin Leticev qəs. – 22.6. 1949, Bakı) – ədəbiyyatşünas, biblioqraf. Milliyyətcə ukraynalıdır. Azərb. Dövlət Un-tinin rus ədəbiyyatı kafedrasının prof.-u və Azərb. SSR EA əsaslı kitabxanasının direktoru olmuşdur. Qafqaz xalqlarının nağıl və əfsanələrindən ibarət üççildlik məcmuə tərtib etmişdir (1930). Məcmuənin 1-ci cildinə bütünlüklə, 2-ci cildin isə bir hissəsinə Azərb. xalq ədəbiyyatı nümunələri daxil edilmişdir. Azərb. folkloruna dair məqalələr yazmış, Qafqazın, o cümlədən Azərb.-ın tarixi, etnoqrafiyası və ədəbiyyatına dair biblioqrafik göstəricilər, Azərb. məktəbləri üçün dərsliklər ("Türklər üçün rus dili", Q. Qiyasbəyli ilə birlikdə), tələbələr üçün vəsait ("Ədəbiyyat biliyinə başlanğıc", "Ədəbiyyatşünaslıq üçün vəsait"; hər üçü 1930 ildə nəşr olunmuşdur) tərtib etmişdir.

İkicildlik "T.Q. Şevçenko" (1930–31) əsərinin müəllifidir.

Əsərləri: Azərbaycan biblioqrafiyasına dair materiallar. "Maarif və mədəniyyət", 1924, № 2–3; El hekayələri haqqında. "Xalq müəllimi", 1924, №1; Maksim Qorkinin yaradıcılıq yolu. B., 1929.

**BAQULAL DİLİ** (baqval dili, kvanadin dili) – *baqulalların* dili. Dağıstanın Sumandin və Axvax r-nlarının 6 kəndində, həmçinin düzənlik hissəsində məişət dili kimi yayılmışdır. 2002 ildə aparılan siyahıyaalınmaya görə B.d.-ndə 0,1 min, dilçilərin fikrincə isə 6 mindən çox (2002) adam danışır. B.d. *andi dillərindən* biridir. 3 şivə qrupu var (Xuştada və Tlondoda k.-ləri; Kvanada və Gemerso k.-ləri; Tlissi və Tlibişo k.-ləri). Yazısı yoxdur.

*Əd.*: Багвалинский язык: Грамматика. Тексты. Словари. М., 2001.

**BAQULALLAR**, baqvalallar, baqvalilər, kvanadilər – Dağ. Resp.-nda (RF) *andi xalqlarından* biri. Sayları 6 min nəfərdən çoxdur (2002). Boqos dağ silsiləsinin şm. yamaclarında (Sumandin və Axvax r-nları), həmçinin Qızılyurd r-nunun Çalo və s. k.-lərində, həmçinin Xasavyurd və Qızlar r-nlarında məskunlaşmışlar. *Baqulal dilində* danışırlar, avar və rus dilləri də yayılmışdır. Dindarları müsəlmandır.

Didoy ittifaqına (bax *Sez xalqları*)

Baqulallar. Xuştada kəndi.



daxil idilər. 15 əsrdə ittifaqın parçalanmasından sonra mərkəzi Xuştada k. olan Baqulal ittifaqında birləşmişlər. Ənənəvi mədəniyyətləri Qafqaz xalqları (bax *Asiya*) üçün səciyyəvidir. Ortasında ocağı olan birmərtəbəli, birkameralı evlər; kişi yığıncaqları (qyorkyo rux, hərfi mənada kişi evi) mövcud olmuşdur. Qadınların ənənəvi geyimlərində qara rəng üstünlük təşkil edir. Yun (toxuculuq, mahudçuluq, keçəçilik, corabtoxuma), gümüş (silah, kişi kəmər dəsti, qadın bəzəkləri) emalı, daş üzərində oyma (qəbirüstü daşlar) inkişaf etmişdir. Folklor janrlarından nağıllar, nəğmələr (lirik, mərasim, məişət, əmək, tarixi), qadın və kişi qruplarının ifa etdiyi rəqslər (xarazul, qyikaba, eşalub) və s. məlumdur.

**BAL** – arıların başlıca olaraq *balverən bitkilərin* nektarından hazırladığı və yem ehtiyatı kimi istifadə etdiyi şirin qatı maddə; qiymətli qida məhsuludur. Nektardan alınan B. ç i ç ə k B.-ı, bitkilərdə yaşayan və onların şirəsi ilə qidalanan yarpaq birələrinin, mənənələrin, qurdların və s. cücülərin ifrazatından alınan şirin qatı maye isə g ə z ə n g i B. adlanır.

Arılar B.-ı, həmçinin ballı şehdən, bəzi bitkilərin yarpaqlarındakı şəkərli şirənin ekssudatından və küknar yarpaqlarından hazırlaya bilir. B.-ın bu 2 növü keyfiyyətcə çiçək B.-ından geri qalır (çox vaxt xoşagəlməz tamı və özünəməxsus iyi olur) və qışlayan arılarda həzm pozuntusu yarada bilir.

Hər bir təbii zonada balverən bitkilərin növmüxtəlifliyinin çox olmasına baxmayaraq, arılar B.-ın əsas miqdarını həmin yerin bal yığımı şəraitinin tipini müəyyən edən 1–3 növdən alır. Nektarın əsas mənbələrinə görə cökə, qırxbuğum, moruq-yağıotu, xardal-günəbaxan, üçyarpaq yonca-moruq-erika B.-ı və s. adlanan çiçək B.-ının tərkibində 18–20% (kütləyə görə) su, 80%-ədək karbohidrat (əsasən, qlükoza və fruktoza) var. B.-ın tərkibinə həmçinin üzvi turşular (alma, limon qlükon və s.), fermentlər (amilaza, katalaza, invertaza və s.), mineral, aromatik, boyayıcı maddələr, vitaminlər ($B_2$, PP, C, $B_6$, K və E), fitonsidlər və s. daxildir. B.-ın tərkibi balverən bitkinin növündən, iqlim şəraitindən, onu əmtəəlik halına gətirən əmtəənin emal üsulundan asılıdır. Təzə B. maye konsistensiyalıdır. Tərkibindəki su buxarlanlıqca "yetişir" və qatılaşır; invertazanın təsirilə nektarın saxarozası qlükozaya və fruktozaya çevrilir. B. yetişdikdən sonra arılar şanları mum qapaqcıqlarla bağlayır. B.-ın rəngi ağ (yağıotudan), sarı (ağ akasiyadan, xaşadan, cökədən, günəbaxandan), tünd-qonur (qarabaşaqdan, erikadan və s.) olur. B. sortlarının əksəriyyətinin dadı şirin, bəzən acıtəhərdir (şabalıd və tütündən); ətri və tamı mənşəyindən asılıdır. B.-ın qatılığı müxtəlifdir (məs., akasiya B.-ı duru, erika B.-ı çox qatıdır). B.-ın qatılığını normallaşdırmaq, istənilən ətrin, rəngin və dadın alınması üçün müxtəlif B. sortlarının kupajı (qarışdırılması) tətbiq edilir. Şan B.-ı, süzülmüş B. (sentrifuqadan keçirilmiş) və sıxılmış B. ayırd edilir. Ş a n B.-ı, onun üçün təbii tara (qab) sayılan mum qapaqcıqlı şan qovuqcuqlarında olur; o, ilkin emal edilmədən, seksiyalı çərçivələrdə, yaxud ayrı-ayrı hissələr şəklində satışa verilir. S ü z ü l m ü ş B. balsüzəndə sentrifuqadan keçirilməklə şanlardan çıxarılır. S ı x ı l m ı ş B. şanları mülayim qızdırıb sıxmaqla alınır. Bu üsul çox qatı B.-ı sentrifuqa ilə çıxarmaq mümkün olmadıqda, həmçinin onun sadə pətək şanlarından və vəhşi arıların yuvalarından yığılması zamanı tətbiq edilir. Sıxılma zamanı şanlar dağıldığından sıxılmış B.-ın tərkibində xeyli miqdarda mum və mumabənzər maddələr olur. B. cökə, fıstıq, sidr və s. ağaclardan düzəldilmiş çəlləklərdə, şüşə qablarda saxlanılır. Şanlardan çıxarılan B. saxlanıldıqda tədricən kristallaşır. B. təbii şəkildə istifadə edilir, ballı içkilər hazırlanmasında, həmçinin qənnadı sənayesində, xalq təbabətində (tərkibində bioloji aktiv maddələrin olmasına və bakterisid təsirinə görə) geniş işlənir. Bir sıra hallarda allergik reaksiyalara (səpki, qusma və s.) səbəb olur. Arıların zəhərli bitkilərin nektarından hazırladıqları B.-dan bəzən zəhərlənmələr müşahidə edilir.

**BAL ARISI,** e v a r ı s ı (*Apis millifera L.*) – *arıkimilər* fəsiləsinin arılar cinsindən ailə halında yaşayan cücü. Vətəni Cənubi Asiyadır. Hər arı ailəsi bir ana arıdan, 60–80 min işçi arıdan və yay vaxtı bir neçə yüz erkək arıdan ibarət olur. Yuvalarını ağac koğuşlarında, qaya yarıqlarında və s. dalda yerlərdə düzəldir. Ayrı-ayrı arı fərdləri təklikdə yaşayıb çoxalma qabiliyyətinə malik deyildir, buna görə də bal arıları üçün "ailə" məfhumu bioloji təsərrüfat vahidi kimi qəbul edilmişdir. B. a. beçə verməklə çoxalır; *partenogenez* səciyyəvidir. Yayda əmələ gələn erkək arılar payızda tələf olur. Qışlamaya yalnız ana və işçi arılar qalır. Ana arının sorucu ağız aparatı işçi arınınkından qısa olduğu üçün nektar toplaya bilmir, arxa ayaqlarında çiçək tozcuğu yığmaq üçün aparatı, qarıncığında isə şan hörmək üçün mum ifraz edən mum "aynacıqları" yoxdur. Cavan ana arının erkək arılarla mayalanması yazın sonundan yayın axırınadək davam edir. Ana arı ailənin digər fərdlərinə nisbətən böyük olur. Bədəninin uz. 20-25 *mm*, çəkisi 200 *mq*-dan çoxdur. Ana arı mayalandıqdan sonra sutkada 2000–2500-ədək, mövsüm ərzində isə 200 minədək yumurta qoyur. Cinsiyyət vəziləri yaxşı inkişaf etmiş erkək arının (bədəninin uz. 15–17 *mm*, çəkisi 200 *mq*-adək) vəzifəsi yalnız ana arını mayalamaqdan ibarətdir. Ana arı beş ilədək yaşaya bilir, lakin onun intensiv yumurtaqoyma fəaliyyəti iki ildir. Zəiflədiyinə görə sonra ananı dəyişmək lazım gəlir. İşçi arıların arxa ayaqlarında tozcuğu yığan və ötürən fırça və səbətciklər var; aşağı qarın yarımhalqalarında mum "aynacıqları" (mum vəzilərinin ifraz etdiyi mumun lövhələr şəklində bərkidiyi xitin hissələr) olur. Xüsusi vəziləri tərkibində çoxlu zülali maddə olan və qiymətli qida xassələrinə malik arı südü ifraz edir. İşçi arılar yayda əsas məhsulu topladıqları vaxt 40–45 gün, yayın axırlarında yetişən arılar isə yazadək, yeni arılar əmələ gələnədək yaşayır. Ailədə olan bütün işçi arılar iki qrupa ayrılır: yuvadaxili cavan (18–20 günlük) pətək arıları və yaşlı (18–20 günlükdən yuxarı) çöl (uçuş) arıları. Yuvadaxili arılar pətək daxilindəki işləri görür: şan hörür, pətəyi təmizləyir və onu düşmənlərdən qoruyur, havasını dəyişdirir, sürfəni (balanı) və ananı yemləyir, pətəkdə sürfənin inkişafı üçün optimal temp-r rejimini yaradır. Çöl arıları uzaq məsafəyə uça bilir və sakit havada ailəni yemlə təmin etmək üçün nektar və çiçək tozu toplayır. Hər bir işçi arı yaşından asılı olaraq müxtəlif işləri icra edir. Yenicə qovuqcuqdan çıxmış arılar üç günlüyədək çıxdıqları qovuqcuqları təmizləyir, onun divarını cilalayır. Təmizlənməmiş qovuqcuğa ana yumurta qoymur. Təmizləyici arılar şan qovuqcuqlarındakı sürfələrin inkişafını təmin etmək üçün yuvanı qızdırır. 3 günlükdən 13 günlüyədək olan arılarda mum vəziləri fəaliyyətə başlayır. Belə arıların işi şan hörməkdən ibarətdir. 12–22 günlük arılar sürfələri qidalandırır və yuvaya gətirilmiş nektarı bala çevirir. Bundan sonra isə arılar nektar və çiçək tozu toplayır. Qədimdən yetişdirilən B.a. bal, mum, propolis (vərəmum), arı südü, arı zəhəri verməkdən başqa, çiçəklərin, k.t. bitkilərinin və meyvə-giləmeyvə ağaclarının tozlanmasında iştirak edir və məhsuldarlığın artmasında böyük rol oynayır.

Bal arısı (Apis mellifera L.).



**BAL YIĞIMI** – 1) *balverən bitkilərin* çiçəkləmə dövründə arıların nektar və tozcuq toplaması. B.y. müddəti iqlim zonasından, balverən bitkilərin botaniki tərkibindən, hava şəraitindən və s. amillərdən asılı olaraq 10–11 sutkadan 2 ayadək və daha artıq davam edə bilər. *Arıxanada* işlərin planlaşdırılması, arıları B.y.-na və k.t. bitkilərini tozlandırmağa çıxarmağın müddətinin və tezliyinin təyin edilməsi, yem bazasından yaxşı istifadə olunması və s. üçün B.y. vaxtının qabaqcadan proqnozlaşdırılması zəruridir. Bu iş çoxillik fenoloji müşahidələr əsasında tərtib edilmiş balverən bitkilərin çiçəkləmə təqviminə, arı ailələri məhsuldarlığının çoxillik qeydlərinə (nəzarət pətəklərinin göstəricilərinə) əsasən aparılır. 2) Yaz–yay dövründə arı ailəsindən, yaxud arıxanadan alınan balın miqdarı. Balın bir hissəsi arı ailəsini yemləmək üçün istifadə edilir, qalan hissəsi əmtəəlik məhsul sayılır və satış üçün yığılır. Əmtəəlik və yem balının birgə həcmi ümumi (faktiki) B.y.-nı təşkil edir. Orta güclü arı ailəsi il ərzində yem üçün 80–100 *kq* bal sərf edir. Bir arı ailəsinin verdiyi əmtəəlik balın miqdarı 20–40 *kq* ola bilər. Ümumi B.y. payızda, yuvaların qışa hazırlanması zamanı, gündəlik B.y. isə nəzarət pətəyinin göstəricilərinə əsasən hesablanır. B.y. balverən bitkilərin miqdarından, onların növ tərkibindən, balverən yerlərin arıxanaya yaxın yerləşməsindən, arı ailələrinin gücündən, arıxanada işlərin təşkilindən və s. asılıdır. Hava şəraitinin əhəmiyyəti böyükdür. Sürəkli yağışlar, uzunmüddətli soyuqlar, yaxud həddən artıq quru hava B.y.-nı azaldır. Havanın və torpağın optimal rütubətliyi şəraitində 20–25°C temp-lu günəşli hava nektarın yaxşı ifrazına səbəb olur və B.y.-nı artırır. B.y.-nı balverən bitki əkinlərini genişləndirmək, yaşayış məntəqələrini balverən bitkilərlə yaşıllaşdırmaq, bal arılarını B.y.-na vaxtında çıxarmaqla yüksəltmək olar.

**BAL RƏQSLƏRİ** – kütləvi əyləncələr zamanı ifa olunan rəqslər. Rəqs gecələrində (ballarda) qoşa, yaxud daha çox iştirakçılarla oynanılır. B.r.-ni çox vaxt məişət rəqsləri də adlandırırlar. 15 əsrdə İtaliyada yaranmış, sonra Fransada yayılmışdır. 16–17 əsrlərdə bütün Avropada B.r.-nin qayda-qanunlarını Fransa müəyyənləşdirirdi. İlk əvvəl B.r.-nin müəyyən edilmiş dəqiq forması olmamışdır. Təzim, reverans və salyutlar, adətən, şamlar və məşəllərlə təntənəli yerişli "aşağı rəqslər" (bas-dans) üstünlük təşkil etmişdir; rəqslər oynayanların özlərinin oxuması, yaxud lyutna, fleyta, tamburin, arfa və trubada ifa ilə müşayiət olunmuşdur. 17 əsrdə ayrı-ayrı Avropa ölkələrində B.r. müxtəlif çalarlar, milli üslub kəsb etmiş, zənginləşmiş və daim şəklini dəyişmişdir. *Burre, qavot, allemanda, çakona, jiqa, sarabanda* B.r. populyar idi. *Menuet* hakim mövqe tuturdu. 1662 ildə Parisdə B.r.-nin üslub və ifa tərzini nizama salan Rəqs Akademiyası təsis edilmişdi. B.r.-ni xüsusi müəllimlər və ya rəqs məktəbləri öyrədirdi. 18 əsrdə yeni, daha sərbəst rəqslər yayılmağa başlamışdı: paspye, müzet, riqodon (fransız); kontrdans və ekossez (ingilis); lendler (alman). 17 əsrdə ballar ancaq aristokratik cəmiyyətdə təşkil olunurdusa, 18 əsrin əvvəllərindən pullu kütləvi ballar geniş yayılmışdı. İlk belə bal 1715 ildə Parisdə təşkil edilmişdi (1797 ildə onların sayı 684-ə çatmışdı). 1768 ildə Parisdə ilk dəfə olaraq B.r. üçün xüsusi yer ayrılmışdı. Böyük Fransa inqilabı bütün Avropanın ictimai və mədəni həyatına, o cümlədən B.r.-nə mühüm təsir göstərmişdi. İnqilabın gətirdiyi sosial-ictimai dəyişikliklər 19 əsrdə bir sıra (canlı-ritmik və təbii) kütləvi B.r.-nin (tampet, matredur, fransız kadrilinin müxtəlif növləri, çoxlu vals variantları və s.) inkişafına təkan vermişdi. Hər yerdə *lansye, lendler, qalop, kankan* və nəhayət *polka, mazurka, polonez* kimi rəqslər yayılmışdı. 19 əsrdə və 20 əsrin əvvəllərində rəqslər üçün xüsusi yerlər və meydançalar (kafeşantanlar, rəqs barları, zallar, bağ meydançaları) əmələ gəlmişdi. 19 əsrin ortalarından qavot və menueti sıxışdırıb aradan çıxaran *vals* ən populyar bal rəqsinə çevrilmişdi. Valsın tarixi Vyana bəstəkarları İ. Ştraus-ata, Y. Lanner və İ. Ştraus-oğulun yaradıcılığı ilə ayrılmaz surətdə bağlı olmuşdur.

19 əsrin sonu – 20 əsrin əvvəllərində B.r.-nin inkişafına Şimali və Cənubi Amerika ölkələrinin böyük təsiri olmuşdur. *Vals-boston, tu-step*, uan-step, *blüz, fokstrot, tanqo*, kvik-step, *çarlston*. Birinci dünya müharibəsindən (1914–18) sonra *rumba*, samba və s. rəqslər meydana gəlmişdir.

**BALA,** B a l a ç a y – Azərb. Resp. Cəlilabad r-nu ərazisində çay. Göytəpə çayının sağ qolu. Uz. 10 *km*. Suvarmada istifadə olunur.

**BALA BADARA,** B a l a B ə d ə r ə – Azərb. Resp. Xocalı r-nu ərazisində çay. Badara (Bədərə) çayının (Qarqarçay hövzəsi) sol qolu. Uz. 10 *km*.

**BALA BƏHMƏNLİ** – Azərb. Resp. Füzuli r-nunda kənd. Bala Bəhmənli ə.d.-nin (Bala Bəhmənli, Araz Dilağarda, Araz Zərgər, Birincii Mahmudlu k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 39 *km* ş.-də, Bəhmənli d.y. st.-ndan 3 *km* aralı, Araz çayının sol sahilində, Mil düzündədir. Əh. 2794 (2008); taxılçılıq və maldarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, mərkəzi rayon xəstəxanası, uşaq xəstəxanası, göz xəstəxanası, tibb məntəqəsi, mədəniyyət evi, kitabxana var.

**BALA CƏFƏRLİ** – Azərb. Resp. Qazax r-nunun Cəfərli ə.d.-ndə kənd. R-n mərkəzindən 12 *km* c.-q.-də, Ağstafaçay su anbarının yaxınlığındadır. Əh. 200 (2008); heyvandarlıqla məşğuldur. İbtidai məktəb, uşaq bağçası, feldşer-mama məntəqəsi, klub, kitabxana var.

**BALA ƏRƏBLƏR** – Azərb. Resp. Bərdə r-nunun Güloğlular ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* şm.-ş.-də, düzənlikdədir. Əh. 432 (2008); maldarlıq və əkinçiliklə məşğuldur. Tibb məntəqəsi, kitabxana var.

**BALA GÖYÜŞLÜ** – Azərb. Resp. Bərdə r-nunun Böyük Göyüşlü ə.d.-ndə kənd. R-n mərkəzindən 13 *km* c.-ş.-də, Qarabağ kanalının sahilindədir. Əh. 332 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Klub var.

**BALA HƏŞİMXANLI** – Azərb. Resp. Sabirabad r-nunun Moranlı ə.d.-ndə kənd. R-n mərkəzindən 57 *km* c.-ş.-də, Muğan düzündədir. Əh. 1907 (2008); pambıqçılıq, taxılçılıq, bostançılıq və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**BALA KƏNGƏRLİ** – Azərb. Resp. Kürdəmir r-nunun Cəyli ə.d.-ndə kənd. R-n mərkəzindən 16 *km* şm.-ş.-də, Girdiman çayının sahilində, düzənlikdədir. Əh. 273 (2008); maldarlıq, əkinçilik, ta-

xılçılıq və meyvəçiliklə məşğuldur. Ümumi orta məktəb, kitabxana var.

**BALA KƏNGƏRLİ** – Azərb. Resp. Tərtər r-nunun Cəmilli ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* şm.-da, Tərtər çayının sahilindədir. Əh. 723 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb var.

**BALA KOLATAN** – Azərb. Resp. Masallı r-nunun Böyük Kolatan ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* c.-da, düzənlikdədir. Əh. 957 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana var.

**BALA KÜR**, Aquşa, Ağ quş – Azərb. Resp. Salyan ş. yaxınlığında Kür çayından ayrılan qol. Uz. 63 *km*. Keçmişdə Qızılağac körfəzinin bir hissəsi olmuş Xurşidçalaya tökülürdü. Sonralar Kürün səviyyəsi aşağı düşdüyündən B.K.-ə su axmamışdır. Hazırda B.K.-ün yatağına nasoslarla su vurmaqla, ondan suvarma kanalı kimi istifadə edilir.

**BALA KÜRƏK** – Azərb. Resp. Goranboy r-nu ərazisində çay. Kürək çayının sağ qolu. Bax *Buzluq*.

**BALA QACAR** – Azərb. Resp. Bərdə r-nunun Şirvanlı ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* c.-da, düzənlikdədir. Əh. 826 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Uşaq bağçası, tibb məntəqəsi, kitabxana, klub var.

**BALA QUSAR** – Azərb. Resp. Qusar r-nunda kənd. Bala Qusar ə.d.-nin (Bala Qusar, Bədirqala, Həsənqala, Köhnə Xudatqazmalar k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 6 *km* şm.-ş.-də, Qusar çayının sol sahilində, Xudat–Qusar avtomobil yolunun kənarında, Qusar maili düzənliyindədir. Əh. 1375 (2008); taxılçılıq, tərəvəzçilik, meyvəçilik və maldarlıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, ambulatoriya, uşaq bağçası, mərasimlər evi; məscid var.

**BALA MƏZRƏ**, Kiçik Məzrə – İrəvan xanlığının Göyçə mahalında (9.9.1930 ildən Basarkeçər, 11.6.1969 ildən – Vardenis r-nu). Məzrə çayının kənarında azərb.-ların yaşadığı kənd. 1919 ilin aprelində kənd erməni təcavüzünə məruz qalmış, azərb.-lar kənddən qovulmuşlar. 1922 ildə kəndin qaçqın əhalisi geri qayıtmış, 1988 ilin noyabr–dekabr aylarında yenidən soyqırımına məruz qalaraq kənddən çıxarılmışdır. Sovet dövründə kəndin adı erməniləşdirilərək Pokr Mazra adlandırılmışdır. Kəndin ərazisində 4–7 əsrlərə aid Oğuz qəbiristanlığı, 10–12 əsrlərə aid alban kilsəsi var idi.



Balaban.

**BALA SURRA** – Azərb. Resp. Neftçala r-nunun Cəngan ə.d.-ndə kənd. R-n mərkəzindən 26 *km* şm.-q.-də, Kür çayının sol sahilindədir. Əh. 213 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Klub, kitabxana var.

**BALA ŞAHAĞAC** – Azərb. Resp. Astara r-nunun Kokolos ə.d.-ndə kənd. R-n mərkəzindən 16 *km* şm.-da, Xəzər dənizi sahilində, düzənlikdədir. Əh. 1096 (2008); əkinçilik, maldarlıq, balıqçılıqla məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi, düyüüyütmə dəyirmanı var.

**BALA ŞAMLIQ** – Azərb. Resp. Tovuz r-nunun Qəribli ə.d.-ndə kənd. R-n mərkəzindən 49 *km* c.-da, Zəyəmçayın sol sahilindədir. Əh. 341 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana, klub, tibb məntəqəsi var.

**BALA ŞÜRÜK** – Azərb. Resp. Lənkəran r-nunun Gərmətük ə.d.-ndə kənd. R-n mərkəzindən 10 *km* c.-q.-də, Lənkəran ovalığındadır. Əh. 650 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Klub, kitabxana, tam orta məktəb, uşaq bağçası, tibb məntəqəsi; məscid var.

**BALA TƏKLƏ** – Azərb. Resp. Masallı r-nunun Çaxırlı ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* şm.-ş.-də, düzənlikdədir. Əh. 502 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana var.

**BALABAK** – Cənubi Çin və Sulu dənizlərini birləşdirən boğaz. Balabak a. (şm.-da) ilə Balambanqan və Bangi a-rı (c.-da) arasındadır. Eni təqr. 50 *km*, dərinliyi 49–151 *m*-dir. Ş.-də mərcan dayazlığı (3,5–5 *m*) ilə B. 2 keçidə (Lumbukan keçidi və Baş keçid) ayrılır.

**BALABAN** – nəfəslə çalınan Azərb. musiqi aləti. Müxtəlif növləri (alt B., bəm B., dəm B., kiçik B., klapanlı B., pikkolo B., orkestr B.-ı, tulum B., cürə B. və s.) var. Fındıq, tut, qoz, yaxud ərik ağacından düzəldilir. Silindrik gövdəsi (uz. 280–320 *mm*) üzərində 9 dəlik (8-i ön, biri isə arxa tərəfdə) olur. Gövdəsinin baş tərəfinə qamışdan ikiqat dilçəkli yastı müştük taxılır. Buna görə el arasında alətə çox zaman yastı B. da deyilir. Müştüyün ortasındakı xərək vasitəsilə alətin kökü dəyişdirilir. B.-ın diapazonu kiçik oktavanın "sol" səsindən ikinci oktavanın "re" səsinə qədərdir. Yumşaq, həzin tembri var. B.-dan xalq çalğı alətləri ansamblları və orkestrlərində, eləcə də solo alət kimi istifadə edilir. Orta Asiya və digər Qafqaz xalqları arasında da geniş yayılmışdır.

**BALABƏYLİ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin Muğan kəndistanında, Biləsuvar qəs.-ndən 50 *km* şm.-q.-dədir.

**BALABƏYLİLƏR** – yarımköçəri şahsevən tayfası. Cənubi Azərb.-ın c.-unda yaşayırlar. Əsasən, maldarlıq, qismən əkinçiliklə məşğul olurlar (bax həmçinin *Şahsevənlər*).



**BALABUYEV** Pyotr Vasilyeviç (23.5.1931, Luqansk vil.-nin Valuysk xutoru – 17.5.2007, Kiyev) – Ukrayna aviakonstruktoru, texnika e.d. (1988), Sosialist Əməyi Qəhrəmanı (1975), SSRİ Dövlət mükafatı laureatı (1973). Xarkov Politexnik İn-tunu bitirmişdir (1954). Həmin ildən O.K. *Antonovun* Təcrübə-Konstruktor Bürosunda (indiki O.K. Antonov ad. Aviasiya Elmi-Texniki Kompleksi, Kiyev) işləmiş, 1984 ildən baş konstruktor olmuşdur. "An" təyyarələrinin (o cümlədən An-8, An-10, An-22, "Antey", An-24, An-72, An-124, "Ruslan") 100-ədək tipinin və modifikasiyasının yaradılmasında iştirak etmişdir. B.-in rəhbərliyi ilə An-225 "Mriya" həddənağır nəql. təyyarəsi yaradılmış, An-218 və An-180 işlənib hazırlanmışdır. B. bir sıra elmi müddəalar işləyib hazırlamış və təyyarələrin avtomatlaşdırılmış layihələndirilməsi və yığılması üsullarını təcrübədə tətbiq etmişdir. B.-in rəhbərliyi altında aviasiya nəql.-nın inkişafı sahəsində fundamental tədqiqatlar aparılmış və bir sıra əsaslı məsələlər öz həllini tapmışdır.

**BALACA HƏMYƏ** – Azərb. Resp. Siyəzən r-nunun Həmyə ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* ş.-də, Bakı–Rostov





avtomobil yolundan 6 *km*, Qızılburun d.y. st.-ndan 5 *km*. Xəzər dənizindən 1,5 *km* aralı, Samur-Dəvəçi ovalığındadır. Əh. 930 (2008); üzümçülük, bostançılıq, tərəvəzçilik və heyvandarlıqla məşğuldur. Siyəzən kərpic, "AB Siyəzən FİŞ" ASC, balıq emalı z-dları, tam orta məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi var.

**BALACA QOŞQAR** – Azərb. Resp. Daşkəsən r-nu ərazisində. Kiçik Qafqazın şm.-ş. yamacında zirvə. Qoşqar d.-ndan 1800 *m* q.-də, Qoşqar çayı sahilindədir. Hünd. 3047 *m*. Subalp və Alp çəmənləri var.

**BALADİTYAPÚRA**, Aninditapura – Mərkəzi Kambocada 6 əsrin sonu – 7 əsrin əvvəllərindən 8 əsrin 2-ci yarısına qədər mövcud olmuş khmer dövləti. Stunq–Sen çayı vadisində yerləşirdi. 8 əsrin əvvəlində Aşağı Çenla dövləti tərəfindən zəbt olunmuş, lakin əsrin ortalarında Nripatindravarmanın hakimiyyəti dövründə müstəqilliyi bərpa edilmişdir. 8 əsrin 2-ci yarısında B. hökmdarları Aşağı Çenlanı özlərinə tabe etmiş və Çenla kralları adlanmağa başlamışlar.

**BALAHƏSƏNLİ** – Azərb. Resp. Qubadlı r-nunun Teymur Müskənli ə.d.-ndə kənd. R-n mərkəzindən 14 *km* şm.-q.-də, Bərgüşad çayının sol sahilində, dağətəyi ərazidədir. Əh. 64 (2008); işğaldan (1993, avqust) əvvəl maldarlıq, əkinçilik və baramaçılıqla məşğul olmuşdur.

**BALAXANA** – bəzi Şərq ölkələrində yaşayış binalarının üstündə tikilən otaq. B. qonaq və yay istirahət otağı olduğundan, daxildən və xaricdən bəzədilirdi. B. Azərb., xüsusən Naxçıvan, Ordubad, Abşeron (Bakı), Lənkəran evləri üçün xarakterik idi. B.-lar karvansaraların giriş darvazası üstündə də tikilirdi.

**BALAXANI** – Azərb. Resp., Bakı ş.-nin Sabunçu r-nunda qəsəbə. Balaxanı qəs. ə.d.-nin mərkəzi. Əh. 13,3 min (2008). R-n mərkəzindən 5 *km* şm.-da, Böyükşor gölündən 3 *km* aralıdır. 3 tam orta məktəb, məktəbəqədər müəssisə, poliklinika, şahmat klubu, rabitə şöbəsi, kitabxana, mədəniyyət evi, M.Ə. Sabir ad. bağ və park, memarlıq abidələri (bax *Balaxanı abidələri*) var. M.Ə. Sabir B.-da müəllimlik etmişdir. Ərazisində neft çıxarılır.

**BALAXANI ABİDƏLƏRİ** – Bakının Balaxanı qəs.-ndə orta əsrlərə aid memarlıq abidələri. B.a.-nə 1385 ildə usta Arif tərəfindən inşa edilmiş Hacı Şəhla məscidi (kvadrat formalı tağtavanlı kiçik otaq və onun qarşısındakı baştağdan ibarətdir), xalq arasında "İmarət" adlandırılan, 1427 ildə tikilmiş Şakir ağa türbəsi (günbəzli salon və fasadın çıxıntılı baştağından ibarətdir; hər iki abidə Abşeron binaları üçün xarakterik olan yonulmuş daşdan tikilmişdir), Balaxanı qalası (14 əsr), hamam (15 əsr), karvansara (1635), ovdan (17 əsr), Eldarzadə türbəsi (1915), həmçinin arxeoloji abidələr olan neft anbarları və 2 yaşayış yeri daxildir.

**BALAXANI LAY DƏSTƏSİ** – Məhsuldar qatın (Alt Pliosen) üst şöbəsinin dəstələrindən biri. 1916 ildə Balaxanı k.-ndə N.İ. Uşeykin tərəfindən ayrılmışdır. Gil, qum və qumdaşıdan ibarətdir. Qalınlığı 400–850 *m*. Xarakterik faunası ostrakodlar – Hyocypris Bradyi Sars., H. gibba Ramd., Darwinula aurea (Brady et Ramd.) və s. Abşeron y-a-nın mərkəzi və ş. hissələrində 8-ə qədər qumlu horizontdan ibarətdir. B.l.d. həmin sahələrdə neftlidir.

**BALAXANI–SABUNÇU–RAMANA NEFT-QAZ YATAĞI** – Abşeron neftli-qazlı sahəsində, Bakı ş.-ndən 12 *km* şm.-ş.-də, eyniadlı yaşayış məntəqələri r-nundadır. Yatağın geoloji quruluşunda Məhsuldar qat, Akçaqıl və Abşeron mərtəbələrinin çöküntüləri iştirak edir. Struktur tektonik baxımdan Fatmayı-Zığ antiklinal zonasında yerləşir; asimmetrik braxiantiklinal quruluşludur; şm.-q. – c.-ş. istiqamətlidir. C.-q. qanadı dik (60–80°), şm.-ş. qanadı isə mailidir (24–25°). Qırışığın tağ hissəsi və c.-ş. periklinalı bir sıra müxtəlif istiqamətli və müxtəlif amplitudlu faylarla bloklara parçalanmışdır. Yataqda Məhsuldar qatın, demək olar ki, bütün lay dəstələri neftli-qazlıdır; kiçik bir sahədə Orta Abşeronun da neftliliyi aşkar edilmişdir. Məhsuldar qatın kəsilişində 26 ədəd sərbəst işlənmə obyekti ayrılmışdır. Kollektorların məsaməliliyi 23–27%, keçiriciliyi 90–600 *m*D diapazonunda dəyişir. Neftin xüs.ç. Məhsuldar qatın alt şöbəsində 0,916–0,926, üst şöbəsində 0,865–0,914-dür. Yatağın sənaye üsulla işlənilməsinə 1871 ildən başlanmışdır. 2010 ilədək yataqdan 335 mln. *t* neft, 9,7 mlrd. $m^3$ qaz hasil edilmişdir. Uzun müddət (140 il) istismarda olan horizontların lay təzyiqi 60–90% azalmışdır.

**BALAXNÁ** – RF-də, Nijni Novqorod vil.-nin q.-ində şəhər. Balaxna r-nunun mərkəzi. Əh. 55,7 min (2005). Volqa çayında gəmi dayanacağı. D.y. st.

Şəhər 1474 ildən məlumdur. Adı ilk dəfə 1536 ildə rus salnamələrində çəkilir; B.-nı dağıtdıqdan sonra Kazan xanı Səfa Gəray burada qala saldırmışdır. 16 əsrin 2-ci yarısı – 18 əsrdə B. duz hasilatı və taxıl ticarətinin mühüm mərkəzi, 17 əsrin ortalarından gəmiqayırma mərkəzi olmuşdur. 18–19 əsrlərdə B. Rusiyada kərpic və boyalı şirli kaşı istehsalının, həmçinin krujevaçılığın ən iri mərkəzlərindən idi. Volqa çayı sahilinə yaxın salınmış düzbucaq formalı qalanın taxta divarları və bürcləri 1730 ildə yanmışdır. Torpaq səddinin yerində 1825 ildə bulvar salınmışdır. Yaşayış məskənində Pokrov və Rojdestvo monastırlarının tikililəri yerləşirdi. Onlardan Pokrov (1648) və İsanın mövludu (1675) kilsələri qalmışdır. Digər abidələrdən Troitsa qəbiristanlığı (1784) və Sreteniye (1807) kilsələri, 18 əsrin ortaları – 19 əsrin yaşayış tikililəri var. 1930-cu illərdə Pravdink qəs. salınmışdır: yaşayış evləri, mədəniyyət sarayı, K. Mininin heykəli (1980-ci illərdə Nijni Novqoroddan gətirilmişdir). Qəzet kağızı və mebel, radiorele aparatları istehsalı; tikiş f-ki, ət və çörək kombinatları və s. Diyarşünaslıq muzeyi var. B.-nın yaxın ətrafları oyma dekorlu taxta kənd evləri ilə məşhurdur (oyma nümunələri muzeylərdədir).

**BALAXNÁ MƏDƏNİYYƏTİ** – Oka çayının aşağı axarında və Orta Volqabo-



Balaxanı abidələri. Şakir ağa türbəsi. 15 əsr.

yunda (q.-də Murom ş.-ndən ş.-də Sviyaqa çayına qədər) Neolit dövrünə (4-cü minilliyin ortaları – 3-cü minilliyin 2-ci yarısı) aid arxeoloji mədəniyyət. Abidələrin tədqiqinə 19 əsrin sonlarından başlanılmış (V.V. *Dokuçayev*, V.İ. Kamenski, V.A. Qorodsov), 1934 ildə O.N. *Bader* və M.V. *Voyevodski* tərəfindən B.m. ayrıca mədəniyyət kimi müəyyənləşdirilmişdir. Məskənlər ocaqları və divar boyu düzülmüş taxtları olan yarımqazmalardan ibarətdir. Basma, balıqqulağı və dırnaq batıqları, həmçinin aypara, bucaq və s. şəkilli daraqvarı ştamp izləri ilə bəzədilmiş sivri və dairəvi oturacaqlı qablar tapılmışdır. Erkən abidələr üçün qabların tam naxışlanması, sonrakı dövr üçün isə bəzi hissələrin bəzədilməsi səciyyəvidir. B.m. üçün ox ucluqları, iki tərəfdən retuşlu yarpaqşəkilli və üçbucaq formalı nizələr, qaşovlar, bıçaqlar, cilalanmış iskənə və kərkilər, yerli çaxmaqdaşı, əhəngdaşı və şistdən düzəldilmiş qurslar xarakterikdir. Yerli əhalinin məşğuliyyəti ovçuluq, balıqçılıq və yığıcılıq olmuşdur.

**BALAK** – *sabirlərin* hökmdarı (6 əsr). Onun hakimiyyəti dövründə Sabir dövləti Sasanilərlə birlikdə Bizansa qarşı müharibə aparmış, sabirlər Anadolunun içərilərinə doğru irəliləmişdilər. B.-ın ölümündən sonra arvadı *Boarık* hakimiyyətə keçmişdi.

**BALAKƏN** – Azərb. Resp. Balakən r-nu ərazisində çay. Qanıx (Alazan) çayının sol qolu. Uz. 39 *km*, hövzəsinin sah. 320 $km^2$. Baş Qafqaz silsiləsinin c. yamacından (2500 *m* hünd.-dən) başlanır. Yeraltı, yağış və qar suları ilə qidalanır. Daşqın və sel olur. Suvarmada istifadə edilir.

**BALAKƏN** – Azərb. Resp.-nda şəhər (1968 ildən). Balakən r-nunun mərkəzi. D.y. st. Aeroport. Yevlax–Şəki–Tbilisi avtomobil yolunun kənarında, Bakıdan 471 *km* aralı, Balakən çayının sağ sahilində, Böyük Qafqazın c. ətəyindədir. Əh. 9,3 min (2008). Tütün fermentləşdirmə, konserv, asfalt, beton məmulatları və qum-çınqıl z-dları; 4 məktəbəqədər təhsil müəssisəsi, 5 ümumtəhsil məktəbi, 5 məktəbdənkənar təhsil müəssisəsi, 1 peşə məktəbi (2010/11); mədəniyyət evi, mədəniyyət və istirahət parkı var.

**BALAKƏN RAYONU** – Azərb. Resp.-nda inz. r-n. 1930 ildə təşkil edilmişdir. 1963 ildə ləğv edilərək ərazisi Zaqatala r-nuna verilmiş, 1965 ildə yenidən müstəqil r-n olmuşdur. Resp.-nın şm.-q.-ndə, Böyük Qafqazın c. yamaclarında, Qanıx-Əyriçay çökəkliyində yerləşir. Sah. 923



Balakən şəhərindən görünüş.

$km^2$. Əh. 89,7 min (2008). R-n şm.-ş.-dən Rusiya Federasiyası (Dağ. Resp.), şm.-q.-dən və c.-q.-dən Gürc., ş.-dən Zaqatala r-nu ilə həmsərhəddir. R-nda 1 şəhər, 1 qəs., 57 kənd var (2008). Mərkəzi Balakən ş.-dir.

**Təbiət.** R-nun relyefi şm.-ş.-də dağlıq, c.-da və c.-q.-də düzənlikdir. Şm.-da – Baş Qafqaz silsiləsinin suayırıcında Rusiya Federasiyası ilə sərhəd boyunca Quton (3648 *m*), Tinov-Rosso (3385 *m*) və s. zirvələr var. Düzənlik hissədə Antropogen, dağlıq hissədə isə Yura və Tabaşir çöküntüləri yayılmışdır. Kolçedan-polimetal (Filizçay, Tenros, Kasdağ, Katex), gil yataqları var. İqlimi mülayim isti və yarımrütubətli subtropikdir; yüksək dağlıq yerlərdə soyuq və rütubətlidir. Orta temp-r yanvarda –7,8°C-dən –1,5°C-yədək, iyulda 10,5–24,5°C-dir. İllik yağıntı 600–1400 *mm*-dir. Çay şəbəkəsi (Balakən, Mazım, Qanıx, Katex) sıxdır. Əsasən, qonur dağ-meşə, allüvial çəmən-meşə və allüvial çəmən torpaqları yayılmışdır. R-nun şm. və şm.-ş. hissələrində meşələr (palıd, fıstıq, vələs və s.) geniş yer



tutur. Yüksək dağlıq yerlərdə subalp və Alp çəmənləri yayılmışdır. Heyvanları: dağkeçisi (tur), maral, cüyür, qonur ayı, köpgər (qarapaça), çöldonuzu, meşə və daşlıq dələsi, süleysin və s. Quşları: qartal, şahin, qırqovul və s. *Zaqatala Dövlət Qoruğunun* 2/3 hissəsi (16560 *ha*) B.r. ərazisindədir.

**Əhali.** Orta sıxlıq 1 $km^2$-də 99 nəfərdir. Kənd əhalisi 88,7%-dir. Balakən ş., Qabaqçöl qəs., Hənifələr, Katex, Mahamalar k.-ləri iri yaşayış məntəqələridir.

**Təsərrüfat.** B.r. *Şəki-Zaqatala iqtisadi rayonuna* daxildir. Təsərrüfatında heyvandarlıq, taxılçılıq, meyvəçilik və tərəvəzçilik əhəmiyyətli yer tutur. R-nun vahid torpaq fondu 92487 *ha*, əkin sahəsi 18020 *ha* [6948 *ha*-ı çoxillik bitkilər (1.1.2011), 3003 *ha*-ı həyətyanı sahələr, 311 *ha*-ı biçənəklər, 8563 *ha*-ı otlaqlardır] təşkil edir. Aqrar islahatından sonra 20817 ailəyə 14655 *ha* pay torpağı verilmişdir (1.1.2010). B.r.-nda "Azza" firması, M.Ə. Sabir ad. birgə təsərrüfat, "Şəfəq" istehsal kooperativi və s. k.t. müəssisələri; "Dərya-R" fındıq emalı müəssisəsi, "Balakənkərpic" MMC, qum-çınqıl z-du, beton məmulatları z-du, "Azəryemsənaye" MMC və s. iri sənaye müəssisələri; "İş Bankı Azərbaycan", "Beynəlxalq bank" və "Kapital bank"ın filialları fəaliyyət göstərir. İqtisadi əlaqələr sahəsində "Konserv" ASC Qazaxıstana müxtəlif meyvə şirələri, "AZ-AQRO" MMC MDB ölkələrinə fermentlənmiş tütün ixrac edir. Fiziki şəxslər tərəfindən tədarük olunan xurma məhsulu Rusiya, Ukrayna və s. ölkələrə göndərilir. Resp.









Heydər Əliyev ad. mədəniyyət və istirahət parkı.



Katex şəlaləsi.

əhəmiyyətli avtomobil yollarının 31 *km*-i (Bakı–Tbilisi) B.r. ərazisindən keçir.

**Mədəni quruculuq və səhiyyə.** R-nda 25 məktəbəqədər təhsil müəssisəsi, 49 ümumtəhsil məktəbi, 5 məktəbdənkənar təhsil müəssisəsi, 2 peşə məktəbi (2010/11) var.

R-nda 1 mərkəzi, 1 uşaq, 1 şəhər və 49 kənd kitabxanasından ibarət mərkəzləşdirilmiş kitabxana sistemi, tarix-diyarşünaslıq muzeyi, uşaq incəsənət və musiqi məktəbləri, 20 mədəniyyət evi, 17 klub, mədəniyyət və istirahət parkı fəaliyyət göstərir.

Memarlıq abidələrindən Qullar k.-ndə Pəriqala (12–13 əsrlər), məbəd (1780), Katex k.-ndə dördkünc bürcləri olan qala (17 əsr), məscid (1912), inşa tarixi məlum olmayan ibadətgah, məbəd, İtitala k.-ndə məscid, Xalatala k.-ndə məscid (16 əsr), Hənifə k.-ndə məbəd (14 əsr). Balakən ş.-ndə minarəli məscid (19 əsr) və s. qalmışdır. Arxeoloji abidələrdən Solban k.-ndə qədim qəbiristanlıq (11–12 əsrlər), "Qübek qayası" adlanan yerdə "Noxo mağarası" qorunub saxlanmışdır. Ş.-də 1941–45 illər müharibəsində həlak olmuş həmyerlilərə abidə qoyulmuşdur.

B.r.-nda 556 çarpayılıq (əhalinin hər 10 min nəfərinə 63 çarpayı) 6 xəstəxana (mərkəzi r-n, uşaq və 4 kənd səhə xəstəxanası), 8 kənd həkim ambulatoriyası, 19 feldşer-mama məntəqəsi, gigiyena və epidemiologiya mərkəzi, 148 həkim, o cümlədən 15 stomatoloq və diş həkimi, 548 orta tibb işçisi (o cümlədən 61 feldşer-mama və mama) var (1.10.2009).

**BALAKƏND** – Yelizavetpol (Gəncə) qub.-nın Qazax qəzasında (31.12.1937 ildən Noyemberyan r-nu) azərb.-ların yaşadığı kənd. 1930-cu illərdə kəndin azərb. əhalisi köçürülmüş, burada xaricdən gəlmə ermənilər yerləşdirilmişdir. Sovet dövründə kəndin adı dəyişdirilərək Dovex qoyulmuşdur.

Balakən Olimpiya İdman Kompleksi.



**BALAKƏND** – Azərb. Resp. Sabirabad r-nunun Qalağayın ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* c.-da, düzənlikdədir. Əh. 777 (2008). Ümumi orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**BALÁKİREV** Mili Alekseyeviç (2.1.1837, Nijni Novqorod – 29.5.1910, S.-Peterburq) – rus bəstəkarı, pianoçu, dirijor, ictimai xadimi. Xırda mülkədar ailəsindəndir. Ev musiqi təhsili almışdır. A.D. Ulıbışevin Nijni Novqorodun musiqi mədəniyyəti mərkəzinə çevrilmiş evində təşkil olunan konsertlərdə ilk dəfə pianoçu, musiqi əsərlərinin müəllifi və dirijor kimi çıxış etmişdir. 1855 ilin sonlarında S.-Peterburqa köçmüş, burada M.İ. Qlinka, A.F. Lvov və A.S. Darqomıjski ilə tanış olmuşdur. 1856–62 illərdə S.A.Küi, M.P. Musorqski, N.A. Rimski-Korsakov və A.P. Borodinlə yaxınlaşmışdır; V.V. Stasovun köməyi ilə onları bir qrupda birləşdirərək, *Yeni rus məktəbinə* (Balakirev dərnəyi, bax *"Qüdrətli dəstə"*) rəhbərlik etmişdir. B., bəzi əsərlərində ondan əxz etdiyi kompozisiya planlarını həyata keçirmiş P.İ. Çaykovski ilə məktublaşmışdır. 1862 ildən Q.Y. Lomakinlə birlikdə təsis etdiyi Pulsuz musiqi məktəbinin konsertlərinə rəhbərlik etmişdir; 1867–69 illərdə Rusiya musiqi cəmiyyətinin (RMC) baş dirijoru işləmiş, rus bəstəkarlarının (M.İ. Qlinkanın əsərlərinin dirijor təfsirinin əsasını qoymuşdur), həmçinin B. Smetana, H. Berlioz, F. List,







R.Şuman və F. Şopenin musiqisinin təbliği ilə məşğul olmuşdur. 1866–67 illərdə Praqada M.İ. Qlinkanın operalarına dirijorluq etmişdir. Milli musiqi materialına istinad edərək ispan marşı (1857; 2-ci redaksiyası İspan uvertürası, 1886) və üç rus xalq mahnısı mövzusunda (1858; 2-ci redaksiyası 1881) simfonik uvertüralar yazmış, "Ruslan və Lyudmila" operasının Şərq koloritinin təsiri ilə "İslamey" (1869, N.Q. Rubinşteynə həsr olunmuşdur) virtuoz fp. fantaziyasını və "Tamara" (təqr. 1882) simfonik poemasını yaratmışdır. Hər iki əsərin əsasını təşkil edən milli melodiyaları B. 1863,1864, 1868 illərdə Qafqaza səfəri zamanı yazıya almışdır. B.-in xalq mahnılarına peşəkar marağı "1000 il" musiqi lövhəsində (1862; 2-ci redaksiyası "Rusiya" simfonik poeması, 1887; yeni redaksiyası 1907) özünü göstərmişdir. RMC ilə barışmaz ziddiyyətlər, Pulsuz musiqi məktəbi konsertlərinin maliyyə iflasına uğraması, ailəni təmin edə bilməməsi (1869 ildə atasının ölümündən sonra bacıları onun himayəsində qalmışdı) B.-i dirijorluq fəaliyyətini müvəqqəti olaraq dayandırmağa məcbur etmişdi. Sıxıntı içərisində olmasına baxmayaraq, Moskva konservatoriyasında prof. yerini tutmaqdan imtina etmişdir. İdealı olan M.İ. Qlinkaya sədaqətini qoruyub saxlamış B., Qlinkanın da sonradan fikirləşdiyi kimi, pravoslav kilsə musiqisinin Qərbi Avropa bəstəkarlıq ənənələri ilə sintezi qənaətinə gəlmiş və 1880-ci illərdə aktiv musiqi fəaliyyətinə qayıtmışdır. 1881 ildə yenidən Pulsuz musiqi məktəbinin başçısı olmuş, 1883 ildə Saray xor kapellasına rəhbərlik etmiş (1894 ilədək), kilsə xorları yaratmışdır. Əsərləri ilk dəfə 1889 ildə xaricdə ifa olunmuşdur (N.A. Rimski-Korsakov Parisdə üç rus xalq mahnısı mövzusunda uvertüraya dirijorluq etmişdir). B.-in dirijor kimi son konserti 1899 ildə Berlin-də olmuşdur. Kütləvi çıxışlara son qoyaraq B. 1900 ildən H. Berliozun "Te Deum" partiturasının, F. Şopenin əsərlərinin, 1902 ildən isə M.İ. Qlinkanın əsərlərinin (S.M. Lyapunovla birlikdə) tam külliyyatının nəşrlərini redaktə etmişdir.

Əsərləri arasında orkestr üçün 2 simfoniya (C-dur, 1864–97; d-moll, 1907–08), üçhissəli süita (1901–09, S.M. Lyapunov tərəfindən tamamlanmışdır), U. Şekspirin "Kral Lir" faciəsinə musiqi (1858–61, 2-ci redaksiyası 1905); fp. ilə orkestr üçün 2 konsert (fis-moll,1855; Es-dur, 1861–62, 1909–10, Lyapunov tamamlamışdır); fp. üçün sonatalar (b-moll, 1856–57; b-moll, 1905), sonatina (C-dur, 1909), skerso, mazurkalar, valslar və s.; romanslar, o cümlədən "Quldurun nəğməsi", "Yanıma gəl" (A.V. Koltsovun şeirlərinə), "Gürcü nəğməsi" (A.S. Puşkinin şeirinə), "Səlimin nəğməsi", "Yəhudi melodiyası", "Qızıl balığın nəğməsi" ,"Yuxu" (M.Y. Lermontovun şeirlərinə); xorlar və s. var.



Balaklava.

**BALAKİŞİBƏYLİ** Şahin Əbdülhəlim oğlu (d.5.1.1938, İsmayıllı) – Azərb. geofiziki, geologiya-mineralogiya e.d. (1992). 1960 ildə Azərb. Sənaye İn-tunu bitirmişdir. Əmək fəaliyyətinə "Azərneft" Birliyinin dəniz geofiziki kəşfiyyat kontorunda başlamışdır. Azərb. EA-nın Geologiya İn-tunda laboratoriya rəhbəri (1978–86), sektor rəhbərinin müavini (1982–92), şöbə və sektor rəhbəri (1992–2006) vəzifələrində çalışmışdır. 2006 ildən AMEA-nın Seysmoloji Xidmət Mərkəzində şöbə rəhbəridir. Tədqiqatları yüksək termodinamiki şəraitdə süxurların fiziki xassələrinin öyrənilməsinə həsr olunmuşdur. 100-dən çox elmi əsərin müəllifidir.

**BALAKİŞİYEV** Kamil Əbdülsalam oğlu (20.9.1906, Bakı yaxınlığındakı Novxanı k. – 22.11.1973, Bakı) – Azərb. morfoloq-anatomu, tibb e.d. (1936), prof. (1938), Azərb. SSR əməkdar elm xadimi (1942). Azərb. Dövlət Un-tinin tibb fakültəsini bitirmişdir (1926). Azərb. Dövlət Tibb İn-tunda normal anatomiya kafedrasının müdiri (1937–73), eyni zamanda müalicə-profilaktika fakültəsinin dekanı (1941–44) və elmi işlər üzrə prorektor (1946–63) vəzifələrində işləmişdir. Tədqiqatları vəzilərin yaş morfologiyasına, ətraf sinirlərin kötükdaxili quruluşuna, topoqrafiyasına və ürək-damar sistemi anatomiyasının bəzi məsələlərinə həsr edilmişdir. 70-dən artıq elmi əsərin müəllifidir.

Ə s ə r l ə r i: İnsanın normal anatomiyası. 4 cilddə. B., 1948–59; Anatomiya, histologiya və embriologiya terminləri. B., 1961; Anatomik nomenklatura. B., 1964.

**BALAKİŞİYEVA** Fəxrəndə Kamil qızı (d.6.5.1944, Bakı) – Azərb. tibb alimi, fizioterapevt və nevropatoloq, tibb e.d. (2006). K.Ə. *Balakişiyevin* qızıdır. Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1966). Azərb. Elmi Tədqiqat Tibbi Bərpa İn-tunun nevrologiya şöbəsində baş elmi işçi işləmiş (1973–2010), 2010 ildən fiziki üsullarla müalicə bölməsinin rəhbəridir. Tədqiqatları baş beyinin qan damarları patologiyasının fiziki üsullarla müalicəsinə həsr edilmişdir. 80-dən artıq elmi əsərin müəllifidir.

**BALAKLAVA** – Krım y-a-nda qədim şəhər (1957 ildən Sevastopolun tərkibindədir). Strabon, Böyük Plini, Ptolemey, Arrian və b. antik müəlliflər burada *tavrların* Simbolon (Simvolon, yaxud Palakion) adlı məskənini qeyd etmişlər. 1357 ildə genuyalılar tərəfindən işğal olunmuş, Çembalo koloniyasına çevrilmişdi (Genuya qalasının qalıqları dövrümüzədək çatmışdır). 1475 ildə türklər buranı tutaraq B. ("balıq yuvası") adlandırmışlar. 1783 ildə Krımın tərkibində Rusiyaya qatılmış, hərbi port olmuşdur. Rusiya-Türkiyə (1768–74) və Krım (1853–56) müharibələri zamanı B.-nın yaxınlığında döyüşlər baş vermişdir.

**BALAKÓVO** – RF-də, Saratov vil.-nin ş.-ində şəhər. Balakovo r-nunun mərkəzi. Əh. 199,6 min (2005). Volqa çayı sahilindədir. D.y. st. Çay portu. Aeroport.



Balakovo şəhərindən görünüş.



Balalayka.

18 əsrin 1-ci yarısından məlumdur. B. kəndi 1762 il manifestinə əsasən Reç Pospolitadan qayıtmış köhnə təriqətçilər tərəfindən salınmışdır; 1913 ildən şəhərdir. Müq. Troitsa kilsəsi (1909–14), P. Maltsevin malikanəsi (1880; 20 əsrin əvvəllərində yenidən qurulmuşdur) və s.; bir neçə ali məktəbin filialları, Saratov rəssamlıq muzeyinin filialı (1977), şəhərin tarixi muzeyi (1986), dram teatrı (1997 ildən) var. B. Rusiyanın Avropa hissəsində ən iri energetika mərkəzidir (Balakovo AES-i, Saratov SES-i, İES-4). Kimyəvi lif, ölkənin ən iri avtomobil z-dları üçün rezin-texnika məmulatı (təqr. 3 min adda), mineral gübrə istehsalı; ət və pivə kombinatları və s. var.

**BALAKUH** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Sirdan bölgəsinin Yuxarı Tarım kəndistanında, Sirdan qəs.-ndən 114 *km* şm.-ş.-dədir.

**BALAKÜRD** – Azərb. Resp. Goranboy r-nunda kənd. Balakürd ə.d.-nin mərkəzi. R-n mərkəzindən 10 *km* c.-ş.-də, Gəncə-Qazax düzənliyindədir. Əh. 1816 (2008); pambıqçılıq və taxılçılıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var.

**BALAQ,** k ə l ç ə, x ö t ə k – camış balasına verilən ad.

**BALAQAN** (fars. "balaxanə" sözündən – balkon) – yarmarkalarda, xalq gəzintilərində teatr, sirk və s. tamaşalar üçün müvəqqəti bina, həmçinin tamaşanın özü. Rusiyada B.-lar 18 əsrin ortalarından – 20 əsrin əvvəllərinədək mövcud olmuşdur. Müxtəlif tamaşalar (qeyri-adi, şarlatan tryukları, irihəcmli feeriya, balet, xor və orkestrlərin çıxışları) göstərmək üçün nəzərdə tutulmuşdu. B.-da həmçinin folklor personajlarının iştirakı ilə pantomimalar, xalq komediyaları tamaşaya qoyulurdu, Bibliya süjetləri əsasında tamaşalar, qısa məişət səhnəcikləri (bayram oyunları) oynanılırdı. Burada petruşkaçılar, carçılar və rayok göstərənlər çıxış edirdilər. Tryuk arlekinadaları (ən məşhur təşkilatçıları – fransız Leman, onun şagirdləri Leqat qardaşları və V.K. Berq), həmçinin məzhəkələr, effektli döyüş səhnələri xüsusilə populyar idi.

**BALAQAN ÇÖLLƏRİ** – RF-də, İrkutsk vil.-ndə yüksəklik (450–650 *m*). İrkutsk–Balaqan meşə-çölünün şm. hissəsi. Unqa və Zalari çayları arasında (Anqara hövzəsi), həmçinin Anqaranın enli terraslarındadır. Relyefi parçalanmışdır. Yağıntının illik miqdarı 275 *mm*-ədəkdir. Qara və çimli-karbonatlı torpaqlarda çəmən-çöllər; ağcaqovaq, tozağacı və qaraşam meşə sahələri yayılmışdır. Çox hissəsi şumlanır. Karst inkişaf etmişdir.

**BALAQARDAŞOV** Qardaşbala İmanalı oğlu (15.5.1928, Şamaxı r-nunun Sündü k. – 1.5.1991, həmin kənddə) – Sosialist Əməyi Qəhrəmanı (1948). Şamaxı r-nundakı təsərrüfatda baş baytar işləmişdir. 1948 ildə qoyunçuluq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.



**BALAQUSARQIŞLAQ** – Azərb. Resp. Xaçmaz r-nunun Qusarçay ə.d.-ndə kənd. R-n mərkəzindən 25 *km* şm.-q.-də, Xaçmaz–Xudat avtomobil yolunun 5 *km*-liyindədir. Əh. 196 (2009); tərəvəzçilik, taxılçılıq və maldarlıqla məşğuldur.

**BALALAYKA** – lyütna tipli, barmaqla çalınan rus simli musiqi aləti. Təqr. 17 əsrin 2-ci yarısında meydana gəlmişdir. Qədim rus *domra* musiqi alətinin növü olduğu ehtimal edilir. 18 əsrin sonu – 19 əsrdə kənd və şəhər həyatında çox populyar olmuşdur. Adının təqlidi mənası var; etimologiyası B.-da ifaya qeyri-ciddi sənət kimi yanaşmaq ənənəsini nəzərə çarpdırır. 1880–90-cı illərdə V.V. Andreyevin təşəbbüsü və iştirakı ilə təkmilləşdirilmişdir. Andreyev B.-sı adlandırılan alət üçkünc korpusdan, üzərində 16–29 oyma pərdəsi olan qoldan və 3 simdən ibarətdir. Səsdüzümü xromatikdir. 1890-cı illərdə B. alətləri ailəsi (prima, sekunda, alt, bas, kontrabas) yaradılmış, sonralar bu alətlər rus xalq çalğı alətləri orkestrlərinə daxil edilmişdir. B.-primadan solo konsert aləti kimi geniş istifadə olunur.

**BALALIQ** (uterus, metria) – dişi heyvanlarda cinsiyyət axarının xüsusi şöbəsi; B. yolunun genişlənmiş hissəsi. Qalın əzələli divarı var, qanla yaxşı təchiz olunur. Uz. 3–10 *sm*, eni 7–12 *sm*-dir. B. girdə qurdlarda, buğumayaqlılarda, molyusklarda, ibtidai onurğalıların əksəriyyətində (bəzi qığırdaqlı balıqlarda və diridoğan sümüklü balıqların hamısında), bəzi suda-quruda yaşayanlarda, bir çox sürünənlərdə, quşlarda və bütün məməlilərdə var.

B. yolunun bitişmə dərəcəsindən asılı olaraq B.-ın 4 tipi ayırd edilir: i k i l ə ş - m i ş B. (uterus duplex) – hər biri ayrıca dəliklə (bəzi gəmiricilərdə, fillərdə və s.) ümumi B. yoluna açılır; i k i b ö l ü m l ü B. (uterus bipartitus) həmçinin iki B.-dır, lakin arxa şöbələri (bəzi gəmiricilər, gövşəyənlər, donuzlar və yırtıcılarda) birbirinə bitişmişdir və balalıq yoluna bir ümumi ağızla açılır; i k i b u y n u z l u B. (uterus bicornis) – məməlilərdə ən çox yayılmış B. tipidir: B.-ın balalıq yoluna açılan tək cismində birləşən iki balalıq buynuzundan (bir çox yırtıcılarda, həşəratyeyənlərdə, balinakimilərdə, cütdırnaqlılarda və təkdırnaqlılarda) ibarətdir; s a d ə B. (uterus simplex) – iki balalıq yoluna açılan tək cismdən ibarətdir (əliqanadlıların çoxunda, primatlarda).

**BALALIQTƏPƏ** – Şimali Toxarıstanda (Özbəkistanın Surxandərya vil.-nin Anqorsk r-nu) 7 əsrə aid qəsr. L.İ. Albaum tərəfindən aşkar edilmişdir (1953–55). Çiy kərpicdən tikilmiş qəsr gildən hazırlanmış kvadrat platforma (30×30 *m*) üzərində olmuşdur. 7 əsrin əvvəllərində daxili həyət ətrafında tikililər inşa edilmişdir; 7 əsrin ortalarında həyət tikilib abadlaşdırılmışdır. Tikililərin birində ziyafət məclisi təsvir edilmiş divar rəsmləri olmuşdur. B. 7 əsrin 2-ci yarısında yanmış, əsrin sonlarında bərpa edilmişdir; divarlarında rəsmlər olan tikili uğursuz bərpa cəhdindən sonra hörülmüş, tikilinin damına aparan pilləkən düzəldilmişdir. B. 8 əsrin əvvəllərindən boş qalmış və dağılmışdır.







Şərq divarı



Qərb divarı

Balalıqtəpə. Divar rəsmləri. Rekonstruksiya.

**BALAMBANQAN** – Yava a.-nın ş.-ində mövcud olmuş knyazlıq. 16 əsrdə *Macapahit* imperiyasının parçalanması nəticəsində yaranmışdı. 17 əsrədək arxipelaqda *şivaizmin* dayağı olmuşdur. 1639 ildə *Mataram* dövlətinin müsəlman sultanı Aqunq B.-ı tutduqdan sonra buranın əhalisi islamı qəbul etmişdir. 1743 ildə B.-ın ərazisi Hollandiyanın Ost-Hind şirkətinin hakimiyyətinə keçmişdi.

**BALAMETOV** Əşrəf Balamet oğlu (d.27.1.1947, Qusar r-nunun Əcəxur k.) – energetika sahəsində Azərb. alimi, texnika e.d. (1994), prof. (2011). Azərb. Neft və Kimya İn-tunu (1971) bitirmişdir. 1971–92 illərdə Azərb. Elmi Tədqiqat Energetika İn-tunda mühəndis, kiçik elmi işçi, böyük elmi işçi, şöbə müdiri, hesablama mərkəzinin müdiri, direktor müavini vəzifələrində işləmiş, 1993 ildən laboratoriya rəhbəridir. Tədqiqatları mürəkkəb elektroenergetika sistemləri rejimlərinin riyazi modelləşdirilməsi üsullarına həsr olunmuşdur. 150 elmi əsərin, o cümlədən 3 monoqrafiyanın müəllifidir. Beynəlxalq elmi konfrans və simpoziumlarda iştirak etmişdir. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r l ə r i: Модели и методы расчёта установившихся режимов электрических сетей с учетом коронирования проводов. Б., 2005; Методы расчёта потерь мощности и энергии в электрических сетях энергосистем. Б., 2006; Методы анализа установившихся режимов электроэнергетических систем. Абакан, 2009.

**BALAMİ** Əbu Əli Məhəmməd ibn Məhəmməd (? – 974) – Samani hökmdarları I Əbdülməlik ibn Nuhun [954–961] və I Mənsur ibn Nuhun [961–976] vəziri. 963 ildə *Təbərinin* ümumi tarixə dair əsərinin fars dilində müxtəsər variantını tərtib etmişdir. B.-nin "Tarix-i Təbəri" adlı kitabı yeni fars dilində yazılan və dövrümüzədək gəlib çatmış ilk tarixi əsərdir. Kitabda Təbərinin əsərində olmayan bir sıra qiymətli məlumatlar vardır. "Tarix-i Təbəri" fransız, türk, urdu, ərəb dillərinə tərcümə edilmişdir.

**BALAMİR,** B a l a m b e r (? – 378) – hunların *başbuğu*. B.-in nə vaxt hun tayfa ittifaqının rəhbəri olduğu haqqında dəqiq məlumat yoxdur. Mənbələrə görə, onun başçılığı ilə hun tayfalarının böyük yürüşləri 374 ildən etibarən başlamışdır. Həmin il B. *ostqotları* özünə tabe etmişdi. Bir müddət sonra ostqotların bir qismi üsyan qaldırmış, lakin Erak çayı sahilində məğlubiyyətə uğrayaraq Pannoniyaya köçmüşlər (375). B. ostqot kralı Hermanarixin ölümündən sonra Hunimundu (hərfi mənada "hun ağızlı") taxta çıxarmışdı; həmin vaxtdan onların hökmdarını özü təyin edirdi.

Mükəmməl süvari taktikası tətbiq edən B. Dnepr sahilində *vestqotlara* ağır zərbə endirmişdi; onların kralı Atanarix tabeliyindəki vestqotlarla Roma imperiyasının sərhədinə doğru qaçmaq məcburiyyətində qalmışdı (376). 378 ilin yazında kəşfiyyat xarakterli yürüş təşkil edən B. qot, alan və german tayfalarından ibarət mütəşəkkil köməkçi dəstələrlə Dunay çayını keçmiş və Frakiyaya gəlmişdi. Bir müddət sonra hunlar Pannoniyaya qədər irəliləmişdilər. B.-in hakimiyyəti dövründə Roma imperiyasının şm. əyalətlərindən İspaniyaya qədər olan ərazilər hunların əlinə keçmişdi. B.-in başçılığı ilə hunların qısa müddət ərzində geniş ərazilərdə yayılması Avropanın etnik mənzərəsinin dəyişməsinə səbəb olmuşdu (bax *Xalqların böyük köçü*).

*Əd:* И о р д а н. О происхождении и деяниях гетов. М., 1960; K a f e s o ğ l u İ. Türk Milli Kültürü. İstanbul, 1993.

**BALAMÜRSƏL** – Azərb.-da xalq seleksiyası yolu ilə alınmış nar sortu. Kolunun hünd. 3 *m*-ədək, budaqları tikansız, yarpaqları iri, lansetşəkillidir. Meyvəsi girdə, tünd-moruğu, qalın qabıqlıdır; ən irisi 400–500 *q* ağırlığında olur. Oktyabrın əvvəlində yetişir. Dənəsi orta irilikdə, toxumu nazik və uzunsovdur. Arakəsmə pərdələri qalındır. Dadı meyxoşdur. Şirəsində 14,3 % şəkər, 2,09 % limon turşusu var. Hər kolundan 30–50 *kq* məhsul yığılır. Əsasən, Ağsu, Göyçay, Ucar, Ağdam və s. bölgələrdə becərilir.

**BALAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin Gərmaduz kəndistanında, Kəlibər qəs.-ndən 30 *km* şm.-ş.-dədir.

**BALAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin Meşəpara kəndistanında, Kəlibər qəs.-ndən 17 *km* c.-q.-dədir.

**BALANÇİN** (Balanchine) Corc (əsl adı və soyadı Georgi Melitonoviç Balançivadze; 22.1.1904, S.-Peterburq – 30.4. 1983, Nyu-York) – rus və Amerika balet artisti, xoreoqraf, pedaqoq. M.A. *Balançivadzenin* oğludur. 1921 ildə Petroqrad teatr məktəbini bitirmişdir. 1920–23 illərdə Petroqrad konservatoriyasında oxumuşdur. 1921–24 illərdə Dövlət Akademik Opera və Balet Teatrında (indiki Mariya teatrı) çıxış etmişdir. 1924 ildə Almaniyada qastrolda olmuşdur. 1925–29 illərdə S.P. Dyagilevin rus baleti truppasının baletmeysteri işləmiş, müxtəlif janrlarda tamaşalar hazırlamışdır: "Barabau" farsı, (V. Riyeti, 1925), "Pişik" (A. Soqe, 1927) və "Fərsiz oğul" (S.S. Prokofyev, 1929) baletləri. B. yaradıcılığı üçün İ.F. Stravinskinin "Apollon Musaget" (1928) baletinin



böyük əhəmiyyəti olmuşdur. O, ilk dəfə olaraq klassik nümunələrə əsaslanan və eyni zamanda prinsip etibarı ilə onlardan fərqlənən, dəyişdirilmiş və zənginləşdirilmiş rəqs formalarını tam dolğunluğu ilə əks etdirmiş- dir. Bu istiqamət 1934 ildən sonra B.-in yaradıcılığında daha geniş inkişaf etmişdir. 1932–33 illərdə "Balle rüs de Monte-Karlo" truppasının xoreoqrafı olmuş- dur. 1933 ildə "Balle 1933"-ü təşkil etmişdir. 1933 ildən ABŞ-da işləmişdir. 1930–40-cı illərdə L. Kyörstayn ilə birlikdə Amerika balet məktəbini və bir neçə truppa ("Amerikan balle", "Balle karavan", "Balle sosayeti") yaradaraq amerikan baletinin əsasını qoymuşdur. B.-in 1948 ildə meydana gəlmiş *"Nyu-York siti balle"* truppası 21 əsrin əvvəllərində də ABŞ-da ən məşhur truppa olaraq qalmaqdadır. B. rəqs üçün nəzərdə tutul-mayan (süjet, demək olar ki, olmur, məzmun musiqili-xoreoqrafik obrazların inkişafında açılır) instrumental və ya simfonik musiqi əsasında 150-yə yaxın balet yaratmışdır. O, P.İ. Çaykovskinin ("Serenada", 1934; "Balle emperial", 1941; "Allegro brillante", 1956; "Çaykovskinin üçüncü süitası", 1970; "Motsartiana", 1933 və 1981), İ.S. Baxın ("Konçerto barokko", 1940), J. Bizenin ("Do major simfoniyası", 1947), İ.F. Stravinskinin ("Pəri öpüşü", 1937, "Orfey", 1948, "Simurq quşu", 1949; "Aqon", 1957; "Qiymətli daş-qaş" baletinə "Yaqutlar" adı ilə daxil edilmiş "Kapriççio", 1967; "Nuh və tufan", 1982, "Orkestr üçün variasiyalar", 1982) və b.-nın musiqisi əsasında balet tamaşaları hazırlamış, F. Mendelsonun musiqisi əsasında "Yay gecəsində yuxu", (1962) və N.D. Nabokovun "Don Kixot" (1965) əsərlərinin əsasında çoxpərdəli süjetli tamaşalar yaratmışdır. P.İ. Çaykovskinin "Şelkunçik" (1954), A.K. Qlazunovun "Raymonda" (1955), L. Delibin "Koppeliya" (1974) kimi klassik baletlərinin yeni quruluşunu vermişdir. B. balet tamaşalarının yeni tipini yaratmışdır. Onun baletləri rəqslərin rəngarəngliyi, zərifliyi, hərəkətlərin virtuoz işlənib hazırlanması ilə seçilir. O, klassik balet dilinin yeni imkanlarını müəyyən etmiş, onu zənginləşdirmişdir. B. sənəti xoreoqrafiyada yeni istiqamətin formalaşmasına imkan yaratmış, bir çox ölkələrdə onun ardıcılları meydana gəlmişdir. Bakıda qastrolda olmuşdur.



**BALANÇİVÁDZE** Andrey Melitonoviç (1.6.1906, S.-Peterburq – 28.4.1992, Tbilisi) – gürcü bəstəkarı. M.A. *Balançivadzenin* oğludur. SSRİ xalq artis-ti (1968). SSRİ Dövlət mükafatı laureatı (1946, 1947). Sosialist Əməyi Qəhrəmanı (1986). Tbilisi (1926, M.M. İppolitov-İvanovun sinfini) və Leninqrad konservatoriyalarını (1931) bitirmişdir. Tbilisi konservatoriyasında dərs demişdir (1937 ildən, 1940 ildən prof.). 1941–48 illərdə Gürc. SSR Dövlət Simfonik Orkestrinin bədii rəhbəri, 1953–61 və 1968–73 illərdə Gürcüstan Bəstəkarlar İttifaqının sədri (1973–79 illərdə fəxri sədr) olmuşdur. İlk gürcü baleti olan "Mzeçabuki" (1936 ildə Tbilisidə tamaşaya qoyulmuşdur, baletmeyster V.M. Çabukiani; 1938 ildə "Dağların qəlbi" adı ilə Leninqradda, sonra SSRİ-nin digər şəhərlərində tamaşaya qoyulmuşdur), həmçinin "Həyat səhifələri" (1961), "Mtsıri" (1964) baletlərinin, "Mzia" (1949) və "Qızıl toy" lirik-komik operalarının (1970; hər ikisi Tbilisidə tamaşaya qoyulmuşdur) müəllifidir. Gürcü simfonik və fp. musiqisi sahəsində novatordur. 4 simfoniya (1944–84), 4 fp. konserti, simfonik lövhələr, kamera musiqisi, xor və mahnılar, teatr tamaşalarına və kinofilmlərə musiqi bəstələmişdir.

**BALANÇİVÁDZE** Meliton Antonoviç (5.1.1863, Kutaisi yaxınlığında Banoca k. – 21.11.1937, Kutaisi) – gürcü bəstəkarı, musiqi xadimi. Gürc. SSR xalq artisti (1933). Milli bəstəkarlıq məktəbinin banilərindən biridir. 1880 ildən Tbilisi Opera Teatrında çıxış etmişdir. 1889 ildən Peterburq konservatoriyasında (1891 ildən N.A. Rimski-Korsakovun sinfində) təhsil almış, həmçinin 1881 ildən başladığı milli folkloru yazıyaalma fəaliyyətini davam etdirmiş, S.-Peterburq və Rusiyanın digər ş.-lərində etnoqrafik ansamblların iştirakı ilə "Gürcü konsertləri" təşkil etmişdir. 1897 ildə S.-Peterburqda, sonra Tbilisidə onun yeganə operası "Məkrli Tamara" hissələrlə ifa olunmuşdur (3-cü redaksiyası "Məkr-li Darecan" adı ilə oğlu ilə birlikdə hazırlanmış, 1937 ildə Moskvada tamaşaya qoyulmuşdur). 1918 ildə Gürcüstana qayıtmış, Kutaisidə musiqi məktəbi təsis etmişdir (indi onun adını daşıyır). Romansların, kantatanın, xor və simfonik orkestr üçün mahnıların müəllifidir.



**BALÁNDİN** Aleksey Aleksandroviç (20.12.1898, Yeniseysk, digər məlumata görə S.-Peterburq – 22.5.1967, Moskva) – fiziki kimya sahəsində rus alimi. SSRİ EA akad. (1946). SSRİ Dövlət mükafatı laureatı (1946). Moskva Un-tinin tibb fakültəsində (1916–17), Tomsk Un-tinin tibb, sonra isə kimya fakültəsində (1917–20), Petroqrad Un-tinin kimya şöbəsində oxumuş (1920–21; eyni zamanda Radium İn-tunda V.Q. Xlopinin rəhbərliyi altında işləmişdir), Moskva Un-tinin fizika-riyaziyyat fakültəsinin təbiyyat şöbəsində təhsil almışdır (1921–23). N.D. *Zelinskinin* rəhbərliyi altında aspiranturanı bitirdikdən (1928) sonra MDU-nun nəzdindəki Kimya İn-tunda çalışmışdır. 1929–30 illərdə Almaniya və Fransada elmi ezamiyyətdə olmuş, M. *Bodenşteynin* laboratoriyasında işləmişdir. 1930 ildən MDU-da üzvi kataliz üzrə mühazirələr oxumuşdur (1934 ildən prof.). SSRİ EA-nın Üzvi Kimya İn-tunda üzvi kataliz laboratoriyasının rəhbəri; MDU-da kimya fakültəsinin dekanı (1948–49) olmuşdur. İki dəfə (1936–39; 1949–53) repressiyaya məruz qalmışdır. Tədqiqatları, əsasən, üzvi kataliz sahəsindədir. Katalizin multiplet nəzəriyyəsinin əsaslarını yaratmış və işləyib hazırlamışdır (1929). Çox sayda heterogen-katalitik reaksiyaların aktivləşmə enerjisini təcrübi təyin etmiş (1933), axar sistemlərdə reaksiyaların kinetik tənliyini təklif etmiş (1936), üzvi katalitik reaksiyaların təsnifatlaşdırılmasının prinsiplərini (1932–42), reagentlərin katalizatorlarla rabitə enerjisinin təyini üsullarını (1950), qarışıqların hidrogenləşməsinin kinetik əyrilərinin hesablanması üsullarını (1960-cı illər) işləyib hazırlamışdır.

D.İ. Mendeleyev ad. (1936) və S.V. Lebedev ad. (1945) mükafatlar almışdır.

Rusiya EA 1992 ildə A.A. Balandin ad. mükafat təsis etmişdir.

Əsəri: Современное состояние мультиплетной теории гетерогенного катализа. М., 1968; Избранные труды. М., 1972.

**BALANDYÉ** (Balandier) Jorj Leon (d.21.12.1920, Fransa, Ayviller-e-Lyomon) – fransız antropoloqu və sosioloqu, afrikaşünas, Fransa siyasi antropologiya məktəbinin banisi. Sorbonnanın filologiya fakültəsində və Etnologiya İn-tunda (M. Moss və M. Leyridən) təhsil almışdır. Parisdə *İnsan muzeyində* (1945 ildən) və Ali normal məktəbdə (1961–66) işləmiş, Dakardakı Fransa Qara Afrika İn-tunda Mərkəzə (1946–48) rəhbərlik etmiş, Afrika tədqiqatlar mərkəzinin, Elmi tədqiqatlar milli mərkəzində Afrika sosiologiyası və coğrafiyası laboratoriyasının əsasını (1966) qoymuş, Ali praktik məktəbinin elm üzrə direktor müavini (1954 ildən), Siyasi tədqiqatlar in-tunun prof.-u (1952–61), bir sıra digər vəzifələrdə çalışmışdır. "Cahiers internationaux de sociologie" jurnalının baş redaktoru (1965 ildən) olmuşdur. 1946–48 və 1960–61 illərdə Seneqal, Mavritaniya, Gvineya və Konqoda (Brazzavil) arxeoloji tədqiqatlar aparmışdır.

K. *Levi-Strosla* yanaşı B. 20 əsrin ortaları fransız antropologiyasında "nəzəri inqilabın" təşəbbüskarı kimi tanınmışdır. Afrikanın ənənəvi dövlətsiz və dövləti cəmiyyətlərində siyasi və idarəçilik mexanizmlərini, onların müstəmləkəçilik və müstəmləkəçilikdənsonrakı dövrlərdə trasformasiyalarını tədqiq etmişdir ("üçüncü dünya" anlayışının müəlliflərindən biridir). Müasir dövrün siyasi sistemlərinin ümumi nəzəriyyəsinə dair əsərlərində siyasi fenomenləri, onların struktur təhlili ilə birlikdə dəyişikliklər, varislik və təşəkkül dinamikasında nəzərdən keçirmişdir. B. siyasi sistemlərin ideal modelləri ilə real sosial gerçəklik arasındakı uyğunsuzluğu nəzərə almağı zəruri saymışdır ("müasir dövrün dinamik sosiologiyası"). B.-yə görə, hər bir tarixi dövrdə istənilən cəmiyyətdə həm daha qədim siyasi təşkilolunma elementləri, həm də yeni təşkilolunma əlamətləri mövcuddur; istənilən siyasi sistemin (müasir qərb demokratiyası daxil olmaqla) immanent və dəfedilməz dayanıqsızlığı, həmçinin onun dəyişikliklərə və böhranlara məruz qalması bununla izah olunur.

Əsərləri: Sociologie actuelle de l'Afrique noire. P., 1955; Afrique ambiguë. P., 1957; Anthropologie politique. P., 1967; Le Grand systeme. P., 2001; Civilisés, dit-on. P., 2003.

**BALANİT** – kişi cinsiyyət üzvü başcığının iltihabı. B., adətən, pülüyün iltihabı – postit ilə birlikdə olur. Əsasən, uşaqlarda *fimoz* zamanı baş verir. Müxtəlif bakteriyalardan, sidiyin yubanmasından, pülüyün kisəciyində əmələ gələn yığıntılardan, infeksiyanın sidik kanalından cinsiyyət üzvü başcığına yayılmasından törənə bilər. Ümumi xəstəliklərdən şəkərli diabet, allergik xəstəliklər (ekzema, övrə) və s. B.-in inkişaf etməsinə səbəb ola bilər. B. ağrı, sidik ifrazı zamanı sancı, cinsiyyət üzvü başcığının dərisinin və pülüyün qızarması, irinli ifrazat, qasıq limfa düyünlərinin böyüməsi ilə təzahür edir. Müalicəsi: antibiotiklər, dezinfeksiyaedici məhlullarla vanna və s.; fimoz və residiv verən (təkrarlanan) B. diabetlə əlaqəli olduqda – cərrahi əməliyyat.

**BALANQÓDA** – Şri-Lanka a.-nda Daş dövrünə aid arxeoloji mədəniyyətlər. Mezolit dövrünə aid Bellan-Bandi-Palassa mədəniyyəti və onun ənənələrinin davamçısı olan, keramikanın, nadir cilalanmış alətlərin, əkinçiliyin əsaslarının meydana gəlməsi ilə səciyyələnən Neolit dövrünə aid Uduppiyan mədəniyyəti müəyyənləşdirilmişdir. B. mədəniyyət ənənəsinin sonu e.ə. 1-ci minilliyin ortalarında Seylona indiki *sinqalların* əcdadları olan *hind-ari dilləri* daşıyıcılarının gəlməsi ilə bağlıdır.

**BALANOFORKİMİLƏR** (Balanophoraceae) – ikiləpəli ot bitkisi fəsiləsi. Bu və ya digər dərəcədə xlorofili olmayan və bitki köklərində məskunlaşan parazitlərdir. Yeraltı hissəsi sahib bitkinin kökləri üzərində yerləşmiş yumruvarı, budaqlanan kökümsovdur. Kökümsovunda əmələ gələn çiçək qrupu (çox vaxt əlvan) pulcuqşəkilli yarpaqlarla örtülmüş ətli qısa gövdələr ucunda torpağın səthinə çıxır. Çiçəkləri xırda, bircinsiyyətli, kasacığı reduksiyaya uğramışdır; dişi çiçəkləri, əsasən çiçəkyanlığısız, erkək çiçəkləri, adətən taclıdır. Meyvəsi fındıqşəkilli, yaxud çəyirdəyəbənzərdir. 18 cinsi (120 növü) məlumdur. Birevli, yaxud ikievli bitki olan B., əsasən, rütubətli tropik meşələrdə, bəzən subtropik qurşaqlarda bitir. Balanophora (tropik Asiyada və Avstraliyada 12 növü) və Langsdorffia (tropik Amerikada 1 növü) mumşəkilli qatran balanoforinlə zəngindir; yerli əhali bundan şam kimi istifadə edir. Lophophytum mirabilenin (Cənubi Amerika) kökümsovunda tibdə tətbiq edilən nişasta, lofofitin və s. çoxdur.

Balanoforakimilər. Lanqsdorfiya (Balanophoraceae. Langsdorffia).



**BALÁNOVO NEKROPOLU** – Orta Volqaboyunda (Çuvaşıstanın Kozlov r-nu) Orta Tunc dövrünə (e.ə. 3-cü minilliyin 2-ci yarısı) aid qəbiristanlıq. Balanovo k. yaxılığındakı Karabay təpəsində yerləşir. Qazıntılar 1934, 1936–37, 1940, 1957, 1977 illərdə O.N. Bader, M.S. Akimova və V.F. Kaxovski tərəfindən aparılmışdır. 76 məzarlıqdan 119 qəbir tapılmışdır. Hörmə qutular və ya kərtmələr yerləşdirilmiş qəbirlərin üstü tir döşəmə ilə örtülüdür; xeyrat mərasiminin izləri var; kişilər sağ, qadınlar isə sol böyrü üstə, bükülü vəziyyətdə basdırılmışdır. Dəfn avadanlığı qablar (o cümlədən kürəvi amforalar), dəlikli və pazşəkilli daş baltalar, ox ucluqları, mis nizə ucluqları, baltalar, bəzək əşyaları və s.-dən ibarətdir. Antopoloji baxımdan Aralıq dənizi antropoloji tipinə aiddirlər. B.n. Şərqi Avropada Tunc dövrünə aid ən böyük nekropollardan biridir. Volqa–Oka çayarası *Fatyanov mədəniyyəti* ilə Atlikasinsk meşə-çöl mədəniyyəti (bax *Döyüş baltaları mədəniyyəti, Qaytanlı keramika mədəniyyəti*) ənənələrinin qarşılıqlı əlaqələrini əks edir.



Balanovo nekropolundan tapılmış gil qablar və dəlikli daş baltalar.

**BALÁNS** (fr. balance, hərfən – tərəzi, tarazlıq) – hər hansı bir təzahürü, onun ayrı-ayrı tərəflərini müqayisə, yaxud qarşıqoyma yolu ilə səciyyələndirən göstəricilər sistemi; eyni bir miqdarda pulun, əmtəənin daxilolmasını (mədaxili) və xərc-

lənməsini (məxarici) göstərdiyinə görə bir-birinə bərabər olmalı iki hissədən ibarət kəmiyyət nisbətidir. Məs., əmtəənin idxalı onun ölkədən ixracına bərabər olduqda və onun ehtiyatları ölkədə saxlanıldıqda, müəyyən vaxt ərzində həmin əmtəənin istehsalı və istehlakının B.-ı müşahidə olunur. B. natura (fiziki ölçülərlə) və pul (pul ölçüləri ilə) formalarında tərtib edilir. Ölkə (büdcə balansı, *tədiyə balansı, sahələrarası balans*), müəssisə, firma (gəlir və xərclərin balansı, əsas vəsaitlərin balansı, maliyyə balansı) və ev (ailənin gəlir və xərclərinin balansı) təsərrüfatlarının təhlili, uçotu, planlaşdırılması məqsədilə müxtəlif B.-lar istifadə olunur. Pulun mədaxili onun məxaricini üstələyirsə (B.-ın müsbət saldosu), B. aktiv adlanır; mədaxil məxaricdən az olarsa (B.-ın mənfi saldosu), B. passiv hesab edilir. Müəssisənin, firmanın balans hesabatını əks etdirən sənəd də (*mühasibat balansı*) B. adlandırılır. İl, yarım il, rüb, ay üçün B. tərtib edilməsi qəbul olunmuşdur.

Beynəlxalq hesablaşmalarda B. bir ölkənin pul tələbləri və öhdəlikləri, daxilolma və tədiyələrinin digər ölkəninkinə nisbətidir. Əsas növləri: hesablaşma B.-ı, tədiyə B.-ı, xarici borc B.-ı.

**BALANS EHTİYATLAR** – texniki və texnoloji inkişafın mövcud səviyyəsində çıxarılması iqtisadi cəhətdən səmərəli olan faydalı qazıntı ehtiyatları. B.e. qrupuna mineral xammalın keyfiyyəti, kəmiyyəti, texnoloji xassələri üzrə kondisiya, eləcə də yatağın öyrənilmə dərəcəsi və coğrafi-iqtisadi şəraiti nəzərə alınmaqla texniki istismar şərtlərini ödəyən ehtiyatlar daxildir.

**BALANS MODELİ** – tənlik və ya tənliklər sistemi şəklində qurulan və balans nisbətini – daxilolan (istehsal edilən, alınan) məhsul ilə bölüşdürülən, istehlak edilən məhsul arasındakı bərabərliyi səciyyələndirən iqtisadi-riyazi model. İqtisadiyyatın bütün sahələrində istifadə olunur.

**BALANS SXEMİ** – şaxələnmiş elektrik dövrəsi; onun elementlərinin hər hansı bir parametri (müqavimət, tutum, induktivlik və s.) dəyişdikdə və ya qidalandırıcı cərəyan (gərginlik) azalıb-artdıqda dövrədə cərəyan, yaxud gərginlik tarazlığı (balansı) qərarlaşır (və ya pozulur). B.s. ölçmə texnikası (məs., ölçü körpüsü), eləcə də radiotexnika, radiorabitə, telefon rabitəsi qurğularında istifadə edilir.

**BALANSDANKƏNAR EHTİYATLAR** – texnikanın mövcud səviyyəsində istifadəsi iqtisadi cəhətdən səmərəsiz, texniki və texnoloji cəhətdən mümkün olmayan (yataq dərində yerləşdikdə, tərkibində qiymətli komponentlər az olduqda, qazıntının çıxarılması və emalı çətin olduqda və s.), lakin gələcəkdə *balans ehtiyatlara* daxil edilə bilən faydalı qazıntı ehtiyatları. Kondisiyanın texniki-iqtisadi əsaslandırılmasında bərk faydalı qazıntı ehtiyatlarının sonrakı hasilat üçün yerin təkində qalması, gələcəkdə istifadə üçün saxlanılması və anbarlaşdırılması imkanları təsdiqlənərsə, onların B.e.-ı hesablanır və nəzərə alınır.

**BALANSİR** (fr. balancier, balancer – yırğalamaq, tarazlaşdırmaq) – 1) tərpənməz ox ətrafında yırğalanma hərəkəti edən ikiqollu, bəzən də birqollu ling. B. nasos, qazıma qurğuları, tərəzi və s.-də gücü dartıya ötürmək (tarazlaşdırmaq) üçün tətbiq edilir. İkiqollu B. bəzən çiyinlik də adlanır. 2) Balanslı saatlarda rəqqası əvəz edən əsas tənzimləyici. 3) Şixtə materiallarının domna sobasına doldurulması zamanı bərabər paylanmanı təmin edən mexanizm.

**BALANSİRLƏMƏ**, tarazlama – fırlanan maşın hissələrinin (qasnaq, dirsəkli val, elektrik maşını və ya turbin rotoru) müvazinətə gətirilməsi; *disbalansın* kənar edilməsi. B. maşınların sürətlə fırlanan detallarının dayaqlarına müvazinətsizlik (disbalans) nəticəsində dinamik yüklərin göstərdiyi zərərli təsiri aradan qaldırmaq üçün istifadə olunur. B. zamanı tarazlı olmayan yer və qeyri-tarazlıq dərəcəsi müəyyən edilir, əks-yük tətbiq edilir. *Balansirləmə dəzgahında* yerinə yetirilən dinamik B. və statik B. olur. Əsas mərkəzi ətalət oxu yerini fırlanma oxuna nəzərən bucaq altında dəyişdikdə – dinamik B., mərkəzi ətalət oxu yerini fırlanma oxuna paralel dəyişdikdə – statik B. tətbiq edilir. Dinamik B. fırlanma oxuna perpendikulyar iki paralel müstəvidə yerləşən əks-yüklərlə, statik B. ixtiyari seçilmiş müstəvidə bir əks-yüklə yerinə yetirilir.

**BALANSİRLƏMƏ DƏZGAHI** – fırlanan maşın hissələrinin (detallarının) – rotor, giroskop, dirsəkli val, dişli çarx və s.-nin müvazinətsizliyinin (*disbalansının*) yerini və dərəcəsini müəyyən etmək, onu dinamik balansirləmək üçün qurğu. Kiçikseriyalı istehsalatda sadə konstruksiyalı, çərçivə tipli dəzgahlar tətbiq olunur. Müvazinətsiz detal (məs., rotor) yataq dayaqlarında yerləşən, dəzgahın əsası ilə yay və oynaq (şarnir) vasitəsilə bağlı olan çərçivədə quraşdırılır. Detal müvazinətsiz mərkəzdənqaçma qüvvələrinin təsiri altında fırlandıqda, konstruksiyada amplitudu indikatorla təyin olunan rəqslər yaranır. Bir neçə ölçmənin nəticələri əsasında müvazinətləyici kütlələrin kəmiyyəti və onların detalda yeri, yaxud kənar ediləcək (frezləmə, yonma, cilalama və s. üsullarla) debalans kütlənin qiyməti hesablanır. Kiçikölçülü rotorların dinamik balansirlənməsi üçün optiki kvant generatorundan istifadə olunur. Detalın səthində lazer şüası fokusa yığılır və onun təsiri altında lazımi miqdarda material buxarlanır. Bu metod balansirləmənin keyfiyyətini yaxşılaşdırmağa və prosesin səmərəliliyini artırmağa imkan verir. Disbalansın ölçüsünü və debalans kütlələrin yerləşmə bucağını təyin etmək üçün dəzgahlar ölçmə-hesablama kompleksləri ilə təchiz edilir. İriseriyalı istehsalatda birtipli detalların balansirlənməsi üçün detalların konstruktiv xüsusiyyətlərinə cavab verən üfüqi və ya şaquli fırlanma oxlu xüsusi dəzgahlar yaradılır.

**BALANSÖLÇƏN** – Yer səthinin və ya atmosferin istənilən nöqtəsinin radiasiya balansını (onun kənardan aldığı radiasiya enerjisi ilə şüalandırdığı enerji arasındakı fərqi) ölçən aktinometrik cihaz. Termoelektrik B.-in qəbuledici hissəsi iki paralel mis lövhədən ibarətdir. Lövhələrin daxili səthinə termoelektrik batareyalar yapışdırılmışdır. Ölçmə aparılarkən lövhələrdən biri tədqiq edilən səthə (aşağı) yönəldilir və ona Yer səthindən, eləcə də atm.-in aşağı qatlarından gələn şüalar, əks olunmuş günəş radiasiyası axını daxil olur. İkinci lövhə isə yuxarı yönəldilərək məcmu günəş radiasiyasını və atm.-in yuxarı qatlarından daxil olan şüaları qəbul edir. Lövhələr arasındakı termoelektrik cərəyan şiddətinə görə radiasiya balansı təyin edilir.

**BALANTAKLAR** (özlərini mian balantak adlandırırlar) – İndoneziyada xalq. Sulavesi a.-nın ş.-ində, həmçinin Banqay arxipelaqının şm.-ında yaşayırlar. Sayları 40 mindir (1995). Şərqi İndoneziya keçid irqi qrupuna aiddirlər. Balantak, yaxud kosian dilində danışırlar. İndoneziya dili də yayılmışdır. Ənənəvi etiqadları saxlayırlar; xristianları və müsəlmanları da var. Tanoturan və daledale subetnik qruplara ayrılırlar.

Əsas məşğuliyyətləri toxa əkinçiliyidir (çəltik, yams, taro, darı və s.). Təsərrüfatda kokos palması mühüm yer tutur. Ovçuluq və balıqçılıqla da məşğul olurlar. Ənənəvi etiqadları əcdadların kultu, yaradan allaha, qadın ilahəsinə və ruhlara sitayiş, şamanizmdir.

**BALANTELƏR**, bulandalar, brassalar, fçalar, calar (özlərini balant adlandırırlar) Qvineya-Bisau, Kabo-Verde və Seneqalda yaşayan xalq. Dil baxımından qohum olan xalqlarla (kunantelər, *manciklər*, papellər, mankanyalar, *biafadalar, bidyoqolar* və b.) birlikdə sayları 630 mindir (1995). İrqi cəhətdən Qərbi Sudan keçid qruplarına aiddirlər. B. Konqo-kordofan ailəsinin Niger-Konqo qrupunun Qərbi Atlantika yarımqrupuna aid olan balante (balanta) dilində danışırlar. Portuqal dili də yayılmışdır. Əsas məşğuliyyətləri toxa əkinçiliyidir (çəltik, qarğıdalı, araxis, maniok, batat, yams, darı) və maldarlıqdır. Ada və sahilyanı ərazilərin sakinləri balıqçılıqla məşğul olurlar. Ənənəvi dini etiqadlarını (təbiət qüvvələrinin və əcdadların kultları) saxlayırlar.

**BALANTİDİ** (Balantidium) – ağzıkirpiklilər dəstəsindən (başqa təsnifata görə yarımsinfindən) infuzorlar cinsi. Uz. 30–200, eni 20–110 *mkm*-dir. Bədəni ovalşəkilli, armudabənzər, yaxud yumurtavarı formada, bəzən uzunsov olur; başdan-başa uzununa yerləşən somatik kirpikciklərlə örtülmüşdür. Uzununa, yaxud eninə dartılan ağız dəliyi somatik kirpikciklərə perpendikulyar yerləşən kirpikciklərlə əhatələnmişdir. Nüvə aparatı, adətən, hüceyrənin ortasında yerləşir; ovalşəkilli, yaxud uzunsov makronukleusdan və ona yapışan dəyirmi mikronukleusdan ibarətdir. 1, yaxud 2 vakuoldan (vakuolun biri həmişə hüceyrənin arxa qurtaracağında olur) döyünən qovuqdan təşkil edilmişdir. Onurğasızların və onurğalıların (əsasən, primatların, bəzən dırnaqlıların, gəmiricilərin və quşların) həzm yolunda yaşayır. B.-lər sahibin bağırsaq möhtəviyyatındakı qida hissəcikləri ilə qidalanır, bəzən onun toxumalarına girərək, qan hüceyrələrini udur. Xarici mühitə düşdükdə gələcək yoluxmalar üçün mənbə ola bilən sistalar əmələ gətirir. İnsan bağırsağında *balantidiaza* səbəb olan infuzor (B. coli) parazitlik edir. Digər məməlilərdə həmçinin B. caviae və B. suis rast gəlir.

**BALANTİDİÁZ**, balantidioz, infuzor dizenteriyası – *balantidi* (Balantidium) cinsindən olan parazit infuzorların insanda və heyvanlarda törətdiyi infeksion protozoy xəstəlik. Törədicisi donuzların, siçovulların, itlərin, meymunların bağırsağında parazitlik edir. İnsan, əsasən, törədici sistalar ilə çirklənmiş su, meyvə-tərəvəz vasitəsilə donuzlardan yoluxur. Sistalar yoğun bağırsaqda infuzorun vegetativ formasına çevrilir və bağırsağın selikli qişasını zədələyərək eroziya və xoralar əmələ gətirir. B.-ın inkubasiya dövrü bir neçə gündən 3 həftəyə qədərdir. Xəstəlik qızdırma, zəiflik, ürəkbulanma, qusma ilə davam edir; həmçinin qarında güclü ağrı və köp, qan və irinqarışıq ishal; xəstəliyin xroniki gedişi zamanı qarında (residivverən) ağrı və ishal olur. Xəstələr arıqlayır, anemiya inkişaf edir, bağırsaq qanaxması, irinli appendisit, peritonit baş verə bilir. Son diaqnoz nəcisdə törədicinin tapılmasına əsasən qoyulur. Müalicəsi: antibiotiklər, metronidazol. Profilaktikası: içməli suya sanitar nəzarəti, donuz damlarının sanasiyası.

Donuzların B.-ı hər yerdə yayılmışdır. Törədici nəcislə çirklənmiş yem və su vasitəsilə yoluxur. Kəskin gedişli (2 həftəyədək) B. zamanı heyvan yemdən imtina edir, qanlı ishala düşür, üzülür, məhv olur. Xroniki gedişli B. 2 ayadək gastroenterokolit şəklində davam edir. 50%-ədək ölümlə nəticələnir. Diaqnoz kliniki əlamətlərə, epizootoloji məlumatlara, koproloji və patoloji-anatomik tədqiqatlara əsasən qoyulur. Müalicəsi nitrofuran birləşmələri və metronidazol preparatları ilə aparılır. Profilaktikası donuzların saxlanmasında baytarlıq-sanitariya normalarına riayət edilməsindən, peyinin biotermik zərərsizləşdirilməsindən ibarətdir.

**BALAOYLAQ** – Azərb. Resp. Xocalı r-nu ərazisində, Qarabağ silsiləsində dağ. Hünd. 2710 *m*.

**BALARMUDU** – bax *Abasbəyi*.

**BALASAKAN** – erkən orta əsrlərdə Azərb.-da (Muğan düzündə) tarixi vil. Bəzi mənbələrdə Paytakaran və Kaspiana vil.-ləri ilə eyniləşdirilir. 5 və 6 əsr müəlliflərinin əsərlərində hunlarla əlaqədar B.-ın adı çəkilir. Erkən orta əsr mənbələrində Atropatenanın tərkibində olduğu göstərilir. Bizanslı Favstın məlumatına görə, B.-ın əhalisi balasilər adlanırdı.

**BALASAQUNLU**, Balasaquni Yusif Xass Hacib (təqr.1017/1018, Balasaqun ş. – 1069 və ya 1077) – Orta Asiya şairi, alim və mütəfəkkir. Humanitar və təbiyyat elmlərini, o cümlədən türk-islam tarixini, Quranı, islam fəlsəfəsini dərindən öyrənmişdir. Ortaq türk-islam mədəniyyətinin qədim ədəbi abidələrindən olan və Qaraxanlı (Kaşqar) türkcəsində yazılan "Kutadqu biliq" ("Xoşbəxtlik bəxş edən elm", 1069/1070) poemasının müəllifidir. Bədii-fəlsəfi, etik-didaktik və siyasi əsər olan poema 4 alleqorik surətin (Ədalət, Xoşbəxtlik, Ağıl, Qənaət) ideal hökmdar, dövlətin idarə olunması, qoşunun təşkili, insanın həyat və cəmiyyətdəki yeri və s. məsələlərə dair mükalimələri üzərində qurulmuşdur. Əsər 4 hissə, 85 fəsil və 6645 beytdən ibarətdir. Elmə üç nüsxəsi məlumdur: Herat nüsxəsi uyğur, Fərqanə və Misir nüsxələri ərəb əlifbası ilədir. Herat nüsxəsi Vyanada, Misir nüsxəsi Qahirədə, Fərqanə nüsxəsi isə Daşkənddə saxlanılır.

Müəllif əsəri Qaraxanlı hökmdarı Tavğac Satuq Buğra xana təqdim etmiş, istedadı müqabilində Xass Hacib (baş vəzir) tituluna layiq görülmüşdür. B.-nun etik görüşləri Əbu Əli ibn Sinanın təliminə əsaslanır. Yaradıcılığına Firdövsinin təsiri olmuşdur. Türk xalqlarının şeirinə əruz vəznini ilk dəfə B. gətirmiş, poemasını "Şahnamə"nin yazıldığı mütəqarib bəhrində məsnəvi formasında yazmışdır. "Kutadqu biliq"də folklor motivlərindən, tuyuqlardan (əsərdə 173 tuyuq var), xalqın həyat və məişəti ilə bağlı etnoqrafik məqamlardan, bədii obraz və bənzətmələrdən, türk şeir sistemi üçün səciyyəvi olan alliterasiya, anafora, epifora kimi poetik vasitələrdən məharətlə istifadə olunmuşdur.

Əsəri: Qutadqu bilik. Xoşbəxtliyə aparan elm. B., 1994; Səadət gətirən elm. B., 2003.

*Əd.:* Kafesoglu İ. Kutadgu Bilig ve kültür tarihimizdeki yeri. İstanbul, 1980; Zeynalov F. Qədim türk yazılı abidələri. B., 1981; Səfərli Ə., Yusifov X. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı. B., 1982; Рустамова А. О некоторых паралелях в "Кутадгу билиг" Юсифа Баласагуни и средневековой азербайджанской поэзии; yenə orada. Кононов А.Н. Поэма Юсифа Баласагунского "Благодатное знание". М., 1983; Türk xalqları ədəbiyyatı. 4 cilddə. 1-ci c. B., 2006.

**BALASALMA** – boğazlığın pozulması; heyvanın ölü və ya inkişafdan qalmış (yarımçıq) dölü salması, yaxud rüşeymin balalıqda tam və ya qismən sorulması ilə müşayiət olunur. B. yoluxucu olmayan, infeksion, parazitar olur. Bu qrupların hər birində iki növ B. ayırd edilir: dölə, dölətrafı qişalara, yaxud balalığa əlverişsiz amillərin təsiri nəticəsində baş verən idiopatik B. və ananın xəstəliyi, yaxud onun saxlanma və yemlənməsində buraxılan səhvlər nəticəsində baş verən simptomatik B. Kliniki gedişinə görə B. tam (bütün yarımçıq döllərin balalıqdan düşməsi, yaxud bütün döllərin sonradan sorulması və ya düşməsi ilə nəticələnən məhvi) və natamam (dölün tam inkişaf etmiş hüceyrələrinin doğulması) olur.

Erkən inkişaf mərhələsində baş verən gizli B. zamanı kliniki əlamətlər olmadan dölün sorulması tam və ya natamam ola bilər. B.-dan dəyən ziyan nəticəsində k.t. heyvanlarında balavermə və məhsuldarlıq aşağı düşür, onların müalicəsinə məsrəflər qoyulur.

**BALASƏNG** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin Kəlibər qəs.-ndən 5 *km* şm.-dadır.

**BALASOLTANLI** – Azərb. Resp. Qubadlı r-nunda kənd. Balasoltanlı ə.d.-nin (Balasoltanlı, Qaraimanlı, Padar k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 10,7 *km* şm.-ş.-də, Həkəri çayının sol sahilində, düzənlikdədir. Əh. 213 (2008); işğaldan (1993, avqust) əvvəl maldarlıq, taxılçılıq, tütünçülük, üzümçülük, baramaçılıqla məşğul olmuşdur. Orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi, rabitə şöbəsi, üzümün ilkin emalı z-du var idi.

**BÁLAŞ** Yolanda (d.12.12.1936, Timişoara) – rumın idmançısı. Hünd.-ə tullanma üzrə 17-ci Yay Olimpiya Oyunları (1960, Roma; 1,85 *m*), 18-ci Yay Olimpiya Oyunları (1964, Tokio; 1,90 *m*) və Avropa çempionu (1958, 1962). Dəfələrlə dünya rekordçusu; dünya rekordunu 16 *sm* təzələmişdir (1,75 *m*-dən 1,91 *m*-ədək).

**BALAŞİXA** – RF-də, Moskva vil.-nin mərkəzi hissəsində şəhər, Balaşixa r-nunun mərkəzi. Əh. 181,5 min (2005). Pexorka çayı sahilindədir. D.y.st. 1830 ildə əsası qoyulmuş mahud f-kinin yaxınlığında qəs. kimi salınmışdır; 1939 ildən şəhərdir. 18 əsrin sonu – 19 əsrin əvvəllərinə aid malikanə ansamblları, kilsə tikililəri, teatr və oranjereya; filialları ilə birlikdə 4 ali məktəb, tarix-diyarşünaslıq muzeyi var. B.-da müntəzəm olaraq "Slavyan görüşləri" beynəlxalq ədəbiyyat və incəsənət festivalı, bədii döymə festivalları, nəfəs və xor musiqisi müsabiqələri və s. keçirilir.

B. sənaye və elm-texnika mərkəzidir. ETİ-lər, iri elm-sənaye birlikləri: "Kriogenmaş", mexaniki tökmə z-du, "Rubin" aviasiya korporasiyası, "345-ci mexaniki zavod", həmçinin yüngül və yeyinti sənayesi müəssisələri var.

**BALAŞÓV** – RF-də, Saratov vil.-nin q.-ində şəhər. Balaşov r-nunun mərkəzi. Əh. 96,7 min (2005). Oka-Don düzənliyində, Xopyor çayı sahilindədir. Avtomobil və dəmir yolları qovşağı. 18 əsrin əvvəlindən Balaşovo imarət kəndi kimi məlumdur. 1780 ildən qəza şəhəri, 1828 ildən r-n mərkəzi, 1954–57 illərdə isə Balaşov vil.-nin mərkəzi olmuşdur. B.-da tacir V. Dyakovun şəhər malikanəsi (20 əsrin əvvəli), Şöhrət monumenti (1980), Ali məktəb (o cümlədən Saratov Dövlət Un-tinin) filialları, diyarşünaslıq muzeyi (10 əsrin əvvəli), dram teatrı (1918 ildən) var. Qoşqu (traktor və minik avtomobilləri üçün) istehsalı, toxuculuq müəssisələri; ət-konserv, şəkər kombinatları və s. var.

**BALAŞURGÜL** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin Xosrovlu kəndistanında, Germi qəs.-ndən 42 *km* q.-dədir.

**BALAT** (lat. palatium – "düz yer", "daş döşənmiş yer", "döşənmiş yol") – antik Milet ş.-nin xarabalıqları üzərində salınmış orta əsrlər ticarət portu, şəhər. B. adı ilə İraq, Fələstin və Türkiyədə (Anadolu) bəzi yerlər, İspaniyada bugünədək Elbalat adlı ərazi, Suriyada keçmiş Roma yolunun üstündə əl-Balat, Beyt-ül-Balat adlı yerlər mövcuddur.

Hələ 9–10 əsrlərdə Egey dənizində ağalıq edən türk dəniz quldurları B.-a tez-tez hücum edirdilər. 11 əsrdə Səlcuqların fəthi şəhərin yenidən canlanmasına təkan verdi. 11–13 əsrlərdə B. Anadolunun iri ticarət portuna çevrildi. Yazılı mənbələrə görə, 1517 ildə B. 2500 nəfərdən artıq əhalisi olan böyük qəs. idi. 17 əsrdən həm dəniz quldurlarının hücumları, həm də bataqlıqların törətdiyi qızdırma xəstəliyinin yayılması nəticəsində B. tədricən əhəmiyyətini itirdi. 1670-ci illərdə B.-ı "dağıdılmış, viran olunmuş şəhər və qala" kimi təsvir edən Evliya Çələbi burada yalnız 200-ə qədər evin (1000 nəfərə yaxın), bir karvansaranın və kiçik camenin olduğunu yazırdı. 1706 ildə təbii fəlakətlər və vəba epidemiyası nəticəsində qəs.-də 150–200 nəfər sakin qalmışdı. 19 əsrin sonlarında B. boşalmış, qışda çobanların sığındığı yerə çevrilmişdi. 20 əsrin əvvəllərində burada yaranmış kənd 1955 ildə baş vermiş zəlzələ nəticəsində dağılmış və 2 *km* aralıda yenidən salınmışdır.

**BALATI** – bax *Acıtma*.

**BÁLATON** – Macarıstanda göl. Orta Dunay ovalığında Bakon d.-nın c.-ş. ətəyində, 106 *m* hünd.-dədir. Sah. 598 $km^2$, uz. 77 *km*, eni 14 *km*-ə qədərdir. Maks. dərinlik 11 *m*-dir. B.-a çoxlu xırda çay (ən böyüyü Zala) tökülür; B.-dan isə Şio çayı başlanır və o, kanallar sistemi vasitəsilə Dunay çayı ilə əlaqələnir. Çökəkliyi tektonik mənşəlidir. Sahilləri, əsasən, düzənlikdir (bəzi yerləri bataqlıqlaşmışdır), yalnız Bakon d.-na yönəlmiş sahilləri sıldırım və hündürdür (bəzi yerləri girintili-çıxıntılıdır). Noyabrdan aprelədək donmuş olur. Buzun qalınlığı 20 *sm*-ə çatır. Yayda suyunun temp-ru təqr. 20°C-dir. Səviyyəsi dəyişkəndir. Suyunun kimyəvi tərkibi (sulfatlı-karbonatlı) Mərkəzi Avropa göllərinin çoxundan fərqlənir. Gəmiçiliyə yararlıdır. Balıq ovlanır. B. və ətrafı beynəlxalq əhəmiyyətli kurort r-nudur. Şiofok, Kesthey ş.-ləri B. sahilindədir. Ətrafında Tixan və Kişbalaton qoruqları var.

**BÁLATONFÜRED** – Macarıstanda balneoloji iqlim kurortu. Budapeştdən c.-q.-də, Balaton gölünün sahilindədir. Mülayim kontinental qışa (yanvarın orta temp-ru –2°C), ılıq yaya (iyulun orta temp-ru 21°C) malikdir. Yağıntı az düşür (ildə təqr. 700 *mm*). Karbon qazlı, sulfatlı-hidrokarbonatlı mineral su bulaqlarından, əsasən, ürək-damar xəstəlikləri və maddələr mübadiləsi pozulmasının müalicəsində istifadə olunur. Su idmanı və turizm mərkəzidir.

Balaşixa şəhərindən görünüş.









Balaton gölü.

**BALAVAT** – qədimdə İmqur-Ellil adlı Aşşur şəhəri olmuşdur. Hal-hazırda İraqda Dəclə çayının sol sahilində kənddir. B.-da üzərində III Salmanasarın e.ə. 859–848 illərdəki hərbi yürüşləri təsvir olunmuş bürünc məbəd qapıları ("Balavat qapıları") tapılmışdır.

**BALAYEV** Aydın Hüseynağa oğlu (d.19.11.1956, Bakı) – Azərb. tarixçisi, tarix e.d. (2001). Azərb. Dövlət Un-tini bitirmişdir (1980). 1982 ildən AMEA-nın Arxeologiya və Etnoqrafiya İn-tunda çalışır. 1983–85 illərdə Moskva Dövlət Un-tində elmi təcrübə keçmişdir. Tədqiqatları Azərb. xalqının etnogenezi, etnodil prosesləri, milli azlıqlar, etnodemoqrafiya, Azərb. milli azadlıq hərəkatı və etnopolitologiya məsələlərinin öyrənilməsinə həsr olunmuşdur. 100-ə yaxın elmi əsərin, o cümlədən 3 monoqrafiya və bir neçə kitabın müəllifidir.

Əsərləri: Азербайджанское национальное движение в 1917–1918 гг. Б., 1998; Этноязыковые процессы в Азербайджане в XIX–XX вв. Б., 2005; Азербайджанские тюрки: процессы формирования нации и национальной идентичности на рубеже XIX–XX вв. Б., 2010.

**BALAYEV** Rasim Əhməd oğlu (d.8.8.1948, Ağsu) – Azərb. kinoaktyoru. Azərb. Resp. xalq artisti (1982), Azərb. Resp. Dövlət mükafatı laureatı (1986). Azərb. İncəsənət İn-tunu bitirmişdir (1969). 1972 ildən "Azərbaycanfilm"in aktyorudur. Nəsimi ("Nəsimi", rej. H. Seyidbəyli, 1973; 1974 ildə Moskvada keçirilən 7-ci Ümumittifaq kinofestivalında kişi rolunun ən yaxşı ifaçısı mükafatına layiq görülmüşdür), Azər ("Ömrün ilk saatı", rej. A. Babayev, 1973), Babək ("Babək", rej. E. Quliyev, 1979), Səlim bəy ("Atları yəhərləyin", rej. Ə. Mahmudov, 1985), Rüstəmov ("Alman klinikasına şəxsi səfər", rej. R. İsmayılov, 1988) rolları B.-in yaradıcılıq nailiyyətidir. B.-in ifası üçün obrazın daxili aləminə dərindən nüfuz etmək, onu müxtəlif ştrixlərlə zənginləşdirmək məharəti səciyyəvidir. "Qatır Məmməd" (rej. R. Ocaqov, 1974), "Dədə Qorqud" (rej. T. Tağızadə, 1975), "Arxadan vurulan zərbə" (rej. A. Babayev, 1977), "İlıq dənizdə buz parçası" (rej. Y. Qusman, 1983), "Göz qabağında şeytan " (rej. O. Mirqasımov, 1987), "Lətifə" (rej. N. Musayev, 1989) və s. filmlərdə yaddaqalan obrazlar yaratmışdır. Xarici kinostudiyaların istehsal etdiyi filmlərdə də çəkilmişdir: "Azadlıq şirin sözdür" (rej. V. Jalakyaviçyus, 1970, "Mosfilm"), "Əli şimşəkli atlı" (rej. H. Hacıqasımov, 1975, M. Qorki ad. kinostudiya, Moskva), "Pusqu" (rej. M. Aripov, 1977, Tacikistan), "Yer kürəsi dairəvi olmasaydı" (rej. İ. Quzner, 1980, Almaniya), "Odlu yollarla" (1981, rej. Ş. Abbasov) və "Oyanma" (rej. L. Fayziyev, 1984, hər ikisi Özbəkistan), "Divlər zindanı" (rej. H. Məmmədzadə, 1993, İran), "Qanayan yara Bosna – Mavi karanlıq" (rej. Y. Çakmaklı, 1994, Türkiyə), "İbrahim Gülşəni həzrətləri" (rej. Aykut Düz, 1996, Türkiyə). 1995–2008 illərdə "Həm ziyarət, həm ticarət"(rej. R. Ocaqov, 1995), "Yarasa" (rej. A. Salayev, 1995), "Otel otağı" (rej. R. Ocaqov, 1998), "Nə gözəldir bu dünya" (rej. E. Quliyev, 1999), "Küçələrə su səpmişəm" (rej. N. Feyzullayev, 2004), "Cavid ömrü" (rej. R. Həsənoğlu, 2007), "Qala" (rej. Ş. Nəcəfzadə, 2008) filmlərinə çəkilmişdir. 1990 ildən Azərb. Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin birinci katibidir. Azərb. Resp.-nın "Şöhrət" ordeni ilə təltif edilmişdir.





R. Balayev Nəsimi rolunda.

**BALAYEV** Rəsul Ənvər oğlu (d.2.8.1956, İsmayıllı r-nunun Lahıc qəs.) – Azərb. iqtisadçısı, iqtisad e.d. (2003), prof. (2004). Azərb. Xalq Təsərrüfatı İn-tunu bitirmişdir (1978). Ümumittifaq Elmi Tədqiqat Layihə-Texnoloji İn-tunun Azərb. filialında (1978–81), 1985 ildən Azərb. Xalq Təsərrüfatı İn-tunda (indiki ADİU) müəllim, baş müəllim, dosent işləmiş, 2009 ildən kafedra müdiridir. Tədqiqatları real sektorun inkişafı, aqrar iqtisadiyyat və urbanizasiya problemləri, büdcə-vergi münasibətləri, müasir informasiya texnologiyalarının tətbiqi məsələlərinə həsr olunmuşdur. 80-dən çox elmi əsərin, o cümlədən 4 monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var. Beynəlxalq simpozium və konfranslarda iştirak et-mişdir.

Əsərləri: Urbanizasiya zonalarının ərzaq problemi. B., 1998; Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemləri. B., 2007.

**BALAYEVA** Həlimat Məcid qızı (1910, Balakən r-nunun Talalar k. – 2001– həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1949). 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Lenin ordeni ilə təltif edilmişdir.





Balballar.

**BALBA** – Azərb.-ın Zaqatala, Balakən, Qax bölgələrində geniş yayılmış yemək növü, şilə. Düyü suda bişirilir, üzərinə xırda doğranmış göyərti (ispanaq, keşniş, cincilim, qazayağı, göy soğan), suda çalınmış un tökülür, hazır olana yaxın isə yağ, isladılmış lavaşana, duz, istiot və çalınmış yumurta əlavə edilir.

**BALBAL** – şaquli vəziyyətdə qoyulmuş yonulmamış daş sütun; qədim türk xalqlarında qəhrəman və peşəkar döyüşçülərin xatirəsinə ucaldılmış abidənin (xatirə kompleksinin) bir hissəsi (e.ə. 2 əsr – eramızın 8 əsri). B. sözünə Orxon-Yenisey yazılarında, qədim Çin salnamələrində rast gəlinir. B. qəhrəmanın öldürdüyü hər bir düşmənin təcəssümü idi. Bir şəxsin öldürdüyü düşmənin ruhunu həlak olmuş dostuna həsr edilməsi mərasimi də mövcud idi. Bu mərasim də B.-ın qoyulması ilə qeyd olunurdu. Təkbətək döyüşlərin etikasından irəli gələn B.-lar ünvanlı idi: bəzən daş abidələrdə məğlub olmuş zadəganların titulları göstərilirdi. *Türk xaqanlığında* B.-lar daş heykəlin qarşısında (əsasən, şərq istiqamətində) qoyulurdu. Onlarla B.-dan ibarət olan sıralar da mövcuddur. Sərkərdələrin anım kompleksləri (*Bilgə xaqan* və *Kül-Teginin* stelaları) uzunluğu 2–3 *km* olan B. sıralarından ibarət idi.

**BALBAN** Qiyasəddin (1200–1287, Dehli) – Dehli sultanı [1266–87]. Atası qıpçaq xanı olmuşdur. Gənc yaşlarında kiçik qardaşı ilə birlikdə əsir düşmüş, 1233 ildə Dehli sultanı İltutmuş tərəfindən satın alınaraq sarayda tərbiyə almışdı. Sarayda B.-ın vəzifəsi artmış, Uluq xan adı ilə məşhurlaşmışdı. Əvvəlcə Sultan Nasirəddinin [1246–66] naibi, sonralar isə sultan olmuşdur. Qiyasəddin ləqəbi ilə taxta çıxan B. türk əyanlarını özünə tabe edərək, bəzilərini isə öldürərək mütləq hakimiyyət əldə etmişdi. B. ordunu yenidən qurmuş, ticarət yollarını sahmana salmış, rabitə-poçt xidmətini, həmçinin geniş casusluq sistemini təmin edən inzibati aparat yaratmışdı. Benqaliyanı tabe etmiş, monqolların hücumlarının qarşısını almışdır. Sarayda fars etiketini yaymış, İran mədəniyyətinin himayədarı olmuşdur.

**BALBAS** – xalq seleksiyası yolu ilə alınmış qədim ətlik-yunluq-südlük, yağlıquyruq, qabayunlu qoyun cinsi. Əsasən, Azərb.-da (Naxçıvan MR), Türkiyədə, İranda yetişdirilir. B. cinsinin buynuzu olmur; başında, ətraflarında qara və ya qəhvəyi xallar olur, qulağı sallaqdır. Qoyunların orta kütləsi 55–60 *kq* (bəzən 75 *kq*), qoçlarınkı 85–90 *kq* (bəzən 110 *kq*) və daha çoxdur. Quyruğunun kütləsi 5–12 *kq*, ət çıxımı 45–50%-dir. Yunu ağ, parlaq, uzun (12–17 *sm*) və qabadır. İllik yun məhsulu 2,8–3,2 *kq* (bəzən 4 *kq*), təmiz yun çıxarı 50–60%-dir. Balavermәsi yüksəkdir. Hər 100 ana qoyundan 112–120 quzu alınır. B. laktasiya dövründə 125–135 *l* (maks. 210 *l*) süd verir; südünün yağlılığı 5,4–7%-dir.

Balbas.



*Əd*: Байрамов У., Абдуллаев М.. Балбасская порода овец. Б., 1973.

**BALBÓA** – Panama Resp.-nın pul vahidi; 100 sentesimoya bərabərdir. İspan konkistadoru V. *Nunyes de Balboanın* adındandır. 1904 ildə dövriyyəyə buraxılmışdır. B.-nın məzənnəsi ABŞ dollarına nisbətdə 1:1-dir. Sikkələr: 1 sentesimo, ssentesimo, 1/10 B., 1/4 B., 1/2 B.

Ölkədə əsginaslar rolunu qanuni ödəniş vasitəsi olan ABŞ dolları oynayır.

**BALBÓŞİN** Nikolay Fyodoroviç (d.8.6.1949, Potsdam) – Rusiya idmançısı, SSRİ əməkdar idman ustası (1973). Yunan-Roma güləşi üzrə yarımağır çəkidə 21-ci Yay Olimpiya Oyunları (1976, Monreal), dünya (1973, 1974, 1977, 1978) və Avropa (1973, 1975–79), SSRİ (1973, 1977, 1984) çempionu olmuşdur.

**BALC** (ing. bulge – qabarıqlıq, qabarma) – Qalaktikada disklə yanaşı onun iki əsas struktur komponentlərindən biri olan sferoidal formada mərkəzi ulduz sıxlaşması. E. *Habbl* qalaktikaları balc/disk nisbətinə görə yerləşdirməklə onların morfoloji təsnifatını işləyib hazırlamışdır (1925). B.-ın diskdən fərqi parlaqlığın paylanmasından daha çox onun formasındadır: disk yastı, B. isə "qalındır". Bu onunla bağlıdır ki, ulduzlar diskdə mütəşəkkil hərəkət edir, eyni istiqamətdə fırlanır, B.-da isə ulduzların hərəkəti xaotikdir, onların sürətlərinin dispersiyası adətən 100 *km/san*-ni keçir. Spiral qalaktikaların B.-ları elliptik qalaktikalara nisbətən daha sürətlə fırlanır və bu sürətə tam uyğun olaraq yastılanmış izotrop ellipsoidlərə oxşayır.

**BALCANOV** Məhəmməd Bayram oğlu (1879, indiki Qazax r-nunun Muğanlı k. – 27.2.1955, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1948). 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**BALÇÁND**, B a l a k a n d a (yaradıcılığı 1594–1640 illərə təsadüf edir) – hind boyakarı, *moğol miniatür məktəbinin* nümayəndəsi. Caminin poetik və ibrətamiz mətnlərdən ibarət "Baharıstan" (1595) toplusuna və "Əkbərnamə" (1596–97) əlyazmasına illüstrasiyalar erkən yaradıcılıq işlərindəndir. 17 əsrin 1-ci rübündə çəkdiyi hökmdar və zadəgan ailələri nümayəndələrinin portretləri seriyası ilə məşhurlaşmışdır. Zərif dekorativ üslubda, ən xırda detalların diqqətlə işlənilməsi və çoxlu zərin tətbiq edilməsi B. yaradıcılığı üçün səciyyəvidir [racə Saranq Raonun (1615), Asəf Xanın (1620–25), Cansipər Begin (1630) portretləri, həmçinin imperator Əkbər və imperator Cahangirin ikitərəfli portretləri və s.]. "İmperatorun tarixi" ("Padşahnamə") toplusuna B.-ın özünün daxil etdiyi iki avtoportreti də məlumdur. Əsərləri Oksforddakı Bodli kitabxanasında, Londondakı Viktoriya və Albert muzeyində, Vindzor qəsrində və s. saxlanılır.

**BALÇILI** – Azərb. Resp. Göygöl r-nunda kənd. Balçılı ə.d.-nin (Balçılı, Cümşüdlü k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 24 *km* şm.-q.-dədir. Əh. 2007 (2008); əkinçilik, quşçuluq, arıçılıq və maldarlıqla məşğuldur. 2 tam orta məktəb, kitabxana, həkim ambulatoriyası, mədəniyyət evi, uşaq bağçası var.

**BALÇILI** – Azərb. Resp. Yevlax r-nunda kənd. Balçılı ə.d.-nin (Balçılı, Ağqıraqlı k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 20 *km* şm.-q.-də, Kür çayının sağ sahilindədir. Əh. 1040 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, feldşer-mama məntəqəsi var.

**BALÇILI KURQANLARI** – Azərb. Resp.-nın Göygöl r-nunun Balçılı k. yaxınlığında e.ə. 2-ci minilliyin sonuna aid qəbir abidələri. B.k.-ndan tunc təbərzin, toppuz, nizə, iynə, bilərzik, düymələr, mismar, sümük əşyalar, saxsı məmulatı və s. tapılmışdır. Ölülər daş qutu, quyu və dördkünc formalı torpaq qəbirlərdə dəfn edilmişdir. Paşatəpə adlı kurqanda qəbir ağac tirlərlə üç mərtəbəyə bölünmüşdür. A l t m ə r t ə b ə d ə adam və at skeleti, silah, gil qablar, o r t a m ə r t ə b ə d ə heyvan sümükləri aşkar olunmuşdur. Qəbrin üstündə tonqal qalandığından alov ü s t m ə r t ə b ə y ə keçmiş və nəticədə, torpağa basdırılan ağac ucluqlarından başqa, qalan hissələr yanmışdır. Kurqandan tapılmış əşyalar dəfn edilənin hərbçi və varlı olduğunu göstərir. B.k. Azərb.-da Tunc dövrünün sonunda sosial təbəqələşməni əks etdirir. *Xocalı-Gədəbəy mədəniyyəti* üçün səciyyəvidir.

**BALDANÓ** Namjil Qarmayeviç (20.10.1907, İvolqa oymağının Oronqoy ulusu – 1984) – buryat dramaturqu, aktyor və rejissor. Bur. MSSR xalq artisti (1938). RSFSR əməkdar incəsənət xadimi (1940). "Rəxnə" (1932), "Baykal balıqçıları" (1942), "Bayanqol" (1947), "Alov" (1953) və s. pyeslərin müəllifidir. "Enxe-Bulat-bator" (1939), "Vadi üzərində işıq" (1950), "Gözəl Anqara" (1957) və s. opera və baletlərin librettosunu yazmışdır. "*Geser*" dastanının ümumi mətnini tərtib etmişdir (1959).

*Ə s ə r i*: Избр. пьесы. М., 1959.

**BÁLDERİS** Helmut Qunaroviç (d.31.7.1952, Riqa) – Latviya idmançısı (şaybalı hokkey). SSRİ əməkdar idman ustası (1978). 1970–80-ci illərdə dünya hokkeyinin ən yaxşı hücumçularından biri olmuşdur. Dünya və Avropa (1978, 1979, 1983), SSRİ (1978–1980) çempionu, 13-cü Qış Olimpiya Oyunlarının (1980, Leyk-Plesid) gümüş mükafatçısı olmuşdur. SSRİ yığma komandasının heyətində çıxış etmiş, 59 rəsmi beynəlxalq yarışda 35 qol vurmuşdur. 1989 ildə Milli Hokkey Liqasının (Kanada) "Minnesota Nord Stars" komandasının heyətində çıxış etmişdir. İdman karyerasını bitirdikdən sonra Latviya yığma komandasının və Yaponiyanın "Oyi Şeyşi" komandasının məşqçisi olmuşdur.

**BALDIR**, i n s a n d a – aşağı ətrafın bud ilə ayaq arasındakı hissəsi. Skeleti qamış və incik sümüklərindən ibarətdir. Hər iki sümüyün yuxarı və aşağı ucları bir-birinə bağ vasitəsilə birləşmişdir. Bundan başqa, bütün uzunluğu boyu, sümükarası zar da onları bir-birinə birləşdirir. B. əzələləri üç qrupa bölünür: ayağı və barmaqları açan ö n ə z ə l ə, ayağı, barmaqları və baldırı bükən a r x a ə z ə l ə, ayağı bükən və yanlara hərəkət etdirən b a y ı r ə z ə l ə. B. əzələləri qamış və incik sinirləri ilə innervasiya olunur, dizaltı arteriyanın şaxələri isə B.-ı qanla təchiz edir.

Buğumayaqlılarda B. bud (hörümçəkkimilərdə diz) buğumu ilə pəncə buğumu arasındakı hissə hesab olunur.

**BALDIRĞAN** (Heracleum) – *çətirçiçəklilər* fəsiləsindən iri ot bitkisi cinsi. Gövdəsinin hünd. 2 *m*-ədək və daha çox olur. Enli seqmentləri olan yarpaqları lələkvarı və ya üçqat yarıqlı, bəzən sadədir. Çiçəkləri ağ, yaxud çəhrayımtıl, bəzən də yaşılaçalan-sarımtıl olur; qalxanvarı ümumi çiçək qrupunu əmələ gətirən mürəkkəb çətirdə toplanmışdır. Sallaq meyvəsi arxadan çox basıq, çılpaq, yaxud tüklü olan 2 hissəyə (*merikarpiyalara*) ayrılır. Avrasiyada, Afrikada və Şimali Amerikada yayılmış təqr. 120 növü var. Qafqaz və Çinin c.-q.-i növmüxtəlifliyinin əsas mərkəzləridir. Azərb.-da 8 növü bitir. Bir çox növü yem (silos) bitkisi kimi təsərrüfat əhəmiyyətlidir. Demək olar ki, bütün növləri bitkiyə toxunan zaman insanın dərisində yanığaoxşar iltihab törədə bilər. B.-ın bəzi növləri, məs., manteqassi B.-ı (H. manteqazzianum) dekorativ bitkidir. Balverəndir.

Baldırğan (Heracleum).



**BALDIRĞANLI** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (9.9.1930 ildən Böyük Qarakilsə, 3.1.1935 ildən – Kirovakan, 24.12.1964 ildən – Quqark r-nu) azərb.-ların yaşadığı kənd.

**BALDIRĞANLI** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qafan r-nu), Baldırğanlı dağ silsiləsinin ətəyində azərb.-ların yaşadığı kənd. Kəndin xarabalıqları qalır.

**BALDIRĞANLI** – Azrb. Resp. Laçın r-nunun Mığıdərə ə.d.-ndə kənd. R-n mərkəzindən 40 *km* c.-ş.-də, dağətəyi ərazidədir. Əh. 14 (2008); işğaldan (1992, may) əvvəl maldarlıqla məşğul olmuşdur.

**BALDIRIQARA** (Adiantum) – pteridikimilər fəsiləsindən qıjılar cinsi. Hər yerdə rast gəlinir. Təqr. 200 növündən ən çoxu Cənubi Amerikada bitir. Hünd. 20–40 *m* olan qədəhvarı B. (A. pedatum) növü Uzaq Şərqdə, hünd. 30 *m*-ədək olan zöhrətüklü B. (A. capillus-veneris) Qafqazda, o cümlədən Azərb.-da (Talış, Naxçıvan və Abşeron zonalarında), Krımda və Orta Asiyada yayılmışdır. 2–3 dəfə lələkvarı yarılmış nazik yarpaqları tünd-qo-

Zöhrətüklü baldırıqara (Adiantum capillus-veneris).



nur uzun saplaqlarda yerləşir. Zərif dekorativ bitki olan B.-nın bir çox növü otaqlarda və oranjereyalarda becərilir.

**BALDİN** Aleksandr Mixayloviç (26.2.1926, Moskva – 29.4.2001, Moskva) – rus fiziki, REA-nın akad. (1981), SSRİ Dövlət mükafatı laureatı (1973,1978), Lenin mükafatı laureatı (1988). Moskva Fizika-Mühəndislik İn-tunu (1949) bitirmiş, 1965 ildən həmin in-tun prof.-u olmuşdur. 1949–68 illərdə SSRİ EA-nın Fizika İn-tunda işləmiş, 1968 ildən Dubnadakı Birləşmiş Nüvə Tədqiqatları İn-tunda (BNTİ) yüksək enerjilər laboratoriyasının direktoru olmuşdur. Elmi əsərləri elektromaqnit qarşılıqlı təsirlərin öyrənilməsinə, elementar zərrəciklər fizikasına, nüvə fizikasına, sürətləndiricilər nəzəriyyəsinə həsr edilmişdir. V.V. Mixaylovla birlikdə nuklonların anomal maqnit momentlərini mezonların fotodoğulma nəzəriyyəsinə daxil etmişdir (1950–52). Mezonların həddə yaxın fotodoğulmalarının əsas qanunauyğunluqlarını qabaqcadan söyləmişdir (1951). Sübut etmişdir ki, elementar zərrəciklər elektrik və maqnit polyarlaşmasına malik olmalıdır (1957). Foton – mezon vektoru birbaşa keçidini kəşf etmişdir (1967). Nüvələrin optik anizotropiyası anlayışını vermiş (1959) və onların tenzor polyarlaşması nəzəriyyəsini təklif etmişdir (1961). V.S. Stavinski ilə birlikdə relyativist nüvələrin toqquşması zamanı kumulyativ effekti qabaqcadan demiş və təyin etmişdir (1971). Relyativist nüvə fizikasının əsasını qoymuşdur. B.-in rəhbərliyi ilə BNTİ-nin sinxrofazotronu dəyişdirilərək relyativist nüvələrin sürətləndiricisinə çevrilmişdir.

**BÁLDONE** – Latviyada qəsəbə (1950 ildən). Kekava çayı sahilindədir. Riqadan 33 *km*, İkşkile d.y. st.-ndan 16 *km* aralıdır. Əh. 2,2 min (2008). Tikiş və yeyinti sənayesi müəssisələri var. Ağac emal olunur. Balneoloji və palçıq kurortudur (1795 ildən). Latviya EA-nın radioastrofizika rəsədxanası B. yaxınlığındadır.

**BALDR**, Balder, Baldur ("cənab") – Skandinaviya mifologiyasında *aslardan* olan gənc allah, *Odin* və *Friqqin* sevimli oğlu. B. yaraşıqlı, saf və nurludur. O, səfeh hərəkətlərə yol verilməyən Asqardda yaşayır. B. müdrik və cəsarətli hesab olunur, lakin o, əslində passiv, iztirab çəkən allahdır və güman ki, ayin qurbanıdır. Bəzi miflərə görə gənc allah həyatını təhlükəyə sürükləyən qorxulu yuxular görürdü. Bundan xəbər tutan allahlar toplaşaraq B.-ın hər bir təhlükədən qorunmasını qərara aldılar. Lakin onun həyatını xilas etmək üçün göstərilən səylər nəticə vermir və B. həlak olur. B.-ın ölümü haqqındakı mif Skandinaviya esxatoloji silsiləsinin özünəməxsus müqəddiməsidir. B.-ın ölümü allahların və bütün dünyanın məhvinin başlanğıcını (*Raqnaryok*) ifadə edir. Allahlar həlak olduqdan sonra B. dirilir. Sakson Qrammatikin "Danların əməlləri" adlı əsərində və skaldların poeziyasında B. rəşadətli döyüşçü, yaxud aşağı dərəcəli allah surətində təsvir olunur.

**BÁLDUNQ** (təxəllüsü Grien – "Yaşıl") Hans [1484, yaxud 1485, Vürtemberq, Şvebiş-Qmyund (?) – 1545, Strasburq (indiki Strasbur, Fransa)] – alman boyakarı və qrafiki. Tanınmış strasburqlu ailəsində doğulmuşdur. 1502 (1503?) ildən Nürnberqdə A. *Dürerin* emalatxanasında işləmişdir. 1509 ildən Strasburqda yaşamışdır. "Cadugərlərin sitayiş etməsi" (təqr. 1507–08, Dövlət muzeyləri, Berlin), "Müq. Sebastyan" (1507, Alman Milli Muzeyi, Nürnberq), "Misirə səfər zamanı istirahət" (təqr. 1512–16, yenə orada və Rəssamlıq Akademiyası qalereyası, Vyana) əsərlərindəki mehrab obrazları Dürerin və Böyük L. *Kranaxın* təsiri ilə yaranmışdır. 1512–16 illərdə B. Frayburq-Braysqauda şəhər kilsəsinin mehrab *poliptixi* üzərində işləyərək, özünün ən möhtəşəm əsərini yaratmışdır. B.-un sonrakı yaradıcılığında manyerizm əlamətləri daha aydın nəzərə çarpır ("Məryəm körpəsi ilə", 1539–40, Dövlət muzeyləri, Berlin).



H. Baldunq. "Misirə səfər zamanı istirahət". Təqr. 1512–16 illər.

Yaradıcılığının son mərhələsində həmçinin antik süjetlərə rəsmlər çəkmişdir ("Herakl və Antey", Dövlət rəsm kolleksiyası, Kassel və s.). Renessans humanizmi və rasionalizm B.-un yaradıcılığında mistisizm ilə birləşir; bu, xüsusilə onun dünyanın faniliyindən bəhs edən alleqoriyalarında özünü göstərir ("Havanı tilsimləyən iki cadugər", 1523; Ştedel Rəssamlıq İn-tu, Frankfurt-Mayn; ağac üzərində "Vəhşi atlar" qravürası, 1534; "Ovsunlanmış mehtər", 1544 və s.).

**BALEÁR ADALARI** (Baleares) – Aralıq dənizinin q.-ində, Pireney y-a-ndan 200 *km* ş.-də adalar qrupu. C.-q.-dən şm.-ş.-ə uzanır. Tərkibinə iki iri ada – Malyorka, Menorka və Pitiuz a-rı arxipelaqı daxildir. İspaniyanın eyniadlı muxtar vil.-ni əmələ gətirir. Sah. təqr. 5 min *km*². Əh. 830 min (2004). İnz. m. Palma ş.-dir (Malyorka a.-nda). Relyefində ovalıqlar və təpəliklər üstünlük təşkil edir; Malyorkanın şm.-q.-ində dağlıq (hünd. 1445 *m*.-ədək, Puç Mayor d.), Menorkada yayladır (358 *m*-ədək). Karst inkişaf etmişdir, çoxlu mağaralar var. İqlimi Aralıq dənizi tiplidir, yayı isti və quru, qışı rütubətlidir; illik yağıntı 400–600 *mm*. Bitki örtüyü daş palıd və şam ağaclarından, makvis, cırtdan palma, qariqa cəngəlliklərindən ibarətdir. Sitrus bitkiləri becərilir. Balıq ovlanır. B.a. Avropada ən iri turizm və istirahət zonalarından biridir. Orta əsrlərə aid çoxlu abidələr qalmışdır; Menorkada qədim keltlərin qayma piramidaları var.

E.ə. 6 əsrdən e.ə. 201 ilədək B.a. Karfagenin, e.ə. 123 ildən isə romalıların hakimiyyəti altında olmuşdur. 395 ildə B.a. Qərbi Roma imperiyasının tərkibinə qatılmış, 455 ildə isə Vandal krallığına tabe olmuşdur. 533–534 illərdə krallığın işğalından sonra Bizansın hakimiyyətinə keçmişdir. 8–9 əsrlərdə ərəblər, vikinqlər, Frank dövləti B.a. uğrunda mübarizə aparmışlar. B.a. piratlığın və qul ticarətinin mərkəzlərindən birinə çevrilmişdi. 903 ildə Kordova əmirliyinin tərkibinə qatılmışdı. 1229–35 illərdə Araqonun hakimiyyətinə keçmişdi (1276–1344 illərdə adalarda müstəqil Mayorka krallığı mövcud olmuş, 1344–49 illərdə yenidən Araqon tərəfindən tutulmuşdur). B.a. 15 əsr- dən İspaniyanın tərkibindədir (1756–63 illərdə Fransanın olmuşdur; Menorka a. 1708–56, 1763–82, 1798–1802 illərdə B. Britaniyaya məxsus idi).







Balear adaları. Palma şəhərindən görünüş.

**BALEÁR DƏNİZİ** – yarımqapalı dəniz; Aralıq dənizinin Balear a-rı ilə Pireney y-a-nın ş. sahilləri arasındakı hissəsi. Sah. 86 min *km*². Maks. dərinliyi 2132 *m*. Səth sularının temp-u qışda təqr. 13°C, yayda təqr. 24°C-dir. Duzluluq 38‰-ədək. Yarımsutkalıq qabarmalar (0,3 *m*-ədək) olur.

**BALENSİÁQA** (Balenciaga) Kristobal (21.1.1895, Gipuskoa əyaləti, Hetariya – 23.3.1972, Alekante əyaləti, Xavea) – ispan modelyeri. Tikiş işini dərzilik edən anasından öyrənmişdi. 1916 ildə San-Sebastyan ş.-ndə özünün ilk salonunu açmışdır. 1930-cu illərin əvvəllərində moda dizayneri kimi tanınmış B.-nın Madrid, Barselona və Parisdə salonları fəaliyyət göstərirdi; onun müştəriləri kral ailəsinin üzvləri və zadəganlar idi. 1937 ildə Parisə köçmüşdür. B. modada bir sıra yeniliklərin (paltar-köynəklər, yaxalıqsız köynəklər və s.) müəllifi olmuşdur. Onun yaratdığı geyim modelləri qismən ispan motivlərindən istifadə etməklə *İkinci İmperiya üslubunu* canlandırırdı. Əl işlərinə üstünlük vermiş və kütləvi istehsaldan imtina etmişdir. K. *Dior*, A. Kurrej, Y. de *Jivanşi* və 20 əsrin bir sıra başqa tanınmış modelyerləri özlərini B.-nın şagirdləri hesab edirdilər.

**BALET** (fr. ballet; ital. balletto, ballo – rəqs, bal; son lat. ballo – rəqs etmək) – səhnə sənəti növü; burada dramaturgiya, musiqi, səhnəqrafiya, onların sintezinin mərkəzi olan xoreoqrafiyaya tabedir. "B." termini, əsasən, 16–19 əsrlərdə formalaşan Avropa balet sənətini ifadə edir. 20 əsrdə bu termin bəzən geniş şərh edilərək ayrı-ayrı rəqs tamaşalarını qeyd etmək üçün işlədilmişdir. Əsrlər boyu B. mənşəyindən (saray B.-i), bədii istiqamətindən (romantik B. və s.), texnikasından (klassik, neoklassik, modern və s.) və janrından (qəhrəmani, anakreontik, B.-maskarad, B.-faciə, B.-komediya, *opera-balet*, B.-pyes, B.-simfoniya, süjetli, yaxud süjetsiz B. və s.) asılı olaraq müxtəlif formalar kəsb etmişdir. B.-də *klassik rəqs* və *xarakterik rəqs* fərqlənir, hər birinin tərkibində isə solo, ansambl və kütləvi rəqslər (*solistlərin*, *korifeylərin* və *kordebaletin rəqsləri*) olur, çox vaxt bunların birləşməsi və qarşılıqlı keçidi baş verir. Süjetli baletin əsasını vaqiə ilə bağlı rəqs təşkil edir, lakin çox vaxt B.-ə *divertisment* də əlavə edilir. Müasir B.-də müxtəlif texnikalar və janrlardan istifadə olunur.

**Tarixi oçerk**. 14–15 əsrlərdə İtaliyada saray şənliklərində, daha sonra digər ölkələrdə meydana çıxan teatr rəqslərinin formalaşması prosesi 16 əsr – 17 əsrin 1-ci yarısında rəqs və pantomimadan əlavə şifahi mətn və oxuma da daxil edilən B.-in yaranmasına gətirib çıxartdı. 16 əsrin 2-ci yarısında Fransada vahid süjetlə bağlı ilk tamaşalar qoyulurdu ("Kraliçanın komediya baleti", quruluşçu B. de Bojuayö, 1581). 17 əsrdə saray B.-i janrı, əsasən, Fransada inkişaf etmiş və burada həmçinin baletmeyster P. *Boşanın* təmsil etdiyi "nəcib" rəqs məktəbi yaranmışdı. 1661 ildə Parisdə balet tamaşasının tematika və formasını qaydaya salan Kral rəqs akademiyası təşkil edilmişdi. İncəsənətin müstəqil növü kimi B. qəti olaraq 18 əsrdə formalaşmışdır. Bu prosesdə Q. Ancolini və xüsusilə çoxlu sayda klassisizm dramına yaxın tamaşalar (J.J. Rodolfun "Medeya və Yazon", 1763; Y. Starserin "Horatsilər və Kuriatsilər", 1775 və s.) yaratmış J.J. *Noverr* aparıcı rol oynamışlar.

B. tarixində 19 əsrin 1-ci rübünə romantizmdənəvvəlki mərhələ kimi baxılır. İtaliyada S. *Viqano* özünün ritmləşdirilmiş pantomima və emosional ovqatlı rəqslərə əsaslanan xoreoqrafik dramlarında faciəvi süjetlərdən ("Vestalka", 1818; "Titanlar", 1819; hər ikisi yığma musiqi əsasında) istifadə etmişdir. Ş.L. Didlonun fəaliyyəti daha mühüm əhəmiyyət kəsb etmişdir. Onun pantomima dramları ( K.A. Kavosun "Qafqaz əsiri, yaxud Gəlinin kölgəsi",1823) və xüsusilə lirik xoreoqrafik poemaları (Kavosun "Zefir və Flora"sı, 1808) romantik rəqsin yaranmasından xəbər verirdi. 1830–1850-ci illərdə B.-də romantizm tam bərqərar oldu. Parisdə M. *Talyoni* üçün səhnəyə qoyulmuş F. *Talyoninin* tamaşalarında (J. Şneyshofferin "Silfida"sı, 1832) xəyal və həqiqətin təzadları mövzusu açılırdı; buradakı əsas surətlər reallıqla təmasdan məhv olan xəyali varlıqlar idi. Barmaqlar üzərində rəqsə və pərvazlanan hərəkətlərə əsaslanan yeni rəqs tərzi və texnikası yaranırdı. Bu janra aid əsərlər içərisində ən məşhuru J. *Koralli* və J. *Perronun* quruluş verdiyi A.Ş. Adanın (1841) "Jizel" baleti idi. Romantik B.-in digər növü güclü hisslərin toqquşması üzərində qurulmuş dramdır ( A. Adan, "Korsar", baletmeyster J. *Mazilye*, 1856). Perronun baletləri (Ç. Punyi, "Esmeralda", 1844 və s.; baş rolun ifaçısı F. *Elsler*) xüsusi əhəmiyyət kəsb edirdi. 1860-cı illərdə romantik B. böhran dövrü keçirirdi. Tamaşalar dramaturji bütövlüyü və məzmunluluğu itirirdi. Həmin illərdə, xüsusilə klassik və xarakterik rəqslərdə bilavasitə rəqs ifadəliliyi vasitələri intensiv inkişaf edirdi (A. *Sen-Leonun* Rusiyadakı tamaşaları: Punyi "Qozbel at", 1864; L. Delib, "Koppeliya",1870). Bir sıra Avropa ölkəsində B. feeriyaya çevrilir (L. *Mansottinin* tamaşaları), müzik-holla qarışdırılır (İngiltərədə), yaxud operaya əlavə edilirdi (Fransada); bəzən, Danimarkada olduğu kimi, inkişafdan qalırdı (burada yalnız A. *Burnonvilin* romantik tamaşaları oynanılırdı). Rusiyada M. *Petipanın* quruluş verdiyi əsərlərdə süjeti pantomima səhnələrində şərh olunan monumental tamaşanın "böyük" B.-in estetikası formalaşdı. B.-ə simfonist

bəstəkarların gəlməsi ilə xoreoqrafik dramaturgiyada musiqi inkişafı üsullarının təsiri hiss olunmağa başladı. Petipa və L.İ. İvanovun P.İ. Çaykovski ("Yatmış gözəl", 1890; "Şelkunçik", 1892; "Sonalar gölü", 1895) və A.K. Qlazunov ("Raymonda", 1898) ilə birlikdə yaratdıqları tamaşalar "böyük" B.-in inkişafının ən yüksək göstəriciləri oldu. Buna baxmayaraq, 19 əsrin sonu –20 əsrin əvvəllərində B.-in estetikası tükənmiş, islahatlar aparılmasına ehtiyac yaranmışdı.

20 əsrin əvvəllərində xoreoqrafik teatrın – yeni baletin estetikasını M.M. *Fokin* işləməyə başlamışdı. O, B.-i müasir incəsənət üçün xarakterik olan obraz və ideyalar çevrəsinə daxil etmiş və tamaşanın yeni növünü – birpərdəli B. yaratmışdı (F. Şopenin musiqisinə "Şopeniana", 1908; İ.F. Stravinskinin baletləri: "Simurq", 1910 və "Petruşka", 1911). Kanonik xoreoqrafik kompozisiyaları mimik ifadəliliklə zəngin rəqs və rəqsin dinamikasını canlandıran pantomima əvəz etdi. 20 əsrin əvvəllərində B.-də islahat aparmağa A.A. Qorski də cəhd etmiş, tamaşaya realist motivasiya verməyə çalışmışdır (A.Y. Simon, "Qudulanın qızı", 1902; A.F. Arends, "Salambo", 1910). Fokinin quruluş verdiyi tamaşalar, S.P. Dyagilev truppasının tamaşaları (1909–11) və S.P. Dyagilevin Avropada fəaliyyəti (1929 ilədək), A.P. *Pavlovanın* truppasının qastrolları dünya B. sənətinin inkişafına böyük təsir göstərmişdir. Eyni zamanda, xüsusilə A. *Dunkanın* sərbəst rəqslərinin, 1920-ci illərdə isə Amerika modern rəqsinin (M. *Qrehem*, D. *Hamfri* və b.) və alman ritmoplastik rəqsinin (K. *Yoss*, M. *Viqman* və b.) nümayəndələrinin təsiri ilə digər təmayüllər də yaranmağa başlayırdı. B. hər bir ölkədə milli xoreoqrafiya ənənələri ilə birlikdə özünün təkrarolunmaz xüsusiyyətlərinə malik idi. 1920-ci illərdən Qərbi Avropada balet sənətinin mərkəzinə çevrilmiş Fransada M.M. Fokinin ənənələri daha da inkişaf etdirilirdi. 1930-cu illərdən S. Lifarın rəhbərliyi ilə Paris operasının balet truppasının fəaliyyəti genişləndi. İngiltərədə N. de *Valua* və M. *Ramber* 1930-cu illərdə milli B.-in əsasını qoydular. 1930-cu illərin ortalarında ABŞ-da C. *Balançin* əsaslı surətdə klassik B. sənətini yeniləşdirərək, simfonik musiqini xoreoqrafiyada təcəssüm etdirdi ( P.İ. Çaykovskinin musiqisinə "Serenada", 1934; J. Bizenin musiqisinə "Do-major simfoniyası", 1947; İ.F. Stravinskinin "Aqon" baleti, 1957 və s.). 1930-cu illərdə yüzillik boyu Burnonvil ənənələrini qoruyub saxlayan və eyni zamanda yeni cərəyanlara qoşulan Danimarka B.-in fəaliyyəti canlandı. Avstriya, İsveç və digər ölkələrdə B. sənəti yenidən dirçəlməyə başladı.

20 əsrin 2-ci yarısında dünya B.-i tarixində müxtəlif məktəblərin, cərəyan və üslubların qarşılıqlı yayılması, klassik, xalq və müasir rəqs sənətinin qarşılıqlı təsiri ilə yeni mərhələ başladı. Modern rəqs yeni – postmodern istiqamətində inkişaf etdi (M. Kanningem və b.), bütün dünyada çox sürətlə yayılmağa başlayaraq, hətta əvvəllər ona əhəmiyyət verməyən ölkələrdə (Fransa, İngiltərə; 1980-ci illərdən Rusiyada) belə öz təsdiqini tapdı. 1970-ci illərin 2-ci yarısında alman "rəqs teatrı" yarandı ( ən görkəmli nümayəndələri P. Bauş, S. Linke,Y. Kresnik, S. Valts, R. Orta və b.). Rəqsdə əyləncə deyil, "əsl" sənət axtarışı yönündə Yaponiyada radikal istiqamət – buto ("ruhların rəqsi", "kölgələrin rəqsi") meydana gəldi. Yeni rəqs mədəniyyətinin təsiri ilə ənənəvi balet teatrının estetikası və dili dəyişdi. Modern, folklor, caz-rəqs və s. ilə birləşdirilən neoklassika R. *Peti*, M. *Bejar*, B. *Kulberq*, C. *Kranko*, K. *Makmillan*, C. *Robbins*, R. *Coffri*, P. *Teylor*, X. *Limon*, C. *Noymayer*, X. van *Manen*, R. van *Dantsiq*, İ. *Kilian*, U. *Forsayt*, M. *Ek*, K. *Karlson* və b.-nın leksik və kompozisiya yenilikləri üçün əsas oldu.

20 əsrin sonuncu rübündə Fransada, Belçikada, Niderlandda, Finlandiyada və s. ölkələrdə yeni rəqs məktəbləri meydana gəldi. Hələ 20 əsrin əvvəllərində yaranmağa başlayan contemporary dance (bax *Müasir rəqs*) inkişaf edirdi. 20 əsrin sonu – 21 əsrin əvvəllərində ənənəvi repertuarları olan balet truppaları Avropada və Amerikanın bir sıra şəhərinin opera teatrlarının nəzdində qalmaqdadır, belə truppalar Şərq ölkələrində (Yaponiya, Çin və s.) yaradılır. Müasir xoreoqrafiya teatrı üçün çox vaxt B. və səhnə rəqsi haqqında ənənəvi anlayış ilə uyğun gəlməyən tamaşanın üslub, janr və forma müxtəlifliyi səciyyəvidir. Hər bir xoreoqraf qarşısına qoyduğu məqsəddən çıxış edərək özünün rəqs dilini yaradır.

**Azərbaycan B**.-i incəsənətin digər sahələrinə nisbətən gec yaransa da, qısa müddət ərzində inkişaf mərhələsinə çatdı. Azərb. milli dram və opera teatrlarının yaranması milli xoreoqrafiyanın təşəkkülü üçün zəmin oldu; rəqslər dram və opera tamaşalarının ayrılmaz hissəsinə çevrildi. İlk Azərb. operaları – Ü. Hacıbəylinin "Leyli və Məcnun" (1908), "Əsli və Kərəm" (1912), Z. Hacıbəyovun "Aşıq Qərib"(1916) , M. Maqomayevin "Şah İsmayıl" (1916) əsərlərindəki rəqs epizodları Azərb. B.-inin formalaşmasında mühüm rol oynadı. 1920 ildə opera teatrı nəzdində B. truppası yaradıldı. Ü. Hacıbəylinin "Azərbaycan", "Dağıstan" süitaları ilk xoreoqrafiya nümunələri idi. 1923 ildə B. studiyası təşkil edildi, 1933 ildə bu studiyanın əsasında balet məktəbi (1937 ildən Bakı Xoreoqrafiya Məktəbi) fəaliyyətə başladı. 1936 ildə Azərb. Dövlət Filarmoniyası nəzdində xalq rəqs ansamblının (bədii rəhbəri Ə. Səfərov, sonralar Q. Almaszadə) yaradılması Azərb. B.-inin formalaşmasında böyük əhəmiyyət kəsb etdi. Azərb. xalq rəqslərinin konsert ifasının başlanğıcı oldu.

Ə. Bədəlbəylinin xoreoqrafiya məktəbi şagirdləri üçün yazdığı birpərdəli "Tərlan" əsəri professional B. tamaşası yaradılmasında ilk təcrübə idi. Onun 1940 ildə tamaşaya qoyulmuş "Qız qalası" (baletmeyster V. Vronski və b., məsləhətçi Q. Almaszadə) əsəri ilk Azərb. B.-idir.

S. Hacıbəyovun "Gülşən" (1950, baletmeyster Q. Almaszadə; SSRİ Dövlət mükafatı, 1952) və Q. Qarayevin "Yeddi gözəl" B.-ləri (1952, Nizaminin eyniadlı poeması üzrə, baletmeyster P.A. Qusev; 2-ci redaksiyası 1959; 3-cü redaksiyası 1969; 4-cü redaksiyası 1978, baletmeyster R. Axundova, M. Məmmədov; 5-ci redaksiyası 2008, baletmeyster V. Medvedev) Azərb. B. musiqisində yeni mərhələ oldu. Janrın inkişafında mühüm rol oynamış bu əsərlərlə Azərb. B. sənətində yeni musiqi dramaturgiyasının əsası qoyuldu. Q. Qarayev "İldırımlı yollarla" B.-ində (1958, P. Abrahamsın eyniadlı romanı üzrə, baletmeyster K.M. Sergeyev; Lenin mükafatı, 1967) baş qəhrəmanların faciəli məhəbbətini kəskin sosial münaqişəyə qədər yüksəldərək mövzu etibarilə müasir, musiqi həllinə görə orijinal tamaşa yaratdı. 60-cı illər Azərb. B.-indəki yeniliklər A.Məlikovun "Məhəbbət əfsanəsi"(1961, N. Hikmətin eyniadlı pyesi əsasında, baletmeyster Y. Qriqoroviç, rəssam S. Virsaladze) ilə bağlıdır; əsərin ideya-estetik bütövlüyü onu müasir dünya B.-inin nailiyyətləri səviyyəsinə qaldırdı. "Məhəbbət əfsanəsi" klassik ənənələr əsasında yazılmış novator əsərdir. Niyazinin "Çitra" baletində (1960, R.Taqorun eyniadlı poeması əsasında; C.Nehru ad. Beynəlxalq mükafat, 1974) hind musiqisinin intonasiyalarından bacarıqla istifadə edilmiş, R. Ta-



















**Balet:** *1* – "Esmiralda" (J. Pero); *2* – "Yatmış gözəl" (P. Çaykovski); *3* – "Bayaderka" (L. Minkus); *4* – "Qız qalası" (Ə. Bədəlbəyli); *5* – "Yeddi gözəl" (Q. Qarayev); *6* – "Min bir gecə" (F. Əmirov); *7* – "Məhəbbət əfsanəsi" (A. Məlikov) baletlərindən səhnələr.

qorun dərin fəlsəfi lirikası dolğun musiqi obrazlarında əksini tapmışdır. Ə. Abbasovun məişət dramı janrında yazılmış "Qaraca qız" baleti (1965, S.S. Axundovun eyniadlı əsəri üzrə) ilk Azərb. uşaq B.-idir.

60-cı illərin sonu – 80-ci illərdə kiçik formalı B.-lərə maraq artdı. Bu dövrün B.-ləri üçün süjet genişliyi, müəyyən emosional planda ifadəsini tapmış vahid dramaturji xətt, simvolik obrazlardan istifadə səciyyəvidir. "Xəzər balladası" (1968, T. Bakıxanov, baletmeysterlər R. Axundova və M. Məmmədov), "Bu torpaqda iki nəfər" (1969, A. Məlikov, baletmeyster O. Vinoqradov; S.-Peterburqdakı Mariya teatrında tamaşaya qoyulmuşdur), "Qobustan kölgələri" və "Kaleydoskop" (1969, 1972, F. Qarayev, baletmeysterlər R. Axundova və M. Məmmədov), "Nəsimi dastanı" (1973, F. Əmirov, baletmeyster N. Nəzirova; Azərb. Dövlət mükafatı, 1974), "İlham" (1977, L. Vaynşteyn, baletmeyster N. Nəzirova) və s. belə əsərlərdəndir. Simfonik musiqi əsasında tamaşaya qoyulmuş "Şur" (1968, F. Əmirov, baletmeyster Q. Almaszadə), "Leyli və Məcnun" (1969, Q. Qarayev, baletmeyster N. Nəzirova) maraqlı quruluşu ilə seçilir. 60 – 80-ci illərdə həmçinin konsert ifası üçün "Yallı", "Azərbaycan süitası" (1969, R. Hacıyev, baletmeysterlər R. Axundova və M. Məmmədov), "Muğam" (1972, N. Əliverdibəyov, baletmeysterlər R. Axundova və M. Məmmədov), "Nizami" (1984, F. Əmirov, tamaşası 1991, baletmeyster V. Budarin) və s. B. nömrələri yaradıldı, F. Əmirovun "Min bir gecə" B.-inin (1979, baletmeyster N. Nəzirova, SSRİ Dövlət mükafatı, 1980) musiqi dramaturgiyasında simfonik muğam formaları öz həllini tapdı. Əsərin partiturası parlaq instrumentovkası ilə, ərəb folklorundan özünəməxsus istifadə, müəllifin milli musiqi təfəkkürünün orijinallığı baxımından fərqlənir. N. Məmmədovun "Humay" (1981, S. Vurğunun "Komsomol poeması"nın motivləri əsasında) B.-inin musiqisi üçün romantik coşqunluq, muğamla sıx bağlılıq səciyyəvidir. A. Məlikov "İki qəlbin dastanı" (1983, özbək yazıçısı Ş. Rəşidovun poeması əsasında, baletmeyster İ. Çernışov) B.-ində janrın zəngin dramaturji ənənələrindən istifadə edərək parlaq ifadəliliyi, dərin psixologizmi, bədii bitkinliyi ilə fərqlənən musiqi obrazları yaratdı. Əsərdə hind və özbək melodiyalarının ritmika və intonasiyalarından sənətkarlıqla istifadə edilmişdir. A. Əlizadənin "Babək" (1986, baletmeysterlər R. Axundova və M. Məmmədov) B.-ində rus və Azərb. B.-inin ən yaxşı ənənələri davam etdirilmiş, muğam sənətilə müasir bəstəkarlıq prinsipləri birləşdirilmişdir. "Babək" tamaşası Azərb. B.-ində epik janrın başlanğıcı oldu. 21 əsrin əvvəllərində Niyazinin "Rast" simfonik muğamı əsasında balet (2004, baletmeyster T. Şirəliyeva), P. Bülbüloğlunun "Eşq və ölüm" baleti (2005, baletmeyster V. Usmanov) və s. tamaşaya qoyuldu.

**Balet musiqisi** ilk vaxtlar karnavalların, "triumfların", saray şənliklərinin və tamaşalarının tərkib hissəsi idi və adətən rəqs süitasından ibarət olurdu. L. de Bölyenin və J. Salmonun musiqisinə "Kraliçanın komediya baleti" (1581) rəqsin tamaşada bütövlükdə ideyanın bir hissəsi olmasına baxmayaraq, əslində qismən balet idi.

Dram tamaşalarındakı balet intermediyalarında, ingilis *maskalarındakı* rəqslərdə qədim süitalara daxil olan musiqi-rəqs formalarından istifadə edilirdi. Geniş rəqs səhnələri Molyerin komediya-baletlərinə (bəstəkarlar J.B. Lülli, M.A. Şarpantye) və opera-baletə (A. Kampra, J.F. Ramo) əlavə olunurdu.

J.J. Noverrin islahatlarından sonra B. musiqisinin məqsədi də dəyişdi: o nəinki rəqqasların hərəkətini müəyyən etməli, həm də emosional cəhətdən tamaşaya uyğun, epizodların qarşılıqlı əlaqəsinə və süjetin inkişafına yardımçı olmalı idi. Bu tələblərə daha çox K.V. Qlyukun xoreoqrafik dramları ("Don Juan", 1761 və s.) və onun operalarındakı ("Orfey və Evridika", 1774 ilin redaksiyası) rəqs epizodları cavab verirdi. Əgər V.A. Motsartın baleti ("Bərbəzəklər", 1778) əslində hələ də divertisment idisə, L. van Bethoven "Prometeyin məxluqları" (1801) baletində artıq hərtərəfli inkişaf prinsipi və rəqs musiqisinin simfonikləşdirilməsi üsullarından istifadə etmişdi.

Romantik B.-də musiqi stilistikasının yenilənməsi emosional təzadların işlənməsi, xoreoqrafik obrazların hərəkətdə göstərilməsi, açıq musiqi obrazları və yeni rəqs formaları (vals, qalop, polka, mazurka, bolero və s.) ilə əlaqədardır. 19 əsrdə B.-in struktur nömrələri (pa-de-de, qran-pa, adajio, variasiya, xarakterik divertisment və s. formalar) müəyyən edildi. B. musiqisinin tətbiqi xarakteri və onun xoreoqrafın tələblərinə tam tabe edilməsi, bir çox hallarda balet müəlliflərinin teatr qanunlarını bilən "sənətkarların" olmasına gətirib çıxarmışdı: Fransada F. Herold ("Mənasız tədbir", 1828), J. Şneyshoffer ("Silfida",1832), E. Deldevez ("Paxita", 1846), Avstriyada A. Girovets, Danimarkada X. Lövenşell, İtaliyada C. Bayetti, P. Corsa və R. Marenko, Almaniyada P.L. Hertel. B. tamaşaları çox vaxt yığma musiqiyə qoyulurdu. Romantizm dövrünün ən görkəmli B. bəstəkarı A.Ş. *Adan* olmuşdur. O, rəqs üçün psixoloji cəhətdən motivasiyalı musiqi yaradan ilk bəstəkarlardan biridir. Bir çox böyük musiqiçi öz operalarına balet musiqisi daxil edirdi (C. Rossini, Q. Donisetti, K.M. fon Veber, D. Ober, Ş. Quno, J. Massne, K. Sen-Sans, C. Verdi). L. *Delib*, E. *Lalo* və A. *Messajenin* baletləri orkestrovka məharəti və melodik zənginliyi ilə seçilir. Rus operasında balet musiqisi əhəmiyyətli yer tutmuşdur (M.P. Musorqski; A.P. Borodinin "Knyaz İqor" operasında "Qıpçaq rəqsləri", 1890; N.A. Rimski-Korsakovun "Mlada" opera-baleti, 1892).

Rus və dünya B.-inin əsl islahatçısı P.İ. *Çaykovski* olmuşdur. O, fransız bəstəkarlarının (əsasən, A.Ş. Adan və L. Delib) təcrübəsindən istifadə edərək, bütöv musiqili-xoreoqrafik dramaturgiya nümunələri yaratmış, musiqini tamaşanın başlıca komponentinə çevirmişdir. Çaykovskinin "Sonalar gölü" (1877), "Yatmış gözəl" (1890) və "Şelkunçik" (1892) baletlərinin musiqisi onun ən yaxşı simfoniya və operalarının musiqisi səviyyəsinə qalxmışdır. Çaykovskinin davamçısı A.K. Qlazunov olmuşdur ("Ray- monda", 1898 və "İlin fəsilləri", 1900). A.S. Arenski, A.N. Koreşşenko ("Sehrli güzgü", 1903), N.N. Çerepnin, sonralar R.M. *Qlier* və B.V. *Asafyevin* baletlərində Çaykovskinin təsiri nəzərə çarpır. 20 əsr xoreoqrafiya sənətində rəqs leksikasının sürətlə yenilənməsi, ənənəvi akademik B. formalarından imtina, müasir mövzu və süjetlərə müraciət, faktiki olaraq balet musiqisini dəyərli janra çevirərək bəstəkarların qarşısında yeni vəzifələr qoydu. Onun müstəqilləşməsində, 19 əsrin sonlarından xoreoqrafların tez-tez rəqs üçün nəzərdə tutulmayan musiqiyə müraciət etməsi də əhəmiyyətli rol oynadı. Bu əlamətlər artıq modernizm B.-ində özünü göstərdi: M.M. Fokinin quruluşları üçün yazılmış B.-lərin musiqisi (adətən, birpərdəli) ekzotik tamaşa ruhunda düşünülmüş, *impressionizm*, qismən də *ekspressionizm* üsullarından istifadə edirdi: İ.F. Stravinskinin "Simurq" (1910), M. Ravelin "Dafnis və Xloya" (1912), R. Ştrausun "İosif haqqında əfsanə" (1914).

*Avanqardizm* qətiyyətlə B.-in struktur nömrələrindən və klassik rəqs leksikasının şərtiliyindən imtina etdi; bu, İ.F. Stravinskinin "Petruşka" (1911) və xüsusilə "Müqəddəs bahar" (1913) baletlərinin musiqisində əsaslı yeniliyə (ritmik, melodik, struktur) səbəb oldu.

B. musiqisində avanqardist axtarışları ilə eyni zamanda *neoklassisizmə* tərəf dönüş baş verdi: İ.F. Stravinskinin "Pulçinella" (1920) və "Apollon Musaget" (1928), A. *Kazellanın* "Bardaq" (1924), J. *Orikin* "Zəhlətökənlər" (1924), F. Pulenkin "Səhər serenadası" (1929), P. Hindemitin "Nobilissima visione" (1938) baletləri. A. *Russel* , L. *Şpis* ("Apollon və Dəfnə", 1936), F. Şmitt və V. *Eqkin* baletləri modernist "ekzotik" axtarışların son əks-sədasıdır. Musiqinin ifadəlilik imkanlarının genişlənməsi folklor qaynaqlarına müraciət olunması hesabına da baş verirdi (M. Ravel, M. de *Falyai*, D. *Miyo*, K. *Şimanovski* və A. *Koplendin* baletləri).

İkinci dünya müharibəsindən sonra balet musiqisi çoxpərdəli süjetli B.-ə istiqamətlənsə də, çox vaxt 1910–1930-cu illər avanqardizminin nailiyyətlərindən və müasir kompozisiya texnikasından istifadə edirdi. C.K. *Monetti*, J. Orik, B. *Blaxer*, H.B. *Henze*, B. *Britten*, Q. *Qarayev*, R.K. *Şedrin*, A. *Məlikov*, M. Jarr ("Paris Notrdam kilsəsi", 1965), S.M. *Slonimski*, A.Q. *Şnitke* və b.-nın baletləri bu qəbildəndir. Müasir teatrda "müəllif" B.-ləri say etibarilə qeyri-balet musiqisinə (L. van Bethoven, P.İ. Çaykovski və Q. Malerin simfoniyaları, İ.S. Bax, K. Orf, A. fon Vebern, P. Bulez və b. bəstəkarların əsərləri) hazırlanmış tamaşalardan azdır.

*Əd.:* Худеков С.Н., История танцев. Т. 1–4. СПБ, 1913–17; Карагичева Л., Балеты Кара Караева. М., 1959; Бонч-Осмоловская Е., Балеты Кара Караева "Семь красавиц" и "Тропою грома". М., 1961; Советский балетный театр, 1917–1967. М., 1976; Западноевропейский балетный театр. Очерки истории. От истоков до середины XVIII в. Л., 1979; Кашкай Х., Азербайджанский балетный театр. М., 1987; Dance in the tventeth century. New haven; L., 2003.

**BALETMEYSTER** (alm. Ballettmeister) – balet və rəqslərin, opera və operettada xoreoqrafik nömrələr və rəqs səhnələrinin müəllifi və quruluşçusu. B. xoreoqrafik səhnələr, rəqslər qoyur, səhnədəki bədii obrazların və tamaşanın ideyasının daha aydın şəkildə açılması üçün hərəkətlər sistemi yaradır.

**BALEY-TASEYEVO YATAĞI** – RF-nin Çita vil. ərazisində, Baley ş. yaxınlığında qızıl və gümüş yatağı. 1927 ildə (Baley sahəsi) kəşf olunmuş, 1929 ildən açıq və yeraltı üsulla istismar olunur. Yataqda 84,8 *t* Au, 204,2 *t* Ag ehtiyatı var. Metalların filizdəki miqdarı müvafiq olaraq 2,1–3,5 *q/t* və 1,5–7,3 *q/t*-dur. Köklü yataqdır, epitermal qızıl-gümüş və qızıl-tellur filiz yataqları tipinə aiddir; Baley qrabeninin çökmə və maqmatik süxurlarında yerləşir; Baley və Taseyevo (1947 ildə kəşf edilmişdir) sahələrindən ibarətdir. Filiz kütləri qızıllı kvars damarlarından ibarətdir. Əsas filiz mineralları Fe, As, Cu, Ag, Sb, Pb və Zn-in sulfidləri və sulfat duzlarıdır, Au və Ag-un telluridlərinə az rast gəlinir. Təbii qızıl, əsasən, incə dispers şəklindədir, sərbəst şəkildə (elektrum), eləcə də sulfidlərlə və telluridlərlə birləşmələr şəklində rast gəlinir; telluridlərdə də qızıl olur. Qızılın əyarı 650–750-dir. 1995 ildən hasilat müvəqqəti olaraq dayandırılmışdır. Hasilat mərkəzi Baley ş.-dir.

**BÁLFUR** (Balfour) Artur Ceyms, qraf Balfur Uittinhemli (25.7.1848, Şotlandiya, Uittinhem – 19.3.1930, İngiltərə, Surrey qraflığı, Fişers-Holl) – Britaniya dövlət xadimi və diplomat. Mühafizəkarlar partiyasının liderlərindən biri. Zadəgan Sesil Solsberi ailəsindəndir. 1902–05 illərdə baş nazir olmuşdur. İngiltərə–Almaniya ziddiyyətlərinin



kəskinləşməsi B. hökumətini Britaniyanın ənənəvi "məharətli təcrid" siyasətindən uzaqlaşmağa və müharibəyə hazırlıq məqsədilə hərbi-siyasi ittifaqlar bağlamağa məcbur etmişdi [bax *İngiltərə-Yaponiya ittifaqı (1902–21)*. *İngiltərə-Fransa razılaşması (1904)*]. Birinci dünya müharibəsi dövrü koalisiya kabinetlərində B. dəniz naziri (1915–16) və xarici işlər naziri (1916–19) olmuşdur. 1917 ilin noyabrında *Balfur deklarasiyası* (Fələstində yəhudi "milli ocağının" yaradılmasına dair) ilə çıxış etmişdir. 1919- 22, 1925–29 illərdə D. Lloyd Corcun və S. Bolduinin kabinetlərində Şuranın lord-sədri olmuşdur. Millətlər Cəmiyyətində (1920) və *Vaşinqton konfransında (1921–22)* Britaniya nümayəndə heyətinə rəhbərlik etmişdir. 1922 ildə B.-a qraf titulu verilmişdir; lordlar palatasının üzvü olmuşdur. Sonradan Vestminster statutunda (1931) öz əksini tapan Britaniya Millətlər Birliyinin təşkilinin yeni prinsiplərini (Balfurun 2-ci deklarasiyası) hazırlayan komissiyaya başçılıq etmişdir (1926).

**BÁLFUR DEKLARASİYASI** – Britaniyanın xarici işlər naziri A.C. *Balfurun* "Fələstində yəhudi xalqı üçün milli ocağın" yaradılmasının B.Britaniya tərəfindən dəstəklənməsi haqqında bəyanatı. B.d. Balfurun Britaniya yəhudi dairələrinin lideri baron L.U. Rotşildə 2.11. 1917 il tarixli məktubu şəklində tərtib edilmiş və 1922 il iyulun 24-ndə *Millətlər Cəmiyyəti* tərəfindən təsdiq olunmuş Fələstin üzərindəki Britaniya mandatında öz əksini tapmışdır. B.d.-nda "Fələstinin qeyri-yəhudi əhalisinin vətəndaş və dini hüquqlarına riayət olunması" zərurəti xüsusi vurğulanırdı. B.d.-nın elan olunması yəhudi milli hərəkatını *Antanta* tərəfinə cəlb etmək və Yaxın Şərqdə Britaniyanın mövqelərinin qorumaq məqsədini güdürdü. Britaniya mandatı altındakı ərazinin bir hissəsində İsrail dövlətinin elan edilməsi (14.5.1948) B.d.-nın dolayı nəticəsi oldu.

**BALXAN DAĞLARI** (Böyük və Kiçik) – Türkmənistanın q.-ində Uzboy dərəsi ilə bir-birindən ayrılan dağ silsilələri. Böyük B.d.-nın kənarları kəskin parçalanmış və sıldırımlıdır; mərkəzi hissəsini yastı zirvəli silsilə tutur. Hünd. 1880 *m*-ədək (Arlan d.), uz. təqr. 70 *km*. Yura və Tabaşirin əhəngdaşı və qumdaşılarından ibarətdir. Çöllər üstünlük təşkil edir; dəmyə əkinçiliyi yayılmışdır. Yamacları ardıc kolluqlarıdır. Yaxınlığında neft yatağı (Nebitdağ) var. Kiçik B.d. Böyük B.d.-ndan c.-da ayrıca tirələr təşkil edir. Hünd. 777 *m*-ədək, uz. 30 *km*. Ş.-şm.-ş.-dən q.-c.-q.-ə doğru uzanan antiklinal qırışıqdır. Əsasən, əhəngdaşı və mergellərdən ibarətdir. Yamacları yarğanlar və müvəqqəti çay dərələri ilə parçalanmışdır. Şm. yamacları sıldırım, c. yamacları mailidir.

**BALXAN VİLAYƏTİ** (1992 ilədək Krasnovodsk vil.) – Türkmənistanın q.-indədir. 1973 il dekabrın 27-də təşkil edilmişdir. Sah. 139,3 min $km^2$, əh. 554 min (2005). 6 r-nu (ətrapı), 7 şəhəri, 17 qəsəbəsi var. İnz. m. Balxanabad ş.-dir.

**Təbiət.** Ərazisi, əsasən, Turan ovalığındadır. Q.-dən Xəzər dənizi ilə əhatələnir. Böyük və Kiçik Balxan silsilələri və Kopetdağın bir hissəsi vil.-in ərazisindədir. Şm.-da platolar (Balxan, Üstyurd və s.) var. İqlimi quru kontinentaldır. Orta temp-r yanvarda –3°C-dən (şm.-da)



Balxaş gölü

4,8°C-yə (c.-da) qədər, iyulda müvafiq olaraq 26 və 30°C-dir. İllik yağıntı düzənlikdə 100–150 *mm*, dağlarda 300–350 *mm*-dir. Əsas çayı Ətrək və onun qolları (Sumbar və Çandır). Faydalı qazıntıları: neft, qaz, mirabilit, xörək duzu, tikinti materialları və s. Dağlıq r-nlarda dağ-qəhvəyi, düzənlikdə qumlu səhra, Qaraboğazqol və Xəzər dənizi sahilində şoran torpaqlar yayılmışdır. Yovşan, şoranotu, qum akasiyası, saksaul kolluqları və s. bitir. Heyvanları: çoxlu gəmiricilər, ceyran, arxar, bəbir və s. Xəzərdə balıq (siyənək, ağbalıq, nərə) ovlanır. Balxan qoruğu var.

**Təsərrüfat.** B.v.-ndə neft və təbii qaz, mirabilit (Qaraboğazqol körfəzində) hasil edilir. Neft emalı, kimya, tamlı məhsullar, yüngül, metal emalı sənayesi sahələri, tikinti materialları istehsalı inkişaf etmişdir. Əsas sənaye müəssisələri Balxanabad, Nebitdağ, Çələkən, Qızıl Arvad, Bəkdaş şəhərlərindədir. K.t.-nın aparıcı sahəsi köçəbə-otlaq qoyunçuluğudur (o cümlədən qaragül). Suvarma əkinçiliyi (dənli bitkilər, tərəvəz və bostan bitkiləri) üstünlük təşkil edir. Ətrək və Sumbara dərəsində subtropik bitkilər (nar, zeytun və s.) yetişdirilir; ipəkçilik inkişaf etmişdir.

Dəniz portu – Türkmənbaşı. Türkmənbaşı – Bakı bərə yolu fəaliyyət göstərir. Mollakara kurortu var.

**BALXAR KERAMİKASI** – Şm. Qafqazda qədim *dulusçuluq* materialı və məmulatları. Sənətkarlıq mərkəzi Dağıstanın Akuşa r-nunun Balxar auludur; əsasını Kalkuçi adlı sənətkarın qoyduğu haqqında rəvayət vardır. Ənənəvi qadın sənətidir. Şirələnməmiş keramika məmulatları (urşa adlanan su qabları, boşqablar, kasalar və s.) dulus çarxında formaya salınır, *anqob* ilə (ilk vaxtlar qırmızı, 19 əsrdən, əsasən, ağ), nəbati və həndəsi naxışlarla bəzədilir. Gilin rəngi bişirilmə zamanı açıq çəhrayı rəngdən tünd boz rəngə qədər dəyişir. Dulus kürəsi (çara) ətraf tikililərlə vahid kompleks yaradan günbəzli, ikiyaruslu daş qurğudur; 17–18 əsrlərdə B.k. xeyli inkişaf etmişdi. Bu sənət əsasında 1928 ildə B.k. istehsalı təsərrüfatı, 1936 ildə sonradan Mahaçqala bədii məmulatlar kombinatının keramika sexi kimi fəaliyyət göstərən artel yaradılmışdır.



Balxar keramikası.

**BALXAŞ** – Qazax.-ın ş. hissəsində axarsız göl. Geniş Balxaş-Alakul çuxurunda, 342 *m* yüksəklikdədir. Sah. 18,2 min $km^2$, uz. 614 *km*, orta eni 30 *km* (maks. 70 *km*), ən dərin yeri 26,5 *m*, su kütləsinin həcmi 105 $km^3$-dir.

Balxaş-Alakul göl sistemi müstəqil çökəklik kimi Neogenin sonunda formalaşmağa başlamış, Alp orogenezi epoxasında sona çatmışdır. Gölün içərisinə doğru uzanmış Sarıyesik y-a B.-ı hidroloji cəhətdən iki müxtəlif hissəyə ayırır. Hissələr dar və dayaz Uzunaral bogazı ilə birləşir. Q. hissəsi dayaz və enli, sahilləri çox parçalanmışdır. Suyu şirindir. B.-a İli çayı tökülür. Ş. hissəsi nisbətən dar, sahilləri az girintili-çıxıntılıdır. Burada su bir qədər şordur; bu hissədə B.-a Qaratal, Aksu, Lepsı, Ayaquz çayları tökülür. B.-ın şm. sahilləri hündür və sıldırımlı, c. sahilləri alçaq və hamardır. B.-da ümumi sah. 66 $km^2$ olan 43 ada var. Ən böyükləri Basaral və Tasaraldır. İqlimi kəskin kontinentaldır. Orta temp-r yanvarda – 8°C, iyulda 24°C-dir. İllik yağıntı 150–250 *mm*. Noyabrdan aprelin ortalarınadək donmuş olur. İl ərzində gölün səthindən 1000 *mm* su buxarlanır. Şm.-ş. və ş. küləkləri üstünlük təşkil edir. Suyunun temp-ru dekabrda 0°C, iyulda 28°C olur. Minerallaşma dərəcəsi digər axarsız göllərin suyu ilə müqayisədə aşağıdır; q.-dən ş.-ə 0,7-dən 6,5 *q/l*-ədək dəyişir. B.-da 21 növ balıq (suf, marinka, xanı balığı, sazan, şirbit, tikanlı axça, tinqa balığı, çapaq, dabanbalığı, naqqa, xəşəm və s.) yaşayır; su quşları çoxdur. Gəmiçiliyə yararlıdır. Balxaş ş. B. gölü sahilindədir.

**BALXAŞ** – Qazax.-ın ş.-ində, Qaraqanda vil.-ndə şəhər. Əh. 81,4 min (2005). Balxaş gölünün şm. sahilində gəmi dayanacağı. D.y. st. 1937 ildə misəritmə kombinatının tikintisi ilə əlaqədar salınmışdır. Qaraqanda Dövlət Texniki Un-tinin filialı, tarix-diyarşünaslıq muzeyi var. Mühüm əlvan metallurgiya mərkəzidir; mədən-metallurgiya kombminatı (mis, gümüş, qızıl, sink istehsal edilir), balıqçılıq sənayesi müəssisələri var.







Balxaş şəhərindən görünüş.

**BALXAŞ-ALAKUL (ALAGÖL) ÇUXURU** – Qazax.-ın ş.-ində qapalı yastı səhra çökəkliyi. Uz. 700 *km*-dən çox, hünd. 758 *m*-ə qədərdir. Q.-ini Balxaş gölü, ş.-ini Sasıkkul və Alakul gölləri, c.-unu Taukum, Moyınkum və Sarıyesik-Atırau qum massivləri tutur. Qumlu çay çöküntüləri ilə dolmuş çökəkdir. Təkrar sovrulmuş qumlar yarımbərkimiş tirələr (hünd. 30 *m*-ədək) əmələ gətirir; zəif karbonatlı səhra-çöl boz torpaqları yayılmışdır. Bitki örtüyü saksaul, cinli ot, cuzğun cəngəlliyi və seyrək yovşanlı şoranotulardan ibarətdir. Şoranlıqlar var.

**BALIBƏYLİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin Gərmaduz kəndistanında, Kəlibər qəs.-ndən 40,5 *km* şm.-ş.-dədir.

**BALIKƏSİR** – Türkiyənin q.-ində şəhər. Balıkəsir ilinin inz. m. Əh. 662,2 min (2008). D.y. və avtomobil yolları qovşağı. Toxuculuq, ağac emalı, kağız, sement, yeyinti sənayesi sahələri var. B. r-nunda polimetal və pandermit çıxarılır.

**BALIKƏSİR** – Türkiyənin Mərmərə və Egey bölgələrində il. Sah. 14,5 min $km^2$. Əh. 1,1 mln. (2008). İnz.m. Balıkəsir ş.-dir.

Ərazisinin səthi çay dərələri ilə kəskin parçalanmışdır. Q.-i, c.-ş.-i və ş.-i dağlıqdır (Kaz d. – 1774 *m*). Faydalı qazıntıları: bor duzu, dəmir, qurğuşun, sink, manqan, daşduz, volfram, molibden, liqnit, mərmər. B. Ağ dəniz iqliminin təsiri altındadır; yayı quraq və isti, qışı soyuq və qarlı keçir. Yağıntının illik miqdarı 500–1000 *mm*. Çayları: Gönən, Qocaavşar və s. Böyük gölü Masyasdır. İqtisadiyyatını mədən sənayesi, zeytun istehsalı (Türkiyə üzrə 45%), heyvandarlıq (qoyun, keçi, kəl) təşkil edir. Turizm inkişaf etmişdir.



Balıkəsir şəhərindən görünüş.

**BALIKTAX**, B a l ı k t a a x – RF-də, Saxa (Yakutiya) Resp.-nda, Kotelnı a.-nda (Novosibir a-rı qrupu) çay. Uz. 205 *km*, hövzəsinin sah. 4110 $km^2$. Toll platosundan başlanır, Smirnitski buxtasına (Şərqi Sibir dənizi) tökülür. Yağış, qar və buzlaq suları ilə qidalanır. Hövzəsində 150-dən çox göl var. Sentyabrın axırından iyulun axırınadək donmuş olur. Əsas qolları: soldan – Tixaya (53 *km*), Kustax-Yuryax (83 *km*); sağdan – Tuora-Yuryax (63 *km*), Qlubokaya (69 *km*).

**BALIQ** – 1) qədim türklərdə qalanı, yaxud sarayı ifadə edən termin. İlk dəfə *Orxon-Yenisey abidələrində* şəhər mənasında işlədilmişdir. Uyğurlarda böyük şəhərlər "uluğ balıq" ("böyük şəhər") adlanırdı. Uyğur xaqanı Moyan-Çorun [747–759] dövründə Orxon və Selenqa çayları arasında çinli və soğdi bənnalar *Baybalıq* ş.-ni inşa etmişdilər. Qarabalasaqun ş.-nin digər adı *Ordubalıq* idi. Uyğur xaqanlığının paytaxtı *Beşbalıq* ş. olmuşdur. Uyğurların Yengibalıq, Yanqıbalıq, Canbalıq ş.-ləri də məlumdur. Xəzər xaqanlığının paytaxtı İtil ş. həm də *Xanbalıq* adlanırdı. Xaqanın arvadının iqamətgahı Xatunbalıq ş.-ndə yerləşirdi. B. termini sonralar monqol dilinə də keçmişdir. Monqol mənbələrində şəhərlər B. termininin cəm formasında – balaqat, yaxud balqat kimi qeyd olunmuşdur. 2) Oğuz türklərində palçıq mənasında işlədilən termin. Türk şəhərlərində evlər, əsasən, çiy kərpicdən tikilirdi.

*Əd.*: Ö g e l B. Türk kültür tarihinə giriş. 9 cilddə. C. 1. Ankara, 1978; K a f e s o ğ l u İ. Türk milli kültürü. İstanbul, 1992.

**BALIQ AXTARIŞI APARATLARI** – balığın, dəniz məməlilərinin və suda yaşayan digər orqanizmlərin axtarışı üçün cihaz və qurğular. Balıqların həyat tərzini öyrənmək, balıq ovu alətlərinin istifadəsinə çətinlik törədən sudibi maneələri aşkar etmək, gəmi və alətləri balıqların toplandığı yerə yönəltmək və s. üçün tətbiq olunur. Səs lokasiya prinsiplərinə əsaslanan hidroakustik B.a.a. (balıq lokatoru) daha geniş yayılmışdır. Aktiv lokasiya aparatlarında obyektdən əks olunan siqnal qeydə alınır, passiv təsirli aparatlarda isə su heyvanlarının akustik siqnalları tutulur. A k t i v B.a.a.-na, əsasən, balıq axtarışını şaquli müstəvidə (gəmi kilinin altında) aparan *exolot* və gəmiyə nəzərən bütün istiqamətlərdə axtarış aparan *hidrolokator* aiddir. Aktiv

B.a.a. balıq sənayesi proseslərinin avtomatlaşdırılması sisteminin əsasını təşkil edir. Passiv B.a.a.-na səsləri və su orqanizmlərinin səs aktivliyini öyrənən səs pelenqatorları və səs indikatorları aiddir; aktiv aparatlarla axtarışın çətin olduğu zaman tətbiq edilir. Sudibi ov obyektlərinin (molyusk, krab, yosun və s.) axtarışı və balıqların ov alətlərinə reaksiyasını öyrənmək üçün sualtı televiziya qurğularından istifadə olunur. Geniş ərazilərdə su mühitinin tədqiqi üçün uçuş aparatları, süni peyklər, lazer lokasiyası və infraqırmızı texnika cihazları tətbiq edilir.

**BALIQ EMALI MAŞINI** – balığı hər hansı texnoloji emal əməliyyatından keçirən maşın. B.e.m. texnoloji proseslərin tənzimlənməsi və onlara uzaqdan nəzarət edilməsi üçün avtomatik vasitələrlə təchiz edilmiş (mexanikləşdirilmiş və ya kompleks mexanikləşdirilmiş) xətt və sahələrdə komplektləşdirilə bilər. Emal maşınlarına balıqyuyan, balıq pulunu təmizləyən, balıqçeşidləyən, balıqdoğrayan, balığın dərisini soyan, doğranmış qablaşdıran aqreqatlar, farş separatorları, blanşirləyicilər (qaynar su və ya buxarla), hisəvermə qurğusu, quru balıq hazırlayan qurğular və s. aiddir.

**BALIQ LOKATORU** – bax *Balıq axtarışı aparatları*.

**BALIQ MƏHSULLARI** – balıq ovçuluğu və qeyri-balıq su məhsullarının emalı nəticəsində alınır. Yeyinti sənayesi üçün hazırlanan B.m. (90%-ini balıq təşkil edir) təzə və konservləşdirilmiş (duzlanmış, hisə verilmiş, qurudulmuş və s.) halda istifadə edilir. Tibbi B.m. (yağlar, vitamin preparatları) treska balığının qara ciyərindən hazırlanır. Yemlik və texniki B.m.-na *balıq unu*, yapışqan, quanin və mirvari patını misal göstərmək olar.

**BALIQ NASOSU** – balığın vurulan su ilə birlikdə axıdılması üçün nasos; balığın ovlanmasını, ov alətlərindən boşaldılmasını və balıq emalı müəssisələrinə hidravlik nəqlini təmin edir. *Balıq ovu gəmilərində* və ya sahildə qoyulur. Balıq ovu üçün, əsasən, mərkəzdənqaçma nasoslarından istifadə edilir. Hərəki hissəsi olmayan hidropnevmatik (suşırnaqlı) nasoslar balıqları daha az zədələyir. Balıq nasoslarının məhsuldarlığı 50 *t/saat*-dan artıqdır (qaldırma hünd. 7 *m*-ədək olduqda; nəql edilən su-balıq qarışığının 10–30%-i balıq olur). Digər ov alətləri ilə müqayisədə B.n.-nun aktiv zonası kiçik olduğundan ondan işıq vasitələri ilə birgə istifadə edilir. Bu halda işıq təsiri ilə bir yerə toplanmış çoxlu balıq ovlanır. B.n. ovlanmış balığı tordan emaledici və nəqledici gəmilərə sorur.

**BALIQ OVU ALƏTLƏRİ** – balıq ovunda istifadə olunan quruluş və tərtibatlar. B.o.a. müxtəlif olur: torlu B.o.a. (tral, kisəli tor, tələ tor), qarmaqlı B.o.a. (tələ yemli troll, yarus və s.) və *balıq nasosları*. B.o.a.-nin hazırlanmasında təbii şəraitdə süni qıcıqlanmanın (səs, işıq, kimyəvi preparat və s.) balıqlara təsiri nəzərə alınır. Alət növünün seçilməsi ov şəraitindən asılıdır. Məs., sıx toplandığı yerlərdə balığı tral və kisəli torla ovlayırlar, kifayət qədər sıxlıq olmayan hallarda isə süni balıq toplanmasını yaradan və sonra onları ovlayan B.o.a.-ndən istifadə edilir. Müasir torlar, əsasən, sintetik materiallardan hazırlanır.

**BALIQ OVU GƏMİLƏRİ** – balıqların ovlanması, emalı və daşınması (nəqli) üçün gəmilər. Ov, emaledici və nəql. gəmiləri qruplara ayrılır. Ov gəmiləri qrupuna trauler, seyner, torsuz balıqovlayan gəmilər və s. aiddir. Emaledici gəmilər (üzən konserv z-dları, balıq unu bazaları, sənaye refrijeratorları və s.) ovlanmış balıqları ov gəmilərindən qəbul edir, onları emaldan keçirərək yarımfabrikat və ya hazır məhsul istehsal edir. Nəqliyyat gəmiləri ovlanmış balığı, yaxud emal olunmuş məhsulu ov və emal gəmilərindən qəbul edir, yükü portlara çatdırır, həmçinin ov ərazisinə ekspedisiya yüklərini daşıyır. Nəql. gəmisi kimi iri, itisürətli, üzmə məsafəsi qeyri-məhdud olan refrijerator-gəmilərdən istifadə edilir. B.o.g. şərti olaraq qruplara bölünür; belə ki, iri B.o.g. eyni zamanda bir neçə istehsal əməliyyatını yerinə yetirə bilər. B.o.g. üzmə r-nuna görə dəniz (üzmə r-nu qeyri-məhdud), göl və çay gəmilərinə ayrılır. B.o.g.-nin istismarı üçün iki təşkilati forma xarakterikdir: avtonom istismar zamanı balıq bir gəmi ilə ovlanır və emal olunur, ekspedisiya növündə isə müxtəlif tip B.o.g.-ndən kompleks halda istifadə olunur.

**BALIQ UNU** – balıqdan və balıq emalı tullantılarından hazırlanan yem. B.u. protein (60%-ədək), kalsium, fosfor, A, D, B qrupu vitaminləri ilə zəngindir. B.u.-nun keyfiyyəti tərkibindəki yağın miqdarından asılıdır. Çox yağlı (18%-dən artıq) B.u. uzun müddət qalmır. Heyvanları balıq unu ilə yemlədikdə əti və südü balıq iyi verir. Buna görə də südlük və ətlik heyvanlara B.u. kökəltmənin son dövründə az miqdarda verilir. Donuz, quş və s. heyvanlar üçün yaxşı əlavə yemdir.

**BALIQ YAĞI** – əsasən, treska balıqlarının qara ciyərindən hazırlanan duru yağ. Spesifik iyi və dadı olan açıq sarı rəngli şəffaf mayedir. Tərkibində A və D vitaminləri, sərbəst yağ turşuları, xolesterin, fosfatidlər var. 1 *ml* balıq yağında 200–500 BV (beynəlxalq vahid) A vitamini və 80–100 BV D vitamini olur. *Raxit* xəstəliyi və *vitamin çatışmazlığı* zamanı B.y. əsasən, uşaqlara təyin edilir. Dəniz məməlilərinin (balinalar, delfinlər, suitilər) dərialtı piyindən alınan tibbi B.y.-ndan dəri xəstəliklərində sürtmə dərmanı kimi istifadə olunur. Heyvandarlıqda B.y. heyvanların boy artımını və inkişafını sürətləndirir, raxit, kseroftalmiya və s. xəstəliklərdə müalicə və profilaktika məqsədilə işlədilir. Tibbi B.y. sərin və qaranlıq yerdə saxlanmalıdır, çünki D vitamini işıqda zəhərli toksisterola çevrilə bilər.

Balığın doğranması və emalı zamanı tullantılardan alınan texniki B.y.-ndan gön-dəri istehsalında, sabunbişirmədə və s. istifadə olunur.

**BALIQCIL QARAQUŞ**, çay qaraquşu (Pandion haliaetus) – qırğıkimilər fəsiləsinin yırtıcı quşlar dəstəsindən quş növü. Bədəninin uz. 60 *sm*, kütləsi 1,3–1,9 *kq*-dır. Avropa, Asiya, Şimali və Mərkəzi Amerika, Şimali Afrika, Avstraliya və Yeni Zelandiyada yayılmışdır. Beli qonur, qarın tərəfi açıq rənglidir. Barmaqlarının altında sürüşkən balıqları tutmaq üçün çıxıntılar var. Azərb.-da Xəzər dənizinin sahil zolağında, iri çay (Kür, Araz) dərələrində və bəzi göllərin sahillərində məskunlaşır; buraya nəsilvermə üçün gəlir. Şəffaf sulu, balıqla zəngin su hövzələri yaxınlığındakı hündürağaclı meşələri sevir. Yuvasını ağacda, bəzən qayada və torpaqda qurur. 2–3 əlvan yumurta qoyur, 35 gün kürt yatır.

Balıqcıl qaraquş (Pandion haliaetus).







Cəld quşdur. Balıq görən kimi suya atılır və 2–3 *kq*-lıq ovunu caynağında çıxarır. Nadir quş kimi Azərb.-ın "Qırmızı kitab"ına daxil edilmişdir.

**BALIQCILLAR** (Alcedinidae), zərriçələr – göycəqarğalar dəstəsindən fəsilə. 14–17 cinsi, 95 növü var. Əsasən, tropiklərdə geniş yayılmışdır. Əksəriyyətinin kütləsi 20–100 *q*-adəkdir. Uz. 10–46 *sm*-dir. Boynu qısa, başı iri, dimdiyi düz və uzundur; alabəzək quşdur. Ayaqları zəif və qısa olduğundan yaxşı gəzə bilmir, cəld uçur. Çay və göl sahillərində yaşayır. Cücü və xırda balıqlarla qidalanır. Yarğanlarda və ağac koğuşlarında yuvalayır. Azərb.-da 2 növü məlumdur. Qırmızıdimdik B$_4$(Halcyon smyrnensis) Lənkəran meşələrində, çoxlu balıq olan çay sahillərində yaşamışdır. Balıqların azalması nəticəsində nəsli kəsilmişdir. Mavi, yaxud adi B. (Alcedo atthis) sahil quşudur. Azərb.-da düzənlik və dağətəyi ərazilərdə olur. Əsas yaşıl, quyruğunun üstü parlaq göy, boğazı sarımtıl-ağdır. 3–4, bəzən 6–7 yumurta qoyur. 2–3 həftə kürt yatır. Nəsli kəsilməkdə olan 2 növü BTMİ-nin "Qırmızı kitabı"ına salınmışdır.



Qırmızıdimdik balıqcıl (Halcyon smyrnensis).

**BALIQÇI** – Azərb. Resp. Hacıqabul r-nunun Hacıqabul ə.d.-ndə qəs. R-n mərkəzindən 12 *km* c.-da, Hacıqabul gölünün sahilində, Şirvan–Hacıqabul avtomobil yolu kənarında, Şirvan düzündədir. Daimi yaşayış yoxdur.

**BALIQÇI SAYI** – Xəzərin Azərb. Resp.-na aid ərazi sularında, Bakı arxipelaqında dayazlıq. Xəzərin q. sahilində, Səngi Muğan a.-ndan 7,5 *km* c.-ş.-dədir.

**BALIQÇILAR** – Azərb. Resp. Lənkəran r-nunun Nərimanabad ə.d.-ndə qəsəbə. R-n mərkəzindən 40 *km* şm.-ş.-də, Xəzər dənizi sahilindədir. Əh. 2310 (2008); balıqçılıqla məşğuldur. Balıqartırma təsərrüfatı, "Sara" fermer təsərrüfatı, 2 orta məktəb, uşaq bağçası, kitabxana, mədəniyyət evi, feldşer-mama məntəqəsi, poçt var.

**BALIQDOĞRAYAN MAŞIN** – emal edilən balığın fiziki-kimyəvi tərkibini dəyişmədən doğranması üçün maşın. B.m.-da balığın başı və üzgəcləri kəsilib atılır, qarnı yarılır, içalatı çıxarılır, balıq porsiyalara bölünür. Kəsmə işi tərpənməz, yaxud fırlanan bıçaqlarla görülür. Balıq ovu gəmilərində və sahil balıq emalı müəssisələrində istifadə edilir.

**BALIQIÇAN** – RF-də, Maqadan vil.-ndə çay. Kolıma çayının sağ qolu. Uz. təqr. 350 *km*, hövzəsinin sah. 17,6 min *km*². Kolıma yaylasından başlanır. Oktyabrdan mayın axırınadək donur. Taxta-şalban axıdılır.

**BALIQKEÇİRƏN QURĞU** – çay və başqa su hövzələrində balıqları bənd, şəlalə və digər maneələrdən təbii və süni kürütökmə yerinə buraxan qurğu. B.q. hidroqovşaqların tərkibində olur. B.q. balıq keçidləri (balıqların maneələrdən sərbəst keçməsi üçün qurğu); balıq keçidi şlüzləri və balıqqaldırıcılara (balıqların yerini dəyişdirmək üçün qurğu) ayrılır. Balıq keçidləri suyunun yuxarı byefdən aşağı byefə axıdıldığı (axın sürəti balığın əks istiqamətdə üzməsinə imkan verən) kanaldır; novlu, hövzəli və pilləli olur. Müxtəlif cins balıqların uyğunlaşdırıldığı pilləli balıq keçidləri daha geniş yayılmışdır. Bu növ balıq keçidləri eninə arakəsmələri olan hövzələrə bölünmüş pilləli nov şəklində düzəldilir. Qurğuda balıqların keçməsi üçün xüsusi deşiklər olur. Balıq keçidi şlüzləri iş prinsipinə görə gəmi şlüzlərinə oxşardır; adətən, iki yanaşı kameradan ibarətdir; kameraların hər birində onları aşağı və yuxarı byeflərdən ayıran sürgülər qoyulur. Balıq keçidi şlüzləri çox basqı olduqda da işləyə bilir. Bu qurğuların balıqkeçirmə qabiliyyəti aşağıdır. Balıqqaldırıcılar balıqları su ilə dolu səyyar kamerada, yaxud xüsusi torda qaldırır. Onlar mexaniki suqaldırıcı (lift) prinsipi ilə işləyir. Bu qurğular da balıq keçidləri kimi, adətən, bəndlərin ayırıcı özüllərində yerləşdirilir. Balıqların keçməsi üçün bundan əlavə, hidravlik balıqqaldırıcılar, üzən balıqqaldırıcı qurğular, bəzən isə gəmi şlüzləri, SES suötürücüləri və s.-dən istifadə olunur. B.q.-ların suötürücü qurğular yaxınlığında yerləşdirilməsi məqsədəuyğundur. Azərb.-ın Qızılağac körfəzində. Dəvəçi limanında B.q.-lardan istifadə olunur.




**Pilləli balıq keçidi:** *1–4* balıq keçidlərinin eninə kəsilişi; balıqların üzə bilməsi üçün deşiklər müxtəlif qaydada yerləşdirilmişdir.




**Balıq keçidi şlüzü:** *1* – su verilən boru kəməri; *2* – kamera; *3* – sürgü; *4* – mütəhərrik döşəmə; *5* – deşiklərin örtülməsi üçün xüsusi tirlər; *6* – qəfəsli taxta döşəmə; *7* – qəfəsli dəmir-beton döşəmə; *8* – kollektor; YBS – yuxarı byef səviyyəsi; ABS – aşağı byef səviyyəsi.

**BALIQLAR** (lat. Pisces) – zodiak bürcü. Ən parlaq ulduzu 3,8 vizual *ulduz ölçülüdür*. Yaz bərabərliyi nöqtəsi B.-dadır. Azərb.-da yazda, payızda və qışın əvvəlində görünür (bax *Ulduz xəritəsi*).

**BALIQLAR** (Pisces) – ilk onurğalı su heyvanları; qəlsəmələrlə tənəffüs edir, bədən temp-ru dəyişkən, ətrafları üzgəc şəklindədir. İki sinfi var: qığırdaqlı (Chondricthyes) B. və sümüklü (Osteichthyes) B. Silur dövründə şirin sularda əmələ gəlmişdir. B.-ın 25 mindən çox növü məlumdur; Azərb. sularında 92 növ və yarımnöv balıq var. Bədən ölçüləri 1 *mm*-dən (Filippin xulu) 20 *m*-ədək (nəhəng akula) olur. 1–2 ildən 100 ilədək yaşayır. Dünya okeanında və şirin sularda yayılmışdır, su hövzələrində müxtəlif dərinliklərdə yaşayır. Yaşadıqları mühitdən asılı olaraq bədəninin forması, rəngi, ölçüsü müxtəlif olur. Su qatlarında yaşayan və sürətlə üzən B.-ın bədəni vərdənə, dərinliklərdə yaşayanların yastı, sahildə yaşayanların kürə, lent, ilan, bitkilər arasında yaşayanların isə bitki, yarpaq şəklində olur. Bütün B.-ın bədəni simmetrikdir (yalnız yaşlı kambala balığı bir yanı üstdə üzdüyündən gözləri bir tərəfdə yerləşir). B.-ın güclü inkişaf etmiş əzələli quyruğu,

tək (bel, quyruq, anus) və cüt (döş və qarın) üzgəcləri var. Bəzi B.-da cüt üzgəclər yoxdur, dəyişərək cütləşmə orqanına çevrilmişdir. Qızılbalıqların quyruq gövdəsinin üzərində xırda piy üzgəci olur. B.-ın bədəni pulcuqla (əksər balıqlarda tikan və sümük lövhəciklərlə) örtülü və ya çılpaq (naxalar) olur. Çoxunda üzmə qovuğu, həzm vəzilərindən qara ciyər və mədəaltı vəzi var. B.-ın dərisində hərəkət zamanı sürtünməni azaldan, onları müxtəlif parazitlərdən qoruyan, güclü selik ifraz edən vəzili hüceyrələr, 3–5 min *m* dərinlikdə yaşayanların dərisində isə işıqsaçma orqanı var. B.-ın rəngi qoruyucu səciyyə daşıyır. Su qatlarında yaşayan B.-ın əksəriyyətinin bel hissəsi tünd-göy, yanları gümüşü, qarın hissəsi açıq rəngdə, bitkilər və daşlar arasında yaşayanlar zolaqlı, xallı, dibdə yaşayanlar tünd rəngdə olur. B.-ın ağızları da müxtəlifdir; əsasən, balıqla qidalanan yırtıcı B.-ın böyük ağzı, güclü çənələri var. Onurğasız heyvanlarla qidalanan çəkikimilər qurdları, cücüləri, ilbizləri udlaq dişləri ilə əzir.

B.-ın əsas tənəffüs orqanı qəlsəmələrdir. İkitənəffüslülərdə, pəncəüzgəclilərdə isə əlavə tənəffüs orqanı (ağ ciyər) da olur. Su hövzəsi quruduqda və ya suyun keyfiyyəti pisləşdikdə, onlar hava oksigeni ilə tənəffüs edir. Tropik sularda yaşayan bəzi B.-da (anabas – sürünən xanı balığı) əlavə tənəffüs orqanı vəzifəsini qəlsəmələrin üstündə yerləşən və güclü qan damarları ilə təchiz olunmuş labirint aparatı yerinə yetirir. Həmin aparatın köməyilə balıq uzun müddət hava oksigeni ilə tənəffüs edir, bir su hövzəsindən digərinə keçir. Üzmə qovuğu əlavə tənəffüs orqanı olmaqla yanaşı əksər B.-da hidrostatik aparat vəzifəsini yerinə yetirir, onların suyun üst qatından alt qatına və əksinə yerdəyişməsini təmin edir, qanda qazların miqdarını tənzimləyir. Bir çox B.-da (çəkikimilər və b.) üzmə qovuğu xüsusi axar vasitəsilə həzm kanalı ilə əlaqəlidir. Artıq qaz axarla həzm kanalına keçərək ağızdan xaric olur. Belə B. açıqqovuqlular adlanır. Digər B.-da (xanıkimilər və b.) üzmə qovuğu qapalı olur və artıq qaz üzmə qovuğunda güclü kapillyar damarlarla təchiz olunmuş qırmızı orqan vasitəsilə xaric olur. Bu B. qapalıüzməqovuqlular adlanır.

B.-ın çoxu kürü tökməklə çoxalır. Balavermə bir neçə ədəd yumurtadan (bəzi akula və skatlarda) 300 mln. kürüyə qədər olur (ay-balıqda). Lakin qığırdaqlı B.-da (akula), pəncəüzgəcli, qambuziya və bəzi akvarium B.-ında mayalanma daxilidir, onlar diri bala doğur; bunların erkək fərdlərində qarın üzgəclərinin arxa hissəsi şəklini dəyişərək xüsusi cütləşmə orqanına (pteriqopodi) çevrilmişdir. Bəzi B.-da primitiv əlamət hesab olunan və sonradan əmələ gələn hermafroditizm mövcuddur.

B.-ın kürüləməsi ilin müxtəlif vaxtlarına təsadüf edir. Əksər B. yazın əvvəlində (durnabalığı, sif), yayda və bir qismi qışda (qızılbalıq) çoxalır. Bəzi B. (qızılbalıq, anqvil) bir dəfə nəsil verdikdən sonra ölür. Bir neçə dəfə çoxalan B. da var. B.-ın cinsi yetkinliyə çatmaları müxtəlif yaşlarda baş verir. Qısaömürlü B. 1 yaşında və yaşı tamam olmamış (xırda xullar), çoxu 3–4 (külmə, çəki, çapaq və s.), 8–12 (uzunburun, nərə, çökə), bəziləri 18–20 (bölgə) yaşında ilk dəfə nəsil verir. B.-ın əksəriyyətinin ürəyi ikikameralıdır (qulaqcıq və mədəcik); ikitənəffüslü B.-ın ürək qulaqcığı (suda-quruda yaşayan onurğalılarda olduğu kimi) natamam arakəsmə (pərdə) ilə sağ və sol hissələrə ayrılmışdır (üçkameralı ürək). İfrazat orqanı onurğanın yanında yerləşən tünd-qırmızı rəngli böyrəklərdir. Sinir sistemi onurğalı heyvanlara xas olan mərkəzi və periferik sinir sistemindən ibarətdir. Mərkəzi sinir sisteminə baş beyin və onurğa beyni daxildir. B.-da baş beyin yaxşı inkişaf etmişdir. Sümüklü B.-ın əksəriyyətində ön beyin kiçik, orta beyin və beyincik nisbətən iridir. Akulakimilərdə ön beyin və beyincik xüsusilə güclü inkişaf etmişdir. B.-da iybilmə, eşitmə, hissetmə və dadbilmə orqanları var. B. su axınının gücünü və istiqamətini, su altındakı əşyaları yan xətt orqanı vasitəsilə hiss edir və hərəkətlərini tənzimləyir. B.-ın həyatında temp-run müstəsna əhəmiyyəti var; onlar temp-run 0,3–0,7°C dəyişməsini hiss edir. Bəzi B. yüksək temp-rda yaşamağa uyğunlaşmışdır; məs., anqvil +45°C, lukaniya +52°C temp-rda yaşaya bilir. Arktikanın sərt iqlimli su hövzələrində (Çukot, Alyaska) dalliya balığı buzun içərisində yaya qədər qalır, buz əridikdə oradan çıxır, intensiv qidalanır, çoxalır, qışı yenə də buzun içərisində keçirir.

B.-ın qidası müxtəlifdir. Balıq körpələri xırda plankton orqanizmlər, ibtidailər və s. ilə qidalanır. Yaşlı B. arasında yırtıcı balıqlar və bentos, plankton və bitkilərlə qidalanan B. da vardır. Parazit həyat tərzi keçirən B. da məlumdur. B.-ın təsərrüfat əhəmiyyəti böyükdür; onların əti, kürüsü, yağı ərzaq və dərman kimi işlədilir. Bəzi B. (məs., qambuziya) malyariya ağcaqanadlarının sürfələrini yeyərək xeyir verir, bəzilərindən isə (məs., ağ amur, qalınalın) su hövzələrinin və suvarma kanallarının bitkilərdən təmizlənməsində bioloji mübarizə vasitəsi kimi istifadə olunur. B.-ı zoologiyanın *ixtiologiya* bölməsi öyrənir.

*Əd.:* Əbdürrəhmanov Y.Ə. Azərbaycan balıqları. B., 1955; Azərbaycan faunası. Balıqlar. B., 1966; Касимов Р.Ю. Сравнительная характеристика поведений дикой и заводской молоди осетровых. Б., 1980; yenə onun. Экологофизиологические особенности развития ценных промысловых рыб Азербайджана. Б., 1987; Qasımov R.Y. Nərəkimilər – dinozavrların həməsrləri. B., 2010; Abbasov H.S., Quliyev Z.M., Rəhimov D.B. Azərbaycan heyvanlar aləmi. Balıqlar. C. 3. B., 2003.

**BALIQLI** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (9.9.1930 ildən Amasiya r-nu), Arpa gölünün şm.-ş.-ində, Arpaçayın q. sahilində azərb.-ların yaşadığı kənd. 19 əsrə aid mənbələrdə kənd əhalisinin qarapapaqlar tayfasından olduğu qeyd edilmişdir. 1914 ildən sonra kəndin əhalisi erməni silahlı dəstələri tərəfindən qovulmuş, lakin 1920-ci illərin əvvəllərində qaçqın əhali tarixi etnik torpaqlarına qayıtmışdır. 1988 ilin noyabr-dekabr aylarında kəndin bütün azərb. əhalisi növbəti dəfə kənddən qovulmuşdur. 19.4.1991 ildə kəndin adı dəyişdirilərək Zorakert qoyulmuşdur.

**BALIQYETİŞDİRMƏ**, balıqçılıq – təbii su hövzələrində balıq ehtiyatını artıran, balıqların keyfiyyətini yaxşılaşdıran və süni göllərdə balıqçoxaldan təsərrüfat sahəsi. B. tədbirlərinin bioloji əsaslarını, həmçinin qiymətli balıq növlərinin çoxaldılması və yetişdirilməsi texnikasını öyrənir. Təbii su hövzəli B. təsərrüfatlarında zəruri meliorasiya işləri görülməklə (balıqların çoxaldığı və böyüdüyü təbii şərait yaxşılaşdırılır, onların kürü tökdüyü yerlərdə sabit su rejimi yaradılır və s.) süni balıqçoxaltma tədbirləri həyata keçirilir (qiymətli balıqlar çoxaldılır, onların növləri yaxşılaşdırılır və yeni balıq növləri yetişdirilir).

Hazırda Azərb.-da 12 B. müəssisəsi fəaliyyət göstərir. Onların 4-ü (Şirvan nərəbalıqartırma z-du, Kürağzı nərəbalıqartırma z-du, Kür-təcrübi nərəbalıqartırma z-du, Xıllı nərəbalıqartırma z-du) nərə cinsli balıqların, 3-ü (Çay- kənd qızılbalıqartırma z-du, D. Yusifov ad. qızılbalıqartırma z-du və Azərb. Təcrübi Dəniz Balıqartırma z-du) qızılbalıqların, 5 müəssisəsi isə (Tovuz balıqartırma təsərrüfatı, Varvara balıqartırma və balıqyetişdirmə z-du, Kiçik Qızılağac balıqartırma təsərrüfatı, Yenikənd balıqartırma və meliorasiya təsərrüfatı, Dəvəçi balıqartırma məntəqəsi) çəkikimilərin körpələrinin artırılmasını, yetişdirilməsini və meliorasiya tədbirlərinin yerinə yetirilməsini həyata keçirir. 2010 ildə bu müəssisələrdə 439,47 mln. ədəd balıq körpəsi, o cümlədən 1,522 mln. ədəd nərəkimilər, 173,61 min ədəd qızılbalıq, 432,08 mln. ədəd çəkikimilər, 5,75 mln. ədəd ağ amur (bitki ilə qidalanan) süni və təbii yolla artırılmış, təbii su hövzələrinə buraxılmışdır.

**BALISTAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Mərkəzi bölgəsinin Yengicə kəndistanında, Sərab ş.-ndən 21 *km* şm.-q.-də, Sərab–Təbriz avtomobil yolunun üstündədir.

**BALIŞ** – orta əsrlərdə monqollarda pul vahidi. Çingiz xanın dövründən işlənməyə başlanmışdı. Monqol imperiyası parçalandıqdan sonra yalnız Çində istifadə edilmişdir. B.-ın 3 növü (qızıl, gümüş və kağız) mövcud idi. Orta əsr mənbələrinin verdiyi məlumata görə, ayrı-ayrı dövrlərdə B.-ın dəyəri müxtəlif olmuşdur.

*Əd.:* Бартольд В.В. "Балыш". Сочинения. Т. 5. М., 1968.

**BALIŞKƏNDİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Mərkəzi bölgəsinin Kələboz kəndistanında, Miyanə ş.-ndən 10 *km* c.-ş.-də, Miyanə–Zəncan avtomobil yolunun üstündədir.

**BÁLİ** (Bale) – Efiopiya yaylasının c.-ş. hissəsində məskunlaşan kuşidilli xalqların 14–17 əsrlərdə mövcud olmuş dövləti. 15 əsrin ortalarından Efiopiya imperatorlarının vassal mülkü olmuşdur. İmperator Naodun [1494–1508] dövründə B.-nin canişini islamı qəbul edərək Efiopiyaya qarşı iki dəfə üsyan etmişdir. 1531–45 illərdə B. indiki Şərqi Efiopiya və Şimali Somalinin ərazisində mövcud olmuş Əhməd ibn İbrahimin (Solaxay Əhməd) imamətinə daxil idi. 17 əsrin əvvəllərində B.-nin hakimi yenidən Efiopiyanın vassalına çevrildi. Az sonra B. bir neçə xırda dövlətə parçalandı; bunlardan ən qüvvətlisi 18–19 əsrlərdə Cənubi Efiopiyadakı Sidamo dövləti olmuşdur.

**BÁLİ** – Sakit okeanda adalararası dəniz. Yava a.-nın ş. qurtaracağı ilə Bali, Lombok, Sumbava, Sulavesi və Madura adaları arasındadır. Sah. 40 min $km^2$, orta dərinliyi 411 *m*, maks. dərinliyi 1589 *m*-dir. Suyunun temp-ru 27–28°C, duzluluğu 33–34‰-dir. Qabarmaların hünd. 1,7 *m*-ə çatır. Mühüm portu Surabayadır (Yava a.).

**BÁLİ** – Malayya arxipelaqında, Kiçik Zond a-rı qrupunun ən q. adası. İndoneziyanın əyalətidir (inz. m. Denpasar ş.-dir). Sah. 5,6 min $km^2$. Əh. 3,5 mln. (2007). Sahilləri dikdir, az parçalanmışdır, yalnız c.-unda nisbətən iri y-a ayrılır. Adanın çox hissəsini enlik boyu uzanan vulkan silsiləsi tutur. Hünd. 3142 *m*-ədək (Aqunq vulkanı). İqlimi tropik mussondur. Yağıntının illik miqdarı 1500 *mm*-dən çoxdur (əsasən, may–noyabr aylarında düşür). Qışı çox quraq keçir. Çoxsaylı çayları quraqlıq dövrdə quru, yalnız yay aylarında gursulu olur. Vulkan kraterlərində və kalderalarda bir neçə iri göl var. Dağlıq hissəsi, əsasən, tropik meşələrdir (palma, tik). Düzənliklərdə çəltik, qəhvə, kakao becərilir. B. İndoneziya və hindu mədəniyyəti ("min məbəd adası"), milli sənətkarlıq (rəqs; ağac, sümük, daş və s. üzərində nəqqaşlıq, dekorativ parça) və turizm mərkəzidir.



Bali adası. Tanah Lot hinduist məbədi.

**BÁLİ DİLİ** – bax *İndoneziya dilləri.*

**BALİK** – Azərb. Resp. İsmayıllı r-nunun Quşencə ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* c.-q.-də, Aşıqbayramlı su anbarının sahilindədir. Əh. 462 (2008); heyvandarlıq və əkinçiliklə məşğuldur. Ümumi orta məktəb, kitabxana var.

**BALİ–KƏBUTƏR** – *Çahargah* muğamında melodiya.

**BALİKPAPÁN** – İndoneziyada, Şərqi Kalimantan əyalətində şəhər. Əh. 434 min (2005). Kalimantan (Borneo) a.-nın

Balikpapan şəhərindən görünüş.



ş.-ində, Makasar boğazı sahilindədir. Dəniz portu. Beynəlxalq aeroport (Sepinqqan). Neft hasil olunur. Neft emalı, neft-kimya və ağac emalı sənayesi müəssisələri var. B.-dan Samarind ş.-nədək neft kəməri var. Turizm mərkəzidir (su idmanı növləri).

**BALİLİLƏR** – İndoneziyada Avstroneziya xalqı. Bali, Nusapenida və Lombok adalarının əsas əhalisi. Sayları 4,2 mln. nəfərdir (2000). 7 min nəfər Sulavesi a.-nın c.-unda yaşayır. *Avstroneziya dillərinin* (bax *İndoneziya dilləri*) Bali-sasak qrupuna daxil olan Bali dilində danışırlar. İndiki yazı sistemi latın qrafikası əsasındadır. Dindarları, əsasən, hinduistdir.

Eramızın 1-ci minilliyinin sonunda Balidə ilk dövlətlər meydana gəlmişdir. B. hind-Yava mədəniyyətinin təsiri altına düşmüş, 1343 ildə *Macapahit* imperiyasına qatılmışlar; onun süqutundan sonra Bali a. İndoneziyada hinduizmin əsas dayağı olaraq qalmışdır. 15 əsrin ortalarında Balidə ayrı-ayrı feodal knyazlıqları yaranmışdır. 20 əsrin əvvəllərində hollandlar bu knyazlıqları özlərinə tabe etmişdilər. B. Niderland müstəmləkəçilərinə sərt müqavimət (düşmənin qarşısında kütləvi intiharlara – "puputan"adək) göstərmişlər. B. İkinci dünya müharibəsindən sonra İndoneziya xalqının azadlıq hərəkatında fəal iştirak etmişlər.

Əsas məşğuliyyətləri terraslı xış əkinçiliyidir (çəltik). Bəzən torpağı şumlamaq əvəzinə tarlalarda bayram tamaşasına bənzər öküz cıdırı (meqrum-bunqan) təşkil edirlər. Öküz, at, donuz və s. yetişdirirlər. Parça (ikat) istehsalı, ağac üzərində oyma (heyvan fiqurları, mifoloji mövzuda kompozisiyalar və s.), xəncərlərin (kris) hazırlanması inkişaf etmişdir. Ənənəvi yaşayış məskənləri xətti planlıdır, cənubdan şimala doğru uzanır; kəndin mərkəzində məbəd (pura), icma evi, məktəb və s. yerləşir. Bütöv gil divarlarla əhatə olunmuş malikanələr yaşayış, təsərrüfat və dini (hündür dirəklər üzərində talvar formasında olan ev məbədsənggahı) tikililərdən ibarətdir. Hər bir ev oyma orna- mentlə bəzədilmiş iki-üç kərpic, yaxud gil divarı və şalbanlara dayaqlanan küləşlə örtülmüş damı olan bir neçə yaşayış tikilisindən (bale) ibarətdir. Evin həyətində xeyir və şər ruhlarının ağac və ya daş heykəlləri vardır. Geyimləri ümumindoneziya tiplidir, əsasən, Yava batikindən tikilir. Bayram yeməkləri qaban əti, dəniz tısbağası, yarasa, oxlu kirpi, iri kərtənkələ və həşəratlardan hazırlanır. Kənd strukturuna icmalarla (desa) yanaşı bir mənbədən (subak) suvarılan tarla (savah) sahiblərinin birlikləri də daxildir. 4 qədim hind varnasına uyğun gələn üç ali (trivanqsa) və bir aşağı (kaula, yaxud sudra) kasta, seçilən başçı (dadia) tərəfindən idarə olunan qohum birlikləri, həmçinin kiçik ailə birlikləri (pekaranqan) mövcuddur. Dəmirçilər (pande) xüsusi qapalı zümrəni təşkil edir. Dağlıq ərazilərdə məskunlaşan B.-də (bali-aqa) arxaik sosial təsisatlar (yaş sinifləri, xüsusi ünvanlar və mərasimlər) qorunub saxlanılır.



Dəfn mərasimi: öküzfiqurlu sarkofaqda olan mərhumun kremasiya yerinə aparılması.

Hinduist kultlarından şivaizm daha geniş yayılmışdır. Hindistan və Bali eposunun ("Malat" qəhrəmanlıq dastanı, əsasən, orta Yava dilində), həmçinin tarixi rəvayətlərin mətnlərindən ibarət olan kitabların palma yarpaqlarında (lontar) yazılması ənənəsi qorunub saxlanılmışdır. Arxaik inanclardan ümumindoneziya Düyü anası kultu, müqəddəs Qununq Aqunq dağına sitayiş və s. yayılmışdır. Bayramları: yazda qeyd olunan Yeni il (Nyepi), düyü əkini bayramı (Banyu Pinaruh), sentyabrda keçirilən anım bayramı (Qalunqan). Dişlərin mişarlanması adəti qorunub saxlanmışdır. Başlıca mərasim dəfn adətidir: təntənəli surətdə (musiqi və rəqslərin müşayiəti ilə) kremasiya yerinə aparılan mərhumu hünd. 20 *m*-ədək çatan qüllə formasında qalanmış tonqalda (bade) yandırırlar; mərasim baha başa gəldiyi üçün mərhumun ölümündən bir neçə il sonra da keçirilə bilər. Teatr janrları (vayanq) Yava teatr janrlarına yaxındır; Bali a.-nda vayanq-oranq (adam teatrı) janrının variantı arca teatrıdır. Səhnələşdirilmiş rəqslər (leqonq, beçak) yayılmışdır. Rəqslər və dini mərasimlər (bunlardan ən məşhuru "Çalonaranq" və ya "Baronq"dur) üçün ağacdan oyma maskalar hazırlanır və prada parçasından qızıl zərlə naxışlanmış mürəkkəb paltarlar tikilir.

İ n c ə s ə n ə t. Qayada yonulmuş, fasadı mifoloji süjetli qorelyeflərlə bəzədilmiş, qarşısında monumental qadın fiqurları formasında suaxacaqları olan süni hovuzlar yerləşdirilmiş Qoa Haca ("Fil mağarası", təqr. 11 əsr) məbədi; qayadakı 10 dəfn yerindən ibarət və daşda yonulmuş fasadları formasına görə qülləvarı məbədə (çandi) oxşayan "Kral qəbirləri" (11 əsrin 2-ci yarısı) kompleksi orta əsr abidələrindəndir. Bir qayda olaraq, hər kənddə allahlara, kəndin əsasını qoyanlara və ölülərin ruhlarına həsr olunmuş 3 məbəd (pura) var. Məbəd kompleksi, adətən, divarlarla əhatələnmiş, təmtəraqlı oyma naxışlı bürcəbənzər qapıları, qurbangahı və mehrabı olan bir neçə terraslı həyətdən ibarətdir; ən axırıncı müqəddəs həyətdə hündür, çoxyaruslu qüllələr olur. Aqunq dağının yamacında adadakı ən qədim və məşhur Pura Besakix (14 əsr) məbədi yerləşir. Ağac, daş, sümük, buynuz üzərində oyma sənəti inkişaf etmişdir. 20 əsrin əvvəllərinə qədər ənənəvi dini ağac heykəllər əlvan rənglənirdi; sonralar ustalar rənglənməmiş ağacdan istifadə edərək, onun təbii gözəlliyini üzə çıxarırdılar. Müasir B.-in heykəltəraşlığı ənənəvi mifoloji obrazların zənginliyi, qrotesk fiqurları ilə fərqlənir. Adada yapışqanlı boyalardan istifadə edən özünəməxsus rəngkarlıq məktəbi yaranmışdır: orta əsrlərdə məbəd və sarayların toxuma pərdələri bu cür işlənilirdi; müasir rəssamların bu ənənəvi tərz- də yaratdıqları dəzgah rəsmləri üçün də əsərin müstəvi planda həlli, daha qabarıq nəzərə çarpan fiqurların dekorativli-yi və stilizasiyası səciyyəvidir. Tenqanan k.-ndə əl ilə mürəkkəb texnikalı ipək parçalar toxunur. Klunqkunq, Ubud, Mas və s. kəndlər sənətkarlıq və rəngkarlıq mərkəzləridir.

**BALİNA** (lat. Cetus) – ekvatorial bürc. Ən parlaq ulduzu 2,5 vizual *ulduz ölçülüdür*. *Mira* ulduzu B. bürcündə yerləşir. Azərb.-da payızda və qışda görünür (bax *Ulduz xəritəsi*).

**BALİNA BUXTASI** – bax *Uolfiş-Bey*.

**BALİNA OVU** – balinaovlayan və emal edən sənaye sahəsi. İlk zamanlar B.o. Atlantika və Sakit okeanların sahilyanı hissələrində inkişaf etmişdi. 15 əsrin axırlarında burada balinaların miqdarının azalması ilə əlaqədar olaraq tədricən açıq dənizdə gəmi ilə B.o.-na başlandı. 19 əsrin axırlarında zolaqlı balinaların miqdarı Şimali Atlantikada kəskin surətdə azaldığından Norvec sənayeçiləri çox sayda balina sürüləri qeydə alınan Antarktika sularına ekspedisiyalar təşkil etdilər. Hazırda dünya okeanlarında, əsasən, 5 növ balina – finval, kaşalot, seyval, qozbel və göy balina ovlanır. 20 əsrin 60-cı illərinə qədər dünya B.o.-nda aparıcı yerləri Norvec və B.Britaniya tuturdu. Sonrakı illərdə birinci yerləri SSRİ və Yaponiya tutmuşdur. Balinaların sayı kəskin azaldığına görə, 1972 ildən B.o.-na beynəlxalq nəzarət qoyulmuşdur. Hazırda B.o., əsasən, Rusiya, İslandiya, Kanada, həmçinin Qrenlandiya a. ərazilərinin sahilyanı sularında aparılır.

**BALİNAKİMİLƏR** (Cetacea) – su məməliləri dəstəsi. B.-in mənşəyi barədə vahid bir fikir (nöqteyi-nəzər) yoxdur: ehtimal ki, B.-in Erkən Tabaşir və Son Kaynazoyda quruda yaşamış primitiv (sadə) məməlilər,olan müasir dırnaqlılarla və xortumlularla ümumi əcdadları olmuşdur. B.-in əcdadları suda yaşamağa təqr. 60 mln. il əvvəl keçmişlər. Nəsli kəsilmiş B.-in 127 cinsinin qazıntı qalıqları Eosendən məlumdur. Müasir B.-in bədənlərinin uz. 1 *m*-dən (bəzi *delfinkimilər*) 33 *m*-ədək (*mavi balina*), kütləsi 30 *kq*-dan 150 *t*-a qədər və daha çox olur. Su mühitində yaşamağa uyğunlaşmış son dərəcə ixtisaslaşmış heyvanlardır. İyşəkilli sürüşkən bədəni yanlardan sıxılmış quyruğa tədricən keçir; quyruğun ucunda ikipərli üzgəc var. Başı iri və enli olur, boynu xaricdən görünmür. Tük örtüyü tamamilə itmiş, piy və tər vəziləri, həmçinin xarici qulaq reduksiyaya uğramışdır. Dərisinin altında istiliyi saxlayan qalın piy təbəqəsi olur. Ön ətraflar üzgəclərə çevrilmiş, arxa ətraflar reduksiyaya uğramışdır; yalnız əzələlərin içərisində çanağın xırda sümükləri qalmışdır. B.-in əksəriyyətinin belində stabilizator rolu oynayan skeletsiz üzgəc var. Dodaqları hərəkətsizdir. Burun dəlikləri (1 yaxud 2) təpəsində yerləşir; bunlar suya başvuran zaman bağlanan qapaqla (klapanla) təchiz edilmiş nəfəs dəlikləri əmələ gətirir. Ağ ciyərlərin ağız boşluğu ilə əlaqəsi yoxdur. Toxumluqları qarın boşluğunda, əmziklər isə bədənin arxa yarısında sidik-cinsiyyət yarığının yanlarında yerləşən dəri ciblərdə gizlənmişdir. Skeleti süngərvarıdır; onurğasında oma şöbəsi yoxdur; 17 cüt qabırğanın 1–11-ci cütləri döş sümüyü ilə birləşmişdir.

B. ağ ciyərlərdəki hava ehtiyatını təzələmədən uzun müddət (kaşalotlar 1,5 saatdan artıq) suyun altında qala bilir. Buna səbəb əzələlərdə mioqlobinin və bir sıra uyğunlaşmaların, o cümlədən qanda $CO_2$-nın toplanmasına tənəffüs mərkəzi həssaslığının azalması, kapillyarlar şəbəkəsində ("möcüzəli şəbəkə") oksigen ehtiyatının olmasıdır. Suya başvuran zaman B.-də ürəkdöyünmələrinin sayı kəskin azalır və qan cərəyanı elə bölüşdürülür ki, ilk növbədə oksigen beyinə və ürək əzələlərinə daxil olur; bədən əzələləri isə onu mioqlobindən alır. B.-də dad, toxunma (lamisə), o cümlədən taktil dəri həssaslığı yaxşı inkişaf etmişdir. Qoxubilmə hissi itmişdir; böyük dərinliklərə baş vurarkən (göz billuru kürəşəkilli, qərnibuynuz təbəqə qalın və yastılaşmış, göz yaşı vəziləri itmişdir) kiçik gözləri yüksək təzyiqə davam gətirə bilir. Bütün B.-də eşitmə orqanları yaxşı inkişaf etmişdir. Çıxarılan səslərin tezliyinin geniş diapazonu və onların əksolunma istiqamətini dəqiq duyma qabiliyyəti bəzi B.-in exolokasiyanı fəal istifadə etməyə imkan verir. B.-in yüksək inkişaf etmiş sinir sistemi vardır və mürəkkəb davranışlı olması ilə səciyyələnir.

B. dəstəsinin 2 müasir (dişsiz balinalar və dişli balinalar) yarımdəstəsi var. 80-ədək növü məlumdur. Arktikadan Antarktikayadək Dünya okeanında, bəziləri (çay delfinləri) iri çaylarda yayılmışdır. B.-in çoxu şimal, yaxud cənub yarımkürələri hüdudlarında müntəzəm olaraq miqrasiya edərək çoxalmaq üçün qışda isti sulara, yayda isə piylənmək üçün soyuq sulara gedirlər. Dişli balinalar başlıca olaraq balıqla və başıayaqlı molyusklarla, bığlı balinalar, qidanı balina bığı vasitəsilə süzərək, əsasən, plankton xərçəngkimilərlə qidalanırlar. Dişli balinalarda dişlərin miqdarı 2-dən 240-adək dəyişir. Adətən, 2 ildən bir (bəziləri hətta tez, yəni laktasiya dövrü hələ bitməmiş cütləşə bilir) 1 iri (ana bədəninin 1/4–1/2-i qədər) bala doğur. Laktasiya 4 aydan (xırda delfinlər) 1 ilədək (kaşalotlar) davam edir. B.-in südü inək südündən 10 dəfə yağlıdır və zülalı təqr. 3 dəfə çoxdur, bu isə balaların sürətlə böyüməsinə səbəb olur. Cinsi yetkinliyə 2–6 yaşında çatır. 30–50 il yaşayır, lakin 80–90 yaşlı heyvanlar da məlumdur. Ailələrlə və sürülərlə yaşayır. 1896 ildən hər növ iri balinaların ovu Beynəlxalq balina ovu komissiyası (BOK) tərəfindən qadağan edilmişdir; bir sıra yerlərdə (Çukotka, Alyaska, İndoneziya, Peru və s.) yerli əhali tərəfindən balina və delfinlərin ənənəvi ovlanması məhdud şəkildə qorunub saxlanmışdır. B.-in bir çox növləri və yarımnövləri BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

**BALİNAOVLAYAN GƏMİ** – *balina ovu* üçün tanker tipli, çoxgöyərtəli iri okean gəmiləri. Gəmi ilə balina ovuna 18 əsrin əvvəllərində Atlantika okeanında başlanılmışdır. 1863 ildə Svend Foyn (Norveç) balina ovu üçün harpun topu düzəltdi və ovlanmış balinanın yedəyə alınıb sahildəki emal st.-na çatdırılmasını asanlaşdırmaq üçün onun içərisinə hava vurmağı təklif etdi. Buxar maşını ilə işləyən kompressorlu ilk B.g. 1868 ildə dənizə çıxdı və Norveç sahillərində harpun topu ilə 30 balina ovlandı. B.g.-lər mühərrik qurğusu, harpun topu, amortizasiya sistemi (yaralı balina dartınarkən kanatın qırılmasının qarşısını almaq üçün), bucurqad (balinanı gəminin bortuna tərəf dartmaq üçün), kompressor, naviqasiya və axtarış cihazları, güc qurğuları ilə təchiz edilir. 1930-cu illərdən çoxgöyərtəli balinaovlayan bazalar geniş istifadə olunur. Balinanı göyərtəyə qaldırmaq, doğramaq və emal etmək üçün avadanlıqlarla təchiz edilmiş bazalar su-




**Balinakimilər.** D i ş s i z  b a l i n a l a r: *1* – Qrenlandiya balinası (Balaena mysticetus); *2* – göy balina (Balaenoptera musculus); *3* – finval (Balaenoptera physalis ); *4* – kiçik zolaqlı balina (Balaenoptera acutorostrata); *5* – qozbel balina (Meqaptera novaeangliae); *6* – boz balına (Eschrichtius robustus). D i ş l i  b a l i n a l a r: *7* – şimal balinası (Berardius bairdi); *8* – dimdikburun (Hyperoodan ampuallatus); *9* – iniya (Inia geoffensis); *10* – zolaqlı stenella (Stenella coeruleoalba); *11* – ag delfin (Delphinus delphis); *12* – şimal balinavarı delfin (Lissodelphis borealis); *13* – afalina (Tursiops truncatus); *14* – daraqdışlı delfin (Steno bredanensis); *15* – boz delfin (Grampus griseus); *16* – qara orka (Pseudorca crassidens); *17* – adi qrinda (Globicephala melas); *18* – orka (Orcinus orca); *19* – adi dəniz donuzcuğu (Phocoena phocoena).



larda uzun müddət müstəqil üzə bilir. 20 əsrin 60-cı illərinin sonunda həm ov, həm də emal ilə məşğul olan B.g.-lər meydana çıxdı. Gəmi ov üçün əlverişli atəş məsafəsinədək balinaya yaxınlaşır, harpun topundan atəş açılır (əgər balina yaralıdırsa, 1–2 əlavə atəş açılır), harpuna bağlanmış trosla balina gəmiyə doğru çəkilir, kompressorla içərisinə hava vurulur və yedəkdə emal bazasına gətirilir. Balinalar təyyarələr, optik cihazlar və hidrolokatorlar vasitəsilə axtarılır.

**BALİNEZİYA PİŞİYİ**, B a l i  p i ş i y i – yarımuzuntüklü pişik cinsi. 20 əsrin ortalarında ABŞ-da Siam pişiyinin mutasiyası nəticəsində alınmışdır. Bədən hissəsi uzun, çevik, əzələli, girdə kiçik pəncəli ayaqları hündürdür. Üçbucaqşəkilli, düz profilli və iri enli qulaqlı başı uzunsovdur. Gözləri tünd-mavidir. Tükü ipək kimi hamar, tükarası tiftiyi seyrəkdir. Rəngi Siam tiplidir (bax, *Siam pişiyi*); balaları ağ rəngdə doğulur. Adamayovuşan və istiqanlıdır.



Balineziya pişiyi.

**BALİYEV** Yuri Nikolayeviç (d.22.7.1949, Dağ. MR, İzberq ş.) – aktyor, Azərb. Resp. xalq artisti (2000). Səhnə fəaliyyətinə 1964 ildə dram dərnəyində başlamışdır. 1975 ildən S. Vurğun ad. Azərb. Dövlət Rus Dram Teatrının aktyorudur. Teatrın səhnəsində ilk dəfə Pedro ("Buenos-Ayresdə müsahibə", H. Borovik) rolunda çıxış etmişdir. Əsas rolları: İbn Yəmin ("İblis", H. Cavid), Rasputin ("Dar ağacı", R. İbrahimbəyov), Otello ("Salam, mən sizin dayınızam", Elçin), Roqojin ("İdiot", F.M. Dostoyevski), Smirnov ("Ayı", A.P. Çexov), Solyanik ("Sıravilər", A. Dudarev), Kosso ("Zəhər", İ. Boqomolnı), kapitan Bernardo ("Hiyləgər sevgili", Lope de Veqa), Tomas Boleyn ("Kral oyunları", Q. Qorin), Nikandr Semyonoviç ("Gözəl kişi", A.N. Ostrovski), Frenk Xarder ("Sev məni, əzizim", L. Briler) və b. "Azərbaycanfilm"in istehsal etdiyi "Babək" (1979, rej. E. Quliyev), "Ovsunçu" (2002, rej. O. Mirqasımov) və b. filmlərdə, həmçinin "Silahlı, həm də çox təhlükəlidir" (1979, rej. V. Vaynştok), "Tehran–43" (1981, rej.-lar A.A. Alov və V.N. Naumov), "Salandar" (1992, rej. Rafi) filmlərində çəkilmişdir.



**BALKALDAĞ** – Azərb. Resp. Balakən r-nu ərazisində dağ. Baş Qafqaz silsiləsinin c.-q. yamacındadır. Hünd. 3150 *m*.

**BALKAN ANTANTASI**, B a l k a n  p a k t ı – Birinci dünya müharibəsindən sonra Balkan y-a-ndakı ərazi status-kvonun saxlanılması üçün Yunanıstan, Rumıniya, Türkiyə və Yuqoslaviyanın siyasi ittifaqı. Fransanın təşəbbüsü ilə Avropada formalaşmış hərbi-siyasi ittifaqlar sisteminin bir hissəsini təşkil edirdi. B.A.-nın yaradılması haqqında müqavilə 1934 il fevralın 9-da Afinada imzalanmışdı. Eyni zamanda, Yuqoslaviya ilə birlikdə *Kiçik Antantaya* (1920–21) daxil olan Rumıniya, həm də Polşa ilə ittifaqa (1921 ildən) girmişdi. B.A.-nın üzvləri bir-birinə hücum etməmək və digər Balkan (Albaniya və Bolqarıstan nəzərdə tutulurdu), yaxud ona kömək göstərən qeyri-Balkan dövləti tərəfindən hücuma məruz qalmış üzv dövlətə qarşılıqlı yardım göstərmək haqqında üzərinə öhdəlik götürmüşdü. Müqavilədə Türkiyənin Asiyadakı sərhədlərinə hücum zamanı qarşılıqlı yardım nəzərdə tutulmurdu. 1930-cu illərin 2-ci yarısında Balkan ölkələrindəki faşistpərəst qüvvələrə arxalanan Almaniya və İtaliya B.A.-nın fəaliyyətini iflic etdilər. 1939–40 illərdə İtaliya və Almaniyanın Balkanlara hücumunun qarşısını ala bilməyən B.A. siyasi iflasa uğradı.

**BALKAN ANTROPOLOJİ VARİANTI** – bax *Balkan-Qafqaz irqi*.

**BALKAN DAĞLARI** – bax *Stara-Planina*.

**BALKAN DİL İTTİFAQI**, B a l k a n  d i l l ə r i – ümumi tipoloji cəhətlərə malik xüsusi dil birliyini ifadə edən termin; genetik qohumluq prinsipinə görə deyil, vahid coğrafi məkanda uzunmüddətli qarşılıqlı əlaqələr nəticəsində yaranmış bir sıra ümumi struktur-tipoloji əlamətləri ilə fərqlənən Cənub-Şərqi Avropa dilləri məcmusu.

B.d.i.-nın tərkibinə bir neçə hind-Avropa dilləri qrupu (bolqar dili, Makedoniya dili, serb-xorvat dilinin torlak dialekti, şərqi roman, alban, yeni yunan dilləri) daxildir. İntensiv qarşılıqlı əlaqə prosesində Balkan dillərinin dil strukturunun bütün səviyyələrində balkanizmlər adlanan tipoloji oxşarlıq kompleksi yaranmışdır. B.d.i.-na daxil olan dillərin tipoloji təsnifatı onların həm fərqləndirici, həm də oxşar struktur inkişafının əlamətlərinə əsaslanır. Balkanizmlərin daha çox olduğu alban, bolqar, Makedoniya, rumın və moldav dilləri B.d.i.-nın mərkəzi, balkanizmlərin azlıq təşkil etdiyi yeni yunan və serb-xorvat dilləri isə periferiyası hesab olunur. B.d.i.-na daxil olan dillərdə aşağıdakı ümumi cəhətlər vardır. Fonetikada: nitqin taktoritmik təşkilində oxşarlıq, ekspirator vurğu, saitlərin kəmiyyətcə fərqləndirilməsi (bolqar, Makedoniya dialektlərinin bir qismi və politonik vurğulu serb-xorvat dili istisna olunmaqla), saitlərdə eyni tonların, alban, bolqar, şərqi roman dillərində ayrıca dilortası ŭ saitinin olması; şərqi roman, yeni yunan dillərində və bir sıra bolqar və Makedoniya dialektlərində samitlərin yumşalması. Əsas nitq hissələrinin morfologiyasında: ismin yiyəlik və yönlük hallarının uyğun gəlməsi; müəyyənlik və qeyri-müəyyənlik kateqoriyasının, postpozitiv artiklin olması; müqayisə dərəcələrinin analitik əmələ gəlməsi; 11-dən 19-a qədər sayların lokativ tip üzrə yaranması. Sintaksisdə: obyektin ikiqat artırılması; artiklli isimlərdə "s" ədatının mövcudluğu və s. B.d.i. dilləri ilə qarşılıqlı əlaqələr nəticəsində qaqauz dilinin sintaksisində də balkanlaşma prosesləri nəzərə çarpır. Balkan dillərində müxtəlif vaxtlarda yunan, latın, slavyan və türk dillərindən alınmış çoxsaylı sözlər vardır. Onlar 3 tipə bölünür: ümumi Balkan sözləri; bir neçə dilə məxsus olan sözlər; yalnız iki dil üçün ümumi olan sözlər.

**BALKAN İTTİFAQI (1912)** – Bolqarıstan, Serbiya, Yunanıstan və Çernoqoriyanın Türkiyəyə qarşı hərbi-siyasi ittifaqı. Onun əsasını, hər hansı bir böyük dövlət (Avstriya-Macarıstan nəzərdə tuturdu) tərəfindən Türkiyənin Balkan ərazilərinin zəbt edilməsi zamanı birgə əməliyyat aparılmasını nəzərdə tutan və hərbi konvensiya (1912, 12 may) ilə tamamlanan qarşılıqlı yardım haqqında Bolqarıstan-Serbiya müqaviləsi (1912, 13 mart) təşkil edirdi. Müqaviləyə edilən gizli əlavə onların Türkiyəyə qarşı birgə silahlı çıxışını və daha sonra Makedoniyanın bölüşdürülməsini nəzərdə tuturdu. 1912 il mayın 29-da Bolqarıstan və Yu-

nanıstan arasında ittifaq müqaviləsi, oktyabrın 5-də isə hərbi konvensiya bağlandı. 1912 ilin sentyabrında Çernoqoriyanın müharibədə iştirakına dair Bolqarıstan və Çernoqoriya arasında razılaşma əldə edildi. B.i., faktiki olaraq, Avstriya-Macarıstan və Almaniyanın Balkan ölkələrinə təsirinin məhdudlaşdırılmasına cəhd edən Rusiyanın, eləcə də B.Britaniya və Fransanın dəstəyi ilə yaranmışdı. B.i. dövlətləri birinci Balkan müharibəsində (1912–13) qalib gəldilər, lakin müttəfiqlər arasında ziddiyyətlər ikinci Balkan müharibəsinə (1913) və ittifaqın dağılmasına səbəb oldu (bax *Balkan müharibələri 1912–13*).

**BALKÁN KAMPÁNİYASI (1941)** – İkinci dünya müharibəsi zamanı faşist blokuna daxil olan dövlətlərin (Almaniya, İtaliya, Macarıstan) Yuqoslaviya və Yunanıstana qarşı təcavüzü. B.k. bu ölkələrin ərazilərini və təbii ehtiyatlarını ələ keçirərək Aralıq dənizinin şərq sahilyanı ərazilərində və Yaxın Şərqdə hücum əməliyyatlarının aparılması üçün strateji dayaq meydanı yaratmaq məqsədi güdürdü. B.k.-nda 28 alman və 38 italyan diviziyası, 10 macar briqadası iştirak edirdi. Bunlara qarşı Yuqoslaviyanın 29 piyada və 3 süvari diviziyası, 9 briqadası, Yunanıstanın 19 piyada, 1 motoatıcı və 1 süvari diviziyası, 4 briqadası, həmçinin Britaniya ekspedisiya qüvvələrinin 2 piyada diviziyası və 1 tank briqadası çıxarılmışdı.

1941 il aprelin 6-da müharibə elan etmədən alman ordusu Avstriya, Rumıniya və Bolqarıstan ərazilərindən Yuqoslaviyaya hücuma keçdi. Alman aviasiyası Belqrad ş.-ni bombardman etdi. Aprelin 9–11-də İstriya və Albaniya ərazilərində yerləşən İtaliya ordusu Yuqoslaviyaya hücuma keçdi. Aprelin 11-də Macarıstan da müharibəyə qoşuldu. Şiddətli döyüşlər nəticəsində aprelin 6–8-də alman qoşunları Yuqoslaviya ordusunun müdafiə xəttini yararaq onun iri birləşmələrini mühasirəyə aldı. Almanlar aprelin 9-da Niş ş.-ni, aprelin 10-da isə Xorvatiyanın paytaxtı Zaqrebi ələ keçirdilər. Aprelin 10-da Xorvatiya Yuqoslaviyanın tərkibindən çıxmasını və Almaniya ilə ittifaq bağlamasını bəyan etdi. Xorvatiya qoşun hissələrinin almanların tərəfinə keçməsi Yuqoslaviya ordusunun vəziyyətini daha da ağırlaşdırdı. Aprelin 13-də Belqrad tutuldu, aprelin 14-də isə kral II Pyotr və Yuqoslaviya hökuməti ölkəni tərk etdilər. Aprelin 18-də Yuqoslaviya təslim oldu. Yuqoslaviya ordusunun 344 min əsgər və zabiti əsir düşdü. Aprelin 6-da alman ordusu Bolqarıstan ərazisindən Yunanıstana soxuldu, "Metaksas müdafiə xəttini" ötüb keçərək və Şərqi Makedoniya yunan ordusunu məğlub edərək aprelin 9-da Saloniki ş.-nə daxil oldu. Aprelin 20-də Epir yunan ordusu təslim oldu. Aprelin 23-də kral II Georq və Yunanıstan hökuməti Afinadan Krit a.-na köçdülər. Aprelin 24-də alman qoşunları Fermopil yaxınlığında Britaniya ekspedisiya qüvvələrinin müdafiə xəttini yararaq aprelin 26-da Peloponnes y-a-na daxil oldular. Aprelin 27-də Afina tutuldu. Aprelin 24–29-da alman aviasiyasının arasıkəsilməz zərbələləri altında yunan qoşunlarının və Britaniya ekspedisiya qüvvələrinin qalıqları dəniz yolu ilə Krit a. və Misirə evakuasiya olundu. Aprelin 30-da kontinental Yunanıstanın ərazisi tamamilə işğal edildi. 223 min yunan və 22 min Britaniya əsgər və zabiti əsir alındı.

**BALKÁN MÜHARİBƏLƏRİ (1912–13)** – B i r i n c i  B a l k a n  m ü h a r i b ə s i (1912, 9 oktyabr – 1913, 30 may) *Balkan ittifaqı (1912)* dövlətləri ilə Osmanlı imperiyası arasında olmuşdur. Müharibənin başlamasında Rusiyanın Balkanlarda yeritdiyi panslavizm siyasəti, həmçinin bölgəni bölüşdürmək uğrunda Rusiya ilə Avstriya arasında gedən rəqabət mühüm rol oynamışdır. 1912 il oktyabrın 9-da Çernoqoriya hərbi əməliyyatlara başladı. Bolqarıstan, Serbiya və Yunanıstan müharibəyə oktyabrın 18-də qoşuldu. Osmanlı dövlətinin şərqdə Bolqarıstanla, qərbdə bütün müttəfiq ölkələrlə, dənizdə isə Yunanıstanla eyni zamanda döyüşməyə məcbur olması və Birinci Balkan müharibəsi zamanı ordudakı siyasi fikir ayrılıqları türklərin məğlub olmasına gətirib çıxardı. Həlledici döyüşlər Şərqi Frakiyada baş verdi. Osmanlı ordusunun şərq qanadı oktyabrın 22–24-də Kırkkilise (Lozenqrad) yaxınlığında, oktyabrın 29 – noyabrın 3-də isə Lüləburqaz yaxınlığında sayca özündən üç dəfə çox olan bolqar ordusuna məğlub olaraq "Çatalca xəttinə" çəkildi; Ədirnə mühasirəyə alındı. Qərb qanadının məğlubiyyəti nəticəsində Serbiya, Çernoqoriya və Yunanıstan Makedoniya, Albania və Epirdə Osmanlı torpaqlarının bir çoxunu ələ keçirdi. Serbiya ordusu Kumanovo yaxınlığında qələbə qazanaraq (23–24 oktyabr), Skopye (26 oktyabr) və Bitolu (18 noyabr) ələ keçirib Adriatik dənizi sahilinə çıxdı və Çernoqoriya qoşunları ilə birlikdə Şkoderi mühasirəyə aldı. Noyabrın 9-da Yunanıstan Selaniki (indiki Saloniki) ələ keçirdi. Yaranmış vəziyyət böyük ölkələrin narahatlığına səbəb oldu. Müharibəyə hazır olmayan Rusiya sülhün bağlanmasında israrlı idi və Bolqarıstana bu danışıqlarda vasitəçiliyini təklif edirdi. Rusiyanın Balkanlardakı əsas rəqibi Avstriya-Macarıstan isə Serbiya sərhədlərində hərbi hazırlıqlara başladı. Osmanlı "varisliyi"nə sahib çıxmaq arzusunda olan bütün böyük ölkələr hərbi gəmilərini Ege dənizinə çıxardılar. Lakin vəziyyət gözlənilmədən dəyişdi. Bolqarıstanın Çatalca mövqeyinə hücumunun (17–18 noyabr) məğlubiyyətlə nəticələnməsi İstanbul üçün yaranmış təhlükəni aradan qaldırdı; 1912 il dekabrın 3-də Osmanlı imperiyası ilə müttəfiqlər arasında müvəqqəti barışıq elan edildi. Lakin Londonda aparılan sülh danışıqları Osmanlı imperiyasında baş verən dövlət çevrilişi (23 yanvar 1913) nəticəsində yarımçıq qaldı. Hərbi əməliyyatların yenidən başlanması nəticəsində osmanlılar Yanina (6 mart) və Ədirnəni (26 mart) itirdilər; Çernoqoriya Şkoderi mühasirədə saxlamağa davam edirdi. Mayın 30-da imzalanan London sülh müqaviləsinə görə Osmanlı imperiyası Enez- Midye xəttindən şm.-da yerləşən Avropadakı torpaqlarını itirdi, Albaniyanın müstəqilliyini tanıdı.

İ k i n c i  B a l k a n  m ü h a r i b ə s i (1913, 29 iyun – 10 avqust) bir tərəfdən Bolqarıstan, digər tərəfdən Serbiya, Yunanıstan, Rumıniya, Çernoqoriya və Osmanlı imperiyası arasında baş vermişdir. Müharibəyə müttəfiqlər arasında birinci Balkan müharibəsinin yekunları ilə bağlı ziddiyyətlər səbəb olmuşdur. Adriatik dənizinə çıxış əldə edə bilməyən Serbiya bunu Makedoniya əraziləri ilə kompensasiya olunmasını tələb edir, Yunanıstan Bolqarıstanın maraqlarına zidd olaraq Cənubi Makedoniya və Qərbi Frakiya ərazilərinə iddia edirdi. İyunun 1-də Yunanıstan və Serbiya arasında Bolqarıstana qarşı yönəlmiş ittifaq müqaviləsi imzalandı. Həmin ittifaqa Birinci Balkan müharibəsində bitərəf qalması müqabilində Dobrucadakı torpaqları tələb edən Rumıniya da qoşuldu. Avstriya-Almaniya diplomatiyasının səyləri də Balkan ittifaqının dağılmasına kömək etdi. Bolqarıstan ordusu iyunun 29-da Serbiya və Yunanıstanın Makedoniyadakı mövqelərinə hücum etsə də, nə Çernoqoriya tərəfindən dəstəklənən yunanlara, nə də serblərə qarşı əməliyyatlarda uğur qazana bilmədi. İyulun 10-da Bolqarıstana qarşı çıxan Rumıniya qoşunları Sofiya





istiqamətində irəlilədi. İyulun 21-də Türkiyə Şərqi Frakiyaya hücuma keçdi və 23-də Ədirnəni geri aldı. İyulun 29-da Bolqarıstan təslim oldu. Buxarest sülh müqaviləsinə (10 avqust 1913) görə Bolqarıstan Cənubi Dobrucanı Rumıniyaya, Cənubi Makedoniyanı və Qərbi Frakiyanın bir hissəsini Yunanıstana, demək olar ki, bütün Şimali Makedoniyanı Serbiyaya güzəştə getdi; *İstanbul sülh müqaviləsinə* (29 sentyabr 1913) görə isə Ədirnə də daxil olmaqla Şərqi Frakiyanın çox hissəsini Türkiyəyə qaytardı.

B.m. Avropada beynəlxalq ziddiyyətlərin kəskinləşməsinə səbəb oldu, bu da Birinci dünya müharibəsinin başlanmasını sürətləndirdi.

**BALKÁN YARIMADASI** – Cənubi Avropada yarımada. Sah. təqr. 505 min $km^2$. Q.-dən ş.-ə təqr. 1260 *km*, şm.-dan c.-a 950 *km* uzanır. Qara dəniz, Mərmərə dənizi, Egey dənizi, Adriatik dənizi, İoni dənizi ilə əhatə olunur. Şm. sərhədi Dunay və onun sağ qolu Sava boyunca keçir. Kiçik Asiyadan Mərmərə dənizi, Bosfor və Dardanel boğazları ilə ayrılır. Bir sıra dövlətlər (Albaniya, Bolqarıstan, Bosniya və Herseqovina, Yunanıstan, Makedoniya, Monteneqro, Rumıniya, Serbiya, Sloveniya, Xorvatiya, Türkiyə) qismən, yaxud bütünlüklə B.y.-nda yerləşir. Sahil xətti, xüsusən Egey dənizində, kəskin parçalanmışdır, yaxınlığında çoxlu adalar var. Ən böyük yarımadaları Peloponnes və Xalkidikidir. Sahilləri, əsasən, hündür və dikdir, yalnız Qara dəniz sahilləri yastıdır, burada qumlu çimərliklər geniş yayılmışdır.



Balkan yarımadası. Xorvatiya sahilləri.

**Relyef.** Səthinin çox hissəsi dağlıqdır. Çoxsaylı silsilələrin, massivlərin, yaylaların, yastıdağlıqların və dağarası çökmələrin bir-birini əvəz etməsi səciyyəvidir [Stara-Planina, Rodop, Rila (hünd. 2925 *m* – B.y.-nın ən hündür nöqtəsi), Pirin, Pind, Dinar yaylası]. Karst relyef formaları, əsasən, Dinar yaylasının q. və şm.-q. hissələrində geniş yayılmışdır. Düzənliklər şm.-da (Orta Dunay və Aşağı Dunay ovalıqlarının c. hissələri), ş.-də (Aşağı Frakiya ovalığı), dağarası çökmələrdədir (Yuxarı Frakiya ovalığı, Fessaliya düzənliyi və s.).

**Geoloji quruluş və faydalı qazıntılar.** B.y. *Alp-Himalay mütəhərrik qurşağında* yerləşir. Qurşağın oxu boyunca kembriyəqədər dövrün sonu – Paleozoy yaşlı Serbiya-Makedoniya kristallik massivi uzanır. Massivin q.-ini Adriatik dənizi sahili boyunca uzanan Dinar örtük qırışıqlığı sistemi (Dinaridlər), ş.-ini Balkan qırışıqlıq sistemi (Balkanidlər) tutur. Yarımadada neft, qaz (Albaniya, Bolqarıstan, Yunanıstan), kömür (Bolqarıstan, Yunanıstan, Serbiya, Monteneqro, Bosniya və Hersoqovina), dəmir filizi (Albaniya, Yunanıstan, Serbiya, Monteneqro), manqan filizi (Yunanıstan, Bolqarıstan), xromit (Albaniya, Yunanıstan, Makedoniya), boksit (Yunanıstan, Xorvatiya, Bosniya və Hersoqovina), volfram (Bolqarıstan), mis (Bolqarıstan, Serbiya, Monteneqro), molibden, sürmə (Serbiya, Monteneqro), qurğuşun və sink (Bolqarıstan, Yunanıstan, Serbiya, Monteneqro), daşduz (Bolqarıstan, Albaniya), asbest (Yunanıstan, Albaniya), barit (Bolqarıstan), kükürd, maqnezit, mərmər (Yunanıstan) yataqları məlumdur. Albaniya, Bolqarıstan, Serbiya və Monteneqroda çoxsaylı mineral su bulaqları var.

**İqlimi** şm.-da və mərkəzi r-nlarda mülayim kontinentaldır. Orta temp-r iyulda təqr. 20°C, yanvarda 0-dan –3°C-yədəkdir. Q.-də, c.-da və c.-ş.-də Aralıq dənizi iqlimi hakimdir; isti və quru yayı, yumşaq və rütubətli qışı var. Orta temp-r yanvarda 7–11°C, iyulda 25–27°C-dir. Dağlarda hündürlük iqlim qurşağı mövcuddur; qar örtüyü bir neçə ay qalır. Yağıntının illik miqdarı Dinar yaylasının q. yamaclarında 2000 *mm*-ədək (Kotor buxtası r-nunda 5000 *mm*-ədək), ş. və c. ərazilərdə aşağılarda (yüksək dağlar istisna olmaqla) 1000 *mm*-dən, bəzi yerlərdə 400 *mm*-dən azdır.

**Çaylar və göllər.** B.y.-nın ən böyük çayları Böyük Morava, İskır, Drina (Dunay hövzəsi), Maritsa, Struma, Vardar (Egey dənizi hövzəsi), həmçinin sərhəd çayları Dunay və Savadır. İri gölləri: Şkoder, Oxrid, Prespa. Çoxlu karst gölləri, Rila d-rında buzlaq mənşəli göllər də var.

**Torpaqlar, bitki örtüyü və heyvanlar aləmi.** B.y.-nın şm. hissəsindəki dağlıq və dağətəyi r-nlarda qonur dağ-meşə və çürüntülü-karbonatlı dağ-meşə, həmçinin qonur meşə torpaqları inkişaf etmişdir. Orta Dunay və Aşağı Dunay ovalıqlarında qaratorpaqlar və qonur meşə torpaqlarından qəhvəyi torpaqlara keçən torpaqlar, Yuxarı Frakiya və Aşağı Frakiya ovalıqlarında qatranlı, bərkimiş qara torpaqlar vardır. Yarımadanın c. hissəsində subtropik qəhvəyi, tipik qəhvəyi dağ və karbonatlı torpaqlar üstünlük təşkil edir; Adriatik dənizi sahillərində terra-rossa qırmızı rəngli torpaqlar yayılmışdır. Şm.-da və mərkəzi r-nlarda palıd, cökə, vələs, küknar, ağ şam və şam ağaclarından ibarət meşələr üstünlük təşkil edir. C.-da və c.-ş.-də həmişəyaşıl kserofit meşələr və kolluqlar vardır. Şm.-ş. hissədə çöl bitki qruplaşmaları geniş inkişaf etmişdir. Zeytun, sitrus bitkiləri, üzüm, tütün yetişdirilir, düzənliklərdə taxıl bitkiləri (buğda, qarğıdalı), pambıq becərilir.

Fauna xeyli zəngin və rəngarəngdir, quşlar, suda-quruda yaşayanlar, sürünənlər, cücülər xüsusilə çoxdur. Məməlilərdən ayı, canavar, tülkü, çaqqal, nəcib maral, cüyür, qaban və s. rast gəlinir, çoxlu gəmirici vardır.

**BALKÁN-KARPÁT METALLURGİYA ƏYALƏTİ** – e.ə. 4800/4700–3600/3500 illərdə Balkan y-a-nın şm.-ından və



Varna məzarlığından aşkar edilmiş mərasim daş baltası və qızıl bəzək əşyaları. E.ə. 5-ci minillik.

Karpat hövzəsindən Orta Volqaboyu çöllərinə qədər olan ərazidə (sahəsi təqr. 1,3–1,5 mln. *km*²) yerləşən dağ-mədən metallurgiyası və metal emalı mərkəzləri sistemi. B.-K.m.ə.-nin meydana gəlməsi dağ-mədən metallurgiyasında mis və qızıl istehsalının kəskin surətdə artması ilə bağlı olmuşdur, bununla da Avrasiyada metalın geniş istifadəsi dövrü başlamışdır. B.-K.m.ə.-nin əsas zonasında *Varna, Karanovo VI, Qumelnitsa, Vinça* C-D və s. mədəniyyətlərinin mühüm metallurgiya ocaqları cəmləşmişdir. B.-K.m.ə. ilə ş.-də həmsərhəd olan *Tripolye–Kukuten mədəniyyəti* zonasında Balkan-Karpat zonasının əsas yataqlarından çıxarılan misin bazasında fəaliyyət göstərən metal emalı mərkəzləri yerləşirdi. Maldarlıq mədəniyyətlərinin (*Dnepr-Donetsk mədəni birliyi, Srednestoqov mədəniyyəti, Xvalın qəbiristanlığı*) yayıldığı çöl zonasında da B.-K. m.ə.-nin misindən istifadə edən seyrək və nisbətən az əhəmiyyətli metal emalı ocaqları mövcud olmuşdur. E.ə. 4-cü minilliyin ortalarında B.-K.m.ə. qısa bir müddət ərzində parçalandı.

**BALKAN-QAFQAZ İRQİ** – *Böyük Avropa irqinin* tərkibində kiçik irq. Fransanın c.-ş.-indəki Mərkəzi massivdən Pamir və Hindiquş dağlarına qədər Avrasiyanın dağlıq r-nlarında, xüsusilə Alp d-rından başlayaraq Balkan və Qafqaz dağlarından keçməklə Qərbi İrandakı dağlara qədər olan ərazilərdə yayılmışdır. Dərilərinin rəngi, əsasən, açıqçalarlı, dalğavarı saçları tünd, gözləri tünd və ya qarışıq rəngli olur. C.-ş.-dən şm.-q.-ə getdikcə *depiqmentasiya* güclənir. Saqqalları sıxtüklüdür, 3-cü tük örtüyü Avropa irqi nümayəndələri arasında ən çox inkişaf etmişdir; ayrı-ayrı populyasiyalarında bunun dünya üzrə maks. həddə çatdığı qeyd olunur. Üz cizgiləri iridir: aşağı hissəsi yastı olan dik qabarıq burun, qısa üst dodaq, xeyli enli almacıq sümükləri, adətən, iri çənə və çənəaltı. Kəllə qutusu iridir, braxikefaliya, çox vaxt hiperbraxikefaliya, alnın qabağa çıxmış (qabarıq) qaşüstü relyefi üstünlük təşkil edir. Avropa irqinin digər nümayəndələrinə nisbətən hündürboylu, əzələli iri bədən quruluşlu populyasiyalara çox rast gəlinir. B.-Q.i. Avropada *Orta Avropa irqinə* yaxın olan B a l k a n (Dinar, yaxud Alp), Yaxın Şərqdə hind-Aralıq dənizi irqinə yaxın Ö n  A s i y a (Pont-Zaqros) və B.-Q.i. üçün klassik sayılan Böyük Qafqazın əhalisi (osetinlər, inquşlar, çeçenlər, Dağıstan xalqlarının əksəriyyəti, gürcülərin dağlı populyasiyaları) arasındakı Q a f q a z i o n antropoloji variantlarına ayrılır. Bəzən B.-Q.i.-nin Avropa populyasiyaları ümumi Adriatik irqi adı altında birləşdirilir.

**BALKANŞÜNASLIQ**, d i l ç i l i k d ə – Balkan y.a.-sı dillərinin tarixi keçmişini və müasir vəziyyətini öyrənən dilçilik sahəsi; balkan dilçiliyi. B. Balkan regionu dillərinin ümumi xüsusiyyətlərini, inkişaflarındakı oxşar tendensiyaları üzə çıxarmaq məqsədi ilə tarixi, tipoloji və areal yanaşmaları tətbiq edərək, onların sinxron və diaxron planda inkişafını, qarşılıqlı təsirini öyrənir.

B. geniş mənada hər hansı bir genetik və areal birliyə mənsubluğundan asılı olmayaraq Balkan regionu dillərinin hamısını öyrənir. Buraya hind-Avropa dilləri: slavyan dilləri – bolqar dili, Makedoniya dili, serb-xorvat dili, sloven dili; alban di-li (monoqrup); yunan dili (monoqrup); roman dilləri – rumın dili, moldav dili (şərqi-roman yarımqrupu), sefard dili (qərbi-roman yarımqrupu); german dilləri – şimali Transilvaniyanın alman dili; hind dilləri – Avropa qaraçılarının dili (bax *Qaraçı dilləri*); fin-uqor dilləri – macar dili; türk dilləri – türk dili, qaqauz dili aid edilir. Ümumbalkan dilçilik araşdırmalarına Balkan regionu sərhədlərindəki dillərin təmas zonaları da cəlb olunur.

B. xüsusi areal dil birliyinin – Balkan dil ittifaqının (alban, bolqar, makedoniya, yeni yunan, rumın dillərini, serbxorvat dilinin torlak dialektini birləşdirir) formalaşması ilə bağlı olan Balkan dillərində gedən prosesləri araşdırır.

B. 19 əsrin başlanğıcında V. Kopitarın alban, bolqar və valaş (rumın) dillərinin strukturunda bir sıra ümumi cəhətin olduğunu müəyyənləşdirdikdən sonra meydana gəlmişdir. F. Mikloşiç rumın, bolqar, alban və yeni yunan dillərinin leksik müxtəlifliyi ilə yanaşı, onlarda oxşar qrammatik xüsusiyyətlərin olduğunu qeyd etmişdir. 18 əsrin sonu – 19 əsrin əvvəllərində bir sıra Balkan dillərinin çoxdilli lüğətləri yaradıldı. Balkan dillərinin sistemli araşdırılmasına 19 əsrin ortalarından başlanıldı; həm leksikada, həm də qrammatikada ümumi cəhətləri aşkara çıxarmağa cəhd göstərildi [Mikloşiç, Q. Meyer (Almaniya), A. Filippide (Rumıniya), B.P. Xaşdeu (Rumıniya, Moldova)]. 20 əsrin əvvəllərində Balkan dillərindəki qrammatik oxşarlıqlar müəyyənləşdirildi; Balkan frazeologizmlərinin məna və sintaktik oxşarlıqları göstərildi (T. Papahaci, Rumıniya); yeni və qədim balkan dilləri araşdırıldı. Beləliklə, 1920-ci illərədək B.-ın xüsusi cərəyan kimi əsası qoyuldu.

1920-ci illərdə K. Sandfeld və A.M. Selişşevin əsərləri ilə B.-ın inkişafında yeni mərhələ başlandı. Selişşev dilçiliyə Balkan dillərinin ümumi cəhətlərini ifadə edən "balkanizm" terminini gətirdi, Balkan dillərinin strukturunun ayrı-ayrı səviyyələrində (semantika, sintaksis, morfologiya və fonetika) balkanizmlərin fərqləndirilməsini təklif etdi; Sandfeld bütün səviyyələrə aid balkanizmlərin ilk sistemli təsvirini verdi. N.S. Trubetskoy "Balkan dil ittifaqı" anlayışını irəli sürdü və onun nümunəsində dil ittifaqlarının dil qrup və ailələrindən fərqləndirilməsinin zəruriliyini əsaslandırdı. 20 əsrdə tədqiqatlar, əsasən, Balkan dil ittifaqının problemlərinə, yeni balkanizmlərin öyrənilməsinə, axtarışına həsr olunmuşdur. [X.L. Klaqstad (ABŞ), V. Georgiyev (Bolqarıstan) və b.]. H.V. Şaller (Almaniya, 1975), onun ardınca da P. Asenova (Bolqarıstan, 1989) birinci və ikinci dərəcəli balkanizmlərin fərqləndirilməsini təklif etdilər.

Balkan dillərini 3 qrupa bölürlər: böyük ittifaqyaradıcı əlamətləri olan dillər (bunlar Balkan dil ittifaqının özəyini təşkil edən alban, rumın, bolqar, Makedoniya dilləridir), ittifaqyaradıcı əlamətləri nisbətən az olan və ittifaqın periferiyasını təşkil edən dillər (yeni yunan və serbxorvat dilləri), öz strukturunda ittifaqyaradıcı əlamətləri olmayan digər Balkan dilləri. Balkan dil ittifaqı probleminin araşdırılması ilə həmçinin R.O. Yakobson, P. Skok (Yuqoslaviya), B. Qavranek, V. Skaliçka, A. Rosetti (Rumıniya), O. Zaydel (Almaniya), X. Birnbaum (İsveç, ABŞ), S.B. Bernşteyn (Rusiya), M.A. Qabinski (Moldova) və b. məşğul olmuşlar.

*Əd.*: S a n d f e l d Kr. Balkanfilologien. Kbh., 1926; idem. Linguistique balcanique. Problemes et résultats. P., 1930; Schaller H.W. Die Balkansprachen. Hdlb., 1975; Грамматический строй балканских языков. Л., 1976; Нерознак В.П. Палеобалканские языки М., 1978; Основы балканского языкознания. Л.; СПб., 1990–1998.

**BALKAR ƏDƏBİYYATI** – bax *Qaraçay-Balkar ədəbiyyatı.*

**BALKARLAR** (m a l k a r l ı l a r; özlərini t a u l u l u – dağlılar adlandırırlar) – Kabar-da-Balkar Resp.-nda (RF) yaşayan türk xalqı. Ümumi sayları təqr. 120 min nəfərdir, o cümlədən Kabarda-Balkarda 104,9 min nəfər (2002). Həmçinin Qazaxıstanda (təqr. 6 min nəfər) və Qırğızıstanda (təqr. 2 min nəfər) yaşayırlar. Türkiyə, Suriya, İordaniya, Misir və ABŞ-da yaşayanlar Balkariyanın qədim əhalisinin bir hissəsi kimi özlərini *qaraçaylılar* adlandırırlar. *Qaraçay-balkar dilində* danışırlar, rus dili də yayılmışdır. Dindarları müsəlmandır.

Qaraçaylılarla vahid etnik kökləri və mədəniyyətləri var. B.-ın tərkibinə qafqazdilli, irandilli və türkdilli (qədim bulqar-xəzərlər, həmçinin qıpçaq-kumanlar daxil olmaqla) əhali qatılmışdır. Bu ərazilərdə 10–14 əsrlərdə mövcud olmuş türkdilli alan tayfalarını (az-kişilər, xorouçonlar, qaraçalar) B.-ın və qaraçaylıların bilavasitə sələfləri hesab etmək olar. 1-ci minilliyin sonu – 2-ci minilliyin əvvəllərində Balkariyada xristianlıq, islam, qismən də iudaizm yayılmışdır; 17 əsrdə isə qəti şəkildə islam bərqərar olmuşdur. B.-ın siyasi birlikləri – Baksan (Baksan çayı boyu), Xolam və Bezengi (Çerek-Xulam çayı boyu), Balkar (Çerek-Balkar çayı boyu), Çegem (Çegem çayı boyu) *camaatlıqları* mövcud olmuşdur. Silk bölgüsü inkişaf etmişdir, camaatlığın ali təbəqəsini knyazlar (taubiylər, biylər) və zadəgan-özdənlər (ullu-özdənlər, saray-ma-özdənlər və kerti-özdənlər) təşkil edirdi. Camaatlığın həyatı əyanların qanun məcəlləsi (qaraçay col-coruq, özdəntörələ, özdənlik), zadəganların (qarça-namıs, biy-namıs) və xalqın (tau-adət, xalqnamıs, yaxud çərkəz-namıs) mənəvi-əxlaqi qaydalarına əsaslanırdı.

1827 ildə B. rus təbəəliyini qəbul etmişlər. 1860–70-ci illərdə B.-ın bir hissəsi çar hökuməti tərəfindən düzənlik yerlərə (Köndələn, Xasaut və b. kəndlərə) köçürülmüşdür. 1918 ildə *Dağlılar Respublikasının* tərkibində Qaraçay-Balkar dairəsi, 1921 ildə *Dağlılar MSSR* tərkibində Balkar milli dairəsi, 1922 ildə Kabarda-Balkar Muxtar Vilayəti, 1936 ildə Kabarda-Balkar MSSR təşkil olunmuşdur (bax *Kabarda-Balkar Respublikası*). 1944 ildə B. Orta Asiya və Qazax.-a deportasiya olunmuş, 1957 ildə isə onların əksəriyyəti vətənlərinə qayıtmışdır.

Ənənəvi mədəniyyətləri Qafqaz xalqları üçün səciyyəvidir. Əsas məşğuliyyətləri köçəbə maldarlıq və terraslı əkinçilik olmuşdur. Ovçuluq və arıçılıqla da məşğul idilər. Mahud (əsasən, baksanlılar, çegemlər və xulamlılarda) və keçə (o cümlədən *kiizlər*), yapıncı (əsasən, Dumala, Bulunqu, Yuxarı Baksan k.-lərində), odlu silah, barıt və güllə (çegemlərdə) istehsalı, həmçinin ağac üzərində oyma inkişaf etmişdir. 19 əsrədək sütunlar üzərində ağac-torpaq yastı damı, ocağı və bacası olan yerüstü daş evlər, qalalar, sərdabələr (keşene), daş qutu qəbirlər (şıyakılar), baksanlılar və çegemlilərdə isə divar ocaq-buxarısı və ikiyamaclı damı olan unikal "qaraçay evləri", baksanlılarda əyanlara məxsus "ağac qəsrlər" (başı cabılqan arbaz – sahəsi 1000 *m*²-ədək olan üstüörtülü həyəti və ümumi divarla əhatə olunmuş bir neçə kərtmə tikili) qalmaqda idi. Qaraçaylılar və B. üçün ümumi olan Çoppa-oyun (ildırım allahı Çoppa ilə bağlı) və Qollu adlı islamaqədərki bayramlar mövcuddur.

Ənənəvi geyimləri Şimali Qafqaz xalqlarının geyimlərinə uyğundur. Kişi geyimi alt və üst paltardan, həmçinin papaqdan və ayaqqabıdan ibarətdir. Üst paltar köynəkdən (könçək) və enli şalvardan (şalbar) ibarət olurdu. Köynək kişdən, çitdən, bezdən, satindən, mahuddan, ipəkdən tikilirdi. Yun köynəklər yayılmışdır (19 əsrin sonlarında onları yalnız çobanlar geyinirdi). Alt geyimin funksiyasını daha çox arxalıq (qaptal) daşıyırdı. Arxalığın üstündən geyinilən və sinəsində vəznələri olan çərkəzi (çepken) üst geyim kimi istifadə olunurdu. Paltarın üstündən mütləq silah, ilk növbədə xəncər asılırdı. Soyuq vaxtlarda kürk (ton) geyinirdilər. Dəridən, yaxud keçədən tikilmiş müxtəlif tipli ayaqqabılar yun corabla geyinilirdi. Baş geyimləri yun, yaxud keçə papaq və başlıq idi. Papağı hətta evdə çıxarmırdılar. Qadınlar tunikayabənzər köynək, enli tuman, kiçik kaftan, uzun don, yun kürk geyinir, başlarına şal, yaylıq, şərf örtür, papaq qoyur, müxtəlif bəzəklər taxırdılar. Bayram paltarları güləbətin və bafta ilə bəzədilirdi.

Yeməkləri qeyri-türk Qafqaz xalqlarının mətbəxindən özünəməxsus cəhətləri ilə fərqlənir (məs., ət şorbaları, soxta adlanan kolbasalar, cermelər, qıyma belsoxta və s.); knyaz və zadəgan ailələrində 61 komponentdən (xozdarxan-xıçın, krımxıçın) ibarət olan iri (diametri 1 *m*-ədək) piroqlar bişirilirdi; yas mərasimləri üçün ehsan yeməkləri lobyadan hazırlanır (aşıra-cırna, cırna); pivə (ara-sıra, qarça-sıra, albotay-sıra) hazırlanır; pivənin (ara-sıra, karça-sıra, albotay-sıra) və halvanın (xurbay-xalua, çeten-xalua, unxalua, sapran-xalua) bir neçə növü məlum idi.

F o l k l o r. Ev və tarla işləri – nehrə çalxalama ("Dolay"), toxuma, taxıldöymə ("Erirey") və b. əmək mahnıları ilə müşayiət olunurdu. Tarixi və qəhrəmanlıq mahnıları qorunub saxlanılır (ov allahı Apsatın qızı və ovçunun məhəbbətinə həsr olunmuş "Biynöger" mahnısı; Krım xanlarının yürüşlərinə qarşı mübarizəyə həsr olunmuş "Karça", "Cantuuqan", "Bek-Bolat", "Qapalau", "Açemez" mahnıları; başqa ölkələrə yürüşlər haqqında "Çöpölöü" və "Kaysınla" mahnıları; çar müstəmləkəçiliyinə qarşı mübarizəyə həsr olunmuş "Xasauka", "Xoj" mahnıları). Epos (*Nart dastanı*), tarixi və tarixi-qəhrəmanlıq mahnılarını

ənənəvi olaraq instrumental müşayiətlə, yaxud müşayiətsiz solist və kişi xoru ifa edir. Nart dastanının nəsrlə olan epizodlarının müğənni-dastançının (jomakçi, jırçı, narttayçı) simli alətdə öz müşayiəti ilə ifaetmə ənənəsi qorunub saxlanılır; bəzi nart mahnıları fleytanın, yaxud şax-şaxın müşayiəti ilə birsəsli ifa olunur. Məhəbbət mahnıları da ("Kanşau-biy", "Aktamak", "Kemisxan", "Aycayak" və b.) geniş yayılmışdır. Yayla çalınan qopuz (caya qopuz, ya qıl qopuz), barmaqla çalınan saz, 12 simli arfa (kınqır qopuz), fleytalar (sıbızqı, nunnu), qamış dilçəkli qopuz (şoppar qopuz), şax-şax (çoppa-xarsı), dəf (düngürçək), təbil (daurbaz) və s. ənənəvi musiqi alətləri, əsasən, ruslardan götürülmüş qarmon və akkordeonla sıxışdırılıb aradan çıxmışdır. Rəqsləri: abezek (abezex; 3 hissədən ibarətdir – abezexin özü, tüz tepseu və isteme); mərasim rəqsləri – çoppaqa-barıumek (yallıyaoxşar), kapateyna, tepena, kımsaqa-barıumek (qoşa və yallıyaoxşar rəqs elementlərini birləşdirən); solo kişi rəqsi (*islamey*). Rəqslər instrumental musiqi ilə müşayiət olunur.

**BÁLKER** (ing. bulk – qalaqla yükləmə) – qablaşdırılmamış yükləri daşımaq üçün gəmi. İxtisaslaşdırılmış (məs., filizdaşıyan, sementdaşıyan və s.) və universal növləri var. Birgöyərtəli gəmi olan B.-in maşın bölməsi və arxa hissəsində üst tikililəri var. Yük anbarı yükün uzununa və eninə paylanmasını təmin edən maili arakəsmələrdən ibarətdir. Gəmi bəzən anbarın altında yerləşən konveyer, çalovlu elevator və pnevmatik qurğularla (tozvarı yuklər üçün) təchiz olunur. B. 150 min *t*-a qədər yük götürə bilir.

**BALKÓN** – bax *Eyvan*.

**BALQABAQ** – bax *Qabaq*.

**BALL** (fr. balle – top, kürə) – hər hansı təbiət hadisəsinin (məs., dənizin dalğalanması, zəlzələ), bilik səviyyəsinin, bəzi idman növü nəticələrinin (məs., fiqurlu konkisürmə) və s. dərəcəsinin və ya intensivliyinin kəmiyyətcə qiymətləndirilməsi. B.-lar rəqəmlərlə, yaxud digər yüksələn xətt üzrə nizamlanmış işarələrlə (aşağı B., orta B., yüksək B.) göstərilir. Belə qiymətləndirmə şkalaları (bax *Ölçmə şkalaları*), bir qayda olaraq, proporsional deyildir və buna görə də ölçmə vahidi sayılmır.

**BÁLLA** Cakomo (18.7.1871, Turin – 1.3.1958, Roma) – İtaliya rəssamı və heykəltəraşı. Turindəki Alberti Akademiyasında təhsil almışdır (1891). Yaradıcılığına *neoimpressionizmin* (o cümlədən C. Seqantinin, J. Sör və P. Sinyakın) və hərəkətdə olan obyektlərin dinamikasını qeyd edən eksperimental fotoqrafiyanın (E.J. Mari, E. Maybric və b.-nın) təsiri olmuşdur. İtaliya futurizminin banilərindən biridir. İllər keçdikcə daha çox predmetsiz məhiyyət daşıyan hərəkət ritmikası və işıq oyunu B. yaradıcılığının başlıca mövzusu olmuşdur ("Əlvanlığın qarşılıqlı təsiri" seriyası, 1912, Balla ailəsinin kolleksiyası və Romadakı Müasir incəsənət milli qalereyası; "Avtomobil – sürət, işıq, səs", 1913, Kunsthaus, Sürix; "Sürət xətləri" seriyası, 1913–14, Balla ailəsinin kolleksiyası). 1915 ildə "Kainatın futurist yenidənqurulması haqqında" (F. Depero ilə birgə) manifestini nəşr etdirmiş, həmin dövrdə heykəltəraşlığa meyil göstərmişdir ("Boççoninin yumruğu. Güc xətləri"; ağac və karton, 1915, şəxsi kolleksiya, Detroyt); kinetik məkan obyektləri yaratmış, səhnəqrafiya ilə məşğul olmuşdur ("Atəşfəşanlıq" baleti, İ.F. Stravinskinin musiqisi əsasında, 1917, Roma, Dyagilevin rus baleti). Teatr aktyoru kimi də çıxış etmişdir. 1930-cu illərdə daha çox ənənəvi olan fiqurativ boyakarlıqla məşğul olmuşdur.



C. Balla. Küçə fənəri. 1909.

**BALLABÚR**, B ə l l ə b u r – Azərb. Resp. Lənkəran r-nunun Şağlakücə ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* c.-q.-də, Ballabur qayasının ətəyində, Lənkəran–Lerik avtomobil yolunun kənarındadır. Əh. 708 (2008); tərəvəzçilik, sitrus meyvəçiliyi və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, tibb məntəqəsi; məscid var.

**BALLÁDA** (fr. ballade, provansalca balada – rəqs mahnısı, son lat. ballo – rəqs etmək) – 1) 14–15 əsrlərdə Fransada musiqili-poetik janr. Şeir forması (poeziyada əsas formalardan biri) bəndlərin sonunda nəqarət olan eyni qafiyəli 3 bəndi birləşdirir. Musiqili forma hər bəndin mətnini üç hissəyə bölür. Məhəbbət mövzusu səciyyəvidir. Musiqili-poetik B.-nın ən parlaq nümunələrini Gilyom de *Maşo* yaratmışdır (o cümlədən "Bütün güllərin hamısından"). 15 əsrdə (Pizalı Kristina, F. Viyon) yalnız poetik (musiqisiz) B.-lar yayılmışdı; 2) 14–16 əsrlərdə ingilis-şotland xalq poeziyasında tarixi (sonralar həmçinin nağıl və məişət) mövzularda lirik-epik janr. Belə B.-lar *ispan romansı*, rus *bılinalarının* və tarixi mahnılarının bəzi növləri, sonralar həmçinin B. adlandırılan alman xalq nəğmələri ilə oxşardır. Romantizmdən əvvəl və romantizm dövründə xalq B.-sına olan maraq (T. Persinin "Qədim ingilis poeziyası abidələri" xalq poeziyası toplusu, 1765; L. Arnim və K. Brentanonun "Oğlanın sehrli şeypuru", 1806–08) analoji ədəbi B. janrının (V. Skott, R. Sauti, Q. Bürger, F. Şiller, İ.V. Göte, A. Mitskeviç, A.S. Puşkin, M.Y. Lermontov və b.) yaranmasına səbəb oldu. Burada, adətən, nağıl, yaxud tarixi mövzular işlənilirdi, müasir mövzulara nadir hallarda müraciət olunurdu.

Müasir poeziyada B. formasında tez-tez müharibə mövzusunda şeirlər yaradılırdı (N.S. Tixonov, K.M. Simonov). Ədəbi B. şəhər folkloru, estrada mahnıları ilə yaxınlaşmaya meyillidir (B. Brext); 3) vokal və instrumental musiqi janrı. 18 əsrin ortalarından Avropa (ilk dəfə alman) musiqisində poetik B.-nın mətninə yazılmış, adətən fp. ilə bir səs üçün mahnılar yayılmışdı. Mahnı B.-sının inkişafı Avstriya-alman romantizmi ilə bağlıdır (F. Şubertin "Meşə çarı", K. Löve, R. Şuman və H. Volfun əsərləri). Rusiyada B. 19 əsrdə alman mədəniyyətinin təsiri ilə meydana gəlmişdir (A.P. Borodin, M.P. Musorqski, P.İ. Çaykovski və b.-nın əsərləri). Operada B.-dan *ariya* növü kimi hekayə funksiyasında istifadə olunur: Sentanın ("Uçan hollandiyalı", R. Vaqner), Finnin ("Ruslan və Lyudmila", M.İ. Qlinka), Tomskinin ("Qaratoxmaq qadın", P.İ. Çaykovski) balladaları. 18–19 əsrlər vokal B.-sına xas təhkiyəçilik, süjetlilik və obrazlılıq romantik instrumental B.-da (F. Şopen, F. List, İ. Brams, E. Qriq) öz əksini tapmışdır. Sonralar B. başqa janrlarla da birləşdirilir [N.K. Metnerin fp. üçün sonata-balladası, 1914; A.K. Qlazunovun violonçel ilə orkestr üçün konsert-balladası, 1931; N.Y. Myaskovskinin simfoniya-balladası (22-ci simfoniya), 1941].





**BÁLLANQRUD** İvar (7.3.1904 – 1.6.1969) – Norveç idmançısı (konkisürmə idmanı); 1920–30-cu illərdə dünyanın ən yaxşı konkisürənlərindən biri. 2-ci Qış Olimpiya Oyunlarının (1928, Sankt-Morits; 5000 *m*) və 4-cü Qış Olimpiya Oyunlarının (1936, Qarmiş-Partenkirxen; 500 *m*, 5000 *m*, 10000 *m*) çempionu, müxtəlif məsafələrdə Qış Olimpiya Oyunlarının (1928–36) çoxqat mükafatçısı, dördqat mütləq dünya çempionu (1926, 1932, 1936, 1938), çoxqat Avropa (1929–36) çempionu, 1000 *m*, 1500 *m*, 3000 *m*, 5000 *m*, 10000 *m* məsafələrdə dəfələrlə dünya rekordçusu (1928–38) olmuşdur.



**BALLAR** – Azərb. Resp. Ağdam r-nunun Üçoğlan ə.d.-ndə kənd. R-n mərkəzindən 26 *km* şm.-ş.-də, Qarabağ düzündədir. Əh. 241 (2008); heyvandarlıq, pambıqçılıq və taxılçılıqla məşğuldur. Feldşer-mama məntəqəsi, kitabxana var.

**BÁLLARAT** – Avstraliya İttifaqının c.-unda, Viktoriya ştatında şəhər. Əh. 70 min (2003). D.y. qovşağı. Toxuculuq, yeyinti, k.t. maşınqayırması sənayesi müəssisələri var.

**BÁLLARD** Ceyms (15.11.1930, Şanxay – 19.4.2009, London) – ingilis yazıçısı. 1942–45 illərdə valideynləri ilə birgə yapon həbs düşərgəsində saxlanılmışdır [bu ağır günləri B. "Günəş imperiyası" (1984; 1987 ildə S. *Spilberq* tərəfindən ekranlaşdırılmışdır) romanında təsvir etmişdir]. Kembric Un-tində tibb təhsili almışdır (1949–51). 1956 ildən çap olunmağa başlamışdır. B. öz əsərlərində çoxlu ədəbi, fəlsəfi və təsviri allüziyalar (S. Dali, F. Kafka, C. Konrad, Z. Freyd, O. Haksli, K.Q. Yunq və b.) hesabına *elmi fantastikanı* intellektuallaşdırmağa çalışmışdır. Müasir sivilizasiyanın tənqidi onun yaradıcılığında apokaliptik səciyyə daşıyır (ekoloji roman-fəlakət "Məhv olmuş dünya", 1962; eksperimental roman-kollaj "Qəddarlıq sərgisi", 1970; sarsıdıcı psixoanalitik qrotesk "Avtoqəza", 1973, 1996 ildə D. Kronenberq tərəfindən ekranlaşdırılmışdır; urbanistik robinzonada "Beton ada", 1974; siyasi pamflet "Superkann", 2000).

**BALLÁRİ**, B e l l a r i – Hindistanda, Karnataka ştatında şəhər. Əh. 245 min (2003). Dekan yaylasının c.-unda, Haqari çayı sahilindədir. Pambıq və yun parça, şəkər istehsalı, metal emalı sənayesi var. Pambıq ticarəti mərkəzidir. Yaxınlığında dəmir filizi çıxarılır.

**BALLÁST** – 1) gəminin suya oturmasını və ləpəyədayanıqlığını təmin etmək üçün ona yerləşdirilən yük. Gəmidəki faydalı yük kifayət etmədikdə B.-dan istifadə olunur. Daimi (sabit) B. kimi bərk materiallar (sementlə çuqun qırmaların qarışığı, daş, qum və s.), dəyişilən B. kimi maye (su) tətbiq edilir. Yelkənli və kifayət qədər ləpəyədayanıqlı olmayan gəmilərdə daimi bərk B. yerləşdirilir. 2) Havada hərəkət edən aparatların (aerostat, dirijabl və s.) qalxma qabiliyyətini tənzimləmək üçün yük. 3) Yolun üst hissəsinin *ballast təbəqəsi* üçün material (çınqıl, qırmadaş, qum və s.).

**BALLAST SİSTEMİ**, g ə m i d ə – maye ballastı qəbul etmək, gəmiyə vurmaq və boşaltmaq üçün boru kəmərləri və nasoslar. B.s. yükvurma, boşaltma işləri zamanı, buzlu ərazilərdə üzərkən və qəza hallarında gəminin ballastlanması, həmçinin dayanıqlığının tənzimlənməsi, süni kren (kren sistemi), yaxud differentin yaradılması üçün istifadə edilir.

**BALLAST TƏBƏQƏ** – dəmir yolunun üst quruluşunda hissə; yolun torpaq yatağına dənəvər materiallardan (çınqıl, qırmadaş, qum və s.) döşənən ensiz təbəqə şəklindədir. B.t. şpallar üçün elastik əsas rolunu oynayır və relsarası məsafənin sabitliyini, qatarların səlis hərəkətini təmin edir.

**BALLASTER**, b a l l a s t y o r – bax *Elektroballaster*.

**BÁLLENİ ADALARI** (Balleny İslands) – Sakit okeanın c.-unda vulkan adalarından ibarət arxipelaq. Ots Sahilinin (Şərqi Antarktida) 300 *km*-liyindədir. C.-ş.-dən şm.-q.-ə 160 *km* məsafədə uzanan üç böyük (Yanq, Bakl və Sterc) və bir neçə kiçik adadan ibarətdir. Hünd. 1524 *m*-ədək. Buzlaqlarla örtülüdür. Məskunlaşmamışdır. 1839 ildə C. Ballenin ingilis ekspedisiyası tərəfindən kəşf olunmuşdur.

**BALLIBABA** – bax *Dalamaz*.

**BALLIBADI** – bax *Badı*.

**BALLICA**, ö f k ə o t u, c i y ə r o t u (Pulmonaria) – göyzəbankimilər fəsiləsindən bitki cinsi. Kökümsovlu çoxillik otlardır. Kökətrafı yarpaqları saplaqlı, gövdə yarpaqları isə az və oturaqdır. Təpə çiçək qrupunda – qıvrımlarda yerləşən çiçəkləri 5 üzvlüdür. Qifvarı bükümlü çiçək tacının əsnəyində 5 topa tükcüyü var. Çiçəkləmə dövründə çox vaxt rəngi çəhrayıdan bənövşəyi-göyədək dəyişir, lakin bəzi növlərə həmişə qırmızı və bənövşəyi olur. Meyvəsi parıltılı, fındıqcığabənzər 4 ədəd birtoxumlu dilimcikdən ibarətdir. Avropa və Sibir meşələrində 15 növü məlumdur. B.-nın yerüstü hissəsinin (otunun) tərkibində aşı maddələri, mikroelementlər, karotin, askorbin turşusu, selik var; xalq təbabətində bəlğəmgətirici və büzücü, qankəsici, yarasağaldıcı vasitə kimi qədimdən istifadə edilir. Balverəndir. B. növləri dekorativdir.



Ballıca (Pulmonaria).

**BALLICA** – İrəvan xanlığının Qırxbulaq mahalında (9.9.1930 ildən Kotayk, 12.10.1961 ildən Abovyan r-nu), Qırxbulaq çayının yuxarı axarında azərb.-ların yaşadığı kənd. 18 əsrin 2-ci yarısında aramsız müharibələr zamanı kənd xarabalığa çevrilmişdir.

**BALLICA** – Azərb. Resp. Xocalı r-nu ərazisində çay. Qarqar çayının sol qolu. Uz. 24 *km*, hövzəsinin sah. 103 *km*². Qarabağ silsiləsindən (2160 *m* hünd.-dən) başlanır.

**BALLICA** – Azərb. Resp. Xocalı r-nunda kənd. Ballıca ə.d.-nin (Ballıca, Xanyurdu, Mehdibəyli k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 8 *km* c.-q.-də, Ballıca çayının sol sahilində, Qarabağ silsiləsinin ətəyində. Əh. 880 (2008); işğaldan (fevral, 1992) əvvəl heyvandarlıq və taxılçılıqla məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, mədəniyyət evi, kitabxana, tibb məntəqəsi, rabitə şöbəsi var idi.

**BALLICA** – İranın Ərdəbil ostanında kənd. Mişkinşəhr şəhristanının Mərkəzi bölgəsinin Şərqi Mişkin kəndistanında, Mişkinşəhrdən 6 *km* c.-ş.-də, Mişkin-

şəhr–Ərdəbil avtomobil yolunun 5 *km*-liyindədir.

**BALLICALI** – Azərb. Resp. Neftçala r-nunun Boyat ə.d.-ndə kənd. R-n mərkəzindən 28 *km* şm.-q.-də, Kür çayının sağ sahilindədir. Əh. 595 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Kitabxana var.

**BALLIQAYA** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Gorus r-nu) azərb.-ların yaşadığı kənd. 1918 ildə ermənilərin hücumları nəticəsində dağıdılmış, əhalisi isə qovulmuşdur. Zəngəzur dağ silsiləsində eyni adlı dağ mövcuddur.

**BALLIQAYA** – Azərb. Resp. Ağdam r-nunun Sırxavənd ə.d.-ndə kənd. R-n mərkəzindən 32,5 *km* şm.-q.-də, Xaçınçayın sol sahilindədir. Əh. 162 (2008); işğaldan (1993, iyul) əvvəl heyvandarlıq, bağçılıq və üzümçülüklə məşğul olmuşdur. Orta məktəb, kitabxana, klub; qədim kurqan var idi.

**BALLIQAYA** – Azərb. Resp. Xızı r-nu ərazisində dağ. Xızı ş.-ndən 4 *km* şm.-da, Ataçayın sağ sahilindədir. Hünd. 986,2 *m*.

**BALLIQAYA** – Azərb. Resp. Qubadlı r-nunun Hal ə.d.-ndə kənd. R-n mərkəzindən 14 *km* c.-ş.-də, dağətəyi ərazidədir. Əh. 211 (2008); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq və taxılçılıqla məşğul olmuşdur. İbtidai məktəb, klub, kitabxana var idi.

**BALLIQAYA** – İranın Ərdəbil ostanında kənd. Mişkinşəhr şəhristanının Mərkəzi bölgəsinin Qərbi Mişkin kəndistanında, Mişkinşəhrdən 15 *km* c.-q.-dədir.

**BALLIQAYA** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Quruçay kəndistanında, Qaraağac qəs.-ndən 41,5 *km* c.-q.-də, Marağa–Miyanə avtomobil yolundan 23 *km* c.-dadır.

**BALLIQAYA KURQANLARI** – Azərb. Resp. Xankəndi r-nu ərazisində, Xaçınçayın sol sahilində e.ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin əvvəllərinə aid arxeoloji abidə. 1894 ildə E.A. Reslerin tədqiq etdiyi qəbirdə kəlləsiz skelet tapılmışdır (ehtimal ki, bu, keçmişdə bir çox tayfa və xalqlarda yayılmış adətlə – düşmən başının kəsilib aparılması ilə əlaqədardır). Qəbirdən tunc məmulat – döyüş yabası, əsa başlıqları, ox ucluqları, qarmaq, düymələr, bilərziklər, həmçinin sümük əşyalar, qara rəngli gil qablar tapılmışdır. *Xocalı-Gədəbəy mədəniyyətinin* səciyyəvi abidəsidir.

**BALLIQAYĞANAQ** – bax *Qayğanaq*.

**BALLIQIŞLAQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Əhər ş.-ndən 25 *km* ş.-dədir.

**BALLINANƏ** – bax *Bədrənc*.

**BALLIYONCA** – bax *Barınc*.

**BALLİSTA** (yun. βαλλω – atmaq, tullamaq) – qədim dövrlərdən 5 əsrədək istifadə olunmuş döyüş maşını (bax *Atma maşınları*). B. burulmuş və tarım dartılmış liflərin (vətər, ip və s.) elastiklik qüvvəsinin təsiri ilə işləyirdi. Düşmənin müdafiə tikililərini, divarlarını, qalalarını dağıtmaq və onları qoruyan canlı qüvvəni məhv etmək üçün tətbiq edilirdi. B. ilə daşları (30 *kq*-adək), ağır oxları, dəmirə geydirilmiş tirləri (uz. 3,5 *m*-ədək), yanar qatranlı çəlləkləri və s. 400–800 *m*, yüngül oxları isə 1000 *m*-ədək məsafəyə atmaq mümkün idi. B.-ya bir neçə adam xidmət edirdi; atışa hazırlıq üçün 15 *dəq*-dən 1 saatadək vaxt tələb olunurdu.


Ballista.

**BALLİSTİK ENMƏ** – sıfır aerodinamik keyfiyyətə (qaldırıcı qüvvənin uçuş aparatının ön müqavimətinə nisbəti) malik kosmik uçuş aparatının atm.-də enməsi. Kosmik aparatın verilmiş xarakteristikaları üçün B.e. trayektoriyası və atm.-in məlum parametrləri əvvəlcədən hesablanır; kosmik UA-nın planet səthinin müəyyən r-nuna enməsini təmin etmək məqsədilə bu trayektoriya əsasında UA-nın atm.-ə giriş bucağı və yeri seçilir. B.e. insanın kosmosa ilk uçuşları zamanı tətbiq edilmişdir.

**BALLİSTİK QALVANÓMETR** – mütəhərrik hissəsi nisbətən böyük ətalət momentinə malik olan *qalvanometr*. B.q. qısamüddətli cərəyan impulsları zamanı kiçik miqdarda elektriki ölçmək üçün tətbiq edilir. Nəticə göstəricinin ballistik atılma adlanan ilk ən böyük meyiletməsinə görə hesablanır.

**BALLİSTİK ÖLÇMƏ ÜSULU** – fiziki kəmiyyətlərə mütənasib elektrik miqdarını (dövrədən qısamüddətli cərəyan impulsları keçərkən) ölçməklə, onların (kəmiyyətlərin) qiymətlərinin təyini. Elektrik miqdarı *ballistik qalvanometr* vasitəsilə təyin edilir; daha sonra axtarılan kəmiyyət ölçmə sxeminin parametrlərinə görə hesablanır. B.ö.ü. maqnit kəmiyyətlərinin (maqnit seli, maqnit induksiyası, sabit maqnit sahəsinin gərginliyi), eləcə də ferromaqnitlərin xarakteristikalarının (maqnit nüfuzluğu və özlüyü, maqnitlənmə xassəsi və s.) təyini üçün istifadə olunur.

**BALLİSTİK RAKÉT** – mühərrik söndürüldükdən sonra atılmış mərmi və güllə kimi ballistik trayektoriya üzrə uçan raket. Funksional təyinatına görə sualtı qayıqdan buraxılan dəniz, şaxta qurğusundan buraxılan yerüstü, mobil kompleksdən buraxılan yerüstü B.r. növlərinə ayrılır. Yerüstü B.r.-in yaxın (500–1000 *km*), orta uzaqlıqlı (1000–5500 *km*), qitələrarası (5500 *km*-dən yuxarı) növləri olur. İlk dəniz B.r.-i (P-11FM) 1955 ildə S.P. *Korolyovun* rəhbərliyi altında sualtı qayıqdan buraxıldı. B.r.-in *qanadlı raket* kimi daşıyıcı səthi olmadığına görə bəzən uçuşda aerodinamik dayanıqlıq yaratmaq üçün o, stabilizatorla təchiz edilir. Uçuş trayektoriyasının aktiv sahəsində raket mühərrikləri B.r.-ə lazımi sürət və hərəkət istiqamətini verir, passiv sahədə isə uçuş ballistik trayektoriya üzrə davam edir. B.r.-ə daşıyıcı raketlər, kosmik aparatı verilmiş orbitə çıxarmaq üçün sürətləndirici pillələr, qitələrarası raketlər də daxil olmaqla döyüş raketləri aiddir. B.r.-ə mayeli və bərk yanacaqlı raket mühərriki quraşdırılır. Böyük start kütləli B.r.-in əsas fərqləndirici cəhəti xüsusi qurğudan şaquli start götürməsidir.

**BALLİSTİKA** (alm. Ballistik, yun. βαλλω – atmaq, tullamaq) – artilleriya mərmisi, aviasiya bombası, mina, qumbara və güllələrin, həmçinin raketlərin, onların döyüş bloklarının, kosmik aparatların və s. hərəkətini öyrənən elm. Belə hərəkətin xarakterik xüsusiyyəti onun iki hissədən – aktiv (sürətgötürən, sürətləndirici) uçuşdan və passiv (sərbəst) uçuşdan ibarət olmasıdır. Aktiv uçuşda cism kinetik enerji ehtiyatı götürür, passiv uçuşda isə aldığı enerjini mühitin müqavimətini və ağırlıq qüvvəsini dəf etmək üçün sərf edir. B. nəzəri mexanika, göy mexanikası, qaz dinamikası, termodinamika və aerodinamika qanunlarına, barıtların yanma nəzəriyyəsinə, ehtimallar və riyazi statistika nəzəriyyəsinə, idarəetmə nəzəriyyəsinə və s. əsaslanır. B.-nın başlıca metodu hesablama texnikasının köməyilə mərmi və raketlərin diferensial və başqa tənliklər sistemi ilə təsvir olunan hərəkətinin riyazi modelləşdirilməsidir. B. hərbi işlərdə, kosmonavtikada, kriminalistikada və s. geniş tətbiq olunur. Lüləli sistemlərin və raketlərin (reaktiv mərmilərin) B.-sının tərkib hissələrini daxili və xarici ballistika təşkil edir.

*D a x i l i* B. partlayıcı atımın yanması nəticəsində yaranan qazların təsiri altında top lüləsinin kanalında mərminin hərəkətini, həmçinin atəş zamanı lülə kanalında və ya raketin yanma kamerasında baş verən digər proseslərin qanunauyğunluqlarını öyrənir. Lüləli sistemlərin daxili B.-sının əsas bölmələri pirostatika, pirodinamika və silahın ballistik layihələndirilməsidir. Pirostatika partlayıcı atımın sabit həcmdə yanması, eləcə də yanma zamanı qazların əmələgəlmə qanunauyğunluqlarını öyrənir. Pirodinamika atəş vaxtı lülə kanalında baş verən proses və hadisələri tədqiq edir və lülə kanalının konstruktiv xarakteristikaları ilə onun doldurulma şərtləri, atəşaçmada baş verən müxtəlif fiziki-kimyəvi və mexaniki proseslər arasında əlaqəni müəyyənləşdirir. Silahın ballistik layihələndirilməsində müəyyən kütlə və kalibrli (çaplı) mərminin lazımi sürətlə hərəkəti üçün lülə kanalına dair konstruktiv məlumatlar və onun doldurulma şərtləri təyin edilir. Raketlərin daxili B.-sında nisbətən kiçik təzyiqlərdə bərk yanacağın yanma qanunauyğunluqları nəzərdən keçirilir, yanma kamerasında qazın təzyiqinin dəyişməsinin zamandan asılılığı, raketin lazımi sürətini təmin etmək üçün dartı qüvvəsinin dəyişmə qanunauyğunluqları, energetik xarakteristikası, yanacağın kütlə və forması, ucluğun konstruktiv parametrləri (raketin verilmiş kütləli döyüş hissəsində zəruri dartı qüvvəsini təmin edən) təyin edilir.

*X a r i c i* B. raket, mərmi və s.-nin işəsalma mexanizmləri ilə (silahın lüləsi və ondan çıxan qazlarla) qarşılıqlı təsiri kəsildikdən sonrakı hərəkətini, həmçinin bu hərəkətə təsir edən amilləri öyrənir. Xarici B.-da həll edilən əsas məsələlər: verilmiş başlanğıc şərtlər (qalxma bucağı, başlanğıc sürət və s.), hərəkət zamanı təsir göstərən qüvvələr, momentlər və əlaqələr şəraitində mərmi və raketin hərəkət parametrlərinin və elementlərinin təyini; mərmi və raketlərin verilmiş tam uzaq məsafəyə uçuşunun başlanğıc şərtlərinin təyini; atəşaçmanın həqiqi şərtlərinin cədvəldən sapmalarının hesablanması və onların düzəlişi; səpələnmənin azaldılması yollarının tədqiqi və onun ədədi xarakteristikalarının təyini; mərmi və raketlərin hərəkət dayanıqlığını təmin edən yolların əsaslandırılması; mərmi və raketlərə uçuş zamanı təsir edən qüvvə və momentlərin təyini; mərmi və raketlərin konstruktiv xüsusiyyətlərinin hərəkətə təsirinin aşkar edilməsi; silahın ən yaxşı konstruktiv həllini almaq üçün trayektoriyaların optimallaşdırılması; verilən trayektoriyalar üzrə hərəkət edən raketlərin xarakteristikalarının təyini və s. Xarici B. metodları, həmçinin idarəedici qüvvə və momentlərin təsiri olmadan kosmik aparatların hərəkət qanunauyğunluqlarının öyrənilməsində istifadə edilir.

B. Qədim Yunanıstanda atma silahın (*katapult*, *ballista* və s.) düzəldilməsi və tətbiqi ilə bağlı olaraq, əsasən, *Arximedin* fəaliyyəti sayəsində meydana gəlmişdir. N. Tartalya (16 əsr), Q. *Qaliley*, E. *Torriçelli*, M. Mersenn (17 əsr) öz elmi əsərləri ilə B.-nın sonrakı inkişafına təkan vermişlər. 17–18 əsrlərdə X. *Hüygens*, P. Varinyon, İ. *Bernulli*, L. *Eyler* və b. mərmilərin hərəkətini öyrənməklə məşğul olmuşlar. B.-nın inkişafında 19–20 əsrlərdə rus alimlərindən V.A. Ankudoviç, M.V. Ostroqradski, N.V. Maiyevski, N.F. Drozdov, İ.P. Qrave, N.A. Zabudski, D.A. Ventsel, A.N. Krılov, V.S. Puqaçov və b. B.-nın inkişafında mühüm rol oynamışlar.

*Əd.*: С е р е б р я к о в М.Е. Внутренняя баллистика ствольных систем и пороховых ракет. 3-е изд. М., 1962; Баллистика и навигация ракет. М., 1985; И в а н о в Н.М., Д м и т р и е в с к и й А.А., Л ы с е н к о Л.Н. Баллистика и навигация космических аппаратов. 2-е изд. М., 2004.

**BALLİSTİT** – bax *Barıt*.

**BALMASEDA** (Balmaceda) Xose Manuel (19.7.1840, Santyaqo – 18.9.1891, Santyaqo) – Çili dövlət və siyasi xadimi. 1864–65 illərdə Ali məhkəmənin sədri olan Çilinin keçmiş prezidenti M. *Montun* şəxsi katibi. Milli partiyaya sədrlik edən Montla yaxınlıq və mətbuatda liberal islahatların keçirilməsi uğrunda fəal təşviqatı ona 1870–82 illərdə ardıcıl olaraq dörd dəfə parlamentə seçilmək imkanı yaratdı. 1878–81 illərdə Argentinada diplomatik nümayəndə, 1881–86 illərdə Çilinin xarici işlər naziri və daxili işlər naziri olmuşdur. 1886 ildə ölkənin prezidenti seçilmişdir. B. milli burjuaziyanın maraqlarını əks etdirərək xarici dağ-mədən kompaniyalarının ölkədən sıxışdırılıb çıxarılmasına dair milli-radikal proqram hazırlamış və "Çili – çililərindir!" şüarı altında onu həyata keçirməyə başlamışdır. B. dövlət mülkiyyətinin müsadirəsini qadağan etmiş, sənaye və ordu üçün milli kadrların hazırlanması məqsədi ilə təhsil müəssisələri yaratmışdır. B.-nın islahatçılıq fəaliyyəti xarici kompaniyalarla əlaqəli olan ticarət-maliyyə qruplarına və latifundiyaçılara arxalanan mühafizəkar siyasi, dini və hərbi dairələrin müqavimətinə səbəb olmuşdur. 1891 ilin yanvarında B. parlamentin razılığı olmadan ölkə büdcəsini təsdiqlədi. Buna cavab olaraq müxalifəti təmsil edən deputatların əksəriyyəti prezidenti hakimiyyətdən uzaqlaşdırdı. Vətəndaş müharibəsi başlandı və avqust ayında B.-nın rəqibləri qalib gəldilər. Hakimiyyətinin itirilməsinin qaçılmaz olduğunu başa düşən B. səlahiyyətlərinin bitməsinə bir gün qalmış intihar etdi və bu, onun tərəfdarlarına baş vermiş hadisəni dövlət çevrilişi kimi qiymətləndirməyə əsas verdi.

**BÁLMER DEKREMENTİ** – *Balmer seriyası* emissiya spektri xətlərinin intensivliklərinin bu seriyanın dalğa uzunluğu 486,1 *nm* olan ikinci xəttinin intensivliyinə ($H_\beta$) nisbəti. Qaz dumanlıqlarında bu nisbət qazın sıxlığından və temp-rundan, əsasən, zəif asılı olur, ona görə də standart kimi qəbul edilir. Balmer seriyasının birinci xətləri üçün B.d.

$$H_\alpha:H_\beta:H_\gamma:H_\delta = 2,85:1:0,47:0,26$$

bərabərdir.

Bu B.d. (bəzən onu nebulyar dekrement adlandırırlar) spektral xətlərin intensivliyinin müşahidə və nəzəri yolla alınan nisbətlərini müqayisə etməklə işığın ulduzlararası udulmasının qiymətləndirilməsi üçün geniş istifadə olunur. Digər astronomik obyektlərdə (ulduzların qaz örtükləri, qalaktikaların nüvələri) B.d. hidrogen atomlarının həyəcanlanma şəraitindən asılıdır və nebulyar dekrementdən əhəmiyyətli dərəcədə fərqli ola bilər.

**BÁLMER SERİYASI** – hidrogen atomunun spektrlərində spektral seriya. İsveçrə alimi İ.Y. Balmerin adı ilə adlandırılmışdır. B.s. xətlərinin $\nu$ dalğa ədədləri Balmer düsturu ilə təyin edilir:

$$\nu = R\left(\frac{1}{2^2} - \frac{1}{n^2}\right)$$

burada $n$ = 3, 4, 5, ..., $R$ – Ridberq sabitidir. B.s. xətləri spektrin görünən oblastında və ultrabənövşəyiyə yaxın oblastında yerləşir. $n$ = 3, 4, 5,... qiymətlərinə uyğun olan xətlər müvafiq surətdə $H_\alpha$, $H_\beta$, $H_\gamma$,... ilə işarə olunur. B.s. ilk dəfə Günəş spektrində aşkar edilmişdir (*C, F, G* və *L Fraunhofer xətləri* – B.s.-nın ilk dörd xəttidir). B.s.-nın birinci xəttinin dalğa uzunluğu ($\lambda = 1/\nu$) 656,28 *nm*, seriyanın sərhədi $\lambda$ = 364,6 *nm*-dir.

B.s.-nı elektrik boşalması zamanı hidrogendə müşahidə etmək olar, o əksər kosmik obyektlərin spektrlərində mövcuddur. B.s. xətlərinin intensivliklərinin analizi ulduzların temp-ru, onun xətlərinin konturlarının müqayisəsi isə ulduzların atmosferinin sıxlığı haqqında fikir yürütməyə imkan verir.

**BÁLMER SIÇRAYIŞI** – *Balmer seriyası* sərhədi ($\lambda$ = 364,6 *nm*) yaxınlığında dalğa uzunluqlarının kiçik intervalında hidrogenin şüalanma (və ya udulma) spektrində intensivliyin kəskin dəyişməsi. B.s. zamanı 364,6 *nm*-dən kicik dalğa uzunluqlu hər hansı işıq kvantı 2-ci enerji səviyyəsində həyəcanlanmış hidrogen atomu ilə qarşılaşdıqda onu ionlaşdırır; daha kiçik enerjili fotonlar isə yalnız onların enerjiləri Balmer keçidlərindən birinə dəqiq uyğun olduqda, belə atomlar tərəfindən udulur.

Ulduzların spektrində B.s. adətən işığın absorbsiyası nəticəsində baş verir, yəni 364,6 *nm*-dən böyük dalğa uzunluqlarında spektrin intensivliyi kiçik dalğa uzunluqlarına nisbətən əhəmiyyətli dərəcədə yüksək olur; buna səbəb ulduzların daxilində temp-run artması və 364,6 *nm*-dən uzun dalğalar tərəfdə udulma əmsalının azalmasıdır. Qaz dumanlığında maddənin sıxlığı ulduzların sıxlığına nisbətən son dərəcə az olduğundan emissiya tipli B.s. yaranır, yəni 364,6 *nm*-dən qısa dalğalar tərəfdə daha güclü şualanma baş verir. B.s. ilə yanaşı hidrogen atomunun digər spektral seriyalarının sərhədində və başqa kimyəvi elementlərin güclü spektral seriyalarında da sıçrayışlar mövcuddur.



**BÁLMÓNT** (birinci hecadakı vurğu soyadını, ikinci hecadakı isə ədəbi adını bildirir) Konstantin Dmitriyeviç (15.6.1867, Vladimir qub.-sı, Qumnişi k. – 23.12.1942, Paris yaxınlığında Nuazi-le-Qran) – rus şairi, nasir, tənqidçi, tərcüməçi. Kasıb zadəgan ailəsindəndir. Moskva Un-tində oxumuşdur (1886–87; tələbə iğtişaşlarında iştirak etdiyinə görə xaric edilmişdir). Şeirlərini ilk dəfə 1885 ildə, ilk şeir toplusunu isə 1890 ildə Yaroslavlda nəşr etdirmişdir (tirajın böyük hissəsini məhv etmişdir). Əvvəlcə P.B. Şellinin və E. Ponun əsərlərinin tərcüməçisi kimi məşhurlaşmışdır [ömrü boyu tərcümə (30-dan çox dildən) ilə məşğul olmuşdur. Kalderonun pyeslərinin və Ş. Ruştavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərinin tərcümələri nümunəvidir]. "Şimal səması altında" (1894) və "İntəhasızlıqda" (1895) kitablarında toplanmış şeirləri *impressionizmə* yaxındır. Yaşca böyük simvolistlərin mühitinə yaxınlaşan (Moskvada yaşayarkən, 1890-cı illərin ortalarında V.Y. Bryusov, bir qədər sonra S.-Peterburqda D.S. Merejkovski, Z.N. Gippius, N.M. Minski ilə ünsiyyətdə olmuşdur) B., bu cərəyanın tanınmış şairlərindən birinə çevrilmişdir. Onun ən yaxşı "Sakitlik" (1898), "Yanan binalar" (1900), "Günəş kimi olaq" (1903) şeir topluları özünəməxsus lirik trilogiyadır. Dünyada baş verənlərə, o cümlədən "iblisanə" hadisələrə coşqunluqla yanaşma ["Rəssam Şeytan" və senzura tərəfindən müsadirə olunmuş "Pis cadular" (1906) topluları bu baxımdan xüsusilə seçilir], ani hiss-həyəcanları qələmə ala bilmək bacarığı, şeirin mürəkkəb formalarından ustalıqla istifadə, dilinin fonetik zənginliyi B.-un şeirlərini son dərəcə populyar etmişdir. Tənqidi esselərdən ibarət "Dağ zirvələri" (1904), "Poeziya ovsun kimidir" (1915) kitabları böyük maraqla qarşılanmışdır. Ayrı-ayrı şeirləri, hətta kitabları ("Gözəllik liturgiyası", 1905; "Simurq", 1907 və s.) müvəffəqiyyət qazansa da, tənqidçilər daha çox B.-un yaradıcılığının tənəzzül etməsindən danışırdılar. Çağırış xarakterli siyasi şeirləri də onu bu vəziyyətdən xilas etməmişdi. B. dəfələrlə təqibə məruz qalmış, 1906–13 illərdə xaricdə yaşamağa məcbur olmuşdu (əsasən, Parisdə), lakin onun inqilabi şeirləri ("Qisasçının nəğmələri", 1907 və s.) istedadı səviyyəsinə uyğun deyildi. Birinci dünya müharibəsi və inqilab illərini B. Rusiyada yaşamışdır. "Mən inqilabçıyam, ya yox" (1918) esseist kitabında şəxsiyyətin sosial islahatlar üzərində üstünlüyünü təsbit edirdi. 1920 ildə sovet hökumətinin icazəsi ilə Fransaya getmiş, çox keçmədən orada bolşevik rejiminin kəskin tənqidi ilə çıxış etmişdir. 1920-ci illərdə və 1930-cu illərin 1-ci yarısında B. şeir və nəsr əsərləri yazmış, slavyan və Litva şairlərindən tərcümələr etmişdir; bir çox əsəri çap olunmuşdu. Avropaya səfərləri zamanı onun çıxışları böyük uğur qazanmışdı, lakin B. rus diaspor mərkəzlərində artıq əvvəlki nüfuza malik deyildi.

1937 ildə psixi xəstəliyə tutulmuş, unutqanlıq və səfalət içərisində vəfat etmişdir.

Əsərləri: Стихотворения. Л., 1969; Где мой дом. М., 1992; Избранное. М., 2003.

**BALNEOLÓGİYA** (lat. balneum – vanna, çimmə + ... *logiya*) – müalicəvi mineral suları, onların mənşəyini, fiziki-kimyəvi xassələrini, müxtəlif xəstəliklər zamanı orqanizmə təsirini öyrənən, kurortlarda və kurortdankənar şəraitdə onların tətbiqinə dair göstərişləri işləyib hazırlayan *kurortologiya* bölməsi. B. palçıqla müalicə, balneotexnika məsələlərini də öyrənir. Xarici ölkələrdə B.-ya həmçinin su ilə müalicə, talassoterapiya (dəniz vannaları), kurortların təşkili məsələləri və s. aid edilir. B. hidrogeologiya, fiziki və bioloji kimya, biologiya, fiziologiya, gigiyena və kliniki fənlər əsasında inkişaf edir. B.-da müalicə palçıqlarının və mineral suların fiziki-kimyəvi xassələrinə görə təsnifatı, onların müalicə-profilaktik istifadəsinin nəzəri əsasları (bax *Balneoterapiya*) və əsas müalicə metodikaları işlənib hazırlanmışdır. Resp.-da B. məsələləri, əsasən, Azərb. Elmi Tədqiqat Tibbi Bərpa İn-tunda öyrənilir.

**BALNEOTERAPİYA** (lat. balneum – vanna, çimmə + *terapiya*) – orqanizmin pozulmuş funksiyalarının mineral sularla müalicə və bərpası üsulları; elm bölməsi kimi *balneologiyaya* aiddir. Reflektor və humoral mexanizmlərə əsaslanan B. prosedurlarının müalicəvi təsiri, əsasən, sinir sistemi və qan vasitəsilə yerinə yetirilir. B.-nın orqanizmə təsiri ümumi fizioloji qanunauyğunluqla baş versə də, müxtəlif kimyəvi tərkibli mineral suların müalicəvi təsiri fərqlidir. Bəzi sular başlıca olaraq maddələr mübadiləsi prosesinə, digərləri vegetativ sinir sisteminin funksiyalarına, endokrin vəzilərinə və s. təsir göstərir. Mineral su vannaları dərinin reseptorlarına, temp-r, hidrostatik, kimyəvi, radiasiya və s. təsirlər göstərir. Mineral sulardakı qaz halında olan maddələr (karbon dioksid, azot, oksigen və s.) dəridən, tənəffüs yollarından və həzm sisteminin selikli qişasından keçərək, damarların, daxili orqanların reseptorlarına və sinir mərkəzlərinə təsir edir. Orqanizmin B.-ya reaksiyası proseduraların sayından və müddətindən, orqanizmin ilkin vəziyyətindən, onun fizioloji sistemlərinin reaktivliyindən də asılıdır.

B.-da istər təbii, istərsə də süni hazırlanmış mineral sulardan istifadə olunur; o, kurortlarda və kurortdankənar şəraitlərdə həyata keçirilir. B.-nın əsas prosedurları ümumi və yerli vannalar, müalicə hovuzlarında çimmə, mineral suların içilməsi, bağırsaqların yuyulması, kiçik imalələr, inhalyasiyalardır. Bax həmçinin *Mineral sular*.

*Əd.*: Лечение минеральными водами. М., 2000.

**BALÓN** (fr. ballon; ital. pallone – top sözündən) – 1) elektrovakuum (yaxud ion) cihazının vakuum yaradılmış (və ya təsirsiz qaz, civə buxarı doldurulmuş) və elektrodları olan kolbası; şüşə, metal və keramikadan hazırlanır; 2) qaz doldurub saxlamaq üçün rezin, rezinləşdirilmiş parça, yaxud metal qab, qovuq; 3) rezin (və ya rezinləşdirilmiş) parçadan hazırlanan, atm. təzyiqindən yüksək təzyiqli hava doldurulan kamera, yastıq və ya altlıq; amortizasiya qurğusu kimi işlədilir; 4) rezinləşdirilmiş pambıq parça, yaxud polimer materialdan hazırlanıb içərisinə havadan yüngül qaz doldurulan qovuq; aerostat, dirijabl və s.-də işlədilir; 5) maye tökub saxlamaq və ya daşımaq üçün ağzı bağlanan bir neçə litrlik şüşə qab.

**BALON ASTRONOMİYASI** – sərbəst uçan aerostatlardan aparılan astronomik və astrofiziki müşahidələr üçün qəbul olunmuş ad. B.a. məsələlərinə optik teleskopların köməyi ilə aparılan ənənəvi müşahidələrdən başqa, geniş diapazonda dalğa uzunluqlarında spektrometrik ölçmələri və *kosmik şüaların* tədqiqi də daxildir.

$10^5$ $m^3$ və daha böyük həcmli hünd. aerostatları elmi aparaturanı (məs., əsas güzgüsünün diametri 1 *m*-dən böyük olan optik teleskopları) 30–40 *km* hünd.-ə qədər qaldıra bilir. Belə hünd.-lərdə dalğa uzunluqlarının bütün diapazonlarında atmosfer praktiki olaraq şüa üçün şəffafdır, atmosfer şüasının təsiri isə çox azdır. Bu səviyyədən aşağıda atmosferin burulğanlı oblastı qalır. Belə əlverişli şəraitdə güzgüsünün diametri 1 *m* olan teleskopun ayırdetmə qabiliyyətinin həddi 0,1 bucaq saniyəsinədəkdir. Aerostat teleskoplar Günəş fotosferini öyrənmək üçün müvəffəqiyyətlə istifadə edilmişdir (məs., REA-nın Pulkovo rəsədxanasının "Saturn" teleskopu). Relikt kosmik şüalanmanın anizotropiyasını öyrənmək məqsədi ilə 100 *mkm*-dən 3 *mm*-ədək olan submillimetrik diapazonda dalğa uzunluqlarının müşahidəsi böyük maraq doğurur.

1912 ildə V. *Hess* tərəfindən aerostat eksperimentləri seriyasında kəşf edilmiş kosmik şüaların tədqiqində aerostatlar geniş istifadə olunur. Kosmik şüaların aerostatla tədqiqinin inkişafında S.N. *Vernovun* işləri əhəmiyyətli rol oynamışdır. Onun hazırladığı cihazlar hava şarları dəstəsi ~ 30 *km* hünd.-ə qaldırmış və ölçmələrin nəticələrini radio vasitəsilə ötürmüşdür. Hünd. aerostatlarında qeydedən cihazların köməyi ilə kosmik şüaların enerji spektri, şüa sellərinin variasiyaları ölçülür, antizərrəciklərin və antimaddə nüvələrinin axtarışı aparılır. Aerostatla tədqiqatlar kosmik şüaların təcilinin mexanizmini və zərrəciklər ulduzlararası mühitdən keçərkən baş verən prosesləri aydınlaşdırmaq üçün əhəmiyyətlidir. Hünd. aerostatlarının çoxsutkalıq uçuşları Rusiya, ABŞ, Yaponiya, Braziliya, Hindistan və s. ölkələrdə həyata keçirilir.

**BÁLSA**, piramidaşəkilli oxroma, balz ağacı (Ochroma pyramidalis) – *bombakskimilər* fəsiləsinin oxroma cinsinə mənsub yeganə növü. Hünd. 30 *m*-ədək olan həmişəyaşıl ağacdır. Sadə yarpaqları tin-tindir. Çiçəkləri ağdır. Meyvəsi, içərisi uzun tükəbənzər əlavələri – kapok adlanan tiftiyi olan toxumlarla dolu quru qutucuqdur. Vətəni Cənubi Meksikadan Şimali Peruya qədər ikincili rütubətli tropik meşələrdir. B. sürətlə böyüyür və 5 ilə yetkinləşir; yüngül (quruduqdan sonra mantardan yüngül olur), möhkəm və elastiki oduncağı var. Hələ qədimdən B.-nın quru gövdələrindən sallar və oyma qayıqlar hazırlanır. T. *Heyerdalın* səfər iştirakçıları ilə birlikdə Sakit okeanı üzüb keçdiyi "Kon-Tiki" salı B.-dan düzəldilmişdi.



Balsa (Ochroma pyramidalis).

**BÁLSAS** – Meksikada çay. Uz. 724 *km*, hövzəsinin sah. 113,2 min $km^2$. Meksika yaylasının c.-undan başlanır, dağlardan axır və Sakit okeana tökülür. Yuxarı axınında Atoyak, orta axınında Meskala adlanır. İti axarlı olması ilə səciyyələnir, astanalı və qıjovludur. Əsas qolları: sağdan Nexapa, Kutsamala, Takambaro, Tepalkatepek, soldan Misteko, Tlapaneko. Əsasən, yağış suları ilə qidalanır. Mənsəbində ortaillik su sərfi 440 $m^3/san$-dir. Suvarmada və elektroenergetikada istifadə edilir. Puebla ş. B.-ın sahilindədir.

**BALSİN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkman bölgəsinin Tircayı kəndistanında, Türkman qəs.-ndən 19 *km* şm.-ş.-dədir.

**BALSİNŞƏRİFABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkman bölgəsinin Bərvanan kəndistanında, Türkman qəs.-ndən 11 *km* şm.-q.-də, Miyanə–Təbriz avtomobil yolunun üstündədir.

**BÁLSO** (Balczó) Andraş (d.16.8.1938, Kondoroş k.) – Macarıstan idmançısı. Müasir beşnövçülük üzrə üçqat Olimpiya (17-ci Yay Olimpiya Oyunları, 1960, Roma və 19-cu Yay Olimpiya Oyunları, 1968, Mexiko; komanda hesabında, 20-ci Yay Olimpiya Oyunları, 1972, Münxen; şəxsi hesabda), onqat dünya (1963, 1965, 1966, 1967 və 1969 ildə şəxsi, 1963, 1965, 1966, 1967 və 1970 ildə komanda hesabında) çempionu olmuşdur. İnternet-sorğuya (2000) əsasən müasir beşnövçülük üzrə 20 əsrin ən yaxşı ustası adına layiq görülmüşdür (səslərin 26,9 %-i).

**BALTA** – 1) odun doğramaq, ağac kəsmək, daş yonmaq və s. üçün kəskisi metaldan, dəstəsi (sapı) taxtadan olan alət. İnşaat, məişət və s.-də geniş işlənir. İlk daş B.-lar *Neolit* dövründən məlumdur. *Eneolitdə* metal B.-lardan əmək aləti və silah kimi istifadə olunurdu; 2) neft və qaz quyularının qazılmasında tətbiq olunan qazıma aləti (bax *Qazıma baltası*).

**BALTABAŞI** – bax *Qazıma koronkası*.

**BALTAÇAY** – Yelizavetpol (Gəncə) qub.-nın Qazax qəzasında (9.9.1930 ildən İcevan r-nu), Dilican ş. yaxınlığında azərb.-ların yaşadığı kənd. 1959 ildə kənd ləğv edilərək Dilican qəs.-nin tərkibinə qatılmışdır.

**BALTAÇI MEHMED PAŞA** (Osmancıq, 1660 – Lemnos, 1712) – Osmanlı sədrəzəmi. Trablis, Tunis və Əlcəzairdə təhsil almışdır. İstanbula qayıtdıqdan sonra sarayda müxtəlif vəzifələrdə işləmiş, şahzadə Əhmədlə dost olmuşdur. 1703 ildə baş verən Ədirnə üsyanı zamanı III Əhmədin taxta çıxmasını dəstəkləmişdir. Həmin il miraxur vəzifəsinə, daha sonra

isə Trablis və Hələbə vergi məmuru təyin edilmişdir. 1704 ildə baş vəzir Kalaylıkoz Əhməd Paşanı vəzifəsindən uzaqlaşdırmaq məqsədilə bir sıra tədbirlər görmüş və sədrəzəm təyin olunmuşdur. Tərəfdarlarını vəzifəyə gətirməkdə günahlandırılaraq işdən çıxarılmışdır. Daha sonra Ərzurum bəylərbəyi (1706), Saqqız a.-nın komendantı (1707), Hələb bəylərbəyi (1709) vəzifələrini yerinə yetirmişdir. 1710 ildə yenidən sədrəzəm təyin olunmuş, Osmanlı dövlətinin şm. sərhədlərinə soxulan rus qoşunlarının *Prut səfəri* (*1711*) zamanı türk ordusuna komandanlıq etmişdir. Döyüş vaxtı I Pyotrun başçılıq etdiyi rus qoşunları mühasirəyə alınmışdır. Çıxılmaz vəziyyətdə qalan I Pyotr B.-ya Rusiya üçün ağır şərtlərlə barışıq imzalamağı təklif etmişdi. B. bu təklifi qəbul etmiş, bununla sultanın da böyük rəğbətini qazanmışdı. Lakin mühasirədən çıxmış I Pyotrun barışıq şərtlərini yerinə yetirməməsi vəziyyəti dəyişdi. B. lazımi tədbirlərin görülməsini ləngitdiyi üçün vətənə xəyanət etməkdə günahlandırıldı. 1711 ildə noyabrın 20-də o, sədrəzəmlikdən azad olundu və qısa müddət sonra Midilli adasına sürgün edildi. 1712 ilin iyul ayında Limni adasına köçürülmüş B. həmin ilin sentyabrında burada vəfat etmişdir.

**BALTAÇILAR**, t ə b ə r d a r a n – Osmanlı dövlətində zümrə. Sultan II Murad [1421–44; 1446–51] tərəfindən yaradılması ehtimal olunur. Əvvəllər yürüşlər zamanı bataqlıqları qurudaraq və meşələrdəki maneələri aradan qaldıraraq qoşun üçün yol açır, çadır qurur, yük daşıyır, həmçinin sarayda bəzi xidmətləri yerinə yetirirdi. B. *darüssaadə* ağasına tabe idilər. Fateh II Mehmed [1444–46; 1451–81] dövründə Köhnə və Yeni Sarayda gördükləri işə görə iki hissəyə ayrılmışdır: "Təbərdaran-ı Sarayı-Atik" adlanan Köhnə saray B.-ı Topqapı sarayındakı hərəmxanada, Köhnə sarayda sultanlara, şahzadələrə və zadəganlara qulluq göstərir, onları mühafizə edirdilər. "Təbərdaran-ı xassə" adlanan Yeni Saray B.-ı isə saray daxilində və hərəmxanada qulluq edirdilər. III Murad [1574–95] dövründə mövcud olan zülüflü B. divanxana və hərəmxanada qulluq edir, sultanla *silahdar* arasında rabitəçi rolu oynayırdılar. B. zümrəsini 1757 ildə sultan III Mustafa [1757–74] ləğv etmişdir. 1774 ildə I Əbdülhəmid [1774–89] tərəfindən bərpa olunmuşdur.

**BALTADƏRƏSİ** – Yelizavetpol (Gəncə) qub.-nın Qazax qəzasında (9.9.1930 ildən İcevan r-nu) azərb.-ların yaşadığı kənd. 1930-cu illərdə kollektivləşmə ilə əlaqədar kənd ləğv edilmişdir.

**BALTADİMDİK** (Coccothraustes coccothraustes) – sərçəkimilər dəstəsinin sərçəyəoxşar fəsiləsindən quş. Uz. 17–19 *sm*-dir. Bədən quruluşu möhkəmdir. Başı nisbətən böyük, dimdiyi iri və konusşəkillidir. Erkəkləri əlvandır: başı və beli şabalıdı-qonur, alt hissəsi qonurumtul-boz, boğazı, cilovu və dimdiyi qara haşiyəlidir; qanadlarında böyük ağ ləkələr



Baltadimdik (Coccothraustes coccothraustes).

var. Dişilərin rəngi daha açıq və az əlvandır. Pireney d-rından və B. Britaniyadan başlamış Cənubi Primorye və Amuryanıyadək Avrasiyanın mülayim enliklərində yayılmışdır; həmçinin İranda və Hindistanda yuvalayır. Bir qayda olaraq, yuvalama arealının sərhədlərində qışlayır. Daha çox yarpaqlı (bəzən qarışıq) meşələrdə, bağlarda və parklarda yaşayır. Meyvə toxumu və çəyirdəkləri ilə qidalanır; olduqca güclü dimdiyi ilə albalı və kiçik gavalı çəyirdəyinin qabığını sındıra bilir. Çoxalma dövründə cüt-cüt olurlar. Kasaşəkilli yuvalarını ağaclarda qurur. 4–5 yumurta qoyur; əsasən, dişi fərd kürt yatır (14 sutka), erkək onu yemləyir. Ətcəbalalar yuvada 11–14 sutka qalır; valideynləri onları cücülərlə yemləyir. B. bəzi yerlərdə meyvə bağlarına ziyan vurur.

**BALTALI** – Azərb. Resp. Şəki r-nunda kənd. Baltalı ə.d.-nin mərkəzi. R-n mərkəzindən 18 *km* c.-q.-də, Şəki–Yevlax avtomobil yolundan 4 *km* aralı, Kişçayın sağ sahilində, Qanıx-Əyriçay dərəsindədir. Əh. 2056 (2009); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, ambulatoriya, kitabxana, ATS var.

**BALTALİMANI KONVENSİYASI (1849)** – Osmanlı imperiyası ilə Rusiya imperiyası arasında 1849 il aprelin 19-da Baltalimanında (İstanbul) bağlanmışdı. *Fransada 1848 il inqilabının* bütün Avropada yaratdığı əks-sədanın Rusiyaya da təsir göstərməsindən ehtiyatlanan çar I Nikolay Rumıniya və Bolqarıstana qoşun yeritmişdi. Rusiyanın bu hərəkətinə Osmanlı dövləti etiraz etmiş, iki dövlət arasında böhran yaranmışdı. B.k.-nın şərtlərinə görə əvvəllər ömürlük hakimlik etmək hüququna malik olan Valaxiya və Moldova hakimləri 7 il müddətinə seçilməli idilər. Onların namizədliyi Rusiya ilə razılaşdırıldıqdan sonra təyinatını sultan verməli idi. Rusiya və Türkiyə qoşunları (hər iki tərəfdən 25–30 min nəfər) bu ərazilərdə yerləşməli, yerli inqilabi hərəkatlar yatırıldıqdan sonra isə qoşunlar 10 min nəfərdən ibarət olmalı idi. 1851 ildə hər iki tərəfin qoşunları buradan çıxarılanadək ərazilərə fövqəladə komissarlar (osmanlı və rus) nəzarət edirdilər. *Krım müharibəsinin* (*1853–56*) başlaması ilə B.k. qüvvəsini itirdi.

**BALTALİMANI SAZİŞLƏRİ (1838–46)** – Baltalimanında (İstanbul) Avropa dövlətləri ilə imzalanan ticari sazişlərin ümumi adı. 1838 il avqustun 16-da İngiltərə, noyabrın 25-də Fransa, 1839 il mayın 18-də Hanza şəhərləri, sentyabrın 2-də Sardiniya krallığı, 1840 il yanvarın 31-də İsveç və Norveç, martın 2-də İspaniya, martın 14-də Hollandiya, aprelin 30-da Belçika, 1841 il mayın 1-də Danimarka, 1843 il martın 20-də Portuqaliya ilə bağlanmışdı. B.s. Avropa dövlətləri üçün əlverişli olsa da, Osmanlı iqtisadiyyatına mənfi təsir göstərmişdi. 1846 il aprelin 30-da Rusiya ilə bağlanan saziş Osmanlı dövlətinin iqtisadi vəziyyətini nisbətən yüngülləşdirdi. Bu sazişin şərtlərinə görə, rus tacirlərinin Osmanlı torpaqlarında ticari birliklərinin yaradılması qadağan olunmuş, həmçinin bir sıra malların (içki, tütün, duz, barıt və s.) satışına məhdudiyyətlər və qadağalar qoyulmuşdu.

**BALTASAR** (Baltazar) Fransisko (təxəllüsü B a l a q t a s; 2.4.1788, Biqaa – 20.2.1862, Biqaa) – Filippin şairi. Taqal dilində yazmışdır. Dəmirçi ailəsində doğulmuşdur. De San-Xose kollecini bitirmiş, burada hüququ, ilahiyyatı, fəlsəfəni, klassik yunan və ispan ədəbiyyatını öyrənmişdir. Batana əyalətində hakimin köməkçisi olmuş, mötəbər bir varlı ilə ədavəti üzündən həbsxanaya atılmış, hüquq sahəsində çalışmaqdan məhrum edilmişdir. Həbsxanada özünün yeganə "Florante və Laura" (1838) adlı əsərini yazmışdır. 399 stansdan (hər biri 4 sətir) ibarət bu epik poema taqal ədəbiyyatının ən böyük abidəsidir; əsərdə ilk dəfə olaraq ölkədə ispan müstəmləkə üsul-idarəsinə qarşı güclü etiraz səslənmişdir. B. ölümündən sonra milli şair elan edilmiş, onun doğum günü ölkənin milli bayramına çevrilmişdir.

**BALTİKA BOĞAZLARI** – bax *Danimarka boğazları*.

**BALTİKA DƏNİZİ** (son lat. Mare Balticum, qədim slavyanlarda Varyaq, yaxud Svey dənizi) – Atlantika okeanının daxili dənizi; Skandinaviya y-a ilə Şimal-Qərbi Avropanın materik sahilləri arasındadır. İsveçin, Finlandiyanın, RF-nin, Estoniyanın, Latviyanın, Litvanın, Polşanın, AFR-in və Danimarkanın sahillərini yuyur. Eresunn (Zund), Böyük Belt və Kiçik Belt, Katteqat və Skagerrak boğazları onu Şimal dənizi ilə birləşdirir. Sah. 419 min $km^2$, həcmi 21,5 min $km^3$, ən dərin yeri 470 *m*-dir. Kəskin parçalanmış sahil xətti çoxsaylı körfəzlər (Botnika, Fin, Riqa və s.) və buxtalar (Kurş, Qdansk, Kalininqrad, Şetsin və s.) əmələ gətirir. Q. və şm.-ş. (İsveç və Finlandiya) sahilləri şxer və fyord tiplidir; c.-ş. sahilləri düz və qumluqdur, çoxlu say və dünlər var. Ən böyük adaları: Qotland, Saaremaa, Xiyumaa, Eland, Bornholm, Muxu və s. Şm. sahillərində Aland a-rı qrupunda 6 mindən çox qaya adacıqlar (şxerlər) var.

Baltika ümumiyyətlə dayaz dənizdir, bütünlüklə şelf zonasında yerləşir, sah.-nin 99,8%-i 200 *m*-ədək dərinliyi əhatə edir. Fin, Botnika və Riqa körfəzləri daha dayazdır, akkumulyativ hamar dib relyefləri var. B.d.-nin xeyli hissəsinin dib relyefi kəskin parçalanmışdır. Dibində nisbətən dərin çökəkliklər – q.-də Bornholm (105 *m*) və Arkon (53 *m*), mərkəzdə Qotland (249 *m*) və Qdansk (116 *m*), Qotland a.-ndan şm.-da şm.-ş.-dən c.-q.-ə uzanan daha dərin (470 *m*-ədək) Landsort çökəkliyi var; çoxsaylı daş tirələr, dənizin mərkəzi hissəsində Estoniyanın şm. sahilindən Eland a.-nın şm. qurtaracağınadək uzanan *qlint* çıxıntıları, sualtı dərələr, su altında qalmış buzlaq-akkumulyativ relyef formaları izlənilir.

B.d. qədim *Şərqi Avropa platformasının* q.-indəki depressiyanı əhatə edir. Dənizin şm. hissəsi *Baltika qalxanının* c. yamacına, mərkəzi və c. hissələri qədim platformanın iri mənfi strukturu olan Baltika siueklizinə, ucqar c.-q. hissəsi isə cavan *Qərbi Avropa platformasına* aiddir. Dənizin dibi şm.-da buzlaq və müasir dəniz çöküntüləri ilə nisbətən örtülmüş və əsasən, kembriyəqədər yaşlı komplekslərdən isə Silur və Devon çöküntülərindən ibarətdir. Paleozoy komplekslərini



Baltika dənizi. Fyord (İsveç).

şm.-da xeyli qalın buzlaq və dəniz çöküntüləri örtür. Sonuncu buzlaq epoxasında (Son Pleystosendə) B.d.-nin çökəkliyi buz qalxanı ilə tam örtülmüş, sonradan buzun əriməsindən Baltika buzlaq gölü yaranmışdır. Son Pleystosenin axırında (təqr.13 min il əvvəl) göl okeanla birləşmiş və dəniz suları çökəkliyi doldurmuşdur. 9–7,5 min il əvvəl intervalında okeanla əlaqə kəsilmiş və dəniz transqressiyası başlamışdır.

B.d. üçün kontinental xassəli mülayim dəniz iqlimi səciyyəvidir. Q.-də İslandiya minimumu və Azor maksimumunun, ş.-də Sibir maksimumunun təsiri altındadır. Payız-qış aylarında siklonlar daha çox intensivləşir və özü ilə güclü q. və c.-q. istiqamətli küləklərlə müşayiət olunan tutqun və yağmurlu hava gətirir. Fevralda havanın orta temp-ru c.-da –1,1 °C, dənizin mərkəzi hissəsində –3°C, şm.-da və ş.-də –8°C-yədək, Botnika körfəzinin şm.-nda –10°C-dir. Nadir hallarda Baltikaya daxil olan qısamüddətli soyuq Arktika havası havanın temp-runu –35°C-yədək endirir. Yayda zəif q. küləkləri Atlantikadan rütubətli, sərin hava gətirir. İyulda havanın orta temp-ru Botnika körfəzində 14–15°C, dənizin digər yerlərində 16–18°C-dir. Nadir hallarda əraziyə daxil olan ilıq Aralıq dənizi havası temp-ru qısa müddətə 22–24°C-yədək qaldırır. İllik yağıntı şm.-da 400 *mm*, c.-da 800 *mm*-dir. Dumanlı günlərin

Baltika dənizi. Kalininqrad sahilləri.





Eressun boğazı üzərində körpü.

sayı (orta hesabla ildə 59 gün c.-da və mərkəzi hissədə, 22 gün Botnika körfəzinin şm.-ında) çoxdur.

B.d.-nin hidroloji rejimini onun iqlimi, ona çoxlu şirin suların tökülməsi və Şimal dənizi ilə su mübadiləsinin məhdudluğu müəyyənləşdirir. İl ərzində B.d.-nə təqr. 250 çaydan orta hesabla 472 $km^3$ su tökülür. Ən böyük çayları: Neva – 83,5 $km^3$, Visla – 30, Neman – 21, Qərbi Dvina – 20 $km^3$. Atm. yağıntılarının illik miqdarı (172 $km^3$) səthdən gedən buxarlanmanın miqdarına bərabərdir. Şimal dənizi ilə illik su mübadiləsi orta hesabla 1660 $km^3$-dir. B.d.-ndən nisbətən şirin sular səth axınları ilə Şimal dənizinə, duzlu sular isə dib axınları ilə əksinə – Şimal dənizindən B.d.-nə daxil olur. B.d.-nin hidroloji strukturu əksər r-nlarda səth və dərinlik su kütlələrindən ibarətdir. Səth suyu kütləsi qatının qalınlığı 20–90 *m*, duzluluğu 7–8‰-dir; temp-ru il ərzində 0°-dən 20°C-yədək dəyişir. Dərinlik suyu kütləsi qatının qalınlığı 50–100 *m*, duzluluğu 10–18,5‰-dir; temp-r 1°-dən 15°C-yədək dəyişir. Payız-qış aylarında uzunmüddətli və güclü c.-q. küləkləri dənizdə hünd. 5–6 *m*-ə, uz. 50–70 *m*-ə çatan dalğalar yaradır. Ən hündür dalğalar noyabr ayında müşahidə olunur. B.d.-nin okeanla əlaqəsi zəif olduğundan burada qabarmalar zəifdir (0,1–0,2 *m*). Atm. təzyiqinin kəskin düşməsi və küləyin birgə təsirindən dənizdə uzunmüddətli (24–26 saat) *seyşlər* (durğun dalğalar) yaranır. Belə dalğaların hünd. 0,3 *m*-dən (açıq dənizdə) 1,5 *m*-ədək (Fin körfəzində) olur. Qovucu q. küləkləri Fin körfəzinin yuxarısında seyş dalğalarının hünd.-nü 3–4 *m*-ə çatdıraraq Neva çayında suyun səviyyəsini qaldırır və daşqınlara səbəb olur. 1824 ilin noyabrındakı (təqr. 410 *sm*) və 1924 ilin sentyabrındakı (369 *sm*) daşqınlar S.-Peterburq ş.-nə xeyli ziyan vurmuşdur.

B.d. sularının səthində temp-r mövsümdən asılı olaraq kəskin dəyişir. Avqust ayında Fin körfəzində su 15–17°C-yədək, Botnika körfəzində 9–13°C-yədək, dənizin mərkəzi hissəsində 14–18°C-yədək, c. hissəsində 20°C-yədək qızır; fevralda açıq dənizdə suyun temp-ru 1–3°C, körfəz və buxtalarda 0°C-dən aşağı olur. Səthdə suyun duzluluğu Danimarka körfəzlərindən çıxacaqda 11‰, dənizin mərkəzi hissəsində 6–8‰, Botnika və Fin körfəzlərinin yuxarısında 2‰ və daha azdır.

Noyabrdan başlayaraq B.d.-nin körfəzləri və sahil suları donur, martın axırından don açılır.

B.d.-nin tədqiqi haqqında ilk məlumatlar normanlarla əlaqədardır. Onlar 7 əsrin ortalarında Botnika körfəzinə daxil olmuş, Aland a-rını kəşf etmişlər; 7 əsrin 2-ci yarısı – 8 əsrdə Baltikyanı sahillərə çatmış, Moonzund arxipelaqını kəşf etmiş və ilk dəfə olaraq Riqa körfəzinə daxil olmuşlar; 9–10 əsrlərdə Neva çayı mənsəbindən Qdansk buxtasınadək sahilboyundan ticarət və quldurluq məqsədilə istifadə etmişlər. B.d.-ndə rus hidroqrafiya və kartoqrafiya işləri 18 əsrin əvvəllərində Fin körfəzində başlamışdır. 1738 ildə F.İ. Soymonov rus və xarici mənbələr əsasında B.d.-nin atlasını nəşr etdirmişdir. 18 əsrin ortalarında A.İ. Naqayev çoxillik tədqiqatlarının nəticəsi olaraq B.d.-nin dəqiq losiyasını tərtib etmişdir. İlk dərinlik hidroloji tədqiqatlarını 1880-ci illərin ortalarında S.O. Makarov aparmışdır. 1920 ildən hidroloji işlər hərbi-dəniz donanmasının Hidroqrafiya idarəsi və Dövlət Hidrologiya İn-tu (Leninqrad) tərəfindən, 20 əsrin 2-ci yarısından isə REA Dövlət Okeanoqrafiya İn-tunun Leninqrad (S.-Peterburq) şöbəsinin rəhbərliyi altında geniş kompleks tədqiqatlar aparılmışdır.

Balıq resursları körfəzlərin şirinləşmiş sularında yaşayan şirin su növlərindən (dabanbalığı, çapaq balığı, durnabalığı, suf balığı, enlibaş balığı), dənizin, əsasən, mərkəzi hissəsində yerləşən qızıl balığın Baltika sürüsü və məhz dəniz növlərindən (treska, salaka, osmer, çilqızıl balığı, şprot) ibarətdir. B.d.-ndə salaka, şprot, siyənək, osmer, çay kambalası, treska, xanı balığı və s. ovlanır. Balıq ovunun nadir obyekti anqvildir. B.d.-nin sahilində kəhrəba səpintisi yayılmışdır; onun hasilatı Kalininqrad (Rusiya) yaxınlığında aparılır. Dənizin dibində neft ehtiyatı aşkar edilmiş, sənaye istehsalına başlanmışdır. Finlandiya sahillərində dəmir filizi hasil edilir. B.d. nəql. arteriyası kimi mühüm əhəmiyyət kəsb edir. B.d. ilə maye, qalaq və əsas yüklərin irihəcmli daşımaları həyata keçirilir. Danimarka, Almaniya, Polşa, Rusiya, Litva, Latviya, Estoniya, Finlandiya və İsveçin xarici ticarətinin xeyli hissəsi B.d. ilə həyata keçirilir. Yük dövriyyəsində neft məhsulları (Rusiya portlarından və Atlantika okeanı tərəfdən), kömür (Polşa və Rusiyadan), meşə materialları (Finlandiya, İsveç və Rusiyadan), sellüloz və kağız (İsveç və Finlandiyadan), dəmir filizi (İsveçdən) üstünlük təşkil edir; həmçinin maşın və avadanlıq mühüm rol oynayır, çünki onların əsas istehsalçısı və istehlakçısı B.d.-nin sahillərində və hövzəsində yerləşən ölkələrdir. B.d.-nin iri portları: S.-Peterburq, Kalininqrad (Rusiya), Tallin (Estoniya), Riqa (Latviya), Qdansk, Qdınya, Şetsin (Polşa), Rostok – Varnemyunde, Lyubek, Kil (Almaniya), Kopenhagen (Danimarka), Malmö, Stokholm, Luleo (İsveç), Turku, Helsinki, Kotka (Finlandiya). B.d.-ndə Kopenhagen – Malmö, Trelleborq – Zasnits istiqamətində l.y. bərələri, Nortelye – Turku istiqamətində avtomobil bərəsi fəaliyyət göstərir. C. və c.-ş. sahillərində çoxlu kurort yerləri mövcuddur.

Dünya okeanı ilə zəif su mübadiləsi (suyunun təzələnməsi təqr. 30 il çəkir) olan B.d. yüksək sənaye inkişafına malik ölkələrlə əhatə olunmuşdur və onun antropogen yükü çox yüksəkdir. Əsas ekoloji problemləri dənizin dibində basdırılmış kimyəvi silahlar, böyük şəhərlərdən dənizə axıdılan çirkli sular, k.t.-nda istifadə olunan kimyəvi gübrələrin yuyularaq dənizə tökülməsi və nəhayət, gəmiçiliklə əlaqədardır (əsasən, neftdaşıyan tankerlər). 1980 ildə B.d.-nin mühafizəsi üzrə Konvensiya qüvvəyə mindikdən sonra xeyli miqdarda təmizləyici qurğuların işə salınması, istifadə olunan kimyəvi gübrələrin azaldılması, gəmilərin texniki vəziyyətinə nəzarət ekoloji vəziyyəti yaxşılaşdırmışdır.

Baltika dənizi. Hel yarımadası.



**BALTİKA DİLLƏRİ** – hind-Avropa dillərinin müstəqil qolu. B.d.-nə müasir *Litva dili, latış dili*, bəzən xüsusilə fərqləndirilən latqal dili (Litva, Latviya, Polşanın şm.-ş. hissəsi, qismən Belarus); ölü dillərdən prus dili (18 əsrədək), yatvyaq dili (18 əsrədək), kurş dili (17 əsrin ortalarınadək), zemqal dili (15 əsrin sonlarınadək), sel dili (15 əsrədək), qalind dili (toponimlərdə qalmışdır), qolyad dili (toponimlərdə qalmışdır) daxildir. Ən qədim yazılı abidələri 15–16 əsrlərə aiddir. B.d. digər müasir hind-Avropa dil qrupları ilə müqayisədə daha çox qədim hind-Avropa dil sistemini qoruyub saxlamışdır. Qrammatik quruluşu və lüğət tərkibinə görə *slavyan dillərinə* çox yaxındır. Toponimiyanın məlumatlarına, slavyan dillərində baltizmlərin mövcudluğuna, arxeoloji və sırf tarixi məlumatlara əsasən eramızın 1-ci minilliyində və 2-ci minilliyin əvvəllərində B.d. Baltikyanı ərazilərin c. və c.-ş.-indən başlayaraq Volqa çayının yuxarı axınınadək geniş sahədə yayılmışdır. Baltların keçmişdə uqro-finlərlə, iranlılarla, frakiyalılarla, germanlarla və b. dil əlaqələrinin olması əlamətləri B.d.-nin areal xüsusiyyətləri ilə izah edilir.

*Əd.:* Языки мира. Балтийские языки. М., 2005.

**BALTİKA QALXANI** – *Şərqi Avropa platformasının* şm.-q. hissəsində kembriyəqədər bünövrənin çıxıntısı. Kola y-a-nı, Kareliyanı, Skandinaviya y-a-nın c.-ş. hissəsini əhatə edir. Erkən kembriyəqədər süxurlardan (yaşı 3,2–1,7 mlrd. il olan) təşkil olunmuşdur. Şm.-q.-də qalxanın üzərinə Skandinaviya kaledonidlərinin qırışıqəmələgəlmələri, şm. və şm.-ş.-də Barens dənizi c.-unun və Timan tirəsinin baykalidləri gəlmişdir. C. və c.-ş.-də qalxanın süxurları Rus plitəsinin örtüyü altına gömülür. B. q.-nın şm.-ında Kola, ş.-ində Kareliya blokları yerləşir. Bloklar, əsasən, Arxey çöküntülərindən (qranit-qneyslərdən, yaşıldaş qurşaqların metavulkanik, metaçökmə süxurlarından və qranitoidlərdən) təşkil olunmuşdur. Çöküntülər bəzi yerlərdə Erkən Proterozoyun vulkanogen-çökmə qatlarından ibarət riftogen strukturlarla (Peçenqa – İmandra – Varzuq) örtülür. Kareliyanın qədim komplekslərini yaşı təqr. 1,6 mlrd. il olan rapakivi qranitləri yarır. Kola və Kareliya blokları, onların üzərinə gəlmiş Laplandiya-Ağ dəniz qranulit-qneys qurşağı ilə ayrılır. Qalxanın c.-q.-ini Erkən Proterozoyun sonunda (1,6 mlrd. il əvvəl) formalaşmış Svekofen qırışıqlıq sisteminin metamorfizləşmiş çökmə süxurları, adaqövsü mənşəli vulkanogen əmələgəlmələri, ofiolitlər və qranitlər, ucqar c.-q.-ini isə Orta Proterozoyun yaşı 1,6–1,1 mlrd. il olan metamorfik süxurları tutur. Son Proterozoy və Kembri–Silurda qalxanın kənarlarını dayaz dəniz suları basmış, Devon dövründən isə ərazi ümumi qalxmaya məruz qalır. Orta Paleozoyda Kola blokunda qələvi süxurların həlqəvarı plutonları formalaşmışdır. Pleystosendə B. q. ərazisini buzlaq örtcüyü bürümüşdür. Faydalı qazıntıları: dəmir filizi (İsveçdə, RF-də), mis-nikel filizi (RF-də), apatit, nefelin, nadir-torpaq elementləri (Kola y-a-nda), mika, keramika xammalı (Kareliyada).

**BALTİKA NEFTLİ VİLAYƏTİ** – RF-də (Kalininqrad vil.), Latviyada, Litvada, Polşada və Baltika dənizinin bu ərazilərə bitişik şelfindədir. Sah. 170 min $km^2$-dən çoxdur. İlk yataq 1962 ildə kəşf olunmuş, 1975 ildən işlənilir. Cəmi 34 neft yatağı (o cümlədən 26-sı Rusiyada) kəşf olunmuşdur. B.n.v. *Şərqi Avropa platformasının* eyniadlı sineklizi ilə əlaqədardır. Yataqlar, əsasən, struktur tiplidir, tektonik, yaxud litoloji ekranlarla sərhədlənir, ehtiyatı azdır. Əsas məhsuldarlıq 1500–2000 *m* dərinlikdə yatan Orta Kembri yaşlı terrigen çöküntülərlə (qalınlığı 20 *m*-ədək olan qumdaşı və alevrolit layları) əlaqədardır. 500–1600 *m* dərinlikdəki Ordovik və Alt Silur çöküntüləri (qumdaşılar, əhəngdaşılar və dolomitlər) də neftlidir. Neftin sıxlığı azdır (800–860 $kq/m^3$), zəif həll olmuş qaz rejimlidir.

**BALTİKA SİNEKLİZİ** – bax *Şərqi Avropa platforması*.

**BALTİKA TİRƏSİ** – Baltika dənizinin c. və c.-ş. sahilləri boyunca uzanan tirəli-təpəli moren relyefi zolağı. AFR-in şm.-q. sahilindən Qərbi Dvina çayı dərəsinədək təqr. 1500 *km* məsafədə uzanır; eni 80–90 *km*, üstün hündürlüklər 200–300 *m*. Çay dərələri ilə ayrı-ayrı yüksəkliklərə bölünür. Hünd. 329 *m*-ədək (Vejitsa d.). Relyefinin əksər formaları Üst Pleystosen buzlaşması dövründə yaranmışdır. Qıraq morenlər, ozlar, drumlinlər geniş yayılmışdır. Təpələrarası çuxurlarda çoxsaylı göllər (Mürits, Snyardvı, Mamrı) var. B. t.-ni şm.-dan moren düzənlikləri, c.-dan zandr düzənlikləri əhatə edir. Enliyarpaqlı və qarışıq meşələr səciyyəvidir.

**BALTİKA-LADOQA ÇIXINTISI** – bax *Qlint*.

**BALTİLƏR**, baltistanlılar, baltistan bhotiyaları – Pakistanın şm.-q.-indəki Qaraqorum dağ silsiləsindən c.-da yerləşən Himalayyanı dağlıq ərazidə (Baltistan dairəsi) və Hindistanın şm.-ında (Cammu və Kəşmir ştatları, Kargil dairəsi) yaşayan Tibet-Birma xalqı. Sayları Pakistanda 327 min (2000),



Baltimor. C. Vaşinqtonun abidəsi.



Baltimor. Bələdiyyə binası.

Hindistanda 72 min nəfərdir; Hindistanda adivasilərə (aborigenlərə) aid olunurlar. Tibet-Birma dillərinin Tibet qolunun Qərbi Tibet dilinin ləhcəsində danışırlar. Dindarları müsəlmandır, buddistləri də var.

Ənənəvi mədəniyyətləri Hindistan y-a-nın Himalayyanı xalqları (bax *Hindlilər*) üçün səciyyəvidir. Əsas ənənəvi məşğuliyyətləri terraslı suvarma əkinçiliyi və bağçılıqdır, keçmişdə Tibetlə Hindistanın düzənlik əraziləri arasındakı ticarətdə vasitəçi olmuşlar. Dağ yamaclarında yerləşən daş evlərinin yastı damları üstdəki evlər üçün təsərrüfat sahəsi rolunu oynayır, üst mərtəbələr taxta qalereyalıdır. İbadət memarlığı, ağac üzərində dekorativ oyma, tavanların naxışlanması inkişaf etmişdir. Ənənəvi içkiləri duzlu çay, zəfəranlı, yaxud badamlı qara çaydır. Patrinimik qruplar (qaum), böyük patriarxal ailə, sövdələşmə (parboti) və işləməklə ödəmə (makna) nikahlar qalmaqdadır; qonşu hind-ari və dard xalqları (kəşmirlilər, şinalar) ilə nikahlar az deyil. Folklorları (miflər, rəvayətlər, mahnılar, rəqslər) ladakhların folkloruna yaxındır.

**BÁLTİMOR** (Baltimore) Deyvid (d.7.3. 1938, Nyu-York) – ABŞ virusoloqu, molekulyar bioloq. Nobel mükafatı laureatı (1975, H. *Temin* və R. *Dulbekko* ilə birlikdə). Svortmor kollecini bitirmişdir (1960). 1972 ildən Massaçusets Texnologiya İn-tunda biologiya prof.-dur. Əsas tədqiqatları RNT tər- kibli onkogen virusların normal hüceyrələrlə qarşılıqlı təsir mexanizminə həsr edilmişdir. Genetik informasiyanın RNT-dən DNT-yə ötürülməsini təmin edən fermenti – revertazanı (RNT-dən asılı DNT-polimeraza) kəşf etmişdir (H. Temindən asılı olmadan). Şiştörədən



virus və hüceyrə genomlarının inteqrasiyası mexanizmlərinin və kanserogenezin molekulyar mexanizmlərinin öyrənilməsi sahəsində xidməti var.

**BÁLTİMOR** (Baltimore) – ABŞ-ın ş.-ində, Merilend ştatında ən iri şəhər. Əh. 610,9 min; şəhərətrafı ilə 2,5 mln.-dan çox (2005; təqr. 64%-i afroamerikalılardır). Vaşinqton ilə Filadelfiya arasında, Patapsko çayının Çesapik körfəzinə (Atlantika okeanı) töküldüyü yerdədir. Böyük dəniz portu ( yük dövriyyəsi ildə 30 mln. *t*). Avtomobil və d.y.-ları qovşağı. Beynəlxalq aeroport (B. ilə Vaşinqton arasında). Metropoliten var.

1682 ildə salınmış, Merilend koloniyasının qubernatoru, lord Sesil Baltimorun şərəfinə adlandırılmışdır; 1797 ildən şəhər statusu almışdır. 18 əsrin ortalarında B.-da dəniz portu, əsrin sonlarında yelkənli ticarət gəmilərinin, sonralar isə hərbi gəmilərin (ilk Amerika hərbi gəmisi "Konstelleyşen" 1797 ildə istifadəyə verilmişdir; hazırda portda saxlanılır, B.-un görməli yerlərindən biridir) inşa olunduğu tərsanələr tikilmişdir. 19 əsrin əv- vəllərindən zərif mebel istehsal edən emalatxanalarla məşhur idi. 1828–30 illərdə ABŞ-da ilk d.y. B. – Ohayo arasında çəkilmişdir. 1897 ildə B.-da (Sparrous-Poynt burnunda) ilk iri metallurgiya z-du işə salınmışdır. 1904 ildə şəhərin işgüzar hissəsi tamamilə yanmış və yenidən tikilmişdir. Birinci dünya müharibəsi ərəfəsində B. iri dəniz portu və metallurgiya mərkəzi olmuşdur; burada neftayırma z-dları, hərbi sənaye və gəmiqayırma müəssisələri fəaliyyət göstərirdi.

Müq. Məryəm kafedral kilsələri (biri klassisizm üslubunda, 1805–21, memar B. Latrob; digəri ar deko üslubunda, ABŞ-da ən iri kilsələrdəndir, 1954–59) B.-un görməli tikililərindəndir. 1970–80-ci illərdə B.-da yenidənqurma işləri görülmüş, turizm sənayesinin inkişafı üçün memarlıq kompleksləri (o cümlədən Harbor-pleys) yaradılmışdır. İngiltərə-Amerika müharibəsi (1812–14) iştirakçılarına (1827, memar M. Qodfrua) və C. Vaşinqtona (1815–29, memar R. Mills) abidələr qoyulmuşdur.

B. ölkənin ən iri təhsil mərkəzlərindən biri; mühüm elmi tədqiqat mərkəzidir. Merilend EA (1797), Con Hopkins Un-ti (1876); Merilend ştatının un-t kompleksi: Merilend (1807), Tayson (1866), Morqan (1867), Baltimor (1925) və s. un-tlər; konservatoriya (Pibodi İn-tu, 1868), incəsənət kolleci (1826) və s.; 60-dan çox federal tədqiqat laboratoriyası (əsas elmi istiqamətləri: fizika, okeanologiya və okeanoqrafiya, əczaçılıq, tibbi avadanlıq); Kolumb mərkəzi (1994 ildən, dəniz biotexnologiyası), Merilend ştatının Elmi



Baltimor şəhərindən görünüş.

mərkəzi; Baltimor incəsənət muzeyi (1914), Uolters rəssamlıq qalereyası (1931), Merilend tarix muzeyi və s.; Edqar Ponun (B.-da yaşamış və burada dəfn olunmuşdur) ev-muzeyi; opera teatrı, şəhər simfonik orkestri; okeanarium fəaliyyət göstərir.

B. ABŞ-ın şm.-ş.-ində mühüm sənaye və ticarət-maliyyə mərkəzidir. Metallurgiya, kimya sənayesi və elmtutumlu istehsalın iri mərkəzidir. Radioelektronika (o cümlədən hərbi məqsədlər üçün avadanlıq istehsalı) və elektrotexnika, aviaraket, neft emalı, yeyinti sənayesi; gəmiqayırma və gəmi təmiri var. Hərbi-dəniz bazasıdır.

**BÁLTLAR** – *Baltika dillərində* danışan xalqlar qrupu. Bu termin 1845 ildə Prussiya tarixçisi Q. Nesselman tərəfindən təklif edilmişdir. Antik müəlliflər onları (yaxud onların bir hissəsini) estiyalar (aestii) kimi qeyd edirdilər. Dilçiliyin, yazılı və arxeoloji mənbələrin məlumatlarının müqayisəsi B.-ı bir neçə qrupa ayırmağa imkan yaradır. Rusiyanın Kalininqrad vil.-ndə, Şimal-Şərqi Polşada, Qərbi Litvada yaşamış qalindalar (bax *Boqaçyov mədəniyyəti*), *pruslar*, *yatvyaqlar*, *kurşilər*, lamatlar, skalvlar və b. xalqlar Qərbi B.-a aiddir. Şərqi Litvada, Cənubi və Şərqi Latviyada yaşamış litvalar, *aukştaytlar*, *jemaytlar*, *latqallar*, zemqallar və sellər Şərqi B.-a aiddir. Toponimiya məlumatları əsasında müəyyən olunmuş Dnepr və Oka B.-ı Erkən Dəmir dövründə Neman çayından Oka çayının yuxarı axarları və Moskva çayınadək yayılmış *Ştrixlənmiş keramika mədəniyyəti*, *Dnepr-Dvina mədəniyyəti* və ehtimal ki, *Dyakov mədəniyyətinin* bir qismi ilə bağlıdırlar. Sonralar Dnepr və Qərbi B.-ın bir hissəsi slavyanlar tərəfindən, Qərbi B.-ın bir hissəsi *Tevton ordeninin* ekspansiyası nəticəsində almanlar tərəfindən assimilyasiya edildi. Qalanları isə müasir Baltika xalqlarının – *litvalılar* və *latışların* tərkibinə qatıldılar.

B.-ın hind-avropalılar massivindən (kütləsindən) ayrılması tarixi, həmçinin onlarda ümumi "başlanğıc" mədəniyyətinin mövcudluğu mübahisəlidir. Arxeoloji məlumatlara görə B.-ın mədəniyyətinə bir neçə mədəniyyət (Orta Laten dövründə *Yastorf mədəniyyəti* və *Pomor mədəniyyəti*, 3–4 əsrlərdə isə *Velbar mədəniyyəti*) və ehtimal ki, Mərkəzi Avropadan köç dalğaları əhəmiyyətli təsir göstərmişdir. *Kəhrəba yolu* vasitəsilə B. Roma imperiyası ilə əlaqə saxlayırdılar. Xalqların Böyük Köçündə balt dəstələrin iştirakı 5–6 əsrlərdə balt mədəniyyətlərinin strukturunda əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Bununla belə balt mədəniyyətlərinin əksəriyyəti üçün innovasiyalar dövründə yaranmış formaların xüsusi davamlılığı səciyyəvidir. B.-da drujina və protoşəhər mərkəzlərinin meydana gəlməsi 9–10 əsrlərə aid olsa da, ilk dövlətləri (bax *Böyük Litva knyazlığı*) 13 əsrdə formalaşmışdır. Qonşularına nisbətən B. xristianlığı daha gec qəbul etmişdilər. Bütpərəst dini təsəvvürlərində arxaik hind-Avropa mifologiyasını əks etdirən balt mədəniyyətlərinin ümumi cəhətləri müşahidə olunur: baş allahın (lat. Dievas) və ildırımsaçan allahın (lit. Perkūnas) kultları, həmçinin *əkiz kultunun* ünsürləri və s.

**BÁLTORO** – Hindistanda, Qaraqorum dağ sisteminin c. yamacında, Çoqori d.-ndan c.-ş.-də dərə dendrit buzlağı. Dünyada ən iri buzlaqlardan biri. Uz. 62 *km*, sah. 775 $km^2$-dir. Braldu çayı (Hind çayı hövzəsi) dərəsinə 3500 *m* hünd.-ədək düşür. B. üstündə buzdan azad, ayrı-ayrı zirvələr ucalır.

**BÁLU**, B a a l (sami dillərində hərfi mənada – "ağa", "hakim"), V a a l (yun.) – qərbi sami mifologiyasında ayrı-ayrı yerlərin allahlarının (Tir B.-su, Sidon B.-su və s.) və ümumi allahların ən geniş yayılmış adlarından biri. Tufan, göy gurultusu və ildırım, yağış və məhsuldarlıq allahı B.-nun (həmçinin Baal-Həddad, sonradan Həddad; akkadca *Adad* adlanmışdır) kultu daha geniş yayılmışdı. B. Uqarit miflərinin baş qəhrəmanıdır (Aliyyanu-B., Aliyyan, "pəhləvan"). Uqarit ənənəsində B.-ya xüsusi diqqət, ehtimal ki, onun Uqaritin himayəçi allahı olması ilə bağlıdır. İldırımsaçan B. haqqında rəvayətlər hett mənbələrində də mövcuddur. B.-ya sitayiş finikiyalılar və karfagenlilər vasitəsilə e.ə. 2–1-ci minilliklərdə tədricən

Baltoro buzlağı.



qərbə (Misir, Pireney y-a və s.) yayılmışdır. Ellinizm dövründə B. *Zevs* ilə eyniləşdirilirdi.

**BALUBALAR** – bax *Lubalar*.

**BALUCA** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkman bölgəsinin Tircayı kəndistanında, Miyanə ş.-ndən 24 *km* şm.-da, Təbriz–Miyanə avtomobil yolunun 13 *km*-liyindədir.

**BALUCA** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin Həsənabad kəndistanında, Kəlibər qəs.-ndən 33 *km* q.-dədir.

**BALVA**, b a l b a – Azərb.-ın dağətəyi bölgələrində yayılmış yemək növü, sıyıq. Suda bişirilən düyüyə xırda doğranmış göyərti (balba, ispanaq, keşniş, cincilim, qazayağı), suda çalınmış un qatılır, hazır olana yaxın yağ, isladılmış lavaşana, duz, istiot və çalınmış yumurta əlavə edilir.

**BALVAR** – Azərb. Resp. Sabirabad r-nunun Surra ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* şm.-da, düzənlikdədir. Əh. 380 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**BALVERƏN BİTKİLƏR** – örtülütoxumlu bitkilərin böyük bir qrupu. B.b. arıçılığın yem bazasıdır; arılar bu bitkilərdən nektar (şirə) və tozcuq toplayır. nektarından bal, tozcuğundan güləm hazırlayır. Bəziləri isə (qovaq, tozağacı, albalı) bundan əlavə, qatranlı maddələr hasil edirlər; arılar bu maddələrdən yapışqan (propolis) hazırlayırlar. B.b. nektarlı və çiçəktozcuqlu bitkilərə ayrılır. Nektar hasil edən bal vəziləri (nektarlıqlar) çox vaxt çiçəklərin dərinliyində yastı nöqtələr, qabarcıqlar, novlar və s. şəklində, bəzən də kasa yarpaqlarının və ləçəklərin qalınlaşdığı xüsusi yerlərdə gizlənmiş olur; nektarlıqlar gövdələrdə, yarpaq saplaqlarında, yarpaqaltlıqlarında və çiçəkaltlıqlarında da rast gəlinir. Azərb.-da 400-dən çox balverən bitki növü var. Arılar bunun ancaq 200 növündən istifadə edir. B.b.-in böyük bir hissəsini mədəni bitkilər təşkil edir. B.b. botaniki və təsərrüfat əlamətlərinə, çiçəkləmə vaxtına (yaz, yay, payız), bitdiyi yerinə və s. görə bir neçə qrupa ayrılır. Azərb.-da çiçəkləri bir gün ərzində daha çox nektar verən, nektarında şəkər faizi yüksək olan, çiçəklənmə müddəti uzun sürən, çiçəklərinin miqdarı çox olan 100-dən artıq bitki növü var. Bunların ən əhəmiyyətlisi cökə, faseliya, toppuztikan, xaşa, günəbaxan, pambıq, yonca, kəkotu, armud, alça, ərik və s. nektarlı, fındıq, itburnu, dazıotu, tozağacı və s. isə çiçəktozcuqlu bitkilərdir. Bu bitkilərin əkildiyi sahənin hər *ha*-ından arılar 100 *kq*-adək bal toplayır. Bitdikləri yerdən asılı olaraq bunlar tarla (ağ akasiya, ləlləkotu, ağcaqayın, doqquzdon), çəmən (yonca, göyçiçək, kasnı, çobanyastığı və s.), meşə (yağıotu, tütəkcə, xurma, şabalıd, mələkotu, ballıca və s.), meyvə-tərəvəz (alma, armud, ərik, gavalı, albalı, gilas, yemiş, qarpız, xiyar, boranı və s.) B.b.-inə bölünür. Arıxana ətrafında bitkilərin müxtəlif olmasının və arıların fasiləsiz nektar toplaya bilməsi üçün balverən bitki növlərinin ardıcıl çiçəkləməsinin böyük əhəmiyyəti var. Bal arıları nektar və çiçəktozcuğu yığarkən eyni zamanda k.t. bitkilərini tozlayır və beləliklə onların məhsuldarlığını artırır.

**BALYAND** – Azərb. Resp. Cəbrayıl r-nunda kənd. Balyand ə.d.-nin (Balyand, Doşulu, Qaracallı k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 17 *km* şm.-ş.-də, Füzuli–Cəbrayıl avtomobil yolunun kənarında, dağətəyi ərazidədir. Əh. 1751 (2008); işğaldan (1993, avqust) əvvəl taxılçılıq, heyvandarlıq, üzümçülük, bağçılıqla məşğul olmuşdur. Orta məktəb, klub, kitabxana, rabitə şöbəsi, 25 çarpayılıq xəstəxana; Böyük Vətən müharibəsində (1941–45) həlak olan həmyerlilərin şərəfinə abidə var idi.

**BALYÁSİNA** – 1) eyvan, pilləkən və s.-nin sürahibəndlərində (*balyustrada*) dayaq kimi qoyulan və daş, ağac, beton, yaxud metaldan hazırlanan fiqurlu (bəzən oyma bəzəkli) sütuncuqlar; 2) ipnərdivanların taxta pillələri.

**BALYİVİ** (Baglivi) Corco [8.9.1668, Raquza (indiki Dubrovnik ş.) – 7.6.1707, Roma] – italyan həkimi, *yatrofizikanın* nümayəndəsi. Tibb təhsilini Neapol və Salernoda almış (1688), Bolonya, Paduya, Hollandiya və İngiltərədə təkmilləşdirmişdir. 1696 ildən anatomiya və cərrahiyyədən dərs demiş, 1700 ildən Roma Un-tində nəzəri tibb kafedrasına rəhbərlik etmişdir.

Əsas əsərləri anatomiya, fiziologiya, nəzəri və praktiki tibb problemlərinə həsr edilmişdir. B. xəstəliklərin əksəriyyətinin patogenezini sinir və damar fəaliyyətinin pozuntuları, əzələ elementləri tonusunun artması və ya azalması ilə izah etmişdir. Saya və eninə zolaqlı əzələlər arasındakı fərqi müəyyənləşdirmişdir (1700). B. qarın yatalağını f e b r i s  m e s e n t e r i c a adı ilə ilk təsvir edənlərdən biridir. O, vərəmin cərrahi üsulla müalicəsi haqqında fikir söyləmişdir; istivurmanı təsvir etmişdir (1693). Roma papaları XII İnnokenti və XI Klimentin saray həkimi olmuşdur.

Ə s ə r i: Opera omnia medico-practica et anatomica. Lugduni, 1704.

**BALYUSTRÁDA** (fr. balustrade), s ü r a h i b ə n d – pilləkən, artırma, eyvan, səki, həmçinin evlərin damı və meydançaların kənarlarında quraşdırılan, çox da hündür olmayan (təqr. insan boyunun yarısı qədər) sıra sütuncuqlardan ibarət məhəccər; yuxarıdan üfüqi tir və ya sürahi ilə bərkidilmiş fiqurlu sütuncuqlardan (*balyasina*) ibarətdir. Klassik memarlıqda B. hüdudlayıcı olur və bərabər şəkildə uzununa sıralanan dirəklərin üzərində bəzən dekorativ güldan və ya heykəllər qoyulur.

**BALZÁK** (Balzac) Onore de (20.5.1799, Tur – 18.8.1850, Paris) – fransız yazıçısı, jurnalist. Atası Bernar Fransua Balsa məmur olmuş, 1802 ildə soyadını dəyişərək de Balzak etmişdi. Anası Ann Şarlott Lor Salambye Paris burjua ailəsindən idi. B. Vandom kollecində (1807–13), Paris Böyük Karl liseyində (1814–16), Paris hüquq məktəbində (1816–19) təhsil almışdır; hüquqşünas karyerasından imtina edərək, özünü ədəbiyyata həsr etmişdir. İlk bitkin əsəri mənzum "Kromvel" (1820) faciəsidir. B. yetkin yaşlarında da özünü dramaturgiyada ("Votren", 1839; "Ögey ana", 1848) sınamış, lakin teatrda uğur qazana bilməmişdir; teatr estetikası onun roman texnikasında (gərgin dramaturji konflikt, hadisələrin dinamizmi; mizansəhnə kimi qurulan maraqlı epizodlar, xarakterlərin qabarıqlığı) öz əksini tapmışdır.



B.-ın ilk əsərləri (təqlidi və parodiya xarakterli) "coşqun romantizm" ruhunda idi ("Anneta və cani" romanı, 1823; 1836 ildə "Pirat Arqou" adı ilə yenidən nəşr edilmişdir) və gizli imzalarla çap olunurdu. B. 1825–28 illərdə naşirlik fəaliyyəti ilə məşğul olmuş, lakin iflasa uğramışdır. V. Skottun romanları ruhunda yazılmış və ilk dəfə B. adı ilə çap olunmuş "Sonuncu Şuan" tarixi romanı (1829; 1834 ildə "Şuanlar" adı ilə yenidən nəşr edilmişdir) tənqidçilərin mənfi reaksiyasına səbəb olmuşdur. "Şəxsi həyat səhnələri" (1830) novellalar silsiləsində B. ailə mövzusunun təfsirində romantik idealizmi təkzib edir; "Uzunömürlülük eliksiri" (1830–31) romanı "Don Juan" haqqında əfsanə mövzusunda bədbin-istehzalı variasiyadır; "Qalmaqallı hekayələr" (1832–37) Renessans novellaçılığının kinayəli stilizasiyasıdır.

1829–33 illərdə B. jurnalistika ilə fəal məşğul olmuş, müxtəlif dövri nəşrlərlə əməkdaşlıq etmişdir. 1832 ildə polyak mülkədar qadını Evelina Qanskaya ilə məktublaşmağa başlamışdır (onların ilk görüşü 1833 ildə baş vermiş, sevgi münasibətləri 1834 ildən başlamış, 14.3.1850 ildə nikah bağlamışlar). B. 1843 ildə S.-Peterburqda olmuş, 1847–50 illərdə fasilələrlə Ukraynada yaşamışdır.

B.-ın ilk böyük uğuru mistik motivlərlə zəngin "Şaqren dərisi" (1831) romanıdır. Burada B., qismən, avtobioqrafik səciyyəli "Lui Lamber" (1832), xüsusilə də "Serafita" (1835) romanlarında olduğu kimi, E.Svedenborq və L.K.de Sen Martenin mistik konsepsiyalarına meyil etmişdir.

E. Qanskayaya yazdığı 26.10.1834 il tarixli məktubunda B. çoxlu povest və romanlardan ibarət irihəcmli silsilənin (gələcək "Bəşəri komediya"nın) planından bəhs etmişdir. 1841 ildə naşir Ş. Fürn ilə müqavilə bağlamış, 1842 ildən isə vahid roman silsiləsi kimi "Bəşəri komediya"nın nəşrini həyata keçirmişdir. Silsilə 3 hissədən ibarətdir: "Əxlaqi etüdlər", "Fəlsəfi etüdlər" və "Analitik etüdlər" (üç hissəyə bölünmə və silsilənin adı Dantenin "İlahi komediya"sı ilə əlaqəni və eyni zamanda polemikanı nəzərə çarpdırır). "Əxlaqi etüdlər" həcminə görə daha böyükdür; buraya əvvəllər çap edilmiş "Şəxsi həyat səhnələri" ["Qobsek" (1830), "Otuz yaşlı qadın" (1831–34), "Polkovnik Şaber" (1832), "Qorio ata" (1834–35) və s.]; "Əyalət həyatı səhnələri" ["Tur keşişi" (1832), "Yevgeniya Qrande" (1833), "Puç olmuş xəyallar" (1837–43) və s.]; "Paris həyatı səhnələri" ["Onüçlərin tarixi" (1834), "Sezar Birotto" (1837), "Nusingenin bankir evi" (1838) trilogiyası və s.]; "Hərbi həyat səhnələri", "Siyasi həyat səhnələri", "Kənd həyatı səhnələri" daxildir. "Fəlsəfi etüdlər"ə "Uzunömürlülük eliksiri", "Şaqren dərisi", "Müəmmalı şedevr" (1831–37), "Əfv edilmiş Melmot" (1835) və s. daxildir. Daha kiçik həcmli "Analitik etüdlər"ə qızğın mübahisəyə səbəb olmuş "Nikahın fiziologiyası" (1829) kinayəli essesi daxildir. Sonralar "Bəşəri komediya"nın hər üç bölümünə yeni əsərlər [birinciyə "Modesta Minyon" (1844), "Kuzina Betta" (1846), "Kuzen Pons" (1847) romanları, həmçinin silsiləni yekunlaşdıran "Müasir tarixin görünməyən tərəfi" (1846–48) romanı] əlavə edilmişdir. "Bəşəri komediya"nın ilk planına 137 əsər daxil idi. 1845 ildə B. silsilənin ümumi strukturunu redaktə edərək, ona daha dəqiq forma vermişdir. "Bəşəri komediya"nın son variantına 95 tamamlanmış əsər daxildir. Bundan əlavə, plan və qeydlərdə 48 əsər mövcuddur.

"Bəşəri komediya"nın bədii məkanı (2400-dən çox personaj, onlardan ən məşhurları Qrande, Qobsek, Rastinyakdır; bir sıra personajlar bir romandan digərinə keçir: məs., Rastinyak 10 əsərdə iştirak edir) yazıçının müasiri olduğu dövrün (əsasən 1800–45 illər) maddi mədəniyyətinin son dərəcə dəqiqliklə canlandırılması deyil, Fransanın yalnız sosial-tarixi həyatının güzgüsü, eyni zamanda sevgi situasiyalarının (çox vaxt ər-arvad xəyanəti, qəhrəmanların iflası, yaxud ölümü ilə bağlı) ensiklopediyasıdır. "Bəşəri komediya"nın müəllifi müxtəlif sosial dairələrin (aristokratiya, xırda burjuaziya, hakimlər, maliyyəçilər, ruhanilər, nadir hallarda kəndlilər) həyatını və bir mühitdən digərinə keçilməsi ilə bağlı çətinlikləri canlandırır ("Kurtizankaların cazibəsi və səfaləti", 1838–47); onun romanlarındakı hadisələr çox zaman Parisdə və əyalətlərdə, az hallarda ölkənin sərhədlərindən kənarda (İtaliya, İspaniya, Norveç, İsveçrə və s.) baş verir.

B. həm rəssam, həm də nəzəriyyəçi kimi düşünürdü. O, J. Lametri (varlığın üzvi vəhdəti), Q. Leybnits (universum fenomenlərinin ümumi qarşılıqlı əlaqəsi), J. Büffon (mühitin təsiri), J. Küvye və E. Joffrua Sent-İler (heyvanların sistemləşdirilməsi prinsipi, induktiv metod), İ. Lafater (fizioqnomika), F. Qall (frenologiya), F. Mesmer (maqnetizm) və b.-nın ideyaları ilə maraqlanmışdır. B.-ın siyasi baxışları liberalizmdən, 1830 ildən tərəfdarı olduğu legitizmə doğru təkamül etmişdir; lakin onun yaradıcılığının real ideya məzmununu müəyyən ideoloji sistemlə bağlamaq düzgün deyildir. B. "iradə" prinsipini insan həyatının universal hərəkətvericisi kimi irəli sürürdü, istər tarixi şəxsiyyətlərin (Napoleon), istərsə də iblis xislətli (Votren, Etyen Lusto) fəal qəhrəmanların vurğunlanması, istedadsızlığın tənqidi, gizli cəmiyyətlər və suiqəsd mövzularına (kriminal, siyasi, filantropik) maraq; kəskin süjetlilik, psixologi ("Kənd keşişi", 1839–41; "Şübhəli iş", 1841), yaxud siyasi ("Terror dövründə olan hadisə", 1830) detektivə meyil buradan irəli gəlirdi.

"Bəşəri komediya"da pul, cəmiyyətin fəaliyyəti üçün zəruri elementlərdən biridir; onun hakimiyyətinin mütləqləşdirilməsi, hər hansı digər hərislik kimi, həmişə məhv və ölümə aparıb çıxarır (elmdə – "Absolyut axtarışları", 1834; incəsənətdə – "Müəmmalı şedevr"; məhəbbətdə – "Lui Lamber" və s.). "Bəşəri komediya"nın ümumi pafosu faciəvidir, buna baxmayaraq B.-a kinayə və qara yumor da yad deyildir.

B. realizmin nəzəriyyəçisi ("Bəşəri komediya"nın ümumi müqəddiməsində, 1842) və praktiki sayılır; bununla yanaşı, romantik estetika ilə bağlılıq (o cümlədən üslubi) onun bütün yaradıcılığında saxlanılır (xüsusilə nostalji xarakterli "Vadidəki zanbaqlar", 1836).

B.-ın bəzi əsərləri Azərb. dilinə tərcümə edilmiş, "Ögey ana" pyesi Azərb. Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur (1939).

Ə s ə r l ə r i: Novellalar. B., 1949; İfritə. B., 1965; Seçilmiş əsərləri. B., 2006.

*Əd.*: XIX əsr xarici ədəbiyyat tarixi. B., 1964; M o r u a A. Прометей или жизнь Бальзака. M., 1968; D i a z J.-L., T o u r n i e r İ. Penser avec Balzac. P., 2003.

**BALZAM AĞACI** – balzam axıdan bir çox tropik və subtropik ağacın, bəzən kolun adı. Ən çox paxlalılar fəsiləsinin Myroxylon cinsinin Cənubi Amerika növləri (M. balsamum, M. pereira; bunlardan Tolu balzamı və Peru balzamı alınır) B. a. adlanır. Sezalpiniyalar fəsiləsindən olan Copaifera cinsinin Cənubi Amerikada bitən bəzi növlərindən kopay balzamı alınır. Bir çox B. a. burzerlər fəsiləsinə aiddir. Məs., bu fəsilədən olan Ərəbistan y-a-nın c.-q.-ində

**Balzam ağacı (Myroxylon balsamum):** *1* – çiçəkli budağı; *2* – meyvəsi (paxla); *3* – çiçəyi; *4* – toxumu.





Bamako şəhərindən görünüş.

və Somalidə yabanı halda bitən Commiphora opobalsamum kolundan (və ya ağacından) qiymətli *Məkkə balzamı* alınır.

**BALZAMİN** – bax *Xınaçiçəyi.*

**BALZAMİNKİMİLƏR** (Balsaminaceae) – ikiləpəli bölümlüləçəkli ot bitkiləri fəsiləsi. Yarpaqları sadə, çiçəkləri ikicinsiyyətli, qeyri-müntəzəmdir. Meyvəsi şirəli qozadır; açılarkən toxumları səpələnir. 4 cinsi, 450-ədək növü var. Əsasən, tropik Asiyada və Afrikada, bəziləri isə Avropada və Şimali Amerikada bitir. 400-dən artıq növü əhatə edən əsas cinsi xınaçiçəyidir (İmpatiens). Azərb.-da adi *xınaçiçəyi* növü becərilir. Vətəni Cənubi Asiya olan İ. balsaminadan bir çox bağ xınaçiçəyi sortu alınmışdır.

**BALZAMLAMA,** m u m i y a l a m a – meyitləri çürüməkdən qorumaq üçün görülən tədbirlər. B. üçün çürüdücü mikrobların fəaliyyətinə mane olan və toxumalarda gedən autoliz (öz-özünü əritmə) proseslərini blokadaya alan antiseptik və konservasiya məhlulları (çox vaxt *formalin*) bədəndəki bütün toxumalara hopdurulur. B.-nı tədris, elmi, məhkəmə-tibbi məqsədlərlə, həmçinin görkəmli şəxsiyyətlərin bədənini mühafizə edib saxlamaq üçün tətbiq edirlər. B. müvəqqəti və uzunmüddətli olur.

B. çox qədimdən məlumdur. Qədimdə çürümənin qarşısını almaq üçün bitkilərdən hazırlanan maddələrdən – *balzamlardan* istifadə edilirdi. Qədim Misirdə daha geniş yayılmışdır (insanların, həmçinin heyvanların çoxsaylı mumiyalarının dövrümüzədək qalması B.-nın yüksək səviyyədə aparılmasını sübut edir). Misirlilər dini etiqadlarına görə ölənləri basdırmamaq üçün B. üsulundan istifadə edirdilər (bu üsulun dəqiq təsviri məlum deyil). Meyitin daxili orqanları, beyni çıxarılıb yerinə müxtəlif ətirli maddələr doldurulurdu. Sonra o, yapışqan və kitrə hopdurulmuş kətan sarğı ilə sarınıb, qurudulurdu.

Sonralar B. məqsədi ilə qan damarlarına arsen birləşmələri, sink duzu, süleymani, spirt və başqa antiseptik maddələr yeridilirdi. 19 əsrin sonundan B. üçün formalindən istifadə edilməyə başlandı. N.F. Melnikov-Razvedenkovun 1893 ildə təklif etdiyi B. üsulu toxumaların formalin məhlulu ilə fiksasiyasından, onlara 96 %-li spirt, qliserin və kalium-asetatın sulu məhlulunu hopdurmaqdan ibarətdir. Bu üsulla balzamlanan meyit uzun müddət çürüməkdən mühafizə edilirdi. 1924 ildə V.P. Vorobyov və B.İ. *Zbarski* tərəfindən B.-nın yeni üsulu işlənib hazırlandı (sonralar S.R. Mardaşev tərəfindən təkmilləşdirilmişdir).

**BALZAMLAR** (yun. βάλσαμον – aromatik qatran) – bitki mənşəli üzvi birləşmələr qarışığı. B., əsasən, uçucu monoterpen birləşmələrindən (efir yağlarından), qatran və onlarda həllolunmuş aromatik birləşmələrdən (vanilin, darçın və benzoy turşusu və onların mürəkkəb efirləri, aldehidlər və ketonlar, spirtlər) ibarətdir. Demək olar ki, suda həll olmur, lakin üzvi həlledicilərdə (o cümlədən spirtdə, efirdə, benzində) həll olur. B. özlü mayedir; efir yağları buxarlandıqca və oksidləşdikcə havada tədricən bərkiyir; məxsusi iyə, kəskin acı dada malikdir.

Əsasən, tropik və subtropik, az hallarda şimal və mülayim en dairələrindəki ağac bitkilərində əmələ gəlir. B. normal maddələr mübadiləsinin məhsuludur və ya gövdə zədələndikdə ayrılır; ehtimal ki, müdafiə funksiyasını yerinə yetirir. B., əsasən, çox vaxt qabıqda inkişaf etmiş xüsusi hüceyrəarası boşluqlarda və ya yollarda, nadir hallarda yarpaqlarda, bəzən də cavan oduncaqlarda toplanır. B., adətən, ağacların gövdəsində xüsusi kəsiklər (çərtmələr) etməklə hasil olunur.

B. texniki məqsədlər (kanifol, lak və politur hazırlanmasında xammal) üçün, ətriyyat-kosmetika və dərman maddələrinin istehsalında istifadə edilir. Tibbi məqsədlə Cənubi Amerikada bitən kopayfera (Copaifera) cinsindən olan ağaclardan əldə edilən kopay balzamı, Mərkəzi və Cənubi Amerika dağlarında bitən miroksilon (Myroxylon) cinsli ağaclardan alınan Peru balzamı xüsusilə geniş istifadə olunur. Balzamlı ağ şam ağacından (Abies balsamea) əldə edilən Kanada B.-ı preparatların mikroskopla müşahidəyə hazırlanmasında, optik şüşələrin yapışdırılmasında istifadə edilir. Süni B. efir yağlarının spirtli məhlullarının qarışıqları, ot dəmləmələridir. Təbii B.-ın analoqları, məs., yaraların sağalması üçün işlədilən polivinilbutil efiri (vinilin), yaxud Şostakovski balzamı sintez edilmişdir.

**BAMAKÒ** – Malinin paytaxtı. Müstəqil inzibati vahid (distrikt) əmələ gətirir. Əh. 1,3 mln. (2005). Niger çayı sahilindədir. Avtomobil yolları qovşağı. Dakar (Atlantika okeanında) və Kulikotro (Niger çayında) portları ilə d.y. əlaqəsi var. Bamako-Senu beynəlxalq aeroportu.

Müasir B. ərazisində ilk məskənlər 15 əsrdə salınmışdır. 19 əsrin 2-ci yarısınadək B. malinke və bambara tayfalarının məskunlaşdığı kiçik qəs., 1882 ildə fransız qoşunlarının istilasından sonra ticarət faktoriyası, həmçinin Fransa tərəfindən Afrikanın müstəmləkələşdirilməsində dayaq məntəqəsi olmuşdur. 1908 ildən Fransanın Yuxarı Seneqal və Niger müstəmləkə idarəçiliyi iqamətgahı, 1920–58 illərdə Fransa Sudanının, 1959–60 illərdə Mali Federasiyasının inz. m., 1960 ildən Mali Respublikasının paytaxtıdır.

Düzbucaq planlı şəhərin baş meydanı mərkəzdə yerləşir. Prezident sarayı ilə birlikdə inz. m. şəhərin şm. hissəsində, Kuluba təpəsindədir. Ş. və q. hissələrində yaşayış məhəllələri salınmışdır. Niger çayı üzərində körpü tikildikdən (1959–62) sonra sağ sahildə yeni Badalabuqu və Torokorobuqu r-nları yaranmışdır. Niger çayı boyunca park zonası, villalardan və ictimai binalardan ibarət abad məhəllələr yerləşir: Came (düzbucaq planlı, psevdoərəb üslubunda), psevdoroman üslubunda Janna d'Ark kilsəsi (1925–36), Sənətkarlıq evi (1932), Mərkəzi bazar. Elmi və texnoloji tədqiqatlar milli mərkəzi (1986), Tropik və ərzaq bitkiləri aqronomiya tədqiqat in-tu (1962), Sahel in-tu (1977), Oftalmologiya in-tu (1953); Milli kitabxana (1913); Milli muzey (1953), Diyarşünaslıq muzeyi; Botanika və zoologiya bağları var.

B. ölkənin iri sənaye və ticarət mərkəzidir. Sənaye zonası şəhərin ş. hissəsində yerləşir. Toxuculuq kombinatı, k.t. alətləri z-du, kibrit və siqaret f-kləri; velosipedyığma və mopedyığma; yeyinti (soyuducu-sallaqxana, meyvə suyu və mineral sular istehsalı), dəri-ayaqqabı, əczaçılıq, metal emalı sənayesi müəssisələri; təmir emalatxanaları var. Sənətkarlıq (ağac və fil dişi üzərində oyma, toxuma, qızıl, gümüş, eləcə də dəri emalı) inkişaf etmişdir. SES. B. yaxınlığındakı mağaralarda Neolit dövrünə aid qayaüstü rəsmlər qalmışdır.

**BAMANÀ DİLİ,** b a m a n a n k a n – *bambaraların* dili, *manden dillərindən* biri. Mali Resp.-nın q. hissəsinin mərkəzində yayılmışdır. Milli dil statusuna malikdir və Malidə əsas etnoslararası ünsiyyət vasitəsi kimi istifadə olunur. B. d.-ndə danışanların sayı təqr. 8 mln. nəfərdir (1999). *Maninka dilinin* ş. dialektlərinə yaxın olan Bamako dialekti əsasında formalaşmış standart B.d. (orfoqrafik standartı vardır) çox vaxt daha mürəkkəb fonoloji sistemə malik çoxsaylı kənd dialektlərinə qarşı qoyulur. B.d. açıq hecalıdır. *Vokalizm* sistemində 7 sait var. Yazısı 1967 ildən latın qrafikasına əsaslanır.

*Əd.:* D u m e s t r e G. Grammaire fondamentale du bambara. P., 2003; И д и а т о в Д.И. Семантика видовременных показателей в языке бамана // Основы африканского языкознания: Глагол. М., 2003.

**BAMAZI** – bax *Pamazı.*

**BAMBARÀLAR** (özlərini b a m a n a adlandırırlar) – Qərbi Afrikada (Niger ç. və Seneqal ç.-nın yuxarı axarlarında) məskunlaşan *manden* qrupuna aid xalq. Malinin q. hissəsinin mərkəzində (3,4 mln. nəfər), Kot-d'İvuarda (700 mindən çox), Seneqalda (69 min, əsasən Tambakunda ş. və onun ətrafında), Qvineyada (37 min), Mavritaniyada (13 min), Qambiyada (6 min) və Burkina-Fasoda (4 min) yaşayırlar. 20 əsrin 2-ci yarısından etibarən B.-ın iri qrupları Fransa (41 min), ABŞ və b. ölkələrdə yaşayırlar. Ümumi sayları 4,2 mln. nəfərdir (2000). *Bamana* dilində danışırlar, fransız dili də yayılmışdır. Dindarların əksəriyyəti müsəlmandır, bir hissəsi ənənəvi etiqadlarını saxlayır. Əvvəllər ərəblər Qərbi Sudanın qeyri-müsəlman əhalisini "B." adlandırırdılar.



Bamako. Azadlıq abidəsi.

B.-ın əcdadları qədim *Malinin* (13–16 əsrlər) ş.-ində yaşamışlar. Xalqın təşəkkülü idarəçilik və hərbi aparatı B.-dan ibarət olmuş *Sequ* dövlətinin yüksəlişi ilə bağlıdır. Sequnun ekspansiyası B.-ın *Kaarta*, Beleduqu, Keneduqu, Megetan və b. dövlətlərin çərçivəsində lokal qruplara ayrılmasına gətirib çıxartdı. 19 əsrin ortalarından islam dini yayılır. B. Qərbi Sudanı öz hakimiyyəti altında birləşdirməyə çalışan müsəlman fatehlərə, xüsusilə *fulbelər* və *tukulyorlara* qarşı 19 əsrin sonlarınadək müqavimət göstərmişlər. Bu mübarizədə B.-ın liderləri fransızların dəstəyinə arxalanırdılar. Fransız müstəmləkə qoşunları – "Seneqal atıcıları"nın böyük hissəsini təşkil edən B. Birinci dünya müharibəsinin döyüşlərində fərqlənmişlər. B. müstəmləkəçiliyə qarşı hərəkatda iştirak etmiş, Beleduquda 1915–16 illərdə baş vermiş üsyanın aparıcı qüvvəsi olmuşlar. Müasir Malidə etnomədəni konsolidasiyanın özəyini təşkil edirlər.

Ənənəvi mədəniyyətləri Qərbi Afrikanın Sudan yarımvilayətinin xalqları üçün səciyyəvidir. Əsas məşğuliyyətləri dincə qoyulmuş torpaqlarda toxa əkinçiliyidir. Dənli bitkiləri kişilər, bostan bitkilərini isə qadınlar becərirlər. Keçi və qoyun yetişdirir, qaramalı isə fulbelərdən mübadilə yolu ilə alırlar. Ənənəvi ovçuluq B.-da xüsusi sosial əhəmiyyət kəsb edir; ovçu birlikləri hakimiyyət münasibətlərinə və siyasi həyata təsir göstərir. Ənənəvi sənətkarlıq sahələri dəmirçilik, zərgərlik, toxuculuq (kişilər arasında), əyirmə (qadınlar arasında), dulusçuluqdur (dəmirçilərin arvadları arasında). Ənənəvi geyimləri: kişilərdə – qısa şalvar (kurusi), qolsuz qısa köynək (qloki), rombşəkilli pambıq papaq (bamada), qadınlarda isə dolama tumandır (tafe). Ənənəvi kasta iyerarxiyasında ali təbəqə əkinçi-hərbçilərdən (onlar toxuculuqla da məşğul ola bilərdilər), orta təbəqə dəmirçilərdən, aşağı təbəqə isə müğənni-*qriotlar*dan ibarət idi. Soyadı sistemində (camu) əks olunan ata xətti ilə qəbilələrə bölgü (müttəfiq qəbilələrin birliyi çərçivəsində endoqamiya üstünlük təşkil etməklə), yaş-cins institutları, kişi və qadın gizli ittifaqları (Komo, Kore, Ntomo və s.), böyük ailələr (du) qorunub saxlanılır; poliginiya yayılmışdır. Kənd icması (duqu) başçısı kəndi salmış şəxsin (duqu-tiqi) ailəsinin ən yaşlı kişi nümayəndəsi olmaqla ağsaqqallar şurası tərəfindən idarə olunur. Kənddə hər bir ailənin ayrı məhəlləsi var. Əcdadlara, həmçinin məhsuldarlıq qüvvələrinə sitayiş qalmaqdadır. Gizli ittifaqlarda maskalı ezoterik mərasimlər keçirilir. B.-da müğənni-qriotlar tərəfindən ifa olunan inkişaf etmiş qəhrəmanlıq və ovçu eposları ("Mamari Biton Kulibali", "Da Monzon Cara" və s.) mövcuddur. Nağıllar, atalar sözləri, həmçinin toy, təsərrüfat və s. mərasimlərlə bağlı nəğmələr geniş yayılmışdır. Bayramları təsərrüfat işlərinin, ov mövsümünün və s. başlanması və sona çatması ilə bağlıdır. Maskarad paltarı geyinən, maska taxan, marionetlər oynadan, mahnı oxuyan, rəqs edən iştirakçıla-



Bambaralar. Kono maskası. Ağac. Antropologiya və Etnoqrafiya Muzeyi. S.-Peterburq.



Bamberq şəhərindən görünüş.

rın müşayiəti ilə kütləvi mərasimlər də yayılmışdır. Ağac üzərində oyma (maskalar, baş bəzəkləri, dini heykəltəraşlıq və s.), pambıq parçaların rənglənməsi, batikləmə, "boqolan" texnikası (parçanın xüsusi gillə hopdurulması) ilə hazırlanan parçanın naxışlanması, naxışvurma toxuculuğu inkişaf etmişdir. Keramika bitki boyalarla rənglənir, oyma və möhürlər vasitəsi ilə bəzədilir; 20 əsrdə yağlı boyalarla naxışvurma yayılmışdır.

**BAMBERQ** – AFR-də, Bavariya federal ərazisinin şm.-ında şəhər. Reqnits çayının aşağı axınında, onun Mayn çayına töküldüyü yerin yaxınlığında, Mayn–Dunay kanalı sahilindədir. Əh. 70,5 min (2005). Mühüm nəql. qovşağıdır.

B.-in adı şərqi frank zadəgan nəsli olan *Babenberqlərin* qəsri (*burqu*) kimi ilk dəfə 902 ildə qeyd olunmuşdur. 10 əsrdə Bavariya hersoqlarının tabeliyinə keçmişdir. 995 ildə hersoq İnadcıl Henrix irsən gələcək german kralı və imperatoru – oğlu Müqəddəs II Henrixə vermişdir. Sonuncunun 1007 ildə B.-də yaratdığı yepiskopluq sonralar Müqəddəs Roma imperiyasının mühüm siyasi və dini mərkəzi olmuşdur. 1803 ildə yepiskopluğun geniş torpaqları müsadirə edilmiş və Bavariyanın tərkibinə qatılmışdır. 1817 ildə B.-də arxiyepiskopluq yaradılmışdır. 1919 ildə şəhərdə müvəqqəti olaraq Bavariya hökuməti və landtaqı yerləşmişdir. Həmin ildə burada Bavariya konstitusiyası qəbul olunmuşdur.

B. Bavariyanın iri turizm mərkəzidir. Şəhərin qədim hissəsi *Ümumdünya irsi* siyahısına daxil edilmişdir. Orta əsrlər alman memarlığının ən böyük dini tikilisi olan roman-qotika üslubundakı Müq. Pyotr və Müq. Georgi kilsəsi (inşasına 1004 ildən başlanılmış, 1186–1237 illərdə davam etdirilmiş, *kluatrı* 1452 ildə tikilmişdir) B.-in ən mühüm memarlıq abidəsidir. Kilsəni monumental plastika nümunələri bəzəyir: "Bərəkət qapısı" timpanında roman relyefləri; "Adəm qapısı" portalında və "Knyaz portalı"ndakı fiqurlar, məşhur "Bamberq süvarisi" (hamısı 1220–40) və s. Digər abidələri: Köhnə (1479–89) və Yeni (barokko üslubunda, inşası 1586 ildən; indi burada Bavariya dövlət rəssamlıq qalereyasının filialı və kitabxana yerləşir) yepiskop iqamətgahları; Müq. Mixail (1015 ildən fasadı 1697–1703), Müq. Stefan (1020, 17 əsrdə yenidən tikilmişdir), Müq. Martin (1689–91) kilsələri və s.; keçmişdə knyaz iqamətgahı olmuş Geyersvört qəsri, barokko üslubunda tikililər (ratuşa, Konkordiya sarayı) və s.

E.T.A. *Hofman* 1808–12 illərdə B.-də yaşayıb yaratmışdır; Bamberq teatrı onun adınadır. Un-t (1972) var.

İqtisadiyyatında xidmət sahələri üstünlük təşkil edir. B. pivəbişirmə mərkəzlərindən biridir. Elektro-kimya, toxuculuq, tikiş, dəri istehsalı, ağac emalı müəssisələri var.

**BAMBUK** (malayca bambu) – 1) Bambusa cinsindən ağacabənzər taxılların adı; Asiya, Afrika və Amerikanın tropiklərində və subtropiklərində 70-ə yaxın növü bitir; 2) *bambukkimilər* yarımfəsiləsindən olan bütün taxılların ümumi adı.

**BAMBUK AYISI** – bax *Böyük panda.*

**BAMBUKKİMİLƏR,** bambuklar (Bambusoideae) – taxıllar fəsiləsindən bitki yarımfəsiləsi. Oduncaqlaşmış gövdə-küləşi olan kökümsovlu çoxillik, həm də ot bitkiləridir. Hünd. 3 *m*-ə yaxın (bəzən 40 *m*-dən artıq) olur. Tikanlı lianayabənzər formaları da məlumdur. Bir çox B.-in gövdəsinin yuxarı hissəsi xeyli budaqlanmış olur. Gövdəsinin səciyyəvi xüsusiyyəti sürətli (bəzi B. sutkada 70–80 *sm*-ədək) və qısamüddətli (adətən, 6 həftəyədək) böyüməsidir; tam hünd.-yə çatdıqdan sonra yalnız qısa yan zoğlar inkişaf edir. Yarpaqları, adətən, enli ayalı, saplaqlar vasitəsilə qına birləşmişdir. Çiçəkləri ikicinsiyyətli, yaxud bircinsiyyətlidir; bir və ya çoxçiçəkli sadə çiçək qrupunda – sünbüllərdə toplanmışdır; sünbüllər sünbülvarı, süpürgəvarı, salxımvarı və şarşəkilli mürəkkəb çiçək qrupunda birləşə bilər. Oduncaqlaşmış gövdəli B. 30–120 ildə bir dəfə (çiçəklədikdən və meyvə verdikdən sonra belə fərdlər, adətən, məhv olur), otşəkilli B. isə hər il çiçəkləyir. Meyvəsi dənmeyvədir (bəzən qozabənzər və giləmeyvəyəbənzər). B.-in təqr. 1000 növdən ibarət 70-ədək cinsi var; ən iri cinsi (80-ədək növ) bambukdur (Bambusa). B., əsasən, Cənub-Şərqi Asiya və Malayya arxipelaqının tropik və subtropik qurşaqlarında, Mərkəzi və Cənubi Amerikada, Afrikada nisbətən az, Avstraliyada lap az yayılmışdır; az sayda növlər mülayim qurşaqda yaşamağa uyğunlaşmışdır. B.-in möhkəm və yüngül gövdəsi yaxşı inşaat materialıdır; ondan xırda məmulat və kağız hazırlamaqda istifadə olunur. Bəzi növləri dekorativdir; bağ və parklarda, o cümlədən Qafqazın Qara dəniz sahillərində becərilir. Cavan zoğları və toxumları yeyilir.



Nəhəng bambuk (Dendrocalamus giganteus).





**BAMBUNDULAR** – bax *Ambundular.*

**BAMENDA** – Kamerunda şəhər. Şimal-Qərb əyalətinin inz. m. Əh. 393,8 min (2005). Ölkənin q.-ində, Adamava d-rında, təqr. 2000 *m* hünd.-də yerləşir. Avtomobil yolu onu Bafusam ş. ilə əlaqələndirir. Aeroport. Almanların 19 əsrin sonlarında Kameruna basqınından qabaq salınmışdır; Almanlar 1912 ildə burada istehkam inşa etmişlər. Akum beynəlxalq muzeyi və kitabxana (1948) var. B. maldarlıq r-nu mərkəzidir. Yeyinti və yüngül sənaye müəssisələri var. B.-dan c.-da alüminium filizi yatağı yerləşir.



Bamenda şəhərindən görünüş.

**BAMİAN** – Əfqanıstanın mərkəzində əyalət. Sah. 14,2 min $km^2$, əh. 484,6 min (2005). İnz. m. Bamian ş.-dir.

**BAMİAN** – Əfqanıstanın mərkəzi hissəsində şəhər. Bamian əyalətinin inz. m. Əh. 125 min (2005). 3000 *m* hünd.-də, Baba silsiləsinin şm. ətəyində, Bamian çayı (Kunduz çayı hövzəsi) sahilində, Kabildən 130 *km* şm.-q.-dədir. Eramızın 1 əsrindən məlumdur, qədim Çin yazılı mənbələrində 5 əsrdən qeyd edilir. Ərəb istilasınadək (7 əsr) buddizmin mühüm mərkəzlərindən biri olmuşdur. Şəhərin yaxınlığında qayalarda çapılmış buddist monastır kompleksi (1–8 əsrlər) dövrümüzədək qalmışdır. Bir-biri ilə pilləkən və keçidlər sistemi vasitəsilə birləşən 2000-dən çox mağara (ibadətgahlar, hücrələr, məclis yerləri və s.) Budda heykəlləri, divar rəsmləri və daşlarda yonulmuş ornamentlərlə bəzədilmişdir. Daha məşhur olan iki nəhəng Budda heykəli (hünd. 35 *m* və 53 *m*, 2–3 əsrlər və 5 əsr) 2001 ilin martında talibanlar tərəfindən tamamilə dağıdılmışdır. B.-ın abidələri *Ümumdünya irsi* siyahısına daxil edilmişdir. Tarix-etnoqrafiya muzeyi var.

**BAMİLEKE** – indiki Kamerunun c.-q.-ində 18 əsr – 20 əsrin əvvəllərində mövcud olmuş *bamileke* xalqlarının icma birlikləri ittifaqı. Mərkəzi hakimiyyətə nominal tabe olan tayfaların sayı 33-ə çatırdı. B.-nin ali hakimi (fo, yaxud fonq) Bancun tayfasının başçısı idi. Onun fəaliyyəti dini xarakter daşıyırdı və əyanlar şurası tərəfindən nəzarət olunurdu. Fo hakimiyyət funksiyalarını qoşuna, gizli ittifaqlara və öz nümayəndələrinə arxalanaraq həyata keçirirdi. B. ərazisi 1902 ildə Almaniya Kamerununun tərkibinə qatıldı.

**BAMİLEKELƏR** (Bamileke) – Kamerunun q.-ndə (Nun və Makombe çaylarının yuxarı axarlarında) xalqlar (babacular, bafanqlar, bafusamlar, bancunlar, çanqlar, banqanqtelər və b.) qrupu. Sayları 1,76 mln. nəfərdir (2000). B. *bantoid dillərinin* qrassfild qrupunun bamileke yarımqrupuna aid olan dillərdə [yemba və ya çanq; qomala və ya bancun (banjun); medumba və ya banqanqte; fefe və ya bafanq; nqemboon və s.] danışırlar.

Bamian şəhəri yaxınlığında buddist monastır kompleksi.



Ənənəvi dini etiqadlarını qoruyub saxlayırlar: müsəlman və xristianları da var.

B.-in əcdadları qədimdə Nigerya ərazisində yaşamış, orta əsrlərdə isə Mbam çayının yuxarı axarlarında (hazırda *tikarların* etnik ərazisi) məskunlaşmışlar. 17 əsr – 18 əsrin əvvəllərində *fulbelər* tərəfindən sıxışdırılan B. Nun çayından qərbdəki yaylaya köçmüş və burada *Bamileke* adlı erkən dövləti qurum yaratmışlar. Ənənəvi mədəniyyətləri Ekvatorial Afrika üçün səciyyəvidir. Əsas məşğuliyyətləri tropik toxa əkinçiliyidir; qarğıdalı, tütün, yams, kakao, araxis, darı, yağverən palma və s. becərilir. Ətlik qaramal yetişdirirlər. Əhalinin bir hissəsi Duala ş.-nin müəssisələrində və portda işləyir. Ağac və fil sümüyü üzərində oyma, həmçinin toxuculuq, həsir və həndəsi ornamentli kalebasların hazırlanması inkişaf etmişdir. Təbilləri, tayfa başçılarının evlərinin qapı və pəncərə yerlərini, dirəklərini, çarpayı və oturacaqlarını qabarıq naxışlarla bəzəyirdilər; talvarın altında ev sahibinin (bir əlində hakimiyyət əsası, digərində isə əcdadının kəlləsi), onun arvadlarının və sələflərinin əsl ölçülərində heykəlləri qoyulurdu. Maskalar (o cümlədən camış maskaları) və ikitərəfli maska – "yanuslar" məşhurdur. Yaşayış məskənləri formaca dağınıqdır (pərakəndə); kvadratplanlı, karkaslı evləri bambukdan tikilir, iri çıxıntılı konusşəkilli damları küləş, budaqlar və yarpaqlarla örtülüdür. Kişilər bel sarğısı, qadınlar isə ətəklər (yubkalar) geyinirlər. Folklor janrlarından mahnı və rəqslər daha çox yayılmış, nağılları, atalar sözləri də var.

**BAMİR** Mirteza Topi (d. 24.4.1957, Tirana) – Albaniyanın siyasi və dövlət xadimi. Tirana Kənd Təsərrüfatı Un-tini bitirmişdir. Albaniya Demokrat Partiyasının sədr müavini, parlamentin üzvü (1996), kənd təsərrüfatı naziri (1996–97) olmuşdur. 2007 il iyulun 20-də keçirilən seçkilərdə Demokrat Partiyasının namizədi kimi Albaniya Resp.-nın prezidenti seçilmişdir.

**BAMİYƏ**, yeməli hibiskus (Hibiscus esculentus) – əməköməcilər fəsiləsindən birillik ot bitkisi. Gövdəsi budaqlı, hünd. 2 *m*-ədək olur. Yarpaqları 5–7 dilimli, yaxud bölümlü, uzunsaplaqlıdır. Ortasında bənövşəyi ləkə olan çiçəkləri sarı və ya narıncıdır; tək-tək, yarpaq qoltuğunda yerləşir. Meyvələri uzunsov, bəzən yumurtavarı qutucuqdur. Vətəni tropik Afrikadır. 250-dən artıq növü var. Azərb.-da məlum olan 5 növdən 4-ü becərilir. Naxçıvanda introduksiya olunur. Cənubi Asiyada tərəvəz bitkisi kimi geniş becərilir; qombo adlanan cavan (kal) meyvələrindən (çox vaxt bütövlükdə bitkiyə qombo deyilir) istifadə edilir. Yetişmiş toxumları qəhvəni əvəz edir. Yarpaqları heyvanlar üçün yemdir. Gövdəsindən alınan lifdən ip və giş hazırlanır.



Bamiyə (Hibiscus esculentus).

**BAMİYƏ** – Şərq şirniyyatı növü. Bamiyə bitkisinin meyvəsi formasında hazırlandığı üçün belə adlanır. Buğda unu qaynar suda açılır, soyuduqdan sonra ona yumurta, xəmir qabartması, bir qədər duz vurulur və bərk xəmir yoğrulur. Xəmir müvafiq taxmalı ət maşınından keçirilir. Burma xəmir hissələri bitki yağında (frityurda) qızardılır və sonra qənd şərbətinə salınıb 2–3 saat ərzində hopdurulur. Quruduqdan sonra üstünə qənd tozu səpilir.

**BAMMAT** (Bammatov) Heydər (? – ?) – dağlı ictimai-siyasi hərəkatının liderlərindən biri, liberal-demokrat, Müvəqqəti Dağlılar hökumətinin üzvü. 1918 ilin martında Tiflisdə Zaqafqaziya seyminin Müsəlman fraksiyası ilə Şimali Qafqaz nümayəndə heyətinin birgə iclasında Azərb.-la Şimali Qafqaz arasındakı əlaqələri tənzimləmək üçün yaradılan xüsusi komissiyanın üzvü olmuşdur. Ə.M. *Çermoyevlə* birlikdə 1918 il mayın 11-də Qafqaz Dağlılar İttifaqı dövlətinin müstəqilliyini elan edən İstiqlal bəyannaməsini imzalamışdır. B. *Batum konfransında (1918)* iştirak etmiş, burada bir çox dövlətlərin nümayəndə heyətləri ilə Şimali Qafqaz Respublikasının müstəqilliyinin tanınması ilə bağlı danışıqlar aparmışdır. 1918 il iyunun 8-də Şimali Qafqaz Respublikası Osmanlı dövləti ilə dostluq haqqında müqavilə imzalamış və ondan hərbi yardım təminatı almışdı. 1919 il iyunun 12-də B. Azərb. və Gürc. nümayəndə heyətlərinə Qafqaz ərazisində qarşılıqlı münasibətləri tənzimləmək və vəziyyəti yerində öyrənmək məqsədilə buraya xüsusi komissiya göndərilməsi üçün *Paris sülh konfransına* müraciət olunmasını təklif etmiş, iyunun 15-də isə bolşevizmlə mübarizə adı altında Denikinə kömək göstərilməsinin dağlı xalqları və dövlətini məhvə sürüklədiyini bildirərək, Azərb.-ı və Gürc.-ı Denikinin hərəkətlərinə qarşı etiraz notası verməyə çağırmışdır.

B. Azərb.-a qarşı ərazi iddiaları qaldıran bəzi Dağlılar hökuməti nümayəndələrinə qəti etirazını bildirmişdir. 1919 il mayın 30-da Parisdə Azərbaycan və Şimali Qafqaz dağlılarının Paris sülh konfransındakı (1919–20) nümayəndələrinin Ə. *Topçubaşovun* sədrliyi ilə keçirilən iclasında B. Qafqaz Konfederasiyası yaradılmasının tərəfdarı kimi çıxış etmişdir.

**BAMPER** – bax *Bufer*.

**BAMUM YAZISI** – bamum dilinin yazısı (bax *Bantoid dilləri*). Bamum dövlətinin hökmdarı Ncoyya tərəfindən yaradılmışdır (təqr. 1896, 1-ci variant). B.y. mənşəcə orijinaldır, lakin 19 əsrin ortalarından Qərbi Nigeriyada mövcud olmuş nsibidi mnemonik qrafik sisteminin ona təsiri də ehtimal edilir. Ncoyya B. y.-nı 20 il ərzində 6 dəfə yenidən işləmişdir, buna görə də onun 7 variantı mövcuddur.

Ncoyyanın ölümündən (1933) sonra B.y. tədricən istifadədən çıxmışdır. B.y.-nda bir sıra mətnlər – şəxsi və işgüzar yazışmalar, fərmanlar və digər hüquqi sənədlər, Bamum dövlətinin tarixinə dair kitab, farmakoloji təlimat kitabı, Bibliyadan fraqmentlərin tərcümələri saxlanılmışdır.

*Əd.:* Dugast I., Jeffreys M.D.W. L'ecriture des Bamum. P., 1950; Schmitt A. Die Bamum-Schrift. Wiesbaden, 1963; Фридрих И. История письма. 2-е изд. М., 2001; Дирингер Д. Алфавит. 2-е изд. М., 2004.

**BAMÚMLAR**, mumlar, momlar, banunlar (özlərini şupamam adlandırırlar) – Kamerunda (Mbam və Nun çayarasında) xalq. Sayları 375 min nəfərdir (2000). *Bamilekelərə* yaxındırlar və qismən onlara qarışmışlar. Bamum dilində danışırlar; dilləri *bantoid dillərinin* qrassfild qrupunun nun yarımqrupuna aiddir. Dindarları, əsasən, müsəlmandır, həmçinin xristianlar və ənənəvi etiqadlarını saxlayanlar da var.

B.-ın əcdadları indiki Nigeriya ərazisində yaşamışlar. 17 əsrin sonlarında *fulbelərin* təzyiqləri nəticəsində Mbam və Nun çayarasına köçən B. 18 əsrin əvvəllərində 18 tayfanı, o cümlədən yerli xalqları (*bamilekelər*, *tikarlar* və b.) birləşdirən Bamum tayfa ittifaqını yaratmışlar. Hökmdarın (mfu) hakimiyyəti əyanlar şurasının nəzarəti altında idi, idarəetmədə onun anası da iştirak edirdi. Mfunun ölümündən sonra onun ruhunun maskalarda təcəssüm olunduğu zənn edilirdi. 19 əsrin sonlarında B.-ın bir hissəsi islam dinini qəbul etmiş, 20 əsrin əvvəllərindən xristianlıq da yayılmışdır. *Bamum yazısı* ilə qeyd olunmuş tarixi rəvayətlər, adət hüququ və s. mətnlər qorunub saxlanılmışdır. Ənənəvi mədəniyyətləri Ekvatorial Afrika üçün səciyyəvidir. İncəsənətlərinin *Sao* mədəniyyətinin təsiri altında formalaşması ehtimal olunur. Terrakota, tuncdan tökmə, toxuculuq, fil sümüyü və ağac üzərində oyma (maskalar, başlıqlar, hökmdarın mərasim oturacaqları, yataqları və s.), kalebasların, ağac, gil və tunc tənbəki çubuqlarının və s. düzəldilməsi inkişaf etmişdir. 1902 ildə Bamum dövləti Almaniya *Kamerununun* tərkibinə qatıldı. Müasir B. toxa əkinçiliyi ilə məşğul olur, plantasiyalarda işləyirlər.

Bamum maskası. Balıqqulağı, bitki lifləri, dəri, bürünc 19–20 əsrlər.



**BAMUT QƏBİRİSTANLARI** – Çeçenistanda (RF) Bamut k. yaxınlığında Tunc dövrünə və son orta əsrlərə aid kurqan qəbiristanı. Tədqiqinə 1958 ildən başlanılmışdır. Tunc dövrü kurqanlarında Maykop (e.ə. 3-cü minilliyin sonu), Şimali Qafqaz, katakomba (e.ə. 2-ci minillik) və sarmat mədəniyyətlərinə aid 250-dən çox qəbir açılmışdır. Bu, Şimali Qafqazda tədqiq edilmiş Tunc dövrü abidələrindən ən böyüyüdür. 14–16 əsrlərə aid 30-dək kurqanın tədqiqi Şimali Qafqazın c.-ş. r-nlarına monqollardan sonra müasir adıgelərin, kabardalıların və çərkəzlərin əcdadı olan adıq tayfalarının gəldiyini göstərir.

**BAN** – bax *Van*.

**BAN** – türk xaqlarında zadəgan titulu. Göytürklərdə və uyğurlarda baqa (yaxud bağa), avarlarda isə bağan formasında işlədilmişdir; digər türk xalqlarında da (bulqarlarda və b.) mövcud olmuşdur. Sonralar bu terminə slavyan xalqlarında da rast gəlinir. 10 əsrdə macar kralı Xorvatiyaya B. təyin etmişdi. 12–14 əsrlərdə Bosniyada hökmdar titulu kimi istifadə olunmuşdur. Osmanlı imperiyası dövründə B. Macarıstanda və Sloveniyada sancaq bəylərinin və şahzadələrin ünvanı idi. 1931–41 illərdə Yuqoslaviyada 9 vil.-in hər birinin qubernatoru banovin adlanırdı. 1939–41 illərdə muxtar Xorvatiyaya B. rəhbərlik edirdi.

*Əd.:* Kafesoğlu İ. Türk Milli Kültürü. İstanbul, 1993.

**BAN** – 1) çardaqlı evlərdə damın üstü, çardağın altında olan qapalı hissə; 2) bax *Avtomobil kuzası*.

**BAN ÇAO** (32, Şensi əyaləti – 102, Loyan) – Çin sərkərdəsi və diplomatı, *Ban Qunun* kiçik qardaşı. Xan dövlətində yüksəkvəzifəli məmur və alim Ban Byaonun (3–34) ailəsindəndir. 73 ildə imperiyanın şm.-q.-indəki sərhədyanı bölgələrində məskunlaşan və *hunnuların* da tabe etməyə çalışdığı xalqlara qarşı hərbi ekspedisiyanın rəhbəri olmuşdur. Yerli hakimlərin ara müharibələrindən, həmçinin hunnulara qarşı narazılıqdan istifadə edərək B.Ç. Şərqi Türküstanın ("Qərbi diyar") kiçik dövlətlərini bir müddət Xan imperiyasının tərkibinə qatmışdır. "Qərbi diyarda" olarkən bacarıqlı diplomatiya vasitəsilə yerli sakinlərin hesabına nəinki öz hərbi dəstəsini bir neçə min nəfərə çatdırmış, həm də hunnulara qarşı koalisiyanın yaradılmasına nail olmuşdur. 90 ildə Kuşan padşahlığının ordusunu, 91 ildə isə hunnuları məğlubiyyətə uğradaraq 50-dən çox dövləti Çinə tabe etmiş və idarə etdiyi vil.-in ərazisini təqr. Xəzər dənizinə və İran körfəzinə qədər genişləndirmişdir. B.Ç.-nun hərbi və diplomatik uğurları Böyük ipək yolunun bir müddət təhlükəsizliyini təmin etdi, Çinin Avropa ilə ticarət-mədəni əlaqələrinin inkişafına təkan verdi. Lakin çuğulluq və intriqa nəticəsində B.Ç. imperatorun gözündən düşdü və vəzifədən uzaqlaşdırıldı (100 ildə). Sarayda nüfuza malik olan bacısının səyləri ilə imperator 102 ildə B.Ç.-nun paytaxta qayıtmasına icazə verdi.

**BAN QU**, Pan Ku (təqr. 33, Şensi əyaləti – 92, Loyan) – Çin tarixçisi, konfusiçi alim, *Ban Çaonun* qardaşı. Xan dövlətində yüksəkvəzifəli məmur və alim Ban Byaonun (3–54) ailəsindəndir. Loyandakı ali məktəbdə təhsil almışdır. 62–88 illərdə saray tarixçisi olmuşdur. Çin tarixinə (e.ə. 3 əsr – eramızın 1 əsri) dair əsərlərin müəllifidir. Atasının yazmağa başladığı "Tsan Xan şu"nu ("Erkən Xan sülaləsinin tarixi") 58–82 illərdə davam etdirmiş və tamamlamışdır; əsərin iki bölməsini bacısı Ban Çjao yazmışdır. Əsər üç müstəqil, eyni zamanda məntiqi cəhətdən bir-biri ilə bağlı elementləri (hadisələrin dəqiq xronoloji ardıcıllıqla qeyd olunması, tarixi qəhrəmanların geniş tərcümeyi-halları, imperiyanın ictimai və siyasi həyatında baş verən müxtəlif hadisələrə həsr olunmuş oçerklər) birləşdirən orijinal metodologiyaya əsaslanır. B.Q.-nun kitabı sonrakı Çin tarixnəvisləri üçün sülalə tarixinin etalonu olmuş, indi də Çinin erkən tarixinə dair dəyərli mənbə kimi istifadə edilir. 79–81 illərdə B.Q. imperatorun sifarişi ilə kanonik konfusiçilik ədəbiyyatının və bir sıra digər fəlsəfi əsərlərin şərhinə həsr olunmuş "Bo Xu Tun" ("Ağ Pələng [Zalındakı diskussiya haqqında] hesabatı") adlı fəlsəfi-didaktik əsərini yazmışdır. Bu əsərdə tarixi tərəqqinin mümkünlüyü etiraf olunurdu. Udinin hakimiyyəti dövründə Xan imperiyasında baş verən hadisələrə həsr olunmuş tarixi-bədii əsərlərin müəllifliyi də ənənəyə görə B.Q.-ya aid edilir. 80-ci illərin sonlarında imperatorun etibarını itirmiş, 92 ildə isə həbs olunmuşdur.

**BÁNAX** (Banach) Stefan (30.3.1892, Krakov – 31.8.1945, Lvov) – polyak riyaziyyatçısı, *funksional analizin* yaradıcılarından biri. Lvov Politexnik Un-tini bitirmiş (1914) və orada işləmişdir; 1924 ildən prof., 1939 ildən fizika-riyaziyyat fakültəsinin dekanı olmuşdur. B., 1922 ildə *Banax fəzası* adını almış tam normalaşmış xətti fəzaları öyrənməyə başlamışdır. *Banax cəbri*, halqası, qəfəsi də məlumdur. Adi diferensial tənliklər nəzəriyyəsinə və kompleks dəyişənli funksiyalar nəzəriyyəsinə öz töhfəsini vermişdir.



**BÁNAX CƏBRİ** – kompleks ədədlər meydanında *Banax fəzası* olan cəbr ($C$). Cəbrin quruluşu Banax fəzasının quruluşu ilə o mənada uyğunlaşdırılır ki, $C$ cəbrində xətti əməliyyatların kəsilməzliyi ilə yanaşı vurma da kəsilməzdir. $xy$ hasilinin $x,y$ arqumentlərinin külliyatına görə kəsilməzliyi bu halda həm soldan ($x$-ə görə), həm də sağdan ($y$-ə görə) kəsilməzliklə eyni güclüdür. B.c.-ndə başlanğıc

normaya ekvivalent olan, $\|x \cdot y\| \le \|x\| \cdot \|y\|$ şərtini ödəyən *norma* $\|.\|$ mövcuddur. Əgər B.c.-ndə vahid varsa, onun norması 1-ə bərabərdir.

[0,1] parçasında bütün kəsilməz funksiyalar cəbri, kompleks müstəvinin $|z|<1$ diskində (dairəsində) onun $|z|\le 1$ qapanmasında kəsilməz olan analitik funksiyalar cəbri, Banax fəzasının bütün məhdud xətti *operatorları* cəbri B.c.-nə misal ola bilər. Fəza birölçülü olmadıqda, sonuncu cəbr kommutativ deyildir. Banax fəzalarının bütün məhdud xətti operatorları cəbri universaldır: hər bir B.c. uyğun operatorlar cəbrinin qapalı altcəbri şəklində dəqiq göstərilir. *Hilbert fəzasının* xətti operatorlarının B.c. kvant mexanikası məsələləri ilə əlaqədar olaraq öyrənilmişdir.

Kommutativ B.c. üçün mücərrəd yanaşma yararlı olmuşdur. Kommutativ B.c.-ni kommutativ *normalaşmış halqa* da adlandırırlar. Kommutativ B.c. nəzəriyyəsi klassik *harmonik analizin* çoxsaylı pərakəndə faktlarını birləşdirmişdir. B.c. nəzəriyyəsi həm də çoxölçülü kompleks təhlil və *cəbri topologiya* ilə əlaqədardır.

**BÁNAX FƏZASI** – tam normalaşmış xətti fəza. B.f. müasir riyazi və funksional analizin ən mühüm anlayışlarından biridir; B.f.-nın ümumi tərifini vermiş və belə fəzaların ardıcıl öyrənilməsinə başlamış S. *Banaxın* adı ilə bağlıdır. 20 əsrin əvvəllərində D. *Hilbert*, A. *Lebeq*, M. *Freşe*, F. *Riss* tərəfindən daxil edilmiş funksiyalar fəzası və ardıcıllıqlar fəzası Banaxın araşdırmaları üçün baza olmuşdur.

B.f.-nda xətti quruluşun olması göstərir ki, bu fəzada elementlərin kompleks (və ya həqiqi) ədədlərə vurulması və ixtiyari element cütləri üçün onların cəmi təyin edilmişdir. Toplama və vurma əməliyyatları *vektor fəzasının* aksiomlarına tabedir. Xətti fəza o vaxt normalaşmış adlanır ki, onun hər bir $x$ elementinə uyğun olaraq mənfi olmayan elə $\|x\|$ ədədi qarşı qoyulsun ki, 1) yalnız və yalnız $x=0$ olduqda $\|x\|=0$; 2) hər hansı kompleks (və ya həqiqi) $\lambda$ ədədi üçün $\|\lambda x\|=|\lambda|\,\|x\|$; 3) xətti fəzanın istənilən $x$ və $y$ cütləri üçün $\|x+y\| \le \|x\| + \|y\|$ olsun. $\|x\|$ ədədi $x$ elementinin *norması* adlanır. Normalaşmış $X$ fəzasının tamlığı o deməkdir ki, $k$, $n\to\infty$ olduqda, $\|x_k - x_n\|\to 0$ şərtini ödəyən $X$-dən olan istənilən $x_k$ elementlər ardıcıllığı üçün $X$ fəzasında elə $x$ elementi var ki, $k\to\infty$ olduqda, $\|x - x_k\|\to 0$ olsun.

B. f-nın mühüm xüsusi halı kimi xətti quruluşla yanaşı $(x,y)$ skalyar hasili verilən *Hilbert fəzasını* göstərmək olar; burada $\|x\| = \sqrt{(x,x)}$

Separabel B.f. xüsusi rol oynayır. Normalaşmış $X$ fəzası o vaxt seperabel fəza adlanır ki, orada $X$-də sıx olan $\{x_1, x_2,\ldots\}$ elementlərinin hesabi çoxluğu olsun, yəni istənilən $\varepsilon >0$ və $X$-dən olan istənilən $x$ elementi üçün $\{x_1, x_2,\ldots\}$ çoxluğundan elə $x_k$ elementi tapılacaq ki, $\|x-x_k\|< \varepsilon$ olsun. Maksimumu $x\in[a,b]$ üzrə götürülən

$$\|f\| = \max_{a\le x\le b} |f(x)|$$

normalı $[a,b]$ parçasında kəsilməz $f(x)$ funksiyalarının $C[a,b]$ fəzası, Lebeq üzrə $p$-dərəcədən inteqrallanan funksiyalardan ibarət

$$\|f\| = \left(\int_a^b |f(x)|^p\, dx\right)^{1/p}$$

normalı $L_p[a,b]$, $p\ge 1$ fəzası, $x=(x_1, x_2,\ldots)$-dən ibarət

$$\|x\| = \left(\sum_{k=1}^{\infty} |x_k|^p\right)^{1/p}$$

normalı $l_p$, $p\ge 1$ sonsuz ardıcıllıqlar fəzası B.f.-na misal ola bilər. Bütün bu fəzalar separabel, $L_2[a, b]$ və $l_2$ fəzaları isə Hilbert fəzalarıdır. Müasir analizdə müxtəlif konkret funksional B.f.-ndan, xüsusi halda *Sobolev*, Hardi, Besov fəzalarından istifadə olunur.

$B$ B.f. ilə yanaşı ona qoşma olan $B^*$ fəzasına baxılır. $B^*$ fəzası $B$-də xətti kəsilməz funksionallardan, yəni kompleks (və ya həqiqi) ədədlər meydanında $B$ fəzasının xətti kəsilməz inikaslarından ibarətdir. $\|f\|=\sup |f(x)|$ normalı $B^*$ fəzası da (burada supremum $\|x\|\le 1$ şərtini ödəyən bütün $x$-lərə görə götürülür) B.f.-dır. Aşağıda adları çəkilən teoremlər B.f. nəzəriyyəsində mühüm rol oynayır: qabarıq funksionalların tabeliyi saxlamaqla B.f. altfəzasından bütün fəzaya davamının mümkünlüyü haqqında Han–Banax teoremi (xüsusi halda, normanı artırmamaq şərtilə xətti funksionalların davamının mümkünlüyü); müntəzəm məhdudluq haqqında Banax Şteynhauz teoremi (bu teoremdə isbat olunur ki, $A_n$ xətti məhdud operatorlar ardıcıllığı eldədir ki, B.f.-nın hər bir $x$ elementi üçün $\|A_n x\|$ ədədi ardıcıllığı $n$ və $x$-dən asılı olmayan hansısa $C$ sabiti ilə məhduddur: $\|A_n x\|\le C\|x\|$); tərs operator haqqında Banax teoremi (bu teoremdə isbat olunur ki, əgər xətti kəsilməz operator bir B.f.-nı başqasına qarşılıqlı birqiymətli inikas etdirirsə, onda tərs operator da kəsilməzdir).

**BANALİTÉT** (fr. banalite, banal; ilkin mənası süzerenə məxsus olan deməkdir) – orta əsrlərdə Qərbi Avropada asılı kəndlilərdən natural vergi (un, şərab və s.) toplamaq məqsədilə feodalın onlardan taxıl üyütmək, çörək bişirmək, şərab çəkmək və s. işlərin feodala məxsus dəyirmanda, sobada, üzüm məngənəsində görülməsini tələb etməsi ilə bağlı inhisar hüququ; sonralar kəndlilər bu işləri öz təsərrüfatlarında görmək istədikdə, vergini pulla ödəməli idilər. B. kəndlilər üçün xüsusilə ağır olan feodal imtiyazlarından biri olmuşdur. B. kimi institut feodalizm dövründə Asiyada da yayılmışdı. Məs., Çində kəndlilər buğdanı sahibkarın dəyirmanında üyütməli və onun çaltikdöyənindən istifadə etməli idilər.

**BANÁN** (Musa) – zəncəfilkimilər sırasına aid banankimilər fəsiləsindən çoxillik bitki cinsi. Afrika, Asiya və Avstraliyanın tropik və subtropik ərazilərində təqr. 60–70 növü bitir. Yarpaq rozetini əmələ gətirən ətli kökümsovu olan hündür otlardır. Yarpaqlarının uz. 2,7 *m* və eni 60 *sm*-ə çata bilir. Onların qını hünd. 1,5–8 *m* olan çoxqatlı boru (yalançı gövdə) əmələ gətirir; borunun içərisində ucunda çiçək qrupu olan meyvəverən gövdə cücərir. Çiçəkləri bircinsiyyətli və ikicinsiyyətlidir. Çoxtoxumlu, giləmeyvəyəbənzər meyvəsinin uz. 6–30 *sm*, diametri 2–5 *sm*-dir; mədəni formalarında çox vaxt toxumsuz olur (bitkilər vegetativ çoxalır). Bir ox üzərində ümumi kütləsi 50–60 *kq*-adək olan təqr. 300 meyvə yetişə bilir. Becərilən (mədəni) B.-ın təzə meyvələrinin lətində 22–25 % karbohidrat, 75–78 % su, az miqdarda C, $B_1$, $B_2$, PP, E vitaminləri, A provitamini və s. vardır. Bir meyvə insanın kaliuma və maqneziuma olan sutkalıq tələbatını ödəyir. Meyvə verdikdən sonra B.-ın yerüstü hissəsi quruyur. Əsas bitkinin ətrafında əmələ gələn kök pöhrələrindən yeni yalançı gövdələr törəyir və meyvəvermənin yeni dövrü başlayır. B. üçün havanın illik orta temp-ru 20–26°C və yağıntının miqdarı ayda 100 *mm*-dən az olmamalıdır. Yağıntısız (quru) mövsüm 3 aydan artıq davam etməməlidir. B. torpaq şəraitinə az tələbkardır, lakin həddən artıq turş torpaqlarda Panama xəstəliyinə məruz qalır.

B. ən qədim k.t. bitkilərindəndir. Mədəni (becərilən) B.-ın vətəni Cənub-Şərqi Asiyadır. Bütün tropik ölkələrdə yetişdirilir, onların bir çoxu üçün ən mühüm qida bitkisi və başlıca ixrac məhsuludur; Afrikanın bəzi r-nlarında ənənəvi iqtisa-





diyyatın əsasını təşkil edir. Ümumi meyvə yığımına görə B. üzümdən, sitrus bitkilərindən və almadan sonra dünyada 4-cü yerdədir. Dünyada B. məhsulunun hasilatı (2004 il üçün) ildə təqr. 85 mln. *t*-dur; bunun yarısından çoxu Latın Amerikasının payına düşür. Məhsuldarlıq 10–60 *t/ha*-dır. B.-ın daha çox yayılmış şirin sortları (Qro Mişel, Kavendiş, Poyo, Lakatan) M. acuminatanın əsasında becərilmişdir. Onların meyvələri təzə və qurudulmuş halda istifadə edilir, onlardan un, konservlər, marmelad, şirə, çaxır və s. hazırlanır. Tərəvəz B.-ı, yaxud plantaynlar (Xorn və s.) M. acuminata və M. balbisiananın hibridləridir. Bunların meyvələri yalnız kulinariya emalından sonra istifadə olunur. Cavan zoğları, yalançı gövdəsi və kökümsovu qida kimi işlədilir. B. meyvələri, həmçinin yarpaqları, gövdəsi və qabığı heyvanlar üçün yem kimi istifadə edilir. Texniki bitki kimi toxuculuq B.-ı, yaxud lifli B. (M. textilis) becərilir; onun yalançı gövdələrindən alınan lif toxuculuqda, Manila kəndiri (bax *Abuka*), kağız və karton hazırlanmasında istifadə olunur. Qafqazın Qara dəniz sahilində meyvəsi yeyilməyən cırtdan yapon B.-ı, yaxud dekorativ B. (M. basjoo) becərilir. Azərb.-da Lənkəran, Zaqatala və Gəncə bölgələrində dekorativ bitki kimi əkilir.

Banan (Musa) ağacları.



**BANANYEYƏNLƏR** – bax *Turakolar*.

**BANÁRLAR**, b a n a l a r – Vyetnamda (Zəlay-Kontum, Nqiabin və Fukxan əyalətləri) *dağ khmerləri* qrupuna aid xalq. Sayları 174,4 min nəfərdir (1999). Bir sıra subetnik qruplardan ibarətdir. Antropoloji cəhətdən Cənubi Asiya irqinə mənsubdurlar. Banar dilinin 9 dialektində danışırlar. Vyetnam dili də yayılmışdır. Əsas məşğuliyyətləri toxa əkinçiliyi və suvarma xış əkinçiliyi (çəltik, qarğıdalı, batat, pambıq, çətənə, tərəvəz), heyvandarlıq (camış, öküz, keçi), quşçuluq, ovçuluq və yığıcılıqdır. Ənənəvi sənətkarlıq sahələri toxuma, dulusçuluq və k.t. alətlərinin istehsalıdır. Yaşayış məskənləri həndi çəpərlənmiş kəndlərdən ibarətdir. Evləri, əsasən, yortac əsaslı və üçkameralıdır. Kəndin mərkəzində xalq yığıncaqlarının keçirildiyi zəngin oyma naxışlarla bəzədilmiş, damı trapesiya formasında olan icma evi (ronq) yerləşir. Ənənəvi geyimləri: kişilərdə saçaqlı və naxışlı bel sarğısı, qadınlarda naxışlı uzun yubka və koftadır. Bəzəkləri zəngindir. Əsas yeməklər düyü, batat, maniok və tərəvəzdən hazırlanır. Sosial təşkilatlanmanın ənənəvi forması seçilən başçısı olan qonşu icmasıdır. Ənənəvi etiqadları animizm, totemizm, aqrar kultlardır; bir hissəsi xristiandır. Zəngin folklorları (miflər, əfsanələr, nağıllar, qəhrəmanlıq eposu, musiqi folkloru) var.

**BANÁT** – Cənub-Şərqi Avropada tarixi vilayət; ş.-də Transilvaniya Alp d-rı, q.-də Tisa çayı, şm.-da Mureş çayı, c.-da Dunay çayı ilə sərhədlənir. B. 12 əsrdən Macar krallığının tərkibində olmuş, 16 əsrdə Osmanlı imperiyasının torpaqlarına qatılmışdır. *Pojarevats sülh müqavilələrinə (1718)* görə Habsburqların hakimiyyətinə keçmişdir. Kolonizasiya prosesləri nəticəsində formalaşan B. əhalisinin çoxmillətli tərkibi rumınlar, serblər, xorvatlar, macarlar, slovaklar, almanlar və b.-ndan ibarət idi. *Trianon sülh müqaviləsinin (1920)* şərtlərinə görə Rumıniya (ş. hissəsi) ilə Serblərin, Xorvatların və Slovenlərin krallığı (1929 ildən Yuqoslaviya; q. hissəsi) arasında bölüşdürüldü. Hazırda B. ərazisi Serbiya və Rumıniyanın tərkibindədir.



Banco.

**BANBAŞI** – Azərb. Resp. Masallı r-nunda kənd. Banbaşı ə.d.-nin (Banbaşı, Binə Xocavan k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 4 *km* q.-də, Viləş çayının sol sahilində, Lənkəran ovalığındadır. Əh. 2411 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, feldşer-mama məntəqəsi, kitabxana var.

**BANCÁRLAR** – bax *Lambadilər*.

**BÁNCO** (ing. banjo) – lyutna tipli simli musiqi aləti. *Gitaraya* yaxındır. Paralel yerləşdirilmiş *dekalardan* ibarət dairəvi korpusu, uzun qolu, qolunda oyma pərdələri (müasir alətlərdə) var. 1870-ci illərdən ABŞ məişət və əyləncə mədəniyyətində yayılmışdır. B.-nun sələfi 17 əsrdə Qərbi Afrikadan gətirilmiş qullar arasında mövcud olmuş alətdir. 20 əsrin 2-ci yarısında B.-nun beşsimli növü populyar idi. Mizrabla və ya barmaqla çalınır.

**BANCÚL** – bax *Banjul*.

**BANÇİÁNQ**, B a n ç i e n q – Tailandın şm.-ş.-ində (Udonthani ş.-ndən 55 *km* ş.-də) e.ə. 6-cı minillik – eramızın 3 əsrinə aid yaşayış məskəni. 1966 ildə Amerika tədqiqatçısı S. Yanq tərəfindən aşkar edilmişdir; 1967 ildən B.-da müntəzəm qazıntılar aparılır. B.-ın alt təbəqələri Neolit dövrünə aiddir. E.ə. 3600–2000 illərə aid olan təbəqələr üçün cızma həndəsi naxışlı qara-boz boya ilə cilalalnmış keramika səciyyəvidir. E.ə. 4-cü minilliyin 2-ci yarısına aid edilən tunc məmulatın tapıldığı B., ehtimal ki, Tunc dövrü metallurgiyasının ən qədim ocaqlarından biri olmuşdur. E.ə. 1-ci minilliyə aid təbəqələr üzərində tünd sarı fonda qırmızı-



Bançianq. Keramika nümunələri.

narıncı rəsmlər (dairələr, spirallar, dalğavarı xətlər, stilizə edilmiş bitkilər, heyvanlar, insanlar) olan nazikdivarlı, cilalanmış, mürəkkəb formalı yapma keramikası ilə fərqlənir. B.-ın 2 *km*-liyində yerləşən Phosinay monastırının ərazisində keramik qabların əhatəsində tək dəfn yerləri məlumdur. Mekonq çayı sahilindəki (Ubonratçathani əyalətində) Phatem ("rəngli qaya") abidəsi (e.ə. 2-ci minilliyin sonu – 1-ci minillik; vəhşi heyvanlar, nəhəng balıq, sxematik insan fiqurları, əl izləri və s.-dən ibarət qayaüstü rəsmlər) B. mədəniyyətinə aid olunur. B. zonası *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

**BÁNDA** (1670–1716) – Hindistanda siqhlərin kəndli müharibəsinin rəhbəri. *Racput* əsillidir. *Böyük Moğollarla* mübarizədə B. Pəncabın bir neçə r-nunu azad edə bilmişdi. 1715 ildə siqhlər ağır məğlubiyyətə uğramışlar. Böyük Moğollar tərəfindən ələ keçirilən B. və onun ardıcılları Dehliyə aparılaraq ağır işgəncələrdən sonra edam olunmuşlar.

**BÁNDA** – Sakit okeanda adalararası dəniz. Sula, Buru, Seram, Tinimbar, Timor, Alor, Tukanqbesi, Sulavesi və s. adalar arasındadır. İndoneziyanın sahillərini yuyur. Sah. 714 min *km*². Ən dərin yeri 7440 *m*-dir. Axınları fevral ayında c.-ş. və ş. istiqamətli, avqustda isə q. və şm.-q. istiqamətlidir. Suyunun ortaillik temp-ru 27°C, duzluluğu 33,0–34,5‰-dir. Hünd. 2,4 *m*-ə çatan qarışıq qabarmalar olur. Uçan balıqlar, akulalar, tuneslər, səkkizayaqlı ilbizlər və s. var. Mühüm portu Ambon ş.-dir (Seram a.).

**BANDA** – bax *Mütəşəkkil cinayətkarlıq*.

**BANDÁJ** (fr. bandage – sarğı), t i b d ə – qarın divarını möhkəmlətmək, qarın boşluğu orqanları sallandıqda onları normal vəziyyətdə saxlamaq, habelə orqanların yırtıq qapısından çıxmasının qarşısını almaq üçün istifadə olunan xüsusi sarğı. B. həmçinin hamiləliyin son aylarında və doğuşdan sonra qarnı saxlamaq, cərrahi əməliyyatdan sonra yırtıq əmələ gəlməsinin profilaktikası məqsədilə də istifadə olunur. Sallaq qarın, çox piylənmə, qarnın ön divarının yırtıqları, qarnın düz əzələlərinin ayrılması zamanı B. bağlanması zəruridir. Xüsusi yırtıq B.-ı hər hansı səbəbə görə cərrahi əməliyyat mümkün olmadıqda, yerinə salına bilən qasıq və bud yırtıqlarında istifadə edilir. Düzgün seçilmiş və geyinilmiş B. narahatlıq törətməməlidir.

**BANDÁJ** (fr. bandage – sarğı, bander – sarımaq, bağlamaq), t e x n i k a d a – maşın və konstruksiyaların detallarına taxılan metal halqa və ya kəmər. Boru kəmərlərinə qızmar halda taxılan B. möhkəmliyi artırır. Maşın, yaxud konstruksiyaların B.-ı detalları birləşdirmək, onların möhkəmliyini artırmaq və ya yeyilməsini azaltmaq üçündür. D.y. vaqonlarının təkərlərinə qaynar halda taxılan çıxıntılı halqa (relsdən çıxmamaq üçün) yayma üsulu ilə hazırlanır.

**BÁNDALAR** – Mərkəzi Afrika Resp.-nda (950 min) və Konqo Demokratik Resp.-da (600 min) xalq. Həmçinin Konqo Xalq Resp.-nda (10 min) və Sudanda (10 min) yaşayırlar. Ümumi sayları 1,57 mln. nəfərdir (2000). Böyük zənci irqinə mənsubdurlar. Konqo-kordofan dil ailəsinin Niger-Konqo qrupunun şərqi-adamaua yarımqrupuna aid olan ubangi dillərində danışırlar. Dialekt və şivələri: baba, belinqo, bonqo, linda, lanqbase, mbala, mbanca və s. Ənənəvi etiqadlarını (əcdadların və ruhların kultu, magiya) saxlayırlar. Əsas məşğuliyyətləri tropik dincə qoyulmuş topraqlarda toxa əkinçiliyi (darı, qarğıdalı, küncüt, kalış, yer fındığı, maniok, noxud, pambıq və s.) və heyvandarlıqdır. Əmək alətləri balta, toxa və iti kənarları olan halqadır. Dulusçuluq, ağac üzərində oyma yayılmışdır, qablar həndəsi ornamentlərlə bəzədilir. Tayfalar başçılar tərəfindən idarə olunur. Əkinçi icması kiçik və böyük patriarxal ailələrdən ibarətdir. Yaşayış məskənləri böyük və yığcam kəndlərdir. Evləri dördkünc planda və karkaslıdır; hörmə divarlar gillə suvanır, hündür küləş damları pi- ramidavarıdır. Əsas yeməkləri darı sıyığı, tərəvəz, süd və balıqdır. Zəngin musiqi folkloru, tarixi əfsanələr qalmaqdadır.

**BANDÁLILAR**, 1) k ö h n ə b a n d a l ı l a r, e l i - e l a t l a r, v a d a n l a r – Şərqi İndoneziyada (Nuxu-Çut a., Kay arxipelaqı) Ambon-Timor xalqlarından biri. Sayları 3 min nəfərdir (1998). Şərqi İndoneziya keçid irqi qrupuna mənsubdurlar. Banda, yaxud eli-elat dilində danışırlar. Key və İndoneziya dilləri də yayılmışdır. Dindarları müsəlmandır. B. Banda adalarının aborigenlərinin, həmçinin gəlmə İndoneziya, Çin və ərəb komponentlərinin əsasında təşəkkül tapmış orta əsr ticarət etnosunun nəsilləridir. 14–16 əsrlərdə cövüzün becərilməsi və satışı ilə məşğul olmuşlar. Adalar 16 əsrdə portuqallar, 17 əsrin əvvəllərində isə Hollandiya Ost-Hind şirkəti tərəfindən işğal olunmuşdur. Ədviyyat ticarətini tamamilə ələ keçirmək məqsədilə apardığı mübarizənin gedişində holland müstəmləkəçiləri 1621 ildə B.-ın əksəriyyətini qırmışlar; sağ qalanlar Molukk arxipelaqının adalarına köçmüş və tədricən yerli əhali (*ambonlular, geserlər* və b.) ilə qaynayıb qarışmışlar. Nuxu-Çut a-nda B.-la *kaylar* arasında konsolidasiya prosesi gedir. Əsas məşğuliyyətləri tropik toxa əkinçiliyi (meyvəköklülər, paxlalılar, meyvələr), balıqçılıq, ticarətdir. Folklor (çariça Boiratan haqqında rəvayətlər silsiləsi) saxlanılır.

2) O r a n q - b a n d a l ı l a r – İndoneziyanın Banda a-rında etnik birlik. Sayları 12,5 min nəfərdir (1998). Malayya dilinin Ambon dialektində (melayu-ambon) danışırlar. Dindarları müsəlmandır, xristianları da var. 1621 ildə yerli B.-ın qovulmasından sonra holland müstəmləkəçilərinin İndoneziyanın Timor və digər adalarından ədviyyat yetişdirmək üçün gətirdikləri fəhlələrdən təşəkkül tapmışlar. Etnik tərkibin müxtəlifliyi sürətlə kreollaşmaya səbəb olmuşdur. Əsas ənənəvi məşğuliyyətləri cövüz yetişdirmək, tropik toxa əkinçiliyi (tərəvəz və meyvə) və balıqçılıqdır. Maddi mənəvi mədəniyyətləri zəif öyrənilmişdir.





**BANDARANÁİKE** Sirimavo (17.4.1916, Ratnapura – 10.10.2000, Kolombo) – Şri Lanka (1972 ilədək Seylon) dövlət və siyasi xadimi. Dünyada ilk qadın baş nazir. Əri S. *Bandaranaikenin* qətlindən (1959) sonra Seylon Azadlıq partiyasının lideri, 1960 ildən isə partiyanın sədri olmuşdur. 1960–65, 1970–77, 1994–2000 illərdə baş nazir vəzifəsində çalışmışdır. Hərbi bloklara qoşulmamaq, bitərəf və dinc yanaşı yaşamaq siyasəti yeritmiş, Hind okeanı hövzəsindəki hərbi bazaların ləğv edilməsi uğrunda mübarizə aparmışdır. Milli iqtisadiyyatda dövlət sektorunun prioritet inkişafının, xarici neft şirkətlərinin və özəl plantasiyaların milliləşdirilməsinin və torpaq mülkiyyətinin məhdudlaşdırılmasının tərəfdarı olmuşdur. Sinqal-buddist milliyyətçiliyi kursunu, həmçinin buddizmə dövlət dini statusu verilməsini dəstəkləmişdir. *Millətlər Birliyi* çərçivəsində dominion olan Seylon B.-nin hakimiyyəti dövründə resp. statusu əldə etmiş və demokratik, sosialist, buddist Şri-Lanka resp.-sı adlanmışdır. 1977 ildə keçirilən seçkilərdə Birləşmiş Milli partiyaya (BMP) məğlub olmuş, 1980 ildə parlamentdən qovulmuş və vəzifədən sui-istifadə etməkdə günahlandırılaraq vətəndaş hüquqlarından məhrum edilmişdir. 1980-ci illərin sonlarında siyasi fəaliyyətini bərpa etmiş və qızı Ç. Kumaratunginin prezident seçilməsindən sonra baş nazir təyin olunmuşdur (1994). 2000 ilin avqustunda səhhəti ilə əlaqədar istefaya çıxmışdır.



**BANDARANÁİKE** Solomon (8.1.1899, Kolombo – 26.9.1959, Kolombo) – Seylonun (1972 ildən Şri-Lanka) dövlət və siyasi xadimi. Baş nazir (1956–59). Kolomboda kollec bitirmiş. Oksford Un-tində təhsil almışdır. 1925 ildən Seylon Milli Konqres partiyasının, 1946 ildən Birləşmiş Milli partiyanın (BMP) üzvü olmuşdur. B. 1947–51 illərdə səhiyyə naziri vəzifəsində işləmişdir. 1951 ildə həm BMP-dən, həm də hökumət tərkibindən çıxaraq sinqal-buddist milliyyətçiliyi, dövlət sektorunun prioritet inkişafı və aqrar islahatların keçirilməsi şüarları ilə çıxış edən Seylon Azadlıq partiyasını (SAP) yaratmışdır. 1956 ildə keçirilən seçkilərdə SAP-ın qələbəsi nəticəsində B. hökumət başçısı olmuşdur. Hərbi bloklara qoşulmamaq, bütün ölkələrlə diplomatik əlaqələr yaratmaq siyasəti yeritmişdir. Sui-qəsd nəticəsində öldürülmüşdür.

**BANDÁY** – Honsü a.-nın (Yaponiya) şm.-nda fəaliyyətdə olan vulkan. Hünd. 1819 *m*. Andezitlərdən təşkil olunmuşdur. Ən fəlakətli püskürməsi 1888 ildə min illik fasilədən sonra baş vermişdir. *Banday-Asahi Milli Parkının* tərkibinə daxildir.

**BANDÁY-ASÁHİ MİLLİ PARKI** – Yaponiyada, Honsü a.-nın şm.-ındadır. Sah. təqr. 190 min *ha* (bir neçə qoruq daxildir). 1950 ildə yaradılmışdır. Relyefi dağlıqdır; enliyarpaqlı və iynəyarpaqlı meşələrlə örtülüdür. Fəal vulkanlar (Banday, Adzuma), çoxsaylı göllər var. Ərazisində qırmızısifət makaka, dağkeçisi, ağsinəli qara ayı məskunlaşmışdır.

**BANDÉLLO** Matteo Mariya (1485, Milan hersoqluğu, Kastelnuovo-Skriviya ş. – təqr. 1561, Fransa, Ajen) – italyan yazıçısı. Dominikçi monastırında təhsil almışdır. 1541 ildən Fransada yaşamış, Ajen ş.-nin yepiskopu vəzifəsini icra etmişdir (1550–55). "Müqəddəs Kattaneo qardaşın tərcümeyi-halı" (lat. 1935 ildə çap olunmuşdur) ilk qələm təcrübəsidir. Əsas əsəri "Novellalar"dır (h. 1–3, 1554; h. 4, 1573). Epistolyar nümunələr ilə birlikdə 214 novelladan (əsasən, faciəvi məzmunlu) ibarət toplunun quruluşu Renessans novella kitabı ənənələrinə qarşı çıxır və onun barokko modifikasiyasını qabaqlayır. "Novellalar" Fransada, İspaniyada, Almaniyada böyük uğur qazanmış, U. Şekspirin bir sıra pyesləri (o cümlədən "Romeo və Cülyetta", "Otello"), L. de Kamoens, M. de Servantes, P. Kalderon de la Bark və Lope de Veqanın əsərləri üçün mənbə olmuşdur. "Şeirlər" toplusu (1554; 1816 ildə çap olunmuşdur), "On bir nəğmə" adlı poetik sevgi alleqoriyası (1538; 1545 ildə çap edilmişdir) və s. əsərlərin müəllifidir.

Ə s ə r i. Новеллы// Золотой кубок дожа. Новеллы итальянского Возрождения. M., 1993.

**BANDÉRA** Stepan (1.1.1909, Avstriya-Macarıstan, Kaluş dairəsinin Stari Uqrinov k.; indiki İvano-Frankovsk vil. – 15.10.1959, AFR, Münxen) – Ukrayna siyasi xadimi. Uniyat keşişi ailəsindəndir. Gimnaziya tələbəsi ikən Ukrayna gizli hərbi təşkilatının (1920 ildə Vyanada yaradılmışdır) fəaliyyətində iştirak etmişdir. Lvov Politexnik İn-tunun aqronomluq fakültəsində təhsil almışdır (1928–34). 1929 ildən Ukrayna Millətçiləri Təşkilatının (UMT) üzvü, 1933 ildə həmin təşkilatın Polşadakı Qərbi Ukrayna diyar bölməsinin rəhbəri olmuşdur. 1936 ildə Polşanın daxili işlər naziri B. Peratskinin qətlinin (1934) təşkilində günahlandırılaraq ölüm cəzasına məhkum edilmişdir (sonradan ömürlük həbslə əvəz olunmuşdur); Polşanın Almaniya tərəfindən işğalından sonra, 1939 ilin sentyabr ayında azadlığa buraxılmışdır. 1940 ildə UMT-ın parçalanmasından sonra inqilabi UMT-ın rəhbəri olmuşdur. Lvovda Ukrayna dövlətinin bərpası elan olunduqdan (1941, iyun) sonra alman hakim dairələri tərəfindən həbs edilmişdir; 1944

Banday-Asahi Milli Parkı.



ilin dekabrında azadlığa buraxılmışdır. 1945 ildən yenidən UMT-a rəhbərlik etmişdir; müharibədən sonrakı illərdə Münxendə yaşamışdır. AFR Ali məhkəməsinin qərarına görə, rus casusu tərəfindən qətlə yetirilmişdir.

**BANDÉRAS** Antonio (d.10.8.1960, İspaniya, Malaqa) – Hollivudda geniş şöhrət qazanmış ilk ispan kinoaktyoru. Dram sənəti məktəbini bitirmişdir. 1982–90 illərdə ispan kinorej.-u P. Almodovarın filmlərində ("Ehtiraslar labirinti", 1982; "Matador", 1986; "Qadınlar əsəb sarsıntısı həddində", 1988; "Əl-qolumu bağla!", 1990) çəkilmişdir.

B. 1990-cı illərdə Hollivuda köçmüş və "Filadelfiya" (1993), "Vampirlə müsahibə" (1994) filmlərində ikinci dərəcəli rollara çəkilmişdir. Çoxplanlı aktyor olan B. 60-dan çox filmə (o cümlədən "Evita", 1996; "Zorronun maskası", 1998; "13-cü döyüşçü", 1999; "Cazibə", 2001; "Zorro əfsanəsi", 2005; "Günahlar şəhəri", 2008 və s.) çəkilmiş, R. *Rodriges*, K. *Tarantino* ("Dörd otaq", "Bir dəfə Meksikada", "Casusların uşaqları" və s.) kimi məşhur rej.-larla işləmişdir. B. özünü rej. kimi də sınamışdır ("Dəlisov qadın", 1996; "Yay yağışı", 2006).

B. Hollivudda Xarici Jurnalistlər Assosiasiyasının "Qızıl qlobus" mükafatını (1997, 1999, 2004) almış ilk ispan aktyorudur.

**BANDERÓL** – 1) pul dəstini bağlamaq üçün Milli bank tərəfindən təsdiq edilmiş vahid formalı kağız lent; 2) poçt göndərmələrinin bağlanması üçün istifadə edilən lent, bu lentlə bağlanan poçt göndərmələri. Poçt B.-larının üç növü var: sadə, sifarişli, qiymətli bəyan edilmiş. Poçt B.-ları ilə blanklar, şüarlar, kitablar, albomlar, korlar üçün "danışan kitab"lar göndərmək olar; 3) gömrükdə rüsumun ödənildiyini bildirmək üçün əmtəənin üzərinə vurulan yarlıq.

**BANDÉYRA**, P i k u - d a - B a n d e y r a (Pico da Bandeira) – Braziliyada ölkənin və Braziliya yaylasının ən hündür (2890 *m*) zirvəsi. Paraiba və Riu-Dosi çaylarının aşağı axınları arasında, Kaparao massivindədir. Qneyslərdən təşkil olunmuşdur. 2000–2200 *m* hünd.-yədək rütubətli tropik meşələr, daha yuxarılarda dağ çəmənləri və çöllər yayılmışdır. B. *Kaparao Milli Parkının* ərazisindədir.

**BANDÉYRAS** (portuqalca bandeira – bayraq) – müstəmləkə Braziliyasında hinduları əsir almaq, yaxud məskunlaşdıqları yerlərdən qovmaq üçün təşkil olunmuş silahlı dəstələr. 17 əsr – 18 əsrin əvvəllərində fəaliyyət göstərmişlər. B.-ın yaranması portuqallara məxsus plantasiyalarda işçi qüvvəsinin kəskin çatışmazlığı və ölkənin daxili r-nlarında qızıl tapmaq cəhdi ilə bağlı idi. B. San-Paulu ş.-ndə formalaşmışdı. Əksər dəstələr bu şəhərin bayrağı altında "Non ducor, duco" – "Məni aparmırlar, mən aparıram" şüarı ilə çıxış edirdi. Dəstələr müstəmləkə hakimiyyəti və latifundiyaçılar tərəfindən həmçinin zənci qulların qiyamını yatırmaq üçün istifadə olunurdu. B.-a, əsasən, ağır yürüşlər zamanı təkcə qəddarlıq deyil, həm də cəsarət və dözümlülük göstərən yoxsul kolonistlər cəlb edilirdi. Bu səbəbdən həmin yürüşlərin iştirakçılarının adı – bandeyrantes sonradan Braziliyada fədakarlıq və şücaət sözlərinin sinoniminə çevrildi.

**BANDIRMA** – Türkiyənin şm.-q.-ində (Balıkəsir ilində) şəhər. Mərmərə dənizi sahilində port. D.y. st. Əh. 135,1 min (2010). Tütün, toxuculuq, taxılüyütmə sənayesi müəssisələri, sulfat turşusu z-du var. Xalça toxunur. Yaxınlığında pandermit çıxarılır.

**BANDİAQÁRA** – Malidə Mopti ş. ilə *Burkina-Faso* arasında yerləşən qayalıq yayla. B.-da *doqonların* yaşayış məskənləri və nekropolları yerləşir. Dairəvi və kvadrat bürclər formasında sərdabalar, məbədlər, mehrablar və taxıl anbarları var. Adətən, bir neçə mərtəbədən ibarət yastıdamlı evlər çiy kərpicdən və daşdandır. İcma başçısının evi pəncərəsizdir, fasadı dekorativ taxçalar və oyma qapılarla bəzədilir. Toqo-Na (yaxud "tuquna" – "hikmət yeri") adlanan və üstü küləşlə örtülmüş bir neçə sıra sadə taxta dirəklərdən ibarət olan kişi yığıncaqlarının keçirilməsi üçün yerlər də səciyyəvidir. Yaxınlığında Neolit dövrünə aid petroqliflər aşkar olunmuşdur. B. abidələri *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

**BANDİKUTLAR**, k i s ə l i p o r s u q l a r (Peramelidae) – kisəlilər fəsiləsi (başqa təsnifata görə Peramelemorphia dəstəsi). Bədəninin uz. 17–50 *sm*, quyruğu 9–26 *sm*, kütləsi 4,7 *kq*-adəkdir. Üzü uzunsov və sivriləşmişdir. Tük örtüyü ya uzun və yumşaq, ya da qısa və codlur. Belinin rəngi boz, boz-mavi, sarı, qırmızı, yaxud qara-qonur, bəzən oma üzərində eninə tünd zolaqları olur; qarın nahiyəsi ağ, boz, yaxud sarıdır. İri dırnaqlı qısa ön ətraflarında ikinci, üçüncü və dördüncü barmaqları birinci və beşinci barmaqlardan xeyli uzundur. Arxa ətraflarda yalnız dırnaqlar ayrılmaqla (sindaktiliya) ikinci və üçüncü barmaq bitişmişdir. Xəzini təmizləmək üçün heyvan bitişik barmaqlardan istifadə edir. Plasentası var (kisəlilər arasında yeganə haldır). 7 cinsi, 17 növü məlumdur. Avstraliyada, Tasmaniya a.-nda, Yeni Qvineyada və ona yaxın adalarda yayılmışdır. Sıxotlu düzənliklərdə, çay və bataqlıq sahillərində, kollu cəngəlliklərdə, meşələrdə məskunlaşmışdır. Ehtiyatlı və cəld gecə heyvanlarıdır. Yerüstü həyat tərzi keçirir. Xırda heyvanlarla və bitkilərlə qidalanır, əksər növləri cücüyeyəndir. İldə bir dəfə 2–8 bala doğur. 10 ilədək yaşayır. B.-ın 7 növü BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.



Bandikut bilbi (Macrotis laqotis).

**BANDİLƏR**, q b a n d i l ə r – Liberiyanın şm.-q.-ində (35 min), Qvineyanın c.-ş.-ində (25 min; 2000) və qismən Syerra-Leoneda yaşayan mandinqolar qrupundan xalq. Böyük zənci irqinə mənsubdurlar. Bandi dilində danışırlar. Susu və malinke dilləri də yayılmışdır. *Lomalara* və *mendelərə* yaxındırlar. Ənənəvi etiqadlarını saxlayırlar.

Əsas məşğuliyyətləri toxa əkinçiliyi (qarğıdalı, darı, çəltik, maniok, yams, kofe ağacı, banan və s., həyətyanı sahələrdə tərəvəz, meyvə) və balıqçılıqdır. Ovçuluq, yığıcılıq əhəmiyyətsiz yer tutur. Ətlik qaramal saxlayırlar. Əsas sənətkarlıq sahələri metal- və ağacişləmə, toxuculuq (yalnız kişilər məşğuldur), dulusçuluq (əsasən qadınlar məşğuldur) və dabbağlıqdır. Kəndlərdə kompakt şəkildə yaşayırlar (bəzən 400–500 nəfər).

Sosial strukturun əsasını başçılar tərəfindən idarə olunan iri, çox zaman ataxətli poliginik ailə təşkil edir. Nikah patrilokaldır. Evləri dairəvi planda olur, konusvarı daxmaların hörmə divarları gillə suvanır, damı yarpaq və otla örtülür. Yeməkləri əsasən bitki əsaslıdır – sıyıqlar, dənli şorbalar, meyvəköklülər. Əti ildə yalnız bir neçə dəfə yeyirlər. Əcdadların kultları saxlanmışdır. Müsəlmanlar və xristianlar da var.





**BANDJARMASİN** – Kalimantan (Borneo) a.-nın c.-ş.-ində 12–19 əsrlərdə mövcud olmuş sultanlıq. Əsası 12 əsrdə Hindistan mənşəli Ampu Catmika tərəfindən qoyulmuşdur. 14 əsrdən *Macapahit* imperiyasından asılı olmuşdur. 16 əsrin əvvəllərində B. Yava a.-ndakı müsəlman Demak sultanlığının vassalına çevrildikdən sonra burada islam dini yayılmışdır. 17 əsrdə Hollandiya Ost-Hind şirkəti B.-ə bir neçə ekspedisiya təşkil etdi və ona bir sıra qeyri-bərabər müqavilə imzalatdı. 1787 ildə B.-də şirkət öz adamını hakimiyyətə gətirdi. 19 əsrin ortalarında Bandjarmasin müharibəsi adlanan güclü antiholland üsyanı baş verdi. 1860 ildə hollandlar B.-də sultan hakimiyyətinin ləğv edildiyini və idarəetmənin Hollandiyaya keçdiyini elan etdilər. B. Cənubi və Şərqi Borneo əyalətinin dairələrindən biri oldu. Hollandlara qarşı hərəkat 20 əsrin əvvəllərinədək fasilələrlə davam etdi. B. 1945 ildən İndoneziya Resp.-nın tərkibindədir.

**BANDJARMASİN** – İndoneziyada şəhər. Cənubi Kalimantan əyalətinin inz. m. Əh. 573 min (2005). Kalimantan (Borneo) a.-nın ən iri şəhəri. Adanın c.-unda, Barito çayının deltasında, Martapura çayının ona töküldüyü yerdədir. Yava dənizindən 16 *km* aralı olan və böyük dəniz gəmiləri üçün əlverişli port (meşə materialları, neft, ədviyyat ixracı). 12 əsrdə salınmışdır. Un-t (1960 ildən). Ağac (dəmirağac və kauçuk ağacı) emalı, yeyinti sənayesi müəssisələri, tərsanələr, almazcilalama, zərgərlik emalatxanaları var. B. İndoneziyanın qiymətli daşlar (ametist, sapfir və s.) ticarəti mərkəzlərindən biridir. B.-in 40 *km*-liyində, Martapura ş.-ndə almaz çıxarılır.



Bandjarmasin şəhərindən görünüş.

**BANDRUM** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Horand bölgəsinin Yaft kəndistanında, Horand qəs.-ndən 22 *km* c.-ş.-dədir.

**BANDÚNQ** – İndoneziyada şəhər. Qərbi Yava əyalətinin inz. m. Əh. 1,7 mln. (2005; aqlomerasiyada 5,5 mln.); əhalisinin sayına görə ölkənin dördüncü şəhəridir. Yava a.-nın q.-ində, təqr. 700 *m* hünd.-də, Cakartadan 100 *km* c.-ş.-dədir. Avtomobil yolları qovşağı. D.y. st. Beynəlxalq aeroport. 1810 ildə salınmışdır. Müntəzəm planlı tikililəri müasir beynəlmiləl üslubdadır və xalq memarlığına əsaslanır. *Bandunq konfransı (1955)* burada keçirilmişdir. Paster in-tu, Nüvə energetikası tədqiqat mərkəzi; Pacacaran un-ti (1957 ildən), Bandunq texnologiya in-tu (1920 ildən); özəl ali məktəblər: İslam un-ti (1959 ildən), Paraxyanqan katolik un-ti (1955 ildən); təsviri sənət, geologiya muzeyləri; İndoneziya vulkanoloji xidməti; rəsədxana var. B. iri ticarət və sənaye mərkəzidir. Toxuculuq, texniki rezin, elektrotexnika, əczaçılıq, metal emalı, yeyinti sənayesi, maşınqayırma müəssisələri; aviasiya z-du, kino f-ki var. Turizm inkişaf etmişdir. Ətrafında dağ kurortu yerləşir.

**BANDÚNQ KONFRANSI (1955)** – Asiya və Afrikanın 29 ölkəsinin [Əfqanıstan, Birma (Myanma), Vyetnam Demokratik Resp., Misir, Qızıl Sahil (Qana), Hindistan, İndoneziya, İordaniya, İran, İraq, Yəmən, Kamboca, Çin Xalq Resp., Laos, Liberiya, Livan, Liviya, Nepal, Pakistan, Səudiyyə Ərəbistanı, Suriya, Sudan, Tailand, Türkiyə, Filippin, Seylon (Şri-Lanka), Cənubi Vyetnam, Efiopiya, Yaponiya] iştirakı ilə Bandunqda (İndoneziya) aprelin 18–24-də keçirilmişdir. B.k.-nın təşkilatçıları Hindistan, Birma, İndoneziya, Pakistan və Seylon hökumətləri olmuşdur.

B.k.-nda dünya siyasətinin ümumi problemləri müzakirə olunmuş, "müstəmləkəçiliyin bütün təzahürləri", irqi seqreqasiya və ayrı-seçkilik pislənmiş, həmçinin SSRİ-nin Şərqi Avropada və Orta Asiyadakı siyasətinin "müstəmləkəçilik" kimi qiymətləndirilməsinin mümkünlüyü barədə diskussiya aparılmışdır. B.k.-nın iştirakçıları əsası dinc yanaşı yaşamanın beş prinsipindən ibarət olan "Dünyada sülh və əməkdaşlığa dəstək haqqında bəyannamə" qəbul etmişlər. Bəyannamə dünya birliyini iqtisadi və mədəni əməkdaşlığa, tərksilah olunmağa, nüvə və istilik-nüvə silahlarının istehsalını, sınaqlarını və tətbiqini dayandırmağa, mübahisəli məsələləri sülh yolu ilə nizamlamağa çağırmışdır.

B.k. Asiya və Afrika xalqlarının beynəlxalq məsələlərdə iştirak etmək cəhdlərini əks etdirmiş və onların milli özünüdərkinin artmasına, həmçinin 1960-cı illərin əvvəllərində *Qoşulmamaq hərəkatının* prinsiplərinin hazırlanmasına səbəb olmuşdur. Lakin B.k.-nın qərarları ardıcıl inkişaf etmədi. Daimi təşkilat təsis olunmadı; B.k.-nın iştirakçı dövlətləri arasındakı ixtilaflar nəticəsində Afrasiya həmrəyliyi, əsasən, deklarativ xarakter daşıyırdı. B.k.-nın davamı kimi keçirilməsi 1965 ildə planlaşdırılan Afrasiya konfransı qeyri-müəyyən müddətə təxirə salındı; sonralar bu miqyasda Afrasiya forumları çağırılmamışdır.

**BANDÚR**, b a n d u r a – Ukrayna simli musiqi aləti. Barmaqla çalınan B.-un zahiri görünüşü lyütnaya oxşasa da (aşağı dekalı, qolu və kolkalı oyma başlığı olan dəyirmi, yaxud ovalşəkilli korpus), əslində *sitra* tipli alətdir: səs əksəriyyəti deka-

Bandur.





Banf Milli parkından görünüş.

nın kənarına bərkidilən açıq simlərdən çıxır. Diapazonu simlərin sayından (30-adək və daha çox) və köklənməsindən asılıdır. B.-un sələfinin *kobza* olduğu ehtimal edilir. B. haqqında ilk məlumatlar 15–16 əsrlərə aiddir. Zaporojye Seçində yayılmışdır. 18–19 əsrlərdə Ukraynada ən çox sevilən alət olmuşdur. B.-un muşayiəti ilə *duma* və müxtəlif mahnılar oxuyan gəzərgi bandurçalanlar (kobzarlar) və peşəkar musiqiçi-dastançıların (çox vaxt korların) ənənəvi aləti idi. İfa tərzi ilə bir-birindən seçilən bandurçalanlar məktəbləri mövcud olmuşdur. O. Veresay, M. Kravçenko görkəmli bandurçalanlar idilər. Qədim B.-un bas variantı torban Qərbi Avropanın *teorba* musiqi alətinə yaxındır.

**BÁNDURA** Albert (d.4.12.1925, Kanada, Albert əyaləti, Mander) – Amerika psixoloqu. Ayova Un-tini bitirmişdir (1952). Stanford Un-tinin psixologiya prof.-u (1953 ildən). B.-nın şəxsiyyətin sosial və koqnitiv aspektlərinə həsr olunmuş tədqiqatları sosial öyrətmə nəzəriyyəsini inkişaf etdirir. B.-ya görə, insan davranışındakı dəyişikliklər klassik *biheviorizmdə* hesab edildiyi kimi, sadəcə şərtləndirmə (mükafat, yaxud cəza) ilə deyil, koqnitiv aktlar (məs., nəticələri qabaqcadan hissetmə) və motivlərlə dolayı baş verir. Davranışın formalaşmasında özünənəzarət, "özünədəstək" (özünütəqdir, yaxud özünümühakimə) və "özeffektivlik" (özünün situasiyanın öhdəsindən gəlmək bacarığının qiymətləndirməsi) mühüm rol oynayır. B. tədrisdə müşahidənin və *təqlidin* rolunu qeyd edir, çünki bunların sayəsində insan aqressiya, seksual davranış və emosional reaksiyavermə kimi çoxsaylı sosial reaksiyaları mənimsəyir. B. o cümlədən qeyd edir ki, ataları müvafiq davranış nümayiş etdirən uşaqlarda, eləcə də aqressivlik təzahürləri nümayiş olunan filmlərə və teleproqramlara baxanlarda aqressiv davranış inkişaf edir.

Ə s ə r l ə r i: Social foundations of thought and action; a social cognitive theory. N. Y., 1986; Теория социального научения. СПб., 2000; Подростковая агрессия: Изучение влияния воспитания и семейных отношений. М., 2000 (R. Uoltersla birlikdə).

**BANERCİ** Sürendranath (10.11.1848, Kəlkətə – 6.8.1925, Barrakpur) – Hindistan siyasi xadimi. Kəlkətə Un-tini bitirmişdir (1868). Müstəmləkə idarəsində çalışmış, işdən azad edildikdən sonra pedaqoji fəaliyyət göstərmiş, təbliğatla məşğul olmuşdur. 1876 ildə benqal milliyyətçilərinin ilk ictimai-siyasi təşkilatlarından olan Hindistan Assosiasiyasını yaratmışdır. Müstəqillik uğrunda kütləvi və zorakı mübarizə üsullarının əleyhinə çıxmışdır. *Hindistan Milli Konqresinin* (1885) təsisçilərindən biri, onun liberal, mötədil qanadının lideri olmuşdur. 1921 ildə rıtsar adına layiq görülmüş və Benqaliyada yerli özünüidarə naziri vəzifəsinə təyin edilmişdir.

**BANF** (Banff) – Kanadada, Alberta əyalətində şəhər. Əh. 7,5 min (2005). Qayalı dağların ş. yamacında, 1383 *m* yüksəklikdə, Kalqari ş.-ndən şm.-q.-də, *Banf Milli Parkı* ərazisində yerləşir. Balneoloji-iqlim kurortudur. Əsas təbii müalicə amilləri dağ iqlimi və sulfidli termal su mənbələridir. Ürək-damar sistemi, tənəffüs orqanları, oynaqlar, sinir sisteminin funksional pozuntuları və s. müalicə olunur. İstirahət, turizm və qış idmanı mərkəzidir.

**BANF MİLLİ PARKI** – Kanadada, Alberta əyaləti ərazisində ilk milli park. Sah. 664,1 min *ha*. 1885 ildə yaradılmışdır. Tipik Qayalı dağlar landşaftı (hünd. 1400–3600 *m*), buzlaqlar, göllər, iynəyarpaqlı meşələr, Alp çəmənləri var. Faunası: puma, qrizli, qaraquyruqlu maral, ağquyruqlu maral, nəcib maral (vapiti), qar keçisi, qar qoyunu və s.; 185-dən çox quş növü var. Turizm inkişaf etmişdir. Banf balneoloji və Leyk-Luiz iqlim kurortları B.M.P. ərazisindədir.

**BÁNGER VAHƏSİ** (Bunger Hills) – Antarktida sahilində, Uilks Torpağının qərb hissəsində buzdan azad sahə. 65°58′–66°20′ c.e.-ləri və 100°28′–101°20′ ş.u.-ları arasındadır. Dənizdən Şeklton şelf buzlağı ilə ayrılır. Sah. 450 $km^2$. Relyefi alçaq təpəlikdir. Şirin və şorsulu göllər var. Ən böyüyü Fiqurnoye gölüdür (uz. 25 *km*, dərinliyi 135 *m*-ədək). 1947 ildə Amerika təyyarəçisi A. Banger tərəfindən kəşf edilmişdir.

**BANGİ** (Bangui) – MAR-ın paytaxtı; müstəqil inz. vahid əmələ gətirir. Əh. 542,4 min (2005; MAR-ın şəhər əhalisinin təqr. 40%-i). Ölkənin c.-unda, Ubangi (Konqonun qolu) çayının sağ sahilindədir. Avtomobil yolları qovşağı. Beynəlxalq aeroport. Çay portu (MAR-ın və qismən Çad Resp.-nın xarici ticarət dövriyyəsinə xidmət edir).

1889 ildə fransız istehkamı kimi salınmışdır; 1914–58 illərdə Fransanın Ubangi-Şari koloniyasının, 1958 ildən Fransa Birliyinin tərkibində muxtar resp.-nın inzibati mərkəzi, 1960 ildən müstəqil resp.-nın paytaxtıdır. Şəhər müasir Avropa üslubunda inşa edilən hissəyə və Afrika məhəllələrinə ayrılır. B.-nin mərkəzi hissəsində hökumət idarələri və inzibati binalar, ticarət nümayəndəlikləri, qərb hissəsində ticarət məhəllələri, cənub hissəsində isə sənaye r-nları yerləşir. Keçmiş fransız istehkamının qalıqları, Notr-Dam kilsəsi (19 əsrin sonu – 20 əsrin əvvəli) saxlanılmışdır. Milli diyarşünaslıq muzeyi (1964), ölkənin tarixi keçmişinə dair abidələr, məişət əşyaları, musiqi alətləri muzeyi; incəsənət və sənətkarlıq milli mərkəzi (1975); un-t (1969 ildən), altı un-t, o cümlədən politexnik və k.t.; Paster ad. un-t (1961 ildən), inkişaf məqsədləri üçün un-t kimi elmi tədqiqat mərkəzləri var.

Yeyinti, ağac emalı, yüngül (o cümlədən pambıq parça kombinatı) və metal emalı sənayesi müəssisələri fəaliyyət göstərir; motosiklyığma və velosipedyığma, sabun, tütün məmulatları istehsalı.

**BANGİKİMİLƏR** (Bangiophyceae) – qırmızı yosunlar sinfi. Təkhüceyrəli, çoxhüceyrəli (sapşəkilli, lövhəşəkilli) və koloniya halında yaşayan formaları vardır. Qeyri-cinsi (təkhüceyrəlilərdə sadə bölünməklə, çoxhüceyrəlilərdə monosporlarla) və cinsi (bir sıra çoxhüceyrəli B.-də; bunun üçün sporəmələgətirən toxuma olan qonimoblast əmələ gəlmədən ziqotanın birbaşa cücərməsi səciyyəvidir) yolla çoxalır. 5 sırası, 20-ədək cinsi və 100-ədək növü məlumdur. B. şirinsu, quru və dəniz orqanizmləridir; dənizlərin sahilboyu zonasında sinfin ən yüksək təşkil olunmuş nümayəndələri (məs., *porfira*) yaşayır.

**BÁNGİLƏR** – bax *Nqalalar*.

**BANISTAN** – Şirvan zonasında qoyun sürüsünün qışlaqda saxlanması üçün tikili. Qamış, ağac və daşdan tikilir, üstü çatmalı, bəzən isə açıq olur. B. növ tikililər Qarabağda v a n a, Balakən və Qaxda g ə m ə r o, g ə m ə r ə, Quba və Xaçmazda q a z m a, Lənkəran zonasında isə k ü m adlanır.

**BANİN** – bax *Ümmülbanu*.

**BANİÓNİS** (B a n ö n i s) Donatas (d.28.4.1924, Kaunas) – Litva aktyoru. SSRİ xalq artisti (1974). SSRİ Dövlət mükafatı laureatı (1967, 1977). Litva SSR Dövlət mükafatı laureatı (1969). B. 1984 ildə Litva Konservatoriyasının aktyorluq fakültəsini bitirmişdir. 1941–2000 illərdə Panevejis Dram Teatrının aktyoru olmuşdur (1980–84 illərdə baş rej., 1984–88 illərdə bədii rəhbər və direktor); 100-dən çox rol oynamışdır: Lomen ("Kommivoyajorun ölümü", A. Miller), Davıdov ("Oyanmış torpaq", M. Şoloxov), Norman ("Qızıl göldə", E. Tompson), Tesman ("Qedda Qabler", H. İbsen), Edqar ("Ölüm rəqsi", A. Strindberq) və b. B. 1959 ildən kinoya çəkilir: "Heç kəs ölmək istəmirdi"(1965, rej. B. Jalakyaviçyus), "Sakit mövsüm" (1968, rej. S. Kuliş), "Qoyya" (1971, rej. K. Volf), "Solyaris" (1972, rej. A. Tarkovski), "Kəşf" (1973, rej. B. Xalzanov), "Mister Mak-Kinlinin qaçması" (1976, rej. M. Şveytser), "Bethoven" (1976, rej. X. Zeyeman) və s. B.-in yaratdığı obrazlar psixoloji dərinliyi, təsirliliyi və plastikliyi ilə fərqlənir.





Bangi şəhərindən görünüş.

**BANİŞEVSKİ** Anatoli Andreyeviç (23.2.1946, Bakı – 9.12.1997, Bakı) – Azərb. idmançısı, futbol üzrə beynəlxalq dərəcəli idman ustası (1966), əməkdar idman ustası (1991). SSRİ və dünya çempionatının bürünc (1966), Avropa çempionatının gümüş (1972) m ü k a f a t ç ı s ı. 1963–78 illərdə (fasilələrlə) "Neftçi" (Bakı) komandasında çıxış etmişdir. SSRİ çempionatlarında 211, SSRİ yığma komandasının heyətində (1965–68, 1971–72) 50 görüş keçirmişdir. "Neftçi" komandasının (1981–82) məşqçisi, "Avtomobilçi" (Mingəçevir, 1984–87), "Kəpəz" (Gəncə, 1988) komandalarının və Burkina-Fasonun gənclərdən ibarət yığma komandasının baş məşqçisi olmuşdur (1987–88).



**BANİVALAR** – Braziliya (İsana çayı, Riu-Neqru çayının sağ qolu), Kolumbiya (Quayniya çayı) və Venesuelada (Amasonas ştatı) hindi aravak (bax *Aravaklar*) xalqları qrupu. Ümumi sayları 4 min nəfərdən çoxdur (2000). 1960-cı illərin sonlarından B. Kolumbiyadan Venesuelaya miqrasiyası başlamışdır. Böyük monqol irqinin Amerika qoluna mənsubdurlar. Maypure yarımqrupuna daxil olan dillərdə danışırlar. Dialektləri: baniva, yaxud abane və kirubba. Portuqal və ispan dilləri də yayılmışdır. Braziliyada tupi dilindən istifadə olunur. Yazıları 20 əsrdən latın qrafikası əsasındadır. Venesuelada yaşayan B. ənənəvi etiqadlarını saxlayırlar, digərləri xristiandır.

1725 ildən portuqallarla təmasdadırlar. Ənənəvi mədəniyyətləri şərqi *tukanolara* yaxındır. Əsas məşğuliyyətləri qırılıb-yandırılmış ərazilərdə toxa əkinçiliyi (əsasən acı maniok) və balıqçılıqdır. Ovçuluq və yığıcılıq daha az əhəmiyyət daşıyır. Sənətkarlıq sahələri – toxuma, həndəsi naxışlarla bəzədilmiş rəngli keramik məmulatın, oyma qayıqların (uba), taxta skamyaların və s. hazırlanmasıdır. Ənənəvi yaşayış evləri düzbucaqlı planda tikilmiş, arxa hissəsi dairəvi, damı ikiyamaclı, fasadı isə həndəsi ornamentlərlə bəzədilmiş icma evidir (maloka). B. iyirmi atəxətli totem qəbilələrə bölünürlər. Nikah patrilokaldır. Venesuelada yaşayan B.-da ənənəvi mədəniyyət, mifologiya, gizli kişi mərasimləri, şamanizm saxlanılır. Braziliya və Kolumbiyada yaşayanlar isə xristianlaşdırılmış və assimlyasiyaya məruz qalmışlar.

**BANJUL**, B a n c u l – Qambiya Resp.-nın paytaxtı, Banjul mahalının inz. m. Əh. 34,6 min (2005). Qambiya çayının

mənsəbindədir. Dəniz və çay portu; Qambiya çayından bərə keçidi. Beynəlxalq aeroport.

1816 ildə salınmış, 1973 ilədək Baterst (şəhərin əsasını qoymuş ingilis qrafı Baterstin adı ilə) adlanmışdır. 1843–66, 1888–1963 illərdə B.Britaniyanın Qambiya koloniyasının, 1963 ildən özünüidarədən Qambiya ərazisinin inz. m., 1965 ildən müstəqil dövlətin paytaxtıdır. B.-un mərkəzi hissəsində Avropa üslubunda müasir tikililər, şəhər ətrafında ənənəvi Afrika evləri yerləşir. Milli kitabxana (1985; əsası 1946 ildə qoyulmuşdur), Milli muzey (1962); Ornitologiya cəmiyyəti (1974 ildən) fəaliyyət göstərir.

Yeyinti (palma yağı, balıq konservləri, pivə istehsalı; araxis, ət, tərəvəz, meyvə emalı), yüngül, ağac emalı, mebel, poliqrafiya sənayesi müəssisələri; gəmi təmiri tərsanələri var.

**BANK** (fr. banque, ital. banca – sərraf skamyası, dükanı) – nağd və nağdsız formada tədiyə dövriyyəsini tənzimləyən pul-kredit institutu. B.-ın fəaliyyəti mübadilə, pul dövriyyəsi və kredit sferasında cəmləşmişdir. İqtisadi münasibətlərin tərəflərindən biri kimi B. həmişə ya kollektiv kreditor, ya da kollektiv borcalan qismində çıxış edir. B.-da iqtisadi subyektlərin sərbəst pul vəsaitləri və kapitalı akkumulyasiya olunur, ictimai tələbatların ödənilməsinə yönəldilən resurların konsentrasiyası baş verir.

İqtisadi-təşkilati baxımdan B.-ın s t r u k t u r u dörd blokdan ibarətdir. Birinci blok B.-ın özünün və əsasən, cəlb olunmuş vəsaitlərin bazasında formalaşdırılan bank kapitalıdır. B.-ın stabilliyini müəyyən edən bank kapitalı sənaye və ticarət kapitalının ayrıca hissədir; o yalnız hərəkətdə mövcuddur və onun köməyi ilə hansısa iqtisadi subyektlərin sərbəst olan vəsaitləri digər subyektlərə ötürülərək onların çoxtərəfli ehtiyaclarını ödəyir. Kapitalın hərəkətinin fasiləsizliyi B.-ın gəlirliliyini, rəqabətə davamlılığını və bazar dəyərini artırır. İkinci blok peşəkar biliklərə və B. əməliyyatlarının aparılması təcrübəsinə malik olan mütəxəssislər – xüsusi qrup insanlardır. B. texnikası, binaları, kommunikasiyaları və informasiya bazasından ibarət olan üçüncü (istehsal) blokun vasitəsilə kapitalın hərəkətini təşkil edən B. heyəti müəssisə və vətəndaşlara xidmətlər göstərir. Dördüncü bloku *bank fəaliyyəti* təşkil edir ki, bu prosesdə pul formasında təqdim olunan xidmətlərdən ibarət spesifik bank məhsulu yaradılır. Mikrosəviyyədə bu xidmətlər B.-ın müştərilərinin kreditləşdirilməsi, onlara hesablaşma-kassa xidmətlərinin göstərilməsi, depozitlərin qəbulu və digər əməliyyatlardan ibarətdir. B.-ın yerinə yetirdiyi əməliyyatlar pul-kredit müəssisələrinin hesablarından və kassalarından keçən pul axınlarının idarə edilməsinə çevrilir.

Bir sıra ölkələrin, o cümlədən Azərb.-ın qanunvericiliyinə əsasən hüquqi şəxs kimi çıxış edən B.-lar ümumilikdə üç növ bank əməliyyatı həyata keçirir: kredit, depozit və hesablaşma. Əslində isə B.-lar daha geniş əhatəli əməliyyatlar yerinə yetirdiyi üçün onların bank sisteminin elementləri kimi müxtəlif növləri mövcuddur.

T ə s n i f a t. Funksional təyinatına görə B.-ları emissiya və kommersiya banklarına ayrılmaq olar. Emissiya B.-larına bütün mərkəzi banklar aiddir və çox vaxt onları bu və ya digər ölkənin milli (yaxud dövlət) B.-ları adlandırırlar. Onların ümdə fəaliyyəti nağd pulların tədavülə buraxılmasıdır. Mərkəzi banklar bilavasitə fərdi müştərilərə – hüquqi və fiziki şəxslərə xidmətlərin göstərilməsi ilə məşğul deyildir; bu işi B. qanunvericliyi çərçivəsində kommersiya B.-ları həyata keçirir.

Əməliyyatların xarakterinə görə B.-lar universal və ixtisaslaşdırılmış olur. Universal B.-lar özlərinin fəaliyyət istiqamətindən asılı olmayaraq həm fiziki, həm də hüquqi şəxslərə bütün B. xidmətlərini göstərir. Universal B.-ın hüquqi statusu hər bir ölkədə dəyişə bilər; bu daha çox onun üçün müəyyən olunmuş səlahiyyətlərdən asılıdır. Bir qayda olaraq, universal B.-lar qismində çoxsaylı bank əməliyyatlarını yerinə yetirməklə yanaşı, regionlararası və beynəlxalq iqtisadi münasibətlər sferasında fəaliyyət göstərən banklar çıxış edir. İxtisaslaşdırılmış B.-lar müəyyən növ əməliyyatlar yerinə yetirir; məs., ipoteka, xarici iqtisadi əlaqələr və digər sahələr üzrə. Dünya təcrübəsi göstərir ki, B.-lar həm universal, həm də ixtisaslaşma yönündə inkişaf edə bilər. Belə ki, Avropada (xüsusilə Almaniya və Fransada) universal B. tipi üstünlük təşkil edir, ixtisaslaşma daha çox ABŞ B.-ları üçün xarakterikdir.

İqtisadiyyat sahələrini əhatə etməsi baxımından B.-lar çoxsahəli, yaxud iqtisadiyyatın, əsasən, bir sahəsinə və ya altsahəsinə (məs., aviasiya, avtomobil, neftkimya sənayesi, k. t.) xidmət göstərən B.-lar olur.

Mülkiyyət formasına görə dövlət, səhmdar, kooperativ, özəl və qarışıq banklar mövcuddur. Dövlət bankları çox vaxt emissiya bankları olur. Milli bank məkanında xarici bankların fəaliyyətinə icazə verilir. Bir sıra ölkələrdə onların fəaliyyət miqyası məhdudlaşdırılmır, bəzilərində isə hədlər qoyulur.

Təşkilolunmanın hüquqi formasına görə B.-lar məhdud məsuliyyətli açıq və qapalı tipli cəmiyyətlərə ayrılır. Filialların sayı üzrə də B.-ları təsnif etmək olar. Xidmət sferasına görə regional, regionlararası, milli və beynəlxalq B.-lar olur. Əsasən, yerli regiona xidmət göstərən regional B.-lara bələdiyyə bankları aiddir. Fəaliyyət miqyasına görə kiçik, orta, iri B.-lar, bank konsorsiumları, banklararası birliklər olur. Bir sıra ölkələrdə kiçik kredit qurumları – borc-əmanət B.-ları, tikinti-əmanət kassaları, kredit kooperativləri və s. fəaliyyət göstərir.

Bank sistemində həmçinin xüsusi təyinatlı B.-lar və qeyri-bank kredit təşkilatları vardır. Xüsusi təyinatlı B.-lar icra orqanlarının göstərişinə əsasən müəyyən dövlət proqramları və layihələrinin maliyyələşdirməsini həyata keçirən müvəkkil B.-lardır. Qeyri-bank kredit təşkilatları B. statusuna malik deyildir, mərkəzi bankdan bütün bank əməliyyatlarının aparılması üçün lisenziya almır və buna görə də yalnız ayrı-ayrı əməliyyatları həyata keçirir.

B.-ların f u n k s i y a l a r ı spesifik xarakter daşıyır və digər iqtisadi institutların funksiyalarından fərqlənir. B.-ların üç funksiyası fərqləndirilir. Onlardan birincisi vəsaitlərin akkumulyasiyasıdır: B. müvəqqəti sərbəst vəsaitləri toplayır; akkumulyasiya olunan pul resursları özünün deyil, digərlərinin ehtiyaclarının ödənilməsinə sərf edilir; akkumulyasiya olunan vəsaitlər mülkiyyət hüququ ilkin kreditorda (bankın müştərisində) saxlanılır. B.-ların ikinci funksiyası pul tədavülünün tənzimlənməsidir. Təcrübədə bu, bank əməliyyatları sayılan və qanunvericiliklə pul-kredit institutu kimi B.-a həvalə olunan əməliyyatlar kompleksinin vasitəsilə realizə edilir. Bu ona görə mümkün olur ki, B.-lar müxtəlif iqtisadi subyektlərin tədiyə dövriyyəsinin baş verdiyi mərkəzlərdir. B.-lardan pul axınları çıxır, pullar B.-larda cəmləşdirilir, pul vəsaitləri və kapital dövr edir. Hesablaşma sistemi, kreditləşmə, ödəniş vasitələrinin emitentləşdirilməsi (buraxılması) nəticəsində istehsalın və tədavülün tələbatına uyğun olaraq pul tədavülü artır və ya azalır (tənzimlənir). B.-ların üçüncü funksiyası vasitəçilikdir. İqtisadi subyektlərin ödənişləri B.-lar vasitəsilə həyata keçirilir. Müştərilərin "arasında" olan və onların tapşırığı ilə ödənişlər edən B.-lar vasitəçilik missiyasını yerinə yetirir. Bu funksiya həmçinin özünü onda göstərir ki, B.-lar vasitəsilə həm ayrı-ayrı iqtisadi subyektlərin, həm də bütünlükdə iqtisadiyyatın pul dövriyyəsi baş verir. İqtisadi həyatın mərkəzində olan B.-lar iqtisadiyyatın tələbatına uyğun şəkildə kapitalın həcmini, müddətini və istiqamətlərini transformasiya etmək (dəyişmək) imkanı qazanır. Təcrübədə bu funksiya geniş miqyasda iqtisadi subyektlərin qarşılıqlı fəaliyyətini və risklərin azaldılmasını təmin etməklə resursların transformasiyasını əks etdirir.

B.-ların əsas təyinatı sərbəst vəsaitlərin və kapitalın konsentrasiyasının təmin edilməsindən və pul dövriyyəsinin nizama salınmasından ibarətdir. B.-lar vəsaitlərin hərəkətinin ayrı-ayrı istiqamətlərini pul resurslarının nəhəng axınlarına konsentrasiya edir. Pul vəsaitlərinin sonrakı yenidən bölüşdürülməsi nəinki istehsalın fasiləsizliyini və məhsulların tədavülünü təmin etməyə, həmçinin ümumilikdə təkrar istehsal prosesini sürətləndirməyə imkan verir. Hələ fəaliyyətlərinin erkən mərhələsində B.-lar pul vəsaitlərinin saxlanılmasını, daxili və xarici ticarət dövriyyəsində onların hərəkətini (köçürmələri) təmin edir, bir ölkənin pul nişanlarının digər ölkələrin valyutasına dəyişilməsində sərraf qismində çıxış edirdi. Pul təsərrüfatının aparılmasının primitiv formalarından müasir informasiya şəbəkələrinin bazasında pul-kredit münasibətlərinin təşkilinə keçid əmtəə istehsalçıları arasında dövriyyə müddətini sürətləndirməyə və iqtisadi əlaqələri genişləndirməyə imkan yaradır.

Dünyada ən qədim B. Mesopotamiyadakı Qırmızı məbəd (eramızdan 3400–3200 il əvvəl) olmuşdur; burada kreditlərin hesabına dəfələrlə artırılmış xeyli miqdarda sərbəst maddi resurslar toplanırdı. Natural formada B. əməliyyatları həyata keçirilirdi, kahin-bankirlərdən savayı, iri torpaq sahibləri də bununla məşğul olurdu. Onların fəaliyyətlərinin miqyası Babilistan sülaləsinin dövründə (eramızdan 2000 il əvvəl) xüsusilə genişləndi. Bank əməliyyatlarının artması B.-ın digər fəaliyyət növlərindən ayrılmasına səbəb oldu ki, bu da sonradan əsas fəaliyyət növü "pul ticarəti" olan xüsusi təsisatın yaranması ilə nəticələndi. Əmtəə mübadiləsinin inkişafı, pulun ixtira edilməsi B.-ların fəaliyyət dairəsini möhkəmləndirdi və genişləndirdi. Eramızın əvvəlindən yunan (trapezai) və Roma (meusae) B.-larının fəaliyyəti məlumdur. Quldarlıq və feodal cəmiyyətlərində sələmçi kredit xeyli inkişaf etdi. Orta əsrlərdə B. işinin inkişafı ilk növbədə Şimali İtaliyanın ticarət-sənaye şəhərlərində baş verirdi. B. işinin bir çox metodları ən çox 18–19 əsrlərdə Böyük Britaniyada inkişaf etmişdi.

**Dünyanın aparıcı banklarının reytinqi** (17.7.2004 il tarixinə)

| № | Banklar | Aktivlər, *mlrd. dollarla* |
|---|---|---|
| 1 | "Mitsuho faynanşal qrup" ("Mizuho Financial Group"), Yaponiya | 1285.471 |
| 2 | "Sitiqrup" (Citigroup"). ABŞ | 1264.032 |
| 3 | İsveçrə Birləşmiş Bankı (Union Bank of Switzerland), İsveçrə | 1120.543 |
| 4 | "Kredi aqrikol qrup" ("Credit Agricole Group"), Fransa | 1105.378 |
| 5 | "Eyç-Es-Bi-Si holdinq" ("HSBC Holding"). Böyük Britaniya | 1034.216 |
| 6 | "Doyçe Bank" ("Deutsche Bank"). Almaniya | 1014.845 |
| 7 | "BNP Pariba" ("BNP Paribas"), Fransa | 986.982 |
| 8 | "Mitsubişi Tokio faynanşal qrup" ("Mitsubishi Tokio Financial Group"), Yaponiya | 974.950 |
| 9 | "Sumitomo Mitsui faynanşal qrup" ("Sumitomo Mitsui Financial Group"), Yaponiya | 950.445 |
| 10 | Royal Bank of Scotland, Böyük Britaniya | 806.207 |
| 11 | Barklis Bank (Barclays Bank), Böyük Britaniya | 781.298 |
| 12 | "İsveçrə kredit qrupu" ("Credit Swiss Group"), İsveçrə | 777.849 |
| 13 | "Cey-Pi Morqan Çeyz end Ko" ("JP Morgan Chase and Co"), ABŞ | 770.912 |
| 14 | "Yu = Ef = Cey holdinq" ("UFJ Holding"), Yaponiya | 759.631 |
| 15 | Bank of Amerika (Bank of America Corp.), ABŞ | 736.445 |
| 16 | "Ay = En = Ci Bank" (İNG Bank), Niderland | 684.004 |
| 17 | "Sosyete jeneral" ("Societe Generale"), Fransa | 681.218 |
| 18 | Ey=Bi=En AMRO Bank (ABN AMRO Bank), Niderland | 667.636 |
| 19 | "Eyç=Bi=Ou=Es" ("HBOS"), Böyük Britaniya | 650.721 |
| 20 | Çin Sənaye və Kommersiya Bankı (İndustrial and Commercial Bank of China), Çin | 637.829 |
| 21 | Hipo-Feraynsbank (Hypo Vereinsbank), Almaniya | 605.525 |
| 22 | Drezderbank (Dresdnerbank), Almaniya | 602.461 |
| 23 | Fortis Bank, Belçika | 536.482 |
| 24 | "Rabobank qrup" ("Rabobank Group"), Niderland | 509.352 |
| 25 | Kommersbank (Commerzbank), Almaniya | 481.921 |

Mənbə: "The Banker", July, 2004.

**Dünyada bankların inkişaf tendensiyaları.** İqtisadiyyatın beynəlmiləlləşməsindən qloballaşmaya doğru inkişaf etməsi, həmçinin regional inteqrasiya prosesi bankların müasir inkişaf tendensiyasının əsaslarını müəyyən edir.

B. fəaliyyətinin liberallaşması banklar arasında rəqabəti kəskinləşdirir. Onların rəqabətədavamlılığının yüksəldilməsi məqsədilə kapitalın konsentrasiyası və mərkəzləşməsi güclənir və istehsal prosesində analoji prosesi qabaqlamış olur. Ölkə B.-larının məcmu balansının iri bankların böyük hissəsi payına düşür. B. kartelləri, holdinqləri, sindikatları, konsorsiumları təşkil edilir. Ölkə xaricində şaxələnmiş filiallar şəbəkəsinə malik, universal tipli nəhəng beynəlxalq maliyyə-kredit kompleksləri olan transmilli banklar formalaşmışdır. Onlar dünya *maliyyə bazarını* inhisarlaşdırmaqla əməliyyatlarda öz şərtlərini diqtə edir və vahid strategiyanı həyata keçirirlər (bax Dünyanın aparıcı banklarının reytinqinə). Birləşmələrin və sıxışdırılmaların nəticəsində bankların sayı azalmaqdadır (1990-cı illərdə bir sıra ölkələrdə 3–9%). Artmaqda olan rəqabətin təsiri ilə universal və ixtisaslaşdırılmış B.-lar arasındakı fərqlər silinir. Ölkələrin iri B.-lara oriyentasiyası regional, həmçinin kiçik və orta bank-

ların eyni zamanda inkişafı və hüquqi dəstəklənməsi ilə müşayiət olunur. Məs., Avstriyada 600 regional B.-dan hər biri baha başa gələn rəqabətdən yayınmaq üçün ixtisaslaşmaya malikdir. B. kapitalının hərəkətinin liberallaşmasının təsiri altında xarici bankların milli bank sisteminə daxil olması güclənir.

B.-ların rəqabətədavamlılığını gücləndirmək məqsədilə bank sisteminin restrukturizasiyası və modernləşdirilməsi aparılır. B. şəbəkəsi ixtisar olunur və təkmilləşdirilir. Məsrəflərə qənaət edilməsi məqsədilə B.-ların daxili strukturu yenidən təşkil olunur. B.-lar öz inkişaf strategiyalarının uzunmüddətli (15 il müddətinə qədər) planlaşdırılmasını həyata keçirir; Planlaşdırılma hər il bank risklərinin səviyyəsinin optimallaşdırılması yolu ilə kifayət qədər resursların, kapitalın keyfiyyətinin, mənfəət həcminin təmin olunması üçün dəqiqləşdirilir. B.-larda biznes-planlaşdırma bazar konyunkturasından asılı olaraq alternativ variantlar formasında işlənilir.

B.-ların resurslarının çoxaldılması məqsədilə onların passivlərinin strukturu dəyişir; bu, qiymətli kağızların emissiyasını, fond və depozitar əməliyyatların (müştərilərin qiymətli kağızlarının saxlanması və xidmət göstərilməsi) həcmini artırmaqla baş verir. Sekyuritizasiya (bank kreditlərinin ənənəvi formalarının müştərilərin-borcalanların öhdəlikləri ilə təmin olunmuş qiymətli kağızların buraxılışı ilə əvəzlənməsi) tendensiyaları güclənir.

Ölkə əhalisinin daha çox hissəsinə B. xidməti göstərmək məqsədilə bank infrastrukturu inkişaf etdirilir. Məs., Almaniyada 50 minə qədər B. şöbəsi (2000-ci illərin əvvəllərində əhali təqr. 81 mln. idi) fəaliyyət göstərir. Müştərilərin cəlb edilməsi üçün B. əməliyyatlarının, xidmət, məhsul növlərinin çeşidinin genişlənməsinə, onların keyfiyyətinə və etibarlılığına ciddi diqqət yetirilir. İri B.-lar "hər şey müştəri üçün" qaydasını onların hər birinə fərdi yanaşma prinsipi ilə eyni zamanda tətbiq edir. Müasir informasiya texnologiyalarının, internetin tətbiq olunması ilə yeni istiqamət – elektron bankinq (müştərilərə məsafədən xidmət göstərilməsi) inkişaf edir.

Müştərilərin B.-a olan etimadının yüksəldilməsi üçün onlara keyfiyyətli xidmətin göstərilməsinin əsas meyarları nəzərdə tutulmuşdur: müştəriyə bələd olmaq, onun biznesinə və şəxsi həyatına hörmətlə yanaşmaq, onun tələbini optimal dərəcədə ödəmək, ənənəvi B. konfidensiallığına riayət etmək. Lakin *bank sirri* hələ qədimdən mütləq deyildi, xüsusən də müasir şəraitdə, çünki informasiya texnologiyaları B.-ın hər bir müştərisi haqqında məlumat verməklə, onun yayılması riskini artırmış olur. Bundan əlavə, qanunvericilik hakimiyyət orqanlarına maliyyə sferasında cinayət işləri üzrə B.-lardan müəyyən informasiyanı tələb etmək hüququnu verir. FATF-a (Financial Action Task Force on Money Laundering – Çirkli pulların yuyulması ilə mübarizədə maliyyə tədbirlərini işləyib hazırlayan qrup) üzv-ölkələrini B.-ları şübhə doğuran əməliyyatların aşkarlanması, qarşısının alınması və onlar haqqında müvafiq orqanlara məlumat verilməsi, cinayət yolu ilə əldə olunmuş gəlirlərin leqallaşdırılmasına, terrorizmin maliyyələşdirilməsinə qarşı çıxmaq üzrə öhdəlik daşıyır. Qanunvericiliyin təkmilləşdirilməsi müştərinin və bankın reputasiyasının eyni şərtlərlə müdafiəsinə yönəldilmişdir.

*Avropa İttifaqında* (Aİ) regional iqtisadi inteqrasiya, İqtisadi və valyuta ittifaqının yaradılması, *avronun* dövriyyəyə buraxılması Aİ-nin formalaşan vahid maliyyə bazarında B. qanunvericiliyinin unifikasiyası, B.-ların fəaliyyətinin vahid qaydalarının tətbiqi ilə müşayiət olunur. Aİ-yə üzv-ölkələrin B.-larının vahid iqtisadi məkana inteqrasiyası strategiyası işlənib hazırlanır. B.-ların yeni rəqabət şərtlərinə adaptasiyası prosesi Avropa İttifaqı ölkələrinin milli və fövqəlmilli maraqları arasında ziddiyyətlər ilə müşayiət olunur. Aİ-də *bank nəzarətinin* əsas qaydaları unifikasiya edilmişdir: B.-lar bank nəzarəti orqanının hər bir ölkədəki filialı qarşısında hesabat verməlidir. *Avropa Mərkəzi Bankında* konsultativ orqan kimi B.-ların fəaliyyətinin tənzimlənməsi üzrə Bank komissiyası fəaliyyət göstərir. Lakin Aİ-də vahid bank nəzarəti orqanı yoxdur; bu sferada milli maraqlar inteqrasiya maraqlarını üstələyir.

Əksər ölkələrdə B. nəzarətini müstəqil strukturlar, bəzilərində isə mərkəzi bank həyata keçirir. Müasir şəraitdə bank nəzarəti üzrə müstəqil orqanların yaradılması üstünlük təşkil edir, lakin onlar mərkəzi bankla əməkdaşlıq edir. Bank nəzarəti üzrə Bazel komitəsi (*Beynəlxalq Hesablaşmalar Bankı* nəzdində) dünya bank birliyinin tövsiyələrini işləyib hazırlayır; milli banklar ondan rəhbər vəsait kimi istifadə edir. Tövsiyələrə uyğun şəkildə B.-lar rəqabətin gücləndiyi şəraitdə risklərin idarəedilməsinin müasir metodlarını işləyib hazırlayır. Bununla əlaqədar olaraq B.-ların fəaliyyətinin kəmiyyət və keyfiyyət göstəricilərinin təhlili əsasında xarici və daxili *auditə* ciddi diqqət yetirilir.

B.-ların *Beynəlxalq maliyyə hesabatlılığı standartlarına* keçmələri onların fəaliyyətinin şəffaflığı və etibarlılığını artırır. Qanunvericilik korporativ idarəetmə mədəniyyətinə, ədalətli rəqabət və peşə etikası qaydalarına əməl edilməsini zəruri sayır. Bir sıra ölkələrdə (məs., İsveçrədə) qanun əsasında deyil, bankların "centlmen" razılaşması formasında bankirin şərəf kodeksi qəbul edilmişdir; bu, bəzən qanundan daha güclü olur.

**BANK**, informatikada – qarşılıqlı əlaqələndirilən və birlikdə istifadə olunan eyni tipli elementlər, vasitələr və qurğular toplusu. Verilənlərin mərkəzləşdirilmiş saxlanılmasını və kollektiv istifadəsini təmin edən *avtomatlaşdırılmış informasiya sistemi* verilənlər B.-ı, yaxud informasiya B.-ı adlanır. Buraya bir neçə *verilənlər bazası*, verilənlər bazasının sorğu kitabçası, *verilənlər bazasını idarəetmə sistemi*, həmçinin sorğular və tətbiqi proqramlar kitabxanası daxildir. Tərkibində verilənlərin axtarışı effektivliyinin yüksəldilməsini təmin edən biliklər bazası və (və ya) istifadəçiyə verilənlərə təbii və ya peşəyönlü dildə müraciət etməyə imkan verən intellektual interfeys olan verilənlər B.-ı intellektual verilənlər B.-ıdır. Proqram B.-ı mərkəzləşdirilmiş şəkildə istifadə edilən proqram və ya proqram paketləri məcmusudur; adətən, maqnit daşıyıcılarında bir və ya bir neçə kitabxana şəklində qurulur.

**BANK AKTİVLƏRİ** – banka məxsus mülkiyyətin və maliyyə vəsaitlərinin (binalar, maşın və avadanlıq, material ehtiyatlar, əmanətlər, qiymətli kağızlara investisiyalar və s.) məcmusu. Material və qeyri-material aktivlər mövcuddur. Aktivlərin növü, strukturu, dəyəri və yerləşdirilməsi bankın mühasibat balansında əks etdirilir.

**BANK BİLETLƏRİ** – bax *Banknotlar*.

**BANK DEPOZİTLƏRİ** – əmanətlər şəklində müştərilər tərəfindən banka qoyulan pul vəsaitləri. Həmin vəsaitlərdən istifadə edən bank öz növbəsində müştəriyə depozit sazişində göstərilən faizləri ödəyir. Depozitlər pul vəsaitlərini banklara cəlb etmək üsullarından biridir.

**BANK ƏMƏLİYYATLARI** – pul vəsaitləri, qiymətli kağızlar və qiymətli metallar ilə kredit təsisatları tərəfindən xüsusi icazə (lisenziya) əsasında həyata keçirilən kredit, hesablaşma, kassa və s. əməliyyatların toplusu. Bank fəaliyyətində aktiv (balansın aktivində əks olunan) və passiv (balansın passivində əks olunan) əməliyyatları aparılır.

Kommersiya bankının aktiv əməliyyatları, əsasən, borcların verilməsi, yaxud ödənilməsi zamanı həyata keçirilir və aşağıdakılardan ibarətdir: kredit əməliyyatları, səhmlərə, istiqrazlara və digər yüksəkgəlirli qiymətli kağızlara qoyuluşlar (bank investisiyaları; adətən, uzun müddətə), kassa əməliyyatları (nağd pulların qəbulu, verilməsi və təkrar hesablanması), xarici valyuta ilə sövdələr.

Passiv əməliyyatları vasitəsilə bankların resursları formalaşdırılır. Onlar bankın özünün vəsaitlərindən və cəlb olunmuş vəsaitlərdən toplanılır. Bankın vəsaitləri (səhmdar kapitalı, ehtiyat kapitalı, bölüşdürülməmiş mənfəət) bank resurslarının yalnız az qismini təşkil edir. Onların əsas mənbəyi əmanətlərdir (depozitlər). Banklar resursları cari hesablara (tələb olunanadək) və müddətli əmanətlərə cəlb edir. Bank resurslarının cəlb edilməsinin mənbəyi həmçinin digər banklardan, o cümlədən mərkəzi bankdan borca götürülən və ya veksellərin təkrar hesablanması yolu ilə alınan vəsaitlər ola bilər. Bankların təkrar hesablanma əməliyyatları kommersiya veksellərinin təkrar hesablanmasına əsaslanan banklararası kredit əməliyyatlarıdır və banklar tərəfindən pul vəsaitlərinin səfərbər edilməsi üçün istifadə edilir. Bu zaman borcalan kimi çıxış edən bank öz portfelindən hər hansı şirkətə məxsus vekseli digər banka satır. Həmin bank öz növbəsində bazar faiz dərəcəsi üzrə hesablanmış *diskont* çıxılmaqla, vekselin məbləğini ödəyir. Özəl banklar veksellər həmçinin mərkəzi bankda təkrar hesablayır.

Aktiv və passiv əməliyyatların fərqləndirilməsi şərtidir, çünki onların əksər hissəsi həm aktiv, həm passiv üzrə əksini tapır. Məs., kreditin verilməsi zamanı (aktiv əməliyyat) borcun məbləği müştərinin hesablaşma hesabına daxil edilir (passiv əməliyyat).

Bundan əlavə, etibarlı – müştərilərin tapşırığı və onların mənafeləri nəzərə alınmaqla etibarlı şəxs hüququnda əmlakın idarəedilməsi və digər əməliyyatların yerinə yetirilməsi üzrə əməliyyatlar; komisyon – bank tərəfindən müştərinin tapşırığı və komisyon mükafatı ilə yerinə yetirilən əməliyyatlar; əmtəə – əmtəələrin və əmtəə sənədlərinin girov qoyulması ilə bankların kredit verməsi, əmtəə-komisyon əməliyyatlarının yerinə yetirilməsi və əmtəələrin satışı; köçürmə – banklar müştərinin tapşırığı ilə müəyyən pul məbləğini müştərinin özünün, yaxud köçürmənin ünvanlandığı digər şəxsin ala bilməsi üçün başqa şəhərə (ölkəyə) köçürməsi; fond əməliyyatları – qiymətli kağızlarla (səhmlər və istiqrazlarla): qiymətli kağızların girov qoyulması ilə kreditləşmə və banklar tərəfindən öz hesabına qiymətli kağızların alınması, dövlət borcu istiqrazlarının əldə edilməsi (bununla dövlət kreditləşdirilir), yeni buraxılmış, o cümlədən özünün qiymətli kağızlarının yerləşdirilməsi (banklar onları emitentlərdən alır və sonra sahiblər arasında yerləşdirir), müştərilərə məxsus qiymətli kağızların idarəedilməsi və onların saxlanması həyata keçirilir.

**BANK FƏALİYYƏTİ** – pul-kredit institutunun iqtisadi münasibətlər sferasında fəaliyyəti. Əmtəə-pul münasibətlərinin məzmunu və inkişaf səviyyəsi ilə müəyyən edilir. Banklar istehsal sferasında deyil, mübadilə sferasında işlədiyi üçün B.f. müəyyən xüsusiyyətlərə malikdir; bankların fəaliyyəti yaradılmış maddi nemətlərin yenidən bölüşdürülməsi (mübadiləsi) üzrə iqtisadi subyektlərin fəaliyyətini əks etdirir. Bankların fəaliyyətində ticarət (kommersiya) motivləri üstünlük təşkil edir. Maddi axınların hərəkətini ifadə edən pul vəsaitlərinin mülkiyyətçisi olmayan bank onları "alır" və digər iqtisadi subyektlərə "satır".

B.f. sahibkarlıq xarakteri daşıyır. Bankların sayəsində bir qrup iqtisadi subyektlərin fəaliyyətsiz kapitalı digər iqtisadi subyektlərdə işləməyə başlayır. Ayrı-ayrı iqtisadi subyektlər, sahələr, ərazilər və ölkələr arasında kapitalı yenidən bölüşdürən banklar maddi, əmək və pul resurslarının məhsuldar hərəkətini gücləndirir və müxtəlif iqtisadi layihələrin həyata keçirilməsinə yardım edir. Həm emissiya, həm də kommersiya bankları əməliyyatları ödənişli əsaslar ilə həyata keçirir; verdikləri kreditlərin müqabilində onlar borc faizi, müştərilərinin tapşırığı ilə hesablaşma, kassa və digər əməliyyatlara görə isə müəyyən komissiya haqqı əldə edir.

İctimai maraqların realizə olunmasında iştirak etməklə B.f. iqtisadi və məhsuldar xarakter daşıyır. O, özündə maliyyə, mühasibatlıq və texniki fəndləri və üsulları ehtiva edir ki, bunların da məcmusu bank xidmətləri və əməliyyatları texnologiyasını əmələ gətirir.

Banklar bank və qeyri-bank əməliyyatlarını həyata keçirir. Bank əməliyyatları pul-kredit institutu olan bankların bilavasitə mahiyyətindən irəli gəlir: pul vəsaitlərinin əmanət qismində cəlb olunması və onların qaytarmaq şərti ilə yerləşdirilməsi, hesabın açılması və ondan ödənişlərin və s. aparılması. Bankın hüquqi statusunu müəyyən etməyən, lakin onun digər qurumlar ilə yanaşı yerinə yetirdiyi əməliyyatlar qeyri-bank əməliyyatlarına aid edilir. Məzmun etibarilə bank əməliyyatlarını iqtisadi, hüquqi, texniki və bankın daxili təhlükəsizliyinin təmin olunmasına (proteksionist, müdafiə) yönəlmiş əməliyyatlara ayırmaq olar. Müştərilərə nəzərən bank əməliyyatları birbaşa (bank öz vəsaitləri hesabına bu və ya digər layihəni maliyyələşdirir) və vasitəçi (təsərrüfat subyektləri arasında ödənişlər onların tapşırığı ilə vasitəçi kimi bank tərəfindən həyata keçirilir) ola bilər. Bank əməliyyatları həmçinin əsas (başlıca) və köməkçi, sadə və mürəkkəb, birdəfəlik (bir dəfə edilən) və çoxdəfəlik (təkrarlanan), fərdi və kollektiv, daxili və beynəlxalq və s. olur. Bu əməliyyatlar vahid qaydalar üzrə və yalnız *bank sistemi* çərçivəsində aparılır.

B.f. bankların uzunmüddətli fəaliyyəti ərzində işlənib hazırlanmış prinsiplərə əsaslanır. Ölkədə müəyyən edilmiş və kredit təşkilatlarının fəaliyyətini tənzimləyən qanunlara əməl olunması B.f.-nin əsas prinsiplərindən biridir; onlardan ən mühümü bankın və müştərinin qarşılıqlı maraqlı olması prinsipidir.

Müasir iqtisadi şəraitdə banklar səmərəli fəaliyyət prinsipini rəhbər tutur. Məs., kreditləşmə zamanı banklar, borcalanın qiymətləndirilməsi, kredit təminatı və digər məsələlərdə bir sıra konkret tələblər irəli sürən rasional kreditləşmə qaydasından istifadə edir. Bu, banklara fəaliyyətlərində itkilərdən yayınmağa imkan verir.

Ödənişli əsaslar prinsipi bank məhsulunun istehsalına sərf olunmuş vəsaiti kompensasiya etməyə və mənfəət götürməyə imkan verir. Yalnız müştəriyə edilən güzəşt kimi və pul-kredit müəssisəsinin gəlirlərinə hansısa əhəmiyyətli təsir göstərməyən ayrı-ayrı ikinci dərəcəli bank əməliyyatları ödənişsiz ola bilər.

B.f.-nin mühüm hissəsi bank işinin etik prinsipləridir. Belə ki, bankların peşə fəaliyyəti onların cəmiyyət, dövlət və vətəndaşlar qarşısında özlərinin vətən-

daşlıq və peşə borclarını dərk etməsi; *bank sirrini* təşkil edən məxfi informasiya və məlumatların qorunmasında mütləq etibarlılıqla yanaşı peşə fəaliyyətinin maksimum şəffaflığı; üzərinə götürdüyü öhdəliklərə qeyd-şərtsiz əməl etməsi və göstərdiyi xidmətlərin yüksək keyfiyyətinin təminatı; aparılan əməliyyatların ağlabatan riskliliyini təmin etməsi; öz işinin keyfiyyətinə və nəticəsinə görə tam məsuliyyət daşıması və s. üzərində həyata keçirilir.

**BANK HESABLARI** – maliyyə və təsərrüfat fəaliyyəti haqqında sistemləşdirilmiş məlumat əldə etmək məqsədilə, kredit təşkilatları tərəfindən onların özünün və cəlb olunmuş vəsaitlərin uçotunu aparmaq üçün tətbiq edilən mühasibat uçotu hesabları.

Bütün B. h. müəyyən əlamətə görə birləşdirilir və məcmu etibarilə kredit təşkilatlarının mühasibat uçotu hesablarının planını təşkil edir. Hesablar planında aşağıdakı struktur qəbul olunmuşdur: fəsillər, bölmələr, altbölmələr, birinci sıra hesabları, ikinci sıra hesabları, analitik uçotun şəxsi hesabları. Hesablar planının tərkibinə balans hesabları, etibarlı idarəetmə hesabları, balansdankənar hesablar, təcili sövdələrin uçotu üzrə hesablar və depo hesabları daxildir. Bütün sadalanan hesablar aktiv və passiv hesablarına bölünür.

Passiv balans hesabları özünün və cəlb olunmuş vəsaitlərin uçotu üçün, aktiv hesabları isə onların yerləşdirilməsi üçün tətbiq edilir. Bütün balans hesabları birinci sıra hesablarına (iriləşdirilmiş, sintetik hesablar) və ikinci sıra hesablarına (detallaşdırıcı, analitik hesablar) bölünür. Birinci sıra hesabları 102-dən 705-ə qədər üç rəqəmlə işarə olunur. İkinci sıra hesabları beş rəqəmdən ibarətdir və birinci sıra hesabının nömrəsinə sağdan iki rəqəm əlavə etməklə qurulur. İkinci sıra balans hesabları yalnız passiv, yaxud yalnız aktiv ola bilər. Aktiv və passiv balans hesablarının sırası üzrə vəsaitlərin cəlbolunma və yerləşdirilmə müddətlərinə görə bölünməsi nəzərdə tutulmuşdur. Müddətlər üzrə müvafiq hesablara məbləğlər əməliyyatın həyata keçirilmə anında yazılır. Müddətlər sənəddə (müqavilədə, qiymətli kağızda) göstərilən tarix üzrə deyil, əməliyyatın balans hesabı üzrə əks olunduğu tarixə görə müəyyən edilir.

Balans hesabları üzrə əməliyyatlar valyuta növünə görə deyil, əməliyyatın məzmunundan asılı olaraq əks etdirilir. Kredit təşkilatları tərəfindən xarici valyutada aparılan əməliyyatlar müvafiq hesablar üzrə manatla qeyd olunur.

Bütün balans hesabları müştərilərə nəzərən bölünür. Müştərilərin təsnifatının əsasını rezidentlik əlamətləri (ölkədə daimi yaşayış, yaxud qeydiyyat), mülkiyyət və fəaliyyət növü formaları təşkil edir. Etibarlı idarəetmə hesabları bank müştərilərinin etibarlı əməliyyatlarının uçotu üçün nəzərdə tutulmuşdur. Bu hesablar üzrə ayrıca balans tərtib olunur.

Balansdankənar hesablar banklara saxlanılmaq, *inkasso*, yaxud komissiya üçün daxil olan qiymətli şeylərin və sənədlərin; ciddi hesabatı aparılan blankların, özünün buraxdığı qiymətli kağızların blanklarının; kreditlərin verilməsi üzrə öhdəliklərin (istifadə edilməmiş limitlər, kredit xətləri); verilmiş və alınmış zəmanətlərin; girova alınmış və verilmiş əmlakın və s. uçotu üçün tətbiq edilir. Balansdankənar hesablarda müştərilərdən və kredit təşkilatlarından kreditlər və faizlər üzrə alınmamış borcların, həmçinin zərər kimi silinmiş borcların uçotu aparılır.

**BANK İNVESTİSİYALARI** – bankların öz resurslarını qiymətli kağızlara və digər maliyyə aktivlərinə (məs., xarici valyutaya, qiymətli metallara) yerləşdirməsi. Bazar iqtisadiyyatı şəraitində B. i., bir qayda olaraq, dövlət istiqrazlarına, şirkətlərin səhmlərinə, istiqrazlarına və veksellərinə qoyulur. Qiymətli kağızların əldə edilməsinin məqsədi onların gələcəkdə təkrar satışı və ya uzunmüddətli kapital qoyuluşu ola bilər. İnvestisiyalar nəticəsində bank qiymətli kağızlar portfelinin sahibi olur. Bankın investisiya portfelinin formalaşması elə qurulur ki, riskləri minimuma endirməklə qoyuluşlar kiçik hissələrlə yerləşdirilsin və əlavə mənfəət əldə edilsin. Bankın investisiya siyasəti vəsaitlərin qoyuluşu üçün ən sərfəli olan qiymətli kağızlar dairəsinin müəyyənləşdirilməsindən, hər bir konkret vaxt müddətində investisiya portfeli strukturunun optimallaşdırılmasından ibarətdir.

**BANK KAPİTALI** – bax *Kapital*.

**BANK KOMİSYONU** – müvafiq bank əməliyyatlarına görə banka ayrılan xidmət haqqı; əqd məbləğinin müəyyən edilmiş faizini təşkil edir. B.k. vasitəçilik əməliyyatları üçün də verilir.

**BANK KREDİTİ** – pulun müvəqqəti istifadəyə verilməsinin əsas formalarından biri; bank (kreditor kimi) ilə həm fiziki, həm də hüquqi şəxs ola bilən borcalanlar arasında borc münasibətini ifadə edir. B. k. bankın özünün pul kapitalından, yaxud cəlb olunmuş kapitaldan verilir və müddətli, qaytarışlı və ödənişli şərtlər əsasında şirkətlərə, digər kommersiya banklarına, dövlətə, əhaliyə borcların verilməsi formasında həyata keçirilir. Kommersiya kreditindən kreditləşmənin obyektlərinə və subyektlərinə görə fərqlənir. B. k. zamanı kreditləşmə obyekti kimi borc kapitalı, kommersiya kreditində isə əmtəə kapitalı çıxış edir. Fəaliyyətdə olan kapitalistlərdən başqa pul kapitalistləri də B. k. subyektləridir. Kredit əməliyyatlarını həyata keçirərkən, banklar müvəqqəti fəaliyyətsiz pul fondlarını fəaliyyətə cəlb etməklə istehsal, tədavül və istehlak proseslərini stimullaşdırır. Kreditləşmə zamanı bankda hesablaşma hesabının (valyuta ilə kreditləşmədə isə əlavə cari valyuta hesabının) olması, borcalanın maliyyə-iqtisadi vəziyyətinin stabilliyi, kreditin qaytarılması üzrə öhdəliklərin kifayət qədər təminatlılığı zəruridir.

Müddətlilik üzrə bölünməsindən asılı olaraq, B. k. qısamüddətli (bir il ərzində), ortamüddətli və uzunmüddətli ola bilər; xüsusi təcili B. k. növü də var: birinci tələb ilə ödənilən onkol krediti. Bu kredit növü banklar tərəfindən brokerlərə, dilerlərə və müştərilərə çox qısamüddətli ehtiyaclar üçün verilir və, adətən, birja ehtikarlığında istifadə olunur.

Kreditləşmənin spesifikası ona əzəldən xas olan yüksək risk dərəcəsi ilə bağlıdır; bankın stabliyi riskin idarəedilməsi keyfiyyətindən asılıdır. Bunun üçün, risklərin azaldılması məqsədilə, banklar borclar üzrə yarana biləcək itkilərə görə xüsusi ehtiyat formalaşdırır. Bankın kredit əməliyyatlarının effektivliyi onun kredit siyasəti ilə müəyyən olunur. Etibarlı müştəri-borcalanların, verilən borcların növlərinin seçilməsi, kreditləşmənin optimal təşkili, bankın faiz taktikası, borcalanın maliyyə imkanlarının (onun krediti ödəmə qabiliyyətinin) təhlili bu siyasətin əsas istiqamətləridir.

**BANK NƏZARƏTİ** – mərkəzi bank tərəfindən kommersiya banklarının və kredit təşkilatlarının fəaliyyətinə nəzarət. B. n.-nin məqsədi maliyyə stabilliyi, bank qanunvericiliyinə, normativ aktlara, o cümlədən icbari normativlərə riayət edilməsidir.

Əksər ölkələrdə, o cümlədən Azərb.-da bank sisteminin stabilliyini, əmanətçilərin və kreditorların mənafelərini qoruyan, bank tənzimlənməsi və nəzarəti orqanı olan mərkəzi bankdır. Azərb. Resp.-nın Mərkəzi Bankı kredit təşkilatlarının cari fəaliyyətinə nəzarəti distansiya sənədli nəzarəti və yerlərdə müfəttiş yoxlamaları formasında həyata keçirir. Distansiya nəzarətinin əsas məqsədi kredit təşkilatlarının qəbul etdiyi risklərin qiymətləndirilməsi, erkən mərhələdə onların fəaliyyətində problemlərin aşkar edilməsi və mənfi tendensiyaların aradan qaldırılması üçün tədbirlərin görülməsidir. Yerlərdə keçirilən müfəttiş yoxlamaları kredit təşkilatının və onun filiallarının real maliyyə vəziyyətini müəyyən edir, kreditorların və əmanətçilərin mənafeləri üçün təhlükə yaradan situasiyaları aşkara çıxarır, qüvvədə olan qanunvericiliyə riayət olunmasını yoxlayır. Pozuntular aşkar edildikdə, Azərb. Resp.-nın Mərkəzi Bankı həm qabaqlayıcı, həm də icbari xarakterli tədbirlər (məs., cərimənin alınması, icbari normativlərin dəyişdirilməsi, ayrı-ayrı bank əməliyyatlarının həyata keçirilməsinin qadağan olunması, müvəqqəti administrasiyanın təyin edilməsi, lisenziyanın ləğvi) görə bilər.

**"BANK OF AMERİKA"** (ing. Bank of America) – dünyanın ən böyük kommersiya maliyyə təşkilatlarından biri; aktivlərinin sayına görə ABŞ-da ən iri bank holdinqi şirkətlərindəndir. *"Forbes"* jurnalının versiyasına görə dünyanın ən iri şirkətləri arasında 3-cü yerdədir. İtalyan A. Cannini tərəfindən 1904 ildə San-Fransiskoda "Bank of İtaliya" adı altında yaradılmışdır. İndiki adını 1930 ildə "Bank of Amerika of Kaliforniya" bankı ilə birləşdikdən sonra almışdır. Mənzil-qərargahı San-Fransiskoda yerləşir və fəaliyyətinin mühüm hissəsi Kaliforniyada cəmləşmişdir. Bank ABŞ sənayesini və k.t.-nı maliyyələşdirir, ölkənin ipoteka bazarında və pul ehtiyatı sahəsində aparıcı mövqe tutur. Bank xarici borcların yerləşdirilməsində də böyük rol oynayır, Nyu-Yorkda, İtaliyada törəmə bankları var; dünyanın bir çox ölkəsində kredit müəssisələrinin işində iştirak edir. Bankın aktivləri 2,264 trln. ABŞ dolları, xalis gəliri 2,238 mlrd. ABŞ dolları təşkil etmişdir; 288 min əməkdaşı var (2010).

**BANK PLASTİK KARTLARI** – nağdsız hesablaşmaların adlı aləti; sahibinə əmtəə və ya xidmətlərin alışını ödəməyə, yaxud bank bölmələrindən və *bankomatlardan* nağd pul almağa imkan verir. B.p.k. ödəniş dövriyyəsinin pərakəndə sektorunda hesablaşma əməliyyatlarının avtomatlaşdırılmasının ən mühüm vasitələrindən biridir.

Bank kredit kartlarını ilk dəfə Nyu-Yorkdakı Fletbuş Milli Bankının istehlak krediti üzrə mütəxəssisi C.S. Biqgins tətbiq etmişdir. Onun 1946 ildə reallaşdırdığı kredit sxemi üzrə banklar tərəfindən müştərilərə verilən qəbzlər mağazalarda ödəniş əvəzinə qəbul edilirdi. Sonradan banka təhvil verilən qəbzlər alıcıların hesablarından ödənilirdi.

Bank plastik kartı bankdakı xüsusi kart hesabına çıxış imkanı verən, üzərində maqnit zolağı və ya mikrosxem quraşdırılmış plastik lövhədir. B.p.k. bank hesabının idarəedilməsinə çıxış imkanı verən universal ödəniş alətidir. Kart bir və ya bir neçə hesabı idarəetməyə imkan verir, müəyyən müddətə buraxılır və onun istifadə qaydası kart sahibi və bank-emitentin qarşılıqlı öhdəlikləri ilə reqlamentlənir. Müştərinin bank hesabında qalıq vəsaitdən artıq məbləğdən istifadə etmək imkanlarından asılı olaraq, B.p.k. kredit və debet kartlarına, həmçinin çek zəmanət kartlarına bölünür.

*Kredit kartı* kredit müəssisəsi tərəfindən buraxılır və kart sahibinin həmin müəssisədəki mövcud hesabından əlavə bərpaolunan kredit almaq imkanlarını nəzərdə tutur. İlk qeyri-bank kredit kartları ABŞ-da istehlak kreditləşməsinin sürətli inkişafı ilə əlaqədar yaranmışdır. 1914 ildə bəzi mağazalar özlərinin ən varlı daimi müştərilərinə xüsusi kartlar verməyə başladı. Sonrakı illərdə maliyyə kredit sxeminin aylıq min. borc ödənişləri, möhlət müddəti, yəni faizsiz kreditləşmə kimi elementləri meydana gəldi. Kredit kartları öz sahibinə əmtəə alarkən kreditdən istifadə etməyə imkan verir. Kredit kartının sahibinin əvəzinə ticarət müəssisəsi ilə hesablaşmanı, faktiki olaraq, kart sahibinin hesabından ödənişi alanın hesabına vəsaitin köçürülməsi yolu ilə kartı verən müəssisə həyata keçirir.

Turizm və əyləncə kartları (ing. travel and entertainment cards) bu sferada xidmətlərin göstərilməsində ixtisaslaşmış qeyri-bank şirkətləri, məs., "Amerikan Ekspress" ("American Express"), "Dayners Klab" ("Diners Club") tərəfindən buraxılır. Onlar əmtəə və xidmətlərin ödənişi üçün qəbul edilir, həmçinin sahiblərinə aviabiletlərin, mehmanxana nömrələrinin bronlaşdırılmasında, həyatlarının sığortalanmasında və s. imtiyazlar verir.

*Debet plastik kartı* kart sahibinin cari hesabına bağlıdır; bu tip kartları yalnız hesabda olan məbləğ hüdudlarında istifadə etmək mümkündür. Debet kartları avtomatik kredit verilməsini nəzərdə tutmur. Bank avtomatları üçün kartlar debet kartlarının bir növüdür və sahibinə banklarda, mağazalarda, vağzallarda və digər yerlərdə quraşdırılmış xüsusi avtomatik qurğular vasitəsilə öz hesabındakı qalıq vəsait həcmində nağd pul əldə etməyə imkan verir. Belə kartın sahibi istirahət və bayram günlərində sutkanın istənilən vaxtı pul əldə edə bilər; bunun üçün onun öz bank bölməsinə getməsinə ehtiyac yoxdur. Ticarət məntəqələrində terminallar vasitəsilə alış üçün debet kartları onun sahibinin çek və ya əmanət hesabı ilə bağlıdır və ticarət məntəqəsində quraşdırılmış və elektron rabitə sistemləri üzrə hər bir əməliyyat haqqında məlumatların avtorizasiyası, yazılışı və ötürülməsi üçün nəzərdə tutulmuş qurğu vasitəsilə xidmət olunur. Terminallar kartlara xidmət üzrə əməliyyatları avtomatlaşdırmağa və xidmət müddətini xeyli qısaltmağa imkan verir.

*Çek zəmanət kartlarını* plastik kartların xüsusi növü kimi ayırırlar. İlkin olaraq onlar çek təqdim edənin identifikasiyasını həyata keçirir və kartdakı limit həddində çek üzrə ödənişə zəmanət verirdi. Hazırda bu kartların xeyli hissəsi bankomatlardan nağd pulun alınması üçün istifadə oluna bilər, yəni bank avtomatları üçün kart funksiyasını yerinə yetirir.

B.p.k. ilə köçürmə, bankomatdan pul çıxarılması, əmtəə və xidmətlərin alışına görə nağdsız hesablaşma əməliyyatları üçün bank tərəfindən komissiya tutulur.

Kartlardan istifadə edilməsi banklara müştərilərin cəlb olunmasında və xidmətlərin göstərilməsində məkan məhdudiyyətlərini aradan qaldırmağa imkan verir. B.p.k.-nın sahibləri üçün onların cəlbediciliyi istifadənin rahatlığı, mobilliyi, əmanətlərin saxlanması və etibarlılığı, güzəşt və xidmət zəmanətlərini əldə etmək imkanları ilə şərtlənir.

B.p.k.-nın yayılmasında dövlət də maraqlıdır; belə ki, bununla pulların hərəkətinin uçotu sadələşir və nağd pulların iştirakı ilə hesablaşmalar azalır.

**BANK SİRRİ** – kredit təşkilatının, onun işçilərinin müştərilər və müxbirlər, onların hesabları və əmanətləri, həmçinin müştərilər tərəfindən aparılan əməliyyatlar haqqında məlumatı yaymamağa dair öhdəliyi; *kommersiya sirri* növü. Səhmdar bankları tərəfindən balanslarının dərc edilməsi B.s.-ni istisna etmir; belə ki, bank əməliyyatları haqqında məlumatlar, adətən, ən ümumi formada verilir və banklar tərəfindən aparılmış konkret

sövdələr, onların müəyyən müştərilər ilə əlaqələri və s. açıqlanmır. Hər növ hesab (hesablaşma, cari, büdcə, valyuta, depozit); müddəti keçmiş kreditlərin uçotu üzrə bankdaxili hesablar, veksellərin alınması; hesabın açılması, bağlanması, yenidən rəsmiləşdirilməsi, digər banka köçürülməsi və s.; hesab üzrə əməliyyatlar haqqında məlumatlar sirr hesab olunur. Depozitlər, kreditlər formasında vəsaitlərin bir-birindən cəlb edilməsi və yerləşdirilməsi, yaradılan hesablaşma mərkəzləri vasitəsilə hesabların yerləşdirilməsi və mərkəzi bank tərəfindən verilmiş lisenziyalarda nəzərdə tutulan digər qarşılıqlı əməliyyatların aparılması haqqında məlumatlar da B. s.-ni təşkil edir. Auditor təşkilatları tərəfindən keçirdikləri yoxlamalar zamanı alınmış məlumatların üçüncü şəxslərə ötürülməsinə, qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, icazə verilmir.

Qanunvericiliklə müəyyən olunmuş hallarda hüquqi şəxslərin və vətəndaşların əməliyyatları, hesabları və əmanətləri haqqında arayışlar müvafiq orqanlara – ümumi yurisdiksiya məhkəmələrinə, arbitraj məhkəmələrinə (hakimlərinə), Azərb. Resp.-nın Hesablama Palatasına, vergi, gömrük orqanlarına, prokurorun icazəsi ilə həmçinin icraatda olan işlər üzrə ilkin istintaq orqanlarına, vəfat etmiş əmanətçilərin əmanətləri haqqında icraatda olan vərəsəlik işləri üzrə notarial kontorlara, xarici vətəndaşların hesabları haqqında arayışlar isə xarici konsul təsisatlarına verilir.

B. s.-nin yayılmasına görə Azərb. Resp.-nın Mərkəzi Bankı, kredit, auditor və s. təşkilatları, həmçinin onların vəzifəli şəxsləri və işçiləri qanunla müəyyən olunmuş qaydada, dəymiş zərərin əvəzinin ödənilməsi də daxil olmaqla cinayət məsuliyyəti daşıyırlar.

B. s.-nin qorunması üzrə ən sərt qaydalar İsveçrədə tətbiq edilir. 1934 il qanununda təqsirkar bankların iri məbləğdə cərimələnməsi və onların menecerləri üçün azadlıqdan məhrumetmə nəzərdə tutulur. Sirrin açılmasının yeganə şərti korrupsiya, yaxud çirkli pulların yuyulması ilə bağlı şübhələrdir. 2005 ildən Avropa İttifaqı (Aİ) qeyri-qanuni maliyyə əməliyyatları ilə mübarizə məqsədilə bank əmanətləri sirrini ləğv etmişdir (Aİ-də qüvvədə olan polis, yaxud vergi xidmətlərinin tələbləri ilə hesabların açılması qaydaları İsveçrəyə şamil edilmir).

**BANK SİSTEMİ** – bir-biri ilə və xarici mühitlə sıx qarşılıqlı əlaqədə olan bankların, bank infrastrukturunun və bank qanunvericiliyinin məcmusu, ölkənin iqtisadi sisteminin bir hissəsi. B.s.-nə üç blok daxildir: fundamental, təşkilati və tənzimləyici. Fundamental bloka pul-kredit institutu kimi *bank*, onun mahiyyəti, funksiyaları və iqtisadiyyatdakı rolu, həmçinin *bank fəaliyyəti*, onun xüsusiyyətləri və qaydaları aiddir. Təşkilati blok bankın mahiyyətcə xüsusiyyətlərinin realizə olunmasını təmin edir və bankların növünü, bank fəaliyyətinin təşkilati əsaslarını, həmçinin bank infrastrukturunu müəyyənləşdirir. Tənzimləyici blok qanunverici və normativ müddəaları, bank fəaliyyətinin tənzimlənməsinə yönələn təlimat materiallarını müəyyən edir.

B.s. blokların və onların elementlərinin vahidliyini, fəaliyyətin ümumi məqsədlərini müəyyən edir. Onun spesifikası həm sistemə daxil olan elementlərin tərkibi ilə, həm də elementlər arasındakı qarşılıqlı əlaqələr ilə şərtlənir. B.s.-nin baza elementi banklardır.

Banklar, onların filialları, xarici bankların nümayəndəlikləri və xüsusi pul-kredit institutlarından savayı B.s.-nə müstəqil element kimi bank infrastrukturu da daxildir. Buraya informasiya, metodiki, elmi, kadr təminatı, həmçinin rabitə, kommunikasiya vasitələri və s. aiddir.

İnformasiya təminatı iqtisadiyyatın, onun ayrı-ayrı sahələri və müəssisələr qrupunun vəziyyəti haqqında mühakimə yürütməyə, bankların kredit siyasətinin istiqamətlərini müəyyənləşdirməyə, öz kapitalının və cəlb olunmuş kapitalın qeyri-rasional qoyuluşunun qarşısını almağa, yaranmış iqtisadi konyunkturadan asılı olaraq kredit portfelini diversifikasiyalaşdırmağa imkan verir. İnformasiyanın mövcudluğu və onun təhlili bank xidmətlərinin göstərilməsi texnologiyasının zəruri atributudur. Xarici və daxili mənbələrdən əldə olunan informasiyanın köməyi ilə banklar müştərilərin kredit qabiliyyətini, işgüzar və iqtisadi riskləri qiymətləndirir, müəssisələrə və əhaliyə məsləhətlər verir, onların əmlakını idarə edir. İnformasiya qismində banklar fəal surətdə müxtəlif məlumat kitablarından, jurnallardan, mərkəzi bankın məlumatlarından, reytinq agentliklərinin, xüsusi xidmət idarələrinin məlumatlarından istifadə edir. Fəaliyyətlərinin səmərəli idarə edilməsi üçün bankların özü müştərilərinə dosyelər yaradır, onların kredit tarixlərini formalaşdırır, bu məqsədlə balans məlumatlarından, onun ayrı-ayrı maddələrinin deşifrləməsindən, mədaxil, məxaric və mənfəət, kredit müəssisəsindəki şəxsi hesablarda əksini tapmış əməliyyatlar haqqında informasiyadan istifadə edir. Metodiki təminat bank əməliyyatlarının aparılmasını qaydaya salmaq məqsədini güdür: müxtəlif növ əsasnamələr, təlimatlar, əmrlər, mərkəzi bankın metodiki tövsiyələri, həmçinin bankların özünün göstəriş və təlimatları müştərilərə xidmətlərin göstərilməsi və bankdaxili fəaliyyətin təşkili üzrə müxtəlif əməliyyatların aparılması qaydalarını reqlamentləşdirir. Bankın elmi təminatı bazarın vəziyyətini, bank işinin ayrı-ayrı istiqamətlərinin səmərəliliyini öyrənən əməkdaşlardan ibarət qruplar tərəfindən formalaşdırılır. Kadr təminatı bank personalının ali təhsil müəssisələrində (akademiyalar, universitetlər, institutlar), həmçinin ixtisaslaşdırılmış kolleclərdə, maliyyə-bank profilli mütəxəssislərin yenidən hazırlanması üzrə tədris mərkəzlərində hazırlanması və yenidən hazırlanması vasitəsilə formalaşdırılır. İri banklar öz ehtiyacları üçün (xarici ölkələrdə həmçinin banklararası ehtiyaclar üçün) xüsusi tədris bölmələri (bank məktəbləri) təsis edir: burada bank fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə personalın hazırlanması həyata keçirilir.

Bank fəaliyyəti ümumdövlət əhəmiyyətli aktlar ilə – ölkə konstitusiyası, bank qanunvericiliyi, həmçinin parallel olaraq digər maliyyə və qeyri-maliyyə institutlarının fəaliyyətini tənzimləyən qanunvericilik (məs., birjalar, səhmlər və qiymətli kağızlar, ipoteka və s. haqqında qanunlar) ilə tənzimlənir (B.s.-nin tənzimləyici bloku). B.s.-nin dövlət tənzimlənməsi kateqoriyasına bank fəaliyyətinin gələcək inkişafını müəyyənləşdirən strateji sənədlər də aid olunur. Əksər ölkələrdə bilavasitə bank qanunvericiliyinə mərkəzi bank, kommersiya bankları və bank fəaliyyəti, kredit təşkilatlarının müflisləşməsi (iflası), valyuta tənzimlənməsi və valyuta nəzarəti, fiziki şəxslərin əmanətlərinin sığortalanması haqqında qanunlar aid edilir. B.s.-nin bu blokuna bankların kapitalı, risklərin idarəedilməsi və bankdaxili nəzarətin təşkilinə dair ölkənin Mərkəzi Bankının normativ aktları da daxil edilir. Bank işinin aparılması qaydalarının müəyyən edilməsinə dair bankların təlimatları da bu bloka daxildir.

B.s.-ni bir neçə əlamət üzrə təsnifləşdirmək olar. Təsərrüfatçılıq tipinə görə mərkəzləşdirilmiş, bazar bank sistemi və keçid dövrü sistemi fərqləndirilir. Azərb.-ın müasir B.s. keçid dövrü sistemidir; ikisəviyyəli sistem olmaqla bazar modeli kimi çıxış edir. Birinci səviyyə pul tədavülünü (emissiyasını), səmərəli ödəniş sistemini, kommersiya banklarının fəaliyyətinə nəzarətin təşkilini həyata keçirən və milli valyutanın stabilliyini təmin edən ölkənin Mərkəzi Bankının müəssisələrini əhatə edir. İkinci səviyyəni müxtəlif kommersiya bankları təşkil edir; onların vəzifələri müştərilərə (müəssisələrə, təşkilatlara, əhaliyə) müxtəlif növ xidmətlərin (kreditləşmə, hesablaşma, kassa, depozit, valyuta əməliyyatları və s.) göstərilməsidir.

İnkişaf səviyyəsinə görə inkişaf etmiş və inkşaf etməkdə olan B.s.-ləri fərqləndirilir. İnkişaf etməkdə olan kredit sistemində bank infrastrukturu və bank qanunvericiliyi inkişaf mərhələsini keçirir. Coğrafi cəhətdən B.s. beynəlxalq (məs., Aİ çərçivəsində) və milli (ayrıca ölkədə) olur.

**BANKA,** Banqka – İndoneziyada, Böyük Zond a-rı arxipelaqında ada. Sumatra a.-nın ş. sahillərindən Banka boğazı ilə ayrılır. Sah. 11,6 min $km^2$. Hünd. 692 *m*-ədək. Rütubətli tropik meşələr, bataqlıqlar, kauçuk bitkisi plantasiyaları var; qalay hasil olunur. Əsas şəhəri Pankalpinanqdır.

**BANKA** (Bangka) – İndoneziyanın Cənubi Sumatra əyalətində, Banka a.-nda qalayın dünyada ən iri səpinti yataqları qrupu. 16 əsrdən məlumdur. 1710 ildən istismar olunur. Qalayın kəşf olunmuş ehtiyatı təqr. 500 min *t*-dur (ölkə üzrə təsdiq olunmuş ehtiyatın təqr. 60%-i). Yataq Birma-Malayya-İndoneziya qalaylı qurşağına daxildir. Əsas ehtiyatları sahil və şelfdə yerləşən gömülmüş allüvial, elüvial səpintilərlə əlaqədardır. Qalınlığı 0,2–2,0 *m* olan baş filizli qum layı kassiteritli (2–10 $kq/m^3$) kvars qırıntılarından, turmalindən, monasitdən, rutildən, ilmenitdən təşkil olunmuşdur. Əsas hasilat mərkəzləri: Cebus, Belinyu, Sunqayliat, Pankalpinanq və Muntok. Səpinti yataqlarından başqa qalayın 20-dən çox istismar olunmayan köklü xırda yataqları da var.

**BANKA,** tibb bankası, küpə – müalicə prosedurasında istifadə edilən girdə, dib tərəfdən enli, qıraqları hamar şüşə qab. Salındığı yerdə dərini soraraq onun üzərində havanın alçaq təzyiqini yaratmaqla müvəqqəti dəridaxili hiperemiya (qızarma) törədir. Döş boşluğu orqanlarında iltihabi proseslər (bronxitlər, ocaqlı pnevmoniyalar), habelə miozitlər, nevralgiyalar zamanı tətbiq olunur. Aktiv vərəmdə, ağ ciyər xərçəngində, böyrək xəstəliklərində, ümumi zəiflikdə B. qoymaq olmaz. Xalq təbabətində B. əvəzinə küpədən də istifadə edilir.

**BANKET** (fr. banquette – pillə, kürsü) – 1) hərbdə – atəş açan döyüşçüləri yerləşdirmək üçün hündür *brustverin* daxili tərəfində atıcının dayanması və brustverin üzərindən atəş açması üçün torpaqdan düzəldilmiş pillə. Keçmişdə mərmilərin düşməsini müşahidə və atəşi korrektə etmək üçün qurulan məntəqələr də B. adlanırdı; 2) yolu su axınlarından qorumaq üçün onun hündür kənarı boyunca torpaq yüksəklik; 3) hidrotexnikada – torpaq bəndlərin yuxarı və aşağı hissələrində daşlardan prizma; 4) gəmidə – kompası, məsafəölçən cihazı və s. yerləşdirmək, silah və s.-yə xidmət üçün düzəldilən hündür meydança.

**BANKƏ** – Azərb. Resp. Neftçala r-nunda qəsəbə. Bankə ə.d.-nin mərkəzi. R-n mərkəzindən 4 *km* şm.-da, Kür çayının sol sahilində, Cənub-Şərqi Şirvan düzündədir. Əh. 7149 (2008); əkinçilik, heyvandarlıq və balıqçılıqla məşğuldur. Balıq kombinatı, məişət xidməti kombinatı, çəllək z-du, 2 tam orta məktəb, məktəbəqədər tərbiyə müəssisəsi, xəstəxana, mədəniyyət evi, poçt, 3 kitabxana var.

**BANKƏ** – bax *Say*.

**BANKİV TOYUĞU,** bankiv cəngəllik toyuğu (Gallus gallus) – qırqovulkimilər fəsiləsindən quş. Erkəklərinin bədəninin uz. 75 *sm*-ədək, kütləsi 1450 *q*-a qədər, dişiləri xırda olur. Xoruzların lələk örtüyü metal parıltı, üstü qızılı-narıncı, döşü tünd, quyruğu tünd-yaşıldır; başında qalın, dərivarı qırmızı pipiyi və sırğaları var. Dişilərin lələk örtüyü sadə, boz-qonurdur. B.t. Cənub-Şərqi Asiyada, Hindistanın şm.-ş.-ində, Çinin c.-unda, Sumatra, Yava və Bali adalarında geniş yayılmışdır. Sakit okean adalarına əhliləşdirilmiş halda gətirilən B.t. bəzi yerlərdə yenidən vəhşiləşmişdir. Bir neçə yarımnöv əmələ gətirir. Müxtəlif tipli meşələrdə və onların talalarında, sıx kolluqlu cəngəlliklərdə məskunlaşır. Düzənlik yerləri və yastı yamacları çox sevir; dağlarda 2000 *m* yüksəkliyə qədər qalxa bilir. Yaxşı qaçır, toyuqkimilərə xas olan sürətli-düzxətli uçuşa malikdir; gecələmək üçün alçaq ağaclara qonur. Fəsildən asılı olaraq müxtəlif cür qidalanır: toxum, meyvə, bitkilərin yaşıl zoğu və cücülər üstünlük təşkil edir. B.t. ərazini qoruyan bir erkəkdən və bir neçə dişi fərddən ibarət kiçik qruplarla gizli yaşayır. Yuvası torpaqda qazılmış çox sadə döşənəkli kiçik çuxurdan ibarətdir. Dişi fərd 5–6 yumurta qoyur, 18–20 gün kürt yatır; erkək fərd bala bəsləməkdə ona kömək edir. Ev toyuqlarının çoxsaylı cinsləri Hindistanda əhliləşdirilmiş və sonradan Avropaya gətirilmiş B.t.-undan törəmişdir.

Bankiv toyuğu (Gallus gallus).





**BANKNOTLAR** (ing. bank-note – bank bileti) – milli mərkəzi bank tərəfindən buraxılan *pul nişanları*; kredit pulları növü. B., onların sahibləri qarşısında mərkəzi bankın müddətsiz öhdəlikləridir. B. mərkəzi bankın aktivləri ilə zəmanətlənir və bu onların ictimai zəmanətini və ölkə ərazisində ödəmələrdə mütləq qəbulunu təmin edir. B. pulun bütün funksiyalarını yerinə yetirir və qiymətli kağızlara aid edilmir.

Tarixən B.-ın sələfi nüfuzlu tacir və bankirlərin saxlamaq üçün müəyyən məbləğdə metal pulların qəbulunu təsdiqləyən və hesablaşmalarda istifadə edilən əmanət iltizamları olmuşdur. Əmtəə istehsalı inkişaf etdikcə B.-ın buraxılmasını bir neçə emissiya bankı, o cümlədən özəl banklar həyata keçirməyə başladı, sonra isə bir mərkəzi bank – dövlət, yaxud yarımdövlət bankı tərəfindən inhisarlaşdırıldı. B.-ın çap olunmasına yönələn xərclər ilə onların nominalı arasındakı fərq dövlətin emissiya gəlirini müəyyən edir.

Qızıl standartı şəraitində B. bankir *vekseli* qismində mərkəzi bankda qeydə alınmış (satın alınmış) kommersiya veksellərinin əvəzinə buraxılırdı və tərkibindəki qızıla müvafiq olaraq qızıla dəyişdirilirdi. B.-ın, onların tədavülünün nisbi stabilliyinə və bank-emitentə qaytarılmasına zəmanət verən ikili təminatı 19 əsrin 1-ci yarısında veksel və qızıl təminatının nisbətinə dair çoxillik müzakirələrə səbəb olmuşdu. Pul məktəbi hesab edirdi ki, yalnız B.-ın qızıl təminatı iqtisadi böh-

ranları aradan qaldıra bilər. Bank məktəbi, əksinə, B.-ın tədavülünün elastikliyini artırmaq və iqtisadiyyatın inkişafı üçün kreditləri ucuzlaşdırmaq məqsədilə veksel təminatını müdafiə edirdi. Bu nəzəri mübahisə, təminatsız emissiya həddi, eləcə də veksel təminatı (60–75%) ilə qızıl (25–40%) təminatı arasında fərqli nisbət müəyyən edilmiş bir sıra ölkənin emissiya qanunvericiliyinə təsir göstərdi. Pul məktəbinin təsirilə B.Britaniyada vaxtaşırı iqtisadi böhranları kəskinləşdirən və ölkədə pul çatışmazlığına səbəb olan Robert Pil qanunu (1844) qəbul edildi.

Qızıl standartının tam ləğvindən sonra 1929–33 illərin dünya iqtisadi böhranı şəraitində B.-ın qızıla dəyişdirilməsi bütün ölkələrdə (B.Britaniyada – 1931, ABŞ-da – 1933, Fransada – 1936) dayandırıldı. İkinci dünya müharibəsinədək aparıcı ölkələr öz valyutalarının qızıla konversiya edilməsini ancaq beynəlxalq hesablaşmalar sahəsində dəstəkləyirdi. 1944 ildən *Bretton-Vud valyuta sistemi* çərçivəsində yalnız ABŞ xarici mərkəzi banklara öz dollar avuarlarını (hesablarını) Amerika xəzinədarlığında qızılın rəsmi qiymətinə uyğun qızıla konversiya etməyə icazə vermişdi, lakin 1971 ildə dolların böhranı şəraitində bu razılaşmadan imtina etmişdi. Bütün ölkələr 1970-ci illərin əvvəlində, Rusiya isə 1992 ildə B.-ın qızıl tərkibini ləğv etdi.

B.-ın veksel təminatının keyfiyyəti tədricən pisləşirdi, çünki bütün vekselləar əmtəə sövdələri ilə əlaqəli deyildi və deməli, B.-ın mərkəzi banka qaytarılmasını təmin etmirdi. B.-ın emissiyasının genişlənməsi ilə onların təminatı əsasən, dövlət qiymətli kağızları oldu. Bununla əlaqədar olaraq B., kredit pullarının xarici əlamətlərini saxlasa da, *kağız pullara* çevrildi.

B.-ın təminatı kimi, mərkəzi bankın portfelindəki yenidən hesablanmış vekselər (bu əməliyyat istifadə edilən ölkələrdə) və rəsmi valyuta-qızıl ehtiyatları (onların artımı ilə B.-ın emissiyası bütün ölkələrdə həyata keçirilir) da istifadə olunur.

Müasir B.-ın emissiyası, dövlət tənzimlənməsinin obyekti olaraq, ölkənin rəsmən pulun alıcılıq qabiliyyətinin saxlanılmasına və pul, o cümlədən banknot tədavülünün stabilliyinə yönələn pul-kredit siyasətinin vəzifələrindən asılıdır.

B., xırda pullar (1%) da daxil olmaqla, nağd pul tədavülünün əsas elementidir (99%). Lakin məcmu pul kütləsində nağd pulların payı xeyli azalmışdır (inkişaf etmiş ölkələrdə 7–8%, Rusiyada 35% səviyyəsindədir). İqtisadiyyatda struktur dəyişiklikləri aparıldıqca, bank məlumat texnologiyaları təkmilləşdikcə pulun funksional formaları (o cümlədən nağdsız və elektron) inkişaf edir. Lakin onlar bir sıra ölkədə pərakəndə ticarətdə və əmanətlərin saxlanması üçün ənənəvi olaraq istifadə edilən milli pulun unifikasiya edilmiş forması kimi nağd B.-ın tədavülünü istisna etmir.

*Əd*.: Денежное обращение и кредит при капитализме / Под ред. Л.Н. Красавиной, 3-е изд. М., 1989; Долан Э., Кэмпбелл К., Кэмпбелл Р. Деньги, банковское дело и денежно-кредитная политика. М.; Л., 1991.

**BANKOMAT** – özünəxidmət rejimində nağd vəsaitlərlə əməliyyatları yerinə yetirmək üçün texniki və proqram qurğuları məcmusu. B.-dan istifadə *bank plastik kartları* vasitəsilə mümkündür. B. nağd pul vəsaitlərinin verilməsi və qəbulu, bank kartı ilə aparılan əməliyyat barədə sənədlərin hazırlanması, hesab barədə məlumatların təqdimi və s. əməliyyatları yerinə yetirir. Prosessor, displey, klaviatura və informasiyanı kartdan oxuyan qurğu ilə təchiz edilir. Bina daxilində və küçədə quraşdırılan B. növləri var. Müasir B.-ların satışı və quraşdırılması üçün ilk müqavilə 1969 ildə bağlanmışdır. İlk küçə B.-ı Nyu-Yorkda quraşdırılmışdır. Nağd vəsaitlərin verilməsi əməliyyatlarına kartın daxil edilməsi barədə təklif, müştəri ilə ünsiyyət dilinin seçilməsi barədə sorğu, fərdi identifikasiya nömrəsinin daxil edilməsi, tələb edilən məbləğin seçilməsi və ya daxil edilməsi, pul vəsaiti və kartın verilməsi, çekin çapı əməliyyatları daxildir. Əməliyyatların sürətlə və rahat aparılması, şəbəkə ilə birləşmə sayəsində B.-a girişin sadəliyi onun müştəri üçün üstün cəhətləridir. B.-ların tətbiqi banklarda əməliyyat məsrəflərini və işçilərin sayını azaldır, yeni bölmələrin açılması zərurətini aradan qaldırır, bununla da mənfəəti artırmağa imkan verir.

**BANKROTLUQ** – bax *Müflisləşmə*.

**BANKS** – Kanada Arktika arxipelaqının q.-ində ada. Kanada ərazisinin bir hissəsi. Sah. 64 min $km^2$. Səthi düzənlik və alçaq dağlıqdır. Hünd. 762 *m*-ədək. bitkisi tundra tiplidir. Əsas yaşayış məntəqəsi Saks-Harbordur. 1819 ildə kəşf olunmuşdur. Adanın şm.-da *Olavik Milli Parkı* yerləşir.

**BANKS** – Sakit okeanın c.-q.-ində vulkanik adalar qrupu. Böyük a-rı: Vanua Lava, Santa Mariya. Vanuatu dövləti tərkibinə daxildir. Sah. təqr. 800 $km^2$-dir. İsti, rütubətli iqlimi var. Tropik bitkilər yayılmışdır. Qarğıdalı, tropik meyvələr becərilir. 1606 ildə P. Kirosun ekspedisiyası tərəfindən kəşf olunmuşdur.

**BANKS** – Tasmaniya a. ilə Fürno a-rı arasında boğaz. Eni təqr. 25 *km*, dərinliyi 27–55 *m*-dir. C. sahili kəskin parçalanmış və dayazlıqla əhatə olunmuşdur, şm. sahillərində sualtı riflər var. Axın (sürəti 1 *km/saat*) ş. istiqamətlidir. Qabarmalar zamanı axının sürəti 6 *km/saat*adək çatır.

**BANQALÓR**, Banqalur, Benqaluru – Hindistanın c.-unda şəhər. Karnataka ştatının inz. m. Dekan yaylasında, 900 *m* hünd.-dədir. Əh. 4,9 mln. (2005; şəhərətrafı ilə 6,1 mln.); əhalisinin sayına görə ölkənin üçüncü şəhəridir. Nəql. qovşağı. Aeroport.

B. 1537 ildə gildən tikilmiş qalanın ətrafında salınmışdır. *Vicayanaqar* hakiminə tabe idi; imperiyanın süqutundan sonra 1638 ildə *Bicapur* sultanı tərəfindən tutulmuşdu. 1687 ildə Böyük Moğol imperatoru *Övrəngzibin* qoşunları tərəfindən ələ keçirilmiş şəhər *Maysur* sultanlığının hakim sülaləsi Vodeyarlara verilmişdir.

Banqalor sarayı.







1758 ildə hind hakimi *Heydər Əlinin* xası olmuş, 1791 ildən ingilislərin hakimiyyətinə keçmişdir. 1831–81 illərdə Maysur sultanlığının Britaniya rezidentinin iqamətgahı B.-da yerləşirdi. 1881 ildə Maysur racasına qaytarılmış, 1947 ilədək Maysur sultanlığının tərkibində olmuşdur. 1950 ildən Maysur (1968 ildən Karnataka) ştatının paytaxtıdır. Şəhərdə Qavi Qandhareşvara və Basavan (16 əsr) mağara-məbədləri, Britaniya müstəmləkəçiliyi dövrünə aid kilsələr qalmışdır. B. Cənubi Hindistan krişnaitləri hərəkatının mərkəzidir (Krişna məbədi, 1997).

B. ölkənin böyük sənaye, elm və mədəniyyət mərkəzidir. Hindistan kosmik tədqiqatlar mərkəzi (1969 ildən), elmi tədqiqat in-tları; un-t (1964 ildən), k.t. un-ti (1964 ildən), Hindistan elmlər in-tu (dəqiq və texniki elmlər; 1909 ildən); mərkəzi kitabxana (1914 ildən), dövlət muzeyi (1866 ildən) var. Beynəlxalq aviakosmik texnika sərgisi (2 ildə 1 dəfə) keçirilir. 1990-cı illərdən B. elektronika, informasiya texnologiyaları, biomühəndislik inkişafı mərkəzidir. Böyük texnoparklar; ümumölkə əhəmiyyətli dəzgahqayırma və aviasiya z-dları; elektrotexnika, əczaçılıq, yeyinti, toxuculuq (B. ipək sənayesi mərkəzidir; pambıq parça f-ki) ağac emalı sənayesi müəssisələri var.

**BANQ-KAUP** Vilhelm (1869–1934) – alman dilçisi, türkoloq. Belçikanın Löven Un-tini bitirmişdir. Berlin Un.-tinin prof.-u (1920) olmuşdur. Türk dillərinin tarixi-müqayisəli qrammatikası, leksikologiyası və etimologiyasına dair əsərlərin ("Türk dillərinin müqayisəli qrammatikasına dair etüdlər", 1916; "Türkcə Turfan mətnləri", 1929–34, müştərək; "Oğuz Xaqan dastanı", 1932, R. Rahmeti Arat ilə birlikdə və s.) müəllifidir.

**BANQKÓK** – Taylandın paytaxtı. Əh. 6,7 mln. (aqlomerasiyada 9 mln.; 2005). Siam körfəzinin 30 *km*-liyində, Menam çayı sahilindədir. Ölkənin əsas dəniz və çay portu (yük dövriyyəsi ildə təqr. 50 mln. *t*). Nəql. qovşağı. Beynəlxalq aeroport.

Şəhər I Rama adı ilə taxta çıxan sərkərdə Pya Çakri tərəfindən yeni paytaxt (16 əsrdən burada mövcud olmuş məskənin yerində) kimi 1782 ildə salınmışdır. Tay dilində Krunq-Thep ("Mələklər şəhəri") adlanır. 18 əsrin sonlarından B. iri ticarət və mədəniyyət mərkəzinə çevrilmişdir. II Rama [1809–24] və III Ramanın [1824–51] hakimiyyətləri dövründə çoxsaylı Budda məbədləri (vatlar), məktəblər, kitabxanalar, xəstəxanalar və



Banqalor. Lalit Mahal sarayı.

məşhur kanallar inşa edilmişdir. B.-un müasir görünüşü IV Ramanın [1851–68] və şəhərləri abadlaşdıran, yol şəbəkəsi yaradan, o cümlədən ilk d.y.-nu (1900) çəkən I Rama Çulalonqkornun [1868–1910] dövründə yaranmışdır.

Şəhərin planaalması radial-dairəvi sxem üzrə kortəbii yaranmışdır. Menam çayının sağ sahilindəki Arun vatında ("Günəşin çıxması" məbədi) hünd. 74 *m* olan, çini parçaları və süni mərmərdən relyeflər ilə bəzədilmiş *stupa*-pranq ucalır; onun müqəddəs Mera dağını təcəssüm etdirən qülləvarı silueti paytaxtın memarlıq rəmzinə çevrilmişdir. Tarixi solsahil hissəsində kral sarayları və məbədləri kompleksi, o cümlədən həm də Phrakeu vatı (və ya "Zümrüd Budda" məbədi, 15 əsrə aid, yarımqiymətli nefrit, yaxud jadeitdən düzəldilmiş və xüsusilə sitayiş olunan heykəlin adından; əsası 1782 ildə qoyulmuşdur) yerləşir. Çakri sülaləsindən olan kralların tunc heykəllərindən ibarət nadir kolleksiya da Phrakeudadır; hasar-qalereyanın (19 əsrin sonu; uz. təqr. 500 *m*) üzəri *"Ramayana"* mövzusunda rəsmlərlə örtülmüşdür. Ətrafına divar çəkilmiş monastırların (Pho, Suthat, Saket və s. vatlar) əsas tikililəri zal tipli və çoxqatlı rəngli kirəmit damları olan sentrik məbədlərdən, həmçinin qurtaracağı qızıl suyuna çəkilmiş stupalar-

Banqkok şəhərindən görünüş.





Banqkok. Kral sarayı.

dan ibarətdir. Pho vatı uzanmış Buddanın qızıl suyuna çəkilmiş və laklanmış stukkodan hazırlanan 45 *m*-lik heykəli ilə məşhurdur. Milli muzeyin binaları kompleksinə daxil olan Phutthaisavan məbədinin interyeri Buddanın tunc heykəli olan mehrabla (13 əsr) və Buddanın həyatından bəhs edən divar rəsmləri (18 əsrin sonu) ilə bəzədilmişdir. Vihan Bentyamabophit (1899) İtaliyadan gətirilmiş mərmərlə işlənmişdir; onun qalereyasında dini heykəltəraşlıq ekspozisiyası yerləşdirilmişdir. Saray tikililəri içərisində özündə ənənəvi tay memarlığının və psevdorenessans Avropa üslubunun xüsusiyyətlərini birləşdirən Çakri Böyük sarayı (1867–82) və bütövlükdə qızıl suyuna çəkilmiş hind palıdından tikilən Vimanmek (20 əsrin əvvəli) sarayı seçilir. 20 əsrdən başlayaraq B.-da əcnəbi memarların layihələri əsasında Avropa üslubunda binalar inşa edilmişdir: Milli məclisin binası (1908–16; qarşısında Siamdakı ilk monumental abidələrdən biri – kral Çulalonqkornun atlı heykəli qoyulmuşdur, 1930-cu illər), Zərif sənətlər in-tu və s. Demokratiya monumenti (1933), kral IV Ramanın abidəsi (1930-cu illər) *beynəlmiləl üslubdadır*; hər ikisinin müəllifi heykəltəraş S. Bhirasridir. Memarlardan Sumet Cumsay (Millət Evi, 1991), Trisuk Devakul, Ranqsan Torsuvan və b. 20 əsrin sonlarında bir sıra diqqətəlayiq tikililər layihələndirmişlər.

Banqkoq. Vat Arun ("Günəşin çıxması") məbədi.



B.-da 20-dən çox elmi-ictimai assosiasiya, elmi tədqiqat idarəsi, o cümlədən Kral in-tu (1933 ildən), Göte in-tu (Alman mədəniyyəti in-tu, 1960 ildən) fəaliyyət göstərir. Ən böyük un-tləri Çulalonqkorn (1917 ildən), Tammasart (1934 ildən), Kazetsart (1943 ildən), Asiya texnologiya in-tu (1959 ildən), Beynəlxalq dini un-t (1969 ildən), Ramkhamhaenq un-ti (1971 ildən) və s.-dir. Milli kitabxana (1905); Milli muzey (1874 ildən, 1926–32 illərdə Banqkok muzeyi; heykəltəraşlıq, boyakarlıq, dekorativ-tətbiqi sənət), Milli qalereya, "Kral barjları" (19 əsr dekorativ sənəti), "Tay evi" və "Suan Pakkad sarayı" – daimi ekspozisiyası olan 19 əsr yaşayış binaları; çoxsaylı müasir incəsənət qalereyaları; milli teatr; planetari; zoopark; IV Rama parkı (nəbatat bağı və kral ailəsinin həyatını əks etdirən ekspozisiya) var. B.-da *Asiya oyunları* (1966, 1978, 1998) keçirilmişdir.

B. ölkənin əsas maliyyə (Tayland Bankı, Banqkok Bankı, Krunq Tay Bank, Siam Kommersiya Bankı, iri beynəlxalq bankların filialları, Tailand Fond Birjası) və sənaye mərkəzidir. Neft emalı, ağac emalı, kimya, əczaçılıq, elektrotexnika, kağız, metal emalı sənayesi müəssisələri; avtomobilyığma; tərsanələr; çəltiktəmizləmə; bədii sənətkarlıq; dulusçuluq məmulatının kustar istehsalı, gümüş, ağac üzərində oyma inkişaf etmişdir.

**BANQQÁYLAR**, b a n q a y l ı l a r – İndoneziyada, Banqay arxipelaqının adalarında və Sulavesi y-a-nın ş.-ində yaşayan xalq. Sayları 140 min nəfərdir (2000). 2 subetnik qrupa (mian sea-sea və mian banqqay) bölünürlər. Antropoloji cəhətdən Şərqi-İndoneziya keçid irqinə mənsubdurlar. Mərkəzi Avstroneziya ailəsinin Qərbi Avstroneziya qrupunun Sulavesi qruplaşmasına daxil olan banqqay, yaxud banqai dilində danışırlar. *Loinanqlara* və *balantaklara* qohumdurlar. Mian banqqaylar müsəlman, mian seasealar xristiandırlar.

B-ın mian sea-sea qrupu, əsasən, Pelenq a.-nda yaşayırlar. Adanın avtoxton əhalisi olan bu qrup əvvəllər daxili vilayətlərdə yaşasa da, 19 əsrdən sahilyanı ərazilərdə məskunlaşmağa başlamışdır. Mian banqqaylar başlıca olaraq Banqay a.-nda yaşayırlar. B. Banqay sultanlığının tərkibində olmuşlar. Sultanlıq 1908 ildən hollandların hakimiyyəti altında özünüidarəetmə hüququ olan əraziyə çevrilmiş, 1949 ildən İndoneziyanın ərazisinə qatılmışdır.

Əsas məşğuliyyətləri qırılıb-yandırılmış ərazilərdə toxa əkinçiliyi (yams, qarğıdalı, tərəvəz, saqo, banan və s., satış üçün tütün və kokos), balıqçılıq və ovçuluqdur (qaban, quş və s.). Mum toplayırlar. Sənətkarlıq sahələri – qayıq düzəltmə, toxuculuq, tunctökmə və s. Ənənəvi yaşayış məskənləri dağınıq, müasirləri isə yığcamdır. Evləri yortacəsaslıdır; düzbucaqlı planda, ağac və bambukdan tikilir, damları ikiyamaclı olur. Kişi geyimi, əsasən, avropasayağıdır; qadınlar *saronq* geyinirlər. Əsas yeməklər bitki və balıqdan hazırlanır.

Ənənəvi icmaları endoqamdır. Ümumi mənşəyi, əcdadları və ritualları olan bir neçə icma etnoərazi birliyini təşkil edirdi. Birliyin başçısı və onun ailə üzvləri sultan şurasına daxil idilər. Ailələr kiçikdir; kuzen nikahları üstünlük təşkil edir. Poliginiyaya az rast gəlinir. Nikah matrilokal, daha sonra isə neolokal olmuşdur. Ənənəvi etiqadları – baş allaha, onun dörd oğlu (əkinçilik, ovçuluq, balıqçılıq və arıçılığın hamiləri) və əcdadların kultları, dağ zirvələrinə, daşlara və s. sitayiş, türkəçarəçilik və şamanizmdir.

**BANQLADÉŞ**, B a n q l a d e ş  X a l q  R e s p u b l i k a s ı (Qono Procatontri Banqladeş).

### Ümumi məlumat

Cənubi Asiyada dövlət. Q.-də, şm.-da və ş.-də Hindistanla, ucqar c.-ş.-də Myanma ilə həmsərhəddir. C.-da Benqal körfəzi ilə əhatələnir. Sah. 142,7 min $km^2$ (daxili akvatoriyalarla birlikdə təqr. 144 min $km^2$). Əh. 142,8 mln. (2011). Paytaxtı Dəkkə ş.-dir. Rəsmi dil benqal dili, pul vahidi takadır. İnzibati cəhətdən 7 vil.-ə bölünür.

B. BMT-nin (1974), Cənubi Asiya Ölkələrinin Regional Əməkdaşlıq Assosiasiyasının (1985), İslam Konfransı Təşkilatının (İKT; 1974), ÜTT-nin (1995), BVF-nin (1972) üzvüdür.

### Dövlət quruluşu

B. unitar dövlət, *Birliyə* üzvdür. Konstitusiyası 4.11.1972 ildə qəbul edilmişdir; hərbi çevriliş (1982) nəticəsində Konstitusiyanın fəaliyyəti dayandırılmış, hərbi vəziyyətin ləğvindən (1986) sonra





bərpa olunmuşdur (1988, 1991 illərdə düzəlişlər edilmişdir). İdarəetmə forması parlament resp.-dır. Dövlət başçısı parlamentin 5 il müddətinə seçdiyi prezidentdir (bir dəfə yenidən seçilmək hüququ ilə); əsasən, təmsilçilik səlahiyyətlərinə

**İnzibati ərazi bölgüsü (2011)**

| Vilayətlər | Ərazisi, min $km^2$ | Əhalisi, min nəfər | İnzibati mərkəzi |
|---|---|---|---|
| Barisal | 13,6 | 8147 | Barisal |
| Çittaqonq | 33,8 | 28079 | Çittaqonq |
| Dəkkə | 31 | 46729 | Dəkkə |
| Khulna | 22,3 | 15563 | Khulna |
| Racşahi | 18,2 | 18329 | Racşahi |
| Ranqpur | 16,3 | 15665 | Ranqpur |
| Silhet | 12,6 | 9807 | Silhet |

malikdir. Prezident xarici siyasətin həyata keçirilməsinə nəzarət edir; parlamenti çağırmaq və buraxmaq, fövqəladə



vəziyyət elan etmək hüququna malikdir.

Qanunverici hakimiyyətin ali orqanı təkpalatalı parlamentdir. Parlamentin 330 üzvü majoritar sistem əsasında təkmandatlı dairələrdən birbaşa səsvermə yolu ilə 5 il müddətinə seçilir; deputatlar əlavə olaraq 30 üzvü (qadınları təmsil etmək üçün) seçirlər.

İcraedici hakimiyyəti prezidentin təyin etdiyi baş nazir başda olmaqla Nazirlər şurası həyata keçirir. Digər nazirlər baş nazirin təqdimatı ilə təyin olunurlar.

Ölkədə 100-dən artıq siyasi partiya fəaliyyət göstərir; real qüvvəyə Banqladeş Millətçi partiyası və Avami liq malikdir.

### Təbiət

**Relyef.** B. ərazisinin təqr. 9/10 hissəsini *Benqal düzənliyi* (*Hind-Qanq düzənliyinin* ş. hissəsi) və *Sundarban* sahilboyu düzənliyi tutur; 1 *m*-dən 20 *m*-ədək hünd.-lər üstünlük təşkil edir. C.-ş. və ş.-də təpələr və alçaq (hünd. 915 *m*-ədək; ölkənin ən hündür nöqtəsi) dağlar var. Bu dağlar Benqal körfəzindən ensiz sahilboyu düzənliklə ayrılır. Şm.-q.-də relyef c.-a doğru az meyillidir; təpələrin hünd. 300 *m*-ədəkdir. B. ərazisinin xeyli hissəsi *Qanq*, *Brahmaputra* və *Meqhna* çaylarının deltasından ibarətdir. Sahil xətti güclü parçalanmışdır. Burada çoxlu sayda delta adaları (Dakkhin-Şahbazpur, Cənubi Hatiya, Sandvip və s.) var.

**Geoloji quruluş və faydalı qazıntılar.** B.-in ərazisi Cənubi Asiyada kontinent qabığının çökmələr vilayəti daxilindəki Benqal hövzəsindən ibarətdir. Benqal hövzəsi qədim Hindistan platformasının ş. kənarı üzərinə gəlmişdir; şm.-da Erkən Kembri dövrünə qədərki kristallik özülünün Şillonq çıxıntısı ilə hüdudlanır. Qədim Hindistan platformasının özülünü Perm-Tabaşir və Eosen yaşlı çöküntü örtüyü təşkil edir. Özül çöküntülərini Himalay, həmçinin Myanmanın q., Hindistanın ş. hissəsindəki silsilələrdən səth suları ilə daşınan Oliqosen-Dördüncü dövr qırıntı çöküntüləri örtür. Benqal hövzəsinin ş.-ini Oliqosen-Dördüncü dövr molassaları ilə dolmuş Hindistan-Birma orogeninin ön çökəyi tutur. Çökəyin intensiv dislokasiyaya məruz qalmış daxili qanadını təşkil edən Miosen çöküntüləri Çittaqonq silsiləsində yer səthinə çıxır. Ölkənin ucqar şm.-ş.-ini Erkən Neogendən intişar tapmış Himalayönü molass çökəyi qapayır. Faydalı qazıntılarından təbii yanar qaz yataqları Kaynozoy çöküntüləri ilə, kömür yataqları isə Perm çöküntüləri ilə




əlaqədardır. Torf, dəmir filizi (hematit), titan, əhəngdaşı, kaolin, odadavmlı gil yataqları da var.

**İqlimi** subekvatorial mussondur. Qışı mülayim, quru və günəşlidir; yanvarın orta temp-ru 12–25°C-dir. Yayı isti və yağışlıdır, orta temp-r apreldə (ən isti ay) 33–36°C-dir. B. dünyada ən çox yağıntısı olan yerlərdən biridir. İllik yağıntının miqdarı 2000–3000 *mm*-dir, c.-q.-dən şm.-ş.-ə doğru artır; Çittaqonq silsiləsində 5080 *mm*-ə çatır. Yağıntının 80%-i iyul–oktyabr aylarında düşür. Yağış və daşqınlar dövründə ölkə ərazisinin xeyli hissəsi su altında qalır. Mussonların dəyişdiyi vaxt Benqal körfəzindən gələn fırtınalı və tayfunlu siklonlar böyük fəlakətlərə səbəb olur.

**Daxili sular.** Əsas çayları Qanq, Brahmaputra (qolları: Tista, Atray) və Meqhnadır. C.-ş.-də bir sıra kiçik çaylar (Karnaphuli, Sanqu, Matamuhari və s.) Benqal körfəzi hövzəsinə aiddir. Bütün çaylar çoxsuludur və gəmiçiliyə yararlıdır. Ən iri gölü Haylhaordur.

**Torpaqlar, bitki örtüyü və heyvanlar aləmi.** Ölkə ərazisinin böyük hissəsində qalın allüvial torpaqlar inkişaf etmişdir. Şm.-da və c.-ş.-də qırmızı-sarı ferrallitli torpaqlar yayılmışdır. Deltanın sahilboyu hissəsi manqr bitkili bataqlıq torpaqlarından ibarətdir. B.-də mədəni landşaftlar üstünlük təşkil edir. C.-ş.-də qarcan, manqo, sal ağacı və hind palıdından ibarət tropik meşələr qalmışdır; sahil boyunca sundri ağaclı manqr meşələri uzanır. Bambuk bitkisi (10 növə qədər) geniş yayılmışdır. Meşələrdə meymunlar, Benqal pələngi, bəbir, Hindistan fili, marallar qalmışdır; sürünənlərdən ilanlar (o cümlədən kobralar), kərtənkələlər var; Sundarbanın sahil sularında timsahlar yaşayır. Quşlar (tovuzquşu, qırqovul, tutuquşu, Benqal kərkəsi və s.) çoxdur. B.-də 10 təbii ərazi (ümumi sah. 65,7 min *ha*), o cümlədən deltadakı adalarda Sundarban (*Ümumdünya irsi* siyahısına daxil edilmişdir) rezervatının bir hissəsi manqr meşələri (burada Benqal pələnginin ölkədəki ən iri populyasiyası qorunur) ilə örtülmüş və Benqal körfəzi sahili mühafizə olunur.

## Əhali

Əhalinin 98%-ini *benqallar* təşkil edir. Digərləri biharlılar, urdudilli və hinddilli qruplar, Tibet-Birma (çakmalar, myanmalar, arakanlılar, qarolar, manipurilər, mrular və b.) və Avstroasiya (santallar, khasilər və b.) dillərində danışan xalqlardır. B. üçün əhalinin təbii artımının yüksək tempi səciyyəvidir: doğum səviyyəsi (1000 nəfərə 30,0) ölüm (1000 nəfərə 8,4) səviyyəsindən 3 dəfədən də çoxdur. Fertillik göstəricisinə görə 1 qadına 3,13 uşaq düşür. Uşaq ölümünün səviyyəsi yüksəkdir (1000 nəfər diri doğulana 62,6). Əhalinin artımına dövlət nəzarəti siyasəti illik təbii artımın səviyyəsini (1990-cı illərdə 2,5%; 2005 ildə 2,09%) azaltmışdır. Xarici miqrasiyaların saldosu mənfidir (1000 nəfərə 0,69 miqrant); miqrantlar, əsasən, Yaxın Şərq (Səudiyyə Ərəbistanı, Küveyt, BƏƏ, Qatar) və Cənub-Şərqi Asiya ölkələrinə (əsasən, Malayziyaya) köçürlər. 105 kişiyə 100 qadın düşür. Əhalinin yaş strukturu: 15 yaşınadək – 33,1%, 15–64 yaşınadək – 63,5%, 65 yaşdan yuxarı – 3,4%. B. əhalisinin orta yaş həddi 21,9 ildir. Gözlənilən orta ömür müddəti 62,08 ildir (kişilərdə 62,13; qadınlarda 62,02). B., dünyada ən sıx əhalisi olan dövlətlərdən biridir (əhalinin orta sıxlığı 1 $km^2$ təqr. 950 nəfər). Mərkəzi vil.-ləri daha sıx məskunlaşmışdır, ölkənin ucqar c.-ş.-i (Çittaqonq vil.-nin dağlıq r-nları) ən seyrək ərazidir. Şəhər əhalisi 26%-dir. İri şəhərləri (1000 nəfər, 2005): Dəkkə – 11 491, Çittaqonq – 3672, Khulna – 1342, Racşahi – 700. İşləyənlərin ümumi sayı 65,5 mln. nəfər (2005) təşkil edir; onların 63%-i k.t.-nda, 26%-i xidmət sahəsində, 11%-i sənayedə çalışır. Qadınlar işçi qüvvəsinin təqr. 42%-ini təşkil edir. Əmək qabiliyyəti olan əhalinin yüksək artım templəri (ildə 2,6%, yaxud 2 mln. nəfərdən çox), əsasən, kəndlərdə, həmçinin iri şəhərlərin ətrafında işsizliyin, o cümlədən gizli işsizliyin artmasına gətirib çıxarır. 2004 ildə ölkədəki işsizlik (natamam məşğulluq daxil olmaqla) səviyyəsi 40%-ə çatırdı; eyni zamanda təqr. 6,6 mln. 5 yaşından 14 yaşınadək uşaq muzdla işləyirdi. Dindarların əksəriyyəti (88%-i) müsəlman, 10,5%-i hinduistdir.

## Tarixi oçerk

B. ərazisində e.ə. 7–6 əsrlərdə yaranmış ilk dövlət Vanqa (indiki Banqladeş adı da buradandır: "Banqla" – benqallara məxsus, "deş" ölkə deməkdir) olmuşdur. E.ə. 4 əsrdə – eramızın 5 əsrində B. ərazisi müxtəlif qədim Hindistan imperiyalarının tərkibinə daxil idi. 8 əsrdən bu dövlətlərin ərazisi q.-dəki torpaqlarla birlikdə vahid Benqaliya dövlətində birləşdi. 13 əsrdə Benqaliyanı Dehli sultanlığı ələ keçirdi. Həmin dövrdə burada islam dini geniş yayılmağa başladı. 14 əsrin ortalarında Benqaliyanın Dehli canişinləri müstəqil hakimlərə çevrildilər. Onların bir neçə sülaləsi 1576 ilədək burada hakimiyyətdə olmuşdur. 576 ildə ölkəni *Böyük Moğollar* tutdu. 17 əsrin əvvəlində ölkənin inzibati mərkəzi Dəkkə ş. oldu. 18 əsrin əvvəlində Benqaliya canişinliyi əslin- də müstəqil dövlətə çevrildi. 1757 ildə İngiltərə müstəmləkəçiləri Benqaliyanı, sonra isə bütün Hindistanı zəbt etdilər. Müstəmləkəçilik dövründə (1757–1947) bu ərazi də metropoliyanın aqrar xammal bazası idi.

19 əsrin əvvəlində Benqaliyada milli hərəkat genişlənməyə başladı. Birinci dünya müharibəsindən sonra benqal milli azadlıq hərəkatı yeni vüsət aldı. 1930-cu illərdə dini-icma mövqelərində duran siyasi qüvvələr artmağa başladı. Bu, hinduistlərlə müsəlmanlar arasında müstəmləkəçilər tərəfindən qızışdırılan toqquşmalara səbəb oldu. İkinci dünya müharibəsindən sonra Cənubi Asiya xalqlarının böyük vüsət alan azadlıq mübarizəsi İngiltərə müstəmləkəçilərini Hindistana istiqlaliyyət verməyə (1947) məcbur etdi. 1947 ildə keçmiş Britaniya Hindistanı ərazisində dini prinsipə görə iki dövlətin – Hindistanın və Pakistanın yaranmasından sonra əhalisi, əsasən, müsəlmanlardan ibarət olan Şərqi Benqaliya ərazisi Pakistana daxil edildi. O. Şərqi Pakistan əyaləti oldu. Bu əyalətin q.-ə nisbətən qeyri-bərabər iqtisadi və siyasi vəziyyəti, Pakistanın hakim dairələrinin benqal dilini dövlət dili kimi qəbul etməməsi, benqallara qarşı ayrı-seçkilik salınması benqal milli hərəkatının güclənməsinə səbəb oldu. Bu hərəkata Avami liq partiyası rəhbərlik edirdi. İlk dəfə Milli Məclisə keçirilən ümumi seçkilərdə (1970, dekabr) Avami liq qələbə qazandı (300 yerdən 162 yer). Seçkilərin nəticələrini ləğv etməyə, Şərqi Pakistana tam məhəlli muxtariyyət verilməsindən imtina etməyə çalışan Pakistan hərbi dairələrinin cəhdləri xalq arasında böyük narazılığa səbəb oldu. 1971 il martın 26-da Şərqi Benqaliya ərazisində müstəqil Banqladeş Xalq Resp. (BXR) elan edildi. Pakistan hərbi hakimiyyət orqanlarının benqal vətənpərvərlərinə qarşı cəza tədbirləri nəticəsində milyonlarla benqal qaçqını Hindistana üz tutdu. Bu səbəbdən Hindistan–Pakistan münasibətləri xeyli kəskinləşdi və 1971 il dekabrın əvvəlində iki ölkə arasında hərbi münaqişə baş verdi. Dekabrın 16-da benqallar və Hindistan qoşunları B.-in paytaxtı Dəkkəni tutdular. 1972 il yanvarın 12-də B.-in elan olunan müvəqqəti konstitusiyasına əsasən Avami liq partiyasının lideri Şeyx *Mucibur Rəhman* B. hökumətinin başçısı oldu. Yeni dövlət dünyanın bir çox ölkələri tərəfindən tanındı. 1972 ildə B. *Millətlər birliyinə* daxil oldu.

Milli dövlətçiliyin təşəkkülü dövründə (1971–72) B.-də iqtisadiyyatın əsas sahələrinin milliləşdirilməsi, dövlət sektorunun prioritet inkişafı və aqrar islahatın keçirilməsi proqramlarını əhatə edən sosial-iqtisadi inkişaf strategiyası işlənib hazırlanmışdı. 1972 ilin sonlarında mucibizm prinsiplərini (millətçilik, sosializm, demokratiya və sekulyarizm) təsbit edən BXR-in konstitusiyası qüvvəyə mindi. Millətçilik "benqal xalqının birlik və həmrəyliyinin əsası", Benqaliya cəmiyyətini möhkəmləndirən və təməlini təşkil edən amil kimi səciyyələndirildi. B. konstitusiyası çoxpartiyalı sistem bərqərar


Dəkkə şəhərindən görünüş.

Dəkkə. Parlamentin binası.





Sundarban Milli Parkı. Manqr meşəsi.

edirdi. Konstitusiya qəbul olunduğu zaman B.-də 30-dan çox siyasi partiya və qruplaşma mövcud idi, lakin ictimai-siyasi həyata yalnız Avami liq real təsir göstərirdi. Müharibədənsonrakı dağıntılar, qarətlər, siyasi qətllər və terror, çoxsaylı sənaye sabotajı aktları, qaçaqmalçılıq, təxribatlar dünyanın ən yoxsul ölkələrindən biri olan B.-də onsuz da ağır iqtisadi vəziyyəti daha da mürəkkəbləşdirirdi. Korrupsiya və nepotizm qanunvericiliyə zidd hərəkət edən hakim partiyada dərin kök salmışdı. 1975 ilin əvvəllərində B.-də müxalifət qüvvələri açıq hərəkətə keçərək kütləvi itaətsizlik kampaniyasına başlamışdı. Siyasi böhran şəraitində prezident idarə üsulu və birpartiyalı sistem tətbiq olundu. Bütün siyasi partiya və təşkilatlar buraxılır, onların yerinə Banqladeş Kəndli-Fəhlə Xalq Liqası (Banqladeş krişok sromik avami liq; BAKSAL) adlı vahid ümummilli partiya formalaşırdı.

1975 ildə hökumətin devrilməsi və Mucibur Rəhmanın qətli ilə B.-də hərbi çevrilişlər dövrü başlandı. 1976 ilin noyabrında baş hərbi inzibatçı səlahiyyətlərinin gen. *Ziyaur Rəhmana* verilməsilə hakimiyyət tamamilə ordunun əlinə keçdi. O, 1977 ilin aprelində ölkənin prezidenti oldu. 1976–77 illərdə konstitusiyaya olunan əlavələr B.-də dövlət hakimiyyətinin xarakterini dəyişdirdi: sekulyarizm prinsipi "islama mütləq sədaqət" prinsipi ilə əvəz olundu. Dövlətin iqtisadi strategiyası da dəyişdi: özəl sektorun inkişafı, sənayenin aparıcı sahələrinin milliləşdirilməsinin ləğvi, xarici kapitalın hər vasitə ilə cəlb edilməsi kursu götürüldü. 1978 ilin sentyabrında Z. Rəhmanın başçılığı ilə yaradılan Banqladeş Millətçi Partiyası (BMP) 1979 ilin fevralında keçirilən seçkilərdə qalib gəldi.

Partiya sisteminin leqallaşdırılmasından sonra yaranan geniş müxalif ictimai-siyasi hərəkatı iqtisadiyyatın ümumi balansının pozulması, xarici yardımlardan asılılıq, yoxsulluq və yaranmış vəziyyətdən real çıxış yolunun olmadığı bir şəraitdə baş verirdi. Muxtariyyət tələb edən dağlı tayfaların üsyançı dəstələri ilə münaqişələrin nizamlanmasına böyük qüvvə sərf olunurdu. Z. Rəhman rejiminin devrilməsinə yönəlmiş hərəkatda Mucibur Rəhmanın qızı Hasinə Vazedin rəhbərlik etdiyi Avami liq partiyası mühüm yer tuturdu. B.-in daha da islamlaşması uğrunda çıxış edən dini-icma partiyalarının nüfuzu kəskin surətdə artdı. Hərbçilər arasında da prezident administrasiyası ilə münaqişə güclənirdi. 1981 ildə Çittaqonqda Z. Rəhmanın qiyamçı hərbi hissələr tərəfindən öldürülməsi bu qarşıdurmanın kulminasiyası oldu. B.-də yenidən hərbi çevriliş baş verdi və siyasi partiyaların fəaliyyəti dayandırıldı. Hərbi idarənin başçısı gen. Hüseyn Məhəmməd *Ərşad* ölkənin idarəçiliyi üzrə bütün səlahiyyətləri üzərinə götürdü. Hərbi rejimə qarşı ən qətiyyətli mübarizə ölkənin iki iri partiyası – Avami liq və BMP tərəfindən aparılırdı. 1990 ildə tələbə nümayişləri və müxalifətin təzyiqi nəticəsində H.M. Ərşad istefa verməyə məcbur oldu. 1991 ilin fevralında keçirilən seçkilərdə isə qətlə yetirilmiş prezident Z. Rəhmanın arvadı Xalidə Ziya Rəhmanın başçılıq etdiyi BMP qələbə qazandı. 1991 ilin avqustunda dövlət idarəçiliyində parlament sisteminin tətbiqi haqqında konstitusiyaya düzəliş qəbul olundu. 1996 ilin fevralında keçirilən parlament seçkilərində BMP qələbə qazandı, lakin seçkilərin nəticələri tanınmadı. Həmin ilin iyununda keçirilən yeni seçkilər Avami liq partiyasını hakimiyyətə gətirdi. Mucibur Rəhmanın sekulyarist, sol mərkəzçi siyasi prinsiplərinin ardıcıl tərəfdarı Hasinə Vazed baş nazir oldu. 2001 ilin fevralında keçirilən seçkilər bir sıra partiyalar, o cümlədən aparıcı islam partiyası olan Camaat-i-islami partiyası tərəfindən dəstəklənən BMP-yə qələbə gətirdi; parlamentdə yerlərin əksəriyyətini – 2/3-ni BMP və onun müttəfiqləri qazandı. Demokratik inkişaf illərində B.-in Hindistanla münasibətlərini uzun müddət kəskinləşdirən ərazi mübahisələri nizamlandı, dağlı tayfalarından olan qiyamçılarla razılaşma əldə olundu. Buna baxmayaraq bu dövr terrorçuluğun fəallaşması ilə seçilir. Cəmiyyətdə siyasi qeyri-sabitliyin və zorakılığın aradan qaldırılması, ölkədə geniş yayılmış korrupsiya və iğtişaşlara qarşı mübarizə aktual olaraq qalır. 2008 il dekabrın 29-da keçirilən seçkilərdə Hasinə Vazedin lideri olduğu Avami liq partiyası qələbə qazandı. 2009 il yanvarın 6-da Hasinə Vazed baş nazir oldu.



Kxulna vilayəti.





### Təsərrüfat

B. dünyanın ən kasıb ölkələri sırasına daxildir. İnsan inkişafı indeksi 0,469-dur (təqr. 195 ölkə arasında 129-ci yerdədir; 2010). ÜDM-in həcmi 241,1 mlrd.dollar, əhalinin hər bir nəfərinə təqr. 1500 dollar təşkil edir. ÜDM-in 52,8%-i xidmət sferasının, 28,6%-i sənayenin, 18,6%-i k.t.-nın payına düşür.

Dövlətin iqtisadi siyasəti təxirəsalınmaz məsələlərin həllinə: yoxsulluqla, işsizliklə, müntəzəm daşqınların nəticələri ilə mübarizəyə, təsərrüfat infrastrukturunu, xüsusən energetika sahəsində zəif inkişafın aradan qaldırılmasına yönəldilmişdir. B.-in iqtisadiyyatı 20 əsrin sonu-21 əsrin əvvəllərində stabil və yüksək templə inkişaf etmişdir (ÜDM-in ortaillik inkişaf tempi: 1980-ci illərdə 4,3%; 1990-cı illərdə 4,7%; 2009 ildə 5,6%). İllik investisiyaların həcmi ÜDM-in 20-25%-ni (2004 ildə 23,5%) təşkil etmişdir. Birbaşa xarici investisiyaların axını stabil deyildir (1995–2000 illərdə cəmi 696 mln. dollar; 2009 ildə təqr.700,2 mln. dollar). B. dünyada ən çox xarici iqtisadi yardım alan dövlətlərdən biridir (2005 ildə 1,4 mlrd. dollar) Ölkənin xarici borcu 23,22 mlrd. dollardır (2009).

2000-ci illərin əvvəllərində iqtisadiyyatda, ilk növbədə maliyyə və sənaye sahələrində dövlət sektoru kifayət qədər əhəmiyyətli yer tuturdu (1970-ci illərdə onun üstün inkişafına önəm verildiyinə görə). Ölkədə dövlət kommersiya bankları və kredit-bank korporasiyaları şəbəkəsi mövcuddur. Sənayenin toxuculuq, neft, cut, kağız, şəkər və s. sahələrində fəaliyyət göstərən dövlət şirkətlərinin özəlləşdirilməsi siyasəti həyata keçirilir.

**Sənaye.** 2009 ildə sənaye istehsalı artımı 5,9% olmuşdur. Benqal körfəzi şelfində və sahilyanı r-nlarda, həmçinin ölkənin şərqindəki bir sıra r-nlarda təbii qaz (2008 ildə 17,9 mlrd. $m^3$) və neft (gündə təqr. 57,33 *barrel*, qaz kondensatı ilə birlikdə; 2009) hasil edilir. Elektrik enerjisi istehsalı sürətli templə artır (2007 ildə 22990 mln. *kVt.saat*; 2001 ildə 15,3 mlrd. *kVt.saat*; 2002 ildə 16,5 mlrd. *kVt.saat*). Elektrik enerjisinin 90%-dən çoxu İES-lərdə istehsal edilir; Karnaphuli çayı üzərində SES kaskadı fəaliyyətdədir.

Emal sənayesinin ən iri sahəsi toxuculuqdur (pambıq iplik və parça istehsalı). Ölkənin əsas sənaye mərkəzlərindəki 100-dən çox iri f-k başlıca olaraq idxal edilən xammalla işləyir; parçaların bir hissəsi ixrac edilir. Aparıcı toxuculuq şirkətləri: "Praym tekstayl spinninq mills" ("Prime Textile Spinninq Mills"), "Tamicuddin tekstayl mills" ("Tamijuddin Textile Mills"), "Padma tekstayl mills" (Padma Textile Mills") və s. F-k ipliyindən istehsal edilən pambıq parçanın xeyli hissəsi 1 mln.-dən çox adamın məşğul olduğu əl toxuculuğu məhsullarıdır. Hazır toxuculuq məmulatlarının paltar və trikotajın istehsalı 1980-ci illərdən daha dinamik inkişaf edir. Dəkkədə və bir sıra digər mərkəzlərdə fəaliyyət göstərən 3300-ədək müəssisədə 1,5 mln. adam (əsasən, qadınlar və uşaqlar) çalışır. Toxuculuq istehsalı tamamilə ixrac yönümlüdür və əmtəə ixracından daxilolmaların 3/4-ü onun payına düşür. Paltar və trikotaj istehsal edən iri şirkətlər: "Deş qarments" (Desh Qarments"), "Eksport nituear" ("Export Knitwear"), "Ey-Ci İnternaşenal" ("A.J. İnternational") və s. B. dünyanın cut və cut məmulatları istehsal edən əsas ölkələrindən (Hindistanla yanaşı) biridir; ildə təqr. 80 min *t*-dan çox cut ipliyi ixrac olunur (dünya üzrə ixracın 70%-dən çoxu). Aparıcı şirkətlər: "Mono cuteks indastris" (Monno Jutex İndustries"), "Olteks indastris" ("Alltex İndu- stries") və s. Yeyinti sənayesinin əsasını çay (ildə təqr. 54 min *t*, əsasən, ixrac üçün), şəkər (ildə 123–170 min *t* qənd, daxili tələbat 400 min *t* olduğu halda), bitki yağı (tələbatın böyük hissəsi həmçinin idxalla ödənilir) istehsalı təşkil edir. Kimya sənayesi, əsasən, k.t.-nı təmin edir; sidik cövhəri (ildə 2,3 mln. *t*-adək), digər gübrə və pestisidlər istehsalı əhəmiyyətlidir ["Advansed kemikal" ("Advanced Chemical") və "Banqladeş kemikal" ("Banqladesh Chemical") şirkətləri]. Neft emalı (Çittaqonqda illik gücü 1,5 mln. *t* olan z-d və s.), metallurgiya (Çittaqonqda polad əritmə z-du), elektrotexnika, əczaçılıq və texniki rezin sənayesi müəssisələri; gəmi təmiri dokları, gəmi mühərrikləri buraxan z-d, avtomobilyığma z-du, yazı kağızı istehsal edən iri kombinat, qəzet kağızı f-ki, həmçinin bir sıra sement z-du və tikinti sənayesi müəssisələri fəaliyyət göstərir. Əsas sənaye mərkəzləri: Dəkkə, Çittaqonq, Khulna. Sənətkarlıq (gön-dəri, dulusçuluq) mühüm əhəmiyyətini saxlamaqdadır.

**Kənd təsərrüfatı.** Ölkə ərazisinin 60%-i becərilir. Xırda kəndli təsərrüfatları üstünlük təşkil edir. Özəl torpaq mülkiyyəti icarə və subicarə ilə uzlaşdırılır. Torpaq fondunun məhdudluğu, kənd əhalisinin artıqlığı, təsərrüfatlarda məhsuldarlığın və əmtəəliyin aşağı olması səciyyəvidir.

K.t.-nın əsasını çəltikçilik təşkil edir. Əkin torpaqlarının təqr. 70%-ini çəltik sahələri tutur (ildə 2–3 dəfə məhsul yığılır). Suvarma üçün istifadə edilən suyun həcmini artırmağa imkan verən meliorasiya işlərinin aparılması və çoxməhsuldar toxum sortlarının tətbiqi çəltik məhsulunun artmasını təmin etmişdir (1980 ildə

Camuna körpüsü.



20,8 mln. *t*; 2004 ildə 37,9 mln. *t*; 2006 ildə 43729 min *t* çəltik toplanmışdır). Buğda (ildə təqr. 1,5 mln. *t*), qarğıdalı və arpa da becərilir. 21 əsrin əvvəlində ölkə özünü ərzaq taxılı ilə təmin etməyə nail olmuşdur. Paxlalı (ildə 0,5 mln. *t*-dan çox məhsul; ərzaq lərgəsi, noxud, maş və s.) və yağlı bitkilərin (ildə təqr. 0,5 mln. *t*; raps, xardal, küncüt, araxis), kartof (ildə 4 mln. *t*-a qədər), banan (təqr. 700 mln. *t*), tropik meyvələr və ədvaların (300 min *t*-dan çox), tərəvəzin (ildə 1,5 mln. *t*) becərilməsi mühüm əhəmiyyət daşıyır.

Texniki bitkilərdən cut daha çox əkilir. Dünyada cut məmulatına tələbat azaldığı, süni lifdən olan qablaşdırma materialına tələbat artdığı üçün xam cutun istehsalı (1972–73 illərdə 1 mln. *t*; 2004 ildə 0,8 mln. *t*) aşağı düşür. Şəkər qamışı (ildə 7–7,5 mln. *t* yaşıl kütlə) və pambıq (14–16 min *t*) yığımı stabildir.

B. dünyada ən iri çay istehsalçısı olan on dövlətdən biridir. Çay plantasiyalarına (ümumi sahəsi 50 min *ha*-dan çox; əsasən, Silhet vil.-nin təpəli r-nlarında, ölkənin şm.-ş.-ində yerləşir) özəl, o cümlədən xarici (əsasən, ingilis) kapital nəzarət edir.

Heyvandarlıq az inkişaf etmişdir. Qaramal, əsasən, dartıcı qüvvə kimi istifadə edilir. Ət, süd və dəri əldə etməyin əsas mənbəyi keçidir.

Mühüm təsərrüfat sahəsi balıqçılıqdır. Qeydiyyata alınan illik balıq ovu 350 min *t*-dan çoxdur (ümumiyyətlə, təqr. 800 min *t*), onun təqr. 1/3-ni (xeyli hissəsi ixrac edilir) dəniz balıqları təşkil edir. İxracın digər mühüm mənbəyi dondurulmuş xərçəng tədarüküdür.

**Nəqliyyat.** Daxili yük dövriyyəsinin 60%-ə qədəri, sərnişin daşınmasının 50%-dən çoxu su nəqliyyatı ilə həyata keçirilir. Daxili su yollarının uz. 8,5 min *km*-dir (2009, o cümlədən əsas su magistrallarının uz. 2,6 min *km*). Başlıca çay portları: Dəkkə, Narayanqanc, Çandpur, Barisal, Khulna; həmçinin 1500 kiçik yanalma körpüləri vardır. Daşınmalarda, əsasən, motorlu, yelkənli və avarlı kiçik gəmilər istifadə olunur. Dəmir yollarının uz. 2768 *km*-dir (2008), onun 1,8 min *km*-i dar d.y.-dur. Avtomobil yollarının uz. 239,2 min *km*-dir (2003), onun 22,7 min *km*-i bərkörtüklüdür. Yağış mövsümündə yolların böyük hissəsi keçilməz olur. Magistral qaz kəmərlərinin ümumi uz. 2597 *km*-dir (2009).

Ən böyük dəniz portları Çittaqonq (illik yük dövriyyəsi 15 mln. *t*-adək; əmtəə idxalının təqr. 80%-ini, ixracın 70%-ini təmin edir) və Munqladır ( ildə təqr. 5 mln. *t*); xarici ticarət yükdaşımalarının təqr. 95%-i bu portlar vasitəsilə həyata keçirilir. Milli şirkətlərin dəniz yükdaşımalarında payı 20%-dən azdır. Dəkkədə beynəlxalq aeroport (B.-də enmə-qalxma zolağı 3 *km*-dən çox olan yeganə aeroportdur), 17 yerli aeroport var (2010). Beynəlxalq və daxili daşımaları "BİMAN" milli aviaşirkəti həyata keçirir.

**Xarici ticarət.** İxracın dəyəri 15910 mln. dollar, idxalın 20220 mln. dollardır (2009). İxracın əsas mənbələri: hazır paltar, cut və cut məmulatları, dəri və dəri məmulatları, balıq və dəniz məhsulları, həmçinin çay, mineral gübrələr, meyvə və s. B. mallarının əsas idxalçıları (2009): ABŞ (20,24%), Almaniya (12,75%), B.Britaniya (8,64%), Fransa (6,48%), Hollandiya (5,9%). Ölkəyə maşın və avadan- lıqlar, kimyəvi maddələr, qara metallar, parçalar, ərzaq məhsulları, neft və neft məhsulları, sement, pambıq və s. gətirilir (2000). Əsas tədarükçülər (2009): ÇXR (16,16%), Hindistan (12,61%), Sinqapur (7,55%), Yaponiya (4,63%), Malayziya (4,46%).

### Silahlı qüvvələr

Silahlı qüvvələrin (SQ) ümumi sayı 188,7 min nəfərdir (2004); nizami SQ (125,5 min nəfər) və hərbiləşdirilmiş birləşmələrdən (63,2 min nəfər) ibarətdir. SQ-nin ali baş komandanı olan ölkə prezidenti SQ-yə ümumi rəhbərliyi Müdafiə Nazirliyi, SQ növlərinin və hərbiləşdirilmiş birləşmələrin qərargahları vasitəsilə həyata keçirir. Nizami SQ quru qoşunları (QQ), HHQ və HDQ-dən ibarətdir. SQ-nin əsas növü quru qoşunlarıdır (110 min nəfər), tərkibinə piyada diviziyalarının 7 qərargahı, 20 briqada (17 piyada, zirehli tank, zenit-artilleriya, mühəndis), artilleriya diviziyası, 2 zirehli tank alayı, 2 ordu aviasiyası eskadrilyası, "Kommandos" batalyonu daxildir. QQ 200-dən çox tank (T-55, T-59, T-69), təqr. 180 zirehli transportyor (BTR-80, BTR-70), 105-*mm*, 106-*mm*, 122-*mm* və 130-*mm* çaplı 170 artilleriya qurğusu, təqr. 100 minaatan (81-*mm*, 82-*mm* və 120-*mm*), 68 tankəleyhinə top (57-*mm* və 76-*mm*), 30-dan çox zenit artilleriya qurğusu (37-*mm* və 57-*mm*), 6 "Sessna" təyyarəsi ilə silahlanmışdır. HHQ (6,5 min nəfər) Dəkkə, Cessor və Çittaqonqdakı üç aviasiya bazasında yerləşən üç aviasiya bölməsindən ibarətdir. Təyyarə və helikopter parkında 83 ədəd döyüş aviasiya texnikası (8 MiQ-29, 18 A-5, 23 F-7, 26 F-6 və FT-6, 8 L-39), 35 ədəd köməkçi aviasiya texnikası (3 An-32, 20 RT-6, 12 T-37B), 28 helikopter (13 "Bell" 206L və 212; 15 Mi-17) var. HDQ (9,0 min nəfər) Khulna və Çittaqonq hərbi-dəniz rayonlarında yerləşir; tərkibinə 10 döyüş gəmisi (o cümlədən idarəolunan raket silahı ilə təchiz edilmiş 2 freqat) və 46 döyüş (o cümlədən, 9-u raketlə silahlanmış) kateri daxildir. Döyüş gəmi vasitələri 3 gəmi divizionu və 8 kater divizionundan ibarətdir. Hərbiləşdirilmiş birləşmələr: B. atıcıları (38 min nəfər), silahlı polis (5 min nəfər), "Ənsarlar" təhlükəsizlik qüvvələri (20 min nəfər), sahil mühafizə dəstəsi (200 nəfər). Dinc dövrdə bu birləşmələr daxili işlər nazirinə tabedir; nizami SQ-nin ehtiyat hissəsidir. SQ-nin komplektləşdirilməsi könüllülük əsasında 10 ildən az olmamaq şərtilə bağlanan müqavilə üzrə həyata keçirilir. Nizami SQ-də xidmətə 17 yaşından 27 yaşınadək olan şəxslər cəlb edilir. SQ üçün zabit heyəti Dəkkə, Çittaqonq və Cessordakı hərbi məktəblərdə hazırlanır; zabit vəzifələrinə ali təhsili olan və hərbi məktəblərdə 6–12 aylıq hərbi hazırlıq kurslarını bitirən mülki şəxslər də cəlb edilirlər.

### Səhiyyə. İdman

B.-də əhalinin hər 100 min nəfərinə 20 həkim, 11 orta tibb işçisi, 1 stomatoloq düşür (2000). Səhiyyəyə qoyulan xərc ÜDM-in 3,5%-ni təşkil edir (2002; büdcədən maliyyələşdirmə 44,2%, özəl sektordan – 35,5%-dir). Dövlət sektoru xəstəxana tibbi yardımı və ilkin tibbi yardım sahəsini, məqsədli proqramları nizamlayır; özəl sektorun fəaliyyəti fərdi praktika sahəsindədir. İşləyən əhali milli tibbi sığorta sistemi ilə əhatə olunmuşdur. Yaşlı əhali arasında ölümün əsas səbəbləri ürək-damar xəstəlikləri, infeksiyalar, şəkər və xərçəng xəstəlikləri, travmalardır. Vərəmlə xəstələnmə halları 82, QİÇS-lə yoluxma 320-dir (2002).

İdmanın inkişafı ilə Bədən tərbiyəsi və idman işləri üzrə departament məşğul olur. Ən populyar idman növləri futbol, qolf və kriketdir. 1972 ildə Milli Futbol Federasiyası təsis edilmişdir; 1974 ildən FİFA-nın üzvüdür.

### Təhsil. Elm və mədəniyyət müəssisələri

Ali və orta təhsil sahəsində idarəetmə Maarif Nazirliyi, ibtidai təhsil isə bələdiyyə idarəçiliyi orqanları tərəfindən həyata keçirilir. İslam məktəbləri Mədrəs təhsil idarəsinin tabeliyindədir. Müasir təhsil sistemi ingilis və hind təhsil modelinə əsaslanır və 5 illik icbari ibtidai, natamam ( 6–10 siniflər) və tam orta (11–12 siniflər) və ali təhsili əhatə edir. İbtidai təhsilə uşaqların təqr. 90%-i, orta təhsilə uşaqların təqr. 45%-i cəlb olunmuşdur. 15 yaşdan yuxarı əhalinin 57 %-i savadsızdır (qadınlar – 68,2 %; 2003). Məktəblərin 97 %-i özəldir. 11 dövlət və 20 özəl ali məktəb fəaliyyət göstərir. Ən böyük un-tləri: Dəkkə (1921), Kənd Təsərrüfatı (1961, Maymensinqh ş.), Mühəndis-Texnoloji (1962, Dəkkə). Çittaqonq un-ti. Elmlər Akademiyası (1973) var. Kitabxanaları: Mərkəzi kütləvi (1958), Britaniya şurasının (1959), Milli (1968; hamısı Dəkkədədir) və s. Dəkkədə Milli (1913), İncəsənət və arxeologiya (1927) muzeyləri var.

### Kütləvi informasiya vasitələri

Ölkədə benqal və ing.dillərində 1000-dən artıq dövri nəşr, o cümlədən 286 gündəlik qəzet çıxır (2004). Ən iri qəzetləri: Benqal dilində – "Daynik İttefak", "İnkilab", "Banqla 2000"; ing.dilində – "Banqladeş observer" ("Bangladesh Observer"), "Nyu neyşen" ("New Nation"), "Deyli star" ("Daily Star"); həftəlik qəzetləri – "Dəkkə kuryer" ("Dhaka Courier"), "Evidens" ("Evidence"), "Holidey" ("Holiday"), "Ananya", "Cay Cay Din". Dövlət radiosu "Banqladeş Betar" 7 xarici dildə hazırladığı verilişləri Avropa ölkələrinə, həmçinin qonşu Pakistan, Hindistan və Nepala yayımlayır. Televiziya yayımını "Banqladeş televijen" ("Bangladesh Television – BTV, 1964") dövlət teleşirkəti ilə yanaşı özəl peyk və kabel televiziya kanalları – "İ-Ti-Vi" (ETV), "Çennel Ay" ("Channel i"), "Ey-Ti-En Banqla" ("ATN Bangla") və "En-Ti-Vi" (NTV) həyata keçirir.

### Ədəbiyyat

B. ədəbiyyatı benqal dilində inkişaf etmişdir; onu bütövlükdə *benqal ədəbiyyatından* fərqləndirən əsas cəhət islam mədəniyyəti və Şərqi Benqaliyanın regional xüsusiyyətləri ilə sıx bağlı olmasıdır. 15–18 əsrlərdə müsəlman benqal şairləri benqal dilində xeyli poetik əsər yaratmışlar. Onların yaradıcılığına ərəb və fars poeziyasının güclü təsiri olmuşdur. 20 əsrin 1-ci yarısında bütün Benqaliyada şöhrət qazanmış Nəzrül İslam ilk müsəlman müəllifi idi. 1925 ildə Dəkkədə "Müsəlman ədəbiyyat cəmiyyəti" yaradılmışdır. Şərqi Benqaliya folklorunun tədqiqatçısı Cəsimüddin xalq ruhunda yazdığı mahnı və poemaları ilə şöhrət qazanmışdı. Əsərlərində R. Taqorun yaradıcılığından bəhrələnən ilk müsəlman qadın şairlərindən biri Bəyim Sufiyə Kamal olmuşdur. 1940-cı illərdə Pakistan müsəlman dövlətinin yaradılması uğrunda hərəkatda iştirak edən bəzi şairlər ümumbenqal ənənələrinə qarşı çıxır, yaradıcılıqlarında islam süjetlərindən istifadə edir, dili stilizə edirdilər. Fərrux Əhməd bu təmayülün ən tanınmış nümayəndəsi idi. B. ədəbiyyatının ən çox inkişaf etmiş qolu və R. Taqor ənənələrinin varisi olan poeziyaya müasir dünya poeziyası da təsir göstərir.



Dəkkə Universiteti.

### Memarlıq və təsviri sənət

B. ərazisində dövrümüzədək qalan ən qədim incəsənət abidələri 7–12 əsrlərə aiddir: Pundranahara (Mahasthan) şəhər qalasının, Paharpur və Majnamatidəki Budda monastırlarının xarabaları. 12 əsrin sonu – 13 əsrin əvvəllərində B. ərazisinin müsəlman feodallar tərəfindən istilası yerli mədəniyyətə Orta Asiya, Yaxın və Orta Şərq bədii ənənələrinin təsiri, dini tikililərin (məscid, minarə, mədrəsə, türbə) yerli tipinin meydana gəlməsi ilə müşayiət olunurdu. 16–17 əsrlərdə, əsasən, moğol məktəbinin təsiri ilə formalaşan miniatür boyakarlığı yüksək inkişaf mərhələsinə çatdı. İngilis müstəmləkəçiliyi dövründə (1757–1947) təsviri sənətə Avropa üslubları təsir göstərirdi. Şəhərlərdə ənənəvi tikililərlə (Dəkkə, "Ulduzlu

Dəkkə. Əhsən Mənzil muzeyi.





Dəkkə. Pəri Bibi məqbərəsi.

məscid", 18 əsr) yanaşı d.y. vağzalları, bələdiyyə, kommersiya binaları və s., əsasən, ingilis neoklassisizmi üslubunda inşa olunurdu (Dəkkədə bank binası, 19 əsrin sonları). Hindistanın müstəmləkə asılılığından azad olması ilə (1947) indiki B. ərazisində intensiv inşaat işləri aparılmağa başlandı. 20 əsrin ikinci yarısında memarlıqda ənənəvi formalar yeni konstruktiv üsullar və materiallarla birləşirdi; müasir çoxmərtəbəli binaların inşası genişləndirilirdi. Dəkkədəki inzibati və mədəni mərkəz (1964–84, memar L. Kan) B.-in ən möhtəşəm binalarındandır. 20 əsrin 2-ci yarısında B.-də təsviri sənət inkişaf etməyə başladı. Avropa realizmi səpkisində əsərlər yaradan Z. Abedin, A. Safiuddin, K. Həsən və b. rəssamlar sadə adamların həyatını təsvir edirdilər. Boyakarlardan X. Rəhman və b.-nın yaradıcılığı moğol miniatürləri və qədim hind divar boyakarlığı ənənələrinə əsaslanırdı. Müasir Qərb incəsənəti cərəyanları M. Bəşir, M. Kibriya və K. Çoudhuri kimi rəssamların yaradıcılığına təsir göstərmişdir. B.-də dekorativ-tətbiqi sənətin ağac və fil dişi üzərində oyma, dulusçuluq, toxuculuq və s. növləri geniş yayılmışdır.

## Musiqi

B. musiqisi tarixən şimali hind musiqi mədəniyyəti, əsasən, benqal ənənələri ilə bağlıdır. Əsrlərlə regionda induizmin və buddizmin dini təcrübəsinə əsaslanan musiqi ənənələri mövcud olmuşdur. B.-in ərazisini təşkil etmiş Şərqi Benqaliyada 7–13 əsrlərdə islam mədəniyyətinin artan təsiri altında bir sıra klassik şimal hind vokal üslubları yaranmışdır. 13 əsrdən B. klassik musiqisi (Şimali Hindistan, Pakistan və Nepalla yanaşı) bilavasitə hind musiqisi elementlərini və dolayısı islam ənənələrini (xəyal) birləşdirən Şimali Hindistanın hindustani ənənələri məcrasında inkişaf etmişdir. 18 əsr – 20 əsrin əvvəllərində hindustani ənənələri çərçivəsində yüngül adlandırılan klassik vokal üslubları (thumri, dadra, tappa, qəzəl, tərانə) formalaşmışdır. 20 əsrin klassik və yüngül klassik üslublarda oxuyan tanınmış qadın müğənnilərindən biri Bəyim Akhtardır. Britaniya müstəmləkəçiliyi dövründən B.-ə Avropa musiqisi elementləri daxil olmağa başlamışdır. Musiqi mədəniyyətinin inkişafında mahnılar müəllifi, musiqiçi-maarifçi, B. musiqisinə islam musiqi elementlərini daxil etməklə, "nəzrülgiti" spesifik mahnı üslubunu formalaşdırmış Nəzrül İslamın (1899–1976) böyük rolu olmuşdur. Saçin Dev Burman, Manabendra Mukhopadhyai, Firuzə Bəyim, Anup Qhosal bu üslubun görkəmli nümayəndələridir. 21 əsrin əvvəlinə qədər R. Taqorun "rabindra sangit" üslubu kimi tanınan mahnıları geniş şöhrət tapmışdı. Müğənnilər Zahidur Rəhim, Sancida Khatun (Dəkkədəki "Çhayyanot" populyar musiqi məktəbinin banisi), Miliya Əli, Atikul İslam, Rezvana Çoudhuri Banniya bu üslubun nümayəndələri idilər. 1947 ildən sonra B.-də vətənpərvərlik mahnıları, 1960-cı illərdən kino musiqisi, 20 əsrin sonlarından isə populyar musiqi geniş yayılmışdır. Dəkkədə B.-in mədəni mərkəzi sayılan "Şilpakala" zərif sənətlər və ifaçılıq sənəti milli akademiyası (1974 ildə yaradılmışdır), Nəzrül İslam Akademiyası (1964 ildən) fəaliyyət göstərir. 1947 ildən sonra, xüsusilə 1970-ci illərdən musiqi mədəniyyətinə islamın təsiri artmışdır.

Paharpur. Buddist monastırı.



## Teatr və kino

B. müstəqillik qazandıqdan sonra Dəkkə un-ti nəzdində, həmçinin müxtəlif cəmiyyətlər, assosiasiyalar nəzdində həvəskar teatrlar inkişaf etməyə başladı. Orijinal teatr üslubunun işlənib hazırlanmasında arakanlıların (marma) adət-ənənələrini öyrənən, onların rəqs və ayin elementlərini aktyorluq sənətinə tətbiq edən dramaturq və rej. Səlim əl-Dinin böyük rolu olmuşdur. Rej. Cəmil Əhmədin yaradıcılığı induizmin və islamın mifologiyasından qaynaqlanırdı. 1994 ildə Dəkkədə Asiya teatrı mərkəzi yaradıldı, 1996 ildə isə onun nəzdində ilk peşəkar truppa – Repertuar teatrı fəaliyyətə başladı. Qərb səhnə sənətinin təsirinə baxmayaraq, truppa yaradıcılıqda benqal və sanskrit teatr ənənələrinə söykənir.

Dəkkə kinostudiyası 1955 ildə yaradılmışdır (filmlər, əsasən, benqal və urdu dillərində səsləndirilirdi). Hind kommersiya filmlərinə bənzər melodramlar üstünlük təşkil edirdi. Pakistan hakimiyyətinə qarşı üstüörtülü etiraz kimi səslənən filmlər çəkilirdi: "Siracu Dola" (1968, rej. H.A. Rəhman), "Həyatdan götürülmüşdür" (1972, rej. Z. Reyhan) və s. 1970–90-cı illərdə sosial məsələlərə, müstəqillik uğrunda mübarizəyə həsr olunmuş filmlər, həmçinin klassik əsərlər, xalq dastanları əsasında çəkilmiş filmlər meydana çıxır. "Hələ ki, gecədir" (1972), "Həyata qayıdış" (1973), "Son məktəb zəngi" (1980, rej. Rəhman), "Həmin on bir oğlan" (1972) və "İradəsiz adam" (1973, rej. B. İslam), "Yerlə göy arasında" (1974, rej. S. Datta), "Mənim fleytam səni çağıracaq" (1975, rej. Mita), "Sonsuz yol" (1978) və "Aclıq" (1986, rej. A. Hüseyn), "Fəlakət" (1985, rej. Şeyx Niamat), "Padia çayının qayıqçısı" (1993, rej. Qautarn Qhoş) əhəmiyyətli filmlərdəndir. "Gil quş" (2002, rej. T. Məsud) filmi beynəlxalq uğur qazanmışdır.

*Əd.:* The Cultural heritage of Pakistan. Oxf., 1955; Тринич Ф.А. Бангладеш. М., 1974; Н.Н. Алексеева, В.I. Хаин (геологическое строение и полезные ископаемые); J a h a n g i r B.K. Contemporary painters: Bangladesh. Dhaka, 1974, G u p t a J.S. History of freedom movement in Bangladesh, 1943-1973. Calcutta, 1974; R a h m a n M. Bangladesh today: an indictment and a lament. L., 1978; B a x t e r C. Bangladesh: biography of a Muslim nation. Boulder; L., 1984; O'D o n n e l l C.P. Bangladesh: biography of a Muslim nation. Boulder; L., 1984; П у ч к о в В.П. Политическое развитие Бангладеш. 1971–1985. М., 1986; Z a h i r u d d i n S.A. Contemporary architecture. Bangladesh. Dhaka, 1990; Haroun er Rashid. Geograrhy of Bangladesh. 2 nd ed. Dhaka, 1991; G o s v a m i K. History of Bengali music. Dhaka, 1999. - Vol. 1.

**BANQVEÚLU** (Bangweulu) – Zambiya ərazisində, Luapula çayının (Konqo çayı sistemində) yuxarı axınında göl. 1067 *m* hünd.-dədir. Sah. 4 min $km^2$-dən (quraq mövsümdə) 15 min $km^2$-ə (yay yağışları vaxtı) qədər dəyişir. Dərinliyi 5 *m*-ədək. Sahilləri çox bataqlıqlaşmışdır; cil və qamışlıq basmışdır. Ş. sahilində İsanqano Milli Parkı yerləşir. 1868 ildə ingilis səyyahı D. *Livinqston* tərəfindən kəşf edilmişdir.



Banqveulu gölü.

**BANN**, b a n – orta əsrlərdə Qərbi Avropada hüquq termini. Müxtəlif dövrlərdə və müxtəlif ərazilərdə və dövlətlərdə öz mənasını dəyişmişdir. Əsas mənaları aşağıdakılardır: 1) cəmiyyətdən qovulma, təcridedilmə, qanundankənar elan olunma, qadağa; 2) kralın, dövlətin vəzifəli şəxsinin, feodalın yurisdiksiyası; 3) yurisdiksiya sahəsi (məhkəmə B.-ı, hərbi B., inzibati B. və s.); 4) kralın, dövlətin vəzifəli şəxsinin, feodalın tabeçiliyində olan ərazi (orada yaşayan təbəələrlə birlikdə); 5) təsərrüfat yerlərindən (torpaqdan, meşədən, su hövzəsindən) istifadə etmək, yaxud müəyyən ərazidə əmək fəaliyyətini həyata keçirmək üçün müstəsna hüquq; 6) feodalın öz təbəələrini ona məxsus avadanlıqlardan (dəyirmandan, çörəkxanadan, üzümsıxan presdən və s.) istifadəyə məcbur etmək və buna görə onlardan natura, yaxud pul şəklində baş vergisi almaq hüququ (*banalitet*); 7) hər hansı malın satılmasına, yaxud xidmətlərin göstərilməsinə müstəsna hüquqa sahibolma üçün vergi; 8) kilsədən uzaqlaşdırılma (katolik kilsə hüququnda; lat. excommunicatio).

**BANPÓ** – Çində, Sian ş. yaxınlığında, Veyxe çayı (Xuanxe çayının q. qolu) vadisində yerləşən Neolit dövrünə aid arxeoloji mədəniyyətlərə adını vermiş məskən. B.-1 (təqr. e.ə. 4100–3500) və B.-2 (e.ə. 3000–2500) mədəniyyətləri *Yanşao mədəniyyəti* arealına daxildir. Çin EA-nın Arxeologiya İn-tu 1954 ildən ərazidə qazıntılar aparmışdır. B. məskənində ictimai binanın ətrafında təqr. 200 ev və təsərrüfat quyuları, dulus kürələri mövcuddur. Evlər (yarımqazma evlər tədricən yerüstü evlərlə əvəz olunmuşdur) dairəvi və düzbucaqlı plandadır, sahələri 10 $m^2$-dən 160 $m^2$-dəkdir, divarlar samanla qatışdırılmış gillə suvanmışdır, damlar 4 sütun üzərində şüvül və budaqlardan dü-

**Banpo məskəni.** *1* – dairəvi evlər; *2* – qazıntı sahəsi.



zəldilmişdir. Aşkar olunmuş kasalar, bardaqlar, küpələr, boğazı "köbəli" böyük butulkaların bəziləri cilalı, ağ və qırmızı anqobludur, qara və qırmızı naxışlarla (insan başlarının, balıqların və həşəratların təsvirləri unikaldır), həmçinin qaytanvarı və cızma ornamentlərlə, yapma naxışlarla bəzədilmişdir. Mətbəx keramikası isə daraqvarı naxışlarla bəzədilmişdir. Şistdən yonulmuş bıçaqlar, cilalanmış baltalar, kərkilər, sümükdən düzəldilmiş balıqçı tilovları, ox ucluqları və s. aşkar edilmişdir. Uşaqlar yaşayış məskənlərində, keramik qabların içində, böyüklər isə nekropollarda (başları, əsasən, q. istiqamətində; ayaqlarının yanında qablar, bəzəklər, əmək alətləri və s.) dəfn olunurdu. Qadın qəbirləri daha zəngindir. B. sakinlərinin əsas məşğuliyyətləri əkinçilik (çumiza, darı), itçilik və donuzçuluq idi, həmçinin baramaqurdu (çətənədən toxunmuş parçaları da məlumdur) yetişdirirdilər. Kanallar və digər hidrotexniki qurğular mövcud olmuşdur.

**BANSÉR SUÁRES** (Banzer Suarez) Uqo (10.5.1926, Konsepsyon, Santa Krus departamenti, – 5.5.2002, Santa-Krus-de-la-Syerra) – Boliviya dövlət və siyasi xadimi. Mülkədar ailəsində anadan olmuşdur. Hərbi təhsil almışdır. 1963–71 illərdə müxtəlif hərbi və dövlət vəzifələrində (Vaşinqtonda və Buenos-Ayresdə hərbi attaşe, təhsil və mədəniyyət naziri, Hərbi akademiyanın rəisi) çalışmışdır. Uğursuzluqla nəticələnən hərbi çevriliş cəhdlərində iştirak etmişdir (7.10.1970 və 10.1.1971). Rəhbərlik etdiyi qiyam 21.8.1971 ildə gen. X.X. *Torres Qonsalesin* "hərbi-milliyyətçi inqilabi" rejiminin devrilməsi ilə nəticələnmişdir. Prezident olduqdan sonra hərbi repressiya rejimi tətbiq etmişdir. 1978 ildən demokratlaşdırma siyasətinə keçmişdir. Həmin il keçirilən seçkilərdə onun "adamı" gen. X. Pereda Asbun qalib gəldi, lakin tezliklə o, gen. D. Padilya tərəfindən vəzifədən uzaqlaşdırıldı. Demokratik milliyyətçilik hərəkatı sağ partiyasına rəhbərlik edən B.S. 1985 il seçkilərində iştirak etmiş və nisbi səs çoxluğunu (28,56%) qazanmışdır, lakin konqress keçmiş diktatorun vəzifəyə keçməsinə imkan verməmişdir. 1989 il seçkilərində B.S. məğlub olmuş, 1997 il seçkilərində isə demokratiya və yoxsullıqla mübarizə uğrunda şüarları altında çıxış edərək qalib gəlmişdir. 2001 ilin avqustunda səhhəti ilə əlaqədar istefaya çıxmışdır.

**BÁNSKA-BİSTRİTSA** (Banska Bystrica) – Slovakiyanın mərkəzində şəhər. B.-B. diyarının inz. m. Əh. 82,3 min (2005). Qron çayı sahilindədir. 5 əsrdə slovakların məskəni kimi meydana gəlmiş, 9 əsrdən *Böyük Moraviya dövlətinin* tərkibində olmuşdur. 10 əsrdən Macarıstan krallığına daxil olmuş, 1526 ildən bu krallığın tərkibində Habsburqlar imperiyasına qatılmışdır. 13–14 əsrlərdə alman kolonizasiyasının obyektinə (alm. Neusohl) çevrilmişdir. 13–18 əsrlərdə gümüş və mis filizinin hasilatı ilə tanınırdı (15 əsrin sonlarından Avropada ən mühüm hasilat mərkəzlərindən biri). 1867–1918 illərdə Avstriya-Macarıstanın; 1918–93 illərdə Çexoslovakiyanın tərkibində olmuşdur. *Slovakiya milli üsyanının (1944)* mərkəzi idi. 20 əsrin ortalarından böyük sənaye mərkəzidir: maşınqayırma və metal emalı, sement, kağız, toxuculuq sənayesi var. Son roman üslubunda Məryəm ananın meracı kilsəsi (13 əsr; oyma mehrab, 1509, ehtimal ki, Levoçalı usta Pavelin işi; barokko üslubunda divar rəsmləri, 1770–74, boyakarlar Y.L. Krakker, A. Şmidt), son qotika üslubunda Matey evi (1479), ratuşa (təqr. 1564–65), qüllələr və qala divarlarının qalıqları şəhərin tarixi özəyini təşkil edir. Turzo ailəsinin evi (16 əsrin 2-ci yarısı; sqraffito, freskalar, yapma dekorasiya), klassisizm üslubunda protestant kilsəsi (1800–07, memar M. Pollak), neoklassisizm üslubunda Xalq evi (1924–29, memar [illegible] Belluş), Slovakiya milli üsyanına həsr olunmuş xatirə kompleksi (1963–69, memar D. Kuzma) B.-B.-nın görməli yerlərindəndir. Un-t; Mərkəzi Slovakiya (qotika və Renessans heykəltəraşılığı kolleksiyası və s.), Slovakiya milli üsyanı (195[illegible]), ədəbiyyat və musiqi (1969) muzeyləri, Müasir incəsənət qalereyası (qrafika əsərləri, D. Skutetski yaradıcılığına həsr olunmuş daimi ekspozisiya) var.

Banska-Ştyavnitsa. Köhnə qəsr (13–16 əsrlər).



**BÁNSKA-ŞTYÁVNİTSA** (Banskà Štiavnica) – Slovakiyada qoruq-şəhər. Əh. 10,9 min nəfərdir (2005). 13 əsrdən qiymətli metallar hasilatı mərkəzidir. 15–16 əsrlərdə *Dunay rəngkarlıq məktəbinin* mərkəzlərindən biri olmuşdur. Roman üslublu məbəd-rotondanın (13 əsr) qalıqları, son qotika üslubunda Müq. Yekaterina (1488–91), dominikçilər (15 əsr) kilsələri və s., Köhnə qəsr (13–16 əsrlər) və Yeni qəsr (1564–71), *kalvariya* barokko tikililəri kompleksi (1744–51) qalmışdır. Slovakiya mədən muzeyi (1964 ildə Şəhər və D. Ştir muzeylərinin əsasında yaradılmışdır; minerallar, mədən texnikası, etnoqrafiya kolleksiyaları və s.), Müasir incəsənət qalereyası var. Yaxınlığında yerləşən abidələrlə (lağım yolları, 17 əsrə aid texniki hovuzlar sistemi) birlikdə B.-Ş. *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

**BANŞÁN** – Çində, Xuanxe çayının yuxarı axarında Neolit dövrünə (e.ə. 2300–1700) aid arxeoloji mədəniyyət. 1921–23 illərdə Y.Q. Anderson tərəfindən aşkar olunmuşdur. Matszyayao mədəniyyətinin (bax *Yanşao mədəniyyəti*) davamıdır. Məskənlər aşkar olunmuşdur. Ölülər torpaq qəbirlərdə uzadılmış, yaxud bükülü vəziyyətdə, bəzən tabutlarda dəfn edilmişlər. Cilalı, anqoblu (bax *Anqob*), naxışlanmış küpələr, vazalar, kasalar, bardaqlar (naxışlar: ikiqat spiral, tor, dalğa, dairədə xaç, üçbucaqlardan sıralar), cilalanmış və s. daş alətlər tapılmışdır. Əyirmə və toxuculuq mövcud olmuşdur. B. sakinlərinin əsas məşğuliyyəti toxa əkinçiliyi (çumiza) və maldarlıq (donuz, qoyun, it) idi. B.-ı Maçan mədəniyyəti (e.ə. 2000–1800) əvəz etmişdir.







Banteay-Srey məbədi.

**BANTÁM,** B a n t e n – Qərbi Yava a.-nın şm.-q. sahillərində orta əsrlərdə mövcud olmuş müsəlman dövləti. 1525 ilədək Pacacaranın (Sunda) tərkibinə daxil idi. 1525–68 illərdə *Demak* dövlətinin vassalı, 1568 ildən isə müstəqil sultanlığın eyniadlı paytaxtı olmuşdur. B. 16 əsrin sonlarında Qərbi Yavanı, Cənubi Sumatranı və Kalimantan a.-nın bir hissəsini özünə tabe etmişdir. 17 əsrdə hollandların tətbiq etdikləri iqtisadi blokadaya baxmayaraq B. istiot ticarətinin hesabına çiçəklənirdi. 1660-cı illərdə B. Avropatipli gəmilərdən ticarət donanması yaratdı və Manila, Ərəbistan, Hindistan, Kamboca, Vyetnam, Çin və Yaponiya ilə ticarət əlaqələri təşkil etdi (farfor, parça, ədviyyat və s. mallar). 1682 ildə hollandlar B.-ı ələ keçirdilər və ədviyyat ticarətini inhisara aldılar. Beləliklə, B. öz qüdrətini itirdi. 1683 ildə Ost-Hind şirkəti ilə bağlanan müqaviləyə görə B. onun vassalı oldu. Sultanlıq formal olaraq 1813 ilə qədər mövcud olmuşdur.

**BANTEÁY-SREY** – Şiva allahına həsr olunmuş hinduist məbəd kompleksi. Kambocanın şm.-ında (Siemreap əyaləti), Anqkor-Vatın (bax *Anqkor*) 30 *km*-liyində yerləşir. 967 ildə tikilmişdir. Bir platforma üzərində açıq çəhrayı rəngli qumdaşından tikilmiş 3 qüllə-ibadətgahdan ibarətdir, 4 konsentrik hasar və xəndəklə əhatə edilmişdir. Portaların divarları və timpanlar hinduist mifologiyası mövzusunda ("Tilottammın oğurlanması", "Şiva və Kama", "Pandavlar və Kauravların döyüşü" və s.) ornamental kompozisiyalar və relyeflərlə bəzədilmişdir.

**BANTÉNQ** (Bos javanicus) – öküzlər cinsindən məməli heyvan. Bədəninin uz. 200 *sm*-ədək, cidov hünd. 130–170 *sm*, kütləsi 900 *kq*-adək olur. 40–50 *sm* uz.-da buynuzları aypara şəklində yuxarıya qatlanmışdır. Rəngi dəyişkəndir; öküzləri, adətən, tünd-qonur, yaxud qara, ayaqları ağ "corablı", quyruğunda açıq rəngli xal olur; dişiləri qırmızımtıl-qəhvəyi, buzovları qızılı rənglidir. Cənub-Şərqi Asiyada və Malayya arxipelaqı adalarında yayılmışdır. Meşəaltı döşənəyi sıx olan bataqlıq meşələrdə yaşayır, kolluğu olan otlu düzənliklərdə, bambuk cəngəlliklərində rast gəlir; dağ meşələrində 2000 *m*-ədək yüksəkliyə qalxa bilir. Mədəni landşaftlardan kənar gəzir, 2–3 cavan öküzdən və 20-ədək buzovlu inəkdən ibarət qruplarla gəzir. Qoca öküzlər ayrı yaşayır və yalnız hövrəyəgəlmə vaxtı sürüyə qoşulur. Ot, kolluqların cavan zoğ və yarpaqları, bambuk cücərtiləri ilə qidalanır. İnəklərin bir buzovu olur. Əvvəllər B. yerli əhalinin ov obyekti idi; Bali, Yava adalarında və bir sıra digər yerlərdə əhliləşdirilmişdir. B.-in zebu ilə çarpazlaşdırılmasından alınmış qaramal İndoneziyada qoşqu heyvanı kimi, ət və süd almaq məqsədilə istifadə edilir. Yerli meşələrin kəskin azalması nəticəsində B.-in yox olmaq təhlükəsi artmışdır. BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

Banteng.



**BÁNTİNQ** Frederik Qrant (14.11.1891, Ontario ştatı, Allison – 21.2.1941, Nyufaundlend) – Kanada fizioloqu, Nobel mükafatı laureatı (1923, C. *Makleodla* birlikdə). 1916 ildə Toronto Un-tini bitirmiş, 1921 ildən orada işləmişdir (1923 ildən prof.). Əsas tədqiqatları həzm fiziologiyası, maddələr mübadiləsinin və daxili sekresiyanın öyrənilməsi sahəsindədir. Kanada fizioloqu Ç.G. Bestlə birlikdə mədəaltı vəzidən insulin ayırmış (1921) və şəkərli diabeti bu hormonla müalicə metodunu işləyib hazırlamışdır. Xərçəngin patogenezi və müalicəsi, tac damarların trombozu, silikoz məsələləri ilə məşğul olmuşdur. Təyyarə qəzasında həlak olmuşdur.



Ə s ə r l ə r i: The internal secretion of the pancreas // Journal of Laboratory and Clinical Medicine. 1922. Vol. 7 № 5; Pancreatik extracts // İbidem (with C. H. Best).

**BANTOİD DİLLƏRİ** – *Benue-Konqo dilləri* tərkibində ən çoxsaylı qol təşkil edən qohum dillərin məcmusu (S.H. *Qrinberqin* təsnifatına əsasən). Afrikada, Böyük Səhradan cənubda – Nigeriyadan Keniyayadək və cənuba doğru – CAR-adək yayılmışdır. B.d.-ndə təqr. 350 mln. adam danışır. 21 əsrin əvvəllərindən B.d. tərkibindəki *bantu dilləri* (600-dən çox dili əhatə edir) ən çoxsaylı qrup kimi xarakterizə olunur; eyni zamanda, çoxlu qrup və yarımqruplara (əsasən, Kamerun və Nigeriya ərazisində) ayrılır. Tikar, mambila, daka və bir sıra yaxın qohum dillərin xüsusi yarımqol təşkil etdiyi ehtimal olunur; həmçinin carav dilləri (bada, carava, bare, mboa və s.), ekoud dilləri (ndo, etunq, keaka, obanq, nde), mərkəzi Kamerun savannaları ərazisində yayılmış (bamum, bamileke; nqemba, kom, ndop yarımqrupları və s.) qrassfild (qrasslend) dillərinin çoxsaylı qrupları da

fərqlənir. Son təsnifatlara əsasən B.d.-ni iki böyük qrupda (şimal və cənub) birləşdirmək təklif olunmuşdur.

B.d.-nin fonetikası üçün səs tiplərinin müxtəlifliyi səciyyəvidir; fel dərəcələri inkişaf etmişdir; tipoloji cəhətdən ümumiyyətlə həmcins deyildir. B.d.-nin çoxu yazısızdır, yaranmış əlifbalar isə latın qrafikasına əsaslanır.

B.d.-nin öyrənilməsinə 17 əsrdə bantu dillərinin tədqiqi ilə başlanılmışdır. Hazırda bu dillər Rusiya (Moskva, S.-Peterburq), Avropa (Almaniya, Niderland, Fransa, B.Britaniya), ABŞ və Afrika ölkələrinin (Nigeriya, Kamerun, Tanzaniya, Keniya, CAR və s.) afrikaşünaslıq mərkəzlərində geniş öyrənilir.

**BANTU DİLLƏRİ** – *bantoid dilləri* qrupu. Böyük Səhradan c.-dakı Afrika ölkələrində, qərbdə Nigeriya və Kamerundan şərqdə Keniyayadək və CAR da (bax *Bantular*) daxil olmaqla, qitənin cənubunadək yayılmışdır. B.d.-ndə danışanların dəqiq sayı haqda məlumat yoxdur: 2001 ilin hesablamalarına görə 240 mln., 2004 ilin hesablamalarına görə isə 310 mln. nəfərdir. B.d.-nin sayının təqr. 500 (onların dil, yaxud dialekt olmasının müəyyənləşdirilməsində problemlər mövcuddur) olduğu göstərilir. M. *Qasrinin* sonradan dəqiqləşdirilmiş (1948, 1967–71) B.d. təsnifatı ümumi qəbul edilmişdir. Dillər hər biri 3-dən 9-dək daha kiçik qrupları birləşdirən 16 zonaya bölünür. *Suahili, nyamvezi, kikuyyu*, kamba, *konqo*, *luba*, *qanda, ruanda, rundi*, mbundu, *gerero*, *şona*, *venda, somo, zulu, kosa* və s. ən geniş yayılmış B.d.-ndəndir. İndiki Şərqi Nigeriya və Kamerun ərazilərinin B.d.-nin vətəni olduğu ehtimal edilir. *Flektiv dillərin* bəzi əlamətlərinə malik B.d. aqlütinativ-sintetik (bax *İltisaqi dillər, Sintetik dillər*) tipli dillərə aid edilir. Fonoloji sistem səs tiplərinin müxtəlifliyi ilə fərqlənir. Fonemlərin sayı təqr. 22-dən 50-yə qədərdir. B.d.-nin əksəriyyətinin keçmişdə əlifbası olmamışdır (latın əlifbası əsasında yazısı 19 əsrin sonlarında yaradılmışdır). B.d. *bantoid dilləri* arasında ən çox öyrənilən dildir (bax *Bantuistika*).

**BANTUİSTİKA**, linqvistik – *bantu dillərini* öyrənən dilçilik sahəsi. Bu dillərə dair ilk məlumat 16 əsrə aiddir (1578 ildə Konqo dilində bir neçə söz dərc edilmişdir). 19 əsrə qədər bantu dilləri ancaq dini mətnlərin tərcüməsində, kiçik sözlüklərdə, qrammatikanın ayrı-ayrı fraqmentlərində təsbit edilmişdir. 19 əsrin başlanğıcından B. ilə bağlı nəşrlərin sayı artmağa başlamışdır: kosa, tsvana (Lixtenşteyn, 1806; Kempbell, 1815), ronqa (Uayt, 1800; Boteler, 1835), Konqo (Deqrandpre, 1801; Takey, 1816), makua, yao, suaxili (Zolt, 1814) və digər dillərə dair lüğətlər, təsviri xarakterli işlər (kosa, tsvana, zulu, seçuana, kele, benqa, herero və digər dillər haqqında) çapdan çıxmışdır.

B. bir elm kimi 19 əsrin ortalarından yaranmağa başlamışdır. 1862 və 1869 illərdə V. Blik (İngiltərə, Cənubi Afrika) B. ilə bağlı ilk fundamental əsərini ("Cənubi Afrika dillərinin müqayisəli qrammatikası") dərc etdirmişdir. O, ilk dəfə olaraq bantu dillərinin təsnifatını yaratmağa cəhd göstərmiş, həmçinin "bantu" terminini elmə gətirmişdir. K. *Maynhof* qrammatikanın fonetik, fonoloji və digər aspektlərinin müqayisəli analizi problemi ilə məşğul olmuş, bir sıra bantu dillərinin (duala, herero, suaxili) təsvirini vermişdir. B.-ya dair sanballı "Bantu dillərinin müqayisəli qrammatikasının əsasları" (1948) əsəri ona məxsusdur. Bantu dillərinin də maraq dairəsinə daxil olduğu Almaniyadakı Afrika dillərinin öyrənilməsi mərkəzinin yaradılması (əvvəl Berlində, sonra Hamburqa köçürülmüşdür) Maynhofun adı ilə bağlıdır.

1-ci dünya müharibəsindən sonra Cənubi Afrikada sonralar funksional istiqamətdə formalaşan, əsasən, bantu dillərini öyrənən linqvistik məktəb meydana gəlmişdir (K. Dok, D. Koul, L. Lenem, A. Horton, Q. Forçun, N. Varmelo, V. Burnen). K. Dok zulu, lamba, soto, nqombe dillərinin təsvirini vermiş, müqayisəli xarakterli tədqiqatlar aparmış (1954), həmçinin bantu dillərinin təsnifatına dair əsərlər (1945) yazmışdır.

*London məktəbinin* nümayəndələri (*M. Qasri*, F. Parsons, A. Taker, M. Brayan, A. Verner) Cənubi Afrika məktəbinin nümayəndələrindən fərqli olaraq dillərin təsvirində, əsasən, formal yanaşmaya üstünlük verirdilər. Məktəbin ideoloqu və rəhbəri olan Qasri ümumi qəbul olunmuş müasir təsnifatın təməlini təşkil edən bantu dillərinin genetik və tipoloji əlamətlərinin birləşməsinə əsaslanan təsnifat yaratmışdır. O, bantu dillərinin fonetikadan başlamış leksikaya qədər müqayisəli təsviri ilə məşğul olmuşdur.

20 əsrin 2-ci yarısından başlayaraq bir sıra bantuistika mərkəzləri, o cümlədən ayrı-ayrı dillərin təsviri, tipoloji və müqayisəli-tarixi tədqiqi ilə məşğul olan, nəticələri "Africana Linguistika" dövri nəşrində dərc edilən Mərkəzi Afrika Kral Muzeyi (Belçika, Tervyuren) yaradılmışdır; ABŞ-da B. probleminin öyrənilməsi ilə bağlı geniş işlər aparılır (T. Qivon, L. Hayman, A. Duranti, E. Bokamba, A. Kimenyi, M. Conson, A. Xokinson və b.). Afrikanın bir çox ölkəsində (Tanzaniya, Konqo, CAR və s.) bantuistika mərkəzləri var. O cümlədən Bamanya "Ekvatoria" Mərkəzi [Konqo (Kinşasa), Mbandaka; O. Vink, M. Motingea, M. Mevis, Q. Hyulstart] "Annales Aequatoria" dövri nəşrində bantu dilləri və dialektlərinin müxtəlif problemlərinə dair materiallar dərc edirir.

*Əd.:* B l e e k W. A comparative grammar of South African languages. L., 1862–1869. Pt. 1–2; А к с е н о в а И.С., Т о п о р о в а И..Н. Введение в бантуистику. М., 1990; Язык африканского фольклора. М., 1997; Основы африканского языкознания: Именные категории. М., 1997; Основы африканского языкознания. Морфемика. Морфонология. М., 2000; Основы африканского языкознания. Глагол. М., 2003.

**BÁNTULAR** (a-ba-ntu – "adamlar") – Tropik Afrikada *bantu dillərində* danışan xalqlar qrupu. Ümumi sayları təqr. 300 mln. nəfərdir (2004). Şimal en dairəsindən 6° c.-da (B.-ın Afrikası adlandırılan ərazi) yaşayırlar və Ekvatorial, Cənubi və Şərqi Afrikanın tarixi-etnoqrafik vil.-lərinin əsas əhalisini təşkil edirlər (bax *Afrika*). B.-ın əksəriyyəti Böyük zənci irqinə mənsubdurlar. Dilləri Konqo-Kordofan ailəsinin Niger-Konqo qrupunun Benue-Konqo yarımqrupuna aiddir. Dindarları müsəlman və xristianlardır. Ənənəvi etiqadlarını saxlayanlar da var.

B. Ekvatorial Afrikanın Ekvatorial Qvineyasında, Qabonda, Konqo Xalq Resp.-nda, MAR-ın c.-q. ərazilərində, Kamerunun q. və c. rayonlarında, həmçinin Konqo Demokratik Resp., Anqola və Zambiyanın böyük hissəsində məskunlaşmışlar; ən iri qrupları: dualalar, bubelər (fernandlar), fanqlar (fangilər, panqvelər), tekelər (batekelər), nqalalar (banqalalar), monqolar, tetelalar (batetelalar), kubalar (bakubalar), lubalar (balubalar), lundalar (balundalar), konqolar (bakonqolar), ambundular (bambundular), ovimbundular (mbundular), çokvelər (vaçokvelər), luenalar (valuenalar), lozilər (balozilər), tonqalar (batonqalar), bembalar (bavembalar).

Cənubi Afrikanın əsas hissəsində (Anqolanın c.-u, Namibiyanın şm.-i, CAR-ın c.-u, mərkəzi, ş.-i və şm.-ş.-i, Svazilend, Lesoto, Zimbabve, Botsvananın c.-u və ş.-i, Mozambikin c.-u və mərkəzi rayonları) bantudilli xalqlar: zulular (amazulular, zuluslar), kosalar (amakosalar, kafrlar), svazilər (amasvazilər), ndebelelər (amandebelelər), matabelelər, tsvanalar (svanalar, beçuanlar), sutolar (basutolar), pedilər (bapedilər), tsonqalar (batsonqalar), vendalar (bavendalar), şonalar (maşonalar), gererolar (ovagererolar), ovambolar və b.-ları məskunlaşmışlar.

Şərqi Afrikanın (Uqandanın q.-i və c.-u, Keniya və Tanzaniyanın böyük hissəsi, Somalinin c.-u, Komor a.-rı, Ruanda, Burundi, Zambiyanın və Konqo Demokratik Resp.-nın ş.-i) ən iri bantudilli xalqları kikuyyular, merular, kambalar (akambalar), luhyalar/luyyalar (baluhyalar/baluyyalar), ruandalar (banyaruandalar), rundilər (barundilər), qandalar (baqandalar), soqalar (basoqalar), nyorolar (banyorolar), gişular/gisular (bagisular), çiqalar/kiqalar (baçiqalar/bakiqalar), nyankolelər (banyankolelər/banyankorelər), qusiilər (bakisiilər), caqqalar/çaqqalar (vaçaqqalar), nyamvezilər (vanyamvezilər), sukumalar (vasukumalar), şambalalar (vasambalalar), zaramolar (vazaramolar), qoqolar (vaqoqolar), hehelər (vahehelər), benalar (vabenalar), kinqalar (vakinqalar), fipalar (vafipalar), yaolar (vayaolar), makualar (vamakualar), malavilər (maravilər, nyancalar), makondelər, nqonilər (anqonilər) və suahililərdir (vasuahililər); sonuncuların danışdığı kisuahili dili Tropik Afrikada ümumdanışıq dilidir (təqr. 70 mln. nəfər istifadə edir).

B.-ın bütün etnonimləri insanların xüsusi zümrə göstəricilərini bildirən ba-, va- (ova-), ma- (ama-) önşəkilçiləri vasitəsilə yaranır, eyni zamanda linqvonimlər üçün ki-, çi-, lu-, ru-, i-, isi-, se-, toponimlər və politonomlar üçün isə u-, bu-, bo, le- lokativ önşəkilçiləri istifadə olunur (məs.; baqandalar – luqandalar – Buqanda; basutolar – sesutolar – Lesoto). Elmi və soraq ədəbiyyatda prefikslərin qeyd olunmaması etnos, dil və ölkə adlarının üst-üstə düşməsinə gətirib çıxarır.

Bantu qadınları.



Bantu dillərində danışan xalqlar mənşəyinə və mədəniyyətinə görə vahid bir qrup təşkil etmirlər. Bu xalqlardan bəziləri erkən siyasi qurumlar yaratmışlar: nyorolarda Kitara, şonalarda Monomotapa, Suahili şəhər-dövlətləri (*Kilva*, Pate, *Mombasa*, *Lamu*, Malindi, Sofala və s.) və *Zənzibar sultanlığı*; konqolarda *Konqo*, qandalarda *Buqanda*, ruandalarda *Ruanda*, lundalarda *Lunda* və s. Lakin B.-ın əksəriyyəti müstəmləkəyəqədər- ki dövrdə ibtidai cəmiyyətin dağılmasının müxtəlif mərhələlərində olmuşlar. Əsas istehsalat və sosial özəyi əkinçi icma, hakimiyyətin quruluşunun əsas forması – tayfa-icma birliyi və tayfa ittifaqı qalmaqda idi.

Dilçilik və arxeoloji məlumatlar müasir B.-ın e.ə. 1-ci minillikdə dəmirlə tanış olan əcdadlarının erkən əkinçilər olduğunu ehtimal etməyə əsas verir. Onlar indiki Kamerun ərazisindən cənuba – tropik meşələr zonasına və bu zonanı dolanaraq cənub-şərqə irəliləməyə başlamışlar. Miqrasiya zamanı B. yerli əhalini – ovçuları və yığıcıları (meşə zonasında piqmeylər, Şərqi və Cənub-Şərqi Afrikanın savannalarında müasir koysan xalqlarının əcdadları) sıxışdırır və assimiliyasiya edirdilər. B. xalqları, əsasən, rütubətli tropik meşənin periferiyasında yerləşən seyrək meşəlik zonada məskunlaşaraq burada dəmir metallurgiyası təsərrüfatı və istehsalını yaymışlar; B. Konqo çayı hövzəsində müstəqil mis metallurgiya ocaqlarını yaratmışlar. B.-ın ayrı-ayrı qruplarının miqrasiyası 19 əsrin ortalarınadək davam etmişdir.

B.-ın ənənəvi mədəniyyətləri Tropik Afrika xalqları üçün səciyyəvidir. 19 əsrin sonlarında B. üçün qırılıb yandırılmış ərazilərdə toxa əkinçiliyi səciyyəvi idi. Bir çox xalqlarda əkinçi-maldar (sukumalar, tonqalar və b.), yaxud, əsasən, maldar (sutolar, kosalar və b.) təsərrüfat mövcud olmuşdur. Meşə arıçılığı və ovçuluq fəaliyyətlərində mühüm yer tuturdu. Ağac və sümükdən yüksəkkeyfiyyətli məmulat hazırlayırdılar. B.-ın yaşayış məskənləri müxtəlif planlı iri və kiçik kəndlər, ənənəvi yaşayış ev tipi isə, əsasən, gillə suvanmış hörmə divarları olan dairəvi evlərdir.

B.-ın ənənəvi geyimi bel sarğısı, yaxud dəridən və ya otdan hörülmüş önlükdür. 19 əsrin sonlarından avropasayağı geyim yayılmışdır. Zəngin folklorları (etnogenetik rəvayətlər, heyvanlar haqqında nağıllar və s.) var. Müasir dövlətlərin hüdudları çərçivəsində B.-ın kiçik qruplarının daha iri birliklərə etnik konsolidasiyasının fəal prosesi baş verir, ən çox inkişaf etmiş xalqlarda (məs., kikuyyularda) millət tipli birliklərin formalaşması müşahidə olunur.

**BANTUSTÁNLAR**, h o m l e n d l ə r (bantustans, homelands – "milli yurdlar") – 1951–94 illərdə CAR ərazisində mövcud olmuş qondarma dövləti qurumlar. B. *aparthеydin* formalarından biridir. Əvvəlcə az məhsuldar və quraq torpaqlarda mövcud olan rezervasiyaların əsasında yaradılmışdı. Siyasi və iqtisadi baxımdan tamamilə CAR hökumətinin nəzarəti altında olan B. ucuz ehtiyat işçi qüvvəsi mənbəyinə çevrilmişdi. B.-ın "hüquqi" vəziyyətini "Bantuların hökumətləri haqqında" (1951), "Bantularda özünüidarəetmənin inkişafı haqqında" (1959), "Homlendlər haqqında" (1971) və s. qanunlar müəyyənləşdirirdi. B.-ın "suverenliyi" öz bayrağına və himninə malik olmaq hüququndan ibarət idi. CAR hökuməti işğal etdiyi Namibiya ərazisində də B. yaradırdı. 1994 ildə keçirilən demokratik seçkilərdən sonra B. ləğv olunmuşdur.

**BANU** (farsca بانو) – 1) keçmişdə bəzi Şərq ölkələrində hökmdar arvadlarına, həmçinin qadın hökmdarlara verilən ad; 2) xanım, xatun; 3) bəzi Şərq ölkələrində o cümlədən Azərb.-da mürəkkəb şəxs adlarının tərkib hissəsi (Banuçiçək, Xurşidbanu və s.).

**BÁNUŞ** (Banus) Mariya (10.4.1914, Buxarest – 14.7.1999) – rumın şairəsi. RSR Dövlət mükafatı laureatı (1951). İlk əsərlərində modernizmə meyil etmişdir. "Seçilmiş şeirlər" (1953) kitabı, "Sənə müraciət edirəm, Amerika" (1955) poeması, "Böyük gün", "Aşiqlər" pyesləri və s. əsərləri var. Bəzi şeirləri Azərb. dilinə tərcümə edilmişdir.

Ə s ə r i: Стихи. М., 1961.

**BÁNYA**, b a n y a n, v a n i y a (sanskritcə vanic – tacir sözündəndir) – hind tacirlərinin ən geniş yayılmış ümumi adı. Dar mənada isə əslən Qucaratdan olan, lakin hələ orta əsrlərdə bütün Hindistanda və Ərəbistan dənizi sahillərində yayılmış B. ticari-sələmçi kastasının nümayəndələri. Dindarları bir qayda olaraq, hinduist və caynistdirlər.

**BÁNYA-LÚKA** – Bosniya və Herseqovinada şəhər, Serbiya Resp.-nın paytaxtı. Vrbas çayı sahilindədir. Əh. 221,1 min (2005). D.y. st. Aeroport.

Adı ilk dəfə 1494 ildə qeyd edilmişdir. 16 əsrdən Osmanlı hakimiyyəti altında olmuş, kustar sənətkarlığı (dəri, xəz, gümüş və qızıl məmulatı istehsalı) mərkəzi-



Banya-Luka şəhərindən görünüş

nə çevrilmişdir. Türkiyə-Avstriya müharibələri (B.-L. qalası uğrunda 1737 ildə baş verən döyüş daha çox məlumdur) zamanı dəfələrlə dağıdılmışdır. 1878–1918 Avstriya-Macarıstan tərəfindən işğal olunmuşdur; bu dövrdə yollar çəkilmiş, bir sıra sənaye müəssisələri tikilmişdir. 1969 ildə baş verən zəlzələ nəticəsində şəhərə güclü ziyan dəymişdir (binaların təqr. 70%-i dağılmışdır). 1992 ildən Serbiya Resp.-nın paytaxtıdır. 1992–95 illər vətəndaş müharibəsi dövründə bir çox tikililər, o cümlədən Fərhad paşa məscidi (1583), Səfər bəy məscidi və s.; Paduyalı Müq. Antoni və Müq. Bonaventura kilsələri və s. dağıdılmışdır.

Un-t (1975), elektrotexnika (1962), pedaqoji (1950) və ticarət in-tları; Milli kitabxana, Serbiya Resp.-nın Milli muzeyi (1930), Milli qalereya (1971), "Banski Dvor" mədəniyyət mərkəzi (1932); milli (1930) və uşaq (1955) teatrları var. Böyük beynəlxalq şahmat turnirləri (1974–87) keçirilmişdir.

Banyan ağacı (Fikus benghalensis).



1992–95 illərədək maşınqayırma, elektrotexnika, ağac emalı, sellüloz-kağız, kimya (süni liflər istehsalı), tikiş sənayesi müəssisələri olmuşdur; 21 əsrin əvvəllərində tütün məmulatı, pivə, meyvə və tərəvəz konservlərinin istehsalı üstünlük təşkl edir. B.-L. yaxınlığında mineral termal kükürdlü bulaqlar (Slatina, Srpske-Toplitse kurortları) var.

**BANYÁN** – fikus cinsindən olan bir neçə növ ağacın adı. B. adı ilə daha çox Benqal fikusu (Ficus benghalensis) tanınır; sıx kölgəsinə görə qədimdən Hindistanda becərilir. Hünd. 30,5 *m*-ədək olur. Çətiri yerədək uzanıb torpağa kök atan, gövdəyə oxşayan və meşəciyi xatırladan hava kökləri üzərində dayanır. Bir iri B. ağacı bəzən 2 *ha*-adək sahəni tutur. B.-ın əmələ gəlməsi vegetativ çoxalmanın özünəməxsus formasıdır; bu zaman ana və törəmə ağaclar arasında əlaqə uzun müddət qalır. Ana gövdənin quruması, adətən, onun nəsillərinin normal həyat fəaliyyətini pozmur.

**BANYOROLAR** – bax *Nyorolar*.

**BANZÁROV** Dorji (təqr. 1822, Zabaykal vil.-nin Kutetuyev ulusu; hazırda Buryatiyanın Cidin r-nu – 1855, İrkutsk) – ilk buryat etnoqrafı, şərqşünas. Kazan Un-tini bitirmişdir (1846). O.M. *Kovalevskinin* şagirdi olmuşdur. 1847–48 illərdə *Asiya muzeyində* (Sankt-Peterburq) elmi tədqiqatla məşğul olmuşdur. 1850–55 illərdə Şərqi Sibirin gen.-qubernatoru yanında xüsusi tapşırıqlar üzrə məmur işləmişdir. B.-un tədqiqatları monqol tarixi və filologiyasına aiddir. Əsas əsərləri: "Qara inam, yaxud monqollarda şamanizm" (1846), "Paytsze, yaxud monqol xanlarının fərmanlarının həkk olunduğu metal lövhəciklər" (1848), "Çingiz xanın qardaşı oğlu İsunke xanın abidəsindəki monqol yazısının izahı" (1951). Buryat pedaqoji in-tu (Ulan-Udedə) B.-un adını daşıyır (1947).

**BAOÁNLAR,** b o u n a n  k u n – Çinin şm.-q.-ində (Qansu və Sinxay əyalətləri) monqol xalqı. Sayları 14 min nəfərdir (2000). Altay dillərinin monqol qrupuna aid olan Baoan dilində danışırlar; dayan və tunjen dialektləri var. Dindarları müsəlmandır, Sinxayda bir qismi buddistdir.

Rəvayətə görə B. 13 əsrin sonu – 14 əsrin əvvəllərində Xuanxe çayının yuxarı axarlarında məskunlaşmış müsəlman monqolların nəsilləridir. B.-ın formalaşmasında *xueylər*, *dunsyanlar* və *salarlar* iştirak etmişlər. Ənənəvi mədəniyyətləri Şimali Çin xalqları üçün səciyyəvidir (bax *Asiya*). Dəmyə xış əkinçiliyi (buğda, arpa, qarğıdalı, qarabaşaq), maldarlıq (qaramal, davar, at və dəvə) və meşəçiliklə məşğuldurlar. Ənənəvi evləri samanlı kərpicdən tikilir və *kan* vasitəsilə isidilir; yeməklər undan və ətdən hazırlanır, çay südlü və duzlu olur. Ənənəvi geyimləri: kişilərdə köynək və şalvar, qışda kürk, qadınlarda kofta və şalvardır. Baş örtüyü qızlarda yaşıl, cavan qadınlarda qara, yaşlılarda isə ağ rəngdə olur; kişilər kiçik papaq qoyurlar. 20 əsrin ortalarınadək 3–4 nəsildən ibarət olan iri patriarxal ailələr mövcud olmuşdur. Dəri qınlı, inkrustasiya olunmuş baoan xəncər və bıçaqları, həmçinin gümüş məmulatları məşhurdur.

**BAOBÁB** (Adansonia) – *bombakskimilər* fəsiləsindən yarpağı tökülən ağac cinsi. Afrikanın, Şimali Avstraliyanın savannalarında, Madaqaskarda bitən (adətən, tək-tək) 9 növü var. Nəhəng gövdəsi (hünd. 20 *m*-ədək, çevrəsi 40 *m*-ədək) və çox geniş çətiri olan barmaqvarı Afrika B.-ı (A. digitata) cinsin ən çox tanınan nümayəndəsidir; ən uzunömürlü (1–5,5 min ilədək) ağaclardandır. Yarpaqları barmaqvarı-mürəkkəb, uzun saplaqlıdır. Çiçək saplağından sallanan ağ çiçəkləri iridir (diametri 20 *sm*-ədək). Uz. 40 *sm*-ədək olan və iri xiyara bənzəyən meyvələri tüklü, uzunsov qutucuqdur; içərisindəki qara, xırdatoxumlu, şirəli ləti yeməlidir. Bir çox heyvanı, xüsusilə meymunları özünə cəlb edir (B.-ın adlarından birinin "meymun çörəyi" olması da buradandır). Oduncağı yumşaqdır, xeyli miqdarda su ehtiyatı saxlaya bilir, çox vaxt çürüdüyü üçün gövdəsi oyuqlu (koğuşlu) olur. B. qabığının möhkəm liflərindən kəndir və qaba parça, kağız və balıq torları, meyvələrinin lətindən sərinləşdirici içkilər hazırlanır. Yarpaqları müxtəlif heyvanlar üçün yemdir. İçiboş gövdələrindən dən və su (100 min *l*-ədək) saxlamaq üçün istifadə edilir. Bir çox tropik ölkələrdə, o cümlədən Hindistanda becərilir. B.-ın digər kiçikölçülü növlərinin böyük praktiki əhəmiyyəti yoxdur.

**BÁO–DAY** (1913–97) – Nquyenlər sülaləsindən Vyetnam imperatoru [1926–45]. 12 yaşında irsən hakimiyyət başına gəldiyi zaman Vyetnam Fransa Hind-Çininə daxil idi. Vyetnamda baş verən 1945 il Avqust inqilabı zamanı taxtdan imtina etmişdir. 1949 ildə Fransa qoşunları tərəfindən işğal olunmuş Cənubi Vyetnamda dövlətin başçısı elan olunmuşdur. 1955 ildə hakimiyyətini Nqo Din Zyemaya güzəştə gedərək ölkəni tərk etmişdir.

**BAODİN** – Çinin şm.-ında, Hebey əyalətində şəhər. Böyük Çin düzənliyinin şm.-ındadır. Əh. 995,6 min (2005). Mühüm nəql. qovşağı. Çinin ən qədim şəhərlərindən biri; əsası Sin imperiyasının (e.ə. 221–207) yaranmasından əvvəl qoyulmuşdur. 581–1958 illərdə Sinyuan adlanmışdır. Hebey un-ti, k.t., tibb üzrə ali məktəblər; kimya, yeyinti, toxuculuq, maşınqayırma sənayesi müəssisələri var. Çinin ən qədim parklarından biri – "Şanagüllə gölməçəsi" buradadır.

**BAOTÓU** – Çinin şm.-ında, Daxili Monqolustan muxtar r.-nunda şəhər. Pekindən 550 *km* q.-dədir. Əh. 1,3 mln. (aqlomerasiyada 1,5 mln.; 2005). İri nəql. qovşağı. Xuanxe çayı sahilindədir. 1730-cu illərdə ticarət mərkəzi kimi yaranmışdır. Sənaye 1949 ildən sonra inkişaf etməyə başlamışdır. Ölkənin 10 ən böyük metallurgiya kombinatlarından biri B.-dadır. Maşınqayırma, elektroenergetika, ağac emalı, toxuculuq, dəri, yeyinti (şəkər, yağ, unüyütmə) sənayesi müəssisələri var; tikinti materialları istehsal edilir. Yaxınlığında yüksəkkeyfiyyətli dəmir filizi, kokslaşmış kömür və odadavamlı xammal hasil olunur.

**BAOTSZİ** – Çinin Şensi əyalətində şəhər. Əh. 333 min (2003; şəhərətrafı ilə 3,4 mln.-dan çox). Veyhe çayı sahilindədir. Nəql. qovşağı. Maşınqayırma, toxuculuq, kimya, kağız və kibrit sənayesi müəssisələri; İES var.

**BAOTSZYÁ** – orta əsrlərdə Çində kəndli təsərrüfatlarının xüsusi vahidlərdə (bao) birləşdirilməsi sistemi. "Baotszya haqqında qanun" 1070 ildə imperator Cao-Süyun (Şen-Tzun) dəstəyi ilə islahatçı birinci nazir Van An-şi tərəfindən tətbiq edilmişdir. Qanuna görə, iki yetkin kişisi olan hər kəndli təsərrüfatından bir kişi B. döyüşçüləri sırasına daxil edilirdi. 10 təsərrüfat 1 baonu, 50 təsərrüfat 1 iri baonu (dabaonu), 10 iri bao isə 1 dubaonu təşkil edirdi. İri baonun və dubaonun rəisi vəzifəsini mülkədarlar icra edirdilər. Adi vaxtlarda baolar patrul və mühafizə xidmətini yerinə yetirirdilər. Baş vermiş bir cinayət haqqında xəbər verilmədikdə baonun üzvləri o işdə əlbir olmaqda günahlandırılır və hamısı cəzalandırılırdı. K.t. işlərindən azad olduqları vaxtlarda B. döyüşçülərinə hərb sənəti öyrədilirdi. B. sisteminin tətbiqi muzdlu ordunun kəndlilərdən ibarət ordu ilə əvəz olunması cəhdi idi. Qomindan rejimi dövründə (1927–49) Çan Kay-şi hökuməti kəndlilərin inqilabi hərəkatına mane olmaq, ər-

Baobab (Adansonia digitata).



Baodin. "Şanagüllə gölməçəsi" parkı.



zaq və vergiləri zorla toplamaq, kəndlilərin Qomindan ordusuna səfərbərliyini təmin etmək məqsədilə B. sistemindən istifadə etmişdir.

**BAPNÓM** (Funan) – Hind-Çinin c.-unda erkən dövlət. Təqr. eramızın 1 əsrində Mekonq çayı vadisində yaranmışdır. Paytaxtı Vyadhapura ş. ("Ovçular şəhəri"; hazırda Kamboca ərazisindədir) idi. Bəzi alimlər B.-un əhalisini Malayya-Polineziya xalqları qrupuna, bəziləri isə monkhmer xalqları qrupuna aid edir. 1 əsrdə əfsanəvi hind brahmanı Kaundiniya buradakı tayfalardan birinin qadın başçısı ilə evlənərək B. hökmdarlarının ilk sülaləsinin banisi olmuşdur. Ölkənin "toplanması" dövründə (2–3 əsrlər) B. fəal işğalçı müharibələr aparırdı. Fan Şi Manın hakimiyyəti dövründə [təqr. 205 – təqr. 225] *Çenla*, Çentou (Menama hövzəsində), Phanranq (Cənubi Vyetnam), Malakka y-a-ndakı ərazilər B.-un vassalına çevrilmişdi. 270–280 illərdə B. *Çampa* ilə ittifaq bağlayaraq Şimali Vyetnamdakı müharibələrdə iştirak etmişdir. 6 əsrədək B. hərbi və iqtisadi üstünlüyünü qoruyub saxlamışdı. Bu dövrdə hökmdarın hakimiyyəti möhkəmlənmiş, hinduizm və buddizm yayılmış, məbədlər inşa olunmuş, çəltikçilik və irriqasiya, gəmiqayırma və sənətkarlıq sahələri (metallurgiya, zərgərlik, dulusçuluq, silah istehsalı və s.), incəsənət və ədəbiyyat inkişaf etmişdi. B.-un Hindistan və Çinlə diplomatik, ticari və mədəni əlaqələri var idi. Okeo limanı ticarət mərkəzinə çevrilmişdir. B.-da əmtəə-pul münasibətlərinin inkişaf etmiş sistemi və sənətkar-ticari korporasiyalar mövcud olmuşdur. 7 əsrin əvvəllərində Çenla B.-dan ayrıldı, təqr. 635 ildə isə B. Çenladan asılı vəziyyətə düşdü. B. ərazisi 8 əsrin 1-ci yarısında tamamilə Çenlaya qatıldı.

**BAPPAQÁY** – RF-də, Saxa (Yakutiya) Resp. ərazisində çay. Vilyuy çayının sağ qolu. Uz. 307 *km*, hövzəsinin sah. 4650 $km^2$. Orta Sibir yastıdağlığından başlanır, Mərkəzi Yakutiya ovalığı ilə axır. Əsasən, yağış suları ilə qidalanır. Oktyabrın ikinci yarısından mayın ikinci yarısınadək donmuş olur. Hövzəsində çoxlu xırda göl var; ən böyükləri: Unardax, Alısardax, Bıranattalax.

**BAPTİSTÉRİ** (yun. βαπτιστήριον, lat. baptisterium) – xaç suyuna salınma ayinini icra etmək üçün bina, tikili, yaxud onun hovuz (kupel) olan hissəsi. Antik dövrdə "B." termini üzmək üçün nəzərdə tutulan hovuz adlarından biri idi. Ən erkən xristian B.-si Dura-Avroposdakı Məclis evində (təqr. 240) aşkar edilmişdir. İlk məlum ayrıca B. binası Romadakı Lateran yepiskop kompleksinin (4–5 əsrlər, mozaikalar 5 əsr) bir hissəsi kimi tikilmişdir. Ravennada iki – pravoslav (təqr. 400–450 illər) və arian (5 əsrin sonu – 6 əsrin əvvəli) B.-si saxlanılmışdır. Ayrıca B. binaları Konstantinopolda, *Preslavda* və digər yerlərdə mövcud olmuşdur.

6 əsrdən uşaqların xaç suyuna salınması adi hal alduğu üçün ayrıca, böyük B. binaları öz aktuallığını itirdiyindən kupellər artıq məbədlərin narteksində yerləşdirilirdi. Orta əsrlərdə Bizansda ayrıca B.-lər nadir hallarda, əsasən, böyük sayda insanların xaç suyuna salınması tələb olunan yerlərdə inşa edilirdi.

**BAPTİZM** (yun. βαπτιζω – suya başvurma, xaç suyuna salınma) – *protestantizmdə* ən böyük cərəyanlardan biri (80 mln.-dan çox, 2004; əksəriyyəti ABŞ-da yaşayır). 1905 ildə baptistlərin 1-ci Ümumdünya konqresində qəbul edilmiş "Etiqadın yeddi əsas prinsipi" baptist dini təliminin əsasını təşkil edir. B.-ə görə, dini işlərdə və praktiki həyatda yeganə etibarlı istinad Bibliyadır; kilsə yalnız "etiqada görə" xaç suyuna salınanlardan ibarət olmalıdır (xaç suyuna salınma yalnız insanın öz iradəsi ilə və o, buna hazır olduqda icra edilir); icmanın bütün üzvləri bərabər hüquqludurlar; kilsə dövlətdən ayrıdır. Baptistlərin ibadəti, adətən, *liturgiya* xarakteri daşımır, əsas diqqət moizəyə və Bibliyanın oxunuşuna yönəldilir. Baptist ibadət evlərinin ənənəvi tərtibatı çox sadədir; zallarda adətən yalnız moizə və İncil oxunuşu üçün nəzərdə tutulmuş kafedralar olur; ibadətə gələnlərlə din xadimləri arasında müəyyən sərhəd yoxdur; *pastorlara* kömək olaraq, icma üzvləri arasından *dyakon* təyin edirlər. Qadınların din xadimi vəzifəsini icra edə bilməsi haqqında qərarı hər icma müstəqil qəbul edir. Baptist kilsələri konqreqasiya quruluşludur; hər bir kilsə icması müstəqildir. İcmalar həmçinin ştat, vil., region və ya ölkə daxilində müxtəlif birliklərə (assosiasiyalara, konvensiyalara və s.) daxil olur.

**BAR** (Bahr) German (19.7.1863, Lins – 15.1.1934, Münxen) – Avstriya yazıçısı, dramaturq, esseist və tənqidçi, incəsənət nəzəriyyəçisi. Almaniya və Avstriya un-tlərində klassik filologiyanı, hüququ və iqtisadiyyatı öyrənmişdir. Jurnalist, teatr rej.-u işləmişdir. *"Gənc Vyana"* Avstriya yazıçıları və jurnalistləri birliyinə rəhbərlik etmişdir. 1922 ildən Münxendə yaşamışdır. B. *modernizm* və *ekspressionizmi* nəzəri cəhətdən əsaslandırmış ("Əsrin sonu", 1891; "Naturalizmə qalib gəlmə", 1891; "Ekspressionizm", 1914 və s.), "modern" anlayışını ədəbiyyata gətirmişdir ("Modernin tənqidinə doğru", 1890 və s.). Novella, roman ("Teatr", 1897; "O... İnsan", 1910 və s.) və pyeslərin ("Ulduz", 1899; "Jozefina", 1899; "Apostol", 1901 və s.) müəllifidir. "Konsert" (1909) komediyası bir neçə dəfə ekranlaşdırılmışdır və teatr repertuarında saxlanılır. F. *Nitsşe* və A. *Strindberqin* təsiri hiss olunan B. yaradıcılığında fərdiyyətçiliyin təbliği qəhrəmanların daxili aləminin və psixologiyasının ustalıqla təsviri ilə birləşir; əsərlərinin dili söz oyunu və kalamburla zəngin, virtuoz və istehzalıdır.

**BAR** (ing. *bar*) – diler sövdələrində 1 mln. funt sterlinqlik məbləğ; yarımbar (ing. *half bar*) – yarım milyon funt sterlinqlik sövdə.

**BAR** (ing. bar, yaxud fr. barre – sədd, dayaz yer) – 1) s a h i l B.-ı – sahil boyu uzanan və laqunu dənizdən ayıran ensiz quru zolağı. Dalğaların dib materiallarını sahil zonasına gətirib sualtı B.-ın üzərində çökdürməsi nəticəsində əmələ gəlir. B.-ların uz. bəzən 100 *km*-dən çox olur (məs., *Arabat dili*). 2) ç a y a ğ z ı B. – çayın dənizə töküldüyü hissədə sahil zolağında qumlu sualtı say. Çay axımının və dəniz dalğalarının təsiri ilə yaranır.

**BAR** – sistemdənkənar təzyiq vahidi. $1\ bar = 10^5\ Pa = 0{,}986923\ atm$

**BAR** (ing. bar – metal zolaq, ling) – mədən kombaynları, qazıma maşını və bir sıra yerqazan maşınlarda işlək hissə. B. istiqamətləndirici çərçivədən və onun girintisi ilə hərəkət edən zəncirdən ibarətdir. Zəncirin bəndlərinə kəsici dişlərin (kəskilərin) və ya yükləyici pərlərin yerləşdiyi yuvaları olan yumruqlar bərkidilir. Kəsici dişlər yumruqlarda yelpikvarı yerləşərək hünd. 90–150 *mm* olan çıxıntılar əmələ gətirir. Faydalı qazıntı laylarında, iş aparılan qruntda və s. qazıma yarıqları açmaq üçün istifadə edilir. Çapılan yarığın konfiqurasiyasına görə yastı, əyri, dairəvi və s. B. növləri olur.

**BAR KONFEDERASİYASI** – Polşada Rusiya hegemonluğuna və maqnat oliqarxiyası siyasətinə qarşı 1768–72 illərdə katolisizmin müdafiəsi şüarı altında silahlı çıxış təşkil edən Polşa *şlyaxtasının* ittifaqı. B.k. 1767–68 illərdə katoliklərin və dissidentlərin (protestantlar və pravoslavlar) bərabərliyinin seym tərəfindən təsdiqinə, Rusiyanın Reç Pospolitanın arxaik dövlət quruluşunun saxlanılmasına təminat verdiyi Varşava müqaviləsinin 1768 bağlanmasına, həmçinin rus səfiri knyaz N.V. Repninin fəaliyyətinə cavab olaraq yaradılmışdır. B.k.-nın aparıcı xadimləri A. Krasinski, M. Krasinski, Y. Pulaski və b. olmuşlar. 1768 il fevralın 29-da Bar ş.-ndə (Podoliya) başlayan üsyan yazda Kiçik Polşa, Litva və Polşa Prussiyasını bürüdü. B.k.-nın rəhbərliyində birlik mövcud deyildi, şlyaxtanın dəstələri qeyri-nizami idi və çox zaman əhaliyə qarşı zorakılıq tətbiq edirdi (bu isə öz növbəsində Koliivşşina kəndli hərəkatını gücləndirirdi). 1768 il iyunun 20-də rus qoşunları Ks. Branitskinin komandanlığı altındakı kral qoşunlarının köməyi ilə Barı tutdu, avqustun 17-də isə Krakovu zəbt etdi. 1768–74 illər Rusiya-Türkiyə müharibəsinin başlanması B.k.-nın 1769 ilin birinci yarısında yenidən hücuma keçməsinə şərait yaratdı, lakin artıq ilin sonunda rus qoşunları əks-hücuma keçdi. 1770 il oktyabrın 22-də B.k.-nın xadimləri tərəfindən Polşada formal olaraq kralsızlıq bəyan olunmuşdu. Bu akt B.k.-nın həm Polşa daxilində, həm də xaricdə izolyasiyasına səbəb oldu. Lakin 1771 ildə Fransanın hərbi və maliyyə yardımı ilə B.k.-nın qoşunları Poznan r-nunda, Kiçik Polşada və Litvada hərbi əməliyyatlara başladı. 1772 ilin fevralında rus qoşunları və Ks. Branitskinin dəstələri konfederatların son dayağı olan Krakov qəsrini ələ keçirdilər. Polşanın birinci dəfə bölüşdürülməsi (1772, avqust) B.k.-nın məğlubiyyətini təsbit etsə də, konfederatların xaricdəki fəaliyyəti 1776 ilədək davam etmişdir.

**BAR MAŞINI,** y a r ı q a ç a n m a ş ı n – monolit süxurlarda, bərk və donmuş qruntlarda yarıq açan maşın. Əsas işlək orqanı *bardır*. B.m. neft, qaz və su kəmərlərinin, rabitə və elektrik xətlərinin çəkilməsi, kanalizasiya şəbəkəsinin qurulması üçün xəndəklərin qazılması, bərk asfalt və sement-beton örtüklərində yarıqların açılması üçün istifadə edilir. B.m.-nın işlək avadanlığı tırtıllı və ya təkərli traktorda qurulur. İşlək avadanlığın idarə olunması üçün hidravlik intiqal sistemi tətbiq edilir. Birbarlı və çoxbarlı (eyni zamanda işləyən iki və ya daha çox barla təchiz edilir) maşınlar olur. Əlavə işlək avadanlıq kimi çalovlu yükləyici, müxtəlif buldozer laydırları və kürüyücü laydır tətbiq edilə bilər. Universal B.m.-nda müxtəlif enli xəndəklərin qazılması və müxtəlif möhkəmlik dərəcəli qruntların işlənməsi üçün kəsici orqanı tez dəyişdirmək mümkündür.

**BARÁBA DİLİ** – bax *Sibir-tatar dili.*

**BARABA OVALIĞI,** B a r a b a ç ö l ü – RF-də, Qərbi Sibirin c. hissəsində, Novosibirsk və Omsk vil.-ləri ərazisində meşə-çöl düzənliyi. Q.-dən ş.-ə təqr. 600 *km* məsafədə uzanır. Hünd. 150 *m*-ədəkdir. 2000-dən çox şirin və şor sulu göl (ən böyükləri: Çanı, Uba, Tandovo, Sartlan) var. B.o.-nin 1/3 hissəsi bataqlıqdır. Əsasən, qaratorpaqlar və bataqlıq torpaqları yayılmışdır. Relyefi üçün boz meşə torpaqlarında tozağacından ibarət ada meşələri (şm.-da), qaratorpaq və şorakətli torpaqlarda isə müxtəlifölçülü çəmənləri və çəmənli çölləri (c.-da) olan təpələr bir-birinə paralel uzanan hündür "yallar" səciyyəvidir. B.o. Qərbi Sibirin mühüm əkinçilik və südlük-heyvandarlıq r-nlarından biridir. Payızlıq buğda, çovdar, vələmir, qarğıdalı, uzunlifli kətan, yağçiçə- yi əkilir.

**BARÁBALAR**, b a r a m a l a r – RF-də, Ob-İrtış çayarasında (Baraba ovalığı), Novosibirsk vil.-nin Baraba, Vengerovo, Üst-Tarka, Çanı, Kuybışev, Karqat, Ubinsk, Kıştovka və Severnoye r-nlarında yaşayan türk xalqı. 1926 il siyahıyaalmasına görə sayları 7,5 min nəfər idi. Sonrakı siyahıyaalmalarda qeydə alınmamışlar. B. baraba-turaş, terenin-çoy və lyube-tunus qruplarına bölünürlər. *Sibir-tatar dilinin* baraba dialektində (şimal-şərqi türk dilləri ilə yaxın olan bu dialekt şimal-qərbi türk dilləri arasında xüsusi yer tutur) danışırlar; gənc nəsil əsasən, rus dilindən istifadə edir. Əksəriyyəti Ural irqinə (digər təsnifata görə Qərbi Sibir irqinin Ob-İrtış variantı) mənsubdurlar. Dindarları müsəlmandır.

B. Ural dillərinin daşıyıcılarının substratı və 8 əsrdən etibarən (*Göytürk xaqanlığının* süqutundan sonra) c.-dan köçən türk, cənubi samodi, Yenisey və ehtimal ki, monqol elementlərinin əsasında təşəkkül tapmışlar. Birinci komponentlə şimal balıqçılıq-ovçuluq mədəniyyətinin, bəndçəkmə balıqçılığı, balıq ehtiyatının görülməsi, oyma qayıqlar, evdə, yaxud meşələrdə anbar tipli tikililərdə saxlanılan şiş başlı bütlər – qurçaklar, tozağacı qabığının ornamentasiya üsulları və s., ikinci komponentlə isə Cənubi Sibir ovçuluq-atçılıq mədəniyyətinin dəmir metallurgiyası, yük kirşəsi və s. elementləri bağlıdır.

B.-ın ənənəvi təsərrüfatlarında balıqçılıq (əsasən göl balıqçılığı) və ovçuluq mühüm yer tuturdu. Cənubda, çöl zonasında maldarlıqla (qaramal, davar, at), meşə-çöl və çöl zonalarında isə maldarlıqla yanaşı əkinçiliklə də məşğul olurdular. Rəvayətlərə görə adları *Kuçum* xan tərəfindən verilmişdir. Bir sıra alimlərin fikrincə isə adları əvvəllər bölgədə məskunlaşan qıpçaqların b a r - a p a boyundan götürülmüşdür. B.-ın formalaşması 17 əsrin sonu – 18 əsrin əvvəllərində başa çatmışdır. Sosial strukturda ailə-qohum birlikləri – tuqumlar xüsusi yer tuturdu. Evlənmə elçi getmə, yaxud qız qaçırma yolu ilə həyata keçirilirdi. "Beşikkəsmə", levirat və sororat adətləri də mövcud idi. Tuqumdaxili nikahlar qadağan idi. Qərbi Sibirin bir çox türk xalqlarından fərqli olaraq B.-da 18 əsrədək şamanizm yayılmışdı. Hazırda tuqumlar, xizəklərin və qayıqların ənənəvi tipləri, peşə ayaqqabıları (çarıq, uzunboğaz çəkmə – itek), qadın geyim dəstində uzun don (kilek, kulmak), yaylıq məxmər, yaxud ipək qolsuz köynəklər (kamsul, kamsol), jaket (beşmet, pişmet), çingiltili hörük asmaları (çulpa, çolpu) qızıl və gümüş qolbaqlar (pelələk) və üzüklər (yesbk) və s. qalmaqdadır.

B.-ın folkloru tərkib və süjet baxımından olduqca zəngindir: qəhrəmanlıq eposu (dastan), tarixi mahnı-hekayətlər (baytlar), nağıllar (yomaklar, ekiyatlar), əfsanələr (rivayatlar), miflər, şifahi hekayələr (tetmeş yomaklar), nəğmələr (yerlər), bədiyyələr (takmalar), atalar sözləri (makaləler), deyimlər (eytemner), tapmacalar (tabışmaklar, tabıitaklar) və s. Musiqi alətlərindən daha çox dəf (tünqur), mənimsənilmiş qarmon və bayandan istifadə olunur. Nadir hallarda metal varqan (konquz), yayla çalınan alət (kıçak), şaquli fleyta (quray) və sitraya (yatağan) təsadüf olunur.

**BARABÁN** – maşın, mexanizm və aparatlarda içiboş silindr, yaxud konus şəklində fırlanan detal. Müxtəlif texnoloji proseslərdə, məs., dənəvər materialların, bir sıra məhsulların, eləcə də yaş emaldan sonra toxuculuq mallarının qurudulmasında, dəri xammalının və xəzin yuyulmasında; tökmə məmulatların qəlib torpağından və tilişkələrdən təmizlənməsində tətbiq edilir. B. intiqallı olur və iş zamanı fırlanma, yaxud fırlanma-rəqsi hərəkət edir. Dövri və fasiləsiz işləyən növləri var. Müxtəlif maşınlarda B. konstruksiyanın əsas elementi olur: məs., metalkəsmə dəzgahlarının bölücü qurğularında (lazım olan bucağın fiksasiyası üçün), kürəcikli B.-dəyirmanlarda, buxar qazanlarında, qaldırıcı nəql. maşınlarında, konveyerlərdə (yükdaşıyan lenti saxlamaq və hərəkətə gətirmək üçün).

**BARABAN** – bax *Təbil*.

**BARABAN**, m e m a r l ı q d a – günbəzin bünövrəsini təşkil edən və binanın qübbəyə dayaqlanan silindrik, yaxud çoxüzlü yuxarı hissəsi. B.-da adətən işıq düşmək üçün pəncərələr açılır. Günbəzli məscidlər və kilsələr üçün xarakterikdir.

**BARABANLI DƏYİRMAN** – faydalı qazıntı və s. materialları xırdalamaq üçün içinə üyüdücü (narınlaşdırıcı) cismlər doldurulmuş fırlanan silindrdən (barabandan) ibarət maşın. Fırlanma zamanı üyüdücü cismlər mərkəzdənqaçma qüvvəsinin təsiri ilə, həmçinin bir-birinə və barabanın daxili örtüyünə sürtünməklə müəyyən hünd.-ə qalxıb düşərək B.d.-ın içindəki materialları xırdalayır və əzir. Üyüdücü cismlər kimi polad kürəciklər (kürəcikli B.d.), millər (milli B.d.), filiz qırıntıları və s. istifadə edilir. B.d. barabanın fırlanması, boşaldılma üsulları və üyütmə mühitindən asılı olaraq növlərə ayrılır. Barabanın konstruksiyası onun diametrinin uz.-na nisbəti ilə təyin edilir.

**BARABANLI QAZAN** – suyun təbii və ya ixtiyari sirkulyasiya olunduğu suborulu qazan. B.q.-ın bir, yaxud bir neçə polad barabanında (təzyiq altındakı silindrşəkilli polad tutum) su və buxarın ayrılma prosesi gedir. Bax *Buxar qazanı*.

**BARABANLI SOBA** – bax *Fırlanan soba*.

**BARÁBİNSK** – RF-nin Novosibirsk vil.-ndə şəhər. Barabinsk r-nunun mərkəzi. Əh. 31,7 min (2005). Baraba ovalığında, Om çayı sahilindədir. D.y. st. 1893 ildə Transsibir d.y.-nun tikintisi ilə əlaqədar stansiyaya yaxın Kainsk qəs. kimi salınmışdır. 1917 ildən B. ş.-dir. Diyarşünaslıq muzeyi, d.y. daşımaları üzrə xidmət sahələri, tikiş f-ki, qatışıq yem və balıq z-dları var.

**BARACİN**, B a r a ç i n – İranın Qəzvin ostanında kənd. Baracin şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Qəzvin ş.-ndən 9 *km* şm.-dadır.

**BARAXLI** – Tiflis qub.-nda Borçalı qəzasının Lori nahiyəsində (31.12.1937 ildən Noyemberyan r-nu), Tona (Debet) çayının sağ sahilində azərb.-ların yaşadığı kənd. 1930-cu illərdə kənd Ləmbəli sovetliyinin tərkibinə qatılaraq Debedavan adlandırılmışdır. Kəndin azərb. əhalisi 1988 il hadisələri zamanı qovulub kənddən çıxarılmışdır.

**BARAXUM** – Azərb. Resp. Xaçmaz r-nunun Uzunoba ə.d.-ndə kənd. R-n mərkəzindən 24 *km* şm.-da, Xəzər dənizindən 2 *km* aralıda yerləşir. Əh. 87 (2009); tərəvəzçilik, taxılçılıq və maldarlıqla məşğuldur.

**BARAK XAN** (? – 1427) – Qızıl Orda xanı [1425–27]. Cuci nəslindən Urus xanın nəvəsi, Kayırcaq xanın oğlu. Dayısı Mənsur Mirzənin dəstəyi ilə hakimiyyətə gəlmiş, bu zaman xan olan azyaşlı Kiçik Məhəmmədi Saray ş.-ndən sürgün etmişdir. Amansız xasiyyətə malik olan B.x. Mənsur Mirzəni qətlə yetirmiş, onun tərəfdarlarını və tabeliyində olan ailələri ölkənin ən əlverişsiz bölgəsinə sürgün etmişdir. Sərt qış və aclıq baş verməsi nəticəsində bu ailələrin böyük bir qismi qırılmışdır. Qaçmağa nail olanlar Kiçik Məhəmməd xanın və Mənsur Mirzənin qardaşı Novruz xanın himayəsinə keçir. Kiçik Məhəmməd xan və Novruz Mirzə B.x.-a qarşı üsyan qaldırmışlar. Qapanarası düzənliyində baş verən döyüşdə B.x. qardaşı Bölük Polad Sultanla məğlubiyyətə uğramış və hər ikisi öldürülmüşdür.

**BARAK XAN** S u l t a n Q i y a s ə d d i n (? –1271) – Cağatay xanı [1266–71]. Atası şahzadə Yisün-Tuva 1251 ildə Mengünün xan seçilməsinin əleyhinə olduğuna və ona qarşı sui-qəstdə iştirak etdiyinə görə edam edildikdən sonra B.x. qardaşları ilə birlikdə Qaraqoruma göndərilmişdi. 1266 ildə Cağatay ulusunda *Mübarək şah* taxta çıxmışdı. Böyük monqol hökmdarı Xubilay xan onu dəstəkləmədi və B.x.-a hakimiyyəti ələ keçirməsi üçün *yarlık* verərək *Mavəraünnəhrə* göndərdi. B.x. xan seçildi (1266), lakin onun fəaliyyəti Xubilay xanın Türküstanda apardığı mərkəzləşdirmə siyasətinə böyük zərbə vurdu. B.x. Cağatay ulusunun müstəqilliyini qorumaq uğrunda bəzi xanlarla müharibə aparmışdır. 1267 ildə baş verən döyüşdə Kaydu xana məğlub olmuş və Səmərqəndə çəkilmişdir. İmzalanan barışığın şərtlərinə görə Cağatay ulusunun idarəsi Kaydu xana, ulusun tərkibində olan Mavəraünnəhrin böyük hissəsinin idarəsi isə B.x.-a verilmişdi. Elxanilərə qarşı Kaydu xanla ittifaq bağlamış B.x. 1270 ildə Bədəxşan, Telekan, Şiberqan, Mərv və Mərvcik üzərinə yürüş etmiş, Abaqa xanı məğlubiyyətə uğradıb Nişapuru ələ keçirmişdi. 1270 ildə baş verən döyüşdə Kaydu xandan dəstək gecikdiyindən B.x. məğlub oldu. 1271 ildə Elxani ordusu Buxarayadək irəlilədi. Bu hadisələr zamanı B.x. müəmmalı şəkildə vəfat etmişdir. Ölümündən bir il öncə islam dinini qəbul edərək Sultan Qiyasəddin adını götürmüşdür.



Barama.

**BARAMA** – bir çox cücü pupları ətrafında qoruyucu törəmə. B., adətən, puplaşmadan əvvəl sürfələrin ifraz etdiyi ipək saplardan sarınır. Bir çox böcək sürfələri B.-nı puplaşma zamanı ifraz etdiyi selikdən düzəldir. Bəzi cücülərdə puplaşma sürfənin yaşadığı örtük daxilində baş verir. Bir çox qısabığcığlı dəyirmitikişlilərin (milçəklərin), həmçinin *aleyrodidlərin* yalançı B.-ları (yaxud puparilləri) qabıqqoymadan sonra qalan sürfə qabıqlarından ibarətdir. Yağış qurdları, zəlilər, hörümçəklər və bəzi molyusklar yumurta B.-ları əmələ gətirir ki, bunların da içində yumurtalar inkişaf edir.

**BARAMAAÇAN MAŞIN** – bax *Baramaaçma*.

**BARAMAAÇMA** – *baramadan* xam ipək sap alınmasının texnoloji üsulu. Bunun üçün növlərə ayrılmış baramalar buxara verilir, onların saplarını bir-birinə yapışdıran *serisin* yumşaldılır, sapların ucları tapılır və baramaaçan maşın-dəzgahda kələf halına salınır. Barama lifləri toxuculuq məmulatı hazırlamaq üçün çox nazik olduğundan bir neçə lif (3–10 və daha çox) birləşdirilir və serisinlə bir-birinə yapışdırılaraq kompleks xam ipək sap əldə edilir. Baramalardan ipək lifləri açmaq üçün b a r a m a d i d ə n m a ş ı n d a n, bir neçə baramadan ipək liflərini eyni zamanda açıb bir sap kimi sarımaq üçün b a r a m a a ç a n m a ş ı n d a n istifadə edilir. Azərb.-da Şəki, Ordubad ş.-lərində ipək kombinatları var.

**BARAMAQURDU** – bax *Tut ipəkqurdu*.

**BARAMİDZE** Aleksandr Georgiyeviç (27.3.1902, Lançxuti – 1994, Tbilisi) – gürcü ədəbiyyatşünası. Gürc. SSR EA akad. (1961). "Gürcü ədəbiyyatı tarixinə dair oçerklər" (c. 1–4, 1945–64), "David Quramişvili" (1955), "Şota Rustaveli və onun poeması" (1958), "Sulxan-Saba Orbeliani" (1959) və s. əsərlərin müəllifidir. Qədim gürcü müəlliflərinin əsərlərinin elmi-tənqidi mətnlərini nəşr etdirmişdir.

Ə s ə r l ə r i: Низами и грузинская литература. Труды Тбилисского Гос. Ун-та, т. 22, 1947; История грузинской литературы. Краткий очерк. Тбилиси, 1958 (Ş. Radiani və B. Jgenti ilə birlikdə).

**BÁRAN** Pol Aleksandr (8.12.1910, Rusiya, Nikolayev – 26.3.1964, Kaliforniya ştatı, Palo-Alto) – Amerika iqtisadçısı. Berlin (1932) və Harvard (1941) un-tlərini bitirmişdir. 1949 ildən Stanford Un-tinin prof.-u olmuşdur. 1953 ildə iki "iqtisadi bolluq" – potensial (mövcud texnoloji şəraitdə istehsal oluna bilən məhsulun həcmi ilə "zəruri istehlak adlandırıla bilən məhsul" arasındakı fərq) və real (cari istehsal buraxılışı ilə zəruri istehlak arasındakı fərq) bolluq konsepsiyasını irəli sürmüşdür. "Yüksəlişin siyasi-iqtisadı" (1957) kitabında "asılı inkişaf nəzəriyyəsi"nin əsasını qoymuşdur. B.-a görə, iqtisadi cəhətdən geridə qalmış ölkələrin imkanları imperializm sistemi daxilində ətalətli yoxsulluq ilə avtoritar dövlət sosializmi formasında sürətli sənayeləşmə arasındakı seçimlə məhdudlanır.

**BARANA**, İ n c ə s u – Tiflis qub.-nda Borçalı qəzasında Lori nahiyəsində (31.12.1937 ildən Noyemberyan r-nu) azərb.-ların yaşadığı kənd, 1971 ildən şəhər tipli qəs. Kəndin B. adı Qaraqoyunlu türklərinin B a r a n a, B a r a n l ı tayfa ittifaqının adından, İncəsu adı isə Kür çayının qolu olan İncə çayının adından yaranmışdır. 31.12.1937 ildə Ermənistan SSR-də Noyemberyan rayonu yaradılanda Barana kəndi onun inzibati mərkəzi seçilmiş, 4.1.1938 ildə adı dəyişdirilərək ərazisində yerləşdiyi r-nun adı (Noyemberyan) ilə adlandırılmışdır. 1988 il hadisələri zamanı qəsəbədəki azərb.-lar yenidən deportasiya edilmişlər.

**BARÁNAUSKAS** Antanas [17.1.1835, Anikşyay – 26.11.1902, Seynı (Polşa)] – Litva şairi, dilçi, katolik kilsəsi xadimi. Peterburq ruhani seminariyasını bitirmişdir (1862). Kaunas ruhani seminariyasının prof.-u (1866–84), yepiskop (1885–97) olmuşdur. Polyak və Litva dillərində şeirlər yazmışdır. Litva romantik poemasının yaradıcılarından biridir. Ən məşhur əsəri olan "Anikşyay meşəsi" (1858–59) poemasında məhv edilmiş meşə obrazı Litva xalqının iztirablarının fəciəvi simvoludur. B. folklor toplayıcısı, Litva dialektologiyasının banisidir. Litva dilinin qrammatikasının, dini mövzuda yazılmış əsərlərin müəllifidir.

Ə s ə r l ə r i: Rastai. Vilnius, 1970. T. 1–2.

**BARANÉTSKİ** Osip (İosif) Vasilyeviç (1843 – 20.4.1905, Kiyev) – rus fizioloqu və bitki anatomu. Peterburq EA-nın m. üzvü (1897). Peterburq Un-tini bitirmişdir (1867). A.S. *Famintsının* şagirdi. 1873 ildən Kiyev Un-tinin prof.-u olmuşdur. Şibyə qonidiləri ilə sərbəst yaşayan yosunların eyniliyini göstərmişdir (1867, A.S. Famintsınla birlikdə). Bitkilərdə osmos hadisəsini, ot bitkilərində dövri "ağlama"nın səbəblərini, transpirasiyanın işıqlanmadan və mexaniki təsirlərdən asılılığını, gövdələrin böyümə konuslarında sabit toxumaların əmələ gəlməsini və s. öyrənmişdir. Bəzi fizioloji cihazları (osmometr, auksanometr) yaratmış və təkmilləşdirmişdir.

**BARANİ**, Z i y a ə d d i n i b n M ü ə y y i d ə l - M ü l k ə l - B a r a n i (təqr. 1285–1357, Qiyaspur) – Hindistan tarixçisi. Dehli sultanı Məhəmməd Tuqlaqın [1325–51] müşaviri olmuşdur. Firuz şah Tuqlaqın [1351–88] hakimiyyəti dövründə etibarını itirmiş və saraydan uzaqlaşdırılmışdır. B.-nin "Tarix-i Firuzşahi" əsəri Dehli sultanı Qiyasəddin *Balbanın* hakimiyyəti dövründən III Firuz şahın hakimiyyətinin altıncı ilinədək baş verən hadisələri əhatə edir. Əsər Seyid Əhməd xan tərəfindən 1862 ildə Kəlkətədə nəşr edilmişdir; bəzi bölmələri ingilis dilinə tərcümə olunmuşdur. B.-nin ikinci əsəri "Fitva-yi Cahandari" də hökmdarlara nəsihət məqsədilə yazılmışdır, əvvəlki şahların həyatından, xüsusilə islamaqədərki dövrdə İranda baş verən hadisələrdən bəhs edir. Əsərin Britaniya muzeyinin kitabxanasında saxlanılan yeganə əlyazma nüsxəsi A. Səlim tərəfindən 1957 ildə Lahorda çap olunmuşdur. B. naməlum müəllif tərəfindən *Bərməkilər* haqqında yazılan "Əxbar-i Bərməkiyan" əsərini 1354 ildə ərəb dilindən fars dilinə çevirmiş və Firuz şah Tuqluqa ithaf etmişdir. Əsər 1889 ildə "Tarix-i Ali Bərməkiyyan" adı ilə Bombeydə nəşr olunmuşdur. B.-nin "Nat-ı Məhəmmədi" əsərinin yeganə əlyazması Rampur Rza kitabxanasında saxlanılır. B.-nin "Salat-ı Kəbir", "İnayətnamə-i İlahi", "Məasir-i Sadat", "Həsrətnamə", "Lübbüt tarix" əsərləri də məlumdur.

**BÁRANİ** (Barany) Robert (22.4.1876, Vyana – 8.4.1936, Upsala) – Avstriya otorinolarinqoloqu. Nobel mükafatı laureatı (1914). A. *Politserin* şagirdidir. Vyana Un-tini bitirmişdir (1900). 1903 ildən həmin un-tin qulaq xəstəlikləri klinikasında (1909 ildən dosent) işləmişdir. 1914 ildə könüllü olaraq Peremışl qalasına hərbi həkim göndərilmiş, 1915 ildə əsir düşmüşdür. Türküstanda düşərgədə olarkən ona Nobel mükafatı verilməsi xəbərini eşitmişdir. Azad edildikdən sonra 1917 ildən ömrünün sonuna kimi Upsala ş.-dəki (İsveç) un-tin otorinolarinqologiya kafedrasının müdiri olmuşdur.



Əsas əsərləri vestibulyar aparatın fiziologiya və patologiyasına, onun onurğa beyni mərkəzləri və beyinciklə əlaqələrinə həsr olunmuşdur. Vestibulyar aparatın öyrənilməsi üçün öz adı ilə adlandırılan çoxlu cihaz və metodikalar [fırlanan kreslo, burğu, kalori sınağı (1906) və s.] təklif etmişdir. Bütün bunlar ilk dəfə olaraq dəniz xəstəliyinin patogenezini izah etməyə və daxili qulağın hər bir yarımdairəvi kanalının ayrıca funksiyasını ayrılıqda öyrənməyə, onun xəstəliklərinin diaqnostikasının təkmilləşməsinə imkan yaratmışdır.

**BARANİLƏR** – qaraqoyunlu tayfa ittifaqı. Orta əsr Şərq mənbələrində "Barani", yaxud "Baranlu" kimi işlədilən bu terminin etimologiyası müəyyənləşdirilməmişdir. Bəzi tədqiqatçılar (İ. Artuk və F. Sumer) B. adının qədim türk dilindəki "baran" ("qoç") sözündən, digərləri isə (V. Minorski, Q. Rabinot və b.) yer adından yarandığını göstərirlər. Cəlairilər dövrünə aid tapılmış bir sikkə üzərində "Baran şəhəri" yazılmışdır. Ehtimala görə, həmin şəhər Anadoluda mövcud olmuşdur. Hazırda Türkiyədə Baran adlı iki kənd var.

**BARANLU** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Üskü bölgəsinin Xosrovşah kəndistanında, Üskü qəs.-ndən 9 *km* şm.-q.-dədir.

**BARÁNNİKOV** Aleksey Petroviç (21.3.1890, indiki Çerkassı vil.-nin Zolotonoşa ş. – 5.9.1952, Leninqrad) – rus hindşünası. SSRİ EA akad. (1939). Kiyev Un-tini bitirmişdir (1914). 1916 ildən Rusiyanın müxtəlif ali məktəblərində dərs demiş, Leninqrad Dövlət Un-tinin prof.-u (1922 ildən) olmuşdur. 1938–40 illərdə SSRİ EA Şərqşünaslıq İn-tunun direktoru işləmişdir. Qədim və yeni hind dillərini (bax *Hind-ari dilləri*), həmçinin hind ədəbiyyatını tədqiq etmişdir. Lallu ci Lalın "Prem-saqar" (1937), *Tulsidasın* "Ramayana" poemasını (1948) və s. əsərləri rus dilinə tərcümə etmişdir. Qaraçıların dilinə, məişətinə, folkloruna və onların öyrənilməsi tarixinə dair əsərlərin müəllifidir.

Əsəri: Индийская филология. Литературоведение. M., 1959 (P.A. Barannikovla birlikdə).

**BARÁNOV ADASI** (Sitka) – Aleksandr arxipelaqında ada; ABŞ (Alyaska ştatı) ərazisidir. Sah. 4,2 min $km^2$. İynəyarpaqlı meşələrlə örtülüdür. Balıq ovlanır, ağac tədarük edilir. Əsas yaşayış məntəqəsi və portu Sitka (1804–67 illərdə Novoarxangelsk, 1808–67 illərdə Rus Amerikasının mərkəzi olmuşdur) ş.-dir. Rus taciri və sahibkarı A.A. Baranovun şərəfinə adlandırılmışdır.

**BARANOVA** (Kozıreva) Lyubov Vladimirovna (d.27.8.1929, Leninqrad vil.-nin Buqrı qəs.) – Rusiya idmançısı. Xizək idmanı üzrə SSRİ əməkdar idman ustası (1954). Qış Olimpiya Oyunları (1956, 10 *km*), dördqat dünya (1954, 10 *km* və 3×5 *km* estafet; 1958 və 1962 ildə estafet), müxtəlif məsafələrdə SSRİ (1950–58) çempionu, Qış Olimpiya Oyunlarının gümüş (1956, 3×5 *km* estafet; 1960, 10 *km* və estafet) mükafatçısı olmuşdur.

**BARÁNOVİÇİ** – Belarus Resp.-nın Brest vil.-ndə şəhər. Şara və Mışanka çayları arasındadır. Əh. 168,8 min (2005). Avtomobil və dəmir yolları qovşağı. 19 əsrin sonunda Rozvadovo (1971 ildə Moskva–Brest d.y.-nın Baranoviçi st. yaxınlığında salınmış) və Yeni Baranoviçi (1884 ildə Vilnüs-Rovno d.y.-nun Baranoviçi st. yaxınlığında salınmışdır) qəs.-lərinin birləşməsindən yaranmışdır. 1919 ildən şəhərdir. 1921–39 illərdə Polşanın, 1939 ildən SSRİ-nin tərkibində, 1939–54 illərdə Bel. SSR-də vil. mərkəzi olmuşdur. Diyarşünaslıq muzeyi; maşınqayırma, şüşə, yüngül və yeyinti sənayesi müəssisələri var.

**BARÁNOV-ROSSİNÉ** (əsl soyadı Baranov) Vladimir (Şulim-Volf, Leyb-Leonid) Davidoviç (13.1.1888, Tavriya qub.-nın Böyük Lepatixa k. – 1944) – rus boyakarı, heykəltəraş. Odessa rəssamlıq məktəbini bitirmişdir (1908). 1908–09 illərdə Peterburq Rəssamlıq Akademiyasında təhsil almışdır. 1910 ildə Parisə getmiş, P. *Sezannın* yaradıcılığı və yeni cərəyanlarla maraqlanmışdır. Sonralar *kubizmə* keçmiş, onu *kubofuturizmin* üsulları və *orfizmin* kolorist kəşfləri ilə birləşdirmişdir. A. *Arxipenko* və N. *Qabonun* kəşflərini qabaqlayaraq, 1913 ildə "Simfoniya №1" adlı ("Ritm", Müasir İncəsənət Muzeyi, Nyu-York) hərəkət edən abstrakt heykəltəraşlıq əsərini yaratmışdır. 1915–17 illərdə Norveçdə işləmiş, E. *Munkun* təsiri altına düşmüşdür. Məişət səhnələri və peyzajlar ("Fiord Xristianiya", 1915; Dövlət Rus Muzeyi), portretlər (rəs. İ.F. Kolesnikovun, yenə orada) çəkmişdir. 1917 ilin fevralında Rusiyaya qayıtdıqdan sonra rəssamlıqda inqilabi mövzuya müraciət etmişdir ("Repressiya" və s.); A.N. *Skryabinin* işıq-musiqi ideyalarını inkişaf etdirərək, hər səsi ekranda – "xromotronda" müəyyən rəngli təsvirlə müşayiət olunan klavişli "optofon" alətini icad etmişdir. 1925 ildən Parisdə yaşamış, *Paris məktəbinin* əsas nümayəndələrindən biri olmuşdur. 1930-cu illərdə *Mobius vərəqindən* istifadə edərək, rəngkarlıq və heykəltəraşlıqda plastik prinsipi işləyib hazırlamış, müxtəlif materiallardan çoxrəngli abstrakt konstruksiyalar yaratmışdır. 1943 ildə Parisdə işğalçı hakimiyyət orqanları tərəfindən həbs edilmişdir; ölüm düşərgəsində həlak olmuşdur.

**BARÁNSKİ** Nikolay Nikolayeviç (27.7.1881, Tomsk – 29.11.1963, Moskva) – rus coğrafiyaşünası, SSRİ EA m. üzvü (1939), SSRİ Dövlət mükafatı laureatı (1952), Sosialist Əməyi Qəhrəmanı (1962).



1897 ildən inqilabi hərəkata qoşulmuşdur (1901 ildə siyasi tətillərdə iştirakına görə Tomsk Un-tindən xaric edilmişdir). RSDFP-nin Tammerfors konfransında (1905) iştirak etmişdir; dəfələrlə həbs olunmuşdur. 1914 ildə Moskva Kommersiya İn-tunu bitirmişdir. 1918 ildən iqtisadi coğrafiya ilə məşğul olmuşdur. Moskva Un-tində iqtisadi coğrafiya kafedrasını yaratmışdır. B. sovet iqtisadi coğrafiyasında ölkəşünaslıq, şəhərlərin coğrafiyası, iqtisadi kartoqrafiya kimi yeni sahələrin əsasını qoymuşdur. İqtisadi coğrafiyanın tədrisi metodikasını yaratmışdır; SSRİ-nin iqtisadi coğrafiyasına dair ilk məktəb dərsliyinin müəllifidir. 3 dəfə Lenin ordeni ilə təltif edilmişdir.

Əsərləri: Экономическая география. Экономическая картография. 2-е изд. М., 1960; Методика преподавания экономической географии. М., 1960; Научные принципы географии: Избр. труды. М., 1980.

**BÁRANYA** – Macarıstanın c.-q.-ində medye. Dunay və Drava çayları arasındadır. Sah. 4,4 min $km^2$. Əh. 396,3 min (2006). İnz. m. Peç ş.-dir. Şm.-ı meşələrlə örtülü dağlar, c.-u və ş.-i düzənliklərdir. Aralıq dənizi iqlimi, termal bulaqları var. B. sənaye-aqrar r.-nudur. Əsas sənaye sahəsi kokslaşan daş kömür hasilatıdır. Dəri-ayaqqabı, yeyinti, tütün, çini, ağac emalı, metal emalı sənayesi; İES var. Buğda, qarğıdalı, arpa əkilir. Donuz, ətlik-südlük qaramal yetişdirilir. Mühüm portu Moxaçdır (Dunay çayında).



Barasinqa (Cervus duvaucelii).

**BARASİNQA** (Cervus duvaucelii) – maralkimilər fəsiləsindən məməli heyvan. Bədəninin uz. təqr. 180 *sm*, quyruğu 12–20 *sm*, cidov hünd. 115 *sm*-ədək, kütləsi 280 *kq*-adək olur. Rəngi kəhrəba kimi sarı, yaxud qızılı, bəzən aydın olmayan açıq ləkəlidir. Erkəklərinin uzun gözüstü çıxıntıları, əyri gövdəsi olan, uclarında tac kimi şaxələnən iri yaraşıqlı buynuzları var. Tükü cod və islanmayandır. Mərkəzi və Şimal-Şərqi Hindistanda yayılmışdır; Avstraliyada iqlimə uyğunlaşdırılmışdır. Bataqlıq savannalarda yaşayır, xüsusi quruluşlu dırnaqları geniş açıldığından bataq yerlərdə asan gəzə bilir. Gündüzlər fəal olur. Bataqlıq-çəmən bitkiləri ilə qidalanır. Kiçik qruplarla (3–5 baş) gəzir. Erkəklər hövrəyəgəlmə dövründə böyürür, lakin döyüşmür. İl boyu çoxala bilir. 1 bala doğur. İnsanların bataqlıq sahələrdən istifadəsi və ovlanma nəticəsində B. hər yerdə azalmışdır. BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

**BARATAŞVİLİ** Nikoloz Melitonoviç (27.12.1817, Tiflis – 21.10. 1845, Yelizavetpol, indiki Gəncə) – gürcü şairi. Yoxsullaşmış zadəgan ailəsindəndir. Tiflis zadəgan məktəbini bitirmişdir (1835). Tiflisdə məhkəmə məmuru işləmiş, 1844 ildən Naxçıvanda, sonralar Gəncədə qəza rəisinin köməkçisi olmuşdur. Burada malyariyadan vəfat etmişdir. 1893 ildə B.-nin cənazəsi vətəninə gətirilmiş və Tiflis gürcü yazıçılarının panteonunda dəfn edilmişdir (1938 ildə Mtasminda dağındakı panteona köçürülmüşdür). B. 1840-cı illərin əvvəllərində şair kimi şöhrət qazansa da, şeirləri ilk dəfə yalnız 1852 ildə çap olunmuşdur. Onun həcmcə çox





da böyük olmayan yaradıcılıq irsi (təqr. 40 şeir və bir poema) gürcü *romantizminin* zirvəsini təşkil edir.



B.-nin fəlsəfi və lirik şeirlərində ("Mtasmindada toran", 1833–36; "Kür sahilində düşüncə", 1837; "Yalqız ürək", 1839; "Səma rəngi, göy rəng...", 1841; "Merani", 1842; "Qəzəbli ruh", 1843 və s.) kədər, tənhalıq, iztirab, zəmanədən şikayət motivləri ilə yanaşı, gələcəyə inam da əks olunmuşdur. B. "Gürcüstanın taleyi" (1839) tarixi poemasında İran şahı Ağa Məhəmməd şah Qacarın qoşunlarının Tiflisə hücumunu (1795) təsvir etmişdir. Gürcü şeirinin poetikasına ahəngdarlıq gətirən B. onu təzələmişdir.

Naxçıvanda olarkən gənc şairə Qönçəbəyimlə tanış olmuş, yaradıcılığı ilə maraqlanmış, ona şeir ("Qönçəbəyimin nəğməsi") həsr etmiş, bəzi şeirlərini gürcü dilinə çevirmişdir. Azərb. mövzusunda şeirləri ("Gəncə hönkürtüləri", "Nizami", "Son gecə" və s.) var. Şeirləri Azərb. dilinə tərcümə olunmuşdur. Azərb. musiqisini sevmişdir. Gəncədə ev-muzeyi yaradılmışdır.

Əsərləri: Судьба Грузии. М., 1983; Стихи, поэма. Тб., 1988.

**BÁRAT-DÁYA** (Barat Daja), Cənub-Qərb adaları – İndoneziyanın c.-ş.-ində, Kiçik Zond a-rı qrupunda arxipelaq. Böyük a-rı: Vetar, Romanq, Damar. Sah. təqr. 7 min $km^2$. Relyefi dağlıqdır; hünd. 1412 *m*-ədək (Vetar a.-nda). Fəaliyyətdə olan vulkanlar var. Savanna landşaftları üstünlük təşkil edir. Tropik əkinçilik inkişaf etmişdir. Balıq ovlanır. Əsas yaşayış məntəqələri: İlvaki, Lioppa, Arvala.

**BARATINSKİ** (təxəllüsü; əsl soyadı Boratınski) Yevgeni Abramoviç (3.3.1800, Tambov qub.-sı, Vyajlya k. – 11.7.1844, Neapol; S.-Peterburqda dəfn edilmişdir) – rus şairi. Peterburq paj korpusunda (1812–16) tərbiyə olunmuşdur. A.S. Puşkinlə dostluq etmişdir. İlk şeiri ("Madriqal. Hələ də çox gözəl yaşlı qadına") 1819 ildə çap olunmuşdur. 1826 ildən Moskvada yaşamış, ədəbi fəaliyyətini davam etdirərək dörd poema ("Eda", "Ziyafətlər", hər ikisi 1826; "Bal", 1828; "Kəniz", 1831, sonrakı redaksiyada "Qaraçı qız") və eyni adda iki toplu ("Yevgeni Baratınskinin şeirləri", 1827; 1835) çap etdirmişdir. "Toran. Yevgeni Baratınskinin əsəri" (1842) kitabında 26 şeiri nəşr olunmuşdur ("Sonuncu şair", 1835; "Payız", 1837; "Əlamətlər", 1840; "Heykəltəraş", 1841 və s.). B.-nin 1830-cu illərin 2-ci yarısı – 1840-cı illərin əvvəllərində yazdığı bəzi şeirləri ("Yarımçıq", "Daim həm purpurda, həm də zərdə...", "Hələ Patriarx kimi çox qoca deyiləm mən; mənim...") o dövrün poetikasına xas olmayan xüsusiyyətləri ilə seçilir. 1843 ildə ailəsi ilə birgə səyahətə getmiş və Neapolda qəflətən vəfat etmişdir. "Piroskaf" (1844) adlı son şeirində B.-nin yaradıcılığı üçün xarakterik olmayan nikbin əhvali-ruhiyyə əks olunmuşdur.

Əsəri: Стихотворения. Поэмы. М., 1982.

**BARÁTRİYA** (ing. *barratry*), dəniz hüququnda – yük və gəmiyə və ya yükə kapitan, yaxud heyət tərəfindən qəsdən zərər vurulması; B. riski sığorta olunur.

**BARATZADƏ** Zülfüqar Yaqub oğlu (8.7.1931, Gəncə – 11.2.1991, Gəncə) – Azərb. aktyoru, Azərb. SSR. xalq artisti (1981).



1949–91 illərdə C. Cabbarlı ad. Gəncə Dövlət Dram Teatrında fəaliyyət göstərmişdir. Səhnədə ilk dəfə Ernando ("Hiyləgər sevgili", Lope de Veqa) rolunda çıxış etmişdir. B., əsasən, xarakter rolların ifaçısı olmuş, Mindilli ("Nişanlı qız", S. Rəhman) obrazı ilə geniş şöhrət qazanmışdır. Digər rolları: Mirzə Səməndər ("Almaz", C. Cabbarlı), Əliqulu ("Əliqulu evlənir", S.Rəhman), Dinar ("Yadındamı?", A. Məmmədov), Şimşan ("Dəli Domrul", A. Məmmədov; "Kitabi-Dədə Qorqud" dastanı üzrə), Ata ("Astana", A.Dudarev) və s. B. eyni zamanda Gəncədə bədii özfəaliyyət kollektivlərinə (dram, rəqs, sazçı qızlar ansamblı) rəhbərlik etmişdir.

**BARÁYEV** Aleksandr İvanoviç (16.7. 1908, S.-Peterburq – 8.9.1985, Qazaxıstan, Selinoqrad vil.-nin Şortandı qəs.) – rus aqronomu, Ümumittifaq Kənd Təsərrüfatı Elmləri Akademiyasının akad. (1966), Lenin mükafatı laureatı (1972), Sosialist Əməyi Qəhrəmanı (1980). Xam torpaqların şumlanması nəticəsində Qazaxıstanın və Qərbi Sibirin çöl r-nlarında külək eroziyasının sürətli inkişafı ilə əlaqədar 1960-cı illərdə yaxınlaşmaqda olan ekoloji fəlakətin qarşısını alan torpaqqoruyucu sistem onun rəhbərliyi ilə yaradılmışdır.



**BARAZ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Əcəbşir bölgəsinin Dizcərud kəndistanında, Əcəbşir qəs.-ndən 26 *km* şm.-ş.-dədir.

**BÁRBA** Eucenio (d. 29.10.1936, İtaliya, Brindizi) – italyan rejissoru, pedaqoq. 1950-ci illərin ortalarında Norveçə mühacirət etmiş, Oslo Un-tinə daxil olmuşdur. 1960 ildən Varşava Teatr Məktəbində oxumuşdur. 1962–64 illərdə "13 sıra teatr-laboratoriyası"nda (Opole ş.) stajor və Y. *Qrotovskinin* assistenti olmuşdur. 1964 ildə Norveçə qayıtdıqdan sonra "Tək-teatr"ı təsis etmişdir (1966 ildə Danimarkanın Holstebro ş.-nə köçürülmüş və teatr-laboratoriya statusu almışdır). Quruluş verdiyi tamaşalar arasında "Ornitofil" (1965), "Kaspariana" (1967), "Rəqslər kitabı", (1974), "Gəl və gün bizim olacaq" (1976), "Brextin külü" (1982), "Talabot" (1988), "Holstebro qəsri" (1990), "Miflər" (1998) və s. var. B. teatr pedaqogikasına, aktyor – rəqqas – müğənninin fiziki və vokal məşqlərinə böyük əhəmiyyət verirdi; Qrotovski, K.S. *Stanislavski*, V.E. *Meyerxold*, B. *Brext*, T.*Delsart* və E. *Dekrunun* təcrübələrini sintez edərək, Çin operası, *kabuki* yapon teatrı, *katakhali* hind teatrı və digər Şərq məktəblərinin ənənələrinə əsaslanaraq özünün xüsusi sistemini yaratmışdır.

1979 ildə aktyor texnikasının əsaslarının tədqiqi ilə məşğul olan və antropoloqları, bioloqları, psixoloqları, teatrşünasları, pedaqoqları və s. birləşdirən Beynəlxalq teatr antropologiyası məktəbinin (İSTA) əsasını qoymuşdur. B. dünyanın bir çox dilinə tərcümə edilmiş nəzəri əsərlərin müəllifidir.

## BARBÁDOS

### Ümumi məlumat

Mərkəzi Amerikada, Vest-Hinddə dövlət. Kiçik Antil a-rı qrupunda eyniadlı adada yerləşir. Şm.-dan c.-a maks. uz. 34 *km*, q.-dən ş.-ə 22 *km*-dir. Sah. 431 $km^2$. Əh. 272 min (2005). Paytaxtı və mühüm portu Brictaun ş.-dir. Rəsmi dil






ingilis dili, pul vahidi Barbados dollarıdır. İnz. cəhətdən 11 prixoda (rayona) bölünür.

BMT-nin (1966), ADT-nin (1967), BVF-nin (1970), KARİKOM-un (1973) ÜTT-nin (1995), Karib Ölkələri Assosiasiyasının (1995) üzvüdür.

**Dövlət quruluşu**

B. *Birliyə* daxil olan unitar dövlətdir. Konstitusiyası 22.11.1966 ildə qəbul olunmuşdur. İdarəetmə forması parlament respublikasıdır; formal olaraq konstitusiyalı monarxiya saxlanılır.

Dövlət başçısı B.Britaniya kralıdır; onu gen.-qubernator təmsil edir.

Qanunverici hakimiyyət Məclis palatasından (28 deputat ümumi birbaşa səsvermə yolu ilə 5 il müddətinə seçilir) və Senatdan (21 üzv gen.-qubernator tərəfindən təyin edilir) ibarət ikipalatalı parlamentə məxsusdur; 12 senator baş nazirin tövsiyəsi, 2 senator müxalifət liderinin




məsləhəti, digərləri isə gen.-qubernatorun öz seçimi ilə təyin olunur.

İcraedici hakimiyyəti baş nazir (adətən, Məclis palatasında çoxluq əldə etmiş partiyanın lideri) başda olmaqla hökumət həyata keçirir; baş naziri gen.-qubernator təyin edir. Baş nazirin formalaşdırdığı hökuməti gen.-qubernator təsdiqləyir.

B.-da ikipartiyalı sistem formalaşmışdır: Barbados leyborist partiyası və Demokratik leyborist partiyası.

**Təbiət**

Mərcan mənşəli adadır; bəzi yerlərdə mərcan rifləri ilə əhatə olunmuşdur. Səthi terraslarla sahildən mərkəzə doğru maili surətdə 340 *m*-ədək (Hillabi d. – B.-un ən yüksək nöqtəsi) qalxır. Çökmə süxurlardan, əsasən, əhəngdaşılardan ibarətdir. Təqr. bütün sahil boyu enli qumlu plyaj zolağı uzanır; şm.-ş. sahili okeana doğru sıldırım şəkildə enir. Karst (mağaralar, yeraltı çaylar və göllər) inkişaf etmişdir. İqlimi tropik passatdır. Orta temp-r ən isti ayda (sentyabr) 27°C, ən soyuq ayda (fevral) 25°C-dir. İllik yağıntı 1400 *mm*-ədək; iyundan noyabra kimi yağış mövsümüdür. Tez-tez fırtınalar olur. Bir neçə qısa çayı var. C.-unda bataqlıqlara rast gəlinir.

Qəhvəyi-qırmızı lateritləşmiş torpaqlar yayılmışdır. Mədəni landşaftlar üstünlük təşkil edir. Sahillərində kiçik sahələrdə tropik bitkilər qalmışdır. Qırmızı ağaca, kokos və kral palmasına rast gəlinir. Əfsanəyə görə, adada çətiri saqqala bənzəyən əncir ağacı çox olduğundan Portuqaliya dəniz səyyahları adanı "Os Barbados" ("saqqallılar") adlandırmışdılar. Heyvanlardan manqust (introduksiya edilmişdir), tısbağa, gəmiricilər; quşlardan kolibri, göyərçin, freqat, qutan məskunlaşmışdır; sahil sularında makrel, skumbriya, uçan balıq (adanın simvolu), xərçəngkimilər yaşayır. B.-da milli park statusu almış Barbados dəniz rezervatı (mərcan rifləri ekosisteminin mühafizəsi) vardır.

**Əhali**

B. əhalisinin 87–92%-ini Vest-Hind zənciləri, 3–6%-ini mulatlar (becen adlanan kreol dilində danışırlar), 4%-dən çoxunu B.Britaniyadan gələnlər, 1%-dən çoxunu ABŞ amerikalıları təşkil edir; hindlilər, pakistanlılar, çinlilər, yəhudilər də var. Doğum səviyyəsi (1000 nəfərə 12,2 nəfər; 2000–05) ölüm səviyyəsini (7,8 nəfər) üstələyir; uşaq ölümü 1000 nəfər diri doğulana 10,9 nəfərdir. Orta ömür səviyyəsi 77,2 ildir (kişilərdə 74,5, qadınlarda 79,5). Adanın qərbindəki küləktutmayan hissə daha sıx məskunlaşmışdır. Şəhər əhalisi 52,9%-dir (2005). Dindarları, əsasən, xristiandır. Ölkədə həmçinin müsəlman, hinduist, buddist və bəhai icmaları mövcuddur.

**Tarixi oçerk**

B.-un hindi *aravaklar* tərəfindən məskunlaşması eramızın 1-ci minilliyinin əvvəllərinə aid olunur. Sonralar aravakları 16 əsrin əvvəllərində adanın avropalılar tərəfindən kəşfinədək nəsil-tayfa münasibətlərini saxlayan *kariblilər* sıxışdırmışlar. B. torpağına avropalılardan ilk gələn portuqallar (1563) adadan Braziliya sahillərinə üzən gəmilərin tranzit dayanacağı kimi istifadə etməyə çalışırdılar. Adanı iqtisadi cəhətdən 1627 ildə ingilislər mənimsəməyə başladılar. 1639 ildə kolonistlər B.-da Qanunverici assambleya təşkil etdilər. 1652 ildə O. Kromvel B. konstitusiyasının əsasını qoyan Kapitulyasiya maddələrini imzalamağa razılaşdı. B.-da tütün yetişdirməyə başlamış ingilislər böyük gəlir əldə edə bilmədikləri üçün 17 əsrin ortalarından onu şəkər qamışı ilə əvəzlədilər. Beləliklə, ada şəkər və rom (ilk dəfə bu içkinin adı 1650 ildə B.-dan göndərilən bir məktubda qeyd olunmuşdur) istehsal edən əsas mərkəzlərdən birinə çevrilmişdir. B.-dakı plantasiyalarda, əsasən, Afrikadan gətirilən qullar işləyirdi. Nəticədə B.-da zənci əhali üstünlük təşkil etməyə başladı. 1816 ildə adada baş verən qulların üsyanı (Bussanın üsyanı) hökumət tərəfindən qəddarcasına yatırıldı. 1834 ildə quldarlığın ləğvi (4 illik keçid dövrü ilə) plantatorların torpaqlarında cüzi əməkhaqqı müqabilində çalışan işçilərin vəziyyətini bir o qədər yaxşılaşdırmadı. Britaniya hökuməti tərəfindən qəndə tətbiq olunan himayəçi rüsumların ləğvi (1846) nəticəsində yaranan maliyyə-iqtisadi böhran plantatorların da vəziyyətini çətinləşdirmişdi; onların müflisləşməsi işsizliyin artması və əhalinin yoxsullaşması ilə müşayiət olunurdu. Sosial gərginliyin artması 1876 il üsyanına gətirib çıxardı, üsyançıların əsas məqsədlərindən biri B.-un qonşu adalarla müstəqil federasiyasının yaradılması idi.

1930-cu illərdən B.-un milli istiqlaliyyəti uğrundakı mübarizədə fəhlə və həmkarlar ittifaqları hərəkatı mühüm rol oynayırdı. 1940-cı illərin əvvəllərində fəhlə liderlərindən biri V. Krouford ümumi seçki hüququ və milli azadlıq şüarlarını təbliğ edən Vest-Hind Milli Konqresi siyasi təşkilatını yaratdı. 1938 ildə yaradılan Barbados leyborist partiyası (BLP) milli hərəkata başçılıq edirdi, onun rəhbəri Q.H. Adams isə tezliklə adada ən nüfuzlu siyasətçilərdən birinə çevrildi. Leyboristlər və onların müttəfiqləri 1948 ildə daxili özünüidarəetmə elementlərinin, 1950 ildə isə ümumi seçki hüququnun tətbiqinə nail oldular. 1954 ildə B. Britaniya adada nazirlər kabinetinin yaradılmasına razılıq verdi və B.-un ilk baş naziri Q.H. Adams oldu. Onun fəaliyyəti B.-un siyasi modernləşdirilməsinə şərait yaratdı, lakin sosial-iqtisadi sahə ləng inkişaf edirdi. 1955 ildə BLP parçalandı və E.U. Barrounun rəhbərlik etdiyi siyasətçilər qrupu ondan ayrılaraq yeni partiyanı – Demokratik leyborist partiyasını (DLP) formalaşdırdı.

B. 1958 ildə B.Britaniya tərəfindən yaradılan və Karib dənizindəki Britaniya mülklərini birləşdirən *Vest-Hind federasiyasının* tərkibinə daxil oldu. 1966 il noyabrın 30-da ölkənin müstəqilliyi elan olundu. Adada ingilis tipli ikipartiyalı sistem formalaşdı: 1961–76 illərdə ölkəyə E.U. Barrou (DLP), 1976–85 illərdə C. Adams (BLP) rəhbərlik etmiş, 1986–94 illərdə DLP hakimiyyətdə olmuş (1986 87 illərdə baş nazir Barrou, onun ölümündən 1994 ilədək L. Erskin Sandiford), 1994 ildə Ouen Artur (BLP) baş nazir seçilmişdi. 14 il ölkəni idarə edən BLP-ni 2008 ildə keçirilən seçkilərdə qalib gələn DLP əvəz etdi. Ölkənin baş naziri D. Tompson oldu. 2010 ildə onun ölümündən sonra müavini F.C. Stüart B.-un baş naziri vəzifəsini tutdu. 1968 ildə B. Azad Ticarətin Karib Assosiasiyasının (KARİFTA) yaradılmasında iştirak etdi. 1973 ildə bu təşkilatın əsasında iştirakçı dövlətlər arasında gömrük maneəsini aradan qaldıran və digər ölkələrdən gətirilən mallara vahid rüsumlar tətbiq edən Karib birliyi və Karib ümumi bazarı (KARİKOM) yarandı. 1995 ildə B. azad ticarətin iri regional zonasının yaradılması məqsədi daşıyan Karib Ölkələri Assosiasiyasına qoşuldu.

**Təsərrüfatı**

ÜDM 4,57 mlrd. ABŞ dolları təşkil edir (2004). ÜDM-in 88,7%-i xidmət sferasında, 7,1%-i sənayedə, 4,2%-i k. t.-nda yaradılır (2001). İqtisadi fəal əhali 128,5 min nəfərdir (2001), onların təqr. 75%-i xidmət sferasında, 15%-i sənayedə, 10%-i k.t.-ndadır (20 əsrin sonu). İşsizlik səviyyəsi 10,7%-dir (2003).

İqtisadiyyatın əsasını xarici turizm (2002 ildə B.-a təqr. 0,5 mln. nəfər gəlmişdir, 2001 ildə gəlir 687 mln. dollar təşkil etmişdir) təşkil edir. Kurortların çoxu a.-nın qərb və cənub sahilində yerləşir. Turizmin əsas növləri: dəniz, su idmanı (dayvinq, su xizəyi və s.), toy turizmi (toy mərasimlərinin, bal ayının ənənəvi keçirilməsi), speleoturizm, etnoqrafik turizm. Ofşor biznesi (cəmi 7,5 mindən artıq ofşor şirkəti qeydiyyatdan keçirilmişdir, onlardan təqr. 450-si sığorta şirkətidir) inkişaf edir. B. (Yamayka ilə yanaşı) Qərb yarımkürəsində informasiyanın emalı xidmətlərinin (müxtəlif növ uçotun, o cümlədən mühasibat və maliyyə uçotunun aparılması, verilənlərin və mətnin kompyuter formalarına daxil edilməsi, sığorta sənədlərinin işlənməsi, verilənlərin arxivləşdirilməsi, verilənlər bazasının yaradılması və s., əsasən, ABŞ şirkətləri üçün; 21 əsrin əvvəlində proqram təminatının işlənib hazırlanması daha böyük əhəmiyyət kəsb edir) ən mühüm mərkəzlərindəndir. Vergi güzəştləri və xarici gəmilərin qeydiyyatı üzrə xidmətlərin mövcud olması nəticəsində B.-un ticarət donanmasına 50-dən artıq gəmi (su basımı 1000 *req. br.-t*-dan artıq) aid edilmişdir. Onlardan 17-si Norveç, 12-si Kanada, 11-i

**İnzibati ərazi bölgüsü (2000 il)**

| Prixodlar | Sahəsi, *km*² | Əhalisi, *min nəfər* | İnzibati mərkəzi |
|---|---|---|---|
| Krayst Çorç | 57 | 49,5 | Oystins |
| Sent-Ceyms | 31 | 22,7 | Holitaun |
| Sent-Con | 34 | 8,9 | Blekmens |
| Sent-Corc | 44 | 17,9 | Bulkeli |
| Sent-Cozef | 26 | 6,8 | Batşeba |
| Sent-Endryu | 36 | 5,3 | Qrinland |
| Sent-Filip | 60 | 20,5 | Krani |
| Sent-Lyusiya | 36 | 9,3 | Krab Hill |
| Sent-Maykl | 39 | 83,7 | Brictaun |
| Sent-Piter | 34 | 10,7 | Speytstaun |
| Sent-Tomas | 34 | 11,6 | Hillebi |





Brictaun. Parlament binası.



Barbados. Harrison mağarası.

yunan gəmi sahiblərinə məxsusdur.

B.-da təbii qazın hasilatı (29,2 mln. $m^3$) azdır. 860 mln. *kVt-saat* elektrik enerjisi istehsal edilir (2002). Elektron (idxal edilmiş detallardan hissə və komponentlərin yığılması), şəkər (2003 ildə 36,3 min *t* şəkər istehsal olunmuşdur), əczaçılıq, toxuculuq və tikiş, sement sənayesi müəssisələri, rom, meyvə konservləri, oyuncaq istehsalı üzrə müəssisələr işləyir. Ərzağın çox hissəsi idxal edilir. K. t. üçün yararlı torpaq sah. 19 min *ha*-dır, onun 84%-indən çoxu becərilir; əkinlərin çox hissəsi ölkənin c.-q.-indədir. Əsas k. t. bitkisi şəkər çuğundurudur (2003 ildə 365 min *t* yığılmışdır; istehsal həcmi 20 əsrin sonundan azalır; plantasiyalar qolf meydançalarına çevrilir); həmçinin kokos palması, yams, batat, tərəvəz, tropik və sitrus meyvələri, pambıq becərilir. Qoyun (2003 ildə 27 min baş), donuz (16,5 min baş), qaramal (3,8 min baş) yetişdirilir. Sahilboyu sularda balıqçılıq (balıq ovu 2002 ildə 2,7 min *t* təşkil etmişdir; balıq emalı z-dları Brictaun və Oystinsdə yerləşir) inkişaf etmişdir.

B.-da avtomobil yollarının uz. 1,6 min *km* (demək olar ki, hamısı bərkörtüklüdür) təşkil edir, avtoparkında 80 mindən çox avtomobil vardır (2002). Əsas dəniz portu Brictaundur. Venesuela, həmçinin Sent-Lyusiya, Sent-Vinsent, Trinidad a.-ları ilə müntəzəm dəniz əlaqəsi var. Beynəlxalq Qrantli-Adams aeroportu (B.-un c.-ş. sahilində, Brictaunun 16 *km*-liyindədir).

Barbados. Batşeba sahilləri.



B. üçün xarici ticarət balansının (2002 ildə ixracın dəyəri 206 mln. dollar, idxalın dəyəri 1039 mln. dollar təşkil etmişdir) xroniki kəsiri xarakterikdir. Elektrik aparaturası və elektron hissələr (idxal edilmiş detallardan), şəkər, rom, kimyəvi preparatlar və dərmanlar, paltar ixrac edilir, istehlak malları, ərzaq, neft, avadanlıq, nəql. vasitələri, tikinti materialları, elektron komponentlər idxal olunur. Əsas xarici ticarət partnyorları: ABŞ, Trinidad və Tobaqo, B.Britaniya, Yamayka, Yaponiya.

**Səhiyyə. İdman**

B.-da əhalinin hər 10 min nəfərinə 13,7 həkim düşür (2000). Səhiyyəyə qoyulan xərc ÜDM-in 6,5%-ini (büdcədən maliyyələşdirmə 66,3%, özəl sektordan – 33,7%) təşkil etmişdir (2001). Dövlət sektoru, əsasən, ilk və xəstəxana tibbi yardımını, özəl sektor isə ümumi tibbi praktikanı əhatə edir. Yaşlı əhali arasında ölümün əsas səbəbləri ürək-damar xəstəlikləri, xərçəng, infeksiyalar və travmalardır. Vərəmlə 3, QİÇS-infeksiyası ilə 76 xəstələnmə hadisəsi olmuşdur (2002).

B.-un Olimpiya Assosiasiyası BOK tərəfindən 1955 ildə tanınmışdır. B. idmançıları Olimpiya Oyunlarında 1968 ildən iştirak edirlər. Velosiped idmanı, yüngül və ağır atletika, üzgüçülük, atıcılıq ən geniş yayılmış idman növləridir. 2000 ildə Sidneydə keçirilən 27-ci Olimpiya Oyunlarında sprinter O. Tompson öz ölkəsi üçün ilk Olimpiya mükafatını qazanmışdır (100 *m* məsafəyə qaçışda bürünc medal).

**Elm və mədəniyyət müəssisələri**

Brictaunda Vest-Hind Un-tinin fakültəsi (əsası 1963 ildə qoyulmuşdur; nəzdində kitabxana var), Kütləvi kitabxana (1847), Ceyms-haus tarix muzeyi (1835), Barbados incəsənət qalereyası (1996), rəsədxana (1963) fəaliyyət göstərir. Sent-Maykl prixodunda Barbados muzeyi və Tarix cəmiyyəti (1933), Sanberidə (Sent-Filip prixodu) Plantator evi (muzey; 1660), Sent-Ceyms prixodunda Folkston dəniz muzeyi (1981), F. Hatsonun şəkər muzeyi var.

**Ədəbiyyat**

B. ədəbiyyatının təşəkkülü milli azadlıq hərəkatının təsiri ilə 20 əsrin 40–50-ci illərində başlamışdır; ingilis dilində inkişaf edir. İrqi ayrı-seçkilik, zəncilərin öz hüquqları uğrunda mübarizəsi, patriarxal kəndli həyatının ideallaşdırılması B. ədəbiyyatının əsas mövzusu idi. Nəşr imkanlarının olmaması və digər çətinliklər nəticəsində bir çox yazıçı ölkəni tərk etmişdi; odur ki, mühacirət mövzusu da bədii yaradıcılıqda geniş yer tuturdu. Mühacirlərdən C.Lemminq ("Mühacirlər", 1954; "Mənim soykökum", 1971 və s.) və O.Klarkın ["Görüş yeri" (1967), "Uğura həmlə" (1973), "Daha gur işıq" (1975) trilogiyası] romanları şöhrət qazanmışdır. Poeziyada Vest-Hind motivləri mühüm yer tutur. E.K. Breytueyt, P. Blekmen, H.A. Voan, C. Dreyton, F.E. Kollimor və b. şairlər B. ədəbiyyatının tanınmış nümayəndələridir.

**İncəsənət**

B.-da qədim hindi incəsənətinin izləri saxlanılmışdır. Sent-Corc r-nunda şəkər sahibkarı T.Ş. Draksın evi (Draks-holl, 17 əsrin son rübü), Sent-Piter prixodunda Müq. Nikolay abbatlığı (1660; hər ikisi B.-un ən qədim tikililəridir), zəngin daxili bəzəyi olan Sem-Lord qəsri (1831, memar S. Holl Lord), Brictaunda erkən ingilis *palladioançılıq* üslubunda tikilmiş Hökümət evi, Arsenal və Silah palatası, C. Vaşınqtonun evi adlandırılan tikili (1751), Sent-Maykl kilsəsi (1780 ildən sonra), Parlament binası (19 əsr) B.-un memarlıq abidələrindəndir. 19 əsrin əvvəllərində B.-da İncəsənət cəmiyyəti yaradılmışdı. Turizmin inkişafı ilə əlaqədar 1950-ci illərdən başlayaraq çox sayda mehmanxana inşa edilmişdir. 50–60-cı illərdən Çoki-Maunt və Terners-Holl ənənəvi keramika istehsalı mərkəzi olmuşdur. 1960-cı illərdən bu sahədə K. Rassel, U. Harding, B. Qreys, Ras Akim Ramsi çalışmışlar. *Batik* ənənəvi sənət növlərindəndir; parça rəsmlərində amerikan-hindi incəsənətinin motivlərindən istifadə olunur. Yerli mebel sənayesi inkişaf etmişdir. Yerli ustaların (boyakar A. Peyn) "sadəlövh sənət"i yayılmışdır. B.-da hər il "Holders-sizon" musiqi-teatr festivalı və caz festivalı keçirilir. (hər ikisi 1993 ildən).

*Əd.:* H i l l B. Historic churches of Barbados. Barbados, 1984; D r a y t o n K. Art, culture and national heritage // Barbados: thirty years of independence. Kingston, 1996; Barbados // Mariam-Webster's geographical dictionary. 3rd ed. Springfield, 1997; P o u p e y e V. Caribbean art. L., 1998; Barbados // Eastern Carribean. Footscray, 2001; The rough guide to Barbados. L., 2001.

Şəkər qamışı yığan barbadoslu qız.



**BARBÁDOSLULAR,** b e c e n l ə r – Barbadosun əsas əhalisi (250 min; 1998), xalq. Həmçinin ABŞ-da (35 min), B.Britaniyada (35 min), Kanadada (30 min) və s. ölkələrdə yaşayırlar. Ümumi sayları 350 min nəfərdir. B.-ın irqi əsasını (təqr. 92%) 17 əsr – 19 əsrin əvvəllərində Afrikadan gətirilmiş qulların nəsilləri olan zəncilər, təqr. 4%-ini mulatlar, təqr. 4%-ini ingilis mənşəli ağlar, həmçinin hindilər və çinlilər təşkil edir. Ağdərili əhali arasında 17–18 əsrlərdə İngiltərədən sürgün olunmuşların nəsilləri olan "ağ yoxsullar" adlanan xüsusi qrup qalmaqdadır. İngilis dilinin yerli dialektində danışırlar. Dindarları əsasən xristiandır. Həmçinin Afrika kultlarının elementləri qalmaqdadır. Təsərrüfatın əsasını şəkər qamışının yetişdirilməsi və emalı təşkil edir. Turizm sahəsində xidmət göstərirlər. B.-ın mədəniyyəti digər kreolların mədəniyyətlərinə oxşayır, Afrika və Avropa ənənələrini özündə birləşdirir. Şifahi xalq yaradıcılığında Afrika folklorunun elementləri qalmaqdadır; rəqsləri (limbo və s.), xalq musiqisi və orkestrləri (çalğı alətləri – polad çəlləklər) özünəməxsusluğu ilə seçilir.

**BARBAKÓALAR** (isp. "taxta səki, şüvüllərdən qurulmuş konstruksiya" – özünəməxsus yortaclı evlərə görə adlandırılmışlar) – Ekvadorun şm.-ında və Kolumbiyanın c.-q.-ində yaşayan hind xalqları qrupu. Barbakoa dil ailəsinə (əvvəllər *çibça dilləri* ailəsinə daxil edilirdi) aid olan dillərdə danışırlar, ispan dili də yayılmışdır. B. qrupunun tərkibinə koaykerlər (özlərini avalar adlandırırlar, avapit dilində danışırlar; 9 min nəfəri Kolumbiyanın Narinyo departamentində, 1,2 min nəfəri isə Ekvadorun Karçi əyalətində yaşayır; 2000), dil baxımından koaykerlərə yaxın olan quambianolar və totorolar (keçmişdə bu qrupa pastolar, kokonukolar, quanakalar da daxil idilər); təqr. 2 min il əvvəl koaykerlərdən ayrılmış çaçilalar (özlərini belə adlandırırlar; köhnə adları kayapalar idi, dilləri çapalaçi dilidir; sayları 6 mindir, Ekvadorun Esmeraldes əyalətində, Kayapas çayı sahillərində yaşayırlar); təqr. min il əvvəl çaçilərdən ayrılmış tsaçilalar (özlərini belə adlandırırlar; köhnə adları koloradolar idi, ispanca mənası "boyanmışlar": bədənlərini rəngləmələri ənənəsi ilə bağlıdır, dilləri tsafiki dilidir; sayları 2,3 mindir, Ekvadorun Piçinça və Los-Rios əyalətlərində yaşayırlar) daxildir. Müstəmləkə dövründə koaykerlər ağlar və (sonralar) zəncilər tərəfindən sahilboyundan dağətəyi zonalara sıxışdırılmış, çaçilər və tsaçilalar isə dağətəyi yerlərdən sahilyanı ərazilərə köçmüşlər.

Ənənəvi mədəniyyətləri Mezoamerika və Mərkəzi And d.-ları arasındakı keçid zonasındakı *hindilər* üçün səciyyəvidir. Əsas məşğuliyyətləri toxa əkinçiliyi, ovçuluq (koaykerlərdə zəhərli ox atan borucuq məlumdur), çaçilər və tsaçilalarda balıqçılıqdır (çaçilər oyma qayıqlar düzəldirlər). Koaykerlər dəniz donuzcuğu və toyuq, nadir hallarda donuz, inək və qoyun saxlayırlar. Əl toxuculuğu (koaykerlərdə qoyun yunundan baş yaylıqları, yabanı bitki liflərindən çantalar), toxuma və keramika istehsalı (20 əsrin ortalarınadək) qorunub saxlanmışdır. Koaykerlər çayların üzərində liana və bambukdan körpü salırlar. Yaşayış məskənləri pərakəndədir. Çaçilər bayramlarda kilsə və qəbiristanlığın yerləşdiyi icma mərkəzlərində toplaşırlar. Düzbucaqlı formada, dirəklər üzərində tikilmiş və 30 *m* uzunluğu olan ənənəvi evləri yaşayış otağı, mətbəx və anbardan ibarətdir; qamışdan, yaxud palma yarpaqlarından olan dam örtüyü şaftalı palmasından düzəldilmiş karkasın üzərindədir və demək olar ki, yerədək uzanır. Ənənəvi kişi geyimi üfüqi zolaqlarla bəzədilmiş enli bel sarğısı, kəmər, şərf-yaylıq; qadın geyimi isə tikişsiz yubka, çiyin örtüyü, xırda muncuq, toxum və quş sümüyündən hazırlanan çoxsaylı boyunbağılardan ibarətdir. Tsaçila kişiləri Bixar ore-

liana kolunun qırmızı rəngli şirəsi ilə yağdan hazırlanan yapışqanlı qarışığı saçlarına çəkərək özünəməxsus saç düzümü yaradırlar. Dindarları xristiandır, mifoloji təsvirlər (cırtdanlar, dünyanı çiynində saxlayan nəhəng, günəşin məhv olması haqqında süjet və s.), əsasən, çaçilərdə saxlanmışdır. İcma başçısı eyni zamanda həkim vəzifəsini yerinə yetirir. Musiqi alətləri (koaykerlərdə): üzünə maral dərisi çəkilmiş təbillər, qamış fleytalardır. Koaykerlər daha çox assimilyasiyaya uğramışlar.

**BÁRBALAR,** berbalar, bariba-lar, barqular, borqavalar, boqunqlar – Beninin şm.-ında (Paraku və Kandi ş.-ləri arasında), Nigeriyanın q.-ində və Toqonun şm.-ş.-ində yaşayan xalq. Sayları Benində 495 min, Nigeriyada 62 min, Toqoda 14 min nəfərdir (2005). *Qur dillərinin* Bariba (barqu) qrupuna aid eyniadlı dildə danışırlar. Ənənəvi etiqadlarını saxlamışlar, bir hissəsi müsəlmandır, xristianlar da var.

B.-ın 14–15 əsrlərdə yaratdıqları Borqu adlı erkən siyasi qurum 15 əsrin sonlarında busa icma ittifaqı ilə birləşərək Bariba adlandırıldı. B. 1690-cı illərdən 1783 illədək *Oyodan* asılı olmuş, 1898 ildə Fransa *Dahomeyası* və Britaniyanın Niger sahilyanı protektoratının tərkibinə daxil olmuşlar. Ənənəvi mədəniyyətləri Qərbi Afrikanın Sudan yarımvilayəti üçün səciyyəvidir. Məşğuliyyətləri dincə qoyulmuş (yandırılmış) torpaqlarda toxa əkinçiliyi, mal-qara və davarın yetişdirilməsidir. Ənənəvi yaşayış evləri şm.-da dördbucaqlı, c.-dakı meşə zonasında dairəvi plandadır: ağacın budaqlarından və nazik gövdələrindən tikilən divarları gil ilə suvanır. Ağacişləmə, toxuculuq, həsirçilik, boyalı keramika istehsalı inkişaf etmişdir. Hakimlərin mürəkkəb iyerarxiyası mövcud olmuşdur. Qəbilə-tayfa bölgüsü saxlanılır. Sosial təşkilatlanmanın əsasını böyük ailələrdən ibarət olan kənd icmaları təşkil edir. Əcdadların kultu geniş yayılmışdır, inisiasiya mərasimləri mövcuddur, folklor (miflər, nağıllar, atalar sözləri, zərbi-məsəllər), musiqi və rəqs inkişaf etmişdir.

**BARBAR QANUNNAMƏLƏRİ** (lat. leges barbarorum) – erkən feodal dövlətlərinin təşəkkülü (5–11 əsrlər) dövründə german tayfalarının (vestqotlar, burqundlar, franklar və b.) adət hüquqları külliyyatlarının şərti adı. B.q.-nin meydana gəlməsinin əsas səbəbləri german tayfalarının xristianlığı qəbul etməsi, dövlət hakimiyyətinin inkişafı və möhkəmlənməsi, yaranmaqda olan german dövlətlərində hüquq qaydaları əsaslarının tətbiqi məqsədilə barbar adətlərinin yazılı şəkildə təsbit olunması zərurəti ilə bağlı idi. B.q. ilk növbədə məhkəmə külliyyatlarıdır. B.q.-nin kontinental Avropada ən məşhurları Burqund (5 əsrin sonu – 6 əsrin əvvəlləri), Saliça (6 əsrin əvvəlləri), Ripuar (6–8 əsrlər), Bavar (8 əsr), Aleman (6 əsrin sonu – 8 əsr), Lanqobard (7–8 əsrlər) və Sakson (9 əsrin əvvəlləri) qanunnamələridir. Anql-saks külliyyatlarından Etelbert (7 əsrin əvvəlləri), İne (7–8 əsrlər), Alfred (9 əsrin sonu) qanunnamələri, Etelstan və Etelred (10–11 əsrlər), həmçinin İngiltərəni istila etmiş danimarkalı Knutun (11 əsr) qanunları daha çox məlumdur. Kontinental qanunnamələr danışıq latın dilində, anqlsaks qanunnamələri isə qədim ingilis tayfa dilində tərtib edilmişdir. B.q. strukturuna görə kifayət qədər mürəkkəbdir, müxtəlif dövrlərdə yaranmış mətnlər və kompilyasiyalardan, o cümlədən ayrı-ayrı məhkəmə qərarlarından və kral hakimiyyətinin qanunverici aktlarından ibarətdir. B.q.-nin ən əhəmiyyətlilərindən biri frank kralı *Xlodviqin* xristianlığı qəbul etdikdən sonrakı hakimiyyəti dövründə tərtib olunmuş Saliça qanunnaməsidir.

Erkən B.q.-nin müddəalarının əksəriyyəti müxtəlif qəbahətlərə görə cərimələrin müəyyənləşdirilməsinə həsr olunmuşdur. Bu, xristianlığın və inkişaf etmiş Roma hüququ sisteminin təsiri ilə tayfa adəti olan qan intiqamının əvəzinə mübahisələrin dinc yolla həllinə, həmçinin dəyən ziyanın müqabilində müəyyən pul kompensasiyalarının ödənilməsinə (o cümlədən kralın xeyrinə) keçidin ilk cəhdi olmuşdur. Franklarda və anql-sakslarda qətlə görə vergeld – bir hissəsi öldürülənin ailəsinə və qohumlarına, bir hissəsi isə kral xəzinəsinə haqq ödənilirdi. Vergeldin miqdarı cinayətin ağırlığından, öldürülənin statusundan və s.-dən asılı olurdu. Belə ki, kralın məmurunun, yaxud mühafizəçisinin qətlinə görə ödənilən vergeldin miqdarı sıravi azad frankın öldürülməsinə görə ödənilən vergelddən üç dəfə artıq idi (Saliça qanunnaməsi), keşişlərin həyatı yüksək cərimə hesabına mühafizə olunurdu (Etelbert qanunnaməsində – 12 qat miqdarda) və s. Kral ailəsi üzvlərinin mühafizəsi əvvəllər yalnız cərimənin miqdarı ilə fərqlənirdi, lakin sonralar krala qarşı "pis niyyət" və bir sıra digər cinayətlər dövləti cinayətlər sayılırdı; cinayətkarın əmlakı müsadirə edilir, özü isə edam olunurdu (Alfred qanunnaməsi). Vergeldlərin miqdarı çox vaxt olduqca yüksək idi və ayrılıqda bir şəxsin maddi imkanını xeyli üstələyirdi, lakin qədim hüquq kollektiv cavabdehlik (cərimənin nəsil, yaxud ailə tərəfindən ödənilməsi) və obyektiv təqsirləndirmə (günahsızların məsuliyyətə cəlb edilməsi) prinsipinə əsaslandığından vergeldin ödənilməsi, həmçinin cinayətkarın qohumlarının və cinayətin törədildiyi ərazidə məskunlaşan sakinlərin üzərinə düşürdü. Kral hakimiyyəti ellik zəmanət institutuna çevrilən kollektiv cavabdehlik prinsipini dəstəkləyirdi.

B.q.-nin, demək olar ki, hamısı, xüsusilə Vestqot və Burqund qanunnamələri *Roma hüququnun* (leges Romanae) təsirinə məruz qalmışdı, lakin erkən B.q.-nin əksəriyyətində özünü cüzi büruzə verən bu təsir, əsasən, dini qaydalarda – vəsiyyətnamələr və s.-də müşahidə edilirdi (məs., Alfred qanunnaməsinin əvvəlində 10 ehkamdan və apostolların əməllərindən bəhs olunurdu).

Qəbilə münasibətləri və əlaqələri şəxsiyyətin hüquqi statusu üçün üstünlük təşkil etsə də, B.q. tayfa icmalarının dağılması və torpaq üzərində şəxsi (ailəvi) mülkiyyət hüququnun yaranması prosesini əks etdirirdi. Ayrı-ayrı təsərrüfatlar üzərində hüquqların həcmi və məzmunu aydın ifadə olunmurdu və onlar kollektivist münasibətlərin izlərini daşıyırdı (bağ, tarla və otlaq sahəsinə nisbətən "şəxsi əmlak" kimi əlavə tikililəri olan evlər və ətrafı hasarlanmış hər bir yer daha çox qorunurdu).

B.q.-nin əksər müddəaları məhkəmələrə aid idi. Mülki və cinayət işlərinin baxılmasında vahid məhkəmə üsulu tətbiq olunurdu. Yerli məhkəmə, əsasən, "müdriklərin" ağsaqqallarından ibarət tayfa məclisi idi. Məhkəmə prosesi çəkişməli gedir, mühakimə təşəbbüsünü zərərçəkən irəli sürürdü. O, cavabdehi məhkəməyə özü çağırırdı; çağırışdan qəsdən boyun qaçırmaq kral sanksiyalarının tətbiqi ilə nəticələnə bilərdi. Məhkəmə adətən, tərəflərin mübahisəsini izləyir və kimin mübahisədə qalib gəldiyini müəyyən edirdi. Təqsirləndirilən şəxs ya özü günahsızlığını sübuta yetirməli, ya da məhkəmə hansı tərəfin dəlil gətirəcəyini təyin edirdi. "İlahi məhkəmə", yaxud *ordaliya*, həmçinin birgə andiçmə mərasimi məhkəmədə sübutetmə üsullarından olmuşdur.

B.q.-ndə torpaq üzərində şəxsi mülkiyyətin inkişafı prosesini, əkinçi icmasından *markaya* keçidi, siniflərin və dövlətin yaranmasının erkən mərhələsini müşahidə etmək mümkündür. Bəzi B.q.-ndə (xüsusilə Bavar, Aleman, Vestqot) roman-german cəmiyyətinin sosial stratifikasiyası (iri torpaq mülkiyyətinin inkişafı və azad icma üzvlərinin asılı kəndlilərə çevrilməsi, şərti topraq mülkiyyətinin yaranması və s.) əks olunmuşdur.

Erkən feodal dövlətçiliyinin inkişafı ilə B.q. tədricən əhəmiyyətini itirmiş və onların əksəriyyəti 11 əsrdə artıq qüvvədən düşmüşdü.

**BÁRBARLAR** (yun. Βάρβαροι – qeyri-yunanlar, yadellilər; lat. barbari) – qədim yunanların, sonra isə romalıların dil və mədəniyyətcə onlara yabancı olan başqa tayfa və xalqlara verdikləri təqlidi ad. Eramızın 1 əsrinin əvvəllərində daha çox *germanlara* və *keltlərə* şamil olunurdu. Yeni dövrdə "B." termini elmi ədəbiyyata Roma imperiyasından kənarda yaşayan (barbar dünyası), Roma torpaqlarını istila edən (barbar istilaları) və onun ərazisində bir sıra krallıqlar ("barbar krallıqları") yaradan xalqların ümumiləşdirici adı kimi daxil olmuşdur; bu xalqların adətlərinin yazılı forması *Barbar qanunnamələri* adlandırılmışdır.

Məcazi mənada "B." termini antik ənənəyə uyğun olaraq mədəni sərvətlərə etinasızlıqla yanaşan, geridə qalmış, qəddar və kobud adamları ifadə etmək üçün işlədilir.

**BÁRBARO** İosafat (1413, Venesiya – 1494, yenə orada) – Venesiya səyyahı, dövlət xadimi və diplomat. 1436 ildə Tanuya (indiki Azov ş. yaxınlığında) səyahət etmiş, burada 16 il yaşamış, bu dövrdə Qara dənizin şm. sahillərini və Qafqazı gəzmişdir. Venesiya Resp.-nın müvəkkili kimi 1463–65 illərdə Dalmasiyanın maliyyə işlərinə nəzarət etmiş 1565–70 illərdə Albaniyada hərbi və mülki idarənin müfəttişi olmuş, 1482–85 illərdə Şimali İtaliyada Polezine vil.-ni idarə etmişdir. 1473–79 illərdə Venesiya Respublikasının *Ağqoyunlu dövlətində* səfiri olan B.-nun Osmanlı imperiyasına qarşı birgə əməliyyatların təşkili cəhdi uğursuzluqla nəticələnmişdir. Onun Venesiya senatına göndərdiyi məktublarında Uğurlu Məhəmmədin Uzun Həsənə qarşı qiyamı, Uzun Həsənin ölümündən sonra hakimiyyət uğrunda mübarizə və s. haqqında məlumat var. 1480-ci illərin sonları – 1490-cı illərin əvvəllərində yazdığı "Qeydlər" əsərində Azərb. şəhərləri (Şamaxı, Dərbənd, Təbriz və s.), ticarət, sənətkarlıq, əhalinin məişəti və s.-dən də bəhs etmiş, tarix, coğrafiya və arxeologiyaya aid bir sıra maraqlı məlumat vermişdir.



**BARBAROS XEYRƏDDİN PAŞA** – bax *Xeyrəddin Barbaros paşa*.

**"BARBAROSSA PLANI"** ("Barbarossa Fall") – İkinci dünya müharibəsi zamanı Almaniyanın SSRİ-yə hücüm planının şərti adı (Müqəddəs Roma imperiyasının imperatoru I *Fridrix Barbarossanın* şərəfinə adlandırılmışdır). "B.p."-nın işlənib hazırlanmasına A. *Hitlerin* 1940 il iyulun 7-də (Almaniyanın Fransanı darmadağın etməsindən sonra) verdiyi sərəncam əsasında başlanılmışdır. "B.p."-nın bir neçə variantı işlənilirdi, lakin onun əsasını digər planları nəzərə alaraq gen.-l. F. *Paulyus* tərəfindən hazırlanmış və əvvəlcə "Otto" adlandırılmış Quru Qoşunlarının Baş komandanlığının (alm. Oberkommando des Heeres – OKH) planı təşkil etdi. Dekabrın 18-də Hitler sənədə bir neçə dəyişiklik edərək silahlı qüvvələrin Baş Qərargahının əməliyyat idarəsi ştabının 21 saylı əməliyyat Direktivini ("B.p.") təsdiq etdi. 1941 il yanvarın 31-də OKH tərəfindən qəbul olunmuş "Qoşunların cəmləşdirilməsi haqqında direktiv"lə "B.p." tamamlanmış və təkmilləşdirilmişdir. Plana görə, alman qoşunları 8–10 həftə ərzində Moskva, Leninqrad və Donbası tutmalı, Arxangelsk–Volqa–Həştərxan xəttinə çıxmalı, bundan sonra isə alman aviasiyası Uralda yerləşən sovet sənayesini məhv etməli idi. Əməliyyatı "Şimal" (Pskov–Leninqrad istiqamətində), "Mərkəz" (Minsk, Smolensk, Moskva istiqamətində), "Cənub" (Kiyev–Donbas istiqamətində) ordu qrupları, cinahlardan isə Finlandiya, Rumıniya və Macarıstan orduları həyata keçirməli idi. SSRİ-yə hücum 1941 ilin mayına planlaşdırılmışdı, lakin *Balkan kampaniyası (1941)* ilə əlaqədar iyulun 22-nə keçirildi.

"B.p." işğal edilən ərazilərdə siyasi və iqtisadi idarəetmə, həmin ərazilərdə qoşunların davranışı, hərbi əsirlərlə rəftarı, rəqibin dezinformasiyası və s. haqqında bir sıra direktiv və əmrlərlə tamamlanırdı.

"B.p."-nın əsas strateji məqsədi SSRİ-ni qısamüddətli hərbi əməliyyat (bax *Bliskriq*) nəticəsində məğlubiyyətə uğratmaqdan ibarət idi. SSRİ-nin darmadağın edilməsi B.Britaniyaya müqavimətin perspektivsiz olduğunu göstərməli, ABŞ-ı isə müharibəyə qoşulmaqdan çəkindirməli idi. Almaniyanın hərbi və siyasi rəhbərliyi SSRİ-nin hərbi və iqtisadi potensialını nəzərə almadığına, onun üzərində tezliklə qələbə çalacağına ümid etdiyindən uzunmüddətli müharibəyə hazır deyildi. Buna görə də "B.p." iflasa uğradı.

**BÁRBER** Semüel (9.3.1910, Massaçusets ştatı, Uest-Çester – 23.1.1981, Nyu-York) – Amerika bəstəkarı. Vokal və kompozisiya sinifləri üzrə Körtis Musiqi İn-tunu (Filadelfiya) bitirmişdir (1932). Özünün ifa etməsi üçün bəstələdiyi vokal əsərlər, R.B. Şeridanın "Qeybət məktəbi" (1933) pyesinə yazdığı uvertüra və 1-ci simfoniya (1936) B.-ə şöhrət gətirmişdir. Yaradıcılığının tonal harmoniyaya və klassik formalara istiqamətlənmiş romantik estetikası və üslub xüsusiyyətləri Simli kvartetin 2-ci hissəsində daha aydın ifadə olunmuşdur (1936; "Adajio" adı ilə simli alətlər üçün işlənilmiş variantı 20 əsrin ən populyar orkestr pyeslərindən biri olmuşdur; "Aqnus Dei" adlı xor üçün müəllif işləməsi də məlumdur). B.-in sonrakı əsərləri daha çox dissonant, eyni zamanda tonal və melodikdir. Əsərləri: 3 opera (o cümlədən "Metropoliten-opera" teatrının yeni binasının açılışı üçün sifarişlə yazılmış "Antoni və Kleopatra", 1966), 2 balet, 2 №-li simfoniya (1944), orkestr üçün 3 esse (1937, 1942, 1978), fp. və violonçel üçün Sonata (1932), fp. üçün Sonata (1949).

**BARBİTÚR TURŞUSU**, 2,4,6-pirimidintrion, N,N′-malonilsidik cövhəri – heterotsiklik birləşmə; B.t.-nun kimyəvi xassələrini şərtləndirən laktim (I formul), laktam (II) və keto-enol (III) tautomer formaları şəkilində mövcuddur.



I II III

B.t. rəngsiz kristallardır, $t_{ə}$ 248°C (parçalanmaqla), isti suda və efirdə yaxşı həll olur. B.t. sirkə turşusundan qüvvətlidir. Tərkibində alkil, tsikloakil və ya aril



Barbizon məktəbi. J.Düpre. "Kənd mənzərəsi". 1840–44. Ermitaj. S.-Peterburq.

əvəzləyiciləri olan B.t.-nun törəmələri b a r b i t u r a t l a r d ı r. B.t. və barbituratlar malon turşusu və ya onun efirlərinin sidik cövhəri ilə qarşılıqlı təsirindən alınır. B.t. riboflavin, pirimidin, eləcə də violur (5-izonitrozobarbitur) və sidik turşularının alınmasında; barbituratlar yuxugətirici (məs., barbamil) və qıcolma əleyhinə vasitə (benzonal), həmçinin narkoz üçün vasitə (heksenal) kimi istifadə olunur. Barbituratların böyük dozaları tənəffüsü zəiflədərək öldürücü təsir göstərir.

**BARBİZON MƏKTƏBİ** – 1830–60 illərdə fəaliyyət göstərmiş fransız rəssamları qrupu. Adı Barbizon kəndinin adından götürülmüşdür. Belə ki, B. m.-nin nümayəndələrinin yaradıcılığı bu kəndlə və yaxınlıqda yerləşən Fontenblo meşəsi ilə əlaqədardır. 17 əsr holland, 19 əsr ingilis peyzaj (C. *Konstebl*, R. *Boninqton*) və fransız *romantizmi* rəssamlarının (T. *Jeriko*, E. *Delakrua*) ənənələrini davam etdirən B.m. nümayəndələri peyzaj rəssamlığının inkişafında böyük rol oynamışlar. Onlar *plener* boyakarlığı üsullarından istifadə edərək naturadan çoxlu əsərlər işləmiş, hava-işıq mühitinə, onun dəyişkən vəziyyətini qeyd etməklə, xüsusi diqqət yetirmişlər. B.m. yaşlı nəslinin nümayəndələrinin (F. *Russo*, J. *Düpre*, N. *Diaz*) çəkdiyi rəsmlərin bir çoxunda hələ kifayət qədər aydın, yaxın və arxa planlara bölünmüş və təsirli işıqlandırma effektləri ilə – klassistik-romantik peyzaj strukturu nəzərə çarpır. Tədricən bu qəhrəmani başlanğıc aydın surətdə öz yerini lirik seyrçiliyə verir. Bu meyil B.m. gənc nəslinin nümayəndələrinin əsərlərində daha da güclənir (onlardan ən məşhuru Ş.F. *Dobinyi* olmuşdur). Bəzən B.m. ustaları çəkdikləri peyzajlara məişət və animalistik motivlər daxil edirdilər (K.K. *Troyon*). B.m.-nə K. *Koronun* peyzajları və J.F. *Millenin* kənd mövzusu yaxındır. 19 əsrin 2-ci yarısında B.m. artıq beynəlmiləl üslubi tendensiyaya çevrilirdi; bu istiqamətdə holland Y.*Yonqkind*, macar boyakarı M. *Munkaçi*, rumın rəssamı N. *Qriqoresku*, rus rəssamlarından A.K.*Savrasov*, F.A. *Vasilyev* və b. işləyirdilər. B.m. kompozisiyalarının plener naturaçılığı və onların diqqətçəkən lirizmi həm *impressionizm*, həm də *simvolizm* üçün ilkin şərtlər olmuşdur.



Barbizon məktəbi. K. Koro. "Mortfonten xatirələri". 1864. Luvr (Paris).

**BARBOTÁJ**, b a r b o t a j l a m a (fr. barbotage – qarışdırma, çalxalama) – qaz və ya buxarın təzyiq altında mayedən buraxılması. Dövri (qaz hərəkətsiz mayedən buraxılır) və fasiləsiz (maye və qazın əks axması) B. tətbiq edilir. Barbotajlayıcı (barboter) kimi kiçik (1–10 *mm*) dəlikli borular, kütlə mübadiləsi aparatlarının əlakli və ya örtüklü (qapaqlı) qabları işlənir. Borulu barboterin maye olan çənə salınmış borusundan lazımi təzyiqədək sıxılmış qaz daxil olur. B. zamanı maye-qaz sərhədində böyük fazalararası səth yaranır; nəticədə istilik və kütlə mübadiləsi prosesləri intensivləşir, həmçinin qazla maye arasında tam kimyəvi əlaqə (qarşılıqlı təsir) alınır. B., əsasən, mayeləri buxarla qızdırmaq, təhlükəli (aqressiv) mayeləri və abraziv pulpaları qarışdırmaq üçün istifadə olunur; absorbsiya, rektifikasiya və flotasiya proseslərini aparmağa da kömək edir. B. absorbsiya və rektifikasiya zamanı B. sütunu adlanan qablarda aparılır.

**BARBOTİN** (fr. barbotine) – kaşı və başqa keramik məmulatların üzərini bəzəmək üçün rəngli material (ağ gil, qum və boya). B. məmulatın üzərinə bişirmə əməliyyatından əvvəl çəkilir.

**BARBÜS** (Barbusse) Anri (17.5.1873, Ode-Sen dep-ti, Anyer – 30.8.1935, Moskva) – fransız yazıçısı, jurnalist, ictimai xadim. SSRİ EA-nın fəxri üzvü (1933 ildən). Sorbonna Un-tini bitirmişdir. 1914–17 illərdə I-ci dünya müharibəsində iştirak etmişdir. *"Klarte"* ("Aydınlıq") mədəniyyət xadimləri birliyinin (1919) təşkilatçısı, Fransa kommunist partiyasının (1923 ildən) üzvü olmuşdur. "Ağıçılar" (1895) adlı ilk şeir toplusu *simvolizm* poetikası ilə bağlıdır. "Cəhənnəm" (1908) romanında *naturalizm* əlamətləri nəzərə çarpır. Müharibə əleyhinə yazılmış "Od" (1916) romanı daha çox məşhurdur. Azərb.-da olmuş (1927), "Neft ölkəsində" adlı məqalə yazmışdır. Əsərləri Azərb. dilinə tərcümə edilmişdir. Q. Qarayev B.-ün novellasının motivləri əsasında "Zəriflik" monooperasını yazmışdır (1971).

Ə s ə r l ə r i: Od. B., 1930; "Yadlar və dostlar". B., 1935; Həqiqi hekayələr. B., 1937.

**BARBYE DE MEYNÁR** (Barbier de Meynard) Kazimir-Adriyen (1827–1908, Paris) – fransız şərqşünası. Parisdə Şərq dilləri in-tunun türk dilləri prof.-u (1863) və müdiri (1898 ildən) olmuşdur. Yaxın Şərqə dair əsərlərin, ikicildlik "Türkcə-fransızca lüğət"in (1881–86) müəllifidir. Şərq müəlliflərinin bir sıra əsərlərini, o cümlədən M.F. Axundzadənin "Hekayəti-Molla İbrahimxəlil kimyagər" (1886) və "Xırs-quldurbasan" (1889) komediyalarını fransız dilinə çevirmiş və nəşr etdirmişdir. Azərb. ədəbiyyatına, xüsusilə M.F. Axundzadənin dram yaradıcılığına dair məqalələri var.

**BARCÉLLO** (Bargello) – Florensiyada muzey. İtaliyada ilk *Renessans* heykəltəraşlığı muzeyi kimi 1865 ildə yaradılmışdır (əsərlər Uffitsi qalereyası, Palasso Vekkio və b. kolleksiyalardan verilmişdir). Del-Podesta sarayında yerləşir (1254–1346; sonralar şəhər keşikçi dəstəsinin kapitanı – barcellonun iqamətgahı idi). B.-da ən böyük italyan plastikası kolleksiyası (əsasən, Florensiya us- taları Donatello, A. di Verrokkio, Deziderio da Settinyano, Mikelancelo, B. Çellini və b.-nın əsərləri), həmçinin mina, fil sümüyündən əsərlər, kiçik plastika və silah kolleksiyaları saxlanılır.



Barcello muzeyinin zallarından biri.

**BARCUQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Çaharoymaq kəndistanında, Qaraağac qəs.-ndən 6,5 *km* c.-q.-də, Marağa–Miyanə avtomobil yolundan 31 *km* c.-dadır.

**BARD** (vallonca bardd, bretonca barzh) – *keltlərdə* şair və müğənni. Kontinental keltlərdə, əsasən, *qallarda* B.-lar dini təbəqə daxilində ən aşağı mövqedə (druidlərdən və kahinlərdən sonra) dayanırdılar. Sonralar ada keltləri (Uels, İrlandiya) arasından çıxan kralların yanında peşəkar şairlərdən ibarət xüsusi qrupa çevrilmişlər. Milli rəvayətlər və şifahi epik ənənələrin qoruyucusu olan B.-lar özlərinin yazdıqları mədhedici və tarixi poemaları, *krota* və ya *kelt arfasının* müşayiəti ilə oxuyurdular. Erkən dövr B. poeziyası, adətən, anonim olmuşdur. Adları məlum olan B.-ların (Taliyesin, Aneyrin, Qoca Llivarx) yaradıcılığı 6 əsrə təsadüf edir. İrlandiyada B. sənəti, bir qayda olaraq, irsən keçirdi, lakin xüsusi B. məktəblərində 12 ilə qədər davam edən təhsil almaq zəruri şərtlərdən biri idi. B.-lar 17 əsrin sonlarınadək mövcud olmuşlar, lakin artıq 15 əsrdən cəmiyyətdə yarımtəlxək, yarımsərsəri vəziyyətində idilər; öz poemaları üçün pul tələb edən zəhlətökən insanlar kimi onlara maraq azalmışdı.

Yüksək poetik üslubda şair-müğənnini qeyd etmək üçün "B." sözü Avropa mədəniyyətinə 18 əsrin sonlarında, C. *Makfersonun* poemalarının nəşrindən sonra daxil olmuşdur.

Əd.: B e r g i n O. Irish bardic poetry. Dublin, 1970.

**BARDÉM** Xuan Antonio (2.6.1922, Madrid – 30.10.2002, Madrid) – ispan rejissoru, ssenarist. Madriddəki Kinosənətin Öyrənilməsi və Təcrübəsi İn-tunda oxumuşdur. Rej. L.Q. *Berlanqa* ilə əməkdaşlıq etmişdir ["Bu xoşbəxt cütlük" (1951) filminin 2-ci rej.-u; "Xoş gəlmisiniz, mister Marşall!" (1952, Kann Beynəlxalq kinofestivalının mükafatı) filminin ssenari müəllifi]. Franko İspaniyası haqqında çəkdiyi "Velosipedçinin ölümü" (1955, Kann Beynəlxalq kinofestivalının mükafatı) və "Baş küçə" (1956, Venesiya Beynəlxalq kinofestivalının mükafatı) filmləri kino tarixinə daxil olmuşdur. 1960–70-ci illərin sərt senzurası dövründə geniş tamaşaçı auditoriyası üçün filmlər ("Mexaniki pianino", 1965; "Kris Millerin yoldan çıxarılması", 1972 və s.) çəkmişdir. "Həftənin sonu" (1977) və "Yanvar ayının yeddi günü" (1979, hər ikisi Moskva Beynəlxalq kinofestivalının mükafatını almışdır) filmlərində İspaniyada yeni yaranan demokratiyanın təzahürləri öz əksini tapmışdır. Televiziyada işləmişdir ("Lorka, şairin ölümü", 1987; "Gənc Pikasso", 1993).

Əd.: Кинорежиссер Х.А. Бардем. М., 1965.

**BÁRDEYOV**, B a r d e j o v – Slovakiyada balneoloji iqlim kurortu. Beskid d-rının yamacında, 325 *m* hünd.-də, Toplya çayı (Tisa hövzəsi) sahilində, Polşa ilə sərhəd yaxınlığındadır. Yumşaq qışı (yanvarın orta temp-ru təqr. –4°C), isti yayı (iyulun orta temp-ru 18°C), az miqdarda yağıntısı (ildə 750 *mm*-ədək) olan mülayim kontinental iqlimi var. Dəmir karbonatlı mineral su bulaqları, əsasən, tənəffüs və həzm orqanları xəstəliklərinin müalicəsi üçün istifadə edilir. Kurort kimi 1505 ildən məlumdur. Xalq memarlığı muzeyi, 14–19 əsrlərə aid çoxsaylı memarlıq abidələri var. Turizm inkişaf etmişdir. B.-da yay musiqi festivalları keçirilir.



Bardeyov şəhərinin mərkəzi meydanı.



Bardhaman. Şivaya həsr olunmuş məbəd kompleksi.

**BÁRDHAMAN** – Hindistanın ş.-ində, Qərbi Benqaliya ştatında şəhər. Əh. 301,8 min (2005). Damodar çayının vadisindədir. Nəql. qovşağı. B. adı erkən caynizm (e.ə. 6 əsr) dövründən məlumdur və bu dinin təlimçisi Mahavira Vardhamanın adı ilə bağlıdır. 17 əsrin sonundan Böyük Moğol imperatoru Övrəngzibin fərmanı ilə B. əsası Krişnaram Rey tərəfindən qoyulan knyaz sülaləsinin hakimiyyətində olmuşdur. Racbari un-ti (1960 ildən; əvvəllər maharaca sarayı idi); Şivaya həsr olunmuş və 108 məbəddən ibarət kompleks; gen.-qubernator lord Kerzonun şərəfinə inşa edilmiş Zəfər tağı; muzey və rəssamlıq qalereyası; yeyinti, toxuculuq, maşınqayırma sənayesi müəssisələri var.

**BARDIM SİLSİLƏSİ** – RF-də, Orta Uraldadır. Şm.-dan c.-a 70 *km* məsafədə uzanır. Orta hünd. 450–500 *m*, ən hündür nöqtəsi 678 *m* (Züryan d.). Ordovik və Siluryaşlı kvarslı qumdaşılardan, şistlərdən və effuziv süxurlardan təşkil olunmuşdur. Yamacları qarışıq (enliyarpaqlı və tünd iynəyarpaqlı) meşələrlə örtülüdür.

**BÁRDİN** (Bardeen) Con (23.5.1908, Madison – 30.1.1991, Boston) – Amerika fiziki. Fizika üzrə iki dəfə Nobel mükafatı alan (1956, U. *Bratteyn* və U. *Şokli* ilə; 1972, L. *Kuper* və C. *Şrifferlə* birlikdə) yeganə fizikdir. SSRİ EA-nın əcnəbi üzvü (1982). Viskonsin Un-tini bitirmiş (1929), Prinston Un-tində doktorluq elmi dərəcəsini almışdır (1936). Harvard (1936–38) və Minnesota (1938–41) un-tlərində, sonra Vaşinqtonda Hərbi-Dəniz Artilleriya Laboratoriyasında, 1945–51 illərdə "Bell" telefon şirkətində işləmişdir. 1951 ildən İllinoys Un-tinin prof.-u olmuşdur. B.-in U. Şokli və U. Bratteyn ilə birlikdə apardığı tədqiqatlar nəticəsində yarımkeçirici tranzistor (1947) və onun əsasında cihaz-lar yaradılmışdır. Səth elektronlarının və s. amillərin yarımkeçiricilərin keçiriciliyinə təsirini və bərk cismdə elektronların tunelləşmə effektlərini öyrənmişdir. Tələbələri L. Kuper və C. Şrifferlə birlikdə ifratkeçiricilik hadisəsini tədqiq etmiş və 1956 ildə onun nəzəriyyəsini yaratmışdır (BKŞ nəzəriyyəsi; bax *Bardin – Kuper – Şriffer modeli*). 1958 ildə onlar helium-3-ün ifrataxıcılıq nəzəriyyəsini işləyib hazırlamışlar. SSRİ EA-nın M.V. Lomonosov ad. qızıl medalı ilə təltif edilmişdir (1988).



**BÁRDİN** İvan Pavloviç (13. 11.1883, Saratov qub.-nın Şiroki Ustup k. – 7.1. 1960, Moskva) – rus metallurqu. SSRİ EA akad. (1932), SSRİ EA vitse-prezidenti (1942–60), Sosialist Əməyi Qəhrəmanı (1945), Lenin mükafatı (1958), SSRİ Dövlət mükafatı (1942, 1949) laureatı. Kiyev Politexnik İn-tunu bitirmişdir (1910). 1910–11 illərdə ABŞ z-dlarında işləmişdir. 1917 ildən Rusiyanın c.-undakı müxtəlif metallurgiya z-dlarında rəhbər vəzifələrdə çalışmışdır. 1939 ildən SSRİ EA Metallurgiya İn-tunun direktoru və 1944 ildən Mərkəzi Elmi Tədqiqat Qara Metallurgiya İn-tunun (1960 ildən onun adınadır) direktoru işləmişdir. Qara Metallurgiya Sənayesin- də B. tamamilə mexanikləşdirilmiş güclü metallurgiya z-dlarının layihələşdirilməsi, poladın fasiləsiz tökülməsi üçün sənaye qurğularının yaradılması, metal- lurgiya proseslərinin intensivləşdirilməsi (oksigenin köməyi ilə), yeni xammal növlərinin kompleks istifadəsi məsələləri ilə məşğul olmuşdur. 7 dəfə Lenin ordeni ilə təltif edilmişdir.



**BÁRDİN–KÚPER–ŞRİFFER MODELİ** (BKŞ modeli) – ifratkeçiriciliyin mikroskopik nəzəriyyəsi. 1956 ildə C. *Bardin*, L. *Kuper* və C. *Şriffer* tərəfindən yaradılmışdır (fizika sahəsində Nobel mükafatı, 1972). Bir çox ifratkeçiricilərin termodinamiki, kinetik və maqnit xassələrini (istilik tutumu, istilikkeçirmə, ultrasəsin udulması, mikrodalğaların udulması, *Meysner effekti*, *izotopik effekt* və s.) təsvir edir. BKŞ modeli *Kuper effektinə* əsaslanır: *Fermi səthi* yaxınlığındakı enerjiyə malik əks spinli iki elektron, aralarında nə qədər zəif cazibə olsa belə, rabitə (Kuper cütü) əmələ gətirir. BKŞ modelində Kuper cütləşməsi, adətən, elektronlararası orta məsafədən dəfələrlə çox olan məsafələrdə, əks spinli elektronlar arasında ifratkeçirici korrelyasiyalarda təzahür edir. Kuper cütləri boze-kondensat əmələ gətirir (bax *Boze–Eynşteyn kondensasiyası*) və ifrataxıcılıq xassəsinə malik olur. BKŞ modelində ifratkeçiricilik elektron mayenin ifrataxıcılığı ilə izah edilir. İfratkeçiricinin bütün həcmində Kuper cütlərinə *kvant koherentliyi* xasdır. Bu, ifratkeçirici sistemlərdə makroskopik kvant hadisələrinin yaranmasına səbəb olur.

Kuper cütü qırıldıqda elektron və ya deşik həyəcanlanmaları yaranır. Ayrıca həyəcanlanma üçün lazım olan minimal enerji ifratkeçiricinin həyəcanlanma spektrində energetik yarığı təyin edir. Mütləq sıfır temp-rda bütün keçirici elektronlar Kuper cütləri yaradır. Temp-r artdıqca Kuper cütlərinin sayı azalır, həyəcanlanmaların sayı isə artır. Müəyyən (verilən ifratkeçirici üçün xarakterik olan) böhran temp-runda bütün Kuper cütləri dağılır və ifratkeçiricilik xassələri yox olur.

**BÁRDİYA** – bax *Qaumata*.

**BARDÓ** (Bardot) Brijitt (d. 28.9.1934, Paris) – fransız kinoaktrisası. 1952 ildən kinoya çəkilmişdir. 1950-ci illərin 2-ci yarısının filmlərində ("Tanrı qadını yaratdı ki ...", "Parisli qadın", "Bədbəxtlik üz verərsə", "Qadın və təlxək") yaratdığı burjua şərtiliklərinə qarşı üsyan edən gənc qadın obrazı həmin dövr nəslinin simvoluna çevrilmişdir. 1950-ci illərin sonu – 60-cı illərdə çəkildiyi filmlərdə ("Babetta müharibəyə gedir", "Həqiqət", "Nifrət", "Şəxsi həyat", "Viva, Mariya!" və s.) B. dramatik aktrisa kimi də özünü göstərmişdir. 1973 ildə, "Don Juan 73" filmindən sonra, kinodan getmişdir. 1983 ildə "Brijitt Bardo olduğu kimi" sənədli filminə çəkilmişdir. Heyvanları mühafizə fonduna – "Bardo fondu"na başçılıq edir.



**BARDÓ MÜQAVİLƏSİ (1881)** – Fransa ilə Tunis arasında bağlanmışdır; mayın 12-də Bardoda (Tunis ş. yaxınlığında qəs.) fransız gen. Brear ilə Tunis bəyi III Məhəmməd əs-Sadak tərəfindən imzalanmışdır. Faktiki olaraq Tunisi Fransanın protektoratına çevirmişdir. 1881 ilin aprelində Fransa hökuməti Tunis–Əlcəzair sərhədində məskunlaşan krumirlər tayfasının qiyam qaldırmasını bəhanə edərək qoşunlarını Tunis ərazisinə yeritdi. Ölkənin mühüm mərkəzləri Fransa ordusu tərəfindən işğal edildikdən sonra bəy fransız idarəsini hüquqi cəhətdən tanımağa məcbur oldu.

B.m.-nə görə bəy Fransanın razılığı olmadan beynəlxalq müqavilə bağlamayacağını öhdəsinə götürür, üçüncü ölkələrdə Tunisin maraqlarının qorunmasını ona həvalə edir, Tunisdə fransız nazir-rezident vəzifəsinin təsis olunması və fransız ordusu tərəfindən ölkədə istənilən məntəqələrin müvəqqəti işğalı, həmçinin dövlət borcunun ödənilməsinin təmin olunması məqsədilə maliyyə sisteminin yenidən qurulması, xarici kreditorların hüquqlarının təmin olunması ilə razılaşırdı. Fransa isə təhlükə yaranacağı təqdirdə bəyə və onun sülaləsinə dəstək göstərəcəyini vəd edirdi. B.m. Məhəmməd əs-Sadakın təbəələri üzərindəki hakimiyyətinə toxunmamışdı. Bu müqaviləyə 1883 il iyunun 8-də La-Marsda (Tunis ş. yaxınlığında) imzalanan və bəndlərində ilk dəfə "protektorat" termini işlədilən Fransa–Tunis konvensiyası əlavə olundu. B.m. Tunis müstəqillik qazandıqdan (1956, 20 mart) sonra ləğv edilmişdir.

**BARDT** (Bahrdt) Hans Paul (d.3.12. 1918, Almaniya, Drezden) – alman sosioloqu. Göttingen Un-tini bitirmiş (1952), orada doktor dərəcəsi almışdır. 1958 ildən Hannover Ali Texniki Məktəbinin, 1962–83 illərdə Göttingen Un-tinin prof.-u olmuşdur. 1968 ildə Göttingen Un-ti nəzdində Sosioloji Tədqiqatlar İn-tunu (SOFI) yaratmışdır. B. müharibədənsonrakı Almaniyada sosiologiyanın institutlaşdırılmasında fəal iştirak etmiş, o cümlədən bir neçə dərslik yazmışdır. B.-ın tədqiqatları müəssisədə, ailədə, bürokratik təşkilatda və xüsusilə də şəhərdə qarşılıqlı sosial münasibətlərin gündəlik formalarının öyrənilməsinə həsr edilmişdir. Onun iri sənaye şəhəri konsepsiyası bu sahədəki sosioloji biliyin tərkib hissəsinə çevrilmişdir.

B.-ın ideyaları şəhər özünüidarəetmə məsələlərinə dair geniş diskussiyalara təkan vermiş, real federallar və torpaq "humanist şəhər quruculuğu" federal və ərazi layihələrinin əsasını, iri empirik tədqiqatların nəzəri bünövrəsini təşkil etmişdir.

Ə s ə r l ə r i: Die moderne Grobstadt. Münch., 1961; Schlüsselbegriffe der Soziologie. Münch., 1992.

**BÁRE SEYİDLƏRİ** – Hindistanın siyasi tarixində mühüm rol oynamış məşhur nəsil. Banisi Əbül-Fərahdır. 13 əsrin sonu – 14 əsrin əvvəllərində İraqdan Hindistana köç etmişlər. Əkbər şahın dövründə [1556–1605] Müzəffərnahar bölgəsində yerləşən Duabda 12 (hindcə bare) kəndə sahib olduqları üçün B.s. adlandırılmışlar. B.s. döyüş qabiliyyətləri sayəsində Dehli sultanlığında, xüsusilə Seyidlər dövründə [1414–51] sarayda böyük nüfuz qazanmışlar. Cahangir şah xatirələrində B.s.-nin dövlətə xidmətlərindən bəhs edir. Bahadır şahın [1707–12] taxta çıxmasında mühüm rol oynamış, Fərrux Siyyarı [1713–19], Məhəmməd şahı [1719–48] hakimiyyətə gətirmiş və ölkənin idarə olunmasında mühüm rol oynamışlar. Lakin bir müddət sonra ölkədə B.s.-nin artan nüfuzundan narahat olan ciddi müxalif qrup meydana gəldi. 1720 ildə Dekan valisi Nizamülmülkün başçılığı altında hərəkət edən qiyamçılarla toqquşmada ağır zərbə alan B.s. saraydakı hakim mövqelərini itirdilər. Hazırda B.s.-nin nəsillərinin azsaylı nümayəndələri Müzəffərnahar bölgəsində yaşayırlar.

**BARÉLİ**, B a r e y l i – Hindistanın şm.-ında, Uttar-Prades ştatında şəhər. Əh. 745,5 min (2005). Ramqanqa çayı sahilindədir. Nəql. qovşağı.

1537 ildə salınmışdır. 1707–20 illərdə Şimali Hindistanın Rohilkhanda (hərfi mənada "rohillər ölkəsi") racalığının paytaxtı olmuşdur. 1740-cı illərdə əfqanlar tərəfindən işğal edilmişdir. *İngiltərə-Marathi müharibələrinin* gedişində Britaniyanın Hindistandakı müstəmləkələrinə birləşdirilmişdir (1801). B. sipahilər üsyanı [bax *Hindistanda xalq üsyanı (1857–59)*] zamanı üsyançılara dəstəkləmiş, lakin 1858 ilin may ayında inadlı müqavimətə baxmayaraq ingilislər tərəfindən zəbt olunmuşdur. B.-dəki çoxsaylı məscidlər ş.-in maraqlı memarlıq abidə-

Bareli kolleci (1837).





Bareli. Hind milli qəhrəmanı Lakşmi Bainin heykəli.

lərindəndir. Ahiçhatra, Buddanın ziyarət etdiyi qədim Şm. Pançal şəhərinin xarabalıqları (b.e. 4–6 əsrlər) B. yaxınlığında yerləşir. Şiva məbədinin xarabalıqları, allahların həyatına dair təsvirləri olan terrakota heykəllər və terrakota lövhələr saxlanılmışdır. Ahiçhatra tapıntılarının bir hissəsi Dehli Milli Muzeyində qorunur. Rohilxand Un-ti (1975 ildən), Bareli kolleci (1837 ildən) fəaliyyət göstərir; yeyinti (şəkər), toxuculuq sənayesi müəssisələri; sintetik kauçuk z-du var. D.y. avadanlıqları təmir və istehsal olunur. K.t. r-nun mərkəzidir.

**BARELVİ** Seyid Əhməd (1786–1831) – hind vaizi. İngiltərə işğalı altında olan Hindistanın şərq rayonlarında "Cəmiət-ül-mücahiddin" ("Din uğrunda mübarizlər cəmiyyəti") təşkilatının və hind vəhhabiləri cərəyanının yaradıcısıdır. İslam dininin sonrakı dövrlərin əlavələrindən təmizlənməsinə, teokratik dövlətin yaradılmasına və Hindistanı işğal etmiş ingilislərə qarşı cihada çağırırdı. Ölümündən sonra davamçıları Əfqanıstanla sərhəddə dayaq məntəqəsi yaradaraq, uzun müddət oradan ingilislərin tabeliyində olan ərazilərə hücumlar edirdilər.

Xalq şairləri R. Rza və N. Rəfibəylinin barelyefi. Xatirə lövhəsi. Bakı.



II Ramzesin barelyefi. Sakkara (Misir).



**BARELYÉF** (fr. bas-relief – alçaq relyef) – qabarıq təsvir, yaxud ornamentin həcminin yastı səth fonundan yarıdan az çıxdığı heykəltəraşlıq əsəri. B. memarlıqda və dekorativ məmulatlarda geniş yayılmış bəzək növüdür. B.-dən heykəl postamentlərində, xatirə lövhələrində, sikkə və medallarda da istifadə olunur. Bakıda N. Gəncəvinin, M. Füzulinin abidələrinin postamentlərindəki B.-lər və H. Cavid, Y. Məmmədəliyev, Bülbül, Q. Qarayev, R. Rza, N. Rəfibəyli, E. Sabitoğlu və b.-nın yaşadıqları binalardakı xatirə lövhələri maraqlı B. nümunələridir.

**BÁRENS** (Barents, Barendsz) Villem (təqr. 1550, Amsterdam – 20.6.1597, Novaya Zemlya arxipelaqının şm. qurtaracağı) – hollandiyalı dəniz səyyahı. 1594–97 illərdə Atlantika okeanından Sakit okeana olan şm.-ş. keçidini tapmaq məqsədilə Şimal Buzlu okeanına 3 dəfə səyahət etmişdir. Ekspedisiya 1596–97 illərdə Medveji və Qərbi Şpitsbergen adalarını təkrar (rus pomorlarından sonra) kəşf etmişdir. Keçilməz buzlara görə ekspedisiya Novaya Zemlyanın Severnı a.-nın şm.-ş. sahilində qışlamağa məcbur oldu. 1597 ilin yayında ekspedisiya buzların arasında sıxılıb dağılmış gəmini ataraq iki qayıqla geriyə döndü və yolda B. vəfat etdi . B. öz müşahidələri əsasında Novaya Zemlyanın xəritəsini tərtib etmiş, ilk dəfə olaraq meteoroloji müşahidələrin illik tsikli aparmışdır. B.-in xəritələri və gündəlikləri 1871 ildə Buz Limanında onun qışladığı komada tapılmışdır. Şimal Buzlu okeanında dəniz, Şpitsbergen arxipelaqında ada, Qərbi Şpitsbergen a.-nda qəsəbə və port B.-in şərəfinə adlandırılmışdır.

*Əd.:* Пасецкий В.М. Виллем Баренц (1550–1597). М., 1956.

**BÁRENS ADASI** – Şpitsbergen arxipelaqının ş. hissəsində ada. Norveç ərazisidir. Paleozoy qırışıqlığı üzərində horizontal yatmış Mezozoy yaşlı əhəngdaşılardan və şistlərdən təşkil olunmuşdur. Q.-də çökmə örtüyü bazaltlarla yarılır. Hünd. 610 *m*-ədək. Mərkəzi hissədəki buzlaq "papağından" başlayaraq dərələr boyunca Dukvitsa, Frimena və s. buzlaqlar ayrılır. Arktika tundrası landşaftı üstünlük təşkil edir. Hollandiyalı dəniz səyyahı V. *Barensin* şərəfinə adlandırılmışdır.

**BÁRENS DƏNİZİ** – Şimal Buzlu okeanının kənar dənizi. Avropanın şm.-q. sahili ilə *Vayqaç* a., *Novaya Zemlya, Frans-İosif Torpağı, Şpitsbergen* arxipelaqları və *Medveji* a. arasındadır. Norveçin və RF-nin sahillərini əhatə edir. Q.-də *Norveç dənizi,* c.-da *Ağ dəniz,* ş.-də *Kara dənizi,* şm.-da Şimal Buzlu okeanı ilə sərhədlənir. Ag dəniz ilə şərti sərhədi Müqəddəs Burun ilə Kanin Burnunu birləşdirən xətdir. B.d.-nin c.-ş. hissəsini (*Peçora* çayının töküldüyü yeri) özünəməxsus hidroloji xüsusiyyətinə görə çox vaxt Peçora dənizi adlandırırlar. B.d.-nin sah. 1424 min $km^2$ (sah.-nə görə Şimal Buzlu okeanında ən böyük), həcmi 316 min $km^3$, maks. dərinliyi 600 *m*-dir (c.-q.-də). Sahil xətti kəskin parçalanmışdır; çoxlu burunlar, körfəzlər, buxtalar, fyordlar var. Nisbətən iri körfəz və fyordları: Varanger-fyord, Kola, Peçora, Porsanger-fyord, Çyoşa qubası. B.d.-nin sərhədləri boyunca çoxlu adalar yayılmışdır; ən iriləri Novaya Zemlya və Frans İosif Torpağı arxipelaqlarındadır.

B.d. şelf zonasında (əsasən. 300–400 *m* dərinlikdə) yerləşir. Dibini cavan *Barens-Peçora platformasının* Mezozoy-Kaynozoy yaşlı çökmə süxurları təşkil edir; c. hissəsi Cənubi Barens-Timan qırışıqlıq sisteminin Yuxarı Proterozoy yaşlı çökmə-vulkanogen komplekslərindən ibarətdir. Relyefi səthi kəskin parçalanmış sualtı düzənlikdir, burada sualtı yüksəkliklərin və novların müxtəlif istiqamətlərdə növbələşməsi səciyyəvidir. Ən dərin yerləri q.-də, Norveç dənizi ilə sərhəd yaxınlığındadır. Çoxlu geniş dayaz saylar var. C.-da dənizin dərinliyi. əsasən, 200 *m*-dən azdır, relyefi hamardır. 100 *m*-dən az dərinliklərdə, xüsusən dənizin c. hissəsində, dib çöküntülərini





qumlar təşkil edir. Mərkəzi və şm. hissələrindəki dayazlıqlarda lilli qum, qumlu lil, depressiyalarda lil çöküntüləri yayılmışdır. Hər yerdə qədim buzlaq çöküntülərinə rast gəlinir. Quru sahilləri kristallik süxurlardan ibarətdir.

B.d. üçün qütb dəniz iqlimi səciyyəvidir; isti Atlantika və soyuq Şimal Buzlu okeanlarının təsiri altındadır. Qısa soyuq yayı, uzun, bu enliklər üçün nisbətən isti qışı var. B.d. üzərində qışda, əsasən, c.-q., yaz-yayda şm.-ş. küləkləri əsir, tez-tez qasırğa olur. Havanın orta temp-ru ən soyuq mart ayında Şpitsbergen arxipelaqı adalarında -22°C, Kolquyev a. yaxınlığında –14°C, dənizin c.-q. hissəsində -2°C-dir. Avqustun orta temp-ru q. və mərkəzi hissələrdə 9°C-yədək, c.-ş.-də 7°C, şm.-da 4–6°C-dir. Yağıntının illik miqdarı 300 *mm*-dən (şm.-da) 500 *mm*-ədəkdir (c.-q.-də). İlboyu dəniz üzərində tutqun hava üstünlük təşkil edir.

B.d.-nə tökülən çay sularının illik həcmi nisbətən azdır – təqr. 163 $km^3$. İri çayları: Peçora, İndiqa, Voronya, Teriberka. Dənizin hidroloji rejimi onun Atlantika okeanı ilə Arktika hövzəsi arasındakı mövqeyindən asılıdır. İl ərzində B.d.-nə təqr. 74 min $km^3$ su daxil olur (bir o qədər də çıxır). Bu suyun böyük hissəsini (59 min $km^3$) *Nordkap axını* gətirir. Su mübadiləsində qabarma və çəkilmələrin rolu daha böyükdür. Qabarmalar yarımsutkalıqdır; hünd. Kola y-a sahilində 6,1 *m*-ə, digər yerlərdə 0,6–4,7 *m*-ə çatır. İlıq Atlantika suları (Nordkap axını) dənizin c.-q.-ində səth suyunun temp-runu və duzluluğunu qaldırır. Fevral–mart aylarında burada səth suyunun temp-ru 3–5°C, avqustda 7–9°C-yədək olur. 74° şm. e.-ndən şm.-da və dənizin c.-ş. hissəsində qışda temp-r – 1°C-dən aşağı, yayda isə şm.-da 4–0°C, c.-ş.-də 4–7°C təşkil edir. Duzluluq suyun üst qatlarında c.-q.-də 34,7–35,0‰, ş.-də 33,0–34,0‰, şm.-da 32,0–33,0‰-dir. B.d.-nin çox hissəsi ilboyu buzlarla örtülü olur. Aprel ayında dəniz səthinin təqr. 75%-i üzən buzlarla örtülür. Ən əlverişsiz illərdə bu buzlar Kola y-a-nın sahillərinədək gəlib çıxır. Yay aylarında buzu qismən əriyir. C.-q. hissəsinə ilıq Nordkap axını təsir etdiyi üçün donmur. B.d. holland dənizçisi V. *Barensin* şərəfinə adlandırılmışdır. Hələ 11 əsrdə avropalılardan əvvəl rus pomorları bu dənizin sahillərinə çıxmışdılar. Ovla məşğul olarkən onlar Kolquyev və Vayqaç adalarını, Novaya Zemlyanı, Yuqor Şarı və Kara Darvazası boğazlarını kəşf etmiş, Medveji, Nadejda və Şpitsbergen adalarının sahillərinədək gedib çıxmışlar. B.d.-ndə ilk elmi tədqiqatlar F.P. Litkenin ekspedisiyası (1821–24) tərəfindən aparılmış, dənizin ilk tam hidroloji xarakteristikası 20 əsrin əvvəlində N.M. Knipoviç tərəfindən tərtib olunmuşdur. 1901 ildən "Kola kəsimində" fasiləsiz olaraq dünyada ən uzun hidroloji müşahidələr aparılır.



Barens dənizi. Nordbruk adası (Frans-İosif Torpağı) sahilləri.

B.d.-ndə ekoloji situasiya qənaətbəxşdir. Yalnız körfəzlərdə, gəmilərin toplandığı yerlərdə və dəniz neft-qaz yataqlarının işlənildiyi sahələrdə neft məhsullarının və ağır metalların yüksək miqdarı (əsasən, Kola körfəzində) müşahidə olunur. Bununla belə balıqların toxumalarında ağır metalların miqdarı YVH-dən xeyli aşağıdır.

B.d. məhsuldar r-ndur. 1500 növdən çox dib faunası, əsasən, dərisitikanlılar, molyusklar, polixetlər (çoxqıllı qurdlar), xərçəngkimilər, süngərlər və s.-dən ibarətdir. C. sahilinə yaxın sularda dəniz yosunları yayılmışdır. B.d.-ndə yaşayan 114 növ balıqdan 20-si (treska, pikşa, siyənək, dəniz xanı balığı, dişli skat, kambala, paltus və s.) vətəgə əhəmiyyətlidir. Məməlilərdən: nerpa, Qrenlandiya suitisi, dənizdovşanı, dənizdonuzcuğu, ağ delfin, balina və s. Sahillərdə quş bazarı boldur, 25 növdən artıq quşdan daha çox kayra, təmizçi quş, qağayıçimər (Kola y-a-nın sahilində 84 quş koloniyası) yayılmışdır. İri neft və qaz yataqları kəşf olunmuş və işlənilir (Rusiyada Ştokmanovskoye, Prirazlomnoye və s.). İntensiv

Barens dənizi. Motov körfəzi.



balıq ovçuluğu r-nu və Rusiyanın Avropa hissəsini Sibir və Qərbi Avropa ilə əlaqələndirən dəniz yolu kimi B.d. böyük təsərrüfat əhəmiyyəti kəsb edir. B.d.-nin əsas portu donmayan Murmansk portudur; Teriberka, İndiqa, Naryan-Mar (Rusiya), Vardyo (Norvec) portları da var.

**BÁRENS-PEÇÓRA PLATFORMASI,** Barens-Peçora plitəsi – RF-nin Avropa hissəsinin şm.-ş.-ində, əsasən, Baykal bünövrəli cavan platforma; Barens dənizi şelfində davam edir. C.-q.-də Şərqi Avropa platformasından Timan tirəsinin və Barens dənizinin c. hissəsinin üstəgəlmələri zonası ilə ayrılır. Ş.-də Qütb Uralı–Pay-Xoy–Novaya Zemlya qırışıqlıq sistemi ilə hüdudlanır. Şm.-da ona Şimal Buzlu okeanının dərin Avrasiya hövzəsi, q.-də Norveç-Qrenlandiya dənizinin hövzəsi qovuşur. B.-P. p. Paleozoyun əvvəlindən Ural-Oxot mütəhərrik qurşağının şm.-q.-ində enməyə məruz qalmış və 16–18 *km* qalınlıqda çökmə örtüyü yaratmışdır. Platforma bünövrəsinin qurudakı və Barens dənizinin c.-undakı hissəsi Kembridən əvvəl Baykal tektogenez epoxasında dislokasiyaya məruz qalmış Üst Proterozoy yaşlı metamorfik və maqmatik əmələgəlmələrdən təşkil olunmuşdur; q.-də və şm.-q.-də bünövrə Kaledon yaşlı, şm.-ş.-də Orta Proterozoy (Qrenvil) yaşlıdır. B.-P. p. Paleozoy riftləri (Peçora-Kolva, Şərqi və Cənubi Barens) ilə yarılmışdır. Platformanın c. hissəsində (quruda) çökmə örtüyü Paleozoyun dayaz dəniz və qismən kontinental çöküntülərindən ibarətdir; şm.-da, Barens dənizi hüdudlarında platformanın quruluşunda Mezozoy kompleksləri və Kaynozoy çökmələri də iştirak edir. Çökmə örtüyü ilə iri neft, təbii yanar qaz (o cümlədən Barens dənizi şelfində), kömür yataqları əlaqədardır.

**BARENS-ŞİMALİ KARA NEFTLİ-QAZLI ƏYALƏTİ** – RF-nin və Norveçin Barens dənizi sektorları akvatoriyasını və Kara dənizinin şm. hissəsini əhatə edir. Sah. 1,6 mln. $km^2$. İlk qaz yatağı (Murmansk, RF) 1983 ildə kəşf olunmuşdur. 20 qaz və qaz-kondensat (o cümlədən 5-i RF-də) və bir neft yatağı (Norveçdə) aşkar edilmişdir. Əyalətin əsas hissəsi Barens-Peçora platforması, Şimali Kara sahəsi isə Qərbi Sibir platformasının şm. kənarı ilə əlaqədardır. Barens dənizi hissəsində Yura-Alt Tabaşirin terrigen çöküntüləri (qumdaşılar və alevrolitlər) 1380–2000 *m* dərinlikdə daha məhsuldardır. Burada iri Ştokman qaz-kondensat yatağı açılmışdır. Norveç qaz və qaz-kondensat yataqları ehtiyatına görə orta və kiçik ölçülüdür. Triasın terrigen çöküntüləri də 2400–2600 *m* dərinlikdə məhsuldardır. RF-də Murmansk və Şimali Kildin qaz yataqları, Norveçdə Qoliaf neft yatağı bu çöküntülərdədir. Əyalətin Şimali Kara hissəsi nisbətən az öyrənilmişdir; burada Paleozoy çöküntülərinin neftli olması ehtimal edilir.

**BARÉTTER** – hidrogenlə doldurulmuş şüşə balon şəklində olan və içərisində nazik metal məftil yerləşdirilmiş elektrovakuum cihazı. Məftilin uclarındakı elektrik gərginliyi dəyişdikdə, ondan keçən elektrik cərəyanının gücü (şiddəti) müəyyən hədd daxilində sabit qalır. B. cərəyan şiddəti *stabilizatorudur*. B.-dən radiotexnika və elektrik qurğularında elektrik lampaları katodunun qızdırılma dövrəsində cərəyan şiddətini sabit saxlamaq üçün istifadə olunur.

**BARƏKZƏİLƏR** – *Dürranilərin* tərkibinə daxil olan əfqan tayfası. Qəndahar ş.-nin ş.-ində Hilmənd çayı sahillərində yaşayırlar. Sayları 300 min nəfərdən çoxdur (20 əsrin 2-ci yarısına aid məlumat). Qərbi puştu dialektində danışırlar. Əsasən, əkinçiliklə məşğuldurlar. B. 18 əsrdə müstəqil əfqan dövlətinin yaradılmasında mühüm rol oynamışlar. Dindarları müsəlmandır.

**BARƏKZƏİLƏR** – Əfqanıstanda əmir [1827–39; 1842–1926] və şah [1926–73] sülaləsi. Banisi *Dost Məhəmməd* xandır [1827–39; 1842–62]. Digər nümayəndələri: Şir Əli xan [1863–66; 1868–79], Məhəmməd Əfzəl xan [1866–67], Məhəmməd Əzəm xan [1867–68], Məhəmməd Yaqub xan [1879–80], Əbdürrəhman xan [1880–1901], Xəbadallah xan [1901–19], Əmənulla şah [1919–29], Həbibullah şah [1929], Məhəmməd Nadir şah [1929–33], Məhəmməd Zahir şah [1933–73].

**BARXALOV** Barxal Şaban oğlu (d.15.5. 1944, Bakı) – Azərb. fiziki, fizika-riyaziyyat e. d. (1993), prof. (2007). Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1968). BDU-da ümumi fizika kafedrasının laboratoriya müdiri (1976–77), Azərb. EA-nın Fizika İn-tunda laboratoriya müdiri (1986–87) işləmiş, 1999 ildən baş elmi işçidir. Tədqiqatları yarımkeçiricilər fizikası, bərk cism fizikası və fiziki elektronikaya aiddir; yeni sinif üzvi yarımkeçiricilərin elektrik və fotoelektrik xassələrinin xüsusiyyətlərini, metal-yarımkeçirici-metal strukturlarında bir sıra effektlərin mexanizmini aydınlaşdırmışdır. 100-dən çox elmi əsərin, o cümlədən ali məktəblər üçün dərs vəsaitinin müəllifidir.

**BARXALOV** Şaban Ömər oğlu (15.3. 1906, Zaqatala r-nunun Tala k. – 5.6. 1992, Bakı) – Azərb. lixenobrioloqu. Biologiya e.d. (1965). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1932). 1936 ildən ömrünün sonunadək AMEA-nın Botanika İn-tunda müxtəlif vəzifələrdə, o cümlədən elmi işlər üzrə direktor müavini (1946–47; 1950–52), direktor (1952–57) işləmiş, 1957 ildən "Lixenobriologiya" yaradıcı qrupunun rəhbəri olmuşdur. Tədqiqatları Azərb. və Qafqazın şibyə florasının öyrənilməsinə həsr edilmişdir. 3000 nümunədən ibarət şibyə herbari fondunu yaratmışdır. 70-ədək elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir. Kadr hazırlığında xidməti var.

Əsərləri: Листоватые и кустистые лишайники Азербайджана. Б., 1969; Флора лишайников Кавказа. Б., 1983.

**BARXAN** – qumlu səhralarda və yarımsəhralarda külək akkumulyasiyasının əmələ gətirdiyi relyef forması; bitkisiz asimmetrik qum tirələri. B. çox sürətli küləklərin qarşısını hər hansı maneə kəsdiyi zaman yaranır. Tək B.-ın hünd. adətən 3–5 *m* (nadir hallarda 40 *m*-dək) olur. Planda B.-lar aypara, yaxud oraq formasındadır. Başdan-başa qumlardan ibarət olan ərazilərdə tək B.-lardan başqa, mürəkkəb kompleks B. formaları (B. silsilələri, B. zəncirləri, B. piramidaları) da olur. Küləyin rejimindən asılı olaraq hakim küləklər istiqamətində B. tirələri, küləklərə köndələn istiqamətdə B. zəncirləri, B. silsilələri formalaşır, külək burulğanlarının yerində isə B. piramidaları (hünd. Təklə-Məkan səhrasında 300 *m*, Böyük səhrada 500 *m*) yaranır. B.-da bitki örtüyü olmadığından o, hakim küləklər istiqamətində ilboyu on və yüz *m*-lərlə hərəkət edir.

**BARXAN PİŞİYİ** (Felis marqarita) – pişiklər cinsindən məməli heyvan; onun ən kiçik nümayəndələrindən biri – bədəninin uz. 40–52 *sm*, quyruğu 28–31 *sm*, kütləsi 2–3,4 *kq*-dır. Üçbucaqşəkilli qulaqları başının yanlarında yerləşir. Qumrəngli-boz olur. Tükü yumşaq, qışda sıx və tiftiklidir. Pəncələrinin alt tərəfi sıx tüklərlə örtülüdür. Şimali Afrikada, Asiyada (Sinay və Ərəbistan y-a-ları, Ön və Orta Asiya) yayılmışdır. Qumlu (bəzən gilli) səhralarda yaşayır. İlin çox hissəsini köçəri həyat tərzi sürür. Qışda gündüz, ən isti aylarda isə gecə fəal olur. Yuvalar qa-







Barxanlar. Qobi səhrası (Monqolustan)



Barxan pişiyi (Felis marqarita).

zır, ya da başqa heyvanların köhnə yuvalarından istifadə edir. Xırda gəmiricilər, sürünənlər və quşlarla qidalanır. Uzun müddət susuz qala bilir. 2–5 bala doğur. 1 yarımnövü BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

**BARXUDARLI** – Azərb. Resp. Qazax r-nunda kənd. Barxudarlı ə.d.-nin (Barxudarlı, Sofulu k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 16 *km* c.-q.-də, Ağstafaçayın sol sahilində, Həmzə d.-nın ətəyindədir. Əh. 383 (2008); işğaldan (1992, aprel) əvvəl əkinçilik və heyvandarlıqla məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, tibb məntəqəsi, klub, kitabxana, rabitə şöbəsi var idi.

**BARI,** Baruq – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Dicuycin kəndistanında, Ərdəbil ş.-ndən 10 *km* q.-dədir.

**BARİKİN** Vladimir Aleksandroviç (2.11.1879 – 1942) – rus mikrobioloqu və epidemioloqu. Kazan Un-tini bitirmişdir (1900). 1908–15 illərdə həmin un-tin mikrobiologiya kafedrasında assistent və privat-dosent, 1915–21 illərdə Rostov Un-tinin mikrobiologiya kafedrasında prof. işləmişdir. 1921 ildə Moskvada Mikrobiologiya İn-tunu təşkil etmiş və 1931 ilədək onun direktoru olmuşdur. 1932–33 illərdə Azərb. Dövlət Tibb İn-tunun mikrobiologiya kafedrasının ilk müdiri, 1933–38 illərdə Moskvada Mərkəzi Mikrobiologiya və Epidemiologiya İn-tunun elmi rəhbəri və Mərkəzi Həkimləri Təkmilləşdirmə İn-tunun epidemiologiya kafedrasının müdiri işləmişdir.

B. 114 elmi əsərin və 4 monoqrafiyanın müəllifidir. İmmunitetin öyrənilməsində fiziki-kimyəvi istiqamətin ardıcıl tərəfdarı olmuşdur. Başlıca immunoloji təzahürlərin izahı üçün B. "vəziyyət nəzəriyyəsi"ni təklif etmişdir. Bu nəzəriyyəyə görə, immunitetin yaranması hər hansı yeni maddənin meydana çıxması ilə deyil, orqanizmin toxuma və mayelərinin kolloid vəziyyətinin dəyişməsindən asılıdır. O, çöl siçanlarında taunun düyünlü xroniki formasını müəyyən etmişdir (1909). Difteriya zamanı xəstəlik daşıyıcılarının vaksinlə müalicə üsulunu təklif etmişdir. B.-in və onun şagirdlərinin bir çox əsəri səpmə yatalağın, vəbanın, qarayaranın etiologiyasına, patogenezinə, profilaktikasına və diaqnostikasına həsr edilmişdir.

**BARINC** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Mehranrud kəndistanında, Təbriz ş.-ndən 7 *km* c.-ş.-də, Təbriz–Əhər avtomobil yolunun üstündədir.

**BARINC,** ballıyonca, xəşənbül (Melilotus) – paxlalılar fəsiləsindən ikiillik, bəzən birillik bitki cinsi. Gövdəsi (hünd. 3 *m*-ədək) düzduran, budaqlıdır. Yarpaqları üçlüdür; orta yarpağın saplaqcığı daha uzundur. Sərbəst ləçəkli, ağ, yaxud sarı çiçəkləri çoxçiçəkli qoltuq çiçək salxımında toplanmışdır. Meyvələri çox vaxt açılmayan, çılpaq, yaxud tüklü, 1–3 toxumlu, qırışıqlı paxladır. 2 *m*-ə qədər dərinliyə gedən kök sistemi iridir. Tərkibində kumarin olduğuna görə B.-ın bütün hissələrinin özünəməxsus iyi var. Avrasiyanın mülayim isti və subtropik vil.-lərində, Afrikanın şm. sahillərində 25-ədək növü məlumdur. Azərb.-da B.-ın 7 növü bitir. Təbiətdə yabanı halda bitən və yem otları kimi becərilən ağ B. (M. alba) və sarı, yaxud dərman B.-ı (M. officinalis) daha çox yayılmışdır. Ağ B.-ın yem keyfiyyəti sarı B.-dan yüksəkdir (yoncadan geri qalmır). 100 *kq* yaşıl kütləsində 17,5 yem vahidi və 3,3 *kq* həzmolunan protein var; 100 *kq* quru otunda müvafiq olaraq 44,0 və 16,6 *kq*-dır. B. qaramal, atlar, donuzlar, qoyunlar və quşlar üçün yemdir. Qışa və quraqlığadavamlıdır, əhənglə zəngin torpaqlarda yaxşı bitir. Şorlaşmış torpaqlarda hər *ha*-dan 200–400 *s* yaşıl kütlə, təbii əkinlərdən (cəngəlliklərdən) 30–50 *s* quru ot alınır. Şoran torpaqları azotla zənginləşdirir. Tərkibində kumarinlərdən əlavə flavanoidlər, saponinlər, selikli və s. maddələr olan sarı və hündür B.-ın (V. altissimus) otundan tibdə (təpitmə üçün yumşaldıcı yığımında, ekstraktı isə B. plastırında) istifadə edilir. B.-ın bütün növləri balverən (1 *ha* əkindən arılar 300 *kq*-adək və daha çox bal toplayır) və tozcuqlu bitkilərdir. B. yeyinti, likör-araq və tütün sənayesində ədviyyat və ətirləyici maddə kimi tətbiq olunur.

**BARIŞ** – RF-nin Ulyanovsk vil. ərazisində çay. Sura (Volqa hövzəsi) çayının sağ qolu. Uz. 247 *km*, hövzəsinin sah. 5960 $km^2$. Privoljsk yüksəkliyindən, Sura və Sızran çaylarının mənbəyi yaxınlığından başlanır. Əsasən, yağış və qar suları ilə qidalanır. Noyabrın əvvəlindən aprelin əvvəlinədək donmuş olur. Barış ş. B. sahilindədir.

**BARIŞ MANÇO** – bax *Manço* Barış.

**BARIŞDIRICI MƏHKƏMƏ** – Qərbi Avropanın bir sıra ölkəsində xırda cinayət işlərinə və mülki işlərə baxan məhkəmə orqanı. İlk dəfə İngiltərədə (14 əsr), sonralar Şimali Amerikada (17 əsr), Fransada (18 əsrin sonu; 1959 ildə ləğv edilmişdir), 1864 ildə Rusiyada (1889 ildə ləğv edilmişdir) yaradılmışdı. B.Britaniyada 1972 il yanvarın 1-dən yalnız magistrat məhkəmələrinin barışdırıcı hakimləri fəaliyyət göstərirlər. ABŞ-da B.m. həm də məhdud səlahiyyətli aşağı instansiya məhkəmə hesab olunur və bir qayda olaraq, kənd yerlərində fəaliyyət

göstərir. Azərb.-da B.m. 1868 ildə qəzalarda və qəzaların ayrı-ayrı polis sahələrində təşkil edilmişdi. Sahə B.m.-si birinci, qəza B.m.-si isə apelyasiya instansiyalı məhkəmə idi. B.m.-də hakim işlərə təkbaşına baxırdı. 1917 ilin oktyabr çevrilişindən sonra B.m. ləğv edilmişdir.

**BARIŞNİKOV** Mixail Nikolayeviç (d.27.1.1948, Riqa) – rus balet artisti, RSFSR əməkdar artisti (1973). 1958–64 illərdə Riqa Xoreoqrafiya Məktəbində oxumuşdur. Leninqrad Xoreoqrafiya Məktəbini (A.İ. Puşkinin sinfini) bitirdikdən sonra (1967 ildən) Dövlət Akademik Opera və Balet Teatrında (Leninqrad) işləmişdir. Klassik baletlərdə əsas partiyaları ("Jizel", A. Adan və s.) oynamışdır. Hamlet ("Hamlet", N.P. Çervinski), Adəm ("Dünyanın yaranması", A.P. Petrov), Şahzadə ("Ovsunlanmış şahzadə", B. Bartok) və b. partiyaların ilk ifaçısı olmuşdur. Varna (1966) və Moskva (1969) beynəlxalq müsabiqələrinin 1-ci mükafatına layiq görülmüşdür. Klassik, eləcə də komik rolları ifa edən B. geniş diapazonlu, dramatik temperamentə malik xarakterik aktyordur. 1974 ildə ABŞ-da qastrolda olarkən orada qalmışdır. 1974–78 illərdə "Amerikan balle tietr"in artisti, 1980–89 illərdə bədii direktoru və aparıcı rəqqası olmuşdur: Ceyms ("Silfida", X. Lövenşell), Solist ("Variasiyalarla mövzu", P.İ. Çaykovskinin musiqisi əsasında), Şahzadə ("Şelkunçik", P.İ. Çaykovski, 1976, öz quruluşunda) və s. Klassik baletlərin ("Don Kixot", L. Minkus, 1978; "Zoluşka", S.S. Prokofyev, 1983 və s.) öz versiyalarını yaratmışdır. Ən məşhur klassik rəqqaslardan olan B. müasir rəqs formalarına – modernə, postmodernə maraq göstərmişdir. F. Aşton, R. Peti, C. Noymayer, T. Tarp, Çu San Qo və b.-nın müasir tamaşalarında oynamışdır. 1978–79 illərdə "Nyu-York siti balle"nin solisti olmuş, C. Balançinin tamaşalarında ("Apollon Musaget" və "Orfey", İ.F. Stravinski; "Fərsiz oğul", S.S. Prokofyev) çıxış etmişdir.

1990 ildə M. Morrislə birlikdə "Uayt Ouk Dans Projekt" ("White Oak Dance Project") truppasını yaratmış, burada M. Qrehem, H. Holm və X. Limonun işlərini davam etdirmişdir; "Şelkunçik", "Motor Cade" və b. baletlərdə çıxış etmişdir. Avropada çalışmış (B. Britaniya Kral Baleti: Paris operası və s.). Brodveydəki dram tamaşasında ("Metamorfoza", F. Kafkanın əsəri əsasında) iştirak etmiş; "Dönüş anı", "Bəyaz gecələr" və b. filmlərdə çəkilmişdir.

**BARIT** – bərk partlayıcı maddə; ani yanaraq çoxlu miqdarda qaz və istilik əmələ gətirən qarışıq. B.-ın yanması istiliyin təbəqədən təbəqəyə ötürülməsi ilə baş verir; yanma xarici təzyiqin geniş intervalında (0,1–1000 *MPa*) davamlıdır. Tərkibində yanıcı maddələrdən əlavə, qeyri-üzvi oksidləşdiricilər (məs., nitrat turşusunun duzları) və oksigenli üzvi birləşmələr (nitroefirlər) olduğu üçün havasız da yana bilir. Ehtimala görə, B.-a oxşar qarışıq ilk dəfə 7 əsrdə Çində alınmışdır. B. ərəblərə də qədimdən məlum idi. 13 əsrdən başlayaraq Avropada B.-dan hərbi məqsədlər üçün istifadə edilmişdir. B.-ın tüstüsüz (nitrosellülozlar əsasında), qarışıq (yanıcı və oksidləşdirici), o cümlədən tüstülü növləri var. T ü s t ü s ü z B.-a, əsasən, piroksilin, ballistit, kordit və s. barıtlar aiddir. Piroksilin B.-ı (1884 ildə Fransada alınmışdır) ilə kordit B.-ı (1889 ildə B.Britaniyada alınmışdır) bir-birindən, əsasən, istehsal texnologiyasına, tətbiq edilən həlledici və nitrosellülozlara görə fərqlənir. 1888 ildə A.Nobel (İsveç) tərəfindən təklif edilmiş ballistit B.-ı həlledicidən asılı olaraq nitroqliserin, diqlikol və s. B.-lara, tətbiq sahəsinə görə raket, artilleriya və minaatan B.-larına ayrılır. Ballistit B. piroksilin və kordit B.-larından hiqroskopikliyinin az olması, ballistik xarakteristikalarının stabilliyi, yüksək fiziki davamlılığı və s. ilə fərqlənir. Qədimdən partladıcı maddə kimi işlədilən t ü s t ü l ü (qara) B.-ın tərkibi kalium-nitrat (75%), kükürd (10%) və kömürdən (15%) ibarətdir; burada kalium-nitrat – oksidləşdirici, kömür – yanıcı, kükürd isə bərkidici maddədir. Q a r ı ş ı q B.-ın tərkibi 60–70% ammonium-perxloratdan (oksidləşdirici) və 15–20% polimer bitişdiricidən, 10–20% alüminium ovuntusu və digər əlavələrdən ibarətdir. Tüstüsüz B. müxtəlif silah və döyüş sursatında, pirotexniki məmulat hazırlanmasında, tüstülü (qara) B. iri dekorativ daş parçalarının (mərmər, diabaz və s.) çıxarılması zamanı odötürən qaytanlarda, qarışıq B. isə bərk yanacaqlı raket mühərriklərində tətbiq edilir.

**BARIT MÜHƏRRİKİ** – bərk yanacaqlı raket mühərrikinin sadə növü; yanacaq kimi böyük yanma istiliyinə malik olan *barıtdan* istifadə edilir. Raket artilleriyası və kosmonavtikada tətbiq edilir.

**BARİ,** De Bari (De Bary), Anton de (26.1.1831, Frankfurt-Mayn – 19.1.1888, Strasburq) – alman botaniki. Mikologiya və lixenologiyanın banilərindən biri. Peterburq EA-nın əcnəbi m. üzvü (1880), London Kral cəmiyyətinin üzvü (1884). Frayburq (1855 ildən), Halle (1867 ildən) və Strasburq (1872 ildən) un-tlərinin prof.-u olmuşdur. B. müxtəlif təsnifat qruplarına aid göbələklərin tam inkişaf tsiklini tədqiq etmişdir. Onların heterotrof qidalanma tipini müəyyənləşdirmiş, bir çox göbələk qruplarının cinsi prosesini kəşf etmiş və öyrənmişdir. Onun parazit göbələklərə dair işlərinin fitopatologiyanın inkişafında böyük əhəmiyyəti olmuşdur. Göbələklərin ilk filogenetik sistemini təklif etmişdir. Göbələklərin, şibyələrin və miksomisetlərin morfologiyası, inkişaf tarixi və biologiyasına (1866), eləcə də bitki anatomiyasına dair geniş məlumat tərtib etmişdir. Yosunlara (konyuqatlara, xara yosunlarına və s.) dair çoxlu tədqiqatlar aparmışdır.

**BARİ** – Cənubi İtaliyada, Apuliya vil.-ndə şəhər. Bari əyalətinin inz. m. Əh. 303 min (2005). Adriatik dənizi sahilində port (illik yük dövriyyəsi 2 mln. *t*-dan çox; illik sərnişin dövriyyəsi təqr. 0,7 mln. nəfər – ölkədə 3-cü yeri tutur). Aeroport. B. ərazisində e.ə. 2-ci minillikdən yaşayış məskəni mövcud olmuşdur. E.ə. 89 ildə Roma munisipisi Barium kimi qeyd edilmişdir. Təqr. eramızın 347 ilində B.-də yepiskopluq yaradılmışdır. 395 ildən Qərbi Roma imperiyasının tərkibində olmuşdur. 476 ildə *Odoakr*, 493 ildə ostqotlar tərəfindən tutulmuşdur. 540 ildən Bizansın hakimiyyəti altına keçmişdir. 568 ildə lanqobardlar tərəfindən işğal edilmiş, 669 ildə Bizans onu yenidən geri almışdır. 840 ildən 871 ilədək B. eyniadlı ərəb əmirliyinin, 885 ildən Bizansa məxsus Aşağı İtaliyanın mərkəzi olmuşdur. 1071 ildə normanlar tərəfindən işğal edilmişdir. 1250 ildən sonra dəfələrlə əldən-ələ keçmişdir. 1558 ildən Neapol krallığının, 1860 ildən İtaliya krallığının tərkibində olmuşdur. İkinci dünya müharibəsi zamanı Britaniya qoşunları B.-ni zəbt etdikdən (1943, 20 sentyabr) sonra, bura P. *Badolyo* hökumətinin müvəqqəti iqamətgahına çevrilmişdi. Neft emalı və neftkimya, poladtökmə və boru prokat, yeyinti (zeytun yağı, pivə, tərəvəz və balıq konservi), tütün, toxuculuq, tikiş, ağac emalı, poliqrafiya, maşınqayırma sənayesi müəssisələri var.

Şəhərin sərbəst planlı qədim hissəsində roman üslubunda bir neçə kilsə – Müq. Nikolay bazilikası, 11 əsrin sonu–12 əsr; Müq. Sabin kafedral kilsəsi, 1034–64; Müq. Qriqori kilsəsi, 11 əsrin sonu–12 əsrin əvvəlləri və s.; antik və Bizans istehkamları yerində qala (əsası Siciliya kralı II Rojer tərəfindən 1131 ildə qoyulmuşdur; 1233–40 və 1501–49 illərdə yenidən tikilmişdir) qalmışdır. Şəhərin müntəzəm planlı yeni hissəsində (əsası 1813 ildə qoyulmuşdur) N. Piççinni ad. Opera teatrı (1854), "Ateneo" un-tinin əsas binası (1868–89), Əyalət sarayı (1930-cu illər), Pinakoteka (11–20 əsrlərə aid Apuliya heykəltəraşlıq və boyakarlıq kolleksiyaları) yerləşir.

1990 ildə "San Nikola" stadionunda (50 mindən artıq tamaşaçı) futbol üzrə dünya çempionatının oyunları keçirilmişdir. B. mühüm mədəniyyət, sənaye və ticarət mərkəzidir. Dövlət arxivi, kitabxanalar, Tarix və Milli arxeologiya muzeyləri, Petrusselli teatrı fəaliyyət göstərir. Hər il Levant yarmarkası keçirilir. Balneoloji kurortdur.



Bari şəhərindən görünüş.

**BARİAKS** (? – e.ə. 324) – Midiyada Makedoniyalı İsgəndərin hakimiyyətinə qarşı üsyanın rəhbəri. Əhəmənilər sülaləsinin hakimiyyətini bərpa etməyə çalışırdı. B. özünü Midiya və Parsa (Fars) hökmdarı elan etmişdi. *Atropat* üsyanı yatırdıqdan sonra (e.ə. 324) B. Pasarqadda edam olunmuşdur.

*Əd.:* Дьяконов И.М. История Мидии. M.–Л., 1956.

**BARİBAL** – bax *Qara ayı*.

**BARİK DEPRESSİYA** – alçaq atm. təzyiq sahəsi – *siklon,* barik nov.

**BARİK KÜLƏK QANUNU** – bax *Külək.*

**BARİK QRADİYENT,** B a r o m e t r i k q r a d i y e n t – Yer səthi üzərində atm. təzyiqinin məsafə vahidində dəyişməsini xarakterizə edən göstərici; üfüqi və şaquli B.q.-lərə bölünür. Meteorologiyada, əsasən, üfüqi B.q.-dən istifadə olunur. Üfüqi B.q. 100 *km* məsafəyə 1–3 *hPa* (1–3 *mbar*) təşkil edir (tropik siklonlarda bu rəqəm on dəfələrlə artıq olur). Şaquli B.q. əvəzinə çox vaxt *barik pillə* anlayışından istifadə olunur.

**BARİK PİLLƏ,** B a r o m e t r i k p i l l ə – 1 *hPa* (1 *mbar*) atm. təzyiqi fərqinin şaquli istiqamətdə metrlərlə ifadəsi. Atm. təzyiqinin azalması və temp-run qalxması ilə B.p. böyüyür, belə ki, yuxarı qalxdıqca pillələr arasındakı məsafə artır. Dəniz səviyyəsində, 1013 *hPa* normal atm. təzyiqində və havanın 0°C temp-runda B.p. 8 *m*-ə yaxındır; 5 *km* hünd.-də, təzyiqin dəniz səviyyəsindən təqr. 2 dəfə az olduğu şəraitdə B.p. təqr. 15 *m*-dir. Havanın temp-ru 1°C qalxdıqda, B.p. 0,4% artır. B.p.-dən barometrik nivelirləmədə istifadə olunur.

**BARİK SAHƏ** – Yer atm.-ində hava təzyiqinin məkan üzrə paylanması. B.s. hər verilmiş zaman anında və orta hesabla eyni təzyiqə malik izobarik səthlərlə səciyyələnir. İzobarik səthlər bərabər səviyyəli səthlərlə, o cümlədən dəniz səviyyəsilə kəsişdikdə *izobarlar* əmələ gətirir. Təzyiqin paylanması xəritəsində izobarların sıxlığına əsasən təzyiqin üfüqi istiqamətdə dəyişmə dərəcəsi, yaxud üfüqi *barik qradiyent* haqqında fikir yürütmək olar. Yer atm.-inin B.s.-si çoxsaylı alçaq və yüksək təzyiq sahələrindən – *barik sistemlərdən* ibarətdir. Səviyyə səthlərində təzyiqin müxtəlifliyi hava axınlarının yaranmasına səbəb olur. B.s. zaman daxilində daim dəyişir və bunun da nəticəsində hava axınları dəyişir.

**BARİK SİSTEMLƏR** – Yer atmosferində alçaq və yüksək təzyiq sahələrinin məcmusu. Atm. təzyiqinin paylanması və izobar formaları ilə xarakterizə olunur. B.s. qapalı və açıq izobarlı sistemlərə bölünür. Qapalı izobarlı, alçaq təzyiqli B.s.-ə *siklon*, yüksək təzyiqli B.s.-ə *antisiklon* deyilir; açıq izobarlı B.s. siklonun mərkəzindən çıxan və iki yüksək təzyiq arasında olan alçaq təzyiq zolağından – çökəkliklərdən və antisiklonun mərkəzindən çıxan və iki alçaq təzyiq sahəsi arasında olan yüksək təzyiq zolağından – yaldan ibarətdir. İki siklon və iki antisiklon sahələri arasında çarpaz şəkildə olan təzyiq zolağı – gədik də açıq izobarlı sistemlərə daxildir. B.s. daim qarışır, ölçülərini və intensivliyini dəyişir, yenidən yaranır və itir. B.s.-in ölçüləri materik və okean ölçülərinədək çatır. Küləyin istiqaməti və sürəti, temp-run, yağıntının, buludluluğun və s.-nin paylanması B.s.-lə əlaqədardır.

**BARİK TOPOQRAFİYA** – dəniz səthi üzərində (mütləq B. t.), yaxud altdakı digər izobarik səth üzərində (nisbi B. t.) hər hansı izobarik səthin (atm.-də eyni təzyiqli şərti səth) geopotensiallarının (Yerin cazibə qüvvəsi potensiallarının) paylanması. B.t. xəritələrində eyniölçülü geopotensialların xətti birləşməsilə əks olunur; havanın proqnozlaşdırılmasında istifadə edilir.

**BARİKAB** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Ətraf kəndistanında, Zəncan ş.-ndən 33 *km* c.-dadır.

**BARİKAB** – İranın Zəncan ostanında kənd. Əbhər şəhristanının Əbhərrud bölgəsində, Əbhər qəs.-ndən 15 *km* şm.-dadır.

**BARİKAB** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Səcasrud kəndistanında, Qiydar qəs.-nin 23 *km*-liyindədir.

**BARİLƏR** – Cənubi Sudanda xalq. *Nil-boyu xalqlar* qrupuna daxildir. Mərkəzi Ekvatoriya ştatının Ağ Nil sahillərində (Terakeka şəhərindən c.-da) və Cuba şəhərinin ətrafında məskunlaşırlar (600 min nəfər). Azsaylı qrupları Uqanda (30 min) və Konqo Demokratik Resp.-nın (60 min) Cənubi Sudanla həmsərhəd vilayətlərində yaşayır. Ümumi sayları 690 min nəfərdir (1998). Böyük zənci irqinə mənsubdurlar. Kutuq na bari dilində danışırlar. Ənənəvi etiqadlarını saxlayırlar, xristianlar da var.

18 əsrdə B. Nil çayının yuxarı axarlarındakı savannalardan azandelərlə



Əcdadların fiqurları. Ağac. Cənubi Sudan.

manqbetuların ittifaqı tərəfindən sıxışdırılıb çıxarılmışlar.

Əsas məşğuliyyətləri toxa əkinçiliyi (darı, maniok, yerfındığı), heyvandarlıqdır (zebu, qoyun, keçi) və balıqçılıqdır. Quşçuluqla da məşğuldular. Ənənəvi sənət sahələri hörmə, ağac üzərində oyma (əcdadların fiqurları və s.). Kiçik kəndlərdə yaşayırlar, hər bir koma alçaq gil hasarla əhatə olunur. Evləri dairəvi planda tikilir, divarları ağac budaqlardan hörülür. Keçmişdə qadınlar qısa bel sarğısı bağlayır, kişilər isə bədənlərini qırmızı oxra ilə bəzəyirdilər. Hazırda, kişi geyimi dəri, yaxud lifdən hazırlanan bel sarğısından və avropasayağı şalvar və köynəkdən ibarətdir. Qadınlar pambıq parçadan uzun paltar geyinir, dəmir, yaxud mis qolbaq, üzük və həmayıl taxırlar. Yeməklər, əsasən, bitki və süd məhsullarından hazırlanır (sıyıq, tərəvəz, qovrulmuş qoz, meyvə). Qəbilə-tayfa bölgüsü qorunub saxlanılır. Ailə iri və patriarxaldır, ata xəttli qohumluq əlaqələri mövcuddur; nikah virilokaldır, poliginiya yayılmışdır. Ənənəvi etiqadları – əcdadların kultu, həmçinin səma, yağış, Yer və əkinçilik allahlarının kultlarıdır. Totemizm (ilan və quşlara sitayiş) də yayılmışdır.

**BÁRİLƏR** ("insanlar"; özlərinə verdikləri ad), k u n a q u a s a y a l a r (yupa dilində "su adamları"), m o t i l o n l a r, d o b o k u b i l ə r (köhnə adları) – Şimal-Qərbi Venesuelada (2 mln nəfər) və Kolumbiyanın qonşu rayonlarında (1 mln nəfər) məskunlaşan çibçalar qrupundan xalq. Ümumi sayları 3 mln nəfərdir (1998). Barira dilində danışırlar, ispan dili də yayılmışdır. Ənənəvi etiqadlarını saxlayırlar.

Eramızın 1-ci minilliyində B., ehtimal ki, Syerra-de-Perixanın əsas əhalisini təşkil etmiş, sonralar yupalar tərəfindən şərqi dağətəyi ərazilərə və düzənliklərə sıxışdırılmışlar. Hazırda meşələrdə məskunlaşırlar. Əsas məşğuliyyətləri ovçuluq, balıqçılıq, yığıcılıqdır. Qırılıb yandırılmış sahələrdə əkinçilik (banan, maniok, şəkər qamışı, pambıq, bibər, meyvə) qonşu xalqlara nisbətən daha az əhəmiyyət daşıyır. Geyimləri bel sarğısıdır. Evləri dairəvi planda, uzundur, damı yerə qədər çatır.

Əsas sosial vahid başqa icmalardan təcrid halda yaşayan lokal icmadır. Ənənəvi mədəniyyətləri tədricən itməkdədir, B. tayfa ərazilərindən sıxışdırılıb çıxarılır.

**BARİNAS** – Venesuelanın şm.-q.-ində şəhər. Barinas ştatının inz. m. Əh. 284,3 min (2005). Kordilyer-de-Merida silsiləsinin ətəklərində, Barinas çayı sahilindədir. İri nəql. qovşağı. 1577 ildə salınmışdır. Un-t (1975 ildən) var. Mühüm k. t. r-nu mərkəzidir: çəltik, küncüt, tütün, qarğıdalı və lobya becərilir; qaramal yetişdirilir; oduncaq tədarük edilir. Yaxınlığında neft hasil olunur.

**BARİNAS** – Venesuelanın şm.-q.-ində ştat. Sah. 35,2 min *km*², əh. 757 min (2007). İnz. m. Barinas ş.-dir.

**BARİNOFİTKİMİLƏR** (Barinophytopsida) – ali sporlu bitkilər sinfi. 3 cinsi var. Avrasiya, Şimali Amerika və Avstraliyanın Devon–Alt Karbon çöküntülərindən məlumdur. Dixotomik budaqlanan çılpaq zoğlar yuxarıdan aşağıya doğru yastılaşmış, diskşəkilli strobiləoxşar sporangilərlə tamamlanır. Bərabərsporlulara aiddirlər (sporangilərində eyni vaxtda meqa və mikrosporlar olan Barinophyton cinsindən başqa). Ekzarx protostel adlanan keçirici sistem xarici hissədən daxilə doğru yetişirdi. Ehtimal ki, plaunkimilər fəsiləsinə qohumdur.

**BARİON YÜKÜ**, b a r i o n ə d ə d i – zərrəciklərin (və zərrəciklər sisteminin) xarakteristikası; təcrübə yolu ilə təyin olunmuş "ağır" zərrəciklərin – barionların saxlanması qanunundan irəli gəlir. B.y. anlayışını 1938 ildə İsveçrə fiziki E. Ştükelberq protonun stabilliyini izah etmək üçün irəli sürmüşdür, belə ki, enerji-impulsun, hərəkət miqdarı momentinin və elektrik yükünün saxlanması qanunları protonun daha yüngül zərrəciklərə parcalanmasını mümkünlüyünü "qadağan" etmir. Barionlar buraxılmadan onların daha yüngül zərrəciklərə çevrilməsi prosesi heç vaxt müşahidə edilməmişdir. Bu qanunauyğunluqlar barion ədədinin saxlanması qanunu şəklində ifadə olunmuşdur: bütün proseslərdə barionların ümumi sayının və antibarionların ümumi sayının fərqi saxlanır.

Əgər barionlar üçün məxsusi B.y., (nuklonların B.y. şərti olaraq vahidə bərabər qəbul edilir), antibarionlar üçün əksişarəli B.y., leptonlar, kalibrləmə bozonları və mezonlar (eyni sayda kvark və antikvarklardan ibarət) üçün sıfıra bərabər B.y. qəbul edilərsə, onda barion ədədinin saxlanması qanununa elektrik yükünün saxlanması qanununa oxşar tərif vermək olar. Müşahidə olunan bütün barionların B.y. tam ədəddir. kvark və antikvarkların B.y. isə uyğun olaraq 1/3 və –1/3-dir. Elektrik və rəngli yüklərdən fərqli olaraq, B.y. təxmini saxlanır. B. y.-nün saxlanması qanununun pozulması hipotetik "ifratzəif" qarşılıqlı təsirə görə baş verə bilər. Bu təsirin mövcudluğu haqqında güclü və elektrozəif qarşılıqlı təsirlərin Böyük birləşməsinin bəzi modellərində qabaqcadan deyilir. Protonun parcalanmasının aşkarlanması ilə əlaqədar aparılan təcrübələr göstərdi ki, onun yaşama müddəti hər halda $10^{32}$ ildən çoxdur. B.y.-nün saxlanması qanununun pozulması Kainatın barion asimmetriyasını, yəni Kainatda nəzərəçarpacaq dərəcədə antimaddənin olmadığının izahı üçün istifadə edilir.

**BARİONLAR** ( yun. βαρὺς – ağır ) – barion yükü vahidə bərabər olan zərrəciklər. Bütün daha yaxşı öyrənilmiş B., onların kvant ədədlərini (qəribəlik, heyranlıq, gözəllik) təyin edən üç kvarkdan ibarətdir. Elementar sərrəciklərin təsnifatına görə, onlar adronlar qrupuna daxildir və yarımtam spinə malikdir, yəni Fermi–Dirak statistikasına tabedir. Nuklonlar (proton və neytron), hiperonlar, heyranlanmış və gözəl B. (tərkibi *s*-, *c*-, və *b*-kvarklardan ibarət), həmçinin bütün bu zərrəciklərin həyəcanlanmış halları – barion rezonansları B.-a aiddir. Bütün B., onların ən yüngülü olan protondan başqa, qeyri-stabildir və sərbəst halda parçalanır. Barion rezonansları güclü qarşılıqlı təsir nəticəsində (kvarkların aromatı saxlanmaqla) $10^{-23}$ *san* tərtibli vaxt ərzində, B.-ın əsas halları isə zəif qarşılıqlı təsir nəticəsində (kvarkların aromatı saxlanmamaqla) $10^{-13}$–$10^{-10}$ *san* müddətində parçalanır. Ona görə də sonuncuları şərti olaraq "stabil" zərrəciklərə aid edirlər.

Üç kvarkdan və kvark – antikvark cütündən ibarət "beşkvarklı" B.-ın və altı kvarkdan ibarət dibarionların mövcudluğuna dair nəzəri və təcrübi əsaslar vardır. Əgər təbiətdə həqiqətən *supersimmetriya* baş verirsə (bu fərziyyəyə görə, hər bir zərrəciyin 1/2 spini qədər fərqlənən bənzəri var), onda tam spinə malik B.-ın olması istisna edilmir.

Kainatın yaranma dövründə ilkin *nukleosinteza* dair məlumatlara və relikt mikrodalğaların şüalanmasının bucaq anizotropiyasına görə, atom nüvələrindən və elektronlardan ibarət olan adi maddə (barion materiyası) Kainatın tam kütləsinin yalnız ~ 3–4%-ni təşkil edir.

**BARİS** – İranın Ərdəbil ostanında kənd. Mişkinşəhr şəhristanının Mərkəzi bölgəsinin Şərqi Mişkin kəndistanında, Mişkinşəhrdən 15 *km* şm.-da, Mişkinşəhr– Ərdəbil avtomobil yolunun 10 *km*-liyindədir.

**BARİSÁL**, B o r i ş a l – Banqladeşin c.-unda şəhər (1876 ildən). Barisal vil.-nin inz. m. Əh. 280,4 min (2005). Arial-Khan çayında (Qanq və Brahmaputra çaylarının deltasındakı qollardan biri) port. Aeroport. Üç kollec, o cümlədən tibb kolleci (Dəkkə un-tinin filialları) var. Ticarət mərkəzidir (çəltik, paxlalı bitkilər, cut, dəri). Toxuculuq sənayesi, əczaçılıq, maşınqayırma və metal emalı müəssisələri, tərsanə, İES var.

**BARİSÁN** – İndoneziyada, Sumatra a.-nın c.-q. hissəsində dağ silsiləsi. Uz. təqr. 650 *km*, eni 100 *km*-ədək. Düz xətt üzrə uzanan yarğanlarla (riftlərlə) bölünmüş bir neçə paralel tirədən ibarətdir. Şistlərdən, kvarsitlərdən, əhəngdaşılardan, vulkan süxurlarından təşkil olunmuşdur. Yal hissəsində fəaliyyətdə olan və sönmüş çoxlu vulkan – Kerinçi (hünd. 3800 *m*-ədək, B.-ın ən hünd. nöqtəsi), Talanq, Kaba və s. var. Yüksək seysmikliyə malik ərazidir. Vulkan kraterlərində, kalderlərdə və tektonik depressiyalarda göllər var. Səthi çaylarla kəskin parçalanmışdır. Yamacları həmişəyaşıl meşələrlə örtülüdür.

**"BARİSÁN NASİONÁL"** (BN – "Milli cəbhə") – Malayziyanın 14 siyasi partiyasının hakim koalisiyası. Əvvəllər "Alyans" (1952–55) koalisiyasına daxil olmuşdur; ölkənin malayya, Çin, hind və dayak kommunalist icmalarının siyasi təşkilatlarının birliyi kimi 1.6.1974 ildə yaradılmışdır. BN-in əsasını ölkənin ən böyük partiyası (2,8 mln. nəfərdən çox) olan Birləşmiş malayya milli təşkilatı (BMMT) təşkil edir. BN yarandığı vaxtdan hakimiyyətdədir. Mərkəzi hökuməti və əksər ştatların hakimiyyət orqanlarını formalaşdırır. BN-in başlıca vəzifələri kimi aşağıdakılar bəyan edilmişdir: "Rukuneqara" konsepsiyası bazasında vahid harmonik Malayziya millətinin formalaşdırılması, irqi ziddiyyətlər olmadan ədalətli və çiçəklənən cəmiyyətin qurulması, yoxsulluğun və iqtisadi fəaliyyətin ayrı-ayrı növlərinə olan irqi inhisarın aradan qaldırılmasına istiqamətlənmiş "Yeni iqtisadi siyasət"in həyata keçirilməsi, həmçinin milli sərvətin bərabər bölüşdürülməsi.



Barisal. Beyt ül-Aman məscidi.

**BARİSENTRİK KOORDİNATLAR** – koordinat başlanğıcı kimi götürülən barimərkəzə nəzərən Günəş sistemində cismin vəziyyətini təyin edən koordinatlar.

**BARİSFÉR** (yun. βαρὺς – ağır və σφαίρα – kürə) – Yer kürəsinin nüvə və mantiyadan ibarət daxili hissəsi. Bəzən B. termini altında Yer kürəsinin yalnız nüvəsi başa düşülür. Bax *Geosferlər*.

**BARİT** (yun. βαρὺς – ağırlıq), a ğ ı r ş p a t – təbii sulfatlar sinfinin ən geniş yayılmış barium mineralı, $BaSO_4$. Qismən Sr (baritoselestin, selestobarit), Pb (xokutolit, anqleziobarit), Ca (kalsiobarit) ilə əvəz olunur. Tərkibində 65,7% BaO var. Rombik sinqoniyada kristallaşır. Lövhəvarı və ya prizmatik kristalları, dənəvər, lövhəvarı, şüavi lifli və s. aqreqatları var. Rəngi, əsasən, ağ və bozdur; sarımtıl, göyümtül, qəhvəyivarı, qırmızımtıl çalarlı növləri də olur. Şüşə kimi parıltılıdır. Sərtliyi 3–3,5, sıxlığı təqr. 4500 *kq/m*³. Orta və aşağı temp-rlu hidrotermal yataqlarda, çökmə süxurlarda, səpintilərdə rast gəlir. Azərb.-da Goranboy r-nunda (Baş Qışlaq) var. B.-dən qazıma işlərində gilli məhlulların xüs. ç.-nin artırılmasında, lak-boya, rezin, kağız, plastik kütlələrin aşqarlanmasında istifadə edilir. B. barium və onun birləşmələrinin alınması üçün əsas mənbədir.

Barit.



**BARİT FİLİZLƏRİ** – tərkibindəki konsentrasiya şəklində olan baritin alınması texniki cəhətdən mümkün və iqtisadi baxımdan məqsədəuyğun hesab edilən təbii mineral törəmələri. B.f. yataqları məxsusi barit yataqlarına (barit yeganə, yaxud əsas komponent kimi iştirak edir) və kompleks yataqlara (barit ikinci dərəcəli komponent kimi iştirak edir və əsas mineral ilə birgə hasil edilir) ayrılır. Mineraloji tərkibinə görə məxsusi barit yataqları monobarit, barit-viterit, kvars-barit və kalsit-kvars-barit filizlərindən, kompleks barit yataqları isə barit-flüorit, nadir metal-barit-flüorit-dəmir, barit-kolçedan və barit-polimetal filizlərindən təşkil olunmuşdur. Geoloji-sənaye əhəmiyyətli ya-

taq tipləri, əsasən, hidrotermal damar, vulkanogen-çökmə, aşınma mənşəlidir. Dünya üzrə baritin hesablanmış ehtiyatı 400 mln. *t*-dan çoxdur. Ən böyük ehtiyatlar (mln. *t*) Qazax.-da (145,8), Çində (62,0), Hindistanda (38,0), ABŞ-da (26,0) və RF-dədir (13,8). Saflaşdırılma dərəcələrinə görə barit filizləri asan (aşınma qabığının qumlu-barit və gilli-barit filizləri), orta (kvars-barit və barit-flüorit filizləri) və çətin (dəmir oksidli filizlər) filizlərə bölünür. Saflaşdırma nəticəsində alınmış barit konsentratından kimya, sement, tikinti, neft-qaz sənayesində istifadə edilir.

**BARİTÁJ**, b a r i u m l a m a – fotoqrafiya materiallarının hazırlanmasında kağız əsasın üzərinə tərkibində barium, təbaşir, koalin və s. olan jelatin məhlulunun çəkilməsi. Məhlul quruduqdan sonra əmələ gələn təbəqə örtükdə işığahəssas emulsiyanın yayılmasına mane olur, hamarlılığının artmasına və səthin ağardılmasına, emulsiya təbəqəsi ilə yaxşı yapışmasına səbəb olur.

**BARİTO** – İndoneziyada, Kalimantan a.-nın c.-unda çay. Uz. təqr. 880 *km*, hövzəsinin sah. təqr. 100 min *km*². Müller silsiləsinin c. yamaclarından başlanır, Yava dənizinə tökülür. Yuxarı axınında astanalar və şəlalələr var; aşağı axını güclü surətdə bataqlıqlaşmış düzənlikdən keçir. Dənizə töküldüyü yerdə digər çaylarla birləşərək delta əmələ gətirir. Əsasən, yağış suları ilə qidalanır. İlboyu gursuludur. Aşağı axınında ortaillik su sərfi təqr. 5 min *m*³/*san*-dir. Aşağı və orta axınında gəmiçiliyə yararlıdır. Deltasında Bancarmasin portu yerləşir.

**BARİTÓN** (yun. βαρύς – ağır, aşağı + *ton*) – 1) *tenor* ilə *bas* arasında yüksəkliyinə görə orta kişi səsi, eyni zamanda həmin səslə adətən, solo, nadir hallarda ansambl, yaxud xorla ifa olunan partiya (həmçinin "birinci bas" və ya "ikinci tenor" adlanır). 2) Yayla çalınan simli musiqi aləti, bas *violanın* növlərindən biri. Qol üzərinə adi üsulla çəkilmiş və yayla çalınan 6–7 əsas simdən başqa, B.-da sol əlin baş barmağı ilə səsləndirilən 9–27 sim də olur. B. 17 əsr – 19 əsrin əvvəllərində Avropa ölkələrində (əsasən, Almaniya və Avstriyada) həvəskar musiqiçilərin aləti kimi yayılmışdı. Bu alət üçün yazılmış Y. *Haydnın* əsərləri (çoxlu sonatalar, ansambllar, divertismentlər) daha böyük maraq kəsb edirdi. 3) *Saksqornlar* tipinə aid mis nəfəs aləti. Diapazonu, köklənməsi və yazı sistemi ona oxşar tenor alətində olduğu kimidir, lakin *menzuranın* daha böyük olması və beləliklə də səslənməsi xüsusiyyəti B.-u *tuba* ilə yaxınlaşdırır. Müasir nəfəsli orkestrlərdə istifadə olunur. Baritonun müxtəlif növləri olan *saksofon, qoboy* (gekkelfon) tipləri də B. adlandırılır.

**BARİTÓZ** (*barit* + ... *oz*) – *pnevmokoniozlar* qrupundan peşə xəstəliyi; barium-sulfat (barit) tozu ilə uzun müddət tənəffüs etdikdə inkişaf edir. Çox vaxt ağ ciyərlərin və bronxların kəskin iltihabı ilə ağırlaşma verir.

**BARİUM**, Ba – kimyəvi element. Elementlərin dövri sisteminin II qrupundadır; *qələvi-torpaq metallara* aiddir; at. n. 56, at. k. 137,327. Təbiətdə 7 stabil nuklidi mövcuddur, onların arasında $^{138}Ba$ (71,7%) üstünlük təşkil edir; 30-a yaxın süni nuklid alınmışdır.

**Tarixi arayış.** B.-u oksid şəklində 1774 ildə K. *Şeyele* əvvəllər məlum olmayan "torpaq" adı ilə kəşf etmişdir; sonradan "ağır torpaq" – barit (yun. βαρύς – ağır) adlandırılmışdır. 1808 ildə H. *Devi* əridilmiş duzların elektrolizi ilə metallik B.-u amalqama şəklində almışdır.

**Təbiətdə yayılması.** Yer qabığında B.-un miqdarı kütləcə $5 \cdot 10^{-2}$%-dir. Yüksək kimyəvi aktivliyinə görə sərbəst şəkildə rast gəlinmir. Əsas mineralları: *barit* $BaSO_4$ və *viterit* $BaCO_3$. Dünyada $BaSO_4$-ün illik istehsalı təqr. 6 mln. *t*-dur.

**Xassələri.** B. atomunun xarici elektron təbəqəsinin konfiqurasiyası $6s^2$-dir; birləşmələrdə +2, nadir hallarda +1 oksidləşmə dərəcəsi göstərir; Polinqə görə elektromənfiliyi 0,89; atom radiusu 217,3 *pm*, $Ba^{2+}$ ionun radiusu 149 *pm* (koordinasiya ədədi 6). İonlaşma enerjisi $Ba^0 \rightarrow Ba^+ \rightarrow Ba^{2+}$ 502,8 və 965,1 *kC/mol*. Sulu məhlulda $Ba^{2+}/Ba$ cütünün standart elektrod potensialı 2,906 *V*-dur.

B. gümüşü-ağ rəngli, döyülmə qabiliyyəti olan metaldır; $t_{ər}$ 729°C, $t_{qayn}$ 1637°C-dir. Normal təzyiqdə B.-un kristallik qəfəsi həcmcə mərkəzləşmiş kubdur. 19°C və 5530 *MPa*-da heksaqonal modifikasiya əmələ gəlir. B.-un 293 K-də sıxlığı 3594 *kq/m*³, istilikkeçiriciliyi 18,4 *Vt/(m·K)*, elektrik müqaviməti $5 \cdot 10^{-7}$ *Om·m*-dir. B. paramaqnitdir; xüsusi maqnit həssaslığı $1{,}9 \cdot 10^{-9}$ *m*³/*kq*-dır.

B. metalı havada sürətlə oksidləşir; o, kerosində və ya parafin təbəqəsi altında saxlanılır. B. adi temp-rda oksigenlə barium-oksid BaO, halogenlərlə halogenidlər əmələ gətirir. BaO oksigen, yaxud hava axınında 500°C-də közərdilməklə peroksid $BaO_2$ (800°C-də BaO-ə qədər parçalanır) alınır. Azotla və hidrogenlə qızdırıldıqda nitrid $Ba_3N_2$ və hidrid $BaH_2$ əmələ gəlir. B., hətta soyuqda su buxarı ilə reaksiyaya girir; B. suda qızğın şəkildə həll olaraq qələvi xassəli $Ba(OH)_2$, duruluşdırılmış turşularla duzlar əmələ gətirir. B.-un daha geniş istifadə edilən duzlarından suda həllolanlar: xlorid $BaCl_2$ və digər halogenidlər, nitrat $Ba(NO_3)_2$, xlorat $Ba(ClO_3)_2$, asetat $Ba(OOCCH_3)_2$, sulfid BaS; çətin həllolanlar sulfat $BaSO_4$, karbonat $BaCO_3$, xromat $BaCrO_4$-dür. B. bir çox metalların oksidlərini, halogenidlərini və sulfidlərini müvafiq metala qədər reduksiya edir. Əksər metallarla B. ərintilər əmələ gətirir, bəzən ərintilərin tərkibində intermetallidlər olur. Belə ki, Ba–Al sistemində BaAl, $BaAl_2$, $BaAl_4$ tapılmışdır.

B.-un həllolan duzları zəhərlidir; $BaSO_4$, demək olar ki, zəhərli deyildir.

**Alınması.** B. istehsalı üçün əsas xammal olan baritli konsentrat (80–95%) $BaSO_4$ daş kömür, koks və ya təbii yanar qazla reduksiya edilir; əmələ gələn B. sulfidi bu elementin digər duzlarına emal edilir. B. birləşmələrini közərtməklə BaO alınır. Texniki təmiz B. metalı (kütləcə 96–98%) BaO-in Al tozu ilə termiki reduksiyasından alınır. B. vakuumda qovulmaqla qarışıqların miqdarı $10^{-4}$%-dən az olana qədər, zonalı əridilməklə $10^{-6}$%-ədək təmizlənir. B.-un BaO-dən alınmasının digər üsulu oksidin ərintisinin elektrolizidir. Az miqdarda Ba 1300°C-də berillatın $BaBeO_2$ titanla reduksiyasından alınır.

**Tətbiqi.** B. mis və qurğuşunun oksigensizləşdiricisi, antifriksiyalı ərintilərə, qara və əlvan metallara, həmçinin mətbəə şriftlərinin hazırlanmasında onların bərkliyini artırmaq üçün istifadə edilən ərintilərə aşqar kimi tətbiq olunur. B.-un nikellə ərintilərindən daxiliyanma mühərriklərində və radiolampalarda fitilli şamların elektrodları hazırlanır. B.-un alüminiumla ərintisi olan alba (tərkibində 56% Ba) getterlərin əsasını təşkil edir. B. metalı cərəyanın kimyəvi mənbələrində anodlar üçün materialdır. Termoemissiyalı katodların əksəriyyətinin aktiv hissəsi B. oksididir. Barium-peroksid oksidləşdirici, ağardıcı kimi, eləcə də pirotexnikada işlədilir; əvvəllər onu $CO_2$-dən oksigeni regenerasiya etmək üçün istifadə edirdilər. B. heksaferriti $BaFe_{12}O_{19}$ informasiyanın saxlanması qurğularında istifadə üçün perspektivli materialdır; $BaFe_{12}O_{19}$ sabit maqnitlərin hazırlanması üçün tətbiq edilir. $BaSO_4$ neft və qaz çıxarılmasında qazıma məhlullarına əlavə edilir. B. titanatı $BaTiO_3$ ən mühüm seqnetoelektriklərdən biridir. $^{140}Ba$ nuklidi (β-şüalandırıcı, $T_{1/2}$ 12,8 sutka) B. birləşmələrinin tədqiqi üçün istifadə olunan izotop indikatorudur. B. birləşmələri rentgen və γ-şüalanmanı yaxşı uddoğundan, onlar rentgen qurğuları və nüvə reaktorlarının qoruyucu materiallarının tərkibinə daxil edilir. $BaSO_4$ mədə-bağırsaq yolunun rentgen tədqiqində kontrast maddə kimi tətbiq olunur.

*Əd.*: Ахметов Т.Г. Химия и технология соединений бария. М., 1974. Третьяков Ю.Д. и др. Неорганическая химия. М., 2001.

**BARJ** (fr. barge – qayıq) – yedək gəmisi, yaxud itələyici gəminin köməyilə hərəkət edən yük gəmisi. Quru yük və maye daşıyan B.-lar olur. Quru yük daşıyan B.-lar trümlü (anbarlı), B.-meydança, xüsusi (ixtisaslaşdırılmış) növlərə ayrılır. Trümlü B.-dan qum, daş kömür və s.-nin daşınması üçün istifadə edilir. B.-meydança, əsasən, qablaşdırılmış yükləri daşımaq üçündür. Xüsusi B.-lara avtomobil və traktorların nəqli üçün tətbiq olunan qaraj B., dəndaşıyan B., sementin daşınması üçün yükünü özüboşaldan B. və s. aiddir. Quru yük B.-ının yükgötürmə qabiliyyəti 100–5000 *t*-dur. Mayedaşıyan B.-lar ilə (bilavasitə bölmələrə ayrılmış trümlərdə və ya xüsusi həcmlərdə), əsasən, neft məhsulları (maye yanacaq, yağ, su və s.) daşınır. Özlü məhsullar daşıyan B. isitmə qurğuları ilə təchiz edilir. Mayedaşıyan B.-ın yükgötürmə qabiliyyəti 12000 *t*-a çatır. B.-dan, əsasən, çaylarda, göllərdə, hovuzlarda, nadir hallarda dənizlərdə istifadə olunur. Çaylarda və göllərdə onlarla B.-ı bir yedək və ya itələyici hərəkət etdirir. Dəniz şəraitində itələyici ancaq bir B.-ı hərəkət etdirir və B.-ın arxa hissəsində itələyicinin burun hissəsinin girməsi üçün xüsusi yarıq olur. Bəzi aşağısürətli yük gəmiləri də B. adlanır.



Barj.

**BARK** – iriölçülü yelkənli dəniz gəmisi. B.-ın arxa dor ağacı (bizan-dor) çəpəki yelkənlə, digər dorları (iki, üç, dörd) isə düz yelkənlərlə təchiz edilmişdir.



Bark.

**BÁRKA** (ital. barca) – 18–19 əsrlərdə istifadə edilmiş *barj* tipli, motorsuz, yastıdibli çay gəmisi. Ağac materiallardan düzəldilir və avarlarla idarə olunurdu.

**BARKAN** Ömər Lütfi (1902, Ədirnə – 23.8.1979, İstanbul) – türk tarixçisi, prof. (1941). İstanbul Ali Pedaqoji Məktəbinin fəlsəfə şöbəsində, Strasburq Un-tinin ədəbiyyat və hüquq fakültələrində təhsil almışdır. İstanbul Un-ti iqtisadiyyat fakültəsinin dekanı (1950–52) vəzifəsində çalışmış, özünün yaratdığı Türk İqtisad Tarixi İn-tuna rəhbərlik etmişdir (1955–73). Türkiyə Tarix Qurumunun (1940), İnqilab Tarixi İn-tunun, YUNESKO-nun Türkiyə Milli Komissiyası Baş konfransının (5-ci və 7-ci çağırış) üzvü seçilmişdir. Beynəlxalq Şərqşünaslar Birliyi nəzdindəki Osmanlı və Osmanlıyaqədərki Tədqiqatlar Komitəsinin sədri (1967–73), Strasburq Un-tinin fəxri doktoru (1955), Serbiya Elmlər Akademiyasının üzvü olmuşdur. B.-ın arxiv materiallarına əsaslanan və Osmanlı imperiyasında aqrar münasibətlər tarixinə həsr olunan əsərləri bu sahədə ilk tədqiqatlardır.

Ə s ə r l ə r i: XV ve XVI-ıncı asırlarda Osmanlı imparatorluğunda zirai ekonominin hukuki ve mali esasları. C. 1, Kanunlar. İstanbul, 1945; İstanbul vakıfları tahrir defteri 953 (1546) tarihli. (Ekrem Hakkı Ayverdi ilə birlikdə) İstanbul, 1970; Süleymaniye cami ve imareti inşaatı. C. 1–2. Ankara, 1972–79.

**BARKARÓLA** (ital. barcarola; barca – qayıq) – əvvəllər Venesiyalı qondolyerlərin (qayıqçıların) mahnısı olmuşdur; qondolyera da adlanır. 18 əsrdən qayığın yırğalanmasını imitasiya edən müşayiətlə musiqi əsərləri və ya onun bir hissəsinə də B. deyilir. B. operalara (F. Ober, "Portiçili lal qız"; C. Rossini, "Vilhelm Tell"; J. Offenbax, "Hofmanın nağılları" və b.) daxil edilirdi. Kamera-vokal musiqi janrı kimi F. Şubertin ("Barkarola", "Balıqçının xoşbəxt sevgisi"), M.İ. Qlinkanın ("Mavilər yuxuya getdi") və b.-nın əsərlərində işlənilmişdir. Lirik fp. pyesi kimi populyar olmuşdur: F. Şopenin (op. 60), P.İ. Çaykovskinin ("İlin fəsilləri"ndən "İyun", A.K. Lyadovun (op. 44), S.V. Raxmaninovun op. 10 № 3; 2 fp. üçün 1-ci süitanın 1-ci hissəsi, op. 5), F. Əmirovun ("12 miniatür") və s. əsərləri.

**BARKÁS**, b a r k a z – 1) portda yük daşımaq üçün kiçik ölçülü özügedən gəmi; 2) hərbi dəniz donanmasında 12–14 (bəzən 22-yədək) avarı olan qayıq (şlüpka).

**BARKÁS**, h a ş p i l – dəri və xəz istehsalında gön, dəri və s.-ni emal etmək üçün aparat. B. üst hissəsində fırlanan pərli valı olan yarımsilindrdən ibarətdir. Val fırlandıqca yarımsilindrin içərisindəki mayeni və orada islanan gön və dərini müntəzəm qarışdırır. B.-da dəri və ya gönün isladılma-tüksüzləşdirilmə, yumşaldılma, həmçinin aşılanma əməliyyatları aparılır. Mayenin qarışdırılma xarakterinə görə B. şaquli və üfüqi sirkulyasiyalı olur. Üfüqi sirkulyasiyalı B.-dan yalnız istehsal tullantılarının (dəri ləti, xəz tükü) ilkin emalında istifadə edilir. B. taxtadan, yaxud armaturlanmış polimer materiallardan düzəldilir. İşçi tutumu 0,5–5 *m*³-dir.

**BARKENTİN** (inq. barkentine), ş x u n a b a r k – 3–5 doru olan yelkənli dəniz gəmisi. B.-in qabaq dorları (fok doru) düz yelkənli, digərləri çəp yelkənli olur.



Barkentin.

**BARKHAUZEN** (Barkhausen) Henrix Georq (2.12.1881, Bremen – 20.2.1956, Drezden), alman fiziki və elektrotexniki. Almaniya və Saksoniya EA üzvü. Münxen, Berlin və Göttingen un-tlərində təhsil almışdır. 1911 ildən Drezdendə Ali Texniki Məktəbin prof.-u və Drezden Zəif Cərəyanlar Elektrotexnika İn-tunun direktoru olmuşdur. 1919 ildə ilk dəfə sonralar *Barkhauzen effekti* adını almış hadisəni müşahidə etmişdir. Həmin ildə K. Kurts ilə birlikdə tordakı gərginlik anoddakı gərginlikdən xeyli yüksək olduqda, triodlarda santimetrlik dalğaların generasiyasını aşkar etmişdir [ifrat yük-



Barkisimeto şəhərindən görünüş.

səktezlikli (İYT) rəqslərin ilk elektron generatoru].

**BARKHAUZEN EFFEKTİ** – maqnit sahəsinin intensivliyi və ya digər xarici parametrlər (temp-r, mexaniki gərginlik) müntəzəm olaraq dəyişdikdə ferromaqnetiklərin və ferrimaqnetiklərin maqnitliliyinin sıçrayışla dəyişməsi. İlk dəfə 1919 ildə alman fiziki H.G. *Barkhauzen* müşahidə etmişdir. B. e. onunla şərtlənir ki, ferromaqnetikdəki bir çox defektlər (aşqarlar, dislokasiyalar, qalıq mexaniki gərginliklər və s.) xarici maqnit sahəsində maqnit *domen strukturunun* yenidən qurulmasına mane olur. Maqnit sahəsinin intensivliyinin artması ilə yerini dəyişən maqnit domenin sərhədi maneə ilə (məs., aşqarla) qarşılaşdıqda, dayanır və maqnit sahəsinin intensivliklərinin müəyyən intervalında hərəkətsiz qalır. İntensivliyin sonrakı artması ilə domen sərhədi maneəni dəf edir, müxtəlif defektlərdən ayrılır və artıq xarici maqnit sahəsinin intensivliyi artmadan sıçrayışla yeni tarazlıq vəziyyətinə keçir. Domen sərhədi növbəti maneə ilə qarşılaşdıqda, təsvir edilmiş hadisə təkrarlanır. Domen sərhədləri yerini dəyişərkən ləngimələr baş verdiyi üçün ferromaqnetikin maqnitlənmə əyrisi pilləvarıdır (şək.). B. e. *maqnit-yumşaq materialların* maqnitlənmə əyrisinin qabarıq hissələrində və histerezis ilgəyində daha aydın görünür; burada maqnitliliyin dəyişməsi maqnit sahəsinin təsiri altında domen strukturunun yenidən qurulması ilə əlaqədardır.

**Barkhauzen effekti.** Ferromaqnetikin maqnitlənmə əyrisi (*M* – maqnitlənmə, *H* – maqnit sahəsinin gərginliyi).




B. e. ferromaqnetiklərdə və ferrimaqnetiklərdə domen strukturunun mövcud olmasının və maqnit sahəsində onun yenidən qurulması proseslərinin təcrübi dəlillərindən biridir, o, domenlərin orta həcmini təyin etməyə imkan verir. Əksər ferromaqnetiklərdə və ferrimaqnetiklərdə bu həcm $10^{-6}$–$10^{-8}$ *sm*$^3$-ə bərabərdir. B. e. öyrənilməsi domen strukturunun dinamikasını daha yaxşı dərk etməyə və müxtəlif maqnit materiallarının domen strukturu ilə maqnit histerizisi ilgəyinin xarakteristikaları arasında qarşılıqlı əlaqəni müəyyən etməyə imkan vermişdir.

B. e.-nə oxşar effekt *seqnetoelektriklərdə* də müşahidə edilir; onlarda bu effekt seqnetoelektrik domenlərin sərhədlərinin ləngiməsindən asılı olaraq elektrik polyarlaşmasının sıcrayışları ilə əlaqədardır.

**BARKİSİMETO** (Barquisimeto) – Venesuelanın şm.-q.-ində şəhər. Lara ştatının inz. m. Əh. 809,5 min (2005). Kordilyer-de-Merida silsiləsinin yamaclarındadır. İri nəql. qovşağı (1877 ildə d.y. vasitəsilə Karib dənizi sahili ilə birləşmişdir). 1552 ildə salınmışdır. Un-t (1968), politexnik un-t (1962) var. K.t. r-nunun təşkilati mərkəzidir. Plantasiya (şəkər qamışı, qəhvə, pambıq, sizal və banan) və istehlak (qarğıdalı, lobya, maniok və tərəvəz) bitkiləri becərilir. Qaramal yetişdirilir. Xidmət sahələri inkişaf etmişdir. Əsas sənaye sahələri: yüngül (toxuculuq, tikiş, dəri-ayaqqabı, kisə istehsalı), yeyinti. Maşınqayırma, sement, kimya (o cümlədən əczaçılıq) müəssisələri var.

**BÁRKLA** Çarlz Qlover (7.6.1877, Lankaşir qraflığı, Uidnes – 23.10.1944, Edinburq) – Britaniya fiziki, London Kral cəmiyyətinin üzvü (1912), Nobel mükafatı laureatı (1917).



Liverpulda və Kembricdə təhsil almışdır. Liverpul (1904–09) və London (1909–13) un-tlərində işləmişdir. 1913 ildən Edinburq Un-tinin prof.-u olmuşdur. 1901 ildən rentgen şüalarını tədqiq etmiş, onların elektromaqnit təbiətini təcrübi olaraq təsdiqləmiş və bu şüaların əmələ gəlməsini elektronların maddədə tormozlanması ilə izah etmişdir. Rentgen şüalarının maddədən səpilməsini öyrənmişdir. Xarakterik rentgen şüasını aşkar etmiş, onun xassələrini öyrənmiş və maddənin atomlarının sıra nömrəsi ilə əlaqəsini təyin etmişdir.

**BARKLÁY DE TÓLLİ** Mixail Boqdanoviç (Mixael Andreas) [13.12.1757, başqa məlumatlara görə 1761, indiki Şyaulyay ş. (Litva) yaxınlığında yerləşən Pamuşis ma- likanəsi – 14.5. 1818, indiki Kaliningrad vil.-nin Çernyaxovsk ş. yaxınlığında Ştilitsen xutoru] – Rusiyanın hərbi xadimi, qraf (1813), knyaz (1815), gen.-feldmarşal (1814). Şotland əsilli Liflandiya zadəgan nəslindəndir. *Polşa üsyanının (1794)* yatırılmasında, həmçinin Rusiya-Prussiya-Fransa (1806–07) və Rusiya-İsveç (1808–09) müharibələrində iştirak etmişdir. Finlandiyadakı rus qoşunlarının baş komandanı, Finlandiya gen.-qubernatoru (1809) və Rusiyanın hərbi naziri (1810–12) olmuşdur. Onun







təşəbbüsü ilə diviziya sistemi təkmilləşdirilmiş, Rusiya ordusunda ilk dəfə olaraq korpus sistemi və döyüş zamanı silsilə xəttindən istifadə tətbiq olunmuş, hərbi kəşfiyyat orqanları yaradılmışdır. I Napoleonla gözlənilən müharibənin aparılması ilə bağlı bir neçə hücum və müdafiə döyüş əməliyyatları planı tərtib etmişdir.

B. de T. imperator I Aleksandr ilə birlikdə 1812 ildə Rusiyada Vətən müharibəsi ərəfəsində 3 illik müharibəyə hesablanmış strateji konsepsiya işləyib hazırlamışdır: düşmən qüvvələri sayca üstünlük təşkil etdiyi üçün ölkənin içərilərinə doğru çəkilmək, qüvvələr nisbəti bərabər olanadək həlledici vuruşmadan imtina etmək, partizan hərəkatı və cinahlarda fəal əməliyyatlar ilə düşməni taqətdən salmaq; hərbi əməliyyatları Varşava hersoqluğu, Prussiya və s. alman torpaqlarına keçirmək, I Napoleonun müttəfiqlərini *Antifransa koalisiyalarına* cəlb etmək. Müharibə zamanı bu konsepsiyanın tətbiqi generalitet, zabitlər korpusu və ictimaiyyətdə baş komandan B. de T.-yə qarşı böyük narazılıq yaratdı. Buna baxmayaraq 1812 il avqustun 17(29)-də təyin olunan yeni baş komandan M.İ. *Kutuzov* da B. de T.-nin geriyə çəkilmə strategiyasını davam etdirdi. B. de. T. *Borodino vuruşmasında (1812)* rus ordusunun mərkəzi və sağ cinahlarının komandanı olmuş, süvari qoşunların ən təhlükəli həmlələrinə şəxsən başçılıq etmişdir. Fili k.-ndə keçirilən hərbi şurada rus ordusunu qoruyub saxlamaq məqsədilə həlledici döyüşdən çəkinərək Moskvanın fransızlara təslim edilməsi təklifi ilə çıxış etmişdi.

B. de T. rus ordusunun xarici hərbi səfərlərində (1813–14) 3-cü ordunun və Rusiya-Prussiya ordusunun komandanı olmuş, Torn qalasının alınmasında, Bautsen, Lutsen, Kulm və Leypsiq vuruşmalarında (1813) iştirak etmiş və fərqlənmişdi. 1814–15 illərdə B. de T. rus qoşunlarının baş komandanı təyin olunmuş və Fransa ərazisində aparılan bir çox döyüşlərdə iştirak etmişdir.

B. de T. Müqəddəs Georgi (4-cü dərəcəli, 1794; 3-cü dərəcəli, 1807; 2-ci dərəcəli, 1812; 1-ci dərəcəli, 1813), Müqəddəs Vladimir (1-ci dərəcəli, 1812), Müqəddəs Aleksandr Nevski (1813), Müqəddəs Andrey Pervozvannı (1813) və s. ordenlərlə təltif olunmuşdur.

*Əd.*: Соч.: Изображение военных действий 1812 г. сПб., 1912; Веймарн Ф.В. Барклай де Толли и Отечественная война 1812 г. Ревель, 1914; Josselson M., Josselson D. The Commander: a life of Barclay de Tolly. Oxf., 1980; Томфалушин В.П. М.Б. Барклай де Толли в Отечественной войне 1812 г. Саратов, 1991; Тартаковский А.Т. Неразгаданный Барклай. Легенды и быль. М., 1996.

**"BARKLEYS BANK"** (BARCLAYC Bank) – B.Britaniyanın ən iri kommersiya bankı. Əsası 1694 ildə qoyulmuşdur. 2006 ilin sonuna bankın aktivləri 1,96 trln. ABŞ dolları, öz kapitalı isə 45,16 mlrd. ABŞ dolları təşkil etmişdir. Britaniya banklarının "Böyük dördlüyü"nə daxildir.

**BÁRKLİ** (Barkley Tableland) – Avstraliyanın şm.-ında plato. Şm.-q.-dən c.-ş.-ə 550 *km* məsafədə uzanır. Hünd. 347 *m*-ədək. Paleozoy əhəngdaşılarından təşkil olunmuşdur. Səthi Karpentariya körfəzinə tökülən çayların yuxarı axınları ilə parçalanmışdır; karst var. İqlimi isti və qurudur; yağıntılar (illik 500–700 *mm*) yayda düşür. Evkalipt və qiymətli yem otlarından ibarət dənli bitkilərlə örtülmüş savannalar səciyyəvidir. Maldarlıq inkişaf etmişdir.

**BAR-KÓXBA** (qədim yəhudi dilində – ulduz oğlu) – 132–135 illərdə *İudeyada* Romaya qarşı üsyanın başçısı Simon Bar Kosibanın ləqəbi. Üsyan Roma imperatoru *Adrianın* romalılar tərəfindən 70 ildə dağıdılmış Yerusəlim (Qüds) ş.-nin yerində Yupiterin şərəfinə məbədi olan Eliya Kapitolina adlı Roma koloniyasının salınması, həmçinin sünnət adətinin qadağan edilməsi barədə qərar verməsi zəminində baş vermişdir. Üsyançılar 50 qalanı ələ keçirmiş, Yerusəlim yaxınlığındakı Betar qalası üsyanın mərkəzinə çevrilmişdi. Çoxsaylı hərbi qüvvəni və görkəmli sərkərdələri İudeyada cəmləşdirən Adrian ağır itkilər hesabına üsyanı yatıra bilmişdi. 135 ildə Betar qalasının romalılar tərəfindən tutulması zamanı B.K. həlak olmuşdur. İudeya sakinlərinin böyük bir hissəsi döyüşlərdə həlak olmuş, epidemiyalar nəticəsində ölmüşlər.

1950–60 illərdə İudeya səhrasındakı mağaralarda aşkar olunmuş məktublardan və sənədlərdən göründüyü kimi B.K. çox dindar insan olmuş, hətta müharibə şəraitində belə dini mərasimlərə və ayinlərə ciddi riayət edilməsinə diqqət yetirirmiş.

**BARKÓV** Lev Mitrofanoviç (d.24.10. 1928, Moskva) – rus fiziki, REA-nın akad. (1984). SSRİ Dövlət mükafatı laureatı (1989). Moskva Dövlət Un-tini bitirmişdir (1952). 1952–67 illərdə İ.V. Kurçatov ad. Atom Enerjisi İn-tunda işləmiş, 1967 ildən REA-nın Sibir şöbəsinin Nüvə Fizikası İn-tunda (Novosibirsk) çalışır, eyni zamanda 1973 ildən Novosibirsk Un-tinin prof.-dur. Elmi işləri nüvə fizikası və elementar zərrəciklər fizikasına aiddir. Uran-su sistemlərində neytronların azalması və çoxalması proseslərini, pionların əmələgəlmə prosesini və onların maddə ilə qarşılıqlı təsirini tədqiq etmişdir. Elementar zərrəciklərin xassələrini öyrənmək üçün güclü impulslu maqnit sahəsi olan qurğular işləyib hazırlamışdır. 1978 ildə bismutun atom keçidlərində cütlüyün saxlanılmamasını təcrübi yolla aşkar etmişdir (M.S. Zolotaryovla birlikdə).

**BARQALAR**, barqutlar, bayırqular – Şimal-Şərqi Çində *monqolların* etnik qrupu. Dalay-Nur gölü r-nundakı tarixi Barqa vil.-ində (indiki Daxili Monqolustan muxtar vil.-nin Xulun-Buyr şəhər dairəsi) məskunlaşırlar. Həmçinin Monqolustanın Dornod (Şərqi) aymakında yaşayırlar. Sayları 61 min nəfərdir (1982). Buryat dilinin barqu-buryat dialektində danışırlar. Çin və monqol dilləri də yayılmışdır. Dindarları buddistdir.

"B." etnonimi "barqu" ("kənar, ucqar yer") sözündən əmələ gəlmişdir. B.-ın Baykalın şərqində (əsasən, Barquzin çayı vadisində) yaşadıqları yer orta əsr monqol salnamələrində "Barqucin Tuxum" ("ucqar sərhəd torpağı", yaxud "barquların torpağı") adlanırdı. B. etnotoponimi ilə bağlı coğrafi adlar Buryatiyada bu gün də mövcuddur (Barquzin vadisi, Barquzin körfəzi, Barquzin çayı və s.). 17 əsrin ortalarından xalxalar buddizmi qəbul etməyən və şamanizmə etiqad edən monqolları B. adlandırırdılar. 1730-cu illərdən başlayaraq bu ter-

Barqa qadınları.





Barquzin qoruğu.

min Dalay-Nur gölü bölgəsində Çin hökuməti tərəfindən köç torpaqları kimi ayrılan ərazidəki qrupa – Baykalarxasından gəlmələrin nəsillərinə aid olunurdu. 1940-cı illərdə B.-ın bir hissəsi ("şina-barqalar – "yeni barqalar") Çindən Monqolustana köçmüşdür. B.-ın etnogenezində türk, buryat və monqol komponentləri izlənilir. (Bax həmçinin *Bayırqular*).

**BARQUTLAR** – bax *Barqalar*.

**BARQUZİN** – RF-də, Buryat Resp. ərazisində çay. Uz. 480 *km*, hövzəsinin sah. 21,1 min $km^2$. İkat silsiləsinin yamaclarından başlanır, Barquzin çuxuru ilə axır, Baykal gölünün Barquzin körfəzinə tökülür. Ortaillik su sərfi Barquzin k. yaxınlığında 125 $m^3/san$. Əsas qolları: sağdan Ulyuqna, soldan Qarqa, Arqada, İna. Yağış suları ilə qidalanır. Oktyabrın axırından aprelin ikinci yarısınadək donmuş olur. B.-in hövzəsində ümumi sah. 155 $km^2$ olan təqr. 5 min göl var. Mənsəbindən 204 *km* məsafədə gəmiçiliyə yararlıdır. Suvarmada istifadə olunur.

**BARQUZİN ÇUXURU,** B a r q u z i n  d ə r ə s i – RF-də, Buryat Resp.-nda, Barquzin və İkat silsilələri arasında dağarası çökəklik. C.-q.-dən şm.-ş.-ə 200 *km*-dən çox uzanır, düzənlik relyefi ilə (hünd. 600 *m*) fərqlənir. Baykalarxası dağlıq tayqa hüdudlarında özünəməxsus çöl və meşə-çöl landşaftları (taxıllı-müxtəlifotlu çöllər, tozağacı, qaraşam və şam meşələri) "adasıdır".

Barquzin qoruğu.



**BARQUZİN QORUĞU** – RF-də, Buryatiya ərazisində dövlət təbiət qoruğu. Baykal gölünün şm.-ş. sahilində və *Barquzin silsiləsinin* (hünd. 2841 *m*-ədək) q. yamaclarındadır; c.-da Baykalarxası Milli Parkı ilə sərhədlənir. Sah. 374,3 min *ha*-dır, 111,2 min *ha*-ı biosfer poliqonudur. 1916 ildə Barquzin silsiləsinin q. yamaclarının təbii kompleksini qorumaq və öyrənmək, qiymətli Barquzin samurunun mühafizəsi məqsədilə yaradılmışdır. Landşaftında şaquli zonallıq aydın nəzərə çarpır. İynəyarpaqlı tayqa (ağ şam, qara şamla sidr ağacı qarışığı) üstündür. 1500 *m*-dən yuxarı dağ tundrası üstünlük təşkil edir, Alp bitkiliyinə rast gəlinir. Çoxlu isti (40–76°C) bulaqlar var. Faunası çoxsaylı Barquzin samurundan və endemik Baykal nerpasından, dələ, qonur ayı, sığın, şimal maralı, susamuru, Sibir siçovulu, Sibir porsuğu, sincab və s.-dən ibarətdir; quşlardan Sibir xoruzu, qarabağır, ağquyruq dəniz qartalı, sar, çay qaraquşu və s. var. B.q. *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

**BARQUZİN SİLSİLƏSİ** – RF-nin Baykalarxası təbii ərazisində (Buryat. Resp.) dağ silsiləsi. Baykal gölünün şm.-ş. sahili boyunca 280 *km* məsafədə uzanır. Hünd. 2841 *m*-ədək. Qranit və kristallik şistlərdən təşkil olunmuşdur. Şiş zirvələri, dərələrlə parçalanmış dik yamacları var. Qədim buzlaşmanın izlərinə (troqlar, karlar) rast gəlinir. Termal mineral su çıxışları var. Ş. yamacında 1400 *m* hünd.-ədək qaraşam tayqası, daha yuxarıda seyrək meşəlik, dağ tundrası və Alp çəmənləri yayılmışdır. Q. yamacında *Barquzin qoruğu*, ondan bir qədər c.-da *Baykalarxası Milli Parkı* yerləşir.

**BÁRLAX** (Barlach) Ernst (2.1.1870, Hamburq yaxınlığında Vedel – 24.10.1938, Rostok; Ratseburqda dəfn olunmuşdur) – alman heykəltəraşı, qrafik və yazıçı. Prussiya Rəssamlıq Akademiyasının üzvü (1919), Münxen Rəssamlıq Akademiyasının fəxri üzvü (1925). Hamburq Sənaye-Rəssamlıq Məktəbini (1891), Drezden Rəssamlıq Akademiyasını (1895) bitirmiş, həmçinin Parisdə (1895–96) təhsil almışdır. Erkən yaradıcılığına *modern* üslubunun təsiri olmuşdur. 1909–10 illərdə İtaliyaya getmiş, qayıtdıqdan sonra Güstrovda yaşamışdır. Ksiloqrafiya və litoqrafiya texnikası üsulunda öz dramaturgiyası, həmçinin İ.V. Götenin "Faust" əsəri üçün illüstrasiyalar çəkmişdir (1922). 1-ci dünya müharibəsinin faciəli hadisələri B.-ın bütün yetkinlik dövrü yaradıcılığında iz buraxmışdır ("Həyat və ölüm", tunc, 1917, Barlaxın irsi, Güstrov; "İncidilmiş bəşəriyyət", ağac, 1919, L. Xöş muzeyi, Düren relyefləri və s.). Nasist Almaniyasında B.-in əsərlərinin nümayişi qadağan olunmuşdu, muzeylərdən onun 380-ə yaxın əsəri müsadirə olunmuş, abidələri məhv edilmişdi, "Görüş" heykəltəraşlıq qrupu (tunc, 1926, Barlaxın muzeyi, Ratseburq) isə *"Degenerativ incəsənət"* sərgisində göstərilmişdi (1937). B.-ı nəinki nasist mətbuatı, həm də protestant kilsəsi təqib edirdi. 1938 ildə sənətkara işləmək qadağan olunmuşdu.





E. Barlax. "Duxobor" (1928). Kil.

Xristian mistikası, simvolizm, F.M. Dostoyevski personajlarının iztirab dolu dünyası B.-ın yaradıcılıq mənbəyi idi. Arxaik və orta əsrlər incəsənətinin plastika dili onun əsərlərində *ekspressionizm* ruhunda həyata keçirilmişdir. Monumental formalara meyil edən B. bərk materiallara (ağac, keramika və tunc) üstünlük vermişdir ("Qisasçı", tunc, 1914, Şəhər muzeyi, Rostok; "Eşidənlər frizi", ağac, 1930–35, Barlaxın ev-muzeyi, Hamburq; "Çarmıxa çəkilmə"nin variantları, Marburqdakı Müq. Yelizaveta kilsəsi üçün, 1931 və s.). Ən məşhur əsərləri 1-ci dünya müharibəsi qurbanlarına həsr olunmuşdur: "Dərdli ana" (1921), "Ruhun fatehi" (1928) monumenti, Güstrov kilsəsi üçün uçan mələk fiqurlu monument (hamısı tuncdan, 1927); Hamburqdakı memorialın relyefi (1931) və s. Dini-mistik xarakterli dramların ("Ölü gün", 1912; "Daşqın", 1924; "Şanlı dövr", 1929; "Qraf fon Ratseburq", 1951 və s.), həmçinin qrotesk-satirik pyeslərin müəllifidir ("Yoxsul kuzen", 1918; "Əsl Sedemundlar", 1920 və s.). Dram əsərlərinə görə H. fon Kleyst ad. mükafat almışdır (1924).

**BARLÉTTA** – Cənubi İtaliyada, Apuliya vil.-ndə (Bari əyaləti) şəhər. Əh. 92,7 min (2005). Adriatik dənizi sahilindədir. Kimya (xlorid turşusu istehsalı), sement, yeyinti, kağız, dəri-ayaqqabı sənayesi var. Zeytun yağı və şərab istehsal olunur. Dənizsahili iqlim kurortudur.

**BARLI** – Azərb. Resp. Quba r-nunun Zərdabi ə.d.-ndə qəsəbə. R-n mərkəzindən 15 *km* şm.-q.-də, Quba–Xaçmaz avtomobil yolunun və Samur–Dəvəçi kanalının kənarındadır. Əh. 1713 (2008); meyvəçiliklə məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, feldşer-mama məntəqəsi var.

**BARLIBAĞ** – Azərb. Resp. Şəmkir r-nunun Təzəkənd ə.d.-ndə kənd. R-n mərkəzindən 17 *km* şm.-ş.-də, Gəncə-Qazax düzənliyindədir. Əh. 346 (2008); taxılçılıq və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, kitabxana, klub var.

**BARMAQBİNƏ** – Azərb. Resp. Kəlbəcər r-nunun Dalqılınclı ə.d.-ndə kənd. R-n mərkəzindən 4 *km* q.-də, Şərqi Göyçə silsiləsinin ş. ətəyindədir. Əh. 79 (2008); işğaldan (1993, aprel) əvvəl tütünçülük və heyvandarlıqla məşğul olmuşdur.

**BARMAQHESABI** – bax *Heca vəzni*.

**BARMAQOTU** (Digitaria) – taxıllar fəsiləsindən bir və ya çoxillik ot cinsi. Çiçək qrupu gövdənin ucunda barmaqvarı yaxınlaşmış, yaxud bir az aralı bir neçə darxətli sünbülvarı budaqcıqlardan ibarətdir. 2–3 ədəd 1–2 çiçəkli sünbülcüklər toplusu 2 yaxın cərgədə düzülmüşdür. Tropik və subtropik qurşaqlarda (əsasən, Afrikada) 300-dən artıq, mülayim qurşaqda isə bir neçə növü məlumdur. Azərb.-da düz B., bənövşəyi B., qanlı B., üfüqi B. və kirpikli B. kimi 5 növü bitir. Qumluq yerlərdə, su hövzələrinin sahillərində, çox vaxt alaq otu kimi tarlalarda, yol kənarında bitir. Mal-qara üçün yaxşı yemdir. Tropik və subtropik qurşaqlarda B.-nun bir çox növü mühüm otlaq bitkiləridir. Bəziləri taxıl otu kimi becərilir. B.-dan həmçinin torpaq eroziyasına qarşı mübarizədə, qumların bərkidilməsində, qazonların düzəldilməsində, səbət, həsir toxunmasında və s. istifadə edilir.

Qanlı barmaqotu (Digitaria sanguinalis).



**BÁRMEN** – bax *Vuppertal*.

**BARMİN** Vladimir Pavloviç (17.3.1909, Moskva – 17.7.1993, Moskva) – mexanika və maşınqayırma sahəsində rus alimi. REA-nın akad. (1966), Sosialist Əməyi Qəhrəmanı (1956), Lenin mükafatı (1957) və SSRİ Dövlət mükafatı (1943, 1967, 1977, 1985) laureatı. Moskva Ali Texniki Məktəbini (MATM) bitirmişdir (1930; 1960 ildən MATM-in prof.-u). 1930 ildən KB-də, 1941 ildən XKB-də, 1967 ildən Ümumi Maşınqayırma KB-də böyük konstruktor, baş konstruktor (1987) vəzifəsində işləmişdir. 1930–40 illərdə kompressor və soyuducu maşınların layihəsini vermişdir. 1941 ildən B.-in rəhbərliyi altında yaylım atəşi raket qurğuları, ballistik raketlərin buraxılış qurğuları və raketlər, daşıyıcı raketlər üçün yerüstü start və texniki komplekslər yaradılmışdır. 6 dəfə Lenin ordeni ilə təltif olunmuşdur.



**BAR-MİTSVÁ,** b a t - m i t s v a (yəhudicə "ehkam oğlu", "ehkam qızı") – iudaizmdə yeniyetmə yaş dövrünü (oğlanlarda 13 il 1 gün, qızlarda 12 il 1 gün) bildirən termin; yeniyetmənin dini və hüquqi həddi-büluğa çatma mərasimi. Bu yaşa çatmış şəxs bütün dini ehkamlara riayət etməli və öz hərəkətlərinə görə tam məsuliyyət daşımalıdır. "B.-m." termini *Talmudda* yetkin yəhudi mənasını verir. Ənənəvi iudaizm xüsusi B.-m. ayini nəzərdə tutmurdu. İudaimzdə oğlanların həddi-büluğa çatmasını qeyd etmək adəti orta əsrlərdə yaranmışdır. Qızların həddi-büluğa çatması şərəfinə bayram mərasiminin keçirilməsi haqqında din xadimləri ilk dəfə 19 əsrdə məlumat verirlər.

**BARN** ($\sigma$, b) – sistemdənkənar sahə vahidi; fizikada nüvə proseslərinin effektiv kəsiklərini ifadə etmək üçün tətbiq edilir: $1\sigma = 10^{-28} m^2$.

**BÁRNA** Viktor (24.8.1911, Budapeşt – 28.2.1972, Lima) – macar idmançısı



(stolüstü tennis). Bir dünya çempionatında (1935) 4 qızıl medal (təkbətək, qoşa, qarışıq dərəcələrdə və komanda turnirində) qazanmış yeganə tennisçidir. Dünya çempionatlarının 22 dəfə qızıl mükafatçısı (təkbətək 1930, 1932–35; qoşa 1929–35, 1939; qarışıq dərəcədə 1932, 1935; Macarıstan yığma komandasının heyətində 1929–31, 1933–35, 1938) olmuşdur. Avtomobil qəzasında (1935) sağ qolu zədələnsə də, böyük idmana qayıda bilmiş, 1954 ilədək dünya çempionatlarında iştirak etmişdir. Stolüstü tennisə dair bir sıra kitabın müəllifidir.

**BÁRNARD** Kristian Nitlinq (8.10.1922, CAR, Kap əyaləti, Bofort-Uest – 2.9.2001, Kipr, Pafos) – CAR-ın ürək cərrahı; dünyada ilk dəfə insana ürək köçürmüşdür. Keyptaun Un-tini bitirmişdir (1946). 1956–58 illərdə Minnesota Un-tində (ABŞ) ürək cərrahlığı üzrə ixtisaslaşmışdır. CAR-a qayıtdıqdan sonra Keyptaun Un-tinin ürək cərrahlığı şöbəsinin prof.-u (1961 ildən), 1968–83 illərdə rəhbəri işləmişdir. 3.12.1967 ildə Keyptaundakı Qrut-Şur xəstəxanasında donor ürəyini köçürməklə ürək cərrahiyyəsi və transplantologiyada yeni era açmışdır.



**BÁRNARD ULDUZU** – uzaqlığına görə *α* Sentavr sistemindən sonra Yerə ən yaxın olan ikinci ulduz. Günəşdən məsafəsi 5,9 işıq ilidir. İlandaşıyan bürcündə görünür, parlaqlığı 9,5 ulduz ölçülüdür və qırmızı cırtdan spektrinə malikdir. Kütlə və radiusu Günəşinkindən 5 dəfə az, şüalanma gücü 100 dəfələrlə azdır. 1916 ildə onun rekord yüksək məxsusi hərəkətini (ildə 10,4") aşkar edən Amerika astronomu E.E. Barnardın şərəfinə adlandırılmışdır.

**BARNAÚL** – RF-də şəhər. Altay diyarının mərkəzi. Əh. 631,2 min (2005). Ob çayı sahilindədir. İri nəql. qovşağı (Cənubi Sibir, Türküstan-Sibir d.y.-ları, Novosibirsk, Kuzbas, Qazaxıstana qədər avtomobil yolları). Çay portu. Aeroport.

1734–35 illərdə Ust-Barnaul k. yaranmış, 1739 ildə A.N. Demidovun tikilməkdə olan Barnaul misəritmə z-du yaxınlığında qəs. salınmışdır. 1745–46 illərdə qala tikilmişdir. 1822–1917 illərdə B. Tomsk qub.-nın Barnaul dairəsinin (1898 ildən qəzasının) mərkəzi olmuşdur. 19 əsrin 2-ci yarısında Altayın iri ticarət və sənaye mərkəzi idi. 1917–25 illərdə Altay qub.-nın mərkəzi, 1925–30 illərdə Sibir diyarının, 1930–37 illərdə Qərbi Sibir diyarının tərkibində olmuşdur. 1937 ildən Altay diyarının mərkəzidir.

B.-da geniş tikinti işləri 1785 il planı əsasında aparılmışdır. Son *barokko* üslubunda inşa olunmuş Petropavlovsk kilsəsi nadir tikililərdən idi (1771–74, memar D.P. Makulov; 1935 ildə dağıdılmışdır). 19 əsrin 1-ci yarısında şəhər meydanları sistemi formalaşmışdı. Klassisizm üslubunda ansambllar, o cümlədən Altayda dağ-mədən işlərinin 100 illiyi şərəfinə (1825–1839) qranit obelisk ucaldılmış Demidov meydanı ansamblı salınmışdı. 19 əsrin sonu – 20 əsrin əvvəllərində B.-un memarlığında eklektika [şəhər idarəsi binası, ticarət evləri, "kərpic üslubu"nda tacir mülkləri, Xalq evi (1898–1900, memar İ.P. Ropet, indiki Filarmoniya)] və modern üslubu geniş yayılmışdı. 1917 ildə baş verən dəhşətli yanğından sonra B.-un bərpası üçün mərkəzdə dairəvi meydanı və 6 radius boyunca bulvarları olan şəhər-bağın layihəsi işlənib hazırlanmışdı (memar İ.F. Nosoviç). 1938 ilin (memar V.K. Aleksandrov) və 1950 ilin baş planlarına əsasən şəhər sənaye (şimal) və yaşayış (sahilyanı) hissələrinə ayrılırdı. Böyük Vətən müharibəsində Qələbə memorialı (1971–75, heykəltəraş P.L. Mironov, rəssam V.F. Dobrovolski, memar V.E. Osten-Saken və b.) var.

B.-da filiallarla birlikdə 11 ali məktəb, o cümlədən 5 un-t: pedaqoji (1933), texniki (1942), aqrar (1943), tibb (1954), Altay Dövlət Un-ti (1973); in-tlar: hüquq (1957), incəsənət və mədəniyyət (1975) və s. fəaliyyət göstərir. 3 kitabxana; rəssamlıq (1958), Altay ədəbiyyatı, incəsənəti və mədəniyyəti tarixi (1989), diyarşünaslıq (1823) muzeyləri; V.M. Şukşın ad. Diyar Dram Teatrı (1921), uşaq və gənclər teatrı (1958), Altay Dövlət Musiqili Komediya Teatrı (1960), "Nağıl" kukla teatrı (1963); Altay Diyar Dövlət Filarmoniyasının simfonik orkestri (1954), "Sibir" rus xalq çalğı alətləri dövlət orkestri (1990), Altay diyar musiqi cəmiyyəti; planetari var.

B. Altay diyarının əsas sənaye mərkəzidir. Yanacaq nasosları, şin, traktor z-dları; VAZ tipli qazporşenli, dizel mühərriklərinin ("Altaydizel", "Barnaultransmaş"), geoloji-kəşfiyyat avadanlığının istehsalı; Altayda ən iri taxıl emalı müəssisələri birliyi; yeyinti sənayesi (o cümlədən şirniyyat f-ki) var.

**BARNÁV** (Barnave) Antuan Pyer Jozef Mari (21.9.1761, Grenobl – 29.11.1793, Paris) – 18 əsr Fransa inqilabı xadimi, sosioloq, vəkil. Konstitusiyalı monarxiya tərəfdarı. Müəssislər məclisində A.J.F. Düpor və A. Lametlə birlikdə triumvirata başçılıq etmiş, felyanların faktiki rəhbərlərindən biri olmuşdur. B. 15.7.1791 il nitqində inqilabı dayandırmağa çağırmışdır. "Fransa inqilabına giriş" ("Introduction á la Revolution française", 1792, nəşri 1843) əsərində B. coğrafi mühitin siyasi quruluşun formalaşmasına təsiri fikrini inkişaf etdirmiş, ictimai tərəqqini insanların təsərrüfat fəaliyyəti formalarının dəyişdirilməsi ilə əlaqələndirmişdir. B.-ın baxışları K. *Sen-Simonun* tarix fəlsəfəsinə və Restavrasiya dövrü fransız tarixçilərinin ideyalarına mühüm təsir göstərmişdir. Yakobinçilərin diktaturası dövründə edam edilmişdir.

Barnaul şəhərindən görünüş.







**BÁRNETT** Samuel Cekson (14.12.1873, Kanzas – 22.5.1956, Kaliforniya, Pasadena) – Amerika fiziki. Kornell Un-tini bitirmişdir (1898). Stanford (1900–05), Tuleyn (1905–11), Ohayo ştatı (1911–18) un-tlərində, Karnegi İn-tunda (1918–26) işləmişdir. Los-Ancelesdə Kaliforniya Un-tinin prof. olmuşdur (1926–44). Tədqiqatları elektrik və maqnit hadisələrinə, giromaqnit effektlərinə, geomaqnetizmə aiddir. Maqnit sahəsi olmadıqda ferromaqnetiklərin və paramaqnetiklərin fırlanması zamanı onların maqnitlənmə hadisəsini kəşf etmişdir (*Barnett effekti*).

**BÁRNETT EFFEKTİ** – maqnit sahəsi olmadıqda ferromaqnetiklərin və paramaqnetiklərin fırlanması zamanı onların maqnitlənməsi. 1909 ildə Amerika fiziki S. *Barnett* kəşf etmişdir. B. e. onunla izah edilir ki, maqnetik fırlandıqda giroskop effektinə görə atomların spin və orbital mexaniki momentləri fırlanma oxu boyunca yönəlir. Atomun mexaniki momenti onun maqnit momenti ilə əlaqədar olduğuna görə, fırlanma zamanı maqnit momentinin fırlanma oxuna paralel olan toplananı (maqnitlilik) əmələ gəlir. B. e. *maqnitomexaniki əlaqəni* tapmağa və bununla da maqnetizm daşıyıcılarının təbiətini aydınlaşdırmağa imkan verir. B. e. demək olar ki, yalnız tarixi əhəmiyyətə malikdir, çünki maqnitomexaniki əlaqəni təyin etməyin başqa üsulları meydana çıxmışdır.

**BÁRNSLİ** (Barnsley) – B.Britaniyanın mərkəzi hissəsində, Şeffild ş.-ndən şm.-da şəhər. Saut-Yorkşir metropoliten qraflığının inz. m. Əh. 227 min (2003). Dirn çayı sahilindədir. D.y. qovşağı. Yorkşir daş kömür hövzəsinin mərkəzidir. Daş kömür çıxarılır; maşınqayırma, tikiş sənayesi var. Rezin məmulatlar istehsal olunur. 12 əsrdə salınmışdır.

**BARNZ,** B a r n s (Barnes) Harri Elmer (15.6.1889, Nyu-York ştatı, Obern – 25.8.1968, Kaliforniya ştatı, Malibu) – amerikan sosioloqu, tarixçi, publisist. Sirakyus ş. un-tini (Nyu-York ştatı, 1913) bitirmiş, 1918 ildə Kolumbiya un-tində doktorluq dərəcəsini almışdır. 1919 ildən prof., ABŞ-ın bir sıra un-tlərində və kolleclərində sosiologiyadan, tarixdən, penologiyadan və kriminologiyadan dərs demişdir. Tədqiqat sahəsi Qərb sivilizasiyasının iqtisadi, siyasi, mədəniyyət və intellektual aspektlərinin tarixi-tənqidi təhlilidir. Yarımrəsmi tarix ilə müqayisədə sivilizasiyanın genezisini və təkamülünü daha dərindən anlayan və insan haqqında bütün elmlərin nailiyyətlərini özündə birləşdirən "yeni tarix elmi"nin təftişçi konsepsiyasını işləyib hazırlamışdır. B. sosiologiyada sosial dəyişikliklər nəzəriyyəsinin, qeyri-maddi mədəniyyətin zaman baxımından maddi (texniki) mədəniyyətdən geridə qalması konsepsiyasının ardıcılı olmuşdur. Onun 20 əsrin 1-ci yarısındakı Amerika cəmiyyətinə verdiyi qiymət, məs., xarici siyasətdə məqsədlərə çatmaq üçün amerikanların həyatı ilə risk etməyin yolverilməzliyi zaman keçdikcə kütlələrin şüuruna sirayət etmişdir.

Ə s ə r l ə r i: Sociology and political theory. N.Y., 1924; The history of western civilization. N.Y., 1935. Vol. 1-2 (with H.A. David).

**BARÓDA** – bax *Vadodara*.

**BAROFİL MİKROORQANİZMLƏR,** b a r o f i l l ə r, p y e z o f i l l ə r (yun. βάρος – ağırlıq + φιλέω – sevmək) – yüksək təzyiq şəraitində çoxala bilən orqanizmlər. B.m. barotolerant, mötədil və ekstremal olur. Barotolerant B.m. həm alçaq, həm də yüksək təzyiq qiymətlərin-



Barnaul. Altay Dram Teatrı.

Barnsli. Sent-Olban kafedral kilsəsi.



də (40 *MPa*-adək), mötədil B.m. 10–60 *MPa* diapazonunda çoxalır, ekstremal B. m. isə 40 *MPa*-dan aşağı təzyiqdə inkişaf etmir; bunların maks. çoxalma sürəti 70–81 *MPa*-da (bəzən 121 *MPa*-a qədər) müşahidə olunur. B. m. okeanın dərin qatlarında yaşayır, çox vaxt izotermal bulaqların fəallığı ilə əlaqədar olan r-nlarda rast gəlir; dərin neft quyularından da tapılır. Əsasən, prokariotlarla – əsl bakteriyalar və arxeylərlə təmsil olunur.

**BAROGİL** – Əfqanıstanla Pakistanın sərhədində, Hindiquş d-rında aşırım. Vaxandərya çayı (Amudərya hövzəsi) dərəsilə Yarxun çayı (Hind çayı hövzəsi) dərəsi arasındadır. Hünd. 3777 *m*.

**BARÓXA-İ-NÉSİ** (Baroja y Nessi) Pio (28.12.1872, San-Sebastyan – 30.10.1956, Madrid) – ispan yazıçısı. İspaniya Akademiyasının üzvü (1935). Əslən baskdır. Tibb təhsili almış (1893), əyalətdə həkim işləmişdir. 1897 ildən Madriddə köçmüş, jurnalist işləmişdir. 1900 ildə "Kədərli ömürlər" adlı ilk hekayələr toplusunu nəşr etdirmişdir. 1936–40 illərdə mühacirətdə yaşamışdır. 1898 il nəslinin ən görkəmli romançısı olan B.-i-N. 100-ə yaxın kitab (60-dan çox roman, novella, esse, publisistika və memuar əsərləri) yazmışdır. B.-i-N.-nin yaradıcılığına A. *Şopenhauer*, F. *Nitsşe* və F.M. *Dostoyevskinin* təsiri olmuşdur. B.-i.-N.-nin tarixi, macəra və məişət mövzusundakı silsilə romanlarında, kilsə də daxil olmaqla, ispan cəmiyyətinin bütün institutları kəskin tənqid edilir ("Baskların torpağı", 1900–09; "Fantastik həyat", 1901–06; "Yaşamaq uğrunda mübarizə", 1904–05; "Şəhərlər", 1920; "Bizim dövrün can verməsi", 1926; "Qaranlıq meşə", 1932 və s.). B.-i-N.-nin özü yaradıcılığını iki dövrə bölmüşdür (1914 ilə qədərki "böyük hövsələsizlik və ümidsiz həsrət dövrü" və "tarixilik, tənqid və istehza epoxası"). "Silvestr Paradoksun macəraları, ixtiraları və mistifikasiyaları" (1901), "Dumanlar şəhəri" (1909), "Bilik ağacı" (1911) əsərləri yaradıcılığının birinci dövrünün ən yaxşı romanlarıdır; ikinci dövrə aid 22 cildlik "Fəaliyyətdə olan insanın xatirələri" (1913–35) ümumi başlığı altında romanlar seriyası 19 əsr ispan tarixi haqqındadır.

Ə s ə r l ə r i: Алая заря. M., 1964; Obras completas. Madrid, 1973–88. Vol. 1–8.

**BAROKÁMERA** (yun. βαρος – ağırlıq + lat. camera – otaq) – barometrik təzyiqi süni şəkildə dəyişmək üçün hermetik bağlanan kamera. B.-nın içərisində atm. təzyiqinə nisbətən alçaq (vakuum, dekompressiya B.-sı), yaxud yüksək (kompressiya B.-sı) təzyiq yaradılır. Vakuum B.-sından daha çox istifadə olunur. Alçaqtəzyiqli B.-dan təzyiqölçən elementi olan aviasiya, meteorologiya, aerologiya cihazlarının dəqiqliyinin yoxlanılması, təyyarənin, aviasiya mühərrikinin sınaqdan keçirilməsi zamanı, həmçinin uçuş heyəti və kosmonavtların məşqində yüksəklik amilinin (hipoksiyanın, alçaq və yüksək barometrik təzyiq və kəskin təzyiq düşkülərinin), qaz mühitinin dəyişməsinin canlı orqanizmə təsiri öyrənildikdə, yüksəktəzyiqli B.-dan isə, əsasən, tibdə göyöskürək, bronxial astma, kesson xəstəliklərinin müalicəsində, ürəyin cərrahi əməliyyatlarında və s. istifadə edilir. Uçuş aparatlarının kabinəsində sınaq məqsədilə ani hermetiksizləşmə şəraiti yaratmaq üçün partlayış dekompressiya B.-sından istifadə edilir; bu zaman təzyiqin enməsi 1 *san* və daha az müddət ərzində baş verir. Təyinatına görə B.-nın həcmi onlarla $dm^3$-dən bir neçə yüz $m^3$-ədək olur. Təzyiqi və havanın tərkibini dəyişmək, yaxud lazımi səviyyədə saxlamaq üçün B. pəncərələr, lüklər, səs və işıq siqnalizasiyası, danışıq qurğuları, işıq və s. ilə təchiz edilir. Təzyiqdən başqa, həm də temp-ru dəyişən B.-ya t e r m o b a r o k a m e r a deyilir. İqlim B.-sında təzyiqlə yanaşı havanın qaz tərkibi, nəmliyi, hərəkət istiqaməti və sürəti, şüa enerjisinin intensivliyi də dəyişir. Tədqiq edilən obyektin rahat yerləşdirilməsi üçün B., adətən, sökülüb-yığılan quruluşda hazırlanır. Bir çox B.-lar bütün eksperiment ərzində süni atm.-in parametrlərini proqramla idarə edən sistem ilə təchiz edilmişdir.

**BARÓKKO** (ital. barocco, ehtimala görə portuqalca barroco sözündən – qəribə formalı mirvari, yaxud lat. baroco – ənənəvi məntiqdə sillogizmin bir növünün mnemonik ifadəsindən) – 16 əsrin sonları – 18 əsr incəsənətində üslub. Plastik sənətlərin (memarlıq, heykəltəraşlıq, rəngkarlıq) bütün sahələrini, ədəbiyyat, musiqi və səhnə sənətini əhatə etmişdir. B. üslubu ağır hərbi münaqişələrlə [o cümlədən *Otuzillik müharibə (1618–48)*], katolisizmin və kilsə ideologiyasının gücləndirilməsi ilə müşayiət olunan mütləqiyyətin təşəkkülü dövründə milli mədəniyyətlərin tipoloji ümumiliyinin ifadəsidir. İntibah dövrünün varisi olan B.-nun xronoloji sərhədləri ayrı-ayrı regionlarda (Qərbi Avropadan fərqli olaraq Latın Amerikasında, Mərkəzi və Şərqi Avropanın bir sıra ölkəsində, Rusiyada bu üslub daha gec formalaşmışdır) və incəsənətin müxtəlif növlərində (18 əsrdə B. Qərbi Avropa ədəbiyyatında tükəndiyi halda, memarlıqda, təsviri sənətdə, musiqidə yaşayırdı) uyğun gəlmir. B.-nun vətəni İtaliya sayılır. O, ardıcıl surətdə 16 əsr manyerizmini əvəz etmiş, klassisizmlə yanaşı mövcud olmuşdur.

B. üslubu Renessans humanizmini və antroposentrizmini əvəz edən, rasionalizmin və mistik spiritualizmin cəhətlərini, biliklərin elmi sistemləşdirilməsinə cəhdi və magiyaya, ezoterik təlimlərə aludəliyi, bütün genişliyi ilə predmet aləminə marağı və dini ekzaltasiyanı ziddiyyətli şəkildə özündə birləşdirən yeni dünyaduyumunu əks etdirirdi. Universumun sərhədlərini genişləndirən elmi kəşflər dünyanın nəhayətsiz dərəcədə mürəkkəb olduğunun dərkinə gətirib çıxarmaqla yanaşı, kainatın mərkəzi olan insanı onun zərrəsinə çevirdi. İnsanla kainat arasındakı tarazlığın pozulması ülvi və rəzil, cismani və ruhi, zərif və kobud, faciəvi və komik və s. kimi kəskin təzadlara meyilli olan B.-nun antinomikliyində təzahür etmişdir. Renessans incəsənətinin sakit tarazlığı, harmonikliyi süni həyəcan, coşqun dinamika ilə əvəz olundu. Bununla yanaşı, tamaşaçı-dinləyiciyə aktiv təsir göstərməyə çalışan B. xeyli dərəcədə *ritorikaya* [ilk növbədə "kəşflər" (lat. inventio) və üslubi fiqurlar, "bəzəklər" (lat. elocutio) haqqındakı təlimlərə] əsaslanan dəqiq düşünülmüş rasional priyomlar sisteminə istinad edirdi. İncəsənətin müxtəlif növlərinə köçürülən ritorik prinsiplər ədəbi əsərlərin, teatr tamaşalarının quruluşunu, dekorativ və monumental rəssamlıq silsilələrinin, musiqi kompozisiyalarının proqramını müəyyən edirdi. Bir əsər çərçivəsində təzadlı obrazları, bəzən də müxtəlif janrların (tragikomediya, opera-balet və s.) və üslub tərzlərinin elementlərini birləşdirmək istəyən B. sənətkarları virtuoz artistizmə xüsusi əhəmiyyət verirdilər: texnikanın incəsənət materialı üzərindəki qələbəsi yaradıcı dühanın bir-birindən uzaq və fərqli anlayışları bir obrazda birləşdirmək bacarığını ifadə edirdi. Auditoriyaya hərtərəfli təsir etmək istəyi B. üçün səciyyəvi olan incəsənətin müxtəlif növlərinin yaxınlaşmasına və bir-birinə nüfuz etməsinə gətirib çıxarırdı (rəngkarlıqda və səhnəqrafiyada memarlıq illüziyaları, memarlıqda heykəltəraşlılıq və rəngkarlılıq, heykəltəraşlığın teatrlaşdırılması, musiqidə poeziya və rəngkarlıq ifadəliliyi, fiqurlu şeirdə və emblem janrında təsvirin və mətnin birləşdirilməsi). Əzəmət və təmtəraqla (memarlıq ansamblları, kilsə mehrabları, rəngkarlıqda təntənə və apofeoz, mifoloji süjetli operalar, faciə, qəhrəmanlıq poeması; teatrlaşdırılmış mərasimlər – tacqoyma, nikah, dəfn və s.) səciyyələnən "patetikalı yüksək" B. bu üslubun kamera (rəngkarlıqda natürmort, ədəbiyyatda pastoral və elegiya) və aşağı (operada və məktəb dramında komik intermediyalar) formaları ilə yanaşı inkişaf edirdi. B. incəsənətindəki həyatilik bəzən həm effektli teatrallıq (B. üçün dünya teatr kimidir motivi tipik idi), həm də mürəkkəb simvolika (realist manerada təsvir olunmuş əşya özündə gizli məna daşıyırdı) ilə birləşirdi.

B. termini 18 əsrdə klassisizmə yaxın olan incəsənət tarixçiləri (İ. *Vinkelman*, F. Milisia) arasında yaranmışdır; ilk olaraq 17 əsr italyan memarlığını, sonralar isə bu dövrün bütün incəsənətini mənfi qiymətləndirən ifadə kimi işlənmişdir. Klassisizmin normativ estetikasında "B." epi- teti qaydalardan uzaq, nizam və klassik aydınlığa zidd olan hər şeyi bildirirdi. Musiqişünaslıqda da (ilk dəfə J.J. Russonun "Musiqi lüğəti"ndə, 1768) uzun müddət mənfi mənada işlənmiş "B." termini diqqəti klassisizmin normalarından kənara çıxan "qəribəliklərə" yönəldirdi. B.-nu tarixi baxımdan ilk şərh edənlərdən biri Y. Burkhardt olmuşdur; o, B. üslubunu 16 əsrin sonu italyan memarlığı ilə əlaqədar xarakterizə etmişdir. İntibah və klassisizmdən fərqli üslub kimi təsviri sənətdə B. nəzəriyyəsinin xülasəsini H. Völflin vermiş ("Renessans və barokko", 1888; "İncəsənət tarixinin əsas anlayışları", 1915), mahiyyətcə bir-birinə əks olan İntibah və B. üslublarını fərqləndirmək üçün formal kateqoriyalar ayırmışdır. B.-ya tarixi üslub kimi yanaşma ədəbiyyat və musiqiyə yalnız 20 əsrin əvvəllərində şamil edilmişdir. B.-nun müasir konsepsiyası onu incəsənətin və ədəbiyyatın hüdudlarından kənara çıxarmağa, sosiologiya, siyasət, tarix, din və fəlsəfə kimi sahələrə tətbiq etməyə meyillidir. Bəzən "B." anlayışı konkret-tarixi mənada deyil, mədəniyyətin müxtəlif təkamül mərhələlərində vaxtaşırı təkrarlanan üslubi cəhətlərin cəmi kimi səciyyələndirilir; belə ki, B. stilistikasının elementlərini romantizmdə, ekspressionizmdə, sürrealizmdə, Latın Amerikasının magik realizmində də görürlər.

**Memarlıq və təsviri sənətdə.** B. üslubunun ayrı-ayrı cəhətləri (möhtəşəmliyə meyil, kompozisiya dinamikliyi, dramatik gərginlik) hələ 16 əsrdə Korrecco, Mikelancelo, F. Baroççi, C. da Vinyola və Cambolonyanın yaradıcılığında özünü göstərmişdir. B.-nun çiçəklənmə dövrü 1620–30-cu illərə, sonuncu mərhələsi 18 əsrin ortalarına, bəzi ölkələrdə isə həmin əsrin axırlarına təsadüf etmişdir. B. incəsənətində irimiqyaslı memarlıq layihələrinin həyata keçirilməsinə, əzəmətli ansamblların (Romada Müq. Pyotr kilsəsi qarşısındakı meydan, mühüm Roma bazilikalarının yenidən qurulması və s.) yaradılmasına, interyerlərin rəsmlərlə bəzədilməsinin inkişafına rəvac verən qalib kilsə ideyası təcəssüm olunurdu. Təkcə mütləqiyyət mərkəzləri (Fransa, Portuqaliya, İspaniya, Avstriya, Rusiya, həmçinin Almaniya və İtaliyanın bir neçə dövləti) üçün deyil, eləcə də öz qüdrətini bərqərar edən respublikalar (Venesiya, Genuya) üçün səciyyəvi olan saray B.-su incəsənətində müzəffər hakimiyyət ideyası da üzvi surətdə əksini tapırdı. B.-ya xas olan təmtəraqlı, effektli formalara meyillilik daha çox memarlıqda özünü göstərirdi. Məhz B. dövründə yeni Avropa şəhərsalma mədəniyyəti, müasir evlər, küçələr, meydanlar, şəhər malikanələri tipi yaranırdı. Latın Amerikası ölkələrində bir çox şəhərin simasını B. şəhərsalma



Bakı meriyası.

Melk şəhərində (Avstriya) monastır.





Müqəddəs Pyotr meydanı ansamblı. Roma.

prinsipləri müəyyən edirdi. Saray-park ansamblları (Versal, Petrodvores, Aranxues, Svinger və s.) inkişaf edir, dekorativ-tətbiqi və kiçik heykəltəraşlıq formaları, bağ-park plastikası çiçəklənmə dövrünü keçirirdi. İncəsənətin sintezinə meyillilik, ətraf mühitlə diqqətçəkən qarşılıqlı əlaqə (parkın təbii mühiti, meydan memarlıq ansamblının genişliyi), əyri xətli plan və cizgilər, formaların heykəltəraşlığa xas plastikliyi, işıq və kölgənin kontrast oynaqlığı, həcmlərin müxtəlifmiqyaslılığı, illüzionizm B. memarlığı (C.L. *Bernini*, F. *Borromini*, D. Fontana, K. Maderna və b.) üçün səciyyəvi idi.

Dini, mifoloji və ya alleqorik mövzuda məharətlə işlənmiş dekorativ kompozisiyalar (Pyetro da Kortonun, A. Potssonun, *Karraççi* qardaşlarının, P.P. *Rubensin* plafonları, teatrlaşdırılmış təmtəraqlı portretlər (A. *Van Deyk*, C.L. Bernini, G. Riqo), fantastik (S. Roza, A. Manyasko) və qəhrəmani (Domenikino) mənzərələr, həmçinin kiçik formalı portretlər (Rubens), mənzərələr və memarlıq *vedutları* (F. *Qvardi*, C.A. *Kanaletto*), rəngkarlıq pritçaları (D. Fetti) B. təsviri sənətində üstünlük təşkil edirdi. Saray həyatı, onun teatrlaşdırılması reprezentativ rəngkarlıq formalarının inkişafına rəvac verirdi. Reallığın sonsuz və dəyişən kainat kimi qəbul edilməsi səmaya açılan effektli plafon kompozisiyalarında, dərinliklərə varan memarlıq mənzərələrində və teatr dekorasiyalarında hüdudsuz rəngkarlıq məkanı yaradırdı. Perspektiv effektləri, məkan illüziyaları, xətti və kompozisiya ritmləri, miqyas kontrastları tamlığı pozur, improvizasiya, formaların sərbəst yaranışı və dəyişkənliyi hissini doğurur. Optik effektlər, fəza perspektivinə, atmosferin, havanın şəffaflığının və rütubətliliyinin əks etdirilməsinə aludəlik olduqca mühüm əhəmiyyət daşıyırdı. Ali üsluba səmtlənən "yüksək" B. rəngkarlığında o zamankı janr iyerarxiyasında yuxarıda dayanan tarixi və mifoloji janrlara üstünlük verilirdi. "Aşağı" (o dövrün terminologiyasına uyğun) janrlar hesab olunan natürmort, məişət rəngkarlığı, mənzərə janrları da məhsuldar inkişaf edirdi. B.-nun teatrlaşdırmadan və hisslərin affektasiyasından uzaq olan demokratik istiqaməti özünü realist məişət səhnələrində (Fransada "reallıq rəssamları", karavaccizm nümayəndələri, İspaniyada bodeqones janrı, Hollandiya və Flandriyada məişət janrı və natürmort), kilsədənkənar dini rəssamlıqda (C.M. *Krespi*, *Rembrandt*) göstərirdi.

B. üslubu bir-birindən parlaq özünəməxsusluğu ilə fərqlənən çoxsaylı milli variantlarda mövcud idi. Flamand B.-su üçün ən çox rəngkarlıq vasitələri ilə həyatı bütün dolğunluğu, daxili dinamikası və dəyişkənliyi ilə əks etdirmək bacarığına malik Rubens yaradıcılığı səciyyəvi idi. İspaniya B.-su üslubun yerli realist ənənələrlə birləşən təmkinliliyi və asketikliyi ilə seçilirdi (D. *Velaskes*, F. *Surbaran*, X. de *Ribera*, memar X. B. de *Errera*). Almaniya (memarlar və heykəltəraşlar B. fon Neyman, A. Şlüter, Azam qardaşları və b.) və Avstriyada (memarlar İ.B. Fişer fon Erlax və İ.L. fon Hildebrandt) B. çox vaxt *rokoko* üslubunun xüsusiyyətləri ilə birləşirdi. Fransa incəsənətində B. Renessans dövrünün rasionalist əsasını hifz edir, sonradan isə klassisizm elementlərindən fəal surətdə bəhrələnirdi (B. klassisizmi). B.-nun ayrı-ayrı üslub xüsusiyyətləri Versalın təntənəli zallarının dekorativizmində, S. Vue və Ş. Lebrenin dekorativ pannolarında özünü göstərirdi. Rusiyada mütləq monarxiyanın yüksəlişi və möhkəmlənməsi ilə əlaqədar B. üslubunun inkişafı 18 əsrə təsadüf edir (1740–50-ci illər çiçəklənmə dövrü idi). Rus B.-sunun özünəməxsusluğunu təkcə milli ənənələrin və formaların saxlanılması deyil, həm də B. xüsusiyyətlərinin klassisizm və rokoko ilə qarşılıqlı əlaqəsi müəyyənləşdirirdi (heykəltəraş K.B. Rastrelli, memarlar B.F. *Rastrelli*, S.İ. Çevakinski, D.V. *Uxtomski*). B. üslubunun milli variantları Polşada, Çexiyada, Slovakiyada, Macarıstanda, Qərbi Ukraynada, Litvada yaranırdı. Avropa ölkələri ilə yanaşı Latın Amerikasının bir sıra ölkəsi (xüsusilə ultrabarokko formasında B.-nun hipertrofik cizgilər kəsb etdiyi Meksika və Braziliya) həmçinin Filippin və digər İspaniya müstəmləkələri də B.-nun yayıldığı mərkəzlər idi.

**Ədəbiyyatda** B.-nun manyerizmə yaxın ilk təzahürləri 16 əsrin son rübünə təsadüf edir: R. Qarnyenin "İppolit" (1573) faciəsi, T.A. d' Obinyenin "Faciəvi poemalar"ı (1577–79, 1616 ildə nəşr edilmişdir), T.*Tassonun* "Azad edilmiş Yerusəlim" (1581) poeması. B. üslubu 17 əsrin 2-ci yarısında tənəzzül etsə də (İtaliya üçün B.-nun xronoloji sərhədləri "Arkadiya" akademiyasının əsasının qoyulduğu 1690 il hesab olunur), slavyan ədəbiyyatlarında Maarifçilik dövründə də mövcud idi. B. ədəbiyyatında formayaradıcı eksperimental başlanğıc, yeniliyə, qeyri-adiliyə meyil dünyanın Avropa prizmasından yeni mənzərəsinin təşəkkülü ilə bağlıdır və 16 əsrin sonu – 17 əsrin əvvəlləri elmi və coğrafi kəşflərində olduğu kimi, bir çox hallarda idraki paradiqmlərin yeniləşməsindən irəli gəlirdi. Yeni Avropa empirizminin təsiri yazıçıların həyati və hətta naturalist formalardan (təkcə nəsrdə yox, həmçinin poeziyada) fəal istifadə etməsində özünü göstərirdi (C. Marinonun "Adonis" poeması, 1623 ildə çap olunmuşdur).

Poeziyanın bədii kamillik meyarlarından biri hesab olunan müxtəlifliyə meyillilik B.-nun mühüm tərkib hissəsi idi [B. Qrasian-i-Morales, E. Tezauro, Tristan L'Ermit, xüsusilə 11 cildlik monumental "Əlvan xəlitə" əsərinin (1609–19) yaradıcısı J.P. Kamyu]. Hər şeyi qavramağa, dünya haqqında bilikləri yekunlaşdırmağa meyil (yeni kəşf və ixtiralar hesaba alınmaqla) B.-nun səciyyəvi xüsusiyyətləridir. Bəzi hallarda ensiklopedizm xaotikliyə, qəribə əhvalatların kolleksiyasına çevrilir, universumun xülasə ardıcıllığı ifrat fərdi-assosiativ xarakter alır, dünya söz labirinti, müəmmalı əlamətlərin məcmusu kimi çıxış edir (yezuit E. Binenin "Möcüzələr haqqında təcrübə" traktatı, 1621). Dünya haqqında müxtəlif səpkili həqiqət və təsəvvürlərin universal külliyyatı kimi emblem kitabları çox populyarlaşır: emblematikanın təsiri C. Marinonun, F. fon Sezenin, Y. Morştının, Simeon Polotskinin poeziyasında, B. Qrasian-i-Moralesin "Kritikon" (1651–57) romanında hiss olunur.

Varlığın onun təzadları (zülmət və işıq, cism və ruh, zaman və əbədiyyət, həyat və ölüm), dinamikası ilə birlikdə və müxtəlif səviyyələrdə [H. fon *Qrimmelshauzenin* "Simplisissimus" (1668–69) romanın- da sosial iyerarxiya pillələri arasındakı mütərəddid hərəkət] tədqiqinə cəhd B. ədəbiyyatı üçün səciyyəvidir. B. poetikası gecə simvollarına (A. Qrifius, C. Marino), dünyanın faniliyi və səbatsızlığı (B. *Paskal*, J. Düperron, L. de Qonqo-ra-i-Arqote), həyatın bir yuxu olması mövzusuna (F. de Kevedo-i-Vilyeqas, P.*Kalderon* de la Barka) daha çox diqqət yetirir. "Dünyanın faniliyi"nin Ekkle-ziast formulu B. mətnlərində tez-tez səslənir. Vəcdlilik, spiritual başlanğıc çox vaxt ölümə qeyri-təbii heyranlıqla birləşir (C. Donnın "Biotanatos" traktatı, 1644 ildə çap olunmuşdur; J.B. Şassinyenin poeziyası). Bu heyranlığa qarşı çarə həm iztirablara stoikcəsinə laqeydlik (A.Qrifius), həm də sublimasiya edilmiş erotizm (F. Deport, T. Keryu) ola bilər. B. tragizmi qismən sosial-tarixi determinizm xarakteri daşıyır (Fransada, Almaniyada və s. müharibələr).

B. poeziyası milli variantlar daxilində inkişaf etmişdir: İspaniyada qonqorizm və konseptizm, İtaliyada marinizm, İngiltərədə metafizik məktəb və evfuizm. Dünyəvi, saray və salon (V. Vuatür) ədəbiyyatı ilə yanaşı, B. poeziyasında dini şeirlər də (P. Fleminq, C. Herbert, C. Lubrano) mühüm yer tutmuşdur. Sonet, epiqram, madriqal, satira, dini və qəhrəmanlıq poemaları və s. ən populyar janrlar idi.

Qərbi Avropa B.-su üçün roman janrı olduqca əhəmiyyətlidir; məhz bu janrda B. özünü bütün dolğunluğu ilə beynəlxalq üslub kimi göstərə bilir; belə ki, C. Barklayın latın dilində yazdığı "Argenida" (1621) romanı bütün Qərbi Avropa nəsri üçün modelə çevrilir. B. romanının real-məişət və satirik modifikasiyaları (Ş. Sorel, P. Skarron, A.Füretyer, İ.Moşeroş) ilə yanaşı, onun nəzakətli-qəhrəmani növü də geniş şöhrət qazanmışdı (J. de Sküderi və M. de Sküderi, C. Marini, D.K. fon Loenşteyn). "Yüksək" B. romanı oxucuları təkcə dolaşıq peripetiyalarla, ədəbi və siyasi allüziyaların çoxluğu, romanla idraki başlanğıcın məharətlə birləşməsi ilə deyil, həm də dünyanı bütün heyrətamiz müxtəlifliyi ilə ehtiva etməyə can atan və B. üslubunun "heyrət poetikası"nın təzahürlərindən biri hesab oluna bilən böyük həcmi ilə cəlb edirdi. Struktur xüsusiyyətlərinə görə nəzakətli-qəhrəmani növə B. dini romanı (J.P. Kamyu, A.S. Brinyole Sale) yaxındır.

Xeyli dərəcədə teatrallığı ilə diqqəti cəlb edən B. mədəniyyətində həm dünyəvi (İngiltərədə Yelizaveta dövrü dramı, İspaniyada pastoral tragikomediyası, "yeni komediya"), həm də dini (ispan autoları, Y. van den *Vondelin* Bibliya dramları) dram janrları mühüm yer tutur. P. *Kornelin* erkən dramaturgiyası da B.-ya aiddir; onun "Komik illüziya" (1635–36) əsəri 16–17 əsrlər teatr janrlarının ensiklopediyasıdır. Manyerizm ədəbiyyatının ardınca B. ədəbiyyatı janr eksperimentinə və qarışıq janrlara (esse janrının, ironik-komik və burlesk poemalarının, opera-tragikomediyaların meydana gəlməsi) meyil edir. H. fon Qrimmelshauzenin "Simplisissimus" əsərində kələkbaz, alleqorik, utopik, pastoral romanların elementləri, həmçinin şvank və lubok stilistikası birləşir. C. *Miltonun* "İtirilmiş cənnət" (1667–74) xristian epopeyası özündə bir sıra kiçik janrları (*oda*, *himn*, pastoral ekloqa, georgika, epitalama, şikayət, alba və s.) da ehtiva edir. B.-nun paradoksal şəkildə anormativliyə yönümlə birləşən səciyyəvi xüsusiyyəti nəzəri özünüdərkə meyillilikdir: B. Qrasian-i-Moralesin "Kəskin düşüncə və iti ağıl məharəti" (1642–48), E. Tezauronun "Aristotelin durbini" (1655 ildə çap olunmuşdur). Bir sıra B. romanında (Ş. Sorel, "Dəlisov çoban", 1627; F.F. Fruqoni, "Diogenin köpəyi", 1687–89; F. fon Sezen, "Assenat", 1670) ədəbi-estetik şərhlər olur.

**Musiqidə** B. üslubu 17 əsr – 18 əsrin 1-ci yarısı Avropa professional musiqisində üstünlük təşkil edirdi. B. dövrünün sərhədləri, eləcə də bu dövrün ənənəvi olaraq erkən (17 əsrin 1-ci yarısı), yetkin (17 əsrin 2-ci yarısı) və son (18 əsrin 1-ci yarısı) mərhələlərə ayrılması çox şərtidir, çünki B. müxtəlif ölkələrin musiqisində ayrı-ayrı vaxtlarda bərqərar olmuşdur. B. İtaliyada 16 əsrin sonu – 17 əsrin əvvəllərində, Almaniyada bundan 20 il sonra, rus musiqisində isə 17 əsrin sonuncu rübündə meydana gəlmişdir.

Müasir anlamda B. çoxcəhətli bəstəkarlıq və ifaçılıq maneralarını, yəni 17–18 əsrlər musiqi nəzəriyyəçilərinin fərqləndirdikləri "üslublar"ı ("kilsə", "teatr",

Odessa Akademik Milli Opera və Balet Teatrı (Ukrayna).





P. Rubens. "Kəndlilərin tarladan qayıtması". 1637.

"konsert", "kamera"), milli məktəblərin və ayrı-ayrı bəstəkarların üslublarını birləşdirən kompleks üslubdur. Üslub baxımından bir-birindən uzaq olan əsərləri (F. Kavalli və H. Pörsellin operaları, C. Freskobaldinin polifonik silsilə əsərləri və A. Vivaldinin skripka üçün konsertləri, H. Şutsun "Müqəddəs simfoniyaları" və G.F. Hendelin oratoriyaları) müqayisə etdikdə B. musiqisindəki çoxcəhətlilik üzə çıxır. Lakin 16 əsr Renessans musiqisi nümunələri və 18 əsrin 2-ci yarısı – 19 əsrin əvvəlləri klassik üslubu ilə müqayisədə bu əsərlərdə xeyli ümumiliklər mövcuddur. Əvvəlki dövrlərin musiqisində olduğu kimi B.-da da musiqi musiqidənkənar anlayışlarla (sözlə, rəqəmlə, rəqs hərəkəti ilə) sıx bağlıdır; buradakı yenilik instrumental musiqi janrlarının inkişafına səbəb olan sırf musiqi təşkili üsullarının ayrılması ilə bağlıdır.

Musiqidə B. dövrünü çox vaxt *general-bas* epoxası adlandırmaqla, əsərlərin bu sistemdə bəstələnməsinin, yazılışının və ifasının geniş yayıldığını və əhəmiyyətli rol oynadığını qeyd edirlər. General-basın müxtəlif yönümdə şərhinin mümkünlüyü B. əsərlərinin spesifikasından – onların prinsipial olaraq variantlılığından və konkret ifaçılıq təcəssümündən xeyli dərəcədə asılılığından xəbər verir; bu zaman (adətən, not mətnində müəllifin ətraflı göstərişləri olmadıqda) tempdən, dinamik nyuanslardan, instrumentovkadan, melodik bəzəklərdən istifadə imkanından və s.-dən tutmuş bir sıra janrlarda improvizasiyanın əhəmiyyətli rolunadək ifaçıların özləri müəyyən edirdilər (məs., 17 əsr fransız klavesinçiləri L. Kuperen, N. Lebeq və b. "vəznləşdirilməmiş" prelüdlərində; 18 əsr instrumental konsertlərində solistlərin *kadensiyalarında*, da capo ariyaların repriz bölmələrində).

H. Rembrandt. "Müqəddəs Stefanın daşqalaq edilməsi". 1625.



B. Avropa musiqi tarixində major-minor tonallıq sisteminin üstünlük təşkil etdiyi ilk üslubdur (bax *Harmoniya*, *Tonallıq*). Məhz B. çərçivəsində ilk dəfə olaraq *homofoniya* (musiqi fakturasının əsas melodik səsə və müşayiətə bölünməsi) təqdim olunurdu. Sərbəst *polifoniya* üslubu və onun ən yüksək forması olan *fuqa* (İ.S. Baxın yaradıcılığında) da bu dövrdə formalaşaraq özünün inkişafı zirvəsinə çatdı. B. musiqisində çox vaxt polifoniyanın və homofoniyanın elementlərini birləşdirən qarışıq faktura tipindən istifadə olunurdu. Fərdiləşdirilmiş musiqi tematizminin təşəkkülü də bu dövrə təsadüf edir. Bir qayda olaraq, B. musiqi mövzusu parlaq başlanğıc intonasiya özəyindən, onun ardınca gələn bu və ya digər dərəcədə davamlı açılışdan və qısa sonluqdan – kadansdan ibarət olur. Sərt mahnı-rəqs karkasına əsaslanan klassik əsərlərlə müqayisədə B. mövzularına, bütöv bir əsərlərdə olduğu kimi, daha çox metroritmik sərbəstlik xasdır.

B. dövründə musiqi, xüsusilə insan hisslərinin rəngarəngliyinin təcəssümü baxımından öz təsir imkanlarını genişləndirərək onları ümumiləşdirilmiş emosional vəziyyətlər – affektlər şəklində təqdim edirdi. Lakin B. dövründə musiqinin əsas vəzifəsi Allahı mədh etməkdən ibarət olduğu üçün, həmin dövrün nəzəri traktatlarında əksini tapmış janr iyerarxiyasında kilsə musiqisi janrlarına həmişə başlıca yer verilirdi. Bununla bərabər, dünyəvi musiqi də (xüsusilə musiqili teatr sahəsində) az əhəmiyyət kəsb etmirdi. Məhz B. dövründə ən mühüm musiqili səhnə janrı olan *opera* yaranmış və özünün inkişaf tarixinin böyük bir hissəsini keçmişdir; operanın yayılması və inkişafı dərəcəsi bu və ya digər ölkənin musiqi mədəniyyəti səviyyəsinin göstəricisi olmuşdur. Venesiya (K. *Monteverdi*, F. Kavalli, M.A. *Çesti*), Roma (S. Landi), Neapol (A. *Skarlatti*), Hamburq (R. Kayzerin, G.F. Hendelin alman operaları), Vyana (Çesti, A. Kaldara, İ.Y. Fuks), Paris (J.B. *Lülli*, J.F. *Ramo*), London (H. Pörsell, Hendelin italyan operaları) şəhərləri opera sənətinin mərkəzləri sayılırdı. Opera həm B. dövründə yaranmış yeni vokal janrlara (*oratoriya* və *kantata*), həm də kilsə musiqisinin ənənəvi janrlarına (son B.-ya aid messa, motet, passion və s.-də *ariya*, *duet*, *reçitativ* kimi opera formalarından geniş istifadə olunurdu) təsir göstərmişdir. Üslub baxımından dünyəvi və kilsə musiqisi arasında fərqlər getdikcə az əhəmiyyət kəsb etdiyindən, eyni musiqi materialından həm dünyəvi, həm də kilsə musiqisi əsərlərində (bunun çoxsaylı nümunələri İ.S. Baxın yaradıcılığında vardır) istifadə olunurdu.

B. dövrü Niderlandda (Y.P. Svelink), İtaliyada (C. Freskobaldi), Fransada (F. Kuperen, L. Marşan), ən çox isə Almaniyanın protestantlar yaşayan ərazilərində (S. Şeydt, İ. Paxelbel, D. Bukstehude, İ.S. Bax) geniş inkişaf etmiş orqan sənəti üçün zirvə mərhələsi oldu. Bununla belə, dini simvolika ilə bağlı və kilsədə ifa olunmaq üçün nəzərdə tutulan bir sıra janrlar (*fantaziya*, *tokkata*, prelüd, fuqa, xoral variasiyaları və s.) liturgiyadan çox konsert məqsədi daşıyırdı. İnstrumental musiqinin başqa janrlarından da geniş istifadə olunurdu: trio-sonata (A. Korelli, G.F. Teleman və b.), müxtəlif heyətlər üçün (klavesin, yaxud solo skripkadan böyük ansambllaradək) rəqs süitası (F. Kuperen, İ.S. Bax, G.F. Hendel və b.), solo alət ilə orkestr üçün konsert (A. Vivaldi, İ.S. Bax və b.), konçerto qrosso (Korelli, Hendel).

Ritorika ilə bağlılıq həm musiqi materialının yerləşdirilməsinin ümumi prinsiplərində, həm də musiqi-ritorika fiqurları adlanan sabit semantikalı konkret melodiya-ritm ifadələrinin tətbiqində özünü göstərir. Bu, vokal musiqidə sözün əhəmiyyətini artırır, instrumental musiqidə isə müəyyən mənada bədii məzmunun "açılmasına" imkan verirdi (məzmunu acmaq üçün F. Kuperen, J.F. Ramo, G.F. Teleman çox vaxt instrumental əsərlərə xarakterik adlar verirdilər, İ. Froberger, İ. Kunau, A. Vivaldi isə onlara geniş ədəbi proqramlar əlavə edirdilər). Lakin sözün yardımından məhrum olmuş instrumental musiqi də çox cəhətdən öz tətbiqi funksiyalarını (rəqs, süfrə və s. musiqisi) saxlamaqla tədricən estetik dəyər kəsb edir və əslində konsert musiqisinə çevrilirdi.

B. üslubunun elementlərindən klassik dövr musiqisində (L. van Bethovenə qədər), sonralar isə 20 əsr neoklassisizmində (İ.F. Stravinski, P. Hindemit) istifadə olunurdu. B. musiqisinin ifası zamanı qədim musiqi alətləri (əsli, yaxud dəqiq surəti) getdikcə geniş tətbiq edilir, musiqi nəzəriyyəsi traktatları və 17–18 əsrlər ədəbi-bədii abidələrinə əsasən dövrün spesifik akustik şəraiti, ifaçılıq prinsipləri canlandırılır.

*Əd.*: Bukofzer M. Music in the Baroque era from Monteverdi to Bach. N.Y., 1947; Retorica e Barocco. Roma, 1955; Ренессанс. Барокко. Классицизм. Проблема стилей в западноевропейском искусстве XV–XVII вв. М., 1966; Getto G. Barocco in prosa e in poesia. Mil., 1969; Ротенберг Е.И. Западноевропейское искусство XVII в. М., 1971; Лобанова М. Западноевропейское музыкальное барокко: проблемы эстетики и поэтики. М., 1994; Михайлов А.В. Поэтика барокко: завершение риторической эпохи // Михайлов А.В. Языки культуры. М., 1997; Voss H. Die Malerei des Barock in Rom. S.F., 1997; Базен Ж. Барокко и рококо. М., 2001; D'Ors E. Lo Barocco. Madrid, 2002; Вельфлин Г. Ренессанс и барокко: Исследование сущности и становление стиля барокко в Италии. СПб., 2004.

**BARÓQRAF** (yun. βαρος – ağırlıq + γράφω – yazıram) – atm. təzyiqinin dəyişməsini fasiləsiz və avtomatik qeyd edən meteoroloji cihaz. Ən çox istifadə olunan




**Baroqraf:** *1* – aneroid qutuları; *2* – qələm; *3* – saat mexanizmi ilə hərəkətə gətirilən diaqram lentli baraban.

aneroidli B.-ın qəbuledici hissəsi bir neçə bir-birinə birləşmiş büzməli (elastik) qutulardan ibarətdir. Atm. təzyiqinin dəyişməsi nəticəsində qutuların deformasiyası qol vasitəsilə qələm ucuna verilir, o da saat mexanizmi ilə hərəkətə gətirilən barabana dolanmış diaqram lenti üzərində əyri xətt cızır.

**BARÓMETR** (yun. βαρος – ağırlıq + ...*metr*) – atmosfer təzyiqini ölçmək üçün cihaz. Mayeli (civəli), qazlı və metal (aneroid) B. növləri var. Geniş tətbiq olunan




**Civəli barometr tipləri:** *a* – çanaqlı; *b* – sifonlu; *c* – sifonlu-çanaqlı.

mayeli B.-lərdə açıq tərəfi civə ilə dolu qaba salınmış barometrik borudakı civə sütununun təzyiqi atm. təzyiqi ilə tarazlaşır. Meteoroloji st.-larda qurulan civəli B.-lər daha dəqiq işləyir və başqa tip B.-lərin (*aneroid* və *hipsotermometr*) işi onunla yoxlanılır.

**BARÓMETR-ANERÓİD** – bax *Aneroid*.

**BAROMETRİK DÜSTUR** – ağırlıq qüvvəsi sahəsində qazın təzyiq və ya sıxlığının hündürlükdən asılılığını təyin edən düstur. Yerin ağırlıq qüvvəsi sahəsində qaz üçün B. d. hidrostatik tarazlıq tənliyindən çıxır və atm. təzyiqinin ($p$) hünd.-dən ($h$) asılı olaraq eksponensial qanuna görə azalmasını təsvir edir:

$$p = p_0 \exp(-h/H);$$

burada $p_0$ – Yer səthindəki təzyiq, $H$ – ağırlıq qüvvəsi sahəsində qaz molekullarının orta kinetik enerjisinin ($kT$) onların potensial enerjisinə ($\mu g$) olan nisbətidir və temp-r ($T$), molekulun orta kütləsi ($\mu$), sərbəstdüşmə təcili ($g$) və *Boltsman sabiti* ($k$) ilə təyin olunur. Bu düstur yalnız qazın temp-ru ($T$) və sərbəstdüşmə təcili ($g$) sabit qaldığı halda doğrudur, ona görə də real atm.-də temp-r və sərbəst düşmə təcilinin hünd.-yə və coğrafi en dairəsinə görə dəyişməsi səbəbindən bəzi dəqiqləşdirmələr tələb edir. Bundan başqa, atm.-də su buxarının konsentrasiyasının artması ilə atm. təzyiqi də artır; nəticədə molekulun orta kütləsi azalır və uyğun olaraq $H$ artır.

**BAROMETRİK QRADİYENT** – bax *Barik qradiyent*.

**BAROMETRİK NİVELİRLƏMƏ** – bax *Nivelirləmə*.

**BARÓN** (son lat. baro, yiyəlik halda baronis – azad adam, döyüşçü, qədim german mənşəli baro – "adam, kişi" sözündəndir) – Qərbi Avropada ilkin mənada

mənşə etibarı ilə azad insan; 12 əsrdən kralın (imperator), yaxud iri feodalın bilavasitə vassalı; 13 əsrdən – zadəgan titulu (B.-un arvadı və ya qızı – baronessa). B. titulu B.Britaniyada ali zadəgan iyerarxiyasında 5-ci, Fransa və digər roman ölkələrində isə 6-cı (vikont titulundan sonra) yerdədir. B.Britaniyada B. titulu həmçinin Britaniya parlamentindəki lordlar palatasının irsi üzvləri olan bütün ali zadəganların nümayəndələrinin ümumiləşdirici adı idi (barones majores). Almaniyada 16 əsrdən B. ali zadəgan iyerarxiyasının 4-cü pilləsində (qraf titulundan sonra) olan Freiherr (qadınlarda Freifrau, Freilin, Freifräulein) zadəgan titulunu daşıyanlara müraciət forması olmuşdur. Yaponiyada B. 1884 ildə qəbul olunmuş qanuna görə beş zadəgan titulundan biridir.

**BÁRON** (Barons) Krişyanis Yuryeviç (31.10.1835, Strutel vil. – 8.3.1923, Riqa) – latış folklorçusu, yazıçı və ictimai xadim. Latış xalq mahnılarını toplayaraq sistemə salmışdır. İlk mütərəqqi latış qəzetinin ("Peterburqas avizes", 1862–65) faktiki redaktoru olmuşdur. Hekayələr, şeirlər, satirik felyetonlar ("Pesis və Esis" və s.) yazmışdır. Latış xalq yaradıcılığının görkəmli abidəsi – "Latış xalq mahnıları" (c. 1–6, 1894–1915) kitabını nəşrə hazırlamışdır.

**BARON DE BAJ**, A m u r  O g ü s t  L u i  J o z e f  B e r t e l l o  d e  B a y (31.1.1853, Paris – 31.5.1931, Paris) – fransız səyyahı. B. de B. Kiçik Mozen vadisində (Fransa) Neolit dövrünə aid yüzə yaxın mağara aşkara çıxarmışdır. Krım, Ural və Sibirə səyahətlər etmiş, Qafqaza xüsusi maraq bəslədiyi üçün buraya 7 dəfə gəlmişdir. 1900 ildə Azərb.-ı gəzmiş, Dərbənd, Bakı və Yelizavetpol (Gəncə) ş.-lərində olmuşdur. Azərb.-ın tarixi, etnoqrafiyası və mədəniyyətinə dair xeyli material toplamışdır. Fransaya qayıtdıqdan sonra Parisdə Azərb. xalq yaradıcılığı və sənət nümunələrindən ibarət sərgi təşkil etmişdir.

**BARONÉT** – B.Britaniyada titullu zadəganlarla (nobility) titulu olmayan zadəganlar (gentry) arasında orta mövqe tutan irsi zadəgan titulu (barondan sonra). "Ser" sözü ilə ifadə olunur. Olsterin, sonra isə Yeni Şotlandiyanın zəbt edilməsində həvəsləndirici amil kimi 1611 ildə kral I Yakov tərəfindən tətbiq olunmuşdur. Sonralar şəxsi xidmətlərə görə verilirdi.

**BAROTERAPİYA** (yun. βάρος – ağırlıq + *terapiya*) – yüksək, yaxud aşağı atmosfer təzyiqi ilə orqanizmə müalicəvi təsir. Ümumi və qismən B. xüsusi aparatlarla və ya *barokameralarda* yerinə yetirilir. B. atm. təzyiqinin dəyişməsinə dəri və selikli qişalardakı baroreseptorların reaksiyasına və onların damar sisteminə, tənəffüsə və qaz mübadiləsinə göstərdiyi təsirə əsaslanır. Angiospazma, obliterasiyaedici endarteriit, mialgiya, nevralgiya və s. xəstəliklər zamanı yerli B. təyin edilir. Tənəffüs yollarının irinsiz iltihabi xəstəlikləri, bronxial astma və s. xəstəliklər zamanı müalicə barokameralarda aparılır. Qanaxmaya meyillik, hemofiliya, tənəffüs orqanlarının vərəmi, ürək-damar patologiyalarının ağır formaları, hamiləlik, bədxassəli şişlər zamanı B. əks-göstərişdir.

**BAROTRÁVMA** (yun. βάρος – ağırlıq + *travma*) – atmosfer təzyiqi ilə qulağın hava boşluqları, burunun əlavə boşluqları və ağ ciyərlərdəki təzyiq arasında fərqin təsirindən yaranan zədələnmə; məs., dalğıclarda suya sürətlə dalma, təyyarənin qalxması və enməsi zamanı və s.-də. B. zamanı qulaqlarda, alın və haymor boşluqlarında gurultu, cingilti, kəskin ağrı, eşitmənin azalması, başgicəllənmə, ürəkbulanma, qanaxma baş verir; özündəngetmə ola bilər. Yaxın məsafədə partlayış və atəş zamanı akustik travma və B. birlikdə əmələ gəlir. B.-nın baş verməməsi üçün zökəm, yuxarı tənəffüs yollarının və burunun əlavə boşluqlarının iltihabi xəstəlikləri, burun-udlaq adenoidləri və şişləri zamanı təyyarə ilə uçmaq, suya dərin dalmaq, barokamerada müalicə aparmaq məsləhət görülmür. B.-dan sonra suyun qulağa düşməsindən qorunmaq lazımdır. Vestibulyar pozuntular olduqda 5–7 gün yataq rejimi və vestibulyar qıcıqlanmanı azaldan preparatlar (antihistamin və s. dərmanlar) təyin edilir. Ağırlaşma hallarında müalicə xəstəxanada aparılmalıdır.

**BAROTROP HADİSƏSİ** – maye – maye (maye – qaz və ya qaz – qaz) sistemlərində bir yerdə mövcud olan fazaların böyük təzyiqlərdə və müəyyən temp-rlarda yerlərini dəyişməsi; adi şəraitlərdə yuxarıda (ağırlıq sahəsində) yerləşən kiçik sıxlıqlı fazanın ağır fazaya çevrilərək aşağı enməsi. B. h. ona görə baş verir ki, təzyiqin yüksəlməsi ilə fazaların əvvəlcə müxtəlif olan xüsusi həcmləri bərabərləşir; böyük molekulyar kütləyə malik çoxlu miqdarda komponenti olan faza ağırlaşır və başqa fazada qərq olur.

B. h.-ni ilk dəfə holland fiziki H. *Kamerlinq-Onnes* hidrogen (maye) – helium (qaz) sistemində müşahidə etmişdir: 20,1 K temp-rda və 49 atm. təzyiqində qaz faza maye fazanın altına keçmişdir. Qaz – maye sistemində tarazlıq oblastında B. h. ammonyak – azot (180 K temp-rda və 1800 atm. təzyiqində), ammonyak – azot – hidrogen (3500–3700 atm. təzyiqində və 170 K temp-rda) və s. sistemlərdə müşahidə olunmuşdur.

**BARRÁJ** – karyer və mədənlərin yeraltı sulardan qorunması üsulu; mədən qazmasını sukeçirməyən qurğularla tam və ya qismən hüdudlamaqla yerinə yetirilir. B. zamanı yeraltı suların səviyyəsi sukeçirməyən qurğular həddində suboşaltma yolu ilə və ya drenaj hesabına azaldılır. İnfuziya, inyeksiya, kriogen və şpunt B.-ı vasitəsilə həyata keçirilir. İ n f u z i y a B.-ında xüsusi maşınlar, xəndəkqazanlar və ekskavatorlarla suyadavamlı dabana qədər qazılmış, qum, qırmadaş, yaxud çınqıl dəşla əhatələnmiş və gil, gilsement məhlullarla doldurulmuş dar üfüqi qazmalar düzəldilir. Az dərinlikli (50 *m*-ədək) suyadavamlı yatımlarda istifadə edilir. İ n y e k s i y a (vurma) B.-ı quyunu sıxlaşdırmaqla süxurların sementləşdirilməsi, gilləşdirilməsi, silikatlaşdırılması və qatranlaşdırılması yolu ilə qurulur. İnfuziya qurğuları ilə müqayisədə tamponaj materialları az sərf edilir və bir neçə yüz metr dərinliklərdə tətbiq olunur. K r i o g e n B. süxurların temp-runu süni üsulla aşağı salaraq tərkibindəki suyun dondurulması ilə aparılır; adətən, müxtəlif süxurlarda şaxta lülələrinin qazılması üçün müvəqqəti qurma kimi istifadə edilir. Ş p u n t B.-ı çox böyük olmayan yatım dərinliklərində və sulu süxur qatlarında qumlu-gilli süxurlara metal, beton və s. svayların (yortacların) vurulması ilə qurulur.

**BARRAKUDAKİMİLƏR**, d ə n i z  d u r n a b a l ı q l a r ı (Sphyraenidae) kəfalkimilər dəstəsindən dəniz balıqları fəsiləsi. Bədən formasına görə adi durnabalığına oxşayır. Başı sivri, dişləri qüvvətli (qabaq dişləri köpək dişinə oxşardır), ağzı iridir. İki bel üzgəcindən birincisində 5 tikanlı mil sümüyü vardır. Sikloid pulcuğu xırdadır. 1 cinsi (20-ədək növü) var. İri barrakudanın (Sphyraena barracuda) uz. 2–3 *m*-ə çatır. Atlantik, Hind və Sakit okeanların tropik sularında, sahilboyu dayaz yerlərdə yaşayır. İri balıqları dişləyib ətini qoparmaqla qidalanır. İnsanlara hücumetmə halları məlumdur. Xırda B.-ın əti dadlı olduğundan yüksək qiymətləndirilir; Mərkəzi Amerika r-nlarının iri barrakudaları yeyildikdə əzələ ağrıları, sinir mərkəzlərinin zədələnməsi və s. ilə müşayiət olunan, bəzən də ölümlə nəticələnən xəstəlik (siquatera) törədə bilər.

Böyük barrakuda (Sphyraena barracuda).









Barrankabermexa şəhərinin panoramı.

**BARRÁND** (Barrande) Yoaxim (11.8. 1799, Fransa, Soq – 5.10.1883, Avstriya, Vyana yaxınlığında Frosdorf) – fransız paleontoloqu və geoloqu, Peterburq EA-nın əcnəbi m. üzvü. Parisdə Politexnik Məktəbini bitirmişdir (1824). 1831 ildən Çexiyada yaşamışdır. Burada o, Alt Paleozoy çöküntülərini ətraflı tədqiq etmiş və "Silur sistemini" 4 şöbəyə, 8 mərtəbəyə bölərək ayırmışdır; topladığı daşlaşmış fauna qalıqlarının (braxiopodlar, trilobitlər və s.) təsvirini özünün 24 cildlik (8 kitab) monoqrafiyasında vermişdir.

*Əsəri:* Systeme silurien du Centre de la Boheme: En 8 vol. Prague, 1852–1894.

**BARRANKABERMÉXA** (Barrancabermeja) – Mərkəzi Kolumbiyanın şm.-ında, Santander dep-tində şəhər. Əh. 191,4 min (2005). Mühüm nəql. qovşağı (B.-dan Santa-Fe-de-Boqota – La-Dorada – Santa-Marta d.y. keçir). Maqdalena çayı sahilində iri port. Hindi məskəninin yerində salınmış, 1536 ildə ispan konkistadoru Qonsalo Ximenes de Kesada tərəfindən Barankas-Bermexas ("Qırmızı yarğanlar") adlandırılmışdır. Dep-tin iri sənaye mərkəzidir. Neft emalı və neft-kimya (o cümlədən ammonyak və azot gübrələri istehsalı) sənayesi var. Tikinti materialları (əsasən, asfalt) və kağız istehsal olunur. Yaxınlığında neft (İnfantas və La-Sira yataqları) çıxarılır. B. neft və neft məhsullarını nəql edən bir neçə iri boru kəmərinin başlanğıc məntəqəsidir; neft Kartaxena (Latın Amerikasında ilk magistral neft kəməri, 1926) və Barrankilya portlarına (və daha sonra ixraca), neft məhsulları isə Santa-Fe-de-Boqota və Medelyin portlarına daxil olur.

**BARRANKİLYA** (Barranquilla) – Kolumbiyanın şm.-ında şəhər. Atlantiko dep-tinin inz. m. Əh. 1,4 mln. (2005; Puerto-Kolombiya və Soledad şəhərətrafları ilə əh. 2 mln.-dan çox olan aqlomerasiya əmələ gətirir). Maqdalena çayı sahilində (sol sahil boyunca 12 *km* uzanır), onun Karib dənizinə töküldüyü yerin 10 *km*-liyindədir. B.-nın avanportu Puerto-Kolombiyadır. Aeroport. B. ölkənin ən iri təhsil və sənaye mərkəzlərindən biridir. 1629 ildə salınmışdır. Memarlıq abidələri: barokko üslubunda San-Pedro- Klaver kilsəsi, müstəmləkə memarlığı üslubunda ispan evləri (Kasa-Bodeqones-de-la Kandelariya, Kasa-del-Markes-de-Valdeoyos), müasir kilsə. Atlantiko un-ti (1941), Boyakarlıq və plastik sənətlər məktəbi (1961), Şimal un-ti (1966), Karib muxtar un-ti (1967), Simon Bolivar un-ti (1978), konservatoriya; müasir incəsənət, Karib və s. muzeylər, "Amira de la Rosa" teatrı fəaliyyət göstərir. Aparıcı sənaye sahələri: maşınqayırma (gəmiqayırma və gəmi təmiri, k.t. maşınları istehsalı), neftayırma, kimya (ammonyak, azot gübrələri, plastik kütlə, kimyəvi liflər və dərman preparatları), yüngül (toxuculuq, tikiş, ayaqqabı), yeyinti (tütün və pivə daxil olmaqla), alüminium (prokat istehsalı) səna-

Barrankilya şəhərindən görünüş.





Barrankilya şəhərindən görünüş.

yesi. İntensiv plantasiya təsərrüfatı r-nu B.-nın yaxınlığındadır. İsla-de-Salamanka Milli Parkı var.

**BARRANKOSLAR** (yun. φάραγξ – yarğan, uçurum) – vulkan konusunun yamaclarında kraterdən ətəyə qədər radial ayrılmış dərin yarğanlar. B. vulkan bombalarının yamacaşağı diyirlənməsindən əmələ gələn şırımları axar suların yuması nəticəsində yaranır. B., əsasən, bitkidən məhrum, düzgün konika formalı vulkan yamaclarında inkişaf etmişdir. ABŞ-ın c.-q.-ində arid iqlim r-nlarında erozion relyef formalarına (çuxur, yarğan, kiçik kanyon) da B. termini aid edilir.

**BÁRRE** Məhəmməd Siyad (təqr. 1919, İtaliya Somalisinin Luq dairəsi – 2.1. 1995, Nigeriya, Laqos) – Somali dövlət və siyasi xadimi. İtaliyada hərbi akademiyanı bitirmişdir (1952). 1960 ildən Somali silahlı qüvvələrinin Baş qərargah rəisi, 1965 ildən isə komandanı olmuşdur. 1969 il oktyabrın 21-də Somali ordusunun zabitlərindən ibarət Ali İnqilab Şurasının (AİŞ) rəhbəri olan B. hərbi çevriliş həyata keçirmiş və 1976 ilin iyulunadək ölkəni AİŞ-in prezidenti kimi idarə etmişdir. Somali inqilab sosialist partiyasının təsis qurultayında (1976, iyul) MK-nın baş katibi seçilmiş və ölkə prezidenti olmuşdur. B.-nin idarə etdiyi siyasi rejim Somalinin sosialist inkişaf yolu ilə gedəcəyini bəyan etmiş və sosialist ölkələrin dəstəyinə arxalanaraq bir sıra tədbir (torpağın, neft və sığorta kompaniyalarının, bankların milliləşdirilməsi, savadsızlığın ləğvi və s.) həyata keçirmişdir. Eyni zamanda B. hökuməti somalililərin məskunlaşdığı dövlətlərə qarşı ərazi iddiası ilə çıxış etmiş, 1977 ilin iyul ayında Efiopiya ilə irimiqyaslı hərbi münaqişənin təşəbbüskarı olmuşdur.

B. ölkədə avtoritar rejim qurmuş, təkpartiyalı sistemi qanuniləşdirmiş, müxalifətə və xalqa qarşı amansız olmuş, irimiqyaslı repressiyalara yol vermişdir. 1991 ilin yanvar ayında müxalif qüvvələrin hərbi əməliyyatları nəticəsində devrilmiş və ölkədən qaçmışdır.

**BÁRREL** (ing. hərfi mənası çəlləkdir) – Britaniya ölçü sistemində mayelərin və dənəvər maddələrin həcm vahidi. B.-in ölçüsü birmənalı olaraq təyin edilməmişdir: Britaniya və Amerika B.-i, həmçinin mayelər, təmizlənməmiş neft, dənəvər maddələr (quru B.) üçün B. müxtəlifdir və 115 $dm^3$-dən 182 $dm^3$-ə qədər diapazondadır. Məs., ABŞ-da neft B.-i 158,987 $dm^3$-ə, quru B. – 115,627 $dm^3$-ə bərabərdir.

**BARRÉM MƏRTƏBƏSİ** – Alt Tabaşirin aşağıdan dördüncü mərtəbəsi. İlk dəfə 1862 ildə Fransada Barrem k. yaxınlığında fransız geoloqu Kokan tərəfindən ayrılmışdır. Xarakter faunası Holcodiscus coillaudi d'Orb., Barremites Strettostoma Uhl. və s.-dir. Krım, Qafqaz, Orta Asiya və Uzaq Şərqdə var. Böyük Qafqazda B.m. (Xalçay dəstəsi) boz gillərdən, qismən əhəngdaşılardan, Kiçik Qafqazda isə, əsasən, əhəngdaşılardan ibarətdir. Qalınlığı 700 *m*-ə çatır.

**BARRİKÁDA** (fr. Barrikade) – küçə, yol, körpü, dağ keçidi və s.-nin keçilməsini çətinləşdirmək məqsədilə yerli materialdan (ağac, daş, qum, şalban və s.) düzəldilən süni maneə. B.-dan xalq üsyanları, inqilablar və müharibələr zamanı istifadə edilmişdir.

**BÁRRİMORLAR** (Barrymore) – Amerika aktyorları ailəsi. M o r i s (əsl adı və soyadı Herbert Blayt; 21.9.1849, Hindistan, Aqra –25.3. 1905, Nyu-York ştatı, Amitivill). London, sonra ABŞ teatrlarında çıxış etmişdir: Romeo ("Romeo və Cülyetta", U. Şekspir), Rodon Krouli ("Bekki Şarp", U. Tekkereyin "Şöhrətpərəstlik yarmarkası" əsəri üzrə), Raymond Lessinq ("İnciklik", O. Deyli). Pyeslər müəllifidir. C o r c i a n a (21.5. 1856, Filadelfiya – 12.7.1893, Santa-Barbara), Morisin arvadı. Komediya aktrisası idi: Mariya ("Qeybət məktəbi", R. Şeridan) və s. L a y o n e l (28.4.1878, Filadelfiya – 15.11.1954, Kaliforniya ştatı, Van-Nays). Moris və Corcinananın oğlu. Məhz onun üçün yazılmış pyeslərdə, əsasən, məşuq rollarında çıxış etmişdir (O. Tomasın "Misbaşlılar" pyesində Milta Şenks və b.). Nyu-Yorkun kommersiya teatrlarının aparıcı aktyorlarından biri olmuşdur. 1909 ildən kinoya çəkilmişdir. E t e l (15.8.1879, Filadelfiya – 18.6.1959, Kaliforniya, Beverli-Hils). Moris və Corcinananın qızı. Səhnə obrazları dərinliyi, zərif gözəlliyi ilə seçilirdi: Madam Trentoni ("Kapitan Cinksin dəniz kavaleriyası", K. Fitç), Nora ("Kukla evi", H. İbsen), Marqarita Qotye ("Kameliyalı qadın", A. Düma-oğul) və b. 1928 ildə Nyu-Yorkda, sonralar onun adı verilmiş teatr açmışdır. 1914 ildən kinoya çəkilmişdir. C o n (15.2.1882, Filadelfiya – 29.5.1942, Los-Anceles). Moris və Corcinananın oğlu. Karyerasına kəskin xarakterli rollar oynamaqla başlamış, tədricən ABŞ-ın ən yaxşı tragik aktyorlarından biri olmuşdur: Uilyam Falder ("Ədalət məhkəməsi", C. Qolsuorsi), Fyodor Protasov ("Bağışlanma", L.N. Tolstoyun "Canlı meyit" əsəri üzrə), III Riçard, Hamlet ("III Riçard" və "Hamlet", U. Şekspir). 1913 ildən kinoya çəkilmişdir. 1990-cı illərdə Con B.-un nəticəsi Dryü (əsl adı və soyadı Endryü Blayt; d. 22.2.1975, Los-Anceles) ABŞ-ın ən populyar aktrisalarından biri olmuşdur. "Zəhərli sarmaşıq", "Silaha vurğun", "Rəddolsun oğlanlar", "Hamı deyir ki, mən səni sevirəm" və s. filmlərdə çəkilmişdir.

**BÁRRİOS** Xusto Rufino (19.7.1835, Qvatemala, San-Lorentso qəs. – 2.4. 1885, Salvador, Çalçuapa k. yaxınlığında) – Qvatemala dövlət və siyasi xadimi. Liberal partiyasının rəhbərlərindən biri. 1871–73 illərdə Qvatemala ordusunun baş komandanı olmuşdur. 1871 ildə B. konqresin deputatı, demokrat M. Qarsiya Qranadosla birlikdə rəhbərlik etdiyi dövlət çevrilişi nəticəsində Qvatemala prezidenti marşal V. Sernanı hakimiyyətdən məhrum etmişdir. Qranados müvəqqəti prezident elan olunsa da, B. əvvəlcədən hökumətdə əsas rol oynayırdı. 1873 ildə prezident seçkilərində qalib gələn B. 1879 ildə ikinci dəfə prezident seçilmişdir. B.-un hökuməti geniş islahatlar proqramını həyata keçirmişdir: yeni infrastruktur (dəmir yolları və teleqraf xətləri) yaratmış, kilsə torpaq mülkiyyətini sekulyarizasiya etmiş, mətbuat azadlığına zəmanət vermiş, əhalinin təhsil almaq imkanlarını genişləndirmişdir. Liberal islahatlar nəticəsində Qvatemala Mərkəzi Amerikanın ən dinamik inkişaf edən dövlətinə çevrilmişdi. Ölkə daxilində öz mövqelərini möhkəmləndirən B. bütün regionun liberal rəhbəri rolunda çıxış etmək qərarına gəldi. 1885 ilin fevral ayında vahid "Mərkəzi Amerika Respublikası" yaratmaq planının qonşu Honduras və Salvadorun prezidentləri tərəfindən dəstəklənməsinə nail oldu. Lakin Meksika diktatoru P. *Dias* tərəfindən dəstəklənən Mərkəzi Amerikanın klerikal-liberal qüvvələri dərhal B.-un əleyhinə çıxdılar. Salvadorun prezidenti R. Saldivar da vədlərindən imtina etdi. Saldivarın dönüklüyündən qəzəblənən B. 1885 il martın 30-da qoşunlarıyla birlikdə Salvadorun sərhədini keçdi və aprelin 2-də baş verən döyüşdə ölümcül yaralandı. B.-un həlak olması ilə Mərkəzi Amerikanın siyasi birliyi planları puça çıxdı.

**BÁRRİOS DE ÇAMÓRRO** Violeta (d.18.10.1929, Rivas, Nikaraqua) – Nikaraqua dövlət və siyasi xadimi. Varlı mülkədar ailəsində doğulmuşdur. Təhsilini ABŞ-da almışdır. 1950 ildə qəzet naşiri və mötədil müxalif siyasətçi P.X. Çamorro ilə nikah bağlamışdır. Ərinin diktator A. Somosa Debaylenin casusları tərəfindən qətlə yetirilməsindən (1978, yanvar) sonra aktiv siyasi fəaliyyətə qoşulmuşdur. Somosanın devrilməsindən sonra 1979 il iyul ayında inqilabi xuntanın tərkibinə daxil olmuş, lakin bir neçə aydan sonra Sandino ad. Milli Azadlıq Cəbhəsi rəhbərliyinin siyasəti ilə razılaşmayaraq oradan çıxmışdır. 1980-ci illərdə ABŞ tərəfindən dəstəklənən silahlı müxalifətin (kontras) çıxışlarının genişlənməsi şəraitində B. de Ç. siyasi müxalifətin rəhbəri rolunu öz üzərinə götürmüşdür. 1989 ildə Kosta-Rikanın prezidenti O. *Arias Sançesin* vasitəsi ilə sandinoçular və müxalifət azad prezident seçkilərinin keçirilməsi haqqında razılığa gəldilər. Vətəndaş münaqişələrindən yorulan və Nikaraquadakı hadisələrə ABŞ-ın birbaşa müdaxiləsindən ehtiyatlanan seçicilərin əksəriyyəti B. de Ç.-nu ölkəni yeni sarsıntılardan xilas etməyə qadir olan şəxsiyyət kimi görərək, 1990 ilin fevralında ona səs verdi. B. de Ç. ehtiyatlı siyasət yeritmiş, sandinoçular tərəfindən keçirilmiş aqrar islahatın nəticələrini təsdiqləmiş, onları güc strukturlarındakı əsas vəzifələrdə saxlamış, eyni zamanda həm sol, həm də sağ qüvvələrin tərk-silah edilməsinə nail olmuşdur. Onun iqtisadi siyasəti uğursuz olmuşdur: BVF-nın təlimatlarına riayət əhalinin əsas kütləsinin yoxsulluq problemini daha da kəskinləşdirmişdir. Prezidentlik səlahiyyəti başa çatdıqdan (1997, yanvar) sonra siyasətdən uzaqlaşmışdır.

**BARRÓ** (Barrault) Jan Lui (8.9.1910, Sena və Uaza dep-ti, Le-Vezine – 22.1. 1994, Paris) – fransız aktyoru, rejissor, teatr xadimi. Luvr məktəbindəki rəngkarlıq kurslarında oxumuşdur. 1931 ildə *"Atelye"* teatrında Ş. *Düllenin* şagirdi işləmişdir; 1932–35 illərdə tamaşalarda oynamış və E. *Dekrunun* rəhbərliyi altında pantomima ilə məşğul olmuşdur (U. Folknerin "Mən öləndə" romanı əsasında "Ananın ətrafında" pantomimasını ifa etmişdir). Sürrealistlər və solçu "Oktyabr" teatr qrupu ilə yaxınlaşmışdır. 1935 ildə "Avqustinlərin çardağı" truppasını yaratmışdır. 1937 ildə "Antuanın teatrı"nda ona böyük uğur gətirən M. de Servantesin "Numansiya" əsərini tamaşaya qoymuşdur. 1940–46 illərdə *"Komedi Fransez"* teatrında Rodriqo ("Sid", P. Kornel), Hamlet ("Hamlet", U. Şekspir) rollarını oynamış, "Fedra" (J. Rasin; 1942), "Atlas tufli" (P. Klodel; 1943), "Antoni və Kleopatra" (U. Şekspir; 1945) əsərlərini tamaşaya qoymuşdur. 1946 ildə M. *Reno* (B.-nun arvadı) ilə birlikdə öz truppasını yaratmışdır. 1947 ildə Fransada F. Kafkanın "Proses" əsərini ilk dəfə B. səhnələşdirmişdir (Yozef K. rolunda özü çıxış etmişdir). A. *Artonun* ideyalarını mənimsəyərək, onların ilk dəfə səhnədə tətbiqinə cəhd etmişdir. B.-nun bu dövr tamaşaları Fransada formalaşmağa başlayan *absurd teatrına* təsir göstərmişdir. 1940–50-ci illərdə quruluş verdiyi tamaşalar arasında "Yalançı etiraflar" (P. Marivo), "Qəzəb gecələri" (A. Salakru), "Xristofor Kolumb" (P. Klodel), "Malbruk səfərə hazırlaşır" (M. Aşar), "Amfitrion" (J.B. Molyer), "Albalı bağı" (A.P. Çexov) və s. var. 1959–68 illərdə Parisdəki "Teatr de Frans" a rəhbərlik etmişdir. 1960 ildə burada E. İoneskonun "Kərgədan" əsərini tamaşaya qoymuş, Beranje rolunu özü ifa etmişdir. B. böyük səhnəyə absurdist dramını gətirən ilk rej. olmuşdur (S. *Bekket*, J. *Jene* və b.-nın pyesləri). 1966–68 illərdə eyni vaxtda Millətlər Teatrı və *"Livinq-tietr"*ə başçılıq etmişdir. Görkəmli aktyor olan B. pantomima sənəti ənənələrini inkişaf etdirmişdir. Parisdəki Dram Sənəti Məktəbinin rəhbəri olmuşdur. 1935 ildən kinoya çəkilmişdir. "Raykın övladları" (1944, rej. M. *Karne*) filmindəki Batista Debüro rolu ona dünya şöhrəti qazandırmışdır.



**BÁRROU** (Barrow) – İrlandiyanın c.-ş.-ində çay. Uz. 191 *km*. Sliv-Blum d.-rından başlanır. Atlantika okeanına tökülür. Yağış suları ilə qidalanır. İlboyu gursulu olur. Gəmiçiliyə yararlıdır. Yuxarı axınındakı Qrand kanalı B.-nu Şannon çayı və Dublin ş. ilə əlaqələndirir.

**BÁRROU** (Barrow) – Kanada Arktika arxipelaqında Batörst və Kornuollis a-rı (şm.-da) ilə Uels şahzadəsi və Somerset a-rı (c.-da) arasında boğaz. Lankaster və Vaykaunt-Melvill boğazlarını birləşdirir. Uz. təqr. 306 *km*, eni 56–111 *km*, dərinliyi 200 *m*-ədəkdir. İlin çox hissəsi buzlarla örtülü olur. 1819 ildə Arktika tədqiqatçısı ingilis U. Parri tərəfindən kəşf edilmiş və Britaniya admirallığının katibi (1804–05) C. Barrounun şərəfinə adlandırılmışdır.

**BÁRROU** (Barrow) – Alyaskanın şm. qurtaracağında burun (71°23' şm.e., 156°12' q.u.).

**BÁRROU-İN-FÉRNESS** (Barrow-in-Furness) – B. Britaniyada, İngiltərənin şm.-q.-ində şəhər. Əh. 50 min (2003). Ferness y-a-nın İrlandiya dənizi sahilində port. 1127 ildə yaranmış Ferness abbatlığının yaxınlığında salınmışdır. 1840-cı illərdən sənaye şəhəridir. B.-in-F. ölkənin əsas gəmiqayırma (o cümlədən sualtı qayıq istehsalı) mərkəzlərindəndir.

**BARRYÉNTOS** (Barrientos) Mariya (10.3.1884, Barselona – 8.8.1946, Sibur) – ispan müğənnisi (koloratur soprano). Vokal dərslərini Barselona konservatoriyasında almışdır. İlk çıxışı Barselonadakı Lirik teatrda V. Bellininin "Som-

nambula” operasında olmuşdur (1898). Dünyanın ən böyük opera teatrlarının səhnəsində oxumuşdur (“Kovent-Qarden”, 1903 ildən; “La Skala”, 1904 ildən). 1916 ildən müntəzəm olaraq “Metropoliten-opera” teatrında çıxış etmişdir. Repertuarında əsas yeri 19 əsr italyan operası tutmuşdur. 1924 ildə opera karyerasını bitirmiş, konsertlərlə çıxış etmişdir. Fransız və ispan kamera musiqisini böyük müvəffəqiyyətlə ifa etmişdir (M. de *Falya* ilə ansamblda çıxışlarının audioyazısı saxlanılmışdır).

**BARS XAQAN** (? – 710) – qədim Xakas dövlətinin hakimi. Əvvəllər Bars-bəy adlanan B.x. 693–709 illər arasında xaqan (k a q a n) titulunu almağa nail olmuş, bu isə onu Mərkəzi Asiyanın ali hakimləri ilə bərabərləşdirmişdir (bax *Qırğız xaqanlığı*). B.x.-ın arvadı onun siyasi rəqibi, Göytürk xaqanlığının banisi *İlteriş xaqanın* qızı olmuşdur. Çin imperatoru və Yeddisuda məskunlaşan *türgeşlərin* xaqanı ilə göytürklərə qarşı ittifaq bağlamışdır. B.x.-a qarşı göytürklərin 710 ilin qışında Tuvadan Qərbi Sayan silsiləsi vasitəsilə Xakasiyaya yürüşünün təsviri *Kül Tegin*, *Bilgə xaqan* və *Tonyukukun* kitabələrində verilmişdir. Ölkənin müstəqilliyi uğrunda göytürklərlə Sonqa yarğanında apardığı döyüşdə həlak olmuşdur. Kül Tegin kitabəsinə görə B.x.-ın balbalı *Kapaqan xaqanın* məzarının yanında ucaldılmışdır (716).

**BARSAKELMES QORUĞU** – Aral dənizindəki Barsakelmes a.-ndadır (Qazax.). Sah. 18 min *ha*-dan çoxdur. 1939 ildə gilli-şoran səhra təbii kompleksinin ada şəraitində öyrənilməsi və adanın tipik fauna (qulan, ceyran, sayqak, sarı sünbülqıran; quşlardan dovdaq, torağay, tənəkquşu) populyasiyasını artırmaq məqsədilə yaradılmışdır.

**BARSBAY** əl Məlik-ül Əşrəf Seyfəddin (?–7.6.1438) – Misir məmlük sultanı [1422–38]. Hakimiyyətinin ilk illərində Misirdə daxili sabitliyi təmin etmək məqsədilə bir sıra tədbirlər həyata keçirmiş, qeyri-müsəlman məmurları dövlət vəzifələrindən kənarlaşdırmış, Suriyada baş verən üsyanları yatırmışdır. Kiprdə krallıq yaradan səlibçilərin Misir sahillərinə qarətçi hücumlarının qarşısını almaq, Misirdə əmin-amanlıq yaratmaq, həmçinin əmirlərinin arasındakı çəkişmələrə son qoymaq üçün Kipr krallığına qarşı cihad elan etmişdi. B. 1424, 1425 və 1426 illərdə Kiprə yürüşlər edərək adanı tutmuş, Kipr kralı Conu isə əsir götürərək Qahirəyə aparmışdı. B. Məkkə şərifinin qiyamını yatırmış (1424), iki il sonra da Ciddə limanından gələn gəliri mənimsəmişdi. Vergiləri və ölkəyə gələn tacirlərin gömrük rüsumlarını artırmış, ədviyyat ticarətini və şəkər istehsalını tamamilə nəzarəti altına almışdı. Suriyaya dəfələrlə yürüş etmişdi. *Şahruh* Qahirədəki tacirlərinə və elçilərinə B. tərəfindən göstərilən pis rəftardan qəzəblənərək onun mütəmadi olaraq mübarizə apardığı Ağqoyunluları dəstəklədi, Dulqədir bəyləri də ona qarşı qiyam qaldırdılar. Lakin Ağqoyunlu Qarayuluq Osman bəyin ölümündən sonra rəqibləri qarşısında üstünlük qazanan B. Dulqədiroğullarını yenidən özünə tabe etmiş, Ağqoyunlu bəylərinin də bir hissəsini himayəsi altına almışdı.

**BARSELONA** (Barcelona) – İspaniyanın şm.-ş.-ində, Besos və Lyobreqat çaylararası ərazidə şəhər. Kataloniya muxtar vil.-nin və Barselona əyalətinin inz. m. Əh.-nin sayına görə (1,57 mln; 2005) Madriddən sonra ölkənin ikinci şəhəridir; ətraf şəhərlərlə (Ospitalet, Badalona, Mataro, Sabadel, Tarrasa, Manresa və s.) birlikdə əh. təqr. 5 mln. olan şəhər aqlomerasiyası əmələ gətirir. İspaniyanın Aralıq dənizi sahilində ən iri (2004 ildə yük dövriyyəsi 39 mln. *t*-dan çox olmuşdur; azad iqtisadi zona statusuna malikdir) portu. Beynəlxalq əhəmiyyətli d.y. (Madridi Fransa ilə birləşdirən d.y. magistralı B.-dan keçir), avtomobil və hava yolları qovşağı. Metropoliten (1924 ildən), beynəlxalq aeroport var.

B. təqr. e.ə. 3 əsrdə *Qamilkar Barka* tərəfindən salınmışdır. E.ə. 1 əsrin sonlarından Roma koloniyası Barsino olmuşdur. Eramızın 415 ilində vestqotlar tərəfindən zəbt olunmuşdur; vestqot kralı Ataulfun iqamətgahı idi. 713 ildə ərəblər, 801 ildə franklar tərəfindən tutulmuş, 865 ildən *İspaniya markasının* paytaxtı olmuşdur. *Karolinqlər* dövlətinin parçalanmasından sonra 877 ildən faktiki müstəqil olan *Barselona qraflığının* paytaxtı, qraflığın Araqon krallığının tərkibinə qatılmasından sonra isə 1137–1479 illərdə krallığın paytaxtı olmuşdur. 13–15 əsrlərdə B., Genuya və Venesiya ilə yanaşı, Cənubi Avropanın ən mühüm sənaye, ticarət və maliyyə mərkəzi, həmçinin Araqonun Aralıq dənizinə ekspansiyasının dayaq məntəqəsi olmuşdur. 1462–72 və 1640–52 illərdə B. antifeodal üsyanların mərkəzi idi. *İspaniya irsi uğrunda müharibə* (1701–14) zamanı B. İspaniya taxt-tacına iddiaçılardan Habsburqların nümayəndəsini dəstəkləyirdi; B. 1714 ildə V Filipp Burbonun qoşunları tərəfindən zəbt olunmuşdur. 1808–13 illərdə B.-nı Napoleon Fransası işğal etmişdir. *Karlist müharibələri* və *İspaniya inqilabları (19 əsr)* gedişində ciddi dağıntılara məruz qalmışdır. 19 əsrin sonlarından B. İspaniyanın ən iri sənaye mərkəzinə, həmçinin Kataloniya milli hərəkatının və anarxist-sindikalist hərəkatının mərkəzinə çevrilmişdir. *İspaniya inqilabı (1931–39)* zamanı Kataloniya muxtar vil.-nin paytaxtı (1932–39), inqilabi-respublikaçı qüvvələrin əsas istinadgahı (1937 ilin noyabrından 1939 ilin yanvarınadək İspaniya Resp.-nın müvəqqəti paytaxtı) olmuşdur. Franko rejiminin devrilməsindən sonra (1979 ilin dekabrından) Kataloniya muxtar vil.-nin paytaxtıdır.

Barselona şəhərindən görünüş.







Roma dövrü divarları daxilində formalaşmış qədim şəhər 13–14 əsrin əvvəllərindən, yeni şəhər divarları çəkildikdən sonra (1854 ildə sökülmüşdür; bir hissəsi qalmışdır), intensiv inkişaf etməyə başladı. San-Pau-del-Kamp (tikintisinə 10 əsrin əvvəlində başlanılmışdır) və San-Pere-de-les-Puelyes (10 əsrdə başlanmış, 1147 ildə yenidən qurulmuşdur) roman kilsələri ş.-ın orta əsrlərə aid ən qədim abidələridir. Kafedral kilsədən (inşasına 1298 ildə başlanılmışdır; memarlar J. Fabre, B. Riker, 1397 ildən A. Barges; 15 əsrdə tamamlanmışdır, qərb fasadı – 1892). Böyük kral sarayından, qədim Audiyensiya (Məhkəmə palatası, 15 əsr) və beşyaruslu Kral Martin qülləsi (1557) ilə birlikdə Ratuşa və Baş deputasiya binasından ibarət Kilsə meydanı ansamblı “qotik məhəllənin” özəyini təşkil edir. Klarian-Padelyas (indiki Şəhər tarixi muzeyi, 1943 ildən), Berenger de Agilar (14 əsr, indiki P. *Pikasso* muzeyi, 1963 ildən) və s. saraylar.

19 əsrin 2-ci yarısında ş.-də əsaslı yenidənqurma işləri başladı; 5–6 mərtəbəli tikililəri, dəbdəbəli abidələri və fəvvarələri olan geniş prospektlər salındı. B.-nın qədim və yeni hissələrini fəvvarələr və heykəltəraşlıq nümunələri (1927, heykəltəraşlar X. Klara, V. Navarroi-Romero və b.) ilə əhatələnmiş geniş Plasa-de-Katalunya meydanı birləşdirir. Katalon musiqisi sarayı (1905–08), San-Pau hospitalı (1910, hər ikisinin memarı L. Domenek-i-Montanera), A. *Qaudinin* layihələri əsasında Saqrada-Familiya kilsəsi (inşasına 1883 ildə başlanılmış, natamamdır), Quel sarayı (1886–89), Kasa-Batlyo (1904–06) və Kasa-Mila (1906–10) yaşayış evləri və s. tikililər *eklektizm* və “katalon moderni” üslubunda inşa edilmişdir. 1940–50-ci illərin tikililərində E. Torroxa məktəbinin təsiri duyulur (müasir materiallardan, parabolik qübbələrdən və s. yeni konstruksiyalardan geniş istifadə): “SEAT” avtomobil zavodu (1954–56, memarlar R. De la Xoyya, S. Ortis, M.B. Revolyedo və b.), “Kamp Nou” futbol stadionu (1957, memarlar L.Q. Barbon, F. Mitxans və b.); Kasa-Uqalda (1952, memar X.A. Kordak) və Qardyola (1956, memarlar O. Boiqas və J. Martorel) yaşayış binaları. Syutadelya, Montjuik, Quel (1900–14, A. Qaudinin park tikililəri ansamblı ilə) parkları. X. Kolumbun heykəli (1882–88, heykəltəraşlar X. Lyimona-i-Brugera və A. Vilanova).



Barselona. Milli Kataloniya İncəsənəti Muzeyi.

25-ci Olimpiya Oyunlarının B.-da keçirilməsi (1992) geniş tikinti işlərinə təkan verdi: telekommunikasiya qülləsi (memar N. Foster), Olimpiya kəndi (memarlar D. Makay, A. Puçdomenek və b.), stadion. Quel sarayı və parkı, Kasa-Mila yaşayış evi, Katalon musiqisi sarayı və San-Pau hospitalı *Ümumdünya irsi* siyahısına salınmışdır.

B.-da Kral elm və incəsənət akademiyası (1764 ildən), Kataloniya zərif sənətlər kral akademiyası (1849), Kataloniya tibb akademiyası (1898); Barselona un-ti (1450), Azad un-t (1968), politexnik un-t (1971); konservatoriya (1838), İspaniya musiqişünaslıq in-tutu (1943); kitabxanalar; arxeologiya (1935; tarixəqədərki, İberiya, Finikiya, yunan, Roma və vestqot incəsənəti), F. Mares (rəngkarlıq, 12–17 əsrlərə aid dini sənət nümunələri; Maresin heykəlləri), Xalq incəsənəti və sənətkarlığı, katalon incəsənəti (1934; orta əsrlər rəngkarlığı, El-Qreko, F. Surbaran, X. Ribera, D. Velaskes və b.-nın əsərləri), müasir incəsənət, etnoqrafiya (1948), elm, keramika, dəniz, geologiya (1878) muzeyləri; “Barselona” futbol klubunun muzeyi, J. Miro fondu, A. Tapiyes fondu fəaliyyət göstərir.

Kataloniya milli teatrı, “Liseo” opera teatrı (1847) var. Musiqiçilərin M. Kanals ad. (1954 ildən), vokalistlərin F. Vinyas ad. (1963 ildən) beynəlxalq müsabiqələri keçirilir. Nəbatat bağı, zoopark, akvarium (Avropada ən böyük; ildə 2 mln.-dan artıq tamaşaçı; okeanariumun altından şüşə tunel çəkilmişdir, uz. 80 *m*)

Barselona. Kolumbun monumenti.





Barselona. Saqrada-Familiya kilsəsi.

var. B. yaxınlığındakı Salon ş.-ndə "Port Aventura" attraksionlar parkı (Parisdəki Disneylenddən sonra Avropada ikinci) yerləşir.

"Barselona" futbol və basketbol klubları Avropanın ən güclü klublarındandır. "Kamp Nou" stadionunda (100 minə yaxın tamaşaçı) futbol üzrə dünya çempionatının (1984) oyunları, Avropa Çempionlar Kubokunun final oyunları (1989, 1999) keçirilmişdir. Kişilər arasında ənənəvi tennis turniri keçirilir.

B. beynəlxalq turizm mərkəzi (3,85 mln. nəfər, 2003), müxtəlif konqreslərin, sərgilərin (o cümlədən 1888, 1929 illər Ümumdünya sərgilərinin) keçirildiyi ənənəvi yer, İspaniyanın iri ticarət-maliyyə və aparıcı sənaye mərkəzidir. Xidmət sferasında iqtisadi fəal əhalinin 78%-i məşğuldur və məhsulun dəyərinin 66%-i yaradılır, sənayedə, müvafiq olaraq, 16% və 25%-dir.

Müxtəlif maşınqayırma (sənaye məhsulu dəyərinin 30%-indən çoxu), neft emalı və neft-kimya, toxuculuq, yeyinti sənayesi aparıcı sahələrdir. B. İspaniyanın avtomobil və avtomobil şinləri, kimya məhsulu, sintetik parça istehsalının əsas mərkəzidir. Avtomobil sənayesi 1960–70-ci illərdə milli və xarici (alman və amerikan) kapitalın ("SEAT", "Nissan" və s. z-dlar) iştirakı ilə yaradılmışdır. Gəmi, lokomotiv və dəzgahqayırma, elektrotexnika sənayesi, cihazqayırma, toxuculuq sənayesi və k.t. üçün maşın və avadanlığın istehsalı ənənəvi olaraq inkişaf etmişdir; radioelektronika (Milli mikroelektronika mərkəzi B.-dadır) sürətlə inkişaf edir. Kimya sənayesi neft emalı (sulfat turşusu, plastik kütlə, sintetik qatran, iplik və s. istehsalı) əsasında yaradılmışdır; əczaçılıq sənayesi, parfümeriya-kosmetika malları, boyaq maddələri, yuyucu vasitələrin istehsalı intensiv inkişaf edir. B. 19 əsrdən ən iri toxuculuq sənayesi (sənaye məhsulu dəyərinin 12–14%-i; kətan, pambıq, yun parçalar və sintetik liflərdən parçalar) mərkəzidir. Toxuculuq müəssisələri B.-da və onun şəhərətraflarında – Tarrasa, Sabadel və Manresada yerləşir. Yeyinti sənayesində (dəyərin təqr. 16%-i) unüyütmə, şərabçılıq və tütünçülük sahələri seçilir. Ağac emalı (o cümlədən mebel), dəri-ayaqqabı, kağız, poliqrafiya və s. müəssisələri fəaliyyət göstərir. Əlvan metallurgiya (misəritmə), tikinti materialları istehsalı inkişaf etmişdir. 2000 ildən B.-nın sənaye r-nu Poblenou və şəhərətrafı Sabadeldə çoxfunksiyalı sənaye parkları yaradılır.

**BARSELÓNA** (Barcelona) – Venesuelanın şm.-ında şəhər. Ansoategi ştatının inz. m. Əh. 424,8 min (2005; Puerto-la-Krus, Quanta, Posuelos və Morro-de-Barselona ş.-ləri ilə 620 mindən çox əh. olan aqlomerasiya yaradır). Neveri çayı sahilində, onun Karib dənizinə töküldüyü yerdən 5 *km* yuxarıdadır. İri nəql. qovşağıdır. Aeroport. 1637 ildə salınmış və İspaniyanın Kataloniya əyalətinin paytaxtı B.-nın şərəfinə adlandırılmışdır. İri k.t. r-nu mərkəzidir (şəkər qamışı, pambıq, qəhvə, qarğıdalı, lobya və maniok; qaramal və quşçuluq). Yeyinti (ət) və yüngül (pambıqtəmizləmə və dəri-ayaqqabı) sənaye daha çox inkişaf etmişdir. "Honda" və "Mitsubişi" şirkətlərinin avtomobilyığma z-dları (ildə 30 min ədəddən çox), ağac emalı və sement istehsalı var. B.-dan bir neçə neft və qaz kəməri (neft və təbii qaz Lyanos yatağından dəniz portlarına nəql olunur) keçir. B. yaxınlığındakı Narikual r-nunda qonur kömür və daş kömür çıxarılır.

**"BARSELONA"** ("Barcelona") – ispan futbol klubu, dünyanın ən güclü komandalarından biri. Əsası 1899 ildə qoyulmuşdur. 21 dəfə İspaniya çempionu (1929–2011), 25 dəfə İspaniya kubokunun (1910–2009) sahibi olmuşdur. Bir neçə beynəlxalq turnirin – UEFA Çempionlar liqası (1992, 2006, 2009, 2011), 4 dəfə UEFA Kuboklar kuboku (1979,

Barselona (Venesuela) şəhərindən görünüş.







1982, 1989, 1997) və 4 dəfə Yarmarkalar kubokunun (1958, 1960, 1966, 1971) qalibidir. Oyunlarını "Kamp Nou" stadionunda (100 minə yaxın tamaşaçı) keçirir. R. Zamora, L. Kubala (Macarıstan), Y. Kroyff, Y. Neeskens (hər ikisi Hollandiya), X. Krankl (Avstriya), D. Maradona (Argentina), Q. Lineker (İngiltərə), X. Stoiçkov (Bolqarıstan), A. Subisarreta, M. Laudrup (Danimarka), X. Qvardyola (İspaniya), Romario, Ronaldo, Rivaldo, Ronaldinyo (hamısı Braziliya), L. Messi (Argentina), A. İnyesta, E. Xavi (hər ikisi İspaniya) və b. klubun tarixində ən yaxşı futbolçular, E. Errera, S.L. Menotti (hər ikisi Argentina), Y. Kroyff, L. van Qal (hər ikisi Hollandiya), X. Qvardyola isə ən yaxşı məşqçilərdir.

**"BARSELÓNA ADƏTLƏRİ"** (katalan dilində "Usatges de Barcelona", orta əsrlərdə lat. "Usatici Barchinone") – orta əsrlərdə Pireney y-a-ndakı ayrı-ayrı vilayətlərin məhkəmələrində tətbiq olunan mülki, cinayət və prosessual hüquq normaları külliyyatı. "B.a." müxtəlif səviyyələrdə olan senyorların vassal əlaqələrini tənzimləyir, sosial qrupların hüquqlarını və imtiyazlarını, həmçinin cinayətkarın sosial vəziyyətindən asılı olaraq cəzalardakı fərqləri qeydə alırdı. "B.a."-nin ilk redaksiyası *Barselona qraflığında* təqr. 1068 ildə qraf Qoca I Ramon Berengerin dövründə hazırlanmışdır. Sonralar ayrı-ayrı yerli hakimlərin təşəbbüsü ilə külliyyata edilən əlavələr nəticəsində onun bir neçə redaksiyası yaranmışdır. 1251 ildən Araqon kralı I Haymenin korteslər tərəfindən dəstəklənən fərmanına görə "B.a." Kataloniyanın bütün məhkəmələrində və Araqonun bəzi digər vilayətlərində tətbiq olunmuş, Malyorka a.-nda yerli hüququn formalaşmasına da öz təsirini göstərmişdir. "B.a."-nin yeni əlavələrlə sistemləşdirilmiş rəsmi redaksiyası 1413 ildə Araqon kralı I Ferdinandın dövründə hazırlanmışdır.

**BARSELÓNA QRAFLIĞI** – orta əsrlərdə Pireney y-a-nda meydana gəlmiş iri feodal dövləti. 801 ildə Böyük Karlın oğlu və gələcəkdə Frank imperatoru Mömin Lüdovik ərəbləri *Barselonadan* sıxışdırdıqdan sonra meydana gəlmişdir. B.q. digər Kataloniya qraflıqları və Septimaniya ilə Qot markasının, 865 ildə isə Karolinqlər dövlətinin *İspaniya markasının* tərkibinə daxil olmuşdur. Qraf Qıllı Vifred [878–897] Ausona, Jerona qraflıqlarını və bir sıra digər əraziləri B.q.-na birləşdirmişdi. Onun dövründən Barselona qrafı titulu irsi olmuşdur. 10 əsrin 2-ci yarısında B.q. bir müddət bütün Kataloniya torpaqlarını öz ətrafında birləşdirdi və ölkə Frank kralı adından idarə olunsa da, faktiki olaraq tam müstəqillik əldə etdi. 11 əsrdə B.q.-nın siyasi və iqtisadi cəhətdən çiçəklənmə dövrü başladı. Qraf Qoca I Ramon Berengerin [1035–76] hakimiyyəti zamanı işlənib hazırlanan mülki, cinayət və prosessual hüquq normaları (bax *"Barselona adətləri"*) külliyyatının birinci redaksiyası sonrakı dövrlərdə Kataloniyada və onun hüdudlarından kənarda feodal məhkəmələrində geniş istifadə olunmuşdur. 1137 ildə qraf IV Ramon Berengerin Araqon şahzadəsi Petronila ilə nikahı nəticəsində Barselona qrafları Araqon kralları olmuşlar, B.q. isə bu krallığın tərkibinə qatılmışdır.

**BARSİLLƏR**, b e r s i l l ə r, b a s i l l ə r, b a r s e l t l ə r – 4–5 əsrlərdə Xəzər dənizinin şm.-q. sahilində yaşamış türk tayfası. Etnik və dil cəhətdən bulqarlar, savirlər və avarlara yaxın idilər. 5–8 əsrlərə aid mənbələrdə B.-in bir qisminin Azərb.-a – Kür çayı sahilinə köçmələri, digər qisminin isə Dağıstanda və Azərb.-ın şm.-ında əkinçilik və maldarlıqla məşğul olmaları qeyd edilir. B. *Xəzər xaqanlığında* xüsusi rol oynayırdılar. Bəzi tədqiqatçılar Bələncər ş.-nin adını B.-lə əlaqələndirirlər. B. etnoniminin qədim türk dillərindəki "bars" "barsil" ("pələng", "bəbir") sözündən yarandığı ehtimal olunur. Başqa türk tayfaları ilə yanaşı B. də Azərb. xalqının etnogenezində iştirak etmişlər.

**BARSKAÚN**, B a r s k o o n – Qırğızıstanda, Tyanşan dağ sisteminin Terskey Alatausu silsiləsində aşırım. Hünd. 3754 *m*. B.-dan keçən avtomobil yolu İssıkkul gölünün çuxurunu Daxili Tyanşanla birləşdirir.

**BÁRSOVA** (əsl soyadı V l a d i m i r o v a) Valeriya Vladimirovna (13.6.1892, Həştərxan – 13.12.1967, Soçi) – rus müğənnisi (lirik-koloratur soprano). SSRİ xalq artisti (1937). SSRİ Dövlət mükafatı laureatı (1941). Moskva Konservatoriyasını (1919, U.A. Mazettinin sinfini) bitirmişdir.



Artistlik fəaliyyətinə 1917 ildə başlamışdır. 1919 ildə Moskvanın "Ermitaj" bağı səhnəsində çıxış etmişdir (burada C. Rossininin "Sevilya bərbəri" operasında onun tərəf-müqabili F.İ. Şalyapin olmuşdur). 1920–48 illərdə Böyük teatrın solisti olmuşdur. Əsas partiyaları: Lyudmila, Antonida ("Ruslan və Lyudmila", "İvan Susanin", M.İ. Qlinka), Şamaxı çariçası, Volxova, Qar qız, Şahzadə Qu quşu ("Qızıl xoruz", "Sadko", "Qar qız", "Çar Saltan nağılı", N.A. Rimski-Korsakov), Cilda, Violetta ("Riqoletto", "Traviata", C. Verdi). 1950–53 illərdə Moskva Konservatoriyasında dərs demişdir (1952 ildən prof.). 1987 ildən Həştərxanda V.V. Barsova və M.P. Maksakova ad. vokal sənəti festivalı keçirilir.

**BARSTERLƏR**, r e n t g e n b a r s t e r l ə r i (ing. burst – partlayış, alışma) – onlarla dəqiqədən bir neçə sutkaya qədər fasilələrlə qeyri-periodik alışan rentgen kosmik şüa mənbələri. İlk B. 1975 ildə kəşf olunmuş, 2005 il üçün 50-dən artıq B. aşkar edilmişdir. Partlayışın davamətmə müddəti təxminən 10 saniyə, istilik şüalanma spektrinin temp-ru $T > 6\ keV$-dur. Göy qübbəsində B.-in Qalaktikanın mərkəzinə yaxın toplanması, onların Qalaktikanın sferik hissəsinə məxsus olduğunu göstərir. Bir neçə barster kürəvi ulduz topalarının mərkəzi hissələrində müşahidə olunur.

Hesab edilir ki, rentgen barsteri kiçik kütləli ulduzla birlikdə ikiqat sıx sistemin tərkibinə daxil olan, nisbətən zəif maqnit sahəsinə malik neytron ulduzdur. Qonşu ulduzun səthindən neytron ulduzun səthinə düşən maddə müəyyən müddət ərzində orada toplanaraq tədricən qızır. Onun temp-ru heliumun termonüvə alışması üçün kifayət edən qiymətə çatdıqda, səthdə termonüvə partlayışı baş verir. Alışma zamanı B.-in energetik işıqlığı $10\ Vt/m^2$ tərtibində olur. B.-in alışma mexanizmi yeni ulduzların alışmalarına analojidir. Alışmalararası müddətdə barster akkresiya hesabına fasiləsiz olaraq $10^{29}$–$10^{30}$ *Vt* gücündə şüa buraxır. Bu şüanın tam enerjisi alışma enerjisindən təqr. yüz dəfə çoxdur.

MXB 1730–335 "sürətli barsterində" akkresiya qeyri-stasionar baş verdiyindən termonüvə alışmaları (I tip alışma) ilə yanaşı onda daha tez-tez və güclü alışmalar (II tip alışma) müşahidə olunur ki, bu da maqnit sahəsini dəlib keçən sıxılmış qaz kütlələrinin neytron ulduzun səthinə düşməsi nəticəsində baş verir.

**BARSUKLAR** (B ö y ü k B. və K i ç i k B.) – Qazaxıstanda, Aral dənizindən şm.-a doğru submeridional istiqamətdə uzanan qum səhraları zolaqları. Böyük B.-ın uz. təqr. 200 *km*, Kiçik B.-ın uz.

təqr. 100 *km*-dir. Hünd. 100 *m*-ədək. Əsasən, Paleogen qumlarından təşkil olunmuşdur, yalnız Böyük B.-ın şm.-q. hissəsi allüvial çöküntülərdən ibarətdir. Səhralar bir-birindən köklü süxurlar zolağı ilə ayrılır. Bəzi yerlərdə qumlar sovrularaq təpələr, tirələr və barxanlar əmələ gətirir. Düzəlmə səthlərində kserofit kolcuqlar, yovşan, şoranotu və efemerlər, təpə və tirələrin yamaclarında qumluq akasiyası, cuzğun və s. yayılmışdır. B. otlaq yerləri kimi (əsasən, yayda) böyük əhəmiyyət kəsb edir.

**BARSUKÓV** Valeri Leonidoviç (14.3.1928, Moskva – 22.7.1992, Moskva) – rus geokimyaçısı, REA-nın akad. (1987), SSRİ Dövlət mükafatı laureatı (1983). Moskva Geoloji-Kəşfiyyat İn-tunu bitirmişdir (1951). 1976 ildən SSRİ EA V.İ. Vernadski ad. Geokimya və Analitik Kimya İn-tunun direktoru, Beynəlxalq Geokimya və Kosmik Kimya assosiasiyasının prezidenti (1980–84) olmuşdur. Elmi əsərləri filizəmələgəlmə məhsullarının geokimyasına, filiz yataqlarının geokimyəvi axtarış üsulları və qiymətləndirilməsinə, zəlzələlərin proqnozlaşdırılması üsullarına, müqayisəli planetologiya və yerdənkənar maddələrin geokimyasına həsr olunmuşdur.

Ə s ə r l ə r i: Геохимические методы поисков рудных месторождений. М., 1981 (həmmüəllif); Геохимические методы прогноза землетрясений. М., 1992 (həmmüəllif).

**BART** (Barth) Fredrik (d.22.12.1928, Almaniya, Leypsiq) – Norveç sosial antropoloqu. Çikaqo Un-tində, London iqtisadiyyat məktəbində, Kembric Un-tində təhsil almışdır; Kembric Un-tinin doktorudur (1957). Oslo (1953–61 və 1973–85) və Bergen (1961–72) un-tlərində; Oslo etnoqrafiya muzeyində (1985 ildən) işləmiş, ABŞ-ın ayrı-ayrı un-tlərində dərs demişdir. 1950–80-ci illərdə İraqda, Pakistanda, İranda, Omanda, Norveçdə, Yeni Qvineya adalarında, Balidə tədqiqatlar aparmışdır.

B.-a amerikan *fenomenologiya* və *biheviorizm* məktəblərinin, tarixi məktəbin, ingilis *funksionalizmi* və *strukturalizmin* təsiri olmuşdur. B. insanın etnik mənsubluğunun qabaqcadan müəyyən olunması haqqında primordialist nəzəriyyəni inkar etmişdir. B.-a görə, etnik qruplar, onların öz üzvləri tərəfindən özləri ilə digər insanlar arasındakı mədəni fərqlərin dərki nəticəsində formalaşır. B. Bali, Yeni Qvineya aborigenlərinin, Qərbi Asiya köçərilərinin nümunəsində göstərməyə çalışır ki, mədəniyyət aydın təsvir edilmiş sosial institutlar sistemi deyil, kollektiv yaddaşa arxalanan fərdlərin sosial davranışı nəticəsində daimi dəyişikliklərə məruz qalan variativ substansiyadır.

Ə s ə r l ə r i: Models of social organization. L., 1966; Ethnic groups and boundaries. Oslo, 1969 (ed.); Scale and social organization. Oslo; N.Y., 1978; Selected essays. L., 1981. Vol. 1–2.

**BART** (Barth) Henrix (16.2.1821, Hamburq – 25.11.1865, Berlin) – alman coğrafiyaşünas-səyyahı, etnoloq. 1863 ildən Berlin Un-tinin prof.-u, Berlində Coğrafiya Cəmiyyətinin prezidenti olmuşdur. 1850–55 illərdə C. Riçardsonun Afrikaya ekspedisiyasında iştirak etmiş, iki dəfə Böyük Səhranı keçmiş, bir sıra vahəni, Air və Damerqu platolarını, Çad gölü hövzəsini, Niger çayını və onun sol qolu olan Benueni tədqiq etmişdir. 1858–64 illərdə Balkan y-a-nı və Kiçik Asiyanı öyrənmişdir.

**BART** (Barth) Karl (10.5.1886, Bazel – 10.12.1968, Bazel) – İsveçrə kalvinçi ilahiyyatşünası, dialektik teologiyanın əsas nümayəndəsi. 1911 ildən pastor; xristian sosializmi ideyasına rəğbət bəsləmişdir. 1915 ildə sosialist partiyasına daxil olmuşdur. Onun "Əhdi-Cədid" mətnlərindən biri haqqında ekzegetik əsər olan "Romalılara məktub"u (1919) geniş diskussiyalar doğurmuş və müəllifini alman protestantizminə yeniliklər gətirmək istəyənlərin cərgəsinə daxil etmişdir. 1921–35 illərdə müxtəlif alman un-tlərində prof. olmuş, hitlerçilərin hakimiyyətə gəlişindən sonra İsveçrəyə qayıtmışdır. Protestantizmdə hitlerçilərə müxalif mövqedə duran hərəkatın – "Tövbə kilsəsi"nin ideya carçısı kimi çıxış etmişdir. Müharibədən sonrakı illərdə dinc yanaşı yaşamağın fəal tərəfdarı olmuşdur.

**BART** Rolan (12.11.1915, Şerbur – 26.3.1980, Paris) – fransız filosofu, tənqidçi, yazıçı-esseçi. Paris Un-tini bitirmiş, Rumıniyada (1948–49), Misirdə (1949–50) müəllim işləmişdir. 1960 ildən Parisdəki Praktiki Biliklər Ali Məktəbində çalışmış, 1976 ildən Kollej de Fransın prof.-u olmuşdur. "Yazının sıfır dərəcəsi" ("Le Degre zero de l'ècriture", 1953) adlı ilk kitabından sonra məşhurlaşmış, fransız strukturalizminin liderlərindən biri, semiotikanın ən böyük nəzəriyyəçisi, F.de Sossür və K.Levi-Stros ideyalarının davamçısı olmuşdur. B. struktur-semiotika metodunu kütləvi mədəniyyətin, ədəbiyyat və incəsənətin təhlilinə tətbiq etmişdir. B.-ın metodologiyası marksist sosial-iqtisadi tənqidinin, *Q. Başlyar* ruhunda "tematik tənqid"in, psixoanalizin elementlərinə malikdir. 1970-ci illərin sonlarından B. *poststrukturalizmin* nəzəriyyəçisi və praktiki olmuşdur.

**BARTÁNQ** – Tacikistanda çay. Pənc çayının sağ qolu. Mənbəyi Əfqanıstandadır. Yuxarı axınında Aksu, orta axınında Mürğab adlanır. B. sisteminin (B.–Mürğab–Aksu) uz. 528 *km*, hövzəsinin sah. 24,7 min $km^2$-dir. B. Pamiri dərin hövzədə kəsir. Ortaillik su sərfi çayın aşağı axınında 131 $m^3/san$. Əsasən, qar və buzlaq suları ilə qidalanır. SES var.

**BARTAZ** – Azərb. Resp. Zəngilan r-nunun c.-q.-ində, Mehri silsiləsində, Erm.-la sərhəddə zirvə. Hünd. 2270 *m*. Meşələr və subalp çəmənlikləri var.

**BARTAZ** – Azərb. Resp. Zəngilan r-nunun Bartaz ə.d.-ndə kənd. R-n mərkəzindən 34 *km* c.-q.-də, Bartaz d.y. st.-ndən 7 *km* aralı, Bartaz çayının sahilində, Mehri silsiləsinin ətəyindədir. Əh. 700 (2008); işğaldan (1993, oktyabr) əvvəl heyvandarlıqla (o cümlədən baramaçılıqla) məşğul olmuşdur. Orta məktəb, kitabxana, mədəniyyət evi, tibb məntəqəsi, rabitə şöbəsi; tarixi-memarlıq abidələrindən Məmmədbəyli k.-ndə səkkizguşəli türbə (1304–05), Əmirxanlı k.-ndə Qız qalası (12 əsr), Şərifan k.-ndə sərdabə (13 əsr), Yenikənd k.-ndə sərdabə (14 əsr), Quyudərə Xəştab k.-ndə e.ə. 6–4 əsrlərə aid nekropol, Zəngilan k.-ndə məscid (19 əsr), Malatkeşin k.-ndə məscid (19 əsr), Qırıq Müşlan k.-ndə məscid (19 əsr), Hacallı k.-ndə dairəvi qüllə (?), körpü (19 əsr) və orta əsrlərə aid Şəhri Şərifan yaşayış yeri, Oxçu çayının Araza töküldüyü yerdə qəsr qalası var idi.

**BARTAZ** – Azərb. Resp. Zəngilan r-nunda qəsəbə. Bartaz ə.d.-nin (Bartaz, Qarqulu k.-ləri və Bartaz qəs. daxildir) mərkəzi. R-n mərkəzindən 27 *km* c.-da, Bartaz çayının sahilindədir. Əh. 890 (2008); işğaldan (1993, oktyabr) əvvəl üzümçülük, heyvandarlıq və əkinçiliklə məşğul olmuşdur. Orta məktəb, uşaq bağçası, çınqıl z-du var idi.

**BÁRTER** (ing. barter – əmtəə mübadiləsi, mübadilə ticarəti) – ekvivalent dəyərli əmtəə, iş, xidmət, intellektual fəaliyyət nəticələrinin mübadiləsini nəzərdə tutan sövdə, mübadilə ticarəti. B. sövdələri pul, yaxud digər ödəniş vasitələri olmadan həyata keçirilir. B. əmtəələrin qiymətləndirilməsini, sığorta məbləğlərinin müəyyənləşdirilməsini, iddiaların qiymətləndirilməsini, sanksiyaların, gömrük ucətunun hesablanmasını icra edən vahid müqavilə ilə (kontraktla) rəsmiləşdirilir.





Qarşılıqlı iddialar (cərimə, ucuzlaşdırma) üzrə hesablaşmalar B. əməliyyatları zamanı adətən əlavə tədarük, yaxud əmtəə tədarükünün azaldılması ilə yerinə yetirilir. Müasir cəmiyyətdə B. yüksək inflyasiya, yaxud qeyri-sabit valyutası olan ölkələrlə beynəlxalq ticarətdə üstünlük təşkil edə bilər.

B. SSRİ-də 1980-ci illərin kəsirli iqtisadiyyatı şəraitində geniş tətbiq edilirdi. Bazar islahatları dövründə B. münasibətlərinin elementləri sənayenin bir çox sahəsində fəal istifadə olunurdu. B.-in ölkədə geniş yayılması qiymətləri tənzimləmə funksiyasından məhrum edərək mənfi nəticələrə gətirib çıxarır. B. sxemləri bazarda yaranan qiymət vəziyyətini hesaba almır: əmtəələrin qiyməti yalnız satıcı ilə alıcı arasındakı razılaşmadan asılıdır. Müəssisələrin bir-biri ilə hesablaşma müddəti artır. Belə iqtisadiyyatın mövcudluğu üçün bazar alətləri – banklar və s. kredit təşkilatları lazım olmur. B. kriminal xarakter ala bilən vasitəçilik fəaliyyətinin inkişafına kömək edir. Dövlət B.-in azaldılması məqsədilə tədbirlər görür: qarşılıqlı hesablamalar qadağan edilir, hesablaşma müddətləri təyin edilir və s. Lakin bu vəzifənin real yerinə yetirilməsi üçün ölkədə maliyyə stabilliyi və pul tədavülünün normallaşdırılması zəruridir.

**BARTIN** – Türkiyənin Qara dəniz bölgəsində il. Sah. 2,1 min $km^2$. Əh. 185,4 min (2008). İnz. m. Bartın ş.-dir. Ərazisi, əsasən, dağlıqdır (hünd. 2000 *m*-ədək); mərkəzi və q. hissəsini ovalıqlar tutur. Faydalı qazıntıları: daş kömür, kvarsit və s. İqlimi mülayim və rütubətlidir. Ən böyük çayı Bartın Qara dəniz hövzəsinə aiddir. Gəmiqayırma, sement, keramit və kağız sənayesi müəssisələri var. K.t.-nda əkinçilik üstünlük təşkil edir.

**BÁRTLETT** ser Frederik Çarlz (20.10.1886, Qlosterşir – 30.9.1969, Kembric) – ingilis psixoloqu. London və Kembric Un-tlərində təhsil almışdır. Kembric Un-tində eksperimental psixologiya üzrə ilk prof. (1931–52). "Britaniya psixologiya jurnalı"nın baş redaktoru (1924–48) olmuşdur. *Assosiativ psixologiyanın* klassik yanaşmasından imtina edərək, sosiomədəni təzahürlər olan yaddaş və təfəkkürün eksperimental tədqiqi ilə məşğul olmuşdur. B. göstərirdi ki, insanın yaddaşı yeni təcrübəni də nəzərə almaqla materialın bərpasının fəal prosesidir. Fərdi təcrübənin təşkilinin əsası kimi B. psixologiyaya "sxem" baza anlayışını daxil etmişdir.

Ə s ə r l ə r i: Remembering: a study in experimental and social psychology. Camb., 1932; Thinking: an experimental and social study. L., 1958.

**BÁRTLETT** Nil (d. 15.9.1932, B. Britaniya, Nyukasl) – qeyri-üzvi kimya sahəsində Amerika alimi, ABŞ Milli EA üzvü (1979 ildən). Darəmdə un-t bitirmişdir (1954). Prinston Un-tinin (1966–69), Berklidə Kaliforniya Un-tinin (1969 ildən) prof.-u olmuşdur.

Əsas işləri tərkibində qeyri-adi oksidləşmə dərəcəli atomlar olan qeyri-üzvi birləşmələrin sintezinə həsr edilmişdir. İlk dəfə nəcib qazın kimyəvi birləşməsini – ksenon heksaflüorplatinatını $XePtF_6$ (1962); qızıl (V) birləşməsini; dioksigenil kation $O_2^+$ tərkibli düzü; osmium (VII) birləşməsini sintez etmişdir. Yeni binar flüoridlər sırasını – $PdF_4$, $RhF_5$, $IrF_5$ və s. almış, onların quruluşunu öyrənmişdir. Perflüoraromatik kation tərkibli duzların sintez üsulunu işləyib hazırlamışdır.

Ə s ə r i: The Chemistry of the noble gases. Amst., 1971.

**BARTÓ** Aqniya Lvovna (17.2.1906, Moskva – 1.4.1981, Moskva) – rus şairəsi. SSRİ Dövlət mükafatı (1950) və Lenin mükafatı (1972) laureatı. 1925 ildən çap olunmağa başlamışdır. Erkən yaradıcılığına V.V. *Mayakovskinin* güclü təsiri olmuşdur. Aforizm şəklində olması, lirizm ilə yumorun birləşməsi B. poeziyasını fərqləndirən xüsusiyyətlərdir.



"Qardaşlar" (1928), "Oyuncaqlar" (1936), "Qar quşu" (1939), "Nazik kəndir" (1941), "Uşaqlar üçün şeirlər" (1949), "Boy atıram" (1968), "Qış meşəsinə çiçək dalınca" (1970), "Ah, yeniyetmələr, yeniyetmələr" (1980) və s. şeir toplularının müəllifidir. "İnsan sorağında" (1969) publisistik kitabı müharibə zamanı ailələrindən ayrı düşmüş uşaqlar haqqındadır. B.-nun ssenarisi üzrə bir neçə bədii film çəkilmişdir ("Atılmış uşaq", 1940; "Alyoşa Ptitsın xarakterini təkmilləşdirir", 1953 və s.). Əsərləri Azərb. dilinə tərcümə edilmişdir.

Ə s ə r l ə r i: Şeirlər. B., 1951; Pinti qız. B., 1957; Kobud ayı balası. B., 1967; Избранное. М., 2004.

**BÁRTOK** Bela (25.3.1881, Transilvaniya, Nadsentmikloş, Rumıniya, indiki Sınnikolau-Mare – 26.9.1945, Nyu-York; 1988 ildə Budapeştdə yenidən dəfn olunmuşdur) – macar bəstəkarı, musiqi folkloru tədqiqatçısı, pianoçu, pedaqoq. Atası k.t. məktəbinin direktoru, həvəskar musiqiçi idi. Fp. çalmağı anasından öyrənmiş (9 yaşından musiqi bəstələmişdir), 1893–95 illərdə Pojonidə (indiki Bratislava) L. Erkeldən (F. *Erkelin* oğlu) dərs almışdır. 1898 ildə Vyana konservatoriyasında imtahandan keçmiş, lakin Budapeşt Musiqi Akademiyasında (1899–1903) İ. Tomandan (fp.) və Y. Köslerdən (kompozisiya) dərs almışdır; orada Z. *Koday* ilə dostluq etmişdir. 1907–34 illərdə akademiyanın fp. üzrə prof.-u olmuş (pedaqoji və konsert fəaliyyəti ilə bərabər folkloru da öyrənirdi), 1934 ildən Macarıstan Elmlər Akademiyasında işləmişdir.



Bəstəkar kimi B.-a son romantizm (F.List, R. Vaqner, İ. Brams) və şərti macar üslubu *verbunkoş* təsir göstərmişdir. Macarıstanda 1848–49 illər inqilabına həsr edilmiş "Koşut" simfonik poemasında (1904 ildə Budapeştdə və Mançesterdə ifa olunmuşdur) R. Ştrausun proqramlı simfonizminə meyil əksini tapmışdır (onun "Elektra" operasını B. 1910 ildə artıq antiromantizm mövqeyindən tənqid etmişdir). 1-ci simli kvartetdən (1908) başlayaraq, B.-un özünün orijinal üslubu (modal harmoniya ilə qeyri-müntəzəm ritmikanın xarakterik uyğunluğu) formalaşmışdır. Bəstəkarın folklor araşdırmaları onun əsərlərinin harmonik dilinin zənginləşməsində, yeni, sərt dinamikalı müasir ifadə vasitələrində (fp. üçün 14 baqatel, orkestr üçün "İki portret", 1908; qədim mahnı qatlarına əsaslanan və "major, minor tiranlığına" məhəl qoymayan fp. üçün "Neniyalar" – 4 ağı, 1910; 3 fp. burleski və yeni üslubun yetkinliyini simvolizə edən coşqun ritmikalı "Alleqro barbaro", 1911) əksini tapmışdır. Birpərdəli "Göysaqqal hersoqun qəsri" operasında (1911, librettoçu B. Balaş; tamaşaya 1918 ildə qoyulmuşdur) B. ilk dəfə olaraq macar danışıq intonasiyalarını musiqinin dili ilə ifadə etmişdir. 1911 ildə B. və Z. Koday tərəfindən yaradılmış "Yeni macar musiqisi cəmiyyəti"nin buraxılmasını ürək ağrısı ilə qarşılayan bəstəkar 1912 ildən diqqətini Balkan ölkələri, Mərkəzi Avropa və

Şimali Afrika folklorunun tədqiqinə yönəltmişdi. Görkəmli folklorçu alim B. macar musiqi mədəniyyətinin genetik əlaqələrini axtararaq, 30 mindən çox macar, rumın, slovak, ərəb, türk, kabil, monqol, fin, serb və xorvat mahnısını toplamışdır. 2-ci simli kvartetin (1917) yaranması və B.-un ictimaiyyət tərəfindən tanınması ("Taxta şahzadə" baleti, 1916, tamaşaya 1917 ildə qoyulmuşdur) 1-ci dünya müharibəsi illərinə təsadüf edir. Macar sovet respublikası (1919) dövründə B. musiqi direktoriyasında iştirak etmiş, Z. Koday ilə birlikdə musiqi həyatında demokratik islahatlar planını işləyib hazırlamışdı. Elə o vaxt 20 əsrin ən yaxşı balet əsərlərindən olan ekspressionist "Ecazkar mandarin" balet-pantomimasını (1924 ildə orkestrləşdirilmiş, premyerası 1926 ildə Kölndə keçirilmişdir) yaratmışdır. 1920 ildə M. Xorti diktaturası qurulduqdan sonra B.-a qarşı şovinist tənqidlərlə dolu təqiblər gücləndi. 1920–30-cu illər pianoçu B.-un konsert fəaliyyətinin (Qərbi Avropa ölkələrində, ABŞ-da, SSRİ-də çıxış etmişdir) çiçəklənmə dövrü idi. K. Debüssinin, sonralar İ. F. Stravinskinin, A. Şönberqin təcrübəsini mənimsəmiş və bir qədər qabaqlamış B. kəskin novatorçu bədii həllinə meyil göstərmiş [skripka ilə fp. üçün 2-ci (1921) və 3-cü (1922) sonatalarında musiqi dilinin dinamikliyi, 3-cü (1927) və 4-cü (1928) simli kvartetlərində cəsarətli tembr effektləri; (özünün ifası üçün nəzərdə tutulmuş fp. ilə orkestr üçün 1-ci konsertində fp.-nun zərb aləti kimi traktovkası, "Havada" silsiləsində, sonatada: hamısı – 1926], lakin 1920-ci illərdə də folklor elementlərini inkişaf etdirmişdir. 1930-cu illər daha sadə və klassik üsluba tərəf yönəlmə dövrü idi. ["Kantata profana", 1930; 2-ci fp. konserti, 1931; 5-ci (1934) və 6-cı (1939) simli kvartetləri; "Simli alətlər, zərb alətləri və çelesta üçün musiqi", 1936]. Barışmaz antifaşist olan B. 1937 ildə öz əsərlərinin İtaliya və Almaniya radiosu ilə səsləndirilməsinə qadağa qoymuş, 1938 ildə Avstriyanın "Universal Editon" nəşriyyatı ilə əlaqələri kəsmişdi. Eyni zamanda, yaratdığı əsərlərdə parlaq milli tematizm müharibədənəvvəlki illərin həyəcanını əks etdirən dinamik gərginliklə uzlaşırdı (2 fp. ilə zərb alətləri üçün Sonata, 1937; skripka ilə orkestr üçün 2-ci konsert; simli orkestr üçün Divertisment, 1939). Yaradıcılığının demokratikləşməsi tendensiyası macar xalq mahnılarının işləmələrində, "Keçmişdən" kantatasında (1935), pedaqoji repertuardan olan pyeslərdə (44 skripka dueti, 1931; "Mikrokosmos" fp. silsiləsi, 1937) əksini tapmışdır. Macarıstanda siyasi şərait kəskinləşdikcə, B. tez-tez İsveçrədə P. *Zaxerin* qonağı olurdu ("Simli alətlər, zərb alətləri və çelesta üçün musiqi"ni və simli orkestr üçün Divertismenti B.-a Zaxer sifariş etmişdi). Bəstəkar 1939 ildə ABŞ-a mühacirət etməyi qərara aldı (bunu 1940 ildə Y. *Sigeti* ilə konsert səfərindən və anasının ölümündən sonra həyata keçirdi). B. vətənində son konsertini 8.10.1940 ildə Y. Ferençikin rəhbərlik etdiyi orkestrlə Budapeştdə vermişdir.

1940 ildən B. Kolumbiya Un-tində (Nyu-York) mühazirələr oxumuş, tədqiqat işlərini davam etdirmişdir. Həyatının son illərində B. Qudmen, S. A. Kusevitski və İ. Menuhinlə əməkdaşlıq etmiş, bir sıra məşhur əsərini, o cümlədən orkestr üçün Konsert (1943), 3-cü fp. konserti (1945; konsertin finalının orkestrləşdirməsini B.-un göstərişləri əsasında T. Şerli başa çatdırmışdır), alt ilə orkestr üçün konsert (B.-un eskizləri üzrə Şerli tamamlamışdır) yaratmışdır.

20 əsr musiqisinin klassiki olan B.-un şəxsiyyəti və yaradıcılığı bütün müasir professional musiqiyə, xüsusilə Şərqi və Cənub-Şərqi Avropa ölkələrində bəstəkarlıq məktəblərinin formalaşmasına təsir göstərmişdir.

Əsərləri: Зачем и как собиратъ народную музыку. М., 1959; Проблема новой музыки // Музыка и время. М., 1970; Turkish folk music from Asia Minor. Princeton, 1976; Studies in ethnomusicology. Lincoln, 1997.

*Əd.:* Stevens H. The life and music of B. Bartok. N.Y., 1964; Szabolcsi B. B. Bartok. Leben und Werk. Bdpst, 1972; Somfai L. B. Bartok: composition, concepts and autograph sources. Berk., 1996.



**BÁRTOLD** Vasili Vladimiroviç (15.11.1869, S.-Peterburq – 19.8.1930, Leninqrad) – rus şərqşünası; Peterburq EA (1913), Rusiya EA (1917) və SSRİ EA akad. (1925). 1891 ildə Peterburq Un-tinin Şərq dilləri fakültəsini bitirmiş, orada və S.-Peterburqun akademik mərkəzlərində (1901 ildən prof.) elmi və pedaqoji fəaliyyətə başlamışdır. V.R. Rozenin və N.İ. Veselovskinin tələbəsi olmuşdur. Orta Asiyanın, Yaxın və Orta Şərqin tarixinə, coğrafiyasına, mədəniyyətinə və dininə dair 400-dən çox elmi işin, o cümlədən islamşünaslığa dair klassik əsərlərin müəllifidir.

Metodoloji baxışlarına görə pozitivist olan B.-un fikrincə, tarixçinin tədqiqatının məqsədi "səbəbiyyət əlaqəsində olan faktların ümumi mənzərəsinin qurulmasıdır". İctimai inkişafa həlledici təsir göstərən amillər arasında B. mədəni təsiri və mənimsəmələri, həmçinin coğrafi mühiti fərqləndirirdi.

B.-un elmi fəaliyyətində əsas yeri Orta Asiya tuturdu. Onun "Türküstan monqol istilası dövründə" (2 cilddə, 1898–1900) adlı monoqrafiyası regionun islam tarixindəki monqollaraqədərki dövrün (7 əsrin 2-ci yarısı – 13 əsr) fundamental tədqiqidir. B.-un fikrincə, monqol istilası və monqol dövlətçiliyinin meydana gəlməsi Orta Asiyada siyasi stabillik üçün şərait yaratmışdı. B.-un bu nöqteyi-nəzəri avrasiyaçılar (G.V. Vernadski, L.N. Qumilyov) tərəfindən müsbət qarşılanmış, lakin sonra sovet tarixçilərinin əksəriyyəti (A.Y. Yakubovski və b.) bu fikri rədd etmişdi. B.-un Orta Asiya tarixinə dair digər əsərləri arasında "Uluqbəy və onun dövrü" (1918), "Türküstanın mədəni həyatının tarixi" (1927) monoqrafiyaları seçilir.

B. türk xalqlarının öyrənilməsinə xüsusi diqqət yetirmişdir ("Orta Asiya türk xalqlarının tarixi üzrə on iki mühazirə", 1927; "Çingiz xan imperiyasının yaranması", 1897; "Türklərdə və monqollarda ictimai məişətin təsərrüfat ukladı ilə əlaqəsi", 1929 və s. məqalələri). Onun iranşünaslığa həsr olunmuş əsərlərindən ən mühümləri "İranın tarixi-coğrafi icmalı" (1903) və "İran. Tarixi icmal" (1926) əsərləridir. Alimin Orta Asiyanın tarixi coğrafiyasına olan daimi marağı "Qədim dövrdən XVII əsrədək Aral dənizi və Amu-Dəryanın aşağı axarları haqqında məlumatlar" (1902) və "Türküstanda suvarma tarixinə dair" (1914) kitablarında öz əksini tapmışdır.

B.-un islamşünaslığa dair əsərləri tolerantlığı, avropasentrist-xristian stereotiplərindən uzaq olması ilə seçilir. İlk əsərlərindən biri olan "Müasir islam və onun vəzifələri" (1894) adlı məqaləsində B. müsəlman xalqlarının 19 əsrin sonlarındakı vəziyyətini dəyərləndirmiş və onların gələcəyi haqqında proqnoz vermişdir. "Müsəlman dövlətində teokratik ideya və dünyəvi hakimiyyət" (1903) və "Xəlifə və sultan" (1912) əsərlərində müsəlman Şərqi tarixinin başlıca problemi – dünyəvi hakimiyyətin din ilə münasibətləri təhlil olunmuşdur. Bu əsərlərdə alim islamın meydana gəldiyi və bərqərar olduğu tarixi şəraiti təsvir etmiş, dəyişən tarixi və siyasi mühitə uyğunlaşması gedişində islamın təkamülünü səciyyələndirmişdir. B. islam mədəniyyətinin sinkretik xarakterini, onun əsas elementlərini, yüksəliş və tənəzzül səbəblərini təhlil etmiş, ümumdünya tarixi prosesində islam dünyasının yeri və rolu haqqında məsələni qaldırmışdır. Şərqşünaslıq tarixinə kifayət qədər əhəmiyyət verən B. "Avropada və Rusiyada Şərqin öyrənilməsi tarixi" (1911; 2-ci nəşri 1925) fundamental əsərini bu sahəyə həsr etmişdir.

B.-un bir çox əsəri ingilis, alman, türk və s. dillərə tərcümə edilmişdir. "İslam ensiklopediyası"nda dərc olunmuş bir sıra məqalənin müəllifidir. Azərb. tarixi, folkloru və ədəbiyyatı haqqında da tədqiqatları var. "Kitabi-Dədə Qorqud" dastanını rus dilinə tərcümə etmiş və nəşrə hazırlamışdır. Həmin tərcümə 1950 ildə Azərb. SSR EA Nizami ad. Ədəbiyyat və Dil İn-tu tərəfindən nəşr olunmuşdur. B. 1924 ildə Azərb. Dövlət Un-tində "Türk-tatar xalqları tarixi" kursundan mühazirələr oxumuşdur. B. 1926 ilin martında Bakıda keçirilmiş I Ümumittifaq Türkoloji qurultayında iştirak etmişdir.

Fəal elmi-təşkilati iş aparan B. 1912 ildə "İslam dünyası" jurnalını yaratmış və redaktə etmişdir. 1925 ildən Şərqşünaslar kollegiyasının rəhbəri olmuşdur. Şərq əlyazmalarının toplanmasına xüsusi diqqət yetirmişdir. B.-un şərqşünaslığa aid kitabxanası Rusiya EA Şərqşünaslıq İn-tunun S.-Peterburq filialının kitabxanasına, elmi arxivi isə Rusiya EA Arxivinin S.-Peterburq filialına verilmişdir.

Əsərləri: Сочинения. Т. 1–9. М., 1963–1977.

*Əd.:* Крачковский И.Ю. В.В. Бартольд в истории исламоведения. Избр. соч., т. 5. М.-Л., 1958; Акрамов Н.М. Выдающийся русский востоковед. Душанбе, 1963; Умняков И.И. Аннотированная библиография трудов академика В.В. Бартольда//Туманович Н.Н. Описание архива академика В.В. Бартольда. М., 1976.

**BÁRTOLİ** Çeçiliya (d. 4.6. 1966, Roma) – italyan müğənnisi (messo-soprano). Peşəkar müğənnilər ailəsindəndir. Anası Silvana Bassonidən dərs almışdır. Opera müğənnisi kimi ilk çıxışı Veronanın Filarmonik teatrında (1987) olmuşdur. Dünyanın ən məşhur opera teatrlarında çıxış edir: "La Skala" (1991 ildən), "Metropoliten-opera" (1996 ildən), "Kovent-Qarden" (2001 ildən). Müstəsna koloratura texnikasına malikdir. C. Rossini və V.A. Motsartın operalarındakı partiyalar repertuarının əsasını təşkil edir. Barokko və Vyana klassisizmi bəstəkarlarının (A. Skarlatti, A. Vivaldi, A. Salyeri, K.V. Qlyuk və b.) az tanınan əsərlərini də ifa edir. Ən populyar müasir müğənnilərdən biridir.

**BÁRTOLİ** Matteo Culio (22.11.1873, Albona – 23.1.1946, Turin) – italyan dilçisi. Turin Un-tinin prof. (1907 ildən). Dilçilikdə neolinqvistik istiqamətin banisidir. Ümumi dilçiliyə, areal dilçiliyə, hind-avropaşünaslığa, dalmat dilinə həsr olunmuş əsərlərin müəllifidir. Areal dilçiliyin əsas prinsiplərini inkişaf etdirmiş (1925), dilçiliyə *izoqlossalar* anlayışını gətirmişdir. Substrat və superstrat (bax *Substrat, Superstrat*) hadisələrini öyrənmişdir. Albaniyanın və İtaliyanın linqvistik atlaslarının yaradılmasında iştirak etmişdir.

Əsərləri: Das Dalmatische. W., 1906. Bd 1–2; Introduzione alla neolinguistica. Gen., 1925; Breviario di neolinguistica. Modena, 1925; Lineamenti di linguistica spaziale. Mil., 1943.

*Əd.* Звегинцев В.А. История языкознания XIX и XX вв. в очерках и извлечениях. 3-е изд.: В 2 ч. М., 1964–1965.

**BÁRTOLİN** (Bartholin, Bartholinus) – Danimarka alimləri ailəsi. Böyük Kaspar (12.2.1585, indiki İsveç, Malmö – 13.7.1629, Sorö) – həkim, anatom, teoloq. İlahiyyatı, fəlsəfəni və tibbi Kopenhagen Un-tində, Almaniya, Hollandiya, İngiltərə, Fransa, İspaniya, İtaliya (Bazel Un-tinin tibb doktoru, 1610) un-tlərində öyrənmişdir. Kopenhagen Un-tinin prof.-u (1613 ildən), tibb (1613 ildən), ilahiyyat (1624 ildən) kafedralarının müdiri, Roskilledə keşiş olmuşdur. İnsan anatomiyası üzrə fundamental dərslik yaratmışdır (1611). Onun oğlu Tomas (Foma) (20.10.1616, Kopenhagen – 4.12.1680, orada) – həkim, anatom, fizioloq. Kopenhagen Un-tində (1634–37) ilahiyyatı və Hollandiya, Fransa, İtaliya (Bazel Un-tinin tibb doktoru, 1646) un-tlərində tibbi öyrənmişdir. Kopenhagen Un-tinin riyaziyyat (1647 ildən) və anatomiya (1648 ildən) prof.-u olmuşdur. 1652 ildə itlərdə döş axacağını təsvir etmişdir. İnsanda limfa damarlarının ilk ətraflı təsvirini vermişdir (1653–54). İlk Danimarka farmakopeyasını hazırlamışdır (1658). 1673 ildən Danimarkada ilk "Acta medica et philosophica hafniensa" elmi jurnalını nəşr etdirmişdir. Saray həkimi (1670 ildən) olmuşdur. Tomasın qardaşı Erazmus (Rasmus) (13.8.1625, Roskille – 4.11.1698, Kopenhagen) – həkim, riyaziyyatçı, fizik. Riyaziyyatı, fizikanı, tibbi Hollandiya, Fransa, İngiltərə, İtaliya (Paduya Un-tinin tibb doktoru, 1654) un-tlərində öyrənmişdir. Kopenhagen Un-tinin həndəsə prof.-u (1656 ildən), ekstraordinar (1657 ildən), ordinar (1671 ildən) tibb prof.-u, tibb fakültəsinin dekanı, rektor olmuşdur. Əsərləri riyaziyyat, astronomiya, fizikaya aiddir. Tomasın oğlu Kiçik Kaspar (10.9.1655, Kopenhagen – 11.6.1738, orada) – həkim, anatom, filosof. Kopenhagen Un-tində (fəlsəfə doktoru, 1674), Hollandiya, Fransa, İtaliya, Almaniya (1674–77) un-tlərində təhsil almışdır. Kopenhagen Un-tinin fizika (1677 ildən), tibb (1678 ildən), anatomiya (1701 ildən) prof.-u olmuşdur. Onun adı ilə adlandırılmış uşaqlıq yolu dəhlizinin böyük vəzisini (1675) və böyük dilaltı axacağı (1685) təsvir etmişdir. Saray həkimi olmuşdur.

**BARTOLİNİT** (kiçik K. *Bartolinin* adından + *it*; yeni lat. bartholinitis) – qadınlarda uşaqlıq yolu dəhlizinin böyük (bartolin) vəzisinin iltihabı; uşaqlıq yolu və ya sidik kanalının infeksiyalaşmış ifrazatından vəzi axacağına keçən mikroorqanizimlərlə törədilir. Çox vaxt birtərəfli olur. İltihabi ödem vəzini genəldən və kista (yalan abses) əmələ gətirən sekretin ifrazına mane olmaqla vəzi axacağını bağlaya bilər. B. zamanı vəzi ağrılı olur və ölçüləri böyüyür. Bəzən iltihabi proses vəzi toxumasına keçərək vəzinin və onun ətraf toxumalarının irinli absesini törədir. Qadının vəziyyəti absesi yardıqdan sonra yaxşılaşır. İltihabi proses irinləməsiz də keçə bilər. B.-in xroniki formasında vəzi axacağının divarları qalınlaşır, iltihabi proses çox vaxt yenidən başlayır və ağırlaşır. Əvvəlcə xəstəlik güclü narahatlıq törətməyə bilər, lakin vəziyyət ağırlaşdıqda hərəkət və cinsi əlaqə zamanı kəskin ağrılar meydana çıxır, bədən temp-ru artır. Müalicəsi: başlanğıc mərhələdə ya-

taq rejimi, ağrıkəsici və antibakterial dərmanlar; vəziyyət ağırlaşdıqda xəstə stasionara yerləşdirilir. P r o f i l a k t i k a s ı: şəxsi gigiyena qaydalarının gözlənilməsi, vulvitin, kolpitin və uretritin vaxtında müalicə edilməsi.

**BARTOLOMMÉO**, B a ç ç o Fra della Porta (28.3.1472, Florensiya – 31.10. 1517, Florensiya, başqa məlumata görə Pian-di-Munyon) – italyan boyakarı. Florensiya məktəbinin nümayəndəsidir. Kozimo Rossellidən dərs almışdır. İlk əsərlərində ("Müjdə", 1497, Volterra kilsəsi və s.) P. *Perucino* və *Leonardo da Vinçinin* təsiri hiss olunur. B. Venesiya (1508) və Romada (1514) olarkən *Venesiya məktəbi* və *Mikelancelonun* da onun yaradıcılığına təsiri olmuşdur. Əsasən, monumental mehrab tabloları olan kamil əsərləri ("Mariyanın müq. Bernardın hüzuruna gəlməsi", 1504–07, Rəssamlıq Akademiyasının qalereyası, Florensiya; Müq. Yekaterinanın nişanlanması, 1511, Luvr, Paris və s.) yüksək *İntibah* dövrünün ruhunu əks etdirir. B. *Savonarolanın* moizələrinin təsiri ilə 1500 ildə Dominik ordeninə daxil olmuş, rəssamlığı atmışdır. Lakin 1504 ildən yenidən rəssam kimi işləməyə başlamışdır ("Məryəm ana körpəsi və mələklər ilə", təqr. 1515, Ermitaj, S.-Peterburq və s.). B. freskalar da çəkmişdir (Pian-di-Munyondakı Müq. Mariya Maqdalina monastırının divar rəsmləri, 1517).

**BÁRTON** Derek Harold Riçard (8.9. 1918, B. Britaniya, Qreyvzend – 16.3. 1998, Texas ştatı, Kollec-Steyşen) – üzvi-kimya sahəsində ingilis alimi. Nobel mükafatı laureatı (1969, O. *Hassellə* birlikdə). London Elm və Texnologiya Kollecini bitirmişdir (1940). 1953 ildən London Un-tinin prof., 1978 ildən Təbii Birləşmələr Kimyası İn-tunun (Fransa) direktoru işləmişdir. London Kral Cəmiyyətinin üzvü, ABŞ Milli EA-nın əcnəbi üzvüdür. Elmi tədqiqatlarının əsas istiqaməti konformasiya analizi (B. bu metodun yaradıcılarından biridir) və təbii birləşmələr kimyasıdır. Üzvi birləşmələrin əksər siniflərinin, o cümlədən alkaloidlərin tədqiqində konformasiya analizi metodunu tətbiq etmişdir (1950-ci illər). Nitritlərin nitrozobirləşmələrə fotokimyəvi yenidənqruplaşmasını və sonradan oksimlərə izomerləşməsini (Barton reaksiyası, 1960) kəşf etmişdir; bu reaksiya aldosteron hormonunun sintezi üsulunun əsasını təşkil etmişdir.



Ə s ə r l ə r i: Some modern trends in organic chemistry. [L.], 1958; Specific fluorination in the synthesis of biologically active compounds. Jerusalem, 1969.



Bartolommeo Fra. "Müqəddəs Yekaterinanın nişanlanması". 1511. Luvr. Paris.

**BÁRTON MƏRTƏBƏSİ** – Eosen şöbəsinin altdan üçüncü mərtəbəsi. İlk dəfə 1857 ildə İngiltərənin Barton qayalarında İsveçrə geoloqu Mayer-Eymar ayırmışdır.

**BARTONELLYOZ** (Oroyya qızdırması, Peru ziyili, Karrion xəstəliyi) – infeksion transmissiv xəstəlik; əsasən, Peru, Ekvador və Kolumbiyanın dağlıq r-nlarında yayılmışdır. Törədicisi qrammənfi bartonella bakteriyasıdır (1905 ildə Peru həkimi A. Barton tərəfindən tapılmışdır; adı da buradandır); mığmığalarla yayılır.

İnkubasiya dövrü 15–40 gündür. Xəstəliyin əsas əlamətləri: getdikcə artan zəiflik, üşütmə-titrətmə, oynaq ağrıları, qızdırma, qara ciyərin, dalağın, limfa düyünlərinin böyüməsi, dəridə hemorragiyalar, burun qanaxması, sarılıq, hipoxrom anemiya. Ölüm 50%-ə qədərdir. Qırmızı ləkə, ziyili xatırladan düyün səpmələri ilə keçən xroniki B. 2 ilə qədər davam edir. Bartonellalar eritrositlərdə və dəri elementlərində tapılır. M ü a l i c ə s i antibiotiklərlədir; spesifik profilaktikası yoxdur.

**BARUC** – İranın Şərqi Azərbaycan ostanında kənd. Mərənd şəhristanının Mərkəzi bölgəsinin Yamçı kəndistanında, Mərənd ş.-ndən 10 *km* şm.-q.-də, Culfa d.y. xəttinin üstündədir.

**BARUDİ** (əsl soyadı Qaliyev) Qalimcan Məhəmmədcanoviç (5.2.1857, Kazan qub., Malıye Kovali k. – 6.12.1921, Moskva) – tatar mütəfəkkiri, *cədidizm* ideoloqlarından biri. Dinin əsaslarına və şəriətə dair, həmçinin hesab və tatar dili əlifbası dərsliklərinin müəllifidir. Təxəllüsü 1860 ildən yaşadığı Kazan şəhərətrafındakı Barıt (ər. əl-Barud) qəs.-nin adı ilə bağlıdır. Kazanda və Buxarada təhsil almış, Məkkəni, Mədinəni ziyarət etmiş, Qahirədə, Dəməşqdə, İstanbulda və Berlində olmuşdur. Kazanda 5-ci Cümə məscidinin (hazırda onun adını daşıyır) imam-xətibi (1883–1917) olmuşdur. 1882 ildə Kazanda Rusiya imperiyası ərazisində ən böyük Məhəmmədiyyə mədrəsəsinin əsasını qoymuşdur. "İttifaq əl-müslimin" partiyasının mərkəzi komitəsinin üzvü olmuşdur. 1906–08 və 1913–17 illərdə "əd-Din və-l-adab" jurnalını nəşr etmişdir. Siyasi təqiblərə məruz qalmış, polisin gizli nəzarəti altında yaşamışdır. Ümumrusiya müsəlmanlarının birinci qurultayında (1917) müsəlmanların Mərkəzi Ruhani İdarəsinin (Ufa ş.) müftisi seçilmişdir. Aclıqdan əziyyət çəkənlərə yardımların təşkili ilə məşğul olmuşdur.





**BARUKA** – Azərb.-da qədim yaşayış məntəqəsi. Yunan coğrafiyaşünası *Ptolemeyin* (2 əsr) "Coğrafi təlimnamə" əsərində Qafqaz Albaniyası ərazisində, Kürün şm. qollarından biri ilə *Alban çayı* arasında olduğu göstərilir. Bəzi tədqiqatçılar Bakı ilə B.-nı eyniləşdirirlər. Yeri müəyyənləşdirilməmişdir.

**BARUQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Gavdul kəndistanında, Marağa ş.-ndən 52 *km* c.-ş.-dədir.

**BARUQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Alanbirağuş bölgəsinin eyniadlı kəndistanında, Mehriban qəs.-ndən 12 *km* şm.-q.-də, Təbriz–Sərab avtomobil yolunun 23,5 *km*-liyindədir.

**BARUM** – bax *Aşağı Çaykənd*.

**BARÚNDİLƏR** – bax *Rundilər*.

**BARUTAĞACI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Çaharoymaq kəndistanında, Qaraağac qəs.-ndən 40 *km* c.-ş.-dədir.

**BARUTAĞACI** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Ətraf kəndistanında, Zəncan ş.-ndən 15 *km* c.-q.-dədir.

**BARVƏN** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Siyəhçeşmə bölgəsinin Çaldıran kəndistanında, Siyəhçeşmə qəs.-ndən 16 *km* şm.-ş.-dədir.

**BARYER BOŞALMASI** – elektrodlardan heç olmasa biri dielektrik baryerlə qazdan ayrıldıqda, yəni şüşə, kvars, keramika və ya polimer materialı ilə örtüldükdə, qazda çox vaxt birdən onlarla nanosaniyəyə qədər davam edən mikroboşalmalar ardıcıllığı. B.b. müəyyən edilməmiş, güclü qeyri-müvazi boşalmadır, təzyiqin geniş diapazonunda mövcuddur. Atm. tərtibli təzyiqlərdə elektrodlararası aralığın ölçüsü, adətən, kiçik (0,1-dən bir neçə *mm*-ə qədər) götürülür. Elektrodlara verilən dəyişən gərginliyin təsiri altında qazın deşilməsi baş verir və tez bir zamanda dielektrikdə yüklərin yığılmasına gətirən cərəyan impulsları yaranır. Nəticədə boşalma gərginliyi azalır, mikroboşalmaların davametmə müddəti məhdudlaşır və qaz qızmağa macal tapmır, elektrik enerjisinin əsas hissəsi qazın atom və molekullarının həyəcanlanmasına və şüalanmaya (boşalma işıq saçır) sərf olunur.

Səthi və həcmi B.b. olur. Həcmi boşalmada elektrodlar boşalma aralığı ilə ayrılan iki metal lövhə və ya zolaqdan ibarətdir. Onlardan biri və ya hər ikisi dielektrik qatı ilə aralıqdan izolə edilmişdir. Səthi B.b.-nda hər iki elektrod dielektrik lövhənin bir tərəfində yerləşdirilir, boşalma isə onların arasındakı qazda dielektrikin digər tərəfində onun səthi yaxınlığında yanır. Qazın deşilməsi üçün di- gər dielektriklə, həmçinin qazdan izolə edilmiş əlavə elektroddan istifadə olunur.

B.b. ozonatorlarda, lazerlərdə, plazma displeylərində və başqa plazmakimyəvi quruluşlarda tətbiq olunur.

**BARYER FUNKSİYASI** – insan və heyvan orqanizminin baryerlər (xüsusi fizioloji mexanizmlər) vasitəsilə öz daxili mühitini (qanı, limfanı və toxuma mayesini) xarici təsirlərdən qoruması, onun tərkibinin, kimyəvi, fiziki və bioloji xassələrinin nisbi sabitliyini mühafizə etmək qabiliyyəti. Baryerlər vasitəsilə orqanlara toxuma mayesi ilə lazımi qida maddələrinin gəlməsi və mübadilə prosesi nəticəsində əmələ gələn zərərli məhsulların çıxarılması tənzim edilir. Şərti olaraq x a r i c i (dəri örtüyü, selikli qişalar, həzm, tənəffüs aparatı və ifrazat orqanları) və qanla orqan və toxumaların toxuma (hüceyrədənkənar) mayesi arasında yerləşən d a x i l i (histohematik) baryerlər olur. Bağırsaqlarda əmələ gələn və qana keçən zəhərli birləşmələrin zərərsizləşdirilməsində xarici baryer olan qara ciyər mühüm rol oynayır. Daxili baryerlərdən mərkəzi sinir sistemini qandakı yad cisimlərdən qoruyan *hematoensefalik baryer*, gözdə kamera nəmliyinin əmələ gəlməsini tənzim edən hemato-oftalmik baryer, maddələrin ana qanından dölün qanına və əksinə keçməsini tənzim edən plasentar baryer və s. ətraflı öyrənilmişdir.

**BARYER RİFİ** – bax *Sədd rifi*.

**BARYER SULAŞDIRILMASI** – neft-qaz yataqlarının işlənilmə üsulu; qazlılıq konturu daxilində xətt üzrə yerləşən suvurucu quyular vasitəsilə qaz-neft təmasına (kontaktına) suyun vurulmasına əsaslanır. Neftçıxarmanın tempini və neftverimini artırmağa imkan verir. B.s.-nın üstün cəhəti neft və sərbəst qaz ehtiyatından eyni zamanda istifadənin mümkünlüyüdür. B.s. bəzən konturarxası və digər sulaşdırılma növləri ilə yanaşı tətbiq edilir.

**BARZAVU** – Azərb. Resp. Lerik r-nunda, Peştəsər silsiləsində zirvə. Kəncəvü çayının (Lənkəran çayının sağ qolu) sol sahilindədir. Hünd. 1606,2 *m*.

**BARZAVU** – Azərb. Resp. Lerik r-nunun Blaband ə.d.-ndə kənd. R-n mərkəzindən 10 *km* c.-ş.-də, Kəncəvü çayının (Lənkəran çayının sağ qolu) sol sahilində. Barzavu d.-nın (Peştəsər silsiləsi) yamacındadır. Əh. 719 (2008); əkinçilik və maldarlıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana, ambulatoriya var.

**BARZİL** – İranın Ərdəbil ostanında kənd. Mişkinşəhr şəhristanının Mərkəzi bölgəsinin Qərbi Mişkin kəndistanında, Mişkinşəhrdən 8 *km* şm.-dadır.

**BAS** (ital. basso – aşağı) – 1) çoxsəsli kompozisiyanın bəm səsli partiyası. 2) Ən aşağı kişi səsi. həmçinin bu səslə ifa olunan partiya (solo, ansamblda, yaxud xorda). Zil B. (diapazonu böyük oktavanın "fa" səsindən birinci oktavanın "fa" səsinə qədər) və B. profundo adlanan bəm B. (diapazonu böyük oktavanın "mi" yaxud "do" səsindən birinci oktavanın "re", yaxud "mi" səsinə qədər) növləri var. 3) Aşağı (bas) registrli musiqi alətlərinin adı: *viola* (B.-viola, yaxud viola da qamba), *klarnet* (B.-klarnet), *saksafon*, *trombon*, elektrogitara (B.-gitara) və s.

**BASALAR**, k o k o l a r, m v e l e l ə r – Kamerunda bantu xalqları qrupu. Sanaqa çayının orta axarında yaşayırlar. Sayları 130 min nəfərdir (1998). B.-a basalar (bassa), kokolar (bakoko), mvelelər, mbenelər, banenlər, nyukonlar, abolar və b. xalqlar daxildir. Böyük zənci irqinə mənsubdurlar. Dillərinin şm.-i koko, yaxud şm.-i bakoko, c.-i koko, yaxud c.-i bakoko və mbene dialektləri var. Dindarların əksəriyyəti xrisitiandır, bir hissəsi ənənəvi etiqadlarını saxlayır. 19 əsrdə qonşu bamumların və dualaların erkən dövləti qurumlarının təsirinə məruz qalmışlar. Əsas məşğuliyyətləri qırılıb yandırılmış ərazilərdə toxa əkinçiliyidir (darı, yerfındığı, qarğıdalı, maniok, yams, paxlalı bitkilər); yağverən palmalar yetişdirirlər. Kişilər tarlaları ağaclardan təmizləyir, qadınlar isə sahəni toxalayır, toxum səpir və məhsul toplayırlar. Mövsümçülük inkişaf etmişdir. Ənənəvi sənətkarlıq sahələri ağacişləmə (qab, mebel, boyanmış maskalar), həndəsi ornamentli qırmızı və qəhvəyi keramika istehsalıdır. Ənənəvi yaşayış məskənləri pərakəndə (dağınıq) formalı kəndlərdir. Evləri düzbucaqlı plandadır, palma yarpaqlarından ikiyamaclı hündür damları var. Karkaslı divarları ağacdan, yaxud gildəndir. Ənənəvi geyimləri bel sarğısı, kəmərlər və bəzəklərdir. Ucuz pambıq parçadan tikilmiş müasir Avropa geyimləri də yayılmışdır. Yeməklərin əsasını bitki-

lər (darı, tərəvəz və meyvədən sıyıqlar) təşkil edir. Balıq yeməkləri də yayılmışdır. Qəbilə-tayfa bölgüsü saxlanılır. Musiqi folkloru inkişaf etmişdir.

**BASARAB I**, I B a s a r a b  B ö y ü k (1289–1352) – Valaxiya dövlətinin ali hakimi [təqr. 1310–52] və *Basarablar* sülaləsinin banisi [1324–52]. İqamətgahı Kurtya de Arceş ş.-ndə yerləşirdi. Adı mənbələrdə B a s a r a b, B a z a r a b, yaxud B a z a r a d (türk. bassar – basan, məğlub edən) kimi qeyd olunur. Macar mənbələrinə görə B. Cuçilər sülaləsindən olan qıpçaq xanı Tok-Tomirin (Tukay Teymurun) oğlu idi. 1324 ildən macar krallarının vassalı olan B. 1330 ildə Posada (Posasa) yaxınlığında macar kralı I Kral Anjunun qoşununa qalib gələrək Valaxiyanın müstəqilliyini elan etmişdir.

**BASARABLAR** – 14–17 əsrlərdə (fasilələrlə) *Valaxiyada* hakim sülalə; Cucilər nəslinin qolu. Banisi I *Basarabın* adı ilə adlandırılmışdır. Bəzi tədqiqatçılar qıpçaqmənşəli olduqlarını ehtimal edirlər. B.-ın Daneştilər və Drakuleştilər qolları var. Ən görkəmli nümayəndələri: I B a s a r a b [təqr. 1324–52] – onun dövründə Valaxiya Macarıstanın vassal asılılığından azad olmuşdur; N i k o l a y e  A l e k s a n d r u [1352–64] – Basarabın oğlu və varisi, atasının yürütdüyü Valaxiyanın müstəqilliyini möhkəmləndirmə siyasətini davam etdirmiş, Bolqarıstanla ittifaq bağlayaraq tatarların bir sıra yürüşlərinin qarşısını almışdır; N y a q o y e [1512–21] – bir çox kilsə tikdirmişdir; M a t e y [1632–54] – mərkəzi hakimiyyəti möhkəmləndirmiş, iri boyarların separatçılığına qarşı mübarizə aparmış, mətbəələr açdırmış və Valaxiyanın ilk qanun məcəlləsini nəşr etdirmişdir (1652).

**BASARKEÇƏR** – İrəvan xanlığının Göyçə mahalında (9.9.1930 ildən Basarkeçər, 11.6.1969 ildən – Vardenis r-nu), Göyçə gölünün yaxınlığında azərb.-ların yaşadığı kənd, 1969 ildən şəhər tipli qəs. 9.9.1930 ildən Basarkeçər rayonunun inz. m. 19 əsrin I-ci yarısında kəndə İrandan ermənilər köçürülmüşdür. 1918 ildə burada yaşayan azərb.-lar ermənilər tərəfindən qovulmuş, lakin 1920-ci illərdə yenidən geri qayıtmışlar. 11.6.1969 ildə kəndin adı dəyişdirilərək Vardenis qoyulmuşdur. 1988 ildə azərb. əhali yenidən deportasiya edilmişdir.

**BASARKEÇƏR RAYONU** – Ermənistanda, Göyçə gölünün c.-ş. sahillərində 9.9.1930 ildə yaradılmış inz. ərazi



Basavan. "Asketlərin döyüşü" (1590; "Əkbərnamə" əsərinə miniatür). Viktoriya və Albert Muzeyi. London.

vahidi. Sah. 1151 $km^2$, mərkəzi Basarkeçər (11.6.1969 ildən Vardenis) qəsəbəsi, İrəvan şəhərindən 168 *km* aralıdadır. 11.6.1969 ildə r-nun adı dəyişdirilərək Vardenis qoyulmuşdur. B.r. 1988 ilə qədər Erm. ərazisində azərb.-ların ən sıx yaşadığı r-n olmuşdur. Burada 27 azərb., 6 qarışıq kənd olmuşdur. 1988 il noyabr ayında r-nun azərb. kəndlərinin əhalisi deportasiya edilmişdir.

**BASAVAN** (təqr. 1556–1600) – hind miniatürçüsü. 16 əsrin sonu – 17 əsrin əvvəllərində *moğol miniatür məktəbinin* görkəmli ustalarından biri. Hindistana gəlib çıxan Avropa rəssamlıq əsərlərinin təsiri ilə B. ənənəvi hind miniatürü xüsusiyyətlərini saxlayaraq, üçölçülü məkanı, fiqurların həcmliliyini və təsvir olunan personajların portret cizgilərini novatorcasına verməyə çalışmışdır. B.-a məxsus yüzdən artıq miniatür məlumdur. "Mahabharata" eposunun fars dilinə tərcüməsi olan "Razmnamə"nin ("Hərb kitabı", 1582–86; Caypur kitabxanası, Hindistan); "Əkbərnamə"nin (təqr. 1590; Viktoriya və Albert muzeyi, London), Caminin "Baharistan"ın (1595, Bodli kitabxanası, Oksford) əlyazmalarına çəkdiyi illüstrasiyalar yetkin yaradıcılıq nümunələridir.

**BASDIRILMIŞ TORPAQLAR** – lösslü və lössəbənzər süxurlarda, allüvial, delüvial və s. çöküntülərin qatlarındakı torpaqlar. Qədim antropogen landşaftlarda, xüsusilə uzun müddət çay suları ilə suvarılan torpaqların profilində yerləşir. Tünd rəngli, strukturlu, üst qatlarında humus nisbətən zəif (1–2%-ədək) olur. B. t., adətən, çoxprofilli quruluşa malikdir; kimyəvi və qranulometrik tərkibi də müxtəlif olur. Yer səthindən 0,6–1,0 *m* və daha çox dərinlikdə rast gəlinir. B. t. çöküntülərin yığılması prosesindəki fasilələri göstərir və bu fasilələrin əmələ gəldiyi coğrafi şəraitin bərpası üçün məlumat mənbəyi hesab olunur. Azərb.-da Kür-Araz ovalığında, Abşeronda, Naxçıvanın düzənlik hissəsində, Arazboyu düzənlikdə geniş əraziləri tutur.

**BASEGİ QORUĞU** – RF-nin, Perm vil.-ndə dövlət təbiət qoruğu. Orta Uralın q. yamaclarında, Usva və Vilva çayları arasındadır. Basegi silsiləsi də qoruğa daxildir. Sah. təqr. 38 min *ha*-dır. Orta Uralın tipik dağ-meşə təbii komplekslərinin qorunması və öyrənilməsi məqsədilə 1982 ildə yaradılmışdır. Relyefini dağ tirələri, təpələr, aşınma qalıq qayaları, dar çay dərələri təşkil edir. Uralın q. hissəsi üçün yüksəklik qurşaqlarının nadir uyğunluğu səciyyəvidir. Flora və faunasında Avropanın və Sibirin dağlıq və düzən- lik növləri iştirak edir. 400 növdən çox bitkisi (o cümlədən təqr. 50 nadir və qiymətli, 15-dən çoxu endemik və relikt) var. Faunasını 50 növdən çox məməlilər (sığın, qonur ayı, sincab, dələ, samur, Sibir siçovulu, vaşaq və s.), 150 növdən çox quşlar (Sibir xoruzu, tetra quşu, qarabağır və s.) təşkil edir.

**BASENCİ** – ən qədim ov iti cinslərindən biri. Vətəni Mərkəzi Afrikadır; burada B.-lər xırda quşları ovlamaq və qamışlıq siçovullarını qırmaq üçün istifadə edilmişdir. B.-yə oxşayan itlərin təsvirinə Qədim Misir barelyeflərində rast gəlinir. ABŞ, Kanada və Avropada 1937 ildən məlumdur. B. mütənasib quruluşlu, yüngül sümüklü (skeletli), yığcam bədənli, uzun ayaqlıdır; sıx düyün kimi burulmuş quyruğu vardır. Cidov hünd. 40–43 *sm*, kütləsi 9,5–11 *kq*-dır. Yüngül və iri addımlarla hərəkət edir. Tükü parlaq və ipək kimidir. Rəngi qara və ya müxtəlif çalarlı kürəndir. Pəncələri, döşü və quyruğunun ucu ağdır. Hürmək əvəzinə, eyni zamanda gülüşü və Tirol zəngulәsini xatırladan səslər çıxarır.

Basenci.









Basegi qoruğu. Basegi silsiləsinin cənub yamacları.

**"BASF-QRÜPPE"** – transmilli korporasiya, dünya kimya sənayesinin liderlərindən biri. Mənzil-qərargahı (1919 ildən) Lüdviqshafen ş.-ndədir (Almaniya).

Şirkətin tarixi 1865 ildən, Manheym ş.-ndə Fridrix Engelxor tərəfindən kimyəvi mallar istehsal edən f-k ("Badische Anilin- & Soda-Fabrik"; ixtisarla BASF) yarandıqda, başlamışdır. F-k dünyada boyaq maddələrinin, həm onların ayrı-ayrı komponentlərinin, həm də hazır məhsulun ilk istehsalçılarından biri olmuşdur. 2-ci dünya müharibəsindən sonra konsern antihitler koalisiyasının iştirakçı dövlətləri tərəfindən ləğv edilmişdir. 1952 ildə "Anilin və soda istehsalı üzrə Baden fabriki"nin işi bərpa olunmuşdur. 1973 ildə BASF şirkətin rəsmi adı kimi qəbul edilmişdir.

1960-cı illərdə BASF bütün dünya üzrə, o cümlədən Braziliya, Fransa, Hindistan, Yaponiya, ABŞ, Avstraliya, Meksika, Argentina, İspaniya, Belçika, İtaliya və B.Britaniyada yeni istehsal müəssisələri yaradırdı. 1965 ildən başlayaraq BASF digər şirkətləri almaqla yüksəktexnologiyalı əmtəələrin (lak-boya məmulatları, dərman preparatları, gübrə) buraxılması üçün yeni istehsal yerlərini yaradırdı.

BASF qrupuna "BASF Aktiengezelşaft" ("BASF Aktiengesellschaft") ana şirkətinin sahib olduğu və idarə etdiyi 159 şirkət daxildir. Qrupun 41 ölkədə yerləşən müəssisələri kimyəvi mallar, plastik kütlə, k.t. və qida məhsulları, neft, neft məhsulları və qaz istehsal edir və satır. Şirkətin bazar dəyəri 35 mlrd. dollardır (2005).

**BASFURCAN**, B a s f u r a c a n – 9–13 əsrlərdə ərəb mənbələrində (əl-Bəlazuri, Yaqut Həməvi və b.) Sasanilər dövlətinin tərkibindəki tarixi vil.-in ərəbləşdirilmiş adı. Bax *Vaspurakan*.

**BASİLAN** – Filippinin c.-unda şəhər; Basilan a.-nda port. Basilan vil.-nin inz. m. Əh. 496,5 min (2007). Kokos tədarükü və ticarəti mərkəzidir.

**BASİLAŞVİLİ** Oleq Valerianoviç (d.26.9.1934, Moskva) – rus aktyoru, SSRİ xalq artisti (1984). Moskva Akademik Bədaye Teatrı nəzdində Məktəb-studiyanı bitirmişdir (1956). 1956–59 illərdə Lenin komsomolu ad. Leninqrad Teatrında çalışmışdır. 1959 ildən Böyük Dram Teatrında (S.-Peterburq) işləyir. B.-nin aktyorluq manerası mülayimliyi, incə psixologizmi ilə yanaşı, plastika məharəti və ironiyası ilə seçilir. Əsas rolları: Oblomov ("Oblomov", İ.A. Qonçarovun romanı əsasında), Prozorov, Voynitski, Qayev ("Üç bacı", "Vanya dayı", "Albalı bağı", A.P. Çexov), Xlestakov



("Müfəttiş", N.V. Qoqol), XIV Lüdovik ("Molyer", M.A. Bulqakov), Cinql ("Pikvik klubu", Ç. Dikkensin əsəri əsasında), Lınyayev, Mamayev ("Qurdlar və qoyunlar", "Müdriklik sadəlikdədir", A.N. Ostrovski), Baron ("Həyatın dibində", M. Qorki), İl ("Yaşlı xanımın gəlişi", F. Dürrenmatt), Denfort ("Salem cadugərləri", A. Miller), Kreon ("Antiqona", J. Anuy), Uilyam Uorren, Sidney Nikols və Marvin Mayklz ("Kaliforniya süitası", N. Saymon). Antreprizlərdə çıxış edir ("Anton Çexovun teatrı" və s.). T. Uaylderin "Bizim şəhərcik" əsərini tamaşaya qoymuşdur (1979). "Canlı meyit" (1969), "İşdə məhəbbət macərası" (1977), "Payız marafonu" (1979), "Zavallı qusar haqqında da fikirləşin" (1980), "İki nəfərlik vağzal" (1983), "Həsrətində olduğum göylər" (1991) və s. filmlərdə müxtəlif xarakterli rollar oynamışdır.

**BASİLEY**, v a s i l e v s (yun. βασιλεύς) – monarxların, Bizans imperatorlarının və hakimlərinin titulu. Sözün mənşəyi məlum deyildir. Qədim Yunanıstanda Mikena epoxası və Homer dövründə tayfa, yaxud tayfa ittifaqının başçısı (hərbi rəhbər, kahin və məhkəmə səlahiyyətinə malik idi); klassik dövrdə isə bu termin Afinada yalnız dini funksiyaları yerinə yetirən *arxont*-basileydən tutmuş Əhəmənilər sülaləsindən olan fars hökmdarlarına şamil edilən "böyük basilevs" tituluna qədər geniş məna daşımışdır. Ellinizm dövründə monarx titulu olmuşdur. Yunan mətnlərində (o cümlədən Əhdi-Ətiqdə) Qədim Şərq ölkələrinin hakimləri də B. adlanırdı.

2–4 əsrlərdə B. termini yunan müəllifləri tərəfindən Roma imperatorları (rəsmi "avtokrator" və "avqust" terminləri ilə yanaşı) üçün istifadə olunurdu. Diplomatik yazışmada fars şahənşahları B. adlanırdı. Bizans imperatoru I *İraklinin* Sasanilər dövləti üzərində qələbəsindən (628) sonra o, "B." terminini imperatorun rəsmi titulları sırasına (629 ilin edikti) daxil etmişdir. 9 əsrdən 1453 ilədək bütün rəsmi imperator sənədlərində "romalıların vasilevsi" titulu əsas titul olmuşdur.

**BASK DİLİ** – *baskların* dili. İspaniyada Basklar Ölkəsi və Navarra muxtar vil.-

lərinin rəsmi dillərindən biri. Fransanın cənubunda, həmçinin Latın Amerikasında və Şimali Amerikada baskların yaşadığı ərazilərdə də yayılmışdır. 21 əsrin əvvəllərinə olan məlumata görə ənənəvi bask əyalətləri əhalisinin yalnız 25%-i bu dildə danışır (təqr. 700 min nəfər İspaniyada, təqr. 60 min nəfər Fransada). Bundan əlavə, təqr. 550 min nəfər B.d.-ni passiv şəkildə bilir. Latın Amerikasında və Şimali Amerikada təqr. 170 min adam bu dildə danışır (1990). Dillərin müasir təsnifatında heç bir dil ailəsinə daxil edilmir. Bir sıra dilçilər (N.Y. Marr, K. Ulenbek, V. Humboldt, Q. Şuxardt, Ş. Dzidziquri, İ. Tabaqua və b.) B. d.-ni Qafqaz (İber-Qafqaz) mənşəli hesab etmişlər. Son dövrlərdə B.-d.-ni Akvitaniya dili ilə bağlayırlar.

B.d.-nin fonoloji, morfoloji və leksik cəhətdən xeyli fərqlənən bir neçə (bask dialektoloqu K. Suasoya görə 6) dialekti var; erqativ quruluşa malikdir. Yazıda latın əlifbasından istifadə olunur. İlk yazılı abidəsi 14 əsrə aiddir.

1930-cu illərdən B.d. standartının – euskara batua (hərfi mənada – birləşmiş B.d.) yaradılması sahəsində fəal iş görülür. Bask məktəblərinin çoxunda və yaşlılara B.d. öyrədən mərkəzlərdə tədris olunur.

**BASK ƏDƏBİYYATI** – bax *İspaniya* məqaləsinin Ədəbiyyat bölməsinə.

**BASKÁK** (cağatay dilində – tabe edilmiş xalqlardan vergi yığan məmur) – monqol xanının işğal olunmuş torpaqlarda vergi yığan və əhalini qeydə alan nümayəndəsi; inzibati məmur. Rusiya ərazisində baskaklıq 13 əsrin ortalarında təşəkkül tapmışdır. Hər knyazlığa xüsusi baskak təyin edilirdi. "Böyük baskak"ın iqamətgahı Vladimir şəhərində yerləşirdi. İlk vaxtlar yüksək statusa malik olan B.-lar yerli hakimiyyət orqanlarına da nəzarət edirdi. Vergilərin vaxtında yığılmasını təmin etmək və Qızıl Ordaya qarşı çıxışları yatırmaq üçün B.-ın tabeliyində iri hərbi dəstələr var idi. 14 əsrin əvvəllərindən B.-ların fəaliyyəti tədricən məhdudlaşdırılmağa başladı, vergi yığımı rus knyazlarına tapşırıldı. Bax həmçinin *Daruğa*.

**BASKAKOV** Nikolay Aleksandroviç (22.3.1905, Arxangelsk qub.-nın Solvıçeqodsk ş. – 23.3.1995, Moskva) – Rusiya türkoloqu, folklorşünas, etnoqraf. Filologiya e.d. (1950), prof. (1969). Fin-uqor dilləri cəmiyyətinin (Finlandiya, Helsinki) m. üzvü (1966), Ural-Altay dilləri cəmiyyətinin (AFR, Hamburq; 1968),



B.Britaniya və İrlandiyanın Asiya Kral cəmiyyətinin (London, 1975), Macarıstan və Polşa Şərqşünaslar cəmiyyətlərinin fəxri üzvü, Tür. SSR (1962), Qazax. SSR, RSFSR (1967) və Qaraqalpaq MSSR-in (1960) əməkdar elm xadimi olmuşdur. Orta Asiya, Qafqaz, Dağıstan və Sibirdə çoxsaylı ekspedisiyalarda iştirak etmiş, türk xalqlarının dili, tarixi və etnoqrafiyasına dair topladığı zəngin material əsasında bir neçə monoqrafiya nəşr etdirmişdir. Qaraqalpaq, noqay, Altay, tatar, türkmən, uyğur və s. türk dillərinin tarixinə və nəzəriyyəsinə dair mühüm əsərlər yazmış, bu dillərin qrammatik və leksikoloji cəhətdən ətraflı öyrənilməsində böyük xidmətləri olmuşdur. B. rus və bir sıra türk dillərinin – Altay, qaraqalpaq, türkmən, uyğur və s. ikidilli lüğətlərinin ilk tərtibçilərindəndir. Türk dillərinin əlifbası, transkripsiyası və terminologiyası ilə bağlı məsələlərin həllində, milli elmi kadrların hazırlanmasında böyük xidmətləri var. B. türk, monqol, tunqus-mancur dillərinin Koreya və yapon dilləri ilə genetik qohumluğu haqqında fikir irəli sürmüşdür.

B. Herodotun əsərində adı çəkilən 6 Midiya tayfasından biri olan maqların, yaxud muğalların (muqallar) məskunlaşdıqları ərazini dəqiqləşdirərək, onları Azərb. türkcəsində danışan qrupa aid etmişdir. B. azərb.-ların və onların dilinin təşəkkülündə iştirak edən türk tayfalarının (muğlar, qaşqaylar, tərəkəmələr, qarapapaqlar, qızılbaşlar və b.) adını çəkir, onları oğuz dilləri qrupuna və oğuz-səlcuq dilləri yarımqurupuna bölür. B. Cənubi və Şimali Azərb. əhalisinin eyni dildə, lakin müxtəlif dialektlərdə danışdıqlarını qeyd edir. Azərb. dilçiliyinin inkişafında, həmçinin Azərb.-da elmi kadrların hazırlanmasında xidmətləri olmuşdur. 640 elmi əsərin, o cümlədən 32 kitabın müəllifidir.

Ə s ə r l ə r i: Тюркские языки. М., 1960; Введение в изучение тюркских языков. М., 1969; Тюркизмы в восточно-славянских языках. М., 1974; Историко-типологическая характеристика структуры тюркских языков. М., 1975; Историко-типологическая характеристика структуры тюркских языков. М., 1975; Историко-типологическая морфология тюркских языков. М., 1979; Русские фамилии тюркского происхождения. М., 1979; Тюркская лексика в "Слове о полку Игореве". М., 1985; Историко-типологическая фонология тюркских языков. М., 1988.

*Əd.:* Милибанд С.Д. Биобиблиографический словарь отечественных востоковедов с 1917 г. Том 1. М., 1995; Мурзаев Э. М. Тюркские географические названия. М., 1996; Тенишев Э. Р. Николай Александрович Баскаков // 90 лет Н. А. Баскакову. Сборник статей. М., 1997.

**BÁSKERVİLL** (Baskerville) Con (28.1.1706, Vulverli – 8.1.1775, Birmingem) – ingilis mətbəəçisi və naşiri, hazırda onun adını daşıyan yeni şrift nümunəsinin yaradıcısı. 1750 ildə Birmingemdə mətbəənin əsasını qoymuşdur; 1757 ildə *Vergilinin* yeni şriftlə çap olunmuş əsərlərini buraxmışdır. B.-in ölümündən sonra mətbəənin avadanlığını P.O. *Bomarşe* almış (1779) və həmin şriftlə *Volterin* əsərlərini buraxmışdır. Mətbəənin qalıqları Kembric Un-tində saxlanılır.

**BASKETBÓL** (ing. basket – səbət, ball – top) – komanda idman oyunu. Oyun 26x14 *m* ölçülü düzbucaqlı hamar meydançada keçirilir. Meydançanın ön xətləri üzərində (ortada) xüsusi lövhə vurulmuş dayaq olur. Hər lövhəyə yerdən 3,05 *m* hünd.-də, ön xəttə paralel olaraq bərkidilən metal halqadan dibsiz tor səbət asılır. Oyun müddətində hər komandadan ümumiyyətlə 12 nəfər yarışa bilər, oyun vaxtı isə meydançada hər komandadan yalnız 5 idmançı olur (oyunun gedişində onlar istənilən vaxt əvəz edilə bilər). Hər komanda rəqibin səbətinə daha çox top (topun çevrəsi 75–78 *sm*, kütləsi 600–650 *q*) salmağa, öz meydançasındakı səbətə isə top salınmasına imkan verməməyə çalışır. Oyun vaxtı rəqibin səbətinə salınan hər top üçün komanda iki xal, cərimə topu üçün isə bir xal qazanır. Oyun hər biri 20 *dəq* davam edən iki hissədən ibarətdir (10 *dəq*-lik fasilə ilə). Oyunun əsas vaxtında hesab bərabər olarsa, komandalardan biri qalib gələnədək 5 *dəq* vaxt verilir.





B.-u xatırladan oyun haqqında ilk məlumatlar Mərkəzi və Cənubi Amerikanın qədim sivilizasiyaları ilə bağlıdır. "Pok-tapok" adlanan oyun zamanı oyunçular meydançanın müxtəlif kənarlarından qatrandan olan topu ortasında dəlik açılmış daş tavaya tullayırdılar. 16 əsrdə Meksikada "ollamalitsli" oynayan asteklər kauçukdan olan topu bərkidilmiş daş halqaya atırdılar. 1891 ildə Sprinqfild kollecinin (Massaçusets ştatı) anatomiya müəllimi, Kanada mənşəli C. Neysmit (1861–1939) oyunun ilk qaydalarını işləyib hazırlamışdır. B. tezliklə yalnız ABŞ-da deyil, digər ölkələrdə də, əvvəlcə Şərqdə (Yaponiya, Çin, Filippin), sonra isə Qərbdə yayılmışdır.

Beynəlxalq Həvəskar Basketbol Federasiyası (FİBA) 1932 ildə təsis edilmişdir. Kişilər arasında Avropa çempionatı 1935 ildən, qadınlar arasında 1950 ildən; dünya çempionatı kişilər arasında 1950 ildən, qadınlar arasında 1953 ildən keçirilir. Olimpiya Oyunları proqramına kişilər üçün 1936 ildən, qadınlar üçün 1976 ildən daxil edilmişdir. Dünya çempionu olmuş komandalar: kişilər arasında – Argentina (1950), ABŞ (1954, 1986, 1994, 2010), Braziliya (1959, 1963), SSRİ (1967, 1974, 1982),Yuqoslaviya (1970, 1974, 1978, 1990, 1998, 2002, 2010), İspaniya (2006); qadınlar arasında – ABŞ (1953, 1957, 1979, 1986, 1990, 1998, 2002, 2010), SSRİ (1959, 1964, 1967, 1971, 1975, 1983), Braziliya (1994), Avstraliya (2006). Olimpiya Oyunları çempionu olmuş komandalar: kişilər arasında – ABŞ (1936, 1948–68, 1976, 1984, 1992–2000, 2008), SSRİ (1972, 1988), Yuqoslaviya (1980), Argentina (2004); qadınlar arasında – SSRİ (1976, 1980), MDB-nin birləşmiş komandası (1992), ABŞ (1984, 1988, 1996–2008). ABŞ-ın və Kanadanın peşəkar klubları Milli Basketbol Assosiasiyasını (MBA) yaratmışlar.

Azərb.-da B. 1924 ildən inkişaf edir. Həmin il kişilərdən ibarət 42 komanda, qadınlardan ibarət 10 komanda yaradılmışdı. 1925 ildə Bakıda B. üzrə Zaqafqaziya çempionatı keçirilmiş, Azərb.-ın kişilərdən və qadınlardan ibarət komandaları 1-ci yerə çıxmışlar. İlk resp. çempionatı 1934 ildə təşkil olunmuş, Bakının "Dinamo" komandası birincilik qazanmışdır. 1940–50 illərdə Azərb. basketbolçularından Adil Gəraybəyli, Leonid Neruşenko, Arif Şahbazov, Nazim Hüseynov, Əliyar və Qəhrəman Məmmədyarov qardaşları, Aleksandr Petrov, Fərid Səmədov, Vladimir Rıbalko, Yuri Naumtsev, Samur Novruzov, Fuad Məmmədyarov, Sabir Zülfüqarov, Valeri Muxin, Mahir Ziyazadə və b. Ümumittifaq yarışlarda uğurla çıxış etmişlər. 2005 ildə Azərb.-ın kişilərdən ibarət milli B. komandası Səudiyyə Ərəbistanında keçirilmiş 1-ci İslam Oyunlarında qızıl medal qazanmış, 2006 ildə FİBA-nın Albaniyada keçirilən "İnkişaf kuboku" yarışlarında qalib olmuşdur.

**BÁSKLAR**, e u s k a l d u n a k – İspaniyanın şm.-ında (*Basklar ölkəsi, Navarra*) və Fransanın c.-q.-ində (Atlantika Pireneyləri departamentinin q.-indəki Labur, Sul və Aşağı Navarra r-nları) yaşayan xalq. İspaniyada sayları 0,6 mln.-dan 2,8 mln. nəfərədək, Fransada isə 75 mindən 250 min nəfərədəkdir (21 əsrin əvvəlləri). Həmçinin ABŞ-da (6,9 min), Meksikada (20 min), Uruqvayda (10 min), Çilidə (9 min), Kosta-Rikada (8 min), Brazilyada (5 min), Venesuelada (5 min), Filippində (8 min), Avstraliyada (9 min) və s. ölkələrdə yaşayırlar. *Bask dilində* danışırlar, ispan və fransız dilləri də yayılmışdır. Dindarları xristiandır.

Vaskonlar, vardullar, karistilər və b. tayfalar B.-ın əcdadlarıdır; iberlərlə qohumluğu mübahisəlidir. Roma dövründə romanlaşmaya məruz qalmayan B. İspaniyada 19 əsrədək muxtariyyətlərini qoruyub saxlamış və yerli əhalinin seçdiyi Baş əyalət xuntaları tərəfindən idarə olunmuşlar. Bask torpaqlarının "senyorları" statusuna malik olan Kastiliya kralları B.-a "kollektiv zadəganlıq" hüququ bağışlamışdılar, bu da bask cəmiyyətinin sosial təbəqələşməsinə mane olurdu; monarxlar tərəfindən salınmış şəhərlər B.-ın assimilyasiyasının əsas ocaqları olmuşdur. 1960-cı illərdən B.-ın mədəni və dil cəhətdən dirçəlməsi başlandı: ənənəvi mədəniyyətin tədqiqi və yayılması ilə məşğul olan cəmiyyətlər, tədrisin bask dilində aparıldığı məktəblər və s. yaradıldı.

B. 20 əsrədək arxaik ənənələri qoruyub saxlamışlar: icma yardımlaşması, böyük ailələr, mayorat vərəsəlik sistemi və s. Qapalı və diskriminasiyaya məruz qalan aqotlar qrupu seçilirdi. Ənənəvi yaşayış məskənləri kilsəsi, məktəbi, topla oyun üçün meydançası və s. olan inzibati mərkəzin ətrafında pərakəndə yerləşən malikanələrdir. Ənənəvi məşğuliyyətləri əkinçilik (əsasən qarğıdalı yetişdirirlər; onu Avropada ilk dəfə 17 əsrdə B. becərmişlər), bağçılıq, üzümçülük və maldarlıqdır, keçmişdə dəniz balıqçılığı, balina ovu, gəmiçilik də inkişaf etmişdi. Qısa sapın üzərində iki dişli əkinçilik aləti (layya) səciyyəvidir. Ənənəvi yeməkləri – süddə isladılmış qarğıdalı kökəsi, donuz ətindən müxtəlif xörəklər, qoyun pendiri, tərəvəzdən şorbalar, içkiləri – alma şərabıdır. Evləri (bask-Navarra evi, baserri) daşdan tikilir, yaxud çərçivə konstruksiyalı olur, ağardılır, iki-üç mərtəbəlidir, aşağı mərtəbədə təsərrüfat otaqları (pəyə, xırman, anbarlar), yuxarı mərtəbələrdə isə eyvanlar və şüşəbəndlər yerləşir. Dam örtüyü ikiyamaclıdır; mərtəbələr çöldən pilləkan vasitəsilə birləşir; ailənin həyatı buxarısı olan mərkəzi otaqda keçir. Kişi bereti (çapela; əvvəllər yalnız Fransa B.-ında yayılmışdı) B.-ın simvolu hesab edilir. Ağac və daş üzərində oyma (17–18 əsrlərədək ucunda rozetkalı disk və s. rəmzlər şəklində olan stela formasında başdaşları qoyulurdu) inkişaf etmişdir. Ənənəvi oyunları güc yarışları (ağırlıq qaldırma və s.), odunqıranların yarışları, topla oyun (pelota) və s.-dir.

Müasir B. güclü urbanizasiyaya məruz qalmışlar. Xristianlığaqədərki mifologiyanın elementləri kimi cadugərlərin başçısı olan ilahə və onun əri, dolmenlərin inşaatçıları mairilər və dağ ruhları maydelər, şər sehrbazları (balıqquyruqlu, yaxud quşcaynaqlı qadınlar), laminyaklar haqqında təsəvvürlər qorunub saxlanmışdır. Nəhəng Gisaundi nağılların və karnavalın əvəzolunmaz personajıdır.

Ş i f a h i ə n ə n ə v i m ə d ə n i y y ə t. Xalq musiqisində lad və ritmik xüsusiyyətlər saxlanmışdır; sillabik ifaçılıq tipi (hecasız ifa tərzi) üstünlük təşkil edir. Səciyyəvi yanrlar: *sortsiko* mahnı-rəqsi və yallı tipli aurresku rəqsi (İspaniya B.-ında), beşik, uşaq, əmək, sevgi nəğmələri, kantiki dini mahnıları (mərasimlərdə oxunur). İmprovizəçi müğənnilərin (berçolari) yarışmaları populyardır. Rəqs mədəniyyəti məişət, ayin, mərasim rəqslərinin müxtəlif növlərindən ibarətdir; kişi rəqsləri hərəkətlərin zənginliyi və təkmilliyi ilə fərqlənir. Ən çox yayılmış alət çaparalta idiofonudur. Silindrik təbillə birlikdə çalınan (hər iki alətdə eyni vaxtda bir musiqiçi çalır) uzunsov çistu fleytası, qamışdan düzəldilən qoşadilçəkli albokada da (çobanların aləti; bəzən dəflə birlikdə) istifadə olunur. Tipik ansambl 2 çistudan, silbote bas fleytadan və atabal böyük təbilindən ibarətdir. Bəzi yerlərdə skripka, ispan tuluq zurnası, dulsayna qoboyu və s. ənənəvi alətlər yayılmışdır.

**BÁSKLAR ÖLKƏSİ**, E u s k a d i (bask dilində Euzkadi, isp. Vascongadas, fr. Pays Basque) – İspaniyanın şm.-ında Biskay körfəzi yaxınlığındakı Kantabriya d-rında tarixi vil. 1979 ildən muxtar vil. statusuna malikdir. Alava, Biskayya, Gipuskoa əyalətlərindən ibarətdir. Sah. 7,3 min $km^2$. Əh. 2,13 mln. nəfər (2001), əsasən, *basklardır*. Əsas şəhəri Vitoriyadır.

E.ə. 1 əsrdə – eramızın 5 əsrinin əvvəllərində baskların yaşadıqları ərazi nominal olaraq Romaya tabe idi. Pireney y-a-nın digər xalqlarından fərqli olaraq basklar romanlaşmamışlar. 5–7 əsrlərdə onlar *vestqotlara* qarşı gərgin mübarizə aparmışlar. Təqr. 580 ildə basklar Pireney d-rından şm.-dakı bir sıra vilayətləri zəbt etmişlər. Ərəb ağalığı dövründə (8 əsrin əvvəlləri –15 əsrin sonu) bask ərazilərinin xeyli hissəsi əvvəlki kimi müstəqilliyini qoruyub saxlamışdı. 778 ildə basklar Ronseval dərəsində *Rolandın* komandanlığı altındakı frank qoşunlarını məğlubiyyətə uğratmışlar. 905 ildə Bask qraflıqlarının əsasında *Navarra* krallığı formalaşmışdı; bask ərazisi Rekonkistanın bazalarından birinə çevrilmişdi. 11–15 əsrlərdə baskların torpaqları Navarra, Araqon, Leon və Kastiliya krallarının hakimiyəti altında olmuşdur. 15 əsrin sonları – 16 əsrin əvvəllərində B.ö.-nin xeyli hissəsi yeni yaranmış vahid ispan dövlətinin tərkibinə daxil edilmişdi. Baskların Pireney d-rından şm.-da yerləşən əraziləri isə Fransanın tərkibinə qatıldı. İspaniyada Biskayya bask əyalətləri (Alava, Gipuskoa və Biskayya) 1876 ilədək qədim imtiyazlarını (fueros) və müəyyən qədər muxtariyyətlərini qoruyub saxlamışlar (Fransadakı basklar isə 1789 ildə bundan məhrum oldular). 19 əsrin sonlarından bask milli hərəkatının yüksəlişi başlandı. *İspaniya inqilabı (1931–39)* dövründə korteslərin qərarı ilə İspaniya resp.-nın "B.Ö." adlandırılan bask muxtar regionu təşkil olundu (1936, oktyabr). Lakin İspaniya resp. hökumətinin devrilməsindən (1939) sonra ildə B.Ö. özünüidarə hüququndan məhrum edildi. F. *Franko* rejimi tərəfindən İspaniyadakı milli azlıqların muxtariyyət qazanma cəhdlərinin qarşısının alınması baskların milli hərəkatının radikallaşmasına gətirib çıxardı. 1959 ildə terror metodlarından istifadə edərək Fransadakı bask rayonları da daxil olmaqla müstəqil bask dövlətinin yaradılmasına nail olmağı qarşısına məqsəd qoyan ETA (Euzkadi Ta Azkatasuna – Basklar Ölkəsi və onun azadlığı) adlı bask gizli təşkilatı yarandı. Franko rejiminin süqutundan (1975) sonra ispan dövləti çərçivəsində baskların muxtariyyətinin bərpa olunmasına baxmayaraq ETA təşkilatı və onun siyasi qolu olan Erri Batasuna partiyası fəaliyyətini dayandırmadı. Terror metodlarından istifadə baskların əksəriyyəti, həmçinin B.Ö.-nin siyasi həyatında aparıcı rol oynayan Milli bask partiyası və İspaniya sosialist fəhlə partiyası tərəfindən pislənilir.

Bask ölkəsinin sahilyanı rayonları yüksək inkişaf etmiş sənaye regionudur (dəmir filizin hasili, qara və əlvan metallurgiya, neft emalı, həmçinin avtomobil, kimya, elektrotexnika, ağac emalı, maşınqayırma sənayesi). Daxili rayonlarda k.t. məhsullarının (buğda, qarğıdalı, üzüm və s.) istehsalı üstünlük təşkil edir. Balıqçılıq da iqtisadiyyatda mühüm rol oynayır.

Baskunçak gölü.



**BAS-KLARNET** (ital. clarinetto basso) – ağacdan düzəldilən nəfəs aləti, *klarnetin* bir növü. Zahirən müştük və gövdəni birləşdirən "S" şəkilli əyri borucuğu və yuxarıya doğru əyilən genağızlı borusu ilə seçilir. 1830-cu illərin ortalarından opera və simfonik orkestrlərdə geniş istifadə olunmuşdur. P.İ. Çaykovskinin partituralarında ("Qaratoxmaq qadın" operası, "Manfred" simfoniyası, "Şelkunçik" baleti) B.-k.-dən ustalıqla istifadə nümunələrinə rast gəlinir.



Bas-klarnet.

**BASKUNÇÁK** – RF-nin Həştərxan vil.-ndə, Xəzəryanı ovalığın şm.-ında axarsız şor göl. Dəniz səviyyəsindən 21 *m* aşağıdadır. Sah. 106 $km^2$, uz. 20 *km*, maks. eni 10 *km*, orta dərinliyi 0,1 *m*-dir. Tektonik mənşəlidir. Q.və c. sahilləri xeyli hündür, şm. və ş. sahilləri alçaqdır. Əsasən, Böyük və Kiçik Boqdo dağlarının ətəklərindən və gölün dibindən çıxan çoxsaylı şor bulaqların suyu ilə qidalanır. İl ərzində gölə tərkibində 930 min *t* həll olmuş duz (864 min *t*-u NaCl) olan 8 mln. $m^3$ su daxil olur. Yayda B. tamamilə quruyur və bərk duz örtüyü yaranır. B.-dan ildə təqr. 2 mln. *t* xörək duzu (sənaye ehtiyatı 400 mln. *t*-dan çoxdur) çıxarılır. Hasilat mərkəzi Aşağı Baskunçak qəs.-dir. B. Boqdo-Baskunçak biosfer qoruğu ərazisindədir.

**BASQAL** – Azərb. Resp. İsmayıllı r-nunda qəsəbə. Basqal ə.d.-nin mərkəzi. R-n mərkəzindən 35 *km* ş.-də. Niyaldağ silsiləsinin ətəyindədir. Əh. 1567 (2008); əkinçilik, heyvandarlıq və bağçılıqla məşğuldur. Tam orta məktəb, ambulatoriya, tarix-mədəniyyət qoruğu var.

B. 16–17 əsrlərdə Şirvanın toxuculuq mərkəzlərindən biri idi. Burada müxtəlif növ qanovuz və kəlağayı toxunurdu. Boyaqçılıq, toxuculuq, ipəkçilik və s. nəsildən-nəslə keçən sənətkarlıq sahələri idi. 19 əsrin 2-ci yarısından B. sənətkarları bir çox beynəlxalq sərgilərdə iştirak etmiş və hazırladıqları yüksəkkeyfiyyətli məmulat üçün fəxri fərman və mükafatlara layiq görülmüşlər. Bu dövrdə B.-da 250 dəzgahı olan 70–90 toxuculuq karxanası var idi. B.-da hələ orta əsrlərdən evlərdə hamam olmuşdur. Memarlıq abidələri olan məscid və hamam təqr. 17 əsrdə tikilmişdir. Kanalizasiya sistemi də həmin dövrdən mövcuddur. Sənətkarlıq və ticarət B.-ın inkişafında müəyyən rol oynamışdır.

**BASQI**, h i d r a v l i k a d a – maye axınının verilmiş nöqtəsində mayenin xüsusi mexaniki enerjisini ifadə edən xətti kəmiyyət. B. hidravlikanın bir sıra məsələlərinin həllində, hidrotexniki qurğuların, boru kəmərlərinin və s. layihələndirilməsi zamanı hesablamaların aparılmasında istifadə olunan parametrdir; *Bernulli tənliyi* ilə təyin edilir. Mayenin hesablanmış qiymətdən qalxdığı maks. hündürlüyün qiymətinə bərabər olan B. *m*-lə ölçülür. Hidrotexniki qurğularda (bənd, şlüz və s.-də) B. aşağı və yuxarı *byeflərdəki* suyun səviyyə fərqinə bərabərdir.

**BASQILI BORU KƏMƏRİ** – daxili təzyiqi 0,1 *MPa*-dan çox olan qaz, maye və bərk maddələri, yaxud onların qarışıqlarını, həmçinin ədədi yükləri nəql etmək üçün qurğular kompleksi. Keramika və taxta, həmçinin əlvan metallardan (mis və qurğuşundan) hazırlanan ilk B.b.k. qədim Misir və Babilistanın su kəmərlərində tətbiq edilmişdir. Rezinləşdirilmiş parça və rezindən hazırlanan, möhkəmliyini artırmaq üçün metal məftillə armaturlanan mütəhərrik B.b.k. (şlanq) yanğınsöndürmə işlərində, maşın və mexanizmlərin hidrosistemlərində və s. istifadə edilir. Çəkilmə üsuluna görə yeraltı, yerüstü və yerdən bir qədər hündürdə B.b.k.-ləri olur. B.b.k. sıx birləşdirilmiş borulardan, *boru kəməri* detallarından (üçboğaz, bilərzik və s.), kilidləyici və tənzimləyici armaturlardan (kranlar, qoruyucular, sürgülər, ventillər) və s. avadanlıqlardan ibarətdir. Metal və qeyri-metal materiallardan (taxta, keramika, şüşə, beton və dəmir-beton, asbest-sement, plastik kütlə, rezin və s.) hazırlanır. Xüsusi hallar üçün, məs., polad boruların korroziyaya davamlılığını, yaxud dəmir-beton və asbest-sement boruların işıq, su və s. buraxmama qabiliyyətini artırmaq məqsədilə boruların daxili divarları polimer, şüşə-plastik, emal, polietilen və s. ilə örtülür. B.b.k. -150°C-dən aşağı və 1200°C-dən yuxarı temp-rda 245 *MPa* təzyiqlə istismar edilə bilər. B.b.k.-ni qurmaq üçün sökülməz (qaynaq, yapışqan, lehim və s. ilə) və sökülən (mufta, yiv, bilərzik, ştuser, nippel ilə) birləşmələrdən istifadə edilir. Avtomobil və d.y.-larının altından keçən B.b.k. xarici yü- kün təsirindən polad borulardan hazırlanan futlyar (qilaf) ilə qorunur.

**BASMA** – saçın rənglənməsi üçün istifadə edilən təbii boyaq; açıq şabalıdıdan qarayadək çalar verir. *İndiqoferanın* yarpaqlarından hazırlanır. Qədim dövrdən məlumdur. B. saçın uzanmasını, təbii parlaqlığını təmin edir, strukturunu yaxşılaşdırır, köklərini möhkəmləndirir, kəpəyin qarşısını alır. Adətən xına ilə birlikdə işlədilir. Keçmişdə B.-dan mürəkkəb kimi də istifadə olunmuşdur.

**BASMA** (türk dillərində; hərfi mənada – möhür izi), b a y s a, p a y z a – 1) 13–15 əsrlərdə monqol xanları tərəfindən etimadnamə kimi verilən xüsusi lövhəcik. 2) Üzərində qabarıq basma naxışları olan nazik metal (əsasən gümüş, bəzən mis və qızıl) lövhələr.

**BASMAÇILIQ** – 1917 ilin sonlarından 30-cu illərin sonlarınadək Orta Asiyada sovet hakimiyyətinə qarşı silahlı milli-azadlıq hərəkatı. Fevral inqilabı (1917) nəticəsində Rusiya mərkəzi hakimiyyətinin zəifləməsindən sonra Türküstanda müxalif-milli hərəkat yaranmışdı. Hərəkata "Milli ittihad", "Şurayi-islamiyə" və ondan ayrılan "Şurayi-üləmiyə" partiyaları rəhbərlik edirdi. Hərəkat *pantürkizm, Kokand muxtariyyətinin* yaradılması və kafirlərə qarşı *qəzavat* şüarları altında çıxış edirdi.

Türküstanda sovet hakimiyyəti elan olunduqdan (1917, noyabr–dekabr) sonra B. hərəkatı antisovet xarakter aldı. İlk güclü toqquşma 1918 ilin yanvar–fevral aylarında Daşkənddən gələn Qırmızı qvardiya ilə Kokand Muxtar Respublikası hökuməti tərəfindən təşkil olunmuş İrqaşın dəstəsi (məğlub edildikdən sonra Çinə getmişlər) arasında Kokand yaxınlığında baş verdi. 1918 ilin fevralında B.-la mübarizə məqsədilə Türküstan Sovet Resp.-nın silahlı qüvvələrinin tərkibində, əsasən, Türküstandakı rus əhalidən təşkil olunan Qırmızı qvardiya və Qırmızı ordu dəstələrindən ibarət Fərqanə cəbhəsi (1919 ilin noyabrından – 1-ci Fərqanə diviziyası) yaradıldı. 1918 ilin yazında basmaçılar (Xal-Xocanın dəstələri) Oş ş. yaxınlığında fəallaşdılar. Həmin ilin yayında Mərgilanda sovet milisi rəisi Mədamin bəy özünü "Müsəlman ağ qvardiyası"nın komandanı elan etdi və sovet hakimiyyətinə qarşı mübarizəyə başladı. 1918 ilin sonlarında Cəlalabadda Türküstan sovet hökuməti B.-dan müdafiə məqsədilə, ruslardan "Kəndli Fərqanə ordusu"nun (1919 ilin mayından komandanı çar ordusunun sabiq polkovniki K.İ. Monstrov olmuşdur) təşkil etdi; 1919 ilin avqustunda, Türküstanda *ərzaq sapalağının* tətbiqindən sonra, bu ordu Mədamin bəyin basmaçıları ilə birləşdi (sentyabr–oktyabr aylarında onlar Oş və Cəlalabadı tutdular, Əndicanı mühasirəyə alıb Fərqanəyə doğru irəlilədilər, lakin sovet qoşunları tərəfindən məğlub edildilər). 1919 ilin oktyabrında sərhəd qalası İrkeştamda (Erqaştam) keçirilən basmaçı rəhbərlərinin qurultayında Mədamin bəyin başçılığı ilə Müvəqqəti Fərqanə hökuməti yaradıldı.

Rusiyanın Avropa hissəsi ilə əlaqələr bərpa olunduqdan (1919, sentyabr) və *Türküstan cəbhəsinin* komandanı M.V. *Frunze* Türküstana gəldikdən sonra sovet qoşunları Fərqanə vadisinin müdafiəsindən basmaçı dəstələrini dayaq bazalarında məhvetmə əməliyyatlarına keçdilər (1920, yanvar–mart). 1920 ilin yanvarında Monstrov sovet hökuməti tərəfinə keçməyə cəhd göstərsə də, onun dəstəsi Mədamin bəy (1920 ilin martında mühasirəyə düşmüş və sovet qoşunlarına qoşulmuşdu; 1920 ilin mayında Xal-Xoca tərəfindən əsir götürülərək öldürülmüşdür) tərəfindən darmadağın edildi. İlin sonlarında basmaçıların əsas qüvvələri Fərqanə vadisindən sıxışdırılıb çıxarıldı.

*Xivə xanlığının* (1920, fevral) və *Buxara əmirliyinin* (1920, sentyabr) sovet qoşunları tərəfindən ləğvindən sonra hərəkat yenidən gücləndi (təkcə Fərqanədə basmaçıların sayı 30 min nəfərə çatmışdı). Xarəzm və Qaraqumda keçmiş Xivə hökmdarı Cüneyd xanın (1921 ildə məğlub oldu, 1923 ildə yenidən güclənərək Xivəni mühasirəyə aldı, 1924 ildə isə dəstələri darmadağın edilərək Qaraquma sıxışdırıldı; 1927 ildə mühacirət etdi); *Buxara Xalq Sovet Respublikasının* (BXSR) şərq hissəsində isə İbrahim bəyin dəstələri (1921 ilin əvvəllərində məğlub oldu, 1926 ildə tamamilə darmadağın edildi) döyüşürdülər.

1921 ilin payızında Buxaraya gələn *Ənvər paşa* basmaçıların pərakəndə dəstələrini vahid orduda (20 min nəfər) birləşdirib özünü İslam ordusunun baş komandanı elan etdi, Kurşirmat (Kurşir Məhəmməd) və Cüneyd xanla ittifaq bağladı, BXSR-in böyük hissəsini tutdu. Ənvər paşa ilə mübarizə aparmaq məqsədilə Türküstana fəhlə-kəndli Qırmızı ordusunun ali baş komandanı S.S. *Kamenev*, həmçinin G.K. *Orconikidze* və

Y.X. Peters gəldilər. 1922 ilin iyun–avqust aylarında sovet qoşunları Ənvər paşanın dəstələrini mühasirəyə almaq və məhv etmək əməliyyatı keçirdilər. Ənvər paşa döyüşlərin birində həlak oldu. Onun ölümü B. hərəkatını xeyli zəiflətdi. 1922–24 illərdə Türküstan cəbhəsinin qoşunları Fərqanə vadisində, Xarəzmdə, Zərafşan, Səmərqənd və Qaşqadərya vil.-lərində, həmçinin Qərbi Buxarada basmaçı dəstələrin axtarılması və məhv edilməsi əməliyyatları keçirdilər (İrqaş, Müəddin bəy, Kurşirmat, Aman-Palvan, Rəhmankul və b.-nın dəstələri darmadağın edildi). 1924–25 illərdə B.-la mübarizə üçün mərkəzi, resp. və vilayət daimi müşavirələri yaradıldı. Qırmızı ordu hissələri mühüm məntəqələrdə qarnizonlar yerləşdirir, basmaçıların axtarışı və məhv olunması üçün kiçik səyyar dəstələr yaradırdı. Birləşmiş Dövlət Siyasi İdarəsinin (BDSİ) bölmələri basmaçıların dəstələrinə casuslar göndərir, başçılarını qətlə yetirir, onların arasına rəxnə salır, əhalidəki silahları müsadirə edirdi. 1926 ilin sonunda sovet hakimiyyəti tabeliyində olan Orta Asiya ərazisində (Türkmənistandan başqa) iri basmaçı dəstələri, əsasən, dağıdıldı. Basmaçıların ayrı-ayrı qrupları xaricdə möhkəmlənərək oradan SSRİ ərazisinə basqınlar edirdilər.

Kollektivləşmənin zorakı şəkildə həyata keçirilməsi basmaçıların fəallığını yenidən artırdı (1931 ilin ortalarında daxildəki basmaçıların sayı 4 mindən çox idi; onların 3 mini Türkmənistan ərazisində cəmləşmişdi). 1931 ilin martında İbrahim bəy min nəfərlik dəstəsi ilə Əfqanıstandan Tac. SSR ərazisinə hücum etdi, lakin məğlub olaraq geri çəkildi (sərhədi keçərkən əsir düşdü və güllələndi). Həmin il Türkmənistanda sovet rejimini devirmək məqsədilə buraya iki minlik dəstəsi ilə İrandan hücum etmiş Cüneyd xan da Qırmızı ordunun zərbələri altında geri çəkilməyə məcbur oldu. 1931 ilin sentyabr–oktyabr aylarında Orta Asiya hərbi dairəsinin və BDSİ-nin birgə keçirdikləri əməliyyat nəticəsində Türkmənistandakı daxili basmaçı qruplaşmaları (Eyli Axund, Murad Əli, Orazgeldi, İbrahim–Qulu və b.-nın dəstələri) da ləğv edildi. Lakin 1933–34 illərdə Qırmızı ordu ilə yenidən Qaraqumda cəmləşmiş basmaçılar arasında gərgin döyüşlər baş verdi. Basmaçıların dağınıq qrupları 1930-cu illərin sonlarınadək fəaliyyət göstərdi.

B.-la aparılan amansız mübarizə Orta Asiya əhalisi arasında böyük itkilərə səbəb oldu. Belə ki, hərəkatın yatırılması üçün sovet ordusunun keçirdiyi əməliyyatlar nəticəsində çox zaman bütöv kəndlər xaraba qalır, sağ qalan əhali isə qaçqın düşərək ya daha təhlükəsiz yerə, ya da ki xarici ölkələrə (İran, Əfqanıstan, Çin) üz tuturdu. Ərzaq sapalağı və ərzaq vergisinin tətbiqi (1918–21), kollektivləşmənin (1929–31) zorakı şəkildə həyata keçirilməsi bu bölgənin təsərrüfatını iflic vəziyyətə saldı.

**BASMANAXIŞ** – parça üzərinə xüsusi qəliblərlə naxışvurma üsulu. B. qədim xalq sənəti növüdür. Qəliblər, əsasən, taxta, yaxud mis lövhə və ya məftillərdən hazırlanır (yığma qəlib). Rənglənmiş qəlibləri parça üstünə basmaqla naxış alınır. B. qədimdən (əsasən, Şərqdə) geniş yayılmış xalq sənəti növüdür. Yunan tarixçisi Herodot (e.ə. 5 əsr) Qafqaz xalqlarının parçaya bitki məhlulu ilə naxış vurmaları haqqında məlumat vermişdir. Azərb.-da qədim sənət sahələrindən olan B. 19 əsrdə Gəncə, Şəki, Şamaxı, Naxçıvan ş.-lərində, Basqal və Mücü k.-lərində (indiki İsmayıllı r-nunda) inkişaf etmişdi. B. üsulu ilə hazırlanmış Gəncə və Basqal kəlağayıları, ipək və pambıq parçalardan taxça pərdələri, süfrələr, boğçalar və s. Azərb.-dan xaricdə də yayılmışdır.

**BASMANC** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Mehranrud kəndistanında, Bostanabad qəs.-ndən 19 *km* c.-ş.-də, Təbriz–Tehran avtomobil yolunun üstündədir.

**BASÓQALAR** – bax *Soqalar*.

**BASOROPEDA** – *Vaspurakan* vil.-nin antik mənbələrdə adı.

**BÁSOV** Nikolay Gennadiyeviç (14.12.1922, Voronej – 1.7.2001, Moskva) – rus fiziki, kvant elektronikasının banilərindən biri, REA-nın akad. (1966), Nobel mükafatı laureatı (1964, A.M. *Proxorov* və Ç. *Tauns* ilə birlikdə), Sosialist Əməyi Qəhrəmanı (1969, 1982), Lenin mükafatı laureatı (1959), SSRİ Dövlət mükafatı laureatı (1989). Moskva Fizika-Mühəndislik İn-tunu bitirmişdir (1950). Həmin ildən REA-nın P.N. Lebedev ad. Fizika İn-tunda işləmiş, 1973 ildən oranın direktoru olmuşdur. 1954–55 illərdə A.M. Proxorov ilə birlikdə kvant sistemlərinin köməyi ilə elektromaqnit rəqslərinin generasiyasının prinsipcə yeni üsulunu işləyib hazırlamış və ammonyakın molekul dəstələrində ilk molekulyar generator (mazer) yaratmışdır (Ç. Taunsdan asılı olmayaraq). Lazerlərin işçi cismi kimi yarımkeçiricilərin tətbiq olunması ideyasını irəli sürmüş, yarımkeçirici lazerlərin yaradılması üsullarını inkişaf etdirmişdir (əməkdaşları ilə birlikdə). Yaqut kristallarında və neodim şüşəsində güclü impulslu lazerlər nəzəriyyəsinə, tezliyin kvant standartlarının yaradılmasına və güclü lazer şüasının cismlə qarşılıqlı təsirinə dair bir sıra işləri yerinə yetirmişdir. SSRİ EA-nın M.V. Lomonosov ad. qızıl medalı ilə təltif edilmişdir.



**BÁSOV** Vasili Aleksandroviç (24.4.1812, Oryol – 11.1.1880, Moskva) – rus cərrahı. Moskva Un-tinin tibb fakültəsini bitirmişdir (1833). Həmin un-tdə prof. (1852), nəzəri cərrahlıq (1848 ildən), fakültə cərrahlığı (1859–79) kafedralarının müdiri olmuşdur. Cərrahlıqda eksperimental istiqamətin nümayəndələrindəndir. Dünyada ilk dəfə eksperimentdə mədə fistulu ("Basov fistulu") yaradılması əməliyyatını icra etmişdir (1842). Sonralar bu üsuldan fizioloji tədqiqatlarda (o cümlədən İ.P. *Pavlov* tərəfindən) və cərrahi təcrübədə geniş istifadə olunmuşdur. Bir sıra mürəkkəb cərrahi əməliyyatları ilk dəfə uğurla həyata keçirmişdir. Dirsək sümüyünün sınığı zamanı qolun immobilizasiyası üçün alebastr (gips) sarğısından ilk istifadə edənlərdən (1843), Rusiyada traxeotomiyanı ilk həyata keçirənlərdən (1851) biri olmuşdur. Qərbi Avropa elminin nailiyyətlərini Rusiyada təbliğ etmişdir.

Ə s ə r i: О значении хирургии в кругу врачебных наук. СПб., 1848.

**BASOV** Vladimir Pavloviç (28.7.1923, indiki Belqorod vil.-nin Urazovo qəs., – 17.9.1987, Moskva) – rus aktyoru, kinorejissor. SSRİ xalq artisti (1983). Ümumittifaq Kinematoqrafiya İn-tunu bitirmiş (1952, S.İ. Yutkeviç və M.İ. Rommun emalatxanası), "Mosfilm" kinostudiyasında işləmişdir. Əsasən, ədəbi əsərləri ekranlaşdırmışdır: "İlk sevinclər" və "Qəribə yay" (K.M. Fedinin əsərləri əsasında, 1956–57), "Yolda döyüş" (T.Y. Nikolayevanın əsəri üzrə, 1961), "Sakitlik" (Y.V. Bondarevin əsəri əsasında, 1964), "Çovğun" (A.S. Puşkinin əsəri əsasında, 1965), "Təhlükəli döngə" (C. Pristlinin əsəri əsasında televiziya filmi, 1972), "Turbinlər ailəsinin günləri" (M. A. Bulqakovun əsəri əsasında, 1976) və b. Rusiyada macəra janrında serialların yaradıcılarından biri olmuşdur ("Qalxan və qılınc", V.M. Kojevnikovun əsəri əsasında, 4 seriya, 1968); 1981 ildə B. "Keçmiş günün hadisələri" (1982) filmini çəkmişdir. 100-ə yaxın kəskin xarakterli və komik rollar oynamışdır: Döşəməsilən ("Mən Moskvanı gəzirəm"), Lujin ("Cinayət və cəza"), "Tarakan qaçışlarının" sahibi ("Qaçış"), Mışlayevski ("Turbinlər ailəsinin günləri"), Duremar ("Buratinonun macəraları") və s. Çəkdiyi bir sıra filmlərin ssenari müəllifi, yaxud da müəlliflərindən biri olmuşdur.

**BASS BOĞAZI** (Bass Strait) – Avstraliya ilə Tasmaniya a. arasındadır. Tasmaniya dənizini (Sakit okean) Böyük Avstraliya körfəzi (Hind okeanı) ilə birləşdirir. Uz. 490 *km*, ən ensiz yeri 213 *km*, farvaterdə ən dayaz yeri 51 *m*-dir. Q.-dən ş.-ə daimi axın var. Boğazın şm. sahilində Melburn portu yerləşir. 1798 ildə boğazı kəşf etmiş ingilis tədqiqatçısı C. Bassın şərəfinə adlandırılmışdır.

**BASSÁNO** (əsl soyadı da Ponte) – *Venesiya məktəbini* təmsil edən italyan rəssamları ailəsi. Ən görkəmli nümayəndəsi Y a k o p o B.-dur (təqr. 1517–18, Bassano – 13.2.1592, orada); əsasən, doğma şəhərində yaşamış, tez-tez Venesiyaya getmişdir. Atası Böyük F r a n ç e s k o B.-dan (təqr. 1475–1539) dərs almışdır; sonralar yaradıcılığına *Parmicanino*, L. *Lotto* və *Tisianın* təsiri olmuşdur. Onun yetkin əsərlərində ("Samson və filistimlilər", təqr. 1539, Drezden şəkil qalereyası; "Qolqofaya aparan yol", təqr. 1545, London Milli qalereyası; "Misirə gedən yolda istirahət", təqr. 1547, Ambrozian pinakotekası, Milan; və s.) *manyerizmin* səciyyəvi cizgiləri naturaya dərin diqqətlə birləşir. Digər Venesiya sənətkarları kimi o da dini səhnələrə çox vaxt sırf məişət məzmunu verirdi ("Çobanların sitayiş etməsi", 1568, Şəhər muzeyi, Bassano; "İakovun Xanaan torpağından qayıtması", təqr. 1573–74, Dojlar sarayı, Venesiya və s.). Portret və freskalar da çəkmişdir (Kartilyanodakı prixod kilsəsinin "Təsbeh kapellası"nda, 1575).

Onun oğlanlarından ən istedadlıları Kiçik F r a n ç e s k o B. (təqr. 1549, Bassano – 3.7.1592, Venesiya) və L e a n d r o B. (1557, Bassano – 15.4.1622, Venesiya) idi. Onlar çox vaxt bütünlüklə dünyəvi məişət rəsmləri yaradaraq (o cümlədən "İlin fəsilləri" və "Aylar" silsilələri, 1580–90-cı illər), atalarının əsas yaradıcılıq xəttini inkişaf etdirmiş və onu parlaq koloristik tapıntılarla zənginləşdirmişlər. 16 əsrin sonu – 17 əsrin əvvəllərində Leandro Venesiyadakı Dojlar sarayı üçün bir sıra böyük dini və tarixi pannolar çəkmişdir.

**BÁSSERMAN** (Bassermann) Albert (7.9.1867, Manheym – 15.5.1952, Sürix) – alman aktyoru. 1889 ildən səhnə fəaliyyətinə başlamışdır. 1890–95 illərdə Almaniyanın müxtəlif şəhərlərinin teatrlarında, o cümlədən Mayningen teatrında çalışmış, 1900–09 illərdə O. *Bram* ("Alman teatrı", 1904 ildən "Lessinq-teatr"), 1909–15 illərdə M. *Reynhardt* ("Alman teatrı",) 1919 ildə L. *Yesner* ("Berlin Dövlət Teatrı") ilə birgə fəaliyyət göstərmişdir. H. İbsen və G. Hauptmanın pyeslərində komik və tragik obrazların interpretatoru kimi şöhrət qazanmışdır. Digər rolları: Lir, Otello, Şeylok, Malvolio ("Kral Lir", "Otello", "Venesiya taciri", "On ikinci gecə", U. Şekspir), Ştokman ("Xalq düşməni", H. İbsen), Eqmont, Mefistofel ("Eqmont", "Faust", İ. Göte), Tartüf ("Tartüf", J.B. Molyer), II Filipp, Vilhelm Tell ("Don Karlos", "Vilhelm Tell", F. Şiller) və b. Alman səhnəsində güclü, müzəffər qəhrəman obrazını yaratmışdır. 1933 ildə mühacirət etmişdir (İsveçrə, Avstriya, ABŞ). 1945 ildən Avropa teatrlarında oynamışdır. 1913 ildən kinoya çəkilmişdir ("İbtidai istintaq", "Lukretsiya Borcia", "Xarici müxbir", "Madam Küri").



Əd.: М а к а р о в а Г.В. Актёрское искусство Германии. М., 2000.

**BASSETHÓRN** (ital. corno di bassetto, hərfi mənası – bas şeypur) – ağacdan düzəldilən nəfəs aləti, *klarnetin* bir növü. Az istifadə olunan başqa adı alt-klarnetdir. Alətdən maraqlı istifadə nümunələrinə V.A. Motsartın əsərlərində ("Fiqaronun toyu" operasında Qrafinya F-durun ariyası, "Sehrli fleyta" operasında 2-ci pərdənin əvvəlində "Kahinlərin marşı", Rekviyemin əvvəli) təsadüf edilir. Sonralar klassik musiqidə nadir hallarda (F. Mendelsonun klarnet və B. üçün 2 dueti; R. Ştrausun "Elektra" operası) istifadə olunmuşdur.

Bassethorn.



**BASSETLƏR** (ing. bas – qısa, alçaq sözündən) – ov iti cinsləri qrupu; piyada ovda istifadə edilən qısaayaq Avropa tazıları. Qrupa fransız cinsləri (Artua-Normand basseti, mavi Qaskon basseti, kürən Bretan basseti, böyük və kiçik Vandeya basset-qrifonları) və ingilis cinsi basset-haund daxildir. B.-lər, əsasən, ölçülərinə, tükünün tipinə, həmçinin rənginə görə bir-birindən fərqlənir. B. qrupundan ən çox yayılmış cins olan basset-haund 19 əsrin 2-ci yarısında Böyük Britaniyada yetişdirilmişdir. İri uzunsov gövdəli və möhkəm skeletli potaboylu itlərdir. Cidov hünd. 33–38 *sm*, çəkisi təqr. 23 *kq*-dır. Quyruğu qılıncşəkillidir. Tükü qısa, iki, yaxud üçrənglidir (qara, ağ və kürənin müxtəlif cür qarışığı). Başında, boynunda və ətraflarında dəri qırışlar və büküşlər əmələ gətirir. Sallanmış göz qapaqları gözlərinə qəmli ifadə verir, büküşlü qulaqları az qala yerə dəyir. Səsi gözəl alçaq tembrlidir. İnsanlarla ünsiyyəti sevir; çox vaxt kompanyon it kimi saxlanılır.

Basset-haund.



**BASSÉYN**, P a n t e y n (Panthein) – Myanmada şəhər. İravadi vil.-nin inz. m. Əh. 300 min (2006). Ölkənin c.-q.-ində, İravadi düzənliyindədir. Basseyn çayı (İravadi çayının qolu) sahilindədir. Andaman dənizindən 100 *km* aralı, okean gəmilərinin daxil olduğu port. Düyü, tik ağacı və s. k.t. məhsulları ixrac olunur. Yanqon ş. ilə d.y. əlaqəsi var. 1852 ildə ingilislər tərəfindən salınmışdır. Ticarət mərkəzidir. Yeyinti (o cümlədən çəltiktəmizləyən), ağac emalı sənayesi, duz istehsalı müəssisələri; gəmi tərsanəsi var.

**BAST**, B a s t e t – Misir mifologiyasında şənlik və əyləncə ilahəsi. B.-ın müqəddəs



Bastak qoruğu.

heyvanı pişik idi. B. pişikbaşlı qadın obrazında təsvir olunurdu. Sistr adlanan musiqi aləti B.-ın atributu idi. XXII sülalə (Bubastilər; e.ə. 10–8 əsrlər) zamanı çiçəklənmə dövrünü yaşayan B. kultunun mərkəzi Bubastis ş. olmuşdur. B. bəzən *Mut*, Uto *Tefnut*, *Sehmet* və *Xator* ilə eyniləşdirilr. Herodotun verdiyi məlumata görə, B. şərəfinə hər il mahnı və rəqslərlə müşayiət olunan bayram keçirilirdi. Qədim yunanlar B.-ı *Artemida* ilə eyniləşdirirdilər.

**BASTÁK QORUĞU** – RF-nin Yəhudi MV ərazisində, Bureya silsiləsinin c.-ş. yamaclarında dövlət təbiət qoruğu. Sah. təqr. 917 *km*²-dir. 1997 ildə yaradılmışdır. Çay dərələri ilə parçalanmış orta dağlıq relyefi var. Qarışıq meşələr (Koreya sidri, Amur cökəsi, Ayan küknarı, ağ şamağacı, Mancuriya göyrüşü, yaşılqabıq ağcaqayın və s.) səciyyəvidir. Meşə kənarlarında kolluqlar və lianalar yayılmışdır. Heyvanları: maral, sığın, qaban, cüyür, kabarqa, samur, Sibir siçovulu, su samuru, vaşaq, qonur və ağ ayı; quşlardan: Sibir xoruzu, qarabağır, çoxsaylı ağacdələn və sərçəkimilər; Amuryanı fauna kompleksindən hind quququşusu, sürfəyeyən, mavi sağsağan və s. Çoxlu nadir bitki və heyvan növləri var.

**BÁSTARNALAR** (lat. Bastarnae) – Dunayboyu ərazilərdə yaşamış İlliriya-Frakiya mənşəli tayfa; ehtimal ki, keltlərin təsirinə məruz qalmışlar. B. ilk dəfə e.ə. 2 əsrə aid yunan mənbələrində Makedoniyalı V Filippin romalılara və Frakiya tayfalarına qarşı apardığı mübarizədə onun müttəfiqləri kimi qeyd olunurlar. Həmçinin VI Mitridat Yevpator ilə Romaya qarşı ittifaq bağlamışdılar. E.ə. 29 ildə Roma sərkərdəsi Mark Litsini Krass tərəfindən məğlub edilmişlər. Eramızın 3 əsrində imperator *Prob* təqr. 100 min bastarnanı Dunayın sağ sahili ərazilərində yerləşdirmişdir. Sonralar B. mənbələrdə qeyd olunmur.

Baster şəhərinin panoramı.



**BASTÉR** (Basseterre) – Sent-Kits və Nevis dövlətinin paytaxtı. Əh. 12,9 min (2005). Sent-Kristofer a.-nın c. sahilindədir. Dəniz portu (şəkər, melassa, duz, pambıq, kopra, meyvə ixrac olunur). Liman dərinləşdirildikdən (1981) sonra kruiz gəmilərini qəbul edir. Beynəlxalq aeroport. Çarlstaun ş. (Nevis a.) ilə bərə əlaqəsi var.

Şəhər fransızlar tərəfindən 1627 ildə salınmışdır; 1867 il yanğınından sonra yenidən tikilmişdir. 1983 ildən müstəqil dövlətin paytaxtıdır. Britaniya müstəmləkə memarlığı üslubunda tikililər üstünlük təşkil edir: Hökumət evi, Sent-Corc kilsəsi, baş kilsə (1927), saat qülləsi, ikimərtəbəli evlər (birinci mərtəbəsi daşdan, ikincisi – ağacdan). Milli muzey; Nəbatat bağı (1899); kazino var. Şəkər emalı z-du, duz karxanası, pivə z-dları (karib pivəsi) fəaliyyət göstərir; batik kustar istehsalı var.

B.-dən şm.-ş.-də əsas turizm obyekti olan Brimstoun-Hill fortu (18 əsr; 1867 il yanğınından sonra 1960-cı illərdə bərpa olunmuşdur, rəsmən 1985 ildə açılmışdır) yerləşir; qumlu çimərliklər şəhərin c.-ş.-indədir.

**BAS-TER** (Basse-Terre) – Qvadelupanın inz. m. Əh.11,5 min (2005). Bas-Ter a.-nın c.-q.-ində, Karib dənizi sahilindədir. Dəniz portu. 1643 ildə fransızlar tərəfindən salınmışdır.

B.-T. turizm mərkəzidir. Memarlıq abidələrindən Sen-Şarl qalası (1643), Eveşe kilsəsi, Ədliyyə sarayı binası; Nəbatat bağı, Vulkanologiya mərkəzi var. Şəkər, rom, banan istehsal və ixrac olunur. Şəhərdə tez-tez qasırğalar olur. 10 *km* şm.-ş.-də Sufriyer vulkanı (hünd. 1467 *m*), adanın c.-unda Roş-Qrave arxeologiya parkı (insan və heyvan təsvirlərindən ibarət qayaüstü petroqliflər) yerləşir. B.-T. yaxınlığındakı Pijon a.-nda J.İ. Kusto tərəfindən yaradılmış sualtı üzgüçülük mərkəzi fəaliyyət göstərir.

**BASTİAN** Adolf (26.6.1826, Bremen – 2.2.1905, Trinidad və Tobaqo, Port-of-Speyn) – alman etnoloqu. Heydelberq Un-tində hüquq, Berlin, Yena, Vürsburq un-tlərində və Praqanın Karl un-tində tibb təhsili almışdır. 1851–59 illərdə gəmi həkimi qismində Avstraliyada, Yeni Zelandiyada, Peruda, Vest-Hinddə, Meksikada, Kaliforniyada, Çində, Malayya arxipelaqı adalarında, Hindistanda, Yaxın Şərqdə və Afrikada olmuşdur. Ömrünün sonuna qədər etnoqrafik ekspedisiyaları (Afrikaya, C. Amerikaya, Cənubi, Şərqi və Cənub-Şərqi Asiyaya, Avstraliyaya) davam etdirmişdir. 1866 ildən Berlin Un-tində etnologiyadan dərs demişdir; onun 1868 ildən bu un-tdə saxlanılan etnoqrafik kolleksiyası sonradan (1886) özünün rəhbərlik etdiyi Kral etnoqrafiya muzeyinin (hazırda Berlindəki Xalqşünaslıq muzeyi) əsasını təşkil etmişdir. R. *Virxov* ilə birlikdə B. 1869 ildə Berlin "Antropologiya, etnologiya və tarixəqədərki dövr cəmiyyəti"ni yaratmış və "Etnologiya jurnalı"nı ("Zeitschrift für Ethnologie") nəşr etdirmiş, 1870 ildə Mərkəzi Afrikanın tədqiqi cəmiyyətini, 1878 ildə Almaniyanın müstəmləkə hakimiyyət dairələri ilə fəal əməkdaşlıq edən Berlinin Alman Afrika cəmiyyətini təsis etmişdir.

B. nəzəriyyəsinin başlıca anlayışı bütün bəşəriyyət üçün universal təfəkkür forması olan və "xalq anlayışları"nda (Völkergedanken) ifadəsini tapan, mədəniyyətlərin əzəli oxşarlığını müəyyənləşdirən "elementar ideyalar"dır (Elementargedanken). "Elementar ideyalar"ın ümumiliyini B. vahid bioloji növ kimi "bəşəriyyətin psixi vəhdəti" ilə izah edirdi (onun müasiri olan bir çox alimdən fərqli olaraq, B. irqlərin mənşəyi məsələsinə monogenetik baxışa malik idi). Bəşəriyyətin ilkin mədəni eyniliyi sonradan coğrafi, sosial və tarixi amillərin təsiri ilə regional ümumiliklər hüdudlarında mədəniyyətlərin oxşarlığı ilə əvəzlənmişdir. B. *təkamülçülük* nəzəriyyəsi çərçivəsində müqayisəli-tarixi metodun əsasını qoymuşdur; sonradan həmin nəzəriyyə E.B. *Taylor* tərəfindən işlənilmişdir. B.-ın müqayisəli tədqiqatlarında mədəniyyətlərin oxşarlığı və fərqlərinin mühüm faktoru inkişaf mərhələləri deyil, miqrasiya və əlaqələr çıxış edir; bu, *diffuzionizmin* meydana gəlməsinə təkan vermiş, V.Şmidtə və F. Boasa birbaşa təsir göstərmişdir. B.-ın mədəniyyətə psixoloji yanaşması Boas vasitəsilə *etnopsixologiyanın* formalaşmasına təsir etmişdir.

**BASTİLİYA** (Bastille) – 14–18 əsrlərdə Parisdə qala və dövlət həbsxanası. 1369–82 illərdə tikilmişdir. 16 əsrədək Sent-Antuan qəsri adlanırdı. 14–17 əsrlərdə Parisin ş.-ində mühüm istehkam olmuş və lap əvvəldən faktiki olaraq həbsxana funksiyalarını yerinə yetirmişdir; 16 əsrin sonlarından, əsasən, siyasi məhbusların saxlanması üçün istifadə olunurdu. XIV *Lüdovikin* dövründə B.-ya rəsmi dövlət həbsxanası statusu verilmişdir. 1789 il iyulun 14-də Paris üsyançıları B.-nı aldılar. Bu, *Böyük Fransa inqilabının* başlanğıcını oldu. 1790 ildə B. tam dağıdıldı. 1880 ildən B.-nın alındığı gün Fransanın Milli bayramıdır.

**BASTİÓN** (fr. bastion, son latın. bastillio – istehkam tikmək) – beşbucaqlı və uzunmüddətli (qala), yaxud qala divarlarının küncləri̇nə bitişik olan səhra istehkamı. B. ətraf ərazinin, həmçinin qala divarlarının və onun qarşısındakı xəndəklərin cinahlardan atəşə tutulması məqsədi ilə tikilirdi. B.-un ön tərəfləri faslar, yan tərəfləri flanklar, arxa daxili tərəfi isə qorja adlanırdı. İki qonşu B.-un üzbəüz hissələri və qala divarlarının onları birləşdirən sahəsi (kurtina) bastion cəbhəsini təşkil edirdi. B. tipli istehkamlar ilk dəfə 15 əsrin əvvəllərində qalaların müdafiəsi məqsədilə meydana gəlmişdir; səhra istehkamatında 19 əsrin ortalarınadək istifadə olunmuşdur.

**BASTNEZİT** (İsveçdə Bastnes yatağının adından) – nadir torpaq elementləri karbonatlar qrupunun ən geniş yayılmış minerali – Ce[F|$CO_3$]. Heksaqonal sinqoniyada kristallaşır. Kristalları prizmatikdir. Əsasən, dənəvər aqreqatlar əmələ gətirir. Rəngi sarı, qəhvəyi, qonurdur. Şəffafdır. Şüşə, yağ parıltısı var. Sərtliyi 4,5,



Bastnezit.

sıxlığı 4900–5000 *kq/m*³. Qələvi süxurlarla əlaqədar olan təmas-metasomatik və hidrotermal yataqların, həmçinin karbonatitlərin səciyyəvi mineralıdır. Seriumun və onun birləşmələrinin alınmasında əsas xammaldır.

**BASTYEN-LEPÁJ** (Bastien-Lepage) Jül (1.11.1848, Möz dep-ti, Danviller – 11.12.1884, Paris) – fransız boyakarı, qrafik. Parisdə Zərif Sənətlər Məktəbində (1867–70) A. Kabaneldən dərs almışdır. Yaradıcılığına J.F. *Mille*, G. *Kurbe* və E. *Manenin* təsiri olmuşdur. İngiltərə, İtaliya, İsveçrə və Əlcəzairə səfər etmişdir. Portretlər (aktrisa S.Bernar, 1879, Fabr muzeyi, Monpelye; Avtoportret, təqr. 1889, Orse muzeyi, Paris), mifoloji və tarixi kompozisiyalar ("Janna d'Ark səsləri dinləркən", 1880, Metropoliten-muzey, Nyu-York), peyzajlar [Venesiya (1881), London (1882) mənzərələri] çəkmişdir. Lotaringiya kəndlilərinin həyatını əks etdirən lirik rəsmləri daha məşhurdur; çox vaxt *impressionizmin plener* sahəsində tapıntılarından istifadə etmişdir ("Biçənək", 1877, Orse muzeyi; "Kənd məhəbbəti", 1882, Dövlət Təsviri Sənət Muzeyi, Moskva). Monmedidə (Möz) rəssamın muzeyi yaradılmışdır.

**BASÚTO** – bax *Lesoto* (yayla).

**BASÚTO ÜSYANI** ("silah müharibəsi") – 1879–81 illərdə basuto (*sutolar*) xalqının *Kap koloniyasına* qarşı apardığı antikolonial mübarizə. Üsyanın səbəbi indiki *Lesotonun* dağlıq r-nlarında yaşayan basutoların inzibati mərkəzinin ləğv edilməsi və onlara məxsus olan odlu silahların toplanması olmuşdur. Müstəmləkə idarəsi ali hakim Leroqodinin başçılıq etdiyi basuto döyüşçülərinin inadlı müqavimətini qıra bilməmiş və 1881 ildə sülh müqaviləsi imzalamağa məcbur olmuşdur. Müqaviləyə görə, basutoların odlu silah saxlamaq hüququ qalırdı.

**BASÚTOLAR** – bax *Sutolar*.

**BASUTOLEND** – *Lesoto* dövlətinin 1966 ilədək adı.

**BÁSYO**, Matsuo Basyo (digər təxəllüsü Munefusa; əsl adı Matsuo Dzinsitiro) (1644, İqa əyaləti, Ueno – 28.11.1694, Osaka) – yapon yazıçısı. Samuray ailəsində doğulmuşdur. 1664 ildən Kitamura Kigindən poeziya sənətini öyrənmişdir. Bir müddət Kiotoda yaşamışdır. 1670-ci illərin əvvəllərində Edo şəhərinə köçmüş, 1677 ildə burada öz poeziya məktəbinin əsasını qoymuşdur. B.-nun poetik yaradıcılığı özü və şagirdləri tərəfindən yaradılmış antologiyalarda ("Qış günü", 1684; "Yaz günü", 1686; "Unudulmuş tarla", 1689; "Meymunun həsir plaşı", 1691–98 və s.) təqdim olunmuşdur. Uzun illər Edo yaxınlığındakı Furukavada kiçik bir komada yaşamışdır. B. 1680-ci illərin ortalarından başlayaraq, ömrünün sonunadək çoxlu səyahət etmişdir; təəssüratları yazdığı gündəliklərdə (ən məşhuru "Şimal cığırları ilə", nəşri

1702) əks olunmuşdur. Hokku (üçlük) lirik şeir janrının banisi və ən görkəmli nümayəndələrindəndir. B. nəsrdə yeni janrın əsasını qoymuşdur. B.-nun yaradıcılığına dzen-buddizmin böyük təsiri olmuşdur. "Basyo üslubu" təqr. 200 il yapon poeziyasının əsas üslubu olmuşdur. Bəzi şeirləri Azərb. dilinə tərcümə edilmişdir.

Əsərləri: Лирика. М., 1964; Стихи. Проза. Спб., 2002.

**BAŞ ABARAN** – İrəvan xanlığının Abaran mahalında (9.9.1930 ildən Abaran, 3.1.1935 ildən Aparan r-nu) azərb.-ların yaşadığı kənd. 1963 ildən şəhər tipli qəs., 9.9.1930 ildən Abaran r-nunun inz.m. 1826–28 illər Rusiya-İran və 1828–29 illər Rusiya-Osmanlı müharibələri zamanı kəndin azərb. əhalisi qovulmuş, burada İrandan və Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir.

**BAŞ AĞRISI** – müxtəlif xəstəliklər zamanı ən çox təsadüf edilən əlamətlərdən biri; başın dərisinin, dərialtı birləşdirici toxumasının, kəllənin, onurğa sütununun boyun şöbəsinin yuxarı hissəsinin əzələlərinin, bağlarının, sümüküstlüyünün, damarlarının, göz, qulaq, burun boşluqları və burunətrafı boşluqların, beyin qişaları toxumalarının ağrı reseptorlarının qıcıqlanması nəticəsində, habelə üçlü, dil-udlaq, azan sinirlərin və birinci üç boyun onurğa beyni sinirlərinin zədələnməsi zamanı baş verir. B. a.-nın əsas səbəbləri: arteriyaların tonusunun tənzimlənməsinin genetik şərtlənən pozuntusu, iltihabi proseslər, beyin qan dövranı pozuntuları, kəllə travması, şişlər, intoksikasiyalar, kəllənin və onurğa sütununun boyun şöbəsinin yuxarı hissəsinin inkişaf anomaliyaları və s. Kəllə toxumalarının üzvi zədələnmələri ilə əlaqədar olan və müstəqil xəstəlik (miqren, dəstəli B. a., gərginlik B. a. və s.) hesab edilən birincili B. a. və başqa xəstəliklərin (məs., meningit, baş beyin şişləri, burunətrafı boşluqların iltihabı, göz, qulaq xəstəlikləri və s.-nin) simptomu kimi ikincili B. a. ayırd edilir. B. a., əsasən, onu törədən səbəblərdən asılıdır.

Ən çox rast gələn birincili B. a. formalarından biri *miqrendir*. Dəstəli B. a. (miqrendən fərqli olaraq, çox vaxt kişilərdə müşahidə edilir) göz qapağının sallanması, bəbəyin daralması, gözün qızarması, göz yaşı axması, ağrı lokallaşan tərəfdə burnun tutulması ilə müşayiət olunan kəskin birtərəfli seriyalı B. a. tutmaları ilə səciyyələnir. Belə B.a. bir neçə həftədən bir neçə aya qədər davam edə bilər; səbəbi müəyyənləşdirilməmişdir. Müalicəsi miqrenin müalicəsi ilə eynidir. Gərginlik B. a. alın nahiyəsində tutmaşəkilli və yaxud, demək olar ki, daimi ikitərəfli dartıcı, sıxıcı ağrılarla və ya çox vaxt yorğunluq, emosional gərginlik fonunda baş verən, dəbilqə simptomu adlanan ağrılar şəklində meydana çıxır. Onun əmələ gəlməsində baş dərisi əzələlərinin gərginləşməsinin və ümumiyyətlə ağrı həssaslığının artmasının rolu ehtimal edilir. Müalicəsi: ağrıkəsici dərmanlar, miorelaksantlar, antidepressantlar, psixoterapiya, iynə-refleks müalicəsi, masaj.

İkincili B. a.-nın ən çox rast gələn formalarından biri onurğanın boyun şöbəsinin yuxarı hissəsinin – onun oynaqlarının, bağlarının, əzələlərinin vəziyyətinin dəyişməsi nəticəsində yaranan servikogen (boyun nahiyəsi ilə əlaqədar) B. a.-dır. Belə B.a. üçün boyun-ənsə nahiyəsində olmaqla alın-əmgək və göz yuvası zonasına yayılan birtərəfli və ya ikitərəfli ağrılar səciyyəvidir. Müalicəsi: ağrıkəsici dərmanlar, miorelaksantlar, boyun əzələlərinin dərman blokadası, manual terapiya, masaj, iynə-refleks müalicəsi. İkincili B.a.-nın diaqnozu və müalicəsi əsas xəstəliyin aşkar edilməsinə əsaslanır.

**BAŞ BEYİN** – insan və onurğalı heyvanlarda mərkəzi sinir sisteminin kəllə boşluğunda yerləşən ön şöbəsi. B.b. orqanizmin ən mühüm funksiyalarını tənzimləyir, davranış reaksiyalarını idarə edir, yaddaşın və *ali sinir fəaliyyətinin* əsasını təşkil edir. Mərkəzi sinir sistemi olan onurğasız heyvanlarda bu funksiyaları baş qanqlilər yerinə yetirir; həşəratlarda və molyusklarda bu qanqlilər çox vaxt B.b. adlandırılır. Xordalılar arasında ilk primitiv B.b. neştərçədə bədənin baş ucunda sinir hüceyrələri yığıntısı şəklində meydana çıxmışdır. Dəyirmiağızlılarda B.b.-in bütün əsas şöbələri: ön, orta və arxa beyin vardır. Balıqlarda və quruda yaşayan onurğalılarda B.b.-in eyni quruluş planı saxlanılır. Eyni zamanda, suda-quruda yaşayanlarda və sürünənlərdə B.b.-in orta və ön şöbələri mühüm dəyişikliklərə məruz qalır. Sonuncuda ara beyin və iki simmetrik yarımkürə intensiv inkişaf edir. Quşlarda beyincik, *bazal nüvələr* və *ön beyin* çəpkəninin spesifik strukturu – hiperstriatum (məməlilərdə neokorteksə uyğundur) xeyli inkişaf etmişdir. Məməlilərdə ön beyinin çox güclü təbəqələşməsi gedir; *böyük beyin yarımkürələrinin qabığı* mühüm inkişaf səviyyəsinə çatır.

Məməlilərin B.b.-ində 5 əsas şöbə ayırd edilir: *uzunsov beyin* (onurğa beyni ilə həmsərhəddir); arxa beyin (varol körpüsü və beyincik daxildir); *orta beyin* (dördtəpə və beyin ayaqcıqları ilə təmsil edilir); ara beyin (epitalamus, *talamus* və *hipofizlə* əlaqəli *hipotalamus* daxildir) və *uc beyin* (böyük yarımkürələr). Birinci üç şöbə birlikdə (beyincik istisna olmaqla) beyin kötüyünü əmələ gətirir.

B.b. filogenetik olaraq sinir borusunun ön ucundan inkişaf edir. O, üç baş qovuğun törəməsidir. Ön beyin qovuğu iki yerə bölünür; bunun biri böyük yarımkürələr və bazal nüvələr daxil olan uc beyini, ikincisi isə ara beyini əmələ gətirir. Orta beyin qovuğu orta beyinə başlanğıc olur. Arxa qovuqdan beyincik, varol körpüsü və uzunsov beyin əmələ gəlir. Beyin toxuması qabıq və nüvələri əmələ gətirən boz maddədən (neyron cisimləri və neyroqliya) və sinir hüceyrələri arasında əlaqə yaradan, əsasən, sinir liflərindən – ağ maddədən ibarətdir. B.b. üç qişa ilə örtülmüşdür: yumşaq, hörümçəktorunabənzər və sərt (xarici). Yumşaq və hörümçəktorunabənzər qişalarda çoxlu damarlar olur; onların arasında beyin mədəcikləri ilə əlaqəsi olan hörümçəktorunabənzər qişaaltı boşluq yerləşir. Burada *onurğa beyni mayesi* əmələ gəlir və dövr edir. Mədəciklər B.b.-in mərkəzi hissəsini tutur və öz aralarında, habelə onurğa beyni kanalı ilə əlaqəli olur. Onurğa beyni mayesi vasitəsilə damarlardan qan ilə beyinə daxil olan və çıxan müxtəlif maddələrin mübadiləsi baş verir. B.b.-i qida ilə təmin edən damarlar arterial qanı yuxu arteriyalarından və onurğa (vertebral) arteriyalarından alır; venoz qan vidaci venaya daxil olur.

B.b. kötüyü *kəllə-beyin sinirlərinin* hissi və hərəki nüvələrindən, retikulyar formasiyanın proyeksiya (məs., görmə və eşitmə sistemlərinin) və dəyişdirici (sensor yollardan qabığın ilkin sensor zona neyronlarına) nüvələrindən, həmçinin sinir lifləri və onların sıx yerləşmiş qruplarından (yollarından) ibarətdir. B.b. kötüyündən kəllə-beyin sinirləri çıxır. B.b. kötüyünün strukturlarında tənəffüs, qan dövranı, udma, qusma və s. (uzunsov beyin), görmə və eşitmə (orta beyinin dördtəpə qabarları) funksiyalarını idarə edən, bioloji ritmləri tənzimləyən (ara beyinin yuxarı şöbəsi) sinir mərkəzləri yerləşir. Beyin kötüyündə baş və onurğa beyninin müxtəlif şöbələrini əlaqələndirən yollar olur.

Ara beyin çox sayda qarşılıqlı əlaqəli nüvələrdən ibarətdir; ön beyinlə sıx funksional əlaqəlidir. Talamusun nüvələri daxili orqanlardan və hipotalamusdan gələn məlumatların, sensor məlumatların işlənilməsində, B.b.-in (B.b. qabığı ilə birlikdə) ali inteqrativ funksiyalarında, qıcıqlanmanın tənzimlənməsində, habelə hərəki aktivliyin təşkilində iştirak edir. Hipotalamusda maddələr mübadiləsinə nəzarəti, orqanizmin daxili mühitinin sabitliyini (homeostazı), istilik tənzimini, damar tonusunu və s.-ni təmin edən nüvələr yerləşir. O, hipofizlə funksional əlaqədədir.

B.b. yarımkürələri qabıq, ağ maddə və bazal nüvələrdən ibarətdir; onlar qazanılma davranış aktlarının yaranmasına və ali sinir fəaliyyətinə cavabdehdir. Hər yarımkürə paylara bölünür. Payların qabığı onların səthini xeyli artıran şırımlar və qırışıqlar əmələ gətirir; insanda, meymunda, eləcə də balinakimilərdə daha çox inkişaf etmişdir. Qabıqda hissi, hərəki (motor), assosiativ zonalar ayırd edilir. B.b. yarımkürələri öz aralarında iri sinir lifləri dəstəsi – döyənəkli cism vasitəsilə əlaqədədir. Qalxan və enən liflərin güclü sistemi yarımkürələrin beyinin aşağıda yerləşən şöbələri ilə əlaqəsini təmin edir. İybilmə reseptorlarından məlumat bilavasitə yarımkürələrə daxil olur. Qabıq bazal nüvələrlə və beyinin qalan şöbələrinin nüvələri ilə vahid funksional tam təşkil edir və sensor məlumatların işlənilməsində iştirak edir, sensorlararası inteqrasiyanı, məqsədyönlü əlaqələndirilmiş hərəki reaksiyaları təmin edir, təlim, yaddaş, düşüncə, təfəkkür, nitq və s. kimi intellektual funksiyaların əsas substratıdır. Yarımkürələrin ağ maddə qatında yerləşən bazal nüvələr qabıqla birlikdə əlaqələndirilmiş hərəkətlərin və sensomotor inteqrasiyanın təşkilində iştirak edir. B.b.-in bəzi törəmələri hərəkətlərin təmin edilməsinə, əzələ tonusunun və duruşun tənzimlənməsinə cavabdeh olan *ekstrapiramida sistemində* birləşir. Limbik sistemdə birləşən strukturlar bir sıra anadangəlmə davranış aktlarına, yaddaşın bəzi növlərinə, emosiya və motivasiyaların formalaşmasına cavabdehdir. B.b.-in bütün şöbələri vahid sistemdə birləşmişdir; burada aparıcı və təşkiledici rolu böyük beyin yarımkürələrinin qabığı oynayır.

İnsanın baş beyini. B.b.-in orta kütləsi yetkin kişilərdə 1400 *q*, qadınlarda –1250 *q*-dır; bu, bədən kütləsinin 2–2,5%-inə müvafiqdir. Təzə doğulmuşlarda B.b.-in kütləsi təqr. 350 *q* olur. Onun kütləsi sinir lifləri ətrafında yumşaq mielin qişasının əmələ gəlməsi, yeni sinapsların (neyronlararası əlaqələrin) formalaşması və yardımçı sinir toxuması hüceyrələrinin (neyroqliyaların) çoxalması hesabına artır. B.b. maks. kütləyə 18–30 yaş arasında çatır, sonra tədricən azalır. Uşağın B.b.-inin kütləsi təqr. 750 *q* olduqda o, danışmağa başlayır. Buna əsasən fərz edilir ki, beyin kütləsi bu qiymətə uyğun olan ən qədim insanlar ibtidai nitqə malik ola bilərdilər. Lakin, əldə olan məlumatlara görə insanın sinir fəaliyyətinin spesifik xüsusiyyətləri və onun qabiliyyəti təkcə beyinin kütləsi ilə deyil, həm də neyronlar arasındakı əlaqələrin sayı ilə bağlıdır. B.b. insan orqanizminin ən gərgin işləyən strukturudur və orqanizmə daxil olan oksigenin 20%-ə qədərini istifadə edir.

*Əd.*: Блум Ф., Лейзерсон А., Хофстедтер Л. Мозг, разум и поведение. М., 1988; От нейрона к мозгу. М., 2003; Şadlinski V.B., Qasımov Ş.İ., Mövsümov N.T. İnsan anatomiyası. 2-ci c., B., 2006.

**BAŞ CÜMLƏ** – tabeli mürəkkəb cümlənin tərkibində tabeedici cümlə. Tabeli mürəkkəb cümlə iki hissədən – baş və budaq cümlələrdən ibarətdir. B.c., adətən, qrammatik vəziyyətinə görə sərbəst olur, budaq cümləni özünə tabe edir. Budaq cümlə qrammatik cəhətdən B.c.-dən asılı olur; semantik cəhətdən belə asılılıq olmaya da bilər.

**BAŞ DAŞAĞIL** – Azərb. Resp. Oğuz r-nunda kənd. Baş Daşağıl ə.d.-nin mərkəzi. R-n mərkəzindən 25 *km* şm.-q.-də, Daşağıl çayının sahilində, Baş Qafqaz silsiləsinin c. ətəyindədir. Əh. 1200 (2008); heyvandarlıq, əkinçilik və bağçılıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi, poçt, ATS var.

**BAŞ DİZƏ** – Azərb. Resp. Ordubad r-nunun (Nax. MR) Sabirkənd ə.d.-ndə kənd. R-n mərkəzindən 25 *km* şm.-q.-də, Gilançayın (Arazın sol qolu) sahilindədir. Əh. 562 (2011); bağçılıq, əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi, poçt, ATS var. Ərazisindəki qəbiristanlıqda orta əsrlərə aid qəbirüstü qoç daş heykəlləri olmuşdur.

**BAŞ ƏRKANİ-HƏRB**, Baş qərargah – *Azərbaycan Xalq Cümhuriyyəti* dövründə ali hərbi idarəçilik orqanı. 1919 il martın 26-da hərbi nazir S. *Mehmandarovun* əmri ilə yaradılmışdır. BƏH qoşun hissələrinin formalaşmasına, təlim-tərbiyəsinə, döyüş hazırlığına, həmçinin hərbi əməliyyatların həyata keçirilməsinə nəzarət edirdi. *Müsəlman korpusunun* keçmiş komandiri gen.-l. M. *Sulkeviç* BƏH-in rəisi təyin olundu. Bu idarəetmə strukturu general-kvartirmeyster, hərbi topoqrafiya və hərbi daşınmalar idarələrindən ibarət idi. General-kvartirmeyster idarəsi müharibəyə hazırlıq planlarının işlənilməsi, toplanış məntəqələrinin seçilməsi, onların hər cəhətdən hazırlanması və səfərbərlik planının tərtib edilməsi ilə məşğul olan əməliyyat – səfərbərlik bölməsindən, orduda təlim-tərbiyəni təşkil edən nizami bölmədən ibarət idi. Hərbi topoqrafiya idarəsi qoşun hissələrini və qərargahları hərbi xəritələrlə təmin edirdi. Hərbi daşınmalar idarəsi d.y.-larnı və digər yolları hərbi məqsədlər üçün hazırlayır, arxa cəbhəni zəruri ləvazimatlarla təmin edirdi.

BƏH-in rəhbərliyi altında orduda yeni hərbi hissələrin təşkili və möhkəmləndirilməsi prosesi sürətləndi. *Abşeronun müdafiə sistemi*, *Bakının müdafiə sistemi* yaradıldı, Bakının dənizdən müdafiəsi planı işlənib hazırlandı, şimal sərhədinin müdafisə sistemi quruldu.

1920 il martın 1-də BƏH ləğv edildi, onun funksiyaları Azərb. ordusunun baş qərargahına həvalə olundu.

**BAŞ GƏRNİ**, Gərni, Göqam, Gögkənd – İrəvan xanlığının Gərnibasar mahalının (9.9.1930 ildən Kotayk, 12.10.1961 ildən Abovyan r-nu) dağlıq hissəsində, Gərni çayının sağ sahilində azərb.-ların yaşadığı kənd. Qafqazda azər.-lara məxsus ən qədim yaşayış məskənlərindən biri. Tarixi rəvayətlərdə kəndin Oğuz xanın oğlu Gög xan tərəfindən salındığı və onun adını daşıdığı qeyd olunur. 1826–28 illər Rusiya-İran müharibəsi zamanı qala-kənd dağıdılmış, azərb. əhali qovulub çıxarılmışdır. 1830-cu illərdən sonra burada İrandan gəlmə ermənilər yerləşdirilmişdir. 3.1.1935 ildə kəndin adı dəyişdirilib Qarni qoyulmuşdur.

**BAŞ GÖSTƏRİCİSİ**, antropologiyada – başın eninin uzunluğuna faizlə nisbəti. B.g. irsi əlamətdir. 3 forması məlumdur: *dolixokefaliya*, *mezokefaliya* və *braxikefaliya*. Məhəlli antropoloji tiplərin fərqləndirilməsində istifadə edilir.

**BAŞ GÖYNÜK** – Azərb. Resp. Şəki r-nunda kənd. Baş Göynük ə.d.-nin (Baş Göynük, Baş Şabalıd k.-ləri daxildir)



Baş Kordilyer silsiləsi.

mərkəzi. R-n mərkəzindən 30 *km* şm.-q.-də, Şinçayın (Əyriçayın qolu) sol sahilindədir. Əh. 7575 (2009); taxılçılıq, tütünçülük və heyvandarlıqla məşğuldur. Ağac emalı, yem və unüyütmə müəssisələri; 2 ümumi orta məktəb, 2 tam orta məktəb, uşaq bağçası, kitabxana; 25 çarpayılıq xəstəxana; ATS var.

**BAŞ GÖZƏLDƏRƏ** – İrəvan xanlığının Göyçə mahalında (9.9.1930 ildən Martuni r-nu) azərb.-ların yaşadığı kənd. Rusiya-İran müharibəsi (1826–28) zamanı kənd dağıdılmış, azərb. əhali qovulub kənddən çıxarılmış və kənd xarabalığa çevrilmişdir.

**BAŞ GÜNEYPƏYƏ** – Azərb. Resp. Ağdam r-nunda kənd. Baş Güneypəyə ə.d.-nin mərkəzi. R-n mərkəzindən 35 *km* şm.-q.-də, Qabartəpə çayının sahilindədir. Əh. 882 (2008); maldarlıq, bağçılıq və taxılçılıqla məşğuldur. Tam orta məktəb, kitabxana, tibb məntəqəsi var.

**BAŞ XƏLƏC** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Atəşbəy kəndistanında, Səriskənd qəs.-ndən 40 *km* q.-dədir.

**BAŞ KƏLDƏK** – Azərb. Resp. Şəki r-nunda kənd. Baş Kəldək ə.d.-nin (Baş Kəldək, Aşağı Kəldək, Oraban k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 18 *km* ş.-də, Əyriçayın sol sahilində, Baş Qafqaz silsiləsinin c. ətəyindədir. Əh. 1160 (2009); heyvandarlıq və taxılçılıqla məşğuldur. Ümumi orta məktəb, mədəniyyət evi, klub, tibb məntəqəsi; orta əsrlərə aid "Gavur qalası" (6 əsr) və "Həzrət Əli" qalası var.

**BAŞ KORDİLYER SİLSİLƏSİ**, And dağlarının Baş Kordilyer silsiləsi (Cordillera Principal; Cordillera de los Andes) – Cənubi And d-rında, Çili və Argentina sərhədi boyunca 31° və 39° c.e.-ləri arasında uzanan suayırıcı silsilənin çox işlədilən adı. Əsasən, Mezozoyun çökmə və vulkan süxurlarından təşkil olunmuşdur. Yüksək nöqtəsi Akonkaqua d.-dır (6959 *m*). 33° c.e.-ndən c.-da və q. yamacında fəaliyyətdə olan çoxlu vulkan – San-Xose (5880 *m*), Maypo (5323 *m*), Lyayma (3060 *m*) və s. var; aktiv seysmiklik səciyyəvidir. C.-a doğru yağıntıların miqdarı artdığından (200-dən 2500 *mm*-ədək) qar xətti 4900 *m*-dən (30° c.e.) 2300 *m*-ədək (39° c.e.) enir. B.K.s.-nin şm.-ını seyrək kserofit kolları, mərkəzini sərtyarpaqlı meşələr və kolluqlar, c.-unu rütubətli həmişəyaşıl meşələr tutur.

**BAŞ KÜNGÜT** – Azərb. Resp. Şəki r-nunda kənd. Baş Küngüt ə.d.-nin (Baş Küngüt, Bideyiz k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 28 *km* c.-ş.-də, Küngüt çayının (Əyriçayın qolu) sahilində, Qızılqaya d.-nın ətəyindədir. Əh. 1500 (2009); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, ATS; Alban məbədi (eramızın 3–4 əsrləri) var.

**BAŞ KVANT ƏDƏDİ** – hidrogen atomuna və hidrogenəbənzər elementlərin atomlarına məxsus enerjinin mümkün qiymətlərini təyin edən $n=1, 2, 3, \ldots$ kvant ədədi. Digər kimyəvi elementlərin atomları üçün B. k. ə. verilən $l$ azimutal kvant ədədinin qiymətləri vasitəsilə enerji səviyyələrinin ardıcıllığını (artan sıra ilə) nömrələyir: $n = l+1, l+2, l+3, \ldots$; $l = 0, 1, 2, \ldots$ . Bax həmçinin *Atom*.

**BAŞ QAFQAZ SİLSİLƏSİ**, Suayırıcı silsilə – bax *Böyük Qafqaz*.

**BAŞ QARAÇANLI** – Azərb. Resp. Kəlbəcər r-nunun Qaraçanlı ə.d.-ndə kənd. R-n mərkəzindən 13 *km* c.-ş.-dədir. Əh. 179 (2008); işğaldan (1993, aprel) əvvəl tütünçülük və heyvandarlıqla məşğul olmuşdur. Orta məktəb var idi.

**BAŞ QƏRARGAH** (BQ) – dövlətin silahlı qüvvələrinin (SQ) mərkəzi idarəetmə orqanı. 16–17 əsrlərdə Avropa dövlətlərinin ordularında *general-kvartirmeyster* vəzifəsinin, həmçinin kəşfiyyatın aparılması, ərazilərin və yolların öyrənilməsi, qoşunların hərəkətinin və mənzillərə yerləşdirilməsinin təşkilində məsuliyyət daşıyan kvartirmeyster hissəsinin təsis edilməsi BQ-ın yaradılmasının əsasını qoymuşdur.

BQ-ın ayrı-ayrı ölkələrdə dövlətdəki rolu və funksiyaları, həmçinin dövlət və hərbi idarə orqanları ilə münasibətləri mühüm dərəcədə fərqlənirdi. 19 əsrin 2-ci yarısında ekspansiya və təcavüz siyasətinin əsas təşəbbüskarı olan Almaniyanın BQ-ı ölkə həyatında çox əhəmiyyətli rol oynamışdır. Avstriya-Macarıstanda da B.Q. bənzər rol oynamışdır. Almaniyanın B.Q.-ı Birinci dünya müharibəsində Almaniya koalisiyasının məğlubiyyətindən sonra imzalanan *Versal sülh müqaviləsinə (1919)* əsasən, Avstriya-Macarıstanın BQ-ı isə Avstriya-Macarıstan imperiyasının parçalanması (1918) ilə bağlı ləğv edilmişdir. Fransanın B.q.-ı öz vəzifəsini yerinə yetirərək dövlətin daxili və xarici siyasətinə əhəmiyyətli dərəcədə təsir göstərmirdi. B.Britaniyada B.Q. 20 əsrin əvvəllərində yaradılmışdır. Onun funksiyalarına dəniz və səhra qərargahlarının fəaliyyətinin əlaqələndirilməsi daxil idi. İkinci dünya müharibəsi ərəfəsin- də bütün ölkələrdə BQ-ın quruluşu və funksiyaları mühüm dəyişikliklərə məruz qaldı, onların həll etdikləri məsələlərin həcmi xeyli artdı. *Berlin (Potsdam) konfransının (1945)* qərarına əsasən Almaniyanın BQ-ı buraxıldı və gələcəkdə onun fəaliyyəti qadağan edildi. ABŞ və B. Britaniyada İkinci dünya müharibəsi zamanı faktiki olaraq BQ-ın funksiyalarını yerinə yetirən Qərargah rəhbərləri komitəsi SQ-nin ali rəhbər orqanı idi. SQ-nin ali idarə orqanlarının müharibənin gedişində formalaşmış təşkilati əsaslarının və iş prinsiplərinin bir çoxu qalmaqdadır.





**BAŞ QƏRVƏND** – Azərb. Resp. Ağdam r-nunda kənd. Qərvənd ə.d.-nin (Baş Qərvənd, Orta Qərvənd, Ayaq Qərvənd, Şıxlar k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 17 *km* şm.-ş.-də. Xaçın çayının sahilində, Qarabağ düzündədir. Əh. 2535 (2008); pambıqçılıq, üzümçülük, taxılçılıq və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, kitabxana, klub, ATS, xəstəxana, tibb məntəqəsi; pambıq qəbulu məntəqəsi, süni damazlıq st. var.

**BAŞ QIŞLAQ** – Azərb. Resp. Goranboy r-nunun Buzluq ə.d.-ndə kənd. R-n mərkəzindən 40 *km* c.-q.-də. Kəpəz d.-nın yamacında, Buzluq çayının (Kürəkçayın qolu) sahilindədir. Kənddə daimi yaşayış yoxdur, yalnız yaz və yay mövsümlərində əhali buraya köç edərək maldarlıq və arıçılıqla məşğul olur.

**BAŞ QIŞLAQ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Qışlaq-Əfşar kəndistanında, Qiydar qəs.-ndən 15 *km* q.-dədir.

**BAŞ LAYSKİ** – Azərb. Resp. Şəki r-nunda kənd. Baş Layski ə.d.-nin (Baş Layski, Cunud, Qumux, Şin k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 35 *km* şm.-q.-də, Şəki–Zaqatala avtomobil yolundan 9 *km* aralı, Baş Qafqaz silsiləsinin c. ətəyindədir. Əh. 5812 (2009); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, mədəniyyət evi, 20 çarpayılıq xəstəxana, rabitə şöbəsi, ATS; məscid var.

**BAŞ MƏCLİS** – bax *Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi.*

**BAŞ MİL KANALI** – Azərb. Resp.-nda, Mil düzündə suvarma kanalı. 1976 ildə istismara verilmişdir. Kanalın uz. 37,5 *km*-dir və bütün uz.-u boyunca betonla üzlənmişdir. Suburaxma qabiliyyəti 93 $m^3$/*san*-dir. B.M.k. Araz çayı üzərində tikilmiş Mil-Muğan su qovşağından başlayır və Füzuli, Beyləqan, Ağcabədi r-nlarında 76 min *ha* əkin sahələrinin suvarılmasını təmin edir.

**BAŞ MİL-MUĞAN KOLLEKTORU** – Azərb. Resp.-nda, Mil-Muğan düzündə tikilmiş kollektor-drenaj sistemi. B.M.-M.k.-nun tikintisinə 1984 ildə başlanılmışdır. Layihə üzrə kollektorun qolları ilə birlikdə ümumi uz. 185,89 *km*-dir. 1994 ildə kollektorun 59 *km* uz.-nda olan birinci hissəsi (Sabirabad və Saatlı r-nları əraziləri), 2000 ildə isə 52,7 *km*-lik ikinci hissəsi (Araz çayına qədər olan ərazilər) istifadəyə verilmişdir. Suburaxma qabiliyyəti (Xəzər dənizənə töküldüyü yerdə) 107 $m^3$/*san*-dir. Kollektor suvarılan torpaqlardan drenaj sularının özüaxımlı olmaqla Xəzər dənizinə atılmasını təmin edir. B.M.-M.k. kompleksinin tərkibində Azərb.-da ilk dəfə olaraq mürəkkəb konstruksiyalı balıqqoruyucu qurğu tikilmişdir.

**BAŞ MUĞAN KANALI** – Azərb. Resp.-nda suvarma kanalı. 1956 ildə istifadəyə verilmişdir. Araz çayı üzərindəki *Bəhrəmtəpə su qovşağından* Mürsəlli kanalının və Sabir ad. kanalın başlandığı sudurulducuyadək uzanır (31 *km*). Başlanğıc hissədə suburaxma qabiliyyəti 55 $m^3$/*san*-dir. Muğan düzündə 98 min *ha* torpağın suvarılmasında istifadə edilir.

**BAŞ NAZİR** – bir sıra dövlətlərdə hökumət başçısı; ümumi qaydaya görə, B.n.-i dövlət başçısı təyin edir. B. n. nazirləri vəzifəyə təyin və vəzifədən azad edir, hökumətin gündəlik fəaliyyətinə rəhbərlik və inzibati aparata başçılıq edir. Parlament ölkələrində B. n. parlamentdə çoxluq təşkil edən partiyanın rəhbəri, yaxud partiyalar koalisiyasının lideridir, çoxluq təşkil edən parlament fraksiyasına rəhbərlik edir. Bir sıra ölkədə (məs., AFR-də) hökumət başçısı kansler adlanır (bax həmçinin *Hökumət başçısı* məqaləsinə).

**BAŞ ÖTÜRÜCÜ** – avtomobillərdə və digər özügedən maşınlarda (traktor, kombayn), burucu (fırladıcı) momenti kardan valı vasitəsilə mühərrikdən aparıcı təkərlərə ötürən dişli mexanizm; fırlanma kardan valından yarımoxlara 90° bucaq altında ötürülür və aparıcı təkərlərin dartı qüvvəsini artırır. B.ö.-də dişli çarx ötürücüsü, bəzi hallarda hipoid ötürücüsü tətbiq edilir.

**BAŞ ŞABALID** – Azərb. Resp. Şəki r-nu ərazisində çay. Şin çayının sol qolu. Böyük Qafqazın c.-q. yamacından başlanır. Uz. 13 *km*.

**BAŞ ŞABALID** – Azərb. Resp. Şəki r-nunun Baş Göynük ə.d.-ndə kənd. R-n mərkəzindən 20 *km* şm.-q.-də, Baş Qafqaz silsiləsinin c. ətəyindədir. Əh. 877 (2009); heyvandarlıq və taxılçılıqla məşğuldur. Tam orta məktəb, tibb məntəqəsi; məscid (19 əsr) var.

**BAŞ ŞİRVAN KOLLEKTORU** – Azərb. Resp.-nda kollektor-drenaj sistemi. Şirvan, Mil və Qarabağ düzlərindədir. 1964 ildə istifadəyə verilmişdir. Şirvan düzünün Ağdaş r-nu ərazisindən başlanır və Kür çayının sol sahili boyunca uzanaraq meliorasiya olunan torpaqların drenaj sularının Xəzər dənizinə tökülməsini təmin edir. Uz. 216 *km*-dir. Maks. su sərfi (suburaxma qabiliyyəti) 44 $m^3$/*san*, orta su sərfi 18 $m^3$/*san*-dir. B.Ş.k.-na Mollakənd ərazisində (Kürdəmir r-nu) uz.150 *km* olan Mil-Qarabağ kollektoru və uz. 70 *km* olan Aşağı Şirvan kollektoru birləşir. B.Ş.k. 174600 *ha* torpaq sahəsinin meliorasiya vəziyyətini yaxşılaşdırır.

**BAŞ ŞTATLAR** (fr. Etats generaux) – Fransada 14–18 əsrlərdə silk nümayəndələrinin ali məşvərətçi orqanı, silki monarxiyanın əsas institutlarından biri.

B.ş. fövqəladə hallarda üç silkin – ruhanilərin, zadəganların və şəhərlərin (üçüncü silk adlandırılan) nümayəndələrinin iştirakı ilə geniş tərkibdə iclas keçirən Kral şurasından ayrılmışdır. B.ş.-ın Kral şurasından ayrılmasının dəqiq tarixi məlum deyil. İlk dəfə 1302 ildə – kral hakimiyyətinin dünyəvi məsələlərdə papa taxtından asılı olmayan müstəqil fəaliyyətini göstərmək uğrunda mübarizəsinin qızğın çağında çağırıldığı məlumdur. Sonralar ümumdövlət maraqlarına toxunan mühüm qərarların (maliyyə subsidiyalarının ayrılması, yeni vergilərin tətbiq olunması, müharibənin aparılması və ordunun təşkili üçün xərclərin müəyyənləşdirilməsi və s.) əvvəlcədən bəyənilməsinə zərurət olduğu zaman kral tərəfindən çağırılırdı. Bu səbəbdən B.ş. qeyri-müntəzəm çağırılırdı (məs., 1302, 1308, 1312, 1317, 1355 və s. illərdə).

B.ş. güclü sosial sarsıntılarla [Paris üsyanı (1357–58) və *Jakeriya (1358)*] müşayiət olunan *Yüzillik müharibə (1337–1453)* dövründə – kral hakimiyyətinin zəiflədiyi və dəstəyə ehtiyacı olduğu zaman böyük nüfuz qazanmışdır. 1358 ildə B.ş. dövlət idarəçiliyinin əsas məsələlərini (vergi toplanması, maliyyə xərcləri, dövlət aparatına nəzarət və s.) həll etmək hüququnu əldə etdi. 1359 ildən sonra B.ş. gec-gec çağırılırdı (məs., 1420, 1439, 1468, 1484, 1506, 1560 və s. illərdə). B.ş.-ın əvəzinə krallar artıq azad seçki yolu ilə deyil, özlərinin şəxsi göstərişi ilə hər üç silkin nümayəndələrindən komplektləşdirilən daha məhdud çərçivəli notabllar assambleyalarında məsləhətləşmələr aparmağa üstünlük verirdilər. Kral hakimiyyətinin möhkəmlənməsi və mütləqiyyətin bərqərar olması ilə B.ş. silki monarxiya institutu kimi tənəzzülə uğradı. 16 əsrin 2-ci yarısında baş verən *Dini (hugenot) müharibələr* dövründə B.ş.-ın fəaliyyətində müəyyən canlanma müşahidə olundu (1560, 1561, 1576, 1588, 1593, həmçinin 1614 illərdə çağırılmışdır).

B.ş. 175 illik fasilədən sonra inqilab ərəfəsində ölkəni bürüyən böhran şərai-

tində 1789 il mayın 5-də *XVI Lüdovik* tərəfindən çağırılmış, lakin az sonra onların işi qəbul olunmuş reqlament çərçivəsindən çıxmışdır. 1789 il iyunun 17-də üçüncü silkin deputatları özlərini Milli Məclis elan etmiş, iyunun 9-da isə Milli Məclis inqilabi Fransanın ali nümayəndəlik və qanunverici orqanına – Müəssislər Məclisinə çevrilmişdir.

**BAŞ ŞTATLAR** (Niderland dilində Staten-Generaal) – 14–19 əsrlərdə Niderlandda silk nümayəndələrinin ali orqanı; müasir Niderland dövlətinin parlamenti. B.ş. 14 əsrdə Niderlandın ayrı-ayrı vilayətlərində formalaşmağa başlamışdır. Zadəganlar, patrisiat, kilsə torpaqlarında isə həmçinin ruhanilərdən ibarət idi. Bütün Niderland vilayətlərini təmsil edən B.ş. ilk dəfə 1464 il yanvarın 9-da Brüqge ş.-ndə Burqundiya hersoqu III Filipp (Mərhəmətli Filipp) tərəfindən çağırılmışdır. B.ş.-ın başlıca funksiyası vergiləri rəsmiləşdirmək idi. *Niderland inqilabı (16 əsr)* dövründə B.ş. ispan rejiminə qarşı müxalifətin mərkəzi, şm. əyalətlərinin ayrılması və müstəqil Niderland dövlətinin yaradılmasından sonra isə Birləşmiş əyalətlər resp.-nın ali orqanı olmuşdur. B.ş-ın deputatları əyalət ştatları tərəfindən seçilirdi. Hər əyalət bir səs vermək hüququna malik idi. B.ş.-da "baş ştatların torpaqları" təmsil olunmurdu. 1795 ildə Fransanın Birləşmiş əyalətləri istilasından sonra B.ş. buraxıldı. 1815 ildən B.ş. Niderland krallığının ali qanunverici orqanıdır (ikipalatalı parlament). Niderland B.ş.-nın indiki forması 1956 ildən mövcuddur (bax *Niderland*). B.ş. Haaqa ş.-ndə yerləşir.

**BAŞ ZƏYZİD** – Azərb. Resp. Şəki r-nunda kənd. Baş Zəyzid ə.d.-nin (Baş Zəyzid, Vərəzət k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 12 *km* ş.-də, Zəyzid çayının sahilində, Baş Qafqaz silsiləsinin c. ətəyindədir. Əh. 4852 (2009); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, uşaq bağçası, klub, kitabxana, 50 çarpayılıq xəstəxana, ambulatoriya, ATS, 2 un dəyirmanı, 2 yem dəyirmanı, 3 dülgər sexi; məscid var.

**BAŞAÇIQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Acırlı kəndistanında, Marağa ş.-ndən 51,5 *km* c.-ş.-dədir.

**BAŞADAR KURQANLARI** – Mərkəzi Altayda, Kulada çayı sahilində yerləşən Qaraqol aili yaxınlığındakı Başadar adlanan yerdə e.ə. 5–3 əsrlərə aid kurqanlar qrupu. 2 kurqan 1950 ildə S.İ. Rudenko tərəfindən qazılmışdır. 2-ci kurqanda kənarlarında və qapağında oyulmuş pələng, sığın, dağ qoyunu və qabanların təsvirləri olan Sibir sidrindən düzəldilmiş tabut; paltar, ayaqqabı və parça qalıqları; arfa qırıntıları; qrifin tunc heykəlciyi və s. aşkar olunmuşdur. Qəbrin şm. hissəsində yəhər və yüyənlə dəfn olunmuş 14 at (ikisi maskalı), ağacdan (qanadlarını açmış quş və s.) və qaban qılıncından düzəldilmiş bəzək əşyaları, tuncdan tökmə piləklər tapılmışdır. B.k.-ndakı qəbirlərin quruluşu və digər tapıntılar *Pazırık mədəniyyəti* üçün səciyyəvidir.

**BAŞANÓVSKİ** (Baszanowski) Valdemar (d.15.8.1935, Qrudzöndz) – Polşa idmançısı. Ağır atletika üzrə yüngül çəkidə 18-ci (1964, Tokio) və 19-cu (1968, Mexiko) Olimpiya oyunları, dünya (1961, 1965, 1969), Avropa (1961, 1965, 1968, 1969, 1971) çempionu olmuşdur. 27 dünya rekordu, o cümlədən 5-ni üçnövçülükdə müəyyən etmişdir (ən yüksək nəticə – 445 *kq*, 1969). İdman karyerasını başa vurduqdan sonra elmi fəaliyyət göstərmişdir.

**BAŞARAT** – Azərb. Resp. Qubadlı r-nunda kənd. Başarat ə.d.-nin (Başarat, Armudlu, Deşdahat, Hat, Milanlı k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 35 *km* şm.-ş.-də, Kiçik Həkəri çayının (Həkəri çayının qolu) sahilində, Qarabağ silsiləsinin ətəyindədir. Əh. 372 (2008); işğaldan əvvəl (1993, avqust) heyvandarlıq, əkinçilik və arıçılıqla məşğul olmuşdur. Orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var idi.

**BAŞBUĞ** – qədim türklərdə orduya başçılıq edən hökmdar; baş komandan mənasında işlədilirdi.

**BAŞBULAQ** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Kağızkonan bölgəsinin eyniadlı kəndistanında, Ağkənd qəs.-ndən 5,5 *km* ş.-də. Miyanə–Zəncan avtomobil yolunun üstündədir.

**BAŞBULAQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Sərişkənd bölgəsinin Ataşbəy kəndistanında, Sərişkənd qəs.-ndən 30 *km* şm.-q.-də, Təbriz–Miyanə avtomobil yolunun üstündədir.

**BAŞBULAQ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Şahindeş şəhristanının Keşavərz bölgəsinin Acırlı kəndistanında, Marağa ş.-ndən 52 *km* c.-ş.-dədir.

**BAŞGİCƏLLƏNMƏ** – insanın öz bədəninin və ya ətrafdakı əşyaların guya məkanda hərəkət etməsi (hərlənməsi) hissi. Qulağın vestibulyar aparatının, görmə orqanlarının və proprioreseptorların normal qarşılıqlı əlaqəsinin pozulması nəticəsində baş verir. Çox vaxt müvazinətin pozulması, nistaqm, ürəkbulanma, qusma, əşyaların göz önündə "titrəməsi" hissi (ossillopsiya) ilə müşayiət olunur. B. periferik və mərkəzi olur. Periferik B. labirintin və ya eşitmə sinirinin vestibulyar hissəsinin iltihabi proseslər, qan dövranı pozuntusu, şiş, travma və s. nəticəsində zədələnməsi səbəbindən baş verir. Mərkəzi B. beyin kötüyündəki vestibulyar nüvələrin zədələnməsi və onların beyincik, qabıqaltı və baş beyin qabığı ilə əlaqəsinin pozulması səbəbindən meydana çıxır.

Periferik B.-nin ən çox təsadüf edilən forması xoşxassəli pozisiya paroksizmal B.-dir. Bu qısamüddətli (1 *dəq*.-yədək) tutmalar başın vəziyyətini dəyişməklə yaranır və kupulolitiazla – natrium-karbonat kristallarının əmələ gəlməsi və onların labirintin yarımdairəvi kanallarındakı reseptorları qıcıqlandırması ilə əlaqədar baş verir. Çox vaxt respirator virus infeksiyalarından sonra kəskin labirintit

2-ci Başadar kurqanından aşkar olunmuş kötük-sarkofaq və yəhər qaşı üçün ağacdan yonulmuş quş fiquru.







və ya vestibulyar neyronit inkişaf edir ki, bunlar da bir neçə gündən 2 həftəyə qədər davam edən aşkar B. kimi təzahür edir. Periferik B. həmçinin *Menyer xəstəliyi* üçün səciyyəvidir.

Mərkəzi B. beyin kötüyünün, beyinciyin şişləri, onlarda qan dövranı pozulmaları, diffuz skleroz, kəllə travmaları, baş beyinin infeksiyaları, intoksikasiyalar, mərkəzi sinir sisteminin inkişaf anomaliyaları və irsi xəstəlikləri ilə əlaqədar ola bilər. O, periferik B.-dən baş beyin zədələnmələrinin digər əlamətlərinin olması ilə fərqlənir.

Həqiqi, yaxud sistem B.-ni qeyri-sistem B.-dən fərqləndirmək lazımdır. Qeyri-sistem B. bədənin, yaxud ətrafdakı əşyaların məkanda hərəkət etməsi hissi ilə müşayiət olunmur, lakin ürəkbulanma, başda "yüngüllük" hissi ilə, bayılmaqabağı vəziyyət, ümumi zəifliklə özünü göstərir. Çox vaxt belə B.-nin səbəbi arterial təzyiqin düşməsi, ürək aritmiyaları, hipoksiya, hipoqlikemiya, həyəcan, qorxu hissi olur.

M ü a l i c ə s i: əsasən, B.-ni törədən səbəbə qarşı aparılır; həmçinin bilavasitə B.-ni zəiflədən simptomatik dərmanların (betagistin, sinnarizin, metaklopramid, antihistamin, sedativ və s. preparatlar) tətbiqindən, müalicəvi gimnastikadan, refleksoterapiyadan ibarətdir.

**BAŞGİL** – İranın Qəzvin ostanında kənd. Eyniadlı şəhristanın Ziyaabad bölgəsinin Qaqazan kəndistanında, bölgə mərkəzindən 18 *km* ş.-dədir.

**BAŞIAYAQLI MOLYUSKLAR** (Cephalopoda) – molyusklar arasında ən yüksək təşkil olunmuş dəniz heyvanları sinfi. Bədəni (uz. 1 *sm*-dən 18 *m*-ədək) ikitərəfli-simmetriyalı, müxtəlif rənglidir; B. m.-ın çoxu dərilərinin rəngini və relyefini (səthini) yaşadıqları mühitin fonuna uyğun dəyişə bilir; işıqsaçan formaları da var. Gövdəsindən boyunla (boğazla) ayrılan başının üzərində təsviri fokuslaşdıra bilən iki göz; ovu tutub saxlamaq üçün ağız dəliyi ətrafında 1–2 cərgədə yerləşən sormaclar və ya qərni qarmaqlarla təchiz olunmuş ayaqları (8, 10, yaxud 90-dan artıq; bunları çox vaxt əl də adlandırırlar) vardır. Çənə aparatı xitin dimdik şəklində olur. Primitiv formaların (nautilus) çanağı xaricidir, boru-sifonla dəlinmiş 2 müntəzəm (düzgün) kameraya ayrılmışdır; qalanlarında bu çanaq əhəng (sepion), yaxud qərni (qladius) lövhə kimi ya bədənin içərisində yerləşir, ya da tamamilə olmur. B.m.-ın gövdəsini əhatə edən mantiya bel tərəfdə qarındaxili kisəyə bitişir, qarın tərəfdə isə mantiya boşluğu ilə qurtarır. Ön tərəfdə mantiya boyunətrafı yarıqla açılır. Başının alt tərəfində molyuskların ayağının şəkli dəyişmiş hissəsi – enli ucu ilə mantiya boşluğuna yönəlmiş, konusşəkilli əzələli büküşə, yaxud boruya oxşayan qıf yerləşir. Üzmə zamanı mantiya boşluğuna tökülən su buradan təzyiqlə çıxır; dövri yaranan reaktiv güc (tsikllər bir-birinin ardınca gəlir) B.m.-ı bədənin arxa qurtaracağı önə gəlməklə əks tərəfə itələyir. Bəzi B.m. (kalmarlar) yırtıcılardan xilas olarkən sudan sıçrayıb 30 *m*-ədək məsafəni qət edir. Təhlükə anlarında düşməndən gizlənmək üçün B.m.-ın qıf vasitəsilə mürəkkəb vəzisindən buraxdığı sekret şırnağı suyu qara rəngə boyayır.

B.m.-ın sinir sistemi yaxşı inkişaf etmişdir; qığırdaq törəməsinin daxilində yerləşən baş qanqlisi (çox vaxt ona baş beyin də deyilir) inkişafına görə balıqların baş beynindən daha üstündür. Qan-damar sistemi qapalıdır. B.m.-ın çoxu ayrıcinsiyyətlidir. Kapsullarda toplanmış erkək cinsiyyət məhsulları olan spermatoforlar cütləşmə zamanı hektokotilin köməyilə mantiya boşluğuna, yaxud dişinin toxumqəbuledicisinə keçir. Mayalanmış yumurta yuvaları sualtı əşyalara, dişilərin ayaqlarına yapışır, yaxud suda sərbəst üzür. Yumurtalardan formalaşmış kiçik heyvanlar çıxır. Bir çox növlərində nəsil qayğısına qalma müşahidə olunur. B.m. bir dəfə çoxaldıqdan sonra məhv olur (*arqonavtlardan* başqa). B.m.-ın müasir faunası 2 yarımsinfi: yeganə nautilus cinsi olan dördqəlsəməliləri (Tetrabranchia) və vampiromorflar, karakatislər, kalmarlar, mürəkkəb ilbizləri və s.-dən ibarət ikiqəlsəməliləri (Dibranchia, yaxud Coleoidea) birləşdirən 650 növdən ibarətdir. B.m. şorluğu 30‰-dən az olmayan sularda yayılmışdır. Pelagial yırtıcılarıdır; balıqla, xərçəngkimilərlə və öz körpələri daxil olmaqla molyusklarla qidalanır. B.m., öz növbəsində, iri balıqların, dəniz məməlilərinin və quş-

**Başıayaqlı molyusklar:** *1* – adi yalançı kalmar; *2* – onayaq Atlantika sepiolası; *3* – nautilus; *4* – sepiya, yaxud adi karakatis; *5* – kranxiya; *6* – adi səkkizayaq.





**Başıayaqlı molyuskların quruluş sxemi**: *1* – baş; *2* – baş qanqlisi; *3* – çanaq; *4* – mədə; *5* – qonadalar; *6* – mürəkkəb vəzisi; *7* – mantiya; *8* – qəlsəmələr; *9* – qıf; *10* – çənə aparatı; *11* – ayaqlar.

ların yemidir. Əksəriyyəti yeməlidir, bir çoxu ov obyektidir.

Nəsli kəsilmiş B.m.-ın 11 mindən çox növü məlumdur. Paleozoyda ən çox yayılanı xariciçanaqlı molyusklar olmuşdur; bunlardan ən qədimi Kembri çöküntülərindən (təqr. 530 mln. il) tapılmışdır. İlk daxiliçanaqlı formalar Devonda meydana gəlmişdir. Mezozoy erası üçün xariciçanaqlı *ammonitlər*, daxiliçanaqlı *belemnitlər* səciyyəvidir; bu eranın çöküntülərində həmçinin müasir B.m.-ın birbaşa əcdadlarının qalıqları aşkar edilir. B.m.-ın geniş yayılması, müxtəlifliyi və faunasının sürətli dəyişməsi sayəsində qazıntı B.m. Paleozoy və Mezozoy çöküntülərinin stratiqrafiyasının öyrənilməsində geniş istifadə olunur.

*Əd.*: Жизнь животных. М., 1968. Т. 2; Несис К.Н. Краткий определитель головоногих моллюсков Мирового океана. М., 1985.

**BAŞIXORDALILAR** (Cephalochordata), *kəlləsizlər* – xordalı heyvanlar yarımtipi; tipik nümayəndəsi *neştərçədir*.

**BAŞINAĞACI** (Viburnum) – *doqquzdonkimilər fəsiləsindən* bitki cinsi; bəzən ayrıca başınağacıkimilər (Viburnaceae) fəsiləsi kimi ayırd edilir. Qarşı-qarşıya, bütöv və ya dilimli yarpaqları olan kollar, yaxud kiçik ağaclardır. Çiçəkləri ağ, çəhrayı, yaxud açıq-sarıdır; çətirbənzər, qalxanvarı və ya süpürgəşəkilli çiçək qrupunda yerləşir; qıraqlarda yerləşən çiçəkləri (tozlayıcıları cəlb etmək üçün) meyvəsizdir. Meyvələri alqırmızı, yaxud qara çəyirdəklərdir. Şm. yarımkürəsinin mülayim isti və subtropik ərazilərində, Mərkəzi və Cənubi Amerika dağlarında 200-dən artıq növü məlumdur. Azərb.-da 3 növü var: a d i B. (V. opulus), q a r a B. (V. lantana) və Ş ə r q B. (V. orientalis) bitir. Adi B. hünd. 1,5–3 *m* olan budaqlı kol, yaxud hünd. 4 *m*-ədək olan kiçik ağacdır. Gözəl çiçəklərinə və yeməli meyvəsinə görə çox vaxt bağ və parklarda becərilir. Dərman bitkisidir: qabığından alınan maye ekstrakt tibdə qankəsən vasitə kimi işlədilir, meyvələri vitamin yığımlarının tərkibinə daxil edilir. Balverəndir. Qara B. hünd. 5 *m*-ədək olan, çox vaxt kolşəkilli ağacdır; bütöv yarpaqları qırışıqlı, çiçəkləri xırda, meyvələri qaradır. Qədimdən bütün Avropada dekorativ bitki kimi becərilir. Çukot y-a-nda bitən yeyilən B. (V. *edule*), Cənubi Kuril a-rında və Saxalinin c.-unda rast gələnən Rayt B.-sı (V. *wrightii*) RF-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

Adi başınağacı (Viburnum opulus).



**BAŞIPOZUQLAR** – 18–19 əsrlərdə osmanlı ordusunda müharibə zamanı orduya qoşulan könüllü süvarilərə verilən ad. B. qeyri-nizami süvari dəstələrdən ibarət idi. Müharibə zamanı yardımçı qoşun funksiyasını yerinə yetirirdilər. Dinc şəraitdə isə Osmanlı imperiyasının ucqar rayonlarında hərbiləşdirilmiş keşikçi dəstələri kimi istifadə olunurdu. B.-da hərbi nizam-intizam zəif olduğu üçün döyüşlərdə böyük əhəmiyyət kəsb etmirdi. *Krım müharibəsi (1853–56)* zamanı B.-ı təşkilatlandırma cəhdləri baş tutmadı. 1870-ci illərin sonlarından B.-dan istifadə olunmamışdır.

**BAŞKÁUS** – RF-də, Altay Resp. ərazisində çay. Çulışmanın sol qolu. Uz. 219 *km*, hövzəsinin sah. 7,8 min *km*². Kuray silsiləsinin ş. hissəsindəki kar gölündən başlanır. Aşağı axınında dar dərə ilə axır. Ortaillik su sərfi Ust-Ulaqan k. yaxınlığında 30 *m*³/*san*-dir.

**BAŞKEÇİD** – bax *Dmanisi*.

**BAŞKƏND** – İrəvan xanlığının Göyçə mahalında (9.9.1930 ildən Yeni Bayazid, 13.4.1959 ildən – Kamo r-nu), Kəvər çayının sahilində azərb.-ların yaşadığı kənd. 1826 ilə qədər kənddə ancaq azərb.-lar yaşamışdır. 1826–28 illər Rusiya-İran və 1828–29 illər Rusiya-Osmanlı müharibələri zamanı kəndin azərb. əhalisi qovulub çıxarılmış, burada Türkiyədən gətirilmiş ermənilər yerləşdirilmişdir. Sonralar kəndin azərb. əhalisinin bir hissəsi geri qayıtmışdır. 1905 və 1919 illərdə dəfələrlə ermənilərin təcavüzünə məruz qalmış və kəndi tərk etmiş azərb.-lar 1920-ci illərdə geri qayıtmış, 1948–53 illərdə isə yenidən Azərb.-a deportasiya olunmuşlar.

**BAŞKƏND**, Ə r a x u s – İrəvan xanlığının Qırxbulaq mahalında (9.9.1930 ildən Kotayk, 12.10.1961 ildən Abovyan r-nu), Qırxbulaq çayı sahilində azərb.-ların yaşadığı kənd. 1828–29 illərdə buradan qovulmuş azərb.-ların yerinə İrandan köçürülmüş ermənilər yerləşdirilmişdir. Sovet dövründə kəndin adı dəyişdirilərək əvvəlcə Başgyuğ, 4.4.1946 ildə isə Akunk qoyulmuşdur. Kəndin ərazisində dördkünc qədim qala xarabalıqları var idi.

**BAŞKƏND** – İrəvan qub.-nın Şərur-Dərələyəz qəzasında (15.10.1931 ildən Keşişkənd, 3.1.1935 ildən Mikoyan, 6.12.1957 ildən – Yeğeqnadzor r-nu) azərb.-ların yaşadığı kənd. 1828–29 illərdə kəndin azərb. əhalisi qovulub çıxarılmış və burada İrandan köçürülmüş ermənilər yerləşdirilmişdir. 10.9.1946 ildə kəndin adı dəyişdirilərək Vernaşen qoyulmuşdur. B. yaxınlığında 13–14 əsrlərə aid məşhur Gülvəng alban məbəd kompleksi (Başkənd məbədi kimi də tanınır) yerləşir.

**BAŞKƏND** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (9.9.1930 ildən Artik r-nu), Qaranqa çayının sol qolunun yuxarı axarında azərb.-ların yaşadığı kənd. 1826–28 illər Rusiya-İran, 1828–29 illər Rusiya-Osmanlı müharibələri zamanı kəndin azərb. əhalisi qovulub çıxarılmış və buraya İrandan, Türkiyədən gəlmə ermənilər köçürülmüşdür.

**BAŞKƏND** – Azərb. Resp. Culfa r-nu (Nax. MR) ərazisində çay. Əlincəçayın sol qolu. 2400 *m* hünd.-dən başlanır. Uz. 14 *km*. Əsasən, yeraltı və qar suları ilə qidalanır.

**BAŞKƏND**, K ö h n ə B a ş k ə n d – Azərb. Resp.-nın Gədəbəy r-nunda kənd. R-n mərkəzindən 33 *km* şm.-q.-də, Əsrikçayın sahilində, dağlıq ərazidədir.

1832–34 illərdə Türkiyədən Şəmşəddil sultanlığı (9.9.1930 ildən Şəmşəddin r-nu) ərazisinə köçürülən ermənilər 1855 ildə buradan da Gədəbəy r-nu ərazisinə köçürülərək B.-də yerləşdirilmişlər. 1937 ildə B.-dən çıxan erməni ailələri hesabına keçmiş İrəvan qub.-nın Yeni Bəyazid qəzasının Çəmbərək bölgəsində azərb.-ların torpaqlarında iki erməni kəndi (Yeni Başkənd və Rubenakert) salınmış, 31.12.1937 ildə burada yeni Krasnoselsk r-nu yaradılmışdır. 1938 ildə Gədəbəy r-nunun ermənilər yaşayan Başkənd k. Azərb.-dan alınaraq Erm. SSR-də yenicə yaradılmış Krasnoselsk r-nuna tabe edilmişdir. 25.1.1978 ildə kəndin adı dəyişdirilərək Artsvaşen qoyulmuşdur. 1992 ildə kənd Azərb. ordusu tərəfindən azad edilərək öz əzəli sahiblərinə – azərb.-lara qaytarılmış, tarixi Başkənd adı bərpa olunmuşdur.

**BAŞKƏND** – Azərb. Resp. Xocalı r-nunun Kosalar ə.d.-ndə kənd. R-n mərkəzindən 16 *km* c.-q.-də, dağlıq ərazidədir. Əh. 250 (2008); işğaldan (1992, fevral) əvvəl heyvandarlıqla məşğul olmuşdur. Orta məktəb, kitabxana, tibb məntəqəsi var idi.

**BAŞKƏND** – Azərb. Resp. Kəlbəcər r-nunun Hacıkənd ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* şm.-ş.-dədir. Əh. 334 (2008); işğaldan (1993, aprel) əvvəl tütünçülük və heyvandarlıqla məşğul olmuşdur.

**BAŞKƏND** – Azərb. Resp. Ordubad r-nunun (Nax. MR) Vələver ə.d.-ndə kənd. R-n mərkəzindən 22 *km* şm.-q.-də, Ordubad–Unus avtomobil yolunun kənarındadır. Əh. 450 (2011); bağçılıq, tərəvəzçilik və əkinçiliklə məşğuldur. Feldşer-mama məntəqəsi, klub, kitabxana var.

**BAŞKƏND** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Gorayim kəndistanında, Ərdəbil ş.-ndən 48 *km* c.-q.-dədir.

**BAŞKƏND** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Ətraf bölgəsinin Qaladərəsi kəndistanında, Maku ş.-ndən 16,5 *km* şm.-q.-dədir.

**BAŞKƏND** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad qəs.-nin Abbasi kəndistanında, Bostanabad qəs.-ndən 24 *km* ş.-də, Təbriz–Miyanə avtomobil yolunun 12 *km*-liyindədir.

**BAŞKƏND AŞIRIMI** – Azərb. Resp. Gədəbəy r-nu ərazisində, Şahdağ silsiləsinin Keçəldağ qolunda dağ keçidi. Hünd. 2170 *m*.

**BAŞKƏND MİNERAL SU BULAĞI** – Azərb. Resp. Culfa r-nu (Nax. MR) ərazisindədir, 2 bulaqdan ibarətdir: 1-ci bulaq Başkənd k.-ndən 1,5 *km* şm.-da, dəniz səviyyəsindən 2340 *m* hünd.-də, 2-ci bulaq isə Gilənarlıq dərəsində, dəniz səviyyəsindən 2010 *m* hünd.-də yerləşir. Hər ikisinin suyunun dadı eynidir, içmək üçün yararlıdır.

Balneoloji tərkibi:

$$CO_2\,1{,}3\,M2{,}0\frac{HCO_3 85\,SO_4 11}{Ca49\,(Na+K)\,Mg25}$$

pH 7,6 D 16 *m*³/*gün* T 16°C

Suyu karbon qazlı, zəif minerallaşmış, hidrokarbonatlı-kalsiumlu-natriumlu-maqneziumludur. "Narzan" tiplidir. Müalicəvi əhəmiyyəti var.

**BAŞKƏND-DƏSTƏFUR ÇÖKƏKLİYİ** – Azərb. Resp. ərazisində, Kiçik Qafqazın Şahdağ və Murovdağ silsilələrinin şm. ətəklərindədir. Q.-də Əsrik və Zəyəm çaylarının suayrıcından ş.-də Gəncə çayının dərəsinədək uzanır. Uz. 75 *km*, eni 10–15 *km*-dir. Çökəkliyin dibi dəniz səviyyəsindən 1200–1800 *m* hünd.-dədir. B.-D. ç. Zəyəm, Şəmkir və Qoşqar çayları və onların qolları ilə kəsilmişdir. Bünövrəsi Yura yaşlı vulkanogen-çökmə süxurlardan ibarətdir. Faydalı qazıntıları: dəmir filizi, alunit, tikinti materialları və s. Mineral bulaqlar var. İqlimi qışı quraq keçən soyuq və mülayim istidir. İllik yağıntı 900 *mm*-ə qədərdir. Qonur dağ-meşə və dağ-qaratorpaqları yayılmışdır. Palıd, vələs, fıstıq, həmçinin cır meyvə ağaclarından ibarət meşələr var. Heyvandarlıq, kartofçuluq və s. inkişaf etmişdir.

**BAŞKÖY** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Qızılqoç, 4.1.1938 ildən – Verin Qukasyan, 12.10.1956 ildən Qukasyan r-nu), Pəmbək çayının Çiçxan qolu sahilində azərb.-ların yaşadığı kənd. 1828–29 illər Rusiya-Osmanlı müharibəsi zamanı kəndin azərb. əhalisi qovulub çıxarılmış və buraya Türkiyənin Muş vil.-ndən gəlmə ermənilər yerləşdirilmişdir.

**BAŞQIRD ATI** – aborigen at cinsi. 17–18 əsrlərdə Başq.-ın dağlıq və çöl r-nlarında ilboyu otlaq şəraitində saxlanılmaqla formalaşmışdır. Yerli çöl *madyanlarının* meşə tipli *ayğırlar* ilə cütləşdirilməsindən mürəkkəb törədici çarpazlaşdırma yolu ilə alınmışdır. B.a. çöl atlarına xas ağırçəkili və sümüklü olması, meşə atlarına xas soyuq və rütubətli şəraitə dözümlülüyü ilə seçilir. İlxıda yaxşı yetişir. Başı iri və ağır, alnı enli, burun hissəsi qabarıq, boynu əzələli, çanaq hissəsi bir qədər sivri, ayaqları möhkəm və sümüklüdür. Ayğırların kütləsi 450–500 *kq*, madyanların isə 380–420 *kq* olur. Rəngi kəhər kürən, qonur və bozdur. İşlək minik-yük atı, həm də müalicəvi preparatlar alınmasında donor kimi istifadə olunur. Laktasiya dövründə orta hesabla 1600–1700 *l* süd verir; ondan müalicəvi əhəmiyyətli qımız hazırlanır.



Başqırd atı.

B. a.-nın iki zavod tipi yaradılmışdır: 1990 ildə südlük (İrandık) tipi laktasiya dövründə orta məhsuldarlığı 2409 *kq*); 2002 ildə ətlik (Uçalı) tipi (orta diri çəkisi 490 *kq*). Başq.-da yayılmışdır. 2150 baş madyandan ibarət 34 fermada təmizcinsli yetişdirmə üsulu ilə damazlıq işi aparılır (2004).

**BAŞQIRD DİLİ** – *başqırdların* dili. Başq.-ın dövlət dillərindən biri. Həmçinin RF-nin Çelyabinsk, Orenburq vil.-lərində, Kurqan, Saratov, Samara, Sverdlovsk və Perm vil.-lərinin ayrı-ayrı rayonlarında, Qazaxıstanda yayılmışdır. B.-d.-ndə danışanların sayı RF-də təqr. 1 mln. 380 min (2002), Qazaxıstanda 23 mindir (1999).

B.d. *türk dillərinin* qıpçaq qrupuna daxildir. Üç dialekti var: şərq (kuvakan), cənub (yurmat) və qərb (burzyan). Tatar dili ilə bir sıra ümumi əlamətlərə malikdir. Morfologiyası üçün *aqlütinasiya* və sintetizm səciyyəvidir. Reduplikasiyadan geniş istifadə olunur. Başqırd ədəbi dili 1920-ci illərin ortalarında, Başq. MSSR təşkil edildikdən sonra formalaşmışdır. 16–20 əsrlərdə ədəbiyyat əvvəlcə *türk*, 19 əsrin sonu – 20 əsrin əvvəllərində isə tatar ədəbi dilinin təsiri ilə inkişaf etmişdir. Müasir başqırd ədəbi dili daha çox ş. dialektinə əsaslanır. Yazıda 1929 ilədək ərəb, 1929 ildən 1939 ilədək latın əlifbasından istifadə edilmişdir. 1939 ildən isə rus qrafikasına əsaslanan əlifba tətbiq olunur.

*Əd.*: Юлдашев А.А. Башкирский язык (Языки мира. Тюркские языки). М., 1997: Qurbanov A. Ümumi dilçilik. B., 2004.



Başqırd əlvan ördəkləri.

**BAŞQIRD ƏLVAN ÖRDƏKLƏRİ** – ətlik ördək cinsi. "Blaqovarski" damazlıq quşçuluq z-dunda (Başq.) yetişdirilmişdir. Tük örtüyü qəhvəyidir. 5–6 həftəlik erkək fərdlərin başı, boynunun, belinin və quyruğunun yuxarı hissəsi qara-mavi çalarlıdır. Başı orta böyüklükdədir. Boynu qısa və yoğundur. Döşü enli, qabarıqdır. 7 həftəlik körpə ördəklərin kütləsi 3,4 *kq*-a çatır. Yumurtlağanlıq il ərzində 200–220 yumurtadan ibarət olur. Bir yumurtanın çəkisi 80–90 *q*-dır. Mayalanma qabiliyyəti 93,7%-dir. Əti zərif, şirəli, yüksək pəhriz xüsusiyyətlərinə malikdir. B.ə.ö-ni ən sadə tikililərdə və dayaz su hovuzlarında (nohurlarda) saxlayırlar.

**BAŞQIRD ÜSYANLARI (17–18 əsrlər)** – 1662–64 illər üsyanı çar hökumətinin başqırd feodallarının kalmıklar üzərinə basqınlarını qadağan etməsi və tutduqları əsirləri qaytarmaq tələbi ilə əlaqədar başlanmışdı. Üsyan bütün Başqırdıstanı və bəzi qonşu qəzaları bürümüşdü. 1664 ildə çar hökuməti üsyanı yatırdı, lakin bəzi güzəştlərə də getdi. 1681–83 illər üsyanı başqırdların çar hökuməti tərəfindən zorla xristianlaşdırılacağı haqqında xəbərin yayılması ilə əlaqədar başlanmışdı. Lakin üsyana kazak zadəganı (starşina) Seyid Sadiir başçılıq edirdi. 1682 ildə üsyan bütün Başqırdıstanı bürüdü. Geniş başqırd kütlələrinin hərəkatdan məyus qalması, həmçinin çar hökumətinin xristianlaşdırma haqqında heç bir sərəncam verməyəcəyini bildirməsi mübarizənin dayandırılmasında həlledici rol oynadı. 1705–11 illər üsyanına səbəb 1704 ildə yeni vergilərin qoyulması və hökumətin rus ordusu üçün başqırdlardan at tələb etməsi idi. Hökumət kalmık dəstələrindən istifadə edərək üsyanı yatırdı, lakin yenə bəzi güzəştlərə getməli oldu. 1735–40 illər üsyanına səbəb çar hökumətinin qalalar və mədən zavodları inşa etmək yolu ilə başqırd torpaqlarını zəbt etməsi idi. Bu üsyan da yatırıldı və hökumət başqırd icmalarının daxili həyatını çar idarə orqanlarının nəzarəti altına salan inzibati islahatlar apardı. 1755–56 illər üsyanının (bax *Batırşa*) səbəbi rus zülmünün güclənməsi, çar hökumətinin əhalini zorla xristianlaşdırmaq və torpaqlarını müsadirə etmək siyasəti idi. Üsyanın hazırlanmasında molla Abdulla Əliyevin (Batırşa) cihada çağıran müraciətnaməsinin böyük rolu olmuşdur. Yerli feodalların üsyana qoşulmaması və çar hökumətinin yeritdiyi üsyançıları parçalamaq siyasətinin (könüllü təslim olanları bağışlamaq, tatarları, qazaxları, başqırdları və digər xalqları bir-birinin üzərinə qaldırmaq) üsyanın yatırılmasında mühüm rolu oldu.

**BAŞQIRDISTAN,** Başkortostan Respublikası – RF-nin subyekti. Rusiyanın Avropa hissəsinin, əsasən, c.-ş.-ində, Cənubi Ural d-rının q. yamaclarında yerləşir. Volqayanı federal dairəsinə daxildir. Sah. 143,6 min $km^2$. Əh. 4078,8 min (2005; əh. sayına görə RF-də ən böyük resp.). 54 r-nu, 21 şəhəri, 40 qəs. var. Paytaxtı Ufa ş.-dir.

**Dövlət hakimiyyəti orqanları.** Dövlət hakimiyyəti orqanları sistemi Başqırdıstan Respublikasının Konstitusiyası (1993) ilə müəyyənləşir. Dövlət hakimiyyətini respublikanın prezidenti, Dövlət məclisi – Qurultay, B.-ın Nazirlər kabineti və respublika konstitusiyasına uyğun yaradılan digər hakimiyyət orqanları həyata keçirir. Başqırdıstan Respublikasının başçısı RF Prezidentinin təqdimatına əsasən Dövlət məclisi tərəfindən səlahiyyətlər alan ali vəzifəli şəxs – prezidentdir. Dövlət məclisi (Qurultay) dövlət hakimiyyətinin ali qanunverici (təmsiledici) orqanıdır. Birmandatlı seçki dairələri üzrə 5 il müddətinə seçilən 120 deputatdan ibarətdir. Deputatlar həm peşəkar daimi əsasda, həm də qeyri-daimi əsasda işləmək hüququna malikdirlər. Nazirlər kabineti (hökumət) dövlət hakimiyyətinin ali icraedici orqanıdır; prezident tərəfindən formalaşdırılır. Baş nazir Dövlət məclisinin razılığı ilə prezident tərəfindən təyin edilir.

**Təbiət.** B.-ın ərazisi, əsasən, *Uralönü* və *Cənubi Uralın* hüdudlarındadır. Sahəsinin 2/3-ni Uralönündəki uvallı-təpəli düzənliklər (Şərqi Avropa düzənliyinin ş. kənarı) və plato tutur. Ş.-də Cənubi Uralın dağarası çökəkliklərilə bir-birindən ayrılan alçaq silsilələridir. Ən yüksək (1640 *m*) nöqtəsi Yamantau d.-dır. Ucqar ş.-də xırda təpəli tirələr zolağı uzanır. C.-da Zilair platosu yerləşir. Uralönündə və Uralın q. yamaclarında karst qıfları, uçurumları, quyuları, mağaraları (*Kap mağarası*, Kutuk Sumqan və s.) intişar tapmışdır.

Uralönü ərazi qədim Şərqi Avropa platformasının Rus plitəsində yerləşir. Ş. r-nları Son Paleozoyun Ural qırışıq sisteminə aiddir. B.-da 3 mindən çox müxtəlif faydalı qazıntı yatağı məlumdur. Təqr. 180 neft yatağı (o cümlədən *Arlan neft yatağı*) aşkar edilmişdir. Həmçinin qaz, kömür, fosforit, daşduz, gips, əhəngdaşı, dağlıq r-nlarda dəmir, manqan, qurğuşun, mis, sink, xrom, qızıl, gümüş filizi yataqları, məmulat daşlarından yəşəm, rodonit və s. yataqları; iri torf və sapropel ehtiyatı, mineral su bulaqları var.

İqlimi kontinentaldır. Qışı soyuq və uzunmüddətli, yayı mülayim istidir. Orta temp-r yanvarda Uralönü düzənliklərdə –14-dən –16°C-yədək, iyulda 17–19°C, Uralarxasında 18–20°C, dağlarda 9–10°C-dir. İllik yağıntı 300–700 *mm*, dağlarda 750–800 *mm*-dir. Çayları, əsasən, Volqa və Ural hövzəsinə aiddir. Ümumi uz. 57 min *km* olan təqr. 13 min çay var. İri çayları Belaya və onun qolları Nuquş, Sim, Ufa və Dyomadır; əsasən, qar suları ilə qidalanır, yazda gursulu olur; hidroenerji ehtiyatı 1364 min *kVt*-dır. Dağ çayları astanalarla səciyyələnir. B. ərazisində ümumi sah. 400 $km^2$ olan 2 mindən çox göl var. Ən iri (23,5 $km^2$) gölü Aslikul karst mənşəli, ən dərin (28 *m*) gölü Yaktıkul tektonik mənşəlidir.

**Torpaqlar, bitki örtüyü və heyvanlar aləmi.** Uralönünün şm.-ında çimli-podzollaşmış torpaqlarda cökə, bəzən də palıd və ağcaqayın qarışığı olan küknar-ağşam qarışıq meşələri yayılmışdır. C.-a getdikcə bunlar tünd-boz meşə və çimli-karbonatlı torpaqlarda zəngin meşəaltına malik və cökə, ağcaqayın, palıd, bəzən qarağacdan ibarət enliyarpaqlı meşələrlə, yerli meşələr isə çox vaxt ikincili cökəliklər, tozağacı meşələri və ağcaqovaqlıqlarla əvəz olunur.

B.-ın düzənlik ərazisinin təqr. 50%-ini meşə-çöllər tutur. Uralönündə tünd-boz meşə torpaqlarında adalar şəklində yerləşən qarağac qarışıq palıd-tozağacı və cökə meşələri tipik və karbonatlı qaratorpaqlardakı taxıllı-müxtəlifotlu çəmən və müxtəlifotlu-şiyavlı bozqırlarla növbələşir. Uralarxasının meşə-çöllərində tozağacı və tozağacı-şamağacı meşələri, adi və c. qaratorpaqlarında, bəzən şorakətvarı qaratorpaqlarda və şorakətlərdə şırımlı-topallı-şiyavlı çöllər, həmçinin çəmən və bataqlıqlar üstünlük təşkil edir. B.-ın c.-unda adi və c. qaratorpaqlarında kolluqlu (qızılı akasiya, topulqa) və daşlı çöllər yayılmışdır. Bozqır sahələr, əsasən, şumlanmışdır. Çay dərələrində qızılağac meşələri, bataqlıqlar və subasar çəmənlər inkişaf etmişdir.

Dağlarda yüksəklik qurşaqlığı müşahidə olunur. C.-da 350–400 *m* yüksəklikdəki öndağlıq meşə-çölləri q. yamacının boz-meşə torpaqlarında bitən palıd-cökə alçaq dağ meşələri ilə, ş. yamacının şamağacı-tozağacı meşələri ilə, 650–700 *m*-dən yuxarıda isə podzollaşmış torpaqlarda bitən enliyarpaqlı-küknar və küknar-ağşam meşələri ilə əvəz olunur. 1000–1200 *m*-dən yuxarılarda q. yamaclarında çimli torpaqlarda bitən seyrək küknar və küknar-tozağacı meşələri, ş. yamaclarında enliyarpaqlı seyrək meşəliklər yayılmışdır; 1400 *m*-dən başlayaraq tundra, 1600 *m*-dən yuxarıda daş səpintili və şibyəli holtslardır. Şm.-ş.-də q. yamaclarında tünd-iynəyarpaqlı və ş. yamaclarında açıq iynəyarpaqlı meşələr üstünlük təşkil edir. Resp.-dakı ümumi oduncaq ehtiyatının 70%-ndən çoxu dağ meşələrində cəmləşmişdir. Meşə zonasında qaban, qonur ayı, sığın, cüyür, dovşan, dələ, sincab, meşə safsarı, Bonazi tetrası, meşə-çöl və çöl zonasında boz tülkü, sünbülqıran, marmot və s.; çaylarda çökə, taymen, qızılxallı balıq, xarius və s. yaşayır. B.-da təqr. 200 mühafizə olunan təbii ərazi (resp. ərazisinin 7,2%-i), o cümlədən *Başqırdıstan qoruğu*, Şulqantaş, Cənubi Ural qoruqları, *Başqırdıstan milli parkı* vardır (2003). Mineral sular və müalicəvi palçıq bazasında balneoloji (Krasnousolsk, *Yanqantau*), iqlim-palçıq (Yaktıkul), iqlim-qımız müalicəsi (*Aksakovo*, Şafronovo və s.) kurortları təşkil edilmişdir. Mənzərəli dağ landşaftları rekreasiya məqsədilə istifadə edilir. İnsanların həyatı üçün lazım olan ilkin təbii şərait kifayət qədər əlverişlidir, lakin sənaye çirklənməsinin, əsasən də neft emalı, neft-kimya sənayesi müəssisələrinin və torpaq eroziyasının təsiri nəticəsində ağır, ayrı-ayrı r-nlarda isə çox ağır ekoloji vəziyyət yaranmışdır. Atmosferə 462 min *t* zərərli maddə tullanır (2003). Ümumi çirklənmə zonaları Ufa, Salavat, Sterlitamak ş.-ləri ətrafındadır. Faydalı qazıntı hasilatı r-nlarında landşaftlar çox pozulmuşdur. Resp.-dakı k.t. yerlərinin təqr. 60%-i eroziya və deflyasiyaya məruz qalmışdır.




**Əhali.** Əhalinin əksəriyyətini ruslar (36,3%), başqırdlar (29,8%), tatarlar (24,1%) təşkil edir (2002). B.-da digər etnik qruplardan çuvaşlar (2,9%), marilər (2,6%), mordvalar (0,6%), udmurtlar (0,6%), ukraynalılar (1,3%), beloruslar (0,4%), almanlar (0,2%), qazaxlar (0,1%), azərb.-lar (0,1%) və b.-ları da yaşayırlar. 1995 ildən əhalinin təbii azalması (0,3%; RF üzrə orta səviyyəsi 0,55%; 2004) səciyyəvidir; ölüm səviyyəsi (1000 nəfərə 14,1 nəfər) doğum səviyyəsini (1000 nəfərə 11,2) üstələyir; uşaq ölümü 1000 nəfər diridoğulan uşağa 12,5 nəfərdir (2003). Əhalinin 53,2%-ni qadınlar, 20,1%-ni 16 yaşadək olanlar təşkil edir. Orta ömür müddəti 66,4 ildir (kişilərdə 60,2; qadınlarda 73,1). Əhalinin, əsasən, RF-nin qonşu subyektlərindən zəif miqrasiya axını səciyyəvidir (miqrasiya hesabına artım əmsalı 10 min nəfərə 7 nəfərdir); orta sıxlıq 1 $km^2$-də 28,5 nəfərdir. Ən sıx məskunlaşmış rayonlar: Ufa (506 nəfər), Sterlitamak (126 nəfər), Krasnokamsk (102 nəfər) və Tuymazı (96 nəfər). Şəhər əhalisi 59,7%-dir (2005; 1959 ildə 38,4%, 1989 ildə 63,8% təşkil edirdi). B. əhalisinin 25%-indən çoxu və şəhər əhalisinin təqr. 40%-i Ufada (1043,4 min nəfər; 2005) yaşayır; digər iri şəhərləri: Sterlitamak (264,9 min), Salavat (157,9 min), Neftekamsk (119,1 min), Oktyabrski (108,2 min). B. əhalisinin əksəriyyəti müsəlmandır; xristianlar və iudaistlər də var.

**Tarixi oçerk.** B.-ın ən qədim arxeoloji abidələri Aşöl və Mustye dövrlərinə aiddir. Üst Paleolit insan düşərgələri ilə, o cümlədən qayaüstü təsvirləri olan mağararalarla [İqnatyev və Kap (Şulqantaş) mağaraları] təmsil olunur. B. ərazisinin Uralyanı hissəsində Mezolit (e.ə. 12/10-cu – 6-cı minilliklər) dövrünə aid Kamayanı və Orta Volqaboyu abidələrinə ya-



İnzer çayının vadisi.

xın olan Romanov–İlmurzin mədəniyyəti müəyyənləşdirilmişdir, Uralarxasında isə geniş ərazidə yayılan və həndəsi mikrolitlərlə səciyyələnən cənub mədəniyyətlərinə aid Yangel mədəniyyəti mövcud olmuşdur. B.-ın Uralyanı ərazilərdə yerləşən Neolit dövrü (e.ə. 6-cı minilliyin sonları – 5/4-cü minillik) abidələri *Volqa-Kama mədəniyyətinə* daxildir. Uralarxası mədəni vil.-nə Qərbi Uralda da yayılmış Çebarkul mədəniyyəti aiddir. Eneolit dövründə (e.ə. 4–3-cü minilliklər) B. ərazisində iki mədəni vil. bölgüsü qalmaqda idi. Uralyanı ərazilərin meşə-çöl hissələrində Agidel mədəniyyəti, Belaya və İk çaylarının aşağı axarlarında Novoilyinsk mədəniyyəti və Qarin mədəniyyəti, Cənubi Uralda və Uralarxasında isə *daraqvarı həndəsi mədəniyyətlər* arealına daxil olan Kısıkul-Surtanda mədəniyyəti yayılmışdı.

Erkən və Orta Tunc dövründə B. çöllərində *quyu qəbirləri mədəniyyəti*, meşə-çöl zonasında *Balanovo mədəniyyəti*, Volsk-Lbişen mədəniyyəti və *qaytanlı keramika mədəniyyətləri* arealına daxil olan digər abidə tipləri yayılmışdı. Son Tunc dövrünün əvvəllərində bu mədəniyyətləri əvəz edən *Abaşevo mədəniyyəti* və *Sintaştı mədəniyyəti* əsasında *kərtmə mədəniyyəti* formalaşmışdı. Həmin vaxtlarda Uralarxası ərazilərdə Alakul mədəniyyəti (bax *Andronovo mədəniyyəti*) və *Çerkaskul mədəniyyəti* yayılmışdı. Tunc dövrünün sonlarında B.-ın çöl və cənubi meşə-çöl ərazilərində *çoxköbəli keramika mədəniyyətinin* azsaylı məskənləri mövcud olmuşdur. Bu məskənlərdən şm.-da əhali axını müşahidə olunurdu (Suskan, Mejovsk, Maklaşeyev mədəniyyətləri).

Turatau (Tura dağı) yaxınlığında Tuqar-Salqan gölü.



Erkən Dəmir dövründə B.-ın c. ərazilərində *massagetlərə* və ya *savromatlara*, sonra isə *sarmatlara* yaxın olan qruplaşmalar (e.ə. 7/6 əsrlər – eramızın 3/4 əsrləri) məskunlaşmışdılar. Belaya çayının sağ sahilində və aşağı axınında e.ə. 8/7 – 5/4 əsrlərdə *Ananyino mədəniyyəti* və Uralarxası ərazilərlə bağlı olan Qafur-Ubalar tipli abidələr yayılmışdı. Bunların əsasında Belaya çayının orta axınında Kara-Abız mədəniyyəti (e.ə. 4 əsr – eramızın 2/3 əsrləri), İk-Belaya çayarasında isə *Pyanı Bor mədəniyyəti* birliyinə (e.ə. 2 əsr – eramızın 2 əsri) daxil olan Çeqanda mədəniyyəti mövcud olmuşdur. Bu ənənələrin davamı *Mazunin mədəniyyətində, Baxmutino mədəniyyətində*, həmçinin dağətəyi rayonlarda məlum olan İmendyaş mədəniyyətində izlənilir. Eramızın 1-ci minilliyinin ortalarında B.-ın meşə-çöl rayonlarında yayılmış *İmenkov mədəniyyətinə* yaxın olan Romanov tipli abidələr, həmçinin Baxmutino mədəniyyəti ilə fəal qarşılıqlı əlaqədə olan *Turbaslin mədəniyyətinin* abidələri meydana gəlmişdir. 6/7 – 8/9 əsrlərdə B. ərazisində Uralarxası ərazilərlə bağlı olan qohum *Kuşnarenkovo mədəniyyəti* və *Qara Yaqub mədəniyyəti* yayılmışdı. 9 əsrin ortalarında bu mədəniyyətlərin itməsi uqr əhalisinin q.-ə getməsi və onun *macarların* təşəkkülündə iştirakı ilə əlaqələndirilir.

9 əsrin 2-ci yarısında B. çöllərinə *peçeneqlər* gəlmiş, 10–11 əsrlərdə isə onları bu ərazidən oğuzlar sıxışdırmışlar. 10–13 əsrlərdə müasir B.-ın ərazisi *Volqa-Kama Bulqarıstanın* siyasi təsiri altında idi. 10 əsrdən ərəb yazılı mənbələrində başqırdlar haqqında qeydlər var, lakin onlarla bağlı olan arxeoloji abidələrin tərkibi aydın deyildir. Şimali meşə-çöl və dağ-meşə rayonlarında petroqoqrom tipli abidələrin əsasında 12–14 əsrlərdə formalaşmış, islamı qəbul etmiş uqr əhalisinə (macar rahib-səyyah Yulian tərəfindən qeyd olunan "macarlar") aid Çiyəlik mədəniyyəti meydana gəlmişdir. 1219–20 illərdə müasir B. ərazisi Cuçi Ulusunun (bax *Qızıl Orda*) tərkibinə daxil olmuşdur. 13 əsrin 2-ci yarısından B.-ın çöl və meşə-çöl əraziləri qıpçaqların və digər türk tayfalarının məskunlaşdıqları zonaya daxil idi. Məqbərələr (keşene), daş kitabələri olan qəbiristanlıqlar 14 əsrdən burada yayılan islam dini ilə əlaqədardır. Həmin əsrin sonlarında ənənələrin kəskin dəyişməsi qeyd olunur. Başqırdların etnoqrafik məlumatlardan bəlli olan mədəniyyəti ilə bağlı abidələr meydana gəldi.

Qızıl Ordanın süqutundan sonra müasir B.-ın ərazisi *Kazan xanlığı, Sibir xanlığı* və *Noqay Ordasının* tərkibində olmuşdur. 1558 ilədək başqırdların böyük hissəsi Rusiyanın tabeliyi altına düşdü. 16 əsrin sonu – 17 əsrin əvvəllərində Rusiya dövləti şimal-qərb və cənub-şərq başqırdlarını da öz tərkibinə qatdı. Başqırd torpaqlarında rus mülkədarlarının torpaq sahibliyinin yayılması, vergi və mükəlləfiyyətlərin artırılması, zorakı xristianlaşdırma siyasəti, yerli özünüidarə hüquqlarının mərkəzi və yerli hakimiyyət orqanları tərəfindən məhdudlaşdırılması 1662–64, 1681–84, 1704–11, 1735–40 və 1755–56 illərdə başqırdların iri üsyanlarına səbəb oldu. Üsyanların yatırılmasına baxmayaraq, bu çıxışlar rus çarlarını, daha sonra imperatorlarını başqırdların torpaq üzərindəki irsi hüquqlarını təsbit etməyə, onları təhkimli kəndlilərə çevirmək və zorakılıqla xristianlaşdırmaq planlarından əl çəkməyə məcbur etdi. 1708 ildə *Kazan quberniyasının* tərkibinə daxil olan (1708–28, 1731–34 illərdə) Ufa əyaləti yaradılmış, 1728–31 illərdə əyalət birbaşa Senatın tabeliyində olmuş, 1734–44 illərdə isə *Orenburq ekspedisiyası* tərəfindən idarə edilmişdir. 1744–81 illərdə indiki B.-ın ərazisi *Orenburq quberniyasının* tərkibinə daxil idi. Bölgə *Puqaçov üsyanının (1773–75)* əsas mərkəzlərindən birinə çevrilmiş, başqırdların milli qəhrəmanı *Salavat Yulayev* Y.İ. Puqaçovun ən yaxın silahdaşı olmuşdur. 1781–96 illərdə indiki B.-ın ərazisi Ufa canişinliyinin, 1796–1865 illərdə Orenburq quberniyasının, sonuncunun bölüşdürülməsindən sonra isə *Ufa quberniyasının* (1865–1922) və Orenburq quberniyasının (1865–1919) tərkibinə qatılmışdır. 1798–1865 illərdə kanton idarəetmə üsulu (bax *Kanton*) mövcud olmuşdur. 19 əsrdə, xüsusilə islahat dövründə gəlmə əhalinin sayı artmışdı.

1917 il noyabrın 15(28)-də Başqırdıstan vilayət (mərkəzi) şurası Rusiya Sovet Respublikası tərkibində B.-ın muxtariyyətini elan etdi. Həmin ilin dekabrında Orenburqda çağırılan 3-cü Ümumbaşqırd müəssislər qurultayında B.-ın muxtariyyəti təsbit edildi. A. Validovun başçılığı ilə hökumət yaradıldı. 1917–22 illərdə Rusiyada baş verən vətəndaş müharibəsi şəraitində Başqırd hökuməti milli ordu yaradılmasına başladı. 1918 il sentyabrın 23-də elan olunmuş *Ufa direktoriyası* hakimiyyəti həmin ilin noyabrında vitse-admiral A.V. *Kolçak* tərəfindən buraxıldı. Kolçakın B.-ın muxtariyyətini, həmçinin Başqırd hərbi şurasını və Başqırd korpusu qərargahını ləğv etməsi ilə yanaşı başqırd dəstələrinə komandanlığı gen.-l. A.İ. Dutova tapşırması Başqırd hökumətini RSFSR nümayəndələri ilə danışıqlara getməyə məcbur etdi. 1919 il martın 20-də Moskvada "Mərkəzi sovet hökumətinin Başqırd hökuməti ilə Başqırdıstanın sovet muxtariyyətinə dair sazişi" imzalandı. Nəticədə Ufa qub.-nın c. hissələrindən və Orenburq qub.-nın şm. hissəsindən paytaxtı Sterlitamak ş. olmaqla kiçik Başq. MSSR yaradıldı. 1920 il mayın 19-da Ümumrusiya MİK və RSFSR Xalq Komissarları Soveti tərəfindən "Başq. Muxtar Sovet Respublikasının dövlət quruluşu haqqında" qərar qəbul edildi. 1922 il iyunun 14-də Ufa qub.-nın ləğvindən sonra onun ərazisi Başq. MSSR-in tərkibinə qatıldı və paytaxtı Ufa ş.-nə köçürüldü. 1937 il iyunun 23-də Başq. MSSR-in yeni Konstitusiyası qəbul edildi.

Böyük Vətən müharibəsi illərində SSRİ-nin q. rayonlarından sənaye müəssisələrinin köçürüldüyü ən mühüm bölgələrdən biri B. olmuşdur. Bu dövrdə B.-ın neftçıxarma və neft emalı sənayesi sürətlə inkişaf etmişdir. 1952–53 illərdə Başq. MSSR daxilində Ufa və Sterlitamak vil.-ləri mövcud idi. 1990 il oktyabrın 11-də Başq. MSSR Ali Soveti tərəfindən Dövlət müstəqilliyi haqqında Bəyannamənin qəbulundan sonra resp. "Başqırdıstan Sovet Sosialist Respublikası – Başkortostan" adlandırıldı. 1992 il fevralın 25-dən Başkortostan Respublikası adlanır.

**Təsərrüfat.** B. Ural iqtisadi r-nuna daxildir. Resp.-nın Rusiya ÜDM-indəki payı 2,3%-dir. RF iqtisadiyyatında neft hasilatı (2,7%, 2003) və neftin ilkin emalı (13,3%), mis filizlərinin (konsentratlarda; 10–12%), daşduzun hasilatı ilə (37%) seçilir. B. iri sənaye (kaustik soda 20,9%, sintetik qatranlar və plastik kütlələr 14,4%, metalkəsən dəzgahlar 13%, sulfat turşusu 2,7%) və k.t. məhsullarının (RF üzrə 4,4%; süd 6,1%, ümumi taxıl



Ufa dəfinəsindən tapılmış qızıl bəzək əşyası. 7 əsr.

yığımının 5,7%-i) istehsalçısıdır. ÜRM-in (ümumregional məhsulun) strukturunda (%-lə) sənayenin payı 32,1, k.t.-nın payı 11,4, ticarətin, əmtəə və xidmət satışı üzrə kommersiya fəaliyyətinin payı 10,3, qeyri-bazar xidmətlərinin payı 8,1, tikintinin payı 7,8, nəql.-ın payı 6,1, digər sahələrin payı 10,5-dir. Mülkiyyətin formalarına görə müəssisələrin nisbəti (təşkilatların sayına görə, 2004, %-lə): özəl 65,1, bələdiyyə 13,5, dövlət 5,3, ictimai və dini təşkilatların (birliklərin) 9,9, digər mülkiyyət formaları 6,1. İqtisadi cəhətdən fəal əhalinin sayı 1968 min nəfər; 90,6% iqtisadiyyatda məşğuldur. Məşğulluğun sahəvi strukturu (%-lə): sənaye 22,3, k. t. 16,5, ticarət və ictimai iaşə 14,2, təhsil 11,1, tikinti 8,7, səhiyyə 6,7, nəql. 4,5, mənzil-kommunal təsərrüfatı 4,3. İşsizliyin səviyyəsi 8,2%. Əhalinin adambaşına pul gəlirləri ayda 5,7 min rubl. (RF üzrə orta səviyyənin 85%-i (2005 ilin ortası); əhalinin 20,3%-inin gəlirləri yaşayış minimumundan aşağıdır.

Daş mengir. Axunovo kəndi.



S ə n a y e. Sənaye məhsulunun həcmi 640,4 mlrd. rubldur. (2009). Sənaye istehsalının sahəvi strukturu (2003, %-lə): yanacaq 37,7, maşınqayırma və metal emalı 17,3, kimya və neft-kimya 13,3, elektroenergetika 10,5, yeyinti 7,4, qara metallurgiya 2,8, əlvan metallurgiya 2,2, meşə, ağac emalı və sellüloz-kağız 2,1, tikinti materialları sənayesi 2, və s. Tuymazı, Şkapovo, Arlan və s. yataqlardan neft çıxarılır (əsas neftçıxarma şirkəti "Başneft"dir; cədvəl 1). Aparıcı neft emalı müəssisələri: "Başneftexim" (RF-də ümumi neft emalının 10–12%-i), Novoufimsk neft emalı z-du. B. özünü hasil etdiyi elektrik enerjisi ilə tamamilə təmin edir (Karmanov DRES-i).

Maşınqayırma sahəsi gübrə maşınları, metalkəsən və ağac emalı dəzgahları, neft aparaturası, özüboşaldan maşınlar, avtobuslar, kimyəvi avadanlıqlar və kabel istehsalında ixtisaslaşır. Aparıcı müəssisələr: "Ufa motorqayırma istehsalat birliyi" (hərbi və mülki təyyarələr üçün aviasiya mühərrikləri, helikopterlər üçün qovşaqlar, daxiliyanma mühərrikləri və s.), aviasiya istehsalat müəssisəsi (Kumertau ş.) və "Neftekamsk özüboşaldanlar z-du". Hərbi-sənaye kompleksi müəssisələri ("Salavathidromaş", "İşimbay nəql. maşınqayırması zavodu") fəaliyyət göstərir.

Kimya və neft-kimya sənayesi kükürd, sulfat turşusu, kaustik və kalsiumlaşdırılmış soda, bitkilərin mühafizəsi üçün kimyəvi vasitələrin, mineral gübrələr, sintetik kauçuk, sintetik qatranlar və plastik kütlə, həmçinin əsas üzvi sintez məhsullarının istehsalı üzrə ixtisaslaşmışdır. Əsas kimya müəssisələri: "Kaustik" (Sterlitamak), "Avanqard" z-du ("Sterlitamak"; nitroemallar, laklar və s.), "Ximprom" (Ufa; sulfat turşusu, xlorid turşusu, sintetik yuyucu vasitələr və s.); neft-kimya müəssisələri: "Ufaneftexim", "Kauçuk" (Sterlitamak), "Salavatnefteorqsintez" (mineral gübrələr, sintetik qatranlar, plastik kütlə).

Dərman vasitələri və vitamin preparatları istehsalı inkişaf etmişdir ("Ufavita" vitamin z-du Rusiyanın əczaçılıq məhsulu istehsalçılarının birinci onluğuna daxildir). Yeyinti sənayesi müəssisələri: "Kondi" qənnadı f-ki (Ufa), Sterlitamak spirt-araq z-du, həmçinin Ufada çay f-ki, ət-konserv kombinatı, "Başkirxlebprom" şirkəti.

Qara (Beloretsk metallurgiya kombinatı, Ufada "Lita", Blaqoveşşenskdə "Oktyabr" furnitur z-du və Ufada

Cədvəl 1. **Sənaye məhsulunun əsas növləri**

| | 1985 | 1990 | 1995 | 2000 | 2003 |
|---|---|---|---|---|---|
| Elektrik enerjisi, mlrd. *kVt-saat* | 33,7 | 31,1 | 26,9 | 24,7 | 23,3 |
| Neft, qaz kondensatı daxil olmaqla, mln. *t* | 30,3 | 25 | 15,6 | 11,7 | 11,2 |
| Neftin ilkin emalı, mln. *t* | 54,1 | 45,7 | 29,9 | 24,7 | 25,4 |
| Metalkəsən dəzgahlar, *ədəd* | 11319 | 10310 | 2644 | 816 | 761 |
| Ağac emal edən dəzgahlar, *ədəd* | 280 | 377 | 829 | 363 | 173 |
| Yük avtomobilləri, *ədəd* | 38045 | 39079 | 6352 | 1033 | 497 |
| Avtobuslar, *ədəd* | 3731 | 4915 | 1662 | 333 | 726 |
| Mineral gübrələr, min *t* | – | 574,7 | 287,9 | 353,7 | 226,7 |
| Sintetik qatranlar və plastik kütlələr, min *t* | 248 | 230 | 195 | 434 | 448 |
| Sulfat turşusu, min *t* | – | 727,1 | 450,7 | 393,7 | 217,0* |
| Kaustik soda, min *t* | – | 362,4 | 260,2 | 259,4 | 250,1* |
| Dərman vasitələri, mln. rubl** | 0,06 | 0,09 | 144 | 927 | 1633 |

* 2001.
** 1985, 1990, 1995 illərdə mlrd. rubl.

"Vtorçermet" istehsalat birliyi) və əlvan ("Başqırdıstan kükürd kombinatı", Uçalı və Buribay filizsaflaşdırma kombinatları) metallurgiya; tikinti materialları sənayesi ("Baştstroykonstruksiya", "Salavatsteklo" və s.), meşə sənayesi müəssisələri və s. fəaliyyət göstərir. Əsas sənaye mərkəzləri: Ufa, Sterlitamak, Salavat, Neftekamsk. İxracda yanacaq-energetika və neft-kimya komplekslərinin məhsulları, idxalda isə maşınqayırma məhsulları və s. üstünlük təşkil edir.

K ə n d t ə s ə r r ü f a t ı. K.t.-nın ümumi məhsulunun dəyəri 130,9 mlrd. rubldur (2011); heyvandarlıq məhsulu üstünlük təşkil edir (55,3%). K. t. yerlərinin sah. 71,6 min $km^2$ (B. sah.-nin 50%-ə qədəri), bunun 52,7%-i şum yeridir. K. t.-nın inkişafına əlverişli aqroiqlim şəraiti, ilk növbədə münbit torpaqlar (qaratorpaqlar və boz meşə torpaqları B. ərazisinin 60%-ini tutur) imkan verir. Yem bitkiləri, taxıl (buğda, çovdar, arpa, yulaf), texniki bitkilər (şəkər çuğunduru, günəbaxan), kartof və tərəvəz əkilir (cədvəl 2).

Heyvandarlıq ətlik-südlük heyvandarlıq, donuzçuluq, quşçuluq, ətlik-yunluq qoyunçuluq ilə təmsil olunmuşdur (cədvəl 3 və 4). Atçılıq və arıçılıq (3379 *t* bal, 2002) inkişaf etmişdir.

K.t. yerlərinin çox hissəsi (təqr. 73%, 2003) k.t. təşkilatlarının torpaqlarına aiddir. B.-ın bütün k.t. məhsulunun təqr. 58,2%-i əhaliyə məxsus təsərrüfatlarda, 31,7%-i k.t. müəssisələrində, 2,9%-i fermer təsərrüfatlarında istehsal olunur. K.t. müəssisələri taxılın və texniki bitkilərin əsas istehsalçılarıdır. Kartofun təqr. 97%-i, tərəvəzin isə təqr. 85%-i əhaliyə məxsus təsərrüfatlarda istehsal olunur.

N ə q l i y y a t. D.y. nəql. B.-ın nəql. sistemində həlledici rol oynayır və resp.-nın yük dövriyyəsinin təqr. 40%-ini (neft, kimya yükləri, mineral gübrələr, qara metallar üstünlük təşkil edir), sərnişin dövriyyəsinin isə 30%-ini təmin edir. D.y.-larının uz. 1458 *km*-dir (2003). Əsas d.y. magistralı: Samara – Ufa – Çelyabinsk. Bərkörtüklü avtomobil yollarının uz. 22,1 min *km*. Ən əhəmiyyətli avtomobil magistralları: Samara – Ufa – Çelyabinsk; resp.-nın hüdudlarında isə Ufa – Sterlitamak, Ufa – Beloretsk, Ufa – Birsk. Gəmiçilik üçün yararlı olan su yollarının uz. 1080 *km*. Əsas çay nəql. magistralı Belaya çayıdır (Ufa qolu ilə). Əsas çay portları: Ufa, Birsk. Yük dövriyyəsində taxta-şalban, neft yükləri, tikinti materialları, taxıl, metallar və metal məmulatlar, daş kömür üstünlük təşkil edir. Boru kəməri nəql. inkişaf etmişdir. Boru kəmərlərinin əsas hissəsi B.-ın neft hasilatı r-nlarını neft emalı z-dları ilə birləşdirir. Ufada beynəlxalq aeroport var.

T u r i z m. "Agidel", "Arski Kamen" (Belaya çayının sahilində, Beloretsk r-nunda), "Vosxod" (Ufa r-nunda), "Nuquş" (Meleuz r-nundakı Nuquş su anbarının sahilində) turist bazaları ümumrusiya əhəmiyyətlidir. Cənubi Uralın və Uralönünün speleoloji təbiət abidələri xüsusi əhəmiyyət kəsb edir. Başqırdıstan milli parkı ildə 30 min turist qəbul edir. Burada piyada, at və su turizmi növləri inkişaf etmişdir. Karst mağaraları, o cümlədən Uralda ən böyük olan Kutuk-Sumqan mağarası var.





Cədvəl 2. **Bitkiçilik məhsulunun əsas növləri, min t.**

| | 1985 | 1990 | 1995 | 2000 | 2004 | 2010 |
|---|---|---|---|---|---|---|
| Taxıl | 5254,2 | 4727,6 | 2990,7 | 2520,7 | 3235,9 | 3002,9 |
| Şəkər çuğunduru | – | 1586,1 | 960,5 | 1147,7 | 1100 | 1432,3 |
| Günəbaxan (toxumu) | – | 89,5 | 31,5 | 126,2 | 131,8 | 283,9 |
| Kartof | 1280,8 | 1392,4 | 1235 | 715 | 1300 | 1205,5 |
| Tərəvəz | 203,9 | 193,3 | 227,6 | 224,2 | 412,7 | 338,3 |

Cədvəl 3. **Mal-qaranın sayı, min baş**

| | 1985 | 1990 | 1995 | 2000 | 2004 |
|---|---|---|---|---|---|
| Qaramal | 2310,5 | 2392,9 | 2203,4 | 1686,9 | 1717,1 |
| Donuzlar | 1124,4 | 1133,6 | 797,2 | 562,5 | 581,4 |
| Davar | – | 2298,3 | 1222,4 | 688,6 | 764,6* |

* 2003.

Cədvəl 4. **Heyvandarlıq məhsulunun əsas növləri**

| | 1985 | 1990 | 1995 | 2000 | 2004 | 2010 |
|---|---|---|---|---|---|---|
| Kəsilən heyvan və quş, min *t* | 276,3 | 326,1 | 267,4 | 204,4 | 383,7 | 378,9 |
| Süd, min *t* | 1718,8 | 1930 | 1708,6 | 1539,3 | 2061,9 | 1695,0 |
| Yumurta, mln. *ədəd* | 1034,1 | 1149,1 | 1182 | 1178,6 | 1213,9* | 1172,8 |
| Yun, *t* | – | 6668 | 2802 | 1214 | 1776* | |



Salavat Yulayevin heykəli. Ufa.

**Səhiyyə.** B.-da 481 ambulatoriya-poliklinika müəssisəsi, 41496 çarpayılıq 297 xəstəxana (əhalinin hər 10 min nəfərinə 107 çarpayı; 2002) var; 16,7 min həkim (əhalinin hər 10 min nəfərinə 41 həkim; 2003) işləyir. Ölümün əsas səbəbləri: qan dövranı sistemi xəstəlikləri (63%); bədbəxt hadisələr, zəhərlənmə və travmalar (16%); bədxassəli şişlər (12%); tənəffüs orqanları xəstəlikləri (6%). Ümumi xəstələnmə hallarında tənəffüs orqanları xəstəlikləri 15,5%, həzm sistemi – 13,8%, qan dövranı – 12% təşkil etmişdir. Kurortları: Aksakovo, Krasnousolsk, Şafranovo, Yanqantau və s.

**Təhsil. Elm və mədəniyyət müəssisələri.** B.-da 3,3 min ümumtəhsil məktəbi, 76 orta ixtisas təhsili müəssisəsi, o cümlədən İncəsənət (1922) və Xoreoqrafiya məktəbləri (1986; hər ikisi Ufada) fəaliyyət göstərir. Ən iri ali məktəbləri: Başqırdıstan Dövlət Un-ti (1957), Aqrar Un-t (1930), Tibb Un-ti (1932), Neft Texniki Un-ti (1948), Aviasiya Texniki Un-ti (1932); institutları: İncəsənət İn-tu (1968), Hüquq İn-tu (1970) – hər ikisi Ufada; pedaqoji in-tlar (1952, Birsk; 1954, Sterlitamak), Təyyarəçilərin Ali Hərbi Aviasiya Məktəbi (1983) və s., Rusiya EA Ural Şöbəsinin Elmi Mərkəzi (1951–87 illərdə Ufa Elmi Mərkəzi), Rusiya EA-nın elmi tədqiqat in-tları var. 50-dən çox muzey, o cümlədən Ufada Başkortostan Respublikası Milli muzeyi (əsası 1864 ildə qoyulmuşdur), B. xalqlarının tarixi və mədəniyyəti, M.V. Nesterov ad. Rəssamlıq (1919), müasir incəsənət muzeyləri; Beloretsk, Sterlitamak, Birsk və s. ş.-də tarix və tarix-diyarşünaslıq muzeyləri, S.T. Aksakovun, M. Qafurinin (hər ikisi Ufada), M.İ. Svetayevanın (Belebey r-nunun Usen-İvanovskoye k.), Salavat Yulayevin (Salavat r-nunun Maloyaz k.) xatirə muzeyləri və s.; təqr. 130 kitabxana, o cümlədən Ufada Milli kitabxana (1921), korlar üçün kitabxana (1949), şəhər kitabxanası (1983) və Mərkəzi uşaq kitabxanası (1929) fəaliyyət göstərir.

**Kütləvi informasiya vasitələri.** Resp.-da başqırd, rus, tatar, çuvaş və mari dillərində qəzet və jurnallar çıxır. "Respublika Başkortostan", "Başkortostan", "Kızıl tan", "Molodyojnaya qazeta", "Veçernyaya Ufa", "Ural səsi", "Çolman" ("Kama") qəzetləri, "Vətəndaş", "Ufa", "Hənək" (satira və yumor), həmçinin uşaq və gənclər üçün "Amanat" və "Akbuzat" jurnalları resp.-nın əsas mətbu orqanlarıdır (2007). "Başkortostan" dövlət teleradio şirkətinin tərkibində "Radio Başkortostana" radiostansiyası və B. peyk telekanalı fəaliyyət göstərir. "Başinform" dövlət informasiya agentliyi 1994 ildə yaradılmışdır.

**Ədəbiyyat.** 1917 ilə qədər başqırd ədəbiyyatı tatar, daha sonra başqırd dillərində yaradılmış, folklor əsasında və regionun ümumtürk yazılı ədəbiyyatının təsiri ilə formalaşmışdır. Başqırd xalq ədəbiyyatı qəhrəmanlıq dastanları (kobayır), məişət mahnıları, nağıl və əfsanələrlə zəngindir. 14 əsr – 20 əsrin əvvəllərində şifahi poeziyanı sesenlər (xalq şair və müğənniləri) təmsil edirdilər. 18 əsr başqırd seseni *Salavat Yulayev* öz yaradıcılığında folklorla yazılı ədəbiyyatın ənənələrini birləşdirmişdir. 19 əsr ədəbiyyatına həm sufizmin, həm də Avropa maarifçilik ideyalarının təsiri olmuşdur (M. *Akmulla*, M. Ümetbayev, Ş. Zəki).

20 əsrin 1-ci rübündə başqırd və tatar ədəbiyyatının görkəmli nümayəndəsi M. *Qafuri* vətənpərvərlik poeziyasının əsasını qoymuşdur. Bu illərdə başqırd nəsri inkişaf etmiş, roman janrı formalaşmış (*Xayri Qaynan*, "Dönüş", 1928; İ. Nasıri, "Kudey", 1936), povest və hekayələr (M. Qafurinin sosial-psixoloji "Ləkələn-



Turaxana məbədi. 14–15 əsrlər.

mişlər" povesti, 1926; S. Agişin satirik povestləri, A. Vali, Q. Qumər, X. Dövlətşina və b.-nın əsərləri) yazılmışdır.

2-ci dünya müharibəsi illərində poeziya daha çox inkişaf etmişdir. B. Bikbay (1909–68), H. Kərim, R. Niqməti (1909–59), S. Kulibay (1910–76), Q. Əmiri (d. 1911), D. Yultı, *S. Kudaş*, *M. Kərim* və b. oda, ballada, sonet və s. yazmışlar. Bu dövrdə başqırd poeması (R. Niqməti, "Agidelin gözəl vadiləri", 1940; M. Kərim, "Dekabr nəğməsi", 1942 və s.) yarandı. M. Buranqulovun poeziyasında başqırd mahnı-əfsanə motivləri güclü idi.

Lələ-Tülpan məscidi. Ufa.



Müharibədən sonrakı dövrdə S. Agişin "Özül", Ə. Valeyevin "İlk addımlar", Ə. Bikçentayevin "Durnalar Uralda qalır" romanları, S. Kulibay, M. Kərim, H. Kərim, T. Arslan və b.-nın şeir və poemaları nəşr olundu. İ. Abdullinin "Dərin nəfəs", M. Kərimin "Tənha qovaq", "Ay tutulan gecə", R. Niqmətinin "Belaya çayının sahilində" və s. dram əsərləri yarandı, psixoloji hekayə janrı (Q. Bayburin, A. Bikçentayev, R. Sultanqareyev və b.) şöhrət qazandı. Dramaturgiya (M. Kərim, H. İbrahimov, İ. Abdullin, N. Nəcmi və b.) inkişaf etdi. 1960–90 illərin poeziyasında (M. Qali, R. Bikbayev, Q. Ramazanov, Z. Biişeva, B. Rafiqov və b.) fəlsəfi mövzulara, yeni poetik formalardan istifadəyə meyil yarandı. Satirik və yumoristik poeziya F. Qumərov, X. Tulyakayev və b.-nın yaradıcılığı ilə təmsil olunurdu.

Ə. Bikçentayevin "Səfirin qızı"povesti, Mustay Kərimin "Dağlar da insan kimidir" şeir kitabı, M. Qafuri və b.-nın bəzi əsərləri Azərb. dilinə tərcümə edilmişdir.

**Təsviri sənət və memarlıq.** Ən qədim təsviri sənət abidələri Paleolit dövrünə aiddir (Kap mağarasının qayaüstü rəsmləri). Urqaz çayının axını boyunca yerləşən şəhər-qalalar Tunc dövrü abidələrindəndir. Soğdilərin istehsal etdiyi gümüş qablardan ibarət Avrüztamak dəfinəsi 9 əsrin 2-ci yarısı– 10 əsrin əvvəllərinə aiddir. Daş memarlığının erkən formalarına məqbərələr (keşene) (Bəndəbikə, 15–16 əsrlər, Kuçargin r-nunun Maksyutovo k. yaxınlığında; Turaxana, 14–15 əsrlər, Ufa yaxınlığında; Hüseynbəy, 14 əsr, 1911 ildə yenidən tikilmişdir, Çişmı r-nu) və daş mengirlər (Sterlibaşevo r-nunun Tabuldı k. yaxınlığında) aiddir. 16 əsrdə ağacdan dini tikililər meydana gəlmişdir ( Baltaçevo r-nunun Starotuşkırovo k.-ndə məscid;16 əsrin sonu – 17 əsrin əvvəli, 1891 ildə yenidən qurulmuşdur, usta K. Rəhmətullin).

B. Rusiyaya ilhaq edildikdən sonra (16 əsrin ortalarından) yerli ənənələrə rus memarlığının da təsiri olmuşdur. 18 əsrdən B. ərazisində məscidlərin intensiv tikintisinə başlanılmışdır (Starokuskuldino k.-ndə 1701; İmay-Utarovoda, 1724; Qulyukovoda, 1725). 18 əsrdən sənaye kompleksləri inşa edilmişdir (Verxnetor misəritmə zavodu, 1759, və s.). 18 əsrin sonu – 19 əsrin əvvəllərində memarlıqda aparıcı üslub *klassisizm* idi. Əsasən, Ufada daş yaşayış və ictimai binalar inşa olunurdu. Bu dövrün dini memarlıq abidələri arasında Ufadakı ilk came (1830), Yanaul r-nunun Qudburovo k.-ndə (1807, 1915 ildə yenidən tikilmişdir) və Alşeyev r-nunun Novoavryuzovo k.-ndəki (1823) məscidlər, Sterlitamakdakı came (1826), Nikolo-Beryozovka k.-ndəki Troitsa kilsəsi (1808–1904) və s. var. 19 əsrin 2-ci yarısı– 20 əsrin əvvəllərində *tarixi üslub*da tikililər yaradılırdı: Buzdyak r-nunun Kilimovo k.-ndə memarlıq ansamblı (1852–56); Ufadakı Aksakov xalq evi (1909–14,1928–35; indiki Başqırdıstan Opera və Balet teatrı) və s. Kuyurqazı r-nunun İra k.-ndə Pokrov kilsəsi (1914–15) *modern* üslubunda tikilmişdir. Bu dövrün müsəlman dini memarlıq abidələri: Meçetli r-nunun Novomuslümovo k.-ndə məscid (1854), Tuymazı r-nunun Zigityak k.-ndə məscid ( 20 əsrin əvvəlləri), Tatışlı r-nunun Starokaypanovo k.-ndə məscid (təqr. 1907).

1920-ci illərdə üslubi cəhətdən *konstruktivizm*ə yaxın tikililər, o cümlədən Ufa yaxınlığındakı qəs.-də yaşayış evləri inşa edilmişdir (indiki Çernikovsk ş.; memar M.Y. Ginzburq, 1920 ilin sonu – 1930-cu illərin əvvəlləri). 1935 ildə B.-da memarların, inşaatçıların və mülki mühəndislərin ilk peşəkar ictimai birliyi yaradılmışdır. 1930–50-ci illərdə *neoklassizm* ənənələrinə uyğun binalar tikilmişdir ("Başqırdıstan" mehmanxanası, 1937–41, memar V.V. Maksimov və b.). 20 əsrin 2-ci yarısının memarlıq tikililəri: Ufadakı İncəsənət məktəbi kompleksi (1971–73), Kigi r-nunun Nijniye Kigi k.-ndə (1993) və s.-də məscidlər.

Ənənəvi sənətkarlıq toxuculuq, ağac üzərində oyma, keçəçilik, dəri üzərində basmanaxış, tikmə, zərgərlik işləri ilə təmsil olunmuşdur. Peşəkar təsviri sənət 20 əsrin əvvəllərində formalaşmışdır. 1913 ildə Ufada "Rəngkarlığı sevənlər cəmiyyəti"nin yaradılması ilə (1916 ildə "Ufa rəssamlıq dərnəyi" adlanmışdır) ilk bədii təşkilatın əsası qoyulmuşdur. 1920-ci illərin sonunda Ufada bir sıra incəsənət studiyası və rəssamlıq emalatxanaları yaradılmışdır. 1934 ildə Başq. MSSR-in Rəssamlar İttifaqı təşkil olunmuşdur. 1930-cu illər səhnəqrafiyanın təşəkkülü dövrüdür (M.N. Arslanov, Q.Ş. İmaşeva, S.N. Yakşibayev). 1950–80-ci illərdə mənzərə (B.F. Domaşnikov, A.D. Burzyansev, A.V. Panteleyev), tematik (R.M. Nurməhəmmədov, A.F. Lutfullin) və məişət (F.A. Koşşeyev) janrları intensiv inkişaf etmişdir. 1960-cı illərdən monumental rəngkarlıq meydana gəlmişdir (Neftekamskda "Arlanneft"in binasındakı mozaika, rəssam V.A. Rudenko, 1975, və s.). B.-da heykəltəraşlığın yaranması 1940-cı illərə təsadüf edir (T.P. Neçayeva, V.Q. Morozov, S.D. Tavasiyev). Kitab və dəzgah qrafikası (R.Q. Qumərov, V.D. Dianov, E.M. Saitov), səhnəqrafiya (R.M. Arslanov, T.Q. Yenikeyev, N.Q. Bayburin) inkişaf etmişdir.

**Musiqi.** B.ənənəvi musiqi mədəniyyətinin əsasını başqırd və tatar xalq yaradıcılığı təşkil edir. Başqırd şifahi peşəkar sənətinin formaları şair-müğənnilərin (yırau, sesen) və kurayda çalanların (kuraysı) yaradıcılığında yaranmışdır. 18 əsrdə B.-da mülkədar kapellaları ilə ələqədar musiqi ifaçılığı formaları yayılmışdır. 18 əsrin sonu – 19 əsrdə diyarın musiqi-teatr həyatına sürgün edilmiş polyak məskunlar təsir göstərmişlər. Onlar orkestr təşkil edir, musiqili tamaşalar qoyur, rəqs gecələri keçirir, musiqi dərsləri verirdilər. 19 əsrin 2-ci yarısından Ufada aktiv musiqi həyatı inkişaf etmişdir: 1870–80-ci illərdə skripkaçı D.N. Sevastyanovun rəhbərliyi ilə kvartet gecələri keçirilirdi; 1885–1906 illərdə simfonik orkestrin (1889) iştirakı ilə konsertlər verilirdi. Milli maarifçilik mərkəzlərindən biri "Qaliyə" (1906–19) mədrəsəsi idi; burada musiqi də tədris olunurdu. A.A. *Alyabyevin* "Asiya nəğmələri" və "Başqırd uvertürası" başqırd folkloru əsasında yazılmış ilk musiqi əsərlərindəndir. A.T. Qreçaninov tərəfindən 50-yə yaxın başqırd nəğməsi işlənilmişdir (1901). Başqırd folklorunun öyrənilməsinə 19 əsrin sonlarından başlanılmışdır.

1920-ci illərdən B.-da peşəkar bəstəkarlıq və ifaçılıq sənəti inkişaf etmiş, musiqi tədrisi müəssisələri şəbəkəsi yaradılmışdır: 1920 ildə Ufada ilk musiqi məktəbi, 1922 ildə musiqi texnikumu (1960 ildən İncəsənət məktəbi) açılmışdır. İlk milli musiqili komediyaların müəllifi X.K. İbrahimov olmuşdur, pyeslərə musiqini K.Y. Rəhimov yazmışdır. 1938 ildə Ufada *Başqırdıstan opera və balet teatrı*, 1939 ildə filarmoniya (1993 ildə Sibay ş.-ndə filialı açılmışdır; tərkibində 1969 ildən Xor kapellası), 1940 ildə Bəstəkarlar İttifaqının B. şöbəsi açılmışdır. Başqırd musiqiçilərindən M.M. Valeyev (ilk milli "Xakmar" operasının müəllifi, 1939, Bəstəkarlar İttifaqının B. şöbəsinin ilk sədri), X.Ş. Zaimov, R.A. Murtazin B. musiqi mədəniyyətini əhəmiyyətli dərəcədə zənginləşdirmişlər. 20 əsrin 2-ci yarısında Z.Q. *İsmagilov*, A.S. Klyuçaryov, R.A. Murtazin, X.F. Axmetov, N.Q. Sabitov, X.Ş. Zaimov, A.Q. Çuqayev, Ş.Z. Kulborisov, T.Ş. Karimov, R.M. Xasanov, M.Axmetov, S.A. Nizamutdinov musiqi-teatr əsərləri yaratmışlar. Simfonik, kamera-instrumental və vokal musiqisinin inkişafı Z.Q. İsmagilov, X.F. Axmetov, R.A. Murtazin, N.Q. Sabitov, X.Ş. Zaimov, R.V. Salmanov, Ş.Ş. İbrahimov, D.D. Xasanşin və b.-nın adları ilə bağlıdır. Digər musiqi xadimləri: dirijorlar Q.X. Mutalov, N.Q. Sabitov, xor dirijorları A.Q. Tixomirov, Ş.Ş. İbrahimov; müğənnilər Q.S. Almuxammedov, M.A. Axmetzyanova, B.N. Valeyeva, Q.S. Xabibullin, M.X. Xismatullin, M.Q. Saliqaskarova, kurayçalan Y.M. İsyanbayev.

Milli simfonik orkestri (1994), "Başqırdıstan solistləri" kamera orkestri (1993) fəaliyyət göstərir. Resp.-da 1959 ildə Xor cəmiyyəti, 1988 ildə onun bazasında Musiqi cəmiyyəti yaradılmışdır. Müsabiqə və festivallar, o cümlədən kuray, kubız ifaçıları və uzlyau müğənnilərinin (1978 ildən) resp. müsabiqəsi, xor dirijorları müsabiqəsi (1995 ildən Ümumrusiya, Salavat ş.), N.Q. Sabitov ad. Ümumrusiya pianoçular müsabiqəsi (1995 ildən), Ural və Volqaboyu bəstəkarlarının festivalı (1983 ildən) keçirilir.

**Teatr.** İlk teatr binası Ufada, şəhər əhalisinin ianəsi hesabına tikilmişdir (1861). 1885 ildə "Artistlərin və teatr sənətini sevənlərin Ufa yoldaşlıq cəmiyyəti" təsis edilmişdir. İlk peşəkar teatr 1919 ildə Sterlitamakda 1-ci Başqırdıstan Dövlət Teatrı kimi yaradılmışdır. Teatrın truppasına aktyor, rej., dramaturq və teatr xadimi V. Murtazin-İmanski rəhbərlik edirdi. 1922 ildə teatr Ufa şəhərinə köçürülmüş və Başqırdıstan Dram Teatrı adlandırılmışdır (1971 ildən M. Qafurinin adını daşıyır). Teatrın inkişafında ilk başqırd rej. və aktyorları R. Sırtlanov, B.Yusupova, Q. Uşanov, Q. Minqajev, Q. Karamışev, M. Maqadeyev, A. Zubairov və b.-nın böyük rolu olmuşdur. Ufada Başqırdıstan Rus Dram Teatrı (1919), Kukla Teatrı (1932), Milli Gənclər Teatrı (1989), "Nur" tatar teatrı (1991), F. Qaskarov ad. Dövlət Xalq Rəqs Ansamblı (1938), "Miras" xalq rəqs ansamblı (1992); Sibayda A. Mübarəkov ad. Başqırdıstan Dram Teatrı (1931), "Sulpan" uşaq dram teatrı (1993); Sterlitamakda Rus Dram Teatrı (1946), Başqırdıstan Dram Teatrı (1990), Rəqs teatrı (1991); Salavat ş.-ndə dram teatrı (1933), Tuymazıda tatar dram teatrı (1990) fəaliyyət göstərir. Sterlitamakda, Salavatda "Teatr baharı" festivalı, Ufada türkdilli teatrların beynəlxalq "Tuqanlıq" festivalı, həmçinin F. Qaskarovun xatirəsinə rəqs kollektivlərinin (1991), R. Nureyevin xatirəsinə balet sənətinin (1993) resp. festivalları, baletmeysterlərin və xalq rəqs ansambllarının resp. baxış-müsabiqəsi keçirilir.

*Əd.*: Б а д е р О. Капова пещера. М., 1965; В и л ь д а н о в А.Х., К у н а ф и н Г.С. Башкирские просветители-демократы XIX в. М., 1981; Башкирская профессиональная музыка. Уфа, 1994; Материальная культура башкирского народа. М., 1994; Археологические памятники Башкортостана. Уфа, 1996; С а ф и н Ф.Т. Принципы этнополитического развития Башкортостана. М., 1997; Н а д е р г у л о в М. Х. Историко-функциональные жанры башкирской литературы. Уфа, 2002; История Башкортостана с древнейших времен до наших дней. Уфа, 2004. Т. 1.

**BAŞQIRDISTAN DRAM TEATRI**, M. Q a f u r i a d. a k a d e m i k (1935 ildən) – 1-ci Başqırdıstan Dövlət Teatrı kimi əsası 1919 ildə Sterlitamakda qoyulmuşdur. 1922 ildən Ufaya köçürülmüş, Ufa Dövlət nümunəvi teatrının tatar-başqırd truppası ilə birləşdirilmişdir. Başqırd, tatar müəlliflərinin pyesləri, həmçinin rus və dünya klassiklərinin əsərləri tamaşaya qoyulurdu. 1929/30-cu illər teatr üçün dönüş mövsümü olmuşdur; teatr başqırd ədəbi dilinə keçmiş və Moskvadakı Malı Teatr ilə yaradıcılıq əməkdaşlığı haqqında müqavilə bağlamışdır. 1971 ildə teatra Qafurinin adı verilmişdir. Teatrın tarixində V.Q. Murtazin-İmanski, Z.İ. Bikbulatova, T.M. Biktaşeva, L.V. Valiyev, V.Q. Qalimov, T.Q. İmaşev, R.V. İsrafilov, M.A. Ma-



Başqırd Dövlət Akademik Dram Teatrı.

qadeyev, A.K. Mübarəkov, Ş.M. Murtazina, A.Q. Sadıkova, R.S. Sırtlanov, Q.R. Şamukov, X.Q. Yarullin və b.-nın böyük rolu olmuşdur.

**BAŞQIRDISTAN QORUĞU** – Başqırdıstanda, Cənubi Uralın q. yamaclarında dövlət təbiət qoruğu. Sah. 49,6 min *ha*. 1930 ildə Cənubi Uralın meşə və meşə-çöl təbii komplekslərinin, eləcə də ayrı-ayrı qiymətli və nadir bitki və heyvan növlərinin (o cümlədən başqırd çöl arıları populyasiyasının) mühafizəsi və öyrənilməsi məqsədilə yaradılmışdır. Mövcud olduğu müddətdə qoruğun sərhədləri və sahəsi dəfələrlə dəyişmişdir. 1951 ildə qoruğ ləğv edilmiş və ərazisində intensiv surətdə ağac tədarükünə başlanmışdır. 1958 ildə qoruq yenidən bərpa edilmiş və başqırd çöl arıları populyasiyasını qorumaq məqsədilə ərazisində Pribel filialı yaradılmışdır (1986 ildən *Şulqan-Taş qoruğu* kimi fəaliyyət göstərir). Relyefi dağlıqdır; hünd. 930 *m*-ədək. Çayları, əsasən, Belaya çayı hövzəsinə aiddir. Bitki örtüyündə yüksəklik qurşağı aydın nəzərə çarpır: yamacların aşağı hissələrində şam və tozağacı meşələri, daha yuxarılarda seyrək qaraşamla bərabər, zəngin ot örtüyü yayılmışdır. B.q.-nun fauna və florası çox müxtəlifdir. Florası 600-dən çox ali bitki növündən, o cümlədən relikt (primula, yalançı Sibir ətirşahı, Alp astrası və s.) və endemik (Litvinov lərgəsi, tatar qoturotu) növlərdən ibarətdir. B.q.-nda 270 növdən çox onurğalı heyvan (56 növ məməli, 180 növ

Başqırdıstan qoruğu.



quş, 6 növ sürünən, 4 növ suda-quruda yaşayan, 27 növ balıq), meşələrdə qonur ayı, vaşaq, sığın, tülkü, dələ, porsuq, dovşan, burunduk, iqlimə uyğunlaşdırılmış maral və Amerika su samuru; quşlardan Sibir xoruzu, tetra, qarabağır, bayquş və s. var. Çay qaranquşu, berkut, qəbir qartalı, əsl qızılquş RF-nin Qırmızı kitabına daxil edilmişdir. 1966 ildən B. q.-nun ərazisində Təbiət muzeyi fəaliyyət göstərir.

**BAŞQIRDISTAN MİLLİ PARKI** – Başqırdıstan ərazisindədir. Sah. 83,2 min *ha*. 1986 ildə yaradılmışdır. Cənubi Uralın alçaq dağlıqlarını və platovarı yüksəkliklərini, Nuquş su anbarı akvatoriyasını əhatə edir. Karst geniş yayılmışdır; Kuperl çayı üstündəki təbii körpü bunun nadir təzahürüdür. Çoxlu mağara var. Bitki örtüyündə enliyarpaqlı meşələr (palıd, cökə, ağcaqayın, qarağac) geniş yayılmışdır; nadir və tükənməkdə olan növlərə rast gəlinir. Faunasında meşə heyvanları (qonur ayı, canavar, sığın, cüyür, dələ) və quşlar (qaratoyuq, alacəhrə, qarabağır, ağacdələn və s.) üstünlük təşkil edir. Başqırdıstan çöl arısı qorunur.

**BAŞQIRDISTAN OPERA VƏ BALET TEATRI** – 1938 ildə Ufa ş.-ndə keçmiş Aksakov xalq evinin binasında (bina 1909–35 illərdə tikilmişdir) Başqırdıstan Dövlət Opera Teatrı kimi yaradılmış, 1941 ildən Opera və Balet Teatrı olmuşdur. Fəaliyyətə C. Paiziellonun "Gözəl dəyirmançı arvadı" operası ilə (başqırd dilində) başlamışdır. İlk başqırd milli operası "Xakmar" (M.M. Valeyev) 1940 ildə tamaşaya qoyulmuşdur. Sonralar milli repertuara N.K. Çembercinin "Karluqas" (1941), X.Ş. Zaimov və A.E. Spadavekkianın "Akbuzat" (1942), N.İ. Peykonun "Ayxılu" (1953), Z.Q. *İsmagilovun* "Salavat Yulayev" (1955), "Şaura" (1963), "Agidelin dalğaları" (1972), "Ural elçiləri" (1982), R.A. Murtazinin "Fırtına" (1969), X.F. Axmetovun "Müasirlər" (1970), S.A. Nizamutdinovun "Qara sular" (1989), "Ay tutulan gecə" (1996) operaları daxil edilmişdir. 1944 ildə N.A. Anisimova ilk milli baleti – L.B. Stepanovun "Durna mahnısı"nı səhnəyə qoymuşdur (sonralar tamaşa dəfələrlə təkrar olunmuşdur). N.Q. Sabitovun "Gülnazira" (1963), M.X. Axmetovun "Ay tutulan gecə" (1982), L. İsmagilovanın "Arkaim" (2005) baletləri teatrın uğurlu tamaşalarındandır. Teatrda müxtəlif vaxtlarda dirijorlar P.M. Slavinski, Q.X. Mutalov; xormeyster A.Q. Tixomirov; müğənnilər M.X. Xismatullin (həmçinin rej.), B.N. Valeyeva, X.L.







Başqırdıstan Milli Parkı.

Qalimov, Q.S. Xabibullin, M.Q. Saliqaskarova, A. V. Sutyagin, N.X. Allayarova, S.K. Qalimova, S.D. Xusnuyarov, X.Z. Mazitov, K.A. Valeyev, Z. Q. Maxmutov, R.A. Qareyev, N.Z. Abdeyev, S.A. Askarov, A.A. Abdrazakov; balet artistləri R.X. *Nureyev*, F.M. Nafikova, M.A. Tagirova, İ.X. Xabirov, Ş.A. Terequlov, L.S. Kuvatova, Y.Q. Uşanov, R.Q. Zaripov; xoreoqraflar F.A. Qaskarov, V.X. Pyari, K.D. Karpinskaya, Q.İ. Yazvinski, X.F. Mustayev, S.V. Dreçin; rej.-lar B.Q. İmaşev, Ş.M. Murtazina, R.A. Valiullin; rəssamlar M.N. Arslanov, Q.Ş. İmaşeva, V.İ. Plekunov işləmişlər. 1993 ildən R. Nureyevin xatirəsinə balet sənəti festivalları keçirilir.

**BAŞQIRDLAR** (özlərini b a ş k o r t adlandırırlar) – Rusiya Federasiyası (RF) ərazisində yaşayan türk xalqı, Başqırdıstanın (Başkortostan) yerli əhalisi. Sayları 1673,4 min nəfərdir (2002), bunlardan 1221,3 min nəfəri Başq.-da, 52,7 min nəfəri Orenburq vil.-ndə, 40,7 min nəfəri Perm vil.-ndə, 37,3 min nəfəri Sverdlovsk vil.-ndə, 166,4 min nəfər Çelyabinsk vil.-ndə, 15,3 min nəfər Kurqan vil.-ndə, 46,6 min nəfər isə Tümen vil.-ndə məskunlaşır. Həmçinin Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan, Türkmənistan, Ukrayna və s. ölkələrdə yaşayırlar. *Başqırd dilində* danışırlar, rus və tatar dilləri də yayılmışdır. Dindarları müsəlmandır.

B.-ın əcdadlarının (başcartlar, başgirdlər, başkerdlər) adları ilk dəfə ərəb müəllifləri tərəfindən 9 əsrdə Orta Asiyada yaşayan oğuz tayfaları sırasında qeyd olunur. 920-ci illərdə onlar (*İbn Fədlana* görə başkirdlər) Cənubi Sibiri keçərək Uralyanı ərazilərə gəlmiş və burada yerli fin-uqor (o cümlədən uqor-macarlar) və qədim İran (sarmat-alanlar) tayfalarını assimilyasiya etmişlər. Cənubi Uralda B. Volqa-Kama *bulqarları*, həmçinin Ural-Volqaboyu və Qərbi Sibirdəki fin-uqor tayfaları ilə əlaqəyə girmişlər. B. arasında 4 antropoloji tip müəyyənləşdirilir: subural (*Ural irqi*) – əsasən şimal və şimal-qərbdəki meşə r-nlarında; açıqdərili avropalı (*Ağ dəniz–Baltika irqi*) – Başq.-ın şimal-qərbi və qərbində; Cənubi Sibir (*Cənubi Sibir irqi*) – Şimal-Şərqi B. və xüsusilə Uralarxası B. arasında; Cənubi Avropa irqi (*Hind–Aralıq dənizi irqinin* Pont variantı) – Dyoma çayı hövzəsində və cənub-qərb və cənub-şərq dağ-meşə rayonlarında. Paleoantropoloji məlumatlara görə B.-ın ən qədim təbəqəsini Hind-Aralıq dənizi irqi və Ural irqinin nümayəndələri təşkil edirdilər. Bu irqlərin nümayəndələri müvafiq olaraq e.ə. 7

Başqırdlar milli geyimdə.



əsr – eramızın 4 əsrində yaşayan *savromatlar* və *sarmatlarla* (Başq.-dakı Almuhəmmədov, Starokiişin, Novomuraptalov kurqanları, Orenburq vil.-ndəki Filippov kurqanları) və e.ə. 2 əsr – eramızın 8 əsrində mövcud olan fin-uqorlarla (*Pyanobor mədəniyyəti, Baxmutino mədəniyyəti*) eyniləşdirilməsi toponimik məlumatlarla da təsdiqlənir. Cənubi Sibir irqinin nümayəndələrini 9–12 əsrlərdə yaşamış türklərlə (Başq.-ın şm.-ş.-ində Murakayev, Staroxalilov, Mryasimov kurqanları), o cümlədən Qızıl Orda dövründə burada məskunlaşan qıpçaqlarla (Sıntaştamak, Ozernov, Urta-Burtin, Linyov və s. kurqanlar) əlaqələndirmək mümkündür.

Folklor mənbələrinə görə, B. təqr. 1219–20 illərdə *Çingiz xanla* vassallıq haqqında müqavilə bağlayaraq Cənubi Uraldakı nəsli torpaqlarında tayfa ittifaqı formasında muxtariyyətlərini qoruyub saxlamışlar. Bu müqavilədən 14–15 əsrlərdə *Noqay Ordasının* yaranmasınadək başqırd torpaqlarının heç bir Qızıl Orda ulusunun tərkibində olmamasının səbəbi aydın olur. 14 əsrin ərəfəsində islam yayılmış, yazı sistemi və ədəbiyyat inkişaf etmiş, monumental memarlıq meydana gəlmişdir (Ufa yaxınlığındakı Çişmı k.-ndə Hüseyn bəy və Keşene, Kurqaçin r-nunda isə Bəndə-Bikə məqbərələri). Bu dövrdə B.-ın tərkibinə yeni türk (*qıpçaqlar, bulqarlar, noqaylar*) və monqol tayfaları daxil olmuşlar. *Kazan xanlığının* Rusiya dövləti tərəfindən işğalından sonra B. rus təbəəliyini qəbul etmiş, lakin öz torpaqları üzərindəki irsi hüquqlarını (votçina), həmçinin adət-ənənələrinə və dinlərinə uyğun yaşamaq haqqını qoruyub saxlamışlar. Bu şərtlərin 17–18 əsrlərdə Rusiya tərəfindən pozulması dəfələrlə başqırd üsyanlarına səbəb olmuşdu. *Puqaçov üsyanının (1773–75)* yatırılmasından sonra B.-ın da müqaviməti qırılmışdır. Lakin onların torpaq üzərində irsi hüquqları saxlanılmışdır. 1789 ildə Ufada Rusiya Müsəlmanlarının Ruhani İdarəsinin təsis olunması ilə B.-ın öz dininə uyğun yaşamaq hüququ tanındı. 1798 ildə B. hərbi kazak silkinə, 1865 ildə isə vergi verən silkə daxil oldular. 18–19 əsrlərdə Uralyanı çöllərin ruslar tərəfindən kolonizasiyası nəticəsində ənənəvi otlaqlardan məhrum olan B.-ın vəziyyəti ağırlaşdı. 1917–22 illərdə Rusiyada baş verən vətəndaş müharibəsi və 1920–21 illərdəki aclıq nəticəsində B.-ın sayı kəskin surətdə azaldı (1897 il siyahıyaalmaya görə 1,3 mln. nəfər, 1926

il siyahıyaalmaya görə isə 625 min nəfər). B.-ın Oktyabr çevrilişinədək olan sayları yalnız 1979 ildə bərpa oldu. Müharibədən sonrakı dövrdə B.-ın Başq.-dan miqrasiyası güclənmiş (resp.-dan kənarda 1926 ildə 18%, 1959 ildə 25%-dən çox, 1989 ildə 40%-dən çox, 2002 ildə 27%-dən çox başqırd məskunlaşırdı), şəhər əhalisinin sayı artmışdır (1926 ildə 1,8%, 1938 ildə 5,8%, 1989 ildə 42,3%, 2002 ildə 47,5%). İndiki Başq.-nda "Ural" Başqırd Milli mərkəzi, "Ağ tirmə" Ümumbaşqırd Milli mədəniyyət mərkəzi, Başqırd qadınları cəmiyyəti, Başqırd gəncləri birliyi fəaliyyət göstərir, Dünya başqırdlarının qurultayları keçirilir (1995, 1998, 2002).

B.-ın ənənəvi mədəniyyəti Uralyanı ərazilər üçün tipikdir. Cənubi Başq.-da və Uralarxası çöllərdə əsas ənənəvi məşğuliyyət yarımköçəri madlarlıqdır (at, qaramal, davar və s.), dağ-meşə r-nlarında meşə arıçılığı və ovçuluq da yayılmışdır; Şimali Başq.-ın meşə rayonlarında isə əkinçilik, ovçuluq və balıqçılıq inkişaf etmişdir. 19 əsrin əvvəllərindən əkinçilik əsas məşğuliyyətləri olmuşdur. Ənənəvi əkinçilik alətləri: təkərli kotan (saban), ağac çərçivəli mala (tırma), xış (xuka). Sənət sahələri – dəmirin və misin əridilməsi, keçə istehsalı və xalçaçılıq, ağacişləmə (fiqurlu tutacağı olan ijau parçaları, qımız içmək üçün tepen oyma qabları; 19 əsrdən etibarən memarlıq üslubunda oyma); naxışlı toxumada, toxuculuqda və çəki çəkmədə yayılmış həndəsi, zooloji və antropomorf motivlər çuvaşların, udmurtların və marilərin incəsənəti ilə yaxınlıq təşkil edir; dəri üzərində naxışbasmada (oxluq, ov çantaları, qımız üçün qablar və s.), bəzəkli keçələrdə, zərb olunmuş metalların üzərində və zərgərlik nümunələrindəki əyrixətli motivlərdə (nəbati ornament, "qaçan dalğalar", "qoç buynuzu" S-şəkilli fiqurlar) türk cizgiləri aydın görünür.

Ənənəvi yaşayış məskənləri çay, yaxud göl qırağında yerləşən ail olmuşdur. Köçəri həyat şəraitində hər ailin mövsümi məskənləri [qış (qışlau), yaz (yazqı yort), yay (yəy ləu), payız (közgö yort)] də var idi. Daimi məskən kimi oturaq həyata keçid zamanı yaranan aillər, adətən, qışlaq yerində salınırdı.

Ənənəvi yaşayış evləri – keçə *yurtlar* (tirmə) türk (yarımkürə tavanlı), yaxud monqol (konusvarı tavanlı) tiplidir. Qazma, çimli, gil və samandan tikililəri, meşə zonasında yarımqazmaları və kərtmə evləri məlum idi. Varlılara məxsus ikimərtəbəli evlər də var idi. Yay mətbəxləri (alasık) səciyyəvi idi.

Ənənəvi kişi geyiminin əsasını geniş köynək və enli şalvar, qadın geyiminin əsasını isə uzun, kəsikli, beli büzməli don (kuldök) təşkil edir; kişilər və qadınlar qolsuz köynək (kamzul), toxunma xalat (yelən) və mahud çəpkən geyinirdilər. Qadın geyimi bafta, çəki və sikkələrlə bəzədilirdi. Cavan qadınlar mərcan və sikkələrdən sinə bəzək əşyaları (söltör, hakal, yaqa) taxırdılar. Qadın baş geyimi üzərinə mərcan toru, gümüş asmalar və sikkələr tikilən, muncuq və kauri ilə bəzədilən, arxadan uzun pəri sallanan ləçəkdir (kaşmau); qızların baş geyimi üstündən yaylıq bağlanan və sikkələrlə bəzədilmiş dəbilqəyəbənzər kiçik papaqdır (takıya). Cavan qadınlar parlaq baş örtükləri (kuşyaulık) bağlayırlar. Kişi baş geyimi araqçınlar, dairəvi xəz papaqlar, boyun və qulaqları örtən malaxaylar, şlyapalardır. Ənənəvi yeməkləri xırda-xırda doğranmış at və ya qoyun ətindən hazırlanan bulyonlu xörək (bişbarmaq, kullama), at ətindən və piyindən hazırlanan qurudulmuş kolbasa (kazı), müxtəlif növlü kəsmiklər (eremsek, əjekəy), pendir (korot), arpa, pərinc və buğda yarmasından və unundan sıyıqlar, ət və süd bulyonunda hazırlanmış əriştə (xalma), yarma şorbaları (öyrə), şirin qoğallardır (kölse, şöse, ikmek); içkiləri: ayran, qımız, *buza*, bal.

Rusiyanın işğalından sonra başqırd tayfalarının (burzenlər, userqanlar, tamyanlar, yurmatlar, təbınlar, qıpçaqlar, kataylar və b. – cəmi 50-dən artıq) əraziləri nahiyələrə (əsasən Başq.-nın indiki rayon bölgüsünə uyğundur) çevrilmişdir. Nahiyələri irsi (1736 ildən sonra seçilən) starşina (biy) idarə edirdi; iri nahiyələr qohum birliklərə (aymak, tyuba, ara) bölünürdülər. Aparıcı rolu tarxanlar (vergidən azad olunmuş silk), batırlar, ruhanilər oynayırdılar. Qarşılıqlı qəbilə yardımlaşması və ekzoqamiya yayılmışdır, şəcərə, tayfa simvolikası (*tamğa, oran*) günümüzədək qalmaqdadır. Yaz-yay mövsümlərinə təsadüf edən əsas bayramları: Karqatuy ("Zağca bayramı" – zağcaların gəlməsi günü), *Sabantuy* ("Kotan bayramı" – əkinin başlanması), Yıyın ("Məhsul bayramı" – əkinin başa çatdırılması).

Şifahi yaradıcılıq mərasim (haylamalar, yallılar, toy və yas, əmək nəğmələri) və qeyri-mərasim janrlarını əhatə edir. 3 əsas ifaçılıq üslubu fərqləndirilir: ozon-kyuy ("uzun nəğmə"), kıska-kyuy ("qısa nəğmə") və xamak (reçitativ üslubu); bu üslubda şaman oxumaları (xarnau), ağılar (xıktau), təqvim və ailə mərasim haylamaları, epik kobayırlar (improvizəçi müğənnilər – sesenlər tərəfindən dumbır simli alətinin müşayiəti ilə söylənən "Ural batır", "Akbuzat" və s.), epik baitlər, dini-nəsihətamiz münacatlar, Quran ayələri ifa olunur. Solo ikisəsli oxuma (uzlyay, yaxud tamak-kuray) növü tuvalıların və digər türk xalqlarının boğaz oxumalarına yaxındır. Vokal mədəniyyəti, əsasən, monodiyalıdır, ansambl oxumaları heterofoniyanın ən sadə formalarıdır. Fleyta tipli kuray, metaldan, yaxud ağacdan hazırlanmış kubız, qarmon ən populyar alətlərdir. Səs təqlidləri, proqramlı melodiyalar ("Oxuyan durna", "Ağ suzanbağıları olan dərin göl" və s.), rəqs melodiyaları (byuyu-kyuy), marşlar instrumental musiqiyə aiddir.

B.-ın xalq rəqsləri məzmununa görə mərasim ("Şeytan oyunları", "Albastın qovulması", "Toy şirniləri" və s.) və oyun ("Ovçu", "Çoban" və s.) rəqslərinə ayrılır; bu rəqslər üçün çoxsaylı təkrarlanmalara əsaslanan hərəkətlərin ornamental düzümü səciyyəvidir. Kişi rəqsləri ovçuların hərəkətlərini (oxatma, ovun izinə düşmə), alıcı quşların qanad çalmasını və s. əks etdirir. Qadın rəqslərindəki hərəkətlər müxtəlif əmək prosesi (sapəyirmə, nehrəçalxalama, naxışvurma və s.) ilə bağlıdır. B.-ın xoreoqrafiyasının ən çox inkişaf etmiş forması solo rəqslərdir.

**BAŞQIŞLAQ BARİT YATAĞI** – Azərb. Resp. Goranboy r-nu ərazisində, Murovdağ silsiləsinin şm.-ş. yamacında, Buzluq çayının sol sahilində, Baş Qışlaq k. yaxınlığındadır. Dəniz səviyyəsindən 1600–2100 *m* yüksəklikdə yerləşir. Sah. təqr. 5 $km^2$. Yataq Başqışlaq antiklinalının şm.-ş. qanadındadır. Geoloji quruluşunda Bat–Orta Oksford yaşlı vulkanogen, vulkanogen-çökmə və çökmə süxurlar iştirak edir. Yataq damar tiplidir. Burada 60-a qədər barit damarı məlumdur. Onların uz. 300–450 *m*, bəzən daha çox, qalınlığı 0,2–3,6 *m*-dir; şm.-q. istiqamətli çatların filiz zonalarına daxildir. C.-q. yatımlı (40–60°) damarlar üstünlük təşkil edir. Baritin tərkibində barium-sulfat 70–95%, silisium-oksid 5–10%-dir. Damarlarda həmçinin kalsit, kvars mineralları da var. B.b.y.-nın ümumi ehtiyatı 317 min *t*-dur (o cümlədən təsdiq olunmuş ehtiyat 103 min *t*).

**BAŞLANĞIC LAY TƏZYİQİ** – faydalı qazıntı (neft) yatağının işlənilməsindən





əvvəl və istismarın başlanğıc (ilkin) mərhələsindəki *lay təzyiqi*. B.l.t.-nin qiyməti neft yatağının yatım dərinliyindən asılıdır.

**BAŞLANĞIC SÜRƏT**, artilleriyada – mərminin lüləağzı kəsikdə irəliləmə hərəkətinin hesablanmış sürəti. B.s. birbaşa atəşin uzaqlığını, mərminin (mina, güllə) uçuş məsafəsini, gücünü və ya dəşmə təsirini (güllənin öldürücü qüvvəsi) təyin edən əsas ballistik xüsusiyyətlərdən biridir. B.s.-in qiyməti silahın konstruktiv parametrlərindən, doldurulma şəraitindən, barıtın xarakteristikalarından asılıdır və atəş cədvəlində göstərilir.

**BAŞLANĞIC ŞƏRT** – zamanın başlanğıc qəbul edilən hər hansı bir anında prosesin vəziyyəti. Əgər proses diferensial tənliklə ifadə edilirsə, onda B.ş.-ə görə həllin tapılması məsələsi *Koşi məsələsi* adlanır.

$$\frac{d^n y}{dt^n} = f(t, y, \frac{dy}{dt}, \ldots, \frac{d^{n-1} y}{dt^{n-1}})$$

tənliyi üçün B.ş. $t=t_0$ qiymətində

$$y, \frac{dy}{dt}, \ldots, \frac{d^{n-1} y}{dt^{n-1}}$$

arqumentlərinin verilməsindən ibarətdir. Əgər $n=2$ olarsa və $y=y(t)$ – maddi nöqtənin hərəkət qanunudursa, onda B.ş.-də nöqtənin vəziyyəti və onun $t=t_0$ anındakı sürəti verilir. Xüsusi törəməli diferensial tənliklər üçün B.ş. analoji olaraq qoyulur. Belə ki, simin sərbəst rəqslərinin

$$\frac{\partial^2 u}{\partial t^2} = a^2 \frac{\partial^2 u}{\partial x^2}$$

tənliyi üçün [burada $u(t,x)$ – $Ox$ oxu üzərində simin $x$ nöqtəsinin onun $t$ anındakı sükunət vəziyyətindən yayınmasıdır] B.ş. simin

$$u\big|_{t=t_0} = f(x)$$

başlanğıc formasının və simin nöqtələrinin

$$\frac{\partial u}{\partial t}\Big|_{t=t_0}$$

başlanğıc sürətlərinin verilməsindən ibarətdir. Zaman rolunu hər hansı başqa arqument də oynaya bilər; onda B.ş. bu arqumentin müəyyən bir qiymətində verilir.

**BAŞLÁROV** Seyfulla Xalid (1853, Dağıstan, Nitsovkra k. – 1919, may, Temir-Xan-Şura) – nəqşbəndi və qədəri şeyxi, ictimai xadim. Lak silah istehsalçısının ailəsində doğulmuşdur. Şm. Qafqazda *şaziliyyə* sufi təriqətini yaymışdır. 1877 il üsyanında iştirak etməkdə şübhəli bilinərək Dağıstandan Saratov qub.-na sürgün edilmişdir (1878–1909). 1909–13, 1915–17 illərdə Dağıstan xalq məhkəməsinin müftisi olmuşdur. "İttifaqi-müslimin" partiyasının üzvü (1906 ildən) idi. Dağıstanda müsəlmanlar üçün təşkil olunan məhkəmələrdə kargüzarlığın rus dilində tətbiqi ilə əlaqədar qalxan üsyana dəstək verdiyinə görə 1913–15 illərdə Kazan qub.-na sürgün edilmişdir. 1917 ildə *Müəssislər məclisinə* və Dağıstan müvəqqəti vilayət komitəsinə üzv seçilmişdir. 1918–19 illərdə Dağıstan inqilab komitəsində dini-şəriət işləri üzrə şöbəyə rəhbərlik etmişdir. B.-un sufilik etikasına, təbabətə dair çoxsaylı əsərləri, məktubları qalmışdır. Şm. Qafqazda ən tanınmış şeyxlərdən olan B.-un Nijneye Kazanişe k.-ndəki (Dağıstan) məzarı ziyarətgaha çevrilmişdir. Dağıstanda iki islam ali məktəbi B.-un adını daşıyır. Əsərləri nəşr olunur.

**BAŞLIBEL** – Azərb. Resp. Kəlbəcər r-nu ərazisində çay. Tutqunçayın sol qolu. Qarabağ vulkanik yaylasından başlanır. Uz. 16 *km*.

**BAŞLIBEL** – Azərb. Resp. Kəlbəcər r-nunda kənd. Başlıbel ə.d.-nin (Başlıbel, Alırzalar, Çovdar, Xallanlı, Şahkərəm k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 67 *km* c.-ş.-də, Başlıbel çayının sahilində, Dəlidağın (Kiçik Qafqaz) ətəyindədir. Əh. 1686 (2008); işğaldan (1993, aprel) əvvəl tütünçülük və heyvandarlıqla məşğul olmuşdur. Orta məktəb, mədəniyyət evi, kitabxana, kinoqurğu, tibb məntəqəsi, rabitə şöbəsi var idi.

**BAŞLIQ** (türkcə baş sözündən) – 1) kişi baş geyimi. Papaq üstünə örtülən hissədən və boyuna sarınan iki uzun qanaddan (qoldan) ibarətdir. Qədimdə skiflər və sarmatlar tərəfindən istifadə olunmuşdur. Azərb.-lar və digər Qafqaz xalqları arasında, həmçinin Ön Asiya, Qazaxıstan və s. ərazilərdə yayılmışdır. B. çiyinə salınır, soyuq havalarda başa geyinilir, yaxud papağın üstünə keçirilirdi. Əsasən, sıx toxunuşlu yun parçadan, mahuddan, ən qiymətlisi isə dəvə yunundan hazırlanırdı. B.-ın geyinilmə üsulu əhalinin müxtəlif qruplarında bir-birindən fərqlənirdi. Bayram B.-ı (üzəri çəki, bafta və s. ilə bəzədilən ağ, qara, boz, yaxud qırmızı mahuddan) qız evi tərəfindən oğlan evinə verilən adi bir hədiyyə hesab olunurdu və bəy onu toyda geyinirdi. B. 19 əsrdən kazakların hərbi geyiminə daxil edilmişdir. 1862 ildən rus və bir sıra Avropa ordularında tətbiq olunmuşdur. 2) Keçmişdə qadınların baş örtüyü altından qoyduqları qızıl və ya gümüşü bəzək; cütqabağı, gəlintacı.

**BAŞLIQ** – keçmişdə Azərb.-da gəlin köçürülərkən toyqabağı tədarük və gəlinlik cehizinin hazırlanmasına sərf etmək üçün oğlan evinin nişanlı qızın ata-anasına verdiyi hədiyyə. B. müəyyən məbləğ pul və ya mal ilə ifadə edilirdi. Qız ər evinə köçürülən zaman, yaxud bundan bir neçə gün əvvəl B. qız evinə çatdırılırdı. Kənd yerlərində B.-ın miqdarı cehiz xərcindən bir neçə dəfə çox olmalı idi. Bəzi hallarda bu ödənc alınmır, onun yerinə *südpulu* qəbul edilirdi. Azərbaycanın ayrı-ayrı bölgələrində B. "ağırlıq", "atapulu", "qızyolu", "əryannıx", "sədaq", "halallıq" və s. adlarla da məlum olmuşdur. Başqa türk xalqlarında "kalın", "koşantı", "enqne", "kalım" və s. adlanır.

Dünya xalqlarının əksəriyyətində mövcud olmuş B. vermə adəti bir sıra xalqlarda bugünədək saxlanılmaqdadır. *Cehiz* kimi B. da yeni qurulan gənc ailəyə yardım məqsədi daşıyırdı.

**BAŞLIQOTU** (Scutellaria) – *dodaqçiçəklilər fəsiləsindən* bitki cinsi. Çoxillik (nadir hallarda birillik) otlar, yaxud yarımkolcuqlardır. Yarpaqları bütövdən lələkvarı yarıqlıya qədər müxtəlif formada olur. Çiçəkləri yuxarı yarpaqların qoltuğunda iki-iki yerləşir və çox vaxt sıx salxımşəkilli çiçək qrupunda toplanır. İkidodaqlı kasacığın üst dodağında qalxanvarı çıxıntı var; çiçək tacının üst dodağı dəbilqəyə oxşardır. 4 erkəkciyi var; meyvəsi 4 ədəd fındıqçayaoxşar paydan ibarətdir. Mülayim, subtropik və tropik qurşaqlarda bitən 300-ədək növü məlumdur. Qafqaz və Orta Asiya dağlarında yarımnövlərlə birlikdə 200-ədək növü var. Azərb.-da 15 növü bitir. Sibirdə və Orta Asiyada çaybasar çəmənlərdə, bataqlıqlarda, su hövzələri və kanalların (qanovların) kənarında, bataqlaşmış meşələrdə bitən adi B. (S. qalericulata) ən yayılmış növüdür; xalq təbabətində qanaxma zamanı istifadə olunur. Baykalar-

Baykal başlıqotu (Scutellaria baicalensis).



xası və Uzaq Şərqdə rast gələn daşlı yamaclarda, qumlu çöllərdə, çay sahillərində bitən B a y k a l B. (S. baicalensis) dərman bitkisidir; kök və kökümsovlarından alınan tinktura hipotenziv və sakitləşdirici vasitədir.

**BAŞLYÁR** (Bachelard) Qaston (27.6.1884, Bar-sür-Ob – 16.10.1962, Paris) – fransız filosofu, *neorasionalizmin* banilərindən biri. Bar-sür-Ob kollecində fizika və kimyadan dərs demiş (1919–30), Dijon Un-tində fəlsəfə prof.-u (1930–40), Sorbonnada tarix və elm fəlsəfəsi üzrə prof. (1940–54) olmuşdur. B.-ın ilk əsərləri, o cümlədən "Yeni elmi ruh" ("Le nouvel esprit scientifique", 1934) və "İnkar fəlsəfəsi" ("La philosophie du non", 1940) elm fəlsəfəsini "açıq" (başqa sözlə, öz əsaslarına həmişə şübhə edən və öz obyekti ilə dəyişən) fənn şəklində qurmaq cəhdlərindən ibarət idi. Bu obyekt "bütün alimlərin onların əsərlərində təcəssümünü tapan fikirlərinin məcmusu" kimi hər bir epoxaya xas "elmi ruh"dur. Dekartın universal şübhə prinsipi, elmin fasiləvi inkişaf ideyası və əvvəlki, o cümlədən elməqədərki təfəkkür konstruksiyalarının yeni nəzəriyyənin yaradılmasına həmişə təsir göstərməsi tezisi B.-ın konsepsiyası üçün çıxış nöqtəsi olmuşdur. Təxəyyül problemi, onun qədim arxetipləri və ilk növbədə təbiət obrazları: su, od, hava, torpaq 1930-cu illərin sonlarından B. yaradıcılığının mərkəzi mövzusuna çevrilir. Bir sıra monoqrafiyalarda B. *psixoanalizin* özünəməxsus variantını işləyib hazırlayır. 1950-ci illərin ortalarından B. yaradıcılığında *fenomenologiya* ön plana keçir; o, şair və rəssamların "anadangəlmə fenomenoloq" saydığı üçün ədəbiyyat və rəngkarlığı da fenomenologiya kontekstinə daxil edir. "Çoxsimalı, dəyişkən, lakin hər halda varlığın daimiliyindən xəbər verən obrazların" – arxetiplərin bir növ ensiklopediyasını təqdim edə biləcək "konkret metafizika" fəlsəfənin idealına çevrilir. B.-ın ideyaları elmin müasir fəlsəfəsinə və kulturologiyaya xeyli təsir göstərmiş, T. *Kunun* elmi inqilablar konsepsiyasının qaynaqlarından biri olmuşdur. Onun metodlarına əsaslanan "Təxəyyülün tədqiqi üzrə mərkəzlər" Fransa, Belçika, Kanada, İsrail, Polşa və s. ölkələrdə fəaliyyət göstərir.

Ə s ə r l ə r i: Новый рационализм. М., 1987; Избранное. Научный рационализм. М.; СПб., 2000; Избранное. Поэтика пространства. М., 2004.

*Əd.:* В и з г и н В.П. Эпистемология Г. Башляра и история науки. М., 1996.

**BAŞMAQ** – kişi və qadın ayaq geyimi. Dabanı açıq olub, yalnız ayağın pəncə hissəsinə geyilən bu qədim ayaqqabı növü özünün əski formasını əsrlər boyu qoruyub saxlamışdır. Adətən, qabarıq pəncəli və hündürdaban olurdu. Şərq xalqlarının, xüsusilə türk xalqlarının məişətində geniş işlədilmişdir. Qadın B.-ının (zənənə və miyanə başmaq) üzlüyü, adətən, tumac və ya müşküdən, bəzən isə parçadan (məxmər, tirmə) tikilirdi. B.-ın üzlüyü parça olduqda onu müxtəlif tikmələrlə (muncuq, güləbətin, təkəldüz) bəzəyirdilər (güllü başmaq, məxməri başmaq, güləbətinli başmaq və s.). Oğuzlarda qadın B.-ı sərmüzə adlanırdı. Kişi B.-ı (mərdanə başmaq) əsasən, birrəngli və naxışsız olurdu. Sağrıdan tikilmiş B. çox möhkəm olduğundan yüksək qiymətləndirilirdi. B.-ların dabanı, əsasən, nallı olurdu.

**BAŞMAQ**, a l t l ı q – texnikanın ayrı-ayrı sahələrində tətbiq edilən müxtəlif tipli detal; 1) çeşidləmə təpəsindən hərəkət edən vaqonların müəyyən edilmiş yerdə dayanması üçün rels üzərinə qoyulan əyləyici tərtibat; 2) sıxaclı elektrik kabellərində naqilləri sıxaclarla birləşdirmək üçün ucluq; 3) qazımada qoruyucu kəmərin aşağı hissəsinin sərtliyini artırmaq üçün onun ucuna bağlanan qısa boru; uz. 225–425 *mm*, diametri 166–508 *mm*-dir. Kəməri quyuya düzgün istiqamətləndirmək üçün B.-ın konusşəkilli yönəldicisi olur; 4) əsasa və ya özülə ötürülən qüvvənin bərabər paylanması üçün sütun və dayaqların yoğunlaşdırılmış aşağı hissəsi; 5) ağac dirəyin (yortacın) iti başına taxılan, həmin tərəfin qorunmasını və yerə yaxşı batmasını təmin edən polad ucluq; 6) maşın və avadanlığın quraşdırılması, yaxud yoxlanıb düzəldilməsi üçün dayaq; 7) nivelirləmə tamasasının altında dəqiq nivelirləmə aparmağa xidmət edən səyyar metal altlıq.

**"BAŞMAQ"** (alm. Bundschuh – "kəndli başmağı"; uzunqaytanlı dəri başmaq) – 15 əsrin sonu – 16 əsrin əvvəllərində Cənub-Qərbi Almaniyada gizli kəndli ittifaqlarının adı. "B." ittifaqlarının təşkilatçısı və rəhbəri Şpeyer yepiskopunun təhkimli kəndlisi Yos Frits (təqr. 1470–1525) olmuşdur. İttifaqlar kəndlilər üçün "ilahi ədalət" istəyir, şəxsi asılılığın, feodal vergilərinin, imperator və papa hakimiyyəti istisna olmaqla bütün idarələrin ləğvini, kəndli icmasına meşə, su və otlaqlardan azad istifadə imkanının verilməsini, kilsə torpaqlarının bölüşdürülməsini tələb edirdilər. "B." ittifaqları 1493, 1502, 1513, 1517 illərdə dağıdılmağa məruz qalsalar da, onların fəaliyyəti *Almaniyada kəndli müharibəsinin (1524–26)* hazırlanmasında mühüm rol oynamışdır. Bu müharibə zamanı üsyançı dəstələrin bayraqlarında kəndlilərin və antifedal mübarizənin simvolu olan qaytanlı başmağın təsviri (zadəganların rəmzi olan mahmızlı uzunboğaz çəkmədən fərqli olaraq) var idi.

**BAŞMAQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Mərkəzi bölgəsinin Kələboz kəndistanında. Miyanə ş.-ndən 23 *km* c.-q.-də, Miyanə–Marağa d.y. xəttinin 8 *km*-liyindədir.

**BAŞMAQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsində, Səriskənd qəs.-ndən 7 *km* şm.-ş.-də, Təbriz–Miyanə avtomobil yolunun 13 *km*-liyindədir.

**BAŞMÉT** Yuri Abramoviç (d.24.1.1953, Rostov-Don) – rus altçalanı, dirijor, SSRİ xalq artisti (1991). SSRİ Dövlət mükafatı (1986), RF Dövlət mükafatı (1993, 1995, 2000) laureatı. Moskva konservatoriyasını (1976) və onun nəzdindəki aspiranturanı bitirmişdir. Budapeştdə (1975) keçirilən Beynəlxalq müsabiqədə 2-ci, Münxendə (1976) 1-ci mükafata layiq görülmüşdür. 1978 ildən Moskva filarmoniyasının solistidir. Alt üçün yazılmış müasir musiqilərin təbliğçisi, A.Q. Şnitke, A.Y. Eşpay, G. Kançeli, V. Barkauskas, M.Q. Kollontay, A.İ. Qolovin və digər bəstəkarların ona ithaf etdikləri əsərlərin ilk ifaçısıdır. S.T. *Rixter*, M.L. *Rostropoviç*, İ. *Stern*, O.M. *Kaqan*, N.Q. *Qutman*, G. *Kremer* ilə birlikdə ansamblda çalmışdır. Solist və dirijor kimi dünyanın aparıcı orkestrləri ilə çıxış edir. 1986 ildə özünün yaratdığı "Moskva solistləri" kamera orkestrinin rəhbəridir. Moskvada keçirilən Beynəlxalq altçalanlar müsabiqəsinin (1994), Yuri Başmet Beynəlxalq Xeyriyyə Fondunun və dünya musiqi sənəti sahəsində xidmətlərə görə D.D. Şostakoviç ad. mükafatın (1995) təsisçisidir. Bir çox beynəlxalq musiqi festivalının iştirakçısı, 2002 ildən Moskvada keçirilən "Dekabr axşamları" festivalının bədii rəhbəridir. "Novaya Rossiya" dövlət simfonik orkestrinin bədii rəhbəri və baş dirijorudur (2002 ildən). 1978 ildən Moskva konservatoriyasında dərs deyir (1996 ildən prof.).

**BAŞNƏLİ**, C a n d a r l a r, Ç a n d a r – İrəvan xanlığında Gərnibasar mahalının (9.9.1930 ildən Qəmərli, 4.9.1945 ildən – Artaşat r.-nu) düzənlik hissəsində.





Gərni çayının sol sahilində azərb.-ların yaşadığı kənd. 1826–28 illər Rusiya-İran müharibəsi zamanı kənd ciddi dağıntılara məruz qalmış və buraya İrandan gəlmə ilk erməni ailələri köçürülmüşdür. 1918 ildə erməni daşnakları kəndin azərbaycanlı əhalisini qovub kənddən çıxarmış, onların boşalmış evlərinə İranın Xoy, Salmas vil.-lərindən gələn erməniləri yerləşdirmişlər. 1930-cu illərdə kənddəki sonuncu azərb.-lar da kəndi tərk etməyə məcbur olmuşlar. 1.12.1949 ildə kəndin adı dəyişdirilərək Baqramyan qoyulmuşdur.

**BAŞPULU** – Azərb.-da xanlıqlar dövründə (18 əsr) adambaşına, əsasən, kişilərdən alınan can vergisi; evlilərdən ikiqat artıq alınırdı. Həcmi qeyri-müəyyən idi. Şamaxı xanlığında B. yaşı 20-dən artıq olan şəxslərdən alınırdı. B. Bakı və Qarabağ xanlıqlarında *otaqxərci*, Naxçıvan xanlığında *evpulu*, Şəki xanlığında *tüstüpulu* adlanırdı.

**BAŞSIZ** – İrəvan xanlığının Talın mahalında (9.9.1930 ildən – Talin r-nu), Alagöz d.-nın c.-unda azərb.-ların yaşadığı kənd. 19 əsrin 40–50-ci illərində kəndin azərb. əhalisi sıxışdırılıb kənddən çıxarılmış və burayaTürkiyədən gəlmə kürdlər yerləşdirilmişlər.

**BAŞSIZ** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Kağızkonan bölgəsində, Ağkənd qəs.-ndən 13,5 *km* c.-ş.-də, Miyanə–Zəncan avtomobil yolunun 23 *km*-liyindədir.

**BAŞSIZ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Səhəndabad kəndistanında, Bostanabad qəs.-ndən 18 *km* c.-dadır.

**BAŞSIZ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Ucan kəndistanında, Bostanabad qəs.-ndən 8 *km* c.-q.-dədir.

**BAŞŞELÁK SİLSİLƏSİ** – Altay dağ sisteminin şm.-q.-ində, RF-də, Altay diyarı və Altay Resp. ərazisindədir. Uz. təqr. 120 *km*. Hünd. 2423 *m*-ədək. Çarış və Anuy çaylarının (Ob hövzəsi) suayırıcısıdır. Orta dağlıq relyefi xarakterikdir. Şm.-q.-də alçaq massivlərdə dağ-çöl, tünd iynəyarpaqlı və qaraşam tayqası; şm. və şm.-ş.-də qaraya çalan tünd iynəyarpaqlı, c.-da isə qaraşam tayqası üstündür. Zirvələr dağ tundrasına keçən dağ çəmənlikləridir.

**BA-ŞU** – Yanszı çayının hövzəsində Sıçuan çökəkliyində tarixi-mədəni vil. (Çin, Sıçuan əyaləti). Adı elmi ədəbiyyatda 1940-cı illərdən çəkilir, hazırda daha az



Bat şəhərindən görünüş.

istifadə olunur. Ba və Şu mədəniyyətlərinə əsasən Son Tunc dövrünə (e.ə. 2-ci minillik – 1-ci minilliyin 1-ci yarısı) aid qəbirlərlə təmsil olunan abidələr aid edilir. Bu abidələr üçün Şan və *Çjou* dövrlərinə aid Çin məmulatlarından fərqli olaraq üzərində heroqliflər əvəzinə təsvirlər (pələng, əl və s.) və işarələr (ehtimal ki, yazılar) olan tunc döyüş baltaları, qılınclar, sap yeri olan toxalar, balta-keltlər, bəzən möhürlənmiş xətti, yaxud damalı ornamentlərlə bəzədilmiş keramik səhənglər, iri qövsvarı qulpu olan küpələr, oyulmuş ağac kötüyündə dəfnetmə səciyyəvidir. Hazırda B.-Ş. arealında *Sanxinduy* və s. mədəniyyətlər müəyyənləşdirilir. Çin yazılı mənbələri e.ə. 2-ci minilliyin sonu – 1-ci minilliyin ortalarında Sıçuan çökəkliyinin ş. hissəsində Ba, q. hissəsində isə Şu adlı dövləti qurumların olduğunu qeyd edir. Ba təqr. e.ə. 361 ildə *Çu* çarlığı tərəfindən, Şu isə e.ə. 316 ildə *Sin* çarlığı tərəfindən işğal olundu. E.ə. 3 əsrin sonlarından Sin Şixuandinin islahatlarından sonra Ba və Şu dairələrə çevrildilər. *Üçhakimiyyətlilik* dövründə (eramızın 3 əsri) 261 ilədək müstəqil *Şu* dövləti mövcud olmuşdur.

**BAT** (Bath) – B. Britaniyada şəhər. İngiltərənin c.-q.-ində, Somersetşir qraflığındadır. Əh. 93 min (2005; şəhərətrafı ilə təqr. 170 min). Bristol ş.-ndən 20 *km* c.-ş.-də, Eyvon çayı dərəsindədir. London–Bristol d. y. magistralında nəql. qovşağı.

B. ölkədə qədim və yeganə balneoloji kurortdur. Mineral bulaqların müalicəvi xüsusiyyətləri hələ 1 əsrdə burada Akve-Sulis məskəninin əsasını qoyan və vanna qəbul etmək üçün termlər (şəhərin "hamam" bildirən adı da buradandır) inşa edən romalılara məlum idi. Əsas təbii müalicə amili mineral bulaqların radonlu termal (49°C-yədək) kalsiumlu sulfatlı sularıdır; əsasən, oynaq xəstəliklərinin müalicəsində istifadə olunur.

Roma termlərinin qalıqları, kilsə ilə birlikdə abbatlıq (1499–1530-cu illər, memarlar R. və U. Uörtyu; 1616 ildə yenidən tikilmişdir) saxlanılmışdır. B.-da intensiv tikinti işləri 1720-ci illərin sonlarından memar C. Böyük Vudun rəhbərliyi altında aparılmışdır. O, Roma məskəninin ilkin planlaşdırılmasını saxlamaqla, şəhər memarlığını *palladiançılıq* üslubunda inkişaf etdirmişdir: Kuin-skver (1729–1736), Sörkus-skver (dairəvi; 1754–64; C. Kiçik Vud ilə birlikdə), Kresent-skver (1767–75, C. Kiçik Vud, atasının layihəsi əsasında) meydanları. 18 əsrin 2-ci yarısının memarları da (T. Atvud, T. Celli və C. Palmer) Vud üslubunu davam etdirmişlər. T. Bolduin bir sıra maraqlı layihəni həyata keçirmişdir: Ratuşa binası (1770-ci illərin sonları), Batuik malikanəsi (1789), Qreyt-Paltni-strit ansamblı.

Un-t (əsası 1856 ildə qoyulmuşdur; un-t statusu 1966 ildəndir), Akademiya (1994), Ali məktəb fəaliyyət göstərir. Muzeylər: Bat şəhərinin tarixi (keçmiş kapella binasında, 18 əsr), xalq sənəti, kostyum tarixi, Holbernin incəsənət muzeyi (əsası 1893 ildə qoyulmuşdur; 18 əsrə aid Sidni-hotelin binasında), "Viktoriya" incəsənət qalereyası (1900 ildə açılmışdır) və s. Yeni Kral teatrı var. Hər



Batabat gölü.

il Beynəlxalq musiqi festivalı (1948–55 illərdə "Bat-assambleya" adı altında, konsert proqramları 18 əsr musiqisindən ibarət idi; 1957 ildən universal repertuardır) keçirilir. İ. *Menuhinin* festival orkestri çıxış edir.

Əhali, əsasən, xidmət sferasında (turistlərin sayına görə B. Londondan sonra ikinci şəhərdir) və səhiyyə müəssisələrində (Kral milli hospitalı və s.) çalışır. Ənənəvi bədii sənətkarlıq inkişaf etmişdir. Elektrotexnika, poliqrafiya, tikiş, yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir.

**BAT** – Taylandın pul vahidi; 100 satanqa bərabərdir. 1928 ildə tədavülə buraxılmışdır. Hazırda 10 (az təsadüf edilir), 20, 50, 100, 500, 1000 B. dəyərində banknotlar və 1, 2, 5, 10, 25 və 50 satanq dəyərində sikkələr tədavüldədir.

**BAT MƏRTƏBƏSİ**, B a t [İngiltərədə Bat (Bath) ş.-nin adından] – Yura sistemi orta şöbəsinin aşağıdan üçüncü mərtəbəsi. 1843 ildə İngiltərədə Bat ş. ətrafında belçikalı geoloq Omalius d'Allua tərəfindən ayrılmışdır. Xarakter faunası ammonitlərdən Oppelia fusca, Cadomites rectelobatus və s.-dir. B.m.-nin dəniz çöküntülərinə, vulkanogen və vulkanogen-çökmə süxurlarına bir sıra Qərbi Avropa ölkələrində, Krımda, Volqaboyunda, Qafqazda, Uzaq Şərqdə və s. yerlərdə rast gəlinir; Azərb.-da Şəmkir, Zəyəm, Tərtər və s. çayların hövzələrində var. Qalınlığı 1500 *m*-ədəkdir.

**BÁTA** – Ekvatorial Qvineyada şəhər. Litoral əyalətinin inz. m. Əh. təqr. 60 min (2005). Ölkənin ən iri şəhərlərindən biri. Atlantika okeanının Qvineya körfəzi sahilindədir. Port (qəhvə, kakao, oduncaq, palma yağı və qoz ixracı). Aeroport. Politexnik in-t. B.-nın tikililəri, əsasən, 2–3 mərtəbəlidir, radio stansiyasının və Qurultaylar sarayının binaları müasir Avropa ənənəsinə uyğun inşa edilmişdir. Ağac emalı sənayesi müəssisələri, sement z-du var.



Batabat rəsədxanası.

**BATABAT** – Azərb. Resp. Şahbuz r-nu (Nax. MR) ərazisində şirin sulu göl. Sah. 16 *ha*. Təbii gölün əsasında yaradılmış eyniadlı su anbarı (bax *Batabat su anbarı*) 1951–55 illərdə istifadəyə verilmişdir. Əsasən, Zorbulaq çayından, qismən də qar, yağış sularından qidalanır. Suvarmada istifadə olunur.

**BATABAT MİNERAL SU YATAĞI** – Azərb. Resp. Şahbuz r-nu (Nax. MR) ərazisində, Şahbuz qəs.-ndən 18 *km* şm.-ş.-də, dəniz səviyyəsindən 2445 *m* hünd.-dədir. Dördüncü dövr lavalarından sızır. İçməlidir, dadı xoşagələndir.

Balneoloji tərkibi:

$$CO_2 0{,}7\, M1{,}3 \frac{SO_4 65\, HCO_3 30}{Ca39\,(Na+K)36\, Mg25}.$$

pH 6,5 D 3,8 *m³/gün* T 8°C

Suyu karbon qazlı, zəif minerallaşmış, sulfatlı-hidrokarbonatlı, kalsiumlu-natriumlu-maqneziumludur; müalicəvidir.

**BATABAT NEKROPOLU** – Azərb. Resp.-nın Şahbuz r-nunda (Nax. MR) arxeoloji abidə; Batabat yaylağındadır. Sel sularının yuduğu qəbirlərdən bozumtul gildən küpə sınıqları və s. aşkar olunmuşdur. Analoji materiallar əsasında küpənin e.ə. 2–1-ci minilliklərə aid olması ehtimal edilir. Nekropolda orta əsrlərə aid qəbirüstü qoç fiqurları da olmuşdur.

**BATABAT RƏSƏDXANASI** – 1971 ildə *Şamaxı Astrofizika Rəsədxanasının* (ŞAR) Batabat bölməsi kimi yaradılmış, 2002 ilin avqustundan AMEA-nın Naxçıvan bölməsinin yaradılması ilə əlaqədar bölmənin nəzdində müstəqil Batabat Astrofizika Rəsədxanası kimi fəaliyyət göstərir. Nax. MR-in Şahbuz r-nunun Biçənək k. yaxınlığında dəniz səviyyəsindən 2050 *m* hünd.-də yerləşir. Şəffaf səması, il ərzində günəşli günlərin çoxluğu ilə fərqlənir.

Əsas astronomik cihazları 20 *sm*-lik refraktor, Günəş koronoqrafı, 60 *sm*-lik "Seys-600" refraktoru və 80 *sm*-lik Maksutov teleskopudur. Rəsədxanada *Günəş fizikası*, Günəş sisteminin kiçik cisimlərinin dinamikası və fiziki xassələri öyrənilir.

**BATABAT SU ANBARI**, B a t a b a t s u – Azərb. Resp. Şahbuz r-nu (Nax. MR) ərazisində, Naxçıvançayın hövzəsindədir. Eyniadlı üç su anbarından ibarətdir: Batabat-1 (hövzəsinin sah. 0,18 *km²*), Batabat-2 (hövzəsinin sah. 0,7 *km²*) və Batabat-3 (hövzəsinin sah. 0,18 *km²*). Ümumi sututumu təqr. 3 mln. *m³*-dir. Əsasən, Zorbulaqdan, qismən də qar sularından qidalanır. Babək r-nu ərazisindəki torpaqları suvarmaq məqsədilə yayda suyu Naxçıvançaya axıdılır. Mövsümi tənzimləməyə malikdir. Ətrafı yaylaq və istirahət yerləridir.

**BATAKLAR** (İndoneziya dilində oranq-batak, oranq-tapanuli) İndoneziyada etnik birlik. Ənənəvi olaraq Batak yastıdağlığında və ondan c.-da yerləşən Sumatra a.-nda (Şimali Sumatra əyaləti) məskunlaşmışlar. Cənubi B.-dan – tobalar (Samosir a.-nda və Toba gölündən ş., c. və q.-dəki ərazilərdə 2,5 mln. nəfər, 21 əsrin əvvəlləri), anqkolalar, yaxud ana-kolalar (tobalardan c.-da, Sipirok ş. yaxınlığında 924 min nəfər), mandaylinqlər (anqkolalardan c.-da 470 min nəfər); şimali B.-dan – dairilər (Sidikalanq ş. yaxınlığında, Toba gölündən şm.-q.-də pakpak yarımqrupu da daxil olmaqla 1,6 mln. nəfər), karolar (Toba gölündən şm.-da 740 min nəfər), alaslar (Kutaçane ş. yaxınlığında və Tapaktuan ş.-ndən şm.-da və şm.-ş.-də 94 min nəfər; qayoların təsiri altındadırlar); həmçinin simalunqunlar, simalunqanlar, yaxud timurlardan (Toba gölündən şm.-ş.-də 1,2 mln. nəfər) ibarətdirlər. 20 əsrdə tobalar Sumatra və Yava adalarındakı şəhərlərdə geniş yayılmışlar. Batak dilləri *Avstroneziya dillərinin* (bax *İndoneziya dilləri*) Malayya-Polineziya yarımailəsinin q. qoluna aiddir. Yazıları latın qrafikası əsasındadır; palma yarpaqları üzərində Cənubi hind əlifbası əsasındakı ənənəvi yazıları (Filippin, bugi-makasar və recanq yazılarına yaxındır) qorunub saxlanılır. Tobalar, dairilər, karolar, simalunqunlar və pakpakların əksəriyyəti xristiandır; alaslar, mandaylinqlər və anqkolaların əksəriyyəti müsəlmandır; ənənəvi etiqadlarını saxlayanlar da var.

Şimali Sumatranın yerli əhalisi olan B. qədim İndoneziya (protomalayya) mədəniyyətinin tipik nümayəndələridir (bax *İndoneziyalılar*); Yava və Sumatranın hinduist dövlətlərinin (*Şrivicaya*, *Macapahit* və s.) təsirinə məruz qalmışlar. 19 əsrədək B.-ın xarici əlaqələri zəif olmuşdur. 19 əsrin əvvəllərində mandaylinqlər *minanqkabauların* təsirilə islamı qəbul etmişlər, 19 əsrin ortalarından tobalar və anqkolalar arasında protestant missiyaları fəaliyyət göstərmişdir; yalnız 1930-cu illərdə karolar xristianlaşmağa başlamışlar. Simalunqunlar və mandaylinqlərdə 19 əsrdə formalaşmış icma birlikləri Hollandiya müstəmləkəçiliyinə qarşı qəti müqavimət göstərmişlər (1833–1908). 19 əsrin sonları – 20 əsrin əvvəllərindən B. Ümumindoneziya və Avropa mədəniyyətini mənimsəmişlər. 20 əsrin ortalarında B. sosial cəhətdən ən fəal və inkişaf etmiş İndoneziya xalqlarından birinə çevrilmişlər; onların arasında ziyalılar, siyasətçilər və din xadimləri çoxdur.

Əsas ənənəvi məşğuliyyətləri şum əkinçiliyidir (Toba gölünə yaxın dərələrdə suvarma çəltik əkinçiliyi, yastıdağlıqda və dağ yamaclarında quru dərə əkinçiliyi); həmçinin qaramal və at yetişdirilməsi, balıqçılıq, sənətkarlıq (ağac üzərində oyma, dəmir və mis emalı, qayıq və keramika hazırlanması, hörmə; qadınlar qara, yaxud göy rəngli parça (ulos) toxuyurlar; ayinlərlə bağlı daş heykəltəraşlıq məlumdur) yayılmışdır. Sumatranın şm. sahilləri ilə ticarət aparılır. Ata xətti ilə *liniclər* qohum qruplarda (marqalar) birləşir; icma (xuta) orada yaşayan marqaların nümayəndələrindən ibarət seçkili şura (şura eyni zamanda *adət hüququna* əsaslanan məhkəmə funksiyasını yerinə yetirir) tərəfindən idarə olunur. ilk məskunların lider qrupunun (marqa-raca) nümayəndəsi ona başçılıq edir. Kahin-datular da (rəmzləri sehrli əsadır) onlara mənsub idi. Ənənəvi ailə patrilokaldır. İri evlərdə yaşayan böyük ailə icmaları, levirat, sororat, krosskuzen (bax *Kuzen nikahı*) nikahları, tobalarda fratriya bölgüsü (Sumba və Lontunq) saxlanılır. Sumba və Lontunq tobalarının qeyri-ekzoqam fratriyalarında dual bölgünün izləri qalmaqdadır. 1920-ci illərədək patriarxal quldarlıq, mərasimi kannibalizm, öldürülmüş düşmənin başının qənimət kimi götürülməsi adəti, meyitlərin dəfn qülləsində yandırılması (karolarda), təkrar dəfn mövcud olmuşdur. Ənənəvi yaşayış məskənləri 5–20 böyük evdən (karkaslı, yortaclı, yəhərvarı damı olan; yortacları və tirləri oymalarla bəzədilmişdir; daxili arakəsmələri həsirdəndir) ibarətdir; icma evi (sopo) var. Ənənəvi kultları əcdadlara və ruhlara sitayişdir. Tatuirləmə, dişlərin qaraldılması və mişarlanması, qurbanvermə, nikah bağlayan liniclər arasında tortor ayin rəqsləri ilə müşayiət edilən hədiyyələrin mübadiləsi mərasimi mövcud olmuşdur; adları hinduistləşdirilmiş allahların geniş panteonu saxlanılmışdır.

Ş i f a h i  y a r a d ı c ı l ı q (musiqi və rəqs) ayinlərlə sıx bağlıdır. Təntənəli musiqi və tortor rəqsi, manqandunq ağıları (tobalarda), miflərin ucadan oxunması (ilk insan Si Raca Bataku, sehrli əsaların mənşəyi və s. haqqında), liniclərin şəcərəsi, toy və dəfn reçitasiyaları, söz yarışmaları, "çılğın rəqslər" və s. spesifik cəhətlərini saxlamışdır. Böyük hörmət göstərilən musiqiçilər müəyyən davranış kodeksinə riayət edirlər. Ənənəvi təsəvvürlərə görə, musiqiçilər insanlarla ruhlar arasında vasitəçidirlər. Ansambl ifaçılığı ən çox inkişaf etmişdir. Qondanq (tobalar, simalunqunlar və anqkolalarda), qordanq (mandaylinqlərdə) və genderanq (pakpaklarda) oxşar ənənələri mövcuddur; ansamblın tərkibinə, adətən, 5 təbil (taqaninq) dəsti, böyük təbil (qordanq), qoboy (sarune) və 4 sinc (oqunq) daxildir. Belə ansamblar ənənəvi dini ayinlərdə, nikah, dəfn mərasimlərində, uşağa adqoydu şənliklərində, ailənin yaşlı üzvləri ilə bağlı təntənələrdə iştirak edir. Gendanq (karolarda) ənənəsi fərqlidir; ansamblın tərkibində kiçik həcmli qoboy və bir neçə müxtəlif təbil olur. Ansambl quro-quro aron rəqsini (məhsul yığımı bayramında) müşayiət edir, kilsə, yaxud dövlət və ictimai təşkilatlar tərəfindən keçirilən rəqs festivallarında çıxış edir. Fərdi çalğı üçün ayin (məs., cadu) zamanı, bir qayda olaraq, lütnya xasapidən (kulçapi), bambukdan hazırlanmış fleyta surdamdan və bambukdan düzəldilmiş sitra ketenq-ketenqdən (ketuk) istifadə olunur. 20 əsrin sonu – 21 əsrin əvvəllərində B.-ın şifahi mədəniyyəti modernləşir, turizm və əyləncə sahəsində musiqi və rəqs geniş yer tutur. Toba Cəfər Lumban Qaol (d. 1963) tərəfindən təşkil edilmiş peşəkar musiqiçilər qrupu geniş şöhrət qazanmışdır.

B. həmçinin *aetalara* mənsub qruplardan birinin adıdır.

**BATAQLIQ** – Yer səthinin izafi rütubətlənmə, bitki örtüyünün hidrofilliyi, xüsusi torpaqəmələgəlmə tipi ilə səciyyələnən və 30 *sm*-dən çox qalınlığa malik *torf* qatı ilə örtülmüş sahəsi. İzafi rütubətlənmiş, lakin torf qatı ilə örtülməmiş və ya torf qatının qalınlığı 30 *sm*-dən az olan sahələr bataqlıqlaşmış yerlər adlanır. B.-lar Arktika enliklərindən tropik enliklərədək yayılmışdır. Yer kürəsində B.-ların ümumi sah. təqr. 5,7 mln. *km²*-dir. Ayrı-ayrı B.-lar müəyyən şəraitdə birləşərək on minlərlə *km²* sahədə bataqlıqlar sistemi yaradır. Böyük sahəli B.-lar Qərbi Sibirdə, Hudzon körfəzinin sahilboyunda, Cə-



Bataqlıq bayquşu (Asio flammeus).

nub-Şərqi Asiyanın dənizsahili düzənliklərində, Amazon çayı hövzəsindədir.

B. müxtəlif yolla – sututarlarda suyun azalması, quruması və bitki örtüyünün əmələ gəlməsi, yeraltı suların səthə çıxması, çay daşqınları zamanı quru əraziləri su basması nəticəsində əmələ gəlir. Onların formalaşma sürəti relyefin quruluşundan, su-mineral balansı şəraitindən, iqlimin tərəddüdündən və s. amillərdən asılıdır. B.-larda minilliklər boyu üzvi maddələr ehtiyatı torf şəklində toplanmaqdadır. Boreal zonada (8–11 min il) torf qatı qalınlığının şaquli artımı adətən, ildə 0,1–0,8 *mm* təşkil edir. Cənubi tayqa şəraitində torf qatının qalınlığı 10 *m*-ə, tundra və Şərqi Sibirin daimi donuşluq ərazilərində təqr. 1 *m*-ə, mülayim iqlim zonaları və subtropiklərdə bəzən onlarla *m*-ə çatır.

B.-ları qidalandıran sularda mineral maddələrin miqdarından asılı olaraq B.-lar üç ekoloji qrupa ayrılır: qrunt suları ilə qidalanan, atm.-qrunt suları ilə qidalanan, atm. suları ilə qidalanan. Bunlara bitki növlərinə və onların qidalanma rejiminə görə evtrof, mezotrof, oliqotrof, relyefdəki mövqeyinə görə aşağı, keçid və yuxarı tip B.-lar uyğun gəlir. Qrunt suları ilə qidalanan (aşağı, evtrof) B.-lar relyefin aşağı hissələrində (qrunt sularının səviyyəsi yüksək olan yerlərdə) yerləşir. Qrunt sularının zəngin (100–300 *mq/l*) mineral tərkibi torpaq mühitinin neytral reaksiyasını təmin edir; torfun küllülüyü yüksəkdir (6–15%). Atm.-qrunt suları ilə qidalanan (keçid, mezotrof) B.-ların suları az minerallaşmışdır; zəif turş mühit səciyyəvidir; torfun küllülüyü aşağıdır (4–5%). Atm. suları ilə qidalanan (yuxarı, oliqotrof) B.-lar suayırıcılarda yerləşir; yalnız atm. tozu və mineral qida elementləri kasad olan rütubətlə qidalanır. Bu, torpaq mühitində turşuluğun artmasına və aşağı dərəcəli çürüməyə, 1–3 % küllülüyə malik torfun yaranmasına səbəb olur.

B.-ların üzvi maddələrinin əsas ehtiyatı suda toplanır; torfluğun həcmcə 80–95%-i sudan ibarətdir. Bəzi məlumatlara görə, torfdakı karbon qazının ehtiyatı təqr. atm.-dəki ehtiyata bərabərdir. B.-ların böyük təsərrüfat əhəmiyyəti var: qurudulmuş B.-lardan çıxarılan torfdan gübrə və yanacaq kimi istifadə olunur, qiymətli kimyəvi məhsullar (ammonyak, qatran və s.) alınır.

Azərb.-da B.-lar landşaftın bir növü – su-bataqlıq ekoloji sistemi kimi qoruq və milli parklarda mühafizə olunur. Bax *Azərbaycan* xüsusi cildinin Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri bölməsinə.

**BATAQLIQ BAYQUŞU** (Asio flammeus) – əsl bayquşlar fəsiləsindən quş. Bədəninin uz. 37–39 *sm*-dir. Tük-lələk örtüyü üstdən qonurdur, ağımtıl və ya oxra rəngli haşiyələri olur; altdan ağ və ya sarımtıldır, uzununa yerləşən tünd-qonur xalları vardır. Gözünün qüzehli qişası tünd-sarıdır. Avstraliya və Antarktidadan başqa bütün qitələrdə rast gəlinir; Afrika və Cənubi Asiyada yalnız qışda olur. Açıq landşaftlarda (rütubətli çəmənlər, bataqlıq ovalıqlar, yaxud alçaqboylu kolluqlar cəngəlliyi) yayılmışdır, meşələrdən kənar gəzir. Əsasən, xırda gəmiricilərlə qidalanır; ovunu havada gədərək tutur. Alatoranlıqda daha fəal olur. Yuvası dişi fərdin sıx otlar, yaxud qamışlıqlar arasındakı yaşıl təpəciklərin üstündə düzəltdiyi 40 *sm*-ədək enində çuxurdur. 4–7 (gəmiricilərin kütləvi çoxaldığı illərdə 10 və daha çox) yumurta qoyur. Yumurtalar üstündə dişi fərd kürt yatır.

**BATAQLIQ ƏRƏBLƏRİ**, məədən, bataqlıq sakinləri, göl ərəbləri – Cənubi İraqda ərəblərin etnik qrupu. Dəclə və Fərat çaylarının subasarlarında kompakt şəkildə məskunlaşmışlar. Ümumi sayları 500 min nəfərdir (1985). Böyük Avropa irqinə mənsubdurlar. Ərəb dilinin İraq dialektində danışırlar. Dindarları müsəlmandır. B.ə.-nin qədim şumerlərin birbaşa nəsilləri olduğu ehtimal edilir. Məşğuliyyətlərinə görə 3 qrupa bölünürlər: əkinçilər (buğda və s.), qamışdan hasır toxuyanlar (əsas ixrac malı) və camış saxlayanlar. Evləri (sarifə), eləcə də məişət əşyaları qamışdan və həsirdən olur. Şeyxlərin evləri, həmçinin varlıların qonaq otaqları (mudıf) böyük ölçüdə olur. Ənənəvi geyimləri uzun, gen köynək, xalat və baş yaylığıdır. Yeməkləri, əsasən, çörək, ayran, düyü, qəhvə, çay və xurmadan ibarətdir; əlamətdar günlərdə ət yeyirlər.

Əsas sosial vahid olan tayfaya şeyx

Seliger gölü yaxınlığında (RF) bataqlıq.



Şimali Almaniya bataqlıqları.









Bataqlıq qunduzu (Myocastor coypus).

başçılıq edir. Tayfalar nəsli qruplara (həmulə) bölünür və onların statusu mənşəyinə, təsərrüfat fəaliyyətinə və üzvlərinin sayına görə müəyyənləşdirilir. Nəsillər 50-dək patrilinicədən ibarətdir. Ortokuzen nikahları yayılmışdır.

1991 ildə *Səddam Hüseynə* qarşı qaldırdıqları üsyanın yatırılması zamanı B.ə.-nin xeyli kəndləri bombalanıb məhv edilmişdir. B.ə.-nin təqr. 100 min nəfəri ölkənin digər rayonlarına, 40 min nəfəri isə İrana köçmüşdür.

**BATAQLIQ HİDROLOGİYASI** – quru hidrologiyası bölməsi; torf çöküntüləri ilə örtülmüş bataqlıqları və bataqlıqlaşmış torpaqları öyrənir. B.h. rütubətin torf çöküntüləri və bitki örtüyü ilə qarşılıqlı əlaqəsini, bataqlıqlarda suyun hərəkətini və yerdəyişməsini, bataqlıq massivlərində axının formalaşmasını, buxarlanmanı və su-istilik balansını, bataqlıqdaxili hidroqrafik şəbəkənin formalaşması qanunauyğunluğunu, bataqlıq sularının hidrokimyasını, bataqlıqlararası və bataqlıqların ətraf mühitlə (atmosferlə, səth, qrunt və yeraltı sularla) əlaqəsi məsələlərini tədqiq edir.

**BATAQLIQ KEÇİSİ** (Redunca) – boşbuynuzlular fəsiləsindən cütdırnaqlı məməli heyvan cinsi. Bədəninin uz. 1,45 *m*-ədək, çiyinlərinədək hünd. 90 *sm*-ə qədərdir. Erkəklərdə buynuzların uz. 40 *sm*-ədəkdir, üzərində çoxlu halqaşəkilli buruqlar vardır. Dişiləri buynuzsuzdur. Bədəninin rəngi küreni-qonur, yaxud, qırmızımtıl-qonurdur. 3 növü var. Afrikada yayılmışdır. Adi B. k. (R. redunca) c.-a doğru Böyük Səhradan Zambezi çayınadək yayılmışdır; rütubətli və su hövzələrinə yaxın yerlərdə kiçik qruplarla yaşayır. Böyük B.k. (R. arundinum) Cənubi Afrikada, q.-də Anqolaya qədər və ş.-də təxm. 5° şm. e.-nədək rast gəlir. B.k. ov obyektidir (ətinə və dərisinə görə).

**BATAQLIQ QAZI** – bax *Metan*.

**BATAQLIQ QUNDUZU** (Myocastor coypus) – gəmiricilər dəstəsindən məməli heyvan. Xarici görünüşünə görə iri siçovula oxşayır. Bədəninin uz., adətən, 60 *sm*-ədək, quyruğu 45 *sm*-ədək, erkəklərin kütləsi 12 *kq*-a qədər olur. Gözləri alın nahiyəsində yerləşir. Burun dəlikləri və qulaq seyvanı xüsusi pərdə ilə örtülüdür. Ön kəsici dişləri ağızdan kənara çıxır. Üst və alt dodaqları kəsici dişlərin arxasında sıx qapandığı üçün suyun altında olan bitkiləri gəmirdikdə su ağzına dolmur. Arxa ayaqlarında yan barmaqlardan başqa dörd barmağı arasında pərdə var. B.q. su bitkilərinin sualtı və suüstü şirəli hissələri ilə (qamış, su fındığı, ciyən və s.), heyvani qidalardan ölü balıq, zəli və dişsiz onurğasızlarla qidalanır. Tükü ilboyu dəyişir. Xəzi uzun qaba qılından və qəhvəyiyəçalan sıx qıvrım tiftikdən ibarətdir. Cinsi yetkinliyə 4–5 aylıqda çatır. 8–10 il yaşayır. Boğazlıq dövrü 127–133 gündür. İlboyu çoxalır; hər dəfə 4–6 (bəzən 1–12) bala doğur. Doğulan kimi gözləri görür, bədəni tam tüklü, kəsici dişləri çıxmış olur, suda sərbəst üzür. Vətəni Cənubi Amerikadır. Xəzi qiymətli olduğundan bir sıra ölkədə, o cümlədən Azərb.-da iqlimə uyğunlaşdırılmışdır. 1956 ildə Qazax r-nunun Qarayazı təsərrüfatında ağ B.q. yetişdirilmiş, 1970 ildə cins kimi təsdiq edilmişdir.



Bataqlıq maralı (Blastocerus dichotomus).

**BATAQLIQ MARALI** (Blastocerus dichotomus) – maralkimilər fəsiləsindən məməli heyvan. Eyniadlı cinsin yeganə növü. Bədəninin uz. 195 *sm*-ədək, hünd. 120 *sm*-ədək, kütləsi 150 *kq*-a qədər olur. Tükləri uzun və qabadır, yayda qırmızımtıl-qəhvəyi, qışda bir qədər tünddür; ayaqlarının aşağı hissəsi qaradır. Yalnız erkəklərinin buynuzları çoxşaxəlidir. Ayaqları uzundur; dırnaqları geniş aralandığından bataqlıqlarda (adı buradandır) və bataq torpaqlarda asan gəzə bilir. Cənubi Amerikanın ş. hissəsində yaşayır. Kiçik çayların və göllərin yaxınlığındakı bataqlaşmış meşələrdə məskunlaşmışdır. Hətta çay daşqınları zamanı subasarı tərk etməyərək günlərlə suda yaşayır.

Bataqlıq ərəbləri.



Adi bataqlıq keçiləri (Redunca redunca).



Tək-tək, yaxud kiçik qruplarla (6 başadək) gəzir. Gündüz hündür otlar, kollar arasında, yaxud qamışlıqda gizlənir: alatoranlıqda və ya gecələr otlayır. Bataqlıq və su bitkiləri ilə qidalanır. Hövrəyəgəlmə və buynuzlarının dəyişməsi hər bir mövsümdə ola bilər. Boğazlıq dövrü 11–12 aydır. Quru yerdə daldalanaraq 1 bala doğur. B.-m.-nın yaşadığı yerlər süni qurudulduğundan və k.t. sahələrinə çevrildiyindən nəslinin kəsilmək təhlükəsi var. BTMİ-nin “Qırmızı kitab”ına daxil edilmişdir.

**BATAQLIQ SƏRVİ** – bax *Taksodium.*

**BATAQLIQ TORPAQLARI** – daim izafi rütubətlənən və qleyləşmiş mineral süxur üzərində torf qatı olan torpaqlar. Əsasən, Avrasiya və Şimali Amerikanın tundra və tayqa zonalarında yayılmışdır. B. t.-nın mənşəyi torpaq kütləsinin həddən artıq rütubətlənməsi nəticəsində oraya oksigenin daxil ola bilməməsi, bioloji aktivliyin azalması və zəif çürüyən bitki qalıqlarının toplanması ilə əlaqədardır. Üst bataqlıq torpaqları (torflu oliqotrof) tərkibində mineral maddələrin az olduğu atm. çöküntülərinin təsiri altında əmələ gəlir. Qonur və ya qəhvəyi torf qatında külün miqdarı az, rütubət tutumu yüksəkdir; güclü turş reaksiyalıdır (pH 2,5–3,5). Ovalıq (çökəklik) bataqlıq torpaqlarının (torflu evtrof) əsas qidalanma mənbəyi qrunt sularıdır. Bu torpaqlar qalın torf qatının aşağı təbəqəsində turşdan neytrala (pH 5,0–7,0) qədər reaksiyalı, bitkilərin qidalanma elementləri ilə zənginləşmiş tünd-qəhvəyi, yaxud qara rəngli çürüntülü qatın olması ilə səciyyələnir. Üst bataqlıq torpaqlarına nisbətən bu torpaqlar əkinçilik üçün daha qiymətlidir. Meliorasiyadan sonra bu torpaqlardan əkin sahəsi və biçənək kimi istifadə olunur.

**BATAQLIQ TOYUGU** – bax *Su fərəsi.*

**BATAQLIQŞÜNASLIQ** – bataqlıqların yaranması, inkişafı və təsnifatı, onların ekosistem təşkili, mühityaradıcı və biosfer rolu, əmələ gətirdikləri torf çöküntülərinin xüsusiyyətləri haqqında elm. B. həmçinin bataqlıqlardan səmərəli istifadəyə dair elmi cəhətdən əsaslandırılmış təklifləri işləyib hazırlayır. 20 əsrin əvvəllərində B.-ın elm kimi formalaşması alman alimi K.A. Veberin, fin alimi A.K. Kayanderin, rus alimləri V.N. Sukaçyovun, V.S. Dokturovskinin elmi əsərləri ilə əlaqədardır. B.-ın sonrakı inkişafı bataqlıqların tədqiqi sahələrinin genişləndirilməsi, onların təsnifatı, müxtəlif torftoplanma ərazilərinin aşkarlanması, paleoiqlimin rolu, torfluqların spor-tozcuq analizi üsulları ilə torfların müxtəlif xüsusiyyətlərinin öyrənilməsi, torfun karbon yaşının təyini, izotop indikatorları, bataqlıqların aeroplanaalınması ilə bağlıdır. Dünya alimləri (bataqlıqşünaslar, biogeokimyaçılar, ekoloqlar, paleocoğrafiyaçılar, torpaqşünaslar, mikrobioloqlar və b.) bataqlıqların biosferdəki qlobal ekoloji əhəmiyyətini tədqiq edir, atm. karbon-dioksidinin birləşməsində, digər parnik qazlarının emissiyası və udulmasında bataqlıqların rolunu müəyyənləşdirir.



A. Xofart. “Asparuh xan Dunay çayını keçərkən”.

**BATAL JANRI** – incəsənətdə döyüş, müharibə, hərb məişətinin təsviri. B.j. keçmişin hərbi epizodlarını və ya mifoloji hadisələri yenidən canlandırarkən *tarixi janrla* və *mifoloji janrla* birləşir; bəzən *məişət janrı* və *portretlə* (döyüş fonunda sərkərdə obrazı) yaxınlaşır, çox vaxt *peyzaj* (o cümlədən *marina*), *animalistik janr* (atlı qoşun, döyüş filləri və s.) və *natürmort* (yaraq-əsləhə, qənimət və s.) elementlərini özündə birləşdirir.

Benjamin Konstant.
“Konstantinopolun fəthi”.



Ən erkən döyüş səhnələri təsvirləri Neolit dövrünün qayaüstü rəsmləridir. Qədim Şərqin, o cümlədən Azərb.-ın hökmdarları, həmçinin döyüş səhnələri, çoxsaylı kitabələr, relyeflər və stelalarda öz əksini tapmışdır [Lullubi hökmdarı Anubaniniyə əsirlərin təslim edilməsini təsvir edən qayaüstü relyef (e.ə. 23 əsr, Sarıpul), Akkad çarı Naram-Suenin qələbə stelası (təqr. e.ə. 23 əsr; Luvr, Paris), Bisütun kitabəsində I Daranı və onun döyüşçülərini, eləcə də əsirləri təsvir edən relyef, üzərində Midiya əsgərinin (yaxud hökmdar Atropatın) təsviri olan silindrik möhür (e.ə. 5–4 əsrlər), Babil qapılarında döyüşçülərin təsviri və s.]. Qədim Misir məbəd və sərdabələrində firon-sərkərdə, şəhərlərin mühasirəsi və s. təsvir edilmişdir. Qədim yunan incəsənətində mifoloji personajların (amazonomaxiya, kentavromaxiya, titanomaxiya), qəhrəmanların və real sərkərdələrin (“İsgəndərin Dara ilə döyüşü”, e.ə. 4–3 əsrlərə aid ellinist nümunənin mozaikada Roma surəti, e.ə. 2 əsr, Milli muzey, Neapol) şücaəti tərənnüm edilmişdir. Qədim Roma incəsənətində zəfər tağlarının və sütunların batal relyefləri (Tit tağı, eramızın 81 ili; Trayan sütunu, 2 əsrin əvvəli; hər ikisi Romadadır) B.j.-nın spesifik növüdür.

Orta əsrlər incəsənətində B.j. Şərq və Avropa kitab miniatüründə [Nizaminin “Xəmsə” (Britaniya muzeyi, London), Firdovsinin “Şahnamə” (Metropoliten-muzey, Nyu-York), Məhəmməd Şadinin





“Fəthnamə” (Şərq Əlyazmaları İn-tu Daşkənd), *Böyük Moğollara* aid “Baburnamə”, “Əkbərnamə”, “Kitab-ı Gəncinə-i fəth-i Gəncə” (Topqapı sarayı, İstanbul) və s.], xalçaçılığında (Qastinqs yaxınlığındakı döyüş səhnələri təsvir edilmiş *Bayö* xalçası, təqr. 1080; Səttarxanın və fədailərinin təsvir edildiyi xovlu Qarabağ xalçası, 20 əsr) və divar rəsmlərində (18 əsr Şəki xanları sarayının divar rəsmlərindəki döyüş səhnələri), Çin dəfn tikililəri heykəltəraşlığında, yapon qrafikasında, hind rəngkarlığında təmsil olunmuşdur. İtaliya *İntibah* dövrü rəngkarlığında B.j. 15 əsrin ortalarından P. *Uççello* və *Pyero della Françeskanın* yaradıcılığında inkişaf etmişdir. Yüksək İntibah dövrü sənətkarları B.j.-nda ideal qəhrəman obrazları yaratmışlar (“Kaşin yaxınlığında döyüş”, *Mikelancelo*; “Angiari yaxınlığında döyüş”, *Leonardo da Vinçi*, 1500-cü illər; heç biri saxlanılmamışdır). Şm. İntibahı incəsənətində B.j. özünəməxsus xüsusiyyətlər kəsb etmişdir. A. Altdorferin “Makedoniyalı İsgəndərin Dara ilə döyüşü” (1529, Köhnə pinakoteka, Münxen) tablosunda döyüş kosmik peyzaj fonunda təsvir edilmişdir.

17–18 əsrlərdə Bibliya və mifologiya süjetləri B.j. çərçivəsində təfsir edilmişdir. D. *Velaskes* (“Bredanın təslimi”, 1634–35) və F. *Surbaranın* (“Kadisin azad edilməsi”, 1634; hər ikisi Pradodadır) rəsmlərində batal süjet tarixi hadisə kimi əksini tapmışdır. B.j.-nda P.P. *Rubensin* çəkdiyi bir sıra dinamik əsərlərin (“Yunanların amazonkalar ilə döyüşü”, təqr. 1618, Köhnə pinakoteka, Münxen; “Müharibənin nəticələri” alleqorik tablosu, təqr.1637–38, Pitti qalereyası, Florensiya) təsiri ilə *barokko* incəsənətində batal rəsm əsəri tipi yaranmışdır (İtaliyada S. *Roza*, Hollandiyada F. *Vauerman*, Fransada J. Burginyon).

19 əsrin 1-ci yarısında Napoleon müharibələri B.j.-nın əsas mövzusuna çevrilmişdir (A. *Qro* və J.L. *Davidin* Napoleona həsr olunmuş patetik tabloları). Fransızların müdaxiləsinə qarşı ispanların qəhrəmanlıqla müqavimət göstərməsi F. *Qoyyanın* yaradıcılığında öz əksini tapmışdır (“Müharibənin fəlakətləri” ofortlar seriyası, 1810–20). Fransız *romantizminin* görkəmli nümayəndələrindən biri E. *Delakrua* tarixi və müasir süjetlərə bir sıra batal tablolar çəkmişdir (“Xalqı ardınca aparan Azadlıq”, 1830, Luvr, Paris).

Rus incəsənətində B.j. orta əsrlər kitab miniatüründə və ikona sənətində meydana çıxmışdır. 18 əsrdə Qərbi Avropa batalistləri I Pyotrun qələbələrini mədh etmək üçün Rusiyaya cəlb olunmuşdular (“Poltava döyüşü”, L. Karavak, Ermitaj, S.-Peterburq və s.) Tarixi B.j-nın romantik versiyasını K.P. *Bryullov* yaratmışdır (yarımçıq qalmış “Pskovun mühasirəsi” əsəri, 1839–43, Dövlət Tretyakov qalereyası, Moskva). Rus incəsənətində B.j.-nın inkişafında V.V. *Vereşşaginin* ifşaedici əsərləri böyük rol oynamışdır. *Panoram* və *dioramın* meydana gəlməsi B.j. ilə bağlıdır: F.A. *Rubonun* işləri (“24 iyul 1854 ildə Görükdərə yaxınlığında döyüş”, 1888, R. Mustafayev ad. Milli Azərb. İncəsənət Muzeyi, Bakı; “Borodino”, 1911, Moskva) bu qəbildən olan bir sıra sonrakı əsərlər üçün nümunə olmuşdur.

19 əsrin sonu – 20 əsrin əvvəllərində müharibə mövzusu mistik-simvolik traktovka kəsb etmişdir (F. fon *Ştuk*, M. *Klinger*, A. *Kubin*, O. *Diks*). P. *Pikasso* (“Gernika”, 1937, Kraliça Sofiyanın İncəsənət Mərkəzi, Madrid) və S. *Dalinin* (“Vətəndaş müharibəsini qabaqcadan hissetmə”, 1936, İncəsənət Muzeyi, Filadelfiya) mahiyyətcə müharibə əleyhinə olan əsərləri də B. j. ilə əlaqədardır. Nasist Almaniyasında son romantizm stilistikasına istiqamətlənmiş B.j. pafoslu qəhrəmanlıq mövzularını təbliğ edirdi. 20 əsrin 2-ci yarısında B.j.-nda tarixi və müharibə əleyhinə mövzulara üstünlük verilmişdir.

Hərbi atributikalı, döyüş və zəfər səhnələrindən ibarət relyeflərlə bəzədilmiş memarlıq və heykəltəraşlıq əsərləri – qəhrəmanların və sərkərdələrin abidələri, hərbi memoriallar və s. B.j. ilə əlaqədardır.



Basavan. Hülaku xanın Ələmut qalasını fəth etməsi (1596). Virginiya incəsənət muzeyi.

B.j. Azərb. təsviri sənətində də mühüm yer tutur. Orta əsr Azərb. kitab miniatürlərində, 18 əsr Şəki xanları sarayının divar rəsmlərində döyüş səhnələrini əks etdirən süjetlər işlənilmişdir. Azərb. təsviri sənət ustalarından M. Abdullayev, B. Mirzəzadə, S. Şərifzadə, T. Tağıyev və b. müharibə qəhrəmanlarına həsr olunmuş əsərlər yaratmışlar. S.Şərifzadə (“Babək”, 1944, Milli Azərb. tarixi Muzeyi), Ə. Kazımov (“Quba üsyanı”, 1940; “Cavanşir ərəblərlə dö-

A.Y. Averyanov. “Marşal Ney Fridland döyüşündə”.



yüşdə", Milli Azərb. Tarixi Muzeyi), T. Salahov ("416-cı Taqanroq diviziyası döyüşdə", 1958, Milli Azərb. Tarixi Muzeyi), V. Nərimanbəyov ("Yolda", 1963; "Müharibə yollarında", 1967; "Xatirə", 1967; Azərb. Milli İncəsənət muzeyi), R. Babayev ("Qırmızı general", 1983; şəxsi kolleksiyadadır, ABŞ), E. Məmmədov ("Dirsə xanın oğlu Buğac", 1990-cı illər, Azərb. Milli İncəsənət Muzeyi), N. Fərəcullazadə ("Şəmkir yaxınlığında döyüş. 3.9.1826 il", 2009, Milli Azərb. Tarixi Muzeyi); Ö. Eldarov (Sapun-Qorada həlak olmuş Azərb. döyüşçülərinin xatirəsini əbədiləşdirən memorial, 1974, Sevastopol) və b.-nın B. j.-ndakı əsərləri diqqətəlayiq sənət nümunələridir.

**BATÁLOV** Aleksey Vladimiroviç (d.20.11.1928, Vladimir) – rus aktyoru, rejissor, SSRİ xalq artisti (1976), SSRİ Dövlət mükafatı laureatı (1981), Sosialist Əməyi Qəhrəmanı (1989). Moskva Bədaye Teatrı nəzdindəki məktəb-studiyanı bitirmişdir (1950). Sovet Ordusu Mərkəzi Teatrının (1950–53) və Moskva Bədaye Teatrının (1953–57) aktyoru olmuşdur. Kinoda ilk rolu (Aleksey Jurbin, "Böyük ailə", 1954, rej. İ.Y. Xeyfits) B.-u dövrün yeni aktyor nəsli liderləri sırasına çıxarmışdır. Rolları: Saşa Rumyansev ("Rumyansevin işi", 1956, rej. İ.Y. Xeyfits), Boris ("Durnalar uçur", 1957, rej. M.K. Kalatozov), Qusev ("Bir ilin doqquz günü", 1962, rej. M.İ. Romm) və s. Klassik əsərlərin ekranlaşdırılmasında obrazın psixoloji cəhətdən işlənilməsi, aktyor manerasının təmkinliliyi, ciddi üslub B. yaradıcılığına xas xüsusiyyətlərdir. Pavel Vlasov ("Ana", 1956, M. Qorkinin əsəri üzrə), Qurov ("İt gəzdirən xanım", 1957, A.P. Çexovun əsəri üzrə), Protasov ("Canlı meyit", 1969, L.N. Tolstoyun



əsəri üzrə), Qolubkov ("Qaçış", 1971, M.A. Bulqakovun əsəri üzrə). Oynadığı rollar arasında Trubetskoy ("Füsünkar səadət ulduzu", 1975, rej. V.Y. Motıl), Georgi İvanoviç ("Moskva göz yaşlarına inanmır", 1980, rej. V.V. Menşov) əhəmiyyətli yer tutur. B. "Şinel" (1960, N.V. Qoqolun əsəri üzrə) "Üç gonbul" (1966, Y.K. Oleşanın əsəri üzrə, İ.S. Şapiro ilə birlikdə; filmdə həm də Tibul rolunu oynamışdır), "Qumarbaz" (1973, F.M. Dostoyevskinin əsəri üzrə, ÇSSR ilə birlikdə) filmlərinin rej-dur. 1975 ildən Ümumrusiya Kinematoqrafiya İn-tunun müəllimidir (1980 ildən prof., 1992 ildən aktyor sənəti kafedrasının müdiri).

**BATALPAŞİNSK** – *Çerkessk* ş-nin 1939 ilədək adı.

**BATALPAŞİNSK GÖLLƏRİ** – RF-nin Qaraçay-Çərkəz Resp.-nda, Kuban və Kuma çaylarının suayırıcında, 600 *m* hünd.-də, Çerkessk ş.-ndən 18 *km* ş.-də duzlu göllər. Böyük və Kiçik B.g.-ndən ibarətdir. Sah. təqr. 11 $km^2$. Sularının səviyyəsi dəyişkəndir. Mirabilit yataqları var.

**BATALYA** (Batalha) – Portuqaliyanın mərkəzi hissəsinin q.-ində şəhər. Leyriya ş.-ndən c.-dadır. Əh. 8 min (2005). Turizm mərkəzdir.

Şəhər 1385 ildə Aljubarrote yaxınlığında Kastiliya qoşunları üzərindəki qələbəsi şərəfinə (portuqalca "vuruşma" deməkdir və şəhərin adı buradandır) I Juan tərəfindən əsası qoyulmuş Santa-Mariya-da-Vitoriya dominikçi monastırı ətrafında formalaşmışdır.

Monastır kompleksinə (*Ümumdünya irsi* siyahısına daxil edilmişdir) aiddir: son qotik üslubda 3 nefli, 5 apsidalı kilsə [1388–1402, memar A. Domingiş; xor, memarlar Hyuget (Ugete), F. de Evora; əsas kapelladakı vitrajlar 15–16 əsrin əvvəllərinə aiddir], Kral kluatrı (1402 ildən sonra; memarlıq dekoru Ugete və ya M. Fernandişə məxsusdur) və Bani kapellası – Portuqaliyada, tikintisində fransız yanar qotikası ilə ingilis perpendikulyar üslubunun sintezindən istifadə edilmiş ilk kral panteonu (1426–34; memarlar Domingiş və Ugete). V Afonsun qalereyalı kluatrı (memar de Evora və b.) 15 əsrin ortalarında tikilmişdir. B.-nın 20 *km*-də katoliklərin Fatima ziyarətgahı yerləşir (neoqtik üslubda nəhəng kilsənin tikintisinə 1928 ildə başlanılmışdır).

**BATALYÓN** (ital. battaglione; battáglia – döyüş, vuruşma, müharibə) – polk və briqadanın ali taktiki bölməsi. B. bilavasitə birləşmə tərkibinə daxil olduqda, müstəqil inz. birlik kimi əlahiddə B. adlanır. 14–15 əsrlərdə döyüş üçün kvadrat formasında bir-birindən müəyyən məsafədə düzülmüş piyada (süvari) qoşun hissələri B. adlanırdı. Qoşun növlərinin və xüsusi qoşunların inkişafı tank, paraşüt-desant, istehkamçı, motosikl, rabitə, avtomobil və s. B.-larının, həmçinin avtomobil təmiri, inşaat və s. xüsusi təyinatlı B.-ların yaradılmasına gətirib çıxardı. Müasir motoatıcı (motorlu piyada, piyada), yaxud tank B.-u 3–4 rotadan və müxtəlif vzvodlardan (minaatan, tank əleyhinə, idarə olunan reaktiv mərmi, rabitə, kəşfiyyat və s.) ibarətdir. B.-un say tərkibi müxtəli ordularda fərqlidir. Azərb. ordusunda B. *tabor* adlanır.

**BATÁN** (fr. battant – döyən) – *toxucuculuq dəzgahlarında* əsas mexanizmlərdən biri; arğac sapını toxunan parçanın sonuna aparmaq və arğacı parçaya yeridən məkiki (və ya *arğac yerləşdiricisini*) istiqamətləndirmək üçün istifadə edilir.

**BATÁNQAS** (Batangas) – Filippində şəhər. Batanqas əyalətinin inz. m. Əh. 237 min (2005). Luson a.-nın c.-q. sahilində, Maniladan 112 *km* c.-da, Kalumpanq çayının Batanqas buxtasına töküldüyü yerdədir. Dəniz portu (o cümlədən Mindanao a. ilə bərə əlaqəsi). D.y. st. Cənubi Çin dənizindəki yataqdan çəkilmiş sualtı qaz kəmərinin son məntəqəsidir.

Batanqas. Əyalət hökumətinin binası.



1572 ildə Kalumpanq çayının mənsəbinə ilk ispan missionerləri gəlmişlər. 1581 ildə burada Batanqan (yerli dildə "batanq" sözü ağac tirini bildirir) məskəni salınmış, 1601 ildən B. adlanmışdır. 1754 ildən əyalətin inz. m.-dir. Bazilika (1851–57); un-t (1946); X.R. Laurelin xatirə muzeyi və kitabxanası var.

1962 ildə B.-ın yaxınlığındakı Tabanqaoda "Şell" şirkəti tərəfindən iri neft emalı z-dunun birinci növbəsi inşa olunmuşdur. İnvestisiyalar cəlb etmək, Manila aqlomerasiyasının əhalisinin və təsərrüfatının təmərküzləşməsini azaltmaq məqsədilə B.-a azad iqtisadi zona və regional inkişaf həddi statusunun (1995) verilməsi şəhərin sürətlə böyüməsinə səbəb olmuşdur. B-da "ŞM-Tabanqao" neft emalı z.-du (gündəlik gücü təqr. 170 min *barrel* neft) var. Onun yanalma körpüləri 320 min *t* dedveytə qədər neft daşıyan tankerləri qəbul edə bilir. Pambıq və ipək parça, kokos yağı istehsal olunur. K.t. r-nunun (düyü, şəkər qamışı, meyvə) ticarət mərkəzidir. Balıq ovlanır. Təbii qazla işləyən 3 İES, ətrafında çimərliklər, əsrarəngiz adacıqlar və şəlalələr var.

**BATAR** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qarakilsə, 2.3.1940 ildən Sisyan r-nu) azərb.-ların yaşadığı kənd. 20 əsrin əvvəllərində kənd erməni hücumları nəticəsində dağıdılmışdır.

**BATARÉYA** (fr. batterie; battre – döymək, vurmaq) – birgə işləməsi üçün müəyyən sistemdə birləşdirilmiş bir neçə eynitipli cihaz, qurğu və ya quruluş. Məs., daş kömürdən koks almaq üçün bir neçə sobadan ibarət k o k s B.-sı; içərisində soyuducu agent buxarlanan, yaxud soyuducu məhlul axan borulardan ibarət s o y u d u c u B. Cərəyan, gərginlik və tutumu artırmaq məqsədilə ümumi dövrəyə birləşdirilmiş bir neçə elektrik akkumulyatoru; elektrik kondensator qurğusunu təşkil edən bir-birinə birləşdirilmiş eynitipli kondensatorlar, qalvanik elementlər və s. müxtəlif e l e k t r i k B.-larıdır. B.-nın effektivliyi onu təşkil edən elementlərin sayından asılıdır.

**BATARÉYA**, h ə r b i d ə (fr. batterie; battre – vurmaq, zərbə endirmək) – əsas artilleriya atəş bölməsi. B.-lar əlahiddə (polk B.-sı, sahil artilleriya B.-sı) və altilleriya divizionları (polkları) tərkibində ola bilər. Əvvəllər B. termini müxtəlif sayda topların taktiki birləşməsini ifadə edirdi (məs., 1809 ildə Vaqram yaxınlığındakı döyüşdə fransızların yüztoplu B.-sı). Müasir ordularda B. 2–3 atəş vzvodundan, idarəetmə vzvodundan (bölməsindən), 2–6 topdan (minaatandan) və ya 4–6 qurğudan ibarətdir. Döyüş zamanı B. adətən, tam tərkibdə iştirak edir. Polk, tank əleyhinə, kiçik kalibrli zenit artilleriyası B.-ları həmçinin ayrı-ayrı top və vzvodlar kimi istifadə edilir. Topoqrafik, səsölçən, optik kəşfiyyat bölmələri də B. adlanır. İdarəetmə, park, tədris və s. B.-ları da mövcuddur.

**BATAREYALI ALIŞDIRMA** – karbüratorlu daxiliyanma mühərriklərində işlək qarışığın qığılcımla alışdırılması üsulu; aşağı gərginlikli ilkin cərəyan generatordan yüklənmiş (doldurulmuş) akkumulyator batareyasından alınır. B.a sisteminə həmçinin induksiya sarğacı (alışdırma sarğacı), qırıcı-paylaşdırıcı, kondensatorlar, alışdırma şamları və naqillər daxildir.



**Batareyalı alışdırma sxemi:** *1* – alışdırma şamları; *2* – paylaşdırıcı; *3* – kondensator, *4* – alışdırma sarğacının ikinci dolağı; *5* – alışdırma açarı; *6* – alışdırma sarğacının birinci dolağı; *7* – akkumulyator batareyası; *8* – qırıcı.

**BATAŞÓV** Konstantin Nikolayeviç (31.1.1918, Tiflis – 19.12.1991, Moskva) – balet artisti, pedaqoq. Azərb. SSR xalq artisti (1958). SSRİ Dövlət mükafatı laureatı (1952). Bakı Xoreoqrafiya Məktəbini bitirmişdir (1939). 1935–89 illərdə Azərb. Dövlət Akademik Opera və Balet Teatrında işləmişdir. Müxtəlif xarakterli obrazlar yaratmışdır. İlk Azərb. baletlərində əsas partiyaların ifaçısı olmuşdur: Polad və Cahangir xan ("Qız qalası", Ə. Bədəlbəyli), Mənzər və Bəhram, Mako ("Yeddi gözəl", "İldırımlı yollarla", Q. Qarayev), Azad ("Gülşən", S. Hacıbəyov), Vəzir ("Məhəbbət əfsanəsi", A. Məlikov), Piri baba ("Qaraca qız", Ə. Abbasov). Digər partiyaları: Ziqfrid, Dezire, Şelkunçik-şahzadə ("Sonalar gölü", "Yatmış gözəl", "Şelkunçik", P. Çaykovski), Bazil ("Don Kixot", L. Minkus), Jan de Briyen ("Raymonda", A.Qlazunov), Vatslav və Girey (Baxçasaray fontanı", B. Asafyev), Karabas-Barabas ("Qızıl açar", B. Zeydman) və s. Bir sıra operada rəqslərin quruluşunu vermiş, N. Rimski-Korsakovun "Şəhrzad" simfonik poeması, "İspan kapriççiosu", H. Rzayevin "Elementlər" əsərləri əsasında tamaşalar hazırlamışdır. 1940 ildən Bakı Xoreoqrafiya Məktəbində dərs demişdir. Azərb. SSR. xalq artistləri V. *Pletnyov*, T. *Şirəliyeva*, Ç. *Babayeva* və b. onun yetirmələridir.





K. Bataşov. "Yeddi gözəl" (Q.Qarayev) baletində Bəhram rolunda.

**BATÁT**, ş i r i n k a r t o f (Ipomoea batatas) – otsarmaşıq fəsiləsindən çoxillik ot bitkisi. Sərilən zoğlarının uz. 1–4 *m*-dir. Salxımşəkilli çiçəkləri ağ və zəif bənövşəyidir. Köklərində kütləsi 200 *q*-dan 10 *kq*-adək olan müxtəlif formada və rəngdə köküyumrular vardır. Vətəni Meksika və Mərkəzi Amerikadır. Ehtimal ki, Polineziya dənizçiləri tərəfindən eramızın ilk əsrlərində Okeaniyaya gətirilmiş və burada əsas mədəni bitkilərdən biri olmuşdur. Yeni Qvineyada B.-ın meydana çıxması (2-ci minilliyin ortalarına yaxın, ehtimal ki, Qərbi Mikroneziyadan və Cənubi Filippindən) iqtisa-



Batat (Ipomoea batatas).

diyyatda və sosial həyatda dönüş yaratdı. Yeni Zelandiyada B. (yerli adı kumara) müqəddəs bitki sayılırdı; onun əkilməsi və yığılması dini ayinlərlə müşayiət edilir, kumaranın saxlandığı və kəndin əsas binası hesab olunan icma anbarı zəngin oyma naxışlarla bəzədilirdi. B.-ın köküyumrularının tərkibində 10–32% nişasta və təqr. 6% şəkər var. Bişirilmiş və qızardılmış halda istifadə edilir. Ondan un, nişasta, povidlo, püre; cavan yarpaq və gövdəsindən salat hazırlanır; tağ və köküyumruları mal-qaraya verilir. Tropik və subtropik ölkələrdə drenləşdirilmiş zəif turş torpaqlarda, əsasən, birillik bitki kimi becərilir. Köküyumruları ilə, gövdələrin çilikləri ilə (qələmlə), toxumla çoxaldılır. BMT-nin Ərzaq və kənd təsərrüfatı təşkilatının məlumatına görə, dünyada B. yığılan sahə 8,6 mln. *ha*-dır (4,9 mln. *ha*-ı Çindədir), orta məhsuldarlıq təqr. 14 *t/ha*-dır (2004). Əsas xəstəlikləri: fuzarioz, qara çürümə, kök çürüməsi və s.; zərərvericiləri danadişi, çəmən kəpənəyi, çuğundur uzunburunu tırtılıdır. Tür.-da, Gürc.-da və Azərb.-da (1938 ildən) təcrübə sahələrində əkilir.

**BATÁVİYA** – *Cakarta* ş-nin 1949 ilədək adı.

**BATÁVİYA RESPUBLİKASI** – 1795–1806 illərdə Niderland ərazisində Fransanın müttəfiqi olan dövlət. *Batavların* adı ilə bağlıdır. Fransa Resp. qoşunları ölkə ərazisinə daxil olduqdan sonra yaradılan və irsi stathauderliyin (bax *Stathauder*), zadəgan adlarının, imtiyazların ləğvini, həmçinin "İnsan və vətəndaş hüquqları bəyannaməsinin" qəbulunu bəyan edən "vətənpərvərlər" hökuməti tərəfindən 1795 il yanvarın 26-da elan olunmuşdur. B.R. 1795 il mayın 16-da Fransa ilə hərbi-siyasi ittifaq (Haaqa müqaviləsi) bağlamaqla faktiki olaraq suverenliyini itirmişdi. Fransanın tərəfində *antifransa koalisiyalarına* qarşı müharibələrdə iştirak etmişdir. Unitarçı "vətənpərvərlər" ilə federalistlər arasında gedən uzun və kəskin mübarizədən sonra qəbul edilmiş 1798 il konstitusiyasına görə, B.R. mərkəzləşdirilmiş idarəçiliyi olan unitar dövlət elan olunmuşdu. Mövcud feodal institutları ləğv edilmiş, demokratik hüquqlar və azadlıqlar bəyan olunmuş, kilsə dövlətdən ayrılmışdı. B.R.-nın siyasi və ictimai sistemi Fransadakı üsuli-idarəni təqlid edir, sonrakı dövrlərdə də onunla eyni vaxtda dəyişirdi. 1801 ildə Fransa B.R.-nı icraedici hakimiyyəti möhkəmləndirən yeni konstitusiya qəbul etməyə məcbur etdi. 1805 ildə I Napoleonun təkidi ilə bərpa edilmiş böyük *pensionari* vəzifəsinə geniş səlahiyyətlərlə R.Y. *Shimmelpennink* təyin olunmuşdu. 1806 ilin may–iyun aylarında B.R. Hollandiya krallığına (1806–10) çevrildi və I Napoleonun qardaşı Lüdovik (Lui) Bonapart (bax *Bonapartlar*) kral oldu.

**BATAVLAR** (lat. Batavi) – Maas, Reyn və Vaal çayları arasındakı ərazidə (indiki Niderland) məskunlaşan qərbi *german* tayfası. E.ə. 1 əsrin sonlarında Romanın tabeliyinə keçmişlər. Romanın müttəfiqinə çevrilən və vergilərdən azad edilən B. Romaya, əsasən, hərbi yardım göstərirdilər. İmperator mühafizəçiləri, əsasən, B.-dan təşkil olunurdu. Eramızın 69 ilində Y. *Sivilisin* başçılığı ilə B. Romaya qarşı üsyan qaldırmışdılar. 70 ildə üsyan yatırılsa da, B. öz hüquqlarını qoruyub saxlamışdılar. 2 əsrin sonlarında B.-ın tayfa mərkəzi olan Batavodur (Batavodurum; indiki Neymegenin yerində) Batavorum adı altında Roma munisipisi (munisipium Batavorum) statusunu aldı. 4 əsrdə *franklar* tərəfindən istila edilərək frank tayfa ittifaqının tərkibinə qatıldılar.

**BATÁY** (Bataille) Jorj [10.9.1897, Biyom (Overn) – 9.7.1962, Paris] – fransız yazıçısı, filosof, sosioloq, incəsənət nəzəriyyəçisi. B.-ın fəlsəfəsi F. Nitsşenin, G.V.F. Hegelin və M. Haydeggerin ideyalarından, Z. Freydin və J. Lakanın psixoanalizindən qaynaqlanmışdır. B.-ın fəlsəfi və ədəbi yaradıcılığında əsas anlayış yolverilənlərin hüdudlarının pozulmasını və sərhəd situasiyalarına (zorakılıq, sərsəmlik, ekstaz, ölüm) keçidi bildirən "transqressiya"dır. Həmin situasiyalarda subyekt B.-ın son dərəcə geniş başa düşdüyü "sakrallıqla" təmasda suverenlik əldə edir. B.-ın nəsrində sürrealistlərin avtomatik yazı ənənələri D.A.F. de Sad ruhunda seksual epatajla birləşir. "Ədəbiyyat və şər" ("La litterature et le mal", 1957) B.-ın ədəbiyyatşünaslıq, "Daxili təcrübə" ("L`experience interieure", 1943), "Erosun göz yaşları" ("Les larmes d'Eros", 1961) onun fəlsəfi əsərlərindəndir.

*Əd.:* Leiris M. A propos de G. Bataille. P., 1988; Surya M.G. Bataille: an intellectual biography. L., 2002; Фокин С. Философ-вне-себя. Ж. Батай. СПб., 2002.

**BATÁYSK** – RF-də, Rostov vil.-nin c.-q.-ində şəhər, Rostov-Don ş.-nin peyki. Əh. 104,8 min (2005). Don çayının sol sahilindədir. Avtomobil və d.y.-ları qovşağı. Rusiya-Türkiyə müharibəsi (1768–74) gedişində salınmışdır (1769). 1875 ildə Vladiqafqaz dəmir yolu Batayskoye k.-ndən keçmişdir. 1927 ildən fəhlə qəs., 1938 ildən şəhərdir. Rostov Dövlət İqtisad Un-tinin filialı, şəhər tarixi muzeyi, dram teatrı var. Sənayesi Rostov-Don ş.-nə xidmət üzrə ixtisaslaşmışdır. Metallurgiya, metal konstruksiyalar və yeyinti sənayesi üçün emal avadanlığı, kabel məhsulları və s.; yüngül və yeyinti sənayesi müəssisələri var.

**BAT-BAT** (Hyoscyamus) – *badımcançiçəklilər* fəsiləsindən bir, iki və çoxillik ot cinsi. Yarpaqları bütöv, növbəlidir. Zəngvarı kasacıqlı, qıfvarı, yaxud boruvarı-qıfvarı tacı olan çiçəkləri yarpaqlı salxımvarı və ya sünbülvarı çiçək qrupunda toplanmışdır. Meyvəsi üstdən qapaqcıqla açılan qutucuqdur. Avrasiyada və Şimali Afrikada 20 növü var; hamısı çox zəhərli bitkilərdir. Azərb.-da 3 növü bitir: q a r a B. (H. niger), k i ç i k B. (B. pusillus) və t o r l u B. (H. reticulatus). Ən əhəmiyyətlisi qara B.-dır; yapışqanlı yumşaq tükcüklə örtülü, xoşagəlməz iyli; ikiillik bitkinin çiçək tacı boz-sarı, qarışıq tünd qırmızı-bənövşəyi damarlı olur. Məndəcərlərdə, bostanlarda və bağlarda, tarlaların kənarında bitir. Bitkinin bütün hissələrinin və toxumunun (hər qutucuqda 500-ədək) tərkibində kiçik dozalarda müalicəvi təsir edən atropin, hiossiamin, skopolamin və b. alkaloidlər var. Dərman bitkisi kimi becərilir; xammal kimi bitkinin birinci ilində rozet yarpaqlarından, qönçələmə və çiçəkləmə dövründə isə çiçək zoğlarının gövdə yarpaqlarından istifadə edilir. Bunlardan alınan dərmanlar ağrıkəsicidir və spazmaya qarşı təsir göstərir. B. yağı zədələnmələrdə, işias və s.-də sürtmə dərmanı kimi işlədilir.

Bat-bat (Hyoscyamus).





Baterst adasının sahilləri.

**BAT-BAYAN**, B a t b a y, B e z m e r – bulqar xanı [665–668]. *Kubratın* böyük oğlu. *Dulo* sülaləsindən idi. *Böyük Bulqariya* dövləti parçalandıqdan sonra B.B.-ın başçılıq etdiyi onoqurlar (bəzi tədqiqatçıların fikrincə macarlar) xəzərlərin hakimiyyətini qəbul etdi və Qafqazdakı *yurtda* məskunlaşdılar. Ehtimal ki, *balkarlar* onların nəslindəndir.

*Əd.:* Kafesoğlu İ. Türk milli kültürü. İstanbul, 1993; Артамонов М.И. История хазар. Л., 1962.

**BATENYÓV TİRƏSİ** – RF-də, Xakasiya Resp. ərazisində Kuznetsk Alatausunun qolu. C.-q-dən şm.-ş-ə 100 *km* məsafədə uzanaraq Çulım-Yenisey və Sıda-Yerbin çuxurlarını bir-birindən ayırır. Hünd. 1249 *m* (Hazırqon d.). Əsasən, qumdaşılardan, konqlomeratlardan, əhəngdaşılardan, həmçinin effuziv süxurlardan təşkil olunmuşdur. Yeniseyətrafı hissəsi kiçik çay dərələrilə kəskin parçalanmışdır. Mis və molibden yataqları var. Q. yamaclarında qaraşam və qaraşam-tozağacı meşələri, ş. yamaclarında dağ meşə çölləri və çöllər üstünlük təşkil edir.

**BÁTERST** (Bathurst) – Avstraliyanın şm. sahillərində, Timor dənizində ada. Sah. 2590 *km*². Hünd. 258 *m*-ədək (c.-da). Evkalipt meşələri, sahil boyunca manqr cəngəllikləri yayılmışdır. Melvill a.-ndan dar Apsli boğazı ilə ayrılır. Yerli aborigenlərin (tivilərin) rezervasiyası və katolik missiyası var. Adı ilk dəfə 1644 ildə çəkilmişdir. 1818 ildə Britaniya hərbi naziri və koloniyalar naziri lord Q. Baterstin şərəfinə adlandırılmışdır. Müxtəlif k.t. məhsulları yetişdirilir; maldarlıq inkişaf etmişdir.

**BÁTERST** – *Banjul* ş.-nin 1973 ilədək adı.

**BÁTERST** – bax *Parri arxipelaqı*.

**BATI XAN** – bax *Batu xan*.

**BATIR** – bax *Bahadır*.

**BATIR SIRIM**, S ı r ı m D a t u l ı S r ı m D a t o v (təqr. 1742–1802) – Baybaktı qazax qəbiləsinin böyük bəyi. Puqaçov üsyanının (1773–75) fəal iştirakçısı; 1783–97-ci illərdə Kiçik juzda rus çarizminin işğalçılıq və müstəmləkəçilik siyasətinə qarşı xalq üsyanının başçısı üsyana səbəb müstəmləkə zülmünün güclənməsi, qazax nəsillərinə məxsus olan məhsuldar torpaqların rus məmurları və kazaklar tərəfindən mənimsənilməsi, aulların talan edilməsi, qazaxların Ural çayının sağ sahilindəki qış otlaqlarından istifadə etmələrinə qadağa qoyulması və s. idi. Üsyanın əsas hərəkətverici qüvvəsini kəndlilər və sıravi köçərilər təşkil edirdi. Çar hökuməti tərəfindən təyin olunmuş (1748) Nuralı xanın (B.S.-ın yeznəsi) və sultanların ruspərəst siyasətindən narazı olan və sıxışdırılan bəylər də üsyana qoşulmuşdular. Üsyanın getdikcə genişlənməsi çar hökumətini güzəştə getməyə və böyük bəylərdən ibarət Xalq məclisini yaratmağa məcbur etdi. 1786 ildə hakimiyyətdən uzaqlaşdırılan Nuralı xan Rusiyaya qaçdı. Kiçik juzda hakimiyyət faktiki olaraq böyük bəylərin əlində cəmləşirdi. Bu şəraitdə çar hökuməti xan hakimiyyətini bərpa etmək kursunu götürdü və 1791 ildə Yeralı sultanı (Nuralı xanın qardaşı) xan elan etdi. Kazak dəstələrinin və hökumət qoşunlarının müşahidəsi altında keçirilən Xalq toplantısı bu qərarla razılaşmalı oldu. Lakin tezliklə üsyan geniş vüsət alaraq bütün juzu bürüdü. 1794 ildə Yeralı xan vəfat etsə də, çar hökuməti yaranmış vəziyyətdə yeni xan təyin edə bilmədi. Yalnız bir ildən sonra Nuralı xanın oğlu sultan Yesim xan elan olundu. 1797 ilin martında B.S.-ın dəstələri üsyanı yatırmaq üçün əlindən gələni edənYesim xanın qərargahına hücum edərək xanı öldürdülər. Bölgəyə əlavə qoşun hissələri yeridildi. Çar hökuməti yeni taktikaya əl atdı: qoca sultan Ay-

Batır Sırımın abidəsi. Uralsk ş. (Qazaxıstan).



şuakın (Nuralı xanın qardaşı) başçılığı altında Xan şurası yaradıldı. Bu, sultanların və bir çox bəylərin mənafeyinə uyğun olduğu üçün gərginlik azaldı. B.S. Xan şurasına daxil edilsə də, mübarizəni dayandıraraq tərəfdarları ilə Xivə xanlığına çəkildi.

B.S. üsyanı qazax xalqının tarixində çarizmin müstəmləkəçilik siyasətinə qarşı ilk açıq silahlı çıxış idi. B.S. üsyanı nəticəsində çar hökuməti qazaxlara Volqa (Edil, İtil) və Ural (Yaik, Jaik) çayarası ərazilərdə köç etmək imkanı verdi, kazakların hücumlarına son qoyuldu, xan üsuli-idarəsi təkmilləşdirildi.

*Əd.:* Вяткин М.П. Батыр Срым. М.-Л., 1947.

**BATIRAY** Omarla (1831, Dargi mahalı, Urax k. – 1910, Urax k.) – dargin şairi. Dağıstan ədəbiyyatında demokratik və realist cərəyanın banilərindəndir. Kəndli ailəsində doğulmuşdur. Dörd və ya səkkiz misralı şeirlər qoşmuş, onlardan yalnız bir hissəsi dövrümüzədək gəlib çatmışdır; şeirləri ilk dəfə 1928 ildə toplanaraq çap edilmişdir. B. şeirlərində kənd adamlarının ("Həyat haqqında" nəğmələr silsiləsi), xalq qəhrəmanlarının ("Qəhrəman haqqında" nəğmələr silsiləsi) obrazını yaratmış, dağlı qadınlarını ("Sevgi haqqında" nəğmələr silsiləsi) müdafiə etmişdir. Dargin Dövlət Teatrına B.-ın adı verilmişdir.

Əsərləri: Далуйти. Буйнакск. 1928; Песни. М., 1959; Назмурти. Махачкала, 1964.

**BATIR-XUNTAYCİ**, Erdeni Batır-Xuntayci (?– təqr. 1653, Kabuk-Sari) – *Cunqar xanlığının* banisi və ilk hakimi [1635–53], Çoros xanı Xara-Xulanın böyük oğlu. *Oyratların* dövlətini formalaşdırmağa başlamış, atasının siyasətini uğurla davam etdirərək mərkəzi hakimiyyətə tabe olmaq istəməyən oyrat xanlarının müqavimətini qırmış və 1635 ildə Oyrat xanlığının mütləq hakimi kimi tanınmışdır. 1640 ildə mancur istilası təhlükəsinə qarşı ölkənin birləşdirilməsi məqsədilə Cunqariyada keçirilən oyrat, kalmık və xalxa feodallarının ümummonqol qurultayının təşəbbüskarı olmuşdur. Qurultayda Böyük qanunnamə (*Saaciyn-biçiq*) adlandırılan vahid qanunlar külliyatı qəbul edildi. B.X. əkinçiliyin və sənətkarlığın inkişafına qayğı göstərmiş, qonşu dövlətlərlə diplomatik və ticari-iqtisadi əlaqələr saxlamış, lamaist monastırlarının və məbədlərinin tikilməsinə şərait yaratdığına görə Dalay-Lamadan Erdeni (müqəddəs, dəyərli) fəxri titulunu almışdır.

**BATIRMURZAYEV** Nuxay (1869, Dağıstan, Aksay k. – oktyabr, 1919) – qumuq yazıçısı, maarifçi. Mədrəsə bitirmiş, zərgər işləmişdir. Ərəb, türk, rus və s. dilləri bilmişdir. Ədəbi yaradıcılığa 1906 ildən başlamışdır. 1916 ildə B. oğlu ilə birlikdə Xasavyurdda "Tanq çolpan" ("Səhər ulduzu") ədəbi-dram dərnəyini yaratmış və eyniadlı jurnalda əməkdaşlıq etmişdir (1917–18). Oğlu ilə birlikdə denikinçilər tərəfindən güllələnmişdir. "Yazıq Həbibət" (1910), "Harun və Zübeydə, Yaxud bədbəxt janbikə" (1910), "Davud və Leyla" (1912) povestləri ilə qumuq realist nəsrinin əsasını qoymuşdur. "Min bir gecə" nağıllarını dilinə tərcümə etmiş, Molla Nəsrəddin haqqında hekayətləri toplamışdır.

**BATIRŞÂ** Əliyev, Abdulla Aleyev (təqr. 1710 və ya 1715, indiki Başqırdıstanın Karışbaş k. – 24.8.1762, Slisselburq qalası) – başqırd maarifçisi, axund. 1755–56 illər başqırd üsyanının ideoloqu və başçısı. Mənşəcə tatar (mişər) idi. 1755 ilin əvvəllərində başqırd, tatar, qazax və digər müsəlman xalqlarına ünvanlanan Müraciətnaməni ("Təhrirnamə") tərtib etmişdir. Müraciətnamədə B. çarizmin işğalçılıq və müstəmləkəçilik siyasətini, yerli müsəlman əhalisinin zorla xristianlaşdırılmasını, məscidlərin dağıdılmasını, müsəlmanlara qarşı daha yüksək vergilərin tətbiq olunmasını, onların yararsız xam torpaqlara köçürülməsini və s. kəskin tənqid edir, müsəlmanları rus işğalçılarına qarşı açıq silahlı üsyana – cihada çağırırdı. Müraciətnamə tezliklə üsyanın proqramına çevrildi. Lakin üsyanın təyin olunmuş vaxtdan tez başlaması, bölgəyə iri qoşun hissələrinin yeridilməsi, bir çox yerli feodalların ruslar tərəfində vuruşması üsyanın yatırılmasını tezləşdirdi. Üsyanın fəal iştirakçıları və B.-nın yaxın silahdaşları həbs edildi. Bir ilə yaxın şagirdləri ilə birlikdə hökumət qüvvələri tərəfindən təqib edilən B. 1756 ilin avqustunda tutularaq ömürlük həbs cəzasına məhkum olundu və Şlisselburq qalasına göndərildi. Burada olmazın işgəncələrə məruz qalan B. 1762 ilin iyulunda gözətçilərlə əlbəyaxa döyüşdə həlak oldu.



B. üsyanı nəticəsiz qalmadı. Çar hökuməti müsəlmanlara qarşı qəddar kursundan əl çəkməli oldu: torpaqların zorla müsadirəsi və xristianlığı qəbul etməyən müsəlmanların köçürülməsi dayanadırıldı, əhalinin zorla xristianlaşmasına son qoyuldu, məscidlərin tikilməsinə icazə verildi.

*Əd.:* Ислаев Ф.Г. Православные миссионеры в Поволжье. Казань, 1999.

**BATİ** (Baty) Qaston (26.5.1885, Luara dep-ti, Pelüssen – 13.10.1952, orada) – fransız rejissoru, aktyor, teatr rəssamı. Dini təhsil almış, sonradan Lionda un-t bitirmişdir. Ədəbi yaradıcılıqla məşğul olmuşdur (Lionda, J. Ruşenin rəhbərlik etdiyi teatrda, 1905 ildə B.-nin "Ehtiras" pyesi tamaşaya qoyulmuşdur"). Bədii baxışları rej.-lardan Q. Fuks və F. Erlerin, alman romantiklərinin yaradıcılığının təsirilə formalaşmışdır. 1919 ildən F. Jemyenin (Paris) truppasında çalışmışdır. 1921–28 illərdə özünün "Xülya barakı" truppasına rəhbərlik etmiş, burada S. Qantiyonun "Maya" (1924, 1927), J. Pellerenin "Dəyişdirilən başlar" (1925–26), An-skinin "Dibbuk" (1927–28) və b. pyesləri tamaşaya qoymuşdur. B.-yə görə, tamaşanın bədii obrazı incəsənətin bütün növlərinin kəsişməsində və hərəkətdə yaranır. Bu səbəbdən də teatr ədəbiyyatdan asılılığını aradan qaldırmalıdır. Bir sıra nəzəri əsərlərin, o cümlədən "Maska və buxurdan" manifestinin ("Le Masque et l'Ensensoir", 1926) müəllifidir. 1926 ildə Ş. Düllen, L. Juve və J. Pitoyevlə birlikdə teatrın kommersiyalaşmasına qarşı çıxan "Kartel" teatr birliyinə daxil olmuşdur. 1930–47 illərdə "Monparnas" ("Monparnas-Bati") teatrına rəhbərlik etmiş, B. Brextin "Üçqəpiklik opera"sını (1930–31), F.M. Dostoyevskinin "Cinayət və cəza" (1933), Q. Floberin "Madam Bovari" (1936–37) və s. əsərləri tamaşaya qoymuşdur. 1936 ildən "Kartelin" digər üzvləri ilə birlikdə "*Komedi Fransez*"ə rəhbərlik etmiş, burada A. Müssenin "Şamdan" (1936), E. Labişin "Həsir şlyapa" (1938) və s. əsərləri tamaşaya qoymuşdur. Özünün bir çox tamaşalarında rəssam kimi çıxış etmişdir. Dramatik əsərlərlə yanaşı eksperimental kukla tamaşalarını da səhnəyə qoymuşdur (ilk açıq tamaşa – 1944). Teatr həyatının desentralizasiyası ideyası ilə ruhlanaraq, ömrünün son illərini Eks-an Provans ş.-ndəki "Komedi de Provans" əyalət truppasına (1950–52) həsr etmişdir.

**BATİÁL** (yun. βαθύς – dərin) – Dünya okeanının dərinliyi 200–500 *m*-dən 2000 *m*-ədək olan zonası. *Sublitoral* və *abissal* zonalar arasında yerləşir. Dünya okeanı sahəsinin təqr. 20%-ni təşkil edir. Geomorfoloji cəhətdən B. təqr. materik yamacına uyğundur. Dibinin meyli 4–12°, bəzən 40–50° olur; təzyiq 250 *atm*-ədək çatır. Sualtı kanyonlar və köklü süxur çıxıntıları çoxdur. İşıq, demək olar ki, tamamilə yoxdur. Duzluluq sabitdir, temp-r fəsillər üzrə az dəyişir. Bitki aləmi kasaddır; faunasını müxtəlif balıqlar, başıayaqlılar, braxiopodlar, onayaqlı xərçənglər və s. təşkil edir. Rift yarğanları boyunca uzanan maks. dərinlik zonasındakı "həyat vahələri" xüsusi biosenoz təşkil edir.

**BATİÁL ÇÖKÜNTÜLƏRİ** – okean və dənizlərin dərinliyi 200–2000 *m* olan zonasının materik yamacında və onun ətəklərində (sublitoral ilə abissal zonaları arasında) yığılan çöküntülər. Dünya okeanı dibi sahəsinin təqr. 20%-ni təşkil edir. B.ç.-nin 56%-ndən çoxu terrigen çöküntülərdir. Materik yamacında terrigen çöküntülər müxtəlif rəngli alevritli, alevritli-gilli və gilli lillərdən (bəzən qumlardan) ibarətdir. Tərkibində üzvi maddələr və kiçik pirit dənələri olan tünd boz rəngli alevritli-gilli lillər mülayim və soyuq zonalarda, qırmızı gilli lillər iri tropik çayların (Amazon, Konqo, Hind və s.) mənsəbləri yaxınlığındakı ekvatorial humid zonada intişar tapmışdır. Sarı rəngli alevritli-gilli lillərə Sarı dənizdə və Şərqi Çin dənizində rast gəlinir. Dayaz yerlərdə (təqr. 200 *m* dərinliklərdə) yaşıl rəngli qlaukonit qumları toplanır. Materik yamacının ətəklərində terrigen B.ç. gətirmə konusu yaradır. Bu çöküntülər şelf zonasından sualtı kanyonlarla okeanın daha dərin yerlərinə daşınır. Biogen B.ç.-nin əsas hissəsini (bütün B.ç.-nin təqr. 30%-i) əhəngdaşılı pteropodlu-foraminiferli lillər, təqr. 8%-ni silisiumlu lillər təşkil edir. Vulkanogen çöküntülərə (5%) müasir vulkan fəaliyyətinin hakim olduğu ərazilərdə rast gəlinir. Qırışıqlıq vil.-lərdə B.ç.-in qədim analoqları fliş laylarından, həmçinin kömürlü gil və gillikarbonatlı şistlərdən ibarətdir.

**BÂTİK** (malayya dilində "tik" – nöqtə, damcı; daha geniş mənada– yazmaq, şəkil çəkmək) – toxunma məmulatların əl ilə hissə-hissə naxışlanması üsulu və bu üsulla rənglənmiş parça. "Qızmar" və "soyuq" üsullu B.-lər olur. Birinci halda parça üzərində şəkilin konturları çəkilir, onların bir hissəsi qızdırılmış mumla örtülür və parça boyanır. Sonra parçanın rənglənmiş hissələri mum təbəqəsi ilə örtülür və parça başqa rəngli boya ilə boyanır. Əməliyyat lazımi rənglər və çalarlar alınanadək təkrarlanır. "Soyuq" üsulda rəngdən qorunan hissələr üçün mum əvəzinə başqa tərkiblərdən (məs., rezin yapışqanından) istifadə olunur, rəng isə fırça və ya tampon ilə çəkilir. B. texnikası bir sıra ölkələrdə (Hindistan, Çin, Latın Amerikası ölkələri və s.) məlumdur, lakin Yava a. B.-i texniki cəhətdən daha təkmil olması və dekorunun mürəkkəbliyi ilə fərqlənir. Avropada B. texnikasından 20 əsrin əvvəllərindən dekorativ parçalar hazırlamaq üçün istifadə edilmişdir.

**BATİMETRİK XƏRİTƏ** – dəniz, okean, göl və digər sututarların dib relyefini izobatlar vasitəsilə əks etdirir. İzobatlarda, adətən, dərinlik qiymətləri də göstərilir. B.x. batimetrik ölçmələr əsasında tərtib olunur. İlk dəfə 1697 ildə holland alimi P. Anselin Rotterdam ş.-nin planında Maas çayının dərinliklərini batimetrik üsulla əks etdirmişdir. 1945 ilədək B.x.-nin tərtibində dərinlik qiymətləri arasındakı izobatların xətti interpolyasiyası üsulundan, sonralar isə sualtı relyefin quruluşunda qanunauyğun xüsusiyyətləri ayırmağa imkan verən ölçmələrin geomorfoloji interpretasiyasından istifadə olunmuşdur. B.x.-lərin, xüsusilə də irimiqyaslı xəritələrin tərtibində sonrakı inkişaf çoxşüalı exolotların tətbiqi ilə bağlıdır. 7-ci Beynəlxalq Coğrafiya Konqresinin (1899) qərarı ilə okeanların 1:10000000 miqyaslı çoxvərəqli beynəlxalq Baş batimetrik icmal xəritəsi tərtib edilmişdir. 1982 ildə xəritənin 18 vərəqli yeniləşmiş 5-ci nəşri başa çatmışdır. 20 əsrin sonu – 21 əsrin əvvəllərində xəritənin rəqəmli versiyası yaradılmışdır.

**BATİNELLASEYALAR** (Batinellacea) – ali xərçəngkimilər dəstəsi. Bədəni nazik, uz. 0,5–3,4 (5,4-ədək) *mm*-dir. Xarici görünüşünə görə B. digər ali xərçəngkimilərin sürfə mərhələsini xatırladır. Gözləri yoxdur. Başının ardınca səkkiz gövdə seqmenti və beş qarın seqmenti yerləşir, ilk qarın seqmenti anus payı (telson) ilə birləşir. Antennulaları ikişaxəlidir; 1–7-ci seqmentlərin döş ətrafları ikişaxəlidir (qrunt hissəcikləri arasında hərəkət etmək üçün), səkkizinci seqmentin ətrafları erkək fərdlərdə kopulyasiya orqanlarına çevrilmiş, dişi fərdlərdə isə reduksiyaya uğramışdır. Yumurtalarını qrunta qoyur; sürfəsinin (parazoea) antennaları, ağız çıxıntıları və döş ətrafları var. 160-adək növü məlumdur. Əsasən, yeraltı qrunt və mağara suları hövzələrində 12–14°C temp-rda yaşayır; iki növü qrunt səthində açıqda, çox dərində (Baykal gölü), bir növü isə şortəhər sularda yaşayır. Detritlə, bakteriyalarla və xırda qurdlarla qidalanır.

**BATİNİLİK** ( ər. باطن batin – daxili, içi) – islamda təriqətçi dini-fəlsəfi təlim. 8 əsrdə ortodoksal islam ideologiyasına müxalif cərəyan kimi yaranmışdı. B.-də *manilik* və *məzdəkilik* əlamətləri var idi; qədim yunan fəlsəfəsinin, *buddizmin* də təsiri olmuşdur. B.-yə görə, Quranı hərfi mənada başa düşmək olmaz, onun ayələrinə məcazi məna vermək, "içərisindəki" gizli məzmunu tapmaq lazımdır. "İlah ül-əvvəl" (ilkin ilahi) yeganə fəaliyyət göstərən sima olmayıb, "İlah üs-sani" (ikinci ilahi, yəni can) ilə birlikdə dünyanı idarə edir. Materiya, məkan və zaman "varlığın mərtəbələrində" ancaq düyün nöqtələridir; hadisənin əvvəli olduğu kimi, sonu da var. *İsmaililik, qərmətilik, xürrəmilik, sufilik* və s.-də B.-dən nəzəriyyə kimi istifadə edilmişdir.

**BATİNLƏR** – 1) İndoneziyada xalq. Sumatranın mərkəzi rayonlarında Tembesi çayı vadisində yaşayırlar. Sayları 80 min nəfərdir (1998). Malayya dilinin dialektində danışırlar. Dindarları müsəlmandır. Özlərini Cambi a.-nın yerli sakinləri hesab edirlər. *Kubulara* yaxındırlar, etnik birliklərinə malayyalıların, minanqkabauların, kerinçilərin, yavalıların nümayəndələri daxil edilirdi. Toxa əkinçiliyi (quru dərələrdə çəltik) ilə məşğul olur, camış, keçi, quş yetişdirirlər. B.-in bir çoxu kauçuk plantasiyalarında çalışır. 2) İndoneziyada tayfalar qrupu. Sumatra a.-nın şm.-ş.-ində, Mandau və Rokan çaylarının hövzələri arasında yaşayırlar. Sayları 4–5 min nəfərdir. Malayya dilinin dialektində danışırlar, kamfora yığıcılarının məxfi dili var. Ənənəvi etiqadlarını saxlayırlar, müsəlmanları da var. Ovçuluq, yığıcılıq, toxa əkinçiliyi (banan, kökümeyvəlilər, köküyumrular, quru dərələrdə az miqdarda çəltik), kamfora yığımı ilə məşğul olurlar. Ana xətti ilə qohum olan nəsilləri başçı (batin) idarə edir. Nikah matrilokaldır. Maddi mədəniyyətləri kubulara yaxındır.

**BATİPLÁN** (yun. βαθύς – dərin + lat. planum – müstəvi) – kabel-tros vasitəsilə gəmi yedəyinə qoşulan bir və ya ikiyerli *sualtı aparat*. Hermetik korpusda yerləşən pilot tərəfindən idarə olunur. Gəmidən suya buraxıldıqda suyun səthi ilə üzür və sükan vasitəsilə idarə olunaraq suyun lazımi dərinliklərinə endirilir. En-



Yeni Brenson batiplanı.

mə dərinliyi 100–200 *m*-dir. B.-ın kursunun və hərəkət sürətinin dəyişdirilməsi gəmidən idarə olunur. Dərin sularda tədqiqat aparmaq, kino çəkilişləri və s. üçün istifadə edilir.

**BATİSFÉR** (yun. βαθύς – dərin + σφαίρα – kürə) – okean və dənizlərin dərinliklərini tədqiq etmək üçün gəminin polad troslu bucurqadı ilə suya endirilən bir neçə illüminatorlu kürə formalı polad kamera. B.-ə 1–2 nəfər müşahidəçi yerləşir. B. elmi-tədqiqat avadanlıqları, hava ehtiyatı və onun regenerasiya sistemi, rabitə sistemi, suyun altında ətrafı işıqlandırmaq üçün projektorlar və s. ilə təchiz edilir. B.-i 1400 *m* dərinliyədək endirmək olur. 20 əsrin 50-ci illərindən okeanoqrafik tədqiqatlar, həmçinin batmış gəmilərin axtarışı və sudan qaldırılması ilə əlaqədar işlər üçün təkmilləşdirilmiş B.-lər (*batiskaf*, *hidrostat*) tətbiq edilir. Suyun altında məhdud sahədə hərəkət etmək üçün bəzi B.-lərin vinti olur.

**BATİSKÁF** (yun. βαθύς – dərin + σκάφος – gəmi) – okean və dənizlərin dərinliklərini tədqiq etmək üçün *sualtı aparat*. B. üzgəc-gövdədən və polad kürədən (qondola) ibarətdir. Yüngül gövdə B.-a lazımi üzmə qabiliyyəti verir. Üzgəcdə sudan yüngül maye (benzin) ilə doldurulmuş ballast sisternləri, akkumulyator batareyaları, sualtı işləri yerinə yetirmək üçün məsafədən idarə edilən manipulyatorlar, qruntdan nümunə götürmək üçün

"Mir-2" batiskafı (RF).



avadanlıqlar və s. var. İllüminatoru olan qondolada (həcmi 5–8 $m^3$) B.-ın ekipajı, idarəetmə, müşahidə və rabitə avadanlıqları, havanın regenerasiyası sistemi, ultrasəs telefonu, televiziya kameraları, elmi tədqiqat cihazları və s. yerləşir. Xaricində avar vintli elektrik mühərrikləri və işıqlandırıcılar var. B.-ın enməsi və qalxması manevr sisternindən benzinin bir hissəsinin axıdılması və sərt ballastın atılması ilə tənzimlənir. İlk B. 1948 ildə isveçrəli alim O. Pikkarın rəhbərliyi ilə qurulmuşdur. 1953 ildə Pikkar oğlu Jakla "Triyest" B.-ında 3160 *m*, 1954 ildə fransızlar J. Quo və P. Vilm FNRS-3 B.-ında 4054 *m* dərinliyə enmişlər. 1960 ilin yanvarında J.Pikkar və D.Uolşun idarə etdiyi modernləşdirilmiş "Triyest" B.-ı Sakit okeanın Mariya çökəkliyinin dibinə (10 919 *m* dərinliyə) endirilmişdir. B. çox böyük dərinliklərə enməyə imkan versə də, manevretmə qabiliyyəti azdır.

**BATİST** (fr. batiste) – nazik, yarımşəffaf pambıq və ya kətan parça. 13 əsrdə yaşamış fransız toxucusu Fransua Batistin adı ilə adlandırılmışdır. İlk vaxtlar B. pambıq və ya ipək, sonralar isə (19 əsr) yundan hazırlanırdı; çox zəhmət tələb etdiyinə görə baha idi və yüksək qiymətləndirilirdi. B.-in ipliyi zərif daranmış pambıqdan əyrilir. B. naziklik və şəffaflıqla yanaşı, eyni qalınlıqlı ağardılmış əriş və arğac saplarının sıx burulması nəticəsində yüksək davamlılığa malikdir; yumşaqlığı, hamarlığı və parlaqlığı *merserizasiya* yolu ilə əldə edilir. Kətan B. daha davamlı olması ilə fərqlənir. B. saya və ya naxışlı olur. Uşaq paltarı, cib dəsmalı, yüngül paltar və köynək, yataq dəsti və s. tikilir; kalka hazırlanmasında yarımfabrikat kimi istifadə edilir.

**BATİSTA,** B a t i s t a - i - S a l d i v a r (Batista y Zaldivar) F u l x e n s i o (16.1. 1901, Banes – 6.8.1973, İspaniya, Marbelya) – Kuba dövlət və siyasi xadimi. 1921 ildən hərbi xidmətə başlamışdır. 1933 il avqustun 12-də diktator X. Maçadonun devrilməsi ilə nəticələnən xalq çıxışından sonra hərbiçilər arasında tanınmışdır. 1933 ilin sentyabrında X. Maçadonun varisi K.M. de *Sespedesin* hökumətinə qarşı hərbi sui-qəsdə ("serjantların qiyamı") başçılıq etmişdir. 1934 il yanvarın 14-də Amerikanın himayəsi ilə yeni dövlət çevrilişi təşkil etmiş və əlaltılarının nominal prezidentliyi şəraitində özünün diktaturasını yaratmışdır. 1939 ildə Müəssislər Məclisinə seçkilərin keçirilməsinə razılıq vermişdir; 1940 ildə məclis demokratik konstitusiyanı qəbul etmiş, elə həmin il B. Kuba prezidenti seçilmişdir. İkinci dünya müharibəsi illərində müxtəlif siyasi qüvvələrin nümayəndələrindən ibarət B. hökuməti bir sıra islahat keçirərək Kuba iqtisadiyyatını möhkəmləndirmişdir, həmçinin *antihitler koalisiyası* tərəfində çıxış etmişdir. Konstitusiyaya müvafiq olaraq 1944 ilin prezident seçkilərində B. yenidən iştirak edə bilməmiş və R. *Qrau San-Martinin* qələbəsindən sonra ABŞ-a getmişdir. 1947 ildə Kubaya qayıdaraq yeni dövlət çevrilişi hazırlamışdır; 1952 il martın 10-da prezident K. Prio Sokarrasın devrilməsi nəticəsində qurulan B. diktaturası 1954 ildə keçirilən prezident seçkilərindən sonra qanuniləşmişdi. B. rejimi üçün müxalifətin amansız təqibi, korrupsiya və Amerika inhisarları ilə sıx əlaqələr səciyyəvi idi. B.-nın 1956 ilin dekabrında F. Kastronun rəhbərliyi altında inqilabçı qrupun diktaturaya qarşı başladığı partizan müharibəsini yatırmaq cəhdləri nəticəsiz qalmışdı. 1959 il yanvarın 1-də B. rejimi devrilmiş və o, Kubanı həmişəlik tərk etmişdir.

**BATLAQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Tərik bölgəsinin Gərm kəndistanında, bölgə mərkəzindən 20 *km* ş.-də, Miyanə–Xalxal avtomobil yolunun üstündədir.

**BÁTLER** (Butler) Nikolas Mürrey (2.4.1862, Nyu-Cersi ştatı, Elizabet ş., – 7.12.1947, Nyu-York) – amerikan pedaqoqu, publisist, ictimai xadim, fəlsəfə d-ru (1884). Nobel sülh mükafatı laureatı (1931, C. Addamsla birlikdə). Kolumbiya Un-tinin fəlsəfə, etika və psixologiya üzrə prof.-u (1890 ildən; 1901–45 illərdə un-tin prezidenti olmuşdur). Nyu-York ştatında təhsil sistemini unifikasiya etmişdir. Pasifist hərəkatının təşkilatçılarından biridir. Karnegi ad. dünyada sülh uğrunda fondun prezidenti (1925–45), fondun təhsil və kommunikasiya bölməsinin sədri olmuşdur. B. dünyada sülh uğrunda mübarizədə beynəlxalq əməkdaşlığın inkişafı vasitəsilə siyasət və təhsili birləşdirməyə çalışmışdır. Amerika Ədəbiyyat və İncəsənət Akademiyasına rəhbərlik etmişdir (1928–41). B. "Pedaqoji icmal" ("Educational Review") jurnalını yaratmış (1890) və 30 il redaktə etmişdir.



**BATLÉYKA**, b e t l e y k a (Betlejem – Vifleyem ş.-nin polyakca adından) – Belarus xalq kukla teatrı. 16 əsrdən məlumdur (yezuitlər tərəfindən Polşadan keçərək Qərbi Avropadan gətirilmişdir). B.-nın meydana gəlməsi Milad bayramları ilə əlaqədardır. Repertuarına "Çar İrod" dini pyesi, "Çar Maksimilian" xalq dramı, "Kişi və həkim", "Anton keçi ilə və Antonixa", "Meyxanaçı Berka" məişət səhnəcikləri və s. daxil idi. Səhnəni yaruslu qutu əvəz edirdi, tamaşalar yuxarı və aşağı yaruslarda göstərilirdi. Dayaqlı taxta kuklalar yarusların döşəməsindəki yarıqlar ilə hərəkət edirdi. Kölgə teatrı prinsipi ilə qurulmuş B.-lar (Vitebsk, Velij) və dəyişən şəffaf dekorasiyalı B.-lar (Dokşitsı) mövcud idi. 19 əsrin sonu – 20 əsrin əvvəllərində aktyorların iştirak etdiyi "canlı" B. fəaliyyət göstərirdi.

**BÁTLYE-İ-ORDÓNYES** (Batlle y Ordóñez) Xose (21.5.1856, Montevideo – 20.10.1929, Montevideo) – Uruqvay dövlət və siyasi xadimi. 1868–70 illərdə Uruqvay prezidenti olmuş L. Batlyenin ailəsində doğulmuşdur. 1880-ci illərdən jurnalistika sahəsində çalışmışdır. Qısa müddət ərzində siyasi karyerasında uğur qazanaraq "Kolorado" partiyasının liderinə çevrilmişdir. 1903 ildə cüzi səs çoxluğu ilə prezident seçkilərində qalib gəl- miş, 1904 ildə "Blanko" partiyasından olan əleyhdarlarının qaldırdığı qiyamı yatırmışdır. 1905 ildə keçirilən təkrar seçkilərdə də qalib gəlmiş, lakin 1903 il seçkilərindəki qələbəsinin konstitusiyaya uyğun olduğunu vurğulamaq məqsədilə 1907 ildə özü hakimiyyətdən çəkilmişdir. 1911–15 illərdə yenidən Uruqvayın prezidenti seçilmişdir. Hakimiyyəti dövründə B.-i-O. bir sıra mühüm sosial islahatlar həyata keçirmiş, o cümlədən 8 saatlıq iş günü tətbiq etmiş, təqaüd sistemini yaratmışdır; xalq maarifinin inkişafına yardım göstərmiş, məktəbi kilsədən ayırmışdır. Uruqvayın maliyyə-iqtisadi cəhətdən B.Britaniya kapitalından asılılığını aradan qaldırmağa çalışaraq, proteksionizm siyasəti yeritmiş, ABŞ hökuməti və işgüzar dairələri ilə münasibətləri inkişaf etdirmişdir. Onun dövründə Uruqvay Latın Amerikasında iqtisadiyyatda dövlət sektorunu yaratmağa və özəl biznesə nəzarət etməyə başlayan ilk dövlətlərdən biri olmuşdur. Cəmiyyəti prezident hakimiyyətinin diktaturaya çevrilməsi təhlükəsindən müdafiə etmək məqsədilə B.-i-O. dövlət idarəçiliyi islahatını işləyib hazırlamış və qismən həyata keçirmişdir. Onun *nasional-reformizmin* erkən forması olan görüşləri və siyasəti elmi ədəbiyyatda adətən "batlizm" adlanır.

**BATMAN** – Türkiyənin Cənub-Şərqi Anadolu bölgəsində il. Sah. 4,7 min $km^2$. Əh. 485,6 min (2008). İnz. m. Batman ş.-dir. Şm.-ı dağlıqdır (yüksək nöqtəsi Aydınlıq d. – 2973 *m*); c.-a, Dəclə dərəsinə doğru az meyilli düzənliklərdir. İqlimi kontinentaldır. Yağıntının illik miqdarı 750–1000 *mm*-dir. Mühüm çayları: Dəclə, Batman, Qarzan. İqtisadiyyatını neft sənayesi (1940 ildə bölgədə neft aşkar edilmişdir), ticarət və xidmət sahələri təşkil edir; davarçılıq, pambıqçılıq inkişaf etmişdir.

**BATMAN** – Türkiyənin c.-ş.-ində şəhər. Batman ilinin inz. m. Əh. 325 min (2010). Batman çayı (Dəclənin sol qolu) sahilindədir. D.y. st. Aeroport. Neft emalı z-dları var.

**BATMAN,** m a n – orta əsrlərdə türk xalqları arasında, xüsusilə Orta Asiyada geniş yayılmış çəki vahidi; təqr. 2,5–10 *kq*. B. həmçinin əkin sahəsinn ölçüsünü (məs., bir B. buğdanın əkildiyi sahə) bildirirdi. Hər bir ölkədə, hətta eyni ölkənin ayrı-ayrı bölgələrində B.-ın kəmiyyətcə qiyməti fərqli idi. Məs., 16–17 əsrlərdə təbabətdə tətbiq edilən B. 266 dirhəmə (1 dirhəm = 3,12 *q*), Osmanlı dövlətində ticarətdə işlədilən B. 6 okkaya (1 okka = 1,283 *kq*), Krım xanlığında 425 *kq*-a, İranda isə 2,9 *kq*-a bərabər olmuşdur. Ət, pambıq, buğda, darı, un, şərab, su, müxtəlif k.t. məhsullarının alış-verişi B.-la aparılırdı. Bəzi dövrlərdə bu qarışıqlığın qarşısını almaq məqsədilə hökumətlər və ya yerli qurumlar B.-ın kəmiyyətini müəyyənləşdirmişlər: bir B. Çində və Yaponiyada bir kettiyə (604,79 *q*-a), Qərbi Türküstanda 8 sirə (23,776 *kq*-a), Buxarada bir mana (45,093 *kq*-a), Xivədə 80 ara (20,475 *kq*-a) bərabər idi. 18 əsrdə İdil (Volqa) bölgəsində B. Rusiya tərəfindən də rəsmən qəbul olunmuşdu.

**BATMANQILIC** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Ataşbəy kəndistanında, Səriskənd qəs.-ndən 44 *km* q.-dədir.

**BATMANQILIC** (Yuxarı) – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Ataşbəy kəndistanında, Səriskənd qəs.-dən 47 *km* q.-də, Təbriz–Miyanə avtomobil yolunun 32 *km*-liyindədir.

**BATMÁNOV** İqor Alekseyeviç (28.10. 1906, Lutsk – 8.1.1969, Frunze) – rus türkoloqu, dilçi. Qırğ. SSR EA akad. (1954) və əməkdar elm xadimi (1963). Qırğız dili, qədim türk yazılı abidələrinin dili haqqında əsərlərin müəllifidir.

Ə s ə r l ə r i: Современный киргизский язык. В. 1. Фрунзе, 1963; Таласские памятники древнетюркской письменности. Фрунзе, 1971.

**BATMAYAN ULDUZLAR** – verilmiş $\varphi$ coğrafi en dairəsində $\delta$ meyil bucağı

$$\delta \geq 90° - \varphi$$

şərtini ödəyən ulduzlar. Məs., Bakının coğrafi en dairəsi $\varphi = 42°$-dir, ona görə də meyil bucağı $\delta \geq 48°$ olan ulduzlar Bakıda üfüqdən yuxarıdadır və həmişə görünür.

Batman şəhərindən görünüş.





Batna şəhərindən görünüş.

**BATMAZLIQ,** gəminin batmazlığı – gəminin bir və ya bir neçə bölməsinə su dolduqdan sonra da öz dayanıqlığını və üzmə qabiliyyətini saxlayıb dalmaması. Gəminin suyaçökmə həddinin artması, krenin və differentin yaranması, dalğaya dayanıqlığının azalması onun batmasına səbəb ola bilər. Axırıncı dayanıqlığın azalması daha təhlükəlidir: belə ki, gəminin ani çevrilməsinə səbəb ola bilər. B. gəmi korpusunun sukeçirməyən divar və göyərtələr vasitəsilə ayrılması, ikiqat dib və s. ilə təmin edilir.

**BATMƏCİN** – İranın Qəzvin ostanında kənd. Eyniadlı şəhristanın Mərkəzi bölgəsinin Ətraf kəndistanında, bölgə mərkəzindən 15 *km* şm.-q.-dədir.

**BATMOGENÉZ** (yun. βαζμός – pillə, dərəcə + ... *genez*) – təkamül konsepsiyası; bu konsepsiyaya görə, canlı orqanizmlərin mütərəqqi inkişafının əsasını özünütəkmilləşdirməyə doğru daxili səy – "böyümə gücü", yaxud batmizm təşkil edir. Amerika paleontoloqu E. Kop təklif etmişdir (1871). B.-ə əsasən orqanizmlərin təkamülünün stimulu xarici mühit şəraitinin dəyişilməsidir; yəni, ibtidai orqanizmlərin inkişafı xarici mühitin fiziki-kimyəvi amillərinin birbaşa təsiri ilə (fiziogenez) baş verir, daha yüksək inkişaf etmiş orqanizmlərdə orqanlardan istifadə edilməsi və ya edilməməsi (kinetogenez) mühüm əhəmiyyət kəsb edir, idrakın meydana gəlməsi ilə təkamüli dəyişilmələr şüurlu seçmə yolu ilə gedir. B.-ə görə, bütün canlılara xas olan böyümə gücü orqanizmlərdə yeni uyğunlaşmalar yaradır, təbii seçmə isə onları yalnız qoruyub saxlayır və ya məhv edir. *Lamarkizm* kimi, bütövlükdə B. konsepsiyası ektogenetik (xarici amillərin təsiri ilə orqanizmlərin təkamülü) və avtogenetik yanaşmanı birləşdirir və psixolamarkizmin əsasını təşkil edir. Bax həmçinin *Avtogenez, Neolamarkizm.*

Syerra-Nevada batoliti. Kaliforniya (ABŞ).



**BATMÜNX** Jambın (10.3.1926, Ubsunur aymakı – 14.4.1997, Ulan-Bator) – Monqolustanın dövlət və siyasi xadimi. 1948 ildən Monqolustan Xalq İnqilab partiyasının (MXİP) üzvü olmuşdur. Monqolustan Dövlət Un-tini bitirmiş (1951), Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasında (1958–61) təhsil almışdır. Ulan-Batorda bir sıra ali təhsil müəssisələrinin rektoru. 1973 ildən MXİP MK-da şöbə müdiri işləmişdir. 1974 ilin mayından MXR Nazirlər Şurası sədrinin müavini, həmin ilin iyunundan isə sədri olmuşdur. 1984 ildə MXİP MK baş katibi və Böyük Xalq Xuralı Rəyasət Heyətinin sədri vəzifələrində Y. Sedenbalı əvəz etmişdir. 1986 ildə "Monqolustanda yenidənqurma"nın başlandığını elan etmişdir. 1990 ilin martında kəskin siyasi böhran şəraitində bütün vəzifələrindən getdiyini və MXİP MK Siyasi Bürosunun, Böyük Xalq Xuralı Rəyasət Heyətinin və MXR Nazirlər Şurasının tam tərkibdə könüllü istefa verdiyini bəyan etmişdir. Bu, demokratik islahatlara keçid dövründə qan tökülməsinin qarşısını almışdı. Ömrünün son illərini Ulan-Batorda yaşamış, ölümündən sonra nəşr olunmuş memuarlarını yazmışdır.

**BÁTNA** – Əlcəzairdə şəhər. Batna vil.-nin inz. m. Əh. 280,8 min (2005). Ölkənin şm.-ş.-ində, Ores d-rının ətəyində, təqr. 1000 *m* hünd.-dədir. Mühüm nəql. qovşağı. Beynəlxalq aeroport. 1844 ildə Fransanın hərbi dayaq məntəqəsi kimi salınmışdır. 1978 ildən un-t mərkəzidir. Ticarət və sənaye mərkəzidir. Yeyinti (unüyütmə), toxuculuq və dəri sənayesi müəssisələri var. Tikinti materialları istehsal olunur.

B.-nın yaxınlığında Qədim Romanın *Timqad* ş.-nin xarabalıqları və Numidiya tayfalarından birinin əfsanəvi əcdadının məqbərəsi – Medrasenin (təqr. e.ə. 200–150) qalıqları qalmışdır.

**BATOXROM YERDƏYİŞMƏSİ** – bax *Üzvi birləşmələrin rəngliliyi.*

**BATOLİT** (yun. βάσος – dərinlik + λίσος – daş) – dərinlik maqmatik süxurlarının (əsasən, qranitoidlərin) yatım forması. Adətən, antiklinoriumların özəyini təşkil edir. Qırışıqlıq strukturları boyu uzanan B.-lərin uz. bir neçə min *km*-ə (And d-rında Çili batoliti 1300 *km*, Şimali Amerikanın Kordilyer d-rında Sahil silsiləsi batoliti 2000 *km*-dən çoxdur), eni 60–100 *km*-ə çatır. B. yalnız eroziya nəticəsində Yer səthinə çıxır; 100 $km^2$-dən çox sahəni əhatə edir. B.-in üst səthi günbəzvarıdır; divarları dik yatımlı, yan süxurlarla təması kəskindir. Qeyri-düzgün formalı B.-dən çox vaxt *apofizlər* ayrılır. B.-in mənşəyi mübahisəlidir. Tədqiqatçıların əksəriyyəti hesab edir ki, B.-in formalaşmasında blokların şaquli yerdəyişməsi əsas rol oynayır.







Altı butulkalı Niskin batometri.

**BATÓMETR** (yun. βάτος – dərinlik + ... *metr*) – dəniz, göl və başqa sututarların müxtəlif dərinliklərindən su nümunəsi götürmək üçün hidroloji cihaz. Əsas növləri Nansen və Niskin B.-lərdir. İçiboş silindr şəklində olan dəniz B.-inin klapanı və ya qapağı lazımi dərinliyə çatan anda qapanır. Daha geniş tətbiq edilən zond-B.-i dalma dərinliyi boyunca 27-yədək su nümunəsi götürə bilir. Müasir B.-lərdə klapanlar lazımi dərinliyi aşkar edən təzyiq vericiləri, yaxud da məsafədən (su səthindən) elektrik siqnalları vasitəsilə idarə edilir; cihazın dairəvi çərçivəsində 36-yadək boru (butulka) yerləşdirmək olur. B. vasitəsilə götürülən suyun fiziki və kimyəvi xassələri, tərkibindəki üzvi və qeyri-üzvi qarışıqlar öyrənilir. B.-in gövdəsindəki çərçivəyə yerləşdirilmiş meteoroloji dərinlik termometri ilə tədqiq olunan su qatının temp-runu da ölçmək mümkündür.

**BÁTON-RUJ** (Baton Rouge) – ABŞ-ın c.-unda şəhər. Luiziana ştatının paytaxtı. Əh. 223,3 min (2005; təqr. 1/2-i afroamerikalılardır). Missisipi çayının sol sahilində okean gəmilərinin daxil olduğu port.

1719 ildə fransız kolonistləri tərəfindən hindi məskəninin yerində istehkam kimi salınmışdır; 1819 ildən şəhər, 1849–62 illərdə və 1882 ildən ştatın paytaxtıdır. 1909 ildə "Standard oyl" şirkətinin iri neft emalı z-du tikilmişdir, 1920-ci illərdə port qurğuları genişləndirilmişdir; 1940-cı illərdən neft-kimya sənayesi inkişaf edir.

Memarlıq abidələri: neoqotik üslubda qəsr (1849), ştatın kapitolisinin köhnə (1847–50, hazırda muzeydir) və yeni (1931–32) binaları. Luiziana ştatı un-ti (1860), Cənub un-ti (1880); muzeylər və sərgi salonları – Luiziana incəsənət və elm mərkəzi, Luiziana incəsənət muzeyi (şəxsi kolleksiyalardan toplanmış kolumbaqədərki incəsənət) və s., Dəniz tarixi mərkəzi fəaliyyət göstərir.

B.-R. ABŞ-ın ən iri neft emalı və neft-kimya sənayesi mərkəzlərindən biridir; Texasdan Riçmonda (Virciniya ştatı) və Nyu-Yorka gedən magistral neft və qaz kəmərləri B.-R.-un ərazisindən keçir. Soya paxlası, şəkər qamışı ticarəti mərkəzidir. K.t. məhsulları emal olunur. Yaxınlığında neft, təbii qaz, duz, kükürd çıxarılır.

**BATOPÓRT** – bax *Üzən sürgü.*

**BATORİ** İştvan – bax *Batori Stefan.*



**BATÓRİ** (Batory) Stefan, Batori İştvan [27.9.1533, Jiladişomlyo (indiki Rumınıya, Şimleu-Silvaniyey) – 12.12.1586, Qrodno] – Polşa kralı [1576 ildən], sərkərdə; Transilvaniya voyevodası İştvan Batorinin oğlu. Paduya Un-tində təhsil almışdır. 1552 ildən Çexiya-Macarıstan kralı *I Ferdinand* Habsburqun sarayında, 1556 ildə onun rəqibi kral Yanoş Jiqmonda xidmət etmişdir. 1571–76 illərdə Transilvaniya knyazı olmuşdur. Maqnatlar tərəfindən imperator II Maksimilian Habsburqun namizədliyi irəli sürülsə də, şlyaxtanın orta təbəqəsinin təkidi və kral II Sigizmundun bacısı Anna Yagellonka ilə evlənmək şərti ilə B. 1575 ildə Polşa kralı seçilmişdir; 1576 ildə tacqoyma mərasimi keçirilmişdir. B.-nin hakimiyyəti illərində kansler Y. *Zamoyski* idarəçilikdə böyük rol oynamışdır. Kral ali məhkəmədən imtina edən B. ali məhkəmə instansiyası kimi seçkili şlyaxta tribunalları yaratmışdı (1578). Maqnatlara (Zborovskilər və b.) qarşı mübarizə aparmışdır. 1577 ildə Qdanskı yenidən Polşaya tabe etmişdir. 1578 ildə reyestr kazakları islahatını həyata keçirmişdir. Vilnoda Akademiya (1579; sonralar Vilnüs un-ti) yaratmışdır. 1579 ildən *Livoniya müharibəsində (1558–83)* iştirak etmişdir. B. Polotsk və Velikiye Luki şəhərlərini tutmuş, lakin Pskovun uğursuz mühasirəsindən (1581–82) sonra 1582 ildə Rusiya ilə Yam-Zapolski sülhünü bağlamışdır. Rusiya ilə yeni müharibəyə hazırlıq ərəfəsində ölmüşdür.

Baton-Ruj şəhərindən görünüş.



**BATRAXOKİMİLƏR** (Batrachoidiformes) – sümüklü balıqlar dəstəsi. Miosen dövründən məlumdur. Bədəninin uz. 25–35 (60-dək) *sm*-dir. Başı yastılaşmış, ağzı enli, dişləri itidir; üç qəlsəmə qövsü var. Qəlsəmə qapağı üzərində tikan yerləşir. Birinci bel üzgəci kəllə ilə bitişmiş, üzərində 2–4 yoğun tikan var; ikinci bel üzgəci uzundur, yumşaq mil sümüklərinə malikdir; qarın üzgəcləri boğazında yerləşir. Dərisi çılpaq, yaxud pulcuqlarla örtülüdür; 4-ədək yan xətti var. Bəzi növlərində içi boş tikanların əsasında (dibində) zəhərli vəzilər (sancması ağrılıdır) yerləşir. Bir fəsiləsi (qurbağavarı balıqlar), 70-ədək növü vardır. Tropik və mülayim sahilboyu sularda (bir neçə yüz metrədək dərinlikdə) yaşayır; mərcan riflərində, bəzi növlərinə şortəhər sularda və çaylarda (məs., Amazon č.) rast gəlinir. B. azhərəkətlidir, lilli və qumlu dib sularında yaşayır, qruntun içərisinə girə bilir. Sığınacaqlara qoyulan kürü erkəklər tərəfindən qorunur. Xərçəngkimilər, qurdlar və molyusklarla qidalanır. Şəklini dəyişmiş üzmə qovuğu müxtəlif səslər (vızıldama, quruldama və s.) çıxarmağa imkan verir. Yerli ov obyektidir. Qışqırıqçı balıqların (Porichthys) yanlarında və qarnında uzununa cərgələrlə işıqsaçan orqanlar yerləşir.

**BATRAXOTOKSİN** – yarpağadırmananlar cinsindən olan Cənubi Amerika qurbağalarının (Phyllobates) bəzilərinin zəhərində və Yeni Qvineya quşlarından bəzilərinin bədənində steroidli alkaloid. Ən güclü təbii qeyri-zülal toksinlərdən biridir (insan üçün öldürücü doza 2 *mkq/kq*-dır). Sinir-əzələ ötürülməsi prosesini təcrid edir: $Na^+$ ionları üçün hüceyrə membranlarının keçiriciliyini artırmaqla sinir impulsunu dayandırır. Məs., ürək əzələlərində bu hal aritmiyaya, fibrilyasiyaya və ürəyin dayanmasına səbəb olur.

**BATRAXOZAVRLAR** (Batrachosauria), q u r b a ğ a  k ə l ə z l ə r – nəsli kə-

Seymuriya (skelet). Təbiət Tarixi Milli Muzeyi. Vaşinqton (ABŞ).



silmiş suda-quruda yaşayanlar yarımsinfi. Şimal yarımkürəsində Daş kömür və Perm dövrlərində mövcud olmuşdur. Ən yüksək inkişaf etmiş s e y m u r i a m o r f B. kəllə quruluşuna və bir sıra digər əlamətlərinə görə sürünənlərə oxşardır, bu isə onurğalıların təkamülünün aydınlaşdırılmasında böyük əhəmiyyət kəsb edir.

**BATRİNC** – İrəvan xanlığının Karbibasar mahalında (9.9.1930 ildən Əştərək r-nu), Masdərə çayının sağ sahilində azərb.-ların yaşadığı kənd. 1919 ildə kəndin əhalisi erməni təcavüzü nəticəsində qovulmuş, burada Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 1.12.1949 ildə kəndin adı dəyişdirilərək Voskehat qoyulmuşdur.

**BATSAR QORUĞU** – bax *Axmet qoruğu.*

**BATSBİ DİLİ**, t s o v a - t u ş  d i l i – *batsbilərin* dili. Gürc.-ın Axmet r-nundakı (Kaxeti) Zemo-Alvani k.-nin bir hissəsində yayılmışdır. *Nax dillərindən* biridir. Danışanların sayı təqr. 3 min nəfərdir (1990-cı illər). Gürcü dilinin, xüsusən leksikasının güclü təsirinə məruz qalmışdır. *Konsonantizm* sistemi üçün "l'" kar fonemi, intensiv samitlər seriyası ("ll", "ss", "xx" və s.) və yeni samit kompleksləri səciyyəvidir. *Vokalizm* sistemi sadədir. İsimdə 8 ad qrupu, 10 əsas hal mövcuddur. Yazısı yoxdur.

*Əd.*: Д е ш е р и е в Ю.Д. Бацбийский язык. М., 1953; H o l i s k y D.A., Gagua R. Tsova-Tush (Batsbi) // The indigenous languages of the Caucasus. Delmar; N.Y., 1994. Vol. 4.

**BATSBİLƏR**, t s o v a - t u ş l a r , b a t s o e v l ə r – Gürcüstanın ş.-ndə yaşayan nax xalqı. Axmet r-nunun Zemo-Alvani k.-ndə (Kaxeti) məskunlaşmışlar; Tbilisidə iri qrupu var. Sayları təqr. 5 min nəfərdir (2004). *Batsbi dilində* danışırlar; tədricən gürcü dilinə keçirlər. Dindarları xristian və müsəlmandırlar.

B.-in əcdadları eramızın 1-ci minilliyindən dağlıq Kaxetiyada məskunlaşmışlar. Tsaro, Sagirta, Etelta, Mozarta, İndurta adlı möhkəmləndirilmiş yaşayış məskənləri olmuşdur. 1820-ci illərdə Alazan vadisinə köçmüşlər. 1920-ci illərdə Alvan (Alban) düzənliyindəki torpaqların bir hissəsi B.-ə verilmiş və onlar burada Zemo-Alvani k.-ni salmışlar. Mədəniyyətləri ümumgürcü tipindədir. Xristianlığaqədərki kultlar (Tsu allahına sitayiş, yağış duası ayinləri, heyvanların qurbanverilməsi və s.) saxlanmışdır. Hər il keçirilən yay bayramlarını Tsaro k. xarabalıqlarında qeyd edirlər. 20 əsrdə B.-ın ziyalıları meydana gəlmişdir.

**BATTAL** (Battalov) Salih (Salihzyan) Vazıxoviç (18.8.1905, Kazan qub., Spassk qəzasının Böyük Tiqanlar k. – 13.5.1995, Kazan) – tatar yazıçısı. Orenburq Təyyarəçilik Məktəbini bitirmiş (1929), hərbi təyyarəçi (1929–35) olmuşdur. Əsərləri 1924 ildən çap edilməyə başlamışdır. "Təyyarəçilər" (1935) romanının, "Səkkizinci kimdir?" (1965) macəra povestinin, şeir və poemalar toplusunun, vətəndaş müharibəsi illərində tatar kəndindəki sosial islahatlardan bəhs edən "Çeremşanda" (1967) mənzum romanının, "Yaşananlar haqqında" (1972) avtobioqrafik povestin, bir neçə pyesin müəllifidir. B.-ın poeziyası tatar folkloruna yaxındır; nəsri kəskin mənəvi-psixoloji konfliktləri ilə fərqlənir.

**BATTAL QAZİ** (əsl adı Abdullah) (? – 740) – ərəb sərkərdəsi. Bəzi tarixçilər onun ərəb əsilli, digərləri isə antakyalı, yaxud da dəməşqli türk olduğunu qeyd edirlər. 717–740 illərdə Anadoluda Əməvilərin Bizansa qarşı apardıqları müharibələrdə, həmçinin *Məsləmə ibn Əbdülməlikin* başçılığı ilə Konstantinopolun mühasirəsində iştirak etmişdir (717–718). B.Q. xəlifə Əbdülməlik [685–705] tərəfindən Misis şəhərinin valisi təyin edilmişdi. Afyonqarahisar yaxınlığında baş verən döyüşdə həlak olmuş, Əskişəhərdə dəfn edilmişdir. Orta əsr müəllifləri (Təbəri, Yəqubi, Övliya Çələbi, əl-Məsudi, İbn əl-Əsir, əl-Zəhəbi və b.) B.Q. haqqında tarixi məlumatlarla yanaşı, ona həsr olunmuş xalq rəvayətlərindən götürdükləri məlumatları da qeyd edirlər. *"Battalnamə"* dastanı B.Q.-yə həsr olunmuşdur.

**"BATTALNAMƏ"** – ərəb və türk xalq qəhrəmanı Battal Qazidən bəhs edən rəvayətlərin məcmusu. "Seyid Qazinin döyüşləri haqqında hekayətlər", "Hekayəti-Seyid Battal Qazi" adlı əlyazmalarının 11–13 əsrlərdə yazıya alındığı ehtimal olunur. "B."-nin Bakı nüsxəsi AMEA-nın Əlyazmalar İn-tunda saxlanılır. Dastan, əsasən, Əməvi-Bizans müharibələrindən (8 əsr) Anadoluya türk yürüşlərinə (11 əsr) qədər olan dövrü əhatə edir. "B."-də hadisələr Malatya və onun ətrafındakı ərazilərdə baş verir. Battal Qazinin Anadoluda xristianlarla döyüş səhnələri əski türk inancları və İran nağıllarından alınmış motivlərlə zəngindir. Dastanın ilk nüsxəsi nəsrlə yazılmışdır. 1769–70 illərdə Bəqayi adlı şair onu nəzmə çevirmişdir. Battal Qazi və "B." ilə bağlı ilk olaraq H. Ethe tədqiqat aparmış və "Seyid Battalın yürüşü" ("Die Fahrten des Sajjid Batthal", 1871) adlı əsər yazmışdır.





**BATTAMBÁNQ** – Kambocanın q.-ində şəhər, Battambanq əyalətinin inz. m. Əh. 250,0 min (2006). Böyüklüyünə görə ölkənin ikinci şəhəridir. Kamboca düzənliyində, Sanqka çayı sahilindədir. Pnompen–Banqkok magistralında d.y. st. Avtomobil yolları qovşağı. Aeroport.

Qədim (eramızın 1-ci minilliyinin ortaları – 2-ci yarısı) khmer şəhəridir. 1794–1907 illərdə Siam dövlətinin, 1941–46 illərdə Taylandın tərkibində olmuşdur. Kambocada vətəndaş müharibəsi (1970-ci illər) dövründə əhalisi xeyli azalmış, iqtisadi tənəzzülə uğramışdır. Orta əsrlərə aid saray və məbədlərin xarabalıqları qalmışdır. Budda məbədləri və monastırları bərpa edilmiş, yeniləri inşa olunmuşdur (o cümlədən müstəmləkə dövrü abidəsi "Vat-Bovil", khmer incəsənəti kolleksiyası olan muzey).

Yeyinti sənayesi (kakao-paxla, palma, hil, meyvə və balıq), toxuculuq, ağac emalı müəssisələri var. Yaxınlığında fosfat duzları çıxarılır.



Battambanq. Vat-ek-Pnom məbədi.

**BÁTTERFLAY** (ing. butterfly – hərfi mənada kəpənək) – üzgüçülük idmanında üzmək üsullarından biri (sinəsi üstə üzmə), *brassın* bir növü. Üzgüçü qollarını şaquli dairə üzrə hərəkət etdirir. 1953 ildən B.-ın yeni təkmilləşdirilmiş variantı olan *delfin* meydana gəlmişdir.

**BATTİSTİNİ** Mattia (27.2.1856, Roma – 7.11.1928, Riyeti yaxınlığında Kolle-Bakkaro) – italyan müğənnisi (bariton), *belkantonun* ən görkəmli nümayəndələrindən biri. V. Persikini və E. Tersianidən dərs almışdır. Opera debütü 1878 ildə "Arcentina" (Roma) teatrında baş tutmuşdur. Avropanın bir çox opera teatrında çıxış etmiş, "baritonlar kralı" kimi məşhurlaşmışdı. Repertuarında 80-dən çox partiya (ən yaxşılarından – Don Juan, V.A. Motsart; Riqoletto, C. Verdi; Hamlet, A. Toma; Q. Donisettinin operalarındakı partiyalar) var idi. Müğənninin 1902–12 illər lent yazıları saxlanılmışdır.

**BATU**, B a t ı  x a n ,  S a i n  x a n (monqol dilində – yaxşı hökmdar) (təqr. 1207–56) – *Cucilər* sülaləsindən monqol xanı. *Qızıl Orda* dövlətinin faktiki banisi. *Cucinin* oğlu, *Çingiz xanın* nəvəsi. Atasının ölümündən (1227) sonra Cuci ulusunun başçısı olmuşdur. Qurultayın qərarı ilə 1235 ildə 120 minlik ordu ilə qərbə yürüşə başlamışdır. 1236 ildə *Volqa-Kama Bulqarıstanını* tutmuş, 1237–38 illərdə şimal-şərqi rus knyazlıqlarını, 1239–42 illərdə isə cənubi rus knyazlıqlarını məğlubiyyətə uğratmış, Polşa, Macarıstan, Çexiya, Bolqarıstan və Dalmasiyaya, həmçinin digər Şərqi Avropa dövlətlərinə yürüşlər təşkil etmişdir. 1241 ildə *Ugedey* xaqanın ölümündən sonra Mərkəzi Avropadan və Balkan y-a-ndan qoşunları çıxararaq xaqan seçkisi qurultayında iştirak etmək üçün *Dəşti-Qıpçağa* qayıtmışdır. 1242–56 illərdə B. Ural çayından qərbdəki torpaqları idarə etmişdir. Əvvəllər *Bulqar* ş.-ndə yerləşən iqamətgahını sonralar Volqanın aşağı axarlarına köçürmüşdür; burada 13 əsrin ortalarında Qızıl Ordanın paytaxtı *Saray* ş.-nin əsası qoyulmuşdur. *Çağatay* xanın ölümündən (1242) sonra Çingizilər nəslinin nominal başçısı B. hesab olunurdu. Ugedey sülaləsinin hakimiyyətdən uzaqlaşdırılması və əmisi oğlu *Mengünün* imperiyanın böyük xanı olması uğrunda mübarizə aparmışdır. Mengü imperator seçildikdən (1251) sonra Orta Asiyadakı Çağatay ulusunu onunla bölüşdürən B. faktiki hakimiyyət şəriki olmuşdur.

*Əd.*: Б а р т о л ь д В.В. Батый // Бартольд В.В. Соч., М., 1968. Т. 5; Г р е к о в Б.Д., Я к у б о в с к и й А.Ю. Золотая Орда и её падение. [2-е изд.]. М., 1998.

**BATUÁSALAR**, oranq-batuasalar, oranq-varinamalar, oranq-tobolar, oranq-xatumetenlər (yaşayış məskənlərinin adındandır) – İndoneziyada Ambon-Timor xalqlarından biri. Seram a.-nda yaşayırlar. Sayları 5 min nəfərdir (1998). Şərqi İndoneziya keçid antropoloji irqinə mənsubdurlar. Dilləri Mərkəzi Avstroneziya qrupunun Cənubi Molukk yarımqrupuna aiddir. Həmçinin Malayya dilinin Ambon dialekti və geser dili yayılmışdır. Dindarları müsəlmandır.

B. 14–16 əsrlərdə, başlıca olaraq, Malayya arxipelaqının müxtəlif yerlərindən gələn *bandalılar*, *tidorelilər* və *ternatlılardan* ibarət tacir immiqrantlarla qarışan Şərqi Seramdakı aborigen əhalinin əsasında təşəkkül tapmışlar. B.-ın 17–18 əsrlərdə yaratdıqları və Tidore sultanlığına tabe olan Tobo əmirliyi 19 əsrin sonlarınadək Seramın şərq hissəsini hakimiyyəti altında saxlamış və geser əmirlikləri ilə birlikdə Yeni Qvineya və Molukk arxipelaqındakı adalar ilə aparılan ticarətə şərikli nəzarət etmişlər. B.-ın etnik konsolidasiyası zəifdir.

Əsas ənənəvi məşğuliyyətləri saqo hasil etmək, həmçinin bostançılıq (batat, kassava, balqabaq, banan, ananas, paxlalı bitkilər), kokos palmasının becərilməsi, balıqçılıq, xırda ticarətdir. Sənətkarlıq sahələri: toxuculuq, dulusçuluq, dəmirçilik, pandanus küləşindən hörmə. Ənənəvi kənd icması raca, yaxud oranqkaya titulu daşıyan yarımfeodal başçılar tərəfindən idarə olunur. Küçəplanlı, mərkəzində məscid olan yaşayış məskənləri sahilyanı ərazilərdə yerləşir. Ambon tipli yerüstü evlər ənənəvi yortacdayaqlı evləri sıxışdırmışdır. Geyimləri Malayya tipindədir. Əsas yeməkləri saqo nişastasından hazırlanan xörəklər, təzə, qurudulmuş və fermentləşdirilmiş balıq. tərəvəz həlimləri, bayramlarda ət və düyüdür.

**BATUM KONFRANSI (1918)** – Osmanlı dövləti və *Zaqafqaziya seymi* nümayəndələrinin iştirakı ilə mayın 11-dən iyunun 4-dək keçirilmişdir. M.Ə. *Rəsulzadə* və M. *Hacınskinn* də daxil olduğu Cənubi Qafqaz nümayəndə heyətinə Zaqafqaziya hökumətinin sədri və xarici işlər naziri A. Çxenkeli başçılıq edirdi. Qafqaz cəbhəsinin komandanı Mehmet Vehib paşanın və b.-nın da iştirak etdiyi Osmanlı nümayəndə heyətinə ədliyyə naziri Xəlil Menteşe rəhbərlik edirdi. Almaniyanı təmsil edən fon Lossov müşahidəçi kimi konfransa qatılmışdı.

Konfransda Xəlil Menteşenin müzakirəyə çıxardığı "Osmanlı imperiyası ilə Transqafqaz Konfederasyon Respublikası arasında sülh və dostluq haqqında" müqavilə layihəsi Cənubi Qafqaz nümayəndəliyində fikir ayrılığı yaratdı. Azərb. təmsilçiləri ermənilərin də yaşadıqları bəzi ərazilərin – Axılkələk (indiki Axalkalaki) və Ahıska qəzalarının bütövlükdə, Sürməli, Aleksandropol və Eçmiədzin qəzalarının isə müəyyən hissələrinin Osmanlı dövlətinə güzəştə gedilməsinin Cənubi Qafqazda Azərb.-ın mövqelərini möhkəmləndirəcəyi qənaətində olduqları üçün bu layihəni dəstəklədilər.

Bir sıra ciddi səbəb və amillər B.k.-nda, daha sonra isə Zaqafqaziya seymində siyasi qarşıdurmanı sürətləndirdi. B.k.-nın gedişində dövlətçiliyə və xarici ölkələrin himayəsinə fərqli yanaşmaların kəskinləşməsi Zaqafqaziya seyminin dağılmasına və Cənubi Qafqazda yeni müstəqil dövlətlərin yaranmasına gətirib çıxardı. Danışıqlar iyunun 4-də Osmanlı dövləti ilə Cənubi Qafqaz resp.-ları arasında ayrı-ayrılıqda müqavilələr bağlanması ilə yekunlaşdı [bax *Batum müqavilələri* (1918)].

**BATUM MÜQAVİLƏLƏRİ (1918)** – Osmanlı dövləti ilə Cənubi Qafqaz resp.-ları arasında iyunun 4-də imzalanmışdır.

Osmanlı dövləti ilə Azərbaycan Xalq Cümhuriyyəti (AXC) arasında bağlanmış müqavilə. Osmanlı hökuməti tərəfindən ədliyyə naziri və Məclisi-Məbusanın sədri Xəlil Menteşe, Qafqaz cəbhəsinin komandanı Mehmet Vehib paşa, AXC tərəfindən isə Milli Şuranın sədri M.Ə. *Rəsulzadə* və xarici işlər naziri M. Hacınski imzalamışlar. AXC-nin xarici dövlətlərlə imzaladığı bu ilk müqavilə Azərbaycan-Türkiyə münasibətlərinin hüquqi əsasını təşkil etmişdir. 11 maddədən ibarət olan müqavilədə Türkiyə ilə AXC arasında sərhədlərin müəyyənləşdirilməsi, Türkiyə tərəfindən AXC-yə hərbi yardım göstərilməsi, sərhədboyu ərazilərdə yaradılmış silahlı erməni daşnak dəstələrini tərk-silah etmək və qovmaq barədə AXC hökumətinin öhdəliyi, d.y. vasitəsilə daşınan yüklərə dair tərəflərin öhdəlikləri, konsulluq konvensiyası, ticarət müqaviləsi və s. aktların hazırlanması, sərbəst gediş-gəliş, poçt-teleqraf əlaqələri, sonuncu maddədə isə müqavilənin bir ay ərzində ratifikasiya olunması və təsdiq edilmiş mətnlərin İstanbulda mübadiləsi nəzərdə tutulurdu. Azərb.-ın şərq qəzalarını bu bölgədə qırğınlar törədən bolşevik-daşnaklardan təmizləmək məqsədilə M.Ə. Rəsulzadə və M. Hacınski Azərb.-a hərbi yardım göstərilməsi üçün müqavilənin 4-cü maddəsinə əsasən Osmanlı dövlətinə müraciət etmiş, cavabında Türkiyə ordusunun 5-ci və 15-ci diviziyaları Azərb.-a göndərilmişdi.

Osmanlı dövləti ilə Gürcüstan arasında bağlanmış müqavilə. 13 maddədən ibarət olan müqavilədə Türkiyə-Gürcüstan arasındakı sərhəd xətti müəyyənləşdirilmiş, Qars, Ərdəhan və Batumun, həmçinin Axalsıxın və Axılkələkin (indiki Axalkalaki) Türkiyəyə keçməsi təsdiqlənmiş, Gürc.-da məskunlaşan müsəlmanların buradakı digər vətəndaşlar kimi mülki və siyasi hüquqlara malik olması təsbit edilmişdi.

Osmanlı dövləti ilə Ermənistan arasında bağlanmış müqavilə. 14 maddədən ibarət olan müqaviləyə görə, Ermənistan Brest-Litovk müqaviləsinin şərtlərini qəbul edir, Eçmiədzin və Aleksandropol (Gümrü) Türkiyəyə keçir, Türkiyə Aleksandropol–Culfa d.y.-ndan istifadə etmək hüququ alır, Ermənistan Resp.-nın ərazisi 10 min $km^2$ müəyyənləşdirilirdi; bu müqavilədə də müsəlmanların hüquqları ilə bağlı məsələlər əksini tapmışdı.

1918 il 4 iyun tarixli müqavilələrə əlavə sazişlər də imzalanmışdı. B.m. və ona əlavə sazişlərin imzalanması Osmanlı hökumətinin Cənubi Qafqaz resp.-larını rəsmən tanıdığını göstərirdi.

**BATUM VİLAYƏTİ** – Cənubi Qafqazda tarixi ərazi. 16 əsrdən Osmanlı dövlətinin tərkibinə daxil idi. 1877–78 illər Rusiya-Türkiyə müharibəsindən sonra Berlin traktatına (1878) əsasən Rusiyaya keçmiş ərazilərdə 1878 il sentyabrın 20-də (oktyabrın 2-də) B.v. yaradılmışdı. Vil.-in mərkəzi Batum ş. (indiki Batumi) olmuşdur. Əhalisinin sayı təqr. 110–120 min nəfər idi; əksəriyyətini müsəlmanlar təşkil edirdi. B.v. Batum, Artvin və Acar dairələrinə bölünürdü. Vil.-də hərbi-mülki idarəçilik mövcud idi. 1883 il iyunun 12-də (24-də) B.v. *Kutaisi quberniyasına* birləşdirildi. 1903 il martın 17-də (30-da) yenidən Batum və Artvin dairələrindən ibarət müstəqil inzibati ərazi vahidi oldu. 1904 ildə vil.-in ərazisi təqr. 6,9 min $km^2$, əhalisi 152,9 min nəfər idi. Əhali, əsasən, qarğıdalı, arpa, buğda, çəltik və subtropik bitkilərin becərilməsi ilə məşğul olurdu. Üzümçülük, tütünçülük və çayçılıq da inkişaf etmişdi. Sənaye istehsalı, əsasən, Batum dairəsində cəmləşmişdi. Batum portu vasitəsilə Qara dəniz və Azov dənizinin bütün portları ilə əlaqə saxlanırdı. 1883 ildə Batum–Tiflis–Bakı d.y. çəkilmişdi. 1905–07 illər inqilabı zamanı B. v.-ndə kütləvi fəhlə və kəndli hərəkatı yayılmışdı.

Birinci dünya müharibəsi (1914–18) zamanı Sarıqamış əməliyyatı (1914–15) B.v.-nin ərazisində keçirilirdi. Oktyabr çevrilişindən (1917) sonra Batumda siyasi vəziyyət kəskinləşdi. Eser-menşeviklər və daşnaklar noyabrın 2-də (15-də) İctimai təhlükəsizlik inqilabi komitəsini yaratdılar. Komitə dekabrda Qafqaz cəbhəsindən qayıdan rus əsgərlərinin tərk-silah olunması haqqında qərar verdi. *Brest sülhünə (1918)* görə, B.v., Ərdəhan və Qars Türkiyəyə keçməli idi. Martın 14-də Trabzonda Zaqafqaziya komissarlığı və seymi Türkiyə ilə danışıqlara başladı [bax *Trabzon konfransı (1918)*]. Zaqafqaziya seyminin nümayəndə heyəti Brest-Litovsk müqaviləsini tanıyıb-tanımamaq haqqında vahid fikrə gələ bilmədi. Aprelin 13-də Seym Türkiyəyə müharibə elan etdi. Türk qoşunları aprelin 14-də Batumu tutdu, 22-də sülh təklifi irəli sürdü. Aprelin 22-də Seym müstəqil *Zaqafqaziya Demokratik Federativ Respublikasının* yarandığını elan etdi. Türkiyə aprelin 28-də yeni dövləti tanıdı. Mayın 11-də *Batum konfransında (1918)* tərəflər arasında danışıqlar başlandı. Batumda Türkiyə idarə üsulu bərqərar edildi. Türkiyə hərbi qubernatorluğu ilə birgə şəhər duması və məclis fəaliyyətə başladı. Türkiyə ilə Gürcüstan Demokratik Respublikası arasında bağlanmış müqaviləyə (4.6.1918) görə, B.v.-nin Türkiyəyə keçməsi rəsmən qəbul edildi. Lakin Türkiyə Birinci dünya müharibəsində (1914–18) məğlub olduğu üçün, onun hərbi qüvvələri Cənubi Qafqazı tərk etdi. Dekabrın 16-da ingilis gəmiləri Batum portuna daxil oldu və vil.-dəki hakimiyyət ingilislərə keçdi. İngilislər Batumu özlərinin hərbi-siyasi dayaq məntəqəsinə çevirmək üçün onu müstəqil elan etdilər. "Vahid və bölünməz Rusiya" tərəfdarı kimi çıxış edən vilayət şurasını ingilislər aprelin 28-də ləvğ etdilər. B.v. ingilislərin işğal zonası kimi idarə olunurdu. 1919 il sentyabrın 13-də "Gürcüstan müsəlmanlarının azadlıq komitəsi" Batumda Acariya məclisi çağırdı. 1920 il aprelin 8-də Antanta Ali Şurası Batumu azad port (porto-franko) elan etdi. Sovet Rusiyası Batum ətrafında gedən hadisələrdə fəallıq göstərirdi. Rusiya ilə Gürcüstan arasında bağlanmış 1920 il müqaviləsində də bu məsələdən bəhs olunurdu. Gürcüstanda sovet hakimiyyətinin qurulması ilə (1921, fevral) vəziyyət dəyişdi. Türkiyə martın 11-də qoşunlarını Batuma yeritdi. Lakin *Moskva müqaviləsinə (1921)* əsasən, Türkiyə Gürcüstan Sovet Sosialist Respublikasının B.v. üzərində hüququnu tanıdı və öz qoşunlarını oradan çıxardı. Martın 18-də B.v.-ndə sovet hakimiyyəti elan olundu. 1921 il iyulun 16-da B.v. ərazisində Gürcüstan SSR tərkibində Acarıstan MSSR yaradıldı.

**BATUMİ** – Gürcüstanın c.-q.-ində şəhər. Acarıstan MR-in paytaxtı. Əh. 118,3 min (2005). Qara dənizdə port (yük dövriyyəsi ildə təqr. 7 mln. *t*; 70%-ni neft məhsulları təşkil edir; Gürcüstanın ən iri portudur). D.y. st. Aeroport.

B.-nin nə vaxt salındığı haqqında dəqiq məlumat yoxdur; *Böyük Plininin* əsərində qeyd olunur. Tamaristsixe qalasının (10–13 əsrlərdə yenidən qurulmuşdur) yaxınlığında tikilmişdir; "Batomi", "Batum" adları ilə məlum idi. 13–14 əsrlərdə B. və onun ətrafı müxtəlif knyaz nəsillərinə (13 əsrin sonu – 14 əsrin əvvəllərində minqreliyalı Bedianilərə, 14 əsrin sonlarında isə Quriyeli knyazlarına) məxsus olmuşdur. 16 əsrin 2-ci yarısında türklər tərəfindən tutulmuşdur. *Berlin traktatına (1878)* görə, B. Rusiyanın təbeliyinə keçmişdir. 1878–83, 1903–21 illərdə Batum vilayətinin mərkəzi olmuşdur. 19 əsrin sonları – 20 əsrin əvvəllərində B. mühüm sənaye mərkəzi və iri port (neft məhsullarının daşınması) idi; B. ilə Bakı arasında d.y. (1883) və neft kəməri (1907) işləyirdi. 1921 ildən Acarıstan MSSR-in paytaxtı olmuşdur; *Qars müqaviləsinə (1921)* görə Gürc.-ın tərkibində B. və Acarıstanın muxtariyyət statusu təsbit edilmişdir. 1990 ilin dekabrından Gürc.-ın tərkibində Acarıstan MR-in paytaxtıdır.



Batumi şəhərindən görünüş.

B.-də Gürc. EA-nın və Gürc. Kənd Təsərrüfatı Elmləri Akademiyasının Acarıstan elmi mərkəzləri, 14 elmi tədqiqat müəssisəsi yerləşir. Ş. Rustaveli ad. un-t (1990 ildə pedaqoji in-tun bazasında yaradılmışdır), Dəniz akademiyası, konservatoriya (1998; əsası 1929 ildə qoyulmuş musiqi məktəbinin bazasında yaradılmışdır), in-tlar (politexnik, kənd təsərrüfatı, incəsənət və s.), 16 özəl ali təhsil müəssisəsi; 12 kitabxana, o cümlədən Acarıstan resp. kitabxanası fəaliyyət göstərir. Muzeylər: arxeoloji, təsviri sənət, inqilab; teatrlar: İ. Çavçavadze ad. dram (1937), opera və balet (1993). 1921 ildə Acarıstan xoru (sonralar Acarıstan dövlət mahnı və rəqs ansamblı) və filarmoniya (1929 ildə nəzdində həmçinin simfonik orkestr, vokal və instrumental ansambllar yaradılmışdır), 1977 ildə Dövlət simfonik orkestri təşkil edilmişdir. B.-də Böyük simfonik orkestr (1998), Dövlət xor kapellası (1998), Qadın kamera xoru (1997), bir sıra folklor ansamblı fəaliyyət göstərir. 1987 ildən "Batumi musiqi payızı" beynəlxalq opera musiqisi festivalı, 1996 ildən tenorların D. Andquladze ad. beynəlxalq müsabiqəsi keçirilir.

Neft emalı, gəmiqayırma; çay sənayesi üçün avadanlıq istehsalı və s. inkişaf etmişdir.

B. yaxınlığında *Batumi botanika bağı* (1912 ildə yaradılmışdır) yerləşir. B.-də dənizkənarı iqlim kurortları (1923 ildən) ilboyu fəaliyyət göstərir; tənəffüs orqanları xəstəlikləri (qeyri-vərəm xassəli), ürək-damar və sinir sistemləri xəstəliklərinin müalicəsində iqlim talassoterapiyası tətbiq edilir.

**BATUMİ BOTANİKA BAĞI** – Gürc.-da, Acarıstan MR-in ərazisində, Qara dəniz sahilində, Batumi ş. yaxınlığındadır. Sah. təqr. 120 *ha*. 1912 ildə rus botanika alimi A.N. Krasnov tərəfindən yaradılmışdır. 5 mindən çox bitki növü və növmüxtəlifliyi var. Çay, sitrus və digər subtropik meyvələr becərilir. Turizm obyektidir.

**BATUN**, b a t u n s o ğ a n, t ü t ə k v a r ı s o ğ a n – *zanbaqkimilər* fəsiləsinin soğan cinsindən çoxillik bitki. *Baş soğandan* az fərqlənir, lakin onun yarpaqları daha sıx və iridir. Kiçik soğanağı



Batun soğan.



Bat-Yam şəhərindən görünüş.

silindrşəkillidir. Toxumu baş soğanın toxumundan xırdadır. Vegetasiya dövrü ərzində hər dəfə kəsiləndən sonra (hətta qışda da) göy yarpaqlar əmələ gəlir. Tərkibi askorbin turşusu (baş soğandan 2 dəfə çox), A, $B_1$, $B_2$, P vitaminləri, mineral duzlar və bioloji aktiv maddələrlə zəngindir. Hər *ha*-dan (300 *s*-dən artıq məhsul yığılır). Xalq təbabətində qan təzyiqinin aşağı salınmasında, kapilyarların elastikliyinin artırılmasında istifadə edilir. Zərərvericiləri və xəstəlikləri baş soğandakı kimidir.

**BATÚRİN** Vladimir Petroviç (27.9.1902, Stavropol – 7.11.1945, Moskva) – rus geoloqu, geologiya-mineralogiya e.d. (1945), SSRİ Dövlət mükafatı laureatı (1948). Leninqrad Dağ-mədən İn-tunu bitirmişdir (1927). Azərb. Politexnik İn-tunun (indiki AzTU) assistenti və dosenti (1927–31), 1934 ildən SSRİ EA-nın Yanar Faydalı Qazıntılar İn-tunda paleocoğrafiya laboratoriyasının müdiri olmuşdur. Ural-Emba və Ural-Volqa neftli-qazlı vilayətlərinin geologiya və litologiyasını tədqiq etmişdir. Paleontoloji qalıqların az olduğu çökmə qatları öyrənmək üçün qırıntı süxurların mineraloji tərkibinin tədqiqinə əsaslanan metodu işləyib hazırlamışdır.

Əsəri: Палеогеография по терригенным компонентам. М.; Баку, 1937.

**BATÚT** (fr. batoude, ital. battuta – hərfi mənada zərbə) – idman aləti; rezin amortizatorlarla metal çərçivəyə üfüqi vəziyyətdə bərkidilmiş hörmə tor. Döşəmədən 1,2 *m* hündürdə olur. İdmançı tora təkan vuraraq, amortizasiya qüvvəsi ilə itələnib, havada müxtəlif akrobatik hərəkətlər edir. B.-dan akrobatların, gimnastların, suya tullananların, həmçinin təyyarəçi və kosmonavtların hazırlıq məşqlərində geniş istifadə oluur.

**BAT-YAM** – İsrailin q.-ində şəhər. Aralıq dənizi sahilində, Təl-Əviv–Yaffa şəhər aqlomerasiyasının c. hissəsindədir. Əh. 131 min (2005; əsas hissəsini keçmiş SSRİ-dən olan immiqrantlar təşkil edir; karaimlərin dini icma üzvlərinin kompakt yaşadığı mərkəzlərdən biridir).

1926 ildə Bayt-va-Qan adı ilə Yaffanın şəhərətrafı məhəlləsi kimi salınmış, 1936 ildə B.-Y. adlanmış, 1958 ildə şəhər statusunu almışdır. İsrail Açıq (qiyabi) un-tinin kampuslarından biri burada yerləşir. Muzeylər, o cümlədən İ. Ribak ad. rəssamlıq muzeyi (müasir rəngkarlıq və heykəltəraşlıq ekspozisiyası), arxeoloji muzey və s., Mərkəzi kitabxana fəaliyyət göstərir. Beynəlxalq küçə teatrları festivalları keçirilir. Poliqrafiya, metal emalı, toxuculuq, yeyinti sənayesi müəssisələri var. Topdansatış ticarəti və xidmət sahələri (o cümlədən səhiyyə müəssisələri, turizm biznesi) inkişaf etmişdir. Su idmanı növləri mərkəzidir, yaxt-klublar var. B.-Y.-dan şm.-da Yaffa dəniz portu yerləşir.

**BÁTYUŞKOV** Konstantin Nikolayeviç (29.5.1787, Voloqda – 19.7.1855, Voloqda) – rus şairi. İlk şeiri 1805 ildə çap olunmuşdur ("Şeirlərimə müraciətim"). 1817 ildə "Nəzmdə və nəsrdə təcrübələr" adlı ikicildlik kitabı nəşr edilmişdir. Şeirlərində həyat eşqi, dostluq, məhəbbət, şəxsiyyət azadlığı tərənnüm olunur. Sənətə münasibətini "Mənim Penatlarım" (1814) şeirində ifadə etmişdir. 1812 il Vətən müharibəsi, Moskvanın yandırılması və şəxsi sarsıntılar B. yaradıcılığında bədbinlik motivlərinin güclənməsinə səbəb olmuşdu ("Melxisedekin kəlamı", 1821 və s.). Şeirləri obrazların canlılığı, ahəngdarlığı ilə seçilir. Oçerklər, ədəbiyyat və incəsənət haqqında məqalələr də yazmışdır. F. Petrarka, T. Tasso, E. Parni, Tibull və antik dövrün b. şairlərindən etdiyi tərcümələr ("Yunan antologiyasından", 1817–18) B. yaradıcılığında xüsusi yer tutur. B. poeziyası və nəsrinin sonrakı rus ədəbiyyatının inkişafına, o cümlədən A.S. Puşkinin yaradıcılığına böyük təsiri olmuşdur. 1822 ildə ruhi xəstəliyə tutulmuşdur.

Əsərləri: Полн. собр. стихотворений. М.-Л., 1964; Избр. соч. М., 1986.

**BÁUÇİ** – Mərkəzi Sudanda *Sokoto* xilafətinin (indiki Nigeriya ərazisi) tərkibində 19 əsr – 20 əsrin əvvəllərində mövcud olmuş əmirlik. *Osman dan Fodio üsyanı* nəticəsində yaranmışdır. Dövlətin banisi əmir Yaqubunun [1805–45] hakimiyyəti illəri B.-nin çiçəklənmə dövrü olmuş, qonşu dövlətlərlə uğurlu müharibələr nəticəsində ərazisi genişlənmiş, paytaxtı Bauçi ş. salınmışdır (1809). Yaqubunun xələfləri dövründə B. əmirlərinin hakimiyyəti xeyli zəifləmişdi. 19 əsrin sonlarında dövlətin tənəzzülü başladı. Britaniya hərbi dəstəsi tərəfindən müqavimətsiz tutulduqdan (1902, fevral) sonra Britaniyanın Şimali Nigeriya protektoratının tərkibinə daxil edilmişdir.

**BÁUER** Bruno (6.9.1809, Türingiya, Eyzenberq – 15.4.1882, Riksdorf, hazırda Berlinin hüdudlarındadır) – alman filosofu, dinşünas, bibliyaçı, publisist. 1828–34 illərdə Berlin Un-tində təhsil almış, sonra burada teologiyanı tədris etmişdir (1834–39). 1839 ildən Bonn Un-tində dərs demişdir; dərc etdirdiyi iki əsərinə ("Kritik der evangelischen Geschichte des Yohannes", 1840; "Kritik der evangelischen Geschichte der Synoptiker", 1841) görə kral IV Fridrix Vilhelmin şəxsi göstərişi ilə işdən azad olunmuşdur. Bir sıra siyasi və dini qəzet və jurnal nəşr edən B. hegelçiliyin sol radikal qanadına – "gənc hegelçilər"ə mənsub idi. Xristianlığın qaynaqlarını yunan-Roma antik fəlsəfəsi ənənələrində, hər şeydən öncə, *stoisizmdə* və *qnostisizmdə* görürdü. B.-in fəlsəfi baxışlarında insanın emansipasiyası anlayışı mühüm yer tutmuşdur. B.-ə görə, xristianlığın "özgələşdirən", transsendent təbiəti onun rasional-tarixi mənşəyinin sübutu ilə dağılır.

**BÁUER** Volfqanq (18.3.1941, Qrats – 26.8.2005, Qrats) – Avstriya yazıçısı. Avstriyanın Böyük dövlət mükafatı laureatı (1994). Filologiyanı, fəlsəfəni və hüquq elmini öyrənmişdir. Burjuaziya əleyhinə yönəlmiş "Günortadan sonra sehrli zaman" pyesinin Hannoverdə tamaşasından (1968) sonra B. Avropadakı tələbə çıxışları və onların "solçu" ideologiyası ilə əlaqəli Avstriya dramaturqlarının ön sırasına çıxmışdı. *Absurd teatrı* üçün səciyyəvi olan ironiya və priyomlarla o, müasir cəmiyyətin mənəviyyatsızlığını, şablon düşüncə tərzini, kütləvi mədəniyyətdən asılılığını ifşa etmişdir: "Mübadilə" (1969), "Biz haradan gəlmişik? Kimik? Hara gedirik?" (1982), "Cənab Faust ruletka oynayır" (1987), "Ah, zavallı Orfey" (1991), "Tamaqoçi kafesi" (2001) və s. pyesləri. Tənqidçilər onun bütün pyeslərini "infernal fars" janrına aid etmişlər: hamısını bir mövzu əsasında işləməklə B. bütün yazdıqlarını "çoxpərdəli böyük bir pyes" hesab edirdi. Şair, nasir ("Qızdırmalı baş" romanı, 1967), publisist kimi də tanınmışdır.

**"BÁUER-QRÚPPE"** – "Haynrix Bauer Ferlaq KG" ("Heinrich Bauer Verlag KG") nəşriyyat konserninin qısaldılmış adı. Əsası 1875 ildə qoyulmuşdur. İdarəetmə orqanları və istehsal qüvvələri Hamburq, Münxen və Kölndə yerləşir. "Bravo", "Auf aynen blik" ("Auf einen Blick"), "Fernzehvoxe" ("Fernsehwoche"), "TV Klar", "Tina", "Noye post" ("Neue Post"), "TV-Motive" və s. yüksəktirajlı populyar jurnallar nəşr edir. Özəl radio yayımında fəal iştirak edir; "RTL2" Münxen özəl televiziya stansiyasına məxsus səhmlərin 33%-nin sahibidir.

**BÁUGİN** (Bauhin) Boen Kaspar (17.1.1560, Bazel – 5.12.1624, Bazel) – İsveçrə botaniki, bitki anatomu və sistematiki. Bazel Un-tinin 1588 ildən botanika və anatomiya prof.-u, 1614 ildən tibb prof.-u olmuşdur. K. *Linney* tərəfindən qəti olaraq tətbiq edilən binar nomenklaturanı (1620–23) ilk təklif edənlərdən biridir. Heyvanların bağırsağında Baugin qapağını (qalça-kor bağırsağa aid) təsvir etmişdir. B.-in botanik olan böyük qardaşı İohann (12.2.1541–27.10.1613) – 5000 bitki növünün təsvirini vermişdir.

Əsərləri: Anatomia corporis virilis et muliebris historia. Lugduni, 1597; Prodromus theatri botanici. Francofurti, 1620; Theatrum anatomicum. Francofurti, 1621; Historia plantarum universalis. Ebroduni, 1650–1661. Vol. 1–3 (en coop. avec J.H. Cherler); Pinax theatri botanici. Basileae, 1671.

**BAUHÁUZ** (Bauhaus, alm. İnşaat evi) – rəssamlıq məktəbi və yaradıcılıq birliyi. 1919 ildə V. *Qropius* tərəfindən Veymar Ali rəssamlıq və tətbiqi sənət məktəblərinin birləşdirilməsi yolu ilə yaradılmışdır. 1925 ildə Veymardan Dessauya, 1932 ildə Berlinə köçürülmüşdür. 1919–25 illərdə Dövlət Bauhauzu; 1925 ildən Bauhauz Ali formayaradıcı məktəbi; 1932–33 illərdə Bauhauz. 1933 ildə nasist hakimiyyəti dövründə ləğv edilmişdir. B.-a ilk dövrlərdə *neoromantizm* ideyalarının təsiri olmuşdur. C. *Reskin*, U. *Morris*, X. van de *Velde*, P. *Berens* və b. B.-un görkəmli nümayəndələri idi. B.-un manifestində (1919) *incəsənətin sintezi* məsələsi qoyulurdu; orta əsrlər inşaat gildiyaları ruhunda icma yaradılmışdı. Tələbələrin təhsilində hamiliyə, sənətkarlığın mənimsənilməsinə və ənənəvi materiallardan istifadəyə üstünlük verilirdi. B.-un Veymar dövrünün başlıca əsərləri pafos və stilistikasına görə *ekspressionizmə* yaxın idi (Berlində Zommerfeldin evi, 1920–21, Qropius və B.-un emalatxanaları). T. van *Dusburq* (1921–22) və L.M. *Lisitski* (1922) Veymar mühitinə özləri ilə *konstruktivizm* və *"De Steyl"* qrupunun ideyalarını gətirmişdilər. Bu ideyaların təsiri ilə B. estetikası formalaşmışdı. Dessauya köçürüldükdən sonra B.-da onu yeni maddiyyət mərkəzinə çevirən utilitarizm və maşın estetikası təmayülləri üstünlük təşkil etmişdir. Bu dövrdə B.-un özünün *funksionalizm* adlanan üslubu yaranmışdı. Qropiusun layihəsi əsasında məktəb üçün binalar (tədris korpusları, müəllimlər üçün evlər, 1926–28) tikilmişdi. X. *Meyerin* rəhbərlik etdiyi dövrdə (1928–30) B.-da memarlıq şöbəsi (1927 ildə yaradılmışdır) aparıcı rol oynayırdı. Məşğələlərdə ictimai elmlərə (o cümlədən sinfi mübarizə nəzəriyyəsinə) xüsusi əhəmiyyət verilirdi. Sənaye və fərdi sifariş nümunələrinin hazırlanması üçün emalatxanalar fəaliyyət göstərirdi. 1930–33 illərdə L. *Mis van der Roenin* rəhbərliyi dövründə məktəb memarlıq təhsili istiqamətində formalaşdı; əsas diqqət tələbələrin peşəkarlığının inkişafına yönəldilmişdi; emalatxanaların bir hissəsi bağlanmışdı. Müxtəlif illərdə V.V. *Kandinski*, P. *Kleye*, L. *Feyninger*, O. *Şlemmer*, G. *Muxe* və b. məktəbdə dərs demişlər. B. irsinə memarlıq abidələri, dizaynın klassik nümunələri, boyakarlıq, heykəltəraşlıq və qrafika əsərləri, səhnə eksperimentləri, fotoqrafiya sənəti və kitab tərtibatı sahəsində təcrübələr, sərgilər, nəşrlər, o cümlədən "Bauhauzun kitabları" seriyası və s. daxildir. B.-da 20 əsrin bədii ideologiyasının əsas prinsipləri, həmçinin memarlığın həyat quruculuğu və sosial missiyası formalaşmış (qismən də həyata keçirilmiş), müasir insanın əhatəsinin ayrılmaz hissəsinə çevrilən dizayn formaları yaradılmışdır.

**BAUİT** – Misirin Asyut mühafazasında qibti monastırı. Əsası 360-cı illərin əvvəllərində Müq. Fivalı Apolloni tərəfindən qoyulmuşdur; təqr. 1160 ildə dağıdılmışdır. "Suriya" tipli 2 kilsənin (6 əsr), hücrələrin, 40-dan artıq kiçik kilsənin və tikililərin xarabalıqları; Şərq-ellinist üslubunda çoxsaylı divar rəsmləri (6–7 əsrlər; Qibti muzeyi, Qahirə), ağac və daş üzərində oymalar saxlanılmışdır. 7–8 əsrlərə aid papirus manuskriptləri, üzərində ibadətdən təsvir olunan qibti parçasının fraqmenti (5–6 əsrlər, Dövlət Təsviri Sənət Muzeyi, Moskva), 6–7 əsrlərə aid mumlu boyakarlıq ikonaları ("Yepiskop Avraami", Dövlət muzeyləri, Berlin; "İsa və Müq. Mina", Luvr, Paris) B.-lə bağlıdır.

**BAULELƏR**, boulilər, baurelər – Kot-d'İvuarın mərkəzi və c. rayonlarında *akanların* qrupundan xalq. *Anyilərə* yaxındır. Sayları 1,8 mln. nəfərdir (2000). B.-ə uarebolar, faafuelər, nanafuelər, safuelər, nziprilər, aqbalar, aitutular (atular, atutular), ayololar (sattikanalar), nqbalar, abelər, kodelər, brular (brolar), sanalar, faliləг, ayyaular, yurelər və b. qruplar daxildir. *Kva dillərinin* tano qolunun mərkəzi qrupunun bia yarımqrupunun baule dilində danışırlar. Dindarlarının təqr. 45%-i ənənəvi etiqadlarını saxlayır, təqr. 50%-i xristian, təqr. 3%-i isə (əsasən, şəhərlərdə) müsəlmandır.

Rəvayətə görə, B.-in əcdadları 18 əsrin ortalarında qadın hökmdar Aura Pokunun başçılığı ilə Nzi və Bandama çayarasına köçən *aşantilər* qrupu olmuşdur. Müasir tədqiqatçılar hesab edirlər ki, B. 17–18 əsrlərdə Qərbi Qanadan indiki əraziyə köçən və burada Uarebo (Sakasu), Aitu, Nanafue, Faafue və s. icma birliklərini – omanları yaradan müxtəlif akan qrupları əsasında təşəkkül tapmışlar. Səma ruhu Nyamiye, demiurq Adudua və s. kultlar yayılmışdır. Aşantilərdə olduğu kimi, B.-də qızıldan bəzək əşyalarının hazırlanması inkişaf etmişdir (maska, balıq, ilan formasında asmalar, qızıl tozu üçün fiqurlu kiçik çəki daşları və s.). Rəvayətə görə, ağac üzərində oyma sənəti (üzlük və dəbilqə maskalar, qoşa maskalar, ölmüş qohumların ruhlarının rəmzi olan vaka-sono heykəlcikləri; Yamsa bayramı zamanı nəzir şərabı

üçün əlində piyalə tutan zooantropomorf mbotumbo fiqurları; evlərin qapılarında nəslin tarixini əks etdirən və s. süjetli relyeflər) qonşu qurolar və *senufolardan* mənimsənilmiş, metalişləmə texnikasından bəhrələnmişdir. Musiqi və rəqs folkloru inkişaf etmişdir, müxtəlif əfsanələri, nağılları, təmsilləri, zərb-məsəlləri və s. vardır.

**BAULLAR** (benqalca – "dəli", "divanə") – orta əsrlərin xüsusi dini ənənəsini yaratmış benqal yoxsul şair-müğənniləri.

B. hamılıqla qəbul olunmuş dini ehkamları və sosial normaları (o cümlədən kasta normalarını), həmçinin məbəd mərasimlərini inkar edir, gizli ritualları həyata keçirirdilər.

Özündə ilahi başlanğıcı təcəssüm etdirən ruhani müəllimə-quruya sitayiş xüsusi əhəmiyyət kəsb edirdi. B.-ın yaratdıqları dini ənənəni bütövlükdə tantrist, yoqa və sufi təlimləri əsasında hinduist (əsasən, vişnuist), buddist və müsəlman görüşlərinin çulğaşması kimi səciyyələndirmək olar. Allaha müxtəlif adlar (adların bu və ya digər din ilə bağlı meydana gəlməsindən asılı olmayaraq) verən B. onu insan qəlbində yerləşən ali ruhani başlanğıc kimi başa düşür, rituallarında mərkəzi yer tutan sakral cinsi aktı onunla qovuşmağın ən yaxşı üsulu (məqsədi fiziki ehtirası Allaha olan xalis ruhi məhəbbətə çevirmək və onunla mistik qovuşmaq idi) hesab edirdilər.

B.-ın musiqini, poeziyanı və rəqsi birləşdirən şifahi yaradıcılığı onların həyatının və vaizlik fəaliyyətlərinin əsas komponenti, benqal mədəniyyətinin mühüm qatlarından biridir. B.-ın spiritual təcrübə (sadhana) ilə bağlı ekstativ, yaxud meditativ dini nəğmələrində Allaha yönələn sevgi çox zaman eyhamlar, mənası yalnız agah olanlar üçün sona qədər açılan müəmmalı sözlərlə təsvir edilir. Poetik ənənə, əsasən, baul-qúruların yaradıcılığında formalaşmış və çox vaxt sosial, yaxud siyasi məna kəsb etmişdir. 5000-ə yaxın poetik mətnin yaranması məşhur quru Lalon Fakirin (1774–1890/91) adı ilə bağlıdır. B.-ın musiqi-poetik və fəlsəfi ideyalarının R. *Taqora* çox böyük təsiri olmuşdur. Haure Qosayn (1795–?), Qosayn Qopal (1869–1912), 20 əsrdə Nabani das Khyapa Baul, onun oğlu Purna das Baul Samrat, həmçinin Ümumhindistan radiosu ilə ilk dəfə B.-ın mahnılarını təqdim edən Sonatan das Thakur Baul da B. hərəkatının görkəmli nümayəndələri olmuşlar. B.-ın musiqi-poetik stilistikası fərqləndirici cəhətlərə malikdir; ehtimal ki, mənşəcə qədim benqal janrı karyaqan ilə bağlıdır. B. müəyyən alətlər dəstindən istifadə edirlər: yayla çalınan simli sarinda, barmaqla çalınan dotara; simli alətlərlə membranofon arasında aralıq yer tutan ektara, qopri yantra (ananda lahari); khamak, dholak, tabla, mridanq membranofonları; sinc-kartal (mancir); portativ fisqarmon (qarmonium).

**BÁUMAN** Ziqmunt (d.19.11.1925, Polşa, Poznan) – ingilis sosioloqu. İkinci dünya müharibəsinin başlanğıcında SSRİ-yə mühacirət etmiş, Polşa Ordusu sıralarında hərbi əməliyyatların iştirakçısı olmuşdur. Müharibədən sonra Varşava Un-tində təhsil almış və sonra orada dərs demişdir. 1968 ildə ikinci dəfə Polşadan mühacirət etmişdir. 1968–71 illərdə Təl-Əviv Un-tində prof.; 1971–90 illərdə Lids (B.Britaniya) Un-tində prof. və sosiologiya fakültəsinin dekanı vəzifəsində çalışmışdır.

Yaradıcılığının Varşava dövründə B.-ın elmi maraqları, əsasən, sosializm nəzəriyyəsinin inkişafına yönəlmişdi. B. *postmodernin* sosial nəzəriyyəçisidir. Əsərlərinin mövzusu: cəmiyyətin fərdiləşməsi və *qloballaşma* şəraitində insan azadlığı; insan nəzarəti xaricindəki sosial inkişaf amillərinin artması və insanın identikliyi; sosial nəzarət və sosial strukturların legitimasiyasında intellektualların rolu; intellektualların siyasətdə və mədəniyyətdə öz rolunu yenidən dərk etməsi; utopiyanın sosial funksiyaları; soyqırımı texnokratiya sivilizasiyasının immanent keyfiyyəti kimi.

Əsərləri: Legislators and interpreters. Camb., 1987; Modernity and the Holocaust. Camb., 1989; Modernity and ambivalence. Oxf., 1991.

**BÁUMQARTEN** Aleksandr Qotlib (17.6.1714, Berlin – 26.5. 1762, Frankfurt-Oder) – X. *Volf* məktəbinə mənsub alman filosofu, xüsusi fəlsəfə fənni kimi estetikanın banisi. Qnoseologiyada Q.V. Leybnits və X. Volfun ardınca məntiqin predmeti olan ali (şüurlu) idrakı və aşağı (hissi) idrakı fərqləndirmişdir; hissi idrak nəzəriyyəsini ilk dəfə B. estetika adlandırmışdır ( belə qnoseoloji mənada "estetika" terminini "Xalis zəkanın tənqidi"ndə İ. Kant da işlətmişdir). B.-ə görə, estetika həm də gözəllik nəzəriyyəsi idi, çünki o, kamilliyin hissi qavrayışını gözəllikdən zövq almaqla əlaqələndirirdi. Hissi idrakın kamilliyi olan gözəllik, B.-ə görə, üç elementin – məzmun, nizam və ifadənin harmoniyasından (uzlaşmasından, konsensusdan) ibarətdir. Fəlsəfə terminologiyasının inkişafında B.-in xidməti böyükdür. "Subyektiv" və "obyektiv" terminlərini müasir mənasında, "özündə" (özlüyündə) və "özü üçün" terminlərini elmi dövriyyəyə B. daxil etmişdir. B. bütün əsərlərini latınca yazmışdır.

Əsərləri: Metaphysica. Halae Magdeburgicae, 1739; Aesthetica. Frankfurt am Oder, 1750–1758. Bd. 1–2.

*Əd:* Асмус В.Ф. Немецкая эстетика XVIII в. 2-е изд. М., 2004.

**BÁUMQARTEN** Paul (28.8.1848, Drezden – 1928, Tübingen) – alman patoloqu və bakterioloqu. Leypsiq Un-tinin tibb fakültəsini bitirdikdən sonra oradakı Anatomiya İn-tunda assistent (1873), Königsberqdə (indiki Kalininqrad) Patoloji Anatomiya İn-tunda prozektor (1874) işləmiş, Tübingendə Patoloji Anatomiya İn-tunun prof.-u və direktoru (1889–1919) olmuşdur. Əsas işləri vərəm probleminə həsr edilmişdir. 1882 ildə R. *Koxla* eyni vaxtda (ondan asılı olmadan) vərəm törədicisini kəşf etmişdir. Vərəm qabarcığının histogenezini, vərəm zamanı iltihabi dəyişiklikləri, törədicisinin transplasentar yoluxmasını tədqiq etmişdir; vərəm infeksiyasının ancaq irsi keçməsi konsepsiyasının tərəfdarı olmuşdur. Patogen mikroorqanizmlərə dair dərsliyin (1911) və "İltihab, tromboz, emboliya və metastaz ən yeni tədqiqat baxımından" (1925) monoqrafiyasının müəllifidir.

**BÁUMOL** Uilyam Cek (d. 26.2.1922, Nyu-York) – Amerika iqtisadçısı, fəlsəfə doktoru (1949). Prinston (1954–92) və Nyu-York (1971 ildən) un-tlərinin prof.-rudur. Amerika İqtisadi Assosiasiyasının prezidenti (1981), Nyu-York Un-ti nəzdində C.V. Starr Tətbiqi İqtisadiyyat Mərkəzinin direktoru (1983–2000) olmuşdur. Hazırda Berkli Sahibkarlıq və İnnovasiya Mərkəzinin akademik-direktorudur. Mikro və makroiqtisadi proseslərin riyazi modelləşdirilməsi, rifahın iqtisadiyyatı və s. sahələrdə əsərləri var.

1952 ildə, sonradan (1956) C. *Tobin* tərəfindən inkişaf etdirilmiş pula tələb modelini təklif etmişdir. Baumol-Tobin modeli adlanan bu modelə əsasən, əmanətçilər onlara lazım olan nağd pulun məbləğini bu məbləğə görə alınmayan bank faizi şəklində itkilərin və banklara az-az müraciət etmələr müqabilində vaxt qənaitinin dəyərinin optimal nisbətinə görə müəyyən edirlər. B. 1967 ildə *Baumol effektini* irəli sürmüşdür.

Əsərləri: Экономическая теория и исследование операций. М., 1965; Selected Economic Writtings of William J. Baumol, ed. E.E. Bailey. New-York University Press, 1976.





**BÁUMOL EFFEKTİ** – Amerika iqtisadçısı U.C. *Baumol* tərəfindən irəli sürülmüşdür (1967). B.E. iqtisadi inkişaf dövründə xidmətlərin qiymətlərinin emal sənayesi məhsullarının qiymətlərinə nisbətən daha sürətlə artmasını nəzərdə tutur.

**BÁUNT** – RF-də, Buryatiya Resp.-nın şm.-ında göl. Sipa çayı dərəsindədir. Sah. 111 $km^2$, dərinliyi 33 *m*-ədək. Cənubi Muy silsiləsini Vitim yastıdağlığından ayıran dağarası çuxurda, 1059 *m* hünd.-də yerləşir. Yuxarı Sipa və Sipikan çayları B.-a tökülür; Aşağı Sipa çayı (Vitim çayının qolu) B.-dan başlanır. Noyabrdan mayadək donmuş olur.

**"BAUNTİ"** ("Baunty") – 1789 ildə Britaniya donanmasının tarixində ən məşhur qiyamın baş verdiyi gəmi. Komanda heyətinin bir hissəsinin qiyamı 1789 il aprelin 28-də gəmi Tonqa a-rında olarkən başlandı. Qiyam başçısı şturman K. Fletçer tərəfindən barkasa mindirilmiş kapitan U. Blay, zabitlər və anda sadiq qalan matroslar bu kiçik gəmidə su və ərzaq qıtlığı şəraitində 3168 dəniz mili qət edərək Timor a.-nadək 40 günlük misilsiz səyahət etmişlər. K. Fletçer və onun 8 silahdaşı qiyam zamanı passivlik göstərən matrosları Taiti a.-nda düşürdərək, Taiti və Tubuai adalarından 10 kişi və 12 qadın gəmiyə götürmüş, onlarla kimsəsiz Pitkern a.-na üzərək 1790 ilin yanvarında burada məskən salmışlar. 1791 ildə Britaniya hakimiyyət orqanları Taitidə qalan matrosları həbs etmişdi; Londona aparılarkən gəmi qəzasından sonra sağ qalmış 10 matros mühakimə olundu, onlardan üçünə ölüm cəzası kəsildi. İngilislər ilə polineziyalılar arasındakı qanlı toqquşmalardan sonra Pitkern a.-nda məskən salmışlardan yalnız matros C. Smit sağ qalmışdı. O, Adams adını qəbul edərək 10 taitili qadın və 19 uşaqdan ibarət koloniyanın başçısı və dini rəhbəri oldu. 1825 ilin dekabrında Britaniya kapitanı F.U. Biçi Pitkern a.-nda olmuşdu, Adams bağışlanmış, ada isə Britaniyanın mülkü elan edilmişdi.

"B." gəmisində baş vermiş qiyamla bağlı hadisələrə ədəbiyyatçılar və kinematoqrafçılar dəfələrlə müraciət etmişlər: C. Bayron ona poema, R. Merl "Ada" romanını həsr etmiş, ABŞ-da isə üç film çəkilmişdir (1935, 1962, 1984).

**BAURÚ** – Braziliyanın c.-ş.-ində, San-Paulu ştatında şəhər. Əh. 254 min (2003). K.t. r-nunun (pambıq, dəri, sitrus, südlük heyvandarlıq) ticarət mərkəzidir. Kimya, yeyinti, yüngül (pambıq parça), ağac emalı sənayesi müəssisələri var. 1889 ildə salınmışdır.



Baunt gölü.

**BÁUŞ** (Bausch) (əsl soyadı Filippine, Philippine) Pina (d. 27.7.1940, Zolingen) – alman balet artisti, xoreoqraf. 1954 ildən "Folkvanq" məktəbində K. Yossdan (Essen), 1960–61 illərdə Nyu-Yorkdakı Culyard məktəbində A. Tüdordan dərs almış, "Metropoliten-Opera"da onun truppasında oynamışdır. 1962 ildən Almaniyada "Folkvanq-balet"də (1969 ildən rəhbəri) çıxış etmişdir. 1973 ildən Vuppertalda truppanın xoreoqrafı olmuş, ənənəvi formalardan imtina edərək və özünün "rəqs teatrı" janrını yaratmışdır. Əvvəlcə modern rəqs əsasında verdiyi quruluşlar narazılıqla qarşılanmış, lakin İ.F. Stravinskinin "Müqəddəs bahar" (1975) və "Yeddi bağışlanmaz günah" (mətni B. Brextin, musuqisi K. Vaylın, 1976) tamaşaları ona uğur gətirmişdir. 1980-ci illərdən B. müasir Qərb teatrının aparıcı xoreoqrafları sırasına daxil olmuş, 1920-ci illərin alman ekspressionist rəqs ənənələrini yeni formalarda davam etdirmişdir. B.-un quruluşlarına rəqslə bərabər mətn və mahnı, dramatik oyun və ekssentriklilik, qrotesk, kostyum və aksessuarlar, həmçinin müxtəlif quruluş effektləri daxildir: "Müqəddəs bahar"da səhnə yaş torpaqla örtülmüş, "Ariya"larda (1979, yığma musiqi) səhnəyə su səpilmiş, "Qərənfillər"də (1982, yığma musiqi) – güllərlə örtülmüşdür. Tamaşalarda rəvan süjet olmasa da, müasir cəmiyyətin ən ağrılı mövzularına toxunulur: (bəzən ağılsızlıqla yanaşı duran qorxu və qəddarlıq, siyasi, irqi, seksual problemlər və s.). H. Pörsellin musiqisinə "Müller kafesi" (1979); "Qaranlıqda iki siqaret" (1985), "Palermo, Palermo" (1991) və "Pəncərəyuyan" (1996, hamısı yığma musiqi əsasında) ən məşhur tamaşalarıdır.

**BÁUTS** (Bouts) Dirk (təqr. 1415, Harlem – 6.5.1475, Löven) – Niderland rəssamı. 1457 ildən Lövendə işləmişdir. Yaradıcılığına Rogir van der Veydenin və Y. van Eykin təsiri olmuşdur. Qədim Niderland rəssamlıq ənənəsini bir sıra mühüm nailiyyətləri ilə zənginləşdirmişdir: o cümlədən, fon peyzajlarında günün vaxtını rənglərin vasitəsilə nəzərə çatdırmış, həmçinin interyer məkanının perspektiv konstruksiyasını nizama salmışdır. Lövendəki Sint-Piterskerk kilsəsinin çoxhissəli mehrabı (1464–67), "Möminlərin cənnətə daxil olması"nı və "Günahkarların cəhənnəmə vasil olması"nı təsvir edən taylar (təqr. 1468–70, Təsviri sənət muzeyi, Lill), "III Ottonun ədalət məhkəməsi" (1470-ci illərin əvvəli, Qədim incəsənət muzeyi, Brüssel) diptixi B.-un mühüm əsərlərindəndir. Portret janrı tarixində mərhələ təşkil edən "Kişi portreti"ndə (1462, Milli qalereya, London) B. ilk dəfə olaraq modeli pəncərədən görünən peyzaj fonunda vermişdir.

**BÁUTSEN** (Bautzen) – AFR-də, Saksoniya federal ərazisində şəhər. Oberlauzits dairəsinin inz. m. Şpre çayı sahilindədir. Əh. 41,6 min (2005).

B. 7 əsrin əvvəllərindən milçanların (lujiseli tayfalardan biri) əsas mərkəzi olmuşdur. 10 əsrin ortalarında milçanlar german knyazlarına tabe edilmişlər. Ehtimal ki, 958 ildə B.-də Meysen markqra-

fı sərhədyanı Ortenburq qalasının əsasını qoymuşdur (1483–86, 1645–48 illərdə qala yenidən tikilmişdir). Sonralar qalanın ətrafında sorb-alman əhalisinin yaşadığı şəhər (ilk məlumatlar 1002 ilə aiddir) meydana gəlmişdir. 1018 ildə B.-də Müqəddəs Roma imperiyası ilə Polşa arasında bağlanmış sülhə görə, şəhər Polşa kralının tabeliyinə keçmişdir. B. 1031–33 illərdən Meysen markqraflığının, sonralar isə Bohemiya hersoqluğunun tərkibində yenidən imperiyanın tabeliyində olmuşdur. Təqr. 1213 ildə (digər məlumatlara görə 1240 ildə) şəhər statusu almışdır. 1253 ildə Brandenburq markqraflığına qatılmışdır. 1319 Bohemiya krallığının tərkibinə daxil edilmiş, 1526 ildə isə krallıqla birlikdə Habsburq monarxiyasının hakimiyyətinə keçmişdir. 1346 ildən altı şəhərin daxil olduğu Lujise ittifaqında (1815 ildə ləğv edilmişdir) aparıcı rol oynamışdır. *Hus müharibələri (1419–37)* və *Otuzillik müharibə (1618–48)* zamanı şəhər böyük ziyan çəkmişdir. 1523–24 illərdə B.-də Reformasiya keçirilmişdir. 1635 ildə Saksoniya kurfürstlüyünün (1806–1918 illərdə krallıq) tərkibinə qatılmışdır. Altıncı antifransa koalisiyasının Fransaya qarşı müharibəsi zamanı I Napoleonun ordusu B. yaxınlığında Rusiya-Prussiya qoşunlarını məğlub etmişdir. B. 1871 ildən Saksoniya ilə birlikdə Almaniya imperiyasının tərkibindədir. İkinci dünya müharibəsi illərində böyük dağıntılara məruz qalmışdır. 1945 ildən Almaniyanın sovet işğal zonasına daxil idi. 1949–90 illərdə Almaniya Demokratik Resp.-nın tərkibində olmuşdur; 1956 ildən ADR Dövlət Təhlükəsizliyi Nazirliyinin baş siyasi həbsxanası burada yerləşirdi.

Şəhərin mərkəzi hissəsinin memarlıq abidələri: Ortenburq qalası, keçmiş şəhər divarının qüllələri – Lauenturm (1403), Rayxenturm (1490–92) və s., Müq. Pyotr baş kilsəsi (1293–1303; 15 əsrin 2-ci yarısında yenidən tikilmişdir), Mixail kilsəsi (15 əsr), şəhərin rəmzi olan keçmiş su qülləsi Alte Vasserkunst (1558, layihənin müəllifi V. Rörseydt; hazırda Texnika muzeyidir). Barokko dövrü memarlığı ratuşa binası (1729–32) və bir sıra yaşayış evləri ilə təmsil olunur.

B. lujiselilərin mədəniyyət mərkəzidir; "Domovina" ("Vətən") milli təşkilatının mərkəzi idarəsi, eyniadlı nəşriyyat, Sorbistika in-tu, Sorb muzeyi burada yerləşir. B.-də Alman-sorb xalq teatrı və Sorb milli ansamblı fəaliyyət göstərir.

Vaqonqayırma, televiziya və radio aparaturası istehsalı müəssisələri var; xalq sənətkarlığı inkişaf etmişdir.

**BAVARİYA** (Bayern) – AFR-in c.-unda tarixi vilayət və federal ərazi. Dunay çayı hövzəsindədir. Sah. 70,6 min $km^2$. Əh. 12,519 mln. (2008). İnz. m. Münxen ş.-dir.

B. ərazisinə Alp d-rının şm. yamacları (Suqşpitse d., 2963 *m*, ərazinin ən yüksək nöqtəsi), Bavariya yaylasının ş. hissəsi (hünd. 400–1000 *m*), Frankoniya Alb yaylası, Çexiya Meşəsinin və Şumavanın q. hissələri, Bavariya Meşəsi daxildir. Sıx çay şəbəkəsi (Dunay və Mayn qolları ilə birlikdə) var. B. göllər ((təqr. 1600) ölkəsidir. Ən iriləri: Kimze, Ammerze, Ştarnbergerze, ən dərini (192 *m*) Valxenzedir.

Bavariya Alplarında Kral gölü.



Frankoniya Alb və Bavariya Alp d-rında karst mağaraları yayılmışdır. B. ərazisinin 1/3-i meşələrdir (küknar, fıstıq və s.). Çəmənliklər xeyli sahə tutur.

"B." adı Bohemiyadan Dunay, Lex və İnn çayları arasındakı ərazilərə digər tayfalar tərəfindən sıxışdırılan *bavarların* adındandır. 555 ildə *franklardan* asılı, paytaxtı Regensburq olan B. tayfa hersoqluğu (Agilolfinqlər nəslindən olan hersoqlar) yarandı. 8 əsrin sonlarında bavarların yeni torpaqlarda məskunlaşması nəticəsində keçmiş Roma əyalətləri *Norik* və *Retsiyanın*, demək olar ki, bütün ərazisi B.-tərkibinə qatıldı. 8 əsrin əvvəllərindən B.-da geniş torpaqların sahibi olan katolik kilsəsi güclü təsirə malik idi. *I Böyük Karl* 788 ildə *avarlarla* ittifaqda olan bavariyalı hersoq III Tassilonu devirdi və B.-nı *Frank dövlətinin* tərkibinə qatdı. 843 ildə Frank dövlətinin parçalanmasından sonra B. *Şərqi Frank krallığının* tərkibinə daxil oldu, sonuncunun 900 ildə parçalanmasından sonra isə tayfa hersoqluğu kimi bərpa edildi. B. 911–919 illərdə digər german hersoqluqları ilə German krallığına birləşdi, 962 ildə *Müqəddəs Roma imperiyasının* tərkibinə qatıldı. 10 əsrin 1-ci yarısında B. köçəri macarlarla mübarizə aparırdı. 976 ildə *Karintiya (Tirol* ilə birlikdə), 1156 ildə Şərqi marka (bax *Avstriya*), 1180 ildə isə *Ştiriya* B.-dan ayrıldı. 1255 ildə hersoqluğun yeni paytaxtı *Münxen* oldu. B.-nı 1070–1139, 1156–80-ci illərdə *Velflər*, 1139–1156 illərdə *Babenberqlər*, 1180 ildən isə *Vittelsbaxlar* sülaləsindən olan hersoqlar idarə edirdi.

13 əsrin ortaları –14 əsr B.-nın feodal pərakəndəliyi dövrü idi. 1506 ildə hersoq IV Albrext B. torpaqlarını birləşdirdi. 1628 ildə B. Yuxarı Pfaltsı (1268–1329 illərdə B.-ya tabe idi) hakimiyyətinə qaytararaq Almaniyanın ərazi cəhətdən ən iri knyazlığına çevrildi. B.-da *Reformasiya* cəhdləri yatırıldı. B. hersoqları *Habsburqlarla* birgə Almaniyada *Kontrreformasiyaya* rəhbərlik etdilər. 1623 ildən kurfürstlük oldu. 17 əsrin sonlarında B.-da knyaz mütləqiyyəti formalaşdı. B. katolik koalisiyasının tərkibində *Otuzillik müharibədə (1618–48)* iştirak etdi. Müharibə başa çatdıqdan sonra müstəqillik qazanan B. [bax *Vestfaliya sülhü (1648)*]. Almaniyadakı katolik dövlətlərin lideri olmağa cəhd göstərdi. Fransa ilə Habsburqlara qarşı ittifaq bağlayaraq *İspaniya irsi* (1701–14) və *Avstriya irsi* (1740–48) uğrunda aparılan müharibələrdə iştirak etdi. 1742 ildə antihabsburq koalisiyası B. kurfürstü Karl Albrextin (VII Karl) Müqəddəs Roma imperiyasının imperatoru seçilməsinə nail oldu. 1745 ildə B.-ın Avstriya ordusu tərəfindən işğalından sonra VII Karlın oğlu III Maksimilian İosif taxt-taca olan iddialarından imtina etdi. 1777 ildə B. kurfürstləri Vittelsbaxların Pfalst qolunun nümayəndələri oldu [*Bavariya irsi* (1778–79) uğrunda müharibədən sonra qeyd-şərtsiz]. Onların Reynboyundakı mülkləri – Reyn Pfaltsı (1214–1329 illərdə B.-a məxsus olmuşdur), Yulix və Berq hersoqluqları B.-a birləşdirildi.



Qarmiş-Partenkirhen şəhərindən görünüş.

18 əsrin sonlarında B. inqilabi Fransaya qarşı müharibələrdə iştirak etdi. 1801 ildə Müqəddəs Roma imperiyasının parçalanması şəraitində Napoleonun tərəfinə keçdi. 1806 ildə *Reyn ittifaqına* daxil oldu, B. kurfürstü IV Maksimilian İosif Napoleonun himayəsi altında kral (I Maksimilian İosif) oldu. 1808 ildə B.-da təhkimçilik hüququ ləğv edildi. 1803–10 illərdə B.-nın ərazisi xeyli genişləndi. Onun tərkibinə Ansbax, Bayroyt və digər knyazlıqlar, keçmiş imperiya ş.-ləri Nürnberq, Regensburq, Ulm və s., müsadirə edilmiş kilsə torpaqları qatıldı. B.-ya bir sıra Avstriya torpaqları, o cümlədən Zalsburq, Tirol, Forarlberq birləşdirildi. B. *Avstriya-Fransa müharibəsində (1809)* Fransanın tərəfində iştirak etdi. *Leypsiq vuruşmasında (1813)* Napoleonun məğlubiyyətindən sonra antifransız koalisiyasının tərəfinə keçdi. *Vyana konqresindən (1814–15)* sonra Almaniya ittifaqına, 1834 ildə isə Almaniya gömrük ittifaqına daxil oldu. B. 1816 ildə Avstriyaya onun torpaqlarını qaytardı; əvəzində Reyn Pfaltsı (1801–03 illərdə Napoleon tərəfindən B.-dan alınmışdı), Böyük Vürtsburq hersoqluğu və Aşaffenburq knyazlığı B.-ya verildi.

1818 ildə B.-da konstitusiya qəbul olundu və ikipalatalı parlament təsis edildi. 1832 ildə Reyn Pfaltsında liberal dairələr Almaniyanın birləşdirilməsi və islahatların keçirilməsi şüarları altında nümayiş təşkil etdilər. *Almaniyada 1848–49 illər inqilabı* dövründə Reyn Pfaltsı silahlı üsyanın (Prussiya ordusu tərəfindən yatırıldı) mərkəzlərindən biri oldu. B.-da kəndli mükəlləfiyyətlərinin bir qismi ləğv edildi.

B. kralı I Lüdovikin oğlu 1832 ildə Yunanıstan kralı (I Otto) seçildi. 1850–60 illərdə Almaniyada ağalıq uğrunda Prussiya və Avstriya arasında gedən rəqabətin kəskinləşməsi şəraitində B., hər iki ölkəyə qarşı kiçik və orta alman dövlətlərinin ittifaqına rəhbərlik etməyə cəhd göstərdi. *Avstriya-Prussiya müharibəsinə (1866)* Avstriya tərəfində çıxış edən B. eyni zamanda Prussiya ilə gizli müdafiə ittifaqı bağladı. *Fransa-Prussiya müharibəsində (1870–71)* maliyyə yardımı müqabilində Prussiyanı dəstəklədi. 1871 ildə xüsusi hüquqlarını saxlamaqla Almaniya imperiyasının tərkibinə daxil oldu.

1862 ildə B.-da liberal islahatlar keçirildi, siyasi partiyalar fəaliyyətə başladı. Onların arasında ən irisi katolik kilsəsi ilə sıx bağlı olan və torpaq sahibkarlarının maraqlarını təmsil edən Vətənpərvər partiyası (1887 ildə ümumalmaniya *Mərkəz partiyasına* qatıldı) idi. Bismarkın *"kulturkampf"* siyasəti B.-da güclü antiprussiya meyllərinin formalaşmasına gətirib çıxardı.

*Noyabr inqilabı (1918)* gedişində B.-da monarxiya devrildi, B. respublika və azad dövlət (Bavariya sovet respublikası; 1919 ilin aprelində yaradıldı, mayın əvvəllərində süquta uğradı) elan edildi. 1920–33 illərdə Bavariya xalq partiyası (Mərkəz partiyasının varisi) aparıcı siyasi partiya idi. 1920 ildə Koburq ş. B.-nın tərkibinə qatıldı. Veymar konstitusiyasına (1919) görə, B. xüsusi hüquqlarından məhrum olundu. Bu, B. hökuməti ilə Almaniyanın mərkəzi hökuməti arasında kəskin münaqişəyə, həmçinin B.-da se-

Noyşvanştayn kral qəsri.



paratçı tendensiyaların güclənməsinə gətirib çıxartdı. B. 1920-ci illərin əvvəllərindən Almaniyadakı mühafizəkar və sağ ekstremist qüvvələrin dayağına çevrildi. Hitlerin Nasional-sosialist alman fəhlə partiyası (NSAFP) burada yarandı. Bu partiya hakimiyyəti ələ keçirmək üçün ilk cəhdi [bax *"Pivə qiyamı"* 1923)] B.-da göstərdi. 1933 ildə Almaniyada Hitler diktaturası bərqərar olduqdan sonra NSAFP-ın qərargahı B.-da yerləşirdi və onun qurultayları (bax *Nürnberq qurultayları*) burada keçirilirdi.

İkinci dünya müharibəsi başa çatdıqdan sonra B. Amerikanın işğal zonasına daxil oldu, Türingiya dairəsi Ostgeym ona birləşdirildi. 1946 ildə Reyn Pfaltsı B.-dan ayrılaraq Reynland-Pfalts ərazisinə qatıldı. Həmin ildə B.-nı azad dövlət elan edən konstitusiya qəbul olundu. 1949 ildə B. AFR-in Əsas qanununu qəbul etmədən (B. landtaqı tərəfindən kifayət qədər federalist qanun hesab olunmadığı üçün) onun tərkibinə qatıldı. Almaniyanın keçmiş şərq vilayətlərindən 2,4 mln.-dan çox qaçqın və köçkün B. ərazisində məskunlaşdırıldı.

1940-cı illərin sonlarından B. AFR-in ən dinamik inkişaf edən ərazilərindəndir. Kənd təsərrüfatı məhsullarının Almaniyadakı aparıcı istehsalçısı olmaqla yanaşı, B. maşınqayırma, o cümlədən avtomobil və aviasiya, elektrotexnika və elektronika, kimya sənayesinin iri mərkəzinə çevrildi. 1945 ildən B.-nın aparıcı siyasi partiyası Xristian-sosial ittifaqıdır (XSİ); 1946 ildən daimi olaraq (1954–57 illər istisna olmaqla) B. hökumətinə başçılıq edir.

**"BAVARİYA"** ("B a y e r n") – alman futbol klubu (Münxen). Dünyanın ən güclü komandalarından biridir. Əsası 1900 ildə qoyulmuşdur. Oyunlarını "Olimpiaştadion" (təqr. 70 min tamaşaçı) və "Allians Arene" (65 mindən çox tamaşaçı) stadionlarında keçirir. 21 dəfə Almaniya çempionu (1932–2009) olmuş, 14 dəfə Almaniya kubokunu (1957–2009) qazanmışdır. Bir sıra mühüm beynəlxalq turnirlərin: Çempionlar kubokunun (1974–76), Çempionlar Liqasının (2001), Kuboklar kubokunun (1967), UEFA kubokunun (1996), Kontinentlərarası kubokun (1976, 2001) qalibi olmuşdur. F. *Bekkenbauer*, L. Matteus, G. *Müller*, Y. Klinsmann, O. Kan, M. Noyer və b. klubun ən məşhur futbolçuları, U. Lattek, C. *Trappattoni* (İtaliya) O. Xitsfeld, Y. Haynkes isə ən yaxşı məşqçiləridir.

**BAVARİYA DÖVLƏT OPERASI** (Bayerische Staatsoper) – Münxendə opera teatrı. Dünyada ən məşhur opera səhnələrindən biri. 17 əsrin ikinci yarısında Bavariya kurfürstlərinin saray teatrı olmuş, 19 əsrdə Bavariya kralı I Maksimilian İosifin himayədarlığı ilə Milli opera teatrı tikilmişdir (1818, memar K. fon Fişer, 1943 ildə bombardman zamanı bina dağıdılmış, 1963 ildə bərpa olunmuşdur). 1918 ildə milliləşdirilən teatra indiki adı verilmişdir. 1988 ilə qədər balet truppası var idi. Repertuarının əsasını ənənəvi olaraq 18–19 əsrlərin operaları təşkil edir, R. Vaqner və R. Ştrausun əsərlərinə xüsusi diqqət yetirilir. 1990-cı illərin ortalarından teatrda həmçinin barokko operaları oynanılır. Dirijorlardan B. Valter (1913–22), X. *Knappertsbuş* (1922–35), K. Kraus (1937–44), G. Şolti (1946–52), V. *Zavalliş* (1971–93) teatrın musiqi rəhbəri olmuşlar. 1967–76 illərdə direktor və baş rej. Q. *Rennert* idi. 1993 ildən teatrın direktoru ingilis P. Conas, 1994 ildən musiqi rəhbəri və baş dirijoru Z. *Metadır*.

**BAVARİYA İRSİ** – Avstriya ilə Prussiya və Saksoniya arasında 1778–79 illərdə gedən müharibə. 1777 ilin sonunda Bavariya kurfürstü III Maksimilian İosifin ölümü ilə *Vittelsbaxların* Bavariya qolu kəsildi. Onların mülklərinə həmin sülalənin Pfalts qolunun nümayəndəsi, Pfaltsın kurfürstü Karl Teodor yiyələndi. Öz ərazisini genişləndirməyə çalışan Avstriya imperatoru *II İosif* Avstriya Niderlandını vermək müqabilində ondan Bavariya torpaqlarının Avstriyaya keçməsi razılığını aldı. Almaniyada Habsburqların mövqelərinin möhkəmlənməsi Prussiyanın maraqlarına zidd idi. 1778 il iyulun 5-ndə Prussiya kralı *II Fridrix* Saksoniya ilə ittifaq bağlayaraq Avstriyaya qarşı müharibəyə başladı. Bohemiyaya soxulan Prussiya və Saksoniya qoşunları Avstriya ordusunun müqavimətini qıra bilməyərək 1778 ilin sentyabrında geri çəkildilər. Rusiya ilə ittifaqda olan II Fridrix hərbi yardım üçün *II Yekaterinaya* müraciət etsə də, rədd cavabı aldı. Prussiya ilə Avstriya arasında *Teşen sülhü (1779)* bağlandı. Ərazilərin mübadiləsi haqqında saziş ləğv olundu, Bavariyanın İnn dairəsi Avstriyaya verildi.

**BAVARİYA MEŞƏSİ** (Bayrisher Wald) – Almaniyanın c.-ş.-ində orta yüksəklikli qırışıqlı-qaymalı kristallik dağ silsiləsi. Çexiya massivi sistemindədir. Uz. təqr. 90 *km*, hünd. 1121 *m*-ədək (Eynyödrigel d.). Səthi hamardır; şiş uclu zirvələrə rast gəlinir. Şumavaya doğru yönəlmiş şm.-ş. yamacları nisbətən hamardır; c.-q. yamacları isə Dunay çayına doğru dik düşür. 800 *m* hünd.-ədək küknar-fıstıq, daha yuxarılar isə küknar-ağ şam meşələri ilə örtülüdür.

**BAVARİYA PLATOSU**, B a v a r i y a  y a s t ı d a ğ l ı ğ ı – Almaniyanın c.-unda, Bavariya ərazisində yayla. Alp d-rının şm. ətəklərindən Dunay çayının dərəsinə qədər (600 *m*-dən 300 *m*-ədək) enir. Buzlaq-akkumulyativ relyefə malikdir. Çoxlu göl var. Səthini geniş dərələrlə axan çaylar (İller, Lex, İzar, İnn) kəsir. Enliyarpaqlı və iynəyarpaqlı meşələr, torflu, mədəni landşaft sahələri mövcuddur. Kurortlar; orta əsrlərə aid abidələr var. Turizm inkişaf etmişdir.

**BAVARLAR** (lat. Baiovari, Baiovarii) – Dunayın yuxarı axınında, Nori və Reti Alp dağlarının ətəyində, indiki Yuxarı Avstriya, Zalsburq, Yuxarı və Aşağı Bavariya, qismən Tirol və bəzi digər ərazilərdə məskunlaşmış german tayfası. B.-ın adı *markomanların* və *kvadların* yaşadığı qədim *Bohemiya* (indiki Çexiya) ilə ələqədardır. B. ilk dəfə qot tarixçisi İordanın (6 əsrin ortaları) əsərində təqr. 470 ilə aid hadisələrin təsviri zamanı qeyd edilmişlər. 6 əsrin əvvəllərindən *lanqobardların* tabeliyində idilər. B. 534 ildə franklar tərəfindən istila olunsalar da, geniş muxtariyyətlərini qoruyub saxlamışdılar. 6 əsrdən *Bavariya* tayfa hersoqluğu məlumdur. 740-cı illərdə tərtıb olunan Bavariya qanunnaməsi B.-ın ictimai quruluşunun öyrənilməsi üçün əsas mənbədir. Qanunnamədə Roma hüququ normalarının, vestqot, aleman və frank hüququnun təsiri əks olunmuşdur. Bavar saqalarının yazıya alınması 11 əsrin sonları – 12 əsrə aiddir. B. alman və Avstriya xalqlarının təşəkkülündəki komponentlərdən biridir.

**BAVƏNDİLƏR** – Təbəristanda hökmdar sülaləsi [665–1349]. Sülalənin adı sasani şahı *I Qubadın* nəticəsi Bavın adındandır. B. üç qola ayrılırdılar.

K ə y u s i y y ə  B . - i. Adları Sasani hökmdarı *I Xosrovun* qardaşı Kəyusun adından götürülmüşdür. Görkəmli sərkərdə olan Bav 651 ildə *III Yezdəgirdin* ölümündən sonra guşənişinliyə çəkilmişdi. Lakin bir müddət sonra Təbəristan (11 əsrdən Mazandaran) əhalisi onu dəvət edərək hökmdar seçmişdi. 800-cü illərdən *Tahirilərin*, sonra isə *Büveyhilərin* tabeliyində olmuşlar. 1027 ildə Kəyusiyyə B.-inin sonuncu hökmdarı III Rüstəm Nəhavənd vuruşması zamanı *Kakuyilər* sülaləsindən olan hökmdar Əlaüddövlə Məhəmməd tərəfindən əsir götürülmüşdür; onun ölümündən sonra dövlət tənəzzülə uğramışdır. Nümayəndələri: Bav ibn Şapur [665–680], I Sürhab ibn Bav [680–688], Mehr Mərdan ibn Sürhab [688–717], II Sürhab ibn Mehr Mərdan [717–755], I Şərvin ibn Sürhab [755–772], I Şəhriyar ibn Qarin [772–797], Şapur (yaxud Cəfər) ibn Şəhriyar [797–825], Qarin ibn Şəhriyar [825–837], I Rüstəm ibn Sürhab [837–867], II Şərvin ibn Rüstəm [867–895], II Şəhriyar ibn Şərvin [895–930], II Rüstəm ibn Şərvin [?–968], Dara ibn Rüstəm [968–969], III Şəhriyar ibn Dara [969–1006], III Rüstəm ibn Şəhriyar [1006–28].

İ s p ə h b ə d i y y ə  B . - i. Təbəristan, Gilan və Qumisdə, həmçinin Rey ş.-ndə hökm sürmüşlər, paytaxtları Sari idi. *Səlcuqilərin* və *Xarəzmşahların* tabeliyində olmuşlar. Əlaüddövlə Həsənin hakimiyyəti illərində Şəmsəddin Eldənizə və Xorasan hakimi Müəyyəd Ay-Abaya müqavimət göstərmişlər. B.-in İspəhbədiyyə qoluna Xarəzmşahlar son qoymuşlar. Nümayəndələri: Hüsamüddövlə Şəhriyar ibn Qarın [1074–1110], Nəcmüddövlə Qarin ibn Şəhriyar [1110–17], Şəmsülmülük Rüstəm ibn Qarin [1117–18], Əlaüddövlə Əli ibn Şəhriyar [1118–40], I Şah Qazi Rüstəm ibn Əli [1140–65], Əlaüddövlə Həsən ibn Rüstəm [1165 – təqr. 1173/74], Hüsamüddövlə Ərdəşir [təqr. 1173/74–1206], II Şah Qazi Rüstəm ibn Ərdəşir [1206–10].

K i n h a r i y y ə  B . - i. İran ərazisinin monqollar tərəfindən tutulmasından sonra yaranmışdır. Dövlətin işğal olunmasından ehtiyatlanan Hüsamüddövlə Ərdəşir ibn Kinhar paytaxtı Saridən Amol ş.-nə köçürmüşdü. Kinhariyyə B.-i monqollardan asılı olmuşlar. Yezdəgird ibn Şəhriyar dövründə elm, maarif, memarlıq sahələri inkişaf etmiş, monqol hücumları zamanı dağıdılmış Amol ş. yenidən bərpa olunmuşdu. Fəxrüddövlə Həsən ibn Keyxosrovun yanlış siyasəti nəticəsində sülalə süqut etmişdir. Nümayəndələri: Hüsamüddövlə Ərdəşir ibn Kinhar [1238–49], Şəmsülmülük Məhəmməd ibn Ərdəşir [1249–67], Əlaüddövlə Əli ibn Ərdəşir [1267–76], Tacüddövlə Yezdəgird ibn Şəhriyar [1276–99]. Nasirüddövlə Şəhriyar ibn Yezdəgird [1299–1314], Rüknüddövlə Keyxosrov ibn Yezdəgird [1314–28], Şərəfülmülük ibn Keyxosrov [1328–34], Fəxrüddövlə Həsən ibn Keyxosrov [1334–49].

**BAVİL** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Üsku bölgəsinin Ətraf kəndistanında, Üsku qəs.-ndən 3 *km* şm.-q.-dədir.

**BAVRƏS** – İranın Qəzvin ostanında kənd. Eyniadlı şəhristanın Mərkəzi bölgəsinin Ətraf kəndistanında, bölgə mərkəzindən 16 *km* ş.-dədir.

**BAY LAN ÜSYANI** – 1912–14 illərdə Çin kəndlilərinin silahlı hərəkatı. Üsyanın başçısı müflisləşmiş mülkədar Bay Lan ("Ağ Canavar") idi. 1912 ilin yayında Xenan əyalətində kortəbii qiyam kimi başlamış, 1913 ilin sonu – 1914 ilin əvvəlində Xubey, Anxoy, Şensi və Qansu əyalətlərinin bir sıra qəzalarını bürümüşdü. Mülkədar zülmündən və məmur özbaşınalığından narazı olan kəndliləri üsyançıların "Varlıları öldür, kasıblara kömək et!" şüarı cəlb edirdi. Bay Lan həm də Yuan Şikayın diktator rejimini devirməyə çağırırdı. Kəndlilərin partizan dəstələrinə qarşı göndərilən 200 minlik ordu B.L.ü.-nı iki ilə yatıra bildi. 1914 ilin avqustunda Bay Lan da həlak oldu.

**BAY TAYQA**, B a y - T a y q a – RF-nin Tıva Resp. ərazisində dağ massivi. Qərbi Sayan d-rında, Alaş platosunun c.-unda, Alaş çayının (Xemçik çayının sol qolu) sağ sahilindədir. Hünd. 3128 *m*. Əsasən, qranitlərdən ibarətdir. Yamaclarında qaraşam meşələri, zirvələrində dağ tundrası və daş səpintiləri var.

**BAY TSİ** (? – e.ə. 257, noyabr) – Sin imperiyasının sərkərdəsi. B.T.-nin başçılığı ilə Sin qoşunları Çu, Vey, Çjao və Xan dövlətlərinin ordularını dəfələrlə məğlubiyyətə uğratmışdır. E. ə. 278 ildə Sin imperatoru Çjao Syan-van [e.ə. 306–251] Çu dövlətinin paytaxtı İn ş.-ni tutduğuna görə B.T.-yə Uan hakimi titulunu vermişdi. E.ə. 260 ildə B.T. ali baş komandan təyin olunmuşdu; həmin il onun başçılığı ilə Sin qoşunları Çanpin yaxınlığında baş verən döyüşdə Çjao dövlətinin ordusunu darmadağın etmişdi. Sıma Syanın "Tarixi qeydlər"indəki məlumata görə, B.T. bu döyüşdə 400 min Çjao əsgərini əsir götürmüş və onların qiyamından ehtiyatlandığı üçün hamısının diri-diri torpağa basdırılmasını əmr etmişdi. Sinin Çjaoya qarşı müharibəsi *Çjanqo* dövrünün ən irimiqyaslı və amansız müharibəsi olmuşdur. E.ə. 257 ildə böhtana düşmüş B.T. vəzifəsindən kənarlaşdırılmış və ölümə məhkum olunmuşdu. Bundan sonra B. T. intihar etmişdir.

**BAYADERA** (fr. bayadère, portuqalca bailadeira – rəqqasə) – peşəkar rəqs ifaçıları kastasına mənsub hind qadınlarının 19 əsr – 20 əsrin əvvəllərində Avropa xalqları arasında yayılmış ümumiləşdirilmiş adı. Məbəd rəqqasələrini (devadasi), restoranlarda, ziyafətlərdə və s. yerlərdə muzdla çıxış edən rəqqasələri də B. adlandırırdılar.

**BAYALİNOV** Qasımalı (15.9.1902, Qırğ., indiki İssık-Kul r-nunun Kok-Moynok k. – 3.9.1979) – qırğız yazıçısı. Qırğ. SSR xalq yazıçısı (1972). Erkən yaşlarından valideynlərini itirmiş, qohumlarının himayəsi altında böyümüşdür. Yaradıcılığa 1923 ildən başlamışdır. Realist qırğız nəsrinin ilk nümunəsi olan "Həcər" povesti 1928 ildə çap olunmuşdur. "Xoşbəxtlik", "Göl boyunda" (1947), "Kurman vadisi" (1958) povestləri, "Qardaşlıq" (kitab 1–3, 1962–72) romanı var. "Od içində" hekayələr silsiləsi müharibə mövzusuna həsr edilmişdir. M.F. Axundzadənin bəzi əsərlərini qırğız dilinə tərcümə etmişdir.

**BÁYA-MÁRE** (Baia Mare) – Ruminiyanın şm.-q.-ində şəhər. Maramureş judetinin inz. m. Əh. 136,6 min (2005). D.y. qovşağı. Şərqi Karpat dağlarının c. ətəklərində (Qutıy d-rı). Sesar çayı sahilindədir.

Əsası 1142 ildə Transilvaniyanın şm.-ında macar kralı II Geza tərəfindən qoyulmuşdur. Şəhər kimi 1327 ildən məlumdur; şəhər statusunu 1469 ildə macar kralı Matyaş Hunyadidən almışdır. Orta əsrlərdə Frauendorf, 16 əsrdən Nadbanya adlanmışdır. Ticarət və sənətkarlıq (o cümlədən ağac məmulat) mərkəzi olmuşdur. Şəhərin mərkəzi hissəsində 15 əsrə aid bürclü qala divarlarının fraqmentləri, barokko dövrünə aid Müq. Üçüqnum kilsəsi, 15–18 əsrlərin yaşayış tikililəri qalmışdır. Müasir tikililər 1944 ildən sonra yaranmışdır. Pedaqoji in-t var. Muzeyləri: Maramureş qəzasının (1899), zərif sənətlər, tarix-arxeologiya, mineralogiya. Teatr, filarmoniya fəaliyyət göstərir. Əlvan metallurgiya, maşınqayırma, ağac emalı, toxuculuq, yeyinti sənayesi müəssisələri var. Yaxınlığında əlvan metal filizləri hasil olunur.

**BAYAMO** – Kubanın c.-ş.-ində şəhər. Qranma əyalətinin inz. m. Əh. 193 min (2005). Syerra-Maestra d-rının ətəklərində, Bayamo çayının sahilindədir. Mühüm nəql. qovşağıdır: B.-dan Havana–Santyaqo-de-Kuba d.y. və Olgin-Santyaqo-de-Kuba avtomobil yolu keçir. Aeroport. Şəhərin əsası 1513 ildə San-Salvador-de-Bayamo adı ilə ispan konkistadoru D. Velaskes de Kuelyar tə-



Bayamon şəhərindən görünüş.

rəfindən qoyulmuşdur. 17 əsrin əvvəllərinədək adanın ən böyük iqtisadi mərkəzi olmuşdur. Kubanın İspaniya ağalığından azad olunması uğrunda Onillik müharibədəki (1868–78) xidmətlərinə görə milli abidə elan edilmişdir; milli azadlıq müharibəsi (1895) zamanı dağıdılmışdır. B.-nun mərkəzi hissəsinin tarixi tikililəri müstəmləkə səciyyəlidir: San-Salvador prixod kilsəsi (1740), Santo-Dominqo monastırı; Karidad-del-Kobre kilsəsi (1927). Əyalət muzeyi var. Tütün, şəkər, konserv sənayesi müəssisələri; B.-nun 16 *km*-liyində botanika bağı var. B.-dan ş.-də manqan filizi çıxarılır.

**BAYAMÓN** – Puerto-Rikonun şm.-ında şəhər. Əh. 203,6 min (2005). San-Xuan ş.-ndən 16 *km* c.-q.-dədir. Paytaxt aqlomerasiyasının tərkibinə daxildir. 1772 ildə salınmışdır. Şəhərin mərkəzi hissəsində ispan müstəmləkə tikililəri qalmışdır. Santa-Krus baş kilsəsi (1772), Kaparra məskəninin (hindi kəndinin yerində 1508 ildə X. Ponse de Leon tərəfindən salınmışdı) qalıqları. Puerto-Riko Amerika un-tinin regional kolleci (1963), Mərkəzi un-t (1970); "Luis A. Ferre" elm və təhsil əyləncə parkı (planetarı; fizika, kosmos, nəql. və s. muzeylər; zoopark) var. Maşınqayırma, metal emalı, neft emalı, kimya, yeyinti, toxuculuq, dəri-ayaqqabı, sement sənayesi müəssisələri var; odlu silah istehsal edilir.

**BAYAN** – Azərb. Resp. Daşkəsən r-nunda kənd. Bayan ə.d.-nin mərkəzi. R-n mərkəzindən 18 *km* şm.-ş.-də, Qoşqar çayının sol sahilində, dağ ətəyindədir. Əh. 2182 (2008); əkinçilik, heyvandarlıq və üzümçülüklə məşğuldur. Xalça və tikiş sexləri, ümumi orta məktəb, tam orta məktəb, xəstəxana, mədəniyyət evi, klub, 3 kitabxana, rabitə şöbəsi; 15 və 19 əsrlərə aid 2 körpü, 15 əsrə aid Çiçarvəng məbədi var.

**BAYAN** – Azərb. Resp. Oğuz r-nunda kənd. Bayan ə.d.-nin mərkəzi. R-n mərkəzindən 6 *km* c.-da, Şəki–Qəbələ avtomobil yolunun kənarında, Xalxalçayın (Əlican çayının sağ qolu) sahilində, Qanıx-Əyriçay dərəsindədir. Əh. 1728 (2008); əkinçilik, heyvandarlıq, tərəvəzçilik və bağçılıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, texniki peşə məktəbi, klub, kitabxana, feldşer-mama məntəqəsi, poçt, ATS; məscid (19 əsr); turizm-istirahət obyektləri var.

**BAYÁN** (qədim rus dastançısının adından) – qarmonabənzər pnevmatik, dilli musiqi aləti. Sağ klaviaturası düyməlidir, 3–5 cərgəli, 4–5 oktava həcmində tam xromatik səsdüzümündən ibarətdir, sol klaviaturası standart ("italyan") sistemi üzrə, yəni müşayiət üçün hazır akkordlar dəsti ilə qurulur. 1891 ildə bavariyalı usta Q. Mirvald tərəfindən düzəldilmişdir. Sağ klaviaturalı sistem Avstriya və b. ölkələrdə "Vyana" qarmonu adı ilə geniş yayılmışdır.

Bayan.



**BAYAN XAQAN** – avar hökmdarı [568–601]. B.x. 565 ildə slavyan tayfalarını ağır məğlubiyyətə uğradaraq Mərkəzi Karpatı ələ keçirmiş, Bizansı xərac verməK məcburiyyətində qoymuşdu. Lanqobardlarla ittifaq bağlayaraq hepidləri özünə tabe etmişdi. 568 ildə lanqobardların Cənubi İtaliyaya köçməsindən sonra indiki Macarıstan ərazisini tamamilə hakimiyyəti altına almışdı. Daha sonra qərbdə frank kralı Ziqberti məğlubiyyətə uğratmış, cənubda isə Bizansın Singidunum və Sirmium kimi strateji əhəmiyyətli sərhəd qalalarını tutmuşdu (582). B.x. hakimiyyəti dövründə xaqanlığın sərhədlərini Don çayından Qalliyaya, şimali slavyanların torpaqlarından İtaliyaya qədər genişləndirmişdi (bax həmçinin *Avar xaqanlığı*).

**BAYAN QƏBİRLƏRİ** – Azərb. Resp. Daşkəsən r-nunun Bayan k. yaxınlığında e.ə. 1-ci minilliyin əvvəllərinə aid qəbirlər. E.A. *Resler* 32 daş qutu qəbir tədqiq etmişdir (1901). Ölülər, əsasən, böyrü üstə bükülü, yaxud oturdulmuş vəziyyətdə dəfn edilmiş, iki qəbirdə isə yandırılmışdır. Kişi və qadın qəbirləri avadanlığına görə fərqlənir. Həndəsi naxışlar və heyvan rəsmləri ilə bəzədilmiş cilalı qara gil qablar, tunc xəncərlər, bıçaqlar, bizlər, iynələr, kəmərlər, bilərziklər, sırğalar, muncuqlar və s. (yalnız bir qəbirdən dəmir bıçaq) tapılmışdır. B.q. *Xocalı-Gədəbəy mədəniyyətinin* səciyyəvi abidəsidir.

**BAYANDAŞ** – Azərb. Resp. Abşeron r-nu ərazisində dağ. Pirəkəşkül k.-ndən 8,5 *km* c.-q.-də, Bakı–Şamaxı avtomobil yolunun kənarındadır. Hünd. 588,5 *m*.

**BAYANDIR** – Azərb. Resp. Laçın r-nu ərazisində çay. Zabux çayının sağ qolu. Uz. 14 *km*.

**BAYANDUR** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Düzkənd, 7.12.1945 ildən – Axuryan r-nu), Arpaçay çayının sahilində azərb.-ların yaşadığı kənd. 1826–28 illər Rusiya-İran, 1828–29 illər Rusiya-Osmanlı müharibələri zamanı azərb. əhali kənddən qovulub çıxarılmış və buraya İrandan, Türkiyədən gəlmə ermənilər, daha sonra isə yunanlar köçürülmüşdür.

**BAYANDUR** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Gorus r-nu) azərb.-ların yaşadığı kənd. R-nda Birinci B. və İkinci B. kəndləri olmuş, sonradan onlar vahid kənddə birləşdirilmişdir. 1916 ildə erməni təcavüzü nəticəsində kəndin bütün azərb. əhalisi qovulmuş, 1918 ildə burada Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir. 7.5.1969 ildə kəndin adı dəyişdirilərək Vağatur qoyulmuşdur.

**BAYANDUR** – Azərb. Resp. Tərtər r-nunun Ələsgərli ə.d.-ndə kənd. R-n mərkəzindən 4 *km* ş.-də, Tərtər çayının sahilindədir. Əh. 791 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. İbtidai məktəb var.

**BAYANDUR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Mərkəzi bölgəsinin Ağmivən kəndistanında, Sərab ş.-ndən 23 *km* şm.-ş.-də, Sərab–Ərdəbil avtomobil yolunun 10 *km*-liyindədir.

**BAYANDUR** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Ətraf kəndistanında, bölgə mərkəzindən 18 *km* c.-dadır.

**BAYANDUR BƏY** (? – 1490/91) – Ağqoyunlu sərkərdəsi, baş əmir. *Bayandurlar* tayfasındandır. 1478 ildə Uzun Həsənin qiyam qaldıran oğlu Uğurlu Məhəmmədin qətlində iştirak etmişdir. 1480 ildə Urfa yaxınlığında Misir məmlükləri ilə vuruşmada rəşadət göstərmişdir. B.b. İraqda Sultan Yaquba qarşı qaldırılmış qiyamı yatırmışdır. Sultan Yaqubun ölümündən (1490) sonra B.b. Uzun Həsənin oğlu Məsih Mirzəni [1490–91] İraqda hökmdar elan etmişdi. Savə ş. yaxınlığındakı döyüşdə baş əmir Sufi Xəlil tərəfindən öldürülmüşdür.

**BAYANDURLAR** – ağqoyunlu tayfalarından biri (bax *Ağqoyunlular*). B. ağqoyunlu tayfa ittifaqının yaradılması, möhkəmləndirilməsi, ərazisinin genişləndirilməsi uğrunda mübarizədə fəal iştirak etmişlər. 14 əsrin əvvəllərində Qarabağda və Göyçə gölü ətrafında yaşamışlar. Ağqoyunlu tayfa ittifaqının başçıları və Ağqoyunlu dövlətinin hökmdarları B. tayfasından idi; onların qvardiyası da B.-dan təşkil olunurdu. Azərb. xalqının təşəkkülündə Azərb.-da yaşayan digər türk tayfaları ilə birlikdə B.-ın da rolu olmuşdur. Azərb. Resp.-nın (Bərdə, Laçın və s.) və Türkiyə Resp.-nın (Samsun, Bursa, Konya və s.) bir sıra bölgələrində Bayandur, Bayandır, Bayandurlu, Bayandırlı adı ilə bir çox kənd, bulaq, çay və s. var. B. ilə bağlı bir sıra toponimlər Qərbi Azərb. (indiki Erm. Resp.) ərazisində də mövcud olmuşdur. Bu toponimlər B.-ın geniş ərazidə yayıldıqlarını göstərir. Tarixçilər (V.V. Bartold, M.İ. Artamonov) 11–12 əsrlərdə Kiyev Rus dövlətinin daxili həyatında mühüm rol oynamış türk tayfası olan *berendelləri* B.-la eyniləşdirirlər.

**BAYANDURLU** – Azərb. Resp. Tərtər r-nunun Kəbirli ə.d.-ndə kənd. R-n mərkəzindən 13 *km* şm.-da, Tərtər çayının sahilindədir. Əh. 575 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur.

**BÁYAN-XÁRA-ÚLA** – Çində, Şərqi Kunlunda dağ silsiləsi. Uz. şm.-q.-dən c.-ş.-ə 750 *km* məsafədə uzanaraq Xuanxe və Yanszı çaylarının suayırıcısını təşkil edir. Hünd. 5442 *m*-ədək. Əsasən, qranitlərdən və metamorfik süxurlardan təşkil olunmuşdur. Zirvələri yastı, yaxud günbəzvarıdır. Şm. yamacları maili, c. yamacları Yanszı çayı dərəsinə doğru sıldırımlıdır. Yüksək dağlıqda soyuq səhra landşaftları üstünlük təşkil edir; yal hissəsi daimi qarla örtülüdür.

**BAYANXÓNQOR** – Monqolustanın c.-unda aymak. Sah. 116 min *km*², əh. 91 min (2003). İnz. m. Bayanxonqor ş.-dir.

**BÁYAN-ÓBO** – Çinin Daxili Monqolustan muxtar r-nunda dəmir filizi, nadir və nadir-torpaq metalları yatağı. Xux-Xoto ş.-ndən 96 *km* şm.-dadır. Dünyada ən iri yataqlardandır. 1934 ildən dəmir filizi, sonralar nadir metal – nadir-torpaq filizi kimi məlumdur; intensiv surətdə 1957 ildən yeraltı üsulla işlənir. Filizin ümumi ehtiyatı 500 mln. *t*-dan çoxdur. Nadir və nadir-torpaq elementləri oksidlərinin kəşf olunmuş ehtiyatı 36 mln. *t*-dur (o cümlədən $Y_2O_3$ 100 min *t*, $Nb_2O_5$ 120 min *t*). Yataq ensiz sinklinal strukturla əlaqədardır. Nadir metal – nadir-torpaq geoloji-sənaye tipli yataqlar qrupuna aiddir. Uz. 18 *km*, eni 5 *km* olan yataq qurşağında, əsasən, karbonatitlərlə əlaqədar 20-dən çox stratiform filiz kütləsi toplanmışdır. Filiz kütlələri, əsasən, dik yatımlıdır; mineraloji tərkibi maqnetit, hematit, bastnezit, monasit, eşinit və az miqdarda beril mineralından ibarətdir. Filizlərdən bastnezit-monasit, niobium və berillium konsentratları alınır.

**BAYANŞİRƏ**, ağ şirə, ağ üzüm – Azərb.-da xalq seleksiyası yolu ilə yetişdirilmiş texniki üzüm sortu. Kür-Araz ovalığı, Şirvan, Nax. MR və Yuxarı Qarabağ zonalarında yayılmışdır. Tənəyi güclü boy atır, gecyetişəndir, vegetasiya dövrü 160–165 gündür. Kolları 30–35 il yaşayır. Giləları ağ və şirəlidir. Şirəsinin tərkibində 16–18% şəkər, 6–7 *q/l* turşu olur. Şampan şərabı və şirə istehsalında ən qiymətli sortdur. Azərb. üçün r-nlaşdırılmışdır.



Bayanşirə.

**BAYANTUMEN** – *Çoybalsan* ş.-nin 1941 ilədək adı.

**BAYAN-ULEGEY** – Monqolustanın q.-ində aymak. Sah. 46 min *km*², əh. 92 min (2003). İnz. m. Ulegey ş.-dir.

**BAYAR** Mahmud Cəlal (15.5.1883, Bursa yaxınlığındakı Umurbəy k. – 22.8.1986, İstanbul) – Türkiyə dövlət xadimi. *Kamalçılar inqilabında* iştirak etmişdir. Nazir, baş nazir kimi fəaliyyət göstərmişdir. 1946 ildə Demokrat partiyasını yaratmış və onun sədri olmuşdur. B. 1950 ilin mayından 1960 il mayın 27-dək (dövlət çevrilişinədək) Türkiyə Resp.-nın prezidenti idi. B. Türkiyənin NATO blokuna qoşulmasında (1952) və *Bağdad paktının* yaradılmasında (1955) fəal rol oynamışdır. Dövlət çevrilişindən sonra həbsə alınan B. 1961 ilin sentyabrında ölüm cəzasına məhkum edilmiş, lakin sonra bu hökm ömürlük həbs cəzası ilə əvəz olunmuşdur. 1964 ildə səhhətinə görə həbsdən azad edilmişdir. 1969 ildə siyasi hüquqları bərpa olunmuşdur.



**BAYAT ABBAS** (?–?) – 16 əsr Azərb. el şairi. Bayat tayfasından olduğu ehtimal edilir. Ədəbi irsinin az bir hissəsi dövrümüzədək gəlib çatmışdır. Əsasən, gəraylı və qoşma müəllifi kimi tanınmışdır. Şeirləri xalq danışıq dilinə yaxın və sadədir. Əsərlərini ilk dəfə Salman Mümtaz "El şairləri" toplusuna (1927, 1935) da-

xil etmişdir. Elmi ədəbiyyatda bəzən Aşıq Abbas Tufarqanlı ilə qarışdırılır.

Əsərləri Azərb. MEA M.F. ad. Əlyazmalar İn-tunda saxlanılır.

Ə s ə r i: Şeirlər//Dağıstan töhfələri /tərtib edəni M. Yarəhmədov. B., 1987.

*Əd.*: Bayat Abbas//Y a r ə h m ə d o v M. Azərbaycan-Dağıstan ədəbi əlaqələri. B., 1985.

**BAYAT QALASI** – Qarabağ xanlığının ilk paytaxtı. 1748 ildə *Pənahəli xan* tərəfindən Kəbirli mahalında inşa edilmiş B.q. xanın iqamətgahı olmuşdur. Qısa müddət ərzində burada qala divarları, bazar, hamam tikilmişdi. Qalanın divarları bişmiş kərpicdən hörülmüş, ətrafı xəndəklə əhatə olunmuşdu. Təbriz və Ərdəbildən sənətkarlar dəvət edilmişdi. 1750 ildə şəkili Hacı Çələbi xan B.q.-na hücum etmiş, lakin bir ay davam edən mühasirəyə baxmayaraq qalanı ala bilməmişdi. Pənahəli xan 1751 ildə iqamətgahını düzənlikdə yerləşən və müdafiə baxımından zəif olan B.q.-ndan köçürmüşdü. B.q. 19 əsrdə dağıdılmışdır.

*Əd.*: Azərbaycan tarixi (7 cilddə). C. 3. B., 1999.

**BAYATI** – Azərb. lirik şeir janrı, şifahi xalq ədəbiyyatının ən geniş yayılmış formalarından biri. B.-nın mənşəcə *bayatların* adı ilə bağlı olduğu qeyd edilir (Ə. *Abid*, S. *Mümtaz*, F. *Köprülü*). Bayat tayfasına məxsus şeir, nəğmə, mahnı anlamı kəsb edir. B.-ların ilk örnəkləri (B. adlanmasa da) Mahmud Kaşqarinin "Divanu lüğət-it türk" əsərində toplanmışdır. Bitkin fikir ifadə edən 4 misradan, hər misra isə 7 hecadan ibarət olur. Qafiyələnmə sistemi aaba-dır.

B.-da insanın həyat və cəmiyyət haqqında fəlsəfi düşüncələri, vətən eşqi, məhəbbət və sevgi, təbiət gözəllikləri aydın, yığcam, emosional tərzdə, zəngin və əlvan bədii boyalarla canlandırılır. B.-larda dövrdən, zəmanədən narazılıq, ictimai və milli zülmə etiraz, yadelli işğalçılara nifrət motivləri də güclüdür. B. başqa türk xalqlarının (türk, türkmən, qaqauz, özbək, qazax, qırğız və b.) da şifahi poeziyasında geniş yayılmışdır. İraqda yaşayan azərb.-lar (İraq türkmanları) arasında bu şeir növü *xoyrat*, Türkiyədə *mani* adlanır. "Əzizim", "əzizinəm", "eləmi", "aşıq", "yox aşıq", "aşiqəm" sözləri ilə başlaması Azərb. B.-ları üçün səciyyəvidir. *Sarı Aşıq* (17 əsr) mahir B. ustası olmuşdur.

M u s i q i d ə – Azərb. lirik xalq mahnı janrı. Həzin melodiya və havalara da B. deyilir. Bəzi muğam adları B. sözü ilə bağlıdır (Bayatı-Şiraz, Bayatı-kürd, Bayatı-qacar və s.).

M ə t n l ə r: Azərbaycan bayatıları (toplayanı H. Əlizadə). B., 1938; Bayatılar (toplayanı M.H. Təhmasib). B., 1943; Баяты. Пер. В. Кафарова. Б., 1959; Bayatılar (toplayanı H. Qasımov). B., 1960; Kərkük bayatıları (tərtib edənləri R. Rza, Q.Paşayev). B., 1968: Ларец жемчужин. М., 1968; İraq-kərkük bayatıları (toplayanı və tərtib edəni Q.Paşayev). B., 1984; Bayatılar (toplayanlar V. Vəliyev və S. Paşayev). B., 1985; Bayatılar. B., 2004.

*Əd.*: Ə f ə n d i y e v P. Azərbaycan şifahi xalq ədəbiyyatı. B., 1981; Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. 1-ci c.(şifahi xalq ədəbiyyatı). B., 2004.

**BAYATI-ƏCƏM** – *Şur və Bayatı-kürd* muğamlarının şöbələrindən biri.

**BAYATI-İSFAHAN** – *Bayatı-Şiraz* muğamının əsas şöbələrindən biri.

**BAYATI-KÜRD** – *muğam.* Məqam əsası şurdur. Melodik dili və intonasiyasına görə *Daştiyə* yaxındır.

**BAYATI-QACAR** – *muğam.* Bərdaşt, Mayə, Hüseyni, Şikəsteyi-fars, zil Bayatı-qacar şöbələrindən ibarətdir. Bir çox xüsusiyyətinə görə Rast muğamına yaxındır; si bemol rast tonallığında ifa olunur. B.-q. müstəqil muğam olmaqla yanaşı, Şur və Dügah muğamlarına şöbə kimi daxildir. B.-q. muğamına Bayatı-türk də deyilir.

**BAYATI-ŞİRAZ** – 1) *muğam.* Bərdaşt, Mayə, Nişibi-fəraz, Bayatı-İsfahan, zil Bayatı-Şiraz, Xavəran, Şikəsteyi-fars, Dilrüba-ayaq, Üzzal – şöbələridir. Xarakterinə görə lirik muğamdır; sol bayatı-şiraz tonallığında ifa olunur. Şərqdə "ərusi-muğam" ("muğamlar gəlini") kimi məşhurdur. Azərb. bəstəkarlarından F. Əmirov "Gülüstan-Bayatı-Şiraz", S. Ələsgərov "Bayatı-Şiraz" simfonik muğamlarını, N. Əliverdibəyov xor üçün "Bayatı-Şiraz" əsərini, eləcə də B.-Ş. əsasında "Muğam" xoreoqrafik lövhəsini yaratmışlar. 2) Azərb. xalq musiqisinin əsas məqamlarından biri. B.-Ş. muğamı, onun bütün təsnif və rəngləri, bir çox Azərb. xalq mahnısı və rəqs melodiyaları bayatı-şiraz məqamına əsaslanır.

**BAYATLAR** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (9.9.1930 ildən Böyük Qarakilsə, 3.1.1935 ildən – Kirovakan, 24.12.1964 ildən Quqark r-nu) azərb.-ların yaşadığı kənd. 1930-cu illərdə kənd ləğv edilmişdir.

**BAYATLAR** – 1) türk tayfası; oğuz tayfalarından biri (bax *Oğuzlar*). 9–10 əsrlərdə oğuzların tayfa ittifaqına başçılıq edən tayfalardan biri də B. idi. 16 əsrdə onları Nişapur bölgəsində yaşayan monqol mənşəli *bayatlardan* fərqləndirmək üçün B.-a ağ bayat, yaxud öz bayat, monqol mənşəli bayatlara isə qara bayatlar deyilirdi. Oğuz tayfaları ilə birlikdə B. da 9 əsrin 2-ci yarısında Azərb.-a gəlmişlər. Eyni zamanda onlar Anadoluda, İranda, İraqda və Suriyada da yayılmışlar. B.-ın bir qismi Teymurilər dövründə Anadoludan köçürülən oğuzlarla geri qayıdarkən Azərb.-da qalmışlar. Azərb.-da yaşayan B. yerli əhali ilə qaynayıb qarışmışlar. 15 əsrdə ağqoyunluların zəfərlərindən sonra Həmədana və onun c.-ş.-indəki ərazilərə gəlmişlər. Səfəvi şahı *I Abbas* bayat əmirlərini Azərb.-ın müxtəlif sancaqlarına başçı təyin etmişdi. 19 əsrin əvvəllərində B. üç qola ayrılaraq Azərb.-da (5000 nəfər), Tehran ətrafında (3000 nəfər), Fars və Şiraz vil.-lərində (3000 nəfər) yaşayırdılar. Tədqiqatçıların fikrincə Bayatı-Qacar, Bayatı-əcəm, Bayatı-İsfahan, Bayatı-kürd, Bayatı-Şiraz muğamları, bayatı şeir forması, Azərb. Resp.-nın Ağcabədi, Salyan, Ucar, Şamaxı r-nlarındakı Bayat k.-lərinin adı B.-la əlaqədardır. B. Tür. və Özb. resp.-la- rında da yaşayırlar.

2) Monqolustanın şm.-q.-ində *oyratlar* qrupundan xalq; b a y i t l ə r, b a y a u t l a r da adlanır. Toqtoxın-Şil dağ silsiləsində Ubsu-Nur gölündən c.-ş.-də (eyniadlı aymakda) yaşayırlar. Sayları 50,8 min nəfərdir (2000). 13 əsrdən məlumdurlar. Mənşəcə şərqi monqollara yaxındırlar. 17 əsrdə *derbetlərlə* birlikdə *Cunqar xanlığının* tərkibinə qatılmışlar. Xanlığın süqutundan sonra 1755–58 illərdə 10 *xoşundan* ibarət ayrıca birlik (arban-bayat) yaratmışlar. B.-ın bir hissəsi digər oyrat tayfaları ilə birlikdə Rusiya ərazisinə köçərək *kalmıkların* tərkibinə daxil olmuşlar.

**BAYAZ**, b ə y a z – bloknotşəkilli əlyazması. B.-da seçmə şeirlər, hikmətli sözlər, ailə üzvlərinin həyatına dair məlumatlar yazılırdı. 20 əsrə qədər Azərb. ziyalı ailələrində saxlanılan B.-lar qismən *cüng*, qismən də müasir xatirə albomlarını və vətəndaşlıq sənədlərini xatırladır.

**BAYBÁK**, b o z q ı r m a r m o t u (Marmota bobak) – gəmiricilər dəstəsindən məməli heyvan. Bədəninin uz. 58 *sm*-ədək, quyruğu 14 *sm*-ədək, kütləsi 6 *kq*-adək olur. Tükü qısa və yumşaqdır; beli qara, yaxud tünd-qonur ləkəli sarıdır, yanaqları açıq rənglidir. Rostov, Belqorod, Voronej, Ulyanovsk, Saratov vil.-lərində, Volqaarxasında, Ukraynanın Luqansk və Xarkov vil.-lərində, Qazax.-ın şm.-ında yaşayır. Şumlanmamış taxıllı-müxtəlifotlu bozqırların istifadə edilməyən sahələrində rast gəlir. Ailələrlə məskunlaşaraq koloniyalar əmələ gətirir; birilə görmə (heykəl kimi dayanmaqla) və səsləşmə (təhlükə barədə xəbərdarlıq etməklə) vasitəsilə əlaqə saxlayır. Bir çox nəsillərin yaşaya biləcəyi, uzun yolları (15–20 *m*-ədək) və 5 *m*-ədək dərinliyi olan yuvalar qazır. Marmot yuvalarının ətrafındakı torpaq tullantıları – butanlar xeyli böyük (diametri 20–25 *m*-ədək, hünd. 1,5 *m*-ədək) ola bilir və bitki örtüyünün tərkibini dəyişdirdiyi üçün bozqır landşaftının mühüm elementidir. Səhər saatlarında B.-lar fəal olur. Ot bitkiləri ilə qidalanır, qidasında suyun olmasına tələbkardır. Payıza yaxın vitaminlərlə və bioloji aktiv maddələrlə zəngin olan piy (bədən kütləsinin 1/3-i qədər) toplayır. 6 aydan çox qış yuxusuna gedir. Ailə 12–15 baş heyvanın toplaşdığı bir yuvada qışlayır. Cütləşmə yazda baş verir. İldə bir dəfə balalayır (4–7 bala). Bəzi yerlərdə B.-lar əkinlərə ciddi zərər vura bilir. Bir çox təhlükəli yoluxucu xəstəliklərin, o cümlədən taun və gənə rikketsiozu törədicilərinin təbii daşıyıcısıdır. Xam torpaqların şumlanması, eləcə də həddən artıq ovlanması (dərisinə görə) və məqsədyönlü şəkildə qırdırılması (taunun profilaktikası ilə əlaqədar) nəticəsində B.-ların sayı xeyli azalmışdır. Mühafizə və yerləşdirilmə tədbirlərindən sonra sayı artmaqdadır.



Baybak (Marmota bobak).

**BAYBAKÓV** Nikolay Konstantinoviç (7.3.1911, Bakı yaxınlığındakı Sabunçu qəs. – 31.3.2008, Moskva) – sovet dövlət xadimi. Lenin mükafatı laureatı (1963), Sosialist Əməyi Qəhrəmanı (1981). Azərb. Neft İn-tunu bitirmiş (1932), Bakının neft mədənlərində işləmişdir. Volqa ilə Ural arasında yerləşən və Bakıdan sonra SSRİ-də ikinci ən iri neft rayonunun işlənilməsi və mənimsənilməsinin təşkilatçılarından olmuşdur. SSRİ neft sənayesi xalq komissarının müavini (1940), cəbhənin yanacaqla təmin edilməsi üzrə Dövlət Müdafiə Komitəsinin müvəkkili (1941 ildən), SSRİ neft sənayesinin xalq komissarı (1944 ilin noyabrından), SSRİ-nin cənub və qərb rayonları neft sənayesi naziri (1946–48), SSRİ neft snayesi naziri (1948–55) işləmişdir. B. 1955–57 illərdə SSRİ Nazirlər Soveti Dövlət Plan Komissiyasının sədri, 1957–58 illərdə RSFSR Nazirlər Soveti sədrinin birinci müavini, RSFSR Dövlət Plan Komitəsinin sədri, 1958–63 illərdə Krasnodar, daha sonra Şimali Qafqaz iqtisadi rayonları Xalq Təsərrüfatı Şurasının sədri, 1963–64 illərdə SSRİ Dövlət Plan Komitəsi yanında Kimya üzrə Dövlət Komitəsinin sədri, 1964–65 illərdə Neftçıxarma Sənayesi üzrə Dövlət Komitəsinin sədri olmuşdur. 1965–85 illərdə SSRİ Nazirlər Soveti sədrinin müavini, SSRİ Dövlət Plan Komitəsinin sədri işləmişdir. 1986–88 illərdə SSRİ Nazirlər Soveti yanında dövlət müşaviri, 1988 ildən Rusiya EA-nın Neft və Qaz Problemləri İn-tunun baş elmi işçisi, Beynəlxalq Yanacaq Enerji Assosiasiyasının (BYEA) vitse-prezidenti olmuşdur. 200-ədək elmi əsərin müəllifidir. 2004 ildə BYEA N.K. Baybakov ad. mükafat təsis etmişdir.



SSRİ Ali Sovetinin (2, 4–5, 7–11-ci çağırış) deputatı seçilmişdir. 6 dəfə Lenin ordeni, 2 Qırmızı Əmək Bayrağı ordeni və s. ilə təltif olunmuşdur.

Ə s ə r l ə r i: От Сталина до Ельцина. М., 1998; Моя родина – Азербайджан. М., 2001.

**BAYBALIQ** (uyğur dilində "zəngin şəhər") – *Uyğur xaqanlığında* şəhər. B. 758 ildə Moyan-Çor tərəfindən Selenqa çayının sahilində salınmışdı. Şine Usu kitabəsinin məlumatına görə, k.t. və ticarət mərkəzi olan B. həm də hərbi, siyasi və iqtisadi cəhətdən mühüm mövqedə yerləşirdi. Şəhərin kərpicdən hörülmüş hündür divarları dövrümüzədək saxlanmışdır.

**BAYBARS I** əl-Məlik-üz Zahir Rüknəddin əl-Bundukdari (1223, Dəşti-qıpçaq – 20.6.1277, Dəməşq) – Bəhri sülaləsindən məmlük sultanı [1260–77], Misir və Suriyada hakimiyyətdə olmuşdur. Qıpçaqların borçoğlu, yaxud borlu tayfasından idi. Kiçik yaşlarında əsir alınmış, Dəməşqdə Aytəkin əl-Bundukdari adında bir zərgərə satılmış və onunla birlikdə Qahirəyə getmişdir. Burada Bəhri məmlüklərinə qoşulmuş və tezliklə onların başçılarından biri olmuşdur. 1250 ildə Əyyubi ordusunun tərkibindəki məmlük döyüşçüləri ilə Fransa kralı IX Lüdovikin başçılığı ilə Misirə soxulan səlibçi ordusunu ağır məğlubiyyətə uğratmış, kralı əsir almışdır. Məmlüklərin döyüş bacarığından ehtiyatlanan və onları sıxışdırmağa başlayan Əyyubi hökmdarı Turan şahı öldürmüş, şahın ögey anası türkmənşəli Şəcərüddürr xatunu hakimiyyətə gətirmişdir (bax *Məmlüklər*). *Aynicalut döyüşündə* monqolların məğlub edilməsində (1260) mühüm rol oynamışdır. Döyüş zamanı göstərdiyi rəşadətə görə sultan *Kutuz* onu Hələb əyalətinə hakim təyin edəcəyinə söz versə də, vədinə əməl etməmişdi. B. Kutuzu öldürmüş və bəhri məmlüklərinin böyükləri tərəfindən sultan seçilmişdir. O, dövlət idarəçiliyini yenidən qurmuş, monqol və səlibçi təhlükəsinə qarşı bir sıra tədbirlər görmüş, hakimiyyətini Nubiya və Ərəbistan y-a-nadək genişləndirmiş, daxili qiyamları yatırmış və siyasi sabitlik yaratmışdı. Səlibçiləri Orta Şərqdən qovmaq məqsədilə onların nəzarətində olan Yaffa, Aslis, Arsuf, Ramlə ş.-lərini tutmuş (1265), Akkaya və Sefada hücum etmişdi. Kilikiya hökmdarı I Hetumun qoşununu darmadağın etmiş, Adana, Misis, Tarsus, Sis (Kozan) ş.-lərindən xeyli qənimət götürmüşdü. Antakyanı ələ keçirmiş (1268), Tripoli qraflığının tabeliyindəki bir sıra şəhər və qalanı ələ keçirmişdi (1271). Kipri tutmaq məqsədilə donanma göndərmiş, lakin bir çox gəmisi fırtına zamanı batdığı üçün geri çəkilmək məcburiyyətində qalmışdı.

*Əd.*: B a y r a k O. Türk imparatorlukları tarihı. İstanbul, 2002; A v c ı o ğ l u D. Türklerin tarıhı. İstanbul, 1999; C l o t A. Kölelerin ımparatorluğu. Memlüklerin Mısırı (Çeviri: Turhan Ilgaz). İstanbul, 2005.

**BAYBARS II** əl-Məlik-ül Müzəffər Rüknəddin (? – 16.4.1310, Qahirə) – Misir məmlük sultanı [1309–1310]. Bürci məmlüklərinin nüfuzlu əmirlərindən biri, ilk çərkəz hökmdarı olmuşdur. Sultan *Nasir Məhəmməd* ibn Qalavunun ikinci hakimiyyəti dövründə *ustadüddar* vəzifəsinə təyin edilmişdir (1299). Sultanın azyaşlı olmasından faydalanan II B. bütün dövlət işlərini nəzarət altına almış, Nasir Məhəmmədin əmirlər tərəfindən

devrilməsindən sonra isə hakimiyyətə gəlmişdir. Sultan Məhəmmədin tərəfdarları olan əmirlərin təzyiqi ilə az sonra taxtdan imtina etmiş II B. edam edilmişdir.

**BAYBUCAN** – Yelizavetpol qub.-nda dağ.

**BAYBURT** – İrəvan xanlığında Vedibasar mahalının (9.9.1930 ildən Vedi, 15.5.1968 ildən – Ararat r-nu) Millidərə bölgəsində, Dəvəgözü çayının sahilində azərb.-ların yaşadığı kənd. 1918 ilin mayında Millidərə bölgəsinə hücum edən erməni daşnakları kəndi dağıtmış, Azərb. əhalisini qovmuşlar. 1922 ildə geri qayıdan kənd camaatı yenidən burada məskunlaşmışdır. 1952 ildə kəndin əksər əhalisi Azərb.-a (əvvəl Ağdaş r-nunun Ərəbocağı k.-nə, sonra Bərdə r-nunun Kətəlparaq k.-nə) deportasiya olunmuşdur. 1953 ildən sonra onların bir hissəsi geri dönmüş, lakin 1988 ildə yenidən kənddən qovulmuşlar. B.-da 5 əsrə aid qədim məbədin xarabalığı, qəbirüstü abidələr və Ərəbocağı adlı pir mövcud idi.

**BAYBURT** – Türkiyənin Şərqi Qara dəniz bölgəsində il. Sah. 3,7 min *km*². Əh. 75,7 min (2008). İnz. m. Bayburt ş.-dir.

Şm.-dan Qara dəniz d-rı, c.-dan Otluqbeli d-rı ilə əhatələnir; q.-ini Bayburt ovalığı, ş.-ini Çoruh çayı dərəsi tutur. İqlimi sərtdir. Yağıntının illik miqdarı təqr. 450 *mm*. İqtisadiyyatını əkinçilik, heyvandarlıq və ticarət təşkil edir.

**BAYBURT** – Türkiyənin şm.-ş.-ində şəhər. Bayburt ilinin mərkəzi. Əh. təqr. 32,8 min (2010). Çorox çayı sahilində, Ərzurum Trabzon avtomobil yolu üstündədir.

Bizans dövründə B.-un yerində Baiberdon adlı şəhər salınmışdır. Saltukluların və Danişməndilərin (1072–1202), Səlcuqilərin (1202) tabeliyində, daha sonra Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibində olmuşdur. *Otluqbeli vuruşmasından (1473)* sonra Osmanlı dövlətinin tərkibinə keçmişdi; 1501–14 illərdə şəhər Səfəvilərin, *Çaldıran vuruşmasından (1514)* sonra yenidən osmanlıların hakimiyyətində idi. Müxtəlif (1828, 1878 və 1916) illərdə B. Rusiya tərəfindən işğal edilmiş, Birinci dünya müharibəsinin (1914–18) sonlarında azad olunmuşdur.

Şəhərin ən qədim tikilisi *Bayburt qalasıdır*. Ehtimala görə, 18 əsrdə inşa edilmiş Ulu camedən yalnız kaşı bəzəkləri olan minarə qalmışdır. Şəhid Osman təpəsindəki iki türbə Saltuklular dövrünə aiddir.

**BAYBURT QALASI** – Türkiyənin Bayburt ş.-ndədir. Çevrəsinin uz. 2 *km*-dən çox, hünd. 30 *m*-dir. Nə vaxt inşa olunduğu məlum deyildir. İmperator I Yustinianın [527–565] hakimiyyəti illərində Bizansa tabe idi. B.q. türklərin Anadoluda fəth etdikləri və məskunlaşdıqları ilk ərazilərdəndir. Müxtəlif dövrlərdə Səlcuqilərin, Saltukluların, Danişməndilərin, Ağqoyunluların və Osmanlıların hakimiyyətində olmuşdur. Səlcuqilər və Osmanlılar dövründə qalada əsaslı təmir işləri aparılmışdır. Trabzon imperiyasının yaratdığı təhlükəyə qarşı B.q. Ərzurum məliki Toğrul şah tərəfindən, demək olar ki, yenidən inşa edilmişdi. Müharibələr zamanı əldən-ələ keçən B.q. Rusiya-Türkiyə müharibəsində (1828–29) ruslar tərəfindən dağıdılmışdı. 1980-ci illərin sonlarında qalada bərpa işləri aparılmışdır. Qalada 10 kitabə həkk olunmuşdur. "Kitabi-Dədə Qorqud" dastanlarında B.q.-nın adı çəkilir.

Bayburt qalası.



**BAYCU NOYON** – monqol sərkərdəsi (13 əsr). İran ərazisinin fəthində iştirak etmişdir (1229). Qafqazın alınmasında mühüm rol oynadığı üçün Ugedey xan B.N.-u Azərb.-a canişin təyin etmişdi (1241). Səlcuqilərin hakimiyyətində olan Ərzurumu ələ keçirmiş (1242), *Qiyasəddin II* Keyxosrovu *Kösedağ müharibəsində* məğlubiyyətə uğradaraq Kayseri, Sivas və Malatyanı tutmuşdur (1243). Keyxosrovun ölümündən sonra Səlcuqilərin hakimiyyətində olan bütün torpaqları tabe etmişdir. Qiyamçı İzzəddin Keykavusu məğlub etdikdən (1256) sonra B.N. onun qardaşı IV Rüknəddin Kılıçarslanı hakimiyyətə gətirmişdir. İsmaililərə qarşı vuruşmuş, Bağdadın fəthində iştirak etmişdir. Etibarının artmasından və hakimiyyəti ələ keçirəcəyindən ehtiyatlanan Hülaku xan B.N.-u edam etdirmişdir.

**BAYDAQ** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qafan r-nu), Oxçu çayının sol sahilində azərb.-ların yaşadığı kənd. 1918 ildə erməni daşnaklarının hücumları nəticəsində kənd dağıdılmış, əhalisi isə qonşu Zəngilan və Qubadlı r-nlarına qaçmışdır. 1922 ildə kəndin azərb. əhalisindən cəmi 15 nəfər geri qayıtmış, qalan evlər isə 1915–20 illərdə İrandan və Türkiyədən gələn ermənilər tərəfindən zəbt edilmişdir. Az sonra azərb.-lar sıxışdırılıb buradan çıxarılmış, 1959 ildə B. Qafan şəhərinə birləşdirilmişdir.

**BAYDAR DARVAZALARI** – Ukraynada, Krım d-rının baş tirəsində aşırım. Hünd. 503 *m*-ədək. B.d.-ndan Yalta–Sevastopol avtomobil yolu keçir. Aşırımdan Krımın Cənub sahilinə əsrarəngiz mənzərə açılır.

**BAYDÁR DƏRƏSİ** – Krım y-a-nın c.-unda, Qaraçayın yuxarı axınında çuxur. Uz. 16 *km*, eni 8 *km*. Əkin yerləri, bağlar, üzümlüklər var. Ətraf yüksəkliklərin (hünd. 500 *m*-ədək) yamacları ağac və kol bitkililərlə örtülüdür. Dərənin ş. hissəsində Skel mağarası (turizm) var. Yalta–Sevastopol avtomobil yolu B.d.-ndən keçir.





**BAYDÁRA** (çukçalarda – lıqıtvet, koryaklarda – kultaitvıt, eskimoslarda – anyapik) – Sibirin ucqar şm.-ş.-ində və Şimali Amerikanın ucqar şm.-q.-ində yaşayan xalqların (koryaklar, çukçalar, eskimoslar, aleutlar) ov üçün və nəql. vasitəsi kimi istifadə etdikləri qayıq. Üzərinə morj dərisi çəkilmiş ağac (əvvəllər dəniz heyvanlarının sümüklərindən) karkasdır. B.-nın Çukot (çukçalarda, eskimoslarda, aleutlarda sivri uclu) və Kamçatka (koryaklarda Çukot B.-sından nisbətən qısa və enli, ucları isə yarımdairəvi) variantları mövcuddur. Avarlarla idarə edilir (2–6 nəfərədək avarçı), sükan avarı və 1–2 yelkəni olurdu; dayanıqlı olması üçün qayığın bortlarına hava ilə doldurulmuş suiti dərisindən üzgəclər bağlanırdı. B. 30 nəfər tuturdu. Uzaq səfərlər zamanı B.-nı bəzən kəndirlə bağlanmış itlər sahildən çəkirdilər.

B.-nın sahibləri ortaq iş üçün "baydar arteli"ndə (çukçalarda – etvetyırın, eskimoslarda – anyam ima) birləşən 3–5 qohum ailələr olurdu; "artel"in başçısı B.-nın sükançısı idi. Hər il B.-nın suya salındığı ilk gün (yazın əvvəlləri) bayram (Baydara Günü) kimi qeyd edilirdi.

**BAYDARATA KÖRFƏZİ** – RF-də, Kara dənizinin c.-unda, materik sahili ilə Yamal y-a arasındadır. Uz. təqr. 180 *km*, eni girişdə 78 *km*, dərinliyi 20 *m*-ədəkdir. B.k.-nə Baydarata, Yuribey, Kara və s. çaylar tökülür. Səth suyunun temp-ru yayda 5–6°C təşkil edir. Ayrı-ayrı illərdə davamlı güclü şimal küləkləri körfəzi buz parçaları ilə doldurur və yayda gəmilərin hərəkətini çətinləşdirir. Qışda donur.

**BAYDÁRKA**, k a y a k – avar yeri olmayan, ensiz, yüngül idman və turizm qayığı. İ d m a n B.-sı üstüqapalıdır, avarçəkənlərin sayına görə (1, 2, 4) qayığın üstündə xüsusi oturacaq yerləri – oyuqlar vardır. Biryerli B.-nın uz. 5,2 *m*, eni 51 *sm*, çəkisi 11–12,5 *kq*; ikiyerlidə müvafiq olaraq 6,5 *m*, 55 *sm*, 17–19 *kq*; dördyerlidə 11 *m*, 60 *sm*, 32–35 *kq*-dır. İdmançı, üzü qayığın hərəkəti istiqamətində oturaraq hər iki başında kürək olan avarla sağdan və soldan növbə ilə avar çəkir; sükanı ayaqları ilə döndərir. B. yarışları Olimpiya Oyunları proqramına daxildir (1936 ildən kişilər, 1948 ildən qadınlar arasında).

İkiyerli baydarka.



T u r i z m B.-sı suya az çökməsi və ensiz olduğu üçün dayaz və dar su yollarında əlverişlidir, yaxşı üzmə qabiliyyətinə malikdir; idman B.-larına nisbətən enli və tutumlu, yükgötürmə qabiliyyəti daha çoxdur (200–350 *kq*).

Y e l k ə n l i B.-lar avarlı qayıqlardan yelkən ləvazimatının və çıxıntı kilin olması, ləpəyədayanıqlığı ilə fərqlənir. Xaricdə yelkənli B. yarışları ayrıca idman növüdür; ən çox ABŞ və B.Britaniyada inkişaf etmişdir.

Sakit okeanın şm. sahillərində yaşayan xalqlarda B. kiçik ov qayığıdır. Bax həmçinin *Kayak*.

**BAYDARLI** – Azərb. Resp. Qax r-nunun Qıpçaq ə.d.-ndə kənd. R-n mərkəzindən 30,5 *km* c.-q.-də, Qaşqaçayın sahilindədir. Əh. 416 (2008); heyvandarlıq, bağçılıq, əkinçilik, baramaçılıq və arıçılıqla məşğuldur. Tam orta məktəb, kitabxana var.



**BAYDAROV** Muhuma Məhəmməd oğlu (iyul, 1910, Balakən r-nunun Katex k. – 1975, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1948). Zaqatala və Balakən r-nlarında müəllim (1930–42), Balakən r-n Zəhmətkeş Deputatları Soveti icraiyyə komitəsinin sədri (1943–53) vəzifəsində işləmişdir. 1948 ildə tütünçülük sahəsində yüksək nailiyyətlər əldə etmişdir. Azərb. SSR Ali Sovetinin (2-ci çağırış) deputatı olmuşdur.

**BAYDIQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Xudafərin bölgəsinin Keyvan kəndistanında, Xudafərin qəs.-ndən 15 *km* ş.-dədir.

**BAYDU XAN** (? – 4.10.1295) – Elxani hökmdarı [1295, mart–oktyabr]; Taraqayın oğlu, Hülaku xanın nəvəsi. *Keyxatu* xanı devirərək hakimiyyəti ələ keçirmişdi. Buna görə də Xorasandan yola çıxan şahzadə *Qazan* B.x.-ın üzərinə yerimiş və əmisi Keyxatunun qatillərini ondan tələb etmişdi. Əvvəlcə rəqiblər razılığa gəlsələr də, sonradan mübarizə yenidən başlamışdı. Qazan sərkərdəsi Nauruzun sayəsində qan tökmədən məsələni həll edə bilmişdi; tərəfdarları B.x.-ı tərk etmiş və o, Naxçıvan yaxınlığında əsir götürülmüşdü. Müsəlman və xristian müəlliflər B.x.-ın xristianları himayə etməklə müsəlmanları öz əleyhinə qaldırdığını qeyd edirlər.



**BÁYER** (B a e y e r) Adolf İohann Fridrix Vilhelm fon (31.10.1835, Berlin – 20.8.1917, Münxen yaxınlığında Ştarnberq) – alman üzvi kimyaçısı. Nobel mükafatı laureatı (1905). Berlin EA-nın üzvü, Peterburq EA-nın əcnəbi m. üzvü (1892 ildən), Alman Kimya Cəmiyyətinin prezidenti (1871, 1881, 1893, 1903). Berlin Un-tində fizika və riyaziyyatı (1853–55), sonra Heydelberq Un-tində R. *Bunzenin* (1856–1857) və F. *Kekulenin* (1858) rəhbərliyi altında kimyanı öyrənmişdir. Belçikada Gent Un-tində (1858–60) F. Kekule ilə birlikdə, Berlində Ali Texniki Məktəbdə (1860–72) işləmiş, Strasburq (1872 ildən) və Münxen (1875 ildən) un-tlərinin prof.-u olmuşdur.

B.-in tədqiqatlarının əsas sahəsi üzvi sintez və stereokimyadır. Sidik turşusu və onun çevrilmə məhsullarının quruluşunu müəyyənləşdirmiş və kimyəvi xassələrini öyrənmişdir (1861–64), barbitur turşusunu kəşf etmişdir (1864). Üzvi sintez praktikasına üzvi maddələrin sink tozu ilə reduksiyası metodunu daxil etmiş (1866) və bu üsulla izatin – dihidroksiindol – hidroksiindol – indol keçidini həyata keçirmişdir. 1869 ildə (alman kimyaçısı A. Emmerlinqlə birlikdə) *o*-nitrodarçın turşusunu kalium-hidroksidlə əritməklə, 1877 ildə (alman kimyaçısı Q. Karo ilə birlikdə) etilanilini közərtməklə indol almışdır. Fenilsirkə turşusundan izatin sintez etmişdir (1878). Bu tədqiqatlar B.-ə indiqonun tam sintezini həyata keçirməyə və onun quruluşunu təyin etməyə imkan vermişdir (1883). Kondensləşmə reaksiyalarını (ammonyakın asetaldehid və akroleinlə qarşılıqlı təsirindən pikolinlər və kollidinlər almışdır,1870; ftal anhidridinin fenollarla kondensləşməsini kəşf etmişdir, 1871), həmçinin aromatik birləşmələrin hidrogenləşməsi prosesləri (məs., naftalini tetrahidronaftalinə qədər reduksiya etmişdir, 1870) öyrənmişdir.

Tsiklik birləşmələrdə tsikllərin davamlılığının valent rabitələri arasındakı bucağın qiymətindən asılılığını müəyyən edən gərginlik nəzəriyyəsini irəli sürmüş-

dür (1885). Nəzəriyyə kiçikölçülü tsikllərin (üç- və dördüzvlü) davamsızlığının kafi izahını verirdi. Sonralar müəyyən edildi ki, tsiklik sistemlərdə tetraedrik karbon atomları eyni müstəvidə yerləşmədiyindən, bucaq ("Bayer") gərginliyi olmayan altıüzvlü tsikllərin (və istənilən böyükölçülü tsikllərin) mövcudluğu mümkündür. 1886 ildə B. tereftal turşusunu sintez etmişdir; 1888 ildə heksahidroftal turşusunun iki həndəsi izomerini almış və *sis-trans-izomerlik* anlayışını irəli sürmüşdür. Benzol molekulunda bütün karbon atomlarının və kimyəvi rabitələrin eyniliyini qrafiki təsvir edən formul təklif etmişdir. Terpenlər sırasında sis-trans-izomerliyi aşkar etmişdir (1896). 8 kimyəvi reaksiya B.-in adını daşıyır. Üzvi boyaq maddələri və hidroaromatik birləşmələr sahəsində B.-in təcrübi tədqiqatları kimya sənayesinin inkişafına təkan vermişdir. B. böyük üzvi-kimyaçılar məktəbi yaratmışdır (E. *Buxner*, H. *Viland*, R. *Vilştetter*, K. Qrebe, K. Liberman, V. *Meyer*, E. *Fişer* və b.)

Əsəri: Gesammelte Werke. Braunschweig, 1905. Bd. 1–2.

*Əd.*: Dictionary of scientific biography. N.Y., 1970. Vol. 1.

**BÁYER** (Beyer) Henri Otli (13.7.1883, ABŞ, Ecvud – 31.12.1966, Manila) – Amerika antropoloqu, Filippinin arxeoloji və etnoloji cəhətdən öyrənilməsinin banisi. 1908–09 illərdə Çin, Cənubi Asiya və Şimali Afrikaya səyahət etmişdir. 1910 ildən Filippində tarixə dair və çöl materialları toplamışdır (onun kolleksiyaları dünyanın ən iri muzeylərində saxlanılır). Əhalinin etnoqrafik siyahıyaalınmasında (1916) iştirak etmiş və onun əsasında Filippinin etnoqrafik xəritəsini tərtib etmişdir (1918). İndoneziyadakı qazıntılardan (1919) sonra Filippində arxeoloji tədqiqatlar aparmışdır. Filippinin İspaniya işğalına qədərki asari-ətiqələrinin ilk sistemli təsnifatının müəllifidir. Filippin elmi jurnalının etnoqrafiya seriyasının əsasını qoymuş (1912), həmçinin Filippin Un-tinin (Manila) antropologiya şöbəsinin yaradıcısı (1914) və rəhbəri (1925–47), Filippin muzeyinin (indiki Filippin Milli muzeyi) kuratoru (1916), muzeyin arxeologiya və etnologiya şöbəsinin (1945 ildən Filippin Un-ti nəzdində muzey və in-t) yaradıcısı (1937) olmuşdur. Arxipelaqın etnoqrafiya, folklor və mədəniyyət tarixinə dair 200 cildlik əlyazmalar toplusunun ("Bayerin Filippiniana kolleksiyası", hazırda Kanberra Milli kitabxanasında saxlanılır) və Filippinin adət hüququna dair materiallardan ibarət 11 cildlik kitabın (Vaşinqtondakı ABŞ Konqresi kitabxanası; Leydendəki, İndoneziyadakı Adət hüququnun öyrənilməsi üzrə fond; Kanberra Milli Kitabxanası) tərtibçisidir. Filippin tarixinin ən qədim dövrünə aid konsepsiyasında B. texnoloji və mədəni yenilikləri Asiya qitəsindən miqrasiyalarla əlaqələndirirdi.

**BÁYER** Qotlib (Teofil) Ziqfrid (5.1. 1694, Königsberq – 21.2.1738, Sankt-Peterburq] – Almaniya və Rusiya tarixçisi, filoloq. Königsberq Un-tini bitirmişdir (1715). Səkkiz dil, o cümlədən latın, yunan, qədim yəhudi, Çin və ərəb dillərini bilirdi. 1725 ildə X. Qoldbaxın təklifi ilə Peterburq EA-na tarixçi kimi dəvət edilmişdir; "qədim dövr və Şərq dilləri" kafedrasının ordinar akad.-i olmuşdur. B. Şərq dillərinin filologiyasına, qədim tarixə və tarixi coğrafiyaya dair əsərlərin müəllifidir. Antik mənbələrdə adı çəkilən xalqların, o cümlədən skiflərin, sarmatların, kimmerlərin və b.-larının mənşəyi və sonrakı tarixi ilə bağlı məsələləri araşdırmışdır ["Skiflərin mənşəyi və qədim məskənləri haqqında" (1728); "Skifiyanın coğrafi mövqeyi haqqında" (1728); "Qafqaz səddi haqqında" (1728)]. B.-in rus tarixinə dair ən əhəmiyyətli əsərləri: "De varagis" ("Varyaqlar haqqında", 1732) və "Origines Russicae" ("Rusiyanın yaranması haqqında", 1736). "Rus" sözünün varyaqmənşəli olması fikri B.-ə məxsusdur.

**BÁYER–VİLLİGER REAKSİYASI** – mürəkkəb efirlərin və ya karbon turşularının alınması ilə ketonların və aldehidlərin hidrogen-peroksidlə, yaxud üzvi perturşularla oksidləşməsi, məs.:

$C_2H_5C(O)CH_3 \rightarrow C_2H_5C(O)OCH_3$;
$C_2H_5C(O)H \rightarrow C_2H_5C(O)OH$.

Tsiklik ketonlar *laktonlara*, α – diketonlar karbon turşularının anhidridlərinə, α, β – doymamış ketonlar *enolların* efirinə oksidləşir. Heterotsiklik ketonlar reaksiyaya daxil olmur. 1899 ildə alman kimyaçıları A. *Bayer* və V. Villiger tərəfindən kəşf edilmişdir.

*Əd.*: Вацуро К.В., Мищенко Г.Л. Именные реакции в органической химии: Справочник. М., 1976.

**BAYÉRA** (Baiera) – ginkqokimilər fəsiləsindən nəsli kəsilmiş çılpaqtoxumlu bitki cinsi. Yarpaqlarının morfoloji quruluşuna görə təyin edilmişdir. Bütün qitələrdəki Üst Trias–Tabaşir çöküntülərindən məlumdur. Yarpaqları saplaqlı, yarımdairəvi, yelpikşəkilli, yaxud enlipazşəkillidir. Yarpaq lövhəsi əsasına qədər iki hissəyə ayrılır, hər bir hissə dərin yarılaraq dixotomik budaqlanan ensiz dilimlərə bölünür. Damarlanması yelpikvari-dixotomikdir. Ağızcıqlar yarpağın hər iki tərəfində olmuşdur. 20-ədək növü məlumdur.

**BÁYEV** Aleksandr Aleksandroviç (10.1. 1904, Çita – 31.12. 1994, Moskva) – rus biokimyaçısı. REA-nın akad.-i (1970), Sosialist Əməyi Qəhrəmanı (1981). SSRİ Dövlət mükafatı laureatı (1969). V.A. *Engelqardtın* şagirdi. Beynəlxalq Biokimyaçılar İttifaqının prezidenti (1976–82) olmuşdur. Kazan Un-tini bitirmişdir (1927). Kazan Tibb İn-tunda (1930–35), SSRİ EA-nın A.N. Bax ad. Biokimya İn-tunda (1935–37 və 1954–59), 1959 ildən SSRİ EA-nın Molekulyar Biologiya İn-tunda laboratoriya müdiri, eyni zamanda SSRİ EA Mikroorqanizmlərin Biokimyası və Fiziologiyası İn-tunda (Puşşino) şöbə müdiri (1989 ilədək) işləmişdir. Tədqiqatları hüceyrə tənəffüsü, valin nəqli RNT-sinin kimyəvi quruluşu və funksiyaları, bakteriofaqların, plazmidlərin, bakteriyaların molekulyar genetikası; gen mühəndisliyi və biotexnologiya sahəsindədir; bir sıra ferment və hormonun produsentləri olan rekombinant ştamların yaradılmasında və onların mikrobioloji sintez metodlarının işlənib hazırlanmasında iştirak etmişdir. Repressiyaya məruz qalmış, 17 il həbsdə və sürgündə olmuşdur.



**BAYƏ** – İranın Qəzvin ostanında kənd. Eyniadlı şəhristanın Buin bölgəsinin Dəştabi kəndistanında, bölgə mərkəzindən 24 *km* şm.-q.-dədir.

**BAYXÉ** – Çinin ş.-ində çay. Xayxe çayını əmələ gətirən qollardan biri. Uz. 560 *km*, hövzəsinin sah. 280 min *km*². Lyaosi d-rı və Böyük Çin düzənliyi ilə axır. Sarı dənizin Boxay körfəzinə tökülür. Əsasən, yağış suları ilə qidalanır. Aşağı axınında Xayxe adlanır. Burada ortaillik su sərfi təqr. 70 *m³/san*-dir. Tunszyan ş.-ndən (Pekinin çay portu) gəmiçiliyə yararlıdır. Suvarmada istifadə olunur.

**BAYIL** – bax *Səbail*.

**BAYIL BURNU**, Səbail burnu – Azərb. Resp. ərazisində, Abşeron y-a-nın c.-q.-ində, Bakı buxtasındadır. Bayıl mayakı buradadır.





**BAYILMA**, özündəngetmə, ürəkgetmə – baş beyində qısamüddətli qanazlığı nəticəsində halsızlaşma, başgicəllənməsi, gözün qaralması və nəhayət huşun itməsi (xəstə huşunu tamamilə itirməyə də bilər). Ürək-damar sistemi xəstəliklərində, çoxlu qan itirdikdə, müxtəlif xarici təsirlər (ağrı, qorxu, həyəcan, bürkülü hava və s.) nəticəsində damarların tonusdan düşməsi baş verir. B. bir neçə saniyə və ya dəqiqə davam edir; adətən, öz-özünə keçib gedir. Tez-tez baş verən və sürəkli B. ağır xəstəliyin əlaməti də ola bilər; ona görə də həkim müayinəsinin aparılması məsləhətdir.

**BAYIRQULAR** – oğuz boylarından biri; Qobi səhrasının şm.-ındakı geniş ərazidə məskunlaşırdılar. Çin mənbələrində (7 əsr) Bayequ, Göytürk kitabələrində (8 əsr) B. kimi qeyd olunurlar. Adət-ənənə və dil baxımından töleslərə yaxın idilər. 674 ildə Çinə, 676 ildə Şərqi Göytürk xaqanlığına tabe olmuş, Kapağan xaqanının [691–716] hakimiyyəti illərində üsyan qaldırmışlar. Tola çayı yaxınlığında baş verən döyüşdə göytürklərə məğlub olmuşlar. 742 ildə Çinin tabeliyinə keçmiş, daha sonra isə Uyğur Xaqanlığının (745–840) tərkibinə qatılmışlar. 10 əsrdən ərəziyə gələn monqol tayfalarının əhatəsində qalaraq tədricən monqollaşmışlar. Sonrakı mənbələrdə türk tayfalarının arasında B.-ın adına rast gəlinmir. 13 əsrin əvvəllərində könüllü olaraq Monqol imperiyasının tərkibinə daxil olmuş və monqolların yürüşlərində fəal iştirak etmişlər. B.-ın əsas məşğuliyyətləri heyvandarlıq və ovçuluq (sığır) olmuşdur, həmçinin cins atlar yetişdirir, dəmir məmulatlar ixrac edirdilər. *Barqalar* B.-ın nəsilləridir.

**BAYIRŞƏHƏR**, fortştadt – orta əsr şəhərlərinin qala divarlarından xaricdəki hissəsi. Şəhər əhalisinin ticarət və k.t. ilə məşğul olan təbəqəsi adətən B.-də yaşayırdı. B.-də binalar plansız, sərbəst şəkildə tikilir, çoxlu bağ salınırdı. Keçmiş Bakının *İçərişəhərdən* kənar hissəsini B.-ə nümunə göstərmək olar.

**BAYITMIŞ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Siyahçeşmə bölgəsinin Bəhbəhcik kəndistanında, Siyahçeşmə qəs.-ndən 29 *km* ş.-dədir.

**BAYİNNÁUN** (1510–81) – Taunqu sülaləsindən Birma hakimi [1551–81]. Birmanı birləşdirmişdir. İstedadlı sərkərdə olan B. *Avanı* (1553–55), Şan dövlətlərini (1556–59) tutmuş və *Siama* bir sıra uğurlu hərbi səfərlər (1558, 1563–64, 1568–69) edərək Hind-Çin y-a-nın c.-q.-ində qüdrətli dövlət yaratmışdır. B. Hindistan, Seylon ilə geniş əlaqələr qurmuş, Malayya arxipelaqı ilə ticarəti inkişaf etdirmiş, vahid ölçü və çəki sistemi tətbiq etmiş, iri dəniz donanması yaratmışdır. Buddizmin yayılmasına, həmçinin elm, ədəbiyyat və incəsənətin inkişafına rəvac vermişdir.

**BAYİŞEVA-ZEYNALOVA** Güləndam Mühəmmədcanovna (15.8.1902, Penza – 19.1.1981, Bakı) – Azərb. terapevti, tibb e.d. (1941), prof. (1947), Azərb. SSR əməkdar həkimi (1960). 1917 ildə Gəncə qadın gimnaziyasını, 1924 ildə Kazan Dövlət Un-tinin tibb fakültəsini bitirmişdir. 1933 ildən Bakıda tibbi-pedaqoji fəaliyyətə başlamışdır. 1947–70 illərdə Azərb. Dövlət Tibb İn-tunda daxili xəstəliklər propedevtikası kafedrasının müdiri, 1970–81 illərdə prof. işləmişdir. Elmi əsərləri malyariya, qara ciyər sirrozu və s. həsr olunmuşdur. 60-adək elmi əsərin müəllifidir.

**BÁYKA** (hol. baai, qədim fr. baie – yun parça) – 1) hər iki üzündə sıx xovu olan yumşaq, boş toxunuşlu pambıq parça. Əsasən, saya və ya sadə rəsmlərlə bəzədilir. B.-dan alt paltarı, qadın və uşaq geyimi, idman kostyumu və s. tikilir; 2) üz tərəfində xovu olan sıx toxunuşlu, ağır, qaba mahud parça. Qadın və uşaqlar üçün mövsümi palto tikilməsində istifadə edilir.

**BAYKÁL** – Şərqi Sibirin c. hissəsində, RF-nin Buryat Resp. və İrkutsk vil. ərazilərində göl. Dünyanın ən dərin və şirin su kütləsinin həcminə görə ən iri göləüdür. *Ümumdünya irsi* siyahısına daxil edilmişdir. Suyunun 455,9 *m*-lik səviyyəsində sah. 31,7 min *km*², uz. 636 *km*, eni 79 *km*-ədək, su kütləsinin həcmi 23,6 min *km*³-dir (dünya şirin səth suları ehtiyatının təqr. 20 %-i; Rusiya üzrə 85 %-dən çox). Orta dərinlik 744 *m*, maks. – 1642 *m*.

B. çökəkliyi (yaşı təqr. 25 mln. il) *Baykal rift sisteminin* mərkəzi hissəsidir; ildə təqr. 4,5 *mm* sürətlə genişlənir. Dibindəki Selenqa qalxımı və Akademiya silsiləsi B. çuxurunu 3 dərin hissəyə (cənub, orta və şimal) ayırır. Çökəkliyin q. yamacı dik, ş. yamacı mailidir. Orta və cənub hissələrdə dib çökmələrinin qalınlığı 7–7,5 *km*-ə çatır. B., dib çökmələrinin tərkibində metan hidratları yatağı olan yeganə şirin su hövzəsidir. Gölün cənub və orta hissələrində dib çökmələrindən suya daim metan tullanması baş verir.

B.-ın sahil xətti az girintili- çıxıntılıdır; uz. təqr. 2100 *km*-dir. Ən iri körfəzləri: Barquzin, Çivırkuy, Proval; Sosnovka buxtası. B.-da 22 ada var; ən böyükləri Olxon və Böyük Uşkani (9,4 *km*²) adalarıdır. Ən mühüm yarımadası Svyatoy Nosdur (uz. 58 *km*).

Gölün sutoplayıcı hövzəsinin sah. təqr. 540 min *km*²-dir. B.-a 300-dən çox çay tökülür. Ən böyükləri Selenqa, Yuxarı Anqara, Barquzin, Snejnaya və Turkadır. Çayların ortaillik məcmu su axımının (58,8 *km*³) təqr. 50 %-i Selenqanın payına düşür. B.-dan Anqara çayı başlanır. Çaylar B.-a hər il 6,12 mln. *t* həll olmuş duzlar, 590 min *t* üzvi maddələr gətirir; Anqara isə göldən 5,36 mln. *t* həll olmuş duzları, 170 min *t* üzvi maddələri aparır. B.-ın suyu az minerallaşmış (təqr. 100 *mq/l*) və çox şəffafdır; oksige-

Baykal gölü.





Baykal gölü qışda.

nin yüksək miqdarı ilə seçilir.

B., demək olar ki, Asiya qitəsinin kəskin kontinental iqlimə malik mərkəzində yerləşmişdir, lakin gölün nəhəng su kütləsi sahilyanı iqlimi xeyli mülayimləşdirir. Havanın orta temp-ru yanvarda –17°C, iyulda 16°C-dir. Yayda səth sularının temp-ru mərkəzi hissəsində 9–15°C, sahildə 13–18°C olur. Dərin qatlarda (300 *m*-dən dərində) ilboyu temp-r 3,7-dən 3,1°C-dək düşür. Yanvardan mayadək donmuş olur (buz örtüyünün qalınlığı 50–120 *sm*). B. ərazisinin külək rejimi mürəkkəbdir. Q.-dən və şm.-q.-dən şiddətli sarma (Olxon a. r-nunda) və şm.-ş.-dən verxovik və barquzin küləkləri əsir.

B.-ın bitki və heyvanlar aləmi çox zəngindir. Təqr. 1100 yosun növünün 195-i, 2595 heyvan növünün 50 %-dən çoxu endemikdir. B.-da məskunlaşmış 61 balıq növündən və yarımnövündən, əsasən, ziyad balığı, xarius, xanı balığı, yayınbalığı, durnabalığı, nalim və adi alabalıq ovlanır. İxtiofaunasının ən iri nümayəndəsi – Baykal nərəsinin (uz. 180 *sm*, çəkisi 60 *kq*) nəsli kəsilməkdədir.

B. sahillərində təbii landşaftlar, çoxsaylı təbiət abidələri və arxeoloji abidələr mövcuddur. B.-ın və ətraf ərazilərin nadir təbii kompleksi milli parklarda (Baykalyanı, Baykalarxası) və qoruqlarda (Barquzin, Baykal, Baykal-Lena) mühafizə olunur. Baykalyanı ərazi müalicəvi termal və mineral su mənbələri ilə zəngindir. B. və onun ətrafı turizm və istirahət r-nudur. B. buzu üzərində qış idman bayramları ("zimniadı") keçirilir; dağ-xizək və yelkənli idman növləri inkişaf edir. İri kurortları: Qoryaçinsk, Xakusı.

B. gəmiçiliyə yararlıdır (su yollarının uz. təqr. 1,5 min *km*); yedəkdə taxta-şalban daşınır. Sahillərində Slyudyanka, Baykalsk, Babuşkin, Severobaykalsk, Kultuk ş.-ləri yerləşir. Nadir tarixi abidə olan Baykal dairəvi d.y. (Slyudyanka–Baykal portu) 1899–1905 illərdə inşa edilmişdir; 53 tuneli və mühəndis keçidləri vardır. *Baykal-Amur magistralı* gölün şm. kənarından keçir.

B. gölünün ətraf ərazilərindən Üst Paleolit dövrünə aid çoxlu tapıntılar əldə edilmişdir. B.-ın adı monqol dilində yazılmış ən qədim əsərlərdən biri olan "Monqolların gizli tarixindən" kitabında T e n g i z (qədim türkcə – dəniz) kimi qeyd olunmuşdur. Əsərdə gölün şm.-ş. sahilləri Barhuçin, ətrafda yaşayan xalq barhun adlandırılmışdır. Gölün adı türkcə "bay" (zəngin) və "kul" (göl) sözlərindən yaranmışdır. Orxon-Yenisey kitabələrində də B.-ın adı çəkilir. 17 əsrdən; Sibirin ruslar tərəfindən işğalından sonra, gölün adı B. kimi qəbul edilmişdir.

B.-ın ilk atlası 1908 ildə nəşr olunmuşdur. 1928 ildə EA-nın Listvyankada təşkil edilmiş Baykal limnoloji st. əsasında Limnologiya İn-tu (1961) yaradılmışdır. B. bioloji müxtəlifliyin, həmçinin iqlim və ətraf mühit dəyişikliklərinin öyrənilməsi üçün beynəlxalq təbii laboratoriyadır. "Baykalda dərin sualtı qazıma" beynəlxalq çərçivəsi daxilində 1992–99 illərdə 600 *m*-ədək dərinlikdən yaşı 8 mln. ilə qədər olan dib çöküntüləri kernləri hasil edilmiş və öyrənilmişdir. B.-ın tədqiqi sahəsində REA-nın Sibir şöbəsinin təşəbbüsü ilə yaradılmış Baykal beynəlxalq ekoloji tədqiqatlar mərkəzinin xidməti böyükdür. 1990–2004 illərdə müxtəlif ölkələrdən olan 1500-dən artıq alimin iştirakı ilə 300-ədək birgə beynəlxalq ekspedisiya həyata keçirilmişdir.

**BAYKÁL ANTROPOLOJİ VARİANTI** – bax *Şimali Asiya irqi*.

**BAYKÁL QIRIŞIQLIĞI** – bax *Baykal tektogenez epoxası*.

**BAYKÁL QORUĞU** – RF-nin Buryat Resp. ərazisində dövlət təbiət qoruğu. Baykal gölünün c. sahili terraslarında və Hamardaban silsiləsinin (hünd. 2316 *m*-ədək) mərkəzi hissəsindədir. Sah. 165,7 min *ha*. Təbii dağ-tayqa kompleksini (küknar, sidr, ağşam, şam, qaraşam və s.) qorumaq və öyrənmək məqsədilə 1969 ildə yaradılmışdır. 1986 ildən biosfer qoruğudur. Florasında 1700-dən çox bitki növü, o cümlədən borulu bitkilərin təqr. 840 növü; 540-dan çox şibyə növü (təqr. 50-si nadir növlərdir) var. Faunası Cənubi Sibir d-rı üçün səciyyəvidir. Əsasən, samur, qonur ayı, Sibir porsuğu, tülkü, maral, dələ, burunduk, vaşaq, şimal maralı, sığın, qaban yayılmışdır; cüyür və Amerika su samuruna rast gəlinir. B.q.-nda 250-dən çox quş növü (Sibir xoruzu, qarabağır, zığ-zığ, kəklik və s., nadir növlərdən çay qaranquşu, dəniz qartalı), 12 balıq növü (xarius, alabalıq, çömçəbalığı, durnabalığı və s.) var. 1996 ildən *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

Baykal qoruğu.



**BAYKAL NEOLİT MƏDƏNİYYƏTLƏRİ** – Baykalyanı ərazidə, Anqara, Yenisey və Lena çayları hövzələrində ovçu və balıqçı tayfalara aid arxeoloji mədəniyyətlər. A.P. Okladnikov B.n.m.-ni 4 mərhələyə bölmüşdür. Az öyrənilmiş X i n  m ə r h ə l ə s i n d ə (e.ə. 5-ci minillik) kaman və ox işlədilmişdir. İ s a k o v  m ə r h ə l ə s i üçün (e.ə. 4-cü minillik) üzərində hörmə tor naxışı olan yumru oturacaqlı gil qablar, çaxmaqdaşından cilalanmış trapesiya və üçbucaq formalı ox ucluqları, kərkilər və çoxlu sümük məmulatı səciyyəvidir. S e r o v  m ə r h ə l ə s i n d ə (e.ə. 3-cü minilliyin 1-ci yarısı) ovçuluq inkişaf etmişdi; it əhliləşdirilmişdi. Xəzdərili kiçik heyvanları ovlamaq üçün küt ucluqlu oxlar meydana gəlmişdi. Şist və nefritdən bıçaqlar, sümüklə bəzədilmiş kaman, balıq fiqurları (daşdan) və s. tapılmışdır. Zəngin qaya təsvirləri də bu dövrə aiddir. K i t o y  m ə r h ə l ə s i n d ə (e.ə. 3-cü minilliyin 2-ci yarısı – 2-ci minilliyin əvvəli) balıq ovu inkişaf etmiş, Şərq və Qərb arasında əlaqələr artmışdı; nefrit geniş tətbiq olunurdu. Bu mərhələnin özünəməxsus əşyaları uzun sümük xəncərlər, sümük, daş və ağacdan hazırlanmış tilovlar, sümük harpunlar, qaban dişindən düzəldilmiş bəzək əşyaları və s.-dir.

**BAYKÁL RİFT SİSTEMİ** – Şərqi Sibirin c.-unda ən iri kontinental rift sistemlərindən biri. Şimal-Qərbi Monqolustandan Oxot dənizinin şm.-ı istiqamətində təqr. 2000 *km* məsafədə uzanır. Xubsuqul, Tunkin, Baykal, Barquzin, Çar çökəklikləri *qrabenləri* sistemin ən iri bölgüləridir. Xubsuqul və Baykal çökəklikləri göllər tutur. Sistem mərkəzi hissədə şm.-şm.-ş. istiqamətində, q.-ə doğru enlik boyu, daha sonra isə meridian istiqamətində uzanır. B.r.s. Eosenin sonunda Hind-Avstraliya və Avrasiya litosfer plitələrinin toqquşması ilə eyni zamanda başlanmış və Oliqosen-Kvarterdə vulkan püskürmələrinin (hazırda sönmüş) müşayiətilə inkişaf etmişdir. Riftogenezin əsas fazası sistemin müasir geomorfoloji quruluşu ilə birlikdə Son Neogen – Kvarterdə formalaşmışdır. Region yüksək tektonik mütəhərrikliyini və intensiv seysmikliyini saxlamaqdadır. Çoxsaylı zəlzələlər olur; onların intensivliyi 10–11 bala çata bilir. B.r.s.-nin altında Yer qabığının qalınlığı azdır (32–34 *km*). Daha altda özlü mantiya qatı yerləşir. İstilik axını fon göstəricisini 2–3 dəfə üstələyir. Termal suların səthə çıxışı məlumdur.

**BAYKÁL SİLSİLƏSİ** – RF-də, İrkutsk vil. və Buryat Resp. ərazilərində dağ silsiləsi. Baykal gölünün şm.-q. sahili boyunca 300 *km* məsafədə uzanır. Hünd. 2588 *m*-ədək (Çerski d.). Proterozoyun kristallik şistlərindən, kvarsit, əhəngdaşı və qranitlərdən təşkil olunmuşdur. Kəskin parçalanmış yüksək dağlıq relyefi üstünlük təşkil edir. 900–1400 *m* yüksəkliyədək qaraşam tayqası, yuxarılarda meşə-çöl, meşə və sidr kolluqları, zirvələrdə dağ tundrasıdır.

**BAYKÁL TEKTOGENEZ EPOXASI**, B a y k a l  q ı r ı ş ı q l ı ğ ı – Son Rifey-Kembridə (təqr. 850–500 mln. il əvvəl) baş vermiş qırışıqlıq prosesləri. B.t.e.-nda dünyanın müxtəlif yerlərində geniş əyalətlərin geosinklinal inkişafı başa çatmış və nəticədə geoloji strukturlar – baykalidlər əmələ gəlmişdir. Termini 1932 ildə N.S. Şatski təklif etmişdir. Baykal qırışıqlığı vilayətləri Şərqi Avropa platformasının şm.-ş.-ini, Sibir platformasının c. və c.-q. hissəsini (Turuxan zonası, Yenisey tirəsi, Şərqi Sayan) əhatə edir. Baykalidlər habelə Hindistanda, Ərəbistan y-a-nda, Orta və Yaxın Şərqin Alp strukturlarının özül çıxıntılarında qeyd olunur. Son Rifey Kembri tektogenez epoxası Afrikada panafrika, Cənubi Amerikada Braziliya, Antarktidada Birdmor, Avropada Kadom (Assint) adlandırılır. Qızıl, mis, qalay, nadir metallar və s. hidrotermal filiz yataqları B.t.e. ilə əlaqədardır.

**BAYKÁL-AMÚR MAGİSTRALI (BAM)** – Şərqi Sibirdə və Uzaq Şərqdə d.y. magistralı. İrkutsk vil.-nin, Buryatiya və Yakutiyanın mərkəzi r-nlarından, Çita və Amur vil.-lərindən, Xabarovsk diyarından keçir. BAM, *Transsibir magistralı* ilə yanaşı, Rusiyanın mərkəzi r-nlarından Şərqi Sibirə və Sakit okeana 2-ci magistral d.y. çıxışıdır. Yolların birləşməsi 1985 ildə başa çatmışdır. Uz. 3145 *km*; Lena–Tında hissəsi/təqr. 1,6 min *km*) ikixətli, Tında–Komsomolsk-Amur (1,5 min *km*) hissəsi birxətlidir. Teplovoz dartı qüvvəsindən istifadə edilir. Yol boyu ümumi uz. 32 *km* olan 142 körpü inşa edilmişdir, 8 tunel Transsibir magistralına paralel keçir. 3 qolu var: Bamovskaya–Tında–Berkakit (397 *km*) qolu Transsibir magistralı ilə birləşir, eyni zamanda Yakutiyanın c. r-nlarına çıxışdır; Komsomolsk-Amur–Sovet Li-

Baykal-Amur Magistralı. Şimali Muya aşırımı.





Baykalarxası milli parkı.

manı (290 *km*); Postışevo (Beryozova-ya)–Komsomolsk-Amur–Xabarovsk (478 *km*). BAM-ın 2 min *km*-dən çox hissəsi çoxillik donuşluq süxurlarının olduğu r-nlardan, təqr. 1 min *km*-i güclü seysmik zonadan keçir.

**BAYKALARXASI DİYAR** (2008 ilədək Çita vil.) – RF-nin subyekti. Sibir federal dairəsinin tərkibindədir. Sah. 431,9 min $km^2$. Əh. 1,1 mln. (2010). 31 r-nu, 10 şəhəri, 41 ştq. var. Mərkəzi Çita ş.-dir.

**Təbiət.** Ərazisini, əsasən, orta hündürlüklü (600–700 *m*) dağlar tutur. İqlimi kəskin kontinentaldır. Orta temp-r yanvarda –26-dan –33°C-yədək, iyulda 17–21°C-dir. İllik yağıntı 240–400 *mm*. İri çayları Şilka və Arqundur. Çoxlu göl var. Torpaqları, əsasən, podzolludur. Ərazinin 1/2-indən çoxu meşələrdir (Dauriya qaraşamı, şam, sidr, tozağacı və s.). Samur, sincab, Sibir safsarı, ayı, vaşaq, cüyür, çöldonuzu, maral, canavar, dovşan, Sibir xoruzu, tetra, ördək, torağay, durna, dovdaq və s. var. Diyarın ərazisində *Soxondo qoruğu* var.

**Təsərrüfat.** Adambaşına düşən ÜRM (Ümumi Regional Məhsul) 126,0 min rubldur (2010). Əsas sənaye sahələri: dağmədən sənayesi (qızıl, molibden, qalay, qurğuşun-sink, uran filizləri, kömür hasilatı), əlvan metallurgiya, elektroenergetika. B.d. zərifyunlu qoyunçuluq üzrə ixtisaslaşmış iri k.t. regionudur. Ətlik-südlük və ətlik heyvandarlıq, qismən də donuzçuluq, quşçuluq inkişaf etmişdir. Məşğul əhalinin 9%-indən çoxu aqrosənaye kompleksində çalışır. ÜRM-in təqr. 8%-i k.t.-nın payına düşür. Diyarda nəql. və rabitə yüksək inkişaf etmişdir. B.d.-da bərkörtüklü avtomobil yollarının uz. 16 min *km*-dir. Yükdaşımalar əksər hallarda d.y. nəql. vasitəsilə həyata keçirilir. D.y.-larının uz. 2,4 min *km*-dir. Beynəlxalq aeroport var.

**BAYKALARXASI QOYUNU** – yunluq-ətlik istiqamətində yetişdirilən zərifyunlu qoyun cinsi. 1927–56 illərdə Çita vil.-ndə yerli qabayunlu buryat-monqol qoyunlarının Yeni Qafqaz merinosu, Amerika rambulyesi, prekos, həmçinin Altay cinsi, Qroznı cinsi və Askaniya cinsinin (məhdud şəkildə) zərifyunlu qoyunları ilə mürəkkəb törəmə çarpazlaşması yolu ilə alınmışdır. B.q.-ların möhkəm konstitusiyası və yaxşı inkişaf etmiş sümük sistemi vardır. Baykalarxasının sərt təbii şəraitinə uyğunlaşmış, ilboyu otlaqdan istifadə edə bilir. Döşü enli və dərindir, ətrafları möhkəm, dırnaqları bərkdir. Anac qoyunlar buynuzsuz, qoçlar isə, əsasən, buynuzlu olur. Büküşləri orta dərəcədədir. Anac qoyunların diri kütləsi 55–58 *kq*, qoçlarınkı 100–115 *kq*-dır. Yun örtüyü sıx, kip, ştapel quruluşludur. Yunu ağdır, davamlıdır; anac qoyunlardan 2,6–3,0 *kq*, qoçlardan 6,0–7,0 *kq* yun qırxılır. Təmiz lif çıxarı 56%-ədək olur. Yunun uz. 7,5–8,5 *sm* (anac qoyunlarda), 8,5–9,0 *sm* (qoçlarda) və daha artıqdır; yunun nazikliyi müvafiq olaraq 20,6–25,0 *mkm* və 20,6–27 *mkm*-dir. Yağ-tər yaxşı keyfiyyətlidir. Hər 100 anac qoyundan 110–130 quzu alınır. "Komsomolets" damazlıq z-dunun bazası əsasında Qafqaz cinsi və Avstraliya merinosu cinsinin qoyunlarından istifadə etməklə Nerçinsk cinsi tipi yaradılmışdır.

Baykalarxası qoyun cinsi.



**BAYKALARXASI MİLLİ PARKI** – RF-də, Buryat Resp. ərazisindədir. 1986 ildə yaradılmışdır. Sah. 2672 $km^2$, o cümlədən akvatoriyası 370 $km^2$. Tərkibinə Baykalın ş. sahilindəki Müqəddəs Burun y-a, Barquzin silsiləsinin q. yamacının c. hissəsi, Uşkanyi a-rı və Çivırkuy a-rı, Çivırkuy və Barquzin körfəzlərinin akvatoriyaları daxildir. Şm.-da *Barquzin qoruğu* ilə sərhədlənir. Relyefi orta dağlıq və yüksək dağlıqdır. Aşağı yüksəklik qurşağı şam və qaraşam meşələri ilə örtülüdür. Yuxarılarda sidr qarışıq qaraşam meşələri, qaraşam və küknar seyrək meşəlikləri və sərili sidr cəngəllikləri ilə əvəzlənən tünd iynəyarpaqlı ağ şamağacı, küknar, sidr meşələri yayılmışdır. 1400–1500 *m* yüksəklikdən Alp çəmənləri qarışıq dağlıq tundra başlayır. Barquzin silsiləsinin zirvəyə yaxın yerlərində buzlaq-ekzarasiya relyef formalarına malik qədim düzəlmə səthləri var. Çivırkuy bərzəxinin şm.-ı və çay mənsəbləri bataqlıqlardır. Faunası: maral, kabarqa, qonur ayı, samur; Uşkanyi a-rında nerpa yatağı var. Sibir xoruzuna, qarabağıra, tetra quşuna və Aranqatuy gölündə çoxlu su quşlarına rast gəlinir. Çivırkuy körfəzində ziyad balığı, alabalıq, xarius, enlibaş, sazan, xanıbalığı, durnabalığı var.

**BAYKÁL-LENA QORUĞU** – RF-nin İrkutsk vil.-ndə dövlət təbiət qoruğu. Baykal gölünün q. sahilindədir; Lena çayının və onun Baykal silsiləsinin yamaclarından başlanan qollarının yuxarı axarlarının hövzəsini əhatə edir. Sah. təqr. 660 min *ha*. 1986 ildə Baykal silsiləsinin və Baykal gölü sahilinin dağ-tayqa təbii kompleksinin mühafizəsi və öyrənilməsi məqsədilə yaradılmışdır. Qərb yamacları və öndağlıqlar, əsasən, sidr, şam, ağşam, qaraşam, küknar ağaclarından ibarətdir. Çay dərələrində qovaqlıqlara rast gəlinir; bataqlıqlar yayılmışdır. Şərq yamacları şamlıqlardan ibarət tayqa ilə örtülüdür.





Meşə sərhədindən yuxarıda sidr cəngəllikləri və dağ tundrası gəlir. Faunası 52 növ məməlidən (qonur ayı, Sibir porsuğu, samur, maral, dələ, burunduk və s.), 235 növ quşdan ibarətdir. Nadir və nəsli kəsilməkdə olan quşlardan çay qaranquşuna, ağquyruq dəniz qartalına, berkuta, əsl qızılquşa və s. rast gəlinir. Sürünənlər və suda-quruda yaşayanlar azdır. Sututarlarda 15 növ balıq, o cümlədən Sibir xariusu, adi alabalıq, nalim və s. var. 1996 ildən *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.



Baykal-Lena qoruğu.

**BAYKÁL-PÁTOM QIRIŞIQLIQ VİLAYƏTİ** – bax *Ural-Oxot mütəhərrik qurşağı.*

**BAYKARA HÜSEYN** – bax *Hüseyn Baykara.*

**BAYKONUR** – dünyanın iri kosmodromlarından biri; kosmik gəmilərin, orbital və avtomatik planetlərarası st.-ların hazırlığı və buraxılmasını həyata keçirir. Qazax. ərazisində, Qızıl Orda vil.-nin Baykonur ş. yaxınlığında yerləşir. 1955 ildə inşa edilmişdir; 1991 ildən Qazax. Resp.-sının mülkiyyətindədir. İcarə haqqında müqaviləyə (1994) görə, 20 il müddətinə RF-nin istifadəsinə verilmişdir (2004 ildə icarə müddəti 2050 ilədək uzadılmışdır). B.-un əsas və köməkçi obyekt və tikililəri 6717 $km^2$-lik ərazidə yerləşir; tərkibinə yüngül, orta və ağır sinifli daşıyıcı raketlərin ("Tsiklon–M", "Molniya", "Vostok", "Soyuz", "Proton", "Energiya" və s.) hazırlığını və orbitə buraxılmasını təmin edən 9 start kompleksi və 43 texniki kompleks, 3 yanacaqdoldurma-neytrallaşdırma st.-sı və oksigen-azot z-du daxildir. Kosmodromun infrastrukturuna 1-ci dərəcəli 2 aerodrom, rabitə və elektrik, su, istilik təchizatı sistemləri, həmçinin avtomobil və dəmir yolları şəbəkəsi daxildir (2004). B.-dan ilk sınaq buraxılışları 1957 ilin may-sentyabr aylarında keçirilmişdir. Həmin il oktyabrın 4-də B.-dan dünyada ilk YSP orbitə çıxarılmışdır. Planetin ilk kosmonavtı Y.A. *Qaqarin* "Vostok" kosmik gəmisində kosmosa B.-dan uçmuşdur (12 aprel 1961). "Vostok", "Vosxod", "Soyuz", "Proqress" kosmik gəmiləri, "Salyut" və "Mir" orbital st.-ları, beynəlxalq kosmik st. modulları, müxtəlif tipli YSP-ləri ("Kosmos", "Molniya", "Raduqa", "Ekran" və s.), habelə Ayı, Marsı, Veneranı tədqiq edən avtomat st.-lar B.-dan buraxılmışdır. 21 əsrin əvvəllərinədək dünyada buraxılan kosmik aparatların təqr. 30%-i B.-dan start götürmüşdür.

**BAYKÓV** Boris Pavloviç (24.7.1896, Terek vil., Minutka, hazırda Kislovodsk ş. ərazisindədir – 6.10. 1958, Bakı) – aktyor, Azərb. SSR. xalq artisti (1940). Həştərxanda və Dağıstan rus dram teatrında çıxış etmişdir. 1930–52 illərdə Azərb. Dövlət Rus Dram Teatrının aktyoru olmuşdur. Əsas rolları: Laqutin, Koşkin ("Temp", "Dostum", N. Poqodin), Bondarenko ("Müdaxilə", L. Slavin), Koşkin ("Lyubov Yarovaya", K. Trenyov), Berest ("Platon Kreçet", A. Korneyçuk), hersoq Alba ("Don Karlos", F. Şiller), Dudukin ("Günahsız müqəssirlər", A. Ostrovski), Fyodor Protasov ("Canlı meyit", L. Tolstoy), Yerşov ("Döyüşçülər", B. Romaşov), bələdiyyə rəisi ("Müfəttiş", N. Qoqol), Qorxmaz ("Od gəlini", C. Cabbarlı), Bərbərzadə ("Xoşbəxtlər", S. Rəhman), Koba ("Xanlar", S. Vurğun) və s. "Bakılılar" (1938, rej. V. Turin), "Kəndlilər" (1939, rej. S. Mərdanov), "Sualtı qayıq T-9" (1943, rej. A. İvanov) filmlərinə çəkilmişdir. Bakı Teatr Texnikumunda dərs demişdir.



**BÁYQALAR** (mundari dilində – kahin, cadugər, təbib) – Mərkəzi Hindistanda (Madhya-Prədeş və Çhattisqarh ştatlarının sərhədyanı r-nları) *dravidlər* qrupundan xalq. Adivasi birliyinə daxildirlər. Müxtəlif məlumatlara görə, sayları 20 mindən 475 min nəfərədəkdir (2005). *Qondlara* yaxındırlar. Şərqi *hind dilinin* çhattisqarhi ləhcəsinin bayqani dialektində, çoxları qondi, avadhi və s. dillərdə danışırlar. Keçmişdə *dravid dillərindən* birində danışdıqları ehtimal olunur. Əksəriyyəti hinduistdir, bir qismi ənənəvi etiqadlarını saxlayır.

Ənənəvi mədəniyyətləri Cənubi Asiya (bax *Asiya* məqaləsinə) xalqları üçün səciyyəvidir. Əsas məşğuliyyətləri qırılıb yandırılmış ərazilərdə toxa əkinçiliyi (onların inancına görə, kotan Ana-Torpağı yaralayır), ox və kamanla ovçuluq, yığıcılıqdır. B. çox vaxt qonşu xalqlarda kahin funksiyalarını yerinə yetirirlər. Ataxətti qohum nəsillərə bölgü, ulu əcdad (Nanqa Bayqa) haqqında miflər, təbillərin müşayiəti ilə xüsusi kostyumlarda mərasim rəqsləri qalmaqdadır.

**BAYQARAƏRKYANƏ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsində, Səriskənd qəs.-ndən 18 *km* şm.-q.-dədir.

**BAYQARAKUH** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Atəşbəy kəndistanında, Səriskənd qəs.-ndən 32 *km* q.-dədir.

"**BAYQUŞ**" – Cənubi Azərb.-ın Təbriz ş.-ndə "Aftab" ("Günəş") jurnalının Azərb. dilində xüsusi buraxılışı kimi nəşr edilən (2001 ildən, üç ayda bir dəfə) ədəbi jurnal.

**BAYQUŞLAR** (Strigiformes) – quşlar sinfinin bir dəstəsi. Görünüşü və bioloji xüsusiyyətlərinə görə B. yırtıcı quşlara yaxındır, lakin çinədanının olmaması, uzun kor bağırsağın və s. olması ilə on-



Adi qulaqlı bayquş (Asio otus).

lardan fərqlənir. Toran vaxtı, yaxud gecə fəal olur. Bədəninin uz. 12,8 *sm*-dən 84 *sm*-ədək, kütləsi 100 *q*-dan 3000–3500 *q*-adəkdir. Lələklərinin əsası uzun tiftiklidir. Lələk örtüyü yumşaq, rəngi çox vaxt solğun qonurumtul, yaxud kürənidir. Dişiləri erkəklərdən iridir. Gözləri ətrafında ensiz lələklərdən ibarət yastı "üz diski" var. Gözlər hədəqəsində hərəkətsiz olduğu üçün B.-ın görmə bucağı kiçikdir, lakin çox hərəkəti boynu lazımi görmə dairəsini təmin edir. B.-ın xarici qulağının dəlikləri böyükdür, çox vaxt qeyri-simmetrik yerləşir və adətən, dəri büküşləri ilə əhatələnmişdir (bu isə ovu, məs., sıx otlar arasında gəmiriciləri səsinə görə tapmaqda çox vacibdir). B., Antarktika və bəzi okean adaları istisna edilməklə, dünyanın hər yerində yayılmışdır; tundradan səhralara qədər bütün təbii zonalarda yaşayır. Monoqam quşlardır. 2 müasir fəsiləsi – 133 növü olan əsl B. (Strigidae) və 10 növü olan alaca B. (Tytonidae) məlumdur. Azərb. faunasında əsl B. fəsiləsinə mənsub 5 cinsə aid 6 növ: iri yapalaq, dan (gecə) bayquşu, qulaqlı (buynuzlu) bayquş, *bataqlıq bayquşu*, dam yapalağı (kor yapalaq), meşə bayquşu var. Ağac koğuşlarında, başqa quşların yuvalarında (məs., qarğaların), qayalarda, torpaqda və ya tikililərdə yuvalayır. 4–6, bəzən 10–14 (ağ B.) ağ kürəvi yumurta qoyur. İlk yumurtaqoymadan başlayaraq yalnız dişi fərd kürt yatır (25–35 sutka), buna görə də yuvadakı balalar müxtəlif boyda olur. Xırda məməlilər, xüsusilə gəmiricilər, quşlar, sürünənlər və həşəratlarla, bəziləri balıq, xərçəng və s. ilə qidalanır. Ovu bütöv udur, həzm edə bilmədiyi sümük, yun, lələk və xitini gəyirib qaytarır. B. kənd və meşə təsərrüfatlarında çox faydalıdır və mühafizə olunur.

**BAYQUT** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Qavdul kəndistanında, Marağa ş.-ndən 34 *km* c.-q.-də, Marağa–Miyandab avtomobil yolundan 13 *km* q.-dədir.

**BAYLADİLA** – Hindistanda (Madhya-Pradeş ştatında) dəmir filizi qurşağı. B. dağ silsiləsində 1200–1250 *m* hünd.-də yerləşən bir sıra yüksəkkeyfiyyətli dəmir filizi yataqlarını (Fe 65–69%), o cümlədən nəhəng Bayladila (ümumi ehtiyatı 1352 mln. *t*; Fe 65%), Cali-Rachara (290 mln. *t*) və Rovqhat (237 mln. *t*) yataqlarını birləşdirir. 1968 ildən açıq üsulla istismar olunur. Yataqlar Bastar–Qanqpur antiklinal zonasını mürəkkəbləşdirən sinklinal strukturlarda lokallaşmışdır. B.-da 150 *m*-ədək dərinlikdə 14 yataq kəşf edilmişdir. Filiz kütlələrinin uz. 900–1500 *m*, eni 200–500 *m*, qalınlığı 30–60 (nadir hallarda 150) *m*-dir; Alt Proterozoy yaşlı dəmirli kvarsitlərlə əlaqədardır və kütlə halında hematit, laylı maqnetit-martit–hematit, bəzən tozşəkilli hidrohetit–hetit filizlərindən təşkil olunmuşdur; yuxarı hissələrində laterit filizləri intişar tapmışdır. Məhsul Vişakhapatnam portu vasitəsilə Yaponiyaya ixrac edilir.

**BAYLAR** (özlərini baytszılar, baynilər – "ağ adamlar" adlandırırlar; 1956 ilədək Çin dilində mintszyalar, lisu dilində lemolar, nasi dilində namalar adlanırdılar) – Çinin c.-q.-ində yaşayan xalq. Sayları 2,2 mln. nəfərdir (2005). Əksəriyyəti (85%) bay xalqının Dali muxtar mahalında (1956 ildə yaradılmışdır), Yunnan əyalətinin qonşu qəzalarında, həmçinin Sıçuan, Xunan və Quyçjou əyalətlərində yaşayır. Erkən ayrılan *Çin dillərindən* biri olan və Tibet-Birma dillərinin təsirinə məruz qalan bay dilində danışırlar; Çin tədqiqatçılarının fikrincə bu dil *Tibet-Birma dillərinə* aiddir; üç dialekti var. 1950-ci illərdə latın qrafikası əsasında yazı sistemləri yaradılmışdır. 8 əsrdən heroqlif yazı sistemi (bouen, boven, lao-bayuen, lao-bayven) mövcud olmuşdur. Çin dili də yayılmışdır. Dindarların əksəriyyəti (65%) ənənəvi dini etiqadlarını saxlayanlardır; 30%-i daosizimin elementlərini daşıyan buddistlər (mahayana), 5%-i isə xristianlardır.

Bəzi tədqiqatçılara görə, B. e.ə.3 əsrdə bu ərazidə məskunlaşmış Çin əsgərlərinin nəsilləridir. B.-ın yaşadığı ərazi 8–10 əsrlərdə *Nançjao*, 10–13 əsrlərdə Dali dövlətlərinin, *Min* dövründə (14–17 əsrlər) isə qəti olaraq Çinin tərkibinə qatılmışdır. Ənənəvi mədəniyyətləri Şərqi *Asiya* xalqları üçün səciyyəvidir. Xış əkinçiliyi (düzənlik zonalarda çaybasar çəltikçiliyi, taro, şəkər qamışı, pambıq, çətənə, çay, dağlıq zonalarda dəmyə çəltikçilik, arpa, qarabaşaq) və maldarlıqla (yerli at cinsi məşhurdur) məşğuldurlar. Mərmər üzərində oyma, gümüş və lak işləməli əşyaların hazırlanması inkişaf etmişdir. Galereya ilə əhatə olunmuş karkaslı (divarları çiy kərpicdən, yaxud gilmöhrədən), adətən ikimərtəbəli evlər, həmçinin keçədən və ya dəridən bayramlıq qısa çiyinliklər səciyyəvidir. 20 əsrin ortalarınadək qohum ailələrin birgə yaşaması, torpaq üzərində icma mülkiyyəti, krosskuzen nikahı, poliginiya mövcud olmuşdur. Mahnı və rəqs folkloru əsasında musiqili dramın yerli variantı formalaşmışdır. Dağ, günəş, şimşək, ağac və s. ruhlarına inam, həmçinin şamanizm qalmaqdadır.

**BAYLÉN** (Bailen) – İspaniyanın c.-unda şəhər. İspan xalqının milli azadlıq müharibəsi (1808–14) zamanı 1808 ilin iyulunda B. yaxınlığında ispan və fransız qoşunları arasında döyüş baş verdi. İspan qoşunlarına gen. Kastanyos, fransızlara isə gen. Düpon başçılıq edirdi. Döyüş iyulun 16-nda B. yaxınlığındakı Anduxar adlı yerdə başladı. İyulun 22-də fransızlar kapitulyasiya aktına imza atdılar. B. yaxınlığında fransızların darmadağın edilməsi ispanların azadlıq mübarizəsinin güclənməsinə səbəb oldu.

**BÁYLOT** (Bylot) – Kanada Arktika arxipelaqında, Baffin Torpağının şm.-ş. sahili yaxınlığında ada. Sah. təqr. 13 min *km*², hünd. 1500–1700 *m* (maks. hünd. 2133 *m*). Paleozoyaqədərki qneyslərdən və kristallik şistlərdən təşkil olunmuşdur. Sahəsinin təqr. 50%-i buzlaq günbəzidir (buradan dənizə "buzlaq novları" ayrılır); qalan ərazi Arktika daşlı səhrasıdır.

**BAYLYANTSZYÁO ÜSYANI** – Çində 1796–1805 illərdə silahlı xalq çıxışı. 1796 ilin fevralında Xubey əyalətində başlamış, tezliklə qonşu əyalətlərə də yayılmışdı. B.ü. ənənəvi olaraq Baylyantszyao gizli təriqətinin fəaliyyəti ilə əlaqələndirilir. Üsyançıların əksəriyyətini kəndlilər, həmçinin onlara qoşulmuş bir sıra şəhər sakinləri və hətta yerli hakimiyyət strukturlarının nümayəndələri (Quyçjou əyalətindəki myao xalqının qadın hakimi Nan Syan) təşkil edirdi; ümumi sayları 100 min nəfərə çatırdı. Üsyan Mancur-Sin sülaləsinə (Baylyantszyaonun köhnə şüarı "Sin sülaləsini devirək, Min sülaləsini bərqərar edək!" idi) və vergi əsarətinə qarşı yönəlmişdi. Üsyançıların 1796–97





illərdəki uğurları imperator Jentszunu təcili tədbirlər (bir sıra mahalların və qəzaların sakinlərinin dövlət vergilərindən azad edilməsi, xalqın narazılığına səbəb olan məmurların, həmçinin üsyanın yatırılmasını ləngidən sərkərdələrin titullarının və vəzifələrinin əllərindən alınması, əmlakının müsadirəsi) həyata keçirməyə məcbur etdi. Lakin eyni zamanda, üsyançılara qarşı amansız tədbirlər görən sərkərdələrə (Eledenbao və b.-ları) çoxlu mükafat və yüksək titullar verilirdi. 1798 ildə hökumət qoşunları geniş hücuma keçdilər. 1805 il iyunun ortalarında üsyan tamamilə yatırıldı. 1813–23 illərdə B.ü.-nın şüarları altında əyalətlərdə dəfələrlə silahlı çıxışlar baş vermişdi.

**BAYÓ** (Baillot) Pyer (1.10.1771, Paris ətrafı, Passi – 15.9.1842, Paris) – fransız skripkaçısı, bəstəkar, pedaqoq. 1791 ildən "Feydo" (Paris) teatrında birinci skripkaçı olmuşdur. 1795 ildən Paris konservatoriyasının prof.-u; F.A. *Habeneck*, Ş. *Berio* onun tələbələri olmuşlar. 1802 ildən qastrol səfərlərinə çıxmış, 1805–08 illərdə S.-Peterburqda saray solisti işləmişdir. 1814 ildə Parisdə açıq kvartet musiqisi (o cümlədən Vyana klassiklərinin) gecələrini təşkil etmişdir. 1821–32 illərdə Paris Opera Teatrı orkestrinin, 1827 ildən həmçinin saray kapellasının solisti olmuşdur. Skripka üçün 9 konsert, 2 skripka ilə orkestr üçün Konsert simfoniyası, 3 simli kvartet, 2 skripka ilə bas üçün 15 trio, skripka üçün variasiya silsilələri yaratmışdır. "Skripka metodu"nun ("Méthode du violon", 1802, P. Rode və R. Kreytser ilə birgə), musiqi haqqında məqalə və oçerklərin müəllifidir. Onun "Skripka sənəti" (L'art du violon", 1834) əsəri tədris-metodika vəsaiti kimi öz dəyərini saxlamışdır.

**BAYOBA** – Azərb. Resp. Xaçmaz r-nunun Hacıəlibəy ə.d.-ndə kənd. R-n mərkəzindən 14 *km* c.-q.-də, Xaçmaz–Quba avtomobil yolundan 3 *km* aralıdır. Əh. 630 (2009); bağçılıqla məşğuldur. Ümumi orta məktəb, feldşer-mama məntəqəsi, kitabxana var.

**BAYONÉT** (fr. baïonnette – süngü) – soyuq silah; 17 əsrin ortalarında Bayonna ş.-ndə (Fransa) ixtira edilmiş süngünün ilkin adı. Dəstəyi tüfəngin lüləsinə yerləşdirilən bıçaq formasında olur.

**BAYONÉT BİRLƏŞMƏSİ** – yarıqlı (oyuqlu) detalların uyğun çıxıntısı (çivisi) olan detallara geydirilməsindən alınır; detalların ox üzrə yerdəyişməsi və kip oturanadək (özbaşına ayrılmaya yol verməmək üçün) nisbi döndərilməsi yolu ilə yerinə yetirilir. Birləşən detalların daimi sıxılmasını təmin etmək üçün yaylı sıxılan B. b. tətbiq edilir. B. b. metalkəsən dəzgahların patronlarında, fotoaparat obyektivlərində, yanğınsöndürən borularda, işıqlandırma cihazlarında və s. geniş yayılmışdır.

**BAYOVÁR**, Seçura (Sechura) – Peruda, Pyura əyalətində fosforit yatağı. Seçura səhrasının mərkəzi hissəsində, Sakit okean sahili yaxınlığındadır; Cənubi Amerikada ən iri yataqdır. Fosforitlərin ümumi ehtiyatı 816 mln. *t*, təsdiq olunmuş ehtiyatı 262 mln. *t*, tərkibindəki $P_2O_5$ -in miqdarı 12–30,5 %-dir. Yataq 1958 ildə kəşf olunmuşdur; açıq üsulla istismara yararlıdır. Fosforitlər Miosen yaşlı dəniz çökmə süxurları ilə əlaqədardır. 12 *m* dərinlikdə yatan və ümumi qalınlığı təqr. 40 *m* olan məhsuldar horizontun kəsilişində 0,3–2 *m* qalınlığa malik bir neçə dənəvər fosforit layı aşkar edilmişdir. Baş filizli ərazinin sah. təqr. 48 *km*²-dir.

**BAYÖ** (Bayeux) – Fransanın şm.-q.-ində, Normandiyada, Kalvados dep-tində şəhər. Əh. 15,3 min (2004).

*Keltlər* tərəfindən salınmış B. qədimdə Bayokass (lat. Baiocasses) adlanırdı. E.ə. 56 ildə Şimal-Qərbi Qalliyanın Roma tərəfindən işğalından sonra adı Avqustodur (lat. Augustodurum) olmuşdur. Sonralar özünüidarə əldə etmiş və Bayokassi (lat. Civitas Baiocassium) adlandırılmışdır. Eramızın 4 əsrindən yepiskopun iqamətgahı olmuşdur. 5 əsrin əvvəlindən B.-də və onun ətrafında *sakslar* məskunlaşmağa başlamışlar. 486 ildən sonra Frank krallarının hakimiyyəti altında olmuşdur. 9 əsrin sonlarında I Rollo (Robert) Roqvaldsonun başçılıq etdiyi *normanlar* tərəfindən zəbt olunmuşdur; 911 ildən Normandiya hersoqluğunun tərkibinə qatılmışdır. 11 əsrdə normanların Britaniya a-rı və Siciliyaya ekspansiyasının dayaq məntəqələrindən biri idi. 1066–87, 1106–1204 və 1418–49 illərdə İngiltərəyə tabe olmuşdur. *Yüzillik müharibə (1337–1453)* və 16 əsrdə Fransada baş verən *Dini (hugenot) müharibələr* zamanı dağıntılara məruz qalmışdır. İkinci dünya müharibəsi illərində alman qoşunları tərəfindən işğal edilmişdi (1940, iyun). 1944 il iyunun 7-də "Overlord" əməliyyatı gedişində müttəfiqlər tərəfindən ilk azad edilmiş şəhər olmuşdur.

Qədim Roma termlərinin qalıqları saxlanılmışdır. Memarlıq abidələri: Notr-Dam roman-qotik kilsəsi (təqr. 1046–97 və 12–15 əsrlərdə tikilmişdir), yepiskop sarayı (13–16 əsrlər; hazırda Rəssamlıq muzeyi; 18–19 əsrlər yerli rəssamlarının kolleksiyaları), yaşayış evləri (14–15 əsrlər), ratuşa (18 əsr). Vaxtilə kilsənin deambulatorisini bəzəyən məşhur "Bayö xalçası" (təqr. 1080; ehtimal ki, Kenterberidə, yaxud, rəvayətə görə, kraliça Matilda və saray xanımları tərəfindən hazırlanmışdır). Kraliça Matilda muzeyində saxlanılır. Normanların 1066 ildə İngiltərəni istila etməsindən bəhs edən monumental toxuma kompozisiya (uz. təqr. 68,4 *m*, eni təqr. 0,5 *m*) 58 süjetli səhnədən ibarətdir; aplikasiya texnikasında işlənmiş və müxtəlif rəngli yunla naxışlanmış 1500-dən artıq obyekt, insan və heyvan fiqurları orta əsrlər Avropasında dənizçilik, silah, geyim və adətlərin tarixini öyrənmək üçün misilsiz mənbədir.

**BAYÖ MƏRTƏBƏSİ**, Bayos mərtəbəsi – Yura sistemi orta şöbəsinin aşağıdan ikinci mərtəbəsi. 1847 ildə Normandiyada Bayö ş. ətrafında A. D. d'Orbini tərəfindən ayrılmışdır. Xarakter faunası ammonitlərdən (Stephanoceras hum phiesianum, Cosmoceras subfurcatus və s.) ibarətdir. B.m.-nin dəniz çöküntüləri, vulkanogen və vuokanogen-çökmə süxurları Fransada, Polşada, Hindistanda, Qərbi Avstraliyada, RF-də (Volqaboyu, Donetsk hövzəsi), Krım və Qafqazda yayılmışdır (Azərb.-da Əsrik, Şəmkir, Qoşqar, Tərtər, Xaçın, Tahircal, Babaçay, Ataçay və s. çayların hövzələrində). Qalınlığı 2700 *m*. Azərb.-da *pirit* və polimetallar B.m. süxurları ilə əlaqədardır.

**BAYPÁS** (ing. bypass – dolanma, dövrələmə) – boru kəmərlərinin əsas hissəsinə paralel quraşdırılan dövrələmə xətti; qapayıcı və ya tənzimləyici boru kəməri armaturları, yaxud cihazlar (məs., qaz və ya su sayğacı) ilə təchiz olunur. Əsas nəqletmə borusunun üzərində yerləşən armatur və cihazlar nasaz olduqda və texnoloji prosesi saxlamadan onları təcili dəyişmək tələb edildikdə, əsas boruya paralel keçid yolu – B. quraşdırılır.

**BAYRAQ** – dəstəyə, yaxud qaytana bərkidilən müxtəlif formalı və rəngli parça; üzərində çox vaxt dövlətin və ya təşkilatın *gerbi*, emblemi, bəzən yazı, rəmz olur. Dövlət (bax *Dövlət bayrağı*), hərbi-dəniz, ticarət və s. B.-lar fərqləndirilir.

**BAYRAQ** Midhəd (d.3.3.1929, Sakarya, Adapazarı) – Türkiyə idmançısı. Yunan-Roma güləşi üzrə 73 *kq* çəki dərəcəsində 16-cı (1956, Melburn) və 17-ci (1960, Roma) Olimpiya Oyunlarının çempionudur.

**BAYRAQDAR** (Ələmdar) Mustafa paşa (1765, Xotin – 16.11.1808, İstanbul) –

Türkiyə siyasi və dövlət xadimi. 1806 ildən Ruşçuk əyalətinin hakimi olmuşdur. Rusiya-Türkiyə müharibəsi (1806–12) zamanı sultan *III Səlim* onu vəzir və Silistranın ömürlük valisi, həmçinin Dunayboyu ərazilərin ordu komandanı təyin etmişdi (1807). Bu müharibədə böyük rol oynamış B. rusların İsmayıl qalasını tutmasının qarşısını almış, öz hərbi dəstələri ilə Dünay çayını keçərək gen. Mixelsonun komandanlığı altındakı rus qoşununu darmadağın etmişdir. III Səlimin mütərəqqi siyasətini bərpa etmək məqsədi daşıyan gizli "Ruşçuk dostları" təşkilatının başçısı (1807) olmuşdur. B. 1808 ildə yeniçərilərin çevriliş nəticəsində taxta çıxartdıqları Sultan IV Mustafanı hakimiyyətdən salmışdır. Sultan *II Mahmudun* vaxtında baş vəzir olmuşdur. Dövləti möhkəmləndirmək məqsədilə Anadolu və Rumeli əyanlarını İstanbula dəvət etmiş, onları bölgələrdə yarımmüstəqil dövlət qurumları yaratmaq meylindən çəkindirməyə çalışmışdır; bununla bağlı tərəflər arasında mərkəzi hakimiyyətin dəstəklənməsinə dair saziş (ittifaq sənədi) imzalanmışdır (1808). B. üsyan qaldırmış yeniçərilərlə döyüşdə həlak olmuşdur.

*Əd.:* Миллер Е.Ф. Мустафа паша Байрактар. М.-Л., 1947.

**BAYRAQDAROV** Abuzər Mirzə oğlu (d.1.7.1923, Gürc.-ın Adigeni r-nunun Tsiri k.). – Sosialist Əməyi Qəhrəmanı (1966). Azərb. Resp. əməkdar bağbanı (1964). Quba r-nundakı sovxozda işləmişdir. 1966 ildə meyvəçilik sahəsində yüksək nailiyyətlər əldə etmişdir. 2 dəfə Lenin ordeni ilə təltif olunmuşdur.

**BAYRAQDAROV** Mövlud Aslan oğlu (1904, Gürc.-ın Adigeni r-nunun Zanavi k.– 5.10.1983, Kabarda-Balkar Resp., Terek r-nunun Opıtnı st.) – Sosialist Əməyi Qəhrəmanı (1966). Saatlı r-nundakı "Adıgün" kolxozunun sədri işləmişdir. Azərb. SSR Ali Sovetinin (4-cü çağırış) deputatı olmuşdur. Lenin ordeni və 2 Qırmızı Ulduz ordeni ilə təltif edilmişdir.

**BAYRAQDAROVİÇ** Fehim (1889, Sarayevo – 1970, Sarayevo) – Bosniya türkoloqu. Vyana Un-tində slavyan, türk, fars, ərəb dilləri üzrə təhsil almışdır. Bir müddət liseylərdə dərs demiş, Belqrad Un-tinin prof.-u (1930) olmuşdur. Həmin un-tdə Şərq dilləri kafedrasını yaratmışdır. Türk, ərəb, fars dilləri, ədəbiyyatı və tarixinə dair 250-yə qədər əsəri ("Nəsrəddin xoca problemi", 1934; "Şərqin Göteyə təsiri", 1939; "Məsihinin bahariyyəsi", 1955; "Türk qrammatikasının əsasları", 1962 və s.) var.

**"BAYRAQİ-ƏDALƏT"** – həftəlik ictimai-siyasi və ədəbi jurnal. *"Ədalət"* təşkilatının orqanı idi. İlk nömrəsi 1917 il iyunun 10-da Bakıda Azərb. və fars dillərində çıxmışdır. Fasilələrlə nəşr edilən jurnalın beşinci nömrəsi həmin ilin sentyabrında buraxılmışdır. Redaktoru Əsədulla Qafarzadə olmuşdur. "B.-ə." Bakıda işləyən iranlı fəhlələr arasında bolşevizm ideyalarını təbliğ edirdi.

**BAYRAM** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Üsku bölgəsinin Ətraf kəndistanında, Üsku qəs.-ndən 4 *km* şm.-q.-dədir.

**BAYRAM BƏY QARAMANLI** (? – 12.11.1512) – Səfəvi sərkərdəsi; Şah İsmayılın (*I İsmayıl*) əmirlərindən biri. Şirvanşah Fərrux Yasarla, ağqoyunlulardan Əlvənd Mirzə və Sultan Muradla vuruşmalarda Səfəvi qoşunlarına başçılıq etmişdir. Usta qalasının alınmasında (1504), kürd əmiri Şirsarimə (1506), Luristan hakimi Məlikşah Rüstəmə (1508), özbək xanı Məhəmməd Şeybaniyə (1508) qarşı vuruşmalarda igidlik göstərmişdir. Gicduvan yaxınlığındakı (Buxara ş.-ndən 30 *km* şm.-ş.-də) vuruşmada həlak olmuşdur.

**BAYRAM XAN** (? – 1561) – *Böyük Moğollar* dövlətinin siyasi və hərbi xadimi, türkman bəyi. *Baharlılar* tayfasından idi. 16 yaşından *Hümayunun* sərkərdəsi olmuşdur. 1554 ildə Hümayun tərəfindən varisi *Əkbərin* lələsi təyin edilmişdir. Əkbər taxta çıxdıqdan sonra 1560 ilədək onun naibi olmuşdur. Hakimiyyəti ələ keçirməyə çalışan *Hemunun* ordusunu 1556 ildə Panipat yaxınlığındakı döyüşdə darmadağın etmiş, moğolların hakimiyyətini möhkəmləndirmişdir.

**BAYRAM XOCA** (? – 1380) – Qaraqoyunlu sülaləsinin banisi, Sultan Üveysin Bağdaddakı əmiri. Baharlı tayfasından idi. Üveysin ölümündən sonra Cəlairilər dövlətində kəskinləşən ziddiyyətlərdən istifadə edən B.X. qaraqoyunluları öz ətrafında birləşdirmiş, Mosulu və İranın qərbindəki bəzi mühüm qalaları ələ keçirmişdi (1374). 1378–80 illərdə qaraqoyunlu tayfa ittifaqının hökmdarı olmuş, tayfa ittifaqının müstəqilliyini möhkəmləndirmişdir.

**BAYRAMBƏDƏN** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Nəmin bölgəsində, Ərdəbil ş.-ndən 24 *km* şm.-dadır.

**BAYRAMBİNƏ** – Azərb. Resp. Balakən r-nunun Talalar ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* c.-q.-də, Qanıx-Əyriçay dərəsindədir. Kənddə daimi yaşayış yoxdur. Əhali bura yalnız mövsümü k.t. işlərini görmək üçün gəlir.

**BAYRAMƏLİ** (təxəllüsü Xəstə Bayraməli; əsl adı və soyadı Bayraməli Abbasəli oğlu Xuduyev; 10.7.1898, Göyçə mahalının Nərimanlı k. – 1952, orada) – Azərb. el şairi. Gənc yaşlarından Göyçənin saz-söz məclislərində iştirak etmiş, gəraylı, qoşma, təcnis, müxəmməs, divani və s. formalarda şeirlər qoşmuşdur. Əsasən, təcnisləri ilə tanınmışdır. Nizami, Nəsimi, Xətai, Vaqif, Vidadi, Natəvan və b. klassiklərin yaradıcılığından bəhrələnmiş, şeirlərində onlardan bəhs etmişdir. Türkiyədə, İranda şeir kitabları çap olunmuşdur.

*Əsəri:* Mənim Göyçəm. B., 1987; Mən ulu Göyçəmin şair oğluyam. B., 2008.

*Əd.:* Namazov Q. Aşıqlar. I kitab. B., 2004; Nəbioğlu M. Ozan-aşıq dünyası. B., 2010.

**BAYRAMƏLİ**, Bayraməli qışlağı – İrəvan xanlığının Karbibasar mahalında (9.9.1930 ildən Aştarak r-nu), Alagöz d.-nın yamacında azərb.-ların yaşadığı kənd. 1826–28 illər Rusiya-İran, 1828–29 illər Rusiya-Osmanlı müharibələri zamanı azərb. əhali kənddən çıxarılmış və burada əvvəllər kürdlər, sonralar isə ermənilər məskunlaşmışlar. 1920-ci illərin sonlarında kənd ləğv edilmişdir.

**BAYRAMƏLİ** – Türkmənistanın c.-ş.-ində, Marı vil.-ndə şəhər. Əh. 75,8 min (2005). Mürğab vahəsində, Aşqabaddan 375 *km*, Marıdan 27 *km* ş.-dədir. D.y. st. 1886 ildə salınmışdır (1931 ildən şəhərdir). İqlim kurortudur (1933 ildən). İqlimi sərt kontinentaldır; qışı yumşaq (yanvarın orta temp-ru təqr. 1°C), yayı isti və qurudur (iyulun orta temp-ru 30°C). İllik yağıntı 130 *mm*. Günəşli günlərin çox olması (ildə 2900 saat) qeyri-vərəm mənşəli xroniki böyrək xəstəliklərinin iqlim terapiyasına imkan yaradır. Pambıqtəmizləmə z-du, tikinti materialları istehsalı, yağ-piy kombinatı (1903 ildən) var. Qədim Mərv (indiki Marı) ş.-nin xarabalığı B.-nin yaxınlığındadır. Şəhərdən 28 *km* şm.-da Xudaynəzər övliya məqbərəsi (12 əsrin əvvəli) var. B. yaxınlığında təbii qaz hasil olunur.

**BAYRAMƏLİBƏYOV** Teymur bəy Məmməd bəy oğlu (22.7.1862, indiki Masallı r-nunun Yeddioymaq k. – 4.9.1937, Bakı) – Azərb. maarif xadimi, etnoqraf, folklorşünas. *Qori müəllimlər seminariyasını* bitirmiş (1881) ilk üç azərb.-dan biridir. 27 il Lənkəran ş. məktəbində müəllim və müdir işləmişdir. Xalq Maarifi Nazirliyi sistemində qüsursuz əməyinə görə 1898 ildə ordenlə təltif olunmuşdur. Çoxcəhətli maarifçilik fəaliyyəti, fəal ictimai mövqeyinə görə B. çar hakimiyyət orqanları tərəfindən 1906 ildə Lənkəran ş. məktəbi müəllimliyindən azad edilmiş, üzərinə siyasi nəzarət qoyulmuşdur. Lənkəranda ilk dram dərnəyi yaratmış (80-ci illərdə), rus-müsəlman (Azərb.) qiraətxanası açmış (1906), "Behcət" (1908–09), özünün təşkil etdiyi "Ziya" (1909–11) və ilk rus-müsəlman (1911–17) məktəblərində dərs demişdir. Qadınların təhsilinə böyük əhəmiyyət verən B. 1917 ildə Lənkəranda qızlar üçün "Ünas" məktəbini açmışdı. Lənkəran qəzasının etnoqrafiyasına dair ilk əsərin müəllifidir. Etnoqrafiya, tarix və iqtisadi mövzularda 50-dən çox məqaləsi, topladığı əfsanə, nağıl və lətifələr "Kaspi" qəzetində, Qafqaz tədris dairəsinin məcmuələrində dərc edilmişdir. Lənkəran şəhər idarəsinin üzvü olmuşdur. B. 1917 ilin payızında Müsavat partiyası Lənkəran şöbəsinin ilk sədri seçilmişdir. Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti devrildikdən sonra, 1920 ildə Bakıya köçmüş, 1929 ilədək pedaqoji fəaliyyətini davam etdirmişdir.

*Əd.:* Ağazadə Y. Teymur bəy Bayraməlibəyov və folklor. B., 2003; Таирзаде Н. Просветительская и научная деятельность Теймурбека Байрамалибекова. Изв. АН Азерб. ССР (Серия истории, философии и права). 1974, № 2.

**BAYRAMƏLİBƏYOVA-MƏLİK-YEQANOVA** Məryəm Teymur bəy qızı (22.1.1898, Lənkəran – 2.12.1987, Bakı) – maarif xadimi. T. *Bayraməlibəyovun* qızıdır. Orta təhsilini H.Z. Tağıyevin qız məktəbində (1906–11) və "Müq. Nina" məktəbində almış, Moskvada Tibb İn-tuna daxil olmuşdur. Oktyabr çevrilişindən (1917) sonra B. vətənə dönmüş və müəllimlik fəaliyyətinə başlamışdır. Lənkəranda "Ünas" qız məktəbində dərs demiş, 1919 ilədək ona rəhbərlik etmişdir.

1921 ildən Bakıda fəaliyyətini davam etdirmiş, N. Nərimanov ad. Sənaye Texnikumunda, Azərb. Tibb İn-tunda dərs demişdir. "Yeni məktəb" jurnalının fəal əməkdaşlarından olmuş, mətbuatda pedaqoji mövzularda məqalələrlə çıxış etmişdir. Müəllimlərin I-ci Ümumittifaq qurultayının (Moskva, 1925), Bakıda keçirilmiş I-ci Ümumittifaq türkoloji qurultayın (1926) nümayəndəsi olmuşdur. "Əks-inqilabi müsavat mövqeyində", antisovet fəaliyyətində suçlandırılan B. 1937 il oktyabrın 15-də həbs edilərək 10 il müddətinə azadlıqdan məhrum olunmuşdu. 1948 ildə həbsdən qayıdan B. əvvəlcə Gəncədə, sonra isə Rusiyanın Lipetsk ş.-ndə yaşamışdır. 1956 ildə B.-ya bəraət verilmişdir.

*Əd.:* Məmmədov S. Azərbaycanın ilk maarifpərvər qadınları. B., 1960; Elşad Qoca. Sibir dərsi. B., 2000.

**BAYRAMXACƏ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Horand bölgəsinin Düdəngə kəndistanında, Horand qəs.-ndən 12 *km* şm.-dadır.

**BAYRAMKƏNDİ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Ətraf bölgəsinin Vələdyan kəndistanında, Xoy ş.-ndən 5 *km* c.-ş.-dədir.

**BAYRAMKƏNDİ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Siyəhçeşmə bölgəsinin Bəhbəhcık kəndistanında, Siyəhçeşmə qəs.-ndən 21 *km* şm.-ş.-dədir.

**BAYRAMKƏNDİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Gavdul kəndistanında, Marağa ş.-ndən 36 *km* c.-da, Marağa–Miyandab avtomobil yolundan 7,5 *km* ş.-dədir.

**BAYRAMKƏNDİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qarağac bölgəsinin Çaharoymaq kəndistanında, Qarağac qəs.-ndən 36 *km* c.-q.-də, Marağa–Miyanə avtomobil yolundan 56 *km* c.-dadır.

**BAYRAMKOXALI** – Azərb. Resp. Qəbələ r-nunda kənd. Bayramkoxalı ə.d.-nin mərkəzi. R-n mərkəzindən 30 *km* c.-da, Dəmiraparan çayının sağ sahilindədir. Əh. 1142 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, kitabxana, tibb məntəqəsi, mədəniyyət evi, poçt, ATS; 9–14 əsrlərə aid "Ustad can" tarix-mədəniyyət abidəsi var.

**BAYRAMLI** – Azərb. Resp. Bərdə r-nunun Otuzikilər ə.d.-ndə kənd. R-n mərkəzindən 17 *km* ş.-də, düzənlikdədir. Əh. 178 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Feldşer-mama məntəqəsi, klub var.

**BAYRAMLI** – Azərb. Resp. Şəmkir r-nunda kənd. Bayramlı ə.d.-nin mərkəzi. R-n mərkəzindən 22 *km* şm.-q.-də, Gəncə-Qazax düzənliyində, Şəmkir–Tovuz avtomobil yolunun kənarındadır. Əh. 2773 (2008); taxılçılıq və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, 2 kitabxana, tibb məntəqəsi var.

**BAYRAMLI** – Azərb. Resp. Şirvan ş. tabeliyində qəsəbə. Bayramlı ə.d.-nin mərkəzi. Şirvan ş.-ndən q.-də, Kür çayının sağ sahilindədir. Əh. 2532 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, uşaq bağçası, körpələr evi, ambulatoriya, poçt var.

**BAYRAMLI** – Azərb. Resp. Tovuz r-nunun Azaplı ə.d.-ndə kənd. R-n mərkəzindən 12 *km* c.-ş.-də, Əsrik çayının sahilindədir. Əh. 2784 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. 2 tam orta məktəb, kitabxana, ambulatoriya, rabitə şöbəsi var.

**BAYRAMLIQ** – 1) Azərb.-da orta əsrlərdə vergi növü. B. həm natural şəkildə, həm də pulla alınırdı. Xüsusilə Novruz və Qurban bayramlarında toplanırdı. 2) Bayram münasibətilə qohum və dostların bir-birinə, həmçinin nişanlı oğlanların qız evinə göndərdikləri sovqat.

**BAYRAMOĞLU** Məmməd (d.18.12.1939, Gürcüstanın Marneuli r-nunun Əzizkənd k.) – Azərb. riyaziyyatçısı, fizika-riyaziyyat e.d. (1987). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1962). Azərb.EA -nın Riyaziyyat və Mexanika İn-tunda fəaliyyətə başlamış (1964), baş elmi işçi (1971–76), şöbə müdiri (1976–93) işləmişdir. 1994–2009 illərdə Türkiyənin Yıldız Texniki Un-tində prof. vəzifəsində çalışmışdır. 2009 ildən Azərb. EA-nın Riyaziyyat və Mexanika İn-tunda baş elmi işçidir. Tədqiqatları diferensial operatorların spektral nəzəriyyəsi sahəsindədir. 70 elmi əsərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**BAYRAMOV** Adilxan Hüseynəli oğlu (d.19.2.1949, Gürc.-ın Marneuli r-nunun Sadaxlı k.) – Azərb. ədəbiyyatşünası, filologiya e.d. (2010). Azərb. Dövlət Un-tini bitirmişdir (1971). S. Vurğunun ev-muzeyində elmi işçi, şöbə müdiri (1979–80), indiki Mədəniyyət və Turizm Nazirliyində müxtəlif vəzifələrdə, o cümlədən idarə rəisi, nazirlik aparatının rəhbəri, sektor müdiri (1988–2007) işləmiş, 2007 ildən nazirliyin mədəniyyətşünaslıq üzrə elmi-metodiki mərkəzinin direktor müavinidir. Tədqiqatları, əsasən, xalq şairi S. Vurğunun yaradıcılığına həsr olunmuşdur.

*Əsərləri:* Səməd Vurğun yaradıcılığında insan: millilik və ümumbəşərilik. B., 1999; Tariximiz, yaddaşımız, sərvətimiz. B., 2007.

**BAYRAMOV** Akif Əmirxan oğlu (d.20.2.1938, Tbilisi) – Azərb. filoloqu, filologiya e.d. (1989), prof. (1993). Azərb. Pedaqoji Xarici Dillər İn-tunu bitirmişdir (1962). "Azərbaycan müəllimi" qəzetində xüsusi müxbir (1966). Azərb. SSR Daxili İşlər Nazirliyi sistemində müxtəlif vəzifələrdə (1969–84). Azərb.

Kənd Təsərrüfatı Akademiyasında müəllim (1984–93) işləmiş, Bakı Sosial İdarəetmə və Politologiya İn-tunda prof. (1993–95) olmuşdur. 1995 ildən Azərb. Resp. Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasında xarici dillər kafedrasının müdiridir.

Əsərləri: Klassik irsimizdən. B., 1975; M.Ş. Vazehin ədəbi irsi. B., 1980; Qərb ədəbiyyatı Azərbaycan filoloji fikrində. B., 2006.

**BAYRAMOV** Arif Əli oğlu (d.17.3.1938, Bakı) – Azərb. botaniki, biologiya e.d. (1982), prof. (2006). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1964). Azərb. EA-nın Botanika İn-tunda laboratoriya müdiri (1979–2000) və eyni zamanda həmin in-tun Botanika bağının direktoru (1980–2000) olmuş, 2000 ildən AMEA-nın Mərkəzi Nəbatat Bağının laboratoriya müdiridir. Tədqiqatları mədəni floranın yeni tropik və subtropik bitki növləri ilə zənginləşdirilməsinə, onların kulturaya cəlb edilməsinin nəzəri və praktiki metodlarının işlənib hazırlanmasına həsr edilmişdir. 85 elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir.

Əsəri: Reinhold Lübbert, Dr. Arif Bayramov. Unter Mitwirkung von Dr. David Gvianidze, Dr. Jimsher Kereselidze. Die Eichen Kaukasiens. Düsseldorf, 2004.

**BAYRAMOV** Aslan Əhmədxan oğlu (d.30.3.1947, Erm. SSR, Amasiya r.-nunun Təpəköy k.) – Azərb. dilçisi, filologiya e.d. (2011). Azərb. Dövlət Un-tini bitirmişdir (1978). Sumqayıt Dövlət Un-tində Azərb. dili və türkologiya kafedrasının müdiri işləmişdir (2002–09). Hazırda həmin un-tin filologiya fakültəsinin dekanıdır (2003 ildən). Tədqiqatları Ağbaba, Sörəyel və Pəmbək bölgələrinin türkmənşəli toponimlərinə həsr olunmuşdur.

**BAYRAMOV** Ayaz Hidayət oğlu (d.25.2.1950, Gürc.-ın Marneuli r-nu) – Azərb. fiziki, fizika-riyaziyyat e. d. (2004). Azərb. Dövlət Un-tini bitirmişdir (1972). Həmin ildən Azərb. EA-nın Fizika İn-tunda fəaliyyətə başlamışdır. 2001 ildən in-tun diffuziya hadisələri laboratoriyasının rəhbəridir. 1999–2001 illərdə Yaponiyanın Nagaoka Texnoloji Un-tinin prof.-u olmuşdur. Tədqiqatları maqnit yarımkeçiricilərində ferromaqnit rezonansı hadisələrinin, yarımkeçiricilərin optik və lüminessensiya xassələrinin və nazik təbəqəli Günəş elementlərinin öyrənilməsinə həsr edilmişdir; yüksəkeffektivli və stabil parametrlərə malik nazik təbəqəli Günəş elementləri yaratmışdır. 80-dən çox elmi əsərin müəllifidir.

**BAYRAMOV** Azad Ağalar oğlu (d.4.7.1953, Bakı) – Azərb. fiziki, fizika-riyaziyyat e. d. (2000). Azərb. Dövlət Un-tini bitirmişdir (1975). Dubnadakı Birləşmiş Nüvə Tədqiqatları İn-tunda (1976–84), İtaliyanın Triyestdəki Beynəlxalq Nəzəri Fizika və Pizadakı Milli Nüvə Tədqiqatları in-tlarında (1989–92) çalışmışdır. Tədqiqatları radiasiya ekologiyası, Günəş fotoçeviriciləri, yarımkeçirici detektorlar sahəsinə aiddir. 200-dən çox elmi əsərin, o cümlədən 2 monoqrafiyanın müəllifidir.

Əsərləri: Многонуклонные взаимодействия в пион-углеродных реакциях при энергии 5 ГэВ. Б., 1999; Основы экологии. Антропогенные факторы (A.M. Paşayev ilə birlikdə). Б., 2002.

**BAYRAMOV** Baxış Xəlil oğlu (d.1.6.1944, Gürc.-ın Marneuli r-nu) –Azərb. fiziki, fizika-riyaziyyat e.d. (1991), prof. (1998). Leninqrad Politexnik İn-tunu (1969) bitirmişdir. 1972 ildən Leninqrad (indiki S.-Peterburq) Fizika-Texnika İn-tunda işləyir. Əsas tədqiqatları kondensasiya olunmuş mühitlərdə işığın qeyri-elastik səpilməsi sahəsindədir. 300-dən artıq elmi əsərin müəllifidir. Beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış etmiş, Frayberq Akademiyasında (AFR, 1977, 1991, 1996, 1997, 2006, 2008), İllinoys Un-tində (ABŞ, 1985–86), Kembric Un-tində (İngiltərə, 1993–94) və s. işləmişdir. Türkiyə (1991–92), İngiltərə (1993–94) və ABŞ (1998–99) un-tlərində mühazirələr oxumuşdur.

**BAYRAMOV** Bayram Salman oğlu (11.12.1918, Ağdam r-nunun Əlimədədli k.– 9.11.1994, Bakı) – Azərb. yazıçısı. Azərb. SSR xalq yazıçısı (1984). Azərb. Dövlət mükafatı laureatı (1991). Azərb. Dövlət Un-tini bitirmişdir (1950). Böyük Vətən müharibəsinin (1941–45) iştirakçısı olmuşdur. Ədəbiyyat Fondu İdarə Heyətinin sədri, Azərb. Dövlətnəşrkomunun sədr müavini (1966–71), Qarabağa Xalq Yardımı Komitəsinin sədri (1989 ildən) işləmişdir. "Körpü" adlı ilk hekayəsi 1950 ildə çap edilmişdir. "Tək adam" (1954), "Sənsiz" (1957), "Mən ki gözəl deyildim" (1959), "Sərinlik" ("Firəngiz", 1962), "Ayna" (1968), "Sevirsə – qayıdacaq" (1973), "Sarı baba" (1974), "Oğul həsrəti" (1976), "Qaşsız üzük" (1976), "Bizim kəndin axşamları" (1979) və s. povestlərin, "Ayrılıq" (1956), "Yarpaqlar" (1958), "Xəzinə" (1964), "Bəlalı sevgim" (1965), "Arakəsmələr" (kitab 1–2, 1969–71), "Yazılmamış kitab" (1970), "Fəhlə qardaş" (1973), "Cıdır düzü" (1979), "Gün batanda" (1981), "Şəhərdən gələn qız" (1984), "Tək palıdın kölgəsi" (1984) romanlarının müəllifidir. "Karvan yolu" (1985) tarixi romanı C. Məmmədquluzadənin, onun ömür və mübarizə yoldaşı Həmidə xanımın, mollanəsrəddinçilərin həyat və fəaliyyətinə həsr edilmişdir. Azərb. kəndinin həyat və məişətinə, adət-ənənələrinə bələdlik, təhkiyə və təsvir ustalığı, canlı bədii dil B. nəsrinin başlıca xüsusiyyətlərindəndir. B.-un ssenariləri əsasında "Mən ki, gözəl deyildim" (1968, rej. T. Tağızadə), "Firəngiz" (1975, rej.-lar Ə. Mahmudov, Ə. Əbluc), "Onun bəlalı sevgisi" (1980, rej. Z. Abbasov) filmləri çəkilmişdir. Əsərləri bir sıra dillərə tərcümə olunmuşdur. Azərb. Yazıçılar İttifaqı İdarə Heyətinin və Ağsaqqallar Şurasının üzvü, Azərb. SSR Ali Sovetinin (11-ci çağırış) deputatı olmuşdur.

Əsərləri: Seçilmiş əsərləri. 3 cilddə. B, 1984; Karvan yolu. 2 cilddə. B., 1986–1993.

*Əd.:* Hacıyev A. Yazıçı şəxsiyyəti və bədii qanunauyğunluq. B., 1986; Məmmədov E. Həyat nəhrli nəsr. B., 1988.

**BAYRAMOV** Bəhlul Hüseyn oğlu (15.5.1927, Ağdam r-nunun Mərzili k.– 12.12.1995, Mingəçevir) – Sosialist Əməyi Qəhrəmanı (1971). 1952 ildən ömrünün sonunadək Mingəçevirdəki 5 saylı mexanikləşdirmə idarəsində ekskavator maşinisti işləmişdir.



**BAYRAMOV** Elçin Elman oğlu (d.3.9.1991, Bakı) – Azərbaycan idmançısı. Kikboksinq üzrə gənclər arasında dünya (2008, İtaliya) və Avropa (2009, Xorvatiya) çempionudur.



**BAYRAMOV** Əfqan Şahin oğlu (d. 14.10.1983, Bakı) – Azərb. idmançısı, ağır atletika üzrə idman ustası (1999). Azərb. Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirmişdir (2004). Gənclər arasında Avropa çempionatının gümüş (2001, İsveç; 2007, Fransa), dünya çempionatının bürünc (2003, Kanada) mükafatçısıdır.





**BAYRAMOV** Əkbər Salman oğlu (d.30.12.1930, Ağdam r-nunun Əlimədədli k.) – Azərb. psixoloqu, psixologiya e.d. (1970), prof. (1972). Azərb. SSR əməkdar elm xadimi (1981). Azərb. Dövlət Un-tini (BDU) bitirmişdir (1954). B. ADPU-da aspirantura şöbəsinin müdiri (1957–58), elmi işlər üzrə prorektorun köməkçisi (1958–60), psixologiya kafedrasında baş müəllim, dosent, prof. (1960–70), BDU-da pedaqogika və psixologiya kafedrasının müdiri (1971–92), sosial elmlər və psixologiya fakültəsinin dekanı (1991–94), psixologiya kafedrasının müdiri (1992–99) işləmiş, 1999 ildən həmin kafedrada prof. vəzifəsində çalışır. Tədqiqatları psixologiya tarixi, şəxsiyyət, yaş psixologiyası, sosial və pedaqoji psixologiya məsələlərinə həsr edilmişdir. 150-dən çox elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın və dərsliklərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var. Azərb. Resp.-nın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Əsərləri: Məhkəmə psixologiyası məsələləri. B., 1996; "Kitabi-Dədə Qorqud" dastanlarında etnik-psixoloji xüsusiyyətlərin inikası. B., 2000; Etnik psixologiya məsələləri. B., 2001.

**BAYRAMOV** Əvəz İslam oğlu (d.1.12.1961, Nax. MR-in Sədərək r-nu) – Azərb. iqtisadçısı, iqtisad e.d. (2005), prof. (2010). Azərb. Xalq Təsərrüfatı İn-tunu bitirmişdir (1987). 1992 ildən Azərb. Dövlət İqtisad Un-tində çalışır; beynəlxalq iqtisadi münasibətlər fakültəsinin dekanı (2001–04), tədris işləri üzrə prorektor (2004–06) olmuş, 2006 ildən elm və informasiya texnologiyaları üzrə prorektordur. 1996 ildən "İqtisad elmləri: nəzəriyyə və praktika" jurnalının redaktorudur. Tədqiqatları iqtisad elminin nəzəriyyəsi, fəlsəfəsi və metodologiyasına, dünya iqtisadiyyatına həsr olunmuşdur. 200-ədək elmi əsərin, o cümlədən 3 monoqrafiyanın müəllifidir.

Əsərləri: Regional iqtisadi inteqrasiya: nəzəriyyə və praktika. B., 1997; İnhisarizm. B., 2002.

**BAYRAMOV** Həbib (Həbibulla) Əbdülhüseyn oğlu (14.6.1926, Bakı – 15.8.1994, Bakı) – Azərb. tarzəni. Azərb. SSR xalq artisti (1983). Bakı Musiqi Texnikumunu bitirmişdir (1945, Ə. Bakıxanov və Adil Gərayın sinfini). 1941 ildən Ə. Bakıxanovun rəhbərlik etdiyi ansamblda çalmışdır, 1946–73 illərdə ansamblın solist-konsertmeysteri, 1973–94 illərdə bədii rəhbəri olmuşdur. 1942–49 illərdə eyni zamanda Azərb. xalq çalğı alətləri ork.-ndə işləmişdir. 1949 ildən Azərb. Dövlət Filarmoniyasının, 1978 ildən Azərb. Dövlət Qastrol-Konsert Birliyinin solisti olmuşdur. B. 1985 ildə YUNESKO-nun keçirdiyi Şərq musiqisi festivalında (Paris, Cenevrə və Florensiyada) iştirak etmişdir. Repertuarında Rast, Şur, Çahargah, Hümayun, Bayatı-qacar, Segah və s. muğamlar əsas yer tuturdu. Müğənnilərdən S. Şuşinski, Bülbül, Z. Adıgözəlov, H. Rzayeva, Ş. Ələkbərova, M. Mütəllimov, Z. Xanlarova, T. İsmayılova və b.-larını müşayiət etmişdir. Bir çox xarici ölkədə qastrolda olmuşdur.



**BAYRAMOV** Hüseyn Abbas oğlu (1916, Naxçıvan – 4.11.1982, Bakı) – Azərb. dilçisi, filologiya e.d. (1970), prof. (1970). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1948). Azərb. EA Nizami ad. Ədəbiyyat və Dil İn-tunda baş elmi işçi, Azərb. Pedaqoji Dillər İn-tunun Azərb. dilçiliyi kafedrasında dosent, prof. və kafedra müdiri işləmişdir (1960–82). Əsas tədqiqatları müasir Azərb. dilinin sintaksisinə və frazeologiyasına həsr olunmuşdur.

Əsərləri: Müasir Azərbaycan dilində tabesiz mürəkkəb cümlələr. B., 1958; Azərbaycan dili frazeologiyasının əsasları. B., 1979.

**BAYRAMOV** İbrahim Məhəmməd oğlu (d. 25.1.1954, Erm. Resp. Krasnoselsk r-nunun Toxluca k.) – Azərb. filoloqu, filologiya e.d. (2008). Erm. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1975). ADPU-da ixtisasartırma və yenidənhazırlanma fakültəsinin dekanı (2002–03), tədris-metodika şöbəsinin müdiri (2005–07) işləmişdir. 2003 ildən un-tin magistratura və doktorantura şöbəsinin müdiridir. Tədqiqatları müasir Azərb. ədəbi dilinin leksika və frazeologiyasına, Ermənistanın türk mənşəli toponimlərinin tarixi-linqvistik öyrənilməsinə həsr olunmuşdur.

Əsərləri: Müasir Azərbaycan ədəbi dilinin zənginləşməsi yolları. B., 1999; Qərbi Azərbaycanın toponimlər sistemi. B., 2005.

**BAYRAMOV** İsmayıl Xəlil oğlu (1910, Stavropol diyarının Dolinovka k. – 10.2.1945, Neymark ş. yaxınlığında) – Sovet İttifaqı Qəhrəmanı (ölümündən sonra, 10.4.1945), starşina. Atıcı bölmənin komandiri olmuşdur. 1943 ildən sovet ordusunda xidmət etmişdir. B. Şərqi Prussiyada vuruşmalarda rəşadət göstərmiş və həlak olmuşdur. Seronaqlenska ş.-ndə dəfn edilmiş, büstü qoyulmuşdur.



**BAYRAMOV** Qurban Məmməd oğlu (17.9.1934, Erm. Resp. Eçmiədzin r-nunun Qarğabazar k. – 8.11.2004, Bakı) – Azərb. tarixçisi, tarix e.d. (1985), prof. (1987), Azərb. Resp.-nın əməkdar müəllimi (2000). Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir (1956).

Tədqiqatları, əsasən, 1917–20-ci illərdə Azərb.-ın siyasi tarixinə, 19–20 əsrlərdə ermənilərin azərb.-lara qarşı törətdiyi soyqırımına həsr olunmuşdur. 100-dən artıq elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**BAYRAMOV** Məhərrəm Əhəd oğlu (10.7.1937, Daşkəsən r-nunun Qabaqtəpə k. – 2.12.1997, Bakı) – Azərb. pediatrı, tibb e.d. (1980), prof. (1981). Azərb. SSR Dövlət mükafatı laureatı (1982). Azərb. Resp. əməkdar həkimi (1991). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1964). Həmin in-tun uşaq xəstəlikləri kafedrasında (1970–78) assistent, dosent, 1981–97 illərdə hospital pediatriyası kafedrasında prof. işləmişdir. B. eyni zamanda (1974–78 illərdə) tibb in-tunun pediatriya fakültəsinin dekanı olmuşdur. Tədqiqatları uşaqlarda tənəffüs və ürəkdamar sistemlərinin bir sıra xəstəliklərinin öyrənilməsinə, onların müalicə və profilaktikasına həsr edilmişdir. 50-dən artıq elmi əsəri var.

**BAYRAMOV** Məqami Natiq oğlu (d.27.3.1984, Kəlbəcər r-nunun İstibulaq k.) – Azərb. idmançısı. Karatenin sindoryu və pençak-silat növü üzrə Avropa çempionu (2008), Dünya kubokunun sahibidir (2009).



**BAYRAMOV** Musa Rza oğlu (d.4.3.1938, Gədəbəy r-nunun Söyüdlü k.) – Azərb. kimyaçısı, kimya e.d. (1984), prof. (1986), əməkdar elm xadimi (2009). Azərb. Dövlət Un-tini (indiki BDU)

bitirmişdir (1965). 1969 ildən BDU-nun neft kimyası və kimya texnologiyası kafedrasında dosent, 1979 ildən kafedra müdiri vəzifəsində çalışır. Tədqiqatları yeni polifunksional monomerlərin sintezi sahəsindədir. Sintez etdiyi sooliqomer və sopolimerlər əsasında odadavamlı kompozisiya və izoləedici materiallar, yüksəkkeyfiyyətli lak örtüklər almışdır. 330-dan çox elmi əsərin, o cümlədən bir monoqrafiya, 6 dərslik və dərs vəsaitinin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

Əsəri: Химия алкенил-фенолов (M.M. Məhərrəmovla birlikdə ). B., 2002.

**BAYRAMOV** Nuru Yusif oğlu (d.17.9. 1963, Ermənistanın Vardenis r-nunun Nərimanlı k.) – Azərb. tibb alimi, tibb e.d. (1999), prof. (2008). Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir (1986). Həmin in-tun 1-ci cərrahi xəstəliklər kafedrasında (2008 ildən prof.) işləyir. Tədqiqatları qara ciyər rezeksiyası, transplantasiyası və laparoskopik cərrahiyyə problemlərinə həsr edilmişdir. 150-dən artıq elmi əsərin müəllifidir.

Əsəri: Qara ciyər rezeksiyası. Ankara, 1998.

**BAYRAMOV** Oruc Bayram oğlu (1907, Gürc.-ın Marneuli r-nunun Qaçagan k. – 1986, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1949). 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.



**BAYRAMOV** Rövşən Cənnət oğlu (d.7.5.1987, Bakı) – Azərb. idmançısı. Yunan-Roma güləşi üzrə beynəlxalq dərəcəli usta və əməkdar idman ustasıdır (2009). Azərb. Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirmişdir (2008). Gənclər arasında dünya çempionatının (2005) bürünc mükafatçısı, dünya çempionu (2003), Avropa çempionudur (2007, 2008). 29-cu Yay Olimpiya Oyunlarının (2008, Pekin) gümüş mükafatçısı, dünya çempionudur (2011, İstanbul).



**BAYRAMOV** Səyavuş Mehralı oğlu (d.1.6.1976, Zəngilan r-nunun Sobu k.) – Azərb. idmançısı. Karate üzrə beynəlxalq dərəcəli hakim (2003). Azərb. Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirmişdir (2008). Karatenin full-kontakt növü üzrə dünya çempionu (2004, İstanbul), hərbi-döyüş çoxnövçülüyü üzrə Avropa çempionatının (2006, Rusiya) gümüş, dünya çempionatının (2007, Rusiya) bürünc mükafatçısı və dünya çempionudur (2010, Ukrayna; 2011, Çexiya).



**BAYRAMOV** Soltanağa Nəhmət oğlu (17.10.1936, Lənkəran r-nunun Şürük k. – 23.8.1993, Lənkəran) – Azərb.-ın Milli Qəhrəmanı (24.8.1993, ölümündən sonra). Lənkəran hərbi hospitalında həkim işləmişdir. Separatçı qüvvələrə qarşı keçirilən əməliyyat zamanı həlak olmuşdur. Lənkəranda, Şəhidlər Xiyabanında dəfn edilmişdir.



**BAYRAMOV** Təvəkkül Tofiq oğlu (d.27.6.1981, Bakı) – Azərb. idmançısı. Taekvando üzrə dünya çempionatının bürünc (2003, Almaniya) və gümüş (2007, ÇXR), Avropa çempionatının (2004, Norveç; 2006, Almaniya) bürünc mükafatçısıdır.

**BAYRAMOV** Tural Ramiz oğlu (d.13.8. 1985, Tərtər) – Azərb. idmançısı. Azərb. Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirmişdir (2007). Kikboksinq üzrə Azərb. (2002) və dünya (2002, Yunanıstan) çempionu, Dünya kubokunun sahibidir (2007, Türkiyə).



**BAYRAMOVA** Aygün Əliqulu qızı (d.13.8.1967, Ağdam) – Azərb. müğənnisi (soprano), Azərb. Resp. xalq artisti (2005). Bakı Musiqi Texnikumunu (indiki Bakı Musiqi Kolleci; 1989, Ş. Ələkbərovanın sinfini) və Bakı Musiqi Akademiyasını (1995, A. Babayevin sinfini) bitirmişdir. *"Qarabağ bülbülləri"* ansamblında çıxış etmişdir. 1989–99 illərdə Azərb. Dövlət "Muğam" teatrının solisti olmuş, 2002 ildən Azərb. Dövlət Opera və Balet Teatrının solistidir. C. Qaryağdı oğlu ad. respublika müsabiqəsinin (1989) laureatıdır. Repertuarına muğamlar, xalq və bəstəkar mahnıları daxildir. Teatrda Leyli ("Leyli və Məcnun", Ü. Hacıbəyli), Şahsənəm ("Aşıq Qərib", Z. Hacıbəyov) və b. partiyaları ifa etmişdir. Bakı Musiqi Kollecində və Azərb.Milli Konservatoriyasında dərs deyir.



**BAYRAMOVA** Başarət Müslüm qızı (1919, Balakən r-nunun Tülü k.– 27.8.1998, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1949). 1948 ildə tütünçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. Lenin ordeni ilə təltif edilmişdir.



**BAYRAMOVA** Cəmilə Əsədulla qızı (d.20.7.1957, Bakı) – Azərb. rəqqasəsi. Azərb. Resp. xalq artisti (2000). Bakı Xoreoqrafiya Məktəbini bitirmişdir (1975). Azərb. Dövlət Filarmoniyası Rəqs Ansamblının solisti (1975–91), "Cəngi" ansamblının solisti və baletmeysteri (1992–99), Azərb. Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solisti (1999–2006) olmuşdur. Repertuarına, əsasən, Azərb. xalq rəqsləri ("Turacı", "Naz eləmə", "Tərəkəmə", "İnnabı" və s.) və bədii kompozisiyalar ("Xəyal", "Yeddi gözəl" və s.) daxildir. Bakı Uşaq və Gənclər Sarayının "Cücələrim" ansamblının bədii rəhbəri (1989–95) olmuş, 1996 ildən özünün yaratdığı "Dəcəl qızlar" ansamblının bədii rəhbəridir. Bakı Xoreoqrafiya Məktəbində pedaqoji fəaliyyət göstərir. Xarici ölkələrdə qastrolda olmuşdur.









C. Bayramova. "Ağ çiçəyim" rəqsini ifa edərkən.

**BAYRAMOVA** Xədicə Mürvət qızı (10.4.1929, Cəlilabad r-nunun Prişib ş. – 5.2.1985, indiki Göytəpə ş.) – Sosialist Əməyi Qəhrəmanı (1950). 1950 ildə tütünçülük sahəsində yüksək nailiyyətlər əldə etmişdir.



**BAYRAMOVA** Roza Əli qızı (17.7. 1927, Gürc.-ın Bolnisi r-nunun Ağbulaq k. – 23.3.2003, Bakı) – Azərb. mikrobioloqu. tibb e.d. (1965), prof. (1966). 1949 ildə Azərb. Dövlət Tibb İn-tunu bitirmişdir. 1966 ildən ömrünün sonunadək həmin in-tun mikrobiologiya kafedrasının prof.-u olmuşdur. B. Azərb.-da gənə spiroxetozunun təbii ocaqlarını müəyyən etmiş, törədicilərin bioloji xüsusiyyətlərini və s. öyrənmişdir. 70-ədək elmi əsərin, o cümlədən 1 monoqrafiyanın müəllifidir.

Əsəri: Клещевой спирохетоз в Азербайджане. Б., 1964.

**BAYRAMOVA** Zəhra Sadıq qızı (15.2. 1930, Şəmkir r-nunun Təzəkənd k. – 3.4. 1991, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1950). 1949 ildə üzümçülük sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur. 3 dəfə Lenin ordeni ilə təltif edilmişdir.



**BAYRAMUKOVA** Həlimət Başçiyevna (təxəllüsü; əsl soyadı Kubanova) (15.8. 1917, Qaraçay-Çərkəz Resp., indiki Qaraçayevsk r-nunun Xurzuk aulu – 1996, Çerkessk) – Qaraçay yazıçısı, şairə. Moskvada Ali ədəbiyyat kurslarını bitirmişdir (1962). Şeirlərini 1936 ildən çap etdirməyə başlamışdır. "Sevimli dağlarım" (1959) adlı ilk şeir toplusunda hərbi lirika və fəlsəfi düşüncələr əsas yer tutur. Tarixi-qəhrəmanlıq nəğmələri ənənəsində yazılmış "Zəlihət" (1963) poeması qaraçaylı partizan qadın E. Erkenovaya həsr olunmuşdur. "Şeirlər" (1963), "Etiraf" (1965) şeir toplularında və "On dörd il" (1989) romanında qaraçaylıların deportasiyasını xalqın faciəsi kimi təsvir etmişdir. "İllər və dağlar" (1964), "Çolpan" (1970), "Mələk" (1981) romanlarının, "Xaparla" (1974) xatirə, oçerk və publisistika kitabının müəllifidir.

Əsərləri: День за днем. М., 1975; Моя жизнь. Черкесск, 1996.

**BAYRAŞEVSKİ** Ömər Əliyeviç (24.12. 1874, indiki Belarus Resp., Qrodno vil.-nin Volkovısk ş. – 1949, Mahaçqala) – tibb e.d. (1910), prof. (1925). Peterburq Hərbi-Tibb Akademiyasını (1897) bitirmişdir. 1906–08 illərdə Berlində alman alimi M. Rubnerin yanında orduda sanitariya xidmətinin təşkili məsələləri üzrə hazırlıq keçmişdir. 1926 ildə Bakıya dəvət edilmiş və Bakı Dövlət Un-ti tibb fakültəsinin sosial gigiyena və səhiyyənin təşkili kafedrasına, eyni zamanda ümumi gigiyena kafedrasına rəhbərlik etmişdir (1926–32). B.-nin Azərb.-da tibb kadrlarının hazırlanmasında xidməti olmuşdur.

**BÁYRON** (Byron) – Avstraliya materikinin ş. qurtaracağında (28°38′ c.e. və 153°39′ ş.u.) burun. Sakit okeana doğru uzanır.

**BÁYRON** (Byron) Corc Noel Qordon (22.1.1788, London – 19.4.1824, Yunanıstan, Missolungi; İngiltərədə, Nyusted yaxınlığında dəfn edilmişdir) – ingilis şairi. Yoxsullaşmış zadəgan ailəsində doğulmuşdur. 1798 ildə irsən lord titulunu almışdır. London yaxınlığındakı Harrou zadəgan məktəbində oxuyarkən şeir yazmağa başlamışdır (1801–05). Kembric Un-tini bitirmiş (1808), Britaniya parlamentində lordlar palatasının üzvü olmuşdur (1809). "Asudə saatlar" (1807) adlı ilk şeir məcmuəsi "Edinburq icmalı" jurnalında tənqid edilmişdi. B. bu tənqidə münasibətini "İngilis bardları və şotland icmalçıları" (1808, 1809 ildə çap edilmişdir) satirik poemasında bildirmiş və ingilis ədəbiyyatının tənəzzülünü sosial uğursuzluğun təzahürü kimi göstərmişdir.



1809–11 illərdə İspaniya, Portuqaliya, Malta, Albaniya, Yunanıstan və Türkiyədə olmuşdur. B.-un səfər təəssüratları ilk iki nəğməsini 1812 ildə (3-cü 1817, 4-cü 1818) Londona qayıtdıqdan sonra çap etdirdiyi "Çayld Haroldun ziyarəti" lirik-epik poemasında əksini tapmışdır. Bu dövrdə B. lordlar palatasında natiq kimi üç dəfə çıxış etmişdi. Ən məşhur nitqi (27.2.1812) *ludçular üçün* ölüm cəzasına qarşı səslənmişdi. Onun ardınca yazdığı "Dəzgah dağıdanlara qarşı bill müəlliflərinə oda" (1812) B. yaradıcılığında ilk siyasi satira nümunəsi idi. Güclü şəxsiyyət ideyasına maraq onun Şərq poemalarında əks olunmuşdur ("Gavur", "Abidos gəlini", hər ikisi 1813; "Korsar", "Lara", hər ikisi 1814; "Korinfin mühasirəsi", "Parizina", hər ikisi 1816). "Yəhudi nəğmələri" (1815) fəlsəfi məhəbbət lirikası silsiləsi Bibliyanın motivləri əsasında yaradılmışdır. 1815–16 illərdə uğursuz ailə həyatı yaşamış, bunun ardınca satirik şeirləri və mövcud qaydalara tənqidi münasibətinə görə ictimai təqibə məruz qalmışdır. Mənəvi böhran vəziyyətində İngiltərəni həmişəlik tərk etməyə məcbur olmuş B., İsveçrədə yaşamışdır. Burada P.B. *Şelli* ilə dostlaşmışdır. B.-un bu dövrdəki əhvali-ruhiyyəsi "Şilyon məhbusu" (1816) poemasında əks olunmuşdur. 1817 ildə B. İtaliyaya getmiş, "Manfred" fəlsəfi-simvolik poeması orada tamamlamışdır. "Beppo" (1818) poemasında satira və kinayənin birləşməsi B. yaradıcılığında yenilik idi. 1819 ildə satirik-məişət mövzusunda yazılmış "Don Juan" mənzum epopeyasının 2 nəğməsini (16 fəsil və ya nəğmə yazılmış, 17-cisi şair vəfat etdiyindən tamamlanmamışdır) dərc etdirmişdir. Ravennada Dantenin məzarını ziyarət etdikdən sonra təəssüratlarını "Dantenin peyğəmbərliyi" (1819) poemasında əks etdirmişdir. "Tassonun şikayəti" (1817) poemasında italyanları şərəfli keçmişlərini xatırlamağa və İtaliyanın birləşməsi, azadlığı uğrunda mübarizəyə səsləmişdir. 1820–21 illərdə B. *karbonarilər* hərəkatının fəal iştirakçısı olmuşdur. Siyasi fəa-

liyyət təcrübəsi karbonarilər təşkilatı dağıdıldıqdan sonra yazdığı tarixi faciələrdə ("Venesiya doju Marino Falyero", 1821; "İki Foskari", 1821; "Sardanapal", 1821) əksini tapmışdır. Bibliya süjeti əsasında yazılmış simvolik-fəlsəfi "Qabil" (1821) misteriyası katolik kilsəsi tərəfindən pislənmişdir. B.-un sonrakı əsərləri arasında satirik ["Məhkəmə röyası" (1822) – R.*Sautinin* eyniadlı poemasına parodiya; "İrland avatarası" (1821, tam nəşri 1831)] poemaları daha böyük marağa səbəb olmuşdur. B. 1823 il iyulun ortalarında Yunanıstana getmiş, yunan xalqının milli azadlıq mübarizəsində iştirak etmişdir (1824); Missolungidə yunan vətənpərvərləri dəstəsinin başçısı olmuşdur. Qızdırmadan vəfat etmişdir.

B. yaradıcılığı *romantizm* ədəbiyyatının poetikasını və bədii quruluşunu zənginləşdirmişdir. B. poeziyası, xüsusilə poemaları üçün səciyyəvi olan kompozisiya, vəzn, üslub priyomları, onun əsərlərinin mövzu və motivləri bir çox yazıçıların yaradıcılığında b a y r o n i z m adlanan xüsusi ədəbi əhvali-ruhiyyənin yaranmasına səbəb olmuşdu. İngiltərədə T. Karleyl, B. Dizraeli, A. Tennison, C. Röskin; Fransada A. Lamartin, A.V. de Vinyi, V. Hüqo və b.; İtaliyada S. Pelliko, V. Monti, C. Madzini və b.; Almaniyada H. Heyne, G. Herveq, F. Freyliqrat, *"Gənc Almaniya"* şairləri; İspaniyada X. de Espronseda, Polşada A.Mitskeviç, Rusiyada A.S. Puşkin, Y.A. Baratınski, A.A. Bestujev-Marlinski, xüsusilə Lermontov və b.-nın yaradıcılığında bayronist motivlər güclüdür. Əsərləri Azərb. dilinə tərcümə edilmişdir.

Ə s ə r l ə r i: Qabil. B., 1934; Şərq poemaları. B., 1959; Сочинения: В 3 т.М., 1974; Избранная лирика. М., 1988.

*Əd.*: XIX əsr xarici ölkələr ədəbiyyatı tarixi. B., 1964; Д ь я к о н о в а Н.Я. Лирическая поэзия Байрона. М., 1975.

**BAYROYT** (Bayreuth) – AFR-də, Bavariya federal ərazisinin şm.-ında şəhər. Əh. 74,8 min (2005). Roter-Mayn çayı (Mayn çayının qolu) sahilindədir. Mühüm nəql. qovşağı (Berlin–Nürnberq və Praqa–Nürnberq avtomobil və d.y. magistrallarında).

Şəhərin adı 1194 ildən məlumdur. 1248 ildən Nürnberq burqqraflarının mülkiyyətində, 1398 ildən Kulmbax knyazlığının tərkibində, 1603 ildən Ausbax-Bayroyt markqraflığının paytaxtı olmuşdur. 1791 ildə Prussiyanın tabeliyinə keçmişdir. B.-un çiçəklənmə dövrü 18 əsrin ortalarına təsadüf edir: şəhər intensiv tikilmiş, onun simasını müəyyənləşdirən memarlıq abidələri inşa edilmişdir. 1810 ildə Bavariya krallığının, 1871 ildə Almaniya imperiyasının tərkibinə qatılmışdır. 1945 ildə bombardmana məruz qalmış şəhər 2-ci dünya müharibəsindən sonra bərpa edilmişdir. R. *Vaqner*, *Jan Pol* və b.-nın həyat və fəaliyyəti B.-la bağlı olmuşdur.

Memarlıq abidələri: Ermitaj saray-park ansamblı (1715–65, memar İ.D. Rens və b.), Köhnə qəsr (13 əsr; 1715–18 illərdə yenidən tikilmişdir), Müq. Üçüqnum kilsəsi (yanğından sonra qotik üslubda bərpa olunmuşdur, 1611–14, memar M. Mebart), Yeni qəsr ansamblı (yaxud Yeni saray ansamblı, 1753, memarlar J. Sen-Pyer, K. fon Qontard; hazırda muzeydir). Un-t (nəzdində – Musiqili teatr tədqiqat in-tu) var. Muzeylər: R. Vaqnerin (Ermitaj parkında bəstəkarın və arvadı Kozimanın məqbərəsi), Jan Polun, masonçuluğun. Markqraf teatrı (1744–48) fəaliyyət göstərir. Festival teatrında hər il *Bayroyt festivalı* keçirilir.

B. iri sənaye, ticarət-maliyyə və elm mərkəzidir. İqtisadiyyatının əsasını xidmət sferası təşkil edir. Maşınqayırma, radioelektron, texniki rezin, toxuculuq, tikiş, poliqrafiya, mebel, çini qablar (saxsı qablar f-kinin əsası 1719 ildə qoyulmuşdur), sellüloz-kağız və qida sənayesi müəssisələri var.

**BAYROYT FESTİVALI** – tarixdə ilk və ən məşhur opera festivallarından biri. Bavariya kralı II Lüdviqin maliyyə yardımı ilə məxsusi inşa edilmiş Festival teatrında R. *Vaqnerin* operalarının ifası üçün (həmçinin Təntənəli tamaşalar evi – Festşpilhaus; 1872–76, memar O. Brükvald, mühəndis K. Brandt, Q. *Zemperin* memarlıq ideyalarından istifadə etməklə Vaqnerin planı üzrə) təşkil olunmuşdur. Tamaşa zalında ənənəvi yarus sistemi əvəzinə yelpikvari yerləşdirilmiş oturacaqlar sırasından istifadə edilmişdir. Yan divarlar Korinf orderli sütunları ilə irəli çıxmış pilonlarla tərtib olunmuş, plafon antik tərzdə yüngül ornamentlə bəzədilmişdir. Praktiki olaraq tamaşaçıların görməməsi üçün orkestr daha dərin yerləşdirilmişdir (Vaqnerə görə "bu mistik dərinlik" "real olanı ideal olandan ayırmağa" kömək edirdi). Taxta tavanın xüsusi konstruksiyası teatrın akustikasını unikal etmişdir. Teatr 1876 ildə R. Vaqnerin "Nibelunq üzüyü" tetralogiyasının premyerası ilə açılmışdır (müəllifin quruluşunda; dirijor X. Rixter). 1882 ildən B.f.-ı hər il keçirilir (1914–24 və 1944–51 illərdə fasilələrlə). Festivalın direktorları və bir çox tamaşanın rej.-ları Vaqner nəslinin nümayəndələridir. B. f. F. Motl, R. Ştraus, K. Muk, V. Furtvenqler, G. Abendrot, A. Toskanini, X. Knappertsbuş, K. Böm, V. Zavalliş və b. görkəmli dirijorların sayəsində dünya şöhrəti qazanmışdır. Novator opera rejissurası mərkəzlərindən biri kimi B.f.-nın inkişafında rej. X. Titye böyük rol oynamışdır. "Nibelunq üzüyü"nün konseptual cəhətdən yeni quruluşları 1976 (rej. P. Şero, dirijor P. Bulez), 1983 (rej. P. Holl, dirijor G. Şolti), 1988 (rej. Q. Kupfer, dirijor D. Barenboym), 1994 (rej. A. Kirxner, dirijor D. Livayn), 2000 (rej. Y. Flimm, dirijor C. Sinopoli) illərdə həyata keçirilmişdir. Vaqnerin digər operalarını rej.-lar A. Everdinq, Q. Fridrix, J.P. Ponnel, H. Müller, F. Arlo tamaşaya qoymuşlar.

**BAYSAL** – Azərb. Resp. Şərur r-nu (Nax. MR) ərazisində dağ. Dərələyəz silsiləsinin suayırıcında zirvə. Hünd. 1910 *m*.

**BAYSEİTOVA** Kulyaş (2.5.1912, Vernı, indiki Almatı – 6.6.1957, Moskva; Almatıda dəfn edilmişdir) – qazax müğənnisi (lirik-koloratur soprano). SSRİ xalq artisti (1936). SSRİ Dövlət mükafatı laureatı (1948, 1949). Qazax opera sənətinin banilərindəndir. 1937 ildən Qazax. Opera və Balet Teatrının solisti, qazax milli operalarında əsas partiyaların ilk ifaçısı olmuşdur: Qız-Jibek, Xədicə, Ağjunus ("Qız-Jibek", "Jalbır", "Er-Tarqın", Y.Q. Brusilovski), Ajar ("Abay", A. Jubanov və L. Həmidi), Sara ("Birjan və Sara", M. Tulebayev). İlk dəfə qazax səhnəsində klassik repertuardan partiyalar ifa etmişdir: Tatyana ("Yevgeni Onegin", P.İ. Çaykovski), Tamara ("Demon", A.Q. Rubinşteyn), Çio-Çio-san ("Çio-Çio-san", C. Puççini) və s. Kamera-vokal əsərlərin ifaçısı kimi də tanınmışdı.



**BAYSORAĞI**, B a i s a ğ a – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Horand bölgəsinin Diglə kəndistanındadır.

**BAYSUNQUR** Qiyasəddin (15.9.1397, Herat – 19.1.1434, Herat yaxınlığında) – Teymuri dövlət xadimi, xəttat. Əmir Teymurun nəvəsi. Divani-alinin üzvü (1417; bəzi mənbələrə görə sədri), atası *Şahruh Mirzənin* vəliəhdi olmuşdur. B. Təbriz ş.-nin valisi (1421), Nişapur, Tus və Astrabad (indiki Gürgan) ş.-lərinin baş valisi olmuşdur (1431). Atasının 1421 və 1429 illərdə türkmanlara, 1427 ildə isə özbəklərə qarşı təşkil etdiyi səfərlərində fərqlənmişdir.

B. ədəbiyyat və incəsənətə böyük maraq göstərmiş, türk, ərəb və fars dillərində şeirlər yazmış, sənət xadimlərini himayə etmiş, Heratın mədəniyyət mərkəzinə çevrilməsində mühüm rol oynamışdır. 1421 ildə Azərb. səfərindən qayıdarkən məşhur *nəstəliq* ustası Mirzə *Cəfər Təbrizini* Herata gətirmiş, saray kitabxanasının müdiri təyin etmişdir. Sonradan Baysunqur Sənət Akademiyası adlandırılan bu kitabxanada *Herat miniatür məktəbinin* əsası qoyulmuşdur. B.-un əsərləri "Gülüstan sarayı" kitabxanası (Tehran), Məşhəd kitabxanası, İstanbul un-tinin kitabxanası və s. yerlərdə saxlanılır.

**BAYSUNQUR MİRZƏ** (təqr. 1481–92) – Ağqoyunlu hökmdarı [1490–92]. *Sultan Yaqubun oğlu*. Kiçik yaşlarında Fars əyalətinin hakimi təyin edilmişdi. Əslində əyaləti B.M.-nin lələsi, baş əmir Sufi Xəlil idarə edirdi. Sultan Yaqubun ölümündən (1490) sonra 9 yaşlı B.M. Sufi Xəlilin dəstəyi ilə taxta çıxarıldı. Sufi Xəlilə qalib gələn Süleyman bəy Bicənoğlu hakimiyyəti ələ keçirdi. Bir müddət sonra Bayandur əyanlarından Eybə sultan B.M.-nin əmisi oğlu Rüstəm Mirzəni (Uzun Həsənin nəvəsi) həbsdə olduğu Əlincə qalasından azad edərək hakimiyyətə gətirdi. B.M. babası Fərrux Yasarın sarayına sığındı. Hakimiyyət uğrunda baş verən döyüşlərin birində B.M. Rüstəm Mirzəyə məğlub oldu və öldürüldü.

*Əd.* Azərbaycan tarixi (yeddi cilddə). C. 3. B., 1999.

**BAYSUNTAU** – Özbəkistanda, *Hissar silsiləsinin* c.-q. qolu; Hissar-Alay sisteminə daxildir. Uz. təqr. 150 *km*. Hünd. 4425 *m* (Xocapiryax d.). Əhəngdaşılar, qumdaşılar və gillərdən təşkil olunmuşdur. Yamacları aşağılarda yarımsəhra bitkiləri, yuxarılarda ardıc meşələri və Alp çəmənlikləri ilə örtülüdür.

**BAYT** (ing. byte) – 1) informasiya miqdarının ölçü vahidi. Adətən, 8 *bitdən* (ikilik vahiddən) təşkil olunur. Verilənlərin beynəlxalq kodlaşdırma sistemində (ASCII, EBCDIC) əks edilən (çap olunan) və ya idarəedici simvolun kodunu göstərir. Törəmə vahidlər: kilobayt (1 Kbayt = 1024 bayt), meqabayt (1Mbayt = 1024 Kbayt), giqabayt (1 Gbayt = 1024 Mbayt) və s.; 2) yaddaşın ünvanlaşdırıla bilən ən kiçik vahidi (birgə emal edilən bitlər ardıcıllığı).

**BAYTAR**, A l a k i l s ə – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (9.9.1930 ildən Amasiya r-nu), Arpaçayın sol sahilində azərb.-ların yaşadığı kənd. 1915 ildə kənd erməni təcavüzünə məruz qalmış və əhalisi qovulmuşdur. 1918 ildə Türkiyədən gələn ermənilər kənddə yerləşdirilmişdir. 1920 ildən sonra kəndin azərb. əhalisinin bir hissəsi geri qayıdaraq kənddə məskunlaşmış, lakin 1948–53 illər deportasiyası zamanı Azərbaycana köçürülmüşdür. 19.4.1991 ildə kəndin adı dəyişdirilərək Hovtun qoyulmuşdur.

**BAYTARLIQ** – 1) şərti olaraq 3 qrupa ayrılmış fənləri birləşdirən elmlər kompleksi: heyvan orqanizminin quruluşunu və həyati fəaliyyətini, həmçinin xəstəlik törədicilərini və dərman vasitələrinin orqanizmə təsirini öyrənən b a y t a r l ı q - b i o l o g i y a elmləri (heyvanların anatomiyası və fiziologiyası, heyvanların biokimyası, baytarlıq mikrobiologiyası, baytarlıq farmakologiyası və s.); heyvan xəstəliklərinin öyrənilməsi, onların ayırd edilməsi, qarşısının alınması və aradan qaldırılması üsullarının öyrənilməsi ilə məşğul olan k l i n i k i e l m l ə r (*epizootologiya, parazitologiya*, qeyri-yoluxucu daxili xəstəliklər, *baytarlıq mamalığı* və s.); xarici mühit amillərinin heyvan orqanizminə təsirini, heyvanların yaşayış mühitinin optimallaşdırılması problemlərini, həmçinin heyvan mənşəli məhsulların keyfiyyət məsələlərini öyrənən b a y t a r l ı q - s a n i t a r i y a e l m l ə r i (*heyvanların gigiyenası, baytarlıq sanitariyası, baytarlıq-sanitariya ekspertizası*). B. biologiya, kimya və s. elmlərlə sıx bağlıdır.

2) Heyvanların müalicəsi, heyvan xəstəliklərinin profilaktikası və diaqnostikası; insan və heyvanlar üçün ümumi sayılan xəstəliklərdən əhalinin mühafizəsi; heyvan mənşəli məhsulların, heyvanlar və yemlər üçün dərman vasitələrinin baytarlıq cəhətdən təhlükəsizliyinin təmin edilməsi; xarici dövlətlərdən yoluxucu heyvan xəstəliklərinin gətirilməsinin qarşısının alınmasından ibarət praktiki peşə fəaliyyəti sahəsi. B. sferasına həmçinin b a y t a r l ı q m o n i t o r i n q i n i – heyvanların sağlamlıq vəziyyətinə, onların yaşayış mühitinə, heyvan mənşəli məhsulların, heyvanlar və yemlər üçün dərman vasitələrinin baytarlıq cəhətdən təhlükəsizliyinə nəzarət sisteminin təşkili və keçirilməsi, həmçinin heyvanların sağlamlıq vəziyyəti ilə yaşayış mühiti amillərinin təsiri arasında səbəb-nəticə əlaqələrinin müəyyənləşdirilməsi və proqnozlaşdırılması daxildir.

B.-ın əsası heyvanların insan tərəfindən əhliləşdirildiyi dövrdən qoyulmuşdur; bunu ən qədim sivilizasiyaların yazılı abidələri sübut edir. Hələ qədim zamanlarda Hindistan, Misir və Çində B.-a çox böyük əhəmiyyət verilirdi. "Avesta"da heyvan xəstəliklərinin müalicəsinə dair göstərişlər vardır. Misirdə və Hindistanda bir sıra heyvan ilahiləşdirildiyi üçün, onların müalicəsi ilə kahinlər məşğul olurdular. Azərb.-da B.-ın tarixi atçılığın inkişafı ilə bağlıdır. Ərəb mənbələrinin (7–10 əsrlər) məlumatına görə, Azərb.-da xalq arasında mal-qaranı müalicə edən baytar, əttar, sınıqçı və nalbəndlər olmuşlar. Onların təcrübəsindən başqa xalqlar da istifadə etmişlər. AMEA-nın Əlyazmalar İn-tunda 18 əsrin ortalarında yazılmış "Fərəhnamə" və "Risaleyi-baytariyyə" adlı iki əlyazması saxlanılır. Bu əsərlərdə atın anatomiyası və işə görə seçilməsi ilə bərabər, bir sıra at xəstəliyi, bu xəstəliklərin sinir sistemi ilə əlaqəsi, boğazlıq və onun təyini, müxtəlif dərman növləri, onların hazırlanması və s. məsələlərdən bəhs olunur. Heyvan xəstəliklərinin diaqnostikası və müalicəsi haqqında ilk elmi məlumata e.ə. 4–3 əsrlərdə Yunanıstanda və e.ə. 3–1 əsrlərdə Romada təsadüf edilmişdir. 10 əsrdə yunan müəlliflərinin B.-a dair əsərləri "Hippiatrika" adlı külliyyatda toplanmışdı. Orta əsrlərdə və İntibah dövründə heyvanların müalicəsi ilə çobanlar, nalbəndlər və mehtərlər məşğul olmuşlar. 18 əsrin 2-ci yarısında Avropada ilk B. məktəbləri açılmış, 1788 ildən B.-a dair jurnallar nəşr edilməyə başlanmışdı. 19 əsrdə təbabət, mikrobiologiya (xüsusən L. *Pasterin*, R. *Koxun*, E. *Cennerin* və b.-nın əsərləri) və immunologiya sahəsindəki kəşflərlə əlaqədar B. xeyli inkişaf etmiş, 20 əsrdə təhlükəli yoluxucu heyvan xəstəliklərinin diaqnostikası, profilaktikası və müalicəsi üçün müxtəlif biopreparatlar (vaksin, serum, antibiotiklər və s.) kəşf olunmuşdur.

21 əsrin əvvəlləri üçün B.-da profilaktik istiqamət, planlı B. tədbirləri, onların heyvandarlıqda və emaledici sənayedəki texnoloji proseslərlə əlaqəsi, səhiyyə orqanları ilə əməkdaşlıq səciyyəvidir. Heyvanlarda xəstələnmə hallarının daha da

azaldılması; zooantroponozlarla mübarizə tədbirlərinin təkmilləşdirilməsi; Azərb. Resp. ərazisinə ekzotik yoluxucu xəstəliklərin daxil olmasının qarşısının alınması; sənaye heyvandarlığında, həmçinin xəzlik heyvandarlıqda, balıqçılıqda və arıçılıqda baytarlıq işinin gücləndirilməsi hazırda B.-ın ən mühüm problemləridir. B. məsələlərinin həlli üçün bu sahənin mütəxəssislərinin müxtəlif ölkələrdəki müvafiq xidmətlərlə əməkdaşlığı tələb olunur. Azərb.-da B. sahəsindəki fəaliyyət Azərb. Resp.-nın "Baytarlıq haqqında" Qanunu (2005) ilə tənzimlənir. Azərb. Resp. Beynəlxalq Epizootiya Bürosunun və Ümumdünya Baytarlıq Assosiasiyasının üzvüdür. Bax həmçinin *Dövlət baytarqlıq nəzarəti.*

**BAYTARLIQ İNSTİTUTU**, Azərb. Elmi Tədqiqat Baytarlıq İnstitutu (AzETBİ) – 1901 ildə təşkil olunmuş taun əleyhinə Zurnabad st.-nın (indiki Xanlar r-nda) bazasında yaradılmışdır (1935 ildən Bakıdadır). 1958 ildən AzETBİ adlanır. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindədir. 1946 ildə in-tun Naxçıvanda dayaq məntəqəsi açılmış və onun əsasında 1962 ildə Naxçıvan elmi tədqiqat baytarlıq təcrübə st. təşkil olunmuşdur. İn-tda qaramal və davar pasterellyozuna qarşı yarımmaye formolvaksin, listerioz əleyhinə vaksin, quşlarda çiçək xəstəliyi əleyhinə vaksin hazırlanmışdır; qaramal və qoyunlarda qan parazitlərini keçirən gənələr və qoturluq gənələri əleyhinə mübarizə məqsədilə heyvanların qruplarla çimizdirilməsi üçün mexanikləşdirilmiş qurğular işlənib hazırlanmış və maldarlıq təsərrüfatlarında tətbiq edilmişdir. İn-tun aspiranturası, elmi şurası; 8 laboratoriyası, bakterioloji mətbəxi, vivariumu, Qusar təcrübə təsərrüfatı və Masallı dayaq məntəqəsi var.

**BAYTARLIQ MAMALIĞI** – k. t. heyvanlarında mayalanmanın, boğazlığın, doğuş və doğuşdansonrakı dövrün norması və patologiyası məsələləri, həmçinin yenidoğulmuşların və süd vəzisi xəstəliklərinin profilaktikası ilə məşğul olan kliniki elmi fənn. K. t. heyvanlarının anatomiyası, histologiya, embriologiya, biokimya, mikrobiologiya, fiziologiya, cərrahiyyə və s. ümumnəzəri və təcrübi fənlərə əsaslanır. B.m. təcrübi baytarlığın ən qədim sahələrindən biridir; 18 əsrin sonlarına qədər baytarlıq cərrahlığının bölməsi kimi yalnız boğaz heyvanlara doğuş zamanı yardım etməklə məşğul olurdu. 20 əsrin əvvəllərində xarici ölkələrdə baytarlıq ginekologiyası məsələlərinə və yenidoğulmuş heyvanların xəstəliklərinə dair əsərlər yarandı.

**BAYTARLIQ SANİTARİYASI** – heyvanların infeksion və invazion xəstəliklərinin profilaktikası, əhalinin sağlamlığının insan və heyvanlar üçün ümumi olan xəstəliklərdən mühafizəsi məsələlərini, habelə sanitariya tələblərinə cavab verən heyvan mənşəli məhsulların, xammalların və yemlərin alınması yollarını öyrənən *baytarlıq* bölməsi.

B. s. baytarlıq-sanitariya tədbirlərini işləyib hazırlayır. Bunlar, ziyanverici orqanizmlərin, xəstəliklərin, xəstəlikkeçirici, yaxud xəstəliktörədici orqanizmlərin keçməsindən, möhkəmlənməsindən və ya yayılmasından qorunmaq məqsədilə müəyyən edilən və icrası məcburi olan tələblər və üsullardır. Onlar baytarlıq qanunvericiliyi ilə nizamlanır. Heyvanların sağlamlığının mühafizəsinə dair baytarlıq-sanitariya tədbirlərinə daxildir: heyvanlar üçün binalarda, yemlərin saxlanması və emalı, peyinin yığılması və saxlanması zamanı müəyyən rejimin gözlənilməsi; bioloji tullantıların dezinfeksiyası, dezinseksiyası, deratizasiyası, utilizasiyası; torpağın, suyun çirklənmədən mühafizəsi və s. Əhalinin sağlamlığının mühafizəsi tədbirləri heyvandarlıq məhsullarının emalı müəssisələrində, heyvan mənşəli məhsulların saxlandığı və satıldığı yerlərdə baytarlıq-sanitariya nəzarətinin təşkilini nəzərdə tutur. B.s., baytarlıq-sanitariya tədbirlərindən başqa, həmçinin heyvan mənşəli məhsulların, heyvanlar üçün yemlərin, suyun, dərman vasitələrinin təhlükəsizlik göstəricilərinin baytarlıq-sanitariya normativlərini, heyvanların və onların yaşadığı mühitin saxlanılması və gigiyenasının reqlamentlərini işləyib hazırlayır.

B.s. bir sıra əsaslı və tətbiqi elmlərlə (ekologiya, fiziologiya, biokimya, kimya, mikologiya, virusologiya, epizootologiya, epidemiologiya, helmintologiya, araxnoentomologiya, sanitariya mikrobiologiyası və s.) sıx əlaqədardır və onların tədqiqat üsullarından və nəticələrindən istifadə edir. Baytarlıq-sanitariya tədbirləri 19 əsrdə L. Pasterin mikrobiologiya sahəsindəki kəşflərindən sonra elmi cəhətdən əsaslandırıldı. 20 əsrin 20-ci illərində N.A. Soşestvenski heyvandarlıqda dezinfeksiya üçün kimyəvi maddələrdən istifadə olunmasını əsaslandırdı. Heyvandarlıq binalarının, nəql. vasitələrinin aerozol, qaz, köpüklü formalar, sürətləndirilmiş elektronlar, $^{60}$Co-ın qamma-şüaları və s. ilə dezinfeksiya qaydaları, habelə ziyanverici buğumayaqlılar və siçanaoxşar gəmiricilərlə mübarizə qaydaları işlənib hazırlanmışdır. Heyvan mənşəli məhsul və yemlərdə patogen mikroorqanizmlərin, mikotoksinlərin və hormonların yeni aşkar edilməsi üsulları, zərərsizləşdirilməsi və detoksikasiya qaydaları tətbiq olunmuşdur. Qarayara, vərəm, brusellyoz, tulyaremiya və s. xəstəliklərin yayılmasına qarşı mübarizədə mal qəbiristanlarının ləğvi və onların baytarlıq-sanitariya utilizasiya zavodları ilə əvəz edilməsidir. Bax həmçinin *Baytarlıq, Baytarlıq-sanitariya ekspertizası, Heyvanların gigiyenası, Dövlət baytarlıq nəzarəti.*

**BAYTARLIQ ŞƏHADƏTNAMƏSİ** – yüklərin (əmtəələrin) partiyasına aid dəqiq hesabatlı qoşma sənəd. B.ş. daşınmalı, tədarük edilməli, emal olunmalı, saxlanmalı və satılmalı hər cür heyvan, heyvan mənşəli yeyinti məhsulları və xammal, həmçinin yemlər üçün tərtib edilir. B.ş. göstərilən yüklərin (əmtəələrin) heyvanların xüsusi təhlükəli və karantin xəstəlikləri olmayan yerlərdən gəldiyini, bundan əlavə isə, heyvan mənşəli xammalın və məhsulların müəyyən edilmiş qayda üzrə *baytarlıq-sanitariya ekspertizasından* keçdiyini və baytarlıq-santitariya tələblərinə uyğun olduğunu təsdiqləyir. Ölkəyə gətirilən (yaxud ölkədən çıxarılan) yüklərə baytarlıq sertifikatı verilir; sertifikat yüklərin partiyasının baytarlıq-sanitariya cəhətdən təhlükəsizliyinə və idxalçı dövlətin baytarlıq tələblərinə uyğun şəkildə heyvanların yoluxucu xəstəliklərinə görə ixracçı dövlətdə vəziyyətin normal olmasına zəmanət verir.

**BAYTARLIQ-SANİTARİYA EKSPERTİZASI** – 1) ərzaq xammalının və məhsullarının keyfiyyət və təhlükəsizlik göstəriciləri üzrə dövlət baytarlıq xidməti tərəfindən həyata keçirilən kompleks müayinəsi. B.-s. e.-nın məqsədi əhalinin yeyinti məhsullarının istehlakı zamanı zooantroponozlara və s. xəstəliklərə tutulmasının qarşısını almaq, habelə heyvan mənşəli yemlər vasitəsilə heyvanlar arasında xəstəliklərin yayılmasının profilaktikasıdır.

Azərb. Resp.-nda B.-s. e. normativ sənədlərlə (dövlət standartı qaydaları, təlimatlar, metodiki tövsiyələr, göstərişlər və s.) tənzimlənir və bütün ət, süd və balıq emalı sənayesi müəssisələrində, ərzaq bazarlarında, k. t. müəssisələrində həyata keçirilir. B.-s. e.-nda kəsilmədən qabaq heyvanlara baxış; kəsilmiş heyvanların (o cümlədən vəhşi və ovlanan), balıq və digər hidrobiont məhsullarının, süd və süd məhsullarının, balın baytarlıq-sanitariya cəhətdən qiymətləndirilməsi, heyvan və bitki mənşəli məhsulların emalı zamanı baytarlıq-sanitariya nəzarəti və s. tədbirlər həyata keçirilir.

2) Ərzaq xammalının, heyvan və bitki mənşəli məhsulların müayinəsinin prinsiplərini, üsullarını və baytarlıq-sanitariya cəhətdən qiymətləndirilməsini öyrənən elm; *baytarlıq* bölməsi. B.-s.e. normal və patoloji anatomiya, biokimya, mikrobiologiya, epizootologiya, parazitologiya, toksikologiya, *baytarlıq sanitariyası*, ət və ət məhsullarının texnologiyası ilə əlaqədardır. B.-s.e.-nda orqanoleptik, fiziki-kimyəvi, biokimyəvi, histoloji, mikrobioloji və s. müayinə üsullarından geniş istifadə olunur.

**BAYTÉ** – Üstyurd platosunun (Qazaxıstan, Mangistau vil.) şm.-ında e.ə. 1-ci minilliyin 2-ci yarısına aid dini abidələr. 1984 ildən REA-nın Arxeologiya İn-tu tərəfindən tədqiq olunur. Heykəl qrupları, stelalar, oyma daşlar, "qurbanvermə masaları", kasayabənzər daş qurbangahlar və 3 kurqan qrupundan ibarət dörd kompleksdir. B.-III tam şəkildə, B.-I və B.-IV (100-dək heykəl və stela, həmçinin 250 fraqment) qismən tədqiq olunmuşdur. Heykəllərin əksəriyyəti əhəngdaşıdan düzəldilmiş antropomorf fiqurlardır və e.ə. 4–2 əsrlərdə Qərbi, Mərkəzi və Orta Asiya köçərilərinə (*sarmatlar, saklar, massagetlər, dahilər*) xas olan qılınclar, xəncərlər, ox və yay qabları, hamar dəbilqələr, qarmaqla bağlanan kəmərlər, sinəbəndlər və qolbağlarla bəzədilmişdir. Heykəllərin qəhrəmanlar haqqındakı silsilə təsəvvürlərlə bağlı olduğu ehtimal edilir; qəhrəmanlara qurbanvermə zəruri idi. Tikililərin və heykəllərin sayına və çeşidinə görə B. Avrasiya çöllərində nadir dini abidədir.

**BÁYTKOD** – Java dilində yazılmış proqramın *kompilyasiya* edildiyi kod. B. konkret prosessorun arxitekturasından asılı deyil, şəbəkə ilə verilə və virtual Java maşınının interpretatoru olan istənilən kompyuterdə yerinə yetirilə bilər.

**BAYTURSINOV** Əhməd, Baytursın Əhməd (28.1.1873, indiki Kustanay vil.-nin Cangildi r-nu – 1937) – qazax siyasi xadimi, alim-filoloq, şair. Kəndli ailəsində doğulmuşdur. İlk təhsilini molla yanında almış, Orenburqda Qırğız müəllimlər məktəbini bitirmişdir (1895). 1905 ilə qədər Aktyubinsk və Karkaralinsk qəzalarında və Kustanay ş.-ndəki məktəblərdə müəllim işləmiş, xalqın maariflənməsinə dair məqalələr və "Ağıl yayan" adlı ilk şeir kitabını çap etdirmişdir. 1905–07 illərdə B. və onun təşkil etdiyi qazax ziyalıları qrupu xalq iğtişaşlarında iştirak etmişdir. Gizli təşkilatlarla əməkdaşlıq etdiyinə görə 1909 ildə həbs edilmiş, Qazaxıstandan sürgün olunmuşdur. 1911–13 illərdə "Ağcaqanad" şeir kitabını və "Krılovun qırx təmsili" tərcümələr toplusunu nəşr etdirmişdir. B.-un 1912 ildə ərəb qrafikası əsasında tərtib etdiyi yazıdan qazaxlar 1936 ilə qədər istifadə etmişlər. 1913 ildən Orenburqda qazax dilində çıxan yeganə "Qazax" qəzetinin redaktoru olmuşdur. 1917–19 illərdə B. sağ millətçiləri müdafiə etmişdir, lakin tezliklə sovet hökumətinin tərəfinə keçmiş, 1919 ildən Qazaxıstan diyarının idarə edilməsi üzrə İnqilab komitəsində çalışmışdır. 1920 ildə Qırğızıstan (1925 ildən Qazaxıstan) Muxtar Sovet Resp. yarandıqdan sonra B. xalq maarifi komissarı, "Ağ yol" qəzetində və Maarif Komissarlığı yanında Qazaxıstan akademik mərkəzində işləmiş, dilçilik və ədəbiyyatşünaslığa dair bir sıra əsərlər yazmışdır. 1929 ildə qondarma ittihamla həbs olunaraq Arxangelskə sürgün edilmişdir. 1934 ildə M. Qorkinin müdaxiləsindən sonra azad olunmuş, lakin 1937 ildə yenidən həbs edilərək güllələnmişdir. 1988 ildə B.-a bəraət verilmişdir. Kustanay Dövlət Un-ti B.-un adını daşıyır.

Əsərləri: Şeirlər, tərcümələr, tədqiqatlar (qazax dilində). A.-A., 1989.

**BÁZA** (fr. base, yun. βάσις) – 1) nəqliyyat vasitələrində – a) ikioxlu avtomobil, traktor və qoşquların qabaq və arxa oxları, yaxud üçoxlu avtomobillərin qabaq oxu ilə ikioxlu arabasının mərkəzi arasındakı məsafə. Vaqon və lokomotivlərin təkər cütlərinin kənar oxları arasındakı məsafə; b) sualtı qayıq, kater və s.-nin təchizatı və təmiri üçün xüsusi quruluşlu yardımçı hərbi gəmi; c) avtomobil və s. nəql. vasitələrinin təmiri ilə məşğul olan, onları yanacaq, ehtiyat hissələri, alət və materiallarla təchiz edən məntəqə; 2) maşınqayırmada – konstruksiyaetmə, texnoloji proseslər və ölçmə əməliyyatları yerinə yetirilərkən emal olunan pəstahın səthinin, xəttinin və ya nöqtəsinin vəziyyətinin səthlər, xətlər və ya nöqtələr məcmusuna nəzərən təyin edilməsi; 3) yarımkeçirici cihazlarda – bipolyar tranzistor və s.-də qeyri-əsas yükdaşıyıcılarının injeksiya edildiyi sahə; emitter və kollektor p-n keçidləri arasında yerləşir; 4) qurğularda onların əsas ağırlığını qəbul edən özül; 5) hesablama texnikasında – a) əsas verilənlər və ya elementlər (bax *Verilənlər bazası*); b) əsas hesablama sistemləri; c) baza registrinə yüklənən və nisbi ünvanların hesablanması üçün başlanğıc kimi istifadə edilən yaddaş ünvanı.

**BAZA**, hərbidə ərazi və burada yerləşdirilən silah, döyüş sursatı və digər ləvazimatla təchiz olunmuş qoşun. B.-lar aviasiya, hərbi-dəniz, raket və ümumi təyinatlı olur.

**BÁZA DİLİ** – 1) *verilənlər bazası* ilə əlaqə yaradan proqramlaşdırma dili; geniş yayılmış və əlavə vasitələrlə təchiz edilmiş hər hansı alqoritmik dildən ibarətdir; 2) müəyyən qrup (nəsil) EHM-lər üçün ümumi olan maşın dili.

**BÁZA DETAL** – məmulat qrupunun konstruktiv, texnoloji, qabarit və s. xarakteristikalarını əks etdirən əsas detal. Texnoloji yığma proseslərinin layihələndirilməsi zamanı istehsalın şərti proqramını müəyyən etmək üçün seçilir. Metalkəsən dəzgahların B.d.-ı aparıcı qovşaqlarda alətlərin və emal olunan detalların tələb olunan qaydada məkanda yerləşdirilməsi üçündür və onların qarşılıqlı yerləşmə dəqiqliyini təmin edir. Dəzgah çatısı, əsas, sütun, dirək, masa, sürüngəc, travers və s. B.d.-a aiddir.

**BAZA KONFİQURASİYASI**, hesablama texnikasında – kompyuterin işləməsi üçün lazım olan aparat vasitələrinin minimal dəsti; sistem bloku, monitor, klaviatura və siçandan ibarətdir. Sistem bloku kompyuterin əsas hissəsidir; onun içərisində yerləşən komponentlər daxili qurğular, sistem blokuna kənardan (xaricdən) qoşulan qurğular isə xarici (periferiya) qurğular adlanır. Daxili qurğulara prosessor, əməli yaddaş, çevik və sərt maqnit diskli, optik diskli informasiya toplayıcıları və s., xarici qurğulara verilənlərin daxil və xaric edilməsi və s. üçün nəzərdə tutulan printer, skaner, modem və s. aiddir. Sistem blokunun korpusu formaca üfüqi (desktop) və şaquli (tower) olur. Onun üz tərəfində işəsalma (Power) və yenidənyükləmə (Reset) düymələri, sərt diskə qoşulmanı və müraciəti əks etdirən bir neçə işıq indikatoru, kompakt-disk və disketlərdən istifadə üçün disk aparıcısı yerləşir. Əsas çıxış qurğusu olan monitor simvol və qrafiki informasiyanın vizual təsviri üçündür. Monitorlar müxtəlif ölçülü ekrana malikdir. Ekranın diaqonalı

düymlə (1 düym=2,54 *sm*) ölçülür. Diaqonalı 15–17 düym, yaxud 19–21 düym olan monitorlar daha geniş yayılmışdır. Monitorun ekranında yaranan təsvirlərin parametrlərinin çoxu proqram təminatının sistem dəstinə daxil olan proqramla idarə edilir. K l a v i a t u r a hərf-rəqəm (işarə) verilənlərin, həmçinin idarə əmrlərinin daxil edilməsi üçün düyməli (klavişli) qurğudur. Monitor və klaviaturanın kombinəsi istifadəçinin ən sadə interfeysini təmin edir. Klaviatura vasitəsilə kompyuter sistemi idarə olunur, monitorla isə ondan cavab alınır. Standart klaviatura 104 düyməyə, sağ yuxarı küncündə yerləşən və işçi rejimləri əks etdirən 3 işıq indikatoruna malikdir. S i ç a n 2–3 düymədən ibarət yastı qutu şəklində idarə qurğusudur. Siçanın müstəvi altlıq üzərində yerdəyişməsi monitorun ekranında qrafik obyektin (siçanın göstəricisi) hərəkəti ilə sinxrondur. Onun düymələri vasitəsilə bu və ya digər əməliyyatı seçmək, təkərciyi ilə bütövlükdə ekrana yerləşməyən təsviri, mətni və ya web-səhifəni yuxarı və aşağı çəkmək olur. Hazırda mexaniki hissələri olmayan optik siçanlardan geniş istifadə edilir. Müasir siçan modelləri naqilsizdir və kompyuterə kabelsiz birləşə bilir.

**BAZA TƏHSİLİ** – bax *Təhsil.*

**BÁZA ÜNVANI**, h e s a b l a m a t e x n i k a s ı n d a – proqramların icrası zamanı ünvanlar və ya port nömrələri hesablanarkən başlanğıc kimi istifadə edilən ünvan. İcra ünvanının alınması üçün B.ü.-na sürüşmə də əlavə edilir. B.ü. baza registrində saxlanılır.

**BAZAL CİSMCİK**, k i n e t o s o m a – eukariotlarda hüceyrədaxili struktur; kirpikciklərin və qamçıların təməlində yerləşir və onların hüceyrədə bərkidilməsini, həmçinin onların oxunun – aksonemanın böyüməsini təmin edir. B. c., divarları bir-birinə paralel yerləşən 9 üçdənəli mikroborucuqdan ibarət qısa silindr şəklindədir. B. c.-in ultrastrukturu sentriolların ultrastrukturuna oxşardır; məs., onurğalıların kirpikli epitelisində B.c. sentriolların ikiləşməsi yolu ilə, çoxqamçılılarda və qıjıkimilərdə deyteros adlanan naməlum təbiətli sıx materialın aqreqatlarından əmələ gəlir.

**BAZAL KONQLOMERAT** – daha qədim çökmə, maqmatik, yaxud metamorfik süxurların üzərində qeyri-uyğun yatıma malik konqlomerat layı. Dənizin qurunu basması nəticəsində yaranır: süxurlar dağılaraq yenidən çökür və B.k. layını əmələ gətirir.

**BAZAL MEMBRAN** – onurğalı heyvanlarda və insanda epiteli qatı ilə birləşdirici toxumanın sərhədində yerləşən qeyri-hüceyrəvi struktur; B.m. onları bir-birindən ayırır, lakin limfositlərin və makrofaqların daxil olmasına maneçilik yaratmır. Xüsusi tipli kollagendən, laminin qlikoproteinindən, proteoqlikandan əmələ gəlmişdir; qalınlığı 20–100 *nm*-dir. Epiteli hüceyrələri B.m.-a xüsusi strukturlar – yarımdesmosomlarla bərkidilir. Heyvanların və insanın böyrəyindəki B.m. makromolekulların qandan birincili sidiyə keçməsini tənzimləyən yarımkeçirici süzgəcdir. Qan damarlarının daxili divarını örtən hüceyrə qatının altında B.m. var. B.m.-ın pozulması epitelinin birləşdirici toxumaya bitişməsinə (məs., xroniki iltihab, hüceyrələrin bədxassəli degenerasiyası zamanı) səbəb olur.

**BAZAL NÜVƏLƏR**, b a z a l q a n q l i y a l a r, q a b ı q a l t ı n ü v ə l ə r – onurğalılarda baş beyin böyük yarımkürələrinin ağ maddəsinin içərisində boz maddənin toplanması; hərəkətə, diqqətə, yaddaşa nəzarətdə, emosional reaksiyaların formalaşmasında iştirak edir. Məməli heyvanlarda və insanda B.n. beyin qabığı ilə birlikdə uc beynin hüceyrə maddəsini əmələ gətirir. Onlar birlikdə zolaqlı cismi (neostriatum) təşkil edən, quyruqlu nüvədən və qabıqdan, solğun kürədən (paleostriatum), çəpərdən, badamabənzər cismdən (arxistriatum) ibarətdir. Solğun kürə və qabıq anatomik struktur – mərciyəbənzər nüvəni əmələ gətirir. B.n. böyük yarımkürələrin qabığı, orta (qara substansiya) və ara (subtalamik nüvə) beyin, limbik sistem və beyincik ilə çoxsaylı afferent və efferent əlaqələri ilə səciyyələnir. B.n.-in normal fəaliyyəti mediatorların – dofaminin, qammaaminyağ turşusunun (QAYT), asetilxolinin balansından asılıdır. Dofaminin aktivliyinin aşağı düşməsi və QAYT və asetilxolinin aktivliyinin yüksəlməsi aşkar *parkinsonizm* simptomlarının, dofaminin aktivliyinin yüksəlməsi və QAYT və asetilxolinin aktivliyinin azalması qeyri-iradi hərəkətlərin (Gentinqton *xoreyası* simptomlarının) meydana çıxmasına səbəb olur.

Quşlarda ön beynin inkişafı yalnız B.n.-in hesabına baş verir, bunlar funksional olaraq məməlilərin böyük yarımkürələrini tamamilə əvəz edir. Balıqlarda və suda-quruda yaşayanlarda B.n. ancaq solğun kürə ilə təmsil olunmuşdur. Sürünənlərdə quyruqlu nüvə və qabıq meydana çıxır. Böyük yarımkürələrinin qabığı zəif inkişaf etmiş ibtidai onurğalılarda B.n. baş beynin əsas inteqrativ aparatının funksiyasını yerinə yetirir.

**BAZALİÓMA** (lat. cellula basalis – bazal hüceyrə + ... *oma*), (b a z a l h ü c e y r ə x ə r ç ə n g i, d ə r i k a r s i n o i d i, d ə r i k a n k r o i d i) – dəri xərçəngi; epidermisdən, yaxud dərinin vəzi törəmələrindən əmələ gəlir; yerli inkişafla və ətraf toxumaların məhdud destruksiyası (dağılması) ilə səciyyələnir. Termini 1900 ildə alman patoloqu E. Krompexer təklif etmişdir. Ən çox rast gələn dəri şişlərindəndir (dərinin bütün xərçəng zədələnmələrinin 50%-i). Kişi və qadınlarda eyni dərəcədə tez-tez təsadüf edilir, əsasən, üzdə olur. B. dəridə çox vaxt qovuşan, eroziyalaşan, xoralaşan düyüncüklərin əmələ gəlməsi ilə təzahür edir. Çox nadir hallarda metastaz verir. Proqnoz, əsasən, yaxşıdır. 95–97% hallarda şüa, elektrokoaqulyasiya, yaxud cərrahi üsulla tam müalicə edilir.

**BAZÁLT** (lat. basaltes, basanites–məhək daşı, digər ehtimala görə efiopca basal–dəmirli daş) – əsasi tərkibli (44–53% $SiO_2$) vulkanik süxur; qabbronun effuziv analoqu. B. effuziv süxurlar içərisində sahəsinə görə Yer səthində ən geniş yayılmışdır (40% kontinentlərdə, 90%-dən çox okeanların dibində); əsasi plagioklazdan, piroksendən, maqneziumlu olivindən, vulkan şüşəsindən, az miqdarda maqnetit və ilmenitdən, amfiboldan, biotitdən, apatitdən, titanitdən ibarətdir. Rəngi qaradan qonuradək. Afir, yaxud porfir struktura, massiv tekstura malikdir. B.-lar kontinentlərində platforma vilayətlərində geniş trapp platoları – platobazaltlar yaradır (məs., Rusiyada Putorana, Hindistanda Dekan platoları); onlar həmçinin qırışıqlıq qurşaqlarının maqmatik formasiyalarına aiddir. B.-lar aralıq-okean silsilələrində, kənar dənizlərdə, ada qövslərində, aktiv kontinent kənarlarında intişar tapmışdır. B. maqmalarının mənbəyi Yerin mantiyasıdır. B.-lar Ayın, Marsın, Veneranın səthində aşkar edilmiş ilkin səciyyəvi süxurlardır. Mis, nikel, qızıl, platin, polimetallar, dəmir, titan filizlərinin yataqları B.-larla əlaqədardır. Tikinti materialı və turşuyadavamlı material kimi, həmçinin petrurgiya (əridilmiş süxurlardan tökmə üsulu ilə müxtəlif məmulat istehsalı) və heykəltəraşlıqda istifadə edilir. Azərb.-da Kəlbəcər, Laçın r-nlarında və Talış dağlarında var.

**BAZÁLT PLATOSU** – bax *Platobazaltlar.*





**BAZÁLT TƏBƏQƏSİ** – Yer qatının seysmik yolla ayrılmış, qranit qatı ilə mantiyanın üst qatı arasında yerləşən hissəsinin şərti adı. Materiklərdə B.t.-nin yuxarı sərhədi Konrad səddi ilə eyniləşdirilir. Qranit təbəqəsi olmayan yerlərdə B.t. bilavasitə çökmə və vulkanogen-çökmə əmələgəlmələrlə örtülür. B.t.-nin aşağı sərhədi Moxoroviçiç səddidir. B.t.-nin əmələ gəlməsi, tərkibi və inkişafı haqqında məlumat çox azdır. Elastik dalğaların Yer qabığında yayılma sürətinin qiymətləri B.t.-ndə (6,4–7,4 *km/san*) əsasi süxurlara uyğun gəlir. Okean dibinin ayrı-ayrı nöqtələrində qazıma quyuları ilə açılmış B.t.-nin effuziv bazalt süxurları da bunu sübut edir. Materiklərdə B.t.-nin qalınlığı 15–35, okeanlarda isə 4–10 *km* təşkil edir.

**BAZANİT** – süxur, bazaltın qələvi növü. Tərkibi plagioklazdan, olivindən, avgitdən və feldşpatoidlərdən ibarətdir. Leysitli, nefelinli, leysit-nefelinli, analsimli və s. növləri var.



Bazaltlarda sütunvarı ayrılmalar. (Bayburt, Türkiyə)

**BAZAR** (ing. market) – əmtəə tədavülü dairəsi. Müasir iqtisadi ədəbiyyatda B.-ın digər tərifləri də mövcuddur: insanların ticarəti həyata keçirmək üçün girdikləri hər hansı qarşılıqlı əlaqə; qarşılıqlı əlaqələrin nəticə etibarilə *mübadiləni* mümkün edən alıcı və satıcıların məcmusu; alıcılar ilə satıcıların qarşılaşdığı yer; *rəqabət* nəticəsində tələb və təklifin qarşılıqlı təsiri əsasında müəyyənləşən *qiymətlər* üzrə əmtəə alqı-satqısı ilə bağlı iqtisadi əlaqələrin məcmusu və s.

B. müasir cəmiyyətin təsərrüfat mexanizminin baza elementi, iqtisadiyyatın tənzimləyicisi, əmtəə-pul münasibətlərinin sferası qismində çıxış edir. B.-ın yaranmasının ilkin şərtləri ictimai *əmək bölgüsü*; *əmək* məhsullarına xüsusi *mülkiyyətdir*. B.-ın əsas elementləri tələb, təklif, rəqabət və qiymətdir. B.-ın fərqləndirici xüsusiyyətləri iqtisadi subyektlərin təsərrüfat sərbəstliyi ilə şərtlənən çeviklik, *effektivlik*, *tarazlığa* meyillilikdir. B.-ın optimal fəaliyyəti aşağıdakı şərtlərin təmin olunmasını nəzərdə tutur: bazara sərbəst daxilolma; azad *resursların* mövcudluğu və onların sərbəst istifadəsi; bazar *məlumatına* sərbəst çıxma imkanı; istehsalda və *qiymətqoymada* inhisarın olmaması. Qiymətqoyma və rəqabətin xüsusiyyəti baxımından B.-ın aşağıdakı modelləri mövcuddur: *mükəmməl rəqabət bazarı*; *inhisar B.-ı*; *oliqopoliya B.-ı*; *inhisarçı rəqabət B.-ı*. Axırıncı üç B. modeli məcmusu "*qeyri-mükəmməl rəqabət*" əmələ gətirir. Mükəmməl rəqabət B.-ı reallıqda baş verən iqtisadi prosesləri əks etdirmədiyi üçün elmi abstraksiyadır. Alqı-satqı obyektlərindən asılı olaraq əmtəə B.-ı; xidmət B.-ı; *kapital B.-ı*; *işçi qüvvəsi B.-ı*; informasiya və elmi-texniki işlənilmələr B.-ı ayırd edilir. Ərazi sərhədləri və miqyasına görə y e r l i B. (kənd, şəhər, r-n hüdudlarında); m i l l i (daxili) B.; d ü n y a (xarici) B-ı fərqləndirilir. İnkişaf etmiş B. həm də inkişaf etmiş B. infrastrukturunu nəzərdə tutur; onun əsas elementləri *bank sistemi*, sığorta sistemi və informasiya sistemidir. B.-ın subyektləri qismində *hüquqi şəxslər* (firma, müəssisə, təsisat), fiziki şəxslər və dövlət çıxış edir. İqtisadi subyektlər təsərrüfat qərarları qəbul etmək sərbəstliyinə malikdirlər.

İnkişaf etmiş B. cəmiyyətin məhdud resurslarının səmərəli *bölgüsü* və istifadəsinə; əmtəə və xidmət qıtlığının tez aradan qaldırılmasına; ən yeni yüksəksəmərəli *texnika* və *texnologiyanın* işlənib hazırlanması və tətbiqinə; iqtisadi fəaliyyətin inzibati icbarilik olmadan əlaqələndirilməsinə; azad iqtisadi seçimə, bir sözlə, maks. iqtisadi *səmərəlilik* əldə etməyə imkan yaradır.

Bununla belə, B. cəmiyyətin iqtisadi fəaliyyətinin ideal mexanizmi deyildir. B. özünün daxili keyfiyyətləri və qanunauyğunluqları səbəbindən insanların həyati fəaliyyəti ilə bağlı bir çox mühüm problemlərin həllini təmin edə bilmir, *işsizliyi* və *inflyasiyanı* aradan qaldırmaqda, cəmiyyətdə sosial müdafiəni təmin etməkdə və s. gücsüzdür, ən əsası isə, sosial ədalətsizliyin yaranmasının, cəmiyyətin yoxsullara və varlılara təbəqələşməsinin qarşısını ala biləcək mexanizmə malik deyildir.

**BAZAR** – Azərb. Resp. Zaqatala r-nunun Çobankol ə.d.-ndə kənd. R-n mərkəzindən 11 *km* c.-da, Qanıx-Əyriçay dərəsindədir. Əh. 993 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Fındıq emalı sexi, tam orta məktəb, klub, kitabxana, tibb məntəqəsi; məscid (19 əsr) və qədim qəbiristanlıq (17–18 əsrlər) var.

**BAZAR İQTİSADİYYATI** (ing. market economy) – yalnız *istehlakçıların*, resurs təchizatçılarının və özəl *şirkətlərin* qərarı ilə resursların bölgü strukturunu müəyyən edən iqtisadiyyat, yaxud bazar mexanizmi ilə tənzimlənən, təsərrüfat fəaliyyətinin əlaqələndirilməsi və idarəolunması *rəqabət* mövcudluğu əsasında *bazar*, *qiymət*, *gəlir* və *xərclər* sistemi vasitəsilə həyata keçirilən ictimai-iqtisadi əlaqələr məcmusu. Sistem nəyi istehsal etməyi, necə istehsal etməyi və kimin üçün istehsal etməyi özü müəyyənləşdirir. B.i. *istehsal* resurslarının daha səmərəli istifadəsinə, xalq təsərrüfatının optimal strukturunu, həmçinin *əmtəə* və *xidmətlərin* istehsal həcmini müəyyən etməyə, istehsal və dövriyyə xərclərini minimumlaşdırmağa, *gəlirləri maksimumlaşdırmağa* imkan verir. B. i.-nda dövlətin iqtisadi həyata müdaxiləsi ya cüzi olur, ya da tamamilə olmur. Cəmiyyətdə "təmiz" B. i. mövcud deyildir və bu, bir növ abstraksi-

yadır. Belə ki, real B. i.-nda abstrakt modeldən çoxlu kənarlaşmalar, o cümlədən fəaliyyətdə olan müxtəlif inhisarların bazar *qiymətqoymasını* xeyli deformasiya etməsi; *işçi qüvvəsinin, kapitalın, əmtəə* və xidmətlərin sərbəst hərəkəti yolunda müxtəlif manеələrin olması; praktiki olaraq permanent inflyasiyanın bazar mexanizminin işinə təhrifedici mənfi təsir göstərməsi; iqtisadi həyatın dövriliyinin abstrakt iqtisadi modeli dəyişdirməsi; ifrat istehsal faktının da abstrakt modeli təhrif etməsi; *işsizliyin* istehsalatın avtomatik tənzimlənməsinə imkan verməməsi kimi qüsurlar mövcuddur. "Təmiz" B. i.-nın həll edə bilmədiyi digər problemlər də vardır: təhsil, səhiyyə, mədəniyyət, işsizlərin təminatı, aztəminatlıların dəstəklənməsi və s. Ekoloji problemlərin həlli, fundamental elmlərin inkişafı da bazar münasibətlərindən kənarda qalır. Odur ki, cəmiyyətin iqtisadi həyatının əlaqələndirilməsi və idarəolunması məqsədilə bazar mexanizmdən başqa, *iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi* üsullarından istifadə etmək obyektiv zərurətdir.

**BAZAR İQTİSADİYYATI MODELLƏRİ** – Müasir bazar iqtisadiyyatının liberal, sosialyönümlü və sosial-demokratik modellərini əhatə edir.

L i b e r a l bazar iqtisadiyyatı modeli üçün (məs., ABŞ və Kanadada) xüsusi mülkiyyətin dominantlığı, özəl sahibkarlığın həvəsləndirilməsi səciyyəvidir. S o s i a l y ö n ü m l ü bazar iqtisadiyyatının (məs. İsveç, Norveç, Danimarka və Finlandiyada) əsas prinsipləri bazarın və dövlət səylərinin vəhdəti; azad rəqabətin hər vasitə ilə müdafiəsi; əmək və kapitalın sosial əməkdaşlığının, rifahın təmin edilməsindən ibarətdir.

S o s i a l - d e m o k r a t i k bazar iqtisadiyyatı modelində bütün demokratik prosedurlara riayət olunması şərti ilə seçilən dövlət hakimiyyəti orqanları sosial-iqtisadi həyatın tənzimlənməsində çox böyük səlahiyyətlərə malikdir. AFR-in bazar iqtisadiyyatı modeli buna misal ola bilər. Alman modelinin əsas meyarları bunlardır: fərdi azadlıq və bütün sahələrdə rəqabət; sosial bərabərlik və əməkhaqqının müəyyənləşdirilməsinin müqavilə xarakteri; dövlət tərəfindən texnoloji və təşkilati innovasiyaların stimullaşdırılması və antitsiklik tənzimlənməsi; dövlət tərəfindən fəal struktur siyasətinin həyata keçirilməsi; sosial əməkdaşlıq.

**BAZAR İNFRASTRUKTURU** – əmtəə və xidmətlərin bazarda sərbəst hərəkətini təmin edən institut, idarə və təşkilatların məcmusu. Banklar, sığorta şirkətləri, yarmarkalar, birjalar, məsləhət və informasiya-marketinq, broker firmaları, topdansatış və pərakəndə satış müəssisələri, vergi sistemi və s. B.i.-na aid edilir.

**BAZAR QİYMƏTİ** – 1) azad rəqabət şəraitində təklifin və tələbin təsirilə formalaşan qiymət; 2) real bazarda konkret müddətdə formalaşan qiymət.

**BAZAR MEXANİZMİ** – bazar subyektləri tərəfindən qiymətlərin, istehsal həcminin müəyyənləşdirilməsi və əmtəələrin satışı ilə bağlı qarşılıqlı əlaqələr, qiymətlərin formalaşdırılması və resursların bölüşdürülməsi mexanizmi. Tələb, təklif, qiymət və rəqabət bazar mexanizminin əsas elementləridir.

Bazardüzü zirvəsi.



**BAZARCIQ** – İrəvan xanlığının Abaran mahalında (9.9.1930 ildən Abaran, 3.1.1935 ildən – Aparan r-nu), Abaran çayının sağ sahilində azərb.-ların yaşadığı kənd. 1826–28 illər Rusiya-İran, 1828–29 illər Rusiya-Osmanlı müharibələri zamanı kəndin azərb. əhalisi qovulub çıxarılmış, 1829–30 illərdə buraya Türkiyənin Muş, Alaşkert bölgələrindən gətirilmiş ermənilər yerləşdirilmişdir. 15.7.1946 ildə kəndin adı dəyişdirilərək Arayi qoyulmuşdur.

**BAZARÇAY** – bax *Bərgüşad.*

**BAZARÇAY** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qarakilsə, 2.3.1940 ildən – Sisyan r-nu), Bazarçay çayının sahilində azərb.-ların yaşadığı kənd. 1826–28 illər Rusiya-İran müharibəsi zamanı kəndin azərb. əhalisi qovulub çıxarılmış, bir müddət sonra bura Rusiyadan gətirilmiş ruslar yerləşdirilmişdir. Kənddə yaşamaqda davam edən azərb. ailələr isə sonrakı illərdə sıxışdırılıb kənddən çıxarılmışlar.

**BAZARDƏRƏ SİLSİLƏSİ** – bax *Şimali Alіçur silsiləsi.*

**BAZARDÜZÜ** – Azərb. Resp. (Qəbələ r-nu) və Dağ. Resp. (RF) sərhədində, Baş Qafqaz silsiləsində ən yüksək zirvə. Hünd. 4466 *m*. Yuranın gilli şistlərindən və qumdaşılarından təşkil olunmuşdur. Səthi nisbətən hamar, yamacları sıldırımdır. Türyan və Qusar çayları buradan başlanır. Alp çəmənləri və buzlaqlar var.

**BAZARGÜNÜ MƏKTƏBLƏRİ** – ümumtəhsil, peşə, yaxud dini yönümlü özəl və ya ictimai məktəblər; tədris bazar günlərində aparılır. B.m. ilk dəfə 18 əsrin axırlarında İngiltərədə meydana gəlmişdir. 1905–07 illərdə Bakıda da B.m. (azərb.-lar üçün cümə məktəbləri) açılmışdı. Sovet hakimiyyəti dövründə B.m. yaşlılar üçün məktəblərlə əvəz edilmişdi. Hazırda Rusiyanın və bir sıra Avropa ölkəsinin bəzi şəhərlərində orada yaşayan azərb.-ların uşaqları üçün Azərb. dilində B.m. fəaliyyət göstərir.

**BAZARKƏND** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qarakilsə, 2.3.1940 ildən – Sisyan r-nu), Bazarçayın yuxarı axarında azərb.-ların yaşadığı kənd. Mənbələrdə adı 15 əsrin axırlarından başlayaraq çəkilir. 19 əsrin 2-ci yarısında ləğv edilmişdir.

**BAZARKƏND** – Azərb. Resp. Kəlbəcər r-nunun Dovşanlı ə.d.-ndə kənd. R-n







Bazel şəhərinin panoramı.

mərkəzindən 44 *km* c.-ş.-də, Qarabağ silsiləsinin ətəyindədir. Əh. 63 (2008); işğaldan (1993, aprel) əvvəl heyvandarlıqla məşğul olmuşdur.

**BAZARQALA** – Sağsahil Xarəzmində (Özb.-ın Qaraqalpaq Resp.) ən iri şəhər yeri. S.P. Tolstovun rəhbərliyi ilə Xarəzm ekspedisiyası tərəfindən 1938 ildə aşkar edilmişdir. Xarəzm tarixinin arxaik dövründə (e.ə. 6–5 əsrlər) meydana gəlmiş, Kanqyuy (e.ə. 4 əsr – eramızın 1 əsri) və Kuşan (1–4 əsrlər) dövrlərində də mövcud olmuşdur. Kvadrat planlı (sah. təqr. 360 min $m^2$) B.-nın möhtəşəm divarları çoxsaylı bürclərlə möhkəmləndirilmişdi; Kuşan dövrünə aid içqala B.-nın şm.-ş. hissəsində yerləşirdi. Çoxsaylı ev və emalatxana qalıqları, həmçinin böyük keramika kolleksiyası, heykələbənzər ossuariləri və terrakotadan düzəldilmiş heykəlciklərin fraqmentləri aşkar edilmişdir.

**BAZAROVA** Ayişə Hacıyov qızı (1921, Balakən r-nunun Meşəşambul k. – 1998, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1949). 1948 ildə tütünçülük sahəsində yüksək nailiyyətlər əldə etmişdir. Azərb. SSR Ali Sovetinin (3-cü çağırış) deputatı olmuşdur.



**BAZARSADÁYEV** Kim İvanoviç (22.4. 1937, Çita vil., Aginskoye k. – 11.12. 2002, Ulan-Ude) – buryat müğənnisi (bas), SSRİ xalq artisti (1981). Leninqrad konservatoriyasını bitirmişdir (1963). Buryatiya Opera və Balet Teatrının solisti (1966–2002) olmuşdur. Əsas partiyaları: Dosifey ("Xovanşina", M.P. Musorqski), Qremin ("Yevgeni Onegin", P.İ. Çaykovski), Qalitski ("Knyaz İqor", A. P. Borodin), II Filipp ("Don Karlos", C. Verdi), Dəyirmançı ("Su pərisi", A.S. Darqomıjski), Mefistofel ("Faust", Ş. Quno). Milli repertuarla çıxış etmişdir.

**BAZARYURD** – Azərb. Resp. ərazisində, Qusar və Qəbələ r-nlarının sərhədində, Baş Qafqaz silsiləsində dağ. Hünd. 4126 *m*. Yamacları dik və bitkisizdir. Buzlaqlar var.

**BÁZEDOV** (Basedov) İohann Bernhard (11.9.1724, Hamburq – 25.7.1790, Maqdeburq) – alman pedaqoqu, *filantropizmin* banisi. Leypsiq və Kil un-tlərində ilahiyyatı və fəlsəfəni öyrənmişdir. Gənc alman burjuaziyasının maraqlarının ifadəçisi olan B. dövrünün məktəblərini sxolastikaya və həyatdan təcridliyə görə tənqid etmiş, təbiyyat fənlərinin və yeni dillərin tədrisinə üstünlük vermişdir. Dini dözümlülüyün tərəfdarı olmuş, məktəbin dini baxımdan neytrallığı ideyasını təbliğ etmişdir. Dessauda açdığı (1774, 1778 illədək özü rəhbərlik etmişdir) internat tipli məktəbdə – filantropində özünün pedaqoji ideyalarını həyata keçirməyə çalışırdı. B. "İbtidai təhsilin əsasları" (1774) adlı 4 cildlik dərs vəsaiti nəşr etdirmişdir. Kitab dərs materialı ilə müstəqil işləməyi nəzərdə tutur, şagirdlərə əldə etdikləri biliklərdən insan fəaliyyətinin bir çox sahələrində faydalanmağı sadə dildə öyrədirdi.

**BAZEDOV** (Basedow) Karl Adolf (1799–1854) – alman həkimi. Halledə tibb fakültəsini bitirmişdir. Cərrah və fizioloq K.A. Vaynholdun rəhbərliyi altında cərrahi klinikada işə başlamışdır. Parisdə təkmilləşdikdən sonra 1822 ildən ömrünün sonuna kimi Merzeburqda dairə həkimi işləmişdir. Fəaliyyəti müxtəlif sahələrin cərrahiyyəsini əhatə edir. "Göz dibində toxuma hüceyrələrinin hipertrofiyası ilə əlaqədar ekzoftalmiya" əsəri nəşr olunduqdan (1840) sonra ümumdünya şöhrəti qazanmışdır. Əsərdə zobla, dombalangözlüklə və ürəkdöyünmə ilə səciyyələnən xəstəliyin klassik təsviri verilmişdir.

Ə s ə r i: Exophthalmos durch Hypertrophie des Zellgewebes in der Augenhöhle. Wschr. ges. Heilk., 1840.

**BAZÉDOV XƏSTƏLİYİ** (1840 ildə onu ilk dəfə təsvir edən alman həkimi K. Bazedovun adından) – bax *Zob.*

**BAZEQÁ** – Burkina-Fasonun mərkəzi hissəsində əyalət. Sah. 4 min $km^2$, əh. 242 min (2005). İnz. m. Kombisiri ş.-dir.

**BÁZEL** (Basel) – İsveçrənin şm.-ında şəhər. Bazel-Ştadt yarımkantonunun inz. m. Əh. 164,5 min (2005). Reyn çayı sahilində, Yura və Şvartsvald dağ massivlərinin ətəklərində, ölkənin Almaniya və Fransa ilə sərhədi yaxınlığındadır. İri nəql. qovşağı. B. portu Reyn portları arasında yük dövriyyəsinə (ildə təqr. 12 mln. *t*) görə Rotterdam və Duysburqdan sonra 3-cü yeri tutur. Ölkənin idxal yükünün 30%-indən çoxu, ixrac yükünün 16%-indən çoxu buradan keçir. Beynəlxalq aeroportdur.

Roma hərbi düşərgəsinin yerində yaranmışdır. Adı ilk dəfə Baziliya (Basilia) kimi 374 ildə çəkilir. Frank dövlətinin (534 ildən), *Qərbi Frank krallığının* (843 ildən) və Burqundiya krallığının (912 ildən) tərkibində olmuş, sonuncu ilə birlikdə Müqəddəs Roma imperiyasına qatılmışdır (1033 ildən). 7 əsr–14 əsrin ortalarınadək yepiskopun hakimiyyəti altında olmuşdur. 13–14 əsrlərdə Reyn çayı sahilində ən iri ticarət və sənətkarlıq mərkəzlərindən biri olmuş, 1356 ildə imperiya şəhəri statusunu almışdır. 14 əsrin sonlarında qala divarları ilə əhatə

olunmuşdur [İspaniya qala qapısı (1398) saxlanmışdır]. 15 əsrin ortalarından B.-də hakimiyyət *sexlərə* keçmişdir; ətraf kəndləri özünə tabe etmiş B. geniş ərazinin mərkəzinə çevrilmişdir. 1501 ildə kanton hüququ ilə İsveçrə konfederasiyasına daxil olmuşdur. 15 əsrin sonundan B. Avropanın ticarət, sənətkarlıq, kredit-sələmçilik və kitab nəşrinin mühüm mərkəzi idi. 1529 ildə B.-də Reformasiya keçirilmişdir. 1798–1803 illərdə *Helvesiya respublikasının* tərkibində idi; kənd ərazilərinin feodal asılılığı ləğv olunmuşdu (1814 ildə bərpa edilmişdir). 1833 ildə silahlı üsyan nəticəsində müstəqillik əldə edən kənd rayonları Bazel-Land yarımkantonunu yaratmışdılar. 19 əsrdə İsveçrənin Almaniya və Şimali Fransa ilə "ticarət qapıları" olan B.-in iqtisadi əhəmiyyəti kəskin şəkildə artmışdı. B.-də bir çox beynəlxalq müqavilələr imzalanmış və konqreslər, o cümlədən 1-ci (1869) və 2-ci (1912) İnternasionalın konqresləri, sionist konqresləri (1897, 1898, 1899, 1900, 1903, 1905, 1931, 1946) keçirilmişdir.

Şəhərin tarixi mərkəzi orta əsr görünüşünü saxlamışdır: roman-qotik üslubunda baş kilsə (1019 ildə başlanılmış, 1185–1200 illərdə və 15 əsrdə tikilmişdir; vitrajlar alman ustası İ. Parlerindir, 1357–1363), yepiskopun iqamətgahı (1451–58), renessans dövrünə məxsus ratuşa (1504–1608; interyerində 16 əsr freskaları), qotik üslubda Müq. Martin (təqr. 1356–98) və Müq. Pyotr (14 əsr; 15 əsr freskaları) kilsələri, *barokko* üslubunda Zandqrube malikanəsi (1745–51, memar Y.Y. Fexter). 20 əsr tikililərindən vağzal (1912–13), Müq. Antoni kilsəsi (1925–27, hər ikisinin memarı K. Mozer), "Parkhauz" evlər qrupu (1934–35, memarlar O. Zenn, R. Mok), İncəsənət və sənətkarlıq məktəbi kompleksi (1956–63, memar Q. Baur; həyətində J. *Arpın* heykəltəraşlıq sütunu), bir sıra inzibati binalar seçilir.

Bazel. Baş kilsə.



B. mühüm mədəniyyət, təhsil, elmi tədqiqatlar və təcrübə-konstruktor işlənilmələri mərkəzidir. Ölkənin ən qədim un-ti (1460), kitabxanalar, o cümlədən Bazel kütləvi kitabxanası; Tarix (1894) muzeyi, Kütləvi rəssamlıq toplusu (1672), Heykəltəraşlıq (1848) muzeyi, Kunsthalle (1872; İsveçrə incəsənət kolleksiyası), Sənətkarlıq (1878) muzeyi, Xalq incəsənəti və etnoqrafiyası (1944) muzeyi və s. var. Bazel (1834, İsveçrədə ən böyük), Gənclər, Kukla teatrları, müzikl, Bazel simfonik orkestri, 20 əsr bəstəkarlarının qiymətli arxivləri saxlanılan Paul Zaxer fondu (1986), Bazel Musiqi akademiyasının (1954) şöbəsi olan "Sxola kantorum" qədim musiqi institutu (1933) fəaliyyət göstərir. Beynəlxalq musiqişünaslıq cəmiyyətinin (1927) mənzil-qərargahı B.-də yerləşir. Zoo- park var. "Sankt-Yakob" stadionunda futbol üzrə Kuboklar kubokunun final oyunları (1969, 1975, 1979, 1984) keçirilmişdir. Hər il Sənaye yarmarkası, Ümumavropa saat və zərgərlik məmulatları yarmarkası, Bazel karnavalı keçirilir.

İqtisadiyyatında xidmət sahəsi üstünlük təşkil edir. B. dünya əhəmiyyətli bank-maliyyə mərkəzidir, beynəlxalq ticarətdə mühüm rol oynayır (Beynəlxalq hesablaşmalar bankı burada yerləşir). İsveçrənin aparıcı kimya konsernlərinin ("Siba-Qaygi", "Hoffmann – La Roş", "Sandoz") mənzil-qərargahları və elmi tədqiqat laboratoriyaları B.-dədir. Aparıcı sənaye sahəsi olan kimya-əczaçılıq dərman preparatları və anilin boyaqları istehsalı üzrə ixtisaslaşmışdır (müəssisələr şəhərin şm.-ş.-ində və yaxınlığında yerləşir; məhsulun təqr. 90%-i ixrac edilir). Maşınqayırma, elektrotexnika, tikiş, ağac emalı, poliqrafiya və s. sahələr də inkişaf etmişdir.

**BAZEL SÜLH MÜQAVİLƏLƏRİ (1795)** – *Bazel* ş.-ndə Fransa ilə Fransa əleyhinə birinci koalisiyanın iki üzvü – Prussiya (5 aprel) və İspaniya (22 iyul) arasında imzalanmış separat müqavilələr. Fransanın hərbi uğurları nəticəsində bağlanan B.s.m. Fransa əleyhinə birinci koalisiyanın parçalanmasına səbəb oldu. Müqavilələrdə Fransa qoşunlarının Reynin sağ sahilindən çıxarılması, Almaniya imperiyası ilə qəti sülh bağlananadək Reynin sol sahilinin Fransa işğalı altında qalması, Prussiyanın Fransaya və onun zəbt etdiyi dövlətlərə qarşı düşmənçilik hərəkətlərindən imtina etməsi nəzərdə tutulurdu. Fransa qoşunlarının Kataloniya, Navarra və Bask əyalətlərində ələ keçirdiyi ərazilər İspaniyaya qaytarılırdı. Əvəzində Haiti a.-nın İspaniyaya məxsus hissəsi Fransaya verilirdi. İspaniya Prussiya ilə ittifaq müqaviləsi bağlamağı öhdəsinə götürürdü.

**BAZÉLLA** (*Basella*) – bazellakimilər fəsiləsindən bitki cinsi. Sarmaşan zoğları olan kökümsovlu otlardır. Yarpaqları sadə, bütöv, yumurtaşəkilli, seliklə zəngindir. Xırda çiçəkləri ağ, yaxud çəhrayıyaçalan, qırmızıdır; ikicinsiyyətli, açılmayandır, çiçək tacı reduksiya olunmuşdur, sünbül qoltuq çiçək qrupunda toplanmışdır. Giləmeyvəyə bənzəyən meyvələri şirəlidir. Əsasən, Tropik Afrikada və Madaqaskarda yayılan 6 növü məlumdur. Şirəli və ətli yarpağı və gövdəsinə görə (tərkibindəki selik hesabına təzəliyini bir neçə həftə saxlayır) başlıca olaraq tropik və subtropik ölkələrdə ağ B.



Bazella alba (Basella alba).

(B. *alba*) və ya Malabar ispanağı geniş becərilir; meyvələrinin şirəsindən qida məhsullarının boyanmasında istifadə olunur; xalq təbabətində dərman kimi işlədilir, dekorativ bitkidir.

**BAZÉN** (Bazin) Erve [təxəllüsü; əsl adı və soyadı Jan Pyer Mari Erve-Bazen (Hervé-Bazin)] (17.4.1911, Men və Luara dep-ti, Anje – 17.2.1996, Anje) – fransız yazıçısı, şair, jurnalist. Beynəlxalq Lenin mükafatı laureatı (1980). Qonkur Akademiyasının prezidenti (1973). Yoxsullaşmış zadəgan nəslindəndir. Sorbonnada təhsil almışdır. *Müqavimət hərəkatının* iştirakçısı olmuşdur. "İlan yumruq içində" [1948; "Rezo ailəsi" trilogiyasının (1948–72) birinci hissəsi], "Oğul naminə" (1960), "Ailə həyatı" (1967) romanları avtobioqrafik səciyyə daşıyır. B. "Ümidsizlik" adasının xoşbəxtləri" (1970) adlı fəlsəfi roman-reportajın, "Doqquzuncu gün" (1994) elmi-fantastik romanın və s. əsərlərin müəllifidir.

Əsərləri: Собр. соч. в 4 т. М., 1988.

**BAZƏRQAN** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Ətraf bölgəsinin Qaladərəsi kəndistanında, Maku ş.-ndən 18 *km* şm.-q.-dədir.

**BAZƏRQÁN** Mehdi (1907, sentyabr, Tehran – 20.1.1995, Sürix) – İran ictimai və dövlət xadimi. İxtisasca mühəndis. Tehran Un-tinin prof.-u olmuşdur. Şah rejiminə qarşı çıxan "İranın azadlığı uğrunda hərəkat"ın (1963–79) təşkilatçılarından biridir. Milli cəbhənin idarə heyətinin üzvü olan B. dəfələrlə həbs edilmişdir. 1979 ilin fevralından Müvəqqəti inqilabi hökumətin başçısı, İran İslam Resp.-nın baş naziri vəzifəsində çalışmışdır. Mötədil dünyabaxışlı olduğu üçün R. *Xomeyninin* siyasi kursu ilə razılaşmayaraq istefa vermişdir (1979). İranda tətbiq olunan rejimi tənqid etmiş, ölkə rəhbərliyini liberal siyasi və iqtisadi islahatlara səsləmişdir. 1986 ildən "İran xalqının azadlığı və suverenliyinin müdafiəsi cəmiyyəti"nin lideri olmuşdur.



**BAZİDİLİ GÖBƏLƏKLƏR** – bax *Bazidiomisetlər*.

**BAZİDİOMİSETLƏR,** b a z i d i l i g ö b ə l ə k l ə r (Basidiomycota) – göbələklər aləminin bir şöbəsi. Təbiətdə geniş yayılmış 30 minədək növü var. B.-in əsas əlaməti hüceyrə miselisində xüsusi bir və ya dördhüceyrəli mikroskopik strukturların – bazidilərin əmələ gəlməsidir; cinsi proses nəticəsində bazidiosporlar bunların əsasında formalaşır. Müvafiq substrata düşərək yetişmiş bazidiosporlar cücərib yeni göbələk telləri verir. B.-də miseli üzərində qeyri-cinsi çoxalma sporları (konidiyalar) çox nadir hallarda əmələ gəlir. B.-ə iri meyvə cismli göbələklərin əksəriyyəti (qovğa göbələyi, buynuzlu göbələk, papaqlı göbələk, yağış göbələyi), həmçinin mikroskopik növlər olan və k.t. bitkilərinə, xüsusilə taxıl bitkilərinə böyük təlafat verən bitki parazitləri (pas göbələkləri və sürmə göbələkləri) aid edilir. B. arasında oduncaqda (əsl qovğa göbələyi, kök süngəri, çaqa), döşənəkdə (pulcuqlu göbələk cinsinin növləri), humuslu torpaqda (şampinyon, çətir göbələk), peyində (peyinər) inkişaf edən saprotroflar vardır; ağacların və kolların kökləri ilə simbioz (birgə) həyat keçirən mikorizaəmələgətirən göbələklər (zəhərli göbələklər cinsinə aid növlər, o cümlədən öldürücü zəhərli solğun amanita, boletus, həmçinin ağ göbələk, russula, südlücə və s.) çoxdur. B.-in 10-adək yeməli növü (o cümlədən ikisporlu şampinyon, adi asılqal) süni şəraitdə yetişdirilir. B.-in sistematikası kifayət qədər işlənilməmişdir. Müasir sistematikada B. 3 sinfə ayrılır: əsasən, iri meyvə cismli göbələklərin daxil olduğu B. (Basidiomycetes); ən mühüm pas göbələkləri sırası (Uredinales) daxil olmaqla uredinomisetlər (Urediniomycetes); sürmə göbələklərinin əsas sırası (Ustilaginale) daxil olmaqla ustilaginomisetlər (Ustilaginomycetes). Bütün B. 33 sıra, 130 fəsilə və 1350-dən çox cins arasında bölünmüşdür.

Əd.: Мир растений. М., 1991. Т. 2: Грибы.

**BAZİLİKA** (lat. basilica, yun. βασιλική στοά hərfi mənada çar sıra sütunları) – uzunsov, daxildən uzununa sıra sütunlar və ya dirəklərlə müstəqil çatısı olan bir neçə hissəyə – neflərə ayrılan düzbucaq planlı bina; əsas orta nef həmişə yan neflərdən hündür olur, belə ki, onun pəncərələr açılmış divarlarının üst hissəsi yan neflərin damı üzərindən qabağa çıxır. Erkən nümunələri Romadadır (e.ə. 2 əsr); sonralar Qədim Roma dövlətinin bütün ərazisində yayılmışdır. B. işgüzar əməliyyatlar və məhkəmə iclasları keçirmək üçün istifadə olunurdu. Hərbi düşərgələrdə qarnizonun toplantısı üçün, saray ansambllarında qəbul zalı kimi inşa edilirdi. İlkin dövrdə taxtadan düzəldilən açıq çatısı sonralar tağvari daş çatı ilə əvəz olunmuşdur (Romadakı Maksensiya bazilikası, 4 əsr). B. forması erkən xristian memarlığında mənimsənilmiş, sonralar Bizans, Suriya, roman və qotik kilsə, həmçinin İntibah və Barokko memarlığında geniş istifadə edilmişdir.

**BAZİLİKÁTA,** L u k a n i y a (Basilicata; Lucania) – İtaliyanın c.-unda vil. Matera və Potensa əyalətlərindən ibarətdir. Sah. 10 min $km^2$. Əh. 580 min (2008). İnz. m. Potensa ş.-dir. Ərazisinin çox hissəsi dağlıq (Lukaniya Apennin d-rı), c.-ş. sahilboyu hissəsi düzənlikdir.

B. aqrar vil.-dir. Buğda, yulaf, paxlalı bitkilər, kələm, istiot, üzüm, zeytun, tərəvəz və s. yetişdirilir. Dağlıq sahədə malqara saxlanılır. Yeyinti, ağac emalı, kiçik tikiş sənayesi müəssisələri, prokat, nəql. maşınqayırması z-dları və s. var. Liqnit çıxarılır. Yerli təbii qaz əsasında neft-kimya sənayesi yaradılmışdır.

Santa-Mariya Macoriya bazilikası. 432–440 illər. (Roma, İtaliya).



**BAZİS,** r i y a z i y y a t d a – baxılan çoxluğun və ya fəzanın hər bir elementlərini ifadə etmək (təsvir etmək) üçün minimal elementlər yığını. B. anlayışı cəbrdə, funksional analizdə, həndəsədə, topologiyada, riyazi məntiqdə istifadə edilir. B. anlayışının riyaziyyatın hansı bölməsində istifadə edilməsindən asılı olaraq, "minimal", "ifadə etmək" ("təsvir etmək") sözləri konkret məzmun daşıyır. Koordinatları $x_1, \ldots, x_n$ olan vektorlardan ibarət sonlu ölçülü həqiqi (kompleks) $\mathbf{R}^n$ ($\mathbf{C}^n$) vektor fəzasında $\{e_1, \ldots, e_n\}$ vektorlar yığını B.-in ən yaxşı nümunəsidir; burada $e_k$ – $k$-cı koordinatı 1-ə, qalanları isə sıfra bərabər olan vektordur, $k = 1, \ldots, n$. $\mathbf{R}^n$ ($\mathbf{C}^n$) fəzasının hər hansı elementini $\{e_1, \ldots, e_n\}$ elementlərinin xətti kombinasiyası kimi, yəni ədədə vurulmuş bu elementlərin cəmi kimi ifadə etmək olar. Burada minimallıq $\{e_1, \ldots, e_n\}$ yığınının heç bir hissəsinin bu xassəyə malik olmadığını göstərir.

Sonlu B.-i olmayan vektor fəzası sonsuz ölçülü adlandırılır. Sonsuz ölçülü separabel *Banax fəzasında* B.-i aşağıdakı xassəyə malik $\{e_1, e_2, \ldots\}$ elementlərinin hesabi yığını kimi təyin olunur: fəzanın hər hansı $x$ elementini yeganə olaraq

$$x = \sum_{k=1}^{\infty} c_k e_k$$

sırası şəklində təsvir edilir; burada $c_k$, $k=1, 2, \ldots$ – ədədlərdir, sıra isə fəza norması üzrə yığılır. İxtiyari separabel Banax fəzasında B.-in mövcudluğuna dair Banaxın məlum problemi İsveç riyaziyyatçısı P. Enflo tərəfindən mənfi həll edilmişdi (1974). Banax fəzasında müxtəlif növ B. təyin etmək olar – onların öyrənilməsi geniş bir nəzəriyyənin mövzusudur. Separabel *Hilbert fəzalarında* ən çox ortonormalaşdırılmış B.-lər, yəni skalyar hasilləri $(e_i, e_j)=0$, $i \neq j$ və $(e_i, e_i)=1$, $i=1,2,\ldots$ olan $e_1, e_2, \ldots$ B.-lər tətbiq edilir. Lebeq üzrə $p$-ci dərəcədən inteqrallanan funksiyalardan təşkil olunmuş $L_p\,[0,1]$, $p>1$ fəzalarında $\{e^{2\pi i n x}\}_{n=-\infty}^{\infty}$ triqonometrik sistemi B.-ə ən mühüm misaldır. Bu sistem $L_2\,[0,1]$-də ortonormalaşdırılmış B.-dir, $L_1\,[0,1]$-də isə B. deyildir.

**BAZİS GÖSTƏRİCİLƏR** – digər analoji göstəricilərlə müqayisə etmək üçün əsas kimi qəbul edilən iqtisadi kəmiyyətlər. B.g. iqtisadi tədqiqatlar zamanı təhlil apararkən iqtisadi kəmiyyətlərin nisbi qiymətlərini müəyyən etmək üçün zəruridir. Məs., verilmiş ildə iqtisadiyyatın vəziyyətini öyrənərkən B.g. kimi ötən ilin analoji göstəricilərinin qiymətləri, yaxud digər ölkələrin göstəriciləri, həmçinin ortaillik göstəricilər götürülür. Müxtəlif illərə dair göstəriciləri müqayisə edərkən əsas kimi götürülən il bazis il adlanır. Müqayisə yolu ilə əmtəənin keyfiyyətini müəyyənləşdirərkən, bazis keyfiyyət göstəriciləri kimi məhsulun müvafiq standart keyfiyyət göstəriciləri istifadə olunur.

**BAZİS və ÜSTQURUM** (yun. βάσις – əsas) – "ictimai-iqtisadi foramsasiya"nın sturukturunu xarakterizə edən sosial fəlsəfənin marksisit versiyasının əsas anlayışları. Tarixi materializm çərçivəsində bu anlayışların vasitəsilə iqtisadi və ideoloji münasibətlərin mühüm, sistemyaradan əlaqəsinin və qarşılıqlı asılılığının, eləcə də onların ümumi inkişaf qanunauyğunluqlarının müəyyən edilməsinə cəhd göstərilmişdir. B. və Ü.-un və onların qarşılıqlı təsirinin yığcam xarakteristikasını K. Marks "Siyasi iqtisadi tənqidinə dair" əsərinin girişində vermişdir.

**BAZOFİLLƏR** (yun. βάσις – əsas, özül + ... *filiya*), b a z o f i l q r a n u l o s i t l ə r – sitoplazmasında əsasi (qələvi) boyaqlarla boyanan (adı buradandır) dənələr olan qan hüceyrələri (dənəli leykositlərin növmüxtəlifliyi). B. histamin, heparin və s. iltihab mediatorları hasil və ifraz etməklə damar divarının genişlənməsində və keçiriciliyinin artmasında, allergik reaksiyaların yaranmasında iştirak edir, qanın laxtalanmasını azaldır. Normal halda insanda B. bütün leykositlərin 0,5–1%-ini təşkil edir. Qanda onların miqdarının artması (bazofil leykositozu), məs., qalxanvari vəzinin funksional çatışmazlığı, hamiləlik zamanı müşahidə olunur. Bəzən hüceyrə strukturunun əsasi boyaqlarla boyanma qabiliyyətinə görə hipofizin ön payı hüceyrələri, mədəaltı vəzinin adacıqları B. adlandırılır.

**BAZU,** i n s a n d a – yuxarı ətrafın gövdəyə yaxın hissəsi. Yuxarıdan *B. oynağı*, aşağıdan *dirsək oynağı* ilə məhdudlaşmışdır. B. skeletini B. sümüyü təşkil edir. B. sümüyünün cismi, kürəklə birləşən yuxarı oynaq səthi (başı), said sümükləri ilə birləşən aşağı oynaq səthi (B. sümüyünün bloku) vardır; bazu başına yaxın sümük hissəsi B. boynu adlanır. B. sümüyü uzununa yerləşmiş əzələlərlə əhatə olunmuşdur. Əzələlər birləşdirici toxuma, dərialtı piy toxuma qatları və dəri ilə örtülmüşdür. B.-nun yumşaq toxuması dərinliyində dərin damarlar və sinirlər – B. arteriyası və venaları, mil, dirsək və orta sinirlər keçir. Dərialtı toxumada səthi sinirlər, arteriyalar və venalar yerləşir. B. travmalarına əzələ və vətərlərin, sinir və damarların zədələnmələri, habelə sınıqlar, xüsusən B. boynunun sınıqları aiddir.

**BAZU OYNAĞI,** i n s a n d a – *bazu* sümüyünün başı ilə kürəyin oynaq səthinin birləşməsindən əmələ gələn kürəvi oynaq. B.o.-nda müxtəlif hərəkətlər (uzaqlaşdırma, yaxınlaşdırma, bükmə, açma, hərləmə, dairəvi hərəkətlər) mümkündür. Oynaq elastik kapsulla əhatə olunmuş, bağlar və oynaq ətrafındakı qalın əzələ qatı ilə möhkəmlənmişdir. Qan təchizatı bazu sümüyünü dolanan ön və arxa arteriyalar vasitəsilə baş verir; innervasiyası qoltuqaltı sinirlə və uzun döş, mil və kürəkaltı sinirlərin şaxələri ilə yerinə yetirilir. B.o.-nın anadangəlmə xəstəliklərindən onun inkişaf anomaliyaları, anadangəlmə *çıxıqları* təsadüf edilir; qazanılmış xəstəliklərinə *artrit*, deformasiyaedici *artroz*, *periartrit* aiddir. B. o.-nın mexaniki zədələnmələrinə bazu başının çıxığı, bazu boynunun və bazu başının sınıqları, oynağı əhatə edən bağların, vətərlərin, əzələlərin qırılması və gərilməsi və s. aiddir.

**BAZUBƏND** – 1) qızıl, gümüş və s.-dən düzəldilmiş qolbaq, bilərzik. 2) Qədimdə döyüşçülərin və pəhləvanların qollarına bağladıqları dəmir qolçaq. 3) Orta əsrlərdə içərisinə xatirə sözləri, nəzər duası qoyulan meşin və ya parça qolbənd.

**BAZÚKA** (ing. bazooka) – reaktiv əl qumbaraatanı. İkinci dünya müharibəsi zamanı və müharibədən sonra ABŞ-ın və bəzi dövlətlərin silahlı qüvvələrində istifadə olunmuşdur.

**BAZÚM SİLSİLƏSİ** – Kiçik Qafqazda, Erm. Resp.-nın şm.-ında dağ silsiləsi. Uz. təqr. 70 *km*. Hünd. q.-də 2992 *m*-ədək (Urasar d.), ş.-də 3016 *m*-dir (Xalab d.). Qranit intruzivləri olan vulkanogen çökmə süxurlardan təşkil olunmuşdur. Yamaclarında çəmən-çöllər, yuxarılarda subalp və Alp çəmənləri, Pəmbək dərəsində enliyarpaqlı meşələr var.

**BEATİFİKÁSİYA** (lat. beatus – müqəddəs və facio – etmək) – Roma katolik kilsəsində təntənəli akt: din yolunda fədakarlıq göstərənin və ya əzabkeşin Roma papası tərəfindən müqəddəslər sırasına daxil edilməsi və ona sitayişin rəsmiləşdirilməsi. 1983 ildən B. prosedurası Kanonik hüquq kodeksi ilə reqlamentləşdirilir.





**BEATRİKS II,** B e a t r i k s V i l h e l m i n a A r m q a r d (d. 31.1.1938, Barn yaxınlığındakı Sustdeyk qəsri) – Oran-Nassau şahzadəsi, Niderland kraliçası. 1961 ildə Leyden Un-tini bitirmişdir. Hüquq doktoru elmi dərəcəsi var. 1966 ildə alman diplomatı K. fon Amsberqlə (1926–2002) nikaha girmişdir. Anası kraliça *Yulianının* taxtdan imtina etməsindən sonra hakimiyyətə gəlmişdir (30.4.1980).

**BEBBİC,** Bebbec (Babbage) Çarlz (26.12.1792, Devonşir qraflığı, Tinmut – 18.10.1871, London) – ingilis riyaziyyatçısı, Peterburq EA əcnəbi m. üzvü (1832), London Kral Cəmiyyətinin üzvü (1816). *n* tərtibdə fərqləri sabit olan kəmiyyətlərin cədvəllərini hesablamaq üçün maşın konstruksiyasını (1833) işləyib hazırlamışdır. 1830-cu illərdə təklif etdiyi hesablama maşını ideyası yalnız 20 əsrin ortalarında reallaşmışdır.

**BÉBJA,** B o b r (Biebrza) – Şimal-Şərqi Polşada çay, Narev çayının (Visla hövzəsi) sağ qolu. Uz. 164 *km*, hövzəsinin sah. 7,1 min *km*². Bataqlıqlaşmış meşəli Mazoviya-Podlyase ovalığı ilə axır. Ortaillik su sərfi 30 *m*³/*san*. Kiçik gəmilər üçün yararlıdır. B. sistemi Avqust kanalı vasitəsilə Neman çayı sistemi ilə birləşmişdir.

**BECAİYƏ** (ər. بجاية, fr. keçmiş adı B u j i, qədim adı Saldı) – Əlcəzairin şm.-ş.-ində şəhər. Becaiyə vilayəsinin inz. m. Əh. 164 min (2005). Aralıq dənizi sahilində mühüm port. Nəql. qovşağı. Aeroport.

Şəhər karfagenlilər tərəfindən salınmışdır. 7 əsrin 2-ci yarısında Xilafətin tərkibinə qatılmışdır. 11 əsrin sonları – 12 əsrin əvvəllərində Ən-Nasiriyyə adı altında bərbər sülaləsi *Hammadilərin* paytaxtı olmuşdur. Əlcəzair Böyük Səhrasındakı yataqlardan başlanan neft kəmərlərinin sonuncu məntəqəsidir. 2 əsrə aid akveduk, 12 əsrə aid qala divarlarının qalıqları dövrümüzədək saxlanılmış- dır. Un-t. muzey; yeyinti (yağ, un, balıq konservi, şərab), tütün, metal emalı, yüngül və toxuculuq sənayesi müəssisələri var.

**BECALAR,** b ə d a u i l ə r, b ə d a u y e l ə r, b ə d ə v i y ə – Sudanın şm-ş.-ində, Misirin c.-ş.-ində və Eritreyanın q.-ində kuşilər qrupundan xalq. Sayları Sudanda 1,9 mln. (2005), Misirdə 145 min, Eritreyada 125 min nəfərdir. Əsas tayfaları bişarinlər (bisarinlər, bisariablar), hadendoalar (hendavalar), amararlar (hər üçü əsl B.-dir), halenqalar, ababdelər, bəni-əmirlərdir; B.-ın arasında tiqre və ərəb mənşəli qruplar da var. Bədauye dilində (bişarin, hadendoa, hadareb, bəni-əmir dialektləri var) danışırlar. Yazı sistemləri (əsasən, hadendoa dilində) ərəb və latın qrafikası əsasındadır. Həmçinin ərəb dili, Eritreyada isə tiqre və tiqrinya dilləri yayılmışdır. Dindarları müsəlmandır.

Qədim Misir mənbələrində m ə c a i l ə r, qədim yunan mənbələrində b l e m m i l ə r, Aksum mənbələrində isə b u q a l a r kimi adı çəkilən B.-ın dəvəçiliklə məşğul olmuş köçəri əcdadları Nubiya səhrasında *Meroe çarlığına* və *Aksum çarlığına* tabe idilər; aksumilərin təsirilə onların arasında xristianlıq yayılmışdı. 543 ildə B.-ın əsas şəhəri olan Talmis nobatlar (*nubiyalılar*) tərəfindən tutulmuşdu. 7–8 əsrlərdə Beca çarlığı mövcud olmuşdur. 652 və 852–853 illərdə B. nobatlarla birlikdə ərəblərə müqavimət göstərmişlər. 8 əsrdə, Aksumun zəifləməsindən istifadə edərək, Eritreyada ərazilər işğal etmişlər. 9 əsrdən islam dini yayılmış, cənub qruplarında isə 14–15 əsrlərə qədər xristianlıq mövcud olmuşdur.

Ənənəvi mədəniyyətləri Şimali və Şimal-Şərqi Afrika köçəriləri üçün səciyyəvidir. Ənənəvi təsərrüfatları köçəri maldarlığa əsaslanır (meridian boyu köç edirlər). Dəvəçilik (xüsusilə şm.-dakı bişarinlər və amararlarda) inkişaf etmişdir, qoyun və keçi də yetişdirilir. B.-ın bir qismi (əsasən, aşağı kastaya mənsub qruplar) əkinçiliklə (durralar). Qırmızı dənizin sahillərində yaşayan ababdelər isə balıqçılıqla məşğul olurlar. Ənənəvi yeməkləri dəvə və keçi südü, sıyıqlardır. Çadırlarda yaşayırlar. Kişi geyimləri enli şalvar, köynək, çiyinlik (bürüncək) və çalmadan, qadınlarınki isə gen çaxçur, tünd rəngli paltar və şaldan ibarətdir. Əsas içkiləri qəhvədir. Ata xətti ilə klanlar, adət hüququ (salif), kasta-tayfa sistemi, folklor (tarixi miflər, epos, nağıllar, ibrətamiz hekayətlər) qorunub saxlanmışdır. 19 əsrin 2-ci yarısından B.-ın əksəriyyəti tayfa başçılarının rəhbərliyi altında pambıq və digər plantasiyalardakı kooperativlərdə çalışır; bir çoxu şəhərlərdə (Xartum, Asuan, Port-Sudan, Kasala, Tokar və s.) yaşayır, idarəetmə sahəsində işləyir, intellektual əməklə məşğul olur. 19 əsrin sonlarında *Mehdiçilər üsyanında* fəal iştirak etmişlər. 1964 ildə B. Konqresi (1969–85 illərdə Nimeyri hakimiyyəti dövründə qadağan edilmişdi) yaradılmışdır. B. 20 əsrin sonlarından siyasi müstəqillik tələbi ilə çıxış edirlər.

**BECAMİR** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin Muğan kəndistanında, Germi qəs.-ndən 22 *km* ş.-dədir.

**BECNİ,** B c n i, B j n i – İrəvan xanlığının Dərəçiçək mahalında (9.9.1930 ildən Axta, 30.6.1959 ildən Razdan r-nu), Zincirli d.-nın ətəyində, Zəngi çayının sağ sahilində azərb.-ların yaşadığı kənd. Qədim türk yaşayış məskəni olmuş kəndin ərazisinə ilk ermənilərin köçüb məskunlaşması 18 əsrin sonları – 19 əsrin əvvəllərinə təsadüf edir. 1828–29 və 1915–18 illərdə Türkiyənin Van və Polis qəzalarından gələn erməni mühacirləri də kənddə yerləşdirilmişdir. 1918 il hadisələri zamanı kəndin 1000 nəfərə yaxın azərb. əhalisi qovulub kənddən çıxarılmış, 1931 ildə onların bir hissəsi doğma yurdlarına qayıtsa da, az sonra yenidən sıxışdırılaraq kənddən çıxarılmışlar.

**BECUŞİN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Üzümdil kəndistanında, Vərzəqan qəs.-ndən 9 *km* şm.-ş.-dədir.

**BEÇEQARBİNƏ** – Azərb. Resp. Balakən r-nunun Kortala ə.d.-ndə kənd. R-n mərkəzindən 15 *km* c.-da, Balakən çayının sol sahilindədir. Əh. 482 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, klub, kitabxana var.

**BEÇƏXOR** – hamilə qadınlarda rüşeymdə törəyən xəstəlik; xovlu qişa (*xorion*) epitelisinin inkişafı və xovların stromasının şişməsi ilə səciyyələnir. B.-un əmələgəlmə səbəbi müəyyən edilməmişdir. Zahiri görünüşünə görə üzüm salxımına (içərisi şəffaf maye ilə dolu müxtəlifölçülü qovuqcuqlar) bənzəyir. B. zamanı xovlu qişanın dəyişməsi yayğın şəkil aldıqda, *döl* çox vaxt tələf olur, lakin B.-un inkişafı sonra da davam edir. Qovuqcuqların inkişafı nəticəsində uşaqlıq nisbətən tez böyüyür və onun ölçüsü *hamiləliyin* müddətinə uyğun gəlmir. Əlamətləri: hamiləliyin 3–4-cü ayında qovuqcuqların uşaqlıq divarından qismən qopması nəticəsində cinsiyyət yollarından gələn qanlı ifrazat və qanaxma; qan duru, tutqun, tərkibində qopmuş qovuqcuqlar olur. Qanaxma *anemiyaya* səbəb olur, güclədikdə isə qadının həyatı üçün təhlükə yaradır. Çox vaxt B. zamanı, hamiləliyin birinci yarısında gecikmiş *hamiləlik toksikozu* əlamətləri meydana çıxır. B.-un nadir təsadüf edilən dağıdıcı forması zamanı qovuqcuqlar uşaqlığın qalın əzələsi dərinliyinə keçir. Bu, uşaqlıq divarının deşilməsinə və güclü qarındaxili qanaxmaya səbəb ola bilər.

B.-un ən böyük təhlükəsi bədxassəli şişin – *xorionepiteliomanın* əmələgəlmə ehtimalıdır.

Müalicəsi: uşaqlığın yığılmasını təmin edən dərmanların verilməsi, xüsusi vakuum-aparatla qovuqcuq yığınlarının sorulması. B. çıxarıldıqdan sonra qadın 1,5–2 il müddətində müntəzəm həkim nəzarətində olmalıdır.

**BEÇƏVERMƏ**, beçələmə – bal arısı ailələrinin təbii yolla çoxalması. B. dövrü, arı ailəsində sürfələri yemləmək üçün lazım olduğundan çox arı yetişdikdə başlayır. Arılar, B.-dən əvvəl pətəkdə cavan ana arı yetişdirirlər. B. zamanı işçi arıların bir qismi cavan ana arı ilə pətəkdən çıxır və yaxın bir yerə qonur. Arıçı buradan beçəni vaxtında yeni pətəyə köçürmədikdə o, başqa yerə uçub gedir. Azərb.-da arılar yüksək dağlıq zonada iyulda, dağətəyi r-nlarda iyunun əvvəllərində, aran yerlərdə mayın axırlarında B.-yə başlayır. Arı ailələri dağılıb zəif olmasın deyə, arıçılıqda təbii B.-yə yol verilmir; daha məhsuldar arı ailələrinin sayını artırmaq üçün onları süni surətdə ayırırlar.

**BEÇO** – Baş Qafqaz silsiləsində, Donquz-Orunbaşı və Shelda dağ massivləri arasında aşırım. Hünd. 3375 *m*; buzlaqla örtülüdür. Gediş-gəliş yalnız yayda olur. B.-dan başlayaraq Baksan çayından İnquri çayına qədər Yusenqa çayının dərəsi boyunca turist cığırı mövcuddur.

**BEÇUANALEND** – *Botsvananın* 1966 ilədək adı.

**BEÇUANLAR** – bax *Tsvanalar*.

**BEDAĞAR** – Azərb. Resp. Balakən r-nunun Qazma ə.d.-ndə kənd. R-n mərkəzindən 8 *km* c.-da, Balakən çayının sahilində, Alazan-Həftəran dərəsindədir. Əh. 1785 (2010); tütünçülük, bağçılıq, heyvandarlıq, o cümlədən baramaçılıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana, tibb məntəqəsi var.

**BEDEKER** (Baedeker) Karl (3.11.1801, Essen – 4.10.1859, Koblens) – alman naşiri. 1827 ildə Koblensdə coğrafi və turistlər üçün bələdçi kitabçaların çapı üzrə ixtisaslaşmış nəşriyyat yaratmışdır. İlk bələdçi kitabçası (Koblens ş. üzrə) 1829 ildə nəşr edilmişdir. 1846 ildən ayrı-ayrı ölkələr və qitələr, dənizlər, çaylar, adalar və turist yerləri üzrə əvvəlcə fransız, sonradan isə digər Avropa dillərində soraqçalar buraxmışdır. B.-in ölümündən sonra firma öz işini 1872 ildən Leypsiqdə, daha sonra Hamburqda, 1956 ildən isə Frayburqda davam etdirmişdir. Çox vaxt bələdçi kitabçaları sadəcə "B." adlanır.

**BEDEL** – Tyanşanda, Kakşaal-Too silsiləsində aşırım. Hünd. 4284 *m*.-ədəkdir.

**BEDEN MƏDƏNİYYƏTİ** – Şərqi Gürc.-da Orta Tunc dövrünün ilk mərhələsinə (e.ə. 26–22 əsrlər) aid arxeoloji mədəniyyət. B.m.-nin abidələri 1966 ildə Q.F. Qobecişvili tərəfindən Beden platosunda aşkar edilmişdir. *Trialeti mədəniyyətinin* erkən inkişaf mərhələsi hesab edilən bu abidələr 1980-ci illərdən Beden-Alazan mədəniyyəti kimi təsnif olunur.

Bedlend (Cənubi Dakota, ABŞ).





Şərqi Gürcüstanın Siori kəndi yaxınlığındakı kurqandan tapılmış şir fiquru. Qızıl.

B.m. *Kür-Araz mədəniyyətinin* bəzi cəhətlərini ehtiva etməklə yanaşı, Anadolu yaylası, Kiçik Asiya və Suriya mədəniyyətlərinin təsiri ilə formalaşmışdır. B.m. Martkop, Beden və Alazan qruplarına ayrılır. Meyitlərin kurqan altında taxta kameralarda dəfn olunması bəzən insan qurbanverilməsi ilə müşayiət olunurdu; arabalar, taxta qablar, qızıl və gümüş əşyalar, tunc silah və əlbəsələr, obsidian və çaxmaqdaşıdan ox ucluqları, qaracilalı zərif keramika (bəzən cızıq həndəsi, yaxud "mirvari" ornamentlə), birqulplu bardaqlar, qulplu kasalar və bikonusvarı qablar tapılmışdır. Yaşayış məskənləri seyrəkdir. Təsərrüfat maldarlığa (davar və at) əsaslanmışdır.

**BEDFORD** – B. Britaniyanın c.-ş.-ində şəhər. Bedfordşir qraflığının inz. m. Əh. təqr. 80 min (2005). Uz (Böyük Uz) çayı sahilindədir. D.y. qovşağı. Maşınqayırma (o cümlədən elektrotexnika və radioelektron), poliqrafiya sənayesi; memarlıq abidələri (orta əsrlərə aid kilsələr) var.

**BEDFORDŞİR** – B. Britaniyanın c.-ş.-ində, Uz (Böyük Uz) çayı hövzəsində qraflıq. Sah. 1235 $km^2$. Əh. 595,8 min (2007). İnz. m. Bedford ş.-dir.

**BEDİİ** Faiq Akın (d. 1921, Bandırma) – türk jurnalisti və yazıçısı. İstanbul Un-tinin tibb fakültəsində təhsil almışdır. "Təsvir", "Tan", "Milliyyət", "Yeni İstanbul" və "Ulus" qəzetlərində çalışmışdır. 1952 ildə Falih Rıfkı Atay ilə birlikdə "Dünya" qəzetinin nəşrinə başlamış, 1963 ildən həmin qəzetin tək naşiri olmuşdur. 1954 ildə həbs edilmişdir. "Son havadis", "Hürriyyət" və "Tərcüman" qəzetlərində işləmişdir. "Yabançı" (1954) və "Pablonun gülüşü" (1972) romanlarının, felyetonların, səyahət və həbsxana qeydlərinin və s. əsərlərin müəllifidir.

**BEDLEND** (ing. bad lands – yararsız torpaqlar) – kəskin və mürəkkəb parçalanmış, əsasən, alçaqdağlıq relyef forması. Əkinçiliyə yararsızdır. Əsasən, semiarid və arid iqlimli ərazilərdə, maks.







Bedlinqton-teryer.

yağıntıların düşdüyü dövrlərdə suyadavamlı gilli süxurların səth suları ilə yuyulması nəticəsində yaranır. Ensiz suayırıcılarla bölünmüş çoxsaylı şaxələnən yarğanlar B.-ə xas relyef formasıdır. Bu tip relyef formasına Şimali Amerikanın Qayalı dağlarında, Tyanşanın c. səhra yamaclarında, Ermənistanın c.-unda, Qərbi Kopetdağın öndağlıq səhralarında, həmçinin faydalı qazıntı yataqlarının açıq üsulla istismarı zamanı yaranmış boş süxur qalaqlarında (antropogen B.), seysmik dislokasiya yerlərində (tektonik B.) rast gəlinir. 1978 ildə ABŞ-da 982 $km^2$ ərazidə, əsasən, Şeyenn və Uayt çayları arasında Bedlend Milli Parkı yaradılmışdır.

**BEDLİNQTON-TERYER** – it cinsi. 18 əsrin sonu – 19 əsrin əvvəllərində B. Britaniyada adadovşanlarını ovlamaq üçün yetişdirilmişdir. B.-t.-dən həm də fermer təsərrüfatlarını gəmiricilərdən və xırda yırtıcılardan qorumaq məqsədilə istifadə edilirdi. Çevik itdir, beli ortadan tağ şəklində əyilmişdir. Cidov hünd. 38–43 *sm*, kütləsi 8–10 *kq*-dır. Hərəkətləri iti, yüngüldür. Tükü orta uz.-da, yumşaqdır; mavi, qumrəngli, qırmızımtıl-qəhvəyi, bəzən sarımtıl ləkəlidir. Tükü tökülmür. Müəyyən edilmiş standarta görə qırxıldıqda quzuya oxşadılır. B.-t. kompanyon it kimi istifadə edilir. O, anlaqlı, cəsarətlidir; özünü və sahibini müdafiə etməyi bacarır. Bax həmçinin *Teryerlər*.

**BEDNORTS** (Bednorz) Yohannes Georq (d.16.5.1950, Noykirxen) – alman fiziki, Nobel mükafatı laureatı (K.A. *Müllerlə* birlikdə, 1987). Münsterdə un-t bitirmişdir (1976). 1977 ildən Sürixdə Texnologiya İn-tunda çalışır. Tədqiqatları bərk



cism fizikasına, yüksəktemperaturlu ifratkeçiriciliyə həsr olunmuşdur. Dielektriklərin və başqa kristallik maddələrin kristallik quruluşunu tədqiq etmişdir. Müllerlə birlikdə mürəkkəb metal oksidlərinin laylı quruluşlarında 92*K* temp-rda ifratkeçiricilik halına keçidi qeydə almışdır (1987).

**BEDUSTAN** – İranın Şərqi Azərbaycan ostanında kəndistan. Əhər şəhristanının c.-q.-ində, Heris bölgəsi ərazisindədir.

**BEER-ŞEVA**, Beyerşeba (ər. بئر السبع) – İsrailin c.-unda şəhər. Cənub dairəsinin inz. m. Əh. 187,5 min (2005; əhalisinin sayına görə ölkənin dördüncü şəhəri; karaimlər icması üzvlərinin yığcam yaşadığı mərkəzlərdən biridir). Negev səhrasının şm.-ındadır. Avtomobil yolları qovşağı. D.y. st. Aeroport.

B.-Ş.-dan 5 *km* aralı e.ə. 4 minillikdən qeyd olunan şəhər yerləşirdi. Qədim B.-Ş. Fələstindən Ərəbistana gedən karvan yolunun üstündə kənani, sonralar isə (e.ə. 2-ci minilliyin sonlarından) yəhudi mərkəzi olmuşdur; e.ə. 10 əsrdə İsrail-Yəhudi çarlığının ən cənub məntəqəsi idi. B.-Ş.-da e.ə. 622 ilədək Yəhvanın məbədi yerləşirdi. Eramızın 3–4 əsrlərində indiki B.-Ş.-nın yerində Roma qalası mövcud olmuşdur. İsrail dövləti elan edildikdən (1948) sonra şəhərin yəhudi immiqrantlar tərəfindən məskunlaşması başlandı.

Un-t (1965), Bələdiyyə teatrı (1973) var. Şahmat üzrə komandalar arasında dünya çempionatı yarışları (2005) burada keçirilmişdir.

B.-Ş.-da iri tikinti və nəql. təşkilatları; maşınqayırma və metal emalı, kimya, yüngül (o cümlədən toxuculuq) və bir sıra yüksəktexnologiyalı sənaye sahələri müəssisələri fəaliyyət göstərir. Cümə günləri bədəvi bazarı işləyir. B.-Ş.-dan c.-ş.-də, Dimon ş.-ndə elmi tədqiqat atom mərkəzi (1963), o cümlədən 26 *MVt* gücündə AES yerləşir.

**BEGEMOTLAR**, begemotkimilər (Hippopotamidae) – gövşəməyən cütdırnaqlılar fəsiləsi. Bədəni, altında 5 *sm*-ədək piy qatı olan seyrək tüklü qalın dəri ilə örtülmüşdür. Ətrafları qısa, sütunvarıdır. Üzü enlidir; alt kəsici və köpək dişləri (qılınc dişlər) daim böyüyür; mədəsi üç şöbədən ibarətdir. Hər birində 1 növ olmaqla 2 cinsi var: begemotlar (Hippopotamus) və digər sistemə görə Hexaprotodon cinsinin yarımcinsi hesab edilən cırtdan B. (Choeropsis). Adi begemotun (H. amphibius), yaxud hippopotamın (yun. ἱπποπόταμος – çay atı) bədəninin uz. 4,0–4,5 *m*, quyruğu 35–50 *sm*, cidov



Adi begemot (Hippopotamus amphibius).

hünd. 165 *sm*-ədək, kütləsi 1,3–3,2 (4,5-ədək) *t*-dur. Erkəkləri dişilərindən xeyli iridir. Bədəni çəlləkvarıdır, potadır; başı yekə, boynu, demək olar ki, yoxdur. Rəngi mis rəngindən tünd-qəhvəyiyə qədər dəyişir; dəri vəziləri dərinin üst qatını suda şişməkdən qoruyan qırmızımtıl sekret (qanlı tər də adlanır) ifraz edir. Materikin cənubu istisna edilməklə, Afrikada Böyük Səhradan cənubda yayılmışdır; başlıca olaraq, milli parklarda qalmışdır. Kiçik körfəzləri və bataqlaşmış, qamış basmış sahilləri olan su hövzələrinin kənarında məskunlaşır. Günün çox hissəsini suda keçirir. Gözlərini, burun dəliklərini və kiçik qulaqlarını suyun səthində saxlayır; suya cumarkən burun dəlikləri və qulaqları dəri büküşləri ilə örtülür. Suyun altında 5 *dəq*-yədək qalır və suyun dibində gəzə bilir. Kiçik qruplarla, yaxud sürülərlə (30-adək fərd), yaşlı erkəklər isə tək-tək gəzir. Gecələr fəal olur. Başlıca olaraq, su bitkiləri ilə qidalanır, bəzən otlamaq üçün sudan kənara çıxır. Qida axtararkən, adətən sahildən 300 *m*-dən uzağa getmir, lakin bəzən 30 *km*-ədək uzaqlaşır. İlboyu çoxalır, kütləvi hövrəyəgəlmə iyun–sentyabr aylarında olur; bu zaman erkəklər arasında qızğın döyüşlər baş verir. Bir, az hallarda isə iki bala doğur; yeni doğulmuş balanın kütləsi 35–40 *kq* olur, doğulan kimi gəzə və üzə bilir. 40–50 il yaşayır.

Cırtdan begemot (C. liberiensis) xeyli kiçik olur: bədəninin uz. 1,9 *m*-ədək, cidov. hünd. 80 *sm*-ədək, kütləsi 275 *kq*-adəkdir. Dərisi çılpaq, tüklər yalnız dodaqlarında, qulaqlarında və quyruğundadır. Beli yaşılımtıl-qara, yanları tünd-boz, qarnı bozumtul ağdır. Dəri vəzilərinin sekreti rəngsizdir. Liberiya, Qvineya, Syerra-Leone və Nigeriyanın rütubətli tropik meşələrində suya yaxın yerlərdə yaşayır. Hippopotama nisbətən suda həyat tərzinə az uyğunlaşmışdır. Tək-tək və cütlükdə gəzir. Gecələr fəal olur. Müxtəlif bitkilərlə qidalanır. Bir ba-



Böyük Beqiçev adası (RF).

la doğur; 3 yaşınadək ana ilə qalır. B. ətinə, dərisinə və piyinə görə uzun müddət ov obyekti olmuşdur; hazırda B.-ın ovlanması qadağan edilmişdir. Cırtdan begemot BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

**BEGİÇEV ADALARI** – RF-də, Saxa (Yakutiya) Resp.-nda, Laptevlər dənizinin c.-q.-ində iki ada. Xatanqa körfəzinin çıxışındadır. Adalar Pioner boğazı ilə (eni 7 *km*) bir-birindən ayrılır. Böyüyü Böyük Begiçev a.-dır; sah. təqr. 1,8 min $km^2$; relyefində meyilli düzənliklər (hünd. 198 *m*-ədək) xarakterikdir. Çoxillik donuşluq yayılmışdır. Arktika tundrası bitkiləri üstünlük təşkil edir. Şimal tülküsü və şimal maralı ovu inkişaf etmişdir. Sahillərində morj yataqları var. 1908 ildə rus səyyahı N.A. Begiçev tərəfindən kəşf edilmişdir.

**BEGİN** Menahem (16.8.1913, Brest-Litovsk – 9.3.1992, Təl-Əviv) – İsrailin dövlət və siyasi xadimi. Varşava Un-tini bitirmişdir. Alman işğalından Vilnüsə qaçmışdır; 1940 ildə sovet hakimiyyət orqanları tərəfindən həbs edilmişdir. Azad olunduqdan sonra (1942) Yaxın Şərqə getmişdir. Fələstində ingilislərin hərbi iştirakı əleyhinə olan "İrqun svay leumi" hərbiləşdirilmiş yəhudi təşkilatına rəhbərlik etmişdir (1943–48).



B. 1948 ildə mühafizəkar və millətçi "Herut" partiyasını təsis etmiş və siyasi karyerası müddətində onun daimi rəhbəri olmuşdur. 1973 ildə sağ partiyalar blokunun – "Likud"un həmsədri seçilmiş, blok knessetə seçkilərdə qalib gəldikdən sonra isə (1977) İsrailin baş naziri olmuşdur. İordan çayının q. sahili boyunca və Qolan yüksəkliklərində İsrail məskənlərinin tikilməsi siyasətini yeritmişdir (bax *Yaxın Şərq münaqişəsi*). İsrail ilə Misir arasında sülh müqaviləsinin (1978) işlənib hazırlanmasında iştirak etmiş və onu İsrail tərəfindən imzalamışdır (1979). Nobel sülh mükafatını almışdır (1978, Ə. *Sədatla* birlikdə). İsrail ordusunun Livana müdaxiləsinə (1982) sanksiya vermişdir (bax *Ərəb-İsrail müharibələri*). 1983 ildə istefaya çıxmışdır.

**BEH** – müqavilənin bağlanıldığına sübut kimi və onun icrasının təmin edilməsi məqsədilə, razılığa gələn tərəflərdən birinin digərinə müqavilə üzrə nəzərdə tutulan ödənişlər hesabına verdiyi pul məbləği. B. haqqında razılıq, məbləğindən asılı olmayaraq, yazılı şəkildə tərtib edilir.

B. üç funksiyanı yerinə yetirir: sübutedici (tərəflərin faktiki olaraq razılığa gəlməsi); ödəniş (müqavilə üzrə qiymətin qismən ödənilməsi); təminedici (tərəflərdən biri müqavilə şərtlərini pozduqda, zərərçəkən tərəfin mənafeyinin qorunması).

**BEHANZİN**, "Hökmdar Şark" (təqr. 1851–1906, Əlcəzair) – Dahomeya hakimi [1890–94]. Ölkəyə hücum edən fransız qoşunlarına qarşı fon xalqının apardığı silahlı mübarizəyə başçılıq etmişdir. Dahomeyanın paytaxtı Abomey ş.-nin 1892 ilin noyabrında süqutundan sonra B. işğalçılara qarşı mübarizəni davam etdirmişdir. 1894 ilin yanvarında fon əyanları tərəfindən fransızlara ələ verilmişdir. Fransızlar B.-i əvvəlcə Martinika a.-na, sonra isə Blida ş.-nə (Əlcəzair) sürgün etmişlər. 1928 ildə B.-in cəsədinin qalıqları Dahomeyaya köçürülmüşdür.

**BEHAYM** (Behaim) Martin (6.10.1459, Nürnberq – 29.7.1507, Lissabon) – alman səyyahı və coğrafiyaşünası. 1484 ildə Lissabonda "Riyaziyyatçılar şurası" adlanan ali dənizçilik idarəsində işə başlamışdır. 1484–86 illərdə portuqal dəniz səyyahı D. Kanın Afrikanın q. sahili boyu ikinci səyahətində iştirak etmişdir. 1492 ildə dövrümüzədək gəlib çatan və Amerikanın kəşfi ərəfəsində Yer səthi haqqındakı coğrafi təsəvvürləri əks etdirən ən qədim qlobusu (diametri 0,54 *m*) hazırlamışdır. B. Ptolemeyin məlumatlarına istinadən hazırlanmış dünya xəritəsinə əsaslanmışdır. B.-ın qlobusu mühüm tarixi-coğrafi əhəmiyyət kəsb edir (Nürnberqdəki Alman milli muzeyində sərgilənmişdir).

**BEHBƏHAN** – İranın c.-q.-ində, Xuzistan ostanında şəhər. Eyniadlı şəhristanın mərkəzi. Əh. 96,8 min (2005). Neft-qaz r-nunun ticarət (taxıl, xurma, sitrus meyvələri) mərkəzidir.

**BEHBƏHANİ** Abdulla ibn İsmayıl (1840, Nəcəf – 16.7.1910, Tehran) – Məşrutə hərəkatının liderlərindən biri, islam alimi. Dini təhsilini atasından və Mirzə Həsən Şirazi başda olmaqla dövrünün tanınmış alimlərindən almışdır. Tehranda şəriət məhkəməsinin hakimi olan atası Seyid İsmayılın ölümündən (1878) sonra onun vəzifəsini icra etməyə başlamışdır. B. *Tənbəki üsyanına (1891)* qarşı çıxmış, İranda Rusiyanın nüfuzunun artmaması üçün ingilislər ilə birlikdə çalışmışdır. 1903 ildə yeni baş nazir Eynüddövlənin B.-yə qarşı çıxması və eyni zamanda onun rəqibi olan Şeyx Fəzlullah Nurini yüksəltməsi B.-ni hökumətə müxalif qüvvələr sırasına qatılmağa vadar etdi. Hökumət əleyhinə geniş kampaniyaya başlayan B. Tehran alimlərindən Seyid Məhəmməd Təbatəbai ilə yaxınlaşdı. Təbatəbai ilə birlikdə Tehrandakı Şah məscidində keçirdiyi toplantı şahın adamları tərəfindən dağıdıldı, B. və Təbatəbai isə Tehran yaxınlığınakı Şah Əbdüləzim türbəsinə sığındılar. Onlar, ədalətli bir məclis çağırılmayınca Tehrana dönməyəcəklərini bəyan etdilər. Tələbləri qəbul olunduqdan sonra 1906 ilin dekabrında Tehrana qayıtdılar. Bir müddət sonra çağırılan ilk məclisdə B. üç istiqamətdə mübarizə aparmağa məcbur idi: Məhəmmədəli şahla, məşrutəçiliyi dinsizliklə eyniləşdirən Şeyx Fəzlullah Nuri ilə və şəriətə zidd qanunlar qəbul etməyə çalışan məclis üzvləri ilə. 1908 ilin iyununda məclis şah tərəfindən buraxıldı, B. həbs olunaraq 8 ay Bezehrud k.-ndə qaldı, daha sonra isə Nəcəfə sürgün edildi. Məhəmmədəli şahın devrilməsindən (1909) sonra B. yenidən açılan məclisdə fəaliyyət göstərmişdir. B. ilə məclisdəki radikal bir qrup (Qafqaz sosial-demokratlara bağlı olan) arasında ziddiyyətlərin kəskinləşməsi nəticəsində o, evində öldürülmüşdür.

B.-nin fiqh elminə dair yazdığı 25 risaləsi Məşhəddəki Asitane-i Qüds kitabxanasında saxlanılır.

**BEHBƏHANİ** Simin (d.20.7.1927, Tehran) – İran şairəsi. Fars poeziyasında "yeni şeir"in ("şeire-nou") nümayəndələrindəndir. 12 yaşından şeir yazmağa başlamışdır. İlk şeiri 1941 ildə dərc olunmuşdur. "Sınıq saz" (1950), "Ayaq izi" (1956), "Çılçıraq" (1957), "Dirilmə" (1971), "Kağızdan paltar" (1992), "Bir azadlıq pəncərəsi" (1995) və s. kitabların müəllifidir. Şeirlərində qadın problemlərindən ("Qadın əyanlar məhbəsində", "Rəqqasə", "Qulluqçu", "Fəryad" və s.), azadlıq və demokratiya uğrunda mübarizədən ("Vətən naminə", "Mən səninləyəm", "Ümid" və s.) bəhs olunur. Bəzi şeirləri Azərb. dilinə tərcümə edilmişdir.

*Əd.:* Hüseynov B. XX əsr fars şerində ənənə və novatorluq. B., 1975.

**BEHBUD XAN CAVANŞİR** – bax *Cavanşir* Behbud xan.

**BEHBUDABAD**, Beybutabad – İrəvan xanlığının Zəngibasar mahalında (31.12.1937 ildən Zəngibasar, 14.1.1969 ildən – Masis r-nu) azərb.-ların yaşadığı kənd. 1828 ildə İrəvan xanlığının Rusiya tərəfindən işğalı zamanı kəndin əhalisi qovulmuş, burada İrandan gətirilmiş ermənilər yerləşdirilmişdir. Sonralar kənd İrəvan şəhərinə qatılaraq ləğv edilmişdir.

**BEHBUDOV** Əkbər Qasım oğlu (d.12.7.1916, Şuşa – 11.2.1991, Bakı) – meliorasiya sahəsində Azərb. alimi, texnika e.d. (1974), prof. (1977), Azərb. SSR əməkdar elm xadimi (1977). 1941 ildə Moskva Hidromeliorasiya İn-tunu bitirmişdir. Zaqafqaziya Elmi Tədqiqat Su Təsərrüfatı İn-tu Azərb. filialının direktoru (1944–47), Azərb. Politexnik İn-tunda hidro- meliorasiya fakültəsinin dekanı, hidromeliorasiya kafedrasının müdiri (1954–61), Azərb. Elmi Tədqiqat Hidrotexnika və Meliorasiya İn-tunun direktoru (1961–86) işləmişdir. Tədqiqatları şoran torpaqların meliorasiyası, suvarma texnikası, qapalı və şaquli drenlərin konstruksiyası, minerallaşmış sulardan su- varmada və yumada istifadə məsələlərinə həsr edilmişdir. 180-dən çox elmi əsərin, o cümlədən bir neçə monoqrafiyanın müəllifidir. Elmi kadrların hazırlanmasında xidmətləri olmuşdur.

*Əsərləri:* Опыт планирования водопользования. Б., 1951; Районирование территории Азерб.ССР по применимости вертикального дренажа. Б., 1969; Экспериментальные основы проведения мелиорации засоленных земель Кура-Араксинской низменности. Б., 1969.

**BEHBUDOV** Ənvər Məcid oğlu (20.3.1912, Şuşa – 18.3.1993, Moskva) – Azərb. rejissoru, RSFSR xalq artisti (1965). M. *Behbudovun* oğludur. Ümumittifaq Dövlət Teatr Sənəti İn-tunun (Moskva) rej.-luq fakültəsini bitirmişdir (1942). Ulyanovsk (1944–46), Xabarovsk (1946–48), Novosibirsk (1948–54) teatrlarında rej. və bədii rəhbər, Kazan Böyük Dram Teatrı (1954–59) və Rostov Dram Teatrında (1959–64) baş rej. işləmişdir. "Tüfəngli adam" (N. Poqodin),"Oyanmış torpaq" (M. Şoloxov), "Ölü canlar" (N. Qoqol), "Məhəbbət haqqında 104 səhifə" (E. Radzinski) və s. tamaşaların quruluşunu vermişdir. 1966 ildən Azərb. Dövlət Opera və Balet Teatrında baş rej. işləmiş, "Koroğlu" (1968, Ü. Hacıbəyli) operasını tamaşaya qoymuşdur. 1969–78 illərdə Azərb. Dövlət Rus Dram Teatrının baş rej. olmuş, "Altı iyul" (1970, M. Şatrov), "Kənar adam" (1972, M. Dvoretski), "Öz yolunla" (1973, R. İbrahimbəyov), "Sən yanmasan" (1974, N. Xəzri), "Ötən yay Çulimskdə" (1975, A. Vampilov), "Bir iclasın protokolu" (1976, A. Gelman) və s. əsərləri tamaşaya qoymuşdur. 1978 ildən Moskva Dövlət Mədəniyyət İn-tunda rej.-luq kursunun rəhbəri olmuşdur.



**BEHBUDOV** Lütfəli bəy Rəhim ağa oğlu (1879, Şuşa qəzasının Üçoğlan k. – 1918, Şuşa) – Azərb.-da milli azadlıq hərəkatının fəal iştirakçılarından biri. Bakı realnı məktəbini, sonra isə Peterburq Texnoloji İn-tunu mühəndis-mexanik ixtisası üzrə bitirmişdir (1903). Kür-Xəzər gəmiçilik cəmiyyətinin rəhbəri olmuşdur (1908). B. "Difai" partiyasının, Zaqafqaziya seyminin müsəlman fraksiyasının üzvü kimi ("Müsavat" və demokratik bitərəflər qrupundan seçilmişdir) ictimai-siyasi fəaliyyət göstərmiş, "Nicat" xeyriyyə cəmiyyətinin işində iştirak etmişdir. 1918 ildə Şuşada türk-müsəlman əhaliyə qarşı soyqırımı törədən erməni-daşnak quldurları tərəfindən qətlə yetirilmişdir.

**BEHBUDOV** Məcid Behbudalı oğlu (18.4.1870, Şuşa – 6.9.1945, Qazax) – Azərb. xanəndəsi. Gənc yaşlarından xanəndəliyə başlamışdır. Azərb. milli vokal məktəbinin görkəmli nümayəndələrindən olan B. xalq musiqisinin populyarlaşmasında əhəmiyyətli rol oynamışdır. 1914 ildə B.-un səsi Riqadakı "Qrammofon" şirkətində vala yazılmışdır. Mirzə Hüseyn segahı, Şüştər və Çahargah muğamlarının, bir çox xalq mahnısının mahir ifaçısı olmuşdur. B. həmçinin musiqili tamaşalarda da çıxış etmişdir. Ömrünün son illərini Qazaxda yaşamışdır; burada mədəniyyət evində çalışmış, gənc istedadların yetişməsində xidməti olmuşdur. Cənubi Qafqazın bir sıra ş.-ində, eləcə də Təbriz, İstanbul və Sofiyada konsertlər vermişdir.



**BEHBUDOV** Rəşid Məcid oğlu (14.12.1915, Tiflis – 9.6.1989, Moskva; Bakıda dəfn olunmuşdur) – Azərb. müğənnisi (lirik tenor), musiqi xadimi və ictimai xadim. Azərb. SSR xalq artisti (1951), Sosialist Əməyi Qəhrəmanı (1980), SSRİ xalq artisti (1959), SSRİ Dövlət mükafatı laureatı (1946), Azərb. SSR Dövlət mükafatı laureatı (1978). M. *Behbudovun* oğludur. İfaçılıq fəaliyyətinə Tiflisdə başlamışdır (1930). 1938–44 illərdə İrəvan filarmoniyasının solisti olmuş, Ermənistan Dövlət Opera və Balet Teatrın-





R. Behbudov "Arşın mal alan" filmində Əsgər rolunda.

da çıxış etmişdir. 1946–56 illərdə Azərb. Dövlət Filarmoniyasının, 1953–60 illərdə (fasilələrlə) eyni zamanda Azərb. Dövlət Opera və Balet Teatrının solisti, 1957–59 illərdə Azərb. Dövlət Konsert Ansamblının təşkilatçısı və rəhbəri, 1968 ildən ömrünün sonunadək özünün yaratdığı Azərb. Dövlət

R. Behbudov "Sevil" operasında Balaş rolunda.



Mahnı Teatrının solisti və bədii rəhbəri olmuşdur.

Özünəməxsus ifaçılıq dəst-xəttinə, zəngin çalarlı müstəsna gözəl səsə malik olan B. vokal sənətinin görkəmli nümayəndəsi, həmçinin Azərb. estrada janrının banilərindəndir. Milli musiqi mədəniyyətinin tərəqqisinə çalışan B.-un Azərb. xalq mahnılarının, Azərb. bəstəkarlarının vokal əsərlərinin SSRİ və digər ölkələrdə populyarlaşmasında xidməti əvəzsizdir. Repertuarına həmçinin dünya xalqlarının, eləcə də özünün mahnıları daxil idi; 50-dən artıq xalqın mahnısını həmin xalqların dilində ifa etmişdir. Q. Qarayevin ("Mən sizi sevirdim", A.S. Puşkin; "Xəzər neftçiləri balladası", O. Hacıqasımov), F. Əmirovun ("Sən mənim baharımsan", S. Vurğun; "Sevdiyim yardır mənim", M.S. Ordubadi; "Kor ərəbin mahnısı", H. Cavid), C. Cahangirovun ("Nazənin", Ə. Xaqani; "Ana", İ. Səfərli), T. Quliyevin ("Bəxtəvər oldum", Ə. Xaqani), A. Məlikovun (N. Hikmətin sözlərinə romanslar silsiləsi), fin bəstəkarı A. Yarnfeltin "Layla"sı ("Kexta laulu") və s. lirik kamera-vokal əsərləri xüsusi olaraq B. üçün bəstələnmişdir. R. Hacıyevin "Romeo mənim qonşumdur" operettası da B.-un səsi üçün yazılmışdır. 1953–60 illərdə Azərb. Opera və Balet Teatrında Əsgər və Balaş ("Arşın mal alan", Ü. Hacıbəyli, rej. İ. Hidayətzadə; "Sevil", F. Əmirov, rej. M. Məmmədov), həmçinin K.S. Stanislavski və V.İ. Nemiroviç-Dançenko ad. Moskva Dövlət Musiqili Teatrında Əsgər ("Arşın mal alan", Ü. Hacıbəyli, 1956; rej. V. Kandelaki) partiyalarını ifa etmişdir. B.-un ifasında Balaş partiyası Azərb. vokal sənəti tarixində mühüm yer tutur. "Arşın mal alan" (1945, rej.-lar R. Təhmasib, N. Lessenko),"Bəxtiyar" (1955, rej. L. Səfərov), "1001-ci qastrol" (1974, rej. O. Mirqasımov) bədii filmlərində, həmçinin "Doğma xalqımıza" (1954, rej.-lar Y. Frid, H. Seyidzadə) bədii-sənədli filmində çəkilmişdir. "Arşın mal alan" filmində yaratdığı Əsgər obrazı B.-a böyük şöhrət qazandırmışdır. İlk dəfə 1942 ildə İrana xarici qastrol səfərinə çıxmış, dünyanın 100-ə qədər ölkəsində, o cümlədən Albaniya, Bolqarıstan, Belçika, MƏR, Efiopiya, Hindistan, Çin, Finlandiya, İraq, Türkiyə, Çili, Argentina, Polşa, İngiltərə, İtaliya, Fransa, Hollandiya, Avstriya, Əfqanıstan, Suriya , Liviya, Kosta-Rika, Ekvador, Peru və Boliviyada, sonuncu dəfə 1988 ildə Türkiyə və Hindistanda konsertlər vermişdir. Azərb. Dövlət Mahnı Teatrı B.-un adını daşıyır. Azərb. SSR Ali Sovetinin (3–6-cı çağırış) və SSRİ Ali Sovetinin (7–11-ci çağırış) deputatı olmuşdur.

**BEHBUDOV** Səfiyar Abuzər oğlu (18.7. 1967, Bərdə r-nunun Mollalı k. – 21.3. 1992, Əsgəran r-nu) – Azərb.-ın Milli Qəhrəmanı (ölümündən sonra, 7.7.1992). Əsgəran r-nu uğrunda gedən döyüşlərdə həlak olmuş, doğulduğu kənddə dəfn edilmişdir. Adına məktəb var.



**BEHBUDOV** Vaqif Qulam oğlu (d.3.11. 1938, Bakı) – Azərb. kinorejissoru və operatoru. Azərb. Resp. xalq artisti (2000), Azərb. Resp. Dövlət mükafatı laureatı (1991). Leninqrad Kino Mühəndisləri İn-tunu bitirmişdir (1961). 1962 ildən indiki Azərb. Televiziya və Radio Verilişləri QSC-də fəaliyyət göstərir (1965 ildən rej.-operator). 1978–87 illərdə "Azərbaycantelefilm"in baş redaktoru olmuşdur. B. "Danışan işıqlar" (1965) ilk Azərb. televiziya cizgi filminin operatoru, bu janrda bir sıra maraqlı filmlərin ("Göyçək Fatma", 1973; "Möcüzələr adası", 1978; "Qız qalası", 1984; "Basatın igidliyi", 1988; "Qurbanəli bəy", 1989; "Analar və laylalar", 1992 və s.), həmçinin "Böyükşor gölü", 1996–97), "Azərbaycan Respublikasının təhlükəsizliyi uğrunda" (1997), "Deportasiya" (2001), "Girdiman" (2003), "Lahıc" (2004), "Yeraltı şəhərin izi ilə" (2004) və s. sənədli filmlərin, resp.-nın görkəmli şəxsiyyətləri haqqında silsilə filmlərin ("İlmələrdə yaşayan həyat", 1997; "Əbədi zirvə", 1998; "Mən özümlə heç nə aparmayacağam", 1999; "Şeirin xəzrisi", 2000; "Mənlə mən arasında", 2002; "Kamil", 2007 və s.) rej.-u və operatorudur. 1999 ildən Azərb. Kinematoqrafçılar İttifaqının katibidir.



**BEHBUDOVA** Sevda Paşa qızı (d.15.8. 1933, Gəncə) – Azərb. aqronomu. kənd təsərrüfatı e.d. (1992), prof. (1996). Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir. 1968 ildən həmin in-tun bitkiçilik kafedrasında işləyir, 1994 ildən kafedra müdiridir. Tədqiqatları tarla bitkilərindən ekoloji təmiz məhsul istehsalı texnologiyasının optimallaşdırılması və işlənilməsinə həsr edilmişdir. 125-dən çox elmi əsərin, o cümlədən bir neçə dərslik və dərs vəsaitinin müəllifidir. Kadr hazırlığında xidməti var.

**BEHCET** Hulusi (1889, İstanbul – 8.3. 1948, İstanbul) – türk dermatoloqu. İstanbul Un-tinin prof.-u (1933). B. 1937 ildə hələ o zamanadək məlum olmayan xəstəliyin kliniki təsvirini vermişdir. 1947 ildə Cenevrədə çağırılmış beynəlxalq tibb konqresinin qərarı ilə həmin xəstəlik tibb elminə *Behcet xəstəliyi* adı ilə daxil edilmişdir.

**BEHCET XƏSTƏLİYİ** (Morbus Behcet) – ağız boşluğu, cinsiyyət orqanları və gözün selikli qişalarının *residiv* verən xroniki xəstəliyi ("üçsimptomlu sindrom"). Etiologiyası məlum deyildir. 1937 ildə türk dermatoloqu H. *Behcet* müəyyən etmişdir. Ə l a m ə t l ə r i: ümumi narahatlıq, temp-run yüksəlməsi, revmatoid xarakterli ağrılar, müxtəlif böyüklükdə eroziya və xoralar. Ağız boşluğunda xəstəliyin kliniki gedişi aftoz stomatit tipli olur, bəzən tez partlayan qovuqcuqlar əmələ gəlir. Ağrının təsirindən xəstənin yeməsi və danışığı çətinləşir. Qovuqcuqlar partladıqdan sonra yerində səthi eroziya izləri qalır. B.x. cinsiyyət orqanlarında eroziyalı vulvit, balanopostit, az hallarda zəif *uretrit*, bəzən *epididimit* törədir. Gözdə müxtəlif xarakterli xəstəliklərə (*konyunktivit, keratit, irit, iridosiklit*, görmə sinirinin atrofiyası və s.) səbəb olur. Residiv verən hipopion-iritdən insan, hətta kor ola bilər. B.x., adətən, hər üç orqanda bir vaxtda deyil, bəzən ancaq gözdə və ya cinsiyyət orqanlarında baş verir, ya da simptomu bir orqanda kəskin olduğu halda digərində çətinliklə nəzərə çarpır. B.x. ağır keçdikdə meninqoensefalit, *hematuriya*, mədə-bağırsaq qanaxması; *tromboflebit*, artralgiya və s. baş verə bilir və sinir sisteminin pozulmasına (baş ağrıları, tremor, *paresteziya*) səbəb olur. B. x. zamanı çox vaxt *eritrositlərin çökmə reaksiyası* sürətlənir, *leykositoz*, az hallarda eozinofiliya müşahidə edilir. B.x.-nə tutulanlar müntəzəm dispanser nəzarəti altında qalmalıdırlar.

M ü a l i c ə s i: kortikosteroid preparatlar (prednizolon, deksametazon, triamsinolon) verilir. $B_1$, $B_5$, $B_6$, $B_{12}$, C vitaminləri, qamma-qlobulin, antibiotiklər (tetrasiklin, biomisin, eritromisin) təyin edilir.

**BEHCƏTABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Abbasi kəndistanında, Bostanabad qəs.-ndən 14 *km* şm.-ş.-dədir.

**BEHİSTAN** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mahnişan bölgəsinin Ənquran kəndistanında, Mahnişan qəs.-ndən 18 *km* c.-ş.-dədir.

**BEHİSTÜN** – bax *Bisütun kitabəsi*.

**BEHİŞTİ** Nəqlisi (? – 1300/01) – Azərb. şairi. Həyatı haqqında məlumat çox azdır. Əsli Tiflisdəndir. Azərb. dilində divanı, "Camşah və Ələmşah" məsnəvisi var. Əsər quruluşca, "Dastani-Əhməd Hərami"də olduğu kimi, məclislərdən ibarətdir. Hər məclisin sonunda münasib bir qəzəl verilir. Qınalızadə Həsən Çələbi "Təzkirət üş-şüəra" əsərində B.-nin bu formanı Əmir Xosrov Dəhləvidən iqtibas etdiyini göstərmiş, şeirlərindən kiçik nümunələr vermişdir.

**BEHİŞTİ ÇƏLƏBİ**, B i h i ş t i Ə h m ə d S i n a n Ç ə l ə b i (təqr. 1466 – təqr. 1511) – Osmanlı tarixçisi, şair. Uzun müddət *II Bəyazidin sarayında* xidmət etmiş, sultanla münasibətləri pozulduğu üçün Xorasan hakimi *Hüseyn Baykaraya* sığınmışdır. 1503 ildə sultan onu əfv etdikdən sonra B.Ç. Osmanlı sarayına qayıtmış və sancaqbəyi təyin edilmişdir. B.Ç.-nin 8 cildlik "Tarixi-Behişti" əsərində *I Osmandan* II Bəyazidə qədərki dövrü əhatə edən Osmanlı tarixindən bəhs olunur. B.Ç. divan ədəbiyyatında ilk dəfə tam şəkildə xəmsə tərtib edən şairdir. Qəzəllərində Cağatay və Azərb. dillərində ifadələr işlətmişdir.

**BEHİŞTİYAN** – İranın Qəzvin ostanında kənd. Eyniadlı şəhristanın Avəc bölgəsinin Qərbi Xərəqan kəndistanında, Avəc qəs.-ndən 15 *km* şm.-dadır.

**BEHQANƏRUD** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Sirdan bölgəsinin Aşağı Tarım kəndistanında, Sirdan qəs.-ndən 40 *km* c.-ş.-dədir.

**BEHLUR** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Sirdan bölgəsinin Aşağı Tarım kəndistanında, Sirdan qəs.-ndən 45 *km* c.-ş.-dədir.

**BEHRUD** – Azərb. Resp. Ordubad r-nunun (Nax. MR) Biləv ə.d.-ndə kənd. R-n mərkəzindən 36 *km* şm.-q.-də, Ordubad–Bist avtomobil yolunun kənarında, Gilançayın sol sahilində, Zəngəzur silsiləsinin ətəyindədir. Əh. 558 (2011); bağçılıq, taxılçılıq və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var.

**BEHRUD KÖRPÜSÜ** – Azərb. Resp. Ordubad r-nunda (Nax. MR), Behrud k. yaxınlığında qədim memarlıq abidəsi. Gilançay üzərindəki üçaşırımlı körpünün 17 əsrin sonu – 18 əsrin əvvəllərində tikildiyi ehtimal edilir. 1996 ildə yenidən qurulmuş, Ordubad r-nunun Parağa, Tivi və Nəsirvaz k.-ləri arasında əlaqələr bərpa olunmuşdur.

**BEHRUZ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Xudafərin bölgəsinin Mincivan kəndistanında, Xudafərin qəs.-ndən 27 *km* c.-dadır.

**BEHZAD** (بهزاد) Hüseyn (1894 ,Tehran – 1968, Tehran yaxınlığında Rey ş.) – İran rəssamı. 12 il məşhur portretçi rəssam Hüseyn Peykar-Nigarın şagirdi olmuşdur. 18 yaşından müstəqil işləmiş, Səfəvilər və Teymurilər dövrü miniatürlərinin surətini çıxararaq sifarişlər yerinə yetirmişdir. Bu işlər ona qədim rəssamların (Kəmaləddin *Behzad*, Rza Abbasi və b.) üslubunu mənimsəməyə kömək etmişdir. Nizaminin "Xəmsə"sinə, Ö. Xəyyamın rübailərinə, Firdovsinin "Şahnamə"sinə, həmçinin İbn Sina və digər görkəmli şəxsiyyətlərin həyatına dair tabloları var. B.-ın 1953 ildə İranın Asari-ətiqə Muzeyində İbn Sinanın 1000 illiyinə həsr olunmuş sərgisi açılmış, Parisdə Müasir İncəsənət Muzeyində və ABŞ-da bir neçə sərgisi təşkil edilmişdir. 400-dən çox rəsm əsəri çəkmişdir. Bir sıra beynəlxalq mükafatlara layiq görülmüşdür. Ömrünün

sonlarını, hamı tərəfindən unudularaq, xəstəlik və səfalət içərisində yaşamışdır.

**BEHZAD** (بهزاد) Kəmaləddin (təqr. 1450, Herat – 1535/36, Təbriz) – miniatür rəssamı. *Herat miniatür məktəbinin* görkəmli nümayəndəsi. Mirək Nəqqaşın və Azərb. rəssamı Pir Seyid Əhməd Təbrizinin şagirdi olmuşdur. 1468–1506 illərdə Herat miniatür məktəbinə başçılıq etmişdir. Hüseyn Baykaranın Heratdakı kitabxanasında (1506), özbək hakimi Şeybani xanın sarayında (1507 ildən sonra) işləmişdir. 1510 ildə Təbrizə gəlmiş, I Şah İsmayılın saray kitabxanasına rəis təyin olunmuşdur (1522 ildən). Herat dövrü yaradıcılığına Şərafəddin Əli Yəzdinin "Zəfərnamə" [1490-cı illər; 1467 il əlyazması, Baltimorda (ABŞ) C. Hopkins un-ti kitabxanası], Sədinin "Bustan" (1487–88, Misir Milli Kitabxanası, Qahirə), N. Gəncəvinin "Xəmsə" (1493–94, Britaniya Muzeyi, London) və s. əsərlərə çəkdiyi gözəl miniatürlər, Hüseyn Baykara (1480-ci illər, şəxsi kolleksiya, İsveç) və Şeybani xanın (təqr. 1507, şəxsi kolleksiya, ABŞ) portretləri və s. daxildir. Azərb., Orta Asiya və İran miniatür sənətinin ənənələrini davam və inkişaf etdirən B-ın. yaradıcılığı Yaxın və Orta Şərq ölkələrində miniatür sənətinin inkişafına böyük təsir göstərmişdir. Təbriz dövrünə aid əsərləri məlum deyildir. Əmir Xosrov Dəhləvinin "Məcnun və Leyli" (M.Y. Saltıkov-Şedrin ad. kütləvi kitabxana, Sankt-Peterburq) poemasının əlyazmasına çəkilmiş miniatürlərin də (15 əsrin sonu – 16 əsrin əvvəli) müəllifinin B. olduğu ehtimal edilir.

*Əd.:* Пугаченкова Г.Л. Искусство Афганистана. М., 1963; Abdullayev M.H. Behzad və Matiss, "Qobustan", 1975, № 3-4.

Behzad Kəmaləddin. "İsgəndər və yeddi müdrik". Nizaminin "Xəmsə"sinə çəkilmiş miniatür. Britaniya Muzeyi, London.



**BEXER** (Becher) İohannes Robert (22.5.1891, Münxen – 11.10.1958, Berlin) – alman yazıçısı, publisist və ictimai xadim. Almaniya Demokratik Resp. (ADR) Milli mükafatı (1949, 1950) və "Xalqlar arasında sülhü möhkəmlətməyə görə" Beynəlxalq Lenin mükafatı (1952) laureatı. Hüquqşünas ailəsində doğulmuşdur. Münxen, Yena, Berlin un-tlərində təhsil almışdır (1911–18). 1911 ildən dərc olunan *ekspressionizm* ruhunda şeirlərində kayzer Almaniyasını tənqid etmişdir. 1919 ildən Almaniya Kommunist partiyasının üzvü olmuşdur. Bütün dünyada böyük ictimai rezonans yaradan "Luizit, yaxud Yeganə ədalətli hərb" (1926; Azərb. dilində 1932) romanı müharibə əleyhinə yazılmışdır; əsər yazıçının həbsinə səbəb olmuşdur. 1927 ildə ilk dəfə SSRİ-yə gəlmiş, səfər təəssüratlarını "Böyük plan. Sosializm quruculuğu eposu" (1931) poemasında əks etdirmişdir. 1933 ildən mühacirətdə olmuş, 1935–45 illərdə SSRİ-də yaşamışdır. 1945 ildə Berlinə qayıtmışdır; İncəsənət Akademiyasının prezidenti (1953–56), ADR-in mədəniyyət naziri (1954–58) olmuşdur. ADR milli himninin mətnini yazmışdır. "Vidalaşma" (1940; 1968 ildə ekranlaşdırılmışdır) avtobioqrafik romanının, "Qış döyüşü" (1942) poemasının, "Vətənə qayıdış" (1946) şeir toplusunun, *sosialist realizminin* nəzəriyyəsinə dair ("Poeziyanın müdafiəsi", 1952; "Poetik prinsip", 1957 və s.) kitabların və s. müəllifidir. Azərb. Proletar Yazıçıları Cəmiyyətinin 2-ci qurultayında (1929) iştirak etmişdir. "Beşillik dastan", "İki Almaniya" və s. şeirləri Azərb. dilinə tərcümə olunmuşdur.



*Əsərləri:* Избранное. М., 1974; О литературе и искусстве. 2-е изд. М., 1981.

*Əd.:* Дымшиц А. И.Р. Бехер. М., 1970; Ковpыгина Н. Художественная проза И.Р. Бехера. Иркутск, 1973.

**BEXTEREV** Vladimir Mixayloviç (1.2.1857, Vyatka qub.-nın Sorali k. – 24.12.1927, Moskva) – rus nevropatoloqu, psixiatr, neyrofizioloq, seksoloq, psixoloq, elm təşkilatçısı və ictimai xadim; elmi məktəb yaradıcısı. S.-Peterburq Tibb-Cərrahiyyə Akademiyasını bitirmişdir (1878). 1885–93 illərdə Kazan Un-tinin psixiatriya kafedrasının prof.-u olmuş, kafedra nəzdində Rusiyada ilk eksperimental psixologiya laboratoriyasını yaratmışdır. 1893–1913 illərdə S.-Peterburqda Hərbi-Tibb Akademiyasının ruhi və sinir xəstəlikləri kafedrasının və eyni zamanda Qadın Tibb İn-tunun psixiatriya kafedrasının müdiri (1897–1913) olmuşdur. 1908 ildə Psixonevrologiya İn-tunu yaratmış və ona rəhbərlik (1915 ilə kimi) etmişdir. 1918 ildə Beyni və Psixi Fəaliyyəti Öyrənən İn-tu (hazırda Bexterev ad. Psixonevrologiya İn-tu) yaratmış və ömrünün sonuna kimi ona rəhbərlik etmişdir.



B. 19 əsrin sonu – 20 əsrin 1-ci rübündə Rusiyada tibb elminin ən görkəmli nümayəndələrindən biri olmuşdur. B.-in dünya şöhrəti qazanmış sinir sisteminin anatomiyasına dair əsərlərində bir sıra beyin strukturlarının, o cümlədən uzunsov beynin yuxarı vestibulyar nüvəsinin (1885, B. nüvəsi) və beyin qabığında dad funksiyası zonasının təsviri verilmişdir. Neyrofiziologiya sahəsində B.-in mühüm xidmətləri vardır: daxili orqanların hərəki və sekretor mərkəzlərini, dördtəpəli cism refleksini təsvir etmişdir. Bir sıra kliniki simptomlar və normal reflekslər, habelə onurğa zədələnməsi olan ankilozlaşdırıcı spondilit (1892, B. xəstəliyi) B.-in adı ilə adlandırılmışdır. Onun əsərləri həmçinin psixiatriya (amneziya növünü təsvir etmişdir), alkoqolizmin müalicəsi və profilaktikası (1912 ildə Alkoqola qarşı kliniki in-tun əsasını qoymuşdur) məsələlərinə həsr edilmişdir. B.-in fəaliyyəti Rusiyada seksologiya və seksopatologiyanın, hipnoterapiyanın yaranmasını və inkişafını təmin etmişdir. 1910-cu illərdən davranışın obyektiv müayinəsi üsullarına əsaslanan və nəzəri cəhətdən biheviorizmə yaxın olan özünün ümumpsixoloji nəzəriyyəsini – refleksologiyanı işləyib hazırlamışdır. "Kollektiv refleksologiya" (1921) kitabı 1905–20 illərdəki siyasi problemlərin psixoloji təhlilinə, sosiologiya, siyasi və sosial psixologiya məsələlərinə həsr edilmişdir.

*Əsərləri:* Проводящие пути спинного и головного мозга. СПб., 1896–1898. Ч. 1–2. 3-е изд. М.; Л., 1926. Ч. 1; Основы учения о функциях мозга. СПб., 1903–1907. Т. 1–7; Психика и жизнь. 2-е изд. СПб., 1904.

**BEXTEREVA** Natalya Petrovna (d.7.7.1924, Leninqrad) – rus neyrofizioloqu, Rusiya Tibb EA-nın akad. (1975), REA-nın akad. (1981). Nyu-York (1994) və bir sıra digər xarici ölkə EA-nın əcnəbi üzvü. SSRİ Dövlət mükafatı laureatı (1985). V.M. *Bexterevin* nəvəsidir. 1-ci Leninqrad Tibb İn-tunu bitirmişdir (1947). 1950–54 və 1962–90 illərdə SSRİ Tibb EA-nın Eksperimental Təbabət İn-tunda (1970 ildən direktor), 1954–62 illərdə Leninqrad Neyrocərrahiyyə İn-tunda işləmiş, 1990 ildən REA-nın İnsan Beyni İn-tunun elmi rəhbəridir. Əsas əsərləri insanın baş beyninin normada və patologiyada psixi fəaliyyətinin fiziologiyası, struktur-funksional təşkili və bioelektrik aktivliyinə həsr olunmuşdur. Beynin davamlı patoloji vəziyyəti nəzəriyyəsini yaratmış, sağlam və xəstə beynin həyati fəaliyyətinin prinsip və mexanizmlərinin öyrənilməsi üçün yanaşma təklif etmişdir. İnsanın fikri fəaliyyətinin beyində təşkili prinsipləri haqqında bir sıra nəzəri müddəalar irəli sürmüşdür. Müxtəlif sinir xəstəliklərinin müalicəsində insan beyninə elektrodların uzunmüddətli yeridilməsi üsulundan istifadə etmişdir. 1975–87 illərdə "İnsan fiziologiyası" jurnalının baş redaktoru olmuşdur.



*Əsərləri:* Нейрофизиологические аспекты психической деятельности человека. Л., 1971; Здоровый и больной мозг человека. 2-е изд. Л., 1988; О мозге человека. СПб., 1994; Магия мозга и лабиринты жизни. СПб., 1999.

**BEİLE-HERKULÁNE** (Băile Herculane) – Rumıniyada, Karaş-Severin judetində balneoloji iqlim kurortu. Çerna d-rının (Cənubi Karpat d-rı) ətəklərində yerləşir. Əsas təbii müalicə amilləri mülayim qışa (yanvarın orta temp-ru – 1°C) və isti yaya (iyulun orta temp-ru 22°C) malik mülayim kontinental iqlim və sulfidli və natrium-xloridli termal (60°C-yə qədər) mineral sulardır. B.-H.-də ürək-



Beile-Herkulane balneoloji iqlim kurortu.

damar və sinir sistemi xəstəlikləri, travmaların nəticələri, maddələr mübadiləsi pozulmaları, ginekoloji xəstəliklər müalicə olunur. B.-H. ölkənin ən qədim kurortudur. Onun mineral sularından hələ qədim romalılar istifadə etmiş və bu suları "Herkulesin müqəddəs suları" adlandırmışlar (kurortun indiki adı buradandır).

**BÉJA** – Portuqaliyanın c.-unda mahal. Sah. 10,2 min $km^2$. Əh. 154,3 min (2001). İnz. m. Beja ş.-dir. İqtisadiyyatının əsasını k. t. təşkil edir. Gön-dəri, çini və yeyinti sənayesi müəssisələri var.

**BEJÁR** (Bejart) Moris (təxəllüsü; əsl adı və soyadı Moris Jan Berje, Berger; 1.1.1927, Marsel – 22.11.2007, İsveçrə, Lozanna) – fransız balet artisti, xoreoqraf, rejissor, pedaqoq. Fransa Zərif Sənətlər Akademiyasının üzvü (1994). Filosof Q. Berjenin (1896–1960) oğludur. Klassik rəqsi 1941 ildən öyrənməyə başlamış, 1945 ildən L. Stats, L.N. Yeqorova və madam Ruzandan (Parisdə) və V. Volkovadan (Londonda) dərs almışdır. Marsel operasında (1944), "Balle de Pari"də (R. *Peti* ilə, 1947–49, Paris), London və Stokholmda (1952 ildək) işləmişdir. "Balle romantik" (1953; 1954–57 illərdə "Balle de l'Etual") və "Balle teatr de Pari" (1957–60) truppalarını təşkil etmişdir. "Üç nəfər üçün sonata" (1957, B.Bartokun musiqisi əsasında) və "Orfey" (1958, P. Anrinin musiqisi əsasında) baletləri B.-ın həmin truppalar ilə tamaşaya qoyduğu ilk əsərlərdəndir. İ. F. Stravinskinin "Müqəddəs bahar" (1959, "La Monne" teatrı, "Uestern tietr balle"nin iştirakı ilə) əsərinin tamaşası B.-a dünya şöhrəti qazandırmışdır. 1960–87 illərdə "20 əsrin baleti" (Brüssel), 1987 ildən "Balle Bejar Lozann" (1992 ildən "Bejar balle Lozann", İsveçrə) truppalarına rəhbərlik etmişdir. B.-ın tamaşaya qoyduğu "9-cu simfoniya" (1964, L. van Bethovenin musiqisi əsasında), "Bizim dövrün messası" (1967, P. Anri və b.-nın musiqisi əsasında), "Bizim Faust" (1975, İ.S. Baxın musiqisi və Argentina tanqosu əsasında), "Kral Lir – Prospero" (1994, H. Pörsell və b.-nın musiqisi əsasında), "Tereza ana və bütün dünyanın uşaqları" və "Zərdüşt, rəqsin nəğməsi" (2002, 2005; hər ikisi musiqi toplusu əsasında) və s. əsərlərdə ümumbəşəri problematika öz əksini tapmışdır. Varlığın əzəli əsasları kimi məhəbbətin və ölümün xoreoqrafik obrazlarda fəlsəfi dərki "Romeo və Cülyetta" (1966, H. Berliozun musiqisi əsasında), "Bəlkə bu Ölümdür?" (1970, R. Ştrausun musiqisi əsasında), "Məhəbbətin mənə dedikləri" (1974, Q. Malerin musiqisi əsasında), "Helioqabal" və "Eros – Tanatos" (1976, 1980; hər ikisi musiqi toplusu əsasında), "Həyatın şərəfinə balet" (1997, V.A. Motsartın və "Kuin" qrupunun musiqisi əsasında; F. Merkuri, X. Don və C. Versaçenin xatirəsinə) tamaşalarının başlıca mövzusu-



dur. "Nijinski, fitri istedad" (1972, P.İ. Çaykovskinin və b.-nın musiqisi əsasında), "Aysedora" (1976, musiqi toplusu əsasında) baletləri, həmçinin R. Vaqner, Ş. Bodler, A. Malro, E. Piaf, Y. Misima və b. görkəmli şəxsiyyətlər haqqında tamaşalar yaradıcı şəxsiyyətin faciəsinə həsr olunmuşdur. B. sintetik tamaşanın xüsusi tipini yaratmışdır: burada rəqs, dramatik oyun, vokal, demək olar ki, bərabər hüquqa malikdir. Opera və dram tamaşalarına da quruluş vermişdir (R. Vaqner, "Tangeyzer", 1961, rej. V. Vaqnerlə birlikdə, Bayroyt festivalı; H. Berlioz, "Faustun ittihamı", 1964, Paris operası; "Uydurma Molyer", 1976, Molyerin əsərləri əsasında, N. Rotanın musiqisi, Paris; "Halqa ətrafında halqa", 1990, R. Vaqnerin musiqisi əsasında, Berlin) və s. "Yaşıl kraliça" ("La Reine verte", 1963), "Kasta Diva" ("Casta Diva"1980), "A–6– Rok" ("A–6–Roc", 1992) pyeslərinin, "Sözlərin baleti" ("Le Ballet des mots, 1994) romanının müəllifidir. "Mudra" (1970–87, Brüssel) və "Rudra Bejar Lozann" (1992 ildən, Lozanna) məktəb-studiyalarının yaradıcısı və rəhbəri olmuşdur.

**BEJTA DİLİ** (kapuçin dili) – *bejtalıların* dili. Dağıstanın Suntin r-nunda və Gürcüstanın Kvareli r-nunda yayılmışdır. B. d.-ndə danışanların ümumi sayı təqr. 10 min nəfərdir. Onlardan təqr. 8 min nəfəri Rusiyada, təqr. 2 min nəfəri Gürcüstanda (21 əsrin əvvəlləri) yaşayır.

B.d. *Sez dillərindən* biridir; *qunzib dili* ilə birlikdə onların tərkibində ayrıca genetik qol yaradır.

Üç dialekti var: Bejta, Tlyadal və Xaşarxota. Fonetikası üçün umlautlaşan saitlər, *sinharmonizm*, morfologiyası üçün isimlərdə sözdüzəldici şəkilçilərin, feli sifət və feli bağlamanın çoxluğu səciyyəvidir. Fellər xüsusi semantik, sintaktik və morfoloji xüsusiyyətlərə malik sözdüzəldici siniflərə bölünür. Qrammatik hallar və uzlaşma erqativdir (bax *Erqativ cümlə quruluşu*). Leksikanın çox hissəsini gürcü dilindən alınma sözlər təşkil edir. Yazısı yoxdur.

**BEJTALILAR**, k a p u ç a l ı l a r (andi dilində – xvanal, hərfi mənada atbazlar; gürcü dilində – kalaki) – Dağıstanın c.-q.-ində, Tsunti r-nunda (RF) və Gürc.-ın şm.-ş.-ində (Kvareli r-nu) yaşayan *sez xalqlarından* biri. Sayları Dağıstanda – 6,2 min nəfər (2002), Gürc.-da – təqr. 2 min nəfərdir (21 əsrin əvvəlləri). Əsasən, Baş Qafqaz silsiləsi və Boqos silsiləsindəki Avar Koysusu çayının sol qolları (Bejta, Xaşarxota, Tlyadal k.-ləri) boyunca, bir hissəsi isə şəhərlərdə (Mahaçqala, Xasavyurd, Buynaksk, Qızılyurd) yaşayır. *Bejta dilində* danışırlar; rus, gürcü, avar, qunzib və ginux dilləri də yayılmışdır. Dindarları müsəlmandır.

Öz etnik ərazilərində e.ə. 1-ci minilliyin 2-ci yarısından etibarən yaşayırlar. Kapuçalılar 10 əsrə aid ərəb coğrafi əsərlərində qeyd olunurlar. B. 16 əsrdən Antsux-Kapuça camaatlığının, 18 əsrin ortalarından isə Kapuça camaatlığının tərkibində olmuşlar. 17–18 əsrlərdə Xunzax və Gidatlidən yayılan islam dini 18 əsrin 2-ci yarısında B. arasında tamamilə bərqərar olmuşdur. Dağıstanın Rusiya tərəfindən işğalından (1813) sonra *Şeyx Şamilin* başçılığı ilə Dağıstan və Çeçenistan xalqlarının azadlıq mübarizəsinə qoşulmuşlar. 1861 ildən Dağıstan vil.-nin Qunib dairəsinin Bejta naibliyinə qatılmışlar. 1921 ildən Dağ. MSSR-in tərkibində olmuşlar. Sovet dövründə B.-ın bir qismi Terek və Sulak çayları arasındakı Qumuq düzənliyinə köçmüşlər. 1991 ildən Dağ. Resp.-nın tərkibindədirlər.

Ənənəvi məşğuliyyətləri köçəbə heyvandarlığı (əsasən, qoyunçuluq, həmçinin atçılıq) və əkinçilikdir (darı, çovdar, buğda, pərinc, yulaf, paxlalı bitkilər, sarımsaq, tütün). 20 əsrdə dənli bitkilərin əkin sahələri genişlənmiş, bağçılıq, tərəvəzçilik (əsasən, Qumuq düzənliyində) inkişaf etmişdir. Dağ. düzənliklərinə, Gürc.-a və Azərb.-a mövsümçülük geniş yayılmışdı. Patriarxal qohum birliklər – tuxumlar saxlanmışdır. B. camaatlıqlarda birləşirlər. Ailə, dəfn-yas ənənələri, böyüklərə ehtiram, qohum və qonşularla yardımlaşma, qonaqpərvərlik və qan qardaşlığı ənənələri qalmaqdadır. Yaşayış məskəni iki tipdədir: kənd və xutor (20 əsrin 40–50-ci illərinədək). Ənənəvi daş evləri düzbucaqlı, 2–3 mərtəbəli, çoxkameralı, yastıdamlıdır; ayrıca tikililərin damı ikiköbərlidir.

Ənənəvi kişi geyimi: şalvar, köynək, *beşmet, çərkəzi*, gödəkçə, yapıncı, qoyun dərisindən hazırlanmış kürklər və papaqlar, altlığı taxtadan olan dəri və keçə ayaqqabılar, toxunma yun çəkmələr. 19 əsrin 2-ci yarısınadək toqqalarında xəncər və bıçaq gəzdirirdilər. Qadın geyimi: müxtəlif don-köynək, don, uzun şalvar, parçadan kəmər-sarğı, çutqu, yaylıq, şal, müxtəlif gümüş bəzəklər. Ənənəvi yeməkləri xəmirdən, ət-süddən hazırlanır: xingəl, mayasız və mayalı çörək, qoğallar, sıyıqlar, şorbalar və s. Müsəlman bayramları, eləcə də təqvim bayramları qeyd olunur. Atalar sözləri, zərb-məsəllər, mahnılar, nağıllar, ağılar, laylalar avar və bejta dillərində nəsildən-nəslə ötürülür. Xalq əkinçilik təqvimi mövcuddur, xalq təbabəti inkişaf etmişdir. İslamaqədərki inanc elementləri, bir sıra ayinlər qalmaqdadır.

**BEK** (Beck) Lüdviq (29.6.1880, Bibrix – 20.7.1944, Berlin) – alman hərbi xadimi, 1944 ildə A. Hitlerə qarşı hazırlanan sui-qəsdin rəhbərlərindən biri. 1898 ildən hərbi xidmətə başlamış, 1911 ildən Baş qərargahın zabiti olmuşdur. Birinci dünya müharibəsində iştirak etmiş, sonralar reyxsverdə və vermaxtda komandan vəzifələrini tutmuşdur; gen.-m. (1931), artilleriya gen.-ı (1935) və gen.-polkovnik (1938) rütbələrini almışdır. 1935–38 illərdə Almaniyanın quru qoşunları Baş qərargahının rəisi olmuşdur. 1938 ilin avqustunda Hitlerin hərbi siyasəti ilə razılaşmadığı üçün istefaya çıxmışdır. Sonralar liberal-mühafizəkar müxalifətin liderlərindən biri olmuşdur. 1944 il iyulun 20-də Hitlerə qarşı sui-qəsdin hazırlanmasında iştirak etmişdir. Sui-qəsd baş tutacağı təqdirdə B. Almaniya dövlətinin başçısı olmalı idi. Uğursuz sui-qəsddən sonra intihar etməyə cəhd göstərmişdir. Güllələnmişdir.

**BEKÁR** – bax *Alterasiya*.

**BEKÁSİ** (Bekasi) – İndoneziyada şəhər. Qərbi Yava əyalətində, Cakartadan ş.-dədir; paytaxt aqlomerasiyasının bir hissəsi. Əh. 1,5 mln. (2005; şəhərətrafı ilə). Cakarta ş. və Yava a.-ndakı digər şəhərlərlə d.y. və avtomobil yolu əlaqələri var. Cakartanın iri sənaye şəhərətrafıdır. Müxtəlif maşınqayırma sənayesi (o cümlədən elektrotexnika və elektron sənayesi, avtomobil təmiri); kimya, toxuculuq, tikiş, yeyinti sənayesi müəssisələri var. Bambukdan və rotanqdan mebel, taxta kuklalar və s. istehsal olunur.

**BEKASLAR** (Gallinago) – çovdarçıkimilər dəstəsinin bekaskimilər fəsiləsindən cüllütlər cinsi. Uz. 25–31 *sm*-dir. Rəngi

Adi bekas (Gallinago gallinago).









Bekasi şəhərindən görünüş.

üst tərəfdən qaramtıl-boz, oxra rəngli, kürən və ağ xallıdır, alt tərəfdən tünd ləkəli ağımtıldır. Cinsiyyət dimorfizmi yoxdur. Dimdiyi uzun və düzdür; ucluğunda torpaqda yem axtarmağa kömək edən lamisə orqanları (sinir liflərinin ucları olan çoxsaylı gözcüklər) vardır. Avropa və Amerikanın mülayim vilayətlərində 16 növü yaşayır. Ən çox yayılanı adi bekas (G. gallinago), tənbəl cüllüt (G. media), meşə tənbəlcüllütüdür (G. meqala). Hündürotlu, seyrək kolluqlu rütubətli bataqlıq yerlərdə məskunlaşır. Gizli həyat tərzi keçirir (çoxalma dövrü istisna edilməklə). Alaqaranlıqda fəal olur; gündüzlər otlar içərisində gizlənir; təhlükə hiss etdikdə qaçır, yaxud qəfildən uçur. Torpaq onurğasızları (qurdlar, cücü sürfələri və s.) ilə qidalanır. B.-ın çoxunun erkək fərdləri cinsiyyət səsləşməsini havada uçaraq tək-tək (tənbəl cüllütlər isə yerdə qruplarla) keçirir. Cütləşmə uçuşları dövründə quş yüksəkliyə qalxır və birdən quyruğu açılmış halda sürətlə yerə enir; bu vaxt sükan lələkləri havanın təzyiqi altında vibrasiya edərək quzu mələşməsinə bənzəyən səs çıxarır. Yuvası, adətən, torpaq təpəciyi altındakı çuxurlardır. 4 ədəd armudvarı, oxra rəngli, yaxud qaramtıl-qonur ləkəli və xırda çilli yaşılımtıl-boz yumurtası olur. 18–30 gün kürt yatır. Ətcəbalalar yumurtadan çıxan kimi yuvanı tərk edir, uçmağı öyrənənədək qayğılarına valideynləri qalır. B. idman ovu obyektidir. Yapon B.-ı (G. hardrwickii) RF-nin "Qırmızı kitab" ına daxil edilmişdir.

**BÉKEŞÇABA** (Békéscsaba) – Macarıstanın c.-ş.-ində şəhər. Bekeş medyesinin inz. m. Əh. 65 min (2005). Alföld düzənliyində, Köröş çayından (Tisa çayının sol qolu) ayrılan qolun sahilindədir. Mühüm nəql. qovşağı.

13 əsrin 2-ci yarısında kənd məskəni kimi salınmışdır. Müharibələr nəticəsində 18 əsrin əvvəllərində tamamilə əhalisizləşmiş və Slovakiya mühacirləri tərəfindən məskunlaşmışdır; onlar burada Macarıstandakı ən iri lüteran icmasını formalaşdırmışlar. 1841 ildən şəhərdir. 19 əsrin 2-ci yarısında Budapeşt–Arad və Oradya–Riyeka d.y.-larının salınması B.-nın münbit k.t. ərazisinin mərkəzi kimi iqtisadi inkişafına şərait yaratdı. Macarıstanın ilk buxar dəyirmanı B.-da (1853) tikilmişdir.

Müasir şəhərin mərkəzindəki tikililər 19 əsrin son rübünə aiddir: Yevangelist kilsəsi (Macarıstanda ən böyük), Ratuşa və s. Macarıstan EA Regional Tədqiqatlar Mərkəzinin Alföld şöbəsi, Ş. Teşşedik ali məktəbi (iqtisadi yönümlü); rəssam M. *Munkaçinin* ev-muzeyi (1899), M. *Yokai* ad. teatr (1954) var. Kukla teatrlarının beynəlxalq festivalları (1989 ildən) keçirilir.

B. yeyinti sənayesinin (un dəyirmanı; konserv, kolbasa və s. istehsalı; sənaye quşçuluğu) ənənəvi mərkəzidir; maşınqayırma, toxuculuq, tikiş müəssisələri var. Tikinti materialları istehsal olunur.

**BÉKEŞİ** (Békésy) Dyörd (Corc) fon (3.6. 1899, Budapeşt – 13.6.1972, ABŞ, Honolulu) – fizik, biofizik. Nobel mükafatı laureatı (1961). Əslən macardır. 1949 ildən ABŞ-da yaşamışdır. 1923–46 illərdə Macarıstanın "Telefon-sistem laboratori"sində və eyni zamanda (1932–46) Budapeşt Un-tində (1939 ildən prof.). 1946–49 illərdə Stokholmda Kral Texnologiya İn-tunda, 1949–66 illərdə Harvard Un-tində işləmiş, 1966 ildən Honoluluda Havay Un-tinin prof.-u olmuşdur. Əsas elmi işləri akustika və eşitmə nəzəriyyəsi sahəsindədir. Özünün yaratdığı daxili qulaq modeli əsasında qulaq ilbizinin əsas membranının rəqslərinin xüsusiyyətlərini izah etmiş, onun mexaniki parametrlərini ölçmüşdür. Eşitmə orqanında səslərin ilkin amplitud tezlik analizi nəzəriyyəsini formulə etmişdir. Eşitmə orqanının müayinəsi üçün bir neçə alət ixtira etmişdir. B.-nin tədqiqatları eşitmə qabiliyyəti pozuntularının diaqnostikası və müalicəsində mühüm irəliləyişlərə səbəb olmuşdur.



**BEKÉTOV** Andrey Nikolayeviç (8.12. 1825, Penza qub.-nın Novaya Beketovka k. – 14.7.1902, Moskva yaxınlığında) – rus təkamülçü botaniki, bitki morfologiyası və coğrafiyasının əsasını qoyanlardan biri; rus botanikləri elmi məktəbinin yaradıcısı. Peterburq EA-nın m. üzvü (1891) və fəxri üzvü (1895). N.N. *Beketovun* qardaşı, A.A. *Blokun* babasıdır. Kazan Un-tini bitirmişdir (1849). Tiflis gimnaziyasının təbiətşünaslıq müəllimi, Xarkov Un-tinin botanika adyunktu (1859), S.-Peterburq Un-tinin botanika kafedrasının prof.-u (1863–97) və rektoru (1876–83) olmuşdur; un-tin nəzdində Nəbatat bağı və herbari yaratmışdır. İlk rus elmi botanika jurnalı "Botanika xəbərləri"nin və S.-Peterburq təbiətşünaslar cəmiyyətinin banilərindən biridir. Ali qadın (Bestujev) kurslarının təşkilatçılarından biri və faktiki rəhbəri (1878 ildən) olmuşdur. B. bitkilərin vegetativ orqanlarının quruluşundakı qanunauyğunluqları, bitki örtüyünün zonallığı problemlərini və canlı təbiətdəki məqsədəuyğunluğu tədqiq etmişdir. K.A. *Timiryazev*, V.L. *Komarov*, İ.F. Şmalhauzen və bir çox digər görkəmli bio-



loqlar onun tələbəsi olmuşlar. Ali məktəblər üçün botanikaya dair bir çox dərsliklərin, o cümlədən "Bitki coğrafiyası"nın (1896) müəllifi olmuşdur. Geniş xalq kütləsi üçün yazdığı "Yer və orada yaşayan heyvanlar haqqında söhbətlər" (1864) kitabı sağlığında bir neçə dəfə nəşr edilmişdir.

Əsərləri: Курс ботаники. Морфология, систематика и географическое распределение семейств... СПб., 1889; Учебник ботаники. 2-е изд. СПб., 1897.

**BEKETOV** Nikolay Nikolayeviç (13.1.1827, Penza qub.-nın Yeni Beketovka k. – 13.12.1911, S.-Peterburq) – rus fiziki kimyaçısı, Peterburq EA-nın akad. (1886 ildən). A.N. *Beketovun* qardaşıdır. Kazan Un-tini bitirmişdir (1849). S.-Peterburq Tibb-Cərrahiyyə Akademiyasında N.N. *Zininin* laboratoriyasında (1849–53), S.-Peterburq Un-tində (1854–55), Xarkov Un-tində (1855–86, 1859 ildən prof.), Peterburq EA-nın kimya laboratoriyasında işləmiş, S.-Peterburqdakı Ali qadın kurslarında dərs demişdir (1886 ildən). Moskva Un-tində "Termokimyanın əsasları" kursunu aparmışdır (1890). Rusiya fiziki kimya cəmiyyətinin (1889–90, 1896–97, 1900, 1902, 1903, 1911) prezidenti olmuşdur.



Əsas işləri fiziki kimya sahəsindədir. Qələvi metalların oksidlərinin və xloridlərinin əmələgəlmə istiliklərini təyin etmiş, ilk dəfə qələvi metalların susuz oksidlərini almışdır (1870). Müəyyən etmişdir ki, hidrogen təzyiq altında, maqnezium və sink isə yüksək temp-rlarda bəzi metalları onların duzlarının məhlulundan sıxışdırıb çıxara bilir. Alüminiumun xeyli miqdarda istilik ayırmaqla oksidlərdən metalları reduksiya etmək qabiliyyətinə malik olmasını göstərməklə (1859–65), alüminotermiyanın əsasını qoymuşdur.

**BÉKHEM**, Bekem (Beckham) Devid (d.2.5.1975, Böyük London qraflığı, Leytonston) – İngiltərə idmançısı (futbol). 1990-cı illərin sonu – 2000-ci illərin əvvəllərində dünyanın ən populyar oyunçularından biri və ən yüksəködənişli futbolçusu. *"Mançester Yunayted"* (1995–2000) və *"Real"* (Madrid, 2003 ildən) klublarının yarımmüdafiəçisi. İngiltərə çempionu (1996, 1997, 1999, 2000); Çempionlar liqası (1999) və Qitələrarası kubokun (1999) qalibidir. 2005 ildə Londonda 15 min şagirdi olan (o cümlədən 10 min nəfər üçün pulsuz tədris) Futbol akademiyası (xüsusi şöbəsi Los-Ancelesdə) təsis etmişdir.

**BÉKİNGEM** (Buckingham) Vilyers Corc (28.8.1592, Bruksbi – 23.8.1628, Portsmut) – hersoq, İngiltərə dövlət xadimi (1619 ildən lord-admiral), I Yakov və I Karl Stüartların nüfuzlu favoriti. B.-in İngiltərənin İspaniya (1625–30) və Fransa (1627–29) ilə uğursuz müharibələrə cəlb olunmasına gətirib çıxaran ziddiyyətli siyasəti, həmçinin onun saray və siyasi intriqaları ingilis cəmiyyətində, xüsusilə puritanlar arasında kəskin narazılığa səbəb olmuşdu. Kralın B.-i səxavətlə mükafatlandırması, həmçinin ona və onun qohumlarına ticari inhisarların verilməsi ingilisləri daha da əsəbiləşdirirdi. B. katolisizmə meyilli olmasında da şübhəli bilinirdi. B.-i dövlət maraqlarını pozmaqda dəfələrlə ittiham edən parlament onun mühakimə olunmasında israrlı idi. Kralın B.-ə havadar çıxması monarxiya ilə parlament arasındakı münasibətləri kəskinləşdirdi. Hugenotlara dəstək məqsədilə La-Roşelə təşkil edilən növbəti ingilis hərbi ekspedisiyasına hazırlıq zamanı B. puritan-zabit C. Felton tərəfindən öldürülmüşdür.

Bekingem sarayı.



**BÉKİNGEM SARAYI**, Bukingem sarayı (Buckingham Palace) – Londonda Britaniya monarxlarının rəsmi iqamətgahı. 18 əsrin 1-ci yarısında bina Bekingem hersoqlarına məxsus idi; 1761 ildə III Georq sarayı öz qadını kraliça Şarlotta üçün almışdır. IV Georq tarixi üslublardan istifadə edərək saray-park ansamblının əsaslı yenidənqurmasına başlamışdır (1825–37, memarlar C. Neş və E. Blor). Əsas fasadın qarşısında mərmər tağ tikilmişdir. Saraya köçmüş (1837) ilk monarx kraliça Viktoriya olmuşdur. Bina 1840-cı illərin sonlarında (memarlar Blor və T. Kyubitt) və 1913 ildə (baş fasad, memar A. Uebb) genişləndirilmiş və tamamlanmışdır; interyerlərin çox hissəsi Viktoriya və Edvard dövrü üslubundadır. Sarayın Rəssamlıq qalereyası və digər zallarında kral heykəltəraşlıq və rəngkarlıq (Rembrandt, P.P. Rubens, Y. Vermer, A. van Deyk və b.) kolleksiyası var. Əsas fasadın qarşısındakı meydanda kraliça Viktoriyanın memorial abidəsi qoyulmuşdur (tunc, 1901–11, heykəltəraş T. Brok, memar Uebb).

**BEKKARİA** (Beccaria) Çezare (15.3.1738, Milan – 28.11.1794, Milan) – markiz di Bonesana; italyan maarifçisi, hüquqşünas. Zadəgan ailəsində anadan olmuşdur. Parmada yezuit kollegiyasında oxumuş, Paviya Un-tində hüquq doktoru dərəcəsini (1758) almışdır. "Cinayətlər və cəzalar haqqında" ("Dei delitti e delle pene", 1764) məşhur əsərin müəllifidir. B.-ya görə, insan əşya yox, şəxsiyyətdir; insanlar müdafiə olunmaq və təhlükəsizlik naminə razılığa gələrək cəmiyyət halında birləşirlər; cinayət mahiyyətcə cəmiyyətə ziyan vurmaqdır, çünki onun təhlükəsizliyini zəiflədir; cəza yalnız o zaman məqbuldur ki, cəmiyyət və onun üzvləri üçün yeni bəlaların qarşısını ala bilir.



B.-ya görə, cəza günahın ağırlığına uyğun müəyyənləşdirilməlidir. İstisnasız olaraq bütün insanlar üçün (onların zümrə mənsubiyyəti, əmlakı və s. nəzərə alınmadan) müvafiq hallarda cəza eyni olmalıdır. Cəzanın tətbiqinin cəmiyyətə lazım olan nəticələri cəzanın sərtləşdirilməsi ilə deyil, onun qaçılmazlığının təminatı hesabına əldə edilir; bu mühüm prinsipi ilk əsaslandıranlardan biri B.-dır. Ölüm cəzasının ləğvi uğrunda mübarizədə B.-nın rolu olduqca böyükdür. Onun ideyaları İsveç, İngiltərə, Danimarka, Avstriya və Toskanada cinayət hüququnun islahatları üçün əsas olmuş, cinayət hüququnun klassik məktəbinin doktrinasına təsir göstərmişdir.

**BÉKKE** (Becke) Fridrix İohann Karl (31.12.1855, Praqa – 18.6.1931, Vyana) – Avstriya mineraloqu və petroqrafı, Vyana EA-nın üzvü (1902, 1911 ildən baş katib), Peterburq EA-nın əcnəbi m. üzvü (1912). Vyana Un-tini bitirmişdir (1878). Praqa (1890–98) və Vyana (1898–1927) un-tlərinin prof.-u, Vyana Un-tinin Mineralogiya muzeyinin direktoru (1906–27) olmuşdur. Əsas tədqiqatları süxurların mikroskop altında öyrənilməsi ilə əlaqədardır. *Bekke üsulunu* təklif etmişdir.

**BÉKKE ÜSULU** – bərk cismin *n* sındırma əmsalının immersiya ölçmə üsulu variantlarından biri. 1990-cı illərin əvvəlində F.İ.K. *Bekke* işləyib hazırlamışdır. Tədqiq olunan maddə xırda dənəciklər şəklində maye damcısına yerləşdirilərək mikroskop altında müşahidə edilir. Müxtəlif *n*-ə malik iki mühitin sərhədində interferensiya və tam daxili qayıtma hadisələri nəticəsində nazik işıqlı zolaq – Bekke zolağı əmələ gəlir. Mikroskopun tubusunu qaldırdıqda zolaq, *n*-i böyük olan maddəyə tərəf, aşağı saldıqda isə *n*-i kiçik olan maddəyə tərəf hərəkət edir. Mayenin və maddənin *n*-i bərabər olduqda, Bekke zolağı itir. *n*-i məlum olan mayelərin yığımından istifadə edərək bərk maddənin *n*-i təyin edilir.

**BEKKENBÁUER** (Beckenbauer) Frans (d.11.9.1945, Münxen) – alman idmançısı və məşqçisi (futbol), dünya futbolu tarixində ən güclü sərbəst müdafiəçilərdən biri. "Bavariya" komandasının heyətində (Münxen, 1958–77) beşqat AFR çempionu (1969, 1972–74, 1982), Avropa çempionlar kubokunun (1974, 1975, 1976), Kuboklar kubokunun (1967), Qitələrarası kubokun (1976) qalibi olmuşdur. AFR yığması heyətində dünya çempionu (1974), dünya çempionatının gümüş (1966) və bürünc (1970) mükafatçısı, Avropa çempionudur (1972). Avropanın ən yaxşı futbolçusu kimi "Qızıl top" mükafatının (1972, 1976) sahibi olmuşdur. B. yığma komandanın məşqçisi olduğu müddətdə (1984–90) AFR dünya çempionatının qızıl (1990) və gümüş (1986) medallarını almışdır. Onun məşqçiliyi ilə "Bavariya" ölkə çempionu (1994) olmuş, UEFA kubokunu (1996) qazanmışdır. "Bavariya" klubunun prezidentidir (1994 ildən). FİFA-nın ordeni ilə təltif (1984) edilmişdir.



**BÉKKER** (Becker) Boris (d. 22.11.1967, Laymen) – alman idmançısı (tennis), 1980-ci illərin sonu – 1990-cı illərin əvvəllərində dünyanın ən güclü tennisçilərindən biri. Uimbldon turniri tarixində ən gənc qalibdir (1985). Daha 5 dəfə "Böyük dəbilqə" turnirlərində: Uimbldon (1986, 1989), ABŞ (1989) və Avstraliyanın (1991, 1996) açıq çempionatlarında qələbə qazanmışdır. 25-ci Yay Olimpiya Oyunlarının (1992, Barselona M. Ştix ilə qoşa yarışda) çempionu, AFR komandasının heyətində "Devis kuboku"nun sahibi (1988, 1989) olmuşdur.



**BÉKKER** (Becker) Heri Stenli (d.2.12.1930, Pensilvaniya ştatı, Potsvill) – Amerika iqtisadçısı, Nobel mükafatı laureatı (1992). Prinston Un-tini bitirmiş (1951), Çikaqo Un-tində təhsilini davam etdirmiş, burada doktorluq elmi dərəcəsini (1995) almışdır. Çikaqo (1954–57, 1969 ildən) və Kolumbiya (1957–69; 1960 ildən prof.) un-tlərində dərs demişdir. 1985–2004 illərdə "Biznes həftəsi" ("Business Week") həftəlik jurnalının populyar köşə yazarı; 1987 ildə Amerika İqtisadi Assosiasiyasının prezidenti olmuşdur.



B. *insan kapitalı* nəzəriyyəsinin müəlliflərindən biridir. B.-ə görə, davranışın təhlilinə iqtisadi yanaşma, insan seçiminin istənilən sahəsinə tətbiq edilə bilən universal analitik alətdir. Müvafiq olaraq, insanın hər hansı hərəkəti məsrəf və mənfəəti nəzərə almaqla həyata keçirilən rasional seçimdir (bax *Rasional seçim nəzəriyyəsi*). B. öz metodologiyasını bir neçə sahəyə ardıcıl tətbiq etmişdir: 1) diskriminasiyalı davranış (işəgötürənlərin seçimi adi işçi ilə azlıq nümayəndəsinin gəlirləri arasındakı fərq nəzərə alınmaqla təhlil olunur); 2) təhsil sferasında davranış (əməkhaqqı fərqləri təhsilin müddəti və dəyəri ilə əlaqələndirilir); 3) kriminal davranış (potensial uduşla cəza almaq riski arasındakı seçim kimi başa düşülür); 4) ailədə və nikahda davranış (ailə, müqayisəli üstünlüklərin istifadəsi və spesifik insan kapitalının sərmayələşdirilməsi yolu ilə ər-arvadın rifahının ümumi səviyyəsinin yüksəldilməsi məqsədilə yaradılan iqtisadi təşkilat kimi nəzərdən keçirilir); 5) istehlak davranışı (B. iş ilə asudə vaxt arasındakı sərhədin silindiyi yeni istehlak nəzəriyyəsini təklif etmişdir; asudə vaxt faydalılığın istehsalı üzrə fəaliyyətin müxtəlif növləri kimi şərh olunur).

B.-in qeyri-iqtisadi insan davranışına iqtisadi yanaşmasının dünya tərəfindən qəbul edildiyinə baxmayaraq, onun yaradıcılığı ilə bağlı həm sosioloqların (R. Svedberq, İsveç; P. Burdye və b.), həm də iqtisadçıların (M. Blauq, B.Britaniya; D. Makkloski, ABŞ və b.) tənqidi fikirləri mövcuddur.

Əsərləri: The economics of discrimination. Chi., 1957; Human capital. N.Y., 1964; A treatise on the family. Camb. (Mass.), 1981.

**BÉKKER** (Becker) Hovard Pol (9.12.1899, Nyu-York – 8.6.1960, Viskonsin ştatı, Madison) – Amerika sosioloqu. 1926 ildə Şimal-Qərb (İllinoys ştatı, Evanston) Un-tini bitirmişdir. 1930 ildə Çikaqo Un-tində fəlsəfə doktoru dərəcəsini almışdır. ABŞ (Viskonsin, Harvard), B.Britaniya və Almaniyanın (1937 ildən prof.) ayrı-ayrı un-tlərində dərs demişdir. 1958–60 illərdə Amerika sosiologiya assosiasiyasının prezidenti olmuşdur. B.-in əsas tədqiqatları sosiologiyanın metodologiyası və tarixi, dəyərlilik sistemləri sahəsinə aiddir. B.-ə görə, dəyərlərin öyrənilməsi

sosiologiyanın başlıca vəzifəsi, istənilən sosioloji izahın zəruri alətidir. Xeyir və şər, doğru və yanlış, faydalı və faydasız və s. haqqında dəyərlilik mülahizələri insan fəaliyyətinin məqsəd və vasitələrini və dolayısı ilə adət, ənənə və başqa sosial institutları müəyyənləşdirir. B. dəyərlilik sistemlərinin və müvafiq olaraq sosial fəaliyyətin təyinedici kontekstləri kimi cəmiyyətlərin iki tipini fərqləndirir: "dini" və "dünyəvi" (sekulyar) cəmiyyətlər. Belə qütbi "konstruktiv tipologiyaların" qurulması prinsipləri B.-in sosioloji tədqiqatlar metodologiyasına verdiyi əsas töhfədir.

Ə s ə r l ə r i: Through values to social interpretation: essays on social contexts, actions, types and prospects. Durham, 1950; Social thought from lore to science. 3rd ed. N. Y., 1961 (with H.E. Barnes); Современная социологическая теория в её преемственности и изменении. M., 1961 (A. Boskov ilə birlikdə).

**BÉKKER** Karl Henrix (12.4.1876, Amsterdam – 10.2.1933, Berlin) – alman şərqşünası və dövlət xadimi. Lozanna, Heydelberq və Berlin un-tlərində təhsil almışdır. İbn əl-Cevzinin Əməvi xəlifəsi Ömər ibn Əbdüləzizin həyatınından bəhs edən əsərini alman dilində nəşr etdirmiş, Heydelberq Un-tində doktorluq dərəcəsini almışdır (1899). Heydelberq Un-tində (1900–07), Hamburq Müstəmləkə İn-tunda (1907–13) və Bonn Un-tində (1913) Şərq tarixi və mədəniyyəti üzrə mühazirələr oxumuşdur. B. Şərq ölkələri tarixinin tədqiqi üçün mühüm əhəmiyyət kəsb edən "Der Islam" (1910) jurnalının təsisçisi və baş redaktoru olmuşdur. Birinci dünya müharibəsi başlanarkən Almaniya hökumətinin tapşırığı ilə Şərq siyasətinin tədqiqinə başlamış, xüsusilə Almaniya və İngiltərənin Osmanlı imperiyası ilə münasibətlərini araşdırmışdır. 1916 ildə Prussiya Mədəniyyət Nazirliyində müşavir işləmiş, 1921, 1925–30 illərdə mədəniyyət naziri olmuş, xalq maarifi sahəsində mühüm islahatlar həyata keçirmişdir. 1930 ildə Berlin Un-tində Sami dilləri və islam elmləri in-tunun müdiri vəzifəsində çalışmışdır. 1931 ildə bir sıra Asiya ölkələrini (Çin, Yaponiya, Hindistan, İran, İraq və Suriya) gəzmiş, ölkəsinə qayıtdıqdan sonra səyahətlə bağlı təşkil olunan elmi konfranslarda və qurultaylarda məruzələr etmişdir.

Ə s ə r l ə r i: Ibn Gauzī's Manāqib 'Omar Ibn 'Abd el-'Azīz besprochen und im Auszuge mitgeteilt. Leipzig, 1899; Beiträge zur Geschichte Agyptens unter dem Islam. Strassburg, 1902; Deutschland und der Islam. Der Deutsche Krieg: Politische Flugschriften. Berlin, 1914; Islamstudien. Vom Werden und Wesen der Islamischen Welt. Bd. I-II, Leipzig, 1924 1932.

**BEKKERÉL** (Becquerel) – fransız fizikləri ailəsi. A n t u a n  S e z a r (17.3.1788, Şatiyon-Kolinyi – 18.1.1878, Paris) – Paris EA-nın üzvü (1829). Hərbi mühəndis təhsili almışdır. 1815 ilə kimi mühəndis qoşunları zabiti, 1837 ildən Paris Milli Təbiyyat-Tarix Muzeyinin prof.-u olmuşdur. Fluoressensiya və fosforessensiya, termoelektrik, istilikkeçirmə, kristaloptika məsələlərini, maddələrin maqnit xassələrini tədqiq etmişdir. Zəif polyarlaşan qalvanik elementi ixtira etmişdir (1829).



A l e k s a n d r  E d m o n (24.3.1820, Paris – 11.5.1891, Paris) – Paris EA-nın üzvü (1863). Antuan Sezarın oğludur. Paris Milli Təbiyyat-Tarix muzeyinin prof.-u və direktoru (1878 ildən) olmuşdur. Lüminessensiyaya dair təlimi inkişaf etdirmişdir. Fosforessensiya spektrinin, onu həyəcanlandıran şüalanma spektrindən asılı olmadığını təyin etmiş, fosforessensiyanın sönməsini, intensivliyinin temp-rdan asılılığını və s. xassələrini öyrənmişdir. Fosforoskopu ixtira etmişdir. Atmosfer elektrikliyinin, infraqırmızı spektrlərin, fotoqrafiyanın və s. öyrənilməsinə dair əsərlərin müəllifidir.

A n t u a n  A n r i (15.12.1852, Paris – 25.8. 1908, Kruasik) – Paris EA-nın üzvü (1889). Aleksandr Edmonun oğludur. Nobel mükafatı laureatı (1903). Parisdə Körpülər və Yollar Ali Məktəbini bitirmişdir (1877). Paris Milli Təbiyyat-Tarix Muzeyinin (1892) və Politexnik Məktəbin (1895) prof.-u olmuşdur. Optika, elektrik, maqnetizm, fotokimya, elektrokimya və meteorologiya məsələləri ilə məşğul olmuşdur. Müxtəlif maddələrin lüminessensiyasını öyrənmiş, uran duzlarının qeyri-şəffaf əşyalardan keçən və əvvəllər məlum olmayan şüa buraxmasını, yəni *radioaktivlik* hadisəsini kəşf etmişdir (1895; 1896 ildə məlumat vermişdir).



J a n (5.2.1878, Paris – 4.7.1953, Pornişe) – Paris EA-nın üzvü (1946), Paris Milli Təbiyyat-Tarix muzeyinin prof.-u (1909). Antuan Anrinin oğludur. Maqnit mühütlərdə polyarlaşmış elektromaqnit şüalanmasının yayılmasını, natrium buxarlarının anomal dispersiyasını, pleoxroik kristalların Zeyeman hadisəsini, aşağı temp-rlarda maqnit sahəsində maddələrin xassələrini (H. *Kamerlinq-Onnesl*ə birlikdə) tədqiq etmişdir.

**BEKKERÉL** (Bk, Bq) – radioaktiv mənbədə nuklidin aktivliyinin Sİ vahidi. Radioaktivliyi ilk kəşf edən (1896) A.A. *Bekkerelin* şərəfinə adlandırılmışdır. 1 *Bk* 1 saniyə ərzində atomun bir parçalanma aktı baş verən radioaktiv mənbədəki nuklidin aktivliyinə bərabərdir. Əvvəllər B.-i "bir saniyədə parçalanma" adlandırırdılar.
$1\ Bk = 2{,}703 \cdot 10^{-11}\ k\ddot{u}ri = 10^{-6}\ rezerford.$

**BÉKKET**, B e k e t t (Beckett) Semuel (13.4.1906, Dublin yaxınlığında, Foksrok – 22.12.1989, Paris) – irland və fransız yazıçısı. Nobel mükafatı laureatı (1969). Protestant ailəsində anadan olmuşdur. Dublində Triniti-kolleci bitirmiş (1927), burada fransız fəlsəfəsi və ədəbiyyatını öyrənmişdir. Parisdə Ali Normal Məktəbdə müəllimlik etmiş (1928–30), Fransa və Almaniyanı səyahətə çıxmışdır (1932–36). C. *Coysun* ədəbi katibi işləmişdir (1935–37). 1938 ildən Parisdə yaşamışdır. Nasizmi inkar etmiş, Fransa Müqavimət hərəkatına qoşulmuşdur (1940–42).



1929 ildən çap olunmağa başlamışdır (esse və hekayələr, ədəbi tənqid). "Mörfi" adlı ilk romanını 1933 ildə yazmış, 1938 ildə fransızca nəşr etdirmişdir. 1946 ildən yazmağa başladığı əsərlərini üslubca daha da təkmilləşdirmiş, 1951 ildən fransız dilində çap etdirmiş, sonra ingilis dilinə çevirmişdir. *Ekzistensializm, psixoanaliz,* C. Coys və F. *Kafkanın* təsirilə özünün fəlsəfəsini və absurd poetikasını yaratmışdır. *Absurd teatrının* yaradıcısı kimi B.-ə "Qodonun intizarında" (1948–49; 1953 ildə səhnəyə qoyulmuşdur) pyesi şöhrət gətirmişdir. "Absurd dramına" B.-in digər pyesləri də aiddir; bunlardan ən çox oynanılan "Endşpil" (1957), "Kreppin son lenti" (1958), "Xoşbəxt günlər" (1961) dramlarıdır. "Uott" (1942–44), "Molloy" (1951), "Melon ölür" (1951), "Adsız" (1953) romanlarının, "Çox hürür, az tutur" (1934), "Lüzumsuz mətnlər" (1955) hekayə kitablarının, "Şeirlər" (1968) toplusunun və tənqidi etüdlərin müəllifidir.

**BEKKRÓS** – bax *Qayıdan çarpazlaşdırma*.

**BEKLEMİŞEV** Vladimir Nikolayeviç (4.10.1890, Qrodno – 4.9.1962, Moskva) – rus zooloqu. Rus parazitoloqlar və tibbi entomoloqlar məktəbinin banisi. SSRİ Tibb EA-nın (1945) və Polşa EA-nın akad. (1949), RSFSR-in əməkdar elm xadimi (1947). SSRİ Dövlət mükafatı laureatı (1944; 1952). S.-Peterburq Un-tini bitirmişdir (1913). Perm Un-tində (1918 ildən; 1920 ildən prof.) işləmiş, Moskvadakı Malyariya, Tibbi Parazitologiya və Helmintologiya İn-tunda entomologiya şöbəsinin müdiri (1932 ildən), MDU-da biologiya fakültəsinin prof.-u (1934 ildən) olmuşdur. İbtidai kirpikli qurdları (turbellyariləri) öyrənmiş, ikitərəfli simmetriyalı heyvanların təkamülündə onların əhəmiyyətini göstərmişdir. Malyariyalı landşaftlar təlimini yaratmışdır. Başlıca əsərləri onurğasızların müqayisəli anatomiyasının nəzəri əsaslarına, ekologiyaya, biosenologiyaya, tibbi entomologiyaya, müqayisəli təkamüli parazitologiyaya həsr edilmişdir.

**BÉKMAN** Ernst Otto (4.7.1853, Zolingen – 13.7.1923, Berlin) – alman kimyaçısı. Leypsiq Un-tini bitirmişdir (1878). Brunsvikdəki Ali Texniki Məktəbdə (1879–83) və Leypsiq Un-tində (1883 ildən) işləmiş, Gisen (1891) və Erlangen (1892–97) un-tlərinin prof.-u olmuşdur. Leypsiq Un-tində tətbiqi kimya laboratoriyasını (1897) yaratmış, Berlində kayzer Vilhelmin yenidən təşkil olunmuş Tətbiqi və Əczaçılıq Kimyası İn-tunun direktoru (1912 ildən) vəzifəsində çalışmışdır.

Elmi işləri üzvi və fiziki kimya sahəsindədir. Oksimlərin fəza quruluşunu öyrənmiş, turşu agentlərinin təsirilə oksimlərin turşu amidlərinə yenidənqruplaşmasını müəyyən etmişdir (*Bekman yenidənqruplaşması*). Natriumun diarilketona təsirindən metalketil almışdır (1891). *Raul qanununa* əsasən maddələrin məhlullarının donma temp-runun azalması və qaynama temp-runun yüksəlməsinə görə onların mol.k.-nin krioskopik və ebulioskopik təyini üsullarını işləyib hazırlamışdır. Donma və ya qaynama temp-rları yaxınlığında temp-ru dəqiq təyin edən diferensial termometr (Bekman termometri) ixtira etmişdir.

**BEKMAN YENİDƏNQRUPLAŞMASI** – alifatik oksimlərin və aromatik ketonların (ketoksimlərin) turşu dehidratlaşdırıcıların (qatılaşdırılmış $H_2SO_4$, polifosfat turşuları, fosfor-pentaxlorid və ya fosfor-pentaoksid və s.) təsirindən karbon turşuları amidlərinə izomerləşməsi. B.y. stereosəciyyəvidir: hidroksilə nəzərən *trans*-vəziyyətdə olan radikal miqrasiya edir. Məs.:

$$CH_3-\underset{\underset{N-OH}{\|}}{C}-C_2H_5 \longrightarrow C_2H_5-\underset{\underset{O}{\|}}{C}-NHCH_3$$

Tsiklik ketonların oksimləri tsiklik amidlərə (laktamlara), aldehidlərin oksimləri (aldoksimlər) isə nitrillərə çevrilir. B.y. amidlərin (məs., tsikloheksanon oksimindən ε-kaprolaktamın, asil törəmələrindən aromatik aminlərin) alınması üçün istifadə edilir. Alman kimyaçısı E. *Bekman* tərəfindən 1886 ildə kəşf olunmuşdur.

*Əd.*: Д о н а р у м а Л.Г., Х е л ь д т В.З. Бекмановская перегруппировка //Органические реакции. M., 1965. Сб.11; В а ц у р о К.В., М и щ е н к о Г.Л. Именные реакции в органической химии. M., 1976.

**BEKMÁNNİYA** (Beckmannia) – taxıllar fəsiləsindən ot bitkisi cinsi. Gövdəsi silindrik, içi boşdur; hünd. 50–150 *sm*-dir. Yarpaqları xətvarıdır. Çiçəkləri xırdadır, çiçəkyanlığı yoxdur, sıx birtərəfli süpürgə (uz. 6–30 *sm*) çiçək qrupunda toplanmışdır. Meyvəsi dəncikdir. Avrasiyanın və Şm. Amerikanın tropikdənkənar ərazilərində 2 növü yayılmışdır. Su hövzələrinin kənarında və rütubətli subasar çəmənliklərdə bitir. A d i B. (B. eruciformis) sürünən qısa yeraltı zoğları olan yumşaqçimli çoxillik bitkidir; gövdənin ən aşağı buğumaraları çox vaxt yumruvarı qalınlaşmışdır. Ş ə r q B.-sı (B. syziqachne) sıx çimli ikiillik bitkidir. Qiymətli yem bitkisi olan B. mədəni otlaqlar və biçənəklərin yaradılmasında da istifadə edilə bilər.

Adi bekmanniya (Beckmannia eruciformis).



**BÉKON** (Bacon) Frensis (22.1.1561, London – 9.4.1626, London) – ingilis filosofu, yazıçı və dövlət xadimi. Yelizaveta sarayının yüksəkvəzifəli əyan ailəsində anadan olmuşdur. Kembricdə Triniti-kollecdə (1573–76) və Qreys-İnn hüquq korporasiyasında (1579–82) təhsil almışdır. Hüquqşünas kimi geniş geniş fəaliyyət göstərmiş, parlamentə üzv seçilmişdir. 1618 ildən İngiltərənin lord-ali kansleri və peri idi. Parlament tərəfindən vəzifədən suiistifadəyə və rüşvətxorluqda ittiham edildiyinə görə 1621 ildə vəzifəsindən azad edilmişdir. Ömrünün son illərində yalnız elmi və ədəbi yaradıcılıqla məşğul olmuşdur.



Özündən əvvəlki naturfəlsəfədən, ingilis nominalizmi ənənəsindən və yeni təbiətşünaslığın nailiyyətlərindən bəhrələnən B.-un fəlsəfəsi naturalist dünyabaxışı ilə bütün intellektual aləmin geniş islahatını nəzərdə tutan empirizmi özündə birləşdirmişdir. B. bəşəriyyətin gələcəyini təbiətin öyrənilməsində elmlərin uğurları ilə və bu əsasda faydalı ixtiraların həyata keçirilməsi ilə əlaqələndirirdi. Başlıca fəlsəfi əsəri yarımçıq qalmış "Elmlərin böyük bərpası"dır. Əsərin 1-ci hissəsi olan "Elmlərin nəzəriyyəsi və artırılması haqqında" (1623) traktatı biliklərin ensiklopedik icmalı və təsnifatından ibarətdir. B. bilikləri insanın üç ruhi qabiliyyətinə – yaddaş, təxəyyül və dərrakəyə uyğun gələn üç sahəyə: tarix, poeziya və ümumiyyətlə elmlə eyniləşdirilən fəlsəfəyə ayırır. "Yeni Orqanon, yaxud Təbiətin izahı üçün həqiqi göstərişlər" (1620) adlanan 2-ci hissə Aristotelin "Orqanon"una qarşı qoyulmuşdur. B. burada idrak metodu haqqında təlimi, təbiət hadisələrinin daxili səbəblərinin ("formaların") dərkinə aparıb çıxaran təcrübi məlumatların təhlili, seçilməsi və ümumi-

ləşdirilməsinin müəyyən üsulu olan *induksiya* konsepsiyasını şərh edir, həmçinin insan ağlının yanılmalarının, bu-na əngəl törədən "kabusların", yaxud "büt"lərin tipologiyasını verir. Bunlara insan təbiətinin özündə kök salmış "nəsil bütləri"; onun adət etdiyinə və rahat olana, təbiət hadisələrinə insan hərəkətlərinin analogiyası kimi yanaşmaya meyilliliyi, ayrı-ayrı insanların fərdi məhdudluğundan törəyən "mağara bütləri"; çoxişlənən ştamp-ibarələrin zorla qəbul etdirdiyi "bazar bütləri"; birtərəfli nəzəriyyələrə və yanlış sübutlara qeyri-tənqidi bağlılıqdan yaranan "teatr bütləri" aiddir. 3-cü hissə ayrı-ayrı təbiət hadisələrinin "təbii tarixinə" dair silsilə işlərdir: "Küləklərin tarixi" (1622), "Həyat və ölümün tarixi" (1623), "Sıx və seyrək olanın tarixi və materiyanın məkanda sıxlaşması və genişlənməsi" (nəşri 1658) və s.

B.-un ideyaları fəlsəfənin sonrakı inkişafının bütöv bir mərhələsinə böyük təsir göstərmiş, Yeni dövr fəlsəfəsində materialist ənənələrin və sonradan "elm fəlsəfəsi" adlanan tədqiqat istiqamətinin başlanğıcını qoymuşdur.

Əsərləri: The works/Ed. by J. Spedding, R.L. Ellis, D.D. Heath. L., 1857–1874. Vol. 1–14. L., 1996. Vol. 1–7; Соч. М., 1977–1978. Т. 1–2.

*Əd.:* Субботин А.Л. Френсис Бэкон. М., 1974; Фишер К. История новой философии. М., 2003.

**BЕ́KON** (Bacon) Rocer (təqr. 1214, Somerset qraflığı, İlçester – 1292, yaxud 1294, Oksford) – ingilis filosofu və təbiətşünası. 1220-ci illərin axırlarından Oksford və Paris un-tlərində təhsil almış, sonradan orada (1241 ildən Parisdə, 1240-cı illərin sonu–1250-ci illərin əvvəllərində Oksfordda) dərs demişdir. 1257 ildə, ehtimal ki, astrologiya və əlkimyaya aludəçiliyinə görə müəllimlikdən uzaqlaşdırılmış, Paris ətrafındakı monastırlardan birinə salınmışdır. 1270-ci illərdə Oksfordda yaşamış, 1278 ildə yenidən həbsdə olmuşdur. 1292 ildə, ölümündən bir az əvvəl, azadlığa buraxılmışdır. Ensiklopedik "Böyük əsər" ("Opus majus"), həmçinin "Kiçik əsər" ("Opus minus"), "Üçüncü əsər" ("Opus tertium"), "Riyaziyyatın əsasları" ("Communia mathematican"), "Təbiətşünaslığın əsasları" ("Communia naturalium"), həmçinin fəlsəfəyə və ilahiyyata, yunan və yəhudi dillərinin qrammatikasına və s. dair yığcam icmalları B.-un başlıca əsərləridir. Aristotelin ardıcılı və Robert Qrossetestin şagirdi olmuş B. təcrübi təbiətşünaslığın konkret nailiyyətlərini səmərəsiz hesab etdiyi teoloji-fəlsəfi müddəalara qarşı qoymuşdur. Onun "Böyük əsər"i idrak yolundakı dörd maneənin ("yara"nın) şərhi ilə başlayır: şübhəli nüfuz sahibinə etibar; ənənəvi fikirlərə aludəlik; kütlə xürafatına meyillilik; nadanlığı hər şeydən baxəbərlik maskası altında gizlətməyə cəhd. Daha sonra idrakın üç mənbəyini – nüfuz sahibinə inamı, mühakiməni və təcrübəni fərqləndirən B. hesab edirdi ki, zəka yalnız təcrübə vasitəsilə hadisələrin tam və həqiqi dərkinə nail olur və buna görə "eksperimental elm mücərrəd elmlərin şahıdır". B.-a görə, təbiətin və insan əməyinin məhsulu olan obyektlərin hissi dərki zahiri təcrübə, ilahi nurlanma aktında etiqad həqiqətlərinin mistik dərki isə daxili, ruhi təcrübədir; biliyin ali forması teologiyadır, linqvistika, riyaziyyat, fizika və əxlaq onun əsas "kökləri" qismində çıxış edir. Riyaziyyat isə bütün digər elmlərin "qapısı və açarı"dır (porta et clavis), onun həqiqətləri əzəlidir və öz-özündən bəlli olan səhihliyə malikdir. B. fizikada optika sahəsinə, yaxud perspektiv haqqında elmə xüsusi diqqət ayırmış, yalnız işığın deyil, ümumiyyətlə bütün təbiət təsirlərinin ötürülməsi haqqında təlimi inkişaf etdirmişdir. Özünün əxlaq fəlsəfəsi çərçivəsində o, xristianlığı qəbul etmiş bütün xalqları birləşdirən gələcək dövlətin təşkilinin layihəsini vermişdir.

B. həmçinin müxtəlif cihaz və mexanizmlərin konstruktoru kimi tanınmışdır; barıtı ixtira etməsi ehtimal olunur. B.-a xüsusi şöhrət gətirən onun gələcək kəşflər və ixtiralarla (müşahidə borusunun, domkratın, uçuş aparatının, süni sintez olunan dərmanların, partlayıcı maddələrin və s. yaradılması ideyası) bağlı cəsarətli fəhmləridir; bütün bunlar sonradan onu cadugər və sehrbaz kimi məşhurlaşdırmışdır.

Əsərləri: Opus majus /Ed.J.H. Bridges. Oxf., 1897–1900. Vol.1–3 (repr.1964); Opera hactenus inedita / Ed. R. Steele e.a. Oxf., 1905–1940. Vol. 1–12; Compendium studii theologiae /Ed. T.S. Maloney. Leiden, 1988.

*Əd:* Bridges J..H. The life and work of R. Bacon. L., 1914; Lutz E.R. Bacon's contribution to knowledge. N.Y., 1936; R. Bacon's philosophy of nature/ Ed. by D.C. Lindberg. Oxf., 1983.

**BEKÓVİÇ-ÇERKÁSSKİ** Aleksandr [xristianlığı qəbul etməzdən əvvəl Dövlət-Kizdən Mirzə, (? – 1717)] – Kabarda knyazı. Çar Rusiyasına xidmət etmişdir. 1707 ildə I Pyotr tərəfindən təhsil almaq üçün xaricə göndərilmişdir. Geri qayıtdıqdan sonra diplomatik tapşırıq ilə Kabardaya göndərilmişdir. Xivə xanına Rusiya təbəəliyini qəbul etdirmək, həmçinin Amudərya vadisində qızıl axtarmaq məqsədilə 1717 ildə Xivəyə təşkil olunan hərbi ekspedisiyaya (təqr. 5 min nəfər) rəhbərlik etmişdir. B.-Ç. Xivədə öldürülmüş, ekspedisiya isə uğursuzluqla nəticələnmişdir.

**BEKTAŞ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Miyandab bölgəsinin Mərhəmətabad kəndistanında, Miyandab qəs.-ndən 15 *km* şm.-q.-dədir.

**BEKTEMİR** – Özb.-da *Nərimanov* ş.-nin 1981 ilədək adı.

**BEKVORDÉYŞN** (ing. backwardation) – bazar situasiyası; nağd əmtəənin qiymətinin müddətli sövdələşmələrdəki birja qiymətindən, yaxın müddətdə tədarük ediləcək əmtəənin qiymətinin isə uzun müddətdə tədarük ediləcək əmtəənin qiymətindən daha yüksək olması.

**BEQDELİ** Qulamhüseyn Fətulla xan oğlu (15.3.1919, Tehran – 24.5.1998, Tehran) – Azərb. ədəbiyyatşünası, filologiya e.d. (1968). Tehranda ali hərbi məktəbi bitirmiş, şah ordusunun zabiti olmuşdur. 1941–46 illər Cənubi Azərb. milli azadlıq və demokratik hərəkatına qoşulmuş, 1947–79 illərdə Bakıda mühacirətdə yaşamışdır. 1958 ildən Azərb. EA-nın Nizami ad. Ədəbiyyat İn-tunda böyük elmi işçi işləmişdir. Qədim və orta əsrlər Azərb. ədəbiyyatına, o cümlədən Övhədi Marağayinin həyat və yaradıcılığına, Nizami Gəncəvinin "Xosrov və Şirin" poeması mövzusunun Yaxın və Orta Şərq xalqları ədəbiyyatında işlənilməsinə dair tədqiqatların müəllifidir. Qətran Təbrizinin divanının elmi-tənqidi mətnini müqəddimə və qeydlərlə nəşr etdirmiş, Övhədi Marağayinin "Cami-Cəm" poemasını Azərb. dilinə (Xəlil Həmidoğlu ilə birgə) tərcümə etmişdir. M. Şəhriyarın ilk tədqiqatçılarından biri olmuşdur.



Əsəri: Övhədi Marağayinin həyat və yaradıcılığı. B., 1962.

**BEQONİYAKİMİLƏR** (Begoniaceae) – çiçəkli ikiləpəli bitki fəsiləsi. 3 cinsi birləşdirir. Ən iri cinsi olan beqoniyanın (Begonia) 1400-dən çox növünün əksəriyyətinə Latın Amerikasının (610 növ), Cənub-Şərqi Asiyanın (təqr. 540) və Afrikanın (165) yağışlı tropik meşələrində rast gəlinir. Bunların arasında hünd. 3–4 *sm*-dən 3 *m*-ədək olan şirəli gövdəli, böyüdükcə zoğları yerə yatan, sürünən yoğun kökümsovlu və ya köküyumrulu kolşəkilli çoxillik və ya birillik otlar vardır. Çox vaxt qayalarda, ağaclarda, yaxud ağacların çürümüş oduncağında məskunlaşır. Quraq r-nlarda bitkinin yarpaq, gövdə və ya kök yumrularında su ehtiyatı saxlayan sukkulent növləri bitir. Beqoniyaların dekorativ yarpaqları adətən asimmetrik, növbəli, xırda, bəzən də at pıtrağının iri yarpaqları boyda olur; rəngi tünd-qırmızıdan zümrüdü-yaşıla qədərdir, naxışlıdır. Ağ, yaxud çəhrayı, birevli, bircinsiyyətli çiçəkləri yumşaq süpürgə çiçək qrupunda toplanmışdır. Yarpaqlarında, saplaqlarında, gövdələrində, bəzən də çiçəklərində yerləşən müxtəlifrəngli tükcüklərin əmələ gətirdiyi əlvan tüklənmə beqoniyaya ekzotik görkəm verir. Meyvəsi toz kimi toxumları olan qeyri-bərabər qanadlı qutucuqdur. Bir çox beqoniyalar (məlum növlərin 25%-i) bəzək bitkisi kimi becərilir; yarpaqlarının tüklənməsinə, forma və rənginə (dekorativ yarpaqlı beqoniyalar), gözəl əlvan çiçəklərinə görə fərqlənən çoxlu sortlar yetişdirilmişdir. Bunlar toxum əkməklə və vegetativ üsulla (gövdə və yarpaq qələmləri, kolun və kök yumrularının bölünməsi ilə) çoxaldılır. Effektli yarpaqları olan yarpaq (B. listada), kral (B. rex), diadema (B. diadema), Meson (B.masoniana) beqoniya sortları qış bağlarının, yaşayış evlərinin yaşıllaşdırılması, gözəl çiçəkləyən hibrid (B.hybrida), həmişəçiçəkləyən (B. x semperflorens), köküyumrulu (B. x tuberhybrida) və s. beqoniya sortları isə açıq qruntda bağpark və qazon kompozisiyalarının yaradılması üçün istifadə edilir. B. istisevəndir. Orta rütubətliyə və münbit torpaqlara tələbkardır. Bəzi beqoniyaların yarpaqlarının şirəli, turşməzə saplaqlarından tropik ölkələrin əhalisi qida kimi istifadə edir.



Həmişəçiçəkləyən beqoniya (Beqonia x semperflorens).

**BEQOVAT** – *Bəyabad* ş.-nin 1964 ilədək adı.

**BEL** – 1) əmək aləti. B. torpağın şumlanmasında (bellənməsində), əkinlərin, bağ və bostanların suvarılmasında, arx və kanalların çəkilməsində, bənd və dəhnələrin tikilməsində işlədilir. B. ağac sapdan, dəmir tiyədən və təpcək (qulaq) adlanan hissədən ibarətdir. B. Azərb.-da qədimdən məlumdur. Mingəçevirdə katakomba qəbirlərində (1–7 əsrlər) B. izləri müşahidə olunmuşdur. Beyləqandan 9–12 əsrlərə aid dəmir B. tapılmışdır. Torpaq örtüyündən asılı olaraq Azərb.-da müxtəlif quruluşlu B.-lər yayılmışdır; 2) xalq arasında işlədilmiş su ölçü vahidi (məs., 1 bel su).

**BEL** – elektrotexnikada, radiotexnikada, akustikada və fizikanın digər sahələrində eyniadlı iki fiziki kəmiyyətin nisbətinin loqarifmik vahidi. *b* və ya *B* ilə işarə olunur. Enerjinin (gücün) iki qiymətinin ($P_1/P_2$) nisbətindən götürülmüş onluq loqarifmi 1 olduqda, bu enerji səviyyələrinin loqarifmləri arasındakı fərq 1 bel götürülür ($\lg P_1/P_2 = \lg P_1 - \lg P_2 = 1$). Adətən təcrübədə B.-in 1/10 hissəsi *desibeldən* (*∂b*, *dB*) istifadə edilir. Məs., radiogücləndiricinin çıxışındakı güc girişindəki gücdən $10^6$ dəfə böyük olarsa, gücləndirmə 60 desibel olar. Bu vahid, telefon ixtiraçısı A.Q. *Bellin* adı ilə adlanır.

**BEL** (sami dillərində balu – "hökmdar", "ağa" sözündəndir) – Akkad mifologiyasında bəzi allahların, başlıca olaraq *Enlilin* adı; Qədim Babil dövründə hər hansı bir allahın epiteti ola bilərdi, Kaşşu dövründə isə yalnız *Marduka* şamil olunurdu; e.ə. 2–1-ci minilliklərdə Enlil ilə Marduk (*Aşşurda* isə Enlil və Aşşur) B.-in vahid "hökmdar" obrazında birləşir.

B. qərbi sami mifologiyasında e.ə. 2-ci minilliyin sonundan Suriyada ən çox sitayiş olunan allahın adıdır. Palmirada baş allah hesab edilən B. dünyanın hakimi, allahlar triadasının (B., Yarixbol, Aqlibol) başçısıdır. B.-in öküz, yaxud öküzbaşlı insan obrazında təsvir edilməsi onun məhsuldar qüvvənin daşıyıcısı olduğunu təsdiqləyir. Ellinizm dövründə B. *Zevs* və *Panla* eyniləşdirilirdi.

**BEL** – yunan mifologiyasında Misir hökmdarı, *Poseydonun* və nimfa *Liviyanın* oğlu, *Agenorun* (*Avropanın* atası) əkiz qardaşı, *Egipt* və *Danayanın* atası. B. geniş mifoloji bioqrafiyası olmayan, lakin gələcək qəhrəman nəsillərin ulubabası hesab edilən personajlara aiddir.

**BЕ́LA** – *Arpadlar* sülaləsindən macar kralları.

II Bela Kor (təqr. 1108 – 13.2.1141) – 1131 ildən kral olmuşdur. 1112 ildə əmisi kral Kalmanın əmri ilə gözləri çıxarılmışdır. Split ş. ilə birlikdə Dalmasiyanın bir hissəsini tutmuş (1133), Bosniyanı tabe etmişdir (1136).

III Bela (1148 – 13.4.1196) – 1172 ildən kral olmuşdur. Konstantinopolda imperator I Manuilin himayəsi altında tərbiyə almışdır. Bizans idarəetmə üsulunu və adətlərini tətbiq etmişdir. Bizansda baş verən sülalələrarası mübarizədən istifadə edərək Xorvatiya və Dalmasiyanı ələ keçirmişdir (1180).

IV Bela (1206 – 3.5.1270, Buda) – 1235 ildən kral olmuşdur. II Endrenin oğludur, 1214 ildə "kiçik kral" titulunu almışdır. Kral domen torpaqlarının maqnatlara bağışlanmasının qarşısını almağa çalışırdı. Monqol yürüşləri zamanı Şayo çayı yaxınlığında məğlub olmuş (11.4.1241), əvvəlcə Avstriyaya, sonra isə Dalmasiyanın sahilyanı ərazisinə qaç-

III Bela.



mışdır. Monqolların getməsindən (1242) sonra təsərrüfatın bərpası, şəhərlərin və qalaların tikilməsi məqsədilə tədbirlər görmüş, ölkəyə yeni sakinlər dəvət etmiş, o cümlədən qıpçaq-kumanları Macarıstanda məskunlaşdırmışdır. Kiçik və orta sinif zadəganlarına bir sıra imtiyazlar vermişdir (1267 il bullası). 1246 ildən Qaliç-Volın knyazı Daniil Romanoviçin müttəfiqi olmuşdur. Dalmasiya şəhərləri uğrunda Venesiya (1243–44) ilə, Avstriya və Ştiriya uğrunda isə Çexiya kralı II Prjemısl (1253–54; 1260) ilə müharibə etmişdir.

**BELARÚS**, Belarus Respublikası.

### Ümumi məlumat

Şərqi Avropada dövlət. Şm.-da Latviya, şm.-q.-də Litva, q.-də Polşa, c.-da Ukrayna, ş.-də və şm.-ş.-də Rusiya ilə həmsərhəddir. Sah. 207,6 min $km^2$. Əh. 9800 min (2009). Paytaxtı Minsk ş.-dir. Rəsmi dillər belarus və rus dilləri, pul vahidi Belarus rubludur. İnzibati cəhətdən 6 vil.-ə bölünür; Minsk ş. də vil. statusuna malikdir.

B. BMT-nin (1945), MDB-nin (1991), ATƏT-in (1992), BVF-nin (1992), BYİB-in (1992) üzvüdür.

### Dövlət quruluşu

B. unitar dövlətdir. Konstitusiyası 15.3.1994 ildə qəbul edilmişdir (2004 il redaksiyasında qüvvədədir). İdarəetmə forması prezident respublikasıdır.

Dövlət başçısı ümumi, bərabər, birbaşa seçki hüququ əsasında gizli səsvermə yolu ilə 5 il müddətinə seçilən prezidentdir (bir dəfə yenidən seçilmək hüququ ilə; 2004 il referendumu hazırda fəaliyyət göstərən prezidentə üçüncü müddətə seçilmək hüququ vermişdir). Yaşı 35-dən aşağı olmayan, seçki gününədək B. ərazisində ən azı 10 il daimi yaşayan ölkə vətəndaşı prezident seçilə bilər.






**İnzibati ərazi bölgüsü (2009)**

| Vilayətlər | Sahəsi, min $km^2$ | Əhalisi, mln. nəfər | İnzibati mərkəzi |
|---|---|---|---|
| Brest | 32,8 | 1,4 | Brest |
| Qomel | 40,4 | 1,5 | Qomel |
| Qrodno | 25,0 | 1,1 | Qrodno |
| Minsk | 40,2 | 1,5 | Minsk |
| Mogilyov | 29,0 | 1,1 | Mogilyov |
| Vitebsk | 40,1 | 1,3 | Vitebsk |
| Minsk ş. | 0,3 | 1,8 | |



Ali qanunverici orqan ikipalatalı Milli məclisdir. 110 deputatdan ibarət Nümayəndələr palatası majoritar seçki sistemi ilə seçilir. Respublika Şurası dolayı seçkilərlə formalaşdırılır: 6 vil.-in hər birindən və Minsk ş.-ndən yerli deputat şuraları tərəfindən 8 deputat seçilir; 8 deputatı prezident təyin edir. Milli məclisin səlahiyyət müddəti 4 ildir.

Ali icraedici hakimiyyət orqanı Baş nazirin başçılıq etdiyi Nazirlər Şurasıdır; Baş naziri Nümayəndələr palatasının razılığı ilə prezident təyin edir. Hökumət prezidentin və parlamentin səlahiyyətlərinə daxil olan məsələlərdən başqa, dövlət idarəçiliyinə aid bütün məsələləri həll edir.

B.-da çoxpartiyalı sistem mövcuddur; parlamentdə təmsil olunan siyasi partiyalar: Belarus kommunist partiyası, Aqrar partiya, Liberal demokrat partiyası; bundan əlavə, Belarus xalq cəbhəsi partiyası və b. da fəaliyyət göstərir.

### Təbiət

**Relyef.** B.-un relyefi, əsasən, düzənlikdir; qədim buzlaşmanın izlərinə rast gəlinir. Ölkənin şm.-q. hissəsini Valday buzlaşmasının moren tirələri tutur. Mərkəzi hissədə c.-q.-dən şm.-ş.-ə doğru ayrı-ayrı yüksəkliklərdən (Qrodno, Volkovısk, Novoqrudsk, Minsk, Vitebsk, Orşa və s.) ibarət geniş *Belarus tirəsi* uzanır. Dəniz səviyyəsindən maks. hünd. (345 *m*, Dzerjinskaya d.) Minsk yüksəkliyindədir. Ş.-da *Smolensk yüksəkliyinin* kənar hissəsi, Belarus tirəsindən şm.-da *Polotsk ovalığı*, c.-da geniş *Polesye ovalığı* və *Dneprboyu ovalıq* yerləşir. Ölkənin q.-i təpəlik, ş.-i dalğalı-uvallı relyefə malikdir.

**Geoloji quruluş və faydalı qazıntılar.** B.-un ərazisi qədim *Şərqi Avropa platformasının* q. hissəsində yerləşir. Ölkənin mərkəzi hissəsini geniş Belarus anteklizi tutur. Antekliz hüdudlarında bünövrənin dərinliyi 20–100 *m*-dir; yamaclar Paleozoyun karbonatlı çöküntülərindən təşkil olunmuşdur. Belarus anteklizi şm.-da Perm-Mezozoyun Polşa-Litva sineklizi ilə birləşir. C.-da enlik istiqamətində uzanan, Orta Devonda təməli qoyulmuş və Üst Devonun, əsasən, duz çöküntüləri ilə dolmuş qrabenvarı Pripyat çökəyi, şm.-ş.-də Üst Proterozoyun buzlaq və vulkan çöküntü komplekslərindən təşkil olunmuş Orşa çökəkliyi, ucqar q.-də Üst Paleozoy və Mezozoy çöküntülərindən ibarət Brest çökəyi yerləşir. Çökək və çökəkliklərdə çökmə örtüyünün qalınlığı 1000–5000 *m*-ə çatır. B.-un bütün ərazisində Dördüncü dövrün buzlaq və çay-göl çöküntüləri yayılmışdır. Faydalı qazıntıları: kalium duzu və daşduz, neft, torf, təbii tikinti materialları (tikinti və üzlük daşları, mergel, tabaşir, odadavamlı gillər və s.), dəmir filizi, fosforit, qonur kömür, yanar şist, mineral sular və s.

**İqlim.** İqlimi mülayim kontinental və rütubətlidir. Qışı yumşaq, keçir, uzunmüddətli (şm.-ş.-də 25 gündən c.-q.-də 50 günədək) istiləşmələrlə müşayiət olunur. Yayı yağışlıdır, yazda və payızda havalar dəyişkən olur. Orta temp-r yanvarda –4,5°C-dən (c.-q.-də) –8,4°C-yədək (şm.-ş.-də), iyulda 17,2°C-dən (şm.-da) 19,7°C-yədək (c.-da) olur. Mütləq maks. temp-r 37°C (Brest, Qomel), mütləq minimum –41°C-dir (Vitebsk). İllik yağıntı şm.-ş.-də 650 *mm*, mərkəzi hissənin yüksəkliklərində 700–750 *mm*, c.-q. və c.-ş.-də 500–550 *mm*-dir.

**Daxili sular.** B.-da ümumi uz. 90,6 min *km*-dən çox təqr. 30 min iri və xırda çay var. Çaylar Qara dəniz (57%) və Baltika dənizi (43%) hövzələrinə aiddir. Əksər çayların uz. 100 *km*-dən azdır. Əsas çayları *Dnepr* (qolları *Pripyat, Berezina, Soj* ilə), *Neman, Qərbi Dvinadır*. Çaylar, əsasən, qar suları ilə qidalanır; yazda daşqınlar olur. Polesyedə çayların çoxunu kanallar birləşdirir. Çaylardan ağac axıdılmasında, əsas çaylardan isə gəmiçilikdə və energetikada istifadə edilir. Ölkə ərazisinin 12%-ini bataqlıqlar təşkil edir. B.-da ümumi sah. 1,6 min $km^2$ olan 10 mindən çox göl var. Əksər göllər Dnepr və Pripyat çaylarının subasarlarındadır. İri gölləri Naroç (79,6 $km^2$) və Osveya (52,8 $km^2$) buzlaq mənşəlidir. 150-dən çox su anbarı var.

**Torpaqlar, bitki örtüyü və heyvanlar aləmi.** Ölkə ərazisinin təqr. 1/2-ini tutan təbii landşaftlar k.t. yerləridir. B. ərazisinin 35%-indən çoxunu meşələr tutur. Şimali və Mərkəzi B. ərazisinin çox hissəsində çimli-podzol torpaqlarda bitən küknar, palıd-küknar və vələs-palıd-küknar meşələrindən ibarət qarışıq meşə landşaftı yayılmışdır. Müxtəlif dərəcədə qleyləşmiş çimli-podzol torpaqlarda bitən ziyilli tozağacı, titrək qovaq və boz qızılağacdan ibarət şamlıqlar və xırdayarpaqlı ikincili meşələr çoxdur. C.-da, enliyarpaqlı meşələr zonasında çimli-podzol və çimli-açıq sarı-podzol torpaqlarda boyaq nazı, rus sarıkolu və s. növlərdən ibarət meşəaltısı olan palıd, bəzən vələs-palıd, palıd-şam meşələri bitir. Geniş ovalıqlarda bataqlaşmış çimli-podzol torpaqlarda bitən şam, palıd-şam meşələri, tüklü tozağacından və qara qızılağacdan ibarət yerli və xırdayarpaqlı ikincili meşələr yayılmışdır. Subasar palıdlıqları səciyyəvidir. Müxtəlif tipli bataqlıqlar (yuxarıda kolcuqlu-tüklücəli-sfaqnumlu, seyrək şamlıqlı keçiddə kolcuqlu-otlu-cilli, düzənlikdə müxtəlifotlu dənli, hipnolu-cilli və qara qızılağaclı-otlu-cilli) geniş yayılmışdır.

B. meşələrində nadir və relikt flora növləri – ağ şamağacı, sarı rododendron, Dortman firəngotu, orxidkimilər (üçkəsikli mərcangülü və s.), su hövzələrində sufındığına rast gəlinir. Tülkü, dovşan, qaban, qonur ayı, sığır, cüyür, nəcib maral, meşə dələsi, norka, sincab, qara safsar və s. yaşayır. Avropa zubrunun əvvəlki sayı bərpa edilmişdir. Su və bataqlıq quşları çoxdur: boz durna, böyük danquşu, fısıldayan qu quşu və s. Çaylarda durnabalığı, külmə, çil qızılbalıq, xarius, çökə balığı və s. yaşayır.

Poozeryenin, Berezina, Soj, Dnepr və b. çay dərələrinin mənzərəli landşaftı rekreasiya üçün istifadə edilir. Mineral sular bazasında balneoloji kurortlar (Bobruysk, Jdanoviçi) təşkil edilmişdir. B.-da ümumi sah. 864,2 min *ha* olan 57 mühafizə edilən təbii ərazi, o cümlədən Berezina biosfer qoruğu, Çernobıl təsir zonasındakı Polesye radiasiya-ekoloji qoruğu, Braslav Gölləri və *Belovejskaya Puşça (Ümumdünya irsi* siyahısına daxil edilmişdir) milli parkları vardır.



Polesye ovalığı.

### Əhali

B.-un əhalisinin 81,2%-ini belaruslar, 11,4%-ini ruslar, digər qruplarını isə polyaklar (3,9%), ukraynalılar və b. təşkil edir. Doğum səviyyəsinin aşağı düşməsi (1991 ildə 1000 nəfərə 12,9; 2003 ildə 9,0), ölüm səviyyəsinin isə artması (1991 ildə 1000 nəfərə 11,2; 2003 ildə 14,5) səbəbindən əhalinin təbii azalması (1990 ildə 10190 min nəfər; 2000 ildə 9990 min nəfər) səciyyəvidir. Əhalinin 17,8%-ini əmək qabiliyyətli yaşadək (16 yaşadək) olanlar, 21,2%-ini isə əmək qabiliyyətli yaşdan yuxarı olanlar təşkil edir. Qadınlar 53%-dir. Orta ömür müddəti 68,5 ildir (kişilər üçün 62,7, qadınlar üçün 74,7). Əhalinin orta sıxlığı 1 $km^2$-də 47 nəfərdir. Minsk vil.-nin mərkəzi hissəsi daha sıx məskunlaşmışdır (1 $km^2$-də 81 nəfər). Şəhər əhalisi 71,5%-dir; şəhər əhalisinin 60%-indən çoxu əhalisi 100 min nəfərdən artıq olan şəhərlərdə yaşayır. Şəhər aqlomerasiyalarının formalaşması prosesi gedir; onların arasında paytaxt Minsk aqlomerasiyası fərqlənir. Ən iri şəhərləri (min nəfər, 2005): Minsk (1742,1), Qomel (480,9), Mogilyov (365,9), Vitebsk (342,1), Qrodno (317,4) Brest (300,7). İqtisadi cəhətdən fəal olan

Strusta gölünün sahilləri.





BELARUS

əhali 4428,2 min nəfərdir (2004). İqtisadi sferada işləyənlərin ümumi sayının 26,8%-i sənayedə, 13,3%-i ticarətdə və ictimai iaşədə, 10,7%-i kənd təsərrüfatında, 10,7%-i təhsildə, 7,7%-i inşaatda, 7,6%-i səhiyyədə və sosial təminat sahəsində, 7,6%-i nəqliyyat və rabitə sahəsində çalışır. İşsizlik 1,9% təşkil edir. Dindarların əksəriyyəti xristiandır, müsəlmanlar və yəhudilər də var.

### Tarixi oçerk

**Belarus qədim dövrlərdən 9 əsrədək.** B.-da ən qədim abidələr – Mustye dövrünə və Üst Paleolit dövrünə aid tək-tək insan düşərgələri Dneprboyunda məlumdur. Üst Paleolitin sonunda (e.ə. 10-cu minillikdən gec olmayaraq) Nemanboyunda və Qərbi Polesyedə arealı q.-də Elba çayınadək uzanan Linqbi mədəniyyəti meydana gəlmişdir. Son Paleolit – Erkən Mezolit dövrü B.-un q.-ində *Svidrı mədəniyyəti*, ş.-ində isə Qren mədəniyyəti ilə təmsil olunur. Şimali B.-un Mezolit dövrü *Kunda mədəniyyətini* əks etdirir. Son Mezolit dövrü Dneprboyunda Soj, Polesyedə Kudlaev, Nemanboyunda və ondan ş.-də Yanislavitsk mədəniyyətləri ilə təmsil olunur. Neolit dövründə Cənub-Şərqi B. Dnepr-Donetsk mədəni birliyi, Qərbi B. Neman mədəniyyəti, Şərqi B. Yuxarı Dnepr mədəniyyəti, Şimali B. Narva mədəniyyəti arealına daxil idi; sonuncunun yayıldığı ərazidə *daraqvarı basma keramika mədəniyyəti* və Babinoviçi tipli abidələr də məlumdur. Son Neolitdə B.-un q.-ində *kürəşəkilli amfora mədəniyyətinin* daşıyıcıları yayılmışlar.

Tunc dövrünün erkən mərhələsi B.-un ş.-ində və c.-ş.-ində Orta Dnepr mədəniyyəti, q.-ində hind-avropalılarla əlaqədar olan *qaytanvarı keramika mədəniyyətinin* müxtəlif qrupları, şm.-ında isə yerli Neolit ənənələrini davam etdirən Şimali Belarus mədəniyyəti ilə təmsil olunur. Orta və Son Tunc dövründə B.-un əksər hissəsi *Tşinets mədəniyyəti*, Sosnitsa mədəniyyəti, həmçinin onlara yaxın abidələr qrupu ilə təmsil edilən zonaya daxil olmuş, yalnız şm.-da arealı Neman çayından Volqanın orta axarlarına qədər uzanan ştrixlənmiş və tekstil keramikası abidələri yayılmışdı. Bu ənənələrlə B. ərazisinin böyük hissəsini əhatə etmiş Erkən Dəmir dövrü mədəniyyətləri – şərqi *baltlar*, yaxud "Dnepr" baltları ilə əlaqələndirilən *ştrixlənmiş keramika mədəniyyəti* və Dnepr-Dvina mədəniyyəti bağlıdır. Cənubi B. Miloqrad mədəniyyəti zonasına daxil olmuş, c.-q.-də isə e.ə. 4 əsrdən *Pomorye mədəniyyəti* yayılmışdır; bu mədəniyyət e.ə. 1-ci minilliyin sonlarında Polesyedə, həmçinin Dneprboyunun bir hissəsində yayılmış Zarubintsı mədəniyyətinin formalaşmasında mühüm rol oynamışdır.

Eramızın 1-ci minilliyində B.-un tarixi bu ərazinin slavyanlaşdırılması ilə bağlıdır; bir çox tətqiqatçı bu yöndə Zarubintsı mədəniyyəti ənənələrinin aparıcı rol oynadığını qeyd edir, lakin prosesin detalları tam aydın deyildir. Cənub-Şərqi B.-da Abidnya tipli abidələr və bir neçə digər abidə, həmçinin 4 əsrdə Şərqi B.-da yayılmış *Kiyev mədəniyyətinin* Desna variantının abidələri son Zarubintsı ənənələrinin davamı ilə bağlıdır. Bu qrupların daşıyıcılarının şm.-a doğru hərəkəti Dnepr çayının və Qərbi Dvinanın yuxarı axarlarında Zaozerye tipli abidələrdə əks olunmuşdur. Onların əsasında 5–7 əsrlərə aid mədəni qruplar – arealı Şimali və Mərkəzi B.-un əksər hissəsini əhatə edən Bantserovşina və Tuşemlya tipli şəhər yerləri, erkən (Pskov) *uzun kurqanlar mədəniyyəti* formalaşmışdır; Şərqi B.-da Kiyev mədəniyyətinin Desna variantı əsasında Koloçin mədəniyyəti formalaşmışdı; Polesyedə *slavyanlarla* bağlı olan Praqa mədəniyyəti təqr. 4 əsrdən mövcud olmuşdur. Onun meydana gəlməsinin son Zarubintsı mədəniyyətinin ənənələri ilə əlaqəsi ehtimal edilir. Velbar mədəniyyətinə aid abidələrdə əks olunan germanların Visla çayının aşağı axarından c.-ş.-ə doğru hərəkəti B.-dakı mədəniyyətlərin inkişafına əhəmiyyətli təsir göstərməmişdir.

8–10 əsrlərdə B. ərazisinin böyük hissəsində mövcud olmuş Luka-Rayki mədəniyyəti, uzun kurqanlar mədəniyyətinin Smolensk-Polotsk qrupu və s. slavyan abidələri salnamələrdə adı çəkilən *dreqoviçlər, radimiçlər, kriviçlərlə* əlaqələndirilir. Slavyan abidələri ilə yanaşı, litvalılarla, yaxud *aukştaytlarla* bağlı olan Şərqi Litva kurqanları mədəniyyəti abidələri, həmçinin *yatvyaqların* məzarlıqları yalnız Nemanboyunda və Buqboyunda məlumdur.

**Belarus Kiyev Rus dövlətinin tərkibində (9–13 əsrin ortaları).** B. ərazisi 9–10 əsrlərdə Kiyev Rus dövlətinin tərkibinə qatılmışdır. Bu dövrdə B. ərazisində 30-dan çox şəhər məlumdur. Onlardan ən qədimləri *Polotsk* (862), *Vitebsk* (974), *Turov* (980) olmuşdur. Hələ 11 əsrdə Kiyev knyazı *Vladimir Svyatoslaviçin* böyük oğullarından biri İzyaslav Vladimiroviçin xələflərinin idarə etdiyi *Polotsk knyazlığı* tədricən Kiyev Rus dövlətindən ayrılmağa başlamışdı; knyazlığın "varyaqlardan yunanlara" gedən yolda yerləşməsi onun iqtisadi və mədəni cəhətdən inkişafına səbəb olmuşdu. 11 əsrin ikinci yarısında meydana gəlmiş Turov knyazlığı 1162 ildə Kiyevdən tamamilə ayrılmışdı. Təqr. 1117 ildə regionun şm.-q.-ində Qoroden knyazlığı yaranmış, indiki Şərqi B. torpaqları isə Smolensk knyazlığının tərkibinə qatılmışdı. Berestye vil. 12 əsrin ortalarından Vladimir-Volın knyazlığına daxil idi. 12–13 əsrlərdə iri knyazlıqların parçalanması davam edirdi. Polotsk knyazlığının ərazisindəki ən iri qurumlar Vitebsk və Drutsk knyazlıqları olmuşdur. Turov knyazlığının mərkəzi Pinsk ş.-nə köçürülmüş, Dubrovitsa və Nesvij ş.-lərində knyaz iqamətgahları yaradılmışdı. Sənətkarlığın inkişafı ticari əlaqələrin genişlənməsinə (o cümlədən Polşa, İsveç və s. ölkələrlə) səbəb olmuşdu. Kiyev Rusunda 10 əsrin sonlarından memarlıq, həmçinin kitab mədəniyyəti abidələri, o cümlədən orijinal ədəbi əsərlər (Turovlu Kirillin və b.-nın əsərləri), epiqrafik abidələr ("Roqvolodun daşı", 1171) meydana gəlmişdir.

Yelnya bataqlığı.






**Belarus Böyük Litva knyazlığının tərkibində (13 əsr – 1569).** 13–14 əsrlərdə B. torpaqlarının işğallar, müqavilələr, sülalə nikahları nəticəsində *Böyük Litva knyazlığının* (BLK) tərkibinə daxil olmuşdu. Bu, B. torpaqlarının parçalanması, səlibçilərlə mübarizə və monqol təhlükəsi şəraitində B.-da güclü mərkəzləşdirilmiş hakimiyyət yaratmaq zərurəti və eyni zamanda BLK-nın güclənməsi fonunda baş vermişdi. BLK-nın əksər hissəsini B. torpaqları təşkil edirdi. B.-un tədricən knyazlığın bölgələri arasındakı iqtisadi, siyasi və s. əlaqələrə cəlb edilməsi belarus dili və mədəniyyətinin xüsusiyyətlərinin formalaşmasına səbəb olmuşdu. BLK-nın ilk paytaxtı dövlətin banisi *Mindovqun* dövründə Novoqrudkada yerləşmiş, 1323 ildə Vilnüs ş.-nə köçürülmüşdü.

Polşa ilə *Krevo uniyasının (1385)* bağlanmasından sonra BLK-nın torpaqları öz müstəqilliklərini qoruyub saxlamışdı. 1413 il Qorodlo privileyində (imtiyaz fərmanında) təsbit olunurdu ki, BLK-nda yalnız katoliklər yüksək dövlət vəzifələrini tutmaq və əmlak imtiyazlarından istifadə etmək hüququna malikdirlər. Lakin 1432 və 1434 il privileyləri pravoslav və katolik əyanlarının bəzi iqtisadi və siyasi hüquqlarını bərabərləşdirdi. 1447 il privileyi feodallara şəxsi toxunulmazlıq, vergi immuniteti və vot-



Vişin kəndində aşkar olunmuş 13 əsrin 1-ci yarısına aid dəfinə. Gümüş külçələr (qrivnalar) və qadın bəzək əşyaları. Belarus Dövlət Un-ti (Minsk).

çina məhkəməsi hüququna dair zəmanət verir, BLK-da torpaqların və vəzifələrin əcnəbilərə, o cümlədən polyaklara verilməsini qadağan edirdi; kəndlilərin hüquqi cəhətdən təhkimləşdirilməsini çox zaman bu privilеy ilə əlaqələndirirlər. 1468 ildə qədim belarus dilində *IV Kazimirin* Qanunnaməsi nəşr edilmişdir. 16 əsrdən B. ərazisində kitab nəşri yayılırdı. 1520-ci illərin əvvəllərində Fransisk *Skorina* Vilnüsdə Şərqi Avropanın ilk mətbəəsini yaratmışdır.

13–16 əsrlərdə B. ərazisində feodal torpaq mülkiyyəti formalaşmışdı. Torpaq mülkiyyətinin əsas obyektlərindən biri və vergi vahidi "dım" idi. Daxili bazarın inkişafı və k.t. məhsullarına tələbatın artması (o cümlədən Qərbi Avropada) ilə folvarklar – panların əkin sahələrinin də daxil olduğu təsərrüfat kompleksləri geniş yayılmışdı. Kəndlilərin kütləvi şəkildə təhkimləşdirilməsi 1588 il Litva statutu ilə qanuniləşdirilmişdi; buna torpaqdan istifadənin və kəndli mükəlləfiyyətlərinin nizama salınması məqsədilə torpaq sahələrinin ölçülməsi və yenidən bölüşdürülməsi 1557 il "Voloklar nizamnaməsi"nə uyğun olaraq "voloçnaya pomera"nın həyata keçirilməsi şərait yaratmışdı. Qərbi Avropaya aparan mühüm tranzit yollarının B. ərazisindən keçməsi 14–16 əsrlərdə həm şəhərlərin, həm də daxili və xarici ticarətin intensiv inkişafına səbəb olmuşdu. B.-un bəzi şəhərlərinin (Brest – 1390, Qrodno – 1391, Slutsk – 1441, Polotsk – 1498, Minsk – 1499, Mogilyov – 1561, Vitebsk – 1597) özünüidarəetmə – *Maqdeburq hüququnu* əldə etməsi onların iqtisadi cəhətdən əhəmiyyətinin artdığını əks etdirirdi. 17 əsrin ortalarında B.-un 43 şəhəri Maqdeburq hüququnu almışdı; 15–16 əsrlərdə şəhər sənətkarlarının sexlərdə birləşməsi prosesi baş vermişdi. 16 əsrdə B. ərazisində Reformasiya hərəkatının təsirilə və xüsusən də bir çox maqnat, şlyaxta nümayəndəsi və varlı şəhərlilər arasında protestantlıq (əsasən, kalvinizm və lüteranlıq) yayılmağa başladı.

**Belarus Reç Pospolitanın tərkibində (16 əsrin 2-ci yarısı – 18 əsr).** B. ərazisi *Lüblin uniyasının (1569)* bağlanması nəticəsində yaranan Polşa-Litva dövləti – Reç Pospolitanın tərkibinə qatıldı. 16 əsrin ikinci yarısında təsərrüfatın biyarfolvark sistemi qəti bərqərar oldu. Polyak adətlərinin və dilinin təsirinin güclənməsinə baxmayaraq 17 əsrin ikinci yarısına qədər şlyaxta və şəhər əhalisi məişətdə və kargüzarlıqda Kirill əlifbasından geniş istifadə edirdi. Varşava konfederasiyasının (1573) aktı ilə elan edilən və Litva statutu (1588) ilə təsdiqlənən din azadlığına daimi riayət olunmurdu. Pravoslavlığın təqibi bir sıra şəhərlərdə (Mogilyov, Minsk, Brest, Vilno, Qrodno və s.) pravoslav cəmiyyətlərinin yaranmasına gətirib çıxardı. B.-un pravoslav iyerarxlarının əksəriyyətinin *Brest uniyasını (1596)* qəbul etməsinə baxmayaraq, əhalinin əsas hissəsi uniyaya məcburi şəkildə keçmişdi. Bununla belə, 18 əsrin sonlarında BLK əhalisinin təqr. 80%-i uniatlığa mənsub idi.

B. *Xmelnitskinin* başçılığı ilə Ukrayna kazaklarının 1648 ildə baş verən üsyanı B. ərazisində də yayıldı; burada kəndlilərin və şəhər əhalisinin də qoşulduğu Nebaba, Qarkuşa, Qolovatski, Krivoşapka, Mixnenko və b.-nın kazak dəstələri fəaliyyət göstərirdi. Üsyan nəticəsində Polesye ərazisində uniya ləğv edildi. 1649 ildə Loyev yaxınlığında M. Kriçevskinin başçılıq etdiyi kazak qoşunları darmadağın edildi, lakin 1651 ildə üsyan yenidən alovlandı. Hərbi əməliyyatlar bütün kazak qoşunlarının B. ərazisindən çıxarılmasını nəzərdə tutan *Belaya Serkov müqaviləsinin (1651)* bağlanması ilə başa çatdı. 1654–67 illər Rusiya-Polşa müharibəsi gedişində rus qoşunları B. ərazisini, demək olar ki, bütünlüklə işğal etdi (1655 ilin sonu), lakin tezliklə buranı tərk etməli oldular. 17 əsrin ikinci yarısında B. torpaqlarının polyaklaşdırılması siyasəti gücləndi, B. məktəblərinin və mətbəələrinin bir qismi bağlandı. 1696 ildə seym dövlət kargüzarlığında belarus dilindən istifadəni qadağan etdi. Bu dövrdə B.-da baş verən iqtisadi və mədəni tənəzzülü Şimal müharibəsi (1700–21) gedişində onun İsveç tərəfindən işğal olunması daha da dərinləşdiridi.

Reç Pospolitanın mövcudluğunun son dövründə dövlətdə anarxiya gücləndi, dini və milli ziddiyyətlər kəskinləşdi. Rusiya imperatriçəsi *II Yekaterina* və Prussiya kralı *II Fridrix* Böyük tərəfindən təklif olunan və Polşada xarici dövlətlərin siyasi təsirinin saxlanması məqsədini güdən dissident (qeyri-katolik) şlyaxta ilə katolik şlyaxtanın hüquqlarının bərabərləşdirilməsinə dair layihə seym tərəfindən rədd olundu (1766). 1767 ildə pravoslav şlyaxta öz hüquqlarının müdafiəsi üçün arxiyepiskop Georgi Konisskinin başçılığı ilə Slutskda konfederasiya yaratdı. Katolik *Bar konfederasiyası* darmadağın edildikdən sonra Rusiya, Avstriya və Prussiya arasında Reç Pospolitanın birinci dəfə bölüşdürülməsi (1772) baş verdi. Nəticədə Şərqi və Şimali B. torpaqları Rusiya imperiyasının ərazisinə qatıldı. Reç Pospolitanın ikinci dəfə bölüşdürülməsi (1793) zamanı Mərkəzi B. torpaqları Rusiyaya verildi. Reç Pospolitanın üçüncü dəfə bölüşdürülməsi (1795) nəticəsində isə Qərbi B. torpaqları Rusiyanın tərkibinə keçdi və beləliklə B. ərazisi bütövlükdə Rusiya imperiyasına qatıldı. B. ərazisindəki şlyaxta II Yekaterinaya sədaqət andı içdikdən sonra rus dvoryanları ilə bərabər hüquqlara malik oldu.

**Belarus Rusiya imperiyasının tərkibində (18 əsrin sonu – 1917).** 1802 ildən B. torpaqları Vitebsk, Mogilyov, Minsk, Qrodno, Vilno, Smolensk qub.-larının tərkibinə daxil idi. 1812 ilin iyun–dekabr aylarında B. I Napoleonun qoşunları tərəfindən tutuldu. Quberniyalar departamentlər adlandırıldı, idarəçilik Fransa hərbi administrasiyasına tabe olan Böyük Litva knyazlığının Müvəqqəti hakimiyyət komissiyasına həvalə edildi. Vitebsk və Minsk departamentlərinin ərazisində partizan dəstələri fəaliyyət göstərirdi.





Qərbi B. ərazisində də yayılmış *Polşa üsyanı (1830–31)* yatırıldıqdan sonra, bölgədə sərt idarəetmə dövrü başlandı. 1842 ildə rəsmi sənədlərdə Belarus və Litva adlarının istifadəsi qadağan olundu, əvəzində Şimal-Qərb diyarı və Qərb quberniyaları adları işlədilməyə başlandı. Hökumət katolik şlyaxtanın və katolik kilsəsinin iqtisadi və siyasi mövqeyini zəiflətləşməyə çalışırdı. Bir çox katolik monastırı və kostyolu bağlandı. Qərb quberniyalarından yunan-katolik (uniat) kilsəsinin tədricən sıxışdırılması məqsədilə 1839 ildə keçirilən Polotsk məclisində uniat kilsəsi ilə pravoslav kilsəsinin birləşdirilməsi haqqında akt imzalandı. Polyaklaşdırılmış B. şlyaxtasına qarşı sərt tədbirlər həyata keçirildi (10 mindən çox şlyaxtiç zadəgan silkindən kənarlaşdırıldı). Dövlət idarələri və məktəblərdəki kargüzarlıq işlərində polyak dili əvəzinə rus dili istifadə olunmağa başladı.

B.-un iqtisadiyyatının əsasını dvoryan torpaq mülkiyyətinin üstün mövqe tutduğu k.t. təşkil edirdi. Şəhərlərdə və yerlərdə iqtisadiyyat emal sahələrinin və ticarətin inkişafına yönəlmişdi. 1860–70-ci illər islahatlarının həyata keçirilməsinə əhəmiyyətli təsir göstərmiş *Polşa üsyanı (1863–64)* yatırıldıqdan sonra, B.-da 1905–07 illər inqilabınadək xırda güzəştlərlə qüvvədə qalan "müstəsna qanunlar" rejimi bərqərar oldu. Zemstvo, məhkəmə, hərbi, məktəb, senzura və şəhər islahatları B. qub.-larına xeyli dəyişiklik və gecikmələrlə gəlib çatırdı. Bununla yanaşı, kəndlilər, rus qub.-larına nisbətən daha əlverişli iqtisadi şərtlərlə təhkimçilikdən azad olurdular. Təhkimçilik hüququnun ləğvi B.-da kapitalizmin və burjua torpaq mülkiyyətinin inkişafına şərait yaratdı. 1860–80-ci illərdə d.y. xətlərinin (Peterburq–Varşava, Riqa–Oryol, Moskva–Brest, Libava–Romnı və Polesye d.y.-ları) çəkilməsi kapitalizmin inkişafına böyük təkan verdi. 1880-ci illərdən bankların (Dövlət, Kəndli və Dvoryan banklarının şöbələri) fəaliyyəti fəallaşdı. B. sənayesi, əsasən, k.t., meşə və mineral xammalın emalında ixtisaslaşmışdı. İri sənaye mərkəzləri olmasa da, 1897 ildə şəhər əhalisinin sayı 648 min nəfər təşkil edirdi.

İslahatlar dövründə B.-un siyasi və mədəni həyatında əhəmiyyətli dəyişikliklər baş verdi, *belaruslarda* milli özünüdərkin formalaşması prosesi başladı. 1860-cı illərin birinci yarısında K.S. *Kalinovski* Qrodno ş.-ndə gizli siyasi təşkilat yaradaraq V.A. Vrublevski ilə birlikdə belarus dilində qeyri-leqal "Kəndli həqiqəti" qəzetinin nəşrinə başladı. 1870-ci illərin sonlarından B. ərazisində formalaşan xalqçı təşkilatların siyasi proqramlarına milli məsələ daxil edilirdi. 19 əsrin 2-ci yarısında belarus milli mədəniyyəti intensiv inkişaf edir, B. tarixi, etnoqrafiyası və folkloru öyrənilirdi. 19 əsrin sonlarından genişlənən fəhlə hərəkatı sosialistyönümlü partiyaların meydana gəlməsinə təkan verdi: Litva fəhlə ittifaqı (1896), Bund (1897), Belarus sosialist qromadası (1902–03) və s. yaradıldı. 2–4-cü Dövlət dumasına keçirilən seçkilərdə B.-dan olan deputatların əksəriyyəti oktyabristləri və Polşa-Belarus muxtariyyətçi-"diyarçı"ları təmsil edirdi.

20 əsrin əvvəllərində kəndlilərin torpaqsızlaşması və bununla əlaqədar aqrar əhalinin artması kəndlilərin Sibirə və Uzaq Şərqə kütləvi köç hərəkatına səbəb oldu. B. ərazisində *Stolıpin aqrar islahatı* fəal surətdə həyata keçirilirdi. 1911 ildə Minsk, Mogilyov və Vitebsk qub.-larında seçkili zemstvo təsis olundu. B. əhalisinin kütləvi şüurunun siyasiləşməsinə milli hərəkatı təşkilatlandıran "Bizim taleyimiz" (1906) və "Bizim zəmimiz" (1906–15) adlı qəzetlərin belarus dilində nəşri səbəb oldu. 1905–15 illərdə belarus milli hərəkatı xeyli genişləndi, milli-mədəni dirçəliş proqramı yaradıldı. 1905 ildən sonra ibtidai məktəb tədrisi sisteminə belarus dilinin salınması üçün ilk cəhdlər göstərildi.

Birinci dünya müharibəsi dövründə Şimal-Qərb cəbhəsi, sonra isə Qərb cəbhəsi B. ərazisindən keçirdi, burada (Baranoviçi və Mogilyovda) Ali baş komandanın qərargahı yerləşirdi. Qərbi B. 1915 ilin noyabrında alman qoşunları tərəfindən işğal olundu. Müharibə B. iqtisadiyyatında dərin böhrana gətirib çıxardı. Sənaye müəssisələrinin təqr. 1/3-i evakuasiya və ya demontaj edildi. 1917 ilin dekabrına olan məlumatlara görə, B. ərazisindən Rusiyaya 3,2 mln. nəfər qaçmışdı. Belə bir şəraitdə B. milli-mədəni təşkilatları dağılır, belarus dilində qəzet və kitabların nəşri dayandırılırdı. "Bizim zəmimiz" qəzetinin Vilnoda qalan keçmiş rəhbərlərindən bəziləri (A. Lutskeviç, İ. Lutskeviç, V. Lastovski) Almaniyanın işğalçı hakimiyyət orqanlarının razılığı ilə Belarus Xalq Komitəsini yaratdılar.

**Belarus 1917–91 illərdə.** Rusiyada 1917 il Fevral inqilabından sonra B.-da hakimiyyət Müvəqqəti hökuməti təmsil edən yerli hakimiyyət orqanlarına keçdi. Ölkədə fəhlə və əsgər deputatları sovetləri yaradıldı. Sovetlərdə eserlər, menşeviklər, bundçular aparıcı rol oynayırdılar. Belarus sosialist qromadası (BSQ) öz fəaliyyətinə yenidən başladı. 1917 ilin martında Minskdə keçirilən Belarus milli təşkilatlarının qurultayında Rusiya Federativ Demokratik Resp. tərkibində B.-a dövlət muxtariyyətinin verilməsi tələbi irəli sürüldü və R. Skirmuntun sədrliyi ilə icraedici orqan – Belarus Milli Komitəsi (BMK) seçildi. BSQ-nin təşəbbüsü ilə 1917 ilin iyulunda B. təşkilatları və partiyalarının qurultayı keçirildi və BMK-nın yerinə Belarus təşkilatlarının mərkəzi radası (sonradan Böyük Belarus Radası; BBR) yaradıldı.

Müqəddəs Ruh kafedral kilsəsi. 1642–87. Minsk.





Sapeq saray kompleksi. 17–18 sərlər. Rujan.

Petroqradda 1917 il oktyabr çevrilişi ilə eyni zamanda, Minskdə Sovet hakimiyyəti elan olundu (7.11.1917); B.-un idarəetmə funksiyalarını Şimal-Qərb vil. və Qərb cəbhəsinin Hərbi-İnqilab Komitəsi öz üzərinə götürdü. 1917 ilin noyabrında – 1918 ilin yanvarında keçirilən Minsk, Mogilyov, Vitebsk qub.-larının əsgər, fəhlə və kəndli deputatları qurultaylarında, Qərb cəbhəsi ordularının əsgər komitələrinin 2-ci qurultayında Sovet hakimiyyəti tanındı. 1917 il dekabrın 9-da Qərb vil. və cəbhəsinin fəhlə, əsgər və kəndli deputatları sovetlərinin Vilayət İcraiyyə Komitəsi ("Oblispolzap") yaradıldı və onun rəhbərliyi altında Şərqi və Mərkəzi B.-da Sovet hakimiyyətinin qurulmasına başlandı. Buna cavab olaraq BBR 1917 ilin dekabrında Minskdə 1-ci Ümumbelarus qurultayını (konqresini) keçirdi, Sovet hakimiyyətinə qarşı mübarizəyə çağırdı və burjua-demokratik Rusiya dövləti tərkibində B.-a muxtariyyət verilməsi tələbini irəli sürdü. "Oblispolzap"ın rəhbərliyi bu qurultayı dağıtdı. 1918 ilin fevralında B.-un, demək olar ki, bütün ərazisi alman qoşunları tərəfindən tutuldu (1918 ilin sonuna qədər). 1918 ilin martında *Belarus Xalq Respublikası* (BXR) elan olundu.

1917 il noyabrın 15-də Sovet hökumətinin qəbul etdiyi Rusiya xalqlarının hüquq bəyannaməsinə görə, digər xalqlarla yanaşı belarus xalqına da müstəqillik və öz müqəddəratını təyinetmə hüququ verildi. Bəyannaməyə əsaslanaraq RK(b)P-nin 6-cı Şimal-Qərb vil. konfransı (30–31.12.1918, Smolensk) Belorusiya Sovet Sosialist Resp.-nın (BSSR) yaradılması haqqında qərar qəbul etdi. 1919 il yanvarın 1-də Müvəqqəti inqilabi fəhlə-kəndli hökumətinin manifesti ilə paytaxtı Minsk olan BSSR elan olundu. 1919 il fevralın 27-də RK(b)P MK-nın təşəbbüsü ilə, paytaxtı Vilno olan Litva-Belorusiya SSR yaradıldı, lakin tezliklə B. ərazisinin böyük hissəsi Polşa qoşunları tərəfindən tutuldu. *Sovet-Polşa müharibəsi (1920)* gedişində Minskin azad olunmasından (11.7.1920) sonra müstəqil BSSR-in yaradılması haqqında bəyannamə (31.7.1920) qəbul edildi. Onun ərazisinə Minsk qub.-nın 6 poveti (qəzası) daxil idi. *Riqa sülh müqaviləsinə (1921)* görə, Qərbi B. BSSR-dən ayrılaraq Polşaya verildi. 1922 il dekabrın 30-da BSSR SSRİ-nin tərkibinə qatıldı. BSSR rəhbərliyinin təklifi və Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin dekretləri ilə, əsasən, belarusların yaşadıqları Vitebsk və Qomel qub.-larının ərazisi, Smolensk qub.-nın bir qəzası 1924 və 1926 illərdə BSSR-in tərkibinə verildi. 1920–30-cu illərdə BSSR-də sosialist sənayeləşdirilməsi və kollektivləşməsi həyata keçirildi, B. milli mədəniyyəti sürətlə inkişaf edirdi. 1921 ildə Belarus Un-ti açılmış, 1929 ildə BSSR EA təsis edilmiş, mədəniyyət və xalq maarifi müəssisələrinin geniş şəbəkəsi yaradılmışdı. Eyni zamanda, kütləvi repressiyalar zamanı B. ziyalılarına (1929–30-cu illərdə "milli demokratların" siyasi mühakiməsi və sonrakı illərin mühakimələri) ağır zərbə vuruldu.

Xatın xatirə kompleksi.



Polşanın tərkibində olan Qərbi B. və Qərbi Ukrayna ərazilərinin qırmızı ordu tərəfindən işğalından (1939, sentyabr) sonra, Qərbi B. BSSR-in tərkibinə qatıldı. *Böyük Vətən müharibəsinin (1941–45)* ilk aylarında B., amansız işğalçı rejim tətbiq edən Almaniya tərəfindən tutuldu. B.-un bütün ərazisində 1,5 mln. nəfərin iştirak etdiyi gizli hərəkat, həmçinin partizan hərəkatı geniş vüsət aldı. Belarus əməliyyatı (1944) nəticəsində B. tamamilə qırmızı ordu tərəfindən ələ keçirildi. Müharibə B.-da hədsiz dərəcədə böyük dağıntılara və insan itkisinə səbəb oldu: sakinlərin hər 4 nəfərindən biri həlak oldu, BSSR-in milli sərvətinin yarısından çoxu məhv edildi.

1945 ildə SSRİ hökumətinin səyləri nəticəsində BSSR BMT-nin təsisçilərindən biri oldu. Dövlət sərhədləri haqqında Sovet-Polşa müqaviləsinə (1945) görə, Belostok ş. daxil olmaqla Belostok vil.-nin 17 r-nu və Brest vil.-nin 3 r-nu Polşaya verildi. 1950-ci illərin əvvəllərində B.-un iqtisadiyyatının müharibəyəqədərki səviyyəsi bərpa olundu. 1960–80-ci illərdə BSSR-də genişmiqyaslı sənayeləşdirmə və urbanizasiya həyata keçirildi. BSSR bu tədbirlər nəticəsində SSRİ-nin yüksək elmi-texniki potensiala, təhsil və mədəniyyət səviyyəsinə malik olan, yüksək inkişaf etmiş sənaye-aqrar respublikasına çevrildi. 1986 ildə Çernobıl AES-də baş verən qəzanın B. üçün törətdiyi ağır fəsadlar, 1980-ci illərin ikinci yarısı–1990-cı illərin əvvəllərində SSRİ-də sosial-iqtisadi və siyasi böhranın dərinləşməsi B. cəmiyyətində müstəqillik əldə etmək cəhdlərinin artmasına gətirib çıxardı. 1990 ilin yanvar ayında BSSR-in Ali Soveti belarus dilinin dövlət statusu haqqında qərar, iyulun 27-də isə BSSR-in dövlət müstəqilliyi haqqında bəyannamə qəbul etdi. *Avqust böhranı (1991)* zamanı B. kommunist partiyasının (BKP) rəhbərliyi tərəfindən Dövlət Fövqəladə Vəziyyət Komitəsinin (QKÇP) dəstəklənməsi B.-da hakimiyyət sisteminin böhranını dərinləşdirdi. 1991 il avqustun 25-də BSSR-in Ali Soveti BKP-nin fəaliyyətini dayandırdı. 1991 il sentyabrın 19-da B. rəsmi olaraq Belarus Resp. (BR) adlandırıldı. Siyasi müstəqilliyin qanuniləşdirilməsi prosesi *Belovejye sazişlərinin (1991)* bağlanması ilə başa çatdı.

**B. 1991 ildən sonra**. 1991 il dekabrın 10-da BR-in Ali Soveti 1922 ildə bağlanmış ittifaq müqaviləsini ləğv etdi. 1993 ilin iyulunda Belarus pul nişanları dövriyyəyə buraxıldı. 1994 ilin martında qəbul olunmuş BR Konstitusiyasına görə, Belarus prezident resp. formasında unitar dövlət elan edildi. 1994 il iyulun 10-da A.Q. *Lukaşenko* BR-in ilk prezidenti seçildi. 1995 il mayın 15-də keçirilən referendumun nəticəsində yeni dövlət rəmzləri qəbul olundu, prezidentin 5 illik hakimiyyət müddəti yenidən başladı. 2001 ildə Lukaşenko ikinci dəfə BR-in prezidenti seçildi. 2004 ildə keçirilən yeni referendum ilə prezidentin seçilməsinə qoyulan məhdudiyyət aradan qaldırıldı. 2006 və 2010 illərdə keçirilən seçkilərdə də Lukaşenko BR-in prezidenti seçildi.

B. 1992 ilin fevral ayından ATƏT-in üzvüdür. 1994–96 illərdə strateji nüvə silahları ölkə ərazisindən çıxarıldıqdan sonra B. nüvəsiz dövlət statusuna malikdir. NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramının iştirakçısı olan BR BMT-nin təşkilatları ilə də sıx əməkdaşlıq edir. B.-un BMT-dəki fəaliyyətinin əsas istiqamətlərindən biri Çernobıl AES-də baş verən qəzanın uzunmüddətli fəsadlarının aradan qaldırılması məqsədilə beynəlxalq birliyin resurslarının səfərbər edilməsidir.

BELARUS



Mir şəhərində qəsr. 16–17 əsrlər.

### Təsərrüfat

SSRİ-nin dağılması və onun nəticəsi kimi iqtisadi əlaqələrin kəsilməsi istehsal səviyyəsinin aşağı düşməsinə (1990–95 illərdə ÜDM-in həcmi təxminən 40% azalmışdır) səbəb olmuşdu; istehsalın azalması templəri bütün MDB ölkələrində, o cümlədən Rusiyadakı analoji göstəricilərdən xeyli aşağı idi. Ən iri sənaye müəssisələri dövlət mülkiyyətində qalmışdı (dövlət müəssisələrinin payı təqr. 60%); mineral gübrələrin alınmasına çəkilən xərclərin təqr. 80%-i, yanacaq və elektrik enerjisinə çəkilən xərclərin isə təqr. 50%-i dövlət hesabına ödənilən iri k.t. müəssisələri də (kolxoz və sovxozlar, damazlıq təsərrüfatları) saxlanmışdı. 1997 ildən iqtisadiyyatın sabit artımı müşahidə olunur; kiçik və orta sahibkarlıq biznesi inkişaf edir; ticarət müəssisələrinin əksəriyyəti, xidmət sferası, kiçik və orta sənaye müəssisələri özəl sektora aiddir.

ÜDM-in həcmi 131,2 mlrd. dollardır (alıcılıq qabiliyyəti pariteti üzrə, 2010;

Minsk şəhərinin tarixi mərkəzindən görünüş.





Vitebsk şəhərindən görünüş.

adambaşına 13909 dollar); ÜDM-in artımı 5,3%. İnsan inkişafı indeksi 0,756-dır (dünyanın 194 ölkəsi arasında 65-ci yer, 2011). ÜDM-in strukturunda (%) sənayenin payı 31,7, ərzaq üzrə xalis vergilərin payı 13,3, ticarətin və ictimai iaşənin payı 19,9, nəql. və rabitənin payı 7,2, k.t.-nın payı 8.6, tikintinin payı 6,8, digər sahələrin payı 19,9-dır (2011).

ÜDM-in ölçüsünə görə MDB ölkələri arasında B. Rusiyadan və Ukraynadan sonra 3-cü yerdədir; ağıryüklü avtomobillərin, traktorların, dəzgahların, elektron cihazların və komponentlərin, kimyəvi liflərin, qatranların və plastik kütlələrin, k.t. məhsullarının istehsalı ilə seçilir.

**Sənaye**. Diversifikasiya olunmuş və əsasən, ixrac yönümlü maşınqayırma, kimya və neft-kimya aparıcı sənaye sahələridir. Sənaye istehsalının strukturu: maşınqayırma və metal emalı 23,2%, yanacaq 21,3%, yeyinti 14,6%, kimya və neft-kimya 13,4%, elektroenergetika 5,5%, yüngül 3,6%, meşə, ağac emalı və sellüloz-kağız 4,4%, tikinti materialları sənayesi 5,1% və s. (2008).

Yanacaq-energetika resursları ehtiyatı məhduddur. Neft çıxarılır (2009 ildə 1,7 mln. *t*.; ölkə tələbatının təqr. 15%-ni ödəyir). İdxal edilən neftin əsas hissəsi Rusiyanın neftçıxarma r-nlarından magistral neft kəmərləri sistemi vasitəsilə gətirilir. Elektrik enerjisi istehsalı – 32,0 mlrd. *kVt·saat* (2011), əksər hissəsi İES-lərdə hasil olunur (ən iriləri: Lukoml – 2400 min *kVt*, Smoleviçi – 987 min *kVt*, Beryozovka DRES-i – 920 min *kVt*, Qrodno İEM-2 – 170 min *kVt*). B.-un enerji sisteminin istifadə etdiyi yanacağın 80%-indən çoxu Rusiyadan idxal olunan təbii qazın payına düşür. SES-lər resp.-nın enerji təminatında mühüm əhəmiyyət kəsb etmir (21 SES-in ümumi gücü 11 min *kVt* təşkil edir). Energetikası daxili tələbatın təqr. 75%-ini ödəyir. Enerjinin çatışmayan miqdarı isə İqnalina (Litva) və Smolensk (Rusiya) AES-lərindən alınır.

B.-un metallurgiyası miqyasına görə böyük deyildir (2003 ildə qara metallar prokatı 1,5 mln. *t*). Əsas metallurgiya z-dları: poladlıq çuqun z-du (Jlobin), metal ovuntularından məmulatlar istehsalı z-du (Molodeçno), alüminium ərintiləri z-du (Qlubokoye) və s.

B. maşınqayırma kompleksinin əsas sahəsi ağıryüklü avtomobillərin (2011 ildə 22,3 min ədəd) istehsalı üzrə ixtisaslaşan avtomobil istehsalıdır. *"Belavtomaz"* istehsalat birliyinə Minsk avtomobil z-du (baş müəssisədir, 7,5–30 *t* yükqaldırma qabiliyyəti olan avtomobillər, yarımqoşqulu dartı maşınları, yükünü özü-boşaldan maşınlar, qoşqular, xüsusi texnika və avtobuslar), Belarus avtomobil z-du (Jodino; karyerlərdə faydalı qazıntıların açıq işlənilməsi üçün 40-, 75-, 110-, 130-tonluq "BelAZ"-lar), Mogilyov avtomobil z-du (karyerlər üçün yükünü özü-boşaldan maşınlar, güclü dartı maşınları və skreperlər), Minsk təkərli yedəkçi maşınlar z-du (yükqaldırma qabiliyyəti 25–70 *t* olan avtoqatarlar, seysmik kəşfiyyat və qazıma qurğularının montajı üçün və müxtəlif yükqaldırma qabiliyyətli şassilər), həmçinin avtomobil detallarının istehsalı üzrə ixtisaslaşmış müəssisələr (Minsk ressor, Baranoviçi aqreqat, Qrodno kardan valları, Jodino ağır ştamplar z-dları və s.) daxildir. Maşınqayırma kompleksinin digər mühüm sahələri traktorqayırma (34 min traktor) və k.t. maşınqayırmasıdır. "Minsk traktor zavodu" (MTZ, dünyada ən iri k.t. texnikası istehsalçılarından biridir, "Belarus" universal təkərli traktorlar istehsal edir) istehsalat birliyinə Vitebsk traktor ehtiyat hissələri z-du, Bobruysk traktor detalları və areqatları z-du, Minsk xüsusi alət və texnoloji avadanlıq z-du kimi aparıcı müəssisələr daxildir. Minskdə motosikllər istehsal olunur. B.-da müxtəlif k.t. texnikası istehsal edən z-dlar şəbəkəsi yaradılmışdır: özügedən və qoşqulu yemyığan kombaynlar (Qomel), kartofyığan maşınlar (Lida), senaj qülləlləri və heyvandarlıq fermaları üçün avadanlıq (Baranoviçi), gübrəsəpən maşınlar (Bobruysk). Dəzgahqayırma inkişaf etmişdir (5,3 min metalkəsən dəzgahlar, avtomat xətlər, dəmirçi-pres avadanlığı); əsas mərkəzləri Minsk (avtomat xətlər və aqreqat dəzgahlar z-du), Baranoviçi (dəzgahqayırma z-du), Vitebsk, Qomel, Orşa. 1960-cı illərdən cihazqayırma və elektron sənayesi yüksək templə inkişaf edir. Əsas mərkəzləri: Minsk (hesablama texnikası vasitələri), Qomel (elektro- və radioölçü cihazları), Vitebsk, Brest, Mogilyov (texnoloji proseslərə nəzarət və tənzimləmə cihazları). Radioelektron sənayesinin konversiya müəssisələri yeni rabitə sistemləri, tibbi texnika, enerjiqənaətli işıqlandırma cihazları və s. istehsal edir. Məişət texnikası cihazlarının istehsalı yaradılmışdır (soyuducular, buzxanalar, paltaryuyan maşınlar, televizorlar).

Minsk avtomobil zavodunun məhsulları: MAZ-5440 yük avtomobili (*solda*) və MAZ-251 avtobusu (*sağda*).











İstiqlaliyyət meydanı. Minsk.

Kimya və neft-kimya sənayesi mineral gübrələrin (2011 ildə 6,3 min *t*.; əsasən, Starobinsk yatağındakı kalium duzlarının həqiqi resursları əsasında), yanacağın və sonrakı kimyəvi emal üçün yarımfabrikatların, sintetik qatranların və plastik kütlələrin (491,7 min *t*.), texniki rezin məmulatlarının, avtomobil şinlərinin (3,2 mln. ədəd) və s. istehsalında ixtisaslaşır. Aparıcı müəssisələri "Belaruskalium" kombinatı (Soliqorsk), Qomel fosfor gübrələri z-du, "Azot" (Qrodno), Novopolotsk və Mozır neft emalı z-dları (ümumi gücü 45 mln. *t*.-dan artıqdır; 2004 ildə 18,5 mln *t*. emal olunmuşdur), Novopolotsk kimya kombinatı, "Belarusrezin-texnika" (Bobruysk). Plastik kütlə məmulatları (Borisov və Polotsk), lavsan (Mogilyov), kaprolaktam (Qrodno), laklar və boyalar (Lida), süni dəri (Pinsk) z-dları var. Bobruysk ş.-ndə Rusiya kauçuku əsasında şin istehsal edilir ("Belşina"). Resp.-nın kimya kompleksində yeni istiqamət biotexnologiyaların intensiv inkişafıdır (Novopolotsk yem əlavələri istehsalı üzrə z-du).

Meşə, ağac emalı və sellüloz-kağız sənayesi yerli meşə ehtiyatlarına əsaslanır. Oduncağın sənaye tədarükü Qomel, Vitebsk, Minsk vilayətlərində və Brest vil.-nin ş.-ində aparılır. Emal üçün yararlı oduncağa olan tələbatın təqr. 75%-i ehtiyatlar hesabına ödənilir. Ağac emalı (Bobruysk, Qomel, Mozır, Qrodno, Borisov); faner, kibrit (Peçitsa, Mostı, Pinsk), sellüloz-kağız (Svetloqorsk) istehsalı inkişaf etmişdir. İri dövlət konsernləri "Bellesbumprom", "Mozırdrev" xammalın tədarükündən hazır məhsulun satışına qədər olan bütün mərhələləri birləşdirir.

Yüngül sənaye müəssisələri trikotaj-tikiş məmulatları (Minskdə "Milavitsa", "Alesya", Baranoviçi və Brestdəki f-klər), ayaqqabı (Vitebskdə "Belvest"), xəz və dəri məmulatları istehsal edir. Yeyinti sənayesi müəssisələri ət, süd, yağpiy məhsulları, makaron, çörək-bulka, şirniyyat məmulatları və s. istehsal edir. B. yüksəkkeyfiyyətli xörək duzunun iri istehsalçısıdır (Mozır yatağından çıxarılan daşduz əsasında).

**Kənd təsərrüfatı**. K.t. yerlərinin sah. 9,11 mln. *ha*-dır (ölkə ərazisinin 43,9%-i), o cümlədən 6,1 mln. *ha* (67%) əkin yeri, 2,8 mln. *ha* (31%) – biçənək və otlaqlardır. Bitkiçilik məhsulları üstünlük təşkil edir (2010 ildə 55,2%). Çovdar, arpa, buğda, kartof, tərəvəz, şəkər çuğunduru, kətan və s. bitkilər becərilir. Həddindən artıq rütubətli torpaqların meliorasiyası vasitəsilə k.t. yerləri çoxaldılır. Qurudulmuş torpaq fondu 3 mln. *ha*-dan çoxdur, bitkiçilik məhsullarının 1/3 hissəsi onlardan alınır.

Heyvandarlığın əsasını südlük-ətlik maldarlıq təşkil edir; şəhərətrafı zonalar – südlük, bəzi meşəlik r-nlar isə – ətlik-südlük maldarlıq üzrə ixtisaslaşmışdır; hər yerdə donuzçuluq (ətlik və bekonluq kökəldilmə üstünlük təşkil edir) və quşçuluq var. Mal-qara növü üzrə ət istehsalının strukturu: mal əti və dana əti 44%, donuz əti 44%, quş əti 10%. Mal-qaranın və quşların ümumi sayı və heyvandarlıq məhsullarının istehsalı 1990-cı illərin əvvəlinə nisbətən aşağı düşmüşdür (cədvəl 1, 2).

Cədvəl 1. **K.t. məhsullarının əsas növləri**, min *t*.

| | 1991 | 2003 | 2011 |
|---|---|---|---|
| Taxıl | 6296 | 5449 | 8375 |
| Şəkər çuğunduru | 1147 | 1920 | 4485 |
| Kartof | 8958 | 8649 | 7721 |
| Tərəvəz | 918 | 2002 | 1979 |
| Ətlik mal-qara və quş | 1065 | 605 | 1020 |
| Süd | 6812 | 4683 | 6504 |
| Yumurta (mln. *ədəd*) | 3718 | 2815 | 3752 |

K.t. məhsullarının təqr. yarısı əh.-nin şəxsi təsərrüfatlarında və fermer təsərrüfatlarında istehsal olunur.

Cədvəl 2. **Mal-qaranın və quşların sayı,** mln. baş

| | 1992 | 2004 | 2011 |
|---|---|---|---|
| Qaramal | 6,6 | 3,9 | 4,2 |
| Donuzlar | 4,7 | 3,3 | 4,0 |
| Qoyun və keçilər | 0,4 | 0,1 | 0,1 |
| Quşlar | 51,7 | 24,5 | 39,9 |

**Nəqliyyat**. B. ərazisindən beynəlxalq əhəmiyyətli paralel və meridian istiqamətində mühüm d.y. və avtomobil magistralları keçir (Paris – Brüssel – Minsk – Moskva; S.-Peterburq – Vitebsk – Qomel – Kiyev – Odessa; Tallin – Riqa – Vilnüs – Minsk – Qomel – Kiyev). D.y.-larının uz. 5,5 min *km*-dir (o cümlədən 0,9 min. *km*-i elektrikləşdirilmiş). D.y. nəql., əsasən, kütləvi yüklərin daşınması üzrə daxili və xarici əlaqələri təmin edir. Avtomobil yollarının uz. 83 min *km*-dir (2010), onlardan 70,2 min *km*-i bərk örtüklüdür. Daşımaların strukturunda ixtisaslaşmış boru kəməri nəql. əhəmiyyətli yer tutur ("Drujba" magistral neft kəməri və "Yamal – Avropa" magistral qaz kəməri). Ağac axıdılması üçün istifadə edilən çayların və kanalların uz. 14 min *km*-dən çoxdur. Su yolu ilə daşımaların əsas hissəsi Dnepr, Pripyat, Berezina, Soj çayları ilə həyata keçirilir. Əsas yüklər mineral-tikinti materialları (85%), oduncaq və meşə materiallarıdır. İri çay portları: Brest, Mozır, Vitebsk, Mogilyov, Qomel və s. 5 beynəlxalq aeroport (ən böyüyü "Minsk-2"-dir) fəaliyyət göstərir.

**Xarici iqtisadi əlaqələr**. B. kəsirli (defisit) xarici ticarət dövriyyəsinə malikdir. İdxalın dəyəri (28,659 mlrd. ABŞ dolları, 2009) ixracın dəyərindən (21,304 mlrd. ABŞ dolları, 2009 çoxdur. İxracın dəyərinin təqr. 27%-i mineral məhsulların (tikinti materialları və s.), təqr. 25%-i avtomobillərin, dəzgahların, k.t. texnikasının, soyuducuların, buzxanaların və s.; 15,4%-i azot və kalium mineral gübrələrinin, plastik kütlələrin; 8%-indən çoxu k.t. və yeyinti sənayesi məhsullarının; 6,5%-i toxuculuq və trikotajın; təqr. 6%-indən çoxu oduncaq və ondan hazırlanan məmulatların payına düşür. İdxalın təqr. 30%-ini yanacaq (əsasən, Rusiyadan), təqr. 25%-ini maşınqayırma məhsulları, 13%-dən çoxunu metallar (əsasən, Rusiyadan), 10%-dən çoxunu k.t. və yeyinti məhsulları təşkil edir. Əsas xarici ticarət əlaqələri Rusiya (ixracatın 39%-i, idxalatın 52%-i), Almaniya, Polşa, MDB ölkələri və s. ilədir.

### Silahlı qüvvələr

B. silahlı qüvvələrinin (SQ) ümumi sayı 65 min nəfərdir (2004); o cümlədən 50 min nəfər hərbi qulluqçu və 15 min nəfər mülki personaldır. Quru qoşunlarından (QQ; 20,5 min nəfər), HHQ və HHM-dən (16 min nəfər), mərkəzi hərbi idarəçilik orqanlarından (1,3 min nəfər), hərbi birləşmələrdən, hərbi hissələrdən, mərkəzə tabe olan idarələrdən (27,2 min nəfər) ibarətdir. SQ-in ali baş komandanı olan ölkə prezidenti Müdafiə Nazirliyi, Baş qərargah və SQ-in müxtəlif növlərinin qərargahları vasitəsilə SQ-ə ümumi rəhbərliyi həyata keçirir. Hərbi doktrinası (2002) müdafiə yönümlüdür. QQ-nın Qərb (Qrodno ş.) və Şimal-Qərb (Borisov ş.) operativ komandanlıqları məsuliyyət daşıdıqları zonada nəinki SQ-in, həmçinin ölkənin hərbi təhlükəsizliyini təmin etmək məqsədilə dövlətin digər güc strukturlarının fəaliyyətini koordinasiya edir. Operativ komandanlıqların tərkibinə mexaniklәşdirilmiş birləşmələr, onların saxlanc bazaları, qoşun növlərinin və xüsusi qoşunların birləşmələri və hərbi hissələri, texniki təchizat və arxa cəbhənin təchizatı ilə məşğul olan hərbi hissələr daxildir. QQ T-55 və T-80 tankları; PDM-1, PDM-2 piyadaların döyüş maşınları, ZT-60, ZT-70, ZT-80, ZT-D zirehli transportyorları, DDM-1 (desantın döyüş maşını), DKM-1 (döyüş kəşfiyyat maşını) və s. ilə silahlanmışdır. HHQ və HHM-də də Qərb və Şimal-Qərb operativ-taktiki komandanlıqları yaradılmışdır. Onların tərkibində təqr. 80 döyüş təyyarəsi (Su-24, Su-25, Su-27, MiQ-23, MiQ-29 və s.) vardır. Zenit raket qoşunları S-125, S-200, S-300, "Buk" HHM kompleksləri ilə silahlanmışdır. Helikopter parkında Mi-8, Mi-24, Mi-26 helikopterləri mövcuddur. Əsas hərbi hava bazaları Baranoviçi, Vitebsk, Maqulişe və Rossdur. Operativ və operativ-taktiki komandanlıqlar məsuliyyət daşıdıqları zonada silahlı münaqişələrin lokalizasiyası və neytrallaşdırılması üzrə tapşırıqları yerinə yetirməyə, həmçinin qoşunların operativ-strateji yerləşdirilməsini vaxtında təmin etməyə qadirdir. SQ-in komplektləşdirilməsi sistemi müxtəlifdir (çağırış üzrə və müqavilə ilə). Zabit heyəti milli hərbi-tədris məktəblərində, həmçinin MDB ölkələrinin hərbi-tədris məktəblərində hazırlanır. Sərhəd qoşunları, DİN-in daxili qoşunları, mülki müdafiə qoşunları da vardır.

Naroç kurortu.



### Səhiyyə

B.-da əhalinin hər 10 min nəfərinə 127 xəstəxana çarpayısı, 48 həkim, 122 orta tibb işçisi düşür (2003). Səhiyyəyə qoyulan xərc ÜDM-in 5%-i qədərdir. Ölümün əsas səbəbləri ürək-damar sistemi xəstəlikləri, zəhərlənmələr, travmalar, bədxassəli şişlərdir. Kurortları: Jdanoviçi, Naroç və s.

### İdman

B. ərazisində qədimdən oxatma, üzgüçülük, qayıqda avarçəkmə, yumruq döyüşləri, milli güləşin müxtəlif növləri yayılmışdı. 20 əsrin əvvəllərindən bir çox gimnaziya və şəhər məktəblərinin bazilərində bədən tərbiyəsi tədris edilirdi. 1911 ildə Mogilyovda ilk dəfə futbol üzrə şəhər kuboku uğrunda yarışlar, 1913 ildən Minskdə ağır atletika, Qomeldə yüngül atletika çempionatları keçirilmişdir. 1919 ildən B.-un bir çox şəhərində hərbi-idman klubları təşkil edilmişdir. 1923 ildə təsis edilmiş Ali bədən tərbiyəsi şurası, sonrakı ildə Minskdə 1-ci Ümumbelarus bədən tərbiyəsi bayramını keçirmişdir. 1928 il 1-ci Ümumittifaq spartakiadasına hazırlıqla əlaqədar B.-da bir çox idman qurğuları tikilmişdir. 1936–37 illərdə həmkarlar ittifaqlarının "Temp", "Lokomotiv", "Alov" könüllü idman cəmiyyətləri yaradılmışdır. 1937 ildə bədən tərbiyəsi texnikumu bazasında Belarus Dövlət Bədən Tərbiyəsi İn-tu təsis edilmişdir. 1956 ildə yaradılmış "Məhsul" kənd idman cəmiyyəti ətrafında 3,5 mindən artıq bədən tərbiyəsi kollektivi birləşmişdir (350 min nəfərdən artıq). 1980 ildə Minskdə "Dinamo" stadionunda (40 mindər artıq tamaşaçı) futbol üzrə Olimpiya turniri oyunları keçirilmişdir. 1982 ildə "Dinamo" (Minsk) komandası futbol üzrə SSRİ çempionu olmuşdur. Ən tanınmış idmançılardan: idman gimnastikası üzrə 6 dəfə Olimpiya çempionu V.V. Şerbo; dəfələrlə Olimpiya oyunları çempionları qılıncoynatma üzrə Y.D. Belova, V.A. Sidyak, baydarka və kanoedə avarçəkmə üzrə V.V. Parfenoviç, şahmat üzrə dünya birinciliyinə iddiaçıların oyunları iştirakçılarından İ.Y. Boleslavski, B.A. Gelfand, K.A. Zvorıkina. 1991 ildə B. Milli Olimpiya Komitəsinin əsası qoyulmuşdur; 1994 ildən B. idmançıları Qış Olimpiya Oyunlarında, 1996 ildən Yay Olimpiya Oyunlarında iştirak edirlər. 1994–2008 illərdə B. idmançıları Yay Olimpiya Oyunlarında 10 qızıl, 22 gümüş, 39 bürünc, Qış Olimpiya Oyunlarında isə 2 gümüş, 3 bürünc medal qazanmışlar. 2002 ildə Solt-Leyk-Sitidə hokkey üzrə B. yığma komandası İsveç yığmasına qalib gələrək 1/2 finala vəsiqə qazanmışdı. 2004 ildə tennis üzrə kişilərdən ibarət B. yığma komandası Devis kubokunun 1/2 finalına çıxmışdı. N.M. Zvereva və M. Mirnı dəfələrlə bir çox iri tennis turnirlərinin qalibləri olmuşlar. V. Samsonov stolüstü tennis üzrə Dünya kubokunun ikiqat qalibidir (1999, 2001).

### Təhsil. Elm və mədəniyyət müəssisələri

B.-un təhsil sisteminə məktəbəqədər tərbiyə, ümumi baza, ümumi orta, peşə-texniki, orta ixtisas, ali və alitəhsildənsonrakı təhsil daxildir. 15 yaşdan yuxarı əhalinin savadlılıq səviyyəsi 99,7% təşkil edir (2004).

Məktəbəqədər yaşlı (1–6 yaş) uşaqlar üçün körpələr evi, uşaq bağçaları, məktəbəqədər yaşlı uşaqlar üçün inkişaf mərkəzləri, uşaq bağça-məktəbləri fəaliyyət göstərir. 2003/04 tədris ilində 5 yaşlı uşaqların 100%-i məktəbəqədər təhsil müəssisələrinə cəlb olunmuşlar. Ümumi orta təhsil ibtidai, baza və axşam (növbəli) ümumtəhsil məktəbləri, gimnaziyalar, liseylər, internat-məktəblər, sanatoriya internat-məktəbləri, pedaqoji tədris kompleksləri tərəfindən həyata keçirilir. Ümumi orta təhsil müəssisələrində (təhsil müddəti 12 ildir) lisey və gimnaziya sinifləri, həmçinin ayrı-ayrı fənləri dərindən öyrədən siniflər təşkil olunmuşdur. 4408 orta ümumtəhsil müəssisəsində 1369 min şagird təhsil alır (2004). Orta ixtisas təhsili texnikum, kollec və peşə-texniki məktəblərində həyata keçirilir (204 orta ixtisas təhsili müəssisəsində 162 mindən çox şagird təhsil alır).

Ali təhsil sisteminə klassik un-tlər, profilli un-tlər (akademiyalar), in-tlar və ali kolleclər daxildir. 2003/04 tədris ilində 59 ali məktəbdə (o cümlədən 14 qeyri-dövlət) 338 mindən çox tələbə təhsil almışdır. İri dövlət ali təhsil müəssisələri: Polotsk (1581 ildə təsis olunmuşdur) və Qomel (1930–33) un-tləri, Minsk ş.-ndə Belarus (1921), pedaqoji (1922), tibb (1930), texnoloji (1930), iqtisad (1933) un-tləri və s.; kənd təsərrüfatı (Mogilyov vil.-nin Qorki k., 1836), musiqi (1932; 1992 ilədək konservatoriya; 5 filialı var), incəsənət (1945 ildə teatr in-tu kimi təsis olunmuşdur) akademiyaları və s. Belarus Milli EA (1929) ölkənin aparıcı elmi müəssisəsidir; tərkibində 50-dən çox elmi tədqiqat in-tu fəaliyyət göstərir.

B.-da 131 muzey, o cümlədən Minskdə Milli Rəssamlıq muzeyi (1939), Böyük Vətən müharibəsi muzeyi (1943), B.-un Milli tarixi və mədəniyyəti muzeyi (1957); Mogilyovda (1867 ildə təsis olunmuşdur) və Qomeldə (1919 ildə açılmışdır) diyarşünaslıq muzeyi və s.; Xatında memorial kompleks (1969 ildə açılmışdır), "Brest qəhrəman-qala" (1971 ildə açılmışdır); "Berestye" arxeologiya muzeyi (Brest ş.; 1972 ildə təsis olunmuş, 1982 ildə açılmışdır); A. Mitskeviç (1938), M. Şaqal (1992) və b.-nın ev-muzeyləri; M.A. Boqdanoviç, Y.Kolas, Y. Kupala, P. Brovka və b.-nın ədəbiyyat muzeyləri fəaliyyət göstərir. 5000-dək kitabxana, o cümlədən Minsk ş.-də yerləşən Belarus dövlət un-tinin əsaslı kitabxanası (1921), Belarus milli kitabxanası (1922), Y. Kolas ad. mərkəzi elmi kitabxana (1925), Prezident kitabxanası (1933



Belarus Milli Kitabxanası. Minsk.

Belarus Dövlət İqtisad Universiteti.



ildə hökumət kitabxanası kimi yaradılmış, 1994 ildən indiki adını daşıyır), Respublika elmi-texniki kitabxanası (1977) vardır.

**Kütləvi informasiya vasitələri**

Ölkədə belarus, rus, polyak və litva dillərində 1500-ə qədər dövri nəşr, o cümlədən 900-dən çox qəzet, 520 jurnal buraxılır (2005). "Zvyazda", "Sovetskaya Belorussiya – Belarus seqodnya", "Znamya yunosti", "Narodnaya qazeta", "Respublika" əsas qəzetlərdir. B.-da radio verilişlərinə 1925 ildən başlanılmış, 1956 ildə Minskdə teleməркəz yaradılmışdır. 57 (o cümlədən 17 dövlət) teleproqram yayımlanır. "Belteleradiokompaniya" 9 dövlət radioproqramını və 7 teleproqramı birləşdirir. B.-da 8 informasiya agentliyi fəaliyyət göstərir. Belarus dövlət teleqraf agentliyi (BelTA) 1938 ildə yaradılmışdır.

**Ədəbiyyat**

B. ərazisində ədəbiyyatın inkişafı 10 əsrdə xristianlığın qəbulu və qədim slavyan dilində yazının yayılması ilə əlaqədardır. Bu dövrdən başlayaraq indiki B. ərazisində dini və dünyəvi yazılı abidələr tərcümə olunmaqla yanaşı, orijinal əsərlər də yaradılırdı (Kirill Turovskinin "Nəsihətlər"i, 12 əsr və s.). 13 əsrin 2-ci yarısı–15 əsrdə salnamələr ("Belarus-Litva salnaməsi", 1446 və s.), hüquqi aktlar qədim B. dilində tərtib olunurdu. 14 əsrin sonlarından katolik kilsəsinin təsiri artır, polyaklaşdırma və latın dilinin yayılması prosesi güclənirdi. Ədəbiyyat qədim B., latın və polyak dillərində yaradılırdı. 15 əsrin sonu – 16 əsrdə B. ərazisində Avropa *İntibah* və *Reformasiya* ideyaları yayıldı. İlk dəfə şərqi slavyanlarda kitab çapı yarandı: F. *Skorina* "Əhdi ətiq"in 23 kitabını qədim B. dilinə çevirərək Praqada (1517–19) çap etdirdi. Latın ədəbiyyatı N. Qussovskinin "Zubr haqqında nəğmə" (16 əsrin əvvəlləri) epik poeması ilə təmsil olunurdu. "Bıxovetsin xronikası" (16 əsrdə tərtib edilmişdir) salnamələr toplusunda tarixi nəsr və belletristika elementləri mövcuddur. 16 əsrin 2-ci yarısında polyaklaşdırma siyasətinin gücləndirilməsi fonunda Reformasiya publisistikasında, satira və bəlağət nəsrində katolisizmə qarşı müqavimət artırdı. Publisist və tərcüməçi S. Budnı qədim B., polyak və latın dillərində yazırdı ("Katexizis"i ön sözlə qədim B. dilində çap etdirmişdir, 1562). Yaradıcılığına Avropa barokko üslubunun təsiri hiss olunan *Simeon Polotski* qədim B. ədəbiyyatının sonuncu nümayəndəsi olmuşdur. 17 əsrdə satirik və polemik ədəbiyyat inkişaf etmişdi ("Meleşkanın bəhsi" və s.). 1697 ildə Polşa seyminin qədim B. dilində kitabların nəşrini qadağan etməsi 18 əsrdə B. ədəbiyyatının inkişafını ləngitdi. Lakin bu dövrdə ilk dəfə danışıq dilindən istifadə etməklə komediya janrında əsərlər ("Komediya", K. Maraşevski, 1787) yaradılırdı.

19 əsrin 1-ci yarısında *romantizmin* təsirilə xalqın folkloruna, tarixinə və adətlərinə maraq artdı. Xalq poeziyası nümunələri yazıya alındı və çap olundu ("Kənd nəğmələri...". Y. Çeçot, 1837–46; 6 toplu). Satirik parodiya poemaları (19 əsrin 1-ci yarısı anonim poemaları: "Astarına çevrilmiş Eneida", "Taras Parnasda") yarandı. 1866 ildə V.İ. *Dunin-Martsinkeviç* "Pinsk şlyaxtası" komediyası ilə milli teatrın əsasını qoydu. 19 əsrin 2-ci yarısı B. ədəbiyyatında milli özünüdərkin oyanışı (Y. Luçinanın poeziyası) müşahidə olunurdu. 1863 il üsyanının başçısı Kastus Kalinovskinin publisistikası B. ədəbiyyatı tarixində mühüm yer tuturdu. F.K. *Boquşeviç* "Belarus tütəyi" (1891) poeziya toplusunun müqəddiməsində irəli sürdüyü milli dirçəliş proqramında B. ədəbi dilinin formalaşmasını təxirəsalınmaz məsələ hesab edirdi.

19 əsrin sonu – 20 əsrin əvvəllərində yeni B. ədəbiyyatı banilərinin (Ş. Yadvigin, Tyotka, Y. *Kupala*, Y. *Kolas*, M.A. *Boqdanoviç*, T. Qartnı və b.) yaradıcılığında kəndli obrazı əsas yer tuturdu. Poeziyada Avropa lirikasının klassik forma və janrlarından istifadə olunurdu (Boqdanoviç; Kupala və Kolasın sonetləri). B. bədii nəsri (Kolas, Yadvigin, Z. *Byadulya*, M. Qoretski və b.-nın hekayələri) yaranır, dramaturgiya (Kupala, F. Alexnoviç) inkişaf edir, ədəbi tənqid (Y. Karski, A. Lutskeviç) formalaşırdı.

B. dilinə dövlət statusunun verilməsi, belaruslaşdırma mədəni siyasəti 1920-ci illərdə ədəbiyyatın güclü inkişafına, onun mövzu və obraz sistemində yeniliklərə yol açdı. Ədəbi dövri nəşrlər ("Polımya" jurnalı, 1922), yazıçı birlikləri ("Maladnyak", 1923; "Uzvışşa", 1926 və s.) meydana gəldi.

Yeni nəsil yazıçıların (M. Çarot, A. Dudar, M. *Lınkov*, K. *Krapiva*, Y. Mavr, P. Qlebka) yaradıcılığında inqilabi mövzu romantik pafosla, ritorik deklarativliklə birləşirdi. Yaşlı nəslə mənsub yazıçıların yaradıcılığında milli həyat tərzinin hərtərəfli təcəssümünə (Y. Kolasın milli ənənələri və kəndli məişətinin xüsusiyyətlərini təsvir edən "Yeni torpaq" poeması, 1923), şəxsiyyətin daxili aləminin dərindən təsvirinə meyil güclü idi. Roman (ilk belarus romanı "Torpağın şirəsi", T. Qartnı, 1–4 hissə, 1922–29; Kolasın belarus ziyalısının taleyindən bəhs edən "Yolayırıcında" trilogiyası, 1923–54) və povestlərdə inqilab, vətəndaş müharibəsi hadisələri və sosializm yenilikləri təsvir olunurdu. 1920 ildə M. Qoretskinin "Belarus ədəbiyyatı tarixi" kitabı çapdan çıxdı. 1930-cu illərdə nəsr, xüsusilə roman janrı üstünlük təşkil edirdi; sosial-psixoloji və fəlsəfi nəsr ("Üçüncü nəsil", K. *Çornı*, 1935) meydana gəldi. K. Krapivanın təmsil və dramaturgiyası ("Axırda gülən" komediyası, 1939) böyük hadisəyə çevrildi. Qərbi B.-da assimilyasiya siyasəti şəraitində inkişaf edən ədəbiyyat, əsasən, poeziya ilə təmsil olunurdu (V. Jilka, M. *Tank*, F. Pestrak və b.). Müharibə illərində qəhrəmanlıq pafoslu publisistika, kiçik poetik janrlar (Y. Kolas, P. *Brovka*, M. Tank və A. *Kuleşovun* lirikası) daha çox inkişaf edirdi.

20 əsrin 2-ci yarısında B. yazıçılarının yaradıcılığında müharibə mövzusu başlıca yer tuturdu. Roman janrında epik meyillərin güclənməsi M. Lınkovun "Unudulmaz günlər" (1948–58) tetralogiyası və İ. Melejin "Minsk istiqaməti" (1949–52) romanında əksini tapmışdır. 50-ci illərin ortaları, 60-cı illər B. ədəbiyyatında qəhrəmanlıq, mənəvi seçim, insanın şərə qarşı çıxa bilməsi mövzuları geniş yer tuturdu (R. *Borodulin*, Q. Buravkin, V. Korotkeviç, V. *Bıkov* və b.). 70-ci illərdə ədəbi tənqid və ədəbiyyatşünaslıq inkişaf edir (A. Adamoviç, S. Aleksandroviç, V. Borisenko, V. Kolesnik, O. Loyko və b.), ədəbiyyat tarixi və nəzəriyyəsinə dair əsərlər, görkəmli B. yazıçıları haqqında monoqrafiyalar nəşr olunurdu. 1970–2000-ci illərdə B. ədəbiyyatının əsas janrına çevrilmiş romanla yanaşı müasir cəmiyyətin kəskin problemlərinə toxunan sənədli nəsr də (A. Adamoviç, Y. *Brıl*, V. Kolesnik, S. Aleksieviç) inkişaf edir, Çernobıl mövzusuna xüsusi yer verilir ("Sular acı oldu" sənədli povesti, V. Gigeviç və O. Çernov, 1991; "Çernobıl duası", S. Aleksieviç, 1997). Poeziya xeyli janr-üslub müxtəlifliyi əldə edir. B. mühacir şairlərinin (N. Arsenyeva, A. Solovey və M. Sednevin lirikası) əsərləri çap olunur.

P. Brovkanın "Günlər keçir" kitabı, Y. Kupala, Y. Kolas, P. Qlebka, A. Kuleşov, M. Tank, Y. Brıl və b. B. yazıçılarının bir sıra əsəri Azərb. dilinə tərcümə edilmişdir. "Azərbaycan nağılları", S. Vurğunun bir sıra şeirləri, M. İbrahimovun "Gələcək gün" romanı, Əbülhəsənin "Tamaşa qarının nəvələri" povesti, həmçinin başqa Azərb. şair və yazıçılarının əsərləri B. dilində nəşr olunmuşdur.

**Memarlıq və təsviri sənət**

Ölkə ərazisindəki qədim incəsənət nümunələri (sümük sırğalar, boyunbağılar, ornamentli həmaillər) Üst Paleolit, Neolit və Tunc (ağac, sümük və buynuzdan insan, heyvan fiqurları, naxışlı keramika) dövrlərinə aiddir. Erkən Dəmir dövründə tunc və dəmir pilləklər, qolbaqlar, ev heyvanlarının (əsasən, at) gil fiqurları, hörgülü divarları və dirəkli dam örtüyü olan kərtmə yaşayış tikililəri geniş yayılmışdı. B. ərazisindən tapılmış qədim slavyan incəsənəti abidələri eramızın 1-ci minilliyinə aid edilir.

11–12 əsrlər B. bədii irsi Bizans mədəniyyətinin təsiri altında formalaşan qədim rus incəsənəti ilə bağlı olmuşdur. Polotskdakı 5 nefli xaçlı-günbəzli Sofiya məbədi ilk monumental tikilidir (1044 və 1066 illər arasında; 18 əsrdə yenidən tikilmişdir). 12 əsrdə Polotsk memarlıq məktəbi yarandı. Bizans üslubunda işlənmiş Turov İncilinin (11 əsr, Litva EA-nın kitabxanası) miniatürləri ən qədim belarus təsviri sənət abidələrindəndir.

13–15 əsrlər memarlığı və incəsənəti belarus xalqının təmərküzləşməsi, Litva və qərbi rus torpaqlarının Böyük Litva knyazlığında birləşməsi ilə bağlıdır. Bu dövrdə inşa texnikası müxtəlif tip müdafiə tikililəri ilə fərqlənən qəsr tikintisi böyük əhəmiyyət kəsb etmişdir: Kamenetsdə kərpiçdən tikilmiş müşahidə qülləsi (1271–89); daş və kərpicdən düzbucaqlı planda tikilmiş Novoqrudka (14–16 əsrlər), Lida (1330-cu illər), Krevo (1338 ildən sonra) qəsrləri. Şərqdə (Polotsk, Vitebsk, Mogilyov və s. ş.-lərdə) ağacdan qəsrlər inşa olunurdu. Kitab miniatüründə əksini tapan təsviri sənət dilinin təkamülü Balkan təsiri ilə bağlı olmuşdur (13–15 əsrlərə aid İncillər). Kilsə heykəltəraşlığı əsərlərində roman üslubunun təsiri aydın görünür ("Çarmıxa çəkmə", 14 əsr, Belarus Rəssamlıq Muzeyi, Minsk).


İ. Şişkin. "Bataqlıq. Polesye". 1890.

Humanizm və Reformasiya, daha sonra Kontrreformasiya ideyalarının yayılması 16–18 əsrlər B. mədəniyyətinə böyük təsir göstərmişdir. Ş.-lərin və maqnat iqamətgahlarının *Renessans* üslubunda planlaşdırılması təcrübəsi geniş yayılmışdı (Nesvij şəhər-iqamətgahı, 1583–17 əsrin əvvəli). Dini memarlıq tikililərində müxtəlif konfessiya ənənələri birləşirdi. Son *qotika* və *İntibah* dövrü memarlıq elementlərini özündə birləşdirən xüsusi məbəd-qala tipi yaranmışdı: Sınkoviçi (15 əsrin sonu – 16 əsrin əvvəli) və Murovanka (Maloye Mojeykovo, 1516–1542) qəs.-lərində pravoslav kilsələri. İşkold (1472), Qnezno (16 əsrin 1-ci yarısı), Çernavçitsı (1583) kostyollarının və Novoqrudkadakı Borisoqleb kilsəsinin memarlığında son qotika üslubunun cəhətləri üstünlük təşkil edirdi.

Son qotika incəsənətinin təsiri kostyolların mehrab heykəltəraşlığında özünü göstərirdi (məs., Novaya Mış k.-ndə, 16 əsrin sonu). İkona rəssamlığı xalq sənəti ənənələrinə söykənirdi ("Məryəm ananın mövludu", 1649, usta Pyotr Yevseyeviç, Belarus Rəssamlıq Muzeyi, Minsk). Çox vaxt qravüralardan nümunə kimi istifadə edilirdi; ikonalarda qızıl suyuna çəkilmiş, oyma naxışlı, renessans ornamentli fon yaradılırdı ("Paraskeva-Pyatnitsa", 16 əsr, Belarus Rəssamlıq

İdman sarayının qapalı buz meydançası. Minsk.





S. Prokofyev. "Romeo və Cülyetta" baletindən səhnə. Belarus Opera və Balet Teatrı.

Muzeyi, Minsk). Fransisk Skorina özünün nəşr etdiyi Bibliya üçün qravüralar işləmiş (1517–19), Şərqi Avropa kitab nəşri tərtibatına ilk dəfə İntibah dövrü prinsiplərini gətirmişdir. Boyakarlıqda təntənəli portret janrı inkişaf edirdi.

Mərkəzi Slutsk olmaqla, əl ilə naxışlı toxuculuq sahəsi yaranmışdı (onun əsasında 18 əsrin əvvəllərində "Slutsk kəmərləri" istehsal edən manufaktura meydana gəldi). 17 əsrin sonu –18 əsrin əvvəlində belarus qravüraları və kitab nəşrinin çiçəklənmə dövrü idi (M.Y. və V.M. Voşankalar, F. Angileyko və b.). 17 əsrin 2-ci yarısı – 18 əsrin əvvəllərində belarus ustalarının rus incəsənətinə böyük təsiri olmuşdur (barokko üslubunda məbədlərin yaradılması, dekorda kaşıdan istifadə, oymalı hündür ikonostasların meydana gəlməsi və s.).

B. torpaqlarının Rusiyaya birləşdirilməsindən sonra şəhərlərin yenidən müntəzəm planlaşdırılmasına və yeni tikinti işlərinə, xüsusən ölkənin şərq quberniyalarında [Polotsk, Vitebsk (son barokko üslubunda Ratuşa, 1775; klassisizm üslubunda Qubernator sarayı, 18 əsrin sonu), Mogilyov, Bıxov və Kopıs] ardıcıl olaraq başlanıldı.

*Klassisizm* üslubunda böyük saray-park ansamblları (Qrodnoda Yeni qəsr, 1734–51, M.D. Pöppelman, D. Yaux, İ.F. Knöbel), şəhər-iqamətgah ansamblları – Qomel (Rumyantsevlər–Paskeviçlər sarayı, 1785–93, tikinti 19 əsrin 1-ci yarısınadək davam etmişdir; Petropavlovsk böyük kilsəsi, 1809–19, memar M.Y. Klark), Çeçersk (1770–80-ci illər, memar C. *Kvarenginin* iştirakı ilə) yaradılırdı. Rujanı (1784–86, Y.S. Bekker), Snov (1827, B. Tıçetski), Jiliçi (1830-cu illər, K.İ. Podçaşinski) və b. yerlərdə malikanələr tikilirdi.

18 əsrin sonları – 19 əsrin 1-ci yarısında B. təsviri sənətində portret janrı hələ də aparıcı rol oynayırdı (S.K. Zaryanko F.A. Tulov); tarixi janr (V.M. Vankoviç), peyzaj (V. Dmoxovski), məişət boyakarlığı (Y. Karçevski), interyer və natürmort (İ.T. Xrutski) janrları da inkişaf edirdi.

19 əsrin 2-ci yarısı – 20 əsrin əvvəllərində memarlıqda *tarixilik* və *eklektizm* üçün səciyyəvi olan mülki binaların (bank, vağzal, teatr, məktəb, xəstəxana) inşası geniş yayılmışdı. Tipoloji layihələrdən geniş istifadə edilirdi (məs., Qrodnodakı Petropavlovsk kilsəsi, 20 əsrin əvvəli, Q.D. Qrimmin layihəsi əsasında). Fərdi layihələrdə malikanə tikintisi, memorial komplekslər əsas yer tuturdu.

Milli romantizm boyakarlıqda – tarixi kompozisiyalar (K. Alximoviç, Y. Monyuşko), peyzaj (A.Q. və İ.Q. Qoravskilər), məişət tabloları (N.Y. Silivanoviç, V. Dmoxovski) və portret sənətində (Y.M. Kruger və b.) ifadəsini tapmışdı. Y. Drozdoviçin yaradıcılığı *simvolizmə* yaxın idi. 19 əsrin sonlarında formalaşan yerli rəssamlıq mərkəzləri arasında K.S. *Maleviç* və M. *Şaqalın* oxuduğu Y.M. *Penin* Vitebskdəki məktəb-emalatxanası daha məşhur olmuşdur.

1920–80-ci illər B. sovet incəsənətinin əsas inkişaf mərhələlərini əks etdirir (1930-cu illərin iri inzibati bina kompleksləri: Minskdə Hökumət evi, Opera və Balet Teatrı, BSSR Elmlər Akademiyası və Kitabxanasının binaları, Mogilyovda Sovetlər evi, memarlar İ.Q. *Lanqbard*, Q.L. Lavrov və b.). Zəfər simvolikası və "şəhər-ansambl" konsepsiyası Böyük Vətən müharibəsində dağıdılmış Minsk və b. ş.-lərin prospekt və meydan ansambllarının bərpası layihələrində (M.O. Barş, Q.P. Badanov, Q.V. Zaborski, M.P. Parusnikov və b.) özünü göstərirdi.

1960–80-ci illərdə memarlıqda müasir tendensiyalar meydana gəlməyə başladı (Q.M. Benediktov, V.N. Malışev, S.S. Musinski, P.A. Şilay və b.). Xalqın müharibə illərindəki faciəsi "Xatın" (1968–69, heykəltəraş S.İ. Selixanov), Minsk yaxınlığındakı "Şöhrət kurqanı" (1969, heykəltəraş A.O. Bembel), "Brest qəhrəman-qala" (1971) memoriallarında ifadə olunmuşdur. Müharibə mövzusu, tarixə, milli ədəbi irsə, folklora müraciət rəssamlardan İ.O. Axremçik, Q.X. Vaşenko, M.V. Dansiq, heykəltəraşlar Z.İ. Azqur, A.O. Bembel, A.K. Qlebov və b.-nın yaradıcılığında əsas yer tutur.

Dövlətçiliyin təşəkkülü dövründə B. memarlığında hələ 1980-ci illərdən başlamış bərpaçılıq istiqamətində işlər inkişaf etdirilir, ş.-lərin tarixi görünüşünə qayıdış, abidələrin bərpası və yenidən yaradılması proqramları reallaşdırılır (Minskdə Ratuşa və ona yaxın tarixi tikililər kompleksi; Mir, Nesvij, Şklov, Turov şəhər və qəs. ansamblları). Yeni pravoslav məbədləri, kostyollar, protestant kilsələri tikilir və bərpa edilir. İ. Basov, R. Vaşkeviç, A. Zadorin, İ. Tişin, L. Xobotov və b. müasir təsviri sənət ustalarıdır.

### Musiqi

Belarus xalq musiqi sənəti rus, Ukrayna, qərbi və cənubi slavyan xalq musiqisi ilə sıx əlaqədardır. 18 əsrin 2-ci yarısında Nesvij, Slutsk, Slonim, Qrodno və Şklovda maqnatların saray kapellaları və təhkimli teatrları musiqi mədəniyyəti mərkəzlərinə çevrilmişdi. 19 əsrin əvvəllərindən B.-un musiqi həyatı quberniya şəhərləri Minsk, Vitebsk, Qrodno və Mogilyovda cəmləşmişdi: burada şəhər orkestrləri yaranmış, həvəskar tamaşalar oynanılırdı. B. musiqili teatrının inkişafında aktyor, musiqi gecələrinin və teatr dərnəyinin (1852) təşkilatçısı, komediyalar və librettolar müəllifi V.İ. *Dunin-Marsinkeviç* böyük rol oynamışdır. Polyak





bəstəkarı L. Roqovski və Litva bəstəkarı S. *Şimkus* İ.T. Buynitskinin Birinci belarus truppasında (1907–13) iştirak etmişlər. 1880-ci illərdə ilk musiqi cəmiyyətləri meydana gəlmişdir. 19 əsrdən belarusların musiqi folkloru öyrənilir. Pianoçu və bəstəkar A.İ. Abramoviçin (19 əsrin ortaları) əsərlərində ilk dəfə olaraq B. xalq mahnı və rəqslərindən istifadə olunmuşdur. BSSR yarandıqdan sonra Vitebsk, Minsk, Bobruysk və Qomeldə açılmış xalq konservatoriyaları (1918–21) sonralar musiqi texnikumları və məktəblərinə çevrilmişdir. B. Dövlət simfonik orkestri (1927), B. Dövlət xalq orkestri (1930), Bəstəkarlar İttifaqı (1938), B. konservatoriyası (1932, 1992 ildən Belarus Musiqi Akademiyası) təşkil edilmişdir. 1933 ildə *Belarus Opera və Balet teatrı* yaradılmışdır. 1920-ci illərdə N.N. Çurkin, Y.K. *Tikotski*, N.İ. Aladov, V.A. *Zolotaryov* başda olmaqla Belarus bəstəkarlıq məktəbinin əsası qoyulmuşdur. 1920–50-ci illərdə bəstəkarların yaradıcılığında milli folklor mühüm yer tutmuşdur. Kütləvi mahnı və teatr üçün musiqi janrları üstünlük təşkil etmişdir. 1939–40 illərdə ilk B. operaları ("Mixas Podqornı", Tikotski; "Polesye meşələrində", A.V. Boqatıryov; "Xoşbəxtlik çiçəyi", A.Y. Turenkov), "Bülbül" baleti (M.Y. Kroşner) tamaşaya qoyulmuşdur. İfaçılar arasında xor dirijorları Q.R. *Şirma* (B. Dövlət xor kapellasının yaradıcısı, 1940), Q.İ. Sitoviç (BSSR Dövlət xalq xorunun yaradıcısı, indiki Belarus xalq xoru), simbal çalan İ.İ. Jinoviç, müğənnilərdən L.P. Aleksandrovskaya, İ.M. Bolotin, M.İ. Denisov, R.V. Mlodek, N.D. Vorvulev və b. tanınmışlar. 1950-ci illərin sonu – 60-cı illərin əvvəllərində B. musiqisində başlayan üslub yeniləşməsi D.B. *Smolski* və O.Q. Yançenkonun əsərlərində parlaq əksini tapmışdır; simfoniya (N.İ. Aladov, L.M. Abelioviç, Y.A. Qlebov) və balet (Qlebov, Q.M. *Vaqner*) janrları ön plana keçmişdir. 1980-ci illərin sonu – 1990-cı illərdə avanqard kompozisiya texnikasının rolu artmışdır (V.N. Kopıtko, V.V. Kuznetsov, Y.V. Poplavski). 1970–90-cı illərdə musiqili teatr janrları inkişaf etmişdi (D.B. Smolski, V.Y. Soltan, A.V. Bondarenko, S.A. *Kortesin* operaları). 1970 ildə Dövlət Musiqili Komediya Teatrının (2000 ildən Dövlət Musiqili Teatrı) açılışı operetta və müziklların yaradılmasına təkan verdi. Populyar mahnılar İ.M. *Luçenok*, E.S. Xanok, V.Q. Mulyavin, L.K. Zaxlevnının adları ilə təmsil olunurdu. 20 əsrin son rübündə Kamera okrestri (1968), Konsert orkestri (1987), bir çox qədim və avanqard musiqi ansamblları, "Pesnyarı", "Verası", "Syabrı" və s. estrada vokal-instrumental ansamblları yaranmışdı. "Belarus musiqi payızı" (1974 ildən), "Müasir musiqi festivalı" (1991 ildən) beynəlxalq festivalları, ifaçıların İ.İ. Jinoviç ad. milli musabiqəsi keçirilir. 1991 ildə Müasir Musiqi Assosiasiyası yaradılmışdır (Dirijorlar Y.A Voşak, T.M. *Kolomiytseva*, Y.M. Yefimov, A.M. Anisimov, M.A. Kozinets; xormeysterlər V.V. *Rovdo*, L.B. Yefimova, M.P. Drinevski; müğənnilər T.N. Nijnikova, N.A. Tkaçenko, S.F. Danilyuk, A.M. Savçenko, Z.İ. Babiy; skripkaçı L.D. Qorelik; pianoçu İ.V. Olovnikov; musiqişünaslar Q.S. Qluşenko, T.A. Dubkova, Q.Q. Kuleşova, T.A. Şerbakova; folklorçular V.İ. Yelatov, L.S. *Muxarinskaya*, Z.Y. Mojeyko, İ.D. Nazina) və b. B.-un tanınmış ifaçılarıdır.



Belarus Opera və Balet Teatrı. Minsk.

### Rəqs və balet

B. xoreoqrafiya sənətinin kökləri, rəqsin mahnı və teatrlaşdırma elementləri ilə sıx bağlı olduğu qədim mərasimlərlə əlaqədardır. "Lyavonixa", "Metelitsa", "Krıjaçok", "Mikita" və s. populyar rəqslərdir. Skomoroxların tamaşalarında rəqs böyük yer tuturdu. 18 əsr – 19 əsrin 1-ci yarısında B. təhkimli teatrlarının istedadlı rəqqasları Varşava və S.-Peterburq səhnələrində müvəffəqiyyətlə çıxış edirdilər. İlk dəfə S. Monyuşkonun "Selyanka" komik operasında (1852) belarus xalq rəqsi səhnəyə çıxarılmışdır. 20 əsrin əvvəllərində belarus xalq rəqsləri İ.T. Buynitskinin truppasının tamaşalarında ifa edilirdi. Sonralar peşəkar kollektivlər (Minsk və Belostokda xalq mahnı və rəqs ansamblları və s.) yaradılmışdır. Balet truppası 1920 ildə Minskdə açılmış B. dövlət teatrının (Y. Kupala ad. Belarus dram teatrı) tərkibinə daxil edilmişdi. 1930 ildən Minskdə fəaliyyət göstərən Opera və balet studiyasının bazasında Belarus Opera və Balet Teatrı yaradılmışdır (1933). Burada A.N. *Yermolayev* və F.V. *Lopuxov* klassik və folklor ənənələrini birləşdirərək M.Y. Kroşnerin "Bülbül" ilk mili baletini tamaşaya qoymuşlar. L.Q. Brjozovskaya, Z.A. Vasilyeva, Y.M.Qlinskix, N. S. Davıdenko, S. V. Dreçin, İ. A. Duşkeviç V.İ. Krikova, V. P. Mironov, N. K. Şexov, V.N. Yelizaryev və b.-nın B. balet sənətinin inkişafında xidmətləri böyükdür. B. səhnəsində K.Y. *Qoleyzovski*, R.V. *Zaxarov*, V.İ. *Vaynonen*, İ.D. *Belski*, Q.A. Mayorov, O.M. *Vinoqradov*, Y.N. *Qriqoroviç* və b. tamaşalar qoymuşlar. Minskdə B. xoreoqrafiya məktəbi (1945 ildən), Silahlı qüvvələrin mahnı və rəqs ansamblı (1938 ildən), Belarus Rəqs Ansamblı (1959 ildən), "Xaroşki" xoreoqrafik ansamblı (1974 ildən) fəaliyyət göstərir.

### Teatr

B. teatr sənəti mənşəcə xalq bayramları, qədim ayinlər, ailə adət-ənənələri ilə bağlıdır. 16 əsrdə B.-da *batleyka* xalq kukla teatrı geniş yayılmışdı (40-a yaxın

kukla personajı məlumdur). 16–18 əsrlərdə kollegiumlarda, ruhani seminariyalarında *məktəb teatrı* geniş yayılmışdı. Burada S. Polotskinin, K. Maraşevski, M. Teterski və b.-nın pyesləri tamaşaya qoyulurdu. 18 əsrdə təhkimli teatrlar fəaliyyət göstərirdi (A. Tizenqauzun Qrodno teatrı, Radzivillərin Nesvij teatrı və s.). Aktyorların öyrədilməsi üçün xarici mütəxəssislərin dərs dediyi teatr məktəbləri yaradılmışdı. Tamaşalara yerli aktyorlarla yanaşı, xarici ölkələrdən də müqavilə ilə səhnə ustaları dəvət olunurdu. 19 əsrin 2-ci rübündən, əsası V.İ. Dunin-Marsinkeviç tərəfindən qoyulmuş peşəkar belarus dramaturgiyası inkişaf etməyə başlamışdır. 1907 ildə İ.T. Buynitskinin Birinci belarus truppasının (1913 ilədək fəaliyyət göstərmişdir) təşkili ilə peşəkar teatrın yaradılması uğrunda hərəkat başa çatmışdır. 1917 ildə F.P. Jdanoviç Buynitski və V.S. Falski ilə birlikdə Minskdə Birinci belarus dram və komediya cəmiyyətini yaratmışdır. Cəmiyyətin əsasında 1920 ildə Belarus Dövlət Teatrı təşkil olunmuşdur. Həmin ilin avqustunda V.İ. Qolubokun rəhbərlik etdiyi aktyor truppası ilk tamaşasını göstərmişdir. Folklor teatrının ənənələrini davam etdirən bu kollektiv sərt ideoloji basqılar nəticəsində 1937 ildə öz fəaliyyətini dayandırmışdır. 1926 ildə Vitebskdə 2-ci dövlət teatrı açılmışdır.

1930–40-cı illərdə Bobruyskda rus dram teatrı, Qomeldə kukla teatrı, Qrodno və Brestdə vilayət dram teatrları yaradılmışdır. 20 əsrin 2-ci yarısından Minsk ölkənin aparıcı teatr mərkəzinə çevrilmişdir; burada gənc tamaşaçılar teatrı, gənclər teatrı, "Dze-Ya?" teatr-studiyası (1992 ildən "Dze-Ya?" dram teatrı) fəaliyyət göstərir. Brestdə vil. kukla teatrı, Qomeldə dram teatrı, Qrodno, Mogilyov, Bobruysk, Mozır və s.-də teatrlar yaradılır. Milli teatrın inkişafında Y.A. Miroviç, K.N. Sannikov, Y.B. Şerbakov, İ.M. Rayevski, V.N. Rayevski, Q.P. Qlebov, N.N. *Yeryomenko*, R.İ. *Yankovski* və b. mühüm rol oynamışlar.

B.-da Azərb. bəstəkarlarından Q. Qarayevin "İldırımlı yollarla" baleti, R. Hacıyevin "Qafqazlı qardaşqızı" və "Dördüncü fəqərə" musiqili komediyaları, Azərb. teatrlarının səhnəsində isə K. Krapiva, A. Makayonok və b.-nın əsərləri tamaşaya qoyulmuşdur.

**Kino**

B. ərazisində ilk çəkilişləri Birinci dünya və Vətəndaş müharibələri zamanı Petroqrad və Moskvanın operatorları aparmışlar. 1922 ildə "Kinoresbel", 1924 ildə "Belarus proletar kinosu" və B. xalq maarif komissarlığı nəzdində kinematorqrafiya və fotoqrafiya işləri üzrə "Belqoskino" dövlət idarəsi yaradılmışdır. "Bu bizim Belarusdur" (1927) və "Kolxoz" (1928) ilk sənədli filmlərdir. 1928 ildə Leninqradda "Sovet Belarusu" kinostudiyasının əsası qoyulmuşdur (1939 ildən Minskdədir, 1946 ildən "Belarusfilm" adlanır). 1927 ildə Y.V. Tariç "Meşə əhvalatı" filmini çəkmişdir. "Sovet Belarusu" studiyasında "Poruçik Kije" (1934, A.M. Faynsimmer) tarixi macəra filmi; "Polesye robinzonları" (1935, İ.V. Baxar və P.S. Molçanov; Y. Mavrın əsəri üzrə), "Bülbül" (1938, E.L. Arşanski; Z. Byadulyanın əsəri üzrə), "Ayı" (1938) və "Qılaflı adam" (1939, İ.M. Annenski; A.P. Çexovun əsərləri üzrə) filmləri çəkilmiş, V.V. Korş-Sablinin "Səadət axtaranlar" (1936) və "Mənim məhəbbətim" (1940) musiqili komediyaları ekranlaşdırılmışdır. Müharibə illərində (1941–45) studiya Moskvada fəaliyyət göstərmişdir. Cəbhə və partizan kinosalnaməsini M.S. Berov, İ.N. Veyneroviç, V.P. Seslyuk və b. yaratmışlar. 1940–50-ci illərdə müharibə mövzusu aparıcı yer tuturdu ("Konstantin Zaslonov", Faynsimmer və Korş-Sablin, 1949; "Haradasınız, döyüşçü dostlar", S.M. Braude, 1958; "Dostların görüşü", V.İ. Skitoviç, 1963). "Partizan uşaqları" ilk rəngli B. filmi (rej.-lar L.V. Qolub və N. N. Fiqurovski) 1954 ildə ekranlara çıxmışdır. Uşaq və gənclər üçün bir sıra maraqlı filmlər çəkilmişdir: "Mikolka-parovoz", "Qız atasını axtarır", "Anyutanın yolu" (1957, 1959, 1968, hər üç filmin rej. L. Qolub), "Ustalar şəhəri" (1965, rej. V. Bıçkov) və s. 1960–70-ci illərdə B. kinosuna yeni nəsil rej.-lar gəldi: V.T. Turov ("Əslən uşaqlıq çağındanam", 1966; "Oğullar döyüşə gedir", 1971), İ.M. Dobrolyubov ("İvan Makaroviç", 1968; "Kiçik qardaş", 1976), V.A. Nikiforov ("Suquzğunu", 1972), V.D.Rubinçik ("Sonetlər çələngi", 1977), Y.S. Çulyukin ("Gəl danışaq, qardaş...", 1979). 1970–80-ci illərdə bir sıra telefilm və seriallar istehsal olunmuşdur: "Xarabalıqlar atəş açır" (1970–72, rej. V. P. Çetverikov), "Bütün kral qoşunu" (1971, rej.-lar A.Z. Qutkoviç, N.M. Ardaşnikov). "Gödək qılınc" (1973) və "Tunc quş" (1974, rej. N.A. Kalinin), "Buratinonun sərgüzəştləri" (1975) və "Qırmızıpapaq haqqında" (1977, hər ikisinin rej.-u L.A. Neçayev), "Dövlət sərhədi" (1980–88, rej. B.M. Stepanov və s.). Milli ədəbi əsərlər, o cümlədən V.V. Bıkovun "Alp balladası" (1966) və "Canavar sürüsü" (1975, rej. B.M. Stepanov), "Yüksəlmə" (1977, rej. L.Y. Şepitko, "Sotnikov" povesti üzrə), "Fəlakət işarəsi" (1986, rej. M.N. Ptaşuk), "Getmək və qayıtmamaq" (1992, rej. N.P. Knyazev) və s. ekranlaşdırılmışdır. Müharibə mövzusu rej. V.N. Daşukun sənədli-bədii filmlər silsiləsində ("Öldürülmüş kənddən olan qadın", 1975–76, "Müharibə qadın simalı deyil", 1981–84), E.G. *Klimovun* ("Get və bax", 1985), V.P. Rıbarevin ("Şahid", 1985), Ptaşukun ("44-ün avqustunda...", 2000) filmlərində əks olunmuşdur. "Birisigünün cədvəli" (1979, Dobrolyubov), "Adım Arlekinodur" (1988) və "Zəncirlənmiş" (2002, Rıbarev), "Bizim zirehli qatar" (1988) və "Siyasi büro" (1993, Ptaşuk), "Gizlənqaç oyunu" (1997) və "İşğal. Misteriyalar" (2003, A.A. Kudinenko), "Bələdçi" (2001) və "Duneçka" (2004, A.V. Yefremov) tarixin və müasir həyatın mühüm problemlərinə həsr olunmuş bədii; "Çernobıl. Kabuslar" (1996, S.P. Lukyançikov), "Qadağa zonası" (1999, V. F. Jiqalko), "Valentin Vinoqradovun yuxuları" (1998) və "Planet-XX" (2002, Kudinenko) və s. sənədli filmlər çəkilmişdir. Milli kinematoqrafiyanın inkişafında N.N. Yeryomenko (ata), R.İ. Yankovski, V.V. *Qostyuxin*, S.M. *Stanyuta*, A.İ. Klimova, Y.V. Qorobets və b. aktyorların böyük əməyi olmuşdur. Sənədli film rej.-ları: Q.V. Adamoviç, İ.A. Volox, S.A. Qayduk, V.A. Orlov və b. 1990–2000 illərdə xristian tematikalı bir sıra filmlər ("Serafim", 1998, rej. N.P. Knyazev; "Kilsə zəngi", 2001, rej. V.V. Seslyuk və s.), həmçinin animasiya filmpritçaları ("Bacı və qardaş", 2002; "Ledi Qodiv haqqında əfsanə", 2004; hər ikisinin rej.-u İ.V. Kodyukova) çəkilmişdir. 1996 ildən aylıq "Na ekranax" jurnalı çıxır.

"Canavar sürüsü" filmindən kadr (Rej. B. Stepanov, 1975).







**Sirk**

17 əsrdə Smorqoniyada Radzivill knyazları ayıların ovlanması və təlimi peşəsini yaratmaqla B.-da sirk sənətinin əsasını qoymuşlar. 19 əsrin 1-ci yarısında akrobatlar, fokusçular və s. məktəbləri meydana gəlmişdir. Mülkədar L. Oştorpun sirkində təhkimli klounlar, hoqqabazlar çıxış edirdilər. 1864 ildən B.-a rus və xarici sirk ustaları qastrola gəlirdilər; onlar, bir qayda olaraq, müvəqqəti yerlərdə, balaqanlarda, yerli zadəganların manejlərində çıxış edirdilər. 1884 ildə Minskdə ilk stasionar sirk açılmışdır ("Nikitin qardaşlarının rus sirki"). 1959 ildə Minskdə qış stasionar sirki üçün bina tikilmiş, burada B. sirk kollektivi (1974 ilədək mövcud olmuşdur) özünün ilk proqramını göstərmişdir. B.-da 2-ci stasionar sirk Qomeldə açılmışdır (1972). Minsk musiqi məktəbi nəzdində sirk artistlərini hazırlayan şöbə (1998) yaradılmışdır.

*Əd.:* Карский Е.Ф. Белорусы. Варшава и др., 1903–1922. Т. 1–3; Егоров Ю.А. Градостроительство Белоруссии. М., 1954; Пичета В.И. Белоруссия и Литва XV–XVI вв. М., 1961; Кацер М.С. Изобразительное искусство Белоруссии дооктябрьского периода. Минск, 1969; История белорусского кино. Минск, 1969–1970. [Т. 1–2]. История белорусской музыки. М., 1976; Дробов Л.Н. Живопись Советской Белоруссии (1917–1975 гг.). Минск, 1979; Архитектура Белоруссии. Минск, 1982; Кулагин А.Н. Архитектура и искусство рококо в Белоруссии. Минск, 1989; Беларусы: У 8 т. Мінск, 1995–2002. Т. 1-6; Очерки истории науки и культуры Белоруссии IX – нач. XX в. Минск, 1996; Даринский А.В. Белоруссия // География стран ближнего зарубежья. М., 1997; История Беларуси: Словарь-справочник. Минск, 2000; Чигринов П.Г. Очерки истории Беларуси. Минск, 2002; Театральная Беларусь: Энцыклапедыя. Мінск, 2002–2003. Т. 1–2.;

**BELARUS ANTEKLİZİ** – bax *Şərqi Avropa Platforması.*

**BELARUS DİLİ** – *belarusların* dili. Belarus Resp.-nın dövlət dillərindən biri; həmçinin Rusiya, Ukrayna, Litva, Latviya, Estoniya, Polşa, Qazaxıstan, Kanada, ABŞ və Argentinada yayılmışdır. B.d.-ndə danışanların ümumi sayı 4,3 mln.-dan çoxdur (2000).




Belarus Dövlət Sirki.

B.d. *slavyan dillərindən* biridir (şərqi slavyan qrupu). Mənşəcə *qədim rus dili* ilə bağlıdır. İki əsas dialektə ayrılır: şimal-şərq (Polotsk və Vitebsk-Mogilyov şivələri qrupları) və cənub-qərb (Qrodno-Baranoviçi və Slutsk-Mozır şivələri qrupları).

14–16 əsrlərdə B. ərazisində Belarus şivələrinin bir çox xüsusiyyətlərini əks etdirən qərbi rus (qədim belarus) ədəbi kitab dili istifadə edilirdi. Bu dil dini tərcümə ədəbiyyatı, hüquqi və sənədli – rəsmi yazı abidələri, salnamələr, yerli xronikalar və s. ilə təmsil olunur. Müasir ədəbi B.d. 18 əsrin sonu – 19 əsrin canlı xalq dili əsasında formalaşmışdır. Onun inkişafı və təkmilləşməsində Y. *Kupala* və Y. *Kolasın* yaradıcılığı böyük rol oynamışdır.

Müasir B. yazısının əsasını *Kirill əlifbası* təşkil edir; 16–19 əsrlərdə və bir qədər sonra həmçinin polyak modifikasiyalı latın əlifbası və ərəb qrafikası ( bu əlifba vasitəsilə yerli tatarlar əl-kitab, həmayil, təfsir adları altında qorunub saxlanılan B. mətnlərini nəsildən-nəslə ötürmüşlər) istifadə olunmuşdur. B.d.-nin ən erkən yazılı nümunələri Polotsk ilə Riqa arasında (1330) müqavilədir. 15–16 əsrlərdə belarus yazısı geniş inkişaf etmişdi: Qərbi rus dini kitabları (1489), F. *Skorina* tərəfindən nəşr olunmuş Psaltır və Bibliya (1517–19), Litva qanunları (1529, 1566, 1588) və s.

**BELARUS TİRƏSİ** – Belarusun mərkəzi hissəsində, *Şərqi Avropa düzənliyinin* q.-ində təpəli-tirəli relyef. Təqribən 500 *km* məsafədə uzanır. Qrodno, Volkovısk, Novoqrudsk, Minsk (ən hündürü – 345 *m*-ədək), Orşa, Vitebsk və s. yüksəkliklərdən ibarətdir. Çoxsaylı xırda göllər və bataqlıqlar var. İynəyarpaqlı-enliyarpaqlı meşələr üstünlük təşkil edir.

**BELARUSLAR** – şərqi slavyan xalqı, Belarusun əsas əhalisi (c., mərkəzi və ş. vil.-lərində əksəriyyət təşkil edirlər). Sayları 7,9 mln. nəfərdir (2004). Həmçinin Rusiya (808 min nəfər, 2002), Ukrayna (275,9 min nəfər, 2001), Polşa (təqr. 250 min nəfər), Litva (42,9 min nəfər, 2001), Latviya (97,1 min nəfər, 2000), Estoniya (16,5 min nəfər, 2000), Qazaxıstan (111,9 min nəfər, 1999), ABŞ, Kanada, Argentina, Avstraliya, B.Britaniya, Fransa və s. ölkələrdə yaşayırlar. Ümumi sayı təqr. 11 mln. nəfərdir. *Belarus dilində* danışırlar. Polyak, rus və Litva dilləri də yayılmışdır. Dindarları, əsasən, pravoslavlar, təqr. 20%-i katoliklərdir.

B.-ın tərkibinə 9–10 əsrlərdə Belarus ərazisində (əsas qruplaşmaları Dvina və Pripyat çayları boyunca) məskunlaşan və yerli balt əhalisini assimilyasiyaya uğradan şərqi slavyan tayfaları (kriviçlər, dreqoviçlər, radimiçlər) daxil olmuşlar. B.-ın təşəkkülü 13–14 əsrlərdə *Böyük Litva knyazlığının* tərkibində olan torpaqlarda başlamışdır. B.-ın əsas lokal qrupları olan rusinlər Şərqi Belarusda (sonralar Belaya Rus adlanmışdır); poleşuklar Polesyedə, Pripyat çayı hövzəsində; litvinlər Şimal-Qərbi Belarusda



Belarus qadını milli geyimdə.

(Neman və Viliya çayarasında) formalaşdılar. Qədim belarus dili *Böyük Litva knyazlığında* 17 əsrin 2-ci yarısınadək rəsmi dil funksiyasını yerinə yetirmişdir. 16 əsrin 1-ci yarısında F. *Skorina* bu dildə kitab çapına başlamışdır. 20 əsrin əvvəllərində "B." etnonimi lokal adları sıxışdırsa da, B.-ın "pravoslavlar", "tuteyşiye" ("yerli") kimi adlanmaları 20 əsrin 2-ci yarısınadək davam etmişdir. B.-ın formalaşması pravoslavlıq, katolisizm və uniatlıq arasındakı ziddiyyətlər, həmçinin Reç Pospolita dövründə polyaklaşdırma və Rusiyanın tərkibində ruslaşdırma siyasəti şəraitində baş verirdi. 17 əsrin 2-ci yarısı – 18 əsrin 1-ci rübündə Rusiya-Polşa müharibələri (17 əsr) və Şimal müharibəsi (1700–21) gedişində B.-ın iri qrupları Rusiyaya və Sağsahil Ukraynasına köçürüldü.

Belarus Poozerye (şm.-da), Dneprboyu (ş.-də), Mərkəzi Belarus, Nemanboyu (şm.-q.-də), Şərqi və Qərbi Polesye tarixi-etnoqrafik r-nlarına bölünür. Əsas ənənəvi məşğuliyyətləri əkinçilik (çovdar, kətan), əsas əkinçilik aləti müxtəlif növləri olan xışdır. Meşə arıçılığı, qatrançəkmə (Polesye və Dneprboyu), ağac lifindən həsirhörmə (Mogilyov qub.-nın Çerikov və Roqaçyov qəzaları, Minsk qub.-nın Bobruysk və Borisov qəzaları), təkərqayırma (Mogilyov qub.-nın Çausı, Mogilyov, Orşa, Qomel qəzaları, Qrodno qub.-nın Brest qəzası), dulusçuluq (Brest qəzasının Qorodnaya, Prujanı, Rujanı, Porozovo k.-ləri), papaqçılıq (Mogilyov qub.-nın Çausı, Mstislavl, Roqaçov qəzaları), gön-dəri və xəz emalı (Mogilyov, Vitebsk, Mozır, Smorqon, Şklov), hörmə (o cümlədən Mogilyov qub.-nda tənəkdən mebelin və küləşdən ikonostasların hazırlanması), toxuculuq (naxışlı dəsmallar – ruçniklər, ağardılmış və cod saplardan süfrələr – abruslar), tikmə, gil oyuncaqların düzəldilməsi və s. inkişaf etmişdir. 15 əsrin sonu – 20 əsrin əvvəllərində şəhər sənətkarları sexlərdə birləşirdilər. Nemanboyunda Litva və Polşa üslubuna yaxın ağac heykəllərin, Qərbi Belarusda oymalı çəhrələrin düzəldilməsi, Dneprboyunda isə oyma memarlığı inkişaf etmişdi. 19 əsrin sonlarından sandıqlar, 1920–50-ci illərdə isə Brest Polesyesində mebel rəsmlərlə bəzədilirdi.

"Belaya Rus" rəqs ansamblı.



Yaşayış məskənləri şm. və şm.-ş.-də, əsasən, sıx yerləşən kiçikhəyətli evlərdən ibarət idi. Dneprboyunda isə məskənlər iri və sıx planlıdır. Ənənəvi ev tipi kərtmə komadır (x a t a); c.-da (Polesyedə) yerüstü və gil döşəməli, şm.-da isə altında ambarı (p o d k l e t) olurdu. Şərqi Belarusda və Poozeryedə hamamlar (l a z n i l ə r) yayılmışdı. Yaşayış və təsərrüfat tikililəri (anbarlar, pəyələr, xırmanlar və s.) bir, yaxud bir neçə dam altında birləşirdi.

Kişilər düz köynək geyir, üstündən naxışlı, hörmə kəmər (kuşak) bağlayırdılar. Ənənəvi kişi köynəyi, eləcə də qadın köynəkləri tunika tiplidir; əsasən, yaxalıqsız olur. Qadınlar köynəyin üstündən kətan (spidnitsa), yaxud mahud (andarak) yubka geyinirdilər. Kəndli qadınlar önlük də taxırdılar; 19 əsrdən bəzəkli qolsuz kişi və qadın geyimləri (kabat, qarset, kaptan və s.), düyməsiz üst paltar (svita, oxaben, yapıncı, ferezya, dolaman) yayılmışdı. Qızların baş geyimi arxa tərəfdə düyünlənən kətan sarıq (ruçnik, şırınka, skindaçka), yaxud hündür (10–15 *sm*) çələng idi. Kişilər, əsasən, mahud və keçədən olan, üstü dördkünc dairəvi papaq qoyurdular.

Ənənəvi yeməkləri çovdar, buğda, qarabaşaq, darı, yulaf, noxud unundan və yarmadan hazırlanır: çörək, blin, klyotsk (qaluşka), əriştə (sekanka), şorba (zatirka, kuleş, krupnik, soloduxa, kulaqa), kisel (jur, polivka, yuşka) və s.-dir. 19 əsrin ortalarından kartof geniş yayılmışdır: püre (touçanka), kökə (bulbişnik), fəsəli (dranik) və s. Ənənəvi içkiləri çörək və çuğundur kvası, pivə və s. Toy çörəyi (karavay), pasxa kuliçi, xeyrat sıyığı və içkilər (kutya, kolivo, kanun) kimi mərasim yeməkləri səciyyəvidir.

Əsas təqvim bayramlarına svyatki (kalyadı), maslenitsa, pasxa, troitsa, İvan günü (kupalye), məhsul bayramları (zajinki və dojinki) aiddir.

Ş i f a h i  y a r a d ı c ı l ı q. Şərqi slavyanlara xas olan ümumi cəhətləri saxlamış mövsümi-əkinçi (maslenitsa, pasxa, troitsa, İvan günü, məhsul bayramları) və ailə-ayin mahnıları folklorun ən arxaik qatıdır; əsasən, qadınlar tərəfindən ifa edilir. Kişilərin ifa etdikləri lirik, epik, tarixi və məişət mahnıları 14–18 əsrlərdə formalaşmışdır; muzdur, fəhlə mahnıları, inqilabi mahnılar, çastuşkalar isə 19 əsrə təsadüf edir. Böyük Vətən müharibəsi dövründə folklorun spesifik qatı olan partizan mahnıları yaranmışdır. Ailə-məişət, xorovod, rəqs mahnıları ("Lya-





vonixa", "Yuroçka"), xalq balladaları ("Pan-şahzadənin evlənmək üçün Rusiyaya getməsi", "Anamın tək qızı idim"), əfsanələr, rəvayətlər, nağıllar geniş yayılmışdır. Xalq dramı, *batleyka* kukla teatrı saxlanılmışdır. Mahnı və rəqs motivləri, toy marşları, improvizələr instrumental musiqinin əsasını təşkil edir. Qarmon, bayan, dəf, təbil hər yerdə yayılmışdır. Keçmişdə geniş istifadə olunan müxtəlif idiofonlara (sinc, üçbucaq, şax-şax, varqan), nəfəs alətlərinə ("duda" tuluq zurnası, ağacdan və gildən düzəldilmiş fleytalar, buynuz, truba) və simli alətlərə (skripka, basetlya xalq kontrabası, təkərli lira, simbal) indi nadir hallarda rast gəlinir.

Xorovod rəqsləri daha qədimdir ("Ruçeyok", "Qusaçok", "Biz darı əkirdik" və s.); bəzi xorovod rəqslərində solistlər də olur. Kütləvi qoşa rəqslərdən "Lyavonixa", "Çovğun", "Keçi" və b. məlumdur. Şəhər rəqslərindən kadril, lansye ("Lyansay", əsasən, Şimali və Mərkəzi Belarusda), polka ("Trasuxa", "Kaketka", "Tramblyam"), vals yayılmışdır.

**"BELAVTOMAZ"** – istehsalat birliyi; karyerlər üçün yük maşınları və texnika, aerodromlar üçün yedəkçi maşınlar və s. istehsal edir. "B."-ın tərkibinə Minsk avtomobil z-du (baş müəssisə), Jodinodakı Belarus avtomobil z-du, Mogilyov avtomobil z-du. Minsk təkərli yedəkçi maşınlar z-du, həmçinin avtomobillər üçün müxtəlif detal və aqreqatlar buraxan müəssisələr (Minsk ressor z-du, Baranoviçi aqreqat z-du, Qrodno kardan val z-du, Jodino ağır ştamplar z-du və s.) daxildir. Minsk avtomobil z-dunda yükqaldırma qabiliyyəti 7,5–30 *t* olan avtomobillər, yarımqoşqulu dartı maşınları, yükünü özüboşaldan maşınlar, taxta-şalbandaşıyan maşınlar, qoşqular, avtobuslar və xüsusi texnika istehsal edilir. Belarus avtomobil z-dunda karyerlərdə faydalı qazıntıların açıq işlənilməsi, yeraltı işlər və s. üçün yükqaldırma qabiliyyəti 30 *t*-dan 360 *t*-adək olan "*BelAZ*" markalı maşınlar, Mogilyov avtomobil z-dunda karyerlər üçün yükünü özüboşaldan maşınlar, güclü dartı maşınları və skreperlər, Minsk təkərli yedəkçi maşınlar z-dunda yükqaldırma qabiliyyəti 25–70 *t* olan avtoqatarlar, seysmik kəşfiyyat və qazıma qurğularının montajı üçün müxtəlif yükqaldırma qabiliyyətli şassilər buraxılır. Birlik 250-dən çox avtomobil, 50-dən çox avtobus, 60-dan çox qoşqu texnikası növü (modifikasiyası) istehsal edir.

**BELÁULAR** – bax *Palaular*.

**BELAÚNDE TÉRRİ** (Belaunde Terry) Fernando (7.10.1912, Lima – 4.6.2002, Lima) – Peru dövlət və siyasi xadimi. 1945–48 illərdə parlamentin deputatı olmuşdur. 1963 ildə təsisçisi olduğu Milli hərəkat partiyasından prezident seçilmişdir. Seçkidən sonra partiyanın mötədil milli proqramını (aqrar islahat, sənayeləşdirmə, Amerikanın İPK neft şirkətinin milliləşdirilməsi) həyata keçirməyə çalışmış, lakin İPK-nin təzyiqi nəticəsində şirkətin Peru iqtisadiyyatındakı mövqeyini sarsıda bilməmişdir. 1968 ildə millətçi ordu dairələri tərəfindən devrildikdən sonra ABŞ-a mühacirət etmişdir. 1980–85 illərdə yenidən Peru prezidenti olmuşdur. Onun dövlət müəssisələrinin özəlləşdirilməsini nəzərdə tutan liberal islahatlar kursu gözlənilən investisiya axınına və iqtisadi yüksəlişə gətirib çıxarmadı. İnflyasiyanın artması şəhər əhalisinin narazılığına səbəb oldu, onun aqrar siyasətini bəyənməyən kəndlilər isə B.T.-nin əleyhinə mübarizə aparan partizan dəstələrinə yardım etməyə başladılar. 1985 ildə B.T.-nin partiyası prezident və parlament seçkilərində ağır məğlubiyyətə uğradı.

**BÉLAYA** – RF-nin İrkutsk vil.-ndə çay. Böyük və Kiçik B. çaylarının qovuşmasından yaranır. Anqaranın sol qolu. Uz. 359 *km*, hövzəsinin sah. 18 min $km^2$-dir. Şərqi Sayan d-rının şm. yamaclarından başlanır, Bratsk su anbarına tökülür. Yağış və qar suları ilə qidalanır. Oktyabr-noyabrdan aprel-mayadək donmuş olur. Ağac axıdılır. Hövzəsində nefrit və qrafit yataqları var.

**BÉLAYA** – RF-də, Krasnodar diyarında çay. Kuban çayının sol qolu. Uz. 273 *km*, hövzəsinin sah. 5990 $km^2$-dir. Baş Qafqaz silsiləsinin Fişt və Oşten zirvələrindən başlanır. Qarışıq mənbədən qidalanır. Aşağı axınında düzənlik çayıdır. Ortaillik su sərfi 42,5 $m^3/san$-dir. Axını tənzimlənir. Əsas qolları: Pşexa, Kurcips. Maykop və Beloreçensk ş.-ləri B. sahilindədir. Maykop və Beloreçensk SES-ləri var.

**BÉLAYA** (başqırdca Agidel – böyük ağ çay) – RF-də, əsasən, Başq. Resp. ərazisində çay (aşağı axını Tatarıstanla sərhəd boyu keçir); Kamanın sol qolu. Uz. 1430 *km*, hövzəsinin sah. 142 min $km^2$. Cənubi Uralda Böyük İremel d-nın ş.-indən başlanır. Yuxarı hissədə bataqlıqlaşmış alçaq sahillərlə, aşağılarda düzənliklə axır. Sağ sahili sol sahilə nisbətən daha yüksəkdir. Əsas qolları: sağda – Nuquş, Sim, Ufa, Bir, Tanıp; solda – Aşkadar, Urşak, Dyoma, Karmasan, Çermasan, Baza, Syun. Əsasən, qar suları ilə qidalanır. Ortaillik su sərfi 950 $m^3/san$. Noyabrın ikinci yarısından aprelin ortalarınadək donmuş olur. Ufa ş.-nədək 480 *km* məsafədə gəmiçiliyə yararlıdır. B. hövzəsində ümumi sah. 430 $km^2$ olan 2700 göl var. B. Moskva-Ufa su yolunun tərkibində, turist marşrutu üzərindədir. Beloretsk, Salavat, İşimbay, Sterlitamak, Ufa və Birsk ş.-ləri B. sahilindədir.

Belaya çayı. Başqırdıstan.





Belaya Serkov. "Aleksandriya" peyzaj parkı.

**BELAYA KALİTVA** – RF-nin Rostov vil.-ndə şəhər. Belaya Kalitva r-nunun mərkəzi. Əh. 46,2 min (2005). Donetsk tirəsinin şm.-ş. kənarında, Severski Donets çayının Kalitva çayına töküldüyü yerdə gəmi dayanacağı. D.y.st. 1703 ildə kazak stanitsası kimi salınmışdır. 1941 ildən eyniadlı fəhlə qəs., 1958 ildən şəhərdir. Diyarşünaslıq muzeyi, idman sarayı, ippodrom (2002) var. Kömür hasilatı (Şərqi Donbas) və k.t.r.-nu mərkəzidir. Metallurgiya z-du, yüngül və yeyinti sənayesi müəssisələri; tikinti materialları istehsal olunur. B.K. yaxınlığındakı xutorlarda 18–19 əsrlərə aid memarlıq abidələri (dəyirmanlar, kilsələr) var.

**BELAYA SERKOV** – Ukraynanın mərkəzi hissəsində, Kiyev vil.-ndə şəhər. Əh. 199,2 min (2005). Dnepryanı yüksəklikdən şm.-ş.-də, Ros çayı sahilindədir. D.y. st.

11–13 əsrlərdə indiki B.S.-un yerində Kiyev knyazı Yaroslav Mudrı tərəfindən 1030-cu illərdə salınmış Yuryev ş. (Qurgev, Gurgev) yerləşirdi. Yuryev yepiskopunun iqamətgahı olmuşdur (11–13 əsrlər). 1095 ildə *qıpçaqlar* tərəfindən dağıdılmışdır. 1103 ildə Kiyev knyazı Svyatopolk İzyaslaviç tərəfindən bərpa olunmuşdur. Monqol yürüşləri zamanı şəhər dağıdılmışdır. 14 əsrdən adı B.S. kimi qeyd olunur. 1363 ildən *Böyük Litva knyazlığının* tərkibində olmuşdur. *Lüblin uniyasının (1569)* bağlanması nəticəsində Reç Pospolitanın yaranmasından sonra B.S. knyaz K.K. Ostrojskinin mülkiyyətində olmuşdur. B.M. *Xmelnitskinin* rəhbərlik etdiyi müharibənin (1648–54) gedişində burada *Belaya Serkov müqaviləsi (1651)* imzalanmışdır. 1793 ildə Reç Pospolitanın ikinci dəfə bölüşdürülməsindən sonra *Kiyev quberniyasının* tərkibində Rusiya imperiyasına birləşdirilmişdir. 19 əsrin 2-ci yarısında B.S. mühüm ticarət mərkəzinə çevrilmişdi. 1923–33 illərdə eyniadlı dairənin mərkəzi, 1932 ildən Ukraynanın Kiyev vil.-nin r-n mərkəzi olmuşdur. İkinci dünya müharibəsi zamanı şəhər böyük dağıntılara məruz qalmışdır.

Şəhərin mərkəzinin müntəzəm planı və Qəsr dağındakı qəsrin (1550) qalıqları qorunub saxlanılmışdır. Memarlıq abidələri: İoann Krestitel kostyolu (1812), Nikolay kilsəsi (1702; tikintisi 1852 ildə başa çatdırılmışdır), Preobrajeniye baş kilsəsi (1834), Dvoryan yığıncağı evi, Qış sarayı (*klassisizm* üslubunda ağac memarlığı nümunələri), gimnaziya (hamısı 18 əsrin sonu – 19 əsrin əvvəlləri), ticarət sıraları (1809–14), poçt tikililəri kompleksi (1825–31, 1844) və s. "Aleksandriya" peyzaj parkında (18 əsrin sonu – 19 əsrin əvvəlləri; memarlar Müffo, D. Botani; hazırda dendralogiya qoruğudur) "Əks-səda" sıra sütunları, Kədər sütunu, Çin körpüsü, Varna kompozisiyası və s. tikililər var. Yaroslav Mudrıya, B.M. Xmelnitskiyə, 1812 il qrenadyorlarına abidə qoyulmuşdur. Aqrar un-t (1920), diyarşünaslıq muzeyi (1924), dram teatrı var.

Maşınqayırma (k.t. texnikası), şin, qablaşdırma avadanlığı, konserv z-dları var. Odadavamlı materiallar, elektrotexnika məhsulları istehsal olunur. B.S. iqlim (isti yay və mülayim yumşaq qış) və balneoloji (vanna qəbulu üçün az minerallaşmış radonlu su) kurortdur. Əsas etibarilə qan dövranı, hərəkət və dayaq orqanları, periferik sinir sistemi xəstəlikləri müalicə olunur.

Yüksək yükqaldırma qabiliyyətli BelAZ 75481.



**BELAYA SERKOV MÜQAVİLƏSİ (1651)** – Ukrayna getmanı B.M. *Xmelnitski* ilə Reç Pospolita hökuməti arasında sentyabrın 28-də *Belaya Serkov* yaxınlığında bağlanmışdır. Müqaviləyə görə, yalnız Kiyev voyevodalığı kazak ərazisi kimi tanınırdı. Ukrayna getmanı Reç Pospolitanın kral getmanının tabeliyinə keçməklə xarici əlaqələr hüququndan məhrum olurdu. O, Krım xanı ilə bağladığı ittifaqı ləğv etməli idi. Kiyev, Bratslav və Çerniqov voyevodalıqlarının şlyaxtasına öz malikanələrinə qayıtmaq hüququ verilirdi; kazak olan bütün təhkimli kəndlilər şlyaxtanın hakimiyyəti altına qayıtmalı idilər. Kazak reyestri yarıbayarı (20 min nəfərədək) ixtisar olunurdu. Əslində Reç Pospolita müqavilə şərtlərindən istifadə edə bilmədi. Müharibə başa çatdıqdan sonra B.s.m. ləğv edildi (1652).

**"BELÁZ"** – karyerlər üçün yükünü özüboşaldan maşınların, buldozerlərin, yükləyicilərin və aerodromlar üçün yedəkçi maşınların markası. 1961 ildən Belarus avtomobil z-dunda istehsal olunur (ilk modeli 27 *t*-luq BelAZ-540). Tam çəkisi 50–195 *t*, yükqaldırma qabiliyyəti 40, 75, 110, 130 *t* (yükünü özüboşaldan maşınlarda 360 *t*-adək), mühərrikinin gücü 265–956 *kVt* olan yük maşınları, tam çəkisi 30–38 *t* olan aerodrom yedəkçisi buraxılır (1986). Avtomobillərin əsas xüsusiyyətləri pnevmohidravlik təkər asqıları, hidromexaniki və elektrik transmissiya və s.-dir.





**BELBAŞI** – Türkiyədə, Antalya körfəzinin qərb sahilində ibtidai insan mağara-düşərgəsi. 1959 ildə arxeoloq Ə. Bostançı tərəfindən aşkar edilmişdir. 1960 ildə aparılan qazıntılar zamanı üst təbəqədə antik dövrə aid əşyalar, ikinci təbəqədə Neolit dövrünə aid gil qabların qırıntıları, üçüncü təbəqədə isə çaxmaqdaşıdan müxtəlif mikrolitlər (qazıcı və deşici alətlər) tapılmışdır. B.-da Son Neolit dövrünə aid qayaüstü rəsmlər (dağkeçisi və s.) aşkar edilmişdir.

**BELÇİKA**, Belçika Krallığı (fr. Royaume de Belgique, flamandca Koninkrijk België).

**İnzibati ərazi bölgüsü (2010)**

| Regionlar və əyalətlər | Sahəsi, *km*² | Əhalisi, min *nəfər* | İnzibati mərkəzi |
|---|---|---|---|
| **Vallon regionu** | 16844 | 3525,5 | Namür |
| Eno | 3800 | 1317,3 | Mons |
| Lüksemburq | 4443 | 271,3 | Arlon |
| Lyej | 3844 | 1077,2 | Lyej |
| Namür | 3664 | 476,8 | Namür |
| Vallon Brabantı | 1093 | 382,9 | Vavr |
| **Flamand regionu** | 13513 | 6287,9 | Gent |
| Antverpen | 2867 | 1764,8 | Antverpen |
| Flamand Brabantı | 2106 | 1086,4 | Löven |
| Qərbi Flandriya | 3144 | 1159,4 | Brügge |
| Limburq | 2414 | 845,0 | Hasselt |
| Şərqi Flandriya | 2982 | 1432,3 | Gent |
| **Brüssel regionu** (Brüssel aqlomerasiyası) | 161,4 | 1089,5 | Brüssel |

### Ümumi məlumat

Qərbi Avropada dövlət. Şm.-da Niderland, ş.-də AFR, c.-ş.-də Lüksemburq, c. və c.-q.-də Fransa ilə həmsərhəddir. Şm.-q.-də Şimal dənizi ilə əhatələnir. Sah. 30,5 min *km*². Əh. 10,9 mln. (2010). Paytaxtı Brüssel ş.-dir. Rəsmi dillər fransız, Niderland və alman dilləri, pul vahidi avrodur. B. üç regiondan (Vallon, Flamand, Brüssel) ibarət federativ dövlətdir. İnz. cəhətdən 10 əyalətə və Brüssel aqlomerasiyasına bölünür.

B. BMT-nin (1945), AİB-in (1957), Avropa Şurasının (1949), ATƏT-in (1975), NATO-nun (1949), Avropa kömür və polad birliyinin (AKPB; 1951), Avratomun (1958), ÜTT-nin (1995), BVF-in (1945), BYİB-in (1945) üzvüdür.






### Dövlət quruluşu

B. icma birliklərindən və regionlardan ibarət federativ dövlətdir. Konstitusiyası 7.2.1831 ildə qəbul edilmişdir (birləşdirilmiş mətni 17.2.1994 ildə təsdiqlənmişdir). İdarəetmə forması konstitusiyalı monarxiyadır.

Dövlət başçısı kraldır. Konstitusiyaya uyğun olaraq o, qanunverici (parlamentlə birlikdə) və icraedici (hökumətlə birlikdə) hakimiyyəti həyata keçirir.

Parlament iki palatadan ibarətdir. Nümayəndələr palatası (150 üzv) əhali tərəfindən proporsional nümayəndəlik əsasında birbaşa ümumi səsvermə yolu ilə 4 il müddətinə seçilir. Palata üzvlərinin seçilməsi vətəndaşların yalnız hüququ deyil, həm də vəzifəsidir. Digər palatanın – Senatın tərkibinə 71 senator daxildir: onlardan 25-i Niderland seçki kollegiyası, 15-i fransız seçki kollegiyası tərəfindən seçilir; Flamand şurası və Fransız icma birliyi şurası hər biri öz üzvləri arasından 10 senator təyin edir; almandilli icma birliyi şurası öz tərkibindən 1 senator təyin edir; 6 senatoru flamand və almandilli əhalinin seçdiyi və təyin etdiyi senatorlar təyin edir; daha 4 senator fransızdilli, almandilli və flamanddilli əhali tərəfindən təyin edilir. Bundan əlavə, kralın övladları, övladı olmadıqda isə onun taxt-tacına hüququ olan digər birbaşa qohumları 18 yaşına çatdıqdan sonra senator olurlar.

İcraedici hakimiyyət formal olaraq krala məxsusdur. Faktiki olaraq onu hökumət – eyni sayda fransızdilli və hollanddilli nazirlərdən (baş nazir də daxil olmaqla 15-dən çox deyil) ibarət olan Nazirlər Şurası həyata keçirir; nazirləri kral təyin edir. Hökumətin tərkibinə Nazirlər Şurasının üzvü olmayan federal dövlət katibləri də daxildir.

B.-da çoxpartiyalı sistem mövcuddur. Əsas siyasi partiyalar: Liberal islahatlar Partiyası, Flamand liberalları və demokratları, Sosialist Partiyası, Xristian Xalq Partiyası, Sosial-xrsitian Partiyası, Flamand bloku.

### Təbiət

**Relyef.** B.-nın ərazisi, əsasən, düzənlikdir. C.-ş.-i ayrı-ayrı yüksəkliklərdən, Şimal dənizi sahilləri alçaq düzənliklərdən və qum *vattları* ilə haşiyələnən dün tirələrindən (hünd. 30 *m*-ə qədər) ibarətdir. *Dünlər* və vattlar sahilboyu münbit torpaqlar zolağını (eni təqr. 15 *km*, mütləq hünd. – 2 *m*) qabarmadan qoruyur. B.-nın q.-ini *Flandriya ovalığı*, şm.-ş.-ini Kampin ovalığı tutur. Flandriya ovalığında hünd.-ü 150–170 *m*-ə çatan şahid təpəliklərə rast gəlinir. B.-nın orta hissəsi təpəli düzənlik və alçaq yayla (hünd. 80–180 *m*), c.-ş.-i qədim Arden






massividir. Massivdən q.-də alçaq (hünd. 300 *m*-ədək) Erv və Kondroz platoları, ş.-də isə Tay və Yüksək Fenn (hünd. 694 *m*-ədək, Botranj d. – ölkənin ən yüksək nöqtəsi) platoları yerləşir. Ölkənin ucqar c.-ş.-ində *kuest* tirələri (hünd. 460 *m*-ədək) yayılmışdır.

**Geoloji quruluş və faydalı qazıntılar.** B.-nın şm. hissəsi cavan Qərbi Avropa platformasına aiddir; mərkəzi hissəsini Kaledon qırışıqlığının Brabant massivi, c.-ş.-ini Son Paleozoyun ön çökəyi ilə bölünmüş Hersin qırışıqlığının Arden massivi tutur. Brabant massivi Kembri və Silurun terrigen, karbonatlı və vulkanogen süxurlarından təşkil olunmuş, Ordovikdən sonrakı dövrdə diorit intruziyaları ilə yarılmış, Kaledon epoxası tektogenezində (Devonun əvvəlində) intensiv dislokasiyaya uğramışdır. Massivin qırışıq özülü qismən Orta Paleozoy və daha cavan çökmələrlə örtülmüşdür. Arden massivində Kaledon əmələgəlmələri Devon-Karbon qırışıqlıq kompleksləri ilə əhatələnmiş ayrı-ayrı özəklərdən ibarətdir; Hersin epoxası tektogenezində dislokasiyaya uğramışdır. Hersin strukturları q. istiqamətində Üst Tabaşir-Kaynozoy çökmələrinin altına gömülmüşdür. B.-nın şm.-ında Qərbi Avropa platformasının qırışıq bünövrəsi Mezozoyun (əsasən, Tabaşirin) və Kaynozoyun, əsasən, terrigen çöküntüləri ilə örtülmüşdür. B. faydalı qazıntılardan kasaddır; daş kömür istisna təşkil edir. Təbii tikinti materialları (əhəngdaşı, mərmər, qranit, qum, qumdaşı, gil və s.) yataqları, mineral su mənbələri var.

**İqlim.** Ölkənin əksər hissəsində mülayim dəniz iqlimi hakimdir; *Arden yüksəkliyində* nisbətən kontinentaldır. Qışda hava tutqun və dumanlı olur. Yanvarın orta temp-ru sahil r-nlarında 2–3°C, mərkəzi hissənin düzənliklərində təqr. 0°C, Arden yüksəkliyində –1°C-dir. Yayı sərin və daim tufanlı-yağışlıdır. İyulun orta temp-ru 18–19°C. Arden yüksəkliyində 14°C-dir. Ən günəşli aylar aprel və sentyabrdır. Yağıntının illik miqdarı 700–900 *mm*. Arden yüksəkliyində 1500 *mm*-ədəkdir.

**Daxili sular.** B.-nın sakit axan sıx çayları çoxsuludur; əsasən, c.-ş.-dən şm.-q.-ə axır, qismən astanalıdır, şəlalələr var. Əsas çayları c.-da Möz (Maas; qolları Sambra, Urt), şm.-da Şeldadır (qolları Leye, Dandr, Senna). Əksər çaylar gəmiçiliyə yararlıdır, qışda donmur. Çaylar süni kanallar vasitəsilə birləşərək vahid su yolları sistemi yaradır.

Ölkənin illik daxili su ehtiyatı 18 $km^3$-dir (2003). Bunun 40%-i sənayenin, k. t.-nın, kommunal-məişət təsərrüfatının tələbatına sərf olunur. Adambaşına illik su təminatı 1800 $m^3$-dir.

**Torpaqlar, bitki örtüyü və heyvanlar aləmi.** Uzunmüddətli və intensiv istifadə nəticəsində B. ərazisinin böyük bir hissəsində mozaika şəklində salınmış meşəqoruyucu zolaqlar, canlı çəpərlər, çəmənlər, tarlalar və bağlarla mozaika şəklində təmsil olunan mədəni landşaftlar – bokaj landşaftı üstünlük təşkil edir. Sahilyanı ovalıqlarda çəmən bitkiləri ilə zəngin olan qurudulmamış torpaqlar otlaq kimi, qurudulmuş sahələr (polderlər) isə k.t. üçün istifadə edilir. B.-nın mərkəzi hissəsindəki düzənliklərdə inkişaf etmiş münbit qalıq-karbonatlı qonur torpaqlar, əsasən, k. t. yerləridir. B. ərazisinin 24%-ini meşələr tutur (2000). Flandriyanın təpəli düzənliklərində qonur torpaqlarda fıstıq, qarağac və fındıq ağacları ilə qarışıq bitən ikincili palıd-tozağacı meşələri fraqment halında təmsil olunmuşdur. Kampin ovalığında naz qarışıq erikakimilərdən ibarət xam yerlər və podzollaşmış qonur torpaqlarda şam ağacından ibarət süni əkinlər yayılmışdır. Palıd-fıstıq meşə sahələri ilə birləşən küknar meşələrinin ən böyük sahəsi Arden yüksəkliyindədir. B. meşələrində nəcib maral, cüyür, qaban, meşəpişiyi, meşədələsi, boz dovşan olur. Gəmiricilərin sayı çoxdur (qonurdişlilər, süleysinlər, tarla siçanları). 190-dan artıq quş növü, o cümlədən qırqovul, kəklik, meşə cüllütü və s. vardır. B.-da ümumi sah. 78,4 min *ha* olan 4 təbii ərazi, o cümlədən Ot-Fan təbiət parkı mühafizə edilir.

Sahilyanı dünlər.





Aşağı Belçikanın tipik landşaftı.

## Əhali

B. əhalisinin 56%-ini *flamandlar* (əsasən, Qərbi Flandriya, Şərqi Flandriya, Limburq, Flamand Brabantı əyalətləri, Antverpen ş.; Brüssel əhalisinin 10–20%-i), 32%-ini *vallonlar* (Eno, Namür, Lyej, Lüksemburq, Vallon Brabantı əyalətləri, Brüsselin əsas əhalisi), 2%-ini fransızlar, 0,9%-ini almanlar (Almaniya ilə sərhədyanı ərazilər), 2%-ini italyanlar, 2%-ini ərəblər (o cümlədən Mərakeş ərəbləri – 1,5%), həmçinin portuqallar, ispanlar və b. xalqlar təşkil edir. B. əhalisi (1950 ildə 8,7 mln. nəfər; 1970 ildə 9,7 mln. nəfər; 2000 ildə 10,3 mln. nəfər) üçün 1960-cı illərin sonlarından təbii artımın aşağı tempi səciyyəvidir. 1970 ildən 2005 ilədək ölkə əhalisi cəmi 7% artmışdır. Əsas demoqrafik problem doğum səviyyəsinin aşağı olmasıdır (2005 ildə 1000 nəfərə 10,5 nəfər); fertillik göstəricisi 1 qadına 1,6 uşaqdır. Ölüm səviyyəsi 1000 nəfərə 10,2 nəfərdir; uşaq ölümü 1000 nəfər diri doğulan uşağa 4,8 nəfərdir. Əhalinin təbii artım tempi 0,15%-dir. Əhali, əsasən, immiqrasiya hesabına artır (miqrasiya saldosu 1000 nəfərə 1,23 nəfərdir; B.-nın yerli sakinləri arasında miqrasiya saldosu daima mənfidir). Digər problem millətin "qocalması"dır. 15 yaşadək olan uşaqların xüsusi çəkisi 16,9%, yaşlı nəslin isə (65 yaş və ondan yuxarı) xüsusi çəkisi 17,4%-dir. Bu, Avropa üzrə orta göstəricidən xeyli yüksəkdir; əmək qabiliyyətli əhalinin (15–65 yaş) xüsusi çəkisi 65,7%-dir. Orta hesabla hər 100 qadına 96 kişi düşür. Orta ömür müddəti 78,6 ildir (kişilərdə 75,4; qadınlarda 81,9 il).

B., dünyada ən sıx məskunlaşan ölkələrdən biridir; əhalinin orta sıxlığı 1 $km^2$-də 342 nəfərdir (2005); Avropada (cırtdan dövlətlər istisna olmaqla) Niderlanddan sonra 2-ci yerdədir. Ölkənin mərkəzi hissəsi (paytaxtdan 60 *km* radiusda aralı olan zona) daha sıx məskunlaşmışdır, burada əhalinin sıxlığı 1 $km^2$-də 1000 nəfərdir. Şəhər aqlomerasiyaları bir-birinə yaxın yerləşir, belə ki, onların sərhədləri bəzi yerlərdə (başlıca olaraq, əsas nəql. magistralları boyunca) üst-üstə düşür. Şəhər əhalisi 97% təşkil edir (Avropadakı ən yüksək göstəricilərdən biri). İri ş.-ləri (2005): Brüssel (şəhərətrafı ilə birlikdə 1 mln. nəfərdən çox; B. əhalisinin təqr.1/10-i), Antverpen (460 min), Gent (231 min), Şarlerua (200 min), Lyej (183 min), Brügge (117 min), Namür (106 min), Löven (93 min), Mons (91 min).

B.-da 900 mindən çox əcnəbi yaşayır (bütün ölkə əhalisinin təqr. 9%-i, 2000-ci illərin əvvəlləri); bunlar, əsasən, fəhlələr, həmçinin qərargahları Brüsseldə yerləşən beynəlxalq təşkilatların məmurlarıdır (200 min nəfərdən çox); qeyri-leqal immiqrantların sayı da çoxdur. B. əhalisinin təqr. 1/2-i iqtisadiyyat sahəsində çalışır. Sərhədyanı r-nlarda yaşayan təqr. 50 min belçikalı qonşu ölkələrdə işləyir.

Arden dağlarından görünüş.



B. iqtisadiyyatında cəmi 4,73 mln. nəfər işləyir (2003), onlardan 74,2%-i xidmət sferasında, 24,5%-i sənayedə, 1,3%-i k.t.-nda çalışır. İşsizlik səviyyəsi əmək qabiliyyəti olan əhalinin 12%-ini təşkil edir (2004 ilin 1-ci yarısı). Yüksək işsizlik səviyyəsinin əsas səbəbləri milli iqtisadiyyatın struktur zəifliyi ilə əlaqədardır. Dindarların əksəriyyəti xristiandır (59%), həmçinin müsəlmanlar (1,8%), yəhudilər (0,1%) və digər dinlərin nümayəndələri (2,1%) var.

### Tarixi oçerk

**Belçika ərazisi qədimdə və orta əsrlərdə.** B. ərazisindəki ən qədim mədəniyyət abidələri *Aşöl* dövrünə aiddir. Neandertal adamının qalıqları *La-Nolet, Spi* və s. ərazilərdə aşkar olunmuşdur; bunlardan bəzilərinin dəfn yerləri olduğu ehtimal edilir. B.-da Mezolit dövrü *Maqlemoze*, Tyonger (Reyn çayının aşağı axarında və bitişik ərazilərdə) və s. mədəniyyətlərlə təmsil olunur. Neolit dövründə B.-nın c.-unda *xətti-lentvarı keramika mədəniyyətinin* təsiri qeyd olunur; əsas ərazidə Mixelsberq (Reyn və Yuxarı Dunay hövzəsini birləşdirir) və Sena–Uaza–Marna (meqalitik qəbirlər mədəniyyəti arealına daxildir) mədəniyyətlərinə aid abidələr yerləşir. Eneolit və Erkən Tunc dövründə B. ərazisində *zəngvarı qədəhlər mədəniyyəti* yayılmışdır. Neolit mədəniyyətləri ənənələri Tunc dövründə də davam etmişdir. Tunc dövrünün sonu – Dəmir dövrünün əvvəllərində B. Qərbi *Halştat mədəniyyəti* zonasına daxil idi. *Keltlər* (*Laten mədəniyyətinə* aid abidələrin yayılmasına əsasən) burada təqr. e.ə. 1-ci minilliyin 2-ci yarısının əvvəllərində məskunlaşmışlar. Eramızın 1 əsrinin yazılı mənbələrinə görə, onlar *belqlər* qrupuna aid idilər. E.ə. 58–51 illərdə *Yuli Sezar* keltləri özünə tabe etmişdi. E.ə. 16 ildə belqlərin məskunlaşdıqları ərazinin c.-q. hissəsi Romanın Belgika (sonralar 2-ci Belgika) əyalətinin, şm-ş. hissəsi isə Romanın eramızın 89 ilində yaradılmış Aşağı Almaniya əyalətinin tərkibinə daxil edilmişdir. Romalılar belqlərin torpaqlarında bir sıra şəhərlər salmış, latın dili və Roma hüququnu tətbiq etmişlər. 3 əsrdə belqlərin məskunlaşdıqları c. r-nlarında intensiv romanlaşma prosesi gedirdi; sonralar burada dil baxımından fransızlara yaxın olan vallon xalqı formalaşdı. 3 əsrin 2-ci yarısından Belgikanın şm. vil.-lərində *franklar*, həmçinin *frizlər, sakslar* və digər german tayfalarının nümayəndələri əvvəlcə ayrı-ayrı qəsəbələrdə letlər, yaxud muzdlu əsgərlər kimi, sonralar isə *federatlar* qismində məskunlaşırdılar. 5 əsrdə belqlərin gəlmələr tərəfindən assimilyasiyaya uğraması dil və mədəniyyət baxımından niderlandlılara qohum olan yeni xalqın – flamandların təşəkkülünün başlanğıcı idi. Beləliklə, Kölndən Bulonadək formalaşmış german-roman linqvistik sərhədi, demək olar ki, dəyişiklikliyə məruz qalmadan günümüzədək gəlib çatmışdır.

Sambra və Maas çaylarının qovşağında Namür qalası. 7 əsr.



5 əsrdə B. ərazisi Salik frankları birliyinin özəyi olmuşdur. 5 əsrin 3-cü rübündə kral Xilderikin qərargahı *Turnedə* yerləşirdi (1653 ildə burada onun zəngin dəfn yeri aşkar edilmişdir); 5 əsrin sonunda B. *Frank dövlətinin* banisi *I Xlodviqin* ilk yürüşləri üçün bazaya çevrildi. *I Karlın* dövründə (8 əsrin sonu – 9 əsrin əvvəlləri) imperiyanın özəyi olan B. *Verden müqaviləsi (843)* və sonrakı sazişlərə əsasən bölündü. Şelda çayından q.-də yerləşən ərazilərdə əvvəlcə Qərbi Frank, sonradan Fransa krallığından nominal asılı olan *Flandriya* qraflığı yarandı. Şelda çayından ş.-dəki ərazilər Almaniya krallığının (962 ildən Müqəddəs Roma imperiyasının) tərkibinə daxil olan *Lotaringiya* hersoqluğuna (959 ildən Aşağı Lotaringiya) qatıldı. 11 əsrin sonlarında Aşağı Lotaringiya hersoqluğu dağıldı. Onun c. hissəsində bir neçə dünyəvi və kilsə feodal mülkləri – paytaxtı Brüssel olan *Brabant* hersoqluğu, *Genneqau* (Eno; 1051–1299 illərdə Flandriya ilə birləşmişdi), *Namür* (1262 ildə Flandriyaya qatıldı), *Limburq* (1288 ildən Brabantın tərkibindədir), *Lüksemburq qraflıqları* və Lyej yepikopluğu yarandı. 13 əsrdə bunlar Cənubi Niderland, keçmiş Aşağı Lotaringiya vil.-ləri isə Niderland adlandırıldı.

Cənubi Niderland ərazilərinin inkişafının özünəməxsusluğu burada orta əsr şəhərlərinin erkən və sürətli inkişafında idi. Artıq 10 əsrdə ticarət yollarının kəsişdiyi yerlərdə metal emalı və yun parça istehsalı mərkəzləri – Brügge, Gent, İpr, Namür, Lyej meydana gəldi. 11–12 əsrlərdə Löven (Luven), Brüssel, Antverpen və s. şəhərlər də bu sıraya daxil oldu. Cənubi Niderlandda orta əsrlər Avropasının ən inkişaf etmiş sənətkarlıq və ticarətin sex təşkili sistemi formalaşdı. Mahudçuluqla (İngiltərədən gətirilən yun əsasında) bağlı olan sexlər və tacir gildiyaları xüsusilə fərqlənirdi. 12–13 əsrlərdə Cənubi Niderland əraziləri, ilk növbədə Flandriya "Avropanın emalatxanasına" çevrildi, Brügge isə ticarət və kredit əməliyyatlarının ən iri beynəlxalq mərkəzlərindən biri oldu. Cənubi Niderland şəhərlərinin tacir ittifaqları *Hanzaya* daxil oldular və özlərinin ticarət ittifaqını yaratdılar; 13 əsrin sonlarında 60 şəhər bu ittifaqın üzvü idi.

Şəhərlərin inkişafı Cənubi Niderland həyatının bütün sahələrinə təsir göstərirdi. Qrafların hakimiyyəti ilə mübarizədə artıq 11 əsrin 2-ci yarısı – 12 əsrdə Flandriya şəhərləri onların azadlıqlarını və imtiyazlarını təsdiqləyən xartiyalar əldə etdi. Şəhərlərin özündə patrisiatla sexlər arasında hakimiyyət uğrunda mübarizə gedirdi, kənd əhalisi isə feodallara qarşı dəfələrlə üsyan qaldırırdı [bax *Flandriya üsyanı (1323–28)*]. 14 əsrin sonlarında daxili münaqişələr qraflıqda mərkəzi hakimiyyətin mövqeyinin sarsılmasına gətirib çıxardı və Flandriyanın zəifləməsinin səbəblərindən biri oldu. Flandriya şəhərlərindən sonra inkişaf etmiş Brabant şəhərlərinin mövqeyi daha zəif idi. Brabant mahudçular cəmiyyətində təşkilatlanan patrisiat şəhərlərdəki hakimiyyəti möhkəm saxlamaqla sexlərin fəaliyyətinə nəzarət edirdi. Brabantda tədricən "Fərəhli başlanğıc" ("Joyeuse Entree") xartiyasına (1356) əsaslanan silki monarxiya quruluşu formalaşırdı. 13–14 əsrlərdə əmtəə-pul münasibətlərinin inkişafı kənddə dəyişikliklərə səbəb oldu. Cənubi Niderlandda feodal münasibətləri Avropanın digər regionlarına nisbətən daha tez dağılmağa başladı. Kəndlərin əksəriyyəti xartiya və özünüidarəetmə hüququ əldə etdi. Lakin vallon rayonlarındakı zadəganlar mövqelərini qoruya bildilər.

Bu dövrdə Cənubi Niderlandın siyasi həyatı daha çox Flandriya ilə Brabant arasındakı rəqabət, həmçinin Fransanın, İngiltərənin və Müqəddəs Roma imperiyasının bu ərazini öz nüfuz dairəsinə daxil etmək cəhdləri ilə səciyyələnirdi. İmperiyanın Cənubi Niderlanddakı mövqeyi tədricən zəiflədiyi halda (13 əsrin sonunda Brabant faktiki olaraq imperiyadan asılı deyildi), Fransa Flandriyaya təzyiqini daha da artırırdı. 1180 ildə Flandriyanın bir hissəsi Fransa kralının domeninə (bax *Artua*) qatıldı, 1300 ildə isə fransız qoşunları tərəfindən tamamilə işğal edildi. *"Brügge sübh ibadəti" (1302)* ilə Flandriyada işğalçılara qarşı başlayan xalq mübarizəsi Kurtre yaxınlığında Flandriya şəhərlərinin qeyri-nizami qoşunlarının qələbəsi (bax "*Mahmız döyüşü*") və Fransa qoşunlarının ölkədən qovulması ilə başa çatdı. *Yüzillik müharibə (1337–1453)* başladığı zaman Brabant və Genneqau İngiltərənin, Lyej yepiskopluğu isə Fransanın tərəfinə keçdi. Flandriyada Fransa kralının müttəfiqi olan və İngiltərə ilə ticarəti qadağan edən qrafın siyasəti şəhərlərdə narazılıq doğurdu. Şəhərlərdə, o cümlədən Gentdə Y. van Arteveldenin (1338–45) və onun oğlu Filippin (1382) başçılığı ilə üsyanlar baş verdi.

14 əsrin sonlarından Niderland torpaqları tədricən Burqundiya hersoqlarının hakimiyyətinə keçdi. 1384 ildə *Cəsur I Filipp* Flandriya və Artuanı öz mülkiyyəti etdi, onun varisləri *Xeyirxah II Filipp* və *Cəsur Karl* isə Namür (1421), Brabant və Limburq (1430), Lüksemburq (1431) və Genneqaunu (1433), eyni zamanda Şimali Niderland qraflıqları Hollandiya, Zelandiya, Geldern və Zütfeni hersoqluğun ərazisinə qatdılar. 3 əsrdən artıq ayrı-ayrılıqda inkişaf edən Niderland torpaqları sonradan bir sülalənin hakimiyyəti altında birləşdi (bax *Burqundiya hersoqluğu*). Burqundiya hakimiyyəti dövründə mərkəzləşdirilmiş Niderland dövlətinin əsası qoyuldu, onun ali nümayəndəli orqanı olan *Baş ştatlar* yaradıldı, sex quruluşunun dağılması ilə iqtisadiyyatda canlanma başlandı. Bu, 16 əsrdə Cənubi Niderland ərazilərində köhnə sex sənətkarlığı mərkəzlərinin (Brügge, Gent, İpr) əhəmiyyətini itirməsinə, istehsal və ticarətin erkən kapitalist formalarının hakim olduğu yeni mərkəzlərin yaranmasına gətirib çıxartdı. 16 əsrin ortalarında Cənubi Niderlandın əsas ticarət və maliyyə mərkəzi Antverpen oldu. Burqundiya dövründə Niderlandın Renessans bədii mədəniyyəti (bax *Şimal Renessansı*) formalaşmağa başladı.

Cəsur Karlın ölümündən sonra onun qızı Burqundiyalı Mariya 1477 ildə I Maksimilian Habsburq (gələcəkdə Müqəddəs Roma imperiyasının imperatoru) ilə nikah bağlamış, nəticədə (qəti surətdə 1482 ildə) Niderland torpaqları Habsburqların mülklərinin tərkib hissəsi olmuşdur. Müqəddəs Roma imperiyasının tərkibində Niderland knyazlıqları silki nümayəndəliklər saxlanılmaqla əyalətlərə çevrilmiş, baş stathauderə tabe olan stathauderlər tərəfindən (Brabant istina olunmaqla) idarə edilirdi. 1548 ildə Müqəddəs Roma imperiyasının imperatoru, həmçinin İspaniyanın kralı olan *V Karlın* hakimiyyəti illərində 17 Niderland əyaləti (o cümlədən Brabant, Limburq, Lüksemburq, Flandriya, Artua, Genneqau, Namür, Malin və Lill) Burqundiya mahalında birləşdirildi. Mahala bölünməz irsi mülk statusu verildi. 1555 ildə hakimiyyətdən imtina edən V Karl İspaniya taxt-tacını və bir sıra mülkü oğlu *II Filippə* verdi. Beləliklə, Niderland İspaniyanın hakimiyyətinə keçdi.

II Filippin vergiləri artırmaq və kalvinistləri təqib etmək siyasəti Niderlandda narazılıq yaratdı; feodallara və İspaniya hökmranlığının əsas dayağı olan katolik kilsəsinə qarşı mübarizə azadlıq mübarizəsi ilə birləşdi və onun inkişafına təkan verdi. Bu hadisələr tarixdə *Niderland burjua inqilabı (16 əsr)* kimi qeyd olunur. *İkona əleyhdarları üsyanı (1566)* inqilabın başlanğıcı oldu. 1572 ildə Şimali Niderlandda İspaniya ağalığı və feodallara qarşı baş vermiş üsyan qələbə ilə nəticələndi. 1576 ildə şm. əyalətləri ilə saziş (bax "*Gent barışı*") bağlayan Cənubi Niderland əraziləri də

Flandriya qraflarının qəsri. Təqr. 867 il. Gent şəhəri.





Namür şəhərindən görünüş.

İspaniya hakimiyyətinə qarşı mübarizəyə qoşuldu. Lakin Cənubi Niderlandın vallon rayonları (Artua, Genneqau, Due və s.) tezliklə bu sazişdən imtina edərək İspaniya kralının hakimiyyətini tanıdılar (bax *Arras uniyası*). Bu hadisə Şimali Niderland əyalətlərini öz aralarında nəinki İspaniyaya qarşı, hətta daxili feodal-katolik irticaya qarşı yönəlmiş hərbi-siyasi ittifaq (bax *Utrext uniyası*) bağlamağa vadar etdi; ittifaq Şimali Niderland ərazisində gələcək müstəqil dövlətin – *Birləşmiş əyalətlər* resp.-nın özülü oldu. 1585 ildə İspaniya qoşunları Flandriyanı, Brabantı və digər Cənubi Niderland vil.-lərini işğal etdi. Bu ərazilər yenidən İspaniya kralının və katolik kilsəsinin tabeliyinə qaytarıldı. II Filippin ölümündən (1598) sonra Cənubi Niderland formal olaraq suveren dövlət kimi onun qızı İzabellanın və kürəkəni Avstriyalı VII Albrextin hakimiyyətinə keçdi. Sonuncunun ölümündən sonra isə bilavasitə İspaniya monarxiyasının tərkibinə daxil edildi (1621), canişinin idarəçiliyinə verildi və İspaniya Niderlandı adlandırıldı.

**Belçika torpaqları Vestfaliya sülhündən (1648) müstəqil Belçika dövlətinin yaranmasınadək (1830).** 1579 il hadisələri Niderlandın şm. və c. vil.-lərinin siyasi, dini, mədəni və iqtisadi cəhətdən ayrılmasına gətirib çıxartdı. Birləşmiş əyalətlər sürətli inkişaf dövrünə qədəm qoydu, İspaniya ilə əvvəlcə Birləşmiş əyalətlər, sonralar Fransa arasında çoxsaylı müharibələrin meydanına çevrilən İspaniya Niderlandı isə tənəzzülə uğradı. İspaniyanın bu müharibələrdəki məğlubiyyətləri vəziyyəti daha da mürəkkəbləşdirdi. *Vesfaliya sülhünə (1648)* görə, Flandriyanın, Brabantın, Limburqun şm. rayonları və Maastrixt qalası İspaniya Niderlandından alınaraq Birləşmiş əyalətlərə verildi (bax *"Generalitet torpaqları"*). 1609 ildən Birləşmiş əyalətlər donanması tərəfindən Şelda çayının mənsəbində gəmilərin gediş-gəlişinin bağlanması İspaniya Niderlandının iqtisadiyyatına ağır zərbə vurdu və Antverpenin mövqeyini sarsıtdı. 1659, 1668, 1678 illərdə bağlanan sülh müqavilələrinin şərtlərinə görə, Artuanın əksər hissəsi, Flandriyanın, Namürün, Genneqaunun və Lüksemburqun c. r-nları Fransaya birləşdirildi. *İspaniya irsi (1701–14)* uğrunda müharibə nəticəsində İspaniya Niderlandı yenidən ərazi itkisinə məruz qaldı və Avstriya Habsburqlarının hakimiyyəti altına keçərək [bax *Utrext sülhü (1713), Raştatt sülh müqaviləsi (1714)*] Avstriya Niderlandı adlandırıldı.

Ərazinin Fransanın hakimiyyətinə keçməsinin qarşısını almaq məqsədi güdən Böyük Britaniya və Birləşmiş Əyalətlərin təşəbbüsü ilə İspaniya Niderlandı Avstriyaya verilmişdi. İspaniya Niderlandı Niderland resp.-nın təhlükəsizlik zonası rolunu oynamalı idi. "Baryer müqaviləsi" (1715) Birləşmiş əyalətlərin Fransa ilə sərhəddə yerləşən Cənubi Niderlandın səkkiz qalasında qarnizon saxlamaq hüququnu təsdiq etdi. Müqavilə faktiki olaraq gələcək B. dövlətinin c. sərhədini müəyyənləşdirdi [şm. sərhədi Vestfaliya sülhünə (1648) görə təyin edilmişdi].

İmperator *VI Karl* və onun varisi *Mariya Tereziya* Niderland mülklərinə Avstriya xəzinəsi üçün əlavə gəlir mənbəyi kimi baxır və həmin ərazilərin iqtisadiyyatının dirçəlməsində maraqlı idilər. Bu məqsədlə onlar Avstriya Niderlandında sərt proteksionizm siyasəti yeridirdilər. Şelda çayında gəmiçiliyə beynəlxalq qadağanın qoyulduğu bir şəraitdə Ostende genişləndirilmiş və ölkənin əsas dəniz portuna çevrilmiş, bununla əlaqədar daxili yollar və kanallar şəbəkəsi, həmçinin Avstriya Niderlandını alman dövlətləri ilə bağlayan kommunikasiyalar yaradılmışdı. 18 əsrdə uzunmüddətli sülh şəraiti Avstriya Niderlandında iqtisadiyyatın bərpası üçün mühüm rol oynadı. Yalnız *Avstriya irsi* uğrunda müharibə (1740–48) illərində Flandriya qısa müddətə Fransa tərəfindən işğal olundu. *Yeddiillik müharibənin (1756–63)* və İngiltərə-Fransa müharibəsinin (1778–83) Avstriya Niderlandına heç bir təsiri olmadı. Hətta sonuncu müharibənin gedişi zamanı Avstriya Niderlandı bir müddət Avropanın vasitəçi və tranzit ticarətinin mərkəzi kimi xeyli dividend qazandı. 18 əsrin ikinci yarısında Cənubi Niderland torpaqları yenidən iqtisadi cəhətdən ən çox inkişaf etmiş Avropa vil.-lərindən biri oldu. Ənənəvi malların (mahud, kətan parça, krujeva) manufaktura istehsalı ilə yanaşı, kömür hasilatı, metallurgiya, şüşə istehsalı da sürətlə inkişaf edirdi. Kapitalist münasibətlərinin sənayeyə nisbətən sürətlə inkişaf etdiyi k.t.-nda böyük nailiyyətlər müşahidə olunurdu.

Habsburqlar Cənubi Niderland ərazilərini oradakı mövcud rejimi dəyişməyəcəkləri şərti ilə əldə etmişdilər. İqtisadi cəhətdən əlverişli ərazi olsa da, coğrafi baxımdan Avstriyadan uzaqda yerləşdiyi üçün Habsburqlar bu mülkü dəfələrlə Almaniyadakı torpaqlara, xüsusilə, Bavariyaya dəyişdirməyə cəhd göstərmişdilər. Vahid quruluşlu əyalətlərə malik böyük imperiya yaratmaq məqsədini qarşısına qoyan *II İosifin* təkbaşına hökmranlığının başlanması ilə Avstriya Niderlandı əvvəlki statusunu itirdi. 1780 ildən sonra imperator tərəfindən həyata keçirilən *maarifçi mütləqiyyət* islahatları bu əraziyə də şamil edildi. Lakin II İosifin Avstriya Niderlandında daxili idarəetmə və məhkəmə sistemini dəyişdirmək, azadlıqları, imtiyazları, ayrı-ayrı vil.-lərin nisbi muxtariyyətini ləğv etmək, patrisiatın və sex korporasiyalarının mövqeyini zəiflətmək, həmçinin katolik kilsəsini dini, siyasi və iqtisadi hakimiyyətdən məhrum etmək cəhdləri geniş müxalif hərəkatın yaranmasına və nəticədə *Böyük Fransa inqilabının (18 əsr)* təsiri ilə baş verən *Brabant inqilabına (1789–90)* gətirib çıxardı. Brabant inqilabının gedişində Cənubi Niderland torpaqları əcnəbi ağalığından azad olundu və öz dövlətini – Belçika Birləşmiş Ştatlarını yaratdı. Lakin bu dövlətin ömrü çox qısa oldu. 1790 ilin sonunda Avstriya ağalığı yenidən bərpa edildi.

1789 ildən daha çox Belçika torpaqları adlandırılan Cənubi Niderlandın müqəddəratına Böyük Fransa inqilabı (18 əsr) ciddi təsir göstərdi. Jemap yaxınlığında avstriyalıları məğlub edən (1792, 6 noyabr) Fransa qoşunları B. ərazisini işğal etdi. 1793 ilin martında Avstriya bir müddət B.-nı öz nəzarəti altına qaytara bildi. Lakin Flörüs yaxınlığında (26.6. 1794) Avstriya ordusunu darmadağın edən Fransa bu əraziləri yenidən işğal etdi və öz ərazisinə birləşdirdi; bu, 1795 il oktyabrın 1-də Konventin aktı ilə rəsmiləşdirildi və *Kampoformio sülhü (1797)* ilə təsdiqləndi. 20 il ərzində Fransanın əvvəlcə respublika, sonra isə Napoleon hökuməti B. torpaqlarında feodalizmin qalıqlarını, regional və silki imtiyazların çoxunu ləğv etdi, katolik kilsəsinin mövqeyini zəiflətdi, vahid idarəetmə üsülünü tətbiq etdi. 1798 ildə bir sıra üsyanlara gətirib çıxaran köhnə qaydaların ləğvinə qarşı müqavimət cəhdləri amansızcasına yatırıldı. Keçmiş Lyej yepiskopluğunun (1477 ildən müstəqil olmuş; 1794 ildən sonra isə Fransaya birləşdirilmişdir) ərazisi də daxil olmaqla B. torpaqları 9 mahala bölündü. 1804 il Fransa mülki kodeksi B.-da da qüvvədə idi. Bütün bunlar bu torpaqları daha sıx birləşməyə vadar etdi. Fransa ağalığı dövründə B.-da ilk iri sənaye müəssisələri meydana gəldi. 1815 ildə B. ərazisi yenidən bir müddət hərbi əməliyyatlar meydanına çevrildi: iyunun 18-də *Vaterloo* yaxınlığında baş verən vuruşmada İngiltərə-Niderland və Prussiya qoşunları I Napoleonun ordusunu qəti məğlubiyyətə uğratdılar.

Napoleon imperiyasının süqutundan sonra *Vyana konqresinin (1814–15)* qərarı ilə B. torpaqları və 1795 ildə I Napoleon tərəfindən darmadağın olunan və ləğv edilən Birləşmiş əyalətlər resp.-nın torpaqları vahid dövlətdə birləşdi [bax *Niderland krallığı (1815–30)*]. Stathauder *V Vilhelmin* oğlu Oran şahzadəsi və Nassau qrafı Vilhelm (o, Niderland taxtına *I Vilhelm* adı ilə çıxmışdır) bu dövlətin kralı oldu. Şəxsi uniya əsasında Niderland krallığına Böyük *Lüksemburq* hersoqluğu birləşdirildi. B. əyalətləri yeni dövlətdə asılı vəziyyətdə idi: keçmiş Birləşmiş əyalətlərin dövlət borcunun böyük hissəsinin ödənilməsi onların üzərinə qoyulmuşdu, parlamentin aşağı palatasında isə öz əhalisinin sayına rəğmən qeyri-proporsional surətdə təmsil olunmuşdular. Krallıqdakı bütün mühüm dövlət vəzifələri, demək olar ki, niderlandlıların əlində idi. Hökumət orqanları katolik dövri mətbuatını və liberalları təqib edir, Niderland dilini ölkənin yeganə rəsmi dilinə çevirməyə çalışırdı. Sənaye inqilabı dövrünü yaşayan və himayəçi tariflərə son dərəcə ehtiyacı olan B. əyalətlərinin iqtisadi maraqları ciddi şəkildə sıxışdırılırdı. Kral hökuməti onların ehtiyaclarını nəzərə almayaraq şm. əyalətləri üçün əlverişli olan iqtisadi siyasət həyata keçirirdi. 1820-ci illərin əvvəllərindən B. torpaqlarında Niderland krallığından ayrılmaq uğrunda hərəkat güclənməyə başladı. Hərəkata 1828 ildə öz aralarında siyasi ittifaq bağlamış Liberal və Katolik partiyaları başçılıq edirdi.

Avropada inqilabi hərəkatın yeni yüksəlişinə gətirib çıxaran Fransadakı *İyul inqilabı (1830)* B. əyalətlərinə daha güclü təsir göstərdi. 1830 il avqustun 25-də Brüsseldə baş verən üsyan az sonra B.-nın, demək olar ki, bütün iri şəhərlərini əhatə etdi. 1830 il Belçika inqilabının qələbəsi nəticəsində Avropanın xəritəsində yeni müstəqil dövlət – Belçika krallığı meydana gəldi. 1830 il dekabrın 20-də B.Britaniya, Rusiya, Fransa, Avstriya və Prussiyanın iştirakı ilə keçirilən London konfransı B.-nı müstəqil dövlət kimi tanıdı və 1831 ildə onun daimi bitərəfliyini elan etdi [bax *London müqaviləsi (1831)*]. 1831 ilin iyulunda B. taxtına *I Leopold* adı ilə alman şahzadəsi Saksen-Koburqlu Leopold çıxdı. I Vilhelm konfransın qərarlarını rədd etdi və B. torpaqlarını silah gücünə Niderland krallığının tərkibinə qaytarmağa cəhd göstərdi, lakin Belçika-Niderland müharibəsi (1831–33) gedişində məğlubiyyətə uğradı. Niderland B.-nın müstəqilliyini tanımağa məcbur oldu. İki dövlət arasındakı münasibətlər 1839 ildə qəti surətdə tənzimləndi.

**Belçika 1830–1919 illərdə.** Müstəqilliyin əldə olunması B. iqtisadiyyatının sürətli inkişafına imkan yaratdı. Artıq 1830-cu illərdə B. hökuməti dövlət d.y.-larının tikintisi ilə bağlı genişmiqyaslı proqram həyata keçirməyə başladı. Zavod avadanlığı, relslər, parovoz və vaqonlar üçün sifarişlər kömürçıxarma, metallurgiya və maşınqayırma sənayesinin inkişafına səbəb oldu. 1822–30 illərdə B. milli bankı yaradıldı. 1842 ildə Niderland ilə bağlanan sazişə görə, Möz (Maas) və Şelda çaylarında B. gəmiçiliyinə icazə verilməsi və Şelda çayında ticarət etmək hüququnun 1863 ildə B. hökuməti tərəfindən Niderlanddan satın alınması B.-nın iqtisadi inkişafı üçün böyük əhəmiyyət kəsb etdi, eləcə də Avropanın iri ticarət mərkəzi kimi Antverpenin əhəmiyyətinin yenidən bərpasına səbəb oldu. 19 əsrin ortalarında B. dünyanın sənaye cəhətdən inkişaf etmiş ölkələri sırasında ilk yerlərdən birini tuturdu.

19 əsrin 2-ci yarısında – 20 əsrin əvvəllərində də B. yüksək iqtisadi inkişaf tempini qoruyub saxladı. Hasilat və emal sənayesi sahələri, d.y. tikintisi sürətlə inkişaf edir (B. dünyada ən sıx d.y.-ları şəbəkəsinə malik olan ölkəyə çevrildi), d.y. avadanlığının ixracı artırdı. Geniş vasitəçilik ticarəti aparan B. dünyanın kapital ixrac edən aparıcı ölkələrindən birinə çevrildi. 19 əsrin sonlarında B.-da iri inhisarçı birliklərin formalaşması, k.t.-nda isə iri kapitalist təsərrüfatlarının təşəkkülü başladı. Bununla yanaşı B.-nın aqrar quruluşu əvvəlki kimi icarə torpaqlarında xırda əmtəə istehsalının üstünlüyü ilə səciyyələnirdi. Ölkədə sənaye istehsalının həcmi 1830 ildən 1913 ilədək 12 dəfə artmışdı. 19 əsrin sonu – 20 əsrin əvvəllərində B. geniş müstəmləkə əraziləri olan ölkəyə çevrildi. *Berlin konfransında (1884–85)* B.Britaniyanın və Fransanın dəstəyi ilə *II Leopold* "Müstəqil Konqo dövlətinin" onun şəxsi mülkiyyətinə verilməsinə nail oldu. 1908 ildə o, Konqo üzərindəki hüquqlarını dövlətə güzəştə getdi (bax *Belçika Konqosu*).

1830 il inqilabı başa çatdıqdan sonra liberallar və katoliklər arasında ziddiyyətlər artmağa başladı, 1847 ildə onların ittifaqı tamamilə dağıldı. Həm Liberal, həm də Katolik partiyasında daxili parçalanma baş verdi, demokratik və mühafizəkar qruplaşmalar meydana gəldi. Liberallar sənaye cəhətdən inkişaf etmiş Vallon əyalətlərindəki sənaye və ticarət burjuaziyasının maraqlarını ifadə edirdilər; şəhər əhalisinin varlı təbəqələri



Q. Banne. "1830 il Belçika inqilabı". 1834. Antik İncəsənəti Muzeyi. Brüssel.

onlara səs verirdi. Katoliklər zadəganlara və ruhanilərə arxalanır, kənd əhalisi, xüsusilə Flamand rayonlarındakı sakinlər tərəfindən daha çox dəstəklənirdilər. Onların arasında məktəb tədrisinin islahatı (liberallar məktəbləri kilsənin nəzarəti altından çıxarmağa çalışırdılar) və dil məsələsi (katoliklər flamand dilinin fransız dili ilə eyni hüquqa malik olmasına cəhd göstərirdilər) ilə bağlı kəskin mübarizə gedirdi. B. hökumətinin siyasi çıxışların qarşısını almaq məqsədilə gördüyü tədbirlər – seçki senzinin aşağı salınması, yığıncaqların qadağan olunması və s. 1848 ildə Avropada baş verən inqilabların ölkədə yayılmasına imkan vermədi.

19 əsrin ortalarından B.-da fəhlə hərəkatı başlandı, ilk fəhlə təşkilatları yarandı. Fəhlələrin qətiyyətli çıxışları nəticəsində B. hökuməti tətil hüququnu tanımağa, fəhlə koalisiyalarını qadağan edən qanunu ləğv etməyə, fabrik qanunvericiliyində müəyyən güzəştlərə getməyə məcbur oldu. 1885 ildə regional sosialist təşkilatlar əsasında Belçika Fəhlə Partiyası (BFP; 1940 ildən BSP – Belçika Sosialist Partiyası) təsis edildi. 1890-cı illərin ortalarından BFP-yə E. Vandervelde rəhbərlik edirdi. 19 əsrin sonlarından BFP inqilabi mübarizədən imtina etdi, sosializm məqsədlərinə parlament yolu ilə nail olmaq taktikasını seçdi. B. seçki sisteminin islahatı uğrunda mübarizədə BFP-nin böyük rolu olmuşdur. 1892 ildə seçki haqqında qanun qəbul olundu və 25 yaşdan başlayaraq bütün kişilər səsvermə hüququ aldılar.

19 əsrin ortalarından B.-da "flamand məsələsi" daha da kəskinləşdi. Napoleonun hakimiyyəti dövründə B. vil.-lərinin fransızlaşdırılması siyasətinə cavab olaraq yaradılan və Niderland krallığı dövründə tənəzzül edən flamand milli hərəkatı 1830–31 illərdən sonra B. hökumətinin fransız dilini (daha dəqiq, onun vallon dialektini) ölkənin yeganə dövlət dili etmək siyasətini yeritməsi ilə bağlı yenidən canlandı. Flamandlar 1831 ildə qəbul olunmuş konstitusiyada flamand (Niderland dilinin dialekti) dilinin fransız dili ilə bərabərhüquqlu olması haqqındakı müddəaların həyata keçirilməsini tələb edirdilər. 1873, 1878 və 1898 illərdə qəbul olunmuş qanunlar B.-da ikidillilik prinsipini təsdiq etdi. 20 əsrin əvvəllərində flamandların siyasi fəallığının artmasına cavab olaraq fransızdilli əhalinin mədəni, siyasi və iqtisadi maraqlarını qorumaq məqsədini güdən vallon milli hərəkatı formalaşdı.

19 əsr – 20 əsrin əvvəllərində B. hökuməti iqtisadi və siyasi münasibətlərdə Fransa və B.Britaniyaya meyilli olsa da, beynəlxalq arenada ardıcıl bitərəf siyasət yeridirdi. Birinci dünya müharibəsi ərəfəsində beynəlxalq vəziyyətin kəskinləşməsi B. hökumətini 1913 ildə ümumi hərbi mükəlləfiyyət haqqında qanun qəbul etməyə və ölkənin müdafiəsini möhkəmləndirmək məqsədilə tədbirlər görməyə məcbur etdi. 1914 il avqustun 4-də Almaniya qoşunları B.-nın bitərəfliyini pozaraq onun ərazisinə soxuldu. Kral *I Albertin* başçılıq etdiyi ordunun inadlı müqavimətinə baxmayaraq, B. ordusu Qərbi Flandriyaya, İzer çayı ilə Şimal dənizi arasındakı əraziyə sıxışdırıldı və müharibənin sonunadək burada blokadada qaldı. 1918 ilin noyabrında B. ərazisi işğaldan tamamilə azad olundu. *Versal sülh müqaviləsinə (1919)* görə, Almaniyanın Eypen və Malmedi dairələri, həmçinin Bitərəf Morene və Prussiya Morenesi B.-ya birləşdirildi. B.-ya Almaniyadan təzminat almaq hüququ və keçmiş Almaniya Şərqi Afrikasının (bax *Ruanda-Urundi*) bir hissəsini idarə etmək mandatı verildi.

**Belçika Birinci dünya müharibəsindən sonra.** Müharibə illərində B.-nın ciddi ziyan çəkmiş iqtisadiyyatının bərpası üçün külli miqdarda vəsait tələb olunurdu. 1919–21 illərdə bir çox Avropa ölkəsində olduğu kimi, B.-da da inflyasiya və kütləvi işsizlik var idi. İqtisadi çətinliklərlə mübarizə məqsədilə B. 1921 ildə Lüksemburqla, 1932 ildə isə Niderlandla gömrük ittifaqı haqqında saziş bağladı. 1920-ci illərin ortalarında iqtisadiyyatın bərpa dövrü başa çatdı; 1929 ildə B.-nın sənaye istehsalının həcmi müharibəyəqədərki səviyyəni xeyli üstələdi. Təsərrüfat məsələlərinin həlli və yüksək iqtisadi inkişaf tempinin təmin olunması qismən müstəmləkələrdə istismarın güclənməsi ilə bağlı idi: B. firmaları buradan mis, kobalt, qalay, sink, manqan, almaz, qızıl, kauçuk, taxta-şalban, kakao, pambıq və s. xammal və material daşıyırdılar. Dünya iqtisadi böhranı digər Avropa ölkələrinə nisbətən B.-ya gec təsir etdi (B.-da böhranın ən yüksək həddi 1932–33 illərə təsadüf edir). 1935 ildə P. van Zelandın (Katolik partiyası) koalisiya hökuməti iqtisadiyyatı sabitləşdirməyə müvəffəq oldu, lakin 1939 ildə də iqtisadi göstəricilər böhranaqədərki səviyyəsinə çatmadı. Bütün bunlar İkinci dünya müharibəsinin başlanmasına qədər B.-nın polad, bəzi maşınqayırma məhsulları və silah növlərinin dünyadakı aparıcı ixracatçılarından biri kimi qalmasına mane olmadı.

B.-nın müharibədən sonrakı ilk illərdə daxili siyasi inkişafı Rusiyadakı Oktyabr çevrilişi (1917) və Almaniyadakı Noyabr inqilabının (1918) təsiri altında fəhlə və demokratik hərəkatın yüksəlməsi ilə səciyyələnir. 1919 ildə bütün kişilərə və qadınların bəzi kateqoriyalarına (qadınlara qoyulan məhdudiyyətlər 1949 ilin aprelində tamamilə aradan qaldırıldı) ümumi seçki hüququnun verilməsi haqqında qanun qəbul edildi. 1921 ilin fevral ayında B. hökuməti tətillərə qoyulan məhdudiyyətləri aradan qaldırmağa, 8 saatlıq iş günü haqqında qanun qəbul etməyə məcbur oldu. 1936 ildə B. fəhlələri kömürçıxarma, ağır və kimya sənayesi sahələrində 40 saatlıq iş həftəsinin tətbiqinə və ödənişli məzuniyyət verilməsinə nail oldular.

Müharibələrarası dövrdə B.-da "millilinqvistik" ziddiyətlərin kəskinləşməsi sağ radikal təşkilatların siyasi səhnəyə çıxması ilə müşayiət olunurdu. 1922–38 illərdə flamand milli hərəkatı flamand dilinin statusunu yüksəldən yeni qanunların qəbul edilməsinə nail oldu; 1930 ildə Gent Un-tində tədris flamand dilində aparılmağa başladı. 1933 ildə "Böyük Niderland" şüarı ilə çıxış edən ifrat sağçı Flamand Milli İttifaqı yaradıldı. Bunun qarşılığında vallon milli hərəkatı (vallonqanlar) B.-nın fransızdilli vil.-lərinin Fransaya birləşdirilməsi tələbini irəli sürdü. 1930 ildə B.-da L.Deqrelin başçılığı ilə, əsasən, vallon əyalətlərinə arxalanan faşist hərəkatı (bax *Reksistlər*) formalaşdı. 1936 ildə flamand və vallon sağçıları parlamentə öz deputatlarının seçilməsinə nail oldular (yerlərin təqr. 18%-i). Parlamentdə onlar Katolik partiyası ilə birlikdə B.-nın federativ dövlət kimi yenidən qurulmasına çalışırdılar.

Birinci dünya müharibəsindən sonra bitərəflikdən imtina edən B. 1919 ildə Millətlər Cəmiyyətinə daxil oldu, 1920 il sentyabrın 7-də Fransa ilə hərbi konvensiya bağladı. 1923 ildə B. qoşunları Rur vil.-nin işğalında iştirak etdi. B. hökuməti *Lokarno müqavilələrinə (1925)* qoşuldu. Almaniyada Hitler diktaturası bərqərar olduqdan (1933) sonra B. hökuməti təcili surətdə sərhəddə əlavə istehkamların inşasına başladı. Fransa və B.Britaniyanın müqaviməti ilə qarşılaşmayan Almaniya qoşunlarının 1936 ildə demilitarizasiya edilmiş Reyn vil.-nə yeridilməsi B.-nın xarici siyasətində qəti dönüş yaratdı. 1936 il oktyabrın 14-də B. kralı III Leopold Fransa ilə bağlanmış hərbi konvensiyanın ləğvini və B.-nın bitərəflik siyasətinə qayıtmasını elan etdi. Bununla belə, İkinci dünya müharibəsinin başlanğıcında bitərəflik mövqeyinin kral tərəfindən təsdiqlənməsi B.-nı işğaldan xilas edə bilmədi.

1940 il mayın 10-da Almaniya qoşunları B.-ya soxuldu. III Leopoldun komandanlığı altında B. ordusu bu hücumun qarşısını ala bilmədi. 1940 il mayın 28-də B. təslim oldu. Kral və onun ailəsi almanlar tərəfindən Brüsseldə həbsə alındı, 1944 ilin iyununda isə Almaniyaya deportasiya olundu. Y. Pyerlonun (Katolik partiyası) başçılığı ilə Londonda mühacirətdə olan B. hökuməti təslim aktını tanımadı və Afrikadakı müstəmləkələrinə arxalanaraq Almaniyaya qarşı müharibəni davam etdirdi, B.-nın daxilində isə Müqavimət hərəkatı vüsət aldı. Eyni zamanda almanlar ölkədəki flamand və vallon millətçilərindən dəstək alırdılar. B. millətçiləri işğalçı hökumətlə nəinki sıx əməkdaşlıq edir, hətta Almaniya ordusunun tərkibində hərbi əməliyyatlarda ("Valloniya" SS diviziyası, "Flamand legionu") iştirak edirdilər. 1944 ilin sentyabrında Qərb müttəfiqlərinin orduları B. ərazisinə daxil oldu. 1944 il sentyabrın 20-də B. hökuməti Brüsselə qayıtdı.



Senkatoner muzeyi. 1835. Brüssel.

**Belçika İkinci dünya müharibəsindən sonra.** B. İkinci dünya müharibəsindən təsərrüfat potensialını və ixtisaslaşmış işçi ehtiyatını əhəmiyyətli dərəcədə qoruyub saxlayaraq çıxmışdı. Sənaye (vallon) rayonları qismən ABŞ və Kanadadan alınan kreditlər, qismən də *Marşall planına* uyğun olaraq 1948 ildən daxil olan vəsaitlər (113 mln. dollar) hesabına sürətlə bərpa edildi və modernləşdirildi. Müstəmləkələrin maddi resurslarından istifadə də mühüm rol oynadı. 1950-ci illərin 2-ci yarısından flamand vil.-lərinin sənayeləşdirilməsi prosesi başladı və burada emal sənayesinin ən müasir müəssisələri tikildi. 1970-ci illərin əvvəllərində bu vil.-lərin iqtisadiyyatı B.-nın xalq təsərrüfatında aparıcı rol oynamağa başladı. Ümumiyyətlə, 20 əsrin sonunda B. dünyanın yüksək inkişaf etmiş sənaye ölkələri arasında öz mövqeyini daha da möhkəmləndirdi. Ümumi milli məhsulun (ÜMM) adambaşına düşən həcminə görə B. dünyada 6-cı (1988), sənayedə əməkhaqqı səviyyəsinə görə 4-cü (1997), dövlət xərclərinin səviyyəsinə görə (o cümlədən sosial tələbatın ödənilməsi) 5-ci yerə çıxdı (2000).

Müharibələrarası dövrdə olduğu kimi 1945 ildən sonra da Katolik partiyası [1945 ildən Sosial-Xristian partiyası (SXP)], həmçinin onunla sıx əməkdaşlıq edən Liberal partiyası [1961 ildən Azadlıq və Tərəqqi partiyası (ATP)] və BSP B.-nın siyasi həyatında aparıcı rol oynayırdı. 1945–49 illərdə təşkil edilən koalisiya kabinetlərinə sosialistlər A. van Aker (1954–58 illərdə də baş nazir), P.A. *Spaak* və K. Guismans başçılıq edirdilər. 1949 ildən 1999 ilədək olan müddətdə koalisiya hökumətlərinin əksəriyyətinə xristian siyasətçilər rəhbərlik edirdi: Q. Eyskens (1949–50, 1958–61, 1968–72), T. Lefevr (1961–65), P. Armel (1965–66), P.V. Buynants (1966–68, 1978–79), L. Tindemans (1974–78), V. Martens (1979–92, 1981 il istsna olmaqla), J.L. Dehane (1992–99).

B. 1945 ildə BMT-yə daxil oldu, həmçinin Qərbi Avropa və Atlantika iqtisadi, siyasi və hərbi ittifaqları sisteminə inteqrasiya istiqamətini seçdi. Hələ 1944 ildə Benilüksun (Belçika, Niderland və Lüksemburqun gömrük ittifaqı) yaradılması haqqında qərar qəbul edilmişdi. 1958–60 illərdə bu ittifaqın əsasında üç dövlətin iqtisadi ittifaqı yarandı. B. 1951 ildə *Av-*



Kral sarayı. Brüssel.

*ropa Kömür və Polad Birliyinin* (AKPB), 1957 ildə *Avropa İqtisadi Birliyinin* (AİB), 1958 ildə *Avropa Atom Enerjisi Birliyinin* (Avratom) təsisçilərindən biri oldu. 1948 ildə *Qərbi Avropa ittifaqının* yaradılmasının (1955) əsasını qoyan Brüssel paktını imzaladı, 1949 ildə Avropa Şurasına və NATO-ya daxil oldu. Bu təşkilatların əksəriyyətinin mənzil-qərargahları Brüsseldə yerləşir. B. siyasətçiləri P.A. Spaak və V. Klas (müvafiq olaraq 1957–61 və 1994–95 illərdə) NATO-nun baş katibi olmuşlar. 1999 il yanvarın 1-də B. Avropa Valyuta İttifaqına ("Avro zonası") daxil oldu.

İkinci dünya müharibəsi başa çatdıqdan sonra B. cəmiyyəti mürəkkəb problemlərlə üzləşdi. İşğalçılarla əməkdaşlıq etmiş şəxslərin cəzalandırılması birinci dərəcəli məsələ idi. B.-nın məhkəmə orqanları təqr. 500 min kollaborasionizm hadisəsinin təhqiqatını apardı; 53 min nəfər məhkum olundu, təqr. 20 min nəfər mülki hüquqlardan məhrum edildi, 2900 nəfərə ölüm hökmü çıxarıldı (242 hökm yerinə yetirildi). Almanlarla əlbir olanların cəzalandırılması ilə əlaqədar 1940 ildə ölkəni tərk etməkdən boyun qaçırmaqda ittiham olunan III Leopolda etimad barədə məsələ qaldırıldı. 1945 il iyulun 19-da B. parlamenti kralı kollaborasionist elan etdi və onun vətənə qayıtmasını qadağan etdi. B.-da "keçmişin unudulması" ilə bağlı məsələlər üzrə siyasi mübarizə başlandı. Ölkədə geniş amnistiyaların və III Leopolda bəraət verilməsini tələb edən SXP 1950 ildə "kral məsələsi" ilə bağlı referendum keçirilməsinə nail oldu. Referendumda əhalinin əksəriyyəti (flamandların 72%, vallonların 42%) kralı dəstəklədi. Lakin III Leopoldun ölkəyə qayıtması B.-da kəskin etirazlara səbəb oldu. Bütün bunlar kralı öz oğlu I Boduenin xeyrinə taxt-tacdan əl çəkməyə məcbur etdi.

Qrand-Plas meydanında (Brüssel) gül bayramı.



İkinci dünya müharibəsindən sonra müstəmləkələrdə milli azadlıq hərəkatının yüksəlməsi B. hakim dairələrini "dənizaşırı mülkləri" ilə bağlı siyasəti dəyişdirmək zərurəti ilə üzləşdirdi. 1954 ildə B. hökuməti metropoliyadan asılılığı saxlamaq şərtilə Belçika Konqosuna mərhələlərlə muxtariyyətin verilməsi planını irəli sürdü. Bu plan konqolular tərəfindən rədd edildi. Uzunmüddətli müstəmləkə müharibəsinə cəlb olunmaqdan ehtiyatlanan B., 1960 ildə Konqoya (indiki Konqo Demokratik Resp.), 1962 ildə isə Ruanda-Urundiyə (bax *Ruanda*, həmçinin *Burundi*) müstəqillik verdi. Lakin B. firmaları keçmiş müstəmləkələrin iqtisadiyyatında özlərinin mühüm mövqelərini qoruyub saxladı, B. hökuməti isə sonrakı illərdə dəfələrlə onların daxili işlərinə qarışdı, həmin ərazilərdə B. ordusunun iştirakı ilə "polis aksiyaları" (o cümlədən 1978 ildə "ağ əhalinin" müdafiəsini bəhanə edərək) keçirdi. Müstəmləkələrin itirilməsi B.-da kəskin daxili siyasi böhrana gətirib çıxardı. 1960 ilin noyabrında hökumətin maliyyə itkilərini bərpa etmək məqsədilə vergiləri artırmaq və sosial xərcləri azaltmaq haqqında qanun qəbul etmək cəhdləri B. tarixində ən iri ümumi tətilə (1960, dekabr – 1961, yanvar), hökumətin istefa verməsinə və növbədənkənar parlament seçkilərinin keçirilməsinə səbəb oldu.

1945 ildən sonra B.-nın daxili siyasi inkişafı "milli-linqvistik" ziddiyyətlərin getdikcə kəskinləşməsi ilə səciyyələnirdi. 1950-ci illərin ortalarında flamand və vallon hərəkatları öz mövqelərini bərpa etdi. 1954 ildə B. ərazisində dil sərhədlərinin qanunla təsbit olunmasını və flamand vil.-lərində həyatın bütün sahələrinin flamandlaşmasını tələb edən flamandların Xalq İttifaqı partiyası yaradıldı (2004 ilin noyabrından Flamand mənafeyi). Öz növbəsində, Frankofonların Demokratik Cəbhəsi (1965 ildə yaradılmışdı), Vallon Birliyi (1968–80) və digər vallon təşkilatları fransızdilli azlığın maraqlarının qorunması, o cümlədən Valloniyaya müstəqillik verilməsi tələbini irəli sürürdü. 1960-cı illərin əvvəllərindən "milli-linqvistik" ziddiyyətlərin dövlətin parçalanmasına gətirib çıxaran millətlərarası münaqişəyə çevrilməsinin real təhlükəsi yarandı. Vəziyyətin gərgin olması hakim dairələri B.-nı unitar dövlətdən federativ dövlətə çevirmək istiqamətində islahatlar keçirməyə məcbur etdi. 1963 ilin avqustunda fransız, flamand və alman dillərinin yayılma arealına yenidən baxılması haqqında qanun qəbul edildi, Brüsselin xüsusi (ikidilli) statusu təsdiq olundu. 1970 ilin dekabrından B. dövlətinin yeni subyektlərinin formalaşdırılması və onlara geniş sahələri əhatə edən məsələləri müstəqil həll etmək səlahiyyəti vermək məqsədilə dövlət islahatına başlanıldı. Bu iş 1988 ildə keçirilən konstitusiya islahatı ilə tamamlandı. B.-da dövlətin yenidən qurulması prosesi 1994 ilin fevralında kral *II Albert* tərəfindən yeni konstitusiyanın imzalanması ilə başa çatdı. B. 4 linqvistik vil.-ə (Flamand, Vallon, Alman və İkidilli Brüssel) bölünən, həmçinin paralel olaraq iki növ federasiya subyektinin – regionların (Flamand, Vallon, Brüssel) və icma birliklərinin (flamand, fransız və almandilli) mövcud olduğu federativ dövlətə çevrildi. Regionlara və icma birliklərinə öz qanunverici və icraedici hakimiyyət orqanlarını yaratmaq hüququ, həmçinin təsərrüfat, mədəniyyət, təhsil və s. məsələlərinin həllində muxtariyyət verildi. 1970–90-cı illərin islahatları B. dövlətinin möhkəmlənməsi üçün əhəmiyyətli oldu.

Federallaşma prosesi gedişində B.-nın aparıcı siyasi partiyaları daxilində parçalanma baş verdi. 1968–69 illərdə SXP vallon SXP-na və flamand Xristian Xalq partiyasına bölündü. 1970–72 illərdə ATP-dən Flamand Liberallar və Demokratlar partiyası ayrıldı; ATP-nin vallon qanadı olan Liberal İslahatçılar partiyası isə 1976 ildə Vallon ittifaqı ilə birləşərək Valloniyada İslahatlar və Azadlıq Uğrunda partiya adlandı. 1978 ildə BSP-dən fransızdilli Sosialist partiyası ayrıldı; 1980 ildən onun flamand qanadı da Sosialist partiyası adlandırıldı. B.-nın siyasi səhnəsinə çıxan ekoloji hərəkat da "milli-linqvistik" əlamətlərə görə bölündü: 1980 ildə vallonların Ekolo partiyası, 1982 ildə isə flamandların Aqalev partiyası təşkil edildi.



Kənd mənzərəsi. Neprö kommunası. Lyej.

"Milli-linqvistik" məsələnin kəskinləşməsi B.-nın siyasi həyatında sağ radikal meyillərin artmasına səbəb oldu. 1978 ildə təşkil edilmiş ifrat sağçı Flamand bloku seçkilərdə müəyyən uğurlar qazandı (2003 ildə 11,6%). Siyasi fəallıqlarını artıran antiimmiqrasiya təşkilatları Avropa İttifaqına qeyri-üzv ölkələrdən işləmək məqsədilə B.-ya gələn şəxslərin ölkəyə daxil olmasını çətinləşdirən qanunun qəbuluna (1984) nail oldular.

Federasiyalaşma prosesinin başa çatması ilə B.-nın siyasi həyatında hüquq qaydalarının təmin olunması və korrupsiya ilə mübarizə məsələləri ön plana çıxdı. "SXP-nin hakimiyyət dövrünə" son qoyan səs-küylü qalmaqallar silsiləsi ölkəni sarsıtdı. 1999 ilin iyununda keçirilən parlament seçkilərində SXP məğlubiyyətə uğradı. Seçkilərin nəticələrinə görə flamand liberallarının lideri G. Verhofstadın başçılığı ilə sol mərkəzçi hökumət (liberallar, sosialistlər, ekoloji hərəkatın təmsilçiləri) formalaşdırıldı. B.-nın Afrikada yürütdüyü müstəmləkə siyasətinin ayrı-ayrı aspektlərinin, həmçinin 2000 ilin mayında müstəqil Konqo dövlətinin ilk hökumət başçısı P. *Lumumbanın* öldürülməsinin araşdırılması üzrə parlament komissiyasının yaradılması haqqında yeni hökumətin qərar qəbul etməsi ictimaiyyətdə böyük əks-səda doğurdu. 2001 ilin iyununda B. məhkəmələri 1994 ildə Ruandada həyata keçirilən genosidin təşkilində iştirak edən şəxslərin böyük bir qrupunu uzunmüddətli həbs cəzasına məhkum etdi. 2002 ilin avqustunda istehlakçı hüquqları, səhiyyə və ətraf mühit naziri M. Alvutun (Aqalev partiyası) Nepalın B. silahı ilə təchiz edilməsinə etiraz əlaməti olaraq istefa verməsi Verhoftstad hökumətində böhran yaratdı. 2003 ildə keçirilən parlament seçkilərindən sonra Verhoftstadın flamand və vallon liberallarının, həmçinin sosialistlərinin nümayəndələrindən ibarət yeni hökuməti formalaşdırıldı. 2007 ilin iyununda keçirilən seçkilərdən sonra liberalların və xristian-sosialistlərin milli (federal) hökumət formalaşdırmaq cəhdləri baş tutmadı. 2008 ilin martında 5 partiyanın nümayəndələrindən ibarət yeni koalisiya hökumətində baş nazir İ. Leterm oldu. Həmin ilin dekabrında B.-nın ən iri maliyyə şirkəti "Fortis"in satışı ilə bağlı baş verən qalmaqal nəticəsində Leterm istefa verdi. Flamand xristian-demokratların lideri H. van Rompöy baş nazir oldu. 2010 il iyunun 13-də növbədənkənar parlament seçkiləri keçirilsə də, hökumətin formalaşdırılması baş tutmadı.

### Təsərrüfat

B. yüksək inkişaf etmiş kiçik Avropa dövlətləri qrupuna aiddir. ÜDM-in həcmi 316,2 mlrd. dollardır (alıcılıq qabiliyyətinin pariteti üzrə, 2004) dünyanın bütün dövlətlərinin ÜDM-inin təqr. 0,7%-idir; əhalinin adambaşına düşən həcminə görə (30 600 dollar) B. dünyada 9-cu yerdədir. İnsan inkişafı indeksi 0,942-yə bərabərdir (2002; dünyanın 177 ölkəsi arasında 6-cı yer).

Ən köhnə sənaye ölkələrindən biri olan B.-da sənayeləşdirmə prosesi Avropanın digər dövlətlərindən əvvəl başlamışdır. B. sənayesinin sürətli inkişafına onun əlverişli nəql.-coğrafi mövqeyi, şə-

hərlər şəbəkəsinin xeyli sıxlığı, sənətkarlığın və ticarətin qədim ənənələri səbəb olmuşdur. Ağır sənayenin yaradılmasının bazası kömür hasilatı (ölkənin cənubundakı və şimalındakı daş kömür hövzələri), yerli dəmir və sink filizləri yataqlarının işlənilməsi olmuşdur. İqtisadi inkişafına görə, 20 əsrin əvvəlində B. Avropada aparıcı yerlərdən birini tutmuş, iri kapital ixracatçısına çevrilmişdi. 20 əsrdə, xüsusilə 2-ci dünya müharibəsindən sonra ölkənin iqtisadi inkişaf sürəti aşağı düşmüşdü. Sənaye istehsalının və əmək məhsuldarlığının artım templərinə, elmi tədqiqatlar və təcrübi-konstruktor işlənilmələrinə (ETTKİ) görə B.-nın iqtisadiyyatı Avropanın yüksək inkişaf etmiş digər ölkələrindən geri qalmağa başlamışdı. 1920–60-cı illərdə B. hökumətinin uzunmüddətli iqtisadi strategiyasının əsasını idxal olunan ucuz xammalın, o cümlədən Afrikadakı ən iri müstəmləkəsi olan Belçika Konqosundan (hazırda Konqo Demokratik Resp.) gətirilən xammalın emalı təşkil edirdi. 1960-cı illərin əvvəlinədək ölkə sənayesinin əsas sahələri kömürçıxarma, metallurgiya və toxuculuq, energetikanın əsası isə daş kömür idi. B. sənayesinin ənənəvi sahələrinin və köhnə sənaye r-nlarının (əsasən, Valloniyanın Cənub daş kömür hövzəsinin) böhranı 1970-ci illərdə, Qərb ölkələrində iqtisadiyyatın genişmiqyaslı struktur-sahə islahatının başlandığı dövrdə xüsusilə aydın nəzərə çarpırdı. Böhrandan çıxmaq üçün B. hökumətinin iqtisadi siyasətinin prioritet vəzifələrindən biri kimi yalnız gəlirli müəssisələrə yardım edilməsi, əməkhaqqı artımının dayandırılması, B. transmilli korporasiyasının dəstəklənməsi, xarici investisiyaların cəlb edilməsi elan olundu. 20 əsrin axırıncı rübündə iqtisadiyyatın üçüncü sektorunun sahələri – xidmət sferası sürətlə inkişaf edirdi; yanacaq-energetika kompleksi əsaslı şəkildə dəyişildi; yeni sahələrin (atom energetikası, neft-kimya və s.) inkişafı ilə yanaşı istehsalatın modernləşdirilməsi və sənayenin ənənəvi sahələrində (maşınqayırmada, metallurgiyada və s.) yeni müasir müəssisələrin yaradılması həyata keçirildi. 20 əsrin axırınadək təsərrüfatın struktur-sahə islahatında əldə olunmuş müəyyən müvəffəqiyyətlər ölkənin iqtisadi inkişafına müsbət təsir göstərdi. 1990–2002 illərdə ÜDM-in ortaillik artım sürəti 2,1% (2004 ildə 2,6%) oldu.

B. iqtisadiyyatının strukturu ən qabaqcıl postsənaye dövlətləri üçün səciyyəvidir: ÜDM-in 73%-i xidmət sferasında, 25,7%-i sənayedə və tikintidə, 1,3%-i kənd və meşə təsərrüfatında, balıqçılıqda yaradılır (2004). Ölkənin iqtisadi strukturunun ən mühüm xüsusiyyəti kimi bank kapitalının üstünlüyü qalır. B.-nın 12 qabaqcıl maliyyə-sənaye korporasiyasının ["Fortis", "Deksia" ("Dexia"), "İnterbrü" ("Interbrew"), "Elektrobel" ("Electrobel"), "KBS Bank" ("KBC Bank"), "Brüssel Lamber Qrupu" ("Groupe Bruxelles Lambert"), "Almaniy" ("Almanij") və s.] bütün aktivlərinin 60%-indən çoxu bank sferasına məxsusdur. B.-nın iqtisadiyyatında, xüsusilə nəql.-da, kommunal və yanacaq-energetika təsərrüfatında dövlət sektorunun xüsusi çəkisi böyükdür. Dövlət müəssisələrinin effektivliyi kifayət qədər olmadığından, 2000-ci illərin əvvəlində 150 iri şirkət özəlləşdirildi. B.-da əhalinin sosial təminatının ən qabaqcıl sistemlərindən biri fəaliyyət göstərir. Dövlət xərcləri ÜDM-in 50%-indən yuxarıdır (2004 ildə 174,8 mlrd. dollar). 2000 ildə ötən 50 il ərzində ilk dəfə dövlət büdcəsinin tarazlaşdırılması təmin olundu (mənfi 0,1%), 2001 ildə isə azacıq profisit əldə edildi (müsbət 0,3%; 2004 ildə mənfi 0,6%). İqtisadiyyatın əsas problemlərindən biri daxili dövlət borcunun yüksək olmasıdır. 1980-ci illərin əvvəlindən bu borc ya ÜDM-in illik həcmindən üstün, ya da onunla bir səviyyədədir (2004 ildə 96,2%, 2003 ildə 102%, 1993 ildə 135%).

**Sənaye** B. iqtisadiyyatının əsas sektorlarından biridir; üstünlük yeni texnologiyalara, ixracın stimullaşdırılmasına, sənaye potensialının əsasını təşkil edən kiçik və orta müəssisələrin inkişafına, həmçinin dövlət kreditləri və vergi güzəştləri vasitəsilə xarici kapitalın cəlb edilməsinə verilir. 1970-ci illərdən ölkə sənayesi ləng templərlə inkişaf edir, mürəkkəb struktur islahatı mərhələsində və ilk növbədə beynəlxalq əmək bölgüsü sistemində yeni sənaye ixtisaslaşmasının axtarışı prosesindədir. Əsas sənaye sahələri: maşınqayırma, kimya və neft-kimya, qara və əlvan metallurgiya, şüşə, sement, yeyinti. 1990-cı illərdə kimya, neft emalı və şüşə sənayesinin istehsal həcmi artır, bir sıra metallurgiya, avtomobilyığma və toxuculuq müəssisələrinin bağlanması davam edirdi. Aİ-nin "sənaye nüvəsinin" tərkib hissəsi kimi B.-nın coğrafi mövqeyinin xüsusiyyəti qonşu Almaniyanın, Fransanın, Lüksemburqun, Niderlandın və B. Britaniyanın sənaye r-nlarının z-dları ilə kooperasiyada işləyən müəssisələrin burada yerləşdirilməsinə zəmin yaradır.

B.-nın mineral-xammal resursları azdır. Kömür hasilatı (1950-ci illərin ortalarında hər il təqr. 30 mln. *t*) artıq dayandırılmışdır. Cənub hövzəsinin şaxtaları ("qara kəmər" r-nu – Fransa ilə sərhəddən Lyej ş.-nədək zolaq) 1980-ci illərin axırında tam bağlanmışdı. Şimal hövzəsinin sonuncu mədəni (Limburq əyaləti, Kampin r-nu) 1992 ildə bağlanmışdır.

Enerji istehlakının əsası idxal karbohidrogen xammalı və atom enerjisidir. Enerji istehlakının 35%-i neftin, 24%-i təbii qazın, 23%-i atom enerjisinin və digər mənbələrin, 18%-i kömürün payına düşür (2003). Neft idxalının 1/2 hissəsindən çoxu Yaxın Şərq ölkələrindən; təbii qaz Niderlanddan, mayeləşdirilmiş formada isə Əlcəzairdən; uran konsentratları Fransadan, ABŞ-dan, Kanadadan və CAR-dan, zənginləşdirilmiş uran ABŞ-dan və Fransadan, kömür, əsasən, ABŞ-dan və CAR-dan gəlir. Elektrik stansiyalarının müəyyən edilmiş gücü 13,6 mln. *kVt* (2002). Elektrik enerjisinin istehsalı 76,6 mlrd. *kVt·saat*, istehlakı 78,8 mlrd. *kVt·saat*; istehsalın 58%-i AES-lərin, 40%-i – İES-lərin, 2% – SES-lərin və s. (o cümlədən külək enerjisi qurğularının) payına düşür. Elektroenergetikanın strukturunda AES-lərin xüsusi çəkisinə görə B. dünyada 2-ci yeri (Fransadan sonra) tutur. 3 AES-də 7 enerji bloku fəaliyyət göstərir. Mol ş.-ndə (ölkənin şm.-ında) 3, o cümlədən sürətli neytronlarla işləyən reaktoru olan iri beynəlxalq Nüvə Tədqiqatları Mərkəzi yerləşir (B. Britaniya və Fransa ilə birgə tədqiqatlar); burada həmçinin Avratomun atom tədqiqatlarının mərkəzi bürosu və Qərbi Avropanın bir sıra dövlətlərinin energetika reaktorlarından alınan şüalanmış nüvə yanacağının emalı üzrə iri müəssisə yerləşir. İri İES-lər (əsasən, təbii qazla işləyən) Brüsselin, Antverpenin və Gentin ətrafında, həmçinin keçmiş kömür hasilatı r-nlarının hüdudlarında yerləşir. B.-nın ən iri SES-i Ardendəki 750 *MVt* gücü olan sutoplayan elektrik st.-dır.

B. Aİ-də aparıcı polad istehsalçılarından biridir (2001 ildə təqr. 11,3 mln. *t*). Bu sahənin müəssisələri avtomobil prokatı, paslanmayan polad, pəstah, polad məftil və s. hazır polad məhsulları istehsalı üzrə ixtisaslaşır. B.-nın qara metallurgiyasının yenidən formalaşması xarici şirkətlərlə sıx alyans şəraitində baş verirdi. Paslanmayan poladın aparıcı istehsalçısı olan "Kokeri-Sambr" ("Cockerill-Sambre") firmasının səhmlərinin nəzarət paketi "Yuzinor" ("Usinor") fransız şirkətinə məxsusdur; tam tsikllə işləyən iri müasir "Sidmar" kombinatı (nazik polad təbəqə və s. istehsalı; Gent-Ternözen kanalı sahilində, Zelzatda) Lüksemburqun "ARBED" konserninin tərkibinə daxildir. Müəssisələrin əksəriyyəti ənənəvi olaraq Şarlerua və Lyej ş.-lərinin ətrafında yerləşir. Əsas xammal dəmir filizi (İsveçdən idxal olunur) və kokslaşan kömürdür (ABŞ-dan).

Əlvan və nadir metalların istehsalına və ixracına görə B. Aİ-də aparıcı yerlərdən birini tutur. 400 min *t*-dan çox saflaşdırılmış mis (Aİ-də Almaniyadan, Polşadan və İspaniyadan sonra 4-cü yerdədir), 250 min *t* qurğuşun, 120 min *t*-adək sink, həmçinin kobalt, germanium, tantal, niobium, selen və s. istehsal olunur (2000–03 illərdə, orta hesabla il ərzində). Sahənin əsas z-dları Antverpen və Lyej şəhərətraflarında (bura xaricdən xammal, o cümlədən əlvan metal tullantıları gətirilir) və onların arasından keçən gəmiçilik yolları boyunca yerləşir.

Maşınqayırma B. sənayesinin aparıcı sahəsidir; ənənəvi olaraq metallurgiya və kimya sənayesi üçün avadanlığın, nəql. vasitələrinin, elektrotexnika məhsullarının istehsalına yönəlmişdir. 20 əsrin ortalarından avtomobilqayırma mühüm yer tutur (2000-ci illərin əvvəllərində ildə təqr. 1 mln. minik avtomobili); Antverpendəki ["Ceneral motors" ("General Motors")] və Limburq əyalətinin Genk ş.-dəki z-dları [Kölndəki "Ford verke" ("Ford Werke") müəssisəsinin filialı] ilə təmsil olunmuşdur. Elektrotexnika sənayesi müəssisələri generatorlar, turbinlər, transformatorlar, AES-lər, kosmik tədqiqatlar və s. üçün avadanlıq buraxır. Cihazqayırma və elektron sənayesi (telekommunikasiya avadanlığı, naqil rabitə vasitələri və s.) müəssisələri Antverpen, Gent, Brügge, Ruselar, Brüssel və Lövendə, eləcə də Niderlandla sərhəd yaxınlığında ["Filips" ("Philips") konserninin Hasselt, Türnhaut və Tessenderlodakı z-dları] yerləşir. B. müəssisələri dəmirçi-pres avadanlığının istehsalı və ixracı üzrə ("LFT" firması) əvvəllər olduğu kimi Aİ-də liderdir. Kimya, metallurgiya, toxuculuq, yeyinti və s. sənaye sahələri üçün avadanlığın, həmçinin metal konstruksiyaların, k.t. və yol maşınlarının, teplovozların və vaqonların istehsalı (əsas mərkəzləri – Lyej, Antverpen, Brüssel, Şarlerua) öz əhəmiyyətini saxlayır. Antverpendə və Gentdə gəmiqayırma və gəmi təmiri tərsanələri yerləşir, lakin bu sahə dərin struktur böhranı keçirir. Ən köhnə sahələrdən biri Lyejdəki atıcı silahların istehsalıdır, burada dünyanın bir çox ölkəsinin orduları üçün xeyli sayda avtomat silahla yanaşı, ov tüfənglərinin (o cümlədən ədədi və nadir) ənənəvi istehsalı saxlanılmışdır.

Neft emalı sənayesi ümumi gücü ildə 31,5 mln. *t* xam neft olan Antverpendəki üç və Rodenhoyzdakı (Gent–Ternözen kanalı sahilində) bir z-dda cəmlənmişdir. Kimya sənayesi (məhsulun dəyərinə görə maşınqayırmadan sonra 2-ci yeri tutur) ilkin olaraq domna istehsalı tullantılarının istifadəsi əsasında yaradılmışdı. 19 əsrin ortasında belçikalı E. *Solve* tərəfindən sodanın ucuz yolla alınmasının ixtirası azot, kükürd və s. turşuların və mineral gübrələrin istehsalının inkişafına imkan vermişdir. B. Aİ-də qeyri-üzvi kimya məhsullarının ən iri istehsalçısı və ixracatçısı kimi qalmaqdadır. Sahənin ənənəvi lideri olan "Solve" ("Solvay") konserni eyni zamanda B.-da [Yu-Es-Bi ("USB") konserni ilə yanaşı] əczaçılıq preparatlarının ən iri istehsalçılarından birinə çevrilmişdir. Üzvi kimya müəssisələrinin böyük əksəriyyəti xarici konsernlərlə tərəfdaşlıq edir. Dünyanın 20 aparıcı kimya korporasiyasından 10-u ["Bi-Pi" ("BP"), "Dou kemikals" ("Dow Chemicals"), "Yunion karbayd" ("Union Carbide"), "BASF" və s.] Antverpen portu r-nda öz bölmələri ilə təmsil olunmuşdur; burada Aİ-də ən iri kimya, ilk növbədə neft-kimya istehsalı (plastik kütlələr, polietilen, polixlorvinil, sintetik kauçuk, kaprolaktam və s.) mərkəzi formalaşmışdır. Aİ-də bu sahədə aparıcı yerdə olan "Aqfa-Gevart" ("Agfa-Gevaert") B. firması tərəfindən Mortseldə (Antverpen yaxınlığında) kinofotoplyonka və fotokağız istehsal olunur.

Orta əsrlərdən B.-nın yun və kətan parçaları (o cümlədən toxunma yun xalçalar, mebel parçaları, qobelenlər, süfrə və yataq kətanı, məxmər və krujeva) bütün dünyada şöhrət qazanmışdır. Toxuculuq (pambıq, yun, kətan) ənənəvi olaraq Flandriyada (Gent, Ruselare, Kortreyk, Muskron, Ronse və Turne) cəmlənmişdir; sintetik lif əsasında ipək parçaları Antverpen, Brüssel, Alst və Gentdəki f-klər istehsal edir. Yun sənayesinin aparıcı mərkəzi Vervye ş.-dir (Lyej yaxınlığında).

B.-nın sənaye istehsalı strukturunda şüşə (vitrinlər, güzgülər, büllur), sement, gön-dəri-ayaqqabı, mebel və yeyinti (şəkər, pendir, şokolad, marqarin, kərə yağı, həmçinin tütün məmulatları, pivə, şərablar və s.) sənayesi mühüm yer tutur. B. iqtisadiyyatında almazların cilalanması (dünya istehsalının təqr. 1/2 hissəsi) xüsusi yer tutur. Bu sahə hələ müstəmləkə dövründə Konqo xammalı əsasında yaranmışdı. Antverpen dünyada almaz cilalanması və brilyant ticarətinin ən iri mərkəzidir.

"Toyota"nın Belçikadakı zavodu.







Heysel parkındakı "Atomium" abidəsindən (*solda*) "Mini-Avropa" parkının (*sağda*) görünüşü. Brüssel.

**Kənd təsərrüfatı** yüksək intensivliyi ilə fərqlənir, lakin ölkə iqtisadiyyatında mühüm rol oynamır. K.t. sahələri ərazinin 1/4 hissəsini tutur, o cümlədən yem bitkiləri və otlaqlar 65%, dənli bitkilər 15% (taxıla olan tələbatın 1/2 hissəsi idxal hesabına ödənilir). Fermer təsərrüfatları üstünlük təşkil edir, lakin k.t. sahələrinin yarısından çoxu icarə əsasında istifadə olunur (xırda kəndli təsərrüfatları, əsasən, Arden dağlarında qalmışdır). Müasir k.t. texnikasından (8 *ha* şum yerinə orta hesabla 1 traktor, 2002), mineral gübrələrdən (1 *ha*-a 342 *kq*) və muzdlu əməkdən (xüsusilə 50–200 *ha*-lıq iri təsərrüfatları ilə səciyyələnən mərkəzi B.-nın Eno, Brabant əyalətlərində) geniş istifadə olunur. Bəzi ərzaq növlərinin (tərəvəz, yumurta, ət, süd və kərə yağı) istehsalı ölkənin tələbatından yüksəkdir. Bununla belə, zəruri k.t. məhsulunun təqr. 1/5 hissəsi (bərk buğda, yemlər, soya cecəsi, tropik meyvələr və s.) idxal olunur .

Aparıcı sahə ət-süd heyvandarlığıdır (aqrar məhsulu dəyərinin 70%-dən çoxu onun payına düşür): qaramal 3,1, donuz 6,8-dən çox, toyuq 56 (mln. baş, 2002); əsasən, brabanson cinsindən ağıryükdaşıyan atlar (75 min baş) yetişdirilir. Yağlı inək südü 3350, donuz əti 1080, toyuq əti 304, mal əti 255, toyuq yumurtası 179 (min *t*, 2004) və s. istehsal olunur. K.t. məhsulunun dəyərinin təqr. 20%-i tərəvəzçilik və bostançılığın payına düşür. Faraş tərəvəzlər 385, pomidor 250, kök 230, yaşıl noxud 190, kələm 150, gül kələm 95 və s., həmçinin alma 280, armud 170 (min *t*, 2004), gavalı, albalı və s. yığılır. Gül və dekorativ bitkilər becərilir (Gent və Brügge ətrafındakı sahələrdə). Böyük istixana təsərrüfatı (Brüssel ətrafında) var; əsasən, Fransaya və B. Britaniyaya ixrac məqsədilə üzüm, çiyələk və şampinyon göbələkləri becərilir. Tarlaçılıq heyvandarlıq sahəsini təmin edir: məhsulun bir hissəsi mal-qara üçün yem kimi istifadə olunur; mədəniləşdirilmiş otlaqlarda gübrələrdən istifadə etməklə yüksək məhsuldarlıq əldə edilir. Çəmənlər və otlaqlar B.-nın şm.-ş. və c. hissələrində geniş ərazilər tutur. Əsas əkinçilik rayonu ölkənin mərkəz və q. hissələridir. 2004 ildə 2,7 mln. *t* taxıl yığılmışdır (o cümlədən buğda 68,3%, qarğıdalı 20,3%, arpa 11,4%). Şəkər çuğunduru (5,9 mln. *t*), kartof (3 mln. *t*), yem bitkiləri, raps, kətan becərilir.

Ölkənin hər bir r-nda k.t. özünəməxsus xüsusiyyətlərə malikdir. Flandriya südlük-ətlik maldarlığın əsas r-nudur; burada həmçinin kətan, tütün, şəkər çuğunduru, meyvə, tərəvəz və gül becərilir. Arden dağlarında (çovdar, yulaf, kartof və yem bitkilərinin əkildiyi Kondroz məhsuldar platosu istisna olmaqla) heyvandarlıq (qoyun və qaramal) üstünlük təşkil edir. Eno və Brabant əyalətlərinin gilli torpaqlarında buğda və şəkər çuğunduru əkinləri var. Böyük şəhərlərin ətraflarında tərəvəzçilik və bostançılıq inkişaf etmişdir.

**Xidmət sferası** B. iqtisadiyyatının ən iri sektorudur; 1983 ildən 2004 ilədək olan dövrdə onun ÜDM strukturundakı payı 60%-dən 73%-ədək artmışdır. Xidmət sferasının ən mühüm sahələri ticarət (ÜDM-in 17,5%-i), nəql., o cümlədən beynəlxalq tranzit daşımaları (8,9%), bank-kredit sistemidir (5,1%). Sığorta biznesi, işgüzar və peşəkar xidmətlər (menecment, reklam, marketinq, lizinq, məsləhət, auditor-mühasibat, qeyri-texniki biznes-xidmətləri) kompleksi, informasiya infrastrukturu, telekommunikasiyalar və rabitə, ETTKİ və təhsil, həmçinin beynəlxalq təsisatlara xidmət göstərilməsi və rekreasiya xidmətləri kimi sahələr də mühüm rol oynayır.

B. iqtisadiyyatında bu sektorun spesifik xüsusiyyəti beynəlxalq təsisatlara xidmət sahəsinin yüksək xüsusi çəkisidir. B. ərazisində 850-dən çox daimi fəaliyyət göstərən, yaxud vaxtaşırı sessiyaları çağırılan beynəlxalq təşkilatların mənzil-qərargahı, iqamətgahı və nümayəndəliyi yerləşir. Onların cəmlənməsinə görə Brüsselin Paytaxt regionu və bütövlükdə ölkənin Avropa və bütün dünya ölkələri arasında analoqu yoxdur. Brüsseldə, Antverpendə, Lyejdə və B.-nın digər iri şəhərlərində çoxlu sayda iri milli və transmilli maliyyə-sənaye korporasiyalarının mənzil-qərargahları və ofisləri yerləşir.

B.-nın beynəlxalq ixtisaslaşmanın sahəsi rekreasiya xidmətləridir. Turistləri və istirahət edənləri çoxsaylı muzeylər və memarlıq abidələri, rəngarəng karnavallar və yarmarkalar, Şimal Dənizi sahilindəki kurortlar (sahil boyunca Fransa ilə sərhəddən Niderlandla sərhədədək beynəlxalq tramvay xətti keçir), Spa kurortunun müalicəvi suları, Arden





yüksəkliyinin landşaftı və həmçinin B. mətbəxinin xüsusiyyətləri də cəlb edir. Hər il ölkəyə, əsasən, Aİ ölkələrindən, ilk növbədə Niderland, Almaniya, B. Britaniya və Fransadan 6 mln. turist gəlir (2002 ildə 6724 min).

**Nəqliyyat.** B. Qərbi Avropa kommunikasiyalarının ən mühüm qovşaqlarından biridir, dünyada ən sıx d.y. və avtomobil yolları şəbəkəsinə malikdir; daxili su yollarının sıxlığına görə yalnız Niderlanddan geri qalır. Yükdaşımaların ümumi həcminin (2003 ildə təqr. 53 mlrd. *t/km*) 71%-indən çoxu avtomobil, 14%-i d.y., 12%-i daxili su yolları, 3%-i boru kəməri nəql.-nın payına düşür.

Avtomobil yollarının ümumi uz. 149 min *km*-dir (2002). Avropanın ən müasir avtomobil magistralları Belçikadadır. D.y.-rının uz. 3518 *km*-dir (2003); 2631 *km*-i elektrikləşdirilmişdir. B. ərazisindən bir neçə beynəlxalq əhəmiyyətli d.y. magistralları keçir.

B.-da sıx daxili su yolları şəbəkəsi mövcuddur (2043 *km*, onlardan 1528 *km*-i müntəzəm gəmiçilik üçün istifadə olunur), demək olar ki, donmayan çaylardan və çoxsaylı kanallardan ibarətdir. Əsas çay portları: Lyej, Hasselt, Mons, Namür.

Ölkənin xarici yük dövriyyəsinin 1/3-indən çoxu dəniz nəql. vasitəsilə həyata keçirilir. Ən iri dəniz portu Antverpendir (Avropada Rotterdamdan sonra 2-ci yerdədir). Magistral boru kəmərlərinin uz. 2178 *km*-dir, o cümlədən qaz kəmərlərinin uz. 1485 *km*, neft məhsulları kəmərlərininki 535 *km*-dir (2004).

B.-da 43 aeroport var, onlardan 25-i bərk örtüklü uçuş-eniş zolaqları ilə (2004), o cümlədən 5-i beynəlxalqdır (Brüssel, Antverpen, Lyej, Şarlerua və Ostende). Ən iri aeroportu Zaventemdədir (Brüsselin şəhərətrafı). Aparıcı aviaşirkəti – "Sabena" (1923 ildə yaradılmışdır) dünyanın iri şəhərlərinin əksəriyyəti ilə əlaqə yaradır. Brüssellə ölkənin digər şəhərləri arasında müntəzəm fəaliyyət göstərən helikopter nəql. var.

**Xarici iqtisadi əlaqələr** ölkə təsərrüfatının inkişafında olduqca mühüm rol oynayır. B. 100 ildən artıqdır ki, dünya əmtəə və kapital ixracçılarının birinci onluğuna daxildir. İxracın dəyəri 255,7 mlrd. dollar, idxalın dəyəri isə 235 mlrd. dollardır (2003). B.-nın payına dünya mal dövriyyəsinin 3%-i düşür, bu isə ölkənin ümumi dünya məhsulundakı və dünya sənaye istehsalındakı payından xeyli yüksəkdir. 2003 ildə ixrac kvotası (ixracın ÜDM-dəki payı) 85%-dən çox olmuşdur (Aİ ölkələri arasında 1-ci yer). Adambaşına düşən xarici ticarət dövriyyəsinə görə B. dünyada 1-ci yeri tutur. Əmtəə dövriyyəsi strukturunda hazır mallar üstünlük təşkil edir. İxracat həcminin yarısından çoxu maşınqayırma (36–37%), kimya və kimya-əczaçılıq (14–15%) sənayesinin payına düşür. İxracatın əsas əmtəə qrupları: minik avtomobilləri, onların qovşaq və aqreqatları (10%); qiymətli daşlar, o cümlədən brilyantlar (5,7%), dərmanlar (2%). Kimyəvi preparatların müxtəlif növlərinin, maşın və avadanlıqların, qara və əlvan metal yayıqlarının, metal məmulatlarının, ərzağın, şüşə və toxuculuq məmulatlarının ixracı da əhəmiyyətlidir. Qiymətli daşların dünya ixracının 18–20%,-i polad yayığının 10–11%-i, döşəmə örtüklərinin isə 20%-i B.-nın payına düşür. Əsas idxal malları maşın və avadanlıqlar, kimyəvi xammal, emal olunmamış almaz və brilyantlar (sonrakı reeksport üçün), əczaçılıq preparatları, ərzaq, nəql. avadanlığı (o cümlədən avtomobillərin yığılması üçün qovşaqlar və aqreqatlar), neft və neft məhsullarıdır. Xarici əmtəə dövriyyəsinin 3/4 hissəsi Aİ ölkələrinin, əsasən, Almaniyanın (ixrac həcminin 19,9%-i, idxal həcminin isə 18,4%-i, 2003), Fransanın (17,2% və 12,5%), Niderlandın (11,8% və 17,0%) və B.Britaniyanın (8,6% və 6,8%) payına düşür. B.-nın xarici ticarətində qeyri-Avropa ölkələrindən ABŞ, Yaponiya və Konqo Demokratik Resp. mühüm yer tutur.

B. kapitalların beynəlxalq hərəkətində də çox böyük rol oynayır. Onun xaricdə toplanmış birbaşa sərmayələrinin həcmi 397 mlrd. dollar, ölkə iqtisadiyyatına qoyulan birbaşa xarici sərmayələrin ümumi dəyəri isə 350 mlrd. dollardır.

### Silahlı qüvvələr

Silahlı qüvvələrin (SQ) ümumi sayı 40,8 min nəfərdir (2004); quru qoşunları (QQ), HHQ və HDQ-dən ibarətdir. Konstitusiyaya əsasən, SQ-in ali baş komandanı kraldır. SQ-ə ümumi rəhbərliyi Müdafiə Nazirliyi və Müdafiə qərargahı vasitəsilə müdafiə naziri (mülki şəxs) həyata keçirir. SQ-in quruculuğu onun uzunmüddətli (2015 ilədək) təkmilləşdirilmə proqramına əsasən həyata keçirilir. SQ-in əsas vəzifələri böhran şəraitində NATO-nun birləşmiş SQ-nin tərkibində fəaliyyət göstərməkdən və Şimal dənizində, həmçinin La-Manş boğazı zonasında qayıqəleyhinə və minaəleyhinə müdafiədən ibarətdir. QQ (32 min nəfər) 2 mexanikləşdirilmiş və 1 aeromobil briqadadan, ordu aviasiyası bölmələrindən, ön və arxa cəbhəni təchiz edən hissələrdən ibarətdir. QQ 130-dan çox döyüş tankı, təqr. 120 səyyar zenit-raket kompleksi (DZRK), 700-dən çox zirehli döyüş maşını, 350-dən çox səhra artilleriya topu, təqr. 400 tank əleyhinə raket kompleksi (TƏRK), 70-dən çox ordu aviasiya helikopteri, o cümlədən təqr. 40 hücum helikopteri ilə silahlanmışdır. Eskadrilyalardan təşkil olunan HHQ-də (6,4 min nəfər) təqr. 120 döyüş təyyarəsi, o cümlədən 18 nüvə silahı daşıyan təyyarə, 80-dən çox yardımçı aviasiya təyyarəsi, o cümlədən 10 yardımçı helikopter vardır. B. ərazisində digər NATO ölkələrinin HHQ-nin də istifadə etdiyi 14 hərbi-hava bazası yerləşir. Onlardan mühümləri: Byerse (Lyej), Kleyne-Brogel, Floren. HDQ-nin (2,4 min nəfər) tərkibində 11 gəmi, 2 döyüş kateri, 14 yardımçı gəmi, 3 helikopter vardır. Əsas hərbi dəniz bazaları: Zebrügge, Ostende. SQ-in sıravi tərkibinin komplektləşdirilməsi müqavilə əsasında həyata keçirilir. Zabit və unter-zabit korpusları, əsasən, hərbi məktəblərin məzunlarından – peşəkar hərbi qulluqçulardan təşkil olunur.

### Səhiyyə

B.-da 20 mindən çox ümumi praktikalı həkim və 19 min ixtisaslaşmış həkim var (2002). Xəstəxana yardımı özəl qeyri-kommersiya (60%) və dövlət (40%) xəstəxanaları tərəfindən göstərilir. Əhalinin hər 100 min nəfərinə 699 xəstəxana çarpayısı düşür (2001). Vərəmlə xəstələnmə əhalinin hər 100 min nəfərinə görə 12,87 olmuşdur (2001). Ölümün əsas səbəbləri qan dövranı orqanları xəstəlikləri, bədxassəli şişlər, travmalar və zəhərlənmələrdir. Səhiyyəyə qoyulan xərc ÜDM-in 8,7%-ni təşkil etmişdir (2000). Kurortları: Zebrügge, *Ostende*, *Spa* və s.

### İdman

Ölkədə bədən tərbiyəsi və idmanın inkişafının təşkilinə Belçika Bədən Tərbiyəsi Federasiyası (1961 ildə Milli bədən tərbiyəsi liqası və B. Tədris gimnastikası federasiyası ilə birləşərək təsis edilmişdir) cavabdehdir. B. Milli Olimpiya Komitəsi 1906 ildə yaradılmışdır. Prins A. de Merod uzun illər BOK-un üzvü olmuşdur. B. idmançıları 1900 ildən bütün Yay Olimpiya Oyunları (1904



Müqəddəs Ursulanın sənduqəsi. Memlinq muzeyi. Brügge.

ildən başqa) və Qış Olimpiya Oyunlarında (1960, 1968 illərdən başqa) iştirak etmişlər. 1920 ildə Antverpendə Olimpiya Oyunları keçirilmiş, B. idmançıları ölkə tarixində ən böyük uğurlarını qazanmışlar (14 qızıl, 11 gümüş, 11 bürünc medal). Ümumilikdə B. idmançıları Olimpiya Oyunlarında (1900–2008) 38 qızıl, 52 gümüş, 57 bürünc medal, o cümlədən müvafiq olaraq Qış Olimpiya Oyunlarında 1 qızıl, 1 gümüş, 3 bürünc medal əldə etmişlər. Yeganə qızıl medalı Qış Olimpiya Oyunlarında (1948) M. Lannua və P. Bonye qoşa fiqurlu konkisürmədə qazanmışlar. H. van İnnis Olimpiya Oyunlarında (1900 və 1920) kamandan oxatma növü üzrə ən uğurlu çıxışını etmişdir (6 qızıl və 3 gümüş medal). 1960-cı illərin əvvəllərində yüngül atlet Q. Rulants böyük nailiyyətlər qazanmışdır (Avropa çempionu, 1962; Olimpiya Oyunları çempionu, 1964). Digər idman növlərindən velosiped idmanı (E. Merks, “Tur de Frans”ın beşqat qalibi; İ. Reynders, dəfələrlə dünya çempionu), tennis (J. Enen-Arden, 2004 il Olimpiya Oyunları çempionu və K. Klisters, 2000-ci illərin əvvəllərində dünya qadın tennisinin liderləri), futbol (Brüsselin “Anderlext”, Lyej şəhərinin “Brügge”, “Standard” komandaları Avropanın 3 tanınmış futbol klublarıdır; L. Nilis, J.N. Pfaff, E. Şifo,Y. Kulemans, məşqçi R. Qutals dünya futbolu tarixinə daxil olmuşlar), atçılıq idmanı, cüdo, akademik avarçəkmə, boks, yelkənli qayıq idmanı, atıcılıq idmanı, yüngül və ağır atletika inkişaf etmişdir. 1950–2002 illərdə “Spa-Frankorşam” avtodromunda “Formula-1”-in Qranpri mərhələlərindən biri keçirilmişdir. 1980-ci illərdə Brüsseldə dünyanın ən güclü qrossmeysterlərinin iştirakı ilə böyük beynəlxalq şahmat turnirləri, o cümlədən 1988 ildə Dünya kuboku yarışlarının turnirlərindən biri keçirilmişdir.

### Təhsil və elm. Mədəniyyət müəssisələri

B.-nın təhsil sistemi 6 yaşadək uşaqlar üçün məktəbəqədər müəssisələri, 6 illik ibtidai məktəbləri (6–11 yaş həddi), 6 illik tam orta məktəbləri (3 ikiillik mərhələdən ibarətdir), orta ixtisas (tam orta məktəb bazasında texniki, bədii, tibbi, kənd təsərrüfatı və s. tədris müəssisələri) və ali təhsil müəssisələrini əhatə edir. Təhsil 6 yaşdan 16 yaşadək, axşam məktəblərində isə 18 yaşadək bütün uşaqlar üçün icbari və pulsuzdur. B.-da 3 dil-mədəni birliyi var: flamand (əhalinin 57,5 %-i; Niderland dilli), vallon (42%; fransızdilli) və alman (0,5%). İkidilli region statusu almış paytaxt Brüssel xüsusi yer tutur (məktəblərdə dərslər şagirdlərin doğma dilində – fransız və ya Niderland dillərində aparılır). 1989 ildən başlayaraq fransız, flamand və almandilli icmaların öz təhsil sistemləri vardır. Federal hökumət yalnız icbari təhsilin yaş həddini və məktəbi bitirmək haqqında yekun şəhadətnaməsini (diplomu) almaq üçün minimum tələbləri müəyyənləşdirir. Bütün bunlar B. Baş naziri yanında Elmi-texniki və mədəniyyət məsələləri üzrə xidmət tərəfindən həll edilir. 2 təhsil sistemi mövcuddur: dövlət və özəl.

Demək olar ki, bütün özəl məktəblər dövlətdən maliyyə yardımı alır.

B.-da 3 tip ali təhsil müəssisəsi: un-tlar (təhsil müddəti 5 il və daha artıqdır), 4 illik təhsil müddəti olan ali məktəblər (in-tlar, ali məktəblər) və qısaldılmış tədris proqramı olan ali məktəblər (3 il) mövcuddur. B.-da təqr. 180 ali məktəb (280 min tələbə) fəaliyyət göstərir (2000). Ən böyük ali məktəbləri: Lövendə (1425 ildə yaradılmış, fasilələrlə fəaliyyət göstərmişdir; 1970 ildə 2 un-tə bölünmüşdür), Brüsseldə (1834) katolik un-tləri; Lyejdə (1817), Gentdə (1817) un-tlər, Antverpendə (1852), Limburqda (1971) un-t mərkəzləri. 2-ci tip ali məktəblər: tibb və baytarlıq ali məktəbləri (Küreqhaymda), aqronomiya in-tu (Jambluda) və s. Elmi dərəcə vermək hüququna malik təqr. 10 müstəqil un-t fakültəsi də fəaliyyət göstərir. İri elmi müəssisələri: Elm, Ədəbiyyat və Zərif Sənətlər Kral Akademiyası ( (1772), Tibb Kral Akademiyası (1841), Alman Dili və Ədəbiyyatı Kral Akademiyası (1886), Fransız Dili və Ədəbiyyatı Kral Akademiyası (1920), Kral Rəsədxanası (1827), Təbiyyat Elmləri Kral İn-tu (1846) və s. 100-dən çox elmi cəmiyyət və elmi tədqiqat müəssisəsi var. B. sənayesinin bütün sahələrində sənaye tədqiqatları üzrə sahə assosiasiyaları (və yaxud mərkəzləri) fəaliyyət göstərir. Bunlardan ən məşhurları: Metallurgiya tədqiqatları elmi mərkəzi, Belçika toxuculuq sənayesi elmi və texniki mərkəzi, Şüşə milli in-tu və s.

Əsas muzeyləri: Antverpendə Zərif Sənətlər Kral muzeyi (1890 ildə yaradılmışdır), Planten-Moretus (1876), Mayer Van den Berq (1904) və s.; Brüsseldə B.-nın Zərif Sənətlər Kral muzeyləri (1795 ildə yaradılmışdır, o cümlədən qədim incəsənət, müasir incəsənət və s.), İncəsənət və Tarix Kral muzeyləri (1835), Mərkəzi Afrika Kral muzeyi (1897; Brüssel yaxınlığında, Tervürendə); Brüggedə H. Memlinq muzeyi (1150 ildən məşhurdur), Rəssamlıq qalereyası (1930) və s. İri kitabxanaları: Brüsseldə Milli (1837), parlament (1831), Təhsil Nazirliyinin (1879); Löven, Gent, Lyej, Brüssel və s.-də universitet kitabxanaları fəaliyyət göstərir.

### Kütləvi informasiya vasitələri

B.-da qəzet və jurnallar alman, fransız və Niderland dillərində çıxır. “Rossel”, “Mediabel”, “VUM”, “Persqrup” (“De Persgroep”), “RUG” kimi iri nəşriyyatlar tərəfindən 33 gündəlik, 28 həftəlik qəzet buraxılır. Fransız dilində “Suar” (“Le Soir”), “Nuvel qazet” (“La Nouvelle Gazette”), “Libr beljik” (“Da Libre Belgique”); Niderland dilində “Standard” (“De Standaard”), “Het nyusblad” (“Het Nieuwsblad”), “Het folk” (“Het Volk”), “Finansiel-ekonomişe Tayd” (“De Financieel Economische Tijd”); alman dilində “Qrens-exo” (“Grenz Echo”). BELGA milli informasiya agentliyi fəaliyyət göstərir. RTBF (5 radio və 3 telekanal, fransız dilində) və VRT (5 radio və 2 telekanal, Niderland dilində) mərkəzi ictimai teleradio şirkətləri vardır. RTL-TVİ müştərək Belçika-Lüksemburq telekanalı, həmçinin 30-dan artıq özəl televiziya və 800 radiostansiya fəaliyyət göstərir (2005).





### Ədəbiyyat

B. ədəbiyyatı iki dildə – c. əyalətlərində fransız, şm. əyalətlərində isə Niderland dilində inkişaf edir.

**Fransız dilində ədəbiyyat.** İlk yazılı ədəbi abidələr 13 əsrin əvvəllərinə aiddir (“Qafiyəli xronika”, F.Muske və s.). 13–14 əsrlərdə *kurtuaz ədəbiyyatı* inkişaf etmişdi (*“Okassen və Nikolet”*, 13 əsrin ortaları və s.). Orta əsrlərin sonlarında teatrın repertuarına *moralite* (A. Qreban) və *farslar* (“Gənc oğlan və kor kişi haqqında fars”, 13 əsrin sonunda Turne şəhərində səhnəyə qoyulmuşdur) daxil edilmişdi. Satirik “Tülkü haqqında roman”ın flamand variantları (“Tülkünün tacqoyma mərasimi”, təqr. 1280) mövcud idi. 14 əsrdə J. le Bel, J. *Fruassar* və J. Şatlenin tarixi salnamələri məşhur idi. 15 əsrdən novella janrı inkişaf etmişdir (A. de la Sal və b.). 16 əsrdə lirikada “Pleyada” poetik ənənələrinin təsiri hiss olunurdu (F. de Marniks de Sent-Aldeqond, J.*Lemer de Belj* və b.). 17 əsrdə B. ərazisində gedən müharibələr ədəbiyyatın böhranına səbəb olmuşdur. 18 əsrin 2-ci yarısında Lyej şəhəri ölkənin ədəbi həyatının və maarifçilik hərəkatının mərkəzinə çevrilmişdi; burada “Ensiklopedik jurnal” (1756 ildən), Volterin əsərləri çap olunurdu. 18 əsrin sonu – 19 əsrin əvvəllərində ədəbi dərnək və cəmiyyətlər (1800 ildən “Brüssel ədəbi cəmiyyəti” və s.) təşkil edilir, illik “Poetik almanaxlar” (1801–18) dərc edilirdi. Bu dövrdə daha çox təqlidi xarakter daşıyan *romantizm* geniş vüsət almışdı. F. Lebrussar, A. van Hasselt, J. de Sen-Jenua, J.B. Komans, A. Mok, F. Boqarts, Ş. Potven 19 əsrin romantik şairləri idi. Teatrlarda J. Giyomun tarixi dramları və əxlaqi komediyaları tamaşaya qoyulurdu. 1850-ci illərdə E. Qreyson, E. Jan, E. Leklerk sentimental romanları ilə şöhrət qazanmışdı. 1867 ildə Ş. *De Kosterin* “Belçikanın bibliyası” adlandırılan “Til Ulenşpigel haqqında əfsanə” romanı çap olunmuşdu. 1880-ci illərin əvvəllərində “Gənc Belçika” jurnalı ilə əməkdaşlıq edən yazıçılar (M. Valler, İ. Jilken, A. Jiro) ədəbiyyatda orijinallıq yaratmağa çalışırdılar. 19 əsrin 90-cı illərindən B. ədəbiyyatında simvolizm yayıldı. M. *Meterlinkin* simvolist dramları (“Korlar”, 1890; “Orada, içəridə”, 1894 və s.) dünya şöhrəti qazandı. E. *Verharnın* poeziyası simvolizm poetikasına yaxın idi və əhvali-ruhiyyəsinə görə optimist xarakter daşıyırdı.

20 əsrin əvvəllərində realizmin güclənməsi ilə əlaqədar B. ədəbiyyatında ölkənin müxtəlif regionlarının adət-ənənələrini və məişətini əks etdirən məhəlli roman aparıcı rol oynamağa başladı (M. dez Ombio, J. Virres, Y. Krens). 1920–40 illərdə şairlərdən M. *Karem*, J. Norj, A. Bernye, M. Tirinin yaradıcılığı populyar idi. F. Ellens, J.P. Remdonk, D. Malinusun fantastik romanları geniş yayılmışdı. 20 əsrin 1-ci yarısında Verharn, F. *Krommelink*, M. de Gelderod və b. dramaturqların yaradıcılığı B. hüdudlarından kənarda da tanınırdı. Brüsseldə sürrealistlərin (M. Lekont, R. Desmet, R. Vilem) R. *Maqritlə* fəaliyyəti geniş əks-səda yaratmışdı. Detektiv roman janrı məşhur idi (J. *Simenon*, J. Rey, S.A. Stiman). 2-ci dünya müharibəsindən sonra T. Kyeniq, J. Lakomblez və b.-nın yaradıcılığında avanqardizm meyilləri güclənirdi. 1960-cı illərdə P. Villems və Q. Vesin fantastik romanları geniş şöhrət qazandı: B. “yeni roman”ı (D. Rolen, Y. Juen) yaranırdı. Yazıçılardan F. Dannemark, J.P. Verhegen, P. Edmon və b. müasir B. ədəbiyyatının görkəmli nümayəndələridir.

**Niderland dilində ədəbiyyat.** 17 əsrədək *Niderland ədəbiyyatı* çərçivəsində inkişaf etmiş, uzun müddət folklor ənənələri ilə bağlı olmuşdur. 17 əsrdə V. Ogirin satirik-məişət komediyaları məşhur idi. Y. Hardöynün (“Allaha mədhiyyə”, 1620) və A. Poyrtersin (“Dünyanın gözü qarşısında maskası yırtıldı” romanı, 1644) yaradıcılığında dini motivlər üstünlük təşkil edirdi. 19 əsrin əvvəllərində milli mədəniyyətdə dirçəliş nəzərə çarpırdı. Y.F. Villems flamandların qəhrəmanlıq tarixinə dair “Belçikalılara” (1818) toplusunu çap etdirdi. Bu ənənəni davam etdirən flamand yazıçısı H. Konsians (“Flandriya şiri”, 1838) ədəbiyyatda realizmin banilərindən idi. 19 əsr dramaturgiyasında H. Teyrlink, A. Rodenbax, A. Hegensgeyt, S. Ferskaf və P. Ferhülstün yaradıcılıqları fərqlənirdi. K.L. Ledeqankın poeziyası xalq mahnı ənənələrindən bəhrələnirdi. 19 əsrin sonlarında sosial məzmunlu roman və dramlar yarandı (V. Lovelinq, A. Berqman və b.). “Kənd” mövzusu K. Beysse və S. Ströyvelsin erkən yaradıcılığı üçün səciyyəvi idi.

Simvolizm 19 əsrin sonlarında P. de Mont, A. Rodenbax, A. Vermeylen, K. van de Vusteynin yaradıcılığında öz əksini tapdı. H. Teyrlinkin “İohann Doks” (1917) romanında dekadent motivlər nəzərə çarpır. *Ekspressionizmin* ən məşhur nümayəndəsi P. van Ostayen olmuşdur. H. *Klaus*, H. Müliş, H. Lampo, Q. Rasa 20 əsrin 2-ci yarısının görkəmli yazıçılarıdır. Ş. De Kosterin “Ulenşpigel əfsanəsi”, E. Verharnın bəzi şeirləri Azərb. dilinə tərcümə edilmiş, M. Meterlinkin “Göy quş” pyesi Azərb. Dövlət Dram Teatrında tamaşaya qoyulmuşdur (1936).

### Memarlıq və təsviri sənət

Ölkə ərazisində *keltlərin* və qədim romalıların incəsənət abidələri saxlanılmışdır. Orta əsrlərdə B.-nın zəngin sənaye və ticarət şəhərləri mühüm bədii mədəniyyət mərkəzləri idi: 11–12 əsrlərdə *roman* [Lyej və Turnedə kilsələr, Flandriya qraflarının Gentdəki qala-donjonu, Myöz (Maas) çayı vadisində bədii metalişləmə sənəti], 13–14 əsrlərdə isə kilsə və dünyəvi memarlıqda yüksək inkişaf mərhələsinə çatmış *qotik* [Gent, Brüssel, Antverpen və Mexelendə daş və kərpicdən tikilmiş çoxyaruslu kvadrat qülləli, möhkəm sütunlu, “brabant” kapitellə tamamlanan zal və bazilikalı kil-

P.P. Rubens. “Məryəmə tacqoyma mərasimi”. 17 əsrin birinci yarısı. Kral İncəsənət Muzeyi. Brüssel.





“Renessans” üslubunda toxunmuş pambıq xalça.

sələr; şəhər istehkamları, qüllə-“befrua” (Turne, Gent) və s.] üslublu tikililər geniş yayılmışdı. Qotik portal və qəbirüstü kitabə heykəltəraşlığı, divar və dəzgah boyakarlığı, kitab miniatürü yüksək bədii səviyyəyə çatmışdı. 14 əsrin sonu – 15 əsrin əvvəllərində Burqundiyanın hakimiyyəti altında birləşən Cənubi və Şimali Niderlandda formalaşan *Niderland məktəbi* Cənubi Niderland (B.-nın müasir ərazisi) incəsənətində aparıcı rol oynamışdır. 15 əsr – 16 əsrin 1-ci yarısında ruhən dünyəvi olan son qotika memarlıq tikililəri inşa edilirdi: geniş pəncərələri, qalereyaları, bəzəkli qüllələri, çoxlu oyma naxışları olan əzəmətli bələdiyyə binaları (Brüssel, Gent və Lövendə). 15 əsrdə müasir B. ərazisində Y. *van Eyk* tərəfindən əsası qoyulmuş *Şimal İntibahı* Niderland boyakarlığının əsas mərkəzləri yarandı. 16 əsrdə memarlıqda, heykəltəraşlıqda və dekorativ incəsənətdə Renessans formaları üstünlük təşkil edirdi. B.-nın tarixi vilayətlərində Niderland inqilabının məğlubiyyətindən sonra burada incəsənət 17–18 əsrlərdə flamand məktəbi adı ilə tanınan müstəqil məktəb çərçivəsində inkişaf etməyə başladı. 17 əsr flamand *barokko* incəsənətindəki dəbdəbəli, təmtəraqlı dekorativlik qədim Niderland ənənələri və realist xalq tendensiyaları ilə birləşirdi. Antverpendə P.P. *Rubensin* evi (rəssamın layihəsinə əsasən) və bir neçə kilsə tikililərində İtaliya, cənub şəhərlərinin istehkamları və yaşayış evlərində isə Fransa memarlığının təsiri hiss olunur. 17 əsr flamand boyakarlığında Rubensin mühüm rolu olmuşdur; onun əsərlərində coşqun dinamika obrazların dolğun həyatiliyi ilə çulğaşır. Zadəgan portretləri ustası A. *van Deyk*, obrazlarını kəndli və bürger mühitindən götürən Y. Yordans, natürmort ustası F. Sneyders və b. Rubensin şagirdləri və davamçıları idi. Flamand realizmi həmçinin kənd məişət səhnələri və mənzərə boyakarlığı ilə təmsil olu-

Löven universitetinin kitabxanası.





Belçika krujevaları.

nurdu (A. Brauer, Kiçik D. Tenirs, Y. Siberexts, Y. *Breygel*, Y. de Momper və b.). A. Yanses, T. Rombauts və b. M. da *Karavacconun* davamçıları olmuşlar. Heykəl- təraşlıqda təmtəraqlılıqla (A. Kvellin, H. Verbrüggen) yanaşı realizmin nikbin xüsusiyyətləri də təzahür edirdi (J. və F. Dükenua, kiçik uşaq fiqurları; L. Faydherbenin relyefləri).

18 əsr flamand barokkosuna *klassisizm* təsir göstərmişdir (memarlar Y.P. Baursheydt, L.B. Devez; heykəltəraşlar L. Delvo, J.L. Qodşarl və b.); L. Defransın məişət səhnələri və sənaye üsulu ilə hazırlanan interyerləri yeni realist cərəyanların yaranmasına səbəb oldu. B. incəsənəti 19 əsrdə formalaşmışdır (L. Rulandtın klassisizm üslubundakı tikililəri, F. J. Navezin tarixi tabloları və portretləri). 1830 il burjua inqilabı B.-nı kəskin sosial qarşıdurmalarla səciyyələnən sənaye ölkəsinə çevrilməsinə təkan verdi. Şəhərlərin əzəmətli mərkəzi hissələri və eklektizm üslubunda tikilmiş təmtəraqlı binaları ilə yanaşı (memarlar Y.P. Klöysenar, J. Pulart və b.) yoxsul məhəllələr də yaranırdı. B. romantizmi (Q. Vappersin, L. Qallenin, heykəltəraş V. Gefsin tarixi kompozisiyaları, A. Virtsin fantastik alleqoriyaları, H. Leysin stilizə olunmuş məişət səhnələri, T. Furmuanın mənzərələri) tədricən salon *akademizmi* səviyyəsinə düşürdü. Bununla belə B. romantikləri 19 əsrin 2-ci yarısında həm də realizmin coşqun inkişafının (Ş. de Qrunun, A. de Brakelerin kənd və şəhər məişət səhnələri, L. Dübua, İ. Bulanje və b.-nın mənzərələri) təməlini qoydular. K. Menyenin heykəltəraşlıq və boyakarlıq əsərləri B. fəhlə və kəndlilərinin həyatına həsr olunmuşdur. 19 əsrin sonlarında B. memarlıqda *modern* üslubunun vətəninə çevrildi (H. *van de Velde*, B. *Orta*). Realizm ənənələri impressionist müşahidə aniliyi (E. Klaus, A. Evenepul, T. van Reyselberqdə), ironiya və qrotesk fantastika (C. Ensor və İ. de Breykerdə) və mistik simvolika ilə (E. Larmans, F. Rops və xüsusilə heykəltəraş J. Minnenin başçılıq





etdiyi Latem məktəbi ustaları V. de Sadeler, Q. van de Vusteyne yaradıcılığında) birləşirdi.

1920–30 illərin memarlığında *neoklassisizm* üstünlük təşkil edirdi; 1-ci dünya müharibəsindən sonra *konstruktivizm* üslubu inkişaf etməyə başladı (H. Hoste, L. van der Svalmen, E. van Averbeke və b.). Müasir B. memarlığının prinsipləri 1945 ildən sonrakı yaşayış binalarının, nəqliyyat və sənaye tikililərinin, ictimai binaların (memarlar H. van Köyk, R. Bram, M. Brenfo və b.) inşasında formalaşdı. Antverpen, Brüssel və Lyejdə ictimai mərkəzləri olan, çoxmərtəbəli və ya qarışıq tikililərdən ibarət mikrorayonlar salındı. 1958 il Ümumdünya sərgisindən sonra Brüsseldə yeni inşaat materiallarına (alüminium, plastik kütlə, laminat) və inşaat texnologiyasına üstünlük verildi. 1990-cı illərdə tarixiliyə meyil və müxtəlif üslubların *postmodernizm* ruhuna uyğunlaşdırılması nəzərə çarpırdı.

20 əsr B. təsviri sənəti Avropa *ekspressionizmi, simvolizmi* (L. və Q. de Smet, Y. Brüsselmans), *sürrealizmi* (P. Delvo, R. Maqrit) və digər *avanqardizm* cərəyanlarının təsirinə məruz qaldı. 1960-cı illərdə *pop-artın* milli variantı, 1980-ci illərin əvvəllərində isə *heppeninq* və *flyuksus* kimi bədii aktivlik formaları yarandı. 20 əsrin sonu – 21 əsrin əvvəlləri B. incəsənətində polistilizmlə yanaşı postmodernizmin çoxsaylı formaları mövcuddur.

### Musiqi

Müasir B. musiqisi Niderland mədəniyyəti ənənələri ilə bağlı olan flamandların və fransız mədəniyyətinin təsirinə məruz qalmış vallonların milli musiqi mədəniyyəti əsasında yaranmışdır. Orta əsrlərdə B.-nın indiki ərazisində əsas mədəniyyət mərkəzi Lyej idi. Yakob Lyejli musiqi nəzəriyyəsinə dair iri həcmli “Musiqi aynası” (1321–25) traktatını yaratdı. İntibah dövründə xalq mahnı yaradıcılığı əsasında formalaşmış Niderland polifoniya sənəti (bəstəkarlardan J. Benşua, Q. Düfai, J. Depre, Y. Okegem, Y. Obrext, O. Lasso) Qərbi Avropa bəstəkarlıq məktəblərinə mühüm təsir göstərmişdir. 16 əsrdə Antverpen Avropa not çapı mərkəzinə çevrildi (not nəşrinin banilərindən biri T. Suzato idi). 17 əsrdə Antverpendə klavesin istehsalı geniş vüsət almışdı. 19 əsrdə B. musiqisində iki yaradıcılıq istiqaməti – Antverpen (P. Benua, onun davamçıları Y. Bloks, L. Dübua, E. Tinel və b.) və vallon (G. Lekö, J. Yongen, O. Düpon, L. Yuberti və b.) musiqi məktəbləri formalaşdı. Flamand məktəbi alman musiqi ənənələrinə və iri səhnə janrlarına meyilli idi (Benuanın tarixi-qəhrəmanlıq və məişət mövzusunda yazdığı operalar, “Şelda” oratoriyası, 1868, “Rubens” kantatası, 1877; Y. Bloksun “Til Ulenşpigel” operası, 1900; E. Tinelin “Flamand mahnıları” silsiləsi, 1883; L. Dübuanın “Ölüm melodramı”, 1894). Vallon məktəbi üçün fransız musiqi ənənələri önəmli olmuş, əsas diqqət simfonik və kamera instrumental musiqisinə yönəlmişdir (Lekönun skripka üçün sonata və simli kvartetləri; Yongenin orqan ilə simfonik orkestr üçün “Arden təssüratları”, 1913). 19–20 əsrlərdə B. skripka məktəbi (baniləri Ş. *Berio*, A. *Vyötan*, E. *İzai* və b.) yüksək səviyyəyə çatdı. Bəstəkarlardan P. Jilson, J. Absil, F. Kine, P. Defosse və b. 20 əsr B. musiqisinin görkəmli nümayəndələridir. Dirijorlardan F. Andre, D. Defo, pianoçulardan E. Boske, M. Maas, skripkaçılardan A. Qrümyo, K. van Neste, müğənnilərdən M.D. Qrot və F. Anspax, musiqişünaslardan A. Votkenn, Ş. van den Borren, S. Klerks və b. B.-nın məşhur sənət xadimləridir. Brüsseldə “La Monne” teatrı (1700), Antverpendə Kral flamand opera teatrı (1893), Lyejdə Valloniyanın Kral operası (1820, 1967 ilə qədər Lyej Kral teatrı) fəaliyyət göstərir. İfaçı kollektivlər arasında milli simfonik orkestr (1936), qədim musiqi ansamblı “Pro musica Antiqua” (1933–67, yaradıcısı dirijor və bəstəkar S. Keyp) seçilir. Hər il keçirilən Flandriya festivalı (1958 ildən) və Valloniya festivalı (1971 ildən) B.-nın ən məşhur musiqi festivallarıdır. Muasir musiqi festivalları da keçirilir [(“Pro arte” (1921–34), “Ars musica” (1988 ildən)]. Brüsseldə musiqi ifaçılarının kraliça Yelizaveta ad. (1951 ildən; dünyada ən nüfuzlu müsabiqələrdən biri), Gentdə orqançıların S. Bax ad. (1958 ildən), Lyejdə simli kvartetlərin (1951 ildən) və s. beynəlxalq müsabiqələr keçirilir. Brüssel konsevartoriyasının muzeyində dünyada ən böyük musiqi alətləri kolleksiyalarından biri saxlanılır.

### Rəqs və balet

Flandriya və Brabantın (müasir Belçika ərazisində) şəhərləri hələ 14 əsrdən rəqslərlə müşayiət olunan bayramları ilə məşhur idi. 15–16 əsrlərdə kamer-ritorlar (sex tipli birliklər) rəqslə müşayiət olunan teatr tamaşaları təşkil edirdi. 17 əsrdə bu tamaşalar opera-balet formasını aldı. 1700 ildə Brüsseldə “La Monne” teatrı açılmışdı (balet truppası 1705 ildə). 18 əsrdə teatr öz repertuarına fransız bəstəkarlarının əsərlərini daxil edirdi. Tamaşanı fransız və italyan xoreoqrafları hazırlayırdı. Teatrın inkişafında baletmeyster və rəqqas J.A. Petipanın mühüm rolu olmuşdur. Burada məşhur Avropa rəqqasları M. Talyoni, F. Elsler və b. çıxış edirdi. 1826–27 illərdə J.A. Petipa rəqs konservatoriyasının əsasını qoymuşdur. 1848 ildə Gent ş.-ndə rəqs akademiyası yaradılmışdır. 1830–90 illərdə Brüsseldə balet tamaşalarını Bartolomen, Anyel, Y. Hansen, L.

Beffrua qülləsi. Gent şəhəri.





Ommeqanq bayramı. Brüssel.

Petipa hazırlamışlar. 20 əsrin əvvəllərində burada baletmeysterlərdən C.C. Sarakko və F. Ambrozini, rəqqasə K. Briansa çalışırdılar. 20 əsrin ortalarında ölkənin bütün opera teatrlarında balet truppaları fəaliyyət göstərirdi. Baletmeysterlərdən J. Brabants Antverpendə, J. Lazzini Lyejdə işləyirdilər. 1953–59 illərdə "La Monne"də işləmiş baletmeyster J. J. Eçeverinin teatrın inkişafında əhəmiyyətli rolu olmuşdur. 1941 ildə Brabants Antverpendə balet məktəbi təşkil etmişdir (1951 ildən Kral flamand opera məktəbi, 1969 ildən Flandriya balet truppası). 1960 ildə M. *Bejarın* Brüsselə dəvət olunması B. baleti üçün mühüm hadisə oldu. M. Bejar "XX əsrin baleti" truppasını (1960–87) və "Mudra" məktəb-studiyasını yaratmışdır (1970). 1988–91 illərdə "La Monne"də Amerika xoreoqrafı M. Morrisin sonradan milli truppa statusu almış truppası işləmişdir. V. Vandekeybus, Y. Fabr, A.T. de Kersmaker 20 əsrin sonu – 21 əsrin əvvəllərində müstəqil eksperimental rəqslər sahəsində aparıcı xoreoqraflardır.

### Teatr

B. teatr sənətinin tarixi orta əsrlərdən başlanır. 13–15 əsrlərdə liturgiya dramları, moralite və misteriyalar tamaşaya qoyulurdu. 15 əsrin əvvəllərində Gent, Antverpen, Brüssel və s. ş.-lərdə ədəbiyyat və teatr həvəskarları cəmiyyətlərinin (ritor-kameraların) yaranması teatr həyatının canlanmasına səbəb oldu. 1700 ildə Brüsseldə "La Monne" teatrı fəaliyyətə başladı. J. Rasin, J.F. Renyar, P.J. Krebiyon və b. fransız dramaturqlarının əsərləri tamaşaya qoyulurdu. Dramaturq Ş. Favar, aktrisa Montansye (M. Brüne) aparıcı teatr xadimləri idi. Təkcə Brüsseldə təqr. 300 teatr, o cümlədən "Vodevil", "Qaleri", "Molyer teatrı" fəaliyyət göstərirdi. Brüsseldə və Antverpendə yaradılan teatrlarda tamaşalar flamand dilində gedirdi.

19 əsrin sonu – 20 əsrin əvvəllərində simvolist dramaturqlardan M. Meterlink, Ş. van Lerberq, J. Rodenbax, E. Verxarn və b.-nın əsərlərinin teatr sənətinin inkişafında mühüm rolu olmuşdur. 1895–97 illərdə Brüsseldə "İncəsənət evi"nin teatrı (1897–99 illərdə "Yeni Teatr") fəaliyyət göstərirdi. 1907–14 illərdə "Qaleri" teatrında müntəzəm olaraq fransız artistləri çıxış etmişlər. 1920–30-cu illərdə Brüsseldə, Antverpendə və b. ş.-lərdə flamand milli teatrları yaradılmışdır. 1925 ildə A. Eygespars "Proletar teatrı"nın (1940-cı illərdə "Komanda teatrı" adlanırdı) əsasını qoymuşdur. 1943 ildə aktyor və rejissor K. Etyen Brüsseldə "Dü Rido" teatrını yaratmış, onun səhnəsində B.-nın gənc müəlliflərinin (J. Sion, P. Uilems) əsərlərini tamaşaya qoymuşdur. 1970–80-ci illərdə ölkədə fransızdilli dramaturgiya inkişaf etmişdir (R. Kaliski, J. Luve, P. Viyem, J. Siqrid, V. van den Brök, P. Kök, J. M. Pyem, P. Emon, P. Vrebo, L. Vuter).

20 əsrin sonu – 21 əsrin əvvəllərində flamand teatrını L. Perseval, L. van Hov və b. novator rejissorlar təmsil edirdi. 1959 ildən Spa ş.-ndə fransızdilli teatrın patronajlığı ilə yay teatr festivalı keçirilir. B.-da 1977 ildən flamand teatrının da hər iki ildən bir beynəlxalq festivalı təşkil olunur. 1994 ildən hər il "İncəsənət festivalı" keçirilir.

### Kino

B.-da ilk kütləvi kinoseans 1896 ildə Brüsseldə baş tutmuşdur (O. və L. Lümyer qardaşlarının filmləri). 1908 ildə A. Maşen Harrevelddə kinostudiya yaratmışdır (6 ilə 20-yədək filmə, o cümlədən 1912 ildə ilk qısametrajlı "Mina Klassensin hekayəti" filmi çəkilmişdir). Birinci dünya müharibəsi, eləcə də Amerika və Fransa firmaları tərəfindən aparılan rəqabət milli kinematoqrafın təşəkkülünü yubandırdı. 1920-ci illərdə aktyor və ssenaristlər daha əlverişli yaradıcılıq mühiti tapmaq ümidilə Fransaya gedirdilər. 1921 ildə İ. De Kampeneyerin Mehelendə təşkil etdiyi iri studiyalarda R.de Vavrenin, G. Şukens və b. rej.-ın filmləri (o cümlədən, ilk səsli film "Kleptans ailəsi", 1929; "Ən gözəl yuxu", 1930 və s.) istehsal edildi. 1920–30-cu illərin sonlarında sənədli, etnoqrafik və sənətşünaslığa dair filmlər çəkən avanqardist rej.-lar Ş. Dekökeler, A. Koven B. kinematorafına mühüm töhfələr vermişlər. 1936 ildə Kral sinematekasının yaranmasında impressionist kinoesselərin müəllifi A. Storkun (A. Tirifays və P. Vermeylenlə birgə) böyük rolu olmuşdur. Bu dövrün rej.-larıdan Y. Vanderheyden, V. Benua və b. da seçilirdilər. Faşist işğalı zamanı, əsasən, qısametrajlı filmlər çəkilirdi. B. azad olduqdan sonra E. de Meystin "Mülki geyimli əsgərlər" (1944) və "1 №-li barak" (1945) filmləri xüsusi yer tuturdu.

Xarici kapitalın köməyilə 1950-ci illərdən filmlərin müntəzəm istehsalına başlanıldı. "Kontrabandaçıların banketi" (1951, rej. A. Stork), "Ceyms Ensonun maskaları və sifətləri" və "Qızıl əsr" (1950, 1953, hər ikisinin rej. P. Hasarts), "Qağayılar limanda ölür" (1955, rej.-lar R. Verhavert, R. Köypers və İ. Mixils), "Maqrit" (1960, rej. L. de Eş), "İyeronim Bosx" (1963, rej. F. Veyerhans), "Borinajın uşaqları" (1960, rej. P. Meyer) və s. filmlər B. kinosunun ən yaxşı nümunələri arasında idi. B. kinematoqrafçıları siyasi və sosial problemlərə toxunaraq "Sizin hüquqlarınız uğrunda mübarizə" və "Açıq dialoq" (1961, 1971, F. Büens), "Cümə axşamı bazar günündə olduğu kimi oxuyacağıq" (1967, de Eş), "Valloniya" (1971, J. Qromber) filmlərini yaratmışlar. B.-nın beynəlxalq nüfuz qazanmış rej.-larından biri A. Delvonun "Başı qırxılmış adam" (1960) filmini göstərmək olar. 1960-cı illərdə Y. Pustiyens, P. Hell, R. Letem, B. Lexman, Y. Dekortun yaradıcılığı ilə təmsil olunan eksperimental kino geniş yayılmışdı. 1960–80-ci illərin rej.-larından Q. Kümmel, Ş. Akkerman, B. Lami, M. Rabinoviç və J.J. Andriyeni də göstərmək olar. 1980-ci illərdə "Benvenuta" (1983, A. Delvo), "Qızıl səksəninci illər" və "Evə məktublar" (1985, 1986, Ş. Akkerman) filmlərinin müvəffəqiyyət qazanmasına və yeni rej.-lar nəslinin (K. Vermorhen, M. Hansel, M. Didden, J. Korbyo, R. de Hert) meydana çıxmasına baxmayaraq, ildə 7–8 film çəkilirdi.

1990–2000-ci illər B. milli kinosunun dirçəliş dövrü oldu: "Düpon və Düpon film çəkir" (1990, rej. R. de Hert), "Yerdə göydəki kimi" və "İblis ilə mavi dəniz arasında" (1991, 1995, hər ikisinin rej. M. Hansel), "Kral rəqs edir" (2000, rej. J. Korbyo), "Külək hər tərəfə əsə bilər" (2002, rej. T. Barman), "Qışda 25 dərəcə" (2003, rej. S. Vüye, Fransa ilə birgə), "Raşevskinin tanqosu" (2003, rej. S. Qarbarski) və s. B.-da animasiya filmlərinin müntəzəm istehsalına 1940-cı illərin sonlarından başlanmışdır. 1970-ci illərin animasiya kinosuna rej. R. Servenin böyük təsiri olmuşdur. O, Zərif Sənətlər Kral Akademiyasında animasiya kafedrası yaratmış, uşaq animasiya studiyalarına dəstək olmuş, "Peqas" (1973), "Qarpiya" (1979) və s. filmlər çəkmişdir. 1960–70-ci illərin animasiya kinosu rej.-larından E. Rissak, J.P. Pişa, B. Sulzingeri göstərmək olar. B.-da bir neçə kinematoqrafiya in-tutu fəaliyyət göstərir. 1962 ildə Sinemateka yanında kino muzeyi açılmışdır. 1974 ildən Brüssel və Gentdə Beynəlxalq kinofestivallar keçirilir.

*Əd.:* Пантелеева С.В. Нидерланды и Бельгия. СПб., 1905; Лозинский С.Г. История Бельгии в новое время. СПб., 1908; Bragard R. Histoire de la musique belge. Brussel, 1946–49. Vol. 1–2; Lilar S. Soixante ans de theâtre belge. Brux., 1952; Courtens A. Belgique romane: architecture, art monumental. Brux., 1969; Малые страны Западной Европы. М., 1972; Аксенова Л.А. Бельгия. М., 1982; Le theatre dans la communaute française de Belgique depuis 1945. Brux., 1991; Brismee J. Cinema: cent ans de cinéma en Belgique. Liege, 1995; Пирени А. Средневековые города Бельгии. СПб., 2001; Деловая Бельгия: Экономика и связи с Россией: Справочник. М., 2002–2004.

**BELDAŞİ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin İcarud kəndistanında, Germi qəs.-ndən 6 *km* q.-dədir.





Beldibi mağarası.

**BELDİBİ MAĞARASI** – Türkiyənin Antalya ş.-nin Beldibi k. yaxınlığında ibtidai insan mağarası. 1956 ildə türk arxeoloqu Ə. Bostançı tərəfindən aşkar edilmişdir. 1959–60 və 1966–67 illərdə aparılan qazıntılar zamanı B.m.-nda 6 təbəqə (yeni dövrdən qədim dövrə doğru A, B, C, D, E, F) müəyyənləşdirilmişdir. Üst Paleolit dövrünə aid edilən F, E və D təbəqələrində çaxmaqdaşıdan yonma alətlər tapılmışdır, onların bir qismi Orta Paleolit dövrünün xüsusiyyətlərini əks etdirir. C təbəqəsində çaxmaqdaşıdan düzəldilmiş yarımkürə formasında üçbucaqlı daş alətlər, kəsici və qazıyıcı qulplu alətlər, çaxmaqdaşı və sümükdən balıq tilovları, eləcə də ov səhnəsini və ov heyvanlarını (dağkeçisi) təsvir edən qayaüstü rəsmlər aşkar olunmuşdur. B təbəqəsi mikrolit alətlər (kiçik oraq tiyəsi əkinçiliyin başlanğıcı ilə bağlıdır) və keramika qırıntıları (Anadoluda tapılan ilk nümunələrdəndir) ilə səciyyəvidir. Təbəqənin alt laylarında alətlər daha iri və kobuddur. A təbəqəsində Neolit və sonrakı dövrlərə aid əşyaların qalıqları tapılmışdır.

**BELDYUQAKİMİLƏR** (Zoarcidae) – xanıkimilər dəstəsindən balıq fəsiləsi. Bədəni angvilə oxşayır; uz. 15–20 *sm*-dir (bəzi növlərinin uz. 1 *m*-ədək olur). Dərisi çılpaq, yaxud bir-birinin üzərinə yatmayan xırda sikloid pulcuqlarla örtülüdür. Bel və anus üzgəcləri quyruq üzgəci ilə birləşmişdir. Üzmə qovuğu yoxdur. Diridoğan, yaxud kürütökəndir. 46 cinsi, 220-dən çox növü var. Sakit okean və Atlantika okeanının şm. hissələrində, Antarktika və Subantarktikada yaşayır; mülayim və tropik qurşaq sularında rast gəlinir; 500 *m*-ədək dərinlikdə, lisenxellər (Lycenchelys) cinsinin növləri isə 4 min *m*-ədək dərinlikdə yaşayır. Avropa beldyuqası (Zoarces viviparus) çox yayılmışdır; uz. 60 *sm*-ədək olur. Cinsi yetişkənliyə 2 illiyində çatır. Diridoğandır, 400-ədək körpə doğur. 9 ilədək yaşayır. Ağ dəniz, Şimal dənizi və Baltika dənizində rast gəlinir; çay mənsəbinə keçə bilir; 30 *m*-ədək dərinlikdə daş və yosunlar arasında yaşayır. B. onurğasızlar, xırda balıqlar və kürülərlə qidalanır. Amerika beldyuqası (Macrozoarces americanus) B.-in ən irisidir (uz. təqr. 1 *m*, kütləsi 6 *kq*-adək). Avropa və Amerika beldyuqaları yerli ov obyektidir.

Avropa beldyuqası (Zoarces viviparus).



**BELEBEY** – RF-də, Başq. Resp.-nın c.-q.-ində şəhər. Belebey r-nunun mərkəzi. Əh. 61,2 min (2005). Buqulma-Belebey yüksəkliyində, Belebey çayı sahilində, Aksakovo d.y. st.-nın 10 *km*-dədir.

17 əsrdə (digər məlumatlara görə 18 əsrin əvvəllərində) çuvaş məskəni kimi salınmışdır. 1781 ildən Ufa canişinliyinin qəza şəhəri olmuşdur.

B.-də kilsə (18 əsr), məscid (20 əsrin əvvəli), realnı məktəbinin və şəhər idarəsinin binaları (hər ikisi 1911) qorunub saxlanılmışdır. Başq. Dövlət Pedaqoji



Belen şəhərindən görünüş.

Un-tinin elmi-metodiki mərkəzi, Samara Dövlət Memarlıq-İnşaat Akademiyasının filialı; tarix-diyarşünaslıq muzeyi var. B. Şkapovo neft r-nunun mərkəzidir. Əsas müəssisələri: neft və qazçıxarma idarəsi, "Avtonormal" z-du (avtomobil detalları). Poliqrafiya, yüngül, yeyinti sənayesi müəssisələri var. B. yaxınlığında *"Aksakovo"* iqlim-qımız müalicəsi kurortu, "Qluxovskaya" sanatoriyası, M.İ. Svetayevanın ədəbi-bədii muzeyi yerləşir.

**BELEMNİTLƏR** (Belemnitida) – nəsli kəsilmiş başıayaqlı molyusklar dəstəsi. 2500-ədək növü məlumdur. Karbon dövründə meydana gəlmiş, Mezozoyda inkişaf etmiş, Son Tabaşirdə nəsli kəsilmişdir. B.-in inkişaf etmiş daxili skeleti (düz çanağı) olmuşdur. Skelet üzmə qabiliyyətini tənzimləyən fraqmokondan (çoxkameralı hissədən) və onun davamı olan proostrakumdan (heyvanın bel tərəfində yerləşmiş nazik lövhədən) ibarət idi. Fraqmokonun arxa hissəsi konsentrik kalsit qatlarından ibarət uzun, bərk və siqarşəkilli rostrdan (ehtimal ki, daxili çanağı qorumaq üçün) təşkil olunmuşdu. Xarici görünüşünə və həyat tərzinə görə B.-in müasir kalmarlara oxşadığı fərz edilir. Dənizlərdə yaşamış, yırtıcı olmuşdur. Qazıntı halında yaxşı qalmış rostrlar "şeytan barmaqları" adı ilə tanınır; bəzən onların səthində qan damarlarının izləri görünür. Yura çöküntülərini öyrənmək üçün rəhbər qazıntı kimi əhəmiyyətlidir.

**BELEN** (Belém) – Braziliyanın şm.-ında şəhər. Para ştatının inz. m. Əh. 1,4 mln. (2005). Amazon çayı deltasında, Marajo buxtasında, Atlantika okeanından 120 *km* aralıda yerləşir. Dəniz portu (1909 ildə Amazoniyadan kauçukun kütləvi ixracı zamanı tikilmişdir; yük dövriyyəsi ildə təqr. 0,8 mln. *t*; oduncaq, istiot, balıq, taxıl və s. daşınır). D.y. st. Beynəlxalq aeroport.

1616 ildə Feliz Luzitaniya (digər adları: Santa-Mariya-du-Qran-Para, Santa-Mariya-di-Belen-du-Qran-Para) adı ilə salınmışdır. 18–19 əsrlərdə kakao və ədviyyat ixrac olunan port kimi inkişaf etmişdir. 19 əsrin sonlarında iri ticarət mərkəzinə çevrilmişdir.

B.-in tarixi mərkəzi Du-Prezepio istehkamıdır (1616). Müq. Fransisk Ksaveri yezuit kilsəsi (1719), Müq. Aleksandr kilsəsi ilə birlikdə yezuit monastırı kompleksi (hazırda Dini incəsənət muzeyi və İncəsənət qalereyası da daxildir), böyük kilsə 18 əsr abidələridir. İtalyan memarı C.A. Landi 18 əsrin 2-ci yarısında B.-də işləmişdir: Qubernator sarayı, 1771; son rokoko üslubunda Müq. Məryəm kilsəsi, 1777 və s. 19 əsr tikililəri: neobarokko üslubunda Nazaretli Məryəm ana bazilikası (1852); neoklassik üslubda Opera teatrının ("Dünya teatrı"; 1868–75, mühəndis və memar J.T. Pereyra de Maqalyanes), Bələdiyyə palatasının və Prefekturanın (1868) binaları; sənayeçi L. Sodrenin sarayı (1890-cı illər; hazırda Para ştatı muzeyidir).

"Emiliu Qoeldi" muzeyi Amazoniyada ən iri tədqiqat mərkəzidir. Əsası 1866 ildə qoyulmuşdur; Amazon fayunasının nadir növləri, tropik bitkilərin dünyada ən böyük kolleksiyalarından biri olan zoologiya və botanika bağı; antropologiya və arxeologiya mərkəzləri, kitabxana fəaliyyət göstərir. Para ştatının federal un-ti (1957), kitabxana (1871), planetari, "Alasid Nunes" və s. stadionlar; "Rodriqu Alves" parkı (1883; şəhər daxilində Amazon selvası; 2,5 mindən çox ağac növü) var.

B. iri ticarət və turizm mərkəzidir. Ağac emalı, yeyinti, toxuculuq, keramika, metallurgiya sənayesi müəssisələri, gəmi tərsanəsi var. Tikinti materialları istehsal olunur. Ver-u-Pezu Amazon regionunda ən iri bazarlardan (yarmarka) biridir.

**BELENKAYA** Asya İsakovna (28.12. 1897, Mogilyov qub., Klimoviçi qəzasının Surovo k. – 1978, Bakı) – Azərb. anatomu, tibb e.d. (1941), prof. (1943), Azərb. SSR əməkdar həkimi (1942) və əməkdar elm xadimi (1960). Xarkov Qadın Tibb İn-tunu bitirmişdir (1919). 1943–75 illərdə Azərb. Dövlət Tibb İn-tunun normal anatomiya kafedrasında prof. işləmişdir. Tədqiqatları, əsasən, bazu kələfinin uzun kötükləri anastomozlarına, ağ ciyər sinir kötüklərinin müxtəlif yaş dövrlərində anatomiyasına həsr olunmuşdur.

**BELENKİ** Valeri Vladimiroviç (d.5.9. 1969, Bakı) – Azərb. idmançısı. Gimnastika üzrə dünya çempionu (1989, Almaniya), Dünya kubokunun (1991, ABŞ) sahibi, Avropa çempionu (1995, Yunanıstan) və 25-ci Yay Olimpiya Oyunlarının (1992, Barselona) çempionudur.



**BELETAJ** (fr. bel – gözəl + etage – mərtəbə) – 1) evin, əsasən, malikanənin, sarayın ikinci mərtəbəsi. B.-da qəbul (məclis) salonları və otaqları yerləşir; başqa mərtəbələrdəki otaqlardan hündür olması və bəzək elementləri ilə fərqlənir. 2) Teatr binalarında tamaşa zalındakı *benuar* və *amfiteatrın* üzərində yerləşən birinci yarus.

**BELƏVAR** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Ətraf bölgəsinin Ovoğlu kəndistanında, Xoy ş.-ndən 21 *km* şm.-ş.-dədir.

**BELƏVERDİ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Ətraf bölgəsinin Rəhal kəndistanında, Xoy ş.-ndən 14 *km* c.-q.-dədir.

**BELFAST** – B.Britaniyada şəhər. Şimali İrlandiyanın paytaxtı. Əh. 275 min (2005). Şimal boğazı sahilində, Laqan çayının Belfast-Lox körfəzinə töküldüyü yerdə port (iri dəniz gəmiləri qəbul edə bilir). D.y. qovşağı. Beynəlxalq aeroport.

Eramızın 7 əsrinin ortalarında ilk dəfə adı çəkilən kelt yaşayış məskəninin yerində yaranmışdır. 12 əsrin sonunda burada anql-norman burqu salınmış, sonralar onun ətrafında Olsterin İngiltərə və Şotlandiya mühacirləri tərəfindən kolonizasiyası (16 əsrin sonları – 17 əsrin əvvəlləri) gedişində şəhər formalaşmışdır. 1613 ildə şəhər statusunu almışdır. 17–18 əsrlərdə Olsterin əsas ticarət və sənaye mərkəzi olmuşdur. 1791 ildə B.-da protestantların və katoliklərin bərabərliyi və radikal islahatlar uğrunda çıxış edən Birləşmiş irlandlar cəmiyyəti yaradılmışdı. 18–19 əsrlərdə kətan sənayesinin (17 əsrdə yerli xammal əsasında yaranmışdır, hazırda böhran vəziyyətindədir), viski və tütün məmulatı istehsalının, gəmiqayırmanın iri mərkəzi olmuşdur. 19 əsrin ortalarında "Harlend end Vulf" şirkətinin tərsanələri tikilmiş, 1911 ildə burada "Titanik" transatlantika layneri istifadəyə verilmişdir (Nyu-Yorkadək ilk reysə başlamaq üçün 1912 il aprelin 3-də Sautgemptona gəlmiş, aprelin 14-dən 15-ə keçən gecə batmışdır). B. 1921 ildən Şimali İrlandiyanın baş şəhəridir, onun parlamenti (assambleyası) və icraedici hakimiyyət orqanları burada yerləşir. İkinci dünya müharibəsi illərində hərbi gəmiqayırma və aviasiya sənayesinin mərkəzi olmuş, alman aviasiyası tərəfindən intensiv bombalanmışdır. 20 əsrin 2-ci yarısından B. dini və milli ziddiyyətlərin mərkəzinə çevrilmişdir; işsizliyin yüksək səviyyədə olması, dinlərlərarası və milli gərginlik şəhər əhalisinin azalmasına gətirib çıxarır.

Palladio villası üslubunda inşa olunmuş Klifton-haus (1774, memar R. Coy, R. Milnin layihəsinə əsasən) B.-ın ən qədim binalarındandır. Böyük ictimai binaların çoxu Viktoriya dövründə tikilmişdir: şəhər Nəbatat bağının oranjereyası (1839–40), Tüdorlar dövrünün qotikası üslubunda Kral un-ti (1845–49), *neorenessans* üslubunda Gömrük binası (1854–57) – hamısının memarı C. Laniondur; Opera teatrı (1894–95, memar F. Matçem; tamaşaçı zalının tərtibatında *neobarokko* ilə hind incəsənəti motivləri qəribə uyarlıq yaradır); neobarokko üslubunda Ratuşa (1896–1906, memar A. Bramvell-Tomas). 1920-ci illərdə B. muzeyi və rəssamlıq qalereyası (1929; muzey 1888 ildə yaradılmışdır), Parlament (1927–32, memar A. Tornli) və Kral məhkəməsi (1929–33) binaları inşa edilmişdir. İkinci dünya müharibəsindən sonra hospital (1953, memar F. Gibberd), sinaqoq (1961–64) və s. tikilmişdir. Kvins un-ti (1845), Olster un-ti (1984), texnologiya kolleci və kraliça Viktoriya kolleci (qadınlar üçün) var. Kitabxana və elmləri həvəsləndirmə cəmiyyəti (1788), Kütləvi kitabxana (1888), Olster muzeyi (1833; bina 1963–71, memar F. Pim; Qərbi Avropa və İrlandiya incəsənəti kolleksiyaları); bədii və lirika teatrları, Olster orkestri (Bi-Bi-Si-nin Şm. İrlandiya orkestri və B. şəhər orkestri əsasında 1981 ildə yaradılmışdır) fəaliyyət göstərir. Hər il musiqi müsabiqə-festivalı keçirilir (1908 ildən). Odissey mərkəzi (idman arenası və Elm muzeyi ilə birlikdə); sirk (1940) var. Dünyanın ən qədim qəzetlərindən biri olan "Nyus letter" ("News Letter", 1737 ildən) B.-da nəşr olunur.



Belfast şəhərindən görünüş.

Gəmiqayırma (dünyada ən böyük gəmiqayırma və gəmi təmiri üçün quru doklardan biri B.-dadır), aviasiya, tütün, yeyinti, tikiş, əczaçılıq sənayesi var.

**BELFLÖR-KİTAYKA** – soyuğadavamlı alma sortu. İ.V. *Miçurin* tərəfindən sarı Belflör alması çiçəklərinin Çin alması çiçəklərinin tozcuqları ilə tozlandırılmasından yetişdirilmişdir. Çətiri enli, dəyirmi və sıxdır. Meyvələri iri, oval-girdə, azca nahamardır. Kütləsi 200 *q*-a qədər (cavan ağaclarda 300 *q*-adək) olur. Rəngi, əsasən, zəif qırmızı qızılı-açıq-sarıdır. Ləti ağappaq, ətirli, turşməzə-şirindir. 5–7-ci ilində meyvə verir. Məhsul (hər ağacdan 100–180 *kq*) sentyabrın ortalarında və axırında yığılır; meyvəsi dekabrın sonunadək qalır. Çarpaz tozlanır. Ən yaxşı tozlayıcıları: Anis, *Anton alması*, Borovinka, Ştreyflinqdir. Rütubətli və

Belfast qəsri (12 əsr, 1870 ildə yenidən tikilmişdir).





Belflör-kitayka alma sortu.

soyuq keçən illərdə dəmgil xəstəliyinə yoluxur.

**BELFÓR** (Belfort) – Fransanın ş.-ində şəhər. Belfor dep-tinin inz. m. Əh. 50 min (2003). Nəql. qovşağı. Vogez və Yura d-rı arasındakı "Burqundiya qapıları" adlanan keçidin yaxınlığındadır. Maşınqayırma və toxuculuq sənayesi müəssisələri var.

**BELFÓR** (Belfort) – Fransanın ş.-ində departament. Sah. 609 *km*². Əh. 137,4 min (1999). İnz. m. Belfor ş.-dir.

**BELFORD-RÓŞU** (Belford Roxo) – Braziliyanın Rio-de-Janeyro ştatında şəhər. Böyük Rio-de-Janeyro aqlomerasiyasına daxildir. Əh. 466,1 min (2005). B.-R.-dan Rio-de-Janeyroya magistral avtomobil yolu keçir. 19 əsrin sonunda salınmışdır. Rio-de-Janeyro ş.-nin su ilə təchizi üsulunu tapmış mühəndisin şərəfinə adlandırılmışdır. 1990 ildən şəhərdir (əvvəllər Nova-İquasu munisipalitetinin tərkibində olmuşdur). Un-t; əczaçılıq zədu (1958, Latın Amerikasında "Bayer" şirkətinin ən iri z-du), elektron və elektrotexnika, kimya, metallurgiya, toxuculuq sənayesi müəssisələri var.

**BELGE** Bürhan Asəf (24.8.1889, Dəməşq – 1967, Bonn) – türk jurnalisti. Almaniyada memarlıq təhsili almışdır (1922). Türkiyəyə qayıtdıqdan sonra "Aydınlıq" (1925) və "Hakimiyyəti-milliyyə" qəzetlərində, Xarici İşlər Nazirliyində (1927) çalışmışdır. "Kadro" (1932) jurnalının yaradıcılarından biri olmuşdur. Mətbuat-nəşriyyat Baş idarəsində on il müxtəlif vəzifələrdə işləmişdir. Üzvü olduğu Demokrat partiyası hakimiyyətə gəldikdən (1950) sonra "Zəfər" qəzetinin baş redaktoru kimi uzun illər iqtidarı dəstəkləmişdir. Muğdan millət vəkili (1957) seçilmişdir. 1960 ilin mayında həbs edilmiş, 1963 ildə azadlığa buraxılmışdır. "Bürhan Belgenin İkinci dünya müharibəsinə dair radiosöhbətləri" adlı kitab nəşr (1970) olunmuşdur.

**BELGİKA** (lat. G a l l i a  B e l g i c a) – *belqlərin* məskunlaşdığı ərazidə e.ə. 16 ildə yaradılmış Roma əyaləti. İmperator Diokletianın hakimiyyəti [284–305] illərində I B. və II B. əyalətlərinə bölünmüşdü. 5 əsrdə franklar tərəfindən işğal olunmuşdur.

**BELİ** Andrey (təxəllüsü; əsl adı və soyadı Boris Nikolayeviç Buqayev; 26.10. 1880, Moskva – 8.1.1934, Moskva) – rus şairi, nasir, simvolizmin nəzəriyyəçisi, tənqidçi, memuarçı. 1903 ildə Moskva Un-tini bitirmişdir. B.-nın yaratdığı ədəbi "simfoniya" janrı [sağlığında "Şimal simfoniyası (1-ci, qəhrəmanlıq)" (1904), "Qaytarılma"(1905), "Çovğunlar kuboku" (1908) nəşr olunmuşdur] onun poetikasının bir sıra mühüm xüsusiyyətlərini üzə çıxarmışdı. 1901–03 illərdə Moskva simvolistlərinə yaxın olmuşdur. 1909–10 illərdə B.-nın dünyagörüşündə kəskin dönüş yaranmağa başlamışdır. Bu dövrdə o, üç cilddən ibarət tənqidi və nəzəri məqalələrini ("Simvolizm", "Yaşıl çəmən", hər ikisi 1910; "Arabesklər", 1911) nəşr etdirmişdir. "Gümüş göyərçin" (1909) və "Peterburq" (1913–14; bu romanın 20 əsrin böyük yazıçıları M. *Prust*, C. *Coys* və b.-na güclü təsiri olmuşdur) romanlarında Qərb ilə Şərqin sintezinə cəhd göstərmişdir. 1914–16 illərdə Dornaxda (İsveçrə) yaşamış, 1916 ilin avqustunda Rusiyaya geri dönmüşdür. Nəzərdə tutduğu avtobioqrafik romanlar seriyasından "Kotik Letayev" adlı ilk romanını 1915–16 illərdə yazmışdır (ardı "Xaç suyuna salınmış çinli", 1921). 1-ci dünya müharibəsinin başlanmasını ümumbəşəri fəlakət, 1917 il inqilabını qlobal fəlakətdən qurtulmağın mümkün yolu kimi qəbul etmişdir. Bu dövrün mədəni-fəlsəfi ideyaları "Aşırımda" ("I. Həyatın böhranı",1918; "II . Düşüncənin böhranı", 1918; "III. Mədəniyyətin böhranı", 1918) esselər silsiləsində, "İnqilab və mədəniyyət" (1917) oçerkində, "İsa dirildi" (1918) poemasında, "Ulduz" (1922) şeir toplusunda öz əksini tapmışdır. Rusiyaya qayıtdıqdan sonra sovet mədəniyyətində özünə yer tapmaq üçün bir sıra uğursuz cəhdlər etmiş, "Moskva" ("Moskvalı qəribə adam", 1926; "Moskva zərbə altında", 1926) roman-dilogiyasını, "Maskalar" (1932) romanını, "Blok haqqında xatirələr" (1922–23) memuar kitabını, "İki əsrin ayrıcında" (1930), "Əsrin başlanğıcı" (1933), "İki inqilab arasında" (1934) trilogiyasını, "Ritm dialektika kimi və "Tunc atlı" (1929) və "Qoqolun sənətkarlığı" (1934) nəzəri-ədəbi tədqiqat əsərlərini yazmışdır.

Belford-Roşu çimərlikləri.



**BELİ** – Kara dənizində ən iri adalardan biri. RF-nin Yamal-Nen Muxtar Mahalı ərazisinə daxildir. Sah. 1,9 min *km*². Malıgin boğazı ilə Yamal y-adan ayrılır. Relyefində çoxsaylı göl və bataqlıqları olan maili düzənliklər (hünd. 24 *m*-ə qədər) səciyyəvidir. Çoxillik donuşluq sahələri yayılmışdır. Arktika tundrası bitkiləri üstünlük təşkil edir.

**BELİBAĞLILAR** (Circus) – *qırğılar* fəsiləsinin bir cinsi. Bədəninin uz. 41–60 *sm*, kütləsi təqr. 250–780 *q* olur. Arktika və







Çəmənlik belibağlısı (Circus pygargus).

Antarktidadan başqa bütün qitələrdə 9 növü yayılmışdır. Qanadları, quyruğu, ayaqları uzun, barmaqları qısa, caynaqları nazik və itidir. Başının və boynunun yanlarında bayquşlar üçün səciyyəvi olan "üz diski"nə bənzər xırda lələklərdən ibarət boyunluq var. Pəncə lüləsi orta barmaqdan iki dəfə uzun və lələksizdir. Orta barmağı caynaqsızdır. Cinsiyyətinə və yaşına görə rəngləri də müxtəlifdir. Açıqlıqda yaşayır. Azərb.-da 4 növü var: q a m ı ş l ı q,  t a r l a,  b o z q ı r,  ç ə m ə n l i k  B.-ı. Tarla və qamışlıq B.-ı Azərb.-da oturaq quşlardır. Bəziləri köçəridir. Siçan, kərtənkələ, qurbağa, cücü, quş yumurtası və ördək ətcəbalaları ilə qidalanır. Yerdə yuvalayır. 3–6 yumurta qoyur. Qamışlıq belibağlısı ovçuluq təsərrüfatına zərər vurur, digərləri gəmiriciləri məhv etdiyinə görə faydalıdır.

**BELİL** – bütün növ boyaqlar üçün ağ rəngli qeyri-üzvi sintetik piqment. Əsasən, metal oksidləri və duzlarından ibarətdir. Titan B.-i, sink B.-i, qurğuşun B.-i, barit B.-i, kükürd B.-i və litopon növləri var. Qurğuşun B.-indən [$2PbCO_3 \cdot Pb(OH)_2$] 2500 il əvvəl istifadə etməyə başlamışdılar; zəhərli olduğuna görə 19 əsrin ortalarından sink B.-i ($ZnO$), 20 əsrin ortalarından isə titan B.-i ($TiO_2$) ilə əvəz olunmuşdur. Sink, titan və kükürd B.-i ($ZnS$ və $BaSO_4$ qarışığı – litopan) daha çox dekorativ qoruyucu örtük kimi işlədilir. B.-dən bəzi plastik kütlə növləri, müşəmbə, linoleum və s. istehsalında, rezin və kağız boyanmasında da istifadə edilir. Sirkonium B.-i (çini və mina istehsalında), bismut B.-i (kosmetikada) və mətbəə B.-inin tətbiq sahəsi məhduddur.

**BELİNSKİ** Vissarion Qriqoryeviç (11.6. 1811, Helsinki yaxınlığında Sveaborq qalası, indiki Suomenlinna – 7.6.1848, S.-Peterburq) – rus ədəbi tənqidçisi, ədəbiyyat nəzəriyyəçisi və tarixçisi. Həkim ailəsində doğulmuş, uşaqlıq illərini Kronştadtda keçirmişdir. Penza qub.-nın Çembar ş.-ndə (indiki Belinski ş.) xalq



məktəbini bitirmişdir. Penza gimnaziyasında (1825–29, bitirməmişdir), Moskva Un-tinin fəlsəfə fakültəsinin ədəbiyyat şöbəsində (1829 – 32, bitirməmişdir) oxumuşdur. Təhkimçilik əleyhinə yazdığı ilk ədəbi əsərinin ("Dmitri Kalinin" dramı, 1830) nəşrinə senzura tərəfindən qadağa qoyulmuşdur. 1831 ildən çap olunmağa başlamışdır ("Rus əhvalatı" balladası və "Aleksandr Puşkinin Boris Qodunov haqqında əsərinə dair. Söhbət" anonim kitabçasına yazdığı rəy). 1833 ildə N.V. *Stankeviçin* dərnəyinə daxil olmuş, burada onun dünyagörüşünün formalaşmasına böyük təsir göstərmiş alman klassik fəlsəfəsi ideyaları ilə tanış olmuşdur. 1833–36 illərdə tərcüməçi və resenzent kimi *"Teleskop"* jurnalında və "Molva" qəzetində işləmiş, "Ədəbi xəyallar. Mənsur elegiya" (1834) adlı ilk böyük ədəbi-tənqidi əsərini bu qəzetdə dərc etdirmişdir. *"Moskovski nablyudatel"* jurnalının redaktoru olmuş (1838–39), *"Oteçestvennıye zapiski"* jurnalının tənqid və biblioqrafiya şöbəsinə rəhbərlik etmişdir (1839–46). 1847 ildə müalicə üçün (ağ ciyər vərəmi) xaricə getmişdir. 1847–48 illərdə *"Sovremennik"* jurnalının əməkdaşı olmuşdur.

B. ədəbiyyatın mahiyyəti haqqında romantik təsəvvürləri inkişaf etdirmişdir. N.V. Qoqolun erkən yaradıcılığını ["Rus povesti və c. Qoqolun povestləri haqqında ("Arabesklər" və "Mirqorod")", 1835] təhlil edərkən, incəsənətin ən mühüm predmeti kimi "həyat poeziyasına" diqqət yetirmiş və həyatı düzgün təsvir etməklə "qəlbləri ehtizaza gətirən" "real poeziyanın" tərifini vermişdir. "Aleksandr Puşkinin əsərləri" (1843–46) ümumi başlıqlı 11 məqaləsində B. şairin yaradıcılığını rus ədəbiyyatının bütün əvvəlki inkişafının qanunauyğun yekunu kimi təqdim etmişdir. "Qoqola məktub"da (1847) yazıçının monarxist illüziyalarını pisləmiş, Rusiyadakı istibdada və təhkimçilik üsul-idarəsinə qarşı çıxmışdır. Bir sıra məqalə və resenziyalarda N.V. Qoqol, M.Y. Lermontov, A.V. Koltsov, İ.V. Turgenev, F.M. Dostoyevski (erkən yaradıcılığı) və b.-nın yaradıcılığını dərindən təhlil etmişdir.

B.-nin Azərb. ədəbi və ictimai fikrinin inkişafına, o cümlədən M.F. Axundzadənin ədəbi-estetik və fəlsəfi görüşlərinin formalaşmasına təsiri olmuşdur. M.F. Axundzadənin bir sıra ədəbi-tənqidi fikirləri B.-nin fikirləri ilə səsləşir. B. Azərb. alim və şairi M.C.*Topçubaşovun* "İki şeir" (1835) kitabçasını müsbət qiymətləndirmişdir. Əsərləri bir çox dilə, o cümlədən Azərb. dilinə tərcümə olunmuşdur. Azərb. alimləri B.-nin ədəbi-estetik və ictimai-fəlsəfi görüşlərinə dair əsərlər yazmışlar.

Ə s ə r l ə r i : Seçilmiş əsərləri. B., 1948; Rus ədəbiyyatı klassikləri haqqında. B., 1954; Məqalələr. B., 1961; Собр. соч.: В 9 т. М., 1976–1982.

*Əd.:* A r i f M. Vissarion Qriqoryeviç Belinski. B., 1954; M ə m m ə d  C ə f ə r. XIX əsr rus ədəbiyyatı. H. 1. B., 1970; К а р п е н к о Г.Ю. Возвращение Белинского. Самара, 2001.

**BELİTÚNQ** (Belitung), B i l l i t o n – Böyük Zond a-rı tərkibində ada. Sumatra və Kalimantan a-rı arasındadır. İndoneziyaya məxsusdur. Sah. təqr. 4850 *km*². Səthi, əsasən, düzənlikdir, hünd. 510 *m*-ədək olan qranit massivləri var; rütubətli tropik meşələrlə örtülüdür. Qalay filizi hasil olunur. Tropik əkinçilik inkişaf etmişdir. Əsas şəhəri Tancunqpandandır.

**BELİZ** (Belize)

**Ümumi məlumat.** Mərkəzi Amerikada, Yukatan y-a-nın c.-ş.-ində dövlət. Şm.-q.-də Meksika, q.-də və c.-da Qva-








temala ilə həmsərhəddir. Ş.-də Karib dənizi ilə əhatələnir. Sah. 22,96 min $km^2$. Əh. 279,5 min (2005). Paytaxtı Belmopan ş.-dir. Rəsmi dil ingilis dili, pul vahidi Beliz dollarıdır. İnz. cəhətdən 6 mahala bölünür.

**İnzibati ərazi bölgüsü (2009)**

| Mahallar | Sahəsi, min $km^2$ | Əhalisi, mln. nəfər | İnzibati mərkəzi |
|---|---|---|---|
| Beliz | 4,3 | 100,1 | Beliz |
| Kayo | 5,2 | 80,8 | San-İqnasio |
| Korosal | 1,9 | 37,3 | Korosal |
| Orinc-Uolk | 4,6 | 45,4 | Orinc-Uolk |
| Stan-Krik | 2,5 | 32,2 | Danqriqa |
| Toledo | 4,4 | 30,5 | Punta Qorda |

B. BMT-nin (1981), ADT-nin (1990), KARİKOM-un (1974), BVF-nin (1982) üzvüdür.

**Dövlət quruluşu.** B. *Birliyə* daxil olan unitar dövlətdir. Konstitusiyası 21.9. 1981 ildə qüvvəyə minmişdir. İdarəetmə forması parlamentli monarxiyadır.

Dövlət başçısı general-qubernatorla (mütləq B. vətəndaşı olmaqla) təmsil edilən Britaniya monarxıdır. General-qubernatorun səlahiyyətinə xarici siyasət və daxili təhlükəsizlik məsələləri daxildir.

Qanunverici hakimiyyət ikipalatalı Milli məclisə (parlamentə) məxsusdur; Milli məclis 8 üzvü olan Senatdan (5 nəfər baş nazirin, 2 nəfər müxalifət liderinin təqdimatı ilə general-qubernator tərəfindən təyin edilir; 1 nəfəri general-qubernator özü təyin edir) və Nümayəndələr palatasından (ümumi seçki hüququ əsasında 5 il müddətinə seçilən 29 üzv) ibarətdir.

İcraedici hakimiyyət baş nazirin (seçkilərdə qalib gəlmiş partiyanın lideri) başçılıq etdiyi hökumətə məxsusdur.

Əsas siyasi partiyalar Birləşmiş Xalq Partiyası və Birləşmiş Demokrat Partiyasıdır.

**Təbiət.** B.-in şm. hissəsi yastı ovalıq, bəzi yerlərdə bataqlıqlaşmış düzənlikdir. Sahil zonasında çoxlu göl və laqun var. Sahil xətti boyunca *Sədd rifi* (*Ümumdünya irsi* siyahısına daxil edilmişdir) uzanır. Ölkənin c.-q.-ini qranitlərdən ibarət Mayya d-rı (hünd. 1122 *m*-ədək Viktoriya piki, ölkənin ən hündür nöqtəsi) və əhəngdaşılardan ibarət təpəliklər tutur; təpəliklərdə karst çala və mağaraları intişar tapmışdır. İqlimi tropik passatdır. Orta temp-r yanvarda 22°C, iyulda 27°C-dir. Yağıntının illik miqdarı 1300 *mm*-dən (şm.-da) 4500 *mm*-ədəkdir (ucqar c.-da). Şm. və mərkəzi r-nlarda yanvardan aprelədək aydın nəzərə çarpan quru hava hakimdir. Sahil zonalarında iqlim ilboyu rütubətlidir; dağıdıcı qasırğalar xarakterikdir. Əsas çayları Beliz (hövzəsi ölkə ərazisinin 25%-ni əhatə edir), Sibun və Nyu-River gəmiçiliyə yararlıdır.

B. ərazisinin 60%-dən çoxunu (2000) qırmızı-sarı ferrallitli torpaqlarda bitən qiymətli ağac cinslərindən qırmızı ağac (kampeş, sapodilya və s.) ibarət rütubətli tropik meşələr tutur.

Dağ meşələri üçün yarpağıtökülən ağac cinslərinin qarışığı səciyyəvidir. B.-in şm.-ında yarpağıtökülən tropik meşələrə və savannalara rast gəlinir. Münbit allüvial torpaqları olan çay dərələrindən şəkər qamışı plantasiyaları və k.t. yerləri üçün geniş istifadə olunur. Laqunlu alçaq sahillər manqr cəngəllikləri ilə əhatə olunmuşdur. B. üçün Cənubi Amerika faunasına aid enliburun meymunlar, tapir, sudonuzu, pika, aquti, ağac qarışqayeyəni, iquanalar tipikdir. Meşələrdə həmçinin 500-dən çox quş növü, o cümlədən tukan yaşayır. B.-də ümumi sah. 912 min *ha* olan 36 təbii ərazi, o cümlədən Çikibul milli parkı, dünyada yeganə Basseyn-Kokskomb yaquar rezervatı mühafizə edilir.

**Əhali.** B. əhalisinin 73,6%-ini kreoldilli və ispandilli *belizlilər* təşkil edir. Aravak dilində danışan qarifonlar ("qara kariblər") 6,1%, mayyalar (yukateklər, kekçilər və b.) 10,6% təşkil edir. Digər etnik qruplardan hindli-pakistanlılar, almanlar, yəhudilər, ingilislər, amerikalılar, çinlilər var. Əhalinin ortaillik artımı 2,2%-dir (doğum səviyyəsi 1000 nəfərə 27 nəfər, ölüm səviyyəsi 1000 nəfərə 5,3 nəfər; uşaq ölümü 1000 nəfər diri doğulan uşağa 31,1 nəfərdir). Orta ömür müddəti 71,4 ildir (kişilər 69,9 il; qadınlar 73 il). Fertillik göstəricisi 1 qadına 3,2 uşaqdır (2000–05). Əhali tərkibində gənclərin (15




yaşadək) xüsusi çəkisi olduqca yüksəkdir – 40,9%; yaşlı nəsil (65 yaşdan yuxarı) isə cəmi 4,3% təşkil edir (2004). Əhalinin orta yaş həddi 19,4 il, orta sıxlığı 1 $km^2$-də 12,2 nəfərdir; sahilyanı ərazilər daha sıx məskunlaşmışdır. Əhalinin təqr. 1/2 hissəsi şəhərlərdə yaşayır (ən böyük şəhəri Belizdir, burada ölkə əh.-nin təqr. 22%-i məskunlaşmışdır). İqtisadi cəhətdən fəal əhali 108,5 min nəfər təşkil edir, onların 95,9 min nəfəri iqtisadiyyatda (o cümlədən 20,4%-i kənd və meşə təsərrüfatında, həmçinin balıqçılıqda, 18,2%-i sənayedə və tikintidə, 61,4%-i xidmət sahəsində) çalışır. İşsizlik səviyyəsi 11,6%-dir (2004). Əhalinin 1/3 hissəsindən çoxu yoxsulluq həddindən aşağı, 1/10 hissəsindən çoxu isə yoxsulluq şəraitində yaşayır. B. əhalisinin əksəriyyəti xristiandır.

**Tarixi oçerk.** B. ərazisində ən qədim mədəniyyətlər (e.ə. 9–2-ci minilliklər) ovçuların, balıqçıların və yığıcıların düşərgələri ilə təmsil olunur. İntensiv yığıcılığın, yaxud erkən əkinçiliyin izləri olan məskənlər, gil bünövrəli yüngül tikililər (Kuelyo) e.ə. 2-ci minillikdə meydana gəlmişdir. Orta arxaik dövr (təqr. e.ə. 1-ci minilliyin 1-ci yarısı) təsərrüfatları inkişaf etmiş əkinçiliyə əsaslanan bir sıra məskənlərlə təmsil olunur. Buradakı əhalini *mayya* xalqları ilə əlaqələndirirlər. Mayya sivilizasiyasının klassik dövrünün





Mərkəzi vilayətinə daxil olan B. ərazisində bir sıra şəhərlər mövcud idi. İndiki B.-in ərazisi olan Karib dənizinin sahilyanı hissəsi 1502 ildə X. *Kolumbun* 4-cü ekspedisiyası zamanı kəşf edilmişdir. Meksika və Mərkəzi Amerika ispanlar tərəfindən işğal edildikdən sonra indiki B.-in şm. hissəsi Yeni İspaniya vitse-krallığının (1535 ildə yaradılmışdır), c. hissəsi isə Qvatemala general-kapitanlığının (1560 ildə təşkil olunmuşdu) tərkibinə qatılmışdı. 1630–40-cı illərdə Beliz çayının mənsəbində ingilis dəniz quldurları öz bazalarını yaratmış, sonra isə buraya Yamayka a.-ndan köçkünlər gəlməyə başlamışlar. Bu torpaqlardakı təsərrüfat ilk növbədə Afrikadan gətirilmiş qaradərili qulların əməyinə əsaslanırdı. İspaniya hakimiyyət orqanlarının burada məskən salmış ingilisləri nəzarət altına almaq, yaxud onları koloniyadan qovmaq üçün dəfələrlə göstərdiyi cəhdlər baş tutmadı. 18 əsrin ortalarınadək koloniyanı Xalq yığıncağı vasitəsilə muhacirlər (onların ən varlıları) özləri idarə edirdilər, çünki İspaniya hakimiyyət orqanları onları təbe etmək iqtidarında deyildi, İngiltərə hökuməti isə onlara maraq göstərmirdi. Vəziyyət B.Britaniya və Fransa arasında yaranan qarşıdurma ilə əlaqədar dəyişməyə başladı [bax *Yeddiillik müharibə (1756–63)*]. Nəticədə ingilislərin koloniyada yaşamaq və təsərrüfat fəaliyyəti ilə məşğul olmaq hüququ Paris (1763) və Versal (1783) müqavilələri ilə təsbit edildi, İngiltərə-İspaniya müqaviləsi (1786) isə bu hüququ daha da genişləndirdi. B.Britaniya hakimiyyətinin rəsmi nümayəndəsi məhz bu zaman koloniyaya gəlmişdi. İspaniya ilə B.Britaniya arasındakı müharibə (1796–1802) nəticəsində hakimiyyət faktiki olaraq ingilislərin əlinə keçdi (koloniyanın statusu rəsmən 1862 ildə müəyyənləşdirildi). Onun idarəçiliyi Yamayka qubernatoruna həvalə olundu. 1838 ildə koloniyada quldarlıq rəsmən ləğv edildi və 1840 ildən o, Britaniya Hondurası adlandırıldı. Lakin B.Britaniyanın koloniya ərazisinə hüquqları 150 il ərzində Qvatemala tərəfindən etirazla qarşılandı, münaqişə arabir (1860-cı və 1930-cu illərdə, həmçinin 1975 ildə) kəskinləşdi .

Müstəmləkə dövründə Britaniya Hondurasının plantasiya təsərrüfatına əsaslanan iqtisadiyyatı formalaşdı; plantasiyalarda ixrac üçün şəkər xammalı, banan və sitrus meyvələri istehsal olunur, həmçinin qiymətli ağac növlərindən oduncaq tədarükü də mühüm rol oynayırdı. 20 əsrdə müstəmləkə təsərrüfatının metropoliyadan tam asılılığı əksəriyyəti metislərdən və kreollardan ibarət olan yerli əhali arasında narazılıq yaratmağa başladı. Hələ 1930-cu illərdə burada müstəqillik uğrunda başlayan hərəkat İkinci dünya müharibəsindən sonra mütəşəkkil forma aldı. Müstəmləkə Qanunverici məclisinin rolu artdı; 1954 ildən Birləşmiş Xalq Partiyası (BXP) məclisdə əsas mövqelərə sahib idi. 1964 ildə B.Britaniya öz mülkündə daxili özünüidarəetmənin tətbiqinə razılıq verdi. 1970 ildə paytaxt Beliz ş.-ndən Belmopana köçürüldü. 1973 ildə Britaniya Hondurası Beliz adlandırıldı. 1981 ilin sentyabrında B. müstəqillik əldə etdi. 1984 ildə BXP hakimiyyəti fəal siyasətçi, Beliz ş.-nin meri M. Eskivelin rəhbərlik etdiyi Birləşmiş Demokrat Partiyasına (BDP) təhvil verdi. 1989 ildə Milli məclisə keçirilən seçkilərdə BDP-nin məğlubiyyəti və 1993 ildə yenidən hakimiyyətə qayıtması, B.-də sabit ikipartiyalı sistemin formalaşdığını göstərirdi. BXP-nin (başçısı mənşəcə fələstinli Səid Musa idi) 1998 və 2003 il seçkilərində qələbə qazanması da bunu təsdiq edirdi. Bununla belə, B.-də demokratik institutların möhkəmlənməsi mürəkkəb iqtisadi və sosial problemlərin köklü həlli ilə müşayiət olunmurdu.

**Təsərrüfat.** 1960-cı illərədək B. iqtisadiyyatının əsas sahəsi meşə sənayesi olmuşdur (oduncaq, o cümlədən qiymətli ağac növlərinin tədarükü, taxta-şalban



Mayya dağları.



Sədd rifi.



Amberqris adası. San-Pedro şəhəri.

hazırlanması və ağac emalı, mebel istehsalı). Meşələr intensiv şəkildə qırıldığı üçün 1990-cı illərdə istehsal həcmi 15 dəfədən çox azalmış, oduncaq ixracı kəskin şəkildə aşağı düşmüşdür (2000-ci illərin əvvəlində təqr. 35 min $m^3$); evkalipt və şam ağaclarının əkilməsi hesabına meşələrin bərpası həyata keçirilir. 1960–80-ci illərdə k. t.-nın ixtisaslaşması üstünlük təşkil etmiş, əsas ixrac malları xam şəkər və banan (1980-ci illərin ortalarından sitrus meyvələrinin istehsalı daha dinamik şəkildə inkişaf edir) olmuşdur. 1980-ci illərin sonlarından özəlləşdirmə (energetika, su təchizatı, port təsərrüfatı, telekommunikasiyalar), xarici ticarətin liberallaşdırılması və xarici kapitalın ölkəyə buraxılması daxil olmaqla struktur islahatları aparıldı. 1990-cı illərin əvvəlindən turizm iqtisadiyyatın ən mühüm sahələrindən birinə çevrildi, eyni zamanda *ofşor* biznes formalaşmağa başladı. 1990 ildə qəbul olunmuş beynəlxalq şirkətlər haqqında qanun B.-də qeydə alınmış ofşor şirkətləri tamamilə vergilərdən azad etdi; azad iqtisadi zonaların (1995 ildən Meksika ilə sərhəddə yerləşən Korosal mahalında, 2003 ildən isə beynəlxalq aeroportda fəaliyyət göstərir) yaranması proqramı həyata keçirildi.

ÜDM-in həcmi 1778 mln. ABŞ dolları (adambaşına 6,5 min dollar); ÜDM-in artımı 3,5% (2004) təşkil etmişdir. İnsan inkişafı indeksi 0,737-dir (dünyanın 177 ölkəsi arasında 99-cu yer, 2002). ÜDM-in təqr. 68%-i xidmətlərin, təqr. 13%-i k.t. və balıqçılığın, təqr. 9%-i sənayenin payına düşür. Xarici turizm ÜDM-in 20%-indən çoxunu təşkil edir (iqtisadi cəhətdən fəal əhalinin təqr. 10%-i turistlərə xidmət sahəsində çalışır); hər il B.-ə təqr. 200 min turist gəlir, təqr. 440 mehmanxana fəaliyyət göstərir. Ən iri turizm mərkəzi San-Pedrodur. Əsas turist obyektləri: mayya məskənlərinin xarabalıqları, sahilboyunun qum çimərlikləri (Plasensiyanın yaxınlığında), Sədd rifidir (Amberqris və Kolker rifləri yaxınlığında dayvinq və snorkelinq).

Əsas k.t. bitkiləri şəkər qamışı (yığım 1,1 mln. *t*., əsasən, ölkənin şm. və şm-q.-ində, Korosal və Orinç-Uolk mahallarında), sitrus bitkiləri (ildə 168 min *t*. portağal, təqr. 40 min *t* qreypfrut; əsasən, Stann-Krik və Kayo mahallarında; Danqriqa portundan ixrac olunur) və banandır (70 min *t*., 2004); yeni ixrac bitkilərinin (papayya 12 min *t*; ananas, manqo və Kayo bibəri) istehsalına başlanmışdır. Daxili istehlak üçün qarğıdalı (35 min *t*, 2004), çəltik (13 min *t*; Beliz çayı dərəsində), paxlalı bitkilər (o cümlədən lobya; qismən ixrac olunur), tərəvəz becərilir. Qaramal və donuz yetişdirilir. Sahilyanı sularda balıq və dəniz məhsulları ovlanır; sənaye üsulu ilə krevetka yetişdirilir (ildə 7,5 min *t*-dan çox; əsasən, ixrac üçün).

Elektrik enerjisinin istehsalı 117 mln. *kVt·saat*-dır (2002). Altı kiçik İES fəaliyyət göstərir; elektrik enerjisinin təqr. 1/3 hissəsi Makal çayı üstündəki SES-də hasil olunur. Sənaye məhsulunun 90%-indən çoxu, o cümlədən şəkər (dəyərin 1/2 hissəsindən çox); içkilər, sitrus konsentratları istehsalı (Danqriqa) yeyinti sənayesinin payına düşür. Tikiş sənayesi müəssisələri fəaliyyət göstərir. İdxal parçalarından istehsal olunan məmulatlar, əsasən, ixrac üçündür (1992 ildə B.ş. yaxınlığında ixrac istehsalatı zonası yaradılmışdır).

Avtomobil yollarının uz. 2,9 min *km*-dir; 651 *km*-i bərk örtüklüdür. Yerli avtomobil yollarının 805 *km*-indən yalnız quraq mövsumdə istifadə olunur. Ən iri və dərin su portları Beliz, Danqriqadır. Dəniz donanmasında 4 mindən çox gəmi var (95%-i B. bayrağı altında qeydə alınmış xarici gəmilərdir); iri gəmilərin (su basımı 1 min *reg.br.t.*-dan çox) sayı 295-dir. Daxili suların (aztonnajlı gəmilər üçün yararlı) uz. 825 *km*-dir. 43 aerodrom (5-i bərk örtüklü); beynəlxalq aeroport (Belizdə) var.

İxracın təqr. 90%-ini ərzaq, o cümlədən dəniz məhsulları (2004 ildə dəyərin 26%-i; təqr. 80%-i krevetlər, 14%-i lobsterlər), şəkər (20%), portağal və qreypfrut konsentratları (19,3%), banan (13%), papayya (5,6%) təşkil edir. Ərzaq malları, əsasən, ABŞ-a (dəyərin 55%-i), B. Britaniyaya, Meksikaya, KARİKOM və Aİ ölkələrinə ixrac olunur. Əsasən, ABŞ-dan (39%), Mərkəzi Amerika ölkələrindən və Meksikadan neft məhsulları, maşın və avadanlıq, istehlak malları idxal edilir.

Banan plantasiyası.







**Səhiyyə. İdman.** B.-də 21 əsrin başlanğıcında əh.-nin hər 10 min nəfərinə 7 həkim, 8 orta tibb işçisi düşür. Səhiyyəyə qoyulan xərc ÜDM-in 5,2%-ini (büdcə hesabına – 45,1%, özəl sektor – 54,9%) təşkil edir. Dövlət sektoru ilkin və xəstəxana tibbi yardımını tənzimləyir. Özəl tibbi fəaliyyət məhduddur. Vərəmlə – 105, QİÇS infeksiyası ilə 46 xəstələnmə hadisəsi baş vermişdir (2002). Yaşlı əhali arasında ölümün əsas səbəbləri ürək-damar sistemi xəstəlikləri, travmalar, infeksiyalar (o cümlədən malyariya), şişlərdir.

Bədən tərbiyəsi və idman məsələləri ilə ictimai təşkilatlar məşğul olur. B.-in Olimpiya Oyunları və Birlik Oyunları Assosiasiyası 1967 ildə BOK tərəfindən tanınmışdır. B. idmançıları Olimpiya Oyunlarında 1968 ildən iştirak edirlər. Boks, velosiped idmanı, yüngül və ağır atletika, atıcılıq populyar idman növləridir.

**Təhsil.** B.-də 6–14 yaşlı uşaqlar üçün ibtidai təhsil icbari və pulsuzdur. Məktəblərin əksəriyyəti kilsə nəzdindədir. Bütün ş.-lərdə orta məktəblər fəaliyyət göstərir. İxtisas üzrə təhsil Texniki, pedaqoji, k.t. in-tlarında, Gənclərin inkişafı mərkəzində, Peşə təhsili mərkəzində, Yaşlılar üçün fasiləsiz təhsil məktəbində (ölkə üzrə 74 şöbəsi var); Milli un-tdə (2000) verilir (hamısı Beliz ş.-ndədir). Ölkədə savadlılıq dərəcəsi 80%-dir (2000). Milli kitabxana (1935) var.

**Memarlıq və təsviri sənət.** Ən qədim incəsənət abidələri mayya mədəniyyətinə aiddir. Altun-Xa (e.ə. 350 – eramızın 950; məbəd və digər mərasim tikililərinin qalıqları, günəş allahı Kiniq-Axaunun nefritdən başı, dəfn yerlərindən tapılmış qızıl əşyalar), Lamanay (o cümlədən mayya ərazisində salamat qalmış piramidalar arasında ən böyüyü, e.ə. təqr. 100), Karakol və s. memarlıq kompleksləri var. 16 əsrdən B.-də müstəmləkə üslubunda tikililər (qədim Lamanay ş. yaxınlığında ispan missionerləri tərəfindən



Qədim Altun-Xa şəhərində mayyaların məbədi.

tikilmiş kilsə) meydana gəldi. 19–20 əsr memarlığı, əsasən, Beliz və Belmopan ş.-lərindəki tikililərlə təmsil olunur.

*Əd.:* A n d e r s o n A.H. Brief sketch of British Honduras. Belize, 1958; Belize: country environmental profile. Belize, 1984.

**BELİZ** (Beliz) – Belizin ən iri şəhəri və əsas iqtisadi mərkəzi. Əh. 61,5 min (2005). Ölkənin ş.-ində, Beliz çayının Karib dənizinə töküldüyü yerdə ən iri və dərin portu (tikintisi 1980 ildə başa çatmışdır; şəkər və banan ixrac olunur).

B.-in yerində 1638 ildə ingilislər məskən salmışlar. 1884–1970 illərdə Britaniya Hondurasının inz. mərkəzi olmuşdur. Tez-tez daşqınlar baş verdiyi üçün B.-in bir çox binaları yortaclar üzərində inşa edilir. Hökumət evi (1814), Sent-Con baş kilsəsi (1812); milli un-t (2000), milli kitabxana (1935); B. Rəssamlıq qalereyası (1984); Beliz (2002) və dəniz muzeyləri var. Yeyinti (o cümlədən balıq), ağac emalı, mebel sənayesi müəssisələri; yaxınlığında zoopark; beynəlxalq aeroport var.

**BELİZLİLƏR** – xalq, Belizin əsas əhalisi. Sayları 252,4 min nəfər (2004). B.-in 53,9%-ni 19 əsrin 2-ci yarısında Qvatemaladan və Yukatan y-a-ndan gələnlər – latınlaşdırılmış mayyaların nəsilləri olan ispandilli metislər ("ispanlar"; mədəniyyət baxımından Yukatan hindilərinə və meksikalılara yaxındırlar), 11,7%-ni *mayyalar*– yukateklər, mopanlar və kekçilər, 27,6%-dən çoxunu 17–18 əsrlərdə Afrikadan gətirilmiş qulların ingilis, ispan və yerli hindi-mayyalarla qaynayıb-qarışmış nəsilləri olan kreollar təşkil edir. Beliz kreol dilində (ingilis dilinin əsasında) danışırlar. Belizli kreolların təqr. 40 mini ABŞ-da yaşayır. Mədəniyyətlərində Afrika ənənələri güclüdür. B.-in 6,8%-ni aravak dillərindən birində danışan və ada aravakları ilə qaçaq Afrika qullarının nəsilləri olan qarifonlar ("qara kariblər") təşkil edir.

Metislərin, mayyaların və qarifonların əksəriyyəti kəndlilər və kənd fəhlələridir, kreollar, əsasən, şəhərlərdə yaşayır, bir qismi isə fermer və mövsümi işləyənlərdir. Metislər, hindilər və qarifonlar arasında katoliklər, kreollar arasında protestantlar üstünlük təşkil edirlər. Qarifonlarda Afrika kultlarının qalıqları qorunub saxlanmışdır.

**BELKAÇİ MƏDƏNİYYƏTİ** – Şərqi Sibir və Asiyanın qütbyanı ərazilərində (əsasən, Lena çayının hövzəsi) Son Neolitə (e.ə. 3-cü minillik) aid arxeoloji mədəniyyət. 1960-cı illərdə Y.A. Moçanov tərəfindən I Belkaçi yaşayış məskənindən tapılmış materiallar əsasında müəyyənləşdirilmişdir. Kiçik çayların mənsəbində və göllərin yaxınlığında ovçuların və balıqçıların mövsümi düşərgələri tapılmışdır. Evlər alaçıq və çum tiplidir, ərzaq quyularının dibi tozağacı qabığı ilə döşənmişdir. Güvəclərin oturacağı dəyirmi və sivri formadadır, daraqvarı möhürlər vasitəsilə üfüqi zolaqlar, maili basma naxışlar və üçbucaqlarla bəzədilmişdir. Qəlpələmə texnikası ilə işlənmiş daş və sümük bıçaqlar, nizə və ox ucluqları, xəncərlər, qaşovlar, tiyələr, cilalanmış iskənə və kərkilər, stilizə olunmuş quş formasında heyvan dişindən düzəldilmiş asmalar və s. aşkar edilmişdir. Tiyəsi çaxmaqdaşıdan düzəldilmiş sümük alətlər səciy-



"Süleyman və Səba hökmdarı". Rəssam C. Demin.19 əsr.

yəvidir. Çalalarda tək-tək dəfn olunan ölülər arxası üstündə, ayaqları çay istiqamətində qoyulmuşdur, üstünə oxra səpilmiş və tozağacı qabığına bükülmüş meyitlər də var; meyitlərdən birinin *Arktika irqinə* mənsub olduğu müəyyənləşdirilmişdir. B.m. Baykalyanı mədəniyyətlərin təsiri altında *Sıalax mədəniyyəti* əsasında formalaşmışdır. *Imıyaxtax mədəniyyəti* və s. B.m. ənənələri ilə bağlıdır.

**BELKÁNTO** (ital. bel canto, hərfi mənada çox gözəl oxuma) – solo vokal ifaçılığı üslubu. Parlaq səs xüsusiyyətlərinə, mükəmməl ifaçılıq texnikasına, ilk növbədə *kantilenaya* malikolma əsas şərtdir. B.-nun 17 əsrin əvvəllərində İtaliyada yaranması operanın təşəkkülü ilə bağlı idi. İlk operalarda (K. Monteverdi, F. Kavalli, A. Çesti) B. ifadəli kantilenaya əsaslanırdı, dramatik effektə nail olmaq üçün kiçik koloratur gəzişmələr daxil edilirdi. 17 əsrin sonu – 19 əsrin 1-ci rübündə *opera-seriada* yüksək inkişaf mərhələsinə çatmış koloraturanın üstün olduğu parlaq virtuoz üslub – "coşqun" B. hakim idi. Bu dövrün bir çox opera bəstəkarı (məs., A. Skarlatti, L. Vinçi, C. Perqolezi, N. Porpora) vokal üzrə pedaqoq idi. Qadın və kişi müğənniləri uşaq yaşlarından yetişdirirdilər. Ən tanınmış vokal məktəbləri Bolonyada (1700 ildən), Neapolda, Romada, Florensiyada, Venesiyada, Milanda yerləşirdi. Bu dövrdə B.-nun inkişafı, əsasən, xədim müğənnilərin sənəti ilə əlaqədardır. B. Avropanın bütün vokal məktəblərinə təsir göstərmiş, 19–21 əsrlərin dünyaşöhrətli opera müğənnilərinin sənətinin əsasını təşkil etmişdir. M. *Kallas*, A.V. *Nejdanova*, C. *Sazerlend*, B. *Nilson*, R. *Tebaldi*, M. *Freni*, E. *Karuzo*, F.İ. *Şalyapin*, L.V. *Sobinov*, T. *Qobbi*, M. Del *Monako*, B. *Xristov*, N. *Gaurov*, P. *Dominqo*, X. *Karreras*, D. *Xvorostovski*, A. *Netrebko* və b. məşhur B. ustalarıdır.

*Bülbül*, R. *Behbudov*, M. *Maqomayev*, F. *Əhmədova*, L. *İmanov*, F. və X. *Qasımova*lar, Q. *Kərimova*, A. Zeynalov, G. İsmayılova, Ş. Quliyev, Ə. Əsgərov, S. Cəfərov, Ə. Abdullayev və b. Azərb.-ın B. ifaçılarıdır.

**BELKIS**, B i l q e y i s – Səba ölkəsinin qadın hökmdarı. Əhdi-Ətiqdə və Quranda B.-dan bəhs olunur. Quranda deyilir ki, Səba ölkəsində Günəşə səcdə olunduğundan xəbər tutan Süleyman peyğəmbər B.-a məktub göndərərək onu təkallahlılığa dəvət edir. Süleyman peyğəmbərin hüzuruna yollanan B. Allahın birliyinə iman gətirir.

**BELQÁON**, B e l q a u m – Hindistanın c.-unda, Karnataka ştatında şəhər. Əh. 428,8 min (2005). Qərbi Qat d-rında təqr. 760 *m* hünd.-dədir. Nəql. qovşağı. 6 əsrdən məlumdur. 16 əsrin əvvəllərinə aid qala saxlanılmışdır. Hüquqşünaslıq, sənətşünaslıq, tibb, pedaqoji, kommersiya kollecləri var. Ticarət mərkəzi (pambıq, düyü, meşə materialı). Dəri, yeyinti, kimya, pambıq parça sənayesi müəssisələri var; alüminium əridilir.

Belqaon şəhərindən görünüş.



**BELQLƏR** (lat. Belgae) – Şimali Qalliyada (Sena və Reyn çayları arasında) və qismən Britaniyanın q. sahillərində yaşamış kelt tayfaları qrupu. Əsas tayfalar bellovaklar, suessionlar, remlər, ambianlar, atrebatlar, morinlər, menapilər və b. idi. E.ə. 58–51 illərdə Qalliya B.-i Roma sərkərdəsi Yuli Sezar tərəfindən tabe edildi, e.ə. 16 ildən onların məskunlaşdığı ərazi Romanın Belgika əyalətinə çevrildi. Eramızın 1 əsrinin ortalarında kelt tayfalarının (o cümlədən B.-in) Britaniyada məskunlaşdıqları ərazi romalılar tərəfindən tamamilə işğal edildi. 5 əsrdə frankların Belgikanı zəbt etməsindən sonra B.-in bir qismi işğalçılar tərəfindən məhv edilmiş, digər qismi isə assimilyasiyaya uğramışdır.





**BELQOROD** – RF-də şəhər. Belqorod vil.-nin inz. m. Əh. 340,9 min (2005). Orta Rusiya yüksəkliyinin c. kənarında, Severski Donets çayının sağ sahilindədir. D.y. və avtomobil yolları qovşağı. Beynəlxalq aeroport.

Şəhər Boyar dumasının 1593 il qərarına əsasən salınmışdır. 1596 ilin payızında B. qalası tikilmişdir. 1612 ildə Reç Pospolitadan gələn knyaz S. Lıkonun komandanlığı altında Poltava çerkasları (kazaklar) dəstəsi B.-u tutmuş və yandırmışdır. 1613 ildə qala yenidən inşa edilmişdir. 1727–79 illərdə Belqorod quberniyasının mərkəzi olmuş, 1779 ildən Kursk canişinliyinin (1796 ildən Kursk qub.) tərkibinə daxil edilmişdir. 1918 ildə Almaniya qoşunları tərəfindən işğal olunmuş və 1919 ilin əvvəllərinədək getman P.P. *Skoropadskinin* Ukrayna dövlətinin tərkibinə qatılmışdır. 1928–34 illərdə RSFSR Mərkəzi Qaratorpaq vil.-nin dairə (1930 ildən rayon) mərkəzi, 1934–54 illərdə Kursk vil.-nin rayon mərkəzi olmuşdur. Böyük Vətən müharibəsi (1941–45) gedişində B. alman qoşunları tərəfindən işğal olunmuş (1941–43), Kursk vuruşması (1943) nəticəsində azad edilmişdir. 1954 ildən RSFSR Belqorod vil.-nin mərkəzidir.

Şəhərin mərkəzində 1768 il müntəzəm planının küçə şəbəkəsi saxlanılmışdır. 18–19 əsrlərə aid kilsələr (Pokrov kilsəsi, 1791; kostyol, 19 əsrin əvvəlləri və s.), kişi gimnaziyasının (1879) və qadın yeparxiya məktəbinin (1908, memar Milhaupt) binaları, 18 əsrin sonu –19 əsrə aid özəl mülklər, mehmanxanalar, "Orion" kinoteatrı (1910) B.-un diqqətçəkən memarlıq abidələridir. Böyük Vətən müharibəsi illərində dağıntılara məruz qalmış B. 1940-cı illərin axırından bərpa edilir, 1990-cı illərdən şəhərdə böyük tikinti və abadlıq proqramları həyata keçirilir (un-t binaları kompleksi, 2001; Tikinti Materialları Texnoloji Un-tinin beynəlxalq dərəcəli stadionu, 2004 və s.).

B.-da un-t (1876), tikinti materialları texnoloji un-ti (1970), istehlak kooperasiyası un-ti (1978), mühəndis-iqtisad in-tu (1997) və s.; 17 elmi tədqiqat və layihə in-tu; 19 filialı olan universal elmi kitabxana (1897); diyarşünaslıq (1924), rəssamlıq (1983), xalq mədəniyyəti (1999) muzeyləri, "Kursk döyüşü" muzey-dioramı (1987) var.

Dram teatrı (1935), kukla teatrı (1961), Dövlət mahnı teatrı (2001), Dövlət filarmoniyası (1966), "Beloqorye" vokal-xoreoqrafiya ansamblı (1971), Belqorod Dövlət musiqi sənəti mərkəzi fəaliyyət göstərir. Kukla teatrlarının "Belqorod əyləncəsi" beynəlxalq festivalı (1995 ildən) keçirilir.

B. iri sənaye mərkəzidir. Energetika maşınqayırması, metal konstruksiyalar z-dları var. Rabitə vasitələri, tikinti materialları, dərman preparatları və məişət kimyası məhsulları istehsal olunur. Yüngül (tikiş f-ki və s.) və yeyinti (konserv z-du, bitki yağları kombinatı və s.) sənayesi müəssisələri fəaliyyət göstərir.

**BELQOROD VİLAYƏTİ** – RF-nin subyekti. Rusiyanın Avropa hissəsinin c.-q.-ində yerləşir. Mərkəzi federal dairəsinə daxildir. Sah. 27,1 min $km^2$. Əh. 1151,6 min (2005). 21 r-nu, 10 şəhəri, 20 ştq. var. İnz. m. Belqorod ş.-dir.

**Təbiət.** B.v. *Orta Rusiya yüksəkliyinin* c.-q. hissəsindədir. Səthi çay dərələri və yarğanlarla intensiv parçalanmış təpəli düzənlikdir (maks. hünd. 276 *m*). Karst relyef formaları yayılmışdır. Geoloji cəhətdən B.v.-nin ərazisi qədim *Şərqi Avropa platformasının* Rus plitəsində Voronej anteklizinə aiddir. Platformanın bünövrəsi iri dəmir filizi yataqları (*Kursk maqnit anomaliyası* hövzəsi) ilə zəngindir. Boksit, təbii tikinti materialları yataqları da var. İqlimi mülayim kontinentaldır. Orta temp-r yanvarda –8-dən –9,2°C-yədək, iyulda 19,4–20,6°C-dir. İllik yağıntı c.-ş.-də 450 *mm*, şm.-q.-də 550 *mm*-dir.



Vegetasiya dövrü 185–190 gündür. Xeyli sıx və şaxələnmiş çay şəbəkəsi (ümumi uz. 5 min *km*) var; çoxu qısa və azsuludur. Nisbətən iri (uz. 100 *km*-dən çox) çayları: *Severski Donets, Oskol,* Tixaya Sosna (Don hövzəsi), Vorskla (Dnepr hövzəsi). Kommunal, sənaye və k.t. sahələrini su ilə təmin etmək məqsədilə 4 su anbarı, 1100-dən çox nohur yaradılmışdır.

B.v., əsasən, meşə-çöl zonasında, ərazinin kiçik c.-ş. hissəsi çöl zonasında yerləşir. Torpaq örtüyündə yuyulmuş, tipik və adi qaratorpaqlar üstünlük təşkil edir. Meşə-çöldə meşə örtüyü altında boz meşə torpaqları formalaşmış, çay dərələrində allüvial torpaqlar yayılmışdır. Meşələr ərazinin 10%-ə qədərini tutur, ən çox çayarası, yayla, subasar və qobu palıdlıqları səciyyəvidir. 20 əsrin ortalarından palıd ağaclarının qurumağa meyilliliyi nəzərə çarpır, al-qırmızı-mavi səfərotu, əsl zöhrəçiçəyi, qırmızı tozbaş səhləb, çılpaq sütuncuqlu alışan kimi meşə bitkiləri azalmağa başlamışdır. Çay terrasları boyunca nadir halda təbii şam meşələrinə rast gəlinir. Müxtəlifotlu-çəmənli çöl-

Belqorod şəhərindən görünüş.





Severski Donets çayı üzərində Belqorod su anbarı.

lərin yerli bitkiləri yalnız yarğanların, dərələrin yamaclarında və subasarlarda qalmışdır, ərazinin qalan sahələrində çöllər şumlanmışdır. Efiopiya adaçayı, sarmat belvaliyası və s. çöl bitkilərinin yox olmaq təhlükəsi var. Tabaşir tərkibli süxurların üzə çıxdığı yerlərdə formalaşan relikt və endemik flora növlərinin üstünlük təşkil etdiyi otluq-kolluq kserofit bitki qruplaşmaları xüsusi yer tutur. Meşə-çöl zonası Podolye cili, Kozo-Polyanski dəlikçiçəyi, Yuliya canavargiləmeyvəsi və s. ilə təmsil olunur. Kəklikotu sahələrinə çöl zonasının yuyulmuş çınqıllı torpaqları olan tabaşirli dik yamaclarda rast gəlinir, seyrək ot örtüyü tabaşirli kəklikotu, Marşall göyçiçəyi, sadə onosma ilə təmsil edilir; yayla kserofit formasiyalarından ibarət çödükotu sahələrinə vil.-in c. ucqarında təsadüf edilir. B.v.-ndə sığın, cüyür, qaban, canavar, tülkü, porsuq, dələ var; çoxlu sayda dovşan (adadovşanı və boz dovşan), çilli sünbülqıran yaşayır. Vilayətin ərazisində əvvəllər tamamilə qırılmış bozqır marmotu, qunduz, Avropa maralı yenidən görünməyə başlamışdır. *Beloqorye qoruğu* yaradılmışdır. Sənaye müəssiələrinin atmosferi çirkləndirməsi (98 min *t*, 2003), sənaye və k.t. çirkablarının səth və yeraltı sulara qarışması nəticəsində B.v.-ndə kəskin ekoloji vəziyyət yaranmışdır. Ərazinin həddindən artıq şumlanması, relyefin çox parçalanması və meşəliyin azlığı torpağın eroziya və deflyasiyasına səbəb olur; bu isə məhsuldar k.t. torpaqlarının məhvinə aparır.



Lebedinsk dəmir filizi yatağı.

**Təsərrüfat.** B. v. Mərkəzi Qaratorpaq iqtisadi r-nuna daxildir; sənaye məhsullarının həcmi dəyərinə görə k.t. məhsullarının həcmini 4,1 dəfə üstələyir. RF-nin ÜDM-ində vil.-in payı 0,7%-dir. Ölkə iqtisadiyyatında dəmir filizi hasilatı (RF-dən 36,3%, 2003), şifer (17,1%), istilik sistemləri üçün suqızdıran qazanlar (15,4%), şəkər tozu (13,6%), şəkər çuğunduru (13,4%), paltaryuyan maşınlar (11,9%), bitki yağları (10,1%), sement (10,4%), qara metal yayıqları (təqr. 4%), dərman preparatları istehsalı və s. ilə fərqlənir. Ümumi regional məhsulda (%-lə) sənayenin payı 36,7, k.t. – 14,9, ticarət, əmtəə və xidmətlərin satışı üzrə kommersiya fəaliyyəti – 11,3, qeyri-bazar xidmətləri –10,8, tikinti – 5,6, nəql. və rabitə – 5,4, başqa sahələr – 11,3. Mülkiyyət formasına görə müəssisələrin nisbəti (təşkilatların sayına görə, %-lə): özəl 66,7, dövlət və bələdiyyə 17,9, ictimai və dini təşkilatlar (birliklər) 10,9, digər mülkiyyət formaları 4,6.

İqtisadi fəal əh. 712 min nəfərdir, onlardan 91,8%-i iqtisadiyyatda məşğuldur. Məşğulluğun sahə strukturu (%-lə): sənaye 20,9, k.t. 20,3, ticarət və ictimai iaşə 13,5, təhsil 9,4, tikinti 7,4, səhiyyə 6,7, mənzil-kommunal təsərrüfatı 5,4, nəql. 5,0 və s. İşsizlik səviyyəsi 8,2%-dir. Adambaşına düşən pul gəlirləri ayda 5,1 min rubldur (RF üzrə orta həddin 64,8%-i; 2005 ilin ortaları); vil. əh.-nin 22,9%-inin gəlirləri yaşayış minimumundan aşağıdır.

S ə n a y e. Sənaye məhsullarının həcmi 120 mlrd. rubl (2004) təşkil edir. Əsas sənaye sahələri (%-lə): qara metallurgiya 38,7, yeyinti 21,6, maşınqayırma və metal emalı 13,4, elektroenergetika 9,7, tikinti materialları sənayesi 8,5, dəyirman-ding və kombinə edilmiş yem 4,1, kimya və neft-kimya 2,6, yüngül 2,3, meşə, ağac emalı və sellüloz-kağız 0,7. B.v.-nin elektrik st.-larının ümumi müəyyən edilmiş gücü 167*MVt*. Qubkin İES-i (36 *MVt*), Belqorod İES-i (25,6 *MVt*), Şebekino ş.-ndə blok-st. (17 *MVt*) və s. fəaliyyət göstərir. Vil. öz enerji tələbatının yalnız 5%-ini ödəyir; çatışmayan elektrik enerjisini Kursk və Voronej enerji sistemlərindən alır. Qaz və neft məhsullarına olan tələbat kənar tədarük hesabına ödənilir.

Maşınqayırma müəssisələri genişçeşidli məhsullar istehsal edir; istehsal





həcmləri, əsasən, vil.-in tələbatına yönəldilmişdir. Aparıcı müəssisələr: "Belqorod energetika maşınqayırması z-du" (buxar qazanları, boru kəmərləri üçün armatur və s.), "Belqorod k.t. maşınqayırması z-du" , "EMK – metal konstruksiyaları z-du" (Belqorod), "Belqorod "Ritm" z-du" (k.t. texnikası, neft-qaz sənayesi üçün avadanlıq), "Belaqromaşservis", Belqoroddakı "Elektromaşina" (elektrik mühərrikləri) və "Sokol" İB (radioqəbuledici aparatlar, elektron telefon stansiyaları), həmçinin "Starı Oskol avtotraktor elektrik avadanlıqları z-du" (o cümlədən paltaryuyan maşınlar), "Oskol mexanika z-du".

B.v. sintetik yuyucu vasitələrinin (Şebekino ş.), hazır dərman preparatlarının (Belqorod ş.) iri istehsalçısıdır. B.v.-ndə yerli xammal ehtiyatları (tabaşir, qum, gil) bazasında tikinti materiallarının (sement, portland-sement, dəmir-beton konstruksiyalar, klinker, keramik kərpic və s.) iri istehsalı təşkil olunmuşdur. Sahənin aparıcı müəssisələri: Starı Oskol sement z-du (Avropada ən iri z-dlardan biri), "Belqorod-Trast" (tabaşir), "KM Aproyektjilstroy" tikinti materialları z-du (Starı Oskol ş.) və s. Yeyinti sənayesinin əsas ixtisaslaşma istiqaməti müxtəlif emal dərəcələrində şəkər, ət, süd və tərəvəz məhsullarının, bitki yağları və kombinə edilmiş yemlərin istehsalıdır. Aparıcı müəssisələr: "Alekseyevka südkonserv kombinatı", "Slavyanka" qənnadı f-ki (Starı Oskol ş.), "Efirnoye" (bitki, kərə və kombinə edilmiş yağlar, Alekseyevka ş.), "Belmyaso" (Belqorod ş.), "Belqorod süd kombinatı", "Kristall-Bel" (şəkər z-du, Çernyanka ş.t.q.), "Qubkin ət kombinatı". Xarici kapitalın iştirak etdiyi iri müəssisələr də fəaliyyət göstərir: "Onken" süd kombinatı (Rusiya-Almaniya, Proxorovka qəs.), "Belqorod kombinə edilmiş balıq yemləri eksperimental z-du" (Rusiya-Britaniya), "Domat" meyvə-tərəvəz konservləri z-du (Bolqarıstan, Krasnoqvardeyskoye r-nu) və s. Vil.-in əsas sənaye mərkəzləri: Belqorod, Starı Oskol, Alekseyevka. İxracda dəmir filizi və konsentratları, qara metallar, sement, ərzaq, idxalda isə k.t. məhsulları, qara metallar, maşın və avadanlıqlar, kimya məhsulları üstünlük təşkil edir.

K ə n d t ə s ə r r ü f a t ı. B.v.-nin k.t. məhsullarının ümumi dəyəri 29,3 mlrd. rubl (2004), onun 53,4%-i bitkiçilik məhsullarının payına düşür. K.t. yerlərinin sah. 21,4 min $km^2$-dir (2003, vil.-in sah.-nin 79%-i),onun 60,9%-ini əkin yerləri tutur. K.t.-nın inkişafına əlverişli aqroiqlim ehtiyatları, əsasən, münbit torpaqlar (B.v. ərazisinin 70%-indən çoxunu qaratorpaqlar tutur) imkan yaradır. Dənli (buğda, arpa, qarğıdalı, qarabaşaq), yem, texniki (o cümlədən yağlı) bitkilər, kartof və tərəvəz becərilir. B.v. günəbaxan, taxıl, kartof və tərəvəzin iri istehsalçısıdır; RF-də dağkeşnişi əkininə görə liderdir.

Heyvandarlıq süd-ət maldarlığı, donuzçuluq, ət-yun qoyunçuluğu, quşçuluqla təmsil olunmuşdur. B.v. donuzların, qaramalın ümumi sayına, ət, süd və yumurta istehsalına görə RF-də ön yerləri tutur.

K.t. yerlərinin təqr. 94%-i k.t. qurumlarına aiddir. Vil.-in bütün k.t. məhsullarının 43,3%-i əhaliyə məxsus təsərrüfatlarda, 53,9%-i isə k.t. müəssisələrində istehsal olunur. K.t. müəssisələri dənli (91%) və texniki bitkilərin əsas istehsalçılarıdır. Əhaliyə məxsus təsərrüfatlarda kartofun hamısı, tərəvəzin təqr. 90%-i istehsal olunur.

N ə q l i y y a t. B.v.-nin nəql. sistemində d.y. nəql. əsas rol oynayır (61% yükdaşıma, 59% sərnişindaşıma). D.y.-larının uz. 700 *km*-dir (2003). Moskva və S.-Peterburqu Krım və Qafqazla birləşdirən d.y. magistralı, Moskva–Krım avtomobil magistralı vil.-in ərazisindən keçir. Bərkörtüklü avtomobil yollarının uz. 6,5 min *km*-dir. Avtomobil nəql. ilə k.t. məhsulları, tikinti materialları, həmçinin sərnişin daşınır. Belqorodda beynəlxalq aeroport var.

**BELQOROD-DNESTRÓVSKİ** Ukraynanın c.-unda, Odessa vil.-ndə şəhər. Əh. 50,2 min (2005). Dnestr limanının q. sahilində port. D.y. st.

E.ə. 6 əsrin sonundan *Xalqların böyük köçünədək* yunan şəhəri *Tira* kimi məlum idi. 12 əsrdən Belqorod ş. Qaliç və Qaliç-Volın knyazlarının təsir dairəsində olmuşdur. 1210–30-cu illərdə Macarıstanın tərkibində Feger-Var (Feryer-Var) adlanmış, 1241 ildən sonra Qızıl Ordanın tərkibində olmuşdur. 14 əsrin 1-ci yarısında Krımdakı Genuya koloniyaları ilə sıx əlaqələri olan iri porta çevrilmişdir. Bu dövrdə Mavrokastro, Mo(n)kastro, Monte-Kastro, Asprokastro, Albi-Kastri adları ilə qeyd edilmişdir. 1377–78 illərdə şəhər Çetatya-Albe ("Ağ qala") adı ilə Moldova knyazlığına tabe idi. 1484 ildə türklər tərəfindən fəth edilərək Akkerman ("Ağ daş") adlanmışdır. 17–18 əsrlərdə Krım xanlığından və Osmanlı imperiyasından vassal asılılıqda olan noqayların *Bucaq Ordasının* mərkəzi idi. 1770 və 1789 illərdə Akkerman rus qoşunları tətəfindən tutulsa da, Osmanlı imperiyasına qaytarılmışdır (1774 və 1791 illərdə). *Buxarest sülh müqaviləsinə (1812)* görə, şəhər Rusiya imperiyasının tərkibinə daxil edilmişdir. 1818 ildən Bessarabiya vil.-nin, 1873 ildən Bessarabiya qub.-nın qəza şəhəri olmuşdur. 19 əsrin ortalarında Dnestryanıda şərabçılıq mərkəzlərindən birinə çevrilmişdi; burada dulusçuluq, çəkməçilik, çəlləkçilik və s. sənət sahələri sürətlə inkişaf etmişdi. 19 əsrin sonlarında B.-D.-də iri sənaye müəssisələri (3 şəkər z-du, 2 tütün və 4 pambıq f-ki) fəaliyyət göstərmiş, port inkişaf etmişdir. 1918–40 illərdə şəhər Çetatya-Albe adı ilə Rumıniyanın tərkibində olmuşdur. 1940 ildən SSRİ-nin tərkibində, Ukrayna SSR Akkerman vil.-nin mərkəzi (7.8.–7.12.1940), sonra 1954 ilədək Ukrayna SSR İzmail vil.-nin, 1954 ildən Odessa vil.-nin rayon mərkəzi olmuşdur. 1941–44 illərdə alman qoşunları tərəfindən tutulmuşdur. 1944 ildən indiki adını daşıyır.

14–15 əsrlərdə inşa edilmiş qala (Bizans məktəbi ustaları və b.; 34 bürcündən yalnız 26-sı qalmışdır; 4 darvazası, içqalanın divarlarının ümumi uz. 2 *km*-dən çox olmuşdur; 16–18 əsrlərdə yenidən tikilmişdir), bir çox kilsə dövrümüzədək saxlanılmışdır. Diyarşünaslıq muzeyi var. Məsaməli beton və tibb alətləri z-dları var. Plastik kütlədən məmulatlar, rezistorlar və s. istehsal olunur.

**BELQRÁD** (Beoqrad) – Serbiyanın paytaxtı. Cənubi Avropanın ən iri şəhərlərindən biri. B. xüsusi inz.ə.v. (sah. 3224 $km^2$) statusuna malikdir. 10 şəhər və 6 şəhərətrafı icmadan ibarətdir. Əh. 1,1 mln. (2005); şəhərətrafı icmalarla 1,7 mln. Orta Dunay düzənliyinin c. kənarında, Sava çayının Dunaya töküldüyü yerdə, 110 *m*-dən yuxarı hünd.-də yerləşir. Qərbi Avropanı Egey dənizi sahili, Kiçik Asiya, Yaxın və Orta Şərqlə əlaqələndirən mühüm avtomobil magistralı və d.y.-ları qovşağı. Dunay çayında iri port (Reyn–Mayn–Dunay kanalı tikildikdən sonra Şimal dənizi ilə Qara dəniz arasında "çay-dəniz" tipli gəmilərin işlədiyi birbaşa su yolu əlaqəsi yaranmışdır); Beynəlxalq aeroport ("Belqrad", Surçində). SES ("Cerdap") var.

Qədimdə B. ərazisində keltlərin Singidunum adlı yaşayış məntəqəsi, e.ə. 1 əsr – eramızın 4 əsrində Romanın eyniadlı şəhəri olmuşdur. Roma imperiyasının



Belqrad şəhərindən görünüş.

parçalanmasından sonra (395) Bizans imperiyasına qatılmış; 6 əsrdə yenidən tikilmişdir. 6 əsrin sonlarında avarlar tərəfindən tutulmuşdur. Serbcə adı (Beliqrad) ilə ilk dəfə 878 ildə qeyd edilmişdir. 9–10 əsrlərdə bulqarların, 11–12 əsrlərdə yenidən Bizansın, sonralar isə ardıcıl olaraq bulqarlar, macarlar və serblərin hakimiyyətində olmuşdur. Stefan Lazareviçin [1403–27] hakimiyyəti illərində Serbiyanın paytaxtı olan B. çiçəklənmə dövrünü yaşamışdır. 1427 ildən macarların qalası idi. 1521 ildə türklər tərəfindən tutulmuş, *Belqrad paşalığının* mərkəzinə çevrilmişdir. 1688–90, 1717–39, 1789–91 illərdə Avstriyanın tabeliyinə keçmişdir. 1806 ildən Serbiya knyazlığının (1882 ildən krallıq) paytaxtı olmuş, 1813–30 illərdə yenidən Osmanlı imperiyasına qatılmışdır (şəhərin mərkəzindəki qala isə 1867 ilədək türklərin əlində idi). Birinci dünya müharibəsi zamanı 1914 və 1915–18 illərdə B.-ı Avstriya qoşunları işğal etmişlər. 1918 ildən Serb, Xorvat və Sloven Krallığının (1929–91 illərdə Yuqoslaviya) paytaxtı olmuşdur. 1941–44 illərdə şəhər alman qoşunları tərəfindən zəbt edilmişdir. 1992 ildən Yuqoslaviya Federativ Resp.-nın, 2003 ildən Serbiya və Çernoqoriya dövlət ittifaqının paytaxtı olmuşdur. 1999 ilin mart–iyun aylarında NATO aviasiyasının dağıdıcı bombardmanına və raket atəşinə məruz qalmışdır.

Sava çayının sağ sahilində yerləşən Kalemeqdan (Qalameydan) parkındakı Yuxarı və Aşağı qalalar B.-ın tarixi mərkəzidir. Buraya Roma və orta əsr istehkamlarının qalıqları, Neboyşa bürcü (15 əsrin ortaları, 18 əsrdə yenidən tikilmişdir), Dizdarevı (15 əsrin əvvəli), 16–17 əsrlərə aid Osmanlı türbəsi və Karlovı (17–18 əsrlər) darvazaları, Sahat qalası (18 əsr), Rujitsa kilsəsi (1867–69), Müq. Petka kiçik kilsəsi (1937) və s. daxildir. Bayraqlı Came (1690) və Dositey Obradoviçin liseyi (18 əsrin ortaları) tarixi memarlıq abidələridir. Zemun r-ndakı orta əsr Qardoş qalası yaxınlığında Müq. Nikolay (1725–45) və Məryəm (1776–80) kilsələri, Rakovitsa monastırı (16 əsr; 1861–65 illərdə yenidən tikilmişdir) yerləşir. Lyubitsı (1829–31) və Miloş (1831) knyazlarının yaşayış evləri balkan üslubunda tikilmişdir. 19 əsrin 2-ci yarısı – 20 əsrin 1-ci yarısında B.-ın mərkəzi müntəzəm plan əsasında salınmışdır (Respublika və Teraziye meydanları). Əsas tikililəri Aleks Krsmanoviçin evi (1885), xalq skupşinasının (1906–37, memarlar Y. və P. İlkiç), Milli teatrın (1868–69), "Moskva" mehmanxanasının (1906, memar Y. İlkiç), Smederev bankının (1910, memar M. Ruvidiç) binalarıdır. Müq. Aleksandr Nevski (1912–30, memarlar E. Naçiç, P.Y. Popoviç, V. Androsov), Daşmeydandakı Apostol Mark (1931–40), Vraçarda Müq. Savva (1935–39; 2004 ildə onun yaxınlığında möhtəşəm Müq. Savva kilsəsinin tikintisi başa çatdırılmışdır) kilsələrinin inşasında serb monastır memarlığı prinsiplərindən istifadə edilmişdir. Rus Troitsa kilsəsi Novqorod memarlığı ənənələrinə uyğun tikilmişdir (1924–25, memar V.V. Staşevski). N. Dobroviç və M. Somborskinin planı (1947–50) əsasında Sava çayının sol sahilində Yeni Belqrad r-nu salınmışdır. Knyaz M. Obrenoviçin abidəsi (1882, heykəltəraş E. Patsi) və "Qələbə müjdəçisi" heykəli (1913, heykəltəraş İ. Meştroviç) qoyulmuşdur. Şəhər ətrafında, orta əsr Jrnov şəhərinin yerində, Avala dağında Naməlum Əsgərə abidə ucaldılmışdır (1934–38, heykəltəraş Meştroviç).

Kalemeqdan (Qalameydan) parkından görünüş.



Serb elm və incəsənət akademiyası (1886 ildə təşkil edilmişdir), kimya (1897), geologiya (1891), coğrafiya (1910) və s. elmi cəmiyyətləri, rəsədxana, Belqrad un-ti (1863; tərkibinə 8 in-t daxildir), İncəsənət un-ti (1937), Ali iqtisad məktəbi (1856), Teatr və kino akademiyası (1950, hazırda dram sənəti fakültəsi), Musiqi akademiyası (1937) fəaliyyət göstərir. Əsas kitabxanaları: Serbiya xalq kitabxanası (1832), Akademik kitabxana (1842 ildə serb təhsil





cəmiyyəti kimi yaranmışdır), un-t (1844 ildə Serb liseyinin kitabxanası kimi təşkil edilmişdir) və Belqrad (1929) kitabxanaları. 40-adək muzey, o cümlədən Milli muzey (1844 ildə yaradılmışdır; bina 1903–06, memarlar A. Stefanoviç, N. Nesteroviç), onun filialları: Freskalar qalereyası (1953), Serb pravoslav kilsəsi muzeyi (1856), etnoqrafik (1901), teatr (1950), tətbiqi (1950) və müasir incəsənət (1958) muzeyi; bundan başqa, hərbi (1878), B. şəhəri (1903), Serbiyanın tarixi (1963) və s. muzeylər fəaliyyət göstərir. Milli teatr (1868 ildə yaradılmışdır; opera, balet, dramatik tamaşalar qoyulur), Yuqoslaviya dramatik teatrı (1948), "Atelye-212" teatrı (1956), Filarmoniya orkestri (1923 ildən); B. un-tinin xor cəmiyyəti (1945 ildən) var. Hər il B. beynəlmiləl teatr festivalı (1967 ildən) və beynəlxalq kinofestival (1971 ildən) keçirilir.

B. ölkənin əsas iqtisadi mərkəzlərindən biridir; yaxınlıqdakı Smederovo, Pançevo şəhərləri və Dunay sahilləri boyunca ərazilərlə (ümumi sah. təqr. 2 min $km^2$) birlikdə azad iqtisadi zona statusuna malikdir. Serbiya və Çernoqoriyanın ÜDM-nin 1/4-dən çoxu paytaxt regionunda yaradılır (Serbiyanın ÜDM-nin təqr. 30%-i). Muzdlu işçilərin 66,4%-i xidmət sferasında, 24,5%-i sənayedə, 7,3%-i tikintidə, 1,8%-i kənd və meşə təsərrüfatında məşğuldur (2003). Şəhər iqtisadiyyatının əsasını sənaye təşkil edir. Maşınqayırma və metallurgiya: sənaye avadanlıqları (energetika, mədənçıxarma və yeyinti məhsulları sənayesi üçün), dəzgah və alətlər ("İvo Lola Ribar" z-du, və s.), taxılyığan kombaynlar, traktorlar və digər k.t. texnikası ("Zmay" z-du və s.), avtobuslar ("İkarbus" z-du), daxiliyanma mühərrikləri, telekommunikasiya avadanlıqları ("Teleoptik" z-du), mikroelektron cihazlar və qurğular, məişət texnikası ("Belim" z-du) və s. istehsalı; gəmiqayırma və gəmi təmiri. Kimya, o cümlədən neft-kimya (plastik kütlə, sintetik kauçuk və s.) sənayesi, həmçinin lak, boya və polimer örtüklər ("Duqa" z-du), məişət kimyası vasitələri ("Beoxemiya" z-du), kosmetika, əczaçılıq preparatları ("Qalenika" z-du və s.) müəssisələri fəaliyyət göstərir. Yüngül (yun, pambıq və digər parçalar, trikotaj, tikiş və qalantereya məmulatları, ayaqqabı və s.), ağac emalı, kağız, poliqrafiya sənayesi inkişaf etmişdir, tikinti materialları istehsal olunur. Yeyinti sənayesi başlıca olaraq, yerli k.t. xammalının emalına



Müqəddəs Savva böyük kilsəsi.

əsaslanır və un, çörək-bulka, qənnadı və süd məhsulları, şəkər, bitki yağı, ət və tərəvəz konservləri, həmçinin təzə dondurulmuş məhsullar, içkilər və s. istehsalı müəssisələri ilə təmsil olunur. 2000-ci illərin əvvəllərində istehsal həcminin xeyli azalması zəminində müəssisələrin özəlləşdirilməsi aparılmış, bir sıra sənaye obyektlərinin profili dəyişdirilmiş və ya bağlanmışdır. Paytaxt regionunun iqtisadiyyatında tikinti sənayesi mühüm yer tutur. B.-dakı təşkilatlar bütün Serbiyada, həmçinin bir çox xarici ölkələrdə nəql., sənaye, ictimai və yaşayış obyektlərinin layihələndirilməsini və tikintisini həyata keçirir.

B.-nin ərazisinin təqr. 45%-ini k.t.-na yararlı torpaqlar (şəhərətrafı tərəvəzçilik, bağçılıq, heyvandarlıq; dənli və yem bitkilərinin becərilməsi və s.) tutur.

**BELQRAD PAŞALIĞI** – Osmanlı imperiyasında inzibati ərazi. 1521 ildə yaradılmışdır. B.p.-na Dunay və Sava çaylarından c.-dakı serb torpaqları daxil

Belqrad aviasiya muzeyi.



idi. 18 əsrin sonları – 19 əsrin əvvəllərində B.p. serb üsyanlarının mərkəzi olmuşdur. 1804 ildə baş verən üsyan müstəqil serb dövlətinin qurulması yolunda mühüm addım oldu.

**BELQRAD SƏFƏRİ (1521)** – Osmanlı sultanı *I Süleyman* tərəfindən təşkil olunmuşdu. Süleyman Qanuninin taxta çıxdığını bildirmək məqsədilə macar kralı Hunyad Yanoşa göndərilən elçinin öldürülməsi səbəbindən baş vermişdi. Mixaloğlu Mehmed və Bali bəyin başçılığı ilə ön dəstələr Macarıstana göndərildi. Eyni zamanda Belqrad qalasını blokadaya almaq məqsədilə Hüsrev paşa ilə Əhməd paşanın hərbi dəstələri də yola düşdü. Belqradın yaxınlığında yerləşən Sabac (Böyürdələn) qalası osmanlı qoşunları tərəfindən tutuldu, Belqrad qalası mühasirəyə alındı. 1521 il avqustun 29-da Belqrad osmanlılar tərəfindən fəth olundu.

**BELQRAD SÜLH MÜQAVİLƏLƏRİ (1739)** – Osmanlı dövləti ilə Avstriya və Rusiya arasında bağlanan üç müqavilə. Osmanlı dövlətinin Avstriya-Rusiya ittifaqına qarşı apardığı müharibəyə son qoymuşdur. İlk müqavilə sentyabrın 1-də Avstriya ilə Osmanlı dövləti arasında bağlanmışdır. Digər iki müqavilə Fransanın vasitəçiliyi ilə imzalanmışdır. Sentyabrın 29-da Avstriya ilə imzalanan 23 maddədən ibarət müqaviləyə görə, Belqrad, Bosniya və Serbiya, həmçinin Valaxiyanın bir hissəsi Osmanlı dövlətinə qaytarıldı, Osmanlı dövləti ilə Avstriya arasındakı sərhəd Dunay və Sava çayları, həmçinin Temeşvar əyalətindəki dağ silsiləsi oldu.

Həmin gün Osmanlı dövləti ilə Rusiya arasında bağlanan müqaviləyə görə, Azov Rusiyaya qaytarıldı (Rusiya orada hərbi qüvvə saxlamamağı öhdəsinə götürdü), Rusiya Donda (Çerkas a.), Türkiyə isə Kuban çayının mənsəbində qala tikmək hüququ aldı; Böyük və Kiçik Kabarda Rusiya ilə Osmanlı dövləti arasında bitərəf ərazi elan olundu. Rusiyaya Azov dənizi və Qara dənizdə donanma saxlamaq qadağan edildi. B.s.m. *Küçük Qaynarca sülhü (1774)* ilə ləğv olundu.

**BELL** Aleksander Qreyam (3.3.1847, Şotlandiya, Edinburq – 2.8.1922, Kanada, Yeni Şotlandiya əyaləti, Badlek) – telefon ixtiraçısı. Edinburq və London un-tlərində mühazirələr dinləmişdir. 1872 ildə Bostona köçdükdən sonra karlar üçün müəllimlər hazırlayan tədris müəssisəsi açmışdır. 1873 ildən Boston Un-tinin prof.-u idi. B. eyni zamanda elektrik siqnalları vasitəsilə səsin yazılması və gücləndirilməsi məsələləri ilə məşğul olmuşdur. Çoxkanallı teleqraf ilə bağlı eksperimentləri telefonun yaranmasına təkan vermişdir. Bir neçə teleqraf məlumatının eyni vaxtda bir naqillə ötürülməsi problemi üzərində işləyərkən, insan nitqini teleqraf vasitəsilə ötürə bilən aparat (telefonun ilkin variantını) kəşf etmişdir (1876 ildə bu işə görə patent almışdır). B. 1877 ildə öz tərəfdaşları ilə birlikdə "Bell telefon" şirkətini (1885 ildən "Amerika telefon və teleqraf şirkəti" – AT&T) yaratmışdır. Şirkət tezliklə ABŞ ərazisində, demək olar ki, bütün telefon şəbəkəsinə nəzarət etməyə başladı. 1895 ildən sonra, əsasən, aviasiya və hidrodinamika sahələrində bir çox layihələr üzərində işləmişdir. B. 30 patent (12-si başqa müəlliflərlə birgə) almışdır. Elmi cəmiyyətlərin və nəşrlərin təşkilində iştirak etmişdir; Milli Coğrafiya Cəmiyyətinin (1888) təsisçilərindən biri, Amerika karlara nitq tədrisi cəmiyyətinin (1890) yaradıcısıdır (1956 ildən onun adını daşıyır). 1898 ildən Bostondakı Smitson institunun idarə heyətinin üzvü olmuşdur.



**BELL** Daniel (d.10.5.1919, Nyu-York) – Amerika sosioloqu. 1939 ildə Nyu-York şəhər kollecini bitirmişdir; 1960 ildə Kolumbiya Un-tində fəlsəfə doktoru dərəcəsini almışdır. Çikaqo (1945–48), Kolumbiya (1952–69) un-tlərində dərs demiş, Harvard Un-tinin (1969–80) və 2-ci Henri Fordun (1980 ildən) Sosial elmlər Un-tinin prof.-u olmuşdur. "New Leader" (1939–44), "Fortune" (1948–58) jurnalının baş redaktoru, "Daedalus", "Public Interest" jurnallarının redaksiya heyətinin üzvüdür. Amerika incəsənət və elmlər akademiyasının üzvüdür.

B. deideologizasiya konsepsiyasının müəlliflərindən biridir. B.-ə görə, 20 əsrin ortalarında ideologiya artıq öz əhəmiyyətini itirmişdir. Lakin 1960-cı illərin axırlarının solçu radikal hərəkatları B.-i, ideologiyanın sonu ideyasının səhv olduğuna inandırdı. 1973 ildə o, postindustrial cəmiyyətin ilk konsepsiyalarından birini təqdim etmişdir. B.-ə görə, bu cəmiyyətin əsas əlamətləri nəzəri biliyin mərkəzi mövqe tutması, əmtəə istehsal edən iqtisadiyyatdan xidmət iqtisadiyyatına, sosial stratifikasiyanın sinfi deyil, peşəkarlıq meyarına və idarəetmənin yeni formasına – *meritokratiyaya* keçiddir. B.-ə görə, cəmiyyət avtonom, öz məntiqinə uyğun inkişaf edən ayrı-ayrı sahələrə (iqtisadi, sosial, siyasi və mədəni) bölünür. Bu sahələrin fəaliyyət prinsipləri öz aralarında uzlaşa, ya da bir-birilə ziddiyyət təşkil edə bilər. Belə ki, 20 əsrin 2-ci yarısının postindustrial cəmiyyəti üçün sosial və iqtisadi sahələrin mədəni sahə ilə qarşıdurması səciyyəvidir. Bu, birincilərin rasional yönümlü, sonuncunun isə mahiyyətcə antinomik, antiinstitusional və antirasional olması ilə şərtlənir. B.-in fikrincə, bu qarşıdurma 21 əsrin əvvəllərində iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin cəmiyyətlərini sistemli böhrana gətirib çıxarmışdır. Böhranın dərinləşməsi isə artıq *bəşəriyyətin* mövcudluğu üçün təhlükə yaradır.

Əsərləri: Грядущее постиндустриальное общество: опыт социального прогнозирования. M., 1999; Возобновление истории в новом столетии // Вопросы философии. 2002. № 5.

**BELL** İsaak Lotian (15.2.1816 – 20.12.1904), ingilis metallurqu. London Kral Cəmiyyətinin üzvü (1874). Klivlenddəki Klarens dəmir z-dunun sahibkarı olmuşdur. Çuqun metallurgiyası sahəsində apardığı bir sıra tətqiqatları domna prosesi nəzəriyyəsinin işlənib hazırlanmasına təkan vermişdir. 1869 ildə domna əritməsinin istilik balansının hesablamalarını dərc etdirmişdir. Bununla o, ilk istilik balansının tərtibçisi fransız metallurqu A. de Baterin səhvlərini aradan qaldırmışdır. B.-in dərc olunmuş işlərindən ən mühümü "Çuqun və polad istehsalının əsasları" əsəridir.

**BELLA** (Bellah) Robert Nilli (d.23.2.1927, Oklahoma ştatı, Altes) – Amerika din sosioloqu. Harvard Un-tini bitirmiş (1950), orada fəlsəfə üzrə doktor (1955) dərəcəsini almışdır. 1955–57 illərdə İslamın Öyrənilməsi İn-tunun elmi əməkdaşı (Harvard); 1957–67 illərdə Harvard Un-tinin prof.-u; 1967–97 illərdə sosiologiya prof.-u; 1979–85 illərdə Kaliforniya Un-tinin sosiologiya fakültəsinin dekanı (Berkli) işləmişdir. 1968–74 illərdə Yapon və Koreya tədqiqatlar mərkəzinə (Berkli) başçılıq etmişdir. Amerika İncəsənət və elmlər akademiyasının, Amerika din akademiyasının üzvüdür. Humanitar elmlər sahəsindəki nailiyyətlərinə görə milli medalla təltif edilmişdir (2000).

B. dinlərin öyrənilməsinə təkamül və funksionalist yanaşmaların nümayəndəsidir. O, sosial təkamülün gedişində dəyişən, sosial in-tların möhkəmlənməsinə kömək edən və bütövlükdə cəmiyyətin





inkişafına təsir göstərən dinə cəmiyyətin və mədəniyyətin funksional zəruri tərkib hissəsi kimi baxır. B. öz mövqeyini "simvolik realizm" adlandırmış, bununla da hər bir dinin ictimai-mədəni kontekstinin vacibliyinin nəzərə alınmasını və dini həyatın başqa "reallıqlara" müncər edilməməsini qeyd edir. Postənənəvi cəmiyyətdə "müasir din" bir tərəfdən "dini plüralizmlə", digər tərəfdən, "fərdiləşdirilmə" ilə xarakterizə olunur. Belə halda hər bir kəs ənənəvi etiqadlara öz şərhini verə və ya özünün şəxsi dinini yarada bilər. B.-ya görə, "fərdiləşdirilmə" prosesi *sekulyarizasiya* fenomeninin mahiyyətini təşkil edir. Onun "vətəndaş dini" konsepsiyası (sonradan "respublika dini") 1960 illərin axırlarından amerikalıların kütləvi şüurunun ayrılmaz hissəsi olmuşdur. B.-nın tədqiqatlarında yerli dini icma vətəndaş cəmiyyətinin və cəmiyyətin qlobal dəyişikliyi kontekstində "amerikan mədəniyyətinin protestant strukturunun" ən mühüm elementi kimi xüsusi yer tutur.

Əsərləri: Beyond belief: essays on religion in a post-traditional world. N.Y., 1970; Религиозный индивидуализм и религиозный плюрализм // Религия и общество. Хрестоматия по социологии религии. M., 1994. Ч. 2; Imaging Japan. Berk.; L., 2003.

**BELLA-KULALAR** (özlərini n u x a l k m x, n u x a l k adlandırırlar; hərfi mənada – Bella-Kula vadisinin adamları) – Kanadanın qərbində (Britaniya Kolumbiyası əyaləti) *salişlər* qrupundan hindi xalqı. Sayı 1 min nəfərdir (2001). 7 rezervasiyada (o cümlədən 855 nəfəri Bella-Kula çayının mənsəbindəki eyniadlı rezervasiyada) yaşayırlar. *Saliş dillərinin* bella-kula qrupunun bella-kula (nuxalk) dilində (ingilis dilinin, demək olar ki, tamamilə sıxışdırdığı) danışırlar (dialektləri: bella-kula, kimskvit, tallio); yazısı latın əlifbası əsasındadır. Dindarları xristiandır, ənənəvi kultlar da qorunub saxlanmışdır.

B.-K. salişlərin əsas massivindən təcrid olunmuş ən şimal qoluddur. Ənənəvi əraziləri Din, Börk, Cənubi və Şimali Bentink fyordları və onlara tökülən Din və Bella-Kula çayları rayonu, həmçinin Kinq a.-dır. Ənənəvi mədəniyyətləri Şimal-Qərbi sahilyanı hindiləri üçün səciyyəvidir. Balıqçılıq və ovçuluqla (əsasən qar keçisi) məşğul olmuşlar. İkixətli qohumluq əlaqələrinə əsaslanan nəsli qeyri-ekzoqam qruplar (mnmnts) mövcud olmuşdur; onları ulu əcdad haqqındakı mif birləşdirirdi. Böyük ailə təsərrüfatlarından ibarət olan kəndlər 4 ərazi qrupuna daxil idi: nuxalkmx, talümx (talio, taliyumk), kimskvit, kvalnamx (kvalxnmk). Qış mərasimləri səciyyəvidir, iki gizli ayin cəmiyyətləri (Sisauk və Kusiyut) mövcud olmuşdur. Ağac üzərində oyma sənəti (maskalar, qablar və s.) inkişaf etmişdir. Mürəkkəb kosmologiyaya malik idilər. Baş allahları Alxkvntam (Alxkuntam) 4 ecazkar dülgəri xəlq etmiş, onlar da xaliqinin iradəsi ilə Yer relyefini və varlıqları, o cümlədən insanları yaratmışlar.

1793 ildən ingilislərlə əlaqələr yaratmışlar; qitədaxili tayfalarla ticarətdə vasitəçilik etmişlər. Epidemiyalar nəticəsində B.-K.-ın sayı kəskin şəkildə azalmışdır. Hazırda kommersiya balıqçılığı və ağac tədarükü ilə məşğuldurlar. 1970-ci illərdən etnik özünüdərkin oyanışı, ənənəvi incəsənətin (ağac üzərində oyma, rəqslər), kultların (böyük ruh Manakaus, demiurq Tautau və b.) dirçəlişi müşahidə olunur; 1985 ildən yerli məktəbdə ana dili tədris edilir. 1980-ci illərin əvvəllərindən özlərini "nuxalk milləti" adlandırırlar.

**BELLÁRİ**, B a l l a r i – Hindistanın c.-unda, Karnataka ştatında şəhər. Əh. 336,7 min (2005). Dekan yaylasının c.-unda, Haqari çayı sahilindədir. Nəql. qovşağı. Aeroport. B. orta əsrlərdə salınmışdır. 16 əsrdə inşa olunmuş qala dövrümüzədək gəlib çatmışdır; qalanın tikintisini 18 əsrdə Maysur dövlətinin sultanı Heydər Əli tamamlamışdır. Karnataka un-tinin filialları olan tibb, hüquq, pedaqoji kolleclər var. Pambıq parça sənayesi mərkəzidir. Metal emal olunur. K.t. r-nunun ticarət (şəkər, pambıq) mərkəzidir. Yaxınlığında dəmir filizi hasil olunur.

**BELLEROFÓNT** (Βελλεροφόντης) – qədim yunan mifologiyasında allahların ona bağışladığı qanadlı atın – Peqasın tərkində Olimpin zirvəsinə uçmağa çalışan qəhrəman. Zevs, hədsiz lovğalığına görə B.-u cəzalandırmaq məqsədilə, Peqasın üstünə mozalan göndərmiş, at qudurlaşaraq B.-u tərkindən yerə atmışdı. Axsaq və kor qalan B. ölənədək Aley vadisində ("səyahət vadisi") sərgərdan gəzmişdir. B. haqqındakı miflər Sofoklun ("İobat") və Evripidin ("Bellerofont", "Sfenebeya") bizə gəlib çatmamış faciələrinin süjeti olmuşdur. B. kultu bütün Yunanıstanda yayılmışdı.

Bellari qalası. 16 əsr.



**BELLETRİSTİKA** (fr. belles lettres – bədii söz sənəti) – geniş mənada bədii ədəbiyyat; dar mənada – bədii nəsr (poeziya və dramaturgiyadan fərqli olaraq). Əyləncə səciyyəli kütləvi ədəbiyyatı da (yüksək sənət əsərlərinin əksinə olaraq) B. adlandırırlar. 20 əsrdə bədii təhkiyə priyomlarının sənədli və elmi nəsrə keçməsini ifadə edən belletrizasiya anlayışı meydana gəlmişdir.

**BELLİNİ** Vinçenso (3.11.1801, Siciliya vil., Kataniya – 23.9.1835, Paris yaxınlığındakı Püto ş.; 1876 ildə Kataniyada yenidən dəfn edilmişdir) – italyan bəstəkarı. Musiqiçilər ailəsindəndir (babası orqançalan və bəstəkar, atası dirijor olmuşdur). 1819–25 illərdə Neapolda "San-Sebastyano" konservatoriyasında təhsil almışdır. İlk operasını ("Adelson və Salvini") 1825 ildə yazmışdır. "Bianka və Fernando" (1826 ildə Neapolun "San-Karlo" teatrında tamaşaya qoyulmuşdur) operası ona şöhrət gətirmişdir. "Pirat" (tamaşası 1827, "La-Skala" teatrı, Milan) operasından sonra daimi librettoçusu F. Romani və o dövrün məşhur tenoru C.B. *Rubini* ilə əməkdaşlığı başlamışdır. "Yadelli qadın" (Milan), "Zaira" (Parma; hər ikisi 1829), "Kapuletti və Montekki" (U. Şekspirin əsəri əsasında; 1830, Venesiya), "Somnambula" və "Norma" (hər ikisi 1831, Milan; onların



Avropada şöhrət qazanmasına müğənni C. *Pasta* səbəb olmuşdur) operalarının tamaşası uğurla keçmişdir. "Beatriçe di Tenda" (1833, Venesiya) operasının premyerasından sonra B. İtaliyanı tərk edərək Londona getmiş, sonralar Parisdə məskunlaşmışdır. Burada C. *Rossinin* himayəsi altında olmuş, F. Şopenlə dostluq etmişdir. Parisdəki italyan truppası üçün yazdığı "Puritanlar" (V. Skottun əsəri əsasında, 1835) operası böyük müvəffəgiyyət qazanmışdır.

B. opera bəstəkarı kimi (10 opera yazmışdır) şöhrət qazanmışdır. Onun yaradıcılığı klassik *belkantonun* son zirvələrindən biridir. Bir neçə mahnısı, qoboy və simli alətlər üçün konserti, 20-yə yaxın kilsə musiqisi (hamısı 1825 ilə qədər yazılmışdır), 7 simfoniyası (1821–24), kapriççio və fp. üçün polonez qalmışdır. Fəxri legion ordeni ilə təltif edilmişdir (1835).

**BELLİNİLƏR** – italyan rəssamları ailəsi, Venesiyada İntibah incəsənətinin baniləri.

Ailənin başçısı Y a k o p o B. (təqr. 1400, Venesiya – 1470/71, Venesiya) – Centile da Fabrianodan dərs almışdır (1408 və 1413 illər arasında). Yaradıcılığına qohumu A. *Mantenya* təsir göstərmişdir. Yakopo B.-nin mehrab obrazlarında Bizans-qotika cizgiləri ullüziyalı məkan priyomları ilə birləşmişdir ("Madonna Körpəsi ilə", 1448, Brera qalereyası, Milan və b.). Qrafika əsərləri

Bellini Yakopo. "Madonna Körpəsi ilə". 1465. Los-Anceles şəhər muzeyi.





Bellini Centile. "Sultan II Mehmed". 1480. Milli qalereya, London.

daha çox əhəmiyyət kəsb etmişdir (Parisdəki Luvr və Londondakı Britaniya muzeylərində saxlanılan rəsm albomları; 1440–50-ci illər).

C e n t i l e (təqr. 1430, Venesiya – 23.2.1507 ildə Venesiyada dəfn edilmişdir) – Yakopo B.-nin oğlu. Atasından dərs almışdır; çox vaxt bir yerdə işləmişlər. 1474–83 illərdə Venesiya resp.-nın rəsmi rəssamı vəzifəsini tutmuşdur. 1479–80 illərdə Sultan II Mehmedin dəvəti ilə İstanbulda olmuşdur. II Mehmedin (Milli qalereya, London), patriarx L. Custinianinin (1465, Akademiya qalereyası, Venesiya) və b.-nın portretlərini çəkmişdir. Dini-tarixi hadisələri təsvir edən çoxfiqurlu kompozisiyaları daha çox şöhrət qazanmışdı ("San-Marko meydanında mərasim", "San-Lorenso körpüsündə möcüzə", "Müqəddəs xaçla şəfalanma", 1496–1501, hamısı Akademiya qalereyası, Venesiya). "Müqəddəs Markın İsgəndəriyyədəki moizəsi" (C. Bellini tərəfindən tamamlanmışdır, 1504–07, Brera qalereyası) son işlərindəndir.

C o v a n n i (Cambellino) (1430–35 illər arası, Venesiya – 29.11.1516, Venesiya) – Yakopo B.-nin digər oğlu. 15 əsrin sonu – 16 əsrin əvvəllərində *Venesiya məktəbinin* ən görkəmli sənətkarı olmuşdur. Atasından dərs almışdır. Yaradıcılığına A. Mantenya güclü təsir göstərmişdir. 1483 ildən Venesiya resp.-nın rəsmi rəssamı idi. Venesiyadakı Dojlar sarayı üçün tarixi-əfsanəvi monumental pannolar seriyasını işləmiş (B. Centile ilə birgə; 1577 ildə yanğın zamanı əsərlər məhv olmuşdur), həmçinin Mantuya və Ferrara saraylarının sifarişlərini yerinə yetirmişdir. Covanni B.-nın ilk əsərləri rakurs və rəng quruluşu etibarilə bir qədər sərtdir ("Çarmıxa çəkmə", təqr. 1455, Korrer muzeyi, Venesiya və b.), lakin artıq bu dövrdə bəzən onun diqqəti peyzaj poetikasına yönəlirdi. 1470-ci illərdə Pyero della Françeska və Antonello da Messinanın rəsmlərinin təsirilə rəssamın manerası, onun kolorist istedadı kamillik zirvəsinə çatmışdır. O, yağlı boya ilə çəkməyə başlamış, həmçinin ənənəvi tempera ilə işləmiş, yaxud da onu yağlı boya ilə birləşdirmişdir ("Mariyanın tacqoyma mərasimi", Pezaro mehrabı, təqr. 1475, Şəhər muzeyi, Pezaro; "Müqəddəs söhbət", San-Cobbe kilsəsi üçün, 1478–85, Akademiya qalereyası, Venesiya və s. 1470-ci illərdən Covanni B. daim Madonnanın körpəsi ilə həcmcə böyük olmayan, beldən yuxarı təsvirinə sifarişləri yerinə yetirmişdir ("Madonna ağaclar arasında", 1487, Akademiya qalereyası, Venesiya; "Madonna çəmənlikdə", təqr. 1505, Milli qalereya, London və s.). 1470-ci illərin ortalarında Covanni B. portret janrına da müraciət etmişdir: L. Loredanın portreti (təqr. 1502, Milli qalereya, London), Şah İsmayıl Xətainin profildən çəkilmiş məşhur portreti və s. "Müqəddəs alleqoriya" (və ya "Göl Madonnası", təqr. 1502, Uffitsi qalereyası, Florensiya) əsəri

Bellini Covanni. "Təcəlla". 1455. Korrer muzeyi. Venesiya.







yaradıcılığında xüsusi yer tutur. "Allahların kef məclisi" mifoloji kompozisiyası yaşlı rəssamın son əsəri olmuşdur (Tisian tərəfindən tamamlanmışdır, 1514, Milli qalereya, Vaşinqton). Covanni B.-nin yaradıcılığı Venesiyada Yüksək İntibah incəsənətinin əsasını qoymuşdur; *Corcone* və *Tisian* onun tələbələri olmuşlar.

**BELLİNSHÁUZEN** Faddey Faddeyeviç [20.9.1778, Estoniya, Ezel a. (indiki Saaremaa a.) – 25.1.1852, Kronştadt] – rus dəniz səyyahı və tədqiqatçısı, admiral (1843). 1797 ildə Kronştadtda Dənizçilik kadet korpusunu miçman rütbəsində bitirmişdir. 1803–06 illərdə "Ümid" gəmisində birinci rus dünya səyahətinin iştirakçısı olmuş, səyahətdən kapitan-leytenant rütbəsində qayıtmışdır. 1819–21 illərdə B.-in rəhbərlik etdiyi rus Antarktika ekspedisiyası "Vostok" (komandiri B.) və "Mirnı" (komandiri M.P. *Lazarev*) gəmilərində Cənub qütbünə göndərilmişdir. Ekspedisiya 1819 ildə Atlantika okeanının Antarktika hissəsində bir neçə adanı və 28 yanvar 1820 ildə *Antarktidanı* (69°21′ c.e. və 2°14′ q.u.) kəşf etmişdir. B. ilk dəfə Antarktidanın ətrafına dövrə vurmuş, Sakit okeanın tropik hissəsində bir sıra ada kəşf etmiş və 5 avqust 1821 ildə 751 günlük səyahətdən sonra Kronştadta dönmüşdür. B. Antarktika iqliminin xüsusiyyətini tədqiq etmiş, qütb buzlaqlarının təsnifatını vermişdir. Adaların bir çox xəritə və şəkilləri "Kapitan Bellinshauzenin səyahətinə aid atlas" da dərc edilmişdir. Sakit okeanda dənizə, Cənubi Saxalində buruna, Tuamotu arxipelaqında adaya, Şərqi Antarktidada şelf buzlağına B.-in adı verilmişdir.



Ə s ə r i: Двукратные изыскания в Южном Ледовитом океане и плавание вокруг света в продолжение 1819, 20 и 21 гг., совершенные на шлюпах "Восток" и "Мирный". 3-е изд. М., 1960.

**BELLİNSHÁUZEN ÇUXURU** – Sakit okeanın c.-ş.-ində sualtı çuxur. Antarktidanın və Cənubi Amerikanın materik yamacları və Cənubi Sakit okean, Şərqi Sakit okean və Çili sualtı qalxımları arasındadır. C.-q.-dən şm.-ş.-ə uz. təqr. 8 min *km*-dir. 4000–5000 *m* dərinliklər (maks. 5399 *m*) üstünlük təşkil edir. Dib çökmələri qırmızı dərinlik gillərindən və diatom lillərindən təşkil olunmuşdur. Okean yatağını Son Təbaşir yaşlı süxurlar təşkil edir. F.F. *Bellinshauzenin* şərəfinə adlandırılmışdır.

**BELLİNSHÁUZEN DƏNİZİ** – Qərbi Antarktida sahillərində Sakit okeanın kənar dənizi. Antarktida və Terston y-a-ları arasındadır. Sah. 487 min $km^2$, həcmi 614 min $km^3$. Dərinliyi 410 *m*-dən 4115 *m*-ə (açıq dənizdə) qədərdir. Mühüm adaları: *Birinci Pyotr* a. və *Birinci Aleksandr Torpağı*. Sahilləri şelf buzlaqları ilə əhatələnmiş dağlıqdır. Dib çöküntüləri şelf zonasında buzların qurudan gətirdiyi materiallardan, dərinlikdə isə diatom lillərindən ibarətdir. Axınlar saat əqrəbi istiqamətində dövr edir. Suyun temp-ru şm.-da təqr. 0°C, c.-da –1°C-dən aşağıdır. İlboyu dəniz səthinin əksər hissəsində üzən buzlara və aysberqlərə rast gəlinir. Duzluluğu yayda təqr. 33,5‰-dir. 1820 ildə F.F. *Bellinshauzen* və M.P. *Lazarevin* ekspedisiyası kəşf etmişdir.

**BELLİNSHÁUZEN ŞELF BUZLAĞI** – Şərqi Antarktidada, Şahzadə Marta Sahilinin ş. hissəsindədir. Sah. təqr. 1700 $km^2$, eni təqr. 75 *km*-dir. Dil şəklində Cənub okeanına doğru 100 *km*-ə kimi uzanır. Buzlağın ucu dənizə doğru uzandıqca dövri olaraq qırılır. C.-da Fimbulisen şelf buzlağına qovuşur. F.F. *Bellinshauzenin* şərəfinə adlandırılmışdır.

**BELL–MAJANDİ QANUNU** (şotland anatomu və fizioloqu Ç. Bell və F. *Majandinin* adından) – onurğa beyni sinirlərinin köklərində hərəki və hissi liflərin yayılma qanunauyğunluqları. B.–M.q.-na əsasən afferent (hərəki) sinir lifləri ön köklərin tərkibində onurğa beynindən çıxır, efferent (hissi) sinir lifləri isə arxa köklərin tərkibində onurğa beyninə daxil olur. B.–M.q. mütləq deyildir: neştərçələrdə və dəyirmiağızlılarda arxa köklər qarışıqdır, ön köklərdən isə həmçinin saya əzələləri, damarları və vəziləri innervasiya edən afferent sinir lifləri çıxır. Bax *Onurğa beyni*.

**BÉLLMAN** Riçard Ernest (26.8.1920, Nyu-York – 19.3.1984, Los-Anceles) – Amerika riyaziyyatçısı. Bruklin Un-tini bitirmişdir (1941), 1948 ildən Stanford Un-tinin prof. olmuşdur. Əsas elmi işləri hesablama riyaziyyatına və optimal idarəetmə nəzəriyyəsinə aiddir. Riyaziyyatın müxtəlif sahələrində, eləcə də onun tətbiq edildiyi sahələrdə geniş istifadə olunan dinamik proqramlaşdırma üsulunu işləyib hazırlamışdır.

**BÉLLMAN TƏNLİYİ** – 1) optimal idarəetmə məsələsinin həlli üçün xüsusi növ xüsusi törəməli diferensial tənlik.

2) Optimal idarəetmə məsələsinin həlli üçün rekurrent münasibət. B.t.-nin köməyi ilə optimal həllin alınması metodu dinamik proqramlaşdırma adlanır. Dinamik proqramlaşdırmanın əsas prinsiplərini formulə edən R. Bellmanın şərəfinə adlandırılmışdır.

**BELLO** Məhəmməd (1781–25.10.1837) – *Sokoto* xəlifəsi [1817–37]. Atası Osman ibn Fudinin ölümündən sonra ölkə daxilində baş verən üsyanları yatırmış, xarici hücumlara qarşı bir sıra tədbirlər görmüşdür, cənubda məskunlaşmış bütpərəstlər arasında islamın yayılmasında böyük xidmətləri olmuşdur. Qərbi Sudandakı bir sıra əmirlikləri (Katsina, Kano, Zaria, Hadejia, Qombo, Kataqum, Nupe və s.) tabe etmişdir. Mərkəzləşdirilmiş dövlət yaratmış B.-nun dövründə Sokoto çiçəklənmə dövrünü yaşamışdır; ölkənin sərhədboyu ərazilərində istehkamlar möhkəmləndirilmiş, yeni qalalar və istehkamlar inşa edilmişdir. Bir çox məscid və mədrəsələr tikdirmiş, elm və təhsilə əhəmiyyət vermişdir. 160-dan çox əsərin müəllifi olan B.-nun təsəvvüf, dövlət idarəçiliyi, siyasət, əxlaq, tarix, coğrafiya və tibbə dair kitabları müxtəlif dillərə tərcümə edilmiş və nəşr olunmuşdur.

**BELLÓNA** (lat. bellum – müharibə sözündən) – Roma mifologiyasında müharibə ilahəsi. Müharibə allahı *Marsın* anası (bəzən bacısı, yaxud süd anası) hesab olunurdu. E.ə. 458 ildə Romanın İtaliya tayfaları ekvlər və sabinlər üzərində qələbəsindən sonra B.-nın şərəfinə mə-

Bellona. Heykəltəraş O. Roden.



bəd ucaldılmışdı. Məbədin yanında müharibənin elan olunması mərasimi keçirilirdi: kahin-fesiallar kollegiyasının başçısı düşmən torpağını simvolizə edən sahəyə nizə atırdı. E.ə. 1 əsrdən B. Kiçik Asiya ilahəsi Ma ilə eyniləşdirildi və onun kultu orgiyastik xarakter daşımağa başladı. Əvvəllər Roma vətəndaşlarına B. kultunda iştirak etmək qadağan idi. Kultun xidmətçiləri yadellilərdən təşkil edilirdi. B.-nın kahinləri (bellonarilər) qara paltar və qalpaq geyinirdilər, ikitiyəli təbərzin onların rəmzi idi. B.-nın kultu Qədim Şərq kultları ilə yanaşı eramızın 3 əsrində xüsusilə geniş yayılmışdı.

**BÈLLOU** (Bellow) Sol (10.6.1915, Kanada, Kvebek əyaləti, Laşin – 6.4.2005, Massaçusets ştatı, Bruklin) – Amerika yazıçısı. Nobel mükafatı laureatı (1976). Amerika Elm və İncəsənət Akademiyasının üzvü (1969). Rusiyadan mühacirət etmiş yəhudi ailəsində doğulmuşdur. Evanstonda Şimal-Qərb Untini bitirmişdir (1937). ABŞ ticarət donanmasında xidmət etmişdir (1944–45). ABŞ-ın müxtəlif un-tlərində dərs demişdir. İlk romanlarında ("Qurban", 1947 və s.) gənc nəslin müharibə dövründə və müharibədən sonrakı təcrübəsini ümumiləşdirməyə cəhd göstərmişdir. "Ogi Marçın macəraları" (1953), "Henderson – yağış kralı" (1959) kələkbaz romanlarının müəllifidir. Yəhudi ziyalısının əsas qəhrəman olduğu "Hersoq" (1964), "Mister Samlerin planeti" (1970), "Humboldtun istedadı" (1975), "Dekanın dekabrı" (1982) və s. romanları ilə şöhrət qazanmışdır. Pyes, hekayə topluları ("Mosbinin memuarları", 1968; "Yerusəlimə və geriyə", 1976) və publisistik əsərləri var.



Əsərləri: More die of heartbreak. N.Y., 1987; Something to remember me by. N.Y., 1991; Между небом и землёй. Лови момент. М., 2000.

**BELMONDÓ** Jan Pol (d. 9.4.1933, Paris yaxınlığında, Nöyi-sür-Sen) – fransız aktyoru. 1956 ildə Paris konservatoriyasını bitirmişdir (R. Jiranın dram sinfini). Həmin ildən kinoya çəkilmişdir. J.L. Qodarın "Son nəfəsdə" (1960) filmi aktyora dünya şöhrəti gətirmiş, onu *"yeni dalğa"*nın simvolu etmişdir. Sərbəst oyun manerası, unikal özünəməxsusluq, komiklik istedadı ilə yanaşı daxili dramatizm və lirikanın paradoksal birləşməsi B.-ya "Çoçara", "Moderato kantabile", "Leon Moren keşişdir", "Çuğulçu", "Böyük Ferşo", "Oğru", "Borsalino", "Staviski", "Möhtəşəm", "Peşəkar", "Bəxtəvər" və s. filmlərində yeni kinoqəhrəman tipi yaratmağa imkan vermişdir. Prodüser və teatr aktyoru kimi də çıxış edir. 1992 ildən Paris "Varyete" teatrının sahibidir. Fəxri legion ordeni ilə təltif edilmişdir (1991).



Əd.: Брагинский А.В. Жан Поль Бельмондо в кино и в жизни. М., 1997.

**BELMOPÁN** – Belizin paytaxtı. Əh. 13,4 min (2005); əsasən, dövlət qulluqçularından ibarətdir. Beliz ş.-ndən 80 *km* c.-q.-də, Beliz çayı dərəsindədir. Aeroport. 1970 ildə Belizin yeni paytaxtı kimi salınmışdır (paytaxt statusunu 1972 ildə almışdır). Paytaxtın materikin içərilərinə köçürülməsi sahildə tez-tez baş verən qasırğalar zamanı subasmalarla əlaqədardır). Mayya memarlığı elementləri ilə bəzədilmiş hökumət binaları kompleksi inşa olunmuşdur.

**BELOKÚRİXA** – RF-də, Altay diyarının c.-ş.-ində şəhər. Əh. 14,7 min (2005). Belokurixa çayı dərəsində, Biysk d.y. st.-ndan 74 *km* aralıdır. 1846 ildə salınmışdır. Qızmar bulaqlar 18 əsrdən məlumdur. 1920 ildən kurort qəs., 1982 ildən şəhərdir. Balneoloji kurort. İqlimi kontinentaldır. Soyuq qışı (yanvarın orta temp-ru –17°C), ılıq yayı (iyulun orta temp-ru 20°C) var. Yağıntının illik miqdarı təqr. 800 *mm*. Əsas təbii müalicə amili azotlu-silisiumlu-radonlu termal (temp-ru 42°C-yədək) bulaq sularıdır. Qan dövranı, oynaq, sinir sistemi, ginekoloji xəstəliklər, maddələr mübadiləsinin pozuntuları müalicə olunur. Sanatoriyalar, kurort poliklinikası, rodonla müalicə müəssisəsi, müalicə hovuzları fəaliyyət göstərir. Kurort kimi 19 əsrin 2-ci yarısından inkişaf edir.

**BELOQLAZOVLAR** – Rusiya idmançıları və məşqçiləri (sərbəst güləş); qardaşdırlar.

Anatoliy Alekseyeviç (d.16.9.1956, Kaliningrad) – SSRİ əməkdar idman ustası (1978), Olimpiya (1980, 52 *kq*), dünya (1977, 1978, 1982), Avropa (1976), SSRİ (1977–82) çempionu olmuşdur. İdman karyerasını bitirdikdən sonra ABŞ və Avstraliyada məşqçi kimi çalışmışdır. 2000-ci illərin əvvəllərindən Rusiyanın gənclərdən ibarət yığma komandasının məşqçisidir.

Sergey Alekseyeviç (d.16.9.1956, Kaliningrad) – SSRİ əməkdar idman ustası (1980), ikiqat Olimpiya (1980 və 1988, 57 *kq*), altıqat dünya (1979–87), Avropa (1979–88), SSRİ (1979–82) çempionu olmuşdur. İdman karyerasını bitirdikdən sonra Kanada və Yaponiyada məşqçi kimi fəaliyyət göstərmişdir. 2000-ci illərin əvvəllərindən Rusiya yığma komandasının böyük məşqçisidir. 1990-cı illərin sonundan Kaliningradda Beloqlazov qardaşlarının mükafatı uğrunda beynəlxalq turnirlər keçirilir.

Belmopan. Beliz parlamentinin binası.









Beloqrudovo mədəniyyəti. Saxsı qablar.

**BELOQÓRSK** – RF-də, Amur vil.-nin c.-unda şəhər. Beloqorsk r-nunun mərkəzi. Əh. 67,4 min (2005). Zeya-Bureya düzənliyində, Tom çayının sol sahilindədir. Transsibir d.y. magistralının iri nəql. qovşağı. 1860 ildə salınmış Aleksandrovskoye k.-ndən Transsibir magistralı keçdikdən (1913) sonra Aleksandrovka ş. adlanmış (1926 ildən), 1931–36 illərdə Krasnopartizansk, 1936–57 illərdə Kuybışevka-Vostoçnaya olmuşdur. Vilayət diyarşünaslıq muzeyinin filialı fəaliyyət göstərir. B. Blaqoveşşenskdən sonra vilayətin ikinci yeyinti sənayesi mərkəzidir. K.t. maşınqayırması, şin təmiri, konserv z-dları, makaron və qənnadı f-kləri, ət kombinatı və s. var.

**BELOQORYE QORUĞU** – RF-də, Belqorod vil.-nin c.-q. hissəsində dövlət təbiət qoruğu. Ümumi sahəsi 21 $km^2$ olan 5 ayrı-ayrı sahədən ibarətdir. 1925 ildə yaradılmışdır. Böyük Vətən müharibəsi (1941–45) illərində qoruq fəaliyyət göstərməmişdir; 1951 ildə Leninqrad Untinin tədris-təcrübə sahəsinə çevrilmişdir; qoruq rejimi 1979 ildə bərpa olunmuşdur. Qoruq sahəsinin böyük hissəsini Orta Rusiya meşə-çölləri üçün tipik olan ağcaqayın, cökə, göyrüş və s. qarışıq 80–100 illik palıd meşələri tutur. 250–300 illik köhnə meşə sahələri də qorunmaqdadır. Florasını 500 növdən çox çiçəklilər, çılpaqtoxumlular, qıjıkimilər, 900-ədək göbələk növü, 25 növ mamır, 61 növ şibyə təşkil edir. Qoruqda təqr. 50 növ məməli (Avropa cüyürü, sığın, çöl donuzu, daş dələsi, sincab, sarıboğaz sicən, çöl siçanı və s.), 149 növ quş (dolaşa, ağacdələn, göyçəqarğa, sərçəkimilər və s.; köhnə meşələrdə: boz vağ, zağca, çalağan), 6 növ sürünən, 9 növ suda-quruda yaşayan, su hövzələrində 15 növədək balıq məskunlaşmışdır; bir sıra böcək növləri də qorunur.

**BELOQRÚDOVO MƏDƏNİYYƏTİ** – Sağsahil Ukraynasının meşə-çöl zonasında Tunc dövrünə (e.ə. 11–8 əsrlər) aid arxeoloji mədəniyyət. İlk qazıntılar Çerkassı vil.-nin Uman r-nunun Pikovtsı k. yaxınlığındakı Beloqrudovo meşəsində aparıldığı üçün belə adlandırılmışdır. B.m. üçün küldən və maddi-mədəniyyət qalıqlarından ibarət "küllüklər" – kurqanvarı təpələr (bir sıra arxeoloqlar onları sitayiş yerinin, digərləri isə yaşayış məskəninin qalıqları hesab edirlər) səciyyəvidir. B.m.-nə aid yaşayış məskənlərində yarımqazma evlər, əmək alətləri (əsasən, daşdan, çaxmaqdaşıdan, sümükdən), tuncdan bəzək əşyaları, keramika (zanbaqşəkilli qablar, kasalar, çömçələr, qədəhlər) aşkar edilmişdir.

**BELOMÓRYE MƏDƏNİYYƏTİ** – e.ə. 3–2-ci minilliklərə aid Neolit dövrü mədəniyyəti. Ağ dənizin Dvina körfəzi sahillərində və Oneqa körfəzinin ş. hissəsində yayılmışdır. B.m. üçün uzunsov üçbucaq şəkilli çaxmaqdaşıdan hazırlanmış ox ucluqları (əksər hallarda yanları dişli), heyvan fiqurları və üzəri həndəsi naxışlı iri dairəvi oturacaqlı gil qablar səciyyəvidir. B.m.-nin qədim keramikasının Oka Neolit düşərgələrinin keramikası ilə oxşarlığı bu mədəniyyətlərin mənşəcə bağlılığını söyləməyə imkan verir.



Belomorye mədəniyyəti. Daş əmək alətləri.

**BELOMÓRYE MİKALI ƏYALƏTİ** – RF-də, Murmansk vil.-nin c.-unda və Kareliya Resp.-nın şm.-ındadır. Şm.-q.-dən c.-ş.-ə təqr. 400 *km* məsafədə uzanır. Eni 15–40 *km*-dir. Geoloji resursların həcminə görə dünyada beş ən iri təbəqə muskovit əyalətlərindən biri, floqopit ehtiyatlarına görə isə birinci yerdədir. Təbəqə muskovitin kəşf olunmuş ehtiyatı təqr. 175 min *t*, xırdaölçülü muskovitin təqr. 270 min *t*, təbəqə floqopitin – təqr. 7,5 mln. *t*, vermikulitin ehtiyatı 43 mln.

Beloqorye qoruğu.



*t*-dur. Muskovit yataqları 11 əsrdən açıq üsulla, 20 əsrin sonuncu onilliklərindən isə yeraltı üsulla istismar olunur. 1960 ildə əyalətdə yeganə, dünyada isə ən iri Kovdor floqopit və vermikulit yatağı kəşf olunmuşdur; hasilat 1965 ildən qarışıq üsul ilə aparılır. Əyalətdə 55 mika yatağı aşkar edilmiş, ən iri muskovit yataqlarının əksəriyyətinin istismarı başa çatdırılmış, bir orta həcmli və bir neçə xırda yataq yalnız kəşf olunmuş və ya qiymətləndirilmişdir (2004). B.m.ə. Baltika qalxanının eyniadlı tektonik bloku ilə əlaqədardır. Yüksəkkeyfiyyətli mikalar sənayenin radioelektronika, elektrotexnika və s. sahələrində istifadə olunur. Əsas hasilat mərkəzləri Kovdor ş. (Murmansk vil.) və Çupa qəs.-dir (Kareliya Resp.).

**BELOPÓLSKİ** Aristarx Apollonoviç (13.7.1854, Moskva – 16.5.1934, Pulkovo) – rus astronomu, Peterburq EA-nın akad. (1903). 1877 ildə Moskva Un-tini bitirmişdir. 1888 ildən Pulkovo rəsədxanasında işləmiş, 1916–19 illərdə onun direktoru olmuşdur. B. kometin (1884), Ayın və Günəş tacının tutulmaları (1887) zamanı onların fotoşəkillərini almışdır. Meridian dairəsində böyük məxsusi hərəkətli ulduzların, planet və kometlərin vəziyyətlərini müşahidə etmişdir. Günəşin fotoşəklinin çəkilməsinə xüsusi diqqət yetirmişdir. Pulkovada yaşadığı ilk illərdə Yupiterin fırlanmasını tədqiq etmiş və planetin öz ekvatoru yaxınlığında və daha yüksək en dairələrində fırlanma dövrlərinin müxtəlifliyini aşkar etmişdir. 1881–88 illərdə Günəşin Pulkovoda alınmış çoxsaylı fotoşəkilləri əsasında məşəllərin hərəkətinə görə onun fırlanmasını geniş tədqiq etmişdir. 1890 ildən göy cisimlərinin şüa sürətlərinin tədqiqi və təyininə dair işlərə başlamışdır. Spektroqrafların köməyi ilə göy cisimlərinin spektrlərinin fotoşəkillərini ilk alanlardan biri olmuşdur (Pulkovodakı spektroqraflardan biri onun göstərişləri əsasında qurulmuşdu). Günəşin hərəkətini təyin etmək üçün 2–4-cü ulduz ölçülü 200-ədək parlaq ulduzun şüa sürətini ölçmüşdür; *dəyişən ulduzların* spektrlərini tədqiq etmişdir. 1894 ildə *sefeidlərin* şüa sürətlərinin dövrü dəyişməsini kəşf etmişdir. 1895 ildə şüa sürətlərinin ölçülməsini tətbiq etməklə Saturn halqalarının quruluşunu öyrənmiş, onların planetin ətrafında fırlanan külli miqdarda ayrı-ayrı kiçik cisimlərdən ibarət olduğunu göstərmişdir. Dopler prinsipini laboratoriya şəraitində təcrübi sübut etmək üçün 1900 ildə cihaz düzəltmişdir. Hər hansı nəzəri müddəadan asılı olmadan görülən bu iş böyük əhəmiyyət kəsb etmişdir. Günəşin tədqiqi üzrə Beynəlxalq ittifaqın planına əsasən Günəş kənarının spektrinin fotoşəklini almış və müəyyən etmişdir ki, Günəşin fırlanma sürəti 1925–33 illərdə bir qədər azalmışdır; bunu başqa astronomların müşahidələri də təsdiq etmişdi. Astrofizika sahəsində fundamental tədqiqatlara görə REA-nın B. adına mükafatı təsis olunmuşdur.



**BELORÉÇENSK** – RF-də, Krasnodar diyarının c.-ş.-ində şəhər. Beloreçensk r-nunun mərkəzi. Əh. 53,9 min (2005). Belaya çayının sağ sahilində, onun B. Qafqaz d.-rından Kuban-Azovyanı ovalığına çıxdığı yerdədir. D.y. qovşağı. 1862 ildə salınmışdır. 1958 ildən şəhərdir. Kimya (mineral gübrələr), ağac emalı, yeyinti sənayesi müəssisələri; SES; yaxınlığında *Beloreçensk kurqanları* var.

**BELORÉÇENSK KURQANLARI** – Krasnodar diyarının Beloreçensk r-nunda 14–15 əsrlərə aid məzarlıq. 1896–97, 1906–07 illərdə N.İ. *Veselovski* tərəfindən qazıntılar aparılmışdır. Ölülər kurqanların altında tək-tək, çox vaxt taxta tabutlarda dəfn olunmuşdur, həmçinin çiy kərpicdən sərdabələr və mis tabut aşkar edilmişdir. Qəbir avadanlığı: içərisində ərzaq qalıqları olan keramik qablar, amuletlər, Qızıl Orda dirhəmləri; kişi qəbirlərində – qılınclar, ox və yay, xəncərlər, məişət əşyaları və s., qadın qəbirlərində – bəzək əşyaları, əl işi nümunələri (çox vaxt ağacdan düzəldilmiş mücrülərdə) və asma bəzək dəstləri. İpəkdən və zərxaradan qaftanların, qayışlı dəri corabların qalıqları, konusşəkilli metal ucluğu olan qadın papaqları və s. tapılmışdır. Varlı qəbirlərində naxışlı, yaxud rəngli şüşədən stəkanlar, qrafinlər, Venesiya, Cənubi Qafqaz, Yaxın Şərqdən gətirilmiş vazalar, Krım, Azov və Volqaboyundan gətirilmiş metal bardaqlar, piyalələr, qədəhlər, şirli səhənglər və kasalar aşkar edilmişdir. B.k. üçün Qızıl Orda, yaxud Kiçik Asiya mənşəli gümüş, bəzən qızıl suyuna salınmış kəmər dəstləri, eləcə də ölünün dabanı, dirsəyi və başı altına gümüş nəlbəki, yaxud piyalənin qoyulması adəti səciyyəvidir. B.k. mədəniyyəti *adıqlarla* və Qızıl Orda əyanları ilə əlaqələndirilir.



28-ci Beloreçensk kurqanından aşkar olunmuş kəmər dəstinin hissələri. Qızıl suyuna salınmış gümüş. Tarix muzeyi. Moskva.

**BELORÉTSK** – RF-də, Başq. Resp.-nın şm.-ında şəhər. Beloretsk r-nunun mərkəzi. Əh. 70,3 min (2005). Belaya çayı (Kamanın qolu) sahilində, Uraltau və Yamantau silsilələri ilə əhatə olunur. D. y. st. 1762 ildə salınmışdır; 1923 ildən şəhərdir. Beloretsk metallurgiya z-du (18 əsr) kompleksi qalmışdır. Maqnitoqorsk Dövlət Texniki Un-tinin fakültəsi, M.V. Nesterov ad. Başq. Dövlət Rəssamlıq Muzeyinin filialı, tarix-diyarşünaslıq muzeyi var. B. RF-nin qara metallurgiya mərkəzlərindən biridir (metallurgiya kombinatı). Yeyinti sənayesi müəssisələri var. Elektrik alətləri, tikinti materialları və s. istehsal olunur. Cənubi Uralın dağ-xizək idmanı mərkəzidir.

**BELOSTÓK** (Bialystok) – Polşanın şm.-ş-ində şəhər. Podlyase voyevodalığının mərkəzi. Əh. 291,9 min (2005). Byala çayı sahilində, onun Suprasl (Visla hövzəsi) çayına töküldüyü yerdədir. Avtomobil və d.y.-ları qovşağı.

1426 ildən Belşanı-Stok (polyakca Bielszczany Stok), 1514 ildən B. adı ilə məlumdur. 1685 ildən Branits, 1771–1802 illərdə isə Potosk knyazlarının iqamətgahı idi. 1749 ildən şəhərdir. 1795 ildən Prussiyanın, 1807 ildən Rusiya imperiyasının tərkibində olmuşdur. 19 əsrin ortalarından toxuculuq, əsasən, yun parça sənayesinin (1830-cu illərdən mahud sənayesinin) mərkəzi kimi inkişaf etməyə başlamışdır. Polşa ilə çar Rusiyası arasında gömrük sərhədinin yaranması (1834), həmçinin Varşava, Lodz və S.-Peterburq şəhərləri ilə d.y. əlaqəsinin (1862) qurulması B.-un sürətli inkişafında rol oynamışdır.

“Podlyase Versalı” kimi məşhur olan son barokko üslubunda Branitskilərin sarayı (1697, 1728–58 illərdə yenidən qurulmuşdur), park, kanallar; 19 əsrin əvvəllərinə aid I Aleksandrın yay iqamətgahı (yanğından sonra 1944 ildə bərpa edilmişdir) və s. var. B. tarixi Podlase vil.-nin elmi və mədəni mərkəzidir. 15 ali məktəb, o cümlədən Texniki un-t (1949), Tibb akademiyası (1950), Un-t (1997), Varşava Teatr və Musiqi Akademiyasının filialı, İqtisadiyyat Ali Məktəbi (1996), Dövlət İdarəçilik, Ali Dini Seminariyası və s. var. B.-da Dövlət muzeyi, Tarix muzeyi, Ordu muzeyi, “Arsenal” rəsm qalereyası fəaliyyət göstərir. “Qabima” teatrının tarixi 1909 ildə B.-da başlanmışdır. A. Vengerka ad. Dram teatrı, kukla teatrı, filarmoniya var. Şəhərdə kukla teatrlarının Beynəlxalq müsabiqəsi və 1969 ildən başlayaraq hər il ümumpolşa mahnı və poeziya festivalı keçirilir.



Belostok şəhərindən görünüş.

Toxuculuq (pambıq, yun və s. parçalar) sənayesi, xalça, tikiş və dəri məmulatları f-ki, radioelektron, metal emalı (d.y. polad konstruksiyaları və alətləri), ağac emalı, yeyinti sənayesi müəssisələri var. Tikinti materialları istehsal olunur.

**BELOSTÓK VOYEVÓDALIĞI** – bax *Podlyase voyevodalığı*.

**BELOÚSOV** Vladimir Vladimiroviç (30.10.1907, Moskva – 25.12.1990, Moskva) – rus geoloqu, SSRİ EA m. üzvü (1953). SSRİ EA Yer fizikası İn-tu geodinamika şöbəsinin müdiri (1944 ildən), Moskva Geoloji Kəşfiyyat İn-tunun (1943 ildən) və Moskva Dövlət Un-tinin (1953 ildən) prof.-u olmuşdur. Əsas tədqiqatları tektonika, tektonofizika və geofizikanın ümumi məsələlərinə aiddir. Yer qabığı inkişafının radiomiqrasiya fərziyyəsini işləyib hazırlamış, Yer təkamülünün ən yeni mərhələsində kontinent qabığının aşınmasından okeanların yaranması ideyasını irəli sürmüşdür. Yer qabığının ehtizazi hərəkətləri tarixinin öyrənilməsinin yeni metodlarını işləmişdir. Böyük Qafqaza həsr etdiyi monoqrafiyasında ilk dəfə Azərb. ərazisinin geoloji inkişaf tarixini vermişdir.

Ə s ə r l ə r i: Большой Кавказ. Л.; М., 1938–1940. Ч. 1–3; Земная кора и верхняя мантия материков. М., 1966; Геотектоника. М., 1976.

**BELOUSOV – JABOTİNSKİ** reaksiyası – bax *Rəqsi reaksiyalar*.

**BELOV** Aleksandr Fyodoroviç (28.3.1906, Somolensk qub.-nın Popovka k. – 24.12.1991, Moskva) – metallurgiya sahəsində rus alimi. SSRİ EA-nın akad. (1972), Lenin mükafatı (1964) laureatı, Sosialist Əməyi Qəhrəmanı (1966). SSRİ Dövlət mükafatı (1943, 1946, 1949) laureatı. Moskva Mədən Akademiyasını bitirmişdir (1929). 1942–52 illərdə Stupino metallurgiya z-dunun direktoru, 1952 ildən SSRİ Aviasiya Sənayesi Nazirliyinin metallurgiya idarəsinin rəisi vəzifələrində işləmişdir. 1961–86 illərdə Ümumittifaq Yüngül Ərintilər İn-tunun rəhbəri, 1970–86 illərdə Moskva Aviasiya İn-tunun prof.-u olmuşdur. B.-un fəaliyyəti alüminium, maqnezium, titan, nikel və s. ərintilərindən yayıqların istehsalının işlənib hazırlanması və inkişaf etdirilməsi ilə bağlıdır; əsas işləri tökmə prosesinin nəzəri əsaslandırılması və ərintilərin təzyiqlə emalı sahəsindədir.



Ə s ə r l ə r i: Объемная штамповка на гидравлических прессах. 2-е изд. М., 1986; Новое технологии производства титановых сплавов // Металловедение и обработка титановых и жаропрочных сплавов. М., 1991.

**BELÓV** Nikolay Vasilyeviç (14.12.1891, Polşanın Yanov ş. – 6.3.1982, Moskva) – rus kristaloqrafı və geokimyaçısı, struktur mineralogiyanın banilərindən biri. SSRİ EA akad. (1953), Sosialist Əməyi Qəhrəmanı (1969), SSRİ Dövlət mükafatı laureatı (1952), Lenin mükafatı laureatı (1974). Petroqrad Politexnik İn-tunu bitirmişdir (1921). 1938 ildən SSRİ EA Kristaloqrafiya İn-tunun kristalların strukturu şöbəsinə rəhbərlik etmişdir. Qorki (1946 ildən) və Moskva (1953 ildən) un-tlərinin prof.-u olmuşdur. Əsas işləri struktur mineralogiya, kristalkimya və geokimya sahəsindədir. Atomların kristalda sıx yerləşməsi təlimini işləyib hazırlamışdır. 1957 ildən Sovet Kristaloqrafları Milli Komitəsinin sədri, Beynəlxalq Kristaloqraflar İttifaqının prezidenti (1966–69) olmuşdur. SSRİ EA-nın M.V. Lomonosov ad. qızıl medalını almışdır.



Ə s ə r l ə r i: Структура ионных кристаллов и металлических фаз. М., 1947; Структурная кристаллография. М., 1951.

**BELÓVA** (N o v i k o v a) Yelena Dmitriyevna (d. 28.7.1947, Xabarovsk diyarının Sovetskaya Qavan ş.) – Rusiya idmançısı. Qılıncoynatma üzrə SSRİ əməkdar idman ustası (1968). Şəxsi birincilikdə Olimpiya Oyunlarının qızıl medalını qazanmış ilk sovet qadın idmançıdır. 3 dəfə Olimpiya Oyunları (1968, Mexiko; 1972, Münxen; 1976, Monreal), şəxsi birincilikdə dünya (1969) və komanda birinciliyində dəfələrlə dünya (1970–79) çempionu olmuşdur. Qılınc-



oynatma tarixinə dair kitabların müəllifidir.

**BELOVÉJSKAYA PÚŞŞA** – Belarus və Polşa ərazilərində meşə massivi qoruğu. Polesye və Mazovets-Podlyase ovalığı hüdudlarında, Neman, Qərbi Buq və Pripyat çaylarının suayırıcısındadır. B.P. Avropanın qədim (14 əsrdən) meşə massivləri qoruqlarındandır. Faunasının zənginliyi və rəngarəngliyi B.P.-nı 18 əsrin sonlarından Litva knyazlarının, Polşa krallarının və rus çarlarının ənənəvi ov yerinə çevirmişdi. Birinci və İkinci dünya müharibələri illərində qoruğun təbiətinə böyük ziyan dəymişdi. 1991 ildə qoruğun ərazisində yaradılmış "B.P." Milli Parkı (sah. 96,2 min *ha*)1993 ildə biosfer rezervatının (ümumi sah. təqr. 186 min *ha*) komponentinə çevrilmişdir. Polşa ərazisində B.P. 62,5 min *ha*-dır; onun hüdudlarında Belovejye Milli Parkı (sah. təqr. 10,5 min *ha*) yerləşir. 1992 ildə B.P.-nın sərhəd zonasında xüsusi mühafizə üçün ayrılmış ərazi *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

Relyefi təpəli düzənlikdir. Bitki örtüyündə şamlıqlar (50 %-dən çox), iynəyarpaqlı qarışıq meşələr, küknarlıqlar, qızılağac və ağcaqovaq cəngəllikləri, palıd-vələs massivləri üstünlük təşkil edir. Qoruqda təqr. 60-adək məməli növü, 228-ədək quş növü məlumdur. B.P. Avropada uzun illər zubrların məskunlaşdığı yeganə təbii ərazi olmuşdur. 20 əsrin əvvəllərində bu heyvanlar tamamilə məhv edilmiş, sonralar zooparklardakı zubrların hesabına bərpa edilmişdir. Qoruqda zubrdan başqa maral, vaşaq, ağquyruq qartal, qara leylək, boz durna, kor yapalaq, ağacdələn və s. xüsusi qorunanlar siyahısına daxildir. Qoruqda təbiət muzeyi var.

**BELOVÉJYE SAZİŞLƏRİ (1991)** – RSFSR ilə Ukrayna prezidentlərinin və BSSR Ali Soveti sədrinin "beynəlxalq hüququn və geosiyasi reallığın subyekti kimi" SSRİ-nin fəaliyyətinin dayandırılmasına və *Müstəqil Dövlətlər Birliyinin* (MDB) təşkil olunmasına dair bəyanatlardan ibarət sənədlər.

İttifaq hakimiyyət orqanlarının mövqeyini kəskin şəkildə sarsıdan *Avqust böhranından (1991)* sonra avqustun sonu – sentyabrda respublikaların əksəriyyəti öz müstəqilliklərini elan etdi. SSRİ-nin prezidenti M.S. Qorbaçov yeni İttifaq müqaviləsinin imzalanması haqqında yenidən danışıqların başlanmasına nail oldu. Dekabrın 7-də iqtisadi məsələlərin müzakirəsi bəhanəsi ilə Ukrayna, Belarus və Rusiyanın nümayəndə heyətlərinin Belarus hökumətinin Viskuli (Belovejskaya Puşşa) iqamətgahında məxfi toplantısı keçirildi. Dekabrın 7-dən 8-nə keçən gecə görüş iştirakçıları mətni özləri tərəfindən hazırlanan "Müstəqil Dövlətlər Birliyinin yaradılması haqqında saziş"i qəbul etdilər (sazişin mətni SSRİ prezidenti və ittifaq respublikalarının ali hakimiyyət orqanları ilə müzakirə olunmamışdı). Saziş digər üç sənədlə birlikdə B.N. Yeltsin, L.M. Kravçuk və S.S. Şuşkeviç tərəfindən imzalandı. Saziş haqqında əvvəlcə SSRİ-nin müdafiə naziri Y.İ. Şapoşnikova, ABŞ prezidenti C.H.U Buşa və yalnız bundan sonra M.S. Qorbaçova məlumat verildi. B.S. dekabrın 10-da Ukrayna və Belarusun ali sovetləri, dekabrın 12-də RSFSR Ali Soveti tərəfindən ratifikasiya olundu.

**BELÓVO** – RF-də, Kemerov vil.-nin q.-ində şəhər, Belova r-nunun mərkəzi. Əh. 79,3 min (2005). Kuznetsk çuxurunda, Baçat çayı sahilindədir. D.y. st. 1726 ildən Belovo kəndi (Bacat çayı sahilində oba salmış qaçaq kəndli Fyodor Belovun adından) kimi məlumdur. 1938 ildən şəhərdir. B. Kuzbasın sənaye mərkəzlərindən biridir; 1851 ildən kömür hasil olunur. Sink, mexaniki tökmə z-dları, tikiş-trikotaj f-ki və ət-süd sənayesi müəssisələri var. Tikinti materialları istehsal olunur. Yaxınlığında Belovo DRES-i var.

**BÉLOYE GÖLÜ** – RF-nin Voloqda vil.-nin q.-indədir; 1964 ildən *Volqa-Baltika su yolunun* bir hissəsi olan Şeksna (Çerepovets) su anbarına daxildir. Əvvəlki sah. 1100 *km*², su anbarı tikiləndən sonra 1284 *km*², dərinliyi 20 *m*-ədəkdir. Gölə Kovja, Kema, Meqra çayları tökülür. Şeksna çayına axarı var. Noyabrın əvvəlindən mayın ortasınadək buzla örtülü olur. Gölün c.-q. hissəsini Belozersk kanalı dövrələyir. Gölün c. sahilində Belozersk ş. yerləşir.

**BELOZÉRSKİ** Andrey Nikolayeviç (29.8.1905, Daşkənd – 31.12.1972, Moskva) – rus biokimyaçısı, molekulyar biologiyanın banilərindən biri. SSRİ EA-nın akad. (1962), vitse-prezidenti (1971–72). Sosialist Əməyi Qəhrəmanı (1969). Orta Asiya Un-tini (Daşkənd, 1927) bitirmişdir. 1930 ildən MDU-da işləmiş (1943 ildən prof.), burada 1960 ildə rəhbəri olduğu bitkilərin biokimyası (1974 ildən molekulyar biologiya kafedrası) və virusologiya kafedralarının yaradılmasında iştirak etmişdir. 1946 ildə SSRİ EA A.N. Bax ad. Biokimya İn-tunda mikroorqanizmlərin biokimyası laboratoriyasını (1960 ilədək rəhbəri olmuşdur), 1965 ildə molekulyar biologiya və bioüzvi kimya fakültəarası problem laboratoriyasını (1991 ildən B. adına Fiziki Kimya Biologiyası ETİ) yaratmışdır. Fundamental tədqiqatları müxtəlif qrup orqanizmlərdə nuklein turşularının yayılmasının və kimyəvi tərkibinin tədqiqinə həsr olunmuşdur; bitkilərdə DNT-nin olduğunu ilk dəfə sübut



Belovejskaya Puşşa qoruğu.







etmişdir. Qeyri-kodlaşdırıcı RNT-nin və DNT-yə oxşar məlumat (matrisa) RNT-sinin fraksiyasının (1957, A.S. *Spirinlə* birlikdə) mövcudluğunu kəşf etmişdir. 1960-cı illərdə B.-nin rəhbərliyi ilə bir çox orqanizmlər üçün DNT-nin nukleotid tərkibi tədqiq edilmişdir. Göbələklərdə polifosfatların əmələ gəlməsi, parçalanması yolları və fizioloji roluna həsr edilmiş bir sıra əsərləri var.

Əsəri: Нуклеопротеиды и нуклеиновые кислоты растений и их биологическое значение. M., 1959.

**BELOZİMİNSK APATİT YATAĞI** – RF-də, İrkutsk vil. ərazisində, Nijneudinsk ş. yaxınlığında iri apatit-nadir metal yatağı. 1960 ildə kəşf olunmuş, 1987 ilə ehtiyatı hesablanmışdır; ehtiyatda saxlanılır. Nadir metal filizlərinin ümumi ehtiyatı 1237 mln. *t*-dan çoxdur, o cümlədən $Nb_2O_5$-in filizdəki orta miqdarı 0,5 %, ehtiyatı (aşınma qabığında) 750 min *t*, $P_2O_5$-in apatit filizlərində orta miqdarı 7,1 %, ehtiyatı 26,1 mln. *t*-dur. Yataq ultraəsasi qələvi süxurlar və karbonatitlər massivində yaranmışdır. Aşınma qabığında formalaşmış əsas yatağın ölçüləri 4,8 x 1,2 *km*, qalınlığı 36 *m*-dir (başlıca faydalı komponentləri niobium və fosfor, səmt komponentləri tantal və nadir torpaq elementləridir).

**BELSK ŞƏHƏRCİYİ** – Ukraynanın Poltava vil.-nin Belsk k. yaxınlığında skiflərə aid (e.ə. 8 əsrin sonu – 3 əsrin əvvəlləri) iri şəhər yeri. V.A. *Qorodtsov* (1906), Q.T. Kovpaçenko (1953–60), B.N. *Qrakov* və B.A. Şramko (1958 ildən) tərəfindən tədqiq edilmişdir. Avropada ən iri qədim istehkamdır (divarların uz. təqr. 34 *km*, sah. 4400 *ha*-dır). Xəndəklər, sədlər və taxta (ağac) divarlar möhkəmləndirilmiş bir-biri ilə əlaqəli 3 hissədən ibarətdir. B.ş.-ndən yerüstü və yarımqazma tikililər; tunctökmə, dəmir emalı və sümük üzərində oyma emalatxanaları, gil qurbangahları olan ibadətgahlar aşkar edilmişdir. Antik idxal malları (qaraşirəli şüyrələnmiş yunan keramikası və s.), yerli keramika, bəzək əşyaları, tunc, dəmir, sümük və buynuzdan hazırlanmış çoxsaylı məmulat, şərab üçün amfora (e.ə. 6–3 əsrlər), nadir Pantikapey miss sikkəsi (4 əsr), həmçinin xeyli iri və xırdabuynuzlu heyvan, at, it və s. sümükləri, taxıl qalıqları da tapılmışdır. Belsk sakinləri, əsasən, əkinçilik və maldarlıqla, qismən də balıqçılıqla məşğul olmuşlar. 1969 ildə aşkar edilmiş skif heyvani üslubunda maral formasında qəlib mühüm əhəmiyyətə malikdir. B.ş.-ndə və ya-



Belsko-Byala şəhərinin Belsko hissəsindən görünüş.

xınlığında onunla eyni dövrə aid bir neçə kurqan məzarlığı və kənd yeri mövcuddur. B.ş. *Herodotun* qeyd etdiyi Helonla eyniləşdirilir. B.ş. ərazisində Tunc dövründən orta əsrlərədək mərhələni əhatə edən abidələr məlumdur.

**BÉLSKO-BYÁLA** (Bielsko-Biala) – Polşanın c.-unda, Sileziya voyevodalığında şəhər. Əh. 176,5 min (2005). Sileziya və Kiçik Beskid (Qərbi Karpat) d-rının ətəyində, Byala çayı (Vislanın qolu) sahilindədir. Avtomobil və d.y.-ları qovşağıdır.

Byala çayının qarşı sahillərində yerləşən iki şəhərdən – Belsko və Byaladan yaranmışdır. Belsko ticarət məskəni 13 əsrin 2-ci yarısında çayın sol sahilində, Yuxarı Sileziyadakı Teşin knyazlığında meydana gəlmişdir; 13 əsrin sonu – 14 əsrin əvvəllərində şəhər hüququnu almışdır. 1327 ildən Çexiyanın tərkibində olmuşdur. 1457 ildən Çexiya ərazisi ilə Polşa arasında sərhəd Byala çayından keçirdi. 1526 ildən Habsburqlar imperiyasının (Çexiya hüdudlarında) tərkibində idi. 16 əsrin 2-ci yarısından mahudçuluq mərkəzi kimi ("BS" ticarət markalı məşhur Belsk mahudu) tanınmışdır. 19 əsrin 2-ci yarısından Belskoda toxuculuqla yanaşı metal emalı sənayesi və maşınqayırma da sürətlə inkişaf etmişdir. 1920 ildən Polşanın tərkibindədir. Byala 16 əsrin ortalarında, k.t. və sənətkarlıq məskəni kimi yaranmış, 1723 ildən şəhərdir; toxuculuq mərkəzi kimi inkişaf etmişdir. 1772 ildən Habsburqlar imperiyasının tərkibində olmuşdur; 19 əsrin sonlarında Qalitsiyanın sənaye cəhətdən ən inkişaf etmiş mərkəzlərindən biri idi. 1918 ildən Polşanın sərhədləri hüdudlarındadır.

16–19 əsrlərə aid memarlıq abidələri (bazar meydanı ansamblı, qəsr, qotika və barokko üslublarında kostyollar, ratuşa və s.) var.

B.-B. bölgənin elm və mədəniyyət mərkəzidir. Biznes və informatika ali məktəbi, İ. Kant ad. Teologiya in-tu, Lodz politexnik in-tunun və Katovitsidakı ali iqtisadiyyat məktəbinin filialları və s.; diyarşünalıq (1897), texnika və toxuculuq istehsalı muzeyləri, Beskid xalq oyuncaqları mərkəzi, V. Reymont ad. Litva muzeyi; "Polyak teatrı", kukla teatrı, animasiya kinosu studiyası fəaliyyət göstərir. Dini musiqi (hər il), İ.S. Bax musiqisi; "Animasiya" vizual incəsənət və kukla teatrlarının beynəlxalq festivalları keçirilir.

B.-B. Polşa toxuculuq sənayesinin (yun və kətan parçalar, trikotaj) Lodzdan sonra 2-ci böyük mərkəzidir. 1970-ci illərdən maşınqayırma üstünlük təşkil edir: kiçiklitrajlı avtomobillər, daxiliyanma mühərrikləri, işıqlandırma aparatları, akkumulyatorlar. Toxuculuq, metal emalı, tikiş və ayaqqabı sənayesi üçün avadanlıq istehsalı, tamlı qida məhsulları sənayesi inkişaf etmişdir.

**BÉLTİNQ** (ing. belting – intiqal qayışı) – ağır, çox sıx toxunmuş və davamlı *texniki parça*. Konveyer lentləri və rezinləşmiş çoxqatlı intiqal (ötürmə) qayışı üçün işlədilir. B., adətən, burulmuş pambıq ipliklərdən, daha möhkəm növləri isə kimyəvi liflərdən istifadə etməklə hazırlanır.

**BELTİRLƏR** – *xakasların* tərkibinə daxil olan etnik qrup. Abakan çayı hövzəsində yaşayırlar. Türk dillərinin şm.-ş. qrupunun Abakan şivəsinin beltir dialektində danışırlar. Əkinçilik, maldarlıq və



Beltsı şəhəri. Yelena və Konstantin kilsəsi.

dəmirçiliklə məşğul olmuşlar. Dindarları şamanist və xristiandır. 17 əsrdə Yenisey qırğızlarının tabeliyində olmuşlar. 1703 ildə B.-in yaşadıqları ərazi Rusiya tərəfindən işğal edilmişdir. 1897 il siyahıyaalınmasına görə sayları 5 min nəfər, 1926 il siyahıyaalınmasında isə 20 min nəfər olmuşdur. Ehtimal ki, onlar xakas adlandırıldıqları üçün sonradan B. haqqında məlumata rast gəlinmir.

**BÉLTSI**, B e l t s (Bálti) – Moldova Resp.-nın şm.-ında şəhər. Əh. 150,5 min (2005). Reut çayı (Dnestr hövzəsi) sahilindədir. D.y. qovşağı. 15 əsrin əvvəllərinə aid salnamədə Belts məskəninin adı çəkilir. Bessarabiya vil.-nin (1818–73), Bessarabiya qub.-nın (1873–1917) qəza şəhəri, Yassı qəzasının mərkəzi olmuşdur. 19 əsrin sonu – 20 əsrin əvvəllərində d.y.-larının tikintisi ilə əlaqədar B.-nın ticarət mərkəzi kimi əhəmiyyəti artmışdır. "A. Russo" un-ti, tarix-diyarşünaslıq muzeyi, Şəkil qalereyası, Milli dram teatrı, "Vera" uşaq bələdiyyə teatrı; xalq kollektivlərindən "Lentarul" orkestri (1970), "Vıntulets" rəqs ansamblı (1957), "Doynitsa" folklor ansamblı (1991) fəaliyyət göstərir. Xəz kombinatı, şəkər z-du, yağ və un dəyirmanı var. Şərabçılıq inkişaf etmişdir.

**BELÚXA** – Altayda ən yüksək zirvə. RF-nin Altay Resp.-nda, Katun silsiləsinin ş. hissəsindədir. Bir-birindən gədiklə ayrılan iki zirvəsi var: Qərbi B. (hünd. 4440 *m*) və Şərqi B. (hünd. 4506 *m*). Qranit, qneys və metamorfik şistlərdən təşkil olunmuşdur. Altayda müasir buzlaşmanın iri (ümumi sah. təqr. 70 $km^2$) mərkəzlərindən biridir. Şm. yamacında 2000–2500 *m* hünd.-yədək enən *Mönsu*, Rodzeviç və Tronov Qardaşları; c. yamacında təqr. 2000 *m* hünd.-yədək enən dərə buzlaqları (*Berel buzlağı* və *Katun buzlağı*) var. "Beluxa" təbiət parkı *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

**BÉLU-ORİZÓNTİ** (Belo Horizonte) – Braziliyanın c.-ş.-ində şəhər, Minas-Jerays ştatının inz. m. Əh. 2,37 mln. (2005). Serra-du-Espinyasu tirəsinin ətəyindədir. Avtomobil və d.y.-ları qovşağı. Aeroport (Pampulya). 1895 ildə Kurral-del-Rey adlı məskənin yerində salınmışdır. 1897 ildən Minas-Jerays ştatının paytaxtıdır. 1897–1901 illərdə Sidadi-di-Minas adlanmışdır. 1920-ci illərdən sürətlə inkişaf etməkdədir.

Şəhər müntəzəm plan üzrə 19 əsrin sonlarından tikilməyə başlamışdır. Modern üslubunda bir sıra bina saxlanılmışdır. 20 əsrin ikinci yarısında bir neçə göydələn ("Banka nayonale del lavoro", 1951, memar A. Vital Brazil) inşa edilmişdir. Şəhərin baş kilsəsi Nossa-Senyora-di-Boa-Viajemdir. Federal un-t (1927), Katolik un-ti (1958), Ştatın incəsənət un-ti ((1954), Ştatın dövlət un-ti (1989); Ştatın filologiya akademiyası; kütləvi kitabxana (1954), tarix muzeyi (1941), İncəsənət sarayı (kinoteatrlar, kitabxanalar, rəssamlıq qalereyaları, teatrlar, xalq sənəti sərgiləri), nəbatat bağı, zoopark var.

B.-O. iri mədənçıxarma r-nunun (dəmir və manqan filizləri, qızıl, qiymətli daşlar hasilatı) inkişaf etmiş k.t. olan ticarət-paylaşdırıcı və emaledici mərkəzidir. Qara metallurgiya ("Mannesman" alman konserninin Braziliyada ən iri poladəritmə z-du, 1952 ildən; tikişsiz boru istehsalı), elektrotexnika, toxuculuq, yeyinti sənayesi inkişaf emişdir. Kimya, əczaçılıq, poliqrafiya, dəri-ayaqqabı müəssisələri fəaliyyət göstərir. Betim şəhərətrafı qəs.-ndə "Fiat" avtomobil z-du (1970-ci illərdən; Rio-de-Janeyro – San-Paulu sənaye r-nundan kənarda yerləşən ilk sahə müəssisəsi) fəaliyyət göstərir.

B.-O. yaxınlığında, süni gölün sahilində turizm və idman şəhərciyi Pampulya yerləşir. O. *Nimeyer* dəmir-betondan, şüşədən, daşdan, metaldan, Braziliya üçün ənənəvi olan kaşıdan istifadə etməklə, burada 1942–43 illərdə parabolik apsidaları tərsinə qoyulmuş obelisk formasında zəng qülləsi olan kilsə, həmçinin kazino, yaxt-klub, dansinq tikmişdir.

**BELVEDÉR** (ital. belvedere – hərfi mənada gözəl mənzərə) – binaların üstündə, yaxud hündür, genişliyə açılan yerdə inşa edilən tikili. Şəhərətrafı ansambllar üçün səciyyəvidir (San-Susidəki yarımdairəvi pavilyon, 18 əsrin sonu, Potsdam və s.), şəhər binalarında da rast gəlinir. 18 əsrdə qotik qüllə formasında malikanələrdə yayılmışdı (Surrey qraflığında Klermont malikanəsi, memar C. Vanbru, 1715); sonralar klassik memarlıq nümunələri üzrə tikilirdi (o cümlədən Uayt a.-nda Osborn-hause, memarlar şahzadə Albert, T. Kyubit, 1845–48). Florensiyadakı qala (B. Buontalenti, 1590–95), Vatikanda antik heykəllər toplanmış həyət (1503–45, memar D. *Bramante*; indiki Rio-Klementino muzeyi), Vyana, Praqa, Varşava və Peterqofdakı saraylar da "B." adlanır.

Beluxa zirvəsi.









Belu-Orizonti şəhərindən görünüş.

**BELVEDÉR** (Belvedere) – Vyanada saray-park ansamblı. Memar İ.L. fon *Hildebrandt* tərəfindən Avstriya barokkosu üslubunda şahzadə *Savoyyalı Yevgeni* üçün iqamətgah kimi inşa edilmişdir. Müntəzəm parkla ayrılan iki binadan – Aşağı Belveder (1714–16, mərkəzi pavilyonun ortasında dəbdəbəli, iki cərgə pəncərəsi olan Mərmər zal yerləşir; indiki Barokko muzeyi, 17–18 əsrlər Avstriya incəsənəti) və mərkəzində rizolit və kənarlarda kiçik pavilyonlar olan (zallarda S. Norbert de Bossinin üzərinə qızıl suyu çəkilmiş stukko relyefləri və italyan rəssamlarının əsərləri; indiki Avstriya qalereyası, 19–20 əsrlər Avstriya incəsənəti, həmçinin Q. *Klimt*, O. *Kokoşka* və E. *Şilenin* əsərləri) Yuxarı Belvederdən (1721–24, təpənin zirvəsində tikilmişdir; Mərmər zaldan Vyananın panoramı açılır) ibarətdir.

**BELYÁNKİN** Dmitri Stepanoviç (23.8.1876, Voloqda qub.-nın Lamanixa k. – 20.6.1953, Moskva) – rus geoloqu, SSRİ EA akad. (1943). Yuryev (indiki Tartu) Un-tini (1901) bitirmişdir. S.-Peterburq Politexnik İn-tunun prof.-u (1920–35) olmuşdur. 1930 ildən SSRİ EA Petroqrafiya İn-tunda (1935 ildən direktor), 1937 ildən Geologiya İn-tunda (1945–47 illərdə direktor), 1948–52 illərdə Mineralogiya muzeyində direktor işləmişdir. 1949 ildən SSRİ EA geologiya-coğrafiya elmləri şöbəsinin akademik-katibi olmuşdur. Tədqiqatları, əsasən, mineralogiya, nəzəri və texniki petroqrafiya sahəsindədir. Qafqazda, Uralda və Kola y-a-nda tədqiqat işləri aparmışdır. Qafqazda filiz yataqları ilə əlaqədar cavan intruziv süxurları (neointruziyaları) ilk dəfə müəyyən etmiş və öyrənmişdir. "Azərbaycanın geologiyası" monoqrafiyasının 3-cü cildinin ("Petroqrafiya") redaktoru olmuşdur. Antarktidada Mak-Robertson Torpağındakı massivdə dağ və belyankinit mineralı B.-in şərəfinə adlandırılmışdır.



Ə s ə r l ə r i: Петрография технического камня. M., 1952 (başqaları ilə birlikdə); Избранные труды. M., 1956–58. T. 1–2.

**BELYÁYEV** Aleksandr Romanoviç (16.3.1884, Smolensk – 6.1.1942, Leninqrad vil.-nin Puşkin ş.) – rus yazıçısı. Keşiş ailəsində doğulmuşdur. Smolensk ruhani seminariyasını (1901), Yaroslavlda Demidov hüquq liseyini (1906) bitirmişdir. "Moyra nənə" (1914) pyes-nağılı ilk qələm təcrübəsidir. 1915 ildən yataq xəstəsi olmuşdur (onurğa sümüyünün vərəmi); 1922 ildə normal həyata qayıtmışdır. J. *Vernin* təsirilə elmi-fantastik janrda yazdığı ilk əsərləri – "Professor Douelin başı" hekayəsi (1937 ildə roman kimi yenidən işləmişdir) və "Atlantidadan sonuncu adam" povesti 1925 ildə çap olunmuşdur. İnsanın, onun fiziki təbiətindən irəli gələn məhdudiyyətlərə qalib gəlməsi, alimin öz ixtiralarına cavabdehliyi "Məhv olmuş gəmilər adası" (1926), "Amfibiya-adam" (1928), "Hava satıcısı", "Dünyanın hökmdarı" (hər ikisi 1929), "Ariel" (1941) və s. B.-in çoxsaylı macəra, elmi-fantastik, utopik romanlarının əsas mövzusudur.



Ə s ə r l ə r i: Amfibiya-adam. B., 1963; Professor Douelin başı. B., 1973; Собр. соч.: В 9 т. M., 1993–94.

**BELYÁYEV** Dmitri Konstantinoviç (17.7.1917, Kostroma qub.-nın Prota-

Yuxarı Belveder. Vyana.



sovo k. – 14.11.1985, Novosibirsk) – rus bioloqu, genetik. SSRİ EA akad. (1972). SSRİ EA Sitologiya və Genetika İn-tunda (Novosibirsk ş.) 1958 ildən direktor müavini, 1959 ildən direktor, Novosibirsk Dövlət Un-tində 1961 ildən kafedra müdiri olmuşdur. Əsas tədqiqatları ümumi biologiya, genetika, təkamül nəzəriyyəsi və heyvanların seleksiyası sahəsindədir. Destabilləşdirici seçmə haqqında anlayışı əsaslandırmışdır. B. xəzli heyvanların seleksiyasının genetik əsaslarını işləyib hazırlamış, əhliləşdirilmə zamanı vəhşi heyvanlarda reproduktiv funksiyaların irsi yenidənqurulması yollarını elmi surətdə əsaslandırmışdır. Müxtəlif rəngli norka formalarının yetişdirilməsinin və artırılmasının təşkilində iştirak etmişdir. Fotoperiodizmi və məməlilərin çoxalması və məhsuldarlığının fotoperiodik tənzimlənməsini öyrənmişdir.

Əsərləri: Дестабилизирующий отбор как фактор изменчивости при доместикации животных // Природа. 1979. № 2; Проблемы и перспективы исследований по генетике и селекции животных // Генетика. 1987. № 6.

**BELYÁYEV** Spartak Timofeyeviç (d.27.10.1923, Moskva) – rus fiziki, REA-nın akad. (1968), MDU-nu bitirmişdir (1952). 1978 ildən Rusiya "Kurçatov İnstitutu" Elmi Mərkəzində çalışır, 1981 ildən ümumi və nüvə fizikası bölməsinin direktorudur. Eyni zamanda Moskva Fizika-Texnika İn-tunun prof.-udur. İlk elmi işləri güclü maqnit sahələrində seyrəkləşmiş ionlaşmış qazın kinetikasına həsr olunmuşdur: relyativist kinetik tənliyi almış, onun həllini təklif etmişdir. Çoxkvantlı rekombinasiyaya dair məsələni həll etmişdir. 1955 ildən atom və nüvə fizikası problemləri – qeyri-bircins güclü maqnit sahələrinin köməyi ilə polyarlaşmış nüvə mənbələrinin yaradılması ilə məşğul olmuşdur. Çoxcismlər məsələsində sahənin kvant nəzəriyyəsi metodlarını ilk tətbiq edənlərdən biridir. Qeyri-ideal boze-qaz nəzəriyyəsinə, atom nüvələrinin quruluş və xassələrinin tədqiqinə (nüvənin ifratkeçirici modelində nuklonların cütləşmə hadisəsi), nüvələrdə qeyri-xətti effektlərə, nüvələrin kollektiv həyəcanlanmalarına, nüvə reaksiyaları mexanizmlərinin öyrənilməsinə dair işlərin müəllifidir.

**BELYÁYEV** Viktor Mixayloviç (6.2.1888, Qazaxıstan, Uralsk – 16.2.1968, Moskva) – rus musiqişünası, sənətşünaslıq doktoru (1944), Tac. SSR Dövlət mükafatı laureatı. 1914 ildə Petroqrad Konservatoriyasını bitirmişdir. Petroqrad (1914–23, 1942–44; 1918 ildən prof.) və Moskva (1923–24, 1938–40, 1943–59, 1944 ildən prof.) konservatoriyalarında dərs demişdir. 1922–31 illərdə Dövlət Bədii Elmlər Akademiyasının həqiqi üzvü olmuşdur. Görkəmli rus etnomusiqişünaslarından biri olan B. Şərq xalqları, o cümlədən Azərb. musiqisini tədqiq etmişdir. Paleoqrafiya və notasiya üzrə mütəxəssis idi. Musiqi nəzəriyyəsinə dair əsərlərin müəllifidir. Bir neçə məqaləsi "V.M. Belyayev" (1990) kitabında çap olunmuşdur; bir çox əsəri nəşr edilməmişdir.

Əsərləri: Музыкальные инструменты Узбекистана. М., 1933; Афганская народная музыка. М., 1960; Персидские теснифы. М., 1964; О музыкальном фольклоре и древней письменности. М., 1971.

**BELYÁYEV** Vladimir İvanoviç (26.11.1855, Moskva qub.-nın Borzetsovo k. – 17.10.1911, S.-Peterburq) – rus botaniki, embrioloq və sitoloq. Moskva Un-tini (1878) bitirmiş və 1885 ilədək orada işləmişdir. 1891–99 illərdə Varşava Un-tinin prof.-u, 1899–1902 illərdə Novoaleksandriyadakı (indiki Pulavı, Polşa) Kənd Təsərrüfatı və Meşəçilik İn-tunun direktoru, 1902 ildən Kiyev və 1905 ildən ömrünün sonunadək Varşava tədris dairələrinin müdiri olmuşdur. Plaunkimilərin, qıjıkimilərin erkək protalının müqayisəli morfologiyasına və iynəyarpaqlıların tozcuq borusunun quruluşuna dair klassik əsərlərin müəllifidir. Bitkilərdə spermatozoidlərin nüvə və protoplazmadan ibarət hüceyrələr olduğunu sübut etmişdir. Bitki hüceyrəsində nüvənin bölünməsi prosesini (kariokinezi) və onun bütün mərhələlərinin xüsusiyyətlərini hərtərəfli tədqiq etmişdir. Alimin ali bitkilərin morfologiya və sistematikasına dair orijinal rəsmləri bir çox dərsliklərə daxil edilmişdir.

**BELYÁYEV** Yevgeni Aleksandroviç (21.2.1895, Rjev – 5.9.1964, Moskva) – rus şərqşünası, tarix e.d. (1962). MƏR EA-nın fəxri üzvü (1964). S.-Peterburq Un-tinin Şərq dilləri fakültəsində (1913–16) təhsil almış, Moskva Şərqşünaslıq İn-tunu (1922) bitirmişdir. Yaxın və Orta Şərqin orta əsrlər tarixinə dair məsələləri tədqiq etmişdir. Moskva Şərqşünaslıq İn-tunda və Hərbi Xarici Dillər İn-tunda (1924–54), 1945–55 illərdə Moskva Şərqşünaslıq İn-tunun Yaxın və Orta Şərq ölkələri tarixi kafedrasında, SSRİ Xarici İşlər Nazirliyinin Ali diplomatiya məktəbində müəllim işləmişdir. SSRİ EA Şərqşünaslıq İn-tunun elmi işçisi (1951–64) olmuşdur. İslam tarixi, ərəb ölkələri və İran haqqında bir sıra əsərlərin müəllifidir. Şəxsi kitabxanası AMEA-nın Mərkəzi Elmi Kitabxanasında saxlanılır.

Əsərləri: Müsəlman təriqətləri (tarixi oçerklər). B., 1958; Арабы, ислам и арабский халифат в раннее средневековье. М., 1965; Arabs, Islam and the Arab caliphate in the early middle ages. L., 1969. N.Y., 1969.

**BELYÁYEV DƏRNƏYİ** – S. Peterburqda 1880–1917 illərdə mövcud olmuş musiqiçilər birliyi. Musiqi xadimi və mesenat M.P. Belyayevin adı ilə bağlıdır; 1880–90-cı illərdə dərnəyin yığıncaqları ("Belyayev cümələri") onun evində keçirilirdi. B.d.-nin rəhbəri N.A. Rimski-Korsakov olmuşdur. Dərnəyə bəstəkar və ifaçılar (əsasən, Rimski-Korsakovun şagirdləri) F.S. Akimenko, F.M. və S.M. Blumenfeld qardaşları, Y. *Vitols*, A.K. *Qlazunov*, Q.O. Düts, V.A. *Zolotaryov*, İ.İ. Krijanovski, A.K. *Lyadov*, N.A. Sokolov, N.N. Çerepnin və b. daxil idi. Tənqidçi V.V. *Stasov* dərnəyin yığıncaqlarında müntəzəm iştirak edirdi. "Qüdrətli dəstə" ilə varislik əlaqələri olmuşdur. Akademizmin bədii tendensiyasını əks etdirmişdir.

**BELYOK** – bəzi suitilərin, o cümlədən adi suitinin Uzaq Şərq yarımnövü olan *larqanın* yeni doğulmuş balası.

**BELYÓV MƏDƏNİYYƏTİ** – e.ə. 4–2-ci minilliklərdə Oka çayının yuxarı axarı boyunca (Belyov–Serpuxov r-nu) yayılmış Neolit mədəniyyəti. B.m.-nin ən qədim düşərgəsi olan Qremyaçevskaya Mezolitdən Neolitə keçid dövrünə aiddir. B.m. üçün bıçaqşəkilli çaxmaqdaşı lövhələrindən hazırlanmış alətlər, uzun və ensiz xəncərlər, mikrolit ox ucluqları və s. səciyyəvidir. Keramikasında şahmat naxışları əsas yer tutur.

**BÉMBALAR**, babembalar – Zambiyanın şm.-ında *bantular* qrupundan xalq, ölkənin ən böyük etnik qruplarından biri. Tərkibinə B.-ın özü, luundalar, şilalar, tabvalar, çişinqalar, kabendelar, mukulular, nqumbolar, tva-unqalar, auşilar, bisalar, lalalar, lambalar qrupları daxildir. Həmçinin Konqo Demokratik Resp.-nın Zambiyaya bitişik olan rayonlarında (300 min), Tanzaniyada (45 min), Malavidə (167 min) və Zimbabvedə (23 min) yaşayırlar. Sayları 3,3 mln. nəfərdir (2001). Zambiyanın əsas dillərindən biri olan *bantu dillərinin* M zonasına aid olan Bemba (çibemba) dilində danışırlar. Şəhərlərdə, həmçinin Zambiya və Konqo Demokratik Resp.-nın mədənlərində etnik qruplar arasında ünsiyyət vasitəsi kimi istifadə olunur. Bemba, lembve, lomotua, nqoma, nvesi, luunda, çişinqa, kabende, mukulu, nqumbo, unqa-tva, şila dialektləri var. Yazıları latın qrafikası əsasındadır. Bemba dilində qəzetlər nəşr olunur, radioverilişlər aparılır, həm də məktəblərdə tədris olunur. İngilis dili də yayılmışdır. Dindarları əsasən xristiandır, İyeqova (Yəhva) şahidləri, afroxristian kultlarının (Lumpa kilsəsi və s.) ardıcılları da vardır.

B.-ın əcdadları Luapula çayından qərbdəki ərazilərdə yaşamış, erkən siyasi qurum *Lubanın* tərkibində olmuşlar. 17 əsrin 2-ci yarısında indiki Zambiyanın şm.-q. ərazisilərinə köçmüş, ali hakimin (çitimukulu) və ağsaqqallar şurasının (bakabilo) rəhbərlik etdiyi, başçılar iyerarxiyasına əsaslanan və paytaxtı Kasamedə yerləşən icma birliklərinin ittifaqını (ikalo) yaratmışlar. Ölkə canişinlərin rəhbərlik etdiyi inzibati rayonlara (çalo) bölünürdü. Ana xətti ilə *liniclər* totem adları olan ekzoqam klanlarda birləşirdilər. Bu klanlar hakim Timsah nəsli ilə qohumluq dərəcəsinə görə iyerarxiya sistemində yer tuturdular. B. 19 əsrin sonlarında Tanqanika, Nyasa, Banqveulu və Mveru gölləri arasındakı ərazilərdə məskunlaşırdılar. 1899 ildə B.Britaniyanın koloniyası Şimali Rodeziyanın tərkibinə qatılan B. müstəmləkə əleyhinə hərəkatlarda fəal iştirak etmişlər.

Ənənəvi mədəniyyətləri Şərqi Afrika xalqları üçün səciyyəvidir. Əsas məşğuliyyətləri qırılıb-yandırılmış sahələrdə toxa əkinçiliyidir; B.-ın əksəriyyəti mədən sənayesində çalışır. Bir qismi şəhərlərdə yaşayır; ziyalıları var, siyasi həyatda fəal iştirak edirlər. Ənənəvi evləri gilmöhrədəndir, dairəvi planda tikilir; geyimləri lifdən önlüklərdir. Ağac üzərində oyma (gözləri şüşə, yaxud metal ilə inkrustasiya edilmiş, gövdəsi isə skarifikasiyanı təsvir edən ornamentlə bəzədilmiş kişi və qadın heykəlcikləri; uzunsov, üstü dəyirmi düzbucaq formasında maskalar), evlərin divarlarının çöldən naxışlanması, toxuma, dulusçuluq, musiqi alətlərinin düzəldilməsi inkişaf etmişdir. Yağış və tufan allahı Mulunqunun, B.-ın ulu əcdadı Lezanın, əcdadların, təbiət ruhlarının kultları, totemizm, heyvanların qurbanverilməsi, inisiasiyalar, ovsunçuluq, dini mahnılar və rəqslər qorunub saxlanmışdır. Kahinlər və gələcəkdən xəbər verən qadınlar da var.

**BEMBİKSLƏR**, bembekslər (Bembix) – eşici itarıları cinsi. Uz. 11–24 *mm*-dir. Bədəni sarı, yaxud ağımtıl naxışlıdır. Üçbucaq formalı üst dodağı çox uzanmışdır. Təqr. 330 növü məlumdur. Hər yerdə geniş yayılmışdır. Qumluqların dərinliklərində yuvalayır. Sürfələrini ölmüş milçəklərlə yemləyir; tropik növləri yetkin cırcıramaları, kəpənəkləri və düzqanadlıları tuta bilir.



Bembiks (Bembix rostrata).

**BEMENTİT** – mineral. Tərkibi $Mn_8[(OH)_{10}|Si_6O_{15}]$. Pirosmalitə yaxındır. Romb sinqoniyasında kristallaşır. Lifli, lövhəli aqreqatları var. Rəngi qonur, sərtliyi 6, sıxlığı 3100 *kq/m³*. Metamorfizmə uğramış filizlərdə, qoniyerit və baritlə birlikdə hidrotermal damarlarda, rodonit, bustamit və tefroitlə birlikdə kontakt-metamorfik əhəngli-silikatlı süxurlarda rast gəlinir. Az tapılan mineraldır.



Bementit.

**BÉMMELEN** Reynaut Villem van (14.4.1904, Bataviya, indiki Cakarta – 19.11.1983, Utrext) – Niderland geoloqu. 1927 ildə Texniki Un-ti (Delft ş.-ndə) bitirmişdir. 1928–43 illərdə keçmiş Niderland Ost-Hindində dövlət xidmətində geoloq işləmiş, Utrextdə Geologiya in-tunun prof.-u (1949) olmuşdur. Cənub-Şərqi Asiya adalarında və Avropanın dağlıq r-nlarında aparılmış çoxillik tədqiqat materiallarına əsaslanaraq vulkanologiya və tektonika sahələri üzrə bir sıra orijinal ideyalar irəli sürmüş, İndoneziyanın stratiqrafiyası, tektonikası, maqmatizmi və faydalı qazıntılarına dair müfəssəl məlumatlar dərc etmişdir. Dağəmələgəlmə proseslərini Yer qabığının üfüqi deyil, şaquli hərəkətləri ilə əlaqələndirərək, yeni tektonik fərziyyəni işləyib hazırlamışdır. Əvvəlcə *fiksizmin* tərəfdarı olmuş, 1960-cı illərdən başlayaraq geologiyada fiksizm və *mobilizmin* qarşılıqlı təsiri mövqeyindən çıxış etməyə cəhd göstərmişdir.

Əsərləri: Горообразование. М., 1956; Геология Индонезии. М., 1957.

**BEMÓL** – bax *Alterasiya*.

**BEN** (Bain) Aleksandr (11.6.1818, Aberdin – 18.9.1903, Aberdin) – ingilis filosofu, psixoloq və pedaqoq. Psixologiyada assosionizmin görkəmli nümayəndələrindən biri. B.-in əsərləri psixologiyanın sonrakı inkişafına böyük təsir göstərmiş, *fizioloji psixologiyanın* yaranmasına kömək etmişdir. B. psixi və fizioloji hadisələrin vəhdətini müdafiə etməklə yanaşı, onların arasındakı səbəbiyyət əlaqələrini rədd etmiş, psixofizioloji parallelizm mövqeyində durmuşdur. B.-in əsərləri psixologiyanın müstəqil təcrübi elmə çevrilməsində mühüm rol oynamışdır.

Əd.: Ярошевский М.Г. История психологии. М., 1976.

**BEN BELLA** Əhməd (احمد بن بلة; d.25.12.1916, Maqniya – 11.4.2012, Maqniya yaxınlığında) – Əlcəzairin siyasi və dövlət xadimi. 1954–62 illər Əlcəzair inqilabının liderlərindən biri. 1956–62 illərdə Fransada həbsdə saxlanmışdır. Müstəqil Əlcəzair dövlətinin ilk hökumətinin başçısı (1962), Əlcəzair Xalq Demokratik Resp.-nın prezidenti (sentyabr, 1963) olmuşdur. K.t.-nda dövlət sektorunun yaradılmasına yönəlmiş genişmiqyaslı aqrar islahatlar həyata keçirmişdir. Əlcəzairlə Mərakeş arasındakı sərhəd münaqişəsini tənzimləmişdir. 1965 ildə dövlət çevrilişi nəticəsində vəzifəsindən kənarlaşdırılmışdır. 1980 ilədək həbsdə saxlanılmış və ev dustağı olmuşdur. 1980-ci illərdə Fransada, 90-cı illərdə İsveçrədə mühacirətdə yaşamışdır. Əlcəzairə qayıtdıqdan bir müddət sonra İraqın işğalını pisləyən beynəlxalq hərəkatın prezidenti olmuşdur (2003). Afrika İttifaqının Ağsaqallar Şurasının sədri idi.

**BEN BƏDİS** Əbdülhəmid (عبدالحميد بن باديس) (1889, Konstantina – 16.4. 1940, orada) – Əlcəzairin dini və ictimai-siyasi xadimi, maarifçi, şair, publisist. Tunisdə əz-Zitun İlahiyyat Un-tini bi-

tirmişdir (1914). Əlcəzair Üləmaları Assosiasiyasının (1931) əsasını qoymuş, 1925–39 illərdə "əş-Şihab" ("Meteor") jurnalını nəşr etdirmişdir. Sələfilərin mövqeyindən çıxış edərək islamda islahatlar və "təmizlənmə" aparılmasına çağırmış, Fransanın Əlcəzairdəki müstəmləkə siyasətini tənqid etmişdir. 1936–38 illərdə Fransada Xalq cəbhəsini dəstəkləyən Əlcəzair Müsəlman Konqresinin rəhbərliyində təmsil olunmuşdur.

**BEN ƏLİ** Zeyn əl-Abidin (زين العابدين بن على ; d. 3.9.1936, Hammam-Susa) – Tunisin siyasi və dövlət xadimi, istefada olan gen. Ali təhsilini Sen-Sir hərbi akademiyasında, Şalon-sür-Marn artilleriya məktəbində (Fransa), Kəşfiyyat və təhlükəsizliyin təminatı üzrə xüsusi məktəbdə (ABŞ) almışdır. Tunisin Hərbi təhlükəsizlik xidmətinin (1958–74) və Milli təhlükəsizlik xidmətinin (1977–80) rəhbəri olmuşdur. Müxtəlif diplomatik missiyaları yerinə yetirmişdir. Dövlət katibi və milli təhlükəsizlik naziri (1984–85), daxili işlər naziri (1986), Sosialist Düstur partiyasının (SDP) baş katibi (1987, oktyabr-noyabr); Tunisin baş naziri (1987 ildən) olmuşdur. H. *Burgibanın* hakimiyyətdən kənarlaşdırılmasından (7.11.87) sonra resp.-nın prezidenti vəzifəsini icra etmiş, 1989 ildə prezident seçilmişdir. 1995, 1999, 2004 və 2009 illərdə keçirilmiş prezident seçkilərində qələbə qazanmışdır. Siyasi dustaqlara amnistiya vermiş, Tunisdə çoxpartiyalı sistemin yaradılması məqsədilə bir sıra tədbirlər həyata keçirmişdir. 2010 ilin dekabrında Tunisdə baş vermiş qiyam nəticəsində ölkəni tərk etməyə (14 yanvar 2011) məcbur olmuşdur.



Benabena döyüşçüləri.

**BENABENALAR** – Papua Yeni Qvineyada papuas xalqı. Şərq yaylasında məskunlaşmışlar. Sayları 30 min nəfərdir (1998). Transyeniqvineya ailəsinin benabena dilində danışırlar. Müxtəlif şivələri var. Yazıları latın əlifbası əsasındadır. Dindarları əsasən xristiandır, bir qismi ənənəvi etiqadlarını qoruyub saxlayır. Təsərrüfatlarının əsasını toxa əkinçiliyi təşkil edir; qadınlar batat (əsas bitki), maniok, qarğıdalı və tərəvəz, kişilər şəkər qamışı, banan və yams becərirlər. B., Benabena seçki şurasının himayəsi altında birləşmiş 65 qəbiləyə bölünürlər. Qəbilələr nəsillərə (klanlar), yarımnəsillərə (subklanlar) və liniclərə ayrılır. Kişi ittifaqları mövcuddur.

**BEN-ADAD** (akkadca B i r - İ d r i, arami dilində B a r - H a d a d) – *Dəməşq padşahlığında* hakimiyyətdə olmuş hökmdarlar.

I Ben Adad [təqr. e.ə. 914–880] – Tabrimmonun oğlu. İsrail, Bibl və Misirə qarşı İudeya və Tirlə ittifaq bağlamışdır.

II Ben Adad [təqr. e.ə. 880–844] – III Salmanasara qarşı Suriya və Fələstin çarlıqlarının Aşşur əleyhinə ittifaqına başçılıq etmişdir.

III Ben Adad [e.ə. 9 əsrin sonu – 8 əsrin əvvəlləri] – Qazailin oğlu. Aşşur çarı III Adadnerarinin basqınlarından müdafiə olunmuşdur. Hamat ş.-ni tutmaq cəhdi baş tutmamışdır.

Gənc benalar ənənəvi geyimdə.



**BENÁKİTİ** Fəxrəddin Əbu Süleyman Davud ibn Məhəmməd (? – təqr.1330) – İran tarixçisi və şair. Elxanilərin sarayında xidmət etmiş, Qazan xan tərəfindən məliküş-şüəra təyin edilmişdir (1302). Məhəmməd Xudabəndə Olcaytunun göstərişi ilə yazmağa başladığı Tarixi-Benakiti (Ravzatü ülil-əlbab fi təvarixil-əkabir vəl-ənsab) əsərini Əbu Səid Bahadır xanın hakimiyyəti dövründə başa çatdırmışdır (1317). Rəşidəddinin Cami ət-təvarix əsərinin xülasəsi kimi yazdığı əsəri müəyyən xronoloji dəyişikliklər və Elxanilər dövrünə aid dəyərli məlumatlarla zənginləşdirmişdir. Tarixi-Benakiti 9 hissədən (peyğəmbərlər və kilsə xadimləri, qədim İran hökmdarları, Məhəmməd peyğəmbər və xəlifələr, Abbasilər və onların dövründəki İran sülalələri, yəhudilər, xristianlar və franklar, hindlilər, çinlilər və monqollar) ibarətdir; Dünya kitabxanalarında müxtəlif nüsxələri saxlanılır. Əsərin Çinlə bağlı olan səkkizinci bölümü bir neçə dilə (latın, ingilis, fransız) tərcümə edilmişdir. 1969 ildə Tehranda nəşr olunmuşdur. B.-nin divanı günümüzədək gəlib çatmamışdır.

**BENALAR**, v a b e n a l a r – Tanzaniyanın c.-ş.-ində (İrinqa vil.), Rufici və Böyük Ruaha çaylarının hövzəsində *bantular* qrupundan xalq. Sayları 693 min nəfərdir (2005). *Kinqalar*, *hehelər*, poqololar (poqorolar), sanqular, matumbilər və dendenulelərə yaxındırlar. *Bantu dillərinin* G zonasına aid olan bena (kibena, ekibena) dilində danışırlar. Yazıları latın qrafikası əsasındadır. Suahili və nyamvezi dilləri də yayılmışdır. Dindarların əksəriyyəti ənənəvi dini etiqadlarını saxlamışlar, müsəlman və xristianlar da var.

Şərqi Afrika xalqları üçün səciyyəvi olan ənənəvi mədəniyyətləri vardır. Ənənəvi məşğuliyyətləri qırılıb-yandırılmış sahələrdə əkinçilik (maniok, qarğıdalı, çəltik, darı, batat, paxlalı bitkilər və s.), köçəbə maldarlıq (davar) və ovçuluqdur. Şəhərlərdə və sizal plantasiyalarında mövsümçülük yayılmışdır. Dulusçuluq, toxuma və ağac üzərində oyma (o cümlədən əcdadların kultu ilə bağlı olan iri antropomorf heykəltəraşlıq) inkişaf etmişdir. Ənənəvi geyim kişilərdə ağ kanzu, qadınlarda şux parçalardan hazırlanan kanqa və səndəldir; müasir geyimləri sadə parçalardan tikilir. Əsas yeməkləri düyü, darı, banan, tərəvəz və meyvələrdən hazırlanır. Ənənəvi evləri düzbucaq formasında, yastı damlıdır, karkasrlı divarları gillə suvanmışdır, daxili həyəti olur. Ata xətti ilə qəbilə təşkilatı və çoxailəli icmalar, əcdadların və təbiət qüvvələrinin kultu, folklor (döyüşçü mahnıları və rəqsləri, bayram rəqsi lipara) qalmaqdadır.

**BENASERRÁF** (Benacerraf) Barux (d.29.10.1920, Karakas) – Venesuela-Amerika genetiki. Nobel mükafatı laureatı (1980, J. *Dosse* və C.D. *Snell* ilə birlikdə). Virginiya ştatının tibb kollecini bitirmişdir (1945). Nyu-York Un-tinin patologiya prof.-u (1960–68), Harvard Tibb Məktəbinin prof.-u (1970 ildən), 1980 ildən Beynəlxalq İmmunologiya Cəmiyyətləri İttifaqının prezidentidir. Allergiyanın baş verməsinin immunkimyəvi mexanizmini, antigenlərin yaranmasına cavab olaraq əmələ gələn anticismlərin strukturunu öyrənmişdir. Orqanizmin müəyyən antigenə qarşı cavabvermə qabiliyyətinin genetik olduğunu sübut etmişdir. B- və T-limfositlərin funksiyalarını müəyyən etmişdir. Toxuma və orqanların köçürülməsi zamanı transplantatın ayrılma səbəbini izah edən fərziyyə irəli sürmüşdür.



Ə s ə r l ə r i: İmmunogenetics and immunodeficiency. Lancaster, 1975; Textbook of immunology. Balt., 1984 (with E.R.Unanue).

**BENAVÉNTE-İ-MARTİNES** (Benavente y Martìnez) Xasinto (12.8.1866, Madrid – 14.7.1954, Madrid) – ispan dramaturqu. Nobel mükafatı laureatı (1922). Madrid Un-tində təhsil almışdır (1882–85). Əsərləri 1892 ildən çap olunmağa başlamışdır. "Məşhur adamlar" (1896) dramı ilə tanınmışdır. Satirik komediya ("Qubernator arvadı", 1901 və s.), psixoloji dram ("Payız qızılgülləri", 1905; "Ev sahibəsi", 1908 və s.), faciə ("Qadağan edilmiş sevgi", 1913), alleqorik və nağıl xarakterli pyeslərin ("Şahzadə Bebe", 1906; "Ulduzlu boyunbağı", 1915) müəllifidir. Ən məşhur əsəri *del arte komediyası* üslubunda yazdığı "Maraqlar oyunu" (1907) məzhəkəsidir. Onun davamı kimi "Şən və qayğısız şəhər" (1916) komediyasında cəmiyyətdəki qlobal böhranı təsvir etmişdir.



Ə s ə r l ə r i: Obras completas. Madrid, 1940–1958. Vol. 1–11.

**BENBÚ** (Banbu, Benpu) – Çinin ş.-ində, Anxoy əyalətində şəhər. Əh. 585 min (aqlomerasiyada 1288 min; 2006). Böyük Çin düzənliyində, Xuayxe çayı sahilindədir. Nəql. qovşağı. Aeroport. E.ə. 1-ci minilliyin əvvəllərindən məlumdur. B. Xuayxe hövzəsinin iri yükboşaltma (soya, çətənə, pambıq, oduncaq, çay, kömür) məntəqəsidir. K.t. xammalının emalı mərkəzidir. Əsasən, yeyinti sənayesi inkişaf etmişdir. Maşınqayırma, toxuculuq, şüşə, kimya, elektron sənayesi müəssisələri, tərsanə var. Yaxınlığında daş kömür hasil olunur.

**BENCƏDİD** Şadli (d.14.4.1929, Annaba ş. yaxınlığında) – Əlcəzairin siyasi və hərbi xadimi. Milli-azadlıq hərəkatının iştirakçısı olmuşdur. Milli Azadlıq Cəbhəsinin (MAC) baş katibi (1979 ildən); 1979 il, fevralın 7-ndən Əlcəzairin prezidenti olmuşdur. Dövlət müəssisələrinin özəlləşdirilməsinə şərait yaratmış, demokratik konstitusiyanın qəbul edilməsinə (1989, mart) və MAC-ın siyasi monopoliyasının ləğv olunmasına təsir göstərmişdir. 1992 ilin yanvarında Əlcəzairin hərbi dairələrinin təzyiqi ilə hakimiyyəti Ali dövlət şurasına təhvil verərək istefaya çıxmışdır.

**BENCMARK** (ing. benchmark) – hesablama sisteminin cəldliyini, kompyuterin və ya konkret bir proqram təminatının məhsuldarlığını müəyyən etmək üçün istifadə olunan standart test proqramı və ya paketi; bir qayda olaraq bir neçə tapşırıqlar kompleksindən ibarətdir. Prosessorun, Web-serverlərin, videoadapterlərin, fərdi kompyuterlərin məhsuldarlığını qiymətləndirmək, yoxlamaq və s. üçün test proqramları mövcuddur (13 tətbiqi proqram paketindən ibarətdir).

**BENÇ** – bax *Abrazion sahil.*

**BENDÉRI**, B e n d e r – Moldova Resp.-nın c.-ş.-ində şəhər. Əh. 110,2 min (2005). Dnestr çayında gəmi dayanacağı. D.y. qovşağı. 12 əsrdə genuyalılar tərəfindən qədim yaşayış məskəninin yerində qala kimi salınmışdır. 15 əsrdən Tigina (Tighina) qalası kimi *Moldova knyazlığının* tərkibində olmuşdur. 1538 ildə türklər zəbt edərək onu Bəndərabasi adlandırmışdır; sonralar B. adını almışdır. 1812 ildə Bessarabiyanın tərkibində Rusiyaya birləşdirilmişdir; 1818 ildən qəza şəhəri idi. 1918–40-cı illərdə Rumıniyanın (Tigina adı altında), 1940 ildən Moldaviya SSR-nin tərkibinə qatılmışdır. 1992 ildə Dnestryanı silahlı münaqişələr zonasında olmuşdur. B.-nın mərkəzində küçələrin 1810-cu illərin düzbucaqlı şəbəkə planı saxlanılmışdır. Abidələr sırasında – səkkizqülləli qala

Bender şəhəri. Səkkizqülləli qala.



(14 əsrdə genuyalılar inşa etmişdir, 1538–40-cı illərdə türklər qalanı dəyişdirmiş, 1705–38-ci illərdə genişləndirmişdir). Preobrajensk baş kilsəsi (1815–38, arximandri İoanikinin planı üzrə, divar rəsmləri A. Plamadyalındır, 1934), akad. L.S. Berqin evi (19 əsrin ortaları), Fiştenberqin evi (1890, indiki Tarix-diyarşünaslıq muzeyi; əsası 1914 ildə qoyulmuşdur), Flemmerin bağ evi (20 əsrin əvvəli) var. 1950–70-ci illərdə geniş tikinti işləri aparılmışdır (Çay vağzalı, 1977), A.S. Puşkinin heykəli (1984, heykəltəraş M.S. Altşeer). Rəsm qalereyası (əsası 1971 ildə qoyulmuşdur; Moldaviya rəssamlarının əsərləri saxlanılır). Gəmi təmiri z-du, ipək və konserv kombinatları, ayaqqabı f-ki var; elektrik aparatları, kabel istehsal olunur.

**BENDİDA** – Frigiya allahı. Attikada Böyük ilahə adlandırılır. Frigiyada ov ilahəsi B.-nın orqaistik kultu mövcud olmuşdur. Artemida ilə eyniləşdirilir.

**BENDİKS** (Bendix) Reynhard (25.2.1916, Berlin – 28.2.1991, Kaliforniya ştatı, Berkli) – Amerika sosioloqu. ABŞ-a 1938 ildə mühacirət etmişdir. 1943 ildə Çikaqo Un-tini bitirmiş, həmin un-tdə fəlsəfə doktoru dərəcəsini (1947) almışdır. 1947 ildən Kaliforniya (Berkli) Un-tində dərs demiş, 1956 ildən prof., 1958–61 illərdə sosiologiya fakultəsinin dekanı vəzifəsində çalışmışdır. Amerika Sosiologiya Assosiasiyasının (ASA) prezidenti (1970) olmuşdur.

B.-in tədqiqatlarında siyasət sosiologiyası, sosial stratifikasiya və müqayisəli-tarixi sosiologiya məsələləri əsas yer tutur. M. *Veberin* sosiologiya nəzəriyyəsinin şərhçisi kimi tanınmışdır. T. *Parsonsun* struktur funksionalizmini və tarixi materializmi tənqid etmiş, bütün cəmiyyətlərin eyni ardıcıl inkişaf mərhələlərini keçməsinin labüdlüyü ideyasını inkar etmişdir. B.-ə görə, hər bir ölkədə modernizasiya prosesi mövcud cəmiyyətin formalaşmasının tarixi şəraiti və mədəni ənənələri ilə bağlı spesifik xüsusiyyətlərə malikdir. B. 18 əsrin ortalarında İngiltərənin sənaye inkişafının, sonralar isə Fransa inqilab ideyalarının Avropanın digər ölkələrində sosial dəyişikliklərə təsir göstərdiyini qeyd etmişdir.

**BENDİQO** (Bendigo) – Avstraliyanın c.-unda, Viktoriya ştatında şəhər. Əh. 70 min (2003). Melburn ş. ilə d.y. əlaqəsi var. K.t. r-nunun mərkəzidir. Yüngül və yeyinti sənayesi var. 19 əsrin 50-ci illərində Avstraliya Alp d-rında qızıl sənayesinin inkişafı ilə əlaqədar salınmışdır.

**BENDZİN** (Bedzin) – Polşanın c.-unda, Sileziya voyevodalığında şəhər. Əh. 80 min (2003). Dombrova daş kömür hövzəsinin sənaye mərkəzidir. Maşınqayırma, əlvan metallurgiya, sement, ayaqqabı sənayesi, İES; qala (14 əsr) var.

**BENEDEN** Van (Van Beneden) – Belçika bioloqları, ata və oğul. Pyer Jozef (19.12.1809, Malin – 8.1.1894, Luven) – embrioloq. 1842 ildən Belçika EA-nın üzvü (1881 ildən onun prezidenti). Peterburq EA-nın əcnəbi m.üzvü (1869). Gent (1845 ildən) və Luven (1846 ildən) Un-tlərinin prof.-u olmuşdur. Əsas əsərləri onurğasızların embriologiyasına və parazitologiyaya, biologiyanın ümumi məsələlərinə (parazitizm, kommensalizm) aiddir.

Ə s ə r i: Memoire sur les vers intestinaux. P., 1858; О глистах. М., 1861.

E d u a r d (5.3.1846, Luven – 28.4.1910, Lyej) – histoloq və embrioloq. Peterburq EA-nın əcnəbi m.üzvü (1902), Lyej Un-tinin prof.-u (1870 ildən) olmuşdur. Əsərləri ibtidai heyvanların hüceyrə morfologiyası və embriologiyasına həsr edilmişdir. Hüceyrə mərkəzini (sentrozomu) kəşf etmiş və bununla əlaqədar mitoz nəzəriyyəsini təklif etmişdir. Askaridlərdə yumurtanın yetişməsi və mayalanmasını ilk dəfə təsvir etmişdir (1883). Mezozoa heyvanlarının yeni qrupunu müəyyənləşdirmişdir. 1880 ildə Belçika bioloqlarının mərkəzi orqanı olan "Bioloji arxiv" jurnalını təsis etmişdir.

**BENEDİKT** (Benedict) (qız soyadı Fulton) Rut (5.6.1887, Nyu-York – 17.9.1948, Nyu-York) – Amerika antropoloqu. Nyu-Yorkda Yeni sosial tədqiqatlar məktəbində, Kolumbiya un-tində F. *Boasın* sinfində (1919–23) təhsil almışdır. 1923 ildən Kolumbiya Un-tində dərs demiş, 1936 ildən antropologiya şöbəsinin icraçı direktoru işləmişdir. Serrano (1922), zuni (1924), koçiti (1925), pima (1926), qaraayaqlı (1939) hindiləri öyrənmişdir. B. 1930 illərdə ABŞ-da, sosial antropologiya ilə *psixoanalizin* qovuşuğunda təşəkkül tapmış, mədəni relyativizm və determinizm mövqelərini fərqləndirən "Mədəniyyət və şəxsiyyət" məktəbinin liderlərindən biridir. O, əsas əsəri olan "Mədəniyyət modelləri"ndə (1934) qeyd edirdi ki, hər bir mədəniyyətin müvafiq institutlara, normalara və ənənələrə malik unikal, ciddi təşkilati konfiqurasiya (model) yaradan əsas "mövzusu" və ya "etosu" var. Mədəni konfiqurasiyanın anlamına açar onun daşıyıcılarının psixologiyasındadır. B. mədəniyyət və şəxsiyyət izomorfizmi ideyasını irəli sürmüş, mədəniyyəti "zaman və məkanda nəhəng proporsiyalar əldə etmiş" fərdi psixologiya adlandırmışdır. B. nasizmə və irqçiliyə qarşı çıxışları ilə də tanınmışdır. "Amerika folkloru jurnalının" (1924–39) redaktoru, Nyu-Yorkda mədəniyyətlərarası tədqiqatlar İn-tunun banilərindən biri (1941), Amerika Antropoloji Assosiasiyasının prezidenti (1947) olmuşdur. B. 1943–46 illərdə ABŞ-ın Hərbi informasiya xidmətinin tapşırığı ilə yaponların milli xarakterini tədqiq etmiş, tədqiqatlarının nəticəsi olaraq "Payızgülü və qılınc" (1946) kitabını yazmışdır. 1946 ildə Kolumbiya Un-tinə qayıdan B. mədəniyyətlərin müqayisəli öyrənilməsi üçün beynəlxalq tədqiqatlar layihəsini işləyib hazırlamışdır. Bu layihənin təkmilləşdirilməsi istiqamətində işlər onun ölümündən sonra da (1951 ilə kimi) davam etdirilmişdir.

Ə s ə r i: Психологические типы в культурах Юго-Запада США // Антология исследований культуры. СПб., 1997, Т. 1.

**BENEDİKT XVI** (lat. Benedictus), Yozef Ratsinger (d.16.4.1927, Almaniya, Bavariya federal ərazisi, Marktl-İnn ş.) – Roma papası, katolik teoloqu. Jandarmeriya komissarı ailəsində anadan olmuşdur. 1943 ildə Almaniya Hava Hücumundan Müdafiə qoşunlarının köməkçi personalı bölməsinə; 1944 ildə Avstriya legionuna hərbi xidmətə çağırılmış, lakin döyüş əməliyyatlarında iştirak etməmişdir. 1945 ildə vermaxtdan fərarilik etmiş, lakin tanınaraq ələ keçmiş, bir neçə ay hərbi əsirlər üçün düşərgədə saxlanılmışdır. 1947 ildə Münxen Un-ti nəzdindəki İlahiyyat İn-tuna daxil olmuş, 1951 ildə keşiş rütbəsini almışdır. 1953 ildə teologiya üzrə namizədlik, 1957 ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1959 ildə Bonn Un-tində ilahiyyatşünaslıq kafedrasının prof.-u olmuşdur. 1977 ildə Münxen və Frayzinq arxiyepiskopu, eyni zamanda kardinal rütbəsinə yüksəlmişdir. 1982 ildə Vatikana köçmüş, 1993 ildə Roma yaxınlığındakı Velletri-Senyi ş.-nin yepiskopu rütbəsini almışdır. 1998 ildən Kardinallar kollegiyasının vitse-dekanı, 2002 ildən dekanı idi. Roma papası *II İoann Pavelin* ilahiyyat məsələləri üzrə baş məsləhətçisi olmuşdur. Başlıca əsərləri: "Həqiqət və dini dözümlülük", "Allah bizim yanımızdadır", "Allah və dünya", "Zamanın sonu?", "Xristianlığa giriş" və s. Roma papası II İoann Pavelin ölümündən (2.4.2005) sonra Roma papası seçilmişdir (19.4.2005).

XVI Benedikt.



**BENEDİKTÇİLƏR** (lat. benedictini) – katolik rahib ordeni; rəsmi adı müq. Benedikt ordenidir (lat. Ordo Sancti Benedicti). Geniş mənada Nursiyalı müq. Benediktin rahib nizamnaməsinə riayət edən rahibləri bildirir.

Təqr. 530 ildə müq. Benedikt Neapol yaxınlığında yerləşən Monte-Kassino dağında monastırın əsasını qoymuş və yazdığı nizamnamədə yoxsulluq, bakirəlik, itaətkarlıq kimi ənənəvi rahiblik əhdləri ilə yanaşı, rahiblik üçün "daimi yer" və "qapalı monastır" prinsiplərini də təsbit etmişdir. Nizamnaməyə görə, rahiblik həyatının başlıca elementi ibadətlə yanaşı fiziki əmək – "dua et və işlə" prinsipi olmalıdır. Bununla belə, müq. Benedikt rahiblərdən ifrat asketliyi tələb etmir, həm dini ayinlərin yerinə yetirilməsində, həm də əmək fəaliyyətində mötədilliyə çağırırdı.

*Karolinqlər* imperiyasında B. kilsə sisteminin dayaqlarından biri idilər. 787 ildə bərpa olunmuş Monte-Kassino abbatlığını ziyarət edən I Böyük Karl ordan müq. Benedikt nizamnaməsinin surətini götürmüşdür; nizamnamə Axen kilsə məclislərində (816, 817, 818–819) imperiyanın bütün monastırları üçün məcburi oldu. Karolinqlər dövründə B.-in maddi rifahının əsası qoyulmuş, onlar iri torpaq sahibkarlarına çevrilmiş, məhkəmə və vergi imtiyazları qazanmışlar.

Karolinqlərin süqutundan sonra 9 əsrin sonu – 10 əsrin əvvəllərində B. tənəzzül dövrünü yaşamışlar. Monastır islahatlarından sonra 10–12 əsrin əvvəllərində B. üçün ənənəvi olan bölgələrdə – Fransa, Almaniya, İngiltərə və İtaliyada monastırların sayı artmış, İspaniyada, Macarıstanda, Polşada, Çexiyada, Skandinaviyada yeniləri meydana gəlmişdir.

Maarifçilik, 18 əsr Fransa inqilabı və Napoleon müharibələri dövründə ordenin fəaliyyəti tənəzzül etdi. Fransada tamamilə (1792), Avstriyada, alman ərazilərində (1803), Portuqaliyada (1834), İspaniyada (1835) isə qismən B. monastırları ləğv olundu.

19 əsrin ortalarından başlayaraq bir sıra digər səbəblərlə yanaşı orta əsrlər dövrünə marağın artması Almaniyada, Fransada, İtaliyada, Şm. Amerikada B.-in yeni yüksəlişinə təkan verdi. 1952 ildə Roma papası XII Piy müq. Benedikt ordeninin bu günədək qüvvədə olan rəsmi nizamnaməsini təsdiq etmişdir: ordenin başçısı abbatlar konqresi tərəfindən 8 il müddətinə seçilən abbat-primasdır; iqamətgahı Romadakı Sant-Anselmo abbatlığındadır.

**BENEFİS** (fr. bénéfice – qazanc, xeyir) – bir və ya bir neçə aktyorun – benefisiantın xeyrinə verilən tamaşa; toplanan məbləğin hamısı (tam B.), yaxud bir hissəsi (yarım B.) benefisianta verilir (tamaşaya çəkilən xərci çıxmaq şərti ilə). 1735 ildə Fransada meydana gəlmişdir. Azərb.-da ilk B. 1889 ilə aid edilir. Yubiley və s. ilə əlaqədar verilən tamaşalar da B. adlanır.

**BENEFİSİ** (lat. beneficium – yaxşılıq, iltifat sözündən) – 1) Qədim Romada imtiyaz (məs, imperiya dövründə borclulara verilən müxtəlif vergi imtiyazları, imperatorların bəxşişi və s.). 2) Erkən orta əsrlərdə Qərbi Avropada hərbi və inzibati xidmətə görə, müəyyən möhlətə verilən və şərti bəxşiş (çox vaxt torpaq). Klassik B. Frank dövlətində *Karl Martellin* (730-cu illər) həyata keçirdiyi islahatlar zamanı yayılmağa başladı. Bu islahata görə əvvəllər maqnatların və drujinaçıların şərtsiz mülkiyyətinə verilən torpaq payları B. kimi, xüsusilə hərbi xidmət müqabilində ömürlük istifadəyə verilən və feodal sinfinin torpaq münasibətlərini qanuniləşdirən bəxşişlə əvəz olundu. Bu B.-lər bağışlanmış torpaqlarda yaşayan kəndlilərin torpaq sahiblərindən asılılığını artırdı və ixtiyarın tamamilə hakim hərbi-siyasi sinfin əlinə keçməsinə gətirib çıxardı. B. feodal iyerarxiyası pillələrinin iqtisadi əsası oldu. Benefisiarlar tədricən B.-nin ömürlük bəxşişdən irsi feodal mülkiyyətinə – feoda(len) çevrilməsinə nail oldular. B. ərəb ölkələrində *iqtaya* (irsi xarakter əldə edənədək) yaxındır. 3) Katolik kilsəsində gəlirli vəzifə.

**BENEFİSİAR**, b e n e f i s i a r i (ing. beneficiary, lat. beneficium – xeyirxahlıq) – təsisçisi tərəfindən trastın (etibar olunmuş mülkiyyətin) və ya əmlakın istifadəsindən gəlir götürən qismində göstərilmiş şəxs; pul alan, əmanətçi. Müasir dövrdə vəsiyyətnaməyə görə varis; sığorta polisinə görə ödəniş alan; xeyrinə akkreditiv açılan şəxs; veksel, pul köçürmələri, əmanətlərə görə pul alan; renta alan; zaminin zəmanətə görə qarşısında məsuliyyət daşıdığı şəxs; maliyyə resurslarının himayədar tərəfindən xeyrinə idarə olunan şəxslər B. adlanır.

**BENEKE** Fridrix Eduard (17.2.1798, Berlin – 1.3.1854, Berlin) – alman psixoloqu və pedaqoqu. Özünüdərk faktlarının təhlilinə əsaslanan empirik psixologiyanı aparıcı psixologiya elmi hesab edirdi. İ.F. *Herbartın* ardınca mücərrəd ruhi qabiliyyətlər nəzəriyyəsini tənqid edərək göstərirdi ki, psixologiya ruhi hadisələri qarşılıqlı əlaqədə tədqiq etməklə onların yaranmasının əsas qanunauyğunluqlarını aşkara çıxarmalıdır. Pedaqogikanı tətbiqi psixologiya kimi nəzərdən keçirərək qeyd edirdi ki, təlim və tərbiyənin məqsəd və vəzifələri psixi məhsul və formaları düzgün inkişaf etdirməkdir.

Ə s ə r l ə r i: Schriften zur Psychologie und Pädagogik / Hrsg. N. Barelmann. B., 1986.

**BENEŞ** (Beneš) Eduard (28.5.1884, Çexiya, Kojlani – 3.9.1948, Çexiya, Sezimovo-Usti) – Çexoslovakiyanın siyasi və dövlət xadimi. Praqa Un-tində və Fransada hüquq və fəlsəfə üzrə təhsil almışdır. T. *Masarikin* tərəfdarı olmuş, müstəqil Çexoslovakiya dövləti yaratmaq ideyası uğrunda Avstriya əleyhinə hərəkatda iştirak etmişdir. 1915–18 illərdə Parisdə yaradılan Çexoslovakiya milli şurasının baş katibi olmuşdur. *Kiçik Antantanın* (1920) yaradıcılarından biridir. 1921–22 illərdə Çexoslovakiyanın baş naziri, 1935–38 illərdə prezidenti olmuşdur. B., *Münxen sazişinin (1938)* şərtlərini qəbul etmək məcburiyyətində qalmışdır. 1938 ilin oktyabrında Çexoslovakiyanın parçalanmasından sonra istefa verərək mühacirətdə olmuş, İkinci dünya müharibəsinin əvvəlində Çexoslovakiya demokratik Müqavimət Hərəkatına başçılıq etmişdir. 1939 ildə B.-in rəhbərliyi altında Parisdə Çexoslovakiya Milli Şurası, 1940 ildə isə onun əsasında Londonda Çexoslovakiya hökuməti və Dövlət Şurası təşkil edildi; B. Çexoslovakiyanın mühacirətdəki prezidenti oldu. 1945 ilin mayında B. Praqaya qayıtmış və 1946 ildə keçirilən seçkilərdə yenidən prezi-

dent seçilmişdir. 1948 ilin iyun ayında vəzifəsindən istefa vermişdir.

**BENEVENTO** – Cənubi İtaliyada, Kampaniya vil.-ndə şəhər. Benevento əyalətinin inz. m. Əh. 61,7 min (2005).

Qədimdə Malevent (Maleventum) adını daşımış və *samnitlərin* tayfa mərkəzi olmuşdur. E.ə. 275 ildə romalılar Malavent yaxınlığında çar *Pirrin* ordusunu darmadağın etmişlər. E.ə. 268 ildən Beneventa (Beneventum) adı ilə Roma koloniyası olmuşdur. Eramızın 395 ilində Qərbi Roma imperiyasının tərkibinə qatılmışdır. 489 və 545 illərdə ostqotlar, 536 və 552 illərdə Bizans tərəfindən zəbt edilmişdir. Lanqobardlar tərəfindən tutulmuş B. 571 ildə eyniadlı hersoqluğun paytaxtı olmuşdur. İtaliyanın I *Karl* tərəfindən tutulmasından (774) sonra (1077 ilədək) eyniadlı knyazlığın baş şəhəri olmuşdur. 969 ildə B.-da arxiyepiskopluq yaradılmışdır. 1051 ildə *normanların* işğalı təhlükəsinə qarşı B. knyazlığının sakinləri papanın ali hakimiyyətini qəbul etdilər (1077 ildə hakim VI Landolfun ölümündən sonra knyazlığa son qoyuldu). 1798 ilədək B. papa hakimiyyətində, 1798–1805 illərdə Neopolitan krallığının tərkibində, 1806–15 illərdə Ş.M. *Taleyranın* nominal hakimiyyətindəki hersoqluğun paytaxtı idi. 1816–60 illərdə yenidən papanın, 1860 ildən Sardiniya krallığının, 1861 ildən İtaliya krallığının hakimiyyəti altında olmuşdur.

Memarlıq abidələri: Trayan tağı (Porta Aurea adlanan, 114), Qədim Roma Adrian teatrının xarabalıqları (2 əsr), Müq. Sofiya kilsəsi ilə Benedikt monastırı, (8 əsr; 17 əsrdə yenidən qurulmuş, 1950-ci illərdə bərpa edilmişdir; apsidada freska fraqmentləri) və kluatro (12 əsr; roman heykəltəraşlığının bəzək fraqmentləri), baş kilsə (13 əsr).

Yeyinti sənayesi; tikinti materialları, k.t. maşınları istehsalı var.

**"BENFİKA"** ("Benfica") – Lissabonun portuqal futbol klubu, dünyanın ən güclü komandalarından biri. Əsası 1904 ildə qoyulmuşdur. Oyunlarını "Da Luş" (85 minə yaxın tamaşaçı) stadionunda keçirir. 34 dəfə Portuqaliya (1930–2005) çempionu, iyirmi yeddi dəfə ölkə Kubokunun (1939–2004), Avropa çempionlar Kubokunun (1961, 1962) qalibi olmuşdur. 1960–75 illərdə "Benfika" klubunda əfsanəvi hücumçu Eysebio çıxış etmişdir. Klubun tarixində başqa məşhur futbolçular K. Kanidja (Argentina), R. Koşta, B. Nene, F. Şalana, K. Umbertu. Ən yaxşı məşqçiləri B. Quttman (Macarıstan), A. Jorje, C. Trapattoni (İtaliya).

**BENGELA** (Benguela) – Anqolanın q.-ində şəhər. Bengela əyalətinin inz. m. Əh. 151, 2 min (2005). Atlantika okeanı sahilində yerləşir. Port (əsasən, filiz xammalı daşınır). Transafrika magistralı B.-nı Lobitu (B.-dan şm.-da) və Beyra (Mozambik) portları ilə birləşdirir. Aeroport. Şəhər 1617 ildə Portuqaliya faktoriyası kimi 1587 ildə tikilmiş qalanın ətrafında salınmışdır (Afrikadakı müstəmləkə qalalarından ən yaxşı qalanlarından biridir). 18 əsrdə qul ticarətinin mərkəzi olmuşdur; B. vasitəsilə qullar Brazildiyaya göndərilirdi. Milli arxeologiya muzeyi var.Yeyinti (şəkər, balıq konservləri, balıq unu və yağı istehsalı, balıqqurutma), sabunbişirmə, kimya, toxuculuq sənayesi müəssisələri, neft emalı z-du; tərsanə var.

**BENGELA AXINI** – Atlantika okeanında soyuq səth axını; Cənubi Afrikanın q. sahilləri boyu c.-ş.-dən şm.-q.-ə axır; *Qərb Küləkləri axınının* şm. qolu. Suyun səthdə temp-ru yayda 19°C-dən (c.-da) 26°C-yədək (şm.-da), qışda uyğun olaraq 15°C-dən 22°C-yədəkdir. Sahil zonasında *apvellinqin* təsirindən suyun temp-ru yayda 15°C-dən, qışda 12°C-dən aşağı düşür. Axının sürəti 0,9 *km/saata* qədərdir. B.a. biogen elementlərlə zəngin dib sularını səthə çıxarmaqla Atlantika okeanının c. hissəsinin okeanoqrafiyasında mühüm rol oynayır.

**BENXA** – Misirin şm.-ında şəhər. Kalyubiya mühafazasının inz. m. Əh. 167 min (2005). Nilin deltasında Dumyat qolunun sağ sahilindədir. Nəql. qovşağı. E.ə. 16 əsrdən Ətribis adı ilə məlumdur. Un-t, Ali texnologiya in-tu var. Şəhər k.t. (taxıl, pambıq, yağlı bitkilər) r-nunun mərkəzidir. Yüngül, yeyinti (o cümlədən yağ z-dları), elektron sənayesi, pambığın ilkin emalı müəssisələri var. Gül yağı istehsal olunur.

B.-nın yaxınlığında *II Ramses* və *XII Ptolemey* dövrünə aid Qədim Misir məbədlərinin (sonradan Roma dövründə yenidən tikilmişdir), imperator Valentə aid tetra-pilonun, *Ptolomeylər* dövrünə aid ağ mərmərdən heykəlləri olan villanın, Roma hamamlarının, erkən Ptolemeylər dövrünün hərbi düşərgəsinin, xristian bazilikasının qalıqları qalmışdır. B.-dan şm.-da I Psammetixin arvadı çariça Taxtın sarkofaqı aşkar edilmişdir.

**BENİ** – Boliviyanın şm.-ında çay. Uz. təqr. 1500 *km*, hövzəsinin sah. 266 min $km^2$. And d-rından başlanır. Yuxarı axını yüksək yayla və silsilələri dərin dərələrlə kəsir, astanalı və şəlaləlidir. Aşağılarda Amazon ovalığının kənarı ilə axır, meandrlıdır. Əsasən, yağış suları ilə qidalanır. Dekabr–may aylarında daşqınlar olur. Aşağı axınında ortaillik su sərfi 6200 $m^3/san$. Rurrenabake ş.-ndən Esperansa şəlaləsinədək 800 *km* məsafədə gəmiçiliyə yararlıdır. Mamore çayı ilə qovuşub Madeyra çayını (Amazonun ən iri sağ qolu) əmələ gətirir.

**BENİ** – Boliviyanın şm.-ş.-ində departament. Sah. 213,6 min $km^2$, əh. 362,5 min (2001). İnz. m. Trinidad ş.-dir.

Beni çayı.







**BENİQNO** Simeon Koxuanko III Akino (d. 8.2.1960, Manila) – Filippin dövlət və siyasi xadimi. *Akino* Korasonun oğludur. Liberal partiyanın baş katibi olmuşdur; hazırda partiyanın sədr müavinidir. B. Liberal partiyanın namizədi kimi 2010 il mayın 10-da keçirilən seçkilərdə səs çoxluğu qazanaraq Filippin prezidenti seçilmişdir.

**BENİLYUKS** – Belçika, Niderland və Lüksemburqun gömrük-iqtisadi ittifaqı. 1958 ildə daxili gömrük rüsumlarının ləğvi, vahid daxili rüsumların qəbulu, dolayı vasitəli vergiyə cəlbetmə sahəsinin və daxili maliyyə siyasətinin uyğunlaşdırılması, əlaqələndirilməsi məqsədilə yaradılmışdır. İttifaqın adı üzvölkələrin adlarının ilk hərflərindən götürülmüşdür.

**BENİN** – 13–19 əsrlərdə Qərbi Afrikada, indiki Nigeriya ərazisində mövcud olmuş dövlət. *Binilər* tərəfindən yaradılmış dövlətə "B." adını 15 əsrdə ölkəyə gələn portuqallar vermişlər. B.-in ilk hökmdarı I Evekin hakimiyyət dövrü tarixi ənənəyə görə 12 əsrin sonu – 13 əsrin əvvəllərinə aiddir. Dövlətin paytaxtı inkişaf etmiş sənətkarlıq sənayesi və saray incəsənəti mərkəzi olan Benin ş. (indiki *Benin-Siti*) idi; burada zəngin bəzədilmiş və möhkəmləndirilmiş hökmdar sarayı yerləşirdi.

B. ərazisi ən qüdrətli dövründə (15–17 əsrlər) q.-də *Laqosa*, ş.-də Niger çayının aşağı axarlarına, c.-da isə Atlantika okeanının sahillərinədək genişlənmişdi. B. hökmdarları güclü nizami orduya malik idilər. Xidmətləri müqabilində hökmdar yaxınlarına ömürlük kəndlər bağışlayır və onları işğal olunmuş torpaqların hakimləri təyin edirdi. Hakimlər vergilərin toplanmasına və xəzinəyə çatdırılmasına nəzarət etməklə hökmdarla kənd icmaları arasında vasitəçi rolunu yerinə yetirirdilər. Şəxsi azadlığı olan kənd icması üzvlərinin istehsal vasitələri və ev qulları var idi. B.-in iqtisadiyyatının əsasını qırılıb-yandırılmış ərazilərdə toxa əkinçiliyi, sənətkarlıq sahələri, qul ticarəti təşkil edirdi. 15 əsrdən B. qulların avropalılara satışını dövlətin gəlir mənbəyinə çevirdi. 1486 ildə portuqallar B.-də ticarət faktoriyası yaratdılar; avropalılarla ticarət hökmdarın inhisarına çevrildi. B. qul, fil sümüyü, yerli parça və ədviyyat müqabilində odlu silah, qiymətli əşyalar və s. mallar alırdı. B.-də qul ticarətinin genişlənməsi ölkə daxilindəki siyasi vəziyyətin və qonşu Afrika dövlətləri ilə münasibətlərin kəskinləşməsinə səbəb oldu; bu, 18 əsrin 1-ci yarısında uzunmüddətli müharibənin başlamasına gətirib çıxardı. Üsyanlar və müharibələr nəticəsində zəifləmiş B. 19 əsrdə ingilislər tərəfindən işğal olundu.

B.-in memarlığı böyük şəhər olan paytaxtın təsvirindən məlumdur: hündür torpaq sədd və dərin xəndəklə əhatə olunmuş şəhərin düzbucaq altında kəsişən enli küçələrində taxta və gil möhrədən evlər inşa olunmuşdu. Paytaxtın c.-q. hissəsində ətrafına hündür divar çəkilmiş hökmdar sarayından, dirəkləri tunc relyeflərlə bəzədilmiş açıq eyvanların əhatə etdiyi bir neçə daxili həyətdən ibarət böyük memarlıq kompleksi yerləşirdi. B.-in təsviri sənəti 13 əsrin sonlarında meydana gəlmiş və "unudulmuş mum" texnikasında işlənilmiş tunc heykəllərlə təmsil olunur: əcdadların kultu ilə bağlı hünd. 50 *sm*-ədək olan başlar ("uxuv elao") – ana kraliçanın başı (16 əsr) və hökmdarın başı (18 əsr); hökmdar sarayını bəzəyən, üzərində saray mərasimlərinin (Antropologiya və Etnoqrafiya Muzeyinin kolleksiyasından relyeflər, S.-Peterburq), ov səhnəsinin (Xalqşünaslıq Muzeyinin kolleksiyasından relyef, Berlin), heyvanların qorelyefli təsvirləri olan taxta lövhələr ("ama"); əyanların, döyüşçülərin (bəzən atlı və qrup şəklində, hünd. 60 *sm*-ədək) kiçik heykəlləri. Fil sümüyü üzərində oyma sənəti də inkişaf etmişdi: üzərində relyefli təsvirlər olan fil dişi, kiçik asma maskalar (ana kraliça İdiyanın təsviri olan asma maska, 16 əsr, Britaniya muzeyi, London), bilərziklər.

B. təsviri sənəti 3 mərhələyə ayrılır: 1) *İfe* incəsənətinin təsirilə formalaşan 13 əsrin sonu – 14 əsr B. incəsənəti; 2) 15–16 əsrlər: yüksəkkeyfiyyətli tökmə üsulu ilə səciyyələnən, zərif döymə ornamentli B. heykəltəraşlığının çiçəklənmə dövrü; şərti portret obrazlarının yayılması; 3) 17 əsr – 19 əsrin sonu fil dişi üzərində oyma, sarayları bəzəmək üçün tünc lövhələrin meydana gəlməsi; 18 əsrin ortalarından "təmtəraqlı portretlərdə" dekorativliyin və üslublaşdırmanın güclənməsi; tökmə üsulu ilə hazırlanmış əşyaların keyfiyyətinin tədricən pisləşməsi; ənənəvi nümunələrin bəsitləşməsi və çoxaldılması.

**BENİN**, B e n i n   R e s p u b l i k a s ı (Republique du Benin).

**Ümumi məlumat.** Qərbi Afrikada, Qvineya körfəzi sahilində dövlət. Şm.-da Niger, ş.-də Nigeriya, q.-də Toqo, şm.-q.-də Burkina Faso ilə həmsərhəddir. Sah. 112,7 min $km^2$. Əh. 7,1 mln. (2006). Paytaxtı Porto-Novo ş.-dir (prezidentin və hökumətin iqamətgahı Kotonu ş.-ndədir). Rəsmi dil fransız dili, pul vahidi






Afrika frankıdır. İnzibati cəhətdən 12 dep.-tə bölünür.

B. BMT-nin (1960), Afrika İttifaqının (1963), Qərbi Afrika İqtisadi Birliyinin (1975), Həmrəylik Şurasının (1959), Ümumi Afrika-Mavriki Təşkilatının (1961), ÜTT-nin (1996), BVF-in (1963), BYİB-nin (1963) üzvüdür.

**Dövlət quruluşu.** B. unitar dövlətdir. Konstitusiyası 2.12.1990 ildə qəbul edilmişdir. İdarəetmə forması prezident respublikasıdır.

Dövlətin və icraedici hakimiyyətin başçısı birbaşa ümumi səsvermə yolu ilə 5 il müddətinə seçilən prezidentdir (bir dəfə yenidən seçilmək hüququ ilə). Doğulandan B. vətəndaşı olan, yaxud vətəndaşlığı 10 ildən az olmayan, yaşı 40-dan az və 70-dən çox olmayan şəxs konstitu-



**İnzibati ərazi bölgüsü (2006)**

| Regionlar və əyalətlər | Sahəsi, $km^2$ | Əhalisi, min *nəfər* | İnzibati mərkəzi |
|---|---|---|---|
| Alibori | 25,7 | 356,0 | Kandi |
| Atakora | 20,5 | 400,6 | Natitinqu |
| Atlantika | 3,2 | 929,3 | Vida |
| Borqu | 25,3 | 831,8 | Paraku |
| Donqa | 10,7 | 395,4 | Cuqu |
| Kollin | 13,6 | 629,9 | Savalu |
| Kuffo | 2,4 | 572,9 | Aplahue |
| Littoral | 0,08 | 701,1 | Kotonu |
| Mono | 1,4 | 387,3 | Lokosa |
| Plato | 2,8 | 445,5 | Ketu |
| Veme | 1,9 | 788,5 | Porto-Novo |
| Zu | 5,1 | 639,3 | Abomey |

siyada müəyyən edilmiş bir sıra məhdudiyyətlər (o cümlədən tibbi yoxlama) nəzərə alınmaqla prezident seçilə bilər. Prezident hökumətə başçılıq edir, onun üzvlərini təyin və fəaliyyətlərinə rəhbərlik edir. Müdafiə şurasına başçılıq edən prezident silahlı qüvvələrin ali baş komandanıdır və s. Qanunverici hakimiyyətin ali orqanı birbaşa ümumi səsvermə yolu ilə 4 il müddətinə seçilən, 83 deputatdan ibarət birpalatalı Milli məclisdir. Onun qanunvericilik fəaliyyəti konstitusiya ilə sərt məhdudlaşdırılmış və dəqiq müəyyən olunmuş səlahiyyət predmetlərinə (məs., mülki hüquqlar və əsas zəmanətlər, prezident seçkiləri qaydası və s.) aiddir.




İcraedici hakimiyyəti hökümət həyata keçirir.

B.-də çoxpartiyalı sistem fəaliyyət göstərir; əsas siyasi partiyalar: Beninin gələcəyi uğrunda ittifaq, İnkişaf və tərəqqi uğrunda Afrika hərəkatı, Beninin dirçəlişi partiyası, Demokratik dirçəliş partiyası.

**Təbiət.** Relyef. B. ərazisinin çox hissəsini yüksəklik (hünd. 400 *m*-ə qədər), şm.-q.-ini Atakora d-rı (hünd. 641 *m* – ölkənin ən hündür nöqtəsi) tutur. Ucqar şm.-ş.-də və şm.-q.-də Niger və Pencari çay vadiləri boyunca alçaq düzənliklər uzanır. B.-in c.-u sahilboyu akkumulyativ ovalıqdan ibarətdir. Benin körfəzi (Qvineya körfəzinin bir hissəsi) sahili boyu uz. 125 *km*-ə, hünd. 4 *m*-ə çatan və körfəzi materik yamacından ayıran bənd uzanır. Materik yamacı kiçik körfəzlərlə parçalanmışdır.

Geoloji quruluş və faydalı qazıntılar. B.-in ərazisi qədim Afrika platformasının q.-ində, əsasən, Son Kembriyə qədər yaşlı metamorfik bünövrənin səthə çıxdığı vil.-də yerləşir. Proterozoyun sonunda Panafrika tektogenez epoxasında tektonotermal təsirə məruz qalmış Erkən Kembriyə qədər yaşlı süxurlar (kristallik şist, qneys, mərmər, amfibolit) geniş yayılmışdır; qranitoid çıxışları var. Ölkənin şm.-q.-ini Son Proterozoyun kvarsitlərdən və gil şistlərindən ibarət qırışıqlıq sistemi, şm.-ş.-ini Mezokaynozoy yaşlı çöküntü süxurları ilə örtülmüş metamorfik bünövrə, c.-unu Kaynozoyun dayaz dəniz çöküntüləri tutur. Faydalı qazıntıları: neft (Benin körfəzində), dəmir və fosforit filizi yataqları (ölkənin şm.-ında). Mis, qalay, qızıl və nadir metalların təzahürləri ölkənin mərkəzində və q.-indədir.

İqlim. İqlimi c.-da ekvatorialdır; iki yağışlı (mart–iyul, sentyabrın sonu – noyabrın əvvəli) və iki nisbətən quraq mövsümlərlə müşayiət olunur. Yağıntının illik miqdarı 1300 *mm*; orta illik temp-r 27°C-dir. B.-in qalan ərazisində subekvatorial iqlim hakimdir. Dekabr–may ayları quraqlıq, iyun–noyabr ayları yağışlıdır. İllik yağıntının miqdarı 1000 *mm*-dən 600 *mm*-ə (ucqar şm.-da) qədərdir. Yanvarda orta temp-r 25°C, iyulda 30°C-yədəkdir. Şm. və mərkəz r-nlarında dekabrdan martadək Böyük Səhradan quru və isti şm.-ş. küləkləri əsir, çoxlu toz və qum gətirir.

Daxili sular. B.-in əsas çayı Vemedir (uz. 450 *km*). 200 *km* məsafədə gəmiçiliyə yararlıdır, bataqlıqlaşmış uzun delta əmələ gətirir. Kiçik çaylarından Mono və Kuffo c.-q.-də, Niger çayının sağ qolları Mekru, Alibori, Sota və s. şm.-ş.-dədir. Pencari və Kara çayları (şm.-q.-də) Volta çayı hövzəsinə aiddir. Atakora d-rı B. ərazisində əsas suayırıcı silsilədir.

Ölkənin illik daxili su ehtiyatı 18 $km^3$-dir (2003). Bunun 1%-i sənayenin, k.t.-nın, kommunal-məişət təsərrüfatının tələbatına sərf olunur. Adambaşına illik su təminatı 3700 $m^3$-dir.

Torpaqlar, bitki örtüyü və heyvanlar aləmi. Yalnız çay dərələri boyunca kiçik sahələrdə qalmış yerli yarpağıtökülən-həmişəyaşıl rütubətli meşələrin yerində sahilyanı ovalıqda, qırmızı-sarı ferrallitli torpaqlarda bitən kokos və yağ palması, tik ağacı və anakardiumdan ibarət süni əkinlər yerləşir. B. ərazisinin böyük bir hissəsində qırmızı ferrallitli torpaqlarda bitən yarpağıtökülən park meşələri və hündürotlu savannalar vardır. Tez-tez baş verən yanğınlara davamlı, yaxud təsərrüfat cəhətdən qiymətli olduncağı olan ağaclar, o cümlədən yağ ağacı karite, buynuz-meyvəli ağac, pambıq ağacı, neştərşəkilli lofira və s. üstünlük təşkil edir; pennissetum cinsindən olan taxıl bitkiləri, daşdayan, darı sıx örtük əmələ gətirir. Çay dərələrində hündür xlorofora, kaya, yağ palması ağaclarından ibarət meşələrə rast gəlinir. B.-in şm. hissəsində ferrumlu torpaqlarda daşdayan və temeda cinslərinə aid taxıl bitkiləri ilə başdan-başa örtülmüş tipik savannalar, kiçik meşələr və dum palması, yağ ağacı karite, kombretum və s.-dən ibarət ibarət ağac qrupları yayılmışdır. Ucqar şm.-ş.-də qırmızı-qonur torpaqlarda daha quraq akasiya savannaları yerləşir.

B. savannalarında bir neçə növ antilop, iri yırtıcılardan şir, panter, hepard yaşayır. Serval, çaqqal, kaftar, fil və camışa rast gəlinir. Sahilyanı sularda naxa, tilapi və s. balıq növləri yaşayır. B.-də ümumi sahəsi 1,2 mln. *ha* olan 5 mühafizə edilən təbii ərazi, o cümlədən Dubl-Ve və Pencari milli parkları vardır.

**Əhali.** B. əhalisinin böyük əksəriyyətini *Niger-Kordofan dillərində*: c.-da *kva dillərində* (*fon* – B. əhalisinin 26%-i, aca – 6,3%-i, qun 6,2%-i, aizo – 4,2%-i, gen – 2,4%-i, vaçi – 2,2%-i və s.); şm.-da *qur dillərində* (*barba* – 7,2 %-i, somba – 2,5%-i, pila – 1,1%-i və s.); mərkəzi r-nlarda *benue-Konqo dillərində* (*yoruba* – 6,7%-i, naqo – 3,7%-i, anna – 1,7%-i, kabe – 1,7%-i); *Atlantika dillərində* (*fulbe* – 4,7%-i), *mande dillərində* (busa – 1,3%-i və *manden* – 0,1%-i) danışan xalqlar təşkil edir. Digər etnik qruplardan *sonqay dillərində* (dendi – 0,6%-i və s.) və *Çad dillərində* (*hausa* – 0,3%-i) danışan xalqlar var (2000).

Əhalinin orta illik artımı 2,8%-dir; doğum səviyyəsi 1000 nəfərə 42 nəfər, ölüm səviyyəsi 1000 nəfərə 14 nəfər, uşaq ölümü 1000 nəfər diri doğulan uşağa 85 nəfərdir (2004). Fertilliyin göstəricisi 1 qadına 5,9 uşaqdır. Əhalinin yaş tərkibi: 14 yaşadək – 46,5%, 15–64 yaş arası – 51,2%, yaşı 65-dən çox olanlar – 2,3%-dir. Əhalinin orta yaş həddi 16,6 ildir. Orta ömür müddəti 50,5 ildir (kişilərdə 50; qadınlarda 51 ildir). 100 qadına 98 kişi düşür. Əhalinin orta sıxlığı 1 $km^2$-də 65 nəfərdir. Əhalinin 31%-i şəhərlərdə yaşayır. İri şəhərləri: Kotonu (691 min nəfər), Abomey-Kalavi (386 min nəfər), Porto-Novo (234 min nəfər), Cuqu (203 min nəfər), Paraku (164 min nəfər; 2005). İqtisadi sahədə işləyənlərin sayı 3 mln. nəfərdən çoxdur, onların təqr. 70%-i k.t.-nda çalışır (2000-ci illərin əvvəlləri). B. əhalisinin 50%-indən çoxu yerli ənənəvi etiqadlarını saxlayır; xristianlar əhalinin təqr. 30%-ini, müsəlmanlar təqr. 20%-ini təşkil edir. İyeqova (Yəhva) şahidlərinin icmaları da var.

**Tarixi oçerk.** B. ərazisində insanların olmasını sübut edən ən qədim abidələr Aşöl dövrünə aiddir. Bu abidələri "Afrikanın Orta Daş dövrünə" aid olan sanqo mədəni vil.-nin abidələri əvəz edir. İndiki B. ərazisinin qurmalar (ölkənin şm., şm.-q. hissələri), barbalar (ş. hissəsi), fonlar və acaların (d. hissəsi) əcdadları tərəfindən məskunlaşması Neolit dövrünə təsadüf edir. Dəmir dövründə *İfe* abidələri və bu sivilizasiyanın təsirinə məruz qalan mədəniyyətlər üçün səciyyəvi tikililərdən (keramika ilə döşənmiş) ibarət yaşayış məskənləri (Ketu və s.) məlumdur. 15–19 əsrlərdə indiki B. dövlətinin şm.-ş.-ində və qismən Nigeriyada Bariba erkən dövlət qurumu mövcud olmuşdu. 16–17 əsrlərdə Allada (Böyük Ardra), ondan q.-də Vida, ş.-də Acaçe (Porto-Nova), c.-da *Dahomeya* dövlətləri meydana gəldi. 18–19 əsrlərdə B. ərazisi qonşu dövlətlərlə işğalçı müharibələr nəticəsində genişlənmişdi. Əhali ovçuluq, balıqçılıq, toxa əkinçiliyi, dəmir və misin emalı, dulusçuluq, zərgərlik və toxuculuqla məşğul olmuşdur. 15 əsrdə B.-in sahilboyu ərazilərinə portuqallar, sonralar isə (16–17 əsrlər) ingilis, fransız və Niderland tacirləri gəlmişlər. 17 əsrin sonlarından Dahomeya Qərbi Afrikada əsas qul ticarəti mərkəzi olmuşdu. Ölkənin sahilyanı əraziləri Qul Sahili adlandırıldı. 1880-ci illərin sonlarında Fransa indiki B.-in böyük hissəsində öz protektoratını yaratdı. 1892–93 illərdə fransız qoşunları Dahomeyanı zəbt edərək onu müstəmləkə kimi Fransa Qərbi Afrikasının tərkibinə daxil etdi. İnzibati mərkəzi Porto-Novo ş. oldu, Katonuda iri port tikildi və sahil boyunca uz. 438 *km* olan d.y. çəkildi.

Birinci dünya müharibəsi illərində müstəmləkə əhalisinin müstəmləkəçilərə



Porto-Novo şəhərindən görünüş.



Atakora dağları.



Pencabi Milli Parkı.

qarşı mübarizəsi 1916–17 illərdə üsyançı hərəkata çevrildi. Hərəkatın rəhbərləri Avropada təhsil almış dahomeyalılar idi. Onlardan biri L. Unkaren 1910 ildə yaradılmış Fransa insan hüquqları cəmiyyətinin yerli şöbəsinə rəhbərlik edirdi.

İkinci dünya müharibəsindən sonra milli-azadlıq hərəkatının yüksəlişi Fransanı Dahomeyaya Milli assambleya yaratmaq və Fransa birliyinin tərkibində "dənizaşırı ərazi" kimi Fransa parlamentində təmsil olunmaq hüququnu verməyə vadar etdi. İlk siyasi partiyalar məhəlli-etnik prinsiplər əsasında formalaşmışdı. Onların proqramları əsasən, müsəlman şimalı və katolik cənubu arasındakı dini ziddiyyətlərə görə bir-birindən fərqlənirdi. Müstəmləkəçilik əleyhinə hərəkatda İkinci dünya müharibəsindən sonra yaranan həmkarlar ittifaqları fəal iştirak edirdi. Ölkədəki azadlıq hərəkatının və müstəmləkəçilik əleyhinə Ümumafrika mübarizəsinin təzyiqi ilə Fransa 1960 il iyulun 11-də Dahomeyanın müstəqilliyini tanıdı. 1960 il avqustun 1-də Dahomeya müstəqilliyini bəyan edərək Fransa birliyindən çıxdı. 1960 ilin noyabrında konstitusiya qəbul olundu, dekabrında prezident və parlament seçkiləri keçirildi. Ölkənin ilk prezidenti Y. Maqa oldu. Onun prezidentliyi dövründə hakimiyyətin birpartiyalı sistemi yaradıldı, müstəqil həmkarlar ittifaqları buraxıldı, qiymətlər və işsizlik artdı, iqtisadi vəziyyət pisləşdi, antidemokratik qanunlar qəbul edildi. Bu dövrdə Fransadan faktiki asılılıq qalmaqda idi. Y. Maqanın başçılığı ilə dövlət rəhbərliyinin xalq əleyhinə siyasəti ölkədə siyasi böhrana gətirib çıxardı. 1963 ilin oktyabr ayında hərbi dairələri təmsil edən ordu qərargahının rəisi polk. Kristof Soqlo hakimiyyəti ələ keçirdi. 1965 ilin noyabrında o, prezident səlahiyyətlərini öz üzərinə götürdü, lakin siyasi sabitliyə və iqtisadi problemlərin həllinə nail ola bilmədi. 1967 ilin dekabrında gənc zabitlər Soqlonu hakimiyyətdən uzaqlaşdırdılar. 1968 ildə keçirilən prezident seçkilərində seçicilər hərbi xuntanın namizədlərini dəstəkləmədilər, keçmiş xarici işlər naziri E. Zinsu prezident oldu. Mülki hökumət formalaşdırıldı. 1969 ildə yeni hərbi çevriliş baş verdi. Zinsu ölkədəki bütün hakimiyyəti öz əlinə alan hərbi direktorat tərəfindən vəzifəsindən kənarlaşdırıldı. 1970 ildə prezident və parlament seçkiləri keçirildi, Milli birlik hökuməti – Prezident şurası formalaşdırıldı. Lakin yeni hakimiyyət etnik, sosial-iqtisadi və məhəlli problemləri həll edə bilmədi. 1972 ildə növbəti hərbi çevriliş nəticəsində ölkə prezidenti və hökumət başçısı hərbçilərdən seçildi, mayor M. Kereku prezident oldu. 1974 il noyabrın 30-da yeni prezident ölkədə 1977 il Konstitusiyası ilə təsbit olunan sosialist yönümlü kursun götürüldüyünü elan etdi. Banklar, sənaye müəssisələri milliləşdirildi, x.t.-nın plan əsasında inkişafına başlanıldı, sosialist ölkələri ilə, ilk növbədə Çinlə əməkdaşlıq quruldu. Dahomeyanın adının dəyişdirilərək Benin Xalq Resp. adlandırılması (1975, 30 noyabr) və M. Kerekunun (fasiləsiz olaraq 1972 ildən 1991 ilədək ölkəyə rəhbərlik etmişdir) başçılığı ilə Benin Xalq İnqilabı Partiyasının (BXİP) yaradılması Daqomeyanın müstəmləkə keçmişi ilə əlaqəsinin kəsildiyinin göstəricisi idi. 1989 ilin dekabrında B. sosializm quruculuğu kursundan imtina etdi. 1990 ilin fevral ayında M. Kereku demokratik islahatlar keçirməyə başladı, ölkədə çoxpartiyalı sistem tətbiq olundu. 1990 il martın 1-dən Benin Xalq Resp.-nın adı Benin Resp. kimi dəyişdirildi. 1990 il martın 12-də Nisefor Dyodonne Soqlonun başçılığı ilə mülki hökumət təşkil olundu. 1990 il dekabrın 2-də referendum əsasında ölkənin yeni konstitusiyası qəbul edildi. 1991 il martın 24-də Soqlo prezident seçildi, bazar islahatlarının keçirilməsinə və x.t.-nın milliləşdirilmiş sektorunun özəlləşdirilməsinə başladı. İslahatlar əhalinin həyat səviyyəsinin aşağı düşməsi, tələbə çıxışları və fəhlə tətilləri ilə müşayiət olundu. 2001 il martın 22-də M. Kereku yenidən ölkənin prezidenti seçildi. 2003 ilin parlament seçkilərində Beninin gələcəyi uğrunda ittifaq və İnkişaf və tərəqqi uğrunda Afrika hərəkatı partiyalarının da daxil olduğu "Prezident hərəkatı" seçki bloku qalib gəldi.

Dubl-Ve Milli Parkı.



**Təsərrüfat.** B. aqrar ölkədir, dünyanın ən az inkişaf etmiş dövlətləri sırasına daxildir. ÜDM-in həcmi 8,3 mlrd. dollardır (alıcılıq qabiliyyətinin pariteti üzrə, 2004); adambaşına 1200 dollar düşür. ÜDM-in real artımı 5%-dir (2004). İnsan inkişafı indeksi 0,421 (2002, dünyanın 177 dövləti arasında 161-ci yerdədir). ÜDM-in 49,4%-i xidmət sferasında, 36,3%-i k.t.-nda, 14,3%-i sənayedə yaradılır. Əhalinin həyat səviyyəsi aşağıdır: beninlilərin 37%-inin yaşayış səviyyəsi kasıblıq həddindən aşağıdır. 1990 ildə B.-də çoxpartiyalı vətəndaş rejiminin qurulması iqtisadi siyasətin dəyişməsinə, dövlət sektorunun genişlənməsi və möhkəmlənməsi kursundan imtina edilməsinə və iqtisadiyyatın liberallaşdırılması siyasətinə keçilməsinə gətirib çıxarmışdır. 1990-cı illərin əvvəlindən ölkədə Beynəlxalq Valyuta Fondu (BVF) və Dünya Bankı tərəfindən nəzarət edilən özəlləşdirmə proqramları həyata keçirilir, xarici və milli özəl investorların geniş surətdə cəlb edilməsi üçün şərait yaradılır. İqtisadiyyatının ən sürətlə inkişaf edən sahələrindən biri turizmdir (illik gəlir 30 mln. dollardan artıqdır, təqr. 150 min xarici turist).

S ə n a y e. 1982 ildən Qvineya körfəzinin şelfində, Kotonudan 15 *km* aralı neft çıxarılır (gündə 700 barrel; 2001). Həmçinin qızıl (ildə 500 *kq*-a yaxın; Natitinqu ş. r-nunda), az miqdarda əhəngdaşı (Oniqbolo və Mass r.-nlarında) və mərmər (İdaco və Kuffo r-nlarında) çıxarılır. Elektrik enerjisinə olan tələbatın 50%-i yerli istehsal hesabına ödənilir (2002-də 285 mln. *kVt saat*; 300 mln. *kVt·saat* Qanadan idxal olunur). Energetikanın əsasını hidroenergetika təşkil edir: hasil edilən elektrik enerjisinin 84%-i ölkədə yeganə SES olan Naqbetoda (Mono çayında; Toqo ilə birlikdə istismar olunur) hasil edilir.

Emal sənayesi zəif inkişaf etmişdir, əsasən, k.t. xammalının emalına yönəldilmişdir. Palma yağı (Kotonu, Axozon, Avranku, Qbada, Aqonve, Aplaxue, Abomey, Boxikon, Uin-Aqame, Xunvi), yerfındığı yağı, pambıq yağı istehsalı üzrə müəssisələr fəaliyyət göstərir. İldə 215 min *t* xammalın emalı üçün nəzərdə tutulan bu müəssisələr tam gücü ilə işləmir. 8 pambıqtəmizləmə z-du (Paraku, Boxikon, Savalu, Qlazue, Kandidə 2 z-d, Lokosa, Ndali) bütün ölkədə yığılan pambığı emal edir. Kotonuda və Parakuda toxuculuq kombinatları, Kotonuda pivə istehsalı, Vidada kibrit və siqaret istehsalı, Kotonuda mebel istehsalı üzrə müəssisələr fəaliyyət göstərir.



Şimali Benində pambıq plantasiyaları.

K ə n d t ə s ə r r ü f a t ı. B. Afrika qitəsinin özünü ərzaq ilə təmin edən azsaylı ölkələrindən biridir. Şumluq torpaqlar onun ərazisinin 17%-ini, otlaqlar isə 4%-ini təşkil edir. K.t. istehsalının əsasını şm. r-nlarında becərilən pambıq (ildə 385–400 min *t* yığılır) təşkil edir (ölkənin ixrac gəlirlərinin 80%-i onun payına düşür). Yağ palmasının məhsulları (mərkəz və cənub r-nları), yerfındığı (ildə 130 min *t*; şm. və mərkəz r-nları), keşyü fındığı (ildə 40 min *t*) ixrac əhəmiyyətinə malikdir. Daxili istehlak üçün becərilən məhsullardan 2500 min *t* yams, 4000 min *t* maniok, 800 min *t* qarğıdalı, 230 min *t* darı və kalış, 105 min *t* paxlalılar, 70 min

Benin parlamentinin binası. Porto-Novo şəhəri.





Şimali Benində pambıq plantasiyaları.

*t* çəltik yığılmışdır (2004). Heyvandarlığın əsas r-nu ölkənin şm.-ıdır, burada *t* mal-qara yetişdirilməsinin ənənəvi (ekstensiv) formaları saxlanılır. 1080 min baş keçi, 970 min baş qoyun, 955 min baş qaramal, 730 min baş donuz, 16 min baş at yetişdirilmişdir (2001). Şirin sulardan və dənizdən təqr. 50 min *t* balıq və dəniz məhsulları ovlanmışdır (2003).

Meşə ehtiyatları, əsasən, məişət ehtiyacları üçün (5–6 mln. $m^3$) istifadə olunur (2000). Süni meşələrin salınması B. ərazisinin səhralaşması ilə mübarizənin əsas istiqamətlərindən biridir.

N ə q l i y y a t  v ə  r a b i t ə. D. y.-larının uz. 579 *km* (3 d.y. xətti var: Kotonu–Paraku, 438 *km*; Kotonu–Pobe, 107 *km*; Kotonu–Seqoborue, 34 *km*), avtomobil yollarının uz. 6787 *km*, o cümlədən bərk örtüklü yolların uz. 1357 *km*-dir. Avtomobil parkı 40 mindən çoxdur. Əsas dəniz portları olan Kotonu və Porto-Novo Qərbi Afrika ölkələrinə xidmət göstərən mühüm regional nəqliyyat qovşaqlarıdır. Gəmiçiliyə yararlı əsas çayları Veme, Mono, Nigerdir. Çay nəql. yerli əhəmiyyətə malikdir. 5 aeroport, o cümlədən Kotonu beynəlxalq aeroportu var.

Bazilika. Vida şəhəri.



X a r i c i  i q t i s a d i  ə l a q ə l ə r. İxracın dəyəri 720,9 mln. dollar, idxalın dəyəri 934,5 mln. dollar təşkil edir (2004). Əsas ixrac malları: pambıq, xam neft, yağ palması məhsulları, yerfındığı. Əsas ticarət tərəfdaşları: Çin (dəyərin 30,2%-i), Hindistan (15,6%-i), Tayland (6%-i), Qana (5,9%-i; 2003). Qida məhsulları, neft məhsulları, maşın və avadanlıqlar, əsasən, Çindən (29,7%), Fransadan (13,8%), Taylanddan (7,2%), Kot-d'İvuardan (4,6%) idxal olunur.

**Səhiyyə. İdman.** Əhalinin hər 10 min nəfərinə 5,7 həkim, 20,4 orta tibb işçisi düşür (1998). Səhiyyəyə çəkilən xərc ÜDM-in 4,4%-ni (büdcədən maliyyələşmə 46,9 %, özəl sektor ilə – 53,1%) təşkil etmişdir (2002).

Bədən tərbiyəsi və idman işləri ilə Xalq mədəniyyəti, gənclər və idman nazirliyi məşğul olur. 1962 ildə BOK tərəfindən tanınmışdır. B. idmançıları Olimpiya Oyunlarında 1972 ildən iştirak edirlər. Geniş yayılmış idman növləri boks və yüngül atletikadır.

**Təhsil. Mədəniyyət.** B.-in təhsil sisteminə Xalq Təhsili Nazirliyi rəhbərlik edir. Tədris müəssisələri dövlətin, katolik və provaslav missioner təşkilatlarının nəzarətindədir. Təhsil sisteminə 6 illik ibtidai, natamam orta məktəblər ( 4 illik ümumtəhsil kollecləri), tam orta məktəblər (7 illik liseylər) daxildir. Peşə-ixtisas təhsili 7 illik texniki liseylərdə və 4 illk texniki kolleclərdə, kənd təsərrüfatı mərkəzlərində ibtidai məktəblərin tədris bazasında həyata keçirilir. Kənd yerlərində fəaliyyət göstərən kooperativ məktəblərdə ümumi təhsil almaqla yanaşı kənd təsərrüfatı mütəxəssisləri də hazırlanır. Yaşlıların 35%-i savadlıdır (1997). Məktəblərdə təhsil alan 6–12 yaşlı uşaqlar 66–69% təşkil edir.

Kotonuda Milli un-t (1970) var. Əsas muzeyləri: milli muzeylər (Abomey, Kotonu və Porto-Novoda), Kral sarayı muzeyi (Abomeydə), Etnoqrafiya muzeyi (Porto-Novoda). Porto-Novoda Milli kitabxana var (1976).

**Ədəbiyyat.** B.-də yaşayan Afrika xalqlarının zəngin şifahi ədəbiyyatı var. Yazılı ədəbiyyat fransız dilində formalaşmışdır. Roman janrı başqa janrlardan daha əvvəl yaranmışdır (F. *Kuşoro*, "Kölə", 1929). Dramaturgiya 1930-cu illərdə missioner məktəbləri nəzdində və Dakarda Vilyam Ponti ad. İn-tda yaranmışdır. Peşəkar dramaturgiya A. Azande ("Sokame", 1937) və J. *Pliyin* pyesləri ilə təmsil olunurdu. Bu dövrdə R. Xazumenin "Dogisimi" tarixi romanı, M. Kenumun "Fonlar ölkəsində", "Üç Afrika əfsanəsi" kitabları, sonralar K. Aqbo, A. Akendele və S. Agessinin əsərləri nəşr olunmuşdur. İkinci dünya müharibəsindən sonra müstəmləkəçiliyə qarşı mübarizə ruhunda poeziya yaranmışdır. R. Doqbenin "Ölümə məhkum olunmuşların sahili" (1964) və Y. Pryudansonun "Biz bir planetdə yaşayırıq" (1968) toplularında doğma torpağın gözəllikləri tərənnüm olunur. İlk novella toplularının müəllifləri O. *Beli-Kenum* ("Bir yay macərası", 1968) və J. Pliydir ("Ağac-fetiş", 1971; "Aşiq şimpanze", 1977). Bu kitablarda köhnə və yeni Afrika müqayisə edilir, cəhalət və sosial bərabərsizlik tənqid edilir, ziyalıların bürokratik burjuaziyaya qarşı mübarizəsi təsvir olunur. Publisist və etnoloqlardan M. Kenum, R. Xazume ölkənin tarixini, ənənələrini, dövlət və sosial institlarını təsvir edən əsərləri ilə ədəbiyyatın inkişafına kömək etmişlər. 20 əsrin sonlarından ölkənin mədəni həyatı canlanmış, nəşr olunan ədəbi əsərlərin tirajı artmışdır.





**Memarlıq və təsviri sənət.** Qədim memarlıq tikililəri qurmaların, barbaların və bir-birini əvəz edən digər xalqların yaşayış evlərindən ibarətdir; sonralar, əsasən, İfe üçün səciyyəvi olan tikililər üstünlük təşkil edir. 15–18 əsrlərdə B.-də inşa edilmiş saray və məbədlər ənənəvi tikililərdən yalnız ölçüləri və zəngin dekoru ilə fərqlənirdi. 16–17 əsrlərdə Avropa tacirləri tərəfindən sahilboyunca istehkamlar və şəhərlər (17 əsr istehkam qalıqları, Vida şəhəri) inşa edilirdi. 18–19 əsrlərin memarlığına, əsasən, gilmöhrədən tikilmiş Daqomeya saray və məbədləri aiddir (Abomeydəki fon xalqının hökmdarlarının saraylarını bəzəyən gil relyeflər; mis və gümüş təbəqə ilə örtülmüş dekorativ ağac heykəllər). B.-in şm. r-nlarında monumental memarlıq mosi və qrusi xalqlarının tikililəri ilə təmsil olunan Sudan qəsrləri ənənəsinə əsasən inkişaf edirdi (Natitinqudakı Sombe qəsri). 20 əsrin əvvəllərindən böyük ş.-lərdə *müstəmləkə üslubunda* tikintilərə başlanıldı (Kotonudakı Notı-Dam baş kilsəsi; 1903–38). 20 əsrin 2-ci yarısından şəhərlərdə inşaat işləri müasir qərb üslubunda aparılır (Porto-Novo). B. ərazisində qədimdən bədii sənətkarlıq inkişaf etmişdir (20 əsrədək ayrı-ayrı ailələr müəyyən sənət növləri üzrə ixtisaslaşırdı): "unudulmuş mum" texnikasında tunc və gümüşdən tökmə əşyalar (insan, heyvan fiqurları, ov, məişət, saray səhnələri mövzusunda heykəltəraşlıq qrupları); bayraq, pərdə, çətir və baş geyimlərində tikmə-aplikasiyalar; ağac və fil sümüyü üzərində bədii oyma; aplikasiyalı xalçalar və s. Çoxfiqurlu kompozisiyalar ilə bəzədilmiş keramik qablara da rast gəlinirdi (Kotonudan olan usta Kokuinin işləri). Müstəqillik əldə etdikdən (1960) sonra professional incəsənət yarandı (rəssamlardan A. Lişunun, A. Paskal-Alombosunun, L. Leonardın peysajları və xalq həyatından məişət səhnələri; Z. Qratiyenin abstrakt, S. Tokudaqbın ənənəvi üslubda heykəlləri).

**Musiqi.** Müxtəlif etnik ənənələri birləşdirən B. musiqisi qonşu dövlətlərin mədəniyyətləri ilə ümumi cəhətlərə malikdir. Peşəkar ənənələr yorubaların müxtəlif ayinlərində və gizli cəmiyyətlərin təcrübəsində yaşayan arxaik dini musiqi formaları ilə bağlıdır. Barbaların musiqi və rəqsləri qədim ayinlər və müsəlman ənənələri ilə bağlıdır. Musiqi alətlərində, bir qayda olaraq, peşəkar



Fil sümüyündən bilərzik. Britaniya muzeyi. London

ifaçılar kişilər, peşəkar müğənnilər isə qadınlardır. B.-in müxtəlif xalqlarının mədəniyyətinə ərəb musiqisinin, əsasən də, ifaçılıq manerası və musiqi alətlərinin mühüm təsiri olmuşdur. Müasir B.-də birsəsli solo və xor ifaçılığı üstünlük təşkil edir. Rəqslə müşayiət edilən və ucadan xorla oxunan bayram mahnıları geniş yayılmışdır. Epik və tarixi mahnılar təmkinli tərzdə ifa olunur. Mahnılar ənənəvi olaraq "uzun" və "qısa" (mahnı-təmsillər və s.) hissələrə bölünür. Müxtəlif növ membranofon və ideofonlar, qoşa alətlər dəstindən istifadə edilir. Ənənəvi musiqi Kotonu un-tinin incəsənət fakültəsində öyrənilir. Kotonuda keçirilən ənənəvi musiqi festivallarında bütün əyalətlərin musiqi kollektivləri iştirak edir. Milli mahnı və rəqs ansamblı beynəlxalq miqyasda nüfuz qazanmışdır. 1989 ildə B.-in Milli bəstəkarlar və müğənnilər ittifaqı yaradılmışdır.

**BENİN-SİTİ** (Benin City) – Nigeriyanın c.-unda şəhər. Edo ştatının inz. m. Əh. 1,1 mln. (2005). Avtomobil yolları qovşağı. Beynəlxalq aeroport. 13–19 əsrlərdə mövcud olmuş *Benin* dövlətinin paytaxtı idi. 1897 ildə ingilis müstəmləkəçiləri tərəfindən dağıdılmışdır. Gil sütunlu qalereyaları olan çar sarayının bir hissəsi dövrümüzədək qalmışdır. B.-S.-nin mərkəzində şəhərin əfsanəvi himayəçisi Emotana heykəl qoyulmuşdur (1953, heykəltəraş C. Danford). 20 əsrin 2-ci yarısında binalar ənənəvi üslubda inşa edilir (muzey və s.). Un-t (1970); Elmi Tədqiqat Kauçuk İn-tu (1961); Benin muzeyi (qədim Benin heykəltəraşlığı kolleksiyası) var. Ticarət (yağlı palma məhsulları, kola qozu, kakao paxlası, kauçuk, meşə materialları, istiot, fil sümüyü) mərkəzidir. Kimya və neft-kimya (təbii kauçuk emalı, şin istehsalı), ağac emalı, yeyinti, yüngül, mebel sənayesi müəssisələri var. Yaxınlığında neft hasil olunur.

**BENQAL DİLİ**, b e n q a l i, b a n q l a, b a n q a - b x a ş a – *benqalların* dili. Banqladeş Xalq Respublikasının, habelə Hindistanın Qərbi Benqaliya və Tripur ştatlarının rəsmi dili. Hindistanın bir sıra digər ştatlarında, Nepalda, B.Britaniyada yayılmışdır. Bu dildə danışanların ümumi sayı 231 mln.-dan çoxdur (2005). Onlardan təqr. 90 mln.-u Hindistanda,

Benin-siti şəhərindən görünüş.



141 mln.-u isə Banqladeşdə yaşayır.

B.d. *hind-ari* dillərindən (şərq qrupu) biridir. 8 ləhcəyə ayrılır: qərbi (Kəlkəttə dialekti daxildir), cənub-qərbi, şimal, racbənsi, şərq (Dəkkə dialekti daxildir), silhet, haconq və cənub-şərqi (Çittaqonq dialekti daxildir). Quruluşunun səciyyəvi xüsusiyyətləri bütün şərqi hind-ari, o cümlədən *oriya dili* və *assam dili* üçün ümumidir. *Aqlyutinativ* dildir. Qrammatik cins kateqoriyası yoxdur. Hal kateqoriyası inkişaf etməmişdir. Feli sifət birləşmələri, zaman formaları zəngindir. Şərqi Benqaliyada (Banqladeş Xalq Respublikası) ərəb və fars sözləri çox işlənir. Qədim yazılı abidələri 10–12 əsrlərə aiddir. Ədəbi B.d. iki üslub – arxaik quruşu ilə fərqlənən, böyük sayda *sanskritdən* alınmış "klassik" (şadhu-bhaşa) və müasir Kəlkəttə dialektinə əsaslanan "danışıq" (çolitbhaşa) üslubları ilə təqdim olunur. 1920 illərə qədər geniş istifadə olunmuş birinci üslub elmi ədəbiyyatda, rəsmi sənədlərdə, qismən mətbuatda tətbiq edilir. 20 əsrin 2-ci yarısı üçün ədəbi dilin əsas forması ikinci üslub olmuşdur. B.d.-ndə xüsusi benqal yazısından istifadə olunur (bax *Hind yazısı*).

**BENQAL DÜZƏNLİYİ,** Benqal ovalığı – *Hind-Qanq düzənliyinin* yastı, çox rütubətli ş. hissəsi. Qanq və Brahmaputra çaylarının (Hindistanda və Banqladeşdə) aşağı axınını əhatə edir.

**BENQAL ƏDƏBİYYATI** – benqal dilində ədəbiyyat; Cənubi Asyia ədəbiyyatlarından biri. B.ə.-nın ən qədim abidələrindən *"Çaryagiti"* ("Doğru yol nəğmələri") buddist (tantrik) məzmunlu mənzum mətnlərdir (10–12 əsrlər). Müsəlman fəthindən (13–14 əsrlər) sonrakı ilk dövrlərdə yazılı abidələr demək olar ki, saxlanılmamışdır. 15–18 əsrlərdə benqal dilində geniş ədəbiyyat yaranmışdır; lakin bu ədəbiyyat sanskrit, ərəb və fars dillərində olan ədəbiyyatlarla müqayisədə hind mədəniyyətindən asılı idi. 19 əsrə qədər benqal dilində nəsr olmamışdır. Poeziya ənənəvi estetik kanonlar çərçivəsində kifayət qədər məhdud mövzular və süjetlər ətrafında yaranmışdı. *"Mahabharata", "Ramayana", Puranlar* dəfələrlə benqal dilinə uyğunlaşdırılmışdır. "Ramayana"nın uyğunlaşdırılmış ən erkən və geniş yayılmış varinatını Krittibaş Ocha yaratmış (15 əsr), "Mahabharata"nın isə ən məşhur uyğunlaşdırılması Kaşiram Daşa aid edilir (16 əsr). Yerli allahlara, əsasən, ilanların hökmdarı Monoşaya və allah Şivanın arvadı ilə eyniləşdirilən vəhşi heyvanların himayəçisi Çondiyə həsr olunmuş poema-rəvayətlər (monqol-kabbo) 15–18 əsrlər ənənəvi B.ə.-nın özünəməxsus qatıdır. İlahə Çondi haqqında süjetin klassik işlənilməsi ("Çondinin şərəfinə poema") Çokroborta Mukundorama aiddir. Benqaliyada Krişna mifləri, xüsusilə Krişna və Radhanın məhəbbətinə həsr olunmuş süjet böyük populyarlıq qazanmışdı. B.ə.-nın məşhur abidəsi "Krişnanın şərəfinə nəğmə" (15 əsr; müəllifi Çondidaş) poemasıdır. Çaytanya 16 əsrin əvvəllərində Krişna kultu (benqal vişnuizmi) ilə bağlı olan dini-islahatçı hərəkatın əsasını qoymuşdur. Bu istiqamətdə zəngin ədəbiyyat yaranmışdır. 15–18 əsrlər B.ə.-nin inkişafında müsəlman şairlərin də böyük rolu olmuşdur. Onlardan ən görkəmliləri ənənəvi müsəlman və hinduist süjetlərinə yazılmış poemaların müəllifləri Dövlət Qazi və Səid Ədaüldür. Sanskrit, benqal və fars poeziyası ənənələrini sintez etmiş Bharotçondro Ray və ilahə Kaliyə müraciət şeir-nəğmələrinin yaradıcısı Ramproşad Şen 18 əsrin görkəmli şairlərindəndir. 18 əsrin 2-ci yarısı Benqaliyada siyasi və mədəni tənəzzül, Britaniya hakimiyyətinin möhkəmlənməsi dövrüdür.

19 əsrdə B.ə. Avropa ədəbiyyatının təsiri ilə transformasiyaya məruz qalır. Çapçılıq, dövri mətbuat yaranır; ədəbiyyat sosial mədəni həyatda fəal rol oynamağa başlayır. Reformatorlar Rammohan Ray, İşşorçondro Şorma Biddeşaqor və b. nəsrin əsasını qoymuşdular. 1858 ildə Periçand Mitronun "Varlı evin ərköyünü" adlı ilk benqal romanı ayrıca kitab şəklində çapdan çıxır. Bonkimçondro Çottopaddahayın romanları ümumhind əhəmiyyəti kəsb edir.

Ən görkəmli hind şairlərindən biri, nasir və dramaturq R. *Taqorun* (Nobel mükafatı, 1913) yaradıcılığı Benqal və bütün hind mədəniyyətində mərhələ təşkil etmişdir; o, həmçinin bəstəkar, rəssam və pedaqoq olmuşdur. Şorotçondro Çottopaddhayın romanları populyar idi. 1920 illərdə müsəlman şair Nəzrul İslamın yaradıcılığı xüsusilə fərqlənmişdi. 1930 illərdə B.ə.-nda müasir qərb poeziyası ənənələrinin təsirini qəbul etmiş şairlər pleyadası meydana gəlmişdi: C. Daş, Ş. Dotto, O. Çokroborti, Bişnu De, həmçinin nasir kimi də məşhur olan B. Boşu, P. Mitro və b. Nəsrdə yeni yollar açmış nasirlərdən Bibhutibhuşon Bondopaddhay, Taraşonkor Bondopaddhay, Manik Bondopaddhay, O. Ray və b.-nı göstərmək olar. 1940–50 illərdə B.ə.-nda ictimai-siyasi roman (Q. Haldar, Ş. Bhaduri) əhəmiyyətli yer tutmuşdur.

20-ci əsrin ortalarından B.ə. 2 dövlətdə – Hindistan və Banqladeşdə (1947–71 illərdə Şərqi Pakistan) inkişaf etmişdir. B.ə.-nın bu dövlətlərin müxtəlif siyasi və sosial-mədəni təcrübələrini əks etdirən iki qolu bir-biri ilə sıx bağlıdır. R. Taqorun, habelə başqa benqal yazıçılarının bəzi əsərləri Azərb. dilinə tərcümə edilmişdir (bax, həmçinin *Banqladeş. Ədəbiyyat*).

*Əd.:* Товстых И. Бенгальская литература. M. 1965; Sen S. History of Bengali literature. New Delhi. 1992.

**BENQAL İNTİBAHI** – bax *Hindistan* məqaləsinin təsviri sənət və memarlıq bölməsinə.

**BENQAL KÖRFƏZİ** – Hind okeanında, q.-dən Hindistan y-a, ş.-dən Hind-Çin y-a, Andaman və Nikobar adaları arasındadır. Sah. 2191 min $km^2$, maks. dərinliyi 4519 *m*-dir. B.k.-nə Qanq və Brahmaputra çayları tökülür. Suyun üst qatının orta temp-ru qışda c.-da 28°C, şm.-da 25°C, yayda hər yerdə 28°C-dən yuxarıdır. Duzluluq 34 ‰-ədəkdir. Yarımsutkalıq qabarmalar (10,7 *m*-ədək) olur. Balıq (skumbriya, tunes, kambala) ovlanır; istridyə, trepanq yığılır. Əsas portları: Kəlkətə (Qanq çayı deltasında), Çennai (Hindistan), Çittaqonq (Banqladeş).

**BENQAL NEFTLİ-QAZLI HÖVZƏSİ** – Banqladeşdə, Hindistanda və Myanmada (q. hissəsində), həmçinin Benqal körfəzinin şelfində yerləşir. Sah. 428 min $km^2$, o cümlədən 180 min $km^2$-i şelf zonasındadır. Çıxarıla bilən ilkin neft ehtiyatı 0,6 mln. *t*, qaz ehtiyatı 235 mlrd. $m^3$-dir. İlk neft yatağı 20 əsrin əvvəllərində, qaz yatağı (Silhet) 1955 ildə kəşf olunmuşdur. 7 neft və neft-qaz-kondensat, 21 qaz yatağı kəşf edilmişdir (2004). Neft və neft-qaz-kondensat yataqları kiçikdir; ən iri qaz yataqları Titas (110 mlrd. $m^3$), Habiqanc (36 mlrd. $m^3$) və Bəhrabaddır (35 mlrd. $m^3$). Hövzə Hindistan platformasının ş. yamacını və Benqal kənar çökəyini əhatə edir. Qaz yataqları 500–3400 *m* dərinlikdəki Eosen yaşlı qumdaşılarla (kollektor layların qalınlığı 30–60 *m*), neft və neft-qaz-kondensat yataqları isə Paleosen-Eosen yaşlı məhsuldar kompleks (növbələşən qumgil və əhəngdaşı layları) ilə əlaqədardır. Hasil olunan qazın 94–98,5 %-i metandır ($CH_4$). Əsas hasilat mərkəzləri: Silhet, Çhatak, Habiqanc, Titas. Qaz Silhet – Titas – Dəkkə və Titas – Çittaqonq kəmərləri ilə nəql olunur.







Benqal pişiyi.

**BENQAL ODU** (Hindistandakı tarixi vilayət – Benqaliyanın adından) – barium-nitrat (oksidləşdirici), tozvarı alüminium və ya maqnezium, dəmir, yaxud polad ovuntusu (yanacaq), dekstrin və ya nişastadan (sementləyici) ibarət pirotexniki tərkib. Dəmir məftil parçasına yaxılmış tərkib benqal şamı adlanır. B.o.-nu alışdırdıqda ətrafa havada sönən parlaq qığılcımlar saçaraq tədricən yanır.

**BENQAL PİŞİYİ** – qısatüklü pişiklər cinsi. Cənub-Şərqi Asiyadan gətirilmiş vəhşi Benqal pişiyi əsasında ABŞ-da yetişdirilmiş və 1983 ildə qeydə alınmışdır. İridir, kütləsi 10 *kq*-adək olur. Bədəni uzunsov, möhkəm, əzələlidir. Arxa hissəsi bir qədər hündür, gözləri oval formalı, yaşıl, göyümtül-yaşıl, sarı, yaxud mavidir. Tükü yumşaqdır. Rəngi oxra, qızılı, yaxud, ağ fonda qara və ya qəhvəyi naxışlı (mərmərşəkilli), ya da bəbir xallarına bənzər ləkəli olur. Sərbəstlik sevəndir, çevikdir, üzməyi və ov etməyi xoşlayır.

**BENQAL SULTANLIĞI** – bax *Benqaliya.*

**BENQALİYA**, Benqal – Hindistanda *benqalların* məskunlaşdıqları tarixi vil. Qanq və Brahmaputra çaylarının aşağı axarlarında yerləşir. Qədim yazılı mənbələrdə Qauda (B.-nın q. hissəsi) və Vanqa (B.-nın mərkəzi və ş. hissəsi) adlanır. B. adı təqr. 10–12 əsrlərdə yaranmışdır. *Maurya* və *Qupta* imperiyalarının tərkibinə daxil olmuşdur. 6 əsrin sonu – 7 əsrin əvvəllərində müstəqil statusa malik idi. Pal sülaləsi (8–12 əsrlər) dövründə B. Şimali Hindistanda hakim mövqe uğrunda mübarizə aparmış, Sen sülaləsi (12–13 əsrlər) dövründə müstəqilliyini qorumuş, daha sonra *Dehli sultanlığına* qatılmışdır. 14 əsrin ortalarında müstəqil olmuşdur. B. 1575 ildə *Böyük Moğollar* tərəfindən fəth edilmişdir. 18 əsrin əvvəllərində B., Bihar və Orissa ərazisində paytaxtı Mürşidabad olan müstəqil dövlət (nəvvablıq) yaranmışdı. B.-da müsəlman sultanlarının və onların canişinlərinin hakimiyyəti dövründə burada islam dini geniş yayılmışdı. Şərqi B.-da əhalinin böyük hissəsi islamı qəbul etmişdi. B., 1757–64 illərdə ingilis Ost-Hind şirkəti tərəfindən zəbt olunmuş və *Britaniya Hindistanının* əyalətinə çevrilmişdi. 1905 ildə ingilislər B.-nı dini prinsipə əsasən iki əyalətə bölmüşdülər. Lakin benqal ictimaiyyətinin *Hindistan milli konqresi* tərəfindən təşkil edilmiş genişmiqyaslı kütləvi etirazları nəticəsində ingilislər 1911 ildə qərarı ləğv etməyə məcbur oldular. B. ərazisi yenidən birləşdirildi. 1947 ildə Britaniya Hindistanının iki dominiona bölünməsi ilə B. Hindistan və Pakistan arasında bölüşdürüldü. Qərbi B. Hindistanın tərkibində ştat, Şərqi B. isə Şərqi Pakistan oldu. 1971 ildə Şərqi B. ərazisində müstəqil Banqladeş dövləti yaradıldı.

**BENQALLAR,** benqalilər, banqalalar, banqlalar – xalq, *Benqaliyanın* əsas əhalisi. Sayları Banqladeşdə 140 mln. nəfərdən çoxdur (2005 il), Hindistanda 90 mln.-dur (Qərbi Benqaliya, Assam, Tripura, Carkhand, Bihar, Meqhalaya, Mizoram, Naqalend ştatları). Həmçinin Myanmada (253 min), Taylandda (66 min), Pakistanda (232 min), Nepalda (72 min) Omanda (118 min), B. Britaniyada (400 min) və s. da yaşayırlar. *Benqal dilində* danışırlar. Hind, urdu və ingilis dili də yayılmışdır. Dindarları: Banqladeşdə müsəlman, Hindistanda və Nepalda hinduistdir; xristianları da var.



Benqal qadını. Hindistan.

B.-ın mənşəyini Benqaliyada (bu etnonim ehtimal ki, Banqa ölkəsinin veda dilindəki adındandır) məskunlaşan hind-ari əhalisi təşkil edir. *Böyük Moğolların* dövründə (16–17 əsrlər) B. arasında islam dini yayılmışdı. B.-ın ənənəvi mədəniyyəti Cənubi *Asiya* xalqları üçün səciyyəvidir. Əsas məşğuliyyətləri xış əkinçiliyidir (əsasən çəltik, həmçinin cut, paxlalılar, çay və s.). Sənətkarlıq sahələri toxuculuq (məşhur Dəkkə *muslin* parçası və s.), bədii tikmə (kantha üslubunda), metal emalı, ağac və fil dişi üzərində oyma, dəri üzərində basmanaxışdır. Qərbi Benqaliyada yaşayan B.-ın çoxu



Benqallar.
Toy mərasimi.

toxuculuq və cut sənayesində çalışır. Evləri, adətən, karkaslı, birotaqlı, aynabəndli, damı dördköbərli, gilmöhrə, yaxud hörmə divarları gillə suvanmış olur; bəzi evlərin həyəti var, mətbəxi və pəyəsi evdən aralı olur. Kişilərin geyimi lunq (müsəlmanlarda) və çiyinlikli *dhotidən* (çadar), qadınların geyimi sarinin yerli forması, qısa koftalar və bəzək əşyalarından ibarətdir. Kasta quruluşu islam dininin təsiri ilə zəifləmişdir; aşağı və etnik kastaların çoxluğu, aşağı kastaların statusunun sərbəst surətdə artırılması (sanskritizasiya), ciddi riayət olunmayan vegeterianlıq səciyyəvidir. Şakti ilahələri Durqa, Kali (Kəlkətədə onun şərəfinə Kali-hat məbədi ucaldılmışdır), Monoşa və b.-nın kultları yayılmışdır.

**BENQALÚRU**, B a n q a l u r – bax *Banqalór*.

**BENQÁZİ** (ər. بنغازي) – Liviyanın şm.-ş.-ində şəhər. Benqazi əyalətinin inz. m. Əh. 650,6 min (2005). Əhalisinin sayına görə Liviyada Tripolidən sonra ikinci şəhərdir. B.-dan Tripoli–Tobruk avtomobil yolu keçir. Aralıq dənizinin Sidra körfəzinə port. Beynəlxalq aeroport.

Müxtəlif mənbələrə əsasən, B.-nin yerində e.ə. 7–5 əsrlərdə yunan koloniyası Euhesperid, yaxud Hesperid (günəşin batdığı yer) adı ilə salınmışdır. E.ə. 4 əsrdə şəhər Berenike (Misir fironu III Ptolemeyin arvadının şərəfinə) adlandırılmış və *Kirenaika* əyalətinin mərkəzi olmuşdur. Bu dövrdə şəhər bir sıra Avropa ölkələri ilə ticarət əlaqələri saxlamışdır. 5 əsrdə *vandallar* tərəfindən dağıdılmış, 7 əsrdə ərəblərin əlinə keçmişdir. İndiki adı 15 əsrdə qəbri B. yaxınlığında yerləşən övliya Ben-Qazinin (Sidi Qazi) adından götürülmüşdür. 16 əsrdən Osmanlı imperiyasının tərkibində olmuşdur. 1911 ildə İtaliya tərəfindən işğal olunmuş və italyanların Liviya koloniyasının tərkibinə qatılmışdır. 1912–42 illərdə İtaliyanın hərbi-dəniz bazası olmuşdur. 1942 ilin noyabrında Britaniya qoşunları tərəfindən işğal edilmişdir. İkinci dünya müharibəsi zamanı böyük dağıntılara məruz qalmışdır. Liviyanın 1951 ildə müstəqilliyini elan etməsindən sonra 1970-ci illərin əvvəllərinədək ölkənin iki paytaxtından (Tripoli ilə yanaşı) biri olmuşdur.

Qədim şəhərdə müntəzəm planlaşdırmanın izləri və ellin dövrü tikililərinin qalıqları (Sütunlu saray və Roma villası, 1 əsr) var; sonralar yaşayış evləri və dini binalar da tikilmişdir (Böyük məscid, 16 əsr, 20 əsrdə rekonstruksiya olunmuşdur). 20 əsrin ilk onilliklərində köhnə şəhərin c.-nda salınmış şəhərətrafı müasir tikililəri (dəniz limanı, aeroport, teatr, otellər, un-t) olan Yeni şəhərin mərkəzinə çevrildi. Şəhərdə Qar-Yunis un-ti, un-t kitabxanası, muzey (antik incəsənət) və teatr var.

Ticarət mərkəzidir (taxıl, xurma, yun, zeytun, ev heyvanları). Neft emalı, yeyinti (o cümlədən pivə), toxuculuq, dəri, sement sənayesi müəssisələri var. Dəniz suyunun duzdan təmizlənməsi üzrə dünyada ən iri z-dlardan biri buradadır. Tunes, dodaqbalıqları ovlanır. Şəhər ətrafında hasil edilən duz emal olunur. İES var.

Benqazi şəhərinin Sidra körfəzindən görünüşü.



**BEN-QURİÓN** David [16.10.1886, Plonsk (indiki Polşa) – 1.12.1973, Təl-Əviv] – İsrailin dövlət və siyasi xadimi. Sionist təşkilatların fəal üzvü; İstanbul Un-tinin hüquq fakültəsini bitirmişdir. 1906 ildə Fələstinə köçmüşdür. Birinci dünya müharibəsi illərində Türkiyə hökuməti tərəfindən Fələstindən qovulmuşdur. ABŞ-a köçmüş, Fələstindəki ingilis qoşunlarına yardım məqsədilə yəhudi legionunun təşkilində iştirak etmişdir. Fələstindəki yəhudi həmkarlar ittifaqı Histadrutun (1920) yaradıcılarından biri və onun baş katibi (1935 ilədək) olmuşdur. 1930 ildə s.-d. partiyası MAPAİ-yə (Mifleget Poaley Erets-İsrael – İsrail Fəhlə partiyası), 1935–48 illərdə Ümumdünya sionist təşkilatı və Yəhudi agentliyinə rəhbərlik etmişdir.

1948 il mayın 14-də İsrailin müstəqilliyini bəyan etmişdir. İsrailin baş naziri (1948–53; 1955–63) olmuşdur. MAPAİ partiyasının ən qatı ekstremistlərindən yeni RAFİ partiyasını yaratmışdır. İsrail *ekspansiyasının*, həmçinin ərəb ölkələrinə qarşı avantürist təcavüzkarlıq siyasətinin ən fəal tərəfdarlarından biri olmuşdur. 1956 ildə baş verən Süveyş böhranının (bax *İsrail-Ərəb müharibələri*) əsas təşəbbüskarlarından biridir. 1963 ildə vəzifəsindən istefa vermiş, 1965 ildə MAPAİ-dəki fəaliyyətini dayandırmışdır.

**BENN** Qotfrid (2.5.1886, Mansfeld – 7.7.1956, Qərbi Berlin) – alman yazıçısı, publisist. Prussiya İncəsənət Akad.-nın üzvü (1932 ildən). Protestant keşişinin oğludur. İlahiyyatı, filologiyanı və tibbi öyrənmiş, həkim işləmişdir. *Ekspressionizm* ruhunda yazılmış "Meyitxana" (1912), "Oğullar" (1913) və s. ilk şeir kitablarında B. həyatın fizioloji eybəcər tərəflərini poetikləşdirməklə heyrətləndirən əsərləri dərin pessimizmi ilə seçilir. F. Nitsşenin fəlsəfəsi ilə maraqlanmışdır; 1933 ildə nasional-sosialistlərin hakimiyyətə gəlməsini alqışlamışdır. 1938 ildə "cırlaşmış sənət" nümayəndəsi kimi B.-in əsərlərinin nəşri qadağan edilmişdi. 1940-cı illərin sonlarından Almaniya Federativ Resp.-nın iki dünya müharibəsi yaşamış nəslin faciəvi əhvali-ruhiyyəsini əks etdirən ən məşhur yazıçılarından biri olmuşdur.

B.-in sonrakı dövrdə yazdığı əsərlərin ["Ptolomeyçi" (1949) povesti, "İkili həyat" (1956) avtobioqrafik nəsri, "Statik şeirlər" (1948), "Distillyasiyalar" (1953) poetik topluları və s.] əsasını nihilizm, həyatın mənasızlığı və absurdluğu ideyaları, mənəvi və ictimai oriyentirlərini itirmiş insanın təcrid olması ideyası təşkil edirdi. Siyasətdən asılı sənəti tənqid edən publisist əsərlərin, psixologiyaya və filologiyaya dair kitabların, esse və pyeslərin müəllifidir.

Ə s ə r l ə r i: Sämtliche Werke. Stuttg., 1986–2003. Bd. 1–7; Собр. стихотворений. СПб., 1997.

**BENNETTİTKİMİLƏR**, t s i k a d e o i d e l ə r (Bennettitales, Cycadeoideales) – nəsli kəsilmiş çılpaqtoxumlu bitkilər sırası. 2 fəsiləsi – villyamsoniyakimilər (Williamsoniaceae) və bennettitkimilər (Bennettitaceae, Cycadeoidaceae); təqr. 20 cinsi var. Bütün materiklərin Trias–Tabaşir çöküntülərindən məlumdur. Vegetativ orqanların morfologiyasına görə saqovnikkimilərə bənzəyirdi. Sonunculardan fərqli olaraq B.-in əksəriyyətinin çoxalma orqanları (strobillər) ikicinsiyyətli, ağızcıq aparatları isə mürəkkəbdodaqlı tipində olmuşdur. Mezozoy dövrünü öyrənmək üçün mühüm qazıntıdır.

**BEN-NÉVİS** (keltcə qarlı dağ) – Şotlandiyada, Qrampian d-rında yastı (sah. 40 *ha*) zirvə. Hünd. 1343 *m* (B. Britaniya a.-nda ən yüksək). Qranit və andezitlərdən təşkil olunmuşdur. Çəmənliklərlə örtülüdür. Sərt iqlim hakimdir. Bəzi yerlərində qar ilboyu qalır. İlin 355 günü buludlarla örtülü olur; 4350 *mm*-ədək yağıntı düşür. Aydın havada 200 *km*-lik məsafəyə əsrarəngiz panoram açılır: qonşu zirvələr (Ben-Lomond, Ben-Louers, Karn- Eyq, Liatax, Loxnaqar və s.), Arran və Cura adaları görünür.



Ben-Nevis zirvəsi.

**BENÓNİ** – CAR-da, Qautenq əyalətində şəhər. Əh. 605 min (2005). Vitvatersrand filiz r-nundan ş.-də yerləşir. D.y. st. 1904 ildə salınmış, 1907 ildən şəhər statusu almışdır. B.-də ali məktəb, təyyarəçilik məktəbi, pedaqoji və texniki kolleclər var. Qızıl hasilatı sənayesi mərkəzidir. Metal emalı, toxuculuq (o cümlədən cut), qara metallurgiya, maşınqayırma (d.y. vaqonları, lokomotiv) sənayesi müəssisələri, elektrotexnika avadanlığı istehsalı var.

**BENSİ** – Çinin şm.-ş.-ində, Lyaonin əyalətində şəhər. Əh. 1,01 mln. (2006). Tayszıxe çayı (Lyaoxe hövzəsi) sahilində, Şenyan ş.-ndən 70 *km* c.-ş.-dədir. Nəql. qovşağı. 11 əsrdən dəmir məmulatların istehsalı ilə tanınan məskənin yerində salınmışdır. 18 əsrin sonlarından B.-də kömür çıxarılır. 1911 ildən polad əridilir. Metallurgiya kolleci; Ənənəvi Çin dərman vasitələri üzrə dövlət elmi tədqiqat mərkəzi fəaliyyət göstərir. B. Şimal-Şərqi Çinin kömür, dəmir filizi və metallurgiya sənayesinin başlıca mərkəzlərindən biridir. Kimya məhsulları, tikinti və odadavamlı materiallar istehsal olunur. B. yaxınlığında kokslaşan kömür, yüksəkkeyfiyyətli dəmir filizi yataqları var. Turizm mərkəzidir ("Su mağaraları").

**BENTÁL** (yun. βένθος – dərinlik) – səthində və ya qrunt qatlarında mikroorqanizmlərin, bitkilərin və heyvanların məskunlaşdığı su hövzələrinin dibi. B.-da məskunlaşmış orqanizmlərin məcmusu bentos adlanır. Su qatlarında B. *pelagiallı* ilə müqayisə edilir. Dənizlərin və okeanların B.-ı şaquli olaraq bir neçə zonaya bölünür. Bax həmçinin *Su hövzələrinin ekoloji zonallığı*.

**BENTAM** Corc (22.9.1800, Plimut yaxınlığındakı Stok – 10.9.1884, London) – ingilis botaniki və səyyahı. London Kral Cəmiyyətinin üzvü (1862), Peterburq EA-nın əcnəbi m. üzvü (1872), London Linney cəmiyyətinin prezidenti (1861–74). 1814–28 illərdə Fransada yaşamış, Montobanda teologiya fakültəsində oxumuşdur; Londonda hüquq elmini öyrənmişdir; 1861 ildən Kyu-



Bensi yaxınlığında su mağarası.



dəki (London yaxınlığında) Nəbatat bağında işləmişdir. "Çiçəkli bitkilərin cinsləri" (1–3-cü cildlər, 1862–83) adlı əsərində (C. *Qukerlə* birlikdə) bitkilərin o dövr üçün əhəmiyyətli olan təbii sistemləri verilmişdir. Avstraliya (F. Müllerlə birlikdə), Hindistan, Honkqonqun ətrafı və s.-nin florasını təsvir etmişdir.

**BENTAM** (Bentham) İyeremiya (15. 2. 1748, London – 6. 6. 1832, London) – ingilis filosofu, hüquqşünas, utilitarizm nəzəriyyəçisi. Vəkil ailəsində anadan olmuşdur. Vestminster məktəbində oxumuş, Oksford Un-tini (1763), London Vəkillik Məktəbini bitirmişdir (1764). Vəkil karyerasından imtina etmiş, hüquq islahatları məsələləri ilə məşğul olmuşdu. Ş.L. Molteskyö, Ç. *Bekkaria*, xüsusən K.A. Helvetsi ona güclü təsir göstərmişlər.

"Sələmin müdafiəsi" (1787) əsərində subut edirdi ki, borc pul faizini məhdudlaşdıran qanunlar həm iqtisadi, həm də hüquqi cəhətdən özünü doğrultmur. B. bir sıra əsərlərində islah müəssisələrində islahatlar aparılması zərurətini əsaslandırırdı. B. "Əxlaq və qanunvericiliyin əsaslarına giriş" (1789) və "Deontologiya, yaxud Əxlaq haqqında elm" (1834) əsərlərində əxlaq və qanunvericiliyin əzəli mücərrəd başlanğıclarını rədd edir və təcrübənin inkaredilməz nəticələri əsasında insan fəaliyyətinin bütün cəhətlərini əhatə edən nəzəriyyə yaratmağa çalışırdı. B. təbii hüquq, təbii varidat, ictimai müqavilə kimi anlayışları əsassız sayırdı. Belə ki, hüquq qanunla yaradılır, iradəni ifadə edən qanun isə idarəetməni və birgəyaşayışı nəzərdə tutur. Fərdlərin hüquqlara malik olmasından çıxış edən ictimai müqavilə nəzəriyyəsi tarixi əsaslardan məhrumdur: idarəetmə (deməli, dövlət) ya tarixən yaranmış şəraitin nəticəsi kimi, ya da güc tətbiq etməklə qurulur. B.-a görə, hüquqlar yalnız konkret ola bilər: cəmiyyətə faydalıdırsa mövcuddur, faydasızdırsa ləğv edilməlidir ("Anarxiyanın yanlışlıqları", 1791–95); azadlığı məhdudlaşdıran qanun qəbul olunandır, çünki qayda-qanunu və yaxşı idarəetməni, deməli həm də vətəndaşların şəxsi maraqlarını təmin edir. Lakin hər şeydən əvvəl insanların hökumət zorakılığından müdafiəsi təmin olunmalıdır ki, bunun da yeganə vasitəsi demokratiyadır. İnsanların davranışı müxtəlif, o cümlədən siyasi (cəza və mükafat), əxlaqi (ictimai rəy), dini sanksiyalarla reqlamentləşdirilə bilər. Burada B. təhsilə xüsusi rol ayırmış, onu "dolayı qanunvericilik" adlandırmışdı. Cəza hüquq pozanların islahı üçün deyil, digərlərinin ibrət alması məqsədilə tətbiq edilir.

Qanunvericiliyin B. tərəfindən işlənib-hazırlanmış kodlaşdırılması prinsipləri bir çox ölkələrin (Fransa, Almaniya, Hindistan, Avstraliya, Kanada və s.) qanunvericiliyində istifadə edilmişdir. Onun inkişaf etdirdiyi iqtisadi davranışın məqsəd və meyarı kimi başa düşülən faydalılıq fəlsəfəsi 19 – 20 əsrlər iqtisad nəzəriyyələrinin əsaslarından biri olmuşdu. Ceyms Mill, Con S. Mill, C. Ostin və b. onun ardıcılları olmuşlar. B-ın ideyaları *marjinalizmin* yaranmasında vacib rol oynamışdı.

Əsəri: О судебных доказательствах. К., 1876.

*Əd.*: Покровский П. Бентам и его время. П., 1916.

**BENTONİT**, bentonit gili (ABŞ-da, Montana ştatındakı Fort-Benton ş.-nin adından) – kolloid, o cümlədən sorbsiya xassəli, əsasən, *montmorillonit* mineralları qrupundan ibarət gil. Vulkan külü, tüf və s. vulkan süxurlarının su hövzələrində diagenez dəyişmələri nəticəsində əmələ gəlir. Digər montmorillonit



Bentonit gili.

gillərindən fərqli olaraq B.-in tərkibində Ca-a nisbətən Na daha çoxdur. B.-də hidromika, beydellit, kaolinit, palıqorskit, kristobalit, seolit və s. qarışıqlar ola bilər. Rəngi ağdan açıq-yaşıl və açıq-göyədəkdir; aşınma intensivləşdikcə rəngi tündləşir (qırmızıyadək). ABŞ-da, Kanadada, B.Britaniyada və s. ölkələrdə iri yataqları var. Azərb.-da Tabaşir yaşlı çöküntülərdə (*Daş Salahlı bentonit yatağı, Göygöl bentonit gilləri yatağı, Qaymaqlı bentonit gilləri yatağı, Şirvan bentonit gilləri yatağı və s.*) və Paleogen yaşlı çöküntülərdə (*Nağaraxana bentonit gilləri yatağı, Hacılı bentonit gilləri yatağı, Şıxandağ bentonit gilləri yatağı, Bəylər bentonit gilləri yatağı* və s.) yataqları var.

B.-dən neft emalı (benzin, kerosin və müxtəlif yağları təmizləmək üçün), kağız (aşqar kimi) və sabun sənayesində, gilli məhlul hazırlanmasında (qazıma işlərində), keramik məmulatların möhkəmliyinin artırılması, tunellərin çəkilməsində divarların bərkidilməsi, suyun və s. təmizlənməsi üçün, həmçinin tibdə və k.t.-nda istifadə edilir.

**BENTOS** (yun. βένθος – dərinlik) – qruntda, eləcə də dəniz və kontinental su hövzələrinin qruntunda yaşayan orqanizmlər. Bitki (fitobentos) və heyvan (zoobentos) B.-u olur. Zoobentosdakı heyvanlar qruntun qatlarında yaşayanlara – infaunaya (yumru və bəzi çoxqıllı qurdlar, ikitaylı molyusklar, exiuridlər, bəzi dərisitikanlılar və s.); qruntun səthində hərəkət edən onfaunaya (əksər dərisitikanlılar, müxtəlif xərçəngkimilər, molyusklar və s.); substrata yapışan epifaunaya (süngərlər, hidroidlər, aktiniyalar, briozoylar, dəniz qozaları, bəzi ikitaylı molyusklar və s.), həmçinin üzən və vaxtaşırı dibə enən nektobentosa (krevetkalar, mizidlər, başıayaqlı molyusklar, dibə yaxın üzən balıqlar və s.) ayrılır. Orqanizmlərin ölçülərinə görə B.-lar 5–10 *mm* və daha iri makrobentosa (dib heyvanlarının əksəriyyəti), 0,5 *mm*-dən 5–10 *mm*-ədək olan meyobentosa (qruntun ən üst qatında yaşayanlar) və 0,5 *mm*-dən kiçik mikrobentosa (bakteriyalar və b. birhüceyrəli orqanizmlər) ayrılır. Dənizlərin dayaz yerlərindəki fitobentosun əsasını makrofitlər (yosunlar və dəniz otları) təşkil edir; dibdəki diatom yosunları yığıntısının da əhəmiyyətli rolu ola bilər. Dərinliklərdə heyvanlardan başqa yalnız bakteriyalar və ibtidai göbələklər yaşayır.

Dənizlərdə B.-un biokütləsi dərinliyə getdikcə azalır: litoralda və üst sublitoralda 5–10 *kq/m*²-ədək və dərinləşdikcə sublitoralda – yüzlərlə və onlarla *q/m*², batialda bir neçə *q/m*², abissalda, adətən 1 *q/m*²dən çox olmamaqla, okeanın həyatın kasad olduğu mərkəzi r-nlarında 0,01 *q/m*² və daha az olur. Okean dibi sahəsinin 8%-ə qədər hissəsini tutan materiklərin yaxınlığında yerləşən dayazlıqların payına bütün okean B.-nun biokütləsinin təqr. 60%-i, dib sahəsinin 3/4-nü tutan abissalın (3000 *m*-dən dərin) payına isə 10%-dən az düşür. Sakit okeanın ş. hissəsinin bəzi r-nlarında 2,5–3 *km* dərinlikdə, yeraltı isti suların (hidroterm) çıxdığı yerlərin yaxınlığında həyat vahələri aşkar edilmişdir. Bu sahələrdə B.-un biokütləsi bir neçə *kq/m*²-ə çatır; bunların faunasında əvvəllər məlum olmayan heyvan növləri (ikitaylı molyusklar, poqonofor və s.) daxildir.

Şirinsu hövzələrində dənizlərə nisbətən B. kəmiyyətcə və keyfiyyətcə daha kasaddır. Heyvanlardan buraya ibtidailər, süngərlər, yumru və azqıllı qurdlar, zəlilər, molyusklar, xərçəngkimilər və bəzi su həşəratlarının sürfələri daxildir. Fitobentos başlıca olaraq yosunlarla (xüsusilə göy-yaşıl və xaralar) və müxtəlif çiçəkli bitkilərlə (suçiçəyi, su zanbağı, ciyən, qamış və s.) təmsil olunmuşdur. B. bir çox balıqların, dənizlərdə isə həmçinin bəzi kürəkayaqlıların yemidir. Dayaz sulardakı dəniz B.-unun bir çox növləri ov və akvakultura obyektidir.

**BENU** – Misir mifologiyasında allah. Sitayiş mərkəzi Heliopol idi. Qədim əsatirlərdə B. vağ kimi təsvir olunur. Onun meydana gəlməsini su xaosundan törəyən. "dünyanın yaranmasını" ifadə edən Benben daş-obelisklə əlaqələndirirlər. Rəvayətə görə, Benben daşı və İşed ağacı B.-nun rəmzləridir. B.-ya Misir baş allahı *Ranın*, sonralar isə *Osirisin* ruhu kimi sitayiş olunmuşdur. B.-nu qədim yunanlar *Feniks* adlandırmışlar.

**BENUA** Aleksandr Nikolayeviç (3.5. 1870, S.-Peterburq – 9.2.1960, Paris) – rus boyakarı, qrafik, stenoqraf, incəsənət tarixçisi, tənqidçi, rejissor və muzey xadimi. Peterburq Rəssamlıq Akademiyasında (1887–94) azad dinləyici olmuş, S.-Peterburq un-tinin hüquq fakültəsində (1890–94) təhsil almış, eyni zamanda qardaşı Albert B.-dan (1852–1936) akvarel texnikasını öyrənmişdir. A. *Böklin*, A. fon *Mensel*, *Barbizon məktəbi* və *prerafaelitlərin* B. yaradıcılığına böyük təsiri olmuşdur. 1896–99 və 1905–07 illərdə Fransada (o cümlədən Bretanda) işləmişdir. 20 əsrin əvvəllərində Rusiyada mədəniyyətin aparıcı simalarından biri olmuşdur: Münxen Sesessionu rus bölməsinin təşkilatçısı (1896); "*Mir iskusstva*" ədəbi birliyinin ideoloqu və təşkilatçılarından biri (1898); eyniadlı jurnalın, həmçinin "Xudojestvenniye sokrovişa Rossiyi" (1901–03) jurnalının nəşrində fəal iştirak etmişdir. 1900 ildən ömrünün sonuna kimi rus və Avropa teatrları üçün işləmişdir – əvvəlcə S.-Peterburqdakı Mariya teatrında rəssam kimi (R. Vaqnerin "Allahların məhvi", 1903; N.N. Çerepninin "Armidanın pavilyonu" baleti, 1907 və s.) çalışmışdır. Rus mövsümləri və *Dyagilevin Rus baletinin* təşkilatçılarından və dekoratorlarından olmuşdur. 20 əsrin əvvəlində rus teatr sənətinin yenilənməsi bir çox

A. Benua. "Oraniyenbaum. Yapon bağı". 1902



cəhətdən B.-nın geniş yaradıcılıq fəaliyyəti ilə bağlıdır. 1917 ildə incəsənət məsələləri üzrə komissiyasının tərkibində olmuş, "Novaya jizn" qəzeti ilə əməkdaşlıq etmişdir. 1918–26 illərdə Ermitajın şəkil qalereyasının müdiri işləmiş, asari-ətiqə və incəsənət abidələrinin mühafizəsi üzrə komissiyanın üzvü olmuşdur. 1926 ildən Parisdə yaşamış və işləmişdir; həmçinin Milan, London, Nyu-York və s. teatrların tamaşalarının bədii tərtibatını vermişdir. Dəzgah boyakarlığı əsərlərində ən çox sevdiyi mövzuları (Parisin, Versalın mənzərələri, S.-Peterburqun tarixinə dair nostalji kompozisiyalar) davam etdirmişdir. Sənət tənqidçisi kimi "təmiz sənət" mövqeyindən çıxış etmiş, epiqonçu *akademizm* və *avanqardizm* əleyhinə çıxış etmişdir. Qərbi Avropa və rus mədəniyyətlərinə dair ensiklopedik biliyi ona incəsənət tarixinə həsr etdiyi əsərlərin yazılmasında kömək etmişdir. 1988 ildə Petrodvoresdə (Peterqof) Benua ailəsinin muzeyi açılmışdır.

**BENUE** (bantu dilində – sular anası) – Kamerun və Nigeriya ərazisində çay; Niger çayının ən böyük sol qolu. Uz. 1300 *km*, hövzəsinin sah. 441 min *km*². Kamerun yaylasının ş. yamaclarından başlanır, daha sonra əhalisi sıx olan geniş dərə ilə düzənlikdən axır. Mənsəbi yaxınlığında eni 1,5 *km*-ə çatır. Əsasən, yağış suları ilə qidalanır. İyundan sentyabradək daşqınlar olur. Mənsəbində ortaillik su sərfi 3170 *m*³/*san*-dir. İbi ş.-ndən, yağışlı mövsümdə isə Qarua ş.-ndən (təqr. 900 *km*) gəmiçiliyə yararlıdır. Lokoca ş. B.-nin mənsəbindədir.

**BENUE-KONQO DİLLƏRİ** – *Niger-Konqo dilləri* tərkibində dil ailəsində birləşən qohum dillərin məcmusu. Afrikanın (Böyük Səhradan cənuba doğru) geniş ərazisində, Nigeriyadan materikin şərq sahilboyuna qədər və cənuba doğru CAR-adək yayılmışdır. Bu dildə danışanların ümumi sayı 380 mln.-dan çoxdur (2004), onlardan 310 mln. nəfər *bantu dillərində* danışır. Ən böyük qeyri-bantu dilləri *yoruba* (30 mln. nəfər), *iqbo* (18 mln. nəfər),



Benue çayı.

*efik* (4 mln. nəfər), *edo* (1 mln. nəfər), *ebira* (1 mln. nəfər). B.-K.d.-nin sayı 900-dür.

"B.-K. d."adını C.H. Qrinberq təklif etmiş, bantu dilləri və benue-kross ailəsini (qərbi Sudan dillərinin D. *Vestermannın* təsnifatına əsasən, 1927) bu ad altında birləşdirmişdir. P. Bennet və Y. Sterk (1977) Qrinberqin ayırdığı *kva dillərinin* şərq qolunu B.-K. d.-nə daxil etmişlər. Sonradan onlar qərbi B.-K.d., Qrinberqin dillər ailəsi (1963) isə şərqi-benue-konqo dilləri adlandırılmışdır. Daxili təsnifatda son dəqiqləşdirmə K. Uilyamson və R. Blençem tərəfindən aparılmışdır (2000).

Sonuncu təsnifatlardan birinə uyğun olaraq B.-k. d. 2 yarımailəyə bölünür: qərbi (keçmiş şərqi kva) və şərqi. Bunlar da müstəqil dil ailəsi ola bilər. Qərb yarımailəsi (c. və c.-q.-i Nigeriya, Benin, Toqo) 5 böyük qola bölünür. 1. Yoruboid qoluna yoruba dilləri (5 ləhcə, bəzən ayrıca dillər hesab olunur) və iqala dilləri daxildir. 2. Edoid qolu 4 qrupdan ibarətdir: a) sm.-q. – 5 dil, o cümlədən okpamheri; b) mərkəzi – 10 dil, o cümlədən edo (bini), işan, yexee (etsako), kunibum; c) c.-q.-i – 5 dil, o cümlədən urxobo, isoko; ç) delta-nqene dilləri, epie deqema. 3. İqboid qoluna 2 qrup daxildir: a) iqbo-mərkəzi iqbo, savanna iqbo, ikverri, ika və daha 3–5 dil; b) ekpeye. 4. Nupoid qolu 2 qrupdan ibarətdir: a) ebira və qade dilləri; b) nupe-qbari – 8 dil, o cümlədən nupe, qbari, qbade, dibo. 5. İdomoid qoluna 4 qrup daxildir: a) yate, akpa dilləri; b) eloi; c) etulo; ç) *idoma*, iqede, yala, alaqo. Nigeriyanın mərkəzində bir neçə kiçik dillər ayrıca qollar yaradır: akpes, oko, ariqidi (akoko), ayere-axan.

Şərq yarımailəsi 4 qola ayrılır. 1. Mərkəzi Nigeriya (kaynci-platoid) qoluna 13 qrup daxildir: a) mürəkkəb strukturlu kaynci – 50-dən artıq dil, o cümlədən kambari, basa, lela, cere; b) şm.-i platoid – 6 dil, o cümlədən ikulu; c) q.-i platoid – 16 dil, o cümlədən kvanka, eqon; ç) birom – 3 dil, o cümlədən birom; d) mərkəzi platoid – 8–9 dil, o cümlədən cu, tyap; e) c.-ş.-i platoid – 4 dil, o cümlədən lidili; ə) ninzi – 6 dil, o cümlədən mada; f) arum – tesu; g) ayu; ğ) toro; h) xyam; x) tarokoid – 4 dil, o cümlədən tarok; i) cukunoid – təqr. 20 dilə yaxın, o cümlədən vapan, tiqon. 2. Krossriver qolu 5 qrupdan ibarətdir: a) bendi – 9 dil, o cümlədən boki, yakoro; b) yuxarı kross – 22 dil, o cümlədən lokaa, mbembe; c) aşağı kross – 23 dil, o cümlədən efik (ibibio); c) keqboid (oqoni) – 5 dil, o cümlədən kana; d) mərkəzi delt – 8 dil, o cümlədən oqbia. 3. Bantoid qolu (600-dən artıq dil), tiv, bamileke, bamum, carava dilləri kimi təqr. 14 qrupu əhatə edir (bax *Bantoid dilləri*). Bantu qruplarından biri (təqr. 500 dil). 4. Ukaan.

B.-K.d. fonoloji aspektdən zəngin *vokalizmlə* xarakterizə olunur. Dillərin çoxunda (əsasən qeyri-bantu dilləri) sait orta sıraya (dərəcəyə) malikdir (ɯ, ɵ, ə, e, ʌ). Uzunluğuna və səsin burunda tələffüz edilməsinə görə saitlər müqayisəlidir. B.-k.d. *tonal dillərdir*.

Morfoloji tipinə görə təcridi-aqlütinasiyalıdır (bantu dillərində flektiv elementlər nəzərə çarpır). İsimlərə adlıq və say (tək və cəm) kateqoriyaları xasdır. Adlıq qruplarının tərkibi və ifadə tərzi dillər üzrə şəklini dəyişir. Sifət bir çox dillərdə zəif inkişaf etmişdir və adətən, fel ilə birləşərək keyfiyyət predikatlar əmələ gətirir. Xüsusi leksik-qrammatik ideofonlar qrupu ayırd edilir. Bir çox dillərdə stativ və aktiv fellərin fərqləndirilməsi səciyyəvidir. Cümlədə ən çox "subyekt+predikat+obyekt" söz sırası işlənir, predikat adlıq və feli ola bilər.

B.-K. d.-nin əksəriyyətinin yazısı yoxdur. İlk linqvistik yazı 16 əsrə aiddir. 19 əsrədək, əsasən, Bantu dilləri öyrənilmişdir (bax *Bantuistika*). 19 əsrin ortalarından başlayaraq qeyri-bantu materiallarına maraq yaranmışdır: B.-K.d.-nə (efik) aid ilk qrammatika və lüğət 1860–70 illərdə meydana gəlmişdir (C.X. Holdi) . B.-K.d.-nin müqayisəli şəkildə öyrənilməsinə (bantudan başqa) X. Conston tərəfindən başlandı (1919). 1920–30-cu illərdə B.-K.d.-nin təsnifatı və xarakteristikası ilə Ç. Mik, P. Tolbot, Q. Tesman məşğul olmuşlar. B.-K.d.-nin öyrənilməsində ilk dəfə onları qruplara (benue-kross) ayırmış D. Vesterman mühüm rol oynamışdır. Bu dövrdə və sonrakı illərdə qeyri-bantu arealının bəzi B.-K.d.-nə aid əsərlər yazıldı (E. Meyer, R. Abraham, F. Adams, M. Cefris, Q. Volf, F. Uinston, K. Hofman, L. Herhardt, H. Yunqraytmayr, K. Şimitsu, B. Konnell, H. Dimmendaal, C. Stüart və b.) 1960-cı illərdən B.-K. d.-nə böyük maraq yarandı: 1966 ildə bir neçə il fəaliyyət göstərmiş beynəlxalq benue-konqo işçi qrupu yaradıldı (Y. Vorxuve, P. De Volf, E. Dansten, D. Krebb, T. Kuk, A.E. Meeyussen, K. Uilyamson və b.). Prabenue-konqo dillərinin qrammatik rekonstruksiyasına ilk dəfə P. De Volf tərəfindən təşəbbüs göstərildi (1971). B.-K.d.-ni tədqiq edən əsas mərkəzlər: Leyden Un-ti (Niderland), İbadan Un-ti (Nigeriya), Kaliforniya Un-ti (ABŞ), London Un-ti (Böyük Britaniya), Hamburq Un-ti (AFR).

*Əd.:* W e s t e r m a n n D. Die westlichen Sudansprachen und ihre Beziehungen zum Bantu. Br., 1927; W i l l i a m s o n K., B l e n c h R. Niger-Congo//African languages: an introduction. Gamb., 2000.

**BENZALDEHİD**, b e n z o y a l d e h i d i – ən sadə aromatik aldehid, $C_6H_5CHO$; acı badam iyli rəngsiz mayedir, $t_{qayn}$ 179°C. Efirdə, etanolda həll olur. B. *aldehidlər* üçün səciyyəvi reaksiyalara daxil olur; məs., havada benzoy turşusuna oksidləşir, kalium-sianidin iştirakı ilə benzoinə kondensləşir $C_6H_5CH(OH)C(O)C_6H_5$, asetanhidridlə darçın turşusu (Perkin reaksiyası), qələvilərlə qızdırıldıqda – benzil spirti və benzoy turşusu (*Kannissaro reaksiyası*) əmələ gətirir. B. toluolun və ya benzil spirtinin katalitik oksidləşməsindən, benzalxloridin $C_6H_5CHCl_2$ hidrolizindən, benzolun karbonilləşməsindən alınır. B. efir yağlarında, albalı, ərik, şaftalı tumlarında qlikozid (amiqdalin) şəklində olur. B. ətriyyatda ətirli maddə, qida essensiyalarının komponenti kimi, boyaq maddələrinin istehsalında işlədilir. B. gözün selikli qişasını və yuxarı tənnəfüs yollarını qıcıqlandırır.

**BENZİDİN** (4,4′-diamindifenil) – aromatik diamin.



B.havada və işıqda qaralan, rəngsiz kristallik maddədir, $t_{ər}$ 128°C. Soyuq suda və efirdə pis, qaynar etanolda yaxşı həll olur. B. mineral və karbon turşuları ilə duz əmələ gətirir; diazotlaşma, sulfolaşma, nitrolaşma, xlorlaşma reaksiyalarına daxil olur. B. qələvi mühitdə nitrobenzolun sinklə reduksiyasından əmələ gələn hidrazobenzolun *benzidin yenidənqruplaşması* ilə alınır. İlk dəfə N.N. Zinin 1845 ildə almışdır. B. analitik kimyada kation və anionların vəsfi və miqdari təyinində, məs., B.-i rəngli birləşmələrə qədər oksidləşdirən $Cr^{6+}$, $Cu^{2+}$, $Au^{3+}$, $Pb^{4+}$, $Hg^{2+}$, $[Fe(CN)_6]^{3-}$, $NO_2$, $S_2O_8^{2-}$, $VO_3$ təyinində tətbiq edilir. Əvvəllər B. azoboyaq maddələri istehsalında geniş istifadə edilirdi. B. kanserogen maddə olduğundan bir sıra ölkələrdə onun istehsalı qadağan edilmişdir.





**BENZİDİN YENİDƏNQRUPLAŞMASI** – 1,2-diarilhidrazinlərin 4,4′-diamindiarillərə çevrilməsi; məs.:



B. y., adətən, qüvvətli turşuların təsirilə aparılır. Əsas əlavə məhsullar 2,2′- və 2,4′-diamindiarillərdir.B. y.-nın istiqamət və sürəti benzol halqasındakı əvəzedicilərin xarakteri və vəziyyətindən asılıdır. İlkin diarilhidrazinlərdə bir və ya hər iki *para*-vəziyyət əvəz edilmişdirsə, onda yarımbenzidin (semidin) adlanan yenidənqruplaşma mümkündür, məs.,



*para*-vəziyyətdə olan bəzi əvəzedicilər – $SO_3H$, $CO_2H$, RC(O) adi B. y. məhsulları verərək qopa bilər. Naftalin törəmələri üçün B. y. qızdırılmaqla turşuların iştirakı olmadan gedə bilər.

B. y. azoboyaq maddələri və diaminlərin (məs., benzidin, tolidin, dianizidin) istehsalında istifadə edilir. B.y.1845 ildə N.N. *Zinin* tərəfindən kəşf olunmuşdur.

**BENZİL SPİRTİ** – ən sadə aromatik spirt, $C_6H_5CH_2OH$, zəif xoşiyli rəngsiz mayedir, $t_{qayn}$ 205°C. Üzvi həlledicilərdə həll olur, suda həll olmur. Aromatik *spirtlərin* kimyəvi xassələrinə malikdir. Bir çox efir yağları və təbii balzamların tərkibində olur. Benzilxloridin və ya benzilasetatın qələvi ilə hidrolizindən, toluolun oksidləşməsindən alınır. B. s. və onun efirləri (məs., *benzilasetat*) ətriyyat və sabun istehsalında iyin, ətirli maddələrin fiksatoru, qida essensiyalarının komponentləri, lakların həlledicisi və s. kimi tətbiq edilir.

**BENZİLASETAT** – təbii üzvi maddə, $C_6H_5CH_2OCOCH_3$; jasmin, qardeniya və digər bitkilərin efir yağlarının tərkibində olur. Jasminətirli rəngsiz mayedir, $t_{qayn}$ 214,9°C. Suda həll olmur, spirtdə həll olur. B. efir yağlarından ayrılır, benzil spirti və sirkə turşusundan sintez edilir. Ətriyyat kompozisiyalarının və ətirləyicilərin hazırlanmasında ətirli maddə, qida essensiyaları komponenti, lakların həlledicisi kimi istifadə edilir.

**BENZİN** – neftin yüngül fraksiyalarından, neftli qaz kondensatlarından, daş və qonur kömürdən, şistlərdən alınan, 35–205°C həddində qaynayan karbohidrogenlər qarışığı (başlıca olaraq $C_4$–$C_{12}$); yanacaq kimi minik və yük avtomobillərində, təyyarələrdə, helikopterlərdə qoyulan və qığılcımla alışdırılan karbürator mühərriklərində istifadə edilir. B.-in tərkibinə alkanlar, alkenlər, aromatik və naften karbohidrogenləri, kükürd-, azot- və oksigentərkibli üzvi birləşmələr qarışığı daxildir. B. xarakterik iyli rəngsiz mayedir; sıxlığı 700–780 $kq/m^3$, yanma istiliyi 41–44 *MC/kq*; B. buxarları hava ilə alışqan qarışıq əmələ gətirir. B.-in keyfiyyətinin əsas göstəricisi detonasiya davamlılığıdır (bax *Oktan ədədi*). Onu yüksəltmək üçün mühərrik yanacaqları antidetonatorları tətbiq edilir. B.-in kimyəvi stabilliyini yüksəltmək üçün onlara antioksidləşdirici *aşqarlar*, başlıca olaraq alkilfenollar əlavə edilir.

B. *neft emalının* müxtəlif texnoloji proseslərinin – birbaşa distillə, termiki və katalitik krekinq, riforminq və s.-nin benzin komponentlərinin qarışdırılması ilə istehsal olunur. Riforminq, izomerləşmə, alkilləşmə proseslərinin B.-i ən yüksək, termiki proseslərin birbaşa distillə fraksiyaları isə ən kiçik oktan ədədli olur.

Müxtəlif markalı avtomobil və aviasiya B.-i istehsal olunur. Yay və qış avtomobil B.-ləri olur; axırıncıda aşağı temprda qaynayan karbohidrogenlər çoxdur. A-80, Aİ-91, A-92, Aİ-93, Aİ-95, A-96, Aİ-98 etilləşməmiş avtomobil B.-lərinin (tərkibində tetraetilqurğuşun olmayan) əsas markalarıdır. Markalanmadakı rəqəmlər motor və ya tədqiqat üsulu ilə təyin edilmiş oktan ədədini göstərir. Normal-80 (yük avtomobilləri üçün), Requlyar-91 (Aİ-93-ün analoqu), Premium-95 və Super-98 (minik avtomobilləri üçün) markalı B.-lər beynəlxalq standartların tələblərinə uyğundur. Ekoloji xassələri yaxşılaşdırılmış B.-lər (məs., Aİ-80 EK, Aİ-92 EK, Aİ-95 EK, Aİ-98 EK) də istehsal olunur; bunların tərkibində benzolun (həcmcə 3–5%-dən çox deyil), arenlərin (həcmcə 45%-dən çox deyil), kükürdün (kütləcə 0,05%-dən çox deyil) miqdarı məhdudlaşdırılmış, yuyucu aşqarlar əlavə olunmuşdur.

Aviasiya B.-i katalitik riforminq B.-i və yüksəkoktanlı komponentlərin: izoalkanların (bax *Alkilat*), toluolun və s. qarışıqları əsasında alınır; əsas markaları B-92 və B-91/115 (markalanmada birinci rəqəm motor üsuluna görə oktan ədədini, ikinci rəqəm sortluluğu göstərir). Aviasiya B.-inə detonasiya davamlılığını tələb olunan səviyyəyə qaldırmaq üçün 1 *kq* B.-nə etil mayesi (tetraetilqurğuşunun və karbohidrogenlərin halogenli törəmələrinin homogen qarışığı) şəklində 1,0–3,1 *q* tetraetilqurğuşun əlavə edilir. Təhlükəsizlik üçün etilləşdirilmiş aviasiya B.-i boyanır. B.-lər az miqdarda müxtəlif sənaye sahələrində həlledicilər kimi istifadə edilir (bax *Neft həlledicilər*).

B. yanğıntəhlükəlidir. B. buxarları ilə uzun müddət nəfəs aldıqda baş ağrısı, öskürək, başgicəllənməsi, bəzən huşun itməsi ilə müşayiət edilən kəskin zəhərlənmələr baş verə bilər.

Bax həmçinin *Sintetik maye yanacaqlar*.

*Əd.:* Г у р е е в А.А., А з е в В.С. Автомобильные бензины. Свойства и применение. М.,1996.

**BENZİN KƏSİCİSİ**, k e r o s i n k ə s i c i s i – metalları qazla kəsən aparat; maye yanacaqla (benzin, ağ neft) işləyir.



Benzin kəsicisi KJQ-1B (RF).

Yanacağın buxarı oksigenlə qarışaraq kəsərin metalı qızdıran alovuna daxil olur. Kəsilmə, oksigen şırnağının (axınının) qızan metala tərəf yönəlməsi zamanı baş verir. B. k. 300 *mm*-ədək qalınlığında metalı kəsə bilər.

**BENZİN MİŞARI** – mexaniki mişar; daxiliyanma mühərriki intiqallıdır. Kəsici mexanizmi yönəldici şin üzərində

Benzin mişarı "Husqvarna 240-16" (İsveç).



hərəkət edən mişar zəncirindən ibarətdir. B. m. meşə tədarükü, inşaat-təmir işləri və s.-də istifadə olunur.

**BENZİN MÜHƏRRİKİ** – bax *Daxiliyanma mühərriki.*

**BENZİNDOLDURMA KOLONKASI** – benzin və başqa növ maye yanacaqları nəql. vasitəsinə dolduran nasos qurğusu. Buraxılan benzinin miqdarı litrölçən sayğaclarda avtomatik qeyd olunur. Avtomatlaşdırılmış B.k. partlayışdan təhlükəsiz elektrik mühərrikləri, sayğaclar və dozalayıcı qurğular ilə təchiz edilir. Avtomat-kolonkalarda buraxılan yanacağın həcmini (məs., ay ərzində) cəmləyən və dəyərini hesablayan elektron qurğular olur.

**BENZİNTUTAN** – kanalizasiyalarda benzin, benzol və ağ neftdən ibarət yüngül, su ilə qarışmayan mayeləri çirkli sulardan ayıran qurğu. Qarajların, benzin anbarları və s.-nin çirkab kəmərlərində quraşdırılır. B.-a yığılan mayelər regenerasiya olunduqda, yenidən istifadə üçün yararlıdır.

**BENZOATLAR** – bax *Benzoy turşusu.*

**BENZOFENÓN**, d i f e n i l k e t o n – ən sadə aromatik keton, $(C_6H_5)_2C{=}O$; xoş iyli rəngsiz kristal maddədir. Stabil ($t_{ər}$ 48,1°C) və qeyri-stabil ($t_{ər}$ 26°C) kristallik modifikasiyaları mövcuddur. B. suda həll olmur, spirt, efir, benzol və sirkə turşusunda həll olur. B. kimyəvi xassələrinə görə *ketonlara* oxşardır,lakin CO qrupu üzrə alifatik-aromatik ketonlardan az reaksiyayaqabildir. B. həyəcanlanmış hala asan keçdiyinə görə fotokimyəvi reaksiyalara qoşulur; məs., işıqda B. spirt məhlullarında benzopinokona $(C_6H_5)_2C(OH)C(OH)(C_6H_5)_2$ reduksiya olunur.

Sənayedə B. benzoldan və tetraxlormetandan ($AlCl_3$ katalizatorunun iştrakı ilə) aşağıdakı sxem üzrə alınır:

$$2C_6H_6 + CCl_4 \xrightarrow{AlCl_3}$$
$$\longrightarrow (C_6H_5)_2CCl_2 \xrightarrow{H_2O} (C_6H_5)_2CO$$

B. sabun istehsalında iy fiksatoru və ətirli maddə, stirolun polimerləşməsində inhibitor kimi işlədilir. B. törəmələri – plastik kütlə stabilizatorlarıdır.

*Əd.* : Несмеянов А.Н., Несмеянов Н. А. Начала органической химии. Кн. 2. М.,1970.

**BENZOXİNONLAR** – *xinonların* ən sadə nümayəndələri. İki izomeri mövcuddur: 1, 2-B. (*o*-benzoxinon, I) – parlaq-qırmızı kristallardır, $t_{ər}$ 70–80°C (parçalanmaqla); 1,4 B. (*n*-benzoxinon, II) – kəskin iyli qızılı-sarı kristallardır, $t_{ər}$ 116°C. 1,4-B. və 1,2-B. hidroxinon və pirokatexinə dönən reduksiya olunurlar, *dien sintezində* iştirak edirlər, fenollarla analitik kimyada istifadə olunan molekulyar komplekslər əmələ gətirir. B. arenlərin və ya onların hidroksi- və aminəvəzli törəmələrinin oksidləşdirilməsi ilə alınır. Bəzi təbii piqmentlər 1,4-B.-ın törəmələridir. Əvəzli B. hüceyrə tənəffüsü və fotosintez proseslərində elektronların ötürülməsin-



I II

də iştirak edir. B. və onların törəmələri fungisid, insektisid, aşılayıcı maddə kimi tətbiq edilir; B. – boyaq maddələri və hidroxinon istehsalında aralıq məhsullardır. 1,4-B. dermatitlər törədir.

*Əd.*: Несмеянов А. Н., Несмеянов Н.А., Начала органической химии. Кн. 2. М., 1970.

**BENZOİN KONDENSLƏŞMƏSİ** – aldehidin iki molekulundan α-hidroksiketonların (asiloinlərin, aromatik sırada – benzoinlərin) alınma reaksiyası, məs.: $2C_6H_5CHO{\rightarrow}C_6H_5(O)CH(OH)C_6H_5$. B. k.-də katalizator natrium və ya kaliumsianiddir. B. k. aromatik, həmçinin bəzi heterotsiklik aldehidlər (məs., furfurol) üçün xarakterikdir. İki müxtəlif aldehiddən qeyri-simmetrik benzoinlər alınması mümkündür, məs.:

$(CH_3)_2NC_6H_5CHO{+}C_6H_5CHO{\rightarrow}$
${\rightarrow}(CH_3)_2NC_6H_5C(O)CH(OH)C_6H_5$.

Dördlü tiazol duzlarının katalizator kimi tətbiqi alifatik aldehidlərdən asiloinləri almağa imkan verir. B. k., başlıca olaraq, benzoin $C_6H_5C(O)CH(OH)C_6H_5$ və *stilben* almaq üçün istifadə edilir.

**BENZOL** – aromatik karbohidrogenlərin ən sadə nümayəndəsi, $C_6H_6$.



B.-u işıq qazının maye kondensatından ayırmaqla M. *Faradey* kəşf etmişdir (1825); B.-u təmiz halda benzoy turşusunun kalsium duzunun pirolizindən *Mitçerlix* almışdır (1833). 1865 ildə F.A.*Kekule* B.-un sadə və ikiqat rabitələrlə növbələşən quruluş formulunu təklif etmişdir.

B. kəskin iyi olmayan rəngsiz mayedir; $t_{ər}$ 5,53°C, $t_{qayn}$ 80,1°C. suda, demək olar ki, həll olmur, qeyri-polyar üzvi həlledicilərin əksəriyyəti ilə bütün nisbətlərdə qarışır, yağları, kauçukları, qatranları həll edir, su və spirtlərlə azeotrop qarışıqlar əmələ gətirir. B. molekulunda $sp^2$-hibridləşmə halında olan karbon atomları (aralarındakı məsafə 139 *pm*) düzgün müstəvi altıbucaqlı əmələ gətirir; halqadakı bütün atomlar vahid *p*-elektron sisteminin yaranmasında iştirak edir. B. molekulu *aromatikliyin* bütün kriteriləri ödəyir.

B. *aromatik birləşmələrin* kimyəvi xassələrinə malikdir. B.-un qatı $HNO_3$ və $H_2SO_4$ qarışığı ilə nitrolaşmasından əmələ gələn nitrobenzol *anilinə* reduksiya oluna bilər. B. qatı $H_2SO_4$-lə benzolsulfoturşuya qədər sulfolaşır; alkilhalogenidlərlə alkilbenzollara qədər alkilləşir və karbon turşularının xloranhidridləri ilə ($AlCl_3$ katalizatorunun iştirakı ilə) alifatik-aromatik ketonlara qədər asilləşir (bax *Fridel-Krafts reaksiyası*). B.-un etilenlə alkilləşməsindən əmələ gələn *etilbenzoldan* sənayedə *stirol* alınır; analoji üsulla B. və propilendən *fenol* və *asetonun* alınması üçün ilkin məhsul – *kumol* alınır. B.-u havanın oksigeni ilə oksidləşdirdikdə *malein anhidridi* alınır. B. çətinliklə birləşmə reaksiyasına girir. Belə ki, B.-un yalnız fotokimyəvi xlorlaşmasından insektisid kimi istifadə olunan heksaxlortsikloheksan alınır. B. katalitik hidrogenləşdirildikdə e-*kaprolaktam* istehsalı üçün ilkin məhsula – *tsikloheksana* çevrilir.

B. daş kömürün pirolizindən alınan koks qazının tərkibində olur. B., əsasən, 62–85°C-də qaynayıb ayrılan neft fraksiyasının 470–540°C-də riforminqindən alınır. B. kimya sənayesinin mühüm xammalıdır; partlayıcı, ətirli, dərman maddələri, pestisidlər, boyaq maddələri və s. istehsalında həlledici və ekstragent kimi tətbiq edilir. B.-un hava ilə qarışığı (həcmcə B.-un 1,5–8%-i) partlayış təhlükəlidir. B. zəhərlidir, kəskin və xroniki zəhərlənmə törədə bilər.

*Əd.*: Соколов В. З., Харлампович Г. Д. Производство и использование ароматических углеводородов. М., 1980.

**BENZOLSULFOTURŞULAR** – bax *Arilsulfoturşular.*

**BENZOPİRANLAR**, x r o m e n l ə r – davamsız heterotsiklik birləşmələr: benzo-α-piran (I ) və benzo-γ-piran (II):



I II

B.-ın törəmələri oksidləşdiricilərin iştirakı ilə turşuların təsirindən davamlı *benzopiril duzları* əmələ gətirir, katalitik hidrogenləşmədə dihidrobenzopiranlara (xromanlara) reduksiya olunur, oksidləşmədə *kumarin* törəmələrinə və ya benzo-γ-pirona (xromonlara) çevrilir. B. – bəzi alkoloidlərin, antosianların, tokoferolların, flavonoidlərin struktur fraqmentləridir. B-ın törəmələri P qrupu vitaminlərinə (məs., rutin, kversetin) aiddir, spazmolitik və antianginal vasitələrdir (məs., kellin, karbokromen).

**BENZOPİREN** (1,2-benzopiren, 3,4-benzpiren, benz[*a*]piren) – politsiklik aromatik karbohidrogen.



B. açıq-sarı kristal maddələrdir; üzvi həlledicilərdə, piylərdə, metanolun sulu məhlulunda həll olur. Benzol – metanol qarışığından $t_{ər}$ 175–176,5°C-də olan, amilasetatdan $t_{ər}$ 179,5–180,5°C olan forma kristallaşır. Aromatik karbohidrogenlər üçün səciyyəvi reaksiyalara daxil olur. Xromat turşusu ilə oksidləşir, $AlCl_3$ iştirakı ilə sirkə anhidridi ilə asilləşir, katalitik hidrogenləşmədə 4,5-dihidro-1,2-B.-yə reduksiya olunur. Elektrofil əvəzetmə, əsasən, 3 vəziyyətdə gedir.

B. daş kömür qatranı tərkibinə daxildir; aromatik karbohidrogenlərin pirolizi zamanı əmələ gəlir. B. və onun törəmələri tütün tüstüsündə, avtomobillərin işlənmiş qazlarında, iri şəhərlərin havasında olur. Güclü kanserogendir. B. orqanizmdə mutagen aktivliyə malik stereoizomerlərdən biri 7,8-dihidroksi-9,10-epoksi-7, 8, 9, 10-tetrahidro-1,2-benzopirenə qədər oksidləşir.

*Əd.*: Клар Э. Полициклические углеводороды. М., 1971. Т. 1–2.

**BENZOPİRİL DUZLARI** , x r o m i l d u z l a r ı – strukturunun əsası davamlı aromatik benzopiril kationu olan üzvi birləşmələrdir.



B.d. qələvi məhlulu və ya suyun təsirindən benzopiranların hidroksitörəmələrinə – benzopiril əsaslarına qədər hidroliz olunur. B. d. yüksək reaksiyayagirmə qabiliyyətinə görə üzvi sintezdə geniş istifadə edilir. B. d. oksidləşdiricilərin iştirakı ilə turşuların benzopiranlara təsirindən və ya fenolların β-dikarbonil birləşmələrlə kondensləşməsindən alınır. Polihidroksiəvəzli B. d. antosianların struktur fraqmentləridir. B. d. korroziya inhibitorları, foto- və termoxromlar, fotosensibilizatorlar, lüminoforlar kimi istifadə edilir.

*Əd.*: Джоуль Д., Смит Г. Основы химии гетероциклических соединений. М.,1975.

**BENZOY QATRANI**, ş e h l i b ü x u r q a t r a n ı – Cənub Şərqi Asiyada və Malayya arxipelaqının adalarında stiraks (*Styrax benzoin* və s.) fəsiləsindən olan yabanı və becərilən bitkilərdən çərtilməklə alınan təbii qatran. Havada tez bərkiyən və qaralan ağ maddədir, yumşalma temp-ru 75–90°C –dir.

Ədvə ətirli və vanil iylidir. Əsas komponentləri benzoy və darçın turşuları, onların efirləri, vanilindir. B.q. ətriyyatda iy fiksatoru, kosmetika və tibdə antiseptik kimi işlədilir.

**BENZOY TURŞUSU** – ən sadə aromatik karbon turşusu, $C_6H_5COOH$. B.t. rəngsiz kristalik maddədir, 100°C temprda sublimasiya edir, $t_{ər}$ 122,3°C; etanol, efir və benzolda həll olur, suda həll olmur. *Karbon turşularının* kimyəvi xassələrinə malikdir. 370°C-də benzol və karbon-dioksid alınmaqla parçalanır (*dekarboksilləşmə reaksiyası*). Sənayedə B. t. toluolun havanın oksigeni ilə katalitik oksidləşməsindən alınır. Mürrəkəb efir və duzlar – benzoatlar şəklində təbii efir yağlarının (məs., mixək), balzamların, *benzoy qatranı* tərkibinə daxildir. B. t. və onun duzları zəhərli deyil, yüksək bakteriostatik və bakterisid aktivliyə malikdir, qida sənayesində konservant, tibdə, ətriyyat hazırlanmasında və s. antiseptik kimi tətbiq edilir. Natrium və ammonium benzoatları polimerlər, lateksler və yapışqanları stabilləşdirmək, korroziyanı inhibitorlaşdırmaq üçün istifadə edilir. B. t.-nun mürəkkəb efirləri (metil- , etil- və izoamilbenzoat) – ətirli maddələrdir, sellüloz efirlərinin həlledicilərdir.

**BEÓTİYA** (yun. Βοιωτία) – Orta Yunanıstanda, şm.-ş.-də Fokida, c.-ş.-də Attika ilə həmsərhəd olan tarixi vil. Yaxşı suvarılan, allüvial torpaqlarla zəngin olan B. münbitliyi ilə məşhur idi. Burada qədimdən əkinçilik və maldarlıq inkişaf etmişdi. Yunan tayfaları B.-da e.ə. 2-ci minilliyin əvvəllərində məskunlaşmışlar. E.ə. 2-ci minilliyin ortalarında Mikena dövründə B. ərazisində artıq ilk dövlət qurumları meydana gəlmiş, lakin e.ə. 2-ci minilliyin sonu– 1-ci minilliyin əvvəllərində tənəzzülə uğramışdı. Nəticədə əhali yenidən icma həyatına qayıtmışdı. E.ə 8–7 əsrlərdə B.-da sosial təbəqələşmə prosesi gedirdi. *Yunan-İran müharibələrində* (e. ə. 500–449) farsları dəstəkləyən və *Peloponnes müharibəsinin* (e.ə. 431–404) gedişində Afinaya qarşı Spartanın tərəfində çıxış edən torpaq sahibkarları iqtisadi və siyasi həyatda aparıcı mövqeni ələ keçirmişdi. E.ə. 4 əsrdə B.-da demokratik hərəkat güclənmiş, başda *Fiva* olmaqla əslində antik dövrün ilk federativ dövləti (B. şəhərlərinin ən qədim ittifaqı əsasında) yaranmışdı. Bu dövlət Fiva aristokratiyasının rəhbərləri *Pelopidin* və *Epaminondun* dövründə qısa müddət ərzində (e.ə. 379–362) Yunanıstanın iri siyasi güc mərkəzi olmuşdur. Lakin e.ə. 378–362 illərdə Sparta ilə aparılan qanlı müharibələr B.-nın zəifləməsinə və e.ə. 362 ildən sonra B. şəhərləri ittifaqının əvvəlki əhəmiyyətini itirməsinə gətirib çıxarmışdı. E.ə. 338 ildə Beotiya ittifaqı dağılmış, e.ə. 3–2 əsrlərdə yenidən bərpa olunmuşdu. E.ə. 146 ildə Beotiya ittifaqı qəti olaraq ləğv edilmişdir. Roma dövründə (e.ə. 2 əsr – eramızın 4 əsri) B.-nın şəhərləri tənəzzülə uğramışdı. İndiki Yunanıstanda qədim B.-nın ərazisi eyniadlı *nomu* təşkil edir (mərkəzi Levadiya ş.-dir).

**BEOTUKLAR** – nəsli kəsilmiş hindi xalqı, Nyufaundlend a.-nın (Kanada) yerli əhalisi. Beotuk dili haqqında çox az məlumat var; təcrid olunmuş, yaxud *alqonkin dillərinə* qohum dil hesab edilir.

Ənənəvi mədəniyyətləri bütövlükdə Subarktika *hindiləri* üçün səciyyəvidir, bununla yanaşı sahilyanı mühitin də təsiri olmuşdur. Ovçuluq (şimal maralı-karibu və s.), dəniz heyvanları ovu, balıqçılıq və yığıcılıqla (dəniz quşlarının yumurtaları, molyusklar, bitki kökləri) məşğul idilər. Üstü tozağacı qabığı ilə örtülmüş konusvari evlərdə yaşayır, döşə-


Beppu kurortu. Termal mineral su bulaqları.

mədə qazılan çuxurlarda yatırdılar. Buxar hamamları var idi. Geyimlərini karibu dərisindən tikirdilər. Üzlərini, bədənlərini və paltarlarını yağla qarışdırılmış qırmızı oxra ilə boyayırdılar (buna görə ağlar onları "qırmızı hindilər" adlandırmışlar). Tozağacından dənizdə və çaylarda üzmək üçün əlverişli olan (ballast kimi daşlardan istifadə edilirdi) xüsusi tipli kanoelər düzəldirdilər. Ulu ruhun kultu, həmçinin B.-ın oxun torpağa sancılmasından yarandıqları haqqında mif mövcud idi. Labrador eskimosları ilə düşmənçilik edir, *montanye-naskapilərlə* dinc münasibətlər saxlayırdılar.

Ehtimal ki, 11 əsrdə normanlarla əlaqə saxlamışlar. B. haqqında avropalıların (J. *Kartye*) ilk qeydləri 1534 ilə aiddir. Əvvəllər avropalılarla dostluq münasibətləri olmuş, lakin 17–18 əsrlərdə ingilis və fransız kolonistlərinin adaya gəlməsi münaqişələrə gətirib çıxarmışdı. Əvvəlcə avropalılar *mikmakları* B.-ın üzərinə qaldırdılar; sonradan hücumlar zamanı B.-ın məhvi sistemli səciyyə daşıyırdı. 18 əsrin 2-ci yarısında B.-ın sayı 200–500 nəfər idi (1768). Onlar sahilyanı ərazilərdən adanın içərilərinə doğru sıxışdırılaraq dənizin sərvətlərindən faydalanmaqdan məhrum edilmişdilər. Eksployts çayının və Red-İndian-Leyk gölünün sahillərində məskunlaşmış B.-ın axırıncı qrupu 1811 ildə 72 nəfər, 1823 ildə 14 nəfərdən ibarət olmuşdur. B.-ın sonuncu nümayəndəsi 1829 ildə ağların əsirliyində ölmüşdür.

**BÉPPU** – Yaponiyada, Oita prefekturasında şəhər. Əh. 125,1 min (2005). Küsü a.-nın şm.-ş.-indədir. D.y. st. Daxili Yapon dənizinin Beppu körfəzi sahilində port. Yaponiyada məşhur balneoloji kurort. İqlimi subtropikdir; qışı mülayim (yanvarın orta temp-ru təqr. 4°C ), yayı istidir (iyulun orta temp-ru təqr. 24°C ). Yağıntının illik miqdarı 2000 *mm*. İqlimlə yanaşı ərazini əhatə edən dağların yamaclarında vulkan mənşəli sulfidli, natrium xloridli termal (100°C-yədək) mineral su bulaqları da əsas müalicə amilləridir. Əsas etibarilə hərəkət və dayaq orqanları və periferik sinir xəstəlikləri müalicə olunur. Sanatoriyalar, çoxsaylı hotellər vardır. Turizm mərkəzidir. B.-da vulkanologiya ETİ, balneologiya ETİ, Ritsumeykan Asiya-Sakit okean un-ti fəaliyyət göstərir. Kimya, toxuculuq, əlvan metallurgiya sənayesi müəssisələri var. Balıq ovlanır.

**BER** Karl Maksimoviç (28.2.1792, Estlyandiya Piyb malikanəsi – 28.11.1876, Estoniyada indiki Tartu ş.) – rus təbiətşünası, embriologiyanın banilərindən biri. Peterburq EA-nın akad. (1828–30 və 1834–62), fəxri üzvü (1862). B. məməli heyvanlarda və insanda yumurta-hüceyrəni kəşf etmiş (1827), cücənin *embriogenezini* (1829, 1837), balıqların, suda-quruda yaşayanların, sürünənlərin və məməlilərin rüşeym inkişafını ətraflı öyrənmiş və onun mühüm mərhələsi olan blastulanı ilk dəfə təsvir etmişdir. Rüşeymin inkişafı prosesində, ardıcıl olaraq, tip, sinif, dəstə, fəsilə, cins, növ və nəhayət fərdə məxsus əlamətlərin əmələ gəldiyini müəyyənləşdirmişdir (Ber inkişaf qanun). B. onurğalıların bütün əsas orqanlarının (xorda, baş beyin və onurğa beyni, göz, ürək, ağ ciyər, həzm kanalı, ifrazat orqanları və s.) inkişafının təsvirini vermişdir. Onun embriologiya sahəsindəki kəşfləri *preformizmin* əsassız olmasına sübutdur.



B. antropologiya (kəllənin ölçülməsi sistemini yaratmışdır), etnoqrafiya və coğrafiya sahələrində də məhsuldar işləmişdir. Cənubi Qafqazın təbiətini təsvir etmiş, Xəzər dənizini (1853–57) öyrənmişdir. İlk dəfə Xəzəryanı ovalıqdakı təpələrin (*Ber təpələri*) təsvirini vermişdir. Rus coğrafiya cəmiyyətinin təsisçilərindən biri olmuşdur. Novaya Zemlyada burun və Taymır körfəzində ada B.-in adını daşıyır.

Ə s ə r l ə r i: История развития животных. М.; Л., 1950–53. Т. 1–2 (библ.); Автобиография. М., 1950; Переписка по проблемам географии. Л.: 1970. Т. 1.

*Əd.*: Р а й к о в Б.Е. К. Бэр, его жизнь и труды. М.; Л., 1961.

**BER** (Bert) Pol (17.10.1833, Yonna, Oser – 11.11.1886, Hanoy, Oserdə dəfn edilmişdir) – fransız fizioloqu və ictimai-siyasi xadim. Fransa İn-tunun üzvü (1881). K.*Bernarın* şagirdi. Sorbonnada tibb (1863) və təbiyyat elmləri (1866) fakültələrini bitirmişdir. Bordoda fiziologiya prof.-u olmuşdur (1867); 1868 ilin yanvarından Sorbonnada ümumi fiziologiya kafedrasında K. Bernarın işini davam etdirmişdir.

İlk dəfə heyvan toxumalarının bitişdirilməsini həyata keçirmiş (1862) və konservləşdirilmiş orqanın tikilməsini tətbiq etmişdir (1882). İlk dəfə transplantatların soyutmaqla saxlanmasından istifadə etmişdir. Yüksəktəzyiqli oksigenin canlı orqanizmlərə toksik təsirini sübuta yetirmişdir (1873). Əsərləri dalğıc və kesson işlərinin, yüksək dağ zirvələrinin fəthi tarixinə həsr olunmuşdur. Hava şarında qalxarkən astronavtların vəziyyətini öyrənmişdir. Barometrik təzyiqə dair klassik əsərin (1878, Fransa EA-nın mükafatı) müəllifidir.

1872–86 illərdə Milli məclisin deputatı, 1881–82 illərdə L.Qambettanın kabinetində xalq maarifi naziri olmuşdur. 1886 ilin yanvarında Fransanın Hind-Çindəki protektoratı Annam və Tonkinin general-qubernatoru təyin edilmişdir.

**BER QANUNU** – meridian istiqamətində axan iri çayların Şimal yarımkürəsində sağ, Cənub yarımkürəsində isə sol sahilinin yuyulması səbəblərini izah edən müddəa. 1857 ildə K.M. *Ber* həmin hadisənin Yerin öz oxu ətrafında fırlanmasından yaranan *Koriolis təcilinin* təsiri nəticəsində baş verdiyini göstərmişdir.

Koriolis təcili evkatorda sıfıra bərabərdir; qütblərdə ən böyük qiymətini kəsb edir. Buna görə də B.q. orta və yüksək enliklərdə daha aydın müşahidə olunur. Çay sahilləri axınların məcradan kənara çıxmasına mane olduğundan B.q.-na müvafiq yuyulmaya məruz qalır. Nəticədə şm. yarımkürəsində sağ sahillər adətən dik, sol sahillər isə yastı olur. Cənub yarımkürəsində isə sahillərin yuyulması prosesi bunun əksinədir. Dnepr, Don, Volqa, Ob, Yenisey, İrtış, Dunay və s., Cənub yarımkürəsində isə Parana, Paraqvay və s. çaylarda B.q. daha aydın müşahidə edilir. Yerin fırlanması hava kütlələrinin, həmçinin dəniz və okean axınlarının hərəkətinə də təsir göstərir.

**BER TƏPƏLƏRİ** – Xəzəryanı ovalıqda enliklər boyu bir-birinə paralel uzanmış silsilələr və oval formalı təpələr. Əsasən, Kuma və Emba çaylarının mənsəbləri arasında rast gəlinir. Hünd. 10 *m*-dən 45 *m*-dək, uz. 25 *km*-dək, eni 200–300 *m*, silsilə qılıcları arasındakı məsafə 1–2 *km*-dir. B.t. gil maddələri ilə kipləşmiş qumlardan ibarətdir. 19 əsrin ortalarında akad. K.M. *Ber* tərəfindən öyrənilmişdir.

**BERANJÉ** (Béranger) Pyer Jan (19.8.1780, Paris – 16.7.1857, Paris) – fransız şairi. Bir neçə peşə dəyişdirmiş, Paris Un-tinin dəftərxanasında işləmişdir. Ədəbi yaradıcılığa 1796 ildə başlamışdır. 1802 ildən B. yaradıcılığının əsas janrı olan nəğmələr yazmışdır. "Əxlaqi nəğmələr və başqaları" (1815) adlı ilk toplusuna *Anakreont* poeziyası nümunələri ilə yanaşı siyasi səciyyəli şeirləri də ("Kral İvto", 1813) daxil edilmişdi. B.-nin sonrakı əsərlərində siyasi meyillər güclənmişdir: aristokratiya ("Markiz de Karaba", 1816), XVIII Lüdovik ("Navuxodonosor", 1823), yezuitlər ("Müqəddəs atalar", 1819) kəskin tənqid olunmuşlar. B.-nin bir sıra nəğmələrində *utopik sosializmin* təsiri nəzərə çarpır ("Xalqların müqəddəs birliyi", 1818). B. *I Napoleon* haqqında romantik mif yaradanlardan biridir ("Beş may", 1821). Yaradıcılığının sosial baxımdan kəskin tənqidi yönümü onun 1821 və 1828 illərdə həbsinə səbəb olmuşdu. B.-nin satirik tipikləşdirmə məharəti ilə seçilən nəğmələri kompozisiya dəqiqliyi, rəngarəng təhkiyə priyomları ilə fərqlənir. 19 əsrdə B.-nin nəğmələri Avropada böyük uğur qazanmışdı. F.R. Şatobrian, A. Lamartin, V. Hüqo, Stendal, İ.V. Göte, H. Heyne və b. bu nəğmələri yüksək qiymətləndirmişlər.



Ə s ə r l ə r i: Seçilmiş şeirlər. B., 1938.

*Əd.*: Д а н и л и н Ю. И. Беранже и его песни. 2-е изд. М., 1973.

**BERÁR** – Hindistanda əyalət. Qədim hind dövləti Vidarbha, orta əsrlərdə isə *Bəhməni sultanlığının* süqutu (1490) nəticəsində yaranan Berar sultanlığı B.-ın ərazisində mövcud olmuşdur. 1572 ildə B.-ı *Əhmədnahar* sultanı tutmuşdur. Əhmədnaharı Böyük Moğollar ələ keçirdikdən sonra B. Heydərabad sultanlığının tabeçiliyində olmuşdur. 1853 ildə İngiltərə Ost-Hind şirkətindən asılı vəziyyətə düşmüşdür. Pambıqçılıq və pambıq parça isteh- salı r-nlarından biri olan B. 1950–56 illərdə Madhya-Pradeş ştatının, 1956 ildən Bombey ştatının tərkibinə qatılmışdır.

**BERAT** (Berati) – Albaniyanın c.-unda şəhər. Berat vil-nin və Berat retisinin inz. m. Tomori silsiləsinin ətəklərində, Osumi çayının sahilindədir. Əh. 65 min (2006). Toxuculuq, metal emalı, qida məhsulları sənayesi var. E.ə. 6 əsrdə qədim yunan şəhəri Antipatranın yerində salınmışdır. 2008 ildə şəhərin tarixi mərkəzi hissəsi Osmanlı imperiyasının şəhərsalma nümunəsi kimi *Ümumdünya irsi* siyahısına daxil edilmişdir.

**BERAT VİLAYƏTİ** – Albaniyanın c.-unda vilayət. Sah. 1,8 min $km^2$, əh. 193,9 min (2001). İnz. m. Berat şəhəridir.

**BERBÉRA** – Somalinin şm.-q.-ində şəhər. Əh. 242,4 min (2005). Ədən körfəzi sahilində ölkənin əsas portudur (yük dövriyyəsi ildə 0,5 mln. *t*; mal-qara və dəri xammalı ixrac edilir). Avtomobil yolları qovşağı. Aeroport. 13 əsrdən məlumdur. 1884–1941 illərdə *Britaniya Somalisinin* paytaxtı olmuşdur. Tikinti materialları (sement, gips) istehsal edilir. Balıq ovlanır. B.-dan c.-da niobium filizləri çıxarılır.

**BERBERİN** – zirinckimilər, qaymaqçiçəyikimilər və s. fəsilələrə aid bitkilərin yarpaqlarında olan alkaloid; izoxinolinin törəməsidir. İnsan orqanizminə hərtərəfli təsir göstərir: arterial təzyiqi aşağı salır, ürək fəaliyyətini zəiflədir, uşaqlıq əzələlərinin yığılmasına səbəb olur, ilk qıcıqlanmadan sonra tənəffüs mərkəzini zəiflədir, öd ifrazını gücləndirir. Tibdə

Berat şəhərinin panoramı.



ödqovucu vasitə kimi istifadə olunur.

**BERBEROVA** Nina Nikolayevna (8.8. 1901, S.-Peterburq – 26.9.1993, Filadelfiya) – rus yazıçısı. Rostov-Don Un-tində təhsil almışdır (1919–20). 1922 ildən mühacirətdə yaşamış, 1950 ildən ABŞ-da fəaliyyət göstərmişdir. Yel, sonra Prinston un-tlərində müəllimlik etmişdir. 1922 ildən şair kimi çap olunmağa başlamışdır. "Kursiv mənimdir" (1972) avtobioqrafik kitabında V.F. Xodaseviç, N.S. Qumilyov, A.A. Axmatova, M. Qorki, A. Belı, G.V. İvanov, M.İ. Svetayeva, R.O. Yakobson və bir çox digər ədəbiyyat və incəsənət xadimləri haqqında xatirələrə geniş yer vermişdir. Rus mühacirlərinin həyatından romanlar yazmışdır: "Sonuncular və birincilər" (1930), "Hökmdar qadın" (1932), "Qürub olmadan" (1938). Rus bəstəkarlarının tərcümeyi-halını əks etdirən kitabları var: "Çaykovski. Tənha həyatın tarixi" (1936), "Borodin" (1938), "Aqibətin yüngülləşməsi" (1949) povestlər toplusunun müəllifidir. "Sarsılmaz qadın: M.İ. Zakrevskaya-Benkendorf-Budberqin həyatı, onun özü və dostları haqqında hekayə" (1981) və "Adamlar və lojalar. XX yüzilliyin rus masonları" (1986) kitabları tarixi faktlar əsasında yazılmışdır.

Əsəri: Без заката; Маленькая девочка: Рассказы; Стихи. М., 1999.

**BERD,** Byord (Byrd) Riçard (25.10. 1888, Uinçester – 12.3.1957, Boston) – Amerika qütb tədqiqatçısı, təyyarəçi, admiral. B. Amerikanın dörd böyük Antarktida ekspedisiyasının (1928–30, 1933–35, 1939–41, 1946–47) rəhbəri olmuşdur. Ekspedisiyalar zamanı Rokfeller platosu, Qrossenor və Edsel-Ford silsilələri, Amundsen buzlağı, Meri Berd Torpağı (1929), Horlik d-rı (1934), Hobs sahili, Koler silsiləsi, Uolqrin sahili, Fletçer a. (1940), Amerikan-Haylend platosu (1947) kəşf olunmuş, seysmoloji tədqiqatlar, coğrafi və meteoroloji müşahidələr aparılmış, Antarktidada daş kömür yataqlarının olması təsdiq edilmişdir. Amerikanın Antarktidadakı elmi st.-na B.-in adı verilmişdir.



**BERD** (Byrd) – Qərbi Antarktidada, Meri Berd Torpağında, ABŞ-ın kontinentdaxili elmi stansiyası. Sahildən 660 *km* aralı, buz platosundadır, 1530 *m* yüksəklikdə yerləşir. 1967 ildə buzun yatağına qədər 2164 *m* dərinlikdə quyu qazılmışdır. 1957–72 illərdə daimi fəaliyyət göstərmişdir, hazırda mövsümi tədqiqatlar üçün baza kimi istifadə olunur. Amerika qütb tədqiqatçısı admiral R. *Berdin* şərəfinə adlandırılmışdır.

**BERD** – RF-də, Novosibirsk vil.-ndə çay, Obun sağ qolu. Uz. təqr. 363 *km*, hövzəsinin sah. 8650 $km^2$. Salair tirəsinin q. yamaclarından başlanır. Qərbi Sibir ovalığında enli dərə ilə axır. Novosibirsk su anbarına tökülür. Qar və yağış suları ilə qidalanır. İskitim ş.-ndə orta su sərfi 45,8 $m^3$/*san*. Aprelin ortasından noyabrın əvvəlinədək donmuş olur. Ağac axıdılır. Aşağı axını sahilində Berdsk ş. var.

**BERDAX** (Berdimurat Karqabay oğlunun təxəllüsü; 1827, indiki Muynak r-nu – 1900, Muynak) – qaraqalpaq şairi, qaraqalpaq ədəbiyyatının klassiki. B. lirik, satirik, didaktik şeirlərin, tarixi poemaların ("Aydos biy", "Amangəldi" və s.) müəllifidir. "Axmaq padşah" nağıl-poeması istibdad əleyhinə yazılmışdır. Əsərlərində əməyi tərənnüm etmiş, ictimai zülmə, qadın əsarətinə qarşı çıxmışdır.

Əsəri: Избранное. Ташкент, 1958.

**BERDIMƏHƏMMƏDOV** Qurbanqulu Məlikqulu oğlu (d. 29.6.1957, Tür.-ın Aşqabad vil.-nin Göytəpə r-nunun Babarap k.) – Türkmənistanın dövlət xadimi. Tür. Resp.-nın prezidenti (2007 ildən). Tür. Dövlət Tibb İn-tunu bitirmişdir (1979). Bir sıra yüksək vəzifələrdə çalışmış, o cümlədən səhiyyə və tibb sənayesi naziri (1997 ildən), Tür. Nazirlər Komitəsinin sədr müavini (2001 ildən) işləmişdir. 2007 il fevralın 11-də keçirilmiş prezident seçkilərində qalib gəlmişdir.

**BERDİÇEV** – Ukraynanın q.-ində, Jitomir vil.-ndə şəhər. Əh. 86,3 min (2005). Dnepryanı yüksəklikdə, Qnilopyat çayı (Dnepr hövzəsi) sahilindədir. D.y. qovşağı.

B.-in adı 1545 və 1593 illərin fərmanlarında Litva maqnatları qraf Tışkeviçlərin mülkiyyəti kimi çəkilir. 18 əsrin əvvəllərindən B-də iudaist tacirlərin və iş adamlarının fəaliyyəti genişlənmiş, şəhər Şərqi Avropada *hasidizmin* mərkəzlərindən biri olmuşdur. Polşa kralı Stanislav Avqust Ponyatovski 1765 ildə B.-də yarmarkalar təsis etdikdən sonra şəhər iri ticarət mərkəzinə çevrilmişdir. 1844 ildə Kiyev qub.-nın tərkibinə qatılmış, 1845 ildə qəza şəhəri statusunu almışdır. 1937 ildən Jitomir vil.-nin rayon mərkəzidir. 1941–44 illərdə alman qoşunlarının işğalında olan B.böyük dağıntılara məruz qalmış, şəhər sakinlərindən 23 mindən çox yəhudi məhv edilmişdir.

B.-də 15 ümumtəhsil müəssisəsi, 2 incəsənət məktəbi, politexnik kollec, pedaqoji və tibb məktəbləri; 41 kitabxana, 2 muzey fəaliyyət göstərir. "Proqress" z-du (kimya, neft-qaz hasilatı, metallurgiya sənayesi üçün süzgəclər və quruducu avadanlıq), dəzgahqayırma, qarışıq yem z-dları və s., ağac emalı, yüngül (tikiş, ayaqqabı, trikotaj f-kləri) və yeyinti (şəkər-qənd, pivə z-du və s.) sənayesi müəssisələri var.

**BERDSK** – RF-də, Novosibirsk vil-nin c.-ş.-ində şəhər. Əh. 90,7 min (2005). Qərbi Sibir düzənliyinin c.-ş.-ində Berd çayı və Novosibirsk su anbarı sahilindədir. D.y. st. 18 əsrin əvvəllərində məhbəs yeri kimi salınmışdır. 1782 ildən şəhərdir. 1783–96 illərdə Kolıvan adı ilə eyniadlı qub.-nın mərkəzi olmuşdur. 1797 ildən Berdskoe k. (sonradar B.), 1954–57 illərdə Novosibirsk SES-inin tikintisi ilə əlaqədar indiki yerinə köçürülmüşdür.

B.-də bioloji aktiv maddələr elmi tədqiqat konstruktuk-texnoloji in-tu (1972 ildən); tarix-incəsənət muzeyi (1970) fəaliyyət göstərir. Elektromexanika z-du (tibb texnikası, elektronika və s.), "Sibbiofarm" (Rusiyada mikrobioloji məhsulların aparıcı istehsalçısı), "Diafarm" (dərman preparatları), "Notis" (ASK-nın emaledici sahələri üçün avadanlıqar) və "Ortos" neyroortopediya mərkəzi aparıcı müəssisələrdir; tikinti materialları, tikiş məmulatı və s. istehsal olunur.

**BERDYÁNSK** – Ukraynanın c.-ş.-ində, Zaporojye vil-də şəhər. Əh. 118,3 min (2005). Azov dənizi sahilində port.

1827 ildə Azov dənizi sahilində tikilən portun yaxınlığında Novonoqaysk adlı məskən kimi salınmışdır. "Novonoqaysk" adı tezliklə "Berdyansk" (Berda çayının mənsəbində yerləşdiyi üçün) adı ilə əvəzlənmişdir. 1836 ildə isə dəniz portunun tikintisi başa çatmışdır. 1841 ildə Berdyansk portu yaxınlığındakı kəndlə birlikdə B. şəhəri oldu. 1922 ildən Yekaterinoslav qub.-nın qəza şəhəri, 1925–30 illərdə Mariupol dairəsinin, 1932–39 illərdə Dnepropetrovsk vil.-nin, 1939 ildən Zaporojye vil.-nin rayon mərkəzi olmuşdur. 1939–58 illərdə Osipenko adlanmışdır. 1941–43 illərdə alman qoşunlarının işğalında olmuşdur.

Şəhərdə pedaqoji in-t (1932), rəssamlıq və diyarşünaslıq muzeyləri var. 1997 ildən beynəlxalq "Briqantina" kinofestivalı keçirilir.







Berdyansk şəhərindən görünüş.



Berel buzlağı.

Qaldırıcı-nəql. avadanlığı, kabel, texniki rezin məmulatları, sürtgü materialları, şüşə-lif istehsal olunur. Trikotaj f-ki var. B. palçıq və dəniz iqlim kurortudur. Qışı yumşaq (yanvarın orta temp-ru – 4°C), yayı istidir (iyulun orta temp-ru 24°C). Yağıntının illik miqdarı 400 *mm*-ədəkdir. Ürək-damar sistemi, hərəkət və dayaq orqanları, periferik əsəb sistemi, ginekoloji xəstəliklər müalicə olunur.

**BERDYÁNSK DİLİ** – Ukraynada, Azov dənizinin şm. sahilində qum dili. Uz. təqr. 20 *km*. Dənizin içərilərinə doğru uzanan dayazlıqla bitir. Qum və balıqqulağı qırıntılarından təşkil olunmuşdur. Q. sahili kiçik buxtalarla kəsilib parçalanmışdır.

**BERDYAYEV** Nikolay Aleksandroviç [18.3.1874, Kiyev – 24.3.1948, Fransa, Klamar] – rus din filosofu, *personalizmin* nümayəndəsi. Kiyevdə Müq. Vladimir Un-tində (1894–97) təhsil almışdır. 19 əsrin sonunda marksist və neokantçılıq ideyalarından təsirlənmiş, leqal marksizmə qoşulmuşdur. Voloqda sürgünündən (1900–02) sonra dini fəlsəfəyə müraciət etmiş, F.M. Dostoyevskinin, V.İ. Nesmelovun. Vl.S. Solovyovun, sonralar Y. *Bömenin* təsiri altında olmuşdur. 1922 ildə Sovet Rusiyasından sürgün edilmişdir. 1922–24 illərdə Berlində yaşamış, burada Dini-fəlsəfi Akademiya yaratmışdır. 1924 ildən Fransada fəaliyyət göstərmişdir. "İMKA-Press" (YMCA-Press) nəşriyyatının redaktoru, Dini–Fəlsəfi Akademiyanın Parisdəki şöbəsinin sədri olmuş, burada "Yol" dini fəlsəfi jurnalını (1925–40) nəşr etdirmişdir. B. əsərlərində azadlıq və mədəniyyətin böhranı problemlərini tədqiq etmiş, 20 əsr rus və ümumdünya tarixinin keçdiyi yolları araşdırmışdır. B.-in "Yaradıcılığının mənası" (1916), "Tarixin mənası" (1923), "Yeni orta əsr" (1924), "Müasir dünyada insanın taleyi" (1934), "İnsanın köləliyi və azadlığı haqqında" (1939), "Rus ideyası" (1946) və s. əsərlərində tarix fəlsəfəsinə yönəlmiş diqqət şəxsiyyət problemi ilə bağlıdır. B.-in konsepsiyasında şəxsiyyət empirik fərdiyyətlə üst-üstə düşmür; o, insanın bütün mənəvi və ruhi qabiliyyətlərinin, insanın yaradıcılıq və azadlıq aləmi ilə əlaqəsinin "daxili ekzistensial mərkəzidir". B. mütərəqqi hərəkatı xeyir ilə şərin faciəvi mübarizəsi sayaraq, onu tarix kimi qəbul etmirdi. Marksizmi tənqid etmiş, onu ikiüzlü təlim saymışdır.



Qərbdə rus dini-idealist fəlsəfi dünya görüşünün əsas ifadəçisi, antikommunizmin ideoloqu kimi tanınmış B. fransız ekzistensializmi və personalizminin (J. Mariten, E.Munye və b.) inkişafına güclü təsir göstərmişdir.

Əsərləri: Философия свободы М., 1989; Духовный кризис интеллигенции. М., 1998.

*Əd*: Полторацкий Н. П.Бердяев и Россия: (Философия Россия у Н.А.Бердяева). Нью-Йорк, 1967; Wernham J.Two Russian thinkers... Toronto,1968

**BERE-BÓSK,** Bere Aleksandr, Bere Apremont – payız armudu sortu. Vətəni Qərbi Avropadır. Ağacının hünd. 13 *m*, çətiri piramidaşəkilli və seyrək yarpaqlıdır. Gec çiçəkləyir, hər ağacı 200–250 *kq*-adək məhsul verir. Meyvəsi iri (150–180 *q*, bəzən 400 *q*-a yaxın), uzunsov, qızılı-sarı olur. Ləti ağ, sulu, çox şirin və ətirlidir. Sentyabrın axırlarında yetişir, bir aya qədər qalır. B.-b. özünü tozlamır. Ən yaxşı tozlayıcıları Vilyams, Bere Ardanpon. Sen-Jermen, Düşes Anqulemdir. Şimali Qafqazda, Krımda və Azərb.-da becərilir.



Bere-bosk armud sortu.

**BEREL BUZLAĞI,** Böyük və Kiçik – mürəkkəb dərə buzlağı. RF-də, Altay Resp. ərazisində, *Beluxa* d.-nın c. yamacındadır. Böyük B.b. (uz. təqr. 10,4 *km*, sah. 10,3 $km^2$) 1950 *m* hünd.-yədək, Kiçik B.b. (uz. təqr. 8,3 *km*, sah. 8,9 $km^2$) 2100 *m* hünd.-yədək enir. Ağ Berel çayını əmələ gətirir.

**BERENBERQ** (Beerenberg) – Atlantika okeanının şm.-ında, Yan-Mayen a.-nda (Norveç ərazisi) Yer kürəsinin fəaliyyətdə olan ən şm. vulkanı. Hünd. 2277 *m*.



Berenberq vulkanı.

Özülünün diametri 20 *km*, kraterininki 1,4 *km*. Zirvəsi və yamacları buzlaqlarla (sah. 117 $km^2$) örtülüdür. Sonuncu dəfə 1970 ildə püskürmüşdür.

**BERENDİLƏR**, berendeylər, berendelər – 11–13 əsrlərdə Qara dəniz sahillərində yaşamış türk tayfası. Oğuzlara, peçeneqlərə, yaxud qıpçaqlara aid olduqları dəqiqləşdirilməmişdir. 11 əsrə aid olan tarix əsərlərində qeyd olunan "bayandurlar", ehtimal ki, B.-i bildirir. İran tarixçisi Gərdizi (11 əsr) *bayandurları* kimak tayfa ittifaqına (bax *Kimaklar*), *Mahmud Kaşqari* isə onları oğuzlara aid edirdi. 11 əsrin sonlarında B. oğuzlar və ***peçeneqlərlə*** birlikdə Dneprin sağ qolu olan Ros çayının ətrafındakı torpaqlarda məskunlaşmışlar. Onlar sərhədboyu ərazilərin müdafiəsində və Kiyev knyazlarının hərbi yürüşlərində iştirak etmişlər. 1140-cı illərin əvvəllərində B.-in oğuzlar, peçeneqlər, qaraqalpaqlar və b. ilə yaratdıqları tayfa ittifaqı Kiyev knyazlarının "vassalı" olmuşdur. Rus salnamələrində zadəgan berendi nəsilləri başçılarından bir neçəsinin adı (Tüdor Satmazoviç, Karakoz Mnyuzoviç, Karas Kokay) çəkilir. Kiyev knyazları qıpçaqlarla döyüşlərdə, daxili çəkişmələrdə B.-in süvarilərindən istifadə etmişlər. 13 əsrin əvvəllərində monqolların hücumu zamanı B.-in bir hissəsi Bolqarıstana və Macarıstana köçmüş, qalanları isə Qızıl Orda əhalisi ilə qarışmışlar. 16–17 əsrlərə aid Osmanlı mənbələrində B.-in oymaqlarından bəhs olunur. Hazırda Anadoluda (Antalya və Konyada), Rusiyada və Macarıstanda B.-lə bağlı toponimlər qalmaqdadır.

**BERETBİNƏ** – Azərb. Resp. Balakən r-nunun Katex ə.d.-ndə kənd. R-n mərkəzindən 22 *km* c.-ş.-də, Katex çayının sağ sahilindədir. Əh. 431 (2008); taxılçılıq, bağçılıq və maldarlıqla məşğuldur. Ümumi orta məktəb, klub, kitabxana, tibb məntəqəsi var.

**BERETBİNƏ** – Azərb. Resp. Zaqatala r-nunun Mazıx ə.d.-ndə kənd. R-n mərkəzindən 18 *km* q.-də, Katexçayın sahilindədir. Əh. 183 (2008); əkinçilik, bağçılıq, arıçılıq və maldarlıqla məşğuldur. Klub, kitabxana, feldşer-mama məntəqəsi; məscid (19 əsr) var.

**BEREZÁN** – Ukraynada, Qara dənizin Dnepr limanına girişdə alçaq ada, Oçakov ş.-ndən 13 *km* q.-dədir. Uz. təqr. 850 *m*, eni 200 *m*-dən 850 *m*-ədəkdir (şimalda).

Antik dövrdə Borisfen adı ilə məlum idi. B. ərazisində Şimali Qaradənizyanıda ən qədim yunan koloniyası Borisfen, yaxud Borisfenilər mövcud olmuşdur. 19 əsrin əvvəllərindən tədqiq edilmişdir. 1884 (R.A. Prendel), 1900–01 (Q.L. Skadovski), 1904–09, 1913 (E.R. Ştern), 1927–31, 1946–47 illərdə (M.F. Boltenko), 1960 ildən (V.V. Lapin və b.-ları) qazıntılar aparılmışdır. Qədimdə ada böyük ölçülü, ehtimal ki, bərzəx vasitəsilə materikə bitişik olmuşdur. E.ə. 7 əsrin 2-ci yarısında yunan koloniyasının əsası qoyulmuş, sonra isə *Olviya* şəhər-dövlətinin ətraf hissəsinə çevrilmişdir. Əvvəllər yarımqazmalar, e.ə. 6 əsrin ortalarından isə daş kürsü üzərində çiy kərpicdən tikililər meydana gəlmiş, evlərin sıxlığı artmışdır. Sənətkarlığın, o cümlədən metallurgiyanın izləri mövcuddur. E.ə. 5 əsrdən tədricən tənəzzülə uğrayan B. e.ə. 2 əsrin sonu – 1 əsrdə tərk olunmuşdur. Eramızın 1–3 əsrlərinə aid *Axill* Pontarxın məbədi var.

**BEREZİN** İlya Nikolayeviç (31.7.1818, Perm qub. – 3.4.1896, Sankt-Peterburq) – rus şərqşünası, Kazan Un-tinin (1846–55) və Peterburq Un-tinin (1855 ildən) prof.-u. Kazan Un-tini bitirmişdir (1837). M. *Kazım bəyin* tələbəsi olmuşdur. Tədqiqatlarının əksəriyyəti Yaxın və Orta Şərq ölkələrinin tarixi, filologiyası və arxeologiyasına – əsasən, iranşünaslıq və türkologiyaya həsr edilmişdir. "Şərqə səyahət" (c. 1–2; 1849–52) kitabında Dağıstan, Cənubi Qafqaz, Krım, İraq, Türkiyə, İran, Suriya və Misirə 1842–45 illərdəki səyahətindən bəhs etmişdir. Səyahəti zamanı Azərb.-da da olmuş, bir çox tarixi abidələrin kitabələrini oxumuşdur. Bakıda A.A. Bakıxanovla görüşmüş və onun zəngin kitabxanasını yüksək qiymətləndirmişdir. B. Rəşidəddinin "Cami ət-təvarix" əsərini rus dilinə çevirmiş və qeydlərlə nəşr etdirmiş (1858–88), "Fars dilinin qrammatikası"nı (1853) tərtib etmişdir. "Şərq tarixçiləri kitabxanası" (1849–54), "Türk qrammatikası" (1847), "Türk müntəxəbatı" (c. 1–3, 1857–90) və s. əsərlərin müəllifidir.



Əsərləri: Внутреннее устройство Золотой Орды (по ханским ярлыкам). С.-Пб., 1850; Булгар на Волге. Казань, 1853; Очерк внутреннего устройства улуса Джучиева. С.-Пб., 1864; Народные пословицы турецкого племени. С.-Пб., 1856.

**BEREZİNÁ** – Belarusda çay. Dneprin sağ qolu. Uz. 613 *km*, hövzəsinin sah. 24,5 min $km^2$. Minsk yüksəkliyinin şm.-ından başlanır. Mərkəzi Berezina düzənliyi ilə axır. Mühüm qolları: Qayna, Svisloç (sağdan), Bobr, Kleva, Olsa, Ola (soldan). Qarışıq mənbədən qidalanır (qar suları üstünlük təşkil edir). Ortaillik su sərfi mənsəbində 145 $m^3$/*san*-dir. Dekabrın əvvəlindən martın axırına qədər donur. B. hövzəsində ümumi sah. 64 $km^2$ olan 829 göl var. Mənsəbindən 505 *km* məsafədə gəmiçiliyə yararlıdır. Borisov, Berezino, Bobruysk, Svetloqorsk ş.-ləri







Berezina çayı.



Berezina qoruğu. Plavno gölü.

B. sahilindədir. Hövzəsində eyniadlı qoruq var.

**BEREZİNÁ QORUĞU** – Belarusda, Yuxarı Berezina düzənliyində qoruq, Berezina çayının yuxarı axını hövzəsindədir. Sah. 76 *min ha*-dan çoxdur. 1925 ildə çay qunduzunun və sığının mühafizəsi və artırılması, həmçinin iynəyarpaqlı (şamlıqlar) və enliyarpaqlı (palıd, göyrüş) təbii meşə komplekslərinin öyrənilməsi məqsədilə yaradılmışdır; sfaqnum bataqlıqlarının hidrobioloji rolu tədqiq olunur. Heyvanları: sığın, qaban, canavar, tülkü, qonur ayı, yenotabənzər it, nəcib maral və cüyür. Ornitofauna rəngarəngdir. Zubrun bərpası ilə bağlı işlər aparılır. Çay qunduzlarını başqa yerlərə də köçürürlər. 1979 ildən biosfer qoruğudur.

**BEREZİT** (Uralda Beryozovski yatağının adından) – metasomatik süxur. Kvars (25–50%), albit (5–25%), serisit (10–15%) və karbonatdan (10%-ədək) ibarətdir; pirit və rutil qarışıqları var. Rəngi ağ, açıq-boz, sarımtıl olur. Əsasən, turş tərkibli süxurların hidrotermal-metasomatik yolla dəyişməsi nəticəsində əmələ gəlir. Filizli kvars damarlarının ətrafında rast gəlinir və qızıl, molibden, volfram, polimetal və mis filizi yataqlarının axtarışı üçün əlamət sayılır.

Berezit.



**BEREZNİKİ** – RF-də, Perm vil-nin q. hissəsində şəhər. Əh. 169,9 min (2005). Ural öndağlığında, Kama su anbarının sol sahilindədir. Körpü vasitəsilə Usolye ş.-nə birləşmişdir. D.y. st. Çay portu.

B.-nin yerində 17 əsrin 1-ci rübündən duz mədənlərinin yaxınlığında yerləşən bir neçə kənd mövcud olmuşdur. 1932 ildən fəhlə qəs.-lərinin birləşməsi nəticəsində B. şəhəri yaranmışdır.

Bir neçə kilsə, o cümlədən Müq. Troitsa kilsəsi (1688) saxlanmışdır. Rusiya titan və maqnezium elmi tədqiqat və layihə in-tutu (1956), bir neçə ali məktəbin (o cümlədən Perm Dövlət Un-tinin) filialları, tarix-diyarşünaslıq muzeyi (əsası 1925 ildə qoyulmuş, 1954 ildən B.-dədir), dram teatrı fəaliyyət göstərir.

B. Rusiyada ən mühüm kimya sənayesi mərkəzlərindən biridir. "Uralkalium" (dünyada ən iri kalium gübrələri istehsalçılarından biri), "Azot" (azot gübrəsi, ammonyak və s.), titan-maqnezium kombinatı, soda z-du və s. fəaliyyət göstərir. B. yaxınlığında iri kalium, maqnezium və xörək duzu yataqları var.

B.-da Mezolitdən orta əsrlərədək olan dövrü əhatə edən arxeoloji abidələr mövcuddur. Şəhərin ətrafında *Volqa-Kama mədəniyyətinin* nümunə abidəsi olan Xutor düşərgəsi tədqiq olunmuşdur. *Rodanov mədəniyyətinin* adı B. r-nunda yerləşən Rodanov şəhərciyindən (10–14 əsrlər) götürülmüşdür.

**BERGEN** – Norveçin q.-ində şəhər. Xordalann fülkesinin inz. m. Əh. 237 min (2004; əhalinin sayına görə Oslo ş.-ndən sonra ikinci). Şimal dənizi sahilində iri port. D.y. vasitəsilə Oslo ilə əlaqələnir. Beynəlxalq aeroport.

Berezniki şəhərindən görünüş.





Bergen kurortundan görünüş.

B.-in tarixi təqr. 1070 ildən, Norveç kralı III Olaf Haraldsson tərəfindən Byufyord sahilindəki Byorqvin (Bjørgvin) k.-ndə yepiskopluğun yaradılması ilə başlanır. Təqr. 1100 ildə burada *burqun* təməli qoyulmuş, onun ətrafında isə sonralar Norveç krallığının mühüm siyasi mərkəzlərindən birinə çevrilən şəhər salınmışdır. 1236 ildə B.-də Hanza tacirləri, əsasən, almanlar və hollandlar məskən salmış və bir müddət sonra öz məhəllələrini – "Tyuske Brüggen"i ("Tyske Bryggen" – "Alman körpüsü"; 1945 ildən "Brüggen") yaratmışlar. Bu məhəllənin özünəməxsus ev-anbarları dövrümüzədək qalmışdır; *Ümumdünya irsi* siyahısına daxil edilmişdir. 1350 ildə B. Şimali Avropanın iri ticarət mərkəzinə çevrilmişdi. 16 əsrin ortalarınadək faktiki olaraq *Hanzanın* hakimiyyətində olmuş, 1630 ildə onun tabeliyindən tamamilə çıxmışdır.

Kral saray-qalasından (üçmərtəbəli bina, 1246 – 61) kral V Xakonun zalı və Rozenkrants qülləsi (1562 – 68; 19 əsrdə və 20 əsrin ortalarında bərpa edilmişdir) dövrümüzədək qalmışdır. Müq. Məryəm bazilikası (12 əsrin əvvəlləri; qotika üslubunda xor 1248 il yanğınından sonra yaradılmışdır) Norveçdə Roma üslubunda inşa edilmiş qədim tikililərdən biridir; İntibah dövrünə aid Müq. Xaç kilsəsi yenidən qurulmuşdur. 19 əsrədək B.-də yaşayış binaları, əsasən, ağacdan tikilirdi; 1702 və 1855 illərdəki yanğınlardan sonra yalnız bəzi tikililər qalmışdır. 19 əsrin ortalarından başlayaraq B.-də tikinti eklektik üslubda aparılmışdır. B.-li musiqiçilərdən U. Bulla (1901, heykəltəraş S. Sindinq), E.Qriqə (1914, heykəltəraş İ. Vik) və yazıçılardan L.Holberqə (1884, heykəltəraş İ.Byöryeson), N. Qriqə (1957, heykəltəraş R.Karlsen), həmçinin B. Byörnsona (1916, heykəltəraş G.Vigelann) tunc heykəllər qoyulmuşdur.

B.-də Dəniz tədqiqatları in-tutu (1900) fəaliyyət göstərir. Şəhər əhalisinin 10 %-ə qədəri tələbələrdir. Ali məktəblərdən un-t (1946 ildən; nəzdində ətraf mühit və distansion zondlama üzrə Nansen mərkəzi), un-t kolleci (1994), ali iqtisadiyyat və biznes-inzibatçılıq məktəbi (1936), konservatoriya (1905) var. B. muzeyi (1825 ildə yaradılmışdır; botanika, geologiya və zoologiya kolleksiyası; muzeyin yanında Botanika bağı yerləşir), həmçinin Qərbi Norveç tətbiqi sənət muzeyi (1887), Hanza muzeyi, Norveç balıqçılıq muzeyi (1880), rəssamlıq, dəniz, teatr muzeyləri və s. var. Teatrları: Bergen operası (1982), Milli səhnə, "Kartblanş". Bergen filarmoniya orkestri (1765 ildə yaradılmışdır; 1987 ilədək "Harmoniya" filarmonik cəmiyyətinin orkestri olmuşdur) fəaliyyət göstərir. Hər il beynəlxalq kino festivalı, 1953 ildən beynəlxalq musiqi festivalı keçirilir. "Qriq-holl" konsert salonu (1978); akvarium var. B.-dən c.-da – Trolhaugendə E. Qriqin ev-muzeyi yerləşir.

Norveçin ixracat məhsullarının təqr. 40%-i B.-də və ətraf r-nlarında hazırlanır. Neft emalı və neft-kimya (Monqstadda iri neft-kimya kompleksi), balıqçılıq və balıq emalı sənayesi, gəmiqayırma, metallurgiya, elektronika daha çox inkişaf etmişdir. Toxuculuq, tikiş və s. müəssisələr fəaliyyət göstərir. Fortepiano istehsalı f-ki (1896) var.

**BERGER** Piter Lüdviq (d.17.3.1929, Vyana) – Amerika din sosioloqu. Vaqner kollejini (Nyu-York, 1949), Yeni sosial tədqiqatlar məktəbini (1950) bitirmişdir; 1954 ildə fəlsəfə doktoru dərəcəsini almışdır. Müxtəlif un-t və kolleclərdə sosiologiyadan dərs demişdir. Boston Un-tinin sosiologiya və teologiya prof.-u (1981), həmin un-tin iqtisadi mədəniyyəti öyrənən in-tunun direktoru (1985–2003) olmuşdur.

B. din sosiologiyasının və biliyin fenomenoloji sosiologiyasının nümayəndəsidir. Onun dini tədqiqatlarının metodologiyasının əsasını reallığın sosial konstruksiyalaşdırılması nəzəriyyəsi təşkil edir. B.-in maraq dairəsinə "mədəniyyətin" (əsasən, din, inanclar, dəyərlər) və dünyanın ayrı-ayrı yerlərində iqtisadi inkişafın qarşılıqlı əlaqələri daxildir. Onun tədqiqat səciyyəli sonuncu lahiyələri qloballaşan dünyada din, onun iqtisadi davranışa və inkişafa təsiri; *kapitalizmlə demokratiyanın, bazar iqtisadiyyatı ilə fərdiyyətçiliyin* qarşılıqlı münasibəti kimi problemlərə həsr olunmuşdur. B.-ə görə 21 əsrin əvvəllərindən din daha çox əhəmiyyət kəsb etməkdədir, *sekulyarizasiya* tezisi isə bir çox ölkələr üzrə *empirik* məlumatlarla təkzib olunur. Lakin sekulyarizasiya tezisinin "qüvvədə qaldığı" iki yer istisna təşkil edir: Qərbi və Mərkəzi Avropada; tərkibinə bütün ölkələrin humanitar intellektuallarının daxil olduğu "sekulyar internasional".

**BERGİŞ-QLÁDBAX** (Bergisch-Gladbach) – AFR-in q.-ində, Şimali Reyn-Vestfaliya federal ərazisində şəhər. Əh. 106,6 min (2005). Köln aqlomerasiyasının ş.-indədir, onunla d. y. və avtomobil yolu əlaqəsi var.

B.-Q.-ın qədim hissəsi keçmiş Bensberq ş.-dir (adı ilk dəfə 1139 ildə çəkilir; 1970-ci illərdə B.-Q.-ın ərazisinə daxil edilmişdir). Orta əsrlərə aid ratuşa, Köhnə qəsr (12–13 əsrlər) və Yeni qəsr (18 əsrin əvvəlləri, memar M.Alberti) saxlanılmışdır. "Bürgerhaus Bergişer Lyöve" (1905 ildən), kukla (1988 ildən) və s. teatrlar fəaliyyət göstərir. Bensberq şəhər muzeyi, sənətkarlıq və xalq sənəti muzeyi var.

Köln maşınqayırma z-dlarının filialları, elektrotexnika, mebel, kağız, yüngül (gön-dəri) və yeyinti sənayesi müəssisələri var.

**BERGİUS** (Bergius) Fridrix Karl Rudolf (11.10.1884, indiki Polşa ərazisi, Qoldşmiden – 30.3.1949, Buenos-Ayres) – alman kimyaçı-texnoloqu və iş adamı. Nobel mükafatı laureatı (1931, K.*Boş* ilə birlikdə). Breslau və Leypsiq un-tlərində (fəlsəfə doktoru, 1907) təhsil almışdır. Elmi fəaliyyətinin əsas istiqaməti yüksək təzyiq kimyası və oduncaq kimyasıdır. Xırdalanmış kömür, koks istehsalının qatranabənzər tullantıları və generator qazından ibarət qarışığı yüksək təzyiq və temp-rda katalitik hidrogenləşdirməklə maye motor yanacaqlarının alınma üsulunu işləyib hazırlamışdır (1913). Qatı xlorid turşusu istifadə etməklə sellülozun hidrolizini həyata keçirmişdir; nəticədə spirt və yem mayalarına çevrilə bilən karbohidratlar alınmışdır (1917). Kömürü hidrogenləşdirməklə maye yanacaq istehsalı üçün bir sıra müəssisələr tikmiş- dir. B.-un işləyib hazırladığı texnologiyalar 2-ci dünya müharibəsi dövründə Almaniyanın resurslarla təmin edilməsində əhəmiyyətli rol oynamışdır.



**BERHAMPÚR**, B r a h m a p u r – Hindistanın ş.-ində, Orissa ştatında şəhər. Əh. 702 min (2009). Avtomobil və d.y.-ları qovşağı. K.t. r-nunun ticarət mərkəzidir. Qədimdən ipək şəhəri kimi tanınır.

**BERXTESQADEN** (Berchtesgaden) – Almaniyada dağ-iqlim kurortu. Şərqi Alp d-rında, 570 *m* hünd.-də, Avstriyanın Zalsburq ş.-ndən c.-dadır. Əlverişli iqlim şəraiti – yumşaq qışı (yanvarın orta temp-u 1°C-dən çox), isti yayı (iyulun orta temp-ru təqr. 15°C), dağlarla küləkdən qorunması, çox təmiz, ozonla zəngin havası tənəffüs orqanlarının qeyri-vərəm mənşəli xəstəliklərinin, qanazlığının, funksional əsəb sistemi pozuntusunun və s. müalicəsi üçün əlverişlidir. Kurort kimi 19 əsrdən inkişaf edir. Turizm və qış idmanı mərkəzidir.

**BERİ-BERİ** – insan orqanizmində $B_1$ (tiamin) vitamininin çatışmazlığı nəticəsində baş verən xəstəlik. $B_1$ vitamini skelet əzələlərində, ürəkdə, qara ciyərdə və beyində olur, neyronların fəaliyyətində (akson membranlarında tapılmışdır) də müəyyən rol oynayır. $B_1$ vitamini bir çox yeyinti məhsullarında (ətdə, tərəvəzdə, taxılda) vardır, lakin bitki və heyvan yağlarında, təmizlənmiş şəkərdə olmur. Sidikqovucu preparatların istifadəsi, hemodializ, peritoneal dializ zamanı, diareya hallarında orqanizmdə $B_1$ vitamininin itkisi artır.



Bergiş-Qladbax şəhəri. Bensberq ratuşası.

B.-b. xəstəliyində ürək-damar (sulu forması) və sinir (quru forması) sistemləri zədələnir. S u l u f o r m a ürək-damar sisteminin kollapsı, hipertoniya, ödem, taxikardiya ilə təzahür edir. B.-b.-nin q u r u f o r m a s ı üçün periferik neyropatiya (çox vaxt hissiyyatın, hərəki funksiyaların və reflekslərin pozulması şəklində baldırların simmetrik zədələnməsi); psixi pozulmalar (şüur dolaşıqlığı, retroqrad amneziya, konfabulyasiya); ensefalopatiya səciyyəvidir.

Tiamin çatışmazlığının laboratoriya diaqnostikası eritrositlərdə transketalaza fermentinin aktivliyinin təyin olunmasından istifadə edir.

Müalicəsində tiamin təyin olunur.

**BERİKSLƏR** (Berycidae) – berikskimilər dəstəsindən balıq fəsiləsi. Bədəninin uz. 20–65 *sm*-dir; yanlardan basıq və ktenoid pulcuqlarla örtülüdür. Rəngi, əsasən, qırmızıdır. Başının uzunluğu bədəninin uzunluğunun yarısı qədərdir; göz-

Berxtesqaden kurortundan görünüş.





Beriks (Beryx splendens).

ləri iridir. Kürüsünü hissə-hissə tökür. Kürü su qatlarında inkişaf edir. 4–6 yaşında yetkinləşir. 2 cinsi (10 növü) var. Okeanların tropik və mülayim qurşaq sularında (Sakit okeanın şm.-ş. və mərkəzi-şərq hissələrindən başqa) şelfdə və materik yamaclarında 1200 *m*-ədək dərinlikdə yaşayır. Xərçəngkimilər və balıqlarla qidalanır. 20 ildən artıq yaşayan, bədəninin uz. 60 *sm*-dən çox olan Avstraliya qırmızı beriksi (Centroberyx gerrardi) və 14 il yaşayan, bədəninin uz. 55 *sm*, kütləsi 6,3 *kq*-adək olan yastıbədən beriks (B. splendens) ov növləridir. Ətinin dad keyfiyyəti yüksəkdir. Dünyada ildə 10 min *t* beriks ovlanır.

**BERİL** (yun. βήρυλλος) – geniş yayılmış mineral; silikatlar sinfinə aiddir. Kimyəvi tərkibi $Be_3Al_2Si_6O_{18}$. Na, Cs, Rb, Li, Mn, $Fe^{2+}$, $Fe^{3+}$, $Cr^{3+}$ və s. qatışıqları var; beril filizlərinin komponentidir. Heksaqonal sinqoniyada kristallaşır. Müxtəlif rənglərdə olur. Mavi və yaşılı-mavi B. akvamarin, tünd yaşıl B. zümrüd, qızılı-sarı B. heliodor, çəhrayı B. vorobyevit adlanır. Sərtliyi 7,5–8, sıxlığı 2650–2800 $kq/m^3$. Şüşə parıltılıdır. Prizmatik iynəvarı kristallar əmələ gətirir. Ən iri. (uz. 18 *m*, diametri 3,5 *m*, kütləsi 380 *t*) kristalı Madaqaskarda tapılmışdır. Kvars, turmalin, flüorit və s. ilə birlikdə tapılır. Qranit peqmatitlərində, qreyzenlərdə, skarnlarda, metasomatik tipli pnevmatolit-hidrotermal yataqlarda əmələ gəlir. Berillium almaq üçün mühüm mineraldır. Təmiz, şəffaf növü qiymətli bəzək daşıdır. Yataqları RF (Ural), Kolumbiya, Braziliya, Madaqaskar və s. yerlərdədir.

Beril.



**BERİLLİÖZ** (*berillium +...oz*) – berillium və onun birləşmələrinin ağ ciyərlərə uzunmüddətli təsirindən baş verən peşə xəstəliyi; *pnevmokoniozun* bir növü. Əlamətləri: ümumi zəiflik, bədən kütləsinin azalması, təngnəfəslik, öskürək, sinə ağrısı, ürək fəaliyyətinin pozulması və s. Müalicəsi peşə zəhərlənmələrinin ümumi müalicə prinsiplərinə uyğun aparılır.

**BERİLLİUM**(lat.Beryllium), Be – kimyəvi element, elementlərin dövri sisteminin II qrupundadır; at.n. 4, at.k. 9,01218. Təbiətdə, əsasən, stabil $^9Be$ nuklidinə və radionuklid $^{10}Be$-un ($T_{1/2}$ 1,6·$10^6$ il) izlərinə rast gəlinir; suni yolla alınmış 7 radionukliddən ən davamlısı $^7Be$-dur (elektron tutması $T_{1/2}$ 53,2 *sutka*).

**Tarixi arayış.** B. mineralları akvamarin, zümrüd, aleksandrit və s.-dən zərgərlik işlərində hələ e.ə. istifadə olunmuşdur. "Beril" adına antik dövrün yun. və lat. əsərlərində rast gəlinir. 1798 ildə fransız kimyaçısı L.Voklen *beril* mineralından ayırdığı və əvvəllər məlum olmayan B. oksidini təsvir etmişdir. Metal şəklində B. 1828 ildə Almaniyada F.*Völer* və Fransada A. Büssi tərəfindən B. xloridin kaliumla reduksiyasından alınmışdır.

**Təbiətdə yayılması.** Yer qabığında B-un miqdarı kütləcə 6·$10^{-4}$%-dir. Sərbəst halda rast gəlinmir. *Berillium filizlərinin* tərkibinə daxil olan mühüm B. mineralları: beril $3BeO·Al_2O_3·6SiO_2$ və onun növmüxtəlifliyi, fenakit $2BeO·2SiO_2$, bertrandit $4BeO·2SiO_2·H_2O$, helvin $(Mn, Fe, Zn)_4[BeSiO_4]_3S$. B.-un dünyada istehsalı təqr.360 *t/il*, ehtiyatı 400 min *t*-a yaxındır.

**Xassələri.** B. atomunun xarici elektron təbəqəsinin quruluşu $2s^2$; birləşmələrdə +2, nadir hallarda +1 oksidləşmə dərəcəsini göstərir; Polinqə görə elektromənfilik 1,57; atom radiusu 113,3 *pm*, $Be^{2+}$ ionunun radiusu 30 *pm* (koordinasiya ədədi 3). İonlaşma enerjisi $Be^0 \rightarrow Be^+ \rightarrow Be^{2+}$ 899,4 və 1757,1 *kC/mol*. Sulu məhlulda $Be^{2+}/Be$ cütünün standart elektrod potensialı -1,847 *V*-dur.

B. gümüşü-ağ rəngli bərk, kövrək metaldır; $t_{ər}$ 1287°C, $t_{qayn}$ 2471°C. Heksaqonal qəfəsli α-Be 1250°C-ə qədər, həcmdə mərkəzləşmiş kub qəfəsli *β*-Be 1250°C-dən yuxarı temp-ra davamlıdır. 293 K-də sıxlıq 1847,7 $kq/m^3$, elektrik müqaviməti 4·$10^{-8}$ *Om·m*; 300 K-də istilik keçiriciliyi 200 *Vt/(m·K)*. B. diamaqnitdir; xüsusi maqnit həssaslığı 1,3·$10^{-8}$ $m^3/kq$-dır. B.-un mexaniki xassələri onun təmizliyindən və termiki emal üsulundan çox asılıdır.

Səthində sıx BeO pərdəsinin əmələ gəlməsi nəticəsində B., hətta qırmızı közərtmə temp-runda belə hava və su ilə qarşılıqlı təsirdə olmur. 800°C-dən yuxarı temp-rda oksidləşir. Halogenlərlə qızdırıldıqda isə halogenidlər (ən əhəmiyyətlisi berillium-flüorid $BeF_2$); 600°C-dən yuxarı azot və ya ammonyakla nitrid $Be_3N_2$, 1700°C-dən yuxarı karbonla karbid $Be_2C$ əmələ gətirir. Duru və qatı xlorid və sulfat turşuları ilə qızdırıldıqda nitrat turşusu ilə qarşılıqlı təsirdə olur. Qüvvətli turşuların duzları suda həll olur, onlara ammonyakla təsir etdikdə amfoter hidroksid $Be(OH)_2$ alınır. $Be(OH)_2$ karbon turşularının məhlulları ilə oksoduzlar, məs., oksoasetatlar $Be_4O(OOCCH_3)_6$ əmələ gətirir. B. qələvi məhlulları ilə $M_2[Be(OH)_4]$ tərkibli berillatlar, ərintilərlə $M_2BeO_2$ əmələ gətirir. B. yüksək temp-rda bir çox metalların oksidlərini və halogenidlərini müvafiq metallara qədər reduksiya edir. B. maye halda bir çox metalları həll edir; bəzi metallarla bərk məhlullar və intermetallidlər əmələ gətirir. Bax həmçinin *Berillium ərintiləri*.

B.-un uçucu və həllolan birləşmələri, tərkibində B. və ya onun birləşmələri olan toz çox zəhərlidir, allergik və kanserogen təsirə malikdir; buxar və tozları ağ ciyərlərin *berillioz* xəstəliyini törədir.

**Alınması.** B. filizlərdən bir neçə üsulla çıxarılır. Sulfat turşusu üsulu filiz konsentratının $Na_2CO_3$ və ya $CaCO_3$ ilə qızdırılıb bitişdirilməsindən və bitişmə məhsulunun 300°C temp-rda $H_2SO_4$ ilə işlənilməsindən ibarətdir. Əmələ gələn alüminium- və B.-sulfatlara kalium-sulfat əlavə edilir. Nəticədə pis həllolan alümokalium zəyləri $KAl(SO_4)_2·12H_2O$ kristallaşır. Məhlul NaOH-la işlənilib qaynadıldıqda $Be(OH)_2$ əmələ gəlir. Flüorid üsulu konsentratın $Na_2[SiF_6]$ ilə qızdırılıb bitişdirilməsinə əsaslanır ki, o da qızdırılma zamanı uçucu $SiF_4$ ($SiF_4$-ün uçuculuğu verilmiş üsulun tətbiqini məhdudlaşdırır) ayrılması ilə parçalanır. Bu zaman alüminiumun əmələ gətirdiyi kriolitdən $Na_3[AlF_6]$ fərqli olaraq suda həllolan natrium tetraflüorberillat $Na_2[BeF_4]$ əmələ gəlir. $Na_2[BeF_4]$ məhlulundan NaOH təsiri ilə $Be(OH)_2$ çökür. B.-un sonrakı təmizlənməsi B.-un həllolan karbonatlı kompleksindən $(NH_4)_2[Be(CO_3)_2]$ və ya B. oksoasetatının sublimasiyasından istifadə etməklə aparılır. $Be(OH)_2$ $BeF_2$-yə, yaxud $BeCl_2$-yə keçir. Metallik B. 1300°C-ə yaxın temp-rda $BeF_2$-in maqneziumla reduksiyasından və ya natrium və B. xloridlər qarışığı ərintisinin elektrolizindən alınır. B.-un təmizlənməsi vakuum distilləsi ilə və ya hissə-hissə əridilməklə aparılır.

**Tətbiqi.** B.-dan ərintilərin möhkəmliyini, bərkliyini, elektrik və istilik keçiriciliyini yüksəltmək üçün legirləyici əlavə kimi istifadə edilir. B. və mis ərintisi – berillium tuncu (0,5–3% B.) müstəsna elastikliyə malikdir, ondan demək olar ki, "daimi" yaylar hazırlanır. Polad məmulatların səthinin B.-la doydurulması (*berilliumlaşma*) onların korroziyaya davamlılığını yüksəldir. $^9Be$ nuklidinin nüvə xassəsi atom fizikası üçün əhəmiyyətlidir: B.-un neytronları zəbtetmə kəsiyi (0,0092 barn) az olduğuna görə ondan atom reaktorlarında neytronların ləngidicisi və əksetdiricisi kimi tətbiq edilən maddələrin istehsalında istifadə edilir. $^7Be$ nuklidi izotop indikatorudur. B.-un radium birləşmələri ilə qarışığı neytron və deytronlar mənbəyidir. B. rentgen şüalarını zəif udduğundan ondan rentgen borularının "pəncərə"si hazırlanır. B.-dan aviasiya və raket sənayesində (raket və təyyarələrin örtüyündə), elektronika və elektrotexnikada istifadə edilir.

*Əd.:* Эверст Д. Химия бериллия. М., 1968; Novoselova A.V., Batsanova L.R. Analytical chemistry of Beryllium. Ann Arbor, 1969; Beryllium science and technology. L., 1979. Vol. 1–2; Бериллий – материал современной техники. М., 1992.

**BERİLLİUM ƏRİNTİLƏRİ** – *berillium* (Be) əsaslı ərintilər. 20 əsrin 50-ci illərindən sənayedə tətbiq edilməyə başlanılmışdır. B.ə.-nin 5%-dən 80%-ə qədərini Be təşkil edir. Metal berilliumdan fərqli olaraq B.ə.-lərinə legirləyici əlavələr daxil edilir. Lakin bir sıra kimyəvi elementlər (Fe, Cr, Ni və s.) Be-da həll olaraq onun kristal qəfəsini kəskin dəyişdirir, ərintinin plastikliyini azaldır və plastik deformasiya yolu ilə berillium məmulatların alınmasını çətinləşdirir. Bunu aradan qaldırmaq üçün B.ə.-ni Al, Mg, Si, Cu, Sn, Ag və s. ilə legirləmək olar. Be–Al sistemli ərintinin (Be-da 4–5% Al həll olur) quruluşu kəskin müxtəlifcinsli fazalar qarışığından – bərk və davamlı Be fazasından (Be-da Al-un bərk məhlulu) və plastik, davamsız Al fazasından ibarətdir. Amerikanın "Lokhid" şirkətinin işləyib hazırladığı və "lokelloy" adlandırılmış Be–Al sistemli sənaye ərintisinin (24–43% Al) elastiklik modulu (sərtliyi) yüksəkdir. Tərkibində 30% Al olan ərintinin elastiklik modulu 214 *QPa*, davamlılıq həddi 550 *MPa*, nisbi uzanması 4,5-dir. Be–Al sistemli ərintilər Mg ilə legirləndikdə onların davamlılığı yüksək olur. Davamlılığı dispersiya möhkəmləndirilməsi yolu ilə də yüksəltmək olur. İntermetal birləşmələr (Be-un Nb, Ta, Zn ilə) əsasında materiallar yüksək odadavamlılığı ilə fərqlənir. Belə materiallar 1100°–1560°C-də uzun müddət, 1700°C-də isə qısa müddət işləyə bilir.

Be əsaslı ərintilərin müsbət cəhəti sərtliyin yüksək olması, mənfi cəhəti zəhərli olmasıdır. B.ə.-ndən məmulat və yarımfabrikatlar, əsasən, ovuntu metallurgiyası üsulları və tökmə üsulu ilə hazırlanır. B.ə., əsasən, dəqiq cihaz istehsalı, nüvə energetikası, kosmonavtika, aviasiya, gəmiqayırma və s. sahələrdə geniş tətbiq olunur.

**BERİLLİUM FİLİZLƏRİ** – berilliumun alınması üçün istifadə edilən təbii mineral aqreqatlar. Berillium filizdə ayrıca mineral şəklində (beril, fenakit, bertrandit, gelbertrandit, xrizoberil və s.) və həmçinin süxur əmələ gətirən minerallarda (vezuvian, beril-marqarit) izomorf qarışıq (adətən 5–10 %-dən çox olmur) halında olur. Ehtiyatına görə B.f. yataqları iri (100–40 min *t*), orta (40–15 min *t*) və xırda (15–10 min *t*) həcmli olur. B.f.-nin yataqları, əsasən, endogen mənşəlidir; postmaqmatik proseslər nəticəsində əmələ gəlir; qranit və subqələvi qranitoid massivlərinin yayıldığı sahələrlə əlaqədardır. Kompleks və yalnız berillium tərkibli yataqları var. Dünya üzrə B.f. ehtiyatının 61%-i sonuncuların payına düşür. B.f.-nin Yer kürəsində ümumi ehtiyatı (Rusiya istisna edilməklə) təqr. 1200 min *t*-dur (BeO görə). Yataqları RF, ABŞ, Braziliya, Çin, Argentina, Meksika, CAR, Mozambik, Zimbabve, Uqanda, Madaqaskar, Hindistan və s.-dədir.

**BERİLLİUMLAMA** – polad məmulatlarının (bəzən də başqa istiliyədavamlı ərintilərin) 1100°C-yə qədər temp-rda oksidləşməsinin qarşısını almaq, səth bərkliyini və korroziyaya davamlılığını artırmaq üçün səth təbəqəsinin berilliumla (diffuziya yolu ilə) doydurulması prosesi. B. tozvarı qarışıqlarda və ya qaz mühitində aparılır.

**BERİNQ** (Behrinq) Emil Adolf fon (15.3.1854, Hansdorf – 31.3.1917, Marburq) – alman mikrobioloqu, immunologiyanın banilərindən biri. Nobel mükafatı laureatı (1901, fiziologiya və tibb sahəsində ilk mükafat). Berlin Un-tini bitirmişdir (1880), 1889 ildən İnfeksion Xəstəliklər İn-tunda (Berlin) R. *Koxun* laboratoriyasında işləmişdir. Halle Un-tində gigiyena prof.-u (1894 ildən), 1895 ildən Marburqda təşkil etdiyi Eksperimental Terapiya İn-tunun direktoru olmuşdur. 1890 ildə B. (yapon mikrobioloqu Ş. Kitasato ilə birlikdə) dəfələrlə difteriya və tetanus toksinlərinin öldürücü olmayan dozaları vurulmuş heyvanların qanından alınan serumların bunları zərərsizləşdirdiyini ilk dəfə müşahidə etmişdir. O, göstərmişdir ki, difteriya və tetanusa qarşı immunitet qanda dövr edən antitoksinlərin əmələ gəlməsindən asılıdır. B. tərəfindən difteriyaya qarşı antitoksin serumunun tətbiqi serum-immun müalicəsinin əsasını qoymuşdur. B. toksinin bölünmüş dozalarının yeridilməsi zamanı immunitetin güclənməsi fenomenini (Berinq fenomeni) kəşf etmişdir. O, difteriyaya qarşı toksinlə antitoksin qarışığının inyeksiyası yolu ilə aktiv immunlaşdırma üsulunu işləyib hazırlamışdır. Fəxri legion ordeni ilə təltif edilmişdir (1895).



**BERİNQ** (Bering) Vitus İonassen [(?).8.1681, Danimarkanın Horsens ş. – 19.12.1741, indiki Berinq a.] – dəniz səyyahı, Rusiya donanmasının kapitan-komandoru (1730). Əslən danimarkalıdır. Birinci Kamçatka ekspedisiyasına (1725–30) rəhbərlik etmiş, A.İ. Çirikovla birlikdə Kamçatkanın ş., Çukot y-anın isə c. və ş. sahilləri boyunca üzüb, Asiya ilə Amerika arasındakı boğazdan (sonralar B.-in adı verilmişdir) keçmiş. Müq. Lavrenti və Müq. Diomid (indiki Ratmanov a.) a.-larını kəşf etmişdir. B. ikinci Kamçatka ekspedisiyasının (1733–43) da rəisi olmuşdur. "Müq. Pyotr" və "Müq. Pavel" (komandiri A.İ. Çirikov) gəmiləri ilə Sakit okeanı keçmiş və 17.7.1741 ildə 58°14' şm. e.-ndə Şimali Amerikanın sahillərinə çatmış, Alyaska sahillərini, Aleut a-rının bir neçəsini və Komandor a-rını kəşf etmişdir. B. ekspedisiya zamanı indiki Berinq a.-nda vəfat etmişdir. Berinq dənizi,





Berinq adasından görünüş.

Berinq boğazı, Berinq a. və s. onun şərəfinə adlandırılmışdır.

*Əd.*: Берг Л. С. Открытие Камчатки и экспедиции Беринга. 1725–1742. М.; Л., 1946; Исторические памятники второй Камчатской экспедиции. М., 2002.

**BERİNQ ADASI** – RF-nin Kamçatka vil. ərazisində, Berinq dənizinin Komandor a-rı arxipelaqında ən iri və ən hündür ada. Uz. 85 *km*, eni təqr. 40 *km*. Sah. 1,7 min $km^2$. Relyefi mərkəzi və c. hissələrində dağlıq (Steller d., hünd. 755 *m*-ədək), şm. hissəsində düzənlikdir. Paleogen-Neogenin tuflu çöküntülərindən və Antropogenin effuziv süxurlarından ibarətdir. Subarktika dəniz iqlimi hakimdir. İllik yağıntı təqr. 500 *mm*. Ən iri gölü – Saran. Bitki örtüyü tundra tiplidir. Sahillərindəki yataqlarda dəniz pişiyi, dəniz qunduzu, sivuç, nerpa və s. var. 1741 ildə V. *Berinq* kəşf etmişdir.

**BERİNQ BOĞAZI** – Asiya ilə Şimali Amerika arasında boğaz. Şimal Buzlu okeanının Çukot dənizini Sakit okeanın Berinq dənizi ilə birləşdirir. Uz. 96 *km*, eni 86–198 *km*, ən dayaz yeri farvaterdə 36 *m*-dir. Diomid a-rı B.b.-nı 3 keçidə bölür. B.b.-ndan Şimal Buzlu okeanına Berinq dənizinin daha isti səth suları, c.-a – Sakit okeana isə qərb sahilboyu zonası ilə Şimal Buzlu okeanının daha soyuq suları daxil olur. İlin çox hissəsi B.b. üzən buzlarla örtülü olur. Antropogen dövründə (Kvarterdə) B.b.-nın yerində Avrasiya ilə Şimali Amerika arasında dəfələrlə quru körpü yaranmışdır. B.b.-ndan (Diomid a-rı arasından) RF-nin və ABŞ-ın dövlət sərhədi və tarixdəyişmə xətti keçir. V. *Berinqin* şərəfinə adlandırılmışdır.

Berinq dənizi sahilləri.



**BERİNQ BUZLAĞI** – Şimali Amerikada, ABŞ-ın Alyaska ştatında iri dağ buzlağı. Çuqaç d-rının Baqli buzlaq sahəsindən başlanır. Uz. 203 *km*, sah. təqr. 5800 $km^2$. Alyaska körfəzi sahilində düzənliyədək gəlib çıxır; burada uz. 80 *km*, eni 43 *km* olan bir qanad yaradır. V. *Berinqin* şərəfinə adlandırılmışdır.

**BERİNQ DƏNİZİ** – Avrasiya və Şm. Amerika materikləri arasında Sakit okeanın kənar dənizi. Q.-də Rusiya, ş.-də ABŞ (Alyaska) ərazisi ilə hüdudlanır. Şm.-da Berinq boğazı ilə Şimal Buzlu okeanı, c.-da Aleut və Komandor a-rı arasındakı boğazlar vasitəsilə Sakit okeanla əlaqələnir. Sah. 2315 min $km^2$, həcmi 3796 min $km^3$, ən dərin yeri 5500 *m*-dir. Sahil xətti kəskin parçalanmışdır, çoxlu körfəzlər (q.-də Karagin, Olyutor, Anadır – Rusiya; ş.-də Norton, Bristol – ABŞ), buxtalar, yarımadalar və burunlar əmələ gətirir. Adaları Karagin (Rusiya), Müq. Lavrenti, Nunivak, Nelson, Müq. Matvey, Pribılov (ABŞ) materik mənşəlidir. B.d.-nin q. sahilləri dağlıq, ş. sahilləri, əsasən, düzənlikdir.

B.d.-nin şm. və c.-ş. hissələrini dərinliyi 200 *m*-ə, eni 750 *km*-ə çatan şelf zonası tutur. Dördüncü dövrdə şelf vaxtaşırı quruyaraq Avrasiya və Şimali Amerika materikləri arasında quru körpüsü yaratmışdır. Şelf zonası hüdudlarında Kaynozoyun terrigen çöküntüləri ilə dolmuş Anadır, Navarin, Xatır və s. çökəkliklər var. Olyutor y-a-ndan c.-a doğru uzanan sualtı Şirşov silsiləsi (qılıcı üzərində suyun dərinliyi 500–600 *m*) yatağı iki çuxura (Komandor və Aleut) ayırır. Aleut çuxurunun özülü Erkən Tabaşir yaşlıdır; çuxurun mərkəzi hissəsində Tabaşir–Dördüncü dövr yaşlı çökmə örtüyünün qalınlığı 3,5–5 *km*-dir, ətraflara doğru artaraq 7–9 *km*-ə çatır. Komandor çuxurunun özülü isə Kaynozoy yaşlıdır. Burada Neogen–Dördüncü dövr yaşlı çökmə örtüyünün qalınlığı 2 *km*-ədəkdir. Şelf zonasında və materik yamacında, əsasən, terrigen çöküntülər yayılmışdır.

B.d.-nin şm. hissəsində Arktika və subarktika iqlimi, c. hissəsində mülayim dəniz iqlimi hakimdir. Havanın orta temp-ru ən soyuq ayda (fevral) c.-da 0-dan – 4°C-yədək, şm.-da – 23°C-yədəkdir (Alyaska sahillərində – 48°C qeydə alınmışdır); ən isti ayda (avqust) müvafiq olaraq 13 və 4°C-dir. Yağıntının illik miqdarı 450 *mm*-dən (şm.-ş.-də) 1000 *mm*-ədəkdir (c.-q.-də).





B.d.-nə tökülən çay axımının illik miqdarı təqr. 400 $km^3$-dir. Bunun 70%-i Yukon (176 $km^3$), Anadır (50 $km^3$) və Kuskokvim (41 $km^3$) çaylarının payına düşür; 85%-i əsasən, yaz-yay aylarında olur. Qabarmalar sutkalıq və yarımsutkalıqdır (hünd. 1,5–2 *m*; Bristol körfəzində 3,7 *m*-ədək çatır). Səth sularının temp-ru fevralda – 1.5°C-dən (şm.-da) 3°C-yədək (c.-da), avqustda uyğun olaraq 4–8°C-dən 9–11°C-yədəkdir; duzluluq şm.-da 32.0‰, c.-da 33,5‰-dir. Yayda buzların əriməsi və çay axımları nəticəsində duzluluq 28‰-ədək azalır. Sentyabr–oktyabr aylarından başlayaraq B.d.-nin səthi 60° şm.e.-nədək ağır buzla örtülür, may–iyunda isə əriyir.

B.d.-ində ekoloji vəziyyət daim qənaətbəxşdir; çirkləndirici maddələrin yalnız çayların mənsəbində və körfəzlərdə konsentrasiyası sahil r-nlarında hidrokarbonatların miqdarını nisbətən azaldır.

V. *Berinqin* şərəfinə adlandırılmışdır.

**BERİNQ DƏNİZİ MƏDƏNİYYƏTİ** – qədim eskimosların mədəniyyəti. E.ə. sonuncu əsrlərdən eramızın 17 əsrinədək Berinq dənizi sahilində və a-rında, Berinq boğazı və Arktikanın ona yaxın sahillərində yayılmışdı. Sovet və Amerika alimlərinin apardığı qazıntılar (1928–60) nəticəsində B.d.m.-nin inkişaf mərhələləri müəyyənləşdirilmişdir. E.ə. 3 əsrdən eramızın ilk əsrlərinədək davam edən qədim mərhələ üçün giriş tunelləri olan yarımqazma evlər, daşdan və cilalanmış şistdən əmək alətləri, gil qab və çıraqlar, harpun ucluqları, morj dişindən heykəlciklər və s. səciyyəvidir.

**BERİO** Luçano (24.10.1925, Onelya – 27.5.2003, Roma) – italyan bəstəkarı, pedaqoq. Musiqiçilər ailəsindəndir. Milan konservatoriyasını bitirmiş (1951), kompozisiya dərslərini C. Gedini (1948–51) və L. *Dallapikkoladan* (1952) almışdır. 1955 ildə musiqi fonologiyası studiyasını (Studio di Fonologia Musicale, B. *Maderna* ilə birlikdə) yaratmışdır; sonralar bu studiya Avropada aparıcı elektron musiqisi mərkəzlərindən biri kimi tanınmışdır. "Incontri musicali" (Milan) jurnalının baş redaktoru olmuş və müasir musiqi problemlərinə dair məqalələr yazmışdır. 1950-ci illərin ortalarından Darmştadt yay kurslarında müntəzəm olaraq müasir musiqi dərsləri aparmışdır. 1962–72 illərdə, əsasən, ABŞ-da yaşamış, Mills-kollecdə, Harvard Un-tində, *Culyard musiqi məktəbində* kompozisiyadan dərs demişdir. 1974–80 illərdə Musiqi-akustika problemlərinin tədqiqi və koordinasiyası in-tunda (Paris) şöbə müdiri işləmişdir. Florensiyadakı "İndiki zaman" ("Centro Tempo Reale") mərkəzinin yaradıcısı və rəhbəri olmuşdur. B. dövrünün ən radikal avanqardçılarından biri idi. Əsərlərində, demək olar ki, bütün müasir bəstəkarlıq vasitələrindən, o cümlədən seriya texnikasından, aleatorikadan, *elektron musiqisindən* bəhrələnmişdir; çox vaxt musiqi və mətn kollajlarından da istifadə etmişdir. Musiqili teatr üçün yazdığı əsərlər: "Opera" (Santa-Fe, 1970; 2-ci redaksiyası – Florensiya, 1977), "Utis" (Milan, 1996), "Məkanın xronikası" (Zalsburq, 1999). 13 virtuoz sekvensiya (№3 solo səs üçün, digərləri isə müxtəlif solo alətlər üçün, 1958–96); "Mövzu. Coysa ithaf" (maqnitofon üçün, 1958); 8 səs və orkestr üçün simfoniya (1968) və s. əsərlərin müəllifidir.

**BERİO** (Beriot) Şarl (20.2.1802, Löven – 8.4. 1870, Brüssel) – Belçika skripkaçısı, pedaqoq, bəstəkar. A. Robberextin şagirdi. 1830 ilə qədər Niderland kralı I Vilhelmin saray solisti olmuşdur. 1830–35 illərdə arvadı – müğənni M.A. *Malibran* ilə Belçika, İngiltərə, Fransa və İtaliyada qastrol səfərlərində olmuşdur. 1843–52 illərdə Brüssel Konservatoriyasının prof.-u (A. *Vyötan* onun şagirdlərindəndir) olmuşdur. Belçika skripka məktəbinin yaradıcısı, 19 əsrin ən böyük virtuoz skripkaçılarından biridir. Onun skripka ilə orkestr üçün 10 konserti, fp.-no ilə skripka üçün bir çox variasiyaları və pyesləri (o cümlədən "Balet səhnələri") metodiki dəyərini saxlamışdır. "Skripka məktəbi" (1858), "Skripkada ali ifaçılıq məktəbi" (1867) əsərlərinin müəllifidir.

**BERİT** (akkadca Beruta) – indiki *Beyrutun* qədim adı.

**BERİTAŞVİLİ** (Beritov) İvan Solomonoviç (10.1.1885, Tiflis qub.-nın Vecini k. – 29.12.1974, Tbilisi) – Gürc. fizioloqu, SSRİ EA (1939), Gürc. SSR EA (1941), SSRİ Tibb EA (1944) akad. SSRİ Dövlət mükafatı laureatı (1941). Sosialist Əməyi Qəhrəmanı (1964). Elektrofizioloqiya sahəsində görkəmli alimlərindən biri. Peterburq Un-tini bitirmişdir (1910). 1941 ildən özünün yaratdığı Gürc. SSR EA Fiziologiya İn-tunda (1951 ilə qədər direktor) işləmişdir. Əsas tədqiqatları əzələ və sinir sistemləri fiziologiyası sahəsindədir. Sinir sisteminin koordinasiyaedici fəaliyyətinin mexanizmini öyrənmiş, 1922 ildə ümumi tormozlanma hadisəsini kəşf etmiş, mərkəzi tormozlanmanın ritmik təbiətini sübut etmişdir. Psixonevroloji fəaliyyət haqqında təlim irəli sürmüş, heyvanların davranış mexanizminin ilk tədqiqatçılarından olmuşdur.



Əsərləri: Учение об основных элементах центральной координации скелетной мускулатуры. П., 1916; Память позвоночных животных, ее характеристика и происхождение. Тб., 1968; Структура и функции коры большого мозга. М., 1969.

**BERİYA** Lavrenti Pavloviç (29.3.1899, Tiflis qub.-nın Suxum dairəsinin Merxeuli k. – 23.12.1953, Moskva) – sovet dövlət və partiya xadimi, dövlət təhlükəsizliyinin baş komissarı (1941), Sovet İttifaqı marşalı (1945 ildən); Sosialist Əməyi Qəhrəmanı (1943). Bakı politexnik intunda oxumuşdur (1920–22). 11-ci ordu-



Qədim Berinq dənizi mədəniyyətinə aid əşyalar. Şərq Xalqları Mədəniyyəti Dövlət Muzeyi (Moskva) və "Çukot irsi" muzey mərkəzi (Anadır).



nun İnqilabi-Hərbi Şurası yanındakı Qırmızı ordu Qafqaz cəbhəsi Qeydiyyat (kəşfiyyat) şöbəsinin müvəkkili (1920 ilin yazından), Azərb. K(b)P MK-da işlər müdiri (1920 ilin avqust–oktyabr aylarında), Bakıda burjuaziyanın ekspropriasiyası və fəhlələrin məişətinin yaxşılaşdırılması üzrə fövqəladə komissiyanın məsul katibi (oktyabr 1920 – fevral 1921), Azərb. Fövqəladə Komissiyasının (AFK) məxfi-operativ bölməsinin rəis müavini, AFK sədr müavini, məxfi-operativ bölmənin rəisi (1921–22) olmuşdur. Gürc. Fövqəladə Komissiyasının (1927 ildən Gürc. SSR Dövlət Siyasi İdarəsi) sədr müavini və sədri (1922–31), eyni zamanda Birləşmiş Dövlət Siyasi İdarəsinin (BDSİ) Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasında (ZSFSR) səlahiyyətli nümayəndəsinin müavini, Zaqafqaziya Dövlət Siyasi İdarəsinin (DSİ) sədr müavini və sədri vəzifələrini tutmuşdur. Gürc. SSR daxili işlər naziri (1927–30). ZSFSR-də Qafqaz ordusu BDSİ-nin Xüsusi şöbəsinin rəisi və BDSİ-nin səlahiyyətli nümayəndəsi – Zaqafqaziya DSİ-nin sədri (aprel–dekabr 1931). Eyni zamanda Gürc. K(b)P MK-nın 1-ci katibi (1931, noyabr – 1938, avqust), Ümumittifaq Kommunist (bolşeviklər) Partiyasının (ÜİK(b)P)/Sov.İKP MK-nın üzvü (1934–53), ÜİK(b)P-nın Zaqafqaziya diyar komitəsinin 1-ci katibi (1932, oktyabr – 1936, dekabr) olmuşdur. Kütləvi repressiyaların qızğın çağında (1937–38) İ.V. Stalinə Cənubi Qafqazda əksinqilabi təşkilat haqqında xəbər vermiş, bir çox partiya, sovet və təsərrüfat rəhbərlərinin həbsinin təşəbbüskarı olmuşdur. SSRİ Ali Soveti Rəyasət Heyətinin üzvü (1938–39). SSRİ daxili işlər xalq komissarı (1938–45) işləmişdir. 1939 ilin sonu – 41 ilin sentyabrında Belorusiya və Ukraynanın qərb vilayətlərində (400 min nəfərdən çox), habelə Baltikyanı respublikalarda kütləvi həbslər və əhalinin deportasiyasını təşkil etmişdir. SSRİ Xalq Komissarları Sovetinin (XKS) (sonralar Nazirlər Soveti) sədr müavini olmuşdur (3.2.1941 – 5.3. 1953). Böyük Vətən müharibəsi zamanı SSRİ Dövlət Müdafiə Komitəsinin (DMK) üzvü (1941 il iyulun 30-dan) idi. 1941–44 illərdə almanların, çeçenlərin, inquşların, Krım tatarlarının deportasiyasına rəhbərlik etmişdir. Silah və döyüş sursatının, həmçinin (G.M. Malenkovla birlikdə) təyyarə və təyyarə mühərriklərinin (1942 ildən), tank və özüyeriyən artilleriya qurğularının (1943 ildən) istehsalına nəzarət etmişdir. 1945 il avqustun 20-dən nüvə silahı istehsalı və sınaqı (1949 ildə nüvə bombasının, 1953 ildə isə hidrogen bombasının sınaqı keçirilmişdir) üzrə işləri koordinasiya edən SSRİ DMK yanında (1945 ilin sentyabrından XKS yanında, 1946 ilin martından Nazirlər Soveti yanında) Xüsusi komitənin sədri, ÜİK(b)P MK Siyasi bürosunun (1946–52), Sov. İKP MK Rəyasət Heyətinin və onun Bürosunun (1952–53) üzvü olmuşdur.

Stalinin ölümündən sonra B. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və SSRİ daxili işlər naziri (5.3–26.6.1953) olmuş, Daxili İşlər Nazirliyi (DİN) və Dövlət Təhlükəsizliyi Nazirliyinin (DTN) birləşmiş strukturlarına rəhbərlik etmişdir.

1953 il iyunun 26-da MK-nın Rəyasət Heyətinin iclasında B. həbs olunmuş, 1953 il dekabrın 12-də SSRİ Ali məhkəməsinin qərarı ilə güllələnmişdir.

Berje karst mağarası. Qalereyalardan biri.



**BERJE** Adolf Petroviç (28.7.1828, S.-Peterburq – 31.2.1886, Tiflis) – rus tarixçisi, arxeoqraf, qafqazşünas. Fransız mühacirinin oğludur. XİN Asiya departamenti yanında Şərq dilləri tədris şöbəsini bitirmiş (1851), Qafqaz canişini M.S. Voronsovun Dəftərxanasında çalışmışdır. 1853–55 illərdə rus diplomatik nümayəndə heyətinin tərkibində üç dəfə İranda olmuş, nadir kitabları, əlyazmalarını və sənədləri, o cümlədən İran şahlarının 600 fərmanını Rusiyaya aparmışdır; rəsmi sənədlərin tərcüməsi üçün 1868 ildə Parisdə "Farsca-fransızca lüğət" nəşr etdirmişdir. 1856 ildən "Qafqaz təqvimi" illik məcmuəsinin redaktoru olmuşdur. Qafqaz xalqlarının tarixinə dair bir çox sənədlər toplamış və nəşr etdirmişdir. On iki cildlik "Qafqaz arxeoqrafiya komissiyasının aktları"nın on bir cildinin redaktoru olmuşdur. Azərb. dilini mənimsəmiş B. Azərb. şairlərinin əsərlərindən ibarət "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuə"ni Leypsiqdə almanca müqəddimə ilə nəşr etdirmişdir (1868). "Azərbaycan dilində nəğmələr məcmuəsi"ni (əlyazması) tərtib etmişdir. "Zaqafqaziya müsəlman şairləri haqqında bir neçə söz" məqaləsi var. Mirzə Camal Cavanşir Qarabağinin "Qarabağ tarixi"ni rus dilinə çevirərək müqəddimə ilə "Kavkaz" qəzetində dərc etdirmişdir. Azərb. şairlərinin şeirlər məcmuəsinin hazırlanmasında, habelə "Kəmalüddövlə məktubları"nın rus dilinə tərcüməsində M.F. Axundzadə ilə əməkdaşlıq etmişdir.



Ə s ə r l ə r i: Отрывки из путешествия в Персию в 1853 и 1854 гг. Тифлис, 1859; Этнографическое обозрение Кавказа. С.-Пб., 1879.

**BERJE** (Berger) – Fransada (Qrenobl ş.-ndən 8 *km* şm.-q.-də) Qərbi Alp d-rının Verkor massivində karst mağarası sistemi; Yer kürəsinin ən dərin mağaralarından biri. Yer səthindən şaquli istiqamətdə dərinliyi 1271 *m*, qalereyalarının uz. 31,2 *km*-dir. Qırışığın əhəngdaşılardan təşkil olunmuş qanadında yaranmışdır. Girişi 1453 *m* yüksəklikdədir. Yuxarı hissəsində tipik karst şaxtasıdır – 200 *m*-ədək pillələrlə düşür. Daha sonra layların yatımı boyunca düşərək əhəngdaşıların şistlərlə təmasında mağara qalereyasını (Böyük qalereyanı) əmələ gətirir. Qalereya dar kanyonla və dik çıxıntıdan tökülən Uraqana şəlaləsi ilə bitir. B. 1937 ildən məlumdur, 1953 ildən tədqiq olunur.





**BERK** (Berck) – Fransada sahil iqlim kurortu, Pa-de-Kale körfəzi sahilində, Kale ş.-ndən c.-q.-dədir. Dəniz iqlimi hakimdir. Qışı qısa və yumşaq (yanvarın orta temp-ru təqr. 4°C), yayı isti və günəşlidir (iyulun orta temp-ru təqr. 20°C); yağıntının illik miqdarı 700 *mm*. İqlim müalicəsi aparılır. Əsasən, hərəkət və dayaq, tənəffüs orqanları, ürək-damar sistemi xəstəlikləri müalicə olunur. Sanatoriyalar, geniş qumlu çimərlik var. Kurort kimi 19 əsrin 2-ci yarısından inkişaf edir.

**BERK** (Burke) Edmund (12.1.1729, Dublin – 9.7.1797, Bekonsfild) – ingilis siyasi xadimi, publisist və filosof. 1748 ildə Dublində Triniti-kolleci bitirmiş, 1750 ildən Londonda ədəbi fəaliyyətlə məşğul olmuşdur. Britaniya parlamentinin aşağı palatasının üzvü idi (1765–94). Söz azadlığı, qul alverinin ləğvi uğrunda çalışır, dini diskriminasiya əleyhinə çıxış edirdi. 1766–75 illərdə hökumətin Şimali Amerika kolonistlərinə qarşı cəza tədbirlərini pisləyir, metropoliyanın koloniyaların işlərinə qarışmasını məhdudlaşdırmaqla kompromisə gəlməyi təklif edirdi. 1780–82 illərdə "iqtisadi islahat"ın təşəbbüskarlarından olmuşdur. 1790–97 illərdə çıxışlarında və publisistikasında 18 əsr Fransa inqilabını ittiham etmişdir. Onun konservatizm ideologiyası prinsiplərinin klassik ifadəsi olan "Fransa inqilabı haqqında düşüncələr" ("Reflection on the French revolution", 1790) əsəri Avropada geniş diskussiyalar yaratmışdı. B.-in sosial-siyasi baxışlarının əsasını xristian dünyabaxışı təşkil etmişdir. Hər bir dövləti onun vətəndaşlarının bütün nəsillərinin irsi sərvəti hesab edən B. siyasətdə varisliyin zəruriliyini vurğulamışdır. B. tarixən formalaşmış institutların qismən və praqmatik islahatını zəruri hesab etsə də, onun dağıdıcı deyil, qurucu olmasını nəzərdə tutmuşdur.



Ə s ə r l ə r i: The writings and speeches. Oxf., 1981–2000. Vol. 1–8; Размышления о революции во Франции... М., 1993; Правление, политика и общество. М., 2001.

Əd.: Lock F. P. E. Burke. Oxf., 1998. Vol. 1.

**BERK NURULLAH** (22.3.1906, İstanbul – 9.1.1982, İstanbul) – türk rəssamı, sənətşünas. Türkiyədə *konstruktivizmin* ilk nümayəndələrindən biridir. Paris Zərif Sənətlər Akademiyasını bitirmişdir (1929). 1939 ildən İstanbul Zərif Sənətlər Akademiyasında və s. rəssamlıq məktəblərində dərs demişdir. Müstəqil Rəssamlar və Heykəltəraşlar Birliyinin (1928), Türkiyə təsviri sənətinin özünəməxsusluğu uğrunda çalışan "D qrupu"-nun (1933) yaradıcılarındandır. Əvvəllər *impressionizmə* meyil edən B.-in yaradıcılığında sonralar milli *ekspressionizm* axtarışları əksini tapmışdır. Əsərlərində *kubizm* elementləri də mövcuddur. "Yuxu", "Paltar ütüləyən qadın", "İstanbul limanı" və s. qrafika və boyakarlıq əsərləri var. B.-in tabloları bir sıra xarici ölkədə YUNESKO xətti ilə təşkil edilən sərgilərdə göstərilmişdir. 1966 ildə Türkiyədə keçirilən dövlət rəsm və heykəltəraşlıq sərgisinin 1-ci mükafatını almışdır. B. Moskvada, Bakıda (1965–66) və s. yerlərdə Türkiyə bədii sərgilərinə rəhbərlik etmişdir. Əsərləri Paris, London, Roma, İzmir və b. ş.-lərin muzeylərində, eləcə də şəxsi kolleksiyalarda saxlanılır. Sənətşünaslığa dair bir çox kitabın müəllifidir ("Modern sənət", 1932; "Türk heykəltəraşları", 1937; "Türkiyədə rəsm və heykəltəraşlıq", 1957; "Sandro Bottiçelli, Paolo Uççello, Pyero della Françeska", 1962; "Rəsm və heykəltəraşlıq muzeyi", 1972 və s.).

**BERKENHED** (Birkenhead) – B. Britaniyanın q.-ində, Mersisayd qraflığında (1974 ilədək Çeşir qraflığında) şəhər. Əh. 81 min (2010). İrlandiya dənizi sahilində, Mersi çayının mənsəbində port. Nəql. qovşağı. Liverpul ş. ilə sualtı tunel və bərə əlaqəsi var. Gəmiqayırma və gəmi təmiri, maşınqayırma, kimya, yeyinti sənayesi var. 1105 ildə salınmışdır.

**BERKER** Cahangir Hüseyn oğlu (1894, Bakı – 17.7.1958, Bornova, İzmir) – Türkiyə ordusunun gen.-ı. *Azərbaycan ordusu* süvari diviziyasının komandiri Teymur bəy *Novruzovun* nəslindəndir. Bax *Novruzov* Cahangir Hüseyn oğlu.



**BERKLİ** (Berkeley) Corc (12.3.1685, İrlandiya, Kilkenni yaxınlığında – 14.1.1753, Oksford) – ingilis-irland filosofu və alimi, anqlikan kilsəsinin yepiskopu. 1700 ildən Dublində Triniti-kollecdə təhsil almış, 1707 ildən burada dərs demiş, 1710 ildə anqlikan keşişi olmuşdur. Tez-tez səyahətə çıxan B. 1713 ildə Londonda C. *Sviftlə* tanış olmuş, 1716–20 illərdə Fransa və İtaliyada yaşamış, 1728–31 illərdə Amerikaya missioner səfəri etmişdir. B.-nin Amerikada yazdığı "Alkifron, yaxud Xırda filosof" ("Alciphron, or the Minute philosopher", 1732) əsəri "azadfikirlilərə" (ilk növbədə A. Şeftsberi və B. Mandevillə) qarşı çevrilmişdi.

"Yeni baxış nəzəriyyəsi təcrübəsi"ndə ("Ann essay towards a new theory of vision", 1709) B. göstərir ki, hissetmə qabiliyyətindən məhrum olan varlıq məkanın gerçək xassələri haqqında mühakimə yürüdə bilməz. Lakin B. özünün başlıca fəlsəfi əsərlərində – "İnsan biliyinin başlanğıcı haqda traktat"da ("A treatise concerning the principles of human knowledge", 1710) və "Hilas və Filonus arasında üç söhbət"də ("Three dialogues between Hylas and Philonous", 1713) hissetməni də subyektivləşdirmişdir.

C. *Lokkun* mücərrədləşdirmə nəzəriyyəsini inkar edən B. ehtimal edir ki, ümumilikdə insanı, ümumilikdə üçbucağı və s. təsəvvür etmək olmaz, çünki həmişə tək, konkret şeylər təsəvvürə gətirilir. Reprezentativ abstraksiya nəzəriyyəsi B. tərəfindən ənənəvi metafizikanın bir sıra ən mühüm anlayışlarını, o cümlədən materiya anlayışını, həmçinin qavrayış və mövcudluğun bir-birindən ayrı olması fikrini (B. onların vəhdətdə olmasını gözlə görünən həqiqət sayır) tənqid etmək üçün istifadə edilir. B.-yə görə, "mövcud olmaq qavranılmaq deməkdir" (esse est persipi); biz hər hansı bir hissi obyekti təsəvvür edərkən eyni zamanda obyekti təsəvvür edən özümüzü təsəvvür edirik, bunun nəticəsidir ki, obyektlər yalnız ələqəli mövcudluğa malikdir və qavrayan ruhdan asılıdır. Lokkun birinci və ikinci keyfiyyətlər bölgüsünü inkar edən B. hesab edir ki, bütün keyfiyyətlər – yalnız ikincili yox, birincili keyfiyyətlər də sub-



Berkli şəhərindən görünüş.

yektdən asılıdır və deməli, yalnız onun qavrayışında mövcuddur.

"Mövcud olmaq qavranılmaq deməkdir" prinsipi dar mənada yalnız hissi obeyktlər üçün önəmlidir. Bu obeyktlərin özləri başqa bir prinsipin – "mövcud olmaq qavramaq deməkdir" – şamil edildiyi ruhlarda mövcuddur. Duyğular aləminin vahidliyi və məqsədəuyğunluğuna diqqət yönəldən B.-yə görə, duyğu ideyalarının məcmusu arxasında vahid ağıllı ilk səbəb – məhz Allah dayanır.

Sonsuz kiçik ədədlər və sonsuz bölünənlik anlayışlarını absurd hesab edən B. mütləq məkan haqqında Nyuton təsəvvürlərini tənqid edirdi. O, Dekartın ardınca materiyanın daxili fəallığı haqqında təlimə qarşı çıxaraq iddia edirdi ki, materiya öz-özlüyündə hər cür fəaliyyətdən məhrumdur və bütünlüklə passivdir. Həqiqətən fəal yalnız ruhdur. Ruh dünyada yerləşmir, dünya ruhda yerləşir və ondan yaranır.

1744 ildə nəşr edilmiş "Sayris, yaxud fəlsəfi düşüncələr və tədqiqatlar zənciri" ("Siris: a Chain of philosophical reflexions and inquiries") traktatı B.-nin fəlsəfəçiliyinin ümumi atmosferində xeyli dəyişikliklər baş verdiyini, onun neoplatonizm ənənələrinə sədaqətinin getdikcə artdığını üzə çıxartdı. B.-nin Avropa mütəfəkkirlərinə göstərdiyi təsir birmənalı olmamışdır. Bəzən onu paradokslar və fəlsəfi epataj həvəskarı kimi qəbul etmişlər (məs., Q.B. Leybnits). Materialist fəlsəfə tərəfdarları (D.Didro və b.) hesab edirdilər ki, B.-nin təlimi sağlam düşüncəyə qarşı yönəlmişdir. 18 əsr alman fəlsəfəsi B. sistemi kimi başa düşülən "idealizmin inkarı" kimi inkişaf etmişdir (X. Volf, İ.N.Tetens, B.-ni "ehkamçı idealist" adlandıran İ.Kant və b.). B.-nin ideyaları D.Yuma güclü təsir göstərmişdir.

Ə s ə r l ə r i: The works/ Ed. by A.A.Luce and T.E.Jessop.L., 1948–1957/ Vol 1–9; Соч. М., 1970;

*Əd:* Б ы х о в с к и й Б.Э. Дж.Беркли. М., 1970; G r a y l i n g A.C. Berkeley: the central arguments. L., 1986.

**BERKLİ** (Berkeley) – ABŞ-ın q.-ində, Sakit okean sahilində, Kaliforniya ştatında şəhər; San-Fransisko şəhər aqlomerasiyasına daxildir. Əh. 100,2 min (2005). San-Fransisko körfəzinin sağ sahilində port. San-Fransisko ş. ilə B.-ni "yüngül metro" xətti (1970-ci illərdən işləyir; yolun bir hissəsi körfəz üzərindəki körpüdən keçir) birləşdirir. D.y. st.

Kaliforniya un-tinin (1868) tikintisi üçün nəzərdə tutulmuş yerdə, 1853 ildə salınmışdır. C. *Berklinin* şərəfinə adlandırılmışdır. Təhsil və elm mərkəzi kimi inkişaf edir. 1906 il zəlzələsindən sonra B.-nin əhalisi sürətlə atrmışdır; belə ki, dağıntıya məruz qalmış San-Fransiskonun sakinlərinin bir qismi şəhəri tərk edərək körfəzin sağ sahilində məskunlaşmışlır. 1986 ildə B. "nüvəsiz zona" elan edilmiş, un-tin atom reaktoru dayandırılmışdır.

Çoxlu kilsə, o cümlədən ilk xristian protestant kilsəsi (1910) var. B. San-Fransiskonun nüfuzlu şəhərətrafıdır. Hollivud aktyor və rej-larının, məşhur yazıçıların, memarların və b. evləri burada yerləşir. Müstəqil kitab nəşriyyatlarının sayına görə B. ölkədə 1-ci yerlərdən birini tutur. Kaliforniya mətbəxinin vətəni hesab olunur.

B. ABŞ-ın mühüm elm mərkəzidir. Kaliforniya un-ti (təqr. 30 min tələbə) nəzdində *Berkli milli laboratoriyası* fəaliyyət göstərir. Təbiyyat tarixi, antropologiya, paleontologiya, zoologiya və s. muzeylər, kütləvi kitabxana, Biznes kolleci (1931), Riyaziyyat ETİ (1982) var.

Berkli Milli Laboratoiyası.



**BERKLİ MİLLİ LABORATORİYASI**, E. L o r e n s a d ı n a – ABŞ-ın elmi tədqiqat müəssisəsi. Kaliforniya Un-tinin Berkli elmi şəhərciyinin yaxınlığında 80 *ha* sahədə yerləşir. Əsası 1931 ildə E. *Lorens* tərəfindən qoyulmuşdur. B.m.l.-nda kompyuter modelləşdirməsinin ən yeni üsullarından istifadə etməklə fundamental elmlər sahəsində tədqiqatlar aparılır. Əsas tədqiqat istiqamətləri nüvə və neytrino astrofizikası, Kainatın quruluşunun və materiyanın fundamental strukturunun, ifrat ağır elementlərin, nanostrukturların öyrənilməsidir. Əsas tədqiqat kompleksi ultrabənövşəyi və yumşaq rentgen şüalanmasının dünyada ən güclü mənbəyindən biri olan 88-düymlü tsiklotrondur. B.m.l.-nın tərkibinə 17 elmi bölmə daxildir, o cümlədən Energetika tədqiqatları milli elmi kompyuter mərkəzi, Elektron mikroskopiyası milli mərkəzi, Genomika birləşmiş in-tutu. 2003 ildə bioloji obyektlərin modelləşdirilməsi və sintezi üçün dünyada ilk sintetik biologiya şöbəsi yaradılmışdır. B.m.l.-nın on alimi Nobel mükafatı laureatıdır.

**BERKLİUM** (ing. Berkeley – kəşf edilmiş yerin adından; lat. Berkelium), Bk – süni radioaktiv kimyəvi element. Elementlərin dövri sisteminin III qrupundadır. *Aktinoidlərə* aiddir, at.n. 97. Stabil izotopları yoxdur. B.-un kütlə ədədləri 235–254 olan radioaktiv izotopları məlumdur; daha çox yaşayan izotopları $^{247}$Bk ($T_{1/2}$ 1380 il, $\alpha$-şüalandırıcı) və $^{249}$Bk-dur ($T_{1/2}$ 314 sutka, $\beta$-şüalandırıcı).

Amerikalı fiziklər S.Tompson, A. Giorso və Q.*Siborq* 1949 ildə amerisium oksidini $^{241}Am_2O_3$ heliumun sürətləndirilmiş ionları ilə bombardman etməklə sintez etmişlər.

B. – gümüşü-ağ metaldır; kubik üzlərə mərkəzləşmiş və ikiqat heksaqonal qəfəsli sıx kipləşmiş iki kristallik modifikasiyası mövcüddur. $t_{ər}$ 1050°C-yə, $t_{qayn}$ 2630°C-yə yaxın, sıxlığı 14800 *kq/m*$^3$. Atomun xarici elektron təbəqəsinin konfiqurasiyası $5f^8 6s^2 6p^6 6d^1 7s^2$; B. birləşmələrdə +3 və +4 oksidləşmə dərəcəsi göstərir. $^{249}$Bk nüvə reaktorlarında Pu, Am və Cm neytronlarla uzun müddət şüalandırıldıqda alınır. $^{249}$Cf-un alınmasında $^{249}$Bk istifadə edilir. B. və onun birləşmələri çox zəhərlidir.

*Əd.*: Химия актиноидов. М., 1991 Т.1.

**BERKOVİTSA** – Bolqarıstanda balneoloji kurort. Berkov çayı (Dunay hövzəsi) dərəsindədir, Berkov d-rı (Stara-Planina d-rının q. hissəsi) yamaclarında, Mixaylovqrad ş.-ndən c.-q.-dədir. Mülayim kontinental iqlimi var; qışı günəşli yumşaq (yanvarın orta temp-ru –1,8°C), yayı (iyulun orta temp-ru 21,6°C) istidir. Yağıntının illik miqdarı 816 *mm*. İqlimlə yanaşı sulfatlı-hidrokarbonatlı natriumlu mineral su bulaqları (B.-dan 6 *km* c.-ş.-də) da kurortun təbii müalicə amilləridir. Turizm mərkəzidir. Çoxlu sayda istirahət evləri, turizm müəssisələri; İ.*Vazovun* ev-muzeyi var.



Berkşir donuz cinsi.

**BERKŞİR CİNSİ** – ətlik istiqamətdə yetişdirilən donuz cinsi. Berkşir qraflığında (B. Britaniya) ingilis, Çin, Siam və Neapol donuz cinslərinin mürəkkəb törədici çarpazlaşdırılması yolu ilə alınmışdır. Dünyada bir çox donuz cinslərinin yetiştirilməsində istifadə edilmişdir. Rəngi qaradır, başında, ayaqlarında və quyruğunun ucunda ağ ləkələr olur. Möhkəm konstitusiyalı, iri olmayan heyvanlardır; erkək fərdlərin diri çəkisi 200–250 *kq*, dişilərinki 180–200 *kq*-dır. Enli gövdəsi və düz beli, qısa möhkəm ayaqları vardır; budları sapma oynaqlarına qədər aşağı sallanır. Hər çoşqalamada 8–9 bala verir. Yaxşı kökəlməsinə (170–180 sutkada kütləsi 97,5 *kq*-a çatır) və intensiv böyüməsinə görə fərqlənir. Kökəldiləndə orta sutkalıq artım 750–800 *q*, ət çıxımı 76–78%-dir.



Berkut (Aquila chrysaetos).

**BERKUT** (Aquila chrysaetos) – qırğıkimilər fəsiləsinin qartal cinsindən quş. Bədəninin uz. 76–99 *sm*, kütləsi 6,5 *kq*-adək, açılmış halda qanadlarının uz. 2 *m*-ədək olur; dişilər erkəklərdən iridir. Tük örtüyü tünd-qonur, başının və boynunun üstü qızılı, yaxud oxra rənglidir. Avrasiyanın meşə zonasında və dağlıq r-nlarında, Şimali Amerikada və Afrikanın şm.-q.-ində yayılmışdır. Geniş açıq sahələrdə (bataqlıqlarda, çay dərələrində, göl çuxurlarında, məndəcərlərdə), dağlarda isə adətən meşənin yuxarı sərhədindən yüksəkdə məskunlaşır. Oturaq həyat tərzi keçirir; qışda quşların bir qismi c.-a. yuva arealı hüdudlarından kənara köçür. B. havada uzun müddət süzərək ovunu (dovşan, sünbülqıran, marmot, iri quşlar və s.) izləyir və onu yerdə tutur, yaxud yuva ağzında güdür. Qışda çox vaxt cəmdək yeyir. Dişi və erkək fərdlər çox vaxt birlikdə ova çıxır. B.-lar ayrılmaz cütlüklər yaradır. Budaqlardan düzəldilmiş iri yuvalarını (diametri 2 *m*-ədək) hündür ağaclarda, yaxud qayalarda qurur və bir neçə il istifadə edir; bəzi yuvaların hünd.

Berkovitsa kurortundan görünüş.



4-*m*-ə çatır. 1–2 (bəzən 3) yumurta qoyur, dişi fərd kürt yatır; ətcəbalalar yuvada 2 aydan artıq qalır. Orta Asiyada və Qazax.-da B.-dan tülkü, dovşan, bəzən ceyran və cavan canavarları ovlamaq üçün istifadə edilir. Azərb.-ın "Qırmızı kitabı"na daxil edilmişdir.

**BERKUTQALA** – eramızın 6–8 əsrlərinə aid qala xarabalıqları; qədim Xarəzmdə geniş vahənin mərkəzində yerləşirdi. Qaraqalpaqıstanın (Özb.) Turtul r-nu ərazisindədir. 1937–38 və 1955 illərdə Xarəzm ekspedisiyası tərəfindən tədqiq olunmuşdur. İri feodalın yaşadığı möhkəmləndirilmiş malikanə-qaladan və qalanın ətəyində salınmış kiçik şəhərdən ibarət olmuşdur. Qazıntılar zamanı 8 əsrə aid tikililərin qalıqları, tunc və dəmir əşyalar, sikkələr və s. aşkar edilmişdir. Qala və şəhərin bir hissəsi antik dövr xarabalıqları üzərində tikilmişdir.

**BERQ** Aksel İvanoviç (10.11.1893, Orenburq – 9.7.1979, Moskva) – radiotexnika və radioelektronika sahəsində rus alimi, mühəndis-admiral (1955), SSRİ EA akad. (1946), Sosialist Əməyi Qəhrəmanı (1963). Hərbi-dəniz mühəndis məktəbini (1923), Leninqradda Hərbi-Dəniz Akademiyasını (1925) bitirmişdir. 1924–43 illərdə ali hərbi təhsil müəssisələrində pedaqoji fəaliyyət göstərmişdir (1930 ildən prof.). Elektrik sənayesi xalq komissarının müavini (1943–44), Dövlət Müdafiə Komitəsi nəzdində radiolokasiya üzrə şuranın sədr müavini (1943–47), SSRİ müdafiə nazirinin müavini (1953–57) olmuşdur. SSRİ EA radiotexnika və radioelektronika İn-tunun direktor-təşkilatçısı (1953–54) işləmişdir. 1960-cı illərdə SSRİ EA Rəyasət Heyəti yanında kibernetika üzrə elmi şuraya rəhbərlik etmişdir. Əsas işləri elektron lampalı generatorların hesablanma üsullarının və nəzəriyyəsinin işlənilməsinə, generatorların özünətəsirlənməsi və tezliyinin stabilləşdirilməsi məsələlərinə, radioqəbul, radiopelenq, radiolokasiya problemlərinə həsr olunmuşdur. SSRİ EA-nın A.S. Popov ad. qızıl medalı ilə təltif edilmişdir.



Əsəri: Избр. труды. М.; Л., 1964. Т.1–2.

*Əd.*: Берг А.И. М., 1965.

**BERQ** (Berg) Alban (9.2.1885, Vyana – 24.12.1935, Vyana) – Avstriya bəstəkarı. *Yeni Vyana məktəbinin* və musiqi *ekspressionizminin* nümayəndələrindən biri. Kommersant ailəsində doğulmuşdur. Bəstəkarlığa 16 yaşından başlamışdır (alman romantikləri və müasir şairlərin mətnlərinə yazdığı nəğmələr F. Şubert, İ. Brams və H. Volfun vokal lirikası ənənələrinin davamı idi). 1904–10 illərdə yeganə müəllimi A. *Şönberqdən* musiqi nəzəriyyəsi və kompozisiya dərsləri almışdır. 1911–15 illərdə Vyanadakı "Universal Edition" nəşriyyatında korrektor işləmişdir.



B.-in erkən yaradıcılığına müəlliminin üslub və texnikasının güclü təsiri hiss olunur. Lakin artıq fp. sonatası op. 1-də özünün üslub əlamətləri, o cümlədən emosional coşqunluqla nostalji xəyalpərəstliyin qovuşduğu xarakterik "Berq tonu" formalaşmışdır. B.-in üslubi cəhətdən ilk fərdi əsəri "P. Altenberqin poçt açıqçaları mətnlərinə 5 mahnı" op. 4-dür. Epataj və provokasiya ilə qarşılanmış bu mahnılar müəllifə gözlənilmədən populyarlıq gətirmişdir. İctimai iğtişaşlar və polisə müraciət ilə müşayiət olunan Vyana premyerası (31.3.1913) tarixə 20 əsrin ən qalmaqallı musiqisi kimi daxil olmuşdur. Şönberq şagirdinin yeni əsərləri haqqında tənqidi fikir söyləmiş (onlara dirijorluq etməsinə baxmayaraq), bu da B.-in öz bəstəkarlıq istedadına olan inamını sarsıtmışdır.

G. Büxnerin "Voysek" (1914) pyesinin təsirilə B.-in yazmağa başladığı opera ("Vossek" adı ilə) 1-ci dünya müharibəsi ilə əlaqədar yarımçıq qalmışdır. Ordudan tərxis olunduqdan sonra 1919 ildən Vyanada "Anbruch" jurnalının əməkdaşı olmuş, A. Şönberqin rəhbərlik etdiyi "Qapalı musiqili ifalar cəmiyyəti"ndə (1918–21) işləmişdir. "Vossek"in (alman dirijoru E. Klayberin fəal iştirakı ilə) uğurlu Berlin premyerası (14.12.1925), sonralar əsərin Avropanın və Amerikanın opera səhnələrini fəth etməsi (7 il ərzində 23 tamaşa) B.-i musiqi sahəsində önə çıxarmışdır.

1928–35 illərdə F. *Vedekindin* "Yerin ruhu" və "Pandoranın qutusu" dramları əsasında yazdığı "Lulu" operası üzərində işləmişdir. Bundan başqa son illərdə Ş.Bodlerin şeirlərinə "Şərab" (1929) konsert ariyası və skripka ilə orkestr üçün Konserti (1935) yazmışdır. A. Malerin vaxtsız vəfat etmiş qızı M. Qropiusa – "mələyin xatirəsinə" həsr olunmuş bu konsert ilk dəfə 1936 ildə, B.-in vəfatından sonra səslənmiş və bəstəkara rekviyem kimi qəbul olunmuşdur. B. "Lulu" operasını tamamlamış, amma instrumentovkasını başa çatdırmamışdır (2 aktın premyerası 1937 ildə Sürixdə keçirilmişdir). Operanın 3 pərdəli versiyasının premyerası F. Serxinin redaksiyası ilə 1979 ildə P. Bulezin rəhbərliyi altında Parisdə baş tutmuşdur.

**BERQ** Lev Semyonoviç (14.3.1876, Benderı – 24.12.1950, Leninqrad) – rus coğrafiyaşünası, bioloq. SSRİ EA akad. (1946). SSRİ Dövlət mükafatı laureatı (1951). 1898 ildə Moskva Un-tini bitirmişdir. 1916 ildən Petroqrad un-tinin prof.-u, 1925 ildən həmin un-tin fiziki coğrafiya kafedrasının müdiri olmuşdur. 1934 ildən Zoologiya İn-tunda laboratoriya müdiri işləmiş, 1940–50 illərdə SSRİ Coğrafiya Cəmiyyətinin prezidenti olmuşdur.



B. Qərbi Sibir, Orta Asiya, Volqaboyu, Qafqaz, Şərqi Avropa düzənliyi, Baykal gölü, Aral dənizi, Xəzər dənizi və SSRİ-nin başqa r-nlarında tədqiqat işləri aparmışdır. B. landşaftşünaslıq, ixtiologiya, limnologiya, iqlimşünaslıq, paleocoğrafiya, geomorfologiya, torpaqşünaslıq, qlyasiologiya, zoocoğrafiya və s. elm sahələri üzrə 1000-dən artıq əsərin müəllifidir. Urup a.-nda (Kuril a-rı) vulkana, Pamirdə zirvəyə, Oktyabr İnqilabı a.-nda (Severnaya Zemlya arxipelaqı) buruna, Pamir və Cunqariya Alatausunda buzlaqlara B.-in adı verilmişdir.

Əsəri: Избр. труды. М., 1956–58. Т. 1–2.

**BERQ** Pol (d. 30.6.1926, Nyu-York) – Amerika biokimyaçısı. Nobel mükafatı laureatı (1980). ABŞ Milli EA üzvü. Pensilvaniya kollecini bitirmişdir (1948). Kopenhagendəki (Danimarka) Hüceyrə Fiziologiyası İn-tunda (1952–53), Sent-Luisdəki C. Vaşinqton Un-tində (1953–69; 1969 ildən prof.) işləmişdir; 1970 ildən Stanford Un-tinin prof.-rudur (1974 ildən biokimya kafedrasının müdiri). Zülalların biosintezində nəqli RNT-lərin rolunu öyrənmişdir; onların fraksiyalaşdırılması metodunu işləyib hazırlamışdır. Gen mühəndisliyinin banilərindən biridir. İlk dəfə (1972) bağırsaq çöpü







bakteriyalarının və lyambda bakteriofaqının DNT fraqmentlərinin birləşdiyi DNT-nin rekombinant molekulunu, həmçinin SV40 meymun virusunun tam genomunu almışdır. 1975 ildə onun təşəbbüsü ilə Asilomarda (ABŞ) keçirilmiş konfransda B. diqqəti rekombinant DNT-lər ilə aparılan təcrübələrlə bağlı etik məsələlərin həllinin zəruriliyinə yönəltmişdir.

Əsəri: Гены и геномы: в 2 т. М., 1998 (M. Singerlə birlikdə).



Berqamo şəhərindən görünüş.

**BERQAMO** – Şimali İtaliyada, Lombardiya vil.-ndə şəhər. Berqamo əyalətinin inz. m. Əh. 113,6 min (2005). Berqamo Alp d-rının ətəyində, Brembo və Serio çaylarının Padan düzənliyinə çıxdığı yerdədir. Ehtimal ki, kelt məskəni yerində yaranmışdır. Roma dövründə Berqomum adlanırdı və munisipi statusuna malik idi. 6 əsrdən *lanqobardların* torpaqlarının tərkibində əhəmiyyətli rol oynamışdır. 12 əsrdə müstəqil kommuna statusunu almışdır. 1329 ildən Viskonti nəslinin mülklərinə daxil idi. 1428–1797 illərdə Venesiya respublikasının tərkibində iqtisadi çiçəklənmə dövrünü yaşamışdır. 1797 ildə *I Napoleon* tərəfindən şəhər *Sizalpin respublikasına* daxil edilmiş; 1815 ildən Avstriyanın hakimiyyətində olmuşdur; 1859 ildə İtaliya krallığının tərkibinə qatılmışdır.

Şəhərin qədim hissəsi (Yuxarı şəhər) təpədə yerləşir və möhkəm divarlarla (1561–88) əhatə olunmuşdur; 1 əsrə aid Roma şəhər divarının, termlərin və su kəmərinin qalıqları da saxlanılmışdır. Abidələri: Della-Racone sarayı (İtaliyada ən qədim ictimai bina; təqr. 1199, 16 əsrdə yenidən qurulmuşdur), Santa Mariya-Macore roman kilsəsi (1137; portallar – 1353, memar Covanni de Kampyone; 16 – 17 əsrlərin sonlarına aid barokko interyeri; günbəz – 1615, memar F.M. Rikini; kampanila 1436) İntibah dövrünə aid Kolleoni kapellası ilə (1470–76, memar C.A. Amadeo, freskalar C.B. Tyepolonundur, 1733), baptisteri (1340, C. da Kampyone, 1898 ildə yenidən qurulmuşdur), baş kilsə (tikintisi A. Filarete tərəfindən 1459 ildə başlanmışdır, 1689 ildə K. Fontana tərəfindən yenidən qurulmuşdur). Yeni (Aşağı) şəhər adlandırılan hissədə: San-Spirito kilsəsi (1521), Nuovo sarayı (tikintisinə təqr. 1593 ildə başlanılmış, memarı A. Vannone; 1611 ildən V.Skamotsi; fasadı 20 əsr), Vittorio Veneto və Dante meydanları ansamblı (1919–29, M. Pyaçentini). Un-t (1968), Qrafik sənətlər in-tu, kitabxana (1760), Karrara Akademiyasının qalereyası (1796; 14–18 əsrlər italyan incəsənəti), G. *Donisettinin* ev-muzeyi (1897); arxeologiya və tarix muzeyləri var. "G. Donisetti" (opera teatrı, həmçinin şəhərin əsas konsert meydançası; 1897 ilədək "Teatro Rikkardi" adlandırılmışdır), "Lavori in Korso", "Taskabile" və s. teatrlar fəaliyyət göstərir. B.-da pianoçuların (hər il, 1964 ildən), G. Donisetti (1982 ildən), qısametrajlı filmlərin beynəlxalq festivalları keçirilir.

B. iqtisadi cəhətdən Milanla sıx bağlıdır. Metallurgiya, maşınqayırma (o cümlədən elektrotexnika, traktor istehsalı), kimya (boyaqlar), toxuculuq (ipək, pambıq parça), mebel, şüşə sənayesi müəssisələri var; dəri əlcəklər istehsal olunur; yaxınlığında sement istehsal edilir.

**BERQAMO ALP DAĞLARI** (Alpi Bergamasche) – Şimali İtaliyada dağ silsiləsi, Lombardiya Alp d-rının əsas hissəsi. Uz. təqr. 80 *km*, hünd. 3052 *m*-ə qədərdir (Koka d.). Şm.-da Adda çayının, ş.-də Olo çayının dərələri ilə, q.-də Komo gölü, c.-da Lombardiya Alpönü ilə sərhədlənir. Qədim kristallik və çökmə süxurlardan təşkil olunmuşdur. Enliyarpaqlı meşələr (palıd, şabalıd, fıstıq) yüksəkliyə qalxdıqca iynəyarpaqlı meşələr, subalp və Alp çəmənlikləri ilə əvəz olunur.

**BERQAMOT** – 1) sədokimilər fəsiləsinin sitrus cinsinə aid (*C.Berqamia*) meyvə ağacı; efiryağlı bitki. Hamar, oval-uzunsov yarpaqlı alçaqboylu (3–5 *m*) həmişəyaşıl ağac. Çiçəkləri ikicinsiyyətli, ətirlidir. Meyvəsi spesifik iyli yaşıl-sarı rəngli narıncıdır; çəkisi 200 *q*-adək, diametri 4,5–6,0 *sm* olur, ləti acıtəhər-turş az yeməlidir. B. yağı ginekologiyada, dermatologiyada, yoluxucu xəstəliklərin müali-

Berqamo Alp dağları.





Berqamot (Citrus bergamia).

cəsində, iştahasızlıqda və s. tətbiq olunur. Kosmetikada və ətriyyatda; ətirləndirici kimi çay, likör, konfet istehsalında istifadə olunur. İtaliya B. yağının əsas ixracatçısıdır. B. yabanı halda rast gəlinmir. Asiya, Avropa və Şimali Amerika (Kaliforniya) subtropiklərində becərilir. Məhsuldarlığı 30–40 *t/ha*-dır. Əsas sortları: Kastanaqo, Feminella, Fantastika. Neytrala yaxın turşuluğu olan torpaqları sevir. Yüngül torpaqlarda suvarma tələb edir. Calaqla çoxaldılır. Calaqaltı acı naringidir. Xəstəlikləri və zərərvericiləri sitruskimilər üçün səciyyəvi olanlardır. 2) Yastı-dəyirmi meyvələri olan armud sortları: muskat B.-u, Esperen B.-u, Dağıstan B.-u, Moskva B.-u, payız B.-u və s. 3) Dodaqçiçəklilər fəsiləsindən ot bitkisi; bax həmçinin *monarda*.

**BERQBUM** (Bergbom) Karlo Yuxana (2.10.1848, Viipuri – 17.1.1906, Helsinki) – fin teatr xadimi, dramaturq, fin teatrının banisi. 1863 ildə Helsinkidə un-t bitirmişdir.1872 ildə bacısı Emiliya B. ilə birlikdə ilk daimi fin teatrının (1902 ildən Finlandiya Milli Teatrı) əsasını qoymuşdur. 1905 ilədək teatrın dram və opera truppasına rəhbərlik etmişdir. "Lea", "Nişanlama" (A. Kivi), "Məkr və məhəbbət", "Orlean qızı" (F.Şiller) və s. pyesləri, "Trubadur" (C. Verdi), "Sevilya bərbəri" (C. Rossini), "Faust" (Ş. Quno) və s. operaları tamaşaya qoymuşdur. İsveç dilində "Pombal və yezuitlər" (1863), "Paolo Moroni" (1870) faciələrini yazmışdır.

**BERQMAN** (Bergmann) Ernst [16.12.1836, Riqa (digər məlumatlara görə indiki Latviyanın Ruyiena ş.) – 25.3.1907, Visbaden] – alman cərrahı, *aseptikanın* yaradıcısı. Derpt Un-tini bitirmiş (1860), oranın cərrahiyyə klinikasında işləmişdir (1871 ildən prof.). Avstriya-Prussiya (1866), Fransa-Prussiya (1870–71) və Rusiya-Türkiyə (1877–78) müharibələrində cərrah kimi iştirak etmişdir. Almaniyanın Vürsburq (1878 ildən) və Berlin (1882 ildən) un-tlərinin prof.-u olmuşdur.



Şagirdi K.*Şimmelbuşla* birlikdə tibb alətlərinin, sarğı və tikiş materiallarının buxar vasitəsilə sterilizasiyası (1886) və yaranın aseptik müalicəsi (1891) üsullarını işləyib hazırlamışdır. S-əbənzər bağırsağın çevrilməsi və *hidrosele* (B. operasiyası) zamanı cərrahi əməliyyatlar təklif etmiş, qida borusunun divertikulu zamanı ilk dəfə olaraq müvəffəqiyyətlə cərrahi əməliyyat aparmış, appendektomiyanın texnikasını təkmilləşdirmiş, baldır damarlarına və sinirlərinə, orta kəllə çuxuruna, böyrəyə və sidik axarına cərrahi müdaxiləni işləyib hazırlamışdır; kəllənin odlu silahla yaralanması (1880) və baş beyin xəstəliklərinin cərrahi müalicəsinə (1889) dair klassik əsərlərin müəllifidir. Hərbi-səhra cərrahiyyəsinin inkişafında ("1866, 1870–71, 1877 illərin hərbi məktubları"; 1914 ildə nəşr edilmişdir), cərrahi alətlərin yaradılmasında (çox alətlər onun adı ilə adlandırılmışdır) xidmətləri var. Cərrahiyyəyə dair 4 cildlik əsaslı təlimatın ("Handbuch der praktischen Chirurgie", 2. Aufl., 1902–03, P.Bruns və İ.Mikuliç-Radetski ilə birlikdə) müəllifidir. B.-ın fəaliyyəti çox cəhətdən müasir cərrahiyyənin inkişafını müəyyənləşdirmişdir.

Onun oğlu Q u s t a v B. (1878–1955) – terapevt, Berlin və Marburq un-tlərinin prof.-u (1910 ildən). Klassik əsəri "Funksional patologiya"dır (1932).

Ə s ə r i: Хирургическое лечение болезней головного мозга. М., 1890.

**BERQMAN** İnqmar (14.7.1918, İsveç, Uppsala – 30.7.2007, İsveç, Qotland a.) – İsveç kino və teatr rejissoru, ssenarist, yazıçı. Lüteran pastorunun oğludur. Stokholm Un-tində təhsil almışdır. Peşəkar fəaliyyətə 1942 ildə ssenari redaktoru kimi başlamışdır; 1944 ildə onun ssenarisi üzrə "Təqib" filmi (rej. A.*Şöberq*) çəkilmişdir. 1946 ildə "Böhran" adlı ilk müstəqil filmini çəkmiş, lakin fərdi müəllif üslubu yalnız 1950-ci illərin əvvəllərində formalaşmışdır. Helsinborq və Göteborq (1940-cı illər), Malmö (1950-ci illər) teatrlarında işləmişdir; 1963–66 illərdə Kral dram teatrına (Stokholm) başçılıq etmişdir. 1976 ildə İsveçrəni tərk etmiş, kinematoqrafiya fəaliyyətini dayandırmadan bir neçə il Almaniya, İngiltərə və Danimarka teatrlarında işləmişdir.



B. 60-dan çox kino və telefilmin müəllifi olmuş, çoxunun ssenarisini özü yazmışdır. 1940-cı illərin sonu–50-ci illərdə çəkilmiş bir sıra filmlərdə ("Susuzluq", 1949; "Monika ilə yay", 1953; "Yay gecəsinin təbəssümləri", 1955; "Həyatın başlanğıcında", 1958 və s.) B. yaradıcılığının əsas mövzusu olan şəxsiyyətlərarası münasibətlərin psixologiyası (ailədaxili, sevgililər arasında və s.) və qadının ruhi dünyası öz əksini tapmışdır. "Təlxəklər gecəsi" (1953), "Sifət" (1958) filmlərində sirk artistlərinin həyatı sənətkar və cəmiyyət arasındakı qarşılıqlı əlaqələrin metaforası kimi təqdim olunur. B.-ın "Yeddinci möhür" (1957), "Çiyələk talası" (1957) və bir çox digər filmlərində ekzistensializmin (S. *Kyerkeqor*, J.P. *Sartr*) təsiri hiss olunur. 1960-cı illərin filmləri – "Güzgüdə olduğu kimi" (1961, "Oskar" mükafatı), "Priçastiye", "Sükut" (hər ikisi 1963) trilogiyası (pessimist əhval-ruhiyyəsi ilə seçilir), "Persona" (1966), "Xəcalət" (1968), "Ehtiras" (1969), "Pıçıltılar və qışqırıq" (1972 "Oskar" mükafatı), "Sehrli fleyta" (1975, V.A. Motsartın operasının ekranlaşdırılması), "Üz-üzə" (1976), "Payız sonatası" (1978) 1960-cı illərin sonu–70-ci illərin ən uğurlu filmlərindəndir. Faşizmin mənbəyi haqqında "İlan yumurtası" (1977) filmi B.-ın yaradıcılığında sosial-siyasi problematikaya birbaşa müraciətin nadir nümunəsidir. "Fanni və Aleksandr" ailə epopeyası avtobioqrafik səciyyə daşıyır (1982, "Oskar" mükafatı). "Foryo-sənəd" (1979; Foryo adasının əhalisi haqqında); "Məşqdən sonra" və "Karinin üzü" (rejissorun anasına həsr olunmuşdur; hər ikisi 1984) və s. televiziya və sənədli filmlərin müəllifidir. 1990-cı illərdə B.-ın ssenarisi üzrə "Xoş niyyətlər" (1991, rej. B. Auqust), "Bazar günü uşaqları" (1992, rej. D. Berqman), "Tövbə hücrəsi söhbətləri" (1996) və "Kafir" (2000; hər ikisinin rej. L. Ulman) filmləri çəkilmişdir.

Aktyorlardan B.Anderson, X.Anderson, İ.Tulin, L.Ulman, L.Nüman, L. Ulin, Q.Byörnstrand, M.fon Südov, E. Yusefson, operator S.*Nükvist* və b. B.-ın daimi yaradıcı qrupunun tərkibində olmuşlar.

Teatr tamaşaları arasında (140-a yaxın) E. Olbinin "Virciniya Vulfdan kim qorxur?" (1963), H.İbsenin "Hedda Habler" (1964), Molyerin "Don Juan" (1965), G.Büxnerin "Voysek" (1969), A. Strindberqin "Yuxuların oyunu" (1970; hamısı Kral dram teatrında); A.P.Çexovun "Üç bacı" ("Rezidentsteatr", Münxen, 1978); U.Şekspirin "12-ci gecə", "Kral Lir" və "Hamlet", F.Şillerin "Mariya Stuart" (Kral dram teatrı, 1979, 1984, 1986, 1995) dramlarını göstərmək olar. "Laterna magika" (1987) və "Üç gündəlik" (2004) avtobioqrafik əsərlərin müəllifidir.

**BERQMAN** İnqrid (29.8.1915, Stokholm – 29.8.1982, London) – İsveç aktrisası. Stokholmda Kral dram teatrı nəzdindəki məktəbdə təhsil almışdır. 1934 ildən kütləvi səhnələrdə çəkilməyə başlamış, tezliklə İsveç kinosunun ("İntermetso", Yeganə gecə") aparıcı aktrisası, daha sonra Hollivud ulduzu [("Kasablanka", "Qaz işığı" ("Oskar" mükafatı), "Ovsunlanmış", "Bədnam şöhrət")] olmuşdur. A.*Hiçkok*, R.*Rossellini*, J.*Renuar*, İ.*Berqman* kimi rej.-larla işləmişdir. B. Hollivudun üstünlük verdiyi romantik qadın stereotipindən çıxmağa çalışmış, geniş diapazonlu obrazlar yaratmışdır: komik idmançı rahibədən ("Müqəddəs Məryəm zəngləri") tutmuş ümidi kəsilmiş qiyamçıya ("Allah məkanı Stromboli") və yaxud xalq qəhrəmanınadək ("Janna d'Ark tonqalda"). Digər filmlər: "Anastasiya" ("Oskar" mük.), "Kaktus çiçəyi", "Şərq ekspresində qətl" ("Oskar" mükafatı), "Payız sonatası". 1950-ci illərdən teatrda çıxış etmişdir, bəzi tamaşalar əsasında telefilmlər çəkilmişdir: ("Qadın həyatının 24 saatı", "Hedda Habler". "İnsan səsi" və s.). "İnqrid" (1985) sənədli filmi B.-a həsr olunmuşdur.

**BERQMAN QAYDASI** – iqlim şəraitindən asılı olaraq homoyoterm (istiqanlı) heyvanların ölçülərinin dəyişməsi qanunauyğunluğunu əks etdirir. Alman histoloqu və embrioloqu K.Berqman (1847) tərəfindən müəyyən edilmişdir. Bədən səthinin onun həcminə olan nisbətinin azalması ilə istilikvermənin azalması prinsipindən irəli gəlir. B.q.-na görə daha soyuq iqlim zonalarında yaşayan heyvanlarda bədən səthinin onun həcminə, yaxud kütləsinə nisbəti daha cənub ərazilərdən olan həmin növ (yaxud yaxın növlərin) nümayəndələrinkindən azdır. Belə ki, Taymırdan olan canavarın bədən uz. 137 *sm*, kütləsi 49 *kq*, Monqolustan canavarınınkı müvafiq olaraq 120 *sm* və 40 *kq* olur; Orta Rusiya tülküsünün bədən uz. 90 *sm*-ədək, kütləsi 10 *kq*-adək, Tür. tülküsünün isə müvafiq olaraq uz. 57 *sm*-ədək və kütləsi 3,2 *kq* olur. Lakin çoxlu istisnalar mövcuddur: məs., qu quşları cinsindən olan ən iri növ Şərqi Avropa düzənliyinin c.-unda bəzi yerlərdə, Qazaxıstanda, Orta Asiyada və Qərbi Sibirdə yayılmış fısıldayan qu quşudur, ən xırda növü isə tundra zonasında yuvalayan kiçik, yaxud tundra qu quşudur.

**BERQSON** Anri Lui (18.10. 1859, Paris – 4.1.1941, Paris) fransız filosofu və psixoloqu, bir sıra cəhətdən *həyat fəlsəfəsinə* yaxın intuitivizmin nümayəndəsi. Ədəbiyyat sahəsində Nobel mükafatı laureatı (1927).



Ali normal məktəbdə (1878–81) təhsil almışdır. Kollej de Fransın prof.-u (1900–14), Fransa Akademiyasının üzvü (1914). Əxlaq və Siyasət Elmləri Akademiyasının prezidenti (1914) olmuş, 1922 ildə Millətlər Liqası çərçivəsində İntellektual Əməkdaşlıq üzrə Beynəlxalq Komissiyanın ilk prezidenti seçilmişdir.

Hələ "Təfəkkürün bilavasitə məlumatları haqqında təcrübə" (Essai sur les données immediates de la sonscience", 1889) dissertasiyasında insan şüurunun mahiyyətini təşkil edən konkret zaman kimi sürəklilik konsepsiyasını irəli sürmüşdü. Fasiləsiz dəyişilən və qırılmazlığı zamanın təşkili, keçmiş və indiki durumların qarşılıqlı əlaqəsi ilə təmin olunan gerçəklik azadlıq və yaradıcılığın mənbəyi olan dərin qatlardan tutmuş praktiki-sosial tələbatlar və dil ilə müəyyənləşən səthi qatlaradək çoxsaylı qatlardan ibarətdir. Bu təfəkkür modeli fəlsəfi problemlərin həllində B.-un başlıca alətinə çevrildi.

"Materiya və yaddaş" ("Matiére et mémoire", 1896) əsərində stoiklərin və Q.V. Leybnitsin ideyalarından bəhrələnən ontoloji təlimini irəli sürmüşdür. Burada dünya sürəklilik iyerarxiyası kimi çıxış edir; onun ən yüksək səviyyələri şüurun son həddədək gərginliyi, aşağı səviyyəsi isə olduqca cüzi, faktiki olaraq ekstensivliyə, maddi sahəyə keçən intensivlik ilə səciyyələnir. İdrakın başlanğıc məntəqəsi "xalis qavrayış" əmələ gətirir, intellekt praktiki və sosial cəhətdən şərtlənən əməliyyatları ilə onun üzərində qurulur. İdrak prosesi qavrayış və yaddaşın mürəkkəb qarşılıqlı fəaliyyəti kimi təsvir edilir; beyin təsəvvürlər törətmir və cismin özü kimi, gerçəkliklə sıx bağlı olan və şüuru praktiki fəaliyyətə yönəldən hərəkət vasitəsidir.

"Yaradıcılıq təkamülü" ("L'Evolution créatrice", 1907) əsərində Plotinin təsiri ilə yaranan və B.-a dünya şöhrəti gətirən təkamül prosesi konsepsiyası ifadə olunmuşdur. Təkamülün mexanistik və teleoloji traktovkasının əksinə olaraq B. onu " həyat sıçrayışı" metaforası vasitəsilə təsvir etmişdir.Həyat sıçrayışının mənbəyi fövqəlşüur, yəni dünyanın ontoloji əsası, Absolyut (Mütləq), "canlı əbədiyyət" kimi başa düşülən fövqəlbəşəri sürəklilikdir. B. həyat axınının üç əsas istiqamətini fərqləndirir: hissiyyat, intellekt və instinkt. İntellekt və instinkt (bundan intuisiya yaranır) həyatın artıq genetik cəhətdən əks funksiyalara malik müxtəlif formaları kimi meydana çıxır. Süni sistemlərlə, cansız materiya ilə ələqədar olan və yalnız münasibətlərin dərkinə, mexaniki fabrikasiyalara qabil olan intellekt (elmin başlıca silahı) bu sahədə tam bilik əldə edə bilər, lakin təbii sistemləri, həyatın özünü, təkamülü, şüuru dərk edə bilməz. Bu, intuisiyanın və ona əsaslanan fəlsəfənin preroqatividir. Bütün fəlsəfi sistemlərin əsasını şəxsi intusiyalar təşkil edir, onları birləşdirməklə universumun real birliyini dərk edə biləcək gələcəyin fəlsəfəsini yaratmaq mümkündür.

İnsan cəmiyyətinin tərəqqi imkanları B.-un sonrakı "Əxlaqın və dinin iki qaynağı"nın ("Les deux sources de la moralı et de la region", 1932) əsərinin mərkəzi mövzusu olmuşdur. Burada cəmiyyətin iki əsas sosiallıq – açıqlıq və qapalılıq modeli, əxlaq və dinin onlara müvafiq statistik və dinamik formaları nəzərdən keçirilir. Təkamülün keçilməzlikləri avtoritarizmin, sərt subordinasiyanın və elementlərin koordinasiyasının hökmranlıq etdiyi qapalı cəmiyyətlərə şamil olunur; belə cəmiyyətlərin başlıca birləşdirici prinsipi millətçilikdir. Tərəqqi yalnız sosiallığın yüksək forması təcəssüm olunan açıq cəmiyyətlərdə – şəxsiyyətin boğulmadığı, əksinə, onun yaradıcılıq qabiliyyətləri üzə çıxan cəmiyyətlərdə mümkündür.

B. Fransada və digər ölkələrdə mədəni və intellektual atmosferə güclü təsir göstərmişdir. P. *Teyyar de Şarden*, E. Lerua, A. *Toynbi*, K. Popper, C. *Santayana*, M. *Merlo-Ponti*, A. *Uaythed*, A. *Şüts*, N.O. Losskiy, S.L. *Frank* və b.

mütəfəkkir və yazıçılar onun ideyalarından bəhrələnmişlər.

Əsərləri: Ecrits et paroles. P., 1957–1959. Vol. 1–3; Длительность и одновременность. П., 1923; Два источника морали и религии. М., 1994; Творческая эволюция. М., 2001.

*Əd.:* Лосский Н.О. Интуитивная философия Бергсона. Р., 1922; Kolakowski L. Bergson. Oxf., 1985; Hude H. Bergson P., 1989–1990. Vol. 1–2; Blauberq İ.İ. A. Berqson. M., 2003.

**BERQSTRÖM** Sune Karl (10.1.1916, Stokholm – 15.8.2004) – İsveç biokimyaçısı, Nobel mükafatı laureatı (1982, B. *Samuelson* və C.*Veyn* ilə birlikdə). İsveç Kral EA üzvü, Amerika İncəsənət və Elm Akademiyasının üzvüdür. Karl İntunu (1943) bitirmişdir. Lund Untinin (1947–58), Karl İn-tunun (1958), Bazel Untinin (İsveçrə, 1960) prof.-ru, Karl İn-tunun rektoru (1970–77) olmuşdur. Əsas tədqiqatları prostaqlandinlərin quruluşunun və bioloji təsirinin öyrənilməsinə həsr edilmişdir. Prostaqlandinlərin bir neçə tipinin quruluşunu, onların orqanizmdə biosintezi və çevrilməsi mexanizmini müəyyən etmişdir. Öd turşuları və xolesterinin mübadiləsini, heparinin biokimyasını öyrənmişdir.



**BERLAGE** Hendrik Petryus (21.2.1856, Amsterdam – 12.8.1934, Haaqa) – holland memarı, rəssam-qrafik, dizayner. Amsterdamdakı Dövlət Təsviri Sənətlər Akademiyasında (1875) və Sürixdəki Politexnikumda (1875–78) təhsil almışdır. B. yaradıcılığına Q. *Zemper* və E. *Viollele-Dyukun* nəzəriyyələrinin təsiri olmuşdur. Hollandiya və Almaniyanın memarlıq emalatxanalarında işləmişdir; 1889 ildən müstəqil fəaliyyət göstərmişdir. 1880–81 illərdə İtaliyaya (memarlıq abidələri rəsmlərini, peyzajlar çəkmişdir), 1911 ildə ABŞ-a (F.L. *Rayt* və L.Q. *Sallivenin* əsərlərini öyrənmək məqsədilə) səyahət etmişdir.

Əsasən, çılpaq kərpic hörgünün ifadəli xüsusiyyətlərindən istifadə edərək, milli romantik üslubda layihələr hazırlamışdır. Amsterdamda Birja binasının inşasında (1897–1903) orta əsrlər memarlığının yeni konstruktiv üsullarla sintezinə (əsas zal polad fermalar üzərində şüşə damla örtülmüşdür) çalışmışdır. B.-nin digər əsərləri: Amsterdamdakı almaz tarasçıları həmkarları ittifaqının binası (1899–19), Londondakı Holland-haus (1914), Haaqadakı Bələdiyyə muzeyi (1916–35), "De Nederlanden van 1845" sığorta cəmiyyətinin binaları (1925–26). B. Amsterdamın ("Zöyd", 1902; "Niven-Zöyd", 1915–17 planları), Haaqanın (1908–09), Utrextin (1921) yenidən qurulması layihələrinin müəllifidir. Mebel və şüşə məmulatlarının layihəsini vermişdir. B. müasir memarlıq problemlərinə dair mühazirələr və məqalələrlə çıxış etmişdir.

H. Berlage. "Müqəddəs Qubert" ovçu evi. De-Hoqe Velyuve Milli Parkı. Hollandiya.



**BERLÁNQA** Luis Qarsiya (12.6.1921, İspaniya, Valensiya – 13.11.2010, Madrid) – ispan kinorejissoru, ssenarist. Valensiyadakı un-tdə oxumuş, 1947 ildən Kino Sənətinin Öyrənilməsi və Təcrübəsi İn-tunda (Madrid) təhsil almışdır. 1951 ildə X.A. *Bardemlə* birlikdə (müştərək ssenari üzrə) üslubca *neorealizmə* yaxın "Bu xoşbəxt cütlük" filmini çəkmişdir. B.-nın "Xoş gəlmisiniz, mister Marşall!" (1952) filmi ispan kinosuna ilk beynəlxalq uğurudur. Artıq bu filmdə B. yaradıcılığının əsas xüsusiyyəti – sosial satiraya meyli üzə çıxmışdır. *Frankizm* dövründə B. ispan gerçəkliyini qrotesk-fars üslubunda, "qara" yumor prizmasından göstərən filmlər çəkmişdir: "Ka- labuç" (1956), "Plasido" (1960). Konformizm haqqında faciəvi qrotesk olan "Cəllad" (1963) filmi B. yaradıcılığının zirvəsidir. O, Franko rejiminin süqutundan sonra da insanın tənhalığı və milli özünüdərkin böhranı haqqında satirik komediyalar çəkmişdir: "Milli tüfəng" (1978), "Milli sərvət" (1981), "Buzov" (1985), "Paris–Tombuktu" (1999) və s.

**BERLİN** İsayya (İsayya Mendeleviç) (6.6.1909, Riqa – 5.11.1997, Oksford) – Britaniya filosofu, liberalizmin nəzəriyyəçisi. 1921 ildə ailəsi ilə birlikdə B. Britaniyaya mühacirət etmişdir. Oksford Un-tini bitirmiş, 1932 ildən burada dərs demişdir (1957 ildən prof). 1966–75 illərdə Volfson kollecinin təşkilatçısı və prezidenti, 1974–78 illərdə Britaniya EA-nın prezidenti olmuşdur. B.-in nəşr olunmuş əsərlərinin çoxu Maarifçilik tarixinə, tarixin fəlsəfəsinə, tarixi prosesdə şəxsiyyət və ideyaların roluna və s. həsr edilmişdir. Onun azadlıq konsepsiyası daha geniş yayılmışdır. B. "neqativ" və "pozitiv" azadlıqları fərqləndirir: neqativ azadlıq digər subyektlərin müdaxiləsi olmadan fərdin öz həyatına özü bildiyi kimi sərəncam verməsi, bütün asılılıqlardan azad olmasıdır; pozitiv azadlıq öz seçimini, qarşısına qoyduğu vəzifə və məqsədləri həyata keçirmək, "özünü idarə etmək" azadlığı, "nəyinsə naminə" azadlıqdır, lakin bu azadlıq kollektiv "ümumi iradəyə", ümumi "düşüncəyə", hər hansı sosial qrup və ya dövlət tərəfindən formulə edilən "həqiqi marağa" tabelik kimi başa düşüldüyü üçün tarix boyu çox vaxt təhrif mușdur. Çox vaxt bir-birinə sığmayan dəyərlərin (azadlıq və bərabərlik, ədalət və mərhəmət, borc və məhəbbət) plüralizmini müdafiə edərək, B. onların hər birinin unikallığını, müqayisəedilməzliyini, hər hansı bir ali "harmonik" birliyə müncər edilməsinin qeyri-mümkünlüyünü göstərmişdir. Dəyərlərin konflikti insan həyatının mahiyyətini və aradan qaldırılması mümkün olmayan elementini təşkil edir, odur ki, konkret situasiyada onlardan birinin seçilməsi yalnız digərinin hesabına həyata keçirilə bilər. Cəmiyyət isə "narahat situasiyaların, yaxud qeyri-məqbul seçimlərin yaranmasının qarşısını alan dayanıqsız tarazlığı yalnız dəstəkləməlidir" ("Azadlığın fəlsəfəsi. Avropa", 2001, səh. 24).

Əsərləri: The age of enlightenment; the eighteethcentury philosophers. Boston, 1956; Подлинная цель познания. Избр. эссе. М., 2002.







Berlin şəhərinin panoramı.

**BERLİN** – Almaniyanın paytaxtı. Federal ərazi statusuna malikdir. Ölkənin ş. hissəsində, Şpre çayı sahilində, onun Hafel çayına (Elba çayının sağ qolu) töküldüyü yerdədir. Sah. 891 $km^2$. Əh. 3,4 mln. (2005); 7%-indən çoxu əcnəbilərdir; onlardan təqr. 35%-ini Türkiyədən və digər Yaxın və Orta Şərq ölkələrindən, 15%-indən çoxunu Balkan ölkələrindən gəlmələr, eləcə də İtaliya, İspaniya, Mərkəzi və Şərqi Avropa ölkələrindən (keçmiş SSRİ-nin resp.-ları da daxil olmaqla) olan mühacirlər təşkil edir. 1990-cı–2000-ci illərin əvvəlləri üçün şəhər aqlomerasiyasının mərkəzində (B.-in özündə) əhalinin sayının azalması səciyyəvidir.

B. mühüm d.y. və avtomobil yolları qovşağıdır. Beynəlxalq aeroportları: Şönefeld, Tegel, Tempelhof (az istifadə olunur). B.-in daxili su yolları kommunikasiyalarının uz. təqr. 800 *km*-dir; 182 *km*-i gəmiçiliyə yararlıdır. B.-də 650 körpü var. Şpre və Hafel çayları, həmçinin Oder–Şpre, Hafel–Oder, Elba Hafel və Teltov kanalı ilə B. Almaniya və Avropanın su kommunikasiyaları şəbəkəsi ilə əlaqədardır. İki çay portu var.

B. ərazisində ilk yaşayış məskənləri e.ə. 3–4-cü minilliklərə aiddir. E.ə. təqr. 7 əsrdə ərazi german tayfaları (e.ə. 2 əsrdən etibarən *burqundlar* və semnonlar) tərəfindən məskunlaşmışdı. Onlar buradan qərbə çəkildikdən (eramızın 2–4 əsrləri) sonra ərazidə Lababoyu slavyanları məskunlaşdılar. Braniborla (Brandenburq) yanaşı Köpenik (təqr. 750 ildə tikilmişdir) və Şpandau (təqr. 825 ildə tikilmişdir) burqları əsrlər boyu onların mühüm siyasi mərkəzləri olmuşdur. 12 əsrin ortalarında slavyan tayfaları alman knyazı Ayı Albrext tərəfindən fəth edildi, onların torpaqları isə Şimal markasına, sonralar isə *Brandenburq* markqraflığına qatıldı. 12 əsrdə Şpre çayındakı adada Költn (Cölln, adı ilk dəfə 1237 ildə çəkilir) ticarət məskəni meydana gəldi. Təqr.

Berlin baş kilsəsi. "Muzey adaları" memarlıq ansamblı.





Jandarmenmarkt meydanı.

1230–40 illərdə Brandenburq markqrafları B. (lat. Berolina) ş.-nin əsasını qoydular. Sənədlərdə ilk dəfə B. adı 1244 ildə çəkilir. 1307 ildən B. və Kölln vahid şəhər şurası tərəfindən idarə edilirdi; 1359 ildən şəhərlər *Hanzaya* daxil olmuş, 1432 ildə isə birləşmişdir. 1486 ildən B. Brandenburq kurfürstlərinin daimi iqamətgahına çevrilmişdi. 1539 ildə B.-də Reformasiya aparılmışdır. *Otuzillik müharibə* (1618–48) illərində şəhər böyük dağıntılara məruz qalmışdır. 1709 ildə B. *Prussiya* krallığının paytaxtı elan olunmuşdur. B.-in iqtisadi inkişafına təkan verən hadisələrdən biri Oder–Şpre kanalının (1668) çəkilməsi və 1685 ildə *qugenotlara* sığınacağın verilməsi oldu. 18 əsrin əvvəllərindən Prussiyanın güclənməsi B.-in siyasi əhəmiyyətini artırdı. *Yeddiillik müharibə* (1756–63) dövründə şəhər əvvəlcə Avstriya (1757), sonra isə rus qoşunları tərəfindən tutulmuşdu; 1806–08 illərdə Napoleon ordusunun işğalına məruz qalmışdı. 19 əsrin əvvəllərindən başlanan sənaye inqilabı nəticəsində B. Avropa və Almaniyanın ən iri sənaye və maliyyə mərkəzlərindən biri oldu. 1867–70 illərdə B. Şimali Almaniya ittifaqının, 1871–1945 illərdə Almaniya imperiyasının paytaxtı olmuşdur. 19 əsrin ortalarından B. inqilabi hərəkatda mühüm rol oynamışdır. 1848 ilin martında B.-dəki küçə döyüşləri Prussiya və digər alman dövlətlərində inqilabların başlanğıcı oldu. *Noyabr inqilabının* (1918–1919) əsas hadisələri B.-də baş verdi. 1920 ildə yaxınlıqdakı Şpandau, Şarlottenburq, Vilmersdorf, Şöneberq, Noykölln, Lixtenberq, Köpenik şəhərlərinin və kənd icmalarının B.-ə birləşdirilməsi nəticəsində Böyük B. yaranmışdır. Hitler diktaturası (1933–45) dövründə B.-i dünya imperiyası mərkəzinə çevirmək məqsədilə onun yenidən qurulmasına başlanılmışdı; rekonstruksiya başa çatdıqdan sonra şəhərin Almaniya adlandırılması nəzərdə tutulmuşdu. İkinci dünya müharibəsi illərində ABŞ və Britaniya aviasiyasının B.-i bombardman etməsi şəhərin mərkəzini, demək olar ki, tamamilə dağıtdı; 1945 il mayın 2-də Qırmızı ordu B.-i tutdu.

Bode-muzey (1897–1904).



1945 ilin mayında Almaniyanın kapitulyasiyasından sonra B. Sovet, ABŞ, Britaniya və Fransa işğal sektorlarına bölündü. 1948 ilin iyun ayınadək qalib dövlətlər B.-ni müştərək idarə etmişlər. Almaniyanın parçalanması və onun ərazisində 1949 ildə iki dövlətin – Almaniya Federativ Respublikası (AFR) və Almaniya Demokratik Respublikasının (ADR) yaranması öz növbəsində B.-i də Qərbi B. (ABŞ, Britaniya, Fransa sektorları) və Şərqi B.-ə (sovet sektoruna) böldü. Şərqi B. ADR-in paytaxtı oldu. Qərbi B. xüsusi status alaraq qərb işğal idarəçiliyində qaldı. "Soyuq müharibə" şəraitində B. Şərqlə Qərbin siyasi qarşıdurması meydanına çevrildi. *Berlin böhranları* (1948–49, 1958–63) beynəlxalq münasibətlərin kəskinləşməsinə səbəb oldu. 1953 il iyunun 17-də Şərqi B. ADR-də hökumət əleyhinə baş verən çıxışların əsas mərkəzi idi. 1961 il avqustun 13-də ADR hökuməti Qərbi B. ərazisinə dövlət sərhədi rejimini tətbiq etdi (bax *Berlin divarı*). 1971 ildə SSRİ, ABŞ, Böyük Britaniya və Fransa hökumətləri arasında Qərbi B.-ə dair dördtərəfli razılaşmanın, həmçinin ADR, AFR hökumətləri və Qərbi B. senatı arasında bağlanmış razılaşmaların imzalanması B. ərazisində gərginliyin azalmasına səbəb oldu. 1989 ilin noyabrında ADR əhalisinin kütləvi etiraz aksiyaları gedişində Qərbi və Şərqi B. arasında sərbəst gediş-gəliş bərpa edildi. Qalib dövlətlərin Almaniya ərazilərinə və B.-ə olan iddialarından imtinası ADR-in AFR-ə birləşməsi ilə B.-in vahidliyi bərpa olundu. 1991 il iyunun 20-də bundestaq AFR-in paytaxtının Bonndan B.-ə köçürülməsi haqqında qərar qəbul etdi. 1994 ildən AFR prezidentinin iqamətgahı B.-də yerləşir; 1999–2000 illərdə bundestaq, bundesrat və AFR hökuməti B.-ə köçürülmüşdür.





B.-in tarixi memarlıq abidələrinin çoxu şəhərin ş. hissəsində yerləşir. İkinci dünya müharibəsi illərində abidələrin əksəriyyəti dağıdılmış, hələ də axıradək bərpa edilməmişdir (bunlardan ən qədimləri Nikolaikirxe qotik kilsəsi, 1230–1470 və Marienkirxe, təqr. 1260–14 əsrin ortaları). 17 əsrin sonu – 18 əsrin əvvəllərində şəhər müntəzəm plan üzrə tikilməyə başlamış, meydanlar və prospektlər (Unter-den-Linden) meydana gəlmiş, *barokko* üslubunda ansambllar və tikililər inşa edilmişdir: Şarlottenburq qəsri (1695 ildən, memarlar İ.A. Nerinq, İ.F. Eozander fon Göte; cənub qanadı *rokoko* üslubunda, 1740–46, G.V. Knobelsdorf), Seyxhaus (1695–1706, memarlar İ.A. Nerinq, A. *Şlüter*, J. de Bodt; indiki Alman tarix muzeyi), Berlin qəsri (1698 ildən tikilmişdir). II Fridrix dövrü rokokosu "Friderisianum forumu" (indiki "Lindenforum") ansamblı ilə təmsil olunur: Saray operası (indiki Alman Dövlət Operası, 1741–43, memar G.V. fon *Knobelsdorf*), şahzadə Henrixin sarayı (1748–53, memar İ. Bouman; 1810–25 illərdən Humboldt un-tinin binası), Köhnə kitabxana (1775–80, memarlar Q.X. Unger, Q.F. Bouman, İ.E. *Fişer fon Erlaxın* planı üzrə) və s. *Brandenburq qapıları* və K.F. *Şinkelin* inşa etdiyi çoxsaylı tikililər: Yeni qarovulxana (1816–18, hazırda Almaniyanın mərkəzi memorialı), Tegel sarayı (1820–24), Fridrixverder kilsəsi (1824–30, 1987 ildən K.F. Şinkel muzeyi), "Şauşpilhaus" (1818–21, 1987 ildən "Konserthaus") və s. *klassisizm* üslubundadır. Almaniyanın birləşdirilməsi və B.-in paytaxta çevrilməsi ilə əlaqədar 19 əsrin ortaları– 20 əsrin əvvəllərinə aid çoxsaylı memarlıq abidələri ("Qırmızı ratuşa", 1861–69, memar Q.F. Vezeman; Qələbə sütunu, 1872–73, heykəltəraş F. Drake; Reyxstaqın binası, 1884–94, memar P. Vallot; kayzer Vilhelmin memorial kilsəsi, 1891–95, memar F. Şvexten; Berlin baş kilsəsi, 1894–1905, memarlar



Reyxstaq.

Y.K. və O. Raşdorff) və s. imperiya monumentallığı ilə səciyyələnir. "Muzeylər adası" nadir memarlıq ansamblı (*Ümumdünya irsi* siyahısına daxildir) bu dövrdə yaranmışdır.

19 əsrin sonu – 20 əsrin birinci rübündə B.-də və onun ətrafında *funksionalizm* və *konstruktivizm* ruhunda sənaye, ictimai və yaşayış kompleksləri (A. Vertgeymin univermağı, 1896–1904, memar A. Messel; Mosse nəşriyyatı, 1921–23 və "Univerzum" kinoteatrı, 1927; hər ikisinin memarı E. Mendelzon; Şellhaus, Almaniyada ilk çoxmərtəbəli dəmir-beton bina, 1926–31, memar E. Farenkamp; Brits qəsəbələri, 1925–33, memarlar B. Taut və M. Vaqner; Simensştadt, 1929–31, memar V. *Qropius*) inşa edilirdi. Nasist diktaturası dövründə B.-in yenidən qurulması proqramı çərçivəsində neoklassik üslubda çoxsaylı binalar tikilirdi. Həmin binalardan keçmiş aviasiya nazirliyinin binası (1934–36), Tempelhof aerovağzalı (1934–39; hər ikisinin memarı E. Zaqebil), Olimpiya stadionu (1934–36, memar V. Marx) və s. qalmışdır.

İkinci dünya müharibəsindən sonra Qərbi B.-də inşaat işləri Qərbi Avropa və Amerika memarlarının cəlb olunması ilə aparılırdı. "İnterbau" beynəlxalq inşaat sərgisinə hazırlıqla əlaqədar Hanza məhəlləsinin (50-yə yaxın çoxmərtəbəli yaşayış binası: memarlar A. Aalto, V. Qropius, *Le Korbüzye*, O. *Nimeyer* və b.) ti-

Berlin filarmoniyası.





Berlin Dövlət Operası.

kintisi 1957 ildə başa çatdırıldı. Yeni ansambllar və iri ictimai binalar tikildi: Konqreslər zalı (1957, memar H. Stabbins; 1989 ildən Dünya xalqlarının mədəniyyətləri evi), Yeni milli qalereya (1968, memar L. *Mis van der Roe*), "Avropa-mərkəz" (1963–64, memarlar Q. Hentrix, Q. Peçniq) və s.

Şərqi B.-də 1945 ildən sonra şəhərin tarixi mərkəzinin yenidən qurulması və bərpası, ətraf r-nlarda yeni binaların inşası proqramı həyata keçirildi: Respublika sarayı (1976), "Palast-hotel" (1979), "Fridrixştadtpalast" (1984) teatrının yeni binası və s. Aleksanderplats meydanı bütünlüklə yenidən quruldu – bir sıra ictimai binalar, Konqreslər zalı (1964, memar G. Henzelman), çoxmərtəbəli "Ştadt Berlin" mehmanxanası (1969, memarlar R. Korn, X. Şarlipp, X.E. Boqatski) və b. tikililər; yaxınlığında ətrafı müşahidə televiziya qülləsi (365 *m*; 1969, memarlar K. Kollman, K.Timm, Q. Franke, mühəndis V. Hersoq və b.) inşa edildi. B. Almaniya birləşdirildikdən və Berlin divarı söküldükdən sonra şəhərin mərkəzi hissəndə yenidənqurma işləri aparılmışdır. Reyxstaqın binası yenidən layihələndirilmişdir (1994–99, memar N. Foster): *hay-tek* üslubunda əlavələr etməklə binanın xarici formaları saxlanılmış, yeni şüşə günbəz quraşdırılmışdır; spiralvarı güzgülü zolaq iclas salonunu görməyə imkan verir.

Şəhərin ən iri elmi müəssisələri: *Berlin-Brandenburq Elmlər Akademiyası*, İncəsənət Akademiyası (əsası 1696 ildə qoyulmuşdur), Kino və Televiziya Akademiyası, Arxeologiya İn-tu, materialların öyrənilməsi və sınağı federal mərkəzi; urbanistika, iqtisadi tədqiqatlar, standartlaşdırma in-tları; Berlin sosial tədqiqatlar elmi mərkəzi, M. Plank ad. cəmiyyətin elmi tədqiqat in-tları (elm tarixi, biologiya, molekulyar genetika, plazma fizikası və s. üzrə). 19 ali məktəb (o cümlədən 14 dövlət) fəaliyyət göstərir: *Berlin Humboldt Un-ti,* Texniki Un-t (1946), iki ali incəsənət məktəbi; ali musiqi məktəbi (əsası 1869 ildə qoyulmuşdur), aktyor sənəti ali məktəbi, Dövlət balet məktəbi, Avropa ali iqtisad məktəbi və s. Un-tlər nəzdində çoxsaylı tədqiqat in-tları və elmi mərkəzlər vardır.

Ən böyük kitabxanaları: Berlin Dövlət kitabxanası - Prussiyanın mədəni irsi (1661), Humboldt un-tinin kitabxanası (1831), Berlin mərkəzi şəhər və ərazi kitabxanası (1995).



Berlin Olimpiya stadionu.

B.-də 130-dan çox muzey var; əksəriyyəti Berlin dövlət muzeyləri kompleksinə daxildir. Bunların arasında "Muzeylər adası" muzeyləri – Köhnə muzey (1824–30, memar K.F. Şinkel), Yeni muzey (1843–46, memar F.A. Ştüler), Qədim milli qalereya (1866–76, memarlar F.A. Ştüler və İ.Q. Ştrak), Perqam muzeyi (1909–30, memarlar A. Messel və L. Hofman), kayzer Fridrix muzeyi (indiki Bode-muzey; 1897–1904, memar E. fon İne) var. Digər muzeyləri: Yeni Milli Qalereya (1968, memar L. Mis van der Roe), Misir muzeyi, Bryöxan-muzey, Bauhauz arxivi – Memarlıq layihələri muzeyi, Bədii sənətlər muzeyi, Berlin muzeyi, Nəqliyyat və texnika muzeyi, Şəhər muzeyi (1874), Rəsm qalereyası (1997). H. Sille, K. Kolvits, G. Kolbenin ev-muzeyləri, çoxsaylı rəsm qalereyaları var. B.-in saray və parkları *Ümumdünya irsi* siyahısına salınmışdır.

B.-də 40-a yaxın teatr, o cümlədən "Alman teatrı" ("Doyçes teater", 1883), "*Folkshüne*" (1890), "Şiller teater" (1894), "Berliner ansambl" (1949) fəaliyyət göstərir. "*Berliner festşpile*" çərçivəsində hər il "Berliner festtage" və "Berlin görüşləri" teatr festivalları; "Berlinale" (1951 ildən; 1990 ilədək Qərbi Berlində) beynəlxalq kinofestivalı keçirilir. Alman Dövlət Operası (1742), Berlin alman operası ("Doyçe oper Berlin", 1961), "*Komişe oper*" (1947), "Metropol-teater" (operetta, 1898) "Teater des Vestens" (operetta və müzikl, 1896) musiqili teatrları; *Berlin filarmonik orkestri* (1882), Berlin simfonik orkestri (1952), Berlin radiosunun simfonik orkestri (1946); kamera,





müasir və caz musiqisi orkestrləri var. "Konserthaus" (keçmiş "Şauşpilhaus") və Filarmoniya zalı fəaliyyət göstərir. Hər il beynəlxalq və milli musiqi festivalları və müsabiqələri (onlardan ən məşhurları "Berliner festşpile" çərçivəsində) keçirilir.

Zoologiya bağı (Soo, yaxud "Tirqarten"; Avropada ən irilərindən biridir, 1844), "Berlin akvariumu" (1911–13), Fridrixsfelde landşaft zooparkı (Avropada ən böyük, 1956), Nəbatat bağı (Nəbatat muzeyi ilə birlikdə; 1679; herbarisi 1815 ildə açılmışdır) var. 2 rəsədxana, o cümlədən planetari (1987) ilə birlikdə Arxenhold rəsədxanası (1896) fəaliyyət göstərir. 1936 ildə B. Olimpiya stadionunda (təqr. 100 min tamaşaçı) 11-ci Olimpiya Oyunları keçirilmişdir. Qadınlar arasında ənənəvi tennis turniri keçirilir. Çimərlik voleybolu üzrə dünya çempionatı B.- də (2005) olmuşdur.

1949 ildə Almaniya parçalandıqdan sonra B. iqtisadi bütövlüyünü itirdi. Şərqi B. ADR-in mühüm iqtisadi mərkəzinə çevrildi. Qərbi B. iqtisadiyyatı isə AFR-ə yönəldildi. 1990 ildə Almaniya birləşdikdən sonra B.-in bütöv təsərrüfat kompleksinin formalaşdırılması AFR hökuməti qarşısında duran ən mühüm məsələlərdən biri oldu.

2000-ci illərin əvvəlindən B. Almaniyanın ən iri və ən çox diversifikasiya olunmuş emal sənayesi və xidmət sferası mərkəzidir. Lakin onun ölkə iqtisadiyyatında rolu Avropanın digər paytaxtlarından (məs. Fransada Parisin, B. Britaniya da Londonun) fərqli olaraq çox aşağıdır. Xidmət sahəsinin strukturunda (iqtisadi fəal əh.-nin 76%-i məşğuldur; 2003) dövlət idarəçiliyi sektoru, həmçinin elm, təhsil, mədəniyyət mühüm rol oynayır. Bəzi göstəricilərinə görə B. aparıcı mərkəz kimi ölkənin digər iri şəhərlərindən geri qalır. Belə ki, Almaniyanın 500 ən iri şirkətindən yalnız 11-inin qərargahı B.-dədir (Hamburqda təqr. 50, Frankfurt-Maynda 30 və Münxendə 30). Bank-maliyyə mərkəzi və sığorta biznesinin mərkəzi kimi B. AFR-də Frankfurt-Mayn və Düsseldorfdan sonra 3-cü, baş sahibkarlıq təsisatlarının yerləşdirilməsinə görə Kölndən sonra 2-ci yeri tutur. Xidmət sferasının ən iri (dövriyyəsinə görə) müəssisələri: "Bankgezellşaft Berlin AQ" və "Şparkasse der ştadt Berlin", həmçinin pərakəndə satış sektorunda üstunluk təşkil edən "Karştadt Kvelle AQ" və "Metro AQ" bank-maliyyə korporasiyaları. B. Almaniyanın şəhərləri



Qırmızı ratuşa. 1861 69. Memar Q.F. Vezeman.

arasında emal sənayesinin istehsal etdiyi məhsulların dəyərinə, həmçinin burada çalışan işçi qüvvəsinə (şəhər iqtisadiyyatında məşğul olanların 24%-i, 2003; 1990-cı illərin əvvəlində 30%-dən çox) görə birinci yerdədir; ş.-in inzibati sərhədlərində 1500-dən çox sənaye müəssisəsi yerləşir. Aparıcı sahə olan maşınqayırmanın strukturunda elektrotexnika və radioelektronika (dəyərinə görə İsveçrə və Avstriyanın müvafiq sahələrinin birlikdə istehsal etdiyi məhsuldan çox) üstünlük təşkil edir; ofis texnikası və kompyuterlər, energetika, soyuducu və avtonəqliyyat avadanlığı, kompressorlar, nəql. vasitələri (vaqonlar, çay gəmiləri), cihaz və dəzgahlar istehsal olunur. Kimya-əczaçılıq, fotokimya, texniki-rezin, yüngül (əsasən, tikiş), poliqrafiya, yeyinti, tütün B.-in digər ənənəvi istehsal sahələrindəndir. B.-in ən iri müəssisələri: "Simens AQ" və "AEQ" (elektrotexnika və radioelektronika), "Daymler-Kraysler AQ" (avtomobil istehsalı), "Şerinq AQ" (kimya məhsulları). Şəhər hüdudlarında, xüsusilə onun mərkəzi r-nlarında 1990-2000-ci illərin əvvəlində torpağın qiymətinin, eləcə də torpaq sahələrinin, istehsal meydançalarının istifadəsi üçün icarə haqqının kəskin artması səbəbindən sənaye müəssisələri şəhərətrafına köçürülmüşdür.

**BERLİN BÖHRANLARI** – "soyuq müharibə" dövründə baş vermiş beynəlxalq siyasi böhranlar; SSRİ ilə Qərb dövlətləri arasında Almaniya məsələsi ilə bağlı qarşıdurma nəticəsində yaranmışdı.

1948–49 illər Berlin böhranına səbəb ABŞ, B. Britaniya və Fransanın Almaniyanın siyasi və iqtisadi bütövlüyünün qorunmasına dair *Berlin (Potsdam) konfransı (1945)* qərarlarından imtinası oldu. Separat London müşavirəsində (23.2–1.6.1948) Qərb dövlətləri Qərbi Almaniya dövlətinin mərhələlərlə yaradılması, onun *Marşall planına* daxil edilməsi və qərb blokuna inteqrasiyası planını qəbul etdilər. Bu planın həyata keçirilməsində ilk addım 1948 il iyunun 20-də ABŞ, Fransa və B. Britaniya işğal hakimiyyət orqanları tərəfindən Qərb işğal zonalarının Sovet işğal zonasından (SİZ) iqtisadi ayrılmasını təmin etmək üçün pul islahatına başlaması oldu. Buna cavab kimi sovet tərəfi iyunun 22-də SİZ-də və Böyük Berlində pul islahatı keçirilməsini elan etdi. Qərb dövlətləri sovet zonasının markasını Qərbi Berlinin pul vahidi kimi tanımaqdan imtina etdilər. Qərb dövlətlərini yenidən danışıqlara məcbur etmək məqsədilə SSRİ hökuməti iyunun 24-də Qərb işğal zonalarından Qərbi Berlinə mal daşınmasını qadağan etdi. Eyni zamanda sovet tərəfi Qərbi Berlini təmin etmək üçün SİZ-dən malların göndərilməsinə hazır olduğunu bildirdi. Qərb dövlətləri zonalararası ticarəti, həmçinin Qərbi Berlin sektorlarının SİZ-lə ticarətini dayandırmaqla iqtisadi cəhətdən SİZ-dən təcrid olundu. ABŞ və B. Britaniya Qərbi Berlini "sovet blokadasından" çıxarmaq məqsədilə Qərb işğal zonaları ilə Qərbi Berlin arasında "hava körpüsü" yaratdı. 1949 il

mayın 4-də Nyu-Yorkda ABŞ və SSRİ nümayəndələri Qərb işğal zonaları ilə Qərbi Berlin arasında zonalararası əlaqələrə və ticarətə, həmçinin zonalararası əmtəə dövriyyəsinə dair məhdudiyyətlərin ləğvi haqqında razılaşma əldə etdilər. Bununla da bu böhran aradan qaldırıldı. Həmin gün Qərb dövlətləri AFR-in Əsas qanununun qüvvəyə mindiyini elan etdilər; Almaniyanın parçalanması fakta çevrildi.

1958–63 illər Berlin böhranına səbəb 1957 ilin dekabrında NATO Şurasının ABŞ nüvə raketlərinin Avropada, o cümlədən AFR ərazisində yerləşdirilməsi, AFR parlamentinin Qərbi Almaniya ordusunun nüvə silahı ilə silahlanması haqqında qərarının (mart, 1958) qəbulu idi. 1958 il noyabrın 27-də sovet hökuməti ABŞ, B. Britaniya və Fransa hökumətlərinə nota göndərərək 6 ay müddətində Qərbi Berlinə azad silahsızlaşdırılmış şəhər statusunun verilməsini, yəni onu nəzarət olunan və qorunan sərhədlərə malik müstəqil siyasi vahidə çevrilməsini təklif etdi. Lakin danışıqlar zamanı bu təklifin müzakirələri nəticəsiz qaldı. 1961 il avqustun 13-də Varşava Müqaviləsi üzv-ölkələrin tövsiyəsi ilə ADR hökuməti birtərəfli qaydada Qərbi Berlinlə dövlət sərhədi rejimini tətbiq etdi və sərhəd istehkamlarını qurmağa başladı (bax *Berlin divarı*). 1962 ildə Nyu-Yorkda, Vaşinqtonda və Cenevrədə keçirilən ABŞ–SSRİ danışıqlarında da bu məsələ həllini tapmadı. 1963 il dekabrın 17-də ADR hökuməti və Qərbi Berlinin mülki hakimiyyət orqanları tərəfindən Berlin ərazisində sərhəddənkeçmə qaydalarını müəyyənləşdirən "buraxılış vərəqələri" haqqında ilk saziş imzalandı. 1971 il sentyabrın 3-də Qərbi Berlin məsələsinə dair Dörtərəfli sazişin imzalanması ilə münasibətlər nizama salındı.

**BERLİN DİVARI** (alm. Berliner Mauer) – ADR ilə Qərbi Berlin arasında uz. 155 *km* (o cümlədən Berlin civarında 43,1 *km*) olan möhkəmləndirilmiş dövlət sərhədi. 1989 ildə orta hünd. 3,6 *m* və ümumi uz. 106 *km* olan beton divardan, metal tordan (65,5 *km*), gərginlik altında siqnal çəpərindən (127,5 *km*), həmçinin ayrı-ayrı sahələrdə xəndəklərdən (105,5 *km*) və tankəleyhinə istehkamlardan ibarət idi. B.d. boyunca 302 gözətçi qülləsi və digər sərhəd qurğuları quraşdırılmışdı. Çay və su hövzələrindən keçən sərhəd yerlərində hasar yox idi. Sərhəddə ilk vaxtlar 13 nəzarət-buraxılış məntəqəsi fəaliyyət göstərirdi; 1989 ildə onların sayı üç idi.

Qərbi Berlinlə dövlət sərhədi rejiminin tətbiqinə və sərhəd istehkamlarının qurulmasına Varşava Müqaviləsi üzv-ölkələrin tövsiyəsi ilə 1961 il avqustun 13-də başlanılmışdır. 1949–61 illərdə Qərbi Berlindən keçməklə təqr. 1,6 mln. nəfər ADR-i qeyri-leqal şəkildə tərk etmişdir.

İstehkamların qurulmasına və sərhədin ciddi qorunmasına baxmayaraq ADR vətəndaşlarının Qərbi Berlinə qaçması davam edirdi. 1961–88 illərdə təqr. 39 min nəfər sərhəd istehkamlarını keçə bilmişdi. Sərhədi keçməyə cəhd edənlərin 192 nəfəri həlak olmuş, təqr. 200 nəfər yaralanmış, 3 mindən çox həbs olunmuşdur. ADR hökuməti kütləvi xalq çıxışlarının təzyiqi ilə 1989 il noyabrın 11-də Qərbi Berlinlə əlaqə məhdudiyyətlərini aradan qaldırdı, 1990 il iyulun 1-də isə sərhəd nəzarətini tamamilə ləğv etdi. ADR ilə Qərbi Berlin arasındakı sərhəd istehkamlarının dağıdılması rəsmən 1990 ilin yanvarında başladı və həmin ilin noyabrında başa çatdı. Uz. 1,3 *km* olan B.d.-nın hissəsi abidə kimi ("East-Side-Galery") saxlanıldı. Almaniyanın birləşməsindən sonra (oktyabr, 1990) AFR hakimiyyət orqanları ADR ilə AFR və Qərbi Berlin arasındakı sərhəddə insanların ölümü ilə nəticələnən silah tətbiqində günahlandırılan şəxsləri, o cümlədən ADR-in keçmiş yüksəkvəzifəli rəhbərlərini məsuliyyətə cəlb etdi.

**BERLİN ƏMƏLİYYATI (1945)** – *İkinci dünya müharibəsi (1939–45)* gedişində Almaniyanın kapitulyasiyası ilə nəticələnən sovet qoşunlarının hücum əməliyyatı. Əməliyyata Baltika donanmasının və Dnepr hərbi flotiliyasının dəstəyi ilə 1-ci Belorussiya (komandanı Sovet İttifaqı marşalı *G.K. Jukov*), 1-ci Ukrayna (komandanı Sovet İttifaqı marşalı *İ.S. Konev*), 2-ci Belorussiya (komandanı Sovet İttifaqı marşalı *K.K. Rokossovski*), cəbhələri cəlb olunmuşdu. Ümumilikdə sovet tərəfindən B.ə.-nda 2 mln. nəfərdən çox adam, təqr. 42 min top və minaatan, 6,2 mindən çox tank və özüyeriyən artilleriya qurğuları, 7,5 min təyyarə iştirak edirdi. Qarşı tərəfdə Almaniyanın "Visla" ordu qrupu (komandanı gen.-polk. Q. Heynrisi) və "Mərkəz" ordu qrupu (komandanı gen.-feldmarşal F. Şörner); təqr. 1 mln. nəfər adam, 10,4 min top və minaatan, 1,5 min tank və zərbə silahı, 3,3 min təyyarə cəmləşdirilmişdi.

1-ci Belorussiya və 1-ci Ukrayna cəbhələrinin hücumu 1945 il aprelin 16-da başlandı. 1-ci Belorussiya cəbhəsi qoşunları Oder çayından hücum edərək düşmənə başlıca zərbəni Küstrin r-nundakı dayaq məntəqəsindən vurdular. Eyni zamanda 1-ci Ukrayna cəbhəsi qoşunları Nöyse çayını keçməyə başladılar.

2-ci Belorussiya cəbhəsinin hücumu aprelin 20-də başlandı, lakin Oder çayının daşması onu ləngitdi. Bu cəbhənin qoşunları aprelin 25-də Ştettindən cənubda almanların başlıca müdafiə zolağını yardı.

Aprelin 23-də 1-ci Belorussiya və 1-ci Ukrayna cəbhəsi qoşunları Berlinin müdafiə zolağını yardı; aprelin 24-də alman qruplaşmaları 2 hissəyə parçalandı və onlardan biri mühasirəyə düşdü. Aprelin 25-də sovet qoşunları Berlindən cənubda birləşdi və şəhər mühasirəyə alındı. Berlin qarnizonuna kömək məqsədilə alman qoşunlarının hücum cəhdləri uğursuz oldu. Aprelin 28-də sovet qoşunları şəhərin böyük hissəsini ələ keçirərək Berlin qarnizonunu Şpre çayından cənuba doğru sıxışdırdılar. Aprelin 30-da sovet qoşunları reyxstaqın binasını ələ keçirdi. Həmin gün A. *Hitler* intihar etdi. Mayın 2-də Berlin qarnizonu təslim oldu. Təslim olmayan alman dəstələri mayın 5-də məhv edildi.

Azərb.-da yaradılmış 416-cı Taqanroq diviziyası B.ə-nın iştirakçısı olmuşdur. Diviziya aprelin 20-də Klosterdorfu, aprelin 21-də Ştrausberqi tutduqdan sonra Berlinə yaxınlaşmışdı; aprelin 26-da Berlinin c.-ş.-indəki Sileziya vağzalı və reyxstaq istiqamətində sovet qoşunlarının hücumunda, həmçinin mayın 1-də kayzer Vilhelm sarayının, 2-də isə Brandenburq qapılarının tutulmasında iştirak etmişdir.

**BERLİN FİLARMONİK ORKESTRİ** (Berliner Philarmoniker) – əsası 1882 ildə qoyulmuşdur. 1918 ildən bələdiyyə orkestridir. H. fon *Bülov* və A. fon *Nikiş* orkestrin ilk rəhbərlərindən olmuşlar. 1896 ildən müntəzəm olaraq Avropa və Amerika ölkələrində keçirilən qastrol səfərlərində dünya şöhrəti qazanmışdır. Faşist diktaturası illərində bir çox məşhur musiqiçilərin orkestri məcburən tərk etmələrinə baxmayaraq, V. *Furtvenqlerin* fəaliyyəti (1922–45 və 1947–54 illərdə ork.-in rəhbəri) orkestrin şöhrətini qoruyub saxlamışdı. 1933 ildə Y. Göbbels təbliğat məqsədilə istifadə etmək üçün orkestri öz himayəsinə götürmüşdü; B.f.o.-nin çıxışları bütün rəsmi nasist tədbirlərini müşayiət edirdi. B.f.o.-nin 2-ci dünya müharibəsindən sonrakı ilk çıxışı (F. Mendelsonun "Yay gecəsində yuxu" uvertürası, dirijor L. Borhard) 26.5.1945 ildə olmuşdur. Almaniya bölündükdən (1949) sonra B.f.o. Qərbi Berlinin baş orkestri olmuşdur. Repertuarının əsasını klassik və romantik simfoniyalar təşkil edir. Musiqi müəlliflərinin (onların sırasında Q. Maler, R. Ştraus, E. Qriq, A.K. Qlazunov, İ.F. Stravinski, S.S. Prokofyev olmuşlar) rəhbərliyi ilə premyeralar keçirmək orkestrin ənənəsidir. Orkestrlə dünyanın görkəmli dirijorlarından L. Blex, O. Klemperer, S.A. Kusevitski, E. Anserme, K. *Böm*, Q. Şolti, L. *Bernstayn*, D. Barenboym və b. çıxış etmişlər. 2002 ildən orkestrin bədii rəhbəri və baş dirijoru S. Rattldır.






Berlin Humboldt Universiteti.

**BERLİN HUMBOLDT UNİVERSİTETİ** (Humboldt-Universität zu Berlin) – Almaniyanın ən böyük un-tlərindən biri. 1809 ildə 4 fakültə (hüquq, tibb, fəlsəfə və ilahiyyat) ilə təsis olunmuşdur (fəaliyyətə 1810 ildə başlamışdır). İlk illərdə un-tə V. *Humboldt* rəhbərlik etmişdir. 1816 ildə Prussiya kralı III Fridrix Vilhelm un-tin statusunu təsdiq etmişdir. 256 tələbə və 52 müəllim ilə fəaliyyətə başlayan un-t tezliklə ölkənin aparıcı ali məktəblərindən birinə çevrilmişdir. 7 fakültəsi (fəlsəfə, hüquq, ilahiyyat, tibb, əczaçılıq, diş həkimliyi, kənd təsərrüfatı) var idi. Bir sıra iri elmi tədqiqat in-tu, astronomiya rəsədxanası (Potsdamda) və s. un-tə birləşdirilmişdi. 1887 ildə açılmış Şərq dilləri şöbəsi böyük şöhrət qazanmışdı. A. *Humboldt* tədris kursuna yeni fənlərin daxil edilməsinə böyük əhəmiyyət verirdi. Filoloqlar Y. və V. Qrimm qardaşlarının, dilçi-sanskritoloq F.Bopp, filosoflar G.V.F. Hegel, İ.Q. Fixte, tarixçilər T. Mommzen, B. Nibur, patoloq-anatom R.Virxov, fiziklər G. Helmholts və H. Kirxhof və b. görkəmli alimlərin fəaliyyəti un-tla bağlı olmuşdur. 19 əsrin sonu–20 əsrin əvvəllərində dünyanın əsas elmi mərkəzlərindən birinə çevrilən un-tdə təbiyyat və dəqiq elmlər çox inkişaf etmişdi. Un-tdə 29 Nobel mükafatı laureatı, o cümlədən fiziklər A. *Eynşteyn*, E. *Şrödinger*, M. *Plank*, Qustav *Herts*, fizik-kimyaçı V. *Hernts*, mikrobioloq R. *Kox* və b. çalışmışlar. Nasistlər hakimiyyətə gəldikdən sonra professorların çoxu un-ti tərk etmiş və Almaniyadan köçmüşlər.

Un-tdə 11 fakültə, 2 in-t, un-t statuslu 16 kollec fəaliyyət göstərir, 38 mindən çox, o cümlədən təqr. 11% -ədək əcnəbi tələbə təhsil alır (2004). Un-tin nəzdində təbiətşünaslıq və tibb tarixi muzeyləri, Şarite klinikası (1710 ildə I Fridrixin fərmanı ilə tikilmiş, 1810 ildə un-tin tərkibinə daxil edilmişdir), Patologiya İn-tu, Yapon mədəniyyəti mərkəzi, Humboldt qalereyası (1978), kitabxana (əsası 1831 ildə qoyulmuşdur; 4 mln.-dan artıq kitab və dövri nəşr, 1 mln.-dan artıq dissertasiya, 500 mindən artıq digər sənəd və materiallar, 2004) vardır. Un-t 100-dən çox akademik müəssisə ilə sıx əlaqə saxlayır.

**BERLİN (POTSDAM) KONFRANSI (1945)** – *antihitler koalisiyasına* daxil olan aparıcı dövlətlərin başçılarının – SSRİ XKS-nin sədri İ.V. *Stalinin*, ABŞ prezidenti H. *Trumenin*, B. Britaniyanın baş naziri U. *Çörçillin* (iyulun 28-də onu yeni baş nazir K. *Ettli* əvəz etmişdi) iştirakı ilə iyulun 17-də – avqustun 2-də Potsdam ş.-nin (Berlin yaxınlığında) Sesiliyenhof qəsrində keçirilmişdir. Konfransda xarici işlər nazirləri, hərbi məsləhətçilər və ekspertlər də iştirak etmişdilər.

B.(P.)k.-nda əsas məsələ Almaniya ilə bağlı idi. *Krım (Yalta) konfransının (1945)* qərarlarına və Avropa məşvərətçi komissiyasının təkliflərinə əsaslanan konfrans iştirakçıları "Nəzarət dövrünün başlanğıcında Almaniya ilə münasibətlərdə siyasi və iqtisadi rəhbər prinsiplər" haqqında razılaşma işləyib hazırlamışdılar. Onlar Almaniya ilə münasibətlərdə razılaşdırılmış siyasət aparacaqlarını öhdələrinə götürmüş, Almaniyada ali hakimiyyətin hər bir ölkənin işğal zonasındakı silahlı qüvvələrinin baş komandanları tərəfindən, Almaniyanın ümumi mənafeyinə aid məsələlərin isə Nəzarət şurasının üzvləri kimi bütün baş komandanlarının iştirakı ilə həll edilməsini qərara almışdılar. İşğalın məqsədi ölkənin demilitarizasiyası, denasifikasiyası, demokratikləşdirilməsi və dekartelləşdirilməsi idi. Almaniyanın tamamilə tərksilah olunması, onun silahlı qüvvələrinin, SS, SA, SD və gestaponun (bütün qərargahları, təşkilatları, idarələri, hərbi məktəbləri ilə) buraxılması, Almaniyanın hərb sənayesinin ləğvini, yaxud ona nəzarət edilməsini, Almaniya ordusunun bütün silahlarının və əsgəri təchizatının məhvini, yaxud müttəfiqlərə verilməsini nəzərdə tuturdu. B.(P.)k. Nasional-sosialist alman fəhlə partiyasının (NSAFP), onun şöbələrinin, tabeliyində olan təşkilatların və idarələrin, habelə nasist qanunlarının ləğv edilməsi, hərbi cinayətkarların, cinayətlərin planlaşdırılmasında və həyata keçirilməsində iştirak edən bütün şəxslərin məhkəməyə verilməsi, fəal nasistlərinin ictimai vəzifələrindən, həmçinin özəl firmalarda məsul vəzifələrindən kənarlaşdırılması qərara alınmışdı. Hərbi cinayətkarları mühakimə etmək məqsədilə Beynəlxalq hərbi tribunal təsis edilmişdi. Almaniyanın demokratik inkişafının təmin olunması məqsədilə təhsil, ədliyyə və yerli özünüidarəetmə sisteminin yenidən qurulması, demokratik siyasi partiyaların fəaliyyətinə icazə verilməsi və onların himayə edilməsi planlaşdırılırdı. Almaniyanın hərbi potensialının məhv edilməsi məsələsinin həlli çərçivəsində silah istehsalının qadağan olunması ilə yanaşı Almaniya iqtisadiyyatının desentralizasiyasının həyata keçirilməsi və kartellər, sindikatlar, trestlər və s. formasında ifrat

təmərküzləşməsinin qarşısının alınması nəzərdə tutulurdu. B.(P.)k.-nın iştirakçıları Nəzarət şurasının rəhbərliyi altında fəaliyyət göstərən Almaniya mərkəzi inzibati orqanlarının (maliyyə, nəqliyyat, rabitə, xarici ticarət və sənaye) təsis edilməsi barədə razılığa gəldilər. Nərazət şurası SSRİ, ABŞ, B. Britaniya və Fransanın birgə idarəçiliyi altında olan Berlində yerləşməli idi.

“Almaniyadan təzminat” adlı xüsusi sazişdə böyük dövlətlərin öz işğal zonalarından və Almaniyanın xarici sərmayeləri hesabına təzminat alacaqları müəyyənləşdirilmişdi; bundan əlavə, qərb zonalarından müsadirə edilmiş və Almaniyanın dinc iqtisadiyyatı üçün zəruri olmayan sənaye avadanlığının 25%-i də SSRİ-yə veriləcəkdi. SSRİ öz payına düşən təzminat hesabına Polşanın təzminat iddialarını təmin etməli idi. SSRİ qərb dövlətlərinin Almaniyada ələ keçirdikləri qızıla, qərb işğal zonalarında Almaniya müəssisələrinin aksiyalarına və Bolqarıstan, Finlandiya, Macarıstan, Rumıniya, Şərqi Avstriya istisna olmaqla, bütün ölkələrdə Almaniya aktivlərinə olan iddialarından imtina edirdi. ABŞ və B. Britaniya da öz növbəsində sovet işğal zonasında yerləşən Almaniya müəssisələrinin aksiyalarına və yuxarıda adları çəkilən ölkələrdə Almaniya aktivlərinə olan iddialardan imtina edirdilər. B.(P.)k.-nın iştirakçıları öz aralarında Almaniyanın suüstü, hərbi-dəniz və ticarət donanmalarının, həmçinin sualtı donanmasının (onun çox hissəsinin məhv edilməsindən sonra) bərabər bölünməsini qərara aldılar.

B.(P.)k. Köniqsberq ş.-i (1946 ildən Kalininqrad) və ona bitişik r-nun SSRİ-yə verilməsi haqqında qərar qəbul etdi. Kəskin diskussiyalardan sonra Polşanın q. sərhədi Oder–Qərbi Nöyse çayları xətti ilə təsbit olundu. Şərqi Prussiyanın SSRİ-nin idarəçiliyində olmayan hissəsi və keçmiş azad şəhər Dantsiq (Qdansk) Polşaya verildi. Polşanın yeni sərhədlərinin müəyyənləşdirilməsi eyni zamanda onun ərazisindən almanların (onlar Macarıstan və Çexoslovakiyadan da çıxarıldılar) köçürülməsi haqqında qərarla təsdiqləndi.

B.(P.)k. Almaniyanın keçmiş müttəfiqlərlə (İtaliya, Rumıniya, Bolqarıstan, Macarıstan və Finlandiya) sülh müqavilələrinin hazırlanması məqsədilə SSRİ, ABŞ, B. Britaniya, Fransa və Çinin xarici işlər nazirlərinin şurasını təsis etdi; ümumalman hökuməti yaradıldıqdan sonra şura Almaniya ilə sülh müqaviləsini hazırlamalı idi.

Konfrans iştirakçıları İspaniyada Franko rejimini tənqid etdilər, Şərqi Avropa ölkələrində vəziyyət barədə rəylərini bildirdilər, müttəfiq qoşunlarının Tehrandan dərhal çıxarılması və müvəqqəti Avstriya hökumətinin səlahiyyətlərinin Qərb dövlətləri tərəfindən işğal edilmiş Avstriya vil.-lərinə də şamil olunması məsələsinin öyrənilməsi barədə razılığa gəldilər.

Konfransın gedişində H. Trumen ABŞ-da atom bombasının uğurlu sınağı haqqında məlumat aldı. İyulun 24-də Stalinlə danışıq zamanı ona təzyiq məqsədilə H. Trumen ABŞ-ın “böyük dağıdıcı qüvvəyə malik silaha” sahib olduğunu xəbər verdi. H. Trumenin konfransdakı demarşı ABŞ-ın “*atom diplomatiyasının*” ilk aktı oldu.

B.(P.)k.-nın qərarları Avropanın müharibədənsonrakı problemlərinin nizamlanması alman militarizminin və nasional-sosializminin aradan qaldırılması üçün böyük əhəmiyyət kəsb edirdi. Müttəfiqlərin “*soyuq müharibə*” şəraitində razılaşdırılmış kursdan geri çəkilməsinə baxmayaraq, bu qərarlar alman xalqının siyasi həyatının demokratik əsaslarla yenidən qurulmasına imkan yaratdı.

**BERLİN KONQRESİ (1878)** – Böyük Şərq böhranını (1875–78) başa çatdıran beynəlxalq konqres. İyunun 1(13)-dən iyulun 1(13)-dək keçirilmişdir. *San-Stefano sülh müqaviləsinin (1878)* şərtlərinə yenidən baxmaq məqsədilə Avstriya-Macarıstan və B. Britaniyanın təşəbbüsü ilə çağırılmışdı. Konqres təşəbbüskarları Rusiyanın Balkanlardakı mövqeyini zəiflətmək və cənubi slavyan xalqlarının milli azadlıq hərəkatının genişlənməsinin qarşısını almaq məqsədini güdürdülər. B. Britaniya və Avstriya-Macarıstanla müharibə təhlükəsilə üzləşən və Almaniyadan dəstək almayan Rusiya, konqresin çağırılmasına razılıq verməyə məcbur olmuşdu. B.k.-nda Rusiya, B. Britaniya, Avstriya-Macarıstan və Almaniyanın nümayəndələri; Fransa, İtaliya və Türkiyə nümayəndə heyətləri; dəvət olunmuşlar kimi (konqresin işində qismən iştirak edənlər) Yunanıstan, İran, Rumıniya, Çernoqoriya və Serbiya nümayəndələri iştirak etmişlər. B.k-nə hazırlıq prosesində San-Stefano sülh müqaviləsinin [18(30).5.1878] şərtlərinə yenidən baxılmasına dair gizli Rusiya-B. Britaniya sazişi, Türkiyənin Asiyadakı mülklərini qorumaq müqabilində Kipr a.-nın B. Britaniyaya verilməsi haqqında gizli Türkiyə-B. Britaniya sazişi [23.5(4.6).1878], həmçinin Avstriya-Macarıstan və B. Britaniya arasında konqresdə ümumi mövqedən çıxış etmək haqqında saziş [25.5(6.6).1878] imzalanmışdı. İclasda sədrlik edən Almaniya kansleri O. *Bismark* əslində B. Britaniya və Avstriya-Macarıstanın mövqeyini dəstəkləyirdi. İyulun 1(13)-də San-Stefano müqaviləsinin şərtlərini dəyişən *Berlin traktatı (1878)* imzalandı.

**BERLİN MƏKTƏBİ**, şimali alman məktəbi – 18 əsrin 2-ci yarısında Berlində, II Böyük Fridrix və Prussiya şahzadəsi Anna Amaliyanın sarayında yaşamış və çalışmış bəstəkarları. II Fridrix, İ.İ. Kvants, İ.Q. və K.Q. Qraun, F. və Y.A. Benda, F.V. Marpurq, K.F. K. Faş, İ.S. *Baxın* şagirdləri – K.F. *Bax* (oğul), İ.F. Aqrikola, İ.F. Kirnberger, K. Nihelman B.m.-nin nümayəndələri olmuşlar. Əsasən *zərif üslubda* instrumental musiqi (simfoniyalar, konsertlər, kamera və klavir əsərləri) və alman nəğmələri (o cümlədən, dini məzmunlu) yaradıcılıqlarının başlıca sahəsi idi.

**BERLİN MÜŞAVİRƏSİ (1954)** – SSRİ (V.M. *Molotov*), ABŞ (C.F. *Dalles*), B. Britaniya (A. *İden*) və Fransa (J. *Bido*) xarici işlər nazirlərinin iştirakı ilə yanvarın 25-dən fevralın 18-dək keçirilmişdir. Almaniya və Avstriya məsələlərini müzakirə etmək, həmçinin beynəlxalq gərginliyi aradan qaldırmaq məqsədilə Sovet hökumətinin təşəbbüsü ilə çağırılmışdı. SSRİ hökumətinin fikrincə, AFR-in iştirakı ilə Avropa Müdafiə Birliyinin yaradılması alman militarizminin yenidən baş qaldırması, Almaniyanın daha da parçalanması və Avropada hərbi gərginlik ocaqlarının meydana gəlməsi təhlükəsini yaratmışdı. *Berlin (Potsdam) konfransının (1945)* qərarlarına əsaslanan SSRİ nümayəndə heyəti Almaniyanın hərbi ittifaq və bloklara qoşulmayan sülhsevər, demokratik dövlət kimi bütövlüyünün təmin edilməsinin zəruriliyi haqqında bəyanat verdi. Bu məqsədlə SSRİ nümayəndə heyəti ADR və AFR arasındakı razılaşma əsasında müvəqqəti ümumalman hökumətinin yaradılması və azad seçkilərin keçirilməsinin ona tapşırılması təklifini irəli sürdü. Digər dövlətlərin alman xalqının iradəsini bildirməsinə təsir göstərməsinin qarşısını almaq məqsədilə SSRİ nümayəndə heyəti seçkilərə qədər Almaniya ərazisindən işğalçı qoşunların çıxarılmasını təklif etdi. Seçkilər nəticəsində təşkil olunmuş Ümumalman Milli Məclisi birləşmiş Almaniyanın konstitusiyasını hazırlamalı və sülh müqaviləsi bağlamağa səlahiyyəti olan hökuməti formalaşdırmalı idi. Sovet nümayəndə heyətinin fikrincə, Almaniyanın bütövlüyünün təmin edilməsi və sülhün möhkəmləndirilməsinə onun tərəfindən müzakirəyə çıxarılmış “Avropada kollektiv təhlükəsizlik haqqında ümumavropa müqaviləsi”nin imzalanması imkan yarada bilərdi. Sovet tərəfi Avstriya ilə tezliklə dövlət müqaviləsi bağlamağa hazır olduğunu bəyan etdi; müqavilə Avstriyanın yeni *anşlyus* və hərbi bloklara qoşulmasının qarşısını almalı idi. Qərb dövlətləri SSRİ-nin təşəbbüslərini dəstəkləmədi. Onların nümayəndələri Almaniya ilə sülh müqaviləsinin, Avstriya ilə dövlət müqaviləsi şərtlərinin və Avropada kollektiv təhlükəsizliyin təmin olunması haqqında layihənin müzakirəsindən imtina etdilər. SSRİ-nin Almaniyanı neytrallaşdırmaq və ümumalman parlamentinə seçkilərin almanlar tərəfindən təşkil edilməsi təklifinə zidd olaraq Qərb dövlətləri AFR-in Avropa Müdafiə Birliyi ilə əlaqələrini saxlamaqla ümumalman seçkilərinin işğalçı dövlətlər tərəfindən keçirilməsini nəzərdə tutan İden planını irəli sürdülər. Bu əslində ADR-in yenidən hərbiləşdirilmiş AFR-ə qatılması demək idi. Qərb dövlətləri SSRİ-nin 1954 ildə silahların məhdudlaşdırılması haqqında ümümdünya konfransının çağırılması təklifini də rədd etdi. B.m.-nin iştirakçıları yalnız SSRİ, ABŞ, Fransa, B. Britaniya və ÇXR-in xarici işlər nazirlərinin və digər maraqlı dövlətlərin iştirakı ilə 1954 ilin aprel ayında Cenevrədə Koreya məsələsini nizama salmaq və Hind-Çində sülhü bərpa etmək məqsədilə konfrans çağırılmasına dair razılığa gəldilər.

**BERLİN PAKTI (1940)** – bax *Üç dövlətin paktı (1940)*.

**BERLİN TRAKTATI (1878)** – iyulun 1(13)-də *Berlin konqresində (1878)* Rusiya, Avstriya-Macarıstan, B. Britaniya, Almaniya, İtaliya, Osmanlı imperiyası və Fransa tərəfindən imzalanmış saziş. *San-Stefano sülh müqaviləsinin (1878)* şərtlərini Rusiya və Balkan y-andakı slavyan xalqlarının zərərinə dəyişdirdi. B.t.-na görə, Bolqarıstan Balkan silsiləsi üzrə birləşmə hüququndan məhrum olan iki yerə bölünürdü: şimal hissəsi özünün seçilən başçısı (böyük dövlətlərin razılığı ilə sultan tərəfindən təsdiqlənən), hökuməti və milli ordusu olan, Osmanlı imperiyasına vergi ödəyən vassal knyazlıq elan edilirdi; cənub hissəsi Türkiyəyə qaytarılırdı (Şərqi Rumeliya adlandırılır; başçısı böyük dövlətlərin razılığı ilə sultan tərəfindən xristianlardan təyin olunurdu). Bolqarıstanın ərazisi azaldılaraq Egey dənizinə çıxışından məhrum edilirdi. B.t. Serbiya, Çernoqoriya və Rumıniyanın müstəqilliklərini tanısa da, onların əraziləri San-Stefano sülh müqaviləsinin şərtlərinə nisbətən xeyli ixtisar edilirdi. Dunay çayının mənsəbi, həmçinin Cənubi Qafqazda Qars, Ərdəhan və Batum Rusiyaya verildi. B. Britaniyanın təkidi ilə Bəyazid qalası Türkiyəyə qaytarıldı, Avstriya-Macarıstan isə Bosniya və Herseqovinanı işğal etmək hüququ aldı. B.t. Qara dəniz boğazlarında London konvensiyası (1871) ilə müəyyən olunmuş gəmiçilik qaydalarını təsdiq etdi. Türkiyə Berlin konqresində diplomatik dəstək müqabilində Kipr a.-nı B. Britaniyaya verdi. B.t. Osmanlı imperiyasının bölünməsinin başlanğıcı oldu, eyni zamanda Şərq məsələsində Avropa dövlətlərinin rəqabətini gücləndirdi və yeni Balkan dövlətləri arasında ziddiyyətlərə səbəb oldu. Balkan müharibələrinin (1912–13) başlanması ilə qüvvəsini itirdi.

**BERLİN-BRANDENBURQ ELMLƏR AKADEMİYASI** – AFR-in ən böyük elmi təşkilatı. 1992 ildə yaradılmışdır. Brandenburq elmi cəmiyyətinin tarixi ilə bağlıdır [kurfürst III Fridrixin (1701 ildən Prussiya kralı I Fridrix) xartiyası əsasında təşkil edilmişdir; prezidenti Q. *Leybnits* olmuşdur]. Leybnitsin işləyib hazırladığı plana görə akademiya dörd “sinfə” bölünürdü: fizika (tibb, kimya və botanika ilə birlikdə), riyaziyyat (astronomiya və mexanika ilə birlikdə), alman (alman mülki və kilsə tarixi ilə birlikdə) və şərqşünaslıq sinfi. Prussiya kralı II Fridrix dövründə akademiya Kral Elmlər Akademiyası kimi yenidən qurulmuşdur (1744; prezidenti P.L.M. *Mopertüi* olmuşdur). 1812 ilin əvvəllərində V. Humboldt növbəti dəfə akademiyanı yenidən qurmuş, qəbul edilmiş nizamnaməyə əsasən bütün elmi şöbələr un-tə verilmiş, akademiyada ancaq kitabxana və arxiv qalmışdır. 1919 ildə akademiya Prussiya Təbiyyat və Humanitar Elmlər Akademiyası adlandırıldı; 1946 ildə Berlində Almaniya EA kimi yenidən bərpa edilmişdir (1972 ildən ADR EA). Akademiyanın tərkibində 57 elmi tədqiqat in-tu fəaliyyət göstərmişdir. Almaniya birləşdikdən sonra (1990) akademiya əvvəlki statusuna qayıtmış, onun nəzdində fəaliyyət göstərən elmi tədqiqat müəssisələri başqa təşkilatlara verilmişdir. Uzunmüddətli akademik layihələrə rəhbərlik, digər elmi tədqiqatlara dəstək akademiyanın əsas məqsədidir. Akademiya ən perspektivli elm sahələrinin müəyyənləşdirilməsini, ekspert qiymətləndirilməsini və koordinasiyasını; ictimai elmlərin mühüm problemlərinə həsr olunmuş forumların təşkilini həyata keçirir. Bu funksiyaları həm akademiya üzvlərindən və həm də dəvət edilmiş mütəxəssislərdən ibarət xüsusi komissiyalar yerinə yetirir. Bir sıra komissiyalar alman dili lüğətlərinin yaradılması, həmçinin alman ədəbiyyatı və elminin klassiklərinin əsərlərinin nəşri ilə məşğul olur. Akademiyanın kitabxanası və arxivində (18 əsrin əvvəllərində yaradılmışdır) çox qiymətli materiallar, o cümlədən Leybnitsin (1200-dən çox), digər görkəmli alimlərin əlyazmaları (200-dən çox), akademiyanın xronikaları (1945 ildən), 2 mindən çox incəsənət əsəri, yüzlərlə foto, kinofilm, maqnitofon yazıları, videokasetlər qorunub saxlanılır. Akademiya “İllik” (“Jahrbuch”, 1939 ildən), “Hesabatlar və məqalələr” (“Berichte und Abhandlungen”, 1951 ildən), “Fənlərarası tədqiqatlar üzrə elmi hesabatlar” (“Forschungsberichte der Interdisziplinare Arbeitsgruppen”, 1995 ildən) nəşr edir.

**“BERLİNER ANSAMBL”** (“Berliner Ensemble”) – alman dram teatrı. Əsası Almaniya Vahid Sosialist Partiyası Siyasi Bürosunun qərarı ilə 1949 ildə Berlində (ADR) B. *Brext* və onun arvadı Y. *Vaygel* tərəfindən qoyulmuşdur. “B.a”-ın simvolu P. Pikassonun “Sülh göyərçini”dir. İlk tamaşası (B. Brextin “Kuraj ana və onun uşaqları”, rej. E. Engel, ADR milli mükafatı) “Doyçes teater”in səhnəsində göstərilmişdir. 1954 ildə truppaya “Teatr am Suffbauerdamm”ın binası (1892, memar Q. Zeelinq) verilmişdir. Brextin (1956 ilədək) və Vaygelin (1971 ilədək) rəhbərliyi altında Avropanın aparıcı teatrlarından biri olmuşdur.

Əsas prinsipləri: siyasi aktuallıq, xalq teatrının ifadəli formalarından istifadə, tamaşaçıları birgə yaradıcılıq prosesinə cəlbetmə. Rej. həlli ilə yanaşı səhnəqrafiyaya (K. fon Appen, K. Neer, D. Hertfild), musiqiyə (P. Dessay, H. Eysler) böyük əhəmiyyət verilirdi. Teatrda ölkənin ən yaxşı aktyorları çıxış edirdi: T. Gize, E. Buş, E. Geşonnek, E. Doyç, Q. May, K. Rayxel, X. Tate, E. Şall və b. Brextin novator prinsiplərini müxtəlif illərdə “B. a”-a rəhbərlik etmiş şagirdləri (R. Berqhauz, V. Vuttke, M. Vekvert, Ş.

Zuşke, M. *Lanqhoff*, H. Müller, P. Paliç, P. Sadek) inkişaf etdirmişlər.

1999 ildən teatra rej. K. Peymann rəhbərlik edir. Dünya klassikası və Brextin pyesləri ilə yanaşı teatrın repertuarının əsasını Almaniya və Avstriya müəlliflərinin əsərləri təşkil edir. Teatrda rej.-lardan L. *Bondi*, E. Klever, G. Tabori, F. Tidemann, R. *Uilson*, L. Haussmann, F.P. Ştekel və b. çalışırlar.

**"BERLİNER FESTŞPİLE"** – beynəlxalq musiqi-teatr festivalı. 1960-cı illərdən Almaniya Demokratik Resp.-nın (ADR) paytaxtında və Qərbi Berlində keçirilmiş festivalların əsasında 2001 ildə Berlində təşkil edilmişdir. Festivalın mərkəzi "Fraye folksbüne" teatrıdır ( e-mar F. Bornemanın layihəsi üzrə 1963 ildə tikilmişdir). "B.f."-nin tədbirləri ilboyu keçirilir və Mart müasir musiqi festivalından ("Märzmusik"), Musiqi biyennalesindən (əsası 1967 ildə ADR-də qoyulmuş, Berlin simfonik orkestrinin iştirakı ilə keçirilir), Teatr görüşlərindən (əsası 1964 ildə Qərbi Berlində almandilli ölkələrin dram teatrlarının festivalı kimi qoyulmuşdur), Berlin musiqi festivalından (*Berlin filarmonik orkestri* ilə birgə keçirilir), Berlin caz festivalından (əsası 1964 ildə qoyulmuşdur), Avropa teatr mövsümündən ("Spielzeiteuropa"; geniş qastrol proqramı) ibarətdir. Gənclərlə bağlı tədbirlərə, o cümlədən teatrda çalışan gənclərin görüşü, gənc səhnə işçilərinin beynəlxalq forumu, gənc musiqiçilərin görüşü və s. xüsusi diqqət yetirilir.

**"BERLİN–ROMA OXU"** – Berlin sazişi əsasında 1936 il oktyabrın 25-də yaradılmış faşist Almaniyası və İtaliyasının hərbi-siyasi ittifaqı. "B.-R. o."-nun yaradılması faşist dövlətlərinin İkinci dünya müharibəsinə hazırlaşdıqlarını aşkar sübut edirdi. 1936 il noyabrın 25-də Almaniya ilə Yaponiya arasında imzalanmış *"Antikomintern paktı"* "B.–R. o." sazişinin davamı idi (1937 il noyabrın 6-da İtaliya da bu pakta qoşuldu).

**BERLİOZ** Hektor (Ektor) Lui (11.12. 1803, İzer dep-ti, La-Kot-Sent-Andre – 8.3.1869, Paris) – fransız bəstəkarı, dirijor və musiqi yazıçısı. Fransa İn-tunun üzvü (1856). İlk təhsilini (o cümlədən musiqi nəzəriyyəsinin əsasları) ixtisasca həkim olan atasından almışdır; gəncliyində fleyta, gitara çalmış, musiqi bəstələməyə erkən yaşlarından maraq göstərmişdir (ilk bəstələri saxlanılmamışdır). 1821 ildə Parisdə Tibb məktəbinə daxil olsa da, bəstəkar olmaq fikri onu tərk etməmişdir. Dərs deməklə, rəy yazmaqla, xorda oxumaqla pul qazanan B.-un əsərləri 1825 ildən Parisdə, əsasən, öz hesabına ifa olunmuşdur (o cümlədən ilk əhəmiyyətli əsəri Təntənəli messa). 1826–30 illərdə Paris Konservatoriyasında təhsil almışdır. B.-a Fantastik simfoniya ("Artistin həyatından epizod", 1830) geniş populyarlıq gətirmişdir. Əsərin ədəbi proqramı bəstəkarın irland aktrisası X. Smitsona (1800–54, 1833 ildən arvadı) olan məhəbbət hisslərindən yaranmışdır. "Sardanapalın ölümü" kantatasına görə Böyük Roma mükafatı almışdır (1830). Romada olduğu bir ildən artıq müddətdə "Kral Lir" (U. Şekspirin əsəri əsasında, 1831), "Rob-Roy" (V.Skottun əsəri əsasında, 1832) uvertüralarını, qiraətçi, solistlər, xor və orkestr üçün "Zelio və ya Həyata qayıtma" (B.-un sözlərinə, 1832; Fantastik simfoniyanın davamı kimi nəzərdə tutulmuşdu) monodramını yazmışdır. 1835–63 illərdə B. "Journal des Debats…" qəzetinin daimi müxbiri, uzun müddət Paris Konservatoriyası kitabxanaçısının köməkçisi işləmişdir. B.-un bəstəkar kimi yaradıcılığının yüksəliş dövrü 1830-cu illərə təsadüf edir. "Harold İtaliyada" simfoniyasını (C. Bayronun əsəri üzrə, alto ilə orkestr üçün, 1834), "Benvenuto Çellini" operasını (B. Çellininin memuarları əsasında, 1838) İtaliya təəssüratları əsasında yazmışdır. "Rekviyem" (1837) və solistlər, xor və orkestr üçün "Romeo və Cülyetta" dramatik simfoniyası (U. Şekspirin əsəri əsasında, 1839) B. yaradıcılığının zirvəsidir; Matəm-zəfər simfoniyası (1840) kimi Rekviyem də İyul inqilabı (1830) qurbanlarının xatirəsinə həsr olunmuşdur. 1834 ildən əsərlərinə özü dirijorluq etmiş və tez bir zamanda qüdrətli dirijorlardan biri olmuşdur. 1840 ildən Parisdə simfonik konsertlər vermişdir (repertuarına həmçinin K.V. Qlyukun, L. van Bethovenin, K.M. fon Veberin, M.L. Qlinkanın əsərləri daxil idi). 1842 ildən ömrünün axırına kimi İtaliyada, Avstriya-Macarıstanda, Almaniyada, İngiltərədə konsertlərlə çıxış etmişdir.



"Faustun ittihamı" dramatik əfsanəsi (İ.V. Götenin əsəri üzrə, 1946) və "Te Deum" (1849) 1840-cı illərin ən əhəmiyyətli əsərləridir. 1850–60-cı illərin əvvəlləri B.-un yaradıcılığında son yüksəliş dövrü olmuşdur: Bibliya əsasında "İsanın uşaqlığı" trilogiyası (1954), "Troyalılar" (dilogiya, Vergilinin "Eneida" əsəri əsasında, 1858) və "Beatriçe və Benedikt" (U. Şekspirin "Heç nədən hay-küy" komediyası üzrə, 1862) operaları. Mənəvi və fiziki qüvvəsini itirən B. ömrünün sonunu tənhalıqda keçirmişdir; bununla belə S.-Peterburq və Moskvada (1867–68 illər mövsümü) verdiyi konsertlər böyük müvəffəqiyyət qazanmışdır.

B.-un yaradıcılığı müsiqi *romantizminin* ən parlaq təzahürlərindən biridir. Sələflərinin (K.V. Qlyuk, L. van Bethoven, Q. Spontini, K.M. fon Veber, J.F. Lesüer) təcrübəsinə əsaslanaraq, B. ilk yetkin əsərlərində müstəsna yaradıcılıq azadlığı nümayiş etdirmişdir. Onun hər bir irihəcmli əsəri janr özünəməxsusluğu ilə seçilmişdir: instrumental konsert ilə simfoniya ("Harold İtaliyada"), simfoniya ilə oratoriya ("Romeo və Cülyetta"), simfoniya ilə tətbiqi musiqi (Matəm-zəfər simfoniyası) cizgilərinin qovuşması, komik operalarda ("Benvenuto Çellini", "Beatriça və Benedikt") qeyri-ənənəvi süjetlər. Böyük formalı əsərlərə meyil göstərməklə yanaşı, B. məharətlə monumentallığı lirika, müasir musiqi dilini arxaik elementlərlə birləşdirə bilmişdir. Romantik *proqram musiqinin* yaradıcılarından biri olan B. təbiət mənzərələrindən, U. Şekspirin, C. Bayronun, İ.V. Götenin obrazlarından ilhamlanmış, əsərləri üçün özü süjetlər yaratmışdır.

B.-un musiqi tarixində göstərdiyi əvəzsiz xidmət onun orkestrləşdirmə məharəti ilə bağlıdır. O, simfonik orkestri əvvəllər məlum olmayan koloritli və müxtəlif səstəsvirədən imkanlarla zənginləşdirmiş, onun heyətinə teatrda geniş istifadə olunan alətlər (ingilis sümsüsü, arfa, zənglər və s.) daxil etmişdir. Orkestr üçün əsər yazmaq və onunla işləmək təcrübəsini ümumiləşdirdiyi "Müasir instrumentovka və orkestrləşdirmə haqqında böyük traktat" (1843, 1855) bir çox bəstəkar üçün stolüstü kitaba çevrilmişdi.

B. musiqi haqqında tənqidi məqalələrin, öz musiqi əsərlərinin mətnlərinin ("İsanın uşaqlığı", "Troyalılar", "Beatriçə və Benedikt" və s.), kitabların, o cümlədən 1852 ildə nəşr olunmuş "Orkestr axşamları"nın (qəhrəmanların musiqi haqqında söhbətləri ilə növbələşən oçerk və novellar silsiləsi), memuarların (1858, nəşri 1870 ildə) müəllifidir.

Digər əsərləri: "Yunan inqilabı" (1826), "Orfeyin ölümü" (1827); İ.V. Götenin "Faust" əsərindən səkkiz səhnə (1829); "Ueverley" (1828), "Roma karnavalı" (1844), "Korsar" (1844), orkestr və fp. ilə səs üçün mahnılar (o cümlədən T.Qotyenin sözlərinə "Yay gecələri" silsiləsi, 1841).

*Əd.*: Роллан Р. Собрание музыкально-исторических сочинений. Л., 1938 Т. 5; Соллертинский И. Г. Берлиоз [3-е изд.]. М., 1962; Dictionnaire Berlioz. P., 2003.





**BERMA** (polyakca berma; alm. Berme) – 1) yataqların işlənilməsi zamanı karyerin iş aparılmayan kənarında pillələrin enişləri arasında üfüqi meydança; nəql., qoruyucu və təhlükəsizlik B.-ları olur. 2) Torpaq və daş bəndlərin, kanalların və s. tikililərin yamaclarında üfüqi zolaq; onlara dayanıqlıq verir, istismar şəraitini yaxşılaşdırır. 3) Səngərlərin, əsasən, möhkəmliyini artırmaq, həmçinin atəş zamanı dirsəkləri dayamaq və patronları qoymaq üçün düzəldilən ensiz (10 *sm*-ə qədər) torpaq zolağı.

**BERMAMIT**, Kiçik Bermamıt, Bermamut – RF-də, Qaraçay-Çərkəz Resp. ərazisində, Böyük Qafqazın şimal yamacında karst platosu. Kislovodsk ş.-ndən 35 *km* c.-q.-dədir. Qayalı silsilənin kuest sisteminə daxildir. Əsasən, əhəngdaşılardan təşkil olunmuşdur. Kiçik B.-ın zirvəsi (2644 *m*) platonun bünövrəsindən ensiz yəhərvarı dağ çökəyi ilə ayrılır. Çılpaq və çimli karst inkişaf etmişdir. B.-dan daimi qar və buzlaqlarla örtülmüş Böyük Qafqaz zirvələrinə (o cümlədən Elbrusa) əsrarəngiz mənzərə açılır.

**BERMUD OTU** (Cynodon dactylon) – taxıllar fəsiləsinin *çayır* cinsindən çoxillik ot bitkisi.

**BERMUDA ADALARI** (Bermuda İslands, Bermudas) – Böyük Britaniyanın dənizaşırı mülkü.






Atlantika okeanının şm.-q.-ində, Şimali Amerikadan təqr. 900 *km* c.-ş.-də eyniadlı adalar (təqr. 150 ada; 20-si məskunlaşmışdır) qrupunda yerləşir. Sah. 53,3 $km^2$. Əh. 65,4 min (2005). İnz. m. Hamilton ş.-dir. Rəsmi dil ingilis dili, pul vahidi Bermuda dollarıdır. İnzibati cəhətdən 9 icmaya və 2 bələdiyyəyə (Hamilton, Sent-Corc) bölünür.

B.a.-nın ən böyük adası Bermudadır. Adaların səthi alçaqdır. Ən yüksək nöqtəsi Bermuda a.-ndakı Taun-Hill d.-dır (79 *m*). Adalar Neogen yaşlı əhəngdaşılardan təşkil olunmuşdur. Sent-Corces, Somerset, Sent-Deyvids adalarının relyefi üçün karst mağara və çuxurları səciyyəvidir. İqlimi tropik, rütubətlidir. Ən soyuq ayın (mart) orta temp-ru 16,7°C, ən isti ayınkı (avqust) 26,7°C-dir. İllik yağıntının miqdarı 1350 *mm*-ədəkdir. İyun–noyabr aylarında güclü tufanlar və fırtınalar olur. Çay yoxdur. Şirin su ehtiyatları yeraltı mənbələrdə toplanmışdır. Bermuda a.-nda iri Harrinqton-Saund şor gölü var.

*Qolfstrim* isti axınının təsirilə mərcanların və manqr cəngəlliklərinin yayılma sahəsinin şm. sərhədi B.a.-ndan keçir. Yerli bitkilərin fraqmentləri, o cümlədən endemik ağac növləri qarışıq rütubətli həmişəyaşıl tropik meşələr yalnız mühafizə olunan ərazilərdə qalmışdır. Adalarda 300-dən çox quş növü yuvalayır. B.a.-nda mühafizə olunan 20 yerüstü təbii ərazi (69 *ha*), 5 beynəlxalq əhəmiyyətli su-bataqlıq yerləri (24 *ha*); 80 dəniz rezervatı və parkı (15,2 min *ha*) var.

B.a. 1522 ildə ispan dəniz səyyahı Xuan Bermudes tərəfindən kəşf edilmişdir. İlk ingilis məskəni 1609 ildə salınmışdır. 1684 ildən İngiltərənin müstəmləkəsi olmuşdur. 1968 ildə qəbul olunmuş konstitusiyaya (əlavələr 1973 və 1979) görə B.A.-na daxili özünüidarəçilik hüququ verilmişdir. Britaniya kralı adalarda qubernator ilə təmsil olunur. 1989 ildə Britaniya hökuməti B.A. hökumətinin adalara müstəqillik verilməsinə dair xahişini rədd etmişdir. 1995 ildə keçirilən referendumda B.A.-nın əhalisi özlərinin əvvəlki statusunun saxlanılmasına səs verdi. B.A.-nda B. Britaniyanın hərbi-dəniz və hərbi-hava bazaları (1957 ilədək həmçinin qarnizonu), 1941 ildən ABŞ-ın hərbi-dəniz (Kinqs-Poynt) və hərbi-hava bazaları (99 illik icarə) yerləşir.

Ölkənin ÜDM-i 2,33 mlrd. dollar (alıcılıq qabiliyyəti pariteti üzrə, 2003; adambaşına 36 min dollar, dünyada ən yüksək göstəricilərdən biridir) təşkil edir. ÜDM-in 89%-i xidmət sferasının, 10%-i sənayenin, 1%-i k.t.-nın payına düşür (2002). İqtisadiyyatın əsasını xarici turizm, ofşor maliyyə xidmətləri, həmçinin okean gəmilərinin B.A.-nın "əlverişli" bayrağı altında qeydiyyatı təşkil edir. Hər il a.-lara təqr. 300 min (o cümlədən ABŞ-dan 80%-dən artıq, Kanadadan təqr. 7%, B. Britaniyadan 5%-ə qədər) turist gəlir; 350 mln.-dan çox gəlir əldə olunur. Beynəlxalq aeroportun və hotellərin tikilməsi, kruiz gəmi reyslərinin təşkili (turistlərin 1/3-hissəsi a.-lara kruiz gəmiləri ilə gəlir) turizmin sürətli inkişafına əlverişli imkan yaratmışdır. B.a.-nın mülayim iqlimi, qumlu çimərlikləri (əsasən, B.a.-nın c.-unda) və yüksək səviyyəli xidmət turistləri cəlb edir.







Bermuda adalarından görünüş.

Dayvinq, snorkelinq (mərcan riflərinə və batmış gəmilərə baxmaq üçün) və vindsörfinq turizm idman növləri geniş yayılmışdır.

B.A. dünyanın ofşor maliyyə mərkəzlərindən biridir. Burada 11 mindən artıq beynəlxalq şirkət və firma (300-dən çoxunun ölkədə nümayəndəlikləri vardır) qeydə alınmışdır. B.A.-da gəlirə görə müxtəlif vergi növləri – gəlir vergisi, əlavə dəyər vergisi, daşınmaz əmlak vergisi və s. tətbiq edilmir; ofşor şirkətlər yalnız yenidən qeydolunma üçün illik rüsum ödəyir. Ofşor sektoru, əsasən, sığorta xidmətləri üzrə ixtisaslaşmışdır. B.A.-nda 103 ticarət gəmisi (onlardan 27-si B. Britaniya, 20-si ABŞ, 20-si Kanada, 9-u İsveç sahibkarlarına məxsusdur) qeydə alınmışdır. Suvenirlər, əczaçılıq məhsulları, ətriyyat, tikinti materialları istehsal olunur.

Ərazinin təqr. 6%-i əkinçilik üçün yararlıdır. Ərzaq məhsullarının çox hissəsi idxal olunur. Faraş tərəvəz (gül kələm, soğan, pomidor, kök), meyvələr (sitrus, o cümlədən qreypfrut, həmçinin əncir, papayya) becərilir, əsasən, ixrac üçün güllər yetişdirilir. Sahil sularında balıqçılıq inkişaf etmişdir.

Xarici iqtisadi əlaqələr ABŞ, B. Britaniya, Fransa yönümlüdür. İxracatda xidmətlər üstünlük təşkil edir, əmtəə ixracı cüzidir. Əmtəə və xammalın böyük hissəsi idxal olunur.

Avtomobil yollarının (o cümlədən bərk örtüklü) uz. 450 *km*-dir. Arxipelaqın 8 adası B.a. ilə 35 *km* uz.-nda vahid nəql. dəhlizi yaradan körpülər və yol ötürücüləri vasitəsilə birləşir. Məskun adalar arasında həmçinin bərə əlaqəsi vardır. Dəniz portları Hamilton, Sent-Corc, Dokyard kruiz gəmilərini qəbul edir. Beynəlxalq aeroport (Sent-Deyvids a.-nda) fəaliyyət göstərir. B.a. yaxınlığında naviqasiya üçün mürəkkəb şəraitli Bermud üçbucağı (B.a., Puerto-Riko a. və Florida y-a) vardır.

*Əd.:* A geography of Bermuda. L., 1965; Bendure G., Friary N. Bermuda. 2nd ed. Melb., 2000.

**BERMÚDES** – Meksikada nəhəng qaz-neft yatağı. Minatitlan ş.-ndən 150 *km* ş.-də yerləşir. 1960 ildə kəşf olunmuş, 1974 ildən istismar edilir. Sah. təqr. 200 $km^2$-dir. Çıxarıla biləcək ilkin neft ehtiyatı təqr. 900 mln. *t*, qaz ehtiyatı 500 mlrd. $m^3$-dir. *Meksika körfəzi neftli-qazlı hövzəsinə* daxildir. Yataq ayrı-ayrı bloklara (Samariya, Kunduakan, Seride, Karriso və s.) parçalanmış iri Çyapas tektonik qalxımı ilə əlaqədardır. Ehtiyatın əsas hissəsi 4100 *m*-dən yuxarı dərinliklərdə yatan, 450 *m*-ədək qalınlığa malik Tabaşir yaşlı yüksək məsaməli, çatlı əhəngdaşılarda toplanmışdır. 1800–2500 *m* dərinlikdəki terrigen Miosen çöküntüləri də neftlidir. Neftlərin sıxlığı 871–884 $kq/m^3$, S-ün miqdarı 1,5%-ədəkdir. Emal olunmaq üçün neft kəmərlə Minatitlan ş.-inə və Koatsakoalkos portuna nəql olunur.

**BERMUDLULAR** – bax *Vest-hind zənciləri.*

Bern şəhərindən görünüş.



**BERN** – İsveçrənin paytaxtı. Bern kantonunun inz. m. Əh. 123 min (2005; şəhərətrafı ilə 300 mindən çox). Ölkənin q.-ində, Alp d-rının ətəklərində, Are çayı sahilində, dəniz səviyyəsindən 572 *m* yüksəkdədir. İsveçrənin mühüm nəql. qovşağıdır; c.-a doğru Bern Alp d-rından (Leçberq tuneli) və Leopont Alp d-rından (Simplon tuneli) keçərək İtaliyaya d.y. çəkilmişdir. Beynəlxalq aeroport.

Əsası 1191 ildə Serinqlər sülaləsindən olan hersoq V Berxthold tərəfindən qoyulmuşdur. 1218 ildə azad imperiya şəhərinə çevrilmişdi. 1353 ildə İsveçrə konfederasiyasına daxil olmuş, tədricən kənd ətrafı da tabeliyinə keçmişdi.1415 ildə *Habsburqlara* məxsus Arqaunun bir hissəsi, 1536 ildə Savoyyadakı Vo (Vaadt) adlı ərazi B.-ə qatıldı. 1528 ildə Reformasiya keçirildi. Bürgerlərin şəhər patrisiatına qarşı mübarizəsi 17–18 əsrlərdə B.-də üsyanlarla nəticələndi. Fransız işğalı (1798–1803) dövründə Arqau və Vo müstəqil kantonlara çevrildi. B.-in ərazi itkiləri əvvəllər Bazel yepiskopluğuna məxsus Yuranın bir hissəsinin 1815 ildə B.-ə birləşdirilməsi ilə kompensasiya edildi. 1831 ildə B.-də patrisiatın hakimiyyətinə son qoyan konstitusiya qəbul olundu. 1848 ildən B. İsveçrənin paytaxtıdır.





B.-in tarixi hissəsində 4 qala qülləsi, o cümlədən Saat qülləsi (1218–20) dövrümüzədək qalmışdır. Köhnə şəhərdə (*Ümumdünya irsi* siyahısına daxil edilmişdir) 17–18 əsrlərin planlaşdırması və səciyyəvi tikililəri (aşağı mərtəbələrdə üstüörtülü sıra tağlar; rəngli heykəllərlə bəzədilmiş 16–17 əsrlərə aid fəvvarələr) saxlanılmışdır. 3 nefli Müq. Vinsent kilsəsi (1421–1588, memar M. Enzinger; vitrajlar 15 əsrin ortaları; ucluğu ilə birlikdə qalanın hünd. təqr. 100 *m*, 19 əsr) və Ratuşa (1406–17, memarlar Q. fon Gengenbax, Q. Getsel; qüllə, 16 əsr) qotika memarlığı üslubunda tikilmiş abidələrdir; Müq. Ruh kilsəsi (1726–29, memar N. Şlitknext), "Hotel de müzik" (1767–70, memar N. Şprünlinq); yaşayış binaları *barokko* üslubundadır. 19 əsrin ortaları – 20 əsrin əvvəllərində d.y. vağzalı (1857), yeni körpülər, neoklassik üslubda Parlament (1852–1902), Kanton bankı (1866). Ərazi idarəsi (1896–1906, memar T. Qol) binaları, Müq. Pavel (1902) kilsəsi inşa edilmişdir.

B. iri elm, təhsil və mədəniyyət mərkəzidir. İsveçrə Təbiyyat Elmləri Akademiyası (1815), un-t [1834 ildə İlahiyyat məktəbinin (1528) bazasında yaradılmışdır, nəzdində Nəbatat bağı (1858) var], digər ali məktəb və elmi tədqiqat in-tları fəaliyyət göstərir. Milli kitabxana və ədəbiyyat arxivi (1895), Parlamentin mərkəzi kitabxanası (1849) və s.; təbiyyat tarixi (1832), tarix (1881), rəssamlıq (1879; nəzdində P. Klenin fondu, 1952), sənətkarlıq (1869), Alp (1902), rabitə [1997; Poçt muzeyi (1907) bazasında yaradılmışdır], teatr, kitab nəşri muzeyləri və s.; Kunsthalle beynəlxalq sərgi mərkəzi (1918 ildən); A. Eynşteynin ev-muzeyi (1903–05 illərdə bu evdə yaşamışdır); şəhər (1903 ildən; dram, opera, balet, operetta tamaşaları göstərilir), kukla və s.. teatrlar; B. un-ti nəzdində teatrşünaslıq in-tu, ali teatr məktəbi, konservatoriya (1858), Bern musiqi cəmiyyəti (1815), Orkestr cəmiyyəti (1877), Bern simfonik orkestri (1876) var.



Bern. İsveçrə parlamenti.

B. İsveçrənin aparıcı bank-maliyyə mərkəzlərindən biridir (maliyyə əməliyyatlarının və bank aktivlərinin həcminə görə Zürix, Bazel və Cenevrədən sonra 4-cü yerdədir). İqtisadi mərkəz kimi Zürix və Bazeldən xeyli geridə qalır. İqtisadiyyatının əsasını diversifikasiyalı xidmət sferası (nəql. və rabitə, ticarət, bank-maliyyə sferası və kredit, sığorta biznesi, işgüzar və informasiya xidmətləri, təhsil və ETTKİ, idarəçilik və mədəniyyət) təşkil edir. B.-də bir çox beynəlxalq təşkilatların (Ümumdünya Poçt İttifaqı, Beynəlxalq Telerabitə İttifaqı, Beynəlxalq Nəqliyyat İttifaqı bürosu və s.) mənzil-qərargahları yerləşir. Aparıcı sahələr: ümumi maşınqayırma, radioelektronika, cihazqayırma, həmçinin kimya-əczaçılıq, poliqrafiya, tikiş və yeyinti (o cümlədən şokolad istehsalı) sənayesi. Sənaye müəssisələri, əsasən, şəhərətrafında yerləşir.

**BERN ALP DAĞLARI** (Berner Alpen) – İsveçrədə Qərbi Alp d-rının şm.-ında dağ qrupu. Uz. təqr. 110 *km*, hünd. 4274 *m*-ədəkdir (Finsterarhorn d.). Bir sıra zirvələrinin (Aleçhorn, Yunqfrau) hünd. 4000 *m*-dən yuxarıdır. Əsas silsilələri kristallik şist və qranitdən, q. və ş. kənarları çökmə süxurlardan təşkil olunmuşdur. B.A.d.-nda Piyon, Ravil, Hemmi, Qrimzel aşırımları, Qrimzel, Eşinen-Ze,

Bern Universiteti.





Bern Alp dağları. Finsterarhorn dağı.

Dauben göllәri var. C. yamacları şm. yamaclarına nisbәtәn dikdir; Alp relyef formaları ilә seçilir. Alp d-rının iri buzlaq mәnbәyidir (ümumi sah. 525 $km^2$ olan tәqr. 300 buzlaq, o cümlәdәn *Böyük Aleç buzlağı*). Yamacları enliyarpaqlı vә iynәyarpaqlı meşәlәr, subalp vә Alp çәmәnliklәri ilә örtülüdür. B.A.d. qış idman növlәri, turizm vә alpinizm mәrkәzi, dağ kurortudur. Mәrkәzi hissәsindәki Leçberq tunelindәn keçәn avtomobil vә dәmir yolları Bern vә Milan ş.-lәrini birlәşdirir.

**BERN ZENNENHUNDU** (Bern çoban iti) – it cinsi; Entlebux zennenhundu, Appensell zennenhundu vә böyük İsveçrә zennenhundunun da daxil olduğu qәdim İsveçrә çoban iti cinsi (z e n n e n h u n d - l a r). Qәdim romalıların istilaçı yürüşlәri zamanı qoşunu müşayiәt edәn çoban itlәrinin әcdadıdır. Ölçülәrinә vә eynirәngli qırmızı lәkәli qara-ağ tükünün tipinә görә bir-birindәn fәrqlәnir. Keçi vә qoyunların otarılması, fermaların vә yükdaşımaların keşiyini çәkmәk üçün istifadә edilir. Möhkәm skeletli vә dolğun bәdәnli B.z.-nun enli döşü vә güclü әzәlәlәri vardır. Cidov hünd. 58–70 *sm*, kütlәsi 40–45 *kq*-dır. Parlaq, hamar, bir qәdәr dalğalı tükünә vә rәnginә görә effektli görünüşә malikdir; bununla yanaşı hәlim mәcazlı, ünsiyyәtli olması bu cinsi mәşhurlaşdırmışdır.

Bern zennenhundu.



**BERNADÓT** (Bernadotte) Jan Batist (26.1.1763, Po – 8.3.1844, Stokholm) – Fransa marşalı (1804), XIV Karl Yuhan adı ilә İsveç kralı [1818–44]. *Bernadotlar* sülalәsinin banisi. İnqilabi Fransanın müharibәlәrindә diviziya, Napoleon ordusunda korpus komandiri olmuşdur. Hollandiyada isveçli әsirlәri azad etdiyi üçün İsveçdә şöhrәt qazanmışdır. 1810 ildә Napoleon tәrәfindәn istefaya göndәrilmiş, hәmin ilin avqustunda İsveç riksdaqı onu kral taxtına vәliәhd seçmişdir. 1813 ildә Napoleon әleyhinә koalisiyaya qoşulmuş vә İsveç ordusu ilә Fransaya qarşı müharibәdә iştirak etmişdir.



**BERNADOTLAR** – İsveç krallığında (1818 ildәn indiyәdәk), hәmçinin Norveçdә (1818–1905) hakim sülalә. Sülalәnin banisi J.B. *Bernadotdur*. B. sülalәsinin nümayәndәlәri: XIV Karl Yuhan [1818–44], I Oskar [1844–59], XV Karl [1859–72], II Oskar [1872–1907], V Qustav [1907–50], VI Qustav Adolf [1950–73], XVI Karl Qustav [1973 ildәn].

**BERNAL** Con Desmond (10.5.1901, Nina – 15.9.1971, London) – ingilis fiziki vә ictimai xadimi, London Kral Cәmiyyәtinin üzvü (1937), SSRİ EA-nın әcnәbi üzvü (1958). "Xalqlar arasında sülhü möhkәmlәtmәyә görә" Lenin mükafatı laureatı (1953). Kembric Un-tini bitirmişdir (1922). Londonda Devi–Faradeyin laboratoriyasında (1923–27) vә Kembric Un-tindә (1927–37) çalışmışdır. 1938 ildәn London Un-tinin prof.-u olmuşdur. 1939–45 illәrdә hava hücumundan müdafiә problemi ilә mәşğul olmuş vә birlәşmiş әmәliyyatlar qәrargahının elmi mәslәhәtçisi işlәmişdir. Elmi işlәri struktur kristaloqrafiyasına aiddir, elmşünaslığın banisidir. Stirolların, hormonların, vitaminlәrin, zülalların, virusların, sementlәrin strukturlarını tәdqiq etmişdir. 1933 ildә bütün birlәşmәlәrdә suyun xüsusiyyәtini izah edәn buzun Bernal modelini tәklif etmişdir. Cәmiyyәtin hәyatında elmin rolu vә yeri, onun fәlsәfi mәnası, texnika ilә qarşılıqlı әlaqәsi haqqında işlәrin müәllifidir. Ümumdünya Sülh Şurası rәyasәt heyәtinin icraçı-prezidenti (1959–65), Beynәlxalq Kristalloqraflar İttifaqının prezidenti (1963–66) olmuşdur.



**BERNÁR** (Bernard) Klod (12.7.1813, Vilfranş yaxınlığında Sen-Jülyen – 10.2.1878, Paris) – fransız fizioloqu, patoloq, Paris EA üzvü (1854), Peterburq EA әcnәbi m. üzvü (1860). Paris Un-tini bitirmiş (1839) vә orada F. Majandinin laboratoriyasında işlәmişdir. 1854 ildәn Paris Un-tinin ümumi fiziologiya kafedrasına, 1868 ildәn Tәbiyyat Tarixi Muzeyindә müqayisәli fiziologiya kafedrasına rәhbәrlik etmişdir. Müasir fiziologiya vә eksperimental patologiyanın banilәrindәn biridir. Şirә ifrazının fizioloji mexanizmlәrinin, ağız suyu, mәdә şirәsi vә mәdәaltı vәzi sekretinin hәzmetmә xassәlәrinin, mәdәaltı vәzinin funksiyalarının vә yağların hәzmolunmasında onun rolunun, qara ciyәrin qlikogen әmәlәgәtirmә funksiyalarının öyrәnilmәsinә dair tәdqiqatlar aparmışdır. Karbohidrat mübadilәsinin tәnzimlәnmәsindә qara ciyәrin vә mәrkәzi sinir sisteminin iştirakını öyrәnmişdir. Uzunsov beyindә orqanizmin karbohidrat mübadilәsini tәnzimlәyәn mәrkәzlәrin olduğunu sübut etmişdir. Bütövlükdә bәdәnin qan dövranının vә onun ayrı-ayrı nahiyәlәrin qan tәchizatının tәnzimlәnmәsindә iştirak edәn simpatik sinir sisteminin damar-hәrәki funksiyasını kәşf etmişdir (1853). Vәzilәrin xarici vә daxili sekresiyasını, heyvan toxumalarında elektrik hadisәsini, müxtәlif sinirlәrin funksiyalarını, istilik әmәlәgәlmә proseslәrini, qanın qazlarını, kurare zәhәrinin hәrәki sinir uclarına iflicedici tәsirini, karbon 2-oksidin orqanizmә tәsirini vә s. tәdqiq etmişdir. Orqanizmin daxili mühiti haqqında anlayış irәli sürmüş vә dәyişәn әtraf mühitdә orqanizmin sәrbәst hәyati fәaliyyәtinin daxili mühitin daimiliyi ilә şәrtlәnmәsi konsepsiyasını formulә etmişdir.

Ә s ә r l ә r i: Курс общей физиологии. Свойства живых тканей. СПБ., 1867; Лекции по экспериментальной патологии. М.; Л., 1937.

**BERNÁR** (Bernhardt) Sara (әsl adı vә soyadı Henriyetta Rozina Bernar, Bernard) (22.10.1844, Paris – 26.3.1923, Paris) – fransız aktrisası. Paris Konservatoriyasını (J.B.F. Provonun dram sinfini) bitirmişdir. "*Komedi Fransez*" teatrında ilk dәfә İfigeniya ("İfigeniya Avliddә", J. Rasin) rolunda çıxış etmişdir (1862). Parisin "Jimnaz", "Port-Sen-Marten", "Odeon" teatrlarında, 1872–80 illәrdә yenidәn "Komedi Fransez"dә işlәmişdir. 1893 ildә "Renessans" teatrını, 1898 ildә Şatle meydanındakı teatrı (sonralar "Sara Bernar teatrı") almışdır. Aktrisanı "mizanlar kraliçası, jestlәr şahzadәsi", "qızıl sәs" adlandırırdılar. B. iti müşahidә qabiliyyәtinә vә personaja sәrrast xarakteristika vermәk bacarığına malik idi. Onun temperamentini virtuoz cilalanmış texnikası istiqamәtlәndirirdi. V. *Hüqo*, A. *Antuan*, K.S. *Stanislavski*, S. M. *Volkonski* vә b. onun sәnәtini texniki kamillik nümunәsi hesab edirdilәr. V. *Sardu* vә E. *Rostan* mәxsusi B. üçün pyeslәr yazmışlar. Onun tamaşalarına afişaları A. *Muxa* tәrtib etmişdir. Әsas rolları: Fedra ("Fedra", J. Rasin), donya Sol vә Kraliça ("Ernani" vә "Rüi-Blaz", V. Hüqo), Marqarita Qotye ("Kameliyalı qadın", A. Dümaoğul), Hamlet ("Hamlet", U. Şekspir) vә s. 1880-ci illәrdәn Avropa vә Amerikada çoxlu qastrol sәfәrlәrindә olmuş, Rusiyada çıxış etmişdir. "Balaca büt" (1920) avtobioqrafik romanını, aktyorluq sәnәti haqqında "Teatr incәsәnәti; sәs, jest, tәlәffüz" (1923) әsәrini yazmışdır. 1900 ildәn kinoda çәkilmişdir ("Kraliça Yelizaveta", "Adriyena Lekuvrör", "Fransız anaları" vә s.). "Bәsirәtli qadın" filminin çәkilişlәri zamanı vәfat etmişdir. 1914 ildә Fәxri legion ordeni ilә tәltif olunmuşdur.



**BERNARD** Şou – bax *Şou* Corc Bernard.

**BERNİ** Antonio (14.5.1905, Rosario – 13.10.1981, Nyu-York) – Argentina rәssamı. Argentina boyakarlığında "yeni realizm"in (ümumilәşdirilmiş böyük formalara meyil edәn milli mәktәb) banilәrindәn biridir. Buenos-Ayres Milli Rәssamlıq Akademiyasının prof.-u olmuş- dur. "Dünya tәhlükә qarşısında" (30-cu illәrin sonu), "İnsanın şәr qüvvәlәrlә mübarizәsi" (1946) vә s. әsәrlәri var. B.-nin yaradıcılığına modernizmin tәsiri olmuşdur.

**BERNİK-LEYK** (Bernik Lake) – Kanadada nadir metalların iri kompleks yatağı. Manitoba ştatında, Vinnipeq ş.-ndәn 135 *km* şm.-ş.-dәdir. Monqari vә Tanko adları ilә dә mәlumdur. 1920-ci illәrdә kәşf olunmuşdur. İstismarı ilk vaxtlar açıq üsulla, 1969 ildәn yeraltı üsulla aparılır. Ümumi ehtiyatda tantal filizi 2 mln. *t* (filizin tәrkibindә orta hesabla 0,23 %), litium 9 mln. *t*-dan çox (2,14 %), berillium tәqr. 0,9 mln. *t* (0,22 %) tәşkil edir. Yataq Son Arxeyin amfibolitlәri vә qneyslәrindәki peqmatit kütlәlәri seriyasından ibarәtdir. Әsas filiz kütlәsinin yatımı horizontal, ölçülәri 1500x800 *m*, qalınlığı 80–85 *m*-dir. Filizlәr möhtәvi tiplidir. Әsas minerallari: spodumen, lepidolit, petalit, ambliqonit, pollusit, beril, tantalit, mikrolit vә s. Filizlәrindәn tantal vә litium konsentratları alınır.

**BERNİNA** – Şәrqi Alp d-rında (Reti Alp d-rı) әn hündür massiv. İtaliya vә İsveçrәnin sәrhәdindәdir. Hünd. 4049 *m*-dir (Bernina d.). Daimi qar vә buzlaqlarla (üm. sah. 104 $km^2$ olan tәqr. 150 buzlaq), o cümlәdәn Morteraç buzlağı (uz. 7,5 *km*, sah. 17,2 $km^2$) ilә örtülüdür. Dağxizәk kurortları var. B.-dan ş.-dә yerlәşәn eyniadlı aşırımdan (hünd. 2228 *m*) İtaliya ilә İsveçrәni birlәşdirәn d.y. xәtti keçir.

**BERNİNİ** Covanni Lorenso (Canlorenso) (7.12.1598, Neapol – 28.11.1680, Roma) – italyan memarı, heykәltәraş, rәssam vә ssenoqraf. Atası – heykәltәraş vә memar Pyetro B.-dәn (1562–1629) dәrs almışdır. B.-nin yaradıcılığı, әsasәn, Roma ilә bağlı olmuşdur; *Barokkonun* görkәmli nümayәndәlәrindәn olan B. bu üslubun estetikası vә bәdii dilinin әsas prinsiplәrini ardıcıllıqla ifadә etmişdir. Antik heykәltәraşlığı vә *Mikelancelo* yaradıcılığını öyrәnmәk tәcrübәsinә әsaslanaraq, B. barokkonun dekorativ, qәbirüstü vә portret plastikasının formalaşmasında mühüm rol oynamışdır. Şәhәrsalma layihәlәri vә memarlıq kompozisiyalarındakı mәkan genişliyi, iri tektonik formaların plastikası, mәnzәrә vә perspektiv effektlәrin istifadәsindә teatrallıq, ansambl hәllindәki bütövlüyә meyil onun yaradıcılığına xas olan әla-

Bernina dağı. Morteraç buzlağı.





C. Bernini. Kral XIV Lüdovikin atlı heykəli. 1669–1670. Borgeze qalereyası. Roma.

mətlərdir. Müq. Pyotr meydanındakı ansambl B.-nin ən məşhur əsərlərindəndir (1657–63).

Onun ilk əsərlərindən biri Müq. Pyotr (1624–33) kilsəsinin mehrabı üçün yaratdığı tunc baldaxin İtaliyada Barokkonun ilk nümunələrindəndir. Çoxrəngli mərmər inkrustasiyadan, qızıl suyuna salınmış tuncdan, müxtəlif işıq və illüziya effektlərindən istifadə etməklə, B. əsərlərində barokko incəsənətinə xas olan parlaqlıq, emosional coşqunluq, əzəmət və dəbdəbəyə nail olmuşdur (Vatikandakı kral pilləkənləri, 1663–1666; "Müqəddəs Terezanın vəcdə gəlməsi", Santa-Mariya-della-Vittoriya kilsəsi, Roma, 1647–52; "Apollon və Dafnə", 1622–25, Borgeze qalereyası, Roma). B.-nin portret-büstlərində modelin ifadəli xarakteri dekorativ dəbdəbə və təmtəraqla uyğunlaşdırılmışdır (kardinal Şipione Borgeze, 1632, Borgeze qalereyası. Roma; Konstansiya Bonarelli, təqr. 1635, Barcello Milli Muzeyi, Florensiya; hersoq Françesko d'Este, 1650–51, d'Este Muzeyi, Modena; hamısı mərmərdən) B. XIV Lüdovikin dəvəti ilə Parisə getmiş (1665) və burada Luvrun ş. fasadının layihəsini və kralın portret büstünü (mərmər, 1665, Versal və Trianonlar muzeyi) hazırlamışdır. Heykəltəraşlığı, memarlığı, müxtəlif dekorativ forma və materialları (Romada Müq. Pyotr kilsəsindəki papa VIII Urban və VII Aleksandrın sərdabaları) özündə birləşdirən barokko tipli qəbirüstü abidələrin hazırlanmasına B. yaradıcılığının böyük təsiri olmuşdur. Şəhərsalmanın mühüm elementi kimi meydan ansamblını formalaşdıran heykəltəraşlıq fəvvarələrinin (Pyassa Barberinidəki Triton, 1642–43 və Pyassa Navondakı Dörd çay, 1648–51) yaradılmasının Roma ənənələri B.-nin adı ilə bağlıdır. Barberini teatrının, həmçinin öz şəxsi teatrı üçün yazdığı komediyaların tamaşalarında dekorçu kimi iştirak etmişdir. Rəssamlıq işləri içərisində "Avtoportret"i də (Uffisi qalereyası, Florensiya) var.

C. Bernini. Prozerpinanın oğurlanması. 1621–1622. Borgeze qalereyası. Roma.



**BERNS** (Burns), B ö r n s Robert (25.1.1759, Şotlandiya, Allouey k. – 21.7.1796, Damfris ş.) – şotland şairi. Kasıb fermer oğludur. Prixod məktəbində oxumuş, sonralar evdə müəllimdən dərs almışdır. 15 yaşından şeir yazmağa başlamışdır. Əlyazması halında geniş yayılan "İki çoban" (1784) və "Mömin Villinin duası" (1785) adlı ilk satirik əsərləri kilsə tərəfindən azadfikirlilik kimi pislənilmişdir. "Əsasən şotland dialektində yazılmış şeirlər" (1786) kitabı ona şöhrət gətirmişdir. "Şotland musiqi muzeyi" (1787–1803) və "Orijinal şotland melodiyalarından seçmələr" (1793–1811) çoxcildli antologiyaları üçün qədim şotland mahnı və balladalarını toplamış, həmçinin folklor melodiyalarına özü şeirlər yazmışdır. "Məhəbbət qızılgül kimidir, qırmızı qızılgüldür" (1787), "Con Anderson" (1788) şeirləri, "Tem O'Şenter" (1790) mənzum povesti, "Şən dilənçilər" (1799 ildə nəşr olunmuşdur) kantatası ən yaxşı əsərlərindəndir. 18 əsr Fransa inqilabına rəğbətini "Azadlıq ağacı" (1793) şeirində bildirmişdir. B.-in yaradıcılığının ingilis romantiklərindən P.B. Şelli və C.Kitsə, həmçinin "göl məktəbi" şairlərinə təsiri olmuşdur. "Azadlıq ağacı", "Əlvida", "Zənci qulun nəğməsi", "Kömürçünün rəfiqəsi", "Yolçunun qış gecəsi", "Qəlbim dağlardadır" və s. şeirləri Azərb. dilinə tərcümə edilmişdir. B.-in doğum günü Şotlandiyada xalq bayramı kimi qeyd olunur.



Ə s ə r l ə r i: Complete poems and songs. Glasgow, 1995; Собрание поэтический произведений. M., 1999.

**BERNSTÁYN** (Bernstein) Leonard (25.8.1918, Massaçusets ştatı, Lorens – 14.10.1990, Nyu-York) – Amerika dirijoru, pianoçu və bəstəkar. 1939 ildə Harvard Un-tini bitirmiş, 1939–41 illərdə Filadelfiyada Körtis İn-tunda təhsil almışdır. 1943 ildən Nyu-York filarmonik orkestrinin assistenti, 1958–69 illərdə baş dirijoru olmuşdur. 1940-cı illərin sonundan müntəzəm olaraq dünyanın ən yaxşı orkestrləri ilə çıxış etmişdir. B.-ın repertuarı bütünlüklə klassik orkestr əsərlərindən – L. van Bethovenin, P.İ. Çaykovskinin, İ. Bramsın, Q.Malerin, Y.Sibeliusun, D.D.Şostakoviçin simfoniyalarından, İ.F. Stravinskinin, M.Ravelin, Amerika bəstəkarlarının (o cümlədən C.Gerşvinin) əsərlərindən, bir çox operalardan ibarət idi. Emosionallıq və qüvvətli enerqetika, orkestr səslənməsindəki ciddilik, genişlik və ifaçılıq konsepsiyasının orijinallığı B. sənətində vəhdət təşkil edirdi. B. klassik müsiqinin fəal təbliğçilərindən olmuş, mühazirələrlə çıxış etmiş, televiziya verilişləri (o cümlədən gənclər üçün) hazırlamışdır. Mülayim-romantik üslub çərçivəsindən kənara çıxmayan bəstəkar müasir kompozisiya texnikasından imtina etmiş ("avanqardizmin antimusiqi"sinə qarşı çıxmışdır), "ciddi" və "yüngül" musiqi arasında balans yaratmağa çalışmışdır. Amerikanın ən məhşur müzikllərindən biri olan "Vestsayd əhvalatı"nda (Vaşinqton, 1957) Latın Amerikasının rəqs ritmikasını Brodveyin pop üslubu ilə birləşdirmişdir. "Taitidə həyəcan" (Uoltem, 1952), "Sakit yer" (Hyuston, 1983) operaları, "Kandid" operettası (Boston, 1956), 3 simfoniyası (Bibliya motivləri əsasında "İyeremiya", 1942; "Həyəcan əsri", 1949; qədim yəhudi dini mətninə yazılmış "Kaddiş", 1963) var.





**BERNŞTEYN** (Bernstein) Eduard (6.1.1850, Berlin – 18.12.1932, Berlin) – Almaniya və beynəlxalq sosialist hərəkatı xadimi. Polşadan mühacirət etmiş yəhudi ailəsində anadan olmuşdur. 1860-cı illərin sonundan sosialist hərəkatına qoşulmuşdur. 1875 ildə Almaniya Sosialist Fəhlə partiyasının [ASFP; 1891 ildən Almaniya Sosial-Demokrat partiyası (ASDP)] yaradılmasında rolu olmuşdur. Sosialistlərə qarşı müstəsna qanunun tətbiqi ilə əlaqədar 1878 ildə İsveçrəyə, sonra da İngiltərəyə mühacirət etmişdir. 1881–90 illərdə Sürixdə və Londonda ASDP-nin qeyri-leqal "Sosial-demokrat" ("Der Sozialdemokrat") qəzetinin redaksiyasına rəhbərlik etmişdir. K. *Marksın* və F. *Engelsin* əsərlərini nəşr etdirmiş, 1891 ildə K. Kautski ilə birlikdə partiyanın Erfurt qurultayında qəbul olunmuş proqramını işləyib hazırlamışdır. Almaniyaya qayıtdıqdan sonra B. dəfələrlə reyxstaqın (1902–06, 1912–18, 1920–28) deputatı seçilmiş, elmi fəaliyyətlə məşğul olmuşdur, 1919–24 illərdə ASDP-nın bütün qurultaylarına nümayəndə seçilmişdir. Almaniya və Rusiyadakı inqilabların təcrübəsini öyrənərək, qəti surətdə bolşevizmin "doktrina və metodlarını" rədd etmiş və Veymar respublikasını Almaniya üçün yeganə məqbul demokratik inkişaf yolu hesab etmişdir. 1925 ildən səhhəti ilə əlaqədar siyasi fəaliyyətdən uzaqlaşmışdır.

**BERNŞTEYN** Nikolay Aleksandroviç (5.11.1896, Moskva – 16.1.1966, Moskva) – rus fizioloqu və psixofizioloqu, SSRİ Dövlət mükafatı laureatı (1948). SSRİ Tibb EA-nın m. üzvü (1946). MDU-nu bitirmişdir (1919). Əzələ yığılması dinamikasını və hərəki aktların innervasiyalarını öyrənmiş, hərəkətlərin qeydə alınması və təhlili (kimotsikloqrafiya, tsikloqrammetriya) metodlarını təkmilləşdirmişdir. Hərəkətlərin fiziologiyasında yeni istiqaməti və biomexanikanın, idman və əmək fiziologiyasının nəzəri əsası sayılan "fəallıq fiziologiyası"nı yaratmışdır. Hərəki aktların yerinə yetirilməsi zamanı orqanizmin aktivliyini izah etmək üçün "reflektor qövs" anlayışı əvəzinə "reflektor halqa" modelini elmə daxil etmişdir. B.-in işləyib hazırladığı konsepsiyaya görə hərəkət bir neçə səviyyə ilə idarə olunur və bunların hər biri psixoloji və fizioloji mexanizmlərlə, morfoloji substratla və s. ilə səciyyələnir.

Ə s ə r i: Физиология движений и активность. M., 1990.

**BERNŞTEYN** Sergey Natanoviç (5.3.1880, Odessa – 26.10.1968, Moskva) – rus riyaziyyatçısı, SSRİ Dövlət mükafatı laureatı (1942). SSRİ EA-nın akad. (1929), Paris EA-nın üzvü (1955). Parisdə un-t (1899) və Politexnik məktəbini (1901) bitirmişdir. 1907–33 illərdə Xarkov Un-tində işləmiş, 1933–41 illərdə Leninqrad Politexnik İn-tunda və Leninqrad Dövlət Un-tində prof. olmuş, 1935 ildən SSRİ EA-nın Riyaziyyat İn-tunda çalışmışdır. Tədqiqatları diferensial tənliklər nəzəriyyəsinə, funksiyalar nəzəriyyəsinə və ehtimal nəzəriyyəsinə aiddir. İkitərtibli elliptik və parabolik tipli tənliklərin analitik həlli şərtlərini tapmış, elliptik tipli qeyri-xətti tənliklər üçün sərhəd məsələlərinin həlli üsullarını işləmişdir. P.L.*Çebışevin* çoxhədli funksiyaların yaxınlaşması ideyasını davam və inkişaf etdirərək, B. və onun tələbələri funksiyalar nəzəriyyəsinin yeni sahəsini – funksiyaların konstruktiv nəzəriyyəsini yaratmışlar. Ehtimal nəzəriyyəsində ilk dəfə (1917) aksiomatikanı işləmiş, Çebışev–Markov Peterburq məktəbinin limit teoremlərinə dair tədqiqatlarını davam etdirmiş, zəif asılı kəmiyyətlər nəzəriyyəsini qurmuş, stoxastik diferensial tənlikləri tədqiq etmiş, fizika, statistika və biologiyada ehtimali metodların tətbiqini nəzərdən keçirmişdir.



**BERNULLİ** (Bernoulli) – İsveçrə alimləri ailəsi. Ulu babaları hollandiyalı mühacir Y a k o b B. (1583 ildə vəfat etmişdir) olmuşdur.

Y a k o b (27.12.1654, Bazel – 16.8.1705, Bazel) – riyaziyyatçı, Bazel Un-tinin prof.-u (1687). Q.*Leybnitsin* sonsuz kiçik hesablama metodlarını inkişaf etdirmiş və onları bir sıra əyrilərin xassələrinin öyrənilməsində tətbiq etmişdir. Qardaşı İohann ilə birlikdə variasiya hesabının əsasını qoymuşdur. İzoperimetrik məsələni qoyaraq onu qismən həll etmiş. İohannın *braxistoxrona* dair qoyduğu məsələnin həllini tapmışdır. "Fərz etmək bacarığı" ("Ars conjectandi", 1713 ildə nəşr olunmuşdur) kitabında *Bernulli teoremini* (onun çoxsaylı ümumiləşdirmələri *böyük ədədlər qanunu* adlanır) isbat etmişdir. Eyni dərəcəli natural ədədlərin cəminin hesablanması ilə əlaqədar *Bernulli ədədlərini* tətbiq etmişdir. Mexanika sahəsində bir çox işlər görmüş, mayedə hərəkət edən müxtəlif formalı cismlərin müqavimətinin hesablanması metodlarını təklif etmişdir.



Ə s ə r i: О законе больших чисел. M., 1986.

İ o h a n n (27.7.1667, Bazel – 1.1.1748, Bazel) – riyaziyyatçı, Peterb. EA-nın əcnəbi fəxri üzvü (1725). Yakobun kiçik qardaşıdır. 1695 ildə Qroningen, 1705 ildə Bazel un-tlərinin prof.-u olmuşdur. Diferensial və inteqral hesablamalarının işlənib təkmilləşdirilməsində Q. Leybnitslə əməkdaşlıq etmişdir. Diferensial və inteqral hesabının ilk ardıcıl izahını vermiş, adi diferensial tənliklərin həll edilməsi metodlarının işlənib hazırlanmasını inkişaf etdirmiş, geodeziya xətlərinə dair klassik məsələ qoymuş və bu xətlərin xarakterik həndəsi xassəsini tapmış, onların diferensial tənliyini çıxarmışdır. Qardaşı Yakobla birlikdə variasiya hesablamasının əsasını qoymuşdur. İohann mexanika sahəsində (zərbə nəzəriyyəsinin işlənib hazırlanması, müqavimətli mühitdə cismlərin hərəkətinin tədqiqi) də tədqiqatlar aparmışdır.

Ə s ə r i: Избранные сочинения по механике. M.; Л., 1937.

N i k o l a y (27.1.1695, Bazel – 29.7.1726, S.-Peterburq) – riyaziyyatçı, filosof və hüquqşünas, Peterburq EA-nın akad. (1725). İohannın oğludur. Tədqiqatları diferensial tənliklər və mexanikaya aiddir.

D a n i i l (29.1.1700, Qroningen – 17.3.1782, Bazel), riyaziyyatçı, mexanik, Peterburq EA-nın akad. (1725–33) və əcnəbi fəxri üzvü (1733), Paris EA-nın (1748) və London Kral Cəmiyyətinin (1750) üzvü və s. İohannın oğludur. Fiziologiya və tibb ilə də məşğul olmuşdur. Bazeldə anatomiya və botanika sahəsində (1733), sonra isə fizika sahəsində (1750) prof. olmuşdur. Qayıtma sıralarının köməyi ilə cəbri tənliklərin hesabi həlli metodunu işləyib hazırlamışdır. Diferensial tənliklər, ehtimal nəzəriyyəsi və sıralar nəzəriyyəsinə dair işlərin müəllifidir. Harmonik rəqs, nöqtəvi kütlələrin potensialı anlayışlarını irəli sürmüş və mexaniki enerjinin saxlanma qanununu

formula etmişdir. Rəqslər nəzəriyyəsini zənginləşdirmiş, elastik çubuqların və lövhələrin rəqslərini tədqiq etmişdir. İdeal mayenin stasionar hərəkətinin əsas tənliyini (*Bernulli tənliyi*) çıxarmışdır (1738). Axının kəsilməzlik prinsipinin formulasını vermiş, deşikdən keçən mayenin axın sürətini və şırnaq axınının reaksiya gücünü hesablamışdır. Havanın elastikliyini tədqiq etmiş, qazlara dair kinetik təsəvvürləri işləyib hazırlamışdır. Riyaziyyatda əhali statistikasına, sıralar nəzəriyyəsinə tətbiq olunan adi diferensial tənliklər, ehtimal nəzəriyyəsi sahəsindəki işlərin müəllifidir.

Əsəri: Гидродинамика, или Записки о силах и движениях жидкостей. Л., 1959.

Iohann (4.11.1744, Bazel – 13.7.1807, Berlin) – riyaziyyatçı və astronom, Peterburq EA-nın əcnəbi fəxri üzvü (1776). İohannın nəvəsidir. Əsas tədqiqatları ehtimal nəzəriyyəsi və dövri kəsrlər sahəsindədir.

Yakob (17.10.1759–3.7.1789, S.-Peterburq) – Peterburq EA-nın akad. (1787). İohannın nəvəsidir. Əsas tədqiqatları diferensial tənliklər, mexanika, musiqi akustikası sahəsinə aiddir.

*Əd.:* Никифоровский В.А. Великие математики Бернулли. М., 1984.

**BERNULLİ ƏDƏDLƏRİ** – bax *Kombinator ədədlər və çoxhədlilər*.

**BERNULLİ SXEMİ** – *ehtimal nəzəriyyəsində* istifadə olunan əsas riyazi modellərdən biri; asılı olmayan təcrübələrin təkrarlanmasının təsviri üçün istifadə olunur. Y. *Bernullinin* adındandır. B.s.-ndə fərz edilir ki, hansısa $\varepsilon$ təcrübəsi və onunla bağlı olan $A$ təsadüfi hadisəsi var (tipik misal: $\varepsilon$ – sikkə pulun atılması, $A$ – onun gerb tərəfinin düşməsi). Bir-birindən asılı olmadan $\varepsilon$ $n$ dəfə təkrar olunur. $\varepsilon$ təcrübələrinin hər birində $A$ hadisəsi $p$ ehtimalı ilə (bu misalda $p=1/2$) baş verə bilər (adətən deyirlər ki, uğurludur) və ya $q=1-p$ ehtimalı ilə baş verməyə bilər (uğursuzdur). Beləliklə, B.s. $n$ və $p$ parametrləri ilə təyin edilir. $n$ sayda təcrübələrdə $m$ sayda ($m$ = 0, 1, ..., $n$) uğurların olmasının ehtimalları haqqında bax *Binomial paylanma*. B.s.-nin öyrənilməsi ehtimal nəzəriyyəsinin bir sıra mühüm qanunauyğunluqlarının kəşfinə təkan verdi (məs., *böyük ədədlər qanununun* xüsusi halı olan *Bernulli teoremi*).

**BERNULLİ TEOREMİ** – *ehtimal nəzəriyyəsinin* ən mühüm teoremlərindən biri; *böyük ədədlər qanununun* ən sadə halıdır. İlk dəfə Y.*Bernulli* tərəfindən "Fərz etmək bacarığı" (1713) əsərində təklif olunmuşdur. B.t.-nin ilkin isbatları üçün mürəkkəb riyazi hesablamalar tələb olunurdu; yalnız 19 əsrin ortalarında P.L. *Çebışev* teoremin aydın və qısa isbatını tapmışdır. B.t.-nin müasir formulası belədir: Əgər *Bernulli sxemində* $n$ asılı olmayan sınaqların birində hər hansı hadisənin ehtimalı $p$-yə bərabərdirsə, onda ehtimal olunur ki, hadisənin baş verməsinin $m/n$ tezliyi $|m/n-p|<\varepsilon$ bərabərsizliyini ödəyir; burada $\varepsilon$ – ixtiyari kiçik müsbət ədəddir, kifayət qədər böyük $n$ sayda sınaqda vahidə olduqca yaxın olur. Çebışevin isbatından bu ehtimalın sadə qiyməti alınır:

$$P\{|m/n-p|<\varepsilon\}>1-p(1-p)/n\varepsilon^2.$$

Çebışevin fikirlərinə uyğun olaraq bu qiyməti daha dəqiq qiymətlə əvəz etmək mümkündür:

$$P\{|m/n-p|<\varepsilon\}>1-2e^{-2n\varepsilon^2}.$$

**BERNULLİ TƏNLİYİ** – *hidrodinamikanın* əsas tənliklərindən biri; mayenin qərarlaşmış hərəkətinin $\upsilon$ sürətini, onun $p$ təzyiqini və hesablama müstəvisi üzərində mayenin kiçik həcminin $h$ yerləşmə hündürlüyünü əlaqələndirir. Yalnız ağırlıq qüvvəsinin təsiri altında olan və sabit $\rho$ sıxlığına malik sıxılmayan ideal maye halında Bernulli tənliyi

$$gh+\frac{p}{\rho}+\frac{\upsilon^2}{2}=\text{const}$$

şəklində olur; burada $g$ ağırlıq qüvvəsi təcilidir. Bu tənlik D. *Bernulli* tərəfindən 1738 ildə çıxarılmışdır. Tənliyi $\rho$-ya vursaq, birinci iki həddin cəmi mayenin potensial enerjisinə, üçüncü hədd isə hərəkətdə olan mayenin kinetik enerjisinə bərabər olacaqdır. Beləliklə, B.t. enerjinin saxlanması qanununu ifadə edir və axan mayenin təzyiqi və sürəti arasında əlaqə yaradır: axın xətti boyunca sürət artırsa, təzyiq aşağı düşür və əksinə (Venturinin sərfölçəninin iş prinsipi buna əsaslanır; bax *Venturi borusu*). Sürət kifayət qədər böyük olduqda maye axınının bəzi nöqtələrində təzyiq bu mayenin doymuş buxarının təzyiqinə yaxın qiymətə qədər düşür və *kavitasiya* baş verir.

B.t.-ndən bir sıra mühüm nəticələr çıxır. Məs., hündürlüyü $h$ olan açıq qabdan ağırlıq qüvvəsinin təsiri ilə axan mayenin çıxış dəliyində sürəti $\upsilon=\sqrt{2gh}$, yəni maye hissəciklərinin $h$ hündürlükdən sərbəstdüşmə sürətinə bərabərdir.

Real mayedə axın boyunca mexaniki enerji saxlanmır, sürtünmə qüvvəsinin işinə sərf edilir və istilik enerjisi şəklində yayılır. B.t.-nə sürtünmə qüvvələrinin işini (hidravlik itkiləri) və mexaniki işi (kompressorun və ya turbinin işini) daxil etməklə tənlikdən *hidravlikada* boru kəmərlərində maye və qaz axınlarının və maşınqayırmada hidravlik və qaz maşınlarının hesablanmalarında istifadə olunur. Kütlənin saxlanması tənliyi və hal tənliyi ilə birlikdə dəyişən sıxlıqlı mühit üçün B.t. *qaz dinamikasının* əsasını təşkil edir.

**BERON** Pyotr (təqr. 1795, digər məlumatlara görə 1800 – 21.3.1871, Krayova) – bolqar maarifçisi, yazıçı və pedaqoq. İlk dünyəvi bolqar əlifbasının (1824) və təbiyyat elmlərinə dair əsərlərin müəllifidir. Təhsilin ana dilində aparılması və dünyəviliyi uğrunda çıxış etmişdir. Bell-Lankaster qarşılıqlı təlim sisteminin tərəfdarı idi. Fiziki cəzaya, o dövrdə bir sıra ölkələrdə yayılmış uşaq oyunlarına mənfi münasibətə qarşı çıxmışdır. Ölkənin bir çox şəhərində öz vəsaiti hesabına məktəblər açmışdır. Qadın təhsilinin inkişafı uğrunda mübarizə aparmışdır. Xaricdə təhsil alan bolqarlara maddi yardım göstərmişdir. Bütün varidatını bolqar maarifçiliyinin inkişafı üçün vəsiyyət etmişdir.

**BERÓSS**, Beroz (Βηρωσσός, Belruşu babil adının yunanca forması) (e.ə. təqr. 350–280) – Babil tarixçisi və astroloqu, *Marduk* məbədinin kahini. Babilistanda baş verən müharibələrlə əlaqədar olaraq Yunanıstana qaçmış, e.ə. 280 ildə Kos a.-nda astrologiya məktəbinin əsasını qoymuşdur. Vətəninə qayıtdıqdan sonra Selevki çarı I Antiox Soter üçün yunan dilində Babil əfsanəvi və tarixi ənənəsi əsasında üççildlik Babilistan tarixini yazmışdır; əsərdə həmçinin ulduzlar haqqında elmdən bəhs olunurdu. B.-un əsəri dövrümüzədək çatmamışdır; çox vaxt təhrif olunmuş ayrı-ayrı hissələrinə yunan və Bizans tarixçilərinin əsərlərində rast gəlinir. Ehtimal ki, yunanlar ilk dəfə kənani astrologiyası ilə B.-un sayəsində tanış olmuşlar. B. Afinada böyük şöhrət qazanmışdı; Herodotun məlumatına görə, Afinada B.-un heykəli qoyulmuşdu.

**BÉROUNKA** – Çexiya ərazisində çay, Vltava çayının ən böyük sol qolu. Uz. 246 $km$, hövzəsinin sah. 8,9 min $km^2$. Mənbələrini Çexiya Meşəsi və Şumava dağlarından götürən Mje. Radbuza, Uqlava və Uslava çaylarının Plzen ş. yaxınlığında qovuşmasından yaranır, Praqadan 8 $km$ c.-da Vltava çayına tökülür. Yazda daşqınlar olur. Ağac axıdılır. Plzen və Beroun şəhərləri B. sahilindədir.





**BERRİ** – Səudiyyə Ərəbistanında, Əl-Cubayl ş.-ndən şm.-q.-də dənizsahili nəhəng neft yatağı; dünyada ən iri yataqlardan biridir. *İran körfəzi neftli-qazlı hövzəsinə* daxildir. 1964 ildə kəşf olunmuş, 1967 ildən (dəniz hissəsi 1971 ildən) istismar edilir. İlkin çıxarılabiləcək neft ehtiyatı 1600 mln. $t$, həll olunmuş qaz 78 mlrd. $m^3$-dir. Mərkəzi Ərəbistan qalxımı hüdudlarındakı braxiantiklinallarda yerləşmişdir. Neftli-qazlı sah. təqr. 400 $km^2$-dir. 2225–2301 $m$ dərinlikdə yerləşən Üst Yura yaşlı əhəngdaşılar məhsuldardır. Qalınlığı 40–50 $m$ olan 2 lay aşkar edilmişdir. Neftin sıxlığı 855–865 $kq/m^3$-dir. Tərkibində 2,2% kükürd vardır. Neft kəmər vasitəsilə Ras-Tənnurə portuna nəql olunur.

**BERRİÁS MƏRTƏBƏSİ** (Fransada Berrias k.-nin adından) – Tabaşir sisteminin alt mərtəbəsi. 1816 ildə fransız geoloqu A. Kokan tərəfindən ayrılmışdır. Əhəngdaşı və mergel qatlarından ibarətdir. İki zonaya bölünür: Beriasella grandis və Beriasella bossieri. Alp d-rında, Karpat d-rında, Qafqazda, RF-nin şm.-ş.-ində və Uzaq Şərqdə var. Qafqazdakı çöküntülərinin səciyyəvi faunası Pseudosubplanites ponticus və Fauriella bossieridir.

**BERRÓU** Xristofor (Burrough Cristofer; ? – ?) – 16 əsr ingilis səyyahı. 1579–81 illərdə ingilis tacirlərinin Qafqazın Xəzərsahili vil.-lərinə ekspedisiyasında iştirak etmişdir. B. Bakı, Şamaxı və Dərbənddə olmuş, İngiltərəyə göndərdiyi məktublarında yerli əhalinin həyat və məişəti, həmçinin Abşeronun Bilgəh k. və burada qonaqsevərliklə qarşılanmaları, ekspedisiyanın Dərbəndə səfəri, Osmanlı qoşunlarının Şirvanı tutması, Azərb.-İngiltərə ticarət münasibətləri və s. haqqında məlumat vermişdir.

*Əd.:* Əhmədov B. 1579–1581 illər ekspedisiyası və İngiltərə Azərbaycan ticarət əlaqələrinin kəsilməsi səbəbləri. ADU-nun Elmi Əsərləri (tarix və fəlsəfə seriyası), 1967, № 3; Английские путешественники в Московском государстве в XVI в. Пер. с англ. Ю.В. Готье. Л., 1937; Путешественники об Азербайджане. Б., 1961.

**BERSELİUS** (Berzelius) Yons Yakob (20.8.1779, Veversunda – 7.8.1848, Stokholm) – İsveç kimyaçısı, İsveç Kral EA-nın üzvü (1808), Peterburq EA-nın əcnəbi fəxri üzvü (1820), London Kral Cəmiyyətinin əcnəbi üzvü (1822) olmuşdur. Uppsala Un-tini bitirmişdir (1801). 1802 ildə qalvanik element cərəyanının tibdə tətbiqinə dair doktorluq dissertasiyasını müdafiə etmişdir. 1802–32 illərdə Stokholmda Tibb-Cərrahiyyə İnstunda işləmişdir (1807 ildən prof.). Avadanlıqla təchiz etdiyi özəl laboratoriyada yetirmələri ilə birlikdə eksperimental tədqiqatlar aparmışdır. İsveç Kral EA-nın prezidenti (1810–18), onun daimi katibi (1818 ildən) olmuşdur. 1832 ildən, əsasən, nəzəri və ədəbi fəaliyyət göstərmişdir.



B.-un elmi tədqiqatları 19 əsrin birinci yarısında kimyanın bütün əsas problemlərini əhatə edirdi. Atomistik nəzəriyyənin inkişafında xidmətləri böyükdür. C. *Dalton* kimi, o da sadə və mürəkkəb atomları fərqləndirmişdir; hesab etmişdir ki, bir elementin atomları digər elementlərin bir, iki, üç və s. atomları ilə, bir elementin iki atomu isə digər elementlərin üç, beş və ya yeddi atomu ilə birləşə bilər. B. tərkibin sabitliyi və bölünən nisbətlər qanunlarının doğruluğunu təcrübi olaraq yoxlayıb təsdiq etmişdir (1810–16). 45 kimyəvi elementin atom kütləsini (1807–18), həmçinin 2000-ədək birləşmənin faizlə tərkibini müəyyən etmişdir. Kimyəvi elementlərin oksigen atomunun kütləsinə (çəkisinə) görə hesablanmış atom kütlələrinin (çəkilərinin) cədvəlini (1814) dərc etmişdir. Birləşmələrdə istilik tutumunu atomların sayı ilə əlaqələndirən Dülonq-Pti qanununa və E. *Mitçerlixin* izomorfizmə dair təsəvvürlərinə əsaslanaraq bu cədvəli xeyli təkmilləşdirmişdir (1826). B.-un və C. Daltonun atom kütlələri cədvəlləri arasındakı mühüm fərq ondan ibarət idi ki, B.-un aldığı qiymətlər (atom kütlə vahidlərinə, yəni hidrogen atomunun kütləsinə görə hesablanmış), əsasən, tam ədədlər deyildi.

B. müasir kimyəvi simvolikanın müəllifidir: kimyəvi elementlərin lat. adlarının başlanğıc hərflərindən (bir və ya iki) istifadə etməklə onların işarələrini (1814) vermiş, kimyəvi reaksiyaları birbaşa tənliklərlə göstərməyə imkan verən kimyəvi birləşmələrin formullarını və əmsallarını təklif etmişdir (1817–30). Seriumu (İsveç kimyaçısı V. Hizingerlə birlikdə, 1803), selen (1817) və toriumu (1826) kəşf etmişdir. İlk dəfə sərbəst halda silisium, titan, tantal və sirkonium almışdır (1824–25).

Elektrokimyəvi oxşarlıq nəzəriyyəsini inkişaf etdirmişdir (1812–19); belə ki, sadə cisimlərin bütün atomları işarəsinə və yükünün qiymətinə görə sıraya qoyula bilər. Bu zaman metalloidlər (B.-un adlandırdığı kimi) mənfi, metallar müsbət yüklənir. Ən elektromənfi oksigen hesab olunur, ən böyük müsbət yüklər qələvi metallar üçün xarakterikdir. B.-a görə, birləşmələrin elektrokimyəvi sırası da vardır və bütün kimyəvi reaksiyalar atomları əhatə edən elektrik yüklərinin qarşılıqlı təsirinin yekunudur.

1811 ildən üzvi birləşmələrin element tərkibinin təyini ilə məşğul olmuşdur; "üzvi kimya", "üzvi birləşmə" terminlərini elmə daxil etmişdir. Üzvi kimyaya dair tədqiqatlarında vitalizm prinsipini rəhbər tutaraq, üzvi maddələrin yalnız bitki və heyvan orqanizmlərində xüsusi "həyati qüvvə"nin təsirilə əmələ gəldiyini fərz etmişdir. İzomerlik və allotropiya anlayışlarını elmə daxil etmişdir (1830–40-cı illər). Kimyəvi reaksiyalarda "üçüncü cisimlərin" (katalizatorların) qeyri-stexiometrik müdaxiləsi hadisəsinin ifadəsi üçün "kataliz" terminini (1835), müasir katalitik aktivlik anlayışının analoqu olan "katalitik qüvvə" anlayışını elmə daxil etmişdir. İllik "Kimya və fizikanın nailiyyətlərinin xülasəsi"ni tərtib etmişdir (1821 ildən, cəmi 27 cild).

*Əd.:* Соловьев Ю.И., Куринной В.И. Я. Берцелиус: Жизнь и деятельность. М., 1980.

**BERŞÉ** Qulyelmo (Quqlielmo Berchet; 3.6.1833, Venesiya – 15.6.1913, Karpenedo) – italyan mənbəşünası, tarixçi. "Venesiya Respublikası və İran" (Turin, 1865), "Suriyadakı Venesiya konsullarının verdiyi xəbərlər" (Turin, 1866) sənədlər toplularını tərtib etmişdir. Toplularda *Uzun Həsənin* Venesiya hökumətinə məktubu, Venesiya senatının gizli qərarları, Venesiya səfirlərinin öz hökumətlərinə göndərdikləri məlumatlar və s. mühüm yer tutur. Birinci topluda Venesiyanın Azərb. və İranla əlaqələrinə (13–18 əsrlər) aid sənədlər və onların izahatları verilir. İkinci topluda isə Suriyadakı Venesiya səfirlərinin Səfəvilər dövləti haqqındakı məlumatları verilmişdir. Bunlar Səfəvilər dövlətinin iqtisadi, siyasi və hərbi vəziyyəti ilə yaxından tanış olan Türkiyə dövlət qulluqçularının verdiyi dəqiq məlumatlar əsasında yazıldığından əhəmiyyətlidir. B.-nin toplularında *Ağqoyunlu dövlətinin* Avropa dövlətləri, xüsusilə Venesiya ilə diplomatik münasibətləri də öz əksini tapmışdır.

**BERTALAR**, bartalar, qamilalar, şanqalalar, beni-şanqullar – Sudan və Efiopiyanın sərhəd rayonlarında yaşayan Nilboyu xalqlar-

dan biri. B.-ın şoqalelər, aqarolar, soloklar (fesakalar), daşilər, fazoqlolar, koşolar və s. subetnik qrupları var. Sayları Sudanda 70 min, Efiopiyada 80 min nəfərdir (1995). Berta və inqassana (tabi) dillərində danışırlar; bir sıra dialektləri mövcuddur. Kişilərin əksəriyyəti ərəb dilini bilir. Dindarları müsəlmandır. Əsas məşğuliyyətləri tropik toxa əkinçiliyi (darı-elevsina, paxlalı bitkilər, küncüd və s.), davarçılıq, balıqçılıq və yığıcılıqdır (yabanı meyvə, bal). Sənətkarlıq sahələri: metalişləmə, bitki liflərindən hörmə, ağac, sümük, buynuz üzərində oyma. Kompakt kəndlərdə yaşayırlar. Dairəvi evlərinin konusvarı damı ot layları ilə örtülüdür. Ənənəvi geyimləri dəridən bel sarğısı, bitki liflərindən qısa yubka, dəri və parçadan çiyinlikdir. Çox vaxt (xüsusilə Efiopiyada) ağ şalvar və uzun enli köynəklər, qara yun bürüncəklər geyinirlər. Yeməkləri: sous və bitki yağı əlavə olunmuş dənli və paxlalı bitkilərdən hazırlanan sıyıq, balıq, meyvə, tərəvəz, nadir hallarda ətdir. Sosial əlaqələrin patriarxal-tayfa genealoji sistemi səciyyəvidir. Sosial quruluşun əsasını bir neçə böyük ailədən ibarət kənd icması təşkil edir. Ənənəvi folklorları tayfalar və əcdadlar haqqında miflər, nağıllar və atalar sözlərindən ibarətdir.



Berta musiqiçiləri.

**BERTELS** Yevgeni Eduardoviç (25.12.1890, S.-Peterburq – 7.10.1957, Moskva) – rus şərqşünası, SSRİ EA m. üzvü (1939), Tür. SSR EA (1951), Özb. SSR EA (1956) fəxri üzvü, Özb. SSR (1944) və Tac. SSR əməkdar elm xadimi (1946). İran EA (1944) və Ərəb EA (Dəməşqdə) m. üzvü (1955). SSRİ Dövlət mükafatı laureatı (1948). 1920 ildə Petroqrad Un-tinin Şərq dilləri fakültəsini bitirmiş, ömrünün sonunadək SSRİ EA Şərqşünaslıq İn-tunda (1930 ilədək SSRİ EA Asiya Muzeyi hazırda REA-nın şərqşünaslıq in-tu) işləmişdir. B. fars, tacik və bir sıra türkdilli xalqların ədəbiyyat tarixi sahəsində görkəmli mütəxəssis olmuşdur. Sufizm və sufi ədəbiyyatı- na, Firdövsi, Sədi, Cami, Nəvai və b. klassiklərin yaradıcılığına, Yaxın və Orta Şərq xalqlarının mədəniyyət tarixinə həsr olunmuş əsərlərin müəllifidir. "İslam Ensiklopediyası"nın fəal müəlliflərindən olmuşdur. İranşünaslıq sahəsində rus mətnşünaslıq məktəbinin banisi və rəhbəri olan B., Firdövsinin "Şahnamə", Nizaminin "İsgəndərnamə" (Ə.Əlizadə ilə birlikdə) əsərlərinin elmi-tənqidi mətnini hazırlamış, mətnşünaslığa dair nəzəri məqalələr yazmışdır.



B. Azərb. ədəbiyyatının tədqiqi sahəsində də xeyli iş görmüş, Nizami, Xaqani və Füzulinin yaradıcılığının tədqiqi ilə ardıcıl məşğul olmuşdur. B. SSRİ-də nizamişünaslığın banilərindəndir. Bir çox əsəri Şərq və Qərbi Avropa dillərinə tərcümə olunmuşdur. B.-in şəxsi kitabxanası Azərb. Resp. EA Məkəzi kitabxanasına verilmişdir. 1947 ildə Bakıda olmuş, Azərb. Dövlət Un-tinin şərqşünaslıq fakültəsində mühazirələr oxumuşdur.

Ə s ə r l ə r i: Böyük Azərbaycan şairi Nizami. B., 1958; Низами и Физули. М., 1962; Суфизм и суфийская литература. М., 1962; Навои и Джами. М., 1965.

*Əd.*: А л и е в Г.Ю. Библиография научных трудов чл. корр. АН СССР Е.Э. Б е р т е л ь с а, "Советское востоковедение", 1958, №1; М и л и б а н д С.Д. Библиографический словарь советских востоковедов. М., 1975.

**"BERTELSMÁN"** (Bertelsmann AG) – Almaniya multimedia konserni. Dünyanın ən böyük multimedia konsernlərindən biridir. Güterslo ş.-ndə 1835 ildə Karl Bertelsmanın yaratdığı nəşriyyatın bazasında formalaşmışdır. 1939 ildən cəbhə üçün çap məhsulları istehsal edən B. 1944 ildə bağlanmışdır. 1947 ildə R.Mon tərəfindən fəaliyyəti bərpa edilmiş, 1971 ildə səhmdar cəmiyyətə çevrilmişdir. İqamətgahları Güterslo, Nyu-York və Hamburqda yerləşən B.-a 6 media qrupu daxildir. Konsern kitab, qəzet və jurnallar nəşr edir, televiziya və radio proqramları hazırlayır, musiqi və media xidmətləri göstərir, öz məhsullarını beynəlxalq mağazalar şəbəkəsi, klub kataloqları və İnternet vasitəsilə yayır.

**BERTLÓ** Pyer Ejen Marselen (Berthelot) (25.10.1827, Paris – 18.3.1907, Paris) – fransız kimyaçısı və dövlət xadimi, Paris EA üzvü (1873). Paris Un-tini bitirmişdir (1849). Parisdə Ali Əczaçılıq Məktəbində (1859–76), Kollej de Fransda (1864–1906; 1876 ildə burada məxsusi B. üçün tədqiqat laboratoriyası olan üzvi kimya kafedrası yaradılmışdı) kimya prof.-u olmuşdur. Eyni zamanda Ali Təhsilin baş inspektoru (1876), xalq maarifi və zərif sənətlər naziri (1886–87), ömürlük senator (1881 ildən), xarici işlər naziri (1895–96) işləmişdir. 1889 ildən Paris EA-nın daimi katibi, Fransa Kimya Cəmiyyətinin Prezidenti olmuşdur (1866, 1875, 1882, 1889, 1901).



Əsas elmi tədqiqatları üzvi və analitik kimya, termokimya, kimya tarixi və aqrokimya sahəsinə aiddir. B. üzvi kimyada sintetik istiqamətin əsasını qoyanlardan biridir. Müxtəlif siniflərə aid çoxlu üzvi maddələr sintez emişdir. B.-nun işləri qeyri-üzvi maddələrdən üzvi maddələrin alınmasının mümkünlüyünü qəti sübuta yetirərək, "həyati qüvvə" (bax *Vitalizm*) haqqında təsəvvürləri təkzib etmişdir. 1854 ildə qliserin və yağ turşularının qarşılıqlı təsirindən palmitin, stearin, olein və s. təbii piylərin analoqlarını; sulfat turşusunun iştirakı ilə etileni hidratlaşdırmaqla etil spirtini; karbon-sulfiddən və hidrogen-sulfiddən metanı sintez etmişdir. 1862 ildə Volta qövsü alovundan hidrogen buraxmaqla elementlərdən asetileni, su və karbon-oksiddən qarışqa turşusunu, 1862–66 illərdə asetilen əsasında bir sıra aromatik karbohidrogenləri almışdır. Üzvi birləşmələrin hidrogenyodidlə reduksiyasının ümumi metodunu təklif etmişdir (1867).

B.-nun termokimya sahəsində irəli sürdüyü "maksimal iş prinsipini"nə (1867) görə öz-özünə gedən bütün proseslər istiliyin daha çox ayrılması yönündə baş verir (Bertlo–Tomsen prinsipi). B. 1881 ildə kalorimetrik bombanın (kalorimetrin əsas hissəsi) ixtirasına gətirib çıxaran geniş kalorimetrik tədqiqatlar aparmışdır. Ekzotermik və endotermik reaksiyalar haqqında anlayışlar irəli sürmüşdür. "Termokimyaya əsaslanan kimyəvi mexanika oçerki" (1879) adlı başlıca əsərində mexanikanın qanunlarına əsaslanan ümumi kimyəvi nəzəriyyə yaratmağa çalışmışdır. Əsərin birinci cildi kimyəvi reaksiyaların və cismin fiziki halının dəyişiklikləri ilə şərtlənən istilik effektləri və kalorimetriyaya; ikinci cildi maddənin cevrilmələrinə (kimyəvi dinamika) və əsas qanunauyğunluqları K.Bertolle tərəfindən formulə edilmiş kimyəvi statikaya aiddir. B. bu qanunauyğunluqlara maks. iş prinsipi mövqeyin- dən yanaşmış və fərz etmişdir ki, maks. istilik ayıran sistemdə yalnız xarici mənbələrin (qızdırılma, işıqlandırma, elektrik cərəyanı, həllolmada aqreqatsızlaşma enerjisi) təsirindən yeni dəyişikliklər baş verə bilər.

B. həmçinin efirləşmə prosesinin kinetik qanunauyğunluqlarını tədqiq etmiş, partlayıcı maddələrin öyrənilməsinə öz töhfəsini vermişdir: partlayışın tempunu, partlayış dalğasının yayılma sürətini, yanma sürətini və s. təyin etmiş, torpaqda atmosfer azotunun mikroorqanizmlər tərəfindən fiksasiyasını aşkar etmişdir.

Görkəmli eksperimentçi olan B. bir çox istiqamətlərdə kimyanın inkişafını irəli aparmışdır; bununla belə o, qabaqcıl nəzəri təsəvvürlərdən geri qalırdı. Uzun müddət atomistik nəzəriyyənin və atom-molekul təliminin, kimyəvi quruluş və stereokimya nəzəriyyələrinin inadlı əleyhdarı olmuş, kimyəvi elementlərin dövri sisteminin inkişafını qəbul etməmiş, elektrolitik disossiasiya konsepsiyası və məhlulların osmos nəzəriyyəsi ilə razılaşmamışdır. B. yalnız 1890-cı illərdə atom-molekul təlimini və kimyəvi quruluş nəzəriyyəsini qəbul etmişdir.

B. üzvi kimya, üzvi sintez, termokimya, partlayıcı maddələr və kimya tarixinə dair bir çox kitablar yazmışdır. 2500-dən çox elmi əsərin (o cümlədən təhsil, əxlaq, fəlsəfə məsələlərinə dair) müəllifi olmuşdur. B. ilk dəfə əlkimyaçı və kimyaçıların əsərlərini yunan və ərəbcədən fransız dilinə tərcümə etmişdir.

*Əd.*: М у с а б е к о в Ю.С. Марселен Бертло. М., 1965.

**BERTOLÉSİYA** (Bertholletia) – lesitikilər fəsiləsindən həmişəyaşıl tropik ağac cinsi. Fransız kimyaçısı K.Bertollenin adındandır. Cənubi Amerika tropiklərində 2 növü var. Hünd. 30–50 *m*-ədək olan h ü n d ü r B. (B.excelsa) daha çox yayılmışdır; Amazon (Braziliya) hövzəsinin rütubətli meşələrində bitir. Lansetvarı, qalınqabıq yarpaqları növbəli, üst tərəfdən parlaqdır; uz. 36 *sm*-ədək, eni 16 *sm*-ədək olur. Açıq-sarı, yaxud ağ çiçəkləri uz. 20–40 *sm* olan salxımvarı çiçək qrupunda toplanmışdır. Braziliya qozu, yaxud Para qozu (qozların ən dadlısı hesab edilir) adlanan meyvələri diametri 10–16 *sm* və kütləsi 1–1,5 (2-yədək) *kq* olan möhkəmdivarlı dəyirmi, yaxud oval qutucuqlardır; içərisində, üzəri bərk qabıqla örtülmüş 10–25 ədəd üçüzlü uzunsov toxumu (uz. 6 və qalınlığı 3 *sm*-ədək) olur. Ləpəsində 60–70% yağ ("sədəfi" yağ) və 17%-ədək zülal var; yağı qida və texniki (saatları yağlamaq üçün ən yaxşı yağ) əhəmiyyətlidir. Meyvələri ilboyu yetişir. Bir yaşlı ağacdan 400–500 *kq* qoz yığılır. Hər il Braziliyada 50 min *t*-ədək qoz yığılır və dünyanın bir çox ölkəsinə ixrac edilir.



Bertolesiya (Bertholletia excelsa) ağacları.

**BERTOLLÉ** (Berthollet) Klod Lui (9.12.1748, Savoyya dep-ti, Talluar – 6.11.1822, Paris dep-ti, Arköy) – fransız kimyaçısı, Paris EA-nın üzvü (1780). Turin Un-tini (1768) bitirmiş, tibb doktoru dərəcəsini (1770) almışdır. 1770–83 illərdə həkim və əczaçı (1772 ildən Parisdə) işləmişdir. Paris Un-tində mühazirələr dinləmiş, Orlean hersoqunun saray həkimi, dövlət boyaq f-klərinin müfəttişi, sikkəxanada nəzarətçi işləmişdir. Eyni zamanda təbiyyat elmlərini öyrənməklə və kimya sahəsində tədqiqatlarla, kimya və metallurgiya istehsalatının təşkili ilə məşğul olmuşdur.1794 ildən Parisdə təşkilatçılarından biri olduğu Normal və Politexnik məktəblərinin kimya prof.-u idi. 1798–99 illərdə Napoleon Bonapartın Misir ekspedisiyasında (elmi məsləhətçi) iştirak etmiş, xidmətinə görə senator təyin edilmişdir.



Əsas tədqiqatları qeyri-üzvi və tətbiqi kimyaya, məhlulların və ərintilərin kimyasına aiddir. Ammonyak (1785), sianid turşusu (1786) və hidrogen-sulfidin (1788) kimyəvi tərkibini təyin etmişdir. Parçaların, mum və kağız kütləsinin xlorla ağardılmasının mühüm sənaye əhəmiyyətli üsulunu işləyib hazırlamışdır (1785). Hipoxlorit və hipoxlorat turşularının duzlarını, məs., kalium-xlorat (Bertolle duzu adlanır, 1786) kəşf etmiş və almışdır. Yeni kimya nomenklaturasının (1786–87, A. *Lavuazye* və digər alimlərlə birlikdə) işlənib hazırlanmasında iştirak etmişdir. "Oxşarlıq qanunlarının tədqiqi" (1801) və "Kimyəvi statika təcrübələri" (1803) əsas işlərində kimyəvi statika qanunlarını formulə etmişdir: kimyəvi reaksiyanın istiqaməti qarşılıqlı təsirdə olan maddələrin kütləsi və fiziki xassələri (uçuculuq, həllolma və s.) ilə, həmçinin reaksiyanın getdiyi şəraitlə (məs., temprla) müəyyən edilir. B.-nin fasiləsiz və dönər proseslər kimi kimyəvi reaksiyalar haqqında təsəvvürləri 19 əsrin sonunda kimyəvi tarazlıq haqqında yaradılmış təlimin əsası oldu. Lakin sonradan M. *Bertlo* göstərdi ki, B-nin qanunları yalnız "maksimum iş prinsipinə" cavab verən hallarda təsdiq olunur. Kimyəvi birləşmənin qeyri-sabit tərkibinə dair məsələdə 1800–08 illərdə J. *Prustla* B.-nin məğlubiyyəti ilə nəticələnən polemika aparmışdır. B. ilə J. Prust arasında mübahisə tərkibin sabitliyi qanununu təs-

diqlədi. 20 əsrin əvvəllərində N.S. *Kurnakov* tərəfindən *bertollidlər* adlanan dəyişən tərkibli birləşmələrin kəşfi ilə B.-nin baxışlarının da doğruluğu təsdiq olundu.

A. Lavuazye və b. alimlərlə birlikdə indi də nəşri davam edən "Annales de chimie" jurnalının əsasını (1789) qoymuşdur.

**BERTOLLÉ DUZU** – *bax Xloratlar.*

**BERTOLLİDLƏR** – dəyişəntərkibli kristallik kimyəvi birləşmələr; *daltonidlərdən* fərqli olaraq tərkibin sabitliyi və bölünən nisbətlər qanunlarına tabe deyildir. Qeyri-stexiometrik daxilolma birləşmələrinə aiddir. 1912 ildə N.S. *Kurnakov* tərəfindən K.*Bertollenin* şərəfinə elmə daxil edilmişdir.

**BERTOLÚÇÇİ** (Bertolucci) Bernardo (d. 16.3.1941, İtaliya, Parma) – italyan kinorejissoru, ssenarist. Şair Attilio B.-nin oğludur. Roma Un-tində italyan filologiyasını öyrənməklə yanaşı, həvəskar filmlər də çəkirdi. 1950-ci illərin ortalarından paytaxtın solçu mövqedə olan intellektual və sənət elitasına qoşulmuşdur. Onlar rej. P.P. *Pazolininin* ["Akkatone" filmində (1961) B. onun asistenti olmuşdur] ətrafında birləşmişdilər. B.-nin rej. debütü olan "Arıq kirvə" (1962, ssenarisi Pazolini ilə birlikdə) filmində Pazolininin təsiri hiss olunur (kriminallaşmış lümpen-proletar mühitinin təsviri, "sərt" neorealizm ruhunda faktura, sosial tələbata uyğun). "İnqilab ərəfəsində" (1964) filmində B. öz intonasiyasını, ədəbi üsluba uyğun kinematoqrafik ifadə formasını tapmışdır. Yetişməkdə olan qiyamın həyəcanı, inqilabi dözümsüzlük nəsr əsərlərinin sərbəst kinoadaptasiyasında ifadə olunmuşdur: "Partnyor" (F.M. Dostoyevskinin əsəri üzrə, 1968), "Hörümçək strategiyası" (X. L. Borxesin əsəri üzrə, 1970), "Konformist" (A. Moravianın əsəri üzrə, 1970). B. yaradıcılığının yetkin dövrünün poetikasına italyan operasının təsiri olmuşdur. Onun qəhrəmanlarının, eləcə də B.-nin özünün – varlı ailədən çıxmış, lakin sosial ədalətsizliyi kəskin şəkildə hiss edən cavan oğlanın daxili narahatlığını "Neft yolu" sənədli-publisistik televiziya serialında (1965–66), "Barsız əncir ağacı" novellasında (başqa adı "Aqoniya"), "Sevgi və qəzəb" filmində (1969) dəf etməyə çalışmışdır. 1968 il tələbə ixtişaşlarından sonra yaranan ümidsizlik dünya kinosunun ən dramatik əsərlərindən olan "Parisdə son tanqo" (1972) filmində öz ifadəsini tapmışdır. B.-nin ən ideoloji və irihəcmli filmi "İyirminci əsr"dir (1976).



1976 ildən sonra rej. B. Britaniyaya köçmüş, özünü apatrid sənətkar hesab edərək orada ingilis dilində filmlər çəkmişdir. Milli identiklik axtarışları B.-nin sonrakı dövr yaradıcılığının aparıcı motivinə çevrilmişdir. "Ay" (1979) və "Gülməli adamın faciəsi" (1981) filmlərindən sonra "Son imperator" (1987, "Oskar" mükafatı) filmini çəkmişdir. "Göylərin himayəsi altında" (başqa adı "Səhrada çayiçmə", 1990), "Balaca Budda" (1993), "Mühasirəyə alınmışlar" (başqa adı "Şanduray", 1998) B.-nin 1990-cı illərdə çəkdiyi filmlərdəndir. "İtən gözəllik" (başqa adı "Mən tək rəqs edirəm", 1995) filmindəki vizual zənginlik və "Xəyalpərəstlər" (2003) filmindəki müasir antiqlobalizmi 1968 il inqilabının davamı kimi qiymətləndirmək cəhdi "Konformist" və "İyirminci əsr" müəllifinin qüdrət və ehtirasını xatırladır, lakin canlandıra bilmir.

**BERTRÁN** (Bertrand) Jozef Lui Fransua (11.3.1822, Paris – 5.4.1900, Paris) – fransız riyaziyyatçısı, Paris EA-nın üzvü (1856), Peterburq EA-nın əcnəbi fəxri üzvü (1896). Parisdə Politexnik məktəbini bitirmiş (1839), orada və Ali Normal Məktəbdə işləmiş, 1862 ildən Kollej de Fransın prof.-u olmuşdur. Ədədi sıraların bəzi yığılma əlamətlərini müəyyən etmişdir. Ədədlər nəzəriyyəsində B e r t r a n  p o s t u l a t ı və ehtimal nəzəriyyəsində B e r t r a n  p a r a d o k s u məlumdur. Ali və orta məktəblər üçün riyaziyyat dərsliklərinin müəllifidir.

**BERTRÁN** (Bertrand) Qabriel Emil (17.5.1867, Paris 20.6.1962, Paris) – fransız biokimyaçısı, kimyaçı, botanik, bakterioloq. Paris EA-nın üzvü (1923), SSRİ EA-nın əcnəbi m. üzvü (1924). Parisdə Ali əczaçılıq məktəbini bitirmişdir. 1900 ildən Sorbonnada işləmiş (1904 ildən laboratoriya müdiri, 1908 ildən prof.), eyni zamanda Paster İn-tunda şöbə müdiri olmuşdur. Şəkərin və oksidləşdirici fermentlərin biokimyasını, heyvan və bitkilərin həyatında mikroelementlərin rolunu öyrənmişdir. "Koenzim" (koferment) və "oksidaza" terminlərini elmə daxil etmişdir. Anaerob və aerob proseslərin aktivasiyasında kofermentlərin rolunu müəyyənləşdirmiş, vaksinasiyanın antitoksikliyini və s. tədqiq etmişdir.

**BERTRÁN** (Bertrand) Marsel Aleksandr (2.7.1847, Paris – 13.2.1907, Paris) – fransız geoloqu, Paris EA-nın üzvü (1896), Peterburq EA-nın əcnəbi m. üzvü (1899). 1872 ildə Parisdə Politexnik məktəbini bitirmişdir. 1896 ildən Paris Ali Dağ-Mədən Məktəbinin prof.-u olmuşdur. Əsasən, qırışıqlıq zonalarını öyrənmişdir. İri tektonik hərəkətlərin dövriliyi anlayışını irəli sürmüş və Huron, Kaledon, Hersin və Alp əsas qırışıqlıq epoxalarını ayırmağı təklif etmişdir. Maqmatik proseslərin inkişafında bir sıra qanunauyğunluqları müəyyənləşdirmiş, "*şaryaj*" anlayışını irəli sürmüş və onun izahını vermişdir.

**BERTRANDİT** (fr. mineraloqu E. Bertranın adından) – mineral. Kimyəvi tərkibi $Be_4Si_2O_7(OH)_2$. *Berillium filizlərinin* komponentidir. Romb sinqoniyasında kristallaşır. Az miqdarda bor və germaniumla qarışmış olur. Paz və ya yastı prizmatik lövhəciklər şəklində xırda kristallar əmələ gətirir. Ağ, rəngsiz, çəhrayı və sarı çalarlıdır; şəffafdır. Şüşə parıltılıdır. Sərtliyi 6–7, sıxlığı 2600 *kq/m³*. Peqmatitlərdə, qreyzenlərdə, hidrotermal yataqlarda rast gəlinir.



Bertrandit.

**BERTYERİT** (Bertye soyadından) – mineral, kimyəvi tərkibi $FeSb_2S_4$. Romb sinqoniyasında kristallaşır. Kristalları iynəvari, yaxud prizmatikdir. Dənəvər, lifli, lələkvarı aqreqatlar var. Rəngi tünd boz, əsasən, əlvan çalarlıdır. Sərtliyi 2–3, sıxlığı 4640 *kq/m³*. Sb sulfidləri, ferberit və s. ilə birlikdə aşağı temp-rlu hidrotermal Sb, Au və W yataqlarında rast gəlinir.

Bertyerit.



**BERÚLA** (Berula Koch.) – kərəvizkimilər fəsiləsindən çoxillik ot bitkisi cinsi. Vətəni İngiltərədir. Hünd. 30–60 *sm*-dir. Yarpaqları uzunsov, lələkvarı yarıqlı, çiçəkləri ağdır. Enli yumurtavarı meyvəsi yanlardan basıq, uz. 2 *mm*-ədək olur. Qərbi Avropada, Afrikada, Balkan ölkələrində, İranda, Qafqazda yayılmışdır. Azərb.-da d ü z B. (B. erecta) adlı 1 növü bitir. Samur-Dəvəçi, Xəzəryanı və Kür-Araz ovalıqlarında, Alazan-Əyriçay dərəsində, Lənkəranın dağlıq hissəsində və Naxçıvanda yayılmışdır. Bataqlıqda, çay kənarında bitir. İyun–iyulda çiçəkləyir, iyul–avqustda meyvə verir. Tərkibində kumarinlər, flavonoidlər, efir yağları, karbohidratlar vardır. Diuretik (sidikqovucu) təsirlidir. Xalq təbabətində diş ağrısı və sinqa xəstəliyi zamanı istifadə edilir.



Düz berula (Berula erecta).

**BERYÓZOVKA** – RF-də, Saxa (Yakutiya) Resp. ərazisində çay. Kolıma çayının sağ qolu. Uz. 517 *km*, hövzəsinin sah. 24,8 min *km²*. Yukagir yastıdağlığında enli dərədə axır. Əsasən, yağış suları ilə qidalanır. Ortaillik su sərfi mənsəbində 53,5 *m³/san*. Oktyabrda donur, mayın ortalarında donu açılır. B. hövzəsində ümumi sah. təqr. 50 *km²* olan təqr. 2000 xırda göl var. Ağac axıdılır. 20 əsrin əvvəlində B. hövzəsində donmuş qruntda mamont skeletinin qalıqları (sonralar Sankt-Peterburqa gətirilmişdir) tapılmışdır.

**BERYOZOVSKİ** – RF-də, Sverdlovsk vil.-nin c.-unda şəhər. Əh. 50 min (2005). Orta Uralın ş. yamacında, Beryozovka çayı (Pışmanın qolu) sahilində, Berezit d.y. st.-nın 6 *km*-liyindədir.

18 əsrin ortalarından qızıl çıxarılır. 1938 ildən şəhərdir. Sibir Bədən Tərbiyəsi Akademiyasının filialı; Ural qızıl-platin sənayesi tarixi muzeyi fəaliyyət göstərir. Maşınqayırma, metal emalı, metallurgiya, ağac emalı, yeyinti sənayesi; tikinti materialları istehsalı; yaxınlığında torf hasilatı var.

**BERYÓZOVSKİ QIZIL YATAĞI** – RF-də, Sverdlovsk vil. ərazisində, Beryozovski ş. yaxınlığındadır. 18 əsrin əvvəllərində kəşf olunmuş, 1745 ildən (ölkədə ilk) istismar olunur. Ural qırışıqlıq vilayətinin Ural-Tobol antiklinoriumu ilə əlaqədardır. Filizləşmə 1–1,2 *km* dərinliyədək izlənilir. Yeraltı (520 *m* dərinlikdə) üsulla istismar olunur. Filiz kütləsi müxtəlif yaşlı porfir və lamporfir daykalar qurşağındakı kvars və sulfidli kvars damarlarından ibarətdir. Əsas filiz mineralları: pirit, qalenit, tetraedrit, aykinit, xalkopirit, təbii qızıl. Filizdə qızılın miqdarı 8–12 *q/t*, meyarı 840–980-dir.

**BÉRZİNŞ** Andris (d. 10.12.1944, Latviya, Nitaure) – Latviya dövlət və siyasi xadimi, Latviya Resp.-nın prezidenti. Riqa Politexnik İn-tunu (1971) və Latviya Dövlət Un-tini (1988) bitirmişdir. Əmək fəaliyyətinə mühəndis kimi başlamış, müxtəlif vəzifələrdə çalışmışdır. Latviya Bankı nəzdində Özəlləşdirmə fonduna rəhbərlik etmiş (1993), "Latvijas Unibank"ın prezidenti (1993–2004), Latvenergi Şurasının sədri (2006–09) olmuş. Latviya seymində (10-cu çağırış) deputat seçilmişdir. 2011 il prezident seçkilərində qalib gəlmişdir.

**BÉRZİNŞ ULDİS** (d.17.5.1944, Riqa) – latış şairi, tərcüməçi. Latviya Un-tində təhsil almış, Leninqrad Un-tinin şərqşünaslıq kafedrasında (1968–1971) türk dilini öyrənmişdir. Moskva Dövlət Un-tində fars, türk, Daşkənd Dövlət Un-tində özbək, Reykyavik Un-tində island dillərini öyrənmişdir. İvrit, tatar və çuvaş dillərini də mənimsəmişdir. 2002 ildən Latviya Un-tinin müasir dillər fakültəsində türk dilini tədris edir.İlk şeir kitabı ("Abidə") 1980 ildə nəşr edilmişdir. Bir sıra Avropa (polyak, island və s.), Şərq (türk, fars, ərəb və s.) xalqları, o cümlədən Azərb. ədəbiyyatından tərcümələr yaradıcılığında mühüm yer tutur. "Kitabi-Dədə Qorqud" eposunu, R.Rzanın "Rənglər" (1972) silsiləsini, Ə. Əylislinin "Adamlar və ağaclar" (1977) povestini, bir sıra müasir Azərb. şairlərinin əsərlərini orijinaldan tərcümə etmişdir. Klassik Azərb. ədəbiyyatına dair məqalələri, Azərb.-a həsr olunmuş şeirləri var. 15 il üzərində çalışdığı Quranın latış dilinə tərcüməsini 2009 ilin martında tamamlamışdır.

**BESÁYALAR**, b i s a y a l a r, c i l a m a l a r, b a v a n q l a r, c i l a m a s u n g e y l ə r ("çay adamları") – Malayziyanın ş.-ində (Saravak, Sabax əyalətlərində) xalq. Bruney buxtasına (Kalimantan a.-nın şm. hissəsi) tökülən çayların aşağı axarlarında yaşayır. Sayları 40 min nəfərdir (1995). Avstroneziya dil ailəsinin Qərbi Avstroneziya qrupuna aid besaya dilində danışırlar. Dindarları müsəlmandır, xristianlar da var. Saravak B.-ı ənənəvi etiqadlarını saxlayırlar.



Besaya qızları gözəllik müsabiqəsində.

Əsas məşğuliyyətləri dəmyə toxa çəltikçiliyidir; çəltik sahələrində həmçinin qarğıdalı, bibər, balqabaq, paxlalı bitkilər, texniki bitkilərdən isə kokos palması və tütün becərilir. Kişilər heyvandarlıq (camış, donuz), balıqçılıq və ovçuluqla (qaban, maral, vəhşi kəl, qırqovul), qadınlar yığıcılıqla (bal, kamfara, quttaperça və s.) məşğul olurlar.

Ənənəvi sənətkarlıq sahələri tapanın toxunması və ağac emalıdır. Toxuculuq, metal emalı, dulusçuluqla tanış olmayan B.-lar düyü, saqo və yığıcılıq məhsulları mübadiləsində malayyalılardan sənətkarlıq məmulatları alırlar. Ənənəvi məskənləri çayboyunca yerləşən uzun binalardan (uz. 60 *m*-dək) ibarətdir. Əsas yeməkləri balıq, tərəvəz və düyüdür. Ət, əsasən, bayramlarda yeyilir. Epos, musiqi və rəqs folkloru inkişaf etmişdir.

**BESERMANLAR** (rusca "busurman" – müsəlman sözündəndir) – RF-də xalq. Sayları təqr. 4 min nəfərdir (2002). Əsasən, Udmurtiyanın şm.-q.-ində (3 min nəfər, əsasən, Qlazov, Yar, Balezino, Yukamenskoye, Krasnoqorskoye r-nlarında; təqr. 1 min nəfər isə şəhərlərdə) yaşayırlar. Udmurt dilinin beserman ləhcəsində danışırlar. Rus və tatar dilləri də yayılmışdır. Dindarları, əsasən, pravoslavdır.

B., ehtimal ki, *Volqa-Kama Bulqarıstanının* tərkibinə daxil olmuş və islamı qəbul etmiş cənubi udmurt qrupunun nəsilləridir. 13 əsrdən şimal ərazilərinə köç-



Beserman qızları Korban bayramında.

müşlər. Sənədlərdə 16 əsrdən Çeptsa çayının aşağı axarlarında, 17 əsrin əvvəllərindən isə orta axarlarında və hövzəsində çox vaxt “çuvaş”, 17 əsrin ortalarından etibarən “B.” adı ilə qeyd olunurlar. 18 əsrdə B.-a pravoslavlıq qəbul etdirilmişdir. 1926 il siyahıyaalınmasına görə sayları 10 min nəfər olan B. sonralar udmurtların tərkibinə daxil olunurdular. 1990 ildə tarixi adlarının bərpası, Rusiyadakı yerli azsaylı xalqların siyahısına daxil edilməsi uğrunda çalışan Beserman xalqının cəmiyyəti yaradılmışdır. Cəmiyyət “Beserman həqiqəti” adlı qəzet nəşr edir.

Şimali udmurt mədəniyyətinə yaxın olan ənənəvi mədəniyyətləri Şimali Volqaboyu xalqları üçün səciyyəvidir. Əkinçilik, heyvandarlıq, meşə arıçılığı, ovçuluq və balıqçılıqla məşğul olmuşlar. Mövsümi iş (dülgərlik, arabaçılıq) az inkişaf etmişdir. Kəndsalma ənənələri saxlanılmışdır: malikanə “mənzil” və üstü örtülü qalereyası olan ikimərtəbəli anbarkletdən (kenos) ibarətdir. Tatar-beserman kənd evlərinin tərtibatında Çeptsa tatarları üçün səciyyəvi olan elementlərə (divarlar əlvan parçalarla bəzədilir) rast gəlinir. Ənənəvi qadın geyimindən 20 əsrin 2-ci yarısından mərasim və bayram paltarı kimi istifadə olunur. Geyimlərində cənubi udmurt və çuvaş qadın kostyumlarına oxşarlıq var: qızların hörükqabısı olan şişuclu qız papağı (takya), qadın baş geyimi (kaşpu), sinə (kiroskal), boğaz (laqa) və çiyin (kamali) bəzəkləri və s. 20 əsrin 1-ci rübünədək bölünməmiş ailələr, icma yardımlaşması (veme) mövcud olmuşdur. Etnoslararası nikahlara 20 əsrin 2-ci yarısınadək nadir hallarda təsadüf olunurdu. Udmurt panteonuna yaxın ənənəvi elementlər qalmaqdadır: əcdadların kultu, ziyarətgahlar (müqəddəs meşəliklər, bulaqlar və ağaclar), təqvimi, toy və s. mərasimlər, toy, yas və s. nəğmə-improvizasiyaları (krez). Əvvəllər tuluq zurnası (bız) yayılmışdı. Yazda Kotan (Akayaşka) bayramı, 1990-cı illərdən heyvanların qurban verilməsi və s. ilə müşayiət olunan yay bayramı – Korban (yağış duası) bərpa olunur. Bəzi yerlərdə birinci örüşə tatar kəndlərindən mollaların dəvət olunması adəti mövcuddur. Təqvim və ailə mərasimlərində ət suyunda arpa sıyığı, Milad bayramında isə duzsuz fətir (kvarnyan) hazırlanır.

**BESÉSKU** Trayan (d. 4.11.1951, Rumıniya, Murfatlar) – Rumıniya dövlət və siyasi xadimi, Rumıniya prezidenti. Konstansada Mülkü Dəniz Gəmiçiliyi İn-tunu bitirmişdir (1976). “Navrom” ticarət agentliyinin rəhbəri (1987–89), nəqliyyat naziri (1991–92; 1996–2000), parlamentin deputatı (1992–96). Buxarestin meri (2000–04) olmuşdur. 2004 ilin dekabrında Rumıniyanın prezidenti seçilmişdir. 2007 il aprelin 19-da ölkə parlamenti prezidentə impiçment elan etmişdi. 2007 il mayın 19-da prezidentin istefaya göndərilməsi məsələsi ilə bağlı referendum keçirilmişdir. Səsvermənin nəticələrinə görə B. Rumıniyanın prezidenti vəzifəsində qalmışdır. 2009 ilin dekabrında yenidən prezident seçilmişdir. “Heydər Əliyev” ordeni ilə təltif olunmuşdur.

Şərqi Beskid dağları.



**BESKİD DAĞLARI** (Beskidy) – Qərbi və qismən Şərqi Karpat d-rının şm. silsilələri zolağı. Əsasən, Polşa və Slovakiya (ş. qurtaracağı Ukraynada) ərazisindədir. Uz. təqr. 360 *km*. Qərbi, yaxud Yüksək B.d.-na [(hünd. 1725 *m*-ədək, Babya d. – B.d.-nın ən yüksək nöqtəsi), Şərqi, o cümlədən Alçaq B.d.-na (hünd. 1002 *m*-ədək, Latskov d.) və Beşad d-rına (hünd. 1346 *m*-ədək, Tarnitsa d.)] bölünür. Bir qədər c.-da yerləşən Ondava yüksəkliyini (hünd. 300–600 *m*) və Ukrayna Karpat d-rının şm.-ş.-indəki Dnestr B.d.-rını da bəzən Şərqi B.d.-na aid edirlər. B.d. ayrı-ayrı yastızirvəli massivlərdən ibarətdir. Bunların arasında alçaq dağ keçidləri var; bir-birindən Karpat d-rına paralel uzanan dərələrlə ayrılır. Yamaclarında fıstıq və küknar meşələri, zirvələrində çəmənliklər, ərazisində Babya-Qura, Qorçan, Beşad (Polşa) milli parkları var.

**BESSARÁBİYA** – Dnestr, Prut çayları ilə Dunayın aşağı axarları arasında tarixi vil. (indiki Moldovanın əsas hissəsi və Ukraynanın Odessa vil.-nin c. hissəsi). Valaxiya knyazı *Basarabın* adındandır. E.ə. 1-ci minillikdə B.-nın ərazisində Şimali Frakiya tayfaları məskunlaşmışdı. Eramızın 1-ci minilliyində burada sarmatlar, qotlar, hunlar, 6 əsrdən isə slavyanlar (uliçlər, tiverlər) yayılmışlar. 10 əsrdə B. ərazisinin bir hissəsi Kiyev rus dövlətinin, 12 əsrdə Qaliç knyazlığının, 1199–14 əsrin ortalarında Qaliç-Volın knyazlığının tərkibində olmuşdur. Sonuncunun parçalanmasından sonra B. ərazisi Moldova knyazlığının tərkibinə qatılmışdır. 1484 ildə türklər Çetatya-Alba (türkcə Akkerman), Kiliya, 1538 ildə isə Tigina (Bender) qalalalarını tutmuşlar; B. Osmanlı imperiyasının tabeliyinə keçmişdir. 1620-ci illərdə *Bucaq* ərazisinə Krım xanlığının vassalı olan kiçik noqayların bir qrupu – *Bucaq ordası* köçmüşdür. 18 əsrin 2-ci yarısı – 19 əsrin əvvələri Rusiya-Türkiyə müharibələri nəticəsində bağlanan Buxarest sülh müqaviləsinə (1812) əsasən Rusiyanın hakimiyyətinə keçmişdir. 1818 ildə B. ərazisində Bessarabiya vil. yaradılmış, 1873 ildə Bessarabiya quberniyasına çevrilmişdir. 1918 il noyabrın 27-də Sfatul Seriy (Ölkə Şurası) B.-nın Rumıniyaya birləşməsinə dair qərar qəbul etmişdir. 1940 il iyunun 26-da SSRİ hökuməti Rumıniyaya nota göndərərək, B. və Bukovinanın şimal hissəsinin qaytarılmasını tələb etmişdir. 1940 il avqustun 2-də B. ərazisində Moldaviya SSR (1991 ildən Moldova Resp.) yaradılmış, onun İzmayıl, Akkerman və Xotin qəzaları Ukraynaya birldəşdirilmişdir.





**BÉSSEL** Fridrix Vilhelm (22.7.1784, Minden – 17.3.1846, Königsberq) – alman astronomu, geodezisti və riyaziyyatçısı, Berlin EA-nın üzvü (1812), Peterburq EA-nın əcnəbi fəxri üzvü (1814). Gəncliyində həvəskar astronom olmuşdur. 1804 ildə Halley kometinin orbitini hesablamışdır. 1806 ildə Liliyentalda özəl rəsədxanada assi-



stent yeri almışdır. Burada C. *Bradleyin* müşahidələrinin nəticələrini yenidən işləmiş, refraksiya, presessiya və nutasiya sabitlərini bütün əvvəlkilərə nisbətən daha dəqiq təyin etmişdir. 1810 ildə Königsberq Un-tinin prof. olmuş və onun nəzdində tikdirdiyi rəsədxananın ömürlük direktoru olmuşdur. Rəsədxananın meridian dairəsində +47° və –16° meyil arasında 75 mindən çox ulduz müşahidə etmişdir. B. astronomik cihazların xətalar nəzəriyyəsini işləyib hazırlamış, müəyyən bir müşahidəçiyə xas olan daimi səhvi hesablamaq üçün tənlik kəşf etmişdir. Müşahidələrin nəticələrini işləyərkən riyazi üsullardan, o cümlədən ən kiçik kvadratlar üsulu və ehtimal nəzəriyyəsindən geniş istifadə etmişdir. 1838 ildə *heliometrlə* Qu bürcünün 61-ci ulduzunun parallaksını ölçmüş, bununla da tərpənməyən ulduzlara qədər məsafəni təyin etmişdir. Bir neçə il ərzində meridian dairəsində Sirius və Prosion parlaq ulduzlarını müşahidə edərək, onların trayektoriyalarında fərqli xüsusiyyətlər aşkar etmiş və bu ulduzların peykləri olduğunu fərz etmişdir. Sonralar bu fərziyyələr təsdiq olunmuşdur: 1862 ildə Siriusun və 1896 ildə Prosionun peykləri kəşf olunmuşdur. B.-in geodeziya sahəsində də mühüm işləri var. Alman geodezisti İ. Bayerlə birlikdə Şərqi Prussiyada trianqulyasiya qurmuş və meridianın bir dərəcə uzunluğunun on ən dəqiq ölçmələri əsasında Yer sferoidinin Bessel adlandırılan elementlərini təyin etmişdir.

Riyaziyyatda 1-ci növ silindrik funksiyalar (*Bessel funksiyaları*), onların ödədiyi diferensial tənlik (*Bessel tənliyi*), Furye sırasının əmsalları üçün bərabərsizlik (*Bessel bərabərsizliyi*) və interpolyasiya düsturlarından biri onun adını daşıyır.

**BÉSSEL BƏRABƏRSİZLİYİ** – bax *Furye sırası*.

**BÉSSEL FUNKSİYALARI** – birinci növ *silindrik funksiyalar*; dairəvi və silindrik simmetriyalı oblastlarda baxılan fiziki proseslərin (istilikkeçirmə, diffuziya, rəqslər və s.) öyrənilməsində istifadə olunur. B.f. *Bessel tənliyinin* həllidir. $p$ ($-\infty<p<\infty$) tərtibli (indeksli) $J_p$ B.f. bütün $x$-lərə görə yığılan

$$J_p(x)=\sum_{\kappa=0}^{\infty}\frac{(-1)^k}{k!\,\Gamma(k+p+1)}\left(\frac{x}{2}\right)^{p+2\kappa}$$

sırası ilə ifadə olunur; burada $\Gamma$ – qamma funksiyasıdır. $x>0$ olduqda $J_p(x)$-in qrafiki sönən rəqslərin əyrisini ifadə edir. $J_p(x)$-in sonsuz sayda sıfırları vardır; sıranın birinci toplananları $|x|$-in kiçik qiymətlərində $J_p(x)$-in asimptotunu verir, $x>0$ qiymətlərində

$$J_p(x)\sim\sqrt{\frac{2}{\pi x}}\cos\left(x-\frac{\pi}{2}p-\frac{\pi}{4}\right)$$

asimptotik təsviri doğrudur.

$p=n+\frac{1}{2}$ tərtibli B.f. (burada $n$ – tam ədəddir), elementar funksiyalar vasitəsilə ifadə olunur; xüsusi halda,

$$J_{1/2}(x)=\sqrt{\frac{2}{\pi x}}\sin x,\quad J_{-1/2}(x)=\sqrt{\frac{2}{\pi x}}\cos x$$

$J_p\left(\frac{\mu_n^p}{l}x\right)$ B.f. (burada $\mu_n^p$ $J_p(x)=0$, $p>-\frac{1}{2}$ tənliyinin müsbət kökləri, $l$ – hansısa müsbət ədəddir) $(0, l)$ intervalında $x$ çəkili ortoqonal sistem əmələ gətirir.

$J_0$ funksiyası ilk dəfə D. *Bernulli* tərəfindən 1732 ildə ağır zəncirlərin rəqslərinə həsr olunmuş işində araşdırılmışdır; L. *Eyler* 1738 ildə dairəvi membranın rəqsinə dair məsələyə baxaraq $p=n$ tam qiymətlərə malik Bessel tənliyinə gəlmiş və $x$-in dərəcələrinə görə sıra şəklində $J_n(x)$-in ifadəsini tapmışdır; sonralar o bu ifadəni $p$-nin ixtiyari qiymətləri üçün genişləndirmişdir. F. *Bessel* 1824 ildə planetlərin Günəş ətrafında hərəkətinin öyrənilməsi ilə əlaqədar $J_p(x)$ funksiyasını araşdırmış və $J_0(x)$, $J_1(x)$ üçün ilk cədvəlləri tərtib etmişdir.

**BÉSSEL İLİ** – *tropik il*; başlanğıcı Günəşin orta uzunluğunun sabit aberrasiya əmsalı (20, 496″) qədər azaldığı və dəqiq 280°-yə bərabər olduğu an qəbul edilir. F. *Bessel* tərəfindən təklif olunmuşdur. B.i.-nin əvvəli Yerin istənilən məntəqəsi üçün eyni vaxta düşür. B.i.-nin sutka ilə uzunluğu

$$T_0=365{,}24219879-0{,}00000614T$$

düsturu ilə ifadə olunur; burada $T$ – 1900 ildən sonrakı yüzilliklərin sayıdır.

**BÉSSEL TƏNLİYİ** –

$$x^2\frac{d^2y}{dx^2}+x\frac{dy}{dx}+\left(x^2-p^2\right)y=0$$

diferensial tənliyi; burada $p$ – parametr rolunu oynayan sabit ədəddir. F. *Bessel*in adındandır; bu tənliyə əvvəllər də baxılmışdır. B.t.-nin həlləri *Bessel funksiyaları* adlanır; xüsusi siniflərdən olan həllərin məxsusi adları vardır.

**BÉSSEMER** Henri (19.1.1813, Hartfordşir qraflığı, Çarlton – 15.3.1898, London) – ingilis ixtiraçısı. London Kral Cəmiyyətinin üzvü (1879). B. texnikanın müxtəlif sahələrinə dair ixtiralar üçün 100-dən artıq patent almışdır (hərftökmə maşını, 1838; şəkər qamışı presləyən maşın, 1849; mərkəzdənqaçma nasosu, 1850 və s.).



1856 ildə poladın kütləvi istehsalı üçün yanacaq sərf etmədən, hava üfürməklə maye çuqunun polada çevrilməsi prosesini (*Bessemer prosesi*) ixtira etməsi B.-i məşhurlaşdırmışdır. 1860 ildə konstruksiyası 20 əsrin sonlarınadək saxlanılan, havası dibdən verilən fırlanan konverter yaratmışdır. B. bilavasitə maye metaldan pəstah alınması – poladın külçəsiz yayılması ideyasını irəli sürmüşdür.

**BESSEMER PROSESİ**, çuqunun bessemerlənməsi – poladəritmə prosesi; *konverter* prosesinin bir növü. 1856 ildə H. *Bessemer* təklif etmişdir. B.p. konverterdə maye çuquna konverterin dibində qoyulan *furmadan* sıxılmış hava üfürməklə aparılır. Üfürmə zamanı çuqunun tərkibindəki qarışıqlar (silisium, manqan, karbon) oksidləşərək azalır və çuqun polada çevrilir; proses zamanı böyük miqdarda ayrılan istilik metalın maye halında qalmasına kifayət edir. *Oksigen-konverter prosesinin* tətbiqindən sonra B.p. əhəmiyyətini itirmişdir.

**BESSLƏR** – bax *Frakiyalılar*.

**BESTSELLER** (ing. best – ən yaxşı və sell – satmaq) – ən çox satılan, böyük tirajla çap olunan kitab. Termin 1890-cı illərdə, bir müddət yaxşı satılan kitabların siyahısının müntəzəm olaraq dərc edilməsi ilə əlaqədar ABŞ kitab bazarında meydana gəlmişdir. Əvvəllər B. siyahılarına yalnız bədii ədəbiyyat, 1910-cu illərin sonlarından isə sənədli və elmi-kütləvi ədəbiyyat da daxil olunurdu. 20 əsrdə B.-lərin milli reytinq təcrübəsi bütün dünyaya yayıldı, siyahıların rubrikalara (yeni nəşrlər, təkrar nəşrlər fərqləndirildi, dərsliklərə, soraq kitabçalarına, uşaqlar üçün nəzərdə tutulmuş və s. kitablara ayrıca qiymət verilir) bölünməsi isə mürəkkəbləşdi. B. üçün, bir qayda olaraq, üslub sadəliyi, aktuallıq, ədəbi dəbə, çoxluğun zövqünə və ya sosial sifarişə uyğunluq səciyyəvidir. Kitabın B.-ə çevrilməsində onun bazarda dövriyyəsini şərtləndirən xarici amillər (reklam, ədəbi mükafatlar, ekranlaşdırma, qalmaqal) mühüm əhəmiyyət kəsb edir. Sadə məhəbbət romanları, detektiv və digər kütləvi ədəbiyyat nümunələri ilə yanaşı, B. siyahılarında görkəmli yazıçıların (Q.Q. Markes, E.M. Remark, P. Züskind, P. Koelyo, X. Hüseyni və b.-nın) əsərlərinə də çox rast gəlinir.

**BESTÚJEV** (təxəllüsü Marlinski) Aleksandr Aleksandroviç (3.11.1797, S.-Peterburq – 19.6.1837, Adler burnu) – rus yazıçısı, tənqidçi. Dvoryan olmuşdur. Dağ korpusunda oxumuş (1810–15, bitirməmişdir), 1816 ildən Peterqof yaxınlığındakı Marlidə (təxəllüsü buradandır) yerləşən leyb-qvardiya draqun alayında xidmət etmişdir. Mətbuatda ilk çıxışı 1817 ildə olmuşdur. 1819 ildə dərc edilən ilk tənqidi məqalələri ilə şöhrət qazanmışdır. 1822–25 illərdə K.F. *Rıleyevlə* birgə *"Polyarnaya zvezda"* almanaxını nəşr etdirmişdir. 1824 ilin yanvar ayından dekabristlərin Şimal cəmiyyətinin üzvü, Senat meydanında üsyanın fəal iştirakçısı olan B.-ə çıxarılmış ölüm hökmü 20 illik (sonra 15 il) katorqa ilə əvəz edilmişdir; bir illik həbsdən sonra Yakutska, 1829 ildən sıravi əsgər kimi Qafqaza göndərilmişdir (bax *Qafqaz müharibəsi 1817–64*). Onun "Rus povest və hekayələri" 1832–34 illərdə anonim nəşr olunmuşdur. 1835 ildə unter-zabit, 1836 ildə praporşik rütbəsi almışdır. Adler burnunda döyüşdə həlak olmuş, cəsədi tapılmamışdır.



Yaradıcılığının erkən dövrü lirikası üçün qəhrəmanlıq, vətəndaşlıq, azadlıqsevərlik pafosu, istibdada nifrət səciyyəvidir. 1825 ildən sonrakı yaradıcılığında bədbinlik, tənhalıq və kədər motivləri əsas yer tutmuşdur. Povest B. yaradıcılığının əsas janrı olmuşdur: "Roman və Olqa", "Venden qalası", hər ikisi 1823; "Satqın", "Revel yarışı", hər ikisi 1825; "Sınaq", 1830; "Nadejda" freqatı", 1833; "Qorxulu fal", 1831; "Ammalat bəy", 1832; "Molla Nur", 1836 povestləri böyük müvəffəqiyyət qazanmışdır. Çarizmin Qafqazdakı istilaçılıq siyasətini pisləmiş, yerli xalqlara rəğbət bəsləmişdir. B. Azərb.-da olmuş, Qafqaz həyatından bəhs edən əsərlərində azərb. surətləri ("Molla Nur"da qaçaq Molla Nur, İsgəndər bəy və b.) yaratmış, Azərb. atalar sözü, zərbi-məsəl, xalq mahnıları və nağıllarından geniş istifadə etmişdir. "Molla Nur" povestinin bütün fəsillərinin epiqrafı Azərb. dilindədir. "Xəzərlə vidalaşma", "Quba yolu" və s. oçerklərində Azərb. təbiətinin gözəlliyini tərənnüm etmişdir. B. "Hərbi asari-ətiqə" əsərində A. Bakıxanovu görkəmli alim və cəsur hərbçi kimi qiymətləndirmişdir. M.F. Axundzadə ilə yaxın dost olmuş, onun köməyi ilə Azərb. dilini öyrənmiş, "Puşkinin ölümünə Şərq poeması"nı rus dilinə tərcümə etmişdir. Azərb. dilinin əhəmiyyətini yüksək qiymətləndirən B. göstərirdi ki, "fransız dili ilə Avropanı, bu dillə də bütün Asiyanı başdan-başa gəzmək mümkündür". Məşhur rus bəstəkarı A.A. Alyabyev B.-in Qafqaz mövzusundakı bəzi əsərlərinə musiqi bəstələmiş, o cümlədən "Ammalat bəy"in süjeti əsasında eyniadlı opera yazmışdır. "Molla Nur" povesti, "Quba yolu" oçerki, "İnsan və şeytan" nağılı Azərb. dilinə tərcümə olunmuşdur. Qubada büstü qoyulmuşdur.

Əsərləri: Сочинения: В 2 т. М., 1981; Molla Nur. B., 1988.

Əd.: Попов А.В. Русские писатели на Кавказе (А.А. Бестужев-Марлинский), выпуск 1, Б., 1949; Рафили М. М.Ф.Ахундов. Жизнь и творчество. Б., 1957; Голубев С.Н. Бестужев-Марлинский. М., 1960; Садыхов М. Очерки русско-азербайджанско-польских литературных связей XIX века. Б., 1975.

**BESTÚJEV QARAMALI** – südlük-ətlik qaramal cinsi. 19 əsrin 1-ci yarısında indiki Ulyanovsk vil.-ndə sahibkar S.P. Bestujev və onun ardıcılları tərəfindən yerli inəklər Şorthorn, Hollandiya, daha sonra Simmental, Vilstermarş və bəzi digər cinslərin buğaları ilə mürəkkəb damazlıq cütləşdirilməsi üsulu ilə alınmışdır. Rəngi, əsasən, qırmızıdır; bəzilərinin başında, döşündə və qarnında ağ ləkələr olur. İnəklərin kütləsi 480–550 *kq*, buğaların kütləsi 1000 *kq*-adəkdir. Damazlıq sürülərdə laktasiya dövrü (305 gün) zamanı sağım təqr. 4000 *kq* olur; südün yağlılığı 3,8–3,9%-dir. B.q. iqlimə yaxşı uyğunlaşır, davamiyyətli məhsuldarlığa malikdir. Başqırdıstanda, Tatarıstanda, Ulyanovsk və Samara vil.-lərində geniş yayılmışdır; RF-də südlük mal-qaranın ümumi sayının təqr. 2%-ini təşkil edir.



Bestujev qaramalı.

**BEŞÁR** (ər. بشار) – Əlcəzairin q.-ində şəhər. Beşar vil.-nin inz. m. Əh. 143 min (2005). Nəql. qovşağı. Aeroport. Mədən sənayesi (daş kömür, manqan və dəmir filizi hasilatı) r-nunun mərkəzidir. Yeyinti, yüngül, metal emalı sənayesi müəssisələri; tikinti materialları istehsal olunur. K.t. məhsulları emal edilir. Yaxınlığında İES var.

**BEŞBALIQ**, Bişbalıq – Şərqi Türküstanda (ÇXR-in Sintszyan-Uyğur muxtar r-nu), Tyanşan d-rının şm.-ında orta əsr şəhəri. 629 ildə Qərbi Göytürk xaqanlığının tərkibinə qatılmış və Kağan stupa (Xaqan türbəsi) adlanmışdır. 648 ildə Çinin işğalına məruz qalmışdır. 720 ildə şəhəri uyğurlar ələ keçirmişlər. 9–13 əsrlərdə *Qaoçan Uyğur idikutluğunun* yay paytaxtı, həmçinin mühüm mədəniyyət mərkəzi olmuşdur. 1209 ildə uyğur xaqanı B.-ı və ətraf əraziləri monqollara təslim etmişdir. Bundan sonra B.-da islam dini yayılmışdır, lakin Monqol imperiyasında və Çində müsəlmanların nüfuzunun sürətlə artması, onların mühüm vəzifələrə təyin olunması uyğurları narahat etməyə başlamışdı. 1252/53 ildə B. *idikutu* ölkəsindəki müsəlmanların qətli haqqında gizli qərar verməkdə ittiham edilərək edam olunmuşdur. 1260 ilədək – Cağatay xanlığının hakimiyyətinə qatılanadək müstəqilliyini saxlamışdı. 14 əsrdə əhəmiyyətini itirmişdi.

**BEŞBARMAQ** – Azərb. Resp.-nın Şabran r-nunda, Yan silsilənin c.-ş. qurtaracağında dağ. Hünd. 546 *m*. Əsasən, 5 itiuclu bitkisiz zirvəsi var. Zirvələri Yura sisteminin əhəngdaşılarından, yamacları isə Paleogenin gilli və qumlu süxurlarından ibarətdir. Sıldırımlı yamacları alpinistlərin məşq yeridir.



Beşbarmaq dağı.

**BEŞBARMAQ** – Azərb. Resp. ərazisində təqr. 4–7 əsrlərə aid müdafiə səddi. Beşbarmaq d.-nın ətəklərindən Xəzər dənizinə qədər uzanırdı. Səddin bir hissəsi dövrümüzədək qalmışdır. Dağın ətəyində daşlardan, düzənlikdə iri çiy kərpicdən tikilmiş sədd bir-birindən 200 *m* aralı iki divardan ibarət olmuşdur. Dəniz sahilində səddin hünd. 2,5–3 *m* idi. Alban tarixçisi Musa Kalankatuklu B. səddinin Sasani padşahı II Yezdəgirdin dövründə (438–57) çəkildiyini göstərir. B. köçərilərin hücumlarının qarşısını almaq üçün çəkilmişdi. B. haqqında *Rəşidəddin*, A. *Bakıxanov*, Avropa səyyahlarından A. *Oleari*, O. *Lerx* və b. məlumat vermişlər. B.-da qala və karvansara da olmuşdur.

**BEŞDAM** – Azərb. Resp. Siyəzən r-nunda kənd. Beşdam ə.d.-nin (Beşdam, Dərə Zarat, Nardaran, Siyəzən k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 14 *km* c.-ş.-də, Bakı–Rostov avtomobil yolu və d.y. kənarında, Xəzər dənizindən 3 *km* aralı, Samur-Dəvəçi ovalığındadır. Əh. 579 (2008); heyvandarlıq və qismən əkinçiliklə məşğuldur. Ümumi orta məktəb, kitabxana, klub, feldşer-mama məntəqəsi var.

**BEŞDƏLİ** – Azərb. Resp. Zəngilan r-nunun Zəngilan ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* şm.-q.-də, Əsgülüm d.-nın ətəyindədir. Əh. 154 (2008); işğaldan (1993, oktyabr) əvvəl üzümçülük, heyvandarlıq, bağçılıq və bostançılıqla məşğul olmuşdur. Orta məktəb var idi.

**BEŞDƏLİ** – Azərb. Resp. Sabirabad r-nunun Minbaşı ə.d.-ndə kənd. R-n mərkəzindən 46 *km* c.-ş.-də, Kür çayının sağ sahilindədir. Əh. 474 (2008); heyvandarlıq və əkinçiliklə məşğuldur. Feldşer-mama məntəqəsi var.

**BEŞİK NƏĞMƏLƏRİ** – bax *Laylalar*.

**BEŞİKKƏRTMƏ**, beşikkəsmə, göbəkkəsmə – türk xalqlarında, o cümlədən azərb.-larda mövcud olmuş oğlan və qızın hələ beşikdə ikən adaxlanması adəti. Varidatın bir nəslin daxilində saxlanması zərurəti ilə əlaqədar idi. İki qohum və ya yaxın ailə uşaqlarının gələcəkdə evlənməsi üçün əvvəlcədən razılığa gəlir və bunun təsdiqi kimi qızın beşiyini kərtirdilər (nişanlayırdılar). B. bir növ rəmzi nikah sayılırdı.

**"BEŞİNCİ DƏSTƏ"** – ispan xalqının milli-inqilabi müharibəsi (1936–39) dövründə İspaniya Resp.-nda fəaliyyət göstərən Franko agenturasının adı. "B.d" termini 1936 ilin payızında frankoçuların Madridə hücumu zamanı meydana gəlmişdi; qiyamçılar paytaxta dörd dəstə ilə hücum edirdi, "B.d." isə həlledici anda arxadan zərbə endirməli idi. "B.d." çaxnaşma salır, sabotaj, casusluq və təxribatla məşğul olurdu. İkinci dünya müharibəsi dövründə müxtəlif ölkələrin faşist qoşunları tərəfindən işğalına kömək edən nasist agenturası da "B.d." adlanırdı.

**BEŞİNCİ RESPUBLİKA**, Fransada – de Qoll hökumətinin hazırladığı 1958 il konstitusiyasına əsasən qurulan siyasi rejim. B.r. rejimi parlamentin səlahiyyətini genişləndirdi. B.r. rejiminə əsasən prezident vaxtından əvvəl milli məclisi buraxıb yeni seçkilər təyin etmək, fövqəladə şərait yarandıqda isə bütün hakimiyyəti öz əlinə almaq hüququna malikdir. 1962 ildən ancaq prezident seçkilərinin keçirilməsi qaydası dəyişdirilmişdir. Fransanın demokratik qüvvələri B.r. konstitusiyasına yenidən baxılmasını tələb edirlər.

**BEŞİNCİ TƏKƏR** – avtomobilin hərəkətinin sınağı zamanı onun dinamik keyfiyyətlərinin təyini üçün istifadə olunan cihaz. Avtomobilin gövdəsinə oynaqla birləşdirilən ştanqa bərkidilir. B.t. yolun səthinə öz çəkisi ilə sıxılır; avtomobil hərəkət etdikdə təkər çevrəsinin xətti sürəti avtomobilin hərəkət sürətinə bərabər olur. Təkərin sürəti avtomobilin hərəkət diaqramını cızan cihazın elastik trosu vasitəsilə qeyd olunur.

**BEŞMET** (baxmat, tatar dilində bişmat, qazax və qaraqalpaq dillərində beşpent, meşpent, qırğız dilində beşmant) – türk, monqol və Qafqaz xalqlarında kaftan,



Kişi beşmeti.





Böyük Beşşatır kurqanından (*solda*) aşkar olunmuş qızıl sırğalar (*sağda*).

çuxa, çapan və s.-in altından geyinilən kişi və qadın geyimi: mahud, yaxud parçadan tikilir, yaxası açıq, dizədək olur. Kişi B.-inin qolunda dəstəmaz zamanı əlləri yumaq üçün xüsusi kəsik olurdu. Sırıqlı B. döyüş zamanı qoruyucu qiyafə kimi istifadə olunurdu. Atlaz və satindən tikilən B.-lər kazak qoşunlarının forması olmuşdur. Ön Asiya və Qafqazda B. həmçinin *arxalıq* adlanırdı.

**BEŞNÖVÇÜLÜK** – bax *Müasir beşnövçülük*.

**BEŞŞATIR**, B e s ş a t ı r – Almatı ş.-ndən (Qazaxıstan) 180 *km* aralı, İli çayının sahilində kurqan qəbirləri. 1957–61 illərdə qazax arxeoloqu K.A. Akişev tərəfindən tədqiq olunmuşdur. 1-ci məzarlıqda e.ə. 5 əsrə aid 31 kurqan qəbri, o cümlədən "iri" kurqan qəbirləri (diametri təqr. 50–100 *m*) var, bunlardan altısı qazılmışdır. Qəbirlərin birində tirlərdən düzəldilmiş, yastı taxtapuşlu tamburu və dəhlizi olan yerüstü sərdabə aşkar edilmişdir. Buradan tunc bıçaqlar, saplı və sapsız ox ucluqları, dəmir akinaklar, toqqalar, qızıl sırğalar, taxta qalxan qalıqları və s. tapılmışdır. B. Yeddisuda səciyyəvi sak (skif) abidələrindən biridir. 2-ci məzarlıqda quyu qəbirləri olan 55 "kiçik" kurqan var, bunlardan onu qazılmışdır. E.ə. 2 əsr – eramızın 1 əsrinə aid edilən yapma qablar və dəmir məmulatları tapılmışdır.

**BEŞTALI** – Azərb. Resp. Neftçala r-nunun Cəngan ə.d.-ndə kənd. R-n mərkəzindən 61 *km* şm.-q.-də, Kür çayının sahilində, Cənub-Şərqi Şirvan düzündədir. Əh. 821 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Kitabxana var.

**BEŞTALI** – Azərb. Resp. Salyan r-nunun Kür Qaraqaşlı ə.d.-ndə kənd. R-n mərkəzindən 6 *km* c.-ş.-də, Kür çayının sol sahilindədir. Əh. 551 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Klub, kitabxana, tibb məntəqəsi var.

**BEŞTAŞENİ** – Gürcüstanın Tsalka r-nunda kənd. B.-də yerləşən Ahılar qalaçasının alt təbəqəsində 1936 ildə B.A. Kuftin tərəfindən Gürc. ərazisindəki ən qədim (e.ə. 3-cü minillik) oturaq əkinçi məskəni aşkar olunmuşdur. Çaxmaqdaşıdan düzəldilmiş çin dişləri, ox ucluqları, qayıqvarı dən daşları və s. tapılmışdır. Mürəkkəb quruluşlu ocağın ətrafından qara, yaxud boz rəngli cilalanmış keramika tapılmışdır. B.-dəki tapıntılar *Kür-Araz mədəniyyətinə* aiddir.

Beştau dağı.



**BEŞTAU** – Şimali Qafqazda, Pyatiqorsk ş. (RF) yaxınlığında beşzirvəli lakkolit dağı. Ən hündür zirvəsi 1401 *m*-dir. Traxit və liparitlərdən ibarətdir. Yamacları enliyarpaqlı meşələrlə (göyrüş, vələs, palıd, fıstıq) örtülüdür; zirvəsi meşəsizdir.

**BEŞTOYUQLU** – Azərb. Resp. Qobustan r-nunda dağ. Sündü k.-nin şm.-ş.-ində, Sündü platosundadır. Hünd. 1113,1 *m*.

**BEŞYATAQ** – Azərb. Resp. Balakən r-nunda dağ. Baş Qafqaz silsiləsinin c. yamacında, r-n mərkəzindən 4,5 *km* şm.-ş.-də, Balakən çayının sağ sahilindədir. Hünd. 1224,5 *m*.

**BETA-FUNKSİYA** – bax *Eyler inteqralları*.

**BETAİNLƏR** – üzvi birləşmələrin daxili duz formalarıdır; yükləri fəzada ayrılmış *svitter-ionlara* aiddir. B.-ın ən çox yayılmış nümayəndələri N-trialkiləvəzli amin turşularıdır (tərkibində karboksil qrupu və dördlü azot atomu saxlayır). Onların ən sadə nümayəndəsi qlisin betainidir $(CH_3)_3N^+CH_2COO^-$ ilk dəfə şəkər istehsalı (şəkər çuğundurundan) tullantılarından ayrılmışdır; sinfin adı çuğundurun lat. adından (Beta vulgaris) yaranmışdır.

B. kristal maddələrdir; suda yaxşı həll olur. Aminturşuların metilləşməsi ilə B.-in əmələ gəlməsi bir çox bitki və heyvanlarda azot mübadiləsi üçün səciyyəvidir. B. öz növbəsində metabolizm proseslərində metil qruplarının donorudur. B. alkilhalogenidlərin və ya alkilsulfatların aminturşularla, trialkilaminlərin halogenkarbon turşuları və ya β-laktonlarla qarşılıqlı təsirindən alınır. Bəzi B. tibdə istifadə edilir; məs., qlisin B.-in hidroxloridi həzmetməni yaxşılaşdıran asidin-pepsin ferment preparatının tərkibinə daxildir. Tərkibində $C_{10}$–$C_{18}$ hidrofob alkil radikalları olan sintetik B. amfoter səthi aktiv maddələrdir.





**BETA-LAKTÁM ANTİBİOTİKLƏRİ** – strukturunda β-laktam tsikli ümumi olan (bax *Laktamlar*) antibiotiklər qrupu. Bu qrupa *penisillinlər*, sefalosporinlər, karbapenemlər və monobaktamlar aid edilir. İlk B.-l. a. (penisillin) 1940-cı illərdən geniş tətbiq edilir. B.-l.a. həm təbii birləşmələr, həm də yarımsintetik törəmələrdir. Onların hamısı bakteriyaların hüceyrə divarının əmələ gəlməsini pozmaqla bakterisid təsir göstərir. B.-l.a.-nin bəziləri, əsasən, qrammüsbət və ya qrammənfi bakteriyalara təsir edir, digərləri isə (anaerob orqanizmlər daxil olmaqla) geniş antimikrob təsir spektrinə malikdir. B.-l.a.-nin rezistentliyi, əsasən, onların molekullarının bakterial fermentlərlə – β-laktamazalarla parçalanması ilə əlaqədardır. Yüksək klinik effektivliyi və zəif toksikliyi sayəsində B.-l.a. əksər bakterial infeksiyaların kimyəvi müalicəsinin əsasını təşkil edir.

**BETANKÚR** (Bethencourt y Molina) Aqustin (Avqustin Avqustinoviç), (1.2.1758, Kanar a-rı, Tenerife a., Puerto-de-la-Krus – 26.7.1824, S.-Peterburq) – ispan və rus alimi, mühəndis, dövlət xadimi. Paris EA-nın m. üzvü (1809), gen.-l. (1809). Kanar a-rını kəşf etmiş ispan dəniz səyyahı Xuan de Betankurun nəslindəndir. B. Madriddəki Müq. İsidor Kral məktəbində və San-Fernando Zərif Sənətlər Akademiyasında (1780–81) təhsil almışdır. Parisdə, Londonda və Avropanın başqa şəhərlərində mexanikanı, inşaat elmlərini və memarlığı öyrənmişdir (1787–88). 1788 ildə Madriddə Kral maşın kabinetinin direktoru təyin edilmişdir. 1798 ildə İspaniyada Yol və körpü mühəndisləri korpusunu yaratmışdır. 1803 ildən Kral ali şurasının üzvü, bütün yol və körpülərin baş inspektoru olmuşdur. 1807 ildə meksikalı alim X.M. Lansla birlikdə Fransada maşın və mexanizmlər nəzəriyyəsinə dair ilk elmi əsər olan "Maşınların yaradılması kursu"nu nəşr etdirmişdir. B. 1808 ildən Rusiyada yaşamışdır. 1809 ildən yol mühəndislərinin rus korpusunun rəisi təyin edilmiş, onun layihəsi üzrə yaradılmış Yol Mühəndisləri Korpusu İn-tunun rektoru olmuşdur. B. ömrünün sonunadək həmin in-ta başçılıq etmiş, orada nəzəri mexanikaya, maşınlar nəzəriyyəsinə dair mühazirələr oxumuş, körpüsalma elmi məktəbini yaratmışdır. 1819 ildən S.-Peterburqda yollar baş idarəsinin direktoru olmuş, körpülərin salınması işlərinə rəhbərlik etmiş, bir sıra su sistemlərinin (1812–14), maşınqayırma z-dlarının yenidən qurulması layihəsini hazırlamışdır. 1817 ildə Moskvada B.-un layihəsi üzrə dayaqsız örtülərin ("Betankur fermaları") tətbiqi ilə *Manej* tikilmiş, 1818–22 illərdə Rusiyada ilk şose yolu (S.-Peterburq–Novqorod–Moskva) çəkilmiş, 1820 ildə *Nijni–Novqorod* yarmarkası üçün Qostinı dvor və s. inşa edilmişdir.

**BETA-PARÇALANMA** (β-parçalanma) – əsas və ya həyəcanlanmış halda olan nüvələrin radioaktiv parçalanması; bu zaman $e^-$ elektron və $\bar{\nu}_e$ elektron antineytrinosu (elektron B.-p.-sı, $\beta^-$-parçalanma) və ya $e^+$ pozitron və $\nu_e$ elektron neytrinosu (pozitron B.-p.-sı, $\beta^+$-parçalanma) doğulur. Bu zaman parçalanan nüvənin yükü bir elementar yük vahidi qədər dəyişir (elektron parçalanmasında artır və pozitron parçalanmasında azalır):

$$A(Z,N) \to A(Z \pm 1, N \mp 1) + e^{-(+)} + \bar{\nu}_e\ (\nu_e).$$

Burada $A$ – kütlə ədədi, $Z$ – nüvənin yükü, $N$ – neytronların sayı. B.-p. zamanı buraxılan elektron və ya pozitron *beta-zərrəcik* adlanır.

B.-p. prosesi radioaktivliyin ən çox yayılmış növlərindən biridir və yüngül kütləli nüvədən ($^3H$) ağır kütləli nüvəyədək (məs., $^{261}N_0$) nüvə kütlələrinin bütün sahələrini əhatə edir.

Əvvəlcə "beta-şüaların buraxılması" prosesi adlandırılan nüvələrin B.-p. A. *Bekkerel* tərəfindən 1896 ildə uranın radioaktiv çevrilməsi gedişində kəşf edilmişdir. 1899 ildə müəyyən edilmişdir ki, "beta-şüalar" sürətli elektronlardan ibarətdir və maqnit sahəsində başqa növ radioaktiv şüalardan fərqlənir. 1930 ildə V. *Pauli* belə bir fikir irəli sürmüşdür ki, B.-p.-da elektronla eyni vaxtda çox yüngül neytral zərrəcik – *neytrino* doğulur.

B.-p.-nın nəzəri izahı E.*Fermi* tərəfindən inkişaf etdirilmişdir (1933). O, B.-p.-ya nəzərən nüvələrin yaşama müddətinin mütləq qiymətini təyin etməyə imkan verən çox mühüm xarakteristikanı – $G_F$ Fermi qarşılıqlı təsir sabitini vermişdir. Eyni zamanda E.Fermi yolverilən beta-keçidlərin ən sadə halında elektronların beta-spektrinin formasını (beta-spektrin Fermi forması) hesablamışdır.

1956 ildə məlum oldu ki, B.-p. zamanı cütlüyün kvant ədədinin saxlanması qanunu pozulur (Szundao *Li*, Çjennin *Yanq*) və tezliklə müəyyənləşdirildi ki, B.-p.-sına zəif qarşılıqlı təsirin iki variantı əlavə olunur: öz quruluşuna görə elektromaqnit qarşılıqlı təsirinə analoji olan vektor və cütlüyün vektor dəyişməsindən fərqlənən aksial-vektor qarşılıqlı təsiri.

B.-p. proseslərinin tam izahı elektrozəif qarşılıqlı təsirin *standart modeli* ilə verilir. Bu model çərçivəsində B.-p. mexanizmi bir çox hallarda nuklonların elektronlarla elektromaqnit qarşılıqlı təsir mexanizminə oxşayır: nüvə nuklonu tərəfindən buraxılan sıfır kütləli virtual qamma-kvant daha sonra elektron tərəfindən udulur. Buna analoji olaraq nüvənin B.-p. prosesində nüvənin nuklonunun (neytronun və ya protonun) tərkibinə daxil olan kvarklardan biri virtual olaraq daha sonra elektron-antineytrino (elektron parçalanma) və ya pozitron-neytrino (pozitron parçalanma) cütünə parçalanan ağır yüklü $W$-bozon (~82 $GeV$ kütləli) buraxır:

$$d \to u + W^- \to e^- + \bar{\nu}_e \quad (\beta^-\text{-parçalanma}),$$
$$u \to d + W^+ \to e^+ + \nu_e \quad (\beta^+\text{-parçalanma}).$$

B.-p.-nın xarakteristikalarını təyin edən zəif qarşılıqlı təsir sabiti olan Fermi sabiti $G_F=(1{,}4173\pm0{,}0011)\cdot10^{-62}C\cdot m^3$ qiymətinə malikdir və standart model çərçivəsində elektromaqnit qarşılıqlı təsir sabiti və $W$ bozon kütləsi ilə əlaqəli olur.

B.-p.-nın əsas təcrübi xarakteristikaları bunlardır: $T_{1/2}$ yarımparçalanma müddəti (və ya yaşama müddəti $t=T_{1/2}/ln2$) və parçalanma elektronlarının (pozitronların) enerji spektri. Yarımparçalanma müddəti standart olaraq $fT_{1/2}$ kəmiyyəti ilə verilir; burada Fermi funksiyası deyilən $f$ – elektronun (pozitronun) uçuşu prosesində nüvənin Kulon sahəsinin təsirini nəzərə alan və nüvənin yükündən, elektronun (pozitronun) enerjisindən və nüvənin kvant xarakteristikalarından asılı olan funksiyadır. Onun qiymətləri cədvəlləşdirilir.

Alfa və qamma şüalardan fərqli olaraq B.-p.-da elektronların (pozitronların) enerji spektri kəsilməzdir: o, sıfırdan başlayaraq yuxarı sərhədə qədər davam edir və enerjinin saxlanma qanununa görə başlanğıc və sonuncu nüvələrin tam enerjiləri fərqinə (minus sakitlikdə olan elektronun və neytrinonun enerjisi) bərabərdir. Nüvənin $J$ tam momentinin kvant ədədlərinin və nüvənin başlanğıc haldan sonuncu hala keçidi zamanı onun (kvant ədədlərinin) $\pi$ cütlüyünün dəyişməsinə gətirən beta-keçidlərin seçilmə qaydalarına uyğun olaraq B.-p. prosesləri Fermiyə (qarşılıqlı təsirin Fermi hissəsinin payını nəzərə alan), qamma-tellerə (qarşılıqlı təsirin aksial-vektor hissəsi) və qarışıq tipə bölünür. Bundan başqa, onlar

əlavə olaraq qadağanolunma dərəcəsinə görə təsnif edilir və bu halda beta-keçidlər aşağıdakı kimi fərqləndirilir: ifrat yolverilənlər $[0^+\to 0^+(J^{\pi baş}_{baş} \to J^{\pi son}_{son})$, $\Delta J=0$, cütlük dəyişmir, $\lg fT_{1/2}\leq 3,6]$; yolverilənlər ($\Delta J=0,1$, cütlük dəyişmir, $\lg fT_{1/2}\geq 4$–6);

1-ci qadağanın qadağanolunmuşları ($\Delta J = 0, 1, 2$, cütlük dəyişir, $\lg fT_{1/2} \approx$ 6–9);

2-ci qadağanın qadağanolunmuşları ($\Delta J=0, 1, 2, 3$, cütlük dəyişmir, $\lg fT_{1/2} \approx$ 9–13) və s.

Beta-keçidlərin mühüm nümunəsi qarşılıqlı təsirin yalnız Fermi tipindən asılı olan $0^+\to 0^+$ ifrat yolverilən beta-keçidlərdir və onların öyrənilməsi böyük dəqiqliklə $G_F$ Fermi sabitini ölçməyə imkan verir.

İfrat yolverilən və yolverilən beta-keçidlərin spektrləri universal Fermi formasına malikdir; qalan keçidlər üçün spektrin forması qadağanolunma dərəcəsindən asılıdır. Yolverilən beta-keçidlərdə orbital momentin nuklonlardan leptonlara keçməsi baş vermir, qadağan olunmuş keçidlər halında $L=1,2, \ldots$ orbital momenti ötürülür ki, bu zaman həm də qadağanolunma dərəcəsi göstərilir.

Parçalanmada elektronların betaspektrinin formasının tədqiqi onun yuxarı sərhədi yaxınlığında parçalanma prosesində buraxılan neytrinonun kütləsi haqqında mühüm məlumat verir. Hidrogenin ağır izotopu – tritiumla B.-p. təcrübələrində elektron neytrinosu kütləsi üçün rekord məhdudiyyət alınmışdır: $m_{\nu_e}\leq 2eV$.

B.-p.-nın təcrübi tədqiqatları müxtəlif tip beta-spektrometrlərin köməyilə aparılır. Beta-spektrlərin daha dəqiq ölçüləri maqnit spektrometrləri ilə həyata keçirilir. Çox zəif və qısa ömürlü mənbələrlə işləməyə imkan verən yarımkeçirici detektorlardan olan spektrometrlər daha geniş tətbiq edilir.

Müasir tədqiqatlarda ən sadə elementar B.-p. prosesi kimi *neytronun beta-parçalanmasının* öyrənilməsi xüsusi yer tutur; mürəkkəb nüvələrdə beta-parçalanma prosesləri bunun əsasında təsvir edilir.

İkineytrinolu və neytrinosuz tipli B.-p. proseslərinin öyrənilməsi xüsusi rol oynayır:

$A(Z,N) \to A(Z\pm 2, N\mp 2)+2e^{(+)}+2\bar{\nu}_e(\nu_e)$ (ikineytrinolu 2β-parçalanma);

$A(Z,N) \to A(Z\pm 2, N\mp 2)+2e^{(+)}$ (neytrinosuz 2β-parçalanma).

Birinci tip proseslər standart model çərçivəsində həll edilmiş, təcrübi yolla aşkar edilmiş və ekstremal böyük yaşama müddəti ilə səciyyələnir (yarımparçalanma müddəti $T_{1/2} \approx 10^{18}$–$10^{22}$ il). İkinci tip proseslər standart model çərçivəsindən kənara çıxan nəzəri modellərlə təsvir olunur və neytrinonun orta kütləsindən asılıdır. Neytrinonun kütləsini təcrübədə təyin etmək məqsədi ilə hazırda bir sıra konkret nüvələrdə fəal sürətdə belə proseslərin axtarışı aparılır. Belə effektlərin aşkar edilməsi neytrinonun kütləsinin sıfırdan fərqli olmasını və standart model çərçivəsi xaricində özünün izahı üçün yeni nəzəriyyənin inkişafını tələb edən hadisələrin mövcud olduğunu göstərərdi.

B.-p. ilə yanaşı ona əks olan proseslər də müşahidə olunur: *elektron tutulması* (atomların *K*-, *L*- və başqa elektron təbəqələrindən elektronların tutulması, ulduzlar fizikasında – böyük sıxlıqlı maddələrdə elektronların nüvələr tərəfindən tutulmasının urka-prosesi), reaktor, sürətləndirici və ya Günəş mənşəli neytrino (antineytrino) dəstələrində və həmçinin ifratyeni ulduzların partlaması zamanı yaranan neytrino sellərində əks B.-p. reaksiyaları. Reaktorun neytrino dəstələrində əks B.-p. reaksiyalarının tədqiqi ilk dəfə olaraq göstərdi ki, neytrino antineytrinodan fərqlənir (R.*Deyvis*, 1956–59), sürətləndiricilrdə isə hər halda elektron və müyon tipli iki neytrino mövcuddur. 1970-ci illərin axırlarında sürətləndiricilərdə neytrinodan istifadə etməklə tau neytrinosunun da varlığı sübut edildi. Əks B.-p. proseslərinin köməyilə Günəşdən və reaktorlardan olan neytrino dəstələrinin ölçülməsi üzrə təcrübələr 2001–04 illərdə elektrozəif qarşılıqlı təsirin standart modelində izahını tapmayan və nəzəriyyənin sonrakı inkişafını tələb edən *neytrino ossilyasiyalarının* kəşfinə səbəb oldu.

**BETA-PAYLANMA** – (0,1) intervalında kəsilməz cəmlənən

$$\beta_{m,n}(x)=\frac{1}{\underline{B}(m,n)}x^{m-1}(1-x)$$

sıxlıqlı *ehtimalların paylanması*; burada *m,n* – müsbət parametrlər, B(*m,n*) normalaşdırıcı vurğu – Eyler beta-funksiyasıdır:

$$\underline{B}(m,n)=\int_0^1 x^{m-1}(1-x)^{n-1}dx$$

B.-p. riyazi statistikada geniş tətbiq olunur.

**BETA-SPEKTROSKOPİYA** – bax *Beta parçalanma*.

**BETA-TERAPİYA** – bax *Şüa müalicəsi.*

**BETATRÓN** – yüklü zərrəciklər sürətləndiricisi; dəyişən maqnit sahəsinin yaratdığı (induksiya etdiyi) burulğanlı elektrik sahəsi tərəfindən stasionar dairəvi orbit üzrə dövr edən elektronların sürətləndirilməsi üçündür. B.-da elektronların enerjisi, adətən, 50 *MeV*-a çatır. B. sənayedə (qalın metal tavaların işığa salınmasında), tibb sahəsində (şüa terapiyasında), elmi araşdırmalarda (fotonüvə reaksiyası və s.-də) tətbiq edilir.

**BETA-ZƏRRƏCİK**, β-zərrəcik – nüvələrin və sərbəst neytronun *beta-parçalanma* zamanı buraxdığı elektron ($e^-$) və ya pozitron ($e^+$). Elektronlar nüvədaxili çevrilmə və ya *n* sərbəst neytronun p protona çevrilməsi zamanı: $n\to p+e^-+\bar{\nu}_e$, pozitronlar nüvədaxili protonun neytrona çevrilməsi zamanı: $p\to n+e^++\nu_e$ buraxılır. Burada $\bar{\nu}_e$ və $\nu_e$ elektron antineytrino və neytrinodur. Buraxılan B.-z. enerjiləri kəsilməz spektr əmələ gətirir; maks. enerji onlarla *keV*-dan 10 *MeV*-u keçən enerji diapazonunda olur. B.-z.-lərin nüfuzetmə qabiliyyəti kifayət qədər böyük ola bilər. B.-z.-in *q/sm*²-lə ifadə olunmuş *R* qaçışı və spektrin *MeV*-la ifadə olunmuş *E* maks. enerjisi arasında aşağıdakı əlaqə mövcuddur: $R=0,54E-0,13$ (düstur alüminium və $E>0,8$ *MeV* olan elektronlar üçün alınmışdır, lakin başqa halların qiymətləndirilməsi üçün də istifadə edilə bilər). Beləliklə, 1 *MeV* enerjili elektron alüminiumda təxminən 1,5 *mm* və havada 3 *m* qaçır.

Orqanizmə təsiri. Canlı hüceyrələrə təsirinə görə B.-z. *qamma-şüa* ilə oxşardır. Orqanizmin toxumalarında kiçik qaçışına görə lokal (yerli) təsir göstərir. B.-z. pozitron-emission tomoqrafiyası (PET) əsasında funksional tədqiqatlar zamanı, radionuklid diaqnostikasında bioloji markerlər kimi tətbiq edilir. $^{198}$Au, $^{111}$Ag, $^{32}$P, $^{90}$Y və b. radionuklidlər onkoloji və dəri xəstəliklərində, əsasən, *şüa müalicəsində* istifadə olunur.

**BÉTE** (Bethe) Hans Albrext (2.7.1906, Strasburq – 6.3.2005, Nyu-York) – fizik, Nobel mükafatı laureatı (1967). Frankfurt (1926) və Münxen (1928) un-tlərini bitirmişdir. Almaniya un-tlərində dərs demiş, Kembricdə və Romada işləmişdir. 1933 ildə Böyük Britaniyaya, 1935 ildə ABŞ-a mühacirət etmiş, 1937 ildən Kornell Un-tinin prof.-u olmuşdur. 1943–46 illərdə Los-Alamosda Amerika atom layihəsi üzərində işləmişdir. Əsas elmi işləri *kvant mexanikasına* və onun atom, bərk cism nəzəriyyələrinə tətbiqinə, zərrəcik-







lərin elektromaqnit sahəsi ilə qarşılıqlı təsirinə, nüvə fizikası və elementar zərrəciklər fizikasına həsr olunmuşdur. Maddədə hərəkət edən yüklü zərrəciyin enerji itkisini təyin etmək üçün düstur vermişdir (1934). İlk dəfə (1947) hidrogen atomunda lemb sürüşməsinin qiymətini hesablamışdır. Elementar zərrəciklər nəzəriyyəsində geniş yayılmış və qarşılıqlı təsirdə olan iki zərrəcikdən ibarət sistemi təsvir edən tənlik (Bete-Solpiter tənliyi, 1951) vermişdir. Ulduzların enerji mənbələrinin nəzəriyyəsini yaratmış və onlarda baş verən ən ehtimal nüvə reaksiyalarının tsiklini göstərmişdir.

Mürəkkəb zərbə dalğaları, radiolokasiya, kvant elektrodinamikası və s. sahələrdə də tədqiqat işləri aparmışdır.

**BETEXTİN** Anatoli Georgiyeviç (8.3. 1897, Voloqda qub.-nın Strigino k. – 20.4.1962, Moskva) – rus geoloqu, mineraloq. SSRİ EA akad. (1953), SSRİ Dövlət mükafatı (1947) və Lenin mükafatı (1958) laureatı. 1924 ildə Leninqrad Dağ-mədən İn-tunu bitirmiş və 1937 ilədək orada dərs demişdir. SSRİ EA-nın Geologiya Elmləri İn-tunda (1937 ildən) və filiz yataqlarının geologiyası, petroqrafiya, mineralogiya və geokimya in-tunda (1956 ildən) çalışmışdır. Rusiyada mineraqrafiyanın (filiz minerallarının əks olunan işıqda mikroskop altında tədqiqi) banisidir. Mineralların hidrotermal əmələgəlməsi (1936), həmçinin manqanlı filizlərin əmələgəlməsi nəzəriyyələrini işləyib hazırlamışdır. Antarktidada Kraliça Mod Torpağının Voltat dağ massivindəki silsilə və betextinit mineralı onun şərəfinə adlandırılmışdır.



Əsərləri: Платина и другие минералы платиновой группы. М.; Л., 1935; Основные проблемы в учении о магматогенных рудных месторождениях. 2-е изд. М., 1955 (müştərək); Курс минералогии. 2-е изд. М., 1961.

**BETELƏR** – Kot-d'İvuarın c.-q.-ində (əsasən, Yuxarı Sasandra, Cənubi Bandama dep-tlərində və Laquna dep-tinin q.-ində) xalq. Sayları 840 min nəfərdir (2005). B.-ə beteqbolar (bilavasitə B.), qanyoalar, yaxud şərqi B., qodiyelər, kuyalar, kvadialar, didalar, neyolar və s. qruplar aiddir. *Kru dillərinin* şərq qoluna aid dillərdə: bete, qanyoa, dida, qodiye və s.-də danışırlar. Yazıları latın qrafikası əsasındadır; 20 əsrdə piktoqrafik yazı sistemi yaradılmışdı. Fransız dili də yayılmışdır. Ənənəvi etiqadları saxlamışlar; katoliklər, protestantlar, az sayda müsəlmanlar da vardır.

B.-i ümumi əcdad, əfsanəvi qəhrəman Laqo-Tape ilə bağlayan etnogenetik rəvayətlər onların qərbdən (Liberiya ərazisindən) gəldiklərini göstərir. Ənənəvi mədəniyyətləri Qərbi *Afrikanın* Qvineya yarımvilayətinin tropik meşə xalqları üçün səciyyəvidir. 20 əsrin ortalarınadək əsas məşğuliyyətləri ovçuluq və qırılıb yandırılmış ərazilərdə əkinçilik idi. B.-in becərdiyi kola qozu savanna xalqları (*dyulalar* vasitəsilə) ilə əsas mübadilə bazası olmuşdur. 20 əsrin ortalarından plantasiya əkinçiliyi yayılmışdır. B.-in əksəriyyəti şəhərlərdə yaşayır, ziyalıları və idarəçilik sistemində çalışanları var. Dəmirçilik, dulusçuluq, ağac üzərində oyma (Qvineyanın q. sahilləri üçün səciyyəvidir) inkişaf etmişdir. Ata xətti ilə liniclər (qlebo) və onların birlikləri (dikpi) qalmışdır; bunların daxilində məsləhətli nikahlar və qarşılıqlı yardım normaları yayılmışdır; üzvlər arasındakı münasibətlər zarafatlaşma adəti ilə tənzimlənir. Böyük ailələrdən ibarət icma ayrıca məhəllədə məskunlaşır. Tayfa və hərbi təşkilatlanması ehtimal ki, transatlantika qul ticarətinin təsirilə inkişaf etmişdir; 20 əsrin sonu–21 əsrin əvvəllərindən vətəndaş müharibəsi şəraitində bu təşkilatlanma dirçəlir. Gizli ittifaqları da mövcuddur. Evləri, əsasən, düzbucaqlıdır. Kişilərin geyimi bubu tipli tunikayabənzər köynək və örtükdən, qadınların geyimi belə dolanan parçadan ibarətdir. Üzük, qolbaq, sırğa və s. bəzək əşyaları yayılmışdır. Bir sıra ayinlər zamanı üzdə (alından burnun ucunadək)

Bete qadınları.



çapıqlar edilir; ön dişlərin mişarlanması yayılmışdır. Əcdadların, şəxsləndirilmiş təbiət qüvvələrinin kultları inkişaf etmişdir, kosmoqonik və astral miflərin mövcuddur. Şifahi folklor, mahnı və rəqs qorunub saxlanılır. V. Qbaqbo prezident seçildikdən sonra 21 əsrin əvvəllərindən Kot-d'İvuarda B.-in siyasi rolu artmışdır.

**BETHÓVEN** (Beethoven) Lüdviq van (17.12.1770, Bonn – 26.3.1826, Vyana) – alman bəstəkarı və pianoçusu. Musiqiçilər ailəsindəndir (babası Lüdviq van B. flandriyalı mühacir olmuş, Köln kurfürstünün saray kapellasında kapelmeyster; atası İohann van B. müğənni olmuşdur). Klavirdə, orqanda, skripkada çalmağın ilk vərdişlərini atasından öyrənmişdir (klavirçi kimi ilk konserti 26.3.1778 ildə Kölndə olmuşdur). 1780 ildən onu alman maarifçiliyi ruhunda tərbiyə etmiş K.Q. Nefedən kompozisiya dərsləri almış, klavir və orqanda çalmağı öyrənmişdir. 11 yaşından orqançının köməkçisi, 13 yaşından saray kapellasının orqançısı və eyni zamanda saray teatrının pianoçu-konsertmeysteri olmuşdur. Bəstəkar kimi ilk çıxışı 1782 ildə olmuşdur (E.K. Dresslerin c-moll marşı mövzusunda klavir üçün 9 variasiya). 1787 ildə Vyanada onun fp. improvizasiyalarını yüksək qiymətləndirmiş V.A. Motsartla görüşmüş, lakin anasının xəstəliyi ilə əlaqədar Bonna qayıtmaq məcburiyyətində qalmışdır. Dostlarının (E. Breyninq, F. Vegeler və b.) köməyilə təhsilini təkmilləşdirmək üçün 1789 ildə Bonn Un-tinin fəlsəfə fakültəsinə daxil olmuşdur (bitirməmişdir); orqançı işləyə-işləyə saray orkestrində alt çalmış, xüsusi dərslər vermişdir. 1792 ildə B. həmişəlik Vyanaya köçmüş və burada Y. Haydn, İ.Q. Albrextsbergerdən dərs almışdır. 1795 ildən B.-in pianoçu kimi Vyanada, Praqada, Berlində, Drezdendə konsertləri böyük müvəffəqiyyətlə keçmişdir.

Fp., skripka və violonçel üçün üç lik triosunda op.1 (Es-dur, G-dur, c-moll, 1793–94) B.-in instrumental üslubunun özünəməxsusluğu aydın göründü. 1800-ci illərin əvvəllərində o bir çox əsərin, əsasən, fp. üçün, o cümlədən orkestrlə 3 konsertin (ən əhəmiyyətlisi 3-cü, c-moll, 1800) və 17 sonatanın müəllifi idi (cəmi 32). 6 simli kvartetində op. 18 (F-dur, G-dur, D-dur, c-moll, A-dur, B-dur, 1798–1800) və 1-ci simfoniyasında (C-dur, 1800) B. hələ çox zaman Y. Haydn və V. A. Motsartın ənənələrinə riayət edirdi; eyni zamanda 8№-li (Patetik, c-



Lüdviq van Bethoven. Rəssam Y.K. Ştiler. 1819.

moll, 1798) və 14№-li (Sonata quasi una fantasia, cis-moll, 1801, "Ay" sonatası adı ilə məşhurdur) sonataları müasirlərini parlaq ekspressiyası, coşqun dramatizmi, yeniliyi və musiqi dilinin qeyri-adiliyi ilə heyrətləndirirdi.

Təqr. 1797 ildə B. eşitmə qabiliyyətinin azaldığını hiss etmişdi; xəstəliyinin sağalmaz olduğunu dərk edən bəstəkarda 1802 ilin payızında ruh düşkünlüyü əmələ gəlmişdi (bu hal İ.V. Götenin "Gənc Verterin iztirabları" romanında əks olunmuşdur). Get-gedə artan karlıq bəstəkarı konsert fəaliyyətini tədricən azaltmağa, 1814 ildən sonra isə bundan tamamilə əl çəkməyə məcbur etmişdi.

B.-in yetkin üslubunun səciyyəvi əlamətləri tam olaraq 1802–14 illərdə yazdığı, böyük daxili güc və məna orijinallığı ilə seçilən 3-cü ("Qəhrəmanlıq", Es-dur, 1804), 4-cü (B-dur, 1806), 5-ci (c-moll) və 6-ci (Pastoral, F-dur, 1808), 7-ci (A-dur) və 8-ci (F-dur, 1812) simfoniyalarında; orkestrlə konsertlərində [fp., skripka və violonçel üçün Üçlükdə (C-dur, 1804), fp. üçün 4-cü (G-dur, 1806)və 5-cidə (Es-dur, 1809), skripka (D-dur, 1806)]; bir sıra uvertüralarında (o cümlədən Q. Kollinin "Koriolan" faciəsinə yazdığı uvertüra, 1807) üzə çıxmışdır. *Napoleon müharibələri* dövrü ruhunda yüksək qəhrəmani üsul ən çox onun 3-cü, 5-ci və 7-ci simfoniyalarına, 5-ci fp. konsertinə xas idi. Qəhrəmanlıq pafosu həmçinin "Fidelio" (1805) operasında, V. Götenin "Eqmont" dramına yazılmış musiqidə (op. 84, 1810), inkişaf etdirilmişdir. Skripka ilə fp.üçün 9-cu sonata ("Kreytser sonatası", A-dur, 1803); A.K. Razumovskiyə həsr olunmuş simli kvartetlər, op.59, 23-cü "Appassionata" (f-moll, 1805) və s. fp. sonataları kamera instrumental musiqinin qiymətli nümunələridir.

*Vyana konqresi (1814–15)* zamanı B. Napoleona qalib gəlmiş hökmdarları mədh edən bir sıra əsərlər yazmışdır. Romantik ümidsizlik əhvali-ruhiyyəsi, yaxud illüziyalar aləminə qapılmaq cəhdləri B.-ə yad idi. O, 1815 ildə yazırdı: "Biz, əbədi ruhi başlanğıcı təcəssüm etdirən adi adamlar, yalnız iztirab və sevinc üçün dünyaya gəlmişik, insanların ən yaxşısı iztirablardan keçərək sevinc əldə edirlər desək, yanılmarıq". Bəstəkarın "iztirablardan keçən sevinc" ideyası 9-cu simfoniyanın (d-moll, 1823) finalında (F. Şillerin "Şənliyə" odasının sözlərinə) solist müğənnilər və xorun iştirakı ilə həyata keçirilmişdir. Təntənəli messanı (Missa solemnis, D-dur, 1823) B. özünün ən böyük əsəri hesab edirdi (messanın premyerası 7.4.1824 ildə S.-Peterburqda N.B. Qolitsının təşəbbüsü ilə Filarmonik cəmiyyətin konsertində baş tutmuşdu; messanın "himn" adlandırılmış hissələri 7.5.1824 ildə Vyanada 9-cu simfoniya ilə birlikdə səslənidirilmişdir). B.-in sonuncu 28–32 №-li (A-dur, 1816, B-dur, 1818, E-dur 1820, As-dur, 1821, c-moll, 1822) fp. sonataları, A. Diabellinin valsı mövzusunda fp.üçün 33 variasiyası (C-dur, 1823) və op. 127 (Es-dur), 132 (a-moll, 1825), op. 130 (B-dur), 131 (cis-moll) və 135 (F-dur, 1826) simli kvartetləri bəstəkarın kamera musiqisinin inciləri sayılır.

B.-in yaradıcılığı müasiri olduğu ədəbiyyat (İ.V. Göte, F. Şiller), fəlsəfə (J.J. Russo, xüsusilə İ. Kant) və keçmişin bədii irsi ilə (Homer, Plutarx, U. Şekspir) sıx əlaqədə olmuşdur. *Vyana klassik məktəbinin* sonuncu nümayəndəsi olan B. sonata-simfoniya silsiləsini və *sonata formasını* yeni dramatik məzmun ilə zənginləşdirmiş, aparıcı orkestr səslərinin diapazonunu genişləndirmiş, bütün orkestr partiyalarının ifadəliliyini intensivləşdirmişdir. B.-nin simfoniyanı oratoriyaya yaxınlaşdırmaq tendensiyası (9-cu simfoniyada) 19–20 əsr bəstəkarlarının (H. Berlioz, Q. Maler, A. Şnitke) yaradıcılığında inkişaf etdirilmişdir. B.-in sonataları orkestr musiqisində olduğundan daha zərif və subyektiv ovqat və obrazların bütöv bir aləmini yaradır, halbuki onlardan bəziləri miqyas etibarilə simfoniyaya yaxındır.

B. üslubunun formalaşmasında onun variantlaşdırma texnikası və *variasiya forması* üzərindəki işi mühüm rol oynamışdır.

B. həmçinin, violonçel və fp.üçün 5 sonata (F-dur, g-moll, 1796, A-dur, 1808, D-dur, C-dur, 1815) və bir sıra başqa kamera ansamblları (duetlər, triolar, kvintetlər) yaratmışdır; onlardan bəstəkarın sağlığında ən populyar olanı qarışıq heyət üçün Septet (Es-dur, 1800, 6 hissəli) idi.

B.-in yaradıcılıq metodunu öyrənmək üçün onun musiqi arxivində zəngin material saxlanılır. Tamamilə eşitmə qabiliyyətini itirdikdən (1818) sonra istifadə etdiyi danışıq dəftərləri böyük bioqrafik maraq kəsb edir.

B.-in musiqisi Azərb.-da da geniş yayılmışdır. Onun əsərləri Azərb. musiqi kollektivlərinin, solistlərin repertuarında mühüm yer tutur, konsert salonlarında, radio və televiziya verilişlərində səslənir.

*Əd.:* Эррио Э. Жизнь Бетховена. 3-е изд. М., 1968; Альшванг А.А. Л. ван Бетховен. Очерк жизни и творчества. 5-е изд. М., 1977; Вспоминая Бетховена. Биографические заметки Ф. Вегелера и Ф. Риса. М., 2001; Lockwood L. Beethoven: the music and the life. N.Y.; L., 2003.

**BETİKA** (Baetica) – İspaniyanın c.-unda Roma əyaləti. Betis çayının (indiki Qvadalkvivir) adındandır; imperator Avqustun [e.ə. 27 il – eramızın 14 ili] hakimiyyəti dövründə yaradılmışdır. İqtisadi cəhətdən yüksək inkişaf etmiş B. güclü romanlaşmaya məruz qalmışdı. Korduba (indiki Kordova), Qades (indiki Kadis), Gispalis (indiki Sevilya), Malaqa və s. şəhərləri var idi. Plini B.-da 175 şəhərin mövcud olduğunu qeyd edir. *Xalqların böyük köçü* zamanı 5 əsrin əvvəllərində B.-nı vandallar işğal etmişlər.

**BETİLİDLƏR** (Bethylidae) – pazazit arılar fəsiləsi. Bədəni, adətən, uzunsov, yastılaşmış, ənsəriyyətində 1–10 *mm* uz.-dadır. Çox vaxt qanadsız olur. 1200-ədək növü var. Tropik qurşaqlarda çoxdur. Əsasən, böcək sürfələrində, bəzən pulcuqluqanadlıların tırtılları üzərində parazitlik edir; dişi fərdlər qabaqcadan sahibini iflic edir. Nəsil qayğısına qalmağın mürəkkəb formalarına keçid müşahidə olunan növləri də var.

**BETLEHEM** (Bethlehem) – ABŞ-ın şm.-ş.-ində, Pensilvaniya ştatında şəhər. Əh. 72 min (2008; Allentaun və digər şəhərətrafı qəs.-lərlə təqr. 800 min). ABŞ-ın qara metallurgiya mərkəzlərindən biridir. Koks-kimya, metal emalı, tikinti materialları istehsalı, tikiş və trikotaj sənayesi; un-t var.







Betlehem şəhərinin panoramı.

**BETLEN** (Bethlen) Qabor (1580, Rumıniya, Marozilliye, indiki İliya – 25.11. 1629, Rumıniya, Vaysenburq, indiki Alba-Yuliya) – Macarıstan krallığında antihabsburq hərəkatının rəhbəri, Transilvaniya knyazı (1613 ildən). M. Sekey və İ. Boçkainin başçılıq etdiyi antihabsburq hərəkatında (1602–06) iştirak etmişdir. Osmanlı sultanının təyinatı ilə B. Transilvaniya knyazı seçilmişdir. Knyaz hakimiyyətinin möhkəmləndirilməsi siyasətini yürütmüş, iri feodal mülklərinin zəifləməsi, şəhərlərin və təhsilin inkşafı üçün şərait yaratmış, maliyyə sistemini nizamlamış, daimi ordu yaratmışdır. Antihabsburq koalisiyasının tərkibində *Otuzillik müharibədə (1618–48)* fəal iştirak etmişdir. Türkiyənin razılığı ilə Çexiya üsyanını (1618–20) dəstəkləmişdir. Yuxarı Macarıstana yürüş (1619–21) zamanı imperator II Ferdinandın qoşunları üzərində bir neçə qələbə qazanmışdır. 1620 il avqustun 25-də dövlət məclisi tərəfindən Macarıstan kralı seçilmişdir. Çexlərin Belaya Qora yaxınlığındakı məğlubiyyətindən sonra imperator ilə Mikulov (Nikolburq) sülhünü bağlamağa (31.12. 1621) məcbur olmuşdur. Sülhün şərtlərinə görə, Macarıstan tacından imtina etməsi müqabilində Slovakiyanın böyük hissəsi (Yuxarı Macarıstanın 7 komitatı) B.-ın ömürlük mülkiyyətinə verilmişdi. 1623–24 və 1626 illərdəki yürüşləri uğursuz olsa da, tutduğu torpaqları hakimiyyətində saxlaya bilmişdir [Vyana sülhü (1624), Pojon sülhü (1626)]. Habsburqlara qarşı yeni yürüşə hazırlıq ərəfəsində ölmüşdür.

**BETON** (fr. béton; lat. bitumen – mədən qatranı) – yapışdırıcı maddə, su (bəzən susuz), doldurucu və xüsusi əlavələrin səmərəli nisbətdə qarışığının qəliblərdə bərkiməsindən alınan süni daş material. Qəliblərə tökülənə qədər beton qarışığı (bax *Beton işləri*) adlanır. B. yüksək texnoloji və fiziki-mexaniki xassələrə malik əsas inşaat materiallarından biridir. B.-un alınmasına az enerji sərf olunur və hazırlanma prosesi ekoloji baxımdan təhlükəsizdir. B. qarışığının plastik olması ondan istənilən konfiqurasiyalı məmulat və konstruksiyalar hazırlanılmasına imkan verir.

B. ən qədim inşaat materiallarından biridir. Mesopotamiya, Çin, Misir, Qədim Yunanıstan, Qədim Roma və s. ölkələrdə arenaların, akveduklların tikilməsində, bünövrələrin qoyulmasında müxtəlif yapışdırıcı materiallarla (asfalt, gil, gips) hazırlanmış B.-dan istifadə etmişlər. Romada inşa edilmiş, günbəzinin diametri 43,2 *m* olan panteon indiyədək saxlanılmışdır; onun tikintisində əhəngpussolan yapışdırıcılı B.-dan istifadə edilmişdir. Roma imperiyasının süqutundan sonra B. işlədilməmişdir. 18 əsrdə Qərbi Avropa ölkələrində yapışdırıcısı əhəng və romansement olan B.-dan istifadə edilməyə başlanıldı; ondan bünövrələr, hidrotexniki qurğular və s. tikilirdi. 1824 ildə İngiltərədə C.Aspdin *portlandsementin* hazırlanma üsulu üçün patent almışdır; bu, B. texnologiyasının təkmilləşdirilməsinə təkan verdi. 19 əsrdə *dəmir-beton* ixtira edildi və əsrin sonlarında bütün dünyada B. əsas tikinti materiallarından biri kimi işlədilməyə başlandı. B. nəzəriyyəsi sahəsində ilk tədqiqatlar da 19 əsrin sonlarına aiddir. 1895 ildə rus alimi İ.Q. Malyuqa B. qarışığındakı suyun miqdarı ilə B.-un möhkəmliyi arasındakı asılılığı müəyyən etdi. 1918 ildə D.Abrams (ABŞ) B.-un möhkəmliyinin su-sement amilindən və beton qarışığının hərəkiliyinin (texniki özlü) onun tərkibindən miqdari asılılığını müəyyənləşdirdi.

**Təsnifatı və tətbiq sahəsi.** Yapışdırıcı materialın növündən asılı olaraq B. qeyri-üzvi yapışdırıcılı (sement, gips-beton, silikat-beton, maye şüşə əsaslı, maqnezial yapışdırıcılı və s.), üzvi yapışdırıcılı (asfalt-beton, polimer-beton) və qarışıq yapışdırıcılı (polimer-sement B.-ları), quruluşuna görə tökülmüş (iridolduruculu və xırdadənəli), məsaməli (göz-göz), iriməsaməli növlərə ayrılır. Quruluşuna və doldurucunun növünə görə müxtəlif orta sıxlıqlı – çox ağır (sıxlığı 2500 $kq/m^3$-dən çox), ağır (sıxlığı 600–1800 $kq/m^3$), yüngül (sıxlığı 600–1800 $kq/m^3$) və çox yüngül (sıxlığı 600 $kq/m^3$-dən az) B. növləri var. Ç o x  a ğ ı r  B., əsasən, portlandsementlə və metal (çuqun qırıntısı, armatur kəsikləri və s.), yaxud filiz (maqnetit, hepatit, limonit və s.) doldurucularla hazırlanır. Metal dolduruculu B.-un sıxlığı 6000 $kq/m^3$-ə çata bilir. Belə B.-lardan radiasiya-texniki qurğularda (AES-lərin reaktorlarında və s.) γ-şüalanmalardan mühafizə məqsədilə istifadə olunur. A ğ ı r B. ən çox işlədilən B. növüdür; adətən, doldurucu kimi möhkəm süxurlardan (əhəngdaşı, qranit, bazalt və s.), yaxud metallurgiya posasından olan qırmadaş, çınqıl, eləcə də təbii və ya xırdalanmış qum (əsasən, kvars qumu) işlədilən sement B.-udur. Sıx dolduruculu silikat B.-ları da ağır B.-lara aiddir. Ağır B. sıxılmaya və şaxtaya davamlıdır, mülki və sənaye binalarının yüksaxlayan konstruksiyalarında, avtomobil yollarının, aerodromların, hidrotexniki qurğuların və s. tikintisində tətbiq edilir. Y ü n g ü l B. məsaməli doldurucularldan (süngər, tuf, keramzit, posa süngəri) və adi, yaxud məsaməli qumdan istifadə etməklə hazırlanır; doldurucudan asılı olaraq keramzit-beton, posa-beton, süngər-beton və s. adlanır. Sıxlığı 600–1200 $kq/m^3$ olan məsaməli B.-lar da (məsaməlşdirmə üsulundan asılı olaraq qaz-beton və ya köpük-beton adlanır) yüngül B.-lara aiddir. Yüngül B. orta sıxlığa malikdir, sıxılmaya davamlıdır, hüdudlayıcı konstruksi-

yalarda, divar panelləri üçün, bəzən də yüksaxlayan konstruksiyalarda (tir, örtü) tətbiq olunur. Ç o x  y ü n g ü l B.-lar yüksək məsaməliliyə malik olduğundan istiliyi az keçirir və buna görə də istilik izolyasiyası üçün işlədilir. Kiçik ədədi bloklar şəklində və monolit variantda bina karkaslarının doldurulması üçün istifadə olunur. Polimer bitişdirici və məsaməli doldurucularla hazırlanan iriməsaməli B.-lar da bu qrupa aid edilir. Hazırlanma üsuluna görə monolit (bilavasitə tikinti yerində qəliblərdə formaya salınır) və yığılma (tikintiyə hazır element və konstruksiyalar şəklində gətirilir) B.-lara ayrılır. Konstruksiya və istilik izolyasiyası B.-larından əlavə xüsusi hərarətədavamlı, turşuyadavamlı, yol üçün, hidrotexniki, elektrikkeçirici B.-lar, fibrobeton, beton-polimer, torkret-beton növləri də vardır.

**Fiziki-texniki xassələri**. B.-un əsas xassələri sıxlıq, sıxılma və dartılmada möhkəmlik, şaxtayadavamlılıq və istilikkeçiricilikdir. Konstruksiya B.-unun mühüm göstəricisi onun sıxılmada möhkəmliyidir. Bu göstərici B. nümunənin (15–20° C temp-rda, nisbi rütubəti 90–100% olan şəraitdə 28 gün ərzində bərkimiş kubun) sıxılmaya sınanması ilə müəyyən edilir. B.-un dartılmada möhkəmliyi sıxılmada möhkəmliyinə nisbətən 5–10 dəfə aşağıdır; bu çatışmazlıq armaturlama ilə aradan qaldırılır (bax *Dəmir-beton*). B.-un şaxtayadavamlılığı, əsasən, onun kapillyar məsaməliliyindən asılıdır. Şaxtayadavamlılıq markaları F100-dən F500-ədək və daha yüksəkdir; bu B.-un ilk möhkəmliyinin 5%-ni itirənədək "dondurma-əritmə" tsikllərinin sayı ilə müəyyən olunur. B.-un sukeçirməzlik markaları W2, W4, W6, W8 və s. ilə göstərilir; rəqəm suyun atm.-də (standart sınaqlar zamanı B.-un su buraxmadığı) təzyiqini bildirir. Ağır B.-un texnologiyasında əsas problem onun hazırlanması üçün lazım olan suyun miqdarının optimallaşdırılmasıdır. Su sərfi çox olduqda B. qarışığı qəlibə asan doldurulur, lakin B.-un məsamələrini artırır və möhkəmliyini azaldır. Buna görə rahat qəlibləmə üçün az su sərf etməklə B. qarışığı intensiv olaraq mexaniki sıxlaşdırılır, yaxud da qarışığın plastikliyini təmin edən plastifikatorlardan və superplastifikatorlardan istifadə edilir.

Yeni növ yapışdırıcı materialların və polimer əlavələrin istehsalı, həmçinin polimerlərdən yapışdırıcı maddə kimi istifadə B.-un nomenklaturunu genişləndirmiş, polimer-beton, beton-polimer, yığılmayan B., genişlənən B. növləri meydana çıxmışdır. 21 əsrin əvvəllərində dünyada B.-un müxtəlif növlərinin illik istehsalı 2 mlrd. $m^3$-dən çox olmuşdur.

*Əd.:* Б а ж е н о в Ю.М. Технология бетона. М., 2003.

**BETÓN BƏND** – bax *Bənd*.

**BETÓN BƏRKİDİCİ** – betondan qəlib vasitəsilə hazırlanan mədən bərkidicisi. İstismar müddəti 10 ildən çox olan və bərabər paylanmış mədən təzyiqli üfüqi, maili və şaquli qazımaların bərkidilməsi üçün tətbiq edilir. Mailliyi 40°-dək olan qazmalarda (lağımlarda) şaquli divarlı və tağvarı örtülü B.b. işlədilir. Meyil bucağı 70°-dən çox olan lağımlarda B.b. oval formasında qurulur və hər 30–60 *m*-dən bir konusvarı dayaq-qapayıcılarla təchiz edilir. B.b.-nin qurulması üçün əsas əməliyyatlar beton qarışığının hazırlanması, tikinti sahəsinə nəqli, qəlibin qurulması, beton qarışığının verilməsi, paylanması və qəlibdə sıxlaşdırılmasından ibarətdir. Daima çapılan və böyük qazımalarda, adətən, səyyar və ya sökülüb-yığılan metal qəlib istifadə edilir. B.b.-nin qalınlığı qazımanın ölçüləri və süxurların bərkliyindən asılıdır. Maili və üfüqi qazımalarda qalınlıq tağ qovuşağında 17 *sm*-dən, divarda 20 *sm*-dən çox, şaquli qazımalarda divarın qalınlığı 30 *sm*-dən artıqdır.

**BETÓN İŞLƏRİ** – beton və dəmir-beton konstruksiyaların, habelə qurğuların inşası zamanı görülən işlər kompleksi. B.i. beton qarışığının hazırlanması, tikinti sahəsinə çatdırılması, paylanması və müvafiq qəliblərdə sıxlaşdırılması, betonun bərkiməsi və bu işlərin keyfiyyətinə nəzarət edilməsi kimi proseslərdən ibarətdir. Beton qarışığı betonqarışdıran qurğularda hazırlanır. Qarışığın komponentləri (sement, doldurucular, su və müxtəlif əlavələr) tərkibdə nəzərdə tutulmuş miqdarda çəkilir və avtomatik dozalaşdırıcılarla *betonqarışdırana* verilir. Sement, su və əlavələr 1%, doldurucular isə 2%-ə qədər dəqiqliklə dozalaşdırılır. Əlavələr beton qarışıqlarının texnoloji və reoloji göstəricilərinin idarə olunması, betonun xassələrinin tənzimlənməsi üçündür; qarışığa sementin kütləsinə nəzərən müəyyən faiz nisbətində daxil edilir. Əlavələrin miqdarı betonun sinfindən və B.i.-nin xarakterindən asılıdır. Kimyəvi, narın döyülmüş aktiv mineral və kompleks mineral-kimyəvi (KMK) əlavələr tətbiq edilir. Kimyəvi əlavələr təsir effektinə görə təsnif olunur. Onlar yapığanlaşdırıcı (plastifikator ilə qarışığın hərəkiliyi artırılır), stabilləşdirici (qarışığın laylara ayrılmasının qarşısını alır), susaxlama qabiliyyətinə malik olan, bərkitməni sürətləndirən və ya ləngidən, mənfi temp-rlarda bərkiməni təmin edən və s. növlərə ayrılır. Narın döyülmüş əlavələr betonun möhkəmliyini və xarici təsirlərə davamlığını artırır. KMK əlavələrdəki mineral komponentlər quruluşun (strukturun) sıxlığını artırdığına görə betonun şaxtayadavamlığı yüksəlir və möhkəmliyi artır. Qarışığın komponentləri *betonqarışdıranda* tələb olunan müddətdə qarışdırılmadıqda betonun bircinsliyi pozulur və onun möhkəmliyi azalır.

İri şəhər və r-nlarda monolit dəmir-beton binaların inşasında səyyar betonqarışdırandan istifadə edilir. Betonqarışdıran inşa olunan obyektin yaxınlığında yerləşdirilir; bu da qarışığın texnoloji keyfiyyətinin lazımi qaydada saxlanmasına imkan yaradır. Betonqarışdıran qurğular avtomatik idarəetmənin mikroprosessor sistemi, həmçinin doldurucuların nəmlik və temp-runa dair informasiyanı toplayıb işləyən sistemlər ilə təchiz olunur. Alınan məlumat əsasında beton qarışığının tərkibi müəyyən edilir. Sistem qarışığın komponentlərinin sərfinin və hazır məhsul alınmasının hesabatını aparır. Məhsuldarlığı 10, 20 və 30 $m^3$*/saat* olan betonqarışdırıcı qurğular və mini z-dlar daha geniş tətbiq edilir. Beton qarışığı hazırlanma yerindən betonlanan obyektə betondaşıyan maşınlarla və avtobetonqarışdırıcılarla nəql olunur, istifadə yerinə isə kranlarla (0,5–8 $m^3$ həcmli badyalarda), *qaldırıcılarla*, *lentli konveyerlərlə*, *betondöşəyənlərlə*, *beton nasosu* ilə verilir. Qarışığın texnoloji xassələrini saxlamaq üçün bərkiməni ləngidən əlavələrdən istifadə edilir.

Konstruksiyanın betonlanması prosesinə beton qarışığının döşənməsi və sıxlaşdırılması, qış vaxtı istilik emalı, betona "qulluq" və qəliblərin sökülməsi aiddir. Betonlanan konstruksiya ayrı-ayrı hissələrə (sahələrə) bölünür. Sahələr arasındakı boşluq deformasiya tikişi adlanır. Betonlama zamanı baş verən texnoloji fasilələrdə işçi tikişlər qurulur. İşçi tikişlər birləşdirilən səthlərin bir-birinə nəzərən yerdəyişməsini aradan qaldırır. Betonun döşənməsi (tökülməsi) və sıxlaşdırılması fasiləsiz ardıcıllıqla yerinə yetirilməlidir. Bu əməliyyatlardan hər hansı birinin ləngiməsi betonun fiziki-mexaniki xarakteristikalarının aşağı düşməsinə və istismarda möhkəmliyinin azalmasına səbəb olur. Beton döşənməzdən əvvəl onun sıxlığı və bircinsliyi yoxlanılır. Betonun möhkəmliyinə qiymət vermək üçün yoxlama nümunələri hazırlanaraq mexaniki təsir altında sınaqdan keçirilir. Beton qarışığını sıxlaşdırmaq üçün dərinlik vibratorlarından istifadə olunur. Beton qarışığının səth qatı vibrasiya tamasaları (işlək səthinin eni 1,5–3,0 *m*) ilə sıxlaşdırılır. Proseslərin mexanikləşdirilməsi və müasir texnologiyalardan istifadə binaların inşa müddətini xeyli azaldır (hər mərtəbənin texnoloji tsikli 5–7 gündür).

Binanın yeraltı hissələrinin betonlanması "qruntda divar" və ya "kəsən yortac" üsülları ilə aparılır. Ən çox istifadə olunan "qruntda divar" üsulu hüdudlayıcı divarların 20–25 *m* dərinlikdən tikilməsinə imkan yaradır. Çoxmərtəbəli binaların, estakada qurğularının və s. tikintisində monolit dəmir-beton yortaclardan ibarət bünövrələr tətbiq edilir. Əksər çoxmərtəbəli inzibati və yaşayış binalarının bünövrəsi monolit dəmir-beton tavalardan ibarətdir. Sütunlar, fasiləsiz olaraq bütün hündürlüyü boyu betonlanır. Sütunlarla monolit bağlanan tir və tavaları 1 -2 *saat* keçdikdən sonra betonlayırlar. Belə fasilə sütunlara tökülmüş betonun çökməsi üçün nəzərdə tutulur. Nazikdivarlı konstruksiyaların inşası, həmçinin betonlama qüsurlarının aradan qaldırılması üçün B.i. torkretləmə üsulu (beton qarışığı emal olunan səthə təzyiq altında nazik qatlarla vurulur) ilə yerinə yetirilir.

Havanın temp-ru +5–0°C-dən aşağı düşdükdə betonun bərkiməsini təmin edən kimyəvi hidrotasiya prosesləri kəskin azalır və ya dayanır. Temp-r endikcə qarışıqdakı su donur və betonda destruktiv proseslər baş verir. Beton qarışığının intensiv bərkiməsi üçün "termos" üsulundan (qarışıq əvvəlcədən qızdırılmış materiallardan hazırlanır), konstruksiyaya döşənən betonun süni qızdırılması (elektriklə, induksiya ilə, infraqırmızı qızdırılma və s.) üsulundan istifadə olunur və donmaya qarşı kimyəvi əlavələr tətbiq edilir. Kompyuter texnologiyalarından istifadə etməklə beton qarışığının xarakteristikalarını, temp-runu və ətraf mühitin təsirini proqnozlaşdırmaq mümkündür.

Betona "qulluq" onun möhkəmliyi üçün zəruri olan temp-r-nəmlik rejiminin saxlanmasından; temp-r-çökmə deformasiyalarının və çatların yaranmasının qarşısının alınmasından; bərkiməkdə olan betonu zərbələrdən, həmçinin betonun keyfiyyətini aşağı salan başqa təsirlərdən qorumaqdan ibarətdir. Betona ən effektiv "qulluq" metodu onun açıq səthinin nəmliliyinin normada saxlanılması, suyun buxarlanmasının qarşısını almaq üçün səthi örtüklərin (plyonkaların) yaradılması və qış zamanı betonlamada səthin isidilməsidir. Betona "qulluq" onun keyfiyyətinin daimi nəzarətdə saxlanması ilə müşayiət olunur.



Beton nasosu vasitəsilə konstruksiyanın betonlanması.

Beton bərkiyib konstruksiyanın zəruri yüksaxlama qabiliyyətini təmin edən möhkəmliyə çatdıqda qəliblər sökülür. Qəliblərin sökülmə müddəti bərkimə rejimindən, betonun sinfindən, elementlərin konstruktiv xüsusiyyətlərindən asılıdır.

*Əd.* А ф а н а с ь е в А.А. Возведение зданий и сооружений из монолитного железобетона. М., 1990; Б а ж е н о в Ю.М. Технология бетона. М., 2003.

**BETÓN KONSTRUKSİYA VƏ MƏMULATLAR** – armatursuz və ya zəif armaturlanmış beton qarışığından hazırlanan bina və qurğu elementləri. Birləşdirici material kimi, əsasən, sement işlədilir. Dartılma deformasiyasına az müqavimət göstərdiyi üçün B.k. və m., əsasən, sıxılma gərginliyinə məruz qalan elementlər kimi tətbiq edilir. Dartı qüvvələrinin dəf olunması üçün B.k. və m.-da polad armatur da olur; belə konstruksiyalar dəmir-beton konstruksiyalar adlanır (bax *Dəmir-beton konstruksiya və məmulatlar*). Beton qarışığının formalaşma qabiliyyətinin yaxşı olması istənilən konfiqurasiyalı B.k. və m. almağa imkan verir. Müxtəlif xammal komponentlərindən istifadə edərək yüksək istismar xüsusiyyətlərinə malik (sıxılmaya, şaxtaya və korroziyaya davamlı, sukeçirməyən) konstruksiya və məmulatlar almaq mümkündür. Tökmə bünövrələr, divar daşları, tavaları və blokları, hidrotexniki qurğu elementləri, kiçik formalı arxitektura məmulatları və s. ən çox işlənən B.k. və m.-dır. Nəhəng tikililərin (məs., bənd, iri bünövrə, istinad divarları və s.) konstruksiyaları, adətən monolit, yəni tökmə betondan hazırlanır. Dekorativ məmulatlar üçün rəngli sementdən istifadə edilir. Bax həmçinin *Beton işləri*.

**BETÓN NASOSU** – beton qarışığını betondaşıyan və ya betonqarışdıran maşından lazımi yerə vuran inşaat maşını. B.n. qəbuledici bunker, nasos, oynaq-tezsökülən beton kəmərindən ibarətdir. Nasosun porşeni vurucu klapan (sürgəc) bağlı, sorucu klapan açıq olduqda beton qarışığını bunkerdən sorur, porşen geri qayıtdıqda isə beton qarışığını kəmərə vurur. Beton qarışığı kəmərlərlə 100 *m* şaquli, 2000 *m* üfüqi məsafəyə verilir; məsafə çox böyük olduqda ardıcıl bir neçə B.n. qurulur. S t a s i o n a r B.n. uzunmüddətli iş üçün qurulur. S ə y y a r B.n. olan avtobeton nasosları avtomobil şassisi və qoşqular üzərində qurulur. B.n.-nun məhsuldarlığı 5-150 $m^3$*/saat*-dır. Onun tətbiqi ilə məhdud istehsal sahələrində ağır yükqaldıran maşınlardan istifadə etmədən beton istehsal olunur.

**BETONDAĞIDAN MƏRMİ** – dəmir-betondan, yaxud daş və kərpicdən uzun müddət üçün tikilmiş qurğuları, o cümlədən yeraltı bunkerləri dağıtmaq üçün artilleriya mərmisi. B.m. gövdədən, partlayıcı maddədən, vintlənmiş dibdən və partladıcıdan ibarətdir. Legirlənmiş poladdan hazırlanan monolit gövdə termik emal olunur; divar ölçüləri qalındır, baş hissəsi isə yüksək möhkəmliyə malikdir.

B.m.-nin atış effekti mərminin betona zərbə anında onun dəymə bucağından və sürətindən asılıdır. B.m. dağıdılacaq divara 30°-dən böyük bucaq altında dəydikdə o sapır (rikoşet). Sapmaların tezliyi mərminin divara dəydiyi zaman sürətinin azalması ilə artır; sürət 300 *m/san*-dən kiçik olduqda mərmi hədəfə ixtiyari bucaq altında dəydikdə də sapmalar baş verir. 152 *mm*-lik B.m.-nin dəmir-betonu deşmə dərinliyi 0,75 *m*-ə qədər, 203 *mm*-lik mərmininki isə 1,25 *m*-ə qədərdir. Partlayışla müşayiət olunan zərbə nəticəsində çalalar, çatlar, daxili uçqunlar, divarın daxili səthində qəlpələr əmələ gəlir və tikinti deformasiyaya uğrayaraq dağılır.

**BETONDAŞIYAN**, betondaşıyan maşın – beton qarışığını daşımaq üçün ixtisaslaşdırılmış avtomobil. B. yükləyici-boşaldıcı tutumlu qurğu ilə (bunker, baraban, badya) təchiz edilir. Beton üçün tutum termoizolyasıyalı və ya isitmə sistemli ola bilər. Avtomobil şassisi üzərində qurulan və beton qarışığının müəyyən paylarla hazırlanmasını və daşınma zamanı fasiləsiz qarışdırılmasını təmin edən *betonqarışdıranı* (adətən, armudvarı baraban) olan B. *avtobetonqarışdıran* adlanır.

**BETONDÖŞƏYƏN**, betondöşəyən maşın – içərisindəki beton qarışığını töküb, lazımi qalınlıqda və profildə yayan özügedən inşaat maşını. Avtomobil və aerodrom yollarının beton örtüyünün, sənaye müəssisələrinin döşəməsinin və bünövrələrin betonlanması, həmçinin yığılma dəmir-beton məmulatların hazırlanmasında istifadə edilir. Hərəki hissəsinin konstruksiyasından asılı olaraq təkər-relsli və tırtıllı (relssiz) B. olur. Təkər-relsli maşınlar rels-qəliblər boyunca yerini dəyişir; rels-qəliblər eyni zamanda tökülən beton üçün qəlib kimi işlənilir. Tırtıllı B. örtüyün verilmiş profildə olmasını təmin edən sürüşkən qəliblərlə təchiz olunur. B.-in işçi orqanları əsas profilləyici, beton qəbulu bunkeri, beton paylayıcı, betonu sıxlaşdıran və hamarlayan qurğudan ibarətdir. Beton qarışığının verilməsi və paylanması işləri dönən lentli transportyorlarla (meydançaların tikintisində) və ya B.-in hərəkəti ilə (yolların çəkilişində) həyata keçirilir. B.-in məhsuldarlığı eni 3,5–7,0 *m*-lik zolaqlar üçün 40–50 *m³/saatdır*.

**BETONQARIŞDIRAN**, betonqarışdıran maşın – betonun komponentlərini (sement, doldurucu, su və müxtəlif əlavələr) mexaniki üsulla qarışdırmaqla beton qarışığı hazırlayan maşın. B. stasionar və səyyar; qarışığın alınma üsuluna görə qravitasiyalı, məcburi qarışdırılan; iş üsuluna görə dövri və fasiləsiz işləyən növlərə ayrılır. Qravitasiyalı maşında beton qarışığı fırlanan barabanda onun daxili səthinə bərkidilmiş pərlər vasitəsilə, məcburi qarışdırılanda isə tərpənməz bunkerin daxilindəki pərli valın fırlanması ilə qarışdırılır. Dövri işləyən B.-da qarışıq hissələrlə, müəyyən vaxt intervalı ilə verilir. Fasiləsiz işləyən B.-da isə komponentlərin qarışdırılması və hazır qarışığın boşaldılması fasiləsiz olur. Stasionar B. beton z-dlarında qurulur. Səyyar B.-da (avtobetonqarışdıran) beton qarışığı tikinti obyektinə nəqledilmə prosesində hazırlanır. Öz mühərriki olan və ya avtomobil intiqallı B.-lar olur. B.-ın məhsuldarlığı 5–120 *m³/saatdır*.

**BETÓN-POLİMER** – mineral yapışdırıcılı (əsasən, sement), məsamə və boşluqları polimerlə doldurulmuş beton. B.-p. almaq üçün bərkidilmiş və qurudulmuş beton vakuumlanır və ona monomerlər (stirol, metilmetakrilat və s.) və ya maye oliqomerlər (poliefir, epoksid və s. qatranları) hopdurulur. Hopdurulmuş maddələr betonun məsamələrini doldurarak bərkiyir. Çox vaxt polimerlər betonun yalnız üst qatına (2–3 *sm*) hopdurulur. B.-p.-in tərkibində çəkinin 2–6%-i qədər polimer olur. Bununla betonun məsaməliliyi və su hopdurma xassəsi bir neçə dəfə azalır, möhkəmliyi (300 *MPa* və daha çox), yeyilməyə davamlılığı, maye və qazı keçirməməsi, şaxtaya davamlılığı isə bir neçə dəfə artır. Sərt iqlim və abraziv yeyilmə şəraitlərində, mühitin mənfi təsirlərinin çox olduğu və betonun keçirməməzlik qabiliyyətinə yüksək tələblər qoyulduğu hallarda (bənd, rezervuar və s. hidrotexniki qurğuların tikintisi, yolların çəkilişi, tikililərin üzlənməsi və s.) işlədilən məmulatları hazırlamaq üçün B.-p.-dən istifadə edilir.

**BETONUN KORROZİYASI** – xarici mühitin dağıdıcı təsirindən betonun və dəmir-betonun korroziyası. Əsasən, su və sulu məhlullar betondan süzülərkən onların armatur və betonun komponentləri ilə qarşılıqlı təsiri nəticəsində baş verir. Beton və dəmir-betonu korroziyadan qorumaq üçün davamlı materiallar (sement, doldurucu) və yüksəksıxlıqlı betonlar tətbiq edilir, onun üzərinə lak-boya örtüyü çəkilir, polimerlər hopdurulur, həmçinin armaturun mühafizə qatını qalınlaşdırmaq və səthinə qoruyucu tərkiblər çəkməklə betonun sukeçirməzliyi və xarici mühitin dağıdıcı təsirlərinə qarşı davamlılığı artırılır.

**BETONUN VAKUUMLANMASI** – beton qarışığının qəlibdə yerləşdirilməsi və sıxlaşdırılmasından sonra artıq suyun kənar edilməsi. B.v. vakuum-nasosla birləşdirilmiş müxtəlif konstruksiyalı, vakuum-boşluqlu lövhələrlə (vakuum-kamera ilə) yerinə yetirilir. Vakuum-lövhə vibratorlarla sıxlaşdırılmış və hamarlanmış betonun açıq səthinə qoyulur. Vakuum nasosları vasitəsilə vakuum-boşluqlarda yaranan seyrəklik nəticəsində lövhələr betonun səthinə sıxılaraq oradan artıq suyu sıxışdırıb çıxarır. B.v. betonun daxilinə yerləşdirilmiş vakuum-cihazlar vasitəsilə də həyata keçirilə bilər. Beton hazırlanarkən işlənilən suyun 12–18%-i B.v. ilə kənar edilir. Beton və dəmir-beton məmulat və konstruksiyaların hazırlanmasında, yol tikintisi zamanı beton örtüyün çəkilməsində tətbiq edilir. B.v. qəlibin açılmasını sürətləndirir, betonun möhkəmliyi, sıxlığı və şaxtayadavamlılığını artırır, sementə olan tələbatı azaldır.



Betondöşəyən.



Betonqarışdıran.





**BET-ŞEMEŞ** (qədim yəhudi dilində Günəş evi) – Cənubi Fələstində, Yerusəlimdən q.-də yerləşən qədim şəhər (indiki İsrail ərazisində Ain-Şemş ş.). Ehtimal ki, e.ə. 3-cü minillikdə salınmışdır. Qədim Misirin "Lənət mətnlərində" (e.ə. 18 əsr) qeyd olunur. Əvvəllər kənani şəhəri olan B.-Ş. e.ə. 2-ci minilliyin sonlarında yəhudilərin əlinə keçmişdir. Mühüm sənətkarlıq mərkəzlərindən biri olmuşdur (qazıntılar zamanı e.ə. 12–11 əsrlərə aid çoxlu dəmir məmulat tapılmışdır).



Bet-Şemeşdə aşkar olunmuş tikililərin qalıqları.

**BETTİ** Emilio (20.8.1890, Kamerino – 11.8.1968, Kamorçyano) – italyan hüquqşünası və filosofu. H.G. Qadamer və R. Bultmanın M. Haydeggerin ontologiyasından irəli gələn "fəlsəfi hermenevtika"sı ilə polemikaya girmiş və interpretasiyanın ümumi nəzəriyyəsi kimi özünün hermenevtika konsepsiyasını irəli sürmüşdür ("Teoria generale della interpretatione", 1955). F. Şleyermaxer və V. Dilteyin, həmçinin V. fon Humboldtun ideyalarına əsaslanan B. insan ruhunu ifadə edən mətnlərin və s. interpretatorun bunlara emosional və ya idraki münasibətindən asılı olmayaraq immanent məntiqlə əlaqədə anlaşılmasına dair təlim işləyib hazırlamışdır. B. "Hermenevtika ruh haqqında elmlərin ümumi metodikası kimi" ("Die Hermeneutik als allgemeine Methodik der Geisteswissenschaften", Bd 1–2, 1962) əsərində interpretasiyanın üç tipini fərqləndirir: "öyrənən" – müstəsna dərəcədə yalnız koqnitiv məsələləri (məs., elmi, fəlsəfi, bədii mətnləri) dərk edən; "reproduktiv – başqasının hisslərini, təcrübəsini təkrarlamağa və ifadə etməyə can atan; "normativ" – düşüncə və davranışı (hüquqi, əxlaqi, dini) istiqamətləndirən interpretasiyalar. Bütün "başqalığı" (alterita) və bizim həyata yadlığı ilə birlikdə keçmişin adekvat anlaşılması interpretatorun digər dövrlərə və mədəniyyətlərə məxsus insanların fikir və hisslərinə maks. açıq yanaşmasını nəzərdə tutur.

**BETTİ TEOREMİ** – bax *Qarşılıqlıq nəzəriyyəsi*.

**BEVEREC ANTENASI** (amer. radio mühəndisi H.Beverecin adından) – *qaçan dalğa antenası*. Bir neçə dalğa uz.-lu üfüqi naqil şəklində olur; istifadə ediləcəyi tezliklər diapazonundan asılı olaraq yer səthindən 1–5 *m* hündürlükdə yerləşdirilir. B.a.-nın həm vericilik, həm də qəbuledicilik imkanları genişdir. Hazırlanması ucuz başa gələn B.a. bütün işçi diapazonlarda yenidən köklənmədən işləyə bilir.

**BEYBUTOV** Rafiq Qəmbər oğlu (12.3.1943, Bakı) – Azərb. Resp.-nın əməkdar bədən tərbiyəsi və idman xadimi (2007). Azərb. Politexnik İn-tunu (1967), Moskva Mühəndis-İqtisad İn-tunu (1972) bitirmişdir. 1987 ildən H.Əliyev ad. İdman-Konsert Kompleksinin direktorudur.

**BEYCƏSULTAN** – Anadolunun (Türkiyə) c.-q.-ində e.ə. 5–2-ci minilliklərə aid yaşayış məskəni. 1954–59 illərdə S. Lloyd tərəfindən tədqiq edilmişdir. Ümumi qalınlığı 25 *m*-dən çox olan 40 mədəni təbəqə aşkar olunmuşdur. Son Eneolitə aid təbəqələrdə (e.ə. 5-ci minillik–4-cü minilliyin ortaları) çiy kərpicdən tikilmiş düzbucaq formalı, 4-cü minilliyin ortalarına doğru isə meqaron tipli evlər və onları əhatə edən divarlar, üzəri ağ naxışlı camlar və qablar, mis bizlər, sancaqlar, xəncər qalığı, gümüş üzük aşkar olunmuşdur. Keçi, qoyun, öküz, donuz və s. heyvan sümüklərinin tapılması onların əhliləşdirilməsini sübut edir. Erkən Tunc dövrünün əvvəllərinə aid təbəqələrdə (4-cü minilliyin 2-ci yarısı) meqaron tipli evlər, cilalanmış keramika, daş antropomorf heykəlciklər tapılmışdır. Bu ənənələr Erkən Tunc dövrünün (3-cü minilliyin birinci yarısı) orta mərhələsinə aid təbəqələrdə də izlənilir. Qurbangahları və ta-



Beycəsultan yaşayış məskənində arxeoloji qazıntılar.



Beycəsultan. Ayin qabı. Saxsı.

xıl anbarları olan bir-biri ilə əlaqəli 2 məbəd də bu ənənə ilə əlaqədardır. 3-cü minilliyin sonlarında, ehtimal ki, *luviyaların* irəliləməsi nəticəsində B. mədəniyyətində tənəzzül müşahidə olunur. E.ə. 2-ci minilliyin əvvəllərində B. içqala və hökmdar sarayının yerləşdiyi şəhər idi; üzərində heroqlif işarələri olan möhürün tapılması yazı sisteminin olduğunu sübut edir. Sarayın hett hakimi I Hattuşili tərəfindən yandırıldığı (e.ə. 1650 il) ehtimal edilir. Son Tunc dövründən əvvələ aid təbəqələrdə iri saray qalıqları və meqaron tipli evlər tapılmışdır. Tapıntılar Eneolit və Tunc dövrlərində B. sakinlərinin yüksək mədəniyyətə malik olduğunu, qonşu ölkələrlə (xüsusilə Kiçik Asiyanın q. hissəsindəki) əlaqələrini göstərir.

**BEYDA** – Aralıq dənizinin ş. sahillərində Mezolit və keramikayaqədərki Neolit dövrlərinə aid abidə (e.ə. 9–7-ci minilliklər); həmin dövrlərin öyrənilməsi üçün nümunəvidir. Vadi əl-Ərəbi (Vadi-Beyda) zonasında, Petradan şm.-da (İordaniya) yerləşir. 1958–67 illərdə ingilis tədqiqatçısı D. Kirkbrayd, 1983 ildə danimarkalı arxeoloq P. Mortensen tərəfindən qazıntılar aparılmışdır. Əvvəllər *natufi mədəniyyətinə* aid düşərgə olmuşdur; təsərrüfatında dənli və paxlalı yabanı bitkilərin yığıcılığı mühüm yer tuturdu. Üstü qumla örtülmüş düşərgənin yerində Neolit məskəni olmuşdur. B.-nın VI–IV təbəqələrində daş bünövrəli dairəvi evlər aşkar edilmişdir; evlərin divarları rəngli əhənglə suvanmışdır; taxta qabın qalıqları və daş qab, keçi başının gil heykəlciyi tapılmışdır. Tapıntılar İyerixon A tipli mədəniyyətə (e.ə. 8-ci minilliyin sonları), III–I təbəqələrdə əldə olunan tapıntılar isə İyerixon B tipli mədəniyyətə (e.ə. 7-ci minillik) aiddir. Məskənin sahəsi genişlənmiş, çiy kərpicdən iri divarlar inşa olunmuşdur. Evlər dar dəhlizə bitişik olan düzbucaqlı otaqlardan ibarət idi; döşəmə və divarların qırmızı rənglə boyanması səciyyəvidir. Daş, balıqqulağı və sümük emal edən emalatxanalar, çoxsaylı dəndaşı, həvəngdəstə və s. aşkar olunmuşdur. Ölülər məskənin ərazisində fərdi şəkildə dəfn edilmişdir. Bəzi skeletlərin kəlləsi yoxdur, ehtimal ki, bu ayinlərlə bağlıdır.

**BEYDELLİT** [ABŞ-ın Kolorado ştatında Beydell yatağının adından] – yüksək alüminiumlu gil mineralı. Montmorillonit seriyasının kənar və montmorillonit – nontronit seriyasının aralıq üzvüdür. Kimyəvi tərkibi $Al_2[(OH)_2|Al_{0,5}Si_{3,5}O_{10}]^{0,5}\cdot\{(Ca, Na\sim_{0,3})(H_2O)_4\}$. Ultraəsasi süxurların qədim aşınma qabığında rast gəlinir; bentonit gillərinin əsas komponentidir; nefelinin dəyişilmə məhsuludur.

**BEYDEVİND** (holl. biy de wind) – qarşıdan və yandan əsən külək zamanı yelkənli gəminin götürdüyü kurs; gəminin uzununa oxu ilə küləyin istiqaməti arasındakı bucaq 90°-dən, yəni 8 *rumbdan* az olur. Gəminin oxu ilə küləyin istiqaməti arasındakı bucaq 6 rumbdan böyük olduqda tam B., kiçik olduqda isə ani B. adlanır.

**BEYDULLAYEV** Əli Həzrətqulu oğlu (1892, indiki Ağsu r-nunun Bico k. – 9.5.1955, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1948). 1932 ildən Ağsu r-nundakı kolxozda briqadir işləmişdir. 1947 ildə taxılçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**BEYERİNK** (Beyerinck) Martin (16.3.1851, Amsterdam – 1.1.1931, Qorsel) – Niderland botaniki və mikrobioloqu. REA-nın əcnəbi m. üzvü (1924), SSRİ EA-nın fəxri əcnəbi üzvi (1929). Delft Ali Politexnik Məktəbini bitirmişdir. Həmin məktəbdə mikrobiologiya prof.-u (1895) olmuş, Bakteriologiya İn-tunun direktoru (1897–1921) işləmişdir. Tədqiqatları ali bitkilərin inkişafının, mikroorqanizmlərin həyati fəaliyyətinin öyrənilməsinə və torpaq mikrobiologiyasına həsr edilmişdir. İlk dəfə azot fiksə edən yumrucuq (1888) və sərbəst hərəkət edən azot bakteriyalarını (1901) ayırmış və onların təmiz kulturasını təsvir etmişdir.

**BEYES**, B a y e s Tomas (1702, London – 17.4.1761, Tanbric) – ingilis riyaziyyatçısı, London Kral Cəmiyyətinin üzvü (1742). Əsas işləri ehtimal nəzəriyyəsinə aiddir; belə ki, B. elementar ehtimal nəzəriyyəsinin əsas məsələlərindən birini qoymuş və həll etmişdir (bax *Beyes düsturu*).



Beydellit.

**BEYES DÜSTURU** – elementar ehtimal nəzəriyyəsinin əsas düsturlarından biri; hadisələrin (və ya hipotezlərin) aposterior (təcrübəyə əsaslanan, təcrübədən doğan) ehtimalını aprior (təcrübədən asılı olmayan) ehtimalla hesablamağa imkan verir. Tutaq ki, $A_1, ..., A_n$ – birləşmələri etibarlı (həqiqi, gerçək) hadisə olan hər hansı uyuşmaz (ziddiyyətli) hadisələr və $B$ hansısa hadisədir. $P(A_1), ..., P(A_n)$, $P(B)>0$ isə onların ehtimallarıdır. Onda $B$ hadisəsi baş verdikdə $A_k$ hadisələrinin şərti ehtimalı

$$P(A_k \mid B) = \frac{P(B \mid A_k)P(A_k)}{\sum_{i=1}^{n} P(B \mid A_i)P(A_i)}$$

düsturu ilə təyin edilə bilər; burada $k=1,...,n$, $P(B|A_i)$ – $A_i$ hadisəsi baş verdikdə $B$ hadisəsinin şərti ehtimalıdır. B.d. T. *Beyes* tərəfindən isbat edilmiş və 1763 ildə dərc olunmuşdur; düstur ehtimalların vurulması teoreminin nəticəsidir. B.d.-nun tətbiqi zamanı $A_k$ hadisələrini adətən fərziyyələr, $P(A_k)$ ehtimallarını – aprior ehtimallar, $P(A_k|B)$ ehtimallarını isə bu fərziyyələrin aposterior ehtimalları adlandırırlar. Müşahidələrin nəticəsindən statistik xülasələr almaq üçün B. d.-ndan bilavasitə istifadə etmək onunla çətinləşir ki, bir qayda olaraq, fərziyyələrin aprior ehtimalları haqqında kifayət qədər əsaslandırılmış sübutlar (dəlillər) yoxdur. Bu səbəbdən B.d.-na dəfələrlə baxılmışdır. B.d. Beyes yanaşması çərçivəsində statistik məsələlərin həllində istifadə edilir.

**BEYƏT** (ər. البيعة) – itaətetmə və tabeolma andı. Hər hansı şəxsin hakimiyyətini açıq şəkildə qəbul etmək adəti ilə əlaqədardır. B. vasitəsilə ali hakimiyyət varisinin təsdiqi, müqavilələrin (əhdlərin) təsbiti, canişinlərin və yüksək rütbəli məmurların vəzifələrinə başlamaları və tabeliklərində olanlara təqdim edilməsi həyata keçirilir. Teokratik idarəetmə forması olan yerlərdə B. adət kimi qalmaq- dadır. İslamda B.-ə dair vahid fikir formalaşmamışdır.

**BEYHƏQİ** (ər. بيهقى) Əbu-l-Fəzl Məhəmməd ibn Hüseyn (995–1077) – İran tarixçisi. Qəznəvilər sarayında məmur olmuşdur. Qəznəvilər dövründən bəhs edən 30 cilddən artıq tarix əsərinin müəllifidir. B. və onun əsəri haqqında Əbu-l-Həsən Beyhəqi (12 əsr), Hafiz Əbru (15 əsr) və b. məlumat vermiş, ondan iqtibaslar etmişlər. İran tarixinin Qəznəvilər və Samanilər dövrünün öyrənilməsində qiymətli mənbə olan və elmi ədəbiyyatda "Tarix-i Beyhəqi" ("Beyhəqi tarixi") adlanan bu əsərin sultan I Məsud [1030–41] dövrünə aid kiçik bir hissəsi qalmışdır. Əsərdə dövlət idarələrinin fəaliyyəti, saray həyatı, vergi toplayan məmurların özbaşınalığı, xalq kütlələrinin vəziyyəti və s. məsələlər işıqlandırılmışdır. B.-nin "Zinət ül-küttab" ("Katiblərin zinəti") adlı əsəri olduğu da ehtimal edilir.

**BEYHƏQİ** (ər. بيهقى) Əbu-l-Həsən Əli ibn Zeyd (1105, Səbzəvər – 1169) – İran tarixçisi. İbn Funduq ləqəbi ilə də məşhurdur. B. tarix və başqa elm sahələrinə aid ərəb və fars dillərində yazılmış bir çox əsərin müəllifidir. O, 1148 ildə abxaz çarı Dimitrinin ərəb və Suriya dillərində göndərdiyi sorğu məktubuna Səlcuqi sultanı Səncərin göstərişi ilə hər iki dildə cavab yazmışdı. B.-nin fars dilində yazdığı və dövrümüzədək gəlib çatmış "Beyhəqin tarixi" əsərində Beyhəq əyalətinin coğrafi mövqeyi, alim və görkəmli adamları, hakim və canişinləri, toplanılan vergilər, həmçinin azərb. alimlər, beyhəqli Rəis Həmzənin Təbriz və Marağaya hakim təyin edilməsi və s. haqqında məlumat verilmişdir.

**BEYİN** – insan və onurğalı heyvanlarda mərkəzi sinir sisteminin kəllə boşluğunda yerləşən şöbəsi. Heyvanlardan fərqli olaraq insanda B. təfəkkür və nitq mərkəzidir. B. ali sinir fəaliyyətinin maddi substratı və orqanizmin bütün həyati funksiyalarının baş tənzimedicisidir.

Sinir sisteminin ilk əlamətləri birhüceyrəlilərdə meydana çıxmış, bağırsaqboşluqlarda isə inkişaf edib sinir hüceyrələri səviyyəsinə çatmışdır. Daha sonra sinir düyünü, sinir zənciri və nəhayət sinir borusu səviyyəsinə qədər təkmilləşmişdir. Təkamül prosesində dağınıq sinir hüceyrələrinin bir yerdə toplaşaraq mükəmməl sinir sistemini əmələ gətirməsi üçün uzun, tarixi bir dövr keçmişdir.

Hazırda dağınıq hüceyrələrdən ibarət sinir sisteminə hidropoliplərdə, sinir düyünlərinə yumşaqbədənlilərdə, sinir zəncirlərinə isə qurdlar və buğumayaqlılarda təsadüf edilir. Xordalıların bəsit nümayəndələrində (neştərçədə) sinir sistemi sinir borusu mərhələsinə (kəllələlər yarımtipinə daxil olan heyvanlarda tədriclə baş B. formalaşaraq), insan orqanizmində isə özünün ən mütəşəkkil səviyyəsinə çatır.

B. beş şöbəyə ayrılır. Bunlar (öndən arxaya doğru) u c B., a r a B., o r t a B., a r x a B. və uzunsov B. adlanır. B. xaricdən üç qişa (sərt, hörümçəktorunabənzər və yumşaq, yaxud damarlı qişa) ilə örtülüdür. B. qişalarının arası və B. boşluqları onurğa beyni mayesi ilə doludur. Orta hesabla insan B.-inin çəkisi 1470 *q.*, həcmi 1456 $sm^3$, səthi 1622 $sm^2$-dir. B. qabığındakı neyronların ümumi mayı 18 mlrd.-a yaxındır. B.-i bir neçə şaxəyə ayrılan dörd arteriya (iki daxili yuxu arteriyası və iki onurğa arteriyası) qanla təchiz edir. B.-də qan dövranının 5 *dəq.*-dən artıq pozulması ölümlə nəticələnir. B.-in kəllə qapağına baxan qabarıq və kəllə əsasına söykənən yastı səthi var. Sonuncuya B. əsası da deyilir. B. üç hissəyə bölünür: B. kötüyü, beyincik və B. yarımkürələri.

B. kötüyünü uzunsov B., körpü, orta və ara B. təşkil edir. B. əsasından 12 cüt B. siniri çıxır. B. ağ və boz maddələrdən ibarətdir. Ağ maddə sinir liflərindən, boz maddə isə sinir hüceyrələri cismlərindən əmələ gəlir. Ağ maddə liflərindən ibarət dəstələr oyanmanı müəyyən istiqamətdə keçirir; həmin dəstələrə *aparıcı yollar* deyilir. Bunlar onurğa B.-in-dən və B. sinirlərindən B.-in yuxarı şöbələrinə gedən afferent (mərkəzəqaçan, hissi) və əks istiqamətə yönələn efferent (mərkəzdənqaçan, əsasən hərəki) sinir liflərindən ibarətdir. Boz maddə böyük B.-i və beyinciyi xaricdən örtərək, onların qabığını əmələ gətirir. B. kötüyündə, onurğa B. və uzunsov B.-də isə ağ maddə xaricdə, boz maddə daxildədir. Uzunsov B. onurğa B.-inin bilavasitə davamçısıdır. Uzunsov B.-də mühüm həyati funksiyaları (tənəffüs, qan dövranı, həzm və s.) idarə edən sinir mərkəzləri yerləşir (bax *Uzunsov beyin*). B.-in körpü nahiyəsi böyük B. ayaqcıqları isə uzunsov B. arasında yerləşmişdir. Uz. 2–3 *sm*-dir. Uzunsov B. ilə B. körpüsünün arxa səthləri birlikdə rombabənzər çuxuru – 4-cü mədəciyin dibini əmələ gətirir.

Beyincin uzunsov B. və B. körpüsünün arxasında yerləşir. O, bədən müvazinətinin tənzim edilməsi və hərəkətlərin əlaqələndirilməsində mühüm rol oynayır.




**Beynin anatomik quruluşu (sxem):** *1* – uc beyin; *2* – ara beyin; *3* – orta beyin; *4* – körpü; *5* – beyincik; *6* – uzunsov beyin.

Orta B. rombabənzər B.-in davamıdır. O, nazik kanalı olan qısa, yoğun törəmədir. B.-in "su kəməri" adlanana bu kanalı rombabənzər (4-cü mədəcik) və ara B. (3-cü mədəcik) boşluqlarını birləşdirir. Orta B.-in arxa hissəsi dördtəpə, ön hissəsi isə B. ayaqcıqlarıdır. Orta B.-in boz maddəsi, ağ maddə arasında yerləşmiş nüvələrdən ibarətdir. Bunlardan ən mühümləri dördtəpə nüvələri, qara maddə, qırmızı nüvə və közün hərəki siniri ilə blok sinirinin nüvələridir. Orta B.-in aparıcı yolları başlıca olaraq B. ayaqcıqlarındadır. Dördtəpəninin yuxarı təpələri görmənin, aşağı təpələri isə eşitmənin ilk mərkəzləridir. Bu mərkəzlərin fəaliyyəti sayəsində işıq və səs qıcıqlarına cavab olaraq orqanizmdə qeyri-iradi yönəlmə (oriyentasiya) refleksləri əmələ gəlir. Qara maddə udma və çeynəmə aktlarının əlaqələndirilməsində, bədən əzələləri tonusununu tənzim edilməsində iştirak edir. Qırmızı nüvə orta B.-in mühüm effektor mərkəzidir. Dördtəpə nüvələrinin fəaliyyəti beyinciyin dişli nüvəsi, görmə qabarı, zolaqlı cism və B.-in böyük yarımkürələrinin qabığı ilə əlaqədərdir. Qırmızı nüvə əzələ tonusunun tənzimində böyük rol oynayır.

Ara B.-i (epifizə birlikdə) qabarüstü nahiyə (bayır və içəri dizəbənzər cismlərdə birlikdə), görmə qabarları və qabaraltı nahiyə təşkil edir. Ara B.-in boşluğu yarıq şəklindədir və 3-cü mədəcik adlanır. O, 4-cü mədəcik ("B. su kəməri") və böyük B. yarımkürələrinin yan mədəcikləri ilə birləşir.

Məməli heyvanlarda və insanda ara B.-in ən mühüm hissəsi görmə qabarlarıdır. Onlarda boz maddə ayrızayrı yığın – nüvə şəklindədir. Görmə qabarları orqanizmin əksər reseptorlarının impulslarını

mərkəzə ötürən (qoxu siniri lifləri və görmə yolu liflərinin bir qismi istisna olmaqla) kollektorudur. Görmə qabarları və dizəbənzər cismlərin sinir hüceyrələri öz növbəsində impulsları böyük B. yarımkürələrinin qabığına, böyük B.-in zolaqlı cisminə, qabaraltı nahiyəyə, qırmızı nüvəyə, rombabənzər B.-ə və beyinciyə göndərir.

Qabaraltı nahiyədə də (hipotalamusda) bir sıra boz maddə yığını var. Onlardan ən mühümü boz qabardır.

3-cü mədəciyin dibi qıf şəklində olub, ucunda daxili sekresiya vəzisi – hipofiz yerləşir. Qoxu qıcıqlarının qəbul edilməsində iştirak edən məməyəbənzər cismlər də qabaraltı nahiyədədir. Funksional cəhətdən qabaraltı nahiyə insanda və məməli heyvanlarda qabıqaltı ali vegetativ mərkəzdir. Buradakı sinir elementləri orqanizmin su, duz, yağ və karbohidrat mübadiləsini, alt B. artımının fəaliyyətini və bədənin temp-runu tənzim edir.

B. kötüyündə sıx sinir lifləri vasitəsilə bir-birinə birləşmiş müxtəlif ölçüyə və formaya malik çoxlu sinir hüceyrələri var. Bunlara torabənzər törəmə (retikulyar formasiya) deyilir. Bu törəmə qıcıqları B. qabığına gedən sensor sistemlərin (spesifik sistemlərin) yan şaxələrindən (kollaterallardan) alır, öz növbəsində onurğa B.-inə oyadıcı və ya ləngidici (B. qabığına isə oyadıcı) impulslar göndərir. Torabənzər törəmə B. qabığın tonusunda saxladığı kimi yuxu və oyaqlıq proseslərində, həmçinin emosiyalarda və gərginlik reaksiyalarında ("stress") iştirak edir. Torabənzər törəmə də eyni zamanda B. qabığının təsiri altındadır.

Ara B.-dən sonra gələn uc B. iki yarımkürədən ibarətdir. Bu hissə məməli heyvanlarda və insanda çox inkişaf etmişdir.

B.-in yarımkürələri alın, təpə, ənsə, gicgah paylarından və adacıqdan ibarətdir. Yarımkürələrin səthi çoxlu miqdarda şırımla kiçik qırışıqlarla ayrılmışdır. Hər yarımkürədə 3-cü mədəciklə birləşmiş bir yan mədəcik vardır.

B.-in boz maddəsi yarımkülərəinin qabığını əmələ gətirir; bundan əlavə, yarımkürələrinin daxilində qabıqaltı nüvələr (zolaqlı cism və solğun kürə) də var. Zolaqlı cism görmə qabarlarından və böyük B. yarımkürələrinin qabığından impuls alır, öz növbəsində solğun kürənin hüceyrələrinə impuls göndərir. Solğun kürə oyanmaları B. kötüyünün nüvələrinə, oradan da onurğa B.-inin ön buynuzlarının hərəki hüceyrələrinə keçirir. Bir-biri ilə sıx əlaqədar olan bütün bu qabıqaltı mərkəzlərə e k s t r a p i r a m i d  s i s t e m deyilir. O, orqanizmin hərəki reflekslərini idarə edir. Böyük B. yarımkürələri zəif inkişaf etmiş ibtidai onurğalılarda (balıqlarda, amfibiyalarda) ekstrapiramid sistem çox mühüm rol oynayır, ali məmli heyvanlarda (xüsusilə meymunlarda) və insanda isə həmin funksiyaları böyük B. yarımkürələrinin qabığı əlaqələndirdiyindən ekstrapiramid sistemin rolu azalır. Böyük B. yarımkürələrinin ağ maddəsi sinir hüceyrələrinin çıxıntısından ibarətdir. Onlar yarımkürələrin qabıq hüceyrələri ilə qabıqaltı nüvələri, eləcə də hər iki yarımkürə qabığının müxtəlif nahiyələrini birləşdirir və onların arasında çoxcəhətli mürəkkəb rabitə yaradır.

Morfoloji və funksional cəhətdən B. yarımkürələrini sensor (hissi) sistemlərin məcmusu kimi təsəvvür etmək olar, çünki hər hansı oyanma afferent sistemlə B.-ə çatdırılır. B. qabığında analiz edilir, efferent sistemlə B.-ə çatdırılırı. B. qabığın- da analiz edilir, efferent sistemlərə müvafiq orqanlarla impulslar göndərilir və cavab reaksiyaları alınır. B.-in fəaliyyətində yarımkürələrin daxili səthində və yan mədəciklərin dərinliyində yerləşmiş limb sisteminin də böyük əhəmiyyəti vardır. L i m b sisteminə hipokamp, arakəsmə, badamabənzər cismlər, armudabənzər və qurşaq qırışıqları, məməyəbənzər cismlər və saçaq daxildir. Burada orqanizmin cinsiyyət funksiyalarını tənzim edən mərkəzlər vardır.

Mərkəzi sinir sistemi baş B.-dən və onurğa B.-indən ibarətdir. Onurğa B.-i, kötük və qabıqaltı sinir fəaliyyətinin, əsas-şərtsiz (anadangəlmə) reflekslərin, yarımkürələrin qabığı isə başlıca olaraq orqanizmin fərdi fəaliyyətində yaranmış şərti reflekslərin mərkəzidir (bax *Şərti refleks*).

Böyük B. yarımkürələrinin qabığı orqanizmin tarixi inkişafı prosesində onurğa B.-i mərkəzlərinin fəaliyyətini get-gedə daha çox özünə tabe etmiş, insan və ali məməli heyvanlarda orqanizmin bütün fəaliyyətinin idarəedicisi və tənzimedicisi olmuşdur. O, insanın təfəkkür və nitq proseslərində də iştirak edir. Böyük B. yarımkürələrinin qabığında gedən fizioloji proseslər insanın zehni fəaliyyəti, təsəvvürləri və şüurunun maddi əsasıdır.

*Əd.:* Q a r a y e v A., M u s t a f a y e v M. Mərkəzi sinir sisteminin fiziologiyası. B., 1951; П а в л о в И.П. Полн. собр. соч., т.3, кн. 2, М.–Л., 1951; С е ч е н о в И.М. Рефлексы головного мозга. М., 1961; Л у р и я А.Р. Высшие корковые функции человека. М., 1969; B a l a k i ş i y e v K.Ə. İnsanın normal anatomiyası. C.I. B., 1971; Д з у г а е в а С.Б. Проводящие пути головного мозга человека (в онтогенезе). М., 1975.

**BEYİN BİOCƏRƏYANLARININ ANALİZATORU** – mərkəzi sinir sistemində yaranan bioelektrik rəqslərinin tezliyini ölçən elektron cihaz. Tədqiq olunan rəqslərin yekun amplitudunu təyin edən inteqratorla və elektroensefaloqrafla kompleks şəkildə işləyir.

**BEYİN QİŞALARI** – onurğalı heyvanlarda və insanda baş beyin və onurğa beynini örtən birləşdirici toxumadan ibarət üç qişa; bunlar beynin dayaq aparatı hesab olunur. Baş beyin nahiyəsindəki s ə r t qişa kəllənin daxili səthini örtərək sümüküstlüyünü və ondan kəllə boşluğuna keçən uzununa və eninə çıxıntıları əmələ gətirir. *Onurğa beyni* nahiyəsində sərt beyin qişası 2 səfhədən ibarət olur: xarici (sümüküstlüyü) və daxili (sümüküstlüyündən epidural boşluqla ayrılan). H ö r ü m ç ə k t o r u n a b ə n z ə r qişa kəllə boşluğunda böyük beyin yarımkürələri qabığının qırışıqları səthinə bitişmişdir, lakin onun şırımlarına daxil olmadığı üçün burada sisternlər əmələ gəlir. Onurğa beyni nahiyəsində hörümçəktorunabənzər qişa sərt qişanın daxili səfhəsi ilə sıx bitişmişdir. D a m a r l ı qişa onurğa beyninin və baş beynin səthinə bitişir, baş beynin şırımlarına daxil olur. Bu qişada beyni qidalandıran qan damarları yerləşir. Hörümçəktorunabənzər və damarlı B.q. arasında *onurğa beyni mayesi* ilə dolu olan hörümçəktorunabənzər qişaaltı boşluq əmələ gəlir. Hörümçəktorunabənzər və damarlı B.q.-nı yumşaq B.q. ümumi adı altında birləşdirirlər. B.q.-nın patologiyası haqqında bax *Araxnoidit, Meningit*.

**BEYİN LOKALİZASİYASI**, b e y i n  q a b ı ğ ı n d a  m ə r k ə z l ə r i n  l o k a l i z a s i y a s ı – orqanizmin fəaliyyətini idarə edən mərkəzlərin beyin yarımkürələri qabığında yerləşməsi. B.l.-nın öyrənilməsi *neyrofiziologiyanın* ən mühüm problemlərindən biridir. B.l.-nı öyrənmək üçün müxtəlif metodlar tətbiq olunur. Bunlardan beyin yarımkürələri qabığının ayrı-ayrı nahiyələrinin kəsilməsi (heyvanlarda), qıcıqlandırma, klinik-anatomik (insanlarda) və təkamüli fiziologiya metodlarını göstərmək olar. Belə metodlardan biri də İ.P.Pavlovun *şərti refleks* metodudur. B.l. müasir elektrofizioloji tədqiqat metodları (biopotensialları qeyd etmək, mikroelektrod və mikroinyeksiya texnikası və s.) vasitəsilə öyrənilmişdir. Mühitdən spesifik qıcıqları qəbul edən analizatorlar lokalizasiyasına görə üç qrupa. bölünür: xarici, daxili və xüsusi. Bunlardan hər birinin əlaqədar qabıq nahiyəsi vardır. X a r i c i analizatorlardan (eksteroresepsiya) görmə hissiyyatı mərkəzi beyin qabığı ənsə payının içəri səthində mahmız şırımı ətrafında, eşitmə hissiyyatı mərkəzi qabığın yuxarı gicgah qırışığının bayır şırıma baxan səthindəki köndələn gicgah (Heşli) qırışıqlarında, qoxu hissiyyatı mərkəzi qabığın gicgah payının dənizatıyanı qırışığının qırmağında, dad hissiyyatı mərkəzi də qoxu mərkəzinin yanında, dənizatıyanı qırışığının qırmağında, dəri hissiyyatı mərkəzi (temp-r, toxunma, ağrı, təzyiq hissiyyatı) qabığın mərkəzarxası qırışığında və yuxarı təpə paycığında yerləşir. D a x i l i analizatorların (interoresepsiya) mərkəzləri (daxili orqanlardan, damarlardan gələn oyanmaları qəbul edən mərkəz) başlıca olaraq alın payının, mərkəzarxası qırışığın aşağı şöbələrində yerləşir. Burada əmələ gələn mərkəzdənqaçan impulslar qabıqaltı vegetativ nüvələrə gedərək onların fəaliyyətini nizama salır.

X ü s u s i analizatorların (propriresepsiya – sümüklərdə, oynaqlarda, skelet əzələlərində və onların vətərlərində yaranan impulsların çatdığı son məntəqələr) və hərəkət analizatorunun mərkəzi, əsasən, alın payının mərkəzönü qırışığında yerləşir. Ona görə də mərkəzönü qırışığın piramidal hüceyrələrdən (Bets hüceyrələrindən) təşkil olunmuş həmin nahiyəsi beyin qabığının hərəki zonası sayılır. Bu nahiyənin ayrı-ayrı yerlərinin qıcıqlandırılması əlaqədar skelet əzələlərinin hərəkətinə, müxtəlif xəstəliklərin (zədə, qansızma, şiş və s.) nəticəsində həmin nahiyənin zədələnməsi isə müvafiq əzələlərin iflicinə səbəb olur.

İnsanların ictimai varlıq olması və əmək prosesi ilə əlaqədar onların beyin yarımkürələrinin qabığı nitq funksiyası da daşıyır; Bu funksiyaları idarə edən mərkəzlər insanların çoxunda (solaxay olmayanlarda) sol, az qismində (solaxaylarda) isə sağ yarımkürənin qabığında yerləşir (bax *Afaziya, Apraksiya*). Müəyyən edilmişdir ki, sağ yarımkürə də nitq prosesində iştirak edir.

**BEYİN MƏDƏCİKLƏRİ** – bax *Beyin*.

**BEYİN SİLKƏLƏNMƏSİ** – baş beynin və ya onurğa beyninin travma nəticəsində zədələnməsi. B a ş  b e y i n  s i l k ə l ə n m ə s i huşun itməsi, qusma, yaddaş pozuntuları ilə müşayiət olunur. B. s.-nin kliniki əlamətləri: travma anında kəllədaxili təzyiqin qəflətən qısamüddətli yüksəlməsi nəticəsində beyin maddəsinin fiziki-kimyəvi xassələrinin, hüceyrə zülallarının kolloid tarazlığının dəyişilməsi. Yüngül hallarda vəziyyətin sonradan kafi olması ilə huşun qısamüddətli itməsi müşahidə edilir. Daha ağır hallarda dəri örtüyünün avazıması, bəbəklərin işığa qarşı reaksiyasının azalması, nəbzin yavaşıması, yaxud sürətlənməsi, adinamiya, başağrısı, başgicəllənmə, ürəkbulanma, qusma, bilavasitə travmaya səbəb olan hadisə barədə yaddaşın itməsi qeyd olunur. Beynin əzilməsi və kəllədaxili qansızma olduqda huşun uzunmüddətli itməsi tənəffüs və ürək-damar fəaliyyətinin ağır pozuntuları ilə birgə baş verir. M ü a l i c ə s i: yataq rejimi, sakitlik, yuxugətirici, sakitləşdirici və s. simptomatik dərmanlar. Beynin ödemi zamanı dehidratasiya müalicəsi, tənəffüs pozuntusu baş verdikdə *intubasiya*, traxeostomiya (tənəffüs yollarından seliyin sorulması, oksigen verilməsi və s.) aparılır. Proqnoz adətən xoşdur; qalıq təzahürləri travmatik ensefalopatiya şəklində ola bilər; ağır travma zamanı nəticə beynin digər zədələnmələrindən (əzilmə, qansızma və s.) asılıdır.

O n u r ğ a  b e y n i n i n  s i l k ə l ə n m ə s i, bir qayda olaraq, onurğanın travması zamanı baş verir, hərəki funksiyaların və həssaslığın qısamüddətli və cüzi pozuntuları ilə səciyyələnir. M ü a l i c ə s i simptomatikdir. Proqnoz xoşdur.

**BEYİN SİNİRLƏRİ** – bax *Kəllə-beyin sinirləri*.

**BEYİNCİK** – onurğalı heyvanlarda və insanda baş beynin bir şöbəsi; hərəkətlərin koordinasiyasında, eləcə də bədən pozasının, əzələ tonusunun və müvazinətin saxlanmasında iştirak edir; həmçinin funksional cəhətdən orqanizmin vegetativ, sensor, adaptasiya-trofik və şərti reflektor fəaliyyətinin tənzimlənməsi ilə əlaqəlidir. B. sinir borusunun qalınlaşmış dorsal ("onurğa") divarından inkişaf etmişdir. İlk dəfə, dəyirmiağızlılarda – minoq və miksinlərdə, əsasən, vestibulyar kompleksdən və yan xətt orqanlarından informasiya alan aurikul (q ə d i m B.) formasında meydana çıxır. Skatlarda və akulalarda qədim B.-lə yanaşı, əsasən, əzələ, vətər, oynaq və duyğu orqanları reseptorlarından impulslar qəbul edən q o c a B. əmələ gəlir. Aşağı sinif onurğalılardan fərqli olaraq məməlilərdə beyincik y e n i B. adlandırılan yarımkürə strukturları ilə aydın təzahür edir. O, informasiyanı, əsasən, baş beyin böyük yarımkürələri qabığından, habelə görmə və eşitmə reseptorlarından alır. B.-in inkişaf dərəcəsi, başlıca olaraq, heyvanların hərəki aktivliyinin inkişaf səviyyəsindən asılıdır (ona görə də, məs., quşlar kimi hərəki heyvanlarda B. nisbətən böyükdür).

**İnsanda** B. arxa kəllə çuxurunda böyük yarımkürələrin ənsə payları altında, uzunsov beynin üstündə yerləşir. O, iki yarımkürədən və onları birləşdirən orta hissədən – soxulcandan ibarətdir. B.-in üst boz qatı (qabığı) sinir hüceyrələri cismindən əmələ gəlmişdir; B.-in daha qalın hissəsində, sinir liflərindən ibarət ağ maddənin arasında boz maddənin cüt nüvələri yerləşir. 3 cüt nüvə B. ayaqcıqları vasitəsilə baş beynin yuxarı və aşağı şöbələri – dördtəpəli cism, körpü, uzunsov beyin və s. ilə birləşir. B. qabığı müxtəlif onurğalılarda, əsasən, eynidir; O, 4-ü ləngidici olan 5 tip hüceyrələrdən əmələ gəlmiş molekulyar adlanan üst, Purkinye hüceyrələri (qanqlioz) və dənəvər qatlardan ibarətdir. B. qabığına sinir impulsları, əsasən, mamırlı və qismən də sürünən adlanan liflərlə çatdırılır. Başlanğıcını qanqlioz qatdan götürən Purkinye hüceyrələrinin aksonları B. qabığından yeganə çıxışdır və onun nüvələrində qurtarır.

B. funksiyaları haqqında məlumatlar, əsasən, onun tam və ya qismən çıxarılması, qıcıqlandırılması yolu ilə, son illərdə isə elektrofizioloji üsulla alınmışdır. İnsanda B.-in anadangəlmə inkişaf pozuntuları, yaxud zədələnmələri müvazinətin, əzələ tonusunun, gücün koordinasiyasının, əzələ yığılmaları kəmiyyətinin və sürətinin pozulmalarına, iradi hərəkətlərin yerinə yetirilməsi zamanı tremorun (titrəmə, əsmə) və tez yorulmanın (bax *Asteniya, Ataksiya*) yaranmasına səbəb olur. Məməlilərdə digər heyvanlarla müqayisədə bu pozuntular zəif olur, funksiyaların kompensasiyası isə daha tam və tez baş verir. B.-in çıxarılması şərti reflektor fəaliyyətin dəyişilməsinə səbəb olur. B.-in müəyyən sahələrinin elektriklə qıcıqlandırılması gözün, başın və ətrafların müxtəlif əzələ qruplarının hərəki reaksiyalarını törədir, açıcı əzələlərin tonusunu azaldır və *vegetativ sinir sistemi* ilə əlaqədar həzm, ürək-damar, tənəffüs sistemlərinin fəaliyyətində, istilik tənzimində, eləcə də maddələr mübadiləsin zamanı dəyişikliklərin meydana çıxmasına səbəb olur. B.-in bioelektrik aktivliyi sü-

rətli və zəif potensiallarla səciyyələnir; zəif ritmlər baş beyin qabığının təsiri ilə, sürətli aktivlik isə B.-in daxili xüsusiyyəti ilə əlaqələndirilir. Baş beynin müxtəlif nahiyələrinin qıcıqlandırılması zamanı əzələlərin, vətərlərin və bağların proprioreseptorlarından, daxili orqanların, dərinin, gözün, qulağın reseptorlarından B. qabığının müəyyən sahələrində cavab *bioelektrik potensialları* baş verir. Bütün bunlar B. funksiyalarının müxtəlifliyini eləcə də mürəkkəbliyini göstərir, ona orqanizmin somatik və vegetativ funksiyalarının universal tənzimləyicisi kimi baxmağa imkan verir.

**BEYKER** (Baker) Semüel Uayt (8.6.1821, London – 30.12.1893, Devonşir) – ingilis səyyahı. Mərkəzi Afrikanı tədqiq etmişdir. Ağ Nilin ikinci mənbəyini, Albert gölünü, Viktoriya-Nil çayında Merçison şəlalələrini kəşf etmişdir. Nil çayının yuxarı ərazilərini istila etmək məqsədilə 1869 ildə Cənubi Sudana göndərilmiş hərbi ekspedisiyaya başçılıq etmiş və B.Britaniya hökuməti tərəfindən istila olunmuş ərazilərə general-qubernator təyin edilmişdir. 1874 ildə ölkəsinə qayıtmışdır. B. "Albert-Nyasa, Nilin Böyük hövzəsi və Nilin mənbələrinin tədqiqi" elmi əsərinin (2 cilddə, 1867), region xalqları haqqında yazıların müəllifidir.

**BEYKERSFİLD** (Bakersfield) – ABŞ-ın c.-q.-ində, Kaliforniya ştatında şəhər. Əh. 291,4 min (2005; şəhərətrafı ilə 735 mindən çox; əhalisinin təqr. 1/3-i ispan dilində danışır). Kaliforniya dərəsinin c. hissəsində, Los-Ancelesdən şm.-da, Kern çayı sahilindədir. 1869 ildə Kern çayı dərəsində qızıl yatağı tapıldıqdan sonra salınmışdır. 1899 ildən neft hasilatı r-nunun mərkəzidir. 1952 ildəki zəlzələdə güclü dağıntıya məruz qalmışdır. B. k.t. r-nunun ticarət mərkəzidir (taxıl, kartof, pambıq, qara yonca, üzüm; Kaliforniya şərabları istehsalının təqr. 1/4-i). Neft hasilatı və emalı, metal emalı, elektron, toxuculuq sənayesi; yaxınlığında hərbi sınaq poliqonları (artilleriya silahı, aviasiya texnikası) var.


Beykersfild şəhərindən görünüş.

**BEYL** (Bayle) Antuan Loran (13.1.1799, Verne – mart, 1858, Paris) – fransız psixiatrı, patoloqoanatom. Tibb təhsilini Parisdə ekstern kimi R. Laennekin klinikasında (1815 ildən) və intern kimi Şaranton psixiatriya xəstəxanasında almışdır. "Ruhi xəstəliklər haqqında tədqiqatlar" (1822) doktorluq dissertasiyasında ilk dəfə olaraq xarakterik psixiki, somatonevroloji və patoloji-anatomik əlamətlərin vəhdəti əsasında proqressiv iflici (B. xəstəliyi) ayrıca xəstəlik kimi təsvir etmişdir; psixiatriyada kliniki-anatomik istiqamətin banilərindən biri olmuşdur. B. "Ruhi xəstəliklər haqqında yeni təlim" (1825), "Beyin və onun qişalarının xəstəliklərinə dair traktat" (1826) və s. əsərləri yazmış, Hippokrat və A.Selsdən tutmuş İ.Frank və J.Korvizora qədər bir çox məşhur həkimin şərhləri daxil olmaqla 40 cildlik "Tibbi biliklər ensiklopediyası"nı (1835–46) nəşr etmişdir.

**BEYL** (Bayle) Pyer (18.11.1647, Karla – 28.12.1706, Rotterdam) – fransız filosofu və publisisti, 17 əsr skeptisizminin nümayəndəsi. Protestant pastoru ailəsində doğulmuşdur. Sedandakı protestant akademiyasında fəlsəfə prof.-u (1675–81) olmuş, XIV Lüdovik tərəfindən akademiya bağlandıqdan sonra Hollandiyaya mühacirət etmişdir (Rotterdam Un-tinin prof.-u, 1681–92). 1684 ildən "Ədəbi respublika yenilikləri" adlı elmi jurnal buraxmışdır. Bioqrafik materiallarla, ilahiyyat, fəlsəfə, tarix və s. məsələlərini şərh edən çoxsaylı izahlarla zəngin olan ikicildlik "Tarixi və tənqidi lüğət"i ("Dictionnaire historique et critique", 1695–97) böyük populyarlıq qazanmışdı. Lüğət 1697–1741 illərdə 11 dəfə fransız, 2 dəfə ingilis dillərində nəşr edilmişdi.

B.-in fəlsəfi baxışları həm antik skeptisizmin, həm də *M.Montenin, B.Paskalın, R.Dekartın* ideyalarının təsiri altında formalaşmışdır. Lakin skeptisizmin dekartsayağı tənqidi şübhələrindən fərqli olaraq, B.daha ardıcıldır: yalnız sxolastika yox, müasirlərin əsərləri də ağlın mühakiməsinə verilməlidir. Skeptisizm B.-də həqiqətin axtarışına istiqamətləndirilmiş tənqidi refleksiya kimi çıxış edir. B.-ə görə, ümumi idrakın "təbii işığı" bütün insanlara xasdır və bu, həyatın "birinci qaydası"dır; Müq. Kitabda təbliğ edilən təlim – bu, həyatın birinci qaydasından asılı olan "ikinci qaydası"dır. "Təbii işıq" ali hakimdir, onun hökmü qətidir və əgər Müq. Kitabın müddəaları bu hökmə ziddirsə, onda onlar yanlışdır. B. fransız və alman Maarifçiliyinə, həmçinin ingilis deizminə əhəmiyyətli təsir göstərmişdir.

**BEYLƏQAN** – Azərb.-da orta əsr şəhəri. 9–14 əsr mənbələrində adı çəkilir. Ərəb müəlliflərinin məlumatına görə B. 5 əsrin sonu – 6 əsrin əvvəlində Sasani hökmdarı I Qubad [488–531] tərəfindən salınmışdır. 50-ci illərdə aparılan arxeoloji qazıntılar zamanı müəyyən edilmişdir ki, şəhər indiki B. r-nunun Kəbirli k. yaxınlığındakı Örənqala xarabalığının yerində olmuşdur. Əvvəllər Örənqalanın orta əsr müəlliflərinin əsərlərində adı çəkilən qədim yunan ş.-nin xarabalığı olması ehtimal edilirdi. Bəzi alimlər B.-ın alban tarixçisi Musa Kalankatuklunun əsərində və erkən orta əsrlər erməni mənbələrində 3–4 əsrlərin hadisələri ilə əlaqədar adı çəkilən daha qədim Paytakaran ş.-nin yerində salındığını göstərirlər. Paytakaranın *Təzəkənd* ərazisində və onun yaxınlığında, Örənqaladan *8 km* c.-ş.-də yerləşdiyini ehtimal edənlər də var.

Örənqalada 1933, 1936, 1951, 1953–68 illərdə aparılmış arxeoloji qazıntılar nəticəsində çoxlu maddi mədəniyyət abidəsi (qala divarları, qala darvazası, yaşayış binaları, sənətkarlıq emalatxanaları, təsərrüfat və mədəni-məişət tikililəri, 13 əsrin sonuna aid türbənin qalıqları, daş, sümük, saxsı və şüşə əşyalar, sikkələr və s.) aşkar edimişdir.

Şəhər qala divarları ilə əhatə olunmuşdu (qalınlığı *6 m* ). Qala bürclərinin hünd. 6–9 *m*-ə çatırdı. B.-da dulusçuluq, zərgərlik və s. sənət sahələri inkişaf etmişdi; su kəməri və kanalizasiya qalıqları hələ orta əsrlərdə Azərb.-da şəhərsalma mədəniyyətinin inkişafını göstərir.

B.-nı dəfələrlə yadellilər işğal etmişlər. 7 əsrin ortalarında B.-ı Xilafət qoşunları tutmuşdu. 8 əsrin 20–30-cu illərində ərəb-xəzər müharibələri B.-a ciddi ziyan vurmuşdu. İşğalçılara və yerli feodalların zülmünə cavab olaraq B.-da üsyanlar baş vermişdi. 8 əsrin ortalarında qəssab Müsafirin başçılığı ilə Xilafət əleyhinə üsyan olmuşdu. Babək hərəkatı B.-ı da əhatə etmişdi. 12 əsrin 30-cu illərində B.-da feodal zülmünə qarşı böyük üsyan baş vermişdi.




Beyləqan. "Azərbaycan əsgəri" abidəsi.

Təqr. 6 əsrdə möhkəm qala-şəhərə çevrilmiş B. 9–12 əsrlərdə böyük ticarət və sənətkarlıq mərkəzi idi. B. İran, Çin, Hindistan, Bizans və s. ölkələrlə mədəni-ticari əlaqələr saxlayırdı. 12 əsrin sonu–13 əsrin əvvəllərində B.-da iqtisadi və mədəni həyat daha da yüksəlmişdi. Azərb. atabəylərindən Əbu Bəkr [1191–1210] və Özbək [1210–25] B.-da tikinti işlərini genişləndirmişdilər. 1221 ildə monqolların hücumundan sonra B.-ın tənəzzülü başladı. Xarəzmşah Məhəmmədin oğlu Cəlaləddin [1220–31] və Teymurun [1370–1405] dövründə B.-da qismən bərpa işləri aparılsa da, şəhər 16 əsrdə tamamilə süqut etdi. B. şair, alim və dövlət xadimlərindən *Müciraddin Beyləqani*, Nəcməddin Beyləqani, Zəki bin Hüseyn bin Ömər Beyləqani və b.-nın vətənidir.

**BEYLƏQAN** (1989 ilədək Jdanov) – Azərb. Resp.-nda şəhər (1966 ilədək şəhər tipli qəs.). Beyləqan r-nunun mərkəzi. Daşburun d.y. st.-ndan (Bakı – Füzuli d.y.) 20 *km*, Bakıdan 267 *km* aralıdır. Mil düzündədir. Əh. 16,2 min (2008). K.t. r-nunun mərkəzidir. Yağ-pendir kombinatı var. B.-da 6 məktəbəqədər təhsil müəssisəsi (320 uşaq), 7 ümumtəhsil məktəbi (2683 şagird), 3 məktəbdənkənar təhsil müəssisəsi (1579 uşaq), musiqi məktəbi (292 şagird) fəaliyyət göstərir (2011/12). 5 əsrin sonu – 6 əsrin əvvəllərində salınmış şəhərin qalıqları dövrümüzədək saxlanılmışdır. Şəhərdə 4 kitabxana, 2 muzey var (2008). Mücirəddin Beyləqaninin abidəsi (tunc, heykəltəraş İ.Zeynalov, 1991) qoyulmuşdur. "Azərbaycan əsgəri", "Şəhidlər abidə kompleksləri" var.

Beyləqan. Heydər Əliyev parkı.



**BEYLƏQAN RAYONU** (1939–89 illərdə Jdanov r-nu) – Azərb. Resp.-nda inzibati r-n. 1939 ildə təşkil edilmişdir. 1963 ildə ləğv edilərək ərazisi İmişli r-nuna birləşdirilmiş, 1964 ildə yenidən müstəqil r-n olmuşdur. Mil düzünün c.-q.-ində yerləşir. Sah. 1131,1 $km^2$, əh. 85,9 min (2008). R-n şm.-q.-də Ağcabədi, ş.-də İmişli, c.-q.-də Füzuli r-nları, c.-ş.-də Araz çayı vasitəsilə İranla həmsərhəddir. R-nda 1 şəhər, 16 qəs., 25 kənd var (2008). Mərkəzi Beyləqan ş.-dir.

**Təbiəti.** Səthi şm.-ş.-ə və ş.-ə tərəf meyilli düzənlikdir. Ərazinin şm.-ş. hissəsi okean səviyyəsindən aşağıdadır. C.-q.-də hünd. təqr. 100 *m*-dir. Əsasən, Antropogen çöküntülərindən təşkil olunmuşdur. Faydalı qazıntıları: çınqıl, qum, gil, termal su və s. Mülayim isti yarımsəhra və quru çöl iqlimi var. Yanvarda temp-r 5–10°C, iyulda 25–35°C-dir. İllik yağıntı 300–400 *mm*-dir. R-nun şm.-ş. sərhədindən Kür çayı, c.-ş.-indən Araz çayı axır. Yuxarı Qarabağ, Baş Mil, Xan qızı kanalları r-nun ərazisindən keçir.

Hərəmi düzündə boz-qəhvəyi, qalan hissədə boz-çəmən, Kür çayı yaxınlığında bataqlıq-çəmən və lilli bataqlıq torpaqları yayılmışdır. B. r.-nda yarımsəhra bitkiləri üstünlük təşkil edir. Çay sahillərində qismən Tuqay meşəsi qalmışdır. Heyvanları, əsasən, ceyran, qaban, canavar, oxlu kirpi, tülkü, qamışlıq pişiyi,










quşlardan turac, qaraqarın bağrıqara, göyərçin və s.-dir.

**Əhali.** Orta sıxlıq 1 *km*$^2$-də 75 nəfərdir. İri yaşayış məntəqələri Beyləqan ş., Qəhrəmanlı, Yeni Mil, Günəşli, Milabad qəs.-ləri, Birinci Şahsevən, Dünyamalılar, İkinci Şahsevən, Təzəkənd, Kəbirli k.-ləridir.

**Təsərrüfat.** Aran iqtisadi r-nuna daxil olan B.r. resp.-nın mühüm k.t. r-nlarındandır. İqtisadiyyatının əsasını k.t. məhsullarının istehsalı, taxılçılıq, mahlıc istehsalı, quşçuluq, süd emalı, çörək istehsalı təşkil edir. K.t.-na yararlı torpaqların sahəsi 83911 *ha*-dır (1.1.2011). Taxıl, üzüm, tərəvəz məhsullarından kartof, soğan, heyvandarlıq məhsullarından ət, süd, pendir, nehrə yağı və s. daxili bazarın tələbatını ödəyir. Pambıq emalı, asfalt, süd emalı, ilkin şərab emalı z-dları, çınqıl-qırmadaş sexləri, iri heyvandarlıq kompleksləri, meşə təsərrüfatları, k.t. texnikası birliyi fəaliyyət göstərir. Ərazisindən d.y. xətti, Gəncə–Lənkəran, Bakı–Füzuli avtomobil yolları keçir.

**Mədəni quruculuq və səhiyyə.** R-nda 30 məktəbəqədər təhsil müəssisəsi (845 uşaq), 54 ümumtəhsil məktəbi (12925 şagird), 3 məktəbdənkənar təhsil müəssisəsi (4254 uşaq), musiqi məktəbi (292 şagird) fəaliyyət göstərir (2011/12). 47 kitabxana, 18 mədəniyyət evi, 18 klub, Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun ev-muzeyi var. B. r-nda 565 çarpayılıq (əhalinin hər 10 min nəfərinə 65,5 çarpayı) 11 xəstəxana (o cümədən mərkəzi r-n xəstəxanası, 1 qəs. xəstəxanası, 9 kənd sahə xəstəxanası), 9 kənd həkim ambulatoriyası, 20 feldşer-mama məntəqəsi, gigiyena və epidemiologiya mərkəzi, 109 həkim (o cümlədən 11 stomatoloq), 358 orta tibb işçisi (o cümlədən 47 feldşer-mama və mama) var (2009).

**BEYLƏQANİ** Müciröddin Əbubəkr Müzəffər (1130, Beyləqan – 1194, Təbriz) – 12 əsr Azərb. şairi. Mədrəsədə təhsil almış, ərəb və fars dillərini mükəmməl öyrənmişdir. 17–18 yaşlarında Şirvana gəlmiş, *Xaqaninin* istedadlı şagirdlərindən olmuşdur. "Mücir" ("Hami") təxəllüsü ilə şeir yazmağa başlamışdır. *Eldəgəzlərin* sarayında yaşamış, Məhəmməd Cahan Pəhləvanın [1175–86] hakimiyyəti dövründə "məliküş-şüəra" olmuşdur, Cahan Pəhləvanın ölümündən sonra Qızıl Arslanın sarayına getmiş, sonralar vergi məmuru vəzifəsinə təyin edilərək İsfahana göndərilmişdir. B. ömrünün son illərini Təbrizdə yaşamışdır. Ədəbi irsindən 5469 beyt lirik şeir, Məhəmməd bin Rəvvadiyə və Qızıl Arslana yazdığı iki "Qəsəmnamə" ("Andnamə") dövrümüzədək gəlib çatmışdır. Əsərləri içərisində məhəbbət mövzusunda yazdığı qəzəlləri çoxluq təşkil edir. Qəsidə, qitə və rübailəri var. Yaradıcılığında 12 əsrdə Azərb.-da baş verən bir sıra tarixi hadisələr, həmçinin saray mühitindən narazılıq, zəmanədən şikayət motivləri də öz əksini tapmışdır. B. Təbriz yaxınlığındakı "Məqbərətüş-şüəra" qəbiristanlığında dəfn olunmuşdur.

Ə s ə r i: Şeirlər, "Nizaminin müasirləri" kitabında. B., 1940.

*Əd.*: К р ы м с к и й А.Е. Низами и его современники. Б., 1981; Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. C.2. B., 2007.

**BEYNƏLXALQ AMNİSTİYA** (Amnesty International) – insan hüquqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən beynəlxalq qeyri-hökumət təşkilatı. 1961 ildə ingilis hüquqşünası P. Benensonun vicdan məhbuslarından – dini və siyasi əqidəsinə görə məhkum olunmuş şəxslərdən bəhs edən "Unudulmuş məhbuslar" məqaləsi "Observer" qəzetində çap olunduqdan sonra meydana gəlmişdir. Məqalə "Appeal for Amnesty 1961"


Beyləqan. "Şəhidlər" abidə kompleksi.


Beyləqan. Mücirəddin Beyləqaninin abidəsi.

("Amnistiya uğrunda kampaniya – 1961") kampaniyasının başlanğıcını qoydu; məqsəd ictimai rəyi yazıda bəhs olunan şəxslərin müdafiəsinə yönəltmək idi. Kampaniya nəticəsində 30.9.1962 ildə "B. a." adını almış daimi təşkilat meydana gəldi. 1963 ildə Londonda B. a.-nın Beynəlxalq katibliyi yarandı və o, təşkilatın mənzil-qərargahına çevrildi. 1964 ildə BMT B. a.-ya məşvərətçi statusunu verdi. 1987 ildə təşkilatın nizamnaməsi qəbul edildi. B. a.-nın Beynəlxalq şurası (2 ildən bir çağırılır) və həmin şuranın seçdiyi Beynəlxalq icraiyyə komitəsi (ildə 2 dəfə çağırılır) fəaliyyət göstərir. Təşkilat öz sıralarında 170-dən artıq dövlətdə 2 mln.-dan artıq vətəndaşı birləşdirir; vətəndaşlar fəaliyyətində istər fərdi üzvlər kimi, istərsə də qruplar, yaxud milli seksiyalar tərkibində könüllü iştirak edirlər. B. a.-nın büdcəsi milli seksiyaların və yerli könüllü qrupların topladıqları vəsaitlər, həmçinin fərdi üzvlərin və ictimaiyyətin (hökumət təşkilatları istisna olmaqla) ianələri hesabına formalaşır. B. a. fəaliyyətində BMT-nin 1948 ildə qəbul etdiyi İnsan hüquqları bəyannaməsinə, Vətəndaş və siyasi hüquqlar haqqında pakta (1966) və ona əlavə edilmiş fakultativ protokola, digər beynəlxalq sənədlərə əsaslanır. Təşkilat BMT-nin İqtisadi və sosial şurası, YUNESKO, Avropa Şurası və digər beynəlxalq təşkilatlarla əlaqə saxlayır.

B. a.-nın iştirakçıları siyasi, dini, irqi, milli və s. motivlərlə saxlanılmış və ittiham edilmiş şəxslərin işlərinə məhkəmədə dərhal və ədalətli baxılmasını tələb edirlər. Ölüm hökmünün və işgəncələrin, həmçinin əzabverici, qəddar, yaxud insan ləyaqətini alçaldan davranışın, yaxud cəzanın qeyd-şərtsiz ləğvi uğrunda mübarizə təşkilatın xüsusi fəaliyyət istiqamətidir. B. a. təqiblərə məruz qalan şəxslərin vicdan məhbusları kimi həbsxanaya düşmə, işgəncələrə məruz qalma və edam təhlükəsi olduğu halda vətəndaşı olduğu ölkələrə zorla qaytarılmasının əleyhinə çıxır. B. a. hərəkatının tərəfdarları öz hökumətlərini, yaxud siyasi sistemlərini dəstəkləmir və onlara qarşı çıxmırlar, həmçinin hüquqlarını qoruduqları məhbusları da dəstəkləmir və onlar haqqında öz fikirlərini bildirmirlər. Hərəkat üzvləri bəyan edirlər ki, onlar əqidələrindən asılı olmayaraq, bütün vicdan məhbuslarının yalnız humanitar hüquqlarını qorumaqla məşğuldurlar.

1972 ildə B. a.-nın təşəbbüsü ilə işgəncələrə qarşı ilk kampaniya keçirilmiş və onun nəticəsi kimi 1973 ildə BMT-nin Baş Assambleyası işgəncələri məhkum edən qətnamə qəbul etmişdir. B. a.-nın təklifinə uyğun olaraq, BMT-nin insan hüquqları üzrə Ali komissarı vəzifəsi (1993) və Beynəlxalq cinayət məhkəməsi (2002) təsis edilmişdir. 21 əsrin əvvəllərində B. a. əsas diqqətini qadınlara və uşaqlara qarşı zorakılıqla mübarizəyə, dünyada silah ticarətinə nəzarətə və s. məsələlərə yönəldir. 2009 ilin mayından təşkilat əsas məqsədi bütün dünyada yoxsulluğa son qoymaq, yoxsulların hüquqlarının tanınmaq və müdafiə etmək olan "Ləyaqətli münasibət uğrunda" kampaniyasına başlamışdır.

B. a. insan hüquqlarının pozulması haqqında məlumatlara subyektiv yanaşması, ideoloji qərəzliliyi, həmçinin vicdan məhbusları kimi tanıdıqları şəxslərin təqibolunma səbəblərini (milli, ictimai təhlükəsizliyə təhdid, digər vətəndaşların hüquq və azadlıqlarına müdaxilə və s.) nəzərə almadığı üçün çox zaman tənqidlərə məruz qalır.

B. a. Nobel sülh mükafatı laureatıdır (1977).

**BEYNƏLXALQ ARBİTRAJ MƏHKƏMƏLƏRİ** – daimi fəaliyyət göstərən *münsiflər məhkəməsi*, yaxud konkret mübahisənin həlli üçün məhkəmə kimi yaradılan arbitraj müəssisələri (beynəlxalq arbitraj mərkəzləri və institutları).

İnkişaf etmiş ölkələrdə B. a. m. ticarət-sənaye (ticarət) palataları nəzdində yaradılmış və fəaliyyət göstərirlər, məs., Beynəlxalq ticarət palatası (İnternational Chamber of Commerce) nəzdində Beynəlxalq kommersiya arbitraj məhkəməsi (İnternational Court of Arbitration), London beynəlxalq arbitraj məhkəməsi (London Court of İnternational Arbitration), Stokholm Ticarət palatasının Arbitraj institutu (məhkəməsi) (Arbitration İnstitute of the Stockholm Chamber of Commerce) və s. B. a. m.-nin məhkəmə aidiyyəti, formalaşması və fəaliyyəti üsulu haqqında qaydalar bir çox cəhətləri ilə unifikasiya edilmişdir.

Azərb. Resp.-nda "Beynəlxalq arbitraj haqqında" Qanun (1999) qəbul edilmişdir.

**BEYNƏLXALQ ASTRONAVTİKA AKADEMİYASI** (BAA; International Academy of Astronautics, IAA) – kosmik fəzanın tədqiqi və dinc məqsədlər üçün istifadəsi üzrə beynəlxalq qeyri-hökumət təşkilatı. Stokholmda yaradılmışdır (16.8.1960). Mənzil-qərargahı Parisdə yerləşir. Əsas vəzifələri: kosmonavtikanın dinc məqsədlər üçün inkişafına dəstək; elm və texnikanın kosmonavtika ilə əlaqəli hər hansı sahəsində mühüm nəticələr əldə edən alim və mütəxəssislərə dəstək; aerokosmik tədqiqatlar sahəsində beynəlxalq əməkdaşlıq proqramlarının həyata keçirməsi və s. B.A.A.-nın Baş sessiyası 2 ildən bir keçirilir. Akademiyanın Rəyasət Heyəti ildə iki dəfə toplanır, prezidentdən, 4 vitse-prezidentdən və 4 seksiya (fundamental elmlər, mühəndislik elmləri, həyati təminat elmləri və sosial elmlər) üzrə 28 müvəkkildən ibarətdir. B.A.A.-nın işi altı ixtisaslaşdırılmış tematik komissiya, müntəzəm və ixtisaslaşdırılmış konfranslar çərçivəsində təşkil olunmuşdur. *Beynəlxalq Astronavtika Federasiyası* ilə birlikdə hər il Beynəlxalq astronavtika konqresi (IAC) keçirilir. B.A.A.-nın 4 seksiyasında 78 ölkədən 1244 həqiqi və m. üzv və 6 fəxri üzv vardır ( 2011). Əsas nəşrləri: "Acta Astronautica" aylıq jurnalı, "IAA Newsletter" bülleteni, müntəzəm yenilənən ixtisaslaşdırılmış çoxdilli lüğətlər (kompakt-disklərdə), "Kosmik tədqiqatlar" (" Cosmic studies") topluları və s.

**BEYNƏLXALQ ASTRONAVTİKA FEDERASİYASI** (BAF; International Astronautical Federation, IAF) – kosmik fəzanın tədqiqi və ondan dinc məqsədlər üçün istifadə edilməsi problemləri ilə məşğul olan beynəlxalq qeyri–hökumət, qeyri-kommersiya təşkilatı. Mənzil-qərargahı Parisdə yerləşir. 1951 ildə Londonda Beynəlxalq astronavtika konqresində təsis edilmişdir (1950 ildə Parisdə keçirilmiş 1-ci konqresdə kosmos tədqiqatçılarının beynəlxalq federasiyasının yaradılması haqqında qərar qəbul edilmişdi). 3-cü konqresdə (1952, Ştutqart) federasiyanın nizamnaməsi qəbul olunmuşdur.

BAF kosmik fəaliyyət sahəsindəki nailiyyətlər haqqında dünya ictimaiyyətinin məlumatlandırılmasına, müxtəlif kosmik proqramların reallaşdırılması planları, gedişi və nəticələrinə dair informasiya mübadiləsinə, yüksəkixtisaslı mütəxəssislərin hazırlanmasına, kosmik proqramların həyata keçirilməsində əməkdaşlığa, inkişaf etməkdə olan ölkələrin kosmik sistemlərdən istifadə etmələrinə və s. dəstək verir. BAF-ın hər il keçirilən beynəlxalq astronavtika konqreslərində kosmik fəzanın tədqiqi və istifadəsinə dair alınan nəticələr yekunlaşdırılır, dünya kosmonavtikasının inkişaf perspektivləri müəyyənləşdirilir. Federasiya həmçinin kosmonavtikanın müxtəlif məsələlərinə dair ixtisaslaşdırılmış beynəlxalq simpoziumların və seminarların hazırlanması və keçirilməsi ilə məşğul olur.





BAF-a 58 ölkədən 205 təşkilat (kosmik agentliklər, kosmik-raket texnikasını işləyib hazırlayan müəssisə və şirkətlər, astronavtika cəmiyyətləri, kosmik fəzanın tədqiqi və istifadəsi ilə bağlı olan universitetlər, tədqiqat institutları, qeyri-hökumət təşkilatları və s.) daxildir (2011). BAF-ın maliyyələşdirilməsi hər il yığılan üzvlük haqlarının, kosmik–raket texnikasını işləyib hazırlayan şirkətlərin sponsorluq köməyi və digər könüllü ianələrin hesabına təmin olunur. BAF-ın ali orqanı Beynəlxalq astronavtika konqresinin tədbirləri çərçivəsində hər il çağırılan Baş assambleyadır. Assambleyanın funksiyasına yeni üzvlərin qəbulu, vəzifəli şəxslərin seçkiləri, maliyyə məsələlərinin həlli, BAF-ın yeni komitələrinin və komissiyalarının yaradılması, növbəti konqresin çağırılması vaxtı və yerinin müəyyənləşdirilməsi və s. daxildir. Sessiyalararası dövrdə Baş assambleyanın işinə BAF-ın bürosu (3 il müddətinə seçilən) rəhbərlik edir. Büro ilə yanaşı BAF-ın əsas struktur tərkibinə texniki və inzibati komitələr (bioastronavtika, tətbiqi tədqiqatlar, energetika, maarifləndirmə məsələləri və s. üzrə) daxildir. BAF-ın təşəbbüsü ilə *Beynəlxalq Astronavtika Akademiyası* və Beynəlxalq Kosmik Hüquq İnstitutu (International Institute of Space Law, IISL) yaradılmışdır; onlar BAF-la birlikdə beynəlxalq astronavtika konqreslərinin təşkili üçün məsuliyyət daşıyır. Federasiya kosmik tədqiqat problemləri ilə məşğul olan təşkilatlarla sıx əlaqə saxlayır; YUNESKO-da və Beynəlxalq Elektrorabitə İttifaqında məsləhətçi statusuna malikdir.

**BEYNƏLXALQ ASTRONOMİYA İTTİFAQI** (BAİ; International Astronomical Union, IAU) – astronomiyaya dair tədqiqatları dünya üzrə koordinasiya edən beynəlxalq qeyri-hökumət təşkilatı. 1919 ildə Brüssel ş.-ndə yaradılmışdır. BAİ-də həm fərdi (10 mindən çox alim, o cümlədən 10-a qədər azərb. alim), həm də kollektiv (70 dövlət) üzvlük vardır (2011). BAİ-nin əsas vəzifələri beynəlxalq elmi simpoziumların (ildə 9) təşkili, fundamental astronomik və fiziki parametrlərin müəyyənləşdirilməsi, həmçinin astronomiya nomenklaturasının, o cümlədən standartlaşdırılmış terminologiyanın işlənib hazırlanmasıdır. Bundan əlavə, BAİ Günəş sistemindəki cismlərə, onların relyefindəki detallara adların verilməsinə cavabdehdir. BAİ digər təşkilatlarda astronomları təmsil edir, astronomiya birliklərinin maraqlarını (məs., rəsədxanaların yerləşdiyi ərazilərdə müxtəlif elektromaqnit və s. manealərlə mübarizə) müdafiə edir. BAİ-nin ali orqanı üç ildə bir dəfə keçirilən Baş assambleyadır. Astronomiyaya dair tədqiqatları 12 bölmə və onlara daxil olan 40 ixtisaslaşdırılmış komissiya koordinasiya edir. BAİ geniş maarifləndirici və naşirlik fəaliyyəti göstərir; simpoziumların və assambleyaların elmi əsərlərini, informasiya bülletenlərini nəşr edir. BAİ daxilindəki kəşflərlə bağlı informasiyanın operativ yayılması ilə Mərkəzi astronomik teleqramlar bürosu və Kiçik planetlər mərkəzi məşğul olur. BAİ beynəlxalq astronomiya ilinin keçirilməsinin (2009) təşəbbüsçüsü və təşkilatçısı olmuşdur.

**BEYNƏLXALQ ATOM ENERJİSİ AGENTLİYİ** (BAEA; İnternational Atomic Energy Agency, İAEA) – dinc məqsədlər üçün atom enerjisindən istifadə sahəsində beynəlxalq əməkdaşlığı həyata keçirən hökumətlərarası təşkilat. BMT-nin qərarlarına uyğun yaradılmışdır. BMT-nin Baş Assambleyasına öz fəaliyyəti haqqında hər il hesabat təqdim edir. BAEA-nın nizamnaməsi Nyu-Yorkda 1956 ilin oktyabrında keçirilmiş beynəlxalq konfransda təsdiq edilmiş, 29.7.1957 ildə qüvvəyə minmişdir. 151 dövlət BAEA-nın üzvüdür (2010).

Agentliyin ali orqanı Baş konfransdır (ildə bir dəfə çağırılır). Təşkilata daxil olan ölkələrin nümayəndələrindən ibarətdir; o, İdarəçilər şurasını və baş direktoru seçir. Katibliyin (inzibati orqan) işinə nəzarət edir. İcraçı orqanı İdarəçilər şurasıdır (adətən ildə 5 dəfə toplanır). 35 idarəçi direktordan ibarətdir; BAEA-ya üzv-ölkələr üçün yerinə yetirilməsi icbari olan qərarlar qəbul etmək səlahiyyətinə malikdir. Katibliyin tərkibində nüvə enerjisi, nüvə təhlükəsizliyi, elmi tədqiqatlar, əməkdaşlıq, həmçinin inzibati şöbələr mövcuddur. Katibliyə baş direktor başçılıq edir (4 il müddətinə seçilir). S. Koul (1957–61, ABŞ), S. Eklund (1961–81, İsveç), H. Bliks (1981–97, İsveç), M. əl-*Bəradəi* (1997–2009, Misir), Y.Amano (1.12.2009 ildə vəzifəyə keçmişdir, Yaponiya) baş direktor seçilmişlər. BAEA-nın mənzil-qərargahı Vyanada, regional şöbələri Torontada, Cenevrədə, Nyu-Yorkda və Tokioda, laboratoriyaları Avstriya və Monakoda, tədqiqat mərkəzi (YUNESKO-nun idarəçiliyi altında) Triyestdədir.

BAEA atom energetikasının inkişafı məsələlərinin müzakirəsi üçün konfranslar və yığıncaqlar çağırır, müxtəlif ölkələrə (əsasən, inkişaf etməkdə olan ölkələrə) tədqiqat işlərinə kömək məqsədilə mütəxəssislər göndərir, nüvə avadanlığı və materiallarının verilməsi üzrə dövlətlərarası vasitəçilik xidmətləri göstərir, nəzarət funksiyalarını yerinə yetirir; bilavasitə agentliyin, yaxud onun vasitəçiliyi ilə digər ölkələrin etdikləri yardımların hərbi məqsədlər üçün istifadə olunmamasına nəzarət edir; insanları və ətraf mühiti nüvə enerjisinin təhlükəli amillərinin təsirindən qorumağı təmin edən standartları işləyib hazırlayır. *Nüvə silahının yayılmaması haqqında müqaviləyə* əsasən BAEA-nın üzərinə müqavilə iştirakçıları tərəfindən öhdəliklərin yerinə yetirilməsinə nəzarət funksiyası qoyulmuşdur.

2005 il Nobel sülh mükafatı BAEA-ya, həmçinin M. əl-Bəradəinin özünə verilmişdir.

**BEYNƏLXALQ AVİASİYA FEDERASİYASI** (BAF; Federation Aeronautique İnternationale, FAİ) – milli aviasiya təşkilatları, qrupları və klublarının beynəlxalq ittifaqı. BAF-ın əsas vəzifəsi dünyada idman aviasiyası və kosmonavtikanın inkişaf etdirilməsidir. Əsası 12–14.10.1905 ildə Parisdə keçirilən 1-ci Beynəlxalq konfransda qoyulmuşdur. Konfransda BAF-ın Nizamnamə və Əsasnaməsi qəbul olunmuşdur. Mənzil-qərargahı Lozanna ş.-ndədir (1999 ilədək Parisdə). BAF beynəlxalq yarışların qaydalarını işləyib hazırlayır və təsdiq edir, onların təşkilinə və keçirilməsinə nəzarəti, eləcə də aviasiya və kosmik rekordların qeydə alınmasını həyata keçirir. BAF-ın tərkibinə müxtəlif komissiyalar – aviasiya-idman, ümumi təyinatlı aviasiya, planerizm üzrə, uçuş (havada uçuş), aviamodel, paraşüt, aviasiya-kosmos təhsili üzrə, helikopter, astronavtika üzrə, ali pilotaj üzrə, tibbi-fizioloji, həvəskar konstruktorların uçuş aparatları kostruksiya etməsi üzrə, sərbəst uçuş (deltaplanerizm), mikroaviasiya komissiyaları, eləcə də nizamnamə, maliyyə, üzvlüyün genişləndirilməsi, ictimaiyyətlə əlaqə, biznesin inkişafı üzrə komitələr daxildir. BAF-a 100-dən çox dövlət üzvdür (2011). Əsas orqanları Baş konfrans (BAF-ın ali orqanıdır), Şura, daimi və müvəqqəti komissiyalardır. Baş konfrans Nizamnamə və Əsasnaməyə uyğun olaraq maliyyə, qanunvericilik və icra məsələlərini həll edir; konfranslarda (hər il keçirilir) prezident, prezidentin 1-ci müa-

vini, prezident müavinləri, baş xəzinədar seçilir, beynəlxalq komissiyaların tərkibi təsdiq olunur. Şuraya çağırışlararası dövrdə Baş konfransın hüquqları verilir. Daimi və müvəqqəti komissiyalar Baş konfransın və ya Şuranın irəli sürdüyü xüsusi məsələləri öyrənmək üçün yaradılır. BAF-ın bayrağı və emblemi vardır. BAF-ın mükafatları (medallar və diplomlar) ayrı-ayrı şəxslərə, qrup və təşkilatlara aviasiya və kosmonavtika sahəsində apardıqları fəal işlərinə, idman nailiyyətlərinə və rekordlara görə verilir; medal və diplomlardan başqa, bir çox priz və kuboklar da təqdim edilir. Federasiya üzv ölkələrin illik ödənişləri hesabına maliyyələşir. Rəsmi dili ingilis, fransız, rus və ispan dilləridir.

**BEYNƏLXALQ BASKETBOL FEDERASİYASI** (BBF; Federation Internationale de Basketball, FIBA) – beynəlxalq idman təşkilatı. Basketbolun inkişafı və populyarlaşması ilə məşğul olur. Əsası 1932 il 18 iyunda Cenevrədə qoyulmuşdur; əvvəllər Beynəlxalq Həvəskar Basketbol Federasiyası adlanmışdır. Peşəkar basketbolçuların Barselonada Olimpiya Oyunlarına buraxılması haqqında qərarla (1989) əlaqədar adı qısaldılmış, lakin abbreviatura saxlanılmışdır. Ali orqanı konqresdir (4 ildə 1 dəfə keçirilir). Mənzil-qərargahı Cenevrədədir. 213 milli federasiya, o cümlədən Azərb. Basketbol Federasiyası (1994 ildən) FIBA-nın üzvüdür (2011). Rəsmi dilləri: ing., fr., isp., rus, alman. FIBA-nın tərkibində qitələr üzrə (Asiya, Amerika, Afrika, Avropa, Okeaniya) 5 komissiya fəaliyyət göstərir. FIBA kişilər (1950 ildən) və qadınlar (1953 ildən) arasında dünya çempionatları; 20, 19, 17 yaşadək gənclər arasında dünya çempionatları, kişilər və qadınlar arasında qitə çempionatları, bir sıra böyük beynəlxalq klub turnirləri keçirir. FIBA-nın əsas məqsədi oyun qaydalarını işləyib hazırlamaq və təkmilləşdirmək, bütün beynəlxalq və Olimpiya yarışlarının reqlamentini müəyyənləşdirmək, oyunçuların və məşqçilərin transfer qaydalarını nizamlamaq, yarışların keçirilməsinə rəhbərlik etmək, ixtisas üzrə ədəbiyyatın nəşrilə məşğul olmaq, *Milli Basketbol Assosiasiyası* (NBA) ilə perspektiv əməkdaşlıq qurmaq və s.-dən ibarətdir. FIBA-da bir neçə komissiya, o cümlədən texniki, maliyyə, təşkilati, hüquq, qadın, gənclər və yeniyetmələr; mini-basketbol üzrə beynəlxalq komitə fəaliyyət göstərir. 1991 ildə FIBA-nın Şərəf zalı, 2000 ildə isə FIBA-nın qadın Şərəf zalı yaradılmışdır.

**BEYNƏLXALQ BİOKİMYA VƏ MOLEKULYAR BİOLOGİYA İTTİFAQI** (International Union of Biochemistry and Molecular Biology, JUBMB) – beynəlxalq qeyri hökumət təşkilatı. Beynəlxalq Biokimya İttifaqı kimi 1955 ildə yaradılmış, 1991 ildən indiki adıdır. Beynəlxalq Elm üzrə Şuraya daxildir (1955 ildən) ittifaq əsas vəzifəsi dünyadakı ən yeni nailiyyətləri nəzərə almaqla biokimya və molekulyar biologiya sahəsində tədqiqatların və təhsilin inkişafına kömək etməkdir. 77 ölkənin alimlərini birləşdirir (2010 il üçün). İttifaq 3 ildən bir biokimya və molekulyar biologiya üzrə tədqiqatların bütün əsas istiqamətlərinin təqdim olunduğu beynəlxalq konqreslər keçirir. 1992 ildən konqreslərin çağırış dövrləri arasında konfranslar və xüsusi müşavirələr keçirilir. İttifaq işçi müşavirələrini təşkil və himayə edir, inkişaf edən ölkələrin gənc tədqiqatçıları üçün maarifləndirici proqramlar yaradır, biokimyəvi nomenklaturanın (o cümlədən fermentlərin nomenklaturası) qəbul olunmuş standartları haqqında məlumat nəşr etdirir.

Maliyyələşməsinin əsasını ittifaqın üzvlərinin üzvlük haqları və sponsor yardımı təşkil edir. İttifaq regional biokimya cəmiyyətləri ilə Asiya və Okeaniya ölkələrinin (FAOBMB) Biokimyaçıları və Molekulyar Bioloqlar Cəmiyyətləri Federasiyası, Avropa Biokimya Cəmiyyətləri Federasiyası (FEBS), Panamerika Biokimya və Molekulyur Biologiya assosiasiyası (PABMB) və Afrika biokimya və Molekulyar Biologiya Cəmiyyətləri Federasiyası ilə sıx əməkdaşlıq edir. Bütün bu cəmiyyətlər formal olaraq ittifaqın şöbələridir və ondan maliyyə yardımı alır. İttifaq bir sıra jurnalların nəşrinə kömək edir, o cümlədən "Trends in Biochemical Sciences", "Biotechnology and Applied Biochemistry", "JUBMB Life", "Biochemistry and Molecular Biology Education", "BioEssays", "BioFactors", "Molekcular Aspects of Medicine".

**BEYNƏLXALQ BİOLOGİYA ELMLƏRİ İTTİFAQI** (International Union of Biological Sciensis, İUVS) – beynəlxalq qeyri-kommersiya təşkilatı. 1919 ildə (Brüssel) yaradılmışdır. Əsas vəzifələri müasir biologiyanın ən mühüm istiqamətlərini inkişaf etdirmək, beynəlxalq və fənlərarası kooperasiyaların yaranmasına səbəb olan və s. tədbirlərə təşəbbüs göstərmək, kömək etmək, müdafiə etmək və əlaqələndirmək; hər şeydən əvvəl ittifaqın elmi proqramları ilə bağlı keçirilən birgə tədbirlərin nəticələrini yaymaq və müzakirəsini təmin etmək; beynəlxalq konfransların təşkilinə, onların əsərlərinin nəşrinə kömək etməkdən ibarətdir. 2010 ildən ittifaqa 45 əsas üzv (əsasən, müxtəlif ölkələrin EA-nın nümayəndələri) və 80 elmi üzv (elmi cəmiyyətlərin, komissiyaların və s.-nin nümayəndələri) daxil idi. Mənzil-qərargahı–Parisdədir. B.B.E.İ. Beynəlxalq Elm üzrə Şura yaradıcıları və üzvlərinin sırasına daxildir. Ali orqanı 3 ildən bir çağırılan Baş assambleyadır. Burada biologiyanın inkişaf yolları, hər il müşavirələr keçirən İcra komitəsi seçilir. İttifaqın katibliyi içraçı direktordur (yeganə ştatlı vəzifədir). İcra komitəsi Baş assambleyaya qəbul vaxtı ittifaqın vəsaitindən himayə edilən qabaqcıl istiqamətlər təklif edir. "Bioloqu International" jurnalı nəşr edilir. Maliyyə fəaliyyəti ittifaqın əsas üzvlərinin üzvlük haqları və Yuneskonun dotasiyları hesabına həyata keçirilir.

**BEYNƏLXALQ BİOLOJİ PROQRAM** (BBP; International Biological Programm, İBP) – həm təbii, həm də insanın yaratdığı quru, şirin su və dəniz bitki və heyvan qruplaşmalarının bioloji məhsuldarlığının qlobal öyrənilməsinin uzunmüddətli proqramı. 1964 ildən 1974 ilə qədər davam etmişdir. Azərb. Resp. da daxil olmaqla proqramda 58 ölkə, həmçinin Beynəlxalq biologiya cəmiyyətləri ittifaqı Beynəlxalq fiziologiya elmləri ittifaqı, Beynəlxalq coğrafiya ittifaqı və s. iştirak etmişdir. İş 7 bölmədə, o cümlədən məhsulvermə prosesləri (fotosintez və azotun bioloji fiksasiyası), quru qruplaşmalarının mühafizəsi bölmələrində, həmçinin müxtəlif lahiyələr üzrə aparılmışdır. SSRİ-də BBP üzrə tədqiqatlarda SSRİ EA-nın, müttəfiq respublikaların EA-larının təqr. 300 elmi müəssisəsi, bir çox un-tlər və sahə ETİ-ləri iştirak etmişdir. Bu proqram (1969 ildən) orqanizmlərin adaptasiya xüsusiyyətlərinin ekoloji-fizioloji və trofoenergetik mexanizmlərini nəzərə almaqla becərilən bitkilərin və onlara yaxın yabanı (qohum) bitkilərin genetik müxtəlifliyini və s., Arktikadan səhralara qədər müxtəlif qruplaşmaların məhsuldarlığının iqlimdən, biogeosenotik və antropogen faktorlardan asılılığının geniş tədqiqini əhatə etmişdir. Azərb.-da proqramın rəhbəri akad. H.Ə.Əliyev olmuşdur. Hazırda BBP-ın davamçısı YUNESKO-nun "İnsan və biosfer" (ing. MAB, the Man and the Biosphere) proqramıdır.

**BEYNƏLXALQ BULUDLAR TƏSNİFATI** – meteorologiyada buludların xarici görünüş xüsusiyyətlərinə və daxili strukturlarına görə qəbul olunmuş bölgüsü. Təqr. 1890 ildə işlənib hazırlanmış və 1920–50-ci illərdə dəqiqləşdirilmiş B.b.t.-nın müasir variantına görə dəniz səviyyəsi ilə tropopauza arasındakı atmosferdə bütün buludlar 10 əsas növə ayrılır. Bulud növlərinin Azərb. dilində və lat. adları və onların qısaldılmış işarələri belədir: lələkvarı – Cirrus (Ci), lələkvarı-topa – Cirrocumulus (Cc), lələkvarı-laylı – Cirrostratus (Cs), yüksək-topa – Altocumulus (Ac), yüksək-laylı – Altostratus (As), laylı-yağışlı – Nimbostratus (Ns), laylı-topa – Stratocumulus (Sc), laylı – Stratus (St), topa – Cumulus (Cu), topa-yağışlı – Cumulonimbus (Cb). Yüksəkliyə görə şərti olaraq 3 yarus fərqləndirilir və onların hər birində bu və ya digər bulud formaları üstünlük təşkil edir. Müxtəlif enliklərdə yarusların sərhədi tropopauzanın hünd.- ndən asılı olaraq bir qədər fərqlidir. Bütün enliklərdə a ş a ğ ı y a r u s a (2 *km*-ədək hünd.-də), demək olar ki, həmişə laylı-topa, topa, laylı, topa-yağışlı və laylı-yağışlı buludlar daxildir. Bu buludlar tünd-boz rəngli, sıx olur; Günəş işığını zəif buraxır. Onların təpəsi orta yarusadək, bəzən, hətta yuxarı yarusadək (topa-yağışlı buludlar) qalxır. Topa və topa-yağışlı buludları şaquli inkişaf buludları adlandırırlar. O r t a y a r u s u n buludları qütb enliklərində 4 *km*, mülayim enliklərdə 7 *km*, tropik enliklərdə 8 *km* hünd.-dədir. Burada yüksək-topa və yüksək-laylı buludlara rast gəlinir. Ağ, yaxud boz rəngdə olan bu buludlar səmanı tam və ya qismən tutur. Y u x a r ı y a r u s u n buludları qütb enliklərində 3–8 *km*, mülayim enliklərdə 6–13 *km*, tropik enliklərdə 6–18 *km* hünd.-də yerləşir. Bunlar lələkvarı, lələkvarı-topa və lələkvarı-laylı buludlardır; rəngləri ağ, yarımşəffafdır, Günəş işığının qarşısını az alır. Əksər növ buludlar makroskopik tərkibinə, şəffaflığına və digər xüsusiyyətlərinə görə daha kiçik növdaxili vahidlərə bölünür; məs.: lifli – fibratus (fib.), caynaqvarı – uncinus (unc.), sıx – spissatus (spiss.), pırtlaşıq – intortus (int.), yalvarı – vertebratus (vert.), dalğalı – undulatus (und.) və s. buludlar.

*Əd.*: Х р о м о в С.П., М а м о н т о в а Л.И. Метеорологический словарь. 3-е изд. Л., 1974; М а т в е е в Л.Т. Динамика облаков. Л., 1981; М а з и н И.П., Ш м е т е р С.М. Облака, строение и физика образования. Л., 1983.

**BEYNƏLXALQ BUZÜSTÜ HOKKEY FEDERASİYASI** (BBHF; International İce Hockey Federation, IIHF) – beynəlxalq idman təşkilatı. Şaybalı hokkeyin inkişafı və populyarlaşması ilə məşğul olur. 1978 ilə qədər Beynəlxalq Buzüstü Hokkey Liqası (LIHG, Ligue Internationale de Hockey sur Glace) adlanmışdır. Əsası 1908 il 15 mayda Parisdə qoyulmuşdur. BBHF 70 milli federasiyanı birləşdirir. Mənzil-qərargahı Sürixdədir. Rəsmi dil ingilis dilidir. Ali orqanı hər il keçirilən Konqresdir. BBHF kişilər (1920 ildən) və qadınlar (1990 ildən), 20 yaşa qədər gənclər (1977 ildən) arasında dünya çempionatları, bir sıra böyük klub turnirləri keçirir. Tərkibində bir neçə komitə, o cümlədən inkişaf, audit, tarixi, tibbi, qadın, əlaqələndirici, intizam, ətraf mühit və idman qurğuları üzrə komitələr fəaliyyət göstərir.

**BEYNƏLXALQ CİNAYƏT MƏHKƏMƏSİ** – ən ciddi cinayətlər üçün məsuliyyət daşıyan şəxslər barəsində yurisdiksiyanı həyata keçirmək vəkaləti olan və cinayət ədalət mühakiməsinin milli sistemini tamamlayan daimi beynəlxalq orqan. 17.7.1998 ildə Roma statutu ilə təsis edilmiş, 1.7.2002 ildən qüvvəyə minmişdir. Məhkəmə beynəlxalq hüquq subyektliyinə və hüquq qabiliyyətliyinə malikdir.

Statutun 5-ci maddəsinə əsasən, B. c. m.-nə aşağıdakı cinayətlər üzrə yurisdiksiya verilmişdir: *soyqırım*; bəşəriyyətə qarşı cinayətlər; hərbi cinayətlər; *işğal* (2010 il Roma statutunun icmalına dair konfransda qərara alınmışdır ki, Məhkəmə 2017 ildən işğallar üzrə yurisdiksiya həyata keçirə bilər və "işğal cinayəti" nin özü müəyyənləşdirilmişdir). Statutun iştirakçısına çevrilən dövlət qeyd edilmiş cinayətlər üzrə Məhkəmənin yurisdiksiyasını qəbul etmiş olur. Məhkəmə aşağıdakı hallarda özünün yurisdiksiyasını həyata keçirə bilər: 1) bir, yaxud bir neçə oxşar cinayət hadisəsinin törədilməsi ehtimal edilən vəziyyət prokurora iştirakçı-dövlət tərəfindən verilərsə; 2) bir, yaxud bir neçə oxşar cinayət hadisəsinin törədilməsi ehtimal edilən vəziyyət prokurora BMT-nin Təhlükəsizlik Şurası tərəfindən verilərsə; 3) belə cinayətə dair təhqiqatı prokuror öz təşəbbüsü ilə başladıqda.

Məhkəmə cinayət işini icraata götürərkən əmin olmalıdır ki, həmin iş üzrə yurisdiksiyaya malikdir. İşə baxılmasının nəticəsinə görə, Məhkəmə açıq hökm çıxarır, mümkün olduqda, müttəhimin iştirakı ilə. Tətbiq edilə bilən cəza tədbirləri azadlıqdan məhrumetmə (xüsusilə ağır xarakterli cinayətlər törədildikdə – ömürlük), cərimə, cinayət nəticəsində bilavasitə, yaxud dolayı yolla əldə edilmiş gəlirin, mülkiyyətin və aktivlərin müsadirəsi ola bilər.

Məhkəmə Rəyasət Heyətindən, apelyasiya, məhkəmə şöbələrindən, ilkin icraat şöbəsindən, prokurorun dəftərxanasından və katiblikdən ibarətdir. Məhkəmə araşdırmasının yeri Məhkəmənin yerləşdiyi məkandır (Haaqa ş.). Məhkəmənin maliyyələşməsi ödəmə cədvəlinə uyğun olaraq iştirakçı dövlətlər, həmçinin BMT və istənilən könüllü ianəçilər tərəfindən həyata keçirilir.

**BEYNƏLXALQ CİNAYƏT POLİSİ TƏŞKİLATI** – bax *İnterpol*.

**BEYNƏLXALQ CİNAYƏT TRİBUNALLARI** – fiziki şəxsləri törətdikləri beynəlxalq cinayətlərə və ya beynəlxalq səciyyəli cinayətlərə görə məsuliyyətə cəlb edən beynəlxalq məhkəmə təsisatları. BMT, yaxud dövlətlər tərəfindən beynəlxalq müqavilə bağlamaq yolu ilə yaradılır.

*Beynəlxalq cinayət məhkəməsi* Roma statutu (1998) əsasında yaradılmışdır.

Keçmiş Y u q o s l a v i y a ərazisində beynəlxalq humanitar hüququn ciddi pozuntularına görə məsuliyyət daşıyan şəxslərin məhkəmə təqibləri üçün nəzərdə tutulan beynəlxalq tribunal BMT-nin Təhlükəsizlik Şurasının 827 saylı qətnaməsi (25.5.1993) ilə təsis edilmişdir. Haaqa ş.-ndə (Niderland) yerləşir; fəaliyyəti Nizamnamə (1993), prosedura və sübutetmə Qaydaları (1994) ilə müəyyənləşir. Tribunala *Cenevrə konvensiyalarını (1949)* ciddi pozan, yaxud pozulması üçün əmrlər verən şəxslərin məhkəmə təqibini həyata keçirmək məqsədilə vəkalət verilmişdir. Aşağıdakı pozuntulara görə cinayət məsuliyyəti nəzərdə tutulur: qəsdən adam öldürmə; bioloji eksperimentlər də daxil olmaqla işgəncə və qeyri-insani rəftar; qəsdən ağır işgəncələrin verilməsi, yaxud ciddi xəsarət və sağlamlığa zərər vuran digər hərəkətlər; hərbi zərurətdən irəli gəlməyən, qeyri-qanuni, zorakı və böyük həcmdə dağıntıların, həmçinin mülkiyyət mənimsəmələrinin həyata keçirilməsi; hərbi əsiri, yaxud mülki şəxsi düşmən dövlətin silahlı qüvvələrində xidmət etməyə məcbur etmək; hərbi əsiri, yaxud mülki şəxsi qərəzsiz və normal mühakimə icraatı hüquqlarından məhrumetmə; mülki əhalinin qanunsuz

deportasiyası, yerdəyişməsi, yaxud həbsi; mülki şəxslərin girov götürülməsi. Beynəlxalq tribunala *soyqırımı* və bəşəriyyətə qarşı cinayətlərə görə məhkəmə təqibini həyata keçirmək üçün vəkalət verilmişdir. Onun yurisdiksiyası yalnız fiziki şəxslərə şamil edilir. Beynəlxalq tribunal iki məhkəmə və bir apellyasiya kameralarından, ittihamçıdan, katiblikdən ibarətdir. Tribunalın hakimləri BMT-nin Baş Assambleyası tərəfindən Təhlükəsizlik Şurasının təqdim etdiyi siyahıdan seçilirlər.

R u a n d a ərazisində soyqırımı və beynəlxalq humanitar hüququn digər ciddi pozuntularına görə məsuliyyət daşıyan şəxslərin məhkəmə təqiblərini nəzərdə tutan beynəlxalq cinayət tribunalı BMT-nin Təhlükəsizlik Şurasının 955 saylı (8.11.1994) qətnaməsi əsasında yaradılmışdır. Aruşa ş.-ndə (Tanzaniya) yerləşir. Tribunal Statut, prosedura və sü- butetmə Qaydalarına uyğun fəaliyyət göstərir. Tribunala soyqırımı və cinayət səciyyəli digər əməllər (adam öldürmə, həbsetmə, işgəncə, zorlama, siyasi, irqi və ya dini motivlərə görə təqibetmə) törətmiş şəxslərin məhkəmə təqibini həyata keçirmək üçün vəkalət verilmişdir. Tribunala Cenevrə konvensiyalarını ciddi pozan, yaxud buna əmr verən şəxslərin məhkəmə təqibini həyata keçirmək üçün vəkalət verilmişdir. Pozuntular aşağıdakılardan ibarətdir: insan həyatına, sağlamlığına, onun fiziki, yaxud psixi durumuna qəsdetmə, həmçinin qəddar rəftar (işgəncə, xəsarət, yaxud hər hansı fiziki cəza forması), girovların götürülməsi; terrorizm aktları; talançılıq və s. Tribunalın yurisdiksiyası fiziki şəxslərə şamil olunur. Tribunal iki məhkəmə və bir apellyasiya kameralarından, ittihamçıdan, katiblikdən ibarətdir. Məhkəmə hakimləri öz ölkələrində yüksək hakimlik vəzifələrinə təyinat üçün irəli sürülən tələblərə cavab verən, yüksək mənəvi keyfiyyətlərə malik, qərəzsiz və vicdanlı şəxslər arasından seçilir. Kameraların ümumi tərkibini müəyyənləşdirərkən, hakimlərin cinayət hüququ, beynəlxaq hüquq, o cümlədən insan hüquqları sahəsində beynəlxalq humanitar hüquq və normaları sahəsində təcrübəsi nəzərə alınır.

K a m b o c a üzrə tribunal Demokratik Kampuçiyada 17.4.1975 ildən 6.1.1979 ilədək törədilmiş cinayətlərə görə təqiblər haqqında BMT ilə Kamboca Krallığı hökuməti arasında bağlanmış Sazişə (2003) müvafiq yaradılmışdır. Pnompen ş.-ndə (Kamboca) yerləşir. Saziş soyqırımı və cinayət səciyyəli digər əməllər törətməkdə günahkar bilinən şəxslərin cəzalandırılması üçün fövqəladə palataların (kameraların) yaradılmasını nəzərdə tutur. Bir tərəfdən Kamboca hakimləri, digər tərəfdən BMT-nin Baş katibinin təqdimatı ilə Ali hakimlər şurasının təyin etdiyi hakimlər (beynəlxalq hakimlər) iki fəövqəladə palatanın (kameranın) hər birində xidmət etməlidirlər. Palataların komplektləşməsi aşağıdakı kimi baş verir: məhkəmə palatası (kamerası) 3 Kamboca hakimindən və 2 beynəlxalq hakimdən; apellyasiya palatası və birinci instansiya palatası qismində çıxış edən Ali məhkəmə palatası 4 Kamboca və 3 beynəlxaq hakimdən ibarətdir.

Bu cinayət tribunallarından əlavə, 30.11.1996 ildən (Fritaun ş.-ndə) Syerra-Leone ərazisində törədilmiş beynəlxalq humanitar hüququn və Syerra-Leone hüququnun ciddi pozuntularına görə ən çox məsuliyyət daşıyan şəxslərin məhkəmə təqibi üçün S y e r r a - L e o n e üzrə Xüsusi məhkəmə; ölkənin baş nazirinə 14.2.2005 ildə edilmiş hücumda günahkar bilinən şəxslərin məhkəmə təqibləri üçün nəzərdə tutulan L i v a n üzrə Xüsusi tribunal (Haaqa ş.-ndə); Ş ə r q i T i m o r üzrə xüsusi komissiyalar (Dili ş.-ndə) yaradılmış və hazırda fəaliyyət göstərir.

**BEYNƏLXALQ ÇAYLAR** – beynəlxalq hüquqda bir neçə dövlətin ərazisindən keçən çaylar (məs, Dunay, Konqo, Amazon və s.). B. ç.-ın ayrı-ayrı sahələri müvafiq sahilboyu dövlətin ərazisi hesab edilir və onun yurisdiksiyasına tabe olur. B. ç.-dan keçən bütün xarici gəmilər, sularından keçdiyi ölkələrin qoyduğu üzmə qanunlarına əməl etməlidir. Mühüm B. ç.-ın hüquq rejimi bütün sahilboyu dövlətlərin razılığı ilə müəyyən edilir.

**BEYNƏLXALQ DƏNİZ TƏŞKİLATI (BDT)** – BMT-nin ixtisaslaşdırılmış idarəsi. 1959 ildə yaradılmışdır, 169 üzv-dövləti birləşdirir (2010). BDT beynəlxalq ticarət sahəsində gəmiçiliyin etibarlılığı və təhlükəsizliyi, həmçinin gəmilərin dənizləri çirkləndirməsini qabaqlamaq sahələrində əsas məsuliyyət daşıyır.

BDT beynəlxalq gəmiçiliyə təsir göstərən texniki məsələlərə aid norma və qaydaların formalaşdırılması sahəsində hökumətlərarası əməkdaşlıq üçün; dəniz gəmiçiliyində maks. həyata keçirilə bilən təhlükəsizlik və effektivlik standartlarının qəbulunu, gəmilərin dənizləri çirkləndirməsinin qabaqlanmasını və bununla mübarizə yolu ilə təmiz dəniz mühitinin mühafizəsi üçün mexanizmlərin yaradılmasını təmin edir. Bu məqsədlə BDT tərəfindən işlənib hazırlanmış 40-dan artıq konvensiya və sazişlər, həmçinin 1000-ə yaxın məcəllə və tövsiyə dünya miqyasında həyata keçirilir.

BDT 1983 ildə Malmö (İsveç) ş.-ndə Ümumdünya dəniz un-ti yaratmışdır; burada gəmiçilik sahəsində fəaliyyət göstərən yüksəksəviyyəli mütəxəssislərin, pedaqoqların və rəhbər işçilərin ixtisaslarının təkmilləşdirilməsi təmin olunur. 1989 ildə Valetta (Malta) ş.-ndə BDT-nin Beynəlxalq dəniz hüququ in-tu təsis edilmişdir. Beynəlxalq dəniz akademiyası (1989, Triyest) gəmiçiliyə aid müxtəlif fənnlər üzrə qısamüddətli ixtisaslaşdırılmış kurslar təşkil edir.

BDT-nin rəhbər orqanı Assambleyadır, iki ildən bir çağırılır. Assambleya ildə iki dəfə yığıncaq keçirən və 40 nəfərdən ibarət icraçı orqanı – Şuranı seçir.

**BEYNƏLXALQ ELEKTRİK RABİTƏSİ İTTİFAQI** (BERİ; İnternational Telecommunication Union, İTU) – beynəlxalq təşkilat; təşkilat çərçivəsində hökumətlər və özəl sektor tərəfindən qlobal elektrik rabitəsi şəbəkələrinin və rabitə xidmətlərinin koordinasiyası həyata keçirilir. 17.5.1865 ildə Parisdə 20 dövlət tərəfindən Beynəlxalq Teleqraf İttifaqı kimi təsis edilmişdir. 1934 ildən (Beynəlxalq elektrik rabitəsi konvensiyası imzalandıqdan sonra) BERİ adlanır. 1947 ildən BMT-nin ixtisaslaşdırılmış təsisatıdır. Mənzil-qərargahı Cenevrədədir. BERİ-yə 192 dövlət və 700-dən çox sektor və assosiasiya üzrə üzv (telekommunikasiya və proqram təminatı vasitələrinin işlənib hazırlanması və istehsalı üzrə dövlət və özəl rabitə operatorları, elmi tədqiqat idarələri, regional və beynəlxalq elektrik rabitəsi təşkilatları və s.) daxildir (2011).

BERİ-nin əsas vəzifələri: kosmik radiorabitə daxil olmaqla elektrik rabitəsi sahəsində əməkdaşlığın tənzimlənməsi və koordinasiyası; elektrik rabitəsinin texniki vasitələrinin təkmilləşdirilməsi və onların səmərəli istifadəsi; rabitənin təhlükəsizliyinin təminatı üçün tədbirlərin görülməsi; inkişaf etməkdə olan ölkələrə elektrik rabitəsi sahəsində texniki yardım göstərilməsi; elektrik rabitəsi sahəsində yeni texnologiyaların bütün dünya əhalisi arasında yayılmasına yardım göstərilməsi və s.

Bu məqsədlə BERİ radiotezlikləri





paylaşdırır, istifadəçilərin qeydiyyatını aparır, müvafiq qayda və tariflərin unifikasiyası üzrə tövsiyələr qəbul edir, müxtəlif elektrik rabitəsi avadanlıqlarının tədqiqi, işlənilməsi, hazırlanması və istismarı ilə bağlı ən aktual məsələlər üzrə tədqiqatlar aparır və tövsiyələr (milli və beynəlxalq standartların işlənilməsi üçün əsas götürülür) işləyib hazırlayır, maliyyə yardımı və texnoloji yardım göstərir. BERİ həmçinin informasiya cəmiyyəti məsələləri üzrə ümumdünya toplantılarını təşkil edir.

BERİ-nin fəaliyyətini nizama salan sənədlər Beynəlxalq elektrik rabitəsi konvensiyası və BERİ-nin Nizamnaməsidir. Konvensiya və Nizamnamə BERİ-nin strukturunu, onun orqanlarının səlahiyyətlərini, BERİ-nin konfranslarının və ittifaqın digər orqanlarının iclaslarının prosedura qaydalarını, büdcəyə ödəmələr şkalasını, mübahisələrin arbitraj həlli qaydasını, radiorabitə reqlamentinin qəbulu qaydasını, radiotezlik diapazonlarının paylaşdırılması, istifadə olunan tezlik zolaqlarının, peyklərin geostasionar orbitdə dayanma nöqtələrinin və s. qeydiyyatı şərtlərini müəyyən edir. BERİ-nin ali rəhbər orqanı səlahiyyətli konfransdır; elektrik rabitəsi üzrə konvensiyaların qəbulu və yenidən baxılması üçün 4 ildə bir dəfə çağırılır. Konfransda 46 üzvdən ibarət İnzibati şura da seçilir. Şura konfranslararası dövrdə BERİ-nin fəaliyyətini əlaqələndirir. Şura Baş katiblikdən, radiorabitə, elektrik rabitəsinin standartlaşdırılması, elektrik rabitəsinin inkişafı bölmələrindən ibarətdir. Baş katiblik ittifaqın fəaliyyətini idarə edir, müxtəlif təşkilati tədbirlər və konfranslar keçirir, bölmələrin fəaliyyətini əlaqələndirir. Hər bir bölmənin işini direktor və məsləhətçilər qrupundan ibarət Büro koordinasiya edir. Bütün bölmələrdə elektrik rabitəsinin müvafiq məsələləri üzrə tədqiqat komissiyaları vardır.

**BEYNƏLXALQ ƏDƏBİ MUKAFATLAR** – bax *Ədəbiyyat və incəsənət sahəsində mükafatlar*.

**BEYNƏLXALQ ƏMƏK BÖLGÜSÜ (BƏB)** – son məhsulun birgə hazırlanması və istehlakı üçün ölkə, region və müəssisələrin ayrı-ayrı məhsulların (və ya onların hissələrinin) istehsalı və kooperativləşməsi ilə bağlı ixtisaslaşması prosesi; iqtisadiyyatın qloballaşmasının əsasıdır. BƏB dünya ölkələri arasında istehsal, elmi-texniki, ticarət və s. üzrə əməkdaşlıq növü kimi çıxış edir; əmtəə, xidmət, kapital, texnologiya və informasiyaların sərhədlərarası axınına, insanların ölkələrarası yerdəyişməsinə, bazarların ərazi və institusional inteqrasiyasına və s. proseslərə səbəb olur.

BƏB istehsalın və işçi qüvvəsinin beynəlxalq ixtisaslaşması və kooperativləşməsi prosesi zamanı meydana gəlir. İstehsalın beynəlxalq ixtisaslaşması iki istiqamətdə inkişaf edir: sahələrarası ayrı-ayrı müəssisə (şirkət) və müəssisə birlikləri daxilində; ərazi – ayrı-ayrı ölkələrin, ölkələr qrupunun və regionların dünya bazarı üçün müəyyən məhsulların (və ya onların hissələrinin) istehsalı üzrə ixtisaslaşması. Beynəlxalq kooperativləşmə müştərək müəssisələr, transmilli şirkətlər, ölkələrarası və ya regional layihələr, proqramlar, razılaşdırılmış ixtisaslaşma və s. formalarda çıxış edir.

BƏB-in inkişafının başlıca səbəbi – ayrı-ayrı ölkələrin və ya ölkələr qrupunun ümumi məhsuldar qüvvələrinin səmərəliləşdirilməsi, istehsalın məhsuldarlığının və effektivliyinin yüksəldilməsi yolu ilə iqtisadi mənfəət əldə etmək istəyidir. Bir çox və ya bütün dünya ölkələrinin yalnız birgə səyi nəticəsində həlli mümkün olan ümumbəşəri (humanist) məsələlərin reallaşdırılması və qlobal problemlərin (o cümlədən ətraf mühitin mühafizəsi, dünya miqyasında ərzaq probleminin həlli, kosmosun mənimsənilməsi) həyata keçirilməsi BƏB prosesində getdikcə daha mühüm rol oynayır.

BƏB-i obyektiv olaraq inkişaf etdirən aşağıdakı əsas amillər qrupu fərqləndirilir: milli amillər (təbii iqlim şəraiti, təbii resurslar, ərazinin böyüklüyü, əhalinin sayı, ölkənin iqtisadi-coğrafi mövqeyi; ayrı-ayrı ölkələrin sosial-iqtisadi xüsusiyyətləri – ölkənin dünya iqtisadiyyatında yeri, tarixi inkişafının, istehsal ənənələrinin və xarici iqtisadi əlaqələr ənənələrinin spesifikası, iqtisadiyyatın və elmi-texniki tərəqqinin əldə olunmuş səviyyəsi, təsərrüfatçılıq tipi, xarici əlaqələrin qanunverici bazası); beynəlxalq amillər [dünyada elmi-texniki tərəqqinin səviyyəsi: onun inkişaf səviyyəsi nə qədər yüksək olarsa, ölkənin ixtisaslaşma sahələri (məhsulları) bir o qədər elmtutumlu olur; dünya bazarında tələbat; beynəlxalq hesablaşmalar sistemi; təbii resursların əmtəə kimi dəyəri ilə bağlı məsələləri yeni tərzdə qoyan ekoloji problemlər].

**BEYNƏLXALQ ƏMƏK STANDARTLARI (BƏS)** – əmək münasibətlərinin beynəlxalq-hüquqi tənzimlənməsinin istiqamətləri; beynəlxalq müqavilələrdə, sazişlərdə, tövsiyə xarakterli sənədlərdə çıxış edir və daxili milli əmək hüququnun təkmilləşdirilməsinə yönəldilir.

BƏS-in ümumi strukturu 3 iyerarxik səviyyədə təmsil olunur: BMT-nin aktları; Beynəlxalq Əmək Təşkilatının (BƏT) normativ sənədləri; Avropa İttifaqının (Aİ), Avropa Şurasının (AŞ), Müstəqil Dövlətlər Birliyinin (MDB), Avrasiya İqtisadi Birliyinin, Amerika Dövlətləri Təşkilatının, Ərəb Əmək Təşkilatının, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının və s.-nin regional standartları.

**BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATI** (BƏT; International Labor Organization, ILO) – *BMT-nin ixtisaslaşdırılmış idarəsi*; əmək qanunvericiliyi məsələlərinə dair *konvensiya* və tövsiyələrin işlənib hazırlanmasını təmin edir. BƏT *beynəlxalq əmək standartlarında* əksini tapan sosial sülhün ümumi müdafiəsi prinsiplərinə riayət etmək yolu ilə işçilərin, sahibkarların və dövlətin nümayəndələri arasında danışıqlar mexanizmini istifadə etməklə, aktual sosial-əmək problemlərinin həllinə yardım məqsədi ilə yaradılmışdır. Mənzil-qərargahı Cenevrədə yerləşir.

BƏT-in Nizamnaməsindən irəli gələn əsas vəzifələri və fəaliyyət istiqamətləri aşağıdakılardır: iştirakçı dövlətlərə sosial-əmək problemlərinin həllinə yardım proqramlarının və beynəlxalq siyasətin işlənib hazırlanması; insanın əmək və birləşmək hüququnun müdafiəsi; yoxsullluqla mübarizə; əmək şəraitinin və istehsalat mühitinin, təhlükəsizlik texnikasının və əmək gigiyenasının yaxşılaşdırılmasına dair proqramların hazırlanması; ətraf mühitin qorunması və bərpası; əhalinin sosial cəhətdən ən zəif qruplarının (qadınların, gənclərin, əlillərin, ahılların, miqrantların) müdafiəsinə dair tədbirlərin hazırlanması.

1919 ildə yarandığı zaman 45 dövlət BƏT-in üzvü olmuşdur; hazırda onların sayı 183-ə çatmışdır və bu dövlətlərdə dünya əhalisinin 98% yaşayır (2009). Azərb. Resp. da təşkilatın üzvüdür. BƏT-in Şərqi Avropa və Mərkəzi Asiya ölkələri üçün Subregional bürosu Moskva ş.-ndə yerləşir. BƏT-in vəsaitləri, əsasən, üzv-dövlətlərin üzvlük haqları hesabına formalaşır.

BƏT-in Ali orqanı təşkilatın iş istiqamətlərini müəyyənləşdirən, əmək münasibətləri sahəsində ən böyük problemləri müzakirə edən, beynəlxalq əmək standartlarını hazırlayıb təsdiq edən və BƏT fəaliyyətinin ayrı-ayrı məsələlərinə dair qətnamələri qəbul edən Beynəlxalq Əmək Konfransıdır. BƏT-in icraedici

orqanı İnzibati şuradır; o, konfranslararası dövrdə BƏT-in fəaliyyətini istiqamətləndirir, konfranslar və digər yığıncaqlar üçün gündəliyi müəyyənləşdirir, Beynəlxalq əmək bürosunun (BƏB) fəaliyyətinə rəhbərliyi həyata keçirir. Mənzil-qərargahı Cenevrədə yerləşən BƏB BƏT-in daimi katibliyi, inzibati orqanı, tədqiqat və informasiya mərkəzidir. BƏB-ə İnzibati şuranın 5 il müddətinə seçdiyi baş direktor başçılıq edir.

**BEYNƏLXALQ ƏMTƏƏ BİRJALARİ** – bax *Birja.*

**BEYNƏLXALQ FARMAKOLOGİYA İTTİFAQI** (BFİ; 2006 ildən Beynəlxalq Ümumi və Kliniki Farmakologiya İttifaqı, International Union of Basic and Clinical Pharmacology, IUPHAR) – üzv ölkələrin və regionların farmakoloqlarını təmsil edən milli təşkilatların könüllü qeyri-kommersiya assosiasiyası. 1959 ildə Beynəlxalq Fiziologiya Elmləri İttifaqının bölməsi (seksiyası) kimi əsası qoyulmuş, 1966 ildən müstəqil təşkilat kimi fəaliyyət göstərir. 1972 ildən Beynəlxalq Elm üzrə Şuraya daxildir. 60 milli farmakoloqlar cəmiyyətini birləşdirir (2007). BFİ-nin əsas vəzifələri bütün dünyada farmakologiya cəmiyyətləri arasında əməkdaşlığın dəstəklənməsindən; farmakoloqların beynəlxalq və regional qurultaylarının maliyyələşdirilməsi və onların təşkilinə yardımdan; elmi tədqiqatlara dair məlumatların beynəlxalq mübadiləsinin həvəsləndirilməsindən; farmakoloqlar ilə digər elm sahələrinin nümayəndələri arasında əməkdaşlığa yardımdan; bütün dünyada farmakoloji tədqiqatların həyata keçirilməsinə dəstəkdən; farmakologiya sahəsində kütləvi informasiyanın nəşri proqramlarına yardım edilməsindən ibarətdir. BFİ nəzdində İcraçı komitə, habelə üzvlük, seçki komitələri; dərman maddələrinin nomenklaturası və təsnifatı üzrə komitə yaradılmışdır. BFİ müntəzəm olaraq (hər 4 ildən bir) farmakoloqların ümumdünya konqresini keçirir, "Beynəlxalq farmakologiya" ("Pharmacology International") xəbərlərini nəşr edir, həmçinin ittifaqın üzvləri haqqında məlumatlar ("Member Directory") təqdim edir, dərman maddələrinin nomenklaturası və təsnifatı üzrə komitənin rəsmi hesabatını ("Pharmacological Reviews"), "Receptor Database", "Ion Channels Database" soraq kitabçalarını dərc edir.

**BEYNƏLXALQ FİZİOLOGİYA ELMLƏRİ İTTİFAQI** (BFEİ; International Union of Physiological Sciences, IUPS) – dünya fiziologiya elminin inkişafına, fizioloqlar arasında beynəlxalq əlaqələrin yaradılmasına, fiziologiya sahəsində tədqiqatların koordinasiyasına və s. yardım edən beynəlxalq qeyri-kommersiya təşkilatı; BFEİ-nin vəzifələrindən biri də fizioloqların konqreslərini keçirməkdir. 1953 ildə yaradılmışdır (Monreal). *Beynəlxalq Elm üzrə Şuraya* daxildir. Avstraliya, Argentina, B. Britaniya, Kanada, SSRİ, ABŞ, AFR təsisçi-ölkələrdəndir. BFEİ yaradılanadək fiziologiya elmləri üzrə müntəzəm olaraq (hər 3 ildən bir) konqreslər keçirilmişdir (1889 ildən; təşəbbüsçü – London Fiziologiya Cəmiyyəti); onları fizioloq alimlərin kiçik bir qrupu (Daimi komitə) təşkil etmişdir. BFEİ-nin tamhüquqlu üzvləri 96 ölkənin ictimai elmi təşkilatları və akademiyalarıdır (21 əsrin əvvəlləri). Rəhbərliyi müxtəlif ölkələrdən olan 15 alimdən ibarət İcraçı komitə həyata keçirir. BFEİ-dən 1966 ildə *Beynəlxalq Farmakologiya İttifaqı* ayrılmışdır.

**BEYNƏLXALQ FONETİKA ASSOSİASİYASI** [BFA; International Phonetic Association (IPA), Association phonétique internationale] – beynəlxalq elmi təşkilat. Fonetika elminin inkişafı və onun təcrübi tətbiqi, həmçinin fonetik biliklərin yayılması BFA-nın əsas məqsədidir. 1886 ildə Parisdə P. Passi tərəfindən Fonetikanı tədris edən müəllimlərin assosiasiyası (Phonetic teachers association) kimi yaradılmışdır. İngilis dilini öyrədən bir neçə fransız müəllimindən ibarət təşkilat üzvləri hesab edirdilər ki, xarici dillərin tədrisini fonetika əsasında qurmaq zəruridir. Tədricən assosiasiyaya digər ölkələrdən müəllimlər qoşulduğu üçün o, beynəlxalq səciyyə kəsb etmiş, "Canlı xarici dilləri tədris edənlərin fonetik assosiasiyası" (Association phonetique des professeurs des langues vivantes) adını almışdır. 1897 ildən BFA adlanır. BFA-nın Ali orqanı olan Şura bir 4 illik müddətə prezidenti (1969–73 illərdə S.K. Çatterci) və vitse-prezidenti seçir. Təşkilat mərkəzi Londonda yerləşir. BFA-nın qarşıya qoyduğu əsas məsələlərdən biri beynəlxalq fonetik əlifbanın (International Phonetic Alphabet) P. Passinin təşəbbüsü ilə yaradılmış fonetik *transkripsiya* sisteminin təkmilləşdirilməsi və təbliğidir. Əlifbanın sonuncu seriyası 2005 ildə nəşr olunmuşdur. BFA, himayəçi altında fonetika elmləri üzrə beynəlxalq konqreslər keçirən təşkilatlardan biridir. Assosiasiya 1886 ildən jurnal nəşr etdirir [əvvəlcə "The phonetic teacher" ("Fonetika müəllimi"), 1889 ildə fr. "Le Maitre phonetique" adlandırılmışdır. 1971 ildən müasir adı ilə ("Journal of the International Phonetic Assosiation") ildə 2 dəfə çıxır]; burada beynəlxalq fonetik əlifbadan istifadə etməklə fonetika məsələlərinə dair müxtəlif dillərdə məqalələr dərc olunur.

**BEYNƏLXALQ FUTBOL FEDERASİYALARI ASSOSİASİYASI** (Federation Internationale de Football Association, FIFA) – beynəlxalq idman təşkilatı; futbolun inkişafı və populyarlaşması ilə məşğul olur. Əsası 21.5.1904 ildə Parisdə qoyulmuşdur. 208 milli federasiyanı, o cümlədən Azərb. Futbol Federasiyaları Assosiasiyasını birləşdirir (2011). Ali orqanı Konqresdir (2 ildə 1 dəfə keçirilir). FİFA-nın cari fəaliyyətinə İcraiyyə komitəsi rəhbərlik edir. Mənzil-qərargahı Sürixdədir. Rəsmi dilləri: ing., fr., alman, rus, ispan. Tərkibində 6 konfederasiya: Asiya futbol konfederasiyası (AFC, 1954 ildə yaradılmışdır; 2007 ildən Avstraliya da daxil olmaqla 46 ölkə), Afrika futbol konfederasiyası (CAF, əsası 1957 ildə qoyulmuş; 54), Cənubi Amerika futbol konfederasiyası (CONMEBOL, 1916 ildən; 10), Şimali və Mərkəzi Amerika və Karib hövzəsi ölkələri (CONCACAF, 1961 ildən; Qayana və Surinam daxil olmaqla; 40), Okeaniya futbol konfederasiyası (OFC, 1966 ildə təsis edilmişdir; 11), Avropa futbol assosiasiyaları ittifaqı (UEFA, 1954 ildən; 53). Bir neçə daimi komitə, o cümlədən fövqəladə, maliyyə, təşkilati, hakimlər, texniki, tibbi, intizam, çap məsələləri üzrə və s. komitələr fəaliyyət göstərir. FİFA çoxsaylı yarışlar, o cümlədən kişilər (1930 ildən) və qadınlar (1991 ildən) arasında dünya çempionatları keçirir, oyun qaydalarını təkmilləşdirir, yeni növlərini (futzal, çimərlik futbolu) inkişaf etdirir, ilin yekunları üzrə ən yaxşı oyunçuları mükafatlandırır, yığma komandaların reytinqini elan edir, fəal kommersiya fəaliyyəti ilə məşğul olur.

**BEYNƏLXALQ HESABLAŞMALAR** – xarici ticarət, kapitalın hərəkəti, vətəndaşların pul köçürmələri, yük və sərnişin daşınmaları və s. zamanı müxtəlif pul tələbləri və öhdəlikləri ilə əlaqədar olan beynəlxalq valyuta-maliyyə münasibətlərinin reallaşdırılması aləti. B.h.-ın əsas formaları: *akkreditiv*, *inkasso*, bank köçürmələri, avans ödəmələri, açıq hesablara görə hesablaşmalar. B.h.-a dövlətlər və onların mərkəzi bankları arasındakı münasibətlər, dövlətlər və beynəlxalq maliyyə-iqtisadi təşkilatlar, müxtəlif ölkələrin hüquqi və fiziki şəxsləri arasındakı hesablaşmalar daxildir; onlar çoxillik təcrübə yolu ilə işlənib hazırlanmış qaydalar, şərtlər və bank fəaliyyətinin müxtəlif formaları əsasında həyata keçirilir. Bunun üçün bir ölkənin bankları digər ölkələrin bankları ilə, əsasən, müxbir münasibətlərindən, həmçinin xaricdəki bölmələrindən istifadə edirlər. Hesablaşmalar əksər hallarda nağdsız aparılır. B.h.-da böyük və iri banklar başlıca rol oynayır. Hər hansı bir ölkənin B.h.-da iştirakı onun kredit sisteminin və fond bazarının inkişaf səviyyəsinə, milli valyutasının vəziyyətinə və bankın işgüzar mühitdə etibarına görə müəyyən edilir.

Ayrı-ayrı ölkələrin daxili pul hesablaşmalarından fərqli olaraq, B.h.-ın spesifik xüsusiyyəti ondan ibarətdir ki, B.h. adətən valyutaların, onların məzənnələrindəki dəyişikliklərlə əlaqədar yenidən hesablanması ilə bağlı olur. Məzənnələr adətən bir çox amillərin təsiri altında dəyişir, bununla belə bəzi amilləri qabaqcadan görmək, həmçinin onların valyutanın məzənnəsinə təsirini qiymətləndirmək mümkün olmur. Bu, beynəlxalq ödəmələrdə risk və itkiləri artırır. B.h.-da bir sıra inkişaf etmiş ölkələrin milli valyutaları istifadə olunur və onlar ehtiyat valyutaları kimi çıxış edir. Bunlara ABŞ dolları, avro, yapon iyenası, ingilis funt-sterlinqi və İsveç frankı daxildir. 2000-ci illərin əvvəllərindən xarici ticarət üzrə hesablaşmalarda dolların payı təxminən 45% azalmışdır (qlobal böhrana qədər maliyyə əməliyyatlarının təqr. 70%-i onun payına düşürdü). Eyni zamanda B.h.-da avronun payı artmışdır. Bir sıra hallarda B.h.-da bu və ya digər milli valyutanın rolu çoxdan formalaşmış ənənələrdən asılıdır. Belə ki, neftin qiymətləri ABŞ dolları ilə təyin edilir, yəni dollar bu halda həm əmtəənin qiyməti müəyyən edilərkən, həm də saziş həyata keçirilərkən valyutadır. Bununla bərabər hər hansı başqa valyuta da ödəmə valyutası ola bilər.

Böhran qabağı 2000-ci illərdə valyuta və maliyyə bazarlarının dayanıqsızlığının artması səbəbindən çətin proqnozlaşdırılan qiymət, valyuta məzənnələri və faiz dərəcələrinin dəyişmələrindən, həmçinin spekulyativ maliyyə əməliyyatlarından sığortalanmaq meyilləri ilə əlaqədar hesablaşmaların əhəmiyyəti artmışdır. Qloballaşan iqtisadiyyatda B.h. getdikcə onun real sektorundan ayrılır və çox vaxt "virtual" maliyyə əməliyyatlarına xidmət edir.

**BEYNƏLXALQ HESABLAŞMALAR BANKI** (BHB; Bank for International Settlements, BIS) – beynəlxalq valyuta-kredit təşkilatı.

BHB 1930 ildə 5 dövlətin (Belçika, B. Britaniya, Almaniya, İtaliya, Fransa) Haaqa sazişi və bu dövlətlərin İsveçrə ilə konvensiyası əsasında təsis edilmişdir (Almaniyanın qalib dövlətlərə ödəməli olduğu təzminatların tənzimlənməsi ilə əlaqədar). Bazel ş.-ndə yerləşir. Təzminatlara moratorium qoyulduqdan (1931) sonra BHB mərkəzi bankların bankı kimi inkişaf etmişdir.

ABŞ rəsmən BHB-nin yaradılmasında iştirak etməsə də, ölkənin özəl bankları BHB-nin səhmlərini əldə etmişdilər. Bu səbəbdən ABŞ faktiki olaraq BHB-nin fəaliyyətində və onun konfranslarında iştirak edir. Federal ehtiyat bankları BHB ilə müxbir əlaqələri qurmuş və onun xidmətlərindən (məs., *svop* valyuta əməliyyatları keçirərkən) istifadə edir. 1996 ildə BHB yeni üzvlərini qəbul etmişdir: Avropa mərkəzi bankı, ilk dəfə olaraq qeyri-Avropa ölkələri banklarını (Tayland, Malayziya, Argentina) və s. 2002 ildən BHB özəl banklardan (səhm kapitalının 14 faizi bunlara məxsus idi) öz səhmlərini satın almış və bu dövrdən etibarən yalnız mərkəzi banklar BHB-nin səhmdarları ola bilər. BHB-nin 34 üzvü vardır (2000-ci illərin əvvəli).

BHB-nin rəhbər orqanları səhmdarların ümumi toplantısı və Direktorlar şurasıdır. Nizamnaməyə görə bank iki əsas funksiyanı həyata keçirir: mərkəzi bankların əməkdaşlığına dəstək verir və etibarlı şəxs qismində onların beynəlxalq əməliyyatlarının icrasında iştirak edir.

BHB ənənəvi əməliyyatları da yerinə yetirir: depozit (3 ayadək), kredit, zəmanət, hesablaşma, valyuta, fond, qızıl alqı-satqısı, BHB müştərilərinin tapşırığına görə qızıl ilə svop sövdələşmələri; bankın qızıl ehtiyatı 210 *t*-dur. Bank dünya maliyyə bazarının bütün seqmentlərində əməliyyatlar həyata keçirir.

BHB bir sıra spesifik funksiyaları həyata keçirir: agent, müştərək beynəlxalq əməliyyatlar, valyuta-kredit və s. məsələlərə dair məsləhətlər və s. BHB mərkəzi banklara texniki yardım göstərir, bazar iqtisadiyyatına keçən ölkələrin bankirlərinin tədrisini təşkil edir, inkişaf edən ölkələrin xarici borclarının nizama salınmasında iştirak edir.

BHB nüfuzlu tədqiqat mərkəzidir; beynəlxalq iqtisadi və valyuta informasiyalarını dərc edir.

**BEYNƏLXALQ HEYVANLARI MÜHAFİZƏ FONDU** (International Fund for Animal Welfare, IFAW) – heyvanların mühafizəsi sahəsində ən böyük qeyri-hökumət təşkilatı. İngilis zabiti B.Deyvisin təşəbbüsü ilə 1969 ildə yaradılmışdır; dünyanın 15 ölkəsində nümayəndəliyi var. Fondun əsas vəzifəsi bütün dünyada vəhşi və ev heyvanlarının vəziyyətini yaxşılaşdırmaqdan ibarətdir. Fond dövlət strukturları və elmi təşkilatlarla qarşılıqlı əlaqədə işləyir; fəaliyyətini 2,5 mln.-dan çox insanın könüllü ianələri hesabına həyata keçirir. Mənzil-qərargahı Yarmurt ş-ndədir (ABŞ, Massaçusets ştatı). 14 ölkədə fondun şöbələri açılmışdır. Ştatda kampaniyaların keçirilməsi, hüquqi və siyasi məsələlər üzrə daim 200-dən çox mütəxəssis, hüquqi və siyasi məsələlər üzrə ekspertlər, eləcə də məşhur alimlər işləyir. Fond öz işinə Qrenlandiya suitisinin və tüklüburun suitinin Müq. Lavrenti körfəzində (Kanada) ovlanmasına qarşı mübarizə ilə başlamışdır. Fondun fəaliyyəti həmçinin digər vəhşi heyvanların kommersiya məqsədilə istismarından mühafizəsinə, onların təbii yaşayış mühitinin qorunub saxlanmasına, böhran vəziyyətinə düşmüş heyvanlara kömək etməyə yönəldilmişdir. Fond diqqəti heyvanlarla amansız davranmağın yolverilməzliyinə yönəltməyə cəhd edir, heyvanların və insanın rifahı naminə canlı təbiətin saxlanılması prinsiplərinə riayət etməyə çağırır.

**BEYNƏLXALQ HƏRBİ ƏMƏKDAŞLIQ** – iki və ya daha artıq dövlətin, dünya siyasətinin digər subyektlərinin və onların silahlı qüvvələrinin birgə hərbi fəaliyyəti. B. h. ə. siyasi, iqtisadi, texniki, elmi, operativ-strateji, kadr və s. sahələrdə aparılır. Əməkdaşlıq resipiyent ölkəyə əvəzsiz olaraq birtərəfli yardım formasında, yaxud paritet əsasında qarşılıqlı mənfəət şərtləri ilə həyata keçirilə bilər. Sonuncu halda əməkdaşlıq edən tərəflər ümumi hərbi-siyasi məqsədlərə çatmağı nəzərdə tutmaqla, milli maraqlarının hərbi təminatına dair vəzifələrin balanslaşdırılmış həlli və dünya birliyində öz mövqelərini gücləndirmək zərurətindən çıxış edirlər. Bu zaman onların qarşılıqlı fəaliyyətlərinin təşkili istila, müdafiə, azadetmə, sülhyaratma, cəza məqsədləri ilə həyata keçirilə bilər. B. h. ə.-ın təşkilati-hüquqi rəsmiləşməsi və reqlamentləşməsi regional və beynəlxalq, hərbi, hərbi-siyasi, hərbi-iqtisadi strukturlar

əsasında yaradılan ikitərəfli və çoxtərəfli müqavilələrdə və sazişlərdə reallaşdırılır. B. h. ə. müxtəlif formalarda həyata keçirilir ki, onlar da konkret olaraq aşağıdakılardan ibarətdir: hərbi quruculuğa və hərbi siyasətin həyata keçirilməsinə ümumi baxışların işlənib hazırlanması, dövlətlərin *hərbi doktrinalarının* razılaşdırılması; hərbi informasiya mübadiləsi; birgə hərbi (döyüş) əməliyyatları; hərbi-siyasi fəaliyyətin əlaqələndirilməsi; birgə operativ-strateji, operativ-taktiki, taktiki və komanda-qərargah təlimləri; hərbi-texniki əməkdaşlıq, silah ticarəti, hərbi texnikanın və silahların tədarükü; döyüş hazırlığı təcrübəsinin mübadiləsi; hərbi kadr hazırlığında qarşılıqlı yardım; birgə elmi-tədqiqat və təcrübə-konstruktor işləri; elmi-texniki informasiya mübadiləsi və s.

Minilliklər ərzində B. h. ə.-ın ayrı-ayrı elementləri və formaları həm işğalçı məqsədlərə, həm də ayrı-ayrı dövlətlərdə və regionlarda sülhün və təhlükəsizliyin təminatına xidmət göstərmişdir. Yalnız 2-ci dünya müharibəsi gedişində *antihitler koalisiyası* çərçivəsində B. h. ə.-ın meydana gəlməsi dövlətlərin ümumbəşəri maraqlar naminə birləşməsinin mümkünlüyünü nümayiş etdirdi. *Birləşmiş Millərlər Təşkilatının* yaradılması B. h. ə.-ın genişlənməsinə və dərinləşməsinə yardım etməli idi. Lakin müharibədən sonra iki sosial-siyasi sistemin *"soyuq müharibə"* ilə nəticələnmiş qarşıdurması (bax *Şimali Atlantika Müqaviləsi Təşkilatı* və *Varşava Müqaviləsi Təşkilatı*) əhəmiyyətli dərəcədə B. h. ə.-a təsir göstərirdi. 20 əsrin 2-ci yarısında nüvə və kütləvi qırğın silahlarının digər növlərinin yaradılması və inkişafı, bəşəriyyətin dünya müharibəsində bütün sivilizasiyanın məhv olma mümkünlüyünü tədricən anlaması B. h. ə.-ın istiqamətində keyfiyyət dəyişikliklərinə səbəb oldu. Əməkdaşlıq dövlətlər və xalqlar tərəfindən yalnız milli və regional təhlükəsizlik üçün deyil, həm də ümumi təhlükəsizliyi möhkəmləndirmək, hərbi münaqişələrə, lokal müharibələrə və onların dünya müharibəsinə eskalasiyasına yol verməmək üçün daha çox istifadə olunmağa başlandı. Azərb. Resp.-nda B. h. ə. dövlətin müstəsna hüququdur və xarici dövlətlərlə hərbi sahədə qarşılıqlı mənfəət əsasında əməkdaşlığın inkişafı hərbi təhlükəsizliyin təminatında əsas istiqamətlərdən biridir. Azərb. Resp. beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, müharibələrin və hərbi münaqişələrin qarşısının alınması üçün hər bir dövlətlə (əgər onun siyasəti ölkənin maraqlarına zərbə vurmursa və BMT-nin Nizamnaməsinə zidd deyilsə) əməkdaşlıq etməyə hazırdır.

**BEYNƏLXALQ HƏRBİ İNSPEKSİYA** – etimad tədbirləri, silahların və silahlı qüvvələrin ixtisarı, fəaliyyətlərinin məhdudlaşdırılması haqqında əldə edilmiş razılaşmaların yerinə yetirilməsinə beynəlxalq sazişlərlə müəyyənləşdirilmiş nəzarət qaydaları. Texniki vasitələrlə havadan və kosmosdan, həmçinin bilavasitə sazişin iştirakçı-dövlətləri ərazisində inspeksiya qrupları vasitəsilə həyata keçirilir. 20 əsrin sonlarından NATO-nun üzv-dövlətlərində, Şərqi Avropa dövlətlərində qarşılıqlı əsasda geniş istifadə olunur.

**BEYNƏLXALQ HƏRBİ TRİBUNAL** – İkinci dünya müharibəsinin əsas hərbi canilərinin təqib olunması və cəzalandırılması üçün yaradılan beynəlxalq məhkəmə orqanı. 1) Avropa dövlətlərinin əsas hərbi canilərinin mühakiməsi üçün B.h.t. SSRİ, ABŞ, B. Britaniya və Fransa hökumətləri arasında, hitlerçilərin törətdikləri cinayətlər üçün məsuliyyəti barədə 1943 il Bəyannaməsinə müvafiq olaraq, 1945 il avqustun 8-də yaradılmışdır. B.h.t.-ın təkbaşına, yaxud hər hansı təşkilatın üzvü kimi sülhə və bəşəriyyətə qarşı cinayətlər, hərbi cinayətlər törədən şəxsləri mühakimə etmək və cəzalandırmaq hüququ var idi. Tribunalın yaradılmasında iştirak edən 4 hökumətin hər biri B.h.t.-ın tərkibinə bir üzv, ona bir müavin və baş ittihamçı təyin edirdi. B.h.t.-ın qərarları səs çoxluğu ilə qəbul edilirdi. B.h.t.-ın ilk təşkilati iclası 1945 il oktyabrın 9-da Berlində olmuşdur. Əsas nasist hərbi canilər üzərində proses yeri Nürnberq ş. (Almaniya) seçilmişdi. 2) Uzaq Şərq B.h.t.-ı 1946 il yanvarın 19-da Tokioda (Yaponiya) yaradılmışdı. Tribunalda 11 dövlət təmsil edilmişdi (SSRİ, ABŞ, Çin, B. Britaniya, Avstraliya, Kanada, Fransa, Niderland, Yeni Zelandiya, Hindistan və Filippin). Tribunal Yaponiyanın əsas hərbi caniləri üzərində məhkəmə prosesi aparmışdır. Tokioda B.h.t.-ın iclasları 1946 il mayın 3-dən 1948 il noyabrın 12-dək keçirilmişdir.

**BEYNƏLXALQ HƏVƏSKAR BASKETBOL FEDERASİYASI** – bax *Beynəlxalq Basketbol Federasiyası.*

**BEYNƏLXALQ HUMANİTAR HÜQUQ** – beynəlxalq hüquq subyektləri arasında beynəlxalq və yerli xarakterli hərbi münaqişələrlə əlaqədar yaranan münasibətləri tənzimləyən prinsiplər və normalar sistemi.

*Müharibə qanunları və adətləri* hələ qədim dövrdən mövcud olmuşdur. Onlar hətta müharibə zamanı müharibə aparmanın müəyyən vasitə və metodlarını məhdudlaşdıran bəzi qaydalara riayət olunması zərurətini əks etdirirlər (məs., müharibə vaxtı su quyularını zəhərləmək, hərbi əsirləri öldürmək qadağan idi). Müasir humanitar hüquq 19 əsrdən etibarən, 1864 il müharibəsi zamanı yaralı və xəstə hərbiçilərin vəziyyətlərinin yaxşılaşdırılması haqqında Cenevrə konvensiyasının qəbulu ilə formalaşmağa başlamışdır. 1868 ildə Partladıcı və yandırıcı güllələrin istifadəsinin ləğvi haqqında S.-Peterdurq bəyannaməsi, 1880 ildə Quru qoşunları müharibəsinin qanunlarına dair Oksford təlimatı qəbul edilmişdir. 1899 və 1907 illərdə Haaqa sülh konfranslarında 20-yə yaxın konvensiya razılaşdırılmışdı. 1913 ildə Dəniz müharibəsi qanunlarına dair Oksford təlimatı, 1925 ildə Müharibədə boğucu, zəhərli və s. bu kimi qazların və bakterioloji vasitələrin qadağan olunması haqqında Cenevrə protokolu, 1929 ildə Hərbi əsirlər haqqında birinci Cenevrə konvensiyası qəbul edilmişdi. 1949 ildə Diplomatik konfransda "Cenevrə hüququ" [bax *Cenevrə konvensiyaları (1949)*] kodifikasiya olundu. 1954 ildə Hərbi munaqişə vəziyyətində mədəni dəyərlərin mühafizəsi haqqında konvensiya qəbul edildi. 1980 ildə BMT-nin Baş Assambleyası Həddən artıq zərər vuran, yaxud pərakəndə təsir göstərən adi silah növlərinin qadağan olunması, yaxud tətbiqinin məhdudlaşdırılması haqqında BMT konvensiyası, 1993 ildə Kimyəvi silahların hazırlanması, istehsalı, toplanması və tətbiqinin qadağan olunması və məhv edilməsi haqqında Paris konvensiyası, 1997 ildə Piyada qoşunlarına qarşı minaların tətbiqi, ehtiyatlarının toplanması, istehsalı, yayılması və məhv edilməsi haqqında Ottava konvensiyası, 2008 ildə Kasset döyüş sürsatlarına dair konvensiya qəbul edilmişdir. 1993–94 illərdə keçmiş Yuqoslaviya üzrə (Haaqa) və Ruanda üzrə (Aruşa) beynəlxalq cinayət tribunalı təsis olunmuş və 1998 ildə Beynəlxalq cinayət məhkəməsinin statutu qəbul edilmişdir.

B. h. h. *beynəlxalq hüququn* ən çox kodifikasiya edilmiş sahələrindən biridir. Onun bütün sənədləri bir-biri ilə razılaşdırılmışdır. Beynəlxalq müqavilələrlə yanaşı, adət hüququ normaları da fəaliyyət göstərir. Beynəlxalq Qırmızı Xaç təşkilatının məlumatlarına görə, hərbi münaqişələr gedişində 161 adət norması fəaliyyətdədir.

B. h. h.-un normaları hərbi münaqişə yaranan andan, münaqişə nəticəsində ilk şəxs (himayə edilən) zərər çəkdiyi anda, ərazinin bir hissəsi işğal edildiyi anda, ilk hücum baş verdiyi anda və s. hallarda tətbiq olunmağa başlayır. B. h. h. hərbi əməliyyatların aparılma metodları və vasitələrinin tətbiqini tənzimləyir, hərbi münaqişə iştirakçılarının hüquqi statusunu müəyyənləşdirir (bax *Kombatantlar*). B. h. h. normalarının əsas hissəsi hərbi münaqişə qurbanlarının mühafizəsinə aiddir (hərbi əsirlərin, yaralıların, xəstələrin, gəmi qəzasına uğramış şəxslərin, həmçinin mülki əhalinin, o cümlədən xüsusi müdafiəyə ehtiyacı olanların – qadınların, uşaqların, əlillərin və b.-nın qorunması qaydaları). Buna görə B. h. h.-un xüsusi prinsipləri aşağıdakılardır: mülki şəxslər və kombatantlar arasında, mülki və hərbi obyektlər arasında fərq qoyulması [Cenevrə konvensiyalarına (1949) Əlavə I protokolda əksini tapmışdır]; humanizm (ilk dəfə Nürnberq tribunalının qərarında qəbul edilmişdir və münaqişə tərəfinin hakimiyyəti altına düşən, yaxud düşmənin əlinə keçən şəxslərə münasibətdə qətlin, işgəncənin və qəddar rəftarın qadağan edilməsini göstərir); artıq əziyyət verilməsinin qadağan olunması [Cenevrə konvensiyaları (1949) I Protokoluna Martens əlavəsində əks olunmuşdur]; "jus in bello"nun (müharibə apararkən riayət olunmalı humanitar normalar) "jus ad bellum"dan (güc tətbiqinin qanunauyğunluğu haqqında normalar) asılı olmaması; həddi aşmamaq (sağlamlığa, yaxud mülkiyyətə hərbi zərurətdən irəli gəlməyən zərər yetirilməsinin qadağan olunması). Bütün vəziyyətlərdə tibbi personal, din xadimləri, tibbi və dini obyektlər mühafizə olunmalıdır. Müharibə edən tərəflər fəaliyyətlərini yalnız hərbi obyektlərə qarşı yönəltməli, istənilən hərbi münaqişə zamanı mədəni dəyərlərin və təbii mühitin geniş, uzunmüddətli və ciddi zərərlərdən mühafizəsi həyata keçirilməlidir.

B. h. h. ölkə daxilindəki zorakılıq və gərginlik hallarına tətbiq edilmir. Cenevrə konvensiyalarına (1949) Əlavə II protokolda qeyd edilir ki, "Protokol hərcmərclik, ayrı-ayrı və sporadik zorakılıq aktları və analoji xarakter daşıyan digər hallar kimi daxili gərginlik vəziyyətlərinin yaranması və daxili qayda-qanunun pozulması hallarında tətbiq edilmir; belə ki, bu hallar hərbi münaqişə deyil". B. h. h. normalarının yerinə yetirilməsinə nəzarəti konvensiyaların və Beynəlxalq Qırmızı Xaç təşkilatının üzv-dövlətləri həyata keçirir.

B. h. h. normalarının pozulması üçün məsuliyyət daşıyan əsas subyekt dövlətdir. O, vurulmuş zərəri tam şəkildə ödəməlidir. Ayrı-ayrı şəxslər hərbi cinayətlərə görə milli qanunvericilik əsasında, beynəlxalq hüquqa görə isə yalnız Beynəlxalq cinayət məhkəməsi, yaxud beynəlxalq cinayət tribunallarının qərarları əsasında məsuliyyət daşıyırlar.

**BEYNƏLXALQ HÜQUQ**, ü m u m i – bu hüququn subyektləri tərəfindən tanınan mənbələrdə əks olunmuş və hüquqi cəhətdən icazə verilənin və verilməyənin hamı üçün məcburi sayılan meyarlarından ibarət məcburi normalar və prinsiplər sistemidir ki, onların vasitəsilə müvafiq sahələrdə beynəlxalq əməkdaşlığın idarəolunması, yaxud bu hüquqi normalara əməl olunmasına məcburetmə həyata keçirilir.

B. h.-un yaranma tarixi icma-tayfa münasibətlərinin dağılması və dövlətlərin təşəkkülü dövründən başlayır. Roma imperiyası dövründə B. h. xalqlar hüququ (jus gentium) adlanmış və *təbii hüququn* bir hissəsi sayılmışdır. Lakin romalıların "gentes" termini yalnız xalqları bildirdiyinə görə, İ. Kant bu termini "dövlətlərin hüququ" kimi tərcüməsini təklif etmişdir. Bununla yanaşı, "beynəlxalq hüquq" (ing. international law) termini də mövcud idi. H. de *Qroot* B. h.-un banisi kimi qəbul edilmiş, F.F. *Martines* hüquqi normaların kodifikasiyasına böyük töhfələr vermişdir.

2-ci dünya müharibəsindən sonra B. h. iki hissəyə bölündü: beynəlxalq ümumi hüquq və *beynəlxalq xüsusi hüquq*. Beyənlxalq ümumi hüquq beynəlxalq əməkdaşlığın idarəolunması sahəsində hamı tərəfindən qəbul olunmuş davranış normaları sistemini təşkil edir. BMT-nin Nizamnaməsində (1–2-ci maddələr) və digər beynəlxalq-hüquqi sənədlərdə əksini tapmış əsas prinsiplər bu normaların yığcam ifadəsidir. Onlar normativ xarakter daşıyır və "jus cogens" normaları, yəni xüsusi növ, yüksək səviyyəli normalar kimi qəbul edilir. Ümumi B. h.-un imperativ norması dövlətlərin beynəlxalq birliyi tərəfindən pozulması qadağan olunmuş kimi tanınan və yalnız ümumi B. h.-un eyni xarakterli digər norması ilə dəyişdirilməsi mümkün olan normadır.

21 əsrdə B. h.-un 11 əsas prinsipi formalaşmışdır: dövlətlərin suverenliyinə hörmət, dövlətlərin suveren bərabərliyi, gücün, yaxud güclə hədələmənin yolverilməzliyi, sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, beynəlxalq mübahisələrin sülh yolu ilə həlli, daxili işlərə qarışmamaq, insan hüquqlarına və əsas azadlıqlarına hörmət, xalqların bərabərhüquqluğu və özünütəyin hüququ, dövlətlərin əməkdaşlığı, beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi.

B. h.-un subyektləri hüquqi normalara əsasən subyektiv hüquqi haqq və vəzifələrin daşıyıcıları kimi çıxış edə bilən a k t o r l a r d ı r. Bunlar dövlətlər, beynəlxalq təşkilatlar, müstəqillik uğrunda mübarizə aparan millətlər, dövlət səciyyəli qurumlar və məhdud sayda fiziki şəxslərdir (fərdlər). B. h.-un istənilən subyekti hüquq qabiliyyətinə, fəaliyyət qabiliyyətinə və delikt qabiliyyətinə malikdir. B. h.-un subyektləri daimi və müvəqqəti ola bilər: daimi subyektlər dövlətlərdir; azadlıq uğrunda mübarizə aparan millət yalnız mübarizə apardığı və müstəqil dövlət yaratdığı dövrdə müvəqqəti subyekt kimi çıxış edir; bəzi beynəlxalq təşkilatlar müəyyən məqsədlərə çatmaq üçün yaradılır və bu məqsədlər həyata keçdikdən sonra mövcudluğuna son qoyulur. B. h.-da dövlət anlayışı altında suveren dövlətə xas olan bütün əlamətlərə malik ölkə başa düşülür. B. h.-un subyekti kimi dövlət aşağıdakı meyarlara cavab verməlidir: daimi əhali, müəyyən ərazi, digər dövlətlərlə münasibətlər qurmağı bacaran hökumət. B. h.-un subyektləri sırasına elə millətlər aiddir ki, onlar müstəmləkə asılılığındadırlar, özlərinin milli dövlətçiliklərindən məhrumdurlar və milli azadlıqları, müstəqil dövlətlərini yaratmaq uğrunda mübarizə aparırlar. Millətlərin və xalqların subyekt hüququ, adətən, onlar öz mübarizələrini əlaqələndirən və müstəqil dövlət yaranana qədər onların adından çıxış edən orqan (məs., Fələstinin azadlığı təşkilatı) yaratdıqdan sonra meydana çıxır. İstənilən hökumətlərarası təşkilat B. h.-un subyektidir, çünki dövlətlər ona müvafiq hüquq və vəzifələr verməyə razılaşmışlar; həmin hüquq və vəzifələr təsis aktlarında (nizamnamələrdə, statutlarda, müqavilələrdə, konvensiyalarda və s.) dəqiq müəyyənləşdirilmişdir və B. h.-un əsas prinsiplərinə tam uyğun gəlir. Dövlət səciyyəli qurum-

lar da müəyyən həcmdə beynəlxalq hüquq subyektliliyinə malikdir: müvafiq həcmdə hüquq və vəzifələr verildikdən sonra onlar B. h.-un subyektlərinə çevrilirlər. Belə qurumlar əraziyə, suverenliyə malikdir, onların öz vətəndaşlığı, qanunverici məclisi və hökuməti var (Vatikan). Fərdlər müəyyən beynəlxalq hüquq və vəzifələrə, həmçinin digər beynəlxalq qurumlar, məs., beynəlxalq məhkəmə orqanları (Avropa insan hüquqları məhkəməsi) vasitəsilə B. h. subyektləri tərəfindən beynəlxalq və milli hüquqi normaların yerinə yetirilməsini təminetmə qabiliyyətinə malikdir.

B. h. sahələrdən və onlar da öz növbəsində institutlardan ibarətdir. Hava hüququ, kosmos hüququ, beynəlxalq humanitar hüquq, dəniz hüququ, beynəlxalq insan haqları hüququ, beynəlxalq əmək hüququ, beynəlxalq cinayət hüququ, beynəlxalq ekologiya hüququ və s. B. h.-un artıq formalaşmış sahələridir. Terrorizmə qarşı beynəlxalq hüquq, beynəlxalq enerji hüququ, beynəlxalq kənd təsərrüfatı hüququ və s. təşəkkül mərhələsindədir.

**BEYNƏLXALQ HÜQUQ KOMİSSİYASI** – bax *Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Hüquq Komissiyası.*

**BEYNƏLXALQ XÜSUSİ HÜQUQ** – milli hüququn müstəqil sahəsi; xarici elementin iştirakı ilə mürəkkəbləşmiş xüsusi münasibətləri (mülki, ailə, əmək və s.) müxtəlif dövlətlərin xüsusi kolliziya hüququ vasitəsilə tənzimləyən prinsiplər, həmçinin kolliziya-hüquq (milli və unifikasiya edilmiş) və unifikasiya edilmiş maddi-hüquq normaları sistemindən ibarətdir.

"B. x. h." termini 18 əsrin ortalarından xarici doktrinalarda və təcrübədə geniş yayılmışdır. B. x. h. müxtəlif dövlətlərin milli hüquqları çərçivəsində *kolliziya hüququ* kimi meydana gəlmiş və inkişaf etmişdir. Kolliziya hüququnun milli səciyyəsi bu günədək qorunub saxlanmışdır: 20 əsrin sonu – 21 əsrin əvvəllərində 50-dən artıq dövlət (Avstriya, Vyetnam, İtaliya, Çin, Rumıniya, İsveçrə, Yaponiya və s.) özlərinin kolliziya hüquqlarını əhəmiyyətli dərəcədə yeniləşdirmiş, yaxud ilk dəfə yaratmışlar. Unifikasiya edilmiş kolliziya və maddi hüquq normaları mahiyyətcə beynəlxalq olduğu halda, dövlət sərhədləri daxilində milli normalar kimi çıxış edir: beynəlxalq münasibətlərin iştirakçı-dövlətləri öz üzərilərinə müvafiq münasibətləri unifikasiya edilmiş müqaviləli normalar əsasında hüquqi tənzimlənməsini təmin etmək öhdəliyi götürürlər, yəni onlara elə bir hüquqi qüvvə – milli hüquq qüvvəsi verilməlidir ki, dövlətin yurisdiksiyası altında olan bütün hüquq tətbiqedilən orqanlar və şəxslər üçün məcburi olsun. Milli hüquq sisteminə daxil edilən həmin normalar milli qanunlar qismində çıxış etsə də, beynəlxalq müqavilə ilə əlaqələrini saxlayırlar ki, bu da onların tətbiqi zamanı bir sıra özünəməxsusluqlar doğurur. Buna görə, B. x. h. adından fərqli olaraq milli səciyyə daşıyır və hər dövlətdə milli hüququn sahəsidir, məs., ingilis B. x. h.-u, fransız B. x. h.-u, Çin B. x. h.-u və s. Azərb. Resp.-nda B. x. h.-un əsas normaları "Beynəlxalq xüsusi hüquq haqqında" qanununda (2000) əks olunmuşdur. Qanunun 1.2-ci maddəsinə uyğun olaraq xarici elementli mülki-hüquqi münasibətlərə tətbiq olunmalı hüquq bu qanunla bərabər, digər müvafiq qanunvericilik aktları, Azərb. Resp.-nın tərəfdar çıxdığı beynəlxalq müqavilələr və ümumi qəbul olunmuş beynəlxalq adətlər, habelə tərəflərin razılığı əsasında müəyyən edilir.

B. x. h.-un predmetini iki meyar xarakterizə edir: 1) xüsusi hüquq münasibətləri – xüsusi hüquq vasitəsilə tənzimlənən münasibətlər: mülkiyyət, şəxsi qeyri-mülkiyyət, o cümlədən sahibkarlıq; 2) bu münasibətlərdə xarici elementin mövcudluğu nəticəsində xüsusi hüquq münasibətləri transsərhəd (beynəlxalq) xarakter və müxtəlif dövlətlərin hüququ ilə bağlılıq kəsb edir.

B. x. h.-un subyektləri əksər hallarda müxtəlif dövlətlərə mənsub fiziki və hüquqi şəxslərdir. Dövlət bir şərtlə subyekt ola bilər ki, hüquqi münasibətlərin digər tərəfi xarici fiziki, yaxud hüquqi şəxs olsun.

B. x. h. müxtəlif dövlətlərin kolliziya hüququnu aşmağa yönəlmiş üsullara, həmçinin hüquqi təsir vasitələri sistemi şəklində olan öz hüquqi tənzimləmə metoduna malikdir. Xüsusi hüquq münasibətlərinin müxtəlif dövlətlərin mahiyyətcə bir-birindən bəzən əhəmiyyətli dərəcədə fərqlənən hüquqları ilə bağlılığı onunla nəticələnir ki, eyni münasibətlər müxtəlif hüquqi qiymət ala bilir və müvafiq olaraq, eyni sual (məs., iddianamənin müddəti bitmişdirmi, nikah bağlanmışdırmı, müqavilə həqiqidirmi və s.) müxtəlif cavablar tapa bilir. Mübahisəli suala cavab tapmaq üçün ilk növbədə müxtəlif dövlətlərin kolliziya hüququna icazə vermək, yaxud onu aradan qaldırmaq lazımdır. Müxtəlif milli qanunların kolliziyasını aradan qaldırmaq üçün iki müxtəlif yanaşma mövcuddur ki, bunlar da B. x. h. metodunun əsas məzmununu təşkil edən hüquqi reqlamentləşmə üsullarında ifadə olunmuşdur. Kolliziya-hüquqi üsulun mahiyyəti səlahiyyətli hüquq qaydasını (yerli yaxud xarici ola bilər) seçməkdir ki, bu da *kolliziya normaları* vasitəsi ilə həyata keçirilir; maddi-hüquqi üsulun mahiyyəti isə xüsusi hüququn maddi normalarının unifikasiyasındadır, yəni beynəlxalq müqavilələr vasitəsilə müxtəlif dövlətlərdə öz məzmunlarına görə eynitipli xüsusi hüquq normaları yaratmaqdır ki, bu zaman kolliziya probleminin özü aradan qalxır.

B. x. h.-un normativ tərkibini hüquqi normaların iki bloku formalaşdırır: 1) iki növə ayrılan kolliziya normaları: hər dövlətin öz yurisdiksiyası çərçivəsində müstəqil şəkildə yaratdığı milli normalar və danışıqlar aparan dövlətlərin razılaşdırılmış iradəsinin nəticəsi olaraq, beynəlxalq müqavilə əsasında yaradılmış, unifikasiya edilmiş normalar; 2) danışıqlar aparan dövlətlərin razılaşdırılmış iradəsinin nəticəsi olan unifikasiya edilmiş maddi xüsusi hüquqi normalar.

B. x. h. müstəqil hüquq sahəsi kimi özünün xüsusi prinsiplərinə malikdir və bütün transsərhəd xüsusi hüquq münasibətləri sistemi onların üzərində qurulmuşdur. Hər dövlətin milli hüququnun suveren bərabərliyi prinsipi B. x. h.-un meydana gəlməsinin, inkişafının və mövcudluğunun əsasını təşkil edir: beynəlxalq ünsiyyətin maraqları yerli yurisdiksiya çərçivəsində xarici hüququn tətbiqini tələb edir ki, bu da B. x. h.-un mexanizmləri vasitəsilə mümkündür. Bu o deməkdir ki, yerli hüququn kolliziya norması xarici dövlətin hüququna istinadetmə zamanı bütün yerli hüquq tətbiq edən orqanlar və vəzifəli şəxslər tərəfindən həmin norma özünə doğma olan dövlətdə necə tətbiq edilirsə, o cür tətbiq edilməlidir. Yerli hüquq qaydasının müdafiəsi prinsipi öz ərazisində xarici hüququn tətbiqinə icazə verən dövlətə özünün hüquq qaydası əsaslarını, cəmiyyətin və dövlətin köklü maraqlarını, ümumi qəbul olunmuş əxlaq normalarını qorumaq məqsədilə xarici hüququn mümkün tətbiqolunma sərhədlərini müəyyənləşdirmək hüququ verir. *Ümumi qayda* və *imperativ norma* institutları bu prinsiplərin həyata keçirilməsinə xidmət edir. Daha sıx əlaqə prinsipi müxtəlif dövlətlərin kolliziya hüququnu aradan qaldırmağı əsas vəzifə kimi müəyyənləşdirmişdir.





B. x. h. anlayışları, səciyyəvi cəhətləri və hüquqi instrumentariləri açan ümumi hissədən və institutlardan, alt sahələrdən ibarət xüsusi hissədən təşkil olunmuşdur.

*Əşya hüququ* ümumiyyətlə xüsusi hüququn mərkəzi institutu olmaqla yanaşı, B. x. h.-un institutları arasında da əhəmiyyətli mövqeyə malikdir və ölkə vətəndaşlarının, hüquqi şəxslərin, dövlətin xaricdəki mülkiyyətinin və xarici mülkiyyətin, həmçinin investisiyaların ölkədəki hüquqi vəziyyətini müəyyənləşdirir. Transsərhəd öhdəçilik hüququ B.x.h.-un ən geniş institutlarından biri olub, istənilən transsərhəd müqavilələrə və birtərəfli sövdələşmələrə tətbiqolunma hüququnun ümumi qaydalarını, həmçinin ayrı-ayrı növləri üzrə müqavilə öhdəliklərini, o cümlədən xarici iqtisadi öhdəliklərin – malların alqı-satqısı üzrə beynəlxalq müqavilələr, beynəlxalq maliyyə lizinqi, beynəlxalq faktorinq, hesablaşma, kredit və s. öhdəliklərin kolliziya və maddi unifikasiya edilmiş normalarını ehtiva edir. Son zamanlar beynəlxalq yükdaşıma (dəniz, dəmiryol, hava, avtomobil, qarışıq, boru kəməri) müqavilələrini tənzimləyən normalar kompleksi əhəmiyyətli dərəcədə genişlənmişdir. Fəaliyyətlə, yaxud fəaliyyətsizliklə, əmtəə ilə, işlərlə, xidmətlərlə vurulmuş zərər nəticəsində, həmçinin xaricilərin iştirakı ilə, yaxud xarici ölkədə baş vermiş əsassız varlanma, qeyri-vicdani rəqabət nəticəsində yaranmış transsərhəd müqavilədənkənar öhdəliklər də öhdəçilik hüququ əsasında tənzimlənir.

Transsərhəd intellektual hüquq intellektual fəaliyyət nəticəsinin hüquqi mühafizəsi məsələlərini tənzimləyir. Transsərhəd intellektual hüququn əsas tərkib hissələri beynəlxalq müqavilələr, o cümlədən hələ 19 əsrdə qəbul edilmiş müqavilələrdir: *Ədəbi və incəsənət əsərlərinin mühafizəsi haqqında Bern konvensiyası, Sənaye mülkiyyətinin mühafizəsi haqqında Paris konvensiyası* və s.

B. x. h.-un daha bir institutu olan transsərhəd vərəsəlik hüququ da böyük əhəmiyyətə malikdir.

B. x. h. institutlardan başqa, alt sahələrə də malikdir: transsərhəd ailə hüququ transsərhəd nikahların (xaricilərin iştirakı ilə, yaxud xaricdə bağlanmış nikahların) bağlanması və pozulmasını, ər-arvad arasında mülkiyyət və şəxsi münasibətləri, valideynlərdən birinin xaricdə yaşaması ilə xüsusi sosial gərginlik yaradan valideyn-uşaq münasibətlərini, transsərhəd övladlığa götürməni tənzimləyir; transsərhəd əmək hüququ xarici vətəndaşların ölkədəki və bəzi hallarda yerli vətəndaşların xaricdəki əmək münasibətlərini tənzimləyir. 21 əsrdə B. x. h.-un istər ölkə daxilində mürəkkəb vəzifələrin yerinə yetirilməsi işində, istərsə də Azərb. Resp.-nın dünya təsərrüfat əlaqələrində bərabərhüquqlu iştirakının təminatı sahəsində rolu artmışdır.

**BEYNƏLXALQ İCARƏ ƏMƏLİYYATI** – icarəyə verənin ölkəsinin sərhədlərindən keçmiş əmtəələrin ödənişlə istifadəyə verilməsini nəzərdə tutan əməliyyatlar. B.i.ə. zamanı icarəyə verən icarə müqaviləsi əsasında əmtəəni müəyyən ödəniş əvəzində müqavilədə göstərilən müddətə öz müştərisinə (icarəyə götürənə) istifadəyə verir.

**BEYNƏLXALQ İKİQAT VERGİQOYMA** – müxtəlif ölkələrdə eyni vaxtda oxşar və ya eyni təbiətə malik vergilərin qoyulması.

B.i.v. milli vergi sistemlərindəki fərqlərin nəticəsidir. B.i.v. üçün xarakterikdir: vergiqoyma subyektlərinin (fiziki və ya hüquqi şəxslərin) oxşarlığı; obyektlərinin (gəlirlərin və gəlir mənbələrinin) oxşarlığı; bu subyektlərin və ya obyektlərin müxtəlif dövlətlərin vergi qanunvericiliyinə tabe olması; alınan vergilərin oxşarlığı; vergiqoymanın eyni vaxtda olması; müxtəlif ölkələrdə gəlirlərin hesablanması qaydalarındakı fərqlərin olması.

B.i.v.-nı şirkətlərin "iqtisadi ikiqat vergiqoyma" prinsipindən fərqləndirmək lazımdır (hüquqi şəxs kimi şirkətə vergi, səhmdarlar səviyyəsində bölüşdürülən mənfəətə gəlir vergisi).

Beynəlxalq hüquqda B.i.v.-nı qadağan edən ümumi qanunlar yoxdur. Dövlətlər öz ərazisində milli vergi qanunvericiliyinə müvafiq olaraq müstəsna vergitoplamaq hüququna malikdir. Buna görə də təcrübədə B.i.v.-ya yol verməmək üçün dövlət həm birtərəfli tədbirlər həyata keçirir, həm də B.i.v.-nın aradan qaldırılması haqqında beynəlxalq sazişlər bağlayır. B.i.v.-nın aradan qaldırılmasında ikitərəfli sazişlər daha geniş yayılmışdır.

**BEYNƏLXALQ İNKİŞAF ASSOSİASİYASI** (BİA; International Development Association, IDA) – *Dünya bankının* ən yoxsul ölkələrə yardım edən təsisatı. 1960 ildə Dünya bankının baş təşkilatı – *Beynəlxalq Yenidənqurma və İnkişaf Bankına* (BYİB) əlavə olaraq yaradılmışdır; BYİB-ə nisbətən daha imtiyazlı şərtlərlə kreditlər vermək iqtidarındadır. BİA və BYİB vahid təşkilati struktura, həmçinin ortaq heyətə və qərargaha malikdir.

BİA-nın vəzifəsi – beynəlxalq ssuda kapitalı bazarına məhdud çıxışı və aşağı gəlir səviyyəli əhalisi olan (2010 maliyyə ilinə görə adambaşına *ümumi milli gəlir* 1135 ABŞ dollarınadək) ölkələrdə yoxsulluğun azaldılmasıdır. BİA kredit və zəmanətlərin təqdim edilməsi, həmçinin texniki yardımın edilməsi yolu ilə iqtisadi artıma kömək edən, bərabərsizliyin azaldılmasına və əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına istiqamətlənən proqramları dəstəkləyir. Hazırda BİA dünyanın 80 ən yoxsul ölkəsinə (yarısı Afrikanın payına düşür) həlledici kömək göstərir.

BİA imtiyazlı ödəmə müddəti 10 il olan 20, 35 və 40 illik faizsiz kreditlər verir. 2005–09 illərdə BİA tərəfindən dəstəklənən kredit və zəmanətlərin ümumi həcmi 55,3 mlrd. ABŞ dolları təşkil etmişdir; bu məbləğin yarısından çoxu infrastrukturun və sosial sferanın inkişafına yönəldilmişdir. BİA-ya ən böyük borcu olan ölkə Hindistandır; verilən kredit və zəmanətlərin ümumi həcminin 18,8%-i onun payına düşür.

BİA-nın ehtiyatları donor-ölkələrin ödəmələri (hər üç ildən bir), BYİB və Beynəlxalq Maliyyə Korporasiyasının (BMK) gəlirlərinin başqa hesablara köçürülməsi, həmçinin əvvəllər verilmiş kreditlərin ödənilməsindən daxilolmalar hesabına artır.

BİA-ya 169 üzv-ölkə daxildir (2010).

**BEYNƏLXALQ KANALLAR** – hüquq rejimi *beynəlxalq hüquq* xarakterli sazişlərlə müəyyən edilən dəniz kanalları. Beynəlxalq gəmiçilikdə istifadə edilir. B.k.-ın həmçinin hərbi-strateji əhəmiyyəti də var (məs., *Süveyş kanalı, Panama kanalı, Kil kanalı*).

**BEYNƏLXALQ KİNOARXİVLƏR FEDERASİYASI** (BKF; Federation Internationale des Archives du film, FİAF) – beynəlxalq kino təşkilatı. 1938 ildə yaradılmışdır. Fəaliyyət sahəsinə dünya kino sənəti əsərlərinin toplanması, yayılması və populyarlaşdırılması, filmlərin və kino ilə bağlı müxtəlif sənədlərin toplanması, mühafizəsi və həmçinin onların öyrənilməsi ilə məşğul olan təşkilatın beynəlxalq əməkdaşlığının möhkəmləndirilməsi daxildir. Federasiya film mübadiləsi, festivallar və ən yaxşı kino əsərlərinə tematik baxış, konqreslər, konfranslar, beynəlxalq kinosərgilər təşkil edir. B.k.f. tərkibində dünyanın 65 öl-



Beynəlxalq Muğam Mərkəzi.

kəsinin 127 təşkilatını birləşdirir (2002). FİAF-ın rəhbər orqanı ildə bir dəfə toplanan Baş assambleyası və assambleyalararası tədbirlər keçirən İcraiyyə Komitəsidir.

**BEYNƏLXALQ KOSMİK STANSİYA** (BKS; International Space Station, İSS) – çoxməqsədli tədqiqat kompleksi kimi istifadə edilən beynəlxalq idarəolunan (pilotlu) orbital kosmik aparat. Orbitin parametrləri: hünd. 410–460 *km*; mailliyi 51,6°. BKS modul strukturuna malikdir; quraşdırma, orbitə çatdırılan növbəti modul və ya blokun kompleksə ardıcıl birləşdirilməsi yolu ilə baş verir. Modullar layihənin iştirakçısı (Kanada, Rusiya, ABŞ, Yaponiya) və Avropa Kosmik Agentliyinin (AKA) üzvü olan ölkələr tərəfindən yaradılır. BKS-in ilk modulu ("Zarya", Rusiya) 20.11.1998 ildə orbitə çıxarılmışdır. Stansiya 6 nəfər heyət üzvünün həyat fəaliyyətini təmin edir (2010). BKS-in açılışı (genişləndirilməsi) başa çatdıqdan sonra ölçüləri 109x80x38 *m*, hermetik bölmələrinin həcmi 1140 $m^3$, kütləsi 455 *t* olacaqdır. BKS-in qurulmasında əsas məqsəd stansiyada kosmik uçuşun unikal şəraitini (məs., vakuumu, mikroqravitasiyanı, yer atmosferi ilə zəifləməmiş kosmik şüaları) tələb edən eksperimentlərin aparılmasına imkan yaratmaqdır. BKS-dən biologiya (o cümlədən biotibb, biotexnologiya), fizika (o cümlədən kvant fizikası, maye mühitlər fizikası), materialşünaslıq, astronomiya (o cümlədən astrofizika, kosmologiya), meteorologiya və s. sahələrdə əsaslı və tətbiqi tədqiqatlar aparmaq üçün istifadə olunur. Tədqiqatlar ixtisaslaşdırılmış modul-laboratoriyalarda yerləşdirilmiş xüsusi avadanlıq vasitəsilə aparılır; bəzi eksperimentlər (məs., vakuumu tələb olunan) üçün avadanlıqların bir hissəsi stansiyaya xaricdən bərkidilir.

Beynəlxalq razılaşmaya görə stansiya inteqrasiya olunmuş iki seqmentdən (Rusiya və Amerika seqmentləri) ibarətdir. Rusiya seqmentinə funksional-yük ("Zarya") və xidmət modulu ("Zvezda", 2000 ildə orbitə çıxarılmışdır), birləşmə bölməsi ("Pirs", 2001), kiçik tədqiqat modulları (MİM-2, 2009; MİM-1, 2010) daxildir. Amerika seqmenti birləşdirici ("Unity", ABŞ, 1998 ildə orbitə çıxarılmışdır; "Hamony", ABŞ, 2007) və laboratoriya ("Destiny", ABŞ, 2001) modullarından, şlüz kamerasından ("Quest", ABŞ, 2001) və tədqiqat modullarından ("Kibo", Yaponiya, 2008; "Colombus", AKA, 2008; "Tranquillity", ABŞ, 2010), eləcə də üzərində günəş batareyaları və radiatorlar qurulmuş ferma konstruksiyasından (ilk elementi 2000 ildə orbitə çıxarılmışdır) təşkil olunmuşdur. Rusiya seqmentinin yaradılması və onun Amerika seqmenti ilə inteqrasiyası üzrə baş təşkilat S.P. Korolyov ad. "Energiya" kosmik korporasiyası, Amerika seqmenti üzrə baş təşkilat isə "Boinq" şirkətidir.

**BEYNƏLXALQ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI** – bax *Beynəlxalq təşkilatlar.*

**BEYNƏLXALQ MUĞAM MƏRKƏZİ** – 2009 il dekabrın 27-də Bakıda açılmışdır. Dənizkənarı Milli Parkda yerləşən üçmərtəbəli binanın (memarlar Vahit Kasımoğlu, Haldun Uyak) ümumi sah. 7,5 min $m^2$-dir. Formasına görə tar musiqi alətini xatırladır. Binanın inşasında 2 mindən çox müxtəlif ölçülü şüşədən istifadə olunmuşdur. Mərkəzin 350 yerlik konsert salonu, klubu, tədris otaqları, səsyazma studiyası var. Burada beynəlxalq muğam festivalları, yubileylər, konsertlər və dövlət tədbirləri keçirilir.

**BEYNƏLXALQ MUSİQİ ŞURASI** (BMŞ; International Music Council, IMC) – müxtəlif regional və beynəlxalq peşəkar və həvəskar musiqi təşkilatları və cəmiyyətlərini (50-dən yuxarı), müxtəlif ölkələrin milli komitələrini (65), musiqi sənətinin müxtəlif ixtisaslar üzrə ayrı-ayrı nümayəndələrini (bəstəkarlar, ifaçılar, musiqişünaslar, pedaqoqlar və b.) birləşdirən təşkilat; YUNESKO nəzdindədir. 1949 ildə yaradılmışdır, mənzil-qərargahı Parisdədir. BMŞ müxtəlif musiqi təşkilatları arasında əlaqənin inkişafı, onların fəaliyyətinin koordinasiyası ilə məşğul olur; konqreslər, festivallar, simpoziumlar, müsabiqələr və s. təşkil edir. BMŞ-nin Baş assambleyasının iclası (1958 ildən, sonuncusu 2011 ildə Tallində) 2 ildən bir keçirilir. *Beynəlxalq Müasir Musiqi Cəmiyyəti*, "Beynəlxalq musiqili gənclik" ("Jeunesses musicales international", 1945) federasiyası, Beynəlxalq Musiqi Kitabxanaları Assosiasiyası (International Association of Music Libraries, 1951), Beynəlxalq Musiqi Təlimi Cəmiyyəti (International Society for Music Education, 1953) və s. BMŞ-nin tərkibinə daxildir. BMŞ Beynəlxalq musiqi gününün (1 oktyabr; 1975 ildən keçirilir) təsisçisidir.

**BEYNƏLXALQ MUSİQİŞÜNASLIQ CƏMİYYƏTİ** (BMC) – ən böyük elmnəşriyyat mərkəzlərindən biri. 1927 ildə Bazeldə (İsveçrə) yaradılmışdır. BMC-nin yaradılmasının təşəbbüsçülərindən biri Avstriya musiqişünası Q. Adler olmuşdur. Cəmiyyət müxtəlif dillərdə "Acta Musicologica" elmi məqalələr jurnalını buraxır (1931; ildə 2 dəfə). Beynəlxalq Musiqi Kitabxanaları Assosiasiyası ilə birlikdə elm üçün direktiv səciyyəli biblioqrafik soraq kitabçaları seriyasını nəşr edir: "Repertoire İnternational des Sources Musikales" (RİSM; not arxivlərinin tematik-xronoloji kataloqları, bundan əvvəl çap olunmuş notlar, musiqi nəzəriyyəsi traktatlarının əlyazması), "Repertoire İnternational de Literature Musicale" (RİLM; musiqiyə dair kitab və məqalələrin referatativ icmalı; 1967 ildən), "Repertoire İnternational d'İconographie Musicale" (RİdİM; musiqi ikonoqrafiyası əhatə edən mənbələr; 1971 ildən), "Repertoire İnternational de la Presse Musicale" (RİPM; dövri musiqi mətbuatının arxivi; 1988 ildən); hazırda soraq kitabçaları həm də onlayn məlumat bazaları formasında mövcuddur. BMC musiqişünaslıq konqresləri (ilk dəfə 1930, Lyej ; hazırda 5 ildə 1 dəfə) keçirir. Musiqişünaslar P. Vaqner (1927–31), K. Eppesen (1949–52), F. Blume (1958–61), K. fon Fişer (1967–72), L. Finşer (1977–82), S. Seydi (1992–97), D. Fallouz (2002–07) BMC-nin müxtəlif vaxtlarda prezidentləri olmuşlar. 2007 ildən BMC-nin prezidenti T. Zebas, baş katibi D. Baumanndır.

**BEYNƏLXALQ MÜASİR MUSİQİ CƏMİYYƏTİ** (BMMC)– ən böyük konsert təşkilatlarından biri. 1922 ildə Zalsburqda, Avstriya müsiqiçiləri R. Reti, E. Velles və P. Ştefanın təşəbbüsü ilə yeni musiqini təbliğ etmək məqsədilə yaradılmışdır. Mənzil-qərərgahı əvvəllər Londonda olmuş, hazırda Amsterdamdadır; prezidenti Avstraliya bəstəkarı C. Deyvisdir. Müxtəlif ölkələrdə beynəlxalq festivalların təşkili cəmiyyətin əsas fəaliyyət sahəsidir. 1923 ildə Zalsburqda keçirilmiş ilk festival kamera musiqisinə həsr edilmişdi; sonrakı festivallarda müxtəlif janrlarda musiqi səslənmiş, A. fon Vebern, A. Berq, P.Bulez, K. Ştokhauzen və b.avanqard musiqiçilçrin əsərləri ilk dəfə ifa olunmuşdur. BMMC-nin festivalları hər il (1940–45 illərdən başqa; 1990-cı illərin sonlarından "Dünya musiqisi günləri" adı altında) keçirilir . Cəmiyyətin tərkibinə 47 regional şöbə daxildir (2011).

**BEYNƏLXALQ MÜBAHİSƏLƏR** – dövlətlər arasında onların qarşılıqlı və beynəlxalq münasibətlərinin müxtəlif məsələləri üzrə meydana çıxan ixtilaflar. Beynəlxalq hüquqa əsasən, beynəlxalq hüququn subyektləri öz aralarındakı mübahisələri dinc vasitələrlə, beynəlxalq sülhü, təhlükəsizliyi və ədaləti təhlükəyə məruz qoymadan həll etməlidirlər. Mübahisələrin sülh yolu ilə həlli beynəlxalq hüququn başlıca prinsipi, yüksək imperativ normadır ("jus cogens"). B. m. dövlətlərin suveren bərabərliyi əsasında və BMT-nin Nizamnaməsinə, ədalət prinsipinə və beynəlxalq hüququn əsas prinsiplərinə uyğun, azad şəkildə vasitələr seçmək prinsipinə riayət etməklə həll edilir.

BMT-nin Nizamnaməsi B. m.-i iki kateqoriyaya bölür: davam etməsi beynəlxalq sülhə və təhlükəsizliyə təhdid yaradan xüsusi təhlükəlilər (34-cü maddə) və bütün digər mübahisələr. BMT-nin Nizamnaməsində "mübahisələr" terminindən əlavə, "vəziyyətlər" anlayışı da istifadə olunur (34-cü, 35-ci maddələr). Mübahisələrin və vəziyyətlərin kateqoriyalara bölünməsi meyarları BMT-nin Nizamnaməsində olmadığından, bu məsələnin həlli Təhlükəsizlik Şurasına həvalə edilmişdir. BMT-nin Nizamnaməsinin 34-cü maddəsinə müvafiq olaraq, "Təhlükəsizlik Şurasına beynəlxalq ixtilaflar, yaxud beynəlxalq mübahisələr doğura biləcək istənilən mübahisəni, yaxud istənilən vəziyyəti təhqiq etmək, bu mübahisənin, yaxud vəziyyətin beynəlxalq sülhün və təhlükəsizliyin qorunması üçün təhdid doğurub-doğurmadığını müəyyənləşdirmək vəkaləti verilmişdir". Beləliklə, beynəlxalq münaqişələrin mübahisələrə və vəziyyətlərə bölünməsi şərti və nisbidir. Siyasi və hüquqi mübahisələr arasında da dəqiq bölünmə yoxdur. BMT-nin Nizamnaməsinin 36-cı maddəsinə əsasən, tərəflər hüquqi xarakterli mübahisələri, ümumi qayda olaraq, BMT-nin Beynəlxalq məhkəməsinə verməlidirlər. Onun statutu bu məhkəmə yurisdiksiyasının məcburi saydığı hüquqi mübahisələr siyahısını ehtiva edir. Bu maddədə müqavilənin şərhi, beynəlxalq hüququn istənilən məsələsi, müəyyən edilməsi beynəlxalq öhdəliyin pozulması demək olan faktın mövcudluğu, beynəlxalq öhdəliyin pozulması üçün verilməli olan ödəmənin xarakteri və ölçüləri haqqında mübahisələr öz əksini bəhs olunur. Hüquqi mübahisələrin siyahısı müfəssəl deyildir. Siyasi mübahisələr daha mühüm və mürəkkəb mübahisələr olduğundan (məs., ərazi problemləri, sərhədlərin müəyyənləşdirilməsi), siyasi vasitələrlə həll edilir.

BMT-nin Nizamnaməsinin 33-cü maddəsinə əsasən, dövlətlər danışıqlar, təhqiqat, vasitəçilik, barışıq, arbitraj, məhkəmə təhqiqatı, regional orqanlara, yaxud sazişlərə müraciət etməklə, yaxud öz seçimlərinə görə digər dinc vasitələrlə B. m.-in tezliklə və ədalətli həllinə çalışmalıdırlar. Belə həllin axtarışı zamanı tərəflər mübahisənin xarakterinə və təfərrüatına uyğun gələn sülh vasitələrini razılaşdırmalıdırlar. B. m.-in sülh vasitələri ilə həlli yolları özünün inkişafı prosesində dəyişilməz qalmamışdır. Onlar tarixi dövrdən və beynəlxalq arenada qüvvələr nisbətinin xüsusiyyətlərindən asılı olaraq inkişaf etmişdir. Münaqişə həllinin bəzi dinc vasitələri (xoşməramlı xidmətlər, beynəlxalq vasitəçilik və s.) qədim dövrlərdən məlum olsa da, bəziləri yalnız 19 əsrdən intişar tapmış (razılaşdırma prosedurları, *arbitraj*), digərləri isə 20 əsrin 2-ci yarısında yaranmışdır (beynəlxalq məhkəmələr, barışdırıcı komissiyalar, beynəlxalq təşkilatlar və məsləhətləşmələr çərçivəsində mübahisələrin həlli və s.).

**BEYNƏLXALQ MÜQAVİLƏ** – beynəlxalq hüququn subyektləri arasında bağlanan və onların davranış normalarını müəyyən edən saziş. B. m. beynəlxalq sistemi tənzimləyən başlıca vasitədir.

B. m.-nin normaları, obyekti və məqsədləri bütün dövlətlər üçün maraq kəsb edirsə, onlar ümumi, yaxud universal müqavilələr adlandırılır. Onlar açıq olmalıdır, yəni orada bütün dövlətlərin iştirak etmək hüququ olmalıdır. Müəyyən coğrafi rayonda yerləşən dövlətlərin B. m.-ləri regional adlandırılır (məs., MDB, Avropa İttifaqı və s. çərçivəsində bağlanmış sazişlər).

Ümumi B. m.-də hər dövlətin iştirak etmək hüququ suveren bərabərlik prinsipinə əsaslanır. Müəyyənedici faktor dövlətdə hüquqi maraqlılığın olmasıdır. Ən çox maraqlılığa malik olan, yəni işləri müqavilədəki nizamlanma predmeti olan dövlət mütləq iştirakçı hüququ əldə edir (həmin dövlətin, yaxud hökumətin tanınıb-tanınmamasından asılı olmayaraq). Ən çox maraqlı olan dövlətin iştirak etməməsi suveren bərabərlik və daxili işlərə qarışmamaq prinsiplərini pozur ki, bu da B. m.-nin etibarsızlığı ilə nəticələnir.

B. m.-nin bağlanması prosedurası adətən üç mərhələdən ibarətdir: mətnin qəbul edilməsi (çoxtərəfli B. m.-nin mətni konfrans iştirakçılarının üçdə iki çoxluğu ilə qəbul edilir və hüquqi öhdəliklər doğurmur); mətnin autentikliyinin, yəni əsilliyinin müəyyənləşdirilməsi (tam, yaxud natamam mətnin özünün və ya özündə mətni ehtiva edən yekun aktının imzalanması yolu ilə həyata keçirilir); B. m.-nin məcburiliyinə razılıq verilməsi (B. m.-də nəzərdə tutulmuş qaydaya uyğun olaraq imzalanma, ratifikasiya, qəbuletmə, təsdiqləmə, yaxud qoşulma ilə ifadə oluna bilər).

B. m.-nin bağlanması mərhələlərindən hər hansı birində iştirak etmək üçün dövlətin, yaxud təşkilatın nümayəndəsi səlahiyyətə malik olmalıdır. Yüksək vəzifəli şəxslər (dövlət başçıları, hökumət başçıları, xarici işlər nazirləri, yaxud bey-

nəlxalq təşkilatın baş katibi) tutduqları vəzifəyə görə belə səlahiyyətlərə malikdirlər. İdarələr arasında saziş imzalanarkən idarə rəhbərlərinə xüsusi səlahiyyətlər tələb olunmur. B. m.-də səlahiyyətsiz iştiraketmə heç bir hüquqi nəticə (müvafiq fəaliyyətin sonradan dövlət, yaxud təşkilat tərəfindən təsdiqlənməsi istisna təşkil edir) doğurmur.

B. m.-nin imzalanması bir halda mətnin yekun qəbulunu, digər halda isə onun məcburiliyinə razılığın verilməsini bildirir. Yekun və ya yekundan əvvəl (ad referendum-paraflama və imzalanma) imzalanma ola bilər. Paraflama (imza atan şəxsin inisialları vasitəsi ilə imzalanma) mətnin autentikliyini təsdiq edir və bundan sonra ona hər hansı dəyişiklik edilmir. Bir qayda olaraq, paraflamadan sonra tam imzalanma gəlir. Ad referendum-imzalanma ("razılaşdırmaya qədər", yəni təxirə salınmış imzalanma) adətən o hallarda istifadə olunur ki, müvəkkil şəxs hazırlanmış mətnlə razıdır, lakin hökumətin razılığını almağı məqsədəuyğun sayır (məs., əgər mətnin məzmunu təlimatlara tam uyğun gəlmir). Dövlətin razılığı alındıqdan sonra müqavilənin ad referendum-imzalanması tam imzalanma statusu qazanır.

Ratifikasiya dövlət hakimiyyətinin ali orqanları tərəfindən B. m.-nin təsdiqi olub, onun məcburiliyinə razılığı ifadə edir. Ratifikasiya qaydası daxili hüquqla müəyyənləşir. Azərb. Resp.-nın Konstitusiyasına əsasən dövlətlərarası müqavilələrin təsdiqi və ləğv edilməsi hüququ Azərb. Resp.-nın Milli Məclisinə məxsusdur. Xüsusi əhəmiyyətli B. m.-lərin ratifikasiyası məsələsinin referenduma çıxarılması halları da məlumdur (məs., 1992 ildə Fransada Maastrixt müqavilələrinin ratifikasiyası haqqında referendum keçirilmişdir). Ratifikasiya haqqında akta əsasən dövlət başçısı ratifikasiya fərmanını imzalayır. Ratifikasiya prosesi ratifikasiya etimadnamələrinin dəyişdirilməsindən (ikitərəfli B. m.-lərdə), yaxud onların saxlanca təhvil verilməsindən (çoxtərəfli B. m.-lərdə) sonra başa çatmış sayılır. Ratifikasiyadan imtina edilməsi beynəlxalq öhdəliyin pozulması sayılmır.

Beynəlxalq təşkilat tərəfindən B. m.-nın məcburiliyinə razılıq verilməsi həmin təşkilatın səlahiyyətli orqanının qəbul etdiyi təsdiq aktı ilə həyata keçirilir. B. m.-nin məcburiliyinə razılığın ifadəetmə prosedurаları olan təsdiqləmə, qəbuletmə ratifikasiyası tələb olunmayan, lakin imzalandıqdan sonra razılıq alınması nəzərdə tutulan B. m. üçündür. Bu prosedurаlar ratifikasiyada olduğundan daha çox dövlət orqanları tərəfindən həyata keçirilir. Bir çox B. m.-də tərəflərin daxili qanunvericiliyinə müvafiq razılıq alınması haqqında standart maddə olur.

Qoşulma digər dövlətlər tərəfindən bağlanmış B. m.-nin məcburiliyinə razılıq aktıdır. Qoşulma imkanı B. m.-nin özündə nəzərdə tutulur və ya onun iştirakçıları ilə razılaşdırılır. Bir qayda olaraq, ratifikasiya və təsdiqləmə ilə məşğul olan orqanlar qoşulmanı da həyata keçirir.

Çoxtərəfli B. m.-yə razılıq ifadə edərkən qeyd-şərtə – B. m.-nin bağlanması prosesində dövlətin, yaxud beynəlxalq təşkilatın həmin B. m.-nin müəyyən maddələrinin hüquqi gücünü ləğv və ya dəyişdirmək məqsədilə birtərəfli qaydada etdiyi bəyanatın əlavə olunmasına icazə verilir. Qeyd-şərt problemi onunla bağlıdır ki, çoxtərəfli B. m.-də maraqları hər zaman üst-üstə düşməyən çox sayda dövlət iştirak edir. Bəzən B. m.-ni bütövlükdə dəstəkləyən dövlət onun bu və ya digər maddələrini özü üçün yolverilməz sayır. Qeyd-şərt institutu dövlətlərin mümkün qədər geniş iştirakını təmin etmək məqsədi daşıyır. Qeyd-şərtlər imzalanma, ratifikasiya, təsdiqləmə, qəbuletmə, yaxud B. m.-yə qoşulma, həmçinin B. m.-yə münasibətdə hüquqi varislik haqqında xəbərdarlıq zamanı edilir. İmzalanma, ratifikasiya və təsdiqləmə zamanı dövləti təmsil edən şəxslər və orqanlar qeyd-şərtləri də etmək hüququna malikdirlər. Qeyd-şərt müqavilənin məqsəd və prinsiplərinə zidd olmamalı, onun əsas məzmununu dəyişdirməməlidir. Qeyd-şərt B. m.-nin qadağan etdiyi qeyd-şərtlərdəndirsə, yaxud B. m.-nin yol verdiyi qeyd-şərtlər sırasına daxil deyilsə, həmin qeyd-şərtin edilməsi mümkün deyildir. Qeyd-şərt edilməsinə yol verməyən B.m.-lər mövcuddur. Qeyd-şərt B. m.-nin imkan verdiyi qeyd-şərtlərdəndirsə, o zaman digər iştirakçı dövlətlərin razılığı tələb olunmur. Bütün digər hallarda belə razılıq zəruridir. Təşkilatın təsisçi aktına edilmiş qeyd-şərt müvafiq orqan tərəfindən qəbul edilməlidir. Qeyd-şərt B. m.-nin digər iştirakçı dövlətləri arasında qarşılıqlı münasibətlərə aid maddələrini dəyişdirmir.

Qeyd-şərtlərdən başqa, dövlətlər şərh haqqında bəyanatlar da verə bilər ki, bunun da məqsədi bu və ya digər maddənin mənasını dəqiqləşdirməkdən, yaxud onun bəyanat verən tərəfindən necə başa düşülməsini ifadə etməkdən ibarətdir. Qeyd-şərtlərdən fərqli olaraq, onlar B. m.-nin məzmununu dəyişdirmir və digər iştirakçıların razılıqları tələb olunmur. Onlar üçün yalnız həmin bəyanatı vermiş dövlət məsuliyyət daşıyır.

Müqavilənin depozitarisi (saxlayanı) müqavilə tərəflərinin razılaşması ilə müəyyənləşir. Dövlət, hökumət, beynəlxalq təşkilat, yaxud onun yüksək vəzifəli şəxsi depozitari ola bilər. Real olaraq depozitari dövlət və təşkilatın orqanları deyil, dövlətin və təşkilatın özüdür. "Soyuq müharibə" illərində siyasi çətinliklərdən yayınmaq üçün mühüm əhəmiyyətli bəzi ümumi B. m. üçün bir deyil, bir neçə depozitari təyin olunurdu. Atom silahının yayılmaması haqqında müqavilə (1968) depozitari qismində SSRİ hökumətini, B.Britaniyanı və ABŞ-ı göstərmişdi. Depozitarinin funksiyaları beynəlxalq xarakter daşıyır və dəqiqliklə yerinə yetirilməlidir. Depozitarinin başlıca funksiyaları B. m.-nin əslinin və saxlanca verilmiş surətinin saxlanması; B. m.-nin təsdiqlənmiş surətlərinin hazırlanması və göndərilməsi; B. m.-yə aid olan digər sənədlərin təhvil alınması və saxlanması, həmçinin onlar haqqında iştirakçıları məlumatlandırmaq; beynəlxalq müqavilənin qeydə alınması.

B. m.-nin qüvvəyə minməsi onun beynəlxalq-hüquqi akt kimi fəaliyyətə başlaması anının yetişməsini bildirir. Bir qayda olaraq, B. m.-nin qüvvəyə minməsi qaydası onun mətnində müəyyən olunur. Adətən, ikitərəfli B. m. hər iki tərəfin onun yekun razılaşdırılması təmin edildikdən sonra qüvvəyə minir. Ratifikasiyası tələb olunan B. m. ratifikasiya etimadnamələrinin dəyişdirilməsindən sonra qüvvəyə minir ki, bu da müvafiq məlumatların bir-birinə çatdırılması ilə ifadə olunan təsdiqlənməni tələb edir. Ratifikasiya, yaxud təsdiqlənmə tələb etməyən B. m. imzalandıqdan sonra qüvvəyə minir. Çoxtərəfli B. m. hər bir dövlətin öz iştirakını nə zaman yekun olaraq rəsmiləşdirmiəsindən asılı olaraq, iştirakçı dövlətlər üçün müxtəlif vaxtlarda qüvvəyə minir.

Qüvvəyə minənə qədər B. m. razılaşan dövlətlərin üzərinə öhdəlik qoymur. Lakin əgər müqavilədə nəzərdə tutulmuşdursa, yaxud iştirakçılar bu haqda digər vasitələrlə razılaşmışlarsa, müqavilə müvəqqəti tətbiq edilə bilər.

B. m. rəsmi olaraq nəşr edilməlidir. Demokratik hüquq qaydalarına belə bir prinsip xasdır: qanun nəşr edilməyibsə, o, heç bir öhdəçilik doğurmur. Lakin bəzi B. m.-lərin (hərbi-texniki əməkdaşlıq haqqında, məhsulların tədarükü haqqında və s.) nəşri mənfi nəticələr doğura biləcəyinə görə milli qanunvericiliklərdə istisnalar mümkündür.

Qeydiyyat sirli B. m.-lərdən istifadə imkanlarını məhdudlaşdırmaq vasitəsidir. BMT-nin nizamnaməsi tələb edir ki, Təşkilat üzvünün bağladığı saziş Katiblikdə qeydə alınsın və onun tərəfindən nəşr edilsin. Qeydə almama halı üçün sanksiya nəzərdə tutulmuşdur: belə B. m.-nin tərəfləri BMT-nin heç bir orqanında ona istinad edə bilmyəcəklər. B. m.-nin qeydiyyatı regional təşkilatların nizamnamələri ilə də nəzərdə tutulmuşdur. Müqavilələrin daxili qeydiyyat sistemi də mövcuddur.

Beynəlxalq hüquq B. m.-nin məcburi formasını müəyyənləşdirmir. Tərəflər onu özlərinə uyğun şəkildə müəyyənləşdirmək hüququna malikdir. Forma B. m.-nin hüquqi qüvvəsinə təsir etmir. O, yazılı (B. m.-lərin əksəriyyəti) və şifahi formada bağlanır.

Şifahi sazişlər diplomatik missiyaların səfirliklərə çevrilməsini, diplomatik münasibətlərin qurulmasını formalaşdırmaq üçün, yəni detallarla işlənmiş qərarlar tələb olunmayan hallarda istifadə olunur. İki növ şifahi saziş mövcuddur: beynəlxalq hüquqi öhdəçilik doğuran və hüquqi deyil, mənəvi-siyasi öhdəçilik yaradan ("centlmen sazişi" adını alan).

İkitərəfli B. m. hər iki tərəfin dilində tərtib olunur. Onların hər ikisi autentikdir, yəni bərabər şəkildə əsldir. Tərəflər öz dilində olan mətnə əsaslanır. Ziddiyyət yarandıqda hər iki mətn diqqətə alınır və onların mənalarını yaxınlaşdıran şərh qəbul edilir. Universal xarakterli çoxtərəfli B. m.-ləri BMT-nin rəsmi dillərində – ing., ərəb, ispan, Çin, rus və fransız dillərində tərtib etmək qəbul olunmuşdur.

Beynəlxalq hüquq üzrə öhdəlikləri vicdanla yerinə yetirmək prinsipi dövlətin üzərinə B. m.-nin qərarlarını beynəlxalq və daxili sferalarda vicdanla həyata keçirmək öhdəliyi qoyur. B. m.-dən imtina yalnız beynəlxalq hüquqa uyğun şəkildə mümkündür.

B. m.-nin qanun kimi geriyə qüvvəsi yoxdur. O, yalnız müqavilə qüvvəyə mindikdən sonra baş vermiş davranışa nəzərən fəaliyyətdədir. İştirakçılar B. m.-yə geriyə qüvvə verə bilər. B. m.-nin fəaliyyət müddəti onda nəzərdə tutulmuş şərtlərdə, yaxud qarşılıqlı razılaşma əsasında uzadıla (prolonqasiya) bilər. B. m.-nin fəaliyyət müddətinin bitməsindən sonra onun fəaliyyətinin bərpa edilməsi renovasiya adlanır.

B. m.-yə yenidən baxılma (reviziya) iştirakçıların razılaşması əsasında edilmiş düzəlişlər, dəyişikliklər, əlavələr vasitəsilə həyata keçirilir. Dəyişikliklər haqqında razılaşma həmin razılaşmanı qəbul etməyən B. m. iştirakçılarını hüquqi cəhətdən bağlamır. Çoxtərəfli B. m. iki, yaxud bir neçə iştirakçının qarşılıqlı münasibətlərinə nəzərən yalnız o halda dəyişdirilə bilər ki, belə imkan B. m.-nin özündə nəzərdə tutulmuşdur və ya ən azı, qadağan edilməmişdir. Bu zaman dəyişiklik digər iştirakçıların hüquqlarına toxunmamalı və beynəlxalq müqavilənin məqsədləri ilə uyğunsuzluq yaratmamalıdır.

B. m. hüququ özündə B. m.-nin etibarlılıq prezumpsiyasını daşıyır: hər bir fəaliyyətdə olan B. m. digər beynəlxalq hüquq əsasında müəyyənləşənə qədər iştirakçılar üçün məcburidir. B. m.-nin etibarlılığının itirilməsi nisbi və mütləq ola bilər. Birincisi müqaviləni mübahisəli edir və onun əsası nümayəndənin səhvi, aldadılması, ələ alınmasıdır. Etibarlılığın mütləq itirilməsi B. m.-nin başdan puçluğunu bildirir. Onun əsası dövləti, yaxud nümayəndəni məcburetmə, həmçinin beynəlxalq hüququn imperativ norması ilə ziddiyyət təşkil etməsidir.

B. m.-nin xitamı, yaxud ondan çıxma müqavilənin qərarlarına və ya iştirakçıların razılaşmasına əsasən həyata keçirilir. Əksər hallarda B. m. müddətinin başa çatması, yaxud icra olunması nəticəsində xitam edilir. B. m.-dən əsaslandırılmamış imtina onun xitamını doğurmur.

Beynəlxalq hüquqda B. m.-ni yerinə yetirməmək üçün aşağıdakı əsaslar nəzərdə tutulmuşdur: B. m.-nin iştirakçıları tərəfindən onun pozulması; B. m.-ni yerinə yetirməyin mümkünsüzlüyü; B. m.-nin bağlandığı şəraitin kökündən dəyişməsi; B. m.-nin zidd olduğu yeni imperativ normanın meydana gəlməsi. Bütün şəraitlərdə B. m.-nin ləğvi dəqiq ifadə olunmalıdır. B. m.-nin pozulmasına protest vermək ondan imtina demək deyildir. İnsan hüquqları haqqında B. m. xüsusi mövqeyə malikdir. Belə B. m.-nin heç bir pozulması ondan imtina üçün əsas ola bilməz. Müqavilənin xitamı onun qərarlarını yeinə yetirmək öhdəliyindən iştirakçıları azad etsə də, müqavilənin həyata keçirilməsi nəticəsində əldə olunmuş hüquqlara və vəzifələrə təsir göstərmir.

Dayandırılma – B. m.-nin fəaliyyətinin müvəqqəti xitamı B. m.-yə uyğun olaraq, iştirakçıların razılaşması ilə, həmçinin beynəlxalq hüquqa əsasın B. m.-nin əhəmiyyətli dərəcədə pozulması və yerinə yetirilməsinin müvəqqəti mümkünsüzlüyü halında ola bilər. Dayandırılma iştirakçıları B. m.-ni yerinə yetirmək öhdəliyindən müvəqqəti azad etsə də, əldə olunmuş hüquqlara və vəzifələrə təsir göstərmir. İştirakçılar müqavilənin yenidən qüvvəyə minməsini mümkünsüz edə biləcək hərəkətlərdən yayınmalıdırlar. Son zamanlar beynəlxalq təşkilatların qərarlarına uyğun olaraq, adətən, beynəlxalq hüququn pozulması üçün sanksiya qismində B. m.-nin fəaliyyətinin xitamı və ya dayandırılması hallarına tez-tez rast gəlinir. B. m. vahid bir tamdır. Ona görə də fəaliyyətinin xitamı, yaxud dayandırılması B. m.-yə yalnız bütövlükdə aid ola bilər. Ayrı-ayrı maddələrin xitamı, yaxud dayandırılması yalnız B. m.-də nəzərdə tutulduğu, yaxud tərəflər arasında razılaşdırıldığı hallarda mümkündür.

B. m.-nin fəaliyyətini tənzimləyən beynəlxalq normalar məcəllələşdirilmişdir (bax *Vyana konvensiyaları*). Bəzi ölkələrdə B. m. haqqında xüsusi qanunlar qəbul edilmişdir. Azərb. Resp.-nda "Beynəlxalq müqavilənin bağlanması, icrası və ləğv edilməsi haqqında" (1995) qanunu fəadliyyət göstərir.

**BEYNƏLXALQ MÜLKİ AVİASİYA TƏŞKİLATI** (BMAT; International Civil Aviation Organization, ICAO) – BMT-nin ixtisaslaşdırılmış idarəsi (1948); mülki aviasiya fəaliyyətinin bütün sahələri üzrə dövlətlərin beynəlxalq əməkdaşlığının təşkili və əlaqələndirilməsi ilə məşğuldur. 1944 ildə Çikaqoda yaradılmışdır. Təsisedici aktı Beynəlxalq mülki aviasiya konvensiyasıdır (Çikaqo konvensiyası). Mənzil-qərargahı Monrealdadır. Rəsmi dilləri: ingilis, fransız, rus, ispan; ərəb və Çin dillərindən məhdud şəkildə istifadə olunur. 190 dövlət BMAT-ın üzvüdür (2011). 1992 ildə BMAT 7 dekabrı Mülki aviasiya günü elan etmişdir.

BMAT-ın məqsədləri beynəlxalq aeronaviqasiya metod və prinsiplərinin işlənib hazırlanması, beynəlxalq hava nəql.-nın planlaşdırılması və inkişafına yardım; beynəlxalq mülki aviasiya üçün hava yolları, aeroport və aeornaviqasiya vasitələrinin inkişaf etdirilməsidir.

BMAT-ın fəaliyyətinin əsas istiqamətləri: texniki – beynəlxalq mülki aviasiyada işlədilən standart və təlimatların işlənib hazırlanması, təkmilləşdirilməsi və tətbiqi; iqtisadi – beynəlxalq sərnişin və yük daşınmalarının öyrənilməsi, aeroport və aeronaviqasiya vasitələrindən istifadənin norma və rüsumları üzrə təlimatların hazırlanması, həmçinin beynəlxalq xətlərdə tətbiq olunan tariflərin müəyyən edilməsi; beynəlxalq hava daşınmaları zamanı rəsmiyyətçiliyin sadələşdirilməsi məsələlərinin öyrənilməsi; inkişaf etməkdə olan ölkələrə öz daxili və beynəlxalq hava daşınmalarını yaratmaq üçün daimi texniki yardımın göstərilməsi; hüquqi – beynəlxalq hava qanunları üzrə yeni sənəd layihələrinin işlənib hazırlanması.

BMAT-ın ali orqanı olan Assambleya (Şura tərəfindən 3 ildə bir dəfə çağırılır) beynəlxalq aeronaviqasiya və beynəlxalq hava nəql. sahəsində BMAT-ın fəaliyyət istiqamətini müəyyən edir, BMAT-ın Şurasını seçir, hesabatları nəzərdən keçirir, BMAT üzvlərinin ödəmə şkalasını müəyyənləşdirir, təşkilatın büdcəsini təsdiq edir, təklifləri nəzərdən keçirir və düzəlişlərin Çikaqo konvensiyasına daxil olunmasını təqdir edir. BMAT-ın icra orqanı olan Şura Assambleyanın sessiyaları arasındakı müddətdə təşkilatın işinin fasiləsizliyini təmin edir, təşkilatın maliyyə işlərini idarə edir, beynəlxalq standart və təlimatları təsdiq edir, onları konvensiyanın əlavələrinə daxil edir, beynəlxalq razılaşmaların qeydiyyatını aparır və BMAT üzvləri arasında fikir ayrılığının tənzimlənməsində arbitraj funksiyasını yerinə yetirir. Assambleya 33 dövlətin üzvlərindən ibarət BMAT Şurasını seçir.

BMAT-ın əsas işçi orqanları Aeronaviqasiya komissiyası; avianəqliyyat, hüquq, aeronaviqasiya təminatına birgə yardım (dəstək) üzrə, maliyyə, mülki aviasiyanın fəaliyyətinə qanunsuz müdaxilə üzrə komitələrdir. Şuranın rəhbərliyi altında yeddi daimi işçi orqan fəaliyyət göstərir. Təşkilatın əsas icraçı şəxsi olan baş katib Şura tərəfindən seçilir və ona rəhbərlik edir. Şuranın daimi orqanı BMAT-ın katibliyidir. Onun tərkibinə beş ixtisaslaşdırılmış idarə (aeronaviqasiya, avianəqliyyat, hüquq, texniki yardım, inzibati), həmçinin bir sıra bölmələr daxildir.

BMAT-ın yeddi regional nümayəndəliyi vardır: Avropa və Şm. Atlantikada (Paris); Şm. Amerika, Mərkəzi Amerika və Karib dənizi hövzəsində (Mexiko); Cənubi Amerikada (Lima); Asiya-Sakit Okean bölgəsində (Banqkok); Yaxın Şərqdə (Qahirə); Şərqi və Cənubi Afrikada (Nayrobi); Qərbi və Mərkəzi Afrikada (Dakar). BMAT BMT-nin digər xüsusi (ixtisaslaşdırılmış) müəssisələri ilə əməkdaşlıq edir.

**BEYNƏLXALQ MÜLKİ PROSES** – *beynəlxalq xüsusi hüququn* mülki işlər üzrə beynəlxalq məhkəmə aidiyyətli məsələləri, xarici vətəndaşların, müəssisələrin və təşkilatların mülki-prosessual vəziyyətlərini, həmçinin xarici dövlətin və onun diplomatik nümayəndələrinin məhkəmə aidiyyətli (bax həmçinin *İmmunitet, Dövlət immuniteti*), xarici məhkəmələrin məhkəmə tapşırıqlarını yerinə yetirmək (bax həmçinin *Hüquqi yardım*), xarici dövlətin məhkəmə qərarlarını tanımaq və məcburi yerinə yetirmək məsələlərini və s. ehtiva edən xüsusi hissəsi. B. m. p.-in hakim prinsipi məhkəmə qanunu adlandırılan prinsipdir: xarici vətəndaşlarla, başqa ölkədə yerləşən mülkiyyətlə bağlı işlərə baxan məhkəmə, bir qayda olaraq, öz ölkəsinin prosessual qaydalarını tətbiq edir. Bax həmçinin *Kolliziya norması, Kolliziya hüququ*.

**BEYNƏLXALQ NƏZAKƏT** (lat. comitas gentium) – beynəlxalq təcrübədə ümumi qəbul olunmuş və dövlətlərin işgüzar, ümumvətəndaş, dövlətlərarası münasibətlərdə könüllü riayət etdikləri diplomatik protokol, etiket, hörmət və ehtiram qaydalarının məcmusu.

B. n. qaydaları *beynəlxalq hüququn* normaları ilə əlaqəli şəkildə yeni dövlətlərin və hökumətlərin tanınması, diplomatik münasibətlərin qurulması, diplomatik nümayəndəlik başçılarının təyinatı, diplomatik və şəxsi yazışmalar, müqavilələrin imzalanması, beynəlxalq konfransların çağırılması və keçirilməsi, müxtəlif bayram və matəm tədbirlərinin keçirilməsi zamanı, diplomatik qəbulların, rəsmi heyətlərin qarşılanmasının və yola salınmasının təşkilində, etimadnamələr təqdim olunarkən, diplomatik səfərlər həyata keçirilərkən, söhbətlər və danışıqlar aparılarkən və digər hallarda tətbiq olunur. Dövlətlər B. n. normaları əsasında ayrı-ayrı kateqoriyadan olan şəxslər (məs., diplomatlar) üçün gömrük və vergi sahələrində imtiyazlar müəyyənləşdirirlər. B. n.-in norma və qaydaları qarşılıqlı əsasında, yaxud dövlətin istəyinə görə (məs., diplomatik protokolun normaları göndərilmiş notaya, vizit kartına, hədiyyəyə, təbrikə, qəbula dəvətə cavab verilməsini lazım bilir) tətbiq edilir. B. n.-in norma və qaydalarının əsasında yaşadığı ölkənin adətlərinə və qaydalarına, onun qanunvericiliyinə və formalaşmış nizamına ciddi və danışıqsız əməl olunması durur.

B. n.-in norma və qaydaları hüquqi qüvvəyə malik olmayıb, beynəlxalq münasibətlərin iştirakçıları üçün məcburi deyildir. B. n.-in norma və qaydalarına əməl etməmə, yaxud onları pozma beynəlxalq-hüquqi məsuliyyət və retorsiyaların, repressiyaların tətbiqini doğurmur. Lakin B. n.-in normalarına əməl etməmək cavab reaksiyasına (məs., protest, yaxud neqativ xarakterli cavab hərəkətləri) səbəb ola bilər.

**BEYNƏLXALQ NƏZƏRİ VƏ TƏTBİQİ BİOFİZİKA İTTİFAQI** (International Union for Pure and Applied Biophysics, IUPAB) – beynəlxalq qeyri ticarət təşkilatı; əsas vəzifəsi biofizika üzrə tədqiqatları və təhsil proqramlarını himayə etmək, fundamental və tətbiqi biofizikanın ayrı-ayrı sahələri arasında beynəlxalq əlaqələri və müxtəlif ölkələrin biofizikləri arasında kooperasiyanı (əməkdaşlığı) təşkil etməkdən ibarətdir. 1961 ildə yaradılmışdır (Stokholm). Təqr. 50 ölkə ittifaqın üzvüdür (2010). *Elm üzrə beynəlxalq şuraya* daxildir (1966). İttifaq 3 ildən bir beynəlxalq konqreslər keçirir. Qurultaylar arasında müxtəlif ölkələrdə elmi məktəb-konfranslar təşkil edilir. İttifaqa Baş Assambleyada 3 ildən bir seçilən müxtəlif ölkələrdən olan 17 alimdən ibarət İnzibati şura rəhbərlik edir. İttifaq "Biophysical Reviews" jurnalını nəşr edir (2009).

**BEYNƏLXALQ NƏZƏRİ VƏ TƏTBİQİ FİZİKA İTTİFAQI** (International Union of Pure And Applied Physics, IUPAP) – beynəlxalq qeyri-hökumət təşkilatı. 1922 ildə Brüsseldə yaradılmışdır. *Elm üzrə beynəlxalq şuraya* daxildir. İttifaqa 60 ölkənin elmi müəssisəsi üzvdür (2011). Hər bir iştirakçı ölkədə fiziklərin Milli komitəsi yaradılmışdır. İttifaqın ali orqanı 3 ildə 1 dəfə çağırılan Baş assambleyadır. Assambleyalararası dövrdə rəhbərliyi İcraiyyə komitəsi yerinə yetirir. İttifaqın əsas fəaliyyəti fizikanın ayrı-ayrı sahələri üzrə komissiyalar və işçi qruplar vasitəsilə həyata keçirilir.

İttifaqın əsas vəzifələri: iştirakçı ölkələrin elmi mərkəzləri arasında beynəlxalq əlaqələrin qurulması; bu ölkələrdə fizikaya dair tədqiqatların uzlaşdırılması; elmi işlərin nəşr edilməsinin, fizika sahəsində təhsilin, elmi konfransların keçirilməsinin dəstəklənməsi; simvolların, ölçü vahidlərinin, nomenklatura və standartların istifadəsində unifikasiyanın təmin edilməsi.

İttifaq "IUPAP General Report" (hər Baş assambleyadan sonra dərc edilir), " News Bulletin" (ildə bir neçə dəfə çıxır), "SUNAMCO Document" (simvollar, vahidlər, nomenklatura, atom kütlələri və fundamental sabitlər üzrə Beynəlxalq komissiyanın bülleteni), "CosRay News ", (kosmik şüalar üzrə Beynəlxalq komissiyanın bülleteni), "Newsletters on Physics Education" (fizika sahəsində təhsil üzrə Beynəlxalq komissiyanın bülleteni) nəşr edir:

**BEYNƏLXALQ NƏZƏRİ VƏ TƏTBİQİ KİMYA İTTİFAQI** (International Union of Pure and Applied Chemistry, IUPAC) – beynəlxalq qeyri-hökumət təşkilatı. 1919 ildə yaradılmışdır. *Elm üzrə beynəlxalq şuraya* daxildir. 57 ölkənin elmi təşkilatları (elmlər akademiyası, kimya cəmiyyətləri, elmi şuralar) IUPAC-ın üzvüdür; 3 ölkənin elmi təşkilatı assosiasiyalaşmış üzvlərdir (2011). IUPAC-ın qərargahı Riserç-Trayenql-Parkdadır (ABŞ, Şimali Karolina ştatı).

IUPAC-ın strukturuna 8 bölmə (fiziki və biofiziki kimya, qeyri-üzvi kimya, üzvi və biomolekulyar kimya, polimerlər, analitik kimya, kimya və ətraf mühit, kimya və insanın sağlamlığı, kimyəvi nomenklatura); 9 daimi komitə, o cümlədən kimya üzrə təhsil, kimya sənayesi, elektron və çap nəşriyyatı, terminologiya, nomenklatura və simvollar, bəşəriyyətin rifahı naminə kimyəvi tədqiqatlar üzrə komitələr daxildir (Chemical Research Applied to World Needs, CHEMRAWN). 17 ölkənin təqr. 90 sənaye firması və bir beynəlxalq təşkilat IUPAC-ın assosiasiyalaşmış şirkətidir. Əvvəllər IUPAC-ın əsas elmi işlərini şöbələrin daimi fəaliyyətdə olan komissiyaları yerinə yetirirdi. Komissiyalar ləğv edildikdən (2002) sonra yerinə yetirildiyi müddətə yaradılan və IUPAC-ın maliyyələşdirdiyi beynəlxalq layihələri xüsusi işçi qrupları həyata keçirir. Müxtəlif ölkələrdən 1000-ə yaxın mütəxəssis 150-dən çox layihə üzrə işlər aparır. IUPAC-ın ali rəhbər orqanı Şuradır, iki ildə bir dəfə IUPAC-ın Baş Assambleyası zamanı toplanır. Şurada 2 il müddətinə vitse-prezident seçilir və o, şuranın növbəti iki illik dövrü üçün prezident olur. IUPAC-ın cari məsələlərini ildə iki dəfə toplanan Büro, Büronun İcraiyyə komitəsi, layihələrin qiymətləndirilməsi üzrə komitələr, maliyyə komitəsi həll edir. Bölmələrdə 2 ildə 1 dəfə prezident, vitse-prezident, daimi və assosiasiyalaşmış üzvlər, həmçinin milli nümayəndələr seçilir. Seçkilərin nəticələrini IUPAC-ın Bürosu təsdiq edir. IUPAC kimyanın müxtəlif aspektlərinin inkişafına və onun nailiyyətlərinin bəşəriyyətin xeyrinə istifadəsinə kömək edir. IUPAC-ın əsas vəzifəsi beynəlxalq razılaşma, nəzarət və standartlaşmanı tələb edən tədqiqatların koordinasiyasıdır. IUPAC-ın məqsədləri: kimyəvi aspektləri olan qlobal problemləri həll edən aparıcı elmi beynəlxalq qeyri-hökümət təşkilatı olmaq; kimyanın müxtəlif sahələrində beynəlxalq tədqiqatların inkişafına kömək etmək, bu elmin dövlət və qeyri-dövlət forumlarında maraqlarını təmsil etmək; ittifaqın bütün fəaliyyət növləri haqqında məlumatın geniş yayılmasına kömək etmək; sənaye ilə əlaqəli və cəmiyyətin davamlı inkişafının, rifahının və həyatın keyfiyyətinin yaxşılaşmasının təminatına yönəlmiş kimyəvi tədqiqatların inkişafına yardım etmək; kimya sahəsində təhsil və maarifi təkmilləşdirmək üçün öz imkanlarından istifadə etmək. IUPAC-ın əsas funksiyaları: kimyada istifadə edilən maddələrin nomenklaturasının, terminologiyanın, simvolların, ölçü vahidlərinin ümumi qayda və prinsiplərinin işlənib hazırlanması; yeni ifrat ağır elementlərin kəşfinin və adının təsdiqi; elmi tədqiqatlar (məs., maddələrin termodinamiki xassələrinin öyrənilməsi), kimya texnologiyası (məs., nanostrukturlaşdırılmış materialların işlənib hazırlanması), k.t. (məs., pestisidlərin tətbiq prinsipləri və kimyası), tibb (farmaseptik fəal maddələrin seçilməsi və istifadəsi), ekologiya (məs., su sistemlərinin monitorinqi) üçün etalonların və standart üsulların yaradılması; kimya və kimya texnologiyası sahəsində dəqiq kəmiyyət məlumatlarının toplanması, tənqidi qiymətləndirilməsi və dərc edilməsi; internet şəbəkəsində əlverişli kimyəvi məlumatların bank və bazalarının yaradılması, kimya sahəsində təhsil məsələləri üzrə tövsiyələr hazırlanması; beynəlxalq elmi simpozium, konfrans və konqreslərin (hər il 20-yə qədər) keçirilməsi. IUPAC-ın ən böyük tədbiri Baş assambleyanın çağırıldığı vaxta təsadüf edən və 2 ildə 1 dəfə keçirilən Beynəlxalq kimyəvi konqresdir (World Chemistry Congress). 1978 ildən CHEMRAWN proqramları üzrə konfranslar keçirilir və aşağıdakı problemlərə dair tövsiyələr hazırlanır: üzvi ehtiyatların gələcək mənbələri, qeyri-ənənəvi xammal növlərinin emalı, enerjinin yeni mənbələri, səhiyyədə və bəşəriyyətin qida məhsulları ilə təminatında kimyanın rolu, kimya və dünya okeanı ehtiyatları, atmosferin kimyası, gələcəyin texnikası üçün materiallar (energetika, nəqliyyat, rabitə vasitələri).

IUPAC jurnallar, o cümlədən "Pure and Applied Chemistry" və "Chemistry International", konfransların və başqa beynəlxalq müşavirələrin materiallarını, tövsiyələr nəşr edir, məs., Compendium of Chemical Terminology, 2nd ed., 1997; Nomenclature of Inorganic Chemistry: IUPAC Recommendations 2005, Quantities, Units and Symbolsin Physical Chemistry, 2007; monoqrafiyalar, xülasələr, soraq kitabları, cədvəllər (məs., kimyəvi elementlərin dövri sistemləri, dəqiqləşdirilmiş atom kütlələri, maddələrin termodinamiki xassələri, spektral xüsusiyyətlər) və s.

**BEYNƏLXALQ NƏZƏRİ VƏ TƏTBİQİ MEXANİKA İTTİFAQI** (International Union of Theoretical and Applied Mechanics, IUTAM) – nəzəri və tətbiqi mexanika sahəsində elmi cəmiyyətləri birləşdirən beynəlxalq qeyri-hökumət təşkilatı. 1946 ildə yaradılmışdır. *Elm üzrə beynəlxalq şuraya* daxildir. 51 ölkənin elmi assosiasiyaları, cəmiyyətləri və komitələri IUTAM-ın üzvüdür (2010). Əsas məqsədi elmi informasiyaların mübadiləsinə kömək etmək, nəzəri və tətbiqi mexanika sahəsində elmi işlə məşğul olan böyük yaradıcı kollektivlərin və müxtəlif ölkələrin alimlərinin səylərini (analitik, hesablama və eksperimental araşdırmalar da daxil olmaqla) birləşdirməkdir. IUTAM nəzəri və tətbiqi mexanika üzrə beynəlxalq konqreslərin hazırlanması və keçirilməsini (dörd ildə bir dəfə) yerinə yetirir, həmçinin mexanikanın müxtəlif məsələlərinə dair simpoziumlar və digər beynəlxalq görüşlər təşkil edir. Bəzən IUTAM-ın simpoziumları Elm üzrə beynəlxalq şuraya daxil olan digər ittifaqlarla birgə keçirilir. IUTAM-ın ali orqanı iki ildən bir çağırılan Baş assambleyadır. İcraedici orqan nəzəri və tətbiqi mexanika üzrə beynəlxalq konqreslərin təşkil edilməsinə cavabdeh olan İcraedici büro və Baş komitədir.

**BEYNƏLXALQ OLİMPİYA KOMİTƏSİ** (BOK; International Olympic Committee, IOC) – müasir Olimpiya hərəkatının ali rəhbər orqanı. 23.6.1894 ildə Parisdə Beynəlxalq konqresdə Fransa ictimai xadimi Pyer de Kubertenin təşəbbüsü ilə Olimpiya Oyunlarının dirçəldil-



Beynəlxalq Olimpiya Komtəsinin emblemi.

məsi və təşkil olunması məqsədilə yaradılmışdır. BOK fəaliyyətində Olimpiya xartiyasına əsaslanır. Rəsmi dilləri: ingilis və fransız. Mənzil-qərargahı Lozannadadır (İsveçrə). 205 milli olimpiya komitəsi, o cümlədən *Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi* BOK-un üzvüdür (2011).

BOK-un prezidenti növbəti 4 ilə seçilmək hüquqi ilə 8 il müddətinə seçilir. Prezidentləri: D. Vikelas (Yunanıstan, 1894–96), P. de Kuberten (Fransa, 1896–1916 və 1919–25), Q. de Blone (İsveçrə; 1916–19 illərdə prezident vəzifəsini icra etmişdir), A. de Baye-Latur (Belçika, 1925–42), Z. Edström (İsveçrə, 1946–52, 1942–46 illərdə prezident vəzifəsini icra etmişdir), E. Brendec (ABŞ, 1952–72), lord M. *Killanin* (İrlandiya, 1972–80), X.A. *Samaranç* (İspaniya, 1980–2001, 2001–10 illərdə fəxri prezident). 2001 ildən Jak Roqqe BOK-un prezidentidir.

Milli olimpiya komitələri 5 qitə üzrə Olimpiya assosiasiyalarının tabeliyindədir: Afrika Milli Olimpiya Komitələri Assosiasiyaları (53 ölkə), Panamerika İdman Təşkilatı (42), Asiya Olimpiya Şurası (45), Avropa Olimpiya Komitələri (49), Okeaniya Milli Olimpiya Komitələri (17).

BOK-un 110 üzvü (o cümlədən 19 qadın) və 28 fəxri üzvü (o cümlədən 1 qadın) vardır (2011). Ali orqanı üzvlərinin ümumi yığıncağı – sessiyadır. Sessiya bir qayda olaraq, ən azı ildə 1 dəfə çağırılır. BOK-un fövqəladə sessiyası ya prezident tərəfindən, ya da üzvlərin yazılı xahişi əsasında (35 üzvdən az olmamaq şərtilə) çağırıla bilər. Olimpiya oyunlarının təşkil olunduğu ildə sessiya 2 dəfə keçirilir. 2007 ildə BOK-un Qvatemaladakı sessiyasında 4 ildən bir Yeniyetmələrin Olimpiya Oyunlarının (idmançıların yaş həddi 14-dən 18-ə qədər) keçirilməsi haqqında qərar qəbul edilmişdir; 1-ci yay oyunları Sinqapurda (2010) keçirilmiş, 1-ci qış oyunları İnsbrukda (2012) keçiriləcəkdir.

BOK-un 20-dən çox komissiyası (o cümlədən idman, mədəniyyət və Olimpiya təhsili, etika, inkişaf, maliyyə, marketinq, hüquq, tibb, mətbuat, radio, televiziya və s.), 3 təşkilati, həmçinin icraedici, antidopinq komitələri var. BOK nəinki ölkələrin, həmçinin ayrı-ayrı coğrafi ərazilərin Olimpiya komitələrinin tanınması imkanlarını nəzərdən keçirir; Olimpiya bayrağının, rəmzinin və devizinin (lat. "Citius, altius, fortius" – "Daha sürətlə, daha yüksək, daha güclü") hüquqi qorunmasına görə məsuliyyət daşıyır, hər hansı idman növünün, həmçinin üsul və qaydalarının Olimpiya proqramına daxil edilməsini müəyyənləşdirir, bir sıra beynəlxalq təşkilatlarla müxtəlif formalarda əməkdaşlıq edir; Olimpiya hərəkatının inkişafında göstərilən xidmətləri Olimpiya ordeni (qızıl, gümüş, bürünc), Olimpiya diplomu və s. ilə mükafatlandırır.

**BEYNƏLXALQ ÖLÇÜ VƏ ÇƏKİ BÜROSU** (BÖÇB; Bureau International des Poids et Mesures, BIPM) – 1875 ildə *Metrik konvensiyanın* qərarına əsasən yaradılmış beynəlxalq təşkilat. BÖÇB-ün funksiyaları aşağıdakılardır: metr və kiloqramın beynəlxalq prototiplərinin qorunub saxlanması; periodik olaraq milli etalonların beynəlxalq prototiplərlə tutuşdurulması; yeni prototiplərin metrik ölçü və çəkinin (kütlənin) müxtəlif ölkələrdə və elmi müəssisələrdə tətbiq edilən əsas etalonları ilə tutuşdurulması; etalon termometrlərin tutuşdurulması; geodeziya jezllərinin yoxlanması və tutuşdurulması; hökumətlərin, elmi cəmiyyətlərin və alimlərin xahişi ilə etalonların və dəqiq şkalaların tutuşdurularaq yoxlanılması. BÖÇB faktiki olaraq 1879 ildə işə başlamışdır. İlk əvvəl uzunluq, kütlə və temp-r ölçmələri yerinə yetirilmişdir. 1927 ildən BÖÇB-də elektrik ölçmələri, 1937 ildən fotometriya, 1964 ildən ionlaşdırıcı şüalar oblastındakı ölçmələr (bunun üçün xüsusi bina tikilmişdir), 1984 ildən lazerlərin köməyi ilə olan ölçmələr üzrə işlər inkişaf etdirilmişdir. BÖÇB-ün tərkibinə 55 iştirakçı ölkədən nümayəndələr daxildir (2011).

**BEYNƏLXALQ ÖLÇÜ VƏ ÇƏKİ KOMİTƏSİ** (BÖÇK; Comite International des Poids et Mesures, CIPM) – 1875 ildə *Metrik konvensiyaya* uyğun olaraq yaradılmış və Ölçü və Çəki üzrə Baş konfransın (ÖÇBK) tabeliyində olan beynəlxalq seçkili orqan. BÖÇK-in 18 üzvündən hər biri Metrik konvensiyanın iştirakçısı olan bir ölkəni təmsil edir. *Beynəlxalq ölçü və çəki bürosu* (BÖÇB) BÖÇK-in müstəsna rəhbərliyi və nəzarəti altında fəaliyyət göstərir. BÖÇK 2 ildə 1 dəfədən az olmayaraq çağırılır. BÖÇK bütün metroloji işlərə rəhbərlik edir və ÖÇBK-nın qərarlarını hazırlayır. BÖÇK-in nəzdində yaradılmış aşağıdakı sahələrə aid məsləhətçi komitələr fəaliyyət göstərir: elektrik və maqnetizm (1927), fotometriya və radiometriya (1933), termometriya (1937), uzunluq (1952), zaman və tezlik (1956), ionlaşdırıcı şüalar (1958), vahidlər (1964), kütlə və onunla əlaqəli kəmiyyətlər (1980), maddə miqdarı (1993), akustika, ultrasəs və vibrasiya (1998).

**BEYNƏLXALQ PRAKTİK TEMPERATUR ŞKALASI** (BPTŞ) – ölçü və çəki üzrə Baş konfrans tərəfindən qəbul edilmiş temp-r şkalası. BPTŞ-nin müəyyənləşdirilməsi üzrə işi *Beynəlxalq ölçü və çəki komitəsi* (BÖÇK) görür.

**BPTŞ–68-in əsas reper (sabit) nöqtələri**

| Tarazlıq vəziyyəti | Verilmiş qiymət | |
|---|---|---|
| | Beynəlxalq temp-rlar* | Praktik temp-rlar |
| | $T_{68}$, *K* | $t_{68}$, °*C* |
| Hidrogenin üçqat nöqtəsi | 13,81 | -259,34 |
| 33330,6 *Pa* (25/76 norm. atm.) təzyiqdə hidrogenin maye və qaz fazaları arasındakı tarazlıq nöqtəsi | 17,042 | -256,108 |
| Hidrogenin qaynama nöqtəsi | 20,28 | -252,87 |
| Neonun qaynama nöqtəsi | 27,102 | -246,048 |
| Oksigenin üçqat nöqtəsi | 54,361 | -218,789 |
| Oksigenin qaynama nöqtəsi | 90,188 | -182,962 |
| Suyun üçqat nöqtəsi | 273,16 | 0,01 |
| Suyun qaynama nöqtəsi | 373,15 | 100 |
| Sinkin bərkimə nöqtəsi | 692,73 | 419,58 |
| Gümüşün bərkimə nöqtəsi | 1235,08 | 961,93 |
| Qızılın bərkimə nöqtəsi | 1337,58 | 1064,43 |

* Hidrogenin *üçqat nöqtələri* və bir tarazlıq nöqtəsi (17,042K) istisna olmaqla temp-run verilmiş qiymətləri 101325 Pa (1 norm. atm.) təzyiqdə doğrudur.





Standart hidrogen şkalası adlanan ilk BPTŞ 1887 ildə BÖÇK tərəfindən hazırlanmış və 1889 ildə ölçü və çəki üzrə ilk Baş konfransda qəbul edilmişdir. 1927 ildə beynəlxalq temp-r şkalası (BTŞ-27), daha sonra, tədricən qiymətlərinə görə dəqiqləşdirilən və diapazonuna görə genişləndirilən BPTŞ-48, eləcə də BPTŞ-68 və BTŞ-90 qəbul edilmişdir.

BTŞ-90-da beynəlxalq praktik Kelvin temp-ru ($T_{90}$) ilə beynəlxalq praktik Selsi temp-runu ($t_{90}$) aşağıdakı kimi fərqləndirirlər:

$$t_{90}=T_{90} - 273,15 \text{ K}.$$

$T_{90}$ və $t_{90}$-ın temp-r vahidləri uyğun olaraq Kelvin və Selsi qradusudur. BTŞ–90 0,65K-dən *Plankın şüalanma qanununa* əsasən ölçülə bilən ən yüksək temp-ra qədər olan diapazonda təyin edilmişdir.

BPTŞ-yə görə təyin olunmuş temp-r (ölçü xətası daxilində) fizikada əsas qəbul edilən termodinamiki temp-r şkalasındakı temp-rla üst-üstə düşür.

**BEYNƏLXALQ RİYAZİYYAT İTTİFAQI** (International Mathematical Union, IMU) – riyaziyyatçıların beynəlxalq birliyi. Əsas vəzifələri riyaziyyat sahəsində əməkdaşlığın təşkili, bütün ölkələrdəki riyazi araşdırmaların dəstəklənməsi, o cümlədən riyazi təhsilin yüksəldilməsinə və riyaziyyatın tətbiqi sahələrinin inkişafına yardım etmək, həmçinin riyazi üsulları digər elmlərə tətbiq etməkdir. B.r.i. riyaziyyat üzrə beynəlxalq konfransların, o cümlədən beynəlxalq riyaziyyatçılar konqreslərinin təşkilində iştirak edir, riyaziyyata dair elmi materialların nəşrinə və yayılmasına xidmət edir, riyaziyyatçı mütəxəssislərin beynəlxalq mübadiləsini təşkil edir və dəstəkləyir. *Elm üzrə beynəlxalq şuraya* daxildir.

Riyaziyyat sahəsində nailiyyətlərə görə B.r.i.-nda *Filds mükafatı*, *Nevanlinna mükafatı* və K. *Qauss* mükafatı təsis edilmişdir. Mükafatlar dörd ildən bir verilir və növbəti beynəlxalq riyaziyyatçılar konqresinin açılışı mərasimində təqdim edilir.

B.r.i.-nın ali orqanı adətən, növbəti beynəlxalq riyaziyyatçılar konqresindən əvvəl çağırılan Baş assambleyadır. Rəhbərlik Baş assambleya tərəfindən 4 il müddətinə seçilmiş İcraiyyə komitəsi tərəfindən həyata keçirilir. İcraiyyə komitəsinin tərkibinə prezident, iki vitse-prezident, baş katib, beş üzv və əvvəlki prezident daxildir. B.r.i.-na üzv ölkələrin ittifaqda iştirakı riyaziyyatçıların milli komitələri vasitəsilə həyata keçirilir.

B.r.i.-nın təşkilində ilk addım 1919 ildə Brüsseldə, Beynəlxalq araşdırmalar birliyinin iclasında atılmış və 20.9.1920 ildə Strasburqda, Beynəlxalq riyaziyyatçılar konqresində təsis edilmişdir. 1931–51 illərdə B.r.i. fəaliyyət göstərməmişdir. 1950 ildə B.r.i.-nın bərpa edilməsi barədə qərar qəbul olundu (əgər 10 ölkə ittifaqa daxil olmağa razılıq verərsə). Bu 1951 ildə baş verdi və B.r.i.-nın ilk üzvləri Avstriya, B. Britaniya, Almaniya, Danimarka, İtaliya, Hollandiya, Norveç, Fransa və Yaponiya oldu. Yaranan B.r.i.-nın ilk Baş assambleyası 1952 ildə çağırıldı. B.r.i.-na 76 ölkə üzvdür (2011). B.r.i.-nın katibliyi Berlində (2011 ildən) yerləşir.

**BEYNƏLXALQ ŞAHMAT FEDERASİYASI** (Federation Internationale des Echecs, FIDE) – beynəlxalq idman təşkilatı. Şahmatın inkişafı və populyarlaşması ilə məşğul olur. Əsası 20.7.1924 ildə Parisdə qoyulmuşdur. 158 milli federasiya, o cümlədən *Azərb. Şahmat Federasiyası* FIDE-nin üzvüdür (2011). Bayrağı, himni və devizi ("Gens una sumus" – "Biz hamımız bir ailəyik") vardır. 1980 ildən YUNESKO-nun üzvüdür. Mənzil-qərargahı Afinadadır. Rəsmi dilləri: fr., rus, ing., alman və ispan. FIDE kişilər və qadınlar arasında dünya və Avropa çempionatları (şəxsi və komanda), *Ümumdünya şahmat olimpiadaları* (1927 ildən kişilər və 1957 ildən qadınlar arasında) və başqa böyük yarışlar keçirir. İldə iki dəfə dünyanın aparıcı şahmatçılarının reytinq cədvəlini dərc edir; qrossmeyster, beynəlxalq usta, FIDE ustası adlarını verir. Rəhbər orqanları FIDE Baş Assambleyası, FIDE Mərkəzi komitəsi və FIDE İcraiyyə komitəsidir. FIDE-nin tərkibində müxtəlif komissiyalar, o cümlədən kvalifikasiya, inkişaf etməkdə olan ölkələrə yardım, oyun qaydaları, şahmatın kompyuterlə və məktəblərdə tədrisi və s. fəaliyyət göstərir. FIDE-yə bir sıra başqa beynəlxalq şahmat təşkilatları, o cümlədən Beynəlxalq məktublaşma ilə şahmat oyunu federasiyası (IKCF), Görmə qüsuru olan şahmatçıların beynəlxalq assosiasiyası (IBCA). FIDE-nin şahmat kompozisiyası üzrə daimi komissiyası birləşdirilmişdir. FIDE-nin prezidenti K.N. İlyu- mjinovdur (1995 ildən).

**BEYNƏLXALQ TEATR GÜNÜ** – 1961 ildə Vyanada YUNESKO nəzdindəki Beynəlxalq Teatr İn-tunun 9-cu konqresində təsis edilmişdir. B.t.g.-nün keçirilməsi xalqlar arasında sülhün və dostluğun möhkəmləndirilməsi, dünya incəsənət xadimlərinin əməkdaşlığının genişləndirilməsi işinə xidmət edir. 1962 ildən martın 27-si B.t.g. kimi qeyd olunur.

**BEYNƏLXALQ TENNİS FEDERASİYASI** (International Tennis Federation, ITF) – beynəlxalq idman təşkilatı. Tennisin inkişafı və populyarlaşması ilə məşğul olur. Əsası 3.3.1913 ildə Parisdə qoyulmuşdur; 1977 iədək Beynəlxalq laun-tennis federasiyası adlandırılmışdır. 205 milli federasiyanı, o cümlədən *Azərb. Tennis Federasiyasını* birləşdirir (2011). Mənzil-qərargahı Londondadır. Rəsmi dilləri; fr. və ing. ITF-nin tərkibinə 9 komitə (Devis kuboku, Federasiya kuboku, maliyyə, qadın, gənclər, Olimpiya, tennis qaydaları, veteranlar, fiziki imkanları məhdud olan idmançılar) və 5 komissiya (idmançılar, məşqçilər, mətbuat, elmi və tibbi, texniki) daxildir. İTF versiyası üzrə kişi, qadın, gənclər və qızlar ara sında tək və qoşa dərəcələrdə dünya çempionları müəyyən edilir. İTF bir çox böyük komanda yarışları – milli yığmalar üçün Hopman kuboku; qadınlar arasında – Federasiya kuboku və kişilər arasında – Devis kuboku, müxtəlif beynəlxalq şəxsi turnirlər keçirir.

**BEYNƏLXALQ TERRORİZM** – bax *Terrorizm*.

**BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK** – beynəlxalq münasibətlərin vəziyyəti; bu vəziyyətdə dünya ictimaiyyətinin normal həyat fəaliyyəti, xalqların, dövlətlərin, dövlətlərarası birliklərin sabit inkişafı, onlardan hər birinin meydana çıxan təhlükələrdən etibarlı müdafiəsi təmin olunur. Anlayış ayrı-ayrı ölkələrin və xalqların *milli təhlükəsizliyini*, həmçinin dünyanın bir qrup dövlətlərinin və rayonlarının regional təhlükəsizliyini ehtiva edir. Başlıca tərkib hissələri iqtisadi, siyasi, ekoloji, hərbi və s.-dir. B. t. hər bir insanın və bütövlükdə bəşəriyyətin mövcudluq hüququnu, ölkələrin və xalqların azad və özünəməxsus inkişafını; dövlətlərin suverenliyi və ərazi bütövlüyünü; ətraf mühitin qorunmasını və təbii sərvətlərin rasional istifadəsini; vətəndaşların tamhüquqluğunu və bərabər hüquqluğunu və s. təminatları nəzərdə tutur.

B. t. dövlətlərin və xalqların müharibə və hərbi münaqişələrin nəticələrinə reaksiyası kimi meydana gəlmişdir. 20 əsrə qədər təhlükəsizliyi təmin edən əsas vasitələr aşağıdakılar hesab olunurdu: ölkələrin mümkün qədər çox silah toplaması; düşmən üzərində qətiyyətli qələbə əldə etməyə imkan verən böyük silahlı qüvvələrin saxlanması; güclü müdafiə is-

tehkamlarının yaradılması; dövlətlərin ikitərəfli və çoxtərəfli hərbi-siyasi bloklarda və qruplaşmalarda birləşməsi və s. 1-ci dünya müharibəsinin o zamanadək görünməmiş qurbanlarla və dağıntılarla başa çatmasından sonra *kollektiv təhlükəsizlik* sistemləri qurmaq cəhdləri həyata keçirilməyə başlandı. 1919 ildə *Millətlər Liqası* yaradıldı, sonra kollektiv təhlükəsizlik sahəsində bəzi sazişlər, məs., *Lokarno müqavilələri (1925)*, *Kelloq-Brian paktı (1928)* bağlandı. Lakin nə Avropada, nə də digər regionlarda etibarlı kollektiv təhlükəsizlik sistemi yaradılmadı. 2-ci dünya müharibəsində antihitler koalisiyasının qələbəsi və müharibədən sonra dünya nizamı haqqında imzalanmış sazişlər [bax *Krım (Yalta) konfransı (1945)*, *Berlin (Potsdam) konfransı (1945)*] B. t.-i təminetmənin real imkanlarını şərtləndirdi. Müharibələrin qarşısının alınması, sülhün qorunması və möhkəmləndirilməsi üçün yeni beynəlxalq-hüquqi mexanizm, ilk növbədə B. t.-in təmin edilməsinin universal aləti olan *Birləşmiş Millətlər Təşkilatı* yaradıldı. Beynəlxalq sülhün və təhlükəsizliyin qorunması məsuliyyəti BMT-nin Təhlükəsizlik Şurası üzərinə qoyulmuşdur. SSRİ ilə ABŞ arasında bağlanmış Strateji silahların məhdudlaşdırılması haqqında müqavilələr (1972, 1979) və RƏM sistemlərinin məhdudlaşdırılması haqqında müqavilə (1972), həmçinin *Avropada təhlükəsizliyə və əməkdaşlığa dair Müşavirənin* üzv-dövlətlərinin qərar və razılaşmaları B. t.-in möhkəmlənməsində əhəmiyyətli rol oynamışdır. Lakin dünyanın iki siyasi sistemə parçalanması, onlar arasında *"soyuq müharibə"* xarakteri almış barışmaz ziddiyyətlər 1980-ci illərə qədər B. t. problemlərinin birdəfəlik həllinə mane olurdu. *Raket-nüvə silahının* olması qarşılıqlı yüzfaizli məhvetmə strategiyasına üstünlük qazandırdı və başlıca nüvə dövlətləri olan ABŞ və SSRİ bu strategiyanı seçdilər.

1990-cı illərin əvvəllərində mövcud beynəlxalq münasibətlər sistemində köklü dəyişiklər baş verdi ki, onlardan ən mühümləri *Varşava müqaviləsi təşkilatının* özünü buraxması, SSRİ-nin süqutu və ABŞ-ın yeganə fövqəldövlətə çevrilməsi idi. Əhəmiyyətli dəyişikliklər sırasına həmçinin aşağıdakılar aiddir: yeni güc mərkəzlərinin formalaşması; dünya ictimaiyyətinin həyat fəaliyyətini tənzimləmə işində beynəlxalq institutların rolunun artması; beynəlxalq gərginlik oxunun Qərb-Şərq xəttindən Şimal-Cənub xəttinə yerdəyişməsi; ağır ekoloji böhran və ətraf mühitin təhlükəli vəziyyəti; regional münaqişələr, regional səviyyədə *sürətlə silahlanma* və *kütləvi qırğın silahlarının* yayılması nəticəsində beynəlxalq sabitliyin sarsılması; dünyanın müxtəlif regionlarında milli və dini ekstremizmin artması, *beynəlxalq terrorizmin* və narkobiznesin fəallaşması. Beynəlxalq əməkdaşlığın bütün formalarının fəallaşması, bütün dövlətlərin BMT-nin Nizamnaməsində və digər beynəlxalq sənədlərində əksini tapmış, hamı tərəfindən tanınmış beynəlxalq hüquq normaları və prinsiplərinə əməl olunması, həmçinin siyasi, iqtisadi və digər dövlətlərarası ziddiyyətlərin həlli vasitəsi kimi müharibədən, hərbi zorakılıqdan imtina 21 əsrdə möhkəm və uzunmüddətli B. t.-in əsasını təşkil edir.

**BEYNƏLXALQ TƏHSİL TƏŞKİLATLARI** – təhsil, elm və mədəniyyətə dair məsələlərlə məşğul olan beynəlxalq birliklər.

BMT-nin universal xarakterli təhsil, elm və mədəniyyət məsələləri üzrə yeganə təşkilatı (YUNESKO) hökumətlərarası təşkilat kimi fəaliyyət göstərir. Təhsil yönümlü proqramlar BMT-nin Uşaq fondunun (YUNİSEF) fəaliyyətində mühüm yer tutur. Təhsil sahəsində regional və regionlararası səviyyədə iş hökumətlərarası siyasi və iqtisadi təşkilatların ixtisaslaşmış təsisatları tərəfindən aparılır. Avropa üçün belə bir təşkilat *Avropa Şurasıdır*. Onun çərçivəsində Təhsil üzrə komitə fəaliyyət göstərir; Katiblikdə təhsil, mədəniyyət və idman direktoratı var.

Regionlararası təşkilatlara *İqtisadi əməkdaşlıq və inkişaf təşkilatı*, Təhsil, elm və mədəniyyət məsələləri üzrə ərəb dövlətləri təşkilatı – ALECSO (Arab League Educational, Cultural and Scientific Organization, 1964; Katiblik Tunisdədir), Cənub-Şərqi Asiya ölkələrinin təhsil nazirlərinin təşkilatı – SAMEO (Southeast Asian Ministers of Education Organization, 1965; Katiblik Banqkokdadır), iber – Amerika dövlətləri xalqlarının təhsil, elm və mədəniyyət məsələləri üzrə təşkilatı – OEI (Organization de Estados Ibero –americanos para la Educacion, la Ciencia y la Cultura, 1949; 1954 ildən indiki statusu, 1985 ildən isə adı qəbul edilmişdir; Katiblik Madriddədir) və s. aiddir.

Dünyada təhsil üzrə qeyri-hökumət təşkilatlarının (beynəlxalq, regional, subregional) sayı 2 mindən çox olsa da, onların yarıdan azı fəal iş aparır. 110-dan çox təşkilat YUNESKO nəzdində bu və ya digər statusa malikdir, o cümlədən Fiziki tərbiyə üzrə beynəlxalq federasiya (Fêderation Internationale d'Éducation Physique, FIEP; 1923), Ümumdünya məktəbəqədər tərbiyə təşkilatı (Organisation mondiale pour l'éducation prescolaire, OMEP; 1948), Beynəlxalq Universitetlər Assosiasiyası (International Association of Universities, IAU; 1950), Beynəlxalq bədii tərbiyə cəmiyyəti (International Society for Education through Art, InSEA; 1954), Beynəlxalq musiqi təhsili cəmiyyəti (International Society for Music Education, ISME; 1953), Beynəlxalq pedaqoji təhsil şurası (International Council on Education for Teaching, ICET; 1953), Ümumdünya pedaqoji tədqiqatlar assosiasiyası (World Association for Educational Research; 1953; indiki adı 1977 ildən), Avropa korreksiya təhsili assosiasiyası (European Association for Special Education, EASE; 1971), Böyüklərin təhsili üzrə beynəlxalq şura (International Council for Adult Education, ICAE; 1973) və s. Ayrı-ayrı beynəlxalq və regional təşkilatlar haqqında məlumatlar müntəzəm nəşr olunan soraqçalarda – "Yearbook of International Organization", "Africa South of the Sahara", "The Middle East and Australia" və s., həmçinin YUNESKO-nun nəşr etdiyi beynəlxalq qeyri-hökumət təşkilatlarının (YUNESKO ilə əlaqələrin müxtəlif kateqoriyasına daxildir) siyahısında verilir.

**BEYNƏLXALQ TƏŞKİLATLAR** – hər hansı sahədə ümumi məqsədlərə nail olmaq üçün dövlətlərin, yaxud qeyri-hökumət xarakterli milli cəmiyyətlərin (assosiasiyaların) birlikləri; beynəlxalq əməkdaşlığın formalarından biri.

Hüquqi statuslarına görə, hökumətlərarası (dövlətlərarası) B t.-ı və qeyri-hökumət B. t.-ını fərqləndirirlər.

Beynəlxalq h ö k u m ə t l ə r a r a s ı təşkilat siyasi, iqtisadi, mədəni, elmi-texniki, hüquqi və digər sahələrdə əməkdaşlığı həyata keçirmək üçün beynəlxalq hüquqa uyğun yaradılmış, bunun üçün zəruri idarəetmə orqanlarına, dövlətlərin hüquq və vəzifələrindən törəyən hüquq və vəzifələrə, həmçinin üzv-dövlətlərin iradəsi ilə müəyyənləşən muxtar iradəyə malik dövlətlər və digər təşkilatlar birliyidir. Bir qayda olaraq, B t. nizamnamə, konvensiyalar, saziş, traktat, protokol və s. əsasında yaradılır. Təsis aktının tərəfləri kimi suveren dövlətlər çıxış etsələr də, son illər hökumətlərarası təşkilatlar da





(Avropa İttifaqı) B. t.-ın tamhüquqlu iştirakçıları qismində tanınırlar. B t. dövlətlərin siyasi (ATƏT), siyasi-hərbi (NATO), elmi-texniki (Nüvə tədqiqatları üzrə Avropa təşkilatı), iqtisadi (Avropa İttifaqı), pul-maliyyə (BYİB, BVF), sosial (BƏT) və s. sahələrdə səylərini əlaqələndirmək, yaxud dövlətlərin praktiki olaraq bütün sahələrdə fəaliyyətlərini əlaqələndirmək üçün yaradıla bilər (BMT, MDB və s).

B. t. müvafiq təşkilati struktura – mənzil-qərargaha, suveren dövlətlərin simasında üzvlərə və zəruri olan əsas, həmçinin yardımçı orqanlar sisteminə malik olur ki, bu da onu beynəlxalq əməkdaşlığın digər formalarından (məs., beynəlxalq konfranslardan) fərqləndirir. Ali orqanı ildə bir dəfə (bəzən 2–3 ildən bir) çağırılan sessiyadır. İcraedici orqanları şuralardır. İnzibati aparata icraçı katib (baş direktor) başçılıq edir. Bütün təşkilatların müxtəlif hüquqi statusa və səlahiyyətlərə malik müvəqqəti, yaxud daimi icraedici orqanları vardır.

B. t. üzv-dövlətlərin hüquq və vəzifələrindən törəyən hüquq və vəzifələrə malikdir. İstənilən təşkilatın hüquq və vəzifələri onun təsis aktında, ali və icraedici orqanlarının qətnamələrində, təşkilatlar arasındakı sazişlərdə ümumi şəkildə təsbit olunmuşdur. Dövlətlər təşkilata bu və ya digər fəaliyyəti qadağan etmək hüququna malikdir və təşkilat öz səlahiyyətlərini aşa bilməz. Məs., MAQATE Nizamnaməsinin 3-cü maddəsi agentliyə öz üzvlərinə yardım edilməsi ilə bağlı vəzifələrini yerinə yetirərkən, bu təşiklatın Nizamnaməsinə uyğun gəlməyən siyasi, iqtisadi, hərbi və digər tələbləri irəli sürməyi qadağan edir.

Bununla bərabər, B. t.-ın müstəqil beynəlxalq hüquq və vəzifələri var, yəni onlar, üzv-dövlətlərin iradəsindən fərqli olan muxtar iradəyə malikdir. İstənilən təşkilat üzv-dövlətlər tərəfindən onun üzərinə qoyulmuş hüquq və vəzifələri yerinə yetirmə vasitələrini və üsullarını özünün səlahiyyətləri çərçivəsində müstəqil seçmək hüququna malikdir. Bu halda üzv-dövlətlər təşkilatın öz muxtar iradəsini hüquqa uyğun reallaşdırmasına nəzarəti həyata keçirir.

B. t. özünün fəal rolunu həyata keçirmək üçün hüquq qabiliyyətliyini (yəni hüquq və vəzifələrə malik olmaq qabiliyyəti) və hüquq səlahiyyətliyini (yəni təşkilatın öz fəaliyyətləri ilə hüquq və vəzifələrini həyata keçirmək qabilliyəti), beynəlxalq hüquq yaradıcılığı prosesində iştirak etmək və öz hərəkətlərinə görə hüquqi məsuliyyət daşımaq qabiliyyətini ehtiva edən xüsusi hüquq subyektliyinə malikdir.

Beynəlxalq q e y r i - h ö k u m ə t təşkilatı beynəlxalq müqavilə əsasında təsis edilməyən istənilən beynəlxalq təşkilatdır. Belə B. t.-ın hüquqi statusu o, hansı dövlətin qanunvericiliyi əsasında yaradılmış və qeydiyyatdan keçmişsə, həmin dövlətin daxili hüququ ilə müəyyənləşir. Lakin bəzi B. t.-a münasibətdə onların hüquq və imtiyazlarının həcmi müvafiq dövlətlə sazişin imzalanması yolu ilə müəyyənləşir (məs., Beynəlxalq Qırmızı Xaç komitəsinin ayrı-ayrı ölkələrdəki yerli təşkilatlarının hüquqi statusları, adətən, həmin ölkələrlə imzalanmış sazişlər əsasında müəyyənləşir).

Beynəlxalq qeyri-hökumət təşkilatları assosiasiyasının hər il Brüsseldə nəşr etdirdiyi "Yearbook of International Organizations" kitabında istənilən qeyri-hökumət təşkilatı haqqında qısa məlumat əldə etmək mümkündür.

**BEYNƏLXALQ TİCARƏT PALATASI** (BTP; International Chamber of Commerce, ICC) – fəaliyyəti bazar iqtisadiyyatı sisteminin möhkəmləndirilməsinə, bütün ölkələrin dünya iqtisadiyyatına daha geniş inteqrasiyasına, milli sərhədlər vasitəsilə ticarət mübadiləsinin sadələşdirilməsinə istiqamətlənən beynəlxalq qeyri-hökumət təşkilatı. BTP – milli hökumətlərə daha mütəşəkkil və fəal təsir etmək üçün palatadan öz mənafeyinə uyğun istifadə etməyə cəhd göstərən ABŞ, İngiltərə, Fransa, Belçika və İtaliyanın işgüzar dairələrinin təşəbbüsü ilə 1919 ildə Atlantik-Sitidə (ABŞ) keçirilmiş beynəlxalq ticarət konfransında yaradılmışdır. Mənzil-qərargahı Parisdə yerləşir. BTP-nin milli komitələri dünyanın 120-dən artıq ölkəsinin aparıcı şirkətlərini və işgüzar assosiasiyalarını birləşdirir.

BTP ticarət üçün əlverişli şəraitin yaradılmasına, iqtisadiyyatı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrə investisiyaların cəlb olunmasına yardım göstərir, ticari və digər iqtisadi məsələlər üzrə mübahisələrin həllində xidmətlər göstərir (Beynəlxalq Arbitraj Məhkəməsi 1923 ildə yaradılmışdır), dünya ticarəti sferasında transsərhəd qaydalarını ümumiləşdirir, xarici ticarət sahəsində terminlərin təfsirinə dair beynəlxalq qaydaları işləyib hazırlayır (*İnkoterms*). BTP-nin qərarları tövsiyə xarakteri daşıyır. Milli sənaye-ticarət palatalarının fəaliyyəti haqqında soraq kitabçaları və aylıq məlumat bülletenlərini dərc etdirir.

BTP BMT, *Ümumdünya Ticarət Təşkilatı*, *Dünya bankı* və digər ən iri beynəlxalq təşkilatların məşvərətçi orqanıdır.

BTP-nin rəhbər orqanları: təşkilatın fəaliyyətinin nəticələrini yekunlaşdırmaq və beynəlxalq iqtisadi münasibətlərin ən mühüm problemləri üzrə tövsiyələr qəbul etmək üçün adətən 2 ildə 1 dəfə çağırılan Konqres; prezidentin rəhbərlik etdiyi Şura (onun sessiyaları ildə 2 dəfə keçirilir) milli komitələrin nümayəndələrindən ibarətdir (sayları milli komitənin palatanın büdcəsinə ödəmələrinin həcmindən asılıdır), konqresin çağırılmasını hazırlayır və konqreslər arasında palatanın işinə rəhbərlik edir; İcraçı komitə; onun tövsiyəsinə əsasən Şura prezidenti, Beynəlxalq Arbitraj Məhkəməsinin sədrini və icraçı komitənin üzvlərini seçir (hər il tərkibinin 1/3-i yeniləşir).

**BEYNƏLXALQ TORPAQ ELMLƏRİ İTTİFAQI** (International Union of Soil Sciences, IUSS) – beynəlxalq təşkilat; hazırda 100-dən artıq ölkənin torpaqşünaslarının milli cəmiyyətlərini birləşdirir. Yer haqqında fundamental elm olan torpaqşünaslığın inkişafı üçün onların fəaliyyətini dəstəkləmək və əlaqələndirmək məqsədilə yaradılmışdır. 1924 ildə Beynəlxalq torpaqşünaslar cəmiyyəti (İnternational Society of Soil Science, İSSS) kimi təsis olunmuş. 1993 ildə *Beynəlxalq elm üzrə şuranın* tərkibinə daxil edilmişdir. İttifaqın strukturu torpaqşünaslığın müasir problem-tematik bölgüsünü əks etdirir; tematik komissiyalardan ibarət 4 daimi fəaliyyət göstərən şöbəsi vardır: "Torpaqlar məkanda və zamanda" (torpaqların morfologiyası, torpaqların coğrafiyası, torpaqların genezisi, torpaqların təsnifatı, pedometrika, paleotorpaqşünaslıq); "Torpaq xassələri və prosesləri" (torpaqların fizikası, torpaqların kimyası, torpaqların biologiyası, torpaqların mineralogiyası, fazalararası qarşılıqlı təsir); "Torpağın istifadəsi və menecment" (torpaqların qiymətləndirilməsi və torpaqlardan istifadənin planlaşdırılması; torpaqların və suyun mühafizəsi; torpaqların münbitliyi və bitkilərin qidalanması; torpaqlardan istifadənin texnika və texnologiyası; torpaqların pisləşməsinə nəzarət, onların bərpası və meliorasiyası); "Cəmiyyətin və ətraf mühitin dayanıqlığının saxlanılmasında torpaqların rolu" (torpaqlar və ətraf mühit; torpaqlar, ərzaq təhlükəsizliyi və insanın sağlamlığı; torpaqlar və torpaqdan istifadə-

**Beynəlxalq vahidlər sisteminin əsas və törəmə vahidləri (Sİ)**

| Kəmiyyət | Vahidlərin adları | İşarələr | |
|---|---|---|---|
| | | beynəlxalq | azərb. |
| Əsas vahidlər | | | |
| Uzunluq | metr | *m* | – |
| Kütlə | kiloqram | *kq* | – |
| Zaman | saniyə | *s* | *san* |
| Elektrik cər. şiddəti | amper | *A* | – |
| Termodinamik temp.-r | kelvin | *K* | – |
| İşıq şiddəti | kandel | *cd* | *kd* |
| Maddə miqdarı | mol | *mol* | – |
| Əlavə vahidlər | | | |
| Müstəvi bucaq | radian | *rad* | – |
| Cism bucağı | steradian | *sr* | – |
| Törəmə vahidlər | | | |
| Sahə | kv. metr | $m^2$ | – |
| Həcm | kub. metr | $m^3$ | – |
| Tezlik | hers | *Hz* | *Hs* |
| Sürət | Metr bölünmüş san. | *m/s* | *m/san* |
| Təcil | Metr bölünmüş kv. san. | $m/s^2$ | $m/san^2$ |
| Bucaq sürəti | rad. bölünmüş san. | *rad/s* | *rad/san* |
| Bucaq təcili | rad. bölünmüş kv. san | $rad/s^2$ | $rad/san^2$ |
| Sıxlıq | kiloqram bölün. kub metr | $kq/m^3$ | – |
| Qüvvə | nyuton | *N* | – |
| Təzyiq. mexaniki gərginlik | paskal | *Pa* | – |
| Kinematik özlülük | kv. metr bölün. san | $m^2/s$ | $m^2/san$ |
| Dinamik özlülük | paskal-saniyə | *Pa · s* | *Pa /san* |
| İş. enerji. istilik miqdarı | coul | *J* | *C* |
| Güc | vatt | *W* | *Vt* |
| Elektrik miqdarı | kulon | *C* | *Kl* |
| Elektrik gərginliyi, elektr. hərəkət qüvvəsi | volt | *V* | – |
| Elektr. sahəsinin intensivliyi | volt bölünmüş metr | *V/m* | – |
| Elektrik müqaviməti | om | *Ω* | *Om* |
| Elektrik keçiriciliyi | simens | *S* | *Sm* |
| Elektrik tutumu | farad | *F* | – |
| Maqnit seli | veber | *Wb* | *Vb* |
| İnduktivlik | henri | *H* | *Hn* |
| Maqnit induksiyası | tesla | *T* | *Tl* |
| Maqnit sahəsinin intensivliyi | amper böl. metr | *A/m* | – |
| Maqnit hərəkət qüvvəsi | amper | *A* | – |
| Entropiya | coul bölünm. kelvin | *J/K* | *C/K* |
| Xüsusi istilik tutumu | coyl bölünm. kq-kelvin | *J/(kq·K)* | *C/kq·K* |
| İstilik keçiriciliyi | vatt bölünm. metr-kelvin | *W/(M·K)* | *Vt/m·k* |
| Şüalanma intensivliyi | vatt bölünm. steradian | *W/sr* | *Vt/sr* |
| Dalğa ədədi | bir bölünmüş metr | $m^{-1}$ | – |
| İşıq seli | lyumen | *lm* | – |
| Parlaqlıq | kandel bölün. kv. metr | $cd/m^2$ | $kd/m^2$ |
| İşıqlanma qabiliyyəti | lüks | *lx* | – |

nin dəyişilməsi; təhsil sistemində və ictimai şüurda torpaq haqqında təsəvvürün formalaşması; torpaqşünaslığın tarixi, fəlsəfəsi və sosiologiyası). Daimi fəaliyyət göstərən yarım bölmələrlə yanaşı ən aktual problemlər üzrə (sulfatlı turş torpaqlar, donmuş torpaqlar, torpaqların xəritəyə rəqəmli köçürülməsi, torpaqların davamlı istifadəsi, torpaqların pisləşməsi sahəsində beynəlxalq əməkdaşlıq, torpaqların dünya təsnifatı, şorlaşmış torpaqlar, meşə torpaqları, şəhər torpaqları) müstəqil müvəqqəti işçi qruplar fəaliyyət göstərir. İttifaq 1952 ildən "Bülleten" nəşr edir. Hər 4 ildən bir ümumdünya konqresi keçirir; sonuncu 19-cu konqres 2010 ildə Brisbendə (Avstraliya) keçirilmişdir. Konqres materialları tezis şəklində çap edilir, elektron variantı dərc olunur.

**BEYNƏLXALQ VAHİDLƏR SİSTEMİ** ( Le Systeme International d'Unites) – 11-ci *Ölçü və çəki üzrə baş konfransda* qəbul edilmiş fiziki kəmiyyətlərin vahidlər sistemi (1960). İxtisarı Sİ-dir.

B.v.s. *metrik ölçü sistemi* əsasında düzəldilmiş mürəkkəb *vahidlər sistemi* toplusunu və bəzi *sistemdənkənar vahidləri* dəyişmək (əvəz etmək) və vahidlərdən istifadəni asanlaşdırmaq (sadələşdirmək) məqsədi ilə işlənib hazırlanmışdır. Universallığı (elm və texnikanın bütün sahələrini əhatə edir) və mütənasiblik əmsalı olmayan tənliklərdən alınmış törəmə vahidlərin uzlaşdırılması Sİ-nin üstünlükləridir. Belə ki, bütün kəmiyyətlərin qiymətləri Sİ-də götürülərsə, hesablama zamanı düsturlara əlavə əmsal daxil etməyə ehtiyac qalmır.

Cədvəldə əsas, əlavə və bir neçə törəmə vahidlərin adı və işarəsi Sİ-də verilmişdir. Birinci üç əsas vahidlə (metr, kiloqram, saniyə) mexaniki təbiətə malik bütün kəmiyyətlərin uzlaşdırılmış törəmə vahidlərini əmələ gətirmək mümkündür, qalanları isə digər sahələrə (elektrik və maqnetizm – amper, istilik – Kelvin, işıq – kandel, molekulyar fizika və kimya – mol) aid olan kəmiyyətlərin törəmə vahidlərini əmələ gətirmək üçün əlavə edilmişdir. Onluq misillərlə və onların tərs qiymətləri ilə olan vahidləri xüsusi sözönü vasitəsilə adlandırırlar.

Uzun müddət müstəvi bucaq vahidi *radian* və cism bucağı vahidi *steradian* Sİ-də törəmə vahidlərini əmələ gətirmək üçün əsas vahidlərə əlavə hesab edilirdi. 1995 ildə Ölçü və çəki üzrə baş konfransda əlavə vahidlər sinfi SI-dən çıxarıldı, radian və steradian isə məxsusi adları olan ölçüsüz törəmə vahidlərinə aid edildi.

İnformasiyanın ikili vahidləri olan *bit* və *baytın* misilləri üçün xüsusi sözönülərdən istifadə olunur; məs.: 1 *Kibit* (1*kibibit*) $=2^{10}$ *bit* =1024 *bit*; 1MiB (1 *mebibayt*)= $2^{20}B$ = 1048576*B*.

Sİ vahidlərindən elm və texnikanın bütün sahələrində istifadə etmək tövsiyə edilir. Lakin bəzi sistemdənkənar vahidlər də istifadə oluna bilər: *dəqiqə, saat, sutka*, bucaq dərəcəsi, bucaq dəqiqəsi, bucaq saniyəsi, *hektar, litr, ton, elektron-volt, bar, millimetr, civə sütunu, anqstrem, mil, dina, erq* və s. Sistemdənkənar vahidləri işlətdikdə Sİ vahidlərinə keçid əmsallarından istifadə olunur.

**BEYNƏLXALQ VALYUTA FONDU** (BVF; International Monetary Fund, IMF) – beynəlxalq valyuta-maliyyə təşkilatı; BMT-nin ixtisaslaşmış orqanı. Bretton-Vuds konfransının qərarına əsasən (1944) yaradılmış, 01.03.1947 ildən əməliyyatlara başlamışdır. *Bretton- Vuds valyuta sisteminin* struktur elementlərindən biridir. Bütünlükdə öz mövqeyini *Yamayka valyuta sistemində* saxlamışdır.

Mənzil-qərargahı Vaşinqton ş-ndə yerləşir. 187 dövlət BVF-nin üzvüdür. İşçilərinin sayı 133 ölkədən 2500 nəfərdir. Kvotaların ümumi həcmi 383 mlrd. dollardır (18.08.2011). Ehtiyat ayrılmaları üçün qəbul edilən əlavə öhdəliklər 600 mlrd. dollardır. Ən çox borcu olan ölkələr Yunanıstan, Portuqaliya və İrlandiyadır (18.08.2011). Preventiv (qoruyucu) kreditlər ən çox Meksika, Polşa, Kolumbiyanın payına düşür.

BVF-nin ali rəhbər orqanı – İdarəedicilər şurasıdır. Hər bir ölkə bu şuraya öz nümayəndəsini, həmçinin onun müavinini təyin edir. Bir qayda olaraq, onlar maliyyə naziri və mərkəzi bankın rəhbəri olur. BVF-nin mühüm struktur bölmələri – strateji qərarların işlənilməsi funksiyasını daşıyan İdarəedicilər şurasının beynəlxalq valyuta və maliyyə komitəsi və 24 direktordan ibarət İcraedici şura (müvafiq ölkələrin səs sayından asılı olaraq təyin edilir və ya seçilir). BVF-nin sərəncamçı direktoru ənənəyə uyğun olaraq avropalı olur. İnkişaf etməkdə olan ölkələrin problemlərinə diqqəti artırmaq üçün BVF-nin və Dünya bankının müştərək himayəsi altında inkişaf üzrə komitə yaradılmışdır. BVF-nin strukturunda onun fəaliyyətinin effektivliyinin qiymətləndirilməsi üzrə xüsusi bölmə – Müstəqil büro vardır.

BVF tənzimləmə, nəzarət, məsləhət və müxtəlif maliyyə funksiyalarını həyata keçirən universal təşkilatdır. BVF-nin tənzimləmə funksiyası üzv-ölkələrin siyasətinin təşkilata daxil olarkən üzərlərinə götürdükləri öhdəliklərə (ilk növbədə valyuta məzənnələri baxımından) uyğunluğuna nəzarət yolu ilə həyata keçirilir. Üzv-ölkələrin siyasətinə nəzarət müntəzəm, adətən hər il BVF-nin heyəti ilə onların iqtisadi siyasət məsələləri (fiskal, valyuta və pul-kredit *i n t i z a m ı*, xarici borc problemləri, ödəmə balansının vəziyyəti daxil olmaqla) üzrə rəsmi nümayəndələri ilə ikitərəfli məsləhətləşmələr çərçivəsində aparılır.

BVF üzv-dövlətlərə effektiv siyasətin işlənilməsi və aparılması potensialının möhkəmləndirilməsində kömək məqsədilə texniki dəstək göstərir və kadrların təkmilləşdirilməsi işini aparır.

BVF-nin maliyyə funksiyası ölkələrə ilk növbədə ödəmə balansının qeyri-qənaətbəxş olması ilə şərtlənən qısamüddətli problemlərin həlli və iqtisadiyyatın restrukturizasiyası üçün kreditlərin verilməsi ilə ifadə olunur. Ölkə tərəfindən BVF-nin ehtiyatları yalnız müəyyən, kifayət qədər ağır şərtlərlə istifadə oluna bilər. Müraciət edən ölkə onun ehtiyatlarına ehtiyacı olduğuna dair tutarlı dəlillər göstərməlidir. BVF tərəfindən maliyyələşdirmə üzv-ölkələrə ödəmə balansı ilə bağlı problemlərin həlli üçün möhlət verir. BVF-nin maliyyəsi ilə dəstəklənən iqtisadi siyasət proqramı ölkə hökuməti tərəfindən BVF ilə sıx əməkdaşlıq şəraitində işlənilir və maliyyə dəstəyinin davam etməsi proqramın effektiv reallaşması ilə şərtlənir.



Beynəlxalq Valyuta Fondu.

BVF-nin maliyyə resursları üzv-ölkələrin üzvlük haqlarından – SDR-lə (beynəlxalq hesablaşma vahidləri) ifadə olunan kvotadan formalaşır. Kvota ölkənin iqtisadi potensialı və dünya ticarətindəki mövqeyindən asılı olaraq müəyyən edilir.

Hər bir üzv-ölkə kvotasına müvafiq səslərə malikdir. Bundan başqa, səsvermə zamanı borcu olan ölkələrin səslərinin azaldılması hesabına kreditor ölkələr səsvermə gününə qədər verdikləri hər 400 min dollar borca görə əlavə 1 səs əldə edir.

1 SDR vahidinin dəyəri 4 əsas ehtiyat valyutasından ibarət səbət əsasında hesablanır (%): ABŞ dolları (44), avro (34), yapon iyenası (11) və ingilis funt-sterlinqi (11). Üzv-ölkələr BVF-nin maliyyə resurslarına öz kvotalarını 25% ehtiyat aktivləri və 75% milli valyutaları şəklində ödəyirlər.

**BEYNƏLXALQ YENİDƏNQURMA VƏ İNKİŞAF BANKI** (BYİB; International Bank of Reconstruction And Devolopment, IBRD) – dövlətlərarası maliyyə-kredit təşkilatı, BMT-nin ixtisaslaşmış təsisatı. 1944 ildə Beynəlxalq Valyuta Fondu (BVF) ilə eyni zamanda BMT-nin Bretton-Vudsda (ABŞ) keçirilən konfransın valyuta-maliyyə məsələləri üzrə qərarlarının icra edilməsi ilə əlaqədar yaradılmışdır. Mənzil-qərargahı Vaşinqtondadır. BYİB bir neçə ixtisaslaşmış institutu özündə birləşdirən *Dünya bankı* qrupunda baş qurumdur. BYİB yaranan zaman 38 ölkə onun üzvü idi, Hazırda üzvlərinin sayı 186-dır (2009). Ölkənin BYİB-ə üzvlüyünün şərti onun BVF-yə daxil olmasıdır.

BYİB-in ali rəhbər orqanı İdarəedicilər şurasıdır. Müdirlər şurasında hər bir üzv-ölkə müvafiq ölkə hökuməti tərəfindən 5 il müddətinə təyin edilən müdir və onun müavini ilə təmsil olunmuşdur. BYİB-in icraedici orqanı BYİB-in prezidentinin başçılığı ilə 24 üzvdən ibarət Direktorlar şurasıdır.

BYİB-in nizamnamə kapitalı üzv-ölkələrin onun səhmlərinə yazılması yolu ilə formalaşır. Səhm kapitalının həcminə görə BYİB dünyanın ən böyük bankıdır. Ehtiyatlarının böyük bir hissəsini (95%-ə qədər) istiqrazlarının dünya maliyyə bazarında paylaşdırılması yolu ilə cəlb edir. BYİB-də üzv-ölkələrin səslərinin sayı onların nizamnamə kapitalındakı payları ilə

müəyyən edilir. BYİB-də ən çox səsə ABŞ (16,87%), Yaponiya (8,0%), Almaniya (4,6%), Fransa və B.Britaniya (hərəsi 4,4%) malikdir (2009 ilin sentyabrındakı vəziyyətə görə). Göstərilən ölkələr BYİB-in kredit siyasətində həlledici rol oynayır.

BYİB-in istiqrazlarını əldə etmək hüququna ÜDM səviyyəsinin adambaşına ildə ən azı 760 ABŞ dolları həcmində olduğu üzv-ölkələr aiddir. BYİB-in bütün ssudaları kommersiya şərtləri ilə verilir. Kreditlərin əsas hissəsi özəl kommersiya borclarına bənzər tələblərə uyğun şərtlərlə verilir. BYİB borclarını üzv-ölkələrin zəmanətləri əsasında verir. Borc xidmətləri üzrə ödəmələr onların təqdim edilməsindən 5 il sonra başlayır, ödənilmə müddəti 15–20 ildən artıq olmur. Kredit alan ölkələr BYİB-in tövsiyələrinə əməl etməyə, borcun istifadəsi haqqında hesabat verməyə və ona bütün lazımi informasiyanı təqdim etməyə borcludur.

BYİB-in əsas vəzifəsi konkret obyektlərin, bütünlükdə iqtisadi inkişafın kreditləşdirilməsidir. O, inkişaf etməkdə olan ölkələrin inkişafı layihələrinin ən böyük kreditorlarından biridir. Bu ölkələrə dair BYİB-in fəaliyyətinin başlıca istiqamətləri: nəql. və rabitənin inkişafına borcların verilməsi; ətraf mühitin mühafizəsi üzrə layihələrin həyata keçirilməsi; k.t. və energetikanın inkişafına uzunmüddətli kreditlər və borcların verilməsi; beynəlxalq maliyyə bazarındakı əməliyyatlar üzrə faiz dərəcələrinin ödənilməsi üçün borcların verilməsi; iqtisadi və elmi-texniki mövzuda konsultasiya və tədqiqatların aparılması. 1980-ci illərdə BYİB konkret obyektlərlə bağlı olmayan böyük kreditlər ayırırdı; onlar əsas prinsipləri iqtisadiyyata dövlət müdaxiləsinin zəifləşdilməsi, iqtisadi fəaliyyətin liberallaşdırılması, ixracın stimullaşdırılması, xarici kapitala münasibətdə məhdudiyyətlərin ləğvi olan proqramlar üzrə verilməyə başlandı.

1970-ci illərin ortalarından BYİB-in işində yoxsulluqla mübarizəyə istiqamətlənmiş borclar getdikcə böyük rol oynamağa başladı. 21 əsrdə dünyada yoxsulluğun azaldılması BYİB-in başlıca məqsədi elan edilmişdir. O, Dünya bankı qrupunun tərkibində inkişaf etməkdə olan ölkələrin qlobal iqlim dəyişikliklərinə adaptasiyasına kömək strategiyasını və taktikasını işləyib hazırlayır.

BYİB-in və BVF-nin təşəbbüsləri (həddən artıq xarici borcla yüklənən ən kasıb inkişaf etməkdə olan ölkələrin borclarının ixtisarı üzrə) çərçivəsində onlara borcların böyük hissəsinin (67%-dən 90%-ə qədər) mərhələli ixtisarını nəzərdə tutan təcili kömək göstərilməsi imkanları öyrənilir. BYİB iqtisadiyyatın strukturunun tənzimlənməsinə, ödəmə balansının yaxşılaşdırılmasına da kreditlər ayırır.

**BEYNƏLXALQ YER FIRLANMASI XİDMƏTİ** (BYFX; International Earth Rotation Service, IERS) – *Yerin fırlanmasının* parametrlərinin dəyişməsinə nəzarət edən beynəlxalq xidmət. BYFX 1899–1961 illərdə fəaliyyət göstərmiş Beynəlxalq en dairəsi xidməti (BEDX) və Beynəlxalq qütb hərəkəti xidmətinin (BQHX, 1962–87) varisidir. BYFX-nin fəaliyyəti *Beynəlxalq astronomiya ittifaqının* baş məclisinin sərəncamları ilə nizamlanır. BYFX-nin işində dünyanın müxtəlif ölkələrinin astronomik rəsədxanaları (BEDX-in fəaliyyəti dövründə 5 rəsədxanadan 21 əsrin əvvəlində yüzlərlə rəsədxanayadək) iştirak edir.

1765 ildə L. *Eyler* tərəfindən qabaqcadan deyilmiş coğrafi en dairəsinin yerinin dəyişməsi faktı 19 əsrdə çoxsaylı müşahidələrlə aşkar edilmiş və təsdiqlənmişdir. Bu hadisənin öyrənilməsi üçün BEDX yaradıldı. Daha sonra uzunluq dairəsinin periodik olaraq yerinin və Yerin fırlanma sürətinin dəyişməsi də (qeyri-müntəzəm fırlanması) müşahidə olundu. Bu kompleks hadisələrin öyrənilməsi ilə məşğul olan müvafiq yeni xidmət BQHX adını aldı. Bundan sonra 1988 ildə BYFX adını almış xidmətin vəzifələrinə Yerin bütün fırlanma parametrlərinin (YFP), yəni Yerin fırlanmasının ani bucaq sürəti vektorunun üç komponentinin müəyyənləşdirilməsi əlavə olundu; onların ikisi qütbün vəziyyətini (və ya ani fırlanma oxunu), üçüncüsü isə sutkanın uz.-nu (və ya Yerin fırlanma sürətini) müəyyən edir.

2003 ildə əvvəlki abreviaturanı saxlamaqla xidmətin adı yenidən dəqiqləşdirildi. Təşkilatın müasir tam adı Beynəlxalq Yer fırlanması və hesablama sistemləri xidmətidir (International Earth Rotation and Reference System Service). Müasir BYFX vəzifələrinə, YFP-nin təyini ilə yanaşı geosentrik koordinatlar sisteminin (International Terrestrial Reference System) qurulması və nəzarəti və onun Göy koordinatlar sistemi (International Celectial Reference System) ilə uyğunlaşdırılması daxil edilmişdir.

BYFX müşahidələr aparmaq üçün ən yeni texniki vasitələrdən istifadə edir. Yerin fırlanmasının bucaq sürəti 1 sutkadan (bəzən hər 4 saatdan bir) çox olmayan intervalda millisaniyənin yüzdə bir hissələri, qütbün koordinatları isə millisaniyənin onda bir hissələri dəqiqliyi ilə təyin edilir.

Yerin fırlanmasının komponentləri həm qiymətcə, həm də istiqamətcə sabit qalmır. Bu parametrlərin müşahidə olunan variasiyalarının spektri çox mürəkkəbdir; bir neçə saatdan başlayaraq yüz min ilə qədər olan dövrlə müşahidə olunur.

Yerin fırlanmasının komponentlərinin variasiyasını tələb olunan dəqiqliklə və hansı müddətə davam etməsini nəzəri olaraq qabaqcadan söyləmək və proqnozlaşdırmaq qeyri-mümkündür. Belə ki, müxtəlif fiziki təbiətli qüvvə momentlərinin sapmasını nəzərə almaq lazım gəlir ki, onların da bir hissəsi hələ də məlum deyildir.

**BEYNƏLXALQ YÜNGÜL ATLETİKA FEDERASİYALARI ASSOSİASİYASI** (International Association of Athletics Federations, IAAF) – beynəlxalq idman təşkilatı. Yüngül atletikanın inkişafı və populyarlaşması ilə məşğul olur. Əsası 17.7.1912 ildə Stokholmda qoyulmuşdur (2001 ilə qədər Beynəlxalq həvəskar yüngül atletika federasiyası). 212 milli federasiya, o cümlədən *Azərb. Atletika Federasiyası* (1992 ildən) IAAF-ın üzvüdür (2011). Mənzil-qərargahı Monakodadır. Rəsmi dilləri: ing. və fr. IAAF-ın tərkibində 5 komitə (texniki, qadın, idman yerişi, kross və veteranlar) və 13 komissiya (idmançılar, məşqçilər, hüquqi, yarışların keçirilməsi, antidopinq, məktəb və gənclər, perspektiv inkişaf, televiziya və b.) fəaliyyət göstərir. Assosiasiyanın tərkibinə 6 qitə birliyi daxildir: Asiya yüngül atletika assosiasiyası (AAA; 45 ölkə), Afrika yüngül atletika konfederasiyası (CAA; 53), Avropa yüngül atletika assosiasiyası (EAA; 50), Şimali və Mərkəzi Amerika və Karib hövzəsi ölkələri yüngül atletika assosiasiyası (NACAC; 31), Okeaniya yüngül atletika assosiasiyası (OAA; 20), Cənubi Amerika yüngül atletika konfederasiyası (CONSUDATLE; 13). IAAF yarışların keçirilmə qaydalarının dəyişdirilməsi, dünya rekordlarının qeydiyyatı qaydalarının işlənib hazırlanması, müxtəlif mübahisəli məsələlərin həlli, böyük turnirlərin keçirilməsi üçün yerlərin seçilməsi və s. səlahiyyətlərə malikdir.

**BEYNƏLMİLƏL ÜSLUB** – 20 əsr memarlığında üslub. 1920-ci illərdə *Bauhauz*, "*De Steyl*", "Espri nuvo" və digər bədii avanqard qruplaşmaları daxilində yaranmış, 20 əsrin bir çox aparıcı memarlarının (A. *Aalto*, E.Q. Asplund, Y.Y.P. *Aud*, M. *Bröyer*, V. *Qropius*, Ş.E. *Le Korbüzye*, A. *Lurs*, E. *May*, E. *Mendelzon*, F. *Molnar*, L. *Mis van der Roe*, R. *Nöytra*, C. *Terranyi*, italyan memarları L. Ficini və C. Pollini, H. *Şaroun* və b.) işlərində əksini tapmışdır. 1932 ildə amerikalı incəsənət tarixçisi Q.R. Hiçkok və F. *Consonun* eyniadlı monoqrafiyasında B.ü.-un əsas cəhətləri formulə edilmişdir: binanın kütlə kimi deyil, həcm kimi başa düşülməsi; simmetriya ilə deyil, müntəzəmlik vasitəsilə nizamlama; əlavə dekordan imtina. 2-ci dünya müharibəsindən sonra Mis van der Roenin şüşə prizmaları şəklində binalar bir çox ölkələrdə tikilmiş və B. ü. nümunələri kimi qəbul edilmişdir. 1960–80-ci illərdən B.ü. məzmunsuzluğuna, memarlıq formaları dilinin zorla qəbul etdirilən yeknəsəqliyinə görə tənqidə (R. *Venturi*, Ç. Cenks və b.) məruz qalmışdır. Bununla belə, B. ü. memarlıqda və dizaynda müasir formayaradan sistemin əsasını təşkil etmişdir. Bax həmçinin *Funksionalizm*.





**BEYNƏLTAXTA SİLSİLƏSİ** – Kiçik Qafqazda Şahdağ silsiləsindən ayrılan qol. Daşkəsən r-nunda, Gəncə və Dəstəfur çayları arasındadır. Hünd. 2000 *m*-ədək. Geniş sahədə yay otlaqları var.

**BEYNİT** – austenitin aralıq çevrilməsi (beynit çevrilməsi) nəticəsində əmələ gələn polad quruluşu; karbonla ifrat doymuş *ferrit* və dəmir karbidin qarışığından ibarətdir. Amerika metallurqu E. Beynin (E. Bain, 1891–1971) şərəfinə adlandırılmışdır. Austeniti perlitin yaranma temp-rundan aşağı, martensitin yaranmasından yuxarı temp-radək soyutduqda B. quruluşu əmələ gəlir. B. martensitdən yumşaq, austenitdən alınan başqa quruluş təşkiledicilərindən (sorbit, perlit, ferrit) isə bərkdir. Tərkibində 0,3%-ədək karbon olan inşaat, boru və konstruksiya poladlarında B. dağılma özlülüyündə (o cümlədən qaynaq tikişlərində) möhkəmliyi təmin edir. Tərkibində 0,4%-ədək karbon olan B. əlverişli deyil (tablama prosesində poladın möhkəmliyini azaldır).

**BEYRA** (Dorcatragus megalotis) – *boşbuynuzlular* fəsiləsinin antiloplar yarımfəsiləsindən məməli heyvan. Eyniadlı cinsin yeganə növü. Bədəninin uz. 80–90 *sm*, cidov hünd. 60 *sm*-ədək olur. Arxa ayaqları qabaq ayaqlarından uzun, bədəni hündürdür. Boynu qısa, gözləri iridir.



Beyra (Dorcatragus megalotis).

Qulaqları ovalşəkilli, böyük, hərəkidir. Buynuz yalnız erkəklərində olur (14 *sm*-ədək), düz, çox aralıdır. Tük örtüyü sıx, uzun və coddur; belinin rəngi kürəni-bozdan maviyəçalan-boz rəngə qədər dəyişir; qarın tərəfi ağ, gözlərinin ətrafı ağ ləkəlidir. Somalidə və Efiopiyaya yaxın ərazilərdə yayılmışdır. Öndağlıq, quraq yerlər və yarımsəhralarda, kol cəngəlliklərində və çılpaq qayalı dağ yamaclarında məskunlaşmışdır. Ailə qrupları ilə yaşayır. Yarpaqlar, kolların yaşıl zoğları, otlarla qidalanır. Hürkdükdə bərkdən fit səsi çıxarır. 1 bala doğur. Az yayılmışdır. BTMİ-nin "Qırmızı kitab"ına daxil edilmişdir.

**BEYRA** (Beira) – Mozambikin ş.-ində şəhər. Sofala əyalətinin inz. m. Əh. 530,7 min (2005). Hind okeanı sahilində, Punqve çayının mənsəbindədir. Transafrika d.y. magistralının son məntəqəsi. Beynəlxalq aeroport. Afrikanın ş. sahilindəki ən iri dəniz portlarından biridir (şəkər, tütün, taxıl, pambıq, xrom və mis filizləri, daş kömür ixrac olunur; dənizə çıxışı olmayan Zambiya, Zimbabve və Malaviyə xidmət edir). B.-dan Zimbabveyə neft kəməri çəkilmişdir. 1891 ildə salınmışdır. Un-t, Etnoqrafiya muzeyi; yeyinti, toxuculuq, metal emalı, neft emalı, mebel, ağac emalı sənayesi müəssisələri; ammonyak şorası istehsal edən z-d, gəmi tərsanəsi var. Turizm inkişaf etmişdir.

**BEYRUT** (ər. بيروت) – Livanın paytaxtı. Əh. 1252,0 min (2005). Aralıq dənizi sahilində, yarımadadadır. Nəql. qovşağı. Aralıq dənizində port (illik yük dövriyyəsi təqr. 6 mln. *t* və 300 min konteyner). Beynəlxalq aeroport. İqlimi subtropik, yayı isti və qurudur. Orta temp-r yanvarda 14°C, avqustda təqr. 28°C-dir. Yağıntının illik miqdarı təqr. 900 *mm*.

B. (qədimdə – B e r u t a, B e r i t) Finikiya şəhəri və portu kimi e.ə. 18 əsrdən (digər məlumatlara görə, e.ə. 15 əsrdən) məlumdur. Ellinizm-Roma dövründə (e.ə. 3 əsr – eramızın 4 əsri) Şərqi Aralıq dənizi bölgəsinin ticarət-sənətkarlıq mərkəzi olmuşdur; eramızın 6 əsrində baş verən silsilə zəlzələlər nəticəsində dağılmışdır. 635 ildən *Xilafətin* tərkibinə qatılmışdır. 1110 ildə səlibçilər tərəfindən işğal olunmuş, 1291 ilədək (qısa fasilələrlə) onların əlində qalmışdır. 14–15 əsrlərdə Misir məmlüklərinin hakimiyyəti altında olmuşdur. 1516 ildə Osmanlı imperiyasının tərkibinə qatıldıqdan sonra yerli əmirlər, yaxud Sayda ş.-nin türk hakimləri tərəfindən idarə olunurdu. Rusiya-Türkiyə müharibəsi (1768–74) gedişində iki dəfə rus donanması tərəfindən mühasirəyə alınmış, 1860–61 illərdə fransız qoşunları tərəfindən tutulmuşdur. Birinci dünya müharibəsinin son

Beyra şəhərindən görünüş.





Beyrut şəhərinin panoramı.



Beyrut Amerika Universiteti.

mərhələsində (1918) B. Antanta qoşunları tərəfindən işğal olunmuşdur. 1920 ildən Fransanın mandatı altında olan "Böyük Livan dövlətinin", 1926 ildən Livan Resp.-nın (1943 ilədək Fransa mandatı altında) paytaxtı elan olunmuşdur. İkinci dünya müharibəsindən sonra Yaxın Şərqin iri maliyyə, iqtisadi və nəşriyyat mərkəzinə çevrilmişdir. Livanda vətəndaş müharibəsi (1975–89) və İsrail qoşunlarının müdaxiləsi (1982) nəticəsində şəhər böyük dağıntılara məruz qalmışdır.

B.-da Finikiya, Roma və Bizans dövrü tikililərinin xarabalıqları saxlanılmışdır. Ömər məscidi (1112–15 illərə aid kilsənin yerində 1291 ildə qurulmuşdur), Bab əs-Saray (16 əsrin əvvəli), Böyük saray (1853) və s. qədim B.-un memarlıq abidələridir. 1990-ci illərdən B. bərpa edilir. Yeni tikililərdə 19–20 əsrin əvvəllərinə xas olan "osmanlı-fransız" eklektik üslubu qismən bərpa edilir, zəngin malikanələrinin memarlığında ənənəvi Livan evlərinin görünüşü saxlanılır. Yeni texnologiyadan istifadə etməklə parlament (memar Nabil Azər), səfirlik (memar Munir Sarufim) kompleksləri; Audi Plaza (memar K. Daş, B. Britaniya), əl-Əhli (memar S. Kosremelli) bankları və s. tikilmişdir. Çoxmərtəbəli binalardan "Finikiya" (2004) və Metropoliten-siti-sentr (hünd. 130 *m*., 2005) hotelləri seçilir.

B.-da 10-dan çox elmi cəmiyyət, assosiasiya və elmi tədqiqat müəssisəsi, o cümlədən İtaliya Mədəniyyəti İn-tu (1951), Servantes İn-tu (İspaniya Mədəniyyət Mərkəzi) və b. fəaliyyət göstərir. Amerika (1866; nəzdində Arxeologiya muzeyi), Sent-Jozef (1881), Livan (1951), Ərəb (1960) un-tləri, un-t statuslu 7 kollec, Livan Milli Konservatoriyası (1929), Milli musiqi məktəbi (1925) var. Muzeyləri: Milli muzey (1920; müasir binası 1932–42, Livan memarı A. Nahas və fransız memarı B. Leprens-Renget; 1999 ildə yenidən qurulduqdan sonra açılmışdır; arxeologiya kolleksiyası), Zərif sənətlər muzeyi, Sursok (19 əsr neorenessans üslubunda bina; ikona rəngkarlığı, gümüş, xalçalar, əlyazmaları, müasir Livan incəsənəti) və s. İlk teatr binası (Teatr de Beyrut) 1965 ildə tikilmişdir. "Əl Mədinə" (1994 ildən), "Monno" (1997 ildən), Şəms (1999 ildən), Berit teatrı (2001 ildən) və s. teatrlar fəaliyyət göstərir. Milli simfonik və Milli kamera orkestrləri var (1989 ildən). 1999 ildən Aralıq dənizi ölkələrinin kukla teatrlarının Beynəlxalq festivalı keçirilir.

Beyrut şəhərindən görünüş.



B. Livanın sənaye, kommersiya, bank və maliyyə mərkəzidir. Şəhərdə və onun ətrafında ölkənin əksər sənaye müəssisələri (o cümlədən yeyinti, poliqrafiya, metal emalı, kimya, toxuculuq, trikotaj, dəri, zərgərlik sənayesi, maşınqayırma) yerləşir. Turizm inkişaf etmişdir.

**BÉYSBOL** (ing. baseball; base – baza, əsas + ball – top) – komanda idman oyunu. B.-da hərəsi 9 nəfərdən ibarət iki komanda iştirak edir. Oyun, kənar xətləri 90 fut (27.4 *m*) və hər küncündə "baza" ("ev") olan romb formalı meydançada keçirilir. Hücum edən komandanın oyunçuları növbə ilə "baza"nın yanında durub onlara tərəf atılan topu toxmaqla qaytarırlar və topun uçuşu müddətində bir "baza"dan digərinə qaçırlar. Müdafiədə olan komandanın oyunçuları topu yerə dəyməmiş tutub onu qaçan rəqibə vurmalıdırlar. Buna üç dəfə nail olandan sonra komandalar yerlərini dəyişir. 9 yerdəyişmədən (inninq) sonra daha çox xal yığan (qaçaraq bütün "baza"ları keçməklə öz "evi"nə çatan oyunçuların sayına müvafiq) komanda qalib gəlir. 1839 ildə Amerika generalı A. Dabldey öz əsgərlərinə bu oyunu oynamağı təklif etmişdir. 1845 ildə A.Kartrayt B.-un qaydalarını işləyib hazırlamış və ilk B. klubu "Nikerboker"i yaratmışdır. 1876 ildə ilk peşəkar liqa – Milli Liqa, 1903 ildə 23 komandanı (700 oyunçu) birləşdirən Yüksək Beysbol Liqası yaradılmışdır. 1938 ildə Beynəlxalq Beysbol Assosiasiyası təsis edilmişdir; həmin ildən dünya çempionatları keçirilir. Olimpiya oyunları proqramına 1992 ildə daxil edilmişdir. Olimpiya çempionu olmuş komandalar: Kuba (1992, 1996, 2004), ABŞ (2000), Koreya (2008).

**BEYSÚQ** – RF-nin Krasnodar diyarında çay. Uz. 243 *km*, hövzəsinin sah. 5190 *km*². *Kuban-Azovyanı ovalığı* ilə axır. Azov dənizinin Beysuq limanına tökülür. Fevraldan aprelədək gursulu olur. Dekabrın sonundan martın ortalarınadək donmuş olur.

**BEYSZYÁN** – Çinin c.-unda çay, Sitszyan çayını əmələ gətirən sol qol. Uz. 468 *km*, hövzəsinin sah. 45,9 min *km*². Nanlin d-rından başlanır, Quandun əyalətinin təpəli düzənlikləri ilə axır. Yay daşqınları səciyyəvidir. Aşağı axını gəmiçiliyə yararlıdır; suvarmada istifadə olunur.

**BEYŞÁN** – Mərkəzi Asiyada, Çində yayla. Lobnor gölü çökəkliyi (q.-də) ilə Joşuy çayı (ş.-də) arasındadır. Enlik istiqamətində təqr. 700 *km* məsafədə uzanır. Eni təqr. 250 *km*, hünd. 2583 *m* (Matszunşan d.). Əsasən, dağarası çökəkliklərlə ayrılmış qədim metamorfik və kristallik süxurlardan təşkil olunmuş alçaq dağlıqlardan ibarətdir. Eol aşınma formaları yayılmışdır. İqlimi kəskin kontinentaldır, çox qurudur (illik yağıntı 40–80 *mm*). Tez-tez qum fırtınaları olur. Səth suları yox dərəcəsindədir. Daşlıq səhra landşaftları, qrunt sularının səthə yaxın olduğu yerlərdə çəmən şoranlıqları, bəzən tuqay kolluqları yayılmışdır.

**BEYŞEHİR** – Türkiyədə göl. Tavr d-rının q. hissəsində tektonik çökəklikdə, 1116 *m* hünd.-də yerləşir. Sah. 657 *km*², maks. dərinlik 9 *m*. Adalar var. Suqla gölünə axarı var. Suvarmada istifadə olunur.

**BEYŞEHİR** – Türkiyədə, Ağdəniz bölgəsinin Konya ilində şəhər. Əh. 70 min (2009). İl mərkəzindən 72 *km* c.-q.-də, eyniadlı gölün c.-ş. sahilindədir. Yüngül, yeyinti, balıqçılıq, mədən (mərmər çıxarılır) sənayesi müəssisələri var.

**BEYŞƏNƏLİYEVA** Bibisara (15.9.1926, Qırğ. Resp., Taş-Töbe qışlağı – 10.5.1973, Frunze) – qırğız balet artisti, pedaqoq. SSRİ xalq artisti (1958). Qırğ. SSR Dövlət mükafatı (1970) laureatı. Qırğız milli balet məktəbinin əsasını qoymuşdur. 1941 ildə Leninqrad Xoreoqrafiya Məktəbini bitirmiş, həmin ildən Qırğ. Opera və Balet Teatrının solisti olmuşdur. Əsas rolları: Çolpon və Ayday ("Çolpon", M. Rauxverger), Anar ("Anar", V. Vlasov və V. Fere), Odetta-Odiliya, Avrora ("Sonalar gölü", "Yatmış gözəl", P.İ. Çaykovski), Mariya və Zarema ("Baxçasaray fontanı", B.V. Asafyev), Cülyetta ("Romeo və Cülyetta", S.S. Prokofyev) və s. 1949 ildən Frunzedə (indiki Bişkek) musiqili xoreoqrafiya məktəbində dərs demişdir. Qırğ. Dövlət İncəsənət İn-tu B.-nın



Beyşehir gölü.



adınadır; Bişkekdə abidəsi qoyulmuşdur.

**BEYT** – Yaxın və Orta Şərq poeziyasında şeirin eyni vəzndə yazılmış və mənaca bir-birinə bağlı qoşa misrası. Klassik ədəbiyyatda B. şeir vahidi sayılmış, divanların, məsnəvilərin, şeirlərin həcmi B.-lərin sayına görə hesablanmışdır. B.-də misraların həmqafiyə olması şərt deyil, başlıcası bitkin fikir ifadə etməkdir. Şərq poetikasında bəzən B. termini şeir və qitə mənasında da işlənir. M.Füzuli azərbaycanca "Divan"ının dibaçəsində B. adı ilə şeirlər vermişdir. Qəsidənin ən gözəl B.-inə beyti-qasid, qəzəlin ən gözəl B.-inə beyti-qəzəl və ya "taci-beyt", şeirin ən yaxşı və mənalı B.-inə "şah beyt", iki misradan ibarət müstəqil əsər olan B.-ə isə müfrəd deyilir. Qəzəl və qəsidənin ilk B.-i mətlə, son B.-i məqtə adlanır. Şairin təxəllüsü, bir qayda olaraq, şeirin məqtəsində olur.

**BEYT ÜL-MAL** (ər. بيت المال – "əmlak evi", xəzinə) – 1) *Xilafət* dövründə dövlət xəzinəsi. Xəlifə Ömər tərəfindən başlıca dövlət maliyyə idarəsi kimi təsis edilmiş B.-m. Əməvilər dövründə (661–750) əsaslı şəkildə təkmilləşdirilmişdir. Dəməşqdə yerləşirdi. B.-m.-ın gəlirini vergilər, müharibədə əldə edilən qənimətlərin çox hissəsi, bivarislərin malları və.s. təşkil edirdi. B.-m. hüquqi baxımdan iki şöbədən ibarət idi: sədəqə (dövlət ictimai yardım sandığı) və xərac (dövlət gəlirlərini özündə cəmləşdirən). Abbasilər xilafəti (762–1258) və Osmanlı imperiyası dövründə də B.-m. dövlətin mühüm maliyyə idarəsi olmuşdur. 2) Orta əsrlərdə müsəlman icmalarında ianə üçün toplanan malların saxlandığı yer.

**"BEYT ÜS-SƏFA"** – ədəbi məclis. 19 əsrin 60-cı illərində Şamaxıda şair Məhəmməd Səfanın evində yaradılmışdı; məclisin adı da bununla əlaqədardır. *Seyid Əzim Şirvani,* Molla ağa *Bixud*, Ağababa Zühuri, Qafar Raqib, Ələkbər Qafil, Molla Mahmud Zuyi və b. şairlər məclisin fəal üzvləri idi. Məclisə Seyid Əzim Şirvani və Molla ağa Bixud başçılıq edirdi. B.-S. Şuşadakı *"Məclisi-üns", "Məclisi-fəramuşan",* Bakıdakı *"Məcmə üş-şüəra"* ilə sıx əlaqə saxlayırdı. Məclisdə ədəbiyyat, incəsənət, fəlsəfə məsələlərinə dair söhbətlər aparılır, klassiklərin əsərləri mütaliə və müzakirə olunur, onların məşhur şeirlərinə nəzirə yazılırdı. Məclis klassik şeirin yazılmasına yardım göstərirdi.

*Əd.:* K ö ç ə r l i F. Azərbaycan ədəbiyyatı tarixi materialları. C.2, h. 1. B., 1926; Q a s ı m z a d ə F. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. B., 1974.

**BEYTSON** (Bateson) Qreqori (9.5.1904, B. Britaniya, Qrantçester – 4.7.1980, San-Fransisko) – ingilis-amerikan filosofu, psixoloq, antropoloq, bioloq. Kembricdə təhsil almışdır (magistr, 1930). Balidə, Yeni Britaniyada, Yeni Qvineyada aparılan çoxsaylı etnoqrafik ekspedisiyalarda iştirak etmişdir. Çöl şəraitində tematik foto- və kinoçəkilişlər metodunu antropologiyaya daxil etmişdir. ABŞ-a köçmüş (1940), 1940-cı illərdə B. kibernetikanın yaradılması işlərində N. *Vinerlə* əməkdaşlıq etmişdir. 1950-ci illərdə insanlar və heyvanlar arasında kommunikasiyanın fənlərarası tədqiqi ilə məşğul olmuşdur. B.-un rəhbərliyi altında bir qrup alimin apardığı tədqiqatlarda fərdin psixoloji problemlərinə ailədaxili kommunikasiya pozuntuları ilə əlaqədar baxılmışdır. Şizofrenik ailələrinin öyrənilməsi zamanı qarşılıqlı təsirin ikiqat bağlılıq adlanan (double bind) dayanıqlı üsulu – həyata keçirilə bilinməyən daxilən ziddiyyətli tələb aşkar edilmişdi. Məs., ana oğlu ilə qeyri-verbal səviyyədə münasibətdə məsafə saxlayır və soyuqluq göstərir, amma verbal səviyyədə sanki oğlundan eyni zamanda yaxınlıq və soyuqluq tələb edərək, sevgi və qağıkeşlik nümayiş etdirir. Buna oxşar "paradoksal kommunikasiya"nın tətqiqatı kontekstində terapevtik "paradoksal müdaxilə" prinsipi işlənib-hazırlanmışdı. 1970-ci illərdə B. canlı təbiət haqqında kibernetikaya və sistemlər nəzəriyyəsinə əsaslanan təlimini – "ağlın ekologiyası"nı işləyib hazırlayırdı. Bu təlimə görə, ağıl materiyanı canlı sistemlərə (bioloji, psixoloji, ekoloji, sosial və s.) çevirən münasibətlərin təkamül edən şəbəkəsini özün- də təcəssüm etdirərək bütün canlılara immanentdir. Metafora (təşbeh) nəzəriyyəsini canlı sistemlərin struktur oxşarlığını əks etdirən "təbiət dili" kimi işləmişdir. Ailə psixoterapiyası, antipsixiatriya, neyrolinqvistik proqramlaşdırma və bir sıra digər psixoterapiya məktəbləri B.-un təsirilə formalaşmışdır.

Ə s ə r l ə r i: Naven. Camb., 1936; Balinese character.N. Y., 1942 (with M.Mead); Steps to an ecology of mind. N.Y., 1972, Chi.; L., 2000; Экология разума. M., 2000.

**BEYTÜLLAH** (ər. بيت الله – Allahın evi) – *islam* ənənəsində Kəbə və Məkkə ş.-nə verilən ad.

**BEYZAVA** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Sulduz bölgəsinin Ətraf kəndistanında, Nəqədə qəs.-ndən 11 *km* c.-q.-dədir.

**BEYZİK** [ing. Basic – Beginner's All-purpose Symbolic Instruction Code (yeni başlayanlar üçün universal simvolik tədris kodu) sözlərinin baş hərflərindən] – proqramlaşdırmanın əsasını öyrənməyə imkan verən yüksək səviyyəli proqramlaşdırma dili. B.-in müxtəlif versiyaları demək olar ki, bütün fərdi kompyuterlərin proqram təminatının tərkibinə daxildir. Dil konstruksiyasının sadəliyi ilə fərqlənir, yeni başlayan proqramçılar tərəfindən asanlıqla mənimsənilir və dialoq rejimini həyata keçirməyə imkan verir. 1964 ildə ABŞ-da Con Kemeni və Tomas Kurtz tərəfindən işlənilmiş və ilk vaxtlar proqramlaşdırmanın tədrisi məqsədilə istifadə edilmişdir. Müasir dövrdə bu dildə *kompilyatorlar* da mövcuddur.

**BEZ** (ər. بز) – kətan toxunuşlu sıx pambıq parça. B. cod və ağardılmış, ornamentli və saya istehsal edilir. Ağardılmış B., adətən, kətan adlanır.

**BEZANSÓN** (Besançon) – Fransanın ş.-ində şəhər. Du departamentinin inz. m.

Bezanson şəhərindən görünüş.







Əh.128,4 min (2005). Du çayı (Sonanın qolu) sahilindədir. Rona–Reyn su yolunda nəql. qovşağı.

Qədimdə V e z o n t i o n (Vesontio) adlanırdı və qall tayfası olan sekvanların baş şəhəri idi. E.ə. 2 əsrdən Roma koloniyası olmuşdur. E.ə. 58 ildə german tayfası svevlərə qarşı müharibə zamanı Romanın dayaq məntəqəsi olmuşdur. Eramızın 3 əsrinin əvvəllərində B.-da yepiskopluq yaradılmışdır. 297 ildən B. Maksima Sekvanorum adlı Roma əyalətinin paytaxtı olmuşdur. Təqr. 340 ildə alemanlar şəhəri dağıtmış (təqr. 350 ildə B. bərpa olunmuş və möhkəmləndirilmişdir), 456 ildə burqundlar qarət etmiş, 534 ildə isə franklar işğal etmişlər. 870 ildən Qərbi Frank krallığına, 888 ildən Yuxarı Burqundiya krallığına, 933 ildən Burqundiya krallığına tabe olmuş, sonuncu ilə birlikdə Müqəddəs Roma imperiyasının tərkibinə qatılmışdır. 1157 ildə B.-da keçirilən reyxstaqın iclasında Almaniya imperatoru ilə Roma papası arasında münaqişə baş vermişdir. 1307–1648 illərdə B. imperiya şəhəri olmuş və almanca Bizants adlandırılmışdır. 1678 ildə "Burqundiya azad qraflığı" (Franş-Konte) ilə birlikdə Fransanın tabeliyinə keçmişdir. 1890 ildən Du Fransa departamentinin inz. mərkəzi olmuşdur. V. Hüqo, Ş. Furye və P.J. Prudonun vətənidir.

Qall-Roma dövründən akvedukun və böyük amfiteatrın fraqmentləri (eramızın ilk əsrləri) qalmışdır. İmperator Mark Avrelinin şərəfinə tikilmiş heykəltəraşlıq relyefləri ilə zəngin biraşırımlı ikiyaruslu zəfər tağı 175 ilə aiddir. Müq. İohann kafedral kilsəsi roman və qotik xüsusiyyətləri özündə birləşdirir. Renessans dövründə dünyəvi binaların geniş tikintisi aparılırdı; o cümlədən Qranvel sarayı (1534–50, Franş-Konte tarixi muzeyi orada yerləşir). B.-un ən məşhur tikilisi olan əzəmətli içqala (1675–1711) dövrünün istehkam sənətinin nadir abidəsidir (kral XIV Lüdovikin göstərişi ilə S. Voban tərəfindən inşa edilmişdir). Barokko və klassik üslubda olan kilsələr, yaşayış binaları 16–18 əsrlərə aiddir. İndiki opera teatrının binası memar K.N. Ledu tərəfindən 1775–84 illərdə inşa olunmuşdur (1956 ildə yanmış, 1959 ildə bərpa edilmişdir).

Dini (katolik arxiyepiskopunun iqamətgahı) və mədəni mərkəzdir. İki milli elmi tədqiqat (fizika; ədəbiyyat) mərkəzi, un-t (1423 ildə Dol ş.-ndə yaradılmış, 1691 ildə B.-a köçürülmüşdür) var. Bələdiyyə kitabxanası (1694; o cümlədən 17–18 əsrlərə aid not əlyazmaları və musiqi traktatları kolleksiyası), Zərif sənətlər və arxeologiya muzeyi (1843; Avropa incəsənəti, nadir saat kolleksiyası); Yeni (Milli dram mərkəzi) və De l'Espas teatrları, xorlar, kamera orkestri fəaliyyət göstərir. 1948 ildən hər il musiqi festivalı, 1951 ildən gənc dirijorların müsabiqəsi (1995 ildən iki ildən bir) keçirilir. Akvarium, zoopark var.

Fransada ən iri saat istehsalı mərkəzidir (saat f-kinin binası – 1939, memar O. *Perre*). Maşınqayırma (avtomobil, vaqon), cihazqayırma, toxuculuq (süni ipək) sənayesi müəssisələri fəaliyyət göstərir. B.-un yaxınlığında, Soşo-Monbelyarda "Pejo" şirkətinin iri z-du (nəzdində şirkətin tarixi muzeyi) var.



Bezanson qalası.

**BEZENGİ**, B e z i n g i, U l l u ç i r a n – Qafqazda ən iri və mürəkkəb dərə buzlağı. Böyük Qafqazın şm.-ında, *Bezengi divarının* yamacında və ətəyində. Kabarda-Balkardadır (RF). Uz. təqr. 17,6 *km*-dir. Şxara və Cəngitau zirvələrindən 2080 *m*-ədək düşür. Buzlağın təqr. 9 *km*-lik dili, demək olar ki, tamamilə morenlə örtülmüşdür. 1888 ilin məlumatları ilə müqayisədə B. 1000 *m*-dən çox geri çəkilmişdir. Çerek-Xulam çayı (Terek hövzəsi) B.-dən başlanır. B. *Kabarda-Balkar qoruğu* ərazisindədir.

**BEZENGİ DİVARI** – Baş Qafqaz Silsiləsinin, yaxud Suayırıcı silsilənin ən hündür və qayalı sahəsi. RF (Kabarda-Balkar Resp.) və Gürc.-la sərhəddədir.

Bezengi divarı.





Bezımyannı vulkanı.

Uz. 12 *km*. Ən hündür zirvələri: Şxara (5068 *m*), Cəngitau (5058 *m*), Katıntau (4970 *m*), Gestola (4960 *m*), Şota Rustaveli (4860 *m*), Lalvar (4350 *m*). Şm. yamacı ilə üzüaşağı *Bezengi* buzlağı enir. Tez-tez qar uçqunları olur. Qafqazın məşhur alpinizm r-nudur.

**BEZIMYÁNNI** – RF-nin Kamçatka y-a-nda Kamçatka vil. ərazisində fəaliyyətdə olan vulkan. Şərq silsiləsinin q. yamacındadır. *Ümumdünya irsi* siyahısına salınmış Klyuçi vulkanlar qrupuna aiddir. Hünd. 2869 *m*. 1956 il püskürməsindən sonra vulkanın kraterində fasilələrlə böyüyən Yeni ekstruziv andezit günbəzi (hünd. təqr. 500 *m*) yaranmışdır. Sonuncu dəfə 1977 ildə püskürmüşdür. Güclü palçıq axınları (90 *km*-ədək), çoxsaylı fumarollar var.

**BEZIMYÁNNI QRAFİT YATAĞI** – RF-nin İrkutsk vil.-ndə, Slüdyanka ş.-ndən 20 *km* ş.-də iri qrafit yatağı. Baykal gölünün c.-q. sahilindədir. 1960-cı illərdə kəşf olunmuşdur, hazırda ehtiyatdadır. Filizin təsdiq olunmuş ehtiyatı 18,7 mln. *t*, ümumi ehtiyatı 20,8 mln. *t*-dur. Qrafitin filizdəki orta miqdarı 3,6 %-dir. Metamorfik tipli yataqdır; Kembriyəqədər yaşlı qrafit-biotit qneysləri ilə əlaqədardır. Kristallarının ölçüsü 0,5–1,0 *mm*-dir.

**BEZOÁR** (bezoar daşı) – 1) *bezoar keçisinin* (q a y a k e ç i s i) mədəsində və bağırsağında minerallaşmış ərp; 2) heyvanların, başlıca olaraq gövşəyənlərin və atların, bəzən isə it, pişik və donuzların mədə-bağırsaq yolunda əmələ gələn bərk üzvi törəmə. B. mədə seliyi ilə bir-birinə yapışaraq bərkiyən heyvan tüklərindən (p i l o b e z o a r l a r, lat. pilus – tük), yaxud bitki liflərindən (f i t o b e z o a r l a r, yun. phyton – bitki) ibarət olur. B.-ın əmələ gəlməsinə heyvanın uzun müddət qabalifli yemlərdən istifadə etməsi, yun yeməsi və s. səbəb olur.

M ü a l i c ə s i: cərrahi müdaxilə (*abomazotomiya*).

**BEZOÁR KEÇİSİ** – bax *Qayakeçisi*.

**BEZÚ** (Bezout) Etyen (31.3.1730, Nemur – 27.9.1783, Fontenblo yaxınlığında Bas-Loj) – fransız riyaziyyatçısı, Paris EA üzvü (1758). Yüksək dərəcəli cəbri tənliklər sisteminin xassələrini öyrənmişdir; cəbrin əsas teoremlərindən biri olan çoxhədlinin xətti ikihədliyə bölünməsinə dair B e z u t e o r e m i məlumdur.

**BEZUQLI** Sergey Aleksandroviç (d.7.10.1984, Ukrayna, Mikolayevo ş.) – Azərb. idmançısı. Avarçəkmə idmanının kanoe növündə (M.Prokopenko ilə) Dünya kubokunun bürünc (500 *m*, Fransa, 2010), gümüş (200 və 1000 *m*) və qızıl (500 *m*, Almaniya, 2010), Avropa (500 *m*, İspaniya, 2010)) və dünya (500 *m*, Polşa, 2010) çempionatlarının gümüş mükafatçısı, Avropa çempionudur (1000 *m*, İspaniya, 2010).



**BƏBƏLİ** – Azərb. Resp. Xaçmaz r-nunun Müşkür ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* şm.-da, Samur-Dəvəçi ovalığındadır. Əh. 201 (2009); tərəvəzçilik və əkinçiliklə məşğuldur.

**BƏBİR** (Panthera pardus), q a p l a n – *pişikkimilər* fəsiləsindən məməli heyvan. Bədəninin uz. 150–170 *sm*, quyruğunun uz. 75–102 *sm*, kütləsi 30–60 *kq*-a çatır, dişilərinin kütləsi bir qədər az olur. Bədəni əzələli, ayaqları nisbətən qısadır; xəzi sıx, yumşaq, sarı yaxud kürən rəngli və qara xallıdır. Eşitmə, görmə, qoxubilmə



Bəbir (Panthera pardus).

qabiliyyəti yaxşı inkişaf etmişdir. Afrikada, Cənubi və Qərbi Asiyada, Şri-Lanka və Yava a-rında; Qafqazda, o cümlədən Azərb.-da (Talış d-rında), Kiçik Qafqazın meşəlik və qayalıq ərazilərində, Naxçıvanda rast gəlinir. Dağlıq ərazilərdən səhralara qədər yayılmışdır. Əsasən, gecələr fəal olur. Dırnaqlılarla qidalanır, bəzən meymunlara, qıtlıq zamanı gəmiricilərə, quşlara, sürünənlərə, ev heyvanlarına və itlərə də hücum edir. İlboyu cütləşə bilir. Boğazlıq dövrü 90–95 gündür; 1–2 bala doğur; doğularkən balaların gözləri və qulaq dəlikləri bağlı olur. 2–3 yaşında cinsi yetkinliyə çatır. 10 və bəzən də 20 il yaşayır. Azərb.-da cütdırnaqlı heyvanların azalması nəticəsində B.-lərin də sayı azalmışdır. 1967 ildən Azərb.-da B. ovu qadağan edilmişdir. Resp. ərazisində 10–13 B. qalmışdır. Azərb.-ın və BTMİ-nin "Qırmızı kitab"larına daxil edilmişdir.

**BƏBİRLİ** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Ağin, 12.10.1961 ildən – Ani r-nu) azərb.-ların yaşadığı kənd. 1860 ildə kənddə Türkiyənin Qazarabad, 1915–20 illərdə isə Muş və Bulanis vil.-lərindən gəlmə ermənilər yerləşdirilmişdir. 3.2.1947 ildə kəndin adı dəyişdirilərək Bartsraşen qoyulmuşdur.

**BƏBİRLİ** Mollağa Nurulla oğlu (15.9.1905, Bakı – 22.10.1970, Bakı) – Azərb. aktyoru, rejissor. Azərb. Kukla Teatrının yaradıcısı. 1925 ildə Bakı Teatr Texnikumunu bitirmiş, 1926–28 illərdə Azərb. Dövlət Akademik Dram Teatrında çıxış etmişdir. 1931–41 və 1946–50 illərdə Azərb. Dövlət Kukla Teatrının direktoru, baş rej.-u və bədii rəhbəri olmuşdur. "Əlibaba və qırx quldur", "Hacı Qara", "Ələddin və sehrli çıraq", "Ağa Nəzər", "Nərgiz", "Böyük İvan", "Lina Odena", "Ölülər" və s. əsərləri tamaşaya qoymuş, Azərb. folkloru və xalq teatrı ənənələrindən geniş istifadə etmişdir. 1951 ildə teatrın truppası Azərb. Dövlət Filarmoniyası nəzdinə köçürüldükdən sonra, B. burada estrada bölməsinin və kukla artistləri truppasının rəhbəri olmuşdur.



**BƏCƏQ** – İranın Ərdəbil ostanında kənd. Meşkinşəhr şəhristanının Mərkəzi bölgəsinin Şərqi Meşkin kəndistanında, Meşkinşəhrdən 10 *km* şm.-ş.-də, Meşkinşəhr–Ərdəbil avtomobil yolunun 2,5 *km*-liyindədir.

**BƏCƏYƏZLİ**, B ə y c i v a z l ı, B e c a z l ı – İrəvan xanlığında Gərnibasar mahalının (9.9.1930 ildən Qəmərli, 4.9.1945 ildən – Artaşat r-nu) düzənlik hissəsində, Gərni çayının sol sahilində azərb.-ların yaşadığı kənd. Kəndə ilk erməni ailələri 1828–29 illərdə İranın Xoy və Salmas vil.-lərindən köçürülmüşdür. Kəndin azərb. əhalisi 1905 ildə erməni daşnakları tərəfindən qovulub çıxarılmış, 1920-ci illərdə geri qayıdanlar isə 1930-cu illərdə yenidən qovulmuşlar. 20.8.1945 ildə kəndin adı dəyişdirilərək Vostan qoyulmuşdur.

**BƏCİRƏVAN** – Azərb. Resp. Bərdə r-nunda kənd. Bəcirəvan ə.d.-nin mərkəzi. R-n mərkəzindən 26 *km* c.-ş.-də, Yuxarı Qarabağ kanalının üst hissəsində, Xaçın çayının sahilindədir. Əh. 1514 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Südün ilkin emalı məntəqəsi, dəyirman; tam orta məktəb, mədəniyyət evi, kitabxana, ambulatoriya var.

**BƏCİRƏVAN** – Azərb. Resp. Cəlilabad r-nunun Komanlı ə.d.-ndə kənd. R-n mərkəzindən 19 *km* c.-ş.-də, Burovar silsiləsinin şm.-ş. yamacındadır. Əh. 2460 (2008); heyvandarlıq və əkinçiliklə məşğuldur. Tam orta məktəb, feldşer-mama məntəqəsi var.

**BƏCİRƏVAN** – Azərb. Resp. İmişli r-nunda kənd. Bəcirəvan ə.d.-nin (Bəcirəvan, Ağcüyür k.-ləri daxildir) mərkəzi. Bakı–Horadiz d.y.-nda st. R-n mərkəzindən 12 *km* şm.-ş.-də, Araz çayının sol sahilindən 2 *km* aralı, Mil düzündədir. Əh. 2323 (2008); heyvandarlıq və əkinçiliklə (taxıl, pambıq) məşğuldur. Tam orta məktəb, uşaq bağçası, mədəniyyət evi, klub, feldşer-mama məntəqəsi var.

**BƏÇÇEYİ-SAQQA** (far. بچه سقا – suçu oğlu; ? – 2.11.1929) – Əfqanıstanda 1928–29 illərdə hökumətə qarşı qiyam başçılarından biri. Qiyamçıları İngiltərə dəstəkləyirdi. 1929 ilin yanvarında qiyamçılar Kabili tutdu. *Əmənulla xan* hakimiyyətdən uzaqlaşdırıldı. B.-S. Həbibulla Qazi adı ilə Əfqanıstan əmiri elan olundu və Əmənulla xanın islahatlarını ləvğ etdi. 1929 il oktyabrın 6-da Məhəmməd Nadir xanın (bax *Nadir şah Məhəmməd*) ordusu Kabili alandan sonra B.-S. taxtdan salındı və edam olundu.

**BƏDAHƏT** – bax *Ekspromt*.

**BƏDBƏXTTALA**, b e t p a k d a l a, Ş i m a l i A c ç ö l – Qazaxıstanda səhra. Sarısu çayının aşağı axını, Çu çayı və Balxaş gölünün sol sahili arasındadır. Şm.-da *Qazaxıstan xırda təpəliyi* ilə sərhədlənir. Sah. təqr. 75 min *km*². Q. hissəsi orta hünd. 300–350 *m* olan takırlı gilli düzənlik, ş.-i təpəlik və ayrı-ayrı yüksəkliklərdən (hünd. 972 *m*-ədək, Qızılbölən d.) ibarət dalğalı düzənlikdir. Müxtəlif metal filizləri, gips, daş kömür, duz və s. yataqları var. İqlimi sərt kontinentaldır: mülayim soyuq qışı, isti və quru yayı var. Yanvarın orta temp-ru –13°C, iyulunki təqr. 25°C-dir. İllik yağıntının (100–150 *mm*) təqr. 35%-i yazın əvvəlində, 15%-i yayda düşür; noyabrın axırında qar yağır. Çoxlu xırda, duzlu göllər və 2–30 *m* dərinlikdə lay suları var. Yovşanlı və şoranotulu gilli səhra landşaftı hakimdir. Otlaq kimi istifadə olunur.

**BƏDBİNLİK** – bax *Nikbinlik və Bədbinlik*.

**BƏDƏXŞÁN** – Əfqanıstanın şm.-ş.-ində əyalət. Sah. 44,1 min *km*². Əh. 1,1 mln. (2005). İnz. m. Feyzabad ş.-dir.

**BƏDƏLAN** – Azərb. Resp. Masallı r-nunda kənd. Bədəlan ə.d.-nin (Bədəlan, Aşurlu, Çayqıraq, Dəmirçi k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 10 *km* c.-da, Lənkəran ovalığındadır. Əh. 2363 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, peşə məktəbi, uşaq bağçası, sağlamlıq mərkəzi, kitabxana; məscid (19 əsr) var.

**BƏDƏLAN** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Ətraf bölgəsinin Fərvərəq kəndistanında, Xoy ş.-ndən 23,5 *km* q.-dədir.

**BƏDƏLBƏYLİ** Əfrasiyab Bədəl bəy oğlu (19.4.1907, Bakı – 6.1.1976, Bakı) – Azərb. bəstəkarı, dirijor, musiqişünas, librettoçu, Azərb. SSR xalq artisti (1960). B. *Bədəlbəyovun* oğludur. 1928 ildə Azərb. Dövlət Un-tini, 1938 ildə Leninqrad Konservatoriyası nəzdindəki musiqi məktəbini bitirmişdir. Bəstəkarlıq fəaliyyətinə 20-ci illərin ikinci yarısından, Azərb. Dram Teatrında musiqi hissə müdiri işləyərkən başlamışdır. O, bu illərdə və sonralar C. Cabbarlının "Od gəlini" (1927), "Sevil" (1928), "Al-



Bədbəxttala səhrası.



maz" (1929), "1905-ci ildə" (1931), "Yaşar" (1932), H. Cavidin "Səyavuş" (1932), M.F. Axundzadənin "Hacı Qara" (1933), S. Vurğunun "Fərhad və Şirin" (1941) pyeslərinin tamaşalarına musiqi bəstələmişdir. 1930 ildən ömrünün sonunadək Azərb. Dövlət Opera və Balet Teatrının dirijoru olmuşdur. Repertuarında Avropa, rus, eləcə də Azərb. bəstəkarlarının əsərləri, o cümlədən "Aida" və "Riqoletto" (C. Verdi), "Toska" (C. Puççini), "Leyli və Məcnun" (Ü. Hacıbəyli), "Sevil" (F. Əmirov), "Vaqif" (R. Mustafayev) operaları, "Sonalar gölü" (P. Çaykovski), "Raymonda" (A. Qlazunov) baletləri əsas yer tutmuşdur.

B. ilk milli Azərb. baleti – "Qız qalası"nın (1940, 2-ci redaksiyası 1958) müəllifidir. "Xalq qəzəbi" (1941, B. Zeydmanla birlikdə), "Nizami" (1948), "Söyüdlər ağlamaz" (1971, 2-ci redaksiyası 1975) operalarının, uşaqlar üçün "Tərlan" (ilk tamaşası – 1941) baletinin, simfonik poema və təntənəli marşın (hər ikisi 1930) müəllifidir. "Bahadır və Sona" (S. Ələsgərov), "Söyüdlər ağlamaz" operalarının, "Qız qalası", "Qaraca qız" (Ə. Abbasov), "Qızıl açar" (B. Zeydman) baletlərinin librettosunu yazmış, "Sevilya bərbəri" (C. Rossini), "Şahsənəm" (R. Qlier), "İolanta" (P. Çaykovski), "Daisi" (Z. Paliaşvili) operalarının mətnini ekviritmik tərcümə etmişdir. B. Azərb. musiqi sənətinin təbliğçisi və tədqiqatçısı, publisist kimi də tanınmışdır. "Musiqi lüğəti"nin (1969) müəllifidir. Bakıdakı 23 saylı musiqi məktəbi B.-nin adını daşıyır.

**BƏDƏLBƏYLİ** Fərhad Şəmsi oğlu (d.27.12.1947), Bakı) – Azərb. pianoçusu, musiqi xadimi. Azərb. SSR xalq artisti (1978), SSRİ xalq artisti (1990), Azərb. SSR Dövlət mükafatı laureatı (1986). Ş.B. *Bədəlbəylinin* oğludur. Azərb. Dövlət Konservatoriyasını bitirmişdir (1969, M.R. Brennerin sinfini). B.-nin repertuarına İ.S. Bax,



F. Şopen, F. List, S. Raxmaninov, A. Skryabin, K. Sen-Sans, C. Gerşvin, B. Bartok, S. Prokofyev, D. Şostakoviç, Q. Qarayev, T. Quliyev və b.-nın əsərləri daxildir. Fortepiano texnikasının kamilliyi, aydın, gözəl səslənmə, romantik coşğunluq B.-nin ifaçılıq sənətinə xas cəhətlərdir. Pianoçuların B. Smetana ad. (1967, Qradets-Kralove, Çexiya; 3-cü mükafat və B. Smetananın əsərlərinin ən yaxşı ifası üçün xüsusi mükafat) və J. Vianna da Motta ad. (1968, Lissabon, 1-ci mükafat) beynəlxalq müsabiqələrin laureatıdır. Dirijor və bəstəkar kimi də fəaliyyət göstərir. 1971 ildən Azərb. Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) dərs deyir; 1991 ildən akademiyanın rektorudur (1985 ildən prof.). Bir çox xarici ölkədə (Fransa, Türkiyə, İtaliya, Bolqarıstan, ABŞ, Almaniya, Finlandiya, İsveç, Norveç və s.) qastrolda olmuşdur. 1989 ildən Azərb. Musiqi Xadimləri İttifaqının sədridir.



"Arşın mal alan" (Ü. Hacıbəyli) tamaşasından səhnə. Rej. Ş. Bədəlbəyli. 1957.

**BƏDƏLBƏYLİ** Şəmsi Bədəl bəy oğlu (23.2.1911, Şuşa–23.5.1986, Bakı) – Azərb. rejissoru. Azərb. SSR xalq artisti (1964). B. *Bədəlbəyovun* oğludur. Azərb. Dövlət Konservatoriyasında təhsil almışdır (1927). Azərb. Dövlət Dram Teatrında (1932–42 illərdə rej. assistenti və rej.) fəaliyyətə başlamış, teatrda "Ölülər" (1939, C. Məmmədquluzadə), "Kral Lir" (1941, U. Şekspir), "Xoşbəxtlər" (1941, S. Rəhman), "İki qardaş" (1941, M. Lermontov) və s. əsərləri tamaşaya qoymuşdur. B. uzun illər Azərb. Dövlət Musiqili Komediya Teatrında işləmiş (1943–48, 1956–61, 1963–74; bədii rəhbər və direktor), "Keto və Kote" (1944, 1948, V. Dolidze), "Gözün aydın" (1946, F. Əmirov), "Ulduz" (1948, S. Ələsgərov), "Durna" (1948, 1956, 1959, S. Rüstəmov), ("Arşın mal alan" (1958, Ü. Hacıbəyli), "Ləpələr" (1970, A. Məlikov), "Həmişəxanım" (1971, S. Ələsgərov), "Hicran" (1973, E. Sabitoğlu) və s. əsərlərin rej.-u olmuşdur. Azərb. Opera və Balet Teatrında "Koroğlu", "Əsli və Kərəm" (1950, 1958, Ü. Hacıbəyli), "Daisi" (1956, Z. Paliaşvili), "Sevilya bərbəri" (1962, C. Rossini), "Knyaz İqor" (1964, A.P. Borodin) və s. əsərlərə quruluş vermişdir.



B. 1941–43 illərdə Təbrizdə həvəskar aktyorların iştirakı ilə "Əlli yaşında cavan" və "Evliykən subay" (Z. Hacıbəyov), "Arşın mal alan" musiqili komediyalarını, Türkmənistan Opera və Balet Teatrında "Koroğlu" (1957) operasını tamaşaya qoymuşdur. Azərb. Dövlət Filarmoniyasının direktoru (1974–76), Azərb. Teatr Xadimləri İttifaqının sədri (1976–86) işləmişdir. Kinofilmlərdə çəkilmişdir.

*Əd.* Искендерова З., Каменецкая Э. Шамси Бадалбейли. Б., 1976.

**BƏDƏLBƏYLİ** Ülfət İsmayıl qızı (d. 27.12.1940, Bakı) – Azərb. ədəbiyyatşünası, filologiya e.d. (2005), prof. (2010). Azərb. Pedaqoji Xarici Dillər İn-tunu bitirmişdir (1962). Həmin ildən Azərb. Dövlət Un-tində (indiki BDU) pedaqoji fəaliyyət göstərir. Tədqiqatları Qərbi Avropa, türk, hind və Azərb. ədəbi əlaqələrinə aiddir.

Əsərləri: Шекспир в Азербайджане. Б., 1993; Английское возрождение и Восток. Б., 2000.

**BƏDƏLBƏYOV** Bədəl bəy Bəşir oğlu (1875, Şuşa – 12.9.1932, Bakı) – Azərb. maarif xadimi. Ə. *Bədəlbəyli* və Ş. *Bədəlbəylinin* atasıdır. *Qori seminariyasını* bitirmiş (1895), bir müddət Şuşada müəllimlik etmiş, sonra Bakıdakı 6-cı rus-müsəlman (Azərb.) məktəbinin müdiri olmuşdur. Həmin məktəb "Bədəl bəyin məktəbi" adlanırdı. B. uşaqları məktəbə cəlb etmək məqsədilə əhali arasında pedaqoji təbliğat aparmış, təlim-tərbiyə, müəllimlərin ixtisasının təkmilləşdirilməsi və s. məsələlərə dair mühazirə və məruzələr oxumuşdur. B. "Nicat" xeyriyyə cəmiyyətinin üzvü olmuş, həvəskar aktyor kimi opera və dram tamaşalarında (Ü. Hacıbəylinin "Leyli və Məcnun" operasında Məcnun, İbn Səlam və s.) iştirak etmişdir. 1920 ildən müəllimliklə yanaşı, Bakı xalq maarifi şöbəsində təlimatçı işləmişdir.

**BƏDƏLLİ** – Azərb. Resp. Qobustan r-nunda kənd. Bədəlli ə.d.-nin (Bədəlli, Sədəfli k.-ləri, Üzümçü qəs. daxildir) mərkəzi. R-n mərkəzindən 13 *km* c.-q.-də, Bakı–Şamaxı avtomobil yolundan 4 *km*, Pirsaat çayının sol sahilindən 6 *km* aralı, Mərəzə platosundadır. Əh. 1085 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana, tibb məntəqəsi, klub var.

**BƏDƏLOV** Arif Zeynal oğlu (d.10.5. 1941, Goranboy r-nunun Hacallı k.) – Azərb. fiziki, fizika-riyaziyyat e.d. (1992), prof. (1995). Azərb. Dövlət Un-tini bitirmişdir (1963). Həmin ildən Azərb. EA-nın Fizika İn-tunda əmək fəaliyyətinə başlamışdır. Kosmik Tədqiqatlar Elm-İstehsalat Birliyində laboratoriya müdiri (1975–85), Azərb. Politexnik İn-tunda dosent (1985–92), Mingəçevir Energetika İn-tunda dosent, prof., elmi işlər üzrə prorektor (1992–2007) vəzifələrində çalışmışdır. 2007 ildən Azərb. Milli Aviasiya Akademiyasında kafedra müdiridir. Tədqiqatları metal, dielektrik, yarımkecirici və heterostrukturlarda qeyri-müvazi elektron-ion proseslərinin öyrənilməsinə aiddir. 70-dən artıq elmi əsərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**BƏDƏLOV** Çingiz Əbülfəz oğlu (d.30.7. 1932, Bakı) – Azərb. pedaqoqu, pedaqoji e.d. (1967), prof. (1969), əməkdar ali məktəb işçisi (1981). Azərb. Pedaqoji Rus Dili və Ədəbiyyatı İn-tunu (1954; indiki Bakı Slavyan Un-ti) bitirmişdir. 1955–61 illərdə Bakı Dənizçilik Məktəbində müəllim, 1961 ildən Bakı Slavyan Un-tində müxtəlif vəzifələrdə, o cümlədən kafedra müdiri (1969–2003) və elmi işlər üzrə prorektor (1991–93) işləmişdir. Tədqiqatları bilinqvizm problemlərinə həsr olunmuşdur. 170 elmi əsərin, o cümlədən dərslik və metodiki vəsaitlərin müəllifidir. Kadr hazırlığında xidmətləri var.

**BƏDƏLOV** Rza Əbdül oğlu (25.9.1915, Bakı – 1985, Bakı) – mexanika sahəsində Azərb. alimi, texnika e.d. (1965), prof. (1967). Azərb. SSR EA m. üzvü (1968). Azərb. Neft və Kimya İn-tunda (indiki ADNA) kafedra müdiri işləmiş (1961–68; 1976 ildən prof.), Azərb. Politexnik İn-tunun (indiki AzTU) rektoru (1968–76) vəzifəsində çalışmışdır. Dərin neft və qaz quyularının qazılmasında tətbiq olunan üçşaroşkalı baltaların təkmilləşdirilməsi, yüksək dayanıqlı qazıma baltalarının yaradılması sahəsində tədqiqat aparmışdır. Yüksəkixtisaslı kadrların hazırlanmasında xidmətləri var.



**BƏDƏLOVA** Aytac Nəzif qızı (d. 30.6. 1960, Bakı) – ekologiya sahəsində Azərb. alimi, texnika e.d. (2009), prof. (2011). Bakı Dövlət Un-tini bitirmişdir (1984). 1978–98 illərdə Azərb. Milli Aerokosmik Agentliyinin Ekologiya İn-tunda müxtəlif vəzifələrdə çalışmışdır. 2002 ildən Milli Aviasiya Akademiyasında ətraf mühitin aerokosmik monitorinqi kafedrasında işləyir. Tədqiqatları Xəzər dənizinin ekoloji vəziyyətinin öyrənilməsinə həsr edilmişdir. 45 elmi əsərin müəllifidir.

**BƏDƏVAR,** Bədəlabad – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Ətraf bölgəsinin Fərvərəq kəndistanında, Xoy ş.-ndən 5 *km* şm.-q.-dədir.

**BƏDƏVİ** Əbdürrəhman (4.2.1917–25. 7.2002) – fəlsəfə tarixçisi, tərcüməçi, şair. B. Misirdə varlı kəndli ailəsində anadan olmuşdur. Qahirə Un-tini bitirmişdir (1938). Burada yunan fəlsəfəsi tarixindən fransız dilində dərs demişdir. B. Eyn üş-Şəms Un-tində fəlsəfə fakültəsini təsis etmiş (1950) və onun dekanı (1971 ilədək) olmuşdur. Livanda, Fransada, Liviyada və s. ölkələrdə ilahiyyatdan, sufilikdən, müasir fəlsəfədən mühazirələr oxumuşdur. Sorbonna Un-tinin (Paris) İslam Tədqiqatları İn-tunun fəlsəfə şöbəsinin prof.-u (1967) olmuşdur, B. 1977 ildə Fransaya mühacirət etmiş və ömrünün sonunadək orada yaşamışdır. B. siyasi publisistika və bədii yaradıcılıqla da məşğul olmuşdur. "Filosofların şeyxi" adlanan B. "Yunan fikrinin payızı", "Aristotelin məntiqi", "Platon", "İslamda bidətçilik tarixindən", "İslamın narahat şəxsiyyətləri", "İslamda kamil insan", "Orta əsrlər fəlsəfəsi", "Şopenhauer", "Nitsşe", "Hegelin hüquq və siyasət fəlsəfəsi", "Hegelin estetika və incəsənət fəlsəfəsi" və s. əsərlərin müəllifidir.

*Əd.:* Кулиева С. Шейх философов Абдуррахман Бадави и проблемы истории философии. Б., 2003.

**BƏDƏVİ** Əbu Fityan (yaxud Əbu Abbas) Əhməd Sidi əş-Şərif əl-Bədəvi (1199/1200, Mərakeş, Fəs – 24.8.1276, Misir, Tanta) – sufi, daha çox Misirdə yayılmış bədəviyyə (digər adı əhmədiyyə) təriqətinin yaradıcısı. Özünü *Əli ibn Əbu Talib* nəslinə bağlayan B. ailəsi ilə 1206–10 illərdə Məkkəyə köçmüş və burada Quranı, müsəlman hüququnu öyrənmişdir. 1236 ildə İraqa getmiş, orada Rifaiyyə təriqətinə qəbul edilmişdir. 1237 ildə Tantada təriqət başçısı olmuşdur. Misirin məmlük sultanı *Bəybars* B.-nin ardıcıllarından biri idi. B.-nin ölümündən sonra şagirdləri onun məzarı üstündə məscid tikdirmişlər; hazırda ora ziyarətgahdır.

Əhmədiyyə təriqətinin gizli duası, dualar toplusu və ruhani vəsiyyət B.-yə aid edilir. B. sufiliklə əməli məşğul olan din xadimi idi; tənhalığa çəkilmək, susmaq, oruc tutmaq onun fəaliyyətində mühüm yer tuturdu. B. 40 günə qədər qidasız və susuz qala bilir, damda hərəkətsiz vəziyyətdə duraraq günəşə baxır, sükunət halını qışqırıqlarla növbələyirdi. B.-nin şagirdlərini "əshab əs-səth" (ər. "dam insanları") adlandırırdılar. B.-nin adı ilə bağlı bir sıra möcüzələr (ölülərin dirilməsi, əsirlərin əsirlikdən azad olmaları və s.) haqqında rəvayətlər mövcuddur.

B. peşəkar qadın müğənnilərin və rəqqasələrin himayəçisi hesab edilir. Misirdə *həccə* getməzdən əvvəl B.-nin qəbrini ziyarət etmək qəbul olunmuşdur. B.-nin mövluduna həsr olunmuş şənliklər Tantada il ərzində üç dəfə keçirilir və atəşfəşanlıqla müşayiət olunur. Əhmədiyyə təriqətində qırmızı bayraqlar və çalmalar qəbul edilmişdir.

**BƏDƏVİLƏR** (hərfi mənada "səhra sakinləri") – Asiyanın ərəb ölkələrinin, Misirin (Məşriq) və Şimal-Qərbi Afrikanın (Məğrib) köçəri əhalisi. Ərəb dilinin oturaq əhalinin dialektlərindən fərqlənən dialektlərində danışırlar. B.-ə birhürgüclü dəvə-dromedar yetişdirən və yun çadırlarda yaşayan səhra köçəriləri; dəvə, həmçinin keçi və qoyun yetişdirən və maldarlıqla yanaşı əkinçiliklə də məşğul olan, çöllərdə, vadilərdə və dağlarda yaşayan yarımköçəri və yarımoturaq əhali; həmçinin köçəri əcdadların nəsilləri ol-

duğunu unutmayan oturaq əhalinin bir hissəsi aid edilir. Nüfuzluluğuna baxmayaraq atçılıq təsərrüfatda dəvəçilikdən daha az əhəmiyyət kəsb etmişdir. Köçərilərin əsas yeməkləri dəvə südü, yaxud qatıq, metal yarımkürədə bişirilmiş şit kökə, xurmadır. Çörək, xurma, kişmiş, düyü, qəhvə və ədviyyatı oturaq əhalidən alırlar. Səhrada səfər zamanı qovrulmuş arpa, yaxud buğda dəni ilə bir neçə gün qidalanırlar. Yarımköçərilər həmçinin buğda sıyığı (ayş – hərfi mənası "həyat"), ət, tuluqlarda mayalanan keçi və qoyun südü ilə qidalanırlar; ondan çalınan yağı (samn) əridib saxlayır, kəsmik, quru süzmə (qurut) və quru pendir (cubna) hazırlayırlar.

B. yığıcılıq (bitki kökləri, ot və meyvə, yerdombalanı, çəyirtkə, ilbiz), həmçinin quş (bildirçin, çölgöyərçini, dovdaq, dəvəquşu), ceyran, dağkeçisi, cüyür, oriks (çölinəyi), qulan (çöleşşəyi), canavar, tülkü, çölpişiyi, kaftar, dovşan, marmot, porsuq, çöl kərtənkələsi-varan və s. ovu ilə məşğul olurlar. Ov zamanı xüsusi təlim görmüş alıcı quşlardan və bəbirlərdən, Ərəbistanın saluki cinsindən olan itlərdən istifadə edirlər. Ox-kaman və yivsiz lüləli tüfəngdən yivli odlu silaha keçdikdən sonra oriks, qulan, cüyür və dəvəquşuları demək olar ki, məhv edilmişdir. Yeməklərində kirpi (tikanlarından dəvələr üçün həmayil düzəldirlər), oxlu kirpi, ilan; dini qadağalara baxmayaraq qaban ətindən istifadə edirlər. Meşə arıçılığı və arıçılıqla, sahilboyu ərazilərdə isə balıqçılıqla məşğul olurlar.

B. mədəni-təsərrüfat tipi Ərəbistan səhrasının köçərilərində formalaşmışdır. Bunlardan ilk dəfə Əhdi-ətiqdə, e.ə. 8–6 əsrlərdə Aşşur və Yeni Babil çarlarının salnamələrində bəhs edilmişdir. Kaman formasında olan yəhərlərinin yayılması ilə əlaqədar e.ə. 3 əsrdə dəvədən minik vasitəsi kimi istifadə kəskin şəkildə artdı. Bu, B.-in oturaq qonşularına hücumlarını asanlaşdırdı. Mərkəzi hakimiyyətin zəifləməsi bədəvi tayfalarının fəaliyyətini artırdı. Tayfalar ata xətti ilə qohum olan ailə qruplarına bölünür. Nəsil şəcərəsinə çox böyük əhəmiyyət verilir. Tayfanı tayfa başçısı və hərbi başçı (mükəddam, amid), həmçinin adət bilicisi, hakim (hakam), şair (islamaqədərki dövrdə isə kahin) idarə edirlər.

Ə n ə n ə v i  ş i f a h i  m ə d ə n i y y ə t l ə r i n d ə çox vaxt rəqslə müşayiət olunan mahnı, həmçinin solo oxumalar əsas yer tutur. Yayla çalınan birsimli *rübab*, müxtəlif membrafonlar, uzununa fleytalar, qoşa qamış dilçəkli mizmar daha geniş yayılmış musiqi alətləridir. Əsas janrlara əmək, hərbi və dəvə çarvadarlarının mahnıları aiddir; müxtəlif tayfa nümayəndələrinin görüşlərində öz tayfasını mədh edən və düşmənləri yamanlayan qısa mahnılar (zamil) ifa olunur. Silahla, bəzən dəf ilə müşayiət edilən rəqslər yayılmışdır. Şimali Afrikaya yürüş edən bəni-hilal ərəb tayfasından bəhs edən hilali eposu (baş qəhrəmanı Əbu Zeyd əl-Hilali) qürub çağı dəf, yaxud rübabın müşayiəti ilə ifa olunan melodeklamasiyalardan ibarətdir. Rəqslə müşayiət olunan ağılar, beşik mahnıları, ata evindən çıxan gəlin üçün oxunan mahnılar yayılmışdır. B.-in musiqisi və ərəb musiqi mədəniyyətinin şəhər formaları bir-birinə qarşılıqlı təsir edir. B.-in mədəniyyəti ümumərəb mədəniyyətinin əsasını təşkil etmişdir. Onların oturaq həyata keçməsi öz keçmişlərinə maraqlarının güclənməsi ilə müşayiət olunur.

**BƏDƏVİLƏR ÜSYANI** – 1253 ildə Misirdə Bəhri *məmlüklərinə* qarşı baş vermişdir. İştirakçıları Şimali Afrikada yaşayan köçəri ərəblər, əsasən, bədəvilər olmuşlar. Yuxarı Misirin 12 min suvaridən və çoxlu piyadadan ibarət üsyançı qoşunu şm.-a doğru hərəkət etmişdir. Lakin Sultan Aybəkin qoşunları üsyanı yatırmışdır. Aşağı Misir bədəviləri də hökumət qoşunları tərəfindən məğlubiyyətə uğradılmışdır.

**BƏDİ ƏZ-ZAMAN** (Əbü-l-fəzl Əhməd ibn əl-Hüseyn əl-Həmədaninin təxəllüsü; 969, Həmədan – 1007, Herat) – ərəb yazıçısı, alim. Həmədanda təhsil almışdır. Müxtəlif elm sahələrinə dair risalələrin müəllifidir. Lakin ona şöhrət qazandıran məqamələri (lətifəvarı kiçik hekayələr) olmuşdur. Təzkirələrdə 400 məqamə yazdığı qeyd edilsə də, həlalik 51-i məlumdur. Məqamələrin baş qəhrəmanı Əbü-l-fəth əl-İsgəndəridir. Müəllif onun vasitəsilə müxtəlif ölkələrdə gördüyü ictimai qüsurları ifşa edir. Yazıçı məqamələrində Azərb.-a da geniş yer vermiş, onun gözəl təbiətini vəsf etmişdir. Məqamələri 20 əsrədək ərəb yazıçılarının yaradıcılığına təsir göstərmişdir.

Ə s ə r i: Макамы. СПб., 1999.

**BƏDİ ƏZ-ZAMAN** Təbrizi (təxəllüsü N i k n i g a r; ?–?) – 16 əsrin sonu–17 əsrin əvvəllərində yaşamış Azərb. xəttatı. Sənətkarlığı atası rəssam Əli Rza Abbasi Təbrizidən öyrənmişdir. B. xəttatlıq sənətində şöhrət qazanmış, xüsusilə *nəstəliq* xəttində gözəl yazmışdır. Şair kimi də tanınmışdır. Onun mənzum əsərlərindən bir qitə Azərb. MEA Əlyazmaları İnstitunda, digər qitə isə Tehran kitabxanasında saxlanılır.

**BƏDİİ** (?–?) – 16 əsr Azərb. şairi. Həyat və yaradıcılığı haqqında məlumat çox azdır. Şah I Təhmasib dövründə yaşamışdır. Ana dilində yazmışdır. "Dila, müqəyyədi-ol ənbərin kəmənd ola gör, Qərib silsilədir zülfi-yar bənd ola gör" mətləli qəzəli məlumdur.

*Əd.:* Azərbaycan ədəbiyyatı tarixi. C. 1. B., 1960; A r a s l ı H. Böyük Azərbaycan şairi Füzuli. B., 1958.

**BƏDİİ DETAL**, b ə d i i  t ə f ə r r ü a t – bədii yaradıcılıqda istifadə olunan real ifadə və təsvir vasitəsi. Təkcə təsviri xarakter daşımır, həm də bədii obrazın ideya və məzmununun açılmasına xidmət edir. B.d. mənzərə və portret yaradılmasında, hadisə, hərəkət və nitqin təqdimində əsas ünsürdür. Realist bədii nəsrdə B.d. xüsusi əhəmiyyət kəsb edir. M.F. Axundzadə, C. Məmmədquluzadə, Ə. Haqverdiyev, C. Cabbarlı və b.-nın əsərlərində orijinal B.d.-lar çoxdur; məs., C. Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" povestində Xudayar bəyin burnunun əyriliyinin təsviri portret səciyyəli B.d.-dır.

*Əd.:* V ə l i y e v K. Sözün sehri. B., 1987.

**BƏDİİ DİL**, b ə d i i  n i t q – ədəbi əsərlərin dili. B.d. digər nitq növlərindən (rəsmi kargüzarlıq, mətbuat, elmi, adi danışıq dili və s.) obrazlılığı və emosionallığı ilə fərqlənir.

*Ədəbi dilin* spesifik üslublarından sayılan B.d.-in başqa nitq növlərindən fərqi sənətkarlıq baxımından işlənib cilalanmasında, ədibin xüsusi məqsədlərinə tabe edilməsində və yaradıcılıq məhsulu kimi təzahür etməsindədir. Başqa nitq üslublarında dilin kommunikativ və təfəkkür funksiyası başlıca rol oynadığı halda, bədii nitqdə estetik qayə ön plana keçir.

B.d. ədəbi dildən əvvəl meydana gəlmiş və onun formalaşmasında həlledici rol oynamışdır.

*Əd.:* A x u n d o v A. Dilin estetikası. B., 1985; V ə l i y e v K. Sözün sehri. B., 1987; M ə m m ə d o v A. Sözümüz eşidilənədək. B., 1988; В и н о г р а д о в В.В. О теории художественной речи. M., 1971; Л а р и н Б.А. Эстетика слова и язык писателя. Л., 1974.

**BƏDİİ FİLM** – 1) müəyyən ədəbi ssenari əsasında, bir qayda olaraq bədii uydurma ilə yaradılan, eyni zamanda rejissor traktovkası, aktyor oyunu, operator sənəti və s. vasitələrin sintezi olan film növü; 2) daha geniş mənada – ümumiyyətlə kino sənəti əsəri. B. f. nəinki bədii kino formasında, həmçinin sənədli, animasiya, elmi-populyar formalarda da ola bilər.

**BƏDİİ İDEYA** – bədii əsərin əsas qayəsini, müəllif niyyətini təcəssüm etdirən obrazlı fikir. Bədii əsərlərdə ideya sosial-estetik mahiyyət daşıyır. İncəsənətdə B.i.-nın fəlsəfi-estetik mahiyyəti müəllifin və əsərin obyektiv gerçəkliyə estetik münasibətini əksetdirmə səviyyəsi ilə müəyyənləşir. B.i. əsərin mövzusu və məzmunu ilə bağlı olur.

Bir sıra əsərlərdə müəllif müdaxiləsi, tendensiya açıq şəkildə təzahür edir. Bəzən də əksinə, müəllif qayəsi mətnaltı mənalarda ifadə olunur. Yazıçının dünyagörüşü və yaradıcılıq metodunun inkişafı ilə bağlı B.i. da dəyişir.

*Əd.:* П о с п е л о в Г.Н. Эстетическое и художественное. M., 1965.

**BƏDİİ QİRAƏT** – estrada sənəti növü; ədəbi əsərlərin (nəsr, poeziya, pyeslərdən monoloqlar) tamaşaçı qarşısında oxunması. B.q.-çi hər hansı ədəbi əsərin məzmununun açılmasında özünəməxsus artistlik təxəyyülü, emosionallıq, aydın tələffüz və s. bədii ifadə vasitələrinə əsaslanır. Azərb.-da H. *Qurbanova*, R. *Əfqanlı*, Ə. *Zeynalov*, *Kazım Ziya*, M. *Mərdanov*, S. Nəcəfov, M. Cənizadə, L. *Məmmədbəyov*, S. *Rzayev*, X. Rüstəmzadə, H. *Xanızadə*, H. *Əbluc*, Ə. *Yusifqızı*, M. *Mirzəyev* və b. B. q. ustaları olmuşlar. Müasir B.q. ustalarından İ. *Əsgərov*, L. Mustafayeva və b. tanınmışlar.

**BƏDİİ LAK** – dekorativ-tətbiqi sənət növü. Üzəri lakla işlənən ağac, papye-maşe (yapışqan, gips və təbaşirlə qarışdırılmış kağız kütləsindən ibarət bərk maddə) və ya metaldan düzəldilən bədii məmulat. B.l. ilk dəfə (e.ə. 2-ci minilliklə) Şərq ölkələrində (Çin, Yaponiya) yaranmışdır. Bu ölkələrin B.l. sənəti üçün mənzərə, çiçək, məişət səhnələrinin təsviri xarakterikdir. Hələ 15–18 əsrlərdən İran, Hindistan və Mərkəzi Asiyada (Herat) papye-maşedən tempera boyası ilə işlənib laklanmış miniatürlər məlumdur (mücrü, qələmdan və s.). 18 əsrdən sonra B.l. Avropada da inkişaf etməyə başladı. Rusiyada Palex, Mstyora, Fedoskino k.-ləri B.l. mərkəzləridir. Burada üzəri zərif şəkillərlə bəzədilib lakla örtülmüş mücrü, sandıqça və s. məişət əşyaları hazırlanır. 16–18 əsrlərdə Azərb.-da B.l. sənəti ustaları təbii qatran növü olan səndərus yağından istifadə edərək Təbriz və Şirvanda qələmdan, kitab cildi, ayna çərçivələri və s. hazırlamışlar.

Məcməyi. Papye-maşe, yağ, zər, rəsm, lak. 1830–40. Ermitaj.



**BƏDİİ METOD** – ədəbiyyat və incəsənətdə gerçəkliyin ideya-estetik inikasının, tipikləşdirilməsinin əsas prinsiplərinin məcmusu. B.m. anlayışının estetik kateqoriya səviyyəsində təsbiti antik dövrdən məlumdur.

B.m. hər bir dövrün bədii yaradıcılığında gerçəkliyin müəyyən ideya-estetik, ictimai ideal mövqelərindən obrazlı-emosional təcəssümü nəticəsində formalaşır. B.m. sənətkarın yaradıcılığının yekunu, xülasəsi kimi başa düşülməlidir. Burada müəllifin obrazlı düşüncə qabiliyyəti, eləcə də əsərlərinin bədii formasında, özünəməxsusluğunda ifadə olunan yaradıcı təfəkkürü həlledici rol oynayır. B.m. dinamik prosesdir; o, tarixən şərtlənərək yazıçının, sənətkarın fasiləsiz yaradıcılıq axtarışları, bədii kəşfləri vasitəsi ilə təkmilləşir, yenidən formalaşır, inkişaf edir. Eyni sosial gerçəklik şəraitində müxtəlif B.m.-lar yanaşı mövcud ola bilər. Məs., 20 əsrin əvvəllərində Azərb. ədəbi prosesində realizmlə yanaşı, romantizm də geniş yayılmışdı.

*Əd.:* Г а д ж и е в А. Романтизм и реализм. Б., 1972; A r i s t o t e l. Poetika. B., 1974; Q a r a y e v Y. Sənət və həqiqət. B., 1980; S a l m a n o v Ş. Müasirlik mövqeyindən. B., 1982; Mir Cəlal. Azərbaycanda ədəbi məktəblər. B., 2004.

**BƏDİİ OBRAZ** – gerçəkliyin yalnız incəsənətə məxsus spesifik inikas və idrak üsulunu səciyyələndirən estetik kateqoriya. Bədii əsərdə yaradıcılıqla təcəssüm etdirilən hər şey (insan surətləri, xalq, müharibə, təbiət obrazları və s.) B.o. adlandırılır. *Bədiiliyin* əsas meyarlarından biri, gerçəkliyi estetik ideal mövqeyindən əks etdirməyin forması olan B.o. *bədii ümumiləşdirmənin* nəticəsi kimi meydana çıxır. Ədəbiyyat və incəsənətdə B.o. ümumiliyin fərdi, həm də konkret təzahür forması kimi reallaşır. Onun üçün fərdiləşdirmə, tipikləşdirmə mühüm şərtdir. B.o. sənətin idraki funksiyası ilə bağlı olub, gerçəkliklə sənətkar arasında özünəməxsus dialoqdur, sənətkar fantaziyası (bax *Bədii təxəyyül*), duyum, ilham və s. subyektiv amillərlə də bilavasitə əlaqədardır. B.o. yaradılması üç mərhələni (sənətkar-əsər-oxucu; musiqidə dinləyici, teatrda və təsviri sənətdə tamaşaçı və s.) birləşdirir. B.o. təcəssümün formasından asılı olaraq, təsviri, əyani və s. olur. O, insanların mənəvi həyatına, hisslərinə, ağlına güclü təsir göstərir.

*Əd.:* A b d u l l a y e v K. Sənətkar – əsər – oxucu. B., 1985; V ə l i y e v K. Sözün sehri. B., 1987; А л и б е к о в а Г. Грани художественности. Б., 1981; Л е й з е р о в Н.Л. Образность в искусстве. M., 1974; Х р а п ч е н к о М.Б. Горизонты художественного образа. M., 1982; V ə l i y e v İ.Ö. Ədəbiyyatda insan konsepsiyası. B., 1999.

**BƏDİİ OYMA** – dekorativ sənətin ən qədim və geniş yayılmış növlərindən biri; daş, ağac, kəc, metal, sümük və s. materiallar üzərində oyma üsulu ilə bədii işləmə. B.o.-nın müstəqil sahəsi *qliptikadır*. Müxtəlif növləri var. H ü n d ü r  r e l y e f l i B.o. üçün çoxplanlı kompozisiya, təsvir formalarının qabarıqlığı, işıq təzadlarının kəskinliyi və s. xarakterikdir. Y a s t ı  r e l y e f l i B.o., adətən, siluet xarakterli dayaz relyef əmələ gətirir. D ə r i n l ə ş d i r i l m i ş B.o.-da həndəsi naxışlar açılır, dırnaqşəkilli və aypara ornament elementləri nəqş edilir. K o n t u r  x ə t l ə r l ə işlənmiş B.o.-da hamar fon üzərində dərinləşdirilmiş cizgilərin dekorativ ahəngdarlığı izlənir. Ş ə b ə k ə l i (açıq) B.o.-da fon olmur, bir tərəfdən digər tərəfə keçən işıq zolaqları dekorativ kom-

Oyma bəzəkli taxta sandıq. 19 əsr. Naxçıvan.





Üzərində əjdaha və simurq quşu təsvir olunmuş bədii parça fraqmenti. İpək. Çin. 17–18 əsrlər.



Bədii parça. 16 əsr. Təbriz.

pozisiya effekti əmələ gətirir. Yapışdırma B.o.-da kəsilmiş süjetli rəsm və yaxud ornament hamar lövhəyə yapışdırılır.

Ağacdan oyma məmulatlarına lak üzlük çəkilib mumlanır, qatran, yaxud şəffaf boya ilə ton verilir, qızıl suyu çəkilir, onlar müxtəlif boyalarla rənglənir və naxışlanır, alova, yaxud hisə verilir; sümük məmulatlar isə pardaxlanır, onlara parafin hopdurulur. Şümşad ağacının, cökə, qovaq, çinar, ağcaqayın, fıstıq və s. ağacların oduncaqları, gips və əhəngdaşı, nefrit, yaşəm, malaxit və s. süxurlar əsas B.o. materialıdır. Sümük üzərində B.o.-da fil dişi, buynuz və s.-dən istifadə edilir. B.o. işləri bıçaq, balta, iskənə, müxtəlif kəsici və yonucu alətlər, mişarlar, elektrik dəzgahları vasitəsilə görülür.

Azərb.-da geniş yayılmış B.o.-dan memarlıq tikintilərinin daxili və xarici tərtibatında, müxtəlif məişət əşyalarının bəzədilməsində istifadə edilmişdir. Bakı, Şəki, Gəncə, Şamaxı, Quba, Naxçıvan və s.-lərdəki maddi-mədəniyyət abidələri və qədim məişət əşyalarında B.o. sənətinin gözəl nümunələri qalmışdır. Naxçıvan bürünc dolçası (1190, Luvr, Paris), Şirvan bürünc aftafası (12–13 əsrlər, Klivlend muzeyi, ABŞ), Şəki xanlarının sarayında gəc üzərində oyulmuş bəzəklər (18–19 əsrlər), eləcə də resp.-nın müxtəlif r-nlarından tapılmış qəbirüstü daşlar, at və qoç fiqurları Azərb. B.o. sənətinin klassik nümunələrindəndir.

*Əd.*: Rasim Əfəndi. Azərbaycan dekorativ tətbiqi sənətləri (orta əsrlər). B., 1976; yenə onun. Azərbaycan xalq sənəti. B., 1984; Двойникова Е.С., Лямин И.В. Художественная обработка дерева. М., 1958; Василенко В.М. Русская народная резьба и роспись по дереву XVIII–XX vv. М., 1960.

**BƏDİİ ÖZFƏALİYYƏT** – xalq yaradıcılığı növü; teatr, musiqi, xoreoqrafiya, təsviri və tətbiqi sənət sahəsində geniş xalq kütləsinin yaradıcılıq fəaliyyəti. B.ö. iştirakçıları, adətən, müxtəlif idarələrin, müəssisələrin, hərbi hissələrin, ali məktəblərin nəzdində fəaliyyət göstərən kollektivlərin, studiyaların, dərnəklərin və s. üzvü olurlar. Bir çox halda daha istedadlı özfəaliyyət iştirakçıları xüsusi təhsil almaqla professional kollektivlərdə peşəkar sənətkar səviyyəsinə yüksəlirlər. Azərb.-da da B.ö. xalq yaradıcılığı növü kimi geniş yayılmışdır. Azərb. Dövlət Gənc Tamaşaçılar Teatrı, Azərb. Dövlət Mahnı və Rəqs Ansamblı, Sumqayıt Dövlət Dram Teatrı və s. özfəaliyyət kollektivlərindən təşkil olunmuşdur. Azərb.-da B.ö.-in inkişafında Ü. *Hacıbəyli*, H. *Sarabski*, *Bülbül*, T. *Quliyev* və b.-nın böyük rolu olmuşdur. Bakıdakı İ. Əbilov ad. mədəniyyət mərkəzində A. Gəray ad. "Şəlalə" xalq çalğı alətləri ansamblı, "Könül" xalq rəqs ansamblı, "Ailə" xalq ansamblı, "Oğuzlar" xalq ansamblı, A.M. Şərifzadə ad. mədəniyyət mərkəzində "Xudafərin" instrumental ansamblı, H. Abbasov ad. mədəniyyət evinin "İstedad" xalq çalğı alətləri ansamblı, "Aşıqlar" kollektivi, Nizami ad. mədəniyyət mərkəzinin xalq teatrı kollektivləri indi də fəaliyyət göstərir.

Azərb. Resp.-nda yaşayan azsaylı xalqların da B.ö. kollektivləri var. Bakı şəhərində "Suvar" ləzgi mahnı və rəqs ansamblı, Lənkəranın "Nənələr" talış folklor xalq mahnı kollektivi, Masallı r-nu "Halay" xalq mahnı və rəqs kollektivi, Balakən r-nu "Şəlalə" rəqs qrupu, Zaqatala r-nu "Hudulki" rəqs kollektivi, Saatlı r-nu "Adıgün" türk xalq kollektivi, Qəbələ r-nu "Cəngi" ansamblı, R. Təhmasib ad. Şərur r-n mədəniyyət evinin xalq teatrı, Şabran r-nu "Xınayaxdı" xalq kollektivi, Lerik r-nu "Rəfti" uzunömürlülər xalq rəqs kollektivi və s.

**BƏDİİ PARÇA** – üzəri dekorativ naxışlarla bəzədilmiş toxuma parça məmulatı. B.p. naxışlarında əfsanəvi, dini süjetlərdən, nəbati, həndəsi və yaxud qarışıq rəsm motivlərindən istifadə olunurdu. İpək, yun, pambıq və s. materiallardan toxunan B.p.-dan müxtəlif geyimlər, süfrə, pərdə, mebel örtüyü və s. hazırlanırdı. B.p. istehsalı hələ qədim misirlilərə və antik dünyaya məlum idi. 20 əsrdə B.p. istehsalında Fransa, İtaliya, Çin, Hindistan, Yaponiya da xüsusi yer tuturdu.

Azərb.-da B.p. istehsalının qədim tarixi var. Orta əsrlərdə Şamaxı, Gəncə, Təbriz və Bakıda toxunan parçalar xarici bazarlarda satılırdı. Onların bəzi nümunələri Rusiya, Avropa və Amerikanın bir sıra muzeylərində saxlanılır. Hazırda Azərb.-da B.p., əsasən Şəki ipək kombinatında (ipəkdən) və Bakı toxuculuq kombinatında (pambıqdan) hazırlanır.

**BƏDİİ ŞƏRTİLİK**, ədəbiyyat və incəsənətdə – həyatı obrazlı əksetdirmə üsulu. Bədii təsvir prinsipi olmaqla, obrazın təsvir edilən obyektlə bütünlüklə eyni olmamasıdır. B.ş. anlayışı tarixən dəyişkəndir; məs., Homerin mifoloji obrazları öz dövrünə görə həyati olduqları halda, klassisizm ədəbiyyatında sırf şərtidir. Bədii ədəbiyyatda şərtilik, əsasən, bədii təsvir vasitələrinə, obraza və zamana münasibətdə təzahür edir. Dünya ədəbiyyatında İ.V. Götenin "Faust", F. Kafkanın "Çevrilmə", rus ədəbiyyatında N.V. Qoqolun "Burun", M.A. Bulqakovun "Usta və Marqarita" əsərləri, Azərb. ədəbiyyatında H. Cavidin "İblis", Ə. Haqverdiyevin "Pəri cadu" pyesləri, Y.V. Çəmənzəminlinin "Qızlar bulağı", Y. Səmədoğlunun "Qətl günü", Elçinin "Ağ dəvə", M. Süleymanlının "Köç" romanları və s. B.ş. prinsipi əsasında yazılmışdır. Azərb. təsviri sənətində də B.ş. ünsürlərinə təsadüf olunur (R. Babayev, M. Mircavadov, Cahid Camal və b.-nın yaradıcılığı). B.ş.-yə təmsil, elmi fantastika və s. janrlar daha çox meyil edir. Ədəbiyyat və incəsənətdə B.ş.-in üslub səviyyəsinə qalxması mifologiya və folklordan geniş istifadə olunması ilə bağlıdır (bax *Alleqoriya*, *Qrotesk*, *Simvol*, *Fantastika*).

**BƏDİİ TƏXƏYYÜL** – yaşanmış duyğu, hiss və qavrayışların, təsəvvür və təəssüratların xəyalda canlandırılması və yenidən yaşanması əsasında bədii obraz yaratmaq prosesi və onun nəticəsi. B.t. yaradıcılıq prosesinin bütün mərhələləri (gerçəkliyin qavranılması, mövzu və ideya, məzmun və forma, xarakter və obrazlar, əsər üzərində iş və s.) üçün səciyyəvidir. B.t. sənətkarın fərdi-psixoloji tipindən, estetik zövqündən, şəxsi və ictimai təcrübəsindən, dünyagörüşü və yaradıcılıq metodundan, bilik və intuisiyasından asılıdır. Belə ki, romantik sənətkarla realist sənətkarın B.t.-ü bir-birindən fərqlənir: M.Ə. Sabir və C. Məmmədquluzadənin B.t.-ü H. Cavid və M.Hadi təxəyyülündən seçilir.

**BƏDİİ TƏRBİYƏ** – bax *Estetik tərbiyə*.

**BƏDİİ TƏRCÜMƏ** – ədəbi yaradıcılıq növü, bir dildə olan əsərin başqa dildə təcəssümü. B.t. tərcümə olunan əsərin obrazlar düzümünü başqa dilin ifadə vasitələri ilə ekvivalent ifadə etmək kimi mürəkkəb yaradıcılıq prosesidir. O, orijinal yaradıcılıqdan tərcümə obyektindən asılı olması ilə fərqlənir.

B.t. sahəsində qədimdən bir-birinə zidd iki baxış hökm sürür: orijinalın mətninə yaxınlıq; oxucuların bədii qavrayışına yaxınlıq. Hər iki təmayülün dialektik vəhdəti daha səmərəli olur. Tərcümə olunan əsərin dilini bütün incəlikləri ilə, həmçinin ədəbi ana dilini dərindən bilmək, əsərdə haqqında bəhs olunan ölkənin, xalqın həyatına, tarixinə və ədəbiyyatına, milli psixologiyasına və mənəviyyatına, tərcümə olunan müəllifin bütövlükdə yaradıcılığına bələd olmaq B.t.-nin əsas şərtlərindəndir.

Azərb.-da B.t.-nin tarixi qədimdir. Orta əsrlərdə bir sıra əsərlər fars dilindən Azərb. dilinə (15 əsrdə Əhmədi Təxəllüslü şair-tərcüməçi F. Əttarın "Əsrarnamə", Şeyx Əlvan Şirazi Mahmud Şəbüstərinin "Gülşəni-raz", M. Füzuli Ə. Caminin "Hədisi-ərbəin" əsərini) tərcümə olunmuşdur. Orta əsrlərdə bir sıra nəsr əsərləri də Azərb. dilinə tərcümə edilmişdir: Məhəmməd ibn Hüseyn Nişatinin "Rövzət üş-şühəda" (Vaiz Kaşifi, "Şəhidlər bağı") əsərinin "Şühədanamə" adı ilə tərcüməsi, eləcə də onun "Şeyx Səfi təzkirəsi" adlı tərcümə əsəri.

19 əsrin əvvəllərində Əvəz Əli ibn Səfiqulu "Kəlilə və Dimnə"ni Azərb. dilinə tərcümə etmişdir. M.F. Axundzadənin A.S. Puşkinin ölümünə "Şərq poeması"-nı, İ.A. Krılovun "Eşşək və bülbül" təmsilini tərcümə etməklə A. Bakıxanov Azərb.-da tərcümə işinə yeni istiqamət vermişdir. M.F. Axundzadənin komediyaları Tiflisdə rus dilində nəşr olunmuş (1853), sonralar fars və Qərbi Avropa dillərinə tərcümə edilmişdir. 19 əsrin 2-ci yarısı – 20 əsrin əvvəllərində Azərb.-da rus və digər xalqların ədəbiyyatından bir sıra əsərlər tərcümə olunmuşdur. Bu sahədə Həsənəli xan Qaradaği, F. Köçərli, R. Əfəndiyev, A. Şaiq, S.M. Qənizadə, M.Ə. Sabir, xüsusilə A. Səhhətin və b.-nın böyük xidməti olmuşdur.

Dünya ədəbiyyatının bir sıra şah əsərləri (Nizaminin poemaları, Firdovsinin "Şahnamə", Sədinin "Bustan", "Gülüstan", Homerin "İliada", "Odisseya", Dantenin "İlahi komediya", Bokkaççonun "Dekameron", U. Şekspirin "Otello", "Hamlet", M. de Servantesin "Lamançlı Don Kixot", İ.V. Götenin "Faust", V. Hüqonun "Səfillər", O.de Balzakın "Qorio ata", Ş. Rustavelinin "Pələng dərisi geymiş pəhləvan", A.S. Puşkinin "Yevgeni Onegin", L. Tolstoyun "Hərb və sülh", M. Şoloxovun "Sakit Don", İbsenin pyesləri və s.) Azərb. dilinə tərcümə edilmişdir. Bu sahədə C. Cabbarlı, Ə. Cavad, S. Vurğun, S. Rüstəm, R. Rza, M. İbrahimov, M. Rahim, M. Rzaquluzadə, M. Dilbazi, Ə. Cəmil, N. Rəfibəyli, Ə. Məmmədxanlı, Ə. Kürçaylı, X. Rza, T. Bayram kimi görkəmli sənətkarlarla yanaşı, peşəkar tərcüməçilər – Ə. Şərif, M. Arif, M. Rəfili, B. Musayev, Cahanbəxş, Hüseyn Şərif, V. Qafarov, İshaq İbrahimov, İslam İbrahimov, A. Əliyev və b. fəal çalışmışlar. Yüzcildlik "Dünya ədəbiyyatı kitabxanası" (30 cildi çıxmışdır), əllicildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası" seriyaları və s. çoxcildli tərcümə nəşrləri buraxılmışdır. Azərb. YB yanında *Bədii tərcümə və ədəbi əlaqələr mərkəzi* yaradılmışdır (1989).

50-ci illərdən başlayaraq ədəbiyyatşünaslığın yeni bir sahəsi – B.t. nəzəriyyəsi yaranmağa başlamışdır. Azərb.-da B.t.-nin tarixinə, nəzəri və təcrübi problemlərinə həsr olunmuş monoqrafiyalar nəşr olunmuş, dissertasiyalar yazılmış, diskussiyalar keçirilmişdir. Azərb. MEA Nizami ad. Ədəbiyyat İn-tunda B.t. problemləri bölməsi fəaliyyət göstərir. Azərb. Dillər Un-tində, Bakı Slavyan Un-tində, Bakı Dövlət Un-tinin Şərqşünaslıq fakültəsində tərcümə nəzəriyyəsi tədris olunur.

*Əd.*: Əzimov C. Tərcümə prinsipləri. B., 1955; Məmməd Arif. Bədii tərcümə. Əsərləri, 3 cilddə, c. 1. B., 1967; Səməd Vurğun. Bədii tərcümənin nəzəri və təcrübi məsələləri haqqında. Əsərləri, 6 cilddə, c.5. B., 1972; Федоров А.В. Основы общей теории перевода. 3 изд., М., 1968; Велиханова Ф. Русские переводы поэзии Самеда Вургуна. Б., 1968; Рагойша В.П. Проблемы перевода с близкородственных языков. Минск, 1980.

**BƏDİİ ÜMUMİLƏŞDİRMƏ** – incəsənətin müxtəlif formalarında həyatı əks etdirmə üsullarından biri. B.ü. təsvir olunan hadisə və vəziyyətlərin ən mühüm, tipik və səciyyəvi xüsusiyyətlərinin bədii obrazlarda təcəssümünü tələb edir. Bu, elmi təfəkkürlə bədii təfəkkürün yaxınlığını, incəsənətdəki spesifik obrazlılığın da məntiqi məfhumlar kimi insan təfəkkürünün abstrakt fəaliyyəti nəticəsində yaranmasını şərtləndirir. Yaradıcının fərdi-intellektual xüsusiyyətlərindən asılı olaraq B.ü. prosesində elmi biliklərin, faktları konkret araşdırmanın rolu az və ya çox ola bilər. Müəllif mühüm olanı fərdilikdə ümumiləşdirərək, insanlara xas ümumi xüsusiyyətləri, müəyyən ictimai qrupun əxlaqının, adətlərinin ümumi cəhətlərini sənət əsərində əks etdirir.

**BƏDİİ ÜSLUB** – bax *Üslub*.

**BƏDİİ ÜSUL** – incəsənətdə, xüsusən bədii ədəbiyyatda sənətkarın qarşıya qoyduğu məqsədi orijinal, daha emosional tərzdə çatdırmaq üçün istifadə etdiyi manera. Əsərin kompozisiyası, quruluşu, üslubu, süjetin gedişi, obrazların düşdüyü vəziyyət, yazıçı təhkiyəsi və s. ilə bağlı

olur. Bəzən B.ü. yaradıcılıq metodu ilə eyniləşdirilsə də, metod daha geniş anlayışdır.

Yaradıcılıq axtarışları sənətkara müxtəlif vasitə və üsullardan (mifik, əfsanəvi elementlərdən, metaforik vasitələrdən, zaman etibarilə müxtəlif dövrlərə məxsus hadisə və xarakterlərin əlaqələndirilməsindən, qrotesk və fantastika nümunələrindən) bəhrələnməyə imkan verir.

İncəsənətin müxtəlif sahələri (rəssamlıq, heykəltəraşlıq, kino sənəti və s.) B.ü.-ların rəngarəngliyinə görə fərqlənir.

**BƏDİİLİK** – estetik kateqoriya; ədəbiyyat və incəsənət əsərlərinin əsas xüsusiyyəti, sənətdə gözəllik forması; estetik məziyyətin yüksək təzahürü. B.-in əsas prinsipini tarixilik, yəni cəmiyyətin ayrı-ayrı inkişaf dövrlərinin bədii funksiyalarının həmin dövrün konkret vəzifə və tələbləri ilə dialektik üzvi bağlılığı təşkil edir. B.-in zəruri amili və şərti b ə d i i  i s t e d a d d ı r. B. üç əsas aspektin vəhdəti kimi dərk edilməlidir: yaradıcı şəxsiyyət və yaradıcılıq prosesi, bədii əsər və onun vahid bədii sistemi, qavrayış prosesi. B.-də əsərin zamanla, dövrlə əlaqəsi, onun dərin ictimai-fəlsəfi dəyəri mühüm əhəmiyyət kəsb edir. Bədiilik bu və ya başqa məzmundan irəli gələn əsas bədii ifadə vasitələrinin uyğunluğu, daxilən təşkil olunması deməkdir. Əsərin kamil bədii dildə olması B.-in mühüm şərtlərindən biridir.

Geniş mənada B. sənətşünaslıq kateqoriyası olub, ictimai şüurun başqa növlərindən fərqli olaraq həyatın obrazlı – bədii inikasını verən sənətin ümumi növ əlamətini bildirir. B.-dən kənar sənət yoxdur. Dar mənada B. kamillikdir, əsərə obyektiv surətdə xas olan yüksək estetik keyfiyyəti, müəllifin yaradıcılıq niyyətini, əsərdəki b ə d i i  i d e y a n ı, b ə d i i  h ə q i q ə t i oxucuya, dinləyiciyə, tamaşaçıya olduğu kimi çatdıra bilmək sənətkarlığıdır.

*Əd.:* Q a r a y e v Y. Realizm: sənət və həqiqət. B., 1980; A b d u l l a y e v K. Müəllif–əsər–oxucu. B., 1985; Ш а м о т а Н. О художественности. М., 1958; Б а х т и н М.М. Вопросы литературы и эстетики. М., 1975; А л и б е к о в а Г. Грани художественности. Б., 1981.

**BƏDİRBƏYLİ** Leyla Ağalar qızı (8.1.1920, Bakı – 23.11.1999, Bakı) – Azərb. aktrisası. Azərb. SSR xalq artisti (1959). SSRİ (1946) və Azərb. SSR (1972) Dövlət mükafatları laureatı. Azərb. Teatr İn-tunu bitirmişdir (1952, A. *İsgəndərovun* sinfini). 1937–42 illərdə Azərb. Dövlət Filarmoniyası Mahnı və Rəqs Ansamblının solist rəqqasəsi olmuşdur. 1942–75 illərdə Azərb. Dram Teatrının aktrisası kimi fəaliyyət göstərmişdir. İlk dəfə səhnədə Zəhra rolunda ("Məhəbbət", M. İbrahimov) çıxış



etmişdir. B.-nin yaratdığı obrazlar [Dezdemona, Perdita, Oliviya ("Otello", "Qış nağılı", "On ikinci gecə" U. Şekspir), Almas, Firəngiz ("Almaz", "Oqtay Eloğlu", C. Cabbarlı), Vasantasena ("Hind gözəli", Y. Osnos və V. Vinnikov), Fəxrəndə ("Mahnı dağlarda qaldı", İ. Əfəndiyev və s.] Azərb. teatrı tarixində özünəməxsus yer tutur. Digər rolları: Qlaşa ("Tufan", A.N. Ostrovski), Dilarə ("Şərqin səhəri", Ə. Məmmədxanlı), Mehrican ("Atayevlər ailəsi", İ. Əfəndiyev), Qumral, Zinyət, İnci, Şükufə, Şəlalə ("Əliqulu evlənir", "Toy", "Xoşbəxtlər", "Aydınlıq", "Yalan", S. Rəhman), Sara, Solmaz ("Solğun çiçəklər", "Od gəlini", C. Cabbarlı), Rəfiqə ("Alov", M. Hüseyn), Lena ("Şadlıq sorağında", V.Rozov), Göyərçin ("Kəndçi qızı", M. İbrahimov) və b. B. kino aktrisası kimi də tanınmış, "Səbuhi" (1941, rej. R. Təhmasib), "Fətəli xan" (1947, rej. Y. Dziqan), "Onun böyük ürəyi" (1958, rej. Ə. İbrahimov), "Koroğlu" (1960, rej. H. Seyidzadə), "Dəli Kür" (1969, rej. H. Seyidzadə), "Dərviş Parisi partladır" (1976, rej. Ş. Mahmudbəyov) və s. filmlərdə yaddaqalan obrazlar yaratmışdır. "Arşın mal alan" (1945, rej. R. Təhmasib) filmindəki Gülçöhrə obrazı ona geniş şöhrət qazandırmışdır. Televiziya filmlərinə də çəkilmişdir: "Gilas ağacı" (1972), "Bir küçənin oğlanları" (1973), "Çarvadarların izi ilə" (1974), "Vulkana doğru" (1976), "Asif, Vasif, Ağasif" (1983) və s. Azərb. Resp.-nın "İstiqlal" ordeni ilə təltif olunmuşdur.

*Əd.:* A d i l B. Leyla Bədirbəyli. B., 1970.

L.Bədirbəyli. Zərnigar rolunda ("Dəli Kür", 1969).



**BƏDİRQALA** – Azərb. Resp. Qusar r-nunun Bala Qusar ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* şm.-ş.-də, düzənlikdədir. Əh. 760 (2008); əkinçilik, meyvəçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var.

**BƏDİRLƏNMİŞ AY** – Ayın tam işıqlı dairə şəklində görünən səthəsi. Ay təzələnəndən təqr. 2 həftə sonra əmələ gəlir. Bu zaman Ay və Günəş Yerin əks tərəflərində olur (bax *Ayın səfhələri*).

**BƏDİRLİ** – Azərb. Resp. Cəlilabad r-nunun Əliqasımlı ə.d.-ndə kənd. R-n mərkəzindən 21 *km* şm.-q.-də, düzənlikdədir. Əh. 801 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana var.

**BƏDİROV** Mürsəl Tağı oğlu (27.10.1931, Mahaçqala – 26.2.2003, Bakı) – Azərb. müğənnisi (bariton). Azərb. SSR xalq artisti (1979), Azərb. Dövlət Konservatoriyasını (indiki Bakı Musiqi Akademiyası) bitirmişdir (1956, prof. R.M. Trifonovun sinfini). Həmin ildən Azərb. Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Əsas partiyaları: Yeletski və Tomski, Onegin ("Qaratoxmaq qadın", "Yevgeni Onegin", P. Çaykovski), İqor ("Knyaz İqor", A. Borodin), Skarpia ("Toska", C. Puççini), Valentin ("Faust", Ş. Quno), Jermon ("Traviata", C. Verdi), Demon ("Demon", A. Rubinşteyn), Tonio, Silvio ("Məzhəkəçilər", R. Leonkavallo), Eldar ("Vaqif", R. Mustafayev), Nofəl ("Leyli və Məcnun", Ü. Hacıbəyli), xan ("Azad", C. Cahangirov) və s. B. kamera musiqisi ifaçısı kimi də çıxış etmişdir. 1989–2003 illərdə Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyət göstərmişdir.







**BƏDİŞQALA** – Azərb. Resp. Qusar r-nunun Gədəzeyxur ə.d.-ndə kənd. R-n mərkəzindən 11 *km* şm.-da, düzənlikdədir. Əh. 1102 (2008); əkinçilik, meyvəçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var.

**BƏDMÜŞK,** k e ç i s ö y ü d ü (Salix caprea), b i d m ü ş k, k o l v a r ı  s ö y ü d – *söyüdkimilər* fəsiləsinin söyüd cinsindən ağac. Hünd. 12–15 *m*-ə qədər olur. Gövdəsi yaşılımtıl-boz, yarpaqları ellipsvarı-enli, bəzən lansetşəkilli yumurtavarı və ya enlidir. Azərb.-ın əksər r-nlarında bitir. Oduncağı qırmızımtıldır. Tərkibində alkaloidlər, qlikozidlər və s. var. Qabığı dəri aşılamaq və qara boyaq almaq üçün işlədilir. Xalq təbabətində sınqa və qızdırmanın müalicəsində istifadə edilir. Tərkibindəki flavon xarakterli maddələr ürək-damar sistemi xəstəliklərinin müalicəsində məsləhət görülür. Erkək çiçəyindən ətirli bədmüşk arağı çəkilir. Xalq təbabətində başağrısını kəsmək üçün işlədilir, çox qan itirmiş və zəif xəstələrə bal ilə qarışdırılıb içirdilir. Balverən bitkidir. B. yarpaqlarını heyvanlar, xüsusilə keçilər çox yeyir (keçisöyüdü adı da buradandır).

Bədmüşk (Salix caprea).



**BƏDR DÖYÜŞÜ** – islam tərəfdarları ilə Məkkə *müşrikləri* arasında baş verən ilk döyüş. *Məhəmməd* ibn Abdullahın başçılıq etdiyi müsəlman qoşunu ilə *Əbu Süfyanın* rəhbərliyindəki müşrik ordusunun arasında olmuşdur. 624 ildə Məkkə–Mədinə yolu ilə Suriya karvan yolunun kəsişməsində yerləşən Bədr qəsəbəsinin yaxınlığında baş vermişdir. Məhəmməd qoşunu ilə birlikdə böyük ticarət karvanı ilə Suriyadan qayıdan Əbu Süfyanın qarşısını kəsmişdi. Hərbi qüvvə cəhətdən müsəlmanlardan dəfələrlə üstün olmalarına baxmayaraq B.d.-ndə müşriklər ağır məğlubiyyətə uğramışdılar, Qureyş tayfasının başçısı Əbu Cəhl, həmçinin bir çox müşrik öldürülmüş, müsəlmanlar böyük qənimət ələ keçirmişdilər. B.d. nəticəsində Ərəbistanda müsəlmanların nüfuzu artmış, islamın yayılması üçün şərait yaranmışdı.

**BƏDR ŞİRVANİ** (1387, Şamaxı – 1450/51, Şamaxı, yaxud Bakı) – Azərb. şairi. Mükəmməl təhsil almış, klassik Şərq ədəbiyyatını dərindən öyrənmişdir. Azərb., fars, habelə ərəb dillərində yazmışdır. 10–11 yaşlarından şeir yazmağa başlayan B.Ş., on ilə yaxın Xorasan, Gilan, Qarabağ, Təbriz, Qəbələ, Ərdəbil, Dərbənddə olmuşdur. Vətənə qayıtdıqdan sonra Şirvanşahların sarayında yaşamışdır. Ədəbi irsindən Azərb. və fars dillərində 12.500 beytdən ibarət divanı (əlyazması Özbəkistan EA Şərqşünaslıq İn-tunun kitabxanasında saxlanılır) məlumdur. Əsasən qəzəl və qəsidələr yazmışdır. Onun Şirvanşah I Xəlilullaha yazdığı 29 beytlik qəsidə Xaqaninin məşhur "Qəsideyi-şiniyyə"sinə nəziredir. Şair öz dövründə nəinki təkcə Azərb.-da, hətta İran və Orta Asiyada da qüdrətli sənətkar kimi tanınmışdır. B.Ş.-nin ana dilində yazdığı şeirlər 15 əsr Azərb. ədəbi- bədii dilini öyrənmək baxımından müstəsna əhəmiyyətə malikdir.

*Əd.:* Azərbaycan ədəbiyyatı tarixi. C.I. B., 1960; S a d ı x o v a C., R ə h i m o v Ə. Bədr Şirvaninin azərbaycanca şeirləri və dilinin bəzi xüsusiyyətləri haqqında. Azərb. SSR EA Xəbərləri (Ədəbiyyat, dil və incəsənət seriyası), 1969, № 4.

**BƏDRƏDDİN** Mahmud Simavi (3.12.1358, Simavna – 1416, yaxud 1420, indiki Yunanıstan, Serre) – türk dini mütəfəkkiri, sufi şeyxi. Müsəlman qazisi ailəsində dünyaya gəlmişdir. Ədirnədə, Konyada, Qahirədə təhsil almış, ilahiyyatşünaslığı, məntiqi, fəlsəfəni, həmçinin mistik təlimləri öyrənmişdir. Panteizmi, müxtəlif dini təriqət ardıcıllarının qardaşlığını, ümumi mülkiyyət və sosial bərabərlik ideyalarını təbliğ etdiyinə görə 1380-ci illərdə Misirdə geniş tanınmışdır. 1400 ildə vətənə qayıtmış, burada I Bəyazidin oğulları arasında hakimiyyət uğrunda gedən mübarizədə Musa Çələbinin (1410) tərəfinə keçmişdir. Sonuncunun məğlubiyyətindən və I Mehmedin hakimiyyətə gəlişindən (1413) sonra İznik ş.-nə sürgün edilmişdir. Burada "Varidat" dini-fəlsəfi traktatını yazmış və tərəfdarlarını Osmanlı dövlətinə qarşı çıxmağa təhrik etmişdir. Onun və davamçılarının qaldırdığı üsyan 1416 ildə (bəzi mənbələrdə 1420) Qərbi Anadolunun bir sıra bölgələrinə, Balkanlara (Valaxiya, Bolqarıstan) yayılmışdır. Üsyan yatırılmış, B. tutularaq edam edilmişdir. Onun ideyaları sufi qardaşlığı, *bəktaşilik* mühitində geniş yayılmışdı.

**BƏDRƏDDİN MƏHƏMMƏD TƏBRİZİ,** B ə n d g i r (?–1399) – 14 əsr Azərb. xəttatı. Görkəmli Azərb. xəttatları *Abdulla Seyrəfi Təbrizi* və *Mir Əli Təbrizinin* şagirdi olmuşdur. *Kufi* və klassik xətlərlə (*süls, nəsx*) yanaşı, *təliq, nəstəliq* xətləri ilə də yazmışdır. Bir müddət Əmir Teymurun sarayında münşi olmuşdur; şeir də yazmışdır.

**BƏDRƏDDİN TƏBRİZİ** – 13 əsr Azərb. alimi və memar. Monqolların istilası zamanı İrandan Kiçik Asiyaya köçmüş, Konyada məskunlaşmışdır. Nücum, həndəsə, kimya və kabbalistika sahəsində tanınan alimlərdən olmuşdur. Cəlaləddin *Rumiyə* rəğbət bəsləmiş, onun qəbri üzərində məqbərə tikmişdir. Məqbərə II Sultan Bəyazid dövründə bərpa və təmir edilmişdir. "Yaşıl qübbə" adlanan bu məqbərədə Ruminin yaxınlarından 50 nəfər dəfn edilmişdir.

*Əd.:* Abasov A.X., Abasov E.A., Hüseynova E.N. İslam memarlığı və inşaat. B., 2010.

**BƏDRƏNC,** b a l l ı n a n ə, l i m o n o t u (Melissa) – dodaqçiçəklilər fəsiləsindən çoxillik ot bitkisi. Hünd. 45–125



Bədrənc (Melissa officinalis).

*sm*-dir. Çiçəkləri xırda, ikidodaqlı, üst yarpaqların qoltuqlarında yerləşən çiçək qrupunda toplanmışdır. Meyvəsi 4 bölümlü fındıqcadır. Avrasiya və Şm. Afrikada 4 növü, Azərb.-da 1 növü dərman B.-i (M. officinalis) bitir. Çiçəkləri açıq-sarı, ağ, yaxud çəhrayıdır. Meşələrdə, kolluqlarda, rütubətli yarğanlarda, bağ və bostanlarda yayılmışdır; efiryağlı, balverən və ədviyyat bitkisidir. Yarpaqlarında və zoğlarının tərkibində sitral, mirsen, heraniol olan limon ətirli efir yağı vardır; ətriyyatda, likör-araq istehsalında, əczaçılıq sənayesində istifadə olunur.

**BƏDRLİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Təkab bölgəsinin Ətraf kəndistanında, Təkab qəs.-ndən 14 *km* şm.-ş.-dədir.

**BƏDULİ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Ətraf bölgəsinin Avacıq kəndistanında, Maku ş.-ndən 26 *km* şm.-q.-dədir.

**BƏDYƏ** – bax *Meyxana*.

**BƏƏLBƏK** – Livanın c.-ş.-ində şəhər. Əhalisi 30,9 min nəfərdir (2005).

İlk dəfə e.ə. 14 əsrdə qeyd olunur. *Baal* kultunun mərkəzi kimi məlum idi. Ptolemeylərin hakimiyyəti dövründə Baal kultu günəş allahı Heliosun kultu ilə birləşəndə şəhər Heliopol (Ἡλιούπολις) adlandırılmışdır. E.ə. 16 ildə Romanın hakimiyyətinə keçmiş və Yuli Avqust Feliks Heliopolitan Koloniyası (Colonia Julia Augusta Felix Heliopolitan) adını almışdır. İmperiya dövründə Heliopollu Yupiterin kultunun yayılması və allahlar triadası – Yupiter, Merkuri və Veneranın şərəfinə məbədin tikilməsi ilə B.-in rolu artmışdı. B. 1898–1905 illərdə alman ekspedisiyası (O. Puhşteyn) tərəfindən tədqiq olunmuşdur. 637 ildə B. ərəblərin hakimiyyətinə keçmişdir.

Şəhərdə qala qapıları, teatr, cıdır meydanı, 3–4 əsrlərin mozaik döşəməli villaları; nekropol saxlanılmışdır. 1–3 əsrlərə aid möhtəşəm məbəd var. B.-də mehrab qalıqları saxlanılan, dəstəmaz almaq üçün hovuzu olan və üzü Yupiterin Böyük məbədinə (tikinti b.e. 60 ilində bitmişdir; yalnız cənub fasadının sütunlarının hissələri saxlanılmışdır) tərəf üstü örtülü portiki olan geniş, düzbucaqlı həyət yerləşmişdir. Onun yanında yaxşı mühafizə edilmiş Kiçik məbəd və Vakx (və ya Merkuri) məbədi var. Hər iki məbədin tikintisində Roma imperiyasının cənub əyalətləri üçün xarakterik olan yunan-ellin və Roma memarlığından istifadə olunmuşdur. İmperator I Feodosi dövründə Yupiter məbədi xristian kilsəsinə çevrilmişdir. 637 ildə ərəblər tərəfindən alınmışdır. 13 əsrdə ansamblın ərazisi qalaya çevrilmişdir (divar, qüllə, Böyük məscid, minarə qalıqları saxlanılmışdır). 1956 ildən B.-də Beynəlxalq musiqili teatr festivalı keçirilir (1975–96 illərdən fasilələrlə). *Ümumdünya irsi* siyahısına salınmışdır.

B.k.t. (taxıl bitkiləri, üzüm və b. meyvələr) regionu mərkəzidir; kustar istehsal inkişaf etmişdir. İES fəaliyyət göstərir.

**BƏƏS** – bax *Ərəb Sosialist Dirçəliş partiyası*.

Bəəlbək. Kiçik məbəd.



**BƏFRACƏRD** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Mərkəzi bölgəsinin Xanəndəbil kəndistanında, Xalxal ş.-ndən 6,5 *km* c.-da, Xalxal–Miyanə avtomobil yolunun üstündədir.

**BƏĞƏLDÜZ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Sirdan bölgəsinin Aşağı Tarım kəndistanında, Sirdan qəs.-ndən 24 *km* ş.-dədir.

**BƏHAƏDDİN** Əbül Məhasin Yusif ibn Rəfi ibn Şəddad (6.3.1145 – 1234) – ərəb tarixçisi, hüquqşünas. *Səlahəddin Əyyubinin* bioqrafı. Yerusəlimdə (1188–92) və Hələbdə (1193–1231) hakim olmuş, Bağdaddakı Nizamiyyə Un-tində, daha sonra Mosulda dərs demişdir. Səlahəddin Əyyubi haqqında "Ən-Nəvadir əs-sultaniyyə ..." əsərini qələmə almışdır. Həmçinin Hələbin tarixi və müsəlman hüququna dair 3 kitab yazmışdır.

**BƏHAƏDDİN AMOLİ** (بهاء الدين آملی) Məhəmməd İbn Hüseyn (1547–1621) – ərəb riyaziyyatçısı, astronom, şair və hüquqşünas. İlk təhsilini atasından almış, sonra İsfahanda təbiyyat elmlərini öyrənmişdir. "Hesabın xülasəsi", "Üstürlab traktatı", "Göy cisimlərinin şərhi" və s. əsərlərin müəllifidir. B.A. I Şah Abbasın vaxtında şeyxülislam olmuş və bu dövrdə yazdığı "Abbasın məcəlləsi" əsərini ona ithaf etmişdir. B.A. "Kəşkül" ədəbi toplusunu, "Çörək və halva", "Süd və şəkər" mənzumələrini və lirik şeirlərini "Bəhai" təxəllüsü ilə yazmışdır. Onun "Hesabın xülasəsi" əsəri Şərq ölkələrinin mədrəsələrində dərslik kimi işlədilmiş, fransız dilində nəşr edilmişdir (Paris, 1846).

**BƏHAİLİK** – islamda dini-siyasi cərəyan. Yaxın Şərq, Qərbi Avropa ölkələrində, ABŞ-da, qismən də çar Rusiyasında yayılmışdı. Banisi Babın şagirdi, *Bəhaulla* ("Allahın nuru") ləqəbi ilə məşhur olan Mirzə Hüseyn Əli idi. B. 19 əsrin ortalarında İranda – babi üsyanlarının məğlubiyyətindən sonra təqibdən qaçan babilərin təriqəti kimi yaranmışdı. Bəhailərin fikrincə, Allaha sitayişin mahiyyəti sənət, ticarət və s. ilə məşğul olmaqdadır. Babiliyin bir sıra ünsürlərindən imtina edən B.-in əsas müddəaları Bəhaüllanın Quranı və Babın "Bəyan"ını əvəz etmək məqsədilə yazdığı "Ən müqəddəs kitab"da ("Kitabi-əqdəs") verilmişdir. Xüsusi mülkiyyəti müdafiə edən B. milli sərhədləri, dövlət müstəqilləyini və suverenliyini inkar edir, elm ilə dini birləşdirməyi zəruri sayırdı. B. insanları "qardaşlığa" səsləməklə müstəmləkəçiliyə qarşı mübarizədən əl çəkməyi təlqin edirdi. Çar Rusiyası bəhailərə himayəçi münasibət göstərirdi. Bəhaüllanın varisi Əbdülbəha (1844–1921) B.-i fəal təbliğ etdiyi üçün İngiltərə hökuməti ona ser titulu vermişdi. İkinci dünya müharibəsindən sonra bəhailər "vahid dünya dövləti" yaradılmasına çağırırdılar. B.-in əsas mərkəzləri ABŞ-da və AFR-dədir. 

**BƏHAÜLLA** (əsl adı Mirzə Hüseyn Əli, 1817–92) – *bəhailik* təliminin banisi və *Babın* davamçılarından biri. Bab edam olunandan sonra B. həbsə alınmış, İrandan sürgün edilmiş (1852), İstanbul, Ədirnə və Akkada (Fələstində) yaşamışdır. B. Bəhailiyin əsaslarını "Kitabi-əqdəs" ("Müqəddəs kitab") adlı əsərində (təqr. 1872) şərh etmişdir. B. xüsusi mülkiyyəti, ictimai bərabərsizliyi müdafiə edir və hakimiyyətə qarşı çıxmağı pisləyirdi. O, qərb dövlətləri ilə "sülh şəraitində" yaşamaq fikrinin təbliğatçısı idi.

*Əd.*: Первый сб. посланий бабида Бехаулла-ха. Изд. В. Розен, СПБ, 1908.

**BƏHBƏHCİK** – İranın Qərbi Azərbaycan ostanında kəndistan. Maku şəhristanının Siyəhçeşmə bölgəsindən ş.-dədir.

**BƏHƏL** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Əhər ş.-ndən 22 *km* c.-ş.-dədir.

**BƏHƏRBƏY** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Üzümdil kəndistanında, Vərzəqan qəs.-ndən 15 *km* q.-dədir.

**BƏHLİYAN** – Azərb. Resp. İsmayıllı r-nunun Keyvəndi ə.d.-ndə kənd. R-n mərkəzindən 24 *km* c.-ş.-də, dağlıq ərazidədir. Əh. 78 (2008); heyvandarlıq və əkinçiliklə məşğuldur.



**"BƏHLUL"** – satirik jurnal. 1907 il mayın 19-dan noyabrın 4-dək Bakıda Azərb. dilində nəşr olunmuşdur. "*Molla Nəsrəddin*"in təsirilə nəşr edilən ilk satirik jurnaldır. Naşiri və redaktoru Ələsgər Əliyev olmuşdur. M.Ə. *Sabirin* "Nə soxulmusan araya, a başı bəlalı fələ?" və s. satirik şeirləri ilk dəfə bu jurnalda dərc edilmişdir.

**BƏHLUL DANƏNDƏ** – Yaxın Şərqdə folklor qəhrəmanı. Bəzi rəvayətlərə görə xəlifə *Harun ər-Rəşidin* müasiri və ya qardaşı olmuşdur. Əsasən, ərəb folkloru personajı olan B.D. dünya folklorundakı "ağıllı axmaqlar"ın Şərq prototipidir. O, bir çox lətifə, didaktik şeir və hekayənin hazırcavab, tədbirli və müdrik qəhrəmanıdır. Azərb. şifahi xalq ədəbiyyatında da B.D.-nin adı ilə bağlı lətifələr var.

M ə t n l ə r: Анекдоты Бахлул Данендe. Б., 1987; Bəhlul Danəndənin lətifələri. B., 1988.

*Əd.:* F ə r z ə l i y e v T. Azərbaycan xalq lətifələri. B., 1971.

**BƏHLUL LÓDİ** – Dehli sultanı [1451–89]. Lodilər sülaləsinin banisi. B.L.-nin hakimiyyəti illərində Dehli sultanlığının tənəzzül dövrü başlamış, mərkəzi hökumət zəifləmiş, əmirlər arasındakı çəkişmələr güclənmişdir. B.L. Multan, Canpur və Qvaliyarda döyüşlər aparmış, sonuncu iki vilayəti özünə tabe etmişdir.

**BƏHLULABAD** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Poldəşt bölgəsinin Çaybasar kəndistanında, Poldəşt qəs.-ndən 6,5 *km* c.-q.-dədir.

**BƏHLULZADƏ** Səttar Bəhlul oğlu (15.12.1909, Bakı yaxınlığındakı Əmircan k. – 14.10.1974, Moskva; Əmircanda dəfn edilmişdir) – Azərb. rəssamı, müasir Azərb. boyakarlıq sənətində mənzərə janrının yaradıcılarından biri. Azərb. SSR xalq rəssamı (1963). Azərb. SSR Dövlət mükafatı laureatı (1972). Azərb. Rəssamlıq Məktəbində (1927–31) və V.İ. Surikov ad. Moskva Dövlət Rəssamlıq İn-tunda (1933–40) təhsil almışdır. 1931–33 illərdə müasir məzmunlu ilk karikaturaları çap olunmuşdur. Təhsildən qayıtdıqdan sonra yaradıcılığında tarixi mövzular və tarixi şəxsiyyətlərin təsviri ("Babək üsyanı", "Fətəli xan", "Xəttat Mir Əli" və s.) əsas yer tutmuşdur. Müharibədən sonrakı illərdə o, mənzərə janrında daha bitkin əsərlər yaratmışdır. 1946–47 illərdə resp. bədii sərgilərində B.-nin Abşeron etüdləri ("Buzovnada neft mədənləri", "Əmircan" və s.) nümayiş etdirilmişdir. "Bakıda atəşfəşanlıq" (1947), "Qudyalçay sahili", "Qudyalçay vadisi", "Qızbənövşəyə gedən yol" (1953), "Doğma düzənliklər" (1955), "Yuxarı Daşaltı" (1955), "Yaşıl xalça", "Cıdır düzü" (1957) və s. mənzərələrində B. tədricən rəng palitrasını zənginləşdirmiş, tablolarında koloritin dekorativliyinə nail olmuşdur. "Neft Daşları" mənzərə silsiləsi Xəzərdə salınmış əfsanəvi neft şəhəri haqqında poetik təsəvvür yaradır. Rəssamın gərgin yara-



S. Bəhlulzadə. "Xəzər üzərində axşam". 1956.



dıcılıq axtarışlarının məhsulu olan "Xəzər üzərində axşam" (1958), "Xəzər gözəli" (1960), "Əbədi məşəllər" (1963), "Kəpəzin göz yaşları" (1965), "Vətənimin baharı" (1967), "Azərbaycan nağılı" (1970), "Suraxanı atəşgahı" (1970), "Əfsanəvi torpaq" (1971), "Şahnabat" (1973), "Naxçıvan. Axşamçağı Ordubad bağlarında" (1974) və s. əsərlərində doğma torpağa, zəhmət adamlarına məhəbbət motivləri başlıca yer tutur. "Torpağın arzusu" (1964), "Nağıl", "Abşeron tacı" (1970) və s. tablolarında Abşeron təbiətinin özünəməxsus təsvirini vermişdir. Orijinal üslubu ilə seçilən mənzərələrində poetik əhval və kompozisiya quruluşu, kolorit gözəlliyi güclüdür. Əsərlərində real mənzərə motivləri rəssam təxəyyülünün məhsulu olan şərti təsvir formaları ilə əlaqələndirilir. Mənzərələrinin koloritində açıq rənglərin vəhdəti (ağ, mavi, çəhrayı, yaşıl və s.) əsas yer tutur. 1964 ildə Praqada rəssamın qrafika əsərlərindən ibarət fərdi sərgisi təşkil olunmuşdur. Əsərləri resp., ümumittifaq, həmçinin Əlcəzair, Misir, Livan, Suriya, Tunis, Norveç, Almaniya, Çexiya, Slovakiya, Bolqarıstan, Macarıstan, Rumıniya, İraq, Kuba, Kanada, Belçika, Fransa, Yaponiya və s. ölkələrdə nümayiş etdirilmişdir.

1987 ildə Bakıda B.-nin şəxsi kolleksiyalarda olan əsərlərindən ibarət sərgi açılmışdır. Bir sıra tabloları ABŞ-da nümayiş etdirilmişdir (1994). Əsərləri Azərb. Milli İncəsənət Muzeyində, Azərb. Dövlət Rəsm Qalereyasında, Moskva və s. şəhərlərin muzeylərində, eləcə də şəxsi kolleksiyalarda saxlanılır. Əmircan qəs.-ndə rəssamın xatirə muzeyi, Bakıda adına küçə və sərgi salonu var. YUNESKO-nun qərarı ilə B.-nin yüz illik yubileyi keçirilmişdir (2009).

*Əd.:* Əfəndiyev R. Səttar Bəhlulzadə. B., 1958; Rəhimli İ. Səttar dünyası. B., 1989; Əliyev Z. Sənətin Məcnunu. B., 2009.

**BƏHLULZADƏ** Vaqif Kamil oğlu (d.19.4.1990, Kəlbəcər) – Azərb. idmançısı. Kikboksinq üzrə gənclər arasında Azərb. kubokunun qalibi (2007), Azərb. çempionu (2008) və dünya çempionatının bürünc mükafatçısıdır (2008, İtaliya).

**BƏHMƏN** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Qışlaq-Əfşar kəndistanında, Qiydar qəs.-ndən 29 *km* q.-dədir.

**BƏHMƏN MİRZƏ QACAR**, Əbdüssəməd Bəhaüddövlə (1811–84, Şuşa) – tarixçi; *Abbas Mirzənin* oğludur. Fars dilində yazılmış "Məhəmməd şah təzkirəsi" (1832) və "Şahənşaha minnətdarlıq" (1871) və s. əsərlərin müəllifidir. 1842 ildən Cənubi Azərb.-ın hakimi olmuşdur. Baş vəzir Hacı Mirzə Ağasının fitnəsi ilə qardaşı Məhəmməd şahın [1834–48] gözündən salınmışdı. 1848 ildə Tiflisə gəlmiş, Rusiya təbəəliyini qəbul edib, daimi yaşamaq məqsədilə Şuşaya köçmüşdür (1851). Əsərləri AMEA-nın M. Füzuli ad. Əlyazmalar İn-tunda saxlanılır.



**BƏHMƏNABAD** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Kağızkonan bölgəsində, Ağkənd qəs.-ndən 11 *km* şm.-dadır.

**BƏHMƏNABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Alan Bərağuş bölgəsinin eyniadlı kəndistanında, Mehriban qəs.-ndən 9,5 *km* c.-da, Təbriz–Sərab avtomobil yolunun 5 *km*-liyindədir.

**"BƏHMƏNİ"** – nikbin əhvali-ruhiyyəli aşıq havası. Təqr. 19 əsrin 3-cü rübündə şəmkirli aşıq Bəhmən bəstələmişdir. Adətən, sazda şah pərdədə və onun kökündə çalınır. On bir hecalı bütün aşıq şeir formaları "B." melodiyası əsasında ifa oluna bilər.

**BƏHMƏNİ SULTANLIĞI** – Mərkəzi Hindistanda dövlət (1347–1518). Dekan müsəlmanlarının tənəzzülə uğrayan Dehli sultanlığına qarşı üsyanı nəticəsində yaranmışdı. B.s.-nın banisi Bəhmənilər sülaləsinin əsasını qoymuş sultan sərkərdələrindən biri idi. Dövlətin paytaxtı əvvəlcə Gülbərgə, 1429 ildən isə Bidar idi. Qonşu dövlətlərlə, əsasən, Vicayanaqarla apardığı aramsız müharibələr nəticəsində bütün Dekanda öz hakimiyyətini möhkəmləndirmişdi. Nazir Mahmud Qəvaninin faktiki hakim olduğu 1463–81 illərdə çiçəklənmə dövrünü yaşamışdır. 15 əsrin sonu – 16 əsrin əvvəllərində B.s. *Əhmədnahar*, *Berar*, Bidar, *Bicapur*, *Qolkonda* sultanlıqlarına parçalandı.

**BƏHMƏNİLƏR** – 1347–1518 illərdə Hindistanda hakim sülalə. Sülalənin banisi *iqtadar* Zəfər xan olmuşdur. Bax həmçinin *Bəhməni sultanlığı*.

**BƏHMƏNYAR** Mərzban oğlu Əbülhəsən (? – 1066) – Azərb. filosofu, Şərq peripatetizminin nümayəndəsi. Ensiklopedik alim *İbn Sinanın* (980–1037) ən görkəmli şagirdi və davamçısıdır. Mənbələrdə B.-ın kiya (hakim, bahadır) adlandırılması onun mərzbanlar ailəsinə mənsubluğunu göstərir.

Şərq peripatetizminin 11 əsrin ortalarına aid mərhələsi bilavasitə B.-ın adı ilə bağlıdır. Varlıq təlimi, idrak nəzəriyyəsi və məntiq məsələləri B. fəlsəfəsində sistem halında geniş işıqlandırılmışdır. Təlimdə varlıq zəruri və mümkün, səbəb və nəticə, ilkin və meydana çıxmış və s. qisimlərə bölünür; zəruri varlıq mövcudatın əsasını təşkil edir, ondan sonra mövcud olan hər şey mümkün varlıq sayılır. B. varlığın qisimlərini qarşılıqlı surətdə araşdıraraq yazır ki, zəruri varlıq qeyri-mövcudluğunun fərz edilməsi mümkün olmayan varlıqdır; mümkün varlıq isə nə varlığı, nə də yoxluğu cəhətdən zəruridir. B.-ın fikrincə, zəruri varlıqda heç bir mahiyyət yoxdur, mahiyyət yalnız mümkün varlıq üçündür. Zəruri varlıq əvvəlcə substansiyadan ibarət mahiyyəti, sonra isə başqalarını əmələ gətirir. Mahiyyətə malik hər bir şey nəticədir. Zəruri varlıq ilə mümkün varlıq arasında münasibəti ilk səbəb ilə nəticə arasındakı münasibət kimi nəzərdən keçirən B.-ın səbəbiyyət haqqında təlimi dini ideologiyaya tamamilə ziddir. Dinlərdə xaliq və məxluqat arasında səbəbiyyət əlaqəsi yoxdur, Allah yaratdıqlarından zamanca qabaqdır. Peripatetiklərin, o cümlədən B.-ın təlimində isə mümkün varlıq ayrılıqda yox, zəruri varlıqla birlikdə əbədidir.

Şərq peripatetikləri mövcudatın əmələ gəlməsini izah edərkən neoplatonçu emanasiya nəzəriyyəsinə əsaslanmış, lakin onu eynilə təkrarlamayaraq öz təlimlərinə uyğun şəkildə işləyib-hazırlamışdılar. B. yaradıcılığının müəyyən dövründə qədər emanasiya nəzəriyyəsinə şübhə ilə yanaşsa da, sonra sələfləri ilə razılaşmışdır.

B. mövcudatın bütün mərtəbələrini nəzərdən keçirir: ilk səbəb, ilk nəticə, materiya və formadan təşəkkül tapmış göy sferaları, onlara aid planetlər, fəal əqllər və nəfslər, nəhayət, ünsürlər aləmi. Dünyanın vəhdətini qəbul edən B. göstərir ki, dünyanın zamanca başlanğıcı yoxdur, o, əzəli və əbədidir.

B.-ın varlıq təlimində mümkün varlıq öz növbəsində substansiya (əl-cövhər) və aksidensiya (əl-arad) olmaqla iki qismə bölünür. Substansiya isə materiya, forma, cism, nəfs və əqldən ibarət beş hissəyə ayrılır. B.-yə görə, materiya, forma və cism maddi substansiya; materiya və formanın vəhdətini ifadə edən cism mürəkkəb substansiya; nəfs və əql mücərrəd dərkedici substansiyadır. Sonuncu iki substansiya arasında fərq bundadır ki, əql maddə ilə təmasda olmadığı halda, nəfs cismlərdə qərar tuta bilir. Nəfs nəbati, heyvani, insani olmaqla üç növə ayrılır.

Aksidensiyaları iki qismə bölən B. onlardan bəzisini, məs., kəmiyyət və keyfiyyəti təsəvvür etmək üçün onların öz substratının kifayət olduğunu, bəzi aksidensiyaları, məs., yerdə qalan digər kateqoriyaları təsəvvür etmək üçün isə kənar şeylərə ehtiyac duyulduğunu yazır. Aksidensiyaların ikinci qismi yeddi kateqoriyada ifadə olunur: münasibət, məkan, zaman, vəziyyət, malikiyyət, təsiretmə və təsirlənmə. B. Aristotel və İbn Sinanın kateqoriyalarla əlaqədar mövqeyindən çıxış edərək, hərəkəti potensiallıqdan aktuallığa tədrici keçid kimi səciyyələndirir, onu materiyadan ayrı təsəvvür etmir, hər bir hərəkətin yalnız cismlərdə mövcud olduğunu göstərirdi. B. hərəkətin kəmiyyət, keyfiyyət, məkan və vəziyyətə görə tipləri olduğunu qeyd edir, fikri isə insan zehninin hərəkəti adlandırırdı. B.-ın varlıq təlimində zaman hərəkət miqdarı kimi izah olunur: "Cism ölçünün mövcudluğu üçün səbəb olduğu kimi, hərəkət də zamanın mövcudluğu üçün səbəbdir". Cism, onun hərəkəti və zaman bir-birindən ayrılmazdır, biri digərinin mövcudluğu üçün şərtdir.

B. idrak prosesinin bir-biri ilə bağlı olan iki mərhələdən – hissi və əqli mərhələdən keçdiyini qəbul edir. İdrakın hissi mərhələsi öz növbəsində iki qismə bölünür: birinci qismə xarici hisslər (əl-həvass əz-zahirə), ikinci qismə isə daxili hisslər (əl-həvass əl-batinə) aid edilir. Toxunma, dadbilmə, iybilmə, eşitmə və görmə xarici hisslər; müştərək hiss, vəhm, xəyal, yaxud təsvir edən qüvvə, yadda saxlayan qüvvə, yaxud yaddaş, təxəyyül, yaxud təfəkkür qüvvəsi isə daxili hisslərdir.

B. xarici və daxili hiss mərhələlərini bir-biri ilə vəhdətdə, biri digərinin tamamlayan idrak mərhələsi kimi götürürdü. Hissi qüvvələrin fəaliyyəti bədənin müvafiq üzvlərindən asılıdır, hissi idrak müəyyən bir üzvə görə və onun təsirlənməsi sayəsində mümkün olur. "Hər bir dərkedilən şey dərkedəndə təzahür edir". Duyğular və nəfsin digər dərkedici qüvvələri maddi varlıqların surəti, inikasıdır.

B.-ın fəlsəfəsində əqli idrak məsələləri də geniş işıqlandırılır. B.-a görə, şeylərin xarici cəhətlərini qavramaq hissi idrak, onların mahiyyətini dərk etmək isə yalnız əqli idrak sayəsində mümkündür. İnsani nəfsdə fəal və bilən qüvvələr mövcuddur.



Bədəni idarə edən fəal nəfsi qüvvə əməli əqli, bilən nəfsi qüvvə isə nəzəri əqli şərtləndirir. B. nəzəri əql və əməli əql arasındakı münasibətdə birinciyə üstünlük verir, onun əməli əql tərəfindən idarə etməsini məqbul sayır.

B. insanda nəzəri əqlin formalarını geniş şərh edərək idrak qabiliyyətinin müxtəlif cəhətlərini, xüsusiyyətlərini göstərir: potensial əql, vərdişlə olan əql, aktual əql və qazanılmış əql nəzəri əqlin mərtəbələrini təşkil edir. Potensial əql eyni zamanda həyulani əql, yaxud təsirlənmiş əql adlandırılır və əqli şeylərin dərk olunması üçün xalis qabiliyyət sayılır. B.-ın təlimində vərdişlə olan əql "birinci əqli məlumatlar", yəni hisslərin (duyğuların, qavrayışların) vasitəsilə qazanılmış anlayışları və aksiomatik müddəaları, aktual əql isə "ikinci əqli məlumatlar", yəni "birinci əqli məlumatlar" əsasında qazanılan anlayış və müddəaları dərk etmək qabiliyyətidir. Qazanılmış əql bütün əqli şeyləri dərk etmək mərtəbəsində olan aktual əqldir.

B.-a görə, əqli idrak hissi idrakın bilavasitə davamı, sonrakı mərhələsidir; idrak prosesinin hər bir mərhələsi özündən sonrakı mərhələni şərtləndirir; məs., vərdişlə olan əql aktual əqlə, həyulani əql vərdişlə olan əqlə, əməli əql bunların hamısına, vəhm isə əməli əqlə xidmət edir və s.

Fəlsəfi biliyin faydasına əxlaqi keyfiyyət baxımından yanaşan B.-ın fikrincə, qazanılmış hər bir bilik insanın mənəviyyatını gözəl məziyyətlərlə zənginləşdirməlidir, əks halda həmin bilik faydasızdır. B.-ın nəzərində, var-dövlətə həris bir kəsin hikmət elmi olsa da, hikmət zövqü yoxdur. Kamil insanda əqli həzz hissi həzzdən güclüdür – "həqiqi həzz əqli həzdir". Zira "əqli həzz dərdin təqib etmədiyi şəfadır, xəstəliyin yaxın düşmədiyi sağlamlıqdır". Əql bütün sərvətlərdən üstündür, çünki "sərvət qorunur, əql isə (insanı) qoruyur". B.-ın idrak nəzəriyyəsi öz məzmunu etibarilə təkcə orta əsr peripatetizmində deyil, ümumiyyətlə bütün Şərq fəlsəfi fikrində mühüm əhəmiyyətə malikdir.

B.-ın idrak nəzəriyyəsi onun məntiq təlimi ilə üzvi surətdə bağlıdır. Yaxın və Orta Şərq ölkələrində daha çox məntiqçi kimi məşhur olan B. məntiqi həm elm, həm də sənət baxımından qiymətləndirmiş, onun mövzu və vəzifələri, anlayış, tərif və qaydaları, xüsusən hökm və nəticəyə dair məsələləri geniş araşdırmışdır.

İbn Sina məntiqi tərəzi adlandırırdı. B. həmin mənada "ölçü" terminini işlətmişdi, çünki onun fikrincə, məntiq bir başqa biliyə kömək etməklə onun ölçüsü olur. Axtarılan şey məntiqi olduqda, ölçü də müəyyən cəhətdən materiya ola bilər. "İnsan yalnız duyğudan gələn, yaxud duyğunun təsdiqlədiyi şeyə inanır" – deyən B.-a görə, hissi qavrayışın verdiyi bilik məlumdur, nəzəri elmlərin hələ də dərk edilməmiş müddəaları isə məchuldur. B., məntiqin faydasını, məlumdan məchula keçmək yollarını göstərməklə, insanı təfəkkür xətalarından qorumasında görürdü.

Həcminə və məzmun dərinliyinə görə B.-ın yaradıcılığında xüsusi yer tutan "Təhsil" əsəri üç kitabdan ["Məntiq" ("əl-Məntiq"), "Metafizika" ("Elm ma bəd ət-təbiə") və "Əyani mövcud şeylərin halları" ("Əhval əyan əl-maucudat")] ibarətdir. "Təhsil" əsərinin ərəbcə orijinalının müxtəlif vaxtlarda köçürülmüş əlyazması nüsxələri Beyrut, Qahirə, Tehran, Rampu və dünyanın başqa məhşur kitabxanalarında və fondlarında saxlanılır. B. ilə İbn Sina arasında gedən elmi-fəlsəfi mübahisələr əsas etibarilə "Mübahisələr" kitabında toplanmışdır. B.-ın İbn Sinaya yazdığı fəlsəfi məktublardan bir neçəsinin əlyazması Daşkənddə və S.-Peterburqda saxlanılır.

Orta əsrlərdə müsəlman Şərqində fəlsəfi fikrin inkişafında B.-ın böyük rolu olmuşdur. Əbülabbas Ləvkəri, Ömər Xəyyam, Məhəmməd İlaqi B.-ın bilavasitə şagirdləri, Əsirəddin Əbhəri, Əfzələddin Xunəci, Siracəddin Urməvi, Nəsirəddin Tusi və b. məhşur təbiətşünas filosoflar onun məktəbinin yetirmələridir.

Əsərləri: Məntiq. Təhsil; Metafizikanın mövzusu; Mövcudatın mərtəbələri. Ərəb dilindən tərcümə edən: Zakir Məmmədov. Şərq fəlsəfəsi (IX–XII əsrlər). B., 1999.

*Əd.:* Гусейнов Г.Н. Азербайжанский философ XI века Абуль Гасан Бахманяр. ДАН Азерб.ССР, 1947, т. 3, № 5; Zəkuyev Ə.K. Bəhmənyarın fəlsəfəsi görüşləri. B., 1958; Мамедов Ш.Ф. Развитие философской мысли в Азербайджане. М., 1965; Məmmədov Z.C. Bəhmənyarın fəlsəfəsində "ilk səbəb" və "nəticə" anlayışlarına dair. Azərb SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası), 1973, № 3; yenə onun, Bəhmənyarın fəlsəfəsi. B., 1983; yenə onun, Azərbaycan fəlsəfəsi tarixi. B., 1994.

**BƏHMƏTLI** – Azərb. Resp. Zaqatala r-nunda kənd. Bəhmətli ə.d.-nin (Bəhmətli, Kürdəmir k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 24 *km* c.-da, Qanıx-Əyriçay çökəkliyindədir. Əh. 4332 (2008); tütünçülük, ipəkçilik, heyvandarlıq və bağçılıqla məşğuldur. Fındıq emalı sexi, 2 un dəyirmanı, elektrikötürücü st., tam orta məktəb, körpələr evi, 3 kitabxana, mədəniyyət evi, xəstəxana, rabitə şöbəsi, ATS var.

**BƏHNƏQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Səracu kəndistanında, Marağa ş.-ndən 9,5 *km* şm.-ş.-də, Marağa–Qaraağac avtomobil yolundan 7,5 *km* şm.-dadır.

**BƏHR** – 1) ədəbiyyatda – *bax Əruz vəzni.* 2) musiqidə – ölçü, vəzn. Azərb. musiqisində B.-li (mahnı, rəqs, təsnif, rəng, diringi), B.-siz (muğamlar) və qarışıq B.-li (zərbi muğamlar) musiqi nümunələri var (bax həmçinin *Vəzn*).

"**BƏHR ƏL-ƏSRAR**" (بحر الاسرار) – ensiklopedik əsər. Əsərin tam adı "Bəhr əl-əsrar fi mənəqib əl-əxyər" (بحر الاسرار في معرفه الاخيار) və ya "Bəhr əl-əsrar fi mərifət əl-əxyər"dir (بحر الاسرار في مناقب الاخيار). Bəlx hakimi *Nadir xan Məhəmmədin* tapşırığı ilə 1634–40 illərdə Mahmud ibn Vəli tərəfindən fars dilində yazılmışdır. "B. əl-Ə." 7 cilddən (hər biri 4 bölmə olmaqla) ibarətdir. Əsər Yaxın və Orta Şərq ölkələrində, xüsusilə Ərəbistan, Türkiyə, İran, Əfqanıstan, Hindistan və Orta Asiyada baş vermiş mühüm ictimai-siyasi hadisələri işıqlandırır. 1-ci cilddə kosmoqrafiya, coğrafiya, mineralogiya, astrologiya və s., 2-ci cilddə peyğəmbərlər, islam dini və xəlifələr, 3-cü cilddə Məhəmməd peyğəmbərdən, 4-cü cilddə Tahirilər, Səfəvilər, Samanilər, Qəznəvilər, Səlcuqilər, Xarəzmşahlar və b. sülalələrdən, 6-cı cilddə Çingiz xandan Həştərxanilər sülaləsinin hakimiyyətinədək olan dövrün hadisələrindən, 7-ci cilddə isə Əmir Teymurdan bəhs olunur. Əsərin yalnız 1-ci və 6-cı cildləri dövrümüzədək gəlib çatmışdır. Əlyazmaları B.Britaniyanın İndia office (Hindistan dəftərxanası) kitabxanasında və Özbəkistan EA-nın Şərqşünaslıq İn-tunun fondunda saxlanılır. "B. əl-Ə."-ın bəzi hissələri V.V. Bartold tərəfindən rus dilinə tərcümə olunmuş və Almatıda nəşr edilmişdir.

**BƏHR ÜL-ƏBYAD** (بحر الابيض) – *Ağ Nilin* ərəbcə adı.

**BƏHR ÜL-ƏSFAR** (بحر الاصفر) – *Sobat* çayının ərəbcə adı.

**BƏHR ÜL-ƏZRƏQ** (بحر الازرق) – *Mavi Nilin* Sudan ərazisində düzənlikdən axan hissəsinin ərəbcə adı.

**BƏHR ÜL-ĞƏZAL** (بحر الغزال) – Sudanda çay. Ağ Nilin sol qolu. Uz. 241 *km*. Cur, Tonc (İbba) və s. çayların birləşməsindən əmələ gəlir. Yay yağışlarından sonra daşır. Gəmiçiliyə yararlıdır.

**BƏHRAM** – İranın Şərqi Azərbaycan ostanında kənd. Mərənd şəhristanının Mərkəzi bölgəsinin Yamçı kəndistanında, Mərənd ş.-ndən 6 *km* q.-də, Mərənd–Xoy avtomobil yolunun üstündədir.

**BƏHRAM**, Beqram, Baqram – Əfqanıstan ərazisində qədim şəhər. Xarabalıqları Kabildən 60 *km* şm.-da, indiki Çarikar ş. yaxınlığındadır. 1936 ildən fransız arxeoloqları J. Aken, R. *Girşman* və b. tərəfindən tədqiq edilmişdir. B.-nin yerində ilk şəhər məskəni e.ə. 6 əsrdən gec olmayaraq salınmışdır, Böyük Kir tərəfindən dağıdılmış, lakin e.ə 6 əsrin sonları – 5 əsrin əvvəllərində I Dara tərəfindən bərpa olunmuşdur. Bəzi alimlər B.-ın yerində, yaxud yaxınlığında e.ə. 329 ildə Makedoniyalı İsgəndərin əmri ilə Qafqaz İsgəndəriyyəsi şəhərinin tikildiyini ehtimal edirlər. Yunan-Bəlx padşahlığının əsas şəhərlərindən biri olmuşdur. Kuşan padşahlığı dövründə B.-ın hakimləri B.-ın Böyük İpək yolunun mühüm nöqtəsində yerləşməsindən məharətlə istifadə etdikləri üçün şəhər çiçəklənmə dövrünü yaşamışdır. Eramızın 1 əsrində şəhər Kapisi (Kapisa) adı altında Kuşan padşahlığının yay paytaxtı olmuşdur. 241 ildə Sasanilər şəhəri ələ keçirərək qarət etmişlər. B.-ın sakinlər tərəfindən tərk olunmasını 4 əsrin 2-ci yarısında Kabilin çiçəklənməsi ilə bağlayırlar. Şəhər planlı şəkildə tikilmiş, bürcləri olan möhkəm divarla əhatə olunmuşdu. Mərkəzi küçə, saray, evlər aşkar olunmuşdur. Müxtəlif yerli və idxal (Hindistan, Çin, Aralıq dənizi ölkələrindən) bədii məmulatlar (ke-



Fil dişindən heykəlcik. Bəhram. Eramızın 1–2 əsrləri. Gime muzeyi. Fransa.

ramika, şüşə, tunc heykəllər və qablar) tapılmışdır. Bu əşyalar arasında e.ə. 1 əsr – eramızın 4 əsrinə aid edilən və stilistik baxımdan həmin dövrdəki Hindistan heykəltəraşlığına oxşar olan fil dişindən düzəldilmiş məmulatlar seçilir (Kabil muzeyi; Gime muzeyi, Paris). Rəqqasələrin təsvir olunduğu oyma, sümük lövhəciklər də bu qrupa aiddir.

**BƏHRAM ÇUBİN** (? – təqr. 592) – Sasani sərkərdəsi və İran şahı [590–591]. B.Ç. Bizansla mübarizəyə başçılıq etmişdir. 589, yaxud 590 ildə Sasani şahı IV Hürmüzdə [579–590] qarşı üsyan etmiş, orta təbəqənin torpaq sahiblərinin, tacirlərin və bəzi əyanların dəstəyini alaraq özünü "şahənşah" elan etmişdi. II Xosrov Pərvizin qoşunlarını məğlubiyyətə uğratmışdı. Lakin Xosrov Pərviz Bizans qoşunlarının köməyi ilə B.Ç.-ə qalib gəlmişdi (591). B.Ç. türk xaqanının yanına qaçmış və çox keçmədən orada öldürülmüşdür.

**BƏHRAM ƏFŞAR**, Bəhramqulu (?–?) – 16 əsr Azərb. rəssamı, *Təbriz miniatür məktəbinin* nümayəndəsi. "Xəmsə"nin (N. Gəncəvi) Paris Milli Kitabxanasında saxlanılan əlyazmasının (1561–62) *frontispisindəki* ov səhnəsi təsvir edilən məşhur miniatürün müəllifidir. 16 əsr İran şairi Salman Savəcinin "Fəraqnamə" əsərinə də miniatürlər çəkmişdir.

**BƏHRAM ƏMİOĞLU** (Sərraf) (d.1955, Təbriz) – Azərb. rəssamı, boyakar və qrafik. 1977 ildə Tehran İncəsənət Məktəbini bitirmiş, Tehran Ali Dekorativ Sənətlər Məktəbində (1977–80) və Paris Ali Milli Dekorativ Sənətlər Məktəbində (1980–82) təhsilini davam etdirmişdir. 1980 ildə xaricə mühacirət etmişdir. Hazırda Parisdə yaşayır. B.Ə.-nun yaradıcılığında ictimai-siyasi motivlər əsas yer tutur ("Ulduzlar axar, analar baxar", 1982). İran yazıçısı, azərb. Qulamhüseyn Saedinin (1935–85) karandaşla çəkilmiş portreti (1985) psixoloji ifadəliliyi ilə fərqlənir. B.Ə.-nun əsərləri İranda təşkil olunmuş sərgilərdə, 1986 ildə YUNESKO-da, 1989 ildə Bakıda açılmış xaricdə yaşayan azərb. rəssamların əsərlərindən ibarət "Əzizim vətən yaxşı..." sərgisində və s. yerlərdə nümayiş etdirilmişdir. Müxtəlif mövzulara həsr olunmuş bir sıra əsəri Tehran, Tokio, Paris, Cenevrə, Barselona sərgilərinin mükafatlarına layiq görülmüşdür.

*Əd.:* "Əzizim vətən yaxşı..." sərgisinin kataloqu, B., 1989.

**BƏHRAM GUR** (? – 438, Mədain) – Sasani hökmdarı [420–438], I Yezdəgirdin oğlu. Kiçik yaşda atası tərəfindən Hirə hökmdarı Münzirin yanına göndərilmişdi. I Yezdəgirdin ölümündən sonra B.G.-un qardaşı Şapur ilə şahın ailə üzvlərinin taxta çıxmasının əleyhinə olan saray əyanları arasında hakimiyyət uğrunda mübarizə başlamışdı. Şapurun qətlindən sonra B.G. Münzirdən aldığı qüvvələrlə Mədainə yürüş etmiş və taxtı ələ keçirmişdi. 427 ildə İran torpaqlarına yürüş edən Ağhunları məğlubiyyətə uğratmışdı. Qardaşı Nərsini Xorasan valisi təyin etmişdi. Hindistana yürüş edərək Deybül, Məkran və Sindi ələ keçirmişdi.

B.G. ərəb və fars dilində lirik şeirlər yazmışdır. Firdovsinin "Şahnamə", Nizaminin "Yeddi gözəl", Əmir Xosrov Dəhləvinin "Həşt behişt", ƏliŞir Nəvainin "Səbai-səyyarə" və s. əsərlərdə B.G.-un həyatından, ov və eşq macəralarından bəhs edən hekayətlər var.

**BƏHRAM ŞAH**, əl-Məlik ül-Əməcəd (? – 1229) – Bəəlbəkin əyyubi əmiri [1182–1229], Fərrux şahın oğlu. Atasının ölümündən (1182) sonra əmisi Səlahəddin Əyyubi Bəəlbəkin idarəsini ona tapşırdı. Lakin 1226 ildə B.ş. Şam (Suriya) Əyyubilərinə tabe oldu. Sui-qəsd nəticəsində öldürülmüşdür. B.ş.-ın divanı var.

**BƏHRAM ŞAH**, Müizəddin (? – ?) – Dehli sultanı [1240–42], sultan Rüknəddin Firuzun oğlu. Sultan Raziyə Bəyimin ölümündən sonra taxta çıxmışdır. Vəzir Mühəzzib üd-dinin xəyanəti nəticəsində devrilmişdir.

**BƏHRAM ŞAH**, Yeminüddövlə (təqr. 1084 – 1157) – Qəznəvi hökmdarı [1117–57]. Sultan III Məsudun oğludur. Atasının ölümündən (1115) sonra hakimiyyət uğrunda başlanan mübarizədə qardaşı Məlik Arslan qardaşlarını məğlub edərək sultan oldu. B.ş. dayısı səlcuq sultanı Səncərə sığındı. Ordusu ilə Qəznəyə daxil olan Səncər B.ş.-ı taxta çıxardı. Sultanının Xorasana qayıtmasından istifadə edən Məlik Arslan Qəznəni yenidən ələ keçirdi (1117), lakin bir müddət sonra baş verən döyüşdə əsir alındı və öldürüldü (1118). 1148 ildə Qəznəni zəbt edən quri hökmdarı Seyfəddin Surini məğlubiyyətə uğradıb edam etdi. Qardaşının intiqamını almaq məqsədilə quri Ələəddin Hüseyn (Cahansuz) Qəznəyə hücum etdi və şəhəri tutub yandırdı (1150). B.ş. Hindistana çəkildi. Ələəddin Hüseynin Səncər tərəfindən məğlub və əsir edilməsindən sonra Qəznəyə qayıtdı (1152).

B.ş. comərd və ədalətli bir hökmdar olmuşdur. Elmə, ədəbiyyata böyük maraq göstərmiş, alim və şairləri himayə etmişdir. Zəngin kitabxana yaratmışdır. B.ş.-ın hakimiyyət illəri Qəznədə elm və mədəniyyətin son çiçəklənmə dövrü olmuşdur. Dövrün müəllifləri (Əbül-Məali Şirazi, Seyid Həsən Qəznəvi, Şəhabəddin Əli, Məsudi Sədi Səlman və b.) əsərlərini ona ithaf etmişlər.

*Əd.:* Merçil E. Gazneliler devleti. TTK, Ankara, 1989.

**BƏHRAMABAD** – İranın Qəzvin ostanında kənd. Eyniadlı şəhristanın Ziyaabad bölgəsinin Qaqazan kəndistanında, Ziyaabad qəs.-dən 42 *km* şm.-dadır.

**BƏHRAMAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Mərkəzi bölgəsinin Əbərğan kəndistanında, Sərab ş.-ndən 20 *km* q.-də, Sərab–Təbriz avtomobil yolunun üstündədir.

**BƏHRAMBAĞ** – Azərb. Resp. Göygöl r-nunun Quşqara ə.d.-ndə kənd. R-n mərkəzindən 12 *km* şm.-q.-də, Qoşqarçayın sahilində, düzənlikdədir. Əh. 276 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**BƏHRAMBƏY** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Qarapəşlu kəndistanında, Zəncan ş.-ndən 56 *km* şm.-q.-dədir.

**BƏHRAMOĞLU** Ataol (d. 13.4.1942, İstanbul, Çatalca) – türk şairi, yazıçı, tərcüməçi, ədəbiyyatşünas. Bəykənd Un-tinin prof.-u. Orta təhsilini Qars və Çankırıda almışdır. Ankara Un-tini bitirmişdir (1966). "Düşüncə Klubları Federasiyası"nın yaradıcılarından olmuşdur. 1970 ildə İsmət Özəllə birgə "Xalqın dostları" jurnalını nəşr etdirmişdir. Moskva Un-tinin ədəbiyyat fakültəsində təhsil almış (1972), sovet ədəbiyyatı mövzusunda tədqiqat işi aparmışdır. Türkiyə Yazıçılar Birliyinin baş katibi (1979) olmuşdur. İlk şeirlərini "Yeni Çankırı", "Yaşıl İlqaz", "Çağırış" qəzet və jurnallarında dərc etdirmişdir. Gənclik illərində yazdığı şeirlərində *Orxan Vəlinin,* Attila İlhanın və "ikinci yeni şeirin" təsiri duyulur. 12 sentyabr (1980) hadisələrindən sonra uzun müddət Fransada yaşamışdır. "Türkiyə kədərli vətənim, gözəl vətənim" (1985), "Körpələrin yurdu yox" (1988), "Məhəbbət iki nəfərlikdir" (1999), "Həyata uzun vida" (2008) və s. şeir kitabları çap olunmuşdur. Pyesi ("Lozanna", 1993), xatirələri ("Əziz Nesinli xatirələr", 2008), səyahətnamələri ("Vətəni canda duymaq", 2008; "Başqa göylər altında", 2010) var. "Vəsiqəm insan" (1999), "Həqiqət hissinin yox olması" (2001), "Rus ədəbiyyatında Puşkin həqiqəti" (2001), "Şairin dili ana dili" (2007), "Nazim Hikmət – tabu və əfsanə" (2008) və s. tədqiqat əsərlərinin müəllifidir. Tərcümələri (A.P. Çexov, A.S. Puşkin, M. Qorki, M.Y. Lermontov, Xose Marti, E. Babayev və b.) var. Əsərləri bir sıra dillərə tərcümə edilmişdir. "Yaxşı bir vətəndaş axtarılır" (1983) əsəri Ankara Sənət Teatrında tamaşaya qoyulmuşdur.

**BƏHRAMOV** Nadir Rəhim oğlu (15.3.1929, Naxçıvan – 14.7.2000, Bakı) – Azərb. tarixçisi, tarix e.d. (1972), prof. (1982). Naxçıvan Dövlət Müəllimlər İn-tunu (1947), ADU (indiki BDU; 1947–48) və MDU-da (1948–52) təhsil almışdır. Azərb. Neft və Kimya İn-tunda və A. Zeynallı ad. musiqi məktəbində müəllim (1963–65), Azərb. Texnologiya Un-tində müəllim, baş müəllim, dosent və prof. olmuşdur (1965–2000). Azərb. neft sənayesinin tarixinə dair bir çox əsərin, o cümlədən 6 kitab və elmi-metodik vəsaitin müəllifidir.

**BƏHRAMOV** Tofiq Bəhram oğlu (29.1.1925, Bakı – 26.3.1993, Bakı) – Azərb. idman xadimi. Futbol üzrə ümumittifaq (1958) və beynəlxalq (1965) dərəcəli hakim, Azərb. SSR əməkdar məşqçisi (1962), əməkdar bədən tərbiyəsi və idman xadimi (1966). Azərb. Dövlət Bədən Tərbiyəsi İn-tunu bitirmişdir (1948). Bir sıra xarici ölkələrdə keçirilən beynəlxalq



Bəhr-Dar şəhərindən görünüş.



Bəhr-Dar ş. yaxınlığında Tis-Isat şəlaləsi.

futbol yarışlarına hakimlik etmişdir. Futbol üzrə 8-ci dünya çempionatında (1966, İngiltərə) final oyununu yaxşı idarə etdiyinə görə "Qızıl ilahə"nin surəti və "Qızıl fit"lə mükafatlandırılmışdır. B. 9-cu dünya çempionatında da (1970, Meksika) hakimlik etmişdir. "Kənddə futbol" (1965), "1001 matç" (1967), "Futbolu sevin" (1969), "Hakim mərkəzi göstərir" (1971) kitablarının müəllifidir. Bakıdakı Resp. stadionu 1993 ildən T. Bəhramovun adınadır.



**BƏHR-DAR** – Efiopiyanın q.-ində şəhər, Amhara ştatının inz. m. Əh. 200 min (2008). Tana gölünün c. sahilində port. Avtomobil yolları qovşağı.

Şəhərin əsası təqr. 16–17 əsrlərdə qoyulmuşur. Mühüm turizm mərkəzidir. Ağ Nilin sağ sahilində, təpədə keçmiş imperator sarayı yerləşir. Tıs-Isat şəlaləsi B.-nın yaxınlığındadır. Pedaqoji akademiya (1962), Politexnik in-tu (1963 ildən), tibb kolleci fəaliyyət göstərir. Yeyinti, toxuculuq sənayesi müəssisələri var. Sənətkarlıq inkişaf etmişdir.

**BƏHREYN**, Bəhreyn Krallığı (Məmləkət əl-Bəhreyn, ər. البحرين).

**Ümumi məlumat.** Cənub-Qərbi Asiyada, İran körfəzində, Bəhreyn a-rında dövlət (əmirlik). Sah. 717,5 $km^2$ (2002; digər məlumatlara görə 665 $km^2$). Əh. 707,4 min (2005). Paytaxtı Manama ş.-dir. Rəsmi dil ərəb dili, pul vahidi Bəhreyn dinarıdır. İnz. cəhətdən 5 qubernatorluğa bölünür.

B. BMT-nin (1971), ƏDL-in (1971), İran Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının (1981), ÜTT-nin (1995) üzvüdür.

**Dövlət quruluşu.** B. unitar dövlətdir. Fəaliyyətdə olan Konstitusiyası 14.2. 2002 ildə qəbul edilmişdir. İdarəetmə forması konstitusiyalı monarxiyadır. Dövlət başçısı kraldır. O, səlahiyyətlərini birbaşa, yaxud nazirləri vasitəsilə həyata keçirir. Kral silahlı qüvvələrin ali baş komandanıdır, o Ali Məhkəmə Şurasına başçılıq edir.

Qanunverici hakimiyyət krala və Milli məclisə məxsusdur. Milli məclis iki palatadan – Məsləhətçi şuradan (yenidən təyinolunma hüququ ilə kral tərəfindən 4 il müddətinə təyin edilən 40 üzv) və Deputatlar palatasından (birbaşa, gizli və ümumi səsvermə yolu ilə 4 il müddətinə seçilən 40 üzv) ibarətdir.

İcraedici hakimiyyət Nazirlər şurası və nazirlərlə birlikdə kral tərəfindən həyata keçirilir. Hər bir nazir (bütövlükdə hökumətə aid deyil) Deputatlar palatası qarşısında məsuliyyət daşıyır.

B.-də heç bir siyasi partiyanın fəaliyyətinə yol verilmir.

**Təbiət.** B.-in ərazisi 36 materik və mərcan mənşəli adadan ibarətdir. Ən böyük adaları Bəhreyn, Mühərrək, Ümm-Nəəsən, Sitra və Xavərdir. Bəhreyn a. ölkə ərazisinin 83%-ni təşkil edir. Şm.-dan c.-a 48 *km*, q.-dən ş.-ə 16 *km* məsafədə uzanır. Mərkəzi hissəsi üzərində hünd. 134 *m*-ədək (Əd-Dühan d., B.-in ən yüksək nöqtəsi) ayrı-ayrı təpəliklər olan alçaq (hünd. 30–35 *m*) platodan ibarətdir. Bəhreyn a.-nı 25 *km*-lik körpü Ərəbistan y-a ilə (Səudiyyə Ərəbistanı ilə) birləşdirir. Daha xırda materik adaları, əsasən, əhəngdaşılardan ibarətdir; qumlu plyajlar zolağı ilə əhatələnir; sahilləri boyunca mərcan rifləri uzanır. Neft, qaz, asfalt, gips yataqları var.

İqlimi tropik ariddir. Qışı isti (yanvarın orta temp-ru 16°C). yayı qızmardır (iyulun orta temp-ru 37°C). İllik yağıntının miqdarı 90 *mm*-dir. B.-də çay, göl yoxdur; adalar qrunt suları ilə zəngindir. Zəif inkişaf etmiş daşlı və çınqıllı torpaqlarda tropik səhra landşaftları üstünlük təşkil edir. Saksaul, dəvətikanı, yulğun, yovşan, gəvən, qarağan və s. bitir. Ərəbistan akasiyasının süni əkinləri var; bulaqların yaxınlığında xurma palması bitən vahələr yerləşir. Xırda adalar manqr cəngəllikləri ilə örtülmüşdür. Quru faunası kasaddır, Xavər a.-nda köçəri quşlar yuvalayır. Sahilyanı sularda təqr. 400 növ balıq, dəniz tısbağaları yaşayır. Mərcan rifləri arasında yengəclər, omarlar, krevetkalar, molyusklar, o cümlədən mirvari ilbizləri boldur. Mərcan a-rı və riflərinin flora və faunası İran körfəzində tez-tez baş verən neft sızmalarının təsiri nəticəsində deqradasiyaya uğrayır. Əl-Əreyn təbiət parkı (sah. 0,8 min *ha*) var.











**Əhali.** B. əhalisinin 63%-ini *bəhreynlilər*, 10%-ini digər ərəb ölkələrindən, 8%-ini İrandan, 19%-ini Cənubi və Cənub-Şərqi Asiyadan gəlmələr təşkil edir. Orta ömür müddəti təqr. 74 ildir (kişilərdə 71,5; qadınlarda 76,5). B.-də əhalinin ortaillik artımı 1,5%-dir (doğum səviyyəsi 1000 nəfərə 18,5, ölüm səviyyəsi isə 1000 nəfərə 4 nəfərdir; 2005). Uşaq ölümü 1000 nəfər diri doğulan uşağa 17,9 nəfərdir. Fertillik göstəricisi 1 qadına 2,63 uşaqdır. Kişilər sayca qadınlardan çoxdur (hər 100 qadına 127 kişi düşür). Əhalinin yaş tərkibi: 14 yaşınadək – 27,8%, 15 yaşından 64 yaşınadək – 68,8%, 65 yaşdan yuxarı – 3,4%. Orta yaş həddi 29 ildir. Miqrasiya zəifdir (1000 nəfərə 1,05 nəfər). Əhalinin orta sıxlığı 1 $km^2$-də təqr. 1000 nəfərdir. Əhalinin 60%-indən çoxu şəhərlərdə yaşayır (2004). İri şəhərləri (1000 nəfər; 2005): Manama (147,1), Mühərrək (97,5), Ər-Rifa-əl-Qərbi (94,3), Mədinət-Həmad (65,5), Əli (55,1). İqtisadi sahədə 350 min nəfər (2004), o cümlədən sənaye, ticarət və xidmət sahəsində 79%, dövlət qulluğunda 20%, k.-t.-nda 1% çalışır; işləyənlərin təqr. 44%-ini immiqrantlar təşkil edir. İşsizlik səviyyəsi 6,6%-dir. Dindarların 85%-i müsəlmandır. Xristianlar (7,3%) və digər dinlərə (təqr. 1,5%) mənsub olanlar da var.

**Tarixi oçerk.** B. ərazisində insan fəaliyyətinin ən qədim izləri e.ə. 5–4-cü minilliklərə aiddir (*Obeyd mədəniyyətinin* abidələri). E.ə. 4-cü minilliyin sonları – 1-ci minilliyin ortalarına aid B. abidələrini təqr. e.ə. 3300 ildə Uruk mixi yazılı mətnlərində qeyd olunan *Dilmun* sivilizasiyası ilə əlaqələndirirlər. E.ə. 3-cü minilliyin 2-ci yarısı – 2-ci minilliyin əvvəllərində Bəhreyn a-rında Şumer ilə Hind vadisi arasında vasitəçilik edən iri ticarət mərkəzi meydana gəlmişdi. E.ə. 2-ci minilliyin 2-ci yarısında indiki B.-in ərazisi kaşşu çarlarının hakimiyyətinə keçmiş, daha sonra Aşşur tərəfindən işğal edilmişdir. Sonralar B. ərazisi *Əhəmənilər dövlətinin*, *Selevkilər dövlətinin*, *Parfiyanın* və *Sasanilər* imperiyasının tərkibində olmuşdur. Qədim fars, qədim yunan və Qədim Roma tarixçi və coğrafiyaçılarının əsərlərində B. a-rının adı çəkilir.

B. 7–9 əsrlərdə *Xilafətin* tərkibində, 10–11 əsrlərdə *Qərmətilər dövlətinin* mərkəzi olmuşdur. 13 əsrin ortalarında B. müstəqillik qazanmış, lakin tezliklə Hürmüzd əmirliyinə birləşdirilmişdir. 1521 ildə portuqallar, 1602 ildə isə farslar tərəfindən işğal edilmişdir. 17 əsrin 1-ci rübündə portuqallar ölkədən qovulduqdan sonra B. Səfəvilər dövlətinin tərkibinə qatılmışdır. 1783 ildən hazırda da ölkəni idarə edən, əslən əl-Xəsa regionundan (Şimal-Şərqi Ərəbistan) olan əl-Xəlifə sülaləsinin hakimiyyəti altındadır. 1861 ildən B.Britaniyanın protektoratı olmuşdur. Birinci dünya müharibəsi dövründə B.-də İngiltərənin iri hərbi bazası yaradıldı. İran hökuməti B.-i işğal olunmuş İran ərazisi hesab edirdi. 1920-ci illərin sonunda ABŞ-ın "Bəhreyn petroleum kompani" (BAPKO) neft şirkəti B.-də çalışmağa başladı, ABŞ B.Britaniya hökumətinin razılığı ilə 1930 ildə B. şeyxi ilə müqavilə bağladı. Müqaviləyə görə, ABŞ 69 il müddətinə neft kəşfiyyatı və çıxarılması üzrə konsessiya aldı. İkinci dünya müharibəsi dövründə İngiltərə B.-ə iri qoşun hissələri göndərdi.




1918 ildən B.-də genişlənən milli azadlıq hərəkatı İkinci dünya müharibəsindən sonra yeni vüsət aldı. 1950-ci illərin axırlarından hərəkata B. Milli Azadlıq Cəbhəsi (1959 ildə yaradılmışdır) rəhbərlik etməyə başladı. 1968 ildə B., Qatar və Müqaviləli Oman Ərəb Əmirlikləri Federasiyasını yaratdılar. Britaniya qoşunları İran körfəzindən çıxarıldıqdan sonra B. müstəqil dövlət elan edildi (15.8.1971). B. *Ərəb Dövlətləri Cəmiyyətinin* və İran Körfəzi Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının üzvüdür.

Əl-Əreyn təbiət parkı.







Manama. Kalat əl-Bəhreyn fortunun qalıqları (*solda*) və "Kalat Arad" qalası (*sağda*).

Səudiyyə Ərəbistanı və ABŞ-la sıx əməkdaşlıq edir. 1949 ildən B.-də İran körfəzinə nəzarət edən ABŞ HDQ 5-ci donanmasının bazası yerləşir; *Küveyt böhranı (1990–91)* və 2003 ilin mart ayında ABŞ və müttəfiqlərinin qoşunlarının İraqa müdaxiləsi zamanı B. ərazisi İraq əleyhinə koalisiyanın silahlı qüvvələri tərəfindən istifadə olunmuşdur.

2002 il fevralın 14-də "Bəhreyn dövləti" rəsmi adı "Bəhreyn Krallığı" ilə əvəz olundu, əmir Həmad ben İsa *əl-Xəlifə* (1999 ildən hakimiyyətdədir) isə kral elan edildi.

### Təsərrüfat

1930-cu illərədək B. mirvari hasilatının mərkəzi kimi tanınırdı. Əhali həmçinin vahə əkinçiliyi, maldarlıq, birdorlu gəmiqayırma ilə məşğul idi. 1931 ildə neft yataqlarının kəşfi və 1935 ildə ilk neft emalı z-dunun (Sitra a.-nda) tikintisindən sonra neft sənayesi ölkə iqtisadiyyatının əsası oldu. Neft hasilatı ən yüksək həddə (gündə 77 min *barrel*) 1977 ildə çatdı, sonralar ehtiyatın azalması ilə əlaqədar hasilat həcmi azalmağa başladı. Neft ixracından əldə edilən gəlirlər iqtisadiyyatın modernləşdirilməsi və diversifikasiyası, səhiyyənin, təhsilin və s. inkişafı üçün səmərəli istifadə olunurdu. 1970-ci illərin ortalarından B. Yaxın və Orta Şərqdə mühüm beynəlxalq maliyyə mərkəzinə çevrilməyə başladı (21 əsrin əvvəllərinə təqr. 100 xarici bank filialı). 357 bankı və digər maliyyə müəssisələrini (o cümlədən 24 kommersiya bankı, 50 ofşor bankı, ofşor əməliyyatlarına xidmət edən 83 sığorta şirkəti, 12 milli sığorta şirkəti; 2003 ilin sonu) özündə birləşdirən bank sektoru ÜDM-in 20%-ini təmin edir. Ölkədə bir sıra transmilli şirkətlərin: "Ey-Ay-Ci" (AIG), "Trast inşurans kompani" ("Trust Insurance Company"), "Ey-On-En korporeyşen" ("AON Corporation") mənzil-qərargahları yerləşir. Xarici turizm böyük əhəmiyyət kəsb edir (2004 ildə 5 mln. nəfərdən artıq). 2004 ildən "Formula-1" yarışlarının mərhələlərindən biri B.-də keçirilir.

Bəhreyni Səudiyyə Ərəbistanı ilə birləşdirən kral Fəhd körpüsü. 1986.



ÜDM-in həcmi 13,01 mlrd. dollar (alıcılıq qabiliyyəti pariteti üzrə; adambaşına 19,2 min dollar; 2004). İnsan inkişafı indeksi 0,843 (2002; dünyanın 177 ölkəsi arasında 40-cı yer). ÜDM-in real artımı 5,6% qiymətləndirilmişdir (2004). ÜDM-in təqr. 58%-i xidmət sferasının, 41%-i sənayenin, 1%-i k.t.-nın payına düşür.

S ə n a y e. Neft hasilatı və emalı ÜDM-in təqr. 30%-ini, valyuta daxilolmalarının təqr. 60%-ini təmin edir. Bu sahə bütünlükdə "Bəhreyn Petroleum Ko" (BARKO; "Bahrain Petroleum Co", BAPCO) dövlət neft-qaz konserni tərəfindən idarə olunur; z-dları həm yerli, həm Səudiyyə Ərəbistanının sualtı neft kəmərləri ilə daxil olan idxal nefti ilə işləyir. 1992 ildə Sitra a.-ndakı neft emalı kompleksi xeyli genişləndirilmişdi (gündəlik gücü 250 min *barreldən* 360 min *barrelədək* artırılmışdır); burada emal olunan neftin 80%-indən çoxu Səudiyyə Ərəbistanından idxal edilir.

B. həmçinin hasili və emalı Bəhreyn milli qaz şirkəti (BANAQAZ) tərəfindən həyata keçirilən böyük təbii qaz ehtiyatlarına malikdir. Hasil olunan qazın böyük hissəsi elektrik st.-ları üçün yanacaq kimi, neft-kimya sənayesində xammal kimi istifadə edilir. Sitra a.-nda Avstraliya giltorpağı ilə işləyən, Orta Şərqdə ən böyük (ildə 450 min *t*) "ALBA" alüminium kombinatı fəaliyyət göstərir. "ALBA"-nın bazasında təbəqə alüminium prokatı, qazıma işləri və metalın qəlibləndirməsi üçün avadanlıqların, elektrik kabellərinin və s. istehsalı ilə məşğul olan bir sıra yüksək rentabelli müəssisələr yaradılmışdır. "Ərəb gəmiqayırma və gəmi təmiri şirkəti" ("Arab Shipbuilding and Repair Yard", ASRY) ilə təmsil olunan gəmi təmiri sənayesi B.-də sürətlə inkişaf etmişdir. 1977 ildə Əl-Haddedə subasımı 500 min *t*-adək olan supertankerlərin xidməti üzrə quru tərsanə tikilmişdir. Şəhərlərin bir çoxunda xırda toxuculuq və yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir. 1995 ildə Sitra a.-nda ölkədə ən iri müasir kompleks olan "Manama toxuculuq müəssisələri" ("Manama Textile Mills W.L.L.") işə salınmışdır.

Elektrik enerjisi istehsalı 7,77 mlrd. *kVt·saatdır* (2003; daxili tələbatı üstələyir); 11 İES fəaliyyət göstərir.

K ə n d  t ə s ə r r ü f a t ı. Ərazinin təqr. 4%-i k.t. üçün yararlıdır. K.t. vahə (oazis) səciyyəlidir və ölkənin ərzaq tələbatını ödəmir (bitkiçilik məhsullarına olan tələbatın 20%-i, süd məhsullarına olan tələbatın təqr. 50%-i ödənilir). Ərzağın çox hissəsi idxal olunur. Vahələrdə xurma ağacı, sitrus meyvələri, üzüm, şaftalı, papaya, qoz, püstə, tərəvəz, taxıl (buğda, qarğıdalı, arpa) becərilir. Qoyun, keçi, zebuyaoxşar inək, uzunqulaq, dəvə, cins ərəb qaçağan atları, ev quşları yetişdirilir. Mirvari hasilatı, balıq və krevet ovlanır.





Beynəlxalq ticarət mərkəzi. Manama.

N ə q l i y y a t  v ə  r a b i t ə. D.y. yoxdur. Əsasən avtomobil yollarından istifadə edilir. Avtomobil yollarının uz. 3459 *km*, o cümlədən bərkörtüklü – 2653 *km*-dir (2002). B. materiklə (Səudiyyə Ərəbistanı) körpü vasitəsilə (uz. təqr. 25 *km*) birləşir. Bəhreyn, Mühərrək, Sitra və Ümm-Nəəsən a.-ları avtomobil yolları salınmış dambalarla birləşir. Əsas dəniz portları: Salman, Manama və Sitra. Ticarət donanması ümumi subasımı 219,1 min *reg.br. t* (yaxud 313 min *t dedveyt*) olan 6 ağır yükdaşıyan gəmidən ibarətdir: 3 quru yükdaşıyan gəmi, 2 konteynerdaşıyan gəmi və 1 tanker. Neft kəmərlərinin uz. 53 *km*, qaz kəmərlərinin uz. 20 *km*-dir (2004). Dörd aeroport fəaliyyət göstərir (3-ü bərkörtüklü, 1-i helikopter üçün aerodromdur (2004). Mühərrək a.-sında beynəlxalq aeroport var.

X a r i c i  i q t i s a d i  ə l a q ə l ə r. 2004 ildə ixracatın dəyəri 6,5 mlrd. dollar, idxalatın dəyəri 5,1 mlrd. dollar olmuşdur. Əsasən, neft və neft məhsulları, alüminium, toxuculuq malları ixrac, neft, maşın və avadanlıq, kimyəvi preparatlar, yeyinti məhsulları idxal edir.

**Səhiyyə. İdman.** Dövlət sektoru ilkin tibbi yardım və xəstəxana tibbi yardımını, məqsədli proqramları tənzimləyir. 2003 ildə əhalinin hər 10 min nəfərinə 28,1 xəstəxana çarpayısı, 18,5 həkim, 45,7 orta tibb işçisi, 25 stomatoloq düşürdü. Vərəmlə xəstələnmə halları 153, malyariya ilə 76 olmuşdur (2003). Səhiyyəyə qoyulan xərc ÜDM-in 3,3%-ini (2002) təşkil etmişdir (büdcədən ma-

"Mirvari" abidəsi. Manama.



Əl-Fətih məscidi. Manama.





"Avtodrom Bəhreyn İnterneşnl".

liyyələşmə 69%, özəl sektor 31%).

1978 ildə Milli Olimpiya Komitəsi təsis edilmiş, 1979 ildə Beynəlxalq Olimpiya Komitəsi tərəfindən tanınmışdır. Futbol federasiyası 1951 ildə yaradılmış, 1966 ildən FİFA-nın üzvüdür; avtomobil federasiyası 1952 ildə yaradılmış, 1997 ildən FİA-nın üzvüdür. 2002–04 illərdə Manamanın 30 *km*-liyində, Sahir burnunda "Avtodrom Bəhreyn İnterneşnl" inşa edilmişdir. 2004 ildən Bəhreyndə "Formula-1" dünya çempionatının mərhələ yarışları keçirilir (qaliblər: M. Şumaxer, 2004; F. Alonso, 2005).

**Mədəniyyət. Təhsil.** B. ərazisindəki ən qədim memarlıq kompleksləri şumer dövrünə aiddir (e.ə. 3 əsrin ortalarına aid tikililərin qalıqlarından ibarət Barbar məbəd kompleksi və Ad-Diru). Orta əsrlər memarlığı müsəlman dini tikililəri ilə təmsil olunur (Manamadakı məscid, 11 əsr). Müdafiə tikililəri (Bəhreyn-fort) Portuqaliya müstəmləkəçiliyi dövrünə aiddir. B.-in bir çox memarlıq abidəsi sonrakı yenidənqurmalardan ziyan çəkmişdir. 1970 ildən tarixi binaların bərpası proqramı həyata keçirilir (Mühərrəkdə şeyx İsanın evi, 19 əsrin əvvəli; Manamada şeyx Həmad əl-Xəlifənin evi, 1907; hazırda milli muzeyin tərkibindədir).

20 əsrin 2-ci yarısına aid memarlıq abidələri: Manamada B. un-ti (yapon memarı Kendzo *Tangenin* layihəsi əsasında); Beyt-əl-Quran kompleksi (məscid, konfrans zalı, kitabxana və muzey; 1990 ildə açılmışdır); B. ilə Səudiyyə Ərəbistanını birləşdirən kral Fəhd körpüsü (1986). Müasir təsviri sənət müxtəlif cərəyanlarla təmsil olunur: *ekspressionizm* (Əbd əl-Lətif Mufiz), ənənəvi ərəb xəttatlığı (Əbd əl-İlan-əl-Ərəb), *realizm* (Əbd əl-Əziz bin Məhəmməd əl-Xəlif, Rəşid Svar, Əhməd Sinni və b.). 1983 ildə B.-in ənənəvi və müasir incəsənət sərgilərinə hamilik edən Bədii cəmiyyət yaradılmışdır.

Manamada İran körfəzi ölkələri un-ti (1980), paytaxt yaxınlığında milli un-t (1986), Əhməd əl-Farsi (1976) və un-t kitabxanaları, milli muzey (1970) var.

*Əd.:* Б о д я н с к и й В.Л. Современный Бахрейн. М., 1976; Ж у р а в л ё в А.Ю. Социально-экономическое развитие Бахрейна (1930–1990) // Ближний Восток и современность. М., 1997, Вып. 3.

**BƏHREYNLİLƏR,** B ə h r e y n  ə r ə b l ə r i (özlərini baharna adlandırırlar) – Bəhreynin əsas əhalisi, xalq. Sayları 433,7 min nəfərdir (2005). Ərəb dilinin Ərəbistan qrupunun dialektlərində danışırlar. Yerli əhali (təqr. 75%-i) anazi qrupunun əski Bəhreyn, yaxud baharna dialektində, immiqrantlar isə Şərqi Ərəbistan qrupunun yeni Bəhreyn dialektində danışırlar. Dindarları müsəlmandır.

Ərəblər Bəhreyn arxipelaqında eramızın 1-ci minilliyində məskunlaşmışlar; B. özlərini e.ə. 6 əsrdə Navuxodonosor tərəfindən Babilistana köçürülmüş, sonradan Bəhreynə qayıtmış Ərəbistan tayfalarının nəsilləri hesab edirlər. 17 əsrdə Bəyhreynin İran tərəfindən işğalından sonra arxipelaqda iranlılar məskunlaşmışlar. 1783 ildə farslar Bəhreynin hakim sülaləsinin baniləri – anaza qrupunun şeyxləri (bəni atban tayfası) tərəfindən qovulmuşlar. Tayfa bölgüsü qalmaqdadır: bəni atbanlar, auvaylalar, əl-bukuvarahlar, əs-sələtələr, əl-mussələmlər, əl-muavədələr, əl-cənəətlər, bəni-xalidlər və b. Ənənəvi məşğuliyyətləri əkinçilik (xurma, sitrus bitkiləri, badam, yerli kökümeyvəlilər – ruəd, bəql, bərbir və. s. otlar), balıqçılıq, dəniz məhsullarının (o cümlədən mirvari) yığımı, davar yetişdirilməsi (onları kal xurma və balıq yağının qarışığı ilə yemləyirlər), ticarət, gəmiqayırma (gəmi kəndirlərinə balıq yağı sürtürlər), xurma ağacının yarpaqlarından və liflərindən hörmə, toxuculuq və parçaların boyanması, dulusçuluqdur. Ənənəvi məişətləri ərəb və İran xüsusiyyətlərini özündə birləşdirir. Evləri daş, yaxud mərcan lövhələrdən, palma gövdəsindəndir (barasti), geyimləri çaxçur, uzun köynək, yun əba; kişilər başlarını yaylıqla sarıyırlar. Ortokuzen və mübadilə nikahları, həmçinin müvəqqəti (baharnalarda) nikah mövcuddur.

Şifahi ənənələr Fars körfəzinin Ərəbistan sahillərinin digər xalqlarının mədəniyyəti ilə bağlıdır. İnstrumental ansamblın müşayiəti ilə çox vaxt responsor ansambl oxumaları üstün musiqi formasıdır. Şəhər musiqisi janrı soot (ehtimal ki, Yəmən mənşəli), mahnı-rəqs basta (İraq mənşəli), hərbi xor rəqsi arda (bədəvi mənşəli) yayılmışdır. Çəlləkşəkilli təbil, silindrik mirvas, kubabənzər darbuka, tar, dəf, dilçəkli alətlər (zurna, tuluq zurnası cirba), sinclər (tus), *ud* əsas musiqi alətləridir. Udda çalınan klassik ərəb musiqisi nadir halda ifa edilir. Musiqi ilə məşğul olmanın spesifik forması mirvari axtaranların mahnılarıdır (ficri); onlardan bəziləri müğənni-solist tərəfindən dalğıcların və dənizçilərin burdon xoru fonunda, digərləri isə zərb alətlərinin müşayiəti ilə yalnız gecə ifa olunur. Ficri mahnıları geniş ritmik modellərə əsaslanır və onun quruluşu dövridir. Manamanın Afrika məhəllələrində iyeva mahnı-rəqsləri ifa olunur.

**BƏHRƏ** (ər. بهره) – orta əsrlərdə Yaxın Şərq ölkələrində, o cümlədən Azərb.-da torpaq və sudan istifadə edən kəndlilərdən məhsulla (buğda, arpa, düyü və s.) alınan vergi. B. ayrı-ayrı dövrlərdə müxtəlif həcmdə (məhsulun təqr. 1/10–1/4-i qədər) toplanırdı. 13–14 əsrlərdə sahibkar torpaqlarının artması nəticəsində B. geniş yayılmışdı. B. Azərb.-da malcəhət, dəhyek, çaharyek və s. adlarla yığılırdı.

**BƏHRƏMTƏPƏ** – Azərb. Resp. İmişli r-nunda qəsəbə. Bəhrəmtəpə ə.d.-nin mərkəzi. R-n mərkəzindən 19 *km* c.-q.-də, Araz çayının sol sahilində, Mil düzündədir. Əh. 4363 (2008); heyvandarlıq, əkinçilik (taxıl, pambıq), tərəvəzçilik və bostançılıqla məşğuldur. Dəmir-beton z-dları, qum-çınqıl karxanaları; tam və ümumi orta məktəb, uşaq bağçası, mədəniyyət evi, klub, 2 kitabxana, xəstəxana, feldşer-mama məntəqəsi var. *Bəhrəmtəpə su qovşağı* qəsəbənin yaxınlığındadır.

**BƏHRƏMTƏPƏ SU QOVŞAĞI** – Azərb. Resp.-nda Araz çayı üstündə hidrotexniki kompleks. İmişli r-nu ərazisindədir. Muğan və Mil düzlərində suvarmanı inkişaf etdirmək məqsədilə tikilmiş və 1958 ildə istifadəyə verilmişdir. Kompleksə bənd, suqəbuledici, durulducular, tənzimləyicilər və s. daxildir. Qovşağın su tutumu 2,01 mln. $m^3$, faydalı həcmi 1,8 mln. $m^3$, sah. 0,6 $km^2$-dir; təqr. 170 min *ha* sahənin suvarılmasında istifadə olunur. Muğan düzündəki *Baş Muğan kanalı* və Mil düzündəki *Rəsulərx kanalı* B.s.q.-ndan başlanır.

**BƏHRİ-TƏVİL** (ər. بحر طويل – bəhr – dərya, nəhr; təvil – uzun) – 1) ərəb şeirində işlənmiş əruz vəzni bəhrlərindən biri; 2) klassik Şərq, o cümlədən Azərb. ədəbiyyatında qafiyəli satirik və lirik nəsr əsəri. Həcmcə böyük olmur. M.Ə. Sabirin "Ey əzizim, xələfim, mayeyi-izzü şərəfim ..." sözləri ilə başlanan B.-t.-i bu janrın nümunələrindəndir. Nəbati, Raci, Dəxil bu janrda əsərlər yazmışlar. Müasir Azərb. ədəbiyyatında da ara-sıra satirik məzmunlu B.-t.-lər yazılır.

**BƏXŞAYİŞ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Mehranrud kəndistanında, Bostanabad qəs.-ndən 14 *km* c.-ş.-dədir.

**BƏXŞİKƏND** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Şapur bölgəsinin Ləkistan kəndistanında, Şapur qəs.-ndən 9 *km* ş.-dədir.

**BƏXTƏVƏR XAN** (təqr. 1620–19.2. 1685, Əhmədnahar) – Böyük Moğolların dövlət xadimi, tarixçi. Gənc yaşlarından sarayda xidmət etmiş, hakimiyyət uğrunda gedən mübarizədə Övrəngzibi dəstəkləmiş, bunun müqabilində ona xan titulu verilmişdir (1659). B.x. 1670 ildə daruğayi-havassan təyin edilmişdir. 30 il Böyük Moğollara xidmət etmiş, ölümündən sonra Dehli yaxınlığındakı Bəxtəvərpurda dəfn olunmuşdur. Bir çox məscid, karvansara və körpünün inşasını, həmçinin alim və şairləri himayə etmişdir. Tarixi və bioqrafik əsərlərin müəllifidir. Baburdan Övrəngzibədək Hindistan tarixini əhatə edən əsərləri bu dövrdə yaşamış alimlərə və din xadimlərinə, adət-ənənələrə, həmçinin Övrəngzibin hakimiyyətə gəlməsi və hökmranlığının ilk onilliyinə həsr olunmuşdur. Əsərləri bir neçə dilə tərcümə edilmişdir.

**BƏXTİ** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsində Bizinərud kəndistanında, Qiydar qəs.-ndən 54 *km* c.-q.-dədir.

**BƏXTİYAR,** Ə b u  M ə n s u r  İ z z ü d d ö v l ə (942/943–978) – İraq Büveyhiləri hökmdarı [967–978], Müizz üd-dövlənin oğlu və vəliəhdi. 972–973 illərdə vergi ödəməkdən boyun qaçıran Batiha əmiri İmran ibn Şahinə, 974 ildə Mosul Həmdani əmiri Əbu Təğlibə qarşı yürüş etmişdir. Misirdə Fatimilərin nüfuzunun artmasından ehtiyatlanan B. Qərmətilərlə ittifaq bağlamışdı. B.-ın türk əyanları və sərkərdələri ilə sərt davranışı Büveyhi ordusunun baş komandanı Səbük Teginin üsyanına səbəb olmuşdu. O, Bağdadı ələ keçirərək B.-ın qardaşları Əbu İshaqı və Əbu Tahiri anaları ilə birlikdə həbs etmişdi (974). B. üsyanı yatırmaq üçün əmisi Rüknüddövlə, əmisi oğlu Xuzistan və Fars əmiri Əduddövlədən, həmçinin Əbu Təğlib və İmran ibn Şahindən yardım istəmişdir. Lakin Səbük Teginin qəfil ölümü nəticəsində türklər Alp Teginin ətrafında cəmləşdilər. Baş verən döyüşdə B. türklərə məğlub oldu. Əduddövlə böyük qoşunla Bağdada daxil olub Alp Tegini məğlub etdi. Lakin qısa bir müddətdən sonra B. Əduddövlə tərəfindən həbs olundu və öldürüldü.

**BƏXTİYARAN** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Ətraf bölgəsinin Rəhal kəndistanında. Xoy ş.-ndən 15 *km* c.-q.-dədir.

**BƏXTİYARİLƏR** – İranın c.-q.-indəki Zaqros d-rında (Bəxtiyariyyə və Çaharməhal ostanları, İsfahanın c.-q.-i, Xuzistanın və Luristanın ş.-i) yaşayan xalq. B.-in qrupları həmçinin Şimali İran (Tehran, Xorasan və s. ostanlar) və Əfqanıstanda (10 mindən çox) məskunlaşmışlar. Ümumi sayları 1 mln. nəfərdir (2005). Həftləngi (doureklər, babadilər, bəxtiyarvəndilər, dinarilər və b. tayfalar; qışda Dizful və Bağə-Mələk ş.-ləri, yayda isə Səmir, Du-Pulyan və Şəhrzə ş. arasında köç edirlər) və çaharləngi (kəyumərslər, mukulər, zaleklər, mahmud salehlər, mimvəndlər və b. tayfalar; qışda Bağə-Mələk və Ağacəri ş.-ləri, yayda isə Şəhre-Kord və Xursar ş.-ləri arasında köç edirlər) qruplarına bölünürlər; mövsümi köç zamanı bu qrupların yolları kəsişir. *Lurlara* yaxındırlar. İran dillərinin c.-q. qrupuna daxil olan lur-bəxtiyar dilinin dialektlərində danışırlar, həmçinin fars dili yayılmışdır. Yazıları ərəb əlifbası əsasındadır. Dindarları müsəlmandır.

Zaqros d-rında İran tayfalarının məskunlaşma prosesi islamaqədərki dövrlərdə baş vermişdir. 12–13 əsrlərdə, Luristan atabəylərinin hakimiyyəti dövründə buraya ərəb və kürd tayfaları köçürdü. "B." adı ilk dəfə 16–17 əsr salnamələrində çəkilir. B.-in tərkibinə həmçinin ərəb və türk (əfşarlar, qaşqaylar və b.) tayfaları daxil olmuşlar. 1730-cu illərdə B. *Nadir şah* tərəfindən darmadağın olunmuş və bir qismi Xorasana (Nişapur, Qonabad, Kəşmir ş.-lərinin ətraf ərazilərinə) köçürülmüşdür. Nadir şahın 1747 ildə öldürülməsindən sonra çaharləngilərin başçısı Əli Mərdan xan taxt uğrunda mübarizədə iştirak etmişdir; onun 1758 ildəki məğlubiyyətindən sonra yeni şah *Kərim xan Zənd* B.-in bir qismini Qum ş.-nin ətrafına köçürmüşdü. 1793 ildə B. *Ağa Məhəmməd şah* Qacar tərəfindən məğlub edilmiş, Tehran, Fəs və Qumun ətrafındakı ərazilərə köçürülmüşlər. 1830-cu illərdə bəxtiyari tayfaları əvvəlcə çaharləngi elxanının, sonra isə həftləngi elxanının hakimiyyəti altında birləşmişlər. Şah siyasəti ilə mübarizədə B. İngiltərənin dəstəyinə arxalanırdılar. B. *İran inqilabında (1905–11)* əhəmiyyətli rol oynamışlar; 1909 ildə Tehranı tutduqdan sonra B.-in hökumətdə iştirak edən nümayəndələri həlledici nüfuza malik olmuşlar. *Rza şah Pəhləvinin* [1925–41] hakimiyyəti dövründə bəxtiyari tayfalarının dəfələrlə tərk-silah edilməsi və onları zorla oturaq həyata keçirmək siyasəti silahlı müqavimətə gətirib çıxarmışdı. Rza şahın devrilməsindən sonra ənənəvi məişət bərpa olundu, yerli separatizm meyilləri yenidən baş qaldırdı. 1949 ildə elxan titulu rəsmi şəkildə ləğv edildi. 1950-ci illərdə B.-in nümayəndələri hökumətdə yenidən nüfuz qazandılar.

Ənənəvi mədəniyyətləri Ön Asiya xalqları üçün səciyyəvidir. Əsas məşğuliyyətləri köçəri və köçəbə maldarlıqdır (qarayunlu keçi, qoyun və yerli at cinsi), əkinçilik (buğda, arpa; qışlaqlarda payız əkini, yaylaqlarda isə payızlıq və yazlıq əkini) də yayılmışdır. Köçlər mart ayından başlayır. 20 əsrin əvvəllərindən əmtəə əkinçiliyi (xaşxaş tiryəki, tənbəki,

pambıq) və xalçaçılıq inkişaf etmişdir. B.-in əksəriyyəti şəhərlərdə (İsfahan və s.) yaşayır və neft mədənlərində çalışırlar. Köçərilər qara yundan hazırlanmış çadırlarda, yaxud alaçıqlarda yaşayırlar. Ailələrin qohum birlikləri (mol, yaxud keytul) birgə örüş zamanı düşərgələr təşkil edirdilər; alaçıqlar adətən, yarımdairəvi şəkildə qurulur, mol başçısının çadırı isə yarımdairənin mərkəzində olur. Oturaq məskənlər bürcləri olan möhrə divarlar ilə əhatə edilir. Lurların papaqlarına oxşar kişi papağı (kulah-e namadi) səciyyəvidir. 20 əsrədək bölünməmiş ailələr (60 nəfərədək), qarşılıqlı yardımlaşma, bəzən fidyə ilə əvəz olunan qan qisası (xun-beha), qonaqpərvərlik adəti qalmaqda idi. Folklorları farslara yaxındır. Sevgi haqqında nəğmələr, həmçinin mərasim, satirik və s. mahnılar (gire bəxtiyari) özünəməxsusluğu ilə seçilir. Musiqi alətləri nəfəsli qamış dilçəkli membranofonlardır. Kişilərin dairəvi rəqsləri və döyüşü əks etdirən çubuqlarla qoşa rəqsləri məlumdur.

**BƏXTİYARLI** İxtiyar Bəhrəm oğlu (d.17.6.1949 Ağcabədi r-nunun Yeni Qaradolaq k.) – Azərb. kimyaçısı, kimya e. d. (1996), prof. (2010). Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1972). AMEA Kimya Problemləri İn-tunda xalkogenidlərin fiziki-kimyəvi tədqiqi laboratoriyasının müdiridir (2003 ildən). Tədqiqatları kimyəvi qarşılıqlı təsirin xarakterini nəzərə almaqla lantanoidlərin mürəkkəb oksisulfidlərinin əmələ gəlməsinin və faza çevrilmələrinin idarə olunmasının quruluş kimyası baxımından elmi əsaslarının öyrənilməsinə həsr edilmişdir. 201 elmi əsərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**BƏXTİYARLI** – Azərb. Resp. Qubadlı r-nunun Göyərcik ə.d.-ndə kənd. R-n mərkəzindən 9 *km* şm.-q.-də, Bərgüşad çayının sağ sahilində, dağətəyi ərazidədir. Əh. 286 (2008); işğaldan (1993, avqust) əvvəl heyvandarlıq, tütünçülük və baramaçılıqla məşğul olmuşdur. Ümumi orta məktəb, feldşer-mama məntəqəsi; qədim "Darlar" abidəsi var idi.

**BƏXTİYAROV** İbrahim Ağamurad oğlu (7.12.1928, Qafan r-nunun Açağu k. – 29.12.1996, Bakı) – nəzəri mexanika sahəsində Azərb alimi, fizika-riyaziyyat e.d. (1978), prof. (1979). Azərb. Sənaye İn-tunu bitirmişdir (1952). Həmin in-tda (1952–58), Azərb. Politexnik İn-tunda (1958–74) müxtəlif vəzifələrdə çalışmışdır. 1975–96 illərdə Azərb. İnşaat Mühəndisləri İn-tunda kafedra müdiri işləmişdir. Tədqiqatları deformasiyaya uğrayan bərk cism mexanikası, mexanika məsələlərinin həllində kompleks dəyişənli funksiyalar nəzəriyyəsinin tətbiqi sahəsindədir. 150-dən çox elmi əsərin, o cümlədən 10 dərslik və dərs vəsaitinin müəllifidir. Beynəlxalq elmi konfranslarda iştirak etmişdir. Elmi kadrların hazırlanmasında xidməti var.

**BƏKDAŞ** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qafan r-nu) azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd erməni daşnaklarının təcavüzünə məruz qalmış, azərb. əhali isə qovulub çıxarılmışdır. 1922 ildə azərb.-lar geri qayıtmış, lakin sonralar ermənilər tərəfindən tədricən sıxışdırılıb kənddən çıxarılmışdır. 1970 ildə kənd ləğv edilmişdir.

**BƏKİRABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Üzümdil kəndistanında, Vərzəqan qəs.-ndən 8,5 *km* şm.-dadır.

**BƏKİROV** Roman Mehman oğlu (d.13.3.1989, Şamaxı r-nunun Göylər k.) – Azərb. idmançısı. Sərbəst güləş üzrə gənclər arasında Avropa çempionatının bürünc mükafatçısıdır (2009).

**BƏKLƏ** – Azərb. Resp. Qobustan r-nunun Nabur ə.d.-ndə kənd. R-n mərkəzindən 11 *km* şm.-dadır. Əh. 311 (2008); heyvandarlıq, əkinçilik və kustar xalçaçılıqla məşğuldur. Daş karxanası, tam orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi; pirlər (Qaradonlu, Sofiəbil), məscid (17 əsr) var.

**BƏKMƏZ**, b ə h m ə z, d o ş a b – üzüm və ya tut şirəsindən hazırlanan qida məhsulu. Orta əsrlərdə (xüsusilə 13–14 əsrlərdə) baldan hazırlanan B.-dən geniş istifadə edilirdi. Yüksək kaloriliyə malikdir. Qənnadı məhsulları istehsalında, desert şərablarının şəkərliliyini artırmaq üçün istifadə olunur. B. bir sıra xəmir xörəklərində (xəşil, quymaq və s.), həmçinin şərbət və halva hazırlanmasında işlədilir. B.-dən xalq arasında qanazlığının, başgicəllənmənin, ümumi zəifliyin qarşısını almaq üçün müalicə vasitəsi kimi də istifadə edilir. Azərb.-ın bəzi zonalarında B.-ə d o ş a b deyilir.

**BƏKR** Əhməd Həsən (ər. أحمد حسن البكر; 1912, digər məlumatlara görə 1914, Tikrit – 4.10.1982, Bağdad) – İraq hərbi və dövlət xadimi, gen. Ət-Tikrit nəslinin nümayəndəsidir. 1956 ildən *Ərəb Sosialist Dirçəliş Partiyasının* (Bəəs) üzvü olmuşdur. Monarxiya əleyhinə 1958 il 14 iyul inqilabında iştirak etmişdir. 1963 il fevral– noyabr aylarında İraqın baş naziri olmuş, sonra istefaya çıxmışdır. 1968–79 illərdə İraq Resp.-nın prezidenti, İnqilabi Komandanlıq Şurasının sədri olmuşdur. *Yaxın Şərq münaqişəsi* zamanı sərt mövqedə dayanmışdır. 1979 il iyulun 16-da öz qohumu və yaxın silahdaşı *S. Hüseyn* tərəfindən hakimiyyətdən uzaqlaşdırılmışdır. Həyatının son illərini ev dustağı olmuşdur.

**BƏKTAŞİ** Sübhi Əli oğlu (29.3.1929, Naxçıvan – 6.4.2009, Bakı) – Azərb. geoloqu, geologiya-mineralogiya e.d. (1970), prof. (1972), Azərb. Resp.-nın əməkdar elm xadimi (1999). 1951 ildə Azərb. Dövlət Un-tini (indiki BDU) bitirmişdir. Qərbi Sibirdə geoloq (1951–53), Azərb. Geologiya İdarəsində geoloji-kəşfiyyat dəstəsinin rəisi (1954–58), Azərb. EA Geologiya İn-tunda aspirant, baş elmi işçi (1959–64), Azərb. Dövlət Un-tində dosent, prof., kafedra müdiri (1965–76), Azərb. Geologiya İdarəsinin baş geoloqu və rəis müavini (1976–82), BDU-da Kristalloqrafiya, mineralogiya və geokimya kafedrasının prof.-u (1982–2007) vəzifələrində çalışmışdır. Petralogiya, metallogeniya, geokimya və kosmokimya sahələrində tədqiqatların, 160 elmi əsərin, o cümlədən 2 monoqrafiyanın həmmüəllifidir. Azərb.-ın, Qafqazın, Krımın 1:500 000 miqyaslı metallogenik xəritələrinin redaktorlarındandır. Elmi kadrların hazırlanmasında xidməti var.

Ə s ə r l ə r i: Nadir element yataqlarının geologiyası (M. Zahiri ilə birlikdə). B.,1974; Metallogeniya (S. Süleymanovla birlikdə). B., 1975.

**BƏKTAŞİ** Tofiq Heydər oğlu (17.5. 1912, Naxçıvan – 5.11.1995, Bakı) – Azərb. riyaziyyatçısı. Fizika-riyaziyyat e.d. (1980), prof. (1980), Azərb. Dövlət Pedaqoji İn-tunu bitirmişdir (1933). Tədqiqatları diferensial tənliklər sistemi, zərbə nəzəriyyəsi, nəzəri mexanika sahəsindədir. Tədris metodikası məsələlərinə dair əsərlərin, o cümlədən iki dərsliyin, bir neçə dərs vəsaitinin müəllifidir.

**BƏKTAŞİLİK** – 13 əsrin sonu – 14 əsrin əvvəllərində Kiçik Asiyada meydana gəlmiş sufi təriqəti. Banisi Xorasandan olan Hacı Bəktaş Vəli Nişapuri (1208–1270) sayılır. Təriqəti Balim Sultan (1516 ildə vəfat etmişdir) yenidən təşkilatlandırmışdır. B. yeniçəri korpusu arasında müstəsna təsirə malik idi. Osmanlı imperatorluğunun yeni ərazi fəthləri ilə əlaqədar B. Yaxın Şərqə və Balkanlara yayılmışdır.

B. sinkretik, digər dinlərə dözümlü münasibət bəsləyən təlimdir. Burada islam xristianlığın bəzi elementləri və xalq inancları ilə qaynayıb qarışmışdır. Təriqət ardıcılları 12 şiə imamına, *Allah*, *Məhəmməd* peyğəmbər və *Əli ibn Əbu Talib* üçlüyünə, Hacı Bəktaşa və 14 əsr mütəfəkkiri, *hürufiliyin* banisi Fəzlullah Nəimi Astrabadiyə sitayiş edirlər. B.-in ən qədim təməl ayinlərindən olan ayin-i cəm və iqrar (etiraf) ayini rəqs və musiqinin müşayiəti ilə keçirilir. Mərasimlərdə qadınlar kişilərlə birlikdə iştirak edirlər. Sufilərin bir qismi nikaha daxil olmur.

Təşkilati cəhətdən B. kənd icmalarından və təkyə-zaviyələrdən ibarət idi. Üzvləri 6 dərəcəyə bölünürdülər: üzvlüyə namizədlər (aşiq); üzv olanlar (mühibb); dərvişlər: təkyə başçıları (baba); başda ustad-dədə olmaqla nikahsızlığı əhd edənlər; təkyə rəhbərləri. Təriqəti Hacı Bəktaşın xələfləri olan çələbilər idarə edirdilər. İqamətgahları Hacı Bəktaş k.-nin (indiki Türkiyənin Qırşəhər və Kayseri şəhərləri arasında) Pir evi adlanan zaviyəsində yerləşirdi. 18–19-cu əsrlərdə çələbi vəzifəsi, bir qayda olaraq, atadan oğula keçirdi.

B.-in siyasi əhəmiyyəti onun yeniçərilər ilə bağlılığında idi. 1826 ildə yeniçəri korpusu ləğv edildi və B. qadağan olundu. Təqiblər təriqət üzvlərini Albaniyaya köçməyə vadar etdi. 19 əsrin ortalarından B. əvvəlki nüfuzunu bərpa etsə də, bəktaşi, dədə və çələbi qollarına parçalandı. 1925 ildə Türkiyədə bütün təriqətlərin, o cümlədən B.-in fəaliyyəti qadağan edilsə də, bu günədək ölkədə təqr. 30 min təriqət üzvü var. Təriqət Balkanlarda, əsasən, Albaniyada fəaliyyət göstərir (20 əsrin ortalarında burada 30 təkyə olmuşdur). 1990-cı illərdə Tirananın baş təkyəsi öz fəaliyyətini bərpa etmişdir.

**BƏQAYƏ** (ər. بقايه – qalıqlar) – orta əsrlərdə Azərb.-da və qonşu ölkələrdə əhalinin mülkədarlara və dövlətə ödəyə bilmədiyi vergilərin qalığı. Hülaku xan [1256–65] və onun xələfləri dövründə vergilərin həddindən artıq ağır olması nəticəsində əslində daimi vergi növünə çevrilmişdi.

**BƏQƏRABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkman bölgəsinin Bərvanan kəndistanında, Türkman qəs.-ndən 14 *km* q.-də, Miyanə–Təbriz avtomobil yolunun üstündədir.

**BƏLAĞƏT** (ər. بلاغة – səlis, gözəl danışıq, natiqlik məharəti) – 1) zəngin, obrazlı, canlı, danışıq qabiliyyəti, natiqlik istedadı; 2) *natiqlik sənətindən* bəhs edən elm. Orta əsr ərəb filoloqlarının (əl-Cahiz, İbn əl-Mütəzz, əs-Səkkaki və b.) yaratdığı B. elmi, əslində, nitqin gözəlliyi və səlisliyi haqqında üslubiyyat nəzəriyyəsidir və üç bölməni əhatə edir: elm əl-məani, elm əl-bəyan, elm əl-bədi. Birinci bölmə nitqin qrammatika və məntiq qanunları baxımından düzgün qurulmasından bəhs edir. "Bəyan" elmi fikrin gözəl və aydın ifadə edilməsini və bu məqsədlə təşbeh, istiarə və kinayə kimi bədii təsvir vasitələrindən istifadə üsullarını öyrədir. "Bədi" istilahı altında isə bədii nitqin istər məzmun, istərsə də forma baxımından gözəlliyi üçün məcazi mənada işlənən söz və ifadələrin, həmçinin səs tərkibi etibarilə yaxın olan sözlərin bacarıqla seçilib, yerli-yerində işlədilməsi nəzərdə tutulur. B. elmi bütün bölmələri ilə birlikdə ilk dəfə əs-Səkkakinin "Miftəh ül-ülum" adlı ensiklopedik əsərində əsaslı şərh edilmiş və sistem halına salınmışdır. Azərb. alimləri Xətib Təbrizi, Şərəfəddin Həsən Rami Təbrizi, Vəhid Təbrizi və b. B. elmindən bəhs etmişlər.

*Əd.:* Ш и д ф а р Б.Я. Образная система классической арабской литературы (VI XII вв). М., 1974; К у л и е в а М.Г. Вопросы теории арабской литературы на основе "Мифтах аль-улум" ас-Саккаки (автореф. канд. дис.). Б., 1984; M ə m m ə d o v S. Ərəb ədəbiyyatının inkişaf tarixindən. Azərb. SSR EA "Xəbərlər" (əd-t, dil və incəsənət seriyası), 1984, № 3.

**BƏLAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Horand bölgəsinin Yaft kəndistanında, Horand qəs.-ndən 19 *km* şm.-ş.-dədir.

**BƏLAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Horand bölgəsinin Bərgəhan kəndistanında, Horand qəs.-ndən 31 *km* c.-dadır.

**BƏLAZURİ** (البلاذري) Əhməd ibn Yəhya ibn Cabir əl-Bəlazuri (təqr. 820, Bağdad – təqr. 892) – ərəb tarixçisi. Mənşəcə farsdır. Abbasilər sarayına yaxın olmuşdur. "Fütuh əl-Büldan" ("Ölkələrin fəthi") əsərində Məhəmməd peyğəmbərin yürüşlərindən başlayaraq 8 əsrin əvvəllərinədək ərəb işğallarının tarixi, o cümlədən Azərb.-ın işğalı, ərəb qəbilələrinin Azərb.-a köçürülməsi və s. haqqında da məlumat verilmişdir. 1920-ci illərdə əsərin Azərb.-a aid bir hissəsini P.K. Juze rus dilinə tərcümə etmişdir. "Ənsab əl-əşraf" ("Zadəganların nəsəbi") əsərində isə Məhəmmədin, onun qohumlarının və islam dünyasının görkəmli xadimlərinin həyatı təsvir olunur. B.-nin əsərləri Xilafətin siyasi və mədəni tarixi üzrə mühüm mənbədir.

**BƏLBAY** – Azərb. Resp. Astara r-nunun Asxanakəran ə.d.-ndə kənd. R-n mərkəzindən 36 *km* şm.-q.-də, Vəşəru çayının sahilindədir. Əh. 176 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Feldşer-mama məntəqəsi var.

**BƏLƏDİYYƏ** (ər. بلدية şəhər idarəsi; بلد şəhər sözündən) – bir çox ölkədə seçkili yerli idarə və özünüidarə orqanı. Bəzi ölkələrdə (məs., ABŞ və B. Britaniyada) yalnız şəhər idarə orqanları B. adlanır. Bir qayda olaraq, merin, burqomistrin və b. başçılığı ilə seçkili kollegiya və icra aparatından ibarətdir. Müvafiq inzibati ərazi əhalisi tərəfindən seçilir. Abadlıq, səhiyyə, yerli polis, dövlət məktəbləri və s. məsələlərə baxır. Əsas gəlir mənbəyi əhalidən tutulan yerli vergilərdir. B. mənzil fondunun, bələdiyyə mülkiyyətinin və digər əmlakın mülkiyyətçisi ola bilər. "Bələdiyyələrin statusu haqqında" Azərb. Resp. qanununa (2.7.1999) görə, B. qanunla müəyyən edilmiş ərazi hüdudları daxilində yerli özünüidarə formasıdır. Bələdiyyənin öz mülkiyyəti, yerli büdcəsi və seçkili bələdiyyə orqanları vardır və o, Azərb. Resp.-nın Konstitusiyası ilə və bu qanunla səlahiyyətlərinə aid yerli əhəmiyyətli məsələləri müstəqil surətdə həll edir.

**BƏLƏK** i b n B ə h r a m i b n A r t u k (? – 6.5.1124, Mənbic) – səlcuqi əmiri, *Artuk* bəyin nəvəsi. Artukluların üçüncü qolunun banisi. 1112 ildə Harput və ətrafını hakimiyyəti altına almışdı. 1113 ildə I Qılınc Arslanın oğlu Toğrul Arslanın atabəyi olmuşdur; Malatya, Elbistan və ətrafını, 1120 ildə Ərzincan və Kemah bölgələrini tutmuşdu. 1122 ildə əmisi İlqazinin səlibçilərə qarşı yürüşündə iştirak etmişdir. Döyüşlərdə göstərdiyi rəşadətə görə "qazi" adını almış, İraq səlcuqi sultanı Mahmud tərəfindən türk ordularının komandanı təyin olunmuşdu. Mənbic uğrunda gedən döyüşdə qaladan atılan oxla ağır yaralanaraq ölmüşdür.

*Əd.:* M e r ç i l E. Müslüman-türk devletleri tarihi. İstanbul, 1985.

**BƏLƏK** – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Qarakilsə, 2.3.1940 ildən – Sisian r-nu), Bazarçayın sağ sahilində azərb.-ların yaşadığı kənd. 19 əsrin 1-ci yarısında bölgənin Rusiya tərəfindən işğalından sonra kəndə İranın Xoy və Salmas bölgəsindən gətirilmiş ermənilər də yerləşdirilmişlər. 20 əsrin əvvəllərində kəndin bütün azərb. əhalisi sıxışdırılıb kənddən çıxarılmış və adı dəyişdirilərək Balak qoyulmuşdur.

**BƏLƏNCƏR** – *Xəzər xaqanlığında* şəhər və vil. Ərəb-fars mənbələrinə görə, B. Dərbənddən şm.-da yerləşən iri mərkəz, *xəzərlərin* ilk paytaxtı olmuşdur (həmçinin zəngin vil., dağ massivi və keçid, çay və s. B. adlanırdı). Ehtimal ki, əvvəllər hunların paytaxtı Varaçan burada yerləşmişdir. 652/653 ildə ərəblər B.-i mühasirəyə alsa da məğlub olmuşlar. Şəhər 722/723, və 732/733 illərdə ərəblər tərəfindən dağıdılmışdır.

B.-in lokallaşdırılması məsələsi mübahisəli olaraq qalır. Lakin, B. vil.-nin Sulak çayının orta axarındakı vadidə aşkar olunan çoxsaylı arxeoloji abidələrlə, B. şəhərinin isə Çiryurt k. (Dağıstan) yaxınlığındakı kompleksIə eyniləşdirilməsi daha əsaslıdır. B. 19 əsrdən məlumdur, 1956 ildən tədqiq olunur (M.Q. Maqomedov və b.). Şəhərcikdə daş və çiy kərpicdən tikilmiş və bürcləri olan divarlar (ehtimal ki, zəlzələyə davamlı olması üçün arasına qamış təbəqə qoyulurdu), cınağı formada hörülmüş daş bünövrə üzərində möhrə tikililər aşkar edilmişdir. 6 (?) əsrin sonu – 7 əsrə aid iki torpaq qəbir (ölülər katakombalara, çalalara, çappa qəbirlərə qoyulmuşdur; qəbir avadanlığı üçün fibul, amulet və s. səciyyəvidir) və 7 əsrin 2-ci yarısı – 8 əsrin 1-ci yarısına aid iki kurqan məzarlığı (ölülər katakombalara, yerüstü daş sərdabələrə qoyulmuşdur; dəfn avadanlığı arasında çoxsaylı silah və hərbi ləvazimat, üzərində süvarinin, heyvanların oyma təsvirləri olan nadir sümük lövhəciklərlə bəzədilmiş yəhər vardır) tapılmışdır. 2-ci məzarlığın yaxınlığında iki kilsənin xarabalıqları, onların mehrabında daş xaçların fraqmentləri qalmışdır.

**BƏLƏNCƏRLƏR** – türk tayfası, *savirlərin* bir qolu. Xəzər dənizi ilə Qara dəniz arasında pərakəndə şəkildə məskunlaşmışdılar. 6 əsrin 2-ci yarısında Şimali Qafqaz tayfalarını özünə tabe edən xəzərlərlə birləşmiş, *Xəzər xaqanlığının* meydana gəlməsində mühüm rol oynamışlar. Xəzərlərin paytaxtı *Bələncər* ş.-nin adı B.-in adındandır.

*Əd.:* T o q a n Z.V. Hazarlar. İstanbul, 1970.

**BƏLĞƏ TEYMUR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkman bölgəsinin Bərvanan kəndistanında, bölgənin 16 *km* şm.-q.-ində, Miyanə–Təbriz avtomobil yolunun 9 *km*-liyindədir.

**BƏLĞƏM** – öskürək zamanı tənəffüs yollarından kənar edilən patoloji ifrazat; selik vəzilərinin hiperaktivlik məhsulu. B.-də çox vaxt epiteli hüceyrələri, ağ ciyər toxumasının qopmuş hissələri, qan, irin və s. olur. B.-in miqdarı və xarici görünüşü diaqnostik əhəmiyyətə malikdir. B. selikli, irinli, serozlu, qanlı, qarışıq ola bilər. Krupoz pnevmoniya zamanı – "paslı" B., ağ ciyərdə irinliyin deşilməsi zamanı – çox irinli B., ağ ciyər toxumasının çürüyüb dağılması zamanı – boz-bulanıq, üfunətli B. səciyyəvidir. Laboratoriyada mikroskopik, bakterioloji və sitoloji üsullarla tədqiq edilir. Bu, B.-də xəstəliktörədici mikroorqanizmləri (o cümlədən vərəm törədicilərini), bədxassəli şiş hüceyrələrini, müəyyən xəstəliklər üçün səciyyəvi olan digər elementləri aşkar etməyə, habelə bakteriya florasının antibiotiklərə qarşı həssaslığını təyin etməyə imkan verir.

**BƏLĞƏMOTU** (Althaea) – *əməköməcilər* fəsiləsindən ot bitkisi cinsi. Avrasiyada yayılmış təqr. 12 növü var. Yarpaqları növbəli, tamkənarlı, dilimli, yaxud barmaqvarı dilimlidir. Meyvəsi diskşəkilli, bölünən və qanadsızdır. Azərb.-da sərtyarpaq B. (A.hirsuta), dərman B.-su (A officinalis), şərq B.-su (A. taurinensis), çətənəvarı B. (A. cannabina) kimi 4 növü məlumdur. Ən çox məlum olan növü dərman B.-sudur. Hünd. 1,5 *m*-ədək, açıqçəhrayı qoltuq çiçəkləri və güclü kök sistemi olan yumşaq keçəvarı tüklənmiş çoxillik bitkidir. İxtisaslaşmış təsərrüfatlarda qiymətli dərman bitkisi kimi becərilir. Xammal kimi istifadə edilən kökündəki selikli maddələr (35%-ədək); nişasta pektin maddələri B.-nun müalicəvi xassələrini (iltihabaqarşı, yumşaldıcı, bəlğəmgətirici) müəyyən edir. Çiçək və yarpaqlarındakı efir yağı valerian iyi verir.

Bəlğəmotu (Althaea officinalis).





Məscid Səbz (Yaşıl məscid). 15 əsr. Bəlx.

**BƏLX** – Şimali Əfqanıstanda, indiki Bəlx (Vəzirabad) ş. yaxınlığında qədim şəhər, *Bəlx padşahlığının* paytaxtı. Burada e.ə. 1-ci minilliyin 1-ci yarısında Bəlx padşahlığının *Əhəmənilər dövlətinin*, sonralar isə Makedoniyalı İsgəndərin imperiyasının tərkibində olduğu dövrdə məskən salınmışdır. E.ə. 3–2 əsrlərdə B. *Yunan–Bəlx padhaşlığının*, sonralar *Kuşan padşahlığının* paytaxtı olmuşdur. Rəvayətlərə görə, zərdüştiliyin yayılmasının ilk mərkəzi, sonralar isə Orta Asiyada buddizmin iri mərkəzi olmuşdur. Eramızın 8 əsrində şəhər ərəblər tərəfindən dağıdılmış, sonralar bərpa edilmişdir. Abbasilərin və Samanilərin hakimiyyəti dövründə *Xorasan* tarixi vil.-nin mərkəzi kimi "şəhərlərin anası" adı ilə məşhur olmuşdur. B. Şərq ölkələrindən Xəzərə, oradan çaylar vasitəsilə Bulqara, oradan isə Novqoroda və vikinqlərin torpaqlarına, həmçinin Qafqaz üzərindən Qara dəniz sahillərindəki şəhərlərə malların daşındığı mühüm beynəlxalq ticarət mərkəzi olmuşdur. 11–12 əsrlərdə Qəznəvilərin, Səlcuqilərin və Qurilərin tabeliyində idi. 1220 ildə *Çingiz xan* tərəfindən dağıdılmış, 14 əsrdə bərpa edilmişdir. Monqollardan sonrakı dövrdə Amudərya çayından c.-da yerləşən vilayət əsas şəhərinin adı ilə Bəlx adlanırdı. 19 əsrin ortalarınadək Buxara xanlarının iqamətgahı olmuşdur. 1850 ildə B. Əfqanıstanın tərkibinə qatılmışdır. Bir sıra memarlıq abidələri 15–16 əsrlərə aiddir: Bala Hissar qalasının şəhər divarlarının, məscidlərin, mədrəsənin və hamamların qalıqları; Xoca Əbu Nasir Parsın məscid-türbəsi daha yaxşı qalmışdır. B.-də geniş arxeoloji qazıntı aparılmamışdır.





**BƏLX**, B ə l x a b (yuxarı axınında Dərəgöz və ya Bəndi-Əmir) – Əfqanıstanın şm.-ında çay. Uz. təqr. 450 *km*. Hindiquş d-rının q.-indən, Baba silsiləsindən başlanır. Amudəryaya çatmamış qumluqlarda itir. *Bəlx düzənliyinə* çıxdığı yerdə məcra parçalanaraq delta əmələ gətirir. B.-in deltasında Məzari-Şərif, Vəzirabad (Bəlx) və s. vahələr var.

**BƏLX** – Əfqanıstanın şm.-ında əyalət. Sah. 17,2 min $km^2$. Əh. 1,9 mln. (2005). İnz. m. Məzari-Şərifdir.

**BƏLX DÜZƏNLİYİ** – Əfqanıstanın şm.-ında, Amudərya çayının sol sahilində dağətəyi düzənlik. Uz. təqr. 400 *km*, eni 140 *km*-ədək, hünd. c.-da 500 *m*-dən şm.-q.-də 250 *m*-ədəkdir. Səthi c.-da eni 25 *km*-ə çatan və dağ çaylarının deltalarının birləşdiyi maili prolüvial düzənlikdən, şm.-da, əsasən, Amudəryanın çay terraslarından, yastı relyefdən ibarətdir. Quru subtropik iqlimi var. Orta temp-r iyulda təqr. 31°C, yanvarda təqr. 3°C-dir. İllik yağıntı 150–250 *mm*-dir, ən çox yazda düşür. Düzənliyin şm.-ında qumlu səhra landşaftı, c.-unda takır və şoranlıqlı qumlu-gilli səhralar üstünlük təşkil edir. Amudərya boyunca tuqay kolluqları və çəmənliklər yayılmışdır. Quruyan çay dərələrinin susuz deltalarına c.-da vahələr zolağı birləşir. B.d. irriqasiya əkinçiliyinin (pambıq, buğda, şəkər çuğunduru, çəltik) qədim mərkəzlərindən biridir.

**BƏLX PADŞAHLIĞI** – Orta Asiyada tarixi-mədəni vil. Hissar dağ silsiləsi ilə Hindiquş arasında, Amudəryanın orta axarında (indiki Cənubi Özbəkistan, Cənubi Tacikistan, Şimali Əfqanıstan, Cənub-Şərqi Türkmənistan) yerləşirdi. Burada Tunc dövründə yüksək inkişaf etmiş əkinçilik mədəniyyəti (*Daşlı mədəniyyəti*) mövcud olmuşdur. Lakin bu mədəniyyət e.ə. 18–15 əsrlərdə tənəzzül etmiş, yerli mədəniyyətin və *Andronovo mədəniyyəti* maldarlarının gətirdiyi ənənələrin sintezi baş vermişdir. E.ə. 1-ci minilliyin əvvəllərində Bəlx əhalisi *İran dillərində* danışırdı. E.ə. 1-ci minilliyin ilk əsrlərində burada mərkəzi Bəlx olan dövlət yaranmışdı. E.ə. 6 əsrin ortalarından *Makedoniyalı İsgəndərin* yürüşlərinədək (e.ə. 330–327) B. *Əhəmənilər dövlətinin* tərkibində idi. İsgəndərin xələfləri (*diadoxlar*) arasında baş verən mübarizə nəticəsində Bəlx *Selevkilər* dövlətinə qatılmış, e.ə. 3 əsrin ortalarında Yunan-Bəlx padşahlığının özəyi olmuşdur. Təqr. e.ə. 180 ildə Bəlx padşahları Hindistanın işğalına başlamış, lakin təqr. e.ə. 140/130 illərdə B.p.-nın özü şm.-dan gələn köçərilər tərəfindən zəbt edilmişdir. B.p. ərazisində bir necə dövlət yaranmışdı, onların bəziləri *Parfiyadan* asılı idi. Bu dövrdə *toxarların* buraya gəlməsi ilə vilayət *Toxarıstan* da adlanmağa başlamışdı. Eramızın 1 əsrinin ortalarında Bəlxdə baş verən siyasi konsolidasiya *Kuşan padşahlığının* yaranmasına gətirib çıxardı. 3 əsrin ortalarında *Sasanilər* B.p.-nın bir hissəsini tutaraq, Kuşan canişinliyini yaratdılar. Sonralar B.p. kidarilərin, *eftalitlərin* və ərəblərin hakimiyyəti altında olmuşdur.

Bəlx ilahələrinin heykəlcikləri.
E.ə. 2000–1800 illər.



B.p. mədəniyyəti xarici təsirlərə meyilli olması ilə yanaşı, yerli ənənələrin saxlanılması ilə də səciyyələnir. Əhəmənilər dövrü memarlığı üçün dəyirmi və düzbucaqlı formada çiy kərpicdən tikilmiş binalar xarakterik idi. B.p.-nın mədəni yüksəlişi Yunan-B.p. dövrünə təsadüf edir. Həmin dövrün ən mühüm materialları Təxti-Səngidən tapılmışdır; oradakı Oksa məbədi, ehtimal ki, *Amudərya dəfinəsi* ilə bağlıdır. Qədim Ayxanım ş.-ində arxeoloji qazıntılar zamanı saray, bir neçə məbəd, gimnasi, arsenal, teatr, zəngin yaşayış evləri, yunan kitabələri, heykəllər tapılmışdır. Sonrakı dövrün öyrənilməsində Xalçayandan, Tulxar və Tillitəpə nekropollarından tapılan qiymətli metallardan hazırlanmış 20 minədək əşyanın çox böyük əhəmiyyəti vardır. İncəsənətin bu mərhələsində ellin, Əhəməni, Uzaq Şərq, skif-Sibir mənşəli elementlər qovuşur ki, bu da Kuşan pad- şahlığı dövrü mədəniyyətini fərqləndirir. Bu mədəniyyət daha çox Dilbərçin (istehkam, şəhər divarları, məbədlər, çiy kərpicdən tikilmiş ağac sütunlu, daş üzlüklü evlər), Dalverzintəpə, Termez şəhərlərində, Surxankotal xanəgahında aparılan qazıntılardan məlumdur. Üzərində padşahların profildən portretləri, qədim yunan allahlarının, yaxud epos qəhrəmanlarının təsviri olan Yunan-B.p. metal pulları, daş və terrakota heykəllər, metal qablar, kitabələr (Surxkotal, Ayrtam, Rabatak, Qaratəpə) və s. B.p. tarixi və mədəniyyətinə aid çox qiymətli nümunələrdir. Əllərində Mesopotamiya (tinli *arfa*), qədim yunan (ikiqat *avlos*, *çoxlüləli fleyta*), Orta Asiya (Soğd, Bəlx) mənşəli alətlər olan musiqiçilərin rəngli gildən və s. düzəldilmiş fiqurları məlumdur. Sonuncular arasında Asiyanın (ərəblərdə *ud*, çinlilərdə *pina*, yaponlarda *biva* və s.) və Avropanın (bilavasitə lütnya) klassik lütnya qrupundan olan musiqi alətinin əcdadı – armudabənzər gövdəli, arxaya qatlamış başcıqlı lütnya da var.

Əhəmənilər istilasına qədər ökldə *zərdüştilik* yayılmışdı; bu dinin təbliğatında B.p. xüsusi rol oynamışdır. İlk əsrlərdən başlayaraq B.p.-nda aparıcı din *buddizm* olmuşdur. O dövrün məbəd və monastırları [qədim Termezdə Qaratəpə, Fayaztəpə və Acınatəpə (6–8 əsrlər)] möhtəşəm heykəltəraşlıq və boyakarlıq nümunələri ilə zəngindir.

**BƏLXİ** Ə b u Ş a k i r (915 – ?) – farstacik şairi. Buxarada yaşamışdır. Didaktik poema-ensiklopediya kimi nəzərdə tutulmuş ən böyük əsəri olan "Yaranış kitabı"ndan ("Afərinnamə", 945–48) yalnız hissələr və sitatlar saxlanılmışdır. Əsərdə humanist motivlər, insanların bərabərliyi ideyası, ağlın və biliyin gücünə inam ifadə olunur. *Rudəki* ilə bərabər B. fars ədəbiyyatında didaktik eposun yaradıcılarından biridir. "Yaranış kitabı"nın yazıldığı mütəqarib bəhri sonralar bu janr üçün mütləq ölçü olmuşdur. Bəzi şeirlərindən onun incə lirik olduğu görünür. B.-nin üslubu yığcam və aforizmlərlə zəngindir, dili sadədir, demək olar ki, məcazlardan istifadə etməmişdir.

**BƏLİL** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Mərkəzi bölgəsinin Xanəndəbil kəndistanında, Xalxal ş.-ndən 3 *km* c.-da, Xalxal–Miyanə avtomobil yolunun üstündədir.

**BƏLİMYIĞAN MAŞIN** – k.t. maşını; tarladan bəlimləri (kökümeyvəli bitkilərin gövdə və yarpaqlarını) kəsib yığmaq və onunla yanaşı gedən nəql. vasitələrinə (traktorun qoşqusu və s.) yükləmək üçün istifadə olunur. B.m. traktorla aqreqatlaşdırılır. Maşının işlək orqanları traktorun güc valı ilə hərəkətə gətirilir. B. m.-ın sürəti 4–6 *km/saat*, məhsuldarlığı 1,3–2,4 *ha/saatdır*.

**BƏLİTON** – Azərb. Resp. Lənkəran r-nunun Günəhir ə.d.-ndə kənd. R-n mərkəzindən 35 *km* şm.-q.-də, Burovar silsiləsinin ətəklərindədir. Əh. 679 (2008);

əkinçilik və maldarlıqla məşğuldur. Ümumi orta məktəb, klub, kitabxana, feldşer-mama məntəqəsi var.

**BƏLLƏBUR** (B a l l a b u r) **QALASI** – Azərb.-da orta əsr qalası. Xarabalığı Lənkəran ş.-ndən 9 *km* c.-q.-də, Ballabur k. yaxınlığındadır. Tərq. 1 *ha* sahəni əhatə edən qala ərazisində saxsı su boruları (tüngləri) olan məişət binalarının qalıqları saxlanılmışdır. Hünd. 4–5 *m*, eni 1,5 *m*-ə qədər olan qala divarı bişmiş kərpicdən (22x22x6 *sm*) hörülmüşdür. B.q.-nda arxeoloji tədqiqat aparılmamışdır. Yerüstü tapıntılar orta əsr şirli saxsı məmulatından, mis və qızıl Bizans sikkələrindən ibarətdir.

**BƏLUC DİLİ** – *bəlucların* dili. Pakistan, İran, Əfqanıstan, Türkmənistan, Oman və BƏƏ-də yaılmışdır. Bu dildə danışanların ümumi sayı 7,5 mln.-dan çoxdur (1990-cı illərin sonu): Pakistanda təqr. 6 mln., İranda 1–1,2 mln., Əfqanıstanda 200 min, Omanda 130 min, BƏƏ-də təqr. 100 min və Türkmənistanda 38 min nəfər. *İran dillərinin* şm.-q. qrupuna daxildir. İki əsas dialekt qrupuna bölünür: ş. və q. Morfoloji quruluşca, əsasən, analitik dildir. Fonetikasında uzun saitlər fərqləndirilir. Nitq hissələri 2 qrupa bölünür: adlar və fellər. İsimlərin və əvəzliklərin 4 hal şəkli var. Fel sistemi inkişaf etmişdir. Cümlə, bəzi dialektlər istisna olmaqla, erqativ quruluşludur. Pakistan və Əfqanıstanda yaşayan bəluclar ərəb qrafikalı yazıdan istifadə edirlər; ən qədim yazılı abidələri 18 əsrə aiddir. 1930-cu illərdə SSRİ-də, 20 əsrin sonlarında Pakistanda və Avropa ölkələrində yaşayan bəluclar üçün latın qrafikalı yazının, 1990-cı illərin əvvəllərində isə Türkmənistanda yaşayan bəluclar üçün Kirill əlifbasının tətbiq olunmasına təşəbbüs göstərilmişdir. B.d.-ndə zəngin şifahi xalq ədəbiyyatı (dastanlar, nağıllar və s.) var.

*Əd.:* Мошкало Б.Б. Белуджский язык // Основы иранского языкознания. Новоиранские языки: северозападная группа. М., 1991.

**BƏLUCİSTAN** – Asiyada, İran yaylasının c.-ş.-ində tarixi-coğrafi vil. Sah. 0,5 mln. *km*²-dən çoxdur. Şərqi B. (347,2 min *km*²) Pakistana, Qərbi B. (178,4 min *km*²) İrana daxildir. B. iri ərazi birliklərinin – Xilafətin, həmçinin Qəznəvilər, Səlcuqilər, Hülakular və Teymurilər dövlətlərinin tərkibində olmuşdur. Bu dövlətlərin parçalanmasından sonra 17 əsrin əvvəllərində B. ərazisində *Səfəvilərdən* və *Böyük Moğollardan* asılı bir sıra əmirliklər yaranmışdır. Kalat (Şərqi B.) əmirliyinin hakimi Nəsir xan Bəluc [1750–95] bütün B.-ı öz hakimiyyəti altında birləşdirmişdi. 19 əsrdə Şərqi B. ingilis qoşunları tərəfindən işğal olunaraq Britaniya B.-ı əyalətinə və Bəluc əmirliklərinin federasiyasına parçalandı, Qərbi B. isə İranın tərkibinə qatıldı. 1947 ilin avqustunda Britaniya B.-ı əyalət kimi Pakistan ərazisinə qatıldı, 1948 ilin martında Bəluc əmirliklərinin federasiyası da həmin əyalətə daxil edildi. Şərqi B. (Pakistanın Bəlucistan əyaləti) və Qərbi B. (İranın Bəlucistan və Sistan əyaləti) arasındakı sərhəd 1956 il oktyabrın 29-da İran-Pakistan müqaviləsinə əsasən müəyyən olundu. 1955 ildə Pakistanın q. hissəsindəki bütün əyalətlər Qərbi Pakistan əyalətində birləşdirildi. Əmirliklər ləğv olundu. 1970 ildə Qərbi Pakistan 4 əyalətə bölündü; onlardan biri Bəlucistandır. B.-nın əhalisi (*bəluclar*, həmçinin *brahuilər* və *puştular*) 7,7 mln. nəfərdən çoxdur (2005). Pakistanda B. əyalətində mədən sənayesi inkişaf etmişdir. Suidəki qaz yataqları ümummilli əhəmiyyət kəsb edir. Əsas şəhəri Kvettadır (734 min nəfər; 2005). B. 26 distriktə bölünür. Əhali tərəfindən seçilən Qanunverici məclis mövcuddur. Qubernator mərkəz tərəfindən təyin olunur. Pakistan parlamentinin aşağı palatasına B.-dan 65 deputat seçilir. Yuxarı palatada – Senatda əyaləti 22 nümayəndə təmsil edir. B.-da ümumdövlət partiyalarının, xüsusilə islam partiyalarının, həmçinin etnomilliyyətçilik əsasında yaradılmış yerli partiyaların mövqeyi güclüdür. İranın Sistan və Bəlucistan əyalətinin (ostanın) inz. mərkəzi Zahedan ş.-dir (552 min nəfər; 2005). B. iqtisadiyyatında əkinçilik və maldarlıq mühüm rol oynayır.

**BƏLUCİSTAN** – Pakistanın q.-ində əyalət. Sah. 347 min *km*². Əh. 9 mln. (2007). İnz. m. Kvetta ş.-dir.

**BƏLUCLAR**, b a l o ş l a r, b a l u ş l a r (özlərini b ə l u ç i, b a l o ç i adlandırırlar) – Pakistanda (*Bəlucistan* və Sind) yaşayan xalq. Qərbi (1,2 mln.), şərqi (1,8 mln.) və cənubi (2,8 mln. nəfər; 1998) B.-a bölünürlər. Həmçinin İranın c.-ş.-ində (qərbi və cənubi B. – 856 min nəfər; Sistan və Bəlucistan ostanı), Əfqanıstanın c.-q.-ində (qərbi B. – 200 min nəfər; Hilmend çayı hövzəsi), Türkmənistanda (qərbi B. – 38 min nəfər), Tacikistanda, Omanda (cənubi B. – 312 min nəfər), Birləşmiş Ərəb Əmirliklərində (cənubi B. – 100 min nəfər), Hindistanın şm.-ında (qərbi B. – 5 min nəfər; Uttar-Pradeş və Qucarat ştatları) yaşayırlar. *Bəluc dilində* danışırlar. Fars (İranda), dəri və puştu (Əfqanıstanda), türkmən (Türkmənistanda), ərəb (Omanda və BƏƏ-də), urdu (Hindistanda) dilləri də yayılmışdır. Dindarları müsəlmandır.

İranın c.-unda (Kirman və Fars) yaşamış B. haqqında ilk məlumatlar e.ə. 7 əsrə aiddir. Onların əcdadları ehtimal ki, eramızın 1-ci minilliyində Şimali İrandan (Xəzər dənizinin c. sahilləri) gələn irandilli tayfalardır. B. isə Suriyadan köçənləri öz əcdadları hesab edirlər. Sonralar onlar əkinçi əhaliyə hücum edərək və becərilən torpaqların bir hissəsini otlaqlara çevirərək şimala və şərqə doğru yayılmışlar: 10 əsrdə Xorasana, 13 əsrdə Sində, 14 əsrin sonlarında isə Pəncaba çatmışlar. 17 əsrin sonlarından Kalat əyalətinin "Braquy tayfalarının konfederasiyasında" əhəmiyyətli rol oynamışlar. 19 əsrin sonları – 20 əsrin 1-ci yarısında İran və İngiltərə əleyhinə dəfələrlə üsyan qaldırmışlar. Hazırda bəluc tayfaları muxtariyyətlərinin genişləndirilməsi uğrunda mübarizə aparırlar.

Ənənəvi mədəniyyətləri Orta və Ön Asiyanın səhra və yarımsəhra xalqları üçün səciyyəvidir. Əsas məşğuliyyətləri köçəri və köçəbə maldarlığı, suvarma əkinçiliyi, sahilyanı ərazilərdə balıqçılıqdır. Varlı maldarlar əkin torpaqlarını çox vaxt öz tayfalarını tərk etmiş B.-a, yaxud Hindistanın əkinçi kastalarından (catlar və b.) olan icarədarlara verirdilər. Xalçaçılıq inkişaf etmişdir. Köçərilərin evləri uz. 10 *m*-ədək olan, yun parça ilə örtülən çadırdır (gedan); mal-qara üçün xüsusi yeri var. Geyimləri enli şalvar-çaxçur, uzun köynək, qolsuz köynək, xalat, örtüklərdən (kişilərdə patu, qadınlarda çadır) ibarətdir. Ənənəvi yeməkləri duzsuz kökə, qatıq, tərəvəz, duzla qızardılmış çəyirtkədir. Tayfa-bulak (İranda riqilər, naruilər, ismailzailər, laşarilər, dəştiarilər və b., Pakistanda marrilər, buqtilər, rəhşanilər, rindlər və b.), klan (bhara), başçılar (sərdarlar) tərəfindən idarə olunan ata xətti ilə qohum qəbilələrə (phalli) bölgü; həmçinin adətlər, islamaqədərki inanclar, folklor (rəvayətçi dumlar tərəfindən söylənən, tayfa genealogiyalarını əks etdirən qəhrəmanlıq və tarixi dastanlar və balladalar; nağıllar, əfsanələr, təmsillər, nəğmələr; kişilərin döyüş rəqsləri səciyyəvidir) qalmaqdadır. At yarışları, xoruz döyüşləri və s. yayılmışdır. Hazırda sindhlər və farslar tərəfindən assimilyasiyaya uğrayırlar.

Musiqi mədəniyyətində şm. və c. ənənələri seçilir. C. üçün şervandi – müğənni-solistlərin sənəti (B.-ın inkişaf etmiş, klassik adlandırılan musiqisi), qəzəl mahnı janrı (mərasim trans musiqisi); beşik (luli) nəğmələri, ağılar (zaurak), uşağın doğulmasını müşayiət edən silsilə mərasim mahnıları, toy mahnıları səciyyəvidir. B.-ın peşəkar musiqi ənənələrinin təmsilçiləri, əsasən, öz peşələrini nisbətən aşağı statusu olan köçəri əcdadlarından (bu qrupa dəmirçilər, zərgərlər, xalçaçılar daxil idi) irsən əxz etmiş (onların mühitində genealogiyaları ilə fəxr etmək qəbul olunmuşdur) ost ("ustalar") sosial qrupunun nümayəndələridir. Musiqi alətlərindən yayla çalınan simli sorud (analoqları – hind sarindası, Nepal qaynesi) peşəkar musiqiçilərə məxsusdur; bu alətdən solo kimi və vokal kompozisiyalarda da istifadə edilir. Qoşa fleyta donelidən (analoqları hind alqozası, satara), əsasən, trans musiqisində istifadə olunur. Barmaqla çalınan simli alətlərdən tanburak, setar, fleyta kalam və zərb alətləri populyardır. Musiqi alətlərində çalmaq hüququ kişilərə məxsusdur, qadınlar yalnız vokal repertuarı ifa edirlər.

**BƏLUKAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Mərkəzi bölgəsinin Bərvanan kəndistanında, Türkman qəs.-ndən 21 *km* şm.-ş.-dədir.

**BƏLUS** – İranın Ərdəbil ostanında kənd. Meşkinşəhr şəhristanının Mərkəzi bölgəsinin Qərbi Meşkin kəndistanında, Meşkinşəhrdən 14 *km* c.-q.-də, Əhər avtomobil yolunun 10 *km*-liyindədir.

**BƏLYÜNƏŞ** (ər. بليونش) – Cəbəlüttariq boğazının c. sahilində tarixi şəhər. Orta əsrlərdə Əndəlüs Əməvilərinin *xacibi* Əbu Amir B.-də bir çox bağ salmış və qala tikdirmişdir. 11 əsr ərəb coğrafiyaşünaşı Bəkrinin məlumatına görə, B.-in torpaqları bol sulu və münbit, əhalisi çox olmuşdur. 14 əsrdə çiçəklənmə dövrünü yaşamışdır. 1415 ildə Seutanın portuqallar tərəfindən işğalından sonra B. Portuqaliya kral ailəsinin mülkiyyətinə keçmişdir. 1580 ildən İspaniyanın tabeliyindədir.

**BƏM** – 1) musiqidə yoğun səs (bas, bariton); 2) simli musiqi alətlərində yoğun səsli sim; 3) aşağı registr.

**BƏNAB** – İranın Şərqi Azərbaycan ostanında kənd. Mərənd şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Mərənd ş.-ndən 12 *km* ş.-dədir.

**BƏNAB** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Bənab bölgəsinin Mərkəzi qəs.-ndə, Marağa ş.-ndən 16 *km* c.-q.-dədir.

**BƏNACU** – İranın Şərqi Azərbaycan ostanında kəndistan. Marağa şəhristanının Bənab bölgəsində, Mərhəmətabad kəndistanından şm.-dadır.

**BƏNAİ** Kəmaləddin – bax *Kəmaləddin Bənai*.

**BƏNAKUH** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Çaharoymaq kəndistanında, Qaraağac qəs.-ndən 32 *km* şm.-ş.-dədir.

**BƏNARƏVAN**, Q ı r x b u l a q – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Tərik bölgəsinin Kəndovan kəndistanında, bölgə mərkəzindən 7 *km* şm.-ş.-də, Miyanə–Təbriz avtomobil yolunun 21 *km*-liyindədir.

**BƏNAYİM** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Qavdul kəndistanında, Marağa ş.-ndən 29 *km* c.-ş.-də, Marağa–Miyandab avtomobil yolundan 11 *km* ş.-dədir.

**BƏND** – çayın və ya başqa su axınının qarşısını kəsərək suyun səviyyəsini qaldırmaq və su anbarı yaratmaq üçün inşa edilən hidrotexniki qurğu. B. elektrik enerjisi almaq, su təchizatını, suvarmanı, gəmiçiliyi, taxta-şalban materiallarının axıdılmasını yaxşılaşdırmaq və s. məqsədlər üçün tikilir. Yaşayış məntəqəsi, yol, körpü və s.-ni seldən, daşqından qorumaq, yaxud suyun məcradan kənara çıxmasının qarşısını almaq məqsədilə tikilən səddə də B. deyilir. B. tikməklə su toplamaq üsulu ilk dəfə Şərqdə tətbiq edilmişdir. Qədim Misir, İran, Azərbaycan, Orta Asiya və Hindistanda eramızdan bir neçə əsr əvvəl suvarma məqsədilə müxtəlif quruluşlu B.-lər inşa edilmişdir. İranda Şiraz yaxınlığında tikilmiş Bənd-i Əmir, Səfəvilər dövründə tikilən və Kaşan ş.-ni su ilə təchiz edən Bənd-i Kohrud və Yəməndəki Məarib B.-ləri tarixdə məşhurdur.

Su ehtiyatlarından energetik məqsədlər üçün istifadə B. konstruksiyalarının təkmilləşməsi, həmçinin böyük çaylarda nəhəng hidroqovşaqların qurulması üçün stimul oldu. Su enerjisindən istifadə edən qurğuların (su dəyirmanı və s.), daha sonra isə SES-lərin tikilməsi B.-lərin hünd.-nün artırılmasını tələb edirdi. Kür çayının üzərində 1957 ildə işə salınmış Mingəçevir SES-in B.-inin hünd. 80 *m*-dir. B.-in su səviyyəsi hündür olan tərəfdəki hissəsi y u x a r ı b y e f, aşağı (alçaq) olan tərəfdəki hissəsi isə a ş a ğ ı b y e f adlanır. Yuxarı və aşağı byeflərdəki su səviyyəsinin fərqi basqı yaradır. B.-lər suburaxmayan və suaşıran olur. Su B.-lərin üstündən və aşağı hissəsindən buraxılır. Aşağı byefdə yuyulub dağılmanın qarşısını almaq üçün B.-in yatağı bərkidilir. B.-in qabağında məcranı bərkitmək məqsədilə sukeçirməyən döşəmə, şpuntlu divar, sement və ya bitum örtüklər düzəldilir. Yuxarı byefdə suyun səviyyəsini tənzimləmək və aşağı byefə su buraxmaq üçün hidrotexniki sürgülərdən istifadə edilir. Funksiyasına görə B. susaxlayan, yəni anbar tipli (məs., Ceyranbatan su anbarı) və suqaldıran olur. B.-lərin alçaq basqılı (10 *m*-ə qədər), orta basqılı (10–50 *m*-ə qədər) və yüksək basqılı (50 *m*-dən çox) növləri var. B.-ə, əsasən, suyun təzyiqi (statik, dinamik), üzərindəki qurğuların ağırlığı, seysmik qüvvələr, buzun və küləyin təzyiqi və s. təsir göstərir. B. torpaq, daş, taxta, beton və dəmir-betondan düzəldilir. T o r p a q B. daha geniş yayılmışdır, çünki, bilavasitə yerli material olan torpaq işlətməklə tikilir. Torpaq B.-in ən kəsiyi trapesiya şəklində olur. Hünd. 165 *m*-ə yaxın torpaq B.-lər var. Tərtər çayı üzərində tikilmiş Sərsəng su qovşağının torpaq B.-inin hünd. 125 *m*, bünövrəsinin eni 570 *m*-dir. Torpaq B. bircinsli və müxtəlifcinsli süxurlardan düzəldilə bilər. Mingəçevir SES-inin yüksək təzyiqə davamlı B.-i çınqıllı süxurlardan yuyulma üsulu ilə qurulmuşdur. B.-in bünövrəsində sıx gilli və Abşeron yarusuna məxsus qum layları yerləşir. Torpaq B.-in yamaclarını dağılmaqdan qorumaq üçün aşağı byefdə drenaj, yuxarı byefdə isə ekran və ya diafraqma qurulur. D a ş B. də trapesiya şəklində qurulur, lakin yamacları sıldırım olur, əsasən, suburaxmayan tipli düzəldilir. Daş B.-də müxtəlif formalı möhkəm daşlar işlədilir. Hörmə daş B.-ə nisbətən tökmə daş B.-lərə daha çox üstünlük verilir. Orta və az basqılı daş B.-lər tağvarı B.-lərdən fərqli olaraq hər cür əsas üzərində tikilə bilir. T a x t a B.-lər, əsasən, şam ağacından qurulur və suaşıran tipli olur. Basqı az olan yerlərdə tikilir və 15–20 il davam gətirir, meşəlik yerlərdə ucuz başa gəlir. B e t o n B.-lərə olan mühüm tələblərdən biri B.-in oturacağında suyun süzülməsini (filtrasiyasını) azaltmaqdır. Bu məqsədlə hündür beton B.-in oturacaqlarında süzülməyə qarşı sipər düzəldilir və drenaj qurulur. Beton B.-də hidrotexniki betondan əsas material kimi istifadə olunur. Beton B. suburaxma üsuluna görə bütöv və suaşıran olur. Hünd. 300 *m*-ə qədərdir. Konstruksiyasına görə qravitasiya, tağvarı və kon-



Kolorado çayı üzərində tağvarı, qravitasiya bəndi ("Huver bəndi", hünd. – 221 *m*). ABŞ.

trforslu B.-lər var. Geniş istifadə olunan qravitasiya B.-i suburaxmayan və suaşıran tipli tikilir. Çox böyük olduğundan suyun itələmə qüvvəsinə öz ağırlığı ilə müqavimət göstərir. Hünd. təqr. 280 *m*-ə qədər olur. İstidən çatlamanın və qeyri-bərabər çökmənin qarşısını almaq üçün B. deformasiya tikişləri ilə hissələrə bölünür. B. dayaqlarının qurulacağı yer və sahil möhkəm olan hallarda tağvarı (planda əyrixətli) B.-lər tikilir. Hünd. 240 *m*-ə qədər olan tağvarı B.-lər var. Kontrforslu B.-lərin bir-birinə paralel şaquli dayaq divarları (kontrforsları) olur. Kontrforsların üstü yastı tava və ya tağlarla örtülür. Suyun təzyiqi bu örtüklər vasitəsilə kontrforslara, oradan da B.-in əsasına ötürülür. Kontrforslu B. nisbətən yüngül olduğundan sürüşmənin qarşısını almaq üçün maili düzəldilir. Əsasən, suburaxmayan, nadir hallarda suaşıran tipli tikilir; hünd. 110 *m*-ə çatır. Dəmir-beton B. daha möhkəm olur. Suburaxma şəraitinə və konstruksiyasına görə beton B.-lər kimidir. Lakin tağvarı dəmir-beton B.-lər polad sərfinə görə baha başa gəldiyi üçün beton B.-ə nisbətən az təsadüf edilir. Polad fermalar üzərində qurulmuş quraşdırma B.-lərdən də istifadə edilir. Fermalar bir-birindən 1–1,2 *m* aralı qoyulur və bu aralara taxta sipərlər vurulur. Lazım gələndə, açılıb-bağlanması üçün fermalar oynaq konstruksiyalı düzəldilir.

**BƏND** (far. بند – bağ, bağlama, sədd, bölgü və s.) – 1) ədəbiyyatda: şeirin qafiyə və ya intonasiyaya görə birləşdirilmiş, vahid məna ifadə edən bir neçə misrası. Misraların sayına görə B.-lər ikilik, üçlük, dördlük, beşlik, altılıq və s. olur. Klassik Şərq, o cümlədən Azərb. poeziyasında ən kiçik B. beytdir. Azərb. poeziyasında dördlük, beşlik və altılıq B.-lər daha çox yayılmışdır. Məs., klassik şeirdə və aşıq poeziyasında dördlüyün rübai, tuyuq, mürəbbe, bayatı, qoşma, gəraylı, beşliyin müxəmməs, altılığın müsəddəs kimi növləri var. B. özünün spesifik qafiyələnmə sistemini uzun müddət qoruyub saxlamışdır (*qoşma, məsnəvi* və s.). Şeirin B.-lər əsasında qurulması ona kompozisiya bütövlüyü, daxili məzmun bitkinliyi və vəzn vəhdəti verir. Lirik şeirlərdə nisbətən sadə (dördlük, beşlik), poemalarda isə mürəkkəb (yeddilik, səkkizlik, doqquzluq və s.) B.-lərdən istifadə olunur; 2) təsviri sənətdə: ornamental kompozisiyada xətt və ya şaxələrin qovuşduğu nöqtə. B.-lər müxtəlif şəkildə olur. Azərb. ornament sənətində heyvan (fil, şir və s.) başını təsvir edən B. formalarına da təsadüf edilir.

**BƏND DAYAĞI** – brus və ya dəmir-beton tirlərdən düzəldilmiş və daşlarla, yaxud qruntla doldurulmuş qutu şəklində konstruksiya; divarları bütöv, yaxud şəbəkə şəklindədir. B.d bəndlərin (əsasən, ağac bəndlərin), istinad divarlarının, körpülərin özül və sahil dayaqlarının və s. qurulmasında tətbiq edilir.

**BƏND GÖLLƏRİ** – bax *Göllər*.

**BƏNDARİ** (بنداری), Bundari, Bondari, əl-Fəth ibn Əli ibn Məhəmməd əl-Bəndari (? – ?) – 13 əsr ərəb tarixçisi, tərcüməçi. İmadəddin əl-İsfahaninin səlcuq tarixinə aid "Yorğunluqda kömək və yaranmışa sığınacaq" əsərini bir sıra əlavə və ixtisarla ""Kömək" kitabının əsas hissəsi və "Sığınacaq" kitabından çıxarış" adı ilə tərtib etmişdir. Əsərdə Alp Arslanın Azərb.-ı tutması, o dövrdə Azərb.-da baş verən hadisələr, Eldənizlərin fəaliyyəti, Şirvanşahlarla Səlcuqilərin münasibəti, Azərb. şəhərləri, Gəncə zəlzələsi və s. haqqında da məlumat verilmişdir. B. Firdovsinin "Şahnamə" əsərini ərəb dilinə tərcümə etmiş, Xətib Bağdadinin əsərinə əlavə yazmışdır.

**BƏNDAYİ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Baranduzçay kəndistanında, Urmiya ş.-ndən 11,5 *km* c.-ş.-də, Urmiya–Məhabad avtomobil yolunun 2 *km*-liyindədir.

**BƏNDƏLİ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Siyəhçeşmə bölgəsinin Bəhbəhcik kəndistanında, Siyəhçeşmə qəs.-ndən 42,5 *km* c.-ş.-dədir.

**BƏNDƏR,** Bəndər (? – 1231, Gəncə) – xarəzmşah Cəlaləddinə qarşı 1231 ildə Gəncədə baş vermiş üsyanın başçısı. Cəlaləddin Gəncəni tutduqdan (1225) sonra onun məmurları əhali üzərinə bir sıra vergilər qoymuşdu. Hərəkatda şəhər əhalisinin bir qismi fəal iştirak edirdi. Üsyançılar Cəlaləddinin qarnizonunu məhv edib şəhəri ələ keçirdilər. B.-in rəhbərliyi ilə şəhər hakiminin sarayı dağıdıldı, məmurlar və qulluqçular öldürüldü. Cəlaləddin üsyançılarla danışıqlara başladı, şəhəri təslim edəcəkləri təqdirdə üsyançıları bağışlayacağını vəd etdi. Lakin üsyançılar təklifi rədd etdilər. B. üsyançıları şəhərdən çıxardı və Cəlaləddinin qoşununa hücum etdi. Baş verən döyüşdə süvarilərin hücumları qarşısında davam gətirməyən üsyançılar geri çəkilməli oldular. Cəlaləddin onları təqib edərək Gəncəyə daxil oldu və üsyanı yatırdı. B. və üsyan başçılarından 30 nəfər edam edildi.

**BƏNDƏR-ABBAS** – İranın c.-unda şəhər. Hürmüzgan ostanının inz. m. Əh. 318 min (2005). Hürmüz boğazında port. D.y. st. Beynəlxalq aeroport. Şəhər 1623 ildə Şah Abbas I tərəfindən (portuqallar üzərində qələbənin şərəfinə) salınmışdır. 1793–1868 illərdə Omanın icarəsində olmuşdur. 1960-cı illərdən B.-A. sürətlə inkişaf edir. 19 əsrin sonlarına aid məscid var. Toxuculuq, yeyinti, neft emalı, qara





və əlvan metallurgiya (alüminium əridilir) sənayesi, gəmi tərsanələri və gəmi təmiri z-dları var. Balıq ovlanır. Yaxınlığında xrom və dəmir filizi, duz, kükürd, şelfdə qaz hasil olunur.

**BƏNDƏR-ƏNZƏLİ** – bax *Ənzəli*.

**BƏNDƏR-XOMEYNİ** (بندر خمینی) – İranın c.-q.-ində, Xuzistan ostanında şəhər. Əh. 56 min (1999). İran körfəzi sahilində port. Transiran magistralında son d.y. st. Neft ixrac olunur. Qədim adı Xormusa olmuşdur; Rza şah Pəhləvinin dövründə Bəndər-Şahpur adlanmışdır.

**BƏNDƏROĞLU** Əbdüllətif – bax *Əbdüllətif Bəndəroğlu*.

**BƏNDƏR-SƏRİ-BƏQAVAN** – Bruneyin paytaxtı (1984 ildən). Kalimantan a.-nın şm.-q. sahilində, Kedayan çayının mənsəbi yaxınlığındadır. Əh. 64,4 min (2005). Avtomobil yolları qovşağı. Beynəlxalq aeroport. Ölkənin əsas dəniz portu Muara (yük dövriyyəsi 2,5 mln. *t*, 2003) B.-S.-B.-dan 27 *km* şm.-ş.-dir.



Bəndər-Səri-Bəqavan. Sultan Ömər Əli Seyfəddin məscidi.

7 əsrdən məlumdur. 15 əsrədək Kota Batu, 15–20 əsrlərdə Bruney adlanmışdır. Bruneyin ilk konstitusiyasını qəbul edən Sultan III Ömər Əli Seyfəddinin şərəfinə 1970 ildə B.-S.-B. (Malayya dilində "Zati alilərinin şəhəri") adını almışdır. 14 əsrdən *Bolkiaxlar* sülaləsindən olan Bruney sultanlarının iqamətgahı olmuşdur. Sultan Əhmədin [1408–25] hakimiyyəti dövründə şəhərə Ərəbistandan çox sayda müsəlman alimləri və din təbliğatçıları gəlmişlər. 15 əsrdə şəhərdə bir çox məscid, qala və daş evlər inşa olunmuşdur. 16 əsrdən iri porta, həmçinin Çin, Hindistan və Yaxın Şərq ölkələri ilə beynəlxalq və regional ticarətin mərkəzinə çevrilmişdir. Kastiliya müharibəsi gedişində, 1578 ilin aprel–iyun aylarında ispanlar tərəfindən zəbt olunaraq qarət edilmiş və dağıdılmışdı; sultan Məhəmməd Həsənin [1582–1605] dövründə şəhər yenidən bərpa edilmiş və xeyli genişləndirilmişdir.

Taxta körpü ilə birləşən su (Kamponq-Ayer "su kəndi", bütün tikililər dirəklər üzərindədir) və materik hissədən ibarətdir. Şəhərin mərkəzində qızıl günbəzli Ömər Əli Seyfəddin məscidi (1958; ümumi hün. 77 *m*) yerləşir. Mərmər və qırmızı ağacla zəngin bəzədilmiş, Malayya və *beynəlmiləl üslubun* qarışığından ibarət tikililəri olan İstan Nurul İmanın Kral sarayı (1984; dünyanın ən iri saraylarından biri), Kral mərasim sarayı (1984), Ticarət kompleksi (1996), Həssənəl Bolkiax məscidi şəhərin diqqətəlayiq tikililərindəndir. Un-t (1985), Bruney Texnologiya İn-tu (1929), Dil və Ədəbiyyat İn-tu var. Milli muzeyin və Dato İbrahim kitabxanaları, Bruney tarix mərkəzi (1982), Konstitusiya tarixi qalereyası (1984), Bruney muzeyi (1965; Malayziya ənənəvi incəsənəti), Kral reqaliyaları muzeyi (binası 1992), Malayya texnologiya muzeyi (1988); U. Çörçillin abidəsi və muzeyi; Arxeologiya parkı, Cerudonq parkı (idman kompleksi); Həssənal Bolkiax milli stadionu; Bruney kral yaxt-klubu var. Ağac emalı, yeyinti sənayesi müəssisələri fəaliyyət göstərir. Tərsanələr var. Sənətkarlıq [Kamponq-Ayer r-nunda batik, Malayya krisləri (xəncər), zərgərlik məmulatları istehsalı üzrə emalatxanalar] inkişaf etmişdir.

**BƏNDİ-RUMİ** – ornament kompozisiyası. Üfüqi və şaquli istiqamətdə bir-birinin ardınca təkrarlanan rombşəkilli hissələrdən ibarətdir; zahirən balıq torunu xatırladır. Azərb. və Yaxın Şərq ölkələrinin dekorativ sənətində, xüsusən, memarlıq bəzəklərində tətbiq edilir. B.-

Bəndər-Səri-Bəqavan şəhərindən görünüş.





Bəndovan palçıq vulkanı.

r.-nin dəyirmi və uzunsov gül elementləri mərkəzlə simmetrik şəkildə birləşdirilir. Bu elementlər Azərb.-da "bənd" adlanır. B.-r.-yə xalq arasında "*açma-yumma*" da deyilir.

**BƏNDİ-TÜRKÜSTAN** – Şimali Əfqanıstanda Paropamizin öndağlıq silsiləsi. Uz. təqr. 300 *km*. Hünd. 3809 *m*-ədək. Mürğab çayının dərəsi ilə Səfidkuh silsiləsindən ayrılır. Dağ çölləri və səhraları, yuxarı qurşaqlarda seyrək ardıc meşələri yayılmışdır.

**BƏNDOVAN** – Azərb.-da orta əsrlərə aid yaşayış yeri. Qalıqları *Bəndovan burnunda* və dənizdə aşkar edilmişdir (1970). Sahildə və su altında aparılmış arxeoloji tədqiqatlar zamanı çovustan tipli tikili qalıqları, dulus kürəsi qalıqları, orijinal şirsiz və şirli saxsı qablar, əmək alətləri (kirkirə və s.), şüşə bəzək əşyaları (qolbaq, muncuq), sikkələr, ev heyvanlarının sümükləri və s. tapılmışdır. Arxeoloji materiallar B.-ın 9–13 əsrlədə yaşayış məskəni olduğunu güman etməyə imkan verir. Tapılmış şirli qablardan bəzisinin üstündə fars dilində şeir parçaları və qabları düzəltmiş ustaların adları yazılmışdır. Dənizdən tapılmış qabların üzərində isə heyvan (şir, at, ceyran, maral) və quş (göyərçin, tovuz) təsvirləri var. Mis və gümüş sikkələr *Şirvanşahlar* dövrünə aiddir. A.A. Bakıxanov hələ 1840 ildə B. ərazisində sualtı şəhər qalıqlarının olduğunu qeyd etmişdir.

**BƏNDOVAN** – Azərb. Resp. Qaradağ r-nu (Bakı ş.) ərazisində palçıq vulkanı. Bakıdan 80 *km* c.-q.-də, Xəzər dənizi sahilində, Bəndovan burnundadır. Morfoloji cəhətdən oturacağının diametri 2 *km*-dən çox olan təcrid olunmuş dağdır. Şm.-ş. və c.-q. yamacları dərin yarğanlarla parçalanmışdır. Vulkanın krateri qalmamışdır; təpə hissəsi səthi kəskin parçalanmış yayladır. Yaylanın şm. və ş. hissələrində fəaliyyətdə olan 65-ədək sopka, qrifon və salz var. Sopkaların hünd. 4 *m*-ə çatır, kraterlərinin diametri 0,3–2 *m*-dir, salzların diametri isə 1,5–2 *m*-dir. Sopka, salz və qrifonlardan qaz, lil və neftli su çıxır. Vulkan brekçiyasının sah. 118 *ha*, orta qalınlığı 35 *m*, həcmi 412 mln. $m^3$-dir.

**BƏNDOVAN BURNU** – Azərb. Resp.-nda, Xəzər dənizinin q. sahilində, Qaradağ r-nu (Bakı ş.) ərazisində, Cənub-Şərqi Şirvan düzündədir. Səthi düzənlikdir. Dünlər, qum təpələri, palçıq vulkanı var. B.b.-nda orta əsrlərə aid yaşayış yeri (*Bəndovan*) aşkar edilmişdir.

Bəndovan yaşayış məskəni. Şirələnmiş saxsı qabların fraqmentləri.





**BƏNDOVAN DÖVLƏT TƏBİƏT YASAQLIĞI** – bax *Azərbaycan* xüsusi cildinin Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri bölməsinə.

**BƏNDSƏR** – İranın Qəzvin ostanında kənd. Eyniadlı şəhristanın Avəc bölgəsinin Əfşariyyə kəndistanında, Avəc qəs.-ndən 7 *km* şm.-ş.-dədir.

**BƏNDÜSTÜ** – Azərb.-da Abşeron y-a ərazisində e.ə. 2-ci minilliyə aid yaşayış məskəni. 1960-cı illərdən tədqiq olunur. Qazıntılar zamanı qum qatının altında daş memarlıq tikililəri, saxsılar, əmək alətləri, bəzək əşyaları, qayaüstü rəsmlər aşkar edilmişdir. Tapılan materiallar sübut edir ki, qədim dövrdə B.-ndə məhsuldarlıq, ithaf, ov, nikah ayinləri ilə bağlı illər boyu mərasimlərin keçirildiyi məbəd kompleksi mövcud olmuşdur.



Ov səhnəsi. Bəndüstü. E.ə. 2-ci minillik.

**BƏNDÜVAN** – orta əsrlərdə Azərb.-da suvama işləri ilə əlaqədar vəzifə. Bəndüvançı icma arxlarını təmir edir, suvarma suyunu kəndlilər arasında bölüşdürür, ondan düzgün istifadə olunmasına nəzarət edir, bəzən əkin sahələrini də qoruyurdu.

**BƏNƏ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin İcərud kəndistanında, Germi qəs.-ndən 13 *km* q.-dədir.

**BƏNƏ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Əhər ş.-ndən 9,5 *km* şm.-ş.-dədir.

**BƏNƏDİQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin Həsənabad kəndistanında, Kəlibər qəs.-ndən 20 *km* c.-q.-dədir.

**BƏNƏFŞƏDARAQ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin Kəlxoran kəndistanında, Ərdəbil ş.-ndən 7 *km* c.-dadır.

**BƏNƏFŞƏDARAQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Çaharoymaq kəndistanında, Qaraağac qəs.-ndən 25 *km* c.-ş.-də, Marağa–Miyanə avtomobil yolundan 50 *km* c.-dadır.

**BƏNƏFŞƏDARAQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Abbasi kəndistanında, Bostanabad qəs.-ndən 30 *km* c.-ş.-dədir.

**BƏNƏGAĞI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin Həsənabad kəndistanında, Kəlibər qəs.-ndən 22,5 *km* c.-q.-dədir.

**BƏNƏXALXAL** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Səncid bölgəsinin Givi kəndistanında, Givi qəs.-ndən 12 *km* c.-da, Xalxal–Miyanə avtomobil yolunun üstündədir.

**BƏNƏXOR** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Nəmin bölgəsində, Ərdəbil ş.-ndən 22 *km* şm.-ş.-dədir.

**BƏNƏKƏHƏL** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Ucan kəndistanında, Bostanabad qəs.-ndən 6 *km* c.-dadır.

**BƏNƏLƏR** – İranın Ərdəbil ostanında kənd. Meşkinşəhr şəhristanının Mərkəzi bölgəsinin Şərqi Meşkin kəndistanında, Meşkinşəhrdən 16 *km* c.-ş.-də, Meşkinşəhr–Ərdəbil avtomobil yolunun üstündədir.

**BƏNƏNİYAR** – Azərb. Resp. Culfa r-nunda (Nax. MR) kənd. Bənəniyar ə.d.-nin mərkəzi. R-n mərkəzindən və Culfa d.y. st.-ndən 25 *km* şm.-da, Əlincəçayın sağ sahilində, Zəngəzur silsiləsinin yamacındadır. Əh. 3570 (2011); üzümçülük, əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, uşaq musiqi məktəbi, mədəniyyət evi, ambulatoriya, baytarlıq məntəqəsi, kitabxana, poçt şöbəsi; yaxınlığında orta əsrlərə aid qəbiristan var.

**BƏNƏNİYAR NEKROPOLU** – Azərb. Resp. Culfa r-nunun (Nax. MR) eyniadlı kəndindən q.-də orta əsrlərə aid abidə. 1976 ildə qeydə alınmışdır. Nekropol düzbucaqlı formalı, q.-dən ş.-ə doğru istiqamətlənmiş torpaq qəbirlərdən ibarətdir. B.n.-nda son orta əsrlərə aid qırmızı tufdan qoç fiqurlu başdaşılarına təsadüf edilir. Səndüqə tipli qəbirüstü daşlar son orta əsrlər üçün səciyyəvidir. Onların bəzisinin yuxarı hissəsi tağvarı formada yonulmuşdur. Qəbirdaşlarının bir neçəsində ərəb əlifbası ilə yazılar aşkar olunmuşdur. Səndüqələrin çoxu aşınma nəticəsində dağılmış, yazılar pozulmuşdur. B.n.-nu 16–19 əsrlərə aid etmək mümkündür.



Bəni Həsən. "Asiyalıların karvanı" divar rəsmindən fraqmentlər.

**BƏNGİN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Mərənd şəhristanının Mərkəzi bölgəsində, Mərənd ş.-ndən 3 *km* şm.-q.-dədir.

**BƏNGOTU** – bax *Bat-bat*.

**BƏNİ HƏSƏN** – Aşağı Misirdə Nilin sağ sahilində kənd. Qədim Misirin arxeoloji tapıntılar baxımından zəngin olmayan Orta şahlıq dövrünə aid yaşayış məskəni və məzarlıq aşkar edilmişdir. Buradakı sərdabələrdə XI və XII sülalənin hökmdarları və əyanları dəfn olunmuşlar. Sərdabələrin bəzilərində, xüsusilə protodorik tikililərdə portik və sütunları olan bir və ya bir neçə otaq var; 12 sərdabədə kəndliləri, əsgərləri, ovçuları və b. təsvir edən divar rəsmləri qalmışdır. Bunlardan "Asiyalıların karvanı" rəsmi və III Xnumhotepin şəcərəsini əks etdirən kitabə məşhurdur. XII sülaləyə aid məzarlıqdan 3 *km* q.-də məlikə Hatşepsutun dövrünə aid Artemida mağara-məbədi var.

**BƏNİ SNASSEN ÜSYANI (1859)** – Qərbi Əlcəzairdə bəni snassen tayfalarının Fransa müstəmləkəçilərinə qarşı üsyanı. Üsyanın səbəbi Əlcəzair tayfaları torpaqlarının Fransa hakimiyyət orqanları tərəfindən zorla zəbt edilməsi idi. Əlcəzairdə Atlas d-rının şm. r-nlarında yaşayan bu tayfalar bir neçə ay Fransa işğalçılarına qarşı ciddi müqavimət göstərəndən sonra məğlub edildi. B.s.ü. Əlcəzairin işğalı dövründə (1830–82) ən böyük üsyan idi.

**BƏNİCAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin Həsənabad kəndistanında, Kəlibər qəs.-ndən 19,5 *km* c.-q.-dədir.

**BƏNİCƏ** Ədhəm İzzət (1903, İstanbul – 28.3.1967, İstanbul) – türk jurnalisti və yazıçısı. Qalatasaray liseyini və Ali Dənizçilik Məktəbini bitirmişdir. Jurnalistik fəaliyyətinə "Tövhid-i əfkar" qəzetində (1920) başlamışdır. "İqdam", "Zaman", "Açıq söz", "Son teleqraf", "Gecə poçtası" qəzetlərinin baş redaktoru olmuşdur. Türkiyə Böyük Millət Məclisinin üzvü (1939–43 və 1946–50 illərdə) seçilmişdir. "Vətən", "Son saat", "Milliyyət" qəzetlərində baş məqalələrlə çıxış etmişdir. Bestsellərə çevrilmiş "Ağlı çaşdıran qadın" (1927), "Yandırılacaq kitab" (1927), "İztirab çocuğu" (1927), "Eşq günəşi" (1930), "On ilin romanı" (1933), "Saxtakarlıq" (1944), "Mən heç sevmədim" (1947), "Adsız şəhid" (1964) və s. romanların müəllifidir.



**BƏNİ-MƏLLAL** (بنى ملال) – Mərakeşin mərkəzində şəhər. Tədlə-Azilal vil.-nin inz. m. Əh. 165,9 min (2005). Orta Atlas d-rının ətəklərində yerləşir. Avtomobil yolu onu Ued-Zem d.y. st. ilə əlaqələndi-





Bəni-Məllal şəhərindən görünüş və Bəni-Məllal qalası.

rir. Yeyinti (meyvə və tərəvəz konservləri, zeytun yağı), ağac emalı sənayesi müəssisələri fəaliyyət göstərir. B.-M.-dan c.-q.-də su anbarı və SES var.

**BƏNİS** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Şəbüstər bölgəsinin Xaminə kəndistanında, Şəbüstər qəs.-ndən 4 *km* şm.-ş.-dədir.

**BƏNİ-SUEYF** (بنی سویف) – Misirin şm.-ında şəhər. Bəni-Sueyf mühafazasının inz. m. Əh. 189,6 min (2005). Nil çayının sol sahilində iri port. Nəql. qovşağı. E.ə. 22 əsrdən məlumdur. K.t. r-nunun (pambıq, şəkər qamışı, taxıl, xurma) ticarət mərkəzidir. Yeyinti və yüngül sənaye, pambığın ilkin emalı müəssisələri var. Sənətkarlıq inkişaf etmişdir.

**BƏNMAR** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsinin İrədmusa kəndistanındadır.

**BƏNMARAN** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Səncid bölgəsinin Givi kəndistanında, Givi qəs.-ndən 18 *km* şm.-dadır.

**"BƏNÖVŞƏ"** – Azərb. xalq rəqsi. Gəncliyi, şuxluğu təmsil edir. Adətən, qadınlar tərəfindən tək və ya qoşa ifa olunur. Əllərin səlis, ifadəli hərəkəti, süzmə və s. "B." üçün səciyyəvidir. Melodiyası lirik, tempi mülayim, musiqi ölçüsü 6/8-dir. "B." rəqs melodiyası digər Qafqaz xalqları arasında da geniş yayılmışdır.

**BƏNÖVŞƏBUŞT,** B ə n ö v ş ə p u ç – Yelizavetpol (Gəncə) qub.-nın Zəngəzur qəzasında (9.9.1930 ildən Meğri r-nu), Meğri çayının sağ sahilində azərb.-ların yaşadığı kənd. 1918 ildə kənd erməni təcavüzünə məruz qalaraq dağıdılmış, əhalisi doğma yurddan didərgin salınmışdır. Elə o vaxtdan da kənd xaraba qalmışdır.

**BƏNÖVŞƏKİMİLƏR** (Violaceae) – *ikiləpəlilər* sinfindən bitki fəsiləsi. Əksəriyyəti ot, bəziləri kol və kiçik ağac formalı, bir və ya çoxillik bitkidir. Yumurta şəkilli uzunsov sadə yarpaqları növbə ilə düzülmüşdür. İkicinsiyyətli çiçəkləri tək olur, yaxud çiçək qrupu (salxım, sünbül, süpürgə və s.) əmələ gətirir. Kasa yarpağı, ləçəyi və erkəkciyi 5-dir. Əksəriyyətinin meyvəsi açılan qutucuq, bəzilərininki isə giləmeyvədir. Toxumu xırda, qara və ya sarımtıldır. Tropik və mülayim iqlimli ölkələrdə 850 növü yayılmışdır. Bu fəsiləyə aid olan bənövşə (viola) cinsinin 500-ədək növü məlumdur. Azərb.-da 22 növünə təsadüf edilir. A l a b ə z ə k b ə n ö v ş ə, ə t i r l i b ə n ö v ş ə və s. dekorativ bitki kimi əkilir, ətriyyatda və əczaçılıqda istifadə edilir.

Bəni-Sueyf yaxınlığında firon Snofrunun pilləli piramidası.



Ətirli bənövşə (Viola odorata).



**BƏNÖVŞƏLİÇAY,** B ə n ö v ş ə ç a y – Azərb. Resp. Xanlar r-nunda çay. Kürək çayının sol qolu. Murovdağ silsiləsinin şm. yamaclarından başlanır. Uz. 9 *km*, hövzəsinin sah. 36 *km²*.

**BƏNZƏTMƏ,** ə d ə b i y y a t d a – bax *Təşbeh.*

**BƏRABƏRDƏYİŞƏN HƏRƏKƏT** – $w_\tau$ toxunan bucaq təcili (düzxətli B.h. halında $w$ tam təcili) sabit olan nöqtənin hərəkəti. Hərəkətin başlanğıc anından keçən $t$ müddətindən sonra cismin aldığı $v$ sürəti və başlanğıc vəziyyətindən əyrixətli trayektoriya boyunca ölçülən $s$ məsafəsi B.h.-də aşağıdakı bərabərliklərlə təyin edilir:

$$v = v_0 \mp w_\tau t,$$
$$s = v_0 t \pm w_\tau t^2/2,$$

burada $v_0$ – nöqtənin başlanğıc sürətidir. $v$ və $w_\tau$ eyni işarəli olduqda B.h. yeyinləşən, əks işarəli olduqda isə yavaşıyan olur.

Bərk cism bərabərdəyişən irəliləmə hərəkəti (bu halda yuxarıda deyilənlər cismin hər bir nöqtəsinə aiddir) və tərpənməz ox ətrafında bərabərdəyişən fırlanma hərəkəti edə bilər. Bu hərəkətdə cismin $\varepsilon$ bucaq təcili sabitdir, cismin $\omega$ bucaq sürəti və $\varphi$ dönmə bucağı isə aşağıdakı kimi təyin olunur:

$$\omega = \omega_0 \mp \varepsilon t,$$
$$\varphi = w_0 t \pm \varepsilon t^2/2$$

Burada $\omega_0$ başlanğıc bucaq sürətidir.

**BƏRABƏRLƏŞDİRİCİ ÇƏN** – SES-in basqılı derivasiya suötürücüsü (suaxıdıcısı) ilə birləşdirilmiş qüllə tipli qurğu. B.ç. hidravlik zərbə nəticəsində turbin suötürücüsündə meydana çıxan təzyiqi azaltmaq, həmçinin turbinin qərarlaşmamış rejimdəki işini yaxşılaşdırmaq üçündür. B.ç. yer səthində, əsasən, dəmir-betondan, bəzən də metaldan qurulur. Qayalı yerlərdə tikilən B.ç.-in yer səthinə qismən çıxışı olur, yeraltı B.ç.-in isə divarları dəmir-betonla üzlənmiş şaxta şəklində düzəldilir.

**BƏRABƏRLƏŞDİRİCİ İMPULSLAR,** t e l e v i z i y a d a – bilavasitə kadr sinxronlaşdırıcı impulslardan əvvəl və onlardan sonra verilən ikili sətri tezlikli impulslar (bax *Televiziya siqnalı*). Təsvirin *sətiraşırı* (sətirdənbir) *açılışı* hallarında B.i. olmadıqda açılış pozula bilər (tək və cüt sətirlər bir-birinə yaxınlaşar və ya üst-üstə düşər, yəni sətirlər bir-birinə yapışar).

**BƏRABƏRLİK** – obyektlərin bir-biri ilə qarşılıqlı əvəz edilməsi münasibəti. " = " ilə işarə edilir. Məntiqi və riyazi sistemlərdə, nəzəri və ya tətbiqi məsələlərdə bəzi obyektlərin eyniləşdirilməsi zərurəti B. münasibəti şəklində özünü büruzə verir. Bu baxımdan B. nisbidir; tədqiq olunan xassələr və münasibətlər vasitəsilə müəyyən edilir. Bu baxış *Leybnitsə* məxsusdur. $M$ çoxluğunda verilmiş $R$ binar (ikili) münasibəti aşağıdakı aksiomları ödəyərsə, bu münasibət B. münasibəti və ya *predikatı* adlanır: $\forall a \in M$ olduqda $aRa$ doğrudur (*refleksivlik*); $\forall a, b \in M$ olduqda $aRb \Rightarrow bRa$ (*simmetriklik*); $\forall a,b,c \in M$ olduqda $aRb$, $bRc \Rightarrow aRc$ (*tranzitivlik*). B. dəyişənlərin ixtiyari qiymətlərində ödənilirsə, *eynilik* adlanır. İki B. məntiqi eynigüclü predikatları təyin edirsə, bu B.-lərə eynigüclü B.-lər deyilir.

**BƏRABƏRPAYLANMA QANUNU** – klassik *statistik fizikanın* qanunu; isbat edir ki, termodinamiki tarazlıq halında statik sistemin hər bir translyasiya və fırlanma sərbəstlik dərəcəsinə orta hesabla kT/2, hər bir rəqs sərbəstlik dərəcəsinə isə orta hesabla kT enerjisi düşür (burada T – sistemin mütləq temp-ru, k–*Boltsman sabitidir*). B.q. təqribi qanundur; kvant effektləri (rəqs sərbəstlik dərəcələri halında isə, həmçinin, rəqslərin anharmonikliyi) mühüm əhəmiyyət daşıdıqda bu qanun pozulur. B.q.-nun köməyi ilə yüksək temp-rlarda çoxatomlu qazların və bərk cismlərin istilik tutumlarının həddi qiymətlərini asanlıqla tapmaq olur.

**BƏRABƏRSİZLİK** – < (kiçik), ≤ (kiçik və ya bərabər), > (böyük), ≥ (böyük və ya bərabər), ≠ (bərabər deyil) işarələrindən birinin vasitəsilə $a_1$ və $a_2$ ədədlərini əlaqələndirən münasibət, yəni

$$a_1 < a_2,\ a_1 \le a_2,\ a_1 > a_2,$$
$$a_1 \ge a_2,\ a_1 \ne a_2.$$

Bəzən bir neçə B. birlikdə yazılır, məs.,

$$a < b < c$$

B.-in bərabərliklərlə bir çox ümumi xüsusiyyətləri vardır. Məs., B.-in hər iki tərəfinə eyni bir ədədi əlavə etsək (və ya çıxsaq), o dəyişməz. Eləcə də B.-in hər iki tərəfini eyni bir müsbət ədədə vurmaq olar. Lakin B.-in hər iki tərəfini mənfi ədədə vursaq, B.-in mənası əksinə dəyişər (yəni > işarəsi < işarəsi ilə, < işarəsi isə > işarəsi ilə əvəz olunar). $A < B$ və $C < D$ bərabərsizliklərindən $A + C < B + D$ və $A - D < B - C$ alınır, yəni eyni adlı (A < B və C < D) B.-ləri hədbəhəd toplamaq, müxtəlif adlı ($A < B$ və $D > C$) B.-ləri isə hədbəhəd çıxmaq olar. Əgər $A$, $B$, $C$ və $D$ ədədləri müsbətdirsə, onda A < $B$ və $C < D$ bərabərsizliklərindən həm də $AC < BD$ və $A/D < B/C$ alınır, yəni eyni adlı B.-ləri (müsbət ədədlər arasında) hədbəhəd vurmaq, müxtəlif adlıları isə hədbəhəd bölmək olar.

Müxtəlif ədədi qiymətlər alan kəmiyyətlərin daxil olduğu B. bu kəmiyyətlərin bəzi qiymətləri üçün doğru, digər qiymətləri üçün doğru olmaya bilər. Məs., $x^2 - 4x + 3 > 0$ bərabərsizliyi $x = 4$ qiyməti üçün doğru və $x = 2$ qiyməti üçün doğru deyil. Bu tip B.-lər üçün onların həlli məsələsi, yəni B.-yə daxil olan kəmiyyətlərin sərhədlərinin B.-in doğru olmasını təmin edən qiymətlərinin tapılması məsələsi ortaya çıxır. Beləliklə, $x^2 - 4x + 3 > 0$ bərabərsizliyini $(x-1)(x-3) > 0$ şəklində yazanda anlaşılır ki, o, $x<1$, $x>3$ bərabərsizliklərindən birini ödəyən bütün $x$-lər üçün doğrudur və onlar həmin B.-in həllidir.

Aşağıda B.-yə daxil olan dəyişənlərin bu və ya digər dəyişmə oblastında eynilik kimi ödənilən bəzi B.-lər göstərilmişdir.

1) M o d u l l a r ü ç ü n b ə r a b ə r s i z l i k. İstənilən həqiqi və ya kompleks $a_1, a_2, \ldots, a_n$ ədədləri üçün

$$|a_1 + a_2 + \ldots + a_n| \le |a_1| + |a_2| + \ldots + |a_n|$$

B.-i doğrudur.

2) Harmonik, həndəsi, ədədi və kvadratik o r t a l a r ı əlaqələndirən üçün B. daha çox məlumdur:

$$\frac{n}{\frac{1}{a_1} + \frac{1}{a_2} + \ldots + \frac{1}{a_n}} \le$$
$$\le \sqrt[n]{a_1 a_2 \ldots a_n} \le$$
$$\le \frac{a_1 + a_2 + \ldots + a_n}{n} \le$$
$$\le \sqrt{\frac{a_1^2 + a_2^2 + \ldots + a_n^2}{n}};$$

burada $a_1, a_2, \ldots, a_n$ müsbət ədədlərdir.

3) C ə m l ə r ü ç ü n b ə r a b ə r s i z l i k l ə r v ə o n l a r ı n i n t e q r a l a n a l o q l a r ı. Məs., *Bunyakovski bərabərsizliyi, Hölder bərabərsizliyi, Koşi bərabərsizliyi* belələrindəndir.

4) Qüvvətlər və ədədlər üçün bərabərsizliklər. Burada ən çox məlum olan *Minkovski bərabərsizliyi* və onun sıralar və inteqrallar halları üçün ümumiləşməsidir.

5) Bəzi ardıcıllıqlar və funksiyalar sinifləri üçün bərabərsizliklər. Monoton ardıcıllıqlar üçün *Çebışev bərabərsizliyi* və qabarıq funksiyalar üçün *İensen bərabərsizliyi* misal ola bilər.

6) Xətti bərabərsizliklər.

$$a_{i1}x_1 + a_{i2}x_2 + \ldots + a_{in}x_n \geq b_i,$$
$$i = 1, 2, \ldots, n$$

şəklində B. sisteminə baxılır. Bu B. sisteminin həllər toplusu *n*-ölçülü $(x_1, x_2, \ldots, x_n)$ fəzasında hər hansı qabarıq çoxüzlünü təsvir edir; *xətti bərabərsizliklər* nəzəriyyəsinin məsələsi bu çoxüzlünün xassələrini öyrənməkdən ibarətdir.

B. riyaziyyatın bütün sahələri üçün əhəmiyyətlidir. Ədədlər nəzəriyyəsində bu fənnin tam bir fəsli – *Diofant yaxınlaşmaları* – bütövlüklə B.-ə əsaslanır; ədədlərin analitik nəzəriyyəsi də tez-tez bərabərsizliklərlə əməliyyat aparır. Həndəsədə qabarıq cismlər nəzəriyyəsində və izoperimetrik məsələdə B.-ə həmişə rast gəlinir. Ehtimal nəzəriyyəsində bir çox qanunlar B.-in köməyi ilə ifadə olunur. Diferensial tənliklər nəzəriyyəsində diferensial bərabərsizliklərdən istifadə edilir. Funksiyalar nəzəriyyəsində çoxhədlilərin və triqonometrik polinomların törəmələri üçün ardıcıl olaraq müxtəlif B.-lər istifadə olunur. Funksional analizdə funksional fəzada normanın təyini zamanı tələb olunur ki, o, $\|x+y\| \leq \|x\| + \|y\|$ üçbucaq B.-ini ödəsin. Bir çox klassik B.-lər mahiyyətcə xətti funksionalın və ya xətti operatorun normasının qiymətini bu və ya digər fəzada təyin edir və ya onları qiymətləndirir (bax *Bessel bərabərsizliyi*). Hesablama riyaziyyatında B. məsələnin təqribi həllinin xətasının qiymətləndirilməsində tətbiq edilir.

**BƏRABƏRSÜRƏTLİ HƏRƏKƏT** – ədədi qiymətcə sabit v sürətinə malik olan nöqtənin hərəkəti. B.h.-də bərabər zaman fasiləsində nöqtənin getdiyi yol s=vt. Bərk cism bərabərsürətli irəliləmə hərəkəti (bu halda yuxarıda deyilənlər cismin hər bir nöqtəsinə aiddir), tərpənməz ox ətrafında bərabərsürətli fırlanma hərəkəti (cismin ω bucaq sürəti sabit, dönmə bucağı isə φ = ωt-dir) və bərabərsürətli *vintvarı hərəkət* edə bilər.

**BƏRADƏİ** (محمد البرادعي), Məhəmməd əl (d. 17.6.1942, Qahirə) – Misir diplomatı, ictimai xadim, Nobel sülh mükafatı laureatı (2005).



Qahirə Un-tinin hüquq fakültəsini bitirmişdir (1962), 1964 ildə Misirin Xarici İşlər Nazirliyində diplomatik fəaliyyətə başlamış, bu ölkənin BMT-dəki daimi nümayəndəliyinin əməkdaşı, BMT-nin tədris və elmi-tədqiqat in-tunun böyük elmi işçisi (1980) olmuşdur. Nyu-York Un-tində beynəlxalq hüquq üzrə doktorluq dissertasiyası müdafiə etmişdir (1972). 1984 ildən Beynəlxalq atom enerjisi üzrə agentliyində (MAQATE) rəhbər vəzifələrdə (hüquq məsləhətçisi, 1984–93; Baş direktorun xarici əlaqələr üzrə köməkçisi, 1993–97) çalışmışdır. MAQATE-nin Baş direktoru olmuşdur (1997–2009).

**BƏRAƏT**, bəraət hökmü – müttəhimin ona verilən ittihamda təqsirsiz olmasının məhkəmə tərəfindən tanınması. B. hökmü cinayət hadisəsi müəyyən edilmədikdə, müttəhimin əməlində *cinayət tərkibi* olmadıqda və yaxud cinayətin törədilməsində müttəhimin iştirakı sübut edilmədikdə çıxarılır. B. alan şəxs B.-in əsasından asılı olmayaraq məhkum olunmamış sayılır. B. zamanı əmlakın müsadirəsini təmin edən tədbirlər, habelə *qətimkan tədbiri* ləğv edilir. B. alan şəxs hökm elan edildikdən sonra dərhal məhkəmə zalında həbsdən azad edilir. B. hökmü *kassasiya* qaydasında yalnız prokurorun *protesti*, zərər çəkmiş və ya B. almış şəxsin şikayəti (sonuncu, B. hökmünün motivləri və əsaslarından şikayət edə bilər) əsasında ləğv oluna bilər.

**BƏRAĞUŞ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Sərab şəhristanının Alan bölgəsinin Alanbərağuş kəndistanında, Mehirban qəs.-ndən 11 *km* ş.-də, Təbriz–Sərab avtomobil yolunun 16,5 *km*-liyindədir.

**BƏRAZİN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Heris bölgəsinin Xanımrud kəndistanında, Heris qəs.-ndən 2,5 *km* şm.-dadır.

**BƏRAZİN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Kəlibər bölgəsinin Həsənabad kəndistanında, Kəlibər qəs.-ndən 28 *km* q.-dədir.

**BƏRBƏRLƏR** – Şimali Afrikanın yerli əhalisi, xalqlar qrupu. Mərakeş əhalisinin təqr. 50%-ini, Əlcəzair əhalisinin təqr. 25%-ini təşkil edirlər; Tunis, Liviya, Misir, Mavritaniya, Mali, Niger və s. ölkələrdə də yaşayırlar. Ümumi sayları təqr. 30 mln., o cümlədən Avropa ölkələrində 3 mln. nəfərdir (2005). *Bərbər-Liviya dillərində*: Mərakeş B.-i [tamaziqtlər (tamaziqxtlər, imaziqxenlər, beraberlər) və Atlas d-rındakı şilxlər (dilləri: taşelxit); riflər, senxajalar və digər zenet qrupları], Əlcəzair B.-i (zenet xalqlarına aid şaviyyalar, şenualar; səhra vahələri B.-i adlanan *qəbillər*), Tunis B.-i (cerbalar, senedlər və b.), Liviyadakı nefusalar və zuaralar şm. qrupu dillərində; avcilalar (aucilalar), soknalar və b. Liviya vahələrində yaşayan digər B., Misirin şm.-q.-indəki siualar ş. qrupu dillərində; *tuareqlər* c. qrupu dillərində; Mavritaniyadakı zenaqalar q. qrupu dillərində danışırlar. Dindarları, əsasən, müsəlmandır, yəhudilər və xristianlar da var.

Bərbərlər. Ənənəvi yaşayış məskəni – Oulad Sultan qəsri. Tunis.



Bərbərlər. Ənənəvi qazma evlərinin daxili həyəti.



B.-in əcdadlarının qədim tarixi haqqında bax *Liviyalılar* məqaləsinə. Ərəblərin Məğribi işğalından sonra 7 əsrin sonlarından və xüsusilə də 11–12 əsrlərdə əhalinin ərəbləşməsi və müsəlmanlaşması baş vermişdir, B. dağ və səhra r-nlarına sıxışdırılmışlar.

Əsas ənənəvi məşğuliyyətləri köçəri və köçəbə maldarlıq (dəvə, davar və qaramal), xış əkinçiliyidir (arpa, darı, buğda, bağçılıq). Vahələrdə əkinçilik, bostançılıq, tranzit karvan ticarəti ilə məşğul olurlar. Klanlara (leff, iqxs) bölünən tayfalar (təkbilt) başçılar (agellid, amqar) və ağsaqqallar şuraları (bərbər dilində imzran, ərəbcə cmaa) tərəfindən idarə olunur. Oturaq qruplarda tayfa ərazisinin mərkəzi möhkəmləndirilmiş məskəndir (bərbər dilində tiqremt, dşar; ərəbcə qasba, qsar); bürc-taxıl anbarları səciyyəvidir. Torpağın istifadəsində icma mülkiyyəti qalmaqdadır; klanlararası müvəqqəti ittifaqlar (tiuizi), qarşılıqlı yardımlaşma, məs., mal-qaranın otarılması (tauallat) yayılmışdır. Köçərilər çadırlarda yaşayır (bərbər dilində taxamt, ərəbcə hima), düşərgələr (duar, mduar) dairəvi planlıdır. Mənşəcə sufi təriqətləri ilə bağlı olan peşə-korporativ birliklərin inkişaf etmiş sistemi – marabut dini-mistik qardaşlıqları yayılmışdır.

Şifahi yaradıcılıq. Şifahi poeziya ən çox kabillər və şilxlərdə inkişaf etmişdir. Ayrıca (asefra) və poetik silsilədə birləşdirilmiş (tizrarin) lirik şeirlər geniş yayılmışdır. Epik poeziyada əcdadların igidlik və hünəri, Məhəmməd peyğəmbərin və müqəddəslərin həyatı tərənnüm edilir. Şilxlərin poeziyasında dini və satirik məzmunlu poemalara rast gəlinir (tamdqaazji). İmayt poemalarında dostluq, məhəbbət və sevgidən;qısa poemalarda eyni qəbilədən olanların həyatından, müharibə və bayramlardan (tayffert) bəhs olunur. İzlan poemalar gündəlik həyata həsr olunmuşdur. Hadi dini çalarlı poemadır (qəhrəmanın cəhənnəmə – valideynlərini xilas etməyə getməsindən bəhs edən "Sabi haqqında poema").

Nağıllar çoxsaylı və müxtəlifdir. Heyvanlar haqqında nağıllar hamı üçün, məişət nağılları, əsasən, kişilər üçündür. Məğrib bərbərlərinin sehrli nağıllarını qadın və uşaq yığıncaqlarında yalnız qadınlar danışır. Nağılları gündüz danışmağa qadağa qoyulmuşdur. Heyvanlar haqqında nağılların əsas qəhrəmanı Çaqqaldır (onun haqqında silsilə nağıllar var). Məişət nağılları oğrular, quldurlar, tapmaca tapmaq, kələkbazlar, etibarsız qadınlar, axmaqlar və s. haqqındadır. Yetim haqqında, məşhur bərbər kələkbaz (Mərakeşdə Si Coxa, Əlcəzairdə Si Cexa) haqqında nağıllar populyardır. Sehrli nağılların süjetləri arasında bütün dünyada məşhur olanlar və yalnız bərbərlərə məxsusları da var. Çoxlu atalar sözləri və zərbi-məsəllər mövcuddur.

Afərdi (tapmaca havaları), taşeraft (çoban mahnıları), atemşi, yaxud izli (mahnı-poemalar), axvaş (kütləvi mahnırəqs, Mərakeş); axellil, tagerrabt (dairəvi bayram mahnı-rəqsləri, Əlcəzair) musiqili-poetik janrlardır. Nəfəs alətləri və membrafonlardan ibarət instrumental ansamblın müşayiəti ilə rəqslərlə responsor oxumalar səciyyəvidir. Ənənəvi alətlər arasında (bəziləri ərəb mənşəlidir) dilçəkli – zorna, qaita; qamışdan hazırlanmış fleyta-kasaba (qasba); *baraban* – təbil; dəflər – bendir, tarica; lyutnya qumbri (onun sələfi uzunqollu qədim Misir lyutnyasıdır). Tuareqlərin əsas alətləri: birsimli yayla çalınan imzad (anzad; qadın aləti), barmaqla çalınan birsimli quqey, yastı təbillər – qanqa, litavra–tindi. Orta Atlas dağlarında dəfdə çalmağın xüsusi növü– əsas ritmin fonunda mürəkkəb ritmik fiqurlarla müşayiət olunan solo virtuoz improvizasiya; şm. dağətəyi yerlərdə – təbil və dəfdə poliritmik çalğı yayılmışdır. Musiqili-poetik yarışmaların ənənələri qorunur; solist-improvizatorların çıxışları arasında dəflərin müşayiəti ilə kişi və qadın xoru rəqs edir. Bərbərdilli xalqların musiqisi diatonik səsdüzümünə əsaslanır. Mərakeş və Tunisin c.-unda pentatonikadan istifadə olunur. 20 əsrin sonuna yaxın şəhər qadın (xuvara) və kişi (dabka) rəqs-mahnı formaları yayılmışdır; onlar müsəlman təqviminə uyğunlaşdırılmışdır, qum saatına (ağval) bənzər təbildə ifadan ibarətdir.

**BƏRBƏR-LİVİYA DİLLƏRİ** (bərbər dilləri) – kanar dilləri ilə birlikdə Afrasiya dillərinin bərbər-kanar ailəsini təşkil edən dil yarımailəsi. B.-L.d. Şimali Afrikada qeyri-bərabər şəkildə yayılmışdır (Marokkoda 9 mln.-dan çox, Əlcəzairdə 5 mln.-dan çox, Nigerdə 700 mindən çox, Malidə təqr. 450 min, Burkina-Fasoda 200 mindən çox; Liviyada təqr. 200 min; Tunisdə 30 mindən 100 minədək, Mavritaniyada 20–30 min; Misirdə 10 min nəfər. Bu dildə danışanların ümumi sayı təqr. 16 mln. nəfərdir (2005).

Müasir B.-L. d.-nin əcdadı olan dil e.ə. 2-ci minilliyin sonlarında, *dəniz xalqlarının* və onların müttəfiqləri olan liviyalıların misirlilər tərəfindən məğlub edilməsindən sonra parçalanmışdı. Ehtimal ki, Liviya tayfalarının bir hissəsi nəticədə Misir sərhədlərindən qərbə və cənub-qərbə tərəf yayılmış, 7–11 əsrlərdə onların bir qismi *ərəb dilini* mənimsəmişdir.

B.-L. d. 4 budağa ayrılır: 1. Şərqi. Buraya Misirdə və Liviyada yayılmış siva, aucila, sokna, tmessa və s. dillər daxildir; 2. Cənubi (tuareq). Malidə, Nigerdə, Burkina-Fasoda, Liviyada,

Əlcəzairdə və Nigeriyada yayılan tuareq, axnet, tamaxak, taullamet, iquxadaren və s. dillər; 3. Q ə r b i. Mavritaniya və Seneqalda yayılmış zenaqa dilinin müxtəlif dialektləri; 4. Ş i m a l i. Atlas, zenet, kabil qruplarına aid dillər bu qola daxildir.

B.-L. d.-ndə adlar cins (kişi və qadın) və say (tək və cəm) kateqoriyalarına malikdir. Felin 2 şəkli var: xəbər şəkli, əmr şəkli. Cümlədə söz sırası üçün "xəbər + subyekt+obyekt" xarakterikdir. Söz kökü bir və ya bir neçə (daha çox 3) samitdən ibarət olur.

Bütün B.-L. d.-də (tuareq dili istisna olmaqla) ərəb dilindən alınmış xeyli söz var. Finikiya, yunan, latın və müasir Avropa dillərindən alınmış sözlər işlənilir.

Şimali Afrikanın qədim abidələrində konsenant Liviya yazısının variantlarından istifadə olunmuşdur. Böyük Səhrada yaşayan tuareqlərin tətbiq etdiyi yeganə qədim bərbər əlifbası (tifinaq) da Liviya yazısına aid edilir. Marokkoda bu yazıdan rəsmi şəkildə məktəblərdə istifadə olunur. Əlcəzairdə, Nigerdə, Malidə latın qrafikalı əlifba yayılmışdır. Orta əsrlərdən istifadə olunan ərəb yazısı hazırda, əsasən, Marokko və Liviyada tətbiq edilir.

Canlı bərbər dillərinin öyrənilməsi və təsviri iki mərhələ keçmişdir: 1) B.-L. d.-nin Avropa tədqiqatçıları və missionerləri tərəfindən ən əhəmiyyətlilərinin Avropa qrammatikaları terminləri vasitəsilə ilk dəfə qeydə alınması və təsviri. 2) B.-L. d.-nin əksər dialektlərinin, əsasən, fransız məktəbinə mənsub olan peşəkar filoloqlar tərəfindən bu və ya digər dərəcədə dolğun təsviri. 20 əsrin ortalarından B.-L. d.-nin müqayisəli öyrənilməsinə başlanılmışdır.


Bərbət.

B.-L. d. materiallarının Afrasiya dillərinin müqayisəli tarixi tədqiqinə cəlb olunması bir çox təsəvvürlərə, o cümlədən bir-birinə yaxın qohum olan dialektlər məcmusundan ibarət bərbər dilinə dair mülahizələrə yenidən baxmağı zəruri edir.

*Əd.:* З а в а д о в с к и й Ю Н. Берберский язык. М., 1967.

**BƏRBƏT** – mizrabla çalınan qədim Şərq musiqi aləti. Vətəni Səudiyyə Ərəbistanı hesab olunur. Azərb.-da 16–17 əsrlərə kimi istifadə edilmişdir. *Ud* tipli alətlər ailəsinə mənsubdur. B.-in gövdəsi uda nisbətən böyük, qolu isə xeyli uzundur. Çanağı yığma üsulu ilə qoz və ya qırmızı çinardan, qol, kəllə və aşıqları isə qoz ağacından hazırlanır. Üzü 4 *mm* qalınlığında şam ağacı ilə örtülərək üzərində bir neçə yerdən səs rezonatorları açılır. Qolunda 9–12 pərdə olur (bəzi mənbələrdə 3,8,10 simli növləri olduğu haqda məlumat var). Simlər ipək və bağırsaqdan hazırlanır. Ümumi uzunluğu 665 *mm*, eni 465 *mm*, hündürlüyü 250 *mm*, qolunun uzunluğu 205 *mm*-dir. B. qədim ud kimi köklənir.

*Əd.:* K ə r i m o v M. Azərbaycan musiqi alətləri. B., 2003.

**BƏRCAN** – Azərb. Resp. Yardımlı r-nunda kənd. Bərcan ə.d.-nin (Bərcan, Ləzir k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 32 *km* şm.-ş.-də, Viləş çayının sol sahilindən 7 *km* aralı, Burovar silsiləsinin yamacındadır. Əh. 798 (2008); heyvandarlıq və taxılçılıqla məşğuldur. Tam orta məktəb, klub, kitabxana, xəstəxana var.

**BƏRDAŞT** – Rast, Şur, Segah-zabul və s. muğam dəstgahlarında müqəddimə. Dəraməddən sonra gələrək muğamın əsas intonasiya və tonunu ifadə edir. Mayənin zilindən bəmə enmə B.-a xas cəhətdir.

**BƏRDƏ** – Azərb. Resp.-nda şəhər (1939–48 illərdə ştq.). Bərdə r-nunun mərkəzi. Yevlax–Ağdam d.y.-nda st., Bakıdan 319 *km* aralı, Tərtər çayının sahilində, Qarabağ düzünün mərkəzi hissəsindədir. Əh. 38,2 min (2008).

B. Azərb.-ın qədim şəhərlərindəndir. Əvvəllər Hərum (Horom, Hurum) adlanan məskənin yerində salındığı ehtimal olunur; xarabalığı indiki Bərdə ş. yaxınlığındadır. Əldə olunmuş arxeoloji materiallar, o cümlədən Makedoniyalı İsgəndər, Selevkilər, Arşakilər və Roma imperatoru Avqust dövrünə aid sikkələr B.-nin hələ e.ə. ellin ölkələri ilə əlaqəsini göstərir. Qazıntılar zamanı həmçinin çaydaşı, çiy və bişmiş kərpicdən tikilmiş binaların bünövrəsi, şirli və şirsiz gil məmulatı tapılmışdır. Bunlar B.-nin ticarət və sənətkarlıq mərkəzi olan qədim yaşayış məntəqəsinin yerində yarandığını göstərir. Ərəb tarixçisi Bəlazuri (9 əsr) B.-nin Sasani hökmdarı I Qubadın [488–531], İran tarixçisi Həmdullah Qəzvini (14 əsr) isə Makedoniyalı İsgəndərin dövründə [e.ə. 336–23] salındığını qeyd edirlər. Musa Kalankatuklunun məlumatına görə, B. alban hökmdarı II Vaçenin dövründə Sasani hökmdarı Firuzun [459–84] göstərişi ilə salınmışdır. "Kitabi-Dədə Qorqud" dastanında da B.-dən bəhs olunur. Orta əsr müəllifləri B.-nin Tərtər çayının Kürlə qovuşduğu yerdən təqr. 20 *km* aralı olduğunu göstərmişlər.

Bərdə. Dördminarəli İmamzadə məscidi.






Sasanilər dövründə B. canişinlik mərkəzi idi. I Qubadın dövründə B.-nin ətrafına divar çəkilmiş, İran qarnizonu üçün qala tikilmişdi. B. 5 əsrdən Albaniyanın paytaxtı idi. 552 ildən Alban kilsəsinin mərkəzi də B.-də yerləşirdi. İran-Bizans müharibələri zamanı Bizansın müttəfiqi olan xəzərlər 628 ildə B.-ni tutmuşdular. 639 ildə Albaniyaya soxulmuş İran işğalçılarını alban hökmdarı Cavanşir ölkədən çıxara bilmişdi. Xəlifə Osmanın dövründə [644–656] Azərb.-a hücum edən ərəb qoşunu B.-ni tutmuşdu. Əməvi xəlifəsi Müaviyənin dövründə [661–680] B. bərpa edilmiş, divarla əhatə olunmuşdu. Mühüm strateji məntəqə olan B.-də ərəb qarnizonu saxlanırdı. Həmin dövrdə şəhərdə təqr. 100 minə yaxın əhali yaşayırdı. 8 əsrdə B.-də pul kəsilirdi. 748 ildə Beyləqanda ərəblərə qarşı baş verən üsyan Azərb.-ın başqa yerlərinə də yayıldı. Üsyançılar B.-dəki ərəb qarnizonunu məğlub etdilər.

Əməvilər dövründə [661–750] ərəblər Arranın daxili işlərinə, demək olar ki, qarışmır, yalnız xərac almaqla kifayətlənirdilər. *Abbasilər* dövründə [750–1258] isə B. yerli hökmdarların əlindən alınaraq (752 ildə) Arran vil.-nin mərkəzinə çevrildi və həmin dövrdən şəhər ərəblərin tam nəzarətinə keçdi. B. 789 ildən üçüncü əmirliyin mərkəzi idi. 9 əsrdə Babəkin başçılıq etdiyi azadlıq hərəkatı B.-ni də bürüdü. 822 ildə B. yaxınlığındakı vuruşmada xürrəmilər ərəb qoşununu məğlub etdilər. Ərəb sərkərdəsi İsa ibn Məhəmməd qaçdı. 824 ildə Xilafətin başqa bir ordusunu məğlub edən xürrəmilər B.-ni düşməndən təmizlədilər.

8–9 əsrlərdə B. mühüm ticarət və mədəniyyət mərkəzi idi. Xilafətin paytaxtı Bağdad ş.-ni Azərb.-la birləşdirən ticarət yolları həm də B.-dən keçirdi. Buna görə də Azərb.-ın şm.-ında şəhərlərarası məsafələr B. şəhərindən hesablanırdı. B.-dən başqa yerlərə çoxlu ipək aparılırdı. "Kürd qapısı" adlanan B. darvazası yaxınlığında məşhur "əl-Kürkiy" bazarı yerləşirdi. B. bazarına müxtəlif ölkələrdən tacirlər gəlirdilər. Ərəb müəlliflərindən əl-Müqəddəsi B.-ni "ölkənin Bağdadı", İbn Havqəl isə "Arranın anası" adlandırmışlar.

Xilafətin zəifləməsi ilə əlaqədar Azərb.-da da müstəqil dövlətlər yarandı. B. 10 əsrin 90-cı illərinə qədər *Salarilər* dövlətinə daxil idi. 944 ildə Azərb.-a yenidən soxulan ruslar qayıqlarla Kür çayı vasitəsilə B.-yə çatdılar. Salari qoşunu ilə baş verən bu və sonrakı döyüşlərdə qazandıqları uğurlar rusların uzun müddət B.-də möhkəmlənməsinə səbəb oldu. Yerli və ərəb mənbələrinin verdiyi məlumata görə, "rusların onları (əhalinin əksəriyyətini) qılıncdan keçirib xeyli insanı məhv etdilər, qırğından sonra əhalinin 10 min nəfərə yaxınını əsir aldılar... ruslar əhalinin əmlakını qənimət kimi ələ keçirdilər, əsirləri qul etdilər...". Salari hökmdarı Mərzban ibn Məhəmməd ruslara qarşı otuz min nəfərlik qoşun yeritdi və şəhəri mühasirəyə aldı. Şiddətlənməkdə olan taun epidemiyası və müsəlmanların aramsız hücumları rusları B.-ni tərk etməyə məcbur etdi. Rusların hücumu və onun nəticələri B. kimi siyasi-iqtisadi-mədəni mərkəzin öz əvvəlki əhəmiyyət və qüdrətini itirməsinə gətirib çıxartdı. 993 ildə Şəddadilər sülaləsindən olan Fəzlun [985–1030] B.-ni Salarilərdən aldı. B. 11 əsrdə Səlcuqilərin, 12 əsrin 2-ci yarısından isə Eldənizlərin hakimiyyətində idi. Monqolların Azərb.-a hücumu zamanı B. dağıdıldı. *Elxanilər* dövründə şəhər bərpa oldu. Rəşidəddinin məlumatına görə, 14 əsrin əvvəllərində B.-də sənətkarlıq, ticarət, mədəniyyət getdikcə dirçəlirdi. Teymurun hücumu zamanı B. yenidən dağıdıldı. Sonralar şəhərin iqti-


Bərdə. Heydər Əliyev Muzeyi.

Bərdə Olimpiya-İdman kompleksi.









sadiyyatı bir qədər dirçəldi; 15 əsrdə B-də pul da kəsilirdi. Lakin B. artıq keçmiş əhəmiyyətini bərpa edə bilmədi. B. Nadir şahın dövründə bir daha dağıdıldı və kiçik yaşayış məntəqəsinə çevrildi. Xanlıqlar dövründə B. Qarabağ xanlığına daxil idi.

1970 ildə B. ş.-nin "Məbəd yeri" adlı hissəsində aparılmış arxeoloji qazıntılar nəticəsində 3 mədəni təbəqə aşkar olunmuşdur. Burada çay daşlarından və bişmiş kərpicdən 8 əsrin sonlarına aid edilən alban məbədinin qalıqları, həmçinin sonrakı dövrlərə aid əhəngdaşıdan yonulmuş sütun altlıqları tapılmışdır. 1985, 1986 və sonrakı illərdəki qazıntılar zamanı 3–4 əsrlərə aid təbəqə aşkar olunmuşdur. Bu təbəqədə tikinti qalıqları (təndir. ocaq, kürə və s.), təsərrüfat quyuları, su təchizatı sistemi və s. aşkar edilmişdir.

B. ş.-ndə Tərtər çayı üzərindəki körpünün (7–9 əsrlər) qalıqları, *Bərdə türbəsi* (1322), *Axsadanbaba türbəsi* (14 əsr), qala (?), İbrahim məscidi (18 əsr) və s. memarlıq abidələri saxlanılmışdır.

Ş.-də 2 mədəniyyət sarayı, 5 klub, 10 kitabxana (o cümlədən, mərkəzi rayon kitabxanası və rayon uşaq kitabxanası), 6 xəstəxana, poçtamt, telekommunikasiya qovşağı, tarix-diyarşünaslıq muzeyi, rəsm qalereyası, mədəniyyət və istirahət parkı və s. var.

B. ş.-ndə 9 məktəbəqədər təhsil müəssisəsi (625 uşaq), 10 ümumtəhsil məktəbi (6435 şagird), 5 məktəbdənkənar təhsil müəssisəsi (4263 uşaq), texniki peşə liseyi, kollec fəaliyyət göstərir.

B.-də dəmir-beton məmulatı z-dları, çörək məmulatı z-du, tikiş f-ki, məişət xidməti kombinatı, "Qarabağ-pambıq" ASC, "Bərdə-ticarət" ASC, "Bərdə-qida" MMC var.

**BƏRDƏ DƏFİNƏLƏRİ** – Azərb. Resp. Bərdə r-nu ərazisində (1924, 1925, 1929 və 1940 illərdə) tapılmış müxtəlif dövrlərə aid gümüş və mis sikkə dəfinələri. Eldəniz hökmdarlarına aid (12–13 əsrlər) miss sikkələrinin ümumi çəkisi *50 kq*-a yaxın olmuşdur. B.d.-ndə Makedoniyalı İsgəndərin, Selevki hökmdarlarından IV Antioxun, V Antioxun, I Demetrinin, VII Antioxun tetradraxmaları, Parfiya hökmdarı IV Fraatın draxması, Roma imperatoru Avqustun denarisi, Sasani hökmdarı II Xosrovun dirhəmləri vardır. B.d. içərisində Bərdə ş.-ndə Salari hökmdarların Vəhsudan ibn Məhəmməd və İsmayıl ibn Vəhsudanın (10 əsr) adından kəsilmiş gümüş dirhəmlərə də təsadüf edilir. B.d. Bərdənin iqtisadi, siyasi tarixini öyrənmək üçün mühüm əhəmiyyətə malikdir. B.d. sikkələrinin bir hissəsi Milli Azərb. Tarixi Muzeyində saxlanılır.

**BƏRDƏ DÖVLƏT TƏBİƏT YASAQLIĞI** – bax *Azərbaycan* xüsusi cildinin Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri bölməsinə.

**BƏRDƏ RAYONU** Azərb. Resp.-nda inzibati r-n. 1930 ildə təşkil edilmişdir. Kür-Araz ovalığının şm.-q. hissəsində, Qarabağ düzündədir. Sah. 957 *km²*. Əh. 141,4 min (2008). Şm.-q.-də Yevlax, şm.-ş.-də Ağdaş, ş.-də Zərdab, c.-da Ağcabədi, Ağdam, q.-də Tərtər r-nları ilə həmsərhəddir. R-nda 1 şəhər, 110 kənd var. Mərkəzi Bərdə ş.-dir.

**Təbiət.** R-nun ərazisi *Qarabağ düzünün* mərkəzi hissəsindədir. Səthi az meyilli və dalğalı düzənlikdən ibarətdir (hünd. 200 *m*-ə qədər); Antropogen sisteminin çöküntüləri ilə örtülüdür. Gil, çınqıl və qum yataqları var. R-nun Muğanlı k.-ndə "Muğanlı suyu" adlanan müalicə əhəmiyyətli təbii bulaq mövcuddur. İqlimi mülayim isti, quru subtropikdir. Qışı qu-



raq keçir. Orta temp-r yanvarda 1,2–1,8°C, iyulda 25,6–26,5°C-dir. İllik yağıntı 250–350 *mm*-dir. R-nun ərazisindən Tərtər və Xaçın çayları, şm.-ş. sərhədi boyunca Kür çayı axır. Təbii bitki örtüyü, əsasən, quru çöl və yarımsəhra tiplidir. Kür çayı sahilində seyrək tuqay meşələri (ümumi sah. 7,3 min *ha*) var. Heyvanları: tülkü. canavar, çöldovşanı, boz dovşan, süleysin və s. Quşları: turac, qırqovul, qaz, ördək və s. *Bərdə Dövlət Təbiət Yasaqlığının* bir hissəsi r-nun ərazisindədir.

**Əhali.** Orta sıxlıq 1 *km²*-də 147 nəfərdir. Kənd əhalisi 72 %-dir. Bərdə ş., Kətəlparaq, Otuzikilər, Xanərəb k.-ləri ən iri yaşayış məntəqələridir.

**Təsərrüfat.** Aran iqtisadi r-nuna daxildir. İqtisadiyyatının əsasını aqrar sahə təşkil edir. R-nda 7,0 mln. manat dəyərində sənaye, 92,3 mln. manat dəyərində k.t. məhsulları istehsal olunmuş, 18,7 mln. manat dəyərində tikinti-quraşdırma işləri görülmüş, 4,5 mln. manat dəyərində nəql., 0,9 mln. manat dəyərində rabitə və 44,6 mln. manat dəyərində ticarət xidməti göstərilmişdir.

K.t.-na yararlı torpaqların sah. 76472 *ha*, o cümlədən 14780 *ha* dənli-paxlalı bitkilər (12763 *ha* buğda), 1678 *ha* pambıq, 1074 *ha* şəkər çuğunduru, 3532 *ha* tərəvəz, 2910 *ha* bostan bitkiləri, 963 *ha*

Bərdə. Elektron kitabxana.




Bərdə. 8 saylı tam orta məktəb.





Şəkər çuğunduru plantasiyası.

meyvə və giləmeyvə sahələri təşkil edir (2010). B. r.-nda 38,662 min *t* dənli-paxlalı (o cümlədən 33,496 min *t* buğda), 3,28 min *t* pambıq, 25,0 min *t* şəkər çuğunduru, 1,106 min *t* toxumluq günəbaxan, 4,35 min *t* kartof, 32,875 min *t* tərəvəz, 37,578 min *t* bostan məhsulları, 6,678 min *t* meyvə və giləmeyvə, 1,645 min *t* üzüm istehsal edilmişdir (2010).

B. r.-nda 81756 baş mal-qara, 129753 baş davar var. 2010 ildə 6,755 min *t* ət, 47,604 min *t* süd, 23,950 mln. ədəd yumurta istehsal edilmişdir. R-nda k.t. üzrə 19 sənaye müəssisəsi fəaliyyət göstərir, istehsal olunan məhsulun 38,1%-i özəl sektorunun payına düşür.

**Mədəni quruculuq və səhiyyə.** B. r-nda 32 məktəbəqədər təhsil müəssisəsi (1610 uşaq), 75 ümumtəhsil məktəbi (22242 şagird), 5 məktəbdənkənar təhsil müəssisəsi (4263 uşaq), texniki peşə liseyi, kollec fəaliyyət göstərir (2010/11 ). Rayonda 109 kitabxana, 74 kənd klubu, 31 kənd mədəniyyət evi fəaliyyət göstərir.

Tərtər çayı üzərindəki körpünün qalıqları (7–9 əsrlər), *Bərdə türbəsi* (1322), *Axsadan-baba türbəsi* (14 əsr), Güloğlular k.-ndə səkkizgüşəli türbə (18 əsr), İbrahim məscidi (18 əsr) və s. memarlıq abidələri var.

R-nda 940 çarpayılıq (əhalinin hər 10 min nəfərinə 66,2 çarpayı), 13 xəstəxana (o cümlədən mərkəzi r-n xəstəxanası, uşaq xəstəxanası, 11 kənd sahə xəstəxanası), stomatoloji poliklinika, 32 kənd həkim ambulatoriyası, doğum evi, 57 feldşer-mama məntəqəsi, 2 dispanser (dəri-zöhrəvi və ağ ciyər xəstəlikləri), gigiyena və epidemiologiya mərkəzi, 316 həkim (o cümlədən 14 stomatoloq və diş həkimi), 995 orta tibb işçisi (o cümlədən 254 feldşer-mama və mama) var.

**BƏRDƏ TÜRBƏSİ** – Azərb. Resp.-nın Bərdə ş.-ndə tarixi memarlıq abidəsi. 1322 ildə tikilmiş türbənin memarı *Əhməd ibn Əyyub əl-Hafiz Naxçıvanidir*. B.t. dövrünün görkəmli şəxsiyyətlərinin xatirəsini əbədiləşdirmək üçün tikilən bürcvarı türbələr qrupuna daxildir. Hünd. 12,5 *m* olan B.t. silindrik gövdədən və konusşəkilli günbəzdən ibarətdir. Abidənin oturacağı daşdan hörülmüş kürsülük formasındadır. B.t.-nin bütün səthi, üzərinə firuzəyi kaşı çəkilmiş kərpiclə naxışlanmışdır. Orijinal hörgünün kərpic naxışlarında "Allah" sözü mütənasib surətdə təkrarlanır. B.t. bürcvarı Azərb. türbələri üçün xarakterik olan yeraltı və yerüstü hissələrə bölünür. Yeraltı hissə türbənin dəfn üçün ayrılmış sərdabəsı, yerüstü hissə isə xatirə abidəsi olub, monumental xarakter daşıyır. Abidənin müvafiq kitabəsi uçulub dağıldığından, B.t.-nin kimin şərəfinə inşa olunması məlum deyil. Lakin onun Elxanilər sülaləsindən bir nəfər üçün tikildiyi ehtimal edilir.

*Əd.:* Усейнов М., Бретаницкий Л., Саламзаде А. История архитектуры Азербайджана. М., 1963.

Bərdə türbəsi. 1322 il.



**BƏRDƏİ** Məhəmməd ibn Abdulla (Əbu Bəkr) (?, Bərdə – 961) – Azərb. mütəfəkkiri, hüquqşünas. Bərdə və Bağdadda yaşamışdır. 961 ildə B. ilə görüşən ərəb alimi İbn ən-Nədim yazmışdır ki, B. *mötəzilə* fəlsəfi cərəyanının nümayəndəsi, *xaricilik* hərəkatının üzvü idi. B. müsəlman hüququndan bəhs edən "Müxalifətçilərə cavab", "Müsəlman hüququnun əsaslarına dair məcəllə", "İmamətə dair kitab" və s. əsərlərin müəllifidir. B.-in əsərləri hələlik tapılmasa da (mötəzilə və xaricilik tərəfdarları təqib olunduğundan B. əsərlərini gizli yayırdı), onlarda mütərəqqi cəhətlər və demokratik fikirlər olduğu ehtimal edilir.

*Əd.:* Məmmədov Z.C. VII–X əsr Azərbaycan fəlsəfi və ictimai fikir tarixinə dair məlumat. Azərb. SSR EA Xəbərləri, 1969, № 4.

**BƏRDƏİ** Münyiddin Məhəmməd Məhəmməd oğlu Hənəfi (?, Bərdə – 1521, Ədirnə) – Azərb. filosofu, illahiyyatçıs və hənəfi hüquqşünası. İlk təhsilini atasından almış, Şiraz və Herat şəhərlərində müxtəlif elmlərə dərindən yiyələnmiş, sonra isə Bursa ş.-nin Əhməd Paşa mədrəsəsində müəllimlik etmişdir. B. məntiq, fəlsəfə və Quranın təfsirinə dair əsərlərin müəllifidir. Əsirəddin Əbhərinin (?–1265) "Kateqoriyalara giriş" ("Mətali əl-ənvar"), *Nəsirəddin Tusinin* (1201–74) "Kəlamın təcridi" ("Təcrid əl-kəlam"), Əzüdəddin İcinin (?–1355) "Mübahisə etmək qaydaları" ("Adab əl-bəhs") kitablarına şərhlərdən ibarət haşiyələr yazmışdır. "Kateqoriyalara giriş" kitabına haşiyələrin əlyazması nüsxələri Qahirə, Sankt-Peterburq, Tehran və s. şəhərlərin kitabxanalarında saxlanılır.

*Əd.:* Məmmədov Z. Orta əsrlər Azərbaycan filosofları və mütəfəkkirləri. B.,1986; yenə onun. Azərbaycan fəlsəfəsi tarixi. B., 1994.

**BƏRDİC**, Bərduc, Bərzənc – Azərb.-da orta əsr şəhəri. Kür çayı sahilində Bərdə–Dərbənd (Bab əl-Əbvab) karvan yolu üstündə mühüm ticarət məntəqəsi olmuşdur. B. haqqında 9–10 əsr ərəb səyahlarından İbn Xordadbeh, əl-İstəxri, İbn Havqəl, əl-Müqəddəsi və b. məlumat vermiş və qədim Bərdə ilə B. arasındakı məsafəni 14–18 *fərsəx* göstərmişlər. Kür çayının sağ sahilində yerləşən B.-də Şamaxıya gedən karvan yoluna çıxmaq üçün bərə yolu var idi. Tədqiqatçıların fikrincə (V.F. Minorski və b.), B. Kür çayının sağ sahilində, indiki Zərdab r-nundakı Körpükənd k. yaxınlığında (Bərdədən təqr. *34 km* ş.-də) yerləşirdi.

**BƏRDİK** – Azərb. Resp. Culfa r-nu (Nax. MR) ərazisində dağ. Əlincəçayın sol sahilindədir. Hünd. 2053 *m*. Alt Pliosen maqmatizminin əmələ gətirdiyi intruziv kütlədir. Müasir relyefdə sıldırım yamaclı plato əmələ gətirir.

**BƏRƏ** – çay, göl, dəniz və digər su mənəsinin bir sahilindən o biri sahilinə sərnişin, nəql. vasitələri (avtomobil, d.y. vaqonları), həmçinin yüklərin daşınması üçün gəmi və ya qurğu. Motorlu və motorsuz B. növləri olur. Motorsuz B., adətən, çaylarda ucları sahillərə bərkidilmiş trosla, yaxud yedək gəmisi ilə hərəkətə gətirilir. Qayıq, sal, barj və ya onların ümumi yük platformaları qrupu da motorsuz B.-lərə aiddir. Təyinatına görə dəmiryol B.-si, avtomobil-sərnişin B.-si və universal B.-lərə ayrılır. D.y. vaqonları və avtomobillər bir neçə göyərtəli xüsusi motorlu B. ilə daşınır. Dəniz B.-ləri yerli xətlərdə və okeanlararası yollarda işlədilir. Okean B.-lərinin sərnişin gəmilərinə oxşarlığı olsa da, qaraj və yük yerləri ilə onlardan fərqlənir. B.-nin orta yük tutumu 30–50 (bəzən 100-dən çox) vaqon, 100–150 avtomobildir. B.-də 300–800 (dəniz B.-lərində 2000-ə qədər) sərnişin daşımaq mümkündür. Xəzər dənizində 1962 ildə Bakı–Krasnovodsk (Türkmənbaşı) B. yolu açılmışdır. Hazırda Bakı–Türkmənbaşı və Bakı–Aktau B. yolları ilə neft, d.y. vaqonları, avtomobil, taxıl və s. yüklər, həmçinin sərnişin daşınmaları yerinə yetirlir. B. nəql. növü kimi Yaponiya və Qərbi Avropa ölkələrində daha çox inkişaf etmişdir. La-Manşda B. kimi hava yastıqlı gəmilərdən istifadə olunur.

**BƏRƏ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Mərənd şəhristanının Zənuz bölgəsinin Hərzəndat kəndistanında, Mərənd ş.-ndən 26 *km* şm.-dadır.

**BƏRƏDEH** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Atəşbəy kəndistanında, Səriskənd qəs.-ndən 24 *km* q.-də, Miyanə–Marağa d.y.-nun üstündədir.

**BƏRƏKCƏ** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin Muğan kəndistanında, Germi qəs.-ndən 22 *km* q.-dədir.

**BƏRƏKƏVEYH ZƏNCANİ** (?–?) – 10 əsr Azərb. şairi. Ərəb dilində yazmışdır. Həyat və yaradıcılığı haqqında məlumat azdır. "Sülul" təxəllüsü ilə tanınmışdır. Əbu Mənsur Səalibi B.Z.-nin görkəmli ərəb alimi *Bədi əz-Zaman* əl-Həmədanidən eşitdiyi bəzi şeirlərini tərtib etdiyi topluya daxil etmişdir. Şeirlərində məhəbbət duyğuları ilə yanaşı didaktik motivlər, incə yumor da əksini tapmışdır. İnsanları həyatdan, gözəllikdən zövq almağa, xeyirxahlığa səsləyən şeirlərində folklora bağlılıq hiss olunur.

*Əd.:* Mahmudov M. Ərəbcə yazmış azərbaycanlı şair və ədiblər (VII–XII əsrlər). B., 1983.

**BƏRƏNLİQ HÜSEYNXAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Tərik bölgəsinin Kəndovan kəndistanındadır.

**BƏRƏNLİQ MƏDƏDXAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Tərik bölgəsinin Kəndovan kəndistanında, bölgə mərkəzindən 9 *km* c.-da, Miyanə–Təbriz avtomobil yolunun üstündədir.

**BƏRGÇAY** – İranın Ərdəbil ostanında kənd. Meşkinşəhr şəhristanının Mərkəzi bölgəsinin Ərşəq kəndistanında, Meşkinşəhrdən 48 *km* şm.-ş.-də, Germi–Ərdəbil avtomobil yolunun 2 *km*-liyindədir.

**BƏRGƏŞLİ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Şapur bölgəsinin Ətraf kəndistanında, Şapur qəs.-ndən 6 *km* şm.-ş.-dədir.

**BƏRGÜŞAD**, Bazarçay – Azərb. Resp. və Erm. Resp. ərazilərində çay. Uz. 164 *km*, hövzəsinin sah. 2970 $km^2$. Qarabağ yaylasındakı Zalxa gölündən (3040 *m* hünd.-dən) başlanır. Həkəri çayı ilə birləşərək Araza tökülür. Erm. ərazisindəki hissəsi Vorotan adlanır. Yeraltı, qar və qismən yağış suları ilə qidalanır. Suvarmada istifadə edilir. Üzərində SES-lər (Erm. ərazisində) var.

**BƏRGÜŞAD** – Azərb. Resp. Ucar r-nunda kənd. Bərgüşad ə.d.-nin mərkəzi. R-n mərkəzindən 25 *km* c.-ş.-də, Bərgüşad d.y. st.-ndan 10 *km* aralı, Şirvan düzündədir. Əh. 5989 (2008); pambıqçılıq, taxılçılıq, baramaçılıq, bağçılıq və heyvandarlıqla məşğuldur. 2 tam orta məktəb, ümumi orta məktəb, uşaq bağçası, 2 kitabxana, mədəniyyət evi, klub, xəstəxana, ATS var.

**BƏRGÜŞAD SİLSİLƏSİ** – Erm. Resp. və qismən Azərb. Resp. (Qubadlı və Zəngilan r-nları) ərazilərində dağ silsiləsi. Zəngəzur silsiləsinin ş. qolu. Bərgüşad (Vorotan) və Oxçu çaylarının suayırıcısıdır. Ən yüksək zirvəsi Aramazd d.-dır (3399 *m*). Azərb. Resp. ərazisində silsilənin c.-ş. davamı tədricən alçalır və Ağoyuq düzünə keçir. Bu hissədə ən yüksək zirvəsi Süsən d.-dır (1304 *m*). B.s., əsasən, qranit və qranodiorit intruziyaları olan Yura və Tabaşir yaşlı vulkanogen-çökmə, çökmə süxurlardan təşkil edilmişdir. Yamacları meşələr (palıd, vələs), suayırıcı hissəsi isə subalp və Alp çəmənləri ilə örtülüdür. Karst mağaraları var.

**BƏRGÜŞADLAR** – türk tayfası. Kəngər tayfasından (bax *Kəngərlər*) olmuşlar. 18 əsr – 19 əsrin ortalarına aid bəzi mənbələrdə Naxçıvan mahalında yaşayan kəngər mənşəli bir sıra qol və tirələrin içərisində Bərgüşadlı nəslinin də adı çəkilir.

**BƏRĞOV** – Azərb. Resp. Quba r-nunun Vəlvələ ə.d.-ndə kənd. R-n mərkəzindən 23 *km* ş.-də, Bakı – Quba avtomobil yolundan 4 *km* aralıdadır. Əh. 805 (2008); bağçılıq, tərəvəzçilik, heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, ibtidai məktəb, feldşer-mama məntəqəsi var.

**BƏRXUDAR** (Bərxurdar) **BƏY ƏNİS** (?, Təbriz – ?) – 16 əsrin 2-ci yarısı – 17 əsrin əvvəllərində yaşamış Azərb. toptökmə ustası. Babası Səfəvilər dövlətində toptökmə sənətinin əsasını qoyanlarından idi. Atası Heydər bəy Ənis I Təhmasibin [1524–76] saray əyanlarından olmuşdur. Toptökmə sənətini daha da təkmilləşdirən B.b.Ə. əvvəlcə Təbrizdə, sonra isə bütün Səfəvilər dövlətində topçubaşı olmuşdur. 16 əsrin 80-ci illərində Osmanlı imperiyasının Səfəvilər dövlətinə hücumu zamanı 4–5 pud ağırlığında mərmiatan toplar, 17 əsrin əvvəllərində Səfəvi-Osmanlı müharibələri dövründə Təbriz, İrəvan, Gəncə və s. şəhərlərin mühasirəsində istifadə edilən iri qaladağıdan toplar B.b.ə.-in başçılığı ilə hazırlanmışdır.

**BƏRİD** (ər. بريد) – orta əsrlərdə bir sıra Şərq ölkəsində, o cümlədən Tulunilər, Samanilər, Səlcuqilər, Zəngilər, Qəznəvilər. Məmlüklər və s.-də xəbər və poçt təşkilatı. B. Bızansda da mövcud olmuşdur.

**BƏRİDŞAHLAR** – Hindistanda Dekan yaylasının c.-unda hakim türk sülalə-

si [1492–1619]. Banisi əmir I Qasım Bərid şahdır [1492–1504]. O, gənc yaşlarından *Bəhmənilərə* xidmət etmiş, bəridi-məmalik (ölkənin xəbərləşmə və poçt xidməti rəhbəri) vəzifəsində çalışmışdır. Bəhməni sultanlığının tənəzzülü nəticəsində Bidarda müstəqil əmirlik yaratmışdır. Nümayəndələri: I Əmir Bərid şah [1504–43], Əli Bərid şah [1543–80], İbrahim Bərid şah [1580–87], II Qasım Bərid şah [1587–90], II Əmir Bərid şah [1590–1601], Mirzə Əli Bərid şah [1601–09], III Əmir Bərid şah [1609–19]. B. bəhməni sultanlarından III Əhməd, Əlaəddin, Vəliullah və Kəlimullahı himayə etmiş, Vicayanaqar və digər qonşu əmirliklərlə ardıcıl mübarizə aparmışlar. B. Bəhmənilərin memarlıq və incəsənət ənənələrini davam etdirmiş, Bidarda bir çox məscid, türbə, mədrəsə və s. binalar – Rəngin Mahal, Taxt Mahal, Tərkəş Mahal və s. tikdirmişlər. B.-in hakimiyyətinə *Adilşahlar* son qoymuşlar.

**BƏRİHAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Horand bölgəsinin Çahardangə kəndistanında, Horand qəs.-ndən 13,5 *km* q.-dədir.

**BƏRK BUĞDA** – bax *Buğda*.

**BƏRK CİSM** – maddənin aqreqat hallarından biri; normal şəraitdə öz formasını saxlaması (sürüşmə moduluna malikdir) və atomlarının müəyyən tarazlıq vəziyyətləri ətrafında kiçik amplitudlu rəqslər etməsi ilə xarakterizə olunur. Atomların tarazlıq vəziyyətlərinin fəzada paylanılmasına görə B.c. kristal və amorf halda ola bilər. Kristal hal atomların fəzada nizamlı, amorf hal isə nizamsız paylanmasıdır. Təzyiq və temp-rdan asılı olaraq kristal B.c. müxtəlif hallarda olur. Bunlara kristal B.c.-in fazaları və ya kristal modifikasiyaları deyilir. Eyni cismin müxtəlif modifikasiyalarda ola bilməsi polimorfizm adlanır. Elementlərin müxtəlif modifikasiyalarda olmasına allotropik modifikasiyalar deyilir (məs., almaz, qrafit və s.). Bir kristal haldan digərinə keçid nöqtəsində ya birinci növ faza keçidi (keçid nöqtəsində istilik ayrılması və həcmin sıçrayışla dəyişməsi), ya da ikinci növ faza keçidi (keçid nöqtəsində istilik tutumunun və s. sıçrayışla dəyişməsi) baş verir.

B.c.-də atomlar və ya molekullar arasındakı rabitə qüvvələri, əsasən, elektrostatik təbiətlidir (zəif maqnit qarşılıqlı təsiri nəzərə alınmazsa). Kristal B.c.-ləri rabitə növlərinə görə, adətən, 5 yerə bölürlər: 1) müsbət və mənfi ionlardan təşkil olunmuş kristallar (məs., NaCl, KCl və s.); aşağı temp-rlarda zəif elektrik keçiriciliyinə, yüksək temp-rlarda isə yaxşı ion keçiriciliyinə – infraqırmızı şüaları kəskin udmaq xassəsinə malikdir; 2) kovalent rabitəli kristallar (məs., almaz, Ge, Si); bu kristallarda valent elektronları bütün qonşu atomlara aid olur və elektronların ionlararası paylanma sıxlığı kəskin istiqamətlənmiş olur. Yüksək bərklik, saf nümunələrdə və aşağı temp-rlarda zəif elektrik keçiriciliyi bu kristallar üçün xarakterikdir; 3) metal kristallar; sərbəst elektronlar ionlar arasında rabitə enerjisinin yaranmasına səbəb olur. Belə maddələr yüksək keçiriciliyə malikdir; 4) molekulyar kristallar; çoxatomlu kimyəvi birləşmələrə (məs., $CH_4$ və s.) aiddir. Onlarda molekullararası rabitə Van-der-Vaals qüvvələri vasitəsilə yaranır. Bu kristalların ərimə temp-rları alçaq, sıxılma qabiliyyəti isə yüksək olur; 5) hidrogen rabitəli kristallar (məs., buz, HF və s.); hidrogen rabitəsi, əsasən, elektromənfiliyi, yəni atomu elektronları özünə cəzbetmə qabiliyyəti yüksək olan elementlərin (flüor, oksigen, azot) hidrogenlə birləşmələrində baş verir və kovalent və ion rabitələrindən zəifdir. Rabitə növlərinə görə, B.c.-lərin bu cür təsnifatı təqribidir. Bi, As, Sb və s. kimi maddələri bu növlərdən hər hansı birinə aid etmək çətindir. Ümumiyyətlə, bütün B.c.-lərdə rabitə növləri müxtəlif nisbətdədir. B.c.-in elektrik, maqnit, optik və istilik xassələri, əsasən, onu təşkil edən atomlarda valent elektronların paylanmasından asılıdır. B.c.-in atomlarında valent elektronlarının enerji spektri sərbəst atomlardakından kəskin fərqlidir. B.c.-də atomların qarşılıqlı təsiri nəticəsində elektronun sərbəst atomdakı diskret enerji səviyyələri enerji zonaları əmələ gətirir. Zonanı əmələ gətirən enerji səviyyələrində elektronlar *Pauli prinsipinə* görə (hər bir səviyyədə spinləri müxtəlif istiqamətli olan iki elektron yerləşə bilər) paylanır. Hər hansı zonada heç bir elektron yoxdursa, onda kristala elektrik sahəsi tətbiq etdikdə bu zona elektrik keçiriciliyinə pay vermir. Zonada bütün səviyyələr axıradək elektronlarla dolduqda, onda bu elektronlar da keçiricilikdə iştirak etmir, çünki bunun üçün sahənin təsiri ilə elektron qonşu (daha yuxarı) səviyyəyə keçməlidir, bu isə Pauli prinsipinə görə mümkün deyil (səviyyələrin hamısı doludur). Deməli, elektronlar o zaman elektrik keçiriciliyində iştirak edə bilər ki, zona elektronlarla yarımçıq dolmuş olsun. İstənilən temp-rda baxılan maddənin yarımçıq dolmuş zonası varsa, onda bu maddə keçiricidir. Keçirici olmayan maddələr isə elə maddələrdir ki, onların bir sıra enerji zonaları elektronlarla tamamilə doludur və axırıncı dolu zonadan sonra gələn boş zona dolu zonadan müəyyən qadağan olunmuş zona ilə ayrılır. Keçirici olmayan maddələrə yarımkeçiricilər və dielektriklər aiddir. Birinci boş zonanı axırıncı dolu zonadan ayıran qadağan olunmuş zonanın eni 2÷3 *eV* və ya ondan azdırsa, maddə yarımkeçirici, böyükdürsə, dielektrikdir.

Atomlardan və molekullardan dayanıqlı B.c.-in əmələ gəlməsi ~$10^{-8}$ *sm* məsafədə elektrostatik cazibə və itələmə qüvvələrinin tarazlaşmasını göstərir. Bir sıra hallarda atom zərrəciklərinə bərk şarlar kimi baxmaq və onları *atom radiusları* ilə xarakterizə etmək olar. Qarşılıqlı təsir qüvvələri haqqında bilgi B.c.-in *hal tənliyini* almağa imkan verir.

Bütün B.c.-lər kifayət qədər yüksək temp-rda əriyir və ya sublimasiya (bərk maddənin buxara çevrilməsi) olunur; bərk helium istisnalıq təşkil edir, belə ki,








temp-r azaldıqda o əriyir (təzyiq altında). Ərimə prosesində cismin aldığı istilik atomlararası rabitənin qırılmasına sərf olunur. Müxtəlif təbiətli B.c.-lərdə ərimə temp-ru fərqlidir (hidrogen molekulunda 259,1°*C*, volframda 3410±20°*C*, qrafitdə 4000°*C*-dən böyük). B.c.-lər texnikanın müxtəlif sahələrində işlədilir. Onların mexaniki xassələrindən tikinti və konstruksiya işlərində, elektrik, optik, maqnit xassələrindən isə radio və elektrotexnikada geniş istifadə olunur. Yarımkeçiricilərdən hazırlanmış cihazlar elektron lampalarını əvəz edir. Ferromaqnit lövhələr və ifratkeçirici məftillər isə hesablayıcı maşınların əsas elementləridir. Müasir texnikada B.c.-lərin kvant xassələrindən də geniş istifadə olunur (optik kvant generatorlarında və s.-də).

AMEA-nın Fizika İn-tunda B.c.-lər fizikası sahəsində mühüm tədqiqatlar aparılır.

*Əd*: Киттель Ч. Введение в физику твёрдого телаю. М., 1963; Харисон У., Теория твёрдого тела. Пер. с англ., М., 1973; Давыдов А.С., Теория твёрдого тела. М., 1976.

**BƏRK CİSMLƏR PLAZMASI** – bərk keçiricilərdə yüklü mütəhərrik zərrəciklərin (metallarda elektronların və ya *yarımkeçiricilərdə* elektronların və deşiklərin) xassələri qazboşalma *plazmasının* xassələrinə yaxın olduqda onların toplusunu bildirən şərti termin. Bu, qazboşalma plazmasının tədqiqi zamanı yaranmış təsəvvürləri bərk cism fizikasına aid etməyə imkan verir. B.c.p. qazboşalma plazmasından fərqli olaraq yüklü zərrəciklərin böyük *n* sıxlığına malikdir (qazboşalma plazmasında $n \sim 10^{12} sm^{-3}$, metallarda $n \sim 10^{22}-10^{23} sm^{-3}$, yarımkeçiricilərdə $n \sim 10^{15}-10^{17} sm^{-3}$). Bu, B.c.p. və qazboşalma plazmasının xarakteristikalarının müxtəlifliyinə gətirib çıxarır. Məs., $\sqrt{n}$ -lə mütənasib olan plazma tezliyi qazboşalma plazmasına nisbətən B.c.p. üçün əhəmiyyətli dərəcədə böyükdür. B.c.p.-nda (xüsusilə yarımkeçiricilərdə) plazma effektləri İYT (ifrat yüksək tezlikli) cihazların yaradılmasında istifadə edilir.

**BƏRK ƏRİNTİ LÖVHƏCİKLƏRİ** – metalkəsən alətlərin kəsmə xassəsini yaxşılaşdırmaq üçün onların gövdəsinə bərkidilən lövhəciklər. Mexaniki bərkitmə və ya yapışdırmadan sonra B.ə.l. itilənir və onların işlək hissəsinə alətin (kəski, frez, burğu, qazıma baltası və s.) kəsici hissəsinin həndəsi forması verilir. B.ə.l.-nin hazırlanması üçün volfram-karbid, titan-karbid və digər bərk ərintilərdən istifadə olunur. B.ə.l.-nin yüksək möhkəmliyi kəsmə sürətini artırmağa imkan verir.

**BƏRK ƏRİNTİLƏR** – yüksək bərkliyə, davamlılığa, kəsicilik xüsusiyyətlərinə və s. malik yeyilməyədavamlı materiallar. B.ə. yüksək temp-ra qədər qızdırıldıqda belə öz xassələrini saxlayır. İstehsal üsuluna görə tökmə və metal-keramik (bişirilmiş) B.ə.-ə ayrılır. Tökmə B.ə.-ə *stellit*, *sormayt*, relit və s. daxildir. Tökmə ərintilər, əsasən, çətinəriyən xrom, volfram karbidləri və yapışdırıcı kobalt, nikel, dəmir tozları qarışığından əritmə və tökmə üsulu ilə alınır. Metal-keramik B.ə. isə *ovuntu metallurgiyası* üsulları ilə istehsal edilir. Bunun üçün çətinəriyən metal karbidlərinin tozu ilə yapışdırıcı kobalt tozu qarışığı yüksək temp-rda bişirilir. B.ə.-dən kəsici alətlərin kəskiləri, ştampların, qazıma alətlərinin işlək hissələri, ölçü alətləri və s., həmçinin konstruksiya materialları hazırlanır.

**BƏRK MƏHLUL** – kristal qəfəsi iki və ya daha çox elementin atomlarından təşkil olunmuş bircins bərk maddə. Elementlərin nisbəti dəyişdikdə də B.m. öz bircinsliyini saxlayır. Maddə bu quruluşa ərinmiş haldan keçdiyinə görə B.m. adlandırılır. B.m. anlayışını elmə 1890 ildə Y. *Vant-Hoff* daxil etmişdir. B.m.-lara həm təbii halda, həm də süni maddələr arasında tez-tez təsadüf edilir. Süxurəmələgətirən başlıca mineralların (çöl şpatı, mika, hornblend və s.) tərkibi çox geniş radiusda dəyişsə də, həmişə bircins maddə olaraq qalır. Sadə kimyəvi birləşmələrdən bir çoxu, məs., metalların hidrogen, karbon, azot və oksigenlə birləşmələrindən ibarət olan hidridlər, karbidlər, nitridlər, metal oksidləri B.m.-lardır.

Metalların B.m.-larının xüsusilə böyük əhəmiyyəti var, çünki B.m. əmələ gəldikdə metalın plastikliyi demək olar ki, azalmadığı halda, möhkəmliyi və bərkliyi xeyli artır. Saf metallardan fərqli olaraq B.m.-ların xüsusi elektrik müqaviməti temp-rdan az asılıdır və saf metallarınkından böyükdür. Buna görə ölçü cihazlarının şuntlarını, elektrik sobaları və plitələrinin qızdırıcı elementlərini, habelə bir sıra başqa hissələri B.m.-lardan hazırlayırlar. B.m. bütün mühüm texniki ərintilərin konstruksiya poladlarının, paslanmayan və turşuya davamlı poladların, bürünc və tuncun, çox möhkəm alüminium və maqnezium ərintilərinin və s. əsasını təşkil edir. Qeyri-metal B.m.-lara şüşəni misal göstərmək olar.

**BƏRK YANACAQ** – aqreqat halına görə bərk olan *yanacaq*.

**BƏRKA** – Liviyada tarixi şəhər və vil. Bax həmçinin *Kirenaika*.

**BƏRKƏ**, Berke, Bərka, Bərkay (təqr. 1209–66) – *Qızıl Orda* xanı [təqr. 1256–66]. *Cucilər* sülaləsindəndir. Cucinin üçüncü oğlu, *Batunun* kiçik qardaşıdır. 1237–42 illərdə rus knyazlıqlarına, Polşa və Macarıstana yürüşlərdə iştirak etmişdir. Şimal-Qərbi Qafqaz çölləri və Solsahil Volqa ərazilərində özünün ulusu var idi. B.-nin saldırdığı *Saray Bərkə* ş. 14 əsrin 1-ci yarısından Qızıl Ordanın yeni paytaxtı oldu. Batu xanın əmri ilə *Mengü* xanın (kaanın) tacqoyma mərasimində (1251) iştirak etmişdir. Ordaya düşmən olan Cağatay və *Ugedeyin* xələflərini mühakimə etmişdir. O, müsəlman tərbiyəsi almış və islamı qəbul etmiş ilk Qızıl Orda xanı olmuşdur. Dini məktəblər açdırmış, müsəlman ruhanilərini saraya dəvət etmişdir. B.-nin dövründə Qızıl Orda əslində Monqol imperiyasının tabeliyindən çıxmışdı. B.-nin hakimiyyəti zamanı imperiyanın tərkibindəki torpaqlarda siyahıyaalma keçirilmiş (1257–59) və buraya *baskaklar* təyin olunmuşdu. 1258 ildə B. Litvaya yürüş təşkil etmişdi. Monqol imperiyasında baş verən daxili çəkişmələr zamanı (1260–64) Qızıl Orda faktiki müstəqil oldu, B.-nin kaandan asılılığı nominal xarakter daşıyırdı. Bizansa, Bolqarıstana yürüşlər etmiş, Cucilərin Orta Asiyadakı mülklərini ələ keçirən Cağatay xanı Alqu ilə mübarizə aparmışdır.

B. Azərb.-ı Qızıl Ordaya birləşdirmək üçün 1262 və 1265 illərdə Elxanilərlə müharibələr aparmışdır (bu məqsədlə B. Misir sultanlığı ilə əlaqə yaratmışdı). Birinci hücum zamanı B.-nin ordusu Şamaxı və Dərbənd yaxınlığında, Terek sahilində Hülaku xanın qoşunlarına məğlub olmuş, sonra Terek sahilindəki təkrar vuruşmada qalib gələrək Dərbəndi tutmuşdu. İkinci hücum zamanı B.-nin sərkərdəsi Noqay Ağsu çayı sahilindəki

Bərkə xanın adından zərb olunmuş gümüş sikkə (yarmaq). 1260-cı illər.



vuruşmada məğlub olmuşdur. Bundan sonra B. böyük ordu ilə Kür çayı sahilinə gəlmiş, lakin Elxani hökmdarı *Abaqa xan* körpüləri dağıtdığından çayı keçə bilməmişdi. Çayı keçmək üçün Tiflisə doğru hərəkət edən B. yolda xəstəlikdən vəfat etmişdir; cənazəsi *Saray Batuya* aparılmışdır.

**BƏRKƏRİ** – orta əsr şəhəri. Ərəb müəlliflərindən İstəxri (10 əsr), İbn Həvqəl (10 əsr), İdrisi (12 əsr) və b. B.-dən Azərb. şəhəri kimi bəhs etmişlər. Bizansa gedən karvan yolunun üstündə yerləşən B. ehtimal ki, monqol hücumları zamanı dağıdılmışdır.

**BƏRKİDİCİ** – bax *Mədən bərkidicisi.*

**BƏRKİDİCİ ÇƏRÇİVƏ** – çərçivəşəkilli mədən bərkidicisinin yüksaxlayan konstruksiyası; ayrı-ayrı qovşaqlardan yığılmış qapalı (və ya qeyri-qapalı) kontur şəklindədir. Formasına görə düzbucaqlı, trapesiyaşəkilli, poliqonal (çoxbucaqlı), çəpbucaqlı, tağvarı, dairəvi və ellipsşəkilli; bərkitmə materialının növünə görə metal, dəmir-beton, ağac, metal-ağac və metal-dəmir-beton; yük altında iş xüsusiyyətinə görə sərt, dəyişkən (uyğunlaşan – elementləri birləşmə yerlərində sürüşdürülə bilir) və oynaqlı (elementləri oynaq ətrafında hərəkət etdirilə bilir) olur. Xüsusi novvarı profilli polad yayıqdan (prokatdan) hazırlanan dəyişkən B.ç. daha geniş yayılmışdır. B.ç. üstlük, dirək və eninə dirəkaltıdan ibarətdir. Eninə dirəkaltısı olan çərçivə tam, dirəkaltısı olmayan natamam, üstlük və bir dirəyi olan yarımçərçivə, əlavə ara dirəyi və ya çəpdirəyi olan isə gücləndirilmiş B.ç. adlanır. B.ç.-nin qovşaqlarının birləşən yerlərinə kilid (sürgü) deyilir. Qazmalarda B.ç.-lər bir-birindən müəyyən məsafədə (0,3–1 *m* və daha çox) və ya sıx şəkildə (azdayanaqlı süxurlarda) qurulur.

**BƏRKİDİCİ DETALLAR** – maşın və konstruksiya elementlərini tərpənməz halda birləşdirmək üçün detallar. B.d.-a, bir qayda olaraq, yivli birləşmə detalları (vint, sancaq, qayka, şurup), həmçinin pərçim, işgil, köməkçi detallar (şayba, şplint, çivi) və s. daxildir. B.d. maşınqayırmanın bütün sahələrində, inşaatda və başqa sahələrdə geniş tətbiq edilir. Bütün sənaye mallarının hazırlanması üçün nəzərdə tutulan kütləvi B.d.-ın ölçü və tipləri standartlaşdırılır.

**BƏRKİTMƏ MATERİALLARI** – *mədən bərkidicisini* hazırlamaq üçün materiallar. İstifadəsinə görə bərkidicilərin yüksaxlayan konstruksiyasında tətbiq edilən materiallara (metal, beton, ağac, təbii və süni daş, plastik kütlə və s.), məhlul, beton və plastik kütlələrin hazırlanması üçün işlənən yapışdırıcılara (sement, əhəng, qatran və s.), köməkçi materiallara (su izolyasiyası materialları, kimyəvi reagentlər və s.); yanğın zamanı odadavamlılıq dərəcəsinə görə odadavamlı (beton, dəmir-beton, bəzi daşlar), qismən odadavamlı (metal, plastik kütlə) və yanan (ağac) materiallara; qazmalarda istismar müddətlərinə görə uzunömürlü (beton, dəmir-beton, metal və s.) və qısaömürlü (ağac) materiallara; yük altında deformasiya xüsusiyyətlərinə görə kövrək (beton, daş və s.) və elastik-plastik (ağac, metal) materiallara ayrılır. B.m. kimi, əsasən, metal, beton, dəmir-beton, müəyyən oduncaq növləri (əsasən, iynəyarpaqlı), təbii və süni daşlar, 20 əsrin 70-ci illərindən isə şüşə-plastik, müxtəlif sintetik qatranlar və s. polimer materiallar tətbiq edilir. B.m. qazmanın istismar müddətindən və bərkidicinin təyinatına görə konstruksiyasından asılı olaraq seçilir. Yüksək xüsusi davamlılıq, ucuz qiymət, asan əldə edilmə, oda, həmçinin korroziya və çürüməyə davamlılıq B.m.-na qoyulan əsas tələblərdir.

Xüsusi profilli metal bərkidici çərçivə:
1 – üstlük; 2 – dirəklər; 3 – eninə dirəkaltı; 4 – kilid (sürgü).




**BƏRKLİK** – materialı başqa (daha bərk) cismlə sıxdıqda və ya cızdıqda onun cismə göstərdiyi müqavimət. Metalların B.-i *bərklik ədədi* ilə xarakterizə olunur. B. materialın möhkəmliyindən və plastikliyindən asılıdır. B.-in yüngül kürəciyin yoxlanılan materialın səthinə dəyib qalxdığı hündürlüklə ölçülməsi metodunu 1906 ildə Amerika sənayeçisi A. Şor (Şor metodu) təklif etmişdir. 40-cı illərdən başlayaraq metallar, ərintilər və s. bərk maddələrin B.-i polad kürəcik, almaz konus və ya piramidalar (*indentor*) ilə səthə statik sıxılması üsulu (*Brinell metodu, Vikkers metodu* və *Rokvell metodu*) ilə təyin edilməyə başladı. Minerallar və mədən süxurlarının bərkliyi sıxma (basma) və cızma üsulları ilə təyin edilir. Ən qədim üsul Moos şkalasının etalon mineralları və ya iti almaz uclu ilə cızma üsuludur. B.-i cızma üsulu daha dəqiq təyin etmək üçün xüsusi cihazlar – sklerometrlər tətbiq olunur. 1966 ildə Beynəlxalq Mineralogiya Assosiasiyası mineralların diaqnostikasında Vikkers metodunu (əksetmə spektrinin öyrənilməsi ilə yanaşı) başlıca üsul kimi qəbul etmişdir. Üsulun mahiyyəti belədir: nümunənin cilalanmış səthində indentorun buraxdığı iz mikroskopla müəyyən olunur və təsir qüvvəsinin iz sahəsinə olan nisbəti ilə B. ($kq/mm^2$) təyin edilir. B.-in təyini üsulu tədqiq olunan materialdan, nümunə və ya məmulatın ölçüsündən, formasından və s. amillərdən asılı olaraq seçilir. B. göstəriciləri mexanikləşdirmə vasitələrinin layihələndirilməsi, süxurdağıdan və s. alətlərin istismar rejimlərinin optimallaşdırılması, alətlərin müxtəlif konstruksiyalarının məhsuldarlıq normativlərinin əsaslandırılması və s. üçün istifadə edilir.

**BƏRKLİK ƏDƏDİ** – materialların, əsasən, metalların *bərklik* dərəcəsinin ədədi xarakteristikası; müxtəlif sınaq prinsiplərinə uyğun şkalaların vahidləri ilə göstərilir. Bu şkalalardan ən mühümləri üçün şərti işarələr qəbul olunmuşdur. B.ə. bərkliyin müxtəlif üsullarla, məs., polad kürəciyin (*Brinell metodu*) və ya almaz piramidaların (*Vikkers metodu, Rokvell metodu*) yoxlanılan səthə sıxılması (basılması) və s. ilə müəyyən edilir; Brinell metodunda HB, Vikkers metodunda HV, Rokvell metodunda HR ilə göstərilir (H; ing. hardness – bərklik). B.ə.-ndən istifadə edərək kəskilərin kəsmə, metalların termiki, mexaniki və təzyiqlə emalolunma qabiliyyəti, möhkəmlik həddi, alətlərin mexaniki yeyilməyə müqaviməti və s. öyrənilir.

**BƏRKUK** əl-Məliküz-Zahir Seyfüddin (təqr. 1340 – 20.6.1399, Qahirə) – Məmlük sultanı [1390–99]. Taxta çıxdıqdan sonra onun hakimiyyətinə qarşı çıxan Malatya naibi Mintaş və tərəfdarları ilə döyüşmüş, onları məğlubiyyətə uğratmışdır. Osmanlı sultanları I Murad [1362–89] və İldırım Bəyazidlə [1389–1403] dostluq münasibətləri qurmuş, *Teymura* qarşı düşmən mövqedə durmuşdur. Cəlairi hökmdarı Sultan Əhmədin Teymurdan qaçaraq məmlüklərə sığınması B. ilə Teymur arasındakı münasibətləri daha da kəskinləşdirmişdi. Sonuncunun Bağdadı tutub məmlüklərin sərhədlərinə yaxınlaşması səbəbindən B. ordusu ilə səfərə çıxmışdır. Lakin Hələbə çatdığı zaman Teymurun Toxtamış xan ilə müharibəyə başladığını eşidib Qahirəyə qayıtmışdır.

Əmirlərinin ona qarşı üsyan etmələrindən ehtiyatlanan B. bir çox yaxın adamını aradan götürmüşdür. Əli Bay əl-Əlayinin rəhbərlik etdiyi müxalif qrupun B.-ə qarşı hazırladığı sui-qəsd baş tutmamış, Əli Bay edam edilmişdir.

B. Qahirədəki məscid, türbə və təkyələr üçün xüsusi maliyyə ayırmışdır. Həmçinin Qahirədə əl-Bərkukiyyə kompleksi, Şamda karvansara, İordaniyada bir çox körpü tikdirmiş, italyanların hücumuna qarşı İsgəndəriyyədə böyük cəbbəxana yaradaraq Dimyat qalasını möhkəmləndirmişdir. B.-un dövründə türk dili dövlət dili olmuş, mühüm əsərlər bu dilə tərcümə edilmişdir. Adına mis, gümüş və qızıl sikkə kəsdirmişdir. Türbəsi əs-Səhrada (Meydan ül-Qabaq) yerləşir.

**BƏRMƏKİLƏR** – İranda vəzirlər ailəsi. *Abbasilər xilafətinin* ilk dövrlərindən *Harun ər-Rəşidədək* hakimiyyəti müstəqil idarə etmişlər. Xalid Bərmək (təqr. 706/707–781/782) ağıllı məsləhətləri və hərbi bacarığı ilə fərqlənmişdir. Yəhya Bərmək (təqr.738–805) xəlifə Mənsurun vaxtında Azərb.-a vali təyin olunmuş, Harun ər-Rəşidin dövründə vəzirliyə keçirilmişdir. Fəzl Bərmək (təqr. 765–?) atası Yəhyadan sonra vəzirlik etmişdir. Bir müddət Azərb.-da vali olmuşdur. Harun ər-Rəşidin ən sevimli vəziri Cəfər Bərmək (təqr. 767–29.1.1803) uzun müddət dövlət işlərini müstəqil idarə etmişdir. Cəfərin dövründə elm və ədəbiyyat xadimlərinə geniş imkan və imtiyazlar verilmişdi. B.-in nüfuzunun artmasından qorxan Harun ər-Rəşid Cəfəri öldürtmüşdür; digər B. isə həbsxanada ölmüşdür.

**BƏRMƏŞ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Əhər ş.-ndən 13 *km* q.-dədir.

**BƏRNƏDİL** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Mərkəzi bölgəsinin Kəlibər kəndistanında, Kəlibər qəs.-ndən 12 *km* c.-dadır.

**BƏRPA**, maddi mədəniyyət və incəsənət abidələrinin bərpası – bədii, yaxud tarixi əhəmiyyətli memarlıq tikililərinin, boyakarlıq, heykəltəraşlıq, qrafika, dekorativ-tətbiqi sənət əsərlərinin, arxeoloji abidələrin və s. bərpası. Abidənin hərtərəfli tədqiqinə əsaslanan müasir elmi B.-dan məqsəd sərbəst dəyişikliyə və əlavəyə yol verməmədən obyektin ilkin vəziyyətə salınması üçün bütün imkanlardan istifadə etmək, dağılmaqda olan abidəni möhkəmləndirmək, habelə abidəni təhrif edə biləcək sonrakı dağıntıların qarşısını qabaqcadan almaqdır. Bəzi hallarda mötəbər mənbələr əsasında, abidənin dağılmış hissələri də bərpa olunur (xüsusilə memarlıqda). Müasir bərpaçılıq təcrübəsində yeni fiziki-kimyəvi laboratoriya tədqiqat üsulları (mikrokimyəvi təhlil, rentgenoqrafiya, ultrabənövşəyi şüalar) geniş tətbiq edilir.

**BƏRPA**, hesablama texnikasında – 1) sistemin ilkin vəziyyətə gətirilməsi və ya normal işinin bərpası. 2) Verilənlərin itirilməsi zamanı ötürmə st.-ları tərəfindən ziddiyyətlərin həllinə və nasazlıqların düzəldilməsinə kömək edən proses. Maşın nasazlığı və ya proqramdakı səhv hallarında ehtiyat surət əsasında verilənlər bazasının yenidən təşkili verilənlər bazasının B.-sı; orijinal daşıyıcıda verilənlərin tamlığı pozularkən mühafizə surətinin saxlandığı daşıyıcıdan surətçıxarma prosesi verilənlərin B.-sı; hesablama şəbəkəsinin iş qabiliyyətinin bərpası məqsədilə yerinə yetirilən əməliyyatlar məcmusu şəbəkənin B.-sı; fayldakı səhv aşkar edildikdən sonra onun tamlığının qaytarılması faylın B.-sı adlanır.

**BƏRPA CƏRRAHLIĞI** – bax *Plastik cərrahlıq.*

**BƏRPA QATARI** – bax *Qatar.*

**BƏRPA OLUNMAYAN TƏBİİ EHTİYATLAR** – bax *Təbii ehtiyatlar.*

**BƏRPAOLUNAN ENERJİ MƏNBƏLƏRİ** – ətraf mühitdə daim mövcud olan və ya dövri olaraq meydana çıxan enerji axınları. Əsas B.e.m.-nə günəş şüaları, hidroenerji, külək enerjisi, biokütlələr, dəniz və okean axınları, qabarma və çəkilmələrin enerjisi, Yer təkinin istilik enerjisi (geotermal enerji) daxildir. B.e.m.-nin potensial ehtiyatları bəşəriyyətin enerjiyə olan bütün perspektiv tələbatından, eləcə də bərpaolunmayan enerji mənbələri (üzvi yanacaq, nüvə yanacağı) potensialından dəfələrlə çoxdur. B.e.m.-ndən (qeyri-ənənəvi energetika) istifadə bərpaolunmayan yanacaq-enerji ehtiyatlarının azalması ilə bağlı problemlərin, mərkəzləşmiş təchizatdan kənarda qalan istifadəçilərin və ucqar bölgələrin enerji ehtiyatları ilə təminatı problemlərinin həllinə imkan yaradır.

Günəş enerjisi (Yer üzərində ən güclü enerji mənbəyi) sutkanın vaxtından, atmosferin vəziyyətindən, ilin fəslindən asılı olaraq dəyişir. Yer səthinə düşən illik günəş şüası enerjisinin miqdarı (3000–8000 $MC/m^2$) dünya kömür ehtiyatlarının enerjisindən 25 dəfə, bəşəriyyətin hər il sərf etdiyi enerjidən 3–5 min dəfə çoxdur. Günəş enerjisini bilavasitə *günəş batareyaları* vasitəsilə elektrik enerjisinə çevirməklə istehsalatda istifadə etmək olur (bax həmçinin *Heliotexnika, Günəş elektrik stansiyası*).

Hidroenergetik mənbələr (bax *Hidroenergetika*) iri çayların verdiyi enerjinin miqdarı ilə qiymətləndirilir. Əgər planetin bütün böyük çaylarına bənd çəkilərsə, alınan enerji 9802 mlrd. *kVt·saata* uyğun gəlir.

Dünyanın müxtəlif r-nlarında külək enerjisindən istifadə imkanları fərqlidir. Bununla belə külək enerjisi B.e.m. arasında ən çox istifadə olunan və perspektivli enerji mənbəyidir (Yerin külək enerjisi potensialı təqr. 1200 *TVt*-dır; bax *Külək energetikası, Külək elektrik stansiyası*).

Biokütlə k.t., meşəçilik məhsullarından, su bitkilərindən, sənaye və məişətdəki üzvi tullantılardan alınır. Xammalın emalında əsas məqsəd enerji hasil etmək ola bilər, lakin biokütlədən bioyanacaq (məs., metil spirti) alınması daha əlverişlidir. Bioqazdan avtomobil yanacağı kimi istifadə sahəsində texniki işlənilmələr aparılır.

Okean mənbələrinə Dünya okeanının bütün akvatoriyalarındakı axınların, qabarmaların, dalğaların, şirin

su ilə dənizlərin duzlu sularının qarışmasının, okeanların tropik r-nlarında səthdəki və dərindəki su qatları arasında temp-r fərqinin (qradiyentin) enerjisi daxildir. *Qabarma elektrik stansiyalarının* iş prinsipi qabarma enerjisinin elektrik enerjisinə çevrilməsinə əsaslanır. Dünya okeanının isti səth suları və dərindəki soyuq suları arasında temp-r fərqi 20°-yə çatır ki, bu da fasiləsiz olaraq başqa növ (mexaniki, elektrik) enerjiyə çevrilə biləcək istilik enerjisi ehtiyatını təmin edir.

Geotermal mənbələr yer təkində tükənilməz miqdarda enerji toplayır (akkumulyasiya edir). Sənayedə istifadə üçün yararlı olan ehtiyatlar hidrogeotermal və petrogeotermal növlərə ayrılır (bax həmçinin *Geotermal ehtiyatlar, Geotermal elektrik stansiyası*).

Ekoloji aspekt. B.e.m.-ndən elektrik enerjisi alınmasının tamamilə ekoloji "təmiz" variant hesab olunması o qədər də düzgün fikir deyil. Belə ki, B.e.m.-ndən istifadə nəticəsində istilik balansında dəyişiklik yarana bilər, günəş toplayıcıları böyük bir ərazidə günəş işığını tutqunlaşdıra bilər (günəş energetikası); küy təsirləri, lokal iqlim dəyişikliyi baş verə bilər, köçəri quşlar və həşəratlar üçün təhlükə yaranar (külək energetikası); bərk zərrəciklər, kanserogen və zəhərli maddələr, karbon-dioksid, bioqaz ətraf mühitə atılar (bioenergetika); hidrodinamik və istilik həyəcanlanmaları təsirindən bioloji anomaliyalar meydana çıxar, sahilyanı əraziləri su basar və s. (hidrotermal energetika, dalğa qabarmaları enerjisi), qrunt sularının səviyyəsi dəyişər, torpaq çökməsi baş verə bilər (geotermal energetika) və s.

**BƏRPAOLUNAN TƏBİİ EHTİYATLAR** – bax *Təbii ehtiyatlar*.

**BƏRPAOLUNMA QABİLİYYƏTİ** – 1) məmulatdakı müəyyən zədələnmə və ya imtinaetmə səbəbini aradan qaldırdıqdan (məs., radioqəbuledicidə işdən çıxmış tranzistoru dəyişdirdikdən) sonra onun parametrlərinin yolverilən (xüsusi hallarda başlanğıc) qiymətlərinin bərpaolunma xassəsi. B.q. məmulatın sazlığı (iş qabiliyyəti) bərpa olunduqdan sonrakı parametrinin, həmin parametrin ilkin və ya yolverilən (nominal) qiymətinə nisbəti ilə ölçülür. Məmulatlar bərpa olunan və bərpa olunmayan, təmir olunan və təmir olunmayan növlərə ayrılır. Təmir olunmayan məmulatlar həm də bərpa olunmayan sayılır, lakin təmir olunan məmulatlar istismar şəraitindən asılı olaraq bərpa olunan və ya bərpa olunmayan olur; 2) hesablama texikasında – icra prosesində yükləmə modulunun həm özü ilə, həm də hər hansı başqa modulla modifikasiyasından mühafizə olunma xassəsi. Bərpaetmə proqramı belə modulu emal prosesinə və son nəticələrə təsir göstərmədən yeni nüsxə ilə əvəz edə bilir.

**BƏRŞADLI** Valeh Əyyub oğlu (6.7.1927, Qubadlı r-nunun Eyvazlı k. – 15.5.1999, Bakı) – Azərb. hərbi xadimi, tank qoşunları gen.-l.-ı (1977). Bakı Zenit Artilleriyası Məktəbini və Kiyev Hərbi məktəbini (1948), Zirehli Tank Qoşunları Hərbi Akademiyasının komandirlik fakültəsini (1956), K.Y. Voroşilov ad. SSRİ Silahlı Qüvvələri Baş Qərargahının Hərbi Akademiyasını (1969) bitirmişdir. SSRİ Silahlı Qüvvələrində zirehli tank və mexanikləşdirilmiş qoşunlarda xidmət etmiş, komandir vəzifələrində çalışmışdır. Sovet ordusunda gen.-l. rütbəsini alan ilk azərb. idi. Müstəqillik dövründə Azərb. Resp.-nın ilk müdafiə naziri (5 sentyabr 1991–11 dekabr 1991), sonra müdafiə nazirinin birinci müavini, həmçinin Baş Qərargah rəisi olmuşdur (1992, mart – 1992, noyabr). Vəzifəsindən azad edildikdən sonra ömrünün sonunadək C. Naxçıvanski ad. Hərbi Liseyin rəisi işləmişdir. 12 ordenlə təltif olunmuşdur.



**BƏRVANAN** – İranın Şərqi Azərbaycan ostanında kəndistan. Miyanə şəhristanının Türkman bölgəsindədir.

**BƏRVƏNDƏ** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Kağızkonan bölgəsinin eyniadlı kəndistanında, Ağkənd qəs.-ndən 17,5 *km* c.-ş.-dədir.

**BƏRYABAD** – Yelizavetpol (Gəncə) qub.-nın Qazax qəzasının Qaraqoyunlu dərəsində (9.9.1930 ildən Dilican, 31.12.1937 ildən – Krasnoselo r-nu) azərb.-ların yaşadığı kənd. 1919 ilin yazında silahlı ermənilərin hücumuna məruz qalan kənd əhalisi Azərbaycanın Qazax, Gədəbəy, Tovuz r-nlarına qaçmışdır. 1922 ildə geri qayıtmış əhali 1988 ilin noyabrında yenidən erməni təcavüzünə məruz qalmış və Azərbaycana deportasiya olunmuşdur. 19.4.1991 ildə kəndin adı dəyişdirilərək Barenat qoyulmuşdur.

**BƏRZABİL** – İranın Zəncan ostanında kənd. Əbhər şəhristanının Əbhərrud bölgəsində, Əbhər qəs.-ndən 20 *km* şm.-ş.-dədir.

**BƏRZƏQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Tərik bölgəsinin Kəndovan kəndistanında, bölgə mərkəzindən 25 *km* şm.-ş.-də, Miyanə–Təbriz avtomobil yolunun 40 *km*-liyindədir.

**BƏRZƏLCİN** – İranın Qəzvin ostanında kənd. Eyniadlı şəhristanın Avəc bölgəsinin Əfşariyyə kəndistanında, Avəc qəs.-ndən 54 *km* şm.-ş.-dədir.

**BƏRZƏLİQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkman bölgəsinin Tirçayı kəndistanında, Türkman qəs.-ndən 15 *km* şm.-ş.-dədir.

**BƏRZƏNCİK** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Miyanə ş.-ndən 19 *km* ş.-dədir.

**BƏRZƏND** – Azərb.-da qədim şəhər. Ərdəbildən təqr. 85 *km* şm.-da idi. Ərəb mənbələrinə görə, Muğan vil.-ndə olmuşdur. B.-də toxuculuq, sənətkarlıq və ticarət inkişaf etmişdi. Xilafət dövründə mahal mərkəzi olmuşdur. B.-in mühüm hərbi-strateji əhəmiyyəti var idi. Babək hərəkatı dövründə ərəb sərkərdəsi *Afşinin* qərargahı B.-də yerləşirdi (835 ildə). Babək əsir alındıqdan sonra B.-ə gətirilmişdi. B., ehtimal ki, monqol hücumları nəticəsində dağılmış, 14 əsrdə isə tamamilə tənəzzül etmişdir. B. hazırda Cənubi Azərb.-ın Ərdəbil əyalətində (İran İslam Resp.) kənddir.

**BƏRZƏND** – İranın Ərdəbil ostanında kəndistan. Mərkəzi şəhristanının Germi bölgəsində, Germi qəs.-ndən q.-dədir.

**BƏRZGƏR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Xudafərin bölgəsinin Mincivan kəndistanında, Xudafərin qəs.-ndən 30 *km* c.-dədir.

**BƏRZİGƏR** (far. برزگر – əkinçi sözündən) – orta əsrlərdə Yaxın Şərq ölkələrində, o cümlədən Azərb.-da torpaqsız, yaxud aztorpaqlı icarədar kəndli. B. bilavasitə mülkədar torpağını icarəyə götürdükdə alınan məhsul 3 hissəyə (dövlət, torpaq sahibi və icarədar arasında) bölünürdü. B.-lər bəzən mülkədarın icarəyə götürdüyü dövlət torpaqlarında da işləyirdilər. Torpağın becərilməsi ilə əlaqədar xərci mülkədar çəkirdi. Bəzi tədqiqatçıların ehtimalına görə, mülkədar torpağın becərilməsi üçün qoyulan xərci götürdükdən sonra məhsulun üçdə biri B.-ə, qalanı isə dövlətə və icarədar mül-





kədara çatırdı. Orta əsrlərdə, xüsusilə 13–14 əsrlərdə Azərb.-da çoxlu B. vardı.

**BƏSİRABAD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Mərkəzi bölgəsinin Ətraf kəndistanında, Əhər ş.-ndən 17 *km* şm.-ş.-dədir.

**"BƏSİRƏT"** (بصيرة) – Bakıda Azərb. dilində nəşr edilmiş siyasi, ictimai, iqtisadi və ədəbi qəzet. İlk nömrəsi 1914 il aprelin 12-də buraxılmışdır. Həftəlik və bayram günlərində çıxmış, 1918 ilin martından sentyabrına qədər nəşr edilməmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə nəşri bərpa olunmuşdur. Sovet hakimiyyəti illərində 3 nömrəsi (cəmi 286 nömrə) çıxmış və 1920 il mayın 15-dən nəşri dayandırılmışdır. Baş redaktoru Hacı İbrahim Qasımov, naşiri Qulamrza Şəfizadə olmuşdur. "B."-də M.Ə. *Rəsulzadə*, N. *Nərimanov*, M. *Məmmədzadə*, M.S. *Ordubadi*, M.S. *Pişəvəri*, M. *Hadi*, S. *Mənsur*, M. *Əlibəyov*, M.S. *Axundov*, X. *İbrahim*, Ə. *Müznib* və b.-nın məqalələri dərc edilmişdir.

**"BƏSİRƏT"** (بصيرة) – İstanbulda 1870–1908 illərdə nəşr olunmuş qəzet. İlk sayları 4 səh.-dən ibarət olmuş, həftədə 5 dəfə, daha sonra gündəlik çıxmışdır. "B."-də elm, təhsil, mədəniyyət, siyasət və sənayeləşmə ilə bağlı mövzulara geniş yer verilmişdir. "B."-də *Əli Suavi, Namiq Kamal* və b. görkəmli şəxsiyyətlər çalışmışlar. 1878 ildə qəzet bağlanmış və naşiri Ə. Bəsirəti sürgün olunmuşdur.

**"BƏSİRƏT ÜL-ƏTFAL"** (ər. بصيرة – gözüaçıqlıq + الأطفال – uşaqlar) – dərslik. Müəllifi Rəşid bəy *Əfəndiyevdir*. 1901 ildə Bakıda nəşr edilmişdir. *Qori seminariyasının* Azərb. şöbəsinin şagirdləri üçün yazılmışdı; dərslikdən həm də ibtidai məktəblərdə istifadə olunurdu. Dərslik üç hissədən ibarətdir. Birinci hissəyə kiçik oxu mətnləri, mənzum parçalar, üslubiyyat materialları salınmışdır. Dərsliyin orfoqrafiyadan bəhs edən ikinci hissəsində ərəb əlifbasının yazıda törətdiyi çətinliklərdən də danışılır. Üçüncü hissədə isə nəzm, nəsr, əruz vəzni və ədəbi terminlər haqqında məlumat, həmçinin məktub nümunələri verilmişdir.

**BƏSİRİ** (?–1535) – Azərb. şairi. Həyat və yaradıcılığı haqqında məlumat azdır. Gəncliyində Orta Asiyaya getmiş, Ə. *Nəvai* və Ə. *Cami* ilə görüşmüş, onların təqdimat məktubu ilə Türkiyəyə sultan sarayına gəlmiş və ömrünün sonunadək Türkiyədə yaşamışdır. Ədəbi irsi toplanmamışdır. Divanı olduğu ehtimal edilir. Təzkirə və cünglərdə qalmış qəzəlləri, əsasən, məhəbbət mövzusundadır; sufilik və təriqət təsirləri də var. Bəzi təzkirəçilər (Lətifi və b.) onun tənqidi şeir və lətifələr də yazdığını qeyd edirlər. B.-nin yaradıcılığı türk ədəbiyyatına təsir göstərmişdir.

Əsəri: Qəzəllər//Azərbaycan klassik ədəbiyyatı kitabxanası. 20 cilddə. 3-cü c. XIII–XVI əsrlər Azərbaycan şeiri. B., 1984.

*Əd.:* Araslı H. Böyük Azərbaycan şairi Füzuli. B., 1958, səh. 51–52; Azərbaycan ədəbiyyatı tarixi. C. 1, B., 1960; Cavad Heyət. Azərbaycan ədəbiyyatına bir baxış. B., 1993.

**BƏSİRZADƏ** Sofya Bəsir qızı (28.3.1918, Bakı – 4.1.2000, Bakı) – Azərb. aktrisası. Azərb. SSR. xalq artisti (1974). Bakı Teatr Texnikumunu bitirmişdir (1939). 1938–91 illərdə Azərb. Dövlət Dram Teatrının aktrisası olmuşdur. İlk dəfə səhnədə Səadət xanım ("Müsibəti-Fəxrəddin", N. Vəzirov) rolunda çıxış etmişdir. 1992 ildən Bakı Bələdiyyə Teatrında fəaliyyət göstərmişdir. Müxtəlif səpkili rolların ifaçısı olan B. mürəkkəb psixoloji xarakterlərin yaradıcısı kimi tanınmışdır. Rolları: İradə ("Göz həkimi", İ. Səfərli), Məryəm, Amaliya, Tamara ("Fərhad və Şirin", "İnsan", "Vaqif" S. Vurğun), Nihal ("Qəribə adam", N. Hikmət), Natalya ("Vassa Jeleznova, M. Qorki), Mariya Antonovna ("Müfəttiş", N. Qoqol), Həcər ("Qaçaq Nəbi", S. Rüstəm), Rüxsara, Aliyə ("Şəhərin yay günləri", "Təhminə və Zaur", Anar), Cavahir xanım ("Büllur sarayda", İ. Əfəndiyev), frau Anna ("Mənsiz dünya", N. Xəzri) və s. Televiziya tamaşalarında çəkilmişdir: Ana ("Günahsız Abdulla"), Həkim ("Sakit Sevinc"), Nənə ("Əyləşdik, danışdıq"). B. "Azərbaycanfilm"in istehsal etdiyi "Qara daşlar" (1956, rej. A. Quliyev), "Romeo mənim qonşumdur" (1963, rej. Ş. Mahmudbəyov), "Bizim Cəbiş müəllim"(1969, rej. H. Seyidbəyli), "Şərikli çörək" (1969, rej. Ş. Mahmudbəyov), "Dədə Qorqud" (1975, rej. T. Tağızadə), "Yol əhvalatı" (1980, rej. T. Bəkirzadə) və s. filmlərdə çəkilmişdir.



**BƏSİT** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Tərik bölgəsinin Gərm kəndistanında, bölgə mərkəzindən 35 *km* şm.-ş.-də, Miyanə–Xalxal avtomobil yolunun 43 *km*-liyindədir.

**BƏSİT** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Atəşbəy kəndistanında, Səriskənd qəs.-ndən 53 *km* q.-dədir.

**BƏSİTÇAY** – Azərb. Resp. Zəngilan r-nu ərazisində çay. Araz çayının sol qolu. Mehri silsiləsindən (Erm. Resp.) başlanır. Uz. 44 *km* (Azərb. ərazisində 17 *km*), hövzəsinin sah. 354 $km^2$. İşğaldan (1993, oktyabr) əvvəl Azərb. ərazisindəki hövzəsində *Bəsitçay Dövlət Təbiət Qoruğu* mövcud idi.

**BƏSİTÇAY DÖVLƏT TƏBİƏT QORUĞU**, Basutçay qoruğu – bax *Azərbaycan* xüsusi cildinin Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri bölməsinə.

**BƏSRƏ** (البصرة) – İraqın c.-unda şəhər. Bəsrə mühafazasının inz. m. Əh. 2,02 mln. (2005). İran körfəzinin 55 *km*-liyində, Şətt-ül-ərəb çayında port (1980-ci illərədək qabarma zamanı okean gəmiləri daxil ola bilirdi; sonralar çay yatağının lil basdığından yalnız kiçiktonnajlı gəmilər daxil olur). Nəql. qovşağı. Beynəlxalq aeroport.

B.-nin əsasını 637/638 ildə xəlifə *Ömər* ibn əl-Xəttab qoymuşdur. 8–9 əsrlərdə ərəb-müsəlman mədəniyyətinin formalaşmasının (B. əhalisi mürəkkəb etnik-irqi müxtəlifliyi ilə seçilirdi; burada ərəblər, farslar, Hindistan və Afrika xalqları yaşayırdı), İraqın siyasi və iqtisadi həyatının, həmçinin tunc, saxsı və şüşə məmulatı istehsalının mühüm mərkəzlərindən idi. 762 ildə *Abbasilər* paytaxtı Bağdada köçürdükdən sonra B. iqtisadi mövqeyini tədricən itirməyə başladı. 923 ildə *qərmətilərin* hücumuna məruz qaldı, 947 ildə *Büveyhilər* tərəfindən zəbt olundu. 11 əsrin ortalarından Səlcuqi dövlətinin tərkibində idi. 1258 ildə monqollar şəhəri işğal edib viran etdilər. 14–15 əsrlərdə monqol və türk canişinləri tərəfindən idarə olunurdu. 1538 ildə Osmanlı imperiyasının Bağdad paşalığına daxil edildi; 1884 ildən eyniadlı vil.-in əsas şəhəri oldu. 1914 ilin noyabrında B. ingilis qoşunları tərəfindən işğal edildi; Birinci dünya müharibəsindən sonra ingilis mandatı altında olan İraqın tərkibinə qatıldı. B. İran-İraq müharibəsi (1980–88), *Küveyt böhranı (1990–91)*, müxalif qruplaşmalar ilə hökumət qoşunları arasındakı döyüşlər, ABŞ və müttəfiq qoşunların İraqa müdaxiləsi (2003) zamanı böyük dağıntılara məruz qalmışdır.

Əli məscidi, Təlxə, əz-Zübeyr, ibn Sirin və əl-Həsən məqbərələri tarixi memarlıq abidələrindəndir. 18–19 əsrlərdən



Bəsrə şəhərindən görünüş.

B.-nin müasir hissəsində fəal tikinti işlərinə başlanmış (o cümlədən Aşar rayonu, 19 əsrin əvvəlləri), şəhər çoxsaylı kanallarla bölünmüşdür (buna görə B. "Şərqin Venesiyası" adlanır). 20 əsrin əvvəllərində B.-də M. Lok, L. Cons və b. memarların planı əsasında abadlıq işləri aparılmışdır (müasir Margil portu). Un-t (1964 ildən), mərkəzi kitabxana (2004 ilin aprelində yanmışdır), Təbiyyat tarixi muzeyi (1971) var.

B. ABŞ və onun müttəfiqlərinin qoşunları daxil olanadək ölkənin iri ticarət və iqtisadi, neft hasilatı və emalı (B.-nin yaxınlığında 1000-dən çox neft quyusu var), k.t. regionu (yun, dənli bitkilər, xurma) mərkəzi olmuşdur. Neft emalı z-du, kimya müəssisələri (azot gübrələri istehsalı z-du, polietilen, polivinilxlorid və səmt qazlarından alınan digər məhsullar, neft emalı istehsalı üzrə kompleks), toxuculuq (yun məmulatlar, kəndir, kanat istehsalı), yeyinti (xurma emalı və s.), ayaqqabı sənayesi, kağız kombinatı, tərsanə fəaliyyət göstərir. Sənətkarlıq inkişaf etmişdir.

**BƏSRƏK** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Bəzinərud kəndistanında, Qiydar qəs.-ndən 53 *km* c.-q.-dədir.

**BƏST** (far. بست – sığınacaq, toxunulmaz yer) – İranda qədim adətə əsaslanan ərazi toxunulmazlığı hüququ. Daha mötəbər dini yerlərdə (məbədlər, məscidlər, sərdabalar və s.) sığınacaq verilməsi adəti müsəlman Şərqi ölkələrində geniş yayılmışdı. 19 əsrdən ərazi toxunulmazlığı hüququ olan xarici səfirliklər, nümayəndəliklər və s. idarələrdən də B. kimi istifadə edilirdi. B.-dən çox zaman hökumət orqanlarının zorakılıq və təqibinə qarşı etiraz əlaməti kimi də istifadə olunurdu. Belə hallarda B. kütləvi siyasi nümayişə çevrilir, bazarlar, mağazalar, emalatxanalar isə sahibkarlar tərəfindən bağlanırdı. *İran inqilabı* (1905–11) dövründə B.-dən geniş istifadə edilmişdi.

**BƏSTƏNİGAR** – *Çahargah* muğamında *Bərdaşt* və *Mayədən* sonra ifa olunan əsas şöbələrdən biri.

**BƏŞAB** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Xudafərin bölgəsinin Keyvan kəndistanında, Xudafərin qəs.-ndən 15 *km* c.-ş.-dədir.

**BƏŞƏR** – İranın Qəzvin ostanında kənd. Eyniadlı şəhristanın Ziyaabad bölgəsinin Qaqazan kəndistanında, Ziyaabad qəs.-ndən 62 *km* şm.-dadır.

**BƏŞİR** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Vərzəqan bölgəsinin Müvazəxan kəndistanında, Vərzəqan qəs.-ndən 28 *km* c.-dadır.

**"BƏŞİR"** (ər. بشير – müjdəçi) – İraqda nəşr edilmiş qəzet. 1958 ildə Kərkük ş.-ndə ərəb və türk dillərində buraxılmışdır.

**BƏŞİR** Munir (1930, Mosul – 1997, Budapeşt) – İraq musiqiçisi, udçalan, bəstəkar, ictimai xadim. Qardaşı, məşhur udçalan, "Udda çalmağın üsul və metodları" (1962) metodik vəsaitin müəllifi Cəmil Bəşir (1925, Mosul – 24.9.1977, London) və həmçinin bir ansamblda çalışdıqları Əs-Şərif Muhi-əd-din Heydərdən (Zərif Sənətlər İn-tu, Bağdad) dərs almışdır. 1966–73 illərdə Beyrutda, Livan müğənnisi *Feyruzun* ansamblında işləmişdir. 1970-ci illərin əvvəlində B.-in orijinal ifaçılıq üslubu formalaşmış və o, solo improvizasiya janrı olan *təqsimin* ən məşhur ifaçısı olmuşdur. 1973 ildən İraqın Mədəniyyət və İnformasiya Nazirliyinin incəsənət işləri üzrə departamentinin məsləhətçisi, Bağdaddakı Ümumərəb Musiqi Akademiyasının baş katibi, İraq musiqiçiləri milli şurasının sədri. *Beynəlxalq musiqi şurası* icraiyyə komitəsinin üzvü idi. Müxtəlif ölkələrdə qastrol səfərlərində olmuşdur.

**BƏŞİR** (البشير) Ömər Həsən Əhməd (d.1.1.1944, Sudan, Xoş-Banqa) – Sudan Resp.-nın prezidenti (1993), gen.-l. Milli islam cəbhəsi ilə məxfi əməkdaşlıq edən B. hərbi çevriliş (30.6.1989) gedişində hakimiyyətə gəlmişdir. 1996 və 2000 illərdə keçirilən seçkilərdə yenidən prezident seçilmişdir. *Küveyt böhranı (1990–91)* zamanı İraqı dəstəkləmişdir.

**BƏŞİR SƏFƏROĞLU** (11.3.1925, Quba r-nunun Rustov k. – 23.3.1969, Bakı) – Azərb. aktyoru. Azərb. SSR. xalq artisti (1968). Səhnə fəaliyyətinə Dənizçilərin mədəniyyət evində (Bakı) başlamışdır. 1942 ildən Azərb. Musiqili Komediya Teatrında işləmişdir. Rəngarəng yaradıcılıq imkanlarına malik aktyor



olan B.S. oynadığı tamaşalarda parlaq boyalar və üsullar tapmağı bacaran sənətkar idi. Onun ifasına incə yumor, mənalı gülüş, zəngin mimika xas idi. O, komik obrazlarla yanaşı, xarakter rollarında da mahir ifaçısı kimi tanınmışdır. Əsas rolları: Hacı Qara ("Hacı Qara", M.F. Axundzadə), Səlyanski ("Gözün aydın", F. Əmirov), Baləmi ("Rəisin arvadı", S .Rüstəmov), Hacı Kərim ("Hacı Kərimin Aya səyahəti", A.Rzayev), Məşədi İbad, qoçu Əsgər ("O olmasın, bu olsun", Ü. Hacıbəyli), polis rəisi, Murtuzov, Novruzəli ("Milyonçunun dilənçi oğlu", "Özümüz bilərik", "Hardasan, ay subaylıq", S. Ələsgərov), Uzun, Qoşunun atası ("Toy kimindir?", A. Məşədibəyov), Səbzəli ("Bizə birco xal lazımdır", T. Hacıyev). B.S. "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi "Əhməd haradadır?" (1963, rej. A. İsgəndərov), "Ulduz" (1964, rej. A. Quliyev), "Tacikfilm"in "Xoca Nəsrəddinin 12 qəbri" (1967) və s. filmlərdə çəkilmişdir. B.S.-un həyat və yaradıcılığına həsr olunmuş "Gəlməli, görməli, gülməli" televiziya filmi çəkilmişdir (1968). 2004 ildən Moskva ş.-ndə B. Səfəroğlu ad. "Moskva miniatür teatrı" fəaliyyət göstərir. Bakı və Qubanın küçələrindən birinə, Siyəzən şəhər mədəniyyət evinə, Yevlax şəhər Dövlət Xalq Teatrına B.S.-nun adı verilmişdir.



Bəşir Səfəroğlu Qədir rolunda ("Ulduz", S.Ələsgərov). 1957.

*Əd.:* T o f i q  A b d i n. Bəşir Səfəroğlu, B., 1968.

**BƏŞİR ŞİHAB** – Livan hakimləri:

B. I Ş i h a b [1697–1707]. Şihabilər sülaləsinin banisi olmuşdur.

B. II Ş i h a b (1767, Gəzir – 29.12. 1850, İstanbul) – 1788 (digər məlumata görə 1789) – 1840 illərdə fasilələrlə böyük əmir olmuşdur. Mərkəzi hakimiyyəti möhkəmləndirmə siyasəti yürütmüş, Livanı öz hakimiyyəti altında birləşdirmişdir. Osmanlı dövlətinin süzerenliyi altında olmuş, 1822 ildə osmanlılara qarşı Misir hakimi Məhəmməd Əli ilə saziş bağlamışdır. 1832–33 və 1839–40 illərdə Misir qoşunlarının Suriyada hərbi əməliyyatlarını dəstəkləmişdir. 1840 ildə Suriya və Livanda Misir işğalına qarşı İngiltərənin dəstəklədiyi üsyan baş vermişdir. Misirlilərlə Osmanlı dövləti arasındakı hərbi əməliyyatlar nəticəsində (bu müharibədə ingilis donanması türklərə kömək edirdi) B.Ş. hakimiyyətdən salınmış, ingilis komandanlığı onu Malta a.-na sürgün etmişdir (1848, oktyabr). 1946 ildə B.Ş.-ın cənazəsinin qalıqları Livana gətirilmişdir.

**BƏŞİRBƏYLİ** – Azərb. Resp. Salyan r-nunun Qaraçala ə.d.-ndə kənd. R-n mərkəzindən 30 *km* şm.-ş.-də, Salyan – Şirvan avtomobil yolundan 1,5 *km* aralı, Kür çayının sol sahilində, Cənub-Şərqi Şirvan düzündədir. Əh. 1004 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur.

**BƏŞİRLƏR** – Azərb. Resp. Ağdam r-nunun Sırxavənd ə.d.-ndə kənd. R-n mərkəzindən 34 *km* şm.-q.-də, Xaçın çayının sahilindədir. Əh. 209 (2008); işğaldan (1993, iyul) əvvəl heyvandarlıq, bağçılıq və üzümçülüklə məşğul olmuşdur.

**BƏŞİRLİ** – Azərb. Resp. Goranboy r-nunun Hazırəhmədli ə.d.-ndə kənd. R-n mərkəzindən 40 *km* şm.-q.-dədir. Əh. 477 (2008); maldarlıq və əkinçiliklə məşğuldur.

**BƏŞİRLİ** Xatirə Bədrəddin qızı (d.3.1. 1958, Ağdaş r-nu) – Azərb. ədəbiyyatşünası, filologiya e.d. (2005). Azərb. Dövlət Un-tini bitirmişdir (1981). Həmin ildən EA-nın Nizami ad. Azərb. Ədəbiyyatı Muzeyində laborant, kiçik elmi işçi, elmi fondlar (1992–2003), mədəni irs və mənbəşünaslıq (2003–08) şöbələrinin müdiri işləmiş, 2008 ildən muzeyin elmi işlər üzrə direktor müavinidir. Tədqiqatları Azərb. folkloru sahəsindədir.

Ə s ə r l ə r i: "Koroğlu" eposunun poetikası. Genezisi və bədii sistemi. B., 2005; 60-cı illər nəsri və folklor (M. Süleymanlının yaradıcılığı əsasında). B., 2010.

**BƏŞİROV** Ağamirzə Ənvər oğlu (d.9.5. 1954, Salyan) – Azərb. riyaziyyatçısı, fizika-riyaziyyat e.d. (1992). Azərb. Dövlət Un-tini bitirmişidir (1976). 1979–93 illərdə EA-nın Kibernetika İn-tunda işləmişdir. 1993 ildən Türkiyədə, Doğu Ağdəniz Un-tində işləyir. Tədqiqatları ehtimal nəzəriyyəsi və riyazi statistika sahəsinə aiddir. 50-yə yaxın elmi əsərin müəllifidir. Elmi kadrların hazırlnmasında xidməti var.

**BƏŞİROV** Emil Əbiş oglu (d. 25.3.1983, Sumqayıt) – Azərb. idmançısı. Yunan-Roma güləşi üzrə gənclər arasında Avropa çempionatının bürünc mükafatçısıdır (2002, Yuqoslaviya). Azərb. Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirmişdir (2004).

**BƏŞİROV** Əlibaba Baba oğlu (1914, Ağsı r-nunun Qaradağ k. – 10.12.1978, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1951). 1950 ildə taxılçılıq sahəsində yüksək əmək göstəricilərinə nail olmuşdur.

**BƏŞİROV** Feyruz Bəşir oğlu (d. 4.1. 1939, Salyan ş.) – hidravlika sahəsində Azərb. alimi. Texnika e.d. (1997), prof. (2008). Azərb.Politexnik İn-tunu bitirmişdir (1962). Azərb. Elmi Tədqiqat Hidrotexnika və Meliorasiya İn-tunda (1962–75), Azərb. "Su Geo" İn-tunda (1975–97) və Su kanal ETİ-də (1997–2009) müxtəlif vəzifələrdə çalışmışdır. 2009 ildən Azərb. Elmi Tədqiqat və Layihə-Axtarış Energetika İn-tunda laboratoriya müdiridir. Tədqiqatları çay hidrotexniki qurğularının, çay axınlarının məcrasının dəyişdirilməsi prosesinin, su anbarları və göllərin lillənməsi, balıq qoruyucu qurğuların, məcra karxanalarının axına təsiri və digər məsələlərə aiddir. 178 elmi əsərin müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**BƏŞİROV** Qumər Bəşiroviç (7.1.1901, Orta Volqaboyu, Yana-Sala k. – 7.5. 1999, Kazan) – tatar yazıçısı. SSRİ Dövlət mükafatı laureatı (1951). "Həşimin qanı" adlı ilk hekayəsi 1931 ildə nəşr edilmişdir. "Sivaş" (1937) povesti vətəndaş müharibəsinə həsr olunmuşdur. Böyük Vətən müharibəsi illərində yazdığı hekayələrdə ("İntiqam", 1942; "Qarmonçu", 1943) vətənpərvərlik tərənnüm edilir. "Namus" (1948), "Doğma yurdum – yaşıl beşiyim mənim" (1970) romanlarının müəllifidir. SSRİ Ali Sovetinin (4-cü və 5-ci çağırış) deputatı olmuşdur.

Ə s ə r l ə r i: Namus. B., 1952; Родимый край – зеленая моя колыбель. М., 1976.

**BƏŞİROV** Mahir Məcnun oğlu (d.12.3. 1960, Tərtər r-nunun Azadqaraqoyunlu k.) – istilik texnikası sahəsində Azərb. alimi, texnika e. d. (2004), prof. (2009). Azərb. Politexnik İn-tunu (indiki AzTU) bitirmişdir (1981). 1984 ildən AzTU-da pedaqoji fəaliyyətl göstərir, 2008 ildən elektrotexnika və energetika fakültəsinin dekanıdır. 2005–09 illərdə Almaniyanın Duisburq-Essen Un-tində elmi araşdırmalar aparmışdır. Tədqiqatları istilik texnikasının nəzəri əsasları, alifatik spirtlərin, onların qarışıqlarının, karbohidrogenlərin, Azərb.-ın geotermal sularının istilik-fiziki xassələrinin təcrübi öyrənilməsi sahəsindədir. 115 elmi əsərin, o cümlədən 3 monoqrafiyanın müəllifidir.

Ə s ə r l ə r i: Maye və qazların istilikkeçirməsinin ölçülməsi. B., 2001; Изобарная теплоемкость и температуропроводность одноатомных спиртов и их бинарных смесей. Б., 2003; Тепловые свойства одноатомных спиртов и их бинарных смесей, методы измерения. Б., 2008.

**BƏŞİROV** Nəsrəddin Baxış oğlu (d.20. 9.1934, Göyçay r-nunun Hacıkənd k.) – Azərb. hidromelioratoru, k.t.e.d. (2003). 1957 ildə Azərb. Dövlət Politexnik İn-tunu bitirmişdir. Göyçay k.t.-nı mexanikləşdirmə və elektrikləşdirmə texnikumunda müəllim işləmiş (1958–65), Azərb. Elmi Tədqiqat Hidrotexnika və Hidromeliorasiya İn-tunda müxtəlif vəzifələrdə (1968–81) işləmiş, 1981 ildən laboratoriya müdiridir. Tədqiqatları səth (şırım, zolaq, sahənin suya basdırılması), yağışyağdırma, torpaqdaxili suvarma üsullarının texnika və texnologiyasına, k.t. bitkilərinin damcı-inyeksiya və aerozol üsulları ilə suvarılmasının tədqiqi və tətbiqi sahəsindədir. Yüzdən artıq elmi əsərin, o cümlədən iki dərs vəsaitinin, dörd ixtiranın müəllifidir. Elmi kadrların hazırlanmasında xidməti var.

**BƏŞİROV** Rasim Cavad oğlu (d.15.3. 1957, Bakı yaxınlığındakı Güzdək qəs.) – mexanika sahəsində Azərb. alimi, texnika e.d. (2004), prof. (2010). 1979 ildə Azərb. Politexnik İn-tunu (indiki AzTU) bitirmişdir. 1979–82 illərdə Azərb. SSR EA-nın (AMEA) Fizika İn-tunda, 1982–90 illərdə Azərb. Politexnik İn-tunda müxtəlif vəzifələrdə çalışmışdır. 1990–99 illərdə AzTU-nun prorektoru olmuşdur. 1999–2004 illərdə Azərb. Dövlət Dəniz Akademiyasında prorektor, 2004–09 illərdə Salyan r-nu İcra Hakimiyyətinin başçısı işləmişdir. 2009 ildən Azərb. Dövlət Dəniz Akademiyasının rektorudur. Tədqiqatları deformasiyaya uğrayan bərk cism mexanikası, mexaniki və fiziki-texniki emal avadanlığı və texnologiyası, gəmi təmiri və gəmi hissələrinin bərpa texnologiyası sahəsindədir. 90-dan çox elmi əsərin, o cümlədən 1 monoqrafiyanın və dərsliklərin müəllifidir.

Ə s ə r i: Технология восстановления втулок цилиндров судовых двигателей. Б., 2002.

**BƏŞİROV** Samit Ağalar oğlu (d.25.12. 1981, Masallı r-nunun Kolatan k.) – Azərb. idmançısı. Kunq-fu üzrə dünya (2009) çempionu, dünya (2010, İtaliya) və Avropa (2010, Polşa) kuboku yarışlarının qalibidir.



**BƏŞİROV** Yaşar Eyyub oğlu (19.4. 1956, Bakı) – Azərb. Resp. əməkdar bədən tərbiyəsi və idman xadimi (2008), karate-do üzrə əməkdar məşqçi (1997). Azərb. Dövlət Un-tinin (indiki BDU) biologiya fakültəsini bitirmişdir (1983). Kənd təsərrüfatı elmləri namizədidir (1991). Karatenin WKF versiyası üzrə Avropa çempionu (1992, İngiltərə), SKİF versiyası üzrə dünya çempionatının bürünc (1994, Yaponiya) və gümüş (1997, İtaliya), WKF versiyası üzrə dünya çempio-natının gümüş (2000, İran) mükafatçısı, şotokan karate üzrə Dünya kubokunun sahibidir (2002, Ukrayna).



**BƏŞŞAR İBN BURD** (بشار بن برد) (714, Bəsrə – 783) – ərəb şairi . Mənşəcə farsdır. Ərəb və fars dillərində yazmışdır. *Məzdəiliyi* müdafiə etmişdir. B.i. B. ədəbiyyatı ictimai həyatla, xalq məişəti ilə bağladığına görə onu ərəb ədəbiyyatında "yeni üslub"un yaradıcısı hesab edirlər. Xəlifə əl-Mehdiyə mədhiyyələr yazmışdır. Daha çox həcvləri ilə məşhurdur. Vəzir Yaqub ibn Davudu həcv etdiyi üçün öldürülmüşdür.

Ə s ə r i: Стихи. В кн.: Арабская поэзия средних веков. М., 1975.

**BƏTÇİ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Ətraf bölgəsinin Fərvərəq kəndistanında, Xoy ş.-ndən 22 *km* şm.-q.-dədir.

**BƏTƏLGEYZƏ** (إبطالجوز) – Orionun *α*-sı, yarımdüzgün dəyişən ulduz (bax *Dəyişən ulduzlar*). B. atmosferdən intensiv olaraq qəq itirən qırmızı ifrat nəhəngdir. B.-nin diametri təqr. 700 Günəş diametrinə bərabərdir, Günəşdən məsafəsi 130 *pk*. B. 4–7 illik dövrlə öz parlaqlığını 0,0–1,3 vizual ulduz ölçüsündə dəyişir. Həmçinin 150–450 sutkalıq dövrlə parlaqlığın kiçik amplitudlu dəyişmələri müşahidə olunur. Parlaqlığın dəyişməsini ulduzun pulsasiyaları törədir və bu zaman onun diametri əhəmiyyətli dərəcədə dəyişir. Ehtimal ki, B.-nin yaxın peyki var.

**BƏTRUCİ** (البتروجي) Nur əd-Din Əbu İshaq (13 əsr.) – ərəb astronomu. *İbn Tüfeylin* tələbəsi. Astronomiyaya aid nəzəriyyələri Aristotelə əsaslanır. Onun "Kosmoqrafiyaya dair kitab" traktatının yəhudi dilinə və bu dildən latıncaya tərcüməsi Venesiyada (1531), ingiliscəyə tərcüməsi və tənqidi mətni isə Berkli Un-tində (1952) nəşr olunmuşdur.

**BƏTTÂNİ** (البتاني), əl-Bəttani Əbu Abdullah Məhəmməd ibn Cabir ibn Sinan (858, Bəttanə, Suriya – 929, Səmərr yax.) – ərəb astronomu və riyaziyyatçısı. Rəqqədə (Suriya) rəsədxana tikdirmiş və burada astronomik müşahidələr aparmışdır (877–918). İlk dəfə olaraq onun tərəfindən sferik üçbucaqların hesablanması üsulları təklif olunmuş, sonralar ərəb riyaziyyatçıları bu üsulları inkişaf etdirmişlər. B. Günəş və Ayın əvvəllər məlum



olan hərəkət cədvəllərini daha dəqiq tərtib etmişdir. İllik *presessiyanın* qiymətini *Ptolemeyə* (36″) nisbətən daha dəqiq (54″,5) tapmış, sinus, tangens və kotangensi riyaziyyata daxil etmiş, meridianların 0°-dən 36°-yə qədər qiymətlərini hesablamışdır. B. ilin 365 *gün* 5 *saat* 46 *dəq* 24 *san* olduğunu təyin etmişdir.

**BƏY**, b a y, b e y, b i y – türk xalqlarında əvvəllər tayfa başçılarına, sonralar əyanlara verilən ad. Bir sıra başqa dillərə də keçmişdir. Qızıl Orda xanı Özbək [1312–42] islamı qəbul edən monqol zadəganlarına – noyonlara B. adı verirdi. Türkiyədə mahal hakimlərinə (s a n c a q - b ə y i), yüksək rütbəli zabitlərə (a l a y - b ə y i – polkovnik), b ə y l ə r b ə y i – gen.-qubernator və s. B. rütbəsi verilirdi (1934 ildə ləğv edilmişdir). 1705–1957 illərdə Tunisin irsi hakimləri B. adlanırdı. İranın bəzi yerlərində tayfa başçıları B. titulu daşıyırlar. Xanlıqlar dövründə irsi B.-lər və bu adı xan fərmanına əsasən alan B.-lər olmuşdur. İrsi B.-lərin imtiyazı daha yüksək idi. B. sözü, keçmişdə dövlət idarələrində işləyən azərb. məmurlara və ümumiyyətlə ziyalılara müraciət forması kimi də işlədilirdi. Azərb.-larda yeni evlənən oğlana da B. deyilir.

**BƏYABAD** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mahnişan bölgəsinin Ənquran kəndistanında, Mahnişan qəs.-ndən 9 *km* c.-dadır.

**BƏYABAD** – Özb.-ın ş.-ində şəhər. Əh. 86,3 min (2005). Sırdərya çayının Fərqanə vadisindən çıxdığı yerdədir. D.y. st. B. Özb.-ın sənaye mərkəzlərindən biridir.





Metallurgiya və sement kombinatları, metal konstruksiyaları z-du, yüngül sənaye müəssisələri var.

**BƏYAMLU** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mahnişan bölgəsinin Uryad kəndistanında, Mahnişan qəs.-ndən 8 *km* c.-dadır.

**BƏYANİ** (?–?) – 16 əsr Azərb. zərgəri və nəqqaşı. Təbrizdə yaşamışdır. Məhəmmədəli Tərbiyət "Danişməndani-Azərbaycan" kitabında Sadıq bəy Əfşarın "Məcmə ül-xəvas" təzkirəsinə istinad edərək göstərir ki, B. zərgərlik və nəqqaşlıqla bərabər, kağızdan ornament və fiqurlar kəsməklə də məşğul olmuşdur.

**BƏYANLICA** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Mərkəzi bölgəsinin Səracu kəndistanında, Marağa ş.-ndən 26 *km* şm.-ş.-dədir.

**BƏYANLU** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Mahnişan bölgəsinin Uryad kəndistanında, Mahnişan qəs.-ndən 39 *km* şm.-q.-dədir.

**BƏYANNAMƏ** – dövlətin, partiyaların, beynəlxalq və dövlətlərarası təşkilatların əsas prinsiplərinin rəsmi surətdə elan edilməsi (məs., hüquq bəyannaməsi); özəl şəxsin, yaxud təşkilatın məlumatı, bəyanatı.

**BƏYAT** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsində, Səriskənd qəs.-ndən 8 *km* c.-dadır.

**BƏYAT** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkman bölgəsinin Üçtəpə kəndistanında, Türkman qəs.-ndən 14 *km* c.-da, Miyanə-Təbriz avtomobil yolunun üstündədir.

**BƏYATİ** (البياتي) Əbdülvahab əl-Bəyati (19.12.1926, Bağdad – 3.8.1999, Dəməşq) – İraq şairi. "Uşaqlara və zeytuna alqış" (1956), "Sürgün şeirləri" (1958), "Alov və sözlər" (1964) və s. kitablarında milli azadlıq mübarizəsi tərənnüm olunur. "Nazim Hikmətə məktub" (1956) və s. poetik əsərləri var. Bəzi şeirləri Azərb. dilinə tərcümə edilmişdir.

Ə s ə r l ə r i: Путь свободы. М., 1962; Стихи. В кн.: Три арабских лирика. Алма-Ата. 1976.

**BƏYATLAR** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Ətraf bölgəsinin Baranduzçay kəndistanında, Urmiya ş.-ndən 19 *km* c.-ş.-dədir.

**BƏYATLU** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının eyniadlı bölgəsində, Zəncan ş.-ndən 18 *km* q.-dədir.

**BƏYAZİD** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Çaharoymaq kəndistanında, Qaraağac qəs.-ndən 39 *km* şm.-ş.-dədir.

**BƏYAZİD I**, İ l d ı r ı m B ə y a z i d (1354, Ədirnə – 8.3.1403, Konya, Aqşəhər) – Osmanlı sultanı [1389–1403], I *Muradın* oğludur. B. 1381 ildə Germiyanoğlu Süleyman Çələbinin qızı Sultan



xatunla evlənmişdir. Atası ilə birlikdə Qaraman səfərinə (1386) qatılmış, Firəng Yazısı döyüşündə göstərdiyi qəhrəmanlığa görə İldırım ləqəbini almışdır. *Kosovo döyüşündə (1389)* türklərin qələbə qazanmasında mühüm rol oynamışdır. I Muradın döyüş meydanında həlak olmasından sonra hakimiyyətə gəlmişdir. B. ilə Serbiya hökmdarı Stefan Lazareviç arasında bağlanan sazişə görə, Osmanlı dövlətinin vassalına çevrilən Serbiya illik vergi ödəməli və Osmanlı ordusunun yürüşləri zamanı yardımçı qoşun göndərməli idi. B. 1389–90 illərdə vassalı olan Paleoloq II *Manuilin* və Çandaroğlu Süleyman bəyin hərbi qüvvələri ilə birlikdə Anadoluya yürüş etmiş, Alaşəhəri, Bəyşəhəri tutmuş, Qaramanoğulları, Gərmiyanoğulları, Aydınoğulları, Saruhanoğulları, Menteşeoğulları, Həmidoğulları bəyliklərini özünə tabe etmişdir. B. Konyanı mühasirəyə almış, Süleyman bəyin itifaqdan çıxmasından sonra isə geri çəkilmişdir. Bizans imperatorları VII İoannın (1390) və II Manuilin (1391) hakimiyyətə gəlməsini dəstəkləmişdir. 1392 ildə B.-in tapşırığı ilə II Manuilin Sinopa təşkil etdiyi səfər Süleyman bəyin öldürülməsi və tabeliyindəki ərazilərin Osmanlı torpaqlarına qatılması ilə nəticələndi. B. həmin il *Qazi Bürhanəddinin* tabeliyində olan Osmancıq və Amasyanı tutdu. B.-in başçılıq etdiyi Osmanlı ordusu Balkan y-a-nın böyük hissəsini ələ keçirmiş, 1395 ildə Dunay çayına çatmışdır. 1394–1401 illərdə dəfələrlə Konstantinopolu mühasirəyə almış, lakin əvvəl səlibçilərin Balkanlara, sonra isə *Teymurun* Anadoluya yürüşü səbəbindən geri çəkilmək məcburiyyətində qalmışdır. 1396 ildə Nikopol (Bolqarıstan) ətrafında səlibçi ordusunu darmadağın etmişdir. 1397–98 illərdə Konyanı tutmuş, Qazi Bürhanəddinin torpaqlarını Osmanlı dövlətinə qatmışdır. Məmlüklərin hakimiyyəti altındakı Şərqi Anadolunun bir qismini (Əlbistan, Malatya və Divriyi və s.) ələ keçirmişdir. Anadoludan qaçıb Teymura sığınan bəzi əmirlərin yaxşı qarşılanması müqabilində B. Teymura düşmən olan *Qara Yusifi* və Sultan Əhməd Cəlairini himayəsinə almışdı. Özlərini Səlcuqilərin varisi hesab edən B. və Teymur Anadoluya hakim olmaq niyyətində idilər. Çubuq ovalığında osmanlı qoşunları ilə Teymurun, həmçinin şirvanşah I *İbrahim*, Şəki hakimi *Seydi Əhməd* və ağqoyunluların hərbi dəstələrindən ibarət müttəfiq ordusu arasında baş verən döyüşdə B. məğlub olmuş və oğulları ilə birlikdə əsir düşmüşdür. Bax həmçinin *Ankara vuruşması (1402)*.

**BƏYAZİD II**, V ə l i (3.12.1481, Didimotika – 26.05.1512, Çorlu, Abalar k.) – Osmanlı sultanı [1481–1512], II *Mehmed* Fatehin oğludur. Yeddi yaşı olarkən Amasyaya sancaqbəyi təyin edilmişdir.



1473 ildə ağqoyunlularla osmanlılar arasında baş verən Otluqbeli (Tərcan) vuruşmasında iştirak etmişdir. B. sultan olduqdan sonra qardaşı Cem ilə hakimiyyət uğrunda mübarizə aparmış, onu məğlub edərək hakimiyyətini möhkəmləndirmişdir. Moldova knyazı Stefanın

hərbi dəstələrinin Bolqarıstana yürüşü və Dunay çayında Osmanlı donanmasına qarşı hücumlar B.-in Moldovaya səfər etməsinə səbəb olmuşdur (1484). Səfər nəticəsində B. Kili (Kiliya) və Akkirman (Belqorod) qalalarını tutmuş, Moldova üzərinə illik vergi qoymuş, bu ərazidən Krıma yol açmışdır. Eyni zamanda osmanlılar Bessarabiyanı ələ keçirmiş, Polşa ərazisinə yürüş etmişlər. 1484 ildə Venesiya illik vergisini ödəmədiyi üçün B. türklərin nəzarəti altında olan portlarda venesiyalıların ticarətinə qadağa qoymuşdur (1496). Venesiya Osmanlı əleyhinə Fransa ilə ittifaq bağladığı üçün B. Dalmasiya sahillərinə yürüş etmiş, Modon və Koroni portlarını ələ keçirmiş, Firuli bölgəsinə hücum etmişdir (1498–1501). Venesiyanın Papalıq, Macarıstan, İspaniya və Fransadan aldığı hərbi dəstək ilə Osmanlı torpaqlarına hücumu uğursuzluqla nəticələndi. İstanbulda bağlanan sazişə görə Venesiya yenidən vergi ödəməyə məcbur olmuşdu (1501). B. Macarıstan ilə münasibətləri tənzimləyən ticari və siyasi saziş bağlamış (1503), Rusiya və Əndəlüs ilə əlaqələr yaratmışdır. Məmlüklərlə uzunmüddətli müharibə aparmışdır (1485–91). B-in hakimiyyəti dövründə Anadoluda baş verən *Şahqulu üsyanı* yatırılmışdır (1511).

**BƏYAZİD ƏNSARİ** Pir Rövşən (بایزید انصاري) (1525, yaxud 1515, Pəncab, Cələndhar – 1581, yaxud 1585) – əfqan yazıçısı. Şeyx ailəsində doğulmuşdur. Fars və puştu dillərində yazmışdır. Əfqanıstanda ortodoksal islama müxalif olan və hakimiyyətə qarşı çıxış edən *rövşəni* təriqətinin banisidir. Klassik puştu sufi ədəbiyyatının əsasını qoymuşdur. Özünün təriqət təlimini "Xeyr əl-bəyan" və "Halnamə" əsərlərində əks etdirmişdir. B.Ə.-nin təsirilə puştu poeziyasının rövşəni məktəbi yaranmışdır (bax *Əfqanıstan*, Ədəbiyyat bölməsi).

**BƏYAZİD PAŞA**, Amasyalı (?, Amasya – 1421, Ədirnə) – Osmanlı siyasi və dövlət xadimi, sədrəzəm. Sultan I *Bəyazidin* dövründə müxtəlif hərbi vəzifələr tutmuşdur. Sultan I *Mehmedin* hakimiyyətinin möhkəmlənməsində və ölkədəki vəziyyətin tənzimlənməsində böyük xidmətləri olmuşdur. Bunun müqabilində B.p. sədrəzəm, eyni zamanda Rumeli bəylərbəyi təyin edilmişdir (1413). Şeyx Bədrəddin, Börklücə Mustafa və Torlak Kamalın qiyamlarını yatırmışdır. II *Muradın* hakimiyyətə gəlməsində mühüm rol oynamışdır. Taxtı ələ keçirmək məqsədilə Ədirnəyə yürüş edən I Mehmedin qardaşı Mustafa Çələbiyə qarşı sultanı dəstəkləmişdir. Ədirnə yaxınlığındakı Sazlıdərədə baş verən döyüşdə əsir düşmüş və şahzadə Mustafa tərəfindən edam olunmuşdur.

**BƏYBABALAR** – Azərb. Resp. Ağdam r-nunun Xındırıstan ə.d.-ndə kənd. R-n mərkəzindən 30 *km* şm.-ş.-də, Qarabağ düzündədir. Əh. 108 (2008); maldarlıq, taxılçılıq, pambıqçılıqla məşğuldur. Kitabxana, klub var.

**BƏYBAĞI** – İranın Ərdəbil ostanında kənd. Mərkəzi şəhristanının Germi bölgəsinin İcərud kəndistanında, Germi qəs.-ndən 2 *km* şm.-dadır.

**BƏYBAĞLI** – İranın Ərdəbil ostanında kənd. Meşkinşəhr şəhristanının Mərkəzi bölgəsinin Ərşəq kəndistanında, Meşkinşəhrdən 42 *km* şm.-ş.-də, Ərdəbil–Germi avtomobil yolunun 7 *km*-liyindədir.

**BƏYBAĞLILAR** – əsasən, Cənubi Azərb.-da (İran İslam Resp.) yaşayan şahsevən tayfalarından biri. Maldarlıq, qismən əkinçilik və toxuculuqla (cecim, palaz, gəbə, yun corab və s.) məşğuldurlar. Bax həmçinin *Şahsevənlər*.

**BƏYBULAĞI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Ataşbəy kəndistanında, Səriskənd qəs.-ndən 24 *km* q.-dədir.

**BƏYBULAĞI** – İranın Şərqi Azərbaycan ostanında kənd. Miyanə şəhristanının Türkman bölgəsinin Üçtəpə kəndistanında, Türkman qəs.-ndən 20 *km* c.-ş.-də, Təbriz–Miyanə avtomobil yolunun üstündədir.

**BƏYCAN** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Poldəşt bölgəsinin Gəçlərat kəndistanında, Poldəşt qəs.-ndən 37 *km* c.-ş.-dədir.

**BƏYCANLI** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Sulduz bölgəsinin Ətraf kəndistanında, Nəqədə qəs.-ndən 5 *km* şm.-q.-dədir.

**BƏYCAVAN** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Qara Ziyəddin bölgəsinin Çaypara kəndistanında, Qara Ziyəddin qəs.-ndən 1 *km* c.-dadır.

**BƏYCƏQİN** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Xudabəndəlu kəndistanında, Qiydar qəs.-ndən 8 *km* c.-dadır.

**BƏYDƏMİRLİ** – Azərb. Resp. Gədəbəy r-nunun Çayrəsullu ə.d.-ndə kənd. R-n mərkəzindən 46 *km* şm.-q.-də, Moruqlu dağ silsiləsinin (Kiçik Qafqaz) c. yamacındadır. Əh. 129 (2008); əkinçilik (kartofçuluq) və maldarlıqla məşğuldur. Kitabxana var.

**BƏYDƏRƏ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Maku şəhristanının Siyəhçeşmə bölgəsinin Çaldıran kəndistanında. Siyəhçeşmə qəs.-ndən 17,5 *km* c.-ş.-də, Siyəhçeşmə–Xoy avtomobil yolunun üstündədir.

**BƏYDƏRVİŞ** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Qara Ziyəddin bölgəsinin Çaypara kəndistanında, Qara Ziyəddin qəs.-ndən 7,5 *km* c.-ş.-dədir.

**BƏYDİLİ** – Azərb. Resp. Biləsuvar r-nunda kənd. Bəydili ə.d-nin mərkəzi. R-n mərkəzindən 4 *km* ş.-də, Muğan düzündə, kanal sahilindədir. Əh. 5826 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam orta məktəb, kitabxana, mədəniyyət evi, ambulatoriya, poçt, ATS var.

**BƏYDİLİ** – Azərb. Resp. Salyan r-nunun Qızılağac ə.d.-ndə kənd. R-n mərkəzindən 14 *km* c.-q.-də, Aquşa çayının sol sahilində, Salyan düzündədir. Əh. 463 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Kitabxana, tibb məntəqəsi var.

**BƏYDİLİ** – Azərb. Resp. Yevlax r-nunun Aşağı Bucaq ə.d.-ndə kənd. R-n mərkəzindən 19 *km* şm.-ş.-də, Əlican çayından 1 *km* aralı, Yevlax–Mingəçevir avtomobil yolunun kənarındadır. Əh. 502 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. İbtidai məktəb, feldşer-mama məntəqəsi var.

**BƏYDİLİLƏR** – türk tayfası. Oğuz tayfalarından idilər. Orta əsrlərdə digər türk tayfaları ilə birlikdə Orta Asiyadan Azərb.-a və Yaxın Şərq ölkələrinə də gəlmişdilər. Azərb.-da qalan B. öz adlarını olduğu kimi saxlamışlar. Digər türk tayfaları ilə yanaşı, Səfəvilər dövlətinin ictimai-siyasi həyatında B. də fəal iştirak etmişlər. Şah I Abbas [1587–1629] dövründə B.-in bir hissəsi Kirmana və Şiraza köçürülmüşdü. B., əsasən, Cənubi Azərb.-da, həmçinin Şiraz ətrafında, qismən də Kirmanda yaşayırlar; heyvandarlıq və əkinçiliklə məşğul olurlar. Azərb. Resp.-nın Yevlax və Salyan r-nlarındakı Bəydili kəndlərinin adı B.-lə əlaqədardır. Bəzi tədqiqatçılar (İ.Şopen və b.) bu tayfanı kəngərli (bax *Kəngərlər*) tayfasının bir qolu hesab edirlər. Şərur r-nunun Qarabağlar k.-ndə (Nax. MR) B.-in yaşadıqları məhəllə var.

**BƏYDÖVÜL** – Azərb. Resp. Göyçay r-nunda kənd. Bəydövül ə.d.-nin mərkəzi. R-n mərkəzindən 48 *km* c.-ş.-də, Müsüslü d.y. st.-ndan 8 *km*, Qaraməryəm–Müsüslü avtomobil yolundan 5 *km* aralı, Şirvan düzündədir. Əh. 1419 (2008);





əkinçilik, heyvandarlıq və bağçılıqla məşğuldur. Un və yem dəyirmanı, tam orta məktəb, klub, uşaq bağçası, feldşer-mama məntəqəsi var.

**BƏYƏHMƏDYURD** – Azərb. Resp. Xızı r-nunun Baxışlı ə.d.-ndə kənd. R-n mərkəzindən 16 *km* q.-də, dağlıq ərazidədir. Əh. 40 (2008); heyvandarlıq və qismən əkinçiliklə məşğuldur. İbtidai məktəb; pir var.

**BƏYXATUN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Şəbüstər bölgəsinin Sis kəndistanında, Şəbüstər qəs.-ndən 12 *km* ş.-dədir.

**BƏYİ** – Azərb. Resp. Kürdəmir r-nunun Qocalı ə.d.-ndə kənd. R-n mərkəzindən 41 *km* c.-ş.-dədir. Əh. 1013 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi, klub, mədəniyyət evi var.

**BƏYİM** – əvvəllər Azərb.-da bəy arvadına, ümumiyyətlə kübar ailələrdə qadınlara müraciət forması. Hazırda qadın adı kimi də işlədilir.

**BƏYİM**, Xeyran Nisə bəyim (? – 1579) – Səfəvilər dövlətinin siyasi həyatında mühüm rol oynamış qadın; səfəvi hökmdarı Məhəmməd Xudabəndənin [1578–87] arvadı, Şah I Abbasın anası. Mənbələrdə adı Məhd-i Ülya kimi də çəkilir. 1578/79 ildə Şirvana hücum etmiş Krım xanının vəliəhdi Adil Gəraya və Osmanlı qoşunlarına qarşı vuruşan Səfəvi ordusuna bilavasitə rəhbərlik etmişdir. Kür çayından şm.-da baş vermiş vuruşma zamanı Qaraağacda dayanan B. döyüşün sonuna qədər qızılbaş əmirlərinə göstərişlər vermişdir. Səfəvilər bu döyüşdə qələbə çalmış, Adil Gəray əsir alınmışdı. Saray münaqişələrində fəal iştirak edən B. baş vəzir Mirzə Salman ilə əlbir olub qızılbaş əmirlərini saraydan və yüksək vəzifələrdən uzaqlaşdırmağa, dövlət işlərində fars unsürlərinə üstünlük verməyə çalışırdı. Bundan narazı qalan qızılbaş əmirləri tərəfindən öldürülmüşdür.

**BƏYİMQALA** – İranın Qərbi Azərbaycan ostanında kənd. Urmiya şəhristanının Nəqədə bölgəsinin Ətraf kəndistanında, Nəqədə qəs.-ndən 8,5 *km* c.-ş.-dədir.

**BƏYİMLİ** – Azərb. Resp. Zərdab r-nunda qəsəbə. Bəyimli ə.d.-nin mərkəzi. R-n mərkəzindən 19 *km* şm.-ş.-də, Şirvan düzündədir. Əh. 1013 (2008); heyandarlıq, taxılçılıq və pambıqçılıqla məşğuldur. Tam orta məktəb, kitabxana, klub, tibb məntəqəsi var.

**BƏYİMLİ** – Azərb. Resp. Ağsu r-nunun Çiyni ə.d.-ndə kənd. R-n mərkəzindən 15 *km* q.-dədir. Əh. 355 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. İbtidai məktəb var.

**BƏYİMSAROV** – Azərb. Resp. Tərtər r-nunda kənd. Bəyimsarov ə.d.-nin mərkəzi. R-n mərkəzindən 20 *km* şm.-da, Goranboy–Tərtər avtomobil yolunun kənarında, İncəçayın sağ sahilində, Qarabağ düzündədir. Əh. 3375 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Tam və ümumi orta məktəb, mədəniyyət evi, kitabxana, xəstəxana, poçt var.

**BƏYKƏND**, Böyük Bəykənd – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Hamamlı, 26.9.1949 ildən – Spitak r-nu), Pəmbək çayı sahilində azərb.-ların yaşadığı kənd. 19 əsrin 1-ci yarısında bölgənin Rusiya tərəfindən işğalından sonra azərb.-lar kənddən qovulub çıxarılmış və burada xaricdən gətirilmiş ermənilər yerləşdirilmişdir. 1920-ci illərdə kəndin adı dəyişdirilərək Medz Parni qoyulmuşdur.

**BƏYKƏND**, Kiçik Bəykənd – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (9.9.1930 ildən Artik r-nu) azərb.-ların yaşadığı kənd. 19 əsrin 1-ci yarısında bölgənin Rusiya tərəfindən işğalından sonra azərb.-lar kənddən qovulub çıxarılmış və burada xaricdən gətirilmiş ermənilər yerləşdirilmişdir. 1920-ci illərdə kəndin adı dəyişdirilərək Pokr Parni, 7.5.1969 ildə isə yenidən dəyişdirilərək Anuşavan qoyulmuşdur.

**BƏYKƏNDİ** – İranın Qəzvin ostanında kənd. Eyniadlı şəhristanın Ziyaabad bölgəsinin Qaqazan kəndistanında, Ziyaabad qəs.-ndən 42 *km* şm.-dadır.

**BƏYKƏNDİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Səriskənd bölgəsinin Səriskənd qəs.-ndən 16 *km* şm.-q.-dədir.

**BƏYKƏNDİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Çaharoymaq kəndistanında, Qaraağac qəs.-ndən 18 *km* şm.-q.-də, Marağa–Miyanə avtomobil yolundan 9,5 *km* c.-dadır.

**BƏYKİŞİYEV** Nazim Zöhrab oğlu (d.29.6.1948, Bakı) – Azərb. rəssamı. Azərb. xalq rəssamı (2006), Azərb. SSR. Dövlət mükafatı laureatı (1984). Ə. Əzimzadə ad. Azərb. Rəssamlıq Məktəbini (1969) və Moskva Teatr Sənəti İn-tunu (1975) bitirmişdir. 1980–90 illərdə Azərb. Musiqili Komediya Teatrının, 1990–2001 illərdə Azərb. Dövlət Gənclər Teatrının baş rəssamı olmuşdur. 2001 ildən Azərb. Milli Dram Teatrının baş rəssamıdır. Bədii tərtibat verdiyi tamaşalar arasında "İblis" (H. Cavid, 1983), "Hamlet" (U. Şekspir, 2002) "Ölülər" (C. Məmmədquluzadə, 2005), "Dirilən adam" (M. Cəlal, 2005), "Yayda qartopu oyunu" (V.Səmədoğlu, 2005) və s. var.



2006 ildə Vyana kamera operasında tamaşaya qoyulmuş Ü. Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasının quruluşçu rəssamı olmuşdur. Mənzərə və natürmort janrlarında da əsərlər yaratmışdır. 1998 ildə Londonda fərdi sərgisi keçirilmişdir. 2001 ildən Azərb. Rəssamlıq Akademiyasında pedaqoji fəaliyyət göstərir.

**BƏYQIŞLAQ** – Azərb. Resp. Xaçmaz r-nunun Hülövlü ə.d.-ndə kənd. R-n mərkəzindən 5 *km* c.-da, Ağçayın sahilində, Samur-Dəvəçi ovalığındadır. Əh. 91 (2008);

N. Bəykişiyev. "Lampa". 1996.



əkinçilik və heyvandarlıqla məşğuldur.

**BƏYLƏR** – Azərb. Resp. Saatlı r-nunda kənd. Bəylər ə.d.-nin mərkəzi. R-n mərkəzindən 5 *km* c.-q.-də, düzənlikdədir. Hacıqabul–Bəhrəmtəpə avtomobil yolu və Sabir ad. kanal kəndin ərazisindən keçir. Əh. 1573 (2008); heyvandarlıq, əkinçilik və bağçılıqla məşğuldur. Ümumi orta məktəb, kitabxana, feldşer-mama məntəqəsi var.

**BƏYLƏR BENTONİT GİLLƏRİ YATAĞI** – Azərb. Resp. Xızı r-nunun Ağdərə k.-ndən 4,5 *km* c.-ş.-də yerləşir. Bəylər braxisinklinalının mərkəzi hissəsi ilə əlaqədardır; Eosen yaşlı bentonit gillərinin (qalınlığı 3 *m*-ədək), bentonitləşmiş tuffitlərin (0,5 *m*-ədək) və argillitlərin (0,2 *m*-ədək) lentvarı növbələşməsindən ibarətdir. Kəsilişdə bentonit və bentonitləşmiş tuffitlər üstünlük (80%-ədək) təşkil edir. Bentonitli layların ümumi qalınlığı 27 *m*-dən 48 *m*-ədəkdir. Sənaye ehtiyatı 7 mln. *t*-dur.

**BƏYLƏRBƏYİ**, b ə y l ə r b ə y – yüksək vəzifə və titul. 1) Səfəvilər dövlətində bəylərbəyilikləri idarə edən canişin. Səfəvi şahları B.-ləri azərb.-lardan (qızılbaş əyanları və şahzadələrindən) təyin edirdilər. İnzibati hakimiyyət B.-nin əlində idi; yerli qoşuna da o, başçılıq edirdi. B. adətən, xan titulu daşıyırdı. B.-lər bəzən şaha tabe olmaq istəmirdilər. 16 əsrdə B. vəzifəsi Qarabağ və Astrabadda qacar, Farsda zülqədər, Kirmanda əfşar, Təbrizdə təkəli və türkman, Heratda şamlı, Həmədanda təkəli, Şirvan və Çuxursəddə ustaclı tayfasından olan əmirlərin əlində idi. B.-lərin nüfuzunun artmasından ehtiyat edən Şah I Abbasın dövründən (17 əsrin əvvəllərindən) onların hüquqları mərkəzi hökumət tərəfindən məhdudlaşdırılırdı; 2) Osmanlı imperiyasında əyalət hakimi. Müharibə zamanı qoşuna, 1864 ildən isə *yeniçəri* hissələrinə də başçılıq edirdi. Xidmətinə görə, B.-yə xass torpaqları verilirdi. B. paşa və mirimiran titulu da daşıyırdı.

**BƏYLƏRBƏYİLİK** – Osmanlı imperiyasında və Səfəvilər dövlətində (16–18 əsrlər) ən böyük inzibati ərazi vahidi. *Bəylərbəyi* tərəfindən idarə olunurdu. 17 əsrdə Səfəvilər dövləti 13 B.-ə bölünmüşdü. Azərb. ərazisi 3 B.-ə (Şirvan – mərkəzi Şamaxı, Qarabağ – mərkəzi Gəncə, Azərbaycan – mərkəzi Təbriz) ayrılmışdı. Səfəvilər dövlətində şaha və hökmdar sülaləsinə məxsus torpaqlar heç bir B.-ə daxil deyildi.

**BƏYLƏRBƏYOV** Əli Şahkərim oğlu (1894, Masallı r-nunun Xıl k. – 2.1. 1938, Bakı) – Azərb. hərbi xadimi, gen.-m. (1923). Tiflis hərbi məktəbini bitirmişdir (1915). Birinci dünya müharibəsi (1914–18) zamanı göstərdiyi rəşadətə görə qızıl qılıncla mükafatlandırılmışdır. Azərbaycan Xalq Cümhuriyyəti (1918–20) dövründə B. Quba alayının komandiri olmuşdur. 1921–22 illərdə B. zabitlər məktəbinin direktoru vəzifəsində çalışmışdır. Sovet hökuməti tərəfindən gümüş qılıncla mükafatlandırılmışdır (1921). Azərb. SSR Baş Milis İdarəsinin rəisi olmuşdur (1922–24). Repressiyalar dövründə könüllü olaraq vəzifəsindən istefa vermişdir. Azərb. SSR Xalq Komissarları Şurası yanında Dövlət Plan Komitəsinin sənaye şöbəsinin müdiri işləmişdir (1933–37). 1937 ildə həbs edilmiş və güllələnmişdir. B.-a 1956 ildə bəraət verilmişdir. Xıl k.-ndə adına məktəb var.



**BƏYLƏRKƏNDİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Marağa şəhristanının Qaraağac bölgəsinin Çaharoymaq kəndistanında, Qaraağac qəs.-ndən 40,5 *km* c.-ş.-dədir.

**BƏYLƏROV** Rahib Böyükağa oğlu (d. 22.10.1985, Siyəzən) – Azərb. idmançısı, boks üzrə idman ustası (2003). Azərb. Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını bitirmişdir (2006). Avropa çempionatında 2 gümüş (2002, 2003) medal qazanmışdır.

**BƏYLƏROV** Surxay Mahmud oğlu (7.11.1913, indiki Füzuli r-nunun Əhmədalılar k.– 29.9.1986, həmin k.-də) – Sosialist Əməyi Qəhrəmanı (1947). Füzuli r-nundakı "28 Aprel" kolxozunun sədri (1968–86) olmuşdur. 1947 ildə pambıqçılıq sahəsində yüksək əmək göstəriciləri əldə etmişdir.



**BƏYLİ** – Azərb. Resp. Qəbələ r-nunda kənd. Bəyli ə.d.-nin mərkəzi. R-n mərkəzindən 34 *km* c.-q.-də, Türyançayın sol sahilində, Qəbələ–Quşlar avtomobil yolu kənarında, Daşüz-Əmirvan silsiləsinin c. ətəyindədir. Əh. 322 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur.

**BƏYLİ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Üskü bölgəsinin Xosrovşah kəndistanında, Üskü qəs.-ndən 14 *km* q.-dədir.

**BƏYLİK** – Azərb. Resp. Ağdaş r-nunun Qulbəndə ə.d.-ndə kənd. R-n mərkəzindən 8,5 *km* c.-ş.-dədir. Əh. 150 (2008); əkinçilik və heyvandarlıqla məşğuldur. Kitabxana, feldşer-mama məntəqəsi var.

**BƏYLİK** – Azərb. Resp. Laçın r-nunun Zabux ə.d.-ndə kənd. R-n mərkəzindən 4 *km* c.-da, Həkəri çayının sağ sahilindədir. Əh. 81 (2008); işğaldan (1992, may) əvvəl əkinçiliklə məşğul olmuşdur. İbtidai məktəb var idi.

**BƏYLİK** – Azərb. Resp. Saatlı r-nunda kənd. Bəylik ə.d.-nin (Bəylik, Yeni Novruzlu k.-ləri daxildir) mərkəzi. R-n mərkəzindən 6 *km* şm.-ş.-də, düzənlikdədir. Hacıqabul–Bəhrəmtəpə avtomobil yolu və Sabir ad. kanal kəndin ərazisindən keçir. Əh. 914 (2008); heyvandarlıq, əkinçilik və bağçılıqla məşğuldur.

**BƏYRƏQ** – İranın Ərdəbil ostanında kənd. Xalxal şəhristanının Şahrud bölgəsinin Xuruşrüstəm kəndistanında, Həşcin qəs.-ndən 15,5 *km* şm.-ş.-də, Xalxal–Miyanə avtomobil yolunun 19 *km*-liyindədir.

**BƏYRƏQ** – İranın Şərqi Azərbaycan ostanında kənd. Təbriz şəhristanının Bostanabad bölgəsinin Səhəndabad kəndistanında, Bostanabad qəs.-ndən 21 *km* q.-dədir.

**BƏYSTAN** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Qara Ziyəddin bölgəsinin Çaypara kəndistanında, Qara Ziyəddin qəs.-ndən 14 *km* c.-q.-dədir.

**BƏYZADƏ** – bəy oğlu, bəy nəslindən olan adam. Azərb.-da zadəgan ailələrə mənsub olan oğlan uşaqlarına da B. deyilirdi.

**BƏZAVAN** – İranın Şərqi Azərbaycan ostanında kənd. Əhər şəhristanının Heris bölgəsinin Bedustan kəndistanında, Heris qəs.-ndən 6 *km* şm.-da, Təbriz–Əhər avtomobil yolunun 19 *km*-liyindədir.

**BƏZƏK BİTKİLƏRİ** – bax *Dekorativ bitkilər*.

**BƏZƏK ƏŞYALARI**, z ə r g ə r l i k d ə – bəzək məqsədilə işlədilən məmulat. Hələ ibtidai insanlar daşdan, eləcə də heyvan və insan dişindən, sümük, balıqqulağı və s.-dən B.ə. hazırlayırdılar. Azərb.-da B.ə.-nın hazırlanması tarixi e.ə. başlayır. Tunc dövründə Cənubi Qafqazda, o cümlədən Azərb.-da mum qəliblər vasitəsilə bəzi B.ə. hazırlanmışdır. Azərb. ərazisində aparılmış arxeoloji qa-






















**Bəzək əşyaları:**
*1* – sinəbənd. Qızıl. Filiqran (Bakı, 19 əsr);
*2* – boyunbağı.Qızıl (Naxçıvan, 19 əsrin sonu);
*3* – düymə. Qızıl. Ştamp (metal-qəlib və ya alət, 19 əsrin ikinci yarısı);
*4* – sırğa. Qızıl (Mingəçevir, 1–3 əsrlər);
*5* – muncuq. Oyulmuş qızıl (19 əsrin sonu);
*6* – sırğa. Qızıl (Mingəçevir, e. ə. 7–5 əsrlər);
*7* – toqqa. Gümüş. Filiqran (19 əsrin sonu).

zıntılar zamanı müxtəlif muncuqlar, tunc, gümüş, qızıl və s. metallardan hazırlanmış B.ə. (üzük, sırğa, qolbaq, boyunbağı və s.) tapılmışdır. Azərb.-da B.ə.-nın hazırlanması orta əsrlərdə və 19 əsrdə daha da inkişaf etmişdi. 1932 ildə Şamaxıda təkcə gümüşdən B.ə. hazırlayan 40 zərgər var idi.

B.ə. 4 qrupa bölünür: boyun bəzəkləri, qol və barmaq bəzəkləri, baş bəzəkləri, paltar bəzəkləri. Boyun bəzəkləri qarabatdaq, boyunbağı, boğazaltı (imarət, xirtdəklik), çiçək və s.-dən ibarətdir. Qarabatdaq basma üsulla hazırlanır və arasına muncuq düzülmüş dördkünc qızıl və ya gümüş lövhəciklərlə bəzədilir. Boyunbağı muncuq, mirvari və "arpa"dan ibarət olur. Çiçək bir cərgə düzülmüş müxtəlif asmalardan ibarətdir. Qol və barmaq bəzəklərinə qolbaq (bilərzik) və müxtəlif üzüklər (qaşlı və qaşsız) daxildir. Qolbaqlar iki cür olur: halqa qolbaq, yığma qolbaq. Baş bəzəkləri cütqabağı, qarmaq, silsilə, tac və müxtəlif sırğalardan ibarətdir. Cütqabağı nazik dairəvi qızıl lövhədən düzəldilir, üstü qiymətli qaş-daşla bəzədilir. Silsilə paxlava formasında olan gümüş, yaxud qızıl "kəsmə"lərdən və muncuqlardan hazırlanır. Sırğalar müxtəlif olur: dörddüymə, qırxdüymə, heydəri, satılı sırğa, gilası sırğa, badamı sırğa və s. Paltar bəzəklərinə gümüş və qızıl qadın kəmərləri, müxtəlif sancaqlar və s. daxildir. Şəbəkəli qızıl kəmərlərin toqqaları qiymətli daş-qaşla bəzədilir. B.ə. düzəltmək üçün mirvari, kəhrəba, mərcan, sədəf, şirmayı və s.-dən də istifadə edilir. Metal B.ə.-nın düzəldilməsində döymə, basma, qarasavad, şəbəkə üsullarından, xətəmkarlıq, minasazlıq və s.-dən istifadə olunur.

*Əd.:* Quliyev H., Tağızadə N. Metal və xalq sənətkarlığı. B., 1968; Rasim Əfəndi. Azərbaycan incəsənəti. B., 2001.

**BƏZƏK İŞLƏRİ**, inşaatda – bax *Tamamlama işləri.*

**BƏZƏK MATERİALLARI** – bina və tikililərin dekorativ və istismar keyfiyyətlərini yaxşılaşdırmaq, eləcə də konstruksiyaların əsas materiallarını atm. və digər təsirlərdən qorumaq məqsədilə işlədilən materiallar. Təbii daş, şüşə, keramika, plastik kütlə, ağac, beton, inşaat məhlulları, asbest-sement və s.-dən hazırlanan B.m. tətbiq edilir. Boyalar və laklar B.m. içərisində xüsusi qrup təşkil edir. B.m. xarici və daxili tamamlama (bəzək), konstruktiv tamamlama və istismar-tamamlama işləri üçün materillara ayrılır. Tikilinin uzunömürlülüyünü artıran və binanın memarlıq-bədii keyfiyyətlərini yüksəldən üzlük materilləri (təbii daş, keramika və s.) əsas B.m.-ndandır.

**BƏZƏKLİ** – İrəvan xanlığının Qırxbulaq mahalında (9.9.1930 ildən Kotayk, 12.10.1961 ildən – Abovyan r-nu) azərb.-ların yaşadığı kənd. 19 əsrin əvvəllərində İrəvan xanlığı Rusiya tərəfindən işğal olunduqdan sonra kəndin azərb. əhalisi qovulmuş və 1829–30 illərdə burada Türkiyədən gəlmə ermənilər yerləşdirilmişdir.

**BƏZƏNƏDƏH** – İranın Qərbi Azərbaycan ostanında kənd. Xoy şəhristanının Ətraf bölgəsinin Ovoğlu kəndistanında, Xoy ş.-ndən 34 *km* şm.-ş.-dədir.

**BƏZGƏK** (Tetrax tetrax) – durnakimilər dəstəsindən doydaqlar fəsiləsinə aid quş cinsi. Bədəninin uz. 43–50 *sm*, çəkisi



Bəzgək (Tetrax tetrax).

0,6–1 *kq*-dır. Tüklərinin rəngi belində qonurumtul-çilli, qarın tərəfində ağdır. Şimal-Qərbi və Şimali Afrikada, Cənubi Avropada və Cənub-Qərbi Asiyada yayılmışdır. B. yalnız xam çöllərdə çox olur. Yerdə yuvalayır. 3–5 ləkəli yaşıl yumurta qoyur. 3 həftəyədək kürt yatır. Əsasən, bitkilərlə, yayda, həmçinin cücülərlə, xüsusilə çəyirtkəkimilərlə qidalanır. Sayı azaldığından Azərb.-ın "Qırmızı kitab"ına daxil edilmişdir.

**BƏZİN** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin Bəzinərud kəndistanında, Qiydar qəs.-ndən 52 *km* c.-dadır.

**BƏZİN** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Ətraf bölgəsinin İcrud kəndistanında, Zəncan ş.-ndən 61 *km* c.-q.-dədir.

**BƏZİNƏRUD** – İranın Zəncan ostanında kənd. Mərkəzi şəhristanının Qiydar bölgəsinin beş kəndistanından biri. Qiydar qəs.-ndən c.-dadır.

**BƏZİRGAN**, bəzərgan (far. بزیرگان – tacir) – orta əsrlərdə Şərq ölkələrində ticarətlə məşğul olan adamlar; sövdəgər, tacir. Ticarətdə tutduqları mövgeyə və təcrübələrinə görə B.-ların dərəcələri var idi. B.-ların həyatı karvan ticarəti ilə bağlı olduğundan, şifahi xalq ədəbiyyatında B. surətlərinə təsadüf edilir (məs., Azərb folklorunda "Kitabi-Dədə Qorqud", "Aşıq Qərib", "Koroğlu" dastanları və s.).

**BƏZİRGAN AŞIRIMI**, Bəzirgən aşırımı – Azərb. Resp. Laçın və Şuşa r-nları arasında, Qarabağ silsiləsində aşırım. Bəzirgansu çayının (Həkəri çayının qolu) mənbə hissəsindədir. Hünd. 1633 *m*. Yamacları meşəlikdir.

**BƏZİRXANA** – İrəvan qub.-nın Aleksandropol (Gümrü) qəzasında (31.12.1937 ildən Ağin, 12.10.1961 ildən – Ani r-nu), Arpaçayın yaxınlığında azərb.-ların yaşadığı kənd. 20 əsrin əvvəllərində azərb.-lar kənddən qovulmuş və burada ermənilər yerləşdirilmişdir. 1924 ildə kəndin adı dəyişdirilərək Dzitankov qoyulmuşdur.

**BƏZİRXANA** – Azərb. Resp. Kəlbəcər r-nunun Zar ə.d.-ndə kənd. R-n mərkəzindən 26 *km* c.-q.-də, Tərtər çayının sol sahilindən 4 *km* aralı, Qarabağ yaylasının ətəyindədir. Əh. 650 (2008); işğaldan (1993, aprel) əvvəl tütünçülük və maldarlıqla məşğul olmuşdur. Orta məktəb, kitabxana var idi.





I-ci və 2-ci cildlərə ƏLAVƏLƏR VƏ DÜZƏLİŞLƏR

**ABBASOV** Baloğlan Mirzağa oğlu (15.12.1919, indiki Lənkəran r-nunun Sütəmurdov k. – 19.11.1942) – Böyük Vətən müharibəsi qəhrəmanı. 1939 ildə Sovet ordusuna çağırılmış, 1941 ildə Ukrayna. 1942 ildə Stalinqrad cəbhələrində sərrast atıcı kimi fərqlənmişdir. Xidmət etdiyi hissədə snayperlik hərəkatının təşəbbüsçülərindən idi. Stalinqrad cəbhəsində həlak olmuşdur; cəbhənin Hərbi Şurasının qərarı ilə A.-un adı qvardiya diviziyası şəxsi heyətinin siyahısına daxil edilmişdir. Ölümündən sonra Qırmızı Bayraq ordeni ilə təltif olunmuşdur.



**ABDULLAYEV** Fərhad Sahib oğlu (d.5.12.1958, Bakı) – hüquq e. d. (2011), Azərb. Resp. əməkdar hüquqşünası (2009). Moskva Dövlət Un-tini bitirdikdən (1980) sonra ədliyyə orqanlarında çalışmışdır. Azərb. Resp. Ali Məhkəməsinin hakimi (1990–2000), Apellyasiya məhkəməsinin sədr müavini (2000–03) vəzifəsində işləmiş, 2003 ildən Azərb. Resp.-nın Konstitusiya Məhkəməsinin sədridir. Azərb. Resp.-nın bir sıra qanunvericilik aktlarının hazırlanmasında iştirak etmiş, Apellyasiya məhkəməsində cinayət mühakimə icraatının təkmilləşdirilməsi, Konstitusiya Məhkəməsi ilə ümumi yurisdiksiyalı məhkəmələr arasında qarşılıqlı əlaqələrin aktual problemləri ilə məşğul olmuşdur. 100-dən artıq elmi məqələnin, o cümlədən iki monoqrafiyanın müəllifidir.



Əsərləri: Apellyasiya məhkəməsində cinayət mühakimə icraatının təkmilləşdirilməsi problemləri. B., 2005; Azərbaycan Respublikasında Konstitusiya icraatının nəzəri və praktiki problemləri. B., 2009.

**AĞAYEV** Əkbər Səttar oğlu (1919, Ordubad – 1945) – Buxenvald ölüm düşərgəsində yaradılan antifaşist təşkilatın rəhbərlərindən biri. 1939 ildə Sovet ordusuna çağırılmışdır. Belorusiya cəbhəsində ağır yaralanmış və əsir alınmışdır (1941). 1942 ilin yazında A. ölüm düşərgəsinə salınmışdır. İvan Sport adı ilə tanınan A. Buxenvaldda da faşistlərə qarşı mübarizəni davam etdirmişdir; güllələnmişdir. Ordubad r-nunda A. ad. küçə, tam orta məktəb vardır.



**AXUNDOV** Əli Ələsgər oğlu (d.1.10.1942, Qazaxıstan, Karaqanda vil.) – Azərb. kimyaçısı, texnika e.d. (2009). Azərb. Neft və Kimya İn-tunu (indiki ADNA) bitirmişdir (1967). AMEA-nın Neft-Kimya Prosesləri İn-da işləmiş (1972–85), 1985 ildən Kimya Problemləri İn-da aparıcı elmi işçi vəzifəsində çalışır. Əsas tədqiqatları karbohidrogenlərin katalitik oksidləşdirici dehidrogenləşməsi proseslərinin riyazi modelləşdirilməsi, layihələndirmə mərhələsində optimal aparat tərtibatı sahəsindədir. 83-dən çox elmi əsərin müəllifidir.

**AXUNDOV** Vəli Hüseyn oğlu (23.4.1907, Qəmərli k., indiki Erm. Resp.-nın Artaşat ş. – 29.9.1943, Rudnya; indiki RF-nin Smolensk vil.-ndə) – Azərb.-ın dövlət xadimi, Böyük Vətən müharibəsi qəhrəmanı. Azərb. KP Astara Rayon Komitəsinin birinci katibi (1937–39), Sabirabad Rayon Zəhmətkeş Deputatları Soveti İcraiyyə Komitəsinin sədri (1939–40), Azərb. SSR Ali Sovetinin Rəyasət Heyətində şöbə müdiri (1940–41) vəzifələrində işləmişdir. Azərb. KP MK-nın üzvü (1938 ildən), Azərb. SSR Ali Sovetinin (1-ci çağırış) deputatı olmuşdur. 1941 ildə könüllü olaraq cəbhəyə getmiş, 57-ci orduda batalyon komissarı olmuşdur. 1942 ildə ordu mühasirəyə düşdükdən sonra Xarkov vil.-nin Lozovaya və Bliznyuki r-nlarında Aleksandr Həsənov adı ilə gizli antifaşist təşkilatına rəhbərlik etmişdir. Sovet ordusu tərəfindən Xarkov vil.-nin azad olunması ərəfəsində təşkilat almanlara qarşı silahlı üsyan qaldırmış, külli miqdarda silah-sursat ələ etmişdir. Sovet ordusu sıralarında Rudnya uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla həlak olmuşdur. Ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilmişdir. V. Milyuxa və Q. Qalkinanın "Komendant saatı" pyesində, M. Şapovalın "Son görüş" povestində A.-un antifaşist fəaliyyətindən bəhs olunur.



*Əd.* Харьковщина в годы Великой Отечественной войны. Харьков, 1965; Герои подполья (выпуск второй). М., 1972; Alıcanov M. Azərbaycan döyüşçülərinin partizan hərəkatında iştirakı. B., 1975; Гречко А.А. Годы войны. М., 1976; История Украинской ССР (в десяти томах). Т. 8, Киев, 1984.

**ASLANOV** Aslan Tərlan oğlu (1920, Quba r-nunun Qonaqkənd k. – 1.9.1967, həmin k.-də) – Böyük Vətən müharibəsi qəhrəmanı, starşina. Şöhrət ordeninin hər üç dərəcəsi ilə təltif olunmuşdur. 1941 ildə Sovet ordusuna çağırılmışdır. Belorusiya və Litvanın azad edilməsində, Şərqi Prussiyada gedən döyüşlərdə igidlik göstərmişdir. 1945 ildə Monqolustan və Mancuriyada Yaponiyaya qarşı döyüşlərdə iştirak etmişdir. 1947 ildə ordudan tərxis olunmuşdur. Qonaqkənd tam orta məktəbi A.-nun adınadır.



**BABAXANLI** Gülbəniz İbrahim qızı (d.3.8.1956, Nax. MR, Şərur r-nu) – Azərb. ədəbiyyatşünası, filologiya e.d. (2010). Azərb. Dövlət Un-tini bitirmişdir (1980). 1974–2004 illərdə Azərb. MEA Nizami ad. Ədəbiyyat muzeyində müxtəlif vəzifələrdə, o cümlədən 19–20 əsrlər Azərb. ədəbiyyatı şöbəsinin müdiri işləmişdir. 2004 ildən Azərb. MEA Hüseyn Cavidin ev-muzeyinin direktorudur. Tədqiqatları Azərb. epik şeiri və klassik irs, H. Cavidin yaradıcılığı və s. məsələlərə həsr edilmişdir.

Əsərləri: Qurumayan bulaqlar. B., 1995; Poetik sözün arsenalı. B., 2008; Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. B., 2010.

**BABAYEV** Firudin Əli oğlu (1.5.1929, Bərdə r-nunun Şirvanlı k. – 23.6.1987, Gəncə) – Azərb. aqronomu, fitopatoloq. Biologiya e.d. (1972), prof. (1972).

Azərb. Kənd Təsərrüfatı İn-tunu bitirmişdir (1953). Azərb. Elmi Tədqiqat Pambıqçılıq İn-tunda elmi işçi, laboratoriya müdiri, elmi işlər üzrə direktor müavini (1953–69), Azərb. Kənd Təsərrüfatı İn-tunda fitopatologiya kafedrasının prof.-u vəzifəsində (1983–87) işləmişdir. Tədqiqatları pambıq bitkisi xəstəliklərinin profilaktikası və onlara qarşı mübarizə tədbirlərinin işlənib hazırlanması sahəsindədir. 115 elmi əsərin müəllifidir.

**BABAYEV** Taleh Əkbər oğlu (d.23.3. 1975, Masallı r-nunun Ərkivan k.) – Azərb. idmançısı. Karate-do üzrə 3-cü dan qara kəmər ustasıdır (2002). Azərb. Kooperasiya İn-tunu bitirmişdir (1996). SKİF versiyasına görə Avrasiya (1999, Azərb.), üçqat Dünya kuboku (2000, İran; 2001, 2003 Ukrayna), WSKF versiyası üzrə ikiqat Avropa (2004, Ukrayna; 2005. Türkiyə) və dünya (2007, Yaponiya) çempionu olmuşdur.



**BABAYEVA** Elmira Ramiz qızı (d.2.4. 1975, Bakı) – Azərb. idmançısı. Karate üzrə SKİF versiyasına görə Avrasiya (1999, Azərb.) və WSKF versiyasına görə ikiqat Avropa (2004, Ukrayna; 2005, Türkiyə) çempionu, dünya çempionatının bürünc (2000, İndoneziya; 2007, Yaponiya) mükafatçısı, Dünya kubokunun qalibi (2008, İsveç) olmuşdur.



**BABƏK RAYONU.**

**Təsərrüfat**

Naxçıvan iqtisadi r-nuna daxildir. İqtisadiyyatının əsasını k.t., xüsusilə quru subtropik meyvəçilik, tərəvəzçilik, taxılçılıq təşkil edir. 1994 ildən r-n ərazisində aqrar islahatlar həyata keçirilmiş, əhali pay torpaqları ilə təmin olunmuşdur. R-n ərazisində 1978 ildən 38 nasos st., 45 subartezian quyusu tikilərək və ya əsaslı təmir olunaraq istifadəyə verilmiş, 7 su anbarı yaradılmışdır; r-nda 13869 *ha* sahənin suvarılması təmin olunmuş, 4364 *ha* yeni sahə əkin dövriyyəsinə daxil edilmişdir (2005). R-n üzrə dənli və dənli-paxlalı bitkilərin əkin sahəsi 1978 il ilə müqayisədə 25%, kartof əkini sahəsi 10 dəfə, tərəvəz əkini sahəsi 14 dəfə, bostan bitkilərinin sahəsi 21 dəfə çoxalmışdır; dənli və dənli-paxlalı məhsulların istehsalı 2 dəfə, kartof istehsalı 21 dəfə, tərəvəz istehsalı 10 dəfə, bostan məhsulları istehsalı 90 dəfə artmışdır (2007). Dənli və dənli-paxlalı bitkilərin istehsal həcmi 29352 *t*, şəkər çuğunduru (ilkin çəkidə) 958 *t*, günəbaxan (ilkin çəkidə) 182 *t*, kartof 4698 *t*, tərəvəz 17668 *t*, ərzaq üçün bostan məhsulları 26416 *t*, meyvə 5285 *t*. üzüm 4992 *t* təşkil etmişdir (2008). 2007 ildə Nax. MR üzrə istehsal olunmuş k.t. məhsulunun 24%-i (28 mln. 904 min manat), sənaye məhsulunun 19%-i B. r-nun payına düşmüşdür. R-nda 14396 baş qaramal, 125961 baş davar olmuşdur.

B. r.-nda daş emalı, həmçinin üzüm emalı və yeyinti məhsulları müəssisələri fəaliyyət göstərir. 1995 ildən 32 yeni sənaye və emal müəssisəsi, 3 elektrik st., 12 elektron tipli avtomat telefon st. yaradılmışdır. 2008 ildə 9 yeni müəssisə yaradılmışdır.

## DÜZƏLİŞLƏR

2-ci cildin əlavələr bölməsində (səh. 595) Axundzadələrə dair məqalələrə verilmiş şəkillərin düzülüşü aşağıdakı kimi olmalıdır

**AXUNDZADƏ** Mirzə Əli Aşiq Molla Zeynalabdin oğlu (1846, Şuşa – 1903, Şuşa) – Azərb. şairi, musiqişünas, xanəndə, xəttat. *Cabbar Qaryağdı oğlunun* musiqi müəllimi olmuşdur. Fars və türk dillərini mükəmməl bilmişdir. *"Məclisi-üns"ün* fəal üzvlərindən biri idi. Əlifba islahatı ilə bağlı Şuşada olan M.F. Axundzadə ilə tanış olmuş və onunla dostluq etmişdir. F. *Köçərli*, M.M. *Nəvvab*, F. *Şuşinski* və başqaları öz əsərlərində A.-dən bəhs etmişlər. Şeirlərinin bir qismi M.M. *Nəvvabın* "Təzkireyi-Nəvvab" kitabında toplanmışdır. Əlyazmaları AMEA-nın M. Füzuli ad. Əlyazmalar İn-tunda saxlanılır.

Ə s ə r l ə r i: Poetik məclislər. B., 1987; Mir Möhsün Nəvvab. Təzkireyi-Nəvvab. B., 1998.

*Əd.*: A x u n d b ə y l i P. Şuşa həsrəti. B., 2005.

**AXUNDZADƏ** Mirzə Xosrov (Şaiq) Mirzə Əli oğlu (13.6.1889, Şuşa – 10.5. 1960, Şuşa) – Azərb. maarifçisi, pedaqoq, tarixçi, etnoqraf, ədəbiyyatşünas, şair. *Axundzadə* Mirzə Əli Aşiqin oğludur. Ərəb və fars dillərini mükəmməl bilmişdir. 1905 ildə Şuşa şəhər məktəbini bitirmişdir. 1906–56 illərdə Şuşa məktəblərində pedaqoji fəaliyyət göstərmişdir; yeni tipli məktəblərin təşkilində, əhali arasında maarifin təbliğində, savadsızlığın ləğvində və azərb. qızların təhsilə cəlb olunmasında fəal iştirak etmişdir. İlk şeiri 1913 ildə M.M. Nəvvabın "Təzkireyi-Nəvvab" kitabında çap olunmuşdur. *"Məclisi-fəramuşan"ın* üzvü olan A. "Şaiq" təxəllüsü ilə şeirlər, Azərb. şair və yazıçıları haqqında xatirələr yazmışdır. Yazılarından bəziləri çap olunmuş, bir qismi isə əlyazması ("Qarabağın tarixi", 1-ci və 2-ci hissə; "Divan") şəklində AMEA-nın Əlyazmalar İn-tunda saxlanılır. 1940 ildən Dağlıq Qarabağdan tarixi eksponatların toplanması üzrə komissiyanın sədri olmuşdur. Bakıda adına məktəb var.



Ə s ə r l ə r i: Ömürdən səhifələr. B., 1992; Pedaqoji mülahizə və təcrübələrim. B., 2009.

*Əd.*: A x u n d b ə y l i P. Şuşa həsrəti. B., 2005.

**AXUNDZADƏ** Mirzə Süleyman Mirzə Əli oğlu (1866, Şuşa – 1944, Tərtər r-nu) – Azərb. şairi. *Axundzadə* Mirzə Əli Aşiqin oğludur. Şuşada təhsil almış, Tərtər r-nunda müəllimlik etmişdir. *"Məclisi-fəramuşan"ın* üzvü olmuşdur. Şeirlərini klassik üslubda, ərəb və fars dilində yazmışdır. Əlyazmaları AMEA-nın Əlyazmalar İn-tunda saxlanılır.



Ə s ə r l ə r i: Poetik məclislər. B., 1987; Mir Möhsün Nəvvab. Təzkireyi-Nəvvab. B., 1998.



## AME-də QƏBUL EDİLMİŞ İXTİSARLAR

a. – adası (ad yanında)
ad. – adına
adm. – admiral
akad. – akademik
alm. – almanca
a-rı – adaları (ad yanında)
at.k. – atom kütləsi
at. n. – atom nömrəsi
atm. – atmosfer
Azərb. – Azərbaycan
azərb. – azərbaycanlı
Başq. – Başqırdıstan
B.Britaniya – Böyük Britaniya
Bel. – Belarus
bəl. – bələdiyyə
biol. – biologiya, bioloji
c. – cənub
c. – cild (biblioqrafiyada)
c.e. – cənub enliyi
c.-q. – cənub-qərb
c.-ş. – cənub-şərq
d. – dağı (ad yanında)
d. – doğulmuşdur (başlıqda və mötərizədə)
Dağ. – Dağıstan
dep-t – departament
d-rı – dağları (ad yanında)
d.y. – dəmir yolu, dəmiryol
e.d. – elmlər doktoru
e.ə. – eramızdan əvvəl
e.h.q. – elektrik hərəkət qüvvəsi
Erm. – Ermənistan
ə.d. – ərazi dairəsi
əh. – əhalisi
ər. – ərəbcə
far. – farsca
f-k – fabrik
f.i.ə. – faydalı iş əmsalı
feldm. – feldmarşal
fp. – fortepiano
fr. – fransızca
gen. – general
gen.-l. – general-leytenant
gen.-m. – general-mayor
gen.- polk. – general-polkovnik
geol. – geoloji
Gürc. – Gürcüstan
h. – hissə (biblioqrafiyada)
hol. – hollandca
hünd. – hündürlük(yü)
x.t. – xalq təsərrüfatı
xüs.ç. – xüsusi çəki(si)
ill. – illüstrasiya
ing. – ingiliscə
in-t – institut
inz.ə.v. – inzibati ərazi vahidi
inz. m. – inzibati mərkəz(i)
isp. – ispanca
ital. – italyanca
k. – kəndi (ad yanında)
k.t. – kənd təsərrüfatı
koop. – kooperasiya
q. – qərb
q.u. – qərb uzunluğu
Qazax. – Qazaxıstan
qəs. – qəsəbə(si)
Qırğ. – Qırğızıstan
qub. – quberniya(sı)
lat. – latınca
m.üzvü – müxbir üzvü
maks. – maksimal, maksimum
man. – manat
mln. – milyon
mlrd. – milyard
mol. k. – molekul kütləsi
Mold. – Moldova
müq. – müqəddəs
nəql. – nəqliyyat(ı)
ork. – orkestr(i)
Özb. – Özbəkistan
prof. – professor
rej. – rejissor
resp. – respublika(sı)
r-n – rayon
rus. – rusca
s.-d. – sosial-demokrat
sah. – sahəsi
səh. – səhifə
st. – stansiya(sı)
ş. – şərq
ş. – şəhər(i) (ad yanında)
ş.u. – şərq uzunluğu
şm. – şimal
şm.e. – şimal enliyi
şm.-q. – şimal-qərb
şm.-ş. – şimal-şərq
ştq. – şəhər tipli qəsəbə
Tac. – Tacikistan
Tat. – Tatarıstan
temp-r – temperatur
təqr. – təqribən
tərc. – tərcüməsi, tərcümə edəni (biblioqrafiyada)
trl. – trilyon
Tür. – Türkmənistan
türk. – türkcə
Ukr. – Ukrayna
un-t – universitet
uz. – uzunluq(ğu)
və s. – və sair(ə)
və b. – və başqaları
vil. – vilayət(i)
y-a – yarımada(sı) (ad yanında)
yun. – yunanca
z-d – zavod
*A* – amper

## ÖLÇÜ VAHİDLƏRİNİN QISALDILMIŞ İŞARƏLƏRİ

*Å* – anqstrem
*a.q.* – at qüvvəsi
*A-saat* – amper-saat
*a.v.* – astronomik vahid
*B* – bel
*Be* – bome
*Bk* – bekkerel
*C* – coul
*°C* – dərəcə Selsi
*dB* – desibel
*dəq.* – dəqiqə
*dm* – desimetr
*dövr/dəq.* – 1 dəq.-də dövrlərin sayı
*dp* – dioptri
*eV* – elektronvolt
% – faiz
*F* – farad
*ha* – hektar
*hl* – hektolitr
*Hn* – henri
*Hs* – hers
*i. ili* – işıq ili
*K* – kelvin
*kal* – kalori
*kd* – kandela
*kar* – karat
*keV* – kiloelektronvolt
*Ki* – küri
*kkal* – kilokalori
*kq* – kiloqram
*kqg* – kiloqram-güc
*kqm* – kiloqram-metr
*Kl* – kulon
*km* – kilometr
*kmol* – kilomol
*kVt* – kilovatt
*kVt-saat* – kilovatt-saat
*q* – qram
*q-ekv* – qram-ekvivalent
*Qs.* – qauss
*l* – litr
*lk* – lüks
*lm* – lümen
*m* – metr
*mA* – milliamper
*mD* – millidarsi
*MeV* – meqaelektronvolt
*MHs* – meqahers
*mkm* – mikrometr
*Mks* – maksvell
*mksan* – mikrosaniyə
*mq* – milliqram
*ml* – millilitr
*mm* – millimetr
*mm c. süt.* – millimetr civə sütunu
*mm su süt.* – millimetr su sütunu
*MOm* – meqaom
*MVt* – meqavatt
*N* – nyuton
*nm* – nanometr
*Np* – neper
*nsan* – nanosaniyə
*Om* – om
*Pa* – paskal
*pF* – pikofarad
*pk* – parsek
‰ – promille
*pz* – puaz
*R* – rentgen
*rad* – radian
*reg. br.* – registr brutto
*s* – sentner
*s/ha* – hektara düşən sentner
*san* – saniyə
*Sm* – simens
*sm* – santimetr
*st* – stoks
*ster* – steradian
*t* – ton
*Tl* – tesla
*V* – volt
*V-A* – volt-amper
*Vb* – veber
*Vt* – vatt

## KƏMİYYƏT VAHİDLƏRİNİN MİSLLƏRİ VƏ HİSSƏLƏRİNİ ADLANDIRMAQ ÜÇÜN İŞLƏDİLƏN ÖN ŞƏKİLÇİLƏRİN QISALDILMIŞ İŞARƏLƏRİ

*a* – atto... ($10^{-18}$)
*d* – desi... ($10^{-1}$)
*da* – deka... (10)
*E* – eksa... ($10^{18}$)
*F* – femto... ($10^{-15}$)
*G* – giqa... ($10^{9}$)
*h* – hekto... ($10^{2}$)
*k* – kilo... ($10^{3}$)
*M* – meqa... ($10^{6}$)
*m* – milli... ($10^{-3}$)
*mk* – mikro... ($10^{-6}$)
*n* – nano... ($10^{-9}$)
*P* – peta... ($10^{15}$)
*p* – piko... ($10^{-12}$)
*s* – santi... ($10^{-2}$)
*T* – tera... ($10^{12}$)

## ŞƏRTİ İŞARƏLƏR

Hal – halogen
H – entalpiya
pH – hidrogen göstəricisi
pK – ionlaşma sabitinin mənfi onluq loqarifmi
$T_{1/2}$ – yarımparçalanma dövrü
$t_{qayn}$ – qaynama temp-ru
$t_{böh}$ – böhran temp-ru
$t_{ər}$ – ərimə temp-ru
δ – səthi gərilmə əmsalı
ε – dielektrik keçiriciliyi
η – özlülük əmsalı
g – ağırlıq qüvvəsi təcili
λ – dalğa uzunluğu
p – dipol momenti
ρ – xüsusi elektrik müqaviməti
σ – möhkəmlik həddi

## ŞƏHƏRLƏRİN İXTİSARLA VERİLƏN ADLARI (BİBLİOQRAFİYADA)

A.-A. – Alma-Ata
Amst. – Amsterdam
Antw. – Antverpen
Aş. – Aşqabad
B. – Bakı
Balt. – Baltimor
Bdpst. – Budapeşt
Br. – Berlin
Brat. – Bratislava
Daş. – Daşkənd
Düş. – Düşənbə
Hamb. – Hamburq
L. – London
Los Ang. – Los-Anceles
Lpz. – Leypsiq
Mex. – Mexiko
N.Y. – Nyu-York
P. – Paris
Tal. – Tallinn
Xar. – Xarkov
K. – Kiyev
Л. – Leninqrad
M. – Moskva
СПб. – Sankt-Peterburq

## ABREVİATURALAR

AAXHT – Asiya və Afrika Xalqlarının Həmrəylik Təşkilatı
AAK – Ali Attestasiya Komissiyası
AB – Avropa Birliyi
ABİ – Azərbaycan Bəstəkarlar İttifaqı
ABŞ – Amerika Birləşmiş Ştatları
ABT – Afrika Birliyi Təşkilatı
ADAU – Azərbaycan Dövlət Aqrar Universiteti
ADİU – Azərbaycan Dövlət İqtisad Universiteti
ADNA – Azərbaycan Dövlət Neft Akademiyası
ADPU – Azərbaycan Dövlət Pedaqoji Universiteti
ADMİU – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
ADT – Amerika Dövlətləri Təşkilatı
ADU – Azərbaycan Dillər Universiteti
AEBA – Atom Enerjisi üzrə Beynəlxalq Agentlik
AES – atom elektrik stansiyası
AFFA – Azərbaycan Futbol Federasiyaları Assosiasiyası
AFR – Almaniya Federativ Respublikası
AHİK – Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası
AHM – analoq hesablama maşını
AXC – Azərbaycan Xalq Cümhuriyyəti
Aİ – Avropa İttifaqı
AİB – Avropa İqtisadi Birliyi
AİƏT – Avropa İqtisadi Əməkdaşlıq Təşkilatı
AİS – avtomatlaşdırılmış idarəetmə sistemi
AJB – Azərbaycan Jurnalistlər Birliyi
AK – aqrosənaye kompleksi
AKP – Azərbaycan Kommunist Partiyası
AK(b)P – Azərbaycan Kommunist (bolşeviklər) Partiyası
AMEA – Azərbaycan Milli Elmlər Akademiyası
AMİU – Azərbaycan Memarlıq və İnşaat Universiteti
AMK – Azərbaycan Milli Kitabxanası
ANTM – Avropa Nüvə Tədqiqatları Mərkəzi
AP – Avropa Parlamenti
APDU – Azərbaycan Pedaqoji Dillər Universiteti
ARA – Azərbaycan Rəssamlıq Akademiyası
ASC – açıq səhmdar cəmiyyəti
ASEAN – Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyası
ASİB – Asiya Sakit okean İqtisadi Birliyi
ASK – aqrosənaye kompleksi
AŞ – Avropa Şurası
AŞPA – Avropa Şurasının Parlament Assambleyası
ARDNŞ – Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
ARİ – Azərbaycan Rəssamlar İttifaqı
ATƏM – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi
ATƏT – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı
ATC – Azərbaycan Teatr Cəmiyyəti
ATS – avtomat telefon stansiyası
ATSC – açıq tipli səhmdar cəmiyyəti
ATU – Azərbaycan Tibb Universiteti
AYB – Azərbaycan Yazıçılar Birliyi
Azərb.SSR – Azərbaycan Sovet Sosialist Respublikası
AzərTAc – Azərbaycan Dövlət Teleqraf Agentliyi
AzTU – Azərbaycan Texniki Universiteti
BƏB – Beynəlxalq Əmək Bölgüsü
BƏƏ – Birləşmiş Ərəb Əmirlikləri
BƏT – Beynəlxalq Əmək Təşkilatı
BDU – Bakı Dövlət Universiteti
BİTB – Beynəlxalq İqtisadi Tərəfdaşlıq Bankı
BMA – Bakı Musiqi Akademiyası
BMT – Birləşmiş Millətlər Təşkilatı
BOK – Beynəlxalq Olimpiya Komitəsi
BSU – Bakı Slavyan Universiteti
BTC – Bakı–Tbilisi–Ceyhan
BVF – Beynəlxalq Valyuta Fondu
Sİ – Beynəlxalq Vahidlər Sistemi
BYİB – Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı
CAR – Cənubi Afrika Respublikası
CM – cinayət məcəlləsi
CPM – cinayət-prosessual məcəlləsi
ÇXR – Çin Xalq Respublikası
DNT – dezoksiribonuklein turşusu
DRES – dövlət rayon elektrik stansiyası
EA – Elmlər Akademiyası
EHM – elektron hesablama maşını
EİB – elm-istehsalat birliyi
EKQ – elektrokardioqram
EKOSOS – BMT-nin İqtisadi və Sosial Şurası
EÖX – elektrik ötürmə xətti
ETİ – elmi tədqiqat institutu
ETT – elmi-texniki tərəqqi
ETTKİ – elmi tədqiqatlar və təcrübə-konstruktor işlənilmələri
EŞC – elektron-şüa cihazı
ƏDL – Ərəb Dövlətləri Liqası
ƏDV – əlavə dəyər vergisi
ƏXDR – Əlcəzair Xalq Demokratik Respublikası
FAO – BMT-nin ərzaq və kənd təsərrüfatı təşkilatı
FİDE – Beynəlxalq Şahmat Federasiyası
FİFA – Beynəlxalq Futbol Assosiasiyaları Federasiyası
FTB – Federal Təhqiqat Bürosu
HDD – hərbi-dəniz donanması
HDQ – hərbi-dəniz qüvvələri
HHQ – hərbi-hava qüvvələri
HHM – hava hücumundan müdafiə
HM – hesablama mərkəzi
HSK – hərbi sənaye kompleksi
XKB – xüsusi konstruktor bürosu
İB – istehsalat birliyi
İEM – istilik elektrik mərkəzi
İES – istilik elektrik stansiyası
İƏİT – İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı
İKT – İslam Konfransı Təşkilatı
İQ – infraqırmızı
İSESKO – İslam Ölkələrinin Təhsil, Elm və Mədəniyyət Təşkilatı
KB – konstruktor bürosu
KXDR – Koreya Xalq Demokratik Respublikası
KİV – kütləvi informasiya vasitələri
QHT – qeyri hökumət təşkilatları
QİÇS – qazanılmış immun çatışmazlığı sindromu
QİYŞ – Qarşılıqlı İqtisadi Yardım Şurası
QSC – qapalı səhmdar cəmiyyəti
MADT – Mərkəzi Afrika Dövlətləri Təşkilatı
MAR – Mərkəzi Afrika Respublikası
MDB – Müstəqil Dövlətlər Birliyi
MDBMİ – Moskva Dövlət Beynəlxalq Munasibətlər İnstitutu
MDU – Moskva Dövlət Universiteti
MƏR – Misir Ərəb Respublikası
MHD – mülki hava donanması
MİK – mərkəzi icraiyyə komitəsi
MK – mərkəzi komitə
MM – Milli Məclis
MMC – məhdud məsuliyyətli cəmiyyət
MMS – maşın-meliorasiya stansiyası
MOK – Milli Olimpiya Komitəsi
MPK – mülki prosessual kodeks
MR – muxtar respublika
MSİ – Mərkəzi Statistika İdarəsi
MTS – maşın-traktor stansiyası
MV – muxtar vilayət
NASA – Kosmik Fəzanın Tədqiqi və Aeronavtika üzrə Milli İdarə
NATO – Şimali Atlantika Müqaviləsi Təşkilatı
NQÇİ – neft-qazçıxarma idarəsi
OPEK – Neft İxrac edən Ölkələr Təşkilatı
REA – Rusiya Elmlər Akademiyası
RF – Rusiya Federasiyası
RHM – rəqəmli hesablama maşını
RLS – radiolokasiya stansiyası
RNT – ribonuklein turşusu
RSFSR – Rusiya Sovet Federativ Sosialist Respublikası
SAARK – Cənubi Asiya Regional Əməkdaşlıq Assosiasiyası
SAM – səthi aktiv maddələr
SC – səhmdar cəmiyyəti
SEATO – Cənub-Şərqi Asiya Müqaviləsi Təşkilatı
SES – su elektrik stansiyası
Sov. İKP – Sovet İttifaqı Kommunist Partiyası
SSRİ – Sovet Sosialist Respublikaları İttifaqı
TRASEKA\TRACECA\ – Avropa, Qafqaz və Asiya Nəqliyyat Koridoru
TTEMBİ – Təbiətin və Təbii Ehtiyatların Mühafizəsi üzrə Beynəlxalq İttifaq
TV – televiziya
UA – uçuş aparatı
UB – ultrabənövşəyi
UEFA – Avropa Futbol Assosiasiyaları İttifaqı
UNO – uçan naməlum obyekt
US – ultrasəs
UQD – ultraqısa dalğalar
UYT – ultrayüksək tezlik
ÜDM – ümumi daxili məhsul
ÜKTEA – Ümumittifaq Kənd Təsərrüfatı Elmlər Akademiyası
ÜRM – ümumi regional məhsul
ÜST – Ümumdünya Səhiyyə Təşkilatı
ÜTT – Ümumdünya Ticarət Təşkilatı
YSP – Yerin süni peyki
YUNESKO – BMT-nin maarif, elm və mədəniyyət komissiyası
YUNİSEF – BMT-nin Uşaqlara Beynəlxalq Yardım Fondu
YVH – yolverilən hədd
VDR – Vyetnam Demokratik Respublikası



## AME XƏRİTƏLƏRİNDƏKİ ƏSAS ŞƏRTİ İŞARƏLƏR

### YAŞAYIŞ MƏNTƏQƏLƏRİ
SİYASİ XƏRİTƏDƏ

○ Əhalisi 1 000 000-dan çox
◎ Əhalisi 500 000-dən 1 000 000-a qədər
⊙ Əhalisi 100 000-dən 500 000-ə qədər
∘ Əhalisi 100 000-ə qədər
BAKI – Dövlət paytaxtları
*Nyu-York* – Digər yaşayış məntəqələri

### SƏRHƏDLƏR

Rayon və vilayətlərin
Diyarın
Dövlətlərin
Kəşmirdə Hindistan və Pakistan arasında; Koreya Respublikası və KXDR arasında demarkasiya xətti
Qütb dairələrinin sərhədi

### RABİTƏ YOLLARI

Dəmir yolları
Avtomobil yolları
Qaz kəmərləri
Neft kəmərləri
Dəniz yolları
Gəmiçiliyə yararlı kanallar
Dəniz portları

Çaylar və şəlalələr
Quruyan çaylar
Quru çay yatağı
Şor göllər
Göllər
Quruyan göllər
Horizontallar
• 4620 – Dəniz səviyyəsindən yüksəklik göstəriciləri
7282 – Dərinlik göstəriciləri
*Qufqaz* – Oroqrafik adlar
*PAMPA* – Coğrafi vilayətlərin adları
∗ – Fəaliyyətdə olan vulkanlar
Materik buzlaqları
Mərcan rifləri
Bataqlıqlar
Şoranlıqlar
Qumluqlar
Üzən buzların qış sərhədi
İsti cərəyanlar
Soyuq cərəyanlar



Dərinlik və yüksəklik şkalası , m-lə

### ATLASIN XƏRİTƏLƏRİNDƏ QƏBUL EDİLMİŞ İXTİSARLAR

| | | | | | |
|---|---|---|---|---|---|
| a. - | ada | d. - | dağ | sils. - | silsilə |
| a-r - | adalar | d-r - | dağlar | şəl. - | şəlalə |
| arx. - | arxipelaq | g. - | göl | vlk. - | vulkan |
| b-nu - | burnu | körf. - | körfəz | y-a - | yarımada |

Əlavələr: 1. Atlasın xəritələrinin legendasında verilmiş şərti işarələr, göstərilən cədvəldə verilmir
2. Atlasın xəritələrində cərəyanlar Şimal yarımkürəsinin yay aylarını göstərir

## XƏRİTƏLƏRİN SİYAHISI


Babilistan Hammurapi dövründə 5
Yeni Babil çarlığı e.ə 6 əsrin 1-ci yarısında 6
Bahama adaları, fiziki xəritə 38
Balakən rayonu 103
Banqladeş, fiziki xəritə 176
Barbados, fiziki xəritə 197
Başqırdıstan, fiziki xəritə 261
Belarus, fiziki xəritə 353
Belçika, fiziki xəritə 372
Beliz, fiziki xəritə 396
Benin, fiziki xəritə 426
Bermuda adaları, fiziki xəritə 473
Beyləqan rayonu 506
Bəhreyn, fiziki xəritə 555
Bərdə rayonu 576

## AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASININ ELMİ MƏSLƏHƏTÇİLƏRİ:

A.N. ABBASOV, Ə.Ə. AĞAYEV, M.P. BABAYEV, V.M. BABAZADƏ, İ.S. BAĞIROVA, Ə.S. BAYRAMOV, S.Z. BAYRAMZADƏ, İ.R. ƏFƏNDİYEV, S.H. ƏHMƏDOV, E.H. ƏLƏSGƏROV, K.H. ƏLİYEV, Q.C ƏLİYEV, M.İ. ƏLİYEV, B.M. ƏSGƏROV, Ş.S. FƏTULLAYEV, T.İ. HACIYEV, C.Y. HƏSƏNZADƏ, R.Ə. HÜSEYNOV, F.C. XANLAROV, S.S. XƏLİLOV, A.C. İSMİYEV, A.Ə. KAZIMOV, İ.S. KƏRİMOV, S.Q. KƏRİMOV, H.S. QASIMOVA, S.M. QAŞQAY, C.Ə. QİYASİ, F.G. QOCAYEV, N.M. QULİYEV, Ə.Q. QULİYEV, R.S. QURBANOV, Q.N. MANAFOV, Q.M. MƏHƏRRƏMLİ, A.Ə. MƏMMƏDOV, C.Ə. MƏMMƏDOV, F.T. MƏMMƏDOV, P.Z. MƏMMƏDOV, R.M. MƏMMƏDOV, S.A. MƏMMƏDOV, Y.H. MƏMMƏDOV, Q.M. MƏMMƏDYAROV, M.Ə. MƏMMƏDYAROV, O.M. MİRQASIMOV, A.B. MİRZƏZADƏ, Z.R. MÖVSUMOV, M.A. MÜSEYİBOV, A.M. NƏBİYEV, K.N. RAMAZANOV, S.H. RƏHİMOV, M.S. SALAHOV, F.Y. SƏMƏNDƏROV, Ə.M. TAĞIYEV, A.H. TAHİRLİ, R.F. ZÖHRABOV.

## AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASININ 3-cü CİLDİNİN HAZIRLANMASINA CƏLB OLUNMUŞ MÜƏLLİFLƏR:

A.N. ABBASOV, M.P. BABAYEV, O.K. ƏLƏKBƏROV, T.R. ƏLİYEV, A.M.ƏZİZOV, C.Y. HƏSƏNZADƏ, A.M HÜSEYNBƏYOVA, R.V.HÜSEYNOV, H.A. XƏLİLOV, M.C XƏLİLOV, İ.X. İBRAHİMOV, A.Q. İSMAYILOV, Q.S. KAZIMOV, Z.M. QASIMOV, A.İ. QULİYEV, D.Q. QULİYEV, S.M. QULİYEV, Z.M. QULİYEV, S.M. QULİYEVA, İ.O. MƏMMƏDOV, A.Z. MƏMMƏDOVA, F.C. MƏMMƏDOVA, N.Ə. MÜSEYİBLİ, Ş.M. NAĞIYEV, N.A. NƏCƏFOV, X.Ə. RƏCƏBLİ, C.Ə. RƏHMANOV, L.Q. SADIQOVA, Q.İ. SULTANLI, T.N. ŞIXMƏMMƏDOVA, F.A. VƏLİXANOVA, X.B.YUSİFZADƏ, R.A. ZEYNALOV.

# "AZƏRBAYCAN MİLLİ ENSİKLOPEDİYASI" ELMİ MƏRKƏZİ

DİREKTOR
akademik T.M.Nağıyev

DİREKTOR MÜAVİNLƏRİ
müxbir üzv X.M.Qasımov, iqtisad e.d. F.F.Mustafayev, A.Ə.Sultanov

"FİZİKA, RİYAZİYYAT, MEXANİKA, KOSMOS, ASTRONOMİYA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – fizika-riyaziyyat e.n. M.Ə.Əkbərov; redaksiya müdirinin müavini – S.H.Niyazova; böyük elmi redaktorlar – S.V.Davudova, Z.A.Tağıyeva.

"KİMYA, BİOLOGİYA, MİKROBİOLOGİYA, TİBB, TORPAQŞÜNASLIQ" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – kimya e.n. V.A.Adıgözəlov; redaksiya müdirinin müavini – kimya e.n. M.İ.Bağmanova; böyük elmi redaktorlar – V.M.İmaməliyeva, S.Ə.Məmmədova; kiçik elmi redaktor – F.Q.Musayeva.

"TEXNİKA, NEFT-MƏDƏN İŞLƏRİ, İNFORMATİKA, ELEKTRONİKA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – G.G.Qocayeva; redaksiya müdirinin müavini – kimya e.n. F.Ə.Yunisova; böyük elmi redaktorlar – E.K.Cabarova, E.B.İsgəndərov, H.R.Qasımova, M.V.Məmmədova.

"COĞRAFİYA, GEOLOGİYA, GEOFİZİKA, ƏTRAF MÜHİT, EKOLOGİYA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – B.C.Nəcəfov; redaksiya müdirinin müavini – N.F.Əlibəyova; böyük elmi redaktor – A.Ə.Kərimova; mütəxəssis – R.Y.Qəniyeva.

"ÜMUMİ TARİX, AZƏRBAYCAN TARİXİ VƏ ARXEOLOGİYA" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – tarix e.n. R.S.Məlikov; redaksiya müdirinin müavini – L.N. Rizvanova-Doğan; böyük elmi redaktorlar – D.Q.Əliyeva, N.A.Tağızadə; elmi redaktor – E.V.Talıbova.

"ƏDƏBİYYAT, DİLÇİLİK, MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – pedaqoji e.n. Z.H.Abdullayev; böyük elmi redaktorlar – F.A.Bakıxanova, Ş.F.Əliyeva, N.İ.Hüseynova, Ə.S.Zeynalova; elmi redaktor – F.A.Ağayev.

"SOSİAL-İCTİMAİ SAHƏLƏR, FƏLSƏFƏ VƏ HÜQUQ" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – H.M.Dayıyev; redaksiya müdirinin müavini – Q.Ə.Rəhimov; böyük elmi redaktorlar – A.Ş.Əhmədzadə, E.X.Kərimov, A.A.Rəfiyeva.

"TƏHSİL, MƏTBUAT, TELEVİZİYA, İNTERNET, TURİZM VƏ İDMAN" ELMİ REDAKSİYASI
Redaksiya müdiri – S.M.Mehrəliyeva; redaksiya müdirinin müavini – H.M.Eldarova; böyük elmi redaktorlar – L.A.Əhmədova, A.H.Xəlil, E.A.Rəsulov.

"İQTİSADİYYAT" ELMİ REDAKSİYASI
Böyük elmi redaktorlar – G.A. Aşurova, A.A. Qənizadə, Ü.H. Koroğluyeva.

"ELMİ-ƏDƏBİ NƏZARƏT VƏ BİBLİOQRAFİYA" REDAKSİYASI
Redaksiya müdiri – E.Ə.Məmmədova; redaksiya müdirinin müavini – G.K.Əsədova; böyük elmi redaktorlar – Ç.N.Əhmədova, F.E.Əhmədova, A.K.Həsənova, A.F.Mehdiyeva, R.Ə.Rəhimova, T.M.Rüstəmova, N.Ə.Rzayeva.

SÖZLÜK REDAKSİYASI
Redaksiya müdiri – H.S.Mirtəqəvi; böyük elmi redaktorlar – X.G.Hüseynova, K.Ə.Yüzbaşova.

"KOMPYUTER TƏRTİBATI, İLLÜSTRASİYA VƏ KARTOQRAFİYA" ŞÖBƏSİ
Şöbə müdiri – M.B.Orucov; şöbə müdirinin müavini – Ş.Z.Həsənli; böyük elmi redaktorlar – L.Q.Hətəmova, Z.V.Vəliyeva; elmi redaktor – A.E.Quliyeva.

"TEXNİKİ TƏRTİBAT VƏ KORREKTURA" ŞÖBƏSİ
Şöbə müdiri – X.İ.Yüzbaşova; şöbə müdirinin müavini – N.O.Əliyeva; böyük elmi redaktor R.Q.Məmmədova; mütəxəssis – A.A.Kərimova.

KOMPLEKTLƏŞDİRMƏ ŞÖBƏSİ
Şöbə müdiri – K.M.Hüseynov; böyük elmi redaktorlar – M.İ.Əsədova, R.X.Mütəllimzadə; elmi redaktor – T.Ə.Əliyeva.

İNFORMASİYA, TƏRCÜMƏ VƏ ÜMUMİ MƏSƏLƏLƏR ŞÖBƏSİ
Şöbə müdiri – Z.Ə.Baxşiyeva; şöbə müdirinin müavini L.Ə.Allahverənzadə; böyük elmi redaktorlar – R.T.Bəylərova, R.S.Hacıyeva; mütəxəssis – Z.A.Zaytseva.

KİTABXANA
Kitabxana müdiri – L.Ş.Abbasova; böyük elmi redaktor – R.D.Yusifova.



Nəşrin hazırlanmasında Azərbaycan Respublikası Prezidentinin administrasiyası, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi, Təhsil Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, Gənclər və İdman Nazirliyi, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi, Dövlət Statistika Komitəsi, Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi, Auditorlar Palatası, Milli Arxiv İdarəsi, respublikanın yaradıcılıq birlikləri, Milli Azərbaycan Tarixi Muzeyi, Azərbaycan Milli İncəsənət Muzeyi, Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, respublikanın şəhər və rayon icra hakimiyyətləri kömək göstərmişlər.

Fiziki-coğrafi xəritələr Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Bakı Kartoqrafiya Fabrikində hazırlanmışdır.

Azərbaycan Respublikası Milli Arxiv İdarəsinin, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi arxivinin foto, illüstrasiya və xəritələrindən istifadə olunmuşdur.





9 789952 441079

**Azərbaycan Milli Ensiklopediyası**. C. 3. Babilistan – Bəzirxana. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi. Bakı, 2011, 604 səh.

ISBN 978-9952-441-07-9 (3-ci cild)
ISBN 978-9952-441-00-0

Azərbaycan Milli Ensiklopediyasının cildlərində dünya sivilizasiyasının mühüm mərhələlərini, ayrı-ayrı ölkələrin və xalqların tarixini, incəsənətini, eləcə də iqtisadiyyatını, elmini səciyyələndirən ətraflı məlumatlar, müxtəlif elm sahələrinə və texnikaya dair terminlərin izahı verilir. Ensiklopediyanın hazırlanmasında respublikanın aparıcı alimləri, mədəniyyət və incəsənət xadimləri yaxından iştirak etmişlər.

Çapa imzalanmış 15.12.2011. Formatı 60×901/8. Tabaşirli tutqun kağız. Times qarniturası.
Ofset çap üsulu. Şərti çap vərəqi 75,5. Tirajı 25000.

Mətn "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin kompyuter şöbəsində yığılıb səhifələnmişdir.
"Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Bakı-1000, İçərişəhər, Böyük Qala küç., 41

"Şərq-Qərb" Nəşriyyat Evinin mətbəəsində çapa hazırlanmış və çap olunmuşdur.
AZ 1129, Bakı şəh., Aşıq Ələsgər küç., 17

www.eastwest.az
www.fb.com/eastwest.az